# AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI

REDAKSİYA HEYƏTİNİN SƏDRİ

*İLHAM HEYDƏR oğlu ƏLİYEV*

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI"
ELMİ MƏRKƏZİ

BAKI–2014

AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI

# 5

## BRÜSSEL – ÇİMLİ-PODZOL TORPAQLAR

-17957-
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI"
ELMİ MƏRKƏZİ

BAKI–2014

REDAKSİYA HEYƏTİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ

*R.Ə. MEHDİYEV*

REDAKSİYA HEYƏTİ SƏDRİNİN MÜAVİNLƏRİ

*A.A. ƏLİZADƏ, A.R. RZAYEV*

MƏSUL KATİB

*T.M. NAĞIYEV*

REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ

F.H. ABDULLAZADƏ, A.Q. ABİYEV, A.A. AXUNDOV, İ.A. BABAYEV, T.Ə. BÜNYADOV, Ö.H. ELDAROV, R.M. ƏLİQULİYEV, C.Ə. ƏLİYEV, T.A. ƏLİYEV, F.Ə. ƏLİZADƏ, V.M. FƏRZƏLİYEV, A.C. HACIYEV, İ.M. HACIYEV, İ.Ə. HƏBİBBƏYLİ, A.M. HƏŞİMOV, F.Q. XƏLİLOV, M.İ. İBRAHİMBƏYOV, A.C. İSMAYILZADƏ, K.M. KƏRİMOV, A.Ə. QƏRİBOV, Ə.S. QULİYEV, Y.M. MAHMUDOV, A.Ş. MEHDİYEV, A.M. MƏHƏRRƏMOV, A.C. MƏLİKOV, V.M. MƏMMƏDƏLİYEV, Q.Ş. MƏMMƏDOV, F.C. MƏMMƏDOVA, Ş.M. MURADOV, A.Ə. PAŞAYEV, A.M. PAŞAYEV, M.N. RƏHİMOVA, M.İ. RÜSTƏMOV, T.T.SALAHOV, Z.Ə. SƏMƏDZADƏ, N.M. VƏLİXANLI, X.B. YUSİFZADƏ.

**ISBN 978-9952-441-10-9 (5-ci cild)**
**ISBN 978-9952-441-00-0**

© "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2014

# B

**BRÜSSEL** (fr. Bruxelles, flamandca Brussel) – Belçikanın paytaxtı. Paytaxt regionunu təşkil edir. Əh. 1031,9 min (2011), şəhərətrafı ilə 1831,7 min (o cümlədən təqr. 200 min əcnəbilər – diplomatlar və beynəlxalq təşkilatların məmurları). Ölkənin mərkəzində, Senna çayı sahilində yerləşir. Beynəlxalq əhəmiyyətli iri nəqliyyat qovşağı: B.-də bir çox beynəlxalq d.y.-ları, avtomobil və hava yolu xətləri (Zaventem aeroportu) kəsişir. Port. Brüssel–Rüpel kanalı (dəniz gəmiçiliyi üçün yararlıdır) vasitəsilə Şelda çayı və Şimal dənizinə çıxışı (Antverpen) var; Brüssel–Şarlerua kanalı (uz. 72,6 *km*) Senna çayını Sambra çayı (Möz çayının qolu) və Mons-Şarlerua sənaye r-nu ilə birləşdirir. Metropoliten.

İlk dəfə 11 əsrə aid sənədlərdə (7 əsr hadisələri ilə əlaqədar) qeyd olunur. Şəhər kimi 10 əsrin sonlarından, sonradan özünə Brabant hersoqu titulunu götürmüş Löven (Luven) qrafının burada *burq* tikdirməsindən sonra inkişaf etməyə başlamışdır. 12 əsrin 2-ci yarısından B. *Brabantın* mühüm iqtisadi mərkəzlərindən (mahud istehsalı) biri idi. 15 əsrdən Burqundiya hersoqlarına məxsus mülklərin (B.-də hersoqların iqamətgahı yerləşirdi), 1477 ildən (qəti olaraq 1482 ildən) *Habsburqlar* imperiyasının tərkibində olmuşdur. 1555 ildən ispan Habsburqlarının tabeliyində olan B. Niderlandın paytaxtı və ispan canişinlərinin iqamətgahı idi. 1576 ildə *Niderland inqilabına (16 əsr)* qoşulmuş, 1585–1713 illərdə yenidən İspaniya Niderlandının tərkibinə qatılmışdır. 1695 ildə fransız qoşunları B.-i, demək olar ki, tamamilə yandırmışdılar. 1714 ildən Avstriyanın (Avstriya Niderlandı) hakimiyyətində olan B. *Brabant inqilabının (1789–90)* mərkəzi idi. 1795–1814 illərdə Fransanın tərkibinə qatılmış, *Niderland krallığının (1815–30)* iki paytaxtından biri olmuşdur. Belçika inqilabının (1830) aparıcı mərkəzi olan B. inqilabın qələbəsindən sonra Belçika krallığının paytaxtıdır. 1914–18 və 1940–44 illərdə alman qoşunları tərəfindən işğal edilmişdir. İkinci dünya müharibəsindən sonra Benilüks, Aİ, Avratom, Avropa parlamenti (onun plenar iclasları da burada keçirilir) və digər beynəlxalq təşkilatların daimi komitələri, həmçinin NATO-nun mənzil-qərargahı B.-də yerləşir.



Brüssel şəhərindən görünüş.

Şəhərin orta əsrlər radial-dairəvi planlaşdırmanı saxlamış tarixi mərkəzindəki düzbucaqlı Qrand-plas meydanında (*Ümumdünya irsi* siyahısına salınmışdır) 90 *m*-lik zəng qülləsi (1449–55, memar Y. van Röysbruk) olan qotik üslubda tikilmiş Ratuşa binası (sol tərəfi 1402 ildən, memar Y. van Tinen, sağ tərəfi 1444 ildən, memarı məlum deyil), "Kral evi" (1515–25; qotika formasında 1873–95 illərdə yenidən tikilmişdir, memar V. Jamer; hazırda Şəhər tarix muzeyi), həmçinin gildiya evləri, onların arasında Brabant hersoqlarının geniş sarayı (1698, mühəndis Q. de Bröyn) yerləşir.

Sen-Mişel-e-Güdül qotik kilsəsi (təqr. 1225–1490; Müq. Mixail kapellası – təqr. 1000; digər kapellalarda B. van Orleyin rəsmləri üzrə Y. Hekin vitrajları) və Notr-Dam-de-la-Şapel (roman transepti – 1134–50, nef 1421–83 illərdə yenidən tikilmişdir, qüllə 16–18 əsrin əvvəlləri; P. Breygel burada dəfn olunmuşdur), Notr-Dam-de-Viktuar (1304–16 əsr), Müq. Nikolay (12–13 əsrlər; mehrabların birində P.P. Rubensin "Məryəm yatmış körpə İsa ilə" əsəri) kilsələri; Trinite (1621, memar J. Frankart), Sen-Jan-Batist-o-Beginaj (1657–76, memar L. Federb), Notr-Dam-de-Bon-Sekur (1664–94, memar Y. Kortfrindt), Notr-Dam-de-la-Finister (1708–30) barokko kilsələri; Sen-Jak-sür-Kaudenberq (1776–87, memar L. Montuaye; timpanda Y. Portalsın freskası) kilsəsi; memar J. Pulartın Sent-Katrin (1854) və Notr-Dam-de-Laken (1854; Belçika kral ailəsinin sərdabası) neoqotik kilsələri; *ar deko* üslubunda Sakre-Kür


Brüssel. Zəfər tağı.

bazilikası (əsası 1905 ildə qoyulmuş, tikintisi 1969 ildə başa çatdırılmışdır, memar A. van Huffel) B.-in memarlıq abidələridir.

Neoklassisizm üslubunda tikilmiş binalar arasında Baş ştatlar (1779–83, memar B. Gimar), Laken (1782–84, memar L. Montuaye), Belveder (1788; şahzadə Albert və şahzadə Paolanın iqamətgahı) və Kral (18 əsr korpusları, 1827–29 illərdə birləşdirilmişdir; 1904 ildə XIV Lüdovik üslubunda yenidən tikilmişdir; Belçika krallarının rəsmi iqamətgahı) sarayları var. Avropada ilk passaj – Müq. Hubert qalereyaları (1837–47, 1864, memar Y.P. Klöysenar), Birja (1866–83, memar L.P. Söys), Ədliyyə sarayı (1866–83, memar J. Pulart), 50-illik sarayı kompleksi [bu kompleksə Zəfər tağı (1905, memar Ş. Jiro; kvadriqa – heykəltəraş T. Vensott) ilə birləşdirilmiş Kral ordu və hərb tarixi muzeyi (1810), Kral incəsənət və tarix muzeyi (1835 ildə yaradılmışdır; bina 1880, memar J. Bordio)] eklektizm dövrü abidələridir.

19 əsrdə B. intensiv inkişaf edirdi. Sökülmüş 14 əsr şəhər divarlarının (yeganə saxlanılmış Halleport şəhər darvazaları, 1357–83, 1869 ildə yenidən qurulmuşdur, hazırda muzeydir) yerində bulvarlar, köhnə məhəllələrin yerində yeni magistrallar salınmışdır. Modern üslubunda ictimai və yaşayış binalarından ibarət geniş məhəllələr, onların arasında xüsusi yer tutan və *Ümumdünya irsi* siyahısına salınmış memar V. *Ortanın* Tassel (1892–93), Solvey (1894–1900), van Etvelde (1895–97) hotelləri, özünün evi (1898–1901; hazırda Ort muzeyidir) və s., həmçinin "Köhnə İngiltərə" (1899, memar P. Santeni) mağazasının binası müasir B.-in diqqətəlayiq memarlıq abidələridir.

Vyana *sesessionunun* başlıca əsərlərindən biri – Stokle sarayı (1905–11, memar Y. *Hofman*), Site-Modern (1922–27, memar V. Burjua), Heyseldəki Yüzillik sarayı (1935, memar J. van Nek), 1958 il Ümumdünya sərgisinin qurğuları (Atomium, memar A. Vaterkeyn), Avropa parlamentinin binaları (1995) 20 əsrdə tikilmişdir. Abidələri: "Belçika" (1838, heykəltəraş V. Gefs), "Əmək" (1930 ildə açılmışdır, heykəltəraş K. *Menye*) və s.

B.-də Belçikanın ən iri elmi müəssisələri – elm, ədəbiyyat və zərif sənətlər (1772), hərbi (1834), tibb (1841), arxeologiya (1842), fransız dili və ədəbiyyatı (1920) Kral akademiyaları, Kral rəsədxanası (1827) və s. yerləşir. 70-dən çox elmi cəmiyyət və elmi tədqiqat müəssisəsi var. Hüquq, Müstəqil (hər ikisi 1834), Katolik (1969) un-tləri, un-t kolleci (1996), konservatoriya (1832; musiqi alətlərinin dünyada ən böyük kolleksiyalarından biri konservatoriyanın muzeyindədir); Parlament (1831), Milli (1837), Təhsil Nazirliyinin (1879) və s. kitabxanalar fəaliyyət göstərir.

*Kral zərif sənətlər muzeyi*, Mərkəzi Afrika Kral muzeyi (1897 ildə əsası qoyulmuşdur; bina 1910, memar Jiro), Erazmus (*Rotterdamlı Erazm* və 16 əsrin digər humanistlərinin, 1932), kakao və şokolad (1998), kostyum və krujeva, təyyarəçilik və avtomobil muzeyləri var.

Brüssel. Avropa parlamenti.



Brüssel. Müqəddəs Hubert kral qalereyaları.








Brüssel. Şəhər bələdiyyəsi.



Brüssel. Sakre-Kör bazilikası.

Teatrları: *"La Monne"* opera və balet teatrı (əsası 1700 ildə qoyulmuşdur; bina 1817–19, memar L. Damem), "Dü Park" (1782), Kral flamand teatrı (1887), "Dü Rido" (1943), Milli teatr (1945), "De Poş" (1951) və s. Flandriya festivalı (1958 ildən, hər il), Beynəlxalq fantastik kino festivalı (1983 ildən), İncəsənət festivalı (1969 ildən hər il), Kraliça Yelizaveta ad. musiqi ifaçılarının beynəlxalq müsabiqəsi (1951 ildən) keçirilir. Sirk (1892), Milli botanika bağı (1796), "Mini Avropa" parkı var.

B.-də, "Eyzel" stadionunda (60 mindən çox tamaşaçı) futbol üzrə Avropa çempionatları (1972, 2000), Avropa çempionlarının Kuboku uğrunda final oyunları (1958, 1966, 1974, 1985); kişilər arasında beynəlxalq şahmat turnirləri (1980-ci illərdə), o cümlədən Dünya kuboku uğrunda turnir (1988) keçirilmişdir. "Anderlext" futbol klubu dəfələrlə Belçika çempionu və ölkə kuboku uğrunda yarışların qalibi olmuşdur.

İqtisadiyyatda xidmət sektoru (əsasən, inzibati, beynəlxalq təşkilatlara xidmət, maliyyə, həmçinin ticarət, nəql., turizm, təhsil və mədəniyyət sahələrində) üstünlük təşkil edir. Müxtəlif beynəlxalq təşkilatların və təsisatların mənzil-qərargahlarının, iqamətgahlarının və nümayəndəliklərinin, həmçinin iri milli və transmilli maliyyə-sənaye korporasiyaları ofislərinin Paytaxt regionu hüdudlarında cəmləşməsinə görə dünyanın digər ş.-ləri arasında B.-in analoqu yoxdur; ölkənin bank işçilərinin ümumi sayının təqr. 2/3-si və ticarət sahəsində məşğul olanların təqr. 1/4-i burada çalışır. Paytaxt regionunun sənayesi əhaliyə xidmət göstərilməsi və yüksəkkeyfiyyətli maşınqayırma məhsullarının (avtomobil quraşdırma z-du, telekommunikasiya avadanlığı, dəqiq cihaz və alətlər) istehsalı ilə bağlıdır; müəssisələr, əsasən, B. ətrafında və peyk şəhərlərdə (Anderlext, Vilvorde, Halle və s.) yerləşir. Yeyinti (şokolad və qənnadı məmulatları, şirələr və s.), poliqrafiya, toxuculuq (o cümlədən sintetik liflər əsasında ipək parçalar) və tikiş, kimya (gübrə, lak, şin, sintetik liflər), əczaçılıq sənayesi inkişaf etmişdir; ətriyyat, krujeva, əlcək, xalça, zərgərlik məmulatları, bürünc məmulatlar istehsal olunur.

**BRÜSSEL KONFRANSI (1937)** – Yaponiyanın Çinə təcavüzü ilə əlaqədar SSRİ, ABŞ, Çin, Belçika, Fransa, Portuqaliya, Niderland, İtaliya, B. Britaniya, Danimarka, İsveç, Meksika, Boliviya, Avstraliya, Cənubi Afrika İttifaqı, Kanada, Norveç, Hindistan və Yeni Zelandiya nümayəndələrinin noyabrın 3–24-də Brüsseldə keçirilmiş konfransı. Yaponiya və Almaniya B.k.-nda iştirakdan imtina etdilər. Konfransda Yaponiyaya qarşı iqtisadi tədbirlərin görülməsinə dair Çinin tələbini yalnız SSRİ müdafiə etdi. Yaponiyanın *Vaşinqton konfransı (1921–22)* qərarlarını pozmasını qeyd etməklə kifayətlənən B.k. ABŞ, B. Britaniya və Fransanın mövqeyi üzündən, Yaponiyanın təcavüzkarlığının qarşısını almaq üçün, əslində, heç bir tədbir görmədi.

Müqəddəs Mixail və Qudula kilsəsi.



**BRÜSSEL KONFRANSLARI (1876, 1889–90)** – Avropa dövlətlərinin Afrikada müstəmləkəçilik məsələləri ilə bağlı keçirdiyi konfranslar. 1876 il sentyabrın 12–14-də keçirilmiş konfrans Belçika kralı II Leopoldun təşəbbüsü ilə Beynəlxalq coğrafi konfrans adı altında çağırılsa da, əsas məsələ müstəmləkəçi dövlətlərin Mərkəzi Afrikanın daxili r-nlarını zəbt etməsi ilə əlaqədar idi.

1889 il noyabrın 18-dən 1890 il iyulun 2-dək keçirilmiş konfransda 17 dövlət iştirak etmişdir. Konfransda Afrikada qul alverinə qarşı mübarizəyə dair Baş sənəd qəbul olunmuşdur.

**BRÜSTER** (Brewster) Deyvid (11.12.1781, Roksbro qraflığı, Cedboro – 10.2.1868, Melroz yaxınlığında Allerbi) – ingilis fiziki, London Kral Cəmiyyətinin üzvü (1815), Peterb. EA əcnəbi fəxri üzvü. Edinburq Un-tində oxumuşdur. 1838–59 illərdə Sent-Andrusda kolleclərin rəhbəri və un-t prof.-u, sonra Edinburqda un-t prof.-u olmuşdur.



1849 ildən Britaniya elmlərin inkişafı assosiasiyasının prezidenti idi. Əsas elmi əsərləri fiziki və tətbiqi optikaya, elmin tarixinə həsr olunmuşdur. Biroxlu və ikioxlu kristallarda işığın xromatik polyarlaşmasının təsvirini vermişdir (1813–14). 1815 ildə dairəvi polyarlaşmanı kəşf etmiş və əksolunma (qayıtma) zamanı işığın polyarlaşmasını tədqiq edərək, *Brüster qanununu* müəyyən etmişdir. Süni anizotrop mühitlərdə şüanın ikiqat sınması hadisəsini kəşf etmişdir. Mayaklar üçün linzalar quraşdırmış, kaleydoskop ixtira etmiş (1816) və stereoskopu təkmilləşdirmişdir. İ. *Nyutonun* bioqrafiyasının müəllifidir.

**BRÜSTER QANUNU** – dielektrikin (qaytarıcı səthin) $n$ sındırma əmsalı ilə polyarlaşma bucağı arasındakı əlaqəni göstərən qanun; bu bucaq altında dielektrikin səthinə düşən polyarlaşmamış (təbii) işıq əks olunduqda (qayıtdıqda) tam polyarlaşır. Bu zaman işıq dalğasının elektrik vektorunun düşmə müstəvisinə perpendikulyar (yəni ayırıcı müstəviyə paralel) olan yalnız $E_s$ komponenti əks olunur. Düşmə müstəvisindəki $E_p$ komponenti isə əks olunmur, sınır (şəkil). Bu, $tg\varphi_B = n$ olduqda baş verir. $\varphi_B$ Brüster bucağı adlanır. Sınma qanununa görə




$\sin\varphi_B/\sin\psi = n$ ($\psi$ – sınma bucağı) olduğundan, B.q-ndan $\cos\varphi_B = \sin\psi$ və ya $\varphi_B + \psi = 90°$ alınır, yəni sınan və əks olunan şüalar arasındakı bucaq 90°-yə bərabərdir. Qanun D. *Brüster* tərəfindən 1815 ildə müəyyən edilmişdir. B.q.-nun fiziki izahı aşağıdakı kimidir. Düşən dalğanın elektrik sahəsi ($E_{düş.}$) dielektrikdə sınan dalğanın elektrik vektorunun ($E_{sın.}$) istiqaməti ilə üst-üstə düşən istiqamətdə elektronların rəqsini yaradır. Bu rəqslər ayırıcı səthdə əks olunan dalğanı ($E_{əks\ ol.}$) həyəcanlandırır. Xətti rəqs edən elektronlar isə rəqs istiqamətində şüa saçmır. Beləliklə, əks olunan dalğada yalnız düşmə müstəvisinə perpendikulyar olan müstəvidəki elektrik sahəsinin ($E_{əks\ ol}$) rəqsləri olacaq. B.q. çox ciddi ödənmir: belə ki, əks olunan işıqda $E_{düş}$-nin digər komponenti ($E_p$) də olur.

**BRYÁNKA** – Ukraynanın c.-ş.-ində, Luqansk vil.-ndə şəhər. Əh. 47,5 min (2011). Donetsk tirəsinin c.-ş. hissəsində, Lozovaya çayı sahilindədir. D.y. st. (Avdakovo). 1889 ildə salınmış, 1962 ildən şəhərdir. Yaxınlığında kömür hasil olunur. Kömürsaflaşdırıcı f-k, mədən-şaxta avadanlıqları istehsalı və təmiri müəssisələri və s. var.

**BRYANSK** – RF-də şəhər, Bryansk vil.-nin inz. m. Əh. 410,8 min (2013). Orta Rusiya yüksəkliyinin q. hissəsində, Bolva çayının Desna çayına töküldüyü yerdə yerləşir. İri nəqliyyat qovşağı. Beynəlxalq aeroport.

İndiki B. ərazisində Paleolit düşərgəsi, Erkən Dəmir dövrünə aid şəhər yeri və kənd yerləri, eramızın 1-ci minilliyinə, *Romen mədəniyyətinə* aid kənd yerləri, erkən orta əsrlərə aid 2 şəhər yeri və kənd yerləri məlumdur. Ehtimal ki, şəhər əvvəllər Çaşin kurqan şəhər yerində yerləşmiş (şəhərin meydana gəlməsinin şərti tarixi – 985 il; arxeoloji materiallar 11–15 əsrlərə aiddir), buradan isə Pokrov dağındakı şəhər yerinə köçürülmüşdür (arxeoloji materiallar 12 əsrin 2-ci yarısına aiddir). İlk dəfə adı Dobryansk kimi İpati salnaməsində 1147 ilin əvvəllərində baş verən hadisələrlə bağlı qeyd olunur. Çerniqov knyazlığının tərkibində olan B. 13 əsrin ortalarından Bryansk knyazlığının mərkəzi idi. 1310 ildə monqollar tərəfindən dağıdılmışdır. 1356 ildə Litva knyazı Olgerd tərəfindən işğal edilmiş, 1357 ildən sonra *Böyük Litva knyazlığının* tərkibinə qatılmışdır. 15 əsrin sonlarından B. adlanır. 1500 ildə Rusiya-Litva müharibəsinin gedişində rus qoşunları tərəfindən tutulmuş, Moskva barışığına (1503) görə Rus dövlətinə birləşdirilmişdir. 1607 ildə bir aydan çox II Yalançı Dmitrinin qoşunlarının mühasirəsinə davam gətirmişdi. 17 əsrdən B. yaxınlığında iri Sven yarmarkası fəaliyyət göstərirdi. Kiyev (1708–27), Belqorod (1727–78) və Oryol (1778–1920; 1796 ilədək – Oryol canişinliyi) qub.-larının qəza şəhəri olmuşdur.

1783 ildə Bryansk cəbbəxanasının əsası qoyulmuşdur; 1873 ildən B. yaxınlığında Bryansk z-du fəaliyyət göstərirdi. B.-dan Oryol-Vitebsk (1868), Polesye (1887), Moskva-Kiyev-Voronej (1899) d.y. xətləri keçirdi. B. Bryansk qub.-nın (1920–29), Qərb (1929–37) və Oryol (1937–44) vil.-lərinin mərkəzi olmuşdur. 1941 ildə alman qoşunları tərəfindən işğal olunan və güclü dağıntılara məruz qalan B. 1943 ildə azad edilmişdir. 1944 ildən Bryansk vil.-nin mərkəzidir. 1956 ildə vil.-in aparıcı sənaye mərkəzlərindən biri olan Bejitsa ş. B.-ın hüdudlarına daxil edilmişdir.

Desnanın hündür sağ sahilində qədim memarlıq abidələrinin yerindəki kilsələrlə birlikdə B.-ın tarixi mərkəzi yerləşir. 17 əsrin sonu – 18 əsrdə şəhərdə barokko, erkən klassisizm formasında daş tikililər (Voskreseniye kilsəsi, 1739–41 və s.) inşa edilmişdir.

1780 il müntəzəm planı 1802 və 1808 illərdə mühüm düzəlişlər edilməklə 19 əsrdə həyata keçirilmişdir. Arsenal kompleksi (18 əsrin sonu – 20 əsr) klassisizm üslubundadır. 1920-ci illərdə konstruktivizm formasında iri obyektlər inşa edilmişdir: Sovetlər evi (1925–26, memar A.Z. Qrinberq), Rabitə evi (1930–31, memar Qrinberq və b.). B.-da quruculuq və abadlıq işləri bulvarlar, parklar və bağlar sisteminə ("Sudki" yaşıllıq massivi, 300 yaşlı palıd ağacları olan "Bülbül" meşəsi və s.) xüsusi diqqət verilməklə 1968 il planı üzrə həyata keçirilir. B.-ın 1000-illiyinə həsr olunmuş "Peresvet və Boyan" heykəltəraşlıq qrupu və s. abidələr var.

Şəhərdə 107 məktəbəqədər təhsil müəssisəsi, 77 ümumtəhsil məktəbi, 16 əlavə təhsil müəssisəsi, 6 xüsusi məktəb, 17 orta ixtisas təhsili müəssisəsi var (2004). 20-dən çox ali məktəb (filial və nümayəndəlikləri ilə birlikdə), o cümlədən Texniki un-t (1929; 1996 ildən un-t statuslu), Mühəndis-texnologiya akademiyası (1930 ildə Meşə-texniki in-t kimi təsis edilmişdir), akad. İ.G. Petrovski ad. pedaqoji un-t (1930 ildə Novozıbkov ş.-ndə yaradılmış, 1976 ildən Bryanskda fəaliyyət göstərir) var.

167 kitabxana (o cümlədən F.İ. Tütçev ad. vilayət elmi kitabxanası, 1944); Dövlət birləşmiş diyarşünaslıq muzeyi (1921 ildə yaradılmışdır; 17 filialı), vilayət rəssamlıq (1968), "Bryansk meşəsi" (1983 ildə yaradılmış, 1989 ildə açılmışdır) ədəbiyyat muzeyləri, A.K. Tolstoy ad. ağac heykəltəraşlığı park-muzeyi; A.K. Tolstoy ad. dram teatrı (1926), kukla teatrı (1972), gənc tamaşaçılar teatrı (1981); filarmoniya (1960 ildən), onun tərkibində şəhər kamera orkestri (1993), akademik xor (1995), şəhər xalq çalğı alətləri orkestri (1996), şəhər nəfəs alətləri orkestri (1991); sirk (1975), planetari fəaliyyət göstərir.

B. iri sənaye mərkəzidir. Maşınqayırma, kimya və yeyinti sahələri daha çox inkişaf etmişdir. Aparıcı müəssisələr: maşınqayırma z-du (teplovozlar, lokomotivlər, gəmi və lokomotivlər üçün dizel mühərrikləri), avtomobil z-du (xüsusi təkərli şassilər, təkərli dartıcılar), "Bryanski Arsenal" (müxtəlif maşınlar və avadanlıq, onların ehtiyat hissələri və s.), fosforit z-du (gübrə), "Bryankonfi" (vafli, peçenye və s.), ət kombinatı və s. var.

**BRYANSK VİLAYƏTİ** – RF-nin subyekti. Rusiyanın Avropa hissəsinin q.-ində yerləşir. Mərkəzi federal dairəsinə daxildir. Sah. 34,9 min $km^2$. Əh. 1242,6 min (2014). 27 r-nu, 16 şəhəri, 25 ştq. var. İnz. m. Bryansk ş.-dir.

**Təbiət.** B.v. Şərqi Avropa düzənliyinin mərkəzi hissəsində üç oroqrafik strukturun (c.-da və q.-də *Dneprboyu ovalığın*, şm.-da *Smolensk-Moskva yüksəkliyinin* və ş.-də *Orta Rusiya yüksəkliyinin*) qovuşduğu yerdədir. Səthi yarğan və qobularla sıx parçalanmış təpəli düzənlikdir (maks. hünd. 288 *m*). Vil.-in ş. hissəsində karst yayılmışdır. Geoloji cəhətdən B.v. qədim *Şərqi Avropa platformasında* Rus plitəsinin mərkəzi hissəsində yerləşir. Əsas faydalı qazıntı yataqları (fosforitlər, mergellər, təbii tikinti materialları) Mezokaynozoy yaşlı çökmə süxurlar kompleksi ilə əlaqədardır. Böyük torf ehtiyatı var. İqlimi mülayim kontinentaldır. Orta temp-r yanvarda –7,4-dən –9°C-yə qədər, iyulda 18,1–19,1°C-dir. İllik yağıntı 560–600 *mm*-dir. Vegetasiya dövrü 180–200 gündür. Çay şəbəkəsi sıxdır, əsasən, Dnepr hövzəsinə aiddir (yalnız ucqar şm.-ş.-də Oka hövzəsinin çaylarıdır). Ən böyük çayı *Desna* (vil. daxilində uz. 413 *km*) və onun qollarıdır (Bolva, Sudost, Nerusa, Navlya və s.). Q.-də İput və Besed çayları (Soj çayının sol qolları) axır.

B.v. ərazisinin çox hissəsi enliyarpaqlı meşələr zonasında, ucqar şm.-ş. hissəsi qarışıq meşələr zonasında yerləşir. B.v. ərazisinin böyük bir hissəsinin torpaq örtüyündə, zandr düzənlikləri və Desna ilə Sudost çaylarının sol sahilindəki qumlu terraslar hüdudlarında çimli-podzollu torpaqlar üstünlük təşkil edir. Lössəbənzər karbonatlı torpaqlarla örtülmüş yaxşı drenlənmiş yüksək sahələrdə (Sudostboyu, Trubçevsk, Bryansk) məhsuldar boz meşə torpaqları inkişaf etmişdir; vil.-in ucqar c.-ş.-dəki yüksək suayrıcılarda podzollaşmış qaratorpaqlar yayılmışdır. Yüksək subasarlarda subasma rejimi nisbətən qısa olan iri çay dərələrində allüvial çimli torpaqlar, orta və aşağı subasarlarda allüvial çimli-qleyli torpaqlar formalaşmışdır. Meşələr ərazinin təqr. 32%-ni (enliyarpaqlı və xırdayarpaqlı meşələr 54%, iynəyarpaqlı meşələr 46%) tutur. Meşəəmələgətirən ağac cinsləri arasında şamağacı, tozağacı, ağcaqovaq yayılmışdır; bəzən küknara, palıda, qara qızılağaca, cökəyə rast gəlinir. Qiymətli yem bitkilərinin əkildiyi çaybasar və quru dərə çəmənləri geniş sahələr tutur; aşağılarda otlu bataqlıqlardır.





Bryansk şəhərindən görünüş.



Spaso-Qrobovskaya kilsəsi.

B.v. meşələrində sığın, cüyür, qaban, qonur ayı, canavar, tülkü qalmışdır; sincab geniş yayılmışdır. Qunduz İput, Besed və digər çaylarda məskunlaşmışdır; İput çayı və onun qollarında samur yaşayır. Ov quşları çoxdur: Sibir xoruzu, tetra, çilingdimdik, Bonazi tetrası, bekas. Çaylarda çapaq, xanıbalığı, dabanbalıq, durnabalığı və s.-in olması adi haldır. Vilayətin ərazisində yaşayan nadir və nəsli kəsilmək təhlükəsi altında olan 31 növ heyvan RF-nin "Qırmızı kitabı"na daxil edilmişdir. B.v.-ndə ərazinin 6%-ni tutan 20 təbii ərazi, o cümlədən Bryansk meşəsi dövlət təbii qoruğu mühafizə edilir.

B.v.-nin təbii landşaftları antropogen fəaliyyət nəticəsində xeyli dəyişilmişdir. Ərazinin böyük bir hissəsində atmosferin və səth sularının sənaye çirklənməsi, təsərrüfat fəaliyyəti ilə əlaqədar torpaqların çirklənməsi nəticəsində kəskin ekoloji vəziyyət, c.-q. hissəsində isə Çernobıl AES-indəki qəza ilə bağlı radioaktiv çirklənmə nəticəsində olduqca kəskin vəziyyət yaranmışdır. Stasionar mənbələrdən atmosferə atılan tullantılar 55 min *t*-dur; çirklənmiş axar suların həcmi 96,4 mln. $m^3$-dir. Meşələrin təqr. 30%-i radionuklidlərlə çirklənmişdir (2003). Vilayət ərazisindəki kimyəvi silah anbarları ekologiya üçün potensial təhlükə mənbəyidir.

**Təsərrüfat.** B. v. Mərkəzi iqtisadi r-na daxildir. Ölkə iqtisadiyyatında manevr və enli təkər izli sənaye teplovozları (RF-də 61%, 2003), radiator və qızdırıcı konvektorlar (36,7%), avtomobil kranları (11,8%), sement (8,7%), yeyinti xammalından etil spirti (4%), həmçinin kətan (4,2%) və kartof (2,9%) istehsalı ilə fərqlənir. 1990-cı illərdə vil. təsərrüfatının əsas sahələrinin böhranı Çernobıl AES-indəki qəza (1986) nəticəsində daha da güclənmişdi. Ərazinin böyük hissəsində torpaqdan məhdud istifadə rejimi (vil.-in c.-q.-indəki zərər çəkmiş k.t. rayonları) qüvvədədir və əhali köçürülmüşdür.

Ümumi regional məhsulda (%-lə, 2003) sənayenin payı 18,2, k.t.-nın – 15,1, qeyri-bazar xidmətlərinin – 14,7, nəql.-ın – 13,5, əmtəə və xidmətlərin satışı üzrə ticarət və kommersiya fəaliyyətinin – 12,6, tikintinin – 6,3, digər sahələrin – 12,4-dür. Mülkiyyət formasına görə müəssisələrin nisbəti (təşkilatların sayına görə, %-lə): özəl – 61, dövlət və bələdiyyə – 21, ictimai və dini təşkilatlar – 12.

İqtisadi fəal əhali 660 min nəfərdir (2003), onlardan 92,7%-i iqtisadiyyatda məşğuldur. Məşğulluğun sahəvi strukturu (%-lə): sənaye – 20, ticarət və ictimai iaşə – 20, k.t. – 15,5, təhsil – 8,9, səhiyyə – 7,1, nəql. – 6,3, mənzil-kommunal təsərrüfatı – 4,9, tikinti – 4,8. İşsizlik səviyyəsi Rusiya üzrə orta göstəricidən bir qədər aşağıdır – 7,3%. Adambaşına düşən pul gəlirləri ayda 5,03 min rubldur (2005, oktyabr; RF üzrə orta həddin 61,5%-i); əhalinin təqr. 28%-inin gəlirləri yaşayış minimumundan aşağıdır.

S ə n a y e. Sənaye məhsullarının həcmi 32,45 mlrd. rubldur (2004). Sənaye istehsalının tərkibində maşınqayırma və metal emalı (29,4%) üstünlük təşkil edir; yeyinti sənayesinin payı 23,2%, elektroenergetika – 18,2%, tikinti materialları sənayesi – 10,2%, meşə, ağac emalı və sellüloz-kağız – 7,1%, dəyirman-ding və kombinə edilmiş yem sahəsi – 4%, şüşə və çini-saxsı – 3,3%, yüngül – 2,3%, kimya və neft-kimya – 1%.

B. v., demək olar ki, özünün istilik-enerji ehtiyatlarına (torfdan başqa) malik deyildir; elektrik enerjisi istehsalı üzrə kəsirli regionlar sırasına daxildir (istehlak edilən elektrik enerjisinin 90%-dən çoxu digər regionlardan daxil olur). Əsas elektrik enerjisi istehsalçısı – "Bryanskenerqo"dur (2 köhnəlmiş və azgüclü, ümumi gücü 62 *MVt* olan elektrik stansiyasından – Bryansk DRES və Klintsı İES-dən ibarətdir).

Aparıcı sənaye sahələri olan maşınqayırma və metal emalında nəql., k.t. və yol inşaatı texnikası, elektronika və radiotexnika istehsalı fərqlənir. Aparıcı müəssisələr: "Bryansk maşınqayırma z-du" (manevr teplovozları, lokomotivlər, gəmi və lokomotivlər üçün dizellər və s.), "Bryansk avtomobil z-du" (xüsusi təkərli şassilər, təkərli dartıcılar), "Raditsa maşınqayırma z-du" (ekskavatorlar və s.), "Novozıbkov dəzgahqayırma z-du" (oduncağın ilkin emalı üçün avadanlıq), "Bryanski Arsenal" (müxtəlif maşın və avadanlıqlar, ehtiyat hissələri, qovşaqlar və onlar üçün detallar və s.), "Klintsı avtokran z-du". Kimya sənayesində fosfor gübrələrinin (Polpino fosforit yatağının bazasında), partlayıcı maddələrin istehsalı inkişaf etmişdir. Aparıcı müəssisələr: Bryansk fosforit (gübrə) z-du və Bryansk kimya z-du (Seltso ş.; partlayıcı maddələr, lak, linoleum). Meşə, ağac emalı və sellüloz-kağız sənayesi vil.-in, demək olar ki, bütün rayonlarında yerləşmiş geniş ağac emalı şəbəkəsi ilə təmsil olunur. Aparıcı müəssisələr: "Belaya Beryozka" (Trubçevsk r-nunun Belaya Beryozka qəs.; oduncaq-lifli plitələr, faner), "Dyatkovo-DOZ" (oduncaq-yonqar plitələr, mebel), "Brasovo mebel f-ki" (Brasovo r-nunun Lokot qəs.), "Proletari" (Suraj ş.; texniki karton), "Bryansk kağız f-ki". Tikinti materialları sənayesi yerli qum, gil, tabaşir, mergel yataqlarına əsaslanır. Əsas məhsullar: sement, asbest-sement məmulatları, kərpic, şifer, dəmir-beton məmulatları və s. Ən iri sement istehsalçısı "Maltsovkski portlandsement"dir. Şüşə sənayesində büllur və şüşədən yüksək bədii məmulatların ("Dyatovski xrustal" z-du) istehsalı üstünlük təşkil edir. Yüngül sənaye müəssisələrində parça, yun, dəri-ayaqqabı, trikotaj və tikiş məmulatları istehsal olunur.

Yeyinti sənayesinin ən iri müəssisələri: "Bryankonfi" qənnadı firması (Rusiyanın vafli və peçenye aparıcı istehsalçılarından biri), "Pişekombinat Bejitski" (Bryansk), "Bryanskspirtprom", "Saxar-Kristall" (şəkər istehsalı; Komariçi r-nu), "Sır Starodubski", Bryansk ət kombinatı və s. Tərəvəz konservləri, yarma və s. istehsal olunur. RF-də ən iri dənəvərləşdirilmiş kartof z-du vil.-də yerləşir (Poqar ştq.).

Vilayətin başlıca sənaye mərkəzləri Bryansk, Klintsı, Dyatkovo şəhərləridir.

İxracatda maşınqayırma, ərzaq məhsulları, oduncaq, ağac emalı sənayesinin məhsulları; idxalatda ərzaq, maşınqayırma məhsulları üstünlük təşkil edir.

K ə n d  t ə s ə r r ü f a t ı. K.t. məhsullarının ümumi dəyəri 14,5 mlrd. rubl təşkil edir (2004). Sahə üzrə dəqiq ixtisaslaşma yoxdur. Dəyər göstəricilərinə görə bitkiçilik məhsulları üstünlük (57%) təşkil edir. K.t. yerləri 1767,2 min *ha*-dır (vil.-in sahəsinin 50%-indən çoxu), onun təqr. 62%-ini əkin yerləri tutur. Yem (əkin sahəsinin 48,5%-i), dənli (38,1%), texniki (1,2%; kətan, çətənə, şəkər çuğunduru, tütün, mayaotu, raps) bitkilər, kartof və tərəvəz (12%) becərilir. Dənli bitkilərin böyük hissəsi c.-dakı və mərkəzi rayonlarda yığılır. Şəkər çuğunduru B.v.-nin c.-ş.-ində becərilir; regiondakı yeganə şəkər z-du Lopandinoda yerləşir.

İntensiv-ekstensiv tipli heyvandarlıq inkişaf etmişdir. Əsas sahələr: ətlik-südlük heyvandarlıq, donuzçuluq və quşçuluq. Atçılıq (Brasovo k.-ndə "Lokotskoy" dövlət damazlıq zavodu) və arıçılıq ənənəvi olaraq inkişaf etmişdir. Uneça ş. yaxınlığında dəvəquşu ferması var.

K.t. yerlərinin böyük hissəsi (84,7%) k.t. təşkilatlarının torpaqlarına aiddir, 7,1%-i vətəndaşların şəxsi istifadəsindədir, 1,4%-ini kəndli (fermer) təsərrüfatları tutur. K.t. təşkilatları istehsal olunan taxılın 84,8%-ini və yumurtanın 67,5%-ini, əhali təsərrüfatları – kartofun 92,1%-ini, tərəvəzin 84,8%-ini, ətlik heyvan və quşun 72,9%-ini, südün 60,5%-ini təmin edir.

N ə q l i y y a t. B.v. inkişaf etmiş nəql. şəbəkəsinə malikdir. Bryansk iri nəql. qovşağıdır. D.y.-larının uz. 1010 *km*-dir (2004). Vil.-in ərazisindən Moskva – Kiyev, Bryansk – Smolensk, Bryansk – Oryol, Bryansk – Qomel magistralları keçir. Bərkörtüklü yolların uz. 6495 *km*-dir. Əsas magistrallar: Moskva – Kiev, Bryansk – Qomel və Oryol – Bryansk – Smolensk – Vitebsk. "Bryansk" beynəlxalq aeroportu var. B.v.-nin ərazisindən "Drujba" (Nijnevartovsk – Samara – Uneça – Mozır – Brest, sonra Qərbi Avropa ölkələri, Uneça – Polotsk – Ventspils qolu) neft kəməri, Moskva – Bryansk – Kiyev – Daşava; Smolensk – Bryansk – Kursk – Belqorod – Şebalinka qaz kəmərləri keçir.

**BRYUXONENKO** Sergey Sergeyeviç [12.5.1890, Tambov vil., Kozlov (indiki Miçurinsk) – 20.4.1960, Moskva] – rus həkimi, fizioloq. Lenin mükafatı laureatı (1965, ölümündən sonra). Moskva Un-tini bitirdikdən (1914) sonra hərbi həkim kimi xidmət etmişdir (1914–18). 1919–26 illərdə 2-ci MDU-nun daxili xəstəliklər klinikasında assistent, 1926–30 illərdə Elmi Tədqiqat Kimya-Əczaçılıq İn-tunda və Mərkəzi Hematologiya və Qanköçürmə İn-tunda laboratoriya müdiri olmuş, 1935 ildən özünün təşkil etdiyi Eksperimental Fiziologiya və Terapiya İn-tuna (1948 ildə bağlanmışdır) rəhbərlik etmişdir. 1951–58 illərdə Eksperimental Cərrahi Aparatlar və Alətlər Elmi Tədqiqat İn-tunda elmi işçi, SSRİ EA Sibir filialının Eksperimental Biologiya və Təbabət İn-tunun süni qan dövranı laboratoriyasının müdiri işləmişdir (1958–60).

B.-nun əsas elmi əsərləri süni qan dövranı məsələlərinə aiddir. 1920–24 illərdə qan dövranını tam yerinə yetirən süni qan dövranı aparatının (avtojektorun) bir neçə modelini düzəltmiş və onun işini nümayiş etdirmişdir (1925). Başı izolə olunmuş itlərlə apardığı təcrübələrdə (1925, 1926, 1928, 1930, 1935) ürəyi avtojektorla əvəz etməyin, həmçinin onun köməyi ilə klinik ölümdən sonra heyvan orqanizmini canlandırmağın mümkünlüyünü göstərmişdir (həmin təcrübələr A.R. Belyayevin "Professor Douelin başı" elmi-fantastik povestinin süjet əsasını təşkil etmişdir). Rus. cərrahı N.N. Terebinski (1880–1959) B. metodu ilə heyvanlar üzərində eksperiment apararaq dünyada ilk dəfə açıq ürəyə daxil olmuş və ürək qapaqlarında cərrahi əməliyyat aparmışdır (1929–40).

Ə s ə r i: Искусственное кровообращение. M., 1964.

**BRYULLOV** (1822 ilə qədər Bryullo) Karl Pavloviç (23.12.1799, S.-Peterburq – 23.6.1852, Roma yaxınlığında Marçano k.; Romada dəfn olunmuşdur) – rus rəssamı. B.-un əslən Bruleleau fransız hugenotlar ailəsindən olan ulu babası, babası və atası heykəltəraş olmuşlar; 1773 ildə Almaniyadan (burada Brüllo soyadını daşımışlar) Rusiyaya köçmüşlər. Atası Pavel İvanoviç Brüllodan (1758–1833) dərs almış, sonra Peterburq Rəssamlıq Akademiyasında (1809–21) oxumuşdur. 1822 ildə Almaniyaya, Şm. İtaliyaya səfər etmiş, muzeylərlə və memarlıqla tanış olmuşdur; 1823–35 illərdə Romada yaşamış, antik heykəltəraşlığı, Mikelancelonun və xüsusilə də Rafaelin yaradıcılığını öyrənmişdir.



K.P. Bryullov. "Atlı qadın". 1832.
Dövlət Tretyakov qalereyası (Moskva).

Artıq erkən işlərində B. akademik *klassisizm* ənənələrini romantik səpkidə canlandıran özünün xüsusi rəngkarlıq üslubunu yaratmışdı. Onun məşhur "İtaliya lövhələri"ndə məişət səhnələri ilə portretlilik birləşir ("İtaliya günorta çağı. Üzüm yığan italyan qız", 1827, Dövlət Rus Muzeyi; və s.). Romada B. həmçinin tarixi və mifoloji kompozisiyalar ("Virsaviya"), portretlər ("Atlı qadın"; hər iki əsər – 1832, Dövlət Tretyakov qalereyası) yaratmışdır. Rəssamın əsərlərindən ən məşhuru "Pompeinin son günü" (1830–33, Dövlət Rus Muzeyi) böyük tablosu mesenat A.N. *Demidovun* sifarişi əsasında çəkilmişdir. B.-a Avropada şöhrət qazandıran bu monumental əsərdə Vezuvi vulkanının püskürməsi nəticəsində dağılan şəhərin faciəsi təsvir edilmişdir. V. Skott, B. Torvaldsen, A.A. İvanov, N.V. Qoqol (əsərə məqalə həsr etmişdir) tabloya yüksək qiymət vermişlər.

1835–36 illərdə B. Yunanıstan və Türkiyəyə səyahət etmişdir; topladığı materiallar əsasında "Türk qadını" (1837–39), "Baxçasaray fontanı" (1849) və s. əsərlər

K.P. Bryullov. "Pskovun Stefan Batori tərəfindən mühasirəsi". 1836–43.
Dövlət Tretyakov qalereyası (Moskva).



yaratmışdır. 1836 ildə rəssamın yaradıcılığına yüksək qiymət verən A.S. Puşkinlə tanış olmuşdur; şairin ölümündən sonra onun abidəsinin eskizini vermişdir. B. irsinin ən böyük hissəsini portret yaradıcılığı təşkil edir (400-dən çox; A.K. Tolstoy, V.A. Jukovski və b.).

1849 ildə B. Rusiyanı həmişəlik tərk edərək Romaya getmişdir. Son dövr portretləri psixoloji müşahidə məharəti və zahiri effektlərin olmaması ilə fərqlənir ("Arxeoloq M. Lançi", 1851, Dövlət Tretyakov qalereyası; "Cülyetta Tittoni Janna d'Ark görkəmində", 1851 və s.). Peterburq Rəssamlıq Akademiyasının fəxri azad üzvü (1834; orada dərs demişdir, 1836–49 prof.), Milan və Parma Rəssamlıq Akademiyasının, Romadakı Müq. Luka akademiyasının üzvü, Florensiya Rəssamlıq Akademiyasının prof.-u olmuşdur.

B.-un "N.İ. Paşkovun portreti" (1836) tablosu Azərb. Milli İncəsənət Muzeyində saxlanılır.

*Əd.:* Бочаров И., Глушакова Ю. К.Брюллов. Итальянские находки. М., 1984; Дубова О.Б. К.Брюллов. М., 2005.

**BRYÚSOV** Valeri Yakovleviç (13.12. 1873, Moskva – 9.10.1924, Moskva) – rus şairi, nasir, tərcüməçi, ədəbi tənqidçi. Rus ədəbiyyatında simvolizmin görkəmli nümayəndələrindən biridir. Tacir ailəsində doğulmuşdur. Moskva Un-tinin tarix-filologiya fakültəsini bitirmişdir (1899). "Rus simvolistləri" (1–3-cü buraxılışlar, 1894–95) toplusunda çap olunmuş, ilk şeirləri B.-a şöhrət qazandırmışdı. Bilərəkdən əcnəbi dillərdə adlandırdığı ilk şeir topluları ["Chefs d'œuvre" ("Şedevrlər", 1895); "Me eum esse" ("Bu mənəm", 1897)] və P. *Verlendən* tərcümələri (1895) bu şöhrəti daha da artırmışdı. A.S. Puşkindən başlamış A.A. Fetə qədər rus poeziyası tarixi ilə məşğul olan B. 1898 ildən "Rus arxivi" jurnalında əməkdaşlıq etmişdir. Onun K.D. Balmont, Y.K. Baltruşaytis və S.A. Polyakovla birlikdə yaratdığı (1899) "Skorpion" simvolist nəşriyyatında yeni rus incəsənəti təbliğ olunurdu. 1903 ildə Peterburqda çıxan "Novı put" simvolist jurnalı ilə əməkdaşlıq etmişdir. 1904–08 illərdə "Vesı" jurnalının faktiki rəhbəri olmuş, proqram səciyyəli bir sıra məqaləsini ("Sirlərin açarları", 1904 və s.) bu jurnalda dərc etdirmişdir. Bir çox hallarda məhz B.-un səyləri sayəsində simvolizm rus incəsənətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdi. 1900-cü illərdə B.-un yaradıcılığı ["Şəhərə və dünyaya" (1903); "Στέφανος. Əklil" (1906) şeir topluları; "Odlu mələk" tarixi romanı (1907–1908)] müxtəlif cərəyanlara mənsub tənqidçilərin coşqun rəyləri ilə qarşılandı. Onun bu dövrdə yazdığı ən yaxşı əsərlərində yaradıcılığının səciyyəvi xüsusiyyətləri aydın surətdə aşkara çıxdı. Lakin "Bütün nəğmələr" (1909) toplusundan başlayaraq B.-un poeziyası daha az orijinallıq kəsb edir, hər yeni kitabı ("Kölgələrin güzgüsü", 1912; "Nellinin şeirləri", 1913; "Göy qurşağının yeddi rəngi", 1916) artıq keçənlərin təkrarı kimi dərk edilirdi. Onun nəsr əsərləri də ["Dünyanın mehvəri" (1907), "Gecələr və gündüzlər" (1913) topluları; "Qələbə mehrabı" (1911–12) romanı; "Daşanın nişanlanması" (1913), "Reya Silviya" (1914) və "Eluli Elulinin oğludur" (1916) povestləri] uğur qazana bilməmişdi. Birinci dünya müharibəsi illərində "Russkiye vedomosti" qəzetinin hərbi müxbiri işləmişdir. Moskva Un-tində və özünün yaratdığı Ali ədəbi-bədii in-tda dərs demişdir. Aktiv ədəbi-tənqidi fəaliyyət göstərmiş, şeir nəzəriyyəsi ("Şeir haqqında müxtəsər elmi kurs", 1919), puşkinşünaslıq və tərcümə ilə məşğul olmuşdur. Sonrakı şeir kitablarında ["Son arzular", 1920; "Belə günlərdə", 1921; "An", 1922; "Dali", 1922; "Mea" ("Tələs"), 1924] zamanın ruhuna uyğun və *avanqardizm* nailiyyətlərindən istifadə edən B. yeni poetika yaratmağa təşəbbüs göstərmişdir. 1915–17 illərdə Bakıya gəlmişdir. Bakı haqqında şeirləri var. Şərq poeziyası üslubunda onlarca şeir yazmışdır. Bəzi şeirləri Azərb. dilinə tərcümə olunmuşdur.



Əsərləri: Собр. соч.: В 7 т. М., 1973–75; Среди стихов 1894–1924: Манифесты. Статьи. Рецензии. М., 1990; Rus ədəbiyyatı antologiyası. C.1. B., 2007.

**BSJ** (BCG, Bacille de Calmette et de Guérin – Kalmet və Geren basili) – vərəm mikobakteriyalarının (*Mycobacterium bovis*) ödlə qliserinli-kartoflu mühitdə çoxillik (13 il) becərilməsi nəticəsində alınmış və virulentliyi azaldılmış vaksin ştammı; vərəmin profilaktikası üçün canlı vaksin kimi istifadə olunur. Vaksini yaratmış fransız mikrobioloqları A. *Kalmet* və Ş. Geren onu ilk dəfə 1921 ildə tətbiq etmişlər. 1962 ildən dəridaxili immunizasiya üsulu həyata keçirilir (buna qədər vaksin ağızdan daxil edilirdi). Bax həmçinin *İmmunizasiya*.

**BUAGİLBÉR**, Buagiyber (Boisguillebert) Pyer (17.2.1646 – 10.10.1714) – fransız iqtisadçısı, Fransada klassik burjua siyasi iqtisad məktəbinin banisi, əmək dəyər nəzəriyyəsinin əsasını qoyanlardan biri, *fiziokratların* sələfi. B. bazar qiymətini və həqiqi "dəyəri" fərqləndirir və iş vaxtını dəyərin ölçüsü hesab edirdi. B. pulu əsas bəla və xalqın yoxsullaşmasının səbəbi hesab edir, pulu sadə tədavül vasitəsinə çevirməklə onun hakim roluna son qoymağın mümkünlüyünü zənn edirdi. K. Marks B.-in feodal əsarətinə və *merkantilizmə* qarşı olan əsərlərini yüksək qiymətləndirmişdir.

**BUÁKE,** Bvake (Bouaké, Bwake) – Kot-d'İvuar Resp.-nın mərkəzi hissəsində şəhər, Vale dü Bandama vil.-nin inz. m. Əh. 659,2 min (2010); əhalisinin sayına görə ölkənin ikinci şəhəri. Avtomobil yolları qovşağı. D.y. st. Beynəlxalq aeroport. 1899 ildə fransız fortu kimi salınmışdır. Pambıqçılıq ETİ, un-t, Pyer Rişe in-tu (1973; tropik təbabət sahəsində tədqiqatlar), Meşəçilik məktəbi var. B. – k.t. r-nunun ticarət mərkəzidir (qəhvə, kakao, pambıq, çəltik, yams, sizal, tütün və s.). Yeyinti, toxuculuq, dəri-ayaqqabı, tütün sənayesi; pambıqtəmizləmə və çəltiktəmizləmə müəssisələri; İES var.

Buake şəhərindən görünüş.



**BUALÓ,** Bualo-Depreo (Boileau-Despréaux) Nikola (1.11.1636, Paris – 13.3.1711, Paris) – fransız şairi, ədəbiyyat nəzəriyyəçisi. Fransa Akademiyasının üzvü (1684). Yezuit kollejlərində klassik təhsil almışdır (1643–52). Sorbonnada teologiyanı öyrənmiş (1652), təhsilini hüquq fakültəsində (1652–56) davam etdirmişdir. 1657 ildə özünü bütünlüklə ədəbi fəaliyyətə həsr etmişdir; sonralar J. *Rasin,* J. de *Lafonten* və *Molyerlə* dostlaşmışdır. 1677 ildə Rasinlə bərabər XIV Lüdovikin saray tarixnəvisi təyin edilmişdir. Əsərləri (odalar, epiqramlar) 1663 ildən çap olunmağa başlamışdır. 1650-ci illərin sonları – 1690-cı illərin əvvəllərində yaratdığı on iki "Satiralar"ı (ilk nəşri 1660) böyük uğur qazanmışdı. Estetik görüşləri "Məktublar"da (1669–98) və klassisizmin yekun manifestlərindən biri olan mənzum "Poeziya sənəti" (1674) traktatında əksini tapmışdır. R. *Dekart* rasionalizmi ruhunda *"Pleyada"nın* və F. *Malerbin* ənənələrini inkişaf etdirən B. poeziya doktrinasını (onun öz əsərlərində buna həmişə riayət edilmirdi) işləyib hazırlamışdır; janrın dəqiq qaydalar çərçivəsinə salınması zərurətini və "üç vəhdət" (məkan, zaman, hərəkət) birliyinə əməl olunmasını müdafiə etmişdir. B. "köhnəlik və yenilik" haqqında mübahisədə antik ənənələrə tərəfdar çıxmışdır: "Oda haqqında düşüncələr" (1693), Psevdo-Longinin "Ülvilik haqqında" (1674) traktatının tərcüməsi və "Natiq Longinin əsərlərinin bəzi hissələri haqqında tənqidi fikirlər" (1694). "Roman qəhrəmanları" (1665, 1701 ildə nəşr olunmuşdur) dialoq-pamfleti və "Altlıq" (1674–83) *ironik-komik poeması* var.



Əsərləri: Œuvres complétes. P., 1966; Poeziya sənəti. B., 2006.

**BUÁR,** Bvar (Bouar) – Mərkəzi Afrika Resp.-nın q.-ində şəhər. Nana-Mambere prefekturasının inz. m. Əh. 96,5 min (2003). Aeroport. Heyvanlarda tripanosomozu, eləcə də ənənəvi Afrika təbabətini öyrənən tədqiqat mərkəzləri fəaliyyət göstərir. K.t. r-nunun ticarət mərkəzidir (pambıq, maniok, taxıl, tərəvəz, mal-qara). Süd və pendir istehsal olunur. Pambıq təmizlənir. İES; qızıl yatağı var. Ş. yaxınlığında (Nareme k.) aşkar olunmuş meqalitlər 2006 ildə Ümumdünya irsi siyahısına daxil edilmişdir.

**BUASYÉ** (Boissier) Pyer Edmon (25.5. 1810, Cenevrə – 25.9.1885, Vo kantonu, Valer) – İsveçrə botaniki, Paris EA-nın üzvü (1885), Peterburq EA-nın əcnəbi üzvü (1878). Əsərləri sistematika və floristika sahəsindədir. Çiçəkli bitkilərin 6 minə yaxın yeni növünün təsvirini vermiş və 131 yeni bitki cinsi müəyyən etmişdir. "Şərq florası" (1–5 cildlər, 1867–84; əlavə cild, 1888) fundamental əsərində B.-nin Aralıq dənizi və Yaxın Şərq ölkələrinə çoxillik səyahətlərinin nəticələri ümumiləşdirilmiş, 12 minə yaxın bitki növünün təsvirləri və coğrafi yayılmasına dair məlumatlar verilmişdir. Topladığı herbarinin saxlanılması və gələcəkdə bu işi davam etdirmək üçün B.-dən qalan vəsait hesabına Cenevrədə bina tikilmiş və "Buasye" jurnalı nəşr olunur.

**BÚBER** Martin (Mardoxay) (8.2.1878, Vyana – 13. 6. 1965, Yerusəlim) – alman-yəhudi filosofu və yazıçısı, iudaizm mütəfəkkiri. 1896–99 illərdə Vyana, Leypsiq, Sürix və Berlində fəlsəfəni öyrənmiş, həmçinin Avropa və Asiyanın mistik ənənələrinə maraq göstərmişdir. 1898–1904 illərdə sionist hərəkatının demokratik fraksiyasında iştirak etmiş, lakin sonralar siyasi sionizmdən uzaqlaşmış, mədəni-milli yəhudi hərəkatının nüfuzlu ideoloquna çevrilmişdir. B. dinc anarxizmə və M. *Qandi* ruhunda qeyri-zorakı təsir ideyalarına rəğbət bəsləyir, yəhudilərin Fələstində dövlətsiz və ordusuz azad kooperativ məskənlərinin olmasını arzulayırdı. Frankfurt-Mayn Un-tinin (1924–33), 1938 ildə Fələstinə mühacirət etdikdən sonra Yerusəlimdə Yəhudi Un-tinin (1938–51) prof.-u, 1960–62 illərdə İsrail EA-nın prezidenti olmuşdur. İkinci dünya müharibəsindən sonra ABŞ və AFR-də mühazirələr oxumuş, ərəb-yəhudi düşmənçiliyini və Fələstin ərəblərinə münasibətdəki antihumanist hərəkətləri pisləmişdir. Əsas əsərləri: "Mən və Sən" ("Ich und Du", 1923), "İlahi Çarlığı" ("Könïgtum Gottes", 1932), "İnsanın problemi" ("Das Problem des Menschen", 1948) "Etiqadın iki obrazı", ("Zwei Glaubensweisen", 1950), "Xeyir və Şərin obrazları" ("Bilder von Gut und Böse", 1952) və s. B.-in fəlsəfəsi ekzistensializmə yaxındır; onun başlıca ideyası: varlıq Allah və insan, insan və dünya arasında "dialoq" kimidir. Yunan monologizminə qarşı duran "dialoq" ruhunu B. Bibliyadakı dünya anlamında axtarırdı. B. xasidizmin panteist ənənələrinə xüsusi diqqət ayırmışdır.



*Əd.:* Cohen A.A. M.Buber. L., 1957; The philosophy of M. Buber. Open Court. 1967; Лифинцева Т.П. Философия диалога М.Бубера. М., 1999.

**BUBİ** (Niqmatullina) Müxlisə (1869, Vyatka qub.-nın İj-Bobya k. – 23.12. 1937, Ufa ş.) – tatar pedaqoqu, ictimai və dini xadim, Rusiyada ilk qadın qazı. Nəslən üləma ailəsindəndir. B.-nin atası İj-Bobyada (indiki Tat. Resp.-nın Aqrız r-nu) mədrəsə açmış, B.-nin qardaşları Qubaüdulla B. və Qabdulla B. onu üsuli-cədid məktəbi kimi yenidən qurmuşlar. Qardaşları və qardaşı arvadları Nəsimə və Hüsnifatimə ilə birlikdə İj-Bobyada 1901 ildə 6-illik tatar qız məktəbini yaratmışdır. Qadın mədrəsə və məktəbləri üçün müəllimələr hazırlayan ilk məktəbi 1907 ildə açmışdır; 1912 ildə məktəb hakimiyyət orqanları tərəfindən bağlanmışdır. 1914 ildə B. qadın mədrəsəsini, 1915 ildə isə qadın müəllimlər seminariyasını açmışdır. 1917 il mayın 1–11-də Moskvada keçirilmiş Ümumrusiya müsəlmanları qurultayında Mərkəzi müsəlman ruhani idarəsinin (MMRİ) qazısı seçilmişdir. Ufada MMRİ-dəki fəaliyyəti dövründə doğum haqqında şəhadətnamələr işinə, müsəlmanların iddialarına baxmış, qadın məsələsinə dair məqalələrlə "Ülfət", "Əxbar", "Vakıt" qəzetlərində, "Süyümbikə", "İslam məcəlləsi" jurnallarında çıxış etmişdir. "Başqırdıstanın əks-inqilabi millətçi təşkilatında" iştirak etməklə təqsirləndirilərək repressiya olunmuş, ölümündən sonra bəraət almışdır.



*Əd.:* Махмутова А.Х. Феномен М. Буби

//Гасырлар авазы. 2000. № 1/2; y e n ə   o n u n. Лишь тебе, народ, служенье!: история татарского просветительства в судьбах династии Нигматуллиных-Буби. Казань. 2003.

**BUBİLƏR,** f e r n a n d l ı l a r , y e d i y e l ə r ,  a d i y y a l a r ,  a d i c a l a r (özlərini b u b i , b u b e adlandırırlar) – Ekvatorial Qvineyada *bantu* qrupundan xalq. Bioko a.-nın yerli əhalisi. Sayları 49 min nəfərdir (2005). Şimali (nelər, sakatolar, tolar) və cənubi (abbalar, loketolar, biomalar, tetelər, rekalar) B.-ə bölünürlər. *Bantu dillərinin* A zonasına aid edilən və şimal, cənub-qərb, cənub-şərq dialektləri olan bube dilində danışırlar. Dindarları, əsasən, xristiandır, ənənəvi inanclarını saxlayanlar da var. Əsas ənənəvi məşğuliyyətləri toxa əkinçiliyi, ovçuluq, balıqçılıqdır; ağac üzərində oyma sənəti inkişaf etmişdir (8–10 dili olan, zəngin həndəsi naxışlı zınqırovlar – leyebo musiqi aləti səciyyəvidir). Avropalıların gəlişinə (15 əsr) qədər metaldan istifadə etmirdilər, əmək alətlərini daşdan düzəldirdilər. Böyük ailələr, ana xətti ilə qohum nəsillər və gizli cəmiyyətlər saxlanılır. Folklorları nəğmə, nağıl və atalar sözündən ibarətdir.



Bubi uşaqları.

**BÚBKA** Sergey Nazaroviç (d.4.12.1963, Luqansk) – Ukrayna idmançısı (yüngül atletika, şüvüllə hündürlüyə tullanma), SSRİ əməkdar idman ustası (1983). 24-cü Yay Olimpiya Oyunları (1988, Seul) və 6 dəfə dünya (1983–97) çempionu olmuşdur. Tarixdə ilk dəfə 6 *m* hünd. (1985) dəf etmiş, 35 dünya rekordu (1984–94) qazanmışdır. BOK icraiyyə komitəsinin üzvü (2000), Ukrayna Milli Olimpiya Komitəsinin prezidentidir (2005 ildən). Sağlığında heykəli qoyulmuş (1999, Donetsk) ilk Ukrayna idmançısıdır.



**BÚBNOV** İvan Qriqoryeviç (18.1.1872, Nijni Novqorod – 13.3.1919, Petroqrad) – rus gəmiqayırma mühəndisi və alimi. 1904 ildən Sankt-Peterburq Politexnik İn-tunda (1909 ildən prof.), 1910 ildən Dəniz akademiyasında dərs demişdir. "Gəmilərin batmazlığı haqqında" (1901), "Gəmilərin üz örtüyündə su təzyiqindən yaranan gərginlik" (1902) əsərlərində gəmi gövdəsi üçün işlədilən lövhələrin hesablanmasının izahını vermiş, "İnşaat mexanikası və elastiklik nəzəriyyəsi" (1906) və s. əsərlərində gəmilərin ümumi möhkəmlik məsələlərini riyazi əsaslandırmışdır. B. 1901–03 illərdə M.N. Beklemişev ilə birlikdə Rusiyada ilk "Delfin" sualtı qayığının inşasına rəhbərlik etmişdir. 1903 ildən Dəniz texniki komitəsində gəmiqayırma çertyojçuluğu KB-nin rəisi işləmiş, burada 1903–11 illərdə onun rəhbərliyi altında "Kasatka", "Akula", "Minoqa", "Bars" və "Morj" sualtı qayıqlarının layihələri işlənib hazırlanmışdır. "Sevastopol" gəmisi (1911) və "İzmayıl" kreyseri (1915) onun layihələri əsasında qurulmuşdur.

Ə s ə r l ə r i: Труды по теории пластин. М., 1953; Избранные труды. Л., 1956.

**BUBÓN** (yun. βουβών – qasıq, qasıq şişi), x i y ə r ə k – etiologiyasına, gedişinə və lokallaşmasına görə müxtəlif olan *limfadenitlərin* ümumi adı. Əvvəllər yalnız qasıq limfa düyünlərinin iltihabı B. adlandırılırdı. B.-un yaranmasına səbəb irinli infeksiyalar, zöhrəvi xəstəliklər, taun, tulyaremiya, vərəm və s. ola bilər. Mikrotravmalar, qaşıyıb qoparma, yarabasma zamanı infeksiya limfa yolları ilə yaxın (regionar) limfa düyünlərinə düşür və çox vaxt *limfangitlə* müşayiət olunur. B.-un əsas təzahürləri: limfa düyününün hiperemiyalaşmış dəri səthinə çıxması ilə kəskin böyüməsi (bəzən göyərçin yumurtası boyda), toxunduqda ağrılı olması, ətraf toxumaların şişkinliyi; bəzən orqanizmin ümumi reaksiyası (bədən temp-runun yüksəlməsi, zəiflik və s.). Limfa düyüni irinləyə, deşilə, çapıq əmələ gətirməklə sağala, yaxud uzun müddət dəyişilmədən qala bilər. Müalicə B.-un törənməsinə səbəb olan xəstəliyin aradan qaldırılmasına yönəldilir.

Müasir klinik praktikada "B." termini, əsasən, taun, tulyaremiya (xəstəliyin B. formaları) və zöhrəvi xəstəliklər (yumşaq şankr, sifilis) ilə əlaqədar işlənilir.

**BUBR** (Bóbr), B o b r a v a – Polşanın c.-q.-ində çay. Odranın sol qolu. Uz. 280 *km*. Krkonoşe (Sudet) d-rından başlanır. Öndağlıqdan keçərək Sileziya çuxuru ilə axır. Tez-tez daşqınlar olur; suyun səviyyəsi 3–4 *m*-ədək qalxır. Mənsəbi yaxınlığında SES var.

**BÚBRİX** Dmitri Vladimiroviç (25.7. 1890, S.-Peterburq – 30.11.1949, Leninqrad) – rus dilçisi, SSRİ EA-nın m. üzvü (1946). S.-Peterburq Un-tini bitirmişdir (1913). Leninqrad Dövlət Un-tinin (1925 ildən prof.) fin-uqor dilləri kafedrasına rəhbərlik etmişdir. Elmi fəaliyyətə slavyanşünas kimi başlamışdır. Tədqiqatlarının çoxu fin-uqor dillərinin fonetika, morfologiya və tarixinə həsr edilmişdir. "Karel xalqının mənşəyi" (1947), "Udmurt dilinin tarixi fonetikası" (1948) və s. əsərlərin müəllifidir.

**BUCAĞIN TRİSEKSİYASI** (lat. tri – üç və sectio – kəsilmə, yarılma) – bucağın üç bərabər hissəyə bölünməsinə aid məsələ. Əvvəllər B.t.-nı pərgar və xətkeşin köməyi ilə həll etməyə çalışırdılar. Bu yalnız 90° və $90°/2^n$ bucaqları üçün (*n* natural ədəddir) mümkün idi. Arximed B. t.-nı pərgar və bölgülü xətkeş vasitəsilə "yerləşdirmə" adlanan üsulun köməyi ilə həll etmişdir: 90°-dən kiçik *ABC* bucağını üç bərabər hissəyə bölmək üçün onun *AB* tərəfi üzərində ixtiyari *N* nöqtəsindən *BC*-yə perpendikulyar *NF* və paralel *NL* xətləri çəkilir. $KL=2BN$ parçasının *K* və *L* ucları *NF* və *NL* üzərində elə yerləşdirilir ki, onun uzantısı *B* nöqtəsindən keçsin; *KL* parçasının ortası *M* ilə işarə edilir. Bu halda $BN=KM=ML=MN$ olduğu üçün




$$\angle LBC=\frac{1}{3}\angle ABC.$$

B.t.-nın pərgar və xətkeşlə həllinin olmadığını fransız riyaziyyatçısı P. Vansel isbat etmişdir (1837).

**BUCAQ** – Dunay və Dnestr çaylarının mənsəbləri arasında yerləşən tarixi vil. 1241 ildən Qızıl Orda dövlətinin tərkibində idi. 1484 ildə Moldova knyazlığına yürüş edən osmanlı sultanı II Bəyazid B. ərazisində Silistriya sancağını yaratmışdı. Burada məskunlaşan kiçik *noqayların* bir qrupu 1620-ci illərdə Krım xanlığından asılı olan *Bucaq ordasının* əsasını qoymuşdu. 1812 ildə B. Rusiyanın tərkibinə daxil edilmişdir. 1991 ildən Ukraynanın Odessa vil.-nin tərkibindədir.

**BUCAQ** – Azərb. Resp. Oğuz r-nunda kənd. Bucaq ə.d.-nin mərkəzi. R-n mərkəzindən 13 *km* q.-də, Oğuz–Şəki avtomobil yolunun kənarında, Daşağıl çayının sol sahilində, Baş Qafqaz silsiləsinin ətəyindədir. Əh. 1407 (2008); taxılçılıq, heyvandarlıq və meyvə-tərəvəzçiliklə məşğuldur. Tam orta məktəb, uşaq bağçası, klub, kitabxana, feldşer-mama məntəqəsi, poçt, ATS var.

**BUCAQ** – bir nöqtədən çıxan iki müxtəlif şüadan ibarət həndəsi fiqur (şəkil 1). Şüalar B.-ın t ə r ə f l ə r i, onların ortaq başlanğıc nöqtəsi isə B.-ın t ə p ə s i adlanır. Bəzən B.-ı ortaq başlanğıclı iki şüa arasında yerləşən müstəvi hissəsi kimi təyin edirlər. Uyğun tərəfləri və təpələri üst-üstə düşən B.-lar b ə r a b ə r (konqruent) bucaqlar adlanır. İki bucağın ortaq təpəsi və bir ortaq tərəfi varsa və digər iki tərəf düz xətt əmələ gətirirsə, belə bucaqlar  q o n ş u  bucaqlar adlanır (şəkil 2). Ümumiyyətlə, ortaq təpəyə və bir ortaq tərəfə malik B.-lara  b i t i ş i k bucaqlar deyilir. Bir bucağın tərəfləri təpədən başlayaraq digərinin davamıdırsa, belə bucaqlar q a r ş ı l ı q l ı  B.-lar adlanır (şəkil 3). Qarşılıqlı bucaqlar bir-birinə bərabərdir. Tərəfləri düz xətt əmələ gətirən B. a ç ı q bucaq (şəkil 4), qonşu B.-a bərabər B. d ü z, ondan kiçik B. – i t i, düz B.-dan böyük və açıq B.-dan kiçik B. k o r  bucaq  (şəkil 5) adlanır.

B.-ın ölçü vahidi olaraq düz bucağın 1/90 hissəsi götürülür; bu, *dərəcə* adlanır. B.-ın *radian* ölçüsündən də istifadə olunur.

Bir müstəvi üzərində yerləşən iki düz xəttin üçüncü düz xətlə kəsişməsi zamanı 1 və 5; 2 və 6; 4 və 8; 3 və 7 u y ğ u n bucaqları, 2 və 5;  3 və 8 d a x i l i  b i r t ə r ə f l i, 1 və 6; 4 və 7 x a r i c i  b i r t ə r ə f l i, 3 və 5;  2 və 8 d a x i l i  ç a r p a z, 1 və 7;  4  və 6  x a r i c i  ç a r p a z  b u c a q l a r ı (şəkil 6) əmələ gəlir.

"B." anlayışı müstəvi fiqur və ədədi kəmiyyət kimi bucağın xüsusi şəkildə təyin olunduğu müxtəlif həndəsi sistemlərdə tətbiq edilir. Məs., iki *a* və *b* vektorları arasındakı φ B.-ı




$$\cos\varphi=\frac{(\boldsymbol{a},\boldsymbol{b})}{|\boldsymbol{a}|\cdot|\boldsymbol{b}|}$$

kimi təyin edilir (şəkil 7). Kəsişmə nöqtəsində müəyyən toxunanları olan əyrilər arasındakı B. dedikdə, toxunanlar arasında əmələ gələn B. (şəkil 8), d ü z  x ə t t və m ü s t ə v i arasındakı B. (şəkil 9) dedikdə, düz xətt ilə onun müstəvi üzərindəki düzbucaqlı proyeksiyası arasında əmələ gələn B. (0° ilə 90° arasında dəyişir), ç a r p a z  d ü z  x ə t l ə r arasındakı B. dedikdə, çarpaz xətlərə paralel və bir nöqtədən keçən düz xətlər arasındakı B. (şəkil 10) başa düşülür.

**BUCAQ ƏMSALI** – müstəvi üzərindəki $y=kx+b$ düz xətt tənliyində düz xəttin absis oxuna nəzərən meylini xarakterizə edən *k* ədədi. Düzbucaqlı koordinat sistemində B.ə. $k=tg\varphi$-dir; burada $\varphi$ – absis oxunun müsbət istiqaməti ilə verilmiş düz xətt arasındakı bucaqdır.

**BUCAQ MOMENTİ** – bax *Hərəkət miqdarı momenti.*

**BUCAQ NÖQTƏSİ**, ə y r i n i n  s ı n m a  n ö q t ə s i – bax *Xüsusi nöqtə.*

**BUCAQ ORDASI** – 17–18 əsrlərdə kiçik noqayların *Bucaqdakı* ordası. 1620-ci illərdə Krım xanı Mengli Gəray Şimali Qafqaz çöllərindəki təbəələrini – tatarları və noqayları burada məskunlaşdırdı. Ordanın sərəsgəri osmanlı sultanının vassalı olan Krım xanından asılı idi. Osmanlı dövlətinin vassalı olmalarına baxmayaraq, Moldova knyazlığı ilə *Bucaq tatarları* arasında tez-tez sərhədyanı münaqişələr baş verirdi. 1711 ildə Rusiya çarı I Pyotr tərəfindən işğal olundu. 1728 ildə Yedisan ordası Acı Qalaya (indiki Oçakov), Yediçkul ordası isə Or Qapıya (indiki Perekop) köçdü. 1768–74 illər Rusiya-Türkiyə müharibəsi zamanı ruslar tərəfindən tutulan B.o.-nın ərazisi *Küçük Qaynarca sülhünün (1774)* şərtlərinə əsasən geri qaytarıldı. 1787–91 illər Rusiya-Türkiyə müharibəsinin gedişində A.V. Suvorovun ordusu İsmail qalasındakı bütün müsəlmanları qılıncdan keçirdi. 1806 ildə rus qoşunları B.o.-nın ərazisini işğal etdilər. *Buxarest sülh müqaviləsinə (1812)* görə B.o.-nın torpaqları Rusiyanın tabeliyinə keçdi. Az sonra yerli əhali buradan zorla köçürüldü.

**BUCAQ SÜRƏTİ** – bərk cismin fırlanma tezliyini xarakterizə edən vektorial kəmiyyət. Cismin tərpənməz ox ətrafında bərabərsürətli fırlanması zamanı B. s. ədədi qiymətcə $w=\Delta\varphi/\Delta t$ (burada $\Delta\varphi$ – $\Delta t$ zaman müddətində $\varphi$ dönmə bucağının artımıdır), ümumi halda isə $w=d\varphi/dt$. B. s. vektoru fırlanma oxu boyunca elə tərəfə yönəlmişdir ki, oradan cismin dönməsi saat əqrəbi hərəkətinin əks istiqamətində görünür (sağ koordinat sistemində). B. s. vahidi $T^{-1}$-dir.

**BUCAQ TATARLARI**, D u n a y  t a t a r l a r ı,  n o q a y l a r – 15–18 əsrlərdə Cənub-Şərqi Bessarabiya çöllərində (Bucaq) məskunlaşmış türkdilli xalq. *Bucaq* ərazisində bir neçə köçəri türk tayfasının, başlıca olaraq, kiçik *noqayların* qarışması nəticəsində təşəkkül tapmışdı. Ehtimal ki, əvvəllər burada hunlar, avarlar, bulqarlar, qıpçaqlar, kumanlar və peçeneqlər məskunlaşmışdılar. 1484 ildə osmanlı sultanı II Bəyazidin Moldova knyazlığına yürüşündən və Bucaqda Silistriya sancağının yaradılmasından sonra Krım xanı Mengli Gəray bu ərazidə Şimali Qafqaz çöllərindəki təbəələrini – tatarları və noqayları məskunlaşdırdı. Qonşu dövlətlərə yürüşləri ilə tanınan kiçik noqaylari Podolye və Ukraynada bucaq tatarları adlandırırdılar. 1812 ildə Bucaq vil. Rusiyanın tərkibinə qatıldıqdan sonra noqayların bir qismi Azovyanı ərazilərə (Don çayından Kubana qədər) köçürüldü, müsəlman əhali Osmanlı dövlətinin Dobruca vil.-nə sürgün edildi, B.t.-nın yerlərində isə ruslar məskunlaşdı.

**BUCAQ TEZLİYİ**, d a i r ə v i  t e z l i k – periodik rəqs prosesində $2\pi$ *san*-dəki tam rəqslərin sayı. $\omega$ B.t., $T$ rəqs periodu və $f$ rəqs tezliyi arasında $\omega = 2\pi f = 2\pi/T$ əlaqəsi var.

**BUCAQ TƏCİLİ** – bərk cismin *bucaq sürətinin* dəyişmə tezliyini xarakterizə edən kəmiyyət. Cismin tərpənməz ox ətrafında fırlanması zamanı $w$ bucaq sürəti müntəzəm şəkildə artdıqda (və ya azaldıqda) B. t. ədədi qiymətcə $\varepsilon=\Delta w/\Delta t$ ($\Delta w$ – $\Delta t$ zaman müddətində $w$ bucaq sürətinin artımıdır), ümumi halda isə $\varepsilon = dw/dt$. B.t. vektoru ($\boldsymbol{\varepsilon}$) fırlanma oxu boyunca (təcilli hərəkətdə $\boldsymbol{w}$ istiqamətində, yavaşıyan hərəkətdə isə $\boldsymbol{w}$-nın əksinə) yönəlir. Tərpənməz nöqtə ətrafında fırlanma zamanı B. t. vektoru $\boldsymbol{\varepsilon}=d\boldsymbol{w}/dt$ və $\boldsymbol{w}$ vektorunun uyğun nöqtəsində onun ($\boldsymbol{w}$ vektorunun) *hodoqrafına* toxunan boyunca yönəlir. B. t. vahidi $T^{-2}$-dir.

**BUCAQDİŞLİ ÇARX**, ş e v r o n  ç a r x (fr. chevron – çatı) – V-şəkilli (bucaqşəkilli) çəp dişləri olan silindrik *dişli çarx*. Düzdişli çarxla müqayisədə B.ç.-ın səsi daha azdır, əyilməyə yaxşı işləyir, aparıcı qabiliyyəti yüksəkdir. Dişin hər hissəsinə təsir edən ox qüvvələri qarşılıqlı müvazinətə gəldiyindən B.ç. ötürücülərində dayaq yataqlarının qurulması tələb olunmur. B.ç., əsasən, böyük qüvvələri ötürmək üçün tətbiq edilir.



Bucaqdişli çarx.

**BUCAQLIQ**, g ü n y ə – 1) maşın detalları səthlərinin qarşılıqlı perpendikulyarlığını yoxlamaq, nişan qoymaq və s. üçün tətbiq edilən alət; 90° bucaq altında bərkidilmiş iki tamasa (metal, taxta və ya plastik kütlədən) şəklindədir. 2) Bir bucağı 90°, digər iki bucağı hər biri 45° və yaxud 30° və 60° olan düzbucaqlı üçbucaq formasında çertyoj aləti. 3) Boru kəmərlərini döngələrdə bucaq altında birləşdirmək üçün işlədilən fasonlu qısa bənd.

**BUCAQÖLÇƏN** – 1) maşın detalları və s. məmulatların bucaqlarını kontakt üsulu ilə ölçən cihaz; tətbiq yerindən asılı olaraq, noniuslu və optik B.-lər ayırd edilir. Cihaz ölçüləcək detalın (yaxud detal cihazın) üzərinə qoyulur. Ölçüləcək bucaq 0°-dən 180–360°-yədək diapazonda *san* və *dəq* ilə bölgülənmiş şkala üzərindəki bucaqla müqayisə edilir. Ölçmə xətası 2–5′-dir. Daha dəqiq bucaq ölçmələri üçün *sinus xətkeşləri, ölçmə mikroskopları* və s.-dən istifadə olunur. 2) Sadə konstruksiyalı *teodolitdən* ibarət markşeyder aləti; yüksək dəqiqlik tələb olunmadıqda, məs., tənzimləmə lağımlarını və kiçik uzunluqlu köməkçi mədən qazımalarını plana almaq üçün istifadə edilir.



Noniuslu bucaqölçən.

**BUCƏDRA** Rəşid (d.5.9.1941, Əyn-Beyda) – Əlcəzair yazıçısı, ssenarist. Sorbonna Un-tini bitirmişdir (1965). Fransız və ərəb dillərində yazır. Əsərlərində Əlcəzairdə hökm sürən orta əsrlərə xas mənfi adət-ənənələrə qarşı çıxır ["Günəş zərbəsi" ("L'insolation"), 1972], bəzən Qərb mədəniyyətini tənqid edir ["Aşkar təcavüz üçün ideal topoqrafiya" ("Topographie idéale pour une agression caractérisée"), 1975]. "İnadcıl ilbiz" ("L'Escargot entêté", 1977), "1001 ilin həsrəti" ("Les 1001 années de la nostalgie", 1979) romanları müasir Əlcəzairin həyatından bəhs edir. "Kubok sahibi" ("Le vainqueur de coupe", 1981), "Yağış" ("La pluie", 1987), romanları subyektiv-psixoloji manerada yazılmışdır. "Cəbəlüttariqin fəthi" ("La Prise de Gibraltar", 1987), "Həyatın əsl üzü" ("La vie à l'endroit", 1997) tarixi romanlarının, kinossenarilərin müəllifidir.

**BUCİ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Aşağı Tarım kəndistanında, Sirdan qəs.-ndən 30 *km* c.-q.-dədir.

**BUCURQAD** – hərəkət edən kanat, yaxud zəncir vasitəsilə yükün yerini dəyişən qaldırıcı maşın. Yüklərin (blok, darvaza və s.) qaldırılması və daşınması üçün sadə B. hələ qədim zamanlardan istifadə olunurdu. Qədim Misirdə və Qədim Çində piramidaların tikintisi və yataqların işlənməsi, sonralar (14–15 əsrlərdə) filiz sənayesi, inşaat işləri və s. üçün B.-lar tətbiq edilmişdir. Stasionar (daimi və ya müvəqqəti özül üzərində qoyulan, yaxud divarlara və tavan örtüklərinə bərkidilən) və səyyar (rels üzərində hərəkət edən və ya relssiz, arabalara quraşdırılan) B.-lar var. B. əl ilə, yaxud maşınla (elektrik, daxiliyanma, bəzən buxar, hidravlik, pnevmatik mühərriklərlə) hərəkətə gətirilir. Sürtünmə barabanı şaquli yerləşdirilmiş B.  ş p i l  və ya  k a b e s t a n  (gəmi B.-ı) adlanır. B. yükləmə, boşaltma, tikinti, quraşdırma, təmir, anbar işlərində, hərəkət vasitələrinin manevrində, kəsilmiş ağacların sürüdülməsində, lövbərlərin qaldırılmasında *(braşpil)* müstəqil maşın kimi, yerqazan və yol maşınları, qaldırıcı kran, kanat yolları, skreper və qazıma qurğularında (bax *Qazıma bucurqadı*) isə maşın hissəsi kimi tətbiq edilir.



Əl ilə hərəkətə gətirilən bucurqad (*solda*); elektrik bucurqad (*sağda*).

**BÜÇMA** Amvrosi Maksimilianoviç (14.3.1891, Lvov – 6.1.1957, Kiyev) – Ukrayna aktyoru, rejissor, pedaqoq. SSRİ xalq artisti (1944). SSRİ Dövlət mükafatı laureatı (1941, 1949). 1905 ildən Lvovdakı "Ruska besida" teatrının aktyoru olmuş, faciə, dram, vodevil, opera və operetta kimi müxtəlif janrlarda çıxış etmişdir. Birinci dünya müharibəsi zamanı Avstriya ordusuna (1914) çağırılmış, 1915 ildə Avstriya hərbi əsiri kimi Rusiyaya gətirilmişdir; çoxlu peşə dəyişdirmiş, 1917 ildən sonra səhnə fəaliyyətinə qayıtmışdır. Kiyevdə Musiqili Dram İn-tunda oxumuşdur. 1919 ildə "Yeni Lvov teatrı"nın rəhbəri olmuşdur. 1920 ildə İ. Franko ad. Teatrın (Vinnitsa, 1926 ildən Kiyevdə) yaradılmasında iştirak etmişdir. 1921 ildə Çerkassı ş.-ndə İ. Franko ad. Studiyanı yaratmışdır. 1922–26 və 1930–36 illərdə "Berezil" teatrının (Kiyev; 1933 ildən T.Q. Şevçenko ad. Xarkov teatrı) aktyoru olmuş, 1936 ildə yenidən İ. Franko ad. Teatra qayıtmışdır. Əsas rolları: Higgins (E.B. Sinklerin "Cimmi Higgins" əsəri əsasında), Leyba (T.Q. Şevçenkonun "Qaydamaklar" əsəri əsasında), Mikola Zadorojnı ("Oğurlanmış səadət", İ. Franko), İvan Kolomiytsev ("Axırıncılar", M. Qorki), Jan (P. Merimenin "Jakeriya" əsəri əsasında), Terenti Puzır ("Sahibkar", İ.K. Karpenko-Karı), Platon Kreçet ("Platon Kreçet", A.Y. Korneyçuk) və s. K. Qoldoninin "Mirandolina" ("Mehmanxana sahibəsi"), H. İbsenin "Şimal bahadırları" (hər ikisi 1921), G. Heyermansın ""Nadejdanın" məhvi", (1930), Karpenko-Karının "Sahibkar" (1939) və s. əsərləri tamaşaya qoymuşdur. 1924 ildən kinoya çəkilmişdir ("İvan Qroznı", "Yenilməz insanlar", "Kəşfiyyatçının igidliyi" və s.). "Divarın o tərəfində" (1928) və "Torpaq" (1954, A.F. Svaçko ilə birlikdə) filmlərini çəkmişdir. 1945–48 illərdə Kiyev kinostudiyasının bədii rəhbəri işləmişdir. Kiyev Teatr Sənəti İn-tunda dərs demişdir (1940 ildən prof.).



**BUD**, b u ğ u m a y a q l ı l a r d a – ayağın əsasından üçüncü və ya dördüncü buğum; yanaşı buğumlarla hərəki birləşmir. O n u r ğ a l ı l a r d a – bud sümüyü nahiyəsində yerləşən bütün toxumalar, damarlar və sinirlərlə birlikdə arxa ətrafların (insanda ayaqların) bud-çanaq oynağından diz oynağına qədər yuxarı şöbəsi. İ n s a n d a  B. sümüyü bədənin ən uzun sümüyüdür. B.-un ön səthində dördbaşlı əzələ (dizi düzləndirir və bud-çanaq oynağında qismən B.-u açır) və dərzi əzələ (ayağı bud-çanaq və diz oynaqlarında bükür, B.-u bayıra hərlədir), iç tərəfdə – B.-u yaxınlaşdıran və onu daxilə hərlədən əzələ qrupları (daraqvarı, nazik və s.), arxa tərəfdə ayağı diz oynağında bükən, B.-u bud-çanaq oynağında açan və baldırı hərlədən ikibaşlı, yarımvətərli və yarımzarlı əzələlər yerləşir. B.-un başlıca arterial damarı bud arteriyasıdır. Qanın geri qayıtması dərin B. venası ilə yerinə yetirilir. Əsas limfa düyünləri qrupu qasıq nahiyəsində yerləşir. Əzələlərin və dərinin sinirlə təchizatı bel və oma sinir kələfləri ilə həyata keçirilir.

**BUDAQ** (şaxə), i n f o r m a t i k a d a – 1) *ağacvarı strukturlarda* ağacın kökündən təpəsinə (qovşaqlara) aparan yol; 2) alqoritm və proqramlarda şaxələnmə nöqtəsindən çıxan alternativ yollardan biri.

**BUDAQ CÜMLƏ** – tabeli mürəkkəb cümlənin baş cümləyə semantik və qrammatik cəhətdən tabe olan tərkib hissəsi. B.c. baş cümləyə müxtəlif cəhətdən xidmət edir: baş cümlənin bir üzvünü tamamlayır və ya izah edir; baş cümlədə ifadə olunan hal-hərəkətin zamanını, yerini, səbəbini və digər əlamətlərini bildirir.

Azərbaycan dilində B.c.-nin aşağıdakı növləri vardır: mübtəda B.c.-si; xəbər B.c.-si; tamamlıq B.c.-si; təyin B.c.-si; zərflik B.c.-ləri (zaman B.c.-si; yer B.c.-si; səbəb B.c.-si; məqsəd B.c.-si; kəmiyyət B.c.-si; tərzi-hərəkət B.c.-si; şərt B.c.-si; nəticə B.c.-si).

*Əd.:* A b d u l l a y e v Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. B., 1974; A b d u l l a y e v Ə., C ə f ə r o v N., S e y i d o v Y., H ə s ə n o v A. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis. B., 2009.

**BUDAQDƏRƏ** – Azərb. Resp. Laçın r-nunun Hacıxanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 70 *km* şm.-q.-də, Sağsağan d.-nın ətəyində, Şəlvə (Həkəri çayının qolu) çayının sol sahilindədir. Əh. 580 (2008); işğaldan (1992, may) əvvəl əkinçilik, arıçılıq və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana,

14954

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

klub, tibb məntəqəsi var idi.

**BUDAQLANMA NÖQTƏSİ** – çoxqiymətli analitik $f(z)$ funksiya (bax *Analitik funksiya*) nöqtəsi. Kompleks müstəvidə mərkəzi B.n.-ndə olan istənilən qədər kiçik radiuslu çevrələr üzrə dövr etdikdə, verilmiş funksiyanın qiymətləri fasiləsiz dəyişir və ilkin seçilmiş qiymətlərdən fərqli qiymətlərə gətirir. Məs., $z=0$ nöqtəsi $\sqrt{z}$ və ya $\operatorname{Ln} z$ funksiyasının B.n.-dir; onun ətrafında bir dəfə dövr etdikdə, birinci funksiyanın qiyməti işarəsini dəyişir, ikinci funksiya isə $+2\pi i$ toplananına malik olur.

**BUDAQOV** Budaq Əbdüləli oğlu [23.2.1928, Erm. SSR Zəngibasar qəzasının (indiki Masis r-nu) Çobankərə k. – 1.11.2012, Bakı] – Azərb. coğrafiyaşünası, coğrafiya e.d. (1968), prof. (1969). Azərb. EA akad. (1989; m. üzv 1976), Azərb. Resp. əməkdar elm xadimi (2008). Azərb. Dövlət Pedaqoji İn-tunu (1951) bitirmişdir. Azərb. EA Coğrafiya İn-tunda baş elmi işçi (1958–59), şöbə müdiri (1959–86), həmçinin 1974 ildən in-tun elmi işlər üzrə direktor müavini, 1994 ildən direktoru vəzifələrində işləmişdir. Tədqiqatları geomorfologiya, yeni tektonika, paleocoğrafiya, landşaftşünaslıq, qlyasiologiya və toponimika məsələlərinə həsr edilmişdir. Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin üzvü olmuşdur. 1000-dən çox elmi əsərin və bir neçə monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidmətləri var. Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.



Əsərləri: Azərbaycanın Böyük Qafqaz hissəsinin müasir və qədim buzlaşmaları. Б., 1965; Геоморфология и новейшая тектоника Юго-Восточного Кавказа. Б., 1973; Türk uluslarının yer yaddaşı. B., 1994.

**BUDAQOV** Canpolad Vəli oğlu (d.9.9. 1971, Gürcüstanın Bolnisi r-nunun Faxralı k.) – Azərb. idmançısı. Azərb. Tibb Un-tini bitirmişdir (1994). Uşu-sanda üzrə SSRİ (1990) və Azərb. Resp. (1999) idman ustasıdır. SSRİ kubokunun qalibi (1990, Alma-Ata), SSRİ çempionu (1991, Daşkənd), Avropa kubokunun qalibi (1993, Moskva), Avropa çempionu (1994, Münxen), dünya çempionatının gümüş mükafatçısı (1997, Roma), dünya çempionu (1999, Honkonq) və Dünya kubokunun (2001, Peruca, İtaliya) qalibidir.

**BUDÁQOV** Lazar Zaxaroviç (12.4.1812, Həştərxan – 30.12.1878, Peterburq) – rus dilçisi, pedaqoq. Tiflis gimnaziyasında Azərb. və fars dillərindən (1840–44), Peterburq un-tində Azərb. və türk dillərindən (1845–70) dərs demişdir. "Müxtəsər tatar dili dərsliyi" (1844), "Türk-tatar Azərbaycan ləhcəsinə dair praktik təlimat" (1857), 2 cildlik "Türk-tatar dillərinin müqayisəli lüğəti" (1869–71) əsərlərinin müəllifidir.

Əsəri: Сравнительный словарь турецко-татарских наречий. Т. 1–2, М., 1960.

**BUDAQOVA** Zərifə İsmayıl qızı (28.4. 1929, İrəvan – 7.11.1989, Bakı) – Azərb. dilçisi. Filologiya e.d. (1963), prof. (1968), Azərb. SSR EA m. üzvü (1980). Azərb. SSR EA Nəsimi ad. Dilçilik İn-tunda böyük elmi işçi (1953–55), müasir Azərb. dili şöbəsinin müdiri (1955–89), direktor müavini (1984–88) və direktor (1988–89) vəzifələrində işləmişdir. Tədqiqatları, əsasən, müasir Azərb. dilinin morfologiyası, sintaksisi, orfoqrafiyası və üslubiyyatına, türkologiyanın aktual problemlərinə həsr edilmişdir. B. "Azərbaycan dilinin qrammatikası" (h. 1–2, 1959–60), "Azərbaycan bədii dilinin üslubiyyatı" (1970) və s. əsərlərin müəllif və redaktorlarından olmuşdur.



Əsərləri: Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. B., 1964; Azərbaycan dilində durğu işarələri. B., 1977; Müasir Azərbaycan dilinin semasiologiyası. B., 1985.

**BUDALAL** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Hir kəndistanında, Ərdəbil ş.-ndən 22 *km* c.-dadır.

**BUDAMA** – meyvəçilikdə və dekorativ bağçılıqda mühüm aqrotexniki tədbirlərdən biri. Meyvə ağaclarına və giləmeyvə kollarına qulluq üsulu; budaqların, zoğların və köklərin qurumuş hissələrinin tamamilə, yaxud qismən kəsilməsi. B., əsasən, iki bir-birilə əlaqəli üsulla: qısaltma və kəsilmə (seyrəltmə) ilə aparılır. Bitkilərin böyüməsini və bar verməsini tənzimləyən digər üsullar (zoğların, budaqların əyilmə istiqamətinin dəyişdirilməsi, onların qatlanması, burulması, sarılması və s.) da bunlara uyğunlaşdırılır. Qısaltma zamanı budaqların ucu kəsilib qısaldılır. Bu, ağacın çətirinin formasını və ölçüsünü kəskin dəyişir, budaqları davamlı edir. Kəsilmə (seyrəltmə) zamanı isə ağacın şaxələnmiş hər hansı qol-budağı bütövlükdə kəsilir; bu, çətirin sıxlaşmasının qarşısını alır və onun işıqlanma şəraitini yaxşılaşdırır.

Zoğların ucunun qoparılması onların böyüməsini zəiflətmək və çiçək tumurcuqlarını oyatmaq məqsədilə aparılır. B. çətirlərin seyrəldilməsi məqsədilə aparılırsa, ayrı-ayrı budaqlar tamamilə, forma vermək üçün aparılırsa – qismən kəsilir. Meyvə ağaclarını budamaqdan məqsəd qocalmış, az meyvə verən, xəstə, zəif, qurumuş budaqları kəsib ağacın və ya kolun yaxşı inkişafına, bol meyvə verməsinə şərait yaratmaqdan ibarətdir. B.-nın zəruriliyini, onun xarakterini və necə aparılacağını müəyyən edərkən bitkinin yaşı, bitmə şəraiti və cins-sort xüsusiyyətləri nəzərə alınır. Meyvə ağaclarını payızda yarpaqlar töküləndən sonra, şaxtasız qış günlərində və yazda tumurcuqlar açılanadək, giləmeyvə kollarını isə payızda yarpaqlar töküləndən sonra budamaq daha məqsədəuyğundur.

**BUDAPÉŞT** – Macarıstanın paytaxtı. Peşt medyesinin inz. m. Müstəqil inz. ərazi vahididir (resp. tabeliyində şəhər). Əh. 1740 min (aqlomerasiyada 2551,2 min; 2013). Macarıstanın mərkəzi hissəsində, Dunayın hər iki sahilində yerləşir. Ölkənin mühüm siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzidir. Avropanın ən iri nəql. qovşaqlarından biri: 10 d.y. xətti (3 d.y. vağzalı), avtomobil yolları qovşağı, çay portu. Beynəlxalq aeroport (Ferihed). Metropoliten (1896 ildən).

1873 ildə tarixən formalaşmış Peşt (Dunayın düzənlik sol sahilində), Buda və Obudanın (təpəlik sağ sahildə) birləşməsi nəticəsində yaranmışdır. Peştlə yanaşı, 1148 ildən məlum olan Buda və Obudanın yerində qədimdə keltlərin məskənləri, 1–4 əsrlərdə isə *Akvink* (lat. Aquincum) Roma hərbi düşərgəsi və şəhəri (196 ildən koloniya) olmuşdur. Peşt ərazisində möhkəmləndirilməmiş məskənlər mövcud idi. 1241 ildə iri ticarət mərkəzi olan Peşt, həmçinin Buda və Obuda monqollar tərəfindən dağıdılmışdı (kral IV Belanın dövründə yenidən tikilmişdi). 1242 ildən Buda paytaxt, 1350 ildən macar krallarının daimi iqamətgahı olmuşdur. Buda qalası dəfələrlə mühasirəyə alınmışdır. 1541 ildə Buda, Obuda və Peşt türklər tərəfindən tutulmuşdur; 1686 ildə azad edilmiş və 18 əsrin əvvəllərindən Habsburqlar imperiyasının tərkibinə daxil edilmişdir. 1867 ildən B. Avstriya-Macarıstanın tərkibində Macar krallığının paytaxtı, 1918 ildən müstəqil Macarıstan dövlətinin paytaxtıdır. 1944 ilin martında alman ordusu tərəfindən işğal olunmuş, *Budapeşt əməliyyatının (1944–45)* gedişində sovet qoşunları tərəfindən azad edilmişdir (1945, 13 fevral). *Macarıstan üsyanının (1956)* əsas mərkəzi idi.







Budapeşt şəhərindən görünüş.

Dunayın hündür sahilində yerləşən Buda, ensiz küçələri və çoxlu bağları ilə orta əsrlər planlaşdırılması xüsusiyyətlərini qoruyub saxlayır; Peştin planlaşdırılması 19 əsrin sonu – 20 əsrin əvvəllərində eklektizm üslubunda tikilmiş yaşayış və ictimai binaları olan radial prospektlər, onlarla kəsişən küçələrin yaratdığı iki yarımdairəvi şəbəkə əmələ gətirir. B.-in hər iki hissəsini birləşdirən körpülər (o cümlədən Asma körpü, 1939–49, mühəndislər U.T. Klark və A. Klark) şəhərin memarlıq görünüşündə böyük yer tutur; şəhərdə çoxlu böyük və kiçik bağlar, parklar, heykəltəraşlıq abidələri var.

Budanın mərkəzi hissəsində Qala dağı memarlıq ansamblı (*Ümumdünya irsi* siyahısına daxil edilmişdir) əsas yer tutur: qala divarları və bürclərinin qalıqları (1212–17 əsr), qotik və renessans detalları olan, əsasən, 18–19 əsrlərdə yenidən tikilmiş yaşayış evləri; qotik üslubda Matyaş kilsəsi (və ya Məryəm ana kilsəsi, 1255–1470; 1541 ildə məscidə çevrilmişdir; 1896 ildə memar F. Şulek tərəfindən neoqotika üslubunda yenidən tikilmişdir), Mariya Maqdalina kilsəsinin qülləsi (15 əsr), kral sarayı (tikintisinə 14 əsrdə başlanılmış, 15–16 əsrlərdə, 1715–90, həmçinin 1883–1905 illərdə yenidən inşa edilmişdir, memarlar M. İbl və A. Hausman; hazırda Macarıstan Milli Qalereyası, 1957 ildə təşkil olunmuşdur; Milli kitabxana, B.-in tarixi və müasir incəsənət muzeyləri yerləşir). Budanın digər abidələri arasında türklərin hakimiyyəti dövrünə aid Gülbaba türbəsi (1543–48), 16 əsrin ortalarına aid hamamlar; barokko üslubunda Müq. Anna (1740–62, memarlar K. Hamon, M. Nepauer) və Müq. Yelizaveta (1757–77) kilsələri və s. var. Obudada Herkules villası, amfiteatr, erkən xristianlıq dövrü bazilikası, yaşayış evləri və termlərin (e. 1–4 əsrləri) xarabalıqları olan Qədim Roma yaşayış məskəni Akvinkin (hazırda muzeydir) qalıqları var.

Peştdə Belvaroşdakı kilsə (15 əsrin 1-ci yarısı və 1725–40); Ratuşa (1727–47, memar A.E. Martinelli) saxlanılmışdır. *Macarıstan Dövlət Operasının* binası

Macarıstan Parlamenti. Budapeşt.





Qəhrəmanlar meydanı.

(1875–84, memar M. İbl) və Müq. Stefan bazilikası (1851–1906), parlamentin neoqotik binası (1884–1904, memar J. Şteyndl) eklektizm ruhunda tikilmişdir. Macarıstanın 1000-illiyi münasibətilə 1896 ildə Təsviri Sənət Muzeyinin (1900–06; Misir, antik incəsənət və 14–20 əsrlər Avropa rəngkarlığı kolleksiyaları) və İncəsənət Sarayının (1895) neoklassik binalarının yerləşdiyi nəhəng Qəhrəmanlar meydanı ansamblı (memarlar A. Şikedans və F.F. Hersoq) tikilmişdir. Memar E. Lexnerin modern üslubda tikililəri əhəmiyyətli yer tutur: Tətbiqi sənət muzeyinin (1891–96), Geologiya in-tunun (1898–99) binaları, Şipek-Balaj villası (1905) və s. Dunay sahili, Andraşi küçəsi (19 əsrin sonları) və metronun 1-ci növbəsinin stansiyaları (1893–96) ansamblları Ümumdünya irsi siyahısına daxil edilmişdir. Tikilən binalarda həmçinin alman və Avstriya funksionalizminin (Hapraforqo küçəsindəki evlər, 1927–31, memarlar L. Vaqo, F. Molnar, A. Hayoş və b.), neoklassisizmin (Tətbiqi Sənətlər Untinin binası, 1953, memar Z. Farkaşdi) təsiri öz əksini tapmışdır. 1970–80-ci illərin əvvəllərində "Hilton", "Forum", "Atrium" hotelləri inşa edilmişdir.

Macarıstan EA (1825), F. Seçenyi ad. Dillər və İncəsənət Akademiyası (1825, Macarıstan EA-nın bölməsi; 1992 ildən müstəqil elmi müəssisə), 100-dən çox elmi cəmiyyət, assosiasiya və elmi tədqiqat in-tu, o cümlədən Meşəçilik assosiasiyası (1866), F.List cəmiyyəti (1893; 1973 ildə yenidən təşkil edilmişdir), geologiya (1848), coğrafiya (1872), etnoqrafiya (1889), fizika (1891), tarix (1867) cəmiyyətləri; geologiya (1869), ornitologiya

Macarıstan Dövlət Opera Teatrı.



(1893) in-tları var. 15 un-t, o cümlədən L. fon Etvöş ad. un-t (1635), İ.F. Zemmelveys ad. Tibb un-ti (1769), Texniki un-t (1782), Texnologiya və İqtisadiyyat un-ti (1782), Baytarlıq un-ti (1787), Bağçılıq və Yeyinti Texnologiyaları un-ti (1853), İqtisadiyyat un-ti (1948) və s. fəaliyyət göstərir. Akademiyalar (un-t statuslu kolleclər): dram və kino sənəti (1865), zərif sənətlər (1871), qrafika və dizayn (1880), rəqs (1950), F. List ad. ali musiqi məktəbi (1875 ildə Milli macar kral musiqi akademiyası; 1925 ildən indiki adını daşıyır).

B.-də 100-ə qədər muzey, o cümlədən *Macarıstan Milli Muzeyi* (1802), Təbiyyat tarixi muzeyi (1802), Budapeşt şəkil qalereyası (Kişşelli muzeyi), həmçinin etnoqrafiya (1872), Şərqi Asiya incəsənəti (1919; 10–19 əsrlər Çin incəsənəti kolleksiyası), hərbi-tarix, kənd təsərrüfatı (Vaydahunyad qəsrində, 1896), tətbiqi sənət (1872), tarix (1887), təsviri sənət (1896) muzeyləri, F. Listin xatirə muzeyi; Böyük kitabxanalar: Milli kitabxana (1802), Bələdiyyə kitabxanası (1904), akademiyaların, universitetlərin kitabxanaları və s. var.

B.-də Macarıstan Milli Teatrı (1837), Y. Katona ad. teatr, Yeni, "Barka", Kamera, kukla teatrları, Orta Avropa rəqs teatrı və s., Macarıstan Dövlət Opera Teatrı (1837), Macarıstan Milli Filarmonik orkestri (1923 ildə Paytaxt simfonik orkestri kimi təşkil olunmuşdur, 1952 ildən Macarıstan Dövlət simfonik orkestri, 1997 ildən indiki adını daşıyır), Macarıstan radio və televiziyasının orkestri (1943), Budapeşt festival orkestri (1983), Macarıstan musiqi assosiasiyası (1853 ildə Filarmonik cəmiyyət kimi əsası qoyulmuşdur, 1870 ildən indiki adını daşıyır) fəaliyyət göstərir. "Hunqaroton" səsyazma şirkəti var. Hər il Beynəlxalq teatr festivalı keçirilir.

B.-də beynəlxalq şahmat turnirləri (1896 ildən), "Budapeşt sport arena" idman sarayında böyük yarışlar, o cümlədən bədii gimnastika üzrə (2003), yüngül atletika üzrə qış (2004), yunan-Roma güləşi üzrə (2005) dünya çempionatları keçirilmişdir. Beynəlxalq Ağır Atletika Federasiyasının mənzil-qərargahı B.- də yerləşir.

Ölkə ÜDM-inin 35%-i (2004), o cümlədən sənaye məhsulu dəyərinin 14%-i B.-də yaradılır. Şəhər Macarıstan iqtisadiyyatına qoyulmuş xarici investisiyanın 50%-indən çoxunu özündə toplamışdır. Ölkədə çalışanların 27%-i (2003) B.-də cəmləşmişdir, onların da 79,5%-i xidmət sferasında, 15,8%-i sənaye sahələrində, 4,2%-i tikintidə, 0,5%-i isə aqrar sektorda çalışır.

Xidmət sferası tədricən B. iqtisadiyyatının əsasına çevrilir. "Aşan", "Metro", "Tesko", "İKEA", "OBİ", "Kora", "Mixelfayt" və s. iri xarici şirkətlərin mağazaları ilə təmsil olunmuş pərakəndə ticarət müəssisələri şəbəkəsi fəal surətdə inkişaf edir. Şəhər büdcəsinə iri daxilolmaları mehmanxana sənayesi (o cümlədən "Kempinski", "Marriot", "Hilton" və s. mehmanxana şəbəkələrinin hotelləri) və ictimai iaşə sferası, həmçinin çoxsaylı nəqliyyat, logistika və kommunikasiya şirkətlərinin, rieltor və məsləhətçi firmaların fəaliyyəti təmin edir. B.-də ölkənin ən iri bankları, o cümlədən mərkəzi bank rolunu oynayan Macarıstan milli bankı; əsasən, xarici və ya qarışıq kapitalla işləyən "OTP", "Si-Ay-Bi", "Rayffayzen", "Erste", "AEB" kommersiya bankları, fond və əmtəə birjaları; ən iri macar şirkətlərinin: "MOL"(neft emalı və neftkimya sənayesi), "Hans-MAVAQ"(d.y. avadanlığı istehsalı), çoxprofilli "Transelektro", "Malev" aviaşirkətinin, "Maxart" dövlət gəmiçilik şirkətinin və s.-in mənzil-qərargahları və nümayəndəlikləri yerləşir.

Sənaye müəssisələrinin təqr. yarısı tam və ya qismən xarici ölkələrin mülkiyyətindədir. Bir çox sənaye obyektləri yenidən profillənir və ya bağlanır, daha çox ixtisaslaşmış əmək, daha az material və əmək tələb edən məhsul istehsalına keçilir. B.-in sənaye məhsulunun 40%-dən çoxu ixrac olunur. Əsas sahələri: maşınqayırma-avtomobil hissələri, d.y. texnikası, sənaye avadanlığı, cihazlar; metal emalı, o cümlədən Macarıstanda ən iri Çepel misyayma z-du; yeyinti (ölkə müəssələrinin təqr. yarısı); toxuculuq; əczaçılıq – "Egis", "Gedeon Rixter" şirkətlərinin müəssisələri və s. "İkarus" avtobusları yığılır (Sekeşfexervar ş.-dən B.-yə köçürülmüşdür).

**BUDAPEŞT ƏMƏLİYYATI (1944–45)** – *Böyük Vətən Müharibəsində (1941–45)* sovet qoşunlarının (2-ci Ukrayna cəbhəsi, komandan – marşal R.Y. Malinovski; 3-cü Ukrayna cəbhəsi qoşunlarının bir hissəsi, komandan – marşal F.İ. Tolbuxin) Dunay hərbi donanması (kontr-admiral G.N. Xolostyakov) ilə birgə keçirdiyi strateji hücum əməliyyatı. Düşmən qruplaşmasını darmadağın etmək və Macarıstanı Almaniya tərəfində müharibədən çıxarmaq məqsədilə aparılmışdı. 2-ci Ukrayna cəbhəsi qoşunlarına (cəmi 760 min nəfər, 9 min top və minaatan, 868 tank və özügedən artilleriya qurğusu, 1,3 min təyyarə) qarşı Almaniyanın "Cənub" orduları qrupu (gen.-polk. G. Frisner, dekabrın 23-dən piyada qoşun gen.-ı O. Veler; 510 min nəfər, təqr. 4,2 min top və minaatan, təqr. 800 tank və hücum topu, 500 təyyarə) dayanmışdı. 1944 il oktyabrın 29-da sovet qoşunları qəflətən hücuma keçdi. Noyabrın 2-də onlar artıq Budapeştin 15 *km*-liyində idilər, lakin 2-ci Ukrayna cəbhəsi qoşunları şəhəri ələ keçirə bilmədi. Buna görə də, dekabrın 20-dən 3-cü Ukrayna cəbhəsi qoşunlarının bir hissəsi vəzifənin yerinə yetirməsinə cəlb edildi. Dekabrın 26-da hər iki cəbhənin qoşunları düşmənin Budapeşt qruplaşmasının (təqr. 10 diviziya) mühasirəyə alınmasını başa çatdıraraq Esterqom r-nunda birləşdilər. Sonra mühasirəyə alınmış 188 minlik qruplaşma darmadağın edildi, 1945 il fevralın 13-də isə Budapeşt tutuldu.

B.ə.-nın nəticəsi Macarıstanın Almaniya tərəfində müharibədən çıxması oldu. Almaniya komandanlığı öz qoşunlarının Yuqoslaviyadan çıxarılmasını sürətləndirdi.

**BUDAPEŞT KONVENSİYASI (1877)** – Rusiyanın Türkiyə ilə müharibə aparacağı təqdirdə Avstriya-Macarıstanın bitərəf qalmasının şərtləri haqqında gizli Rusiya-Avstriya sazişi. Yanvarın 3-də Budapeştdə imzalanmışdır. Əsas sazişin mətnindən və martın 6-da (həmçinin yanvarın 3-nə aid edilir) imzalanmış əlavə konvensiyadan ibarətdir. *Reyxştadt sazişinin (1876)* şərtlərini təsdiq etmişdir. Əlavə olaraq B.k.-na görə Avstriya-Macarıstan hökuməti Rusiyaya qarşı münasibətdə xeyirxah bitərəfliyini qoruyub saxlayacağını, müharibə baş verdiyi təqdirdə isə "ondan asılı olacaq qədər diplomatik təsir yolu ilə digər dövlətlərin müdaxilə, yaxud kollektiv vasitəçilik cəhdlərini iflic etməyi" öhdəsinə götürür, Osmanlı imperiyasının bütövlüyü və müstəqilliyinin zəmanəti haqqında B.Britaniya və Fransa ilə bağlanmış razılaşmaların həyata keçirilməsində iştirakdan imtina edir, rus qoşunlarının Dunaydan və s.-dən keçməsinə maneçilik törətməyəcəyinə söz verirdi. Rusiya Avstriya-Macarıstanın Bosniya və Herseqovinanı (Yeni Pazar sancağı istisna olmaqla) işğal etməsinə, Avstriya-Macarıstan isə "imperiyanın 1856 ilə qədərki sərhədlərinin bərpası" üçün Bessarabiyanın bəzi hissələrinin Rusiyaya birləşdirilməsinə razılıq verdi. Tərəflər hərbi əməliyyatlarını Serbiya və Çernoqoriyaya, Avstriya-Macarıstan – həmçinin Rumıniyaya, Rusiya – həmçinin Bosniya və Herseqovinaya genişləndirməyəcəklərinə dair öhdəlik götürürdülər. B.k.-nın imzalanması ilə Rusiya Avropa dövlətlərinin Rusiya-Türkiyə müharibəsinə (1877–78) qarışmamasına nail oldu, lakin *San-Stefano sülh müqaviləsinin (1878)* bağlanmasından sonra B.k. Avstriya-Macarıstana müqavilənin şərtlərinə yenidən baxılmasını tələb etmək imkanı verdi.

Müqəddəs İştvan bazilikası.



**BUD-ÇANAQ OYNAĞI** – bud (omba) sümüyünün başı ilə çanaq sümüyünün sirkə kasasını birləşdirən kürəvi oynaq. Ondakı hərəkətlər üç qarşılıqlı perpendikulyar oxun ətrafında mümkündür: bükmə və açma – 130°, yaxınlaşdırma və uzaqlaşdırma – 70°, daxilə və xaricə hərlətmə – 45°. B.-ç.o. oynaq kisəsi və bağlarla əhatə olunmuşdur. Oynaq daxilində bud sümüyü başının bağı sirkə kasasının dibinə qədər gedir. Qan təchizatı bud və

daxili qalça arteriyalarının şaxələri; innervasiyası bud, qarın və oturaq sinirlərinin şaxələri ilə həyata keçirilir. B.-ç.o.-nın xəstəlikləri: budun anadangəlmə çıxığı, deformasiyaedici *artroz*, iltihabi proseslər (*koksitlər*) və s. B.-ç.o.-nın travması zamanı sirkə kasasının, bud sümüyü başının, bud sümüyü boynunun sınığı, çıxığlar və s. ola bilər. B.-ç.o. bazu oynağına nisbətən az hərəkidir.

**BÚDDA** (sanskritcə və palicə – Buddha; hərfi mənası – ziyalanmış, aydınlanmış), b u d d i z m d ə – 1) dini aydınlanma (*bodhi*) təcrübəsi yaşamış və bunun nəticəsində həqiqi reallığı aşkarlamış insan; 2) kamil varlıq. İlk zamanlar yalnız buddizmin banisi (*Budda Şakyamuni*) B. adlanırdı, sonralar digər B.-lar haqqında da ideya meydana gəldi. *Tipitakanın* erkən mətnlərində Şakyamunidən əvvəlki B.-lar qeyd olunur: Dipankara (əsatirə görə, onun zamanında Şakyamuni B. olmaq qərarına gəlmişdi), Krakuçhanda (pali dilində – Kakusandha), Kanakamuni (Konaqamana) və Kaşyapa (Kassapa). Pali abidələrinin birində 24 B.-nın adı çəkilir. Şakyamunidən sonra *Maytreyanın* – gələcək dünya düzəni B.-sının zühur edəcəyi haqqında ideya da çox erkən vaxtlarda formalaşmışdır.

Ənənəvi buddizmə (hinayana) görə, B. özünün əvvəlki mövcudluqlarında *bodhisatva* olmalıdır; bundan sonra böyük ərənlərə xas 32 əlamətə malik insan görkəmində dünyaya gəlmişdir; *nirvanaya* çatandan sonra B. dünya dövrünün (*kalpa*) sonunadək yaşaya bilər: B.-nın əsas vəzifəsi *dharmanı* vəz etməkdir. Bununla o özünün nicatı ilə kifayətlənən pratyekabuddadan, yaxud "özü üçün Budda"dan fərqlənir. B. Şakyamuni nirvanaya çatandan sonra bütün varlıq planlarından yox olacağını elan etsə də, ənənəvi buddizmin bəzi məktəblərində B. dharmanı vəz etmək üçün yalnız müvəqqəti olaraq insan şəklində təcəlla edən, dünya fövqündəki əbədi mahiyyət (lokottara) kimi nəzərdən keçirilir.

B.-nın metafizik konsepsiyasının yaradılması prosesinin inkişafı *mahayanada* davam edir; burada "Budda təbiəti" əzəldən hər bir canlı varlığa xas olan və onun ruhi kamilliyə çatması potensiyasını təşkil edən mövcudluğunun ali prinsipi kimi nəzərdən keçirilir. Bu proses "Buddanın üç vücudu" konsepsiyasında öz bütövlüyünə çatır. Mahayanada B.-ların sayı sonsuzluğa qədər artır, lakin əsas rolu *Amitabha* və *Vayroçana* oynayır (xüsusilə Uzaq Şərq buddizmində). Hesab edilir ki, saysız-hesabsız aləmlərin hər birində öz buddakşetraları ("torpaqları") ilə birlikdə saysız-hesabsız B.-lar meydana gəlir. B.-lar dharmanı vəz edərək, həm özlərinin buddakşetralarında, həm də digərlərində möminlərə yardım göstərərək əbədi yaşayırlar.

*Vacrayanada* da B.-ların sayı sonsuzdur, lakin dini mərasim təcrübəsində, əsasən, 5 dhyani-B. (hərfi mənası – seyretmə B.-sı) və onlara uyğun 5 yer B.-sı (Vayroçana, Akşobhya, Ratnasambhava, Amitabha, Amoqhasiddha) istifadə olunur. Bütün B.-ların mənbəyi olan *Adi-Budda* (ilkin B.) ideyası inkişaf etdirilir. Vacrayana panteonunun digər personajları kimi, dhyani-B.-lar da yalnız meditasiya zamanı mövcuddur.

Vişnuizmdə B.-nı Vişnu allahın avatarası (sanskritcə avatara; hərfi mənası – zühur, allahın yerdə təcəssümü) hesab edirlər.

**BUDDA MƏKTƏBLƏRİ** – *buddizmdə* ruhani təhsil institutu. Buddizmin dini-fəlsəfi təlim kimi yayılması (e.ə. 6–5 əsrlər, Hindistan) ilə, əsasən, monastırlarda meydana gəlmişdi. Müxtəlif dövrlərdə Cənubi və Cənub-Şərqi Asiyada, Uzaq Şərqdə (Hindistan, Çin, Koreya, Yaponiya və s.) geniş yayılmış, bir çox ölkədə ilk təhsil müəssisələri olmuşdur. B. m. qədim və orta əsrlər Asiya cəmiyyətlərində mühüm rol oynamışdı; hesab olunurdu ki, Budda təliminin həqiqi dərki və mənimsənilməsi məhz bir sıra kanonik kitabların mütaliəsi ilə mümkündür. B. m.-ndə tədris iyerarxiyalaşmış və məzmununa görə fərqləndirilmişdi. Minimum fənlərlə (əlifba, qrammatika, kanonik kitabların öyrənilməsi, hesab və s.) yanaşı, adi insanların və gələcək rahiblərin təhsilində əhəmiyyətli fərqlər mövcud idi. Ruhani təhsil şagirdlərin pillə-pillə ən mürəkkəb teoloji-fəlsəfi əsərlərin mütaliəsinədək "yüksəlməsi" kimi nəzərdən keçirilirdi. Monastırın statusundan asılı olaraq, onun nəzdində ibtidai və ali B. m. fəaliyyət göstərirdi. Məktəblərə 5–8 yaşlı uşaqlar zümrə-silk mənsubiyyətləri nəzərə alınmadan qəbul edilirdi; tədris 15–25 yaşa qədər davam edir və yerli dillərdə aparılırdı. Pedaqoji təsirin və müəllimlə şagird arasında qarşılıqlı fəaliyyətin çoxsaylı üsulları, o cümlədən paradokslar (koanlar) əsasında qurulan məntiqi idrak məsələləri, meditasiya istifadə olunurdu.

Buddizmin yayıldığı ölkələrdə B. m. modifikasiya olunmuş şəkildə 21 əsrdə də mövcuddur.

**BÚDDA ŞAKYAMÚNİ** [hərfi mənası – Şakyalardan (nəslindən) olan aydınlanmış tərki-dünya; sanskritcə buddha – ziyalanmış, aydınlanmış; muni – tərki-dünya, zahid]; həmçinin B h a q a v a n ("Allahın xeyir-dua verdiyi"), T a t h a q a t a ("Belə getmiş") – Siddhartha Qautama, buddizmin banisi, qarşıdan gələn *Maytreya* öncəsi sonuncu budda, buddizm dini təliminin əsasını – *Dharmanı* vəz edən. B. Ş.-nin doğum, dini ziyalanma, yaxud daha dəqiqi, aydınlanma (*bodhi*) və ölüm (parinirvana) tarixləri müxtəlif buddist ənənələrində fərqlidir: sinqal "uzun" xronikalarına əsasən, B.Ş. e. ə. 624, yaxud 623 ildə doğulmuş və parinirvanaya e. ə. 544, yaxud 543 ildə çatmışdır (YUNESKO tərəfindən rəsmən tanınan bu tarixə əsasən 1956 ildə buddizmin 2500-illiyi qeyd olunmuşdur); "qısa" xronikalara əsaslanan yapon buddistlərinin versiyasına görə, B. Ş. e. ə. 448 – 368 illərdə yaşamışdır; digər tarixlər də məlumdur: təqr. e. ə. 566, yaxud 563 – e. ə. 486, yaxud 483 və təqr. e. ə. 460 – 380 illər. Pali Sutta-pitakasında (bax *Tipitaka*) B. Ş.-nin həyatı "ziyalanmaya" çatdıqdan sonra öz təlimini yaymağa başladığı zamandan təsvir olunur. Suttalarda onun vaizlik etdiyi yerlər (173 yaşayış məntəqəsinin, o cümlədən 10 şəhərin adı çəkilir), dinləyiciləri və həmsöhbətləri haqqında məlumatlar var. B. Ş.-nin həyatının müfəssəl təsvirləri sonralar meydana gəlmişdir. Onlardan ən məşhurları "Lalitavistara", "Buddhaçarita", "Mahavastu", "Nidana-katha" və s.-dir; "Mahapari-nirvana-sutra"da B. Ş.-nin həyatının son ayları və ölümü haqqında məlumatlar vardır.

Ənənəyə əsasən, B. Ş. vesakha ayında, çar ailəsində, şakyalar tayfasının ölkəsində (Şm. Hindistan), onların paytaxtı Kapilavastu (pali dilində Kapilavatthu) yaxınlığında, meşədə, yaxud Lumbini parkında doğulmuşdur. B. Ş.-nin atası Şuddhodana, anası Mayyadeva idi. O, anadangəlmə "böyük insan əlamətləri"nə (mahapuruşalakşana) malik olmuş və brahmalar onun ya budda, ya da ideal ədalətli çar (çakravartin) olacağını əvvəlcədən xəbər vermişdilər. B. Ş.-nin atası ikinci yolu seçərək, oğluna dünyəvi təhsil vermiş və onu həyatın bütün çətinliklərindən uzaq tutmuşdu. B. Ş. onun üçün tikilmiş sarayda 29 yaşına qədər qalaraq, çar qızı Yaşodhara ilə evlənmiş və onların Rahula adlı oğulları dünyaya gəlmişdir. Ənənəyə görə, bir dəfə (bəzi mənbələrə əsasən, ardıcıl olaraq üç və ya dörd dəfə





saraydan çıxdığı zaman) Kapilavastu küçələrində B.Ş. 4 rəmzi işarə görmüş və onlardan 3-ü (qoca, cüzamlı, dəfn mərasimi) ona *sansaranın* (bir mövcudluqdan digərinə keçidlə və yenidəndoğulmalar silsiləsi ilə bağlı olan varlıq) qeyri-sabitliyini, 4-cüsü isə nicat yolunu göstərmişdir. Bundan sonra B. Ş. sarayı tərk etmiş və 6 ilini tərki-dünya zahidlərin zaviyələrində keçirmiş (onun əsas müəllimləri Alara Kalama və Udraki Ramaputra idi), nəhayət, özü nicat yolunu axtarmağa başlamışdır. Yoldançıxaran Maranın üzərində qələbə çalan, kamilliyə yetişmək məqsədilə *bodhi* ağacı altında oturmasının 49-cu günündə aydınlanma (bodhi) səviyyəsinə çatan B. Ş. 35 yaşında budda olmuşdur. Nəticədə o, dərk etmişdir ki, varlıq – əzabdır, doğum ilə ölümün fasiləsiz növbələşməsidir və bundan qurtulmaq mümkündür; o, hər şeydən hali olmuş və sansaradan nicat (mokşa) tapmışdır; ifrat həzz ilə ifrat özünəəzab arasından keçən nicatın Orta Yolunu vəz edərək, o bu dünyada yalnız canlıların əzablarına şərik olmaq (karuna) üçün qalmışdır; o, hər hansı istəkdən xali olaraq nirvanaya doğru gedir.

B. Ş. həyatının sonrakı 45 ilində Qanq çayının orta axarı boyunca yerləşən dövlətlərin şəhərlərində Dharma təlimini yaymışdır. İlk moizəsini o, Varanasi yaxınlığında, sonuncusunu isə Kuşinaqarda etmişdir. B. Ş.-nin şagirdlərindən çoxu (Şariputra, Maudqalyayana, Kaşyapa, Subhuti və b.) *arhat* olmuşlar. B. Ş. 80 yaşında parinirvanaya getmişdir, bu isə onun bütün varlıq planlarından tam yox olması demək idi. Lakin hələ erkən buddist icmalarından bəziləri B. Ş.-ni hansısa fövqəldünya əbədi mahiyyət (lokottara) kimi təqdim etməyə çalışırdı; *mahayana* inkişaf etdikcə onu "diriltməyə" ehtiyac yaranır. Elan olunur ki, B. Ş. parinirvanaya getməsini yalnız "pedaqoji" məqsədlərlə – davamçıların, onun köməyinə arxalanaraq fəaliyyətsiz qalmamaları üçün söyləmişdir. Həqiqətdə isə o, əbədidir və zərurət yarandıqda özünün üç vücudundan (Trikaya) birində zühur edəcəkdir.

B. Ş.-nin ilk antropomorf təsvirləri e.ə. 1 əsrdə Hindistanın şm.-q.-ində (Qandharada və Mathurada) yaradılmışdır; ilkin rəmzləri təkər, *stupa*, bodhi ağac, həmçinin ayaq izləri olmuşdur. B. Ş.-nin təsviri üçün qəbul edilmiş ikonoqrafik tiplər təsviri sənətin bütün növləri (heykəltəraşlıq, relyef, rəngkarlıq) üçün eynidir. B. Ş.-nin təsvirləri, üzərində "böyük insanın əlamətləri" (Siddhartha Qautamanı fərqləndirən) həkk olunmuş hansısa mifik orijinalın (guya naturadan çəkilmiş) surətləri hesab olunurdu. Bu əlamətlərin məcmusu lakşan kanonunu (Buddanın 32 əlaməti kanonu) təşkil etmiş və ora 32 əsas və 80 kiçik işarə, o cümlədən urna (alnında kiçik xal-ləkə), uşnişa (başında çıxıntı), çakra (topuğunda və biləyində təkər), incə barmaqları olan uzun əllər, düz mütənasib bədən, enli çiyinlər, qızılı hamar dəri və s. daxildir. B. Ş. ikonoqrafiyasının lakşan kanonunda meydana gəlmiş bəzi fərqləndirici cəhətləri onun həyat təsvirlərindən götürülmüşdür: qulağının uzun ucları (bütün əyanlar kimi ağır sırğalar gəzdirən Siddhartha Qautamanın nəcib mənşəyinin işarəsi), başının qısa kəsilmiş saçları (onun tərki-dünya olarkən, saçkəsmə mərasimini yerinə yetirməsini xatırladan işarə) və s.



Budda Şakyamuni. 5 əsr. Sarnatxa (Hindistan).

**BUDDİZM** – e. ə. 1-ci minilliyin ortalarında Hindistanda meydana gəlmiş və Budda (sanskritcə "aydınlanmış", lakin ona xitabən daha çox *Bhaqavan* – "Allahın xeyir-dua verdiyi" sözü işlədilirdi; bax *Budda Şakyamuni*) titulunu daşıyan tərki-dünya Siddhartha Qautamanın təliminə dayaqlanan ən qədim dünya dininin Avropada istifadə olunan adı. Buddistlər özlərini "bauddha" (Buddanın davamçıları), dinlərini isə "Buddha Dharma" (Buddanın Təlimi, Həqiqəti, yaxud Qanunu) adlandırırlar. B. din və fəlsəfi təlim kimi Buddanın nüfuzu, onun həyat yolunun modeli, ilk növbədə "aydınlanma" (*bodhi*) təcrübəsi əsasında formalaşmışdır; bu təcrübədə ona insanın təbiəti və onun nicatı (*nirvana*) imkanları haqqında həqiqət (*Dharma*) açılmışdır. B. özünün tarixi inkişafı gedişində Hindistandan Mərkəzi Asiyaya, Şri-Lankaya, Tibetə, Cənub-Şərqi və Şərqi Asiyaya yayılmış, 20 əsrdə isə Avropa, Amerika və Avstraliyaya nüfuz edərək, onu qəbul edən ölkələrdə mədəni və dini təsir obyektinə çevrilmiş, ciddi daxili dəyişikliyə məruz qalaraq, çox sayda müxtəlif forma almışdır. B.-i digər dünya dinlərindən fərqləndirən cəhəti – ətraf mədəni mühitə harmonik uyğunlaşmaq qabiliyyəti ona əsrlər boyu böyük təsir göstərdiyi bütün coğrafi məkanda çoxsaylı yerli inancları, kultları, xalq ayinlərini, mədəniyyətləri, ideologiyaları, ədəbi və bədii ənənələri özündə ehtiva etmək imkanı vermişdir.

B.-ə anadangəlmə mənsub olmurlar (məs., *brahmanizmdən* fərqli olaraq). B.-ə keçmək şüurlu seçimin nəticəsidir və bu zaman söylənilən "Buddaya, onun Təliminə və İcmasına sığınıram" formulundakı "üç sığınacağın" (yaxud "üç cavahiratın") adı müxtəlif tarixi dövrlərdə müxtəlif məzmun daşımışdır: Budda – tarixi Budda Şakyamunidən *mahayana* və *vacrayananın* çoxsaylı buddalarına qədər; Dharma – psixologiya və praktiki əxlaqa söykənən nicat haqqında təlimdən öz panteonu, mürəkkəb mərasimi və müxtəlif dini-fəlsəfi doktrinaları olan universal dinə qədər; Sanqha – sərgərdan tərki-dünyaların kiçik qrupundan dünyanın müxtəlif ölkələrinə yayılmış çoxsaylı ardıcıllara (rahiblərə və adi insanlara) qədər.

**Buddizmin yaranması və yayılması.** B. Hindistanın şm.-ş.-ində şramanlar (öz ruhi axtarışlarını brahmanların dini dəyərlər sisteminə qarşı qoyan sərgərdan tərki-dünyalar) mühitində, harizmatik liderlər ətrafında formalaşmış və həm adi insanlar, həm də əyanlar arasında ardıcılları olan zahid icmalarından biri kimi meydana gəlmişdir (bax həmçinin *Caynizm*). Şraman hərəkatı yekcins olmasa da, onun üzvlərini bir sıra ümumi ideyalar birləşdirirdi: 1) veda mərasiminin təsir qüvvəsinə və *Vedaların* mətnlərinin müqəddəsliyinə şübhə; 2) kahin-brahmanların hakim mövqe tutduğu zümrə iyerarxiyasını (*varnanı*) qəbuletməmə; 3) şəxssiz əxlaq qanunu kimi *karmaya*, yenidəndoğulmalar silsiləsi kimi *sansaraya* inam; 4) yalnız cəmiyyət xaricində, sərgərdan həyat tərzi sürməklə, zor işlətməməklə (*ahimsa*), zahid kimi özünüməhdudlaşdırma, *yoqa* və *meditasiya* ilə məşğul ol-

maqla əzablardan qurtulmağın (*mokşa*, nirvana) mümkünlüyünə inam. Buddanın bir çox davamçısı mənşəcə brahma zümrəsinə mənsub olsa da, B. bütünlükdə şraman hərəkatından doğulmuş və brahmanizm anlayışlarından (karma, dharma, *brahman*, *atman* və s.) geniş istifadə etməklə onları öz məzmunu ilə dolğunlaşdırmışdır. Sonralar B.-in və brahmanizmin (və onun sonrakı forması olan hinduizmin) tərəfdarları daim öz aralarında polemika aparmış, eyni zamanda bir-birilərini ideya və metodlarla (xüsusilə fəlsəfə sahəsində) zənginləşdirmişlər.

B. ənənəsi öz tarixini Buddanın e. ə. 543 ildə baş vermiş parinirvanasından ("tam nirvana"sından, yaxud yerdəki həyatının sonundan) başlayır (bu tarixə, onun YUNESKO tərəfindən qəbul edilməsinə və 1956 ildə B.-in 2500-illiyinin keçirilməsinə baxmayaraq, şərti yanaşmaq lazımdır). Budda Şakyamuninin həyatı və erkən buddist icması haqqında cüzi məlumatlar çar *Aşokanın* ediktlərindən, arxeoloji tapıntılardan və İlk müəllimin ölümündən ən azı beş əsr sonra yaradılmış mətnlərdən əldə edilmişdir. Rahiblərin yalnız Dharmaya və rahib intizamı qaydalarına əsaslanmalı olduğunu hesab edən Budda özündən sonra varis təyin etməmişdi; bu səbəbdən onun ölümündən sonra rahiblər üçün ən nüfuzlu instansiya müxtəlif icma nümayəndələrinin bütün təşkilati və doktrinal məsələləri birgə həll etdikləri buddist dini məclisləri olmuşdur. Həmin dini məclislərin tarixiliyini təsdiqləyən etibarlı mənbələr isə elmə məlum deyildir.

Mövcudluğunun birinci əsrində B. yarandığı yerdən (Maqadha və Koşala) Madhura (indiki Maduray) və qərbdə Udcayn da daxil olmaqla, Şimali Hindistanın böyük hissəsinə yayılmışdı. Aşokanın dövründə B. Mauryalar imperiyasının dövlət dininə çevrilmiş, onun ölümündən və brahmanizmi himayə edən Şunqlar sülaləsinin hakimiyyətə gəlişindən sonra Şri-Lankada bərqərar olmuşdu (e. ə. 3 əsr). B.-i hind-yunan çarları da dəstəkləmişdilər; bu, Menandrın buddist Naqasena ilə məşhur dialoqlarında ("Milindanın sualları") öz əksini tapmışdır. Müxtəlif etnik tərkibli imperiyalar üçün daha məqbul olan B. sonrakı 3 əsr ərzində bütün Hindistan ərazisində nüfuzlu qüvvəyə çevrilmiş, Satavahanlar sülaləsinin hakimiyyətə gəlişi ilə Mərkəzi Asiyaya keçmişdi. Kanişkanın hakimiyyəti dövründə (eramızın 1–2 əsrləri) B.-in təsiri Hindistanın şm. sərhədlərindən Mərkəzi Asiyaya qədər yayılmışdı. Həmin dövrdə Şimali Çinin ticarət mərkəzlərində də yayılmış, Cənub-Şərqi Asiya vasitəsilə Cənubi Çinə də çatmışdı. 2–9 əsrlərdə B. tədricən Cənub-Şərqi və Cənubi Asiyada, Çində bərqərar olaraq, oradan Yaponiyaya, Koreyaya, Tibetə nüfuz etmişdir. Bu dövrdə buddist monastırları eyni zamanda universitetlər, maarifçilik, elm və incəsənət mərkəzləri kimi fəaliyyət göstərən iri birliklər (mahaviharalar) təşkil edirdilər. Cənubi Hindistanda B.-i Satavahanlar sülaləsi (2–3 əsrlər) dəstəkləyirdi. 8 əsrdən etibarən Hindistan ərazisinin çox hissəsində B. tənəzzül etməyə başlasa da (xüsusilə hunların buddist monastırlarını dağıtmasından sonra), onun təsiri ölkənin şm.-ında və ş.-ində qorunub saxlanırdı. 8 əsrin ortalarından Biharda və Banqladeşdə nümayəndələri buddistlər olan Pallar sülaləsi hakimiyyətə gəldikdən sonra hakim cərəyan vacrayana, onun öyrənilməsi və praktikası mərkəzi isə Nalanda monrastırı idi. Məhz Pallar dövründə Çinlə əlaqələrin zəifləməsi səbəbindən buddistlər maraqlarını Tibetə və Cənub-Şərqi Asiyaya yönəltmişdilər.

Hindistanın elm, fəlsəfə, qrammatika, incəsənət, tibb, memarlıq sahələrində bütün nailiyyətlərini ehtiva etmiş, özünəməxsus sivilizasiya tipi yaratmış ümumasiya dini kimi, B. inkişafının ən yüksək zirvəsinə 9 əsrdə – təsirini Asiyanın böyük hissəsinə yaydığı zaman çatmışdı. Lakin bu zaman Hindistanda baş verən proseslər (hinduizmin təsirinin güclənməsi, B.-in Hindistandakı əsas dayağı olan buddist monastırlarının müsəlman fatehləri tərəfindən dağıdılması) B.-in tənəzzülünə və nəticə etibarilə 12 əsrdə bu ölkədən sıxışdırılıb çıxarılmasına şərait yaratdı. Hindistandan çıxmaqla B.-in hind formasının hegemonluq erasına son qoyuldu və yeni tarixi mərhələ – B.-in dövlət dini kimi bərqərar olduğu ölkələrin (bax Çində buddizm, Yaponiyada buddizm, Tibetdə buddizm hissələrinə) mədəniyyətləri ilə daha sıx münasibətlər qurduğu dövr başladı.

Müasir B. üç başlıca formada mövcuddur: Şri-Lankada, Myanmada (keçmiş Birma), Taylandda, Laosda və Kambocada yayılmış theravada; Tibet daxil olmaqla Çində, Vyetnamda, Yaponiyada, Koreyada və Monqolustanda, həmçinin Butanda, Sikkimdə (Hindistanın şimalı) daha çox yayılmış mahayana və ona yaxın olan vacrayana. Hindistanın özündə, Pakistanda, Filippində və İndoneziyada buddistlər əhalinin təqr. 1%-ni təşkil edir. Buddistlərin dünya üzrə ümumi sayı 300–700 mln. arasında dəyişir. Rəqəmlərdəki belə böyük fərq hesablamanın çətinlikləri ilə bağlıdır. Belə ki, B. bir tərəfdən insana əvvəlki dinini qoruyub saxlamağa imkan verir, digər tərəfdən bəzi ölkələrdə B. yerli dinlərlə (məs., Yaponiyada *sintoizmlə*, Çində *daosizmlə*) qaynayıb qarışmışdır.

**Nicat haqqında təlim.** Dünyanın digər böyük dinlərinin əsasında hər şeyi yaradan qadir Allaha inam durduğu halda, B.-ə görə, dünya heç kim tərəfindən yaradılmayıb və heç kim tərəfindən də idarə olunmur, dünyanı idarə edən hökmran-allah *İşvaraya* inam isə karma qanununun əsaslarına zərbə vurur. İnsanın nəzərini öz daxilinə, inamına deyil, daha çox şüuruna və iradəsinə yönəldən Budda təkrar edir ki, onun təliminin yeganə məqsədi yenidəndoğulmalardan xilas olmaqdır ("Mənim bütün təlimim yalnız nicat dadına malikdir"), buna isə insan Buddanın "aydınlanma" vəziyyətində aşkarladığı Yoldan istifadə edərək özünü şüurlu şəkildə dəyişməklə, şəxsi səyləri ilə nail ola bilər ("Özünüz özünüz üçün çıraq olun!"). Bu mənada B. Allahın vasitəsindən dolayı nicat dinidir. B. dünya tarixində bir insanın mənşəyinin, sosial statusunun, məşğuliyyət növünün (kasta) və, nəhayət, cinsinin onun digər insandan üstünlüyü üçün əsas olmadığını hesab edən ilk dindir (karmalarına görə insanlar bir-birindən fərqlənsələr də, onlar o mənada bərabərdirlər ki, tamamilə eyni tərzdə qurulmuşlar).

Həm rahiblər, həm də adi insanlar üçün nəzərdə tutulmuş beş davranış qaydası (pança şila: öldürmə, özgəninkini götürmə, zina etmə, yalan danışma, sərxoş olma) digər dinlərdəki ehkamlarla səsləşir. Lakin həmin qaydaları vəz edən Budda öz dinləyicilərinin vicdanına, yaxud mümkün cəza qarşısında qorxu hissinə deyil, daha çox sağlam düşüncəsinə müraciət edir və onları belə bir fikrə gətirir ki, qaydaların gözlənilməsi şəxsi və sosial harmoniya üçün daha münbit şərait yaradacaqdır. B. nöqteyi-nəzərincə, təmiz yoqa "nicat" effekti kəsb etmək üçün həm də "müdrik" olmalı, yəni özündə buddist ideyalarını (Yolun digər aspektlərini daim işıqlandıran "müdriklik mədəniyyəti") daşımalıdır. Qeyri-adi qabiliyyətləri (telepatiya, öncəgörmə və s.) inkişaf etdirmək üçün yoqa praktikasından istifadə Yoldan kənara çıxmaq kimi töhmətlənir. İnsanın fiziki və psixi sağlamlığı B.-də özlüyündə məqsəd olmayıb, yalnız müvəffəqiyyətli dini praktikanın şərtlərindən biridir; dünya və digər insanlar üzərində hökmranlığa kömək edən cəhətlərin inkişafı isə şəxsiyyətin ruhi tərəqqisinə maneə törədən özünütəsdiq kimi nəzərdən keçirilir.

**İnsan haqqında təlim.** Budda hesab edir ki, insanı nicata aparan mümkün özünüdəyişmənin mənbəyi insan təbiətinin özündədir: kainatdakı hər şey kimi, hissələrdən ibarət olan insan da dəyişməz təməldən – hazırkı həyatda və sonrakı yenidəndoğulmalarda qorunub saxlanan atmandan ("mən", ruh), müxtəlif hissələrini öz istəyinə görə idarə edən mərkəzdən, "daxili hakimdən" (*Upanişad* atmanı kimi) məhrumdur. Karma qanununun mənəvi tərəfini (insan ilk növbədə özünün düşüncələrinə və niyyətlərinə görə və yalnız bundan sonra konkret hərəkətlərinə görə məsuliyyət daşıyır) ön plana çəkən Budda qeyd edir ki, yenidəndoğulma subyekti kimi əbədi atman anlayışı mənəvi mükafat və ilk növbədə, ruhi özünükamilləşdirmənin mümkünlüyü ideyasına ziddir: dəyişməz atman "yaxşı əməlin nəticəsində böyümür və pis əməlin nəticəsində kiçilmir", çünki onun üçün "nə karma, nə də karmanın dağılması var". Lakin Budda onunla da razılaşmır ki, insanın ölümü onun mövcudluğunun tamamilə başa çatmasıdır. Budda statik varlıq olan atmanın yerinə müəyyən qaydada bir-birinin yaranmasını şərtləndirən, somatik və psixi xarakterli diskret hadisələrin – dharmaların fərdi axını şəklində olan dəyişmə prosesinin özünü qoymuşdur. Bu həm insan şəxsiyyətindəki dəyişikliklərin (mənəvi kamilləşmənin, yaxud deqradasiyanın) reallığını, həm də fərd üçün onun həyatının hər anında mənəvi əvəzin (mükafat, yaxud cəzanın) mövcudluğunu əsaslandırmalı idi.

B. təliminə görə, insan, digər hind təlimlərində olduğu kimi, əbədi ruhun fani bədənlə qovuşması deyil, öz fəaliyyətində qarşılıqlı əlaqədə olan və beş qrup (skandha) təşkil edən dinamik psixosomatik dharmalar sistemidir: rupa – bədən və hissiyyat orqanları; vedana – duyğu (xoş, xoşagəlməz və neytral); sancnya – görmə, eşitmə, dadbilmə, iybilmə, lamisə və fikir obyektlərinin qavranılması, tanınması, identikləşdirilməsi; sanskaralar – karmanın müəyyən konfiqurasiyalı fərdi dharmalar axını vasitəsilə reallaşmasını müəyyənləşdirən amillər; vicnyana – altı hissi anlam (daxili vəziyyətin dərkedilməsi də daxil olmaqla, görmə, eşitmə və s.). Bütün skandhalar vahid silsilədə birləşir və "mən"ə bağlılıqdan ibarət olan upadana (hərfi mənası – yanacaq) vasitəsilə fərd illüziyası yaradır.



Vat Arun məbədi. Banqkok (Tayland).

Kainatın silsiləvi inkişafı haqqında ənənəvi hind ideyasına tərəfdar çıxan Budda göstərir ki, burada əsas rolu ruhi amil – Kainatda məskunlaşmış varlıqların şüur səviyyəsi oynayır. Həmin varlıqlar arasında insandan əlavə, allahlar (devlər), iblislər, əcdadların ruhları, heyvanlar və s. vardır. Onların hamısı karma və sansara ilə əlaqəlidir (məs., allah şəklində yenidəndoğulma yaxşı karmanın, iblis şəklində yenidəndoğulma isə pis karmanın nəticəsidir) və bu mənada, Kainatın "təbii" quruluşunun elementləridir. Lakin bu varlıqlardan yalnız insan öz taleyini seçmək, karmasını dəyişmək və hətta yenidəndoğulmalardan tamamilə xilas olaraq, "aydınlanmaya" (bodhi) yetmək və tam nirvana əldə etmək qabiliyyətinə malikdir. Bu o deməkdir ki, allahlar və digər varlıqlar sansaradan xilas olmaq üçün əvvəlcə insan şəklində yenidən doğulmalıdırlar. Lakin insan sansaranı aşıb keçməklə insanlıq halının özünü də aşıb keçir və bu zaman heç bir digər hal qazanmır. Nirvana heç bir təsvirə gəlməyən, adi insanın yaşaya biləcəyi, yaxud hətta təsəvvür edə biləcəyi heç bir xoşbəxtliyə bənzəməyən, bütünlükdə transsendent təcrübədir (Budda adi insanların xoşbəxtliyini cüzamlı xəstənin öz yaralarını qaşıyarkən aldığı həzzlə, nirvananı – cüzamdan sağalmaqla, adi insanlarla nirvana haqqında söhbətləri isə cüzamlı xəstəyə sağlam insanların xoşbəxtliyini anlatmaq kimi əbəs cəhdlə müqayisə edir).

**Budda obrazı.** B.-in banisi özünü allah, yaxud allahın elçisi adlandırmır, o özü haqqında "əvvəllər məlum olmayan" təcrübəni – "aydınlanma" (bodhi) təcrübəsini yaşamış, reallığı olduğu kimi (yathabhutam) görmüş və bunun nəticəsində müəllimə çevrilmiş adi insan kimi danışır və daim vurğulayır ki, möminlər üçün o, Budda yox, onun aşkarladığı və öyrətdiyi Dharma əhəmiyyətlidir ("Dharmanı görənlər məni də görürlər"; "Dharma Aya, Budda isə onu göstərən barmağa bənzəyir"). Lakin B.-in sonrakı inkişafında Buddaya münasibət mühüm dəyişikliklərə uğramışdır. Erkən B.-in bəzi məktəblərində xüsusi transsendent formada mövcudluğuna davam edən Buddanın fövqəldünya təbiəti haqqında təsəvvür yaranır. Mahayanada tarixi Budda Mütləqin təzahürlərindən biri kimi nəzərdən keçirilir, digər buddaların kultları (Çin və yapon B.-ində daha çox Amitabhaya, yaxud *Vayroçanaya* sitayiş edirlər) və xüsusilə bodhisatvalar kultu meydana gəlir. Erkən buddist monastırlarında Buddanın cənazəsinə sitayiş mövcud olsa da, müqəddəs yerlər, Budda təsvirləri yox idi, lakin B.-in kult və mərasim cəhətlərinin inkişafı ilə əlaqədar relikvarilər (stupalar) başlıca buddist dini abidələrinə çevrilirdi. Buddaya həsr olunmuş rəngkarlıq, heykəltəraşlıq, həmçinin onun həyatı ilə bağlı müqəddəs yerləri ziyarət praktikası, təqvim bayramları (onlardan ən əsası – *Vesak*), həyat mərhələləri, ayin-



Bodxnatx stupası. 6 əsr. Katmandu (Nepal).

ləri və s. yaranırdı. Bununla yanaşı, yeni cərəyanlar meydana gəlirdi ki, burada istənilən kult, o cümlədən Budda kultu "aydınlanmaya" yetişmək yolunda maneə hesab olunur (adeptlərə təklif edilir ki, Buddanı çirkli əsgi parçası kimi kənara atsınlar), əsas diqqət öz üzərində "daxili" işə yönəldilirdi (*Çan, Dzen*).

**Buddizm dini təlimində vəhdət və müxtəliflik.** Müxtəlif buddist ənənələri bir-birindən ayrılsalar da, onlardan heç biri "bidət" sayılmır, çünki B.-də nə vahid kanon (cərəyanların hər birinin öz "müqəddəs ədəbiyyatı" var), nə də ehkam qüvvəsinə malik ümumi müddəalar vardır. Buddistin "etiqad rəmzi" hesab edilən "üç cavahirat", yaxud "üç sığınacaq" formulu (onu B.-i qəbul edən adi insanlar da, rahibliyə qəbul olunanlar da söyləyirlər) özündə heç bir "məzmuni" həqiqət daşımır. Dharma həm daxilindən hər şeyin "olduğu kimi" (yathabhutam) göründüyü təcrübə, həm də hər kəsin bu təcrübəni tətbiq edərək özünü sınaqdan keçirməsi üçün gərəkli olan qaydadır (üsuldur). B.-in dini təlim kimi özünəməxsusluğu ondan ibarətdir ki, o, istisnasız olaraq bütün insanlar üçün nəzərdə tutulmuş vahid və universal bir şəkildə formulə edilməmişdir. Dharma hər zaman konkret vəziyyətdə konkret insana müraciətdir. Budda üçün insanlar arasında başlıca fərq onların mənşəyi ilə deyil, onların daxilindəki ruhi potensialın açılma səviyyəsi ilə bağlıdır (mahayanada onu "Buddanın təbiəti" adlandırırlar). Buddist mətnlərdə bu, lotosların timsalında illüstrasiya olunur: həmin gül bir göldə mavi, digərində qırmızı, üçüncüsündə isə ağ rəngdədir, lakin rəngindən asılı olmayaraq (rənglər zümrələri bildirir), hər göldə heç açılmayan, yarımçıq açılan, yaxud tam açılan və suyun səthindən yuxarı qalxan güllər vardır. Canlı varlıqların ağır taleyinə şərikolma Buddanı öz dinləyicilərinin ruhi səviyyəsinə uyğun vəzetmə formalarını tapmağa sövq edir. B.-də bu taktika upaya kauşalya (buddizmə keçmək üçün "incə vasitələr") adını almışdır. Bütün varlıqlara qarşı xeyirxahlıq prinsipinin digər hind dinlərində də bəyan olunmasına baxmayaraq, məhz B. onu öz etikasının mərkəzinə çəkmişdir. Bu zaman B.-də və ilk növbədə erkən B.-də xeyirxahlıq aktiv şəkildə xeyir iş görməkdən daha çox, zərər verməmək prinsipinə istiqamətlənmişdi, bu isə mənəvi hərəkətlə müqayisədə mənəvi motivin üstün tutulmasından irəli gəlirdi.

B.-in əzəldən dinləyiciyə yönəlməsi ona böyük sayda yerli inancları assimilyasiya etməyə imkan vermişdir. Bəzən B.-in tarixi inkişafı Buddanın ilkin təliminin deqradasiyası kimi nəzərdən keçirilir. Belə baxış həm buddistlər, həm də buddoloqlar arasında mövcuddur. Lakin B.-in yayılması və inkişafı upaya kauşalyanın "Buddanın təlimi həqiqət deyil, həqiqəti əldəetmə üçün alətdir" prinsipinə tamamilə uyğundur. Odur ki, B.-in cərəyanları və məktəbləri arasında fərqlər nə qədər böyük olsa da, onların hamısı Budda Şakyamuninin yaydığı vahid bir dinin müxtəlif formalarıdır.

**Buddizmin abhidharmist məktəbləri.** Buddanın ölümündən sonrakı bir neçə əsr ərzində tək-tək sərgərdan zahidlərin birliyindən ibarət buddist icma (sanqha) daimi olaraq kənd və şəhərlərin yaxınlığındakı monastırlarda (*vihara*) yaşayan rahiblər cəmiyyətinə çevrildi. Bu, heç vaxt təsərrüfat fəaliyyəti ilə məşğul olmayan buddist rahiblərinə şəhər və kənd sakinlərinin sədəqələri hesabına yaşamaq imkanı verirdi. Rahiblər gün ərzində sədəqə toplayır və meditasiya ilə məşğul olur, eyni zamanda Budda təliminin müxtəlif aspektlərini birgə öyrənir, əsasən, qurtulmağın (nirvananın) təbiəti və qurtulmuşun statusuna (*arhat*) dair məsələləri müzakirə edirdilər. Bəzən diskussiyalara çevrilən belə müzakirələr çox vaxt yeni məktəblərin yaranmasına səbəb olurdu. Abhidharma" ("təlimin dolğunlaşması, yaxud izahı") adlanan bu diskussiyalar ilk növbədə soterioloji məqsəd daşıyırdı: təcrübənin hansı aspektlərini təbliğ etmək, hansılarının isə qarşısını almaq lazım gəldiyini buddistə göstərirdi. Abhidharma ənənəsi özünü Budda təliminin davamı kimi təqdim etsə də, onun çərçivəsində yeni doktrinalar da işlənib hazırlanmışdı. Müxtəlif məktəblərin fəlsəfi ideyaları eramızın 4 əsrində buddist filosofu Vasubandhunun yazdığı mətndə – "Abhidharmakoşa"da əksini tapmışdır.

B.-in ilk sistematik fəlsəfi təliminin – mövcudiyyətin yeganə real elementləri kimi dharmalar nəzəriyyəsinin yaranması məhz Abhidharma ilə əlaqələndirilir. Abhidharmistlər özlərinin başlıca məqsədlərini dharmaların müfəssəl təsnifatını yaratmaqda görürdülər. Onlar həmçinin hermenevtika prinsiplərini işləyib hazırlamışdılar.

Ənənəvi B.-də müqəddəs şəxs idealı mömin davranışı, askeza və meditasiya vasitəsilə özündə bütün affektləri yox etmiş və ali bilik əldə edərək həm də sansaradan xilas olmuş rahib – arhatdır.

**Mahayana.** Ayrıca cərəyan kimi mahayana təqr. eramızın əvvəllərində *Pracnyaparamita sutralarının* meydana gəlməsi ilə formalaşmışdır, onun çiçəklənmə dövrü isə eramızın 1-ci minilliyinin ortalarına təsadüf edir və Naqarcuna, *Asanqa*, Basubandhu, *Diqnaqa*, *Dharmakirti*, Çandrakirti, Şantarakşita və b.-nın fəaliyyəti ilə bağlıdır.

Budda təliminin geniş yayılması dövtələblik doğursa da, buddistlər buna özlərinin bir çox keçmiş dəyərlərinə radikal şəkildə yenidən baxmaqla cavab verdilər. Ənənəvi B.-də adi insanlar yalnız daha yaxşı yenidəndoğulmaya ümid edə bilərdilər, çünki sansaradan xilas istisnasız olaraq rahiblərin imtiyazı idi. Lakin adi insanları çox uzaq gələcəkdə nirvanaya yetişmək perspektivi əvəzində sanqhanın, sadəcə, donorları, yaxud himayəçiləri olmaq rolu artıq qane etmirdi; belə ki, bu rol onların artan təsir imkanlarına və B.-





də özlərinin də zəruri dini ehtiyaclarını (etiqad, təsəlli, həyat çətinliklərindən müdafiə) ödəmək səylərinə uyğun gəlmirdi. Buddanı təqlid edən, yəni həm sözlə, həm də şəxsi nümunələri ilə başqalarına yol göstərən ənənəvi cərəyana mənsub rahiblər ilk növbədə şəxsi xilasları üçün çalışırdılar. Mahayana tərəfdarları isə bunu "dar yol" (hinayana) hesab edərək, bütün canlı varlıqlara (maytri) münasibətdə xeyirxahlığı və dərdə şərik olmanı (karuna) önə çəkirdilər. "Eqoist" arhat idealını digərlərinin xilası üçün çalışan müqəddəs bodhisatva idealı əvəz etdi. Şəxsi nirvanalarından imtina etməklə əcr qazanan bodhisatvalar onun bir hissəsini dindarlara verirlər ki, onlar da öz növbəsində buddaların göylərdəki iqamətlərində (Təmiz torpaqlarda) yenidən doğula bilsinlər və orada tam xilasa hazırlaşsınlar. Mahayanada əsas sitayiş obyektləri olan bodhisatvalara (ən məşhurları *Avalokiteşvara, Mancuşri,* və Kşitiqarbhadır) digər buddalar (xüsusilə *Maytreya, Amitabha*, Akşobhya), həmçinin müxtəlif hind dinlərinin allahları və ilahələri də əlavə olunur. Beləliklə, rahiblər üçün sotserioloji təlim olan B. öz panteonu, kultu və fəlsəfi doktrinası olan universal dinə çevrildi.

Mahayananın tantrizm praktikası ilə birləşməsi 7 əsrdə onun tərkibindən vacrayananın – "Budda təbiətini" hazırkı həyat gedişində ani olaraq (ildırım kimi) reallaşdırmaq prinsipini çoxsaylı yenidəndoğulmalar ərzində tədricən öyrənmək və məziyyətləri toplamaq prinsipinə qarşı qoyan cərəyanın ayrılması ilə nəticələndi. Praktiki xarakterli mətnlərə (tantralara) dayaqlanan vacrayana 9 əsrdə, demək olar, bütün buddist dünyasında yayılsa da, əsasən, Yaponiyada (Sinqon məktəbi) və Tibetdə kök saldı, Tibetdən isə Monqolustana və Rusiyaya keçdi.

**Çində buddizm.** B.-in Çin mühitində təşəkkülü və inkişafı prosesini 4 mərhələyə ayırmaq olar: 1) B.-in hind və Mərkəzi Asiya formalarının nüfuzu (1–4 əsrlər); 2) onların Çin versiyalarının təşəkkülü, antibuddist təbliğatla mübarizə şəraitində B.-in adaptasiyası (5–6 əsrlər); 3) Çin B.-inin orijinal məktəblərinin formalaşması (6 əsrin sonu – 12 əsr); 4) Çin B.-inin sintetik formalarının dini sinkretizm çərçivəsində möhkəmlənməsi (12–13 əsrlərdən).

B. e.ə. 1 əsrin sonları – eramızın əvvəllərindən Böyük ipək yolu ilə Mərkəzi Asiya dövlətlərindən Çinə gələn tacirlər vasitəsilə bu ölkəyə nüfuz etməyə başlamışdı. Sonralar B.-i vəz edənlər ölkəyə c.-dan dəniz yolu ilə də gəlirdilər. Ənənəyə görə, B.-in ilk mərkəzi Son Xan imperiyasının paytaxtı Loyan yaxınlığındakı Bayması monastırı hesab olunur. 2 əsrin əvvəllərində tərtib olunan "42 maddə sutrası" buddist təliminin əsaslarını Çin dilində ilk dəfə şərh etmək cəhdi idi. 148 ildə Loyana gəlmiş və bir qrup çinli köməkçisi ilə 30-a yaxın buddist əsərini Çin dilinə tərcümə etmiş parfiyalı rahib An Şiqao Çində B.-in banisi sayılır. Artıq 165 ildə imperator Xuan-di Lao-tszı ilə yanaşı, Buddaya da qurban mərasimi qursa da, B. yalnız 4 əsrdə ölkənin hakim dairələrinin rəğbətini qazandı. İlkin dövrdə B. Çində *daosizmin* formalarından biri kimi qəbul edilirdi. B.-in Çində ilk apologetləri tərəfindən yaradıldığı ehtimal edilən "barbarların maariflənməsi haqqında" rəvayətə görə, daosizmin banisi Lao-tszı Qərbə getmiş və Hindistanda həm Buddanın müəllimi, həm də B.-in əsl yaradıcısı olmuşdur. Daosizmlə yaxınlaşma budda sutralarının Çin dilinə ilk tərcümələrində öz əksini tapmışdır: burada hind terminləri çox vaxt dao fəlsəfəsinin bu və ya digər anlayışı vasitəsilə verilirdi; məs., bodhi ("aydınlanma") *dao* (yol), nirvana isə *uvey* (etməmək) terminləri ilə bildirilirdi. Missioner fəaliyyəti və dini mətnlərə şərhlər verməklə məşğul olmuş, nümunəvi monastır nizamnaməsini yaratmış, erkən orta əsrlər Çinində ən geniş yayılmış buddalardan biri Maytreyanın kultunu tətbiq etmiş, həmçinin bütün buddist rahiblərə Şi soyadının (Buddanın mənsub olduğu Şakya nəslinin adından) verilməsi adətinin əsasını qoymuş rahib Daoan (312–385) Çin B.-inin inkişafına xüsusi töhfə vermişdir. Daoanın təlimində boşluq (şunyata) anlayışı Çinin qeyri-varlıq/yoxluq(u) – formalaşmayan potensial varlıq konsepsiyasının analoqu kimi çıxış edir. Daoanın şagirdi rahib Hueyyuan (334–416) Uzaq Şərqdə ən geniş yayılmış buddist allahı – budda Amitabhanın kultunun əsasını qoymuşdur.

B.-in ən görkəmli vaizlərindən və tərcüməçilərindən biri olmuş hind rahibi *Kumaraciva* (5 əsrin əvvəlləri) buddist kanonunun müfəssəl mənimsənilməsinin və B.-in Çin fəlsəfi fikir ənənələrindən daha qəti ayrılmasının əsasını qoymuşdur.

6 əsrin əvvəllərində B. Çində faktiki olaraq dövlət dininə çevrilməkdə idi. Bu zaman o, ənənəvi Çin təlimləri olan konfusiçiliyi və daosizmi sıxışdırmadan onlarla birlikdə "üç təlim" (san szyao) sinkretik kompleksini əmələ gətirmişdi.

B.-in Çin fəlsəfi düşüncəsi ilə qarşılıqlı əlaqəsi Çində buddist fəlsəfəsinin əhəmiyyətli transformasiyası ilə nəticələndi. Bu, artıq 5–6 əsrlərdə, B. nümayəndələrinin ənənəvi Çin təlimləri tərəfdarları ilə polemikası gedişində üzə çıxdı. Diskussiyaların özəyi "qəlbin (ruhun) məhvedilməzliyi" (şen bu me) problemi idi. Ölümdən sonra ruhi "mən"in fərdi psixosomatik vəhdət xaricində mövcudiyyəti fikrini inkar edən konfusiçi mütəfəkkirlər "ruhun məhvedilməzliyi" haqqında tezisi etirazla qarşıladılar. "Boşluq" (şunyata) substansional səciyyə kəsb etdi və "formalaşmış" əşyalar dünyasından əvvəl gələn "formalaşmayan varlıq" kimi nəzərdən keçirildi. Dharmakaya ("Qanunun cismi") aspektində Budda substansiya və bütün mövcudatın əsası, dünyanın mənbəyi və son məqsədi kimi dərk edilməyə başladı.

6 əsrin sonu – 7 əsrin əvvəllərində qısa müddət ərzində bilavasitə Çin B.-inin əsas məktəbləri formalaşdı və onlar Uzaq Şərqdə buddist ənənəsinin özünəməxsusluğunu müəyyənləşdirdi. Onları üç əsas qrupa ayırmaq olar:

1) hind şastralarından birinə əsaslanan və daha çox fəlsəfi problematika ilə məşğul olan "traktat məktəbləri" (lun-szun): Szıszan (549–623) tərəfindən yaradılan və madhyamika doktrinasını (ilk növbədə, "boşluq" haqqında) inkişaf etdirən Sanlun-szun ("üç traktat məktəbi"); baniləri Syuanszan (602–664) və onun şagirdi Kuyszi (632–692) olan və vicnyanavada (yoqaçara) ənənəsinə dayaqlanan Fasyan-szun ("dharma xassələri məktəbi");

2) ənənənin Buddaya aid etdiyi bu və ya digər mətn əsasında yaradılmış "sutra məktəbləri" (szin-szun). Bura hind analoqları olmayan məktəblərdən əsas kanonik mətni *Lotos sutrası* olan Tyantay-szun ("Tyan dağı məktəbi" – məktəbin əsas monastırının yerləşdiyi dağın adından) və hind "Avatamsaka-sutra"sına ("Çiçək hörüyü sutrası", çincə – "Xuayan szin") əsaslanan Xuayan-szun aiddir. Rahib Çjii (538–597) tərəfindən yaradılan Tyantay-szun məktəbi buddist fəlsəfi fikrinin hərtərəfli sintezinə çalışır və canlı kimi qəbul edilən, həm də cansız sayılan bütün mövcudatda "Budda təbiəti"nin olması fikrini müdafiə edirdi;

3) əsasən, psixotexnikaya, meditasiyaya və yoqaya diqqəti yönəldən "dhyana məktəbləri" (çan-szun; sanskritcə dhyana – seyrçilik, meditasiya): rəvayətə görə, hind vaizi Bodhidharma (çincə – Damo)



Lunmen dağlarında (Çin) Budda mağara məbədləri (5 əsr).

tərəfindən yaradılan Çan məktəbi; 8 əsrdən başlayaraq Çində tantrik B.-i (vacrayana, çincə – szinqan çen) təmsil edən "həqiqi sözlər", yaxud "mantralar məktəbi"; rahib intizamı məsələlərinin işlənib hazırlanması ilə məşğul olan "nizamnamə məktəbi" (Lyuy-szun). Çin B.-ində indiyədək nüfuzunu qoruyub saxlayan və buddist cənnəti "Təmiz torpağın" hökmdarı, budda Amitabhaya etiqad vasitəsilə nicat tapmağı bəyan edən Szintu – *Təmiz torpaq məktəbi* xüsusi yerə malikdir.

B. uzun müddət imperator sarayının himayəsində olsa da, 845 ildə imperator U-szun sanqha icmasının iqtisadi müstəqilliyini sarsıtmaq və onun sayını azaltmaq məqsədilə B.-ə qarşı sərt təzyiqlərə başladı. Hökumət repressiyaları nəticəsində sanqha tədricən tənəzzül etdi və hakimiyyətin sərt nəzarəti altına keçərək, dövlət siyasəti alətinə çevrildi. Eyni zamanda B. Çin dini sinkretizminin təşəkkülünə əhəmiyyətli təsir göstərməklə, xalq dini ilə, demək olar ki, qaynayıb qarışmışdı.

B. Çin fəlsəfəsi, ədəbiyyatı və incəsənətinə güclü təsir göstərmişdir. Buddistlər Çini hind məntiqi, riyaziyyatı, astronomiyası, təbabəti ilə tanış etmişlər. Bir çox yazıçı və şair (Se Linyun, Van Vey, Li Bo, U Çenyen və b.) buddist ideyalarından ilham almışlar.

B. Çindən Uzaq Şərqin digər ölkələrinə – Koreyaya, Yaponiyaya və Vyetnama yayıldı. 19 əsrin sonu – 20 əsrin əvvəllərində B.-də yeniləşmə hərəkatı başladı. Çinin müxtəlif şəhər və əyalətlərində yeni tipli budda məktəbləri və rahib assosiasiyaları meydana gəldi. 1949 ildə ÇXR yarandıqdan sonra Çin buddistlərinin vicdan azadlığına təminat verildi. Bununla yanaşı, buddist monastırlarının torpaq sahələri müsadirə olundu, bir çox rahib və rahibələr dünyəvi həyata qaytarıldı. 1953 ilin mayında ÇXR-də Çin Buddist Assosiasiyası yaradıldı; o, 1950-ci illərin sonunda 500 min rahib və 100 mln. dindarı sıralarında birləşdirirdi. 1966 ildə "mədəni inqilab"ın başlaması ilə Çində bütün buddist məbədləri və monastırları bağlandı, rahiblər isə "yenidən tərbiyələnməyə" göndərildilər. 1980 ildə Çin Buddist Assosiasiyası yenidən rəsmən fəaliyyətə başladı, sonrakı illərdə ən böyük buddist monastırları bərpa olundu, Buddist akademiyası, bir sıra monastır məktəbləri açıldı. Çin B.-inin ənənəvi məktəbləri arasında doktrinal və digər fərqlər faktiki olaraq silinmişdir və o, Tibet və "tay" (theravada) ənənəsindən fərqlənən vahid "Xan", yəni bilavasitə Çin buddist ənənəsi kimi nəzərdən keçirilir.

**Yaponiyada buddizm.** Yaponiyada B.-in meydana gəlməsini ənənəvi olaraq 552 il ilə bağlasalar da, müasir tədqiqatçılar daha erkən tarixi – 538 ili göstərməyə üstünlük verirlər. B. onun əleyhdarları – nüfuzlu Nakatomi və Mononobe nəsilləri ilə tərəfdarları – sonda qalib gələn Soqa nəsli arasında gedən mübarizə şəraitində bərqərar olmuşdur. B.-in yayılmasında şahzadə Syotoku Taysi (574–622) böyük rol oynamışdır; o konfusiçi və buddist təlimləri elementləri ilə sinto milli dinini özündə birləşdirən ilk yapon yazılı abidəsi – "17 maddədə nəsihətlər" əsərinin müəllifidir. Üç buddist sutrasının, o cümlədən Lotos sutrasının Yaponiyada ilk şərhinin müəllifliyini də ona aid edirlər. İmperator Syomu (724–749) zamanında B. dövlət dini kimi qəbul edildi.

B. ilkin olaraq sinto dininin stereotipləri çərçivəsində dövləti müdafiə edən və xəstəliklərdən qoruyan xüsusi magiya forması kimi qavranılırdı. Buddist fəlsəfi fikrinin təşəkkülündə başlanğıc mərhələ olan Nara dövründə (710–794) fəaliyyəti monastır divarları daxilində B.-in sxolastik öyrənilməsi ilə məhdudlaşan və yalnız aristokratiya arasında az sayda ardıcılları olan altı məktəb var idi. Yaponiyaya keçən ilk buddist məktəbi Sanron-syu (onun Çin proobrazı – Sanlun-zun) oldu. Xosso-syu məktəbi Çində Syuanszandan dərs almış rahib Dosyo tərəfindən 657 ildə yaradıldı. Yaponiyaya 660 ildə rahib Titsu tərəfindən Çindən gətirilmiş Kusya-syu (çincə – Szyuyşelun-szun) məktəbi hinayana B.-inə aid idi və əsas diqqətini Vasubandhunun "Abhidharma-koşa" ("Kusya-ron") traktatının öyrənilməsinə yönəldirdi. Dzyodzitsu-syu məktəbi 673 ildə Sanronun qolu kimi meydana gəldi. Yaponiyaya 674 ildə gəlmiş çinli rahib Szyançjen tərəfindən yaradılan Rissyu-syu məktəbində (çincə –Lyuy-szun) əsas diqqət rahib intizamı məcəlləsi (Vinaya) ehkamlarına praktiki riayət olunmasına yönəldirdi. Çinli rahib Daosyuan tərəfindən 736 ildə gətirilən Keqon-syu (çincə – Xuayan-szun) məktəbinin təlimi "Avatamsaka-sutra"ya ("Keqon-qyo") əsaslanırdı.

Xeyan dövründə (794–1192) heç bir hind analoqu olmayan, 8–12 əsrlərdə yapon fəlsəfi fikrinin inkişaf istiqamətini müəyyənləşdirən, Yaponiya üçün yeni olan iki mahayanist məktəb – Tenday-syu (çincə – Tyantay-szun) və Sinqon-syu (çincə – Çjenyan-szun) ən çox nüfuz qazanmışdı. Tenday məktəbinin ilk patriarxı Saytyo (767–822) Lotos sutrasına əsaslanırdı. Sinqon məktəbi [banisi *Kukay* (Kobo Daysi)] Tendayın qolu olan Taymitsu məktəbi ilə birlikdə "gizli" təlim (yaponca – mikkyo) statusuna malik tantrik B.-in (vacrayana) dəyişdirilmiş yapon variantı idi. Nara dövrünün məşhur hind və Çin məktəblərinin çoxundan fərqli olaraq, Sinqon və Tenday istisnasız bütün varlıqların mövcud olduqları cisimlərində (yaponca – sokusin) bu dünyada və bu həyatda Budda vəziyyətinə yetişməsinin (yaponca – sokusin dzyobutsu) mümkünlüyünü təbliğ edirdilər.





"Ölkə torpağı"nın xilası, yəni ayrıca insanda olduğu kimi, dövlətdə də "Budda dünyası"nın aşkarlanması ideyası millətin qorunması və müdafiəsi doktrinasının yaradıcısı Saytyoya məxsusdur. Sinqonun digər ideoloqları da dövləti xilas olunmalı obyektlər cərgəsinə daxil edirdilər. B.-in siyasiləşdirilməsi Tenday və Sinqon məktəblərini öz Çin prototiplərindən fərqləndirən səciyyəvi cəhətlərdən idi.

Yapon B.-inin çiçəklənmə dövrü – Kamakura mərhələsi (1192–1333) kontinental analoqları ilə əlaqəsi olmayan ən orijinal təlimlərin yaranması ilə əlamətdar idi. Bu mərhələnin buddist məktəbləri "islahatçı" məktəblər adlanır, çünki dini təcrübənin ənənəvi formalarını daha sadə formalar əvəzlədi. 12 əsrin sonlarından B. kütləvi dinə və yapon cəmiyyətinin ruhi həyatında müəyyənləşdirici amilə çevrildi. Xeyan dövrü B.-ində mütləq varlığın metafizik konstruksiyalarını yaratmaq səyləri, Kamakura dövrü B.-ində isə nicat problematikası üstünlük təşkil edirdi. Yeni tipli B.-in parlaq nümayəndəsi Xokke-syunun ("Dharma çiçəyi məktəbi") yaradıcısı *Nitiren* olmuşdur. Tenday məktəbinin ehkamlarına dayaqlanan Nitiren, Sayyonun ardınca dini və siyasi həyatın eyniləşdirilməsi əsasında teokratik buddist dövləti modelini qurmuşdu: insan və dövlət qarşılıqlı əlaqədə olan qurtuluş obyekti kimi nəzərdən keçirilirdi. Kamakura mərhələsində *amidaizm* məktəbləri geniş yayılmışdı. Onlar "kənar qüvvə"nin (yaponca – tariki), yəni budda Amida qüvvəsinin köməyi ilə nicat haqqında təlimi ön plana çəkirdilər; bu zaman Amidanın xilasedici qüvvəsinə və mərhəmətinə inamdan (sindzin) savayı başqa şəxsi səylər tələb olunmurdu.

*Dzenin* (çincə – Çan) yaranması Çində təhsil almış və Yaponiyaya qayıtdıqdan sonra 1191 ildə Rindzay (çincə – Linszi-szun) məktəbinin əsasını qoymuş Mean Eysayın (1141–1215) fəaliyyəti ilə bağlıdır. Dzenin digər cərəyanı – Soto (çincə – Saodun) məktəbinin patriarxı orta əsrlər Yaponiyasının ən orijinal buddist mütəfəkkiri sayılan *Dogen* (13 əsrin 1-ci yarısı) olmuşdur.

Dövrünün siyasi təbəddülatlarında fəal iştirak edən B. 13–15 əsrlərdə öz təsir dairəsini genişləndirdi. Yalnız 16 əsrin sonlarında ölkəni birləşdirənlərin – Oda Nobunaqa (1534–82) və Toyotomi Xideyosinin (1536–98) fəaliyyətləri nəticəsində böyük buddist monastırlarının iqtisadi gücü sarsıldı və onlar əvvəlki imtiyazlarını itirdi.



Böyük Budda. 1252 il. Kamakura (Yaponiya).

Tokuqava dövründə (1603–1867) neokonfusiçilik ideyaları təsirinin artması ilə buddist məktəbləri daxilində fəlsəfi konsepsiyalara fəal şəkildə yenidən baxılması prosesi gedirdi. Bu dövrdə Dzenin bir çox vaizləri əsərlərində və moizələrində Çin dilindən deyil, yapon dilindən istifadə etməyə başladılar. Eyni zamanda yapon B.-ində sinkretizm meyilləri gücləndi, konfusiçiliyə, sintoizmə müraciətlər artdı.

21 əsrin əvvəllərində Yaponiya əhalisinin böyük əksəriyyəti rəsmən B. tərəfdarları hesab edilsə də, yaponlar dinə, əsasən, formal səviyyədə, ilk növbədə ənənənin bir hissəsi kimi yanaşırlar. Bununla belə, B.-in 6 əsrdən başlayaraq meydana gəlmiş ənənəvi məktəbləri ilə bərabər, əksəriyyəti Niterenin dini təlimi ilə əlaqədar olan neobuddist hərəkatlar da mövcuddur. Ənənəvi məktəblərin bütün təşkilatları 60-a yaxın müxtəlif qrupu birləşdirən Ümumyapon buddist assosiasiyasına daxildir. İkinci dünya müharibəsindən sonra yapon vaizlərinin xaricdə, xüsusilə ABŞ-da və Qərbi Avropada missioner fəaliyyəti fəallaşmışdır.

**Tibetdə buddizm** mahayana, vacrayana və *bon* dininin sintezindən ibarətdir. Tibet mütəfəkkirləri fəlsəfə sahəsində, əsasən, madhyamikaya, yoqaçara ideyalarına və "Həqiqi mövcudat bətni" (tathaqata-qarbha) haqqında təlimə dayaqlanan mürəkkəb sxolastik doktrinalar yaradırdılar. Hind monastırlarında intişar tapmış və Tibet mühitinə köçürülmüş disput institutunun digər buddist ənənələrində analoqu yox idi. Dini təcrübə sahəsində bu həyatda "aydınlanma"ya yetişmənin (*dzoqçen*) ezoterik texnikaları inkişaf etdirilirdi.

7–8 əsrlərin Tibet çarları üçün hind B.-inin qəbulu düşünülmüş siyasət idi. Bu siyasət tibetlilərin təhsil almaq üçün Hindistandakı buddist monastırlarına göndərilməsində, görkəmli missionerlərin (Şantarakşita, *Padmasambhava*, Kamalaşila və b.) ölkəyə dəvət edilməsində, sutraların və buddist traktatlarının sanskritcədən Tibet dilinə tərcümə mərkəzlərinin yaradılmasında (Tibet yazısı 7 əsrin ortalarında hind yazısı əsasında yaradılmışdır), məbədlərin tikilməsində, bon dinindəki qanlı qurbankəsmə ayinlərinə qadağa qoyulmasında ifadə olunurdu. 791 ildə ilk buddist monastırı Samyenin açılmasından və B.-in çar Trisonq Desen tərəfindən dövlət dini elan edilməsindən sonra keçən bir neçə əsr ərzində Padmasambhavanın yaratdığı vacrayananın *nyinqma* məktəbi hakim mövqe tutmuşdur. Burada monastır B.-i sidhlərin – tantrist yoqa və magiya bilicilərinin fəaliyyəti ilə tamamlanırdı. 1042–54 illərdə Atişanın uğurlu missionerliyi nəticəsində rahiblər nizamnaməyə daha ciddi riayət etməyə, sutra və tantraları daha dərindən öyrənməyə və tətbiq etməyə başladılar.

Tibetdə buddist yazılı abidələrinin saxlanılmasında Tibet kanonik topluları Kanqyurun (monqolca – Qancur; ensiklopediya formatında 108 cild) və Tenqyurun (monqolca – Dancur; 225 cild; bax *Qancur və Dancur*) tərtibçisi və redaktoru, 200-dən artıq əsərin müəllifi, tərcüməçi Budon Rinçendub (1290–1364) böyük rol oynamışdır.

11 əsrdə bir-birinin ardınca kaqyu, sakya və kadam adlanan "yeni tərcümə" məktəbləri meydana gəldi. Tibetin ruhi həyatında ardıcıllıqla hakim mövqe tutan bu məktəblərin monastırlar formasında və onları himayələrində saxlayan tibetli nəsillərin şəxsində öz mülkləri var idi.

K a q y u (tibetcə – nəsihətlərin şifahi ötürülməsi ənənəsi) *Tilopanın* (11 əsrin əvvəlləri) təliminə əsaslanan vacrayana B.-i hind-Tibet məktəbidir və burada əsas diqqət praktiki yoqaya, mistik-mərasim səciyyəli gizli ayinlərə və ilk növbədə mahamudra ("Böyük möhür" – "Budda təbiəti"nin öz şüurunda möhür vurulmuş kimi bilavasitə dərk olunması) ayininə yönəldilirdi. Ruhi varislik xətti üzrə digər müəllimlər (11–12 əsrin ortaları) *Naropa, Marpa, Milarepa* və *Qampopa* olmuşlar. Sonuncunun şagirdləri karma, shal, phaqmo dru və baram alt məktəblərini yaratmışdılar. Sonralar phaqmo dru sək-



Fəaliyyətdə olan Şamye monastırı (8 əsr). Şannan (Tibet, Çin).

kiz "kiçik" qola ayrılmış və onlardan yalnız drikunq, taklunq və drukpa ruhi varislik ənənəsini qoruyub saxlayır. Qampopa monastır kaqyusunun əsasını qoymuşdur; ona qədər yoqa bilicilərindən ibarət yalnız gəzərgi qruplar mövcud idi.

S a k y a (tibetcə – açıq-boz rəngli torpaq) Qərbi Tibetdə kiçik bir yerin və 1073 ildə burada tikilmiş Sakya monastırının adındandır. Banisi Saçen Qunqanyinbo (1092–1158) hesab olunsa da, məktəb özünəməxsusluğunu Hindistanın ən yaxşı buddist universitetlərində 8 il təhsil almış mütəfəkkir və tərcüməçi Droqminin (993–1074, digər məlumatlara görə 1077) fəaliyyəti nəticəsində qazanmışdır. Tibet B.-inin bütün məktəbləri arasında yalnız sakyada evlənməyə icazə verilirdi. Məktəbin əsas doktrinası "Yol – Meyvə"dir; onun yaradıcısı olan hindli yoqa bilicisi Virupaya (təqr. 8–9 əsrlər) görə, Yolun (əzabdan nicata doğru) məqsədi daxilən Yol prosesinin özünə xasdır və Yola ardıcıl yaxınlaşma doktrinasına rəğmən, yolgedənin hər bir ruhi addımında reallaşır. 13–14 əsrlərdə Tibetin əsas siyasi qüvvəsinə çevrilən sakya həm monqol xanlarının qərargahlarında, həm də Çin imperatorlarının saraylarında böyük nüfuza malik idi. Sakya-pandita (1182–1251) və Paqba-lama (1235–80) məktəbin tanınmış alimləri və iyerarxları, eləcə də Mərkəzi və Şərqi Asiyada yeni meydana gəlmiş böyük dövlətlərdə Tibet B.-inin fəaliyyəti və inkişafı üçün şərait yarada bilmiş siyasi xadim idilər. Conanq məktəbi də sakyadan intişar etmişdir. Hazırda sakyanın Tibetdə, Hindistanda, Nepalda, həmçinin Qərb ölkələrində bir neçə qolu və monastırları vardır.

K a d a m (tibetcə – "Aydınlanmış"ın təlimini şifahi çatdırma) məktəbinin əsası Atişa və onun şagirdi Dromton (1005, digər məlumatlara görə, 1008–64) tərəfindən qoyulmuşdur. O, gündəlik həyatda bodhisatva idealının tətbiqinə istiqamətləndiyi üçün rahib intizamına riayət olunmasına böyük diqqət ayırırdı. Müasir Tibet B.-ində belə məktəb artıq olmasa da, onun qədim təlimi Tibetin bütün rahibləri arasında, xüsusilə onun daxilində təşəkkül tapmış və "yeni kadam" kimi tanınan geluk məktəbində böyük nüfuza malikdir.

G e l u k (tibetcə – xeyirxahlıq təlimi, yaxud qanunu) məktəbini 15 əsrin əvvəllərində *Sonkapa* yaratmışdır. Onun fəlsəfi təməlini Naqarcunadan Çandrakirtaya qədər olan varislik xətti üzrə hind madhyamikası təlimi (prasanqa, yaxud opponentin dəlillərini absurda çevirmə metodu adlandırılır) təşkil edir. Bu məktəbdə B.-in "dördüncü cavahiratı" (Budda, qanun və sanqhadan sonra) elan edilən müəllimin, lamanın əhəmiyyəti xüsusi vurğulanır, dindarlar və şagirdlər ona ruhi itaətkarlıq əhdi verirlər. Digər Tibet məktəblərindən fərqli olaraq, Sonkapa rahiblər üçün sərt nizamnamə, tibetlilərə xas olmayan nikahsızlıq və alkoqoldan imtina əhdləri tətbiq etmişdir. Geluk tələbkar təhsil və yarışma imtahanları tətbiq etməklə rahiblərin alimlik dərəcəsinin artırılması sistemini yaratmış, həmçinin kitabsevərliyi, mütaliəni geniş yaymışdır.

Məktəbin 1409 ildə Sonkapa tərəfindən əsası qoyulmuş Qaden (çox vaxt Qaldan, yaxud Geden kimi tələffüz edilir) baş monastırı bodhisatva Maytreyanın şərəfinə tikilmişdir. Onun başçısı eyni zamanda bütün Tibet-monqol gelukunun rəhbəridir, əzablara şərikolma bodhisatvası Avalokiteşvaranın canlı təcəssümü sayılır və Budda kimi "Qalib" titulu daşıyır. Dini-fəlsəfi təhsilin mərkəzinə çevrilmiş monastırda 1959 ilə qədər 4 mindən artıq rahib yaşayırdı (hazırda monastır Hindistan y-a-nın c.-unda yenidən tikilir). 16 əsrin ortalarında məktəbin liderləri monqol xanlarının dəstəyini qazanaraq, gelukun əvvəlcə Tibetdə hakim mövqe tutmasına, sonra isə onun təsirinin bütün monqol və Mərkəzi Asiyanın digər xalqları arasında yayılmasına müvəffəq oldular. Məktəbin başçısını dalay-lama elan etdilər.

C o n a n q (tibetcə – daxili, orta) məktəbinin əsası Yumo Mikyo Dorce (11 əsr) tərəfindən qoyulmuş və Dolpopa Şerap Qyalsen (1292–1361), həmçinin *Taranatha* və b.-nın fəaliyyəti ilə nəzəri cəhətdən inkişaf etdirilmişdir. Xüsusən "(Budda təbiətindən başqa) istənilən digər mahiyyət boşdur" ideyasının interpretasiyası ilə tanınmışdır; həmin şərhə əsasən, "mən", özümlük və atman kimi yeganə real və daimi "Budda təbiəti"dir. Tibet məktəblərinin çoxu belə yanaşmanı rədd edirdi. V Dalay-lama (1617–82) məktəbi buddist təlimini atmanın əbədiliyinə dair hinduist konsepsiyası ilə əvəzləməkdə ittiham edərək, onun fəaliyyətini xüsusi fərmanla qadağan etmiş, kitablarını yandırmaq, bəzi monastırları dağıtmaq, qalanlarını isə geluk məktəbinə həvalə etmək əmrini vermişdi.

Hazırda Tibet B.-i məktəbləri sakral biliyin canlı daşıyıcılar vasitəsilə ötürülmə kanallarıdır. Canlı allahlara etiqad Tibet, Himalay, Monqolustan və Rusiya B.-ini digər ölkələrin mahayana B.-indən fərqləndirir. 1950-ci illərə qədər hər tibetli ailəsi ən azı bir oğlunu rahibliyə göndərirdi. Rahiblərin və adi həyatda yaşayan kişilərin sayı 1:7 nisbətində idi. 1959 ildə ölkədə 6259 monastır (592558 rahib və rahibə) var idi. 1959 ildən Tibetin dini başçısı (*XIV Dalay-lama*), hökuməti və parlamenti (xalqın bir hissəsi və rahiblərin əksəriyyəti ilə birlikdə) Hindistanda sürgün həyatı yaşayırlar. Geluk məktəbinin ikinci dini iyerarxı olan X Pançen-lama (budda Amitabhanın təcəssümü) Çində qalmışdır. 1960-cı illərdə "mədəni inqilab" zamanı Çində 6 minə yaxın monastır dağıdılmışdı. 1983 ildən başlayaraq onların bəziləri bərpa edilmiş, Buddist akademiyası açılmışdır.





**İncəsənət.** B. incəsənəti ilə bağlı əsas abidələr çevrəsi qədim dövrlərdə və orta əsrlərdə Orta Asiya, Hindistan, Uzaq Şərq, Mərkəzi və Cənub-Şərqi Asiya ölkələri ərazisində formalaşmışdır.

B. ilə bağlı memarlıq abidələri Hindistanda Mauryalar sülaləsi (e.ə. 4–2 əsrlər) dövründə yaranmışdır: dəfn və memorial tikililər (stupa), mağara monastırları (vihara) və məbədlər (çaytya). Memarlıq abidələrinin bu tipləri B. memarlığının bütün sonrakı inkişafına təsir göstərmişdir.

Hindistan təsviri sənətində Qandhara və Mathura məktəbləri yaranmış və Kuşan şahzadəsinin təsvirlərinə yönlənmiş Budda Şakyamuni və bodhisatvalar ikonoqrafiyası qəti olaraq Quptalar dövrü (eramızın 4–6 əsrləri) incəsənətində formalaşmışdır. Qandhara məktəbi Asiyanın digər ölkələrində buddist incəsənətinin inkişafına böyük təsir göstərmişdir. Özündən əvvəlki (buddayaqədərki Hindistan) bədii mədəniyyətlərin, həmçinin qonşu regionların (ilk növbədə Əhəməni-lər dövrü İranın) mədəniyyətlərinin nailiyyətləri əsasında Hindistan incəsənətində məbəd komplekslərinin tərtibatının mühüm prinsipi (memarlıq və heykəltəraşlığın sintezi) işlənib hazırlandı: Buddanın heykəlləri, *cataka* mövzusunda relyeflər. Yaranmış dekorativ sistemin tərkibinə sonralar rəngkarlıq da daxil edildi. Hind B.-i rəngkarlığı 5–8 əsrlərdə Uzaq Şərq və demək olar ki, bütün Mərkəzi və Cənub-Şərqi Asiya ölkələrinin rəngkarlığına təsir göstərmişdir.

Uzaq Şərq (Çin, Koreya, Yaponiya), Orta Asiya (Soqdiana, Xarəzm), Mərkəzi Asiya (Monqolustan, Tibet) və Cənub-Şərqi Asiya (Kamboca, İndoneziya, Laos, Myanma, Tayland) ölkələrinə yayılma prosesində hind təsviri sənət ənənələri və bədii kanonları yerli şəraitə uyğunlaşdırılırdı; bu ölkələrin hər birinin incəsənətində öz təsvir dili, başlanğıc mərhələdə çox vaxt hind prototiplərinə gedib çıxmasına baxmayaraq, memarlıq məkanı təşkilinin prinsipləri yaranmışdır. Məbəd memarlığı hər ölkədə yerli – həm tikinti, həm də təsviri ənənələr nəzərə alınmaqla formalaşmışdır. Bu da çox vaxt orijinal tikili tiplərinin (Çində *paqoda*, Tayland və Laosda vat, İndoneziyada çandi) yaranmasına səbəb oldu. B. memarlığının əsas ideyası dünya harmoniyasının, gözlə görünə bilən oxşarın təbii (əsil) və süni (memarlıq) formalarının üzvi vəhdətini yaratmaqdır. Heykəltəraşlıq və rəngkarlıqdakı Budda obrazı Hindistanda formalaşmış təsviri sənət kanonuna müvafiqdir (Laos və Monqolustandan başqa; Laos incəsənətində kanon Siam incəsənətinin təsiri ilə yaranmış və aydın nəzərə çarpan etnik xüsusiyyətlərə malikdir, Monqolustanda da yerli folklor obrazları mühüm rol oynamışdır). Hind-Çin ölkələrinin budda ikonoqrafiyasına ənənəvi animistik inancların (ən mühümləri müxtəlif ruhların kultudur) çox güclü təsiri olmuşdur. B. təsviri sənət ənənəsinin formalaşmasında, həmçinin hinduist ikonoqrafiyası (Şərqi Yava incəsənəti üçün), Çin (Koreya və Yaponiya incəsənəti üçün) və Tibet (Monqolustan və Buryatiya incəsənəti üçün) bədii ənənələri mühüm rol oynamışdır.

**Musiqi mədəniyyəti.** B.-in liturgiya praktikasında kökləri *Vedalara* gedib çıxan musiqi əhəmiyyətli rol oynayır. Hindistanda buddist nəğmələri simli və nəfəs alətlərinin müşayiəti ilə kişi xoru tərəfindən unison oxunurdu (hazırda simli alətlər Vyetnam və Yaponiyanın bəzi monastırlarında saxlanılmışdır). Erkən hind B.-ində musiqi və rəqslə müşayiət olunan səhnələşdirilmiş tamaşalar oynanılırdı; hazırda belə tamaşalar tibetlilərin (çam) və monqolların (sam) rəqslə ifa olunan dini misteriyalar kimi mövcuddur. Kainatın ilk səsi – şabda haqqında qədim hind təsəvvürləri B.-ə keçmişdir. Buddistlərin cənnət haqqında təsəvvürləri musiqi səslənmələri ilə bağlıdır və qandharvaların (musiqiçi ilahələr) əvvəlində musiqi alətlərinin çoxlu təsviri bununla əlaqədardır; Budda ikonoqrafiyası vaxtilə liturgiya praktikasına daxil olan musiqi alətlərinin (lütnyalar, arfalar) təsvirini saxlamışdır. Hind buddist nəğmələri haqqında ilk məlumatlar Çin səyyahı İ Szinə (7 əsrin sonları), Çin buddist musiqisi haqqında məlumatlar yapon rahibi Enninə (9 əsr) məxsusdur. Buddist musiqisi haqqında ilk yapon traktatını rahib Annen (880) yazmışdır.



Sansara dairəsi (Bhavaçakra), yaxud "Tibet həyat çarxı".

Müasir B. musiqisi ənənələri onun üç əsas istiqamətinə – mahayana, hinayana və vacrayanaya müvafiqdir; yapon B. musiqisi ənənəsi (tenday, sinqon təlimləri) müstəqilliyi ilə seçilir. Hinayananın ən çox yayıldığı ölkələrdə dini mətnlər pali dilində, mahayana və vacrayananın yayıldığı ölkələrdə isə sanskritdə və yerli dillərə tərcümədə (Nepalda yalnız sanskrit-

Minəlli Avalokuteşvara. 18 əsr. Bürünc. Birmingem İncəsənət Muzeyi.



dən istifadə edilir) ifa olunur. Məbəd və monastırlarda ibadət vaxtı, adətən, zərb alətlərinin müşayiəti ilə sutralar, ibrətamiz mətnlər, qathilər, mantralar oxunur. Uzaq Şərq ənənəsində təbii səslə, Kambocada burunda, Vyetnamda falsetlə, Tibetdə isə çox aşağı registrdə oxuma ənənələri üstünlük təşkil edir. Dini musiqinin təşkili bütünlüklə B. rəmzlər sisteminə tabedir. B. musiqisi notlaşdırılsa da (yapon, Tibet və Koreya mənbələri), tədris üsulu həmişə şifahi olmuşdur. Oxumaların və reçitasiyaların tempini və ritmini, adətən, zərb alətləri müəyyən edir, Tibet ənənəsinin alətləri müxtəlif tipli sinclər, ikiüzlü çərçivəli təbil, əl zınqırovu, qum saatına bənzər təbil, balıqqulağına bənzər boru, uzun metal borular (7 *m*-ədək), qısa borular (o cümlədən, insanın baldır sümüyündən) və qoboy tipli dilçəkli alətlərdən (nəfəs alətlərindən həmişə qoşa istifadə olunur) ibarətdir. Siqnal alətləri kimi (ibadətə və s. çağırış) zənglər, sinclərdən, təbillər və balıqqulağına bənzər borulardan istifadə olunur. Gəzərgi rahiblərin ənənəvi atributu zınqırovları olan əl ağacıdır. Fuke yapon sektasının musiqi ənənəsi unikaldır: *syakuhati* adlanan bambuk fleytada solo ifa spesifik dzen praktikasıdır. B. musiqisi bilavasitə meditasiya ilə əlaqədardır və müqəddəs obyektləri seyr etməklə "əvəz oluna" bilər. B. bayramları və festivalları musiqisi (adətən, instrumental ansambl musiqisi) və dəfn mərasimləri musiqisi əlahiddə yer tutur. Yeni məktəblərdə də musiqi dərsləri keçilir, Avropa musiqi alətlərindən (məs., Kiotodakı hisi Honqandzi məktəblərində ibadət vaxtı orqan və fisharmoniyadan) istifadə olunur.

**BUDÉN** (Boudin) Lui Ejen (12.7.1824, Onflör – 8.8.1898, Dovil) – fransız rəssamı və qrafiki. 1936 ildən Havrda yaşamışdır; burada açdığı haşiyələmə emalatxanasında tanınmış rəssamların əsərlərini sərgiləyirdi. 1848 ildə Havrda Rəsm məktəbində oxumuşdur; 1847, 1849, 1851–53 və 1861 illərdə Parisdə işləmiş, Parisətrafı mənzərələri çəkmiş, Luvrda holland və flamand rəssamlarının əsərlərinin surətini çıxarmış, K. *Koro* yaradıcılığını öyrənmişdir. Belçika, Hollandiya və Venesiyada olmuşdur. Əsasən, *plenerdə* işləyən B. rəsmlərində işıq-hava mühitinin xarakterini verməyə çalışmışdır. *İmpressionizmin* sələflərindən biri olmuş, 1874 ildə impressionistlərin ilk sərgisində iştirak etmişdir. Bədii irsinə 6 mindən çox əsər (o cümlədən rəsmlər və qravüralar) daxildir.

**BUDÉVSKAYA** (Budevska) Adriana (təxəllüsü; əsl adı və soyadı Adriana Kınçeva Qançeva) (13.12.1878, Dobriç – 9.12.1955, Sofiya) – bolqar aktrisası. Bolqarıstan Xalq Resp.-nın xalq artisti (1949). 1899 ildə Moskvada Malı Teatrın teatr məktəbini bitirmişdir (pedaqoq A.P. Lenski). Həmin il Sofiyada "Göz yaşı və gülüş" teatrında (1904 ildən Xalq teatrı) ilk çıxışı olmuşdur. Bolqar aktyor sənəti və milli dramaturgiyasının inkişafında mühüm rol oynamışdır. 1905 ildə bir qrup aktyorla Varnada "Azad teatr" təşkil etmişdir. Bu teatrda milli dram əsərləri ilə yanaşı M. Qorki, A.N. Ostrovski, H. İbsen, G. Hauptman və b.-nın əsərləri də tamaşaya qoyulurdu. 1906 ildə "Azad teatr" bağlanmış, aktyorlar Xalq teatrına qayıtmışlar. B. burada özünün ən yaxşı rollarını oynamışdır: Qayınana ("Qayınana", A.T. Straşimirov), Rada ("Zülm altında", İ. Vazov), Nora ("Nora", H. İbsen), Dezdemona, Ofeliya və ledi Makbet ("Otello", "Hamlet" və "Makbet", U. Şekspir) və s. 1934 il dövlət çevrilişindən sonra Argentinaya mühacirət etmiş, 1948 ildə vətənə qayıtmışdır. 1953 ildə Burqasdakı teatra B.-nın adı verilmişdir.

**BUDIKO** Mixail İvanoviç (20.1.1920, Qomel – 10.12.2001, Sankt-Peterburq) – rus geofiziki, REA-nın akad. (1992). Lenin mükafatı laureatı (1958). Leninqrad Politexnik İn-tunu (1942) bitirmişdir. A.İ. Voyeykov ad. Baş Geofizika Rəsədxanasında direktor (1954–1972), 1975 ildən Dövlət Hidrologiya İn-tunda şöbə müdiri vəzifələrində işləmişdir. Əsərləri, əsasən, fiziki iqlimşünaslıq, bioiqlimşünaslıq və ekologiya sahəsindədir. Akad. A.A. *Qriqoryevlə* birlikdə (1956) coğrafi zonallığın dövri qanunu formulə etmişdir. Şimal yarımkürəsində iqlim dəyişməsinin müasir təmayülünü müəyyənləşdirmişdir. Yerin istilik balansının öyrənilməsində xidməti böyükdür.

Ə s ə r l ə r i: Тепловой баланс земной поверхности. Л., 1956; Изменения климата. М., 1969; Глобальная экология. М., 1977; Предстоящие изменения климата. М., 1991 (həmmüəllif).

**"BÚDİ UTÓMO"** ("Ali məqsəd") – İndoneziyanın ilk milli mədəni-maarif təşkilatı. 20.5.1908 ildə Bataviyada liberallar Sutomo, Raciman Vediodininqrat və Çokroaminotonun rəhbərliyi ilə yaradılmışdır. Tələbələrin, ziyalıların və məmurların nümayəndələrini birləşdirirdi. Milli mədəni irsin qorunması ilə yanaşı Qərb təhsil sisteminin genişləndirilməsi uğrunda çıxış edirdi. Yava a.-nın bir çox şəhərində şöbələri var idi. 1917 ildən "B.u." liberal-demokrat yönümlü siyasi təşkilat oldu: onun proqramına milli demokratik hakimiyyətin yaradılması və iqtisadiyyatın liberallaşdırılması tələbi daxil edildi. 1922 ildən "B.u." üzvlərinə qarşı təqiblərin başlaması ilə təşkilatda inqilabi əhvali-ruhiyyə artdı. 1930-cu illərin əvvəllərindən "B.u." ölkənin mərhələlərlə müstəmləkəçilikdən azad olunması və öz müqəddəratını təyinetmə hüququ uğrunda çıxış etməyə başladı. 1935 ildə milli-liberal Böyük İndoneziya Partiyasına (Parindra) birləşdi. "B.u."-nun yaranma günü İndoneziyada Milli oyanış günü kimi qeyd edilir.

**BUDİLƏR** – Herodotun (e.ə. 5 əsr) adlarını çəkdiyi 6 Midiya tayfasından biri. Ehtimala görə Midiyanın q.-ində yaşamışlar.

**BUDİNÁJ** (fr. boudinage – mütəkkə) – plastik təbəqələrin arasında yerləşən bərk süxur layları, daykalar, damarların və s.-in fraqmentlərinin əmələ gətirdiyi tektonik struktur. Budinlər adlanan belə fraqmentlər parçalanmış və ya boyuncuqlarla birləşmiş, düzbucaqlı, rombvarı, çəlləkvarı və linzavarı formada olur. B. müxtəlif mexaniki xassəli laylar arasında yaranan sürtünmə qüvvəsinin təsiri ilə bərk süxurların gərilməsi, süxurların laylanma istiqamətinə perpendikulyar şiddətli təzyiq nəticəsində yaranır. Bir neçə B. növü vardır. E m b r i o n a l B. bərk layların natamam qırılması ilə xarakterizə olunur. Budinlər boyuncuqlarla birləşir və ya kvars, yaxud kalsitlə dolmuş kiçik çatlarla ayrılır, lakin bir-birindən izolə edilmir. N o r m a l B.-da budinlər çəlləkvarı forma alır, onlar arasında məsafə çoxalır, budinlərarası sahə plastik layların materialı ilə dolmuş olur. Budinlərdə tez-tez minerallaşmış çat və yuvalara rast gəlinir. L i n z a B.-ında linzavarı budinlər bir-birindən xeyli uzaqlaşmış, budinlərarası sahə isə plastik layların materialı ilə, demək olar ki, həmişə dolmuş olur. B. qırışıqlıq vil.-ləri üçün səciyyəvidir. B.-ın öyrənilməsi süxurların deformasiyasının son mərhələsini miqdari qiymətləndirməyə və deformasiyanın hansı şəraitdə baş verməsinə dair nəticə çıxarmağa imkan verir.

**BUDİNLƏR** – Herodotun (e.ə. 5 əsr) məlumatına görə, Orta Don hövzəsində, savromatlarla qonşuluqda yaşamış tayfa. Etnik mənsubiyyətləri mübahisəlidir: bəzi tədqiqatçılar B.-i fin-uqor dilli (mordvaların əcdadı), digərləri isə irandilli tayfa hesab edirlər. Onların ağacdan düzəldilmiş istehkamları var idi. B. skiflərin I Dara ilə müharibəsində iştirak etmişlər.







Budinaj.

**BÚDKER** Gerş İtskoviç (Andrey Mixayloviç) (1.5.1918, Ukraynanın Vinnitsa vil.-nin indiki Şarqorod r-nunda Murafa – 4.7.1977, Novosibirsk) – Rusiya fiziki, SSRİ EA akad. (1964). Lenin mükafatı laureatı (1967), SSRİ Dövlət mükafatı laureatı (1949). 1941 ildə Moskva Dövlət Un-tini bitirmişdir. 1946 ildən SSRİ EA-nın 2 №-li Laboratoriyasında (Atom Enerjisi İn-tunda) işləmişdir.



SSRİ EA Sibir şöbəsinin Nüvə Fizikası İn-tunun yaradıcısı və direktoru (1957 ildən; hazırda B-in adını daşıyır); Novosibirsk Un-tinin prof.-u olmuşdur. Əsas elmi əsərləri uran-qrafit nüvə reaktorları nəzəriyyəsinə, sürətləndiricilərin nəzəriyyəsi və hesablanmalarına, yüksək enerjilər fizikasına, plazma fizikasına və idarəolunan termonüvə sintezi probleminə aiddir. Stabilləşdirilmiş relyativist elektron dəstəsinin yaranması şərtlərini hesablamışdır. 1952 ildə (Amerika fiziki R.F. Postdan asılı olmayaraq) açıq maqnit tələlərində yüksəktemp-turlu plazmanın saxlanması ideyasını irəli sürmüşdür. Yüksək enerjilər fizikasının yeni istiqamətini – *qarşılaşan dəstələr* metodunu işləyib hazırlamışdır. B.-in rəhbərliyi altında ilk dəfə ölkədə qarşılaşan elektron-elektron və elektron-pozitron dəstələrinin sürətləndiriciləri qurulmuşdur. Ağır zərrəciklər dəstəsinin elektron soyudulması və qızmar plazmanın termoizolyasiyası üsullarını təklif etmişdir. Onun ideyaları relyativist zərrəciklər dəstəsinin güclu impuls generatorlarının yaradılmasının əsasını qoymuşdur.

**BUDLEYA** (Buddleya) – budleyakimilər fəsiləsindən bitki cinsi. Hünd 10 *m*-ədək olan ağaclar, kollar, yarımkollar, bəzən otlardır. Zoğları tüklüdür. Yarpaqları qarşı-qarşıya, topa, bütöv, dilimli və ya yaxud dişlidir. Çiçəkləri boruvarı, yaxud zəngvarı, xırda, adətən, ətirli, bənövşəyi, ağ, yaxud sarı, şarşəkilli, qalxanvarı və ya yaxud əyilmiş salxımşəkilli çiçək qrupunda toplanmışdır. Tropiklərdə və subtropiklərdə 100-ədək növü var. Dekorativ bitki kimi 10 növü (çoxlu bağ formaları və sortları) becərilir.

**BUDÓN** (Boudon) Reymon (d.27.1. 1934, Paris) – fransız sosioloqu. Ali Normal Məktəbi (1958) bitirmişdir. 1964 ildən Bordo un-tində, 1967–71 illərdə və 1978 ildən Sorbonnada (1967 ildən prof.), 1971–78 illərdə Rene Dekart (Paris) un-tində dərs demiş, dünyanın bir sıra un-tlərində mühazirələr oxumuşdur. 1969–72 illərdə B. Fransanın Elmi Tədqiqatlar Milli Mərkəzi yanında Sosioloji Tədqiqatlar Mərkəzinə rəhbərlik etmişdir. B. Fransanın Əxlaq Elmləri və Siyasət Akademiyasının, Amerika İncəsənət və Elmlər Akademiyasının, Britaniya Akademiyasının və s. üzvüdür.

B.-un konsepsiyalarında metodoloji "kontekstual" fərdiyyətçilik mövqeyi (makrososial hadisələri fərdlərin davranış məntiqinə nəzərən M. *Veber* ruhunda anlama) bəşəri dəyərlərin fövqəlsituativ obyektivliyinin postulatlaşdırılması ilə çulğaşır. Riyazi metodların sosiologiyaya tətbiqi, səbəbli olanın və izahı nəzəri modellərinə empirik məlumatların adekvatlığı B.-un elmi maraq dairəsinə daxildir (P. Lazarsfeld xəttinin davamı). B. fransız cəmiyyətinin müxtəlif təbəqələrinə mənsub nümayəndələrinin təhsilalma şanslarındakı qeyri-bərabərliyin təhlilini aparmışdır. Fərdlərin şəraitlə şərtlənən natamam bilikli və yanlış ideyaları dəstəkləməyə meyilli olmalarını nəzərə alan rasional hərəkət nəzəriyyəsini işləyib hazırlamışdır.

Ə s ə r l ə r i: Les méthodes en sociologie. P., 1969; La logique du social. P., 1979; Dictionnaire critique de la sociologie. P., 1982; Место беспорядка: Критика теорий социального изменения. М., 1998; The poverty of relativism. Oxf., 2005.

**BÚDRA** (Glechoma) – dodaqçiçəklilər fəsiləsindən bitki cinsi. Kök atmış zoğları yayılmış çoxillik otlardır. Yarpaqları qarşı-qarşıya, sadə, saplaqlı, dəyirmi-tumurcuqvarı yarpaq lövhəsinin kənarları iri yarımdairədişlidir. Qoltuq çiçək qrupunda 1–5 (7) ədəd göyümtül-bənövşəyiyəçalan, ikidodaqlı çiçəkləri yerləşir. Şimal yarımkürəsinin mülayim vil.-lərində 4–5 növü bitir. Məxmərvarı B. (G. hederacea) geniş yayılmışdır; yarpaqlı meşələrdə, həmçinin çəmənlərdə, bağ və parklarda, məndəcərliklərdə bitir. Balverəndir.

**BUDUQ** – Azərb. Resp. Quba r-nunda kənd. Buduq ə.d.-nin (Buduq, Dağüstü, Yalavanc, Zeyid k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 36 *km* c.-q.-də, Qaraçayın sol sahilində, Yan silsilənin ( Böyük Qafqaz) yamacındadır (1592 *m* yüksəklikdə). Əh. 338 (2008); heyvandarlıqla məşğuldur. B.-un adı *buduqlarla* əlaqədardır. Ümumi orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**BUDUQ DİLİ** – *buduqların* dili. Şahdağ yarımqrupuna daxil olan *Ləzgi dillərindən* biridir. Qrammatik quruluşca *qrız dilinə* çox yaxındır. Dialektləri yoxdur. Quba və Xaçmaz r-nlarının bir neçə kəndində (Buduq, Dalıqaya, Pirüstü, Yalavanc və s.) məişət dili kimi yayılmışdır. Bu dildə təqr. 15 min adam danışır (2007).

B. d.-ndə 9 (bəzi mülahizələrə görə – 10) sait və 34 (37) samit fonem var. 4 qrammatik cins (kişi, qadın, şüursuz canlılar, cansızlar) mövcuddur. Hallanma inkişaf etmişdir (təqr. 18 hal). Fellər şəxsə görə deyil, cinsə görə təsrif olunur. B.d.-nin səs sistemi, qrammatik quruluşu, xüsusilə lüğət tərkibi Azərb. dilinin güclü təsirinə məruz qalmışdır. Yazısı yoxdur.

*Əd.:* S ə d i y e v Ş. Azərbaycan ərazisində yayılmış yazısız dillərin öyrənilməsi haqqında. Azərb. SSR EA Xəbərləri, 1955, № 7; Ш е й х о в Э.М. Будухский язык// Языки мира. Кавказские языки. М., 1999; C l i f t o n J. a.o. The sociolinguistic situation of the Budukh in Azerbaijan//



Buduq kəndi. Quba rayonu.

Studies in languages of Azerbaijan [Baku; Saint Petersburg], 2002. Vol. I.

**BUDUQ MİNERAL SU BULAĞI** – Azərb. Resp. Quba r-nu ərazisində, Buduq k. yaxınlığındadır. Suyunun temp-ru 7°C, debiti 50 *m³/gün*, minerallaşma dərəcəsi 1,5 *q/l*-dir.

Balneoloji tərkibi:

$$M1,5\frac{HCO_3 54 SO_4 45}{Na53Ca31}$$

·pH7,5 D 50 *m³/gün* T 7°C

Suyu zəif minerallaşmış, hidrokarbonatlı-sulfatlı, natriumlu-kalsiumludur; kükürd qoxuludur.

**BUDUQ PLATOSU** – Böyük Qafqazdadır. Azərb.Resp. ərazisində (Quba r-nu) Yan silsilənin Qudyal çayı ilə Qaraçay arasındakı hissəsi. Qaytarqoca və Şuduq silsilələrindən dağarası çökəkliklərlə ayrılır. Uz. (şm.-dan c.-a) təqr. 12 *km*, eni 5 *km*, orta hünd. 2000 *m*. Yura və Tabaşirin əhəngdaşlarından ibarətdir. Səthi q.-dən ş.-ə meyilli, ətrafı uçurumludur. Subalp çəmənlikləri var. Yay otlağı və biçənək kimi istifadə olunur.

**BUDUQLAR**, b u d u x l a r (özlərini budad adlandırırlar) – Azərb. Resp.-nın Quba və Xaçmaz r-nlarının Buduq (Budux), Dalıqaya, Pirüstü, Yalavanc və digər k.-lərində xalq. Sayları təqr. 5,4 min nəfərdir (2005). *Ləzgi xalqlarının* (*qrızlar* və *xınalıqlılarla* birlikdə) Şahdağ qrupuna daxildirlər. *Buduq dilində* danışırlar. Azərb. və rus dilləri də yayılmışdır. Dindarları müsəlmandır. Azərb.-larla qaynayıb-qarışırlar.

Hələ 19 əsrin 40-cı illərində B.-ın bir hissəsi Azərb.-ın düzən rayonlarına köçərək oba tipli yaşayış məskənləri salmışlar. Əsas məşğuliyyətləri qoyunçuluqdur. Xalçaçılıq, yun corabların toxunması inkişaf etmişdir. Buduq milli mədəniyyət mərkəzi fəaliyyət göstərir.

**BÚDVA** – Monteneqroda şəhər, Adriatik dənizi sahilində ən qədim şəhərlərdən biri. Əh. təqr. 10 min nəfərdir.

Adı ilk dəfə e.ə. 4 əsrdə yun. Butoya (Βουθόη) kimi qeyd edilir; e.ə. 168 ildən Romanın Butua adlı qəsəbəsi olmuşdur. Erkən orta əsrlərdə Bizansa tabe idi, 847 və 867 illərdə ərəblər tərəfindən dağıdılmışdır. 1183 ildən Nemaniçlər dövlətinin tərkibində olmuş, 13–14 əsrlərdə muxtariyyət əldə etmişdi. 1442–1797 illərdə Venesiyanın, 1814–1918 illərdə Avstriya-Macarıstanın tabeliyində, 1918 ildən Serb, Xorvat və Sloven Krallığının (1929 ildən Yuqoslaviyanın) tərkibində idi. Şəhərin divarlarla əhatələnmiş (15 əsrin sonları; 1639 ildə bərpa edilmişdir) qədim hissəsi orta əsrlərdəki nizamsız dar küçələri və kiçik meydanları qoruyub saxlamışdır.

İçqala (hazırda muzeydir), 8–9 və 14–18 əsrlərə aid kilsələr, monastır qalıqları (12 əsr) saxlanılmışdır. Arxeologiya muzeyi; bayır şəhərdə çoxsaylı hotellər, çimərliklər, delfinarium var.

B. yaxınlığındakı Müq. Stefan a.-nda 15 əsrin ortalarına aid divarlar və qədim tikili (hazırda unikal "şəhər-hotel"ə çevrilmişdir) saxlanılmışdır. İstirahət və turizm mərkəzidir.

**BUDYÓNNI ATI** – Rusiyada yetişdirilmiş minik atı cinsi. Rostov vil.-nin hərbi atçılıq z-dlarında Don atı ilə təmizqanlı minik atı cinslərinin çarpazlaşdırılmasından alınmışdır. 1948 ildə cins kimi təsdiq edilmişdir. Hamar cıdırlarda sınaqdan keçirilir, cəldliyinə görə yalnız təmizqanlı minik atlarından geri qalır. Qamətli, möhkəm konstitusiyalı sağlam atdır. Cidov hünd. 165–170 *sm* və daha çoxdur. Rəngi kürən, kəhər, tünd kəhər, çox vaxt qızılıyaçalan, bəzən qasıq və burnunda açıq rəngli xallar, alnında ağ qaşqa, ayaqlarında açıq rəngdə səkil olur. Nəsilvermə qabiliyyəti 75%-dir. B.a.-ndan iki cinsdaxili at tipi (şərq və xarakterik) alınır. Şərq tipinin yetişdirilməsində Qarabağ atından istifadə edilmişdir. Damazlıq işi, əsasən, təmizqanlı cinsyetişdirmə üsulu ilə aparılır.

**BUDYÓNNOVSK** – RF-də, Stavropol diyarının ş.-ində şəhər. Budyonnovsk r-nunun mərkəzi. Əh. 63,6 min (2014). Ön Qafqazda, Kuma çayı sahilində yerləşir. D.y. st., avtomobil yolları qovşağı.

13–16 əsrlərdə indiki B. ərazisində, Asiyadan Avropaya gedən ticarət yolunun üstündə Qızıl Ordanın Şimali Qafqazdakı ən iri şəhəri *Macar* yerləşirdi. 1795 ildə şəhərin xarabalıqları yaxınlığında Qarabağlı adlı qəsəbə salınmış, 1799 ildə qəsəbə Müqəddəs Xaç Şəhərinə çevrilmişdir. 1799–1802 illərdə Həştərxan qub.-nın, 1802–22 illərdə Qafqaz qub.-nın, 1822–47 illərdə Qafqaz vil.-nin, 1847–1910/11 illərdə Stavropol qub.-nın qəza mərkəzliyindən çıxmış şəhəri, 1910/11–1921 illərdə Stavropol qub.-nın, 1921–24 illərdə isə Terek qub.-nın qəza şəhəri olmuşdur. 1921–35 və 1957–73 illərdə şəhərin adı Prikumsk idi. 1935 ildə şəhər S.M. Budyonnının şərəfinə B. (1957 ilədək, 1973 ildən yenidən B.) adlandırılmışdır. 1924–34 illərdə Şimali Qafqaz diyarının, 1934 ildən Stavropol diyarının (1934–37 illərdə Şimali Qafqaz diyarı, 1937–43 illərdə Orconikidze diyarı) r-n mərkəzi olmuşdur. Böyük Vətən müharibəsi zamanı 1942–43 illərdə alman-faşist qoşunları tərəfindən işğal edilmiş, 1943 ildə azad olunmuşdur. 1970–80-ci illərdə regionda neft yataqları kəşf edildikdən, həmçinin SSRİ-də ən iri Prikumsk plastik kütlə zavodu (indiki "Stavrolen") istifadəyə verildikdən sonra şəhər sürətlə inkişaf etmişdir.

Budyonnı atı.



Şəhərin c.-ş. hissəsində federal əhəmiyyətli tarixi abidə – qədim şəhər yeri Macar qalmışdır. B.-da Məryəm ana kilsəsi saxlanılmışdır (ağacdan, 1895).

Stavropol Kənd Təsərrüfatı ETİ-nin Prikumsk təcrübə-seleksiya stansiyası, Rusiya Kənd Təsərrüfatı EA-nın elmi-eksperimental istehsalat kombinatı; diyarşünaslıq muzeyi (1992), xalq (1958) və kukla teatrları fəaliyyət göstərir.

B. – k.t. r-nu mərkəzidir (k.t. xammalının emalı üzrə çoxsaylı müəssisələr, o cümlədən elevator). Polietilen boru, maşınqayırma z-dları (vaqon-evlər də daxil olmaqla konteyner tipli məmulatlar və s.); polietilen istehsalı ("Stavrolen") və s. var.

**BUENAVENTÚRA** – Kolumbiyanın q.-ində, Valye-del-Kauka dep-tində şəhər. Əh. 362,6 min (2011; əsasən, zənci və mulatlardır). Buenaventura körfəzi sahilində, yarımadada yerləşir. Sakit okeanda ölkənin ən böyük portu (yük dövriyyəsi ildə təqr. 8 mln. *t*, o cümlədən konteynerlər, qəhvə, şəkər, pambıq, banan, dəri xammalı, krevetka, daş kömür, qızıl və s.). Kali ş. ilə d.y. və avtomobil yolu əlaqəsi var. Aeroport.

Əsası 1540 ildə qoyulmuşdur. 1878–1914 illərdə Kalidən B.-ya Qərbi Kordilyer d-rından keçən d.y. çəkildi (sonralar Kalidən Palmira və Kartaqoya qədər uzadıldı). 1914 ildə Panama kanalının tikintisindən sonra burada dəniz portu inşa edildi; B. tezliklə Kauka çayı vadisində istehsal edilən k.t. məhsulları ixracının əsas mərkəzi oldu.

Ticarət-nəql. əhəmiyyətindən fərqli olaraq, şəhərin sənaye əhəmiyyəti böyük deyildir. Spirtli içkilər, aşı ekstraktı (manqr ağaclarının kökündən) istehsal olunur. Ağac emalı, dəri, balıq, konserv sənayesi inkişaf etmişdir.

B. Cənubi Amerikanın ən rütubətli (yağıntının illik miqdarı 7000 *mm*-dən çox, daim yüksək nisbi rütubətlilik, orta temp-r 27°C) r-nlarından biridir. Şəhərətrafı manqr meşələri və *hileylərdir*.

**BUÉNOS-ÁYRES** (Buenos Aires) – Argentinanın ş.-ində, Atlantika okeanı sahilində əyalət. Sah. 307,6 min *km²*. Əh. 15,6 mln. (2010). İnz. m. La-Plata ş.-dir.

**BUÉNOS-ÁYRES** (Buenos Aires) – Çili ilə Argentina sərhədində göl. Pataqoniya And d-rında, 215 *m* yüksəklikdə, buzlaq mənşəli çuxurda yerləşir. Sah. 2400 *km²*, uz. 200 *km*, eni 26 *km*-ədəkdir. Gölün q. hissəsində fyord tipli sahillər dağ yamaclarını kəsmiş, yaylada olan geniş ş. hissəsi isə morenlərlə əhatələnmişdir. Beyker çayı vasitəsilə Sakit okeana, Rio-Deseado çayı vasitəsilə Atlantika okeanına axımı var.

**BUÉNOS-ÁYRES** (Buenos Aires) – Argentinanın paytaxtı. Federal (paytaxt) dairə kimi müstəqil inzibati vahiddir. Əh. 2,89 mln. (2010), aqlomerasiyada 14,5 mln. (dünyada ən böyük aqlomerasiyalardan biri). Atlantika okeanının La-Plata körfəzi sahilindədir. Mühüm nəql. qovşağı. B.-A. Latın Amerikasında ən böyük dəniz portlarındandır; okean gəmiləri daxil olur (illik yük dövriyyəsi təqr. 20 mln. *t*). Dörd terminaldan (Puerto-Riaçuelo, Dok-Sud, Puerto-Madero və Puerto-Nuevo) ibarətdir. B.-A. ölkənin daxili r-nları ilə 18 d.y. xətti ilə əlaqələnir; elektrikləşdirilmiş şəhər d.y. xətti var. Metropoliten (1914 ildən, Cənubi Amerikada ən qədim). Beynəlxalq aeroport (Eseysa).

B.-A. ölkənin əsas siyasi, iqtisadi, elmi və mədəni mərkəzidir. Əsası 1536 il fevralın 2-də ispan konkistadoru Pedro de Mendosa tərəfindən Müq. Üç üqnum şəhəri və Müq. Məryəm ana səmt küləyi portu (Ciudad de la Santisima Trinidad y Puerto de Nuestra Señora de Santa María de los Buenos Aires) adı ilə qoyulmuşdur. 1541 ildə hindilərin təzyiqi ilə



Buenaventura şəhərindən görünüş.

Buenos-Ayres gölü.





Buenos-Ayres şəhərindən görünüş.

B.-A.-i tərk edən ispanlar şəhəri dağıdıb yandırmışdılar. 1580 il iyunun 11-də B.-A.-in bərpasına başlanılmışdır. 18 əsrin əvvəllərində B.-A. Yeni Dünyanın iri ticarət və mədəni mərkəzlərindən biri olmuşdur. 1776 ildən Rio-de-la-Plata vitse-krallığının paytaxtı idi. 1806–07 illərdə Britaniya dəniz desantı tərəfindən tutulmuşdu. 1810 il mayın 25-dən Argentinanın müstəqillik qazanması ilə nəticələnən May inqilabının mərkəzi idi. 1816–26 illərdə La-Plata birləşmiş əyalətlərinin paytaxtı, sonrakı illərdə ölkənin faktiki siyasi mərkəzi olmuşdur. 1838–40 illərdə Fransa, 1845–50 illərdə Britaniya və Fransa dəniz donanmalarının blokadasına davam gətirmişdir. 1880 ildə rəsmən Argentinanın paytaxtı statusunu almışdır.

Düzbucaqlı küçələr şəbəkəsi (Avenida 9 de Xulio, eni 140 *m*; Avenida Rivadaviya, uz. təqr. 20 *km*. və s.) və La-Plata körfəzinə açılan Prezident evi ilə birlikdə baş meydan (“Kasa-Rosada”, 1874–94, memarlar E. Aberq, F. Tamburini) şəhərin planlaşdırılmasının əsasını təşkil edir. Memarlıqda təmtəraqlı barokko, manuelino portuqal üslubu və Peru rokokosunun təsiri, klassisizm və müxtəlif müasir üslubların elementləri birləşir. San-İqnasio (1710–34, memarlar X.Kraus, A. Blanki), El-Pilar (1716–32), San-Fransisko (tikintisi 1754 ildə başa çatmışdır), Santa-Katalina (1737–52) kilsələri, Ratuşa (Kabildo, 1719–86, hamısının memarları A. Blanki, X.B. Primoli və b.); Santo-Dominqo monastırının Nuestra-Senyora-del-Rozario bazilikası (1752–73, memarlar A. Maselya və F. Alvares); çoxmərtəbəli gəlir evləri və modern üslubunda mülklər; eklektizm ruhunda (Konqresin binası, 1898–1906, memarlar V. Meano, X. Dormal), konstruktivizm üslubunda (El-Kavanaq göydələni, 1935–36) binalar inşa edilirdi. Şəhərdə çoxlu yaşıl bulvarlar, bağ və parklar; M. Belqrano (1898, heykəltəraş E. Himenes), X. Kolumb (1916, heykəltəraş A. Sokki), K.M. de Alvear (1913–23, heykəltəraş E.A. Burdel) və S. Bolivarın (1942, heykəltəraş X. Fioravanti) abidələri, B.-A.-in 400 illiyi şərəfinə ucaldılmış obelisk (1936, memar A. Prebiş) var.

Buenos-Ayres. Respublika meydanı.



Əsas elmi müəssisələri: Tibb (1822), Dəqiq, Fizika və Təbiyyat Elmləri (1874), Tarix (1893), Hüquq və Sosial Elmlər (1874), Ədəbiyyat (1931) akademiyaları, Milli EA (1935), Zərif Sənətlər (1936), Əxlaq və Siyasi Elmlər (1938), Coğrafiya (1956) akademiyaları. 130-dan çox elmi tədqiqat in-tu, assosiasiya, elmi mərkəz və cəmiyyət, o cümlədən Argentina Elmi Cəmiyyəti (1872), Argentina Memarlar (1886), Tibb (1891), Dante Aligyeri (1896) assosiasiyaları; numizmatika və asari-ətiqə (1872), hərbi coğrafiya (1879), statistika və siyahıyaalma (1894) və s. elmi tədqiqat in-tları var. Ən iri un-tləri: B.-A. Un-ti (1821), Milli Texnologiya Un-ti (1959). K.L.Buçardo ad. Milli Konservatoriya (1924); Konqres kitabxanası (1859), k.t. (1866), pedaqoji (1870) və s. kitabxanalar fəaliyyət göstərir.







Buenos-Ayres Universiteti.

B.-A.-da təbiyyat elmləri (1823), Milli tarix (1889), Milli zərif sənətlər (1895), etnoqrafiya (1904), Milli dekorativ sənət (1937), ispan-Amerika incəsənəti “İsaak Fernandes Blanko” (1947; müstəmləkə dövrü əsərləri), müasir incəsənət (1956), ispan incəsənəti, şəhər muzeyi və s. muzeylər, şəhərətrafı Tiqrədə millətin dəniz muzeyi (1892); “Kolon” (Latın Amerikasında yeganə daimi opera və balet teatrı), “Politeama” (1879), “San-Martin” (1911 ildə Yeni teatr kimi açılmışdır, 1950 ildən indiki adını daşıyır; bina – 1953–60, memarlar M. R. Alvares, M.O. Ruis), “Servantes” (1921), “Pikadilyi” (1989) teatrları; B.-A. Müasir baleti (1968) fəaliyyət göstərir. Müstəqil kino beynəlxalq festivalı keçirilir (1998 ildən). Milli simfonik (1949), Filarmonik (1949), Milli radio (1930) və “Kolon” teatrının (1924) orkestrləri var.

B.-A.-da dünya şahmat birinciliyi uğrunda A.A. Alyoxin ilə X. Kapablanka arasında tarixi matç, Ümumdünya şahmat olimpiadaları (1939 və 1978), kişilər arasında voleybol üzrə dünya çempionatı (2002), ənənəvi tennis turnirləri keçirilmişdir. Paytaxtın ən böyük “Monumental” stadionunda (75 mindən artıq tamaşaçı) futbol üzrə dünya çempionatının final oyunu (1978) olmuşdur. “River Pleyt”, “Boka Xuniors”, “İndependyente”, “Rasinq” ən güclü futbol klublarıdır.

B.-A. Cənub yarımkürəsinin ən böyük maliyyə mərkəzlərindən biridir. Burada Latın Amerikası və Argentinanın ən iri banklarının, o cümlədən Argentina Resp. Mərkəzi Bankının, ölkənin ən iri kommersiya Milli Bankının, həmçinin “Banko de Qalisiya-i-Buenos-Ayres” (aktivlərinin həcminə görə regionun 10 ən iri bankları sırasına daxildir), “Banko de la provinsiya de Buenos-Ayres”, “Banko Syudad de Buenos-Ayres”, “Banko İtau”, “Banko du Brazil”, “Sitibank Argentina” və s.-in mənzil-qərargahları yerləşir. İqtisadiyyatın strukturunda xidmət sferası, o cümlədən maliyyə sektoru (şəhərin ümumi regional məhsulunun 19,2%-i, daşınmaz əmlakla bağlı əməliyyatlar (18,9%) və ticarət (12%) üstünlük təşkil edir; 1990-cı illərin əvvəllərindən fəal sənayesizləşdirmə prosesi gedir. Emal sənayesində ümumi regional məhsulun 11,4%,-i (2001; 1993 ildə 16%) yaradılır və işləyənlərin 10,1%-i çalışır. İnvestisiyaların təqr. 80%-i şəhər infrastrukturunun (elektrik təchizatı, tikinti, telekommunikasiyalar) inkişafına, 2,5%-i isə sənayeyə qoyulur. B.-A. hüdudlarında sənaye obyektləri Barrakas, Mataderos, Nueva-Pompeya cənub r-nlarında cəmləşmişdir. Ən iri müəssisələr, əsasən, şəhərdən kənarda, Böyük B.-A. hüdudlarında yerləşdirilmişdir (Argentina müəssisələrinin ümumi sayının 60%-indən çoxu). Ən çox maşınqayırma, o cümlədən avtomobilqayırma (Xeneral-Paçeko, Xeneral-San-Martin, Tres-de-Febrero, Matansa, Lanus şəhərətraflarında “Ford”, “Fiat”, “Folksvagen”, “Reno”, “Toyota” və s. şirkətlərin Argentina filialları), k.t. texnikası və gəmilərin (Tiqre) istehsalı və yeyinti sənayesi inkişaf etmişdir. Böyük B.-A.-da Argentinanın mal əti istehsalı üzrə ixtisaslaşmış iri ət-soyuducu müəssisələrinin çoxu (onların bazasında bir sıra əczaçılıq preparatları istehsalı inkişaf etmişdir) cəmləşmişdir; şərab və pivə də (Latın Amerikasında ən yaxşı pivələrdən biri “Kilmes”dir) istehsal olunur. Metallurgiya (Avelyaneda), elektrotexnika, neft emalı, kimya (Florensiya-Varela, Esteban-Eçeverria, Moreno, Kilmes), toxuculuq (Kilmes), dəri-ayaqqabı, tikiş sahələri müəssisələri də fəaliyyət göstərir. Paytaxt aqlomerasiyasını elektrik enerjisi ilə “Kostanera” İES və “Atuça-1” AES təchiz edir; iri sənaye obyektlərinin yüksək təmərküzləşməsi elektrik enerjisi çatışmazlığına səbəb olur.

**BÜFER** (ing. buffer, buff – təkanı zəiflətmək) – zərbələri zəiflədən tərtibat. 1) n ə q l i y y a t d a vaqon və lokomotiv

“Kasa-Rosa” (“Çəhrayı ev”) meydanında Prezident iqamətgahı.



B.-ləri qatarların hərəkəti və manevretmə zamanı uzununa zərbə və sıxılma qüvvələrini qəbul edir. *Avtoqoşucu* ilə təchiz edilmiş qatarlarda B. yalnız köməkçi funksiyanı yerinə yetirir, uzununa və eninə hərəkət dinamikasını yaxşılaşdırır. Avtomobil B.-ləri (b a m p e r l ə r, əsasən, kənar maneələrin yaratdığı təsadüfi zərbələri qəbul edib zəiflədir. 2) H e s a b l a m a t e x n i k a s ı n d a verilənləri müvəqqəti saxlamaq üçün kompüterin əməli yaddaş qurğusunda sahə, yaxud qurğunun kontrollerində xüsusi yaddaş qurğusu B. adlanır; verilənlərin əsas yaddaşın bir sahəsindən digərinə köçürülməsi; mübadilə əməliyyatları zamanı daxiletmə-xaricetmə qurğuları ilə əsas yaddaş arasında mübadilə sürətinin uyğunlaşdırılması; bir sistemin daxilində bir-birinə nəzərən asinxron işləyən, sürəti, yaxud səviyyəsi müxtəlif olan iki qurğu arasında uyğunluq yaradılması üçün tətbiq edilir. Verilənlərin B.-ə yazılması və yaddaşda müvəqqəti saxlanılması prosesi buferləşdirmə adlanır.

**BÜFER BATAREYA** – sabit cərəyan generatoru və ya düzləndirici qurğu ilə paralel qoşulmuş akkumulyator batareyası; generatorun gücü azaldıqda enerji təchizatını, həmçinin dövrədə gərginlik və cərəyanın artıb-azalmasını kompensasiya edir. Mexaniki *buferə* uyğun olaraq, B.b. adlandırılmışdır. Əsas enerji mənbəyinin işi dayandıqda, B.b. çox vaxt ehtiyat qidalandırıcı kimi istifadə olunur. Avtomobil və d.y. nəql.-nda tətbiq edilən akkumulyator batareyaları da B.b. rejimində işləyir.

**BÜFER MAYE** – qazıma zamanı qazıma məhlulu ilə tamponaj məhlulunun qarışmasının qarşısını almaq və quyu divarlarını təmizləmək üçün işlədilir. B.m.-lərə şirin su; duzlarla, dispersləşdirici agent və s. ilə doydurulmuş sular; turşu (məs., xlorid) məhlulları; səthi aktiv maddələrlə qarışdırılmış dizel yanacağı (neft); səthi aktiv maddə məhlulları aiddir. Quyulardan qazıma məhlullarını sıxışdırıb çıxarır, quyunun, novça və oyuqların (kəhlərin) divarlarından qazıma məhlullarının qalıqlarını yuyur, qazıma və tamponaj məhlullarının qatılaşmasının qarşısını alır, sement daşının quyunun və qoruyucu borunun divarlarına adheziyasını artırır, qoruyucu boruların korroziyasının qarşısını alır.

**BÜFER MƏHLULLAR** – mühitin tərkibi dəyişildikdə hər hansı parametrin, məs., hidrogen göstəricisinin pH (turşu-əsas B.m.-ı), oksidləşmə-reduksiya potensialının (oksidləşmə-reduksiya B. m.-ı), metal ionlarının konsentrasiyasının (pM B. m.-ı) qiymətini sabit saxlayan məhlullar. B. m.-ın miqdari xarakteristikası bufer həcmdir.

Ən geniş yayılmış sulu turşu-əsas B.m. zəif turşu (HA) və qoşulmuş əsasın ($A^-$) qarışığından, məs., $NH_4^+$ və $NH_3$, yaxud $CH_3COOH$ və $CH_3COO^-$-dan ibarətdir. B. m.-a bir qədər qüvvətli turşu, ya da əsas əlavə etdikdə, həmçinin onları qatılaşdırdıqda, yaxud durulaşdırdıqda, HA, $A^-$ və $H_2O$-nun iştirakı ilə hərəki tarazlıq nəticəsində məhlullardakı pH-ın qiyməti, demək olar ki, sabit qalır.

Turşu-əsas B. m.-ın bufer həcmi – məhlulun pH-ının bir vahid dəyişilməsi üçün zəruri olan qüvvətli turşunun (əsasın) mol sayı – HA və $A^-$-ın ümumi qatılığının yüksəlməsi ilə artır və onların 1:1 nisbətində maks.-a çatır. Universal B.m. pH-ın geniş intervalında [məs., pH 2–12 intervalı üçün Britton–Robinson bufer məhlulu (dietilbarbitur, limon, borat turşuları ilə kalium-dihidrofosfatın qarışığı)] nisbətən yüksək bufer həcminə malikdir. Bir çox biol. mayelər (məs., qan, limfa) B. m.-dır. Kimyada reaksiyaların öyrənilməsi və aparılmasında, biokimyada, tibdə və s. sahələrdə tətbiq edilir.

*Əd.*: М е й т и с Л. Введение в курс химического равновесия и кинетики. М., 1984; Основы аналитической химии /Под ред. Ю.А. Золотова. М., 2004, Кн.1.

**BÜFER PARTLAYIŞI** – əvvəlki partlayışdan sonra yığılmamış mədən kütləsinin və ya monolit massivin ("buferin") altındakı süxurların partlayışla qopardılması üsulu. B.p. qopmuş mədən kütləsinin ölçü və formasını idarə etməyə, süxurların dağıdılma keyfiyyətini yüksəltməyə, partlayışdan yaranan tozun həcmini azaltmağa, sərbəst qazıma, partlatma, yükləmə və nəqletmə, həmçinin, selektiv qazıntı işlərini aparmağa, partladılan süxurların həcmini artırmağa şərait yaradır. Karyerlərdə B.p.-nın effektivliyini təmin etmək üçün quyu atımları ilə çoxcərgəli partlayış zamanı quyuların birinci cərgəsində partlayıcı maddə sərfi artırılır. B.p.-nın hesablanmasında əsas məsələ buferin eninin təyinidir; buferin eni süxurların doğranma dərəcəsinə və partlayışdan sonra mədən kütləsi uçuğunun eninə müxtəlif şəkildə təsir edir. Süxurların parçalanmasına sərf edilən partlayış enerjisinin maks. qiymətini təmin etmək üçün buferin eni süxurların bərkliyindən asılı olaraq (orta və ortadan aşağı bərklikli süxur karyerlərində 10–12 *m*, bərk süxur karyerlərində isə 20–25 *m*) müəyyənləşdirilir. B.p. kömür şaxtalarında hündür pillələrin (çıxıntıların) partladılaraq dağıdılmasında, mürəkkəbstrukturlu faydalı qazıntı yataqlarının filiz zonalarında partlatma işlərinin aparılması zamanı partlayışdan sonra onların geoloji strukturunun saxlanılmasında və s. tətbiq edilir.

**BÜFER YADDAŞ QURĞUSU** – verilənlərin mübadiləsi, oxunması, yaxud yazılması prosesində onların müvəqqəti mühafizəsini təmin edən və onu müxtəlif qurğular arasında paylayan ayrıca *yaddaş qurğusu* və ya kompüterin yaddaş sahəsi. B.y.q. üçün informasiyanın verilməsi və qəbulu zamanı müstəqil kanalların, yazı və oxu rejimlərində müraciətin müxtəlif vaxt və tezliklərinin olması, oxunmuş informasiyanın bərpasına ehtiyacın olmaması və s. xarakterikdir. Terminallarda, yardımçı qurğularda, xarici yaddaş qurğularında və mərkəzi prosessorda istifadə edilir.

**BÜFER ZONASI** – 1) qorunan təbii ərazilərin (qoruq, milli park və s.) ətrafında müəyyən olunmuş sahə. B.z.-nda təsərrüfat fəaliyyəti məhdudlaşdırılır. B.z.-nı saxlamaqda məqsəd əsas qorunan ərazilərin mühafizəsini möhkəmləndirmək, onların ekoloji tarazlığının sabitliyini təmin etməkdir; 2) *biosfer rezervatlarında* qoruq nüvəsi ilə keçid zonası arasında yerləşən zolaq.

**BÜFFALO** – ABŞ-ın şm.-ş.-ində, Nyu-York ştatında şəhər. Əh. 259,4 min (aqlomerasiyada 1134,0 min; 2012). Kanada ilə sərhəddə, Eri gölünün ş. qurtaracağında, Niaqara çayının mənbəyində (onun sağ sahilində) yerləşir. Böyük Göllərdə mühüm port (dəniz gəmilərini qəbul edə bilir). Avtomobil və d.y.-ları qovşağı. Beynəlxalq "Buffalo-Niaqara" aeroportu. Metropoliten.

B.-nun yerində ilk məskən 1758 ildə Fransa kolonistləri tərəfindən salınmışdı (1759 ildə britaniyalılar onu yandırmışdılar). 19 əsrin əvvəllərində burada hollandların Yeni Amsterdam məskəni yaranmışdır; 1808 ildən B. adı ilə Niaqara dairəsinin mərkəzi olmuş, 1813 ildə *İngiltərə-Amerika müharibəsi (1812–14)* zamanı ingilis qoşunları tərəfindən yandırılmış, sonra yenidən inşa edilmişdir. 1832 ildə şəhər statusunu almışdır. B.-nun sürətli iqtisadi inkişafı Böyük gölləri Qudzon çayı vasitəsilə Nyu-Yorkla birləşdirən Eri kanalının (1825) tikintisi ilə başlamışdır. 19 əsrin ortalarında B. "Yer-







Buffalo şəhərindən görünüş (mərkəzdə şəhər bələdiyyəsi).

altı dəmir yolunun" (ABŞ-ın cənub ştatlarından Kanadaya qaradərili qulların keçirildiyi yol) əsas məntəqələrindən biri idi. 19 əsrin sonu – 20 əsrin 1-ci yarısında mühüm ticarət və sənaye (unüyütmə, metallurgiya və s.) mərkəzi, həmçinin Polşa mühacirətinin mərkəzlərindən biri olmuşdur. Müqəddəs Lavrenti su yolları sistemində gəmiçiliyin açılışından (1959) sonra şəhər əsas yükdaşıma nəqliyyat yollarından kənarda qalmışdır. 1970–80-ci illərdə ABŞ-ın Şimal-Şərqində ağır sənayedə baş vermiş böhran nəticəsində B. "Ölkənin paslı qurşağı"na daxil olan və tənəzzül keçirən sənaye şəhərləri sırasında idi. B.-nun poladtökmə müəssisələrinin çoxu, o cümlədən c. şəhərətrafı Lakavonnada yerləşən "Betlehem stil" korporasiyasına məxsus iri metallurgiya zavodu bağlanmışdı. 20 əsrin ortalarından 21 əsrin əvvəllərinədək B. əhalisinin sayı təqr. 2 dəfə azalmışdır.

B.-nun mərkəzi hissəsində ar deko üslubunda binalar və müasir göydələnlər inşa edilmişdir. Müq. Pavel böyük kilsəsi (1849–51, memar R. Apson); Dövlət hospitalı (1872–77, memar H. *Riçardson*); Martin evi (1904, memar F.L. *Rayt*) maraqlı memarlıq nümunələridir. Niaqara-Skuer baş meydanında U. *Mak-Kinlinin* abidəsi (1901 ilin sentyabrında onun qətlə yetirildiyi yerdə) və T. *Ruzveltin* inauqurasiyasına (1901) həsr olunmuş memorial yerləşir. Ar deko üslubunda 28 mərtəbəli Şəhər ratuşası binası (1932) ABŞ-da ən hündür ratuşadır. Qaranti-bildinq (1894–96, memar L. *Salliven*) ölkədə ilk göydələnlərdən biridir.

Rosuell Park ad. onkoloji xəstəliklərin öyrənilməsi üzrə in-t (1898), Nüvə tədqiqatları mərkəzi, un-t (1846), kolleclər, o cümlədən Dövlət təsviri sənətlər kolleci (1871), Kanizius-kollec (1870), Meday-kollec (1875) var.

Olbrayt-Noks rəssamlıq qalereyası (əsası 1905 ildə qoyulmuşdur; 18–20 əsrlər Avropa və Amerika boyakarlığı nümunələrindən ibarət kolleksiya, o cümlədən K. Mone, P. Pikasso və A. Matissin əsərləri), Elm muzeyi (1861), B. tarix cəmiyyətinin və Eri dairəsinin muzeyi fəaliyyət göstərir. B. portundakı Dəniz parkında İkinci dünya müharibəsi dövrünə aid gəmilərin ekspozisiyası vardır.

Müasir B. iri ticarət-maliyyə və sənaye mərkəzidir. Ş.-də işləyənlərin çoxu xidmət sferasında çalışır. Avtomobil qovşaqları və detalları, energetika avadanlığı, dəzgahlar, aviasiya texnikası istehsal olunur; kimya, yeyinti (o cümlədən unüyütmə) və s. sənaye müəssisələri var.

Niaqara şəlaləsi (ildə 10 mln.-dan çox turist); ümumi gücü 4400 *MVt* olan bir sıra hidroakkumulyasiya elektrik st. (Kanada və ABŞ-a məxsusdur; Niaqara çayından suyun toplanılması şəlalənin yaxınlığında turistlərin olmadığı gecə saatlarında həyata keçirilir) B. yaxınlığındadır. "Robert Mozes" və "Lyuiston" SES-ləri var.

**BUFFONÁDA** (ital. buffonata – zarafat, lağlağı) – aktyor oyunu üsulu (adətən komik və ya satirik səciyyəli rollarda). B.-da obrazın xarakterik əlamətlərini qabarıq göstərməyə, şişirtmələrə, zahiri dinamikaya meyil güclüdür. Orta əsrlərdə meydan tamaşalarında (him-cim, *fars* və s.) yaranmış, italyan *del arte komediyalarında* geniş yayılmış, Molyer, K. Qoldoni və b.-nın pyeslərinin tamaşalarında istifadə edilmişdir. B. sonralar başqa Avropa teatrlarına da təsir göstərmişdir. B.-da mükəmməl komediya texnikası tələb olunur. B. elementləri xüsusilə sirk, həmçinin teatr və kinematoqrafiya janrlarında da tətbiq edilir.

**BÜGEL** (holl. beugel) – 1) dirəyin (yortacın) yerə çaxılarkən onun parçalanıb dağılmasının qarşısını almaq üçün yuxarı ucuna taxılan metal halqa; 2) yelkənli gəminin dorunda ipləri bərkitmək üçün halqa; 3) giroskopun kardan asqısının halqası rolunu oynayan əyrixətli tir; 4) tramvayın qövsşəkilli cərəyanqəbuledicisinə geydirilən taxma; kontakt məftili üzərində sürüşərkən dartı-elektrik mühərrikinin elektrik dövrəsini qapayır.

**BUGENVİL** (Bougainville) Lui Antuan de (11.11.1729, Paris – 31.8.1811, Paris) – fransız dəniz səyyahı, vitse-admiral (1791), Fransa EA üzvü (1795). 1750 ildən hərbi xidmətdə olmuşdur. Kanadada və Avropada Yeddiillik müharibədə iştirak etmişdir. 1763–65 illərdə Folklend a-rını öyrənmiş, 1766–69 illərdə birinci fransız dövr-aləm ekspedisiyasına rəhbərlik etmişdir. Ekspedisiya dövründə Luiziada və Tuamotu arxipelaqlarını, Solomon a-rını və Yeni Hebrid arxipelaqında bir neçə adanı kəşf etmişdir (bəzi hallarda təkrarən). B.-in dövr-aləm səyahəti, bir çox alimin (təbiətşünaslar, astronomlar və b.) iştirak etdiyi ilk elmi ekspedisiyalardan biridir. Səyahəti haqqında "Dövr-aləm səyahətinin təsviri" (1771–72) əsərini yazmışdır. 1772 ildə Cənub qütbünə ekspedisiyanın layihəsini təklif etmişdir. 1781–82 illərdə Fransa donanmasının hərbi əməliyyatlarında ABŞ tərəfində *Şimali Amerikada istiqlaliyyət müharibəsində (1775–83)* iştirak etmişdir. Konstitusiyalı monarxiyanın tərəfdarı olmuş, Fransa inqilabı zamanı bir neçə ay məhbus həyatı (1794) yaşamışdır. Napoleon Bonapartın dövründə Senatın üzvü (1799) olmuş, Fəxri





Bugenvil adasının sahilləri.

Legion ordeninə (1804) layiq görülmüş, qraf titulu (1808) almışdır. Solomon a-rında ada, nov və boğaz, Folklend a-rında ada, Yeni Hebrid a-rında boğaz, Magellan körfəzində buxta, Yeni Qvineya a.-nda dağ, Mərcan dənizində rif B.-in adını daşıyır.

**BUGENVİL** (Bougainville) – Sakit okeanda Solomon a-rı arxipelaqının ən böyük vulkanik adası. Papua–Yeni Qvineya dövlətinin tərkibində muxtar ərazi. Sah. 10 min $km^2$. Səthi dağlıqdır, hünd. 2743 *m*-ədək (Balbi vulkanı), rütubətli tropik meşələrlə örtülüdür. Banan, hindqozu becərilir. Meşə materialları tədarük edilir. İri mis yatağı var. Əsas şəhəri Aravadır. L.A. *Bugenvilin* şərəfinə adlandırılmışdır.

**BUGENVİL NOVU** – Sakit okeanın c.-q. hissəsində, Bugenvil a.-nın (Solomon a-rı) c.-q. ətəyində dərin sualtı çökəklik. Uz. 330 *km*, orta eni 39 *km*, dərinliyi 9103 *m*-ədəkdir. Şm.-q.-də Yeni Britaniya novu ilə birləşir. B.n. ada qövsünün xarici, okean tərəfində deyil, daxili tərəfində yerləşən nadir novlardandır. Ərazi yüksək seysmik və aktiv ada qövsü vulkanizmi (Solomon a-rı) zonasındadır.

**BUGENVİLLEYA** (Bougainvillea) – bitki cinsi. Sürünən, dırmanan, yaxud ilişən zoğları olan kollar və kiçik ağaclardır. Yarpaqları növbəli, yumurtavarı-oval, tamkənarlıdır. Xırda, qoltuqda yerləşən, çiçəkləri ağ, sarı, narıncı, çəhrayı, qırmızı rəngli 3 iri çiçəkyanlığı ilə əhatələnmişdir. Cənubi Amerikanın, Asiyanın tropik və subtropik ərazilərində 18 növü məlumdur. Gülçülükdə ən çox Braziliyadan gətirilmiş çılpaq B. (B. qlabra) becərilir. L.A. *Bugenvilin* şərəfinə adlandırılmışdır.

**BUGER**, B u g e (Bouguer) Pyer (16.2. 1698, Bretan, Le-Kruazik – 15.8. 1758, Paris) – fransız alimi, fotometriyanın banilərindən biri, Paris EA üzvü (1731). Vanndakı yezuit məktəbində tərbiyə almışdır. 1735–43 illərdə Yerin formasını müəyyən etmək məqsədilə Peruda dərəcə ölçüləri aparan ekspedisiyanın elmi rəhbəri olmuşdur. Tədqiqatları fiziki optikaya, astronomiyaya, geodeziyaya, hidroqrafiyaya, gəmi nəzəriyyəsinə həsr olunmuşdur. "İşığın miqdarı" anlayışını və fotometriyanın digər anlayışlarını irəli sürmüş, fotometrik cihazları təsvir etmiş, işığın parlaqlığının ölçülməsi üsullarını işləyib hazırlamışdır. 1729 ildə işıq dəstəsi intensivliyinin mühitdə zəifləməsi qanununu müəyyən etmişdir (*Buger–Lambert–Ber qanunu*). Gəmiçilik işinin inkişafında böyük rol oynamış "Gəmi haqqında traktat" (1746) və "Şturman sənətinin nəzəriyyə və praktikasını əhatə edən naviqasiyaya dair yeni əsər"in (1753) müəllifidir.



**BUGER-LAMBERT-BER QANUNU** – udducu mühitdən keçərkən monoxromatik işıq dəstəsinin intensivliyinin zəifləməsini müəyyən edir (çox vaxt Buger qanunu adlanır). $I_0$ intensivlikli işıq dəstəsi $l$ qalınlıqlı udducu maddə təbəqəsindən (layından) keçərkən $I=I_0 exp(-k_\lambda l)$ intensivliyinə qədər azalır; burada $k_\lambda$ – müxtəlif dalğa uzunluğu üçün müxtəlif olan udulma əmsalıdır. 1729 ildə P. *Bugerin* eksperimentlə müəyyən etdiyi bu qanunu 1760 ildə İ.H. *Lambert* sadə fərziyyələrlə nəzəri cəhətdən əsaslandırmışdır: $z$ qalınlıqlı maddə təbəqəsindən keçərkən işığın intensivliyinin nisbi dəyişməsi $dI/I=-k_\lambda z$ tənliyi ilə müəyyən olunur. Bu tənliyin həlli B.–L.–B.q. adlanır. Qanunun fiziki mahiyyəti udulmanın (foton itkisinin) maddədən keçən işığın intensivliyindən asılı olmamasıdır. Lakin işığın çox böyük intensivliklərində qanun pozula bilər və bu halda $k_\lambda$ intensivlikdən asılı olur (bax *İşığın çoxfotonlu udulması, Öz-özünə induksiyalanmış şəffaflıq*).

1852 ildə alman alimi A. Ber bu qanunu udducu olmayan həlledicilərdəki işıqudducu maddə məhlulları üçün ümumiləşdirmişdir. Məhlullar üçün udulma əmsalı $k_\lambda=\chi_\lambda C$ şəklində yazıla bilər; burada $C$ – həllolunmuş maddənin konsentrasiyası, $\chi_\lambda$ – udducu maddə molekulunun $\lambda$ dalğa uzunluqlu işıqla qarşılıqlı təsirini xarakterizə edən yeganə konsentrasiyalı məhlulun udulma əmsalıdır və konsentrasiyadan asılı deyildir. Ber düsturu vasitəsilə udulmanı ölçməklə kimyəvi analizi mürəkkəb olan maddələrin konsentrasiyasını tez təyin etmək olur. Lakin udducu maddənin konsentrasiyası kifayət qədər böyük olduqda bu düsturdan kənaraçıxmalar müşahidə edilir.

**BUGİSLƏR**, b u g i l ə r, b u g i n e z l ə r (özlərini u g i, t o u g i adlandırırlar) – İndoneziyada avstroneziyalı xalq. Əsasən, Sulavesi a.-nın c.-q. dağlıq r-nlarında məskunlaşmışlar. Həmçinin Kalimantan a.-nın ş. sahillərində, Flores, Riau, Yeni Qvineya adalarında və Malakka y-a-nda yaşayırlar. Sayları İndoneziyada 3,9 mln. nəfər (2005), Malayziyada 654 min nəfər, Sinqapurda 1,5 min nəfərdir. *Sulavesi dillərinin* c. qrupuna daxil olan bugi (basa ugi) dilində danışırlar. Dialektləri bone, luvu, soppenq və s. İndoneziya dili də yayılmışdır. Yazıları (lontara, hurupuk-sulapak-eppak) hind mənşəli olan hecalı bugi-makasar yazı sistemi, 20 əsrdən isə latın qrafikalı yazı sistemidir. Dindarların 95%-i müsəlmanlardır, xristianlar və hinduistlər də var.

B.-in və onlara qohum olan *makasarların* əcdadları 1-ci minillik – 2-ci minilliyin əvvəllərində Qərbi İndoneziyanın hindu dövlətlərinin mədəni və siyasi təsirinə məruz qalmış, dəniz ticarəti ilə məşğul olmuş, Malayya arxipelaqı adalarında məskunlaşmağa başlamış, Avstraliya sahillərinə qədər üzüb çatmışlar. Onların ənənəvi yazı sistemi və panteonu olmuşdur.







Gənc buqis qadını ənənəvi geyimdə.

15–16 əsrlərdə B.-in Bone, Luvu, Soppenq və s. knyazlıqları yaranmışdı. 17 əsrin əvvəllərində qonşu Qoa dövlətinin təsiri ilə islamı qəbul etmişlər. Ədəbiyyat, fəlsəfə, tarixnəvislik təşəkkül tapmışdı. B. 17–18 əsrlərdə Malayya arxipelaqındakı siyasi hadisələrdə fəal iştirak etmiş, Niderland müstəmləkəçilərinə və Malakka feodallarına qarşı mübarizə aparmışlar.

Əsas ənənəvi məşğuliyyətləri balıqçılıq, sahilyanı ovalıqlarda suvarma çəltikçiliyi, dağlıq yerlərdə (quru dərələrdə) isə çəltik və qarğıdalı becərilməsidir. Mahir dənizçi və dəniz quldurları kimi tanınırdılar. Ənənəvi sənətkarlıq sahələri toxuculuq (o cümlədən ipəkdən), hörmə (o cümlədən səhləb saplaqlarından), dəmirçilik və zərgərlik, kiçik yelkənli gəmilərin inşasıdır. Şəhər (Ucunqpandanq, Parepare) əhalisinin sayı artmaqdadır. Ənənəvi sosial təşkilatlanma makasarlardakına yaxındır. Silki-kasta bölgüsü qorunub saxlanılır, hiperqamiya və müvəqqəti *uksorilokallıq* mövcuddur. Ali silklərə mənsub kişilər saçlarının uzun, aşağı silklərə mənsub kişilər isə saçlarının qısa olması ilə fərqlənirlər. Parakəndə planlı ənənəvi məskənləri 40-a qədər yortacəsaslı çoxailəli evlərdən ibarətdir.

Ənənəvi elementli müasir buqis evi.



Narkotik maddələrdən istifadə B.-in arasında *amok* psixi xəstəliyinin yayılmasına səbəb olmuşdur. Xoruz döyüşdürməsi geniş yayılmışdır. Ənənəvi inancların qalıqları mövcuddur, şamanları (bissu) da var. B.-in "La-qaliqo" mifoloji eposu, əcdadların kultu saxlanılmışdır. *Pantun* yarışmaları səciyyəvidir, kölgə teatrı geniş yayılmışdır.

**BUĞA** – qaramalın törədici erkəyi. Cinsin yaxşılaşdırılmasında və çoxaldılmasında döllük kimi istifadə olunur. Damazlıq üçün yaxşı inkişafa və eksteryerə, möhkəm sağlamlığa, yüksək cinsi potensiyaya və keyfiyyətli spermaya malik təmizcinsli B.-lar seçilir; bu zaman B.-nın mənşəyi, eksteryeri, konstitusiyası, sağlamlığı, cinsi aktivliyi, ondan alınan nəslin keyfiyyəti nəzərə alınır. Cins B.-ların diri çəkisi 750–850 *kq*-a, ətlik B.-larınkı isə 700–800 *kq*-a qədər olur. Cinsi yetkinliyə 6–8 aylığında çatır. B.-ların tezyetişən cinsləri 14–16 aylığında, gecyetişənləri isə 16–18 aylığında cütləşməyə buraxılır. Bir B. sərbəst cütləşmədə 50–70, xüsusi şəraitdə 150–200, süni mayalandırmada isə 1000–3000 inəyi mayalandırır. Ən yaxşı B.-ların sperması ilə 5000 və daha artıq inək mayalandırıla bilər. Naxırın keyfiyyətcə yaxşılaşdırılmasında B.-ların rolu çox böyük olduğu üçün onlar ən yaxşı yemlənmə və saxlanma şəraiti ilə təmin edilir.

**BUĞA** (lat. Taurus) – zodiak bürcü; ən parlaq ulduzu Əldebarandır. B. bürcündə *Ülkər* ulduz topası yerləşir. Azərbaycanda payızda və qışda görünür (bax *Ulduz xəritəsi*).

**BUĞA ƏL-KƏBİR**, B ö y ü k B u ğ a (?–862) – Abbasilər xilafətinin sərkərdələrindən biri. Mənşəcə türkdür. Ərəb əsarətinə qarşı xalq üsyanlarını yatıran Xilafət qoşunlarına başçılıq etmişdir. 835/36 ildə *Həştadsər vuruşmasında* xürrəmilər B.K.-in qoşununu məğlubiyyətə uğratmışdılar. B.K. xürrəmilərin məğlubiyyətindən sonra 840/41 ildə Azərb.-da əl-Fərqaninin başçılıq etdiyi qiyamı, 844–47 illərdə bədəvilərin (Hicazda), 851 ildə isə ermənilərin üsyanlarını yatırmışdı. Həmin ildə Xilafətdən ayrılmağa çalışan Tiflis hakimi İshaq ibn İsmayılı məğlub etmişdi. 853/54 ildə Xilafətə qarşı çıxmış Xaçın hakimi Atrnersexi, Beyləqan hakimi Əbu Musanı və b.-nı əsir alaraq Samirə ş.-nə aparmışdı. B.K. 862 ildə xəlifə Vasiqin [842–847] nəvəsi Müstəini xəlifəliyə keçirmişdi.

**BUĞA ƏS-SƏĞİR**, K i ç i k B u ğ a (?–868) – Abbasilər xilafətinin sərkərdələrindən biri. Mənşəcə türkdür. Ərəb əsarətinə qarşı xalq üsyanlarını yatıran Xilafət qoşunlarına başçılıq etmişdir. Təbriz hakimi Məhəmməd ibn əl-Bəisin (Babəkin tərəfdarlarından olmuş, sonralar ona xəyanət etmişdir) 848 ildə Mərənddə qaldırdığı üsyanı yatırmaq üçün xəlifə Mütəvəkkil B.S.-in başçılığı ilə qoşun göndərmişdi. B.S. 849 ildə Məhəmmməd ibn əl-Bəisi əsir alıb Samirəyə gətirmişdi. Həmin vaxtdan Xilafətin əsas işləri B.S.-in və digər türk sərkərdəsi Vasifin əlinə keçmişdi. Onlar Mütəvəkkili öldürüb, oğlu Müntəsiri xəlifəliyə keçirmişdilər. 866 ildə B.S. yenə də Vasiflə birlikdə Müstəini xəlifəlikdən əl çəkməyə məcbur etmişdi. B.S.-i xəlifə Mötəzz edam etdirmişdir.

**BUĞACIQ**, B o ğ a z c ı q – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu) azərb.-ların yaşadığı kənd; 1919–20 illərdə ermənilər tərəfindən dağıdıldıqdan sonra kənd xarabalığa çevrilmişdir.

**BUĞADAŞ** – Azərb. Resp. Şuşa r-nu ərazisində, Qarabağ silsiləsinin şm.-ş. yamacında, Qarqar çayının sağ sahilində dağ. Hünd. 2154 *m*.

**BUĞAKAR**, B ı ğ ı k a r – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Meğri r-nu), Meğri çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 1930-cu illərdə kənd Ermənistan hökuməti tərəfindən ləğv edilmiş, əhalisi isə qonşu kəndlərə köçürülmüşdür.

**BUĞAVERMƏ** – bax *Buxarla emal*.

**BUĞDA** (Triticum) – taxıllar fəsiləsindən bitki cinsi. Əsas ərzaq bitkisi olan B.-nın təbiətdə 25-dən artıq yabanı və mədəni növü, Azərb.-da 14 yabanı və mədəni B. növünün 296 növmüxtəlifliyi var. Laboratoriya şəraitində süni şəkildə alınmış

10-a qədər B. növü də (oktoploidlər) məlumdur. Triticum cinsinin genetik potensialı çox genişdir. B. növləri somatik hüceyrələrdəki xromosomların sayına görə diploid, tetraploid və heksaploid sıraya bölünür. Kökü saçaqlı, gövdəsi buğumaralarına bölünmüş küləşdir; adətən, 4–6 buğumdan ibarətdir. Növündən, sortundan və becərilmə şəraitindən asılı olaraq hünd. 50 *sm*-dən 200 *sm*-ə qədərdir. Torpağın 1–2 *m* dərinliyinə qədər kök atır. Yarpağı gövdəni yarımçıq bürüyən qından və yarpaq ayasından əmələ gəlir. Çiçək qrupu sünbüldür; sünbül oxu bir-bir oturan çoxçiçəkli sünbülcüklərdən ibarətdir. B. öz-özünü tozlayan bitkidir, lakin bəzi növləri çarpaz da tozlanır. Meyvəsi dəndir. Dəni unvarı və ya şüşəvarı, ağ (sarı), qırmızı, bəzən bənövşəyi olur; tərkibindəki zülal 12–17%-ə (bəzən 22–24%), yabanı B.-da isə 32%-ə qədərdir.

B. dünyanın ən qədim bitkilərindəndir. Tritikoloq N.İ.Vavilova görə, B.-nın əmələgəlmə mərkəzi Ön Asiyadır. Arxeoloji qazıntılardan və tədqiqatlardan aydın olmuşdur ki, B. İraqda eramızdan 4500 il, Qədim Misirdə 3–4 min il, Çində 3 min il, Şərqi Avropada 2–3 min il əvvəl məlum idi. Cənubi Qafqazda, o cümlədən Azərbaycan və eləcə də Türkmənistan ərazisində e.ə. 5–4-cü minilliklərdə (Daş dövrünə təsadüf edir) B. əkilirdi. Azərb.-ın müxtəlif yerlərində (Kültəpə, Yaloylutəpə, Xocalı, Mingəçevir, Qobustan, Göygöl, Şomutəpə, Xınıslı və s.) aparılan arxeoloji qazıntılardan tapılan saxsı qablar, dən, daş həvənglər, çaxmaqdaşıdan və mal qabırğasından düzəldilən oraq, əl dəyirmanı (kirkirə) və s. qalıqları burada çox qədimdən müxtəlif B. növlərinin əkildiyini sübut edir. Naxçıvan, Zəngilan, Cəbrayıl, Ağsu, Şamaxı və s. r-nlarda yabanı B.-ya indi də rast gəlmək olur. Azərb.-da tapılmış yabanı təkdənli B. (T. boeoticum), təkdənli Urartu B.-sı (T. *urartu*), əkilən təkdənli B. (T. monococcum), yabanı ikidənli B., yaxud Cənubi Qafqazda bitən yabanı pərinc (T. araraticum), pərinc (T. dicoccum), bərk B. (T. durum), qırdiş B. (T. turgidum) İran B.-sı (T. persicum, sinonimi T. carthlicum), Lehistan B.-sı (T. polonicum), Turan B.-sı (T. turanicum), Vavilov B.-sı (T. vavilovii), yumşaq B. (T. aestivum), sıxsünbül (gödək) B. (T. compactum) növləri ilə birlikdə çoxlu forması vardır. Azərb.-da yumşaq B.-nın 78, bərk B.-nın 44, qırdiş B.-nın 41 növmüxtəlifliyi aşkar edilmiş, Afrika və Asiyada əkilən B.-nın


Yumşaq buğda (Triticum aestivum L.).

da bir neçə növü: yabanı pərincvarı B. (T.dicoccoides), həbəş B.-sı (T. aethiopicum), İsfahan B.-sı (T. ispahanicum), yumrudənli B. (sphaeracoccum), fungisid B. (T. fungicidum) tapılmışdır.

Azərb.-da B.-nın xalq seleksiyası hələ qədimdən başlanmışdır. Arxeoloji tapıntılar göstərir ki, Azərb. əkinçiləri səpin üçün toxumu, əsasən, sünbülün orta hissəsindən seçib götürərdilər. 19 əsrə aid ədəbiyyat mənbələrində Azərb.-da bərk B.-nın sarı B., qara B., ağ B., qırmızı B. və s., yumşaq B.-nın isə xırda B., Hirkan, Gürganə, Qaraqılçıq, Araz buğdalarının əkilib-becərilməsi və s. haqqında məlumat verilir.

1970-ci illərə qədər resp.-da elmi seleksiya yolu ilə yaradılan və rayonlaşdırılan B. sortları (Arandəni, Şərq, Ağbuğda-13, Sevinc, Azərbaycan-1, Muğan və s.), əsasən, hündürboylu və ekstensiv tipli olduqları üçün ölkədə yüksək məhsul alınmasını təmin etmirdi. Sonrakı onilliklərdə akad. C.Əliyevin rəhbərliyi altında bir neçə min genotipi əhatə edən zəngin buğda genofondu yaradıldı, resp.-nın müxtəlif aqroekoloji şəraitinə uyğunlaşan, biotik və abiotik amillərə davamlı,

Bərk buğda (Triticum durum Desf.).



k.t. istehsalı tələblərini ödəyən intensiv tipli, yüksək dən keyfiyyətinə və məhsuldarlığına malik bir sıra buğda sortları alındı.

Azərb.-da B.-nı aran suvarma bölgələrindən başlamış dəniz səviyyəsindən 2000 *m* hündürlüyə qədər yüksək dağlıq ərazilərdə becərmək olur. Azərb. payızlıq bərk B.-nın vətənidir. Dəniz səviyyəsindən 1200 *m*-ədək yüksəklikdə olan r-nlarda bərk B.-nın müxtəlif sortları (Qaraqılçıq-2, Mirbəşir-50, Vüqar, Şiraslan-23, Tərtər, Bərəkətli-95, Əlincə-84 və s.) də əkilir.

Yumşaq B.-nın yazlıq və payızlıq, həmçinin yerli seleksiya sortları aranda olduğu kimi, yüksək dağlıq yerlərdə də həm suvarma, həm də dəmyə şəraitində becərilir.

Quraq-dəmyə şəraitində hər *ha*-dan 4,5–5,0 *t* dən məhsulu verən Qobustan, Ruzi-84, Şəki-1, Pərzivan-1 yumşaq B. sortları yaradılmışdır. Azərb.-da suvarılan və potensial məhsuldarlığı hər *ha*-dan 7,0–8,0 *t* olan rayonlaşdırılmış Azəri, Əkinçi-84, Qiymətli-2/17, Əzəmətli-95, Nurlu-99, Tale-38, Aran, Uğur, Qırmızı gül-1, Murov-2 yumşaq B. və Qarabağ, Turan, Tərtər bərk B. sortlarının əkinləri ildən-ilə genişlənir.

Yazlıq bərk B. sortları Azərb. şəraitində payızda; yazlıq yumşaq B. sortları isə yalnız aran və dağətəyi r-nlarda oktyabr–noyabr, aylarında, dağ r-nlarında isə sentyabrda səpilir. Azərb.-da payız səpini zamanı B.-nın vegetasiya müddəti aran bölgələrində 180–235 gün, dağlıq və dağətəyi bölgələrdə isə 250–270 gün arasında dəyişir. Payızlıq B. 1–2°C temp-da cücərir:

Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasında təsdiqlənmiş və Azərb. Resp. üzrə k.t. məhsulları istehsalı üçün tövsiyə edilmiş seleksiya nailiyyətlərinin Dövlət Reyestrinə 35 (26 yumşaq, 9 bərk) B. sortu daxil edilmişdir (2011).

B.-dan un, yarma, nişasta, spirt, dekstrin və s. alınır, onun unundan çörək, lavaş, fətir, qoğal və s. bişirilir, makaron, vermişel, əriştə; müxtəlif xörək (xəngəl, düşbərə, qutab və s.) və şirniyyat (paxlava, şəkərbura, şəkərçörəyi, kətə və s.) hazırlanmasında istifadə edilir. B. çörəyinin quru maddəsində 16–17% zülal, 77–78% karbohidrat, 1,2–1,5% yağ olur. B. çörəyinin hər *kq*-ı (unun sortundan asılı olaraq) 2000–2250 kalori verir. İnsan orqanizminə lazım olan ümumi qida kalorisinin təqr. 20%-i B.-nın payına düşür. B.





unununun çörəyi başqa taxılların çörəyindən xeyli üstündür. Çörək bişirmək üçün, əsasən, T.aestivum (adi və ya yumşaq B.) növü becərilir. Azərb.-da bunun 87 növmüxtəlifliyi və çoxlu sortu məlumdur. B.-nın kəpəyi və küləşi mal-qara yemidir. 100 *kq* samanda 0,5–1,0 *kq* həzmolunan protein, 20–22 yem vahidi vardır. B. küləşindən mal-qara üçün döşənək, bəzən dam örtüyü kimi, eləcə də kağız istehsalında və s. istifadə olunur.

Dünyada B. əkinlərinin ümumi sah. 225,4 mln. *ha* (2010), Azərb.-da isə 807,8 min *ha*-dır (2009). Dünyada B.-nın ümumi məhsul yığımı 681,9 mln. *t*, hər *ha*-dan məhsuldarlıq orta hesabla 3,02 *t* (2010), Azərb.-da isə ümumi məhsul yığımı 2,14 mln. *t*, hər *ha*-dan məhsuldarlıq orta hesabla 2,66 *t* (2009) olmuşdur. Ən çox B. idxal edən ölkələr Yaponiya, Braziliya, Misir, Əlcəzair, İran və İndoneziyadır. ABŞ-la yanaşı, Avropa İttifaqı ölkələri (Fransa başda olmaqla), Hindistan, Rusiya, Kanada, Avstraliya, Argentina, Pakistan, Türkiyə və Qazaxıstan B. ixrac edir.

*Əd.:* Mustafayev İ.D. Azərbaycan bir çox buğda növlərinin vətənidir. B., 1964; yenə onun, Пщеницы Азербайджана и их значение в селекции и формообразовательном процессе. Л., 1964; Лукьяненко П.П. Избр. труды. Селекция и семеноводство пщеницы. М., 1973; Культурная флора СССР. I. Пщеница. Л.. 1979; Губанов Я.В., Иванов Н.Н., Озимая пщеница. М., 1988; Алиев Д.А., Азизов И.В., Казибекова Э.Г. Фотосинтетическая способность и развитие хлоропластов в онтогенезе пшеницы. Баку, 1988; Алиев Д.А., Махмудов Р.У. Белковый комплекс зерна пшеницы. Баку, 1992; Əsgərov A. Azərbaycan florasının konspekti. B., 2011.

**BUĞDA NEMATODU** (Anguina tritici) – Anquinidae fəsiləsindən parazit yumru qurd; buğda, çovdar, arpa, vələmir və bir sıra yabanı taxıl bitkisinin sünbüllərində fırlar əmələ gətirir. Fırlar dəndən kiçik, bərk, qəhvəyi rəngli olur, daxili isə parazitin minlərlə sürfəsindən ibarət ağımtıl yumşaq kütlədir. B.n. 20 əsrin 40-cı illərinin əvvəllərinədək geniş yayılmışdı.

**BUĞDAKƏND** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin İcrud kəndistanında, Zəncan ş.-ndən 42 *km* c.-q.-dədir.

**BUĞDAŞEN** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Ağin, 12.10.1961 ildən Ani r-nu), Arpaçayın yaxınlığında azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində İrəvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra azərb.-lar kənddən qovulmuş, 1828–29 illərdə kəndə Türkiyənin Alaşkert, Bulanix, Muş vil.-lərindən gətirilmiş ermənilər yerləşdirilmişdir. 3.12.1947 ildə kəndin adı dəyişdirilərək Baqravan qoyulmuşdur.

**BUĞDATƏPƏ AŞIRIMI** – Azərb. Resp.-nın (Gədəbəy r-nu) Ermənistanla sərhədində, Şahdağ silsiləsində aşırım. Hünd. 2320 *m*.

**BUĞLAMA** – Azərb.-da geniş yayılmış xörək. Tikələrə doğranılmış qoyun və ya mal ətinə (balığa, yaxud quş ətinə) doğranmış baş soğan, albuxara, heyva əlavə edilir, üzərinə bir qədər işgənə (bulyon) və ya su tökülür, ağzı kip bağlanmış qazanda vam odda bişirilir. Hazır olana yaxın duz, istiot, sarıkök, narın doğranmış şüyüd qatılır.

**BUĞRA XAN**, Boğra xan – *Qaraxanilər sülaləsindən* olan bəzi hökmdarların ünvanı.

Satuk Buğra xan – *Bilgə xaqanın* nəvəsi, Bəzir Arslan xanın oğlu. 932 ildə islamı qəbul edərək Əbdülkərim adını götürmüşdür. 940 ildə karluklları hakimiyyəti altına almış, Qaşqarı ələ keçirmiş və "Qara xan" titulunu qəbul etmişdir. 942 ildə Balasaqunu tutmuşdur. Qaraxanilər dövlətinin ilk müsəlman xaqanı [942–955] olmuşdur. "Təzkireyi-Satuk Buğra xan" türk dastanı ondan bəhs edir.

Musa Baytaş Buğra xan – Satuk Buğra xanın oğlu, Qaraxanilər dövlətinin xaqanı [955–970].

I Harun Buğra xan – Satuk Buğra xanın nəvəsi. Qaraxanilər dövlətinin xaqanı [970–992]. Ləqəbi Şihabüddövlə idi. Məvəraünnəhri və Buxaranı (992) fəth etmişdi. Onun hakimiyyəti zamanı Qaraxanilər dövlətində sikkələr zərb olunurdu.

II Məhəmməd Buğra xan – Şərqi Qaraxanilər dövlətinin xanı [1056–1057]. Qəznəvilərə qarşı səlcuqlarla ittifaq bağlamışdı. Məvəraünnəhrdə adına pul kəsilmişdir. 1057 ildə zəhərlənərək öldürülmüşdür.

I İbrahim Tamğaç Buğra xan – Şərqi Qaraxanilər dövlətinin xanı [1057–59]. Hakimiyyətdə olarkən ölkəsində sabitliyi qoruyub saxlaya bilməmişdi: Qərbi Qaraxanilər dövlətininin xanı Fərqanəni işğal etmişdi. Ona qarşı yürüş zamanı öldürülmüşdür.

II Harun Buğra xan – Şərqi Qaraxanilər dövlətinin xanı [1075–1102]. Hakimiyyəti illərində Qaşqar və Balasaqun mühüm mədəniyyət mərkəzlərinə çevrilmişdi. Dəyərli tarixi mənbələr olan "Kutadqu biliq" ("Xoşbəxtlik bəxş edən elm") və "Tarixi-Qaşqar" əsərləri onun dövründə yazılmışdır.

II İbrahim Tamğaç Buğra xan – Qərbi Qaraxanilər dövlətinin xanı [1068–1080].

III İbrahim Tamğaç Buğra xan – Qərbi Qaraxanilər dövlətinin xanı [1080–1087].

IV İbrahim Tamğaç Buğra xan – Qərbi Qaraxanilər dövlətinin xanı [1142–1156].

IV Məhəmməd Buğra xan – Şərqi Qaraxanilər dövlətinin sonuncu xanı [1205–11].

**BUĞUMAYAQLILAR** (Arthropoda) – onurğasız heyvanların ali və ən geniş yayılmış tipi. Baş, döş və qarıncıqdan ibarət ikitərəfli-simmetriyalı bədəni buğumlara bölünmüşdür (bəzi növlərində buğumlar olmur). Hərəkət orqanları (ayaqları) da buğumludur (adı buradandır). Dünyada B.-ın 1–1,5 mln., Azərb.-da 25 minə qədər növü yaşayır. Daha geniş yayılmış təsnifata görə B. 4 yarımtipə ayrılır: nəslikəsilmiş trilobitlər sinfi ilə *trilobitkimilər* (Trilobitomorpha); merostomlar sinfi və hörümçəkkimilər sinfi ilə *xeliserlər* (Chelicerata); xərçəngkimilər sinfi ilə *qəlsəmətənəffüslülər* (Branchiata); çoxayaqlılar və cücülər sinfi ilə *traxeyatənəffüslülər*, yaxud cütbığcıqlılar (Tracheata, yaxud Atelocerata). Növündən asılı olaraq bədəndəki buğumların sayı 8-dən 180-ə qədərdir. Möhkəm qoruyucu və skelet zirehi əmələ gətirən xitin kutikula ilə örtülü olur. Böyümə zamanı B.-ın xitin örtüyü vaxtaşırı yenisi ilə əvəz edilir (bax *Qabıqqoyma*). B. ayrıcinsiyyətlidir və yalnız cinsi yolla çoxalır. Bəzən *partenogenez* müşahidə olunur. B.-ın çoxu yumurta qoyur; həm suda, həm də quruda yaşayan növləri vardır. Koloniya əmələ gətirən polimorf cücülərin fərdləri arasında iş bölgüsü mövcuddur. Bir çox növləri hörümçək toru, ipək, mum, zəhərli və qoxulu maddələr ifraz edir, bəziləri su hövzələrinin özünütəmizləməsində fəal rol oynayır. B. arasında insanda və k.t. heyvanlarında xəstəliktörədən və ya xəstəlik törədicilərini yayan, yabanı və mədəni bitkilərə, anbarlarda taxıla və s. qida məhsullarına zərər verən növlərlə yanaşı, k.t. və meşə bitkilərinin bioloji tənzimlənməsində, torpaqəmələgəlmədə və çiçəkli bitkilərin tozlanmasında mühüm rol oynayan, heyvanların qidasını təşkil edən, vətəgə əhəmiyyətinə malik



**Buğumayaqlılar:** *1* – yeddinöqtəli parabüzən (Coccinella septempunctata); *2* – mavi yengəc (Callinectes sapidus); *3* – Meksika tarantulu (Brachypelma smithi); *4* – halqavi skolopendra (Scolopendra cingulata).

olan, bitki zərərvericiləri ilə mübarizədə istifadə edilən xeyirli növlər də vardır. B.-ın iki növü – ipəkqurdu və bal arısı əhliləşdirilmişdir.

**BUĞURT QALASI**, Qəleybuğurd – Azərb.-da orta əsrlərə aid qala. Şamaxı ş.-ndən 20 *km* şm.-q.-də, Qəleybuğurd k. yaxınlığındakı dağın zirvəsindədir. Arxeoloji qazıntılar B.q.-nda 11–13 əsrlərdə yaşayış olduğunu göstərir. Qalada bəzi divar və bürclərin, o cümlədən yaşayış binalarının xarabalığı qalmışdır. Evlər yonma daşlardan tikilmişdir. Mənbələrdə 15 əsrin sonlarından adı çəkilir. 1509 ildə I *Şah İsmayılın* Şirvana hücumu zamanı Şirvanşah Şeyxşah bu qalada müdafiə olunmuşdu. 1537 ildə Şirvanda baş vermiş üsyan zamanı Şirvanşah *Şahrux* və saray əyanları B.q.-nda gizlənməyə məcbur olmuşdular. 1538 ildə Səfəvi qoşunları *Əlqas Mirzənin* başçılığı ilə Şirvana hücum etdi. B.q.-na çəkilən Şahrux və vəkil Hüseyn bəy bir neçə ay Səfəvilərə müqavimət göstərmişdi. Həmin dövrdə Şirvanşahların xəzinəsi də B.q.-da saxlanılırdı. Səfəvi-Osmanlı müharibələri zamanı osmanlılar B.-q.-nı ələ keçirib özlərinin dayaq məntəqələrindən birinə çevirmişdilər. Qaladan 17 əsrin sonlarınadək müdafiə məqsədilə istifadə olunmuşdur.

*Əd.*: Ciddi Hüseyn. Buğurt qalası haqqında tarixi arxeoloji məlumat. Azərb. SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1972, №1; yenə onun, Buğurt qalası. B., 1973; Эфендиев О.А. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Б., 1961; Aşurbəyli S. Şirvanşahlar dövləti. B., 2006.


Buğurt qalasının qalıqları.

**BUĞUTLU** – İrəvan xanlığının Talın mahalında (9.9.1930 ildən Talin r-nu) azərb.-ların yaşadığı kənd. 20 əsrin əvvəllərində erməni təcavüzü nəticəsində kəndin əhalisi qovulmuş, burada ermənilər yerləşdirilmişdir. 31.7.1950 ildə adı dəyişdirilərək Arteni qoyulmuşdur.

**BUĞUTLU** – İrəvan xanlığının Talın mahalında (9.9.1930 ildən Talin r-nu) silsilə. Hünd. 2047 *m*-ədək. Tarixən bu ərazidə B. adlı iki dağ olmuşdur: Böyük Buğutlu, Kiçik Buğutlu. “Buğut” sözü qədim türk dilində “dağ maralı” deməkdir.

**BUHTURİ** (ər. البحتري) əl-Vəlid ibn Ubeyd ət-Tai əl-Buhturi (819/821, Şimali Suriya, Mənbic k. – 897, Mənbic k.) – ərəb şairi. *Əbu Təmmamın* şagirdi və davamçısı olmuşdur. Abbasi xəlifələri Mütəvəkkil, Müntəsir, Müstəin, Mütaz, Mühtədi və Mütəmidin saray şairi olmuş, onlara mədhiyyələr yazmışdır; şeirlərində *Xilafətin* 9 əsrin 2-ci yarısının bütün siyasi tarixini əks etdirmişdir. Təbiətin, bağ-park memarlığının, saray tikililərinin lirik təsviri ilə şöhrət qazanmışdır; 6–8 əsrlər ərəb poeziyası antologiyasını (“Həmasə”, nəşri 1929) tərtib etmişdir. “Səlasil əz-zəhəb” (“Qızıl silsilələri”) adlı şeir divanı məşhurdur. B.-nin şeirləri səmimiliyi, sadəliyi, ahəngdarlığı ilə ərəb ədəbiyyatında xüsusi yer tutur. Onun öz dövrünün siyasi və mədəni həyatına dair nəsr ilə yazdığı dəyərli hekayə-xatirələri 10 əsr ərəb tarixçiləri *Məsudi* və Sulinin əsərlərində saxlanılmışdır.

Əsəri: Divan. 2 cilddə. Beyrut, 1962 (ərəb diilndə); Стихи. В кн.: Арабская поэзия средних веков. М., 1975.

*Əd.:* Фильштинский И.М. История арабской литературы V – нач. X вв. М., 1985.

**BUX** (Buch) Kristian Leopold fon (26.4.1774, indiki Brandenburq federal ərazisi, Ştolpe – 4.3.1853, Berlin) – alman geoloqu. Berlin (1806) və Paris (1840) EA üzvü. Freyberq dağ-mədən akademiyasında (1790–93), Halle və Höttingen un-tlərində oxumuşdur. *Neptunizm* konsepsiyasının tərəfdarı olmuş, Vezuvini, Alp d-rını və Kanar a-rını gəzdikdən sonra əqidəli plutonistə (bax *Plutonizm*) çevrilmişdir. Dağəmələgəlmə prosesinə dair orijinal fərziyyə təklif etmişdir. B.-a görə, bu proses, demək olar ki, ani baş vermişdir (bax *Katastrofizm*). Üzvi aləm ilə bağlı məsələlərdə təkamül ideyasının tərəfdarı idi. Yura çöküntülərində paleontoloji və stratiqrafik tədqiqatlar aparmışdır. Almaniyanın ilk geoloji xəritəsinin (1826) yaradılmasında iştirak etmişdir.

**BUXAQLI KƏRTƏNKƏLƏ** (Poqona barbata) – kələzlər fəsiləsindən sürünən heyvan. Bədəninin uz. 60 *sm*-ədək, gövdəsi yastı, quyruğu uzun, başı enlidir. Boğazında köndələn bükük vardır. Üst tərəfdən rəngi yaşılımtıl-zeytuni, maviyəçalan, yaxud sarımtıldır; bərk qorxduqda heyvanın rəngi nəzərəçarpacaq dərəcədə ağarır. Adı xarakterik qoruyucu və qorxuducu duruşu ilə bağlıdır. B.k. bədənini və


Buxaqlı kərtənkələ (Pogona barbata).

boğaz büküyünü şişirdir, ağzını elə açır ki, ağız boşluğunun sarı rəngi görünür (boğazı dilaltı sümüyün uzunsov çıxıntılarının köməyi ilə şişir). Bu zaman qulağın ətrafında, alın sümüyü üzərində və boğazda tikanlı pulcuqlar yanlara doğru aralanır. Belə vəziyyətdə boğaz büküyü sərt buxağı (erkəklərdə qara rəngdə olur) xatırladır. Ehtimal ki, belə duruş həm də müxtəlif cinsiyyətli fərdlərin çoxalma dövründə bir-birini tanıması üçündür. B.k. Avstraliyada, səhralıq və qayalıq yerlərdə yayılmışdır. Cücülər, xırda onurğalılar, çiçəklər və şirəli meyvələrlə qidalanır. Dişi fərd qazıdığı yuvanın dibinə 9–24 yumurta qoyduqdan sonra girişini torpaqla möhkəm bağlayır. Balalar 3–3,5 aydan sonra yumurtadan çıxır.

**BUXA-NOYON BABAYİ** (“baba noyon-buğa”), xuxe buxa (“boz buğa”), noyon babay (“baba noyon”) – buryatların (bulaqatların və exiritlərin) əsatirlərində totem ulu əcdad. Real nəsillər, yaxud gecə və gündüz arasında mübarizəni əks etdirən mifoloji variantlardan birinə görə, qərb tenqrisi Zayan Saqan tenqrinin oğlu Boxo Muya şərq tenqrisi Xamxir Boqdo tenqrinin oğlu Boxo Teli ilə savaşmış, hər ikisi göydən yerə enmiş və Boxo Muya B.-n.b. adlı boz buğaya, Boxo Teli isə Tərlan Eren adlı ala-bula buğaya çevrilmişdir. Baykal gölü ətrafında bir-birini təqib etmişlər; nəhayət, buryat hökmdarlarından biri Tayji xanın Tunkin vadisindəki mülklərində qarşılaşmış, buynuzlaşaraq ətraflarındakı hər şeyi tapdalamışlar. Tayji xanın qızı onları qovarkən B.-n.b.-nin baxışından (yaxud böyürməsindən) hamilə olmuşdur. Bulaqatların versiyasına görə, onun doğduğu oğlan uşağını B.-n.b. oğlu kimi qəbul etmiş, onu dağda dəmir beşikdə böyütmüş və qorumuşdur. Sonsuz olan şaman bacılar – Asıxan (Asuyxan) və Xosıxan (Xusıxan) B.-n.b. üçün xüsusi taylaqan (qurbanvermə ilə müşayiət olunan şaman mərasimi) hazırlayaraq körpəni əldə etmiş və ona “Buğadan tapılmış Bulaqat” adını vermişlər; o, bulaqatlar tayfasının əcdadı olmuşdur. Exiritlərin versiyasına görə, Tayji xanın qızı iki oğlan uşağını dünyaya gətirmişdir. Bulaqatın erkən çağlarında Baykal sahilindəki yarıqda yaşamış əkiz qardaşı böyüyüb boya-başa çatdıqdan sonra, Baykal sahilinə gedib-gələn Bulaqat burada ona rast gəlmişdir. Şaman Asıxan hiyləgərliklə B.-n.b.-nin bu oğlunu da əldə edərək onu Exirit adlandırmışdır.

B.-n.b. digər buryat tayfaları arasında yayılmış əsatirlərin də personajıdır. Şaman panteonunda o, qərbi xan və Esege Malan tenqrinin oğludur. B.-n.b.-nin doqquz oğlu Buryatiyanın bir sıra yerlərinin sahib-ruhları hesab olunan ejinlərdir (bax *Edzenlər*). B.-n.b. qızı Erxe Subeni isə Şarqay-noyona (Baykalyanı buryatların digər mifoloji personajı) ərə vermişdi. B.-n.b.-ın adı qeyd olunan şaman çağırışları və adını daşıyan dağlarda (Buryatiyanın Tunkin r-nunun Dalaxay və Zakamensk r-nunun Sanaqa kəndlərinin yaxınlığında) onun ziyarətgahları məlumdur.

B.-n.b. lamaizm panteonuna Rinçin xan (lamaist ikonoqrafiyasında ağ atlı kimi təsvir edilir) adı ilə daxil olunmuşdur, pravoslav missiyası isə B.-n.b.-ın Müq. Pafnuti ilə eyniliyini elan etmişdir. 20 əsrin 30-cu illərinədək B.-n.b. lamaistlər, şamanistlər və pravoslavların sitayiş obyekti idi. B.-n.b. mifoloji personaj kimi Şimali Monqolustanda yaşayan monqollar arasında da yayılmışdır.

**BUXAR** – maddənin qaz halını bildirən termin; bu zaman qaz fazası həmin maddənin maye (bərk) fazası ilə tarazlıqda olur. “B.” termini, bir qayda olaraq, adi təbii şəraitlər üçün səciyyəvi olan *T* temp-rlardakı və *p* təzyiqlərdəki faza tarazlığı hallarında tətbiq edilir (məs., spirtin, benzolun, yodun, naftalinin və s. B.-ı). Faza keçidi termodinamikasında “buxar” və “qaz” anlayışları ekvivalentdir.

Kimyəvi təmiz maddələrin aşağıdakı B. halları fərqləndirilir: doymuş buxar (doyma T temp-ru və *p* təzyiqindəki B.); doymamış buxar, yəni verilən *p* üçün $T>T_{doyma}$ olan və, deməli, doymuş B.-a nisbətən az sıxlığa malik olan B. (texnikada ifrat qızmış B. və ya qaz adlanır); ifrat doymuş buxar – eyni temp-rda $p_{doyma}$ təzyiqindən daha böyük təzyiqi olan B.

**BUXAR AVTOMOBİLİ** – buxar-güc qurğusu olan *avtomobil*. B.a.-nin ilk modelləri 18 əsrdə yaradılmışdı. Qazan, buxar maşını və köməkçi aqreqatlardan ibarət buxar-güc qurğusu burucu momentin səlis tənzimlənməsinə imkan verdiyi üçün faydalı dartı xarakteristikası yaradır. B.a.-ndə işlənmiş qazların zərərli təsiri daxiliyanma mühərrikli avtomobillərdəkindən xeyli azdır, səssiz işləyir və yanacağı ucuzdur. Konstruksiyası mürəkkəb olduğundan hazırda istifadə edilmir.

**BUXAR GENERATORU** – atm. təzyiqindən yüksək təzyiqli su buxarı almaq üçün aparat, yaxud aqreqat. Buxar üzvi yanacağın yandırılmasından alınan istilik hesabına (*buxar qazanı*), elektrik enerjisindən istifadə etməklə (elektrik qazanı) və ya atom reaktorundan daxil olan ilkin istilikdaşıyıcı (su, maye natrium və s.) hesabına alınır. İrikonturlu istilik sxemi olan atom-güc qurğularında tətbiq edilir.

**BUXAR KƏMƏRİ** – buxarı *buxar qazanından*, yaxud buxar generatorundan istehlak obyektlərinə (nasos, istilikdəyişdirici aparat, buxar turbini) nəql etmək üçün polad boru kəməri. Aşağıtəzyiqli B.k.-ndə borular bir-birinə bilərziklə, yuxarıtəzyiqli B.k.-ndə isə qaynaqla birləşdirilir. B.k.-ndə əmələ gələn kondensatı kənar etmək üçün kəmər buxarın hərəkət istiqamətinə tərəf maili (2–3‰) quraşdırılır, suayırıcılar və drenaj quruluşları ilə təchiz edilir. B.k.-ndə qapayıcı və tənzimləyici ventillər, sürgülər, dayaqlar arasındakı hissəsində istilikdən genişlənməni nəzərə alan kompensatorlar qoyulur. İs-

tilik itkisini azaltmaq üçün B.k. istiliyi izolyasiya edən təbəqə ilə örtülür.

**BUXAR QAZANI** – ocağındakı yanacağın yanmasından ayrılan istilik hesabına təzyiqi atm. təzyiqindən yüksək olan buxar almaq üçün qurğu. Sənayedə tətbiq edilən ilk B.q.-larından birini fransız fiziki D. Papen (1680) təklif etmişdir. B.q.-nın çoxunda işlək cisim sudur. Konstruksiyasına görə qazborulu və suborulu, suyun hərəkət sxeminə görə dəfələrlə sirkulyasiyalı və düzaxınlı B.q.-ları olur. İlk q a z b o r u l u B.q. 1–3 böyük diametrli qaz borusu montaj edilmiş silindrik qazan idi; sonralar təkmilləşdirilərək böyük borular onlarla kiçik diametrli borular ilə əvəz olundu. Qazborulu B.q. ancaq nəql. qurğularında (məs., buxar lokomotivi, buxar gəmisi) işlədilirdi. Stasionar qurğularda isə qazborulu B.q.-nı suborulu qazanlar əvəz etdi. S u b o r u l u B.q. onu təşkil edən silindrlərin sayının, nəticədə qızma səthinin artırılması hesabına təkmilləşdirildi. Suqaynadan borulara çevrilmiş çoxsaylı kiçik diametrli silindrlər üfüqə nəzərən 12° bucaq altında qurulur və onlardan üstdə yerləşdirilmiş üfüqi barabanlara kamera, yaxud seksiya vasitəsilə birləşdirilirdi (kameralı və ya seksiyalı üfüqi suborulu qazanlar). Sonralar suqaynadan borular şaquli və ya üfüqə nəzərən böyük bucaq altında quraşdırılır və onlar yuxarı və aşağı üfüqi barabanlara birləşdirilirdi (şaquli suborulu qazanlar). Düz borular tədricən əyilmiş borularla əvəz edilir, qazanın barabanlarının sayı azaldılırdı. Müasir şaquli suborulu qazanlar 1 və ya 2 barabanlı olur. Barabansız düzaxınlı qazan da suborulu qazandır. B.q.-nın təkmilləşdirilməsi ilə buxar məhsuldarlığı, buxarın parametrləri və onun f.i.ə. daim artırılır, eləcə də qazanların hazırlanması üçün metalın sərfi azaldılır. Müasir qazan aqreqatlarının f.i.ə. 93–95%-ə, buxar məhsuldarlığı 25 *MPa* təzyiqdə və 570°C temp-rda 4000 *t/saat*a çatır.

**BUXAR MAŞINI** – sıxılmış su buxarının potensial enerjisini mexaniki işə çevirən porşenli ilk mühərrik. B.m. universal mühərrik kimi ilk dəfə C. *Uatt* tərəfindən yaradılmışdır (1774–84). B.m.-nın silindrinə daxil olan buxar genişlənərək porşeni irəli-geri hərəkət etdirir. Çarxqolu mexanizmi porşenin hərəkətini valın fırlanma hərəkətinə çevirir. 19 əsrin sonunadək B.m. sənaye və nəql.-da tətbiq olunan yeganə mühərrik növü idi. Sonralar f-k və z-dlar, elektrik st.-ları üçün stasionar B.m., həmçinin parovoz, lokomobil



**Buxar maşınının sxemi:** *1* – porşen; *2* – sürgüqolu; *3* – dirsəkli val; *4* – nazimçarx.

və gəmi üçün, k.t. və yerli sənayenin ehtiyacları üçün B.m.-ları yaradılmışdır. B.m. yaxşı dartı göstəricilərinə, artıq yükgötürmə və reversləmə qabiliyyətinə malikdir, işi etibarlı və sadədir, gücü 15 *MVt* (20000 at gücü), f.i.ə. isə 20–25%-dir. B.m.-nın əsas çatışmazlıqları onun səmərəliliyinin az, vahid gücünün məhdud olmasıdır.

**BUXAR NASOSU** – *buxar maşını* və porşenli nasosdan ibarət aqreqat; porşenlər ümumi pistonqolunun əks uclarına bərkidilir. B.n., adətən, üfüqi və cütlənmiş düzəldilir. Bir maşının pistonqolu irəligeri hərəkət edərək, o biri maşının bölüşdürücüsünü idarə edir. Hər iki porşen eyni zamanda, lakin əks istiqamətlərdə hərəkət edir. B.n. su, neft və s. mayelərin vurulması, gəmilərdə buxar qazanlarının qidalandırılması və s. üçün tətbiq edilir. *Buxar turbini* və mərkəzdənqaçma nasosundan ibarət B.n. turbin-nasos adlanır.

**BUXAR TURBİNİ** – su buxarının kinetik enerjisini fırlanan valın mexaniki işinə çevirən rotorlu istilik mühərriki. B.t.-ni yaratmaq üçün çox qədimdən təşəbbüslər göstərilmişdir. Hələ e.ə. 1 əsrdə İsgəndəriyyəli Heron primitiv B.t.-ni təsvir etmişdir. Sənaye üçün yararlı B.t. 1884–89 illərdə bir-birindən xəbərsiz K.Q.P. Laval (İsveç) və Ç.A. Parsons (B.Britaniya) tərəfindən yaradılmışdır. B.t İES-lərdə elektrik generatorlarının intiqalı üçün əsas mühərrikdir. Su buxarı istiqamətləndirici aparatlardan keçərək rotorun çevrəsi boyunca bərkidilmiş əyrixətli kürəklərə daxil olub rotoru fırladır. Buxar axınının hərəkət istiqamətinə görə aksial (buxar axını turbinin oxu boyunca hərəkət edir) və radial (axının istiqaməti fırlanma oxuna perpendikulyar, işlək kürəklər isə oxa paraleldir) B.t.-ləri olur. İstilik prosesinin xarakterindən asılı olaraq, *kondensasiya turbini*, istilik təchizatı turbinləri və xüsusi təyinatlı B.t.-ləri ilə yanaşı, aktiv və reaktiv turbinlər də mövcuddur. A k t i v B.t.-ndə buxarın potensial enerjisi tərpənməz ucluqlarda kinetik enerjiyə çevrilir və sonra turbinin rotorunu hərəkətə gətirir. R e a k t i v B.t.-ndə potensial enerjinin çox hissəsi işlək kürəklərdə kinetik enerjiyə çevrilir. B.t.-ləri stasionar (məs., kondensasiya turbini, istilik təchizatı turbinləri) və ya nəql. vasitələri (gəmilər) üçün, bir- və çoxgövdəli (adətən, 4-ə qədər), birvallı (bütün gövdələrin valları bir oxda yerləşir) və paralel yerləşdirilmiş 2–3-vallı olur. Bütün B.t.-ləri, demək olar ki, çoxpilləlidir. B.t-nin ölçüləri nisbətən kiçik, istismarı sadə və qənaətlidir; yüksək parametrli buxardan istifadə etməyə, təmiz kondensat almağa, elektrik enerjisi istehsalı ilə yanaşı istehlakçıları müxtəlif parametrli buxarla təchiz etməyə imkan yaradır.

**BUXARA** – Özb.-ın mərkəzi hissəsinin c.-unda şəhər. Buxara vil.-nin inz. m. Əh. 267,0 min (2010). Zərəfşan çayının aşağı axınındakı dərədə yerləşir. Nəql. qovşağı.

"B." adının mənasını sanskrit sözü "vihara" (monastır) ilə əlaqələndirirlər. Arxeoloji məlumatlara görə, şəhərin əsası təqr. eramızın 1 əsrində qoyulmuşdur. Yazılı mənbələrdə B. 5 əsrdən etibarən qeyd olunmuşdur. *Böyük ipək yolunun* üzərində yerləşən B. erkən orta əsrlərdə mühüm ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi idi. 709 ildə B.-nı ərəblər işğal etdikdən sonra şəhər islamiyyətin ən iri mərkəzlərindən birinə çevrilmişdi. 9–10 əsrlərdə *Samanilər dövlətinin* paytaxtı olmuşdur. Bu dövrdə B.-da tarixçi Nərşahi, ensiklopediyaçı alim *İbn Sina* (lat. Avisenna) və b.-ları yaşayıb yaratmışlar. 10 əsrin sonunda Qaraxanilər, 12 əsrin ortalarında qarakitaylar şəhəri ələ keçirmiş, 13 əsrin əvvəllərində isə B. Xarəzmşahlar dövlətinin tərkibinə qatılmışdı. Monqol işğallarına qədər B. müəyyən dərəcədə özünüidarəçiliyi qoruyub saxlamışdı; şəhərdə irsi hakimiyyət ali ruhanilərə ("sədrlərə") məxsus idi. 1220 ildə Çingiz xanın qoşunları şəhəri amansızcasına qarət etmiş və 14 əsrin 2-ci yarısınadək B. *Çingizilərin* hakimiyyəti altında qalmışdı. 1370 ildən 15 əsrin sonlarına qədər B.-nı Teymur və onun xələfləri – *Teymurilər* idarə etmişlər. 16 əsrin əvvəllərində B. özbəklər tərəfindən tutulmuş və 1558 ildə *Şeybanilərin* idarə etdiyi *Buxara xanlığının* paytaxtına çevrilmişdi. 1740 ildə *Nadir şah* B.-nı tutmuşdu. Onun ölümündən (1747) sonra daxili çəkişmələrdən istifadə edən *Manqıtlar* sülaləsi 1753 ildə hakimiyyətə gələrək *Buxara əmirliyinin* əsasını qoymuşdular. B. bədii sənətkarlıq mərkəzi kimi şöhrət qazanmışdı: zərbaflıq, ipəktoxuma, mis üzərində döymə və s.





Türküstanın Rusiyaya ilhaqı gedişində Buxara əmirliyinin ərazisi xeyli azalmış, onun hakimləri isə rus çarının vassallarına çevrilmişdi. 1920 il sentyabrın 2-də B.-da Sovet hakimiyyəti quruldu, oktyabrın 8-də B. *Buxara Xalq Sovet Respublikasının* paytaxtı elan edildi. 1924–25 illərdə Orta Asiyada milli-dövlət sərhədləşdirilməsi nəticəsində B. Zərəfşan dairəsinin, 1938 ildən isə Özb. SSR Buxara vil.-nin mərkəzi oldu.

Orta Asiya müsəlmanları B.-nı özlərinin "Məkkəsi" hesab edərək ona islamiyyətin mərkəzi kimi baxırdılar. Buxaralıların böyük əksəriyyəti sünnilərdən, kiçik hissəsi şiələrdən (əsasən, İrandan gəlmələr) ibarət idi. B.-da qədim dövrlərdən yəhudi icması mövcud olmuşdur. 1913 il məlumatlarına görə, B.-da 364 sünni məscidi, 4 şiə ibadət evi, 2 sinaqoq və bir neçə yəhudi ibadətgahı var idi. B.-da qazı, imam, xətib, müdərris, seyyid və xocalardan (bu ərazilərdə məskunlaşmış ilk ərəb köçkünlərinin nəsilləri) ibarət ruhani zümrəsi böyük nüfuza malik idi. B.-nın ruhani dairələri şəriət qaydaları ilə yaşayan və şəhərdə bu qaydalara riayət olunmasına nəzarət edən sıx bir korporasiya təşkil edirdilər. "Qazı-qalon" (B.-da "şəriət sığınacağı" rəsmi tituluna malik ali hakim) onların arasında birinci şəxs idi. B.-nın hətta dünyəvi hökmdarları onlarla hesablaşmalı olurdular. Belə ki, əmir Əbül-Əhəd [1885–1910] B.-nın ruhani dairələri ilə münaqişəsi səbəbindən bütün hakimiyyət illərini öz dövlətinin paytaxtından kənarda keçirmişdir. B. müsəlmanlarının ali təbəqəsi öz siyasətlərində çoxsaylı mədrəsə dinləyiciləri olan "molla-baçə"lərin korporasiyasından ustalıqla istifadə edirdi. Onların iştirakı ilə hər hansı bir yeniliyə qarşı dəfələrlə səs-küylü kütləvi çıxışlar təşkil olunurdu. B.-nın çoxlu məscidləri, mədrəsələri və məzarlıqları 1920 ilə qədər böyük vəqflərə – torpaq sahələrinə, karvansaralara, ticarət dükanlarına və s. sahib idilər.

B. təqr. 140 memarlıq abidəsi olan şəhər-muzeydir; içqalası, möhkəmləndirilmiş *şəhristanı* və ətrafına divar çəkilmiş ticarət-sənətkarlıq şəhərətrafından ibarət *rabadı* olan Orta Asiya şəhərlərinin ənənəvi strukturunu, əsasən, saxlamışdır. B. böyük darvazaları baş meydan *registana* açılan ərk divarlarından (18 əsrin sonu – 19 əsrin əvvəllərinə aid tikililər) inkişaf etmişdir. Qədim B.-nın memarlıq siması monumental ansambllar müəyyən edir: Poi-Kəlan (Kəlan minarəsi, 1127; Kəlan məscidi, 15 əsrin 1-ci yarısı, 16 əsrdə bir neçə dəfə yenidən qurulmuşdur – kərpic sütunlar üzərində 288 günbəzlə üstü örtülmüş tağlı 4 eyvan, fasadlarda və interyerdə şirəli kərpic və kaşıdan mozaika; təmtəraqlı türbəsi olan Mir Ərəb mədrəsəsi, 1535–36); Koş-mədrəsə (2 mərtəbəli, 2 eyvanlı Madari xan mədrəsəsi, 1566–67; 4 eyvanlı, çox mürəkkəb planlı, göy-mavi kaşı ilə bəzədilmiş Abdulla xan mədrəsəsi, 1588–90); şəhər hovuzu ansamblı: Ləbi-hovuz (Kükəldaş mədrəsəsi, 1568–69; Nadir Divanbəyi mədrəsəsi, 1622; Nadir Divanbəyi xanəgahı, 1620-ci illər); Bala hovuz (qış məscidi, 1712, sütunlu eyvandan ibarət yay məscidi, 20 əsrin əvvəlləri, hovuz və minarə, 1917, memar Şirin Muradov). Maqaki-Əttar (12, 16 əsrlər), Baland (15 əsrin sonu – 16 əsrin əvvəlləri) məscidləri; Əbdüləziz xan mədrəsəsi (1652, memar Məhəmməd Salih, dekor ustaları Məhəmməd Əmin, Mim Xakan). Uluqbəy mədrəsəsi (1417, memar İsmayıl bin Tahir bin Mahmud İsfahani, fasadların kaşı ilə üzlənməsi 1585) ilə birləşdirilmiş Samanilər türbəsi (İsmayıl Samani məqbərəsi, 9 əsrin sonu – 10 əsrin əvvəlləri), Seyfəddin Baharzi (14 əsrin 2-ci yarısı, portal 15–16 əsrlər) və Buyanqulu xan (təqr. 1358) türbə kompleksləri; Əyyub çeşməsi ikigünbəzli ibadətgahı ("Əy-


Buxara. Poi-Kəlan ansamblı.


Buxara. Xəlif Niyazgül (yaxud Çor-Minor) mədrəsəsi. 17 əsr.



Buxara qalasından görünüş.



Buxara. İsmayıl Samaninin mavzoleyi. 9–10 əsrlər.

yub quyusu", 1380 və ya 1384/85); Xoca Zeynəddin (16 əsrin 1-ci yarısı), Bahəddin (1544–45; eyniadlı ansamblda), Feyzabad (1598–99) sufi xanəgahları; Zərgəran (15 əsr), Sərrafan (16 əsrin ortaları), Telpakfuruşan (16 əsrin 2-ci yarısı) günbəzli ticarət tağları, çoxsütunlu, çoxgünbəzli Abdulla xan bazarı (16 əsr) və s. 20 əsrin 2-ci yarısında B.-da tikinti işləri əvvəlki planlaşdırma nəzərə alınmaqla aparılmışdır. 1964 ildə B.-nın yenidən qurulması planı təsdiq edilmişdir (memarlar V.P. Çunixin, V.N. Slonimski, T.N. Kalinovskaya). 1993 ildə şəhərin tarixi hissəsi *Ümumdünya irsi* siyahısına salınmışdır.

B. 13–18 əsrlərdə Orta Asiya musiqi mədəniyyətinin ən böyük mərkəzlərindən biri olmuşdur. Burada musiqi janrı və formaları (*Şeşmakom*) yaranmış, Nəcməddin Kövkəbi Buxari (16 əsr), Dərviş Əli Çəngi (16 əsrin 2-ci yarısı – 17 əsrin əvvəlləri) kimi görkəmli musiqi nəzəriyyəçiləri yaşamışlar.

B.-da Pedaqoji in-t, bir sıra orta ixtisas təhsili müəssisəsi, kütləvi kitabxana var. Dövlət memarlıq-bədii qoruq-muzeyi (1922; 1945 ildən Ərk qalasında), S. Ayni ad. Musiqili Dram və Komediya Teatrı, Kukla teatrı fəaliyyət göstərir. İri bədii sənətkarlıq (zərbaflıq, ipəktoxuma, xalçaçılıq, zərgərlik və s.) mərkəzidir; yüngül sənaye (toxuculuq, tikiş məmulatları, qaragül dərilərin emalı və s.) və yeyinti sənayesi müəssisələri; B. yaxınlığında Buxara neft emalı zavodu var.

**BUXARA ƏMİRLİYİ** – 18 əsrin ortaları – 20 əsrin əvvəllərində Orta Asiyada mövcud olmuş dövlət. 1753 ildə *Manqıtlar* sülaləsinin əmirləri tərəfindən *Buxara xanlığı* ərazisində yaradılmışdı. Paytaxtı Buxara ş. idi. Rus qoşunlarının *Buxara yürüşlərindən* sonra Buxara əmiri Müzəffərəddin [1860–85] Rusiyanın himayəsinə keçdi [*Rusiya-Buxara müqaviləsi (1868)*, *Şaar müqaviləsi (1873)*]. Sonralar Buxara əmirləri Rusiya ordusu generalları rütbəsini alır və yüksək ordenlərlə təltif edilirdilər. 1917 il Oktyabr çevrilişindən sonra Buxara əmiri Səid Mir Alim xan [1910–20] Orta Asiyada sovet hakimiyyətinə qarşı fəal mübarizə aparırdı. Qırmızı ordu tərəfindən dəstəklənən xalq hərəkatının yüksəlişi Manqıtlar sülaləsinin devrilməsinə (2.9.1920) və *Buxara xalq sovet respublikasının* elan olunmasına (8.10.1920) gətirib çıxartdı.

Buxara. Bahəddin xanəgahı.



**BUXARA ƏRƏBLƏRİ** – bax *Orta Asiya ərəbləri*.

**BUXARA XALQ SOVET RESPUBLİKASI** (BXSR) – 1920 ildə *Buxara əmirliyinin* ərazisində Buxara KP (BKP) tərəfindən təşkil olunmuş və Qırmızı ordu hissələrinin dəstəklədiyi üsyan nəticəsində yaradılmışdı. Sah. 182 min $km^2$-dən çox, əh. 2 mln. nəfərdən (əsasən, özbəklər, taciklər və türkmənlər) artıq idi. Türküstan MSSR, *Xarəzm xalq sovet respublikası* və Əfqanıstanla həmsərhəd olmuşdur. Paytaxtı Köhnə Buxara idi. Respublikanın xalq nazirləri (komissarları) şurasına F.U. *Xocayev* başçılıq edirdi. BXSR ərazisində bir tərəfdən Buxara qırmızı ordusu və Rusiya Qırmızı ordusunun hissələri, digər tərəfdən isə basmaçıların dəstələri arasında aramsız döyüşlər gedirdi. 1921 ildə RSFSR və BXSR arasında ittifaq müqaviləsi və iqtisadi saziş bağlandı. 1921–24 illərdə əmir və bay torpaqları müsadirə edilib dehqanlara paylandı. 1922 ildə BKP RK(b)P-nin tərkibinə qəbul olundu. 1923 ildə Türküstan, Buxara və Xarəzm sovet respublikaları vahid iqtisadi mərkəz – Orta Asiya iqtisadi şurasını yaratdılar. 1924 il sentyabrın 19-nda Buxara SSR adlandırılan BXSR sovet Orta Asiyasında milli-dövlət sərhədləşdirilməsi nəticəsində ləğv edildi (1924, 27 oktyabr); onun ərazisi yeni yaradılmış Özb. SSR, Tür. SSR və Tac. MSSR-in tərkibinə daxil oldu.

**BUXARA XANLIĞI** – 16–18 əsrlərdə Orta Asiyada dövlət. Çingiz xanın nəslindən olan *Şeybanilərin* başçılığı ilə köçəri özbəklər tərəfindən yaradılmışdır. İlk hakimi Məhəmməd Şeybani idi. 1533 ildə paytaxt Səmərqənddən Buxaraya köçü-





rüldükdən sonra B.x. adlandırılmışdır. B.x.-nın iqtisadi və siyasi cəhətdən ən qüdrətli vaxtı Abdulla xanın [1557–98] fəaliyyəti ilə bağlıdır. Bəlx (1573), Daşkənd (1582), Fərqanə (1583), Xorasan (1588), Xarəzm (1595–96) xanlığa birləşdirilmiş. Rus dövləti, Hindistan və Osmanlı imperiyası ilə ticarət və diplomatik əlaqələr yaradılmışdı. K.t., sənətkarlıq, ticarət xeyli inkişaf etmişdi. Abdulla xanın ölümündən sonra Şeybanilər sülaləsi kəsildi və hakimiyyətə *Həştərxanilər* sülaləsi [1599–1747, yaxud 1753] gəldi. Onların hakimiyyəti dövründə B.x.-nda daxili çəkişmələr davam edir, İranla, qazaxlarla, Xivə xanlığı ilə müharibələr aparılırdı. 18 əsrin 1-ci yarısında B.x.-nın siyasi pərakəndəliyi kəskin şəkildə artdı və 1740 ildə ərazisi müqavimətsiz olaraq *Nadir şah* tərəfindən işğal olundu. Nadir şahın ölümündən (1747) sonra Orta Asiyanın bu hissəsində hakimiyyət 1753 ildə *Manqıtlar* sülaləsindən olan əmirlərin əlinə keçdi, onların dövləti *Buxara əmirliyi* adlandırıldı.

**BUXARA VİLAYƏTİ** – Özbəkistan Resp.-ndadır. Sah. 40,3 min $km^2$, əh. 1,7 mln. (2011). 13 r-nu (tumanı), 10 şəhəri, 3 ştq. var. Mərkəzi Buxara ş.-dir.



**Təbiət.** Səthi şm.-q.-ə doğru azmeyilli düzənlikdir. Ərazinin çox hissəsini Qızılqum səhrası tutur. Vil.-in şm.-ında Kulcuktau (785 *m*) d-rı, c.-ş.-də Zərəfşan çayının geniş dərəsi uzanır. İqlimi kəskin kontinentaldır. Orta temp-r yanvarda – 2°C-dən (c.-da) -8°C-yədək (şm.-da), iyulda 28–30°C-dir. İllik yağıntı 125–175 *mm*-dir. Mühüm çayı olan Zərəfşandan və Türkmənistan Resp.-sı ilə sərhəddəki Amudərya çayından suvarmada istifadə edilir. Şor göllər var. Faydalı qazıntıları: neft, təbii qaz, qrafit, bentonit, mərmər, əhəngdaşı, qum, gips və s. Suvarılan r-nlarda (torpaq fondunun təqr. 2%-i) çəmən, allüvial, bataqlıq-çəmən, səhra-otlaq r-nlarında açıq-boz, qumlu və s. torpaqlar geniş yayılmışdır. Səhrada gəvən, cuzğun, efemerlər, efemeroidlər, saksaul və s. bitir; ceyran, sayqak, canavar, tülkü, gəmiricilər, sürünənlər, müxtəlif quşlar və s. var.

**Təsərrüfat**. Vil.-in ÜRM-ində sənayenin payı 18% təşkil edir. Toxuculuq, ipəksarıma və pambıqtəmizləmə əsas sənaye sahələridir; neftin, təbii qazın, qiymətli metalların hasilatı və emalı mühüm yer tutur. B.v. Orta Asiyada iri yanacaq-energetika sənayesi r-nlarından biridir. Buxara neft emalı z-du ildə 2,5 mln. *t* neft və qaz kondensatı emal edir (2010). Z-dun istehsal etdiyi yüksəkkeyfiyyətli benzin, dizel yanacağı, mazut, aviakerosin və digər məhsullar xarici ölkələrə ixrac olunur. Toxuculuq sənayesi üçün başlıca xammal pambıqdır: 2010 ildə vil.-də 106,7 min *t* pambıq lifi istehsal edilmişdir.

ÜRM-də k.t.-nın payı 29,6%-dir (2010). Bitkiçiliyin əsas sahələri pambıqçılıq (342 min *t*) və taxılçılıqdır (620 min *t*). Vil.-də orta hesabla ildə 150 min *t* meyvə, 354 min *t* tərəvəz, 79 min *t* bostan bitkiləri və 99 min *t* üzüm yetişdirilir.

Buxara vilayəti. Qızılqum səhrasında "Daş meşə".



Avtomobil yollarının uz. 3994 *km*-dir. 2010 ildə avtomobil nəql. ilə yükdaşımaların həcmi 1242,9 mln. *t/km* olmuşdur. D.y.-larının uz. 452,4 *km*-dir.

2010 ildə vil.-in xarici ticarət dövriyyəsi 659,7 mln. dollar təşkil etmişdir. İxracatın həcmi 336,9 mln. dollara, idxalatın həcmi 322,8 mln. dollara çatmışdır. Pambıq lifi (57,3%), enerji ehtiyatları (19,3%), qida məhsulları (3,5%) və xidmətlər (3,5%) əsas ixracat məhsullarıdır. İdxalatda əsas yeri maşın və avadanlıqlar (16,5%), enerji ehtiyatları (67,1%), mineral və kimyəvi materiallar (4,3%) tutur.

**BUXARA YƏHUDİLƏRİ** – bax *Orta Asiya yəhudiləri*.

**BUXARA YÜRÜŞLƏRİ** – Rusiya qoşunlarının 1866–68 və 1870 illərdə *Buxara əmirliyinə* qarşı hərbi ekspedisiyaları. Buxara əmirliyi ilə toqquşmaya əsas səbəb gen.-m. M.Q. *Çernyayevin* komandanlığı altında rus qoşunları tərəfindən Mərkəzi Asiyada hakim strateji məntəqənin – Kokandın Daşkənd qalasının işğalı oldu. Buna cavab olaraq Buxara hakimiyyətinin sərəncamı ilə əmirin yanına göndərilmiş Rusiya elçiliyi və bütün rus tacirləri həbs edildi. Rusların əmir Müzəffərəddinin qoşunlarını məğlub etməsi və əmirliyin ərazisinin bir hissəsinin, o cümlədən Xocənt, Ura-Tübə, Cizak şəhərlərinin işğalı (1866) Buxara tərəfini sülh danışıqlarına başlamağa məcbur etsə də, əmir rusların şərtləri ilə razılaşmadı. 1867 ildə Rusiyanın Orta Asiyada işğal etdiyi bütün ərazilər *Türküstan general-qubernatorluğu* adı altında birləşdirildi; II Aleksandr tərəfindən müstəsna səlahiyyətlər almış gen.-l. K.P. Kaufman gen.-qubernator təyin edildi.

1867 il sentyabrın 1-də Kaufman Buxaraya ultimatum mahiyyətli Rusiya-Buxara sazişinin mətnini göndərdi. Buxara tərəfi bu sazişi rədd etdikdən sonra 1868 ildə hərbi əməliyyatlar yenidən başlandı. 1868 il mayın 2-də rus qoşunları Buxara əmirliyinin Səmərqənd şəhərini işğal etdilər. Şəhərdə qarnizon yerləşdirən Kaufman əsas qüvvələri ilə Zirabulak yüksəkliklərinə yollandı və burada Buxara ordusunu darmadağın etdi. Həmin gün Səmərqənddə Rusiyaya qarşı üsyan baş verdi və rus qarnizonu içqalada mühasirəyə alındı. Səmərqəndə qayıdan Kaufman üsyanı amansızcasına yatırtdı. Az sonra Müzəffərəddin *Rusiya-Buxara mü-*



Buxarest şəhərindən görünüş.

*qaviləsini (1868)* imzalamağa məcbur oldu. Müqavilənin şərtlərinə görə, Buxara əmirliyi Rusiyanın protektoratlığına keçdi, Zirabulak yüksəkliklərinə qədər bütün işğal olunmuş ərazilər *Zərəfşan dairəsi* kimi Rusiyanın hakimiyyəti altında olan Türküstan gen.-qubernatorluğunun tərkibinə daxil edildi.

1870 il ekspedisiyası zamanı gen.-m. A.K. Abramovun başçılığı ilə rus qoşunları Şəhrisəbz və Karşi ərazilərini işğal edərək yerli bəylərin çıxışlarını yatırdılar. Bu ərazilər itirilmiş torpaqların əvəzinə Buxara əmirliyinə birləşdirildi. *Şaar müqaviləsi (1870)* Rusiya imperiyasının Buxara əmirliyi ilə münasibətlərini qəti şəkildə müəyyənləşdirdi.

**BUXARÉST**, B u k u r e ş t i (Bucureşti) – Rumıniyanın paytaxtı. Judet statusuna malik müstəqil inz. ərazi vahididir. Əh. 1880,0 min (aqlomerasiyada 2272,1 min, 2011). Aşağı Dunay ovalığının mərkəzi hissəsində, Dımbovitsa çayı (Dunay hövzəsi) sahilindədir. Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzidir. Mühüm nəql. qovşağı: 7 d.y. xətti, avtomobil yolları qovşağı, o cümlədən 3 ümumavropa magistral xətti. Beynəlxalq aeroport (Otopeni). Benyasa aeroportu daxili xətlərə xidmət edir. Metropoliten (1979 ildən).

İlk dəfə 1368 ildə Dombrovitsa qalası (Castrum Dombrowicza) kimi, 1459 ildə isə Bokorest qalası (Castrum Bokoresth) kimi qeyd olunur. "B." adı əfsanəvi çoban Bukurun adı ilə əlaqələndirilir. 1659 ildən B. *Valaxiya* knyazlarının daimi iqamətgahı idi. *Valaxiya üsyanının (1821)* mərkəzi olmuşdur. 1861 ildə Rumıniyanın paytaxtı elan edilmişdir. İkinci dünya müharibəsi illərində və 1977 ildə baş verən zəlzələ zamanı ciddi dağıntılara məruz qalmışdır. 1989 il dekabrın 21–22-də B.-dəki kütləvi çıxışlar N. *Çauşesku* rejiminin devrilməsinə səbəb olmuşdur.

B.-in qeyri-müntəzəm planlaşdırılmasının qalıqları saxlanılmış qədim mərkəzinin memarlıq abidələri arasında keçmiş knyaz sarayı ərazisindəki Kurtya-Veke kilsəsi (1554–59; portik – 1715); Radu-Vode (Troitsa kilsəsi, 1568–77; rekonstruksiya 1614–23 və 19 əsrin ortaları), Mixay-Vode (əsası 15 əsrdə qoyulmuşdur; kilsə – 1589–91, portik – 1711), Antim (kilsə – 1714–15) və s. monastırlar; Müq. Dmitri patriarx kafedral baş kilsəsi (1654–58; portik və zəng qülləsi – 1698); Doamney Sovməəsi (1683); Kretsulesku (1720–22), Stavropoleos (1724–30) kilsələri və s. var. B. ətrafında Merkutsa (kilsə – 1580-ci illər) və Plumbuita (əsası 1540 ildə qoyulmuşdur, kilsə – 1647) monastırları, Fundeni-Doamney məbədi (1699); knyaz VIII Qriqore Gikin neoklassisizm üslubunda sarayı elliptik planda Teyul-Doamney kilsəsi, 1883) saxlanılmışdır.

Buxarest. Parlament sarayı.



1850–1930-cu illərdə geniş magistralları və eklektizm (Ateneum; hazırda C. Enesku ad. Filarmoniyanın binası, 1886–88, memar A. Qalleron), milli romantizm ("Bufetul" restoranı, 1889–92, memar Y. Minku; Memarlıq İn-tu, 1911–27, memar Q. Çerkez), neobarokko (əmanət kassası, 1896–1900, P. Qotronun layihəsi; Poçtamt, 1900, memar A. Sevulesku; 1972 ildən Rumıniya Tarixi Muzeyidir), neoklassisizm (Nazirlər Sovetinin Rəyasət Heyəti, 1936–38, memar D. Marku; Kiselyov avtomobil yolundakı zəfər tağı, 1935–36, memar P. Antonesku), funksionalizm ("Ambasador" mehmanxanası, 1935–39, memar A. Kulina) ruhunda təmtəraqlı binaları olan yeni mərkəz yaranmağa başladı.

1940-cı illərin sonlarından (1952 ilin baş planı) yeni yaşayış r-nları tikilməyə başlamış, monumental binalar (o cümlədən "Skınteyya" poliqrafiya kombinatı, memarlar X. Mayku, N. Bedesku və b.; Rumın operası, 1953, memar O. Doyçesku) inşa edilmişdir. 1977 il zəlzələsindən sonra şəhərin köhnə hissəsində də geniş şəhərsalma işləri aparılmışdır: Parlament sarayına aparan İttifaqlar bulvarı (1984–89, memar A. Petresku). Şəhərdə Cəsur Mixay heykəli (1876, K. Bellez), "Nəhəng" (1905–07, heykəltəraş D. Paçurya) və s. abidələr var.

Rumıniya Akademiyası (əsası 1866 ildə qoyulmuş Rumıniya ədəbiyyat cəmiyyətinin bazasında 1879 ildə yaradılmışdır), Kənd Təsərrüfatı və Meşəçilik Akademiyası (1969), Tibb Elmləri Akademiyası (1969), Siyasi və Sosial Elmlər Akademiyası (1970) var. 50-dən çox elmi tədqiqat in-tu, assosiasiya, cəmiyyət və mərkəz, o cümlədən coğrafiya (1875), politexnik (1881), fizika (1890) elmi cəmiyyətləri; mikrobiologiya (1921), atom fizikası (1956) elmi tədqiqat in-tları var. Folklor in-tu (1949); musiqi materialları kolleksiyası, o cümlədən fonoqram arxivi), Buxarest (1694), politexnik (1819), farmakologiya və tibb (1857), memarlıq və şəhərsalma (1897) və s. un-tlər, incəsənət (1864), musiqi (1864), teatr və kino (1864), iqtisadi biliklər (1913), fiziki təhsil və idman (1922) və s. akademiyalar, geologiya və s. in-tlar var.

B.-də Mərkəzi Pedaqoji Kitabxana (1880), Rumıniya Milli Kitabxanası (1955), akademiyaların, ali məktəblərin və s. kitabxanaları; muzeylər: təbiyyat tarixi (1834), asari-ətiqə (1864), hərbi (1914), rəssamlıq (1950), Rumıniya tarixi (1968), Rumıniya incəsənəti (1950 ildən; Respublika Sarayının binasında, 1930–37, memar N. Nençulesku; orta əsrlər incəsənəti, 19–20 əsrlər Rumıniya incəsənəti, 15–20 əsrlər Avropa rəngkarlığı); Rumıniya kəndli incəsənəti (1906), kənd (1936; ağacdan kilsələr və xalq memarlığı), doktor Minoviçin xalq sənəti (1936); Kotroçeni Milli muzeyi (1991), Zambakçan muzeyi (1947; 19–20 əsrlər rumın və fransız rəngkarlığı kolleksiyası) doktor Donun rəssamlıq kolleksiyası, Akademiyanın incəsənət muzeyi (C. Opreskunun kolleksiyası) var.

Milli (1852), "Odeon" (1911; 1990 ildən indiki adını daşıyır), "Luçiya Sturdza-Bulandra" (1947), Yeni (1986), Rumın operası (1885), Operetta teatrları (1950); C. Enesku ad. Filarmoniyanın (1868) nəzdində simfonik orkestr (1920), xalq çalğı alətləri orkestri (1949), akademik xor (1950), radio və televiziyanın Simfonik orkestri (1929) fəaliyyət göstərir. Sirk (1961) var. Şəhərdə Beynəlxalq teatr festivalı, rumın komediyası, fransızdilli teatrların və s. festivalları; ənənəvi beynəlxalq şahmat (1949–83) və kişi tennis turnirləri keçirilir.



Buxarest. Milli Teatr.

Bazar islahatlarına qədər B.-in ən mühüm sektoru sənaye idi. 1989 ildə ölkənin sənaye məhsulları dəyərinin təqr. 13%-i, o cümlədən maşınqayırma və metal emalının təqr. 44%-i, yüngül sənayenin təqr. 20%-i və ətriyyat-kosmetika və poliqrafiya sahələrinin, demək olar ki, yarısı paytaxt regionunun payına düşürdü. 1990 illər iqtisadi tənəzzülü, bir sıra sənaye obyektlərinin bağlanması və yenidən profilləşdirilməsi ilə müşayiət olunan və xarici kapitalın həlledici iştirakı ilə həyata keçirilən müəssisələrin kütləvi özəlləşdirilməsi B.-in iqtisadiyyatında sənayesizləşdirməni sürətləndirdi. 2000 illərin ortalarından ölkənin ÜDM-inin 20%-i B.-də yaradılır. Xidmət sferası tədricən B. iqtisadiyyatının mühüm sektoruna çevrilir (şəhərin ÜDM-inin dəyərinin təqr. 70%-i). Xidmətlərin dəyərinin 1/2-indən çoxu topdan və pərakəndə ticarət (46,4%), nəql. və rabitənin (8,6%) payına düşür. Maliyyə-bank fəaliyyəti, işgüzar və peşəkar xidmətlər, ictimai iaşə və mehmanxana biznesinin rolu artmaqdadır. B.-də ölkənin ən iri bankları yerləşir: Rumıniya Milli Bankı, Rumıniya Dövlət Kommersiya Bankı, qarışıq (dövlət və özəl) və özəl kapitallı banklar, həmçinin bir sıra xarici bankların filial və bölmələri. B.-də, əsasən, xarici və qarışıq kapitallı (xarici və Rumıniya) iri şirkətlərin mənzil-qərargahları və nümayəndəlikləri: "Petrom-servis" (neft və qaz hasilatı və emalı; Rusiya şirkəti "Lukoyl"un iştirakı

Buxarest. Zəfər tağı.



ilə), "Şell Romaniya", "DjeKAD Softuer" (kompüter üçün antivirus proqramları), "Flanko İnternaşenal" (məişət elektronikası ticarət şəbəkəsi), "Reno Romaniya" və s. var.

ÜDM-in həcminin 31%-i və ş.-n iqtisadiyyatına investisiya qoyuluşunun ümumi həcminin 32,5%-i sənaye və tikintinin payına düşür (2003). Sənaye istehsalı strukturunda elektroenergetika, istilik və su təchizatı (sənaye məhsulu dəyərinin 37,2%-i), yeyinti və tütün sənayesi (14,8%), maşınqayırma (13,9%, o cümlədən elektrotexnika, nəql. və dəqiq maşınqayırma), həmçinin kimya və əczaçılıq (11,7%), sellüloz-kağız və poliqrafiya (7,9%), yüngül (5,9%), metallurgiya və metal emalı (4,2%), mebel və ağac emalı (2,9%) sahələri inkişaf etmişdir. B. və şəhərətrafında elmtutumlu, yüksəktexnologiyalı istehsalların inkişafına yönəldilmiş sənaye parklarının formalaşdırılması proqramları, xarici investisiyaların cəlb edilməsi həyata keçirilir.

**BUXARÉST SÜLH MÜQAVİLƏSİ (1812)** – Rusiya-Türkiyə müharibəsini (1806–12) başa çatdırmışdır. Mayın 16-da Buxarestdə imzalanmışdır. Rusiya ilə Osmanlı imperiyası arasında sərhəd Prut çayı müəyyən olundu. Bessarabiya Xotin, Benderı, Akkerman, Kiliya və İsmail qalaları ilə birlikdə Rusiyaya keçdi. Rusiya öz növbəsində Moldova və Valaxiyanı, həmçinin müharibə gedişində işğal olunmuş Qafqazdakı bütün məntəqələri – Anapa, Poti, Axılkələk (indiki Axalkalaki) və digərlərini Türkiyəyə qaytarmağı öhdəsinə götürdü. Osmanlı imperiyası Şərqi və Qərbi Gürcüstanın Rusiyanın tərkibinə keçməsini tanıdı. Suxum ş.-nin yerləşdiyi Qara dəniz sahilyanı sahəsi də Rusiyanın tərkibinə keçdi. Rusiyanın ticarət gəmilərinə bütün Dunay çayı boyu, hərbi gəmilərinə isə Prut çayının mənsəbinədək sərbəst üzmək hüququ verildi. Moldova və Valaxiyanın *Yassı sülh müqaviləsi (1791/92)* ilə əldə etdikləri imtiyazları (Osmanlı imperiyasının tərkibində muxtariyyət) təsbit edildi. Rusiya Serbiyaya müstəqillik verilməsinə nail ola bilmədi. Serbiya yalnız daxili özünüidarə hüququ əldə etdi, lakin Rusiya zamin qismində Osmanlı imperiyasının bu şərtləri yerinə yetirməsinə nəzarət etmək hüququ aldı. Müqavilə imperator I Aleksandr tərəfindən 1812 il iyunun 11-də I Napoleonun Rusiyaya hücumundan bir gün əvvəl ratifikasiya olundu və Vətən müharibəsi (1812) dövründə Türkiyənin bitərəf qalmasını şərtləndirdi. B.s.m.-nin əsas müddəalarını *Akkerman konvensiyası (1826)* təsbit etdi.

**BUXARÉST SÜLH MÜQAVİLƏSİ (1918)** – *Dördlər ittifaqının* (Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə) Rumıniyaya qarşı müharibəsini başa çatdırmışdır. Mayın 7-də imzalanmışdır. 1918 il martın 5-də bağlanmış ilkin müqavilənin şərtlərini təsbit etdi. Müqaviləyə görə Rumıniya bir sıra sərhədyanı rayonlarını Avstriya-Macarıstana güzəştə gedirdi. 1913 il müqaviləsinə görə Rumıniyaya verilmiş Cənubi Dobruca Bolqarıstana qaytarılır, Şimali Dobruca üzərində Dördlər ittifaqının kondominiumu tətbiq olunurdu. İşğalçı qoşunların təminatı xərcləri, həmçinin işğalçı hakimiyyət orqanları tərəfindən buraxılan banknotların alınması Rumıniyanın üzərinə qoyuldu. Rumıniya hökuməti Sovet Rusiyası və Ukraynaya müdaxilə üçün Rumıniya ərazisindən keçən Avstriya-Almaniya qoşunlarına kömək etməyi öhdəsinə götürdü. Dördlər ittifaqı öz növbəsində Rumıniya tərəfindən Bessarabiyanın işğalına icazə verdi. Rumıniya Almaniya və Avstriya-Macarıstandan iqtisadi cəhətdən tam asılı vəziyyətə düşdü: 50 il müddətində onları k.t. məhsulları ilə təmin etməyi, bütün portlarını və dəmir yollarını onların sərəncamına verməyi öhdəsinə götürdü. Almaniya Rumıniyada neft axtarışı, hasilatı və emalı, həmçinin neft məhsullarının satışı üçün müstəsna hüquq əldə etdi. Dördlər ittifaqının Birinci dünya müharibəsində məğlubiyyətindən sonra Rumıniya B.s.m.-nin ratifikasiyasından imtina etdi. B.s.m. *Versal sülh müqaviləsi (1919)* ilə ləğv olundu.

**BUXARI** – evlərdə və ictimai binalarda divar içərisində hörülmüş ocaq yeri. Əsasən, otaqların qızdırılması üçün idi. Azərb.-da 18–19 əsrlərdə geniş yayılmışdı. B.-nın aşağısında yanacaq (odun, kömür) və manqal üçün yer olur. Ocağın tüstüsü düzbucaqlı, yaxud dairəvi açırımla sovrularaq bacadan çıxır. Azərb.-da B.-ların xarici bədii tərtibatı, adətən, portal kompozisiyası şəklindədir; gəcdən, yaxud çinidən quraşdırılmış memarlıq bölgüləri oyma və ya rənglənmiş naxışlarla, bəzən isə güzgü hissəcikləri ilə örtülürdü. B.-lar, adətən, stilizə olunmuş nəbati naxışlarla bəzədilirdi. B.-nın ən gözəl nümunələrinə Azərb.-ın Şəki, Naxçıvan, Şamaxı, Bakı, Gəncə və s. ş.-lərinin binalarında rast gəlmək olur.



Buxarı.

**BUXARIN SEPARASİYASI** – buxar qazanlarında hasil edilən doymuş buxardan suyun ayrılması. B.s. suyun tərkibindəki mineral qatışıqların buxarqızdırıcının borularının daxili səthlərinə və buxar turbinlərinin pərlərinə çökməsinin qarşısını alır. B.s. həcmi və mexaniki olur. H ə c m i separasiya prosesində buxar-su qarışığı şırnaqlarının dinamik basqısı azalır, böyük miqdarda su ayrılır və buxar-su yükləri tarazlaşır. M e x a n i k i separasiyada isə buxar generatorunun barabanından çıxan buxardan qalıq nəmlik toplanır. Su-su reaktorlarının buxar generatorlarında turbinin giriş elementlərinin eroziyasının qarşısını almaq üçün B.s. buxarın nəmliyinin 0,2%-dən çox olmamasını təmin etməlidir.

**BUXARİ** (ər. البخاري), Ə b u  A b d u l l a h  M ə h ə m m ə d  i b n  İ s m a y ı l  ə l - B u x a r i (21.3.810, Buxara – 31.8.870, Səmərqənd yaxınlığında) – ilahiyyatçı alim, yazıçı. Ərəbcə yazmışdır. Başlıca əsəri "Səhih məcmuə" kitabıdır. Burada 7275 hədis toplanmışdır. İslam alimləri bu əsərə çoxlu şərhlər yazmışlar. Əsər fransız dilinə tərcümə edilmişdir. B.-nin "Böyük tarix" adlı irihəcmli əsəri və s. kitabları da var. Əsərləri Xilafətdə ictimai-siyasi münasibətləri öyrənmək üçün qiymətli mənbədir.

*Əd.:* Б е р т е л ь с Е.Э. История персидско-таджикской литературы. Избр. труды, т. 1, М., 1960.



Əl-Buxarinin Səmərqənd yaxınlığında məqbərəsi.

**BUXARİN** Nikolay İvanoviç (partiya təxəllüsü – Nikolay) (9.10.1888, Moskva – 15.3.1938, Moskva) – sovet siyasi və dövlət xadimi, publisist, iqtisadçı, SSRİ EA akad. (1929). 1907–11 illərdə Moskva un-tinin hüquq fakültəsində oxumuşdur. 1906 ildən RSDFP üzvü, bolşevik idi. 1909–10 illərdə dəfələrlə həbs olunmuş, 1911 ildə Arxangelsk qub.-na sürgünə göndərilmiş, tezliklə oradan qaçaraq mühacirət etmişdir. Yazıları Rusiya və Almaniyanın sosial-demokrat nəşrlərində dərc olunmuşdur.

Fevral inqilabından (1917) sonra Rusiyaya qayıdan B. "Sosial-demokrat" qəzetinin və "Spartak" jurnalının redaktoru, RSDF(b)P Moskva vilayət bürosunun, fəhlə və əsgər deputatları Moskva sovetinin icraiyyə komitəsinin üzvü olmuşdur. RSDF(b)P-nin 6-cı qurultayında (1917) MK üzvü seçilmişdir. Moskvada bolşevik üsyanının (1917, oktyabr–noyabr) təşkilində iştirak etmişdir. 1917 ilin dekabrından "*Pravda*" qəzetinin baş redaktoru, *Müəssislər məclisinin* üzvü olmuşdur. 1917 ilin sonu – 1918 ilin əvvəllərində Almaniya ilə sülh bağlanmasının əleyhinə çıxan "*sol kommunistlər*" qrupunun lideri idi. RK(b)P-nin 8-ci qurultayında (1919) qəbul edilmiş partiyanın yeni proqramının müəlliflərindən biri olmuşdur.



Sosialist (1924 ildən Kommunist) akademiyasının təsisçilərindən və Rəyasət Heyəti üzvlərindən biri idi. 1924 ildən MK Siyasi Bürosunun, ÜRMİK və SSRİ MİK üzvü, 1926 ildən *Kommunist internasionalının* baş katibi olmuşdur. "Keçid dövrünün iqtisadiyyatı" adlı kitabında (1920) "*hərbi kommunizm*" siyasətini müdafiə etmiş, lakin Vətəndaş müharibəsindən (1917–22) sonra "ideyalarımızın iflasa uğraması" etiraf edərək V.İ. Leninin son ideyalarının fəal təbliğatçısına çevrilmişdir. B. göstərirdi ki, SSRİ-də sosializmin qələbəsini bazar rəqabəti, fəhlə və kəndlilərin "ikisinifli cəmiyyətində" (proletariatın diktaturasının saxlanılması ilə) vətəndaş barışığı, həmçinin kənddə fərdi və kooperativ təsərrüfatların inkişafı təmin etməlidir. V.İ. Leninin ölümündən sonra baş verən hakimiyyət uğrunda mübarizədə L.D. *Trotskiyə* qarşı çıxan Q.Y. *Zinovyevi*, L.B. *Kamenevi* və İ.V. *Stalini*, 1926–27 illərdə isə Zinovyev və Kamenevin "yeni müxalifətinə" qarşı çıxan İ.V. Stalini dəstəkləmişdi. 1928–29 illərdə Siyasi büroda A.İ. Rıkov və M.P. Tomski ilə birlikdə Stalinin yeni iqtisadi siyasətdən (YİS) imtina etmək kursuna qarşı çıxan "sağ müxalifəti" təşkil etmişdi. 1929 ildə tutduğu vəzifələrdən azad olunmuşdur. Həmin ilin sonunda "sağ müxalifətin" mövqeyinin səhv olduğunu etiraf etsə də, Siyasi Büronun üzvlüyündən çıxarılmışdır.

B. Xalq Təsərrüfatı Ali Şurası (XTAŞ) elmi-tədqiqat sektorunun müdiri və onun Rəyasət Heyətinin üzvü (1929–32), eyni zamanda 1931 ildən "Sosialist yenidənqurması və elm" jurnalının redaktoru olmuşdur. 1932 ildən Ağır Sənaye Xalq Komissarlığı kollegiyasının üzvü və istehsalat-texnika təbliğatı sektorunun müdiri idi. ÜİK(b)P-nin 17-ci qurultayındakı (1934) çıxışında Stalin ətrafında birləşmək təklifi ilə çıxış etmiş, nəticədə MK üzvlüyünə namizəd seçilmiş və "*İzvestiya*" qəzetinin baş redaktoru təyin olunmuşdu. 1935 ilin fevralından SSRİ-nin yeni Konstitusiya layihəsini işləyib hazırlayan komissiyanın üzvü idi. SSRİ Ali Sovetinə bitərəflər ittifaqından namizədlərin iştirakı ilə alternativ seçkilərin tətbiq edilməsi təklifini irəli sürmüşdü. 1936 ildə yenidən bütün vəzifələrindən kənarlaşdırılmış, 1938 ildə güllələnmişdir. 1988 ildə bəraət alaraq partiya sıralarına bərpa edilmişdir.

**BUXAR-QAZ ELEKTRİK STANSİYASI** – *buxar-qaz turbini qurğusu* olan *istilik-elektrik stansiyası*. Kənar istehlakçıları istilik enerjisi ilə təchiz etməklə B.-q.e.s. *istilik-elektrik mərkəzi* kimi işləyə bilir.

**BUXAR-QAZ TURBİNİ QURĞUSU** – energetika qurğusu; onun buxar və qaz turbinlərinin iş tsikli kombinə edilmişdir. B.-q.t.q.-nda işlək cisim kimi yanacağın yanma məhsulları və qızdırılmış hava (*qaz turbinində*), buxar (*buxar turbinində*) və ya buxar-qaz qarışığından (bir turbində) istifadə olunur. Qaz turbini qurğularına nisbətən B.-q.t.q.-nun üstünlüyü işlək cismin başlanğıc temp-runun daha yüksək və istiliyi ayırma temp-runun daha aşağı olmasıdır. Kombinəli B.-q.t.q. daha çox tətbiq edilir; bu zaman qaz turbini qurğusunun yanma kamerasına bütün istifadə olunan yanacağın 20%-i qədər yanacaq (təbii qaz, mazut) verilir. Tərkibində istifadə edilməmiş (yanmamış) oksigen olan yanma məhsulları qaz turbinindən keçərək buxar qazanı ocağına daxil olur və orada digər yanacaqla birlikdə yanır. Qazın başlanğıc temp-ru yüksəldikcə qaz turbinlərindən daha çox qazan-utilizatorlu sxemlərə üstünlük verilir. B.-q.t.q.-nda qazın başlanğıc temp-ru 1100°C olduqda, yanacaq sərfi 270 *q/(kVt·saat)*-a qədər azalır.

**BUXARLA İSİTMƏ SİSTEMİ** – mərkəzləşdirilmiş istilik təchizatı şəbəkəsi; istilikdaşıyıcını (buxarı) boru kəmərləri vasitəsilə binalardakı qızdırıcı cihazlara çatdıran isitmə sistemi. 18 əsrin ortalarında İngiltərədə yaradılmışdır. 19 əsrin əvvəllərində yüksəktəzyiqli, sonralar isə aşağıtəzyiqli sistem tətbiq olunurdu. Qızdırıcı cihazlarda, buxarın kondensasiyası zamanı buxar yaranarkən əmələ gələn istiliyin ayrılması xassəsindən istifadə edilir. Əmələ gələn kondensat boru kəməri ilə mərkəzləşdirilmiş istilik təchizatı şəbəkəsinə və ya isidilən binada yerləşən buxar qazanına qayıdır. B.i.s.-ndə işlənmiş buxardan da (məs., buxar maşınlarının, turbinlərin və s. avadanlıqların buxarından) istifadə edilir. Buxarın başlanğıc təzyiq qiymətindən asılı olaraq, B.i.s.-ləri vakuum-buxar, alçaqtəzyiqli və yüksəktəzyiqli növlərə ayrılır. Müasir inşaatda su, yaxud hava ilə isitmə sistemlərinə üstünlük verilir. Su ilə isitmə sistemindən fərqli olaraq, B.i.s.-ndə buxarın qızdırıcı cihazlara verilməsi ilə binadakı havanı daha tez qızdırmaq olur. B.i.s.-nin daha bir üstün cəhəti az vəsait tələb etməsidir. Belə ki, istiliközütürücülərə və qızdırıcı ci-

hazlara az metal sərf olunur. Buxar azsıxlıqlı mühit olduğu üçün o, hündür binaların yuxarı səviyyəsinə də ötürülə bilir. İstilikdaşıyıcının temp-runu dəyişdirməklə qızdırıcı cihazların istilik veriminin tənzimlənməsinin mümkünsüzlüyü; qızdırıcı cihazların və istilikötürən boruların səthinin daim yüksəktemperaturlu (100°C-dən çox) olması səbəbindən buxarın fasilələrlə verilməsi zərurəti; qızdırılmayan sahələrdən keçərkən buxarötürücülərdə istilik itkisi; işləyərkən, xüsusilə fasilələrdən sonra yenidən işə salınarkən səs-küy olması; fasilələr zamanı dolan hava onların daxili səthini korroziyaya uğratdığına görə istilikötürücülərinin istismar müddətinin azlığı B.i.s.-nin mənfi cəhətləridir. B.i.s.-ndə verilən istiliyi tənzimləmək üçün sistemdə, yaxud onun müəyyən hissəsində iş dayandırılmalıdır. Bu hal B.i.s.-ndən istifadəni çətinləşdirir və istiliyin qeyri-bərabər paylanmasına səbəb olur. B. i. s.-ləri texnoloji tələbatına görə, əsasən, buxarla təchiz olunan sənaye binalarında tətbiq edilir.

**BUXARLANDIRICI** – istilikdəyişdirici aparat; istiliyin ötürülməsi işlək maddənin (su, soyuducu agent və s.) buxarlanması ilə müşayiət olunur. İstilik energetikasında B. buxar-güc qurğusundakı kondensat itkisinin yerini dolduran distillatın, texnoloji ehtiyacları ödəyən təkrar buxarın hasil edilməsi üçün nəzərdə tutulmuşdur. Üfüqi və şaquli borulu B.-lara ayrılır; buxarlanan su boruların içərisindən (şaquli borulu), yaxud borulararası boşluqdan keçə bilir (təbii və ya məcburi sirkulyasiya). Qızdırıcı istilikdaşıyıcısı kimi buxar-turbin və ya qazanxana qurğularının buxarı, qaynar su, qızmar tüstü qazları və s. tətbiq edilir. Dəniz və okean yaxınlığında yerləşmiş AES-lərdə, həmçinin dəniz gəmilərində B. suşirinləşdirici kimi istifadə olunur. B. soyuducu agentin buxarlanması ilə soyuducu qurğuların əsas elementidir; müxtəlif məhlulların konsentrasiyasını yüksəltmək üçün buxarlandırma aparatıdır və s. B. bir-, iki- və çoxpilləli (b u x a r l a n d ı r ı c ı q u r ğ u) ola bilər; pillələrin (mərhələlərin) sayı distillatın keyfiyyətinə qoyulan tələbdən (məs., yeyinti sənayesində) asılıdır. B. elektron cihazqayırmasında inteqral sxemlərin istehsalı zamanı nazik örtüklərin (plyonkaların) yaradılmasında, optik sistemlərə plyonka örtüklərin çəkilməsində və s. hallarda tətbiq edilir.

**BUXARLANDIRICI QURĞU** – bax *Buxarlandırıcı.*

**BUXARLANMA** – maddənin kondensasiya olunmuş fazadan (maye və ya bərk) qaz fazaya (buxara) keçməsi, yaxud istilik hərəkəti nəticəsində mayenin sərbəst səthində maye molekullarının buxar halına keçməsi. Bərk cisimlərin B.-sı s u b l i m a s i y a (bax *Sublimasiya və desublimasiya*) adlanır. B. sıfırdan fərqli faza keçidi istiliyi ilə xarakterizə olunan 1-ci növ *faza keçididir*.

Mayedən buxar halına keçid zamanı molekul mayedəki molekulyar ilişmə qüvvələrini dəf etməlidir. Bu qüvvələrə qarşı görülən iş (çıxış işi), həmçinin yaranmış buxarın xarici təzyiqə qarşı gördüyü iş molekulların istilik hərəkətinin kinetik enerjisi hesabına olduğundan, B. nəticəsində maye soyuyur. B. prosesinin sabit temp-rda getməsi üçün mayeyə müəyyən miqdarda istilik verməklazımdır (bax *Buxarlanma istiliyi*). B.-nın əksinə olan prosesdə, yəni buxardan maye (və ya bərk) fazanın əmələ gəlməsi (buxarın kondensasiyası) zamanı istiliyin ayrılması baş verir.

Molekulların istilik hərəkəti nəticəsində B. (*qaynamadan* fərqli olaraq) istənilən temp-rda mümkündür, həm də temp-r yüksəldikcə və molekulların lazımi kinetik enerjiyə malik hissəsi artdıqca B. sürəti də artır. Qapalı maye-buxar sistemində (bağlı qabda) sabit temp-rda tədricən yaranan termodinamiki tarazlıq halı doymuş buxarın təzyiqi ilə səciyyələnir. Bu təzyiqə mayedən buxara keçən və buxardan mayeyə qayıdan molekullar axınının bərabərliyi uyğundur. Müstəvi səth üzərindəki doymuş buxarın təzyiqi yalnız temp-rdan asılıdır və onun yüksəlməsi ilə artır.

Maye səthinə uçucu olmayan maddədən ibarət kifayət qədər möhkəm nazik təbəqə çəkildikdə, B. sürəti kəskin azalır. Mayenin buxarlanması qaz mühitində (məs., havada) boşaldılmış mühitə (vakuuma) nisbətən yavaş gedir, çünki qaz molekulları ilə toqquşma nəticəsində buxar hissəciklərinin bir hissəsi yenidən mayeyə qayıdır.

B. energetikada, soyuducu texnikada, materialların qurudulması proseslərində və s. mühüm rol oynayır; maddələrin təmizlənməsində və ya maye qarışıqlarının ayrılmasında (bax *Distillə*) vasitə kimi tətbiq edilir. Təbii şəraitlərdə B. okeanlardan və qurudan rütubəti atmosferə ötürən yeganə mexanizmdir və Yer kürəsində suyun dövranının əsas tərkib hissəsidir.

**BUXARLANMA İSTİLİYİ**, b u x a r ə m ə l ə g ə l m ə i s t i l i y i – izobar-izotermik tarazlıq prosesində maddənin maye halından qaz halına keçməsi üçün tələb olunan istilik miqdarı (buxarın mayeyə kondensasiyası zamanı həmin qədər istilik ayrılır). B.i. 1-ci növ *faza keçidi istiliyinin* xüsusi halıdır. Xüsusi B.i. (*C/kq, kkal/kq*-la ölçülür) və mol (molyar) B.i. (*C/mol*) fərqləndirilir. Cədvəldə bir sıra maddələrin normal xarici təzyiqdə (760 *mm c.süt.* və ya 101325 *Pa*) və qaynama temp-runda xüsusi B.i.-nin ($L_{bux.}$) qiymətləri verilmişdir.

| Maddə | $t_{qayn.}$°C | $L_{bux.}$, *kkal/kq** | $L_{bux.}$, *C/kq* |
|---|---|---|---|
| Hidrogen | –252,6 | 107 | $4,48 \cdot 10^5$ |
| Azot | –195,8 | 47,6 | $1,99 \cdot 10^5$ |
| Etil spirti | 78,4 | 216 | $9,05 \cdot 10^5$ |
| Su | 100 | 539 | $22,6 \cdot 10^5$ |
| Civə | 357 | 69,7 | $2,82 \cdot 10^5$ |
| Qurğuşun | 1745 | 204 | $8,55 \cdot 10^5$ |
| Mis | 2540 | 1150 | $48,2 \cdot 10^5$ |
| Dəmir | təqr. 2750 | 1460 | $61,2 \cdot 10^5$ |

*1 *kkal*=$4,19 \cdot 10^3$ C.

**BUXARLANMAÖLÇƏN**, e v a p o r o m e t r, a t m o m e t r – vahid zaman ərzində vahid səth sahəsindən buxarlanan su kütləsini ölçmək üçün qurğu. Bütün tip B.-lərdə buxarlanmış suyun kütləsi tədqiqatın aparıldığı zaman intervalının əvvəlində və sonunda qabların (tutumların) kütləsini suyun kütləsi ilə müqayisə etməklə təyin olunur. Suyun səthi üzərində yerləşdirilmiş məsaməli materiallar da tutum rolunu oynaya bilər. Məs., Vild B.-i qeyri-bərabər çiyinli tərəzidən ibarətdir; qısa çiyinə distillə edilmiş su (mənfi temp-rlarda buz) ilə doldurulmuş standart ölçülü dairəvi metal fincan yerləşdirilir. Tərəzinin dərəcələnmiş şkalası buxarlanan su qatının qalınlığını göstərir. Buxarlanma sürətini ölçmək çətin olduğundan hazırda B.-dən ancaq xüsusi st.-larda istifadə edilir, buxarlanma sürəti isə ərazinin su balansının səviyyəsinə görə hesablama üsulu ilə müəyyənləşdirilir.

**BUXARPAYLAMA** – buxar maşınının silindrinə buxarın verilməsi və işlənmiş buxarın ondan kənar edilməsi, həmçinin buxar turbininə buxarın çatdırılması proseslərinin idarəolunması. B. buxar maşınında bölüşdürücü quruluş, klapan, porşen (düzaxınlı maşınlarda), yaxud kranlar vasitəsilə silindrin açıq və qapalı, qəbuledici və xaricedici kanallarını növbələşdirməklə aparılır. Buxar turbinində isə ucluqlu və drosselli B. tətbiq edilir. Ucluqlu B.-da ucluqların hər qrupuna buxar növbə ilə açılan ayrı-ayrı tənzimləyici klapanlardan gəlir. Drosselli B.-da buxar bütün çevrə boyunca verilir və buxar sərfinin dəyişməsi eyni zamanda açılan tənzimləyici klapanlarda *drossellənmə* ilə əldə edilir.

**BUXARSOYUDUCU** – qızmış buxarın temp-runu qazanda və ya turbindən əvvəl tənzimləmək (azaltmaq) üçün istilikdəyişdirici aparat. B. səthi və çiləyici növlərə ayrılır. Buxarın temp-ru s ə t h i B.-da buxarın su ilə soyudulan divarlarla təması zamanı, ç i l ə y i c i B.-da isə buxar olan tutuma çilənən kondensatın buxarlanması nəticəsində aşağı düşür.

**BÚXENVALD** (Buchenwald) – nasist Almaniyasında Veymar ş. yaxınlığında həbs düşərgəsi. 1937 ilin iyulunda yaradılmışdı. İlk adı Ettersberq idi. 1942–43 illərdə genişləndirilmişdi. Müxtəlif məlumatlara görə, 66-dan 130-a qədər filialı və işçi komandası var idi. 33 ölkədən təqr. 240 min kişi və 25 mindən çox qadın B.-ın məhbusu olmuş, onlardan 56 min nəfərdən çox, o cümlədən 19 min sovet vətəndaşı aclıq, xəstəlik və işgəncələr nəticəsində tələf olmuş, edam edilmiş, yaxud cinayətkar tibbi təcrübələrin qurbanlarına çevrilmişdi. B.-ın əlahiddə blokunda işğal olunmuş ölkələrin dövlət xadimləri – L. Blüm, E. Daladye və b., alman müxalifətinin nümayəndələri, o cümlədən 1944 il 20 iyul sui-qəsdi iştirakçılarının bəziləri saxlanılırdı. B.-da Almaniya KP-nın sədri E. *Telman* öldürülmüşdür. B. məhbuslarının əməyindən daş karxanaları və sənaye müəssisələrində istifadə olunurdu. Düşərgədə antifaşist Müqavimət qrupları (fəal üzvlərindən biri də azərb. Əkbər Ağayev idi) fəaliyyət göstərirdi. 1945 il aprelin 11-də üsyan qaldırmış məhbuslar düşərgəni ələ keçirdilər. 1945 il aprelin 12-də Amerika ordu hissələri B.-a daxil oldu və təqr. 21 min nəfəri (onlardan 900 uşaq) azad etdi. 1945 ilin iyulunda Amerika işğal idarəsi B.-ı Almaniyadakı Sovet hərbi idarəsinə təhvil verdi. B.-da 1945 ilin avqustundan 1950 ilin aprelinədək alman mülki şəxsləri və hərbçilərinin saxlanıldığı SSRİ Daxili İşlər Xalq Komissarlığının (1946 ildən Daxili İşlər Nazirliyi) 2 saylı düşərgəsi fəaliyyət göstərirdi. 1950-ci illərin əvvəllərində B. dağıdıldı. 1958 ildə xatirə kompleksinin tikintisi başa çatdırıldı. Keçmiş B. məhbuslarının beynəlxalq komitələri yaradılmışdır.

**BÚXER**, B a ç e r (Bucher) Uolter Herman (12.3.1888, Ohayo ştatı, Akron – 17.2.1965, Texas ştatı, Hyuston) – Amerika geoloqu, prof. (1925). Heydelberq Un-tini bitirmişdir (1911). ABŞ un-tlərində dərs demişdir. Əsərləri tektonikaya (orogenezə, vulkanik strukturlara, Yer qabığının deformasiyası problemlərinə) həsr olunmuşdur. Yer tarixinin Yer qabığındakı sıxılma və gərilmənin dövri olaraq növbələşməsindən ibarət olduğunu ehtimal edən pulsasiya fərziyyəsinin müəllifidir.

**BÚXHEYM** (Buchhheim) Rudolf (1.3. 1820, Bausen – 12.12.1879, Gisen) – alman farmakoloqu, eksperimental farmakologiyanın banisi. Drezden Tibb-Cərrahlıq Akademiyasını və Leypsiq

Buxenvald. Amerika əsgərlərinin azad etdiyi əsir uşaqlar.



Un-tini bitirmişdir (1845). Derpt (1847 ildən) və Gisen (1867 ildən) un-tlərinin prof.-u olmuşdur. 1847 ildə Derptdə dünyada ilk eksperimental farmakoloji tədqiqatlar laboratoriyasının əsasını qoymuşdur. Dərman maddələrinin təsnifatını (onun adı ilə adlandırılmışdır) təklif etmişdir: kimyəvi və farmakoloji xassələri oxşar olan dərman qruplarını ayırmış, hər qrupa onun ən tipik nümayəndəsinin (məs., digitalis, yaxud üskükotu qrupu, kokain qrupu) adını vermişdir. Farmakologiya üzrə populyar dərsliyin (1859) müəllifidir. Elmi məktəbin yaradıcısıdır.

**BÜXNER** (Buchner) Eduard (20.5.1860, Münxen – 13.8.1917, Rumıniya, Fokşani) – alman üzvi kimyaçısı və biokimyaçısı. Nobel mükafatı laureatı (1907). Münxen Un-tini (fəlsəfə doktoru, 1888) bitirmişdir. 1895–1914 illərdə Kil, Tübingen, Breslau, Vürsburq un-tlərinin, Berlində Ali k. t. məktəbinin prof.-u olmuşdur.



Əsas tədqiqatları qıcqırma proseslərinə və mikroorqanizmlərin fermentlərinə aiddir. Maya hüceyrələri və bakteriyalardan ekstraktlar almış, onların köməyi ilə sübut etmişdir ki, qıcqırma prosesləri canlı orqanizmlərin iştirakı olmadan gedə bilər: fermentlərin təbiətinin və təsir mexanizminin dərkedilməsində mühüm xidməti var.

Ə s ə r i: Die Zymasegärung. Münch.,1903 (mit H. Buchner, M. Hahn).

**BUXOVLUDAĞ** – Azərb. Resp. Zaqatala r-nu ərazisində, Böyük Qafqazın c.-q. yamacında dağ. Hünd. 1627 *m.*

**BÚXTA** (alm. Bucht) – okean, dəniz və göllərin açıq sulardan sahil xətti, burun, yaxud adalarla ayrılan, külək və dalğalardan qorunan kiçik hissəsi (körfəz). Adətən, B. gəmilərin dayanacağı üçün əlverişli yerdir (məs., Berinq dənizində uz. təqr. 50 *km* olan Provideniye B.-sı, Qara dənizdə Novorossiysk B.-sı, Bosfor boğazında Qızıl Buynuz B.-sı, Xəzər dənizində Bakı B.-sı və s.). Xəzərdəki B.-ların çoxunun onları açıq dənizdən ayıran aydın səddi və sərhədi yoxdur.

**BUXTARMÁ** – Qazaxıstanın ş.-ində çay. İrtışın sağ qolu. Uz. 336 *km*, hövzəsinin sah. təqr. 12,7 min $km^2$. Altay d-rının yamaclarındakı buzlaqlardan başlanır. Dağlıq və dağətəyi sahələrdən axır. *Bux-*

*tarma su anbarına* tökülür. Aşağı axınında ortaillik su sərfi 207 $m^3$/*san*-dir. Ağac axıdılır. Kiçik gəmilər üçün yararlıdır. B. hövzəsində ümumi sah. 34,8 $km^2$ olan 295 göl var.

**BUXTARMA BUZLAQLARI,** B ö y ü k v ə K i ç i k – Qazaxıstanda, Cənubi Altay silsiləsinin şm. yamacında mürəkkəb dərə tipli buzlaqlar. Böyük B.b.-nın uz. təqr. 6 *km*, eni 0,7–2 *km*, sah. 4,5 $km^2$-dir. 3400 *m* yüksəklikdə yerləşir, 2500 *m*-ədək enir. Kiçik B.b.-nın uz. təqr. 2 *km*, sah. 1,5 $km^2$-dir. *Buxtarma* çayını qidalandırır.

**BUXTARMA SU ANBARI** – Qazaxıstanda, İrtış çayında dünyanın ən böyük su anbarlarından biri. Eyniadlı SES-in bəndi ilə yaradılmışdır. 1960–67 illərdə doldurulmuşdur. Sah. 5490 $km^2$, uz. 425 *km*, maks. eni 35 *km*, həcmi 49,6 $km^3$. Çoxillik axımı tənzimləyir; səviyyə tərəddüdü 7 *m*-ədəkdir. Suvarmada, gəmiçilikdə və balıqçılıq təsərrüfatında istifadə edilir.

**BUXURKOLUKİMİLƏR** (Cistaceae) – ikiləpəli bitki fəsiləsi. Kol, yarımkol və ot bitkiləridir. Hünd. 2 *m*-ə qədərdir. Yarpaqları sadə, çoxu bütöv və qarşı-qarşıya düzülmüşdür; çiçəyi tək və ya çiçək qrupunda yerləşir, adətən, ikicinsiyyətlidir. Kasayarpağı və ləçəkləri 5, bəzən 3, erkəkcikləri çoxdur; meyvəsi qutucuqdur. Şimal yarımkürəsinin mülayim iqlimli ərazilərində, xüsusilə Aralıq dənizi ölkələrində 180-ə qədər növü yayılmışdır. Azərb.-da 9 növü (iriçiçək çobanqarğısı, söyüdyarpaq çobanqarğısı, ərəb fumanı, yatıq fuman və s.) məlumdur. Bəzi növləri dekorativ bitki kimi əkilir.

**BUİLƏR,** b u e y l ə r, b u y a i l ə r, b u ç j u n l a r, b u j a o l a r, p u y i l ə r, p u m a n l a r (özlərini buxqyaix, hərfi mənada – insan adlandırırlar; Çin dilində buyiszular, qədim adları çjunszya, tuszya – yerli; iszular, bendilər, şuyxular) – Cənubi və Cənub-Qərbi Çində *çjuan-dun xalqlarından* biri. Əsasən, bui və myao xalqlarının Syannan və Syansi muxtar qəzalarında (Quyçjou əyaləti), həmçinin Yunnan və Sıçuan əyalətlərində yaşayırlar. Sayları Çində 3,3 mln. nəfər (2005), Vyetnamda 2 min nəfərdir. B. tay dillərinə aid, cənub, mərkəz və qərb dialektləri olan bui dilində danışırlar; Çin dili də yayılmışdır. Yazısı 1956 ildən latın qrafikası əsasındadır, bundan əvvəl Çin yazısını tətbiq etmək cəhdləri olmuşdur. Ənənəvi inanclarını saxlayırlar, dindarların bir qismi xristiandır (19 əsrin sonlarından).

B. mənşə, dil və özlərinə verdikləri ad baxımından *çjuanlara* yaxındırlar. Qədimdə çjuanlar, taylar və digərləri ilə yanaşı sioular, loyuelər, bayyuelər, eramızın 1-ci minilliyinin sonlarından manlyaolar, lilyaolar, 2-ci minilliyin ortalarından çjunszyalar, çjunszyamyaolar və s. adlar altında məlum olmuşlar. Ənənəvi mədəniyyətləri Şərqi Asiya xalqları üçün səciyyəvidir. Əsas məşğuliyyətləri terraslı suvarma əkinçiliyidir. Hörmə, toxuculuq, batik istehsalı, tikmə (insan, gül, heyvan təsvirləri), daş və ağac üzərində oyma, dəmirçilik inkişaf etmişdir. Kişi və qadın geyimləri: kofta, yaxud gödəkcə və şalvar, çalma, gümüş bəzək əşyaları; paltarlarında göy rəng üstünlük təşkil edir. Beyyandanşan r-nunda qadın geyimlərində yaş fərqləri saxlanılmışdır: qızlarda – şalvar və enli kəmərlə bağlanan qısa xələt, hörükləri başlarının ətrafına bərkidilir; qadınlarda tikişsiz uzun yubka və baş örtüyü. Sınaq nikahı adəti saxlanılmışdır: ilk uşağı dünyaya gələnədək qadın valideynlərinin evində yaşayır, uşaqsız nikahlar isə pozulur. Ruhların və əcdadların kultları inkişaf etmişdir. Hər kənddə toyuq içalatı əsasında gələcəkdən xəbər verən falçı var. Bayramları ümumçin bayramlarıdır, əsas bayramları – Yeni ildir. Qoşa rəqs-pantomimalar yayılmışdır. 19–20 əsrlərdə ağacdan düzəldilmiş maskalarda çıxış edən aktyorlarla musiqili dram formalaşmışdır.


Bui qızı ənənəvi geyimdə.

Buxtarma su anbarı.


**BÚİR-NUR** – Monqolustan və Çin ərazilərində göl. 583 *m* yüksəklikdədir. Sah. 610 $km^2$, dərinliyi 11 *m*-ə qədərdir. Sahilləri zəif parçalanmış, yastıdır. Dibi qumlu və lilli, bəzi yerlərdə daşlıqdır. Gölə Xalxın-Qol çayının qollarından biri tökülür. B.-N.-dan axan Orçun-Qol çayı onu Dalaynor gölü ilə birləşdirir. Noyabrdan mayadək donmuş olur. Balıqla zəngindir.

**BUJ** (fr. bougie – zond) – insan orqanizmində boruşəkilli orqanların müayinə etmək və tədricən genişləndirmək üçün (əsasən, qida borusunu, sidik kanalını) işlədilən tibb aləti. Urologiyada metal və yumşaq (elastik) B.-dan istifadə olunur. Elastik B.-lar kauçuk, rezin və s.-dən hazırlanır.






Buir-Nur gölü. Monqolustan.


Bujumbura şəhərindən görünüş.

**BUJANLAR** – bax *Volınlılar*.

**BUJUMBÚRA** (1962 ilədək Usumbura) – Burundinin paytaxtı, Bujumbura əyalətinin inz. m. Əh. 521,3 min. (2010). Ölkənin ən böyük şəhəridir. Tanqanika gölünün şm.-ş. sahilində yerləşir. Avtomobil yolları qovşağı. Ölkənin əsas portu (qəhvə, çay, pambıq, dəri xammalı ixrac olunur). Beynəlxalq aeroport.

1897 ildə Almaniyanın Şərqi Afrikada hərbi nümayəndəliyi kimi salınmışdır. 1922 ildən Belçikanın mandatı, 1946–62 illərdə Belçikanın nəzarəti altında olan Ruanda-Urundi ərazisinin inz. m. olmuşdur. 1962 ildən müstəqil Burundi dövlətinin paytaxtıdır.

Şəhərin mərkəzini 1–2 mərtəbəli Avropa tikililərindən ibarət düzbucaqlı küçələr şəbəkəsi təşkil edir.

Burundi un-teti (1960), Aqronomiya elmləri in-tu (1962), Tibbi tədqiqat laboratoriyası, Milli hidrometeorologiya mərkəzi, Baş geologiya direksiyası; un-t kitabxanası və kütləvi kitabxana; etnoqrafiya və geologiya muzeyləri var.

B. – ölkənin başlıca sənaye-ticarət mərkəzidir. K.t. xammalının (o cümlədən pambıq- və çəltiktəmizləmə) emalı üzrə, yeyinti (o cümlədən pivə istehsalı), toxuculuq, ayaqqabı sənayesi müəssisələri fəaliyyət göstərir. Metal təmiri, şüşə, sement z-dları var. Sabun, balıq ovu torları istehsal olunur. Balıq ovu və emalı. İES var.

**BUKAN** – İranın Qərbi Azərbaycan ostanında qəs. Mehabad şəhristanının Bukan bölgəsində, Mehabad ş.-ndən 56 *km* c.-q.-dədir.

**BUKANTAU** – Özb.-ın şm.-ında, Qızılqum səhrasında alçaq dağ massivi. Hünd. 764 *m*-ədək (Gerlir d.). Kristallik şistlərdən, əhəngdaşılardan, qranitlərdən, qranodioritlərdən ibarətdir. Zirvəsi yastıdır, yamaclarının aşağı hissəsində bulaqlar çıxır (suvarmada istifadə olunur). Səhra bitkiləri yayılmışdır.

**BUKANYERLƏR** – bax *Flibustyerlər*.

**BUKARAMÁNQA** (Bucaramanga) – Kolumbiyanın şm.-ş.-ində şəhər, Santander dep-tinin inz. m. Əh. 716,5 min (şəhərətrafı ilə təqr. 1,23 mln.; 2011). Şərqi Kordilyer d-rının q. yamacında, 960 *m* yüksəklikdədir. Nəql. qovşağı. B.-dan Panamerika avtomobil yolu (Santa-Fe-de-Boqota–Karakas, Venesuela hissəsi) keçir. Dar d.y. B.-nı Puerto-Vilçes (Maqdalena çayı sahilində port) ilə əlaqələndirir.

B. 1622 ildə salınmışdır. 1860–80-ci illərin ortalarında kinə ağacı qabığı yığılmasının iri mərkəzi idi; sonralar kinə ağacı əkinləri tədricən qəhvə, tütün və s. plantasiyaları ilə əvəz olundu.

Müq. ailə baş kilsəsi (1887); Santander sənaye un-ti (1947), Bukaramanqa muxtar un-ti (1952, un-t statusunu 1974 ildə almışdır), İpəkçilik in-tu; etnoqrafiya və tarix, müasir incəsənət (1989 ildə yaradılmışdır) muzeyləri; Botanika bağı var.

Xidmət sferası (təhsil, səhiyyə, qəhvə və tütün ticarəti və s.) inkişaf etmişdir. Aparıcı sənaye sahələri: yeyinti (un, şokolad, içki və s.), tütün, yüngül (toxuculuq, tikiş, ayaqqabı, həsir şlyapaların istehsalı), sement, kimya, neft-kimya. B. k.t. r-nu mərkəzidir (hünd. 900–2000 *m* olan yamaclarda qəhvə, 900 *m*-ədək yamaclarda tütün, həmçinin kakao, pambıq plantasiyaları; maldarlıq, ipəkçilik). B. yaxınlığındakı Kaliforniya qəs.-ndə uran filizləri çıxarılır.

**BUKASOV** Sergey Mixayloviç (13(25).9. 1891, Kursk qub.-nın Nijniye Penı k., – 17.7.1983, indiki Belqorod vil.-nin Rakityansk r-nu) – rus seleksiyaçısı, ÜKTEA-nın akad. (1956), Sosialist Əməyi Qəhrəmanı (1971), SSRİ Dövlət mük. laureatı (1949). S.-Peterburq Un-tini bitirmişdir (1913). N.İ.Vavilov ad. Ümumrusiya Elmi Tədqiqat Bitkiçilik İn-tunun soğanaqmeyvəlilər şöbəsinin ilk rəhbəri (1921) olmuşdur. Əsərləri kartofun seleksiyası və sistematikasına həsr edilmişdir. Xərçəng və fitoftora xəstəliklərinə davamlı sortlar yaratmışdır.

**BUKÁVU** (1966 ilədək Kostermanvil, Costermanville) – Konqo Demokratik Resp.-nın ş.-ində şəhər. Cənubi Kivu

Bukaramanqa şəhərindən görünüş.




Bukavu şəhərindən görünüş.

əyalətinin inz. m. Əh. 806,9 min (2012). Kivu gölünün c. sahilində port. Avtomobil yolları qovşağı. Beynəlxalq aeroport. 1901 ildə Belçikanın müstəmləkə hakimiyyəti orqanları tərəfindən salınmışdır. Mərkəzi Afrika Elmi Tədqiqatlar İn-tu, Dağ-mədən işləri in-tu, Kənd təsərrüfatının inkişafı in-tu (1972), pedaqoji kollec var. B. k.t. r-nunun ticarət mərkəzidir (çay, qəhvə, tərəvəz, sitrus). Yeyinti (o cümlədən pivə istehsalı), toxuculuq, metal emalı, kimya, əczaçılıq, mebel sənayesi, gəmi təmiri müəssisələri var. Tikinti materialları istehsal olunur. Turizm inkişaf etmişdir. B. yaxınlığında "Ruzizi" SES-i, şəhərin şm.-q.-ində Kaxuzi-Biyeqa Milli Parkı var.

**BUKAVUL** (بوکاول) – orta əsrlərdə (əsasən, Elxanilər dövründən başlayaraq) bəzi Yaxın Şərq ölkələrində, o cümlədən Azərb.-da hərbi vəzifə. Azərb. alimi Məhəmməd ibn Hinduşah Naxçıvaninin məlumatına görə, B. baş əmirdən sonra orduda ən böyük şəxs idi. Ordunun B.-u ("Bukavul-i ləşkər") olduğu kimi, ayrı-ayrı qoşun hissələrinin də B.-u olurdu (məs., "tümən bukavulu" və s.). Ordunun bütün heyəti (baş əmirdən başqa) B.-a tabe olmalı, onun göstəriş və tapşırıqlarına əməl etməli idi. B. orduda nizam-intizamı qoruyur, hərbi vəzifələri, maaşları, yürüşlər zamanı ələ keçirilmiş qənimətləri və s. hərbi hissələr və əsgərlər arasında bölüşdürürdü. B. vəzifəsinə hökmdarın əmri ilə təcrübəli və etibarlı şəxslər təyin olunurdu. B.-un maaşı baş divan büdcəsi hesabına ödənilirdi.

**BUKEFÁL** (Busefal) – Makedoniyalı İsgəndərin sevimli atı. B.-ın ölümündən sonra Asiyada Makedoniyalı İsgəndər tərəfindən əsası qoyulan bir sıra şəhər Bukefaliya adlandırılmışdı.

**BUKET** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Əcəbşir bölgəsinin Dizcərud kəndistanında, Əcəbşir qəs.-ndən 12,5 *km* şm.-ş.-də, Marağa–Azərşəhr avtomobil yolundan 10 *km* şm.-ş.-dədir.

**BUKEY**, B ö k e y (? – 2.6.1815) – qazax dövlət xadimi. *Əbülxeyr* xanın nəvəsi. *Cahangir* xanın atası. Kiçik juz xanı Nurməhəmməd Əli Bahadurun (Nurəlinin) (? – 1790) kiçik oğullarından biri. 1786 ildə imperatriçə II Yekaterina tərəfindən atasının hakimiyyətdən uzaqlaşdırılmasından sonra Kiçik juzda baş verən ara müharibələri zamanı B. Rusiya hakimiyyətinə loyallıq göstərmiş, onun dəstəyinə arxalanaraq Kiçik juz qazaxları arasında nüfuzunu artırmağa çalışmışdır. 1798–1805 illərdə Kiçik juzun Xan şurasının başçısı olmuşdur. 1801 ilin fevralında K.F. *Knorrinqə* yazdığı məktubda Kiçik juz qazaxlarının bir hissəsi ilə Volqa və Ural çayları (1771 ilədək Volqaarxası kalmıkların məskəni idi) arasındakı boş torpaqlarda məskunlaşmağa icazə istəmişdir. İmperator I Pavelin 1801 il 23 mart tarixli fərmanına əsasən Ural və Volqa çayları arasındakı ərazidə *Bukey Ordası* yaradılmışdı. B. ruslara əsirlərin və oğurlanmış mal-qaranın axtarışında yardım göstərirdi. 1811 il oktyabrın 10-da Bukey Ordasının xanı seçilmiş, həmin il noyabrın 23-də imperator I Aleksandr B.-in statusunu təsdiqləmişdir. Müasirlərinin dediklərinə görə, qeyri-adi fiziki gücə, iradəyə, kəskin ağıla malik olan B. xalqının maariflənməsi üçün əlindən gələni etmiş, təhsil almaq üçün qazaxları Orenburqa göndərmişdir.

**BUKEY ORDASI**, B ö k e y o r d a s ı (Daxili Qırğız Ordası) – qazax xanlığı (1801–76), Rusiya imperiyasının vassalı. Mərkəzi (1825 ildən) Xan Qərargahı kəndi (indiki Urda qəs.) idi.

B.O. imperator I Pavelin 1801 il 23 mart tarixli fərmanının Kiçik juz qazaxlarının bir hissəsinin (təqr. 5 min ailə) sultanı (1811 ildən xan) *Bukey* xana təqdim edilməsi ilə yaradılmışdı. Fərmanda qazaxlara Volqa və Ural çayları arasındakı boş qalmış torpaqlara (1771 ilədək burada Volqaarxası kalmıkları yaşayırdılar) köçmək icazəsi verilirdi. Təsərrüfatın əsasını maldarlıq təşkil edirdi. Bukeyin qardaşı Şiqayın [1815–23] hakimiyyət illərində B.O.-nın köçəri əhalisi Uralarxasına qayıtmağa çalışırdı; 1819 ildə B.O.-nın qazaxlarına qismən köç etməyə icazə verildi. Bukey xanın oğlu *Cahangirin* [1823–45] hakimiyyəti dövründə torpaqların irsən nəsillərə deyil, müəyyən ailələrə verilməsi qaydası bərqərar oldu (bu zaman rüşvət, bəxşiş geniş yayılmışdı), bu isə torpaq üzərində xüsusi mülkiyyətin yaranmasına gətirib çıxardı. Xan tərəfindən adət-ənənələrin pozulması səbəbindən 1836–37 illərdə İ. Taymanov və M. Ötemisovun rəhbərliyi altında üsyan baş verdi. Bu üsyan rus qoşunları tərəfindən yatırıldı. Ticarət inkişaf edirdi; 1839 ildə yarmarkalarda 383,5 min rubl dəyərində mal-qara satılmışdı. 1838 ilədək B.O. Rusiya XİN-in nəzdində və Xan şurasını (12 nəfər) təsdiq edən Orenburq sərhəd komissiyasının tabeliyində olmuş, sonralar Dövlət əmlakı nazirliyinin idarəçiliyinə keçmişdir. 1845 ildə Orenburq qub.-nın hərbi qubernatoru V.A. Obruçevin təklifi ilə B.O.-nda xan hakimiyyəti ləğv olundu və B.O. onun tabeliyinə keçdi. Bu zaman Ordada təqr. 20 min ailə var idi. B.O. Sultanların müvəqqəti şurası və rus məmurları, 1858 ildən isə yalnız məmurlar tərəfindən idarə olunurdu. 1862 ildə DİN-in nəzdinə keçmiş, Orenburq və Samara gen.-qubernatorunun və Orenburq qırğızları vilayətinin, 1869 ildən isə Turqay vil.-nin vilayət idarəsi tabeliyində idi. 1876 il iyulun 20-də B.O. müstəqil inzibati vahid kimi Həştərxan qub.-nın tərkibinə qatıldı. 1917 ildə onun ərazisində Bukey qub. yaradıldı.

1920 ildə Bukey qub. RSFSR tərkibində yeni yaradılmış Qırğ. MSSR-in tərkibinə qatıldı. Quberniyaların ləğvindən sonra Urda r-nu kimi Qazax. MSSR tərkibinə daxil edildi. 1936 ildə Qazax. SSR ilə birgə RSFSR tərkibindən çıxarıldı.

**BUKEYXANOV** Əlixan Nurməhəmməd oğlu (17.3.1870, Semipalatinsk vil., Karkaralı qəzası Tokrau nahiyəsinin 7 №-li aulu – 27.9.1937, Moskva) – qazax siyasi xadimi, qazax milli hərəkatı xadimi. Çingizilər nəslindəndir. Sankt-Peterburqda Meşə in-tunu bitirmişdir (1894). Milli-azadlıq hərəkatının fəal iştirakçılarından biri, 1905–17 illərdə Konstitusiyaçı-demokrat partiyasının üzvü olmuşdur. Özünün təsis etdiyi "Qolos stepi" və türk dilində "Qazax" adlı qəzetlərdə xalqın müdafiəçisi kimi çıxış etmişdir. 1906 ildə Dövlət dumasının üzvü, Vıborq çağırışını imzalayan 200 deputatdan biri olmuşdur. Müəssislər məclisinin deputatı idi. 1917 ilin martında Müvəqqəti hökumət B.-u Turqay vil.-nin komissarı təyin etmişdi. 1917 ilin dekabrında Qazaxıstanda "Alaş Orda" ərazisinin müstəqilliyini elan etmiş və onun Şurasının sədri olmuşdur. 1918–19 illərdə A.V.Kolçakı dəstəkləmiş, 1919 ilin dekabrında sovet hökumətinin tərəfinə keçmişdir. 1920–30-cu illərdə üç dəfə həbs olunmuşdur, güllələnmişdir. 1989 ildə bəraət almışdır.



**BUKEYLİLƏR** – 19 əsrin əvvəllərində Ural və Volqa çayları arasındakı ərazilərə köçmüş Kiçik juz qazaxlarının bir hissəsi. *Bukey Ordasının* əhalisi. Türk-tatar mənşəli B. müsəlmandırlar. B. yayda köçəri maldarlıqla məşğul olur, qışı isə, əsasən, çiy kərpicdən tikilmiş evlərdə keçirirdilər. B.-in həyat tərzi və adətləri Uralarxası qırğızlara yaxındır. 1885 ildə sayları təqr. 237 min nəfər olmuşdur. B.-in tərkibinə müxtəlif tayfaların: adaylar, cappaslar, baybaktılar, tanalar, berşlər, çerkeşlər, maskarlar, isıklar, isentemirlər, alaçalar, kızılkurtlar, tazlar, tamalar, kerderilər, tabınlar və kitelərin müəyyən qismi daxil idi. 1890 ilin məlumatına görə, Ordada 85 yüzbaşılıq 46214 alaçıq yerləşmiş, əhalinin sayı isə 216 min 850 nəfər olmuşdur. 1 alaçıqda təqr. 5 nəfərin yaşadığı ehtimal edilir. Bukey Ordasında əhalinin orta sıxlığı 1 kv. *verstdə* 3–4 nəfər idi. Sovet dövründə qazax millətinin tərkibinə qatılmışdılar.

**BUKİDNONLAR** (bisayya dilində "dağ sakinləri"), x i q a o n a n l a r (özlərini "dağlılar" adlandırırlar) – Mindanao a.-nın Bukidnon əyalətinin şm. və mərkəzi hissələrində Filippinin dağ xalqlarından biri. Sayları 110 min nəfərdir (1995). Manobolara yaxındırlar və qismən onlarla qaynayıb-qarışmışlar. Qərbi Avstroneziya qrupuna aid bunukid dilində danışırlar. İngilis və taqal dilləri də yayılmışdır. Ənənəvi inanclarını saxlayırlar, xristianları da var.

Ənənəvi məşğuliyyətləri toxa əkinçiliyidir (quru dərələrdə becərilən çəltik, qarğıdalı, abaka, tənbəki). Öküz-karabao və it yetişdirirlər. Balıqçılıq, ovçuluq və yığıcılıq yayılmışdır. Abaka liflərindən toxuculuq, toxuma, dulusçuluq tənəzzül etmişdir. Evləri yortacəsaslıdır, bəzən ağac üzərində qurulur. Betel çeynəmə, dişlərin mişarlanması və qaraldılması, tatu (tatuirləmə) yayılmışdır. Geyimləri (qısa jaket, enli parçadan hazırlanmış kəmər, qadınlarda – uzun yubka, kişilərdə – şalvar) tikmə və aplikasiya ilə bəzədilir. Kişilər naxışlı çalma, qadınlar tunc və sədəflə bəzədilmiş iri daraqlar taxır, yaylıq bağlayırlar. Naxışlı çantalar, sırğalar, bilərziklər, boyunbağılar, həmayillər, metal və balıqqulağından üzüklər yayılmışdır. Əsas yeməkləri düyüdən hazırlanır. Kəndlərdə qohum ailələr yaşayır. Formal olaraq icma tərəfindən seçilən və prezident adlanan başçı ənənəvi rəhbər – daqonun əlamətlərini saxlayır. Nikah neolokaldır, uşaq yaşlarında adaxlanma və gəlin üçün başlıq səciyyəvidir.

**BÜKİNGEM SARAYI** – bax *Bekingem sarayı*.

**BÚKKERO** [ital. bucchero; portuqal dilində bucaro (qədim Peru keramikasının adı) sözündəndir] – etrusklara məxsus yüksəkkeyfiyyətli cilalı keramik qablar. Metal qabların (elə onlar kimi yüksək qiymətləndirilən) Attika və Korinf qabqacağının formasını təkrar edirdi. Fiqurlu qablar da mövcud idi. Erkən (e.ə. 680–600), "zərif" (sottile) B. batıq, kannelür, ştamp və cızma naxışlarla bəzədilmiş nazikdivarlı keramikadır. E.ə. 600–550 illərdə fırlanan neqativ ştamplarla yerinə yetirilən frizlə haşiyələnmiş qablar üstünlük təşkil edirdi. E.ə. 6 əsrin ikinci yarısında "ağır" (pesante) B. – bəzən yapma ornamentləri olan qalındivarlı keramika yayılır. Keramika dekorunda İoniya motivləri meydana gəlir. B. bütün Aralıq dənizi boyu idxal olunurdu. E.ə. 5 əsrin əvvəllərindən tədricən istifadədən çıxmışdır.



**BUKL-DU-BAULE MİLLİ PARKI** – Malinin q.-indədir. Sah. 350 min *ha*. 1954 ildə Baule çayının (Seneqal hövzəsi) döngəsində Sudan tipli təbii savanna kompleksinin (quru yarpağınıtökən meşələr və borassa palmasından ibarət qalereyalı meşələr üstünlük təşkil edir) qorunması məqsədilə yaradılmışdır. Faunası: antilopun bir neçə növü, kəl, begemot, fil. Biosfer rezervatıdır.

**BUKLÉ** – fasonlu iplikdən kətan toxunuşlu kobud parça; əriş və arğac, yaxud yalnız arğac üzərində bir-birindən müəyyən məsafədə yerləşən iri düyünlər parçanın səthinə girinti-çıxıntılı görünüş verir. Bəzi növləri burulmuş iplikdən olan əriş və arğacın xırdanaxışlı toxunması ilə alınır.

**BUKMÉKERLİK** (ing. book-maker) – idman yarışlarının (o cümlədən cıdır, Amerika futbolundan şahmatadək bütün idman oyunları, həmçinin avtomobil yarışları və s.) proqnozlaşdırılan nəticələrinə görə ortaya qoyulan pulların qəbulu üzrə fəaliyyət. B. 1872 ildə, parisli P. Oler qarşılıqlı şəkildə ortaya pul qoymaq sistemini (pari mutuel; bütün yığılan pullardan müəyyən faiz çıxıldıqdan sonra yerdə qalan məbləğ qalib atın biletlərini almış oyunçular arasında bölüşdürülür) icad etdikdən sonra meydana gəlmişdir. 1880 ildə Yeni Zelandiyada ilk dəfə mexaniki totalizatordan – ortaya qoyulan pulları və ödənişləri hesablayan xüsusi qurğudan istifadə olunmuşdur. 1913 ildə ilk elektrik totalizatoru da burada sınaqdan keçirilmişdir. İdmanın inkişafı idman B.-yi ilə məşğul olan çoxsaylı bukmeker kontorunun yaranması ilə nəticələnmişdir. B. ən çox B. Britaniyada yayılmışdır. 1934 ildən dünyanın ən iri B. şirkəti "William Hill" fəaliyyət göstərir; İnternetdə 8 oyun saytına və 2200 kon-



Bukkero amforası. E. ə. 6 əsr. Gil, qara lak. Etruriya. A. Puşkin ad. Dövlət İncəsənət Muzeyi (Moskva).



Bukn-Fyord körfəzi.

tordan ibarət şəbəkəyə malikdir (2005). 2004 ildə şirkətin gəliri təqr. 93 mln. dollar olmuşdur. "Ladbrouks" (London), "Sportingbet" (London; 1998 ildə əsası qoyulmuşdur), "PartyGaming" (Cəbəlüttariq, 1997) və s. müasir iri bukmeker firmalarıdır.

**BUKN-FYORD** (Boknfjord) – Şimal dənizinin körfəzi; Norveçin c.-q. sahillərindədir. Uz. 52 *km*, eni 25 *km*-ədək, dərinliyi 917 *m*-ədəkdir. Sahilləri sıldırımlıdır, kəskin parçalanmışdır. Çoxlu kiçik adalar var. Qabarmalar yarımsutkalıqdır (0,6 *m*-ədək). Stavanger portu körfəzin c. sahilindədir.

**BUKÓLİKA**, bukolik poeziya (yun. bukolikós – çoban) – ellin və Roma dövrünün (e.ə.3 əsr – eramızın 5 əsri ) çoban məişətini əks etdirən antik poeziya janrı. Bədii əsasını siciliyalı yarımmifik çoban Dafnis, onun məhəbbəti və ölümü haqqında mahnılar təşkil etmişdir. Yunan B.-sının yaradıcısı və klassiki Feokrit, Roma B.- sının banisi Vergili hesab olunur. Kiçikhəcmli, təhkiyə və ya dialoq formasında, hekzametrdə yazılan şeirlərdə təbiət gözəllikləri, kənd həyatının füsunkarlığı, çobanların sadə məişəti təsvir edilir. Bukolik şeirlər fərq qoymadan idilliya ( hərfi mənada – lövhə), yaxud eqloqa (hərfi mənada – seçmə) adlanırdı; sonralar şərti olaraq hesab edilirdi ki, idilliya daha çox hiss, eqloqa isə fəaliyyət tələb edir. Yeni Avropa ədəbiyyatında 12–13 əsrlər folkloru ilə qovuşan B. 14–18 əsrlər *pastoralının* müxtəlif formalarını meydana gətirdi. *Lonqun* mənsur "Dafnis və Xloya" romanı da bukolik poeziyaya aid edilir.

*Əd.*: Грабарь-Пассек М.Е. Буколическая поэзия эллинистической эпохи// Феокрит. Мосх. Бион. Идиллии и эпиграммы. М., 1958; Halperin D.W. Before pastoral: Theocritus and ancient tradition of bucolic poetry. New Haven, 1983.

**BUKOLLAR ÜSYANI** – Misirdə Roma ağalığına qarşı imperator Mark Avrelinin hakimiyyəti zamanı, 172 ildə (başqa məlumatlara görə 174, yaxud 175) baş vermişdir. Üsyan iştirakçıları bukolların (yun. βουκόλοι) adları Nilin deltasındakı bataqlaşmış yer olan Bukoliya (2 əsrin ortalarında kəndlilər ağır vergilər və mükəlləfiyyətlərdən buraya qaçıb gəlirdilər) ilə əlaqədardır. Kahin İsidorun başçılığı ilə bukollar Roma legionunlarını darmadağın edərək bütün Aşağı Misiri tutmuş və İsgəndəriyyəyə çatmışdılar. Misirdəki Roma prefektinin öldürülməsindən sonra üsyanı yatırmaq üçün çağırılmış Suriyadakı prefekt, sərkərdə Avidi Kassi üsyançılar arasındakı ixtilaflardan istifadə edərək B.ü.-nı yatırmışdı.

**BÚKOV** Yemilian Nesteroviç (8.8.1909, Cənubi Bessarabiya, Yeni Kiliya – 17.10.1984, Kişinyov) – moldav şairi. Buxarest Un-tində təhsil almış (1931–36), mütərəqqi rumın jurnalları ilə əməkdaşlıq etmişdir. "Zəhmət qaynayır" (1932), "Günəşin sözü" (1937), "Çin", "Səni görürəm, Moldaviya" (1942), "Dnestrdə bahar" (1944), "Bu gün, sabah" (1967), "Həyat ağacı" (1974) kitablarının müəllifidir. "Ölkəm" (1947) poeması, "Reut şəhəri" (1956) mənzum romanı, "Dunay – narahat sular" (1956; 1957 ildə "Dalğalanan Dunay" adı ilə tamaşaya qoyulmuşdur) pyesi, "Magistral" (1969) romanı və s. əsərləri var. Azərb. haqqında şeirlər yazmışdır. "Səməd" poeması S.Vurğuna həsr edilmişdir.

Əsərləri: Rike və onun yoldaşları. B., 1961; Səməd. B., 1975.

**BUKOVİNA** (rumın dilində Bucovina, almanca Buchenland) – Cənubi Karpatyanıda, indiki Ukrayna və Rumıniyanın ərazisində tarixi vil. Fıstıq meşələri mənasını verən "B." adı 14 əsrin sonlarından məlumdur. E.ə. 1-ci minillikdə B.-nın əsas əhalisi frakiyalılar idi. Eramızın 2–3 əsrlərində B. torpaqları Romanın Dakiya əyalətinin tərkibinə daxil idi. *Xalqların böyük köçü* zamanı B. qotların, hunların, avarların və s. tayfaların hücumlarına məruz qalmışdır. Slavyanlar (şərqi) burada 6 əsrdə məskunlaşmışdılar. 10–12 əsrlərdə Şimali B. *Kiyev Rus dövlətinə*, 12 əsrdə Qaliç knyazlığına, 1199 ildən 14 əsrin 1-ci yarısınadək *Qaliç-Volın knyazlığına* daxil idi. B. 14 əsrin 2-ci yarısında *Moldova knyazlığının*, 1514 ildə isə onunla birgə Osmanlı imperiyasının torpaqlarına qatılmışdı. 1769 ildə osmanlılarla müharibə gedişində B.-nı tutan ruslar *Küçük Qaynarca sülhünün (1774)* şərtlərinə görə buradan çəkilməyə məcbur olmuşdular. Avstriya-Türkiyə konvensiyasına (1775) görə Avstriyanın (1786 ildən Qalisiya əyalətinin tərkibində) hakimiyyətinə keçmişdir. 18 əsrin sonu – 19 əsrin əvvəllərində B. əhalisi güclü almanlaşmaya məruz qalmışdı. *Buxarest sülh müqaviləsinə (1812)* görə Şimali B. Rusiya imperiyasının tərkibinə keçmişdi. 1849–60 və 1861–1918 illərdə Qalisiyadan ayrılmış B. Avstriyanın "taxt-tac torpağı" statusuna malik idi. 1918 ildə Avstriya-Macarıstanın parçalanmasından sonra Rumıniya tərəfindən ilhaq olunmuşdu. 1940 ilin iyulunda Sovet hökumətinin tələbi ilə Şimali B. SSRİ-yə verilərək USSR-in tərkibinə qatılmışdı (onun ərazisində Çernovtsı vil. yaradılmışdı). Sovet-alman sazişinə əsasən Şimali B.-da yaşayan almanlar 1940–41 illərdə Almaniyanın nəzarətindəki ərazilərə köçürülmüşdülər. 1947 ildə rəsmən SSRİ-yə verilən Şimali B.-nın ərazisi 1991 ildən Ukraynanın, Cənubi B. isə 1918 ildən Rumıniyanın tərkibindədir. Hazırda Cənubi B.-nın əsas əhalisi rumınlardır.

**BUKRÁNİ** (yun. Βούκρανος – öküz başı) – dekorativ motiv, öküz kəllələrinin rəngkarlıq və ya frontal relyefli təsvirləri. Qədim Ön Asiya incəsənətində meydana gəlmiş, ellinizm dövründə Qədim Yunanıstan incəsənətinə keçmişdir. Adətən, dini ayin əşyalarını bəzəyən B., yəqin ki, qurbankəsməni simvolizə edirdi. B. ornamentdə, bir qayda olaraq, zəncirə ilə növbələnir.





**BÚKSA** (alm. Buchse) – vaqon və ya lokomotivin hərəkət (gediş) hissəsində qovşaq; vaqon və ya lokomotivin kuzasından yükü təkər cütü oxunun boyunluğuna ötürmək, təkər cütünün en və uzunluq boyunca yerdəyişməsini məhdudlaşdırmaq, sürtgünün yatağa verilməsini təmin etmək üçündür. Müasir hərəkət vasitələrinin B. qovşağı diyirlənmə yatağı ilə təchiz edilir. B.-nın gövdəsi yağlama üçün çən rolunu oynayır; yağlama xüsusi tərtibat – metal karkas və ona bərkidilmiş fırçadan ibarət polster vasitəsilə aparılır.

**BUKSİNA**, busina [lat. bucina, buccina, bos – öküz, inək və cano – ifa etmək (musiqi alətində), yaxud oxumaq sözlərindən yarandığı ehtimal olunur] – Qədim Roma nəfəs aləti. Vergilinin "Eneida"sında, Siseronun, Petroni və b.-nın əsərlərində adı çəkilir. B. vasitəsilə şəhər əhalisini xalq yığıncaqlarına çağırır, vaxtı bildirirdilər. Ən çox Roma ordusunda yayılmışdı: trubaçalan – "businator" B. ilə döyüşün başlanması haqqında siqnal verirdi; B. sədaları altında qarovul dəyişirdi. Tit Livinin yazdığına görə, gecə mühafizə dəstəsinin dəyişməsi "birinci", "ikinci", "üçüncü buksina" kimi müəyyənləşdirilirdi ("Roma tarixi", VII, 35, I). Müasirlərinin məlumatına görə, B.-nın səsi xırıltılı və vahiməli idi. Alətin quruluşunun təsviri saxlanılmamışdır.

**BÚKSTEHÚDE** (Buxtehude) Ditrix [təqr. 1637, indiki İsveçdəki Helsinqborq, (?) – 9.5.1707, Lübek] – alman bəstəkarı və orqançalanı. Əslən danimarkalıdır. Musiqiçilər nəslindəndir. Gəncliyində Danimarkada kilsə orqançalanı işləmişdir. 1668 ildən ömrünün sonunadək Lübekdəki (Almaniya) Mariyenkirxenin orqançalanı olmuşdur. Hələ sağlığında B. ən yaxşı alman orqançalanlarından biri hesab edilirdi. Onun zəngin yaradıcılıq fantaziyası və qeyri-adi bəstəkarlıq bacarığını təsdiqləyən orqan üçün yazdığı əsərləri (80-dən çox prelüd, tokkata, fantaziya, kansona, xoral işləmələri və s.) şimali alman musiqi *barokkosunun* parlaq nümunələridir. Bu əsərlər İ.S. *Baxın* yaradıcılığının inkişafına təsir göstərmişdir; o, canlı əfsanəyə çevrilmiş ustadın ifasını dinləmək üçün 1705 ildə məxsusi olaraq Lübekə gəlmişdir.

B. ansambl üçün 20-dən çox sonatanın və təqr. 20 klavir süitanın müəllifidir. Yaradıcılıq irsinin çox hissəsini müxtəlif ifaçı heyətləri üçün yazdığı vokal kompozisiyalar (100-dən çox kantata, motet, dini konsert və s.) təşkil edir.



Buq çayı. Lvov (Ukrayna).

**BUQ**, Qərbi Buq – Polşa, Ukrayna və Belarus ərazilərində çay (xeyli hissəsi sərhəd xətti boyu uzanır). Visla çayının sağ qolu. Uz. 831 *km*, hövzəsinin sah. 73,5 min $km^2$. Podol yüksəkliyindən başlanır. Əsasən, Mazovets-Podlyas ovalığı ilə axır. Qar və yağış suları ilə qidalanır. Yazda gursuludur, tez-tez daşqınlar olur. Ortaillik su sərfi mənsəbində 332 $m^3$/*san*-dir. Dekabrın axırından martın ikinci yarısınadək buzla örtülü olur. Əsas qolları: Muxavets, Narev. Dnepr-Buq kanalı və digər çaylar B.-u Dnepr çayı, Avqust kanalı isə Neman çay sistemləri ilə birləşdirir. Ağac axıdılır. Mənsəbindən 315 *km* məsafədə gəmiçiliyə yararlıdır. Çervonoqrad (Ukrayna) və Brest (Belarus) şəhərləri B.-un sahilindədir.

**BUQÁNDA** – 13–19 əsrlərdə Şərqi Afrikada (Uqanda), Viktoriya gölünün şm.-q. sahilində mövcud olmuş dövlət. 19 əsrin ortaları B.-nın çiçəklənmə dövrü idi; o, Unyoro və Ankole dövlətlərini özünə tabe etmişdi. Əhalisi, başlıca olaraq, əkinçiliklə məşğul olurdu. Sənətkarlıq yüksək inkişaf mərhələsinə çatmışdı. B.-nın ictimai həyatında kahinlər mühüm yer tuturdu. B. hakimi (kabaka) həm də ali hərbi rəis, ali hakim və kahin hesab olunurdu. Bütün torpaq onun sərəncamında idi. 1890 ildə B. İngiltərənin müstəmləkələrinə daxil edildi, 1900 ildən İngiltərənin Uqanda protektoratının əyalətinə çevrildi. Uqanda istiqlaliyyət aldıqdan (1962) sonra B.-ya müəyyən muxtariyyət verildi. 1967 ildə separatçıların qiyamı yatırıldıqdan sonra B. unitar Uqandanın vil.-nə çevrildi; Uqandanın yeni konstitusiyasına (1995) görə irsi ali hakim institutu ləğv edildi.

**BUQÁYEV** Sergey Petroviç (3.8.1936, Leninqrad – 3.4.2002, Tomsk) – rus fiziki, REA-nın akad. (2000). SSRİ Dövlət mükafatı laureatı (1984) Tomsk Politexnik İn-tunu bitirdikdən (1959) sonra orada çalışmışdır. 1971 ildən REA Sibir şöbəsinin Çox Dəqiq Elektronika İn-tunda işləmiş, 1986 ildən in-tun direktoru, 1996 ildən Tomsk Dövlət Un-tinin prof.-u olmuşdur. Əsas elmi işləri elektrik boşalması fizikasına, vakuum və plazma elektronikasına aiddir. Dielektriklərdə sürüşən boşalmaların baş verməsində partlayış emissiyalı elektronların aparıcı rolunu müəyyən etmişdir. Soyuq katodlardan istifadə etməklə çox dəqiq elektron dəstələrinin generasiya problemini, partlayış emissiyalı diodları, katod və anod plazmasını, maqnit izolyasiyalı koaksial diodlarda çox dəqiq elektron axınlarının formalaşmasını tədqiq etmişdir.

**BUQ-DNESTR MƏDƏNİYYƏTİ** – Ukraynada (Cənubi Buq çayının orta axarı və Dnestrin sağ sahili) Neolit dövrünə aid arxeoloji mədəniyyət. Yaranma tarixi mübahisəlidir: təqr. e.ə. 6400–5300 illər, yaxud 6-cı minilliyin ikinci yarısı – 5-ci minilliyin birinci yarısı. V.N. Danilenko tərəfindən müəyyənləşdirilmişdir. Cənubi Buq və Dnestr variantlarına bölünür. Onun formalaşmasında yerli Mezolit ənənələrinin, Sursk və Starçevo mədəniyyətlərinin komponentləri iştirak etmişdir. Məskənlər subasar ərazilərin yaxınlığında yerləşirdi, yerüstü evlərdə böyük ocaq və ya ocaq çalası izləri qalmışdır. B.-D.m.-nin erkən mərhələsi üçün çaxmaqdaşı avadanlığında Mezolit əlamətləri səciyyəvidir. Təsərrüfat balıqçılıq, ovçuluq və yığıcılığa əsaslanırdı. Heyvandarlığın rolu tədricən artmış, əkinçilik inkişaf etmişdi. Cilalanmış baltalar, kərkilər, dənəzənlər, buynuzdan düzəldilmiş toxalar meydana gəlmişdi. B.-D.m.-nin son mərhələsində dairəvi və sivri oturacaqlı qablar yayılmışdı. B.-D.m.-ni Tripolye-Kukuten mədəniyyəti əvəz etmişdir.

**BUQƏLƏMUN** (lat. Chamaeleon) – dünyanın Cənub qütbü yaxınlığında bürc. Azərb. Resp. ərazisində görünmür.

**BUQƏLƏMUNLAR**, xameleonlar (Chamaeleontidae) – kərtənkələlər dəstəsindən sürünənlər fəsiləsi. Uz. 60 *sm*-ədək olur. Bədəni yanlardan çox basıq, boynu qısadır. Növlərin əksəriyyətinin quyruğu uzun, ilişkən sarınandır, spiral şəklində burula bilir; yalnız Brookesia və Rhampholeon cinslərinin quyruğu qısadır. Başının peysər hissəsi çox dikdir, üzərində daraq və qabarlar olur. Bir sıra növlərin (məs., Chamaeleo nasutus və Ch. boettgeri) başlıca olaraq erkək fərdlərinin üzündə irəliyə çıxan və pulcuqlarla örtülü dəri çıxıntısı bəzi B.-da (Ch. bifidus və Ch. ficheri) pulcuqlu lövhələrlə örtülmüş, yanlardan basıq 2 uzun sümük çıxıntısı var; bəzən irəliyə uzanan hamar, yaxud halqavarı buynuzları olur; bunlar Ch. oweni-də 3, Ch. quadricornis-də 4 ədəddir. Bəzi B.-ın peysərində qıcıqlanma zamanı şişən pərşəkilli dəri olur. Ayaqları uzun, nazik, beşbarmaqlıdır. Barmaqlar hərəsində 2–3 barmaq olan dəri çexolla örtülü qruplar əmələ gətirir. Bir-birinə əks olaraq yerləşən bu qruplar kəlbətinəoxşar forma əmələ gətirir. Ön ətraflarda 3 barmaq içəridə, 2 barmaq xaricdə, arxa ətraflarda isə bunun əksinə yerləşmişdir. Bədəni qərni dənəciklər və qabarcıqlarla örtülüdür. Orta qulaqda təbil pərdəsi yoxdur. Gözləri iridir, üst və alt qalın göz qapaqları bir-birinə yapışıqdır, bəbək üçün mərkəzdə kiçik dəlik vardır. Gözlər bir-birindən asılı olmayaraq hərəkət edir. Dili çox vaxt bədəninin yarısından uzun olur; sakit halda xeyli yığcamdır; dilin halqavarı əzələlərinin yığılması zamanı o, cəld irəli çıxır. Dişləri çənənin kənarları ilə birləşmişdir (akrodont dişlər). Körpücük sümüyü yoxdur. Qarın qabırğaları var. Çoxunda (Microsaura cinsindən başqa) ağ ciyərlərdə kor və torbaşəkilli törəmələr var; buna görə də B. bədənlərini çox şişirdə bilir; B.-ın işıqlanmadan, temp-rdan asılı olaraq, yaxud qıcıqlanmadan bədənlərinin rəngini və naxışını tez dəyişmək qabiliyyəti vardır. Rəngin dəyişməsi dəridə, vəziyyəti simpatik sinir sistemi tərəfindən tənzimlənən xüsusi piqment hüceyrələrinin (xromatoforların) olması ilə əlaqədardır. Hüceyrələrdəki piqmentlər (tünd-qəhvəyi, qırmızımtıl və sarı) sıx dənəciklərə yığıla, yaxud səpələnə bilir, bu da rəngin dəyişməsinə səbəb olur. Başlıca olaraq Afrikada, Madaqaskar a.-nda və ona yaxın adalarda 90-a qədər növü birləşdirən 4 cinsi yayılmışdır;


Adi buqələmun (Chamaeleo Chamaeleon).

həmçinin Cənubi Avropada, Qərbi və Cənubi Asiyada rast gəlinir. Əksəriyyəti ağaclarda və kolluqlarda yaşayır. B. kəlbətinşəkilli barmaqları ilə budaqları sıxıb, quyruqlarını budaqlara sarıyaraq saatlarla hərəkətsiz oturur və yalnız vaxtaşırı dilini cəld (0,04–0,05 *san.*-də) irəli ataraq ovunu tutur. Adi B. (Ch. chamaeleon) bitkisi kasad olan yerlərdə yuvalarda, Brookesia cinsindən olan B. isə bəzən quru yarpaqlar arasında yaşayır. Əsasən, müxtəlif cücülərlə qidalanır; iri B. bəzən xırda onurğalıları da yeyir. Əksəriyyəti yumurta (35 ədədə qədər) qoyur; bəziləri (Microsaura cinsindən) diridoğandır (14-ədək bala doğur).

**BUQLÉ** (Bouglé) Selesten (1.6.1870, Kot-dü-Nor dep-ti, Sen-Briyo – 25.1.1940, Paris) – fransız sosioloqu, *Fransız sosioloji məktəbinin* nümayəndəsi. 1893 ildə Ali Normal Məktəbi bitirmişdir. Tuluza un-tində (1900–07) və Sorbonnada (1908 ildən prof.) dərs demiş, Sosial Sənədləşdirmə Mərkəzinin direktoru (1920 ildən), Ali Normal Məktəbin direktoru (1935 ildən) olmuşdur. E. *Dürkheymin* davamçısı olan, həmçinin G. Zimmelin ideyalarından bəhrələnən B. sonuncunun təsiri ilə sosiologiyanın vəzifəsini sosial formaların, onların səbəb və nəticələrinin öyrənilməsində görürdü. B. sosiologiyada biologizmi tənqid etmiş, Qərb cəmiyyətlərində bərabərlik ideyalarının yayılmasının sosial amillərini araşdırmışdır ("Bərabərlik ideyaları", 1899). B.-nin Hindistanda kasta sisteminin sosioloji təhlilinə həsr olunmuş "Kasta rejiminə dair oçerklər" (1908) kitabı klassik əsərə çevrilmiş və bu sahədə aparılan sonrakı tədqiqatlara (L. Dümon və b.) əhəmiyyətli təsir göstərmişdir. Üçüncü respublika ideologiyasının mühüm elementi olan həmrəylik ideyalarının Fransa cəmiyyətində formalaşmasında B.-nin də xidməti vardır.

Əsərləri: Социальная наука в современной Германии. К.; Хар., 1899; Эгалитаризм. (Идея равенства). Од., 1904; Le solidarisme. P., 1907; Essais sur le régime des castes. P., 1908.

*Əd.*: Qofman A.B. Дюркгеймовская социологическая школа // Гофман А.Б. Классическое и современное. Этюды по истории и теории социологии. M., 2003.

**BUQULMÁ** – RF-də, Tatarıstanın c.-ş.-ində şəhər. Buqulma r-nunun mərkəzi. Əh. 87,2 min (2014). *Buqulma-Belebey yüksəkliyinin* yamaclarında, Buqulminka çayının Zay çayına (Volqa hövzəsi) töküldüyü yerdədir. D.y. st. Avtomobil yolları qovşağı. Aeroport.

1736 ildən tatarların məskunlaşdığı kənd kimi məlumdur. 1741–45 illərdə burada Buqulma qəs. salınmışdı. 1781/82 – 1796 illərdə Ufa canişinliyinin, 1796–1850 illərdə Orenburq qub.-nın, 1850–1920 illərdə Samara qub.-nın qəza şəhəri olmuşdur. 19 əsrin sonlarında Uralönü ərazidə ən iri yarmarkalardan biri – Vozdvijeniye yarmarkası B.-da keçirilirdi. Volqa–Buqulma d.y. xətti 1911 ildə şəhərdən keçmişdir. 1920 ildən B. Tatarıstan MSSR-in tərkibində Buqulma kantonunun (1920–30), Buqulma r-nunun (1930 ildən), Buqulma vil.-nin (1953) inzibati mərkəzi olmuşdur.


Buqulma. Mərkəzi məscid.

Şəhər 1974 ilin baş planına əsasən tikilmişdir. Realnı məktəbin binası (19 əsrin 2-ci yarısı), tacir Ş.L. Hakimova məxsus binalar kompleksi (20 əsrin əvvəlləri), Yelaçiçin (19 əsrin sonları), Klimovun (20 əsrin əvvəlləri) evləri, qadın gimnaziyasının binası (20 əsrin əvvəlləri) və s. saxlanılmışdır. Kazan-Məryəm ana kilsəsi (1988–93), Gənclər sarayı (1994), "Yubileynı" buz sarayı (2003), "İrxan" məscidi (2005) şəhərin müasir memarlıq abidələridir. Şəhərdə Böyük Vətən müharibəsi memorialı, B.-nın 200-illiyinə həsr edilmiş abidə var. B.-da 3 ali məktəb (filialları); Mərkəzi kitabxana; diyarşünaslıq muzeyi (1929), Y. *Haşekin* ev muzeyi (1966; 1918 ildə B.-da komendant köməkçisi olmuşdur); Rus dram teatrı (1935; bina F. Qusarov tərəfindən 1898 ildə tikilmiş, 1932 ildə isə 2-ci mərtəbə inşa edilmişdir) və s. fəaliyyət göstərir.

B. Tatarıstanın iri neftçıxarma sənayesi mərkəzidir. Neft sənayesinin elmi tədqiqat və layihə in-tu (1956), "Tatneftgeofizika" (geol.-kəşfiyyat və mədən-geofizika işləri) fəaliyyət göstərir. 20-dən çox sənaye müəssisəsi neft və qaz sənayesi üçün aparatlar istehsal edir. Mexaniki (neft aparatları və s.), elektrik nasosları, "Neftavtomatika" (avtomatlaşdırma vasitələri, qazıma və neft-mədən avadanlığı) təcrübə və s. z-dları; kərpic, çini, likör-araq z-dları, tikiş f-ki və s. var.

**BUQULMÁ-BELEBÉY YÜKSƏKLİYİ** – Şərqi Avropa düzənliyinin ş.-ində, RF-nin Tat. və Başq. resp.-ları, Samara və Orenburq vil.-ləri ərazisində pilləli yüksəklik. Belaya, Kama və Volqa çaylarının sol qollarının suayırıcısıdır. Hünd. 200–400 *m*-dir. Yamacları çay dərələri ilə parçalanmışdır. Əhəngdaşı, gil və qumdaşıdan təşkil olunmuşdur. Karst uçurumları və mağaraları var. Meşə-çöl və çöl landşaftı üstündür. Neft yataqları (*Volqa-Ural neftli-qazlı əyaləti*) var.


Buqulma-Belebey yüksəkliyi.

**BUQURUSLÁN** – RF-də, Orenburq vil.-nin şm.-ında şəhər. Əh. 50,0 min (2014). Uralönüdə, Moçeqay çayının Böyük Kinel çayına (Volqa hövzəsi) töküldüyü yerin yaxınlığındadır. D.y. st.

1748 ildə B. (burada yerləşən başqırd k.-nin adından) qəs. kimi salınmışdır. Ufa canişinliyinin (1781/82–1796), Orenburq (1796–1850) və Samara (1850–1928) qub.-larının qəza şəhəri olmuşdur. 1822 ildə yanğın nəticəsində tamamilə məhv olmuş şəhər tezliklə bərpa edilmişdir. 1888 ildə Samara–Ufa d.y. xəttinin işə düşməsi B.-ın inkişafını sürətləndirmişdir. Vətəndaş müharibəsi (1917–22) dövründə 1918 ilin iyun–oktyabr aylarında Çexoslovakiya korpusunun hərbi hissələri tərəfindən tutulmuşdu. Buquruslan dairəsinin (1928–30), Buquruslan r-nunun (1928 ildən), Orenburq vil.-nin (1934 ildən; 1938–57 illərdə Çkalov vil.) mərkəzi olmuşdur. 1937 ildən B.-da neftin sənaye hasilatına başlanılmışdır.

Orenburq Dövlət Un-tinin filialı, Mülki aviasiya təyyarəçilik məktəbi (1940); Tarix-diyarşünaslıq muzeyi (1930 ildə açılmışdır), M.V. Frunzenin ev-muzeyi, N.V. Qoqol ad. bələdiyyə dram teatrı (1900) var.

B. Volqa-Ural neftli-qazlı əyalətinin neft-qaz sənayesi mərkəzlərindən biridir. "Buquruslanneft" ("Orenburqneft"in filialı; neft hasilatı), "Radiator" z-du (avtomobil kirşələri, radiatorlar və s.) aparıcı müəssisələrdir.

**BUL** (Boulle) Andre Şarl (11.11.1642, Paris – 28 və ya 29.2.1732, Paris) – fransız mebel ustası. 1672 ildən XIV Lüdovikin saray ustası. Luvr, Marli və Versalda dekorativ işlər (qiymətli ağac növlərindən istifadə etməklə divar *marketri* və s.) görmüşdür. B.-un mebel emalatxanasında dörd oğlu: Filipp Bul (1678–1744), Pyer Benua Bul (1680–1741), Andre Şarl Bul (Bul de Süv, 1685–1745; həmçinin heykəltəraş) və Kiçik Şarl Jozef Bul (1688–1754) işləmişdir. Onların yaratdığı mebel nümunələrində *rokokoya* təkamül edən *klasisizm* və *barokko* əlamətləri birləşdir. Bu mebelləri effektlilik, dekorun zənginliyi, həmçinin düz xətlərin və əyrixətli naxışların uyarlı gözəlliyi, ornament və inkrustasiyanın dekorativliyi (səthə yapışdırılmış tunc, abnos ağacından, fil sümüyü, sədəf və tısbağa qınından isti-

A.Ş. Bul. Mücrü. 1685–90. Dövlət muzeyi. Amsterdam.


A.Ş. Bul. XIV Lüdovikə məxsus komod. 1710. Metropoliten-muzey. Nyu-York.


fadə etməklə düzəldilən marketri) fərqləndirirdi. Əsasən, Luvrda, Klüni Muzeyində (Paris), Versalda, Fontenbloda, Uolles kolleksiyasında, Viktoriya və Albert Muzeyində (London), Ermitajda (S.-Peterburq) saxlanılır. "Bul", həmçinin 17 əsrin sonu – 18 əsrin 1-ci yarısında fransız saray mebeli sənətində üslub idi.

**BUL** (Boole) Corc (2.11.1815, Linkoln – 8.12.1864, İrlandiya, Ballintempl) – ingilis riyaziyyatçısı, riyazi məntiqin banisi. Linkolnda kommersiya məktəbini bitirdikdən (1828) sonra dərs demiş və riyaziyyatı müstəqil öyrənmişdir. 1849 ildən Kuins-kollecdə (Kork, İrlandiya) riyaziyyat prof.-u olmuşdur. B.-un elmi maraqları dairəsinə məntiq, riyazi analiz, ehtimal nəzəriyyəsi, B. *Spinozanın* etikası, *Aristotelin* və *Siseronun* fəlsəfi baxışları daxil idi. "Məntiqin riyazi analizi" ("The mathematical analysis of logic…", 1847) və "Təfəkkür qanunlarının tədqiqi" ("An investigation of the laws of thought…", 1854) əsərlərində B. riyazi məntiqin əsasını qoymuşdur (bax *Bul cəbri* və *Bul funksiyası*).



**BUL** (Boulle) Pyer (20.2.1912, Avinyon – 31.1.1994, Paris) – fransız yazıçısı. İxtisasca mühəndis olmuşdur. 1936–41 illərdə Cənub-Şərqi Asiya ölkələrində yaşamışdır. İkinci dünya müharibəsinin iştirakçısı olmuşdur; 1943 ildə əsir düşmüş, 1944 ildə əsirlikdən qaçmışdır; 1947 ildən Parisdə yaşamışdır. Asiyada qazandığı həyat təcrübəsi "Kvay çayı üzərində körpü" (1952; 1957 ildə rej. D. *Lin* tərəfindən ekranlaşdırılmışdır) romanında, "Kvay çayının mənbəyində" (1966) avtobioqrafiyasında və s. əksini tapmışdır. Ən məşhur əsəri "Meymunlar planeti" (1963; bir neçə dəfə, o cümlədən 2001 ildə T. Breton tərəfindən ekranlaşdırılmışdır) romanıdır. Paradoks məntiqi əsasında qurulmuş "Absurd haqqında hekayələr"in (1953); E. *Po* tərzində "Cəllad" (1954) psixoloji detektivinin "İdrak oyunları" (1971) futuristik antiutopiyanın müəllifidir. Fəxri legion ordeni ilə təltif olunmuşdur (1945).

**BUL CƏBRİ**, Bul qəfəsi – qismən nizamlanmış xüsusi növ çoxluq. B.c. formal olaraq aşağıdakı aksiomları ödəyən, $\vee$, $\wedge$, $^{-}$ əməlləri olan boş olmayan çoxluq kimi təyin edilir:

1) $x\vee y=y\vee x$, $x\wedge y=y\wedge x$;

2) $x\vee(y\vee z)=(x\vee y)\vee z$, $x\wedge(y\wedge z)=(x\wedge y)\wedge z$

3) $(x\wedge y)\vee y=y$. $(x\vee y)\wedge y=y$;

4) $x\wedge(y\vee z)=(x\wedge y)\vee(x\wedge z)$,
$x\vee(y\wedge z)=(x\vee y)\wedge(x\vee z)$;

5) $(x\wedge\bar{x})\vee y=y$, $(x\vee\bar{x})\wedge y=y$.

B.c. elementlərinin tənzimlənməsi yalnız $x=x\wedge y$ olduqda $x\leq y$ şərti ilə yerinə yetirilir. B.c.-ndə ən böyük element 1– B.c.-nin vahidi, $1=x\vee\bar{x}$ və ən kiçik element 0 – B.c.-nin sıfırı, $0=x\wedge\bar{x}$ vardır. $\vee$ və $\wedge$ əməlləri dizyunksiya və konyunksiya adlanır və bəzən *sup* və *inf*, bəzən də $\cup$ və $\cap$ kimi göstərilərək, onların çoxluqlar nəzəriyyəsinin birləşmə və kəsişmə əməlləri ilə uyğunluğu qeyd edilir. Konyunksiya & simvolu ilə də işarə edilir. B.c.-nin elementi $x$ elementinin tamamla yıcısı adlanır və bəzən $Cx$, $x'$, $-x$, $\neg x$ kimi işarə edilir. B.c.-ndə hər bir elementin tamamlayıcısı yeganədir.

B.c.-ni həm də ən böyük elementi 1, yəni B.c.-nin vahidi, ən kiçik elementi 0, yəni B.c.-nin sıfırı olan və özünün hər bir $x$ elementi ilə birlikdə onun

$$sup\{x, Cx\}=1, inf\{x, Cx\}=0$$

şərtlərini ödəyən $Cx$ tamamlayıcı elementini saxlayan distributiv qəfəs (distributiv struktur, bax *Qəfəslər nəzəriyyəsi*) kimi təyin etmək olar.

B.c-nin digər aksiomatik təyinləri də mümkündür. B.c.-nin aksiomlarında çoxluq, hadisə, mülahizə anlayışları arasındakı analogiya əksini tapmışdır.

B.c.-ndə əsas $\vee$, $\wedge$, $^{-}$ əməllərindən başqa digərləri də təyin oluna bilər ki, onlar arasında

$$x\Delta y=(x\wedge\bar{y})\vee(y\wedge\bar{x})$$

simmetrik fərq əməli xüsusi əhəmiyyətə malikdir.

B.c., simvolik məntiq aparatı kimi, C. Bul tərəfindən elmə 1847 ildə daxil edilmişdir. Sonralar B.c. riyaziyyatın müxtəlif bölmələrində: ehtimal nəzəriyyəsində, topologiyada, funksional analizdə və s. geniş tətbiqini tapmışdır. B.c.-nin məntiqə tətbiqinin əsasını B.c. elementlərinin mülahizələr şəklində interpretasiyası təşkil edir; burada $Cx$ tamamlayıcısı $x$ mülahizəsinin inkarı, $\wedge$ və $\vee$ əməlləri isə mülahizələrin konyunksiyası və dizyunksiyası kimi izah edilir. B.c.-nin digər tətbiq sahəsi – kontakt sxemləri nəzəriyyəsi də məntiqə yaxındır. B.c. ehtimal nəzəriyyəsinin aksiomlarında istifadə olunur. Ehtimal nəzəriyyəsində öyrənilən hadisələr cəbri B.c.-dir, bu zaman $x\leq y$ bərabərsizliyi o deməkdir ki, $x$ hadisəsi $y$ hadisəsini doğurur; buna uyğun olaraq B.c.-nin sıfırı, B.c.-nin vahidi və $\vee$, $\wedge$, $^{-}$ Bul əməlləri izah edilir.

Qeyd olunmuş $Q$ çoxluğunun daxilolmaya görə nizamlanmış bütün altçoxluqlar sistemi B.c.-nə misal ola bilər. Belə B.c. $2^Q$ şəklində ifadə edilir; onun sıfırı boş çoxluq, vahidi isə $Q$ çoxluğunun özüdür. $x$ elementinin tamamlayıcısı $Q\backslash x$ çoxluğudur; $\wedge$, $\vee$ Bul əməlləri uyğun olaraq kəsişmə və birləşmə ilə üst-üstə düşür.

Hər hansı $X$ B.c. hansısa çoxluqlar cəbrinə izomorfdur. Əgər hər hansı $E\subset X$ çoxluğunun *sup* $E$ yuxarı sərhədi və *inf* $E$ aşağı sərhədi varsa, onda $X$ B.c. dolu adlanır. Dolu olmayan B.c. bir çox üsullarla doldurula bilər, yəni altcəbr kimi hansısa dolu B.c.-nə daxil edilə bilər.

Dolu B.c.-ndə $x\neq 0$ olduqda $\mu(x)>0$; $x,y\in E$, $x\neq y$ olduqda $E\subset X$ və $x\wedge y=0$ şərtlərini ödəyən

$$\mu(supE)=\sum_{x\in E}\mu(x)$$

həqiqi funksiyası (ölçü) təyin edildikdə o, normalaşdırılmış dolu B.c. adlanır:

Normalaşdırılmış B.c.-nin xüsusilə mühüm olduğu ehtimal nəzəriyyəsində, adətən, fərz edilir ki, $\mu(1)=1$. Bu halda $\mu(x)$-in qiyməti $x$ hadisəsinin ehtimalı kimi interpretasiya olunur. Normalaşdırılmış B.c.-nə, əsasən, klassik ölçü və inteqral nəzəriyyəsi gətirilir. Hər bir B.c. normalaşdırıla bilməz. Ölçünün mövcudluğunun müxtəlif şərtləri məlumdur, lakin onlar normalaşdırma problemini tam əhatə edə bilmir.

B.c.-nin müxtəlif *topologiyaları* ola bilər. Bunlardan ən mühümü (o)-topologiyadır; o, normalaşdırılmış B.c.-ndə ölçüləbiləndir və

$$\rho(x,y)=\mu[(x\wedge\bar{y})\vee(\bar{x}\wedge y)]$$

metrikasına uyğundur. Ümumi halda B.c.-nin tərtibi ilə yaxşı uyğunlaşmış topologiya olmaya bilər.

**BUL FUNKSİYASI,** məntiq cəbri funksiyası – funksiyanın özü kimi, arqumentləri də ikielementli çoxluqdan (adətən {0,1} çoxluğundan) qiymətlər alan funksiya. Diskret riyaziyyat obyektləri olan B.f., daha çox riyazi məntiqdə, riyazi kibernetikada və texnikada istifadə edilir. B.f. 19 əsrin ortalarında məntiqin riyazi məsələlərində meydana gəlmiş və C. Bulun adı ilə adlandırılmışdır.

Belə məsələlərdən biri mülahizələr cəbrinin qurulmasıdır. Bunun üçün hər bir mülahizəyə 0 və ya 1 qiymətlərindən (uyğun olaraq "yalan və ya "doğru" rolunu oynayan) biri aid edilir və bu zaman "və", "və ya", "inkar (deyil)", "əgər… onda" əsas məntiqi bağlayıcılarına uyğun olaraq $x\wedge y$, $x\vee y$, $\bar{x}$, $x\rightarrow y$ elementar Bul funksiyaları kimi baxmaq olar. Bununla da əsas məntiqi bağlayıcıların köməyi ilə verilən mülahizələrdən qurulmuş istənilən mürəkkəb mülahizənin qiyməti bu mülahizələrin qiymətlərindən asılı B.f. olur. Belə B.f. mürəkkəb mülahizəyə daxil olan məntiqi bağlayıcılara uyğun elementar Bul funksiyalarının superpozisiyasıdır. Sonralar aydın olmuşdur ki, B.f. dili kontakt sxemləri, funksional elementli sxemlər, məntiqi şəbəkələr və s. kimi diskret idarəedici sistemlərin fəaliyyətinin təsviri üçün əlverişlidir. Mürəkkəb mülahizələr elementar mülahizələrdən düzəldildiyi kimi, bu idarəedici sistemlər də müəyyən qaydalar üzrə bəzi başlanğıc elementlər əsasında qurulur. Göstərilən idarəedici sistemlərin qurulması qaydası B.f.-nın köməyi ilə təsvir edilə bilər. Bu funksiyalar həmçinin

$$f_1(x_1,\dots,x_n)=0$$
$$\text{- - - - - - - - - - - -}$$
$$f_m(x_1,\dots,x_n)=0$$

şəklində Bul tənliklər sisteminin həllinə gətirilən tamsaylı proqramlaşdırmanın bəzi məsələlərində istifadə edilir; burada $f_i$ B.f.-dır, $i=1, 2, \dots m$. B.f.-nın diskret riyaziyyata tətbiqinin başqa imkanları da olduğundan, onun öyrənilməsi əlahiddə maraq doğurur.

B.f. ilə əlaqəli müxtəlif məsələlərin həllində B.f.-nın cədvəllər, düsturlar, $n$-ölçülü vahid kubun təpələrinin altçoxluqları və s. bu kimi verilmə üsulları əhəmiyyət kəsb edir. Axırıncı halda arqumentlərin $n$ qiymətlərinin (0 və ya 1) hər bir uzunluq dəstinə $n$-ölçülü vahid kubun təpəsi kimi baxılır və onda $n$ arqumentlərindən asılı B.f. bu funksiyanın 1 qiymətini aldığı təpələrin altçoxluğunun köməyi ilə verilə bilər. Sətirləri B.f. arqumentlərinin qiymətləri dəstindən ibarət olan matris şəklində yazılan bu altçoxluq Bul matrisi adlanır. B.f. idarəedici sistemlərin işləməsini təsvir etdiyi halda, sonuncuya da B.f.-nın verilmə vasitəsi kimi baxmaq olar. Adətən deyilir ki, bu idarəedici sistem verilmiş B.f.-nı reallaşdırır. B.f.-nın bu və ya digər növ idarəedici sistemlərlə reallaşması ilə bu sistemlərin sintez, minimallaşdırma, nəzarət və etibarlılıq məsələləri kimi bir çox məsələlər əlaqədardır. B.f. müxtəlif üsullarla verildiyindən müxtəlif sinifdən olan B.f.-nın metrik xarakteristikalarının və onlarla əlaqədar $n$-ölçülü vahid kubun həndəsi xassələrinin, eləcə də B.f.-nın müxtəlif cəbrlərinin öyrənilməsi məsələləri ortaya çıxır. B.f.-nın superpozisiyaya görə qapalı olan bütün siniflər sistemi Amerika riyaziyyatçısı və məntiqçisi E. Post tərəfindən şərh edilmişdir (1941).

Bəzi hallarda hər yerdə təyin olunmayan B.f.-nı nəzərdən keçirmək zərurəti yaranır ki, sadalanan məsələlərin belə B.f. üçün özünəməxsus xüsusiyyətləri vardır.







Tübə bulağı. Nurimanov rayonu. Başqırdıstan.



İlıqsu mineral bulağı. Laçın rayonu. Azərbaycan.

**BULAQ** – yeraltı suların yerüstü təbii çıxışı. Sulu horizontun və ya çatın Yer səthi ilə kəsişdiyi yerdə olur. B.-lar temp-ru, kimyəvi və qaz tərkibi, hidrodinamiki xüsusiyyətləri və s.-yə görə fərqlənir. B.-lar iki növ olur: çatlar və məsamələrlə enən B.-lar (çeşmə) və qalxan B.-lar (qaynaq). 1 *l* B. suyunda 1 *q*-dan artıq həll olmuş duz, həmçinin müəyyən qədər qaz və ya nadir elementlərdən biri olarsa və o, müalicə əhəmiyyətlidirsə, belə B. mineral B. və ya qaynaq adlanır. B.-lar temp-runa görə soyuq, ilıq, termal (isti) və hipotermal (çox isti) olur.

**BULAQATLAR** – keçmişdə ən iri buryat tayfalarından biri. 17 əsrin 30–40-cı illərində, rusların gəlişindən əvvəl Anqara çayı hövzəsində yaşayan B. 30 nəsildən ibarət idi. Yaşadıqları əraziyə (Anqara çayının qollarına) görə Unqa, Asa, İda və Kuda qruplarına bölünürdülər. 17 əsrdə sayları təqr. 8–9 min nəfər idi. 17 əsrin sonu – 18 əsrin əvvəllərində B.-ın bir hissəsi Baykal gölünün arxasına, Selenqa çayı hövzəsinə köçmüşdü.

**BULAQBAŞI** – Azərb. Resp.-nın Sədərək r-nundakı (Nax. MR) eyniadlı kəndin şm.-ında qədim kəhriz, içməli su mənbəyi. Sərhəd bölgəsində yerləşən kəhriz 1992 ildə erməni işğalçılarının atdığı top mərmilərindən dağıdılmışdı. 1997–98 illərdən başlayaraq BMT-nin Beynəlxalq Miqrasiya Təşkilatının xüsusi proqramı üzrə B. kəhrizi əsaslı surətdə təmir və bərpa olunmuşdur. Ayrı-ayrı məhəllələri içməli su ilə təmin etmək məqsədilə 5 *km* uz.-nda yeni su kəməri çəkilmiş, nasos st.-sı qurulmuş, 10 ədəd bulaq-abidə tikilib istifadəyə verilmişdir.

**BULAQLAR** – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Paşalı, 12.10.1956 ildən Əzizbəyov, 19.4. 1991 ildən Vayk r-nu), Herher çayının sahilində azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq dağıdılmış, əhalisi qovulmuşdur. 1922 ildə geri qayıdan əhali kəndi yenidən bərpa etmiş, lakin 1949 ildə kəndin əhalisi Azərb.-a deportasiya olunmuş və kənd ləğv edilmişdir.

**BULAQLI** – Azərb. Resp. Sabirabad r-nunun Kürkəndi ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* c.-ş.-də, Muğan düzündədir. Əh. 1288 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, feldşer-mama məntəqəsi var.

**BULAQOTAĞI** – Azərb. Resp. Ağdaş r-nunun Yuxarı Qəsil ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* ş.-də, Türyançayın sa-

hilindədir. Əh. 788 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**BULAQOTU** (Veronica) – keçiqulağı fəsiləsindən bitki cinsi. Çoxillik və birillik otlar (əksəriyyəti – Alp otları), bəzən yarımkollardır. Yarpaqları sadə, adətən, bütöv, yarpaqaltlıqsızdır. Çiçəkləri mavi, bənövşəyi, ağ, çəhrayı, sarı olur; dördüzvlü bitişikləçəkli tacı və 2 erkəkciyi vardır; yarpaq qoltuqlarında tək-tək, yaxud salxımvarı və ya qalxanvarı çiçək qrupunda toplanmışdır. Meyvəsi qutucuqdur. Əsasən, Şimal yarımkürəsində yayılmış təqr. 300 növü məlumdur. Azərb.-da 38 növü var. Çay kənarında, meşə, çəmən və çöllərdə bitir. Dekorativ və dərman növləri var. Yaxşı balverən bitkidir.

**BULALI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Əcəbşir bölgəsinin Dəzcərud kəndistanında, Əcəbşir qəs.-ndən 3,5 *km* şm.-ş.-də, Marağa–Azərşəhr avtomobil yolunun kənarındadır.

**BULAMA** – sağmal heyvanlardan doğuşdansonrakı ilk (3–5) günlərdə sağılan süddən od üstündə bulaya-bulaya bişirməklə hazırlanan ağartı. Tərkibində zülallar, yağlar, mineral maddələr var. Azərb.-da geniş yayılmışdır.

**BULAMAC** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Vələdyan kəndistanında, Xoy ş.-ndən 3,5 *km* c.-ş.-dədir.

**BULANJERİT** (19 əsr fransız mədən mühəndisi Ş.L. Bulanjenin soyadından) – mineral, $Pb_5[Sb_4S_{11}]$. Monoklinik sinqoniyada kristallaşır. Kristalları iynəvarı və sütunvarıdır. Dənəvər, lifli, ləlǝkvarı aqreqatları var. Göyümtül-qurğuşunu bozdan qarayadək rəngdə olur. Metal parıltılıdır. Qeyri-şəffafdır. Sərtliyi 2,5–3, sıxlığı 6230 *kq/m*³-dir. Kövrəkdir; yaxşı elektrikkeçiricidir. Orta və alçaqtemp-rlu hidrotermal Pb və Zn yataqlarında qalenit, sfalerit, antimonit, pirit, falers filizləri və s. ilə birlikdə rast gəlinir. Qurğuşunun ikincidərəcəli filizidir. RF-də, Ukraynada, Almaniyada, Çexiyada, Fransada və digər yerlərdə yataqları var.

Dərman bulaqotu (Veronica officinalis).





Bulanjerit.

**BULANJİZM** – Fransada ictimai-siyasi hərəkat. Başçısı gen. J.E. Bulanje idi. 1887 ildə fransızların mötədil respublikaçı idarəçiliyindən narazılığı zəminində meydana gəlmişdi. İlk dövrdə əsas müxalif qüvvələrin – monarxistlərin, radikalların və sosialistlərin dəstəyini qazanmışdı. Bulanje Almaniyanın təhdidləri qarşısında möhkəm durmağa çağırır, hökumət dairələrindəki korrupsiyanı tənqid edərək parlamentin buraxılması, 1875 il Konstitusiyasına yenidən baxılması və müəssislər məclisinin çağırılması tələblərini irəli sürürdü. Bulanjenin avtoritarizmi və mürtəce qüvvələrlə sıx əlaqəsi tezliklə demokratik partiyaları ondan uzaqlaşdırdı. Bundan sonra B.-in əsas dayağı millətçi təşkilatlar oldu. 1888 ilin sonu – 1889 ilin əvvəllərində Bulanje Parisdə deputatlar palatasına seçildikdən sonra B. özünün ən yüksək siyasi təsir gücünə çatdı. Bulanjenin 1889 ildə gözlənilmədən xaricə getməsindən sonra B. zəifləyərək süquta uğradı.

**BULANLAR** – Çində Yunnan əyalətinin c.-q.-ində xalq. Sayları 85 min nəfərdir (1995). Dilləri Avstroasiya dil ailəsinin palaunq-va qrupuna daxildir. Dindarları buddistdir.

Antropoloji tiplərinə və digər əlamətlərinə görə B. Şərqi Himalayın ən qədim xalqlarından biridir. Çin tarixi mənbələrində (e.ə. 1-ci minillikdən) B.-ın əcdadları pular, pujenlər, pumanlar, pulalar və s. kimi qeyd edilir. 7 əsrdən Tibet-Birma xalqları tərəfindən düzənliklərdən sıxışdırılmışlar. Ehtimal ki, puların ayrı-ayrı qrupları nasi, iszu və szinpo (kaçinlər) xalqlarının tərkibinə qatılmışlar. B. 20 əsrin ortalarında tala əkinçiliyi (əsasən taro), ovçuluq və Lansanszyanda balıqçılıqla məşğul olurdular. Bir neçə ailənin yaşadığı yortacəsaslı evlər saxlanılmışdır.

**BULANLIQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Kələboz kəndistanında, Miyanə ş.-ndən 27 *km* c.-dadır.

**BULAVÁYO** (Bulawayo) – Zimbabvenin c.-q.-ində şəhər. Şimali Matabelelend əyalətinin inz. m; eyni zamanda müstəqil əyalət statusu var. Əh. 706,5 min (əhalisinin sayına görə Hararedən sonra ölkənin ikinci şəhəri; 2006). Matabele platosunda, təqr. 1600 *m* yüksəklikdə yerləşir. Nəql. qovşağı. Beynəlxalq aeroport.

B. *ndebele* xalqının tarixi paytaxtıdır. 1884 ildə müstəqil Matabelelendin sonuncu ali başçısı Lobenqula tərəfindən salınmışdır. 1880-ci illərin sonu – 1890-cı illərin əvvəllərində müstəmləkə ağalığı uğrunda müharibənin gedişində ingilis qoşunları tərəfindən tamamilə dağıdılmışdır.

1894 ildə avropalı mühacirlər köhnə B.-dan c.-da düzxətli planı, Viktoriya üslubunda evləri olan şəhərin tikintisinə başladılar. Elm və texnologiya un-ti (1927) fəaliyyət göstərir. Kütləvi (1896) və Milli (1943) kitabxanalar, təbiyyat tarixi (1901), dəmiryol (1972) muzeyləri, rəsm qalereyası, teatr var. Xalq sənətkarlığı mərkəzidir. Hər il beynəlxalq ticarət yarmarkası keçirilir. Yeyinti, toxuculuq, əczaçılıq, dəri-ayaqqabı, kimya, ağac emalı sənayesi; maşınqayırma və metal emalı müəssisələri fəaliyyət göstərir. Mədənçıxarma r-nunun mərkəzidir (xromit, asbest, kömür, qızıl, qalay, mis, nikel). B.-nun 22 *km*-liyində yerləşən Son Dəmir dövrünə aid Khami yaşayış məskəninin xarabalıqları *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

Ənənəvi geyimli gənc bulanlar.









Bulavayo şəhərindən görünüş.

**BULAVİN ÜSYANI** (1707–09) – Rusiyada kəndli və kazakların antifeodal hərəkatı. Başçısı K.A. Bulavin idi. Üsyanda kazaklarlar, onlara qoşulmuş qaçqın kəndlilər, şəhər əhalisinin aşağı təbəqələri, həmçinin Volqaboyunda yaşayan xalqlar – tatarlar, mordvalar və b. da iştirak edirdi. Üsyan 1707 il oktyabrın 9-na keçən gecə başlandı, tezliklə Donun yuxarı axarlarında qaçqın kəndlilər yaşayan şəhərcikləri bürüdü. Lakin üsyançılar məğlub edildi; Bulavin, tərəfdarları ilə Zaporojye Seçinə qaçdı. 1707 ilin sonunda üsyanın ikinci mərhələsi başladı. Hərəkat Don və Volqaboyunu, Ukraynanın bir hissəsini bürüdü. 1708 il mayın 1-də Bulavin Çerkassı ş.-ni tutdu. Üsyançıların bir hissəsi Volqaboyunda, digəri Sloboda Ukraynasında fəaliyyət göstərirdi. Bulavin əsas qüvvələrlə Azova hücuma hazırlaşırdı. Qüvvələrin parçalanması üsyanın məğlubiyyətini asanlaşdırdı. 1708 il iyulun 6-da Bulavin Azovu mühasirəyə aldı, lakin tuta bilmədi. Üsyanda iştirak edən varlı kazaklar həlledici vaxtda ona xəyanət etdilər. İyulun 18-də yasavullar Bulavini öldürdülər. Üsyanın üçüncü mərhələsində ayrı-ayrı dəstələr 1709 ilin əvvəlinədək Orta və Aşağı Volqaboyunda fəaliyyət göstərdi. B.ü. amansızcasına yatırıldı. Üsyançıların bir hissəsi çar qoşunlarının təqibindən xilas olmaq üçün 1740 ildə ataman İ. Nekrasovun başçılığı ilə Türkiyəyə köçdü. 1962 ildə bulavinçilərin nəsillərinin böyük bir qrupu SSRİ-yə (Stavropol diyarına) qayıtdı.

**BULDOQLAR** (ing.bull. – öküz və dog – it) – qısatüklü it cinsləri qrupu. Əcdadları molos doqları – qədim döyüş itləri hesab olunur. B. üçün seleksiya yolu ilə möhkəmləndirilmiş sifətin xüsusi quruluşu səciyyəvidir: qısa üst və yuxarı əyilmiş alt çənə, geniş girdə çənəaltı. B.-ın vətəni B.Britaniyadır; burada onlardan it döyüşlərində, ayı və öküzlərin təqib edilməsində istifadə edilirdi. 1835 ildə bu tamaşalar qadağan edildiyindən, B.-ı qiymətləndirənlər ekstremal spesifik əlamətlərə (iri bədən quruluşu, enli sifətli böyük baş və s.) malik itlərin yetişdirilməsi ilə məşğul olmuşlar. İ n g i l i s buldoqu cinsi belə formalaşmışdır. Standartı 1875 ildə qəbul edilmişdir. Ortaölçülü, irisümüklü itdir. Cidov hünd. 38–40 *sm*, kütləsi 23–25 *kq*-dır. Yarımdik kiçik qulaqlara malik başı bədənə nisbətən böyükdür. Cidovu aşağı, beli qabarıqdır. Quyruğu qısa və əyri-üyrüdür. Başında və ətraflarında dəri büküşləri var. Rəngi ağ, kürən, pələng dərisi kimi naxışlı, ləkəlidir. Kiçik addımlarla, yanlarını basa-basa, yanakı, tez-tez hərəkət edir. Soyuğa, istiyə və ağır fiziki işə az dözümlüdür. Ehtiyatlı, sakit, qətiyyətli, cəsarətlidir, sahibinə və onun ailəsinə sadiqdir. F r a n s ı z buldoqu cinsi ingilis buldoqunun kiçik fərdləri əsasında yetişdirilmiş, rəsmi statusunu 1885 ildə almış, B.Britaniyada isə 1904 ildə tanınmışdır. Yığcam, olduqca hərəkətli, atletik quruluşlu, dikduran qulaqları olan itdir. Cidov hünd. 25–34 *sm*, kütləsi 8–14 *kq*-dır. Ünsiyyətli, itaətli və cəsarətlidir, sahibini qoruya bilir. A m e r i k a n buldoqu xidmət iti cinsi 18 əsrin əvvəllərində ABŞ-a köçmüş ingilislər tərəfindən gətirilmiş B. əsasında formalaşdı-

Fransız buldoqu.



Amerikan buldoqu.



İngilis buldoqu.



rılmışdır. Əsasən, fermer təsərrüfatlarını qorumaq üçün yetişdirilmişdi. Beynəlxalq kinologiya federasiyası tərəfindən tanınmasa da, bəzi ölkələrdə geniş yayılmışdır. Zəhmli xarici görünüşlü, güclü, hərəkətli və çevik itdir. ABNA-nın (American Bulldoq National Alliance) standartına görə, cidov hünd. 51–71 *sm*, kütləsi 27–54 *kq*-dır. Başı böyük, enlisifətli, sallaqdodaqlıdır. Ətrafları düzdür. Rəngi kürən, pələng dərisi kimi naxışlı, ağ, açıqsarı və ləkəli olur.

**BULDÓZER** (ing. bulldozer) – 1) özügedən (motorlu) torpaqqazan maşın. Yol və kanal çəkilişi, hidrotexniki qurğular və mülki obyektlərin tikintisi, *açıq mədən işləri* üçün nəzərdə tutulur. Qruntun və dənəvər tikinti materiallarının qısa məsafələrə daşınması; qruntun 300 *m*-ədək məsafəyə daşınmaqla laylarla işlənməsi; qrunt qalağının toplanması və ilkin profillənməsi; səthlərin hamarlanması; xəndəklərin, çalaların qazılması və doldurulması və s. işlərin yerinə yetirilməsi, həmçinin zibilliklərdə məişət tullantılarının sıxılaraq qalaqlanması və hamarlanması; dənəvər tikinti materiallarının asfalt-beton və sement-beton z-dlarının təchizedicilərinə və bunkerlərinə verilməsi; donmuş qrunt və ya asfalt örtüyü səthinin dağıdılması; qruntun parçalanması və yüklənməsi zamanı skreperlərin itələnməsi və s. üçün istifadə edilir. B.-in əsas maşını tırtıllı, yaxud təkərli traktor, əsas işlək avadanlığı traktorun qarşısında quraşdırılmış laydırdır. B.-lərin laydırı müxtəlif quruluşda olur: ümumi təyinatlı düz laydır; buldozer-təkançı üçün düz laydır-bufer; materialı maşının hərəkət oxundan kənara (ilkin vəziyyətdən 25°-ədək dönmə bucağı) çəkməyə imkan verən dönən laydır; sferik universal laydır; yüngül materialların nəqli üçün günlüklə təchiz edilmiş böyük tutumlu sferik laydır; böyük həcmdə qrunt, qar və dənəvər materialların uzaq məsafələrə nəqli üçün yan seksiyalı sferik və yarımsferik laydır; məişət tullantıları zibilliklərində işləmək üçün yan seksiyalı və ortasında günbəz formalı çıxıntısı olan W-şəkilli laydır. Dəyişən işçi orqanları kolkəsən, çəngəlli və ya çalovlu yükləyici, borudüzən, ovxalayıcı (maşının arxasına qoşulan), külüng və s.-dir. Tətbiq edilən dartı qüvvəsinə (10–$10^3$ *kN*) görə B.-lərin bir neçə sinfi olur. 90–150 *kN* qüvvə ilə işləyən B. daha geniş yayılmışdır. B.-in məhsuldarlığı 1 saatda daşıdığı qruntun həcmi ilə (*$m^3$/saat*) ölçülür, maşının sinfi və texniki xüsusiyyətləri, laydırın forma və ölçüləri,



Buldozer "ЧТЗ Б10М" (RF).

qruntun növü, sinfi və nəqlolunma məsafəsi, torpaq işlərinin təşkili və s.-dən asılıdır.

2) Vərəqşəkilli metal pəstahlardan mexaniki üsulla metal konstruksiya detallarının (bənd, kronşteyn, bucaqlıq və s.) hazırlanması üçün əymə presi. İntiqal mexanizminin quruluşuna görə çarxqollu və hidravlik B.-lər olur. Dəmirçi-ştamplama sənayesində (istehsalında) üfüqi çarxqollu B.-lər daha geniş yayılmışdır.

**BULDUQ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Bəzinərud kəndistanında, Qiydar qəs.-ndən 35 *km* c.-dadır.

**BULDUQ** – Azərb. Resp. Sabirabad r-nunun Ulacalı ə.d.-ndə kənd. R-n mərkəzindən 21 *km* şm.-ş.-də, Kür çayının sağ sahilindədir. Əh. 1951 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**BULÉ** (yun. βουλή – şura) – Qədim Yunanıstanda: 1) *Homerin* poemalarında *basiley* yanında tayfa əyanlarının şurası; 2) aristokratiya və oliqarxiya polislərində arxaik dövrdə (e.ə. 5 əsrin əvvəllərinədək) əyanlardan və ya, əsasən, varlı vətəndaşlardan ibarət hakim şura; üzvləri ömürlük seçilirdi (Spartada *gerusiya*, Afinada *areopaq* və s.); 3) klassik dövrdə (e.ə. 5–4 əsrlər) demokratik polislərdə müəyyən müddətə seçilən və xalq məclisi üçün işləri hazırlayan ali icraedici hakimiyyət və dövlət nəzarəti orqanı. B. ən çox Afinada məşhur idi. E.ə. 594 ildə *Solon* tərəfindən Dördyüzlər şurası kimi təsis edilmiş, *Klisfenin* dövründə (e.ə. 509 il) Beşyüzlər şurasına çevrilmişdi. *Filalar* üzrə (əvvəllər 4 tayfa filasının hər birindən 100 nəfər, sonralar 10 yeni ərazi filasının hər birindən 50 nəfər) e.ə. 5 əsrin ortalarından isə püşkatma yolu ilə seçilirdi. Beşyüzlər şurası vəzifələrini növbə ilə yerinə yetirən 10 komissiyadan – pritaniyadan ibarət idi. Pritanların içərisindən Şuraya və xalq məclisinə bir sutkalıq sədrlik edən epistat seçilirdi. E.ə. 5 əsrdən etibarən B.-nin üzvlərinə (bulevtlərə) günə 5 obol, pritanlara isə 6 obol (yaxud 1 draxma) ödənilirdi.

**BULÉZ** (Boulez) Pyer (d. 26.3.1925, Luara dep., Monbrizon) – fransız bəstəkarı, dirijor, pedaqoq, musiqi nəzəriyyəçisi, musiqi yazıçısı. 1942–45 illərdə Paris konservatoriyasında O. *Messianın* yanında (harmoniya) oxumuş, A. Voraburdan (kontrapunkt) özəl dərslər almışdır. Darmştadt beynəlxalq musiqi intunda (1954–65, fasilələrlə), Bazel



Musiqi Akademiyasında (1960–63 illərdə prof.), Harvard Un-tində (1963) kompozisiyadan dərs demişdir. "Domaine musical" cəmiyyətinin müasir və qədim musiqi konsertlərinin (1954–67, Paris) dirijoru olmuşdur; öz əsərlərini ifa etmişdir; 20 əsr bəstəkarlarının (xüsusən də İ.F. Stravinski, A. Vebern, A. Berq və Messianın) əsərlərinin interpretasiyası ilə məşhurlaşmışdır. 1970-ci illərin əvvəllərindən klassikanı da ifa etmişdir (R. Vaqnerin "Nibelunq üzüyü" opera tetralogiyasının dirijoru, Bayroyt, 1976). 1971–74 illərdə Bi-Bi-Si simfonik, 1971–77 illərdə Nyu-York filarmonik orkestrlərinin baş dirijoru olmuşdur.

*Dodekafoniyadan elektron musiqiyə* qədər bəstəkarlığın ən yeni texnikalarından istifadə etmişdir. 18 solist üçün "X polifoniyası" (1951), 2 fp. üçün "Strukturlar" (1-ci dəftər – 1952, 2-ci dəftər – 1961) total *serializm* texnikasında yazılmışdır. Kontralto və instrumental ansambl üçün yazdığı "Ustasız çəkic" (1955) əsəri avanqardçı bəstəkar kimi ona geniş şöhrət gətirmişdir. 1975–92 illərdə Parisdəki Musiqi-akustika problemlərinin tədqiqi və koordinasiyası in-tunun (İRCAM) rəhbəri olmuşdur. Burada təşkil etdiyi "İnter Contemporain" (1976) müasir musiqi ansamblı B.-in başçılığı ilə qısa vaxt ərzində dünya şöhrəti qazanmışdır. Digər məşhur əsərləri arasında soprano və simfonik orkestr üçün "Mallarmenin bükük-bükük portreti" (S. *Mallarmenin* mətnlərinə, 1962), 9 zərb aləti və orkestr üçün "Parıltı-Çoxluq" (sonuncu redaksiyası 1970) var.

Ə s ə r l ə r i: Идея, реализация, ремесло//Homo musicus. M., 1994; О музыкальном языке (интервью)// Трибуна современной музыки. 2005. Вып. 3.

*Əd.*: П е т р у с е в а Н.А. П. Булез: эстетика и техника музыкальной композиции. М., 2002.

**BULXEYİR**, Ə b ü l x e y i r, B l x ə r – İrəvan xanlığının Abaran mahalında (9.9.1930 ildən Abaran, 3.1.1935 ildən – Aparan r-nu), Abaran çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 1826–28 illər Rusiya-İran və 1828–29 illər Rusiya-Türkiyə müharibələri nəticəsində kəndin azərb.-lı əhalisi qovulub çıxarılmış və buraya Türkiyədən gətirilmiş 68 erməni ailəsi yerləşdirilmişdir. 19.4.1950 ildə kəndin adı dəyişdirilərək Şenavan qoyulmuşdur.

**BULİMİYA** (yun. βοῦς – öküz + λιμός – aclıq; hərfi mənada – öküz aclığı), "q u r d a c l ı ğ ı", k i n o r e k s i y a – aclıq hissinin qeyri-adi güclənməsi; zəiflik, qarında ağrı, doymazlıqla yanaşı polifagiya ilə müşayiət olunur. Baş beynin üzvi zədələnmələri (şiş, ensefalit, kəllə-beyin travmaları və s.), psixi pozuntular (maniakal vəziyyət, qocalıq demensiyası, oliqofreniya və s.) və bəzi digər xəstəliklər zamanı meydana çıxa bilər.

Psixosomatik pozuntunun formalarından biri kimi nəzərdən keçirilən s i n i r b u l i m i y a s ı B.-nın xüsusi növüdür. Sinir *anoreksiyası* kimi o da qızlarda və qadınlarda 15–35 yaş arasında müşahidə edilir. Bəzi müəlliflər sinir B.-sını sinir anoreksiyasının fazası hesab edirlər (anoreksiyalı xəstələrin təxminən 40%-ində B. epizodları müşahidə olunur). İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə (ABŞ, Kanada, Böyük Britaniya, Yaponiya və s.) sinir B.-sı geniş yayılmışdır. Bu isə həmin xəstəliyin etiologiyasının sosial-iqtisadi və mədəni amillərlə bağlılığını göstərir.

Sinir B.-sının əsas təzahürləri: həftədə ən azı bir dəfə yemək zamanı özünənəzarətin itməsi ilə polifagiya ("acgözlük") tutması; arıqlama məqsədilə məcburən özünüqusdurma və ya işlətmə dərmanlarının və diuretiklərin həddindən artıq qəbulu, həmçinin acqalma və artırılmış fiziki iş; öz bədən quruluşundan narazı olma və köklükdən qorxma. Çox vaxt B. tutmasından əvvəl həyəcan hissi, tutmadan sonra isə günahkarlıq və depressiya hissi yaranır. Belə xəstələrdə günün 1-ci yarısında yeməyə olan tələbatın ciddi məhdudlaşdırılması və axşama polifagiya tutmasının baş verməsi "qida davranışı"-nın səciyyəvi xüsusiyyətidir. Adətən, xəstəlik fasiləsiz, hətta 20–30 il davam edir. Xəstənin çəkisi çox vaxt normadan az olur, hərçənd ki artıq da ola bilər. Qadınların təxminən, 25%-ində aybaşı pozulur (amenoreya, qeyri-müntəzəm menstruasiya). M ü a l i c ə s i: psixoterapiya və antidepressantlar.

**BULQÁKOV** Mixail Afanasyeviç (15.5. 1891, Kiyev – 10.3.1940, Moskva) – rus nasiri, dramaturq. Kiyev Un-tinin tibb fakültəsini bitirdikdən (1916) sonra könüllü olaraq cəbhə xəttindəki hospitallarda, sonralar Rusiyanın bir sıra qub. xəstəxanalarında işləmişdir. Sonradan "Gənc həkimin qeydləri" (1925–26) nəsr əsərləri silsiləsi, həmçinin "Morfi"



(1927) povestində həkim işlədiyi dövrdə rast gəldiyi real hadisələr öz əksini tapmışdır. B. 1918 ilin əvvəllərində Kiyevə qayıtmış, 1919 ilin payızında general A.İ.Denikinin ordusunda xidmət etmişdir; geri çəkilən ordu ilə birlikdə Qafqaza (Vladiqafqaz, Qroznı, Beslan) gəlmişdir. Ədəbi debütü Qafqaz qəzetlərində olmuşdur ("Gələcək perspektivlər" məqaləsi, "Qroznı" qəz., 26.11.1919).

1920–21 illərdə tibb sahəsindəki fəaliyyətlərindən imtina edən B. Vladiqafqaz İnqilab Komitəsinin ədəbiyyat və teatr bölmələrinin müdiri işləmiş, teatr resenziyaları çap etdirmişdir. Həmin dövrdə də B.-un dramaturq kimi debütü olmuş, pyesləri yerli teatrlarda tamaşaya qoyulmuşdur ("Özünümüdafiə", "Turbinlər qardaşları", "Gil adaxlılar", "Paris kommunarları" – saxlanılmamışdır; "Mollanın oğulları"). 1921 ilin payızından Moskvada yaşamış, bir sıra işlərdə (ədəbiyyat bölməsinin katibi, redaktor, reportyor və s.) çalışmışdır. 1922 ilin yazından əsərləri Moskvanın müxtəlif qəzet və jurnallarında çap olunmuşdur. 1923 ildən İ.İlf, Y.Petrov, V.P.Katayev, Y.K.Oleşa ilə birlikdə əməkdaşlıq etdiyi "Qudok" qəzetində çoxlu felyeton, reportaj, kiçik oçerk və hekayələri dərc olunmuşdur.

1925 ildə "Rusiya" almanaxında "Ağ qvardiya" romanının ilk 13 fəsli çap edilmişdir [tam nəşri 1927–29 illərdə "Turbinlər ailəsinin günləri" ("Ağ qvardiya") adı ilə Parisdə nəşr olunmuşdur].

1920-ci illərin 2-ci yarısında B. dramaturq kimi də populyarlıq qazanmışdı: "Turbinlər ailəsinin günləri" ("Ağ qvardiya"nın səhnə versiyası), "Zoyanın mənzili", "Qaçış", "Qıpqırmızı ada" B.-un dramaturgiyasında psixoloji teatr ənənələri buffonada, qrotesk, kabare mədəniyyəti elementləri ilə birləşmişdir. 1920-ci illərin sonlarında B.-un pyeslərinin (sağlığında B.-un bir pyesi də çap olunmamışdı) və əsərlərinin ("İt ürəyi" povesti, 1925; SSRİ-də ilk dəfə 1987 ildə nəşr edilmişdir) çapına və tamaşaya qoyulmasına qadağa qoyulmuşdu. Yeni orijinal pyeslərindən ["Adəm və Həvva" (1931), "Xoşbəxtlik" (1934), "Aleksandr Puşkin (Son günləri)", "İvan Vasilyeviç" (hər ikisi 1935), "Batum" (1939)] yalnız "Yalançı möminlərin əsarəti" (1929) Moskva Akademik Bədaye Teatrının səhnəsində oynanılsa da, 7 tamaşadan sonra repertuardan çıxarılmışdı. "Ölünün qeydləri" ("Teatr romanı)" əsərində həmin dövrün hadisələri parodiya şəklində öz əksini tapmışdır.

1933 ildə B. "Görkəmli adamların həyatı" seriyası üçün Molyer haqqında bioqrafik əsər yazmışdır (1962 ildə nəşr olunmuşdur). 1920-ci illərin axırlarından ömrünün sonunadək B. yaradıcılığının zirvəsi olan "İblis haqqında roman" ("Usta və Marqarita") üzərində işləmişdir (ilk dəfə 1966–67 illərdə çoxlu senzura və redaktor təhrifləri ilə çap olunmuşdur). Əsərin mürəkkəb strukturu, üslubi çoxplanlılıq, müxtəlif mədəni-tarixi mənbələrə isnadlar, fəlsəfi məzmunun əhəmiyyətliliyi 20 əsrin sonlarında romana kəskin maraq yaratmışdı.

Ə s ə r l ə r i: Собр. соч.: В 5 т. М., 1989–1990; Rus ədəbiyyatı antologiyası. C.2. B., 2007.

**BULQAN** – Azərb. Resp. Naxçıvan ş.-nin (Nax. MR) Qaraçuq ə.d.-ndə kənd. R-n mərkəzindən 11 *km* c.-q.-də, Araz çayının sahilindədir. Əh. 1287 (2011); taxılçılıq, heyvandarlıq, meyvəçilik, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Tam orta məktəb, musiqi məktəbi, uşaq bağçası, feldşer-mama məntəqəsi var.

Yaxınlığındakı qədim yaşayış yeri 12–18 əsrlərə aid edilir. Aşağı hissəsi çaydaşılarından, üst hissəsi isə çiy kərpicdən hörülmüş dördkünc formalı tikinti qalıqlarının bir qismi saxlanmışdır. Müxtəlif dövrlərə aid olan yerüstü materiallar çəhrayı rəngdə sadə və şirli qab qırıqlarından ibarətdir.

**BÙLQAN** – Monqolustanın şm.-ında aymak. Sah. 49 min $km^2$, əh. 53,7 min (2011). İnz. m. Bulqan ş.-dir.

**BÙLQAN** – Monqolustanın şm.-ında şəhər. Bulqan aymakının inz. m. Əh. 18,5 min (2010). Avtomobil yolu B.-ı Ulan-



Bulqar şəhərinin xarabalıqları.



Bulqar. "Cümə məscidi" ("Qara palata").

Batorla birləşdirir. Yüngül, yeyinti, ağac emalı sənayesi müəssisələri, tikinti materialları istehsalı, unüyütmə kombinatı var.

**BULQAN NEKROPOLU** – Azərb. Resp. Babək r-nunun (Nax. MR) Yuxarı Bulqan k. yaxınlığında arxeoloji abidə. Burada sənduqə tipli bir neçə qəbirüstü abidəyə təsadüf edilmişdir. Qəbirlərin əksəriyyəti batmış, yerində dördkünc çalalar saxlanmışdır, çoxunun başdaşıları düşmüşdür. Bəzilərinin yuxarısı tağvarı formada olmuşdur. Tapıntılar 12–19 əsrlərə aid edilir.

**BULQÁR**, B o l q a r – Volqa-Kama Bulqarıstanının paytaxtı. Xarabalığı Tat. Resp.-nın Samara (1935–91 illərdə Kuybışev) r-nunda, Bolqar k. yaxınlığındadır. 1870 ildən tədqiq edilir. 1950–57 illərdə geniş qazıntı işləri aparılmışdır. B. ərazisində ən qədim yaşayış yeri 1-ci minilliyin 2-ci yarısına aiddir. B.-ın adı Şərq mənbələrində 10 əsrdən çəkilir. 10–12 əsrlərdə B. inkişaf etmiş, 13 əsrin 2-ci yarısında *Qızıl Ordanın* sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi. Arxeoloji qazıntılar nəticəsində 13–14 əsrlərə aid təbəqələrdən çoxlu əmək aləti, məişət və bəzək əşyaları, sikkələr, tikinti qalıqları, metaləritmə və dulus kürələri aşkar edilmişdir. Tapıntılar içərisində Orta Asiya, Krım, Cənubi Qafqaz, Rusiya və Çindən gətirilmiş əşyalar da var.

13–14 əsrlərdə tikilmiş bir sıra daş binalar, o cümlədən "Kiçik minarə", "Xan türbəsi", "Cümə məscidi" ("Qara palata"), "Müqəddəs Nikolay kilsəsi", "Dördkünc məscid"in və Bulqar xanlarının yay iqamətgahının, "Kiçik şəhər"in və hamamın xarabalıqları qalmışdır. Binaların bir hissəsi Orta Asiya üçün səciyyəvi olan mozaika və mayolika ilə bəzədilmişdir. B.-ın yaxınlığında ticarət-sənətkarlıq "şəhərciyi" olan Ağabazarın qalıqları var. B.-ı 1361 ildə Qızıl Orda xanı Bulak Timur dağıtmışdır, 15 əsrin əvvəllərində isə şəhər tamamilə tənəzzül etmişdir.



Qadın baş bəzəyi. Qızıl. 11–12 əsrlər (*solda*). Boyunbağı. Qızıl. 10–13 əsrlər (*sağda*). Tatarıstan Respublikasının Milli Muzeyi.

**BULQAR DİLİ,** q ə d i m b u l q a r d i l i – özlərini "bulqar" (bax *Bulqarlar*) adlandıran (mənşəcə bir-birinə yaxın) bir sıra türk xalqları dillərinin ümumi adı. Bu dillər Balkanlarda, Orta Volqaboyunda və Şm. Qafqazda qeydə alınmışdır (bulqar *superstratı* və *adstratına* Şm. Qafqazın müasir dillərində rast gəlinir). 7–10 əsrlərdə Balkanlarda Dunay-bulqar dili yayılmışdı. Birinci Bolqar çarlığının əsasını qoyanların yuxarı təbəqəsinin doğma dili olmuş və slavyan əhalisinin onu assimilyasiya etməsi nəticəsində yox olmuşdur (bax *Bolqarlar*). Leksikasındakı iqtibaslardan başqa, bu dil xüsusi orfoqrafiyaya əsaslanan yunan hərfləri ilə yazılmış Preslav mətnindən (9 əsr) məlumdur. Dunay-bulqar dilini Nad-Sent-Miklоş dəfinəsindən tapılan boşqabların birindəki Preslav orfoqrafiyasına uyğun gələn yazı da əks etdirir. Ehtimal ki, 7–9 əsrlərdə *Pannoniyada* yayılmış və macar dili üçün *Substrat* olmuş *avarların* dili Dunay-Bulqar dilinə yaxın olmuşdur.

13–14 əsrlərdə Volqoboyu Volqa-bulqar dili yayılmışdı. Bu dil Volqa-Kama Bulqarıstanı ərazisindəki ərəb qrafikalı epitafiyalardan məlumdur.

Ayrı-ayrı leksemləri Mahmud Kaşqari (11 əsr) tərəfindən qeydə alınmış B.d. Volqa-bulqar dilinə deyilir. Bulqarların dilləri müasir *çuvaş dili* ilə birlikdə *türk dillərinin* bulqar qrupunu təşkil edir.

*Əd.:* Х а к и м з я н о в Ф.С. Язык эпитафий волжских булгар. М., 1978; М у д р а к О.А. Заметки о языке и культуре дунайских булгар // Orientalia et Classica. М., 2005. Вып. 6: Аспекты компаративистики.

**BULQARLAR** – erkən orta əsrlərdə Cənub-Şərqi Avropa çöllərində məskən salmış türkdilli tayfa birləşmələri. Mütəxəssislərin fikrincə, B. bu ərazilərə 4 əsrin sonlarında hun ordası tərkibində gəlmişlər. 5 əsrin 80-ci illərinə qədər B. Bizans imperiyasının müttəfiqləri olmuş, onun düşmənlərinə qarşı vuruşmalarda iştirak etmişlər. 5 əsrin sonu – 6 əsrdə bizanslıların ən qorxulu düşmənlərindən birinə çevrilən B. dəfələrlə imperiyaya qarşı yürüşlərin iştirakçıları olmuşlar. Bəzi alimlərin fikrincə, B. elə həmin dövrdən Cənubi Qafqaz ölkələrinə də basqınlar etmişlər. 7 əsrin 1-ci yarısında Azovyanı və Aşağı Volqaboyunu əhatə edən ərazidə Böyük Bulqariya adı altında yaranmış bulqar tayfa ittifaqı qısa müddətdən sonra dağıldı. 7 əsrin 3-cü rübündə Asparuxun başçılığı ilə bulqar tayfalarının bir hissəsi Cənubi Bessarabiyanı, Dunay çayının sağ sahili boyunca yerləşən Yeddi slavyan tayfası dövləti ərazisini tutdu. 681 ildə B.-ın ələ keçirdiyi ərazidə Birinci bulqar dövləti yarandı. Yerli slavyan tayfaları ilə qaynayıb-qarışan bulqar tayfaları müasir *bolqarların* etnogenezində iştirak etmişlər. Slavyandilli bolqarların və Bolqarıstanın adı da türkdilli B.-ın adından alınmışdır. Böyük Bulqariya birləşməsi dağıldıqdan sonra, B.-ın xəzərlərin təzyiqinə məruz qalan digər hissəsi Orta Volqaboyuna və Kama çayı sahillərinə köçüb getdi. B.-ın bu əraziyə gəldiyi dövrdən orada türk dilləri geniş surətdə yayılmağa başladı. Burada yaşamış bir sıra fin-uqor tayfalarının etnogenezində və *Volqa-Kama Bulqarıstanının* yaranmasında B.-ın mühüm rolu olmuşdur. Çuvaşların, Kazan tatarlarının xalq kimi formalaşması da xeyli dərəcədə B.-la bağlıdır. Bax həmçinin *Bulqar dili*.

**BULL** Ule (5.2.1810, Bergen – 17.8.1880, Bergen yaxınlığında Lüsö) – Norveç skripkaçısı, bəstəkar. Bergendə təhsil almışdır. Yaradıcılığının formalaşmasına Norveç xalq skripkaçılarının, həmçinin ifasını ilk dəfə 1831 ildə Parisdə eşitdiyi N. *Paqaninin* təsiri olmuşdur. Bolonya (1833) və Neapoldakı (1834) sensasiyalı çıxışlarından sonra məşhurlaşmışdır. Avropa ölkələrinə və ABŞ-a çoxsaylı qastrolları ona dünyanın ən böyük skripkaçılarından biri kimi şöhrətini gətirmişdi. Əsasən, öz əsərlərini ifa etmişdir: Norveç mövzularında fantaziyalar və kapriççio, variasiyalar, solo skripka üçün Kvartet (1834, burada B. Norveç skripkası *hardinqfeledə* çoxsəsli ifa priyomlarını etmişdir), orkestrlə konsertlər (A-dur, 1834; e-moll, 1841) və s. B. Norveç mədəniyyətinin inkişafına təsir göstərmişdir: xalq melodiyalarını ilk dəfə yazıya alanlardan biri olmuş, 1850 ildə Bergendə "Milli səhnə" ilk Norveç teatrını yaratmış və rəhbər kimi oraya H. *İbseni* dəvət etmişdir. E. *Qriqin* yaradıcılığına təsiri olmuşdur. 1851 ildən, əsasən, ABŞ-da yaşamışdır.

**BÚLLA** (son lat. papa möhürünü bildirir) – papa, kral, imperator aktlarına vurulan dairəvi metal möhür, eyni zamanda, həmin aktların adı. Kral və imperatorların qızıl möhürlü ən mühüm aktları Qızıl B. (məs., IV Karlın Qızıl bullası, 1356) adlanırdı. Papa B.-sənədinə formaca dairəvi B. – çətənə, yaxud ipəkdən olan sarı və ya qırmızı rəngdə ipdən (lütf xəbəri), ya da boz çətənədən olan ipdən (cəza tədbiri haqqında fərman) asılmış möhür bəndlənirdi. 12 əsrdən başlayaraq B.-nın bir tərəfində apostollardan Pyotr və Pavelin təsvirləri yerləşdirilir, digər tərəfində isə papanın adı həkk olunurdu. Papanın ölümündən sonra onun adlı möhürü məhv edilir, apostol möhürü isə növbəti papaya keçirdi. 11–13 əsrlərdə papa müraciətlərinin iki növü formalaşmışdı: bir qismi (böyük B.-lar) imtiyazların verilməsinə, monastır və dini konqreqasiyaların mülkiyyət hüquqlarının təsbit edilməsinə, digərləri (kiçik B.-lar) isə kilsə həyatının zəruri məsələlərinə aid olurdu. 13 əsrdən (ən yeni dövrədək) yalnız ən mühüm papa aktları (lat. littera solemnis) B. adlanırdı. B.-nın adı mətnin ilk sözlərindən götürülürdü. 14 əsrdən başlayaraq B.-lar xüsusi toplularda cəmlənirdi. 32 cilddə (1733–48), 18 cilddə (1835–57) və s. B. külliyyatları mövcuddur.

**BULLOMLAR**, b u l o m l a r, b o l o m l a r, b u l e m l ə r, b u l u n l a r, b u l i n l ə r (özlərini bullom adlandırırlar) – Syerra-Leone və Qvineyada xalq. Şimali və ya əsl B.-a (Fritaun ş.-ndən şm.-da və Qvineyada – 42,5 min nəfər, onlardan 0,5 min nəfəri Qvineyada; 2005) və cənubi, yaxud Şerbro B.-ına (Şerbro s.-nda və Fritaundan c.-dakı sahillərdə 161 min nəfər) bölünürlər. *Temnelər*, kisilər, limbalar və b. ilə qohumdurlar. *Atlantika dillərinin* mel qoluna aid bullom qrupu dillərində danışırlar: əsl bullom (mmani, kafu dialektləri), Şerbro, bom, krim. Temne və mende dilləri də yayılmışdır. Şimali B.-ın 80%-i müsəlmanlardır, qalanları ənənəvi etiqadlarını saxlayanlar (15%) və xristianlardır; Şerbro B.-ı arasında ənənəvi etiqadları saxlayanlar 52%, müsəlmanlar 40%, xristianlar isə 8% təşkil edir.

Yerli əhali olan B. temnelərin (şimali B.) və *mendelərin* (Şerbro B.-ı) təsirinə məruz qalırlar. 16 əsrin ortalarında Sapi konfederasiyasında birləşən bir neçə icma birliyi yaratmışdılar. Ənənəvi mədəniyyətləri Qərbi Afrikanın (bax *Afrika* məqaləsinə) Atlantika yarımvilayəti üçün səciyyəvidir. Əsas məşğuliyyətləri balıqçılıq (kişilər arasında dəniz, qadınlar arasında çay balıqçılığı) və toxa əkinçiliyidir; duz çıxarılması, oyma qayıqların hazırlanması, toxuculuq, hörmə və dulusçuluq inkişaf etmişdir. Ana xətti ilə qohum qəbilələr (ram), gizli birliklər (kişilərdə Poro, qadınlarda Bundu, Tuntu, Toma), gənclər ittifaqları, əcdadların və təbiət qüvvələrinin, ali səma ruhu – demiurq Xobatokenin kultu saxlanılmışdır.

**BULMASTİF** – xidmət-qarovul itləri cinsi. B. Britaniyada 19 əsrin sonu – 20 əsrin əvvəllərində mastiflərin buldoqlarla çarpazlaşdırılmasından alınmışdır. İlk rəsmi standartı 1925 ildə qəbul edilmişdir. Bədəni möhkəm sümüklü, güclü, əzələləri aydın görünən, döş qəfəsi geniş, başı çox iridir. Cidov hünd. 61–68,5 *sm*, kütləsi 45–59 *kq*-dır. Rəngi kürən, pələngxallı, yaxud açıq-sarı, üzündə mütləq qara "maska" olur. B. mastifin qarovulçəkmə, buldoqun isə cəldlik, çeviklik və cəsarətlilik keyfiyyətlərini özündə birləşdirir. Güclü və çox anlaqlıdır.



Bulmastif.

**BULÓN-BİYANKÚR** (Boulogne-Billancourt) – Fransada şəhər. Parisin c.-q. sənaye peyki. Əh. 116,2 min (2011). Sena çayının döngəsində, Bulon meşəsinin kənarındadır. 1924 ilə qədər Bulon-sür-Sen adlanırdı.

Şəhərdə 1920–30-cu illərin tikililəri (memarlar *Le Korbüzye*, J. Fidler, J. Pinqusson və b.) saxlanılmışdır. 30-cu illər muzeyi (1998 ildə yaradılmışdır; 1920–30-cu illərin boyakarlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət kolleksiyası) fəaliyyət göstərir. Avtomobil (o cümlədən "Reno" z-dları) və aviasiya sənayesi; dəzgah və alətlər, elektrotexnika və elektron

məhsulları, kimyəvi preparatlar, telefon aparatları; ətriyyat istehsalı inkişaf etmişdir.

**BULÓN–SÜR–MER** (Boulogne-sur-Mer) – Fransanın şm.-ında şəhər. Əh. 43,3 min (2010). Pa-de-Kale boğazı sahilində, Lyan çayının mənsəbindədir. Sürətli d.y. vasitəsilə Parislə əlaqəsi var. Fransanın ikinci (Kaledən sonra) sərnişin dəniz portu (ildə təqr. 3 mln. nəfər; B. Britaniyanın Duvr və Folkston portlarına müntəzəm reyslər işləyir).

Bononiya (Bononia) və Gezoriak (Gesoriacum) kelt məskənlərinin yerində, təqr. e.ə. 1 əsrdə meydana gəlmişdir; Qalliyanın şm.-ında və Britaniyada Roma ağalığının qorunub saxlanılmasında mühüm rolu olmuşdur. Eramızın 5 əsrində sakslar tərəfindən işğal edilmişdir. Yeni yüksəliş dövrü 10 əsrin əvvəllərindən başlamışdır; Bulon (Bulonne) qraflığının mərkəzi olmuşdur. 1419 ildən Burqundiya hersoqlarının mülklərinin tərkibində, 1477 ildən isə Fransa kralının hakimiyyəti altında idi. Memarlıq abidələri: qəsr (13 əsr; içərisində 1825 ildən rəssamlıq muzeyi fəaliyyət göstərir), meriya binasının yanında gözətçi qülləsi (13 əsr; Qədim Roma qalasının yerində tikilmişdir), Müq. Nikolay kilsəsi (1208, fasad və nef 18 əsrin 2-ci yarısına aiddir, memar J. Sanye) və Notr-Dam baş kilsəsi (1827–66, bünövrəsi 7 əsrdə qoyulmuşdur, orta əsrlərə aid *kripta* var), Müq. Qan kapelləsı (1859–60), Ədliyyə sarayı (1852), yaşayış binaları (hotellər: Kruassan, 16 əsr; Desandruen, 1777).

Ölkənin əsas balıqçılıq portlarından (ildə 800 min *t*-dan çox balıq) biridir. Balıq və dəniz məhsullarının emalı; balıq və balıq məhsulları ticarəti. Gəmiqayırma; ferromanqan ərintiləri; telefon və ofis avadanlığı; sement istehsalı inkişaf etmişdir.

**BULTERYER** – it cinsi. 19 əsrin ortalarında B. Britaniyada buldoqlar və ağ ingilis teryerləri əsasında yaradılmışdır. İt döyüşdürülməsində və öküz gəmişdirtməsində istifadə edilir. İlk standartı 1887 ildə qəbul olunmuşdur. Aydın görünən qalın əzələli, cəld və güclü itdir. B.-in bədən quruluşu ölçüsünə və cinsinə müvafiq maks. möhkəm olmalıdır. Cidov hünd. 40–45 *sm*, kütləsi təqr. 25 *kq*-dır (cırtdan B.-in müvafiq olaraq – 35,5 *sm*-ədək və 8 *kq*-adək). Başı yumurtavarı, çənəsi iri və güclüdür. Xırda, üçbucaqşəkilli gözləri dərində yerləşir. Tükü qısadır. Rəngi ağ, pələngxallı, üçrəngli, kürəndir; rəngli variantları, adətən, ağ ləkəli olur.



Bulteryer.

B. cəsarətli və temperamentlidir; ağrıya həssaslığı azdır. Bacarıqla və ciddi tərbiyə olunmalıdır. Bax həmçinin *Teryerlər*.

**BULUD** – ornament sənətində buludabənzər müstəqil naxış forması. Azərb. nəqqaşlığında 13 əsrdən işlənmiş, 16–17 əsrlərdə geniş yayılmışdı. Əvvəlcə kitabların bədii tərtibatında və miniatürlərdə, sonralar isə xalça, metal və keramikada tətbiq olunmuşdur. B. əsasında "buruq", "piçək", "qıvrım" və "islimi" adlanan yeni ornament formaları yaranmışdır.

**BULUDLAR** – havanın tərkibindəki su buxarının kondensasiyası nəticəsində yaranmış su damlaları, buz kristalları və ya onların qarışığının atm.-də yığını. Atm.-in bilavasitə Yer səthinə yaxın qatında analoji yığınlar *duman* adlanır. B., əsasən, troposferdə müşahidə olunur. B. mühüm iqlimyaradıcı amil kimi yağıntıların formalaşmasını və rejimini müəyyən edir, atmosferin və Yerin istilik rejiminə və s. təsir göstərir. Yer qübbəsinin təqr. yarısını tutan B. özündə $10^9$ *t*-adək asılı su damlaları saxlayır; damlaların diametri 0,001–0,05 *mm* olur. B. havanın soyuması və su buxarları ilə doyma vəziyyətinə çatmasından əmələ gəlir. Soyuma davam etdikcə su buxarının qalığı (artığı) sıxlaşır, su damlaları və ya buz kristalları yaranır. Soyuma və kondensasiya yuxarı qalxan havanın aztəzyiqli şəraitə düşməsi və genişlənməsi ilə əlaqədardır. Odur ki, B. konveksiya vaxtı, yaxud atm. cəbhələrində əmələ gəlir.

Azərb. Resp. ərazisində B.-ın yaranmasına və paylanmasına çox mürəkkəb oroqrafik quruluş və müxtəlif istiqamətlərdən gələn hava kütlələri böyük təsir göstərir. Resp.-nın düzənlik, dağətəyi və ortadağlıq əraziləri üçün laylı-topa, yüksəkdağlıq əraziləri üçün topa B. səciyyəvidir.

B.-ın hündürlüyü buludölçən, kürəpilot, təyyarə, lazer şüaları, gözəyarı müşahidələr və s. vasitələrlə müəyyən edilir. B.-ın suluğu da ölçülür; onların tərkibindəki suyun çox hissəsi buxar halındadır. B.-ı əmələ gətirən ünsürlərin həcmi və çəkisi artdıqca atm. yağıntıları yaranır. B.-ın forması və hündürlüyü müxtəlif olduğu üçün atm. yağıntıları da yerə xırda-iri damlalı maye və ya sülb halında düşür.

B.-ın faza halını və mikrostrukturunu süni yolla dəyişməklə onlardakı bəzi prosesləri idarə etmək mümkündür. Belə ki, B.-a xüsusi yerüstü qurğular – generatorlar vasitəsilə, yaxud təyyarədən müəyyən reagentlər yeritməklə həddindən artıq soyumuş və ya dolu qorxusu olan B.-ı, dumanı dağıtmaq olur. Bu üsuldan daha çox aeroportlardakı qalxma-enmə zolaqlarında dumanın və alçaq B.-ın dağıdılmasında, k.t.-nda doluvurmanın qarşısını almaqda istifadə edilir.

**BULUDLULUQ** – Yer qübbəsinin buludlarla örtülmə dərəcəsi. B. gözəyarı müəyyən edilir: buludların miqdarı 10 ballıq şkala üzrə, onların forması isə buludların beynəlxalq təsnifatına əsasən. Sıfır bal buludsuz göyü, 10 bal isə tam buludlu göyü səciyyələndirir. B. hava və iqlimi xarakterizə edən mühüm amillərdən biridir. Qışda və gecələr B. Yer səthində temp-run düşməsinə, yayda və gündüzlər isə temp-run qalxmasına mane olur.

Relyef şəraitindən asılı olaraq Azərb. Resp.-nın yüksəkdağlıq (dəniz səviyyəsindən 2000 *m*-dən yuxarıda), ortadağlıq (təqr. 500–2000 *m* hünd.-də) və düzənlik ərazilərində B. dərəcəsi kəskin fərqlənir. Resp. ərazisində B.-un ən yüksək dərəcəsi (8–10 bal) Kür-Araz ovalığında fevralda müşahidə edilir.

**BULUTAN** – Azərb. Resp. Xocavənd r-nunda kənd. Bulutan ə.d.-nin (Bulutan, Xırmancıq, Məlikcanlı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 46 *km* c.-da, Hadrut–Füzuli avtomobil yolundan 6 *km* aralı, Qarabağ silsiləsinin c.-ş. ətəyindədir. Əh. 573 (1992); işğaldan (1992, oktyabr) əvvəl əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, klub, tibb məntəqəsi var idi.

**BULVÁR** (fr. boulevard, alm. Bollwerk – möhkəmləndirilmiş torpaq tirə) – küçə, çay və ya dəniz sahili boyu gəzinti üçün salınmış xiyaban və ya yaşıllıq zolağı. İlk B.-lar Yaxın Şərqdə (Antioxiyada), əsasən, şəhər divarları boyunca tikilirdi. 15–16 əsrlərdə Fransada şəhər divarlarından bayırda, düşmənlərin hücumundan qorunmaq məqsədilə tikilən müdafiə qurğuları da B. adlanırdı. Sonrakı dövrlərdə B. piyadaların hərəkəti, qısamüddətli istirahət üçün nəzərdə tutulur, səki və binaları səs və tozdan qorumaq məqsədi daşıyırdı. B.-da heykəl və büstlər, fəvvarələr, uşaq və idman meydançaları, kafe və ticarət köşkləri yerləşir. Parisdə, Vaşinqtonda düzbucaqlı formalı, Vyanada, Praqada simmetrik əyrixətli B.-lar mövcuddur.

Bakı B.-nın tikintisinə 1909 ildə mühəndis M. *Hacınskinin* təşəbbüsü ilə başlanmışdı. Əvvəlcə indiki Kukla Teatrı ilə "Azərneft" meydanı arasındakı ərazi abadlaşdırıldı, ağaclar və kollar əkildi, güllüklər salındı və örtülü çimərlik (40-cı illərdə dənizin səviyyəsinin qalxması ilə əlaqədar ləğv edildi) tikildi. 20 əsrin ortalarında Dənizkənarı B.-ın uz. 2,7 *km*-ə çatdı. 1990-cı illərdə dəniz səviyyəsi yenidən qalxdığından B.-ın bir hissəsini, o cümlədən gəzinti estakadasını, kater körpüsünü, yaxt-klubu su basdı. B.-da (uz. 3,7 *km*) yenidən abadlaşdırma işləri aparıldı və aşağı zolaq bir neçə *m* qaldırıldı. 1998 ilin dekabrında Dənizkənarı B.-a Milli park statusu verildi.



Bakı bulvarından görünüş.

**BÚLVER-LİTTON** (Bulwer-Lytton) Eduard Corc (25.5.1803, London – 18.1.1873, Devonşir qraflığı, Torki) – ingilis yazıçısı, siyasi xadim. Kembricdə Triniti-kollecdə oxumuşdur. 1831–41 illərdə viqlər və 1852 ildən Torilər partiyasından parlamentin üzvü; İngiltərə lordu, per (1866) olmuşdur. 1820 ildən C. *Bayronun* təsiri ilə şer yazmağa başlamışdır. "Folklend" adlı ilk romanı 1827 ildə çap edilmişdir. "Pelem, yaxud Centlmenin sərgüzəştləri" (1828) macəra-satirik romanı ilə şöhrət qazanmışdır. 30-a yaxın roman yazmışdır. "Yucin Eram" (1832) romanı və "Pompeinin son günləri" (1834), "Riensi, yaxud Sonuncu Roma tribunu" (1835), "Harold, yaxud Saksların sonuncu kralı" (1848) tarixi romanları daha məşhurdur. Elmi rasionalizmi (o cümlədən Ç. Darvinin nəzəriyyəsini) inkar etmiş, təxəyyülün gücünə və okkultizm təcrübəsinə inanmışdır ("Zanoni", 1842, "Qəribə əhvalat", 1862 romanları). B. detektiv janrının ("Pol Klifford", 1830), həmçinin roman-antiutopiyanın ("Gələcək irq", 1870) əsasını qoyanlardan biri olmuşdur. "Rişelye, yaxud Sui-qəsd" (1839), "Pul" (1840) və s. tarixi pyes və melodramların müəllifidir. B.-L.-un yaradıcılığının Ç. Dikkens, U. Kollinz, E.Po, N. Qotorn və F.M. Dostoyevskiyə təsiri olmuşdur.

Ə s ə r l ə r i: Кенельм Чиллингли, его приключения и взгляды на жизнь. М.-Л., 1965; Последние дни Помпеи. М., 1965.

**BUM** – Azərb. Resp. Qəbələ r-nu ərazisində çay. Türyan çayının (Kür hövzəsi) sol qolu. Uz. 51 *km*, hövzəsinin sah. 450 $km^2$. Baş Qafqaz silsiləsinin c. yamacından (3400 *m* hünd.-dən) başlanır. Qar, yağış və yeraltı sularla qidalanır. Sel olur. Suvarmada istifadə edilir.

**BUM** – Azərb. Resp. Qəbələ r-nunda qəsəbə. Bum ə.d.-nin mərkəzi. R-n mərkəzindən 7 *km* q.-də, Bum çayının sahilində, Qəbələ–Qəmərvan avtomobil yolunun kənarında, Baş Qafqaz silsiləsinin ətəyindədir. Əh. 4809 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, əsas məktəb, mədəniyyət evi, xəstəxana, kitabxana, ATS; 9–14 əsrlərə aid "Gavurqala" memarlıq abidəsi, məscid var.

**BUMEDYÉN** Huari (əsl adı Məhəmməd Buharuba) [23.8.1932 (digər məlumatlara görə 1925 və ya 1927), Həlmə yaxınlığında – 27.12.1978, Əlcəzair] – Əlcəzairin siyasi, hərbi və dövlət xadimi. 1950–54 illərdə əz-Zitun (Tunis) və əl-Əzhər (Misir) un-tlərində təhsil almışdır. İxtisasca müəllimdir. 1955 ildən Fransa müstəmləkəçilərinə qarşı silahlı mübarizəyə qoşulmuşdur. Əlcəzair Milli Azadlıq Ordusunun (MAO) polkovniki (1957), 1960–62 illərdə MAO Baş Qərargahının rəisi olmuşdur. Müstəqil Əlcəzairin milli müdafiə naziri (1962 ilin sentyabrından), həmçinin Nazirlər Şurası sədrinin birinci müavini (1963 ildən) idi. 1965 il iyunun 16-da baş vermiş dövlət çevrilişi nəticəsində Ə. *Ben Bellanı* hakimiyyətdən uzaqlaşdıraraq Əlcəzair hökumətinə və İnqilab şurasına başçılıq etmişdir, "İslam sosializmi" ideyasının tərəfdarı idi. B. hökuməti aqrar islahat keçirmiş, xarici dövlətlərin mülkiyyətini milliləşdirmiş, iqtisadiyyatı planlı əsasda inkişaf etdirmişdir. Əldə olunmuş nailiyyətlər Əlcəzairin Şimali Afrikada iqtisadi-siyasi liderliyini təmin etmişdi. SSRİ, ÇXR, Qərbi Avropa və ABŞ ilə münasibətlərdə tarazlaşdırılmış siyasət yürütmüş, *Qoşulmamaq hərəkatının* görkəmli lideri olmuşdur. Hakimiyyətinin son illərində Milli xartiyanı (1976) və yeni konstitusiyanı (həmin ildə) tətbiq etməklə öz hakimiyyətinə legitimlik vermişdi. 1976 ildə Əlcəzairin prezidenti seçilmişdi.

**BUMERÁNQ** (ing. boomerang, Cənub-Şərqi Avstraliya aborigenlərinin – turuvalların dilindən götürülmüşdür) – ov və döyüş silahı, atma ağac toppuz. İki qeyri-bərabər uzunluqlu pəri olan, en kəsiyi təyyarə vintinin profilinə bənzəyən (alt səthi hamar, üst səthi qabarıq) əyri lövhə formasındadır; az hallarda xaçşəkilli B.-lara rast gəlinir. Atdıqda eyni zamanda irəli və dairəvi hərəkət edir; fırlanarkən yaranan aerodinamiki moment fırlanan *giroskopa* təsir edən kimi B.-a təsir göstərir. Uz. 615 *mm*, eni 60–75 *mm*, qalınlığı 20–30 *mm*, əyilmə bucağı 90–130°-dir. B. Avropada Son Paleolitdən başlayaraq Roma dövrünədək, Şimali Afrikada, o cümlədən Qədim Misirdə Neolit dövründən, həmçinin Hindistanda, Amerikada (xüsusilə Şimali Amerikanın c.-q.-ində yaşayan hindilərdə), İndoneziyada, Yeni Hebrid a-rında və s. yerlərdə yayılmışdı. Ayin B.-ları fil dişindən və s. materiallardan hazırlanırdı. Ən



Avstraliya aborigenlərinin bumeranqları.



Afrika bumslanqı (Dispholidus typus).

çox Avstraliya aborigenləri (əsasən, Şərqi və Cənubi Avstraliyada) arasında yayılmışdır; uçuş zamanı mürəkkəb trayektoriya cızan və yüngül idman Avstraliya B.-ları geri qayıda bilir.

**BUMİN** (? – 552, digər məlumatlara görə 553) – Göytürk dövlətinin banisi və hökmdarı [təqr. 552]. Təqr. 546 ildə Monqolustanın şm.-ında toloslar adlı türk tayfasının üsyanını yatırmış, onları və tədricən bütün türkləri hakimiyyəti altında birləşdirmişdi. 551 ildə B. türk əsilli Vey sülaləsindən olan Şimali Çin hökmdarının qızı ilə evlənmişdi. 552 ildə yeni türk dövləti yaradaraq özünə "ilxan", arvadına isə "xatun" titullarını götürmüşdü. Monqolustan, Çin Türküstanı və Cənubi Sibir ərazisində məskunlaşmış bütün türk tayfaları B.-ə tabe idilər. B. dövlət quruluşunu yaratmış, qanunlar vermiş, vəzifələr təsis etmiş, məmurları subordinasiya əsasında 28 kateqoriyaya bölmüşdü. B.-dən sonra "türk" adı türkcə danışan bütün tayfalara şamil olundu.

**BUMSLÁNQ** (Dispholis typus) – suilanıkimilər fəsiləsindən sürünən heyvan. Bədəni uzun (2 *m*-ədək), başı gödəkdir. Yetkin fərdlər müxtəlif rəngdə – yaşıl, qəhvəyi, qarayaçalan, kontrast ləkəli və ya ləkəsiz olur; qarnı sarımtıl-yaşıldır. Erkəkləri, adətən, dişilərdən daha parlaq olur. B. Cənubi və Cənub-Qərbi Afrikada yayılmışdır; bəzi yerlərdə olduqca çoxdur. Əsasən, ağacda, xüsusilə küsdüm və akasiya ağacları olan kol cəngəlliklərində yaşayır. Asanlıqla ağaca dırmanır, öz bədənini budaqlara oxşada bilir, yerdə cəld və sürətlidir. Əsasən, quşlarla və ağac kərtənkələri ilə qidalanır. Ovuna pusqudan hücum edərək onu zəhəri ilə iflic vəziyyətinə salır. Narahat olduqda bədəninin ön hissəsini yuxarıya qaldırır, boynunu çox şişirdir. Dişi fərd torpağa, ağacların oyuq və çatırinə, quş yuvalarına 12–23 yumurta qoyur. B.-ın sancması insan üçün öldürücü ola bilər.

**BUNÁK** Viktor Valerianoviç (22.9.1891, Moskva – 11.4.1979, Moskva) – Rusiya antropoloqu. Moskva Un-tini (1912) bitirmiş, MDU-nun prof.-u (1925–48) olmuşdur. 1922 ildə D.N. *Anuçinlə* birlikdə MDU-nun Antropologiya Elmi Tədqiqat İn-tunu yaratmış, 1923–30 illərdə onun direktoru, 1943–48 illərdə SSRİ EA Etnoqrafiya İn-tunun antropologiya şöbəsinin müdiri işləmişdir. Ən iri Rusiya antropoloji ekspedisiyasına (1955–59) rəhbərlik etmişdir. Fiziki antropologiyanın bütün bölmələrinə, o cümlədən insan morfologiyasına, etnik və təkamül antropologiyasına dair fundamental əsərlərin müəllifidir. B. hamı tərəfindən qəbul edilən göz rəngləri cədvəlini işləyib hazırlamış; konstitusional tiplərin yeni təsnifatını yaratmış; tətbiqi antropologiyanın və standartlaşdırmanın əsasını qoymuşdur. Antropogenez nəzəriyyəsinə dair tədqiqatlarında həmin dövr üçün yeni olan famnogenetik konsepsiyaya əsaslanmışdır. İrqlərin genezisində xronoloji cəhətdən 3 müxtəlif mərhələni ayırmışdır: ən qədim (irqlərin tropik qolu), qədim (cənub qolu) və müasirliyə ən yaxın (qərb və şərq qolları). İrqlərin populyasiya konsepsiyasını qabaqlayaraq, insan irqlərini tarixən formalaşmış dəyişkən statistik kateqoriyalar kimi nəzərdən keçirmişdir. Lenin ordeni ilə təltif olunmuşdur.

**BUNAKLAR**, m a r a e l ə r (yanlış olaraq marelər) – İndoneziyada və Şərqi Timorun Mərkəzi Timor yaylasında xalq. Sayları 100 min nəfərdir, onlardan 80 min nəfəri Şərqi Timorda yaşayır (1995). Makasailərə, fatalukulara və Timorun qonşu Avstroneziya xalqlarına (atonilərə, tetumlara) qohumdurlar. B.-ın dili papuas dillərinin transyeniqvineya dil ailəsinin Şərqi Timor qrupuna aiddir. Dindarların bir hissəsi xristiandır, ənənəvi inanclarını saxlayanlar da var.

Bunak.



Əsas məşğuliyyətləri tropik toxa əkinçiliyidir (qarğıdalı, kökümeyvəlilər və köküyumrular, mərasimlər üçün az miqdarda quru dərələrdə yetişdirilən çəltik). Sosial təşkilatlanmanın əsasını ana nəsli (deu) təşkil edir, bir neçə deu qəbilə icmasında birləşir. Üçqəbiləli ittifaq mövcuddur. Nikah bilokaldır. Bayramlarda ifa olunan epik mahnılarda (bei qua – "əcdadların izləri") B.-ın əcdadlarının dənizin arxasından köçüb gəlməsi motivləri izlənilir.

**BUNÇUK** – 1) qədim türklərin, 15–18 əsrlərdə isə Osmanlı paşalarının hakimiyyət rəmzi; Polşa və Ukrayna getmanları, həmçinin rus kazak qoşunu atamanları da bu rəmzdən istifadə etmişlər. At tükündən saçaqları və iki gümüş qotazı, uz. 2,5 *m*-ə qədər olan kürəvi və ya sivri uclu dəstək. 2) Böyük hərbi orkestrlərdə küylü musiqi alətinin bəzəyi. 3) At boynuna bağlanan bəzək (bax həmçinin *Tuğ*).

**BUND** (idiş dilində – ittifaq; "Litva, Polşa və Rusiyada ümumi yəhudi fəhlə ittifaqı") – Rusiyanın q. vil.-lərinin fəhlə və sənətkarlarını birləşdirən sosial-demokrat təşkilatı. 1897 ilin sentyabrında Vilnoda yaradılmışdı. "Arberter Ştime" ("Fəhlə səsi"), "İdişer Arberter" ("Yəhudi fəhləsi") qəzetlərini nəşr edirdi. Liderləri R.A. Abramoviç, İ.L. Ayzenştadt, A.İ. Kremer və b. idi. 1898–1903 illərdə və 1906 ildən Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının tərkibində muxtar təşkilat olan B. menşeviklərin mövqeyini tuturdu. Oktyabr çevrilişindən (1917) sonra təşkilat parçalandı: B.-un bir hissəsi sovet hakimiyyətinə qarşı çıxdı, digər hissəsi isə RK(b)P-yə daxil oldu. B. Rusiyada 1921 ildə öz-özünü buraxdı, Polşada isə 1930-cu illərədək fəaliyyət göstərdi.

**BUNDESLİQA** – alman futbolunun peşəkar liqası. 1963 ildə Qərbi Almaniya B.-sı kimi yaradılmışdır; 1991 ildən ümumalman B.-sıdır. Ətrafında birinci və 1992 ildən ikinci B.-nı (hər birində 18 komanda olmaqla) birləşdirir. Almaniya çempionu adı uğrunda oyunlar birinci B.-da keçirilir ( yaz–payız ). "Bavariya" (Münxen) – 18 dəfə, "Borussiya" (Mönxenqladbax) – 5 dəfə, "Verder" (Bremen) – 4 dəfə, "Hamburq" və "Borussiya"





(Dortmund) – hər biri 3 dəfə çempion adını qazanmışdır. Mövsümün nəticələrinə görə ikinci B.-nın üç ən güclü komandası birinci B.-nın üç ən zəif komandasını əvəz edir. İkinci B.-da sonuncu dörd yeri tutmuş komandalar peşəkarlıq statuslarını itirir.

**BUNDESRÁT** – bax *Almaniya* məqaləsinə.

**BUNDESTÁQ** – bax *Almaniya* məqaləsinə.

**BUNDESVÉR** – bax *Almaniya* məqaləsinə.

**BUNDZİNQA** (yaponca – oxumuşların boyakarlığı), n a n q a (cənub məktəbinin boyakarlığı) – yapon boyakarlığında 17 əsrin sonlarında yaranmış cərəyan. Əsasən, monoxrom, yaxud yüngül ton verilmiş tuş qammasından və mineral sulu boyalardan istifadə edilirdi. Yaradıcılıq sərbəstliyini və intellektual diletantizmi kustar peşəkarlığa qarşı qoymaq B.-nın əsas ideyasıdır. B. rəssamlarının (*Buson Yosa*, İkeno Tayqa; 18 əsr) yaradıcılığı üçün geniş ekspressiv rəsmçəkmə manerası, səmimi ifadə tərzi, poetik və fəlsəfi məzmunlu kalliqrafik yazıların rəsmə daxil edilməsi səciyyəvidir. Analoji cərəyan Çin boyakarlığında *venjenxua*, Koreyada isə muninxva adlanırdı.

**BÚNGE TORPAĞI** – Şimal Buzlu okeanında, RF-nin ərazi sularında, Kotelnı a.-nın (*Anju adaları* qrupunda) mərkəzi hissəsindədir. Sah. təqr. 6,2 min *km*². Hünd. 6–8 *m* olan qumlu düzənlikdir. Ayrı-ayrı təpələrin hünd. 45 *m*-ə çatır. Səthi zəif parçalanmışdır, səhranı xatırladır. Eol formaları geniş yayılmışdır. 19 əsrin 80-ci illərində coğrafi ekspedisiyanın iştirakçısı, rus zooloqu A.A. Bungenin şərəfinə adlandırılmışdır.

**BÚNİN** İvan Alekseyeviç (22.10.1870, Voronej – 8.11.1953, Paris) – rus yazıçısı. Nobel mükafatı laureatı (1933). Qədim zadəgan nəslindəndir. Uşaqlıq və yeniyetməlik dövrünü Oryol qub.-dakı kiçik malikanələrdə keçirmişdir. Yeletsk gimnaziyasında oxumuş (1881–86), təhsilini böyük qardaşının köməyi ilə evdə davam etdirmişdir. "Nadsonun məzarı üstündə" (1887) B.-in ilk mətbu şeiridir. "1887–1891 illərin şeirləri" adlanan ilk kitabı 1891 ildə çap olunmuşdur. "Dünyanın qurtaracağına" və başqa hekayələr" (1897) nəsr əsərləri, "Açıq səma altında" (1898) şeir topluları ilə şöhrət qazanmışdır.



Əhdi-Ətiq mifologiyasının, müsəlman rəvayətlərinin təsiri hiss olunan "Kənd" (1910), "Quru dərə" (1911) povestləri, 1907–11 illərdə yazdığı lirik hekayələri ("Günəş məbədi" silsiləsində toplanmışdır, 1915), həmçinin "San-Fransiskolu cənab", "Qardaşlar", "Çanqın yuxuları" və s. hekayələri çap edildikdən sonra B.-in yaradıcılığı geniş ictimai rezonans doğurmuşdu.

1917 ilin oktyabr inqilabını B. rus milli mədəniyyətinin faciəsi və ənənəvi sivilizasiyanın iflası kimi qəbul etmişdir; 1920 ildən Parisdə mühacirətdə yaşamışdır. Burada fransız yazıçısı Banin (*Ümmülbanu* Mirzə qızı Əsədullayeva) ilə tanış olmuş, ona məktublar göndərmişdir (həmin məktublar əsasında Banin "Buninin son höcəti" adlı sənədli povest yazmışdır). İnqilab haqqında təəssüratları "Lənətə gəlmiş günlər" (1925 ildən dövri mətbuatda çap olunurdu) məqalələr silsiləsində öz əksini tapmışdır. Bolşeviklərə və sovet hökumətinə mənfi münasibət bəsləmişdir.

Rus psixoloji nəsrinin inkişafında yeni mərhələ olan "Arsenyevin həyatı" (tam nəşri 1952) romanı 1928–39 illərdə hissələrlə çap edilmişdir.

B. özünün "Qaranlıq xiyabanlar" (1943; əlavələr edilmiş 2-ci nəşri 1946) kitabını ən böyük yaradıcılıq uğuru hesab etmişdir. O, həmçinin "Tolstoyun xilası" (1937), "Xatirələr" (1950), "A.P. Çexov haqqında" (1955) və s. kitabların müəllifidir.

B.-in "Mityanın məhəbbəti" povesti, "Zərif nəfəs", "Qaranlıq xiyabanlar", "Gün vurmuşdu" və s. hekayələri Azərb. dilinə tərcümə olunmuşdur.

Ə s ə r l ə r i: Povest və hekayələr. B., 1978; Собр. соч.: В 8 т. M., 1993–2000; Письма 1885–1904 гг. M., 2003; Seçilmiş əsərləri. B., 2006.

**BÚNKER** (ing. bunker – kömür qutusu) – 1) qum, sement, kömür, filiz kimi dənəvər və kəsək materialları tarasız saxlamaq üçün metal, yaxud dəmir-beton, bəzən taxta tutum (çən, iri qutu və s.). Materialları axın ilə boşaltmaq üçün aşağı hissəsi maili (çevrilmiş kəsik piramida, yaxud konus, parabola və s. şəklində) düzəldilən B. doldurulan materialların miqdarını tənzimləyən qurğu və boşaldıcı sürgü ilə təchiz edilir. Mədən sənayesində müntəzəm qaldırmanı təmin etmək üçün şaxta lülələrinin yaxınlığında qazılan və faydalı qazıntıların, süxurların müvəqqəti saxlanması üçün istifadə edilən mədən qazmalarına yeraltı B. deyilir. Müxtəlif səyyar maşınlar, məs., taxılyığan kombaynlar üzərində quraşdırılan tutum da B. adlanır. Müasir B. saxlanılan materialın doldurulması və boşaldılmasına nəzarət edən mərkəzləşdirilmiş proqram idarəetməsinə malik avtomatlaşdırılmış aqreqatdır. 2) Gəmilərdə reys üçün bərk və maye yanacaq ehtiyatı saxlanılan yer; adətən, qazanxana bölməsi ilə yanaşı yerləşir. 3) Taxıl və paxlalı bitkilərin dəninin saxlanması və qurudulması, həmçinin qışda nəmlikdən qorunması üçün istifadə olunan ventilyasiyalı qurğu. 4) Xarici ölkələrin (məs., Almaniyanın) hərbi terminologiyasında xüsusi təchiz edilmiş yeraltı sığınacaq.

**BÚNKER-GƏMİ** – gəmiləri reyddə dayandığı, yaxud üzdükləri zaman yanacaqla təchiz edən özügedən gəmi. B.-g.-də digər gəmiyə maye yanacağı vurmaq və ya daş kömürü yükləmək üçün avadanlıq, yüklənən yanacağın miqdarını hesablayan quruluş olur. Müasir B.-g.-lər neft axmasının lokallaşdırılması və aradan qaldırılması üçün vasitələr ilə təchiz edilir.

**BÚNKERLİ MƏDƏN MAŞINLARI** – mədən kütləsini, torfu yığmaq və nəql etmək üçün texniki vasitələr. 1) B u n k e r l i k o m b a y n torfu pnevmatik üsulla toplayan özügedən aqreqatdır. Əsas hissələri pnevmatik qurğu (ventilyator, ucluq, boru kəmərləri, iki ədəd siklon-ayırıcı), hermetik bağlanan bunker, daxiliyanma mühərrikinin intiqalı ilə işləyən qüvvə ötürücüsü və yığılmış torfu hesablayan avtomatdan ibarətdir. Arxasına frezerli baraban qoşulur. 2) B u n k e r l i y ı ğ ı m m a ş ı n ı əvvəlcədən qalaqlanmış torfu toplayan qoşqu maşınıdır. Mühərrikinin gücü 55 *kVt*-dan az olmayan tırtıllı traktora qoşulur. Maşının tırtıllı gediş qurğusunda *skreperi*, çalovlu elevatoru və lövhəli, yaxud ərsinli konveyer şəklində hərəki dibi olan bunker yerləşir. Bunkerli yığım maşınına qoşulmuş traktor elə irəliləyir ki, torf qalağı tırtılların arasında qalır. Skreper vasitəsilə kürünən torf qalağı çalovlu elevatorla fasiləsiz olaraq bunkerə nəql edilir, sonra isə bunkerin hərəki dibi ilə ştabelə boşaldılır. Bunkerin tutumu 20 *m*³-ədək, maşının iş sürəti 10 *km/saat*-dır. Bəzi maşınlar yığılan torfun miqdarını hesablamaq üçün avtomatik qurğu ilə təchiz edilir. 3) B u n k e r - q a t a r mədən kütləsinin fasiləsiz yüklənməsi, nəqli və boşaldılması üçün relslə hərəkət edən yeraltı nəql. vasitəsidir. Oynaqla birləşdi-



Su üzərində bunqalo. Bora-Bora adası (Fransa Polineziyası).



Bunquran arxipelaqı. Natuna-Besar adası.

rilmiş və hündür bortları olan təkər-rels gedişli bir neçə seksiya-platformadan ibarətdir. Seksiyalar qatarın dibi boyunca (kuzanın dibi ilə işləyən konveyer yüklənən və boşaldılan mədən kütləsini bunker-qatarın bütün uzunluğu boyu paylaşdırır) bütöv nov-bunker əmələ gətirir. Bunker-qatarı mədən lokomotivi hərəkət etdirir.

**BÚNQALO** (hindcə bangla; ing. bungalow) – geniş eyvanı və yastı dam örtüyü olan birmərtəbəli bağ evi tipində şəhərkənarı yüngül tikili. Adı Hindistanın Benqal vilayətinin adından götürülmüşdür; Hindistanda avropalılara məxsus evlər belə adlanırdı. Turizmdə hotelin əsas binasından kənarda çox da böyük olmayan kottec-bunqalolar nəzərdə tutulur. Amerikada, bir sıra Avropa ölkələrində B. ailəvi yaşayış evi kimi istifadə edilir. Müasir B.-lar ikimərtəbəli tikilir.

**BUNQAROTOKSİNLƏR** – aspidlər fəsiləsindən olan ilanların – kraytların (Bungarus) zəhərindən alınan yüksəktoksinli polipeptidlər. Sinir-əzələ sinapslarında oyanma siqnalının ötürülməsini pozur. α-B. (molekul kütləsi təqr. 8000) asetilxolin reseptorlarının (xolinoreseptorların) işini təcrid edən postsinaptik neyrozəhərdir. β- və γ-B. (presinaptik toksinlər) asetilxolinin presinaptik membrandan ayrılması prosesini pozur. β-B (molekul kütləsi 28500) fosfolipaza aktivliyinə malikdir (fosfoqliseridlərin hidroliz reaksiyasını kataliz edir). Kraytların zəhəri ilə zəhərlənmə tənəffüsün zəifləməsindən onun tam dayanmasınadək (β-B.-in öldürücü dozası $2{,}5\cdot10^{-2}$ *mq/kq*-dır) təsir göstərir. B.-dən neyrokimyəvi və neyrofizioloji tədqiqatlarda istifadə edilir.

**BÚNQKULAR,** t o b u n q k u l a r – İndoneziyada Sulavesi a.-nın şərq yarımadasında Tolo körfəzi sahilində və qonşu Vovoni a.-nda xalq. Əsasən, sahilboyunda (əvvəllər – dağlarda) məskunlaşmışlar. Sayları 96 min nəfərdir (1995). Bunqkular, routalar, koronilər, lambatular, retelər, landavelər, vanalar, moronenelər, tokotualar, vavoniilər, kulisusular subetnik qruplarına bölünürlər. Bunqkuların Avstroneziya ailəsinin Qərbi Avstroneziya qrupuna aiddir. Dialektləri (ehtimal ki, müstəqil dillərdir): bunqku, koroni, tulambatu, moronene, vavonii, kulisusu. İndoneziya dili də yayılmışdır. Dindarları müsəlmandırlar, moronenelər və tokotualar arasında xristianlar da var.

20 əsrin əvvəllərinədək B.-ın ali hakimin başçılıq etdiyi knyazlığı mövcud olmuşdur. Ali hakimə 4 rayon başçısı, sonunculara isə kənd başçıları tabe idi. Ali hakimin və rayon başçılarının hakimiyyəti müəyyən ailələr daxilində irsən keçirdi. 1949 ildə İndoneziya Resp.-nın tərkibinə qatılmışlar. Əsas məşğuliyyətləri əkinçilikdir (quru dərələrdə yetişdirilən çəltik, qarğıdalı, saqo, şirin kartof və kokos palması). Ənənəvi məskənləri pərakəndə, müasir məskənləri xətti planlıdır. Düzbucaqlı formalı, yortacəsaslı evləri ağac və bambukdandır. Kişilərin geyimi avropasayağıdır; qadınlar saronq geyinirlər. Yeməklərin əsasını düyü təşkil edir. Ənənəvi inanclarına əcdadların kultu və ruhlara inam daxildir. Təkrar dəfn adəti (ölülər 3–5 il taxta meydançada saxlanılır, sonra bu müddət ərzində bütün ölənlərin sümükləri mağaralarda dəfn edilirdi) mövcud idi.

**BÚNQO** – Yaponiyada Küsü və Sikoku adaları arasında boğaz. Daxili Yapon dənizini Sakit okeanla birləşdirir. Uz. təqr. 65 *km*, eni 14–75 *km*, ən dayaz yeri farvaterdə təqr. 75 *m*-dir. Sahilləri kəskin parçalanmışdır, çoxlu əlverişli buxtalar əmələ gətirir. Əsas portları: Saeki, Uvadzima, Usuki.

**BUNQÚRAN**, N a t ú n a – Cənubi Çin dənizinin c. hissəsində arxipelaq (İndoneziyaya məxsusdur). Sah. 1,3 min *km*². Ən böyük adaları: Bunquran-Besar (Natuna-Besar), Subi-Besar, Laut. Qranitlərdən ibarətdir. Təpəli relyef üstünlük təşkil edir (959 *m*, Bunquran-Besar a.-nın mərkəzində). Sahil xətləri mərcan rifləri ilə əhatələnmişdir. İqlimi ekvatorialdır. Yağıntıların illik miqdarı 2000 *mm*-dən çoxdur. Rütubətli həmişəyaşıl tropik meşələr var. Kokos palması, çəltik, qarğıdalı becərilir.

**BUNRÁKU** – yapon kukla teatrı. *Kabuki* və *no* ilə yanaşı Yaponiyanın ənənəvi teatrının əsas növlərindən biridir. 16 əsrin sonu – 17 əsrin əvvəllərində "ningö dzöruri" (kukla və hekayət) adı ilə yaradılmışdır. Teatrın çiçəklənmə dövrü 17 əsrin ortaları – 18 əsrə təsadüf edir. "B." adı teatra 1872 ildə, onun tamaşalarını göstərmək üçün Osaka ş.-ndə inşa edilmiş yeni bina rəsmən "Bunrakudza" ["Bunraku teatrı"; kukla tamaşalarının quruluşçusu Uemura Bunrakukenin (1737–1810) şərəfinə] adlandırıldıqdan sonra verilmişdir. M. Tikamatsu B.-nun aparıcı dramaturqlarından biridir (20-ə yaxın məişət və 100 tarixi dram əsəri). İnsan boyunun 1/2–2/3-i qədər olan kuklaları qara geyimli üç nəfər idarə edir: ən təcrübəlisi – kuklanın baş hərəkətlərini (gözlər, qaşlar, göz qapaqları, ağız) və sağ əlini, ikincisi sol əlini, üçüncüsü – kuklanın ayaqlarını. Hekayəçi-gidayu *syamisen* və təbillərin müşayiəti ilə pyesin mətnini avazla söyləyir. Gidayu səsini falsetdən basa qədər dəyişdirərək bütün personajların adından danışır.

**BUNTÜRKLƏR** – bir neçə orta əsr gürcü salnaməsində – "Moktsevay Kartlisay" ["Kartlinin (xristianlığa) çevrilməsi"], "Kartlis tsxovreba" ("Kartlinin yaşayışı") və s. mənbələrdə Makedoniyalı İsgəndərin Şərqi Gürcüstanın tarixi vilayəti olan Kartliyə hərbi səfəri (e.ə. 4 əsr) ilə əlaqədar adı çəkilən tayfa. Həmin mənbələrə görə B. Kartlidə yaşamışlar. B.-in adına başqa qədim və orta əsr mənbələrində təsadüf olunmur.

**BUNUD** – Azərb. Resp. Qəbələ r-nunda kənd. Bunud ə.d.-nin mərkəzi. R-n mərkəzindən 16 *km* c.-ş.-də, Qəbələ–Bakı avtomobil yolunun kənarında, Baş Qafqaz silsiləsinin c. ətəyindədir. Əh. 848 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, tibb məntəqəsi, klub, poçt, ATS var.

**BUNUT,** B n u t, B u n u t Q a r a t o r p a q – İrəvan xanlığında Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Cığındərə bölgəsində, Vedi çayının mənbəyində azərb.-ların yaşadığı kənd. Rusiya-İran müharibəsi (1826–28) zamanı kənd dağıdılmış, lakin sonralar yenidən məskunlaşdırılmışdır. 1918–20 illərdə erməni təcavüzü nəticəsində yandırılmış, əhalisi qovulmuşdur.

**BUNYADABAD** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Səncid bölgəsinin Gəncgah kəndistanında, Givi qəs.-ndən 18 *km* şm.-q.-də, Xalxal–Ərdəbil avtomobil yolunun üstündədir.

**BUNYAKOVSKİ** Viktor Yakovleviç (16.12.1804, Podolsk qub., Mogilyov qəzasının Bar ş.; indiki Ukrayna – 12.12. 1889, S.-Peterburq) – rus riyaziyyatçısı, Peterb. EA akad. (1830; 1864–89 illərdə vitse-prezident). Təhsilini Koburqda, Lozannada, Parisdə (1820–25) almışdır. Elmi və pedaqoji fəaliyyətinə S.-Peterburqda başlamış (1826), 1846–59 illərdə S.-Peterburq Un-tinin prof.-u olmuşdur. B.-nin tərtib etdiyi "Sırf riyazi və tətbiqi riyaziyyat leksikonu" (1839) elmi terminologiyanın yaradılmasında böyük əhəmiyyət kəsb etmişdir. Onun "Ehtimal nəzəriyyəsinin riyazi əsasları"nda (1846) həm ehtimal nəzəriyyəsinin, həm də onun sığortaya və demoqrafiyaya tətbiqinin orijinal şərhləri vardır.



Riyazi analizdə *Bunyakovski bərabərsizliyi* məlumdur. Həndəsi tədqiqatlarında Evklidin paralellik haqqında aksiomuna böyük diqqət yetirmişdir. 1878 ildə Peterb. EA B. adına mükafat təsis etmişdir.

**BUNYAKOVSKİ BƏRABƏRSİZLİYİ** – inteqral hesabının ən mühüm bərabərsizliklərindən biri; kvadratları $[a, b]$ parçasında inteqrallanan $f(x)$ və $g(x)$ funksiyaları üçün

$$\left(\int_a^b f(x)g(x)dx\right)^2 \le$$

$$\le \int_a^b f^2(x)dx \int_a^b g^2(x)dx$$

1859 ildə V.Y. *Bunyakovski* tərəfindən təyin edilmişdir. Bu bərabərsizlik cəbri $(a_1b_1 + ...+a_nb_n)^2 \le$ $\le (a_1^2 + ... + a_n^2)\,(b_1^2 + ... + b_n^2)$ *Koşi bərabərsizliyinə* analoji olduğu üçün Koşi–Bunyakovski bərabərsizliyi də adlandırılır. B.b. müxtəlif ümumiləşdirmələrə imkan verir. Məs., bu cür bərabərsizlik çoxqat inteqrallar üçün doğrudur.

**BUNYAVİRUSLAR** (Bunyaviridae) – RNT-tərkibli viruslar fəsiləsi; 5 cinsi və 150-dən çox növü vardır. Uqandada ilk dəfə ayrıldığı yerin (Bunyamvera) adı ilə adlandırılmışdır. Bunyavirus (bəzən 50-dən çox növün daxil olduğu yalnız bu cinsin nümayəndələri B. adlandırılır), Phlebovirus və Nairovirus cinslərinə aid virusları insana buğumayaqlılar keçirir (bax *Arbovirus xəstəlikləri*). Hantavirus cinsinin viruslarını gəmiricilər yayır (insanla təmasda olduğu zaman); onlar insanda ağır xəstəliklər – böyrək sindromu ilə hantaviruslu hemorragik qızdırma və hantaviruslu ağ ciyər sindromu törədir. Tospovirus cinsinə yalnız bitki virusları aiddir.

B.-ın sferik formalı (diametri 80–120 *nm*) virus hissəcikləri lipoprotein təbəqəsi ilə əhatələnir. Genom virus zülallarını kodlaşdıran üç RNT seqmenti ilə (L, M və S) təmsil olunur: L – virus RNT-nin sintezini təmin edən fermenti, M – virus qişasının zülallarını, S – virus hissəciyi özəyinin (nukleokapsidin) zülalını kodlaşdırır. B.-ın Bunyavirus, Phlebovirus və Tospovirus cinslərində S seqmenti virus genomunun replikasiyasında iştirak edən zülalları da kodlaşdırır.

**BUNYÓRO** (Unyoro) – Uqandada Albert gölünün ş. sahilində tarixi vil. 10 əsrin sonu – 11 əsrin əvvəllərində əkinçi və maldar xalqların qarşılıqlı təsiri nəticəsində bu ərazidə Kitara dövləti meydana gəlmişdi. Dövlət torpaqların və mal-qaranın ali mülkiyyətçisi olan irsi hökmdar (omukama) tərəfindən idarə edilirdi. Omukama ilə qohumluq əlaqəsində olan maldar aristokratiya hakim təbəqə idi. 16–17 əsrlərdə Kitara ərazisinin bir hissəsini itirdi və regionda üstünlük onun keçmiş əyaləti *Buqandaya* keçdi; 17 əsrin sonlarından B. adlanmağa başladı. 19 əsrin sonlarında, Afrikanın müstəmləkələrə bölüşdürülməsi dövründə, B. hökmdarları ingilislərə silahlı müqavimət göstərmişdilər. 1899 ildə B. "istila edilmiş krallıq" statusu ilə Britaniyanın Uqanda protektoratının tərkibinə qatıldı (B.Britaniya ilə saziş yalnız 1933 ildə bağlandı). Müstəqil Uqandada B. 1962 ildən muxtariyyət statusuna malik idi. 1967 ildə irsi ali hökmdar institutu aradan qaldırıldı (Uqandanın yeni konstitusiyasına müvafiq olaraq 1995 ildə bərpa edildi), B.-nun muxtariyyəti ləğv olundu.

**BUNYUÉL** (Buñuel) Luis (22.2.1900, İspaniya, Yeni Araqon əyaləti, Kalanda k. – 29.7.1983, Mexiko) – ispan kinorejissoru, ssenarist. Varlı ailədə doğulmuşdur. Katolik məktəblərində oxumuş, orta təhsilini Saraqosadakı dünyəvi liseydə başa vurmuşdur. 1917 ildən Madriddə yaşamışdır. Madrid Un-tində tarix, fəlsəfə və ədəbiyyatı öyrənmişdir. B.-in baxışlarının formalaşmasına F. *Qarsia Lorka*, S. *Dali* və R. *Qomes de la Sernanın* təsiri olmuşdur. Fəaliyyətə ədəbiyyatçı və kinotənqidçi kimi başlamışdır. 1920-ci illərin bədii avanqardist hərəkatı – *ultraizmə* qoşulmuşdur. 1925 ildən Parisdə yaşamış, rej. J. *Epşteynin* yanında rej. assistenti işləmişdir; sürrealistlər (L. *Araqon*, A. *Breton*, P. *Elüar*, R. *Maqrit*, J. *Sadul* və b.) dərnəyi ilə yaxınlaşmışdır. B.-in rej. kinodebütü olan "Əndəlis köpəyi" (1928, ssenarist S. Dali ilə birgə) və "Qızıl əsr" (1930) filmləri kinoda *sürrealizm*ön nəyi olmuşdur. Antiklerikal və antiburjua motivləri "Qızıl əsr" (50 il) bədii və "Las Urdes. Çörəksiz torpaq" (1932, ekranlara 1937 ildə çıxmışdır) sənədli filmlərinə qadağa qoyulması səbəbi ilə B. 15 il müddətinə rejissorluqdan uzaqlaşmağa məcbur olmuşdur. 1938–46 illərdə ABŞ-da yaşamış, məsləhətçi və montajçı kimi ispan və İkinci dünya müharibələri haqqında filmlərin yaradılmasında iştirak etmişdir. Amerika filmlərinin ispandilli versiyalarını hazırlamış, Müasir incəsənət muzeyində (Nyu-York) işləmişdir. 1946 ildən Meksi-



Bunyuel L. "Burjuaziyanın təvazökar cazibəsi" filmindən kadr.

kada, əsasən, melodram janrında məişət filmlərini çəkmişdir: "Böyük kazino" (1947), "Susanna" ("İblis və cismanilik", 1950), "Yalanın qızı" ("Başıbəlalı Don Kintin", 1951), "Yekəpər" (1952) və s. Sonralar G. de Mopassan ("Sevgisiz qadın"; "Pyer və Jan" romanı üzrə, 1951), D. Defo ("Robinzon Kruzo", 1952), E. Bronte ("Ehtiras uçurumları"; "Tufanlı aşırım" romanı üzrə, 1953), B. Peres Qaldos ("Tristana", 1970) və b.-nın əsərlərini ekranlaşdırmışdır. "Unudulmuşlar" (1950, Kann Beynəlxalq kinofestivalının mükafatı) və "Nazarin" (1958, Kann Beynəlxalq kinofestivalının mükafatı) filmləri onu dünya kinematoqrafiya xadimlərinin ön sıralarına çıxarmışdır. B. 1961 ildə (18 illik fasilədən sonra) öz vətənində "Viridiana" filmini çəkmişdir (ekranlara 1976 ildə çıxmışdır, Kann Beynəlxalq kinofestivalının baş mükafatı). "Qırıcı mələk" (1962, Kann Beynəlxalq kinofestivalının mükafatı), "Tərki-dünya Simeon" (1965, Venesiya Beynəlxalq kinofestivalının mükafatı), "Tristana" (1970) filmləri M. *de Servantes*, F. *Qoyya* və F. *Surbaranın* əsərlərindən gələn məzmun və obrazlar üzərində qurulmuşdur. B. 1963–77 illərdə, əsasən, Fransada işləmişdir; bu dövrdə J.K. *Karryerın* ssenariləri üzrə "Qulluqçunun gündəliyi" (1964), "Gündüz gözəli" (1966, Venesiya Beynəlxalq kinofestivalının baş mükafatı), "Burjuaziyanın təvazökar cazibəsi" (1972, "Oskar" mükafatı), "Azadlıq kabusu" (1974), "İstəyin dumanlı hədəfi" (1977) filmlərini çəkmişdir. Bir çox filmləri öz ssenariləri əsasında çəkmiş, aktyor və prodüser kimi də çıxış etmişdir. Venesiya Beynəlxalq kinofestivalında (1969) B.-ə "Kino ustası" adı verilmişdir. Ümumən yaradıcılığına görə həmçinin San-Sebastyanda (1977) və Moskvada (1979) Beynəlxalq kinofestivalların mükafatına layiq görülmüş, Venesiya (1982) Beynəlxalq kinofestivalının yubiley mükafatını almışdır.

**BUNZEN** (Bunsen) Robert Vilhelm (31.3.1811, Göttingen – 16.8.1899, Heydelberq) – alman kimyaçısı, Peterb. EA əcnəbi m. üzvü (1862 ildən). Göttingen Un-tini bitirmiş (1830), təhsilini Fransada, İsveçrədə, Avstriyada, İtaliyada təkmilləşdirmişdir (1832–33), Göttingen Un-də (1834–36), Kasseldə Ali Texniki Məktəbdə (1836–38) işləmiş; Marburq (1838–51), Breslau (1851–52) və Heydelberq (1852–89) un-tlərinin prof.-u olmuşdur.



Əsas tədqiqatları qeyri-üzvi, analitik və fiziki kimya sahələrinə aiddir. Arsen-üzvi birləşmələrini tədqiq etmişdir (1837–43). Kakodil $As(CH_3)_2$ radikalının formulunu müəyyən etmiş və onun oksidinin başqa maddələrlə reaksiyasını öyrənərək, radikallar nəzəriyyəsinin yaranması üçün zəmin hazırlamışdır. Karbon-sink qalvanik elementini ixtira etmiş (1841) və onun köməyi ilə əridilmiş xloridlərin elektrolizindən maqnezium (1852), litium, kalsium, stronsium və barium (1854–55) metallarını almışdır (1841). Domna sobalarında çuqunun əridilməsi prosesini və domna qazlarının tərkibini tədqiq etmişdir (1838 və 1845). "Qazometrik metodlar" (1857) əsərində təsvir etdiyi kimi qaz analizinin əsaslarını işləyib hazırlamışdır. B. müxtəlif metal duzlarının buxarları ilə boyanan alovun spektrlərini öyrənmiş (1854, Q.R. *Kirxhofla* birlikdə) və bununla spektral analizin başlanğıcını qoymuşdur (1859), onun vasitəsilə Kirxhofla birlikdə sezium (1860) və rubidium (1861) elementlərini kəşf etmişdir. Kimyəvi proseslərə işığın təsirini tədqiq etmiş (ingilis kimyaçısı H. Rosko ilə birlikdə ) və fotokimyəvi reaksiyanın məhsulunun miqdarı ilə reaksiya sisteminə düşən şüalanma enerjisinin miqdarı arasında asılılığı kəşf etmişdir (1862, Bunzen–Rosko qanunu). Yağ ləkəli fotometri (1843), qaz lampasını (1855), buz kalorimetrini (1870) ixtira etmiş, indiumun istilik tutumunu ölçmüşdür.

B.-in laboratoriyalarında E. *Franklend*, A. *Kolbe*, C. *Tindal*, A. *Bayer*, F.F. *Beylşteyn*, D.İ. *Mendeleyev*, V. *Meyer*, H. Rosko və b. təhsil almış və işləmişlər.

Əsəri: Gesammelte Abhandlungen. Lpz., 1904. Bd 1–3.

*Əd.*: Архангельский П.А. Р.Бунзен //Природа. 1937. №1; Patington J.R. A history of chemistry. L.; N.Y., 1964. Vol. 4. P. 281–293.

**BUOLKALÁX** – RF-də, Saxa (Yakutiya) Resp. ərazisində çay. Olenyok çayının sol qolu. Uz. 305 *km*, hövzəsinin sah. 8780 $km^2$. Şimali Sibir ovalığının c.-undakı bataqlıqlardan başlanır. Yağış və qar suları ilə qidalanır.

**BUONMETXUÓT** – Vyetnamda şəhər. Daklak əyalətinin (Cənubi Dağlıq Mərkəzin) inz. m. Əh. 340 min (2009). Ölkənin c. hissəsində, Daklak platosunun c.-q.-ində, Xoşimindən 350 *km* şm.-ş.-də və Kamboca ilə sərhəddən 50 *km* məsafədədir. Avtomobil yolları qovşağı. Aeroport. 1975 ilin martında *"Vyetnam müharibəsi"* sonunun əsas döyüşlərindən biri burada baş vermişdi. 1990-cı illərdə Vyetnam qəhvəsinə tələbatın artması və Daklak əyalətində qəhvə plantasiyalarının genişləndirilməsi B.-da əhalinin və iqtisadi fəallığın xeyli artmasına səbəb oldu.

Şəhərdə inqilab və etnoqrafiya muzeyləri fəaliyyət göstərir. B.-un mərkəzində C. Vyetnamın azad olunması şərəfinə abidə (postamentdə tank) qoyulmuşdur; digər hərbi memoriallar (keçmiş həbsxana, yeraltı yollar) var.

Plantasiya bitkiləri (qəhvə, heveya, ananas) becərilən rayonun mərkəzidir. Yeyinti sənayesi müəssisələri var.

B. ətrafında bir sıra su anbarı (o cümlədən Kronq çayında) yaradılmışdır. Şəhərdən c.-da Yok-Don milli parkı (tropik meşələr massivi, çay şəlalələri, özünəməxsus mədəniyyətləri olan dağlı tayfaların kəndləri) yerləşir.

Buonmetxuot şəhərindən görünüş.



**BUOTÁMA**, Botoma – RF-də, Saxa (Yakutiya) Resp. ərazisində çay. Lena çayının sağ qolu. Uz. 418 *km*, hövzəsinin sah. 12,6 min $km^2$. Aldan yaylasının şm. kənarı və Lenaboyu yüksəklik ilə axır. Yağış və qar suları ilə qidalanır. Mayda gursuludur. Ortaillik su sərfi təqr. 43 $m^3/san$. Oktyabr–noyabrdan aprelin axırı–mayın əvvəlinədək donmuş olur.



Buotama çayı.

**BUPÁTİ** – 1) orta əsrlərdə İndoneziyada racanın tabeliyində və ondan asılı olan ərazilərdə canişin. 2) Hollandların İndoneziyada ağalığı dövründə Yava və Madura adalarında müstəmləkə idarəsinin nümayəndəsi. 3) İndoneziya Resp.-nda inzibati rayonun (kabupaten) başçısı.

**BUR**, Pur – RF-də, Saxa (Yakutiya) Resp. ərazisində çay. Olenyok çayının sol qolu. Uz. 501 *km*, hövzəsinin sah. 13,9 min $km^2$. Şimali Sibir ovalığından axır. Qar suları ilə qidalanır. Əsas qolları: Arı-Onqorbut və Kıra-Xos-Teryuttyax.

**BUR DİLİ** – bax *Afrikaans*.

**BURÁ** (ər. بورق – ağ) – təbii boratlar sinfinə aid mineral – $Na_2[B_4O_5(OH)_4]\cdot 8H_2O$. Monoklin sinqoniyada kristallaşır. Kristalları qısa-prizmatik formadadır; gil süxurlarında çox vaxt dənəvər kütlələr, qabıqlar, linzalar və damarcıqlar əmələ gətirir. Rəngi bozumtul, yaxud yaşılımtıl çalarlı ağdır; bəzən rəngsizdir. Şüşə-yağ parıltılıdır. Sərtliyi 2–2,5; sıxlığı 1710–1720 $kq/m^3$. Kövrəkdir, suda həll olur. Duzlu göl sularının buxarlanmasından kimyəvi çökmə yolu ilə əmələ gəlir. İsti bulaqların, palçıq vulkanlarının çöküntülərində rast gəlinir. Bor filizlərinin əsas minerallarındandır. Ən böyük yataqları ABŞ-dadır (Ölüm Dərəsi, Boraks və Sörls gölləri).



Bura.

**BURAÇALU** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Şəbüstər bölgəsinin Şərəfxana kəndistanında, Şəbüstər qəs.-ndən 38 *km* c.-q.-dədir.

**BURAXILIŞ QABİLİYYƏTİ**, informatikada – 1) verilmiş vaxt ərzində hesablama sisteminin gördüyü işin həcmcə ölçüsü. Hesablama sisteminin zaman vahidi müddətində emal etdiyi tapşırıqların sayı; 2) zaman vahidi ərzində rabitə kanalı vasitəsilə ötürülən informasiyanın ən böyük miqdarı. Adətən *bayt/san* ilə ölçülür. Kanalın həqiqi B.q.-nin hesablanmış B.q.-nə nisbəti normalaşdırılmış B. q. adlanır.

**BURAXILIŞ ZOLAĞI**, tezliklərin buraxılış zolağı – tezliklər diapazonu; elektrik, akustik, radiotexniki və ya optik qurğuların çıxışındakı rəqslərin amplitudunun tezlikdən kifayət qədər zəif asılılığı siqnalın formasını təhrif etmədən, onun bu tezliklərdə ötürülməsini təmin edir. Bu diapazonda qurğuların çıxışındakı rəqslərin amplitudunun onların girişindəki rəqslərin amplituduna nisbəti müəyyən səviyyədən aşağı düşmür (adətən, maks. qiymətdən bir neçə *dB* az olur). Siqnalların yolverilən təhriflərlə ötürülməsi üçün B.z. telefon rabitəsində 300–3400 *Hs*, radio verilişləri sistemində 30 *Hs*-dən 15 *kHs*-ədək, TV videokanallarında 50 *Hs*-dən 6 *MHs*-ədək qəbul edilir.

**BÚRALAR**, pabirlər, babirlər (hərfi mənada – insanlar; kanuri və hausa dillərində baburlar), kvoceffalar, hüvelər, hüviyalar – Nigeriyanın şm.-ş.-ində xalq. Mandara dağlarında (Borno, Adamava ştatları) yaşayırlar. Sayları 300,0 min nəfərdir (2010). Mandaralar, teralar, margilər, batalar və b.-ları ilə qohumdurlar. *Çad dillərinin* biu-mandara qrupuna aid burapabir dilində danışırlar. Dağ (pela), düz və pabir dialektləri var. *Hausa* və *kanuri* dilləri də yayılmışdır. Dindarların 35%-i müsəlmanlar, 35%-i xristianlar, qalanları ənənəvi inancları saxlayanlardır.

Müstəmləkəyəqədərki dövrdə Biu əmirliyini yaratmışdılar. Ənənəvi mədəniyyətləri Qərbi Afrikanın Sudan yarımvilayətinin mədəniyyəti (bax *Afrika* məqaləsinə) üçün səciyyəvidir. Əsas məşğuliyyətləri terraslı əkinçilik (darı, araxis), maldarlıq, dəmirçilik və dulusçuluqdur. Məskənləri pərakəndədir. Dairəvi planlı evlərin hörmə divarları gillə suvanır, damları konusşəkillidir. Geyimləri tikilməmiş yubkadır. Üzün skarifikasiyası yayılmışdır. Yeməkləri, əsasən, bitki və

süddən hazırlanır. Nikah patrilokaldır. Qohumluğu ata xətti ilə hesablanan qəbilələr; böyük ailələr, gənclər assosiasiyaları (kişi və qadın ittifaqları) qalmaqdadır. Əcdadların kultu mövcuddur; ay, timsah və s. kultları da var. Musiqi alətlərindən ksilofon yayılmışdır.

**BURANQULOV** Məhəmmədşah Əbdürrəhmanoviç (27.12.1888, indiki Orenburq vil., Krasnoqvardeysk r-nunun Verxneilyasovo k. – 9.3.1966, Ufa) – başqırd şairi, dramaturq, folklorçu. Başqırdıstanın xalq seseni (1944). Başqırd Pedaqoji İn-tunda oxumuş, Ufadakı Dil və Ədəbiyyat ETİ-də işləmişdir (1938 ildən). 1950–56 illərdə repressiyaya məruz qalmış, həbsdə olmuşdur. 1959 ildə bəraət almışdır. Başqırd xalq rəvayətlərinin motivləri əsasında "Aşkadar", "Başqırd toyu", "Şəürə" və s. pyeslərin müəllifidir. Başqırd folklorşünaslığının inkişafında xidmətləri böyükdür (mahnıları, rəvayətləri, "Ural batır" xalq eposunu yazıya almışdır; toy mərasimlərinin və s. təsvirini vermişdir).

**BURAŞAN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Bərgəşli kəndistanında, Urmiya ş.-ndən 6,5 *km* şm.-ş.-dədir.

**BURATƏPƏ AŞIRIMI** – Azərb. Resp. (Gədəbəy r-nu) ilə Erm. Resp. (Vardenis r-nu) sərhədində, Şahdağ silsiləsində aşırım. Hünd. 2880 *m*-dir.

**BURAVAR** – Azərb. Resp. Cəlilabad r-nu ərazisində dağ. Burovar silsiləsinin c.-q. ətəklərində, Buravar k.-ndən 3 *km* şm.-ş.-dədir. Hünd. 916,8 *m*.

**BURAVAR** – Azərb. Resp. Cəlilabad r-nunun Ləkin ə.d.-ndə kənd. R-n mərkəzindən 28 *km* c.-q.-də, Burovar silsiləsinin c.-q. ətəyində, Buravar d.-ndan (916,8 *m*) 3 *km* c.-q.-dədir. Əh. 950 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BURBONLAR** (fr. Bourbons, isp. Borbones, ital. Borboni) – Fransa, İspaniya və digər Avropa dövlətlərində kral və hersoqlar sülaləsi. B. kral IX Lüdovikin kiçik oğlu, Klermon qrafı Müqəddəs Robertdən (1256–1317; onun xələfləri 1327 ildən hersoq titulu daşıyırdılar) başlayan Fransanın *Kapetinqlər* sülaləsinin qoludur. 1527 ildə I Fransiskə xəyanət etmiş konnetabl Şarl de Burbonun ölümündən sonra B.-ın böyük hersoq qolu kəsildi. De B. hersoq titulu Robertin kiçik nəvəsinin xələfi, Vandom hersoqu Şarla keçdi. Onun böyük oğlu Antuan (1518–62) 1555 ildə Navarra kralı oldu. Antuanın oğlu, 1572 ildən Navarra kralı, dini baxışlarına görə hugenot olan Henrix 1589 ildə *IV Henrix* adı ilə Fransa kralı elan olundu, lakin yalnız 1594 ildə katolikliyi qəbul etdikdən sonra Fransa taxtına çıxa bildi. Onun böyük qoluna aid birbaşa xələfləri Fransada 1792 ilədək (XIII Lüdovik, 1601–43, 1610 ildən kral; *XIV Lüdovik, XV Lüdovik, XVI Lüdovik*) və 1814–30 illərdə (*XVIII Lüdovik, X Karl*) hakimiyyətdə oldular. İyul inqilabı (1830) nəticəsində Fransa taxtı *Orleanlara* (bax *Lui Filipp*) – öz növbəsində 1848 il inqilabı zamanı devrilmiş B. sülaləsinin kiçik qoluna keçdi. X Karlın nəvəsi, 1873 ildə taxta çıxmaqdan imtina etmiş Şambor qrafı Henrixin ("V Henrix", 1820–83) ölümü ilə B.-ın böyük qolu kəsildi. Lui Filippin oğullarının çoxsaylı xələflərinin təmsil etdikləri Orlean qolu bu günədək qalmaqdadır. İspaniya Habsburqlarının sonuncu nümayəndəsi II Karl özünün bütün torpaqlarını qardaşı nəvəsi, XIV Lüdovikin ikinci nəvəsi, Anju hersoqu Filippə vəsiyyət etdikdən (1700) sonra B. İspaniya taxtında möhkəmləndilər. Bu hadisə *İspaniya irsi (1701–14)* uğrunda müharibəyə səbəb oldu. *Utrext sülhünə (1713)* görə Filipp (o cümlədən onun xələfləri) Fransa taxtına iddialarından imtina etmək şərtilə İspaniya kralı (bax *V Filipp*) kimi tanındı. B. İspaniya taxtına (1808–14 və 1868–74 illərdəki fasilələrlə) 1931 ilədək sahib oldular (I Luis, 1707–24, 1724 ildən kral; VI Ferdinand, 1713–59, 1746 ildən kral; III Karl, IV Karl, VII Ferdinand, II İzabella, XII Alfonso, XIII Alfonso) və 1975 ildə yenidən hakimiyyətə qayıtdılar (*Xuan I Karlos*). İspaniya B.-ının nəsli bir çox qola ayrılmışdır. V Filippin oğlu Filipp Burbondan (1720–65) B.-ın 1731–1803, 1848–59 illərdə Parma və Pyaçensa hersoqluqlarını idarə etmiş qolu ayrılır; onlar Napoleonun hökmranlığı dövründə (1801–03) "Etruriya kralları" titulunu daşıyırdılar. Parmalı Feliks Burbonun (1893–1970) oğlu Jan 1964–2000 illərdə Lüksemburqun böyük hersoqu idi. III Karlın oğlu Ferdinanddan (1751–1825) B.-ın Neapol qolu başladı. O, 1759 ildə Neapolda IV Ferdinand və Siciliyada III Ferdinand adı altında taxta çıxdı, 1816 ildən isə I Ferdinand adı ilə İki Siciliya Krallığının kralı oldu. Onun varisləri: II Ferdinand (1810–59; 1830–59 illərdə kral) və II Frans (1836–94; 1859–61 illərdə kral). Parma və Neapol B.-ı İtaliyanın inqilabi birləşdirilməsi gedişində hakimiyyətlərini itirdilər.

**BURCALAR ÇIXIŞI** – Azərb.-ın Yelizavetpol qəzasındakı Burcalar kəndlilərinin çar hakimiyyətinə və yerli zülmkarlara qarşı silahlı çıxışı. 1904 ildə dövlətə məxsus Qarabulaq k.-ndən 20 ailə mükəlləfiyyətlərin ağırlığına, kənd hakimlərinin özbaşınalıq və zorakılığına qarşı dözməyib dağlara çəkilmiş və Burcalar dərəsi adlanan yerdə eyniadlı kənd salmışdı. Başqa kəndlərin narazı əhalisi də Burcalara köçürdü. Burcalarlılar yerli hakimiyyəti tanımır, mükəlləfiyyətlərin icrasından boyun qaçırır, bəylərin və varlıların mülklərinə basqın edirdilər. 1905 ildə qəza rəisi Avalianinin başçılığı ilə burcalarlılara qarşı göndərilmiş cəza dəstəsi müvəffəqiyyətsizliyə uğradı. 1907 il yanvarın 18-də kazak dəstəsi Burcalar k.-nə soxuldu. Kəndlilər onları atəşə tutdular. Yanvarın 19-da isə nisbətən böyük kazak dəstəsi kəndə hücum etdi. Öz mövqelərini tərk etməyə məcbur olan burcalarlılar dağlara çəkildilər. Dəli Aslan Həsən oğlunun başçılıq etdiyi burcalarlıların mübarizəsi 1911 ilədək davam etmişdir.

**"BÚRDA-MEDİA"** ("Hubert Burda Media Holding GmbH & Co. KG") – alman mediaholdinqi. Əsası 1908 ildə Frans Burda tərəfindən qoyulmuşdur. Mənzil-qərargahı Offenburqda yerləşir. Sahibi Frans Burdanın nəvəsi prof. Hubert Burdadır (2013). Çalışanların sayı təqr. 10 min nəfərdir (2013). Ümumi satış həcmi 2, 617 mlrd. avro olmuşdur (2013). Bir sıra populyar nəşrlər, o cümlədən həftəlik "Fokus" ("Focus"), "Burda moden" jurnallar seriyasını və "Liza" ("Lisa"), "Bunte", "Haus" ("Das Haus"), "Froyndin" ("Freundin"), "Mayne familie und ix" ("Meine Familie & Ich"), "Mayn şöner qarten" ("Mein schöner Garten") jurnallarını buraxır. *"Aksel Şprinqer-ferlaq"* konserni səhmlərinin bir hissəsinin (1983 ildən) və bir sıra yerli alman radioşirkətinin sahibidir. AFR-in ən iri jurnal konsernləri beşliyinə daxildir.

**BURDÉL** (Bourdelle) Emil Antuan (30.10.1861, Montoban – 1.10.1929, Le-Vezine) – fransız heykəltəraşı. Tuluzada (1876–84), Parisdəki zərif sənətlər məktəbində (1884–86) oxumuşdur; 1893–1908 illərdə O. *Rodenin* emalatxanasında assistent işləmişdir. 1884 ildən Paris salonu sərgilərinin iştirakçısı olmuşdur. Roden impressionizmini qəbul etməyən B. monumentallığa və *incəsənətin sintezinə* can atmış, antik klassikaya və arxaikaya əsaslanaraq relyef sənətini dirçəlt-







Burdel. E. "General Alvear", tunc, 1913–23, Buenos-Ayres.

mişdir. "Ox atan Herakl" (tunc, 1909, Müasir Milli İncəsənət Muzeyi, Paris), gen. K.M. Alvearın tunc abidəsi (1913–23, Buenos-Ayres), "Fransa" heykəli (tunc, 1925, Paris), A. Mitskeviçin abidəsi (tunc, 1909–29, Paris), "Avtoportret" (maska, 1925), "Safo" (1924–25; hər ikisi Burdel muzeyi, Paris) və s. əsərlərin müəllifidir. Görkəmli ictimai xadimlərin çoxsaylı portretlərini (100-ə yaxın) yaratmışdır: L. van Bethoven (tunc, 1887–1929; 21 variant), A. Frans (tunc, 1919; hər ikisi Burdel muzeyi) və s. Arxaikləşən *neoklassisizm* ruhunda Yelisey Çölü Teatrının barelyeflərini hazırlamışdır (gips, 1912). B. həmçinin monumental rəngkar (Yelisey Çölü Teatrının freskaları, 1910–12) və qrafik (J. Klemanso və Q. Floberin kitablarına illüstrasiyalar) kimi də işləmişdir. Sənətkarın *neoidealizm* və *modern* üslublarına yaxın yaradıcılığında neoromantik və neoklassik tendensiyalar birləşmişdir. 19 əsrin sonu–20 əsrin əvvəllərinin ən görkəmli heykəltəraşı olan B.-in yaradıcılığı heykəltəraşlığın sonrakı inkişafına mühüm təsir göstərmişdir. Parisdə Qran-Şomyer studiyasında dərs demişdir (1909–1929). A. *Cakometti*, V.İ. *Muxina*, İ.D. *Şadr* B.-in tələbələri, A. Avqustinçiç, Y.V. *Vuçetiç*, A. *Breker*, İ. *Meştroviç* onun davamçıları olmuşlar.

**BURDÉNKO** Nikolay Nilovic (3.6.1876, Penza qub.-nın Nijni Lomov qəzasının Kamenka k. – 11.11.1946, Moskva) – Rusiya cərrahı, SSRİ EA akad. (1939), SSRİ Tibb EA akad. (1944) və ilk prezidenti (1944–46), tibb xidməti gen.-polk.-i (1944), Sosialist Əməyi Qəhrəmanı (1943), SSRİ Dövlət mükafatı laureatı (1941). Yuryev Un-tini bitirmişdir (1906).



1906–18 illərdə həmin un-tdə assistent, privat-dosent, cərrahiyyə klinikasının prof.-u işləmişdir. Birinci dünya müharibəsi illərində müxtəlif cəbhələrdə cərrah-məsləhətçi, Rusiya ordusunun hərbi-sanitariya müfəttişi olmuşdur. 1918–22 illərdə Voronej Un-tinin, 1923 ildən 1-ci MDU-nun cərrahiyyə prof.-u işləmişdir. Eyni zamanda (1929 ildən) Rentgen İn-tunun neyrocərrahiyyə klinikasının direktoru olmuşdur. Klinikanın bazasında 1934 ildə Mərkəzi Neyrocərrahiyyə in-tu (indiki Rusiya Tibb EA N.N.Burdenko ad. Elmi Tədqiqat Neyrocərrahiyyə İn-tu) yaradılmışdır. Böyük Vətən müharibəsi illərində sovet ordusunun baş cərrahı olmuşdur.

B. SSRİ-də neyrocərrahiyyənin banilərindən biridir. Beyin mayesi dövranının patologiyası, mərkəzi və vegetativ sinir sistemlərinin onkologiyası, beyin qan dövranının pozuntuları, beyin şişləri, kəllənin güllə yaralanmaları və b. sahələrdə novator tədqiqatları aparmışdır. Sinir sistemi xəstəliklərinin bir sıra cərrahi müalicə üsullarını, o cümlədən baş beynin yuxarı sagital sinus divarında travmatik qüsurun bağlanması (B. üsulu), bazu kələfinin zədələnməsində diafraqma siniri ilə əzələ-dəri, yaxud orta sinir arasında anastomozu, qara ciyər sirrozu zamanı əməliyyat və ağır anaerob infeksiyasında ətrafın təcili amputasiyasını (B. əməliyyatları) təklif etmişdir. Əsərləri mədə və onikibarmaq bağırsağın xorası xəstəliyinin nevrogen nəzəriyyəsinə aiddir. Cərrahların və neyrocərrahların elmi məktəbini yaratmışdır. 1948 ildə SSRİ Tibb EA neyrocərrahiyyə üzrə ən yaxşı elmi işlərə görə B. ad. mükafat təsis etmişdir.

Ə s ə r l ə r i: Собр. соч. М., 1950–1952. Т. 1–7.

**BURDİQÁL MƏRTƏBƏSİ** [Qədim Roma şəhəri Burdiqalanın (Fransada indiki Bordo ş.) adından] – Miosenin aşağıdan ikinci mərtəbəsi. 1892 ildə Fransanın c.-unda fransız geoloqu Ş. Depere müəyyən etmişdir. Səciyyəvi faunası molyusklardır: Cardium cingulatum Goldfuss., Pectunculus deshayesi Mayer və s. B.m. Avropada birinci Aralıq dənizi mərtəbəsinə müvafiqdir. Çöküntüləri Krım-Qafqaz sahəsində, Avstriya və Macarıstanda da var. Azərb.-da o, Üst Maykopun yuxarı hissəsinə müvafiq hesab edilir.

**BURDUK** – bütöv heyvan dərisindən düzəldilən tuluq. Avrasiyanın maldar və əkinçi (xüsusilə şərabçılıqla məşğul olan) xalqlarının əksəriyyəti B.-u maye saxlamaq və daşımaq, spirtli içkilər və ağartı məhsulları (şərab, qatıq, qımız) hazırlamaq üçün işlədirdilər; hava ilə doldurulmuş B.-dan çayı keçmək üçün istifadə olunurdu. B.-dan ibarət olan hava rezervuarı tuluq zurnasının konstruksiyasına daxildir.

**BURDUR** – Türkiyənin Ağ dəniz (Aralıq dənizi) bölgəsində il. Sah. 6,9 min $km^2$. Əh. 257,2 min (2013). İnz. m. Burdur ş.-dir. B., əsasən, dağlıq ərazidə yerləşir (hünd. 2328 *m*). Zəngin xrom yataqları var. Aralıq dənizi iqlimi səciyyəvidir. Yayı isti (24°C), qışı soyuqdur (1,6°C). Yağıntının illik miqdarı 500 *mm*-ədəkdir. Mühüm çayı Eren, ən böyük gölü Burdurdur. Karst mənşəli kiçik göllər də var.

Əkinçilik (əsasən, taxıl) və heyvandarlıq (davarçılıq) inkişaf etmişdir. Şəkər çuğunduru, tütün, cirə, yerfıstığı, üzüm və qızılgül də becərilir. Sənayesini k.t. maşınqayırması (traktor), yeyinti (şəkər, ət, süd kombinatları, un f-kləri) müəssisələri təşkil edir; kustar sənətkarlıq (xalçaçılıq, dəriçilik, misgərlik) inkişaf etmişdir.

**BURDUR** – Türkiyənin c.-q.-ində şəhər. Burdur ilinin inz. m. Əh. 74,7 min (2013). Burdur gölündən 4 *km* ş.-də yerləşir. Avtomobil yolları qovşağı.

"B." adını orta əsrlərdə bu yerə verilən Polidorion adı ilə bağlayırlar. 11–12 əsrlərdə B. səlcuqilərin tabeliyində olmuşdur. 14 əsrin əvvəllərində şəhər idarəçiliyi Həmidoğullarının əlində idi. 14 əsrin sonlarında Osmanlı torpaqlarına qatılan B. Həmid (İsparta) sancağında qəza, sonra isə Konya vil.-nin sancağı olmuşdur. Türkiyə Cümhuriyyəti yarandıqdan sonra eyniadlı ilin mərkəzidir.

Şəhər fəal seysmik zonada yerləşdiyindən tez-tez dağıntılara məruz qalmışdır. Həmidoğulları və Osmanlı dövrləri tikililərinin çoxu ilkin görkəmini itirmiş, dəfələrlə yenidən inşa edilmişdir. Bunlardan ən əhəmiyyətlisi Həmidoğullarından Dündar bəyin inşa etdirdiyi Böyük came-



Burdur gölü.

dir (1299/1300; 1749 ildə yenidən qurulmuş, 1914 və 1971 illərdə bərpa işləri aparılmışdır). Daş (və ya Daşdəmir) camesi (1782), Tilurizadə Hacı Süleymanın tikdirdiyi Divanbaba camesi (1775), Çalik Mehmed Paşa tərəfindən inşa etdirilən mədrəsə ilə birlikdə Şeyx Sənan camesi (1776), Hecin camesi (1875), Hıdırlık türbəsi (14–15 əsrlər), Səlimoğlu türbəsi (1889), şəhərin ən qədim Baltaoğlu hamamı (inşa ili məlum deyildir), Tabak hamamı (1523), Əskiyeni hamamı (1803) B.-un memarlıq abidələrindəndir. Qonaq evi olaraq inşa edilmiş Böyük oda və Daş odanın (18 əsr) dağıntıları qalmışdır.

B. hazırda fəaliyyət göstərməyən tarixi kitabxanaları ilə də məşhurdur: Həmidoğulları dönəminə aid Anadoludakı Müzəffəriyyə mədrəsəsi kitabxanası, Əsəd əfəndi kitabxanası (1808), Pirquluzadə kitabxanası (1823).

B.-da sənətkarlıq (toxuculuq, misgərlik) inkişaf etmişdir. Dəri, xalça, gül yağı istehsal edilir; şəkər z-du var.

**BURDYÉ** (Bourdieu) Pyer (1.8.1930, Atlantika Pireneyləri, Dangen – 23.1. 2002, Paris) – fransız sosioloqu. Ali Normal Məktəbi (1954) bitirmişdir. 1955–64 illərdə Mulen, Paris, Lill təhsil müəssisələrində fəlsəfədən dərs demiş, 1964–2001 illərdə Sosial Elmlər Ali Məktəbinin (Paris) prof.-ru, 1982 – 2001 illərdə Kollej de Fransın sosiologiya kafedrasının müdiri, 1985–98 illərdə Parisdə Avropa Sosiologiya Mərkəzinin direktoru, 1975 ildən "Actes de la recherche en sciences sociales" jurnalının baş redaktoru, 1998 ildən "Liber-Raisons d'agir" nəşriyyatının rəhbəri olmuşdur.

Burdur şəhərindən görünüş.



B. əsas sosioloji ziddiyyətin – sosial struktur ilə sosial hərəkət arasındakı uçurumun aradan qaldırılmasının variantını təklif etmişdir. Onun "genetik strukturalizm" konsepsiyası obyektivist (E. *Dürkheym,* K. *Marks* və *strukturalizm*) və subyektivist (M. *Veber fenomenologiya* və etnometodologiya) metodologiyalarının sintezinə cəhddir: "strukturlaşdırıcı struktur" B.-yə görə, habitus obyektiv strukturları, subyektiv intensiyaları (niyyətləri) və hərəkətləri birləşdirir. Sosial məkan, sahə, kapital və habitus B. konsepsiyasının əsas anlayışlarıdır. B-yə görə, sosial gerçəklik həm obyektiv – müxtəlif növ resursların bölüşdürülməsində obyektivləşdirilmiş sosial münasibətlərlə, həm də subyektiv – sosial münasibətlərə əks, fəal təsir göstərən sosial təsəvvürlər və yerdəyişmələrlə (dispozisiyalarla) strukturlaşdırılmışdır. B.-yə əsasən, sosial məkan çoxlu nisbətən muxtar yarımməkanlardan – "sahələrdən" ibarət olur. Sahəni oyunun strukturları, yerdəyişmələri, qaydaları və istinadları müəyyən edir. Hər bir sahə predmetləşmiş forması "kapital" adlanan öz sosial münasibətlər tipi ilə qurulur. Kapital onun özünə müvafiq sosial oyunun başlıca məqsədi və vasitəsi kimi çıxış edən hökmranlıq strukturudur. B. kapitalı üç əsas növə ayırmışdır: iqtisadi, mədəni, sosial. Müxtəlif vaxtlarda onun tədqiqat obyekti təhsil, ədəbiyyat, iqtisadiyyat, bürokratiya sahələri olmuşdur. B.-nin ideyaları E. *Giddensə,* sosiologiyada "tənqidi realizm" (ingilis alimləri R. Bhaskar, Marqaret Arçer və b.) və "praktiki dönüş" nəzəriyyəçilərinə [Karin D. Knorr-Setina, T.R. Şatski (ABŞ) və b.], tarixçilərə (R. Darnton, ABŞ; E. Hobsbaum, B. Britaniya; R. Şartye, Fransa) təsir göstərmişdir.

Ə s ə r l ə r i: Социология политики. М.,1993; Les structures sociales de l´économie. P., 2000; Политическая онтология М. Хайдеггера. М., 2003; Исторический генезис чистой эстетики // Новое литературное обозрение. 2003. № 60.

*Əd.*: Ш м а т к о Н.А. "Габитус" в структуре социологической теории // Журнал социологии и социальной антропологии. 1998. Т. 1. № 2; Г р о н а с М. "Чистый взгляд" и взгляд практика: П. Бурдье о культуре // Новое литературное обозрение. 2000. № 45; Социоанализ П. Бурдье. М.; СПб., 2001.





**BUREYÁ** – RF-nin Xabarovsk diyarı və Amur vil.-ndə çay. Amur çayının sol qolu. Sağ B. (Ezop silsiləsinin c. yamaclarından başlanır) və Sol B. (Dusse-Alin silsiləsinin q. yamaclarından başlanır) çaylarının qovuşmasından əmələ gəlir. Uz. 623 *km* (Sağ B.-nın başlanğıcından 739 *km*), hövzəsinin sah. 70,7 *km*$^2$. Yuxarı axınında dağ çayıdır (axın sürəti 3–4 *m/san*). Orta axınında Turan silsiləsinin qollarını kəsir və dar dərə ilə axır. Aşağı axınında Zeya-Bureya düzənliyinə çıxır, dərəsi 10 *km*-ədək genişlənir. Əsasən, yağış suları ilə qidalanır. Yayda 5–7 dəfə daşqın olur. Daşqın zamanı suyun səviyyəsi bəzən 6–10 *m*-ə çatır. Ortaillik su sərfi Kamenka k. yaxınlığında 913 *m*$^3$*/san*-dir. Oktyabrın axırı–noyabrın ortalarından aprelin axırı–mayın əvvəlinədək buzla örtülü olur. Əsas qolları: sağdan Niman, Tuyun, soldan Uqral, Tırma. Ağac axıdılır. Mənsəbindən 197 *km* məsafədə gəmiçiliyə yararlıdır. Ümumi sah. 51,6 *km*$^2$ olan 1,5 mindən çox göl B. hövzəsindədir. Üzərində SES və gəmi dayanacaqları (Çekunda, Malinovka və s.) var.

**BURÉYA DAŞ KÖMÜR HÖVZƏSİ** – RF-nin Xabarovsk diyarında, Bureya çayı hövzəsindədir. Sah. 6 min *km*$^2$, ehtiyatı 10,9 mlrd. *t*-dur. Yura və Tabaşir çöküntülərində yerləşir. 1844 ildə kəşf olunmuş, 1939 ildən yeraltı, nisbətən açıq üsulla istismar edilir. Hasilat mərkəzləri: Urqal, Ust-Umalta və s.

**BUREYÁ DÖVLƏT TƏBİƏT QORUĞU** – RF-də, Xabarovsk diyarının Yuxarı Bureya r-nu ərazisindədir. Sah. 3584 *km*$^2$. 1987 ildə təşkil olunmuşdur. Bureya çayının (Sağ və Sol Bureya) mənbəyində, Bureya silsiləsi sistemindədir. Bitkilərin şaquli zonallığı aydın nəzərə çarpır. Çay dərələrini qovaq, dağ yamaclarını qaraşam və küknar meşələri tutur. Yuxarılarda qalın sərili sidr cəngəllikləri, Alp tipli dağ tundrası geniş yayılmışdır. Florasında 480 növ nadir və relikt bitkilər var. Faunası qonur ayı, Sibir porsuğu, samur, sığın, şimal maralı, kabarqa, Sibir xoruzu, qarabağır və s.-dir. Şahin, qızılquş, çay qaranquşu, dəniz qartalı RF-nin Qırmızı kitabına daxil edilmişdir.

**BUREYÁ SİLSİLƏSİ** – RF-də, Uzaq Şərqin c.-unda, Xabarovsk diyarında silsilə. Meridian istiqamətində Bureya çayının mənbəyindən c.-a doğru Tırma çayının yuxarı axınınadək 400 *km* məsafədə uzanır. Urmi, Amqun və Bureya çaylarının suayırıcısıdır. Hünd. 2167 *m*. Qranit, qneys, çökmə və effuziv süxurlardan



Bureya çayı.

təşkil olunmuş ayrı-ayrı alçaq silsilə və dağ massivlərindən ibarətdir. Kiçik Xinqan silsiləsi (Çində) B.s.-nin davamıdır. Çoxillik donuşluq sahələri yayılmışdır. Yamaclarında iynəyarpaqlı və enliyarpaqlı tayqa meşələri var, bataqlıqlara rast gəlinir. Kömür yataqları (*Bureya daş kömür hövzəsi*) məlumdur. B.s.-nin şm. yamacında *Bureya Dövlət Təbiət Qoruğu* yaradılmışdır. Baykal-Amur magistralı B.s.-ndən keçir.

**BURGƏHİM** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Şahrud bölgəsinin Xuruşrüstəm kəndistanında, Həşcin qəs.-ndən 14 *km* şm.-da, Xalxal–Miyanə avtomobil yolunun 12 *km*-liyindədir.

**BURGİBA** Həbib (3.8.1903, Monastir – 6.4.2000, Monastir) – Tunis siyasi və dövlət xadimi. 1924–27 illərdə Sorbonna Un-tinin hüquq fakültəsində və Siyasi Elmlər Ali Məktəbində (Paris) təhsil almışdır. 1934 ildə "Düstur" ("Konstitusiya") partiyasının radikal qanadı əsasında Tunisdəki müstəmləkəçiliyə qarşı mübarizədə aparıcı rol oynamış "Yeni düstur" (1964 ilin oktyabrından Sosialist düstur partiyası, 1988 ilin fevralından *Demokratik konstitusiya birliyi*) partiyasını təsis etmişdir. Dəfələrlə (1934–36, 1938–42, 1952–55) həbs olunmuşdur. Tu-

Bureya Dövlət Təbiət Qoruğu.



nisin müstəqilliyi elan edildikdən sonra Tunis hökumətinin başçısı olmuş (1956–69), monarxiya devrildikdən (1957) sonra Tunis Resp.-nın prezidenti seçilmişdir.

B. planlı şəkildə Tunis iqtisadiyyatını modernləşdirmiş, Avropa hüquq institutlarını tətbiq etmiş, çoxarvadlılığı qadağan etmişdir. 1960-cı illərdə iqtisadiyyatı dövlətin nəzarətinə keçirmiş, iri sosial proqramları həyata keçirməyə başlamışdır. İslahatların gedişi ilə əlaqədar uğursuzluqlar onu 1970-ci illərin əvvəllərində liberal iqtisadi siyasətə qayıtmağa məcbur etmişdi. Fransa və ABŞ ilə sıx münasibətlər saxlamışdır; onun hakimiyyəti illərində Tunis *Yaxın Şərq münaqişəsində* mötədil mövqe tutmuşdur.

1975 ildə Tunis parlamenti B.-nı ömürlük prezident elan etdi. Yaşa dolmuş B.-nın impulsiv qərarları hakim dairələrdə narazılığa səbəb oldu və 1987 ilin noyabrında o, *Ben Əli* tərəfindən hakimiyyətdən uzaqlaşdırıldı.

**BURĞU** – sərt materialda (metal, ağac, plastik kütlə və s.) burğulamaqla deşik açan, həmçinin açılmış deşikləri genişləndirən milşəkilli kəsici alət. İşlək hissə və quyruqdan ibarətdir. İşlək hissə bilavasitə kəsmə prosesini həyata keçirən kəsici haşiyələrdən (kənarlardan) və açılan deşiklərdən yonqarları kənar edən yönəldici elementlərdən ibarətdir. Quyruq drelin, matqabın patronuna və s.-ə, yaxud B. dəzgahının şpindelinə B.-nu bərkitmək, həmçinin işlək hissənin fırlanma momentini ötürmək üçündür. Konstruksiyası və təyinatına görə B.-lar vintvarı (spiralvarı), yönəldici mərkəzli və mərkəzsiz, birtərəfli və ikitərəfli kəsən və s. olur. Ən geniş yayılmış vintvarı B.-lar həm metal,

**Burğu növləri:** *a* – qaşıqvarı; *b* – mərkəzli; *c* – ilbizşəkilli; *ç* – konusşəkilli kəsicili vintvarı; *d* – burma vintvarı; *e* – şnekli vintvarı.




həm də ağac emalında tətbiq edilir. Standart vintvarı B.-ların diametri 0,25–100 *mm*-dir. Ağac emalında qaşıqvarı, ilbizşəkilli (əsasən, sadə deşiklərin genişləndirilməsi üçün), mərkəzli (dərin olmayan dəqiq deşiklərin açılması üçün), mərkəzsiz (əsasən, yuvaların oyulması üçün), zenkerli (vint başlıqlarının altındakı konusvarı oyuqların açılması üçün) və s. B.-lar da işlədilir. Ağac materiallarda (tir, şpal, brus) deşiklərin əl ilə burğulanması üçün *matqabdan* istifadə olunur.

**BURĞU DƏZGAHI** – deşiklərin burğulama və s. üsullarla emalı (burğu ilə genəltmə, içyonma, zenkerləmə, rayberləmə və s.), yivaçma və digər əməliyyatlar üçün dəzgah. B.d. bir- və çoxşpindelli olur. Metal emalında şpindelinin vəziyyəti dəyişməyən şaquli və üfüqi B.d.-ları və şpindelin yerdəyişməsinə, bəzən də əyilməsinə imkan verən radial burğu dəzgahları; dərin burğulama üçün üfüqi burğu dəzgahları; xüsusi növ (stolüstü burğu, mərkəzləmə və s.) dəzgahlar tətbiq edilir. Ağac emalında, əsasən, çoxşpindelli üfüqi B.d.-ları, üfüqi və şaquli yerləşdirilə bilən dönən şpindelli dəzgahlar geniş yayılmışdır.

**BURĞU QAYDASI** – elektrik cərəyanının yaratdığı maqnit sahəsi intensivliyinin istiqamətini təyin edən qayda: sağ yivli burğunun irəliləmə hərəkəti naqildən axan cərəyanın (*İ*) istiqamətindədirsə, burğu dəstəyinin fırlanma istiqaməti maqnit sahəsi intensivliyinin (*H*) istiqaməti ilə üst-üstə düşür.




**BURHÁN-BUDDÁ** – Çində, *Kunlun* dağ sistemində silsilə. Saydam çuxurunun c.-ş. kənarını hüdudlayır. Uz. təqr. 320 *km*; hünd. 5000 *m*-dən çoxdur; bəzi zirvələri qar və buzlaqlarla örtülüdür. Qranit, siyenit, qneys, gil şistləri və qumdaşılardan ibarətdir. Dərələrlə, o cümlədən Nomhon-Qol çayının dərəsi ilə kəsilmişdir. Yüksəkdağlıq səhra bitkiləri üstünlük təşkil edir. Heyvanlardan vəhşi yak, dağ qoyunu, maral və s. səciyyəvidir. Yamaclarının aşağı hissəsində köçəri maldarlıq var.

**BURHANPÚR**, B a r h a n p u r – Hindistanın q.-ində, Madhya-Pradeş ştatında şəhər. Əh. 210,9 min (2011). Tapti çayı sahilindədir. Pambıq ticarəti mərkəzidir. Pambıq parça sənayesi, kustar üsulla zərxara və muslin istehsalı inkişaf etmişdir.

**BÚRHİ-QÁNDAK** – Nepal və Hindistanda çay. Qanq çayının sol qolu. Uz. 500 *km*-dən çoxdur. Mahabharat silsiləsindən (Himalay d-rı sistemi) başlanır; dağlıqdan çıxdıqdan sonra Qanq ovalığında şaxələnmiş dolanbac dərə ilə axır. Ən sulu qolu Baqhmati çayıdır. Yay musson yağışları dövründə gursuludur. Suvarmada istifadə olunur.

**BURXOTUY MƏDƏNİYYƏTİ** – Şərqi Baykalarxası diyarda (İnqoda, Onon, Şilka, Arqun çayları hövzələri) aşkar edilmiş arxeoloji mədəniyyət. Hunnu və monqol dövrləri arasındakı mərhələyə (1-ci minillik – 2-ci minilliyin əvvəlləri) aid edilir. 1960 ildə A.P. *Okladnikov* tərəfindən Onon çayı sahilində yerləşən Burxotuy mərzindəki məzarlığın əsasında müəyyənləşdirilmişdir. Fərdi quyu qəbirlərdə ölüləri arxası üstündə, başı qərb istiqamətində dəfn edirdilər (dəfn avadanlığı, adətən, genağızlı qabdan, kamandan və sümük ox ucluqlarından ibarətdir). Qəbirlər hünd. 0,5 *m*-ədək olan yastı daşlarla örtülürdü. Mərkəzində ocağı yerləşən 70-ə yaxın kvadratşəkilli yarımqazmaları olan çoxsaylı şəhər yerləri aşkar edilmişdir. Təsərrüfatın əsasını əkinçilik, maldarlıq, ovçuluq, metallurgiya təşkil etmişdir. Qayaüstü rəsmlər məlumdur. B.m. bir sıra cəhətdən *moxelər* mədəniyyətinə yaxındır; Çin mənbələrində qeyd olunan şiveylərlə eyniləşdirilir.

Burxotuy mədəniyyəti.
Qəbirlərdən aşkar olunmuş əşyalar.







**BÚRİAN** Emil Frantişek (11.6.1904, Plzen – 9.8.1959, Praqa) – rejissor, bəstəkar, yazıçı, dramaturq. Çexoslovakiyanın xalq artisti (1954). Ən görkəmli çex rej.-larından biridir. 1926–29 illərdə bir çox avanqardist teatr truppalarında (o cümlədən Y. *Honzl* və Y. *Freykanın* yanında) aktyor, musiqiçi və bəstəkar kimi fəaliyyət göstərmişdir. 1927 ildə Praqa konservatoriyası nəzdində kompozisiya sinfi üzrə emalatxananı bitirmişdir. Operaların, baletin, simfoniyaların, kinofilmlərə musiqinin, kamera-instrumental və s. əsərlərin müəllifidir. 1929 ildə dram teatrında rej.-luq fəaliyyətinə başlamışdır. 1933 ildə Praqada "D-34" teatrını yaratmış, orada rej., bəstəkar, dramaturq və səhnələşdirmələr müəllifi kimi çıxış etmişdir. Səhnənin arxasında və səhnə boyu çəkilmiş şəffaf parça üzərində diapozitivlərin və kinoplyonkaların eyni vaxtda, yaxud ardıcıl nümayişini təmin edən teatroqrafı icad etmişdir. B.-ın quruluş verdiyi tamaşalar arasında M. Qorkinin "Yeqor Bulıçov və başqaları" (1934), N.F. Poqodinin "Aristokratlar" (1935), P. Bomarşenin "Sevilya bərbəri" (1936) və s. var. B. "Müharibə" (1935), "Xalq süitası" (1938) və s. pyeslərin müəllifi və rej.-u olmuşdur. Faşist işğalı illərində həbs düşərgəsinə salınmışdır (1941–45). Azad edildikdən sonra öz teatrının fəaliyyətini bərpa etmişdir ("Həyatın dibində", M. Qorki, 1951; "Taxtabiti", V.V. Mayakovski, 1956; Y. Qaşek, B. Brext və b. əsərləri). "Vera Lukaşova" (1939), "Həyat təşnəsi" (1950) və s. kinofilmlərin rej.-u olmuşdur. Teatr və musiqiyə dair məqalələrin müəllifidir.



Burhan-Budda dağ silsiləsi.

**BURİDÁN** (Buridanus) Jan (təqr. 1295, Fransa, Betün, – təqr. 1358, Paris) – orta əsrlər məntiqçisi və filosofu. Paris Un-tində dərs demiş, 1328 və 1340 illərdə onun rektoru olmuşdur. Aristotelin əsərlərinə şərhlərin və "suallar"ın, həmçinin məntiqə dair traktatların müəllifidir. Məntiqi tədqiqatlarda və naturfəlsəfədə U. Okkamın məntiq və idrak nəzəriyyəsi prinsiplərinə əsaslanmışdır. B. elmi bilik anlayışının elə geniş tərifini vermişdir ki, təcrübi təbiətşünaslıq da buraya daxil olmuşdur. Elmin Aristotel tərəfindən aydın, zəruri və isbat olunmayan mühakimələr əsasında əldə edilmiş bilik kimi tərifini qəbul edərək, B. məntiqi cəhətdən zəruri olan mühakimələri təcrübi müddəalara əsaslanan və şərti mənada zəruri mühakimələrdən fərqləndirmişdir. Bununla o, sxolastikada qəbul olunmuş fizika prinsiplərinin metafizika ilə müəyyənləşdirilməsi müddəasından imtina etmişdir. İnsan davranışlarında iradə və zəkanın əlaqəsinə dair B. təlimi mötədil əxlaqi determinizmlə səciyyələnir. İnsan öz ağlının ən üstün bildiyi neməti istəyir. Bir-birinə bərabər nemətlər arasında seçim mümkün deyil: məşhur "Buridan uzunqulağı" iki eyni ot tayası arasında qalıb ölür, çünki seçim üçün heç bir əsas yoxdur. Aristotelin impetus (lat. ani şiddət) nəzəriyyəsi kimi məlum olan hərəkət haqqında təliminin orta əsr modifikasiyası B.-a məxsusdur.

Ə s ə r l ə r i: Quaestiones in praedi camenta. Münch., 1983; Logic /Translated by P. C. King. Camb., 1986.

*Əd.:* H u g h e s G.E. J. Buridan on self-reference. Camb., 1982; Г а й д е н к о В.П., С м и р н о в Г.А. Западноевропейская наука в средние века. М., 1989.

**BURİSTAN** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Səncid bölgəsinin Gəncgah kəndistanında, Givi qəs.-ndən 22 *km* c.-q.-də, Miyanə–Xalxal avtomobil yolunun üstündədir.

**BURİŞ DİLİ**, b u r u ş a s k i – *burişlərin* (kuncutların, verşiklərin) dili. Qaraqorumda (Hindistan y-a-nın şm-lı) yayılmışdır. B.d.-də danışanların dəqiq sayı məlum deyil: 1999 ilin məlumatına görə 190 min nəfər, 2000 ilin məlumatına görə 87 min nəfərdir.

B.d. genetik cəhətdən təcrid olunmuş dildir. 2 dialektə ayrılır – buruşaski və verşik (verşikvar). Fonetikası üçün nisbətən mürəkkəb *konsonantizm* səciyyəvi-

Burhi-Qandak çayı. Nepal.





Buriş uşaqları. Gilgit vilayəti.

dir. İsimlərin 4 semantik sinfi (kişilər, qadınlar, heyvanlar və bəzi əşyalar, qalan əşya və anlayışlar); sayların tək və cəm halı; 2 hal (vasitəsiz və vasitəli-erqativ) və qoşmaları mövcuddur; postpozitiv qeyri-müəyyən artikl işlədilir. İyirmilik say sistemi var. Feil sistemində şəxsin, subyekt və obyektin say və sinfinin ifadəsi üçün prefiks-suffiksdən istifadə, sintaksisi üçün cümlənin erqativ konstruksiyası (bax: *Erqativ quruluş*) səciyyəvidir. Yazısı yoxdur.

**BURİŞLƏR**, burişklər, buruşolar, buruşasklar, verşiklər, kuncutlar – Kəşmirin Pakistanın nəzarətində olan şm. ərazilərində (Gilgit r-nu) yaşayan xalq. Xunza, Naqar, Yasin və Gilgit dağlıq vil.-lərində məskunlaşmışlar. B.-in bir qismi şəhərlərdə (Gilgit və s.) yaşayır. Sayları 78 min nəfərdir (2005). Təcrid olunmuş *buruşaski* dilində danışırlar, urdu dili də yayılmışdır (əsasən, qadınlar arasında). Dindarları müsəlmandır.

Linqvistik məlumatlara görə, B.-in əcdadları Pamir daxil olmaqla daha geniş ərazilərdə yaşayırdılar. Əsas məşğuliyyətləri terraslı əkinçilik (mürəkkəb suvarma sistemi inkişaf etmişdir) və köçəbə maldarlıqdır; meyvə (xüsusilə ərik) becərilməsi yayılmışdır, ovçuluq (əsasən, dağ keçisi) qalmaqdadır. Ənənəvi mədəniyyətləri bir çox cəhətdən *Pamir xalqlarına* yaxındır: böyük ailə üçün ocağı olan daş evlər, əmək alətləri, məişət əşyaları, geyimləri, yeməkləri (məs., çaya süd və duz qatılması), mərasimləri. İslamaqədərki inanclar (Yer ilahəsinin, Heyvanların ağasının kultları və s.), şamanizm qalmaqdadır, gələcəkdən xəbər verən qadınlar da var. Folklorları zəngindir.

**BURJ** (Bourges) – Fransanın mərkəzi hissəsində şəhər. Şer dep-tinin inz. m. Əh. 66,4 min (2010). Oron və Eren çaylarının qovuşduğu yerdə yerləşir. Berri kanalında (Luara çayı ilə əlaqələnir) gəmi dayanacağı.

E.ə. 7 əsrdə indiki B.-un yerində kelt yaşayış məskəni yerləşirdi; eramızın 1 əsrində Avarik (Avaricum) adı ilə tanınan bu məskən qall tayfası bituriqlərin mərkəzi olmuş, 52 ildə Yuli Sezar tərəfindən işğal edilmişdir. 297 ildən Birinci Akvitaniya əyalətinin mərkəzi idi. Orta əsrlərdə Berri hersoqluğunun əsas şəhəri olmuşdur. 14–15 əsrlərdə *Baş ştatlar* dəfələrlə burada toplanmışdı.

Şəhərin mərkəzi qall-Roma məskəninin (4 əsrə aid divar qalıqları) müntəzəm planlı quruluşunu saxlayır. Sent-Etyenn kilsəsi (1198 – təqr. 1280; möhtəşəm 5-nefli transeptsiz bazilika; 13 əsrin əvvəllərinə aid klipta; qərb fasadının Məhşər günü və müq. Etyennin həyatından səhnələri əks etdirən 5 portalı, 1230–80; xor və deambulatorinin vitrajları, 13 əsr) *Ümumdünya irsi* siyahısına daxil edilmişdir. 13–16 əsrlərə aid kilsələr də var. Mülki memarlıq abidələri: alovlanan qotika üslubunda fasadı olan tacir Jak Körün evi, 1443–51; Pelvuazen sarayı (15 əsr); Ağ kraliçanın evi (16 əsr) və s. Mare bağları (19 əsr) və Pre-Fişo (1920–30) ardeko üslubunda bağ-parksalma sənətinin nadir nümunəsidir.

Beynəlxalq Musiqi Elektroakustikası Akademiyası (1970), Orlean Un-tinin Texnologiya in-tu; Berri (1892 ildə yaradılmışdır; 16 əsrə aid binada yerləşir; qall-Roma dövrünün, orta əsrlərin artefaktları, xalq sənəti), təbiyyat tarixi (1927), dekorativ sənət (1951 ildə yaradılmışdır; Lalman hotelinin binasında yerləşir, 16 əsrin əvvəlləri; 15–18 əsrlərə aid mebel, xalçalar, boyakarlıq əsərləri) muzeyləri. 20 əsr rəssamı M.Estevin muzeyi (15 əsrin sonu, 17 əsr ratuşa binasında), sənətlər muzeyi (arxiyepiskop sarayının binasında, 1680) və s.; "Jak Kör" teatrı fəaliyyət göstərir.

Avia- və raketqayırma, hərbi, şin ("Mişlen" şirkətinin z-du), ağac emalı, yeyinti sənayesi müəssisələri var.

**BURJUAZİYA** (fr. bourgeoisie, son lat. burgus – möhkəmləndirilmiş şəhər) – *kapital* sahibi olan və sahibkarlıq fəaliyyəti göstərən ictimai sinif. B.-nın ayrı-ayrı qruplarını fərqləndirməyin müxtəlif üsulları mövcuddur: mülkiyyət ölçüsünə görə (xırda, orta, iri); təsərrüfat fəaliyyəti sferasına görə (aqrar, sənaye, ticarət, maliyyə); inkişaf mərhələlərinə görə (kustar, manufaktura, sənaye, inhisarçı); formalaşma xüsusiyyətlərinə görə (müstəmləkə, bürokratik və s.). İri B. və bir qayda olaraq, orta B. muzdlu əməkdən istifadə edir, xırda B. isə onu məhdud şəkildə tətbiq edir, ya da heç etmir.

Qərbi Avropada B. orta əsrlərdə yaranmağa başlamışdır. O zamanlar sənətkarlar, tacirlər, baqqallar, sələmçilər və s.-dən ibarət şəhər əhalisi (*bürgerlər*) feodal cəmiyyətinin üzvi hissəsi kimi və spesifik silki əlamətlərə malik olaraq, öz sosial funksiyalarının sərt sərhədlərini aradan qaldırmağa, müstəqil inkişafları üçün zəruri şərtləri formalaşdırmağa çalışırdılar. Bazarı dar orta əsr qayda-qanunlarından azad etmək, natural təsərrüfatı əmtəə ilə dağıtmaq başlıca şərt idi. İstehsalı və ticarət fəaliyyətini məhdudiyyətlərdən azad etmək cəhdi bürgerlərlə imtiyazlı təbəqələr arasında qarşıdurmanı labüdləşdirirdi.

Artıq orta əsrlərdə bürgerlər arasında təbəqələşmə meyilləri aşkara çıxırdı. Bürgerlərin yuxarı təbəqəsi hətta bəzən siyasi üstünlüyə nail olurdu (məs., Venesiya respublikasında). Lakin tacir patrisilərin öz siyasi ideologiyası yox idi və onlar feodal hakimlərinin idarəetmə prinsiplərini və davranış stereotiplərini yamsılamaqla oliqarxiya institutuna çevrildi. Avropa bürgerləri öz korporativ hüquq və azadlıqları uğrunda mübarizə aparmaqla, knyazların və aristokratiyanın özbaşınalığına qarşı çıxmaqla heç də mövcud quruluşun təməlinə qəsd etmirdilər. Nəinki bürgerlər elitasının (Şm. İtaliyada Mediçilər, Cənubi Almaniyada Fuggerlər və Velzerlər), bütün təbəqənin şüuru orta əsrlər səviyyəsində qalmaqda davam edirdi. Bürgerlər zadəganlar sırasına daxil olmağa yollar axtarır, daşınmaz əmlaka və hər şeydən əvvəl, aqrar cəmiyyətdə nüfuz, hakimiyyət və sərvət meyarı olan torpaq sahibliyinə vəsait qoymağa can atırdılar. Bürgerlərin öz şüuru və siyasi məqsədləri olan B. sinfinə çevrilməsi 16 əsrdə, ilkin kapital yığımı prosesini sürətləndirən, okeanın o tayından nəhəng sərvət axınına, qiymət inqilabına səbəb olan *böyük coğrafi kəşflər dövründə* başlandı.

Manufakturanın genişləndirilməsi tarix səhnəsi önünə ingilis sahibkarını çıxardı. Feodal qanunları, kralların ticarət monopoliyası, sexlərin reqlamentasiyası və s. erkən manufaktura kapitalizmi üçün buxova çevrilirdi. *Niderland inqilabı (16 əsr)* və *İngiltərə inqilabı (17 əsr)* puritanizmin dini bayrağı altında baş verdi. Kapitalizmin manufaktura mərhələsində B.-nın hələ də öz siyasi ideologiyası yox idi və o, məqsədlərini dini layihələr şəklində ifadə edirdi. Puritanizmin özü burjua dünyagörüşünün formalaşması prosesini stimullaşdırır, Niderland və İngiltərə B.-sının yaranmaqda olan yeni cəmiyyətə uyğunlaşmasını asanlaşdırırdı.

Rasionalizmə söykənən, köhnə silki təbəqələşməni qəbul etməyən, xalq suvereniteti və ictimai müqavilə ideyalarını təbliğ edən dünyagörüşü Avropada qəti olaraq 18 əsrdə, Maarifçilik dövründə formalaşdı. B. bu dövrdə hələ özünü xalqdan ayırmır, ona başçılıq edir və onu "köhnə qayda"ya qarşı hərəkətə istiqamətləndirirdi.

B.-nın dominant sosial-siyasi qüvvə kimi bərqərar olması daha çox inqilablar ilə deyil, 18 əsrin 2-ci yarısında B. Britaniyada başlayan və 19 əsrdə bütün Avropada və Şm. Amerikada yayılan sənaye çevrilişi ilə bağlı idi. Nəticədə kapitalizm istehsal qüvvələrinin inkişafı üçün güclü impuls aldı, B. sürətlə varlanmağa başladı və eyni zamanda sinifdaxili diferensiasiya da gücləndi [bax *Fransa inqilabı* (*1848*)].

19 əsrdə B. özünün sosial antipodu olan və kapitalizm ilə birgə böyüyən fəhlə sinfi ilə toqquşdu. Onlar arasında qarşıdurma 19 əsr – 20 əsrin əvvəllərində davam etmiş və bu mübarizənin kulminasiyası Birinci dünya müharibəsinin son mərhələsində Avropada baş verən inqilablar olmuşdur. Bu dövrün sosial-siyasi təcrübəsini yenidən nəzərdən keçirən Qərb B.-sı özünün iqtisadi və siyasi hakimiyyət sisteminə fəhlə sinfini tam inteqrasiya etmək üçün effektiv sosial siyasət planını hazırlamağa başladı. Əsasən, sosializm dairələrindən intişar tapan müxtəlif proqnozlara rəğmən, 20 əsrdə də B.-nın kapitalizmi inkişaf etdirmək imkanları tükənmədi və o, iqtisadi yüksəlişin tələblərinə cavab verən ictimai istehsalın təşkilinin yeni formalarını hazırladı.

19 əsrin axırlarında elmi-texniki tərəqqinin nailiyyətlərindən bəhrələnməyə daha geniş imkanlar açan biznesin inhisarlaşması və kapitalın təmərküzləşməsi prosesi başlandı. Birinci dünya müharibəsindən və 1929–33 illər dünya iqtisadi böhranından (bax *Böyük depresiya*) sonra kapitalist təsərrüfatı dövlətin imkanlarından fəal surətdə istifadə etməyə başladı.

İkinci dünya müharibəsinin başa çatması ilə dünya iqtisadiyyatının beynəlmiləlləşdirilməsi prosesi sürətləndi. Kapitalizm sisteminin başlıca iştirakçıları *qloballaşma* proseslərinin maddi əsasını təşkil edən transmilli və çoxmillətli şirkətlər oldu. Yaranmış dualist sistemə görə, dünya iqtisadiyyatı və siyasətinə dair ən mühüm qərarlar nisbətən dar çərçivədə maqnatlar və onların beynəlxalq təşkilatların, milli hökumətlərin rəhbərləri arasından səlahiyyətli vəkilləri tərəfindən qəbul edilir, həmin qərarların həyata keçirilməsi isə müasir dövlətlərin hər birində mürəkkəb sosial-siyasi dinamikadan və demokratik institutların fəaliyyətindən asılıdır. Bu vektorların yönümü həmişə üst-üstə düşmədiyi üçün sistem daxilində bəzən ciddi ziddiyyətlər yaranır.

Modernləşdirmə yoluna yeni qədəm qoyan ölkələrdə B.-nın inkişafı spesifik səciyyə daşıyır. Bu sinif başlanğıcdan milli B. və vasitəçi (komprador) B.-ya ayrılırdı. Birincisi, daxili bazarın inkişafına və onun yerli istehsal məhsulları ilə təchizinə yönəlmişdir; o, iqtisadiyyatın diversifikasiyalaşmasında və sənayeləşdirmədə maraqlıdır. İkincisi isə xarici bazarın diktəsinə tabe olaraq xammal sahələrini (kənd təsərrüfatı istehsalı və hasilat sənayesi) inkişaf etdirməyi üstün tutur. Kapitalın azad hərəkəti və milli iqtisadiyyatların qloballaşan dünya sisteminə qoşulmasına labüdlüyü bu iki sosial təbəqə arasında münasibətlərin dialektikasını çətinləşdirir. Milli B. özünün investisiya layihələrinə getdikcə daha çox xarici kapital cəlb edir və eyni zamanda öhdəliklərlə transmilli korporasiyalar və beynəlxalq maliyyə-sənaye qruplarından asılılığını artırır. Dünənki komprador B. öz növbəsində, milli iqtisadiyyatların perspektivli, mənfəət vəd edən modernləşdirmə layihələrinin həyata keçirilməsi işinə qoşulur.

Azərbaycanda burjuaziya 19 əsrin ortalarından formalaşmağa başlamışdı. Buna Rusiyada kapitalizmin, fabrik-zavod sənayesinin inkişafı, Azərb.-da d.y.-nun çəkilməsi, Xəzər dənizində gəmiçiliyin inkişafı və genişlənməsi, ticarətin inkişafı, k.t.-nda əmtəə istehsalının artması imkan yaratmışdı. Azərb.-da sənaye və ticarət B.-sının formalaşması prosesi kredit-bank sisteminin yaranması və inkişafı ilə daha da sürətlənmişdi. Azərb. B.-sının tanınmış nümayəndələri H.Z. *Tağıyev*, M. *Nağıyev*, Ş. *Əsədullayev*, M. *Muxtarov* və b. idi. Azərb. B.-sının milli qruplarının istehsalın müxtəlif sahələrində iştirakı eyni deyildi. Azərb. kapitalı daha çox neftayırma və kimya istehsalında, mexaniki istehsalda, yüngül və yeyinti sənayesində, ticarətdə, dəniz gəmiçiliyində təmsil olunurdu. B.-nın əsas formalaşma və inkişaf mərkəzi Bakı ş. idi. Azərb.-ın digər şəhərlərində də (Gəncə, Şuşa, Şəki, Şamaxı və s.) sənaye və ticarət B.-sı yaranıb inkişaf etmişdi (bax *Azərbaycan* xüsusi cildi).

*Əd.:* Исмаилов. М. А. Промышленность Баку в начале XX века. Б., 1976; İsmayılov M.Ə., İbrahimov M.C. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. B., 1991; История теоретической социологии. М., 2000.

**BÜRKA** – Qafqaz xalqlarında keçədən hazırlanan *yapıncı*. Qısa B.-nı (dizədək, yaxud dizdən yuxarı) çobanlar, uzun B.-nı isə süvarilər (19 əsrin sonlarından) geyinirdilər; B.-nın səthi bəzən xovlu (su keçirməmək üçün) olurdu. B. döyüş zamanı sipər, başqa vaxtlarda döşənək, ya-



Kazak burkası.

xud yorğan kimi istifadə edilirdi. Varlılar üçün tikilən B. tikmə və güləbətinlə bəzədilir, bəzən ağ keçədən düzəldilirdi. Kabardalılara və andilərə məxsus uzunxovlu B.-lar daha çox qiymətləndirilirdi. Qafqazda qulluq edən kazak ordu hissələrinin geyim növü idi (18–20 əsrlər).

**BURK-AN-BRES** (Bourg-en-Bresse) – Fransanın ş.-ində şəhər. En dep-tinin inz. m. Əh. 40,1 min (2010). Yura d-rının ətəyində, Ressuz çayı sahilində yerləşir. Avtomobil və d.y.-ları qovşağı.

Roma yaşayış məskəninin yerində meydana gəlmişdir. Təqr. 1250 ildə şəhər statusunu almışdır. 12 əsrdən Savoyya hersoqluğunun tərkibində olmuş, 1601

ildə Fransanın tərkibinə qatılmışdır.

Bru monastırı (1506–12; Cənubi Niderland, İtaliya, Burqundiya və Fransa ustaları; 3 kluatrdan biri 15 əsr), onun nəzdində son qotika üslubunda kilsə (1513–32; memar L. van Bohem; J. Perrealın layihəsinə əsasən; zəngin heykəltəraşlıq dekoru olan q. fasadı; Lion emalatxanalarında hazırlanmış A. Dürer və Tisianın əsərlərinin motivləri üzrə xorun polixrom vitrajları, 1525–31); Notr-Dam kilsəsi (1505–1654), karkaslı evlər (15 əsrin sonu – 16 əsr), Savoyya hersoqlarının qəsri (16 əsr), Burmayer məhəlləsinin imarətləri (18 əsr), Ratuşa (1771), teatr (1787) var. En dep-ti muzeyi (monastır binasında; orta əsrlərin və xalq sənəti kolleksiyası, 16–17 əsrlər flamand və holland rəngkarlığı) fəaliyyət göstərir.

Elektrotexnika sənayesi, dəzgahqayırma; keramika məmulatı, ayaqqabı istehsalı var.

**BÚRKHARDT** (Burckhardt) Karl Yakob (10.9.1891, Bazel – 3.3.1974, Vinsel) – İsveçrə tarixçisi, siyasətçi və diplomat. 1918 ildən diplomat kimi fəaliyyətə başlamışdır: 1918–21 illərdə Avstriyadakı İsveçrə missiyasının attaşesi, sonralar Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Türkiyədə nümayəndəsi olmuşdur. Sürix (1929 ildən) və Cenevrə (1932 ildən) un-tlərinin tarix üzrə prof.-u. 1937–39 illərdə Millətlər Cəmiyyətinin Dansiqdə (Qdansk) ali komissarı idi. İkinci dünya müharibəsi illərində BQXK-də hərbi əsirlərin və tərk-silah olunmuşların məsələlərini araşdırmış, 1944–48 illərdə BQXK-nin prezidenti olmuşdur. Rişelyö və onun dövrünə həsr edilmiş ("Richelieu", 1935) fundamental əsərin müəllifidir. B.-ın memuarları ("Meine Danziger Mission 1937–39", 1960) İkinci dünya müharibəsindən əvvəlki dövrün tədqiqi üçün maraq kəsb edir.

**BURKHARDT** (Burckhardt) Yakob (25.5.1818, Bazel – 8.8.1897, Bazel) – isveçrə tarixçisi və mədəniyyət filosofu. Bonn, Berlin və Bazel un-tlərində teologiya, tarix və filologiya üzrə təhsil almışdır (1837–43). 1855 ildən Sürixdə İsveçrə Politexnikumunda, 1858–93 illərdə Bazel Un-tində tarixdən, o cümlədən incəsənət tarixindən dərs demişdir. Tarixşünaslıqda ruhi mədəniyyəti ön plana çəkən "mədəni-tarixi" cərəyanın banisidir. Qədim Yunanıstanı və Qədim Romanı, İntibah dövrünü, barokkonu tədqiq etmişdir. B. "İntibah dövründə İtaliya mədəniyyəti" ("Cultur der Renaissance in İtalien", 1860) əsərində İtaliya intibahını bariz fərdiyyətçilik dövrü olan Yeni dövrün ruhunun ilk yetkin inikası kimi şərh etmişdir. Ötən dövrlərin psixologiyasını və etik dəyərlərini B. özünün yaratdığı konkret mədəni-antropoloji insan tipləri (məs., "qəhrəmanlıq dövrü"nün yunanı, İntibah dövrünün "universal insan"ı və s.) vasitəsilə ifadə etməyə çalışmışdır. B.-a görə, böyük insanlar "həyat üslublarının" yaradıcıları və daşıyıcıları, bu və ya digər dövrün vəhdəti və özünəməxsusluğunun ifadəçiləri kimi tarixçinin diqqətinə layiqdirlər. B. müasiri olduğu cəmiyyətdə mədəniyyətin tərəqqisi və şəxsiyyətin azad inkişafı perspektivlərinə bədbin yanaşırdı. Onun əsərləri müasirlərinə müəyyən təsir göstərmişdir. F.Nitsşenin "yeni barbarlıq" dövrünün yaxınlaşması haqqında proqnozu, əsasən, B.-ın mühazirələrinin təsiri altında yaranmışdı. B. elmi əsərlərlə yanaşı, alman dilinin aleman dialektində novella və şeirlər də yazmışdır.

**BURKHARDT** Yohan Lüdviq (24.11. 1784, Lozanna – 27.10.1817, Qahirə) – İsveçrə şərqşünası və səyyahı. Yaxın və Orta Şərqdə İbrahim ibn Abdulla kimi tanınmışdır. Nubiyanın ilk tədqiqatçılarından biridir. Ərəb dilini və şəriəti mükəmməl mənimsəmiş, Quranın elmi izahını vermiş, o dövrədək avropalılara məlum olmayan *Palmira* və *Petra* şəhərlərinin xarabalıqlarında arxeoloji qazıntılar aparmışdır. B.-ın ən böyük arzusu Böyük Səhranı keçib Niger çayının mənbəyini tapmaq idi. Bu məqsədlə Qahirəyə gəlmiş, Nilboyu üzüaşağı üzmüş, Qırmızı dənizi keçmiş, Məkkə və Mədinədə olmuşdur. Sina dağına çıxmış, lakin tezliklə dizenteriyadan ölmüşdür.

Əsərləri: Travels in Nubia. London, 1819; Travels in Arabia. London, 1829; Notes on the Bedouins and the Wahabys. London, 1831; Arabic Proverbs or the Manners and customs of the Modern Egyptians. London, 1830; Travels in Suria and the Holy Land. London, 1822.

**BURKİNÁ-FASÓ** (Bourkina Fasso)

### Ümumi məlumat

Qərbi Afrikada dövlət. Şm.-q.-də və şm.-da Mali ilə, şm.-ş.-də Nigerlə, c.-ş.-də Beninlə, c.-da Toqo və Qana ilə, c.-q.-də Kot-d'İvuarla həmsərhəddir. Sah. 274,2 min *km*². Əh. 18,2 mln. (2013). Paytaxtı Uaqaduqu ş.-dir. Rəsmi dil fransız dili, pul vahidi Afrika frankıdır. İnz. cəhətdən 45 əyalətə bölünür.

B.-F. BMT-nin (1960), Afrika İttifaqının (1963), BYİB-in (1963), BVF-nin (1963), ÜTT-nin (1995) üzvüdür.






### Dövlət quruluşu

B.-F. unitar dövlətdir. Konstitusiyası 2.6.1991 ildə qəbul edilmişdir. İdarəetmə forması prezident respublikasıdır.

Dövlətin və icraedici hakimiyyətin başçısı ümumi birbaşa səsvermə yolu ilə 7 il müddətinə seçilən prezidentdir. 1997 ildə Konstitusiyaya edilmiş düzəlişlər yenidənseçilmə məhdudiyyətini aradan qaldırmış, 2000 ildəki dəyişikliyə əsasən isə prezidentlik müddəti 7 ildən 5 ilə qədər azaldılmışdır (2005 ildən qüvvəyə minmişdir).

Qanunverici hakimiyyət ikipalatalı parlamentə məxsusdur. Aşağı palata – Milli məclis ümumi səsvermə ilə 5 il müddətinə seçilən 111 deputatdan ibarətdir. Yuxarı palata – Nümayəndələr palatası məşvərətçi funksiyalarını daşıyır və 3 il müddətinə təyin olunan 178 üzvdən ibarətdir.

İcraedici hakimiyyəti hökumət həyata keçirir. Baş naziri prezident təyin edir, lakin Milli məclis təklif olunan namizədə veto qoya bilər; nazirləri Baş nazirin təklifi ilə prezident təyin edir.

B.-F.-da çoxpartiyalı sistem mövcuddur. Ən böyük siyasi partiyalar: Demokratiya və Tərəqqi uğrunda konqres, Afrika Demokratik Birliyi, Demokratiya və Federasiya uğrunda alyans, Demokratiya və Tərəqqi uğrunda partiya və Sosialist partiyası.










### Təbiət

**Relyef.** Səthi, əsasən, denudasion platodur; hünd. 200–500 *m*, üzərində günbəzvarı ada təpələr var. Ölkənin c.-q.-ində qumdaşılardan ibarət plato (hünd. 749 *m*-ədək, Tena-Kuru d. – B.-F.-nun ən yüksək nöqtəsi), c.-ş.-ində Pencari çayının dərəsi boyunca uzanan akkumulyativ düzənliklər, şm.-ında isə bərkimiş qum dünləri silsiləsi yerləşir.

**Geoloji quruluş və faydalı qazıntılar.** B.-F.-nun ərazisi Afrika platformasının Arxey-Erkən Proterozoy yaşlı Leon-Liberiya massivinin şm.-ş. hissəsində yerləşir. Alt Proterozoyun Eburney tektogenez epoxasında (təqr. 2 mlrd. il əvvəl) metamorfizmə məruz qalmış çökmə və vulkanogen süxur komplekslərinin səthə çıxışları var. C.-da qırışıqlıq kompleksləri Volta sineklizinin şm. qanadını təşkil edən Üst Proterozoy (Üst Rifey və Vend) yaşlı terrigen çöküntülərlə örtülüdür. Neogen-Dördüncü dövr çöküntüləri (çaqıldaşılar, qumlar, gillər, lateritlər) az yayılmışdır.

Əsas faydalı qazıntıları: manqan filizləri (şm.-ş.-də Tambao yatağı), qızıl (mərkəzdə Pura yatağı), fosforitlər (c.-da Kocari, Alud-Cuana yataqları). Mis, qurğuşun, sink, nikel, gümüş filizləri, titan-maqnetit, mərmər, əhəngdaşı və s. yataqları da məlumdur.

**İqlim.** İqlimi subekvatorial, mövsümi-rütubətlidir. Quraq mövsüm ölkənin c.-unda 6–7 ay (noyabr–may), şm.-ında 8–10 ay davam edir. Quraq mövsümündə və xüsusən mövsümün sonunda Böyük Səhradan quru və isti külək – harmatan əsir. Ən isti ayların (aprel–may) orta temp-ru 30–35°C, ən soyuq aylarınkı (dekabr–yanvar) 24–26°C-dir. Yağıntının illik miqdarı 450 *mm*-dən (şm.-da və şm.-ş.-də) 1100 *mm*-ədəkdir (c.-q.-də).

**Daxili sular.** B.-F.-nun çayları azdır. Əsas çayları q.-də Muxun (Qara Volta), c.-da Nakambe (Ağ Volta) qolu Nazinon (Qırmızı Volta) ilə, c.-ş.-də Pencari, ucqar c.-q.-də Komoe, ş.-də Sirbadır. Quraq mövsümündə çayların çoxu (Muxun, Pencari, Komoedən başqa) quruyur. Ölkənin illik daxili su ehtiyatı 13 *km*³-

**İnzibati ərazi bölgüsü (2005)**

| Əyalətlər | Sahəsi, min $km^2$ | Əhalisi, min nəfər | İnzibati mərkəzi | Əyalətlər | Sahəsi, min $km^2$ | Əhalisi, min nəfər | İnzibati mərkəzi | Əyalətlər | Sahəsi, min $km^2$ | Əhalisi, min nəfər | İnzibati mərkəzi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bale | 4595 | 196,991 | Boromo | Kuritenqa | 2622 | 280,024 | Kupela | Sanmatenqa | 9281 | 482,013 | Kaya |
| Bam | 4084 | 239,060 | Konqusi | Kurveoqo | 1588 | 124,554 | Buse | Seno | 6863 | 232,425 | Dori |
| Banva | 5882 | 227,843 | Solenzo | Qanzurqu | 4178 | 289,270 | Zorqo | Sisili | 7136 | 169,834 | Leo |
| Bazeqa | 3963 | 242,054 | Kombisiri | Qurma | 11117 | 258,192 | Fadan-Qurma | Sum | 12222 | 285,722 | Cibo |
| Buquriba | 2812 | 83,697 | Diyebuqu | Leraba | 3129 | 105,895 | Sindu | Suru | 5765 | 217,896 | Tuqan |
| Bulkiyemde | 4269 | 461,158 | Kuduqu | Lorum | 3592 | 125,645 | Titao | Tapoa | 14594 | 261,117 | Diapaqa |
| Bulqu | 6692 | 455,306 | Tenkodoqo | Muxun | 6668 | 273,309 | Deduqu | Tüi | 5639 | 172,778 | Xunde |
| İoba | 3289 | 160,773 | Dano | Namentenqa | 6464 | 270,909 | Bulsa | Ubritenqa | 2778 | 224,640 | Ziniare |
| Kadioqo | 2805 | 1365,958 | Uaqaduqu | Nauri | 3754 | 145,749 | Po | Udalan | 9797 | 146,017 | Qorom-Qorom |
| Keneduqu | 8137 | 221,733 | Orodara | Nayala | 3919 | 149,002 | Toma | Ue | 11568 | 762,415 | Bobo-Diulaso |
| Komoe | 15277 | 261,738 | Banfora | Numbiyel | 2736 | 56,738 | Batiye | Yaqa | 6468 | 132,964 | Sebba |
| Komoncari | 5048 | 54,885 | Qayeri | Nyanya | 8468 | 338,041 | Boqande | Yatenqa | 6990 | 483,491 | Vaxiquya |
| Kompiyenqa | 7029 | 122,781 | Pama | Pasore | 3867 | 293,432 | Yako | Ziro | 5139 | 119,318 | Sapui |
| Kosi | 7324 | 249,923 | Nuna | Poni | 7365 | 221,200 | Qava | Zondoma | 1758 | 139,784 | Qursi |
| Kulpeloqo | 2497 | 319,606 | Varqaye | Sangiye | 5178 | 270,924 | Reo | Zundveoqo | 3604 | 213,112 | Manqa |



Savanna. Poni əyaləti.

dir. Bunun 4%-i təsərrüfat məqsədlərinə (81%-i k.t.-na, 19%-i kommunal-məişət təsərrüfatına) sərf olunur. Adambaşına illik su təminatı 1 min $m^3$-dir.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** B.-F. ərazisinin böyük hissəsində dəmirli torpaqlarda bitən tipik və hündürotlu savannalar üstünlük təşkil edir. Yağ ağacı karite, buynuzmeyvəli ağac, baobab, hind tamarindi, dum və deleb palmaları və s. ağaclıq və meşəciklər əmələ gətirir. Kifayət qədər sıx olan taxıl bitki örtüyündə daşdayan (agot), darı, lüdesiya növləri üstündür. 14° şm. e.-ndən şimalda qırmızı-qonur və qırmızımtıl-qonur qumlu torpaqlarda B.-F. ərazisinin 15%-ini tutan Sahel zonasının səhralaşmış savannaları yayılmışdır. Seyrək taxıl örtüyündə şiyavər üstünlük təşkil edir; seyrək tikanlı kolluqlar və alçaqboylu ağaclar, əsasən, müxtəlif növ akasiyalarla təmsil olunur. Bərkimiş dünlərdə kitrə almaq üçün istifadə edilən akasiyalar bitir. Sahel zonasında səhralaşma prosesləri inkişaf etmişdir. Ölkənin c.-q.-indəki meşə for- masiyaları (B.-F. ərazisinin 14%-i) kola, yağ palması, Seneqal kayası ağacları qarışıq quru seyrək meşələrlə və çay dərələrində bitən qalereyalı meşə fraqmentləri ilə təmsil olunur. Meşələrdə qırmızı ferrallitli torpaqlar formalaşmışdır. Səhralaşma ilə yanaşı, meşələrin qırılması ölkənin başlıca ekoloji problemlərindən biridir. Heyvanların sayı ov və k.t. yerlərinin genişləndirilməsi nəticəsində azalmışdır. Şir, bəbir, çaqqal, fil, qara camış, bir neçə növ antilop, buxaqlı donuz, begemot, pavian, yaşıl əntər və timsaha rast gəlinir. Çoxlu cücü, o cümlədən malyariya ağcaqanadları, termitlər, çəyirtkələr var. Ölkənin c. hissəsində sese milçəyi yayılmışdır.

Komoe çayında şəlalə.



### Əhali

B.-F. əhalisinin əksəriyyətini Niger-Kordofan dillərində danışan xalqlar təşkil edir; *qur dillərində* danışanlar (o cümlədən, *mosilər* 46%, *qurmalar* 3,3%, daqaabalar 2,6%, nurumalar 2,6%, lobilər 2,6%, lelelər 2,5%, bobolar 2,4%, yarselər, biriforlar, kasenalar və b.) və *mande dillərində* danışanlar (bobolar 5,7%, bisalar 3,8%, sanlar və ya samolar 2,7%, markalar, *dyulalar*, *soninkelər* və b.). *Fulbelər* (5,9%), *doqonlar* (1,0%), *senufolar*, *yorubalar* və b.-larının azsaylı qrupları, həmçinin cüzi sayda *sonqaylar*, zarmalar, *tuareqlər*, *bədəvilər*, *hausalar* mövcuddur; fransızlar və Britaniyadan gəlmələr də var.

Əhalinin ortaillik artımı 2,5%, 1000 nəfərə doğum səviyyəsi 46 nəfər, ölüm səviyyəsi 16 nəfər, uşaq ölümü 1000 nəfər doğulana 91 nəfərdir (2010). Fertillik göstəricisi 1 qadına 6,2 uşaqdır. Əhalinin yaş tərkibi: 14 yaşadək 46,8%, 15 yaşdan 64 yaşadək 50,7%, 65 yaşdan yuxarı isə 2,5%-dir. Əhalinin orta yaş göstəricisi 16,8-dir (2010). Gözlənilən orta ömür müddəti 53 ildir (kişilər üçün 51, qadınlar üçün 55). Orta hesabla hər 100 qadına 97 kişi düşür. Əhalinin orta sıxlığı 1 $km^2$-də 48,2 nəfərdir. Şəhər əhalisinin xüsusi çəkisi 20%-dir. Ən iri şəhərləri (min nəfərlə, 2010): Uaqaduqu – 1475, Bobo-Diulaso – 555. İqtisadiyyatda təqr. 5 mln. nəfər işləyir, onlardan 92%-i k.t.-nda, 2,3%-i sənayedə, 5,7%-i xidmət sahəsində çalışır. Kişilərin çoxu qonşu ölkələrdə mövsümi işlə məşğuldurlar. Əhalinin 45%-i yoxsulluq səviyyəsindən aşağı yaşayır. Dindarların əksəriyyəti müsəlmandır (60,5%), 15,3%-indən çoxu yerli Afrika kultlarını saxlayanlar təqr. 23,2%-i xristianlardır.

### Tarixi oçerk

Müasir B.-F.-nun ərazisi Neolit dövründə məskunlaşmışdır. 11 əsrdə şm.-q.-dən gəlmiş mosi tayfaları yerli əhalini tabe etmiş, 13–14 əsrlərdə Uaqaduqu, *Yatenqa*, Tenkodoqo və Qurma dövlətlərini yaratmışdılar. Mosilərin dövlətlər birliyinin başında bütün torpaqlar sərəncamında olan, əyalətləri idarə etmək üçün ali məmurları təyin edən irsi ali hakim moro-naba dururdu. Əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq və qul alveri idi. Çiçəklənmə dövrü 16 əsrə təsadüf edən mosi dövlətləri Qərbi Afrikada ən güclü dövlətlər idi. 18 əsrin əvvəllərində islam dini yayılmağa başladı: moro-naba I Duluqu və digər başçılar islamı qəbul etdilər.

1895–97 illərdə əvvəlcə mosi dövlətləri, 20 əsrin əvvəllərində isə gələcək B.-F.-nun bütün əraziləri Fransanın nəzarəti altına keçdi. 1904 ildə bu ərazilər Fransanın Yuxarı Seneqal – Niger müstəmləkəsinə birləşdirildi, 1919 ildən Yuxarı Volta adı altında Fransa Qərbi Afrikasının tərkibində əlahiddə inzibati vahid oldu, 1932 ildə müstəmləkə idarəçiliyi xərclərini azaltmaq məqsədilə Fil Dişi Sahili, Fransa Sudanı və Niger arasında bölüşdürüldü, 1947 ildə isə Fransanın "dənizaşırı ərazisi" kimi əvvəlki hüdudlarında bərpa edildi. Ənənəvi hakimiyyət institutları yenidən quruldu və müstəmləkəçilik üsuli-idarəsinə inteqrasiya edildi, tayfa başçıları, o cümlədən moro-nabalar hakimiyyətlərinin bir qismini saxladılar. Müstəmləkələr üzrə əmək bölgüsünə əsasən Yuxarı Volta Qızıl Burun Sahili, Fil Dişi Sahili və Dahomeyanın mədən sənayesi və əmtəə k.t. üçün işçi qüvvəsi tədarük edirdi. 1947 ildə ilk siyasi partiya – Volta Demokratik İttifaqı (VDİ) yaradıldı.

1958 ilin dekabrında Yuxarı Volta Fransa Birliyi tərkibində muxtar respublika oldu. 1960 ildə öz müstəqilliyini elan edən Yuxarı Volta Fransa ilə də sıx siyasi-iqtisadi əlaqələrini saxladı. Ölkənin ilk prezidenti VDİ-nin lideri M. Yameoqo oldu. Müxalifət partiyalarının (1959 ildə onların sayı 10-a qədər idi) fəaliyyəti qadağan edildi. Demokratik azadlıqların pozulması və iqtisadi vəziyyətin pisləşməsi polk.-l. S. Lamizananın 1966 il yanvarın 1-də hərbi çevriliş etməsi ilə nəticələndi. 1970–80-ci illərdə ölkədə hərbi və vətəndaş rejimləri bir-birini əvəz etdi: 1970 ildə mülki hökumət hakimiyyətə gəldi; 1974, 1980, 1982, 1983 və 1987 illərdə hərbi çevrilişlər baş verdi.

1983 ildə hakimiyyəti ələ keçirmiş sol millətçi T. Sankaranın təşəbbüsü ilə 1984 il avqustun 4-də Yuxarı Volta B.-F. adlandırıldı. İqtisadi və siyasi sahədə radikal islahatlar aparmağa çalışan Sankara 1987 ildə baş vermiş hərbi çevriliş zamanı öldürüldü, hakimiyyətə B. Kompaore hökuməti gəldi.



Yastı damlı ənənəvi ev.

1991 ildə B.-F.-da çoxpartiyalılığı təsbit edən yeni konstitusiya qəbul olundu. Hökumət iqtisadiyyatın liberallaşdırılması kursunu əsas götürdü. 1991 və 1998 illərdəki prezident seçkilərində B. Kompaore inamlı qələbə qazandı. Onun başçılıq etdiyi Demokratiya və Tərəqqi uğrunda konqres partiyası 1997 və 2002 illərdəki parlament seçkilərində qalib gəldi. 2005 və 2010 illərdə keçirilən seçkilərdə Kompaore yenidən B.-F.-nın prezidenti seçildi.

### Təsərrüfat

B.-F. aqrar ölkədir, dünyanın ən kasıb dövlətləri sırasına daxildir. ÜDM 26,51 mlrd. dollar təşkil edir, adambaşına – 1500 dollar (alıcılıq qabiliyyəti paritetinə görə; 2013). ÜDM-in real artımı 6,5%-dir (2013). İnsan inkişafı indeksi 0,343 (2013; dünyanın 186 dövləti arasında 183-cü yer). Ölkənin inkişaf perspektivləri iqtisadiyyatın struktur yenidənqurulması proqramlarının həyata keçirilməsi, özəl sektorun rolunun artırılması, mədənçıxarma sənayesinin və gəliri 25 mln. dollardan çox olan turizmin (hər il təqr. 200 min nəfər) inkişafı ilə əlaqədardır.

**Sənaye.** Qızıl (Pura yatağı, ildə təqr. 1060 *kq*), gümüş, manqan (ölkənin şm.-ş.-ində Tambao yatağı), qurğuşun və sink filizləri (Kuduqu rayonu), mərmər hasil olunur.

375,6 mln. *kVt·saat* elektrik enerjisi istehsal olunur, tələbat 349,3 mln. *kVt·saat*dır (2003). Elektrik enerjisinin təqr. 66%-i İES-lərdə (Uaqaduqu, Bobo-Diulaso, Vahiquya), 34%-i Baqre və

Milli qəhrəmanlara ucaldılmış abidə. Uaqaduqu.





Pambıq plantasiyası.

Kompiyenqa çayları üzərindəki 2 SES-də istehsal edilir.

Emal sənayesi zəif inkişaf etmişdir və toxuculuq (Kuduqu, Uaqaduqu), yeyinti (Uaqaduqu, Bobo-Diulasoda alkoqolsuz içkilər, bitki yağı, pivə, ət; Banforda un, şəkər; Konqusidə bitki yağı), sabunbişirmə (Bobo-Diulaso, Uaqaduqu), tütün (Bobo-Diulaso) sahələri ilə təmsil olunur. Sizal lifi emalı, pambıq və çəltiktəmizləmə (Bobo-Diulaso, Deduqu, Kuduqu, Uaqaduqu, Hunde), oduncaq emalı, tikinti materialları istehsalı (Bobo-Diulaso), motosiklet və velosiped quraşdırılması (Bobo-Diulaso) müəssisələri fəaliyyət göstərir. Kustar sənətkarlıq (xalça, dulusçuluq məmulatı, ayaqqabı, mebel, dəri emalı) geniş yayılmışdır.

**Kənd təsərrüfatı.** K.t.-nın aparıcı sahəsi heyvandarlıqdır; dəriaşılama da daxil olmaqla ixracatdan gələn gəlirin 19%-ini təşkil edir. Qaramal (mln. baş; 2001): 4,7, qoyun 6,6, keçi 8,4-dür. Əsas k.t. bitkiləri (yığım, min *t*; 2004): kalış 1600, darı 1250, qarğıdalı 738,5, şəkər çuğunduru 420, yerfındığı 321, pambıq lifi 210, çəltik 97, karite fındığı 70, batat 37, küncüd toxumu 29. Balıq ovu (ildə 7–8,5 min *t*) milli tələbatı (13 min *t*) ödəmir. Oduncaq tədarükü azdır (ildə təqr. 0,5 mln. $m^3$ emal üçün yararlı oduncaq).

Böyük məscid. Bobo-Diulaso.



**Nəqliyyat.** D.y.-larının uz. 622 *km*, avtomobil yolları 12,5 min *km-dir*, o cümlədən 2 min *km* bərk örtüklüdür. 33 aeroport, o cümlədən 2 beynəlxalq aeroport (Uaqaduqu, Bobo-Diulaso) var.

**Xarici ticarət.** İxracat dəyəri 2,844 mlrd. dollar, idxalat dəyəri 2,941 mlrd. dollardır (2013). Əsasən, qızıl, pambıq, heyvandarlıq məhsulları, karite fındığı ixrac olunur. Əsas ixracçılar – Çin (25,9%), Türkiyə (24,8%), Belçika (5,2%). İstehsal vasitələri, ərzaq məhsulları, neft məhsulları, əsasən, Kot-d' İvuar (17,6%), Fransa (15,2%), Qana (4,8%) və Toqodan (4,4%) idxal edilir (2012).

### Silahlı qüvvələr

Silahlı qüvvələr (SQ, 2004) QQ (5,6 min nəfər), HHQ (0,2 min nəfər) və jandarmeriyadan (4,2 min nəfər) ibarətdir. Ali baş komandan prezidentdir. Ölkə ərazisi 6 hərbi dairəyə bölünür. SQ 83 döyüş-kəşfiyyat maşını, 13 zirehli transportyor, 14 səhra topu, 4 yaylım atəşi reaktiv sistemi, minaatanlar, zenit topları, 5 döyüş təyyarəsi ilə silahlanmışdır. Ordu muzdla komplektləşdirilir. Sıravi əsgərlər Uaqaduqu ş.-ndəki tədris mərkəzində, komanda heyəti isə Fransa, Əlcəzair və digər dövlətlərin hərbi təhsil müəssisələrində hazırlanır. Xalq milisi (45 min nəfər) də var. Səfərbərlik ehtiyatları 2,4 mln. nəfər, o cümlədən hərbi xidmətə yararlı olanlar 1,2 mln. nəfərdir.

**Səhiyyə.** BMT-nin məlumatına görə, səhiyyə xərcləri ÜDM-in 6,2%-ini təşkil etmişdir (2012). Xəstələnmələrin əsas səbəbləri infeksiya və parazitar xəstəliklərdir (15%), əhalinin 1,0 %-ə qədəri İİV-infeksiyası daşıyıcısı olmuşdur.

### Təhsil. Elm və mədəniyyət müəssisələri

B.-F.-nun bütün təhsil müəssisələri Əsas və Ali Təhsil Nazirliyinin tabeliyindədir. Fransız modeli əsasında qurulmuş müasir təhsil sisteminə 7 yaşlı uşaqlar üçün 6 illik ibtidai, 4 illik natamam orta məktəblər (kollejlər), 3 illik tam orta məktəblər (liseylər), peşə məktəbləri və ali təhsil müəssisələri daxildir. Aşağı peşə-texniki təhsili 4 il, orta texniki təhsil isə 7 il müddətində ibtidai təhsil bazasında həyata keçirilir. İbtidai məktəblər üçün müəllimlər 3 illik pedaqoji məktəblərdə natamam orta məktəb bazasında, orta məktəblər üçün müəllimlər isə un-tlərdə hazırlanır. Uaqaduqu Un-ti (1974; 1969 ildə ali təhsil mərkəzi kimi yaradılmışdır), Bobo-Diulasoda Politexnik un-ti (1995) fəaliyyət göstərir. Uaqaduquda Tropik Təsərrüfat Tədqiqat İn-tu (1924), Elmi Tədqiqatlar Mərkəzi (1950), Tropik Meşə Texniki Mərkəzi (1963), Pedaqogika Milli İn-tu (1976); Bobo-Diulasoda Geoloji Tədqiqatlar Bürosu, Pambıq və Tekstil İn-tu (1961), İqtisadi və Sosial Elmlər Mərkəzi (1960) və s. var. Milli kitabxana (1996), un-tlərin və elmi müəssisələrin kitabxanaları, Uaqaduquda Milli muzey (1962) fəaliyyət göstərir.

### Kütləvi informasiya vasitələri

"Ajans d'enformasyon dü Burkina" ("Agence d'information du Burkina") dövlət informasiya agentliyidir. Radioverilişləri "Radio nasyonal Burkina" ("Radio Nationale Burkina"), həmçinin bir sıra yerli radiostansiyalar (12-si paytaxt Uaqaduquda, 5-i Bobo-Diulasoda) şəbəkəsi həyata keçirir. 1963 ildən televiziya: dövlət teleşirkəti "Televizyon nasyonal Burkina" ("Television Nationale Burkina", TNB) və bir neçə yerli özəl kanal fəaliyyət göstərir. 4 gündəlik qəzet, 20 həftəlik və aylıq dövri nəşrlər (2005; əsasən, fransız dilində), o cümlədən "Pei" ("Le Pays", 1991), "Sidvaya Hebdo" ("Sydwaya Hebdo"), "Observatör Paalqa" ("L'Observateur Paalga", 1973), "Evenman" ("L'Évenement", 2001), "Endepandan" ("L'İndépendant", 1993), satirik "Jurnal dü jödi" ("Journal du Jeudi", 1992), "Topvizyon" ("Topvision") bulvar dərgisi və s. nəşr olunur.

### Ədəbiyyat

1930-cu illərdən fransız dilində inkişaf edir. "Qara cadugərlərin sirləri" (1934) essesinin müəllifi D. Delorom ilk milli ədib hesab olunur. Müstəqillik əldə edildikdən sonra artan vətənpərvərlik R. Nikyema ("Ziddiyyətli eskizlər", 1967), P. Babu Bamuni ("Mübarizə", 1980) və O. Palın ("Peyzajın doğurduğu nəşə və kədər", 1994) poetik toplularında öz əksini tapmışdır. Görkəmli şair F. Pasere Titinqin əsərlərində ("Taclı durnalar uçub gedəndə", 1976; "Anqola üçün poemalar", 1982; "Məzar üstündə süd", 1984) vətəndaşlıq duyğusu ilə lirizm birləşir. 1960-cı illərdən dramaturgiya yaranmağa başlayır: U. Uedraoqo ("Xəsis Moaqa", 1961), P. Dabire və J. Ginqanın ("Ata, unut məni...", 1990; "Ümidin harayı", 1991) pyesləri. N. Boninin xronika janrında yazılmış "Ötən çağların alatoranlığı" (1962) ilk milli romanında bvamu (qur qrupu) xalqının həyat tərzi, məşğuliyyəti və adət-ənənələrindən bəhs olunur. Analoji tematika 70–90-cı illərin nəsrində də öz əksini tapmışdır (E. Savadoqo, R. Kabore Bil, S. Kulibali). 90-cı illərdə J. Damibin "Yoxsul oğlu Patapbtaal" (1990), "Ata, mən hər şeyə görə səni bağışlayıram!" (1991) sosial-məişət romanları yaranmışdır.

### Memarlıq və təsviri sənət

Çoxsaylı qayaüstü rəsmlər (ovçuların və vəhşi heyvanların təsviri; Yatenqa r-nu) ən qədim incəsənət abidələridir. Ənənəvi memarlıq və incəsənət mosi, bobo, fulbe xalqlarının yaradıcılığı ilə təmsil olunur: dairəvi (konusvarı damlı) və ya düzbucaqlı (yastı damlı) evlər; əcdadların keçmiş kultu və totem heyvanlarla bağlı ağac heykəlcikləri və maskalar; ağac üzərində oyma (mebel əşyalarının tərtibatında); tunc və mis məmulatlar (allahların təsvirləri, nəbati və zoomorf ornamentli bəzəklər); həndəsi naxışlı parçalar. Kiçik bürcləri və piramidaşəkilli böyük minarələri olan gilmöhrə məscidlər də B.-F. memarlığı üçün səciyyəvidir (Uaqaduqu, Bobo-Diulaso şəhərlərində). Orta əsrlərə aid Qava ş.-nin qalıqları saxlanılmışdır. Müasir memarlıq fransız memarlarının rəhbərliyi altında inkişaf edir (Uaqaduqudakı tikililər).

### Musiqi

Etnik ənənələrin müxtəlifliyi ilə seçilən musiqi qonşu dövlətlərin mədəniyyəti ilə sıx bağlıdır. Peşəkar şifahi ənənələr indiki B.-F. və Qana ərazilərində yerləşmiş orta əsr dövlətlərinə gedib çıxır. Süjetləri 14 əsrə aid edilən mosilərin tarixi mahnıları, qurma təbilçilərinin sənəti, ksilofonlarda, fleytalarda və təbillərdə ansambl ifaçılığı qorunub saxlanılmışdır. Oxuma ənənəsinin əsas təmsilçiləri *qriotlardır*.

Musiqi əkinçilik (B.-F. xalqlarının çoxunda), ailə, inisiasiyalar, əcdadların kultu ayinlərini müşayiət edir; müsəlman və xristian bayramları günlərində səslənir. Qur dillərində danışan xalqlar arasında xor və ansambl oxumaları, mande dillərində danışan xalqlar arasında tək oxumalar yayılmışdır; bu xalqların musiqi alətləri arasında *membranofonlar* və *idiofonlar* (dəflər, müxtəlif formalı təbillər, ksilofonlar, gurultulu alətlər və s.) üstünlük təşkil edir, *lamellafonlar*, fleytalar, trubalar (o cümlədən siqnal şeypurları), musiqili kamanlar, sitralar və arfalardan da istifadə olunur. Ölkənin ş.m. r-nlarında qədim köçəri tayfaların ənənələri ilə yanaşı, ərəb musiqisi elementləri də var; musiqi alətləri arasında barmaqla və yayla çalınan birsimli alətlər seçilir.

Müstəmləkə dövründə şəhərlərdə Qərbi Avropa (Fransa) mədəniyyəti elementləri, 20 əsrin sonlarında ABŞ və Karib hövzəsi ölkələrinin populyar musiqisi yayılmışdır. 1960 ildən dövlət yerli ənənələrin inkişafına kömək edir: yarmarkalar, dövlət bayramları, festivallar zamanı xalq musiqiçilərinin, həvəskar və peşəkar ansamblların iştirakı ilə musiqili rəqs tamaşaları göstərilir. Populyar musiqi ansamblları ("More de Maneqa", "Armoni voltaik" və s.) ənənəvi musiqini yeni ifaçılıq tərzləri ilə uyğunlaşdırır. Uaqaduquda "Qanzuqu" Milli folklor ansamblı fəaliyyət göstərir, Elmi Tədqiqatlar Mərkəzində musiqi alətləri kolleksiyası toplanmışdır.

### Kino və teatr

B.-F.-nun siyasi müstəqillik qazanması ilə bağlı hadisələr haqqında 1960-cı illərdə çəkilmiş ilk xronikal-sənədli filmlərlə milli kinematoqrafın əsası qoyulmuşdur. 1973 və 1976 illərdə "Pariyanın qanı" (rej. D.Kola) və "Barışıq yolunda" (rej. B.Yonli) tammetrajlı bədii filmləri ekrana çıxmışdır. 1978 ildə Uaqaduquda bir çox Afrika dövlətləri nümayəndələrinin təhsil aldığı Afrika kinematoqrafiya təhsili in-tutu, 1979 ildə isə Tropik Afrika kinematoqrafçılarının fəaliyyətini koordinasiya edən Afrika kino istehsalı mərkəzi yaradılmışdır. 1980 ildən paytaxtətrafı Kosoqoda SİNAFRİK kinokompleksi fəaliyyət göstərir. Rej.-lardan İ.Uedraoqonun ("Poko", 1981; "Seçim", 1986; "Tilay", 1990, Kann Beynəlxalq kinofestivalının mük.; "Traorenin samba rəqsi", 1992, Berlin Beynəlxalq kinofestivalının mük.; "Ürəyin fəryadı", 1994; "Kini və Adams", 1996), Q.Kaborenin ("Allah vergisi", 1982; "Zan Boko", 1988; "Rabi", 1992; "Buud Yaam", 1997) çəkdiyi filmlər milli kinematoqrafiyaya beynəlxalq şöhrət gətirmişdir. 1969 ildən Tropik Afrika ölkələrinin "kinematoqrafiya paytaxtı" adını almış

"Tilay" filmindən kadr.





Burqas şəhərindən görünüş.

Uaqaduquda iki ildən bir tammetrajlı və qısametrajlı filmlərin Ümumafrika kinofestivalı (FESPAKO) keçirilir. Uaqaduquda bir sıra dram teatrları və rəqs truppaları fəaliyyət göstərir: Qardaşlıq teatrı (1975), "Burjon dü Burkina" (1987) və s.

*Əd.*: Burkina Faso // R o u c h A., C l a v r e u i l G. Litteratures nationales d'ecriture française. P., 1986.

**BURQ** – orta əsrlərdə Qərbi Avropada feodalın yaşadığı möhkəmləndirilmiş tikili. B.-ları 8 əsrin sonu – 9 əsrin əvvəllərində inşa etməyə başlamışlar. Müdafiə üçün əlverişli yerlərdə (yüksəkliklərdə, kiçik adalarda və s.) salınır, sədlər və xəndəklərlə əhatələnirdi. 10 əsrdən başlayaraq həm ev, həm də sonuncu müdafiə xəttini təşkil edən əsas qalanı – *donjonu* qorumaq məqsədilə B.-ların möhkəm daş divarları, qaldırılan körpüləri və s. olurdu. Yaşayış və müdafiə funksiyalarını daşıyan B.-lar tədricən feodalın tabeliyində olan ərazilərin inzibati mərkəzinə çevrilirdi. B.-ların ətrafında sənətkarların və tacirlərin məskunlaşması 11–13 əsrlərdə şəhərlərin yaranmasına təkan verdi. Nəticədə B.-ların çoxu sürətlə formalaşan orta əsr şəhərlərinin özəyi oldu. Azad şəhər əhalisi *bürgerlər* adlanmağa başladı. 15 əsrdən hərbi texnikanın, ilk növbədə, artilleriyanın inkişafı ilə əlaqədar B.-ların istehkam əhəmiyyəti azaldı. Onları mərkəzində *qəsrlər* olan daha mürəkkəb memarlıq kompleksləri əvəz etdi.

Burqas yaxınlığında "Pomoriye" kurortu.



**BURQÁS** – Bolqarıstanın c.-ş.-ində vilayət. Sah. 7,7 min $km^2$. Əh. 415,8 min (2011). İnz. m. Burqas ş.-dir.

**BURQÁS** – Bolqarıstanın ş.-ində şəhər. Burqas vil.-nin mərkəzi. Əh. 206 min (2013). Qara dənizin Burqas körfəzi sahilindədir. Ölkənin ən iri dəniz portudur (yük dövriyyəsi 12,4 min. *t*; 2004). D.y. və avtomobil yolları qovşağı. Aeroport.

17 əsrdən Pirqos, yaxud Burqos (yun. πύργος – qala) adlı şəhər kimi məlumdur. B.-ın mühüm iqtisadi və mədəni mərkəz kimi inkişafı 19 əsrin sonlarında, Osmanlı hakimiyyətinin devrilməsindən sonra başlamışdır. 1903 ildə B. dəniz portu açılmışdır. Burqas–Yambol d.y. xəttinin tikintisi (1890) şəhərin və portun inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdir. 1900-cü illərdə şəhərdə çoxsaylı k.t. xammalı (şəkər, yağ istehsalı, unüyüdən) və balıq emal edən sənaye müəssisələri meydana gəlmişdir. 1950–70-ci illərdə bir sıra iri sənaye obyektlərinin tikintisi B.-ın sürətli yüksəlişinə səbəb olmuşdur; kurort rayonu mərkəzi kimi də inkişaf etmişdir.

Şəhərin mərkəzi hissəsində 19 əsr – 20 əsrin əvvəllərnə aid memarlıq abidələri saxlanılmışdır: Müq. Kirill və Mefodi kafedral kilsəsi (1894–1905, memar R. Toskani), bir sıra kilsələr; Mandren gölü sahilində orta əsr qalasının qalıqları və s. Balıq sənayesi ETİ (1965); Asen Zlatarov ad. un-t (1963); etnoqrafiya, tarix, arxeologiya, təbiətşünaslıq muzeyləri və Burqas regional muzeyi (1912); rəssamlıq qalereyası [1945 ildə açılmışdır; 1966 ildən sinaqoqun binasında (1905–10, memar R. Toskani)], şairə P. Dubarovanın ev-muzeyi; P. Yavorov ad. regional kitabxana (1888), "Adriana Budevska" dövlət dram teatrı (1912), "Sofiya" dram teatrı, Dövlət kukla teatrı, opera teatrı, filarmoniya fəaliyyət göstərir. "Sahildə" Beynəlxalq teatr festivalı (1998 ildən), hər il "Burqas və dəniz" populyar mahnılar festivalı; bədii gimnastika üzrə "Qranpri" seriyasından ənənəvi beynəlxalq turnirlər keçirilir.

Balkan y-a-nda ən iri "Lukoyl-Neftoxim" neft emalı z-du (2003 ildə 5,2 mln. *t* neft emal edilmişdir) B.-ın ən mühüm sənaye müəssisəsidir. "Port-Burqas" gəmi təmiri z-du (1974); d.y. vaqonları, kabellər, sənaye ventilyatorları, kimyəvi preparatlar, tikinti materialları və konstruksiyaları, dəftərxana malları ("Xemus Mark" SC f-ki, əsası 1924 ildə qoyulmuşdur) istehsal edən müəssisələr; yüngül və yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir.





B.-dan 15 *km* şm.-q.-də, Aytoska-Planina d-rının ətəklərində Burqaski-Mineralni-Bani balneoloji kurortu yerləşir. Əsas təbii müalicə amilləri azotlu–xloridkarbonatlı–natriumlu termal (41°C-yədək) mineral su bulaqları və Atanasov gölünün sulfidli palçığıdır. Kurortda hərəkət və dayaq orqanları, periferik sinir sistemi, həzm orqanları, dəri, ginekoloji xəstəliklər müalicə olunur. B. yaxınlığında meşə-parklar və təbiət rezervatları, Axtopol, Nesebır, Pomoriye, Sozopol, Günəşli Sahil dənizyanı kurortları var.

**BÚRQKMAYR** (Burgkmair) Hans (1.1. ilə 10.5. arası, 1473, Auqsburq – may ilə avqust arası, 1531, Auqsburq) – alman boyakarı və qrafiki. Atası rəssam Toman Burqkmayrdan (1444 – 1523), Kolmarda M. *Şonqauerdən* (1488–89); Auqsburqda ehtimal ki, Böyük H. Holbeyndən (təqr. 1492) dərs almışdır. 1498 ildən Auqsburqda boyakarlar gildiyası ustası olmuşdur. Müq. Yekaterina monastırının sifarişi ilə Roma bazilikalarına həsr olunmuş silsilə tablolar ("Müq. Pyotr bazilikası", 1501 və s., Dövlət qalereyası, Auqsburq) çəkmişdir (Böyük Holbeynlə birlikdə). Rəssam bir neçə dəfə İtaliyada, əsasən, Milan və Venesiyada olmuşdur (təqr. 1495 və 1506–07). Şimal İntibahının görkəmli nümayəndələrindən biridir. Yaradıcılığının yetkin dövrü əsərlərində Şm. İtaliya boyakarlığından (əsasən, Venesiya məktəbindən) əxz etdikləri əksini tapmışdır. Bu xüsusiyyətlər B. tablolarının kolorit quruluşunda, sərbəst və tarazlaşdırılmış kompozisiya həllində özünü göstərir ("Məryəm ana körpəsi ilə", 1509–10, Almaniya milli muzeyi, Nürnberq). Yaradıcılığının son dövr əsərlərinin kompozisiyası bir qədər ağırlığı ilə fərqlənir ("Esfir və Artakserks", 1528, Qədim pinakoteka, Münxen). Qravüralar üçün çoxsaylı rəsmlər çəkmişdir. Bir neçə lövhədən rəngli çap (*kyaroskuro* texnikası) tətbiq etməklə ksiloqrafiyanın imkanlarını genişləndirmişdir.

**BURQOMİSTR** (alm. Bürgermeister – şəhərlilərin rəisi) – bəzi Avropa ölkələrində (Avstriya, Belçika, Danimarka, Niderland, Almaniya) yerli özünüidarəetmə orqanlarının başçısı. B. bələdiyyə şurası, yaxud bilavasitə əhali tərəfindən seçilir. O, bir qayda olaraq, bələdiyyə məmurlarını vəzifəyə təyin və vəzifədən azad edir, büdcəni idarə edir, bəzən isə yalnız təmsilçilik funksiyalarını həyata keçirir. Yerli özünüidarəetmənin burqomistr modelinin adı B. vəzifəsi ilə əlaqədardır: yerli şura üzvlərinin öz aralarından seçdikləri B. eyni zamanda həmin şuranın sədri və icmanın icraedici hakimiyyətinin başçısıdır.

**BÚRQOS** – İspaniyanın şm.-ında, Kastiliya-Leon muxtar vil.-ndə şəhər. Burqos əyalətinin inz. m. Əh. 179,9 min (2012). Arlanson çayı sahilindədir. Avtomobil və d.y.-ları qovşağı.

B.-un yerində məskən Roma dövründən xeyli əvvəl olmuşdur. 884 ildə onun yerində mavrlarla mübarizədə mühüm rol oynayan B. qalası salınmışdır. 932 ildən qraflığın, 1037 ildən *Kastiliya* krallığının paytaxtı olmuşdur. Təqr. 980 ildə B.-da yepiskopluq təsis edilmişdir. 1169–1515 illərdə B.-da dəfələrlə korteslərin iclasları keçirilmişdir. 16 əsrin ortalarınadək B. Florensiya və Flandriyaya ixrac edilən Kastiliya yununun əsas satış mərkəzi idi. 1808–13 illərdə Napoleonun qoşunları tərəfindən işğal edilmişdi. İspaniyada vətəndaş müharibəsinin (1936–39) ilk mərhələsində F. *Franko* hökumətinin iqamətgahı olmuşdur.

B.-un tarixi mərkəzində qotik üslubda inşa edilmiş baş kilsə (1221–60; q. qüllələri 1442–58, memar X. de Koloniya; 13 kapella, 15–18 əsrlər; "Qızıl pilləkən", 1519–23, memar D. de *Siloe*; kluatr, 14 əsr; *Ümumdünya irsi* siyahısına daxil edilmişdir) və orta əsrlərə aid qalanın qalıqları üstünlük təşkil edir. San-Esteban (1280–1350, Retablo muzeyi), Santa-Aqueda (13 əsr), San-Xil (13–16 əsrlər), San-Nikolas (15 əsr; retablo – 1505, memar F. de Koloniya) qotik kilsələri; San-Xuan monastırının xarabalıqları (1091 ildə əsası qoyulmuşdur; 15 əsrdə yenidən tikilmişdir; rəssam M. Santa-Mariyanın muzeyi, 1968 ildən) saxlanılmışdır. *Plateresko* üslubunda tikilmiş Kasa-del-Kordon (15 əsrin sonu), Kasa-de-Miranda (1545; hazırda Arxeologiya muzeyidir, əsası 1871 ildə qoyulmuşdur) sarayları; Ratuşa (1791, memar V. Rodrigesin layihəsi); III Karlın abidəsi (1784, memar A. Tome) B.-un memarlıq abidələridir. Şəhər kənarında Uelqas-Reales (kilsə 1187–1230; roman kluatrı, 12 əsrin sonu) və Miraflores monastırları (kilsə 1454–98, memarlar X. və S. de Koloniya) var. B. un-ti (1994) fəaliyyət göstərir.

B.-da kimya, kağız-sellüloz, poliqrafiya, yun sənayesi inkişaf etmişdir; metal konstruksiyalar, süni liflər istehsal olunur. Kustar üsulla suvenirlər hazırlanır. Heyvandarlıq məhsulları ticarətinin regional mərkəzidir.

**"BÚRQTEATER"** (Burgtheater) – Vyanada teatr. 1741 ildə imperatriçə Mariya Tereziyanın sərəncamı ilə Hofburq sarayı yaxınlığındakı Mixaelerplatsda, ballar keçirilən evdə əsası qoyulmuş, "Saray nəzdində kral teatrı", yaxud "B" adını almışdır. 1740-cı illərdə burada italyan və fransız artistləri opera və balet tamaşaları göstərirdilər. 1751 ildən Avstriya truppalarının çıxışları başlanmışdı. İmperator II İosifin dekreti ilə 1776 ildə saray teatrı statusunu və "Alman milli teatrı" adını almış, 1794–1918 illərdə "Burq yanındakı İmperator və Kral saray teatrı" adlanmışdır, 1918 ildən indiki adını daşıyır. "B." 1888 ildən yeni binada (memarlar Q. *Zemper* və K. Hazenauer, rəssamlar Q. *Klimt*, E. Klimt və b.) fəaliyyət

Burqos. Baş kilsə.





"Burqteater". Vyana.

göstərir; bina 1945 ildə bombardmandan zərər çəkmiş və 1955 ildə tam bərpa olunmuşdur. 18 əsrdən başlayaraq teatrın repertuarı, əsasən, alman və fransız klassiklərinin əsərləri, U. Şekspirin, İntibah dövrü ispan dramaturqlarının pyesləri, antik dramaturgiya əsasında formalaşmışdır. 19 əsrdə F. Qrilparserin, A. Şnitslerin, H. fon Hofmanstalın əsərləri, həmçinin Vyana komediyaları və "xalq pyesləri" tamaşaya qoyulurdu. 20 əsrdə repertuara daxil olan H. İbsenin və G. Hauptman, L. N. Tolstoy, A.P. Çexov, F. Verfel və b.-nın yeni səhnə həlli tələb edən pyesləri "B."-i akademizm prinsiplərindən uzaqlaşdırdı. 1920–40-cı illərdə teatrda ekspressionistlərdən rej. A. Heyne, rəssamlar A. Roller, R. Heylinq, O. Ştrnad çalışmışlar. 1950–60-cı illərdə *Stanislavski sisteminin* davamçısı, opera islahatçısı V. *Felzenşteyn* "B."-in səhnəsində özünün ən yaxşı dram tamaşalarını yaratmışdır. 1970-ci illərdə burada C. *Streler* və J. L. *Barro* tamaşalar hazırlamışlar. Lakin teatrın əsas bədii dəyərini onun aktyor ansamblı təşkil edirdi; müxtəlif illərdə R. Aslan, E. Balzer, H. Bleybtroy, K.M. Brandauer, P. Vesseli, Ş. Volter, Y. *Kayns*, Y. Lampe, E. Ort, Q. Foss, M. Heltau, P.A. Hörbiger, L. Şvarts və b. bu ansamblda çalışmışlar. 1986–99 illərdə teatra alternativ, sosial-tənqidi cərəyanın nümayəndəsi olan alman rej.-u K. Paymann rəhbərlik etmişdir. O, aktual ictimai problemlərə və müasir repertuara xüsusi diqqət yetirirdi. 1999 ildən truppaya K. Baxler rəhbərlik edir. Teatrda A. Bret, L. *Bondi*, K.M. Qrüber, P. Sadek və b. aparıcı rej.-lar çalışır.

**BURQULYUK MƏDƏNİYYƏTİ** – Çirçik və Anqren çayları (Özbəkistan) vadisində Son Tunc–Erkən Dəmir dövrünə (e.ə. 9–3 əsrlər) aid arxeoloji mədəniyyət. 1940 ildə A.İ. Terenojkin tərəfindən müəyyənləşdirilmişdir. B.m.-nin erkən mərhələsinin (e.ə. 9–7 əsrlər) formalaşmasında Şimali Fərqanə (Çust-eylatan kompleksi) və çöl əhalisi (*Andronovo mədəniyyəti*, *Köbəli keramika mədəniyyəti*, *Tazabaqyab mədəniyyəti* daşıyıcılarının nəsilləri) iştirak etmişdi. B.m.-nin daşıyıcıları arasında *saklar* mühüm rol oynayırdılar. B.m.-nin son mərhələsi (e.ə. 6–3 əsrlər) Cənubi Qazaxıstanın son sak mədəniyyətinin (*usunlar*) və Şimali Fərqanə mədəniyyətinin (Aktam məzarlığı) təsiri altında formalaşmışdır. Məskənlər qazmalardan (çoxu ovalşəkillidir, çoxkameralı qazmalar da var) və yüngül karkaslı tikililərdən ibarətdir. B.m.-nin son mərhələsində qalalar (Kanka) meydana gəlmişdir. Oval lüləkli və üfüqi yapma qulplu konusvarı qablar, kürəvarı bardaqlar, açıq rəngli anqoblu, bəzən qəhvəyi naxışlı kiçik yarımkürəvi kasalar səciyyəvidir. Təsərrüfatın əsasını oturaq, ehtimal ki, köçəbə maldarlıq, çaybasarlarda əkinçilik təşkil edirdi, kiçik irriqasiya sisteminin mövcudluğu güman olunur. Tunc emalı yerli xammala (Çatkal-Kurama metallurgiya r-nu) əsaslanırdı. B.m.-ni Kaunçin mədəniyyəti (Çaç) əvəz etmişdir.

**BURQÚNDİYA** (lat. Burgundia, fr. Bourgogne) – Fransada Rona, Sona, Luara çayları hövzəsində və Senanın yuxarı axarında tarixi vil. Bu ərazidə orta əsrlər və Yeni dövrdə aşağıdakı dövləti, inzibati qurumlar və feodal mülkləri mövcud olmuşdur: 1) mərkəzi Lion ş. olmaqla 457 ildə meydana gəlmiş və 534 ildə *Frank dövlətinə* birləşdirilmiş (onun tərkibində burqundların məskunlaşdığı ərazi "B." adını saxlamışdı) german tayfası *burqundların* krallığı; 2) 9 əsrdə Frank dövlətinin parçalanması gedişində keçmiş Burqund krallığı ərazisinin bir hissəsində meydana gəlmiş 2 burqund krallığı: Y u x a r ı B u r q u n d i y a (888 ildə yaranmışdı) və A ş a ğ ı B u r q u n d i y a, yaxud Arelat (879); təqr. 933 ildə vahid B., yaxud *Arelat* krallığında (mərkəzi Arl ş.) birləşdirilmiş, 1032–33 illərdə Müqəddəs Roma imperiyasının tərkibinə keçmişdi; 3) B. qraflığı, yaxud *Franş-Konte*; 4) 14–15 əsrlərdə birləşdirilmiş ərazilər ilə birlikdə Avropanın ən güclü dövlətlərindən biri olan *Burqundiya hersoqluğu* (9–15 əsrlər); 5) 1477 ildə əsas şəhəri Dijonla birlikdə Fransa mülklərinə birləşdirilmiş B. hersoqluğunun torpaqları əsasında yaradılan B. əyaləti; 1790 ildə Sona və Luara, En, Kot-d'Or, Yonna dep-tlərinə bölünmüşdür.

**BURQUNDİYA HERSOQLUĞU** – Qərbi Avropada 9–15 əsrlərdə feodal mülkü. German tayfası *burqundların* keçmiş krallığının 843 ildə Qərbi Frank krallığının tabeliyinə keçən şm.-q. hissəsində yaranmışdı. Burqundiya hersoqu Raul 923–936 illərdə Fransa kralı idi. 956 ildə onun sülaləsi kəsildikdən sonra B.h. kral *Huqo Kapetin* qardaşları Robertilər sülaləsinin hakimiyyətinə keçdi; onlardan kiçiyinin ölümündən sonra 1002 ildə kral domeninə qatıldı, lakin 1032 ildə kral *I Henrixin* kiçik qardaşı, B.h.-nun birinci Kapetinqlər sülaləsinin (1361 ildə kəsildi) banisi Robertə verildi. 10–12 əsrlərdə B.h. kilsə islahatı uğrunda mübarizə aparan rahiblər hərəkatının mərkəzinə çevrildi. 1363 ildən B.h.-nu ikinci Kapetinqlər sülaləsi (*Valua* sülaləsinin yan qolu) idarə edirdi. 14 əsrin sonlarından Burqundiya hersoqları öz torpaqlarını sürətlə genişləndirirdilər. 1384 ildə *Cəsur Filipp* Flandriyanın, Artua və Burqundiya qraflığının varisi oldu. *Xeyirxah Filipp* Namür (1421), Brabant və Limburq (1430), Hollandiya, Zelandiya, Henneqau (Eno) (1433), Pikardiya və bəzi digər fransız torpaqlarını (1435), Lüksemburqu (1431) Burqundiya torpaqlarına birləşdirdi. *Cəsur Karl* Geldern və Zütfeni (1473) hersoqluğun ərazisinə qatdı. Burqundiya hersoqlarının nüfuzu kilsə mülkləri Turne, Kambre, Lyej və Utrextə də yayıldı. 15 əsrin ortalarında B.h. özünün silki-nümayəndəli təsisatına – ştatlara və parlamentə (o dövrdə hersoq məhkəməsi) malik "Qərbin böyük hersoqunun" güclü, faktiki olaraq müstəqil dövlətinə çevrildi. B.h. Avropa siyasətində mühüm rol oynamağa başladı, Fransa ilə siyasi rəqabətə girdi və Lotaringiya, Elzas və İsveçrəni özünə tabe etməyə cəhd göstərdi. Cəsur Karl imperator III Fridrixlə ona kral titulunun verilməsi barədə danışıqlara başladı. Lakin Fransa tərəfindən dəstəklənən İsveçrə və Lotaringiyaya qarşı müharibədə B.h. məğlubiyyətə uğradı. 1477 ildə Nansi yaxınlığındakı vuruşmada Cəsur Karlın ordusu darmadağın edildi, özü isə öldürüldü. Burqundiya hersoqlarının mülkləri Fransa və Habsburqlar imperiyası arasında bölüşdürüldü. B.h. imtiyazlı əyalət kimi ştatları, parlamenti və hesablama palatası ilə birlikdə Fransa kral domeninə birləşdirildi. Burqundiya hersoqlarının Niderland mülkləri Cəsur Karlın qızı Burqundiyalı Mariyanın ölümündən (1482) sonra *Habsburqlara* keçdi. *Böyük Fransa inqilabı* (1789–94) illərində Burqundiya əyaləti ləğv edildi və bir neçə departamentə bölündü.

**BURQUNDLAR** (lat. Burgundiones, Burgundii) – şərqi germanlar tayfası. İlk dəfə təqr. eramızın 70 ilində *Böyük Plini* tərəfindən *vandalların* arasında qeyd olunmuşlar. Eramızın 1–2 əsrlərində Aşağı Visla və Orta Oder arasındakı ərazidə məskunlaşmışdılar. Gepidlərin təzyiqi ilə c.-q.-ə hərəkət edərək 4 əsrin ortalarında Mayn çayının Reynə töküldüyü rayona gəlib çatmışdılar. 3–4 əsrlərdə digər german tayfaları ilə birlikdə Romanın Aşağı Almaniya əyalətinə soxularaq *alemanlarla* mübarizə aparmış, onları q.-ə doğru sıxışdırmışdılar. 406 ildə B. kral Qundaxarın başçılığı ilə Reyn çayını keçərək Maynsı tutmuş və mərkəzi Vorms ş. olmaqla krallıq yaratmışdılar. 413 ildə Qərbi Roma imperiyası B.-ı *federatlar* kimi tanıdı, onların məskunlaşması üçün Vorms rayonunda Qalliyanın sərhədyanı vilayətlərini ayırdı. Bu dövrdə B. xristianlığı qəbul etdilər. 430-cu illərin əvvəllərində *belqlərin* torpaqlarını tutmağa cəhd göstərdilər. 435 və 436 illərdə Roma sərkərdəsi *Aetsinin* komandanlığı ilə romalılar və hunların birləşmiş qüvvələri tərəfindən darmadağın edildilər. 443 ildə B.-ın qalıqları Aetsi tərəfindən federatlar statusu ilə Sabaudiyada (Savoyya) məskunlaşdırıldı. B.-ın bir hissəsi Reynin sağ sahilində yaşamaqda davam edirdi. 451 ildə B. *Attilanın* Qalliyaya səfərində iştirak etdilər. 457 ildə imperiyanın zəifləməsindən istifadə edərək Rona çayının hövzəsini tutan B. burada öz krallıqlarını (bax *Burqundiya*) yaratdılar. Burqundiya cəmiyyətinin həyatını və onun qall-Roma əhalisi ilə qarşılıqlı münasibətlərini nizama salan hüquq normaları Burqundiya qanunnaməsində (Lex Burgundionum; 5 əsrin 2-ci yarısı – 6 əsrin əvvəlləri; bax *Barbar qanunnamələri*) əksini tapdı. 534 ildə B. *franklara* tabe oldular.



Burla çayı. Altay diyarı.

**BURLÁ** – RF-də, əsasən, Altay diyarı ərazisində çay. Uz. 489 *km*, hövzəsinin sah. 12,8 min $km^2$. Kulunda çölü ilə axır. Məcrası aydın nəzərə çarpmır, aşağı axınında quruyan göllər zənciri ilə qırılır; gursulu illərdə axarsız Böyük Ajbulat gölünə tökülür, azsulu dövrdə isə Böyük Topolnoye gölündə bitir. Ortaillik su sərfi Böyük Topolnoye gölünə töküldüyü yerdən yuxarıda 3 $m^3$/*san*-dir. Dayaz yerləri qışda donur. Göllərdə balıqçılıq və balıqyetişdirmə təsərrüfatları var.

**BURLAR** – bax *Afrikanyorlar*.

**BÚRLE MARKS** (Burle Marx) Robertu (4.8.1909, San-Paulu – 4.6.1994, Rio-de-Janeyro) – Braziliya landşaft memarı, rəssam, heykəltəraş, botanik. Almaniyalı mühacir Vilhelm Marksın ailəsində doğulmuşdur (K. *Marksın* nəslindəndir). Berlində (1928–29, boyakarlıq və botanikanı öyrənmişdir), həmçinin Rio-de-Janeyrodakı Milli Rəssamlıq Məktəbində təhsil almışdır. Braziliyanın tropik florası əsasında bağ-park incəsənətində müasir üslub yaratmışdır. 1934–37 illərdə Resifidəki bağ və parklara rəhbərlik etmişdir. B. Rio-de-Janeyroda bir sıra iri ansambl layihələrini [Maarif və səhiyyə nazirliyi-

Burle Marks. Mərkəzi şəhər parkı. Kuala-Lumpur (Malayziya).



nin binası (hazırda Mədəniyyət sarayı, 1937–43, memarlar Ş.E. *Le Korbüzye*, L. *Kosta*, O. *Nimeyer*, rəssam K. *Portinari* və b.), Müasir İncəsənət Muzeyi (1954–62, memar A.E. Reydi), Kopakabananın gəzinti yerləri və parkları (1959, 1970), beynəlxalq aeroport (1971) və s.] həyata keçirmişdir. Brazilia ş.-nin tikintisində Nimeyer ilə əməkdaşlıq etmişdir: digər mərkəzi ansamblların süni göl, parterlər və bağ-park kompozisiyaları (1960–70-ci illər). B. Pampulyada (Belu-Orizonti yaxınlığında, 1941–44, memar Nimeyer) memarlıq kompleksinin yaşıllıq zonaları, Karakasda Del-Este parkı (1960–61) və Parisdə YUNESKO binaları kompleksinin yaşıllaşdırma layihələrinin (1963) müəllifidir. Boyakarlıq və dekorativ-tətbiqi sənətlə (keramika, şüşə, zərgərlik məmulatları və s.) məşğul olmuşdur.

**BURLÈSK**, b u r l e s k  p o e z i y a s ı (fr. burlesque, ital. burlesco – zarafatcıl, burla – zarafat sözündən) – ədəbiyyatda parodiyalı üslublaşdırma forması. Burada komik effekt mövzunun onun ifadə tərzinə uyğun gəlməməsi üzərində qurulur. B.-də yüksək (ali) mövzu kinayəli tərzdə, parodiya şəklində, bəsit (bayağı) mövzu isə, əksinə, yüksək üslubda işlənir. B. nümunəsi olan "Siçanlarla qurbağaların müharibəsi" (e.ə. 6–5 əsrlər) poeması Homer eposuna parodiya kimi yazılmışdır. "B." anlayışı italyan şairi F.Berninin "Opere burlesche" (1548) toplusunun adından götürülmüşdür. Avropa ədəbiyyatında B. İntibah, xüsusilə *klassisizm* dövründən, əsasən, poema janrında yayılmışdır (bax: *İroikomik poema*). Fransız şairi P. Skarronun (1610–60) "Libasını dəyişmiş Vergili" (1648–52) poeması (Qədim Roma şairi Vergilinin "Eneida" eposunun parodiyası) B.-in bariz nümunəsidir.

**BÚRMÁ**, B i r m a  q ı s a t ü k l ü  p i ş i y i – pişik cinsi. 1930-cu illərdə ABŞ-da Birmadan gətirilmiş pişiyin nəsli əsasında

Burma pişiyi.



yetişdirilmişdir. Bədəni əzələli, göründüyündən ağırdır. Başının almacıq sümükləri çıxıq (enlisifət), burnu dibindən əyilmişdir. Gözləri sarı, girdə və ya üst xətti düzlənmişdir. Tükü zərif, parlaq, bədəninə sıx yapışan, tiftiksizdir. Rəngi qəhvəyi, mavi, tünd-qəhvəyi, bənövşəyi, qırmızı, açıq-sarı və onun müxtəlif çalarlarındadır. B.-nın bədəninin alt hissəsi belinə nisbətən azca açıq rəngdədir. Adamayovuşan və oynaqdır.

**BURMA** – Tiflis qub.-nın Borçalı qəzasının Lori nahiyəsində (31.12.1937 ildən Noyemberyan r-nu), Tona (Debed) çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 1930-cu illərdə kənd ləğv edilərək əhalisi qonşu azərb. kəndlərinə köçürülmüşdür. Onların bir hissəsi indiki Gürcüstan ərazisində Sadaxlı k. yaxınlığında eyniadlı kənd salaraq orada məskunlaşmışdır.

**BURMA MAŞINI** – toxuculuq və trikotaj ipliklərinin, sapların (tikiş, bədii tikmə və cərrahiyyə sapları), *kord, viş*, kanat, qaytan və s. burulmuş sapların alınması üçün maşın. Toxuculuq müəssisələrində və kimyəvi liflər istehsal edən z-dlarda tətbiq olunur. B.m. iydən (əsas işlək orqan), üzərində burulmaq üçün sap sarğıları yerləşdirilmiş çərçivədən, ilkin sapları burulma zonasına verən cihazdan və hazır (burulmuş) sapları bobinlərə sarıyan mexanizmlə uyğunlaşdırılmış burucu orqandan ibarətdir. İkiqat B.m.-ları, halqavarı B.m.-ları, fasonlu B.m.-ları və s. olur. İkiqat B.m.-nda burucu diskin bir dövrü ərzində iplik iki dəfə burulur. Halqavarı B.m. "iy–halqa–qaçağan" sistemi şəklində burucu mexanizmlə təchiz edilmişdir. Qaçağanın (məkiyin) halqa boyunca yerdəyişməsi və sapın burulması iyə nəzərən tərpənməz olan burulmuş sap sarğısının sürətlə fırlanması ilə yerinə yetirilir. Fasonlu B.m.-nda (halqavarı B.m.-nın bir növü) ilkin saplar burulma zonasına müxtəlif sabit və ya dəyişən sürətlə verilir. Belə rejim düyünlər, vintvarı sahələr, ilgəkvarı, girintili-çıxıntılı formalar və s. şəklində struktur effektlərinin yaranmasını təmin edir. Rəng effekti almaq üçün müxtəlifrəngli ilkin saplardan istifadə olunur. Struktur-rəng effektləri proqram vasitələri və mikroprosessor texnikasının köməyi ilə yaradılır. B.m. çox sayda (adətən, yüzlərlə) iyin olması ilə xarakterizə edilir. B.m.-larında əvvəlcədən birləşdirilmiş (eşilmiş) sapların burulması ilə yanaşı, bəzi hallarda sapların birləşdirilməsi əməliyyatı da yerinə yetirilir. Özüburma və *əyirmə-burma maşınlarında* sapların dartılması, birləşdirilməsi, burulması və sarınması prosesləri uyğunlaşdırılmışdır.

**BURMANƏK** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Aşağı Tarım kəndistanında, Sirdan qəs.-ndən 24 *km* ş.-dədir.

**BURMƏLİK** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 11,5 *km* şm.-dadır.

**BURNONİT** (fransız mineraloqu J.L. Burnonun soyadından) – mürəkkəb sulfidlər qrupundan mineral, $PbCuSbS_3$. Romb sinqoniyasında kristallaşır. Qısa prizmatik və ya sütunvarı kristallar əmələ gətirir. Adətən, dənəvər aqreqatlar yaradır. Təkərvarı, yaxud xaçşəkilli ikiləşmələr səciyyəvidir. Rəngi poladı-bozdan də-



Burnonit.

miri-qarayadək dəyişir. Metal parıltılıdır. Sərtliyi 2,5–3, sıxlığı təqr. 5840 $kq/m^3$. Kövrəkdir. Dielektrikdir. Hidrotermal yataqlarda qalenit, pirit, xalkopirit, sfalerit, falers filizləri, bulanjerit və külçə qızılla assosiasiyada olur. Yüksək konsentrasiyalarda qurğuşun, mis, sürmə filizidir; digər filiz mineralları ilə birlikdə çıxarılır. RF-də, Ukraynada, Çexiyada, Almaniyada, həmçinin ABŞ-da, Avstraliyada və Cənubi Amerikanın bir sıra ölkəsində yataqları var.

**BURNONVİL** (Bournonville) Avqust (Ogüst) (21.8.1805, Kopenhagen – 30.11.1879, Kopenhagen) – Danimarka balet artisti, xoreoqraf, pedaqoq. Danimarkada atası Antuan Burnonvildən və V. Qaleottidən, sonra Parisdə (1820 və 1824–26), o cümlədən O. *Vestrisdən* dərs almışdır. Paris operasında (M. *Talyoninin* partnyoru) çıxış etmişdir. 1829 ildə Kopenhagenə qayıtmış, rəqqas (1848 ilə qədər; "Pol və Virginiya" və s.) və baletmeyster (1877 ilədək) kimi fəaliyyət göstərmişdir; 1855–56 illərdə Vyanada çıxış etmiş, 1861–64 illərdə Stokholmda, Danimarka kral sarayı nəzdində rəqs dərsləri vermişdir. 53 balet tamaşaya qoymuşdur; onlardan bəziləri saxlanılmış və dünya repertuarına daxil edilmişdir. Ən məşhurları H. Lövenşellin "Silfida" (1836), H.S. Paulli, E. Helsted, N.V. Qade və X. Lümbünün "Neapol, yaxud Balıqçı və onun nişanlısı" (1842), Paullinin "Konservatoriya, yaxud Qəzetdə evlənmə elanı" (1849) və "Brüggedə yarmarka, yaxud Üç bəxşiş" (1852), Qade və Y.P.E. Hartmanın "Xalq rəvayəti" (1854), Helsted və Paullinin "Cendzanoda gül festivalı" (1858) baletləridir. 1874 ildə Rusiyaya səfər etmiş B.-in sonuncu işi K.X. Mollerin "Sibirdən Moskvaya" (1876) baletidir. Romantik baletin görkəmli nümayəndəsi olan B. müxtəlif janrlarda baletlər yaratmışdır: lirik dramlar, komediyalar, pantomim baletlər, vodevil-baletlər və s. Klassik və səciyyəvi rəqsləri birləşdirərək, Danimarka xalq eposundan istifadə etmiş, müxtəlif xalqların folklorundan bəhrələnmişdir. Görkəmli pedaqoqun yaratdığı və "Burnonvil dərsi" adlanan tədris metodikası şagirdləri tərəfindən yazıya alınmış, balet pedaqoji praktikasına daxil edilmişdir.

B. ənənələrinə dəqiq əməl edilməsi nəticəsində Danimarka baletində klassik rəqs, demək olar ki, dəyişiklik edilmədən saxlanılmış və bu günədək əhəmiyyətini itirməmişdir.

**BURNUS** (ər. البرن) – ərəblərdə ağ yun parçadan tikilən başlıqlı bürüncək.

**BÚROS** (Borås) – İsveçin c.-q.-ində şəhər. Əh. 66,3 min (2010). Katteqat boğazının 70 *km*-liyində, Viskan çayı sahilində, Höteborqdan ş.-dədir. Nəql. qovşağı. Beynəlxalq aeroport.

1621 ildə salınmışdır. Qəsr (15 əsr), kilsə (1699), Ratuşa (1909–1910, memarlar İ. Tenqbum və E. Torulf) saxlanılmışdır. Un-t (1977), Ali memarlıq məktəbi fəaliyyət göstərir. Rəssamlıq, müasir incəsənət, toxuculuq (2000) muzeyləri, açıq səma altında etnoqrafiya muzeyi, yanğınsöndürmə işi muzeyi; şəhər teatrı (1964); zoopark var.

Xidmət sferası (o cümlədən internet-ticarət) inkişaf etmişdir. B. ölkədə ən iri toxuculuq (17 əsrdən; şəhərdə və ətrafında sahənin milli məhsulunun təqr. yarısı istehsal olunur) və tikiş (paltar, yataq dəyişəyi və ev üçün digər məhsullar) mərkəzlərindən biridir. Elektron məmulatları, tikinti və bəzək materialları istehsal olunur.

**BUROVAR SİLSİLƏSİ** – Azərb. Resp.-nın c.-ş.-ində, Talış dağ sistemində silsilə. Şm.-q.-dən c.-ş.-ə doğru uzanır. Maks. hünd. 1105,5 *m* (Vəlidağ). Səthi Paleogenin vulkanogen-çökmə süxurlarından ibarətdir. B.s. ona paralel olan Peştəsər silsiləsindən dağarası çökəkliklə ayrılır və c.-ş.-ə tərəf ensizləşərək alçalır. Mərkəzi hissəsi Viləş çayının dərəsi ilə kəsilmişdir. Yamacları meşəlikdir (palıd, fıstıq, vələs). Aşağı hissəsində dəmirağac, şabalıdyarpaq palıd, azat və s. bitir. Tikinti daşı çıxarılır. Mineral bulaqlar var.

**BUROVDAL** – Azərb. Resp. İsmayıllı r-nu ərazisində dağ. Baş Qafqaz silsiləsinin c.-q. yamacında, Girdiman çayının sol sahilindədir. Hünd. 2929,7 *m*.

**BUROVDAL** – Azərb. Resp. İsmayıllı r-nunun Həftəsov ə.d.-ndə kənd. R-n mərkəzindən 53 *km* şm.-ş.-də, Girdiman çayının sol sahilindədir. Əh. 181 (2008); heyvandarlıq və əkinçiliklə (əsasən, kartof) məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana var.

**BURRAKÁTHA** – qədim hind xalq teatrı növü. Andhra əyalətində (Cənubi Hindistan) yaranmış, sonralar ölkədə geniş yayılmışdır. Tamaşalarının süjeti folklordan, ənənəvi poeziya və mənsur rəvayətlərdən götürülmüşdür. Adətən, gəzərgi olan B. truppası 3 nəfərdən ibarət idi (mətn ifaçısı və duetlə oxuyan 2 müğənni). B. truppaları feodal saraylarında da olmuş, 19 əsrdə tənəzzülə uğramışdır. 20 əsrin ortalarından yenidən təşkil edilmişdir.

**BURRÉ** (fr. bourrée, bourrer sözündən – gözlənilməz sıçrayışlar etmək) – qədim fransız rəqsi. 16 əsrin ortalarında yaranmışdır. 17 əsrdən B. səciyyəvi cüt ölçülü (alla breve), iti templi, dəqiq ritmli saray rəqsi olmuşdur. 17 əsrin ortalarında instrumental süitanın tərkibinə salınmış, J.B. Lülli B.-ni opera və baletə daxil etmişdir. 18 əsrin 1-ci yarısında Fransanın hüdudlarından kənarda da məşhur idi. Q. Muffat, G.F. Hendel, İ.S. Bax, A. Kampra, A.K. Detuş, J.F. Ramo öz yaradıcılıqlarında B.-yə müraciət etmişlər.

**BURSA** – Türkiyənin Mərmərə bölgəsində il. Sah. 10,9 min $km^2$. Əh. 2,7 mln. (2013). İnz. m. Bursa ş.-dir. Ərazisinin 1/3-i dağlıq (yüksək nöqtəsi Uludağ – 2543 *m*), qalan hissəsi düzənliklərdir (Bursa ovalığı və s.). Faydalı qazıntıları: xrom, bor, maqnezit, molibden, volfram, liqnit və s. Ərazisi seymoaktiv zonada yerləşir. İqlimi şm.-da mülayim, c.-da nisbətən sərtdir. Orta temp-r yanvarda 5,1°C, iyulda 24,2°C-dir. Yağıntının illik miqdarı 700 *mm*-dən (ovalıqlarda) 1500 *mm*-ədəkdir (dağlarda). Mühüm çayı Nilufər, böyük gölləri İznik və Uluabaddır. K.t.-nda heyvandarlıq və əkinçilik üstünlük təşkil edir. Maşınqayırma, toxuculuq, yeyinti sənayesi müəssisələri var. Turizm inkişaf etmişdir.

**BURSA**, B r u s a – Türkiyənin şm.-q.-ində şəhər. Bursa ilinin inz. m. Uludağ silsiləsinin şm.-q. ətəklərində, Gemlik körfəzinin (Mərmərə dənizi) 30 *km*-liyindədir. Əh. 1,7 mln. (2011). Avtomobil yolları qovşağı. Aeroport.

Əsası e.ə. 2 əsrdə (digər məlumatlara görə, e.ə. 3 əsrdə) qoyulmuş, *Vifiniya* hökmdarı Prusanın (Προυσίας) şərəfinə adlandırılmışdır (yun. Προῦσα, lat. Prusa). Roma imperiyasının, sonralar Bizansın tərkibinə daxil idi. 11 əsrdə dəfələrlə səlcuqların, bizanslıların və səlibçilərin əlinə keçmişdir. 1326 ildə *Orxan* tərəfindən tutulmuş və Osmanlı dövlətinin paytaxtı olmuşdur. 1360-cı illərin əvvəllərində (digər məlumatlara görə, 1402, yaxud 1413 ildə) paytaxtın Ədirnəyə köçürülməsindən sonra ilk türk sultanlarının türbəsi kimi öz əhəmiyyətini saxlamışdır. 1402 ildə *Teymurun* hücumuna məruz qalmış, 1607 ildə yeniçərilərin qiyamı zamanı yandırılmışdı. 15–17 əsrlərdə B. ipək parça emalı və ticarət mərkəzi, Xudavəndiyar sancağının əsas şəhəri olmuşdur. 18–19 əsrlərdə B.-nın sənaye-ticarət mərkəzi kimi rolu azalmışdı (balneoloji kurort kimi əhəmiyyətini saxlamışdı; bununla qədimdən məşhur idi). Antantanın Türkiyəyə müdaxiləsi (1918–22) gedişində yunan qoşunları tərəfindən işğal olunmuş və şiddətli döyüşlər meydanına çevrilmişdi; 1922 ilin sentyabrında azad edilmişdir. 1960-cı illərdən B. mühüm beynəlxalq turizm mərkəzidir.

Türk memarlığının ən zəngin abidələri İstanbuldan sonra B.-dadır. B.-da ilk altı Osmanlı sultanının türbəsi var. Bunlardan biri səkkizbucaqlı, iri günbəzi qurğuşunla örtülmüş Osman Qazi türbəsidir (14 əsr). Orxan bəy (tikintisi 1304 ildə başlamış, 1417 ildə yenidən qurulmuşdur), I Bəyazid (1390) məscidləri, Ulu came (1395–1400), Muradiyyə məscidi (1424–27), yaxınlığında I Mehmed Çələbinin türbəsi (Yaşıl türbə, 1420–21) və hospital (1394) olan Yaşıl came (1413–24, memar Hacı İvaz) Türkiyənin ən gözəl memarlıq abidələrindəndir. Yaşıl türbənin nəfis naxışlarla bəzədilmiş qapılarını azərb. usta Əhməd Təbrizi hazırlamışdır. Yaşıl camenin (hünd. təqr. 15 *m*) mehrabını Təbriz ustaları özlərinin hazırladığı



Bursa şəhərindən görünüş.

müxtəlifrəngli çinilərlə bəzəmişlər. B.-da həmçinin çoxlu qədim mədrəsə, hamam, karvansara, imarət, körpü və s. var. B.-nın qərb hissəsində içqala yerləşir. 20 əsrdə italyan memarı L. Piççinatonun rəhbərliyi ilə şəhərin yenidənqurma planı işlənib hazırlanmışdır. Uludağ un-ti (1975), Arxeologiya muzeyi (Yaşıl mədrəsənin binasında, 1420) var.

B. kənd təsərrüfatı rayonu mərkəzidir (sitrus bitkiləri). Türkiyənin iqtisadi cəhətdən inkişaf etmiş sənaye şəhərlərindəndir. İstanbuldan sonra ikinci ən böyük ixracatçıdır. Maşınqayırma, toxuculuq, yeyinti, ağac emalı sənayesi müəssisələri fəaliyyət göstərir. Metropoliten var.

**BURSİT** (son lat. bursa – kisəcik) – oynaq (çox vaxt dirsək, bazu və diz) nahiyəsinin sinovial (selikli) kisəciklərində ekssudat toplanması ilə onların iltihabı. B.-in səbəbləri travmalar, uzunmüddətli ağır iş, oynaq xəstəlikləri (podaqra, revmatoidli artrit və s.), infeksiyalardır (məs., brusellyoz, vərəm). Kəskin B. zaman ağrı, kisəciklər yerləşən yerdə flüktuasiyalı şişkinlik, oynaqda hərəkətin məhdudlaşması, bədən temp-runun artması qeyd edilir. Xroniki B. çox vaxt peşə ilə əlaqədar olur (döşəməsilənlərdə diz oynağının, şaxtaçılarda dirsək oynağının B.-i və s.): kisəciklər yerləşən yerdə hərəki yumşaq şiş təzahür edir, onun üzərindəki dəri dəyişilmir, ətrafın funksiyası pozulmur; residiv verməsi ilə səciyyələnir. D i a q n o z rentgenoloji müayinə və kisəcik boşluğunun punksiyası ilə təsdiqlənir. M ü a l i c ə s i konservativdir: sakit şərait, antibiotiklər, iltihab əleyhinə dərmanlar, fizioterapiya. İrinli və xroniki B. zamanı: ekssudatın deşilib çıxarılması, antiseptiklərlə, antibiotiklərlə yuyulub dezinfeksiya edilməsi, hormonların yeridilməsi, cərrahi müalicə. Şüa müalicəsindən də istifadə oluna bilər. P r o f i l a k t i k a s ı: daimi travmaların aradan qaldırılması, qoruyucu sarğının gəzdirilməsi. Heyvanlarda da (əsasən, at və qaramalda) B.-ə təsadüf edilir.

**BURSUT** – Azərb. Resp. Astara r-nunun Asxanakəran ə.d.-ndə kənd. R-n mərkəzindən 36 *km* şm.-q.-də, Vəşəru çayının sahilində, Peştəsər silsiləsinin ətəyindədir. Əh. 308 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur.

**BURTASLAR** – Şərqi Avropa düzənliyində məskunlaşmış qədim xalq. "Burtas" etnonimi 9 əsrin 1-ci rübündən ərəb və fars coğrafiyaşünaslarının (İbn Rüstə, İbn Havqəl, Əl-Məsudi və b.) əsərlərində və bir sıra digər tarixi mənbələrdə qeyd edilir. Bir sıra tədqiqatçıların fikrincə, 8–10 əsrin 1-ci rübündə B. Donets-Don çayarasındakı meşə-çöl zonasında, xəzərlər ilə Volqaboyu bulqarları arasında yaşamışlar. *Saltovo-Mayats mədəniyyətinin* meşə-çöl (alan-as) variantının arxeoloji abidələri onlarla əlaqələndirilir. *Xəzər xaqanlığının* tələbi ilə zərurət olduqda 10 min nəfərə qədər silahlanmış süvari çıxarırdılar. 965 ildə Kiyev knyazı Svyatoslavın Xəzər xaqanlığına yürüşü zamanı darmadağın edilmişlər. Bundan sonra şm. və şm.-ş.-ə, Volqaboyu bulqarları və mordvaların ərazisinə köçmüşlər. Digər mülahizəyə (A.X. Xalikov və b.) görə, B. eramızın 1-ci minilliyinin sonlarında Sura və Mokşa çayları hövzəsində təşəkkül tapmışlar.

12 əsrin əvvəllərində rus salnamələrində B. (mordvalar və çeremislərlə yanaşı) Kiyev knyazlarından asılı xalq kimi qeyd olunurlar; 1380 ildə B. *Kulikovo vuruşmasında (1380)* iştirak edən bəylərbəyi *Mamayın* qoşununun tərkibində idilər. 16–17 əsrlərin akt sənədlərində B. Mordva və Meşşera diyarlarında gəlmələr kimi qeyd edilirlər.

Tarixşünaslıqda B.-ın etnolinqvistik mənsubiyyətlərinə dair 3 əsas versiya mövcuddur: mordva (V.V. *Bartold*, A.P. Novoseltsev, P.S. Savelyev və b.), türk (B.N. *Zaxoder*, A.X. Xalikov və b.) və alan-as (G.Y. Afanasyev, O.B. Bubenok, T. Levitski, O. Pritsak və b.) versiyaları.

**BURU** – İndoneziyada, Malayya arxipelaqının Molukk a-rı qrupunda ada. Sah. 8,8 min $km^2$. Səthi dağlıqdır (hünd. 2429 *m*-ədək, Kaupalatmada d.); Kaynozoyun çökmə süxurlarından ibarətdir. Rütubətli tropik meşələr var. Qiymətli oduncaq, hindqozu ləpəsi, ədviyyat ixrac olunur. Əsas şəhəri Namleadır.

**BURUC** – Azərb. Resp. Tərtər r-nunda kənd. Buruc ə.d.-nin (Buruc, Güləbatlı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 3 *km* şm.-ş.-də, Tərtər çayının sahilində, Qarabağ düzündədir. Əh. 1060 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi var.





**BURUCERDİ** Hacı Ağahüseyn Təbatəbai (1875, Burucerd – 1961, Qum) – İranın ilahiyyatçı alimi. İlk təhsilini Burucerddə almışdır. 1892 ildə İsfahana getmiş, rical, fiqh, üsul, fəlsəfə və riyaziyyat elmlərini öyrənmişdir. 1944 ildən Qum Elmi Hövzəsinə rəhbərlik etmiş, 1946 ildən eyni zamanda *mərcə ət-təqlid* olmuşdur. B. məzhəblərarası yaxınlaşmada mühüm rol oynamış, Qahirədəki "İslam məzhəbləri arasında yaxınlaşma mərkəzi" ilə sıx əməkdaşlıq etmişdir. İctimai fəaliyyətlə də məşğul olmuş, çoxlu sayda xəstəxana, kitabxana, mədrəsə və məscid inşa, yaxud bərpa etdirmişdir. Qırxa yaxın əsəri var. Başlıca əsəri "Cami əhadis əş-şiə"dir ("Şiə hədislərinin cəmi").

**BURUCU MOMENT** – bax *Burulma, Qüvvə momenti.*

**BURUQ** – Azərb. Resp. Lerik r-nunun Kirəvud ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* şm.-dadır. Əh. 403 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb var.

**BURUQBUYNUZ ANTİLOP** – bax *Harna.*

**BURUQBUYNUZ KEÇİ,** m a r x u r (Capra falconeri) – boşbuynuzlular fəsiləsindən məməli heyvan. Bədəninin uz. 140–170 *sm*, cidov hünd. 100 *sm*-ədəkdir; erkəklərin kütləsi 120 *kq*-adək, dişilərinki 60 *kq*-adək olur. Uzun, yastılaşmış buynuzları bir-biri ilə üz-üzə, burğu və ya vint şəklində burulmuşdur (adı buradandır). Tükü boz qum rəngli, kürənvarı (sarımtıl-qırmızı), ayaqlarının ön tərəfi qara zolaqlıdır. Erkəklərinin boynunda və döşündə uzun tüklər sallanır. Qərbi, Orta və Cənubi Asiya dağlarında yayılmışdır. 1500–3000 *m* yüksəkliklədə dərələrin qayalı yamaclarında məskunlaşır. Qışda dağların 900 *m*-ədək aşağı hissələrinə köçür. Yayda, əsasən, ot bitkiləri, qışda kolların yarpaq və zoğları ilə qidalanır. Eyni cinsiyyətli fərdlərdən ibarət kiçik qruplarla yaşayır; payızda hövrəyəgəlmə vaxtı 30-adək heyvanın əmələ gətirdiyi sürü yazadək qalır. Balalama aprel–may aylarında olur. 1–2 bala doğur; balalar artıq bir gündən sonra analarının dalınca gəzir. B.k. hər yerdə azalmışdır, adı BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

Buruqbuynuz keçi (Capra falconeri).



**BURUQQURAŞDIRMA İŞLƏRİ** – yerüstü qazıma avadanlığının yığılıb quraşdırılması üzrə işlər kompleksi, neft və qaz quyuları inşasının ilkin mərhələsi. Quyuların layihə dərinliyi, qazıma qurğularının tipi, intiqalın növü (dizel, elektrik), neft sahələrinin şəraiti və s.-dən asılı olaraq B.i. 2–3 gündən 90 (bəzən daha çox) günədək aparılır. B.i.-nə qazıma meydançasının və ona yanaşma yollarının hazırlanması, boru kəmərlərinin düzülməsi, beton özüllərin tikintisi (dərin qazıma üçün), əsasların (buruqaltı və s.) qurulması, həmçinin buruq və qazıma avadanlığının montajı aiddir. Qazıma qurğusunun konstruksiyası, qruntun dayanıqlığı, ərazinin relyefi, r-nun məskunluğu və yığma meydançasının uzaqlığından asılı olaraq aqreqat, kiçikbloklu və iribloklu montaj üsulu seçilir. A q r e q a t m o n t a j zamanı avadanlıq, buruq universal nəqledici ilə yığma meydançasına gətirilir və burada buruq qurğusunun kinematik sxeminə uyğun quraşdırılır. K i ç i k b l o k l u m o n t a j zamanı avadanlıq qabaqcadan metal bloklar (12–15) üzərində yerləşdirilir, yığma meydançasına gətirilir və burada ayrı-ayrı bloklar kinematik sxemlər üzrə qurulur. İ r i b l o k l u m o n t a j zamanı bütün avadanlıq və buruq 3–4 metal blok (əsas) üzərində qurulur və xüsusi ağıryükdaşıyıcılarla yığma meydançasına (və ya bir qazıma meydançasından digərinə) aparılır. Bütün montaj üsullarından istifadə etməyə imkan verən qurğular da mövcuddur.

**BURULĞAN KAMERALI MÜHƏRRİK** – hər bir silindri burulğan kamerası ilə birləşdirilmiş *dizel* (daxiliyanma mühərriki). Mühərrikin sıxma kamerası həcmindəki burulğan kamerasında yanacaq əvvəlcədən daxil olan hava burulğanı ilə qarışdırılır. B.k.m.-in üstünlüyü dizelin iş rejimi dəyişdikdə yanma prosesinin stabilliyi, yanacağın keyfiyyətinə az həssaslığı, yanma məhsullarının az zəhərli olması və s.; çatışmazlığı yanacağın xüsusi sərfinin yüksək olmasıdır.

**BURULĞANLI AXIN** – kiçik elementləri (hissəcikləri) irəliləmə hərəkəti etməklə yanaşı, həm də ani ox ətrafında fırlanan maye və ya qazın axını. Təbiətdə və texnikada axınların çoxu B.a.-dır. Məs., suyun boruda həm *laminar axını* halındakı, həm də *turbulent axını* halındakı hərəkəti B.a.-dır. Burada hissəciklərin fırlanması suyun borunun divarına yapışması (divarda suyun sürəti sıfıra bərabərdir) ilə əlaqədardır. Divardan uzaqlaşdıqda sürət tezliklə artır, ona görə qonşu layların sürətləri bir-birindən xeyli fərqlənir. Bir layın tormozlayıcı təsiri, digər layın isə sürətləndirici təsiri (şəkil) nəticəsində hissəciklərin fırlanması, yəni B.a. baş verir.




Borunun en kəsiyi boyunca mayenin *v* sürətinin paylanması; elementar həcmlər oxlarla göstərildiyi kimi fırlanır.

Kəmiyyətcə B.a.-ı burulğan vektoru və ya **v** sürət vektorunun fəzada paylanması ilə təyin olunan **ω**=rot **v** (**v** maye və ya qazın sürətidir) burulğanlıqla xarakterizə etmək olar. Bəzi sahələrdə (nahiyələrdə) **ω**=0 olarsa, belə axın burulğansız axın adlanır. Hər bir nöqtədə **ω** vektoru boyunca istiqamətlənən toxunan xətt burulğanlı xətt adlanır. Qapalı əyridən keçən burulğanlı xətlər məcmusu burulğanlı borucuq əmələ gətirir. Bu borucuğun maye daxilində nə başlanğıcı, nə də qurtaracağı (sonu) ola bilməz; o, qapalı ola bilər (burulğanlı halqa) və ya mayenin sərhədlərində başlanğıc və qurtaracağa malik olmalıdır. B.a.-a misallar: atmosferdə – siklonlar, antisiklonlar, qasırğalar; okeanda – diametri bir neçə yüz kilometrə və dərinliyi bir neçə kilometrə çatan sinoptik burulğanlar; çaylarda – çuxurların (çalaların), maneələrin yanından axıb dövrələndikdə əmələ gələn su burulğanları (qijovlar) və kiçikmiqyaslı burulğanlar və s.

Hər bir özlü mayedə sürtünmə qüvvəsinin təsiri nəticəsində burulğanlar öz intensivliyini dəyişərək tədricən sönür. Su və xüsusən havanın özlülüyü kiçik olduğundan onlarda yaranan burulğanlar uzun müddət, məs., atmosferdə antisiklonlar və siklonlar aylarla, okeanda si-

noptik burulğanlar bir neçə il davam edə bilər. Özlülüyü olmayan mühitdə (ideal maye) burulğan nə yarana, nə də sönə bilər. Kiçiközlülüklü mühitlərdə (su, hava) B.a. özlülük nisbətən böyük olan sahələrdə: axaraq cismi dövrələyən suyun yaxınlığındakı layda, *sərhəd layında* baş verir. Maye ilə dövrələnən cismin arxasında axın, dalğa, burulğan izləri formalaşır ki, bu da çox vaxt burulğan şırımları əmələ gətirir. Cismin mühitdə hərəkəti zamanı əmələ gələn burulğanlar cismə təsir edən *ön müqavimət* qüvvəsinin və *qaldırıcı qüvvənin* böyük bir hissəsini müəyyənləşdirir. Təyyarələrin, suüstü və sualtı gəmilərin, dəniz qurğularının, vintlərin, turbin kürəklərinin və s. hesablanması və konstruksiyası zamanı B.a. nəzərə alınır. B.a.-ın öyrənilməsi atmosferdə və hidrosferdə enerjinin, maddənin, o cümlədən çirklənmələrin dinamikası və daşınma proseslərinin təhlilində əhəmiyyətli yer tutur.

**BURULĞANLI BORU** – sürətlə hərəkət edən qaz axınını (burulğanı) soyuq və isti axınlara ayırmaq üçün silindrik boru şəklində quruluş; bəzən burulğanlı energetik ayırıcı adlanır. B.b.-nun iş prinsipi Rank effektinə – yüksəksürətli burulğanlı qaz axınını boruya tangensial (toxunan üzrə) daxil etdikdə onun təbəqələşməsi hadisəsinə əsaslanır. B.b.-nu fransız mühəndis-metallurqu J.L. Rank (G.L. Ranque) yaratmış və 1934 ildə bu qurğu üçün patent almışdır. B.b.-da mərkəzdənqaçma qüvvələrinin təsiri altında fırlanan axın kameranın divarlarına tərəf atılır, borunun oxətrafı zonasında yaranan seyrəlmə isə intensiv əks-axının yaranmasına gətirib çıxarır. Borunun divarları və oxu ətrafındakı sahədə temp-rlar fərqi 100°C və daha çox olur. Axının divarların yaxınlığındakı qızmar hissəsi fırlanaraq B.b.-nun ucuna tərəf hərəkət edir və borunun kənarları ilə tənzimləyici konus arasındakı halqaşəkilli boşluqdan çıxır; oxətrafı sahədə yaranan soyuq axın borunun əks tərəfindən xaric edilir. B.b.-nun üstün cəhətləri konstruksiyasının sadəliyi, yığcamlığı, istismar zamanı təhlükəsiz və etibarlı olmasıdır. B.b. soyutma, isitmə, vakuumlama, havalandırma və s. qurğularında, həmçinin müxtəlif qaz




və qaz qarışıqlarının təmizlənməsi, ayrılması və nəqlində tətbiq edilir.

**BURULĞANLI CƏRƏYANLAR** – bax *Fuko cərəyanları.*

**BURULĞANLI NASOS,** tangensial nasos – 1) dinamik nasos; burada maye fırlanan işlək çarxın yaratdığı burulğan nəticəsində enerji alır və işlək çarxdan kənara, tangensial istiqamətdə yerini dəyişir. B.n. az maye verimi və böyük basqı tələb olunan hallarda tətbiq edilir. Benzin, turşular, qələvilər, kriogen mayelər və s. vurulması üçün xüsusilə perspektivlidir. 2) Vakuum nasosu; burada seyrəlmə burulğan kamerasına toxunan üzrə hərəkət edən sıxılmış qazın və ya qızmış buxarın burulğanlı axınının oxu boyunca yaradılır. Qalıq təzyiq 0,7 *Pa*-a qədərdir.

**BURULĞANLI OCAQ** – qazın, yanacağın və posanın burulğanlı hərəkət etdiyi kameralı ocaq. Xırdalanmış bərk yanacağın yandırılması üçündür. Daxili səthi üzlənmiş (futerlənmiş) kameraya yanma üçün hava və yanacaq təzyiq altında hava axını ilə tangensial olaraq verilir. Yanacaq və havanın belə yüksək başlanğıc sürəti ilə (150 *m/san*-ədək) verilməsi intensiv burulğanlı ikifazalı axını təmin edir. Mərkəzdənqaçma qüvvələrinin təsirindən kameranın oxətrafı sahəsində əmələ gələn seyrəlmə yanma məhsullarının geriyə, məşəlin dibinə istiqamətlənmiş yüksəktemp-rlu axınını yaratmaqla yanacağın yanmasını stabilləşdirir. Bərk yanacağın yanma prosesində əmələ gələn posalar kameranın divarlarına atılır və sobadan xaric olunur.

Burulğanlı axın üçün səciyyəvi olan axının intensiv yerdəyişməsi və fırlanması, həmçinin qaz və bərk fazalar arasındakı böyük sürət fərqi (fazaların sürüşmə sürəti adlanır) bərk yanacağın yanma kamerasının səmərəliliyini xeyli artırır. Belə ki, B.o. üçün həcmin istilik gərginliyi (yanma kamerasının vahid həcmində vahid zamanda ayrılan istilik miqdarı) adi kameralı ocaqlar üçün müvafiq kəmiyyətdən 15–20 dəfə artıq, posanı tutma dərəcəsi isə 15% çoxdur. B.o.-da qaz-dispersiya axınının yüksək sürəti onun daşıyıcılıq qabiliyyətini təmin edir. Bu, B.o.-da ölçüsü 10 *mm*-dən artıq olan iri yanacaq hissəciklərini yandırmağa, bununla da yanacağın narın üyüdülməsinə ehtiyac olmadığından yanacaq hazırlığında enerjiyə qənaət etməyə imkan verir. B.o.-ın bu xüsusiyyəti müxtəlif tullantıların yandırılması üçün ondan istifadə perspektivini yaradır.

B.o.-dan İES-lərdə iri kameralı ocaqlar üçün ilkin yanma kamerası kimi istifadə edilir; bu zaman birkameralı ocaq bir neçə B.o.-la təmin edilə bilər. Şaquli və üfüqi B.o.-lar olur; əsas ocaq ilə səmərəli quraşdırılmasına görə üfüqi B.o.-lar daha çox istifadə edilir.

**BURULĞANSIZ AXIN** – bax *Potensial axın.*

**BURULMA,** riyaziyyatda – bax *Diferensial həndəsə.*

**BURULMA,** materiallar müqavimətində – bir-birinin əksinə yönəlmiş paralel qüvvələrin (cüt qüvvələrin) brusun ucuna təsiri nəticəsində onun deformasiyası. Bu qüvvələrin yaratdığı burucu moment cismi uzununa ox ətrafında fırlatmaqla burulma deformasiyasına (məs., vintlərdə, burğularda, vint açarlarında) səbəb olur.

En kəsiyinin radiusu $a$ olan dairəvi brus üçün müstəvi kəsik hipotezindən istifadə edilir: en kəsiyi müstəvi kimi qalır, radiuslar istiqamətindəki liflər əyilmir və onların arasındakı bucaq dəyişmir. Brusun nöqtələri ox ətrafındakı dairə üzrə yerlərini dəyişməklə uzununa və eninə kəsiklərin lifləri arasında $\gamma$ sürüşməsinə gətirir və eninə kəsikdə radiusa perpendikulyar istiqamətdə $\tau$ toxunan gərginliklərinin yaranmasına səbəb olur. Bu gərginliklərin momentləri cəmi tətbiq olunan $M$ burucu momentinə bərabərdir, yəni:

$$M = 2\pi\int_0^a r^2\tau dr\,.$$

Burucu momentin təsiri altında brusun en kəsikləri bir-birinə nəzərən müəyyən bucağa (burulma bucağına) qədər dönür. Bütövlükdə brusun deformasiyası nisbi burulma bucağı ($\theta$) ilə xarakterizə olunur. Brusun vahid uzunluğuna düşən B. bucağı nisbi burulma bucağı ($\theta$) adlanır və $\gamma=\theta r$; $r$ – oxdan olan məsafədir.

Elastik brusda $\tau = \dfrac{Mr}{I_p}$,

$$\gamma = \frac{Mr}{GI_p}\,,\ \theta = \frac{M}{GI_p}\,; \qquad (*)$$

burada $I_p=\pi a^4/2$ – dairəvi kəsiyin polyar ətalət momenti, $G$ – sürüşmənin elastiklik modulu, $GI_p$ – B. zamanı çubuğun bərkliyidir. Toxunan gərginliklər radius boyunca xətti paylanır (şəkil *a*). Elastik deformasiya zamanı yaranan ən böyük toxunan gərginlik $\tau_{max}=Ma/I_p$-dir. O, $M_s=I_p\tau_s/a$ burulma momentindəki sürüşmə zamanı $\tau_s$ axıcılıq qiymətləri həddinə çatır. $M>M_s$ olduqda, brusun yan səthinə bitişik hissədə plastik deformasiya baş








**Dairəvi en kəsikdə toxunan gərginliklərin paylanması:** *a* – elastik çubuq üçün; *b* – elastik – plastik çubuq üçün; *c* – qalıq gərginlik.

verir, mərkəzi hissəsində isə elastik deformasiya qalır. (*) düsturları bu hala tətbiq olunmur. Toxunan gərginliklər radius boyunca qeyri-xətti paylanır (şəkil *b*), burucu moment götürüldükdə isə qalıq gərginlik əmələ gəlir (şəkil *c*). *Sen-Venan prinsipinə* görə, gətirilmiş həll burucu momentin reallaşma üsulundan asılı olmayaraq brusun uclarından 2*a*-dan böyük məsafədəki hissələrində doğrudur.

Müstəvi kəsiklər hipotezi ödənməyən qeyri-dairəvi kəsiyə malik brusların B.-ya dair məsələlərinin həlli üsulları işlənib hazırlanmışdır. İxtiyari formada en kəsiyə malik nazikdivarlı brusların da B. nəzəriyyəsi inkişaf etdirilmişdir.

**BURULMA RƏQSLƏRİ** – elastiki sistemlərin rəqs növlərindən biri; bu zaman sistemin ayrı-ayrı elementləri *burulma* deformasiyasına məruz qalır. B.r.-nə misal kimi burucu rəqqasın hərəkətini göstərmək olar; bu, bir ucu bərkidilmiş, o biri ucunda ağır kütləli disk olan elastiki mildir. Burucu rəqqas müxtəlif fiziki cihazlarda, məs., sürüşmə zamanı *elastiklik modulunu,* bərk cisimlərin daxili sürtünmə əmsalını, mayelərin özlülük əmsalını təyin etmək üçün istifadə olunur. Maşın və mexanizm konstruksiyalarında B.r. arzuolunmazdır.

**BURULMUŞ MƏMULATLAR** – ipliyin, kompleks sapların, kağız zolaqlarının və s. burulmasından alınan məmulatlar. B.m.-a tikiş sapları, kanat, vişqaytan, kəndir və s. aiddir. Parça, trikotaj və s. istehsalında işlənən burulmuş saplar (burulmuş ipliklər), fasonlu ipliklər və s. kimi yarımfabrikatlar B.m.-a aid deyildir.

**BURULULAR,** burular, gebfukalar (özlərini gebemliarlar – "yer adamları" adlandırırlar) – İndoneziyada (Buru a.) Ambon-Timor xalqlarından biri. Sayları 35 min nəfərdir (1995). Buru dilində danışırlar. Dindarları adanın daxili vil.-lərində ənənəvi inanclarını saxlayanlar; şm. sahilində xristianlar, c. sahilində müsəlmanlardır.

Ənənəvi məşğuliyyətləri talalarda tropik toxa əkinçiliyi (çəltik, darı, maniok, batat) və ovçuluqdur (qaban, maral, kuskus və s.), it və toyuq yetişdirirlər. 19–20 əsrlərdən kamfora yağı və kopra istehsalı ilə məşğuldurlar. Ənənəvi sosial təşkilin əsasını dağlıq yerlərdə qohumluğu ata xətti ilə hesablanan qəbilə (fena), sahilboyunda isə qonşu icma (neqri) təşkil edir. 20 əsrin ortalarınadək racələrin (kayeli) hakimiyyətini tanıyırdılar. Ənənəvi inancları – baş allah Opo Geba Snulat və onun elçisi Nabiatın kultudur.

**BURUN** – quru onurğalılarının (tetrapod) və insanın tənəffüs yollarının başlanğıc hissəsi. Xarici şöbədən və burun boşluğundan ibarətdir. İnsanın xarici B.-u kəllənin skelet strukturları (burun sümükləri, əng sümüyünün alın çıxıntıları və qığırdaqlar) və yumşaq toxumalardan (əzələlər və dəri) əmələ gəlmişdir. Sümük divarları ilə məhdudlaşan B. boşluğu kəllə-beyin boşluğu, göz yuvaları ilə ağız boşluğu arasında yerləşir. Burun arakəsməsi B. boşluğunu xarici mühitə – xarici B. dəlikləri ilə, ağız boşluğuna – daxili B. dəlikləri (xoanlar) ilə açılan sağ və sol hissələrə bölür. Məməlilərdə və insanda B. boşluğunun yan divarlarına üç cüt B. balıqqulaqları bərkidilmişdir və onlar sağ və sol B. boşluğunu yuxarı, orta və aşağı B. keçəcəklərinə ayırır. Aşağı B. keçəcəyinin ön hissəsinə qoşa gözyaşı-burun kanalı açılır. Orta B. keçəcəyini B.-un əlavə cibləri (insanda – əng və ya Haymor, alın cibləri, xəlbir sümüyünün hücrələrinin labirinti) ilə kiçik dəliklər birləşdirir. B. boşluğu divarları çoxsaylı birhüceyrəli selik vəziləri və qan damarlarından ibarət, üstü səyirici epitelli selikli qişa ilə örtülmüşdür. Yuxarı B. keçəcəyinin (iybilmə sahəsi) epitelisi iybilmə orqanını əmələ gətirən reseptor hüceyrələrindən ibarətdir. B. tənəffüs, iybilmə, qoruyucu və rezonator funksiyalarını yerinə yetirir: tənəffüslə alınan hava dar B. keçəcəkləri ilə hərəkət etdikcə bir qədər qızır və nəmlənir, ondakı toz hissəciklərinin və mikroorqanizmlərin bir hissəsi tutulur və selikli qişada zərərsizləşdirilir; hava boşluqlarının müxtəlif ölçülü olması səs tonlarının gücləmnəsini təmin edir.

**BURUN** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Gorus r-nu) azərb.-ların yaşadığı kənd. 20 əsrin əvvəllərində erməni təcavüzü nəticəsində kəndin əhalisi qovulmuş və burada gəlmə ermənilər yerləşdirilmişdir.

**BURUN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Şöhrəvərd kəndistanında, Qiydar qəs.-ndən 30 *km* c.-q.-dədir.

**BURUN** – sahilin çıxıntı şəklində dənizə, gölə və ya çaya uzanmış hissəsi. B. ana süxurlardan və ya gətirmə materiallardan yaranır. Gətirmə materiallardan yaranmış B. akkumulyativ sahil forması olduğuna görə səthi hamar və alçaqdır.

**BURUNDARAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 16 *km* c.-q.-dədir.

**BURUNDİ,** Burundi Respublikası (République du Burundi).

### Ümumi məlumat

Mərkəzi Afrikada dövlət. Şm.-da Ruanda, ş.-də və c.-ş.-də Tanzaniya, q.-də Konqo Demokratik Resp. ilə həmsərhəddir. Sah. 27,8 min $km^2$. Əh. 9,3 mln. (2013). Paytaxtı Bujumbura ş.-dir. Rəsmi dillər rundi və fransız dilləri, pul vahidi Burundi frankıdır. İnz. cəhətdən 16 əyalətə bölünür.

B. BMT-nin (1962), Afrika İttifaqının (1963), BVF-nin (1963), BYİB-in (1963), ÜTT-nin (1995) üzvüdür.

### Dövlət quruluşu

B. unitar dövlətdir. Konstitusiyası 28.2.2005 ildə referendumla qəbul edil-







**İnzibati ərazi bölgüsü (2005)**

| Əyalətlər | Sahəsi, min $km^2$ | Əhalisi, min nəfər | İnzibati mərkəzi | Əyalətlər | Sahəsi, min $km^2$ | Əhalisi, min nəfər | İnzibati mərkəzi |
|---|---|---|---|---|---|---|---|
| Bubanza | 1,09 | 354,4 | Bubanza | Kirundo | 1,70 | 602,1 | Kirundo |
| Bujumbura | 1,42 | 901,3 | Bujumbura | Makamba | 1,96 | 499,7 | Makamba |
| Bururi | 2,47 | 493,5 | Bururi | Muramvya | 0,60 | 303,5 | Muramvya |
| Çankuzo | 1,96 | 202,3 | Çankuzo | Muyinqa | 1,84 | 595,9 | Muyinqa |
| Çibitoke | 1,64 | 490,9 | Çibitoke | Mvaro | 0,84 | 274,9 | Mvaro |
| Giteqa | 1,98 | 675,0 | Giteqa | Nqozi | 1,47 | 719,2 | Nqozi |
| Karuzi | 1,46 | 479,7 | Karuzi | Rutana | 1,96 | 293,6 | Rutana |
| Kayanza | 1,23 | 486,9 | Kayanza | Ruyigi | 2,34 | 369,8 | Ruyigi |

mişdir. İdarəetmə forması prezident respublikasıdır.

Dövlət başçısı birbaşa ümumi seçkilər yolu ilə 5 il müddətinə seçilən (bir dəfə yenidən seçilmək hüququ ilə) prezidentdir. Bu ölkədə doğulan, yaşı 35-dən az olmayan və namizədliyi irəli sürülən anda B.-də yaşayan hər bir burundili prezident ola bilər. Prezident parlamentin razılığı ilə müxtəlif xalqlara və siyasi partiyalara mənsub olan iki vitse-prezidenti təyin edir.

Qanunverici hakimiyyət 5 illik səlahiyyət müddətinə malik ikipalatalı parlamentə məxsusdur. Aşağı palata – Milli Assambleya əhali tərəfindən seçilən ən azı 100 deputatdan ibarətdir. Yuxarı palata – Senat əyalət nümayəndələrindən (hər əyalətdən 2 senator) və B.-nin keçmiş dövlət başçılarından ibarətdir. Hər iki palatada yerlərin 60%-i hutu, 40%-i tutsi xalqları, ən azı 30%-i isə qadınlar üçün ayrılmışdır; 3 deputat piqmey-tvalardan kooptasiya olunur.




İcraedici hakimiyyəti prezident, vitse-prezidentlər və Nazirlər kabineti (nazirlərin 60%-i hutu, 40%-i tutsi xalqlarından təyin olunur, kabinet üzvlərinin ən azı 30%-ni qadınlar təşkil edir) həyata keçirir.

Əsas siyasi partiyalar: Demokratiyanı Müdafiə Milli Şurası – Demokratiyanı Müdafiə Qüvvələri, Burundiyə demokratiya uğrunda cəbhə, Milli tərəqqi uğrunda ittifaq.

### Təbiət

**Relyef.** Ərazisinin çox hissəsi hünd. 1400–2100 *m*-ədək olan qaymalı yastıdağlıqdır. Yastıdağlığın q. kənarı meridional dağ silsiləsi (ən yüksək nöqtəsi Heha d.; hünd. 2684 *m* ) şəklində qalxmışdır. Ölkənin q.-ini şm.-a doğru genişlənən İmbo düzənliyi (hünd. 1000 *m*-ədək), c.-q.-ini isə *Tanqanika gölünün* çuxuru tutur. Ucqar şm.-da və c.-ş.-də Akanyaru və Malaqarasi çay dərələri boyunca qismən bataqlıqlaşmış akkumulyativ-denudasion düzənliklər (hünd. 1200–1500 *m*) uzanır.

**Geoloji quruluş və faydalı qazıntılar.** B.-nin ərazisi Afrika platformasının mərkəzi hissəsində yerləşir; Orta Proterozoy yaşlı Kibar qırışıqlıq qurşağının terrigen, karbonatlı və vulkanogen süxurlarından təşkil olunmuşdur. Süxurlar Kibar tektogenez epoxasında (1,4–1,0 mlrd. il əvvəl) deformasiyaya, metamorfizmə və qranit maqmatizminə məruz qalmışdır. Əsasi və ultraəsasi tərkibli intruziyalar qismən intişar tapmışdır. Ölkənin ş.-ində Üst Proterozoy yaşlı şistlər, dolomitlər, əhəngdaşılar və lavalar yayılmışdır, c.-q.-də aktiv Kaynozoy riftogenezi təzahür edir. *Şərqi Afrika rift sisteminin* hissəsi olan Tanqanika qrabeni Kaynozoy çökmələri ilə dolmuşdur. Faydalı qazıntıları: nikel, titanmaqnetit, qalay filizləri, qızıl, torf və s.

**İqlim.** İqlimi subekvatorial, mövsümi-rütubətlidir. İyundan sentyabradək quraq mövsümüdür. Orta aylıq temp-r il ərzində cüzi dəyişir; İmbo düzənliyində 23–25°C, 1500 *m*-dən yuxarı yüksəklikdə 15–20°C təşkil edir. Yağıntının illik miqdarı 800–1000 *mm* İmbo düzənliyində, 1000–1200 *mm* yastıdağlıqda, 1400–1600 *mm* dağlardadır.

**Daxili sular.** Mühüm çayları Akanyaru və Ruvubu Nil hövzəsinə, Malaqarasi və Ruzizi isə Konqo hövzəsinə aiddir. Çoxlu göl var. Tanqanika gölünün şm.-ş. hissəsi B.-dədir. Ölkənin illik daxili su ehtiyatı 4 $km^3$-dir. Bunun 4%-i təsərrüfat məqsədlərinə (64% k.t.-na, 36% kommunal-məişət təsərrüfatına) sərf olunur. Adambaşına illik su təminatı 0,5 min $m^3$-dir.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** Torpaq örtüyündə dəmirli və dağ qırmızı ferrallitli torpaqlar üstünlük təşkil edir; İmbo düzənliyində tünd rəngli bərkimiş (kipləşmiş) torpaqlar inkişaf etmişdir. Ərazinin böyük hissəsində torpaq eroziyası və deqradasiyası prosesləri sürətlə gedir. Ölkənin bitki örtüyü k.t. istifadəsi, antropogen yanğınlar, həddən artıq mal-qara otarılması, meşələrin qırılması nəticəsində xeyli dəyişilmişdir. 20 əsrin sonunda meşəsizləşmənin tempi bütün Afrika ölkələri arasında ən yüksək idi; hər il ölkədə meşə sahələri orta hesabla 9% azalırdı (1990–2000). Müasir bitki örtüyündə meşələr ölkə ərazisinin 3,7 %-ni tutur (2005). Ərazinin böyük hissəsində yarpağınıtökən park meşə sahələri (miombo), əsasən, ikincili akasiya savannaları, yağ palması və s. bitki plantasiyaları ilə birlikdə mozaika şəklində yayılmışdır. Silsilənin yamaclarında, başlıca olaraq, mühafizə edilən ərazilərin hüdudlarında 2500 *m*-ədək yüksəklikdə iynəyarpaqlı ağac cinsləri (podokarpuslar) qarışıq rütubətli həmişəyaşıl dağ meşələri





qalmışdır. Meşələrin yuxarı sərhədi bambuk cəngəlliklərindən əmələ gəlmişdir. İmbo düzənliyinin təbii bitkiliyi tamamilə k.t. yerləridir.

Heyvanlar aləmi kifayət qədər kasaddır. İri məməlilərin çoxu qırılmışdır; əsasən, milli parklarda qara camışa, at antilopa, bataqlıq keçisinə, bir neçə növ meymuna, yırtıcılardan bəbirə rast gəlinir. Ornitofauna daha rəngarəngdir, ölkə ərazisində şimal yarımkürəsinin çoxlu köçəri quşları qışlayır. Tanqanika gölündə begemot, timsah yaşayır. Gölün faunası endemik balıq növləri, çanaqlı və xərçəngkimilər, qarınayaqlı molyusklar və s. onurğasızlarla zəngindir.

B.-də ümumi sahəsi 154,7 min *ha* olan 15 mühafizə edilən təbii ərazi, o cümlədən Ruvubu, Kivira, Ruzizi milli parkları yaradılmışdır (2005).



Tipik dağ landşaftı.

### Əhali

B. əhalisinin əksəriyyətini (95%) *rundilər* (onlardan 81% – *hutular* və 14% *tutsilər*), 1%-ini piqmey-tvalar təşkil edir (2005); Ruandadan (*ruandalar*, yaxud Ruanda tutsiləri – 1,6%), Konqo Demokratik Resp.-ndan (*bantular* qrupundan nqalalar – 1,6%), Uqandadan (*nyankolelər*, yaxud Uqanda himaları), Cənubi Asiyadan (qucaratlılar) gəlmələr, həmçinin ərəblərin, vallonların, fransızların azsaylı qrupları da var.

Doğum səviyyəsi 1000 nəfərə 39,7 nəfər, ölüm səviyyəsi 1000 nəfərə 17,4 nəfər olmaqla əhalinin ortaillik artımı 2,2% təşkil edir; uşaq ölümü 1000 nəfər diri doğulan uşağa 69,3 nəfərdir. Fertillik göstəricisi 1 qadına 5,8 uşaqdır. Əhalinin yaş strukturu: 14 yaşadək – 46%, 15 yaşdan 64 yaşadək – 51,3%, 65 yaşdan yuxarı olanlar – 2,7%-dir. Əhalinin orta yaş göstəricisi 16,6-dır. Gözlənilən orta ömür müddəti 50,3 ildir (kişilərdə 49,6; qadınlarda 51 il). Hər 100 qadına 99 kişi düşür. Əhalinin orta sıxlığı 1 $km^2$-də 277 nəfərdir. Əhalinin təqr. 9%-i şəhərlərdə yaşayır. Ən iri şəhərləri (min nəfər, 2005): Bujumbura (330,5; ölkənin şəhər əhalisinin təqr. 50%-i), Muyinqa (71,1), Ruyigi (38,5), Giteqa (23,2), Nqozi (21,5), Rutana (20,9). İqtisadi cəhətdən fəal əhali 3 mln.-a yaxındır. İşləyənlərin ümumi sayının 93,6%-i k.t.-nda, 2,3%-i sənayedə, 4,1%-i xidmət sahəsində çalışır. Əhalinin 68%-i yoxsulluq səviyyəsindən aşağı yaşayır. B. əhalisinin 67%-i xristianlar, 23–30%-i eyni zamanda yerli Afrika kultlarını qoruyub saxlayanlar, 10%-i müsəlmanlardır.

### Tarixi oçerk

B. ərazisində qədim hominidlərin izləri (təqr. e.ə. 100 min il) Ruzizi çayı vadisində aşkar edilmişdir. Eneolit dövrünə aid abidələr məlumdur. B. torpaqlarının adı Qədim Misir və Qədim Roma mənbələrində (piqmeylər həmçinin Pompeinin freskalarında təsvir edilir) qeyd olunur. Eramızın 1-ci minilliyindən B. ərazisində əkinçi bantudilli hutu tayfaları məskunlaşmağa başladı. Keramika (A qrupu), möhrə evlər, metallurgiyanın yaranması onlarla əlaqələndirilir. Onlar avtoxton əhali – piqmey-tvaları meşələrə sıxışdırmışdılar. 12–13 əsrlərdə B.-yə köçəri-maldar tutsilər gəlmişlər; onlar tədricən əkinçi-maldar təsərrüfatına keçmiş, hutuları özlərinə tabe etmiş və 16 əsrdə erkən dövlət qurumlarını yaratmışlar. 18 əsrin əvvəllərindən müstəmləkə işğalınadək ali hakim mvaminin idarə etdiyi B. dövləti 19 əsrdə çiçəklənmə dövrünü yaşamışdır. B. əhalisi 3 etnososial qrupdan ibarət idi: tutsilər, hutular və tvalar. Tutsilər malqaraya və torpaqlara malik idilər, idarəetmə aparatı və ordu onlardan təşkil olu-

Tanqanika gölü. Bujumbura.



Ruzizi çayı.





İsa kilsəsi. Giteqa.

nurdu. Kəndli hutulara torpaq və malqara yalnız saxlamaq hüququ ilə verilirdi, onlar tutsilərin xeyrinə mükəlləfiyyətlər yerinə yetirir və vergi ödəyirdilər. Cəmiyyətin aşağı təbəqəsini təşkil edən tvalar, əsasən, ovçuluq və yığıcılıqla məşğul olurdular.

1903 ildə gələcək B. və Ruanda əraziləri Almaniya Şərqi Afrikasının tərkibinə daxil edilərək *Ruanda-Urundi* adlandırıldı. Birinci dünya müharibəsi zamanı Ruanda-Urundi Belçika tərəfindən işğal olundu. 1922 ildə Millətlər Birliyi Belçikaya bu torpaqların idarə olunmasına dair mandat verdi (1923 ildə qüvvəyə mindi). Belçikalılar müstəmləkəyəqədərki etnososial bölgünü saxladılar, müstəmləkə idarə aparatına tutsi əyanlarını da daxil etdilər. 1946 ildə BMT-nin qərarı ilə Ruanda-Urundi Belçikanın qəyyumluğundakı ərazi oldu. 1959 ildə burada ilk siyasi partiyalar – Milli Tərəqqi Uğrunda İttifaq (UPRONA) və Xristian-demokrat partiyası (XDP) yarandı.

1962 il iyulun 1-də BMT-nin qərarı ilə Belçikanın Ruanda-Urundi üzərində qəyyumluğu dayandırıldı və müstəqil B. krallığı elan edildi. Krallıqda hakim mövqeni tutsilər tutdu. 1966 il hərbi çevrilişi nəticəsində B.-də monarxiya devrildi və respublika elan edildi. B.-nin ilk prezidenti çevrilişin rəhbəri polkovnik M. Miçombero oldu. UPRONA yeganə leqal partiya elan edildi. 1972 ilin aprelində monarxist tutsilərin hakimiyyəti ələ keçirmək üçün uğursuz cəhdləri gedişində B.-nin sonuncu kralı V Ntare Ndizeye öldürüldü. Hutular və tutsilər arasında baş verən silahlı toqquşmalar nəticəsində 100–200 min nəfər (əsasən, hutular) həlak oldu və təqr. 200 min hutu qaçqın düşdü. Sonrakı illərdə ölkədə siyasi gərginlik qalmaqda idi. 1993 ildən ordu (hakimiyyət strukturlarında olduğu kimi, burada da hakim mövqeləri tutsilər tuturdular) ilə üsyançı hutular arasındakı toqquşmalarda daha 300 min nəfərdən çox insan həlak oldu. 1976, 1987, 1993 və 1996 illərdə hərbi çevrilişlər baş verdi. 1996 il çevrilişi nəticəsində hakimiyyətə tutsilərin nümayəndəsi P. Buyoyya (1987–93 illərdə prezident) gəldi. Onun başçılıq etdiyi hökumət parlamentin səlahiyyətlərini bərpa etdi, siyasi partiyaların fəaliyyətinə icazə verdi. Aruşa ş.-ndə (Tanzaniya) sülh və milli barışıq haqqında sazişin (2000) imzalanmasından sonra 2001 ilin noyabrında B.-də 2004 il noyabrın 1-dək fəaliyyət göstərəcək keçid dövrü hökuməti yaradıldı, prezident və vitse-prezident vəzifələrini isə növbə ilə Buyoyya və hutu D. Ndayizeye tutmalı idi. İlk 18 ayda dövlət başçısı vəzifəsini Buyoyya, 2003 il aprelin 30-dan isə Ndayizeye icra etdi. Dövlət hakimiyyət orqanlarında etnik balansın yaradılması məsələsi ilə bağlı tutsi və hutular arasındakı ziddiyyətlər nəzərdə tutulmuş müddətdə yeni konstitusiya və ümumi seçkilərə dair referendumun keçirilməsinə mane oldu. Region başçılarının sammitində (Keniya; 2004, oktyabr) keçid dövrü daha 6 ay uzadıldı, Ndayizeye hökumətinin səlahiyyətləri müvəqqəti konstitusiyanın fəaliyyət müddəti bitənədək saxlanıldı. 2004 ilin dekabrında üsyançı hutu qruplaşmalarının tərk-silah və tərxis edilməsinə başlanıldı.

2005 il fevralın 28-də yeni konstitusiya layihəsinə dair ümummilli referendum keçirildi; hakimiyyət orqanlarında (60% və 40%), ordu və polisdə (hər biri 50%) hutu və tutsi təmsilçilərinin nisbəti qanuni şəkildə təsbit olundu. Konstitusiya 2005 il martın 18-də qüvvəyə mindi. Darüssəlamda (Tanzaniya) D.Ndayizeye ilə Milli Azadlıq Qüvvələri (MAQ) üsyançı hutu qruplaşmasının lideri A. Rvasa arasında aparılan danışıqlar nəticəsində 2005 il mayın 15-də atəşkəs barədə saziş imzalandı. 2005 il iyulun 4-də keçirilən parlament seçkilərində Demokratiyanı Müdafiə Milli Şurası – Demokratiyanı Müdafiə Qüvvələri qalib gəldi. 2005 ilin avqustunda bu partiyanın lideri P. Nkurunziza ölkə prezidenti seçildi. 2010 ildə P. Nkurunziza yenidən prezident oldu.

Ruvubu Milli Parkı.



### Təsərrüfat

Dünyanın ən kasıb dövlətlərindən olan B. aqrar ölkədir. ÜDM 5,75 mlrd. dollardır, adambaşına 600 dollar düşür (alıcılıq qabiliyyətinin pariteti üzrə, 2013). ÜDM-in real artımı 4,5%-dir (2013). İnsan inkişafı indeksi 0,316 (2011; dünyanın 187 dövləti arasında 185-ci yer). ÜDM-in strukturunda k.t.-nın payı 34,4%, xidmət sferasının – 47,2%, sənayenin – 18,4% təşkil edir (2013).

Dünya bankı iqtisadi islahatların bir sıra həlledici istiqamətlərini müəyyən etmişdir: ənənəvi bitkilərin məhsuldarlığının artırılması, ixracatın diversifikasiyası, faydalı qazıntıların hasilatının artırılması (qızılaxtarma işləri, qalay və niobium-tantal filizlərinin çıxarılması), yüngül sənayenin və xidmət sferasının inkişafı. Lakin təsərrüfat strukturunun yenidən qurulması proqramları ölkədəki siyasi qeyri-sabitliyə görə iflasa uğrayır. ÜDM-də dövlət sektorunun payı çox azdır. Özəl xarici investorlara böyük güzəştlər edilir (investisiyalar ilk növbədə turizm obyektlərinin, mehmanxanaların, heyvandarlıq fermalarının tikintisinə yönəldilir). Özəl milli kapital ölkənin 1962 ildə müstəqillik qazanmasından sonra formalaşmağa başlamışdır; onun əsas fəaliyyət sahələri avtomobil nəql., tikinti, ticarət, k.t.-dır.

**Sənaye.** Az miqdarda qalay (Kayanzada, Buyonqvedə, Muçiredə), volfram (Kayanzada) və niobium-tantal (Matonqoda, Bandaqada) filizləri, qızıl (Mabayidə, Muçiredə), bastnezit (sezium alınması üçün) və əhəngdaşı (Matonqoda) çıxarılır.

Elektrik enerjisi hasilatı 208 mln. *kvt-saat* (2008). B. elektrik enerjisini Konqo Demokratik Resp.-ndan idxal edir.

Emal sənayesi, əsasən, k.t. xammalını emal edir: qəhvə (Bujumbura, Giteqa, Nqozi, Muramvya), çay (Teze, Toro, Rvequra, İjende), pambıq (Bujumbura), çəltik (Bujumbura). Pivə (Bujumbura, Giteqa, Brarudi), alkoqolsuz içkilər (Giteqa), ət-süd məhsulları (Bujumbura) istehsalı müəssisələri; tütün (Muramvya), toxuculuq (Bujumbura) f-kləri; un (Muramvya), şəkər emalı (Mosso), şüşə (Bujumbura, Matonqo), metal təmiri (Bujumbura) z-dları fəaliyyət göstərir.

**Kənd təsərrüfatı** intensiv əkinçiliyin ayrı-ayrı elementlərinə (irriqasiya, terraslaşdırma) malik olan dincəqoyulmuş sistemə əsaslanır. Xırda kəndli təsərrüfatları üstünlük təşkil edir; onlardan bəziləri hökumət tərəfindən dəstəklənən istehsal kooperativlərində (əsasən, ixrac olunan bitkilərin istehsalı üzrə) birləşmişdir. Ölkə ərazisinin 35%-i şum torpaqlarıdır. B.-nin iqtisadi inkişafı əsas əmtəə bitkisi olan qəhvənin dünya qiymətlərindən çox asılıdır; əsasən, Arabika sortu becərilir (1250–2000 *m* yüksəklikdə yerləşən plantasiyalar; əsasən, Nqozi r-nu). Çay (yığım təqr. 10 min *t*; plantasiyalar 2000 *m*-dən yuxarı yüksəklikdə Makamba, Bubanza, Muramvya r-nlarında), şəkər qamışı (180 min *t*), pambıq, kinə ağacı da ixrac əhəmiyyətinə malikdir. Becərilən torpaqların



Çay plantasiyası. Bubanza.

çoxunu ərzaq bitkiləri tutur. Becərilən bitkilər (yığım, min *t*; 2004): banan 1600, batat 834, maniok 710, paxla (quru) 220, qarğıdalı 123, sorqo 74, çəltik 65, taro 62, kartof 26, yams 10.

Heyvandarlıq ənənəvi olaraq ekstensiv xarakter daşıyır. Mal-qaranın ümumi sayı (min baş, 2002): qaramal – 346, keçi – 900, qoyun – 320, donuz – 73. Tanqanika gölündə balıq ovlanır (ildə təqr. 23 min *t*), əsasən, Nil xanı balığı, ndaqala (siyənək növü), tilapiya.

**Nəqliyyat.** B.-nin d.y.-ları yoxdur. Avtomobil yollarının uz. təqr. 14,5 min *km*-dir, onlardan təqr. 1 min *km* bərk-örtüklüdür. Əsas su yolları Tanqanika gölündən keçir. Mühüm ticarət portu Bujumburadır. Beynəlxalq aeroport Bujumburada yerləşir.

**Xarici ticarət.** İxracatın dəyəri 122,8 mln. dollar, idxalatın dəyəri 867,2 mln. dollardır (2013). Əsas ixrac malları (2012): qəhvə (ixracat dəyərinin 80%-ndən çoxu), çay, şəkər, pambıq, kinə ağacı qabığı, heyvan dərisi. Əsas ticarət partnyorları (2012): İsveçrə (23,9%), B.Britaniya (12,9%), Belçika (7,4%), Pakistan (7,4%), Konqo Demokratik Respublikası (7,4%), Uqanda (5,6%), Almaniya (5,2%), Çin (4,9%) və Misir (4,7%). Səudiyyə Ərəbistanı (11,3%), Belçika (10,1%), Çin (9,1%), Hindistan (7,9%), Tanzaniya (6,5%), Keniya (6,0%), Uqanda (5,7%), Zambiya (4,6%) və ABŞ-dan (4,1%) maşın və avadanlıqlar, neft məhsulları, qida məhsulları idxal olunur (2012).

### Silahlı qüvvələr

B. silahlı qüvvələri (SQ, 2004) QQ (39,8 min nəfər), HHQ (200 nəfər), HDQ (50 nəfər) və jandarmeriyadan (5,5 min nəfər) ibarətdir. Milis hərbiləşdirilmiş bölmələri (təqr. 5 min nəfər) də var. Ali baş komandan prezidentdir. SQ 54 zirehli döyüş maşını, 220 səhra topu və minaatan, zenit artilleriyası, 6 döyüş təyyarəsi və 5 kater (Tanqanika gölündə) ilə təchiz edilmişdir. Jandarmeriya yüngül atıcı silahlar ilə silahlanmışdır. Silahlar və hərbi texnika Fransa və İngiltərə istehsalıdır. SQ-in komplektləşdirilməsi muzdla həyata keçirilir, müqavilə müddəti 6 ildir (sonradan 3 il müddətinə uzadıla bilər). Komanda heyəti milli tədris mərkəzlərində və Fransa, Almaniya və Yunanıstanın hərbi-tədris məktəblərində hazırlanır. Səfərbərlik ehtiyatları 1,3 mln. nəfər, o cümlədən hərbi xidmətə yararlı olanlar 700 min nəfərdir.

### Səhiyyə. İdman

Səhiyyəyə qoyulan ümumi xərc ÜDM-in 3,6%-ni təşkil edir (büdcədən maliyyələşdirmə 59%, özəl sektordan – 41%; 2002).

1990 ildə Milli Olimpiya Komitəsi təsis edilmiş, 1993 ildə Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmışdır. 26-cı Yay Olimpiya Oyunlarında (1996, Atlanta) V. Nyonqabo 5 min *m* məsafəyə qaçış yarışlarında ölkə tarixində ilk Olimpiya qızıl medalını qazanmışdır. Ölkədə yüngül atletika ilə yanaşı futbol və basketbol da populyardır.

**Təhsil. Elm və mədəniyyət müəssisələri**

Ölkənin təhsil sisteminə 7 yaşından uşaqlar üçün 6 illik ibtidai məktəblər, 6–7 illik orta məktəblər, 2–7 illik peşə-texnika təhsili müəssisələri (ibtidai məktəb bazasında), ali məktəblər daxildir. 7–12 yaşlı uşaqlar üçün ibtidai təhsil icbaridir, lakin 2000–04 illərdə uşaqların yalnız 78%-i ibtidai məktəbdə, 11%-i isə orta məktəbdə oxumuşdur. 15 yaşdan yuxarı əhalinin savadlılığı 65% təşkil etmişdir (2004). Bujumburada Burundi Un-ti (1960 ildə un-t mərkəzi kimi yaradılmış, 1964 ildən un-t statusu almışdır), Ali Pedaqoji Məktəb (1957), Kommersiya İn-tu (1982); elmi müəssisələr – Kənd Təsərrüfatı Tədqiqatları İn-tu (1962), Milli Hidrometeorologiya Mərkəzi, Fransa Mədəniyyət Mərkəzi (1963), tibbi tədqiqat laboratoriyası fəaliyyət göstərir. Kütləvi kitabxana, un-t kitabxanası (1961), Burundi Mədəniyyət Mərkəzi nəzdində muzey (1977), Giteqa ş.-ndə Burundi Milli Muzeyi (1955) var.

**Kütləvi informasiya vasitələri**

Dövlət informasiya agentliyi "Ajans Burundez de Pres" ("Agence Burundaise de Presse", ABP) 1976 ildə təsis edilmişdir. Həmçinin "Azania" və "Net Press" özəl xəbər agentlikləri fəaliyyət göstərir (2011). Teleradioverilişlər (1984 ildən televiziya) rundi, suahili, fransız və ingilis dillərində dövlət şirkəti "Radio-Televizyon nasional dü Burundi" ("La Radiodiffusion et Télévision National du Burundi", RTNB) tərəfindən aparılır. Radio yerli əhali üçün əsas informasiya mənbəyidir. Burada dövlət, özəl və beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən radio kanalları fəaliyyət göstərir: "Radio Burundi", "Bonesha FM", "Radio Publique Africaine" və s. Ən iri dövri nəşrlər: "Renuvo dü Burundi" ("Le Renouveau du Burundi"), "Ubumve" ("Ubumwe"), "Ark-an-syel" ("Arc-en-ciel") və s. qəzetləridir (2011).

**Memarlıq və təsviri sənət**

B.-nin ənənəvi memarlıq və incəsənəti hutu, tutsi, tva xalqlarının yaradıcılığı ilə təmsil olunur: yarımkürəvi dam örtüklü dairəvi komalar, ot və qamışdan hörülmüş taxıl anbarları, ikiyamaclı damı olan düzbucaqlı kərpic evlər (1950-ci illərdə meydana gəlmişdir); ağ, qara və qırmızı rəngli nizəyəoxşar və ziqzaqşəkilli naxışlarla bəzədilmiş toxumalar (həsirlər və səbətlər); antropomorf və zoomorf ağac heykəltəraşlığı; ağac üzərində oyma (qalxanlar, ox qabları).

Şəhərsalmada müasir Avropa üslubi xüsusiyyətlərindən istifadə olunur (Bujumbura ş.-nin tikililəri).

**Musiqi**

B.-nin musiqi mədəniyyəti hutu, tutsi və tva xalqlarının ənənələrini birləşdirir. Əsasən, saray mədəniyyətindən (16 əsr) intişar edən peşəkar musiqi ənənələri əsrlər boyu qorunmuşdur. Müğənninin ennanqa arfasının müşayiəti ilə oxuduğu mədhiyyələr, epik və tarixi mahnılar saxlanılmışdır. Çoxsaylı bayramlarda musiqi-rəqs ansamblları (onların əsasını müxtəlif növ təbillər təşkil edir), o cümlədən iaqoma mərasim ansamblı iştirak edir. İnstrumental musiqi ifaçılığı yalnız kişilərə aiddir. 1962 ildən sonra B.-də Avropa tipli musiqi mədəniyyəti elementləri yayılmışdır.

Burundu təbilçiləri.



*Əd.:* Новейшая история Африки, 2 изд., М., 1968; L e m a r c h a n d R. Rwanda and Burundi. N.Y., 1970; A c q u i e r J.L. Le Burundi. Marseille, 1986; С о к о л о в а Р.Б. Республика Бурунди. Справочник. М., 1992; S t o c k R.F. Africa south of the Sahara. L. – N.Y., 2004.

**BURUNDUKLAR** (Tamias) – sincablar fəsiləsindən məməli heyvan cinsi. Bədəninin uz. 8–18 *sm*, quyruğunun uz. 6–14 *sm*-dir. Xarici görünüşünə görə suncaba oxşayır. Beli bozumtul-qonur rəngdə, üzərində uzununa yerləşən tünd rəngli 5 zolaq olur. Ovurd kisələri yaxşı inkişaf etmişdir. Təqr. 18 növü var. Avrasiyada Asiya burunduku (T. sibiricus) adlı 1 növü məlumdur. Avropanın şm.-ş.-indəki meşələrdə və Asiyanın şm. hissəsində yaşayır. Qalan növlər Şimali Amerikada Yukon



Asiya burunduku (Tamias sibiricus).

və Makenzi çaylarından Meksikanın şm.-q. ştatlarınadək yayılmışdır. Yaşadıqları yerlərdə, adətən, çoxsaylıdır. Yerüstü həyat tərzi keçirir; ağaclara yaxşı dırmaşır, budaqdan-budağa uzaq məsafəyə tullanır. Rasionu toxumlardan, meyvələrdən və bitkilərin vegetativ hissələrindən, həmçinin heyvani yemlərdən, başlıca olaraq, cücülərdən və molyusklardan ibarətdir. Asiya B.-ı çoxlu seçmə toxum ehtiyatı (3–4 *kq*-adək), o cümlədən Sibir sidrinin toxumlarını toplayır. Gündüz fəaldır. Tək həyat tərzi keçirir, fərdi ərazini qoruyur. Qış yuxusuna gedir. İldə 1–2 nəsilvermənin hər birində 9 bala doğur. B.-ın ov əhəmiyyəti yoxdur. Bir sıra ağac cinslərinin yayılmasına səbəb olur. İnsanın bir sıra təhlükəli xəstəliklərinin, o cümlədən gənə ensefalitinin yayılmasında iştirak edir.

**BURUNQIŞLAQ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Qızılkeçilər kəndistanında, Mahnişan qəs.-ndən 20 *km* c.-ş.-dədir.

**BURUNQOVAQ** – Azərb. Resp. Samux r-nunda kənd. Burunqovaq ə.d.-nin mərkəzi. R-n mərkəzindən 75 *km* şm.-da, Qabırrı çayının sol sahilindədir. Əh. 693 (2008); üzümçülüklə məşğuldur. Ümumi orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**BURUNLAR**, b a r u n l a r, d a ğ b u r u n l a r ı, ş i m a l i b u r u n l a r – Sudanda (Kurmuk ş.-ndən c.-da Efiopiya ilə həmsərhəd olan rayonlar, Tombak və Yabus çaylarının hövzəsi) şimali luolar qrupundan Nilboyu xalq. Sayları qohum olduqları raqreyqlər və mabaanlarla (cənubi burunlar) birlikdə 68 min nəfərdir. Nil–Böyük Səhra dil ailəsinin Şari-Nil qrupuna aid burun dilində danışırlar. Ərəb dili də yayılmışdır. Dindarların əksəriyyəti müsəlmandır.

16 əsrdə B.-ın əcdadları indiki ərazilərə qərbdən, Nil vadisindən köçmüşlər. 16–18 əsrlərdə Sennar dövlətinin tərkibində olmuşlar. Ənənəvi məşğuliyyətləri toxa əkinçiliyi (darı-elevsina, teff, durra, paxlalılar), köçəbə maldarlıq (qaramal və davar), balıqçılıq, yığıcılıqdır. Ağac üzərində oyma (dini heykəllər, məişət əşyaları), qayıqdüzəltmə inkişaf etmişdir. Ağsaqqal tərəfindən idarə edilən kənd icması böyük qohum ailələrdən ibarətdir. Nikah patrilokaldır, poliginiya da təsadüf olunur. Göllərin sahilində yerləşən sıx məskənlər hasarla əhatələnir. Sudan tipli evləri dairəvi planda tikilir, damı silindrvarı, divarları möhrə, yaxud hörmədir. Təsərrüfat tikililəri pəyələrdən, dirəklər üzərində möhrə taxıl anbarlarından ibarətdir. Ənənəvi geyimləri dəri önlük, ot, yaxud yarpaq dəstəsidir. Hazırda kişilər enli qollu ağ köynək, qadınlar ağ örtük, pambıq parçadan uzun paltar geyinirlər. Yeməkləri, əsasən, sıyıq, kökə, süd, yağışlar mövsümündə balıq və quş ətidir. Folklor inkişaf etmişdir. Ənənəvi inancları əcdadların kultu və totemizmdir.

**BURUNLU** – Azərb. Resp. Zərdab r-nunun Məlikli ə.d.-ndə kənd. R-n mərkəzindən 18 *km* şm.-q.-də, Kür çayının sahilində, Şirvan düzündədir. Əh. 574 (2008); heyvandarlıq, taxılçılıq və meyvəçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana var.

**BURUNSUVAL** – Azərb. Resp. İsmayıllı r-nu ərazisində dağ. Quşencə k.-ndən 2,5 *km* c.-dadır. Hünd. 1105 *m*.

**BURÚN-ŞİBERTÚY** – RF-nin Baykalarxası vil.-ndə, Çikokon silsiləsində zirvə. Hünd. 2523 *m*. Qranitlərdən ibarətdir. Yamaclarında 1700–1900 *m* hünd.-ədək dağlıq-donuşluq tayqa torpaqlarında qaraşam, sidr-qaraşam və sidr tayqası, zirvəsində dağ-tundra bitkiləri yayılmışdır.

**BURUTLAR** – bax *Qırğızlar.*

**BURVİL** (Bourvil) (təxəllüsü; əsl adı və soyadı Andre Rembur, Raimbourg) (27.7.1917, Preto-Vikmar – 23.9.1970, Paris) – fransız aktyoru. 1938 ildən estrada və radioda (məzhəkə komiki amplua-sında), 1940-cı illərin 2-ci yarısından operettada çıxış etmiş, 1942 ildən kinoya çəkilmişdir. İncə yumor hissi, müşahidə qabiliyyəti, bədii həssaslıq və öz personajlarına qarşı rəğbət B.-i 40–60-cı illərin ən böyük komik aktyorlarından biri kimi formalaşdırmışdır ("Dara çəkilmişin fermanı", "Qar kimi bəyaz", "O qədər də səfeh deyil", "Ovuc içində ürək", "Xanım Yussonun bağbanı", "Üç muşketyor" və s.). B. və L. de *Fünes* dueti böyük müvəffəqiyyət qazanmışdı ("Maymaq", "Böyük gəzinti"). "Parisdən keçməklə" (Venesiya Beynəlxalq kinofestivalının mük.), "Səfillər", "Noel Fortuna", "İkilaylı güzgü", "Meşəqıranlar", "Əsaslı dəlillər" və s. filmlərdəki rolları psixoloji mürəkkəbliyi və dramatizmi ilə seçilir. "Dünyanın bütün qızılı" (rej. R. Kler) filmindəki ata və oğul Dümon, "Qırmızı dairə" (rej. J.P. Melvil) filmindəki polis Mattei obrazları da ustad aktyorun yaradıcılığında əhəmiyyətli yer tutur.

**BURYAT ATI** – Buryatiyanın aborigen at cinsi. Sibirin yerli cinsləri arasında ən alçaqboylu atdır. Bədən quruluşu böyükdür. Madyanların cidov hünd. 130 *sm*, bədəninin uz. 138 *sm*, döş qucumu 160 *sm*, ayaq qucumu 17 *sm*; ayğırlarda bu göstəricilər müvafiq olaraq 133, 140, 165, 17-dir. Diri kütləsi 300–350 *kq*-dır. B.a. kəskin kontinental iqlim şəraitində, otu az olan otlaqlarda ilboyu ilxıda saxlanmağa dözümlüdür, yəhər altında və qoşquda işlədilir. Ət və süd almaq üçün də istifadə edilir. B.a. Don, Orlov və rus löhrəm atı cinsləri ilə cütləşdirilməklə yaxşılaşdırılmışdır. Mələzləri iridir, daha çox süd verir, yerli şəraitə rahat uyğunlaşır.

Buryat atları.



**BURYAT DİLİ** – *buryatların* dili. Buryat Resp.-nın dövlət dillərindən biri. Ust-Orda Buryat Muxtar Mahalında, Aqa-Buryat Muxtar Mahalında, Şm. Monqolustanda və Çinin şm.-ş.-ində də yayılmışdır. RF-də təqr. 369 min nəfər B.d.-ndə danışır (2002).

B.d. *monqol dillərinin* şm. monqol qrupuna daxildir. 3 dialekti var: qərb, şərq və cənub. Ahəng qanunu səciyyəvidir. Qrammatik quruluşca iltisaqi dildir. Leksikasında rus dilindən alınma sözlər çoxdur. 17 əsrin sonlarından kargüzarlıqda və dini praktikada qədim monqol yazısı tətbiq edilmişdir (bax *Monqol yazısı*). Damba Dorji Zayayevin "Yol qeydləri" (1768) ilk irihəcmli ədəbi abidələrdəndir. B.d. 17 əsrin sonu – 19 əsrdə qədim buryat ədəbi-yazı dili adlanmışdır. 1931 ildən latın, 1939 ildən isə rus qrafikası əsasında tərtib edilmiş əlifbadan istifadə olunur. 1936 ildə Ulan-Udedə keçirilən dilçilik konfransında ədəbi dilin əsası kimi şərq dialektinin xorin şivəsi götürülmüşdür.

*Əd.:* Д а р б е е в а А.А. Бурятский язык (Языки мира: Монгольские языки. Тунгусо-маньчжурские языки. Японский язык. Корейский язык. М., 1997.

**"BURYAT QANUNNAMƏSİ"** – Anqara çayı sahilində yaşayan buryatların (bulaqatların) adət hüquqlarından bəhs edən sənədin şərti adı. 1693 ildə buryat tayfa əyanlarının danışıqları əsasında rus hərbi xidmətçisi B. Serebrennikov yazmışdır. 11 maddədən ibarət "B. q." buryatların tarixini öyrənmək üçün qiymətli məxəzdir.

**BURYAT OPERA VƏ BALET TEATRI** – 1939 ildə Ulan-Udedə Buryat Musiqili Dram Teatrı kimi yaradılmışdır. P.M. Berlinsk və B.B. Yampilovun "Bair" (1938, dram teatrının səhnəsində), V.İ. Moroşkinin "Erjen" (1939) milli musiqili dramları, M.P. Frolovun "Enxe-Bulat-bator" (1940) operası ilk tamaşalar olmuşdur. 1943 ildə ilk klassik opera – P.İ. Çaykovskinin "Yevgeni Onegin"i səhnəyə qoyulmuşdur. 1943 ildə teatrın nəzdində balet truppası təşkil olunmuşdur. 1943 ildə xoreoqraflar M.S. Arsenyev və T.K. Qlezer ilk klassik balet – B.V. Asafyevin "Baxçasaray fontanı"nı səhnəyə qoymuşlar. 1948 ildə Musiqili Dram Teatrının əsasında Buryat Opera və Balet Teatrı yaradıldı (1979 ildən akademik).



Munku-Sardık dağı.



Burada S.N. Ryauzovun "Vadi üzərində işıq" (1956, xoreoqraflar F.S. İvanov və M.S. Zaslavski), J.A. Batuyevin "Geser"i (1967) və b. milli baletlər tamaşaya qoyuldu. Klassik əsərlərlə yanaşı repertuarda müasir tamaşalar da yer tutur: B.B. Yampilov və L.K. Knipperin "Gözəl Anqara" (1959, 1972), F. Əmirovun "Min bir gecə" (2000), V.A. Qavrilinin "Anna nişanı" (2001) baletləri, K. Orfun "Karmina Burana" (2003) səhnə kantatası, D.D. Ayuşeyev, S.N. Ryauzov, V.A. Usoviç və b.-nın əsərləri.

Müxtəlif illərdə teatrda dirijorlar P.M. Berlinski, M.A. Buxbinder, V.V. Maymeskul və b.; xoreoqraflar M.S. Arsenyev, S.V. Dreçin, İ.A. *Moiseyev*, Ş.A. Terequlov və b.; balet artistlərindən L.P. Saxyanova, B.N. Vasilyev, Y.F. Muruyev, Y.B. Sambuyeva; müğənnilər L.L. *Linxovoin*, V.Y. Buruyev, D.S. Daşiyev, K.İ. Bazarsadayev, Q.B. Şoydaqbayeva və b. çalışmışlar. 1961 ildə teatrın nəzdində Buryat xoreoqrafiya məktəbi təşkil olunmuşdur.

**BURYÁT RESPUBLİKASI,** Buryatiya – RF-nin subyekti. Rusiyanın Asiya hissəsinin c.-unda yerləşir. Sibir federal dairəsinə daxildir. Sah. 351,3 min $km^2$. Əh. 973,9 min (2014). Paytaxtı Ulan-Ude ş.-dir. 21 r-nu, 6 şəhəri, 21 ştq. var.

**Dövlət hakimiyyəti orqanları.** Dövlət hakimiyyəti orqanları sistemini Buryatiya Respublikasının Konstitusiyası (1994) müəyyən edir. Dövlət hakimiyyətini prezident, Xalq xuralı (parlament), hökumət və respublikanın konstitusiyasına uyğun yaradılan digər dövlət hakimiyyəti orqanları həyata keçirir. Respublikanın başçısı və ali vəzifəli şəxsi olan prezidentə səlahiyyətləri RF Prezidentinin təqdimatı ilə Xalq xuralı verir. Xalq xuralı respublikanın ali qanunverici (nümayəndəli) orqanıdır. 66 deputatdan ibarətdir; onlar ümumi bərabər və birbaşa seçki hüququ əsasında, ərazi və milli nümayəndəlik nəzərə alınmaqla, gizli səsvermə yolu ilə 5 illik müddətə seçilirlər. Hökumət ali icraedici dövlət hakimiyyəti orqanıdır. Hökumətin sədri respublika prezidentidir.

**Təbiət.** B. dağlıq ölkədir. Düzən sahələr azdır və onlar təqr. 455–700 *m* hünd.-dədir. Relyefində səthi intensiv parçalanmış, yastı zirvəli qaymalı dağlar üstünlük təşkil edir; yüksəkdağlıqda ara-sıra Alp relyef formaları intişar tapmışdır. Ölkənin q.-ini *Şərqi Sayanın* yüksək zirvələri (Munku-Sardık d., 3491 *m*, B.-nın ən yüksək nöqtəsi), yastıdağlıqları və platoları, *Baykal* gölünün c. və ş. sahillərini *Hamar Daban, Ulan Burqası, İkat, Barquzin* silsilələri, şm.-ını *Stanovoy yaylasının Yuxarı Anqara, Şimali Muya* və *Cənubi Muya* silsilələri, ş.-ini geniş *Vitim* yastıdağlığı tutur. Dağ sistemləri hüdudlarında geniş dağarası çökəkliklər (o cümlədən *Barquzin çuxuru*) yayılmışdır. B. ərazisinin təqr. 90%-i çoxillik donuşluq süxurlarından ibarətdir. Hamar Daban silsiləsində, Şərqi Sayan d-rında və Vitim yastıdağlığında karst intişar tapmışdır.

Geoloji cəhətdən B.-nın ərazisi *Ural-Oxot mütəhərrik qurşağının ş.* hissəsində yerləşir. Ölkənin mərkəzi və şm. r-nları Son Proterozoyun (Baykal) Baykal-Patom qırışıqlıq vil.-nə, c.-q. və c.-ş. kənarları isə Erkən Paleozoyun (Salair) qırışıqlıq sistemlərinə aiddir. Daxili r-nlarda Erkən Kembriyəqədər yaşlı qaymalar. Son Proterozoy, Paleozoy və Mezozoy yaşlı törəmə çökəkliklər var. Baykalarxasında Paleozoy qranitoidləri geniş ərazini tutur. Fanerozoyda B.-nın mərkəzi və c. r-nlarında tektonik-maqmatik aktivləşmə, Kaynozoyda ölkə ərazisində dağəmələlmə və riftogenez prosesləri güclənmişdir. Ərazi üçün yüksək seysmiklik xarakterikdir. Tez-tez zəlzələlər (10–11 bala qədər) baş verir. Faydalı qazıntıları: qurğuşun, sink, molibden, volfram (ehtiyatına görə dünyada 2-ci yerdədir), platin, uran filizləri, qızıl (səpinti və köklü yataqlarda), nefrit, flüorit, asbest, fosforit, kvarsit, apatit, qrafit, xalsedon, təbii tikinti materialları, daş kömür, qonur kömür, torf, yanar şistlər, termal sular və s.

Tunkin Milli Parkı.






İqlimi kəskin kontinentaldır. Qışı uzun və sərtdir. Orta temp-r yanvarda –20, –30°C-dir. Yayı qısa və istidir. İyulun orta temp-ru 8–19°C-dir. İllik yağıntı 250–500 *mm*-dir (dağlarda 1000 *mm*-ədək).

B.-da ümumi uz. təqr. 125 min *km* olan 25 mindən çox çay var. Çoxu Yenisey və Lena hövzəsinə aiddir. Bir neçə çay (Selenqa, Barquzin və s.) Baykal gölünə tökülür. Ən böyük çayı *Vitimdir* (Lena çayının sağ qolu). Çaylar, əsasən, yağış suları ilə qidalanır. Ölkə ərazisində ümumi sah. 2,8 min $km^2$-dən çox olan təqr. 34 min göl var. Ən böyük gölu Baykaldır (gölün çox hissəsi B. ərazisindədir). Dağarası çuxurlarda termokarst və çaylaq gölləri, dağlarda buzlaq gölləri üstünlük təşkil edir; 40-dan çox su anbarı var.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** Şm.-da, q.-də və c.-ş.-də B. ərazisinin təqr. 85%-ini podzollu, yarımqonur və bəzən çimli torpaqlarda bitən, əsasən, Dauriya və Sibir qaraşamından ibarət dağ-tayqa meşələri tutur. B.-nın mərkəzi hissəsində tünd-boz meşə və yuyulmuş qaratorpaqlarda meşə-çöllər, c.-da qaratorpaqlarda taxıl bitkili-müxtəlifotlu bozqırlar, çuxurlarda şabalıdı torpaqlarda taxıl bitkili, quru bozqırlar üstünlük təşkil edir. Dağlarda yüksəklik qurşaqlığı müşahidə olunur. Şərqi Sayan silsiləsində alçaqdağlıqda bitən şam-qaraşam meşələri 800 *m* yüksəklikdə tayqa qaraşamı, 1600–1800 *m* yüksəklikdən başlayaraq alçaqboylu Sibir şamı, sidr və sərili sidr cəngəllikləri, girdəyarpaq tozağacı və qızılağaclıqdan ibarət seyrək meşəliklər, 1900–2000 *m*-dən yuxarıda cırtdan tozağacı, kolcuqlu, mamırlı-şibyəli tundra və irikəltənli səpintili *holslar* ilə əvəz olunur. Baykal gölünü dövrəyə alan küləktutan rütubətli yamaclarda sidr sərilisi qurşağı ilə əvəz olunan tünd iynəyarpaqlı sidr-ağşam və küknar-sidr-ağşam ağacları bitən tayqa, 1700–1800 *m* yüksəklikdən başlayaraq dağ tundraları yayılmışdır. Stanovoy yaylasında alçaqdağlıqda qaraşam meşələri, 1200 *m*-dən yuxarıda qaraşam seyrək meşəliyi, yüksəkdağlıqda dağ-tundra bitkiliyi inkişaf etmişdir. Vitim yastıdağlığı üçün dağətəyi qaraşam və otlu-mərcangiləli şam meşələri, kol tozağacından və Dauriya rododendronundan ibarət meşəaltısı olan ortadağlıq qaraşam meşələri səciyyəvidir. B.-nın c.-unda 600–700 *m* yüksəklikdə dağətəyi çöllər, əsasən, şam və qaraşam-tozağacı bitən meşə-çöllər ilə əvəzlənir; yuxarılarda qaraşam-şam, şam və qaraşam meşələri inkişaf etmişdir; 1800 *m* yüksəklikdən başlayaraq holslar yayılmışdır.

B.-nın meşələrində canavar, qonur ayı, dələ, meşə safsarı, Sibir safsarı, sa-



İvolginsk datsanı.

mur, qaban, sığır, izyubr, cüyür, dovşan, sincab, bonazi tetrası, Sibir xoruzu; meşə-çöl və çöldə boz tülkü, sünbülqıran, marmot və s.; çaylarda çökə, taymen, qızılxallı balıq, xarius və s. yaşayır.

Mühafizə olunan təbii ərazi (B. sahəsinin 9,5%-i) sisteminə Barquzın, Baykal, Cergin dövlət qoruqları, Baykalarxası və Tunkin milli parkları, 23 yasaqlıq (Frolix, Altaçey, Kabansk və s.), 266 təbiət, o cümlədən landşaft abidələri (İnin daş bağı və s.) daxildir. Baykal gölü *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

B. ərazisinin böyük hissəsində ekoloji vəziyyət orta kəskin, Baykal gölü yaxınlığındakı r-nlarda kəskin və çox kəskindir. Atmosferə atılan çirkləndirici maddələrin miqdarı 86 min *t*, suburaxıcı 395 mln. $m^3$-dir (2003). Faydalı qazıntılar çıxarılan r-nlarda, o cümlədən *Baykal-Amur magistralı* zonasında landşaftlar çox pozulmuşdur. Resp.-nın k.t. yerlərinin 50%-ədək torpaqları eroziyaya və deflyasiyaya məruz qalmışdır.

**Əhali.** B. əhalisinin əsas hissəsini ruslar (64,9%; 2010) təşkil edir. Buryatlar – 29,5%, soyotlar – 0,4%, evenklər – 0,3%-dir. Digər qruplardan ukraynalılar (0,7%), tatarlar (0,7%), ermənilər (0,2%), almanlar (0,1%) yaşayırlar. Ölüm səviyyəsi 1000 nəfərə 11,8, doğum səviyyəsi 1000 nəfərə 17,6 nəfərdir (2013). Gözlənilən orta ömür müddəti 66,8 ildir (2012). 1996 ildən əhalinin sabit miqrasiya axını (10 min nəfərə 38 nəfər) səciyyəvidir, ən yüksək həddi 1997–2001 illərdə (10 min nəfərə 46 nəfər) qeydə alınmışdır. Əhalinin orta sıxlığı 1 $km^2$-də 2,8 nəfərdir. Respublikanın mərkəzi və cənub hissəsi, xüsusilə Selenqa çayı və onun qolları boyu əhali daha sıx (1 $km^2$-də 8 nəfər) məskunlaşmışdır. Şəhər əhalisi 59%-dir (2013; 1959 ildə 41%; 1989 ildə 61,6%; 2005 ildə 57%). B. əhalisinin 36%-indən çoxu və bütün şəhər əhalisinin 62%-indən çoxu Ulan-Ude ş.-ndə yaşayır (421,4 min nəfər; 2014). Digər iri şəhərləri (min nəfər): Severobaykalsk (24,2), Qusinoozyorsk (23,4), Kyaxta (20), Zakamensk (11,4). Dindarların əksəriyyəti buddist və xristiandır; yəhudi və müsəlman icmaları da var.

Tavadaşılı qəbir. Tunc dövrü. Xorinsk rayonu.



**Tarixi oçerk.** B. ərazisində ən qədim mədəniyyətlər Mustye dövrünədək yaranmışdır. Yuxarı Paleolit stasionar və yüngül tikililərin tədqiq edildiyi düşərgələrlə təmsil olunur. Mezolit dövründə (e.ə. 9–6-cı minilliklər) yerli Selenqa və gətirilmə Çikoy mədəniyyətləri yanaşı mövcud idi. Neolit dövründə (e.ə. 8–3-cü minilliklər) Vitim çayı sahilindəki Ust-Karegin mədəniyyətini (qədim daş avadanlığı, regionda ən erkən olan dişli möhürlə vurulmuş ziqzaqlar və cınağı naxışlarla bəzədilmiş dairəvi oturacaqlı keramika) Ust-Yumurçen və Buxusan mədəniyyətləri əvəz etmişdi. Şm.-da, Bambuyka çayı sahilində (o cümlədən ən qədim dəfn yeri Aşağı Cilindada) cilalanmış alətlər tapılmışdır. Selenqa çayı boyu ərazilərdə *Kitoy mədəniyyəti*, Baykal gölündən q.-də *Serov mədəniyyəti* yayılmışdı. Bu dövrdə B. əhalisi monqol irqinə mənsub idi. Tunc dövründə Serov mədəniyyəti ənənələrini Selenqaboyuda yayılmış *Qlazkovo mədəniyyəti* davam etdirirdi. E.ə. 2-ci minillikdən bu ərazidə monqol və Avropa irqlərinin təmsilçilərindən qalmış gətirilmə həm *Tavadaşılı qəbirlər mədəniyyəti*, həm də *Kereksur* mədəniyyəti mövcud idi. E.ə. 1-ci minilliyin ortalarında regionun əhalisi dəmir alətləri istifadə etməyə başladı və tədricən Avrasiya çöl mədəniyyətləri arealına daxil oldu.

E.ə. 3 əsr – eramızın 1 əsrində indiki B. ərazisi *hunnular* dövlətinin tərkibinə daxil idi. Hunnular tərəfindən ixtisaslaşmış sənətkarlıq və əkinçilik məskənləri (Durenı, Enxor) salınmış, qalalar (*İvolqa arxeoloji kompleksi*, Bayan-Unger), zadəganların əzəmətli dəfn yerləri (Qarağac yarğanı) tikilmişdir. Yerli əhalinin sonrakı dövrə aid mədəniyyət abidələri aşkar edilməmişdir. 6 əsrdə regionun q.-ində *Kurumçi mədəniyyəti*, ş.-ində isə *Darasun mədəniyyəti* meydana gəlmişdi. C.-da 8–9 əsrlərdə *uyğurlar* məskunlaşmışdılar. 9–10 əsrlərdə burada *Xoyseqor mədəniyyəti* yayılmışdı. 13 əsrin əvvəllərində Baykalətrafı tayfalar Monqol imperiyasının tərkibinə qatılmış və Çingiz xanın hərbi ekspansiyasında iştirak etmişdilər. 13–14 əsrlərin abidələri *Sayantuy mədəniyyətinə* aiddir. Bu mədəniyyətin Orta Asiya faktoriyaları (Temnik, Barquzin) və *Yuan* dövrünə aid monqol malikanələri (Sutay, Narsatuy) məlumdur. Monqol imperiyasının parçalanmasından sonra Baykalönü və Baykalarxası tayfaları monqol xanlarının nəzarəti altında qalırdılar. 17 əsrdə indiki B. ərazisində buddizm yayıldı (ilk iri məbədlər 18 əsrin ortaları – 2-ci yarısında meydana gəldi).

17 əsrin əvvəllərində P.İ. Beketov, M. Perfilyev, D. Firsov və b.-nın komandanlığı altında ilk rus kazak dəstələri regiona soxuldular. Kazakların irəliləməsi ətrafında rus kəndlilərinin məskunlaşdıqları qalaların tikintisi ilə müşayiət olunurdu: Baykalönüdə – Bratsk (1631), Balaqansk (1654), İrkutsk (1661), Baykalarxasında – Barquzin (1648), Selenginsk (1665), Udinsk (1670-ci illər). 17 əsrin ortalarında qərbi buryatların, 17 əsrin 2-ci yarısında Baykalarxası buryatlarının Rusiya dövlətinə birləşdirilməsi başa çatdı. Bu birləşdirmə Rusiya ilə Çin arasında bağlanan *Nerçinsk müqaviləsində (1689)* təsbit olundu.

İlk vaxtlar ruslar buryat tayfalarının sosial təşkilinə və mədəniyyətlərinə müdaxilə etmirdilər. Lakin Rusiya müstəmləkəçiliyi regionun təsərrüfat ukladında dəyişikliklərə səbəb oldu. Buryatlar ruslardan xış əkinçiliyini, onun üsullarını, oturaq məişət ünsürlərini və s. mənimsədilər. Buryatların, başlıca olaraq qərb buryatlarının xristianlaşdırılması da Rusiya müstəmləkəçiliyi ilə bağlıdır. Rusiya ilə Monqolustan arasında rəsmi sərhədi müəyyənləşdirən Burinsk müqaviləsinin (1727) bağlanmasından [elə həmin il *Kyaxta müqaviləsinin (1727)* mətninə daxil edilmişdi] sonra buryat tayfalarının monqol dünyasından ayrılması başladı.

18 əsrdə Rusiya hökuməti B.-nı vahid siyasi, hüquqi, inzibati, iqtisadi və mədəni məkana daxil etdi. Bununla yanaşı uzun müddət buryatların əsas özünüidarə formaları saxlanılırdı. 18 əsr – 20 əsrin əvvəllərində indiki B. ərazisi Sibir (1708–64) və İrkutsk (1764–1851) qub.-larının tərkibinə daxil idi, sonra indiki B. ərazisinin böyük hissəsi sonralar *Uzaq Şərq Respublikasının* (UŞR) Baykalarxası qub.-na (1920–21) qatılan Baykalarxası vil.-nə (1851–1920) verildi. B.-nın c.-q.-indəki və şm.-q.-indəki kiçik ərazilər İrkutsk qub.-nın (1851–1922) tərkibində qaldı.

*Kyaxta* ümumrusiya və beynəlxalq ticarətin iri mərkəzinə çevrildi. Yadellilərin idarə olunması haqqında nizamnaməyə (1822) görə B. ərazisində tayşaların başçılığı ilə çöl dumaları təsis edildi. 19 əsr – 20 əsrin əvvəllərində S.-Peterburqda, Kazanda, Tomskda, İrkutskda buryat alimləri P.A. Badmayev, Q. Qomboyev, D. *Banzarov* və M.N. *Xanqalovun* əsərləri nəşr edildi. 19 əsrin 2-ci yarısında B.-da qızıl hasilatı genişləndi. 19 əsrin sonları – 20 əsrin əvvəllərində Transsibir magistralının B. ərazisindən keçən d.y. qollarının tikintisi regionun inkişafına təsir göstərdi.

20 əsrin əvvəllərində buryatlar arasında milli muxtariyyət uğrunda hərəkat meydana gəldi və inkişaf etməyə başladı. Rusiyada Vətəndaş müharibəsi (1917–22) dövründə indiki B. ərazisi Yaponiya və Amerika qoşunları tərəfindən dəstəklənən ataman Q.M. Semyonovun qoşunlarının nəzarəti altında idi (1918–20). Semyonov Çita ş.-ndə Müstəqil Monqol-Buryat Resp.-nın hökumətini təşkil etdi. Qırmızı ordu bölmələrinin hücumu (1919–20), həmçinin Çita əməliyyatları (1920) gedişində indiki B. ərazisi qırmızı ordu hissələri tərəfindən tutuldu. 1921 il aprelin 21-də UŞR-in Baykalarxası qub.-nda Buryat-Monqol MV (mərkəzi Verxneudinsk ş.) təşkil edildi. 1922 il yanvarın 9-da RSFSR-in İrkutsk qub.-nın c.-ş. hissəsində və UŞR-in Baykalarxası qub.-nın uçqar q.-ində Monqol-Buryat MV (mərkəzi İrkutsk ş.) yaradıldı. 1923 il mayın 30-da Buryat-Monqol MV və Monqol-Buryat MV Buryat-Monqol MSSR-də (mərkəzi Verxneudinsk, 1934 ildən Ulan-Ude) birləşdirildi. 1930–36 illərdə Buryat-Monqol MSSR Şərqi Sibir diyarının tərkibinə daxil idi. 1937 il sentyabrın 26-da SSRİ MİK-in qərarı ilə Buryat-Monqol MSSR-in tərkibindən ərazilərin bir hissəsi ayrıldı. Respublikanın Aqa və Ulan-Onon aymaklarından Çita vil.-nin tərkibində Aqa Buryat-Monqol milli mahalı, Alarsk, Boxansk və Exirit-Bulaqat aymaklarından isə İrkutsk vil.-nin tərkibində Ust-Orda Buryat-Monqol milli mahalı yaradıldı. 1958 il iyulun 7-də Buryat-Monqol MSSR-in adı dəyişdirilərək Buryat MSSR oldu. 1990 il oktyabrın 9-da Buryat MSSR Ali Sovetinin sessiyasında dövlət müstəqilliyi haqqında Bəyannamə qəbul edildi, respublika isə Buryat SSR adlandırıldı. 1992 il martın 27-də indiki adı qəbul edildi.

**Təsərrüfat.** B. Şərqi Sibir iqtisadi r-nuna daxildir. Sənaye məhsullarının həcmi dəyərinə görə k.t. məhsullarının həcmindən 3,8 dəfə çoxdur. RF iqtisadiyyatında qızıl (RF üzrə hasilatın təqr. 6%-i), helikopter, metal konstruksiyalar, elektrik mühərrikləri, həmçinin yun parça (RF üzrə istehsalın 5%-indən çoxu) istehsalı ilə fərqlənir.

Məcmu regional məhsulun (həcmi 154678 mln. rubl, adambaşına 159221 rubldur) strukturunda (2011, %) sənaye 22,1, qeyri-bazar xidmətləri 21,1, nəql. və rabitə 19,1, ticarət, əmtəə və xidmətlərin satışı üzrə kommersiya fəaliyyəti 12,4, k.t. 5,9, tikinti 7,1, digər sahələr 12,3 təşkil edir.

İqtisadi fəal əhali 419,3 min nəfərdir (2012), onlardan 61,6%-i iqtisadiyyatda çalışır. Məşğulluğun sahəvi strukturunda sənaye 18,2, təhsil 13,5, ticarət və ictimai iaşə 13,4, k.t. 10,4, səhiyyə 8,4, nəql. 7,4, tikinti 5,5, rabitə 1,6, meşə təsərrüfatı 1,3% təşkil edir. İşsizliyin səviyyəsi 7,9%-dir (2012). Bir ayda adambaşına düşən gəlir 17,1 min rubldur (2012); əhalinin 18,8%-inin gəliri yaşayış minimumundan aşağıdır.

S ə n a y e. B.-nın sənaye məhsullarının həcmi 19,7 mlrd. rubldur (2013). Sənaye istehsalının sahəvi strukturunda maşınqayırma və metal emalı 39%, elektrik enerjisi 26,5%, əlvan metallurgiya 11,6%, yeyinti sənayesi 8,2%, meşə, ağac emalı və sellüloz-kağız 6%, yanacaq 3,1%, tikinti materialları sənayesi 2,3%, yüngül sənaye 1,7% təşkil edir.

B. təsərrüfatının strukturu və ərazi üzrə təşkili ölkənin iqtisadi-coğrafi mövqeyinin özünəməxsusluğu (B. ərazisinin RF-nin q. və ş. sərhədlərindən uzaqlığı) və öz mineral-xammal (faydalı qazıntıların hasili) bazası əsasında formalaşmışdır.

Daş kömür çıxarılır (Saqan-Nur qəs. yaxınlığında, Çita vil. ilə sərhəddəki Olon-Şibir və Nikol yataqları); hasilatın təqr. 90%-i Şərqi Sibirdəki ən iri və perspektivli "Tuqnuy" kəsilişində (Olon-Şibir yatağı) həyata keçirilir. Regionun elektrik enerjisinə tələbatı təqr. 55% ödənilir, bununla yanaşı, B. Monqolustana elektrik enerjisi ixrac edir. Resp.-da elektrik enerjisi və istiliyin, demək olar, 100%-i İES-lərdə istehsal olunur (əsasları – Qusinoozyorsk DRES-i, Ulan-Ude İEM-1).

Səpinti və filiz qızılı ("Buryatzoloto" – qızıl hasil edən aparıcı təşkilat), kvarsit (Baykalətrafı r-nda Çeremşansk yatağı) hasil olunur; kvars xammalının əsas istehlakçısı "İrkutsk alüminium zavodu"dur. Ozyornoye və Xolodninskoye sink-qurğuşun yataqlarının sənaye mənimsənilməsinə başlanılmışdır.

Aparıcı sənaye sahələri maşınqayırma və metal emalıdır. Əsas müəssisələri: Ulan-Ude təyyarə z-du [Su-25, Su-39 təyyarələrinin müxtəlif modifikasiyaları, həmçinin çoxtəyinatlı (Mi-8T, Mi-171) və döyüş (Mi-171Ş) helikopterləri; helikopterlərin 1/2-dən çoxu ixrac edilir]; "Ulan-Udestalmost" (avtomobil yolu,

d. y. və piyada körpüləri üçün metal konstruksiyaların, bina və tikililərin polad konstruksiyalarının, elektrikötürücü xətlər üçün konstruksiyaların və s. istehsalı üzrə Sibirin və Uzaq Şərqin ən böyük müəssisələrindən biridir); Ulan-Ude lokomotiv-vaqon təmiri z-du. Dəyişkən cərəyan elektrik mühərrikləri ("Elektromaşina"), avtomatik tənzimləmə vasitələri ("Teplopribor-Komplekt"), televiziya və kompüter texnikası (B.-nın "Belı lebed" kompüter mərkəzi), yüngül sənaye üçün texnoloji avadanlıq, heyvandarlıq və yem istehsalı üçün maşınlar, xalq istehlakı malları və s.-in istehsalı da inkişaf etmişdir. "Baykal gəmiqayırma şirkəti" gəmi təmirindən başqa, bərə keçidləri tikintisi, taxta-şalban, kömür, mineral-tikinti yükləri, universal konteynerlər, təkərli və tırtıllı texnikanın daşınması üzrə də xidmətlər göstərir. Müəssisələrin çoxu Ulan-Udedə yerləşir.

Meşə sənayesi kompleksi resp.-nın təsərrüfatında ənənəvi olaraq əhəmiyyətli yer tutur. Əsas məhsulları: emalayararlı oduncaq, taxta-şalban materialları, d. y. üçün şpallar, qapı-pəncərə blokları və s. Ən iri müəssisəsi Selenginsk sellüloz-karton kombinatıdır (RF-də məcmu ağardılmamış sellüloz istehsalının təqr. 7%-i).

Oduncağın dərindən emalı ("Les Sibiri", Ulan-Ude), meşənin qeyri-oduncaq resurslarının, əsasən, dərman bitkilərinin (Ulan-Udedə "Ekor-Darı Sibiria" və "Baykalfarm" və s.) yığımı və emalı inkişaf etmişdir.

Tikinti materialları sənayesi müəssisələri sement, tikinti kərpici, əhəng, divar materialları, şifer istehsal edir.

Yüngül sənaye parça ("Ulan-Ude zərif mahud manufakturası"), tikiş və ayaqqabı məhsulları ("Naran-Soyuz-Servis", Ulan-Ude) istehsal edən müəssisələr ilə təmsil olunur.

Yeyinti sənayesində ət-süd məhsulları istehsalı üstünlük təşkil edir. Aparıcı müəssisələri: Kabansk yağ z-du, "Buryatmyasoprom" (Ulan-Ude), qənnadı "Amta" və makaron f-kləri (Ulan-Ude), tərəvəz, meyvə və giləmeyvələrin emalı üzrə müasir istehsal (Biçura r-nunda "Niva") fəaliyyət göstərir.

Selenginsk sellüloz-karton kombinatının məhsulları və oduncaq B. ixracatının təqr. 40%-ini təşkil edir. Əsasən, qida və maşınqayırma məhsulları (o cümlədən Monqolustan, ABŞ, ÇXR, Ukrayna və s.-dən) idxal olunur.

K ə n d  t ə s ə r r ü f a t ı. K.t. məhsullarının ümumi dəyəri 13,68 mlrd. rubldur (2012). Dəyər göstəricisində heyvandarlıq məhsulları üstünlük təşkil edir. Təbii şəraitin müxtəlifliyi B.-da ərazi üzrə k.t.-nın ixtisaslaşmasını müəyyən etmişdir. K.t.-na yararlı ərazi 2194,4 min *ha*-dır, onun 32,8%-ini əkin sahələri tutur. Bitkiçilik, əsasən, heyvandarlığın tələbatını ödəyir və ölkənin şm.-ından başqa hər yerdə inkişaf etdirilir. Dənli (əkinlərin 58,9%-i; yazlıq buğda və çovdar), yemlik (32,8%; raps, çöl noxudu, çəmən pişikquyruğu), kartof və bostan-tərəvəz bitkiləri (8,1%), dənli yem (yulaf, arpa), paxlalı (noxud) bitkilər becərilir. Kartof istehsalında Kabansk r-nu (B.-nın c. hissəsi) liderlik edir; ucqar şm.-ş. və q.-dən başqa, demək olar, hər yerdə tərəvəz becərilir (cədvəl 1).

Ətlik və südlük heyvandarlıq, qoyunçuluq və donuzçuluq k.t.-nın qabaqcıl sahəsidir (cədvəl 2). Ətlik maldarlıq ən çox ucqar q. r-nlarında, bəzi ş. və c. r-nlarında, südlük maldarlıq satış bazarlarına (Ulan-Ude) və digər r-nlardakı emal müəssisələrinə yaxın yerlərdə inkişaf etmişdir. Yem çatışmazlığı səbəbindən qaramal yetişdirilməsi məhdudlaşdırılmışdır. Qoyunçuluq ənənəvi olaraq c. r-nlarında, həmçinin ş. və şm.-ş.-də, donuzçuluq c. r-nlarında inkişaf etmişdir; B.-nın şm.-ında maralçılıq üstünlük təşkil edir. Ənənəvi sahə atçılıqdır (təqr. 80 min baş, 2013; əsasən, B.-nın q.-ində və ş.-ində), həmçinin yakçılıq (B.-nın q. və ş. r-nlarında), qəfəs heyvandarlığı (gümüşü-qara tülkü və susamuru), arıçılıq və quşçuluq inkişaf etmişdir, ovçuluq geniş yayılmışdır.

K.t. yerlərinin çox hissəsi (79,8%) k.t. təşkilatlarının torpaqlarına aiddir; vətəndaşların şəxsi istifadəsinə 4,9%, kəndli (fermer) təsərrüfatlarının payına 2,8% k.t. torpağı düşür. Demək olar ki, taxılın hamısı (94,2%) k.t. təşkilatları tərəfindən istehsal olunur; əhaliyə məxsus təsərrüfatlar kartof (96,9%), tərəvəz (91,1%), süd (85,3%), ətlik heyvan və quş istehsalında (84,7%) liderlik edir.

N ə q l i y y a t. Əsas nəql. növü uz. 1227 *km* (2012) olan d.y.-dur. RF-nin iki ən mühüm (Transsibir və BAM) d.y. magistralı B. ərazisindən keçir. Bərkörtüklü avtomobil yollarının uz. 8102 *km*-dir (2012). Federal əhəmiyyətli əsas magistrallar: İrkutsk–Ulan-Ude və Ulan-Ude–Çita. Beynəlxalq aeroport Ulan-Udedə ("Buryatskiye avialinii" şirkəti) yerləşir. Su nəql. inkişaf etmişdir, gəmiçiliyə yararlı yolların ümumi uz. 282 *km*-dir. Əlaqələr Selenqa, Çikoy çayları və Baykal gölü vasitəsilə həyata keçirilir. Baykal sahillərində gəmilərin yan alması üçün Ust-Barquzin, Nijneanqarsk və Severobaykalsk körpüləri; Ulan-Udedə iri port fəaliyyət göstərir. Əsas daşınan yüklər taxta-şalban, qum-çınqıl qarışığı və neft məhsullarıdır.

Cədvəl 1. **Bitkiçilik məhsullarının əsas növləri,** min *t*

| | 1985 | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2012 |
|---|---|---|---|---|---|---|---|
| Taxıl | 527,8 | 450,8 | 262,6 | 179,0 | 82,6 | 72,4 | 125,7 |
| Kartof | 195,0 | 179,0 | 204,7 | 143,8 | 155,0 | 164,7 | 174,4 |
| Tərəvəz | 38,9 | 42,4 | 34,8 | 58,9 | 45,9 | 46,5 | 55,9 |

Cədvəl 2. **Heyvanların ümumi sayı,** min *baş*

| | 1985 | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2012 |
|---|---|---|---|---|---|---|---|
| Qaramal | 508,2 | 559,1 | 392,7 | 339,0 | 312,4 | 363,1 | 394,7 |
| Donuz | 249,6 | 262,2 | 147,2 | 116,8 | 73,1 | 74,9 | 77,9 |
| Qoyun və keçi | 1566,2 | 1384,0 | 455,1 | 217,2 | 219,4 | 262,9 | 290,6 |

## Səhiyyə

B.-da 212 müalicə-profilaktika (o cümlədən 28 resp.) müəssisəsi – 98 poliklinika (o cümlədən 72-si kənd yerlərində), 9275 çarpayılıq 114 xəstəxana (o cümlədən 4463 çarpayılıq 86 xəstəxana kənd yerlərində) fəaliyyət göstərir; onlarda təqr. 3000 həkim və 8443 orta tibb işçisi çalışır (2003). Ölümün əsas səbəbləri qan dövranı sistemi xəstəlikləri (80%), travmalar, zəhərlənmələr, bədxassəli yenitörəmələrdir. Kurortları: Arşan, Qoryaçinsk.

**Təhsil. Elm və mədəniyyət müəssisələri.** Resp.-da 181 məktəbəqədər təhsil müəssisəsi, 584 ümumtəhsil məktəbi, 24 orta ixtisas təhsili müəssisəsi, 15 ali məktəb (filiallar da daxil olmaqla; 15 mindən çox tələbə) var. Ən böyük dövlət ali məktəbləri (Ulan-Udedə): Buryatiya Kənd Təsərrüfatı Akademiyası (1931), Şərqi Sibir Texnologiya Un-ti (1962), Şərqi Sibir Mədəniyyət və İncəsənət Akademiyası (1960), Buryatiya Un-ti (1995 ildə Pedaqoji İn-tun və Novosibirsk Dövlət Un-ti filialının bazasında yaradılmışdır).

B.-da Rusiya EA Sibir şöbəsinin tərkibində 4 ETİ olan Buryat Elmi Mərkəzi, Elmi Mərkəzin Rəyasət Heyəti nəzdində Fizika problemləri şöbəsi, Rusiya Kənd Təsərrüfatı EA Sibir şöbəsinin Buryat ETİ fəaliyyət göstərir. 4 resp. kitabxanası, o cümlədən Ulan-Udedə Milli kitabxana (1881), 16 muzey (o cümlədən Buryatiya tarixi muzeyi, 1923; Resp. rəssamlıq muzeyi, 1944; Buryatiya təbiəti muzeyi, əsası 1978 ildə qoyulmuşdur; Buryatiya ədəbiyyatı muzeyi, 1989; hamısı Ulan-Udedədir), Kyaxtada diyarşünaslıq muzeyi (1890), Verxnyaya Beryozovka qəs.-ndə Baykalarxası xalqlarının etnoqrafik muzey-qoruğu (1973) və s. var.

**Kütləvi informasiya vasitələri.** Əsas qəzetlər: "Buryatiya". "Buryaad unen", "Pravda Buryatii", "Molodyoj Buryatii" və teleradioverilişləri şirkətləri («Baykal» Buryatiya dövlət teleradioverilişləri şirkəti, Buryatiya ictimai televiziyası, «Ariq Us» və s.) rus və buryat dillərində nəşr olunur və yayımlayır.

**Ədəbiyyat.** Ümummonqol yazı ənənələrindən intişar etmiş buryat ədəbiyyatı 19 əsrdə formalaşmışdır. 19–20 əsrin əvvəllərində yazıb-yaratmış R. Nomtoyev, İ.X. Qalşiyev, V. Yumsunov, Ş.N. Xobituyev öz əsərlərində orta əsrlər monqol ədəbiyyatı ənənələrini davam etdirirdilər. 1900-cü illərdə rus ədəbiyyatının təsiri ilə, əsasən, köhnə cəmiyyətin qüsurlarını tənqid edən ulus dramaturgiyası yarandı (D.A. Abaşeyev, S.P. Baldayev, İ.V. Barlukov, İ.Q. Saltıkov). 1920-ci illərdə yeni nəsil meydana gəldi: yazıçılardan müasir buryat ədəbiyyatının banisi X.N. *Namsarayev*, S. Don (S.D. Dondubon), şair Solbone Tuya (P.N Dambinov), dramaturqlar B. Baradin, N.Q. Baldano; onların əsərləri üçün milli folklora istinad səciyyəvidir. 20 əsrin 2-ci yarısında ədəbiyyat şairlər D. Daşinimayev, B. Bazaron, B. Abiduyev, S. Qalsanov, S. Dondokova, D. Jalsarayev, N. Damdinov və D. Ulzıtuyevin, dramaturq S. Şaqjinin, nasirlər S. Qalanov, R. Beloqlazova, J. Tumunov, B. Munqonov, D. Batojabay, J. Baldanjabon, A. Balbu-



Buryat Kənd Təsərrüfatı Akademiyası. Ulan-Ude.

rov və M. Stepanovun yaradıcılığı ilə təmsil olunurdu. Ç. Sıdendambayevin ilk buryat alimi D. Banzarov haqqında roman-trilogiyası ("Banzarovun mürəkkəbqabısı", 1948; "Banzarın oğlu Dorji", 1952; "Doğma çöllərdən uzaqlarda", 1957–58) və İ. Kalaşnikovun Çingizxana həsr olunmuş "Amansız dövr" (1980) romanı irihəcmli epik əsərlərdir. Nasir və dramaturq A. Anqarxayev və şair B. Duqarovun yaradıcılığı 20 əsrin sonu – 21 əsr ədəbiyyatında əhəmiyyətli hadisədir. Yazıçılar D. Xiltuxin, S. Nomtoyev, Ş. Nimbuyev, S. Badmayev, Q. Çimitov uşaq ədəbiyyatı sahəsində fəaliyyət göstərirlər.

**Təsviri sənət. Memarlıq.** Paleolit dövrü yaşayış məskəninin qalıqları (Sannı Xorinsk r-nu, Mıs yaşayış yeri), Kabansk və İvolgensk r-larında tapılmış Neolit dövrünə aid bəzək əşyaları və keramika B.-da ən qədim incəsənət və memarlıq abidələridir. Tunc və Erkən Dəmir dövrü incəsənəti *petroqliflərlə* təmsil olunur (Bagin-xora mağarası, Muxorş-bir r-nu; Xotoqoy-Xabsaqay, Xorinsk r-nu; Angir, Zaiqrayevo r-nu; Baqa-Zarya dağı, Cida r-nu). *Hunnu* dövrünə, İvolqa arxeoloji kompleksi, tuncdan hazırlanmış məmulatlar (Dırestuy məzarlığı, Cida r-nu), erkən orta əsrlərə Kurumçi mədəniyyəti abidələri, qədim şəhər yerləri, irriqasiya qurğuları aiddir. Sadə dəfn əşyaları olan kiçik daş kurqanlar, Tayxan qalası, Narsata k. yaxınlığındakı malikanə (Muxorş-bir r-nu), Sarbaduy petroqlifləri (Cida r-nu) monqol dövrü abidələridir.

17 əsrin 2-ci yarısı – 18 əsrin 1-ci yarısında taxta qalaların tikintisinə başlandı (Uda həbsxanası, 1670; Kabansk həbsxanası, 1692; Troitsa qalası, 1727 və s.). Şəhərlərin yaranması ilə əlaqədar daşdan tikililər meydana gəldi. 18–19 əsrin əvvəllərinə aid memarlıq abidələrindən Ulan-Udedə kafedral kilsə (1741–85), Turuntayevo k.-ndə kilsə (1791), Posolskoye k.-ndə monastır kilsəsi (1773–78) və s. saxlanılmışdır.

19 əsrin 1-ci yarısı memarlığında *klassisizm* üslubu aparıcı mövqe tuturdu: Kyaxtada Troitsa kilsəsi (1812–17), Baykalətrafı r-nunda Baturin Sreten kilsəsi (1813–36), tacir Kurbatovun ticarət sıraları (1820-ci illər) və Ulan-Udedə rastabazar (1803–56), Kabansk qəs.-ndə tacir Eydelmanın evi və s.

18–19 əsrlərdə memarlıq üslubunda yerli və Mərkəzi Asiya ənənələrinin birləşdiyi monastırlar (*dasanlar*) tikilirdi (Tamçinsk, 1741; Muromçinsk, 1741); Budda incəsənəti yaranırdı (Egituy dasanında 18 əsrin sonu – 19 əsrin əvvəllərində Çin ustaları tərəfindən hazırlanmış taxtadan Zandan-Juu adlanan Budda heykəli).

1917 ildən sonra yeni şəhərlər və qəsəbələr salınır, köhnələr isə genişləndirilir və yenidən qurulurdu (Ulan-Ude və Kyaxtadakı tikililər). 1950-ci illərin sonlarından yaşayış evlərinin tikintisi dəmir-beton, alüminium, şüşə və plastikdən istifadə etməklə standart və fərdi layihələr üzrə aparılırdı. Dini tikililərin inşası davam edirdi (İvolginsk dasanı, 1946, baş məbəd 1972). 1990-cı illərin sonlarından dini tikililər bərpa edilir.

Buryat xalqının əmək və məişəti mövzusunda əsərlər yaradan S.S. *Sampilov*, R.S. Merdıgeyev, İ.Q. Daduyev, A.Y. Xanqalov, İ.A. Arjikov müasir təsviri sə-

nətin baniləridir. Resp. Rəssamlar İttifaqının (1933) yaradılmasında Q.Y. Pavlov, F.İ. Baldayev, portretçi D.D. Tudupov və b. iştirak etmişlər. 20 əsrin 2-ci yarısında tarixi və məişət boyakarlığı, (D.D. Duqarov, S.R. Rinçinov və b.), portret və peyzaj (M. Z. Oleynikov, Y.A. Çirkov və b.), dəzgah qrafikası və illüstrasiya (Q.N. Moskalyov, A.N. Saxarovskaya, İ.İ. Starikov) inkişaf etmişdir. Dekorativ-tətbiqi sənətdə gümüş üzərində ənənəvi döymə və zərgərlik ilə yanaşı yeni formalarda keramika, at tükündən istifadə etməklə qobelen toxuculuğu mənimsənilir.

**Musiqi.** Musiqi mədəniyyətinin əsasını yerli sakinlərin və mühacirlərin (ruslar, ukraynalılar və b.) ənənələri təşkil edir. Buryat şifahi peşəkar mədəniyyətinin əsas janrı epik dastanlar – *uligerlərdir*. Baykalətrafı ərazilərdə şamanizm, Baykalarxasında isə buddizm musiqi mədəniyyətinin elementləri qorunub saxlanılır. 1930-cu illərdə peşəkar musiqi də inkişaf etməyə başlamışdır. Onun təşəkkül tapmasında rus musiqiçilərinin böyük rolu olmuşdur: Ulan-Udedə yaradıcılıq kollektivləri (musiqili dram teatrı, filarmoniya, hər ikisi 1939) və təhsil müəssisələri təşkil edilmiş, buryat folkloru əsasında ilk əsərlər yaradılmışdır: "Buryat-Monqol MSSR-in qəhrəmanlıq marşı" (R. M. *Qlier*, 1937), "Bair" musiqili dramı (P.M. Berlinski, B.B. Yampilovla birgə, 1938), "Erjen" musiqili dramı (V.İ. Moroşkin, 1939), "Enxe-Bulat-bator" operası (M.P. Frolov, 1939), "Baykalda" operası (L.K. Knipper, 1948 və s.), "Sayan dağının ətəyində" operası, 1952 və "Vadi üzərində işıq" baleti (S.N. Ryauzov, 1955 və s.). 1938 ildə Buryatiya incəsənətinin Moskvada keçiriləcək 1-ci dekadasına hazırlıqla əlaqədar xalq çalğı alətləri orkestri yaradıldı. 1930-cu illərin ortalarında D.D. Ayuşeyev, B.B. Yampilov, J.A. Batuyev, Q.Q. Daduyev kimi peşəkar buryat bəstəkarları meydana çıxdı; kütləvi mahnı onların müraciət etdiyi ilk janr olmuşdur. Sonralar B.O. Sırendaşiyev, S.S. Manjigeyev, A.A. Andreyev də populyar mahnılar yazmışlar. 1930–60-cı illər üçün Avropa bəstəkarlıq prinsiplərinə meyillilik səciyyəvidir. Sonralar, 1970–80-ci illərdən başlayaraq Andreyev, Y.İ. İrdıneyev, V.A. Usoviç, B.B. Dondokov və P.N. Damiranovun yaradıcılığında buryat musiqisinin əsasları ilə (məs., pentatonikanın) müasir kompozisiya texnikasının birləşdirilməsi priyomları işlənilməyə başladı.

D.D. Ayuşeyevin opera-trilogiyası ("Qardaşlaşmışlar", B.S. Mayzellə birgə, 1958; "Qardaşlar", 1961; "Sayan", 1967), B.B. Yampilovun "Dərketmə" (1967) və "Ecazkar xəzinə" (1970, uşaq operası) operaları, V.A. Usoviçin "Zeer Dalayın tarıma çəkilmiş yayı" (1980) estrada operası; Yampilov və L.K. Knipperin "Gözəl Anqara"(1959), Yampilovun "Patetik ballada" (1966), aparıcı balet bəstəkarı J.A. Batuyevin "Torpağın oğlu" (1972) və başqa əsərləri, Y.İ. İrdıneyevin "İlahənin siması" (1979), A.A. Andreyevin "Səma qızı Qu quşu" (2001) baletləri əhəmiyyətli əsərlərdir. 1990–2000-ci illərin əvvəllərində B.-da folklor hərəkatının canlanması milli mədəniyyət tarixinə həsr olunmuş bir sıra əsərlərin

Buryat Dövlət Akademik Opera və Balet Teatrı. Ulan-Ude.



[simfonik orkestr üçün B.B. Dondokovun "Geser" 1993; Usoviçin "Tibet" (2000), a kapella xoru üçün İrdıneyevin "Buryat-monqol dini oxumaları" (1998)] yaranmasına səbəb oldu. Müğənnilər L.L. *Linxovoin*, K.İ. *Bazarsadayev* aparıcı ifaçılardandırlar.

Ulan-Udedə *Buryat Opera və Balet Teatrı*, Simfonik orkestr, Buryat xalq çalğı alətləri orkestri (1966), "Baykal" mahnı və rəqs ansamblı (1942), Buryatiya Bəstəkarlar İttifaqı (1940) fəaliyyət göstərir. Özfəaliyyət və etnoqrafik kollektivlərin işini Respublika Xalq Yaradıcılığı Mərkəzi (1936) idarə edir.

**Teatr və balet.** 1908–14 illərdə həvəskar teatr kollektivləri buryat dramaturgiyasının ilk əsərlərini tamaşaya qoymağa başladılar (D. A. Abaşeyev "Ölüm"; İ.V. Barlukov "Şərab təqsirkardır"; İ.G. Saltıkov "İki dünya"). 1928 ildə Verxneudinskdə (1934 ildən Ulan-Ude) buryat teatr studiyası, 1930 ildə isə həmin studiyanın əsasında İncəsənət texnikumu yaradılmışdır. 1932 ildə təşkil edilmiş dram teatrının (1939 ildən Musiqili dram teatrı) truppası bu texnikumun məzunlarından ibarət olmuşdur. 1950 ildə teatrın dram kollektivinin bazasında Buryat Dram Teatrı (1959 ildən X. Namsarayev ad., 1976 ildən akademik dram teatrı) yaradılmış, burada klassik dramaturgiya ilə yanaşı milli müəlliflərin pyesləri də tamaşaya qoyulmuşdur: N.Q. Baldanonun "O kimdir" (1933), A.İ. Şadayevin "Mergen" (1937) və s. Milli teatrın inkişafında M.B. Şambuyeva, Q.S. Sıdnjapov, P.N. Nikolayev, S.D. Budajapov, İ.Y. Mironov, Y.P. Şangina, N.Q. Baldano, S.Q. Şaqjin, D.D. Dondukov və b.-nın mühüm rolu olmuşdur. Ulan-Udedə həmçinin Rus Dram Teatrı (1928), "Ulger" kukla teatrı (1967), "Badma Seseq" rəqs teatrı (1979), Gənclər Bədii Teatrı (1980), N. Duqar – Jabon ad. "ÇeloVek" plastik dram teatrı (1993) fəaliyyət göstərir. 1943 ildə Ulan-Udedə Musiqili dram teatrı nəzdində təşkil edilmiş balet truppasının tərkibinə İncəsənət texnikumunun məzunları – S.Y. Badmayev, Q.Y. Gergesova, F.S. İvanov, A.B. Toqonoyeva və b. daxil idilər. Buryat səhnəsində tamaşaya qoyulan ilk klassik balet B.V. Asafyevin "Baxçasaray fontanı" olmuşdur (1943, xoreoqraflar M.S. Arsenyev və T.K. Qlezer). 1948 ildə musiqili dram teatrının əsasında Buryat Opera və Balet Teatrı yaradılmışdır. İlk milli balet S.N. Ryauzovun "Vadi üzərində işıq" (1956, xoreoqraflar F.S. İvanov və M.S. Zaslavski) əsəri olmuşdur. Digər tamaşalar arasında P.İ. Çaykovskinin "Yatmış gözəl" (1957, xoreoqraf Zaslavski), J.A. Batuyevin "Geser" (1967) baletləri və s. var. 1961 ildən teatrın nəzdində Buryat xoreoqrafiya məktəbi fəaliyyət göstərir.

*Əd.:* Ходорковская Л. Бурят-монгольский театр. М., 1954; Найдакова В. Современный бурятский драматический театр. [Улан-Удэ, 1962].





**BURYATLAR** – Baykalətrafında monqoldilli xalq, Buryatiyanın, Ust-Orda və Aqa Buryat muxtar mahallarının yerli əhalisi. Rusiya Federasiyasında 461,4 min nəfər (2010), o cümlədən Buryatiyada 286,8 min nəfər, İrkutsk vil.-ndə 77,7 min nəfər (Ust-Orda muxtar mahalında – 54), Aqa Buryat muxtar mahalında 45 min nəfər), Saxa (Yakutiya) Resp.-nda 7 min nəfər yaşayır. Həmçinin Şimali Monqolustanda (Xentey, Şərq, Selenqa, Xubsuqul aymakları) təqr. 80 min nəfər, Çində (Daxili Monqolustan muxtar r-nu, Xulun-Buyr aymakı) təqr. 41 min nəfər, azsaylı qrupları Qırğızıstanda (əsasən, Bişkekdə), Ukraynada (əsasən, Kiyevdə) və s. yerlərdə məskunlaşmışlar. Ümumi sayları təqr. 600–620 min nəfərdir. Altay dil ailəsinin monqol qrupuna aid buryat dilində danışırlar. Rus və monqol dilləri də yayılmışdır. Dindarları buddistlər və xristianlardır, bir çoxu ənənəvi kultlarını (şamanizm və s.) qoruyub saxlayır.

*Monqolların* Baykalətrafına gəlmə tarixini müxtəlif tədqiqatçılar e.ə. 2-ci minillikdən (Q.N.Rumyantsev) eramızın 13 əsrinədək (S.A.Tokarev) müəyyən edirlər. Ehtimal ki, onlarla eramızın 1-ci minilliyindən Barquzin hövzəsində məskunlaşmış barqutları (çincə bayeqular, türkcə bayırqular) bağlamaq olar. Baykalətrafında yaşadıqları ilkin dövrdə monqolların türklərdən güclü siyasi və mədəni asılılıqda olmaları güman edilir. Sonradan regionda monqolların nüfuzunun yayılması *kidanlar* dövlətinin yüksəlişi və *Qırğız xaqanlığının* (10 əsrin əvvəlləri) zəifləməsi ilə əlaqələndirilir. Mənbələrdə eramızın 2-ci minilliyinin əvvəllərində Baykalətrafında sonradan 13 əsrdə Çingiz xan tərəfindən darmadağın edilmiş xorilər (kuralaslar) qeyd olunur. 13 əsrdə "Monqolun niqança tobçiyan" adlı tarixi salnaməsində ilk dəfə B.-ın adı çəkilir, bu dövrdə onlar, ehtimal ki, *oyratlara* tabe idilər. Rus mənbələrində 17 əsrdən onlar "bratlar" adlanır. Anqara hövzəsində və Lenanın yuxarı axarında xonqodorların (xonqoodor), bulaqatların



Buryatlar milli geyimdə.

(bulqad), exiritlərin (exirid), Baykalarxasında – xorilərin birlikləri qeyd olunur. Onları təşkil edən nəsillər 19 əsrin əvvəllərində etno-ərazi qruplarının tərkibinə qatıldılar: qərbi B.-a Aşağı Uda (Uda çayının orta axarı), Balaqan, yaxud Unqa (Unqa çayı hövzəsi və Oka çayının orta axarı), Alar (Belaya və Alar çayları), İda (İda və Osa çayları hövzəsi, Uda çayının yuxarı axarları), Yuxarı Lena (Lena, Kuda və Murinin yuxarı axarları), Kuda (Kuda, Murin, Kitoy, Qoloustnaya çayları), Olxon (Olxon a. və Baykalın qərb sahili), Kitoy (Kitoy çayı), Oka (Oka çayının yuxarı axarları), Tunkin (İrkut çayının yuxarı axarları), Zakamensk (Cida çayının yuxarı axarları), Kudara (Selenqa çayının mənsəbində Kudara düzü) B.-ı; şərqi (Baykalarxası) B.-a – Selenqa (Selenqa və Cidanın orta və aşağı axarları), Xorin (Selenqanın sağ sahili), Barquzin (Barquzin çayı), Aqa (Aqa çayı, İnqoda çayının orta axarı və Onon çayının aşağı axarı), Onon xamniqanları (Onon çayı) aid idi. B.-ın tərkibinə türk (o

Müasir buryat yurtası.



cümlədən yaxın keçmişədək – *soyotlar*) və tunqus qrupları daxil idi. B. uluslarda, yaxud xotonlarda; uluslar – şulenqlərin başçılığı ilə xolbonlarda, yaxud tabinlərdə; xolbonlar – zaysanların, yaxud qəbilə şulenqlərinin başçılıq etdiyi qəbilələrdə; qəbilələr – tayşaların başçılıq etdiyi "nəsildə" birləşirdilər; tayşa titulu 18 əsrin əvvəllərindən çarın fərmanı ilə verilirdi. Ümumi ulus və qəbilə yığıncaqları (suqlan) da mövcud olmuşdur. Ekzoqam qəbilələr özlərinin şəcərəsinə (ən qədimləri 17 əsrə aiddir), ilk dövrlərdə ümumi ərazi və sitayiş yerlərinə malik idilər. Tədricən qəbilələr öz ərazi bütövlüklərini itirdilər və müxtəlif tərkibli inzibati-ərazi vahidləri "qəbilə" adlanmağa başladı. 1897 il siyahıyaalmasına görə B.-ın sayı 288 min nəfər, 1926 ildə – 237,5 min nəfər, 1939 ildə – 225 min nəfər olmuşdur.

Ənənəvi mədəniyyətləri Cənubi Sibir xalqları üçün səciyyəvidir. B.-ın əsas ənənəvi məşğuliyyəti – köçəri, qərbi B.-da yarımköçəri maldarlıqdır; köçərilik daha çox Aqa B.-ında saxlanılmışdır. "Malqaranın beş növünü" (taban xuşuun mal) yetişdirirlər: at, qoyun, inək, keçi, 19 əsrədək qərbi B. və 20 əsrin ortalarınadək şərqi B. – dəvə, Zakamensk və Oka B.-ı yak yetişdirirdilər. Qədimdən ot becərilməsi və biçimi ilə məşğul olmuşlar. Ovçuluq (18 əsrin ortalarınadək yalnız yay və ox vasitəsilə), Baykalda balıqçılıq və nerpa ovu da inkişaf etmişdi. 20 əsrin əvvəllərinədək ayin rəhbərinin (qalşa) başçılığı altında 1000 nəfərədək iştirakçı ilə atla sürək ovu (aba) adəti saxlanılmışdı. Ovda atları olan bütün kişilər (10–13 yaşından) iştirak edirdilər. Ovçuluq ilman yarışları ilə müşayiət olunurdu. Xış əkinçiliyi qərbi B.-da qədim dövrlərdən, şərqi B.-da 17 əsrin sonlarından məlumdur. Dəmirçilik (hər bir məskəndə dəmirçixana var idi; dəmirçilər şamanlara bərabər tutulurdular), tunctökmə, zərgərlik (döymə, eşmə, qızıl suyuna salma, savadlama, minalama və s.), ağac üzərində oyma və naxışlama, at qılından xalçaların toxunması (taar), xəz mozaikası, qurama, dəri üzərində naxışbasma, naxışlı corabların toxunması inkişaf etmişdir. Ənənəvi evləri – keçə *alaçıqdır*, qərbi B.-da 19 əsrin 2-ci yarısında mərkəzdəki 4 sütun üzərində çadırşəkilli dam örtüyü və bacası (urxe) olan kərtmə dörd-, altı- və səkkizbucaqlı alaçıqlarla (ger) əvəz olunmuşdur; rus komaları da yayılmışdır. Kişi geyimləri üçün Cənubi Sibir (qərbi B.), yaxud Şərqi Asiya (şərqi B.) tipli tunikayabənzər xalat-degel səciyyəvidir.

Qadınlar koketkalı paltar (qərbi B.), yaxud qolsuz köynəklə (qadınlara "kürəklərini açıq qoymaq" qadağan idi) xalatdegel (şərqi B.; qızlarda və yaşlı qadınlarda – kişi biçimli, nişanlı qızlarda və ərli qadınlarda – kəsik ətəkli və büzmə qollu) geyinirdilər. Qızlar bir hörük, qadınlar zəngin hörük qınları ilə bəzədilmiş iki hörük hörürdülər, yaşlı qadınlar saçlarını qırxırdılar. Həddi-büluğa çatmış gənclərin təpə hissədə hörük saxlanılmaqla saçlarını qırxırdılar. Kişilər və qadınlar gümüş, mərcan, firuzə və kəhrəbadan bəzək əşyaları taxırdılar. Ənənəvi yeməkləri ətdən (diri heyvanların qanından istifadə olunması məlumdur) və süddən hazırlanır. Arpa və çovdar unundan əriştə, ocağın közündə şirin kökələr bişirirlər. İçkiləri – süd, yağ, piy, duz və s. ilə çay, turşudulmuş inək (kurunqa – xurenge) və madyan südü, süddən hazırlanan araq (arxi, tarasun).

Ənənəvi dinin əsasını şamanizm təşkil edir. Şamanizmə səma allahı Xuxe Munxenin başçılıq etdiyi ruhların (ejin, burxan, tenqri, onqon, zayan, noyon, xan) kultu daxildir; onlara həsr edilən təsvirlər və əşyalar onqon adlanırdı (ailədə 60-adək onqon saxlanıla bilərdi). İl ərzində ailə, ulus və qəbilə bayramları (taylaqanlar) təşkil edilirdi. Böyük taylaqan yayın əvvəlində keçirilirdi. Yeni il (Saqan sara) qərbi B.-da payızda, şərqi B.-da buddist təqviminə görə yanvar–fevral aylarında keçirilir, yayda Obo taxıl bayramı qeyd edilirdi. 20 əsrin sonlarından şamanizm yenidən canlanmışdır (neoşamanizm). Buryatiya Şamanları Assosiasiyası Xese xengereq (1993; 1997 ildən buryat xalq dini Bo murgel ruhanisi mərkəzi) yaradılmışdır.

Şifahi yaradıcılıq. Mahnılar, nağıllar, rəvayətlər, atalar sözləri, tapmacalar geniş yayılmışdır. Qəhrəmanlıq dastanları arasında "*Geser*" mühüm yer tutur. Musiqi yaradıcılığında şərqi və qərbi buryat ənənələri fərqlənir. Bəzi janrlarda polifoniya elementlərinə rast gəlinir. Buryat mədəniyyətində *uligerlərin* ("Abay Geser", "Erensey", "Lodoy Mergen" və s. dastanlar) statusu yüksəkdir; qərbi B. onları əvvəldən axıradək avazla oxuyurlar, şərqi B.-ın ifası mənzum və ya mənsur hissələrlə növbələşir, bəzən isə ikisimli kamanlı alət (xur) və ya sitra (yatağan) ilə müşayiət edilir. Həmçinin yan (limba) və şaquli (sur) fleytalar, bir sıra alınma alətlər yayılmışdır. Çoxlu lirik və mərasim janrlarını əhatə edən (sevgi, məişət, toy və s.) mahnılar (dun) və mahnı-rəqslər (qərbi B.-a xas dairəvi yooxor, hazırda hər yerdə yayılmışdır; şərqi B.-a xas neryeelqe) B.-ın mədəniyyətinin ən çox qorunub saxlanmış hissəsidir.

**BURZAHÓM** – Şimali Hindistanda, Srinaqardan 16 *km* şm.-q.-də yaşayış məskəni, Kəşmirin Neolit dövrü üçün etalon abidə. Amerika tədqiqatçıları H. De Terra və T.T. Paterson (1935), T.N. Xazançi (1960–71) tərəfindən tədqiq olunmuşdur. Əsasən, Neolitə aid olan alt təbəqə (I) A, B, C dövrlərinə bölünür. I B-C dövrləri təqr. e.ə. 2400–1400 illərə təsadüf edir. Qazmaların döşəmə və divarları çox vaxt gillə suvanır, oxra ilə rənglənirdi; daş (o cümlədən cilalanmış) məmulatlar aşkar edilmişdir. I B dövründə kobud keramika meydana gəlmişdir; I C dövründə qara həndəsi naxışlı qablar, ov, dəfn səhnələrinin (o cümlədən it və ya canavarın müşayiəti ilə) təsvir edildiyi daş məlumdur. Təsərrüfatın əsasını ovçuluq və balıqçılıq, ehtimal ki, heyvandarlıq və əkinçilik təşkil etmişdir. Yarımqiymətli daşlardan düzəldilmiş 950 muncuq, mis alətlər və bəzək əşyalarından ibarət dəfinəni I təbəqənin sonları ilə bağlayırlar. B.-un üst təbəqələri "meqalitik" və "tarixi" dövrlərə bölünür.

**BURZUBƏND** – Azərb. Resp. Astara r-nunun Kijəbə ə.d.-ndə kənd. R-n mərkəzindən 19 *km* şm.-q.-də, Lənkəran ovalığındadır. Əh. 775 (2008); əkinçilik, heyvandarlıq, subtropik meyvəçiliklə məşğuldur. Orta və ibtidai məktəb, mədəniyyət evi, kitabxana, feldşer-mama məntəqəsi var.

**BUSƏLİK** – orta əsrlərdə Yaxın və Orta Şərqdə geniş yayılmış 12 əsas muğamdan biri. Müasir Azərb. muğam sənətində Şur dəstgahında guşə.

**BUSƏNİK** – İranın Qəzvin ostanında kənd. Eyni adlı şəhristanının Ziyaabad bölgəsinin Qaqazan kəndistanında, Ziyaabad qəs.-dən 42 *km* şm.-dadır.

**BUSİDO** (yaponca – döyüşçü yolu) – orta əsrlərin *samuray* kodeksi. Samurayın davranışını, bu və ya digər sinfin nümayəndələrinə, dövlətə, bütövlükdə cəmiyyətə münasibətini tənzimləyən baxışlar, normalar və qiymətlər sistemindən ibarət idi. B. samurayın qarşısında öz ağasına, vəzifə borcuna sonadək sədaqətlilik, şücaətə, fədakarlığa və ölümə hazır olmaq öhdəliyi qoyurdu. B. 9–11 əsrlərdə, Yaponiyada hərbçi zümrəsi formalaşdıqca təşəkkül etməyə başlamışdı. Sintoizmin, buddizmin və konfusiçiliyin ehkamlarına əsaslanırdı. Dünyagörüşü sistemi olan B.-da insan psixologiyasının, onun ətraf aləmdəki rolunun, həyatın mənasının, xeyir və şərin dərkinə, əxlaqi dəyərlərin müəyyənləşdirilməsinə əhəmiyyətli yer ayrılırdı. Samuray B. normalarına xüsusi ictimai institutlar tərəfindən məcbur olunmadan, ənənələri, tərbiyəni və nümunəni rəhbər tutaraq, əməl edirdi. B.-nun keçmiş dövr əfsanə və povestlərində əksini tapmış əsas müddəaları ilk dəfə İeyasu *Tokuqavanın* (1542–1616) göstərişi ilə tərtib olunmuş "Samuray nəsilləri haqqında qanunnamə"də, Yamaqo Soko (1622–85), Daydodzi Yudzan (1639–1730) və b.-nın əsərlərində sistemləşdirilmişdir. B. haqqında ən məşhur əsər keçmiş samuray Yamamoto Sunetomonun "Xaqakure" (1716) kitabıdır. 19 əsrin sonu – 20 əsrin 1-ci yarısında B. yapon militarizmi ideologiyasında əhəmiyyətli yer tuturdu.

**BUSİRİ** (البوصيري) Əbu Abdullah Məhəmməd bin Səid (7.3.1212, Yuxarı Misir, Bəhnasa ş. yaxınlığında – 1296, İsgəndəriyyə) – ərəb şairi. Qahirədə Şeyx Əbdüzzahir məscidi nəzdindəki mədrəsədə təhsil almışdır. Bir müddət vəzir Zeynəddin Yaqub bin Zübeyrin yanında xidmət etmişdir. 1261 ildə Bilbisə getmiş, orada maliyyə işləri katibi və mühasib işləmişdir. Məzarı İsgəndəriyyədəki "Busiri" məscidindədir. Əsərlərinin çoxu Məhəmməd peyğəmbərə həsr olunmuş qəsidələrdən ibarətdir. Bunlardan başqa, öz dövrünün sosial-əxlaqi məsələlərinə həsr edilmiş şeirləri də vardır. Yaradıcılığında lirizm güclüdür. "Bürdə qəsidəsi" kimi ədəbiyyata düşmüş 160 beytlik "Əl-Kəvakibüd-dürriyyə fi mədhi xeyril-bəriyyə" ("Yaranışın ən yaxşısının tərifində parlayan ulduzlar") qəsidəsi ilə tanınmışdır. Şeirləri sonradan "Divanül-Busiri" (Busirinin divanı) adı altında toplanmış, 1955 ildə Qahirədə çap olunmuşdur.



Burzahom yaşayış yerindən aşkar olunmuş daşda ov səhnəsinin təsviri.

**BÚSİRİS** – yunan mifologiyasında Misir çarı, Poseydonun və Lisianassanın oğlu. Ölkədə doqquz il davam edən quraqlıq zamanı Kipr kahini Frasi bildirdi ki, fəlakətdən qurtulmaq üçün B. hər il bir əcnəbini Zevsə qurban verməlidir. Frasinin özünü ilk qurban kimi öldürən B. sonralar Zevsin mehrabı qarşısında Misirə gələn bütün əcnəbiləri öldürürdü. Bu aqibət Hesperidalar bağına yollanan və yolüstü Misirdə dayanan *Heraklı* da gözləyirdi. Lakin qəhrəman qurbangaha gətirildikdə çidarı açmağa müvəffəq olmuş, B.-i və onun oğlu Amfidamantı öldürmüşdür. Əfsanədə misirlilərin əcnəbilərə qarşı düşmən münasibətləri haqqında yunanların təsəvvürləri əks olunmuşdur. Misir mifologiyasında B.-in adına rast gəlinmir, bu da onun haqqında əfsanənin etioloji xarakter daşıdığını ehtimal etməyə əsas verir; bu əfsanə Nilin deltasındakı Cedu şəhərinin adının izahı cəhdidir: şəhərin qısaldılmış adını Bw Wsr ("Osirisin yeri") yunanlar "Busiris" kimi tələffüz edirdilər. Əfsanənin geniş yayılmış digər variantına görə, B. Herakl tərəfindən deyil, danaidalardan biri olan Avtomata tərəfindən öldürülmüşdür.

**BÙSKERUD** – Norveçin c.-unda fulke. Skandinaviya d-rının c. yamaclarındadır. Sah. 14,9 min $km^2$, əh. 247,6 min (2007). İnz. m. Drammen ş.-dir.

**BUSLAR** – Herodotun (e.ə. 5 əsr) adlarını çəkdiyi 6 Midiya tayfasından biri.

**BUSLÁYEV** Fyodor İvanoviç (25.4.1818, Penza vil.-nin indiki Vadinsk k. – 12.8.1897, Moskva ətrafındakı Lublino qəs.) – rus filoloqu və incəsənət tarixçisi. Peterburq EA akad. (1860). Moskva Un-tini bitirmiş (1838), həmin Un-tdə prof. (1859–81), rus ədəbiyyatı kafedrasının müdiri işləmişdir. Rus dilinin tarixi, qədim rus ədəbiyyatı, şifahi xalq yaradıcılığına dair əsərlərin müəllifidir. Rus dilinin tədqiqində müqayisəli-tarixi metodun tərəfdarı kimi çıxış etmişdir. Qədim rus və slavyan əlyazmalarının filoloji tədqiqatını aparmış və onları nəşr etdirmişdir.

B. 1840–60-cı illərdə yazdığı elmi əsərlərində rus *mifoloji məktəbinin* ən görkəmli nümayəndəsi kimi mifdə xalq yaradıcılığının dərin köklərini görmüş, onun linqvistik bərpasına çalışmışdır ("Rus xalq ədəbiyyatı və incəsənətinin tarixi oçerkləri". C.1–2, 1861). 1870-ci illərdə bu baxışlardan uzaqlaşmış və alman sanskritoloqu T. Benfeyin ideyalarına əsaslanaraq Avropanın bir sıra folklor süjetinin Şərqdən qaynaqlandığını göstərmişdir ("Səyyah povestlər və hekayələr", 1874). Rus və Qərbi Avropa rəngkarlığı, ikonoqrafiyası, miniatür və ornament sənətinin tarixinə dair tədqiqatların müəllifidir.

Əsərləri: О влиянии христианства на славянский язык. Опыт истории языка по Остромирову евангелию. М., 1848; Историческая грамматика русского языка. М., 1959; Мои досуги: Воспоминания. Статьи. Размышления. М., 2003.

**BUSÓN YOSA** (əsl soyadı Taniquti) (1716, Setsu – 17.1.1784, Kioto) – yapon rəssamı, şair. 1737 ildən *Basyo* ənənələrini davam etdirən Yahantö poetik məktəbinin başçısı Hayano Hadzinin şagirdi olmuşdur. Onun varisi kimi həmin məktəbin rəhbəri olduqdan və poeziya məclislərində münsif hüququ qazandıqdan sonra, 1770 ildən peşəkar şair sayılmışdır. Ən yaxşı şeirləri Takai Kito ilə birlikdə hazırladığı "Şaftalılar və Gavalılar" toplusuna daxil edilmişdir. B.Y.-nın poeziyasına incə duyğular və lirizm xasdır. Rəssam kimi mənzərə ustası olan B. *bundzinqa* məktəbinin ən görkəmli nümayəndələrindən biridir. Əsərləri: "Şəhərdə ağşamçağı qar" (şəxsi kolleksiya, Kobe), "Payız seyri" (Milli muzey, Kioto) və s.

**BUSSENÁR** (Boussenard) Lui Anri (4.10.1847, Luare dep-ti, Eskren – 11.9.1910, Orlean) – fransız yazıçısı. Paris Un-tinin tibb fakültəsini bitirmişdir (1870). Fransa-Prussiya müharibəsində (1870–71) iştirak etmiş, yaralanmışdır. Afrika, Amerika və Avstraliyaya çoxsaylı səyahətləri zamanı topladığı etnoqrafik və tarixi materiallar əsasında "Parisli səfilin dünya səyahəti" (1880), "Qviana robinzonu" (1882), "Parisli səfilin şirlər ölkəsində sərgüzəştləri" (1886) və s. macəra romanlarını, J. *Vernin* yaradıcılığının təsiri altında "10000 il buzlar arasında" (1890) və s. elmi-fantastik romanlarını yazmışdır.

**BUSSENQÓ** (Boussingault) Jan Batist (2.2.1802, Paris – 11.5.1887, Paris) – Fransız aqrokimyaçısı, Paris EA-nın üzvü (1839 ildən). Sent-Etyendə Ali Mədən Məktəbini bitirmişdir. Lion Un-tinin (1832 ildən), Versal Aqrokimya İn-tunun (1837 ildən) prof.-u olmuşdur; 1839 ildən İncəsənət və Peşə Konservatoriyasında (Paris) dərs demişdir.

Əsas işləri bitkilərin kök qidalanmasına və təbiətdə maddələrin (başlıca olaraq, torpaqda azotun) dövranına həsr edilmişdir. Bitkilərin (paxlalılardan başqa) torpaqdan azot almasını müəyyənləşdirmişdir. Havadakı karbon-dioksidin yaşıl bitkilər üçün karbon mənbəyi olduğunu sübut etmişdir. Bitkilərin udduğu karbon-dioksidin həcminin ayrılan oksigenin həcminə bərabər olduğunu müəyyənləşdirmişdir (1864).

**BUSSÓL** (fr. boussole) – ərazidə və ya mədən qazmalarında maqnit azimutunu ölçən cihaz. B.-un əsas hissələri: qeyri-maqnit materialdan hazırlanmış, şüşə ilə örtülmüş, ortasında sərbəst fırlanan maqnit əqrəbli dairəvi şkalası olan azimutal halqalı qutu və əşyaya yönəltmək üçün iki dioptr, yaxud baxış borusu. Halqanın müstəvisini üfüqi vəziyyətə gətirmək üçün bəzən B.-a üfüqiliyi yoxlayan cihaz birləşdirilir. B. topoqrafiya və geodeziya işlərinin aparılmasında, artilleriya toplarının hədəf istiqamətinə yönəldilməsində və s. tətbiq olunur. Markşeyder işlərində, mədən qazmalarının ikinci dərəcəli plana alınmasında asma B.-dan istifadə edilir.

Artilleriya bussolu.



Artilleriya B.-u, adi B.-dan fərqli olaraq, altı dəfə böyüdən optik monokulyarla təchiz edilir. Qutulu, güzgülü oriyentir-bussol, güzgülü deklinator və s. B.-lar daha dəqiqdir.

**BUSTAMİT** – mineral $(Mn, Ca)_3[Si_3O_9]$. Yohansenitin yüksək temp-rlu triklinik polimorf modifikasiyasıdır. Dənəvər və radial aqreqatları var. Rəngi çəhrayıdan



Bustamit.

qırmızıyadək və bozdur. Sərtliyi 5,5–6,5, sıxlığı 3400 *kq/m*³. Təmas-metasomatik və Mn-ın metamorfizmə uğramış çökmə yataqlarında, bəzən hidrotermal yataqlarda rast gəlinir.

**BUSTÁNİ**, əl-Bustani (البستاني) – Livan ədəbiyyatçıları və maarifçiləri ailəsi. Ərəb mədəniyyətinin inkişafında və ərəb ədəbi dilinin yeniləşdirilməsində mühüm rol oynamışlar. B u t r u s əl-B. (1819, Dibiyə k. – 1.5. 1883) – filoloq-ensiklopediyaçı, maarifçi, ərəb intibahı ideyalarının ifadəçisi (bax *Nəhzə*). "Elm və incəsənəti öyrənən Suriya cəmiyyəti"nin banisi (1847), ərəb jurnalistikasının yaradıcısıdır. 1863 ildə Beyrutda Milli məktəbin əsasını qoymuşdur. 1870 ildən "Əl-Cüneynə" ("Bağ") qəzetini, "Əl-Cənnən" ("Bağban") jurnalını, "Əl-Cənnə" ("Cənnət") həftəliyini dərc etdirmişdir. Çoxlu məqalə və məruzələr ("Qadın təhsili haqqında", 1848; "Ərəblərin ədəbiyyatı haqqında", 1856 və s.) yazmışdır. Ərəb dilində "Mühit əl-mühit" ("Ümmanlar ümmanı", 1867–70) izahlı lüğətini hazırlamışdır. İlk ərəb ensiklopediyası "Dairət ül-maarif"in ("Bilik dairəsi", 1876–83) naşiridir. Dərslik və müntəxəbatların, həmçinin "Napoleonun həyatı" (1868), "Ərəb və Avropa ictimai qaydalarının müqayisəsi" (1869) əsərlərinin müəllifi və tərtibçisidir.

S ə l i m əl-B. (1848–84) – publisist, ərəb tarixi romanının banilərindən biri. Butrus əl-B.-nin oğludur. Romanları Suriya tarixinin mühüm hadisələrinə həsr olunmuşdur; "Əl-Cənnən" jurnalında və "Dairət ül-maarif" ensiklopediyasında çalışmışdır.

S ü l e y m a n əl-B. (22.5.1856, Bikiştin k. – 1.6.1925, Nyu-York, Bikiştində dəfn olunmuşdur) – ədəbiyyatçı, jurnalist, siyasi xadim. Butrus əl-B.-nin nəvəsidir. Beyrutda Milli məktəbin məzunu olmuşdur. Homerin "İliada"sını ərəb dilinə tərcümə etmişdir (1904); müəllifin klassik ərəb poeziyasının "İliada" ilə müqayisəsi zamanı meydana gələn şərhləri və tədqiqatları da bu nəşrdə verilmişdir. "Dairət ül-maarif"in nəşrini tamamlamışdır.

B u t r u s əl-B. (1898–1969) – ərəb mədəniyyəti və ədəbiyyatı tarixçisi. "Ərəb ədəbiyyatçıları" (h.1–4, 1948–53) kitabının müəllifidir.

F u a d Ə f r a m əl-B. (15.8.1906–94) – ədəbiyyatşünas, ərəb mədəniyyəti tarixçisi, arxeoqraf. "Dairət ül-maarif" ensiklopediyasının naşiri, Livan Milli Un-tinin rektoru olmuşdur.

**BÚSTER** (ing. booster – gücləndirici) – xüsusən ağır yüklənmələr zamanı maşının, yaxud mexanizmin gücünü və ya iş qüvvəsini artırmaq üçün köməkçi qurğu. Hidravlik, elektrik, pnevmatik növləri var. Texnikanın müxtəlif sahələrində geniş istifadə olunur. A v i a s i y a d a B. təyyarə sükanlarını idarəetmə sistemində tətbiq edilir; sükan çarxının yerdəyişməsində təyyarəçinin daha az qüvvə sərf etməsinə imkan verir. R a k e t t e x n i k a s ı n d a "B." termini daşıyıcı raket, çoxpilləli raketin birinci pilləsi, start sürətləndiricisi mənasında işlədilir. E l e k t r o t e x n i k a d a B. əlavə elektrik cərəyanı mənbəyi və ya şəbəkəyə elektrik gərginliyini stabilləşdirmək üçün qoşulan transformator, həmçinin informasiya-kommunikasiya aparatları, tibbi avadanlıqlar, mühafizə sistemləri və s.-də fasiləsiz qida mənbəyi kimi tətbiq olunur. Elektrik şəbəkəsində gərginlik artarkən (və ya azalarkən) qəza rejiminə keçmədən normal işi, qəza halında isə akkumulyator batareyalarından qidalanmanı təmin edə bilir. S ü r ə t l ə n d i r i c i l ə r t e x n i k a s ı n d a daha yüksək enerji sürətləndiricisi üçün *injektor* rolunu oynayan və aralıq cihaz kimi işləyən dövri və ya xətti sürətləndirici də B. adlanır. Dövri sürətləndiricilərdə hissəciklər B.-ə xətti sürətləndiricidən injeksiya olunur. B.-in tətbiqi böyük dövri sürətləndiricinin başlanğıc enerjisini (injeksiya enerjisini) yüksəltməyə imkan verir. Bu, yüklü zərrəciklər dəstəsinin intensivlik həddinin xeyli yüksəlməsinə və sürətləndirici kameranın eninə ölçülərinin azaldılmasına şərait yaradır. Zərrəciklər dəstəsinin intensivliyini artırmaq məqsədilə böyük sürətləndiricidə zərrəciklərin B.-dən böyük halqaya çoxsaylı injeksiyası yerinə yetirilir. Müasir böyük xətti sürətləndiricilərdə daha az enerjili xətti sürətləndirici B. kimi işlənə bilər.

**BUSTROFEDÓN** (yun. Βουστροφηδόν, βοῦς – öküz və στρέφω – döndərmək) – yazı üsulu. Sətrin istiqamətinə əsaslanır: ilk və sonrakı bütün tək sətirlər sağdan sola, ikinci və sonrakı bütün cüt sətirlər soldan sağa yazılır və oxunur; bu zaman hərflərin forması yazının istiqamətinə uyğunlaşır. B. krit, hett, Cənubi Ərəbistan, etrusk və yunan (erkən mərhələdə) yazılarında istifadə olunmuşdur. E.ə. 4 əsrdən tədricən sıradan çıxmışdır. B. yazısı ilə *Solon* qanunları yazılmışdır.

**BUŞ** (Bush) Corc Herbert Uoker (d.12. 6.1924, Massaçusets ştatı, Milton) – ABŞ-ın 41-ci prezidenti. Konnektikut ştatından respublikaçı senator, iri bankir və sənayeçi Preskot Buşun oğludur. Məktəbi bitirdikdən sonra dəniz aviasiyasında (1942–45) xidmət etmişdir. 1948 ildə Yel Un-tinin iqtisadiyyat fakültəsini bitirmiş və Texasa köçmüş, orada "Zapata petroleum korporeyşen" ("Zapata Petroleum Corp.") və "Zapata off şor korporeyşen" ("Zapata Off Shore Corp.") neft şirkətlərini yaratmış və 1964 ilə qədər rəhbərlik etmişdir. Bu dövrdə ABŞ-ın *Respublikaçılar partiyasında* görkəmli rol oynamağa başlamışdır. 1967–71 illərdə Texas ştatından senator, 1971–72 illərdə ABŞ-ın BMT-də nümayəndəsi, 1974–75 illərdə ÇXR-də ABŞ missiyasının başçısı, 1976–77 illərdə Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) direktoru idi. R. *Reyqanın* prezidentliyi dövründə (1981–89) vitse-prezident, 1989–93 illərdə ABŞ prezidenti olmuşdur. Xarici siyasətdə Şərqi Avropa və SSRİ-dəki kommunist rejimlərinin devrilməsinə, ABŞ-ın dünya liderliyinin və Latın Amerikasında hakim mövqeyinin möhkəmləndirilməsinə yönəldilmiş Reyqan kursunun davamçısı idi. 1989 ilin dekabrında M.S. Qorbaçovla birlikdə "*soyuq müharibənin*" bitməsini elan etmişdir. *Küveyt böhranı (1990–91)* zamanı İraqa qarşı müharibə aparmaq üçün







ABŞ-ın rəhbərliyi altında beynəlxalq koalisiyanın yaradılmasının təşəbbüsçüsü olmuşdur. 1991–93 illərdə strateji hücum silahlarının (SSM-1 və SSM-2) məhdudlaşdırılması haqqında Rusiya ilə müqavilələr imzalamışdır. Daxili siyasətdə B. administrasiyası ABŞ-ın iqtisadi çətinliklərini (durğunluğu, işsizliyin, həmçinin dövlət borclarının artmasını, büdcə və xarici ticarət kəsirlərini) aradan qaldıra bilməmişdi. Bu problemləri vergilərin artırılması hesabına həll etmək cəhdi B.-un 1992 il prezident seçkilərində məğlubiyyətinə səbəb oldu.

**BUŞ** (Bush) Corc Uoker (d. 6.7.1946, Konnektikut ştatı, Nyu-Heyven) – ABŞ-ın 43-cü prezidenti. C.H.U. *Buşun* oğludur. 1968 ildə Yel Un-tini bitirdikdən sonra Texas milli qvardiyasının aviasiya bölməsində pilot kimi xidmətə başlamışdır. 1973–75 illərdə Harvard Un-tinin Biznes məktəbində oxumuş, idarəçilik üzrə magistr diplomunu almışdır. Texasa qayıdan B. sonradan "Buş eksploreyşen" ("Buş Exploration") adlandırılan "Arbusto" neft-qaz firmasını təsis etmişdir. Sonradan bu firma B.-un 1986 ilə qədər müşahidəçi şurasına rəhbərlik etdiyi "Spektrum" ("Spectrum") enerji şirkətinin tərkibinə keçmişdir. 1989–98 illərdə "Texas reyncers" ("Texas Rangers") beysbol komandasının şərikli sahibi idi. 1988 və 1992 illərdə atasının seçkiqabağı kampaniyalarında onun müşaviri olmuşdur. 1995 ildən ABŞ-ın Respublikaçılar partiyasından Texas ştatının qubernatoru (1998 ildə yeni müddətə seçilmişdi) idi. 2000 ilin noyabr ayında keçirilən prezident seçkilərində qalib gəlmişdir (2001 ilin yanvar ayından vəzifəsini icra etməyə başlamışdı).



2001 ilin fevralında B.-un sərəncamı ilə İraqa məhdud aviazərbələr endirilmişdi. 2001 il sentyabrın 11-də ekstremistlərin Nyu-York və Vaşinqtona hücumundan sonra antiterror koalisiyasının yaradılmasına və Əfqanıstanda taliban rejiminə qarşı müharibə aparmaq məqsədilə MDB-nin üzvləri olan Orta Asiya dövlətlərinin ərazisində ABŞ-ın hərbi bazalarının yerləşdirilməsinə nail olmuşdu (2001 ilin payızında antiterror koalisiyası bu rejimi hərbi məğlubiyyətə uğratdı). 2001 ilin dekabrında ABŞ-ın Raket əleyhinə müdafiə sistemlərinin məhdudlaşdırılması haqqında müqavilədən çıxmasını təsdiq etmişdir. 2003 ilin yazında İraqı kütləvi qırğın silahlarının istehsalında ittiham edərək ABŞ-ın rəhbərliyi ilə antiiraq koalisiyası qüvvələrinə İraqa qarşı hərbi əməliyyata və onun işğalına sanksiya vermişdir. Şimali Koreya və İranda nüvə energetikasının inkişafı proqramlarının dayandırılmasına çalışmışdır. NATO-nun Şərqə yayılmasını, Gürcüstanda "qızılgül inqilabı"nı və Ukraynada "narıncı inqilabı" dəstəkləmişdir. 2004 ilin noyabrında yenidən prezident seçilmişdi.

**BUŞ** (Busch) Ernst (22.1.1900, Kil – 8.6.1980, Berlin) – alman estrada müğənnisi, dram aktyoru. Almaniya Demokratik Respublikası Milli mükafatı (1949, 1956, 1966); Beynəlxalq Lenin mükafatı laureatı (1972). 1917 ildən solçu gənclər hərəkatının fəal üzvü olmuşdur. İlk dəfə 1920 ildə Kil şəhər teatrı səhnəsində Lizandr rolunda (U. Şekspir, "Yay gecəsində yuxu") çıxış etmişdir. 1925 ildə Berlinə gəlmiş və "Alman teatrı"nda çalışmışdır. 1927 ildən E. *Piskatorun* "Siyasi teatr"ında işləmiş, 1928 ildə "Teater am Şiffbauerdamm"da ilk dəfə B. Brext və K. *Vaylın* "Üçqəpiklik opera" tamaşasında (serjant Smit rolunda) çıxış etmişdir. 1920-ci illərin sonlarından siyasi antifaşist mahnıların ifaçısı kimi geniş şöhrət qazanmışdır. 1933 ildə Almaniyada nasist diktaturası qurulduqdan sonra Niderland, Belçika, Fransa, İsveçrə və Avstriyada, 1935–37 illərdə SSRİ-də mühacirətdə olmuşdur. 1937–39 illərdə İspaniyada olmuş, beynəlxalq briqadaların döyüşçüləri qarşısında çıxış etmişdir. 1939 ildən Belçikada yaşamış, alman ordusu ölkəni işğal etdikdən sonra nəzarət altında saxlanılmış, qaçmış, 1943 ildə zəbt olunmuş Fransa ərazisində həbs edilərək 27.4.1945 ilə qədər Moabit, Brandenburq zindanlarında saxlanılmışdır. 1951–60 illərdə "Alman teatrı"nın və "Berliner ansambl"ın aparıcı aktyorlarından biri olmuşdur. 1946 ildə fəhlə mahnıları yazılmış vallar istehsal edən "Lid der sayt" firmasını yaratmışdır. Berlin qrammofon yazısı studiyasında "XX əsrin mahnı xronikası" adlı qrammofon valları antologiyasını buraxmışdır.

*Əd.:* Ш н е е р с о н Г. Э. Буш. М., 1964.

**BUŞ** İvan Fyodoroviç (3.3.1771, Narva – 5.11.1843, S.-Peterburq) – cərrah, Rusiyada ilk elmi cərrahlıq məktəbinin banisi. Mənşəcə almandır. S.-Peterburq (Kallina) Tibbi-Cərrahlıq Məktəbini bitirmədən 1788 ildə donanmaya səfərbər edilmişdir; 1788–90 illərdə Rusiya-İsveç müharibəsində gəmi həkimi kimi iştirak etmiş, Stokholmda əsirlikdə olmuşdur. Rusiyaya qayıtdıqdan sonra Admirallıq hospitalında prozektor, Kronştadtda Tibbi-Cərrahlıq Məktəbində anatomiya, fiziologiya və cərrahlıq kafedrasının müdiri işləmişdi. 1797 ildən Kallina Tibbi-Cərrahlıq Məktəbində cərrahlıqdan dərs demişdir; 1800–33 illərdə S.-Peterburq Tibbi-Cərrahlıq Akademiyasında cərrahlıq kafedrasının müdiri (1809 ildən akad.) olmuşdur. B.-un əsas əsəri cərrahlığın ən yeni nailiyyətlərini və özünün elmi-klinik təcrübəsini ümumiləşdirdiyi cərrahlıq üzrə fundamental dərslikdir (1807–08). Travmatologiyanın inkişafında xidmətləri böyükdür (məs., sınıqların dərhal yerinə salınmasını ilk təklif edənlərdən biridir). Rusiyada ilk cərrahlıq klinikasını yaratmışdır (1806). S.-Peterburqda Alman Həkimləri Cəmiyyətinə rəhbərlik etmişdir. 1838 ildə Tibbi-Cərrahlıq Akademiyasında B. ad. mükafat təsis edilmiş və yubiley medalı zərb olunmuşdur.

Ə s ə r i: Руководство к преподаванию хирургии. 5-е изд. СПб., 1831–1833. Ч. 1–3.

**BUŞATLİLƏR**, B u ş a t i l ə r – alban feodal sülaləsi (15 əsr – 1831). Baniləri Dukagini vil.-nin knyazlarıdır. Görkəmli nümayəndələrindən biri Mahmud paşa (B u ş a t l i y ə M a h m u d p a ş a, Q a r a M a h m u d p a ş a; 22.9.1796 ildə ölmüşdür) 1775 ildən Osmanlı imperiyasının Şkoder paşalığının hakimi idi. O, Çernoqoriya və Dalmasiya da daxil olmaqla müstəqil Albaniya krallığını yaratmağa cəhd göstərmişdir. B.-in daxili siyasəti üçün dini dözümlülük, feodal çəkişmələrinin məhdudlaşdırılması, maarifin (Şkoderdə kitabxananın yaradılması) və ticarətin inkişafı səciyyəvidir.

**BUŞÇİN** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Gorayim kəndistanında, Ərdəbil ş.-ndən 26 *km* c.-ş.-dədir.

**BUŞÉ** (Boucher) Fransua (29.9.1703, Paris – 30.5.1770, Paris) – fransız rəngkarı, səhnəqrafik, rəsmçi və qravüraçı. Atası rəngkar Nikola Buşedən (təqr. 1671–1743) dərs almışdır; 1727–31 illərdə Romada yaşamışdır. 1734 ildən Kral Rəngkarlıq və Heykəltəraşlıq Akademiyasının üzvü (1756–68 illərdə direktor), "kralın birinci rəssamı" (1765 ildən) olmuşdur. Fransız *rokokosunun* əsas sənətkarlarından biridir. İlk əsərlərində A. *Vatto* və C.B. *Tyepolonun* təsiri hiss olunur. Mifo-



loji, pastoral, məişət səhnələri təsvir olunan əsərlər yaratmışdır ("Rinaldo və Armida", 1734, Luvr, Paris; "Veneranın təntənəsi", 1740, Milli muzey, Stokholm; "Diananın çimməsi", 1742, Luvr və s.). 1730–50-ci illər B. yaradıcılığının çiçəklənmə dövrüdür; mürəkkəb kompozisiya məsələləri həll edən B. tükənməz fantaziya ilə XV Lüdovik və Avropa aristokratlarının sifarişləri əsasında yaratmışdır: Versalda sarayın yaşayış apartamentləri üçün panno və plafonlar ("Venera və Vulkan", 1747, hazırda Luvr və s.); Kral kitabxanası və Parisdəki Subiz hotelində, Belvü (1750) və Fontenblo (1753) saraylarında dekorativ işlər görmüşdür.

Bir çox əsərlərə (Q. Danielin, "Fransanın tarixinə", 1729 ildə dərc edilmişdir; Molyerin "Əsərləri"nə, 1734–35 və s.) illüstrasiyalar çəkmişdir. 1735 ildən Bove və Parisdəki kral manufakturaları üçün qobelen kartonları, Vensen və Sevr (1757–67) manufakturalarının çini məmulatları üçün eskizlər hazırlamışdır. Kral Musiqi Akademiyası tamaşalarının tərtibatını vermişdir (J.F. Ramo, "Nəzakətli Hindistan", 1735; J.B. Lülli "Persey", 1746 və s.). Ömrünün son on ilində tablolar ("Cadugərlərin təzimi" 1764, Milli muzey, Versal), rəsmlər (o cümlədən Ovidinin əsərinə illüstrasiyalar, 1767 və opera dekorasiyaları üzərində işləyərək daim xoşbəxt və sakit aləm obrazını yaratmışdır.

J.O. *Fraqonar* B.-nin şagirdi olmuşdur.

**BÜŞEL** (ing. bushel) (bu) – ingilis ölçü sistemində maye və dənəvər maddələrin həcm ölçüsü. 1 B.Britaniya buşeli – 36,3687 $dm^3$, 1 ABŞ buşeli – 35,2393 $dm^3$-dir.

**BUŞƏHR** – İranın c.-nda şəhər; eyniadlı ostanın mərkəzi. Əh. 170,8 min (2012). İran körfəzi sahilində port. Avtomobil yolu onu Tehranla birləşdirir. Beynəlxalq aeroport. Neft emalı, yüngül və yeyinti sənayesi müəssisələri var. Yun, xalça, pambıq ixrac edilir. Balıq ovlanır. Yaxınlığında AES tikilir.

**BUŞƏHR** – İranın c.-unda İran körfəzi sahilində ostan. Sah. 22,7 min $km^2$. Əh. 1,0 mln. (2011). İnz. m. Buşəhr ş.-dir.

**BUŞMENLƏR** – *sanların* köhnə adı.

**BUŞÚYEV** Konstantin Davıdoviç (23.5.1914, Kaluqa qub., Mosalsk qəzasının Çerten k. – 26.10.1978, Moskva) – kosmik-raket texnikası sahəsində rus alimi. SSRİ EA m. üzvü (1960), Sosialist Əməyi Qəhrəmanı (1957), Lenin mükafatı (1960) və SSRİ Dövlət mükafatı (1950, 1976) laureatı. Moskva Aviasiya İn-tunu bitirdikdən (1941) sonra layihə bürosunda (1973 ildən baş konstruktor) işləmişdir. Moskva Fizika-Texnika İn-tunun prof.-u (1962 ildən). "Vostok", "Vosxod", "Soyuz" kosmik gəmilərinin və yerətrafı kosmik fəzanın, Ayın, Veneranın, Marsın tədqiqi üçün bir sıra kosmik aparatın yaradıcılarından biridir. "Soyuz" və "Apollon" idarəolunan kosmik gəmilərin birgə uçuşunun SSRİ tərəfindən elmi və texniki rəhbəri olmuşdur. Əsas işləri tətbiqi dinamika, UA-nın möhkəmliyi məsələlərinə aiddir.

F. Buşe. "Veneranın qələbəsi". 1740. Milli muzey. Stokholm.



**BÜŞVELD KOMPLEKSİ** (Bushveld) – CAR-da dünyanın ən böyük filizli intruziv massivi. Mpumalanqa, Şimal və Şimal-Qərb əyalətləri ərazisindədir. Massivdə platin, xrom və s. metalların iri yataqları var. 1919 ildən istismar olunur. Kəşf olunmuş platin qrupu metallarının ehtiyatı 49,9 min *t* (filizdəki orta miqdarı 5,7 *q/t*), xromitlər 1,78 mlrd. *t* ($Cr_2O_3$ 37%), vanadium 3 mln. *t* ($V_2O_5$ 1,4–1,9%), nikel 3,7 mln. *t* (Ni 0,15–0,34%), mis 2,7 mln. *t* (Cu 0,1–0,25%), qızıl 2–2,5 *t* (Au 0,3 *q/t*), qalay təqr. 30 min *t*, flüorit 4,3 mln. *t*-dur ($CaF_2$ 40%-dən çox).

B.k. Afrika platformasının Kaapval kratonunda yerləşir; Proterozoy yaşlı təbəqələşmiş nəlbəkivarı kütlədən (*lopolitdən*) ibarətdir; qalınlığı təqr., 10 *km*, enlik istiqamətində uz. 430 *km*, meridian istiqamətində 260 *km*-dir. Kompleksin yer səthinə çıxan hissəsi (ümumi sahəsinin 42%-i) 67 min $km^2$-dir. B.k. bir neçə maqmatik fazada (andezit, felzit, ultraəsasi) təbəqələşmiş süxurlar seriyası ilə əmələ gəlmişdir. Ən qalın təbəqə əsasi və ultraəsasi tərkiblidir; əsas filiz ehtiyatları kəsilişdə 5 zonadan ibarət bu təbəqə ilə əlaqədardır. Təbəqənin özülündə Marginal zona (noritlər və piroksenitlər, qalınlığı 800 *m*-ədək), ondan yuxarıda Alt zona (bronzitlər, harsburgitlər və dunitlər, qalınlığı 800–1300 *m*), Böhran zonası (piroksenit və anortozit ara qatları ilə noritlər, qalınlığı 1300–1800 *m*), Baş zona (qabbro və noritlər, qalınlığı 3000–3400 *m*) və Üst zona (ferroqabbro və ferrodioritlər, qalınlığı 2000–2800 *m*) yerləşir. Platin qrupu və xrom metallarının maqmatik mənşəli filiz yataqları Böhran zonası süxurlarında cəmlənmişdir. Yataqlar, əsasən, yeraltı üsulla istismar olunur. 2002 ildə 239,8 *t* platin qrupu metalları, 42,1 min *t* nikel, 7,41 mln. *t* xromit, 15 min *t* vanadium ($V_2O_5$) hasil edilmişdir.

**BUT DAŞI** (ital. buttare – vurmaq, itələmək), k ö t ü r d a ş – 150–500 *mm* ölçülü qeyri-düzgün formalı inşaat daşı; əhəngdaşı, dolomit, qumdaşı, bəzən qranitdən ibarət olur. Bir daşın kütləsi 50 *kq*-dan çox olmur. 300 *mm*-ədək ölçülü çay daşları (qənbər) B.d.-nın bir növüdür. B.d. möhkəmliyinə (az möhkəm, 25–100 *MPa*; orta möhkəm, 150–400 *MPa* və çox möhkəm, 500 *MPa*-dan çox) və şaxtayadavamlılığına görə müxtəlif olur. Bünövrə, istinad divarları, kürəbənd, hidrotexniki qurğu və s.-nin hörgüsündə işlədilir. Tikintidə tərkibində gil qarışığı və yumşaq süxur təbəqəsi olmayan B.d.-ndan istifadə edilir. B.d.-ndan *qırmadaş* da hazırlanır.



Müxtəlif but daşları.

**BUTA** (b u t ə, yaxud p u t a) — qönçə; badamabənzər naxış, Azərb. ornament sənətinin çox yayılmış bəzək elementlərindən biri. B.-nın ataşpərəstlik dövrünə məxsus bəzək forması olduğu ehtimal edilir. Bakı, Gəncə, Ərdəbil, Təbriz, Naxçıvan, Salyan, Muğan xalçalarında, binaların daxili bəzəkləri və digər sənət nümunələrində B.-dan geniş istifadə edilmişdir. B. Orta Asiya və Yaxın Şərq ölkələrinin də (Hindistanın tirmə şallarında, İranın parça və metal məmulatlarında və s.) dekorativ və tətbiqi sənətində geniş yayılmışdır. B.-lar forma etibarilə 4 qrupa bölünür: 1) xalça bəzəyində işlədilən B. ("Muğan-buta", "Salyan-buta", "Gəncəbuta", "Bakı-buta", "Sarabi-buta", "Xilə-buta", "Şirvan-buta"); 2) ailə həyatını təmsil edən B. ("bala-buta", "həmli-buta", "balalı-buta", "evli-buta", "qoşaarvadlı-buta" və s.); 3) rəmzi mahiyyət daşıyan B. ("cıqqa-buta", "lələk-buta", "küsülü-buta", "qovuşan-buta", "yazılıbuta" və s.); 4) bu qrupa müxtəlif formalı B.-lar daxildir: "saya-buta", "əyri-buta", "dilikli-buta", "qıvrım-buta", "şabalıdbuta", "zərxara-buta", "badamı-buta", "qotazlı-buta", "çiçəkli-buta", "yanarbuta" və s. Rəmzi məna daşıyan B.-lar zaman keçdikcə tədricən müxtəlif məzmunlu və formalı motivlərlə zənginləşmişdir.




**Müxtəlif buta təsvirləri:**
*1* – "küsülü-buta";
*2, 6* – "Şirvan buta";
*3* – "zərxara-buta";
*4* – "qotazlı-buta";
*5* – "qoşaarvadlıbuta";
*7* – "Xilə-buta";
*8* – "gülabdan-buta".

**BUTADİEN**, 1,3-b u t a d i e n, d i v i n i l – dien karbohidrogeni,

$$CH_2{=}CH{-}CH{=}CH_2.$$

B. rəngsiz qazdır, $t_{qayn}$ –4,41°C. *Dien karbohidrogenlərinin* kimyəvi xassələrinə malikdir; digər vinil monomerlərlə polimerləşir, birgəpolimerləşir; dien sintezi reaksiyalarına daxil olur. B. neft emalı qazlarında və səmt qazlarında olan *n*-butanın və ya *n*-butenin katalitik dehidrogenləşməsindən alınır. B. sintetik kauçuk istehsalında əsas monomerlərdən biridir (bax *Butadien kauçukları, Butadien-nitril kauçukları, Butadien-stirol kauçukları*). B. həmçinin *ABS-plastik*, *xlorpren* və s. istehsalında tətbiq edilir. B.-in alışma və partlayış təhlükəsi var.

**BUTADİEN KAUÇUKLARI**, d i v i n i l k a u ç u k l a r ı – 1,3-butadienin polimerləşmə məhsulları olan sintetik kauçuklar; ümumi formulu:

$$[-CH_2-CH{=}CH-CH_2]_n-$$
$$-[-CH_2-CH(CH{=}CH_2)-]_m.$$

Katalizatorların təbiətindən, polimerləşmənin üsul və şəraitindən asılı olaraq, makromolekulunda müxtəlif nisbətlərdə 1,4-*sis* (I formul), 1,4-*trans* (II formul) və 1,2 (III formul) konfiqurasiyalı butadien manqaları saxlayan B.k. alınır. Qeyri-stereomüntəzəm B.k. dünyada sənayedə alınan ilk sintetik kauçuklardan biridir; onun S.V. Lebedev üsulu ilə istehsalı SSRİ-də 1932 ildə təşkil edilmişdi.



Məhlulda ion-istiqamətlənmiş polimerləşmədən alınan və tərkibində 85–99% 1,4-*sis* manqalar saxlayan stereomüntəzəm B.k., həmçinin məhlulda anion polimerləşmədən alınan, tərkibində 80%-ədək 1,2 manqalar saxlayan qeyri-stereomüntəzəm kauçuklar daha çox tətbiq olunur. Alınma mərhələsində neft yağları və texniki karbonla doldurulmuş B.k. istehsal edilir. Stereomüntəzəm B.k. –4°C-dən aşağı temp-rda kristallaşma qabiliyyətinə malikdir, maks. kristallaş-

ma sürəti –60-dan –55°C-ədək temp-rda olur, tərkibində 100%-ə yaxın 1,4-*sis* manqalar saxlayan B. k. üçün kristallaşma dərəcəsi 60%-ə çatır. Şüşələşmə temp-ru –110°C-dən (100% 1,4-*sis* manqalar) – 25°C-ə (100% 1,2 manqalar) qədər dəyişir. B.k.-nın sıxlığı 900–920 $kq/m^3$-dir. B.k. karbohidrogenlərdə və onların xlortörəmələrində həll olur. B.k.-nın kimyəvi xassələri makromolekullarında ikiqat rabitənin olması ilə müəyyən edilir.

B.k. vulkanlaşma sürətləndiricilərinin iştirakı ilə kükürdlə, doymamış kauçuklar üçün üzvi peroksidlər və digər vulkanlaşdırıcı sistemlərlə vulkanlaşdırılır. B.k. əsasında qiymətli texniki rezin almaq üçün rezin qarışıqlara aktiv doldurucular, başlıca olaraq, texniki karbon daxil edilir. Stereomüntəzəm B.k. əsasında rezin qarışıqların güclü sıxılması, metala koheziya möhkəmliyi və adheziyasının aşağı olması onların emalını çətinləşdirir. Buna görə B.k. çox vaxt izopren, butadien-stirol və digər yeyilməyə davamlı kauçuklarla qarışdırılır. Qarışıqdan istifadə edildikdə yüksək dinamik dözümlü, yeyilməyədavamlı və elastik rezinlər alınır. B.k.-nın şin sənayesində, zərbəyədavamlı polistirol, rezin-texniki məmulat və rezin ayaqqabılar istehsalında geniş tətbiqi onun əlverişli və nisbətən ucuz olması ilə şərtlənir.

**BUTADİÈN-NİTRİL KAUÇUKLARI**, d i v i n i l - n i t r i l, n i t r i l k a u ç u k l a r ı – 1,3-butadienin akrilnitrillə birgəpolimerləşmə məhsulu olan sintetik kauçuklar. Ümumi formulu:

$$[-CH_2-CH=CH-CH_2-]_n-$$
$$-[-CH_2-CH(CN)-]_m.$$

Tərkibində 60%-dən az akrilnitril manqaları saxlayan birgəpolimerlər elastomerlərdir. Emulsiyada birgəpolimerləşmə ilə alınan və tərkibində 18, 26 və 40% akrilnitril manqaları saxlayan qeyri-müntəzəm saxələnmiş B.-n.k. ən çox istifadə olunur. B.-n.k. amorf və termoplastikdir; aromatik və xlorlaşmış karbohidrogenlərdə, bəzi polyar həlledicilərdə (ketonlarda, mürəkkəb efirlərdə və s.-də) həll olur, alifatik və naften karbohidrogenlərdə həll olmur. Tərkibində akrilnitril manqalarının 18%-dən 40%-ə qədər artması ilə B.-n.k.-nın şüşələşmə temp-ru –55°C-dən –25°C-ə qədər yüksəlir, sıxlığı 943-dən 986 $kq/m^3$-ə qədər artır. B.-n.k.-nın termooksidləşməsində strukturlaşma prosesi üstünlük təşkil edir. B.-n.k.-nın termodavamlılığını və ozonun təsirinə qarşı davamlılığını artırmaq üçün onu hidrogenləşdirir, yaxud polivinilxloridlə modifikasiyalaşdırırlar.

B.-n.k.-nı vulkanlaşma sürətləndiricilərinin iştirakı ilə kükürdlə, doymamış kauçuklar üçün üzvi peroksidlər, alkilfenol-formaldehid qatranları və digər vulkanlaşdırıcı sistemlərlə vulkanlaşdırırlar. Qiymətli texniki rezin almaq üçün rezin qarışıqlara aktiv doldurucular daxil edilir. Tənzimlənən molekul kütləli B.-n.k. asan emal olunur. B.-n.k. əsaslı rezinlər yaxşı adheziya xassəsinə, aqressiv mühitin (yağlar, neft emalı məhsulları) təsirinə qarşı yüksək davamlılığa malikdir; akrilnitril manqalarının miqdarının artması ilə onların yağ və benzinə davamlılığı artır. B.-n.k. aqressiv mühitlə təmasda istismar olunan müxtəlif rezin-texniki məmulatların, məs., araqatıların, şlanqların, kipgəclərin hazırlanmasında, həmçinin plastik kütlənin xassələrinin modifikasiyası üçün tətbiq edilir.

*Əd.:* Синтетический каучук Л.,1983.

**BUTADİÈN-STİROL KAUÇUKLARI**, d i v i n i l - s t i r o l, s t i r o l k a u ç u k l a r ı – 1,3-butadienin stirolla, yaxud α-metilstirolla birgəpolimerləşmə məhsulu olan sintetik kauçuklar. Ümumi formulu:

$$[-CH_2-CH=CH-CH_2-]_n-$$
$$-[-CH_2-CR(C_6H_5)-]_m;$$

burada R-H, yaxud $CH_3$ olur. Tərkibində 65%-dən az stirol manqaları saxlayan birgəpolimerlər elastomerlərdir. Emulsiyada birgəpolimerləşmədən alınan, tərkibində 10, 30 və ya 50% stirol manqaları saxlayan qeyri-müntəzəm, şaxələnmiş B.-s.k. daha çox yayılmışdır. Alınma mərhələsində neft yağları və texniki karbonla doldurulmuş B.-s. k. istehsal olunur. Məhlulda anion birgəpolimerləşməsi ilə makromolekullarında manqaları nizamlı növbələşən, molekul-kütlə paylanması dar olan şaxələnməyən kauçuklar alınır. Həmçinin makromolekulların uclarında stirol manqalarından ibarət bloklar yerləşmiş blokbirgəpolimerlər alınır; belə B.-s.k. termoelastoplast xassəsinə malikdir.

B.-s.k. amorfdur, termoplastikdir; karbohidrogenlərdə və onların xlortörəmələrində həll olur. Tərkibində stirol manqalarının 10%-dən 50%-ədək artması ilə B.-s.k.-nın şüşələşmə temp-ru –78°C-dən –14°C-yə qədər yüksəlir, sıxlığı 910-dan 980 $kq/m^3$-ə qədər artır. B.-s.k.-nın kimyəvi xassələri makromolekullarında ikiqat rabitənin olması ilə müəyyən edilir.

B.-s.k. vulkanlaşma sürətləndiricilərinin iştirakı ilə kükürdlə, doymamış kauçuklar üçün istifadə olunan üzvi peroksidlər və digər vulkanlaşdırıcı sistemlərlə vulkanlaşdırılır. Qiymətli texniki rezin almaq üçün rezin qarışıqlara aktiv doldurucular əlavə edilir. B.-s.k. asan emal edilir, yüksək olmayan koheziya möhkəmliyinə və nisbətən aşağı adheziya xassəsinə malikdir. B.-s.k. əsasında rezinlər çox möhkəm, yeyilməyədavamlı və elastikdir. Tərkibində 25–30% stirol manqaları olan kauçuklar minik avtomobilləri üçün şin, konveyr lentləri, kabel, şlanqlar və s. texniki məmulatlar, eləcə də rezin ayaqqabılar istehsalında geniş istifadə olunur. Tərkibində 10% stirol manqaları olan kauçuklar şaxtayadavamlı məmulatların istehsalında tətbiq edilir. Əlverişli, nisbətən ucuz, ticarət markalarının genişçeşidli olmasına görə B.-s.k. ən çox yayılmış ümumi təyinatlı sintetik kauçuklardır.

**BUTAFÓRİYA** (ital. buttafuori – teatrda tamaşa zamanı aktyorlara lazımi əşyaları verən səhnə fəhləsi) – tamaşada əsl əşyaları (mebel, kostyumlar, heykəllər, qabqaçaq, bəzək əşyaları, silahlar və s.) əvəz edən xüsusi düzəldilmiş predmetlər. B. ucuz və kifayət qədər möhkəm materiallardan (ağac, papye-maşe, rənglənmiş parça və s.) düzəldilir və yaraşıqlı görünüşü ilə imitasiyanı əsl əşya kimi qəbul etməyə imkan verir. Tamaşada hadisələrin baş verdiyi yeri və zamanı, qəhrəmanları səciyyələndirən B. və əsərin ideyasını ifadə edən ümumi tərtibatın bir hissəsidir. B.-dan fərqli olaraq səhnədə istifadə edilən əsl əşyalar *rekvizit* adlanır.

**BUTÁN**, B u t a n k r a l l ı ğ ı (dzonq-ke dilində D r u k - Y u l – Əjdaha Ölkəsi).

### Ümumi məlumat

Cənubi Asiyada dövlət. Şm.-q.-də və şm.-da Çinlə, c.-q.-də, c.-da və ş.-də Hindistanla həmsərhəddir. Sah. 46,65 min $km^2$. Əh. 758,7 min (2013). Paytaxtı Thimphu ş.-dir. Rəsmi dil dzonq-ke (bhotiya) dili, pul vahidi nqultrumdur. İnz. cəhətdən 20 dzonqa (əyalətə) bölünür.

B. BMT-nin (1971), SAARK-ın (Cənubi Asiya regional əməkdaşlıq assosiasiyası; 1985), BVF-nin (1981), BYİB-in (1981), ÜTT-nin (müşahidəçi qismində) üzvüdür.

### Dövlət quruluşu

B. unitar dövlətdir. İdarəetmə forması məhdud monarxiyadır; formal yazılı konstitusiyası yoxdur.

1998 ilin iyulunda dövlət quruluşunun islahatı keçirilmişdir. Kral hökumət başçısı vəzifəsindən imtina etmiş, dövlət başçısı vəzifəsini, həmçinin dövlət təhlükəsizliyi ilə bağlı ən mühüm məsələlərin həlli zamanı səlahiyyətlərini özündə saxlamışdır.









Qanunverici hakimiyyət krala və parlamentə – Milli məclisə (Sonqdu) məxsusdur. 3 illik səlahiyyət müddətinə malik olan Milli məclis 150 üzvdən ibarətdir; 105 üzv ümumi seçkilər yolu ilə seçilir; 10 yeri rahiblərin nümayəndələri tutur; 35 üzvünü dövlət maraqlarını təmsil etmək üçün monarx təyin edir (nazirlər, Kral məşvərətçi şurasının üzvləri, digər rəsmi şəxslər). Kral məşvərətçi şurası 9 üzvdən ibarətdir: 2 nəfər rahiblərdən, 6 nəfər Milli məclis tərəfindən seçilir, sədri isə kral təyin edir. Kral məşvərətçi şurası və Nazirlər şurası Milli məclis qarşısında məsuliyyət daşıyır.

İcraedici hakimiyyəti kral və Nazirlər şurası həyata keçirir. Milli məclisin gizli səsvermə yolu ilə seçdiyi nazirləri kral 5 il müddətinə təyin edir; onlar bir dəfə təkrar seçilə və təyin oluna bilərlər, lakin iki müddətdən artıq vəzifədə qala bilməzlər.

Partiyaların və həmkarlar ittifaqlarının fəaliyyəti qadağan edilmişdir.

### Təbiət

**Relyef, geoloji quruluş və faydalı qazıntılar.** B.-ın ərazisi Şərqi Himalay d-rının c. yamacının çətin keçilən yüksək dağlıq hissəsindədir. Səthi Brahmaputra hövzəsi çaylarının dərin dərələri ilə kəskin parçalanmışdır. C. sərhədi boyu dar zolaq şəklində dağətəyi allüvial düzənliklər (duarlar) uzanır. Ölkənin c. hissəsini təpəli öndağlıqlar, mərkəzini Kiçik Himalay d-rının submeridional qolları (hünd. 4840 *m*-ədək), şm.-ını isə Böyük Himalay d-rının qolu (Kula-Kanqri d. 7554 *m.*, B.-ın ən yüksək nöqtəsi) tutur. Tektonik cəhətdən B.-ın ərazisi Kaynozoyun Alp-Himalay mütəhərrik qurşağına aiddir. Dəmir, qurğuşun və mis filizlərinin, daşduz, mika və mərmərin kiçik yataqları məlumdur.

**İqlim.** Ərazisinin böyük hissəsinin iqlimi rütubətli mussondur. Orta temp-r qışda 15°C, yayda 30–36°C, illik yağıntının miqdarı 2000–5000 *mm*-dir. Dağarası dərələrdə iqlim mülayim rütubətlidir. Qışda orta temp-r –4°C-dən –16°C-yədək, yayda 15–26°C-dir. Yüksəkdağlıqda iqlim soyuqdur. Yağıntı (ildə təqr. 50 *mm*), əsasən, qışda qar şəklində düşür.



Qar xətti 4600 *m*-dən keçir. 677 dağ buzlağı var.

**Daxili sular.** Çayları (Manas, Sankoş, Vonq-Çu, Nqamo və s.) Brahmaputra hövzəsinə aiddir. Yuxarı axınları buzlaqlarla, orta axınları isə qar və yağış suları ilə qidalanır. Musson mövsümündə daşqınlar olur. Şm.-da çoxsaylı buzlaq göllləri var.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** B.-ın ərazisinin təqr. 65%-ini 3300–3800 *m*-ədək yüksəklikdə bitən meşələr tutur. B.-ın c.-unda yarpağınıtökən – həmişəyaşıl meşələr (kastanopsis, şima, ağacabənzər qıjılar), bəzi yerlərdə yarpağınıtökən sal meşələri yayılmışdır. Ölkənin mərkəzi hissəsi üçün səciyyəvi olan 1800–2600 *m* yüksəklikdə həmişəyaşıl palıd və yarpağınıtökən ağac cinslərindən (ağcaqayın, tozağacı və s.) ibarət meşələr daha yüksəkdə iynəyarpaqlı meşələrlə (Himalay şamı, küknar, Himalay tsuqası, ağşam) əvəz olunur. Meşənin yuxarı sərhədi, əsasən, rododendronlardan (50 növdən çox) və ardıclardan ibarətdir. 4000–

**İnzibati ərazi bölgüsü (2005)**

| Dzonqlar (əyalətlər) | Sahəsi, min $km^2$ | Əhalisi, min nəfər | İnzibati mərkəzi | Dzonqlar (əyalətlər) | Sahəsi, min $km^2$ | Əhalisi, min nəfər | İnzibati mərkəzi |
|---|---|---|---|---|---|---|---|
| Bumtanq | 29,92 | 21,7 | Cakar | Punakha | 10,16 | 23,0 | Punakha |
| Çhukha | 23,93 | 61,2 | Çhukha | Samdrup-Conqkhar | 26,53 | 52,5 | Sapdrup-Conqkhar |
| Çiranq | 7,59 | 29,2 | Damphu | Samtsi | 20,73 | 64,8 | Samtsi |
| Daqana | 15,34 | 26,8 | Daqana | Sarpanq | 24,61 | 50,3 | Sarpanq |
| Haa | 15,85 | 13,0 | Haa | Şamqonq | 25,79 | 27,0 | Şamqonq |
| Qasa | 49,14 | 4,8 | Qasa | Thimphu | 19,43 | 89,8 | Thimphu |
| Lhunsi | 34,62 | 27,8 | Lhunsi | Tonqsa | 21,81 | 19,1 | Tonqsa |
| Monqar | 19,69 | 52,7 | Monqar | Traşiqanq | 26,09 | 85,7 | Traşiqanq |
| Paro | 20,35 | 32,1 | Paro | Traşiyanqsi | 17,54 | 35,6 | Traşiyanqsi |
| Pemaqatşel | 7,13 | 27,8 | Pemaqatşel | Vanqdu-Phodranq | 50,25 | 34,7 | Vanqdu-Phodranq |




4600 *m* yüksəklikdə Alp çəmənlikləridir. B.-ın şm. hissəsində ölkə ərazisinin təqr. 10%-ni tutan buzlaq-nival landşaftı yayılmışdır. Ölkənin c.-unda nazikbədən meymunlar (lanqurlar), fil, cırtdan donuz, pələng; dağlarda kabarqa, kiçik ağquyruq maral, Himalay ayısı, qar bəbiri və s. yaşayır. 700-dən artıq quş növü var. B.-da ümumi sahəsi 12,4 min $km^2$ olan 9 mühafizə edilən təbii ərazi, o cümlədən Torsa qoruğu, Ciqme-Sinqay-Vanqçuk, Ciqme-Dorci milli parkları vardır (2005).

### Əhali

Ölkənin əsas əhalisi *bhotiyalar*, yaxud butanlılardır: şarçoplar (26%; 2005), yaxud şərqi butanlılar; dzonq-ke dilində danışan bhotiyaların özləri, yaxud mərkəzi butanlılar (23%); bumtanqpalar, yaxud kebumtamplar, qərbi butanlılar (6%). Digər Tibet-Birma xalqları: khenqlər (8%), dakpalar (6%), matpalar (4%), dzalalar (3%), qurunqlar (3%), lepçalar (2%), kurteoplar (2%), nyempalar (2%), nepallılar (0,5%). Əhalinin 8%-ini Hindistandan gəlmələr təşkil edir, onların da 6%-i assamlılardır. Əhalinin ortaillik artımı 2,1%-dir, 1000 nəfərə doğum səviyyəsi 34 nəfər, ölüm səviyyəsi 13 nəfərdir; uşaq ölümü 1000 nəfər diri doğulan uşağa 100 nəfərdir (2005). Fertillik göstəricisi 1 qadına 4,8 uşaqdır. Əhalinin yaş tərkibi: 14 yaşadək – 39,1%, 15 yaşdan 64 yaşadək – 56,9%, 65 yaşdan yuxarı – 4%. Əhalinin orta yaş həddi 20,3 ildir. Gözlənilən orta ömür müddəti 54,4 ildir (kişilərdə 54,7; qadınlarda 54,1 ildir). Hər 107 kişiyə 100 qadın düşür (2005). Əhalinin orta sıxlığı 1 $km^2$-də 16,7 nəfərdir. Ölkənin c.-undakı düzənliklər və ş.-indəki münbit Traşiqanq vadisi ən sıx məskunlaşmış rayonlardır. Əhalinin 21%-i şəhərlərdə yaşayır (2002; 1970 ildə 3%). İri şəhərləri (min nəfər, 2005): Thimphu – 69 və Phunçholinq – 17; digər şəhərlərin əhalisi 10 min nəfərədəkdir. Əməkqabiliyyətli əhali 227,7 min nəfərdir (2001), əcnəbi fəhlələr (əsasən, nepallılar) – 50 min nəfərdir. Məşğulluğun sahəvi strukturu: k.t.-nda – 93%, xidmət sferasında – 5%, sənayedə – 2% (2002). Dindarların əksəriyyəti lamaistdir (əhalinin 70%-indən çoxu); nepallılar və Hindistandan gəlmələr hinduistlərdir (əhalinin 25%-indən çoxu).

### Tarixi oçerk

B.-ın tarixi 7 əsrdə Tibetdən buddizmin yayılması ilə sıx bağlıdır. Sonrakı bir neçə əsr ərzində B.-ın münbit vadiləri Tibetdən gəlmələr tərəfindən məskunlaşmışdır. B.-da Tibet lamaları tərəfindən çox sayda monastırın əsası qoyulmuşdur. Onlardan ən iriləri 16 əsrə aiddir və Tibet buddizminin bir neçə qolu ilə bağlıdır. B. dövləti 17 əsrin əvvəllərində buddizmin müxtəlif cərəyan və məktəblərinin dünyəvi və dini hakimiyyət uğrunda mübarizəsi gedişində meydana gəlmişdir. B.-ın banisi Tibet rahibi Şabdrunq Nqavant Namqyal (1594–1651) hesab olunur. O, B.-da dualist hakimiyyət sistemini yaratmış, idarəçilik üzrə səlahiyyətləri dünyəvi (deb racə) və dini (dharma racə) başçılar arasında bölüşdürmüşdü. Lamaizmin hakim drukpa karcupa məktəbinin təmsilçiləri olan B.-ın sonrakı dini hökmdarlarına təbəələri Şabdrunqun inkarnasiyaları kimi sitayiş edirdilər. Monastır-qalaların (dzonqların) başçıları xeyli dərəcədə müstəqilliklərini saxlayırdılar. Tədricən B.-da hakimiyyət əyalətləri idarə edən iri feodal-sərkərdələrin əlinə keçdi. 1907 ildə onların ən nüfuzlusu Uqyen Vanqçuk (1861–1926) ilk dünyəvi irsi monarx elan edildi. 1933 ildə dharma racə vəzifəsi qəti olaraq ləğv edildi.

B. ənənəvi olaraq Tibetin siyasi təsir dairəsinə daxil idi və 1910 ilədək ondan vassal asılılığında qalırdı. Avropalılar B. haqqında ilk məlumatları 1626 ildə Portuqaliya missionerlərindən aldılar; 1772 ingilislər B.-la rəsmi əlaqələr qurdular. Hindistanda müstəmləkə ağalığı sistemini yaradan B.Britaniya, tədricən B.-ı da nəzarəti altına alaraq özünün protektoratına çevirdi. Hindistandakı ingilis idarəsinin B. hakimləri ilə imzaladıqları bir sıra müqaviləyə (ən mühümləri 1841, 1865, 1910) əsasən Assam və Benqaliya ilə sərhəddəki dağ keçidləri B.-dan alındı, xarici siyasətə rəhbərlik ingilislərin əlinə keçdi. B. hakiminə isə kompensasiya kimi 1865 ildən hər il 50 min (1910 ildən – 100 min) rupi həcmində maliyyə yardımı verilməsinə başlandı. Hindistan istiqlaliyyət qazandıqdan sonra (1947) Hindistan hökuməti B. ilə "Dostluq haqqında müqavilə" (1949, 8 avqust) bağladı. Müqaviləyə görə, B. daxili siyasətdə, o cümlədən müdafiə məsələlərində tam müstəqilliyini saxlayaraq xarici siyasətdə Hindistanın məsləhətlərinə əməl etməyə razılıq verdi. 1865 ildə zorla alınmış Devangiri mahalı B.-a qaytarıldı, B. hakiminə verilən maliyyə yardımı 500 min rupiyədək artırıldı. 1950 ildən ÇXR-in B.-a ərazi iddiaları irəli sürməsi ilə əlaqədar ölkənin şm. sərhədi boyunca Hindistan qarnizonları yerləşdirildi.

Kula-Kanqri dağı.



1950-ci illərdə Hindistan onu B.-la birləşdirən yollar çəkdirdi, bu da krallığın təcrid olunmasına son qoydu (avropalıların B.-a gəlməsinə yalnız 1974 ildən icazə verildi). Hindistanın dəstəyi ilə krallığın nümayəndəlik institutlarının formalaşdırılması prosesi başladı. Kral Ciqme Dorci Vanqçukun (1929–72) hakimiyyəti dövründə Kral məşvərətçi şurası yaradıldı, 1953 ildə qismən seçilən Milli məclis (Sonqdu) fəaliyyətə başladı. B.-da nizami ordu yaradıldı, quldarlıq ləğv edildi, Thimphu ölkənin daimi paytaxtı oldu, SES-in və B.-ın mərkəzi rayonlarından Hindistan sərhədinə yolun tikintisinə başlanıldı. Kral islahatları, ilk növbədə torpaq islahatı iri torpaq sahiblərinin və ruhanilərin bir hissəsinin müqaviməti ilə üzləşdi. Lakin "yuxarıdan" islahatların keçirilməsi kursu dəyişmədi. 1960-cı illərin sonlarında monastırların aldıqları torpaq rentası dövlət təminatı ilə əvəz olundu, monastırların bir qismi bağlandı, rahiblərin sayı isə ixtisar edildi. Yeni kral Ciqme Sinqay Vanqçuk (d. 1955) konstitusiyalı monarxiya institutlarının formalaşdırılmasını davam etdirdi. Əvvəllər yaradılmış Nazirlər şurası 1990-cı illərdə Sonqdu tərəfindən təyin olunmağa başladı. 1998 il qanunu Sonqduya ⅔ səs çoxluğu ilə kralı hakimiyyətdən uzaqlaşdırmaq hüququ verdi. 2002 ildə B.-da 21 yaşına çatmış bütün şəxslər üçün ümumi seçki hüququ tətbiq edildi. 2004 ilin dekabrında Konstitusiya layihəsi işlənib hazırlandı. 2006 il dekabrın 14-də B.-ın dördüncü kralı Ciqme Sinqay Vanqçuk oğlu Ciqme Khesar Namqyalın (d. 1980) xeyrinə taxtdan əl çəkdi.

1988 ildə B. kralı hinduizm tərəfdarları olan etnik nepallıların nüfuzunun zəiflədilməsinə yönəldilmiş bir sıra qanunlar qəbul etdi. Bu da 1990 ildə ölkənin c.-unda Assam və Qərbi Benqaliyanın sol qüvvələri tərəfindən dəstəklənən bir qrup nepallının başçılığı ilə kral əleyhinə çıxışlara səbəb oldu. Çıxışlar polis tərəfindən yatırıldı. Nepal azlıqlarının hüquqlarının məhdudlaşdırılması və 1990 ildən sonra nepallıların bir qisminin B.-dan köçməsi Nepal-Butan münasibətlərinin kəskinləşməsinə gətirib çıxartdı. Hindistan və BMT-nin iştirakı ilə Nepal və B. arasında qaçqınların (100 min nəfər) qayıtması məsələsinə dair danışıqlar nəticə vermədi. 1990-cı illərin sonlarında B.-a Hindistanın şm.-ş. rayonlarından separatist təşkilatların döyüşçüləri soxuldular. 2003 ildə ordu onlara qarşı müvəffəqiyyətli əməliyyat keçirdi.



Manas çayı.

Demokratik islahatlar uğrunda çıxış edən Butan konqresi partiyası və Butan xalq partiyası kral tərəfindən ləğv olundu. Butan konqresi öz fəaliyyətini xaricdə davam etdirir.

Hindistan və B. arasındakı münasibətlərə və B.-ın xarici siyasətinə Hindistanın siyasi emissarı nəzarət edir. B. 1971 ildə Hindistanın dəstəyi ilə BMT-yə üzv qəbul olundu. Az sonra B.-a yardım göstərilməsi üzrə BMT proqramı qəbul edildi. 1980-ci illərdən BVF və BYİB ölkəyə yardım göstərməyə başladı. 1973 ildən B. Qoşulmamaq hərəkatının iştirakçısıdır. 1990-cı illərdə B.-ın Nyu-York və Cenevrədə BMT yanında diplomatik missiyaları təsis edildi, Nyu-Dehlidə (Hindistan) və Cənubi Asiyanın digər dövlətlərində səfirlikləri açıldı.

### Təsərrüfatı

B. aqrar ölkədir, ən az inkişaf etmiş dünya ölkələri sırasına aid edilir və Hin-

Taşin-çxo-dzonq monastır-qala. Thimphu.





Thimphu şəhərindən görünüş.

distan, Avropa ölkələri, beynəlxalq təşkilatların göstərdiyi xarici köməkdən çox asılıdır. ÜDM həcmi 5 mlrd. dollar, adambaşına – 7000 dollardır (alıcılıq qabiliyyəti paritetinə görə; 2013). ÜDM-in real artımı 5,8% (2013); insan inkişafı indeksi 0,538 (dünyanın 186 ölkəsi arasında 140-cı yer, 2012). ÜDM-in 13,8%-i k.t., 41,2%-i sənaye və tikinti, 45,0%-i xidmət sferasının payına düşür (2013). Turizm və energetikanın inkişafı hökumətin diqqət mərkəzindədir. Qəbul edilmiş iqtisadi proqramlar ətraf mühitin və əhalinin ənənəvi həyat tərzinin qorunub saxlanmasına yönəlmişdir. Marka ticarəti və xarici turizm valyuta gəlirinin əsas mənbəyidir və turist sayını tənzimləyən dövlətin tam nəzarəti altındadır.

**Sənaye.** Əhəngdaşı, gil, mərmər, dolomit, qrafit, şist və qiymətli daşlar hasil edilir, az miqdarda dəmir filizi və kömür çıxarılır. Hidroenergetika iqtisadiyyatın ən sürətlə inkişaf edən sahəsidir. İldə təqr. 2 mlrd. *kVt·saat* elektrik enerjisi istehsal olunur, onun 99,9%-i SES-lərin payına düşür; daxili tələbat azdır. Ən iri SES-lər Çhukha, Kuriçhu, Tala və Basoçhudur. B.-da istehsal olunan elektrik enerjisinin böyük hissəsi (ildə 1,5 mlrd. *kVt·saatdan* çox), əsasən, Hindistana ixrac edilir.

Kustar sənətkarlıq (parça, xalça, soyuq silah, bədii metal və ağac emalı) geniş yayılmışdır. Emal sənayesi zəif inkişaf etmişdir; əsas sahələri: sement, yeyinti, meşə. Kiçik müəssisələr üstünlük təşkil edir. İri istehsal yalnız 1960-cı illərdə – iki sement z-du, sellüloz z-du, meyvə emalı, faner, ağac-yonqarlı tavalar, kanifol və skipidar istehsalı müəssisələrinin açılışından sonra yaranmışdır. Əsas sənaye mərkəzi Phunçholinqdir (bütün sənaye məhsullarının təqr. 1/2-i). 1970–80-ci illərdə meşə tədarükünün (hər il 3,2 mln. $m^3$) sürətli inkişafı meşələrin azalmasına gətirib çıxarmışdır.

Düyü plantasiyası. Paro.



**Kənd təsərrüfatı.** Ölkə ərazisinin təqr. 7,7%-i əkin üçün yararlıdır. Ənənəvi olaraq terraslı və dincəqoyulmuş əkinçilik (hazırda qadağan olunmuşdur) inkişaf etmişdir. Əsas bitkilər: çəltik, qarğıdalı, kartof, sitrus, meyvələr. Qaramal (əsasən, ölkənin ş.-ində və c.-unda), at (ş.-ində), yak və donuz (q.-ində), davar, ev quşları (c.-unda) saxlanılır. 1977 ildən dövlət fəal surətdə balıqçılığın inkişafını dəstəkləyir. Dağ çaylarında forel ovlanır; süni göllərdə karp yetişdirilir.

**Nəqliyyat.** D.y. yoxdur. Avtomobil yollarının (62%-i bərkörtüklüdür) uz. 8050 *km*-dir (2003). İki aeroport, Paroda beynəlxalq aeroport var (2012).

**Xarici ticarət.** İxracatın dəyəri 721 mln dollar, idxalatın 1,2 mlrd. dollar təşkil edir (2012). Əsas ixrac maddəsi elektrik enerjisidir; oduncaq, meyvə, toxuculuq malları, sement, ədviyyat, metal məmulatları, qiymətli daşlar da ixrac edilir. Əsas ticarət partnyorları Hindistan (83,8%) və Honkonq (10,8%). Hindistandan (72,3%), Cənubi Koreyadan (6%), Yaponiyadan və B. Britaniyadan yanacaq, dənli bitkilər, maşın və avadanlıq idxal olunur (2013).

## Silahlı qüvvələr

Silahlı qüvvələr (SQ; 2003) 10 dağ-piyada batalyonundan və bir neçə xüsusi bölmədən (cəmi təqr. 5 min nəfər), həmçinin hərbiləşdirilmiş birləşmələrdən (təqr. 15 min nəfər) ibarətdir. Ali baş komandan kraldır. SQ müxtəlif növ atıcı silahlar və minaaatanlarla silahlanmışdır (bütün silahlar Hindistan istehsalıdır). SQ icbari hərbi mükəlləfiyyət (18 yaşdan 50 yaşadək) prinsipi əsasında komplektləşdirilir. Çağırış yaşı 18, hərbi xidmət müddəti 2 ildir. Komanda heyəti kadrları Hindistanın hərbi məktəblərində hazırlanır. Səfərbərlik ehtiyatları 504 min nəfər, o cümlədən hərbi xidmətə yararlı olanlar 270 min nəfərdir.

## Səhiyyə

Əhalinin hər 100 min nəfərinə 16 həkim, 39 orta tibb işçisi düşür (1997). Səhiyyəyə qoyulan ümumi xərc ÜDM-in 3,9%-ni təşkil edir (büdcədən maliyyələşmə 90,6%, özəl sektordan – 9,4%; 2002). Səhiyyə dövlətin himayəsindədir, r-n səviyyəsində desentralizasiya olunmuşdur və əsasını ilkin tibbi-sanitariya yardımı təşkil edir. İmmunizasiya, QİÇS, vərəm, malyariya, ənənəvi təbabət və s. üzrə məqsədli proqramlar işlənib hazırlanmışdır.





## İdman

1983 ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. Olimpiya Oyunlarında 1992 ildən iştirak edir (kamandan oxatma). 1983 ildə təsis edilmiş Butan Futbol İttifaqı 2000 ildən FİFA-nın üzvüdür. B. idmançıları beynəlxalq yarışlarda mükafatçılar sırasına çıxa bilməmişlər.

## Təhsil. Elm və mədəniyyət müəssisələri

B.-ın təhsil müəssisələri məktəb təhsili, sonrakı və ali təhsil departamentlərinin tabeliyindədir. Müasir təhsil sistemi 6 yaşlı uşaqlar üçün 7 illik ibtidai məktəb (hazırlıq sinfi daxil olmaqla), 4 illik orta məktəb, 2 illik kollec və ali məktəblərdən ibarətdir. İbtidai məktəbi bitirən şagirdlərin 87%-i təhsillərini orta məktəbdə davam etdirir (2014). 15 yaşdan yuxarı əhalinin savadlılığı kişilər arasında 30%, qadınlar arasında 10% təşkil edir. 2003 ildə Thimphuda Kral Un-ti təsis edilmişdir. Onun tabeliyində Menecment Kral İn-tu (1986), Butan Kral Texnologiya İn-tu, Ənənəvi Tibb Milli İn-tu, Milli Dil və Mədəniyyəti Öyrənmə İn-tu (1961), Tibb Elmləri Kral İn-tu (1974), Butanı Öyrənmə Mərkəzi (1999), Milli Təhsil in-tları (Paro və Samtsidə; 1992) və s. elmi tədqiqat in-tları; Milli kitabxana (1967), Kütləvi kitabxana (1978) – hər ikisi Thimphuda fəaliyyət göstərir.

## Kütləvi informasiya vasitələri

Teleradioverilişləri "Butan brodkastinq servis" ("Bhutan Broadcasting Service – National TV and radio broadcast agency") dövlət şirkəti tərəfindən dzonqke və ingilis dillərində aparılır. Televiziya 1999 ildən fəaliyyət göstərir, gündə 4 saat yayımlanır (proqramlar yalnız paytaxt Thimphuda qəbul edilir). 1992 ildən "Kunsel" ("Kuensel"; dzonq-ke, ingilis və hind dillərində) həftəlik ümummilli qəzet buraxılır. 1999 ildən "Cornal of Butan stadis" ("Journal of Bhutan Studies") ictimai-siyasi, elmi və ədəbi jurnalı dzonqke və ingilis dillərində nəşr olunur (ildə 2 nömrəsi).



Butan Kral Universiteti. Thimphu.

## Ədəbiyyat

Milli ədəbiyyat 1990-cı illərin ortalarından ingilis dilində formalaşmağa başlamışdır. Karma Uranın "Mingözlü qəhrəman", (1995) tarixi romanı, "Pemi Çevanq Taşi haqqında ballada" (1996), həmçinin B.-ın tarixi, mədəniyyəti və ədəbiyyatına dair kitabları və məqalələri dünya şöhrəti qazanmışdır. Poeziya Dorci Pencorenin yaradıcılığı ilə təmsil olunur.

## Memarlıq və təsviri sənət

İncəsənət lamaizmin güclü təsiri altında formalaşmış və inkişaf etmişdir. B.-ın dini memarlığı 17 əsrdə meydana gəlmiş dzonqlarla (daş monastır-qalalar) təmsil olunur: Paro ş.-ndə Druqyel-dzonq; Punakha ş.-ndə Punakha-dzonq. Mülki memarlıqda milli ənənələr Thimphu ş.-nin tikililərində əksini tapmışdır.

Tibet və Nepalın bədii mədəniyyətlərinin təsirini əks etdirən B. təsviri sənəti bütünlüklə dini məqsədlərə həsr olunmuşdur. Heykəltəraşlıqda əsas material kimi gil və tuncdan (unudulmuş mum texnikası Nepaldan gəlmişdir) istifadə edilirdi.

Ev mehrablarının tərtibatında və məbədlərdə istifadə olunan rənglənmiş gil heykəlciklər geniş yayılmışdı. 16–17 əsrlər heykəltəraşlığı Tibet ənənələrinə söykənirdi (Buddanın və lamaların təsvirləri). 18 əsrdən plastikada ornamentdən və zəngin dekordan (qızıllama, gümüşləmə və mərcandan) istifadə edilirdi. Freska

Paro yaxınlığında Toksanq-dzonq monastırı.





Çam dini mərasimində maskalıların rəqsi. Thimphu.

rəngkarlığı inkişaf etməmişdir. Məbədlər, əsasən, üslubca Nepal və Tibet (15 əsrdə), daha sonra (17 əsrdə) Çin rəngkarlığından təsirlənmiş ikonalarla (*tanka*) bəzədilir. B.-da bədii sənətkarlıq növlərindən ən çox toxuculuq yayılmışdır.

### Musiqi

B.-ın musiqi mədəniyyəti Tibet musiqi mədəniyyətinin regional növüdür. Dini musiqi vacrayana buddizmi ilə bağlıdır, güclü monastır ənənəsi qorunub saxlanmışdır. B.-ın bütün ənənəvi musiqisi öz növbəsində dini musiqi ilə sıx bağlıdır. Hər il keçirilən çam dini mərasimində musiqi ilə müşayiət olunan maskalı rəqs tamaşaları onun ayrılmaz hissəsidir. Tibet mənşəli musiqi alətləri (16 əsrdən dəyişməmişdir) lim fleytaları (linqbu; bambukdan 6 fleyta dəsti), uzun qolu olan damnyen lütnyasından ibarətdir. Saray və dövlət bayramlarında boeda və şunqda janrlarında mahnılar ifa olunur; şunqda başlanğıcını 17 əsr Tibet saray musiqisindən götürmüşdür və B.-ın dövlət himninin əsasını təşkil edir. 1960-cı illərdən saray və dövlət təntənələrində iştirak edən peşəkar musiqiçilər ansambllarına yayla çalınan ikisimli pivanq (gəzərgi musiqiçilərin Tibet mənşəli aləti), yanqçen simballarɪ (Çin mənşəli), damnyen və lim daxildir. Peşəkar klassik, həmçinin ənənəvi kənd ansamblları dövlət tərəfindən himayə olunur. Thimphuda Kral ifaçılıq sənətləri akademiyası açılmışdır. 20 əsrin 2-ci yarısından B.-da hind musiqisi janrları, Qərb nümunəli müasir musiqi alətləri yayılmağa başlamışdır. 20 əsrin sonlarından Qərb pop musiqisi, Hindistan və Tibet musiqisi elementlərindən ibarət riqsar musiqisi (kino musiqisi, populyar mahnılar, şəhər məişət musiqisi) geniş yayılmışdır; damnyen lütnyasının müasir modifikasiyasından istifadə olunur. Ənənəvi incəsənət festivalları keçirilir.

*Əd.:* Иванов Б. А. Бутан // Политическая история государств Азии и Северной Африки. XX век. М., 1996. Т. 1; Sinha A. C. Himalayan kingdom, Bhutan: tradition, transition and transformation. New Delhi, 2001.

**BUTANLAR** – alkanlar, $C_4H_{10}$. Normal quruluşlu butan (*n*-B.) $CH_3(CH_2)_2CH_3$ və izobutan (*izo*-B.) $(CH_3)_3CH$ mövcuddur. B. iysiz yanar qazdır; üzvi həlledicilərdə həll olur, suda həll olmur. B.-ın hava ilə qarışığı (həcmcə 1,5–8,5% B.) partlayış təhlükəlidir. B. *alkanların* xassələrinə malikdir.

Tərkibində B. olan qaz-kondensat və neft qazları (yataqdan neftlə birgə çıxan səmt qazı), neft emalı qazları ilə yanaşı B.-ın sənaye istehsalı üçün əsas xammaldır. *n*-B. *izo*-B., butenlər və 1,3-butadienlər, sirkə turşusu, malein anhidridi alınması üçün istifadə edilir. *izo*-B. avtomobil benzinlərinin yüksəkoktanlı komponentlərinin və izobutilenin istehsalında xammaldır. B.-ın propanla və digər kiçikmolekullu karbohidrogenlərlə qarışığı qaz yanacaq kimi tətbiq edilir. B. sinir sisteminə zərərli təsir göstərir.

**BUTANLILAR** – bax *Bhotiyalar*.

**BUTANOLLAR**, butil spirtləri – doymuş alifatik, biratomlu spirtlər, $C_4H_9OH$. Dörd izomeri məlumdur: *n*-B. (butanol-1) $CH_3(CH_2)_3OH$, *izo*-B. (2-metil-propanol-1) $(CH_3)_2CHCH_2OH$, *ikili*-B. (butanol-2) $C_2H_5CH(OH)CH_3$, *üçlü*-B. (2-metil-propanol-2) $(CH_3)_3COH$. *n*-B., *izo*-B. və *ikili*-B. spirt iyli rəngsiz mayelərdir; müvafiq olaraq $t_{qayn}$ 117,4, 108,1 və 99,5°C-dir; *üçlü*-B. bərk maddədir, $t_{ər}$ 25,5°C-dir. B. əksər üzvi həlledicilərlə qarışır, *üçlü*-B. suda yaxşı həll olur. Alifatik spirtlərin kimyəvi xassələrinə malikdir.

*n*-B. propilenin oksosintezindən, kroton aldehidinin katalitik hidrogenləşməsindən, karbohidratların aseton-butil qıcqırmasından; *izo*-B. sivuş yağlarının fraksiyalarının qovulmasından, oksosintezlə; *ikili*-B. neftin buten-butan fraksiyalarının hidratlaşmasından; *üçlü*-B. izobutilenin, yaxud onun olduğu neft fraksiyalarının hidratlaşmasından alınır. *n*-B. və *izo*-B. lak və boyaların həllediciləri, polimer qatranlarının modifikatoru, sürtkü yağlarına aşqarlar, plastifikatorların istehsalında, ətirli maddələr, yeyinti əlavələri və dərman maddələrinin sintezində; *ikili*-B həlledici, metiletilketon istehsalında yarımməhsul, motor yanacaqlarının yüksəkoktanlı komponenti, əyləc mayelərinin komponenti; *üçlü*-B. antiseptik, süni müşk (ətirli maddə) və s. istehsalı üçün xammal kimi tətbiq edilir.

**BUTÁRA** (lat. butarium – çəllək) – deşikli silindr və ya konusşəkilli fırlanan şadara; mədənlərdə qızıl və qalay daşlarını yumaq üçün qədim avadanlıqlardan biri. 19 əsrin əvvəllərində daha geniş tətbiq edilirdi. Yerqazan maşınlarda, həmçinin gilli filizlərin yuyulması üçün xırda mədənlərdə istifadə olunur. Material B.-ya maili xəlbirdən keçərək daxil olur və sonra şlüzə boşaldılır.

**BUTÁRE** (1962 ilədək Astrida) – Ruandanın c.-unda şəhər. Butare prefekturasının inz. m. Əh. 103,3 min (Kiqalidən sonra ölkənin ikinci şəhəri; 2009). Avtomobil yolları qovşağı. 1920 ildə salınmışdır.

Ruandanın elm, mədəniyyət və ticarət mərkəzidir. Ruanda Aqronomiya Elmləri İn-tu (1962), Elmi və Texnoloji Tədqiqatlar İn-tu (1989), Milli Un-t (1963); un-t kitabxanası, Milli muzey (1989; etnoqrafik kolleksiya) var.



Butare. Kafedral kilsə.

**BUTEFLİKA** Əbdəl Əziz (d. 2.3.1937, Mərakeş, Ucda ş.) – Əlcəzair siyasi və dövlət xadimi. 1956 ildən Əlcəzair Milli Azadlıq Cəbhəsinin (1964–81 və 1989 ildən onun Mərkəzi komitəsinin üzvü) fəal iştirakçısı idi. Müstəqil Əlcəzairin ilk hökumətində turizm və idman naziri (1962–63), xarici işlər naziri (1963–79), Əlcəzair prezidenti H. *Bumedyenin* ardıcıl tərəfdarı; BMT Baş Assambleyası sessiyasının sədri (1974–75) olmuşdur. *Qoşulmamaq hərəkatında* Asiya və Afrikanın ən radikal əhvali-ruhiyyəli xadimlərindən biri kimi nüfuza malik olan B. sənaye cəhətdən inkişaf etmiş dövlətlər və "üçüncü dünya" ölkələri arasında iqtisadi əlaqələrin yenidən qurulmasının tərəfdarı idi. 1980 ildə siyasi fəaliyyətdən uzaqlaşmış və ona qarşı irəli sürülən korrupsiya ittihamları ilə əlaqədar olaraq mühacirət etmişdir (BƏƏ, Fransa və İsveçrədə yaşamışdır). Əlcəzairə qayıtdıqdan (1989) sonra bəraət almışdır. 1994 ildə vətəndaş müharibəsinin qızğın vaxtında hərbi dairələrin seçkilərə getmədən dövlətə başçılıq etmək təklifini rədd etmişdir. 1999 ilin aprel ayında Əlcəzair prezidenti seçilmişdir; Əlcəzairdə vətəndaş müharibəsinin faktiki dayandırılmasına nail olmuşdur. 2004 ilin aprelində yenidən prezident seçilmişdir. 2009 ilin sentyabrında keçirilən prezident seçkilərində seçicilərin 90,2%-inin səsini toplayaraq növbəti 5 il müddətinə Əlcəzairin prezidenti olmuşdur. 2014 ilin fevralında yenidən namizədliyini irəli sürmüş və aprel ayında keçirilən seçkilərdə ilk turda 81,5% səs toplayaraq dördüncü dəfə prezident seçilmişdir.



**BÚTENANDT** Adolf Fridrix (24.3.1903, Bremerhafen – 18.1.1995, Münxen) – alman üzvi kimyaçısı və biokimyaçısı. Nobel mükafatı laureatı (1939). Marburq və Göttingen un-tlərində təhsil almışdır (fəlsəfə d-ru, 1927). Dansiqdə (indiki Qdansk) Ali Texniki Məktəbin prof.-u (1933–36), M. Plank ad. Biokimya İn-tunun direktoru (1936–66), Münxen Un-tinin prof.-u (1956–72); M. Plank ad. Cəmiyyətin prezidenti (1960–72) olmuşdur.



Əsas tədqiqatları cinsiyyət hormonlarının kimyasına həsr olunmuşdur. İlk dəfə qadın cinsiyyət hormonu estron (1929, E. *Doyzi* ilə eyni vaxtda) və kişi cinsiyyət hormonu androsteronu (1931) kristal halda ayırmış, onların kimyəvi quruluşunu öyrənmişdir. Kişi cinsiyyət hormonu testosteronun sintezini həyata keçirmişdir (1935, L. *Rujiçka* ilə eyni vaxtda). Sarı cisim hormonu Progesteronu təmiz halda almışdır (1934). Androgen və estrogenlərin sterin nüvəsinin quruluş xüsusiyyətlərini müəyyən etmişdir. Cücü hormonu ekdizonu, onurğalıların hormonu kortizonu, dişi tut ipəkqurdunun cinsiyyət feromonu bombikolu ilk dəfə ayırmış; bu hormonların kimyəvi quruluşunu müəyyən etmiş, kortizonun alınma üsulunu işləyib hazırlamışdır. Fəxri legion ordeni ilə təltif olunmuşdur (1969).

*Əsəri:* Untersuchungen über das weibliche Sexualhormon. B., 1931.

**BUTENLƏR**, butilenlər – alkenlər, $C_4H_8$. 1-buten (α-butilen) $CH_2{=}CHCH_2CH_3$; 2-buten (β-butilen, psevdobutilen) $CH_3CH{=}CHCH_3$ (*sis*- və *trans*- izomerlər) və izobuten (izobutilen) $(CH_3)C{=}CH_2$ izomerləri mövcuddur. B. kəskin iyli yanar qazdır; etanol və efirdə yaxşı həll olur. B.-in hava ilə qarışığı (həcmcə 1,7–9% B.) partlayış təhlükəlidir. *Alkenlərin* xassələrinə malikdir. B. *n*-butanın katalitik dehidrogenləşməsindən, yaxud etilenin dimerləşməsindən alınır. B. qarışığı neft emalı qazlarının butan-butilen fraksiyasından ayrılır. Alkilat, sürtkü yağları, motor yanacaqları, butadien, izopren, butilkauçuk, poliizobutilen, malein anhidridi, metiletilketon və s. istehsalında tətbiq edilir. B. gözün selikli qişasını və tənəffüs yollarını qıcıqlandırır.

**BUTİLKAUÇÚK** – sintetik kauçuk; izobutilenin az miqdarda izoprenlə sopolimeri. Ümumi formulu:

$$[-C(CH_3)_2-CH_2-]_n-$$
$$-[-CH_2-C(CH_3)=CH-CH_2)-]_m.$$

B. metilxlorid mühitində –95°C-yə yaxın temp-rda kation birgəpolimerləşməsindən, yaxud izopentan məhlulunda koordinasiyalı-ion birgəpolimerləşməsindən alınır. B. molekul kütləsi (200–700 min) və makromolekullarındakı izopren manqaları ilə (1–3%) fərqlənən xətti müntəzəm birgəpolimerlərdir. B. aşağı temp-rda (–40°C), yaxud 400%-dən yüksək deformasiyalarda tədricən kristallaşır; karbohidrogenlərdə yaxşı həll olur; şüşələşmə temp-ru –67°C, sıxlığı 910 *kq/m*³-dir. Normal şəraitdə B. soyuqaxıcılığı, aşağı qazkeçiriciliyi ilə səciyyələnir, ozonun və aqressiv mühitin təsirinə davamlıdır.

B. vulkanlaşmanın aktiv sürətləndiriciləri iştirakında kükürdlə, həmçinin alkilfenol-formaldehid qatranları ilə vulkanlaşdırılır. B.-un vulkanlaşma qabiliyyəti, onu halogenləşdirdikdə – xlor, yaxud brom atomlarının izopren manqalarına (kütləcə 1–2%) birləşdikdə yüksəlir. Xlor- və brombutilkauçuklar yüksək doymamış kauçuklarla (məs., təbii kauçukla) vulkanlaşdırılır. B. əsasında rezinlər yüksək buxar- və qazkeçirməzliyi, istiyə-, termo-, atm. təsirinə və kimyəvi davamlılığı, yüksək dempfirləmə qabiliyyəti ilə səciyyələnir.

B. avtomobil kameraları, rezinləşdirilmiş parçalar, bəzi tibbi məmulatlar; halogenləşdirilmiş B. kamerasız avtomobil şinləri, istiyədavamlı konveyer lentləri, şlanqlar və s. məmulatlar istehsalında istifadə edilir.

*Əd.:* Синтетический каучук. Л., 1983; Корнев А.Е., Буканов А.М., Шевердяев О.Н. Технология эластомерных материалов. М., 2000.

**BUTİRATLAR** – *yağ turşusunun* duzları və efirləri.

**BUTİRÓMETR** (yun. βούτυρον – yağ və ... *metr*) – südün yağlılığını ölçmək üçün cihaz. Bölgülü şüşə silindr şəklində olan B. daha geniş yayılmışdır. Hər bölgü südün tərkibindəki 0,1% yağa uyğun gəlir. Süddə yağın faizini təyin etmək üçün qaba (silindrə) 11 *sm*³ süd, 10 *sm*³ sulfat turşusu və 1 *sm*³ amil spirti tökülür. Sonra qab tıxacla bağlanır və çalxalanır. Nəticədə yağdan başqa, südün bütün tərkib hissələri məhlulda həll olur. Yağın yaxşı ayrılması üçün B. sentrifuqaya yerləşdirilir və sentrifuqalamadan sonra südün yağ faizi hesablanır.



**Butirometr:** 1 – şkala; 2 – silindrik qab; 3 – tıxac üçün deşik.

**BUTİT** (But soyadından) – mineral, $CuSO_4 \cdot 7H_2O$. Monoklinik sinqoniyada kristallaşır. Sıx, dənəvər və ya lifli aqre-


Butit.

qatları var. Rəngi göy, parıltısı şüşəvari, yaxud ipəkvarıdır. Sərtliyi 2–2,5, sıxlığı 2100 *kq/m*³. Suda həll olur. Kolçedan yataqlarının oksidləşmə zonasında rast gəlinir.

**BÚTİYA** (Boothia) – Şimali Amerikanın şm. kənarında, Kanadada yarımada. Sah. təqr. 20 min *km*². Səthi ayrı-ayrı massivlərinin hünd. 610-ə çatan (Manitkalinq d.), sahilboyu düzənliklərlə əhatələnmiş platodur. Bitkisi tundra tiplidir. Materikin ən ucqar şm. qurtaracağı – Merçison burnu B.-dadır.

**BUTKÓV** Pyotr Qriqoryeviç (28.12.1775, Sloboda-Ukrayna qub.-nın Starobelsk qəzasının Osinovo k. – 24.12.1857, Sankt-Peterburq) – Rusiya tarixçisi, qafqazşünas, dilşünas, Peterburq EA-nın akad. (1841), həqiqi gizli müşavir (1856). Dvoryan nəslindəndir. Ev təhsili almışdır. Gürc.-da K.F. Knorrinq (1801–02) və P.D. Sisianovun (1802–03) yanında dəftərxana müdiri idi. 1803–05 və 1811–20 illərdə istefada olmuşdur. 1805 ildən Heroldiya dep-tində çalışmış, 1809 ildə Moldaviya ordusunun baş komandanı A.A. Prozorovskinin yanında gen.-auditor-leytenant, 1823 ildə Baş qərargahın Auditor dep-tinin müşaviri, 1823–28 illərdə Finlandiya gen.-qubernatoru A.A. Zakrevskinin yanında xüsusi tapşırıqlar üzrə məmur, 1828 ildən DİN şurasının üzvü, 1830 ildən Baş senzura idarəsinin üzvü, 1835 ildən DİN-in Statistika bölməsinin üzvü, 1850 ildən senator idi.

"Nestorun rus salnaməsinin skeptiklərin iftirasından müdafiəsi" (1840) B.-un başlıca əsəridir. Onun rus dilinə dair bir neçə lüğəti də nəşr edilmişdir. B. 1791–1803 illərdə Qafqazda olmuş, 1796 ildə gen. V. Zubovun komandanlığı etdiyi rus qoşunlarının səfəri zamanı Azərb.-a gəlmişdir. B.-un ölümündən sonra həyat yoldaşı onun çap olunmamış işlərini və topladığı sənədləri Elmlər Akademiyasına hədiyyə vermişdir. Onların əsasında müəllifin ölümündən sonra "1722 ildən 1803 ilədək Qafqazın yeni tarixinə dair materiallar" (h. 1–3, SPb., 1869) adlı əsər nəşr olunmuşdur. B.-un bu əsərində Azərb.-ın 18 əsr və 19 əsrin əvvəllərindəki siyasi və iqtisadi vəziyyətinə dair zəngin məlumat var.

**BÚTLEROV** Aleksandr Mixayloviç (3.9.1828, indiki Tatarıstanda Çistopol – 17.8.1886, Tatarıstan, indiki Alekseyev r-nun, Butlerovka k.) – rus kimyaçısı, Peterb. EA-nın akad-i. (1874). Kazan Un-tinin təbiyyat bölməsinin fizika-riyaziyyat fakültəsini bitirmişdir (1849). Həmin un-tdə müəllim (1849 ildən), ekstraordinar (1854 ildən), ordinar (1857 ildən) kimya prof-u., rektor (1860 və 1863 illərdə) işləmişdir. 1868–85 illərdə S.-Peterburq Un-tinin ordinar kimya prof.-u olmuşdur. 1885 ildə istefaya getsə də, un-tdə xüsusi kurs üzrə mühazirələr oxumuşdur. Rusiya Fizika-Kimya Cəmiyyətinin Kimya bölməsinin sədri (1878–82) olmuşdur.



Əsas elmi tədqiqat sahəsi üzvi kimyadır. Diyodmetanın yeni alınma üsulunu kəşf etmiş (1858), onun çoxsaylı törəmələrini almış və tədqiq etmiş, o cümlədən "dioksimetilen" (paraformaldehid) adlandırdığı formaldehid polimerini ilk dəfə sintez etmişdir. "Dioksimetilen"in ammonyakla reaksiyasından heksametilentetramin (urotropin) (1860), kalsium-hidroksidin sulu məhlulu ilə reaksiyasından şəkərli maddə "metilenitan" alaraq (1861), ilk dəfə karbohidratın tam sintezini həyata keçirmişdir (lakin sonralar aydın oldu ki, "metilenitan" müxtəlif monosaxaridlərin qarışığıdır).

Üzvi maddələrin kimyəvi quruluş nəzəriyyəsinin inkişafında B.-un mühüm rolu olmuşdur. Bu nəzəriyyənin əsas müddəalarını o, Şpayerdə (sentyabr 1861) alman təbiyyatçıları və həkimləri qurultayının kimya seksiyasında oxuduğu "Maddənin kimyəvi quruluşu"na dair məruzəsində irəli sürmüşdür. B. müddəaları belə formulə etmişdir: "Cismin əmələ gəlməsində iştirak edən hər bir kimyəvi atoma yalnız müəyyən və məhdud miqdarda kimyəvi qüvvənin (yaxınlığın) məxsus olduğunu hesab edərək, mən bu kimyəvi rabitəni, yaxud mürəkkəb cisimdə atomların qarşılıqlı birləşməsi üsulunu kimyəvi quruluş adlandırardım" (Əsərləri, c.1, 1953, səh. 561); "... mürəkkəb hissəciyin kimyəvi naturası, elementar tərkib hissələrinin naturası, onların miqdarı və kimyəvi quruluşu ilə təyin edilir" (orada, səh.70). Bu müddəaların müasir şərhi belədir: molekulun kimyəvi xassələri onun tərkibi və kimyəvi quruluşu ilə təyin edilir. B.-un fikrincə, kimyəvi quruluşu təyin etmək üçün bütün reaksiyalar: birləşmə (sintez), parçalanma (analiz) və əvəzetmə (ikiqat mübadilə) reaksiyaları yararlıdır. B. təklif etdiyi nəzəriyyənin əsasında izomerlik hadisəsini eyni tərkibə malik maddələrin kimyəvi quruluşundakı müxtəliflik ilə izah etməyə müvəffəq olmuşdur. O, bir çox üzvi birləşmələrdə, o cümlədən butan, pentan və amil spirtləri də daxil olmaqla müxtəlif spirtlərdə izomerliyi əvvəlcədən söyləmiş və izah etmişdir (1864). İrəli sürdüyü nəzəriyyəni təsdiq edən çoxsaylı təcrübələr aparmışdır: *üçlü*-butanolu (1864), izobutanı (1866) və izobuteni (1867) sintez etmiş və quruluşlarını müəyyən etmişdir; etilen sırası karbohidrogenlərin quruluşunu aydınlaşdırmış, kimyəvi quruluş nəzəriyyəsi əsasında ilk dəfə polimerləşmənin sistemli tədqiqinə başlamışdır. Dönər izomerləşmənin mümkünlüyünü göstərməklə tautomerlik haqqında təlimin əsasını qoymuşdur (1862).

Kimya tarixini öyrənmiş və üzvi kimyanın tarixi üzrə mühazirələr oxumuşdur (1873). Üzvi kimya elmi tarixində kimyəvi quruluş nəzəriyyəsinə əsaslanan ilk "Üzvi kimyanın tam öyrənilməsinə giriş" (1–3 hissə, 1864–66) dərsliyini yazmışdır. Kitab müəllifin redaksiyası altında əlavələrlə alman dilinə ("Lehrbuch der organischen Chemie", 1868) tərcümə olunmuş, quruluş nəzəriyyəsinin inkişafına və yayılmasına böyük təsir göstərmişdir.

B.-un böyük xidməti üzvi-kimyaçılar məktəbini yaratmasıdır. Kazan Un-ti üzrə B.-un yetirmələri V.V. Markovnikov, A.N. Popov, A.M. Zaytsev hələ onun sağlığında un-tlərin kafedralarında prof. idilər. S.-Peterb. Un-ti üzrə yetirmələrindən ən çox A.Y. Favorski, M.D. Lvov və İ.L. Kondakov tanınmışlar. Müxtəlif vaxtlarda B.-un laboratoriyasında Y.Y. Vaqner, D.P. Konovalov, F.M. Flavitski təcrübə keçmişlər. B. geniş ictimai fəaliyyət göstərmişdir. Kazanda texniki kimyadan kütləvi mühazirələr oxumuş, Kazan Azad İqtisadi Cəmiyyətinin fəal əməkdaşı olmuşdur. B. həmçinin k.t.-nın praktiki məsələlərinə, bağçılığa, arıçılığa, sonralar Qafqazda çay becərilməsinə çox diqqət yetirmişdir.

Əsərləri: Избранные работы по органической химии. М., 1951; Соч. М., 1953–1958. Т. 1–3.

**BUTMİR MƏDƏNİYYƏTİ** – Bosna çayının (Bosniya) yuxarı və orta axarında Son Neolit – Erkən Eneolit dövrünə (e.ə. 5200–4600) aid abidələrin lokal qrupu. Adı 1893–1906 illərdə tədqiq olunmuş Butmir məskənindən (Sarayevo ş. yaxınlığında) götürülmüşdür. Ocaqları bayır tərəfdə yerləşən yarımqazma və yerüstü möhrə evlərdən ibarət kiçik kənd yerləri, həmçinin çaxmaqdaşı alətləri emalatxanalarının qalıqları aşkar olunmuşdur. B.m.-nə aid qaracilalı kasalar, bardaqlar, səhənglər, altlıqlı piyalələr, armudvarı amforalar, sivri oturacaqlı və konusvarı qablar, oyma, yaxud cızma və nöqtəşəkilli naxışlarla (kannelür, spiral, üçbucaq, romb və ziqzaqlar) bəzədilmiş dördayaqlı "mehrablar", həmçinin naxışsız kobud keramika tapılmışdır. Antropomorf və zoomorf heykəltəraşlıq mövcud olmuşdur. Çaxmaqdaşıdan düzəldilmiş bıçaqşəkilli lövhələr, ərsinlər və oxlara rast gəlinmişdir. Təsərrüfatın əsasını toxa əkinçiliyi (buğda, arpa, mərci), qaramal, donuz yetişdirilməsi təşkil edirdi. B.m.-nə *Vinça* mədəniyyətinin güclü təsiri olmuşdur. Herseqovina, Dalmasiya, Adriatik dənizi adalarında B.m.-nə yaxın Xvar-Lisiçnitsi qrupu abidələri yayılmışdır. Son vaxtlar onları Butmir-Xvar mədəniyyətində birləşdirirlər.

**BUTOVO MƏDƏNİYYƏTİ** – Rusiyada Volqa-Oka hövzəsində Mezolit dövrünə (8,5–9,5 min il əvvəl) aid arxeoloji mədəniyyət. 1976 ildə L.V. Koltsov tərəfindən müəyyənləşdirilmiş, Tver vil.-ndəki Butovo I düşərgəsinin adı ilə adlandırılmışdır. Düşərgələrdə bəzən yerüstü tikililərin və yarımqazmaların izlərinə rast gəlinmişdir. B.m. üçün daş ox ucluqları, mikrolitlər, ərsinlər, tiyələr, bıçaqlar və s. səciyyəvidir. B.m.-nin mənşəyi Son Paleolit dövrünün Resseta mədəniyyətinin ənənələri ilə əlaqələndirilir. Neolit dövründə bu ərazidə yayılmış Yuxarı Volqa mədəniyyətinin mənşəcə B.m. ilə bağlı olmasına dair fərziyyə mübahisəlidir.

**BUTRİNTİ**, Butrint, Butrot (yun. Βουθρωτόν; lat. Buthrotum) – Albaniyanın c.-unda qədim şəhər. Əsasını e.ə. 7 əsrin sonu – 6 əsrin əvvəllərində *illiriyalıların* şəhər yerində Kerkiradan gəlmələr qoymuşlar. E.ə. 168 ildə romalılar tərəfindən tutulmuşdur. 15 əsrdə sakinləri tərəfindən tərk edilmişdir. B.-də arxeoloji qazıntılar 1927 ildən başlamışdır.

Antik dövrdən akropolun (e.ə. 7–4 əsrlər), Şir və Skey qapılı şm. istehkamlarının (e.ə. 5–4 əsrlər), şəhərin ş. hissəsinin (e.ə. 3 əsr) divarları; teatrı olan ticarət meydanı (e.ə. 3 əsrin sonu, kərpic skena eramızın 2 əsri), Yuniya Rufina bulağı (e.ə. 4 əsr – eramızın 1 əsri, divar naxışlarının qalıqları), həmçinin portikin, pritaneyin, stoyanın, antlı (çıxıntılı) məbədin (mozaikalı döşəmə) və Minerva məbədinin (hamısı e.ə. 3 əsr), Eskulap məbədinin, nimfeyin, bir neçə termin, gimnasinin, (həndəsi ornamentli mozaikalar), peristili olan evin (hamısı eramızın 1–2 əsrləri), akvedukun (təqr. e.ə. 10 il), üçləçək planlı sarayın (eramızın 4 əsri, döşəmə mozaikaları) və Aşağı şəhərdə bir çox digər yaşayış və ictimai binaların xarabalıqları saxlanılmışdır. Baptisteri (6 əsr; 4 əsr termləri əsasında), T-şəkilli planı olan Məryəm ana bazilikası (6 əsr; rekonstruksiyası 9–10 və 13 əsrlər), 13–14 əsrlərə aid bir neçə kilsənin xarabalıqları, Venesiya qalası (15 əsrin ortaları) orta əsr abidələrindəndir. Akropolda 3 nefli bazilikanın özülü (6 əsr) və qala (13–15 əsrlər, 19 əsrin əvvəli; Arxeologiya muzeyi, antik heykəltəraşlıq kolleksiyası) saxlanılmışdır. Arxeoloji qoruq olan B. *Ümumdünya irsi* siyahısına salınmışdır.

**BUTRÚ** (Boutroux) Emil (28. 7. 1845, Paris yaxınlığında Monruj – 22. 11. 1921, Paris) – fransız filosofu. Ali Normal Məktəbdə təhsil almışdır. 1888 ildən Paris Un-tinin prof.-u, 1912 ildən Fransa Akademiyasının üzvü idi. B. həyat, psixika və təfəkkür təzahürlərinin şərhində mexanistik determinizmə qarşı çıxaraq, varlığın maddi, instinktiv və şüurlu səviyyələri arasında radikal uçurum olduğunu iddia etmiş və vurğulamışdır ki, ali səviyyələr aşağı səviyyələrə müncər edilmir və onlardan asılı deyildir, onlara nəzərən "təsadüfidir". Canlının keyfiyyət özünəməxsusluğunu B. iyerarxiya nizamına və fərdiləşməyə canatmada görürdü: "Həyat bu mənada əsl yaradıcılıqdır". B. ruhun ilkinliyini təsdiqləyərək hesab edirdi ki, varlığın səviyyələr iyerarxiyası azad ilahi yaradıcılıq aktının nəticəsidir. Bu iyerarxiya hər bir səviyyədə artan azadlığın inkişafının vasitəsi və şərti kimi çıxış edir. B.-nun ideyaları A. *Berqsona*, M. *Blondelə* təsir göstərmişdir.

Əsərləri: Паскаль. СПб., 1901; Science et religion dans la philosophie contemporaine. P., 1908; В. Джеймс и религиозный опыт. М.,1908; Наука и религия в современной философии. М., 1910.

*Əd:* Crawford L. S. The philosophy of E. Boutroux. N. Y., 1924.

**BUT-THAP** – Şm. Vyetnamda (Xabak əyaləti), Hanoyun 30 *km*-liyində Budda məbədi kompleksi. 13 əsrdə Çan sülaləsi dövründə əsası qoyulmuş, 17–18 əsrlərdə

But-Thap məbədi.


yenidən qurulmuşdur. Çoxyaruslu kirəmit damlı məbəd binaları (əsasən, ağacdandır), şm.-dan c.-a istiqamətlənmiş bir ox üzərində yerləşən, daş kürsülər üzərində qurulmuş, örtülü qalereya ilə dövrələnmişdir; qalereyalardan birinin oyma daş sürahibəndi var. Əsas tikililərdən ayrı qülləyəbənzər daş paqoda-stupa, paqodazəng qülləsi, xatirə məbədi və s. var. B. memarlığında Vyetnam və Çin bədii ənənələri birləşmişdir. Kompleks 17–18 əsrlərə aid ağac lak heykəltəraşlığı ilə məşhurdur.

**BUTÚAN** – Filippində şəhər. Aqusan-del-Norte əyalətinin inz. m., Karaqa r-nunun ən böyük şəhəri. Əh. 309,7 min (2010). Mindanao a.-nın şm.-ında, Aqusan çayının Mindanao dənizinin Butuan buxtasına töküldüyü yerdədir. Transfilippin avtomagistralında avtomobil yolları qovşağı. Bərə yolu Mindanao a.-nı Manila ilə birləşdirir. Yerli dəniz portu. Aeroport.

İndiki B.-dan 5 *km* aralı olan ərazidə yaxşı vəziyyətdə qalmış ağacdan düzəldilmiş bir neçə dəniz gəmisi – "balanqay" (uz. 15 *m*, eni 3 *m*) aşkar olunmuşdur. Gəmilər 320 ilə aid edilir. 7–15 əsrlərdə Butuan buxtasındakı məskən Çin, *Şrivicayya* və *Macapahit* İndoneziya dövlətləri ilə ticarət əlaqələri saxlamışdır. Məskənin "B." adı ilk dəfə 11 əsrin əvvəllərində qeyd olunur. 1521 ildə F. *Magellanın* ekspedisiyası buraya çatmışdı; hesab edilir ki, B.-da yerli racəsinin yanında Filippin İspaniyanın müstəmləkəsi elan olunmuşdu. B.-da 1899 ildə Mindanao a.-nda ilk dəfə olaraq birinci Filippin respublikasının bayrağı (millətə məxsus müqəddəs əşya kimi xüsusi xəzinədə saxlanılır) qaldırılmışdı. 1901 ildən ABŞ-ın nəzarəti altında idi; 1907 ildən Aqusan (1914 ildən Aqusan-del-Norte) əyalətinin inz. mərkəzi olmuşdur. 1950 ildə şəhər, 1985 ildə iri şəhər statusunu almışdır.

Regionun tarixi və mədəniyyəti muzeyi (arxeologiya və etnoqrafiya ekspozisiyaları), "balanqay" qayıqları muzeyi; yepiskopluğun kilsə varidatı muzeyi; "Süprem" və s. teatrlar, ekoloji "İlk pasxa messası parkı" var.

B. Aqusan çayı vadisi r-nunun ticarətpaylaşdırıcı (meşə tədarükü, qızıl hasilatı; abak, yağlı və kokos palması, banan, kasava və s. becərilməsi) mərkəzidir. K.t. xammalı, balıq və dəniz məhsullarının emalı müəssisələri fəaliyyət göstərir; sallaqxana və soyuducu var. Sərinləşdirici içkilər, tikinti materialları, taxtadan məmulatlar, bəzək əşyaları istehsal olunur.

**BUTUNQLAR**, b u t o n l a r – İndoneziyada (Butunq, Muna və digər adalarda) xalq. Sayları 150 min nəfərdir (1995). Avstrasiya dil ailəsinin Qərbi Avstroneziya qrupuna aid dillərdə və dialektlərdə danışırlar: butunq, yaxud volio, sia-sia, tukanqbesi və s. Həmçinin İndoneziya, bugi, makasar dilləri yayılmışdır. Qonşu Vovoni, Tukanqbesi, Muna a-rının əhalisi ilə birlikdə bunqkular, morilər və lalakilərə qohum olan mədəni-dil birliyini təşkil edirlər. Dindarları müsəlmandır, B.-ın layololar subetnik qrupunda xristianlar da var.

B. dənizçi və tacir olmuşlar, 19–20 əsrlərdə muzdla və mövsümi iş yayılmışdır. Şərqi İndoneziyada, xüsusilə Molukk a-rında geniş şəkildə məskunlaşmışlar. Qohum xalqlar və Sulavesinin c.-ş.-indəki bəzi sahilboyu r-nların əhalisi ilə birlikdə 17–20 əsrlərdə Butunq sultanlığının tərkibində olmuşlar. Ənənəvi məşğuliyyətləri tropik toxa əkinçiliyidir (qarğıdalı, quru dərələrdə yetişdirilən çəltik, darı, batat, kokos palması). Balıqçılıq, xırda pərakəndə ticarət, gəmiçilik, muzdlu işlə də məşğul olurlar. Sənətkarlıq sahələri: qayıq düzəldilməsi, mis emalı, toxuculuq, həsir və zənbil hörülməsi. Yaşayış məskənləri pərakəndədir. Taxtadan tikilən evləri yortacəsaslıdır. Kişi geyimi avropasayağıdır, qadın geyimi saronqdur. Yeməkləri, əsasən, düyü, qarğıdalı sıyığı, tərəvəz sousu, təzə və fermentləşdirilmiş balıqdır. Əyanlara və azad icma üzvlərinə ənənəvi bölgü saxlanılmışdır. Nikah matrilokal, sonra neolokaldır. Başlığa dair razılıq vasitəçi qismində çıxış edən kəndxuda ilə əldə olunur. Ənənəvi etiqadları animizm və əcdadların kultudur.

**BUVÁ** (Bouvat) Lüsyen (1872, ? – 1954, Paris) – fransız şərqşünası. Beynəlxalq Asiya Cəmiyyətinin üzvü (1889). M.F. Axundzadənin "Aldanmış kəvakib" povestini, "Hacı Qara", "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyalarını fransız dilinə çevirmiş, "Jurnal Aziatik"də dərc etdirmişdir. 1899 ildə bir müddət Parisdə yaşamış, Məhəmməd ağa *Şahtaxtlı* ilə tanış olmuş, sonralar M. Şahtaxtlı və onun redaktorluğu ilə nəşr edilən "Şərqi-Rus" qəzeti ilə əməkdaşlıq etmişdir. B.-nın "Jurnal Aziatik"də Azərb. ədəbiyyatına və mətbuatına dair bir sıra məqalələri dərc olunmuşdur ("Azəri türklərində bir siyasi-ictimai qəzet" və s.). 1922 ildə Parisdə çap edilmiş Y.V. Çəmənzəminlinin "Azərbaycan ədəbiyyatına bir nəzər" əsərini də fransız dilinə tərcümə etmişdir.

*Əd.:* N o v r u z o v Ş. "Şərqi-Rus"un çağırışı. B., 1988; А л и е в А.Г. Французские востоковеды и М. Шахтахтинский В. кн.: Азербайджанско-европейские литературные взаимосвязи. Б., 1985.

**BUY** (holl. boei) – gəmi yolları, gəmiçilik üçün təhlükəli olan yerləri hüdudlamaq, suyun altındakı hər hansı bir əşyanın yerini işarələmək və s. üçün müəyyən forma və rəngdə üzən nişan (üzgəc). B.-da işıq, səs siqnalları, yaxud radiosiqnallar vermək üçün qurğu da ola bilər. Radiohidroakustik B. (radiobuy) informasiyanı avtomatik toplayan və qəbuledici st.-ya ötürən üzən vasitədir. İstiqamətlənmiş şüa antenalı radioötürücüdən ibarət olan radiobuy sualtı qayıqları aşkar etmək, okeanoqrafik və meteoroloji müşahidələr aparmaq, naviqasiya məqsədləri üçündür. Radiobuyun ilk nümunələri 1945 ildən sonra, raket-nüvə silahı ilə təchiz olunmuş atom sualtı qayıqlarının yaradılması ilə meydana gəlmişdir. Radiobuyları təyyarələrdən, helikopterlərdən, qayıqəleyhinə gəmilərdən hərəsi bir neçə ədəd olan partiyalarla quraşdırmaqla baryer xətti və ya qapalı hüdud yaradılır. Radiobuylar passiv [sualtı qayığı tapan və ona istiqaməti (pelenqi) təyin edən] və aktiv (aşkar olunmuş sualtı qayığa qədər məsafəni təyin edən), istiqamətlənmiş və istiqamətlənməmiş növlərə ayrılır. Lövbərlərlə təchiz olunmuş B.-lar sürüşmə olan yerlərdə bərkidilir, lövbər qurğuları olmayan B. isə dreyf edir. B. fasiləsiz rejimdə və ya verilmiş proqram üzrə işləyə bilir. B.-un təyyarədən (helikopterdən, gəmidən) görünməsini (axtarışını) asan-

Meteoroloji buy.







laşdırmaq üçün bəzi B.-lar radiolokasiya mayak-cavabvericisi və işıq siqnalı qurğusu ilə təchiz olunur. Sualtı qayığı aşkarlama məsafəsi B.-un hidroakustik qurğusunun növündən, su mühitinin vəziyyətindən və sualtı qayığın xarakteristikalarından asılıdır. Aşkarlama məsafəsi bir neçə yüz *m*-dən bir neçə *km*-ə qədər olur. "B.-təyyarə" radioxəttinin təsir məsafəsi onlarla *km*-ə çata bilər.

**BÜYER** (holl. boeier) – 1) buz üzərində hərəkət etmək üçün xüsusi xizəklər və ya təkərlər üzərində qurulan yelkənli yüngül konstruksiya (kirşə, kabinə, platforma).




Xizəkli buyer.

Yaxşı küləkli havada B.-in sürəti 120 *km/saata* çatır. 2) Birdorlu, yastıdibli yelkənli yük gəmisi; uz. 20 *m*-ədək olurdu. 16–17 əsrlərdə göllərdə, dənizin sahilə yaxın yerlərində üzmək üçün istifadə edilirdi.

**BUYDƏŞT** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Ənzəl kəndistanında, Urmiya ş.-ndən 64 *km* şm.-dadır.

**BUYDUZ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Xudafərin bölgəsinin Mincivan kəndistanında, Xudafərin qəs.-ndən 25 *km* c.-q.-dədir.

**BUYNÁKSK** – RF-nin Dağ. Resp.-nın mərkəzində şəhər. Buynaksk r-nunun mərkəzi. Əh. 62,9 min (2014). Böyük Qafqaz d-rının ətəklərində, Şura-Ozen çayı sahilindədir. D.y. st. Avtomobil yolları qovşağı.

1832 ildə Temir-Xan-Şura (qumuq dilindən tərcüməsi "Teymur xanın gölü"; rəvayətə görə, adı 1396 ildə bu yerlərdə olmuş Orta Asiya hakimi Teymurlənglə bağlıdır) aili yaxınlığında *Qafqaz müharibəsinin* (1817–64) gedişində rus qoşunları tərəfindən hərbi istehkam tikilmişdi. 1834 ildə bu istehkam genişləndirilmiş və Şimali Dağıstanda rus qoşunları komandanlığının iqamətgahı olmuşdur. Temir-Xan-Şura istehkamı dəfələrlə Şeyx *Şamil* qoşunlarının hücumuna məruz qalmışdı. 1840–46 illərdə Xəzər vil.-nin Dərbənd qəzasının, 1846–60 illərdə Dərbənd qub.-nın, 1860–1921 illərdə Dağıstan vil.-nin tərkibində idi, 1866 ildən şəhər və vilayət mərkəzi olmuşdur. 1920 il noyabrın 13-də Temir-Xan-Şurada Dağıstan xalqlarının Fövqəladə qurultayında Dağıstanın muxtariyyəti haqqında bəyannamə elan edilmişdir. 1921 ildən Temir-Xan-Şura Dağ. MSSR tərkibində idi. 1922 il iyulun 10-da Ümumrusiya MİK-in Rəyasət Heyətinin qərarı ilə şəhərin adı dəyişdirilərək Dağıstanda sovet hakimiyyəti uğrunda mübariz U.D. Buynakskinin (1890–1919) şərəfinə adlandırılmışdır. 1970 il mayın 14-də baş verən zəlzələ nəticəsində şəhər ciddi dağıntılara məruz qalmışdır. 1999 il sentyabrın 4-də B.-da törədilən terror aktı nəticəsində 60 nəfərdən çox insan həlak olmuşdur.

Şəhərin mərkəzi hissəsində Dağıstan vilayətinin keçmiş general-qubernatorunun iqamətgahı (19 əsr, hazırda pedaqoji məktəbin binasıdır) saxlanılmışdır. Üç ali məktəbin filialları; Avar dram teatrı var. Aqreqat, avtomobil təmiri, şin təmiri, konserv z-dları; ayaqqabı və trikotaj f-kləri, ət və un kombinatları fəaliyyət göstərir.

Şəhərətrafı iqlim kurort yeridir (vərəmə qarşı sanatoriyalar və s.). E.ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərinə aid qayaüstü rəsmlər (ov səhnələri, vəhşi və ev heyvanlarının təsvirləri) saxlanılmışdır.

**BUYNUZ** – bir çox müasir dırnaqlıların, nəsli kəsilmiş bəzi sürünənlərin (buynuzlu dinozavrlar) və məməlilərin (dinoseratlar və s.) başında bərk törəmələr. B., əsasən, müdafiə orqanıdır. Başın qabaq tərəfində, kəllənin alın və ya burun sümüyü üzərində, bəzi heyvanlarda isə hətta üst çənə sümüyü üzərində yerləşir. B. c ü t (öküz, qoyun, keçi, maral, zürafə və s.) və t ə k (kərgədanda 1 və ya 2) olur. Xallı maralın B.-undan pantokrin alınır. B.-un örtüyündən müxtəlif məmulat, bəzək əşyaları, sümük çıxıntısından isə sümük yağı, sümük unu, yapışqan və s. hazırlanır.

**BUYNUZ** – Azərb. Resp. İsmayıllı r-nunun Topçu ə.d.-ndə kənd. R-n mərkəzindən 18 *km* şm.-q.-də, Göyçay çayının sol sahilində, Bakı – Qəbələ avtomobil yolunun kənarındadır. Əh. 623 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana var.

**BUYNUZ DAŞI**, r o q o v i k – sıx, xırdadənəli metamorfik süxur. Rəngi, əsasən, boz və qonur olur. Sınması qabıqvarıdır. İntruziv süxurların kontaktında çökmə (əsasən, gilli şistlərin) və vulkanogen mənşəli süxurların metamorfizləşməsi və yenidən kristallaşması nəticəsində əmələ gəlir. B.d. kvars, mika, biotit, qranat, piroksen və s. minerallardan ibarət olur. Tərkibindəki ən çox minerala görə mikalı B.d., biotitli B.d. və s. adlanır. B.d.-nda çox vaxt filiz mineralları olur.

**BUYNUZ QİŞA** – göz almasının ağlı qişasının ön, qabarıq və şəffaf hissəsi. Gözə düşən şüaları sındırır; B.q.-nın əsas xəstəlikləri *blennoreya, keratit* və stafilomadır. B.q.-da əmələ gələn kiçik ağ ləkəyə xalq arasında *titə* deyilir. Bax *Göz*.

**BUYNUZQUYRUQLAR** (Siricidae) – oturaqqarıncıqlı pərdəqanadlı cücü fəsiləsi. Qarıncığı silindrikdir; dişilərinin yumurtaqoyanı iri, bəzən çox uzun olur. Bədəninin uz. 5,5 *mm*-dir. 200-ədək növü məlumdur. Azərb.-da 3 növü var: B., əsasən, iynəyarpaqlı ağacların oduncağında inkişaf edirlər. Dişi B. yumurtaqoyanı vasitəsilə ağacın qabığını deşərək gövdə boyunca zolaq şəklində 1–3 yumurta və eyni zamanda qarıncığındakı "kisədən" zədələnən yerə oduncağı dağıdan göbələk sporları qoyur. Sürfəsi ağ, yaxud sarımtıl, silindrikdir; qarıncığının ucunda tikanı və 3 cüt döş ayaqları vardır; gəmirərək oduncaqda yol açır və onun divarlarında B.-ın qidalandığı oduncaqdağıdan göbələklər məskən salır. Oduncaqda puplaşır. İnkişaf tsikli 1–2 il davam edir. B. texniki oduncağın zərərvericisidir. M ü b a r i z ə t ə d b i r i: zədəli ağac gövdələrini kəsib yandırmaq.

Böyük iynəyarpaq buynuzquyruğu (Urocerus gigas).



**BUYNUZLALƏ** (Glaucium) – xaşxaşkimilər fəsiləsindən bitki cinsi. Köklərində süd şirəsi olan bir-, iki-, yaxud bəzən çoxillik otlardır. Tacı sarı, qara ləkələrlə qarışıq sarı və ya qara ləkələrlə qarışıq qırmızı rənglidir. Meyvəsi iki qapaqcıqla açılan buynuzmeyvəyəbənzər qutucuq, yarpaqları lələkvarı bölümlüdür. Aralıq



İrigül buynuzlalə (Glaucium grandiflorum).

dənizi sahili ölkələrindən Əfqanıstana qədər yayılmışdır. Təqr. 25 növü məlumdur. Azərb.-da 3 növü: buynuzlu B. (G.corniculatum), irigül B. (G. qrandiflorum) və zərif B. (G. eleqans) var. B.-nin tərkibində tiryək təsirli alkaloidlər olur. Bəzi növləri dekorativdir.

**BUYNUZMEYVƏ** – iki meyvə yarpağının bitişməsindən əmələ gələn, yetişdikdə isə qaidəsindən yuxarıya doğru açılan quru meyvə. B. pərdəyə bənzəyən arakəsmə ilə uzununa yerləşən iki yuvaya bölünür; toxumlar hər iki tərəfdən arakəsməyə bitişir. B. xaççiçəklilər fəsiləsinə (məs., kələm, xardal) mənsub bir çox bitkidə olur.

**BUYNUZYARPAQ** (Ceratophyllum) – buynuzyarpaqlılar fəsiləsindən çoxillik ot cinsi. Su bitkisidir. Kökü yoxdur. Uz. 1–1,5 *m*-ə çatır. Təqr. 10, Azərb.-da isə 2 növü məlumdur: suyabatmış B. (C. demersum) və yarısuyabatmış B. (C. submersum). Su quşları və balıqlar üçün yemdir.

Yarımsuyabatmış buynuzyarpaq (Ceratophyllum demersum).



**BUYÓ** (Bouillaud) Jan Batist (16.9.1796, Şaranta dep-ti Qara – 28.10.1881, Paris) – fransız terapevti, ürək xəstəliklərinin semiotikası haqqında təlimin banisi; Fransa EA üzvü



(1868). J.*Korvizarın* şagirdi. Tibb təhsilini Paris Un-tində almışdır (1823). Parisin Şarite xəstəxanasında daxili təbabət kafedrasının prof.-u (1831 ildən), Sorbonnada tibb fakültəsinin dekanı (1848) olmuşdur. Klinik (o cümlədən xəstəni perkussiya və auskultasiya üsulları ilə bilavasitə müayinə etmək yolu ilə alınmış) və patoloji-anatomik müşahidələrini müqayisə etməklə ürək qüsurlarının diferensial diaqnostikasının əsasını yaratmışdır. 1835–40 illərdə nəşr olunmuş klassik əsərlərində kəskin endokarditi təsvir etmiş və göstərmişdir ki, revmatizmin əsas hədəfi oynaqlar deyil, ürəkdir (endokard və perikard). Bununla da revmatizmin (digər adı B. sindromu) sistem xəstəliyi kimi müasir izahına qəti dönüş başlanmışdır. Həmçinin ürəyin səyirici aritmiyasını, çapma ritmini (fəaliyyətində dərin pozuntunun olmasını göstərən ürəyin üçhədli ritmi), "bildirçin ritmini" (ürəyin mitral qüsuru zamanı üçhədli ritmi) və s. təsvir etmişdir. Klinik məktəb yaratmışdır. Fəxri legion ordeni ilə təltif edilmişdir.

**BUYUNDÁ** – RF-də, Maqadan vil.-ndə çay. Kolıma çayının sağ qolu. Uz. 434 *km*, hövzəsinin sah. 24,8 min *km*². Kolıma yaylası ilə axır. Aşağı axını astanalıdır. Qar və yağış suları ilə qidalanır. Oktyabrdan mayadək donmuş olur. Hövzəsində 1500-dən çox göl var.

**BUZ DAĞI** – bax *Aysberq*.

**BUZ DÖYÜŞÜ (1242)** – aprelin 5-də buz bağlamış Çud gölü üzərində rus qoşunu ilə *Livoniya ordeninin* səlibçi cəngavərləri arasında vuruşma. Səlibçilər (təqr. 5–7 min nəfər) Böyük Novqorodu, Kareliyanı və Neva r-nundakı torpaqları ələ keçirmək istəyirdilər. Rus qoşununun (təqr. 15–17 min nəfər) başçısı knyaz Aleksandr Nevski düşməni Böyük Novqoroda və Pskova gedən yolların üstündə, Çud gölünün cənub hissəsində döyüşə cəlb etdi. O, düşmənə cinahdan zərbə vuraraq, cərgələrini dağıtdı. Rus qoşunu qəti qələbə qazandı. 1242 ildə Novqorod ilə Livoniya ordeni arasında sülh müqaviləsi bağlandı. Müqaviləyə görə, orden Pskov, Luqa, Vod torpaqlarına və b. ərazilərə olan iddialarından imtina etdi. B.d. Novqorod respublikasının q. sərhədlərinin təhlükəsizliyini təmin etdi və alman cəngavərlərinin şərqə hərəkətini dayandırdı. B.d.-nün təsiri ilə Litva və Pomorye xalqlarının səlibçilərə qarşı mübarizəsi gücləndi.

**BUZ DREYFİ** – küləyin və səth axınlarının təsiri ilə dəniz və okeanlarda buzların hərəkəti. Yerin fırlanmasından yaranan meyiletdirici qüvvənin təsiri nəticəsində B.d. Arktika enliklərində küləyin istiqamətindən sağa, Antarktika enliklərində sola meyil edir. B.d.-nin meyili orta hesabla 30°-dir. B.d.-nə sahillərin konfiqurasiyası, adalar və s. də təsir göstərir.

Buyunda çayı.







**BUZ GENERÁTORU** – sudan süni buz almaq üçün soyuducu qurğu. B.g.-nda müxtəlif formalı (kub, blok, tava, kristal) və ölçülü texniki və qida buzu hazırlanır. B.g.-ları iki tipə ayrılır. Birinci tip bilavasitə (birbaşa) soyuducululu B.g.-nda buz buxarlandırıcı aparatın səthində dondurulur. İkinci tip B.g.-nda buz qəlibləri –10°C-dən –12°C-yədək temprda sirkulyasiya edən duz məhlulu vasitəsilə soyudulur. Borulu, pulcuqlu və qarlı (kristal) buz yaradan B.g.-ları daha intensivdir, onlarda buz qəlibləri olmur. Suyu təbəqə-təbəqə fasiləsiz dondurmaqla buz alınır; bu, donmuş səth vahidindən daha çox buz almağa imkan verir. Belə B.g.-nun məhsuldarlığı sutkada 40 *t*-a çatır.

**BUZ ÖRTÜYÜ** – ilin soyuq fəsillərində okean, dəniz, çay və göllərin donması nəticəsində əmələ gələn, yaxud qonşu r-nlardan həmin hövzələrə gətirilən buzlar. Yüksək enliklərdə ilboyu qalır. Arktika dənizlərində B.ö. yayda, əsasən, sahilboyu zonada əriyir. Antarktika sularında və Şimal Buzlu okeanında daha çoxdur. B.ö. birillik və çoxillik olur.

**BUZ PROQNOZU** – buz örtüyünə dair müəyyən an, yaxud dövr üçün, həmçinin su hövzələrində donuşluğun başlanma müddəti haqqında qabaqcadan verilən məlumat. Bu məlumatlardan gəmiçilikdə, balıq ovunda, faydalı qazıntılar hasilatında, elmi tədqiqatlarda istifadə olunur. Proqnozlarda buzluluq, buz qabığının vəziyyəti, buzun qalınlığı, buzəmələgəlmə müddəti, tam donma, donuşluğun açılması, buz axınları, buzdan tam təmizlənmə və s. göstərilir. B.p. qısamüddətli (20 sutkayadək), uzunmüddətli (yarım ilədək) və daha uzunmüddətli (yarım ildən çox) olur. Proqnozlarda buz inersiyası prinsipindən, proqnozlaşdırılan hadisələr ilə əvvəlki hidrometeoroloji şəraitlər arasındakı əlaqələrdən və s.-dən geniş istifadə olunur.

**BUZA** – özbəklər, qazaxlar, başqırdlar, Volqaboyu və Krım tatarlarında qatı və şirin azalkoqollu (tərkibində 4–6% spirt olur) içki. Bir qədər qıcqırdılmış darı, yaxud qarğıdalıdan hazırlanır. Rusiyada yulaf, darı və ya qarabaşaq unundan hazırlanan içki həmçinin pivə kimi məlum idi. 17 əsr türk səyyahı Evliya Çələbinin kitabında qeyd olunur. Qonaqlara desert kimi verilən B. xüsusi hörmət əlaməti hesab olunurdu.



Buz dreyfi. Qrenlandiya yaxınlığında.

**BUZAÇİ** – Xəzər dənizinin şm.-ş.-ində, Qazax. Resp.-nın c.-q.-ində yarımada. Maks. hünd. 61 *m*-dir. Səthi barxanlar və qum təpələri olan düzənlikdir. Şm.-ında geniş şoranlıqlar var. Bitkisi yarımsəhra tiplidir. Xəzər dənizinin səviyyə tərəddüdü ilə əlaqədar sahəsi dəyişkəndir. Neft yatağı var.

**BUZATAN**, buzkeçirən qurğu – suaşıran bəndin hissəsi; buzu yuxarı byefdən aşağı byefə keçirir. Sutullayıcı bəndin, derivasiya kanalının və ya SES-də basqılı hövzənin tərkibinə də daxil ola bilər. Hidrotexniki sürgülü beton astanalı suaşırıcı olan B. intensiv buz axını yerlərində qurulur. Su aşağı byefə suaşıran bəndin aşağı həddi və ya beton novla verilir. B. bənd cəbhəsi üzrə buz axını daha intensiv olan sahələrdə (məs., içəri əyilmiş sahildə və s.) yerləşdirilir. Su təsərrüfatı və ya energetika dəhnələri (sutoplayanlar) olan yerlərdə B.-lar elə qurulur ki, su qəbuledicilərinə buz düşməsin.

**BUZBULAQ** – Azərb. Resp. İsmayıllı r-nu ərazisində, Böyük Qafqazın c. yamacında dağ. Hünd. 2256 *m*.

**BUZEU** (Buzău) – Rumıniyanın c.-ş.-ində şəhər. Buzeu judetinin (qəzasının)

Buzeu. Dakiya meydanında ictimai saray.






Buzxana. 14 əsr. Ordubad.

inz. m. Əh. 108,4 min (2011). Aşağı Dunay ovalığında, Şərqi Karpat d-rının c. ətəklərində, Buzeu çayı (Siret çayının qolu) sahilindədir. Nəql. qovşağı.

1431 ildən məlumdur. 15–16 əsrlərdə Munteniyanın mühüm ticarət və sənətkarlıq mərkəzi kimi inkişaf edirdi. 1504 ildən yepiskopluğun mərkəzidir (16–17 əsrlərə aid yepiskoplar iqamətgahı kompleksi saxlanılmışdır).

Banu monastırı (1571), 17–19 əsrlərə aid kilsələr, İctimai saray (1899–1903), bələdiyyə binası (1930), M. Eminesku ad. kollec (1919), Diyarşünaslıq muzeyi, C. Çiprian teatrı (1995) var.

Qara metallurgiya (metal profillər, məftil istehsalı; "Metalurcika-Buzeu" z-du), maşınqayırma (k.t. maşınları, sənaye və d.y. avadanlıqları), kimya (plastik kütlə, polietilen, polivinilxlorid və s.; kömür süzgəcləri – "Romkarbon" z-du), yüngül, yeyinti (o cümlədən şəkər) sənayesi müəssisələri fəaliyyət göstərir; pivə istehsalı, şüşə z-du var; tikinti materialları istehsal edilir. İES var. B. r-nunda neft və liqnit hasil olunur.

**BUZÉU** – Rumıniyanın c.-ş.-ində, Valaxiya regionunda judet. Sah. 6 min $km^2$, əh. 432 min (2011). İnz. m. Buzeu ş.-dir.

**BUZXANA** – tez xarab olan qida məhsullarını (ət, balıq, meyvə, tərəvəz, süd məhsulları və s.) saxlamaq üçün buzla soyudulan anbar. Temp-ru 0°-yə yaxın olan B.-lardan k.t.-nda, qismən ticarətdə və süd sənayesində, xüsusən tez xarab olan məhsulları saxlamaq üçün istifadə olunur.

**BUZXANA** – Ordubad ş.-nin mərkəzində 14 əsrə aid memarlıq abidəsi. 18 əsrdə yenidən bərpa edilmişdir. Binanın ümumi sahəsi 166 $m^2$, zirzəmisinin daxili sahəsi 89,4 $m^2$-dir; tikintisi bişmiş kərpic (20x20x5 *sm*) və əhəng məhlulu ilə aparılmışdır. Bina daxili girişdə böyük otaqdan, 2 marşlı 36 pillədən (20x30 *sm*) və buz saxlanılan zirzəmidən ibarətdir. Binanın ümumi hün. 11,32 *m*, divarlarının qalınlığı 0,8 *m*-dir. Yay aylarında əhali ərzaq məhsullarını saxlamaq üçün bu binadan istifadə etmişdir. Buz almaq məqsədilə qışda binaya çəkilmiş kəhriz suyu zirzəmiyə vurularaq, buz halına salınırdı. Buzun əriməməsi üçün onun arasına saman tökülürdü. Yayda xüsusi adamlar ayaqlarına keçə bağlayaraq buzu buradan çıxarırdı. Ordubad əhalisinin buza olan tələbatı B. vasitəsilə ödənilirdi.

*Əd.:* S a l a m z a d ə Ə.V. M ə m m ə d z a d ə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. B., 1985.

**BUZKƏSƏN** – 1) hidrotexniki qurğuların və körpülərin məcra dayaqlarının buzdan zədələnməsinin və buz yığını yaranmasının qarşısını almaq üçün tətbiq edilən konstruksiya. Yortaclar və ya bənd dayaqlarından ibarət ayrı qurulan B.-lər və mühafizə edilən qurğu ilə birgə ümumi konstruksiyada birləşmiş B.-lər olur. B.-in əsas elementi iti ucu axına qarşı yönəldilmiş maili və ya şaquli çıxıntıdır. B. buzu qəbul edib parçalayır və onu körpünün (bəndin) aşırımına doğru istiqamətləndirir. Ayrı qurulan B.-dən dayaqlaradək olan məsafə çayın axın sürətindən asılıdır; məsafə elə hesablanır ki, buz parçaları B.-in arxasına üzüb dayaqlara dəyməsin. B.-in eni dayaqların eninə bərabər və ya bir qədər çox götürülür. Çay subasarında dayaqların B.-i məcrasındakına nisbətən daha yüngül konstruksiyaya malikdir. Buz axını intensiv olan çaylarda böyük buzları qırmaq üçün çayın axını istiqamətində 30–50 *m* hünd.-də avanpost B.-lər qurulur.

2) 19 əsrin sonu – 20 əsrin əvvəllərində buz bağlamış sularda üzən gəmi. B.-in korpusunun forması, buzqıran gəmilərdən fərqli olaraq, uz.-nun eninə nisbətinin böyüklüyü, burun hissəsinin itiliyi, gəminin önündə və arxasında kəskin qalxmanın olmaması ilə səciyyələnirdi.

**BUZQIRAN GƏMİ**, b u z q ı r a n – buz bağlayan sularda gəmilərə yol açan, onları buzdan çıxaran, həmçinin naviqasiya rejimini saxlayan və onun müddətini uzadan gəmi. Ən çox inkişaf etmiş B.g. donanmaları şm. dənizləri sahillərindəki ölkələrə (Kanada, ABŞ, Rusiya, Finlandiya, İsveç) məxsusdur. İlk B.g. Rusiyanın 60 a.q. (təqr. 44 *kVt*) gücündə olan "Paylot" buxar gəmisi (1864) olmuşdur. B.g.-nin çay, göl, dəniz və okeanların buz örtüyünü parçalayaraq, başqa gəmilərin üzməsinə imkan yaradan, onlara lazımi köməklik göstərən yardımçı gəmi (buzqıran) və donmuş sularda sərbəst üzə bilən (çoxməqsədli buzqıran-nəql. gəmiləri, tanker-ərzaqdaşıyanlar, təchizat gəmiləri və balkerlər, bərə-buzqıranlar və s.) növləri var. Xətti, reyd, port, həmçinin çay və dəniz B.g.-ləri olur. Çay B.g.-ləri yaz-payız aylarında göllərin, çay portlarının, gəmi təmiri müəssisələrinin akvatoriyalarında istifadə edilir. Dəniz B.g.-ləri dənizlərin, dəniz portlarının buz bağlamış akvatoriyalarının gəmiçiliyə yararlı vəziyyətdə saxlanması və Arktika naviqasiyası üçündür. B.g.-nin gövdəsi adi gəmilərə nisbətən daha möhkəm, burun hissəsi isə sivri olur. B.g. burun hissəsi ilə buzun kənarı üzərinə "çıxaraq" ağırlıq qüvvəsi ilə onu parçalayır. Gəminin buzdankeçmə qabiliyyətini yüksəltmək üçün B.g. ballast və different sistemləri ilə, onun "buzqıran" burun hissəsi bir neçə avar vinti ilə təchiz olunur. Ən güclü B.g.-lər nüvə enerji-güc qurğusu ilə işləyir (bax *Atom gəmisi*). Müasir atom B.g.-ləri şm. dənizlərində və Arktika r-nlarında olduqca mürəkkəb buz örtüyü şəraitində naviqasiya müddətini ildə 200–210 günə çatdırmağa imkan verir.



Kama çayı üzərindəki körpünün buzkəsən daş dayaqları (Perm, RF).







"Yamal" atom buzqıran gəmisi (RF).

**BUZQOV** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 2470 *m*. Günbəzvarı formadadır. C. və c.-ş. yamacları sıldırımdır.

**BUZQOV** – Azərb. Resp. Babək r-nunun (Nax. MR) Aşağı və Yuxarı Buzqov k.-ləri yaxınlığında Tunc dövrünə aid yaşayış yeri. Sah. 3 *ha*-dır. İlk dəfə Naxçıvan arxeoloji ekspedisiyası tədqiq etmişdir. 2 *m* qalınlığında olan mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarətdir; burada xırda buynuzlu heyvan sümüklərinin qalıqları, müxtəlif formalı keramika məmulatı qırıqları tapılmışdır. Arxeoloji tədqiqatlar nəticəsində yaşayış yerindən qırmızı və boz rəngli boyalı gil qablar (bəziləri dalğavarı və düzxətli cızma ornamentlərlə bəzədilmişdir), çaxmaqdaşı və obsidiandan (dəvəgözü) düzəldilmiş alətlər, sürtgəclər, həvəngdəstələr və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir. B. yaşayış yerindən əldə edilmiş materiallar e.ə. 2-ci minilliyə aiddir.

**BUZQOV NEKROPOLU** – Azərb. Resp. Babək r-nunun (Nax. MR) Yuxarı Buzqov k. yaxınlığında Tunc dövrünə aid arxeoloji abidə. Daş qutu tipli qəbirlərdən ibarətdir. Qəbirlər, əsasən, ş.-dən q.-ə, bəziləri isə şm.-dan c.-a istiqamətləndirilmişdir; yan tərəflərində 2, yaxud 3, baş və ayaq tərəflərində isə 1, bəzən 2 iri sal daş vardır. Aşkar olunmuş materiallar boz rəngli gil məmulatından və monoxrom boyalı qablardan ibarətdir. Abidə e.ə. 2-ci minilliyə aid edilir.

**BUZQOV TRAVERTİN YATAĞI** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində, Naxçıvan ş.-ndən 40 *km* şm.-q.-də, Aşağı Buzqov k.-ndən 2 *km* şm.-dadır. Geol. quruluşunda Orta Dördüncü dövrə aid yaşıl, açıq-boz, sarımtıl-boz və ağ rəngli məsaməli travertinlər iştirak edir. Travertin yatağın şm. hissəsində yerləşən dərinlik qırılması boyunca çıxan isti bulaqlardan kalsium karbonatın çökməsi nəticəsində əmələ gəlmişdir. Sah. 0,6 $km^2$, faydalı qatın qalınlığı 5,7–9,0 *m*-dir. Blok çıxımı 42,8% təşkil edir. Yüksək dekorativliyə malik olduğuna görə üzlük daşı kimi istifadə olunur. Tullantılar birinci növ əhəng istehsalında və yol tikintisində çınqıl kimi işlədilir. Əlverişli dağ-texniki şəraiti yatağın açıq istismarı üçün yararlıdır. 1983 ildən istismar olunur. Sənaye ehtiyatı 10409 min $m^3$-dir.

**BUZLAQ ÇÖKÜNTÜLƏRİ**, q l y a s i a l ç ö k ü n t ü l ə r – müasir, yaxud qədim buzlaqların fəaliyyəti nəticəsində əmələ gələn çöküntü kompleksi. B.ç.-ni 4 genetik tipə ayırırlar: *morenlər* (buzlağın özü), *flüvioqlyasial çöküntülər* (su-buzlaq çöküntüləri), *göl-buzlaq çöküntüləri* (limno-qlyasial çöküntülər) və *aysberq çöküntüləri*. B.ç. yalnız Antropogen sisteminin çöküntüləri arasında deyil, qədim sistemlərin çöküntülərində də var. B.ç.-ndə bəzən almaz, qızıl, platin və s. səpintilərinə rast gəlinir; belə çöküntülər zəngin allüvial və dəniz səpinti yataqlarının əmələ gəlməsinin mənbəyidir.

**BUZLAQ DƏRƏSİ** – 1) dağlarda buzlağın fəaliyyəti nəticəsində əmələ gələn eroziya mənşəli təknəyəoxşar dərə; 2) düzəngah buzlaşma sahələrində buzlaq suyunun axmasından yaranan dərə. Materik buzlağının kənarı boyunca yuyulma nəticəsində yaranmış qədim dərələr də B.d.-nə aiddir.

**BUZLAQ DÖVRÜ** – Yerin geol. inkişaf tarixində nisbətən uzunmüddətli (bir neçə mln. il davamiyyətli) etap. Bu müddət ərzində çox soyuq zaman intervalları (*buzlaq epoxaları*) nisbətən isti zaman intervalları (*buzlaqarası epoxalar*) ilə dəfələrlə növbələşmişdir. Yer kürəsinin B.d.-ləri 4 iri *buzlaq erasında* birləşir. Sonuncu – Dördüncü dövr B.d. təqr. 2,5–3 mln. ildir davam edir (Neogenin sonunu və Dördüncü dövrü əhatə edir); Lavrasiya (Kaynozoyun sonu) buzlaq erasına daxildir.

**BUZLAQ EPOXALARI,** q l y a s i a l l a r – Yerin geol. inkişaf tarixində çox soyuq iqlim və geniş sahəli qalın materik buzlaqları ilə xarakterizə olunan epoxalar. Bu epoxalarda buz yalnız dağları deyil, qütb və mülayim enliklərdəki düzənlikləri də örtmüşdü (qurunun təqr. 40%-ini). B.e.-nın davamiyyət müddəti müxtəlifdir. Yerin müxtəlif sahələrində Erkən Proterozoy, Son Proterozoy (Üst Rifey – Vend), Son Paleozoy (Karbonun sonu – Permin əvvəli) və Son Kaynozoyda müəyyən edilmişdir. Sonuncu epoxa daha çox öyrənilmişdir. Neogenin sonunu və Dördüncü dövrü əhatə edən buzlaq dövründə (2,5–3 mln. il) ən azı 4 buzlaşmanın olması və hər buzlaşmanın 2 və daha çox mərhələyə bölünməsi müəyyən edilmişdir. Buzlaq nəzəriyyəsinin

banilәri Avropa düzәnliklәrindә buzlaşmanın bir dәfә baş vermәsi fikrindә idilәr. 19 әsrin sonlarında aparılan tәdqiqatlar nәticәsindә bu әrazilәrdә iki, yaxud üç buzlaşmanın baş vermәsi qәnaәtinә gәlindi. 20 әsrin әvvәllәrindә A. *Penk*, E. *Brikner* vә başqaları Alp d-rı üçün 5 müstәqil buzlaq epoxasını (Dunay, Güns, Mindel, Riss, Vürm) ayırmışlar; Alp buzlaşmaları sxemi sonralar daha da tәkmillәşdirilmişdir. Qәrb vә Şәrq yarımkürәlәrindә materik B.e. vә onların çöküntülәri Alp buzlaşmaları sxemi ilә korrelyasiya olunur. Avrasiya vә Şimali Amerika transokean buzlaşmalarının korrelyasiyası isә problem olaraq qalmaqdadır.

Kompleks tәdqiqatlar nәticәsindә Azәrb.-da yüksәkdağlıq (2000 *m*-dәn yuxarı) әrazilәrdә 4 müstәqil buzlaq epoxası (Türkan, Bakı, Xәzәr, Xvalın) müәyyәn edilmişdir. Birinci buzlaq epoxası Eopleystosendәn (Abşeron әsri) Pleystosenә keçid mәrhәlәsindә, ikincisi Erkәn Pleystosenin sonunda, üçüncüsü Orta Pleystosenin ikinci yarısında, dördüncü buzlaq epoxası Son Pleystosendә formalaşmışdır. Abşeron әsrindә Böyük vә Kiçik Qafqazın yüksәklik zonallığı әsaslı dәyişikliyә mәruz qalmışdır. Belә ki, subalp vә Alp yüksәkdağlıq qurşaqları tamamilә buzlaqlarla örtülmüş vә qurşaqlar aşağıya doğru enәrәk dәniz sәviyyәsindәn 2000–1200 *m* arasında formalaşmışdır; enliyarpaqlı meşә örtüyü subalp vә Alp çәmәnlik bitkilәri ilә әvәz olunmuşdur. 1200 *m*-dәn aşağıda meşә örtüyünün tәrkibi әsaslı dәyişmişdir; soyuq iqlim şәraitinә davamlı iynәyarpaqlılar vә tozağacından ibarәt meşә landşaftı formalaşmışdır. Kür çökәkliyindә әvvәlki geol. dövrlәrdә vә Eopleystosenin sonuna qәdәr geniş yayılmış hәmişәyaşıl bitki növlәri (dәfnә, dәfnә gilәnar, evkalipt, mimoza, çiyәlәk ağacı vә s.) tamamilә sıradan çıxmış vә onları seyrәk enliyarpaqlı meşә landşaftı әvәz etmişdir. Erkәn Pleystosenin birinci buzlaq epoxasında yalnız bitki örtüyünün tәrkibi deyil, heyvanlar alәminin tәrkibi dә әsaslı dәyişikliyә mәruz qalmışdır. Eopleystosenin sonuna qәdәr Azәrb.-ın düzәnlik bölgәlәrindә geniş yayılmış cәnub fillәri, kәrgәdan, dәvәquşu vә s. savanna heyvanları Böyük vә Kiçik Qafqazın ilk buzlaşması mәrhәlәsindә sıradan çıxmış vә onları soyuq iqlim şәraitinә davamlı növlәr (mağara ayısı, mağara kaftarı, mağara şiri vә s.) әvәz etmişdir.

Azәrb. әrazisindә sonrakı B.e. inkişaf xüsusiyyәtlәrinә görә Erkәn Pleystosen buzlaşmasına çox oxşardır; hәr sonrakı buzlaşma özündәn әvvәlkinә nisbәtәn yalnız az sahә tutması vә qısamüddәtli olması ilә fәrqlәnir.

**BUZLAQ ERASI** – Yerin geol. inkişaf tarixindә 2–3 vә daha çox buzlaq dövrünü vә onların arasındakı buzlaqarası epoxaları (on mln.-larla ildәn bir neçә yüz mln. ilәdәk) әhatә edәn etap. 4 B.e. ayırırlar: Kanada (Erkәn Proterozoyun әvvәlindә, 2,45–2,20 mlrd. il әvvәl), Afrika (Son Proterozoyda, 0,9–0,59 mlrd. il әvvәl), Qondvana (Orta vә Son Paleozoyda, 0,38–0,24 mlrd. il әvvәl) vә Lavrasiya (Kaynozoyun sonunda, son 20–30 mln. il). Uzunmüddәtli buzlaqarası epoxalarda buzlaşmanın izlәrinә rast gәlinmir. Arxey vә Proterozoy çöküntülәrindә *tillitlәrin* mövcudluğu digәr B.e.-larının olduğunu yәqinlәşdirir.

**BUZLAQ EROZİYASI** (buzlaq şumu, ekzarasiya) – buzlağın hәrәkәti zamanı onun yatağından qoparılan süxur qırıntılarının üyüdülmәsi vә buzlaqaltı su axınları ilә yuyulması prosesi. B.e.-nın intensivliyi yataq süxurlarının möhkәmliyi vә çatlılığından, buzun dib temp-rundan, dib morenlәrinin tәrkibi vә xüsusiyyәtlәrindәn, buzlağın dib sürüşmәsi sürәtindәn vә digәr amillәrdәn asılıdır. Köklü süxurların cilalanması, ştrixlәnmәsi, şırımlanması vә s. B.e.-nın nәticәsidir. Ekzogen relyefәmәlәgәlmә prosesindә B.e.-nın rolu böyükdür; bütün iri buzlaq-erozion relyef formaları (karlar, troq dәrәlәri, fyordlar vә s.) B.e.-nın nәticәsidir.

**BUZLAQ KOMPLEKSİ** – 1) *qlyasiologiyada*: müxtәlif tip morfoloji buzlaqlardan ibarәt vahid buzlaq törәmәsi. Buzlaq qalxanından, iri buzlaq günbәzlәrindәn vә şelf buzlaqlarından ibarәt *materik* B.k., günbәz vә çıxıntı buzlaqlarından ibarәt *ada* B.k., әsasәn, dağarası buzlaq platolarından vә dәrә buzlaqlarından ibarәt *dağ-örtük* B.k., dağların yuxarı hissәlәrini әhatә edәn vә bütün tip dәrә buzlaqlarından ibarәt *silsilә* vә *zirvә* B.k. vә daha sakit relyefdә әmәlә gәlәn *plato*, *yamac* vә *dağәtәyi* B.k. tiplәri ayırd edilir. 2) *Geomorfologiyada*: buzlağın kәnar hissәsindә relyef formalarının vә buzlaq çöküntülәrinin qanunauyğun yerlәşmәsi.

**BUZLAQ QALXANI** – planda tәqr. izometrik formalı, böyük (1000 *m*-dәn çox) qalınlığa vә sahәyә (50 min $km^2$-dәn çox) malik, buz axını mәrkәzdәn kәnarlara doğru olan yastı-günbәzvarı buzlaq. B.q.-nın morfologiyası vә onun buzunun hәrәkәti, demәk olar ki, yataq relyefindәn asılı deyildir. Yerüstü B.q. (dәniz sәviyyәsindәn yuxarıda) vә "dәniz" B.q. (kontinentlәrin şelf zonasında) ayırırlar. Әn iri B.q. Qәrbi Antarktidada vә Qrenlandiya a.-nın mәrkәzi hissәsindәdir.

**BUZLAQ SӘDDİ** – şelf buzlağının dәnizә doğru dik yamacı; hünd. onlarla *m*-ә çatır. Sahilin konfiqurasiyasından vә buzlağın morfologiyasından asılı olaraq B.s. çıxıntılar vә buxtalar әmәlә gәtirir. Mütәmadi olaraq buzlaqdan qopan aysberqlәr B.s.-nin vәziyyәtini tәdricәn dәyişdirir. B.s. әn çox Antarktidada intişar tapmışdır.

**BUZLAQ SӘHRASI** – *qlyasial-nival qurşaqda* buzlaqlar sәthindә sәhra landşaftı. Daimi alçaq temp-rlar vә bitki örtüyünün yoxluğu ilә xarakterizә olunur, nadir hallarda ayrı-ayrı *nunataklarda* şibyәlәrә rast gәlinir. B.s. landşaftları Arktika vә Antarktikada (burada onlar qütb sәhraları adlanır) geniş yayılmışdır; ayrı-ayrı sahәlәrinә yüksәk dağlıq әrazilәrdә rast gәlinir.

**BUZLAQALTI GÖLLӘR** – Dördüncü dövr buzlaq qatının periferiyasında buzlaqaltı çökәkliklәrdәki göllәr. Onlar buzlaqaltı qәdim drenaj şәbәkәsi boyunca zәncirvarı düzülmüş vә xırda qollarla birlәşmiş olurlar. Bәzi hallarda müasir çay şәbәkәsi buzlaqaltı qәdim şәbәkәni irsәn mәnimsәmiş olur.

**BUZLAQARASI EPOXALAR**, *interqlyasiallar* – Yerin geol. inkişaf tarixindә, Dördüncü dövrdә buzlaq epoxaları arasındakı müddәt. İqlimin istilәşmәsi, mülayim enliklәrin buz örtüyündәn azad olması, buzlaq mәnşәli olmayan çöküntülәrlә, istilik sevәn fauna vә floranın yayılması ilә xarakterizә olunur. B.e.-ın davamiyyәt müddәti müxtәlifdir.

Pleystosendә Azәrb. әrazisindә 4 buzlaqarası epoxa formalaşmışdır. Birinci buzlaqarası epoxa Azәrb.-ın Xәzәr hövzәsi stratiqrafik şkalası üzrә Türkan epoxası vә Bakı epoxası arasına (Alp stratiqrafik şkalası üzrә Güns–Mindel buzlaqarası epoxasına) uyğun gәlir. Bu epoxa әrәfәsindә Qafqazın dağlıq әrazilәrindә vә Rus düzәnliyindә buzlaqların әrimәsi nәticәsindә Pleystosendә Xәzәrdә ilk genişmiqyaslı transqressiya formalaşır; dәnizin sәviyyәsi Gәncәçayın mәnsәbinәdәk qalxır. Dәnizsahili maili düzәnlik tuqay vә düzәnlik meşәlәri ilә örtülür. Pleystosenin ilk buzlaq epoxasında formalaşmış iynәyarpaqlı vә soyuqsevәr tozağacından ibarәt meşә örtüyü istisevәr enliyarpaqlı meşә landşaftları ilә әvәz olunur. Meşәnin yuxarı sәrhәdi 2400 *m* yüksәklikdәn keçir. Heyvanlar alәmindә dә әsaslı dәyişikliklәr müşahidә olunur; soyuq iqlim şәraitinә uyğunlaşmış heyvan növlәri (mağara ayısı, mağara şiri, mağara kaftarı vә s.) istisevәr növlәrlә (ceyran, cüyür, vәhşi eşşәk, Pleystosen atı, vәhşi öküz, müxtәlif maral növlәri vә s.) әvәzlәnir.







Yerüstü örtük buzlağı. Antarktida.

Azәrb. әrazisindә ikinci buzlaqarası epoxa Bakı buzlaq epoxasının sonunda, Xәzәr buzlaq epoxasının birinci yarısında formalaşmışdır vә Alp stratiqrafik şkalası üzrә Mindel–Riss buzlaqarası epoxasına müvafiq gәlir. Bu zaman әvvәlki (Güns–Mindel) buzlaqarası epoxada olduğu kimi, fiziki-coğrafi şәrait yenidәn әsaslı dәyişikliklәrә mәruz qalır, Xәzәr dәnizindә növbәti transqressiya başlanır vә dәniz Kür çökәkliyinin mәrkәz hissәsini örtәrәk, Mingәçevir su anbarının ş.-inә qәdәr genişlәnir. Lakin miqyasına vә davametmә müddәtinә görә әvvәlkindәn geri (75 min il) qalır. Böyük vә Kiçik Qafqazın әrazisindә yüksәklik zonallığı bәrpa olunur. Meşәnin yuxarı sәrhәdi yenә dә 2400 *m*-dәn, Böyük Qafqazda qar xәtti 3800–4000 *m*-dәn keçir; buzlaqlar 3800–4000 *m*-dәn yuxarı yüksәkliklәrdә formalaşır.

Üçüncü buzlaqarası epoxa Son Pleystosendә Üst Xәzәr epoxası ilә Xvalın epoxası arasında formalaşmış vә Alp stratiqrafik şkalasında Rüss–Vürm buzlaqarası epoxasına uyğun gәlir. Bu epoxa da inkişaf dinamikasına görә әvvәlki B.e.-a oxşardır. Yalnız Xәzәr dәnizi transqressiyası әvvәlki buzlaqarası transqressiyalardan daha kiçikmiqyaslı vә qısamüddәtli (50 min il) olması ilә fәrqlәnir.

Dördüncü buzlaqarası epoxa Holosen epoxasıdır. 12–10 min ildәn hazırkı dövrәdәk davam etmәkdәdir. Bu epoxa üçün insanların әtraf mühitә aktiv tәsir etmәsi, meşә örtüyünün vә bir çox heyvan növlәrinin mәhv edilmәsi, eroziya, şoranlaşma vә sәhralaşma proseslәrinin intensivlәşmәsi sәciyyәvidir. Epoxanın 10–20 min il davam edәcәyi ehtimal olunur.

**BUZLAQLAR** – Yer sәthindә ağırlıq qüvvәsinin tәsiri altında hәrәkәt edәn, әsasәn, atm. mәnşәli buz yığını. İlboyu toplanan çöküntülәrin miqdarı, әriyәn vә buxarlanan çöküntülәrin miqdarından çox olan yerlәrdә (xüsusilә qar xәttindәn yuxarıda) sülb atm. çöküntülәrinin toplanmasından (çox vaxt xarlanmış qardan) әmәlә gәlir. B. qidalanma vә ablyasiya (әrimә vә buxarlanma) sahәlәrindәn ibarәtdir. Qidalanma sahәsindә yığılan qar tәdricәn buza çevrilir vә aşağıya, ablyasiya sahәsinә doğru hәrәkәt edir. Ablyasiya sahәsindә buz әrimә, buxarlanma vә ya sınma nәticәsindә B.-dan ayrılır. B.-ın ölçülәri, forma vә quruluşu buzlaq yatağının forması, buzun yaranma vә әrimә nisbәti vә buzlağın yavaş hәrәkәti ilә әlaqәdardır.

B. dağ, yaxud axım B.-ına vә örtük B.-ına ayrılır. Bunların arasında dağ-örtük B.-ı yerlәşir. Yatım yerinә görә dağ (axım) B.-ı 4 tipә bölünür: zirvә B.-ı (yastı vә şiş zirvә B.-ı), yamac B.-ı (kar, asılı vә yamac B.-ı), dәrә B.-ı (sadә vә mürәkkәb dәrә B.-ı vә dendrit B.-ı) vә dağәtәyi B.-ı.

Örtük B.-ı yerüstü örtük B.-ına vә şelf B.-ına bölünür. Yerüstü örtük B.-ının hәrәkәt istiqamәti vә forması qidalanma vә ablyasiya sahәlәrindәn asılıdır; burada buz dib relyefindәn asılı olmayaraq hündür sahәdәn kәnarlara doğru hәrәkәt edir. Şelf B.-ında ondan qopmuş buz parçalarının hәrәkәti isә sahildәn dәnizә doğrudur. Bu әsas iki tip B. arasında dibi hәm torpağa, hәm dә suya oturmuş B. da var. Bu B. kontinental mәnşәli olsalar da, onların morfologiyası vә rejimi, әsasәn, okeanla әlaqәdardır (mәs., Qәrbi Antarktidanın buzlaq kompleksi). B.-ın sah. yüz minlәrlә $km^2$-әdәk (Qәrbi Antarktidada Ross şelf buzlağı – 536 min $km^2$), eni 100 *m*-dәn bir neçә min *km*-әdәk (Şәrqi Antarktidada Boduen şelf buzlağı–1200 *km*), uz. bir neçә yüz *km*-әdәk (Şәrqi Antarktidada Lambert çıxıntı buzlağı–700 *km*), qalınlığı 10 *m*-dәn bir neçә *km*-әdәk (Antarktidada örtük buzlağının ölçülmüş qalınlığı 4,3 *km*-әdәk) olur. Müasir buzlaşmanın sah. 16,3 mln. $km^2$-dәn çox (quru sah.-nin 11%-i), ümumi hәcmi tәqr. 28 mln $km^3$-dir. Ümumi buzlaşma sah.-nin 86,9%-i, hәcminin isә 98%-i materik örtük B.-ının, 9,1%-i vә tәqr. 2%-i şelf B.-ının, 1,3%-i vә tәqr. 0,1%-i dağ B.-ının payına düşür.

Qidalanma sahәsinә düşәn yağıntının miqdarından asılı olaraq B.-ın sahәsi artır, yaxud azalır. Yalnız qidalanma vә ablyasiya sahәlәri arasında müәyyәn bir sәrhәd boyu buzlaq kütlәsinin tarazlığı yaranır. Qidalanma sәrhәdindәn bir qәdәr yuxarıdan *firn xәtti* keçir; bunların arasında son yay mövsümündә sulaşmış qar qatının donmasından yaranmış "qalanma" buz zolağı yerlәşir.

B. yatağa donub yapışmış *soyuq* B.-a vә yataq üzәrindә sürüşәn *izotermik* B.-a bölünür. Soyuq B.-ın dib sürәti sıfıra bәrabәrdir. İzotermik B.-da isә B.-ın hәrәkәti buzun ağırlığından, temp-rundan, yamacın meyilliyindәn vә s.-dәn asılı olaraq müxtәlif olur. Kiçik dağ (axım) B.-ında bu sürәt il әrzindә bir neçә *m*, iri B.-da bir neçә yüz *m*; Antarktidanın şelf B.-ında 1,9 *km*, Qrenlandiya örtük buzlağının q. kәnarındakı çıxıntı B.-ında isә 7,3–13,8 *km*-әdәkdir.

B.-da buzun yaşı dәrinliyә doğru sürәtlә artır; yaş profillәr üzrә oksigen vә hidrogenin stabil izotoplarının miqdarına, yüksәk radioaktivlik qatlarına, buzun axım modelinә görә tәyin olunur. Antarktidada "Vostok" st.-nda qazılan 3600 *m* dәrinliyindә quyu 420 min il yaşı olan buz qatını kәsmişdir, bu 4 iqlim siklinә bәrabәrdir.

**Yer kürəsində buzların paylanması**

| Buzlaşma əraziləri | Buzlaşma sahələri, $km^2$ | Buzlaşma əraziləri | Buzlaşma sahələri, $km^2$ |
|---|---|---|---|
| **Antarktika** | **13979000** | **Asiya** | **118355** |
| Antarktida | 13975000 | Himalay d-rı | 33055 |
| Örtük buzlağı | 13779000 | Tyanşan d-rı | 17875 |
| o cümlədən: | | Qaraqorum d-rı | 15400 |
| yerüstü buzlaqlar | 12150000 | Nanşan d-rı | 13000 |
| üzən buzlaqlar | 1460000 | Pamir-Alay d-rı | 12070 |
| ada buzlaqları | 169000 | Kunlun d-rı | 11640 |
| Vahə və nunataklardakı buzlaqlar | 196000 | Hindiquş d-rı | 5900 |
| Antarktikayanı adalar | 4000 | Mərkəzi Asiyanın digər r-nları | 5420 |
| | | Sibir və Uzaq Şərq | 1570 |
| **Arktika** | **2044250** | Qafqaz | 1430 |
| Qrenlandiya | 1802600 | Ön Asiya | 50 |
| Örtük buzlağı | 1726400 | Digər ərazilər | 945 |
| Digər buzlaqlar | 76200 | | |
| Kanada Arktika arxipelaqı | 149990 | **Şimali Amerika** | **123700** |
| Elsmir a. | 78350 | Alyaska | 103700 |
| Baffin Torpağı | 36830 | Sahil silsilələri | 15410 |
| Devon a. | 16575 | Qayalı dağlar | 4580 |
| Aksel-Heyberq a. | 12560 | Meksikanın vulkanları | 10 |
| Digər adalar | 5675 | | |
| Rusiya Arktika a-rı | 56125 | **Cənubi Amerika** | **32300** |
| Svalbard arxipelaqı və Yan-Mayen a. | 35245 | | |
| Şimali Amerikanın Arktika r-nları | 260 | **Afrika və Okeaniya** | **845** |
| Asiyanın Arktika r-nları | 30 | Yeni Zelandiya | 810 |
| | | Afrika | 20 |
| **Avropa** | **19180** | Yeni Qvineya | 15 |
| İslandiya a. | 11785 | | |
| Skandinaviya | 3060 | ***Cəmi*** | ***16317630*** |
| Alp və Pireney | 2880 | | |
| Qafqaz və Ural | 1455 | | |

İqlimin dəyişməsi daim B.-ın ölçü və kütlələrinin tərəddüdünə səbəb olur. 4 növ buzlaq tərəddüdü ayırırlar: 1) xarici yükün dəyişməsi ilə (buzun akkumulyasiyası və ablyasiyası) əlaqədar məcburi tərəddüdlər; 2) buzun əriməsi və buzlaqaltı axımın təsirindən sürüşmə sürətinin yüksəktezlikli tərəddüdü; 3) buzlaq qatında temp-r tərəddüdü ilə əlaqədar aşağıtezlikli tərəddüd; 4) B.-da sərt tərpənişlərlə əlaqədar relaksasion avtotərəddüdlər. Sadalananların içərisində 1-ci və 4-cü tərəddüdlər daha mühümdür. Bunlarla əlaqədar məcburi tərəddüdə məruz qalan normal və pulsasiyalı (relaksasion tərəddüdlü) B. yaranır. Bilavasitə iqlimlə əlaqədar olan məcburi tərəddüdlər də iqlim kimi öz siklliyi ilə seçilir. 11-illik, 22-illik, 35-illik və 80-illik sikllər məlumdur; daha uzunmüddətli (təqr. 1850-illik) siklin mövcudluğu da ehtimal olunur. B.-ın hər bir tərəddüd sikli 2 fazadan ibarətdir: buzlağın qısa müddətə intensiv irəliləməsi və nisbətən uzun müddətə tədricən geri çəkilməsi. Uzaq geol. keçmişdə B.-ın nisbətən iri tərəddüdləri buzlaq və buzlaqlararası epoxaların, buzlaq və buzsuz dövrlərin növbələşməsinə səbəb olmuşdur. Sonuncu Gec Pleystosen buzlaşmasının geri çəkilməsi təqr. 17–10 min il bundan əvvələ təsadüf edir. 20 əsrin sonu 21 əsrin əvvəllərində Yer kürəsində iqlimin qlobal istiləşməsi ilə əlaqədar buzlaşmanın geri çəkilməsi sürətlənmişdir. B. Yer kürəsində su ehtiyatının və su balansının mühüm tərkib hissəsidir, onların

Ross şelf buzlağı. Qərbi Antarktida.









Himalay dağlarında buzlaqlar.

kütləvi surətdə əriməsi daşqınlara və okeanlarda səviyyənin qalxmasına səbəb olur. B.-ın tərəddüdü nəticəsində akkumulyativ və erozion relyef formaları və buzlaq çöküntüləri yaranır. Buzlaq və qar uçqunları kimi dəhşətli hallar da B.-ın fəaliyyəti ilə əlaqədardır.

**BUZLUQ**, B a l a K ü r ə k – Azərb. Resp. Goranboy r-nu ərazisində çay. Kürək çayının sağ qolu. Uz. 33 *km*, hövzəsinin sah. 112 $km^2$. Murovdağ silsiləsinin şm. yamacından (3360 *m* hünd.-dən) başlanır. Əsasən, qar və yeraltı sularla qidalanır.

**BUZLUQ** – Azərb. Resp. Goranboy r-nunda kənd. Buzluq ə.d.-nin (Buzluq, Baş Qışlaq k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 44 *km* c.-q.-də, Murovdağ silsiləsinin ətəyində, Buzluq çayının sahilindədir. Əh. 450 (2008); əkinçilik, arıçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var.

**BUZÓNİ** (Busoni) Ferruço (1.4.1866, Florensiya yaxınlığında, Empoli – 27.7. 1924, Berlin) – italyan pianoçusu, pedaqoq, bəstəkar, musiqi yazıçısı. Musiqiçilər ailəsindəndir: atası Ferdinando Buzoni (əslən Korsikadandır) klarnetçalan, anası Anna Vays (Weiss) Avstriya pianoçusu idi. Pianoçu kimi sistemli təhsil almamışdır, kompozisiya və kontrapunkt dərslərini Oratsda (Avstriya) V. Mayerdən almışdır. Helsinkidə Musiqi İn-tunda fp.-dan dərs demiş (1888–90), Moskva konservatoriyasının (fp. sinfi üzrə; 1890–91), Bostondakı Yeni ingilis konservatoriyasının prof.-u (1891–92) olmuşdur. 1894 ildən Berlində yaşamış, yeni və az səslənən musiqinin təbliği məqsədilə "Buzoni orkestr gecələri" (1902–09) təşkil etmişdir. 1913–14 illərdə Bolonyadakı Musiqi liseyinin, 1920 ildən Berlin İncəsənət Akademiyasının prof.-u (kompozisiya sinfi) olmuşdur. K. *Vayl*, P. Qreyncer, D. *Mitropulos*, N. *Nabokov*, E. *Petri*, L. Sirota və b. onun şagirdləri idi. B. öz dövrünün orijinal virtuoz texnikaya malik böyük pianoçularından biridir. Onun İ.S. Bax, F. List və V.A. Motsartın əsərlərinin fp. transkripsiyaları məşhurdur. "Turandot", "Arlekin" (hər ikisi 1917), "Doktor Faust" operalarını (1916–24; şagirdi F. Yarnax tamamlamışdır, quruluş 1925), 2 fp. üçün Kontrapunktur fantaziyanın (1922), fp. ilə orkestr üçün Konsertin (1904); "Musiqi sənətinin yeni estetikasının eskizi" (1907) kitabının və s. müəllifidir. *Avanqardizm* ideyalarını dəstəkləmişdir.



1949 ildən Bolsanoda (İtaliya) hər il pianoçuların B. ad. Beynəlxalq müsabiqəsi keçirilir.

**BUZOV** – bir yaşa qədər, südəmər dövründə inək balası.

**BUZOVBURNU**, b a d ı m c a n ə n c i r – yerli əncir sortu. Meyvələri iri (50–60 *q*), kəsik armudşəkilli, açıq-bənövşəyi rəngdədir, aşağı tərəfdən yaşıl rəngə çalır; çox şirin və zərifdir. Təzə meyvəsində 20%, quru meyvəsində isə 62% şəkər var.



Buzovburnu əncir sortu.

İldə 2 dəfə məhsul verir. Birinci məhsul iyulda, ikinci məhsul isə avqustun axırlarında yetişir. İkinci məhsulun meyvələri nisbətən xırda, açıq-bənövşəyi rəngdə olur. Meyvələr tozlanma olmadan inkişaf edir. Tam barvermə dövründə hər ağacdan 50–70 *kq* məhsul alınır. Quruduldukda daha şirin olur. Sort Gəncə və onun ətraf r-nlarında geniş yayılmışdır. Abşeronda payızda qələm və pöhrələrlə çoxaldılır. Z ə r ə r v e r i c i s i əncir kəpənəyidir. X ə s t ə l i k l ə r i qonur ləkəlilik və yarpaqların bakteriozudur.

**BUZOVDAĞ** – Azərb. Resp. Şəmkir r-nu ərazisində, Dağ Cəyir k.-ndən 2,5 *km* c.-da, Cəyir çayının sağ sahilində dağ. Hünd. 1671 *m*.

**BUZOVNA** – Azərb. Resp. Bakı ş.-nin Xəzər r-nunda qəsəbə (1937 ildən). Buzovna qəs. ə.d.-nin mərkəzi. Əh. 30 min (2013). R-n mərkəzindən (Mərdəkan) 4 *km* şm.-q.-də, Abşeron y-a-nın şm.-ş.-ində, Xəzər dənizi sahilindədir. Elektrik d.y. st.

"B." sözünün etimologiyası haqqında bir neçə fikir mövcuddur. Bəzi tədqiqatçılar B. toponimini tat dilində "buzov", "puzov" ("suya girən burun") sözləri ilə əlaqələndirirlər. B. adını eyni zamanda "buzov ovu", "buz ovu" kimi mənalandıranlar, "bozaq" kimi şərh edənlər də vardır. İ.N. *Berezin* "Abşeron yarımadasına səyahət" (1845) əsərində B. adının mənasını boz oğuzlarla əlaqələndirir.

B. Abşeronun qədim yaşayış məntəqələrindəndir. B. qəs.-nin yaxınlığında (Çimərlik d.y. st.) e.ə. 3-cü minilliyə aid Qədim Buzovna yaşayış yeri, c.-ş.-ində isə Tunc və Dəmir dövrlərinə (e.ə. 2–1-ci minilliklər) aid yaşayış yeri aşkar edilmişdir. B. Abşeronun xalq memarlığı mərkəzlərindən olmuşdur. Memarlıq əhəmiyyətli bir çox orta əsr abidəsi – türbə (1562–63), Nəsrani məscidi (17 əsr), Aşağı məscid (18 əsr), məscid və iki hamam



Buzovnada "Əli ayağı" piri.

(19 əsr) indi də qalmaqdadır. B.-da vaxtilə bürc-qala olmuşdur. B.-da yaşı bilinməyən "Əli ayağı" ziyarətgahı, islamaqədərki dövrdə mövcud olmuş alban kilsəsi, 1306 ildə tikilmiş "Qarapaltar" piri adlandırılan türbə yerləşir. Orta əsr qəbiristanlığındakı qəbirüstü daşlar (sənduqələr) üzərində müxtəlif təsvirlər, ornamentlər həkk edilmişdir; burada yerləşən 1641 ildə tikilmiş "Xəlifə Əli və Məhəmməd Mömin" türbəsi lakonik həcmi, mütənasibliyi, giriş qapısının çatma tağı ilə fərqlənir. Türbənin kitabəsində bu abidənin usta Pərviz tərəfindən tikildiyi qeyd edilir. B.-da "Xan bağı" adlanan yerdə mövcud olmuş Bakı xanlarının sarayı 1758–59 illərdə Hacı Mirzə Məhəmməd xanın sifarişi ilə memar Heybət tərəfindən inşa edilmişdir.

"İqlim" elm-istehsalat müəssisəsi, "Boya" z-du, tikiş f-ki, Bakı qazıma dəzgahları z-du, "Elvan" türk şirniyyat sexi, 5 orta ümumtəhsil məktəbi, uşaq incəsənət məktəbi, Bakı peşə məktəbi, internat məktəbi, 6 uşaq müəssisəsi, 2 Bakı şəhər xəstəxanası və 2 poliklinika, vərəm əleyhinə dispanser, respublika uşaq və yeniyetmələr üçün sümük vərəm sanatoriyası, ixtisaslaşdırılmış ruhi-əsəb əlil və qocalar üçün internat evi, təcili yardım stansiyası, mədəniyyət sarayı, mədəniyyət evi, kitabxana var.

Buzul dağı.



B. dənizkənarı iqlim kurortudur. B.-da vəzi və sümük vərəmi, ağ ciyər vərəmi, xroniki bronxit, gec sağalan plevrit, bronxial astma, müxtəlif mənşəli nevrozlar, maddələr mübadiləsi pozuntuları, hipertoniya və s. xəstəliklər müalicə olunur. B.-da respublika uşaq sanatoriyası, "Zuğulba" kardioloji sanatoriyası, "Xəzər" sanatoriyası, "Gənclik" turist mərkəzi, 1 və 2 saylı pansionatlar fəaliyyət göstərir.

**BUZOVNA SUALTI YÜKSƏKLİYİ** – Azərb.-da, Xəzər dənizində palçıq vulkanı. Şüvəlan burnundan (Abşeron y-a) şm.-q.-də, Abşeron arxipelaqı akvatoriyasındadır. Vaxtaşırı püskürmələri zamanı (1951, 1953 və 1958 illərdə) adalar əmələ gəlmiş, lakin az müddətdən sonra həmin adalar dəniz suları ilə yuyulub yox olmuşdur. 1953 ildəki püskürmə zamanı əmələ gələn adanın sah. 6,5 min $m^2$ olmuşdur.

**BUZOVNA-MAŞTAĞA NEFT-QAZ YATAĞI** – Abşeron y-a-nın şm.-ş.-ində eyniadlı qəsəbələrin arasında, Bakı ş.-ndən 20 *km* şm.-ş.-dədir. Yataq ərazisində 1913 ildən tədqiqat işləri aparılmasına başlanmış, 1940 ildə qazılmış kəşfiyyat quyusu ilə ilkin neft alınmışdır. Geol. quruluşunda Üst Miosendən Qədim Xəzər çöküntülərinədək olan stratiqrafik vahidlər qazıma ilə öyrənilmişdir. Yataq eninə istiqamətə uzanan braxiantiklinal quruluşlu qırışıqla əlaqədardır və gömülmüş yataqlar tipinə məxsusdur. Şm. qanadında yatım bucağı 10–15°, c. qanadında isə 20°-dir. Qırışıq, amplitudu 200–250 *m* olan qırılma ilə parçalanmışdır. Sənaye əhəmiyyətli neft Qırmaki (qalınlığı 210–220 *m*) və Qırmakialtı (qalınlığı 69 *m*) dəstələrdədir. Kollektorların məsaməliyi 19–24 %, keçiriciliyi 100–300 *mD* arasında dəyişir. İşlənmədə olan laylar, əsasən, qaz-su basqılı və həll olmuş qaz rejimlidir. Neftin xüs.ç. 0,915–0,920-dir. 01.01.2010 ilədək yataqdan 29,4 mln. *t* neft, 5,4 mlrd. $m^3$ qaz hasil edilmişdir.

**BUZUL DAĞI**, C i l o d a ğ ı – Türkiyənin c.-ş.-ində, Hakkari ili ərazisində, Böyük Zab çayının (Dəclənin sol qolu) sol sahilində dağ massivi. Maks. hünd. 4135 *m*. Metomorfik şist, dolomitləşmiş əhəngdaşı və porfiritlərdən ibarətdir. 3500 *m*-dən yüksəkdə Alp relyef forması inkişaf etmişdir; dərə buzlaqları (uz. 4 *km*-ədək) var. Yamacları meşə, çöl və kolluqlarla örtülüdür.

**BUZULÚK** – RF-də, Orenburq vil.-ndə çay. Samara çayının (Volqa hövzəsi) sol qolu. Uz. 248 *km*, hövzəsinin sah. 4460 $km^2$. Obşi Sırt yüksəkliyinin şm. yamaclarından başlanır. Ortaillik su sərfi mənsəb yaxınlığında 7,7 $m^3$/*san*-dir. Buzuluk ş. B. çayının mənsəbi yaxınlığındadır.

**BUZULÚK** – RF-də, Orenburq vil.-nin q.-ində şəhər. Buzuluk r-nunun mərkəzi. Əh. 84,7 min (2014). Uralönüdə, Buzuluk çayının Samara çayına töküldüyü yerdədir. D.y. st.

1736 ildə Buzuluk qalası (sonralar Domaşka çayı və Bannoye gölü yanına köçürülmüşdür) kimi salınmışdır. 1781/82–1796 illərdə B. Ufa canişinliyinin, 1796–1850 illərdə Orenburq qub.-nın, 1850–1928 illərdə Samara qub.-nın qəza şəhəri idi. 1785 ildə baş vermiş yanğın nəticəsində ciddi dağıntılara məruz qalmışdı. 1877 ildə Samara-Orenburq d.y.-nun çəkilməsi B.-un inkişafını sürətləndirmişdi. Çexoslovakiya korpusunun hərbi hissələri tərəfindən tutulmuşdu (1918). Orta Volqa vil.-nin (1928–29), sonradan Orta Volqa diyarının (1929–34) 1934 ildən isə Orenburq vil.-nin tərkibinə daxil olan Buzuluk r-nunun 1928 ildən mərkəzi olmuşdur.

19 əsrin 2-ci yarısı – 20 əsrin əvvəllərinə aid zemstvo idarəsinin, realnı məktəbin, Tixvin monastırının binaları, su qülləsi və s. saxlanılmışdır. Müasir binalardan "Yubileynı" mədəniyyət evi (1977), dəmiryol və avtobus vağzalı (1978); Humanitar-texnoloji in-t (Orenburq Dövlət Un-tinin filialı), diyarşünaslıq muzeyi (1954) var.

"Buzulukneft" ("Orenburqneft"in filialı; neft hasilatı), "Buzuluktyajmaş" (əlvan metallurgiya üçün avadanlıqlar, qazıma dəzgahları), mexanika z-du (avtomobil və traktor radiatorları) B.-un aparıcı müəssisələridir.

**BUZULÚK** – RF-də, Volqoqrad vil.-ndə çay; Xopyor çayının (Don çayı hövzəsi) sol qolu. Uz. 314 *km*, hövzəsinin sah. 9510 $km^2$. Volqaboyu yüksəkliyinin q.-indən başlanır. Enli dərə ilə axır. Qar suları ilə qidalanır. Aşağı axınında ortaillik su sərfi 13 $m^3$/*san*, gursulu dövrdə 1440 $m^3$/*san*-dir. Noyabrın axırından martın əvvəlinədək buzla örtülü olur. Qismən suvarmada istifadə olunur. B. hövzəsində 600-dən çox göl var. Novoanninski ş. B. sahilindədir.

**BÜDCƏ** – maliyyə fəaliyyətinin müəyyən müddət üçün müfəssəl smetası. Ölkənin maliyyə sisteminin strukturuna uyğun olaraq B.-nin üç növü fərqləndirilir: dövlət B.-si, təşkilatların B.-si (*maliyyə menecmenti* çərçivəsində) və ev təsərrüfatlarının B.-si (*istehlakçı büdcəsi*).



Buzuluk çayı.

Dövlət B.-si dövlətin gəlir və xərclərinin dövlət orqanları tərəfindən hər il işlənib hazırlanan və tənzimlənən balanslaşdırılmış smetasıdır; qanun qüvvəsinə malikdir. Gəlir və xərclərin strukturu, B.-nin mənbələri və ölkə iqtisadiyyatında rolu ölkənin sosial-iqtisadi və siyasi quruluşundan asılıdır. Dövlət B.-si ölkədəki iqtisadi vəziyyət və ilk növbədə dövlətin iqtisadiyyatda, milli gəlirin istehlakında və yenidənbölüşdürülməsindəki rolu haqqında mühüm informasiya mənbəyidir. Dövlət B.-si mərkəzi (milli) hakimiyyət və yerli hakimiyyət orqanları B.-lərinin cəmindən ibarətdir. Ölkənin dövlət B.-sinin gəlir hissəsi başlıca olaraq vergi, rüsum və istiqrazlardan əmələ gəlir. Məxaric mədaxili üstələdikdə, B. kəsiri yarana bilər; mədaxilin məxarici üstələməsi B. profisiti adlanır.

Real və etibarlı dövlət B.-sini yalnız iqtisadi artımın dəqiq proqnozları və mövcud resurslar əsasında hazırlamaq olar. Dünya bankı mütəxəssislərinin fikrincə, ölkənin büdcə sistemi konsepsiyası onun tərkib hissələrinin bir-birindən asılı olduğunu və sistemin ən zəif halqası nə qədər səmərəlidirsə, bütövlükdə sistemin bir o qədər səmərəli olacağını nəzərdə tutur. İdarəetmə nəzəriyyəsinə və B. planlaşdırılmasının beynəlxalq təcrübəsinə əsasən dövlət B.-sinin işlənib hazırlanması və icrası ölkənin inkişafının strateji və taktiki məqsədlərinə uyğun gəldikdə səmərəli olur, çünki B. mahiyyəti etibarilə həmin məqsədlərin reallaşdırılmasının əsas maliyyə mexanizmidir. Bundan başqa, B.-nin tərtibi ardınca ən mühüm makroiqtisadi proporsiyalarda dəyişikliklərə səbəb ola biləcək ən səmərəli strukturun (onun həm mədaxil, həm də məxaric hissəsinin) seçiminə əsaslanmalıdır.

İllik dövlət B.-si ölkənin strateji inkişafı kontekstində məsrəflərin və əməliyyatların planlaşdırılmasının qənaətbəxş aləti kimi çıxış edə bilməz. Dövlət B.-sinin qısamüddətli yönümlülüyü sosial-iqtisadi inkişafın uzunmüddətli prioritetlərinin cari maliyyə ehtiyaclarına tabe edilməsinə gətirib çıxarır. Buna görə də dövlət B.-si tərtibinin orta və ya uzunmüddətli perspektivi zəruridir. Dünyanın bir çox ölkəsində artıq dövlət B.-sinin ortamüddətli planlaşdırılması sistemi tətbiq edilir. Dövlət B.-si tərtibinin kompleks orta və ya uzunmüddətli həddi ikili B. sisteminin səmərəli tətbiqinə imkan verir. İkili B. sistemində əməkhaqqı, təşkilatlar və maddələr üzrə ayrılmış əməliyyat xərcləri kimi fasiləsiz xərclərlə təmsil olunan əlavə B. və investisiya B.-si, yaxud adətən proqramlar və layihələr üzrə birdəfəlik kapital məsrəflərindən ibarət inkişaf B.-si fərqləndirilir.

Azərb. Resp.-nın büdcə qanunvericiliyi Azərb. Resp. Konstitusiyasından, "Büdcə sistemi haqqında" Azərb. Resp. Qanunundan, hər büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, digər qanunlardan və normativ-hüquqi aktlardan, həmçinin Azərb. Resp.-nın tərəfdaş olduğu beynəlxalq müqavilələrdən ibarətdir.

Ölkənin büdcə sistemi Azərb. Resp.-nın dövlət büdcəsindən, Nax. MR-in büdcəsindən və yerli büdcələrdən ibarətdir.

Büdcə sistemi ona daxil olan bütün büdcələrin vahidliyi və müstəqilliyi prinsipinə əsaslanır.

**BÜĞDÜZLƏR** (digər adı "yaxşı bəylər") – türk tayfası; 24 oğuz (bax *Oğuzlar*) boyundan biri. Oğuz xanın nəvəsi Büğdüzün adını daşıyan bu boy oğuzların Üç ox qoluna aiddir. B. haqqında "Kitabi Dədə Qorqud" dastanında, Mahmud Kaşqarinin "Divani-luğat-it-türk", F. Rəşidəddinin "Cami ət-təvarix", "Oğuznamə" əsərlərində və s. məlumat verilir. B. 11–12 əsrlərdə Seyhun (Sırdərya) çayı boyundan Qaraçuk dağlarınadək olan ərazidə yaşamış, Oğuz elində önəmli mövqeyə sahib olmuşlar. 16 əsrdə Anadoluda B.-ə aid 22 yer adının mövcud olması onların bu ərazidəki əhalinin etnogenezində mühüm rol oynadığını göstərir. Bu yer adlarından günümüzədək ancaq üçü gəlib çatmışdır.

**BÜHLER** Karl (27.5.1879, Baden, Mekkesheym – 24.10.1963, Los-Anceles) – Almaniya və Avstriya psixoloqu. Frayburq və Strasburq un-tlərində təhsil almış, *Külpenin* şagirdi, Bonn (1909), Münxen (1915), Drezden (1918), Vyana (1922) un-tlərinin prof.-u olmuşdur. 1938 ildə, Avstriyanın faşist Almaniyası tərəfindən işğalından sonra Norveçə, oradan da ABŞ-a köçmüşdür. 1906 ildən *Vürsburq məktəbi* çərçivəsində təfəkkürü tədqiq edərək, ondakı obrazları, intellektual hissləri və hissi-obrazlı səciyyəsi olmayan əsl hissləri fərqləndirmişdir. Birinci dünya müharibəsi zamanı hərbi cərrah işləmişdir. Müharibədən sonra uşaq psixologiyası problemləri ilə məşğul olmuş, psixikanın inkişafını instinkt, vərdiş və intellekt mərhələlərinə ayırmış, sonuncunu qəflətən anlama aktları ("aha-təəssürat", *insayt*) ilə əlaqələndirmişdir. "Psixologiyanın tənəzzülü" ("Die Krise der Psychologie", 1927) əsərində B. psixologiyada tənəzzülü subyektiv (*introspektiv psixologiya*), obyektiv (*biheviorizm*) və mədəni-tarixi (anlayan psixologiya) yanaşmaların sintezi ilə aradan qaldırmağı təklif etmişdir.

Dilçilikdə psixoloji istiqaməti, *funksional linqvistikanı* inkişaf etdirmiş, dil sahəsinin "eqosentrik konsepsiyasını" yaratmışdır. Dili funksional sistem hesab edən B. onun üç funksiyasını fərqləndirmişdir: danışana aid olan ifadə (ekspressiv), dinləyənə aid olan müraciət (apelyativ) və haqqında danışılan predmetə aid olan məlumat (reprezentativ) funksiyaları.

Ə s ə r l ə r i: Handbuch der Psychologie. Jena, 1922; Очерк духовного развития ребенка. M., 1930; Ausdruckstheorie. Jena, 1933; Теория языка: Репрезентативная функция языка. 2-е изд. M., 2000.

**BÜHLER** [qızlığında Malaxovski (Malachowski)] Şarlotta (20.12.1893, Berlin – 3.2.1974, Ştutqart) – Avstriya və Amerika psixoloqu. Berlin və Münxen un-tlərində təhsil almışdır. Vyana (1929), Oslo (1938), Los-Anceles (1945) un-tlərinin prof.-u olmuşdur. 1920–30-cu illərdə uşaqların təbii şəraitdə psixi inkişafının diaqnostik tədqiqatları ilə tanınan Vyana yaş psixologiyası məktəbini yaratmış və ona rəhbərlik etmişdir. B.-in təklif etdiyi şəxsiyyətin həyat yolunun dövrləşdirilməsi metodu psixoloji-bioqrafik tədqiqatlar aparılmasının təməlini qoymuşdur. B. şəxsiyyətin özünügerçəkləşdirmək tələbatını inkişafın əsas hərəkətverici qüvvəsi hesab etmişdir. 1940–70-ci illərdə ABŞ-da B. subyektin fəallığı, onun məqsəd, məna və dəyərlərin gerçəkləşdirilməsinə istiqamətlənməsi prinsiplərini əsas götürərək, şəxsiyyətin unikal həyat yolunun öyrənilməsinə bütöv yanaşmanı inkişaf etdirmişdir. 1960-cı illərdə B. *humanist psixologiyanın* liderlərindən biri olmuşdur.

Ə s ə r l ə r i: Der menschliche Lebenslauf als psychologisches Problem. Lpz., 1933; Диагностика нервно-психического развития детей раннего возраста. M., 1935 (həmmüəllif); Psychologie im Leben unserer Zeit. Münch., 1962; İntroduction to humanistic psychology. Monterey, 1972 (with M. Alen).

**BÜXNER** (Büchner) Georq (17.10.1813, Darmştadt yaxınlığında Qoddelau – 19.2.1837, Sürix) – alman yazıçısı. Atası həkim olmuşdur. Strasburq və Gisendə tibbi öyrənmişdir. 1834 ildə Hessendə "İnsan hüquqları cəmiyyəti"ni yaratmış, sol radikal ideyalar aşılayan "Hessen kəndlilərinə" müraciətini (1834) yazmışdır. Cəmiyyət üzvlərinin təqib olunması və həbsi onu Sürixə köçməyə vadar etmişdir. Üç pyesin: "Dantonun ölümü" (1835), "Voysek" (1836–37, tamamlanmamışdır; A.*Berq* onun əsasında "Votsek" operasını yazmışdır, 1921) dramlarının, həmçinin "Leons və Lena" (nəşri 1839) komediyasının müəllifidir. U. Şekspirin poetikası və *"Fırtına və təzyiq"* dramaturgiyasının təsiri ilə yazılan B.-in pyesləri yığcamlığı, dinamik səhnələri, qroteskliyi və bununla yanaşı obrazların son dərəcə reallığı ilə *ekspressionizm* dramının bir çox xüsusiyyətlərini qabaqlamışdır. Mənəvi cəhətdən yaxınlıq hiss etdiyi Y.M. *Lens* haqqında "Lens" povesti tamamlanmamışdır.

Ə s ə r l ə r i: Пьесы. Проза. Письма. M., 1972; Gesammelte Werke. Fr./M., 1987. Bd 1–10.

**BÜXNER** (Büchner) Lüdviq (29. 3. 1824, Darmştadt – 1.5.1899, orada) – alman filosofu və həkimi, naturalist materializmin nümayəndəsi. Baxışları L.*Feyerbax* və P.J.J. *Kabanisin* ideyalarının təsiri altında formalaşmışdır. B. üçün başlanğıc maddə ilə eyniyyət təşkil edən və bir sıra xassələrə, yaxud qüvvələrə (onlardan ən mühümü hərəkətdir) malik materiya anlayışıdır. B.-ə görə, təbiətin aynası kimi başa düşülən fikir, şüur yüksək təşkil olunmuş materiyanın – beynin məhsuludur və ruhani yalnız beyin funksiyalarının məcmusudur. B. sosial darvinizm ideyalarının müdafiəçisi olmuş, yaşamaq uğrunda mübarizəni (kapitalist rəqabətini) sosial inkişafın əsası hesab etmişdir. 1881 ildə Azadfikirlilərin Alman İttifaqını yaratmışdır. B.-in ideyaları F. Engelsin materiyanın hərəkət formalarını təsnif etməsinə təsir göstərmişdir.

Ə s ə r l ə r i: Природа и наука. K., 1881; Психическая жизнь животных. СПб., 1902; Сила и материя. СПб., 1907.

**BÜKMƏ MAŞINI** – məmulatı bir-bir (məs., konfet, sabun), yaxud müəyyən miqdarda (papiros, qənd və s.) bükən avtomat və ya yarımavtomat qurğu. B.m., əsasən, bükmə mexanizmi, nəqledici qurğular (məmulatı, bükmə materialı rulonlarını və s. qəbul etmək, yerini dəyişdirmək və ötürmək üçün) və yapışdırma aparatından ibarətdir. Bükmə materialı kimi kağız, sellofan, folqa və s. işlədilir. B.m. müstəqil, həmçinin çəkib-bükmə və qablaşdırma avtomatlarının bir hissəsi kimi tətbiq edilir.

**BÜLBÜL** (təxəllüsü; əsl adı və soyadı Murtuza Məşədi Rza oğlu Məmmədov; 22.6.1897, Şuşa yaxınlığında, Xanbağı – 26. 9.1961, Bakı) – Azərb. opera müğənnisi (lirik-dramatik tenor), xanəndə, musiqi folkloru tədqiqatçısı, ictimai xadim. Azərb. professional vokal məktəbinin banisi. SSRİ xalq artisti (1938). SSRİ Dövlət mükafatı laureatı (1950). Azərb. Dövlət Konservatoriyasını (N.İ. Speranskinin sinfini) bitirmişdir (1927).



Kiçik yaşlarından məharətli zəngulələrinə görə xalq ona "Bülbül" adını vermişdir. B.-ün teatr səhnəsində ilk çıxışı







**Bülbül**: *soldan sağa* Nizami ("Nizami", Ə. Bədəlbəyli), Koroğlu ("Koroğlu", Ü. Hacıbəyli), Aslan ("Vətən", Q. Qarayev və C. Hacıyev) rollarında.

M.C. Əmirovun 1916 ildə Gəncədə tamaşaya qoyulmuş "Seyfəlmülk" operası ilə bağlıdır. 1909–20 illərdə xanəndəlik etmiş, 1920 ildən Birləşmiş Dövlət Teatrı opera truppasının (1924 ildən Azərb. Opera və Balet Teatrı) solisti olmuş, Ü. Hacıbəylinin "Leyli və Məcnun" (İbn Salam), "Əsli və Kərəm" (Kərəm), Z. Hacıbəyovun "Aşıq Qərib" (Qərib) operalarında çıxış etmişdir. 1927 ildə vokal texnikasını daha da təkmilləşdirmək üçün dövlət tərəfindən Milana göndərilmişdir. İtaliyada birinci dəfə 1924 ildə olmuşdur. 1931 ilədək burada Delliponti və R. Qranidən dərs almışdır. 1931 ildən Azərb. Dövlət Konservatoriyasında dərs demişdir (1940 ildən prof.). Məlahətli, axıcı səsi olan müğənni böyük aktyorluq istedadına malik idi. Əsas partiyaları: Koroğlu, Əsgər ("Koroğlu", "Arşın mal alan", Ü. Hacıbəyli), Qərib ("Şahsənəm", R.M. Qlier), Əlyar ("Nərgiz", M. Maqomayev), Nizami ("Nizami", Ə. Bədəlbəyli), Fərhad ("Xosrov və Şirin", Niyazi), Aslan ("Vətən", Q. Qarayev və C. Hacıyev) və s. Koroğlu partiyası B.-ün opera yaradıcılığının zirvəsidir; o, romantik ruhlu xalq qəhrəmanının daxili aləmini hərtərəfli aça bilmişdir. B.-ün ifasında Koroğlu partiyası Azərb. musiqili teatrı tarixində mühüm mərhələ təşkil edir.

B. Azərb. xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir ("Süsən sünbül", "Yaxan düymələ", "Qara gözlər", "Çal-oyna", "Segah təsnifləri" və s.). Azərb. bəstəkarlarının kamera-vokal əsərlərinin populyarlaşmasında müğənninin rolu böyükdür. O, A. Zeynallının "Ölkəm", Ü. Hacıbəylinin "Sənsiz", "Sevgili canan" romanslarının ilk ifaçısı olmuş və zəngin boyalarla təkrarolunmaz musiqi obrazları yaratmışdır. B.-ün repertuarında Qərbi Avropa və rus klassiklərinin əsərləri də ("Riqoletto", C. Verdi; "Toska", C. Puççini; "Karmen", J. Bize; "Verter", J. Massne; "May gecəsi", N.A. Rimski-Korsakov; "Aleko", S. Raxmaninov və s.) əhəmiyyətli yer tutmuşdur. B.-ün yaradıcılığı Azərb. vokal sənətinin inkişafında mühüm rol oynamışdır. Geniş səs imkanlarına malik olan B.-ün ifaçılığında milli vokal üslubu ilə italyan vokal məktəbi ənənələri üzvi surətdə birləşmişdi. B. Azərb. milli vokal məktəbi ənənələrinin tədqiqi, rus və Avropa opera mədəniyyəti ilə bu ənənələrin sintezi və s. məsələlərə aid bir çox əsərin müəllifidir. B. 1932 ildə Azərb. Dövlət Konservatoriyası nəzdində Cənubi Qafqazda ilk xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetinin yaradılmasının təşəbbüskarı və təşkilatçısıdır. Azərb. bəstəkarlarının yaradıcılığının inkişafında böyük rol oynamış bu kabinetin bazası əsasında Azərb. EA-nın İncəsənət və Memarlıq İnstitutu yaradılmışdır (1945). B. "Azərb. xalq musiqisinin əsasları", "Azərb. dilinin fonetikası" əsərlərinin yazılmasının, aşıqlar qurultaylarının (1938–61) çağırılmasının təşəbbüsçüsü, 500 adda Azərb. xalq mahnı və rəqslərindən ibarət məcmuələrin tərtibçisi və redaktoru olmuşdur. O, Azərb.-da not nəşriyyatının, opera və səsyazma studiyalarının yaradıcısıdır. B. SSRİ-nin bir çox şəhərində, həmçinin xarici ölkələrdə qastrolda olmuşdur. Bakıda B.-ün adını daşıyan orta ixtisas musiqi məktəbi var. Bakı küçələrindən birinə müğənninin adı verilmişdir. Bakıda, Sumqayıtda, Mingəçevirdə Bülbül ad. musiqi məktəbləri fəaliyyət göstərir. Bakıda (1982) və Şuşada (1982) ev-muzeyləri açılmışdır. 1992 il mayın 8-də Şuşa ş. ermənilər tərəfindən işğal olunduqdan sonra Şuşadakı muzey dağıdılmışdır. Bakıda yaşadığı evin üzərinə xatirə lövhəsi və barelyefi vurulmuşdur. Haqqında "Xalq nəğməkarı " (1962) və "Bülbül" (1971) sənədli televiziya filmləri çəkilmişdir.

Azərb. SSR Ali Sovetinin (1–5-ci çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, 2 Qırmızı Əmək Bayrağı ordeni, İtaliyanın Qaribaldi ordeni ilə təltif edilmişdir.

*Əd.:* A. Məmmədova. Bülbül vokal sənətinin zirvəsidir (rus və Azərb. dillərində). B., 2006.

**BÜLBÜL** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Quruçay kəndistanında, Qaraağac qəs.-ndən 29,5 *km* c.-q.-də, Marağa–Miyanə avtomobil yolundan 23 *km* c.-dadır.

**BÜLBÜLCAN** – bax *Zülalov* Əbdülbağı Kərbəlayı Əli oğlu.

**BÜLBÜLƏ** – Azərb. Resp.-nda, Abşeron y-a-nda axarsız göl. Şm.-q.-dən c.-ş.-ə 3 *km* məsafədə uzanır; maks. eni 0,4 *km*, dərinliyi 2 *m*-ədəkdir. Bülbülə qəs. şm.-ş. sahilindədir.

**BÜLBÜLƏ** – Azərb. Resp.-nda, Bakının Suraxanı r-nunda qəsəbə (1936 ildən). Bülbülə qəs. ə.d.-nin mərkəzi. Əh. 26,5 min (2010). R-n mərkəzindən 2 *km* q.-də, Abşeron y-a-ndadır. Elektrik d.y. st.

B. Abşeronun qədim yaşayış məntəqələrindəndir. Ehtimala görə, kəndin adı palçıq vulkanı ilə əlaqədardır və "pilpilə" (yaxud "bataqlıq yer") sözündən götürülmüşdür. B.-də orta əsrlərə aid bir sıra abidələr, o cümlədən *Bülbülə İmamzadə piri*, 1624 ildə Şeyx Nəcməddin Şeyx Kamal oğlu tərəfindən tikdirilmiş məscid, 18–19 əsrlərə aid yaşayış evləri, 19 əsrə aid hamam var.

B.-də 3 məktəbəqədər təhsil müəssisəsi, 6 ümumtəhsil məktəbi, musiqi məktəbi var.

**BÜLBÜLƏ İMAMZADƏ PİRİ** – Bakının Bülbülə qəs.-ndə ziyarətgah. Pir haqqında ilk yazılı məlumatı A.A. *Bakıxanov* "Gülüstani-İrəm" əsərində vermişdir. 1937 ildə B.İ.P. yaxınlığındakı "Şeyx Nəcməddin" məscidi ilə birlikdə sovet hökumətinin qərarı ilə dağıdılmışdı. 1988 ildə ziyarətgah yenidən bərpa edilmişdir.

*Əd.:* М. Н э м а т. Корпус эпиграфических памятников Азербайджана. Б. 1991; A. A. B a k ı x a n o v. Gülüstani-İrəm. B. 1981.

**BÜLBÜLLƏR** (Luscinia) – *sərçəkimilər* dəstəsinin qaratoyuqlar fəsiləsindən quş cinsi. Ən çox yayılanı adi bülbüldür (L. luscinia); bədəninin uz. 17 *sm*, kütləsi 25 *q*-dır. Növündən asılı olaraq B.-in rəngi müxtəlifdir. Avropada, Qərbi Asiyada yayılmışdır. Afrikada qışlayan köçəri quşlardır. Aprel ayının ortalarında Azərb.-a gəlir, sentyabr ayında köçürlər.



Cənub bülbülü (Luscinia megarhyncos).

Azərb. faunasında 3 növü var: seyrəbülbül (L. svecica), yalnız miqrasiya dövründə olan adi bülbül (L. luscinia) və cənub bülbülü (L. megarhyncos). 2 növ isə Azərb.-a nəsil vermək üçün gəlir. Xırda onurğasızlar, giləmeyvə və s. ilə qidalanır. Yerdə və kolluqlarda düzəltdiyi yuvaya yaşılımtıl və maviyəçalan 4–6 yumurta qoyur. Yalnız dişisi 13–14 gün kürt yatır. Hər iki valideyn balalarını 10–12 gün yemləyir. Əsasən, gecələr və alatoranlıqda oxuyur; həvəslə oxuduqda təhlükəni belə hiss etmir. Heyrətamiz səsi çox xarakterik fit və cəh-cəhlə zəngindir; oxuyarkən 20–24 (bəzən 40) xal vurur.

**BÜLBÜLOĞLU** Polad (d. 4.2.1945, Bakı) – Azərb. bəstəkarı, müğənni. Azərb. SSR əməkdar incəsənət xadimi (1973). Azərb. SSR xalq artisti (1982). *Bülbülün* oğludur. Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1968, Q.Qarayevin sinfini). Onun sənətkar kimi yetişməsində atasının böyük rolu olmuşdur. B. mahnı bəstəkarı və öz mahnılarının ifaçısı kimi tanınmışdır. "Azərbaycan", "Bənövşə", "Dolalay", "Durnalar", "Sən eləsən, mən belə", "Gözlərinə de ki", "Dilin can incidəndir", "Baxdın sən üzümə..." və s. mahnıları geniş şöhrət qazanmışdır.



SSRİ-nin və dünyanın bir çox şəhərində musiqi proqramları ilə çıxış etmişdir. Yaradıcılığına dinamiklik, müasirlik ruhu, incə lirizm, nikbinlik xasdır. 1970 ildə gənclər üçün yazdığı populyar mahnılara görə 1976–85 illərdə dəfələrlə Ümumittifaq televiziyası mahnı festivallarının laureatı olmuşdur. B. bədii və televiziya filmlərinə ["İstintaq davam edir" (1966, rej. Ə. Atakişiyev), "Uşaqlığın son gecəsi" (1968, rej. A. Babayev), "Ən vacib müsahibə" (1971, rej. E. Quliyev), "Oxuyur Müslüm Maqomayev" (1971, rej. T. İsmayılov), "Mən mahnı qoşuram" (1979, rej. T. İsmayılov), "Babək" (1979, E. Quliyev), "Yol əhvalatı" (1980, rej. T. Bəkirzadə), "Qorxma, mən səninləyəm" (1981, 2-ci film 2013, rej. Y. Qusman; hər iki filmdə həm də baş rolda çəkilmişdir) və s.] musiqinin, xor və orkestr üçün simfoniyanın (1980), simfonik poemanın, süitaların, "Mahnıma inan" müziklinin (1985), "Eşq və ölüm" baletinin (2005) və s. əsərlərin müəllifidir. Özünün yaratdığı "Aşıqlar" vokal-instrumental ansamblının bədii rəhbəri (1981–87), Azərb. Dövlət Filarmoniyasının direktoru (1987–88), Azərb. Resp.-nın Mədəniyyət naziri (1988–2006), eyni zamanda beynəlxalq TÜRKSOY təşkilatının Baş direktoru (1994–2006) olmuşdur. B. 2006 ildən Azərb. Resp.-nın RF-dəki fövqəladə və səlahiyyətli səfiridir.

**BÜLBÜLOTU** (Phalaris) – taxıllar fəsiləsindən birillik, yaxud çoxillik ot cinsi. Gövdəsinin hünd. 2 *m*-ədəkdir. Sünbülcükləri yuxarıda yerləşən (ikicinsiyyətli) bir çiçəkdən və aşağıda yerləşən (pulcuqlara qədər reduksiyaya uğramış) iki çiçəkdən ibarətdir; 1,5–20 *sm* uz.-nda sıx sünbülvarı süpürgə əmələ gətirir. Toxumu 5 *mm*-ədək olan yastılaşmış dəncikdir. 20-yə yaxın növü var. Əsasən, Şimal yarımkürəsinin subtropik qurşağında yayılmışdır. Azərb.-da soğanaqlı B. (Ph.bulbosa), kiçik B. (Ph. minor), qısasünbül B. (Ph. brachystachys) və özünəməxsus B. (Ph. paradoxa) məlumdur; becərilən, yabanı və ya gətirilmədir. B. qiymətli otlaq



Bülbülotu (Palaris paradoxa).

və biçənək yem bitkisidir. Kanar a-rında yetişən B.-nun toxumları bir çox oxuyan quşlar, o cümlədən bülbül üçün yemdir. Əlvanyarpaq B. dekorativ bitki kimi becərilir.

**BÜLBÜLÖLƏN**, B ü l b ü l o ğ l u, K a h a – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Keşişkənd, 3.1.1935 ildən Mikoyan, 6.12.1957 ildən Yeğeqnadzor r-nu), Təkədonduran d.-nın yaxınlığında azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd ermənilərin təcavüzü nəticəsində dağıdılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, qalanları isə qaçqın düşmüşlər. 1922 ildə onların bir hissəsi geri qayıtsa da, az sonra yenidən kənddən qovulmuşlar və kənd ləğv edilmişdir.

**BÜLBÜLÜN EV-MUZEYİ** – Bakıdadır. 1982 ildə açılmışdır. Azərb. professional vokal sənətinin banisi *Bülbül* (Murtuza Məşədi Rza oğlu Məmmədov) 1937–61 illərdə bu evdə yaşamışdır. Burada müğənninin həyat və yaradıcılığını əks etdirən müxtəlif sənədlər, fotoşəkillər, opera tamaşalarının afişaları, hədiyyələr, hökumət mükafatları, İtaliyaya ezamı ilə əlaqədar rəsmi sənədlər və s. qorunub saxlanılır. Muzeydə Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyətinə dair 9000-ə qədər sənəd və material toplanmışdır.

**BÜLCƏG** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Poldəşt bölgəsinin Sarı Subasar kəndistanında, Poldəşt qəs.-ndən 36 *km* c.-q.-dədir.

**BÜLDÜRÜK** (Syrrhaptes paradoxus) – bağrıqaralar yarımdəstəsindən quş. Bədə-







Büldürük (Syrrhaptes paradoxus).

ninin uz. 42 *sm*-ədək, kütləsi təqr. 250 *q*-dır. Ayaqları üçbarmaqlıdır; bitişik olan barmaqlar üst tərəfdən caynaqlarına qədər lələklənmiş, altdan isə bərk pəncə ilə birləşmişdir. Quyruğu sap kimi nazik, çalma lələkləri quyruğu kimi nazik və uzundur. Tük örtüyü oxra-qum rəngli, alnı və boğazı kürən, döşü boz-sarı, ağqara, qarın tərəfi qaradır. Mərkəzi Asiyanın səhralarında yayılmışdır. Azərb.-da təsadüfən rast gələnən quşdur. Gilli və daşlı səhralarda məskunlaşır. 2–3 yumurta (aprel–iyunda) qoyur, 1 ayadək kürt yatır. Toxum, zoğ və çiçəklə, bəzən giləmeyvələrlə qidalanır. Əsasən, suvatlarda ov obyektidir.

**BÜLLUR** – 1) tərkibi qurğuşun oksidi, yaxud barium oksidi ilə zəngin şüşə; çox şəffaflığı, nisbətən qalın, işıq şüalarını *sındırma əmsalının* (şüşəyə parlaqlıq və müxtəlif rənglərlə bərqvurma xassəsi verir) yüksək olması və xoşagələn cingiltisi ilə xarakterizə edilir. B. məmulatın üzəri oyma naxışlarla, tillərlə bəzədilir. Tərkibində qurğuşun oksidi olmayan Venesiya (15–16 əsrlər) və Çexiya, yaxud *Bohemiya şüşəsi* də (17 əsrdən) B. adlanır; 2) bax *Dağ bülluru.*

**BÜLLUR DAĞLAR** – Mərkəzi Afrikada, Qabon və Ekvatorial Qvineyadadır. Oqove (c.-da) və Kampo (şm.-da) çayları arasında yerləşir. Cənubi Qvineya yüksəkliyinin eroziya ilə kəskin parçalanmış q. kənarıdır; dənizsahili ovalığa dik düşür. Hünd. 600–800 *m* (maks. 1000 *m* – Dana d.). Kembriyəqədərki kristallik süxurlardan ibarətdir. Sıx və rütubətli həmişəyaşıl ekvatorial meşələrlə örtülüdür.

Venesiya şüşəsi. 17 əsr.
Murano Şüşə Muzeyi. İtaliya.



**BÜLOV** (Bülow) Hans Qvido fon (8.1.1830, Drezden – 12.2.1894, Qahirə) – alman pianoçusu, dirijor, bəstəkar, musiqi yazıçısı. F. Vik (fp.), M. Ebervayn (musiqi nəzəriyyəsi) və M. Hauptmandan (kontrapunkt) dərs almışdır. Musiqi təhsilini F. *Listin* (1851–53, Veymar) yanında bitirmiş, tezliklə onunla qohum olmuşdur (1857–69 illərdə Listin qızı Kozima ilə evli idi). 1853 ildə ilk dəfə pianoçu kimi çıxış etmişdir. Bütün həyatı boyu Avropa ölkələrində və ABŞ-da (1875–76 illərdə burada 139 konsert vermişdir) qastrol səfərlərində olmuşdur. R. *Vaqner* musiqisinin pərəstişkarı idi: Münxendə II Lüdovikin sarayında işləyərkən (1864–69) ilk dəfə onun "Tristan və İzolda" (1865), "Nürnberq meysterzingerləri" (1868) musiqili dramlarını tamaşaya qoymuşdur. 1877–80 illərdə Hannoverdə saray kapelmeysteri olmuşdur. Vyana klassiklərinin və Vaqnerin əsərləri ilə yanaşı B.-un repertuarında fəal surətdə təbliğ etdiyi İ. Bramsın musiqisi də mühüm yer tuturdu (ilk dəfə 1885 ildə onun 4-cü simfoniyasını ifa etmişdir). Novatorçu dirijor olan B. ilk dəfə partiturasız dirijorluq etmiş, orkestrə 5-simli kontrabas və pedallı litavralar daxil etmişdir; Mayningendə saray orkestrinin rəhbəri (1880–85) olarkən musiqiçilərə ayaq üstə və nota baxmadan çalmağı məsləhət görmüşdü. U. Şekspirin "Yuli Sezar" faciəsinə yazılmış musiqinin (1867), "Nirvana" simfonik poemasının (1866), "Müğənninin qaçışı" orkestr balladasının (1863) müəllifidir. B.-un virtuoz fp. əsərləri üslub cəhətdən Listin əsərlərinə yaxındır. Mübahisə xarakterli məqalələri çox vaxt kəskin tonu ilə seçilmişdir. İ.S. Bax, L. van Bethoven, F. Şopen, K.M. fon Veber və b.-nın əsərlərinin redaktoru olmuşdur.

Dağ bülluru.
Daşkəsən.



**BÜLÖV DAŞI**, y a ğ d a ş ı – xırda dənəli abraziv materialdan hazırlanır; kəsici alətlər (kəski, mişar, qayçı, ülgüc və s.) itiləndikdən sonra onların tiyəsinin son (tamamlama) emalı üçündür.

**BÜLÖVLÜK** – Azərb. Resp. Laçın r-nunun Qoşasu ə.d.-ndə kənd. R-n mərkəzindən 36 *km* şm.-q.-də, Şəlvə (Həkəri çayının qolu) çayının sağ sahilindədir. Əh. 98 (2008); işğaldan (1992, may) əvvəl əkinçilik və heyvandarlıqla məşğul olurdu. Tibb məntəqəsi var idi.

**BÜLÜDÜL** – Azərb. Resp. Lerik r-nunun Osyedərə ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* şm.-q.-də, Peştəsər silsiləsinin şm.-ş. yamacındadır. Əh. 799 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**BÜLÜLDÜZ** – Azərb. Resp. Laçın r-nunda kənd. Bülüldüz ə.d.-nin (Bülüldüz, Ayıbasar, Birinci İpək k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 22 *km* şm.-q.-də, Qarabağ silsiləsinin ətəyində, Şəlvə (Həkəri çayının qolu) çayının sol sahilindədir. Əh. 725 (2008); işğaldan (1992, may) əvvəl əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana, mədəniyyət evi, çörəkbişirmə sexi, poçt şöbəsi var idi.

**BÜNÖVRƏ**, ö z ü l – binanın (tikilinin) ağırlığını əsasa ötürmək üçün onun yeraltı və ya sualtı hissəsi. B., onu tikilidən ayıran üst səthdən və yükü bilavasitə əsasa ötürən alt səthdən – təməldən ibarətdir. Əsasən, dəmir-beton, beton və but daşından qurulan adi B.-lər lentvarı (divaraltı və sütunaltı ); tək-tək (dirəkvarı və tavavarı); müxtəlif formalı massiv və ya tavaşəkilli bütöv; monolit və sənaye üsulu ilə istehsal edilmiş detallardan yığma; çevik (əyilgən) və sərt olur. Lentvarı B. yükdaşıyan divarların, həmçinin karkasın sütunları ilə müntəzəm yüklənən ardıcıl yeraltı divarlardan ibarətdir. Dirəkvarı B. tək-tək yeraltı dirəklərdən ibarət olur, özüldən qrunta düşən təzyiq qruntun ana təbəqəsinin norma üzrə qəbul edə biləcəyi təzyiqdən az olduqda, yaxud ana təbəqə daha dərində yerləşdikdə istifadə edilir. Bütöv B. özülə düşən ağırlıq çox, əsasın qruntu isə zəif olduqda tikilinin bütün sahəsi üzrə salınan səlt konstruksiyadır, qabırğalı və ya qabırğasız qurulur. B. qurmaq üçün *kesson*, endirmə quyusu, dərin dayaqlar, yortaclar və s. konstruksiyalardan da istifadə olunur. Endirmə quyusu öz ağırlığının təsiri ilə qrunta ye-




**Bünövrə:** *a* – bütöv (tava) bünövrə; *b* – lentvarı (yığma) bünövrə; *c* – sütunaltı yığma (çoxbloklu) bünövrə; *ç* – dirəkvarı bünövrə: *1* – beton bloklar üçün dirək; *2* – dəmir-beton bünövrə tiri; *3* – divar hörgüsü.

ridilən içiboş silindr şəklində dəmir-beton konstruksiyadır; əsasən, dərin B.-lər və dayaqlar qurmaq üçündür. Çala qazılmadan B. qurmaq üçün dərin dayaqlar üsulu tətbiq edilir: əvvəlcədən hazırlanmış dəmir-beton konstruksiya qrunta basdırılır, yaxud qruntda qazılmış quyu və xəndəklər doldurulur. Mərkəzləşdirilmiş yükü böyük olan tikililərdə tətbiq edilən dərin dayaqlar 30 *m* və daha çox dərinliyə basdırılır. Texniki və iqtisadi cəhətdən daha əlverişli olan yortaclı B. qruntu zəif sıxlaşmış əsaslarda və ya ana təbəqə çox dərində yerləşdikdə işlədilir. B.-nin konstruksiyası tikinti meydançasının geol. və hidrogeoloji şəraiti, tikilinin xarakteri və təyinatı, yük təzyiqi və əsasın daşıyıcılıq qabiliyyətindən asılı olaraq müəyyən edilir.

**BÜNYAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 27 *km* ş.-də, Marağa–Miyanə avtomobil yolundan 34 *km* c.-dadır.

**BÜNYADABAD** – Azərb. Resp. Yevlax r-nunun Səmədabad ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* c.-q.-də, İncəçayın sahilindədir. Əh. 398 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BÜNYADABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Tərik bölgəsinin Gərm kəndistanında, Tərik qəs.-ndən 25 *km* şm.-ş.-də, Miyanə–Xalxal avtomobil yolunun 28 *km*-liyindədir.

**BÜNYADLI** – Azərb. Resp. Beyləqan r-nunda kənd. Bünyadlı ə.d.-nin (Bünyadlı, Gödəklər k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 32 *km* ş.-də, Mil düzündədir. Əh. 2109 (2008); əkinçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana, uşaq bağçası, poçt, rabitə qovşağı var.

**BÜNYADLI** – Azərb. Resp. Xocavənd r-nunun Arakül ə.d.-ndə kənd. R-n mərkəzindən 99 *km* c.-q.-də, Qarabağ silsiləsinin c.-ş. ətəyindədir. Əh. 58 (2008); işğaldan (1992, oktyabr) əvvəl əkinçilik, üzümçülük və heyvandarlıqla məşğul olmuşdur. İbtidai məktəb, klub var idi.

**BÜNYADOV** Nurəli Nağdəli oğlu (21.8.1917, Erm. SSR Qafan r-nunun Yuxarı Girətağ k. – 24.4.1980, Bakı) – Azərb. travmatoloqu, tibb e.d. (1966), prof. (1967). Azərb. SSR əməkdar həkimi (1966). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1941). Həmin in-tda travmatologiya və ortopediya kafedrasının müdiri işləmişdir (1968–79). Tədqiqatları, əsasən sümük sınıqları, zədələnmiş dərinin plastik bərpası məsələlərinə həsr edilmişdir. 80-ə yaxın elmi əsərin müəllifidir.

**BÜNYADOV** Teymur Əmiraslan oğlu (d. 20.1.1928, Qazax r-nunun İkinci Şıxlı k.) – Azərb. etnoqrafı, tarix e.d. (1968), prof. (1970), AMEA-nın akad. (2001; m. üzvü 1989), əməkdar elm xadimi (2008). Azərb. Dövlət Un-tini bitirmişdir (1951). Azərb. EA Tarix İn-tunda kiçik elmi işçi, baş elmi işçi (1955–67), tarix və etnoqrafiya şöbəsinin müdiri (1967–93) vəzifələrində çalışmışdır. 1993 ildən EA-nın Arxeologiya və Etnoqrafiya İn-tunda tarixi etnoqrafiya şöbəsinin müdiridir.



Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı, Milli Məclisin Elm və Təhsil Məsələləri üzrə Daimi Komissiyasının sədri olmuşdur. Azərb. Resp. Prezidenti yanında Ali Ekspert Komissiyasının arxeologiya və etnoqrafiya elmləri üzrə müdafiə şurasının sədridir. Azərb. Yazıçılar Birliyinin üzvüdür. 400-dən çox elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın müəllifidir. Bir sıra ümumiləşdirici əsərin, o cümlədən üç cildlik "Azərbaycan etnoqrafiyası"nın baş redaktorudur. Elmi kadrların hazırlanmasında xidməti var. Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir (2005).

Əsərləri: Azərbaycan arxeologiyası oçerkləri. B., 1960; Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair. B., 1964; Azərbaycanda maldarlığın inkişaf tarixindən. B., 1969; Əsrlərdən gələn səslər. B., 1993.

**BÜNYADOV** Teymur Nağdalı oğlu (25.12.1911, Erm. SSR Qafan r-nunun Girətağ k. – 9.4.1974, Bakı) – gen.-m. (1966). Azərb. Sənaye İn-tunu (1937) və Moskvada Ali Partiya Məktəbini (1941) bitirmişdir. 1941 ildə orduya çağırılmış, F.E. Dzerjinski ad. Artilleriya Akademiyası nəzdində artilleriya birləşmələri üçün komissarlar hazırlayan birillik kursu bitirmiş, Stalinqrad və Cənub-Qərb cəbhələri siyasi idarələrində baş təlimatçı olmuşdur. 1946–52 illərdə "Buzovnaneft" tresti rəisinin müavini, Azərb. SSR yeyinti sənayesi nazirinin birinci müavini və s. vəzifələrdə işləmişdir. 1952 ildə yenidən hərbi xidmətə çağırılmış, diviziya siyasi idarəsinin rəisi təyin edilmişdir (1955 ilədək). 1955–60 illərdə Azərb. SSR daxili işlər nazirinin müavini, 1960–67 illərdə Azərb. SSR Daxili İşlər Nazirliyində (DİN) komandir, 1967–70 illərdə SSRİ DİN qoşunlarının Zaqafqaziya üzrə komandirinin birinci müavini olmuşdur. 1970–74 illərdə Azərb. SSR DİN-də işləmişdir. 2-ci dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz ordenləri və medallarla təltif olunmuşdur.



**BÜNYADOV** Ziya Musa oğlu (21.12. 1923, Astara – 21.2.1997, Bakı) – Azərb. şərqşünası, tarix e.d. (1964), prof. (1965), Azərb. EA akad. (1976; m. üzvü 1967), Azərb. SSR Dövlət mükafatı laureatı (1980), əməkdar elm xadimi (1982), Sovet İttifaqı Qəhrəmanı (27.2.1945). Berlin şəhərinin Pankov r-nunun (Almaniya), Urgənc (Özbəkistan), Astara və Göyçay (Azərbaycan) şəhərlərinin fəxri vətəndaşı.



1939 ildə Bakıda hərbi məktəbə daxil olmuşdur. Böyük Vətən müharibəsində taqım və bölük komandiri kimi Berlinədək döyüş yolu keçmiş, Berlinin alınmasından sonra şəhərin rayonlarından birinin komendantı təyin edilmişdir. Müharibə illərində 5 orden (o cümlədən Aleksandr Nevski, 2-ci dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz və s.) və 17 medalla təltif olunmuşdur.

Moskva Şərqşünaslıq İn-tunu bitirmişdir (1950). 1954–64 illərdə Azərb. EA-nın Tarix İn-tunda baş elmi işçi, 1964 ildən Yaxın və Orta Şərq Xalqları İn-tunda orta əsrlər tarixi şöbəsinin müdiri işləmişdir. 1980 ildən Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasının üzvü, 1981–86, 1988–91, 1992–97 illərdə Şərqşünaslıq İn-tunun direktoru, 1990 ildən EA-nın vitse-prezidenti idi. Orta əsrlər tarixi və mənbəşünaslıq üzrə elmi məktəbin banisidir. 250 elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın müəllifidir. Qurani-Kərimi Azərb. dilinə izahlı tərcümə etmişdir (V.M. Məmmədəliyevlə birlikdə). Müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq konqres və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Elmi kadrların hazırlanmasında xidmətləri var. Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur. Azərb. Resp.-nın "İstiqlal" ordeni ilə (ölümündən sonra) təltif edilmişdir. Cinayətkar qrup tərəfindən qətlə yetirilmişdir.

Əsərləri: Азербайджан в VII—IX вв. Б., 1965; Государство атабеков Азербайджана: 1136–1225. Б., 1978; Государство Хорезмшахов-Ануштегинидов. 1097–1231. М., 1986; Azərbaycan Atabəyləri dövləti: 1136–1225-ci illər. B., 2007; Azərbaycan VII—IX əsrlərdə. B., 2007.

**BÜNYADOVA** Şirin Teymur qızı (d.16. 3.1963, Bakı) – Azərb. etnoqrafı, tarix e. d. (2008). Azərbaycan Dövlət Un-tini bitirmişdir (1984). Azərb. EA-nın Tarix İn-tunda kiçik elmi işçi (1990–91), elmi işçi (1991–93), baş elmi işçi (1993–99) vəzifələrində çalışmışdır. 1999 ildən AMEA-nın Arxeologiya və Etnoqrafiya İn-tunun aparıcı elmi işçisidir. Bir neçə elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir.

Əsərləri: Nizami və etnoqrafiya. B., 1992; Azərbaycan qonaqpərvərliyi. B., 2005; Azərbaycanın təsərrüfatı və maddi mədəniyyəti. B., 2007.

**BÜNYADZADƏ** Ağababa Balağa oğlu (19.7.1915, Bakının Kürdəxanı k. – 17.12.1974, Bakı) – Azərb. opera müğənnisi (bariton). Azərb. SSR xalq artisti (1955). 1936 ildən Azərb. Dövlət Filarmoniyasının xorunda oxumuş, 1938 ildən Azərb. Opera və Balet Teatrının solisti olmuşdur. 1938–39 illərdə Qnesinlər ad. Musiqi Məktəbinin (Moskva) vokal şöbəsində təhsil almış, Bakıda opera studiyasını (1940) bitirmişdir. B.-nin müğənni-aktyor kimi yetişməsində rej.-lardan İ.*Hidayətzadə* və S.*Dadaşovun* böyük rolu olmuşdur. Güclü, məlahətli və geniş diapazonlu səsə malik olan B. müxtəlif xarakterli, xüsusilə dramatik partiyalarda böyük müvəffəqiyyətlə çıxış etmişdir. Əsas partiyaları: Həsən xan ("Koroğlu", Ü.Hacıbəyli), Aslan şah ("Şah İsmayıl", M.Maqomayev), Ağalar bəy ("Nərgiz", M.Maqomayev), Şahvələd ("Aşıq Qərib", Z.Hacıbəyli), Eskamilyo ("Karmen", J.Bize), Şapur ("Xosrov və Şirin", Niyazi), Mərdan ("Vətən", Q.Qarayev və C.Hacıyev), Atakişi ("Sevil", F.Əmirov), Kiazo ("Daisi", Z.Paliaşvili), Fiqaro ("Sevilya bərbəri", C.Rossini), Yaqo, Riqoletto, Jermon, Amonasro ("Otello", "Riqoletto", "Traviata", "Aida", C.Verdi), Yavər ("Azad", C.Cahangirov) və s. 1967 ildə "Şah İsmayıl" operasının quruluşunu vermişdir. SSRİ-nin bir çox şəhərində, Bolqarıstan və Rumıniyada çıxış etmişdir. Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.





Bünyadzadə A. Həsən xan ("Koroğlu", Ü. Hacıbəyli) rolunda.

**BÜNYADZADƏ** Dadaş Xoca oğlu (8.4.1888, Bakı qəzasının Fatmayı k. – 1938) – sovet partiya və dövlət xadimi. 1908 ildən Sov. İKP üzvü. Kəndli ailəsində doğulmuşdur. Bakıda və Tiflisdə gizli partiya işi aparmış, dəfələrlə həbs edilmişdir. 1917–18 illərdə "Hümmət" təşkilatının, Bakı qəza Kəndli Deputatları Sovetinin işində fəal iştirak etmişdir. 1918 il iyunun əvvəlində S. Şaumyanın başçılıq etdiyi *Bakı Xalq Komissarları Soveti* tərəfindən əksinqilaba və banditizmə qarşı mübarizə üzrə fövqəladə müvəkkil təyin olunmuşdu. Bakıda sovet hakimiyyətinin süqutundan sonra Həştərxana getmiş, RK(b)P Həştərxan qub. komitəsinin üzvü və Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlığın sədri olmuşdur. Şərq xalqları kommunist təşkilatlarının 1-ci qurultayının (1918, noyabr) iştirakçısı idi. 1919 ilin iyulunda RK(b)P Qafqaz Diyar Komitəsi yanında Hərbi İnqilab Qərargahı sədrinin müavini təyin olunmuşdur. AK(b)P-nin 1-ci qurultayında (1920, fevral) MK üzvü seçilmişdir. 1920 ilin martında Azərbaycan Xalq Cümhuriyyətinə (AXC) qarşı fəal mübarizə aparmış B.-ni AXC hökuməti güllələnməyə məhkum etmişdi. Azərb.-da silahlı çevrilişə rəhbərlik edən hərbi-inqilabi qərargahın üzvlərindən biri kimi *Aprel işğalından (1920)* sonra Azərb. İnqilab Komitəsi və AK(b)P MK Təşkilat Bürosunun üzvü olmuşdur. Azərb. SSR xalq maarif, fəhlə-kəndli müfəttişliyi, ərzaq, torpaq komissarı, Dövlət Plan Komissiyasının sədri, Azərb. SSR XKS sədrinin müavini, sonra sədri, ZSFSR xalq torpaq komissarı vəzifələrində çalışmışdır. AK(b)P MK, ÜİK(b)P Zaqafqaziya Diyar Komitəsinin, Azərb. SSR, ZSFSR və SSRİ MİK-lərinin üzvü seçilmişdir. AK(b)P daxilində baş verən ixtilaflarda milli təmayülçülər qrupunun üzvü olmuşdur. SSRİ-də çətinliklərin yaranacağı və Azərb.-da hakimiyyətin təmayülçülərə keçəcəyi təqdirdə onların təşkil edəcəkləri "İctimai etimad" hökumətinin tərkibinə daxil idi. B. 1937 ildə həbs edilmiş, 1938 ildə güllələnmişdir.

**BÜNYADZADƏ** Könül Yusif qızı (d.2.7.1974, Erm. SSR Basarkeçər r-nunun Zod k.) – Azərb. şərqşünası, fəlsəfə e.d. (2008), prof. (2009). Bakı Dövlət Un-tini (1997) bitirmişdir. Həmin ildən AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İn-tunda çalışır. Tədqiqatları Şərq və Qərb fəlsəfəsində irrasional idrak probleminin öyrənilməsinə həsr olunmuşdur. Bir neçə monoqrafiyanın, onlarla elmi məqalənin müəllifidir. Beynəlxalq konfrans və simpoziumların (Fransa, Belçika, İtaliya, İndoneziya, Koreya və s.) iştirakçısıdır.

Əsərləri: Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk. B., 2006; Gəncliyin fəlsəfəsi. B.,



İçərişəhər (Bakı) qala divarlarının bürcləri.

2009; İslam fəlsəfəsi: tarix və müasirlik. B., 2010.

**BÜNYATOV** Mənsur Oyandur oğlu (d.4.6.1966, Bakı) – Azərb. tibb alimi, məhkəmə-tibb eksperti, tibb e.d. (2003), prof. (2011). Azərb. Dövlət Tibb İn-tunu (1989), Bakı Dövlət Un-tinin hüquq fakültəsini (1998) bitirmişdir. 1995 ildən ATU-nun məhkəmə təbabəti kafedrasında (2004 ildən kafedra müdiri), eyni zamanda 1998 ildən Azərb. Resp. Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibb Ekspertizası və Patoloji Anatomiya" birliyində baş direktorun müavini işləyir, Səhiyyə Nazirliyinin baş məhkəmə-tibb ekspertidir (2004 ildən). 80-ə yaxın elmi əsərin müəllifidir.

**BÜNYATZADƏ** Aydın Əli oğlu (10.4. 1933, Gəncə – 21.3.1996, Bakı) – Azərb. kimyaçısı, kimya e.d. (1970), prof. (1974). Azərb. Dövlət Un-tini bitirmişdir (1957). Azərb. Elmi Tədqiqat Olefinlər İn-tunda laboratoriya müdiri (1962–96), direktor müavini (1990–91; 1995–96), direktor (1991–93) vəzifələrində çalışmışdır. Tədqiqatları modifikasiya edilmiş oksixrom katalizatorların iştirakı ilə kiçikmolekullu olefinlərin və dien karbohidrogenlərinin polimerləşmə və birgəpolimerləşmə proseslərinin öyrənilməsinə həsr edilmişdir. 400 elmi əsərin, o cümlədən bir monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r i: Полиэтилен (A.M. Abbasov və F.M. Sadıxovla birlikdə ). B., 1997.

**BÜNYATZADƏ** Ziya Əli oğlu (25.10. 1937, Gəncə – 22.10.1997, Bakı) – Azərb. geoloqu, geologiya-mineralogiya e.d. (1991), Azərb. SSR Dövlət mükafatı laureatı (1988). Azərb. Dövlət Un-tinin geologiya-coğrafiya fakültəsini (1960) bitirmişdir. Azərb. EA Geologiya İn-tunda kiçik elmi işçi (1960–64), Azərb. Resp. Nazirlər Soveti sədrinin referenti və işlər müdirinin müavini (1964–70) vəzifələrində çalışmışdır. 1971 ildən Geologiya İn-tunun "Neftin genezisi və böyük dərinliklərin neft-qazlılıq problemi" laboratoriyasında baş elmi işçi, laboratoriya rəhbəri olmuşdur. Azərb. SSR-in neft-qaz yataqları və perspektivli strukturlarının xəritəsinin tərtibçilərindən biridir.

1 monoqrafiyanın həmmüəllifi, 150-dən çox elmi əsərin müəllifidir.

Ə s ə r i: Нефтегазоносность Азербайджанской ССР. Б., 1987.

**BÜRAQ,** ə l - B ü r a q (ər. البراق) – bir sıra *hədislərə* görə, islam peyğəmbəri Məhəmmədi "bir göz qırpımında" Məkkədən Qüdsdəki Məscidi-Əqsaya çatdıran, oradan da Allah dərgahına qaldıran (bax *Merac*) qanadlı heyvan. Quranın əl-İsra surəsində Allahın Məhəmmədi bir gecənin içində Məkkədəki Məscidi-Həramdan (Kəbə evindən) Məscidi-Əqsaya apardığı bildirilsə də, bu səyahətin məhz B.-la edildiyi haqqında heç nə deyilmir. Hədislərdə B. ağ rəngli, olduqca sürətli və qatırla eşşəyin əlamətlərini (məs., uzun qulaqlarının olması) daşıyan, lakin ayaqları qanadlı heyvan kimi təsvir edilir. Son orta əsrlərdə B. insan sifətli qanadlı at kimi təsvir olunurdu. Bəzi hədislərdə deyilir ki, peyğəmbər Məscidi-Əqsada digər peyğəmbərlərin imamı kimi onlarla birlikdə namaz qılmış, sonra yenə B.-ın köməyi ilə səmaya yüksəlmişdir. Hədislərə görə, B.-ı islam peyğəmbərindən əvvəlki peyğəmbərlər də minmişlər. Məs., *İbrahim* Kəbəni bu heyvanın tərkində ziyarət etmişdir (Təbəri, "Təfsir"). B.-ın belində səmada uçan Məhəmməd peyğəmbərin təsviri kitab miniatürlərində ən geniş yayılmış süjetlərdən biridir.

**BÜRC** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Quruçay kəndistanında, Qaraağac qəs.-ndən 35 *km* şm.-q.-də, Marağa–Miyanə avtomobil yolunun üstündədir.

**BÜRC** – qədim şəhərlərin divarları üzərində tikilən müşahidə və müdafiə qurğusu. İri qəsr və qalaların künclərindəki dairəvi hündür çıxıntılara da B. deyilir. B.-lər daşdan, kərpicdən, ağacdan tikilirdi. Bakının İçərişəhər qala divarlarının, Mərdəkan və Ramana qalalarının B.-ləri gözəl memarlıq nümunələridir.

**BÜRC** – ulduzlu göyün hissəsi. Ulduzların müşahidə və öyrənilməsinin əlverişliliyi üçün *ulduzlu göy* bürclərə (ulduz qruplarına) bölünür. Bürclərin əksəriyyətinə qədim zamanlardan əfsanəvi qəhrəmanların (*Herkules, Persey*), heyvanların (*Qoç, Buğa*) və əşyaların (*Üçbucaq, Günyə*) adları verilmişdir. Göy qübbəsi 88 bürcə ayrılır. Ulduzlar B. adının axırına yunan, latın hərfləri və ya rəqəmlər əlavə etməklə (parlaqlığın azalmasına doğru) göstərilir. Bürclərin ən parlaq ulduzu $\alpha$ ilə işarə edilir (məs., *Arabaçının* $\alpha$ -sı).

**BÜRCƏLİ** – Azərb. Resp. Lənkəran r-nunun Xanbulan ə.d.-ndə kənd. R-n mərkəzindən 12,5 *km* c.-da, Lənkəran–Astara avtomobil yolunun kənarındadır. Əh. 2168 (2008); çayçılıq, sitrusçuluq və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, mədəniyyət evi, feldşer-mama məntəqəsi, "Motel" istirahət kompleksi, "Xanbulaq" sudoldurma sexi, poçt, ATS var.

**BÜRCƏLİYEV** Məmməd İsmayıl oğlu (25.4.1914, Nuxa, indiki Şəki – 25.11. 1994, Gəncə) – Azərb. aktyoru, rejissor. Azərb. SSR xalq artisti (1958). 1932–35 illərdən Şəki Dövlət Dram Teatrında fəaliyyət göstərmiş, 1935 ildən ömrünün sonunadək C.Cabbarlı ad. Gəncə Dövlət Dram Teatrında işləmişdir. Yumor ustası olan B. bir sıra xarakterik obrazlar yaratmışdır. Əsas rolları: Osip ("Müfəttiş", N.V.Qoqol), Şəkərlinski ("Kəndçi qızı", M.İbrahimov), Azər baba, Kürd Musa ("Fərhad və Şirin", "Vaqif", S.Vurğun), Səfər ("Əliqulu evlənir", S.Rəhman) və s. B. "Ölülər" (1958, C.Məmmədquluzadə), "Həmyerlilər" (1960, A.Məmmədov), "Anacan" (1962, Y.Əzimzadə), "Ürək yanmasa" (1964, T. Məmmədov), "Dağlı qızı" (1969, R.Həmzətov), "Onuncular" (1987, T. Mahmud) və s. əsərləri tamaşaya qoymuşdur. "Yadigar" pyesinin (1948) müəllifidir. "Mən ki gözəl deyildim" (1968, Əsgər, rej. T. Tağızadə və b.), "Dəli Kür" (1969, Allahyar, rej. H. Seyidzadə), "Qəm pəncərəsi" (1986, Rəşid bəy, rej. Anar), "O dünyadan salam" (1992, Hacı Baxşəli, rej. T. Tağızadə) və s. filmlərdə çəkilmişdir.





Bürcəliyev M. Kərşivaz ("Səyavuş", H. Cavid) rolunda.

**BÜRCƏLİYEVA** Kərimət Məhəmməd qızı (10.4.1925, Balakən r-nunun Qazma k. –20.11.1985, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1948). 1947 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BÜRCİYYƏ** – Misir məmlük sultanlığının ikinci dövründə ölkəni idarə etmiş sülalə [1382–1517]. Çərkəz mənşəli idilər. Adlarını Qahirədəki "əl-Bürc" qalasında yerləşdirilmiş məmlük qrupundan almışdılar. Bəhriyyə məmlükləri 1250–82 illərdə ölkəni idarə etdikdən sonra *Bərkuk* hakimiyyəti ələ keçirmiş və "əl-məmalikül-Bürciyyə" ("əl-məmalikül-Çərakizə") dövlətinin banisi olmuşdur. Bu dövlətin hökmdarları seçki yolu ilə seçilirdilər. 1517 ildə sultan I Səlimin Misiri tutması ilə B. məmlüklərinin hakimiyyətinə son qoyuldu.

**BÜRCLÜ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Nir kəndistanında, Ərdəbil ş.-ndən 39 *km* q.-dədir.

**BÜRCLÜ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Yaft kəndistanında, Horand qəs.-ndən 37,5 *km* c.-ş.-dədir.

**BÜRGER MƏKTƏBLƏRİ** (alm. Bürger – şəhərli) – 17–18 əsrlərdə Almaniya şəhərlərində sənətkar, xırda tacir və b.-nın uşaqları üçün açılan yüksək tipli ibtidai məktəblər. B.m.-ndə riyaziyyat, coğrafiya, təbiətşünaslıq və bəzi tətbiqi fənlər (məs., hesabdarlıq) tədris olunurdu. 19 əsrdə B.m. 4 illik ali ibtidai (4 illik ibtidai təhsildən sonra), yaxud 6 illik realni məktəbə çevrilmişdi.

**BÜRGERLƏR** (alm. Bürgertum, Bürger – şəhərli sözündən) – orta əsr şəhərlərinin əmlaka malik olan və şəhər hüququnun təsir dairəsində olan şəxsən azad sakinləri. B. 11 əsrdə şəhərlərdəki əhalinin şəhər torpaqları uğrunda feodal istismarı və özbaşınalığından qurtulmaq naminə senyorlarla apardığı mübarizə gedişində təşəkkül tapmışdı. B. əmlak baxımından fərqli idilər. Yuxarı təbəqəyə iqtisadi və siyasi cəhətdən hakim mövqeyə malik olan, çox vaxt şəhərlərə məxsus torpaqlarda yaşayan kəndlilərlə münasibətdə senyor rolunda çıxış edən *patrisiat* aid idi; əslində, iqtisadi sərbəstliyini itirmiş və istismara məruz qalan xırda sənətkarlar və tacirlər onlara müqavimət göstərirdilər. Silki nümayəndəli monarxiya meydana gəldikdə yalnız B.-in yuxarı təbəqəsi silki nümayəndəli orqanların fəaliyyətində iştirak etmək hüququna malik idi. Feodal cəmiyyətinin tərkib hissəsi olan B. feodalizm sisteminin dağılmasına gətirib çıxaran əmtəə-pul münasibətlərinin inkişafına şərait yaradırdılar. 16–18 əsrlərdə kapitalist istehsal üsuluna keçən, silki ayrı-seçkiliyin və imtiyazların ləğvində maraqlı olan B.-in bir hissəsi formalaşan burjuaziyanın özəyini təşkil etdi.

**BÜRHAN MİRZƏ,** B ü r h a n ə l i S u l t a n (? –1549, başqa məlumatlara görə 1551) – Səfəvi hakimiyyətinə qarşı Şirvan üsyanının (1547–49) başçısı; bəzi məlumatlara görə şirvanşah II Xəlilüllahın oğlu. Səfəvi-Osmanlı müharibəsinin başlamasından istifadə edən, osmanlıların və Qaytaq usmisi Xəlil bəyin yardımına arxalanan B.M. Şamaxını tutub (1549) özünü şirvanşah elan etmişdi. Feodal zülmündən narazı olan kəndlilər üsyanın əsas hərəkətverici qüvvəsi idi. Sultan II Süleyman B.M.-ni Şirvan hakimi kimi tanımış, ona hərbi qüvvə göndərmişdi. 1549 ildə *Abdulla xan Ustaclı* üsyanı yatırdı. Bir məlumata görə B.M. üsyan yatırılan zaman öldürülmüş, digər məlumata görə isə Şirvandan qaçmışdır.

**BÜRHAN TƏBRİZİ** (Məhəmməd Hüseyn ibn Xələf Təbrizi; ?, Təbriz – ?) – 17 əsr Azərb. filoloqu, lüğətşünas. Hindistanda yaşamış, Heydərabad valisi Sultan Abdulla Qütbşaha ithaf etdiyi "Bürhane-qate" (1652) adlı fars dilinin izahlı lüğətini də orada yazmışdır. Təqr. 20 min sözü əhatə edən həmin lüğət Şərq ölkələrində əlyazma şəklində geniş yayılmış, sonralar Bombey, Kəlkətə, Laknau, Tehran və İstanbulda dəfələrlə nəşr olunmuşdur. Lüğətin əlyazma nüsxələri dünyanın bir çox kitabxanasında, habelə Azərb. MEA Əlyazmalar İn-tunda saxlanılır.

**BÜRHANƏDDİN** – bax *Qazi Bürhanəddin.*

**"BÜRHANİ-HƏQİQƏT"** (بر هان حقیقت) – Azərb. ədəbi, ictimai-siyasi jurnalı. 1917 il yanvarın 1-dən iyunun 29-dək İrəvanda nəşr edilmişdir. Cəmi 9 nömrəsi çıxmışdır. Müdiri və mühərriri Əli Hacı Zeynalabdinzadə (Rəhimov), naşiri Həsən Mirzəzadə (Əliyev) idi.

**BÜRHANOV** Əsləddin Bədriddinoviç (8.1.1915, Buxara – 26.12.1998, Düşənbə) – tacik aktyoru və rejissoru. SSRİ xalq artisti (1965). Rudəki ad. Tac. SSR Dövlət mükafatı laureatı (1970). 13 yaşından Buxaranın bədii özfəaliyyət dərnəklərində çıxış etmişdir. 1932 ildə Buxara musiqili-dram teatrında səhnə fəaliyyətinə başlamış, 1933 ildən Lahuti ad. Tacikistan Dövlət Dram Teatrının aktyoru olmuşdur. Qəhrəmanların psixoloji aləminə dərindən nüfuz etmək, səhnə ifadə vasitələrinin zənginliyi, lirizm, yüksək temperament B.-un aktyor oyunu üçün səciyyəvidir. Rolları: Əlişir Nəvai ("Əlişir Nəvai", Uyğun və İ. Sultanov), Yadigar ("Doxunda", C. İkrami), Kent, Yaqo ("Kral Lir", "Otello", U. Şekspir), Xlestakov ("Müfəttiş", N. Qoqol), Hacıvəqqas ("Beş manatlıq gəlin", M.S. Ordubadi), Koba ("Xanlar", S. Vurğun) və b. "Ölülər" (C. Məmmədquluzadə), "Beş manatlıq gəlin" (M.S. Ordubadi), "Rudəki" (S. Uluqzadə), "Rəqs müəllimi" (Lope de Veqa), "İki veronalı" (U. Şekspir) və s. əsərləri tamaşaya qoymuşdur. Kinofilmlərə çəkilmişdir: "Mən bir qıza rast gəldim" (1957), "Zümrüd" (1961), "Salam, əziz insan" (1973), "Qanq üzərində şəfəq" (1975) və s. Pedaqoji fəaliyyət də göstərmişdir.



**BÜRHANOV** Şükür (15.9.1910, Daşkənd – 15.8.1987, Daşkənd) – özbək aktyoru. SSRİ xalq artisti (1959). Həmzə ad. Özb. SSR Dövlət mükafatı laureatı (1965). 1927 ildən Özbəkistan Dövlət Dram Teatrında fəaliyyət göstərmişdir. Əsasən, romantik, psixoloji və satirik obrazlar yaratmışdır. Rolları: Qulam ("Namus və məhəbbət", K. Yaşen), Qafur ("Bəy və muzdur", Həmzə), Fərhad ("Məhəbbət əfsanəsi", N. Hikmət), Uluqbəy ("Mirzə Uluqbəy", M. Şeyxzadə), Hamlet ("Hamlet", U. Şekspir), Voynitski ("Vanya dayı", A. Çexov) və b.



"Tahir və Zöhrə" (1945), "Asiya üzərində tufan" (1965), "İnqilab süvariləri" (1968), "Qara konsulun məhvi" (1971), "Yaxın və uzaq illər" (1976) və s. filmlərdə, eləcə də "Azərbaycanfilm"in istehsal etdiyi "Qızılqaz" (1972) filmində çəkilmişdir.

**BÜRNUF** (Burnouf) Ejen (12.8.1801, Paris – 28.5.1852, Paris) – fransız şərqşünası. Xartiyalar məktəbində (1822) və Hüquq məktəbində (1823–24) təhsil almışdır. Kollej de Fransın prof.-u (1832) və Fransa İn-tu Kitabələr Akademiyasının üzvü. Pali dilinin elmi tədqiqinin əsasını qoymuş, buddizm problemləri ilə məşğul olmuş, Avesta ədəbiyyatı və dilini araşdırmışdır. "Bhaqavat-purana"nı fransız dilinə tərcümə etmişdir (1–5 cildlər, 1840–98).

**BÜROKRATİYA** (hərfi mənada – dəftərxana hökmranlığı; fr. bureau – büro, dəftərxana və yun. κρατος – güc, hakimiyyət, hökmranlıq) – xüsusi peşə hazırlığına malik və dəqiq müəyyən edilmiş səlahiyyət çərçivəsində formal qaydalara uyğun fəaliyyət göstərən vəzifəli şəxslərdən ibarət idarəetmə aparatı. "B." terminini ilk dəfə 1745 ildə fransız iqtisadçısı V. de Qurne (1712–59) işlətmişdir. B. ilk əvvəl dövlət idarəetmə sistemində meydana gəlmişdir. 20 əsrdə bürokratik aparat sənaye müəssisələrində, siyasi partiyalarda, həmkarlar ittifaqlarında, təhsil idarələrində yayılaraq, hər bir iri təşkilatın ayrılmaz elementinə çevrildi. Kütləvi şüurda və siyasi publisistikada B.-ya, bir qayda olaraq, yalnız formalizm, səriştəsizlik, korrupsiya kimi neqativ cəhətlər aid edilir. Sosiologiya və politologiyada bürokratik idarəetmənin həm pozitiv, həm də neqativ tərəfləri nəzərdən keçirilir.

B. fenomeninin nəzəri təhlilinə 19 əsrin ortalarından başlanılmışdır. Fransada dövlət idarəetmə sisteminin təkamülünü təsvir edən A. de *Tokvil* "köhnə qayda" dövrü ilə 1789 il inqilabından sonrakı dövrün inzibati idarələri arasındakı varisliliyi göstərmişdir. Tokvil cəmiyyətin hakim təbəqəsi olan dövlət məmurlarını feodal aristokratiyasını əvəz edən yekcins qrup kimi səciyyələndirmişdir. K. *Marks* B.-nı kapitalist cəmiyyətində hakim sinfin – burjuaziyanın aləti kimi nəzərdən keçirmiş, lakin müəyyən şəraitdə dövlət aparatının sinfi maraqlardan asılı olmayaraq hərəkət etməsini mümkün saymışdır (məs., Bonapart diktaturası dövründə).

M. *Veber* B.-nın klassik nəzəriyyəsini işləmiş və bürokratik təşkilatın patrimonial və rasional tiplərini fərqləndirmişdir. Qədim Şərq dövlətlərində və Avropanın mütləq monarxiyalarında patrimonial B. mövcud idi. Bu tip B.-nı məmurların kifayət qədər ixtisaslaşmaması, onların səlahiyyətlərinin dəqiq bölünməməsi, tutduqları dövlət vəzifələrini mənimsəməyə meyilli olmaları fərqləndirirdi. Belə idarəetmə tipinin müəyyənedici əlaməti hakimiyyət münasibətlərinin şəxsiyyətdən asılı olması, hakimin əmrlərinin istənilən formal qaydalardan üstün tutulmasıdır.

19 əsrin 2-ci yarısında Qərbi Avropa dövlətlərində yeni tipli inzibati struktur – rasional B. təşəkkül tapmağa başladı. Bu tip struktur üçün formal-hüquqi başlanğıcın üstünlüyü səciyyəvidir. Veberə görə, rasional B. inkişaf etmiş sənaye cəmiyyətində ən effektiv idarəetmə formasıdır. İnzibati məsələlərin həllində bürokratik aparatdan istifadə ən yüksək dəqiqliyə, ardıcıllığa, intizama nail olmağa imkan verir.

B.-nın Veber analizi təşkilatların sosiologiyası çərçivəsində tamamlanmış, bürokratik idarəetmənin ən yüksək effektivliyi tezisinə yenidən baxılmışdır. Məs., R.K. *Merton* hesab edirdi ki, hər hansı bürokratik aparatın işi onun idarəetmə fəaliyyətinin effektivliyinin aşağı düşməsinə gətirib çıxaran əlavə fəsadlarla müşayiət olunur. M. Krozyeyə görə, bürokratik iyerarxiyanın müxtəlif səviyyələrində idarəedici personal öz qrup maraqlarından çıxış edərək informasiyanı təhrif edir. Bu səbəbdən təşkilat rəhbərliyinin inzibati personal üzərində nəzarəti labüd olaraq məhdudlaşır. Bürokratik idarəetmənin effektivliyi təşkilati qaydalarda nəzərdə tutulmayan vəziyyət yarandıqda da aşağı düşür.

Siyasət sosiologiyasında partiyalarda və digər siyasi birliklərdə idarəetmə aparatının formalaşmasının tədqiq olunması cəhdləri göstərilmişdir. 19 əsrin axırları – 20 əsrin əvvəllərində siyasi partiyaların bürokratlaşması prosesini M.Y. Ostroqorski və R. Mixels təhlil etmişlər. Ostroqorskiyə görə, partiyada bürokratik aparatın meydana gəlməsi ilə təşkilati struktur üzərində nəzarət funksionerlərin əlinə keçir, partiyanın sıravi üzvləri isə idarəetmədə iştirakdan kənarlaşdırılırlar. Mixelsə görə, partiyaların bürokratlaşması nəticəsində hakimiyyət proqram məqsədlərinin həyata keçirilməsinə deyil, öz rəhbər mövqeyini və bununla bağlı üstünlükləri saxlamağa can atan partiya məmurlarının əlində cəmləşir. S. Lipset təşkilat daxilində hakimiyyətin bölüşdürülməsinin bütün cəmiyyət çərçivəsində status fərqlərinin bölüşdürülməsi ilə əlaqəsini Amerika həmkarlar ittifaqlarının timsalında göstərmişdir. Lipsetə görə, oliqarxiya meyilləri funksionerlər ilə sıravi üzvlərin sosial statusları arasında olduğu həmkarlar ittifaqlarında daha bariz şəkildə üzə çıxır. P. *Burdye* bürokratik aparat ilə ona başçılıq edən siyasi lider arasında qarşılıqlı münasibətləri nəzərdən keçirərək, aparatın maraqlarının təşkilat üzvlərinin əksəriyyətinin maraqlarından üstün olmasına gətirib çıxaran sosial şəraiti müəyyənləşdirmişdir. 20 əsrin sonu – 21 əsrin əvvəllərində sosiologiya və politologiyada göstərilir ki, ictimai nəzarət olmadıqda bürokratik aparat müstəqil siyasi qüvvəyə çevrilə bilir. Bu tendensiyanın qarşısını almaq üçün təmsilçi demokratiya in-tları əsas mexanizm hesab edilir.

*Əd.:* Битэм Д. Бюрократия // Социологический журнал. 1997. № 4; Масловский М. В. Политическая социология бюрократии. М., 1997; Бурдье П. Дух государства: генезис и структура бюрократического поля // Поэтика и политика. СПб., 1999; Weber M. Wirtschaft und Gesellschaft Tüb., 2002; Вебер М. Политические работы (1895 – 1919). М., 2003.

**BÜRSÜLÜM** – Azərb. Resp. Lerik r-nunda kənd. Bürsülüm ə.d.-nin (Bürsülüm, Ancaqov, Bobla, Ləkər, Nosovyədi, Vənədi, Vov, Zeynəko k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 44 *km* c.-ş.-də, Ləmər çayının (Lənkəran çayının qolu) sağ sahilində, Peştəsər silsiləsinin yamacındadır. Əh. 245 (2008); əkinçilik, arıçılıq və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, rabitə şöbəsi var.

**BÜRUÇ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanın Sirdan bölgəsinin Aşağı Tarım kəndistanında, Sirdan qəs.-ndən 26 *km* c.-q.-dədir.

**BÜRÜNC** – mis və sinkdən (50%-ə qədər) ibarət ərinti. B. hələ e.ə. əritmə üsulu ilə əldə edilirdi. 18 əsrin axırlarınadək misi ağac kömürü qatılmış sink filizi ilə əritməklə B. alırdılar. Yalnız 19 əsrdə mislə sinkin birgə əridilməsindən B. almağa başladılar. Təzyiqlə emal olunmasına (isti və soyuq halda), yüksək mexaniki xassələrinə, rənginin gözəlliyinə və nisbətən ucuz başa gəlməsinə görə B. ən geniş yayılmış mis ərintisidir. Kimyəvi tərkibinə görə adi və xüsusi B. qrupları olur. İkikomponentli ərinti olan adi B. mis və sinkdən ibarətdir. Tərkibində sink (Zn) 10%-ə qədər olduqda tompak, 10–20% olduqda yarımtompak adlanır. Bu ərintilər korroziyayadavamlıdır, yüksək plastikliyə malikdir. Bunlardan polad məmulatların səthini örtmək, radiator, kondensator boruları və s. hazırlamaq üçün istifadə olunur. Tərkibində 30%-ə qədər Zn olan B. soyuq ştamplama, presləmə üsulu ilə məmulatlar hazırlanmasında tətbiq edilir. Çoxkomponentli və ya xüsusi B.-ə mis və sinkdən başqa 10%-ə qədər manqan, dəmir, silisium, alüminium, qalay, nikel, qurğuşun və s. elementlər qatılır. Bunlar B.-ün korroziyaya qarşı davamlılığını artırır, ona yüksək təzyiqlə emaledilmə və soyuq halda asanlıqla kəsilmə xassələri verir. Tərkibində 15% sink və 0,5% alüminium olan B. gözəl qızılı rəngə çalır, atm. korroziyasına çox davamlı olduğu üçün ondan fərqləndirmə nişanları və bədii məmulatlar hazırlanmasında (qızılın əvəzedicisi kimi) geniş istifadə edilir. B.-ə 1,5% qalay əlavə etdikdə onun dəniz suyu korroziyasına davamlılığı artır; belə B.-ə dəniz B.-ü deyilir. Tərkibində qurğuşun (3%-ə qədər) olan B., əsasən, avtomobil və saat istehsalında işlədilir. B. maşınqayırma, cihazqayırma, istilik texnikası və digər sənaye sahələrində tətbiq edilir.

**BÜRÜNCLƏMƏ** – elektrolitik üsulla metal (əsasən, polad) məmulat səthinin nazik (bir neçə *mkm*) *bürünc* qatı ilə örtülməsi. Bu məqsədlə tərkibində təqr. 70% mis və 30% sink olan adi bürünc daha çox tətbiq edilir. Çox vaxt B.-dən sonra məmulatın səthi nikellənir, qalaylanır və ya rezin qatı ilə (isti presləmə) örtülür. Nəticədə məmulatın korroziyaya və mexaniki yeyilməyə qarşı davamlılığı artır. B. titan və onun ərintilərinin antifriksion xassələrini yüksəldən üsullardan biridir.

**BÜRÜNLÜ** – Azərb. Resp. Zəngilan r-nunun Şərikan ə.d.-ndə kənd. R-n mərkəzindən 34 *km* şm.-q.-də, Oxçuçayın sahilində, dağətəyi ərazidədir. Əh. 154 (2008); işğaldan (1993, oktyabr) əvvəl tütünçülük, heyvandarlıq, bağçılıq və bostançılıqla məşğul olurdu. Əsas məktəb, klub, kitabxana; Böyük Vətən müharibəsi iştirakçılarının xatirəsinə abidə var idi.

**BÜRVƏND** – Azərb. Resp. Hacıqabul r-nunun Ələtli ə.d.-ndə kənd. R-n mərkəzindən 38 *km* c.-q.-də, Kür çayının sol sahilindədir. Əh. 174 (2010); əkinçilik və heyvandarlıqla məşğuldur.

**BÜRZÜNBÜL** – Azərb. Resp. Yardımlı r-nunda kənd. Bürzünbül ə.d.-nin mərkəzi. R-n mərkəzindən 10 *km* c.-ş.-də, Peştəsər və Burovar silsilələri arasındakı Yardımlı çökəkliyində yerləşir. Əh. 1142 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**BÜST** (fr. buste, lat. bustum – meyitin yandırıldığı yer, qəbirüstü abidə sözündən) – insanın sinədən, bəzən beldən, yaxud da çiyindən yuxarı hissəsinin dairəvi formada heykəl-portreti. Heykəltəraşlığın bu növü Qədim Misir və Qədim Yunanıstanda (əvvəlcə qəbirüstü portret kimi, Yunanıstanda həmçinin herma kimi) yaranmış, kompozisiyasına altlıq daxil edilməklə Qədim Roma incəsənətində əhəmiyyətli dərəcədə inkişaf etmişdi. *İntibah* dövründən başlayaraq Avropa incəsənətində (*Donatello*, F. *Laurana*, C.L. *Bernini*, J. A. *Qudon*, O. *Roden*, E.A. *Burdel*) geniş yayılmışdır. B. heykəltəraşlıq janrı Azərb. incəsənətində də inkişaf etmişdir. F. Əbdürrəhmanov (xalq şairi S. Vurğun, 1947, mərmər), C. Qaryağdı (bəstəkar Q. Qarayev, 1958–59, mərmər), M. Mirqasımov (Qız göyərçin ilə, 1959, mərmər), T. Məmmədov (Nizami Gəncəvi, 1954, ağac), Ö. Eldarov (S. Bəhlulzadə, 1966, ağac), P. Sabsay (S. Rəhimov, 1964, tunc), M. Rzayeva (M. Müşfiq, 1968, qranit) və b. sənətkarlar bu sahədə maraqlı əsərlər yaratmışlar.

**BÜŞGENS** Georgi Sergeyeviç (16.9.1916, Moskva – 13.7.2013, Moskva) – mexanika sahəsində rus alimi, REA-nın akad. (1981). Sosialist Əməyi Qəhrəmanı (1974). Lenin mükafatı (1961) və RF Dövlət mükafatı (2001) laureatı. Moskva Aviasiya İn-tunu bitirdikdən (1940) sonra Mərkəzi Aerohidrodinamika İn-tunda işləmişdir. Moskva Fizika-Texnika İn-tunun prof.-u (1963 ildən), kafedra müdiri (1982 ildən) olmuşdur. Əsas işləri UA-nın dinamikasına və aerodinamikasına aiddir. Təyyarələrin dinamikasının, onların səs sürətinədək və səsdən yüksək uçuş sürətlərində dayanıqlığının və idarə olunmasının analizinin hesablama mühəndis üsullarını işləyib hazırlamış və praktikaya tətbiq etmiş, təyyarəni idarəetmənin rasional avtomatlaşdırılması məsələlərini tədqiq etmişdir. B.-in nəzəri tədqiqatları əsasında səsdən sürətli təyyarələrin dinamikasının bir sıra xüsusiyyəti aşkar olunmuşdur; UA uzununa və eninə hərəkətində keçid proseslərinin keyfiyyət kriterisi təklif edilmişdir.

**Büst:** *1* – filosof Antisfen (e.ə. təqr. 375, heykəltəraş Alopekili Demetri); *2* – Şamama Həsənova (1952, heykəltəraş H. Əhmədov); *3* – Həzi Aslanov (1961, heykəltəraş C. Qaryağdı).



**BÜT** – 1) dini sitayiş obyekti olan maddi cisim. B.-ə pərəstiş – *bütpərəstlik* qədim zamanlarda meydana gəlmişdir. Bütpərəstlərin təsəvvürünə görə, B. allahı təcəssüm etdirir (əvəz edir) və ya özündə yerləşdirir, yaxud da allahın özüdür. Müasir dinlərdə B. ikona, çarmıx (çarmıxa çəkilmiş İsanın təsviri) və s. formalarda qalmaqdadır. Azərb.-da arxeoloji qazıntılar zamanı eramızın 1-ci minilliyinin 1-ci yarısına aid gil və daş B.-lər tapılmışdır; 2) məca-

zi mənada kor-koranə sitayiş obyekti; 3) klassik Şərq, o cümlədən Azərb. poeziyasında gözəl, dilbər, sənəm.

**BÜTÖV CÜMLƏ** – bütün üzvlərin iştirak etdiyi cümlə. İki növü var: geniş bütöv cümlə – tərkibində baş üzvlərdən əlavə ikinci dərəcəli üzvlərdən biri, bir neçəsi və ya hamısı iştirak edən cümlə; müxtəsər bütöv cümlə – baş üzvlərdən, yaxud da baş üzvlərin birindən ibarət cümlə.

*Əd.:* Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. H. 4. B., 1972.

**BÜTÖVBAŞLILAR** (Holocephali) – *yastıqəlsəməlilərə* yaxın qığırdaqlı balıqlar yarımsinfi. Bədəninin uz. 1,2 *m*-ədəkdir. Qığırdaq skeletlidir. Kəlləsi autostil tiplidir (damaq kvadrat qığırdağı bütünlüklə beyin çanağına bitişikdir). 4 qəlsəmə yarığı dəri büküşü ilə örtüldüyündən yalnız 1 cüt xarici qəlsəmə dəliyi var. Dişləri kəsici və ya doğrayıcıdır. Erkəklərin, qarın üzgəcləri kopulyasiya orqanı olan pteri-



Avropa ximeri (Chimaera monstrosa).

qopodilərə çevrilmişdir. Kloakası yoxdur; anal və sidik-cinsiyyət kanalı xaricə sərbəst açılır. Qazıntı B. Üst Devon dövründən məlumdur. 2 dəstəyə ayrılır: Daş kömür dövründə yaşamış əliüzgəcli ximerlər və hazırda yaşayan ximerkimilər (bax *Ximerlər*).

**BÜTPƏRƏSTLİK** – təbiətin cisim və əşyalarını ilahiləşdirən, ibtidai dinlərin (*animizm, fetişizm, totemizm, şamanizm* və s.) zəminində yaranmış dini etiqad. B. müxtəlif formalarda təzahür etmiş, müasir dinlərin əmələ gəlməsi ilə tədricən aradan çıxmışdır. Bax *Büt*.

**BÜVEYHİLƏR** – 935–1055 illərdə Qərbi İranda və İraqda hakimiyyətdə olmuş İran sülaləsi. Əsasını, əvvəllər İranda Ziyarilər sülaləsinin sərkərdələri olan Əhməd, Əli və Həsən Büveyhi qardaşları qoymuşlar. B. 935 ilədək Qərbi İranı, 945 ildə Bağdadı işğal edərək Abbasilər xilafətinin siyasi hakimiyyətinə son qoydular və öz sülalələrinin adı ilə adlanan B. dövlətinin müstəqil hakimləri oldular. 10 əsrin 2-ci yarısında qədim İran şahənşah titulunu qəbul etdilər. Sülalənin ən görkəmli nümayəndəsi Ədüddövlə [949–983] bir müddət B. dövlətinin bütün feodal torpaqlarını birləşdirdi. Onun vaxtında suvarma sistemi genişləndirilmiş, B.-in paytaxtı Şirazda, həmçinin Bağdadda və s. şəhərlərdə böyük tikinti işləri aparılmışdır. B.-in hakimiyyəti dövründə *iqta* torpaqlarının paylanması artmışdı. B. *şiəliyə* himayəkarlıq edirdilər. 10 əsrin sonu – 11 əsrin əvvəlində feodal pərakəndəliyinin güclənməsi və daxili çəkişmələr nəticəsində B. zəiflədi. 1029 ildə B. dövlətinin şərq hissəsini *Mahmud Qəznəvi* tabe etdi. 1055 ildə səlcuqların basqını B.-in hakimiyyətinə son qoydu.

**BÜVƏLƏR** – bax *Bövlər*.

**BÜZDÜM,** büzdüm sümüyü – bir-birinə bitişmiş bir neçə rudiment quyruq fəqərəsindən ibarət kompleks sümükləşmə. Müxtəlif onurğalılarda: quşlarda (bax *Piqostil*), insanabənzər meymunlarda və insanda quyruğun reduksiyası zamanı əmələ gəlir.

**BÜZEYİR** – Azərb. Resp. Lerik r-nunun Pirəsora ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* c.-q.-də, Zuvand çayının sol sahilindən 4 *km* aralı, Büzeyir d.-nın ətəyindədir. Əh. 410 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi; yaxınlığında qədim insan düşərgəsi olmuş *Büzeyir* mağarası var.



Büzeyir mağarası. Daş əmək alətləri.

**BÜZEYİR MAĞARASI** – Azərb. Resp.-nın Lerik r-nunda Zuvand çayının sol sahilində, Büzeyir k.-ndən 3 *km* ş.-də arxeoloji abidə. B.m. dəniz səviyyəsindən 1640 *m* yüksəklikdə, Talış dağlarının ən yüksək zirvəsi Dəlikli-Daşda yerləşir. 1985, 1990, 1999 və 2004 illərdə Ə. Cəfərov tərəfindən aparılan arxeoloji qazıntılar zamanı 6 mədəni təbəqə tədqiq olunmuşdur. Üst təbəqələrdə orta əsrlər, Tunc və Eneolit dövrlərinə aid gil qab qırıqları qeydə alınmışdır. Üçüncü təbəqədə ovlanmış heyvan sümükləri və 4 ədəd daş məmulatı tapılmışdır. Dördüncü–altıncı təbəqələrdə isə çoxlu ovlanmış heyvan sümükləri və təqr. 50 daş məmulatı aşkar edilmişdir. B.m.-ndan tapılmış daş məmulatları içərisində itiuclular, qaşov tipli alətlər və bıçaqlar qeydə alınmışdır. Daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə əsasən onların Mustye dövründə hazırlanması ehtimal olunur. B.m. Azərb.-ın cənub bölgəsində aşkar edilmiş Paleolit dövrünə aid ilk qədim insan düşərgəsidir. Tapıntılar əsasında hələ 120 min il bundan əvvəl Paleolit dövrü insanlarının burada məskunlaşması ehtimal edilir.





**BÜZMƏLƏMƏ,** qırçınlama – qara və əlvan metal təbəqələrinin, asbest-sement, karton, parça və s. materialların iş zamanı əyilmə və sıxılmaya davamlılığını (sərtliyini) artırmaq üçün onlarda büzmələrin (qırçınların) yaradılması. Büzmələr əksər hallarda dairəvi (dalğavarı), bəzən də trapesiya, üçbucaq və daha mürəkkəb profilli olur. B. pres maşınlarında (formalaşdırmaqla) və ya profilli vallar ilə (yaymaqla) yerinə yetirilir. İnşaat konstruksiyası elementləri, tara, avtomobil və vaqon gövdəsi hissələri və s.-nin hazırlanmasında büzmələnmiş materiallardan geniş istifadə olunur.

**BÜZMƏLİ KONSTRUKSİYALAR** – bir-birinə müəyyən bucaq altında birləşdirilmiş yastı elementlərdən (lövhəciklərdən) ibarət örtük tipli nazikdivarlı konstruksiyalar. Düzbucaqlı lövhəciklərdən ibarət B.k.-a prizmatik konstruksiyalar deyilir. Sənaye və ictimai binaların örtüyündə monolit və ya yığma dəmirbetondan B.k. (*qabaqcadan gərginləşdirilmiş konstruksiyalar* və *armaturlu sement konstruksiyalar*) geniş tətbiq edilir. B.k.-ın digər növ (məs., silindrik) örtüklərə nisbətən üstünlüyü onun asan hazırlanmasıdır.

**BÜZUCIQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanındadır.

**BÜZUŞA** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Qənibəyli kəndistanında, Mahnişan qəs.-ndən 50 *km* şm.-ş.-dədir.

**BVÁKE** – bax *Buake*.

**BVİNDİ MİLLİ PARKI** – Uqandanın c.-q.-ində Bvindi meşəsinin bir hissəsi. Rütubətli tropik iqlim zonasında, 1190–2600 *m* yüksəklikdədir. Sah. 321 $km^2$-dir. 1994 ildə yaradılmışdır. Keçilməz cəngəlliklərində 200-dən çox ağac növü, təqr. 300 qorilla (dünya üzrə mövcud qorillaların, demək olar ki, yarısı), 200-dən çox kəpənək növü (o cümlədən nəhəng Afrika maxaonu) var. B.M.P. *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

**BYADÚLYA** Zmitrok (əsl adı və soyadı Samuil Yefimoviç Plavnik; 23.4.1886, Vilno qub.-nın Posadets qəs. – 3.11.1941, Uralskda dəfn olunmuşdur) – belarus yazıçısı. İmpressionist hekayələr toplusunun (1913), folklor əsasında yazılmış "Polesye təmsilləri" və "Yarila" poemasının (hər ikisi 1922) müəllifidir. "Bülbül" (1927) tarixi povesti belarus kəndi haqqındadır. "Yazep Kruşinski" (2 cilddə, 1929–32) romanında Belarusiyada sinfi mübarizə təsvir olunur. "Keçilməz meşələrdə" (1939) avtobioqrafik povesti var.

*Əsərləri:* Избранное. M., 1957; В дремучих лесах. M., 1975.

**BYALINİTSKİ-BİRULYÁ** Vitold Kaetanoviç (12.2.1872, Mogilyov qub.-nın Krınki k. – 18.6.1957, Moskva) – rus-belarus mənzərə rəssamı. BSSR (1944) və RSFSR xalq rəssamı (1947). SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü (1947). BSSR EA fəxri üzvü (1947). Kiyevdə N.İ. *Muraşkonun* Rəssamlıq məktəbində oxumuş, 1889–1897 illərdə Moskva Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq Məktəbində S.A. *Korovin*, N.V. *Nevrev*, İ.M. *Pryanişnikov* və V.D. *Polenovdan* dərs almışdır. Peredvijniklər cəmiyyətinin üzvü olmuşdur (1904 ildən). Lirik plener mənzərə ustasıdır ("Yaz günü", 1893, Dövlət Rus Muzeyi; "Buz əridi", 1930; "Dalğın payız günləri" 1932–42; "İlk may axşamı", 1940; hər üçü Dövlət Tretyakov Qalereyasında). Əsərlərində tarixi yerləri təsvir etmişdir (Qorki, Mixaylovskoye və s.). Byalıniçidə (1970) və Mogilyovda (1982) muzeyləri açılmışdır.



Bvindi Milli Parkı.

**BYAN SYÁO** (e.ə.6 əsr) – qədim Çin həkimi, Çin təbabətində ən qədim "Nanszin" ("Müşkül haqqında kitab") əsərinin müəllifi. Çin həkimlərinin çoxəsrlik təcrü-

V. K. Byalınitski-Birulya. "Yazın əvvəli". 1906. Kareliya bədii muzeyi (Petrozavodsk).



bəsi ümumiləşdirilmiş bu əsərdə anatomiya, fiziologiya, patologiya, həmçinin xəstəliklərin diaqnostikası (nəbz haqqında təlim ilə) və müalicəsinə dair məlumatlar vardır. B.S. xəstəliyin orqanizm ilə ətraf mühit arasında əlaqənin pozulması nəticəsində baş verdiyini və bu zaman patoloji prosesə həmişə bütün orqanizmin cəlb olunduğunu qeyd etmişdir. Xəstənin müayinəsi zamanı 4 üsuldan istifadə etmişdir: baxış, sorğu-sual, qulaqasma (auskultasiya) və nəbzin öyrənilməsi (bunu mükəmməl bildiyindən tibb tarixinə nəbz haqqında təlimin banisi kimi daxil olmuşdur). Müalicə məqsədilə akupunktura və masajdan istifadə etmişdir. B.S. həmçinin mahir cərrah olmuş, narkoz üçün xüsusi içki tətbiq etməklə cərrahi əməliyyatlar aparmışdır.

**BYEF** (fr. bief, yeni lat. bedum – kanal, nov) – sututarın, çay və ya kanalın sədd yaradan su qurğusuna (şlüz, bənd, SES və s.-yə) bitişik hissəsi. Şlüz, yaxud bəndin önündəki nisbətən yüksək səviyyəli B. y u x a r ı B., qurğunun arxasındakı nisbətən alçaq səviyyəli B. a ş a ğ ı B., gəmiçilik və ya magistral suvarma kanallarında iki şlüz (bənd) arasındakı B. a r a l ı q B., kanalın ən yüksək (suayıran) hissəsindəki B. isə a y ı r ı c ı B. adlanır.

**BYENXOÁ** – Vyetnamda şəhər. Donqnay əyalətinin inz. m. Əh. 417,5 min (2006). Ölkənin c.-unda Donqnay çayı sahilindədir (Xoşimin aqlomerasiyasına daxildir), Xoşimin ş.-ndən 30 *km* şm.-ş.-dədir. Nəql. qovşağı. Çay portu. Aeroport.

Müstəmləkə dövründə Sayqonun şəhərətrafı sənaye qəsəbəsi kimi inkişaf etmişdi. "*Vyetnam müharibəsi*" dövründə ABŞ-ın ən iri hərbi-hava bazalarından biri B.-da yerləşirdi.

Ölkənin c.-unda formalaşan iri sənaye r-nunun mərkəzidir. 1980-ci illərin sonundan, Vyetnamın "iqtisadi islahat" proqramı qəbul edildikdən sonra sürətlə inkişaf edir. Xarici investisiya axını nəticəsində xüsusi sənaye zonalarında yerləşdirilmiş bir sıra yeni müəssisələr (xarici və qarışıq kapitalla) meydana gəldi. Qara (polad təbəqələrin, boruların, tikinti metal konstruksiyaların istehsalı – "Bi-Eyç-stilfaktori" və s.) və əlvan (mis məftil, alüminium profillər və s.) metallurgiya; kimya, o cümlədən fosfor, azot və kompleks gübrələr ("Vyetnam-Capan fertilayzers" və s.); neft-kimya – avtomobil təkərləri ("Yokohama-Vyetnam Ci-Bi"), polivinilxlorid, plastik kütlə, boyalar və yuyucu vasitələr; neft emalı ("Şell-Vyetnam"); mikrobiologiya – insektisidlər, herbisidlər, fungisidlər ("MAP Pasifik-Vyetnam" və s.); əczaçılıq; maşınqayırma: avtomobil və motosikllərin quraşdırılması və təmiri, dizel mühərrikləri, avtomobil detal və hissələri, k.t. texnikası üçün ehtiyat hissələri istehsalı; elektronika sənayesi, o cümlədən çap sxemləri, ofis avadanlıqları və kompüterlər ("Fucitsu" və s.), radioqəbuledicilər, televizorlar, telekommunikasiya avadanlıqları ("Donako"); elektrotexnika sənayesi – transformatorlar, elektrik motorları ("Mabuçi motor-Vyetnam"), paltaryuyan maşınlar, soyuducular ("Sano" və s.), elektrik kabelləri və s. Sement, şüşə və çini sənayesi müəssisələri fəaliyyət göstərir. Yeyinti sənayesi inkişaf etmişdir; həll olan qəhvə, toz halında süd ("Nestle"), köpüklənən şərab ("Moskva Şampan şərabları zdu"), tütün məmulatları istehsal olunur. Donqnay çayında bir neçə İES, SES var.

Byenxoa şəhərindən görünüş.



**BYORÇ REÁKSİYASI**, B ö r ç – H ü k e l  r e a k s i y a s ı – monotsiklik və kondensləşmiş aromatik birləşmələrin maye ammonyakda qələvi metal (Na, yaxud Li) və spirtin təsirindən 1,4-tsikloheksadienin dihidroaromatik törəmələrinə reduksiyası. Analoji olaraq heterotsiklik birləşmələr və steroidlər reduksiya edilir. B.r.-nda izolə olunmuş ikiqat rabitələrə toxunulmur. B.r.-nın əsas tətbiq sahəsi steroidlər sintezidir. Reaksiya E. Hükkel və Avstraliya kimyaçısı A. Börç tərəfindən öyrənilmişdir.

*Əd.:* В а ц у р о К.В., М и щ е н к о Г.Л. Именные реакции в органической химии. М., 1976.

**BYÓRKEN** (Bjorken) Ceyms (d.22.6. 1934, Çikaqo) – Amerika fiziki, ABŞ Milli EA üzvü (1973). Massaçuset Texnologiya İn-tunu (1956) və Stanford Un-tini (1959) bitirmişdir. 1962–79 illərdə Stanford xətti sürətləndirici mərkəzində (SLAC), 1979–89 illərdə E. Fermi ad. Milli laboratoriyada işləmişdir. 1989–98 illərdə yenidən SLAC-da çalışmış, 1998 ildən Stanford Un-tinin fəxri prof.-udur. Əsas elmi işləri elementar zərrəciklər fizikasına aiddir. 1964 ildə Ş. *Qleşou* ilə birlikdə adronlar fizikasına *heyranlıq* kvant ədədini və "heyranlanmış kvark" anlayışını daxil etmişdir. 1967 ildə (R. *Feynmandan* asılı olmayaraq) yüksək enerjilərdə lepton-adron qarşılıqlı təsirlərində *miqyas invariantlığı* (skeylinq) konsepsiyasını irəli sürmüşdür. Bu konsepsiyanın əsasında dərin qeyri-elastiki proseslərin kəsiyini tədqiq etmiş, onun adını daşıyan cəmlər qaydasını almışdır.

**BYORN** Deli (d.19.6.1967, Elverum) – Norveç idmançısı. Xizəksürmə idmanı üzrə 16-cı (1992, Albervil; 15 *km* təqibetmə, 50 *km* sərbəst, 4x10 *km* rele), 17-ci (1994, Lillehammer; 10 *km* klassik, 15 *km* qunderson) və 18-ci (1998, Naqano; 10 *km* klassik, 50 *km* sərbəst, 40x10 *km* rele) Qış Olimpiya Oyunlarının, dəfələrlə dünya (1991, 1993, 1995, 1997) çempionu olmuş, Dünya kuboku yarışlarında (1992, 1993, 1995, 1996, 1997, 1998, 1999) qalib gəlmişdir.



**BYORNDALEN** (Bjoerndalen) Ole Eynar (d.27.1.1974, Drammen) – Norveç idmançısı. İdman tarixində ən yaxşı biatlonçulardan biri. 5 qat Olimpiya (1998, Naqano – 1 qızıl medal; 2002, Solt-Leyk-Siti – 4 qızıl medal), dəfələrlə dünya (2003 – 2 qızıl, 2005 – 4 qızıl) çempionu, Dünya kubokunun qalibi (2003, 2005), Turin Qış Olimpiya Oyunlarının (2006) gümüş (30 *km* sprint yarışı) və bürünc (mass – start), müxtəlif məsafələrdə dünya çempionatı və Dünya kubokunun (1997–2006) mükafatçısıdır. 2014 ildə Soçidə keçirilən Qış Olimpiya Oyunlarında 2 qızıl medal (10 *km* sprint, qarışıq estafet) qazanmışdır.




**BYÖRNSON** (Bjørnson) Byörnstyerne Martinius (8.12.1832, Kvikne –26.4.1910, Paris) – Norveç yazıçısı. Nobel mükafatı laureatı (1903). Xristianiya un-tində oxumuşdur (1852–53). 1857–58 illərdə Bergendə, 1865–67 illərdə Xristianiyada teatr direktoru işləmişdir. İlk mətbu əsəri olan "Sünneve Sulbakken" (1857) povesti ideallaşdırılmış kənd həyatı fonunda sevgi əhvalatına həsr olunmuşdur. Sonralar "Arne" (1858) və "Şən oğlan" (1860) povestlərində kəndli mövzusunu inkişaf etdirmişdir. Norveç saqalarının süjetləri əsasında romantizm ənənəli pyeslər yazmışdır: "Döyüşlər arası" (1858), "Topal Hulda" (1858), "Kral Sverre" (1893); Siqurd haqqında trilogiya ("Zalım Siqurd", 1862 və s.). "Yeni evlilər" (1865), "İflas" (1875), "Redaktor" (1875), "Kral" (1877), "Yeni sistem" (1878), "Əlcək" (1883) pyeslərinin, "Toz" (1882), "Bayraqlar şəhər və liman üzərində dalğalanır" (1884) romanlarının, "Bizdən güclü" (1883–95) dramatik dilogiyasının müəllifidir. "Bəli, biz bu torpağı sevirik" Norveç milli himninin mətnini B. yazmışdır.



Ə s ə r l ə r i: Собр. соч. М., 1910-1914; Samlede værker. Oslo, 1953. Bd 1–5.

**"BYUİK"** (Buick), "B ü i k" – ABŞ-da istehsal edilən minik avtomobilləri. "B." firmasının ("Buick Motor Car Company") əsasını 1902 ildə amerikalı mühəndis Devid Danbar Byuik qoymuşdur (Miçiqan şt., Flint ş.). Onun konstruksiya etdiyi ilk avtomobil 1903 ildə buraxılmışdır. Firma 1908 ildə "*Ceneral Motors*" ("General Motors") konserni ilə birləşmişdir. 4 silindrli (1908 ildən), 6 silindrli (1914 ildən) və 8 silindrli (1931 ildən) mühərriki olan avtomobillər istehsal etmişdir. Mühərrikinin işçi həcmi 1,8–5 *l*, gücü 63–200 *kVt*, maks. sürəti 160–220 *km/saat*-dır. 2008 ildən daha çox "Buick Enclave", "Buick La Crosse", "Buick Lucerne" modelləri istehsal edilir.



"Buick La Crosse": mühərrikinin işçi həcmi 3,6 *l*, gücü 188–207 *kVt* (255–280 a.q.), maks. sürəti 212– 220 *km/saat*.

**BYUKÉNEN** (Buchanan) Ceyms Mak-Gill (2.10.1919, Tennessi ştatı, Merfrisboro – 9.1.2013, Virginiya ştatı, Bleksburq) – Amerika iqtisadçısı, Nobel mükafatı laureatı (1986). Neoinstitusionalizmin nümayəndəsidir. Un-ti Tennessi ştatında bitirmişdir (1941). Tennessi ştatı un-tinin adyunkt-prof.-u, prof.-u (1948–51) olmuşdur. 1951 ildə Florida un-tində işləməyə başlamış, iqtisadiyyat fakültəsinin dekanı (1954), sonra isə Virginiya un-tinin iqtisadiyyat fakültəsinin prof.-u və dekanı (1956–57), siyasi iqtisad sahəsində T. Cefferson ad. Tədqiqatlar Mərkəzinin banilərindən biri və direktoru (1957–69) olmuşdur. İctimai seçim nəzəriyyəsi sahəsində aparıcı tədqiqatçı kimi tanınmış, iqtisadi və siyasi qərarların qəbul edilməsi nəzəriyyəsinin müqavilə və konstitusiya əsaslarını araşdırmışdır.



Ə s ə r l ə r i: The Calculus of Consent (Q. Tallokla birlikdə). 1962; The limits of liberty: between Anarchy and Leviathan. 1975.

**BZIB** – Abxaziya MR-də (Gürc.) çay. Uz. 110 *km*, hövzəsinin sah. 1510 $km^2$-dir. Əsasən, dar və dərin dərələrlə axır, iki qolla Qara dənizə tökülür. Aşağı axınında ortaillik su sərfi 104 $m^3$/*san*-dir. Ağac axıdılır. *Ritsa* gölünə gedən avtomobil yolu B. dərəsindən keçir.

**BZIB SİLSİLƏSİ** – Abxaziya MR-də (Gürc.) dağ silsiləsi. Böyük Qafqazın c. yamacındadır. Uz. təqr. 50 *km*, hünd. 3033 *m*-ədəkdir (Ximsa d.). Əsasən, əhəngdaşılardan təşkil olunmuşdur. Karst geniş yayılmışdır (Qar mağarası, Novı Afon mağarası və s.). Yamacları enliyarpaqlı və iynəyarpaqlı meşələr, yuxarı hissələri Alp çəmənləridir.

Bzıb silsiləsi.





# C

C – müasir Azərb. əlifbasının "ce" adlanan üçüncü hərfi. Azərb. ədəbi dilində bu hərflə ifadə olunan cingiltili, küylü, dilönü-yuvaq, qovuşuq ağız samitinin işarəsi. Ərəb qrafikalı Azərb. əlifbasında "ج" şəklində yazılaraq "cim", Kirill qrafikalı Azərb. əlifbasında isə "Ҹ" (böyük, çap şəkli; yazı şəkli – *Ҹ*) və "ҹ" (kiçik, çap şəkli; yazı şəkli – *ҹ*) kimi yazılaraq, "ce" adlanmışdır. Latın qrafikalı müasir Azərb. əlifbasında yazılış şəkli belədir: böyük – C (çap), *C* (əlyazma); kiçik – c (çap), *c* (əlyazma). Azərb. dilində sözün əvvəlində (cavan, cüyür), ortasında (ocaq, qoca) və sonunda (dalğıc, çəkic) işlənilir.

**C DİLİ**, s i d i l i – UNIX əməliyyat sistemi üçün yaradılmış proqramlaşdırma dili. 1970-ci illərin əvvəllərində Bell Laboratoriesdə (ABŞ) Denis Ritçi və Ken Tompson tərəfindən yaradılmışdır. Bu dildə yüksək səviyyəli dillərin imkanları ilə Assembler dili səviyyəsində EHM aparat vasitələrinin ünvanlaşdırılması imkanları uyğunlaşdırılmışdır. Aydınlığı və məhdudiyyətlərinin olmaması ilə fərqlənir. C d. digər əməliyyat sistemlərində də geniş istifadə olunur; Windows, Linux, FreeBSD və s. güclü əməliyyat sistemləri də bu dildə yazılmışdır. C d. sistem proqramlaşdırması üçün ən güclü dillərdən biridir. Bir çox digər proqramlaşdırma dillərinin (C++, *Java*, AWK, Perl və s.) yaranmasına və inkişafına təkan vermişdir. 1980-ci illərdə B. Straustrop C d.-nin imkanlarını obyektyönlü proqramlaşdırma ilə birləşdirərək, yüksək səviyyəli proqramlaşdırma dili olan C++ dilini yaratmışdır. C++ dili C d. kimi sürətli olduğu üçün real zamanlı proqramlaşdırmada, oyun proqramlaşdırmasında əsas dillərdən biridir. C ailəsinə aid yeni obyektyönlü dillərdən biri də C# dilidir. Yüksək səviyyəli C# dili Microsoft korporasiyası tərəfindən işlənmişdir.

**CABANI** – Azərb. Resp. Şamaxı r-nunun İkinci Cabanı ə.d.-ndə kənd. R-n mərkəzindən 19 *km* şm.-ş.-də, Pirsaat çayından 2,5 *km*-lik məsafədə, dağlıq ərazidədir. Əh. 372 (2010); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**CABANI MİNERAL SU BULAQLARI** – Azərb. Resp. Şamaxı r-nu ərazisində, Şamaxı ş.-ndən 4 *km* ş.-də Cabanı çayı sahilində mineral su çıxışları. Balneoloji tərkibi:

$$M\,1{,}8\,\frac{HCO_3 79(Cl14)}{Na97(Ca2)}$$

pH 7,4 D30 *m³/gün* T 16,5°C

Suyu hidrogen-sulfidlidir. Suyunun temp-ru 16,5°C, debiti 30 *m³/gün*, minerallaşma dərəcəsi 1,8 *q/l*-dir.

**CABANİ** – Azərb.-da tarixi yer. Şamaxı r-nunda Gülüstan qalası yaxınlığında, indiki Sabir qəs. ərazisində idi.

"C." sözünün etimologiyası Azərb.-da fəaliyyət göstərmiş və mənbələrdə 13 əsrdən cəbən, çapanı, çibni, çipki, cəbni, çəpni kimi qeyd edilən oğuz tayfasının (bax *Çəpnilər*) adı ilə əlaqədardır. 1500 ildə gələcək Səfəvi hökmdarı İsmayılın başçılıq etdiyi qızılbaş qoşunu C.-də baş vermiş döyüşdə şirvanşah Fərrux Yasarı məğlubiyyətə uğratmışdı. 1546/47 ildə qardaşı Əlqas Mirzənin qiyamını yatıran I Şah Təhmasib [1524–76] yay fəslini C.-də keçirmişdi.

**CABBAR** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyahçeşmə bölgəsinin Çaldıran kəndistanında, Siyahçeşmə qəs.-ndən 8 *km* c.-ş.-dədir.

**CABBAR QARYAĞDI OĞLU** (Cabbar Məşədi İsmayıl oğlunun təxəllüsü; 31.3.1861, Şuşa – 20.4. 1944, Bakı) – Azərb. xanəndəsi, musiqi xadimi. Azərb. xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biri. Azərb. SSR xalq artisti (1935). Boyaqçı ailəsində doğulmuşdur. C.Q.o.-nda xanəndəliyə həvəs uşaqlıqdan oyanmış, ilk musiqi təhsilini Şuşada *Xarrat Qulunun* məktəbində almışdır. Muğam, dəstgah, təsnif və el mahnılarını xalq şənliklərində məharətlə oxumuş, tezliklə Qarabağda məşhurlaşmışdır. Ə.Haqverdiyevin 1887 ildə hazırladığı "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəsində Məcnun rolunu ifa etmişdir. Bir müddət *Sadıq Əsəd oğlunun* (Sadıqcan) sazandalar dəstəsi ilə çıxış edən xanəndə Gəncə, Şirvan, bütün Cənubi Qafqaz, Orta Asiya və İranda da geniş şöhrət qazanmışdı. 1900–05 illərdə C.Q.o. tarzən M.F.*Rzayev* və kamançaçalan Məşədi Qulu ilə Bakıda konsertlər vermiş, 1905 ildə tarzən Q.*Pirimov* və kamançaçalan S.Oqanezaşvilidən ibarət triosunu yaratmışdır; onlar 20 ildən çox birlikdə çıxış etmiş, qastrol səfərlərində olmuşlar. 1906–12 illərdə "Qrammofon", "Sport-Rekord", "Ekstrafon" səhmdar



Cabbar Qaryağdı oğlu digər Azərb. xanəndə və çalğıçıları ilə "Sport Rekord" firmasının studiyasında konsert yazılışından sonra (Varşava, 1912).





cəmiyyətləri tərəfindən Riqa, Kiyev, Moskva və Varşavada C.Q.o.-nun səsi qrammofon valına yazılmışdır. 1912 ildə Varşavadan qayıdarkən Moskvada "*Şərq konsertləri*" vermişdir. O, Kürd-şahnaz, Mahur, Bayatı-qacar, Heyratı, xüsusilə Mənsuriyyə muğamlarını müstəsna ustalıqla ifa etmişdir. Klassik poeziyanı mükəmməl bilmiş, xanəndə kimi Füzuli, Q. Zakir, S.Ə. Şirvani, X.b. Natəvan və b. Azərb. şairlərinin qəzəllərinə üstünlük vermişdir. Repertuarına daxil etdiyi gürcü, türkmən, özbək, fars mahnılarını da həmin dillərdə oxumuşdur.

C.Q.o. 1926 ildən Ü. Hacıbəylinin dəvəti ilə Azərb. Dövlət Konservatoriyasında dərs demiş, gənc kadrların hazırlanmasında mühüm rol oynamışdır. Onun ifasında Azərb. Dövlət Konservatoriyası nəzdində Bülbülün rəhbərlik etdiyi xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetində 300-ə yaxın mahnı və təsnif, təqr.70 xalq musiqi parçası lentə yazılmış, çox sayda mahnı və təsnif nümunələri Ü. Hacıbəyli, M. Maqomayev və S.Rüstəmov tərəfindən nota köçürülərək nəşr edilmişdir. C.Q.o. özünün şeir, qəzəl və qoşmalarına, eləcə də başqa şairlərin sözlərinə 30-dan artıq mahnı bəstələmiş, bir çox muğama yeni hissələr, xallar əlavə etmişdir. Azərb. Dövlət Filarmoniyası və Azərb. radiosunun solisti olmuşdur (1920–30); resp.-nın mədəni həyatında fəal iştirak etmişdir. C.Q.o. fitri istedada, zil və olduqca güclü, gözəl tembrli, geniş diapazonlu, yüksək tessituralı (tenor) səsə, qeyri-adi musiqi hafizəsinə malik sənətkar idi. Onu məşhur italyan müğənnisi E.Karuzo ilə müqayisə etmişlər. Muğamları və xalq musiqisini yaxşı bilən C.Q.o. əsərlərində klassik xalq musiqisindən istifadə edən Ü. Hacıbəyli, Niyazi, F.Əmirov və b. bəstəkarlara yaradıcılıq köməyi göstərmişdir. Niyazi onun ifasında Rast muğamını nota köçürmüş (çap olunmamışdır) və ondan eyniadlı simfonik muğamda istifadə etmişdir. C.Q.o. Q. Pirimovla birlikdə R.M. Qlierə də "Şahsənəm" operasının yazılmasında kömək göstərmişdir. Xeyriyyə məqsədilə konsertlər vermiş, musiqi və mədəniyyət xadimlərinə maddi yardım etmişdir.

1900 ildə C.Q.o.-nun qonağı olmuş F.Şalyapin onun sənətinin pərəstişkarı idi. Rus şairi S.Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır. C.Q.o.-nun 19 əsrin xanəndə və musiqiçilərindən, muğamların tarixindən, təsnif və mahnılardan bəhs edən "Azərbaycan musiqisinin keçmişi haqqında xatirələr" əlyazması muğam mədəniyyətinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Görkəmli xanəndə və müğənnilərdən S.Şuşinski, Bülbül, X.Şuşinski, Z.Adıgözəlov, Y. Kələntərli, S. Qacar, H.Kələntərli və b. C.Q.o. məktəbinin davamçıları idi. Tiflisdə keçirilən Cənubi Qafqaz respublikaları incəsənət olimpiadasının qalibi olmuşdur (1934).

**CABBARLI** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyahçeşmə bölgəsinin Çaldıran kəndistanında, Siyahçeşmə qəs.-ndən 25 *km* şm.-q.-dədir.

**CABBARLI** – İranın Ərdəbil ostanında kənd. Mişkin şəhristanının Mərkəzi bölgəsinin Ərşəq kəndistanında, Mişkin ş.-ndən 51 *km* şm.-dadır.

**CABBARLI** Cəfər Qafar oğlu (22.3.1899, Xızı k. – 31.12.1934, Bakı) – Azərb. yazıçısı, dramaturq. Azərb. SSR əməkdar incəsənət xadimi (1932). Yoxsul kəndli ailəsində doğulmuş, üç yaşında ikən atasını itirmiş, anasının himayəsində böyümüşdür. 1907 ildə Bakıda 7-ci rus-tatar (Azərb.) məktəbində, 1914 ildə 3-cü ali ibtidai məktəbdə oxumuş,



1917–20 illərdə Bakı politexnik (sənaye) məktəbində təhsil almışdır. 1923 ildə Bakı Teatr Texnikumunda oxumuş, 1924 ildə ADU-nun (indiki BDU) Şərq fakültəsinə daxil olmuşdur.

1915 ildən lirik və satirik şeirlər, sosial ədalətsizliyi tənqid edən hekayə ("Aslan və Fərhad", "Mənsur və Sitarə", 1916 və s.) və pyeslər ("Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş", 1915; "Solğun çiçəklər", 1917) yazmışdır. "Məktəb" jurnalında çap edilmiş "Bahar" şeiri ilk mətbu əsəri sayılır (bəzi ehtimallara görə, C. gizli imzalarla daha əvvəllər də şeirlər çap etdirmişdir). 1915–16 illərdə C. "Babayi-Əmir" jurnalında "Qəyyurəyyar", "Şəbrəng əyyar" və s. imzalarla satirik şeirlər dərc etdirmişdir; duma üzvlərini pislədiyi şeirə görə o, jandarm idarəsinin təqibinə məruz qalmışdır.

"Nəsrəddin şah" (1916–18) tarixi dramında C. 19 əsrin sonlarında İrandakı sosial-siyasi hadisələri təsvir etmiş, Nəsrəddin şahın öldürülməsini istibdada və haqsızlığa qarşı üsyan kimi qiymətləndirmişdir.

*Azərb. Xalq Cümhuriyyəti* dövründə Azərb. ədəbiyyatının ən parlaq simalarından biri olan C. Azərb. Parlamentinin stenoqrafı və "Müsavat"ın Gənclər təşkilatının rəhbəri işləmiş, "Sevdiyim" və "Azərbaycan bayrağına" şeirlərini Milli bayrağa həsr etmişdir. C.-nın bu dövrdə yazdığı şeirlərində milli azadlıq ("Sevimli ölkəm"), islam, müasirlik və türkçülük ideyaları ("Salam") tərənnüm edilirdi. C. yaradıcılığının ilk nümunələrində romantizmin güclü təsiri hiss olunurdu ["Ədirnə fəthi", "Trablis müharibəsi və ya Ulduz" (1918) pyesləri]. 1919 ildə Bakının erməni-daşnak və bolşevik işğalından azad edilməsi münasibətilə "Bakı müharibəsi" adlı əsər yazmışdır. Müəllifin Türkiyənin yaxın tarixinə, türk və Yaxın Şərq xalqlarının milli azadlıq mübarizəsinə həsr etdiyi trilogiyanın – "Ədirnə fəthi" (1917), "Trablis müharibəsi və ya Ulduz" (1918) əsərlərindən sonra gələn üçüncü hissəsi olmuş bu əsər tamaşaya qoyulsa da, itmiş, bu günədək gəlib-çatmamışdır. C.-nın istiqlal dövrü dramaturgiyasının başlıca meyillərini qüvvətləndirmək baxımından səciyyəvi olan bu əsərlər sovet hakimiyyəti illərində "mücərrəd romantizm"in təzahürləri hesab edilərək yasaq olunmuşdur. 1920 ilin ortalarından C. "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi, tərcüməçi vəzifəsində çalışmışdır. "Aydın" (1919) və "Oqtay Eloğlu" (tamaşası 1922) pyeslərində sadə insanların faciəsini realist səpkidə göstərmiş, insanpərvərlik və şəxsiyyət azadlığı məsələsini irəli sürmüşdür.

1923–24 illərdə o, tarixi mövzuda "Qız qalası" poemasını yazmışdır (poemanın motivləri üzrə Ə.Bədəlbəyli eyniadlı ilk Azərb. baletini bəstələmişdir). Azərb. xalqının ərəb xilafətinə və yerli feodallara qarşı mübarizəsindən bəhs edən "Od gəlini" (tamaşası 1928) pyesi ilk Azərb. qəhrəmanlıq dramıdır. Əsərdəki Elxan surəti vətənin istiqlaliyyəti uğrunda inamla mübarizə aparan yenilməz bir insandır. Şərq xalqlarını azadlığa çağıran "Məhkum Şərqə" şeiri 20-ci illərin əvvəllərində yazılmışdır.

Qadın azadlığı C.-nın yaradıcılığının əsas mövzularındandır. O, səhnə və nəsr əsərlərində rəngarəng qadın surətləri yaratmışdır. "Gülzar" (1924), "Dilarə" (1924), "Dilbər" (1927) hekayələrində pulun, mürtəce adət-ənənələrin qurbanı olan qadınların taleyindən bəhs etmişdir. "Sevil" pyesində (tamaşası 1928) isə C. yeni ailə, qadının sosial-mənəvi köləlikdən xilas olması məsələsini ön plana

çəkmişdir. "Sevil"in motivləri əsasında F. Əmirov eyniadlı opera bəstələmiş, bədii film və film-opera çəkilmişdir. "1905-ci ildə" (tamaşası 1931) pyesində xalqları bir-biri ilə salışdıran fitnəkar milli nifaq siyasəti qabarıq şəkildə göstərilmişdir. "Almaz" (tamaşası 1931), "Yaşar" (tamaşası 1932), "Dönüş" (tamaşası 1932) pyeslərində yeniliklə köhnəliyin mübarizəsindən bəhs etmişdir. Ömrünün son illərində C. əfqan xalqının azadlıq mübarizəsinə həsr olunmuş "Əfqanıstan" pyesi üzərində işləyirdi.

C. dramaturgiyasının əsas məziyyəti onun xalq həyatı ilə üzvi surətdə bağlı olmasındadır. Əsərləri bədii sənətkarlıq xüsusiyyətləri, güclü xarakterləri, müsbət və mənfi obrazlar silsiləsi, canlı, koloritli dili ilə seçilir. C. yaradıcılığı Azərb.-ın sovet dövrü ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır.

C.-nın Azərb. teatr sənətinin inkişafında böyük xidməti olmuşdur. O, 1929 ildən Azərb. Dövlət Dram Teatrında bədii hissə müdiri işləmiş, teatrla birlikdə 1930 ildə Moskvada Ümumittifaq teatr və sənət Olimpiadasında, Leninqrad (indiki S.-Peterburq) və Kazandakı qastrollarda ("Od gəlini" və "Sevil" də göstərilmişdi) iştirak etmişdi. Səhnə üçün Şekspirin "Hamlet" və "Otello", Şillerin "Qaçaqlar", Bomarşenin "Fiqaronun toyu", Afinogenovun "Qorxu", Slavinin "Müdaxilə" əsərlərini tərcümə etmişdi. C. həm də istedadlı teatr rej.-u idi. Qlierin "Şahsənəm" operasının librettosunu yazmışdır. C. kino sənəti ilə də yaxından maraqlanmış, "Hacı Qara", "Sevil", "Almaz", "1905-ci ildə", "Ölülər" kinossenarilərini yazmış, ilk üç filmin çəkilişində rej. olmuşdur.

Ədəbi-tənqidi məqalələrində C. Azərb. klassik və yeni dövr ədəbiyyatı, teatr sənəti barədə qiymətli mülahizələr yürütmüşdür. L.Tolstoydan, M.Qorkidən tərcümələri var. 1934 ildə o, sovet yazıçılarının I Ümumittifaq qurultayında çıxış etmiş, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdi. Son əsəri – "Firuzə" hekayəsi ölümündən sonra, 1935 ilin yanvarında dərc olunmuşdur. Əsərləri bir sıra dillərə tərcümə edilmiş, pyesləri sabiq SSRİ-nin müxtəlif şəhərlərində, həmçinin xaricdə tamaşaya qoyulmuşdur. Şeirlərinə ("Ölkəm" və s.) musiqi bəstələnmişdir. Bakıda və Xızıda ev-muzeyləri təşkil edilmiş, Bakıda və Sumqayıtda heykəli ucaldılmışdır. "Azərbaycanfilm" kinostudiyasına, Gəncə Dövlət Dram Teatrına, İrəvan Dövlət Azərbaycan Dram Teatrına, Azərb. Dövlət Teatr Muzeyinə, digər mədəni-maarif müəssisəsinə, küçə, bağ və s. C.-nın adı verilmişdir. Haqqında roman yazılmış, sənədli filmlər çəkilmiş, rəsm əsərləri yaradılmışdır.

Əsərləri: Əsərləri, c. 1-3, B., 1938-48; Пьесы, Б., 1979; Ədirnə fəthi. B., 1996; Əsərləri, 4 cilddə, B., 2005.

*Əd.:* Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. c. 3, B., 1957; Məmməd Arif. Cəfər Cabbarlının yaradıcılıq yolu. B., 1956; yenə onun, Əsrin oğlu. B., 1979; Мамедов М. Большой советский драматург. "Театр", 1960, №7; Dağıstanlı İ. Cəfər Cabbarlı və teatr. B., 1960; Paşayeva M. Cəfər Cabbarlı arxivinin təsviri. B., 1965; Cəfər Cabbarlı (biblioqrafiya). B., 1965; Cabbarlı S. Onu kim unudar. B., 1969; Xəlilov Ə. Sənət və sənətkar. B., 1974; Böyük sənətkar (xatirələr, şeirlər). B., 1976; Abbasova N. Cəfər Cabbarlı dramaturgiyasında söz. B., 1983; Sadıqov R. Cəfər Cabbarlının yaradıcılığının ilk dövrü (1915-1922). B., 1985; Əfəndiyev P. Cəfər Cabbarlı və xalq yaradıcılığı. B., 1985; Əliyev R. C. Cabbarlının yaradıcılıq təkamülü. B., 1989; Abdullazadə A. Şair Cəfər Cabbarlı. B., 1989; Elçin. Cəfər Cabbarlı: şəxsiyyəti və yaradıcılığı haqqında düşüncələr. B., 2000; Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. C.1. B., 2004.

**CABBARLININ EV-MUZEYİ,** Cəfər Cabbarlının ev-muzeyi – 1982 il martın 23-də C. Cabbarlının anadan olmasının 80 illiyi münasibətilə Bakıda, onun 1901–34 illərdə yaşadığı mənzildə (İ. Qutqaşınlı küç., 44) açılmışdır. Muzeydə 10000-ə yaxın eksponat (ədibin həyat və fəaliyyətini əks etdirən sənədlər, əşyalar, fotolar, əsərlərinin müxtəlif illərdə və dillərdə nəşrlərindən nümunələr, şəxsi kitabxanası, C. Cabbarlı ilə ünsiyyətdə olmuş görkəmli xadimlərin şəkilləri, avtoqrafları, xatirələri və s.) saxlanılır. C. Cabbarlının doğulduğu Xızı k.-də də ev-muzeyi (1959) var.

**CABBAROV** Cabbar Ələsgər oğlu (d.1934, Laçın r-nunun, Leninkənd k.) – SSRİ Dövlət mükafatı laureatı (1984). 1984 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu ordenləri ilə təltif edilmişdir.

**CABBAROV** Rasim Baba oğlu (d.6.10. 1969, Masallı r-nunun Ərkivan k.) – Azərb. fiziki, fizika-riyaziyyat e.d. (2008). Bakı Dövlət Un-tini bitirmişdir (1993). 1993 ildən AMEA-nın Fizika İn-tunda çalışır. Tədqiqatları yarımkeçiricilərdə qeyri-müvazi elektronlar proseslərinə, vizuallaşdırma və işıqlanmada istifadə üçün lüminofor materialların alınmasına və optik xassələrinin tədqiqinə həsr edilmişdir. II-$III_2$-$VI_4$ tipli birləşmələrin parlaqlıq və işıqvermə xarakteristikalarına görə katod şüa borularında və sahə ionlaşdırma displeylərində istifadə olunan ənənəvi fosfordan daha üstün olduğunu göstərmişdir. 70-dən çox elmi əsərin müəllifidir.

**CABBAROV** Yunis Hüseyn oğlu (1917, Naxçıvan, Şərur r-nunun Dərvişlər k. – 1953, orada) – Sosialist Əməyi Qəhrəmanı (1948). Böyük Vətən Müharibəsi iştirakçısı. 1947 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.



**CABBAROVA** Fatma Ağacabar qızı (7.11.1920, Bakı – 29.11.2010, Bakı) – Azərb. diktoru. Professional diktor sənətinin ilk nümayəndələrindən biri. Azərb. SSR xalq artisti (1990). Azərb. Dövlət Pedaqoji İn-tunu (1941) və Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1950). 1941–91 illərdə Azərb. Dövlət Teleradio Verilişləri Şirkətində işləmiş, Azərb. radiosunun diktoru, informasiya, xəbərlər proqramlarının, siyasi və ədəbi mövzuda verilişlərin aparıcısı olmuşdur. C. bir çox Azərb. və dünya dramaturqlarının əsərlərini ilk dəfə radioda səsləndirmiş, radiokompozisiyalarda çıxış etmişdir. *Kazım Ziya, Ə. Ələkbərov,* M. *Əliyev, Ə. Zeynalov,* H. *Salayev* və b. aktyorlarla birlikdə radio tamaşalarının səsləndirilməsində iştirak etmişdir. Gənc diktorlar nəslinin yetişməsində mühüm xidməti var. C. televiziya verilişlərinin də ("Odlar yurdu" və s.) aparıcısı olmuşdur.



**CABBARZADƏ** Rəxşəndə Məmməd qızı (d.30.12.1938, Bakı) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (2008). Azərb. Dövlət Un-tini bitirmişdir (1961). 1964 ildən AMEA-nın Riyaziyyat və Mexanika İn-tunda çalışır. Tədqiqatları funksional analizin aktual sahələrindən olan operator və çoxparametrli sistemlərin spektral nəzəriyyəsinə aiddir. Öz-özünə qoşma olmayan çoxparametrli sistemlərin öyrənilməsi üçün yeni üsul tətbiq etmişdir. 60-dan çox elmi əsərin müəllifidir.

**CABBARZADƏ** Zeynal Ələbbas oğlu (31.12.1920, Bakı – 20.1.1977, Bakı) – Azərb. şairi. Azərb. SSR əməkdar mədəniyyət işçisi (1970). Azərb. Dövlət Pedaqoji İn-tunu (1941) bitirmişdir. Böyük Vətən müharibəsinin iştirakçısı olmuşdur. İlk mətbu şeiri ("Puşkin") 1937 ildə, ilk şeir kitabı ("Xaniman") 1946 ildə çap edilmişdir. 1943–48 illərdə Azərb. Yazıçılar İttifaqı "Natəvan" klubunun müdiri, "Ədəbiyyat" qəzetində ədəbi işçi və məsul katib, 1950 ildən "Pioner" jurnalının redaktoru işləmişdir. "Dostum, gəl sözə bax" (1966), "Güllər" (1974), "Uca dağlar başında" (1980), "Atasının oğlu" (1986) və s. kitabların müəllifidir. Uşaqlar üçün şeir, poema, mənzum hekayə və nağıllar yazmışdır ["Əfzələddin və şah" (1947), "Bahar gəlir" (1954), "Yaylaqda" (1960) və s. topluları]. Nəğmə şairi kimi də tanınmış, "Sən mənimsən, mən sənin!", "Badamlı", "Yalvarayalvara", "İntizar", "Gəldi bahar", "Sürəyya", "İlk bahar", "Neyləsin?", "Çay mahnısı", "Biri sizin, biri bizim" və s. şeirlərinə musiqi bəstələnmişdir.

Əsərləri: Arzular. B., 1958; Məni bağışlayın. B., 1965; Bizim dünya. B., 1984; Seçilmiş əsərləri. B., 2005.

**CABİR ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAH** (جابر الاحمد الجابر الصباح) (29.6.1926, əl-Küveyt ş. – 15.1.2006, orada) – Küveyt əmiri [1977–2006]. Əs-Sabah sülaləsindəndir. 1961 ildə Küveytin maliyyə və iqtisadiyyat üzrə birinci naziri təyin edilmişdi. Onun rəhbərliyi illərində neft hasilatından alınan gəlirlər sayəsində Küveyt kasıb tayfa ölkəsindən dünyada ən iri kapital artımı ilə müasir zəngin dövlətə çevrilmiş, ilk milli pul vahidi – Küveyt dinarı dövriyyəyə buraxılmışdı. 1965 ildə Küveytin baş naziri olmuşdur.



Küveyt əmiri olduqdan sonra vəzifəsindən sui-istifadə etməkdə təqsirli bilinən nazirlərin fəaliyyəti Milli məclisdə müzakirəyə çıxarıldığı və hökumətlə ziddiyyətlər yarandığı səbəbindən məclisi buraxmışdı. Kütləvi informasiya vasitələrinə senzura tətbiq etmiş, konstitusiyanın bəzi maddələrinin fəaliyyətini dayandırmışdı. Küveyt İraq ordusu tərəfindən işğal olunanda (1990) Səudiyyə Ərəbistanında sığınacaq tapmışdı. BMT-nin himayəsi altında beynəlxalq koalisiya qüvvələri tərəfindən Küveyt azad edildikdən sonra (1991) ölkəyə qayıtmışdı. 1999 ildə onun təşəbbüsü ilə seçki qanununda dəyişiklik edilmiş, qadınlara səsvermə və dövlət vəzifələrini tutmaq hüququ verilmişdir.

**CABİR ibn HƏYYAN** (جابر بن حيان), Geber (təqr. 721, Tus, yaxud Kufə – təqr. 815) – ərəb alimi. Ömrünün əsas hissəsini Kufədə yaşamışdır. *Cəfər əs-Sadiqlə* görüşmüş, ondan dərs almışdır. Fəlsəfə, riyaziyyat, tibb, astronomiya və s. sahələrə dair əsərləri olsa da, daha çox kimyaçı kimi tanınmışdır. Gəldiyi elmi nəticələrdə təcrübi metoda üstünlük vermişdir.

C. ibn H.-ın fəlsəfi görüşləri ənənəvi makro (kainat) və mikro (insan) aləmlərin qarşılıqlı münasibəti və səmavi qüvvələrin Yerdəki hadisələrə təsiri ideyasına əsaslanır. Kimyanı ilahi elm hesab edən C. ibn H. kamilliyə çatmaq və mütləq biliyi əldə etmək yolunda onun yeganə vasitə olduğunu söyləmişdir. Bunun üçün əvvəlcə riyaziyyat, məntiq, fəlsəfə və tibbi, daha sonra ən böyük iksiri ("əl-iksir əl-əzəm"), yaxud fəlsəfə daşını ("həcər əl-fəlasifə") tapmaq məqsədilə kimya elmini öyrənmək lazımdır. Onun fikrincə, kimya "tamamilə fəlsəfənin özüdür", onun sirlərinə bələd olan insan bütün dini və dünyəvi elmləri əldə etmiş olur.

C. ibn H. ənənəvi təbiətşünaslıqda əsas diqqətini "nəbatat" (bitkilər) və "heyvanat"dan əvvəl kainatın maddi strukturunun ən aşağı pilləsi olan "cəmadat"a (cansız aləmə) yönəldirdi. Onun materiya haqqında təsəvvürləri dörd ünsürə və müvafiq olaraq həmin ünsürlərin kökü hesab etdiyi dörd xassəyə (isti, soyuq, quru və nəm) əsaslanır. O, hər bir maddənin tərkibindəki mövcud xassənin miqdarını dəyişməklə onu başqa maddəyə çevirməyin mümkünlüyünü, bütün metalların kükürd və civənin müxtəlif nisbətlərdə birləşmələri olduğunu söyləyirdi. Dörd ünsürlə yanaşı "həba" adlandırdığı beşinci ünsürü də qəbul edir və bildirirdi ki, "həba" özü özlüyündə bəsit şəkildə mövcud olan, müxtəlif formalara düşərək varlıqları yaradan substansiyadır. C. ibn H.-ın hər maddənin tərkibindəki ünsürlərin nisbətini ifadə edən "mizan" nəzəriyyəsi və bu nəzəriyyəyə əsaslanan kimya sistemi onu "elm əl-xəvass" adlanan digər bir sistemə tərəf çəkmişdir. O, insanın canlı və cansız aləmin xüsusiyyətlərini ("xəvass"), onlar arasındakı münasibətləri bildiyi halda təbiəti təqlid edə biləcəyini, bir qədər də irəli gedərək, hətta canlı varlığı yarada biləcəyini söyləmişdir. C. ibn H. kimyanın verdiyi bütün bu imkanları Allahın yer üzərində işinin davamı hesab edirdi.

Kainatın maddi nizamının riyazi qanunauyğunluqlara əsaslandığına diqqət çəkən C. ibn H. rəqəmlər və hərflərin metafizik gücünə inanmış, nisbətlər nəzəriyyəsinin ən mükəmməl şəkildə hərflərdə təzahür etdiyini söyləmişdir. Fizika ilə qrammatika arasında müqayisə aparaq, təbiətin və dilin oxşar qanunlar əsasında yarandığı qənaətinə gəlmiş, dilin təsadüfdən, yaxud insanlar tərəfindən düşünülərək yaranması fikrini qəbul etməmişdir. Onun fikrincə, təbiətdə yeni cisimlər yaratmaq mümkün olduğu kimi, yeni dillər də yaratmaq mümkündür.

C. ibn H.-ın əsərlərinin ən qədim siyahısına İbn ən-Nədimin "Əl-Fihrist"ində rast gəlinir (müxtəlif həcmli 1300 traktat). Bu əsərlərin ona aid olmaması, hətta onların konkret bir şəxs yox, bir məktəbin nümayəndələri tərəfindən yazılmasına dair fikirlər də var. Əsərləri, əsasən, E.C. Holmyard, P. Kraus, F. Sezgin tərəfindən araşdırılmış, bəziləri latın, alman, fransız, ingilis, fars dillərinə tərcümə olunmuşdur. İlk dəfə Bombeydə "Məcmuə əhəd əşər kitabən fi ilm əl-iksir əl-əzəm" adı altında 11 risaləsi çap edilmişdir (1892). 14 əsrdə Avropada meydana gəlmiş Geber adlı müəllifə aid əsərlərin C. ibn H.-la bağlılığı mübahisəlidir.

**CABİR NOVRUZ** (təxəllüsü; tam adı və soyadı Cabir Mirzəbəy oğlu Novruzov; 12.3.1933, Xızı r-nu, Upa k. – 12.12.2002, Bakı) – Azərb. şairi. Azərb. Resp. xalq şairi (1999). Azərb. SSR əməkdar incəsənət xadimi (1978). Bakı Pedaqoji Texnikumunu (1951) və Moskvadakı M. Qorki ad. Ədəbiyyat İn-tunu (1957) bitirmişdir. "Bakı" (axşam) qəzetində ədəbi işçi (1958–64), "Azərbaycan" jurnalında şöbə müdiri (1964–67), "Ulduz" jurnalının baş redaktoru (1967–70), Azərb. YB İdarə Heyətinin katibi (1970–97), "Azərbaycan" jurnalının (1984–88) və "Ədəbiyyat



qəzeti"nin (1991–93) baş redaktoru olmuşdur.

İlk şeiri ("İlk görüş") 1952 ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuşdur. Şeir və poemalarında müasirlərinin zəngin mənəvi aləmi, vətənpərvərlik, sülh tərənnüm olunur. "Mənim muğamatım" (1959), "Ömür keçir karvan kimi" (1985), "Ulu dünya, heyifsən" (1987), "Anam vardı, dünyam vardı" (1989), "Vətən əbədi qoruqdur" (1992) və s. şeir kitablarının müəllifidir. Əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir. A. Blok, S. Marşak, A. Tvardovski, R. Həmzətov, Y. Bukov, Y. Yevtuşenko, R. Rojdestvenski, Y. İsayev, O. Süleymenov və b.-ndan tərcümələri var. Bir sıra şeirinə musiqi bəstələnmişdir ("Həyat, sən nə qəribəsən", "Cavanlığım", "Məhəbbət", "Ayrılıq olmayaydı", "Tələbəlik illəri", "Tələsin, insanlar", "Məhəbbət yaşa baxmır" və s.).

Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur.

Ə s ə r l ə r i: Taleyin töhfələri. B., 1972; У земли-планеты. M.. 1982; Seçilmiş əsərləri. C. 1–2, B., 1982–83; Özünü qoru, xalqım. B., 2002; İnsanı tanımaq olmur. B.. 2002.

**CABLI** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Nəmin bölgəsində, Ərdəbil ş.-nin ş.-ində, Ərdəbil–Astara avtomobil yolunun 8 *km*-liyindədir.

**CABRÁN** ("keçilərin atasının anası") – abxazlarda davar allahı, Aytarın yeddi hissəsindən biri. Erkən mifoloji təsəvvürlərə görə, C. keçilərin ulu nənəsidir. Aytarın şərəfinə yaz ayinləri silsiləsi C.-a dua etməklə (martın ilk cümə axşamında) başlayırdı.

**CABRİYAL DAĞI** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Qoşadizə k.-ndən 6 *km* ş.-dədir. (Hünd. 929 *m*.).

**CACÁ** ("enlikürək") – abxazlarda tarlaçılıq və bostançılıq ilahəsi. Bəstəboy, dolu bədənli qadın simasında çıxış edir. Ehtimal ki, C. haqqında təsəvvürlər tarla işləri ilə, əsasən, qadınların məşğul olduğu vaxtlarda meydana gəlmişdir. İnanclara görə, qarğıdalı qıçaları əmələ gəldikdə, C. tarlaları gəzməyə başlayır. Tarla sahibindən narazı qaldıqda, onu xırda qarğıdalı məhsuluna məhkum edir, razı qaldıqda isə ona iri qarğıdalı məhsulu vəd edir. C.-nın şərəfinə tarlada ildə iki dəfə (yazın əvvəlində və məhsul yığımından sonra) ibadət təşkil olunurdu.

**CACAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 18 *km* şm.-ş.-dədir.

**CACAN** – İranın Ərdəbil ostanında kənd. Mişkin şəhristanının Mərkəzi bölgəsinin Ərşəq kəndistanında, Mişkin ş.-ndən 30 *km* şm.-dadır.

**CADARI** – Azərb. Resp. Quba r-nunun Rustov ə.d.-ndə kənd. R-n mərkəzindən 21 *km* c.-da, dağətəyi ərazidədir. Əh. 522 (2011); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Tibb məntəqəsi var.

**CADQIRAN**, Ç a t q ı r a n – İrəvan xanlığının Karbibasar mahalında (9.9.1930 ildən Əştərək r-nu), Zəngi çayı sahilində və Gərniarx d. ətəyində azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd əhalisi ermənilər tərəfindən təcavüzə məruz qalaraq deportasiya olunmuşdur. 1922 ildə geri qayıdan azərb.-lar yenidən burada məskunlaşmışlar. 1948–49 illərdə kəndin bütün əhalisi Azərb.-a deportasiya olunmuş, 1953 ildə isə kənd ləğv edilmişdir.

**CADQIRAN**, Ç a t q ı r a n – İrəvan xanlığının Qırxbulaq mahalında (9.9.1930 ildən Kotayk, 12.10.1961 ildən Abovyan r-nu), Qırxbulaq çayının yuxarı axarında azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra kəndə İrandan, Türkiyədən köçürülmüş erməni ailələri yerləşdirilmiş və tədricən azərb.-lar sıxışdırılaraq kənddən çıxarılmışlar. 3.1.1935 ildə kəndin adı dəyişdirilərək Razdan, 21.10.1967 ildə yenidən dəyişdirilərək Gehaşen qoyulmuşdur.

**CADQIRAN**, Ç u d k ə n d, Q a r a ç o r l u – İrəvan xanlığı Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) aran hissəsində, Ağrıdağ vadisində, İrəvan–Naxçıvan–Bakı d.y. xəttinin üstündə azərb.-ların yaşadığı kəndi. 1826–29 illərdə Rusiya–İran, Rusiya–Osmanlı müharibələri zamanı kənd tamamilə dağıdılmışdır. Sonralar burada Vedibasarın qaraçorlu tərəkəmə tayfaları məskunlaşmışdır. 1918–20 illərdə erməni təcavüzü nəticəsində kəndi tərk etməyə məcbur olan azərb.-lar 1922 ildə geri qayıtmış və kəndi yenidən abadlaşdırmışlar. 1935 ildə kənd ləğv edilmiş və qonşu Şirazlı k.-nin tərkibinə qatılmışdır.

**CADUGƏRLİK** – insanların taleyinə, təbiət hadisələrinə fövqəltəbii təsir imkanlarının mümkünlüyünə əsaslanan sirli qabiliyyət. Qədim dövrlərdən insanların xəstəliklərə, təbii fəlakətlərə və s. qarşı mübarizədə gücsüzlüyü nəticəsində yaranmış, buddizm, xristianlıq, islam və s. dinlərin hökmranlığı şəraitində də qismən qalmışdır (bax həmçinin *Magiya*, *Ovsun*, *Sehr*).

**CAFNA** – Şri-Lankanın eyniadlı y-a-nda tarixi vil. Qədim və orta əsrlər dövründə Cənubi Hindistandan buraya həm dinc, həm də işğal məqsədləri ilə gələn miqrantların bir neçə axını olmuşdur. 13 əsrdə burada Ariya Çakravarti sülaləsinin hakimiyyəti altında meydana gələn eyniadlı tamil dövləti adanın c., c.-q. və mərkəzi hissələrindəki sinqal dövlət qurumları ilə mübarizə aparırdı. C. Hindistan subkontinentindəki qüdrətli qonşularından – *Pandya* dövləti, sonra isə *Vicayanaqar* imperiyasından asılı vəziyyətdə idi. 1505 ildə C.-ya portuqaliyalılar gəldilər. C. 1542 ildə Portuqaliyadan vassal asılılığını qəbul etdi, 1591 ildə onun protektoratı, 1620 ildə isə müstəmləkəsi oldu. C. 1658 ildə Hollandiya Ost-Hind şirkətinin, 1796 ildə isə İngiltərə Ost-Hind şirkətinin nəzarətinə keçdi. C. 1800 ildən Britaniyanın Seylon müstəmləkəsinin bir hissəsi oldu. 1948 ildə Seylon (1972 ildən Şri-Lanka) müstəqillik qazandıqdan sonra C. əhalisinin əksəriyyətini tamillərin təşkil etdiyi Şimal əyalətinin tərkibinə daxil edildi. C. sinqal-tamil münaqişəsinin inkişafında mühüm rol oynamış, azsaylı tamillərin hüquqları uğrunda mübarizənin mərkəzi olmuşdur. Tamillərin bir hissəsi şimali və şimal-şərqi tamillərə muxtariyyətin verilməsi tələbi ilə, digər hissəsi isə Şri-Lankadan ayrılıb müstəqil tamil dövlətinin yaradılması çağırışı ilə çıxış edirlər.

**CÁFNA**, V a p a n a y a, Y a p a n a y a – Şri-Lankanın şm.-ında şəhər. Şimal əyalətinin inz. m. Əh. 172,8 min (2007). Cafna y-a-nda port. Avtomobil yolları qovşağı. Sonuncu d.y. st.

13 əsrdən tamil racəliyinin mərkəzi idi. 1619 ildən Portuqaliyanın, 1658 ildən Niderlandın, 1795 ildən B. Britaniyanın hakimiyyəti altında olmuşdur. 1983–95 illərdə tamillərin separatçı hərəkatının əsas mərkəzlərindən biri idi. 1995 ildə Şri-Lankanın hökumət qoşunları tərəfindən alınmış və dağıdılmışdır.

Qrote-kerk kilsəsi (təqr. 1730) ilə birlikdə istehkam (1680), Məryəm ana katolik kilsəsi, anqlikan kilsəsi (19 əsrin əvvəli) saxlanılmışdır. Arxeologiya muzeyi var. K.t. xammalı (tütün, hindqozu, çəltik) emal olunur. Balıqçılıq; dəniz ovu (mirvari və "çank" balıqqulağının çıxarılması) inkişaf etmişdir. Filiqran zərgərlik məmulatları hazırlanır. C. yaxınlığında Nallur-Kumaran (15 əsr,







Cafna fortu.

1734 ildə yenidən tikilmişdir) hinduist məbədi yerləşir.

**CAFÚRA**, Ə l - C a f u r a – Səudiyyə Ərəbistanında qumlu səhra. BƏƏ ilə sərhəddə, Qatar y-a-ndan və sahilyanı Əl-Hasa səhrasından c.-da yerləşir.

**CAGİR** (far. جاگیر, hərfi mənası – tutulmuş yer) – 16–18 əsrlərdə *Böyük Moğollar* imperiyasında hakim feodal torpaq sahibliyi forması. *Cagirdar* C.-dən öz xeyrinə dövlət torpaq vergisi yığır, bunun əvəzində isə, əsasən, süvarilərdən ibarət muzdlu qoşun saxlayırdı. C.-dən əldə edilən gəlirlə muzdlu qoşuna çəkilən xərclər arasında fərqin böyük olması C. sahiblərinə cah-calal içində yaşamağa imkan verirdi. C.-in sahəsi (təqr. 100 min *ha*) olduqca böyük idi. 18 əsrə qədər C. irsi deyildi; yalnız hökmdar tərəfindən verilirdi.

**CAGİRDAR** – *cagir* sahibi. Moğol imperiyasında (bax *Böyük Moğollar*), əsasən, müsəlmanlardan ibarət olan C.-lar hakim feodal sinfinin yuxarı təbəqəsini təşkil edirdilər. Dövlət qoşununun əsas hissəsini təşkil edən hərbi kontingentləri C.-lar saxlayırdılar. Müstəmləkə dövründə bir sıra iri torpaq sahibləri də C. adlanırdı. 20 əsrin 50-ci illərində Hindistanda keçirilən islahatlar nəticəsində C.-ların torpaqlarının böyük hissəsi dövlətin xeyrinə müsadirə olundu.

**CAĞACIQ** – Azərb. Resp. Quba r-nunun Talabıqışlaq ə.d.-ndə kənd. R-n mərkəzindən 22 *km* ş.-də, Quba–Bakı avtomobil yolu kənarındadır. Əh. 500 (2011); maldarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Tibb məntəqəsi, ibtidai məktəb var.

**CAĞATAY**, Ç a ğ a t a y (? – 1242) – monqol xanı, *Çingiz xanın* ikinci oğlu. Atasının yürüşlərində, Çinin, Xarəzmin işğalında iştirak etmişdi. Çingiz xan zəbt edilmiş ərazilərı oğulları arasında bölərkən (1224) C. Almalıqdan Sırdərya və Amudəryayədək olan Orta Asiya vil.-lərinin hakimi təyin edilmişdi (bax *Cağatay ulusu*). Monqol dövlətində Çingiz xan *yasasının* (qanunlarının) ən yaxşı bilicisi hesab olunan C. tabeliyindəki vil.-lərdə onlara ciddi əməl olunmasını tələb edirdi. İslam dininə qərəzli yanaşır, monqol qanun və adətlərinə zidd olan bir sıra şəriət qaydalarına riayət edən müsəlmanları qəddarcasına təqib edirdi.

**CAĞATAY DİLİ** – bax *Özbək dili*.

**CAĞATAY ƏDƏBİYYATI** – bax *Özbəkistan məq.-nin* Ədəbiyyat bölməsinə.

**CAĞATAY ULUSU** – *Çingiz xanın* imperiyası bölüşdürülərkən (1224) Çingiz xanın ikinci oğlu *Cağataya* və onun ailəsinə çatmış Asiya vil.-lərinin ümumi adı. *Mavəraünnəhr*, Jetı su (Yeddisu) və Kaşqarı əhatə edirdi. 1251 ildə Munke hakimiyyətə gəldikdən sonra Cağataylar nəslinin yaşlı nümayəndələrinin, demək olar, hamısı edam olundu; ulus Munke və Batı arasında bölüşdürüldü. Cağatayın nəvəsi Alqu 13 əsrin 60-cı illərində ulusda Cağatayların hakimiyyətini bərpa etdi. Cağatay xanları Mavəraünnəhrin idarəçiliyini müqatiəçi canişinlərə – Mahmud Yalavaça (1225–38) və onun oğlu Məsud bəyə (1238–89) həvalə etdilər. Alqunun xələfləri Mübarək və Borak oturaq əhali ilə sıx əlaqələrin qurulmasına nail olmaq məqsədilə islam dinini qəbul etdilər, xanın iqamətgahı və bəzi monqol nəsilləri, o cümlədən cəlairilər və barlaslar Jetı sudan Mavəraünnəhrə köçürüldü. Ayrı-ayrı xanların hakimiyyəti möhkəmləndirmək cəhdlərinə baxmayaraq, ulusda feodal pərakəndəliyi güclənirdi. 14 əsrin 40-cı illərində C.u., əslində, müxtəlif feodal hakimliklərinə parçalandı. *Teymurun* hakimiyyətə gəlməsi ilə Cağatayların Mavəraünnəhrdə hökmranlığına son qoyuldu. Cağatayların hakimiyyəti 16 əsrin 70-ci illərinə qədər davam etdi. C.u.-nda cağatay (köhnə özbək) dilinin normalarının formalaşması prosesi gedirdi.

**CAĞAZUR** – Azərb. Resp. Laçın r-nunda kənd. Cağazur ə.d.-nin mərkəzi. R-n mərkəzindən 15 *km* c.-q.-də, Qarabağ vulkanik yaylasında, Zabux çayının (Həkəri çayının sağ qolu) sahilindədir. Əh. 780 (2011); işğaldan (1992, may) əvvəl əkinçilik, bağçılıq, bostançılıq, heyvandarlıq və arıçılıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana, mədəniyyət evi, feldşer-mama məntəqəsi, poçt, ATS var idi.

**CAHAN PƏHLƏVAN** (? – 1186) – Eldənizlər dövlətinin hökmdarı [1175–86]. Bax *Məhəmməd Cahan Pəhləvan.*

**CAHANGİR** (far. جهانگیر, hərfi mənası – dünyanı istila edən; hökmranlıq titulu), Nur əd-Din Məhəmməd Cahangir padşah Qazi (1569–1627) – *Böyük Moğollar* dövlətinin 4-cü hökmdarı [1605–27]. *Əkbərin* oğludur. Doğulanda Səlim adlandırılmış, taxta çıxanda C. titulunu almışdır. C.-in hökmranlığı dövründə mərkəzi hakimiyyət zəifləmiş, *cagirdarlar* qüvvətlənməyə başlamış, atası Əkbərin islahatları ləğv edilmiş, torpaqlar feodallara paylanmışdı. C. 1613 ildə İngiltərə Ost-Hind şirkətinə Suratda ticarət faktoriyasının yaradılmasına icazə vermişdi. C. hakimiyyəti illərində Əhmədnaqar (1616) və Kanqranı (1620) Moğol imperiyasına birləşdirsə də, 1622 ildə I Abbas Əfqanıstandakı ticarət əhəmiyyətli şəhərləri, o cümlədən karvan ticarətinin "açarı" olan Qəndəharı geri almışdı. C. dövlət işləri ilə az məşğul olmuşdur. Dövlət idarəçiliyində C.-in arvadı Nur Cahan və onun qohumlarının böyük siyasi nüfuzu var idi. Bu, əyanların narazılığına gətirib çıxarmış və C.-in oğlu *Şah Cahanın* da iştirak etdiyi bir sıra sui-qəsdə səbəb olmuşdu. Ömrünün sonlarında C. faktiki olaraq real hakimiyyətə sahib deyildi. Atası kimi, elmə və maarifə himayədarlıq etmişdir. "Tuzuk-i-Cahangiri" adlı əsərin müəllifidir.

**CAHANGİR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Quruçay kəndistanında, Qaraağac qəs.-ndən 48 *km* c.-q.-dədir.

**CAHANGİRBƏYLİ** – Azərb. Resp. Zəngilan r-nunda kənd. Cahangirbəyli ə.d.-nin (Cahangirbəyli, Tatar, Tiri, Turabad, Vəliqulubəyli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 12 *km* c.-ş.-də, Oxçu çayının sahilindədir. Əh. 1000 (2011); işğaldan (1993, oktyabr) əvvəl heyvandarlıq, baramaçılıq, taxılçılıq və üzümçülüklə məşğul olmuşdur. Orta məktəb, mədəniyyət evi, feldşer-mama məntəqəsi, klub, uşaq bağçası, şərab z-du var idi.

**CAHANGİRBƏYOV** Eldar Xanlaroviç (d.16.9.1937, Bakı) – Azərb. idmançısı. Gimnastika üzrə SSRİ idman ustası (1965), ümumittifaq dərəcəli hakim (1988). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1962). Azərb. Resp. əməkdar bədən tərbiyəsi və idman xadimidir (2008).

**CAHANGİRLİ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Ənqut kəndistanında, Germi qəs.-ndən 28 *km* q.-dədir.

**CAHANGİROV** Cahangir Şirgəşt oğlu (20.6.1921, Bakı yaxınlığındakı Balaxanı k. – 25.3.1992, Bakı) – Azərb. bəstəkarı, pedaqoq, xormeyster. Azərb. SSR xalq artisti (1963).



Azərb. SSR əməkdar incəsənət xadimi (1959). SSRİ Dövlət mükafatı laureatı (1950). İlk musiqi təhsilini Bakı Musiqi Texnikumunda almış, eyni zamanda Teatr Texnikumunda oxumuşdur. 1941 ildə Azərb. Dövlət Konservatoriyasının xalq musiqisi şöbəsinə daxil olmuş, Ü. Hacıbəylidən dərs almışdır. Daha sonra konservatoriyanın bəstəkarlıq fakültəsini (prof. B. Zeydmanın sinfini) bitirmişdir (1951). 40-cı illərdə Cənubi Azərb. Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının xor qrupuna, sazçı qızlar ansamblına, 1944–60 illərdə Azərb. Radio Verilişləri Komitəsi nəzdindəki xora rəhbərlik etmişdir.

C. yaradıcılığının əsas hissəsini təşkil edən xor əsərləri Azərb. xor musiqisinin inkişafında əhəmiyyətli rol oynamışdır: solist, xor, qiraətçi və simfonik ork. üçün "Arazın o tayında" (1949) vokal-simfonik poeması və "Dostluq nəğməsi" (1956) süitası, "Füzuli" (1959) və "Nəsimi" (1973) kantataları, "Sabir" (1962), "Hüseyn Cavid-59" (1984) və faşizm üzərində qələbənin 40 illiyinə həsr edilmiş "Böyük qələbə" (1985) oratoriyaları və s. C.-un musiqisi üçün nikbinlik, milli musiqi ilə üzvi əlaqə, axıcı melodika səciyyəvidir. Azərb. kütləvi və lirik mahnı janrının, həmçinin opera və instrumental musiqisinin inkişafında xidməti var. "Azad" (1957, M.İbrahimovun "Azad qız" povestinin motivləri əsasında) və "Xanəndənin taleyi" (1978) operalarının, "Təzə gəlin" (1976) operettasının, skripka ilə ork. üçün konsertin (1951), Azərb. xalq çalğı alətləri ork. ("Osetin süitası", "Misir lövhələri" və s.) və xor üçün əsərlərin, mahnıların ("Nazənin", "Aylı gecələr", "Xəzər", "Dan ulduzu, bir də mən", "Ana", "Zəriflik", "Ay qız" və s.), teatr tamaşaları ("Almaz", C. Cabbarlı; "Xəyyam", H. Cavid; "Türkiyədə", N. Hikmət; "Ana torpaq", Ç. Aytmatov; "Od içində", Ə. Məmmədxanlı; "Mirzə Şəfi", N. Xəzri və s.) və kinofilmlərə ("Koroğlu", 1960; "Yenilməz batalyon", 1965; "Dəli Kür", 1969, hər üçünün rej.-u H. Seyidzadə; "Dağlarda döyüş", 1967, rej. K. Rüstəmbəyov və s.) musiqinin müəllifidir. Tamamlanmamış "Füzuli" adlı operası var. C. Azərb. Dövlət Konservatoriyasında dərs demişdir (1975 ildən xor dirijorluğu kafedrasının müdiri; 1978 ildən prof.).

**CAHANGİROV** Əli Dadaş oğlu (1933–96) – Azərb. iqtisadçısı, iqtisad e.d. (1974), prof. (1978). Azərb. Xalq Təsərrüfatı İn-tunu bitirmişdir (1954). Azərb. SSR Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İn-tunda direktor müavini (1962–68), AKP MK-da məsul vəzifələrdə (1968–72), Azərb. Dövlət Plan Komitəsinin İqtisadiyyat İn-tunda baş elmi işçi (1972–77), Moskva Ümumittifaq Elmi Tədqiqat Kənd Təsərrüfatı İn-tunda şöbə müdiri, direktor müavini (1977–1991) işləmişdir. Tədqiqatları ETT-nin k.t.-na tətbiqinə həsr olunmuşdur. 250-dən çox elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Эффективность интенсивных технологий в сельском хозяйстве. M., 1986; Производственные и научно-производственные системы в сельском хозяйстве. M., 1989.

**CAHANGİROV** Fikrət Fətiş oğlu (d. 1.4.1971, Biləsuvar r-nunun İsmətli k.) – Azərb. dilçisi, filologiya e.d. (2007), prof. (2009). Azərb. Dillər Un-tini bitirmişdir (1997). 2001–2009 illərdə həmin un-tdə dekan müavini, roman-german filologiyası fakültəsinin dekanı işləmişdir. 2009 ildən filologiya fakültəsinin dekanıdır. Əsas tədqiqatları ingilis dilində perfekt zamanlar sistemi və onun Azərb. dilində ifadəsinə, ingilis və Azərb. dillərində modallığın struktur-semantik öyrənilməsinə həsr olunmuşdur. 70-dən çox elmi əsərin, o cümlədən beş monoqrafiyanın müəllifidir.

Ə s ə r l ə r i: Modality in English: Semantic, pragmatic and psycholinguistic approaches. Islamic Republic of İran, Sarab University, Akhtar publication. 2003; İngilis dilində perfekt zamanlar sistemi və onun Azərbaycan dilində ifadəsi. B., 2007.

**CAHANGİROV** Məmməd Şamil oğlu (d.15.3.1933, Erm. SSR Vardenis r-nunun Şişqaya k.) – Azərb. tibb alimi, tibb e.d. (1969), prof. (1971), Azərb. Resp.-nın əməkdar müəllimi (2010). Azərb. Dövlət Tibb İn-tunu (indiki Azərb. Tibb Un-tini) bitirmişdir (1957). Həmin un-tin normal anatomiya kafedrasının assistenti (1960–65), operativ cərrahiyyə kafedrasının assistenti (1965–69), prof.-u (1969–75), kafedra müdiri (1975–78), patoloji anatomiya kafedrasının prof.-u (1978–2005) işləmiş və 2005 ildən həmin kafedranın müdiridir. Tədqiqatları müxtəlif sinir aparatlarının patomorfoloji xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir. 200-dən artıq elmi əsərin müəllifidir.

**CAHANXANIMLILAR** – Azərb. tayfalarından biri. Şahsevən tayfa birliyinə daxil idilər. Əsasən, Cənubi Azərb.-ın Ərdəbil əyalətində yaşayırlar. Yaylaqları Savalan d.-nda Sarıdava (Sərdava), qışlaqları isə Muğanın Xoruzlu yurdlarındadır. Maldarlıq, qismən də əkinçiliklə məşğuldurlar. Toxuculuq (keçə, palaz, xalça və s.) da inkişaf etmişdir (bax *Şahsevənlər*).

**CAHANNAMƏ** – aşıq şeiri şəkli; tarixi mənzumə. Məşhur aşıqlar tərəfindən yaradılır. C.-də aşığın yaşadığı dövrdə baş vermiş tarixi hadisələrə müstəqil münasibəti ifadə olunur. Burada aşıq, əsasən, poetik müraciət üslubuna əsaslanır; sonuncu bənddə müəllifin təxəllüsü verilir. C. dövrün sosial-tarixi hadisələrini araşdırmaq baxımından qiymətli mənbədir. Aşıq Ələsgər, Molla Cümə, Aşıq Bəhmən və b. aşıqların C.-ləri var.

*Əd.*: H ə k i m o v M. Aşıq sənətinin poetikası. B., 2004.

**CAHANŞAH,** Ə b ü l m ü z ə f f ə r C a h a n ş a h (1397, Xoy ş. yaxınlığında – 1467, Cənubi Azərb., Çubuqcur) – Qaraqoyunlu hökmdarı [1435–67], görkəmli dövlət xadimi, şair. Köçəri-hərbçi əyanların müqavimətini qırıb mərkəzləşmiş dövlət siyasəti yeridirdi. C.-ın apardığı müharibələr nəticəsində Qaraqoyunlu dövlətinin ərazisi xeyli genişlənmişdi. Teymurilər dövlətinin zəifləməsindən istifadə edən C. bütün Qərbi İranı və Şərqi İranın xeyli hissəsini işğal etmiş, Teymurilərin paytaxtı Heratı da ələ keçirmişdi. Osmanlı imperiyası ilə ittifaqda olan C. Ağqoyunlularla mübarizədə müvəffəqiyyətsizliyə uğradı. C. Uzun Həsən tərəfindən məğlub edildi və döyüşdə öldürüldü [bax *Muş vuruşması (1467)*]. C. zamanında xeyli abadlıq işləri görülmüş, Təbrizdə nadir memarlıq abidəsi olan *Göy məscid* (C. burada dəfn olunmuşdur) və s. tikilmişdi. Onun sarayında şeir məclisi fəaliyyət göstərirdi. C. "Həqiqi" təxəllüsü ilə azərbaycanca və farsca lirik şeirlər yazmışdır. Nəsiminin təsiri ilə ana dilində yazdığı şeirlərində hürufiliyə meyil etmişdir. Dostluq münasibəti saxladığı *Ə. Cami* onun yaradıcılığını yüksək qiymətləndirmişdir. Divanının avtoqraf olduğu ehtimal edilən əlyazma nüsxəsi əvvəllər Türkiyə saray kitabxanasında, bir müddət Misirdəki İsgəndəriyyə kitabxanasında, sonralar isə Britaniya muzeyində, Nyu-York kitabxanasında saxlanılmışdır; hazırda *Matenadarandadır*. Tehran Un-tinin mərkəzi kitabxanasında ikinci nüsxəsi tapılaraq nəşr edilmişdir (2001). Azərb. dilində 87 qəzəl və 32 rübaisi, fars dilində 105 qəzəl və bir müstəzadı qalmışdır. Bəzi qəzəlləri ingilis dilinə tərcümə edilərək çap olunmuşdur.

**CAHANŞAHKƏHRİZ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Ətraf kəndistanında, Qiydar qəs.-ndən 48 *km* c.-dadır.

**CAHARQIŞLAQ,** Ç a h a r q ı ş l a q – Azərb. Resp. Xızı r-nunun Sitalçay k.-ndən 5,5 *km* q.-də, dağın ətəyində orta əsrlərə aid yaşayış məskəni. 2009 ildə Q. Qoşqarlı tərəfindən aparılmış arxeoloji kəşfiyyat zamanı C.-ın ərazisində çoxlu ev xarabalıqları və məscidin qalıqları aşkar edilmiş, 20 kurqan qeydə alınmışdır. Ən böyük kurqanın diametri 25 *m*, hünd.1,6 *m*-dir. Kurqanların, demək olar ki, hamısı kromlexlərlə əhatə olunmuşdur; tökümü torpaq qarışıq daşlardan ibarətdir. Sahədə aşkar edilmiş kiçik qəbiristanlıqda da qəbirlərin ətrafında daş hasar hörülmüşdür.

**CAHİ** İbrahim Mirzə Əbülfət (aprel, 1540 – 24.2.1576) – səfəvi şahzadəsi, şair. Ş.İ. *Xətainin* nəvəsi, səfəvi şahzadəsi Bəhram Mirzənin oğludur. I Şah Təhmasibin sarayında təhsil almış, müxtəlif vaxtlarda Məşhədin, Səbzivarın hakimi, 1572 ildə isə baş eşikağası təyin edilmişdir.

İncəsənətə dərin marağı olan C.-nin 4000 kitabdan, xəttatlıq və boyakarlıq nümunələrindən ibarət böyük bir kolleksiyası olmuşdur. Çox istedadlı şəxs olan İbrahim Mirzə əlyazmaların yaradılması (xəttatlıq, rəsm, səhifələrin ornamentlərlə bəzədilməsi, hətta cildləmə) ilə məşğul olmuş, Azərb. və fars dillərində "Cahi" təxəllüsü ilə şeirlər də yazmışdır. Şeirləri ölümündən sonra Əhməd Münşi Qumi və qızı Gövhərşad Bəyim tərəfindən divan şəklinə salınmışdır. Divanın iki nüsxəsi məlumdur (Gülüstan sarayı muzeyi, Tehran; Sədrəddin Ağaxanın şəxsi kolleksiyası, Cenevrə).

**CAHİDİ** Əhməd əfəndi (?, Ədirnə – 1660, Çanaqqala) – türk sufi şairi. Xəlvəti-üşşaqi təriqətinin cahidiyyə qolunun əsasını qoymuşdur. *Yunus İmrənin* davamçısı olmuşdur. Həyatı haqqında məlumat azdır. Ədirnədən Çanaqqalaya gəlmiş, burada bir xanəgah yaradaraq öz ideyalarının təbliği ilə məşğul olmuşdur.

C.-nin 100-ə qədər qəzəl və ilahilərdən ibarət divanı (Süleymaniyyə kitabxanası, İstanbul) var. "Kitab ən-nəsihə" adlı əsərin (iki nüsxəsi Süleymaniyyə kitabxanasında saxlanılır) müəllifidir. C.-nin xalq arasında "Cahidə Sultan" adlanan türbəsi Çanaqqalada ziyarətgahdır.

**CAHİLİYYƏ,** ə l - c a h i l i y y ə (ərəb. الجاهلية) – müsəlman ənənəsinə görə, islamaqədərki tarixdə insanların peyğəmbərsiz yaşadığı dövr. Tarixdə ilk (Adəm və Nuh, yaxud İdris və Nuh arasındakı) və son (İsadan Məhəmməd peyğəmbərə qədərki) C. dövrləri fərqləndirilir. İslam dövründə meydana gələn "C." termini islamdanəvvəlki ərəblərin yanlış inancları və həyat tərzini xarakterizə etmək üçün işlədilmiş və müəyyən zaman kəsiyinə şamil olunmuşdur. Məhəmməd peyğəmbər C.-ni dövr kimi deyil, həyat tərzi kimi səciyyələndirmişdir. Əvvəllər "bilgisizlik dövrü" kimi anlaşılan C.-ni müasir alimlər "elm"in (bilik) deyil, "helm"in (mehribanlıq, səbr, kamal) əksi kimi xarakterizə edirlər. Quranda 4 dəfə xatırlanan (3:154; 5:50; 33:33; 48:26) "C." termini islamdanəvvəlki ərəblərin elmsizliyinə deyil, yalnız Allaha inanmamasına, təkəbbür, çılğınlıq və s. kimi mənfi xüsusiyyətlərinə işarədir. Peyğəmbər həmin dövrə xas müsbət adətlərin (səxavət, qonağa hörmət və s.) saxlanmasının tərəfdarı idi. Zəngin mifik düşüncəyə malik olmuş C. dövrü ərəbləri astronomiya, təbabət, qiyafət (fizioqnomika) və s. elmlərdə uğurlar qazanmış, dövrün yüksək bədii-estetik xüsusiyyətləri ilə seçilən poeziyasını yaratmışdılar.

**CAHİZ** (الجاحظ) – Ə b u O s m a n Ə m r i b n B ə h r ə l - C a h i z (təxəllüsü, hərfi mənası – dombagöz; təqr. 767, başqa məlumatlara görə 775, Bəsrə – 868, Bəsrə) – ərəb yazıçısı, ensiklopedist alim; islamda *mötəzilə* (rasionalist) cərəyanının görkəmli nümayəndəsi. Həbəşistanlı ailədə doğulmuşdur. Yeniyetmə yaşlarında xırda ticarətlə məşğul olmuşdur. Bəsrədə və Bağdadda ilahiyyatı, ədəbiyyatı, tarixi, təbiyyat elmlərini və fəlsəfəni öyrənmişdir. Bir müddət Abbasilər sarayında xidmət etmişdir. C. Pellat C.-in 244 əsərinin siyahısını tərtib etmişdir (Sıbt İbnü əl-Cevzi onun 360 əsəri olduğunu, onların çoxunu Bağdaddakı Əbu Hənifə Türbəsi Kitabxanasında gördüyünü söyləyir; təqr. 25 əsəri dövrümüzədək tam, 65-i isə qismən gəlib çatmışdır). Ədəbi-bədii ["Bəyan və şərh kitabı" ("Kitab əl-bəyan vət-təbyin"), "Quran ayələri haqqında kitab" (Kitabu Əyi-l Quran"), "Çağırış və bəlağət haqqında risalə" (Risalə fi-l-bəlağə vəl-icəz)], dini [("Əl-Osmaniyyə", "Abbasilər haqqında kitab" ("Kitab fi-l Abbasiyyə") və s.], tarixi-tənqidi ["Əməvilər haqqında risalə" ("Risalə fi Bəni Uməyyə"), "Məliklərin yığıncağı haqqında kitab" ("Kitabu Cəmhərati-l-muluk") və s.], əxlaqi ["Sirlərin gizlədilməsi və dilin qorunması haqqında risalə" ("Risalə fi kitmanis-sirr və hifzil-lisan") və s.] və digər müxtəlif mövzularda yazılmış ["Müəllimin kitabı" ("Kitab ül-müəllimin"), "Xəsislər haqqında kitab" ("Kitab ül-Buxalə"), "Heyvanlar haqqında kitab" (Kitab ül-Həyəvan") və s.] əsərlərin müəllifidir. Əsərlərində ərəb tayfaları, islam dinini qəbul etmiş xalqlar, xilafət dövründə ictimai münasibətlər və s. haqqında məlumat vermiş, dünyəvi əsərlərində islam mədəniyyəti və humanizmini təhlil etmişdir. "Bəyan kitabı"nda ("Kitab ül-Bəyan") təbii mühitin insan və heyvanlara təsiri ilə bağlı psixoloji araşdırmaları verilmişdir. Əsərlərində Azərb.-dan Bağdad bazarına gətirilən mallar, xürrəmilərin ərəb qoşunları ilə son döyüşləri və s. haqqında da məlumat verilmişdir. Orijinal yaradıcılıq üslubu ilə ərəb nəsrinə mükəmməl forma gətirmişdir. C.-in yaradıcılığı ərəb ədəbiyyatının sonrakı inkişafına mühüm təsir göstərmişdir.

*Əd.*: Ch. P e l l a t. Le Milieu basrien et la formation de Gahiz. Paris, 1953, s. 136, 242; A m n o n S h i l o a h. The Theory of Music in Arabic Writings, München, 1979, s. 92, 93; R a m a z a n Ş e ş e n. "Cahizin Eserlerinin İstanbul kütüphanelerindeki Yazma Nüshaları", ŞM, VI (1966), s. 113–134.



Cakarta şəhərindən görünüş.

**CAKÁRTA** (Jakarta, Djakarta) – İndoneziyanın paytaxtı və ən iri şəhəri. Əyalət statusuna bərabər tutulan xüsusi paytaxt r-nudur. Əh. 9,6 mln. (2010); aqlomerasiyada 25,3 mln. (2010). Aqlomerasiyanın ən iri şəhərləri: *Bekasi*, Tangeranq, *Depok*, *Boqor*. Yava a.-nın şm.-q.-ində, sahilyanı ovalıqda, Çilivunq çayının Yava dənizinin Cakarta buxtasına töküldüyü yerdədir (Seribu a-rı da bura daxildir).

C. – ölkənin başlıca siyasi, iqtisadi və mədəni mərkəzidir. D.y. xətlərinin (3 qolu) və avtomobil yollarının iri qovşağıdır. İndoneziyanın ən mühüm dəniz portu – Tancunq-Priok (yük dövriyyəsi ildə təqr. 20 mln. *t*; 21 əsrin əvvəllərində ölkənin ixracatının təqr. 1/3-i və idxalının 1/2-indən çoxu). Sukarno-Xatta beynəlxalq aeroportu, Xalim-Perdanakusuma aeroportu var.

Cakarta. 88 mərtəbəli "eko-şəhər" binası.



C.-nın yerində yaşayış məskəni təqr. 5 əsrdən mövcud olmuşdur. 1527 ildə bu yerdə Bantam sultanının portuqaliyalılar üzərində qələbəsindən sonra orada yerləşən Sunda-Kelapa kəndi Bantama birləşdirilmiş və Cayakert (Malayya dilindən tərcümədə "uğurlu qələbə şəhəri") adlandırılmışdır. 17 əsrin əvvəllərində hollandlar kəndi dağıdaraq yerində 1619 ildə Bataviya qalasını inşa etmişlər. 1621 ildə qalanın ətrafında genişlənən şəhər də bu adı almışdır. Burada 1732 ilədək Hollandiya Ost-Hind şirkəti general-qubernatorunun iqamətgahı, sonralar isə Niderland dövlət müstəmləkə idarəsi yerləşirdi. 1811–16 illərdə şəhər ingilislərin nəzarəti altında olmuşdur. 20 əsrin əvvəllərindən Bataviya İndoneziya milli azadlıq hərəkatının əsas mərkəzlərindən birinə çevrilmişdir. 1945 il avqustun 17-də burada paytaxtı Bataviya olmaqla İndoneziyanın müstəqilliyi elan edilmişdir. 1946 ildə müstəmləkəçilər tərəfindən hərbi əməliyyatların başlanması ilə əlaqədar paytaxt müvəqqəti olaraq Cokyakartaya köçürülmüş, 1949 ildə isə yenidən Bataviyaya qaytarılaraq C. adlandırılmışdır.

Şəhər şm.-dan c.-a doğru inkişaf etmişdir. Tarixi mərkəz (dəniz sahilinə yaxın) holland müstəmləkə memarlığının (Kali-Besar kanalı ilə birlikdə Kota rayonu: 17–18 əsrlərə aid evlər, Penanq darvazası, 1671; portuqal kilsəsi, 1693–96; gen.-qubernatorun evi, 1708; Köhnə ratuşa, 1710–12) və ənənəvi İndoneziya tikililərinin (Pasar-İkan r-nu və Sunda-Kelapa limanı) bir çox xüsusiyyətlərini saxlamışdır. Tarixi mərkəzin cənubunda Qlodok Çin məhəlləsi, ondan cənubda hökumət və işgüzar rayonu yerləşir (Azadlıq meydanı, neoklassisizm üslubunda inşa edilmiş Prezident sarayı ilə birlikdə). Daha da c.-da Qızıl üçbucaq adlanan müasir işgüzar mərkəz var. Şəhərin əsas hissəsini kənd evləri tipində birmərtəbəli yaşayış məhəllələri tutur. 20 əsrin 2-ci yarısı – 21 əsrin əvvəllərinə aid tikililər arasında Xarici işlər nazirliyi (1958), idman kompleksi (1956–62, memar R.İ. Semerciyev və b.), hospital (1962–63, memar L. A. Qrişayev); İstiqlal (1984, memar F. Silaban) və Nurul-Xuda (2000, memar R. Martunus) məscidləri; Tabunqan-Neqara bankının binası (1992), parlamentin binası, İndoneziya mədəniyyət mərkəzi (2001, memar A. Mətin), Azadlıq meydanındakı Milli müstəqillik abidəsi (tunc, 1961–1975, heykəltəraş M.Q. Manizer, memar İ.Y. Rojin) və s. var.

C.-da Malyariya İn-tu (1920), Cüzam Tədqiqatları Mərkəzi İn-tu (1935), İndoneziya Elmi Tədqiqatlar İn-tu (1967), Bağçılıq Mərkəzi Tədqiqat İn-tu, İndoneziya Mexanika İn-tu, Milli Arxeologiya Tədqiqatları Mərkəzi və s. fəaliyyət göstərir. C.-da 100-dən çox ali təhsil müəssisəsi, o cümlədən İndoneziya Un-ti (1950), Trisakti Un-ti (1965), Terbuka Un-ti (1984), Milli Texnologiya İn-tu; özəl ali məktəblər – 17 avqust 1945 il ad. un-t (1962), islam (1951) və katolik (1960) un-tləri və s., Siyasi və sosial tarix kitabxanası (1952), Milli kitabxana (1980) var.

C.-da Milli tarix (əsası 1778 ildə qoyulmuşdur; arxeologiya, etnoqrafiya, rəssamlıq kolleksiyası), İndoneziya silahlı qüvvələri (1972), C.-nın tarixi (1974; 1627 ildə tikilmiş binada), Vayanqa (kukla muzeyi; 1975), zərif sənətlər (1976), dəniz (1977), tarix, "Taman Mini" ənənəvi İndoneziya memarlığı və s. muzeylər; Milli qalereya (1958); "Koma", "Keçil", "Mandiri", "Populer", "Benqkel", "Lisendra Buana", "Lembaqa" və s. teatrlar fəaliyyət göstərir. Asiya və Afrika ölkələri kinofestivalı keçirilir. "Yelora Bunq Karno" (təqr. 100 min yer) dünyanın ən böyük stadionlarından biridir. C.-da 1962 ildən Asiya oyunları, 1979, 1987 və 1997 illərdə Cənub-Şərqi Asiya ölkələri oyunları keçirilmişdir.





2000-ci illərin ortalarında xüsusi paytaxt r-nu olan C. ölkənin ÜDM-inin 15%-dən çoxunu istehsal etmiş, İndoneziyanın iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyaların təqr. 20%-ini özündə cəmləşdirmişdir. C.-nın ÜRM strukturunda xidmət sferası təqr. 65% (2004; o cümlədən 23% – ticarət, mehmanxana təsərrüfatı və ümumi iaşə, 22% – maliyyə və biznes xidmətləri, 9% – nəql. və rabitə, 11% – dövlət aparatına xidmət də daxil olmaqla digər sahələr), sənaye – təqr. 23% (o cümlədən elektroenergetika, su və qaz təchizatı – 1,5%), tikinti – 12% təşkil edir. İşçilərin 77%-i xidmət sferasında (o cümlədən ticarətdə – 35%), 17%-i sənayedə, 6%-i tikintidə çalışır. Aqlomerasiya şəhərləri (Bekasi, Boqor, Tangeranq) iqtisadiyyatının strukturunda ÜRM-in 49%-i xidmət sferasının (2004; o cümlədən ticarət – 26%, nəql. – 9%, təhsil, səhiyyə və digər sahələr – 14%), 27%-i sənayenin, 8%-i tikintinin, 16%-i k.t.-nın payına düşür.

Xüsusi paytaxt r-nu iqtisadiyyatının inkişafına yönəldilmiş investisiyaların ümumi həcminin 90%-i C.-nın xidmət sferasında cəmləşmişdir. C.-da ölkənin ali icraedici, qanunverici və məhkəmə orqanları yerləşir. Cakarta fond birjası (1951) hərracların həcminə görə Cənub-Şərqi Asiyada 2-ci yeri tutur (Sinqapur birjasından sonra). C.-da aparıcı İndoneziya banklarının – İndoneziya Bankı (ölkənin mərkəzi bankı), "Mandiri" (aktivlərinin həcminə görə – təqr. 25 mlrd. dollar, ölkədə ən böyük, 2005), "Lippo Banking Group", "Danamon", "Bank Rakyat İndonesia" və s. baş ofisləri; iri xarici bankların (o cümlədən Amerikanın: "Citigroup", "Morgan Stanley", "Goldman Sachs"; Hollandiyanın "ABN AMRO", Almaniyanın "Deutsche Bank") nümayəndəlikləri yerləşir. Burada milli şirkətlərin və maliyyə-sənaye birliklərinin çoxunun: "Pertamina" (ən iri dövlət monopoliyası, neft-qaz sənayesi), "Salim Group" (yeyinti sənayesi və taxta-şalban tədarükü), "Matahari" və "Metro Supermarket Realty Terbuka" (pərakəndə satış şəbəkələri), "Pelni" (dəniz daşımaları), "BULOG" (logistika və s.), "PT İnfomedia Nusantara" (telekommunikasiya), "Kompas-Gramedia Group" və "Lippo Group" (çoxsahəli konqlomeratlar) və s.-in mənzil-qərargahları; İndoneziyada işləyən xarici korporasiyaların, o cümlədən neft ("ExxonMobil" və "Shell"), mədənçıxarma ("BHP Billiton" və "Rio Tinto"), həmçinin bəzi yapon ("Toyota", "Mitsubishi", "Honda", "Sumitomo") və fransız ("Danone") TMK-larının baş nümayəndəlikləri C.-da yerləşir.



Cakarta. Malayziya Universitetinin kitabxanası.

C.-nın sənaye investisiyaları həcminin təqr. 75%-i aqlomerasiya şəhərlərinin payına düşür. Başlıca sənaye zonaları Tangeranq və Bekasidə yerləşir. Sənayenin aparıcı sahələri – maşınqayırma (2004 ildə sənaye məhsullarının əlavə dəyərinin 65%-i, o cümlədən nəql. – 60%), kimya və neft emalı (11,4%), tikiş (8,7%), yeyinti (5,3%), metallurgiya (1,7%). C. aqlomerasiyası Cənub-Şərqi Asiyanın avtomobil sənayesinin (başlıca olaraq, avtomobilyığma) aparıcı mərkəzlərindən biridir; burada hər il çoxu yapon markalı, həmçinin milli "Kijang" markalı ("Toyota" TMK-na məxsusdur) təqr. 300 min avtomobil yığılır. Ölkənin ən iri avtomobil sənayesi şirkətlərinin z-dları – "Astra İnternational" ("Toyota", "Honda", "Daihatsu", "İsuzu", "BMW", "Peugeot", "Nissan") və "İndomobil" ("Suzuki", "Nissan", "Volvo", "Mazda", "Ssang-Yong" avtomobilləri yığılır). Gəmiqayırma və gəmi təmiri tərsanələri (əsasən, xüsusi paytaxt r-nunda), elektron, toxuculuq, ayaqqabı, tikiş, sellüloz-kağız, neft emalı, texniki rezin və şin sənayesi müəssisələri fəaliyyət göstərir; Bekasidə "İndal" şirkətinin alüminiumdan məmulatlar istehsal edən z-du var.

**CAKKÓNİ** (Giacconi) Rikkardo (d.6.10. 1931, İtaliya, Genuya) – italyan və Amerika fiziki və astronomu. Nobel mükafatı laureatı (2002). Milan Un-tini

Cakarta. İstiqlal məscidi.





bitirmişdir (1954). İndian və Prinston un-tlərində (1956–59), “American Science and Engineering” tədqiqat kompaniyasında (1959–73), Harvard Un-tinin Astrofizika mərkəzində (1973–81) işləmişdir. Kosmik teleskop İn-tunun ilk direktoru (1981–92) olmuşdur. Avropa Cənub rəsədxanasının baş direktoru (1993–99) işləyərkən “Çox böyük teleskopun” (Very Large Telescope) yaradılmasına rəhbərlik etmişdir. ALMA submillimetr diapazonlu interferometrin yaradılması layihəsinin rəhbərlərindən biridir. Əsas tədqiqatları elementar zərrəciklər fizikası, kosmik şüalar fizikası, rentgen astronomiyasına aiddir. 1960 ildə B. Rossi ilə birlikdə rentgen teleskopunun layihəsini təklif etmişdir. “Uxuru” (1970) və “Eynşteyn” (1978) ilk kosmik rentgen rəsədxanalarının elmi proqramlarına rəhbərlik etmiş, “Çandra” kosmik rentgen teleskopunun yaradılmasına təşəbbüs göstərmişdir (1999). K. Şvartsşild medalı ilə təltif olunmuşdur (Almaniya, 2004).

**CAKOMÉTTİ** (Giacometti) Alberto (10.10.1901, Qraubünden kantonu, Stampa yaxınlığında Borqonovo – 11.1.1966, həmin kantonda, Kur) – İsveçrə heykəltəraşı, boyakar və qrafik. Boyakar Covanni Cakomettinin (1868–1933) oğludur. Cenevrədə Zərif Sənətlər Məktəbində, İncəsənət və peşə məktəbində oxumuşdur (1919–20). 1920–21 illərdə İtaliyada olmuş, italyan incəsənətini, antik memarlığı, Qədim Misir kolleksiyalarını öyrənmişdir. 1922 ildən Parisdə yaşamış, 1925 ilədək E.A. Burdelin “Qrand-Şomyer” akademiyasındakı emalatxanasında təcrübə toplamışdır. Ən yeni cərəyanların təsiri ilə C. yaradıcılığında kubizm formaları meydana gəldi (“Tors”, 1925, Kunsthaus, Sürix, C. fondu); Afrika və kolumbaqədərki Amerika incəsənətinə, Kiklat adalarındakı bütlərə maraq onun bir sıra əsərlərində əksini tapmışdır (“Baş”, 1925, Müasir İncəsənət Milli Muzeyi, Paris). 1920-ci illərin sonundan C. sürrealizm təmsilçiləri ilə yaxınlaşmışdır; bu dövr heykəltəraşlığında bəsitləşən formalar abstraksiyaya yaxınlaşır (“Tamaşa edən baş”, 1927–28, Kunsthaus, Sürix). İrreal formalar axtarışında C. şəbəkəli struktura (“Saray səhər saat 4-də”, 1932–33, Müasir İncəsənət Muzeyi, Nyu-York), üfüqi sərili heykəllərə müraciət edir (“Başı kəsilmiş qadın”, 1932, orada). 1934 ildən sürrealizm cərəyanından uzaqlaşan C. fərdi üslubunu inkişaf etdirmişdir [“Görünməyən obyekt” (“Boşluğu saxlayan əllər”), 1934, Yel un-tinin rəssamlıq qalereyası, Nyu-Heyven].

İkinci dünya müharibəsi illərində Cenevrədə olan C. tuncdan miniatürlər (“Adamcığaz kürsülük üzərində“, 1940–41, şəxsi kolleksiya, Paris) və gözəl natürmortlar (“Bufet üzərində alma”, 1937) yaratmışdır. Sənətkar 1945 ildə Parisə qayıtmışdır; J.P. Sartrın və J. Jenenin C. yaradıcılığı haqqında məqalələri ona şöhrət gətirmişdir. Son dövr əsərlərini tuncla işləmişdir (“Əyləşmiş qadın”, 1946, Müasir İncəsənət Milli Muzeyi, Paris; “Büdrəmiş insan”, 1950, Kunsthaus, Sürix). Fransız ekzistensializminin təsiri ilə yaratdığı əsərlərində təcrid olunmuş, özünə qapanmış fiqurlar ağac gövdəsinə bənzədilir, müxtəlifmiqyaslı personaj və detalları birləşdirən priyomlar heykəltəraşlığı boyakarlıq perspektiv effektləri ilə zənginləşdirir [“Tala” (“Doqquz fiqur ilə kompozisiya”, 1950, Kunsthaus, Sürix), “Təməl üzərində dörd fiqur” (1950, A. Maqın kolleksiyası, Paris) və s.]. Son dövr boyakarlıq portretlərində perspektiv ixtisarlar, yığcam və ya uzadılmış məkan effektlərindən istifadə edilmişdir (“Rəssamın anası”, 1951, Müasir İncəsənət Milli Muzeyi, Paris).

A. Cakometti. “Döyüş arabası”. Tunc. 1950. Kunsthaus muzeyi (Sürix).



**CAKUNLAR** (oranq xulu) – Malayziyanın protomalayya əhalisinin tərkibində etnik qrup. Malakka y-a-nın (ərazisi Malayziya, Myanma və Taylandın tərkibinə daxildir) c.-ş.-ində yaşayırlar. Sayları təqr. 18 min nəfərdir (2006). Malayya dilinin dialektlərində danışırlar. Dindarların əksəriyyəti ənənəvi inanclarını qoruyub saxlayanlardır, müsəlmanlar da var.

C.-ı bacaoların tərkibinə daxil edirlər. C., ehtimal ki, Cənubi Myanmanın qədim əhalisinin nəsilləridir. Yelkənli oyma qayıqlardakı ocağı olan yarımdairəvi komalarda yaşayırlar. 10-dan 40-dək qayığın birləşməsinə ən təcrübəli dənizçi rəhbərlik edir. Uzunmüddətli dayanacaqlar zamanı sahil boyunca yortac əsaslı evlərdə yaşayırlar. Ənənəvi məşğuliyyətləri dəniz ovçuluğu (mirvari, sədəf, molyusk, dərisitikanlıların hasilatı), balıqçılıq, sahilyanı ərazilərdə isə ovçuluq və meşə yığıcılığıdır. Qonşu xalqlarla, həmçinin Çin və Malayya tacirləri ilə mübadilə (düyü, geyim, opium) inkişaf etmişdir. Əvvəllər daha çox dəniz quldurları kimi məşhur idilər. Müasir C.-ın bəzi qrupları oturaq əkinçiliyə keçirlər. Nikahları matrilokaldır. Şamanizm geniş yayılmışdır.

**CAKÚZİ** – istirahət və müalicəvi su prosedurları (hidromasaj) qəbul etmək üçün vanna. İlk dəfə 1956 ildə ABŞ-da italyan Kandido Cakuzi (Candido Jacuzzi; 1903–86) tərəfindən hazırlanmışdır (onun artrit xəstəliyi olan oğluna müntəzəm olaraq hidromasaj tələb edilirdi). İlk C. su dolu vannaya daldırılmış və qabarcıqlar əmələ gətirən nasosdan ibarət idi. C.-nin 250-dən artıq modeli istehsal edilmişdir. Onun adi hidromasaj vannalarından fərqi su şırnağının hava qarışığı ilə axmasındadır (qeyzer effektli olmasındadır). Masajı ağrısız etmək üçün bəzi C. modellərində ozon verilməsi nəzərdə tutulur. Ultrasəs funksiyalı hidromasaj vannaları da mövcuddur. Akril (20-dən çox rəngdə), ağac, mərmər, təbii qranit və s. materiallardan hazırlanan Aura, Aguasoul, J-Sha seriyalı C.-lər xüsusilə seçilir. C., əsasən, suyun temp-runu uzun müddət saxlamağa imkan verən, yüksək istilik izolyasiyası və səsudma qabiliyyətinə malik olan çox davamlı, allergiya yaratmayan metakril materialından hazırlanır. C.-də forsunkalar (mayeni çiləmək üçün bir və ya bir neçə deşiyi olan qurğu) müəyyən bucaq altında yerləşdiyi üçün su şırnağının istiqaməti qan dövranının istiqaməti ilə uyğun gəlir, əks halda orqanizmdə ciddi fəsadlar törənə bilər. Əsas komponent olan nasos yaxşı hidroizolyasiya edildiyindən insan üçün təhlükəsizdir. Masaj prosesini nizamlamaq üçün idarə pultu, yaxud xüsusi linglərdən istifadə edilir. C.-lər müxtəlif formalı və ölçülü olur.

**CAQÁN** (Jagan) Canet Rozali (20.10.1920, Çikaqo – 28.3.2009, Corctaun) – Qayana dövlət və siyasi xadimi, Qayana prezidenti. Detroyt və Ueyn un-tlərində təhsil almışdır. 1943 ildə Ç.B. *Caqana* ərə getdikdən sonra Britaniya Qvianasına köçmüşdür. Ərinin stomatoloji klinikasında tibb bacısı işləmişdir. Qadın hüquqları uğrunda mübarizə aparmış, 1946 ildə Qadınların iqtisadi və siyasi təşkilatının yaradılmasında iştirak etmiş, 1953 ildə Mütərəqqi qadın təşkilatının rəhbəri olmuşdur. 1950 ildə əri ilə birlikdə Mütərəqqi Xalq Partiyasını (MXP) təsis etmişdir (1970 ilə qədər onun baş katibi olmuşdur). 1957–61 illərdə əmək, səhiyyə və mənzil təsərrüfatı naziri, 1963–64 illərdə daxili işlər naziri vəzifələrində çalışmışdır. 1976–97 illərdə Milli assambleyanın deputatı idi. 1970–97 illərdə Qayana jurnalistlər ittifaqının prezidenti, 1973–97 illərdə MXP-nin mərkəzi orqanı olan “Mirror” qəzetinin redaktoru olmuşdur. 1993 ildə bir neçə ay BMT yanında Qayananın daimi nümayəndəsi vəzifəsini icra etmişdir. 1997 ilin aprelində baş nazir təyin edilmiş, həmin ilin dekabr ayında ölkənin prezidenti seçilmişdir. Lakin ABŞ-da doğulmuş ağdərili qadının prezident olması ilə barışmayan müxalifət onun istefası tələbi ilə kütləvi çıxışlar törətmişdir. C.-ın 1998 ilin dekabrında yenidən prezident seçilməsi ölkədə siyasi gərginliyi daha da artırmışdır. C. 1999 il avqustun 8-də səhhəti ilə əlaqədar vaxtından əvvəl istefa vermişdir.

**CAQÁN** (Jagan) Çeddi Berret [22.3.1918, Britaniya Qvianası (indiki Qayana), Port-Murant – 6.3.1997, Vaşinqton] – Qayana dövlət və siyasi xadimi, Qayana prezidenti. ABŞ-dakı Hovard (1936–38), Şimal-Qərbi (1938–42) un-tlərində və Gənc Xristianlar Assosiasiyasının Mərkəzi kollecində (1938–42) təhsil almışdır. 1943–45 illərdə Corctaunda stomatoloq işləmiş, zəhmətkeşlərin hüquqları uğrunda hərəkata qoşulmuşdur. Siyasi hərəkat komitəsinin (1946) təsisçilərindən biridir. 1945–47 illərdə Britaniya Qvianasının ağdərili olmayan əhalisinin ittifaqının sədri, 1947–53 illərdə Qanunverici şuranın üzvü olmuşdur. 1950 ildə arvadı C.R. *Caqanla* birlikdə Mütərəqqi Xalq Partiyasını (MXP) təsis etmişdir; 1970 ildən MXP-nin baş katibi idi. 1953 ildən Ümumdünya Sülh Şurasının, 1969 ildən Şuranın Rəyasət Heyətinin üzvü olmuşdur. 1953 və 1957–64 illərdə baş nazir, eyni zamanda 1953 ildən k.t., sonra isə torpaq sahələri və mineral ehtiyatları naziri, 1957–61 illərdə ticarət və sənaye naziri, 1961–64 illərdə inkişaf və planlaşdırma naziri işləmişdir. Sol müxalifətin dəyişilməz lideri, Milli assambleyanın deputatı (1964–73, 1976–92) idi. 1992 ilin oktyabrından Qayananın prezidenti olmuşdur.

**CAQANNATH** (sanskritcə – dünyanın Hökmdarı) – hinduist allahı, Krişna allahının təcəssümü. Adətən, qardaşı Baladeva və bacısı Subhadra ilə birlikdə təsvir edilir. C.-a Orissa ştatında pərəstiş olunsa da, ümumhind əhəmiyyətinə malikdir.

C. kultunun yüksəlişi 11–12 əsrlərə aiddir və Orissada qüdrətli “Qanq imperiyası”nın meydana gəlməsi ilə bağlıdır. Çar Anantavarma Çoadaqanqa (1075–1150) C. kultunu dövlət səciyyəsinə qaldırılmış və Puridə nəhəng məbəd (Hindistanda kütləvi ziyarət mərkəzi) tikdirmişdir. Əsas bayramları iyun–iyul aylarında keçirilən rathayatradır (döyüş arabalarının keçidi).

**CAQAR** – Azərb. Resp. Qusar r-nunun Zindanmuruq ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* c.-q.-də, Qusar çayının sol sahilində, dağlıq ərazidədir. Əh. 364 (2011); əkinçilik, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**CAQARQIŞLAQ** – Azərb. Resp. Qusar r-nunun Kuzunqışlaq ə.d.-ndə kənd. R-n mərkəzindən 22 *km* şm.-ş.-də, Samur–Abşeron kanalı sahilində, düzənlikdədir. Əh. 650 (2011); əkinçilik, meyvəçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana var.

**CAQDI** – RF-nin Amur vil. və Xabarovsk diyarında dağ silsiləsi; Yankan–Tukurinqra–Soktaxan–Caqdı dağlar zəncirinin ş. kənar hissəsi. Hünd. 1593 *m*. Bax *Tukurinqra*.

**CAQQALAR,** ç a q a l a r, ç a q q a l a r, v a ç a q q a l a r – Tanzaniyanın şm.-ş.-ində *bantular* qrupundan xalq. Ölkənin sayca üçüncü xalqıdır. Kilimancaro d.-nın yamaclarında yaşayırlar. Tərkibinə C.-ın özləri (kiçaqqa və moçi dillərində danışırlar), maçambelər (maşamilər), merular (ruolar, rua dilində danışırlar), vuncolar, rombolar (userilər), ruşalar, kahelər, qvenolar adlı qohum etnik qruplar daxildir. Sayları 2 mln. nəfərdən çoxdur (2006). Bantu dillərinin çaqa qrupuna (E 60) aid dillərdə danışırlar; 20 əsrdən onların çoxunun latın qrafikası əsasında yazıları var. Suahili və ingilis dilləri də yayılmışdır. Dindarların 95 %-i xristiandır, müsəlmanlar da var.



Caqqaların ənənəvi evi.

C.-ın əcdadları e.ə. 2-ci minilliyinin ortalarında c.-dan – Pare dağlarından Kilimancaroya gələrək yerli kuşi əhalisini assimilyasiyaya uğratmışlar. Şərqi Afrikanın bantudilli xalqları üçün səciyyəvi olan ənənəvi mədəniyyətləri *kuşilərin* və *Nilboyu xalqların* da təsirinə məruz qalmışdır. Terraslı toxa əkinçiliyi (banan, darı, yams) və maldarlıqla məşğuldurlar. Banan kişi yeməyi, süd və yams isə qadın yeməyi hesab olunur. Banan və darıdan pivə (mbege) hazırlayırlar. 18 əsrdən C. sahilyanı ərazilərlə ticarəti (Panqani çayının deltası vasitəsilə) nəzarətləri altında saxlayır, bu ticarətdə monopoliya uğrunda daxili müharibələr aparırdılar. 19 əsrin sonlarında hazırda əsas ixrac məhsulu olan qəhvə yetişdirməyə başlamışdılar. C.-ın bir hissəsi şəhərlərdə (Aruşa, Darüssalam) yaşayır, biznes, turizm və xidmət sahəsində çalışırlar. Ağac üzərində oyma (qab-qacaq, qalxanlar) və dəmirçilik inkişaf etmişdir. Ənənəvi geyimləri inək dərisindən olan tikişsiz paltarlar və rəngarəng parçalardan (kanqa, kitenqe) hazırlanan bürüncəklərdir. Dəbilqəformalı evlərin üstü otla örtülür. İcmalar icma başçıları (mangi) tərəfindən idarə olunurdu, 20 əsrin əvvəllərində onların əksəriyyəti ali başçının (mangi mkuu) hakimiyyəti altında birləşdirildi; bu titullar müasir C.-da saxlanılır. Torpağın irsən keçməsi (kihamba) və patriliniclərə bölgü qalmaqdadır. Kişilər üçün ən münasib nikah onun ana linicin-

dən, yaxud ata nənəsi linicindən olan qadınla evlənməkdir. 20 əsrin əvvəllərinədək kişi (nqasi) və qadın (şica) inisiasiyaları keçirilirdi. Ənənəvi inancları əcdadların, Günəş allahının (Ruva) və s. kultlarıdır. Əsatirləri, tarixi əfsanələri, nəğmələri var. Əsas musiqi alətləri fleyta və təbillərdir.

**CAQUPATXA** – adıq mifologiyasında ocaq allahı. C.-nın adı ilə bir neçə mərasim (gəlinin ər evinə qovuşması və s.) bağlıdır.

**CALAQ,** p e y v ə n d (bitkiçilikdə) – hər hansı bitki budağının bir hissəsinin (qələm) və ya tumurcuğunun (gözcük) başqa bitkiyə peyvənd edilməsi. Meyvəçilikdə C. müxtəlif sortların vegetativ yolla çoxaldılmasında əsas üsullardan biridir. C.-




**Calaq üsulları:** *1* – göz calağı; *2* – dilcikli qələm calağı; *3* – yarma peyvənd.

dan şaxtaya, xəstəlik və zərərvericilərə qarşı davamlı sortları artırmaq, meyvəvermәni tezləşdirmək, dekorativ bitkiləri çoxaltmaq məqsədilə də istifadə olunur. C.-ın bir çox üsulları var. Meyvəçilikdə və dekorativ bağçılıqda gözcük və qələm C.-ından istifadə olunur. C. örtülü şəraitdə (istixana və oranjereyalarda) vegetasiyanın dinclik dövründə edilir. Açıq sahələrdə iqlim və torpaq şəraitindən asılı olaraq (mart – iyun, iyun – sentyabr) aparılır. C. üçün yaxşı inkişaf etmiş qələmlərdən istifadə olunur.

**CALAQ MAŞINI** – calaq ediləcək üzüm çiliklərində göz çərtən və şiş uc yonan maşın. Hazırlanmış çiliklər sonradan əl ilə birləşdirilir. C.m. hər iki tərəfində fırlanan kəsici başlıq bərkidilmiş elektrik mühərrikindən və gövdəni sıyırıntıdan təmizləmək üçün işçi hissələrdən ibarətdir. 1 *saat*-da 500 cüt çilik hazırlayır.

**CALAQALTI** – meyvəçilikdə və dekorativ bağçılıqda gözcük və qələmlə peyvənd nəticəsində inkişaf etmiş bitkinin calaq yerindən aşağı olan hissəsi. Əsasən, toxumla, bəzən, qələmlə çoxaldılır. Bitkinin normal inkişafı C. ilə calaqüstünün bir-biri ilə qovuşması, onlar arasında gedən maddələr mübadiləsi və s. amillərdən asılıdır. C. calaqüstünün böyümə və inkişafına, tez meyvə verməsinə, məhsuldarlığına, uzunömürlülüyünə, şaxtaya, quraqlığa, şoranlığa, xəstəlik və zərərvericilərə qarşı davamlı olmasına, eləcə də kök sisteminin inkişafına təsir göstərir.

**CALAQSIZ YOL** – dəmir yollarında qaynaqlanmış uzun relslərlə standart qısa relslərin növbələşdirildiyi hissə. C.y. havanın temp-r dəyişiklikləri zamanı relslərdə adi dəmir yolundakına nisbətən daha çox yaranan gərginliyin (125–150 $MN/m^2$) təsirinə hesablanmış temp-r-gərginlik konstruksiyasıdır. Nəql. vasitəsinin C.y.-da hərəkəti zamanı qaynaqlanmış uclarda dəf olunan tərpənmə (yolun qaçması) müqaviməti tarazlaşdırıcı sonluq hissələrdə kompensasiya edilir. Qaynaqlanmış relslərin uz. 550–800 *m*-ə çatır və onların arasında 12,5 *m* uz.-nda 2–4 cüt tarazlaşdırıcı relslər yerləşdirilir. Yerli şəraitdən asılı olaraq C.y.-un uz. (tarazlaşdırıcı relslərlə birlikdə) 2–4 *km*-ə çata bilər. C.y.-un salınmasında adi d.y. ilə müqayisədə əmək sərfi azalır və metal rels birləşdiriciləri (bərkidiciləri) daha az işlədilir, yolun zəif və gərgin yerləri olan rels calaqlarının sayı minimuma çatdırıldığından hərəkətə xüsusi müqavimət, o cümlədən təkərlərin yeyilməsi, yanacaq və enerji sərfi azalır, yolun istismar müddəti artır. C.y.-lar inkişaf etmiş ölkələrin çoxunda tətbiq edilir; bu yollar dəmir-beton şpallı, yüksəksürətli xətlərdə daha səmərəlidir.

**CALAQÜSTÜ** – 1. Calaq məqsədilə hər hansı bitkidən götürülərək cır, yaxud becərilən bitkiyə (calaqaltına) vurulmuş qələm və ya gözcük (tumurcuq).

2. Calaqaltına gözcük və qələmlə calanma nəticəsində inkişaf etmiş bitkinin calaq yerindən yuxarı olan yerüstü hissəsi. C.-nün keyfiyyəti ana bitkinin xüsusiyyətindən asılıdır. Bu bitkilər məhsuldar, sağlam, yerli şəraitə davamlı olmalıdır.

**CALALOĞLU** – Tiflis qub. Borçalı qəzasının Loru nahiyəsində (9.9.1930 ildən Stepanavan r-nu) azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra kəndin azərb. əhalisi qovulmuş, burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Sonralar buraya Rusiyadan da xeyli rus ailələri köçürülmüş və nəticədə yaranmış iki kənd (Erməni Calaloğlusu və Rus Calaloğlusu) birləşdirilmişdir.

**CALALOV** Qərib İsak oğlu (d.28.11. 1937, Şəki r-nun Baş Göynük k.) – yeraltı hidroqaz dinamikası və neft-qaz yataqlarının işlənməsi sahəsində Azərb. alimi, texnika e.d. (1991), prof. (1992), AMEA-nın m. üzvü (2001). 1960 ildə Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir. 1960–2003 illərdə Azərb. EA Dərin Neft və Qaz Yataqları Problemləri İn-tunda müxtəlif vəzifələrdə çalışmışdır. 2003 ildən AMEA Geologiya İn-tunda "Layın hidroqaz dinamikası" şöbəsinin müdiri işləyir. Tədqiqatları modelləşdirmə üsullarının təkmilləşdirilməsi üzrə nəzəri tədqiqatlar kompleksinin keçirilməsi, bircinsli və qeyri-bircinsli deformasiyaya uğrayan mühitlərdə flüidlərin axını; mürəkkəb süzülmə proseslərinin əsas qanunauyğunluqlarının öyrənilməsi; yataqların işlənilməsinin, işlənilmə səmərəsinin artırılması məqsədilə layihələndirilməsinin və təhlilinin hidrodinamik hesabat üsullarının yaradılması; yeraltı hidroqaz dinamikasının əks məsələlərinin həlli; karbohidrogen yataqlarının, onların işlənilmə tarixinə görə hidrodinamiki modellərin parametrik eyniləşdirilməsi və lay sistemi modellərinin ilkin verilənlərdəki xətalara həssaslığının təhlili sahəsindədir. 200-dən artıq elmi əsərin, o cümlədən 3 monoqrafiyanın və dərsliklərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidmətləri var. İ.M. Qubkin ad. mükafata layiq görülmüş (1985), Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif olunmuşdur.



Ə s ə r l ə r i: Гидрогазодинамика трещиноватых коллекторов (başqaları ilə birlikdə). Б., 1988; Фильтрационные процессы и идентификация параметров в многопластовых месторождениях (başqaları ilə birlikdə). Б., 2008.

**CALANDHÁR,** C u l l u n d u r – Hindistanın şm.-ında, Pəncab ştatında şəhər. Əh. 873,7 min (2011; aqlomerasiyada 911,8 min; ştatın üçüncü böyük şəhəri). Bias–Sətləc çayarasında, Kiçik və Orta Asiyadan Hindistana gedən tarixi yolun üstündədir. Nəql. qovşağı.

Kuşan imperiyasının tərkibində olmuş C. Pəncabın ən qədim şəhərlərindən biridir (C. haqqında ilk məlumatlar eramızın 100 ilinə aiddir). Eramızın ilk əsrlərində buddizmin mühüm mərkəzi, 7 əsrdə Racput racələyinin mərkəzi olmuşdur.

13 ali təhsil müəssisəsi, o cümlədən Pəncab Texniki Un-ti (1997), Milli Texnologiya İn-tu (1987) var.







Calandhar. Milli Texnologiya İnstitutu.



Caldapara qoruğu.

C. kütləvi kommunikasiyaların (şəhərdə bir çox milli tele- və radiokanalların, iri reklam şirkətlərinin mənzil-qərargahı yerləşir) mühüm mərkəzidir. Maşınqayırma (o cümlədən dəzgahqayırma) və metal emalı inkişaf etmişdir. Toxuculuq, dəri ("Gee Kay İnternational"), yeyinti (o cümlədən unüyütmə) sənayesi müəssisələri fəaliyyət göstərir; cərrahiyyə avadanlığı, idman geyimləri ("Adidas", "Reebok" şirkətlərinin müəssisələri) və ləvazimatı istehsal olunur. Xalçaçılıq, bədii sənətkarlıq inkişaf etmişdir. K.t. rayonunun iri ticarət-paylaşdırıcı mərkəzidir.

**CALDAPÁRA** – Hindistanda qoruq. Qərbi Benqal ştatı ərazisində, Torsa çayı sahilində, Butanla sərhəd yaxınlığındadır. Sah. 24 min *ha*. 1941 ildə təkbuynuzlu hind kərgədanını (1968 ildə təqr. 80 baş) qorumaq məqsədilə yaradılmışdır. Həmçinin pələng, bəbir, ayı, fil, maral; quşlardan tovuz quşu və s. qorunur. Bitki örtüyü hündür otlardan, kolluqlardan və seyrək meşəliklərdən ibarətdir.

**CALQAÓN** – Hindistanın q.-ində, Maharaştra ştatında şəhər. Əh. 460,5 min (2011). Dekan yastıdağlığının şm.-q.-ində, Girna və Tapti çayları arasında yerləşir. Nəql. qovşağı. Şimali Maharaştra un-ti (1990); mühəndis kollecləri var.

Pambıq parça, yeyinti (bitki yağları istehsalı və s.) sənayesi müəssisələri; fişəng istehsalı üzrə f-klər fəaliyyət göstərir. C. k.t. r-nunun (banan və s.) ticarət-paylaşdırıcı mərkəzidir; pambıq r-nu olan Khandeşin mühüm mərkəzlərindən biridir.

C.-dan 32 *km* şm.-da Yaval qoruğu, 64 *km* c.-da *Acanta* mağara kompleksi var.

**CALOVXAN,** Ç i r x a n, Ç l o x a n – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Düzkənd, 7.12.1945 ildən Axuryan r-nu), Qaranqa çayı (Arpaçayın sol qolu) kənarında azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra azərb.-lar kənddən qovulmuş, burada Türkiyədən və İrandan gəlmə ermənilər yerləşdirilmişdir. 7.12.1945 ildə kəndin adı dəyişdirilərək Beniamin qoyulmuşdur.

**CALUT,** Q o l y a t, Q o l i a f (ərəb. جالوت ; ivritcə גלית) – yəhudi və müsəlman rəvayətlərində *Davud* tərəfindən öldürülən döyüşçü. Bibliyaya görə, Qat ş.-ndən olan filistimli cəngavərdir (1Şam 17:4). Quranda adı 3 dəfə çəkilir (2:249; 250; 251). Təfsirlərdə onun mənşəyinə (qibti, bərbər, kənanlı və s.) dair fikirlər müxtəlifdir. Yəhudilərin *Talutun* (Şaul) rəhbərliyi altında C.-un qoşunu ilə döyüşməsi Bibliyada daha müfəssəl təsvir olunmuşdur.

**CALUT** – Azərb. Resp. Oğuz r-nunda kənd. Calut ə.d.-nin mərkəzi. R-n mərkəzindən 6 *km* q.-də, Oğuz–Şəki avtomobil yolunun kənarındadır. Əh. 1008 (2011); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, klub, kitabxana, tibb məntəqəsi, poçt, ATS, orta əsrlərə aid yaşayış yeri, alban nekropolu, məbəd və pir var.

**CAM** – su içmək üçün işlədilən qab. Ağız hissəsi gen və açıq, oturacağına doğru bir qədər dar, qulpsuz olur. Eneolit döv-

Calqaon. Acanta mağara kompleksi.




Həsənli abidəsindən aşkar edilmiş qızıl cam (e.ə. 10–8 əsrlər).

ründən məlum olan C.-ın ən qədim növləri gildən, sonralar şüşədən hazırlanırdı. Misdən də düzəldilirdi. Səthi çox vaxt zərif naxışlarla bəzədilirdi. Hələ qədimdən Qafqaz, Yaxın Şərq, Orta Asiya xalqlarının məişətində yayılmışdı. Azərb.-da arxeoloji qazıntılar nəticəsində Eneolitdən başlamış müxtəlif dövrlərə aid C. nümunələri tapılmışdır. *Həsənli* abidəsindən aşkar edilmiş (e.ə. 10–8 əsrlərə aid) qızıl C. (hünd. 21 *sm*, ağzının diametri 16 *sm*, ağırlığı 950 *q*) üzərindəki rəsmləri ilə qiymətli sənət nümunəsi kimi dünya alimlərinin marağına səbəb olmuşdur.

Cam minarəsi.



**CAM MİNARƏSİ** – Əfqanıstanda Qur vilayətinin Hərirud çayı dərəsində memarlıq abidəsi. Cam k. yaxınlığındadır. 1221 ildə Çingiz xanın ordusu tərəfindən dağıdılmış *Qurilərin* paytaxtı Firuzkuhun (yay iqamətgahının) yerindədir. Səkkiztilli kürsülük üzərində olan, yuxarıya doğru daralan, kərpicdən inşa edilmiş (12 əsrin 2-ci yarısı; hünd. 60 *m*-dən çox) 3 yaruslu dairəvi qüllədən ibarətdir. Stalaktit karnizləri, cilalanmış kiçik kərpiclərin və şirli kaşıların yaratdığı kitabə qurşaqları vardır; aşağı qurşaqda Qurilər sülaləsindən olan Qiyasəddin Məhəmmədin [1162–1202] adı, titulu və Quranın 19-cu (Məryəm) surəsi yazılmışdır. 1957 ildə arxeoloq A. Marik tərəfindən aşkar edilmişdir. Ətrafındakı Firuzkuhun xarabalıqları, sarayın fraqmentləri, müsəlman və yəhudi qəbiristanlıqları ilə birlikdə C.M. *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

**CAMAAT**, c a m a a t l ı q (ərəb dilinin dialektində cəmaa, təcmait – yığıncaq; bərbərlərdə imzurfa, təmziqt; tuareqlərdə əmni) – 1) müsəlman xalqlarında ənənəvi endoqam kənd icması. C.-ın klassik təsviri 19 əsr – 20 əsrin əvvəlləri Dağıstan xalqları və Məğrib *bərbərləri* üçün edilmişdir.

*Qafqaz müharibəsinədək (1817–64)* Dağlıq Dağıstanda və Azərb.-ın şm.-q. ərazilərində (bax *Car-Balakən camaatlığı*) C. bir iri, yaxud bir neçə kiçik kəndin patronimiyalarının (toxumların) birliyi idi. Onu kiçik ailənin hökmranlığı, icma, özəl (mülk) və xeyriyyə (vəqf) mülkiyyətinin, məişətdə və hüquqda şəriətlə milli adətlərin yanaşı istifadəsi, icmaçılar (uzdenlər), köçkünlər və hərbi əsirlərin (çox vaxt qonaqpərəstlik əsasında C.-a daxil edilən) nəsilləri arasında ciddi silki çərçivələrin olmaması müəyyənləşdirirdi. Məhkəmə və hakimiyyət toxum nümayəndələrindən ibarət ağsaqqallar şurasına məxsus idi, mühüm məsələlər uzdenlərin ümumi toplantısında müzakirəyə çıxarılırdı. İcmalardan irsi xanların, yaxud şəriət hakimləri qazıların hakimiyyəti altında konfederasiyalarda birləşə bilən hərbi-siyasi ittifaqlar ("azad cəmiyyətlər") yaranırdı. "Azad cəmiyyətlər" sonradan bir sıra Dağıstan xalqlarının təşəkkülünə səbəb olmuşdur. İcmalar və icma ittifaqları asılı olduqları dağlı əyanlarına (bəylərə) qarşı 15 əsrdən mübarizə aparmış və 18 əsrin sonu – 19 əsrdə qələbə qazanmışlar. *Şamilin* İmamlığı və Rusiya imperiyasında C. naibliklərin aşağı inzibati vahidi olmuşdur. C. şuralarını dövlət tərəfindən təyin olunan kəndxudalar əvəz etdilər. Məhkəmə və icra hakimiyyətləri ayrıldı. 1861 il kəndli islahatı C.-ın tərkibindən dağlı əyanlarını çıxardı. 1927 ilə kimi Dağıstan C.-ları özünüidarəni, adət və şəriət üzrə məhkəməni saxlamışdılar.

Müstəmləkəyəqədərki Məğribdə ərəb və bərbərlərin oturaq əkinçi cəmiyyətlərində C. başlıca rol oynamışdır. Böyük patriarxal ailələrdən ibarət C.-lar endoqam patronimiyalar birləşdirirdi; bir neçə C. tayfa fraksiyası (arş) təşkil edirdi. Tayfa şuraları və hərbi elitanın (cuad) başçılığı ilə kəndlərin nümayəndələrinin toplantıları da C. adlanırdı. Tayfa C.-larının işində sufilər (marabutlar) böyük rol oynayırdılar. 20 əsrin ortalarında fransız Şimali Afrikasında C.-lar ləğv olunaraq kənd icmaları (kommunalar) ilə əvəz edilmişdir.

2) Cümə məscidləri nəzdində müsəlmanların dini icması.

3) 19–21 əsrlərdə bir sıra müsəlman siyasi partiyasının və hərəkatın adı.

**CAMAATİ-İSLAMİ** (جماعت اسلامی) – Hindistan y-a-nda qurulmuş ən böyük islam partiyası. 1941 ilin avqustunda Lahor ş.-ndə Əbül-Əla Mövdudinin rəhbərliyi və müsəlman icmasından 75 nəfər nümayəndənin iştirakı ilə yaradılmışdır. Partiyanın məqsədi Britaniya Hindistanında islami oyanışın əsasını qoymaq, sosial həyatda islam qanunlarını tətbiq etmək, müsəlmanların mədəni birliyinə nail olmaq idi.

1947 ildə Pakistan müstəqillik qazandıqdan sonra Mövdudinin oraya mühacirət etməsi ilə partiya Hindistan C.-İ.-si və Pakistan C.-İ.-si olmaqla parçalandı. Sonralar Hindistan C.-İ.-si 1970-ci illərdə nisbətən fəallaşsa da, demək olar ki, kənarda qalmış, partiyanın əsas fəaliyyəti Pakistan C.-İ.-sinin adı ilə bağlı olmuşdur. Kəşmirdə, Şri-Lankada və 1972 ildə Banqladeşdə eyni adlı partiyalar yaradılmışdı.

C.-İ. 1947 ilədək, demək olar ki, heç bir siyasi və sosial fəaliyyət göstərməmiş, yalnız təşkilatlanma ilə məşğul olmuş və nüfuz dairəsini genişləndirməyə çalışmışdır. Dövlətin islam qanunları əsasında idarə olunması tələbi ilə çıxış edən C.-İ. Pakistanın 1956 ildə qəbul edilmiş ilk konstitusiyasında qismən buna nail olsa da, sonralar fəaliyyəti dəfələrlə qadağan edilmiş, Mövdudi bir neçə dəfə həbsə alınmışdır. Partiya *Daşkənd bəyannaməsinə (1966)* qarşı çıxmışdır. Pakistanın bölünməsi və Banqladeş Resp.-nın yaradılmasının əleyhinə olan partiya 1971 ildə Hindistan və Şərqi Pakistanla silahlı toqquşmada dövləti dəstəkləmişdir. C.-İ. 1971–77 illərdə iqtidarda olmuş sol təmayüllü Zülfüqar Əli *Bhutto* hökumətinə qarşı əsas müxalif rolunda çıxış etmiş, ölkəni islamlaşdırmaq, hökumətdə və parlamentdə təmsil olunmaq uğrunda mübarizə aparmışdır. 1973 il konstitusiyasına əsasən, ölkənin Pakistan İslam Resp. adlandırılmasına, 1974 ildə *Əhmədiyyə* firqəsinin qeyri-müsəlman milli azlıq elan edilməsinə nail olmuşdur. 1976 ildə 9 islam partiyasından ibarət Pakistan Milli Birlik Cəbhəsini yaratmışdır. Əvvəllər islam meyilliliyinə görə gen. Ziya ül-Həqin hərbi qiyamını dəstəkləsə də, 1983 ildən partiyanın mötədil qolu onun hərbi diktaturasına qarşı çıxmış, partiyanı Ziya ül-Həq hökumətində təmsil edən 4 nazir istefa vermişdir. C.-İ. İslam Demokratik Alyansının ("İslami Cəmhuri İttehad", 1988–90 illərdə fəaliyyətdə olmuşdur) və Birgə Fəaliyyət Şurasının ("Muttəhidə məclisi-əməl", 2003–07 illərdə fəaliyyətdə olmuşdur) tərkibinə daxil idi.

Hazırda C.-İ. bütün Pakistanda, xüsusilə Karaçi, Pişəvər və yerli qəbilələrin məskunlaşdığı sərhəd regionlarında geniş nüfuza malikdir. Partiyanı 5 il müddətinə seçilən əmir idarə edir. Əmirin yanında onun 5 müavini ("naib") və 50 üzvdən ibarət Şura məclisi fəaliyyət göstərir. C.-İ. Pakistanda ən çox kütləvi informasiya vasitələrinə malik olan partiyadır.

**CAMAXATAN,** y ü k y e r i – yaşayış evlərinin daxili quruluşunda memarlıq kompozisiyası elementlərindən biri. Adətən döşəmə səviyyəsindən 10–25 *sm* yuxarıda, 1,5 *m* hünd., 1 *m* enində 35–50 *sm* dərinliyi olan divar batıqlarından ibarət olurdu. Azərb. Resp.-nın bəzi zonalarında (məs., Zaqatala, Balakən r-nları) C. divarın səthində taxtadan hazırlanır. C.-lara ərzaq, paltar sandıqları qoyulur, yorğan-döşək, mətbəx əşyaları və s. saxlanırdı. C.-ın qabağı pərdə ilə tutulurdu.

**CAMAL DAĞI** – Azərb. Resp. Şahbuz r-nunun (Nax. MR) Erm. Resp.-sı ilə sərhədində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Şahbuz və Salvartı çaylarının mənbə hissəsindədir. Hünd. 3204 *m*.

**CAMAL XƏLVƏTİ**, Ç ə l ə b i X ə l i f ə, Ə b ü l F ü y u z a t M ə h ə m m ə d i b n H ə m i d ə d d i n (?, Türkiyə, Aksaray – 1494, Səudiyyə Ərəbistanı, Təbuk) – sufi mütəfəkkiri, *xəlvətiyyə* təriqətinin cəmaliyyə qolunun banisi (cəmaliyyə özü də sonradan dörd qola ayrılmışdır). İstanbulda mədrəsə təhsili almışdır. Təhsilini Seyid Yəhya *Bakuvinin* yanında davam etdirmək üçün Bakıya yola düşmüş, onun ölüm xəbərini alaraq müridi Bəhaəddin Ərzincaninin yanına getmişdir. Hədis və təfsirlə də məşğul olan C.X. ərəbcə yazdığı iyirmidən çox əsərin müəllifidir. Əsərlərinin çoxu Quranın bəzi surə və ayələrinin təsəvvüfi şərhinə həsr olunmuşdur.

**CAMAL PAŞA** (əsl adı Əhməd Camal) (6.5.1872, Midilli – 21.7.1922, Tiflis) – Türkiyə dövlət, siyasi və hərbi xadimi, *Gənc türklər inqilabının (1908)* və *"İttihad və tərəqqi"* partiyasının liderlərindən biri. Adanada 1909 il aprelin 14-də ermənilərin qaldırdıqları üsyanın yatırılmasında iştirak etmişdir. 1911 ildə Bağdada vali təyin edilmişdir. 1912 il iyulun 22-də Qazi Əhməd Muxtar paşa tərəfindən yaradılan "böyük kabinet" ilə işləməkdən imtina etmiş, istefa verərək İstanbula qayıtmış və öz istəyi ilə Balkan müharibəsinə qatılmışdır. 1913 ildə İstanbulun hərbi qubernatoru, 1913–14 illərdə ictimai işlər naziri, 1914–18 illərdə dəniz naziri olmuşdur. 1914 ilin iyulunda Osmanlı imperiyası ilə Fransa arasında ittifaq bağlamaq məqsədilə Parisə getmiş, lakin heç bir nəticə əldə edə bilmədiyindən Ənvər paşanın Almaniya ilə əməkdaşlıq siyasətini dəstəkləmişdir. "Triumviratın" (*Ənvər paşa* və *Tələt paşa* ilə birlikdə) üzvü olan C.p. Birinci dünya müharibəsi (1914–18) dövründə ölkədə bütün hakimiyyəti əlində toplamışdı. 1918–22 illərdə Almaniya, İsveçrə və Əfqanıstanda mühacirətdə olmuşdur. Əfqanıstandakı səfirlikdə müşavir olan C.p. geri qayıdarkən Tiflisdə "Daşnaksutyun" partiyasının üzvü tərəfindən uydurma "erməni soyqırımına" görə öldürülmüşdür. C.p. Tiflisdə basdırılmış, sonradan cənazəsi Ərzuruma gətirilərək dəfn edilmişdir.



**CAMALABAD** – İranın Ərdəbil ostanında kənd. Mişkin şəhristanının Mərkəzi bölgəsinin Qərbi Mişkin kəndistanında, Mişkin ş.-ndən 12 *km* q.-dədir.

**CAMALABAD** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Ənzəl kəndistanında, Urmiya ş.-ndən 52 *km* q.-dədir.

**CAMALABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Səracu kəndistanında, Marağa ş.-ndən 31 *km* c.-dadır.

**CAMALABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Kələboz kəndistanında, Miyanə ş.-ndən 20 *km* c.-ş.-dədir.

**CAMALABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Alan kəndistanında, Sərab–Təbriz avtomobil yolunun 21 *km*-liyindədir.

**CAMALABAD** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Yuxarı Tarım kəndistanında, Sirdan qəs.-ndən 7 *km* şm.-q.-dədir.

**CAMALDİN** – Azərb. Resp. Culfa r-nunda (Nax. MR) kənd. Camaldin ə.d.-nin mərkəzi. R.-n mərkəzindən və d.y. st.-ndan 18 *km* şm.-da, Əlincəçayın sol sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 1540 (2011); üzümçülük, əkinçilik, heyvandarlıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, 2 kitabxana, uşaq bağçası, tibb məntəqəsi, rabitə şöbəsi var.

K.-in yaxınlığında antik nekropol, orta əsrlərə aid yaşayış yeri, karvansara (12–17 əsrlər) və nekropol (14–18 əsrlər) var.

**CAMALXAN TƏPƏSİ** – Azərb. Resp. Cəlilabad r-nunun Alqasımlı və Şiləvəngə kəndləri arasındakı ərazidə yerləşən arxeoloji abidə. Təpənin hünd. 2,5–3 *m*, diametri 150 *m*-dir. 1970-ci illərdə burada təlim-məşq keçirən hərbçilər səngərlər qazmış və abidəni ciddi zədələmişlər. Təpənin özündən və ətrafından 10–12 əsrlərə aid müxtəlif təyinatlı şirli və sadə qabların fraqmentləri, tikinti qalıqları tapılmışdır.

**CAMALKƏND** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Avacıq kəndistanında, Maku ş.-ndən 42 *km* şm.-q.-dədir.

**CAMALZADƏ** (جمال زاده) Seyid Məhəmmədəli (13.1.1892, İsfahan – 8.11.1997, Cenevrə) – İran yazıçısı. Fransada oxumuşdur. Müasir fars ədəbiyyatında



Camantau silsiləsi.

novella janrının əsasını qoymuşdur. İran cəmiyyətindəki qaydaları və idarə üsulunu tənqid edən "Biri vardı, biri yoxdu" (1921), "Hüseynəli əmi" (1942), "Acı və şirin" (1955) satirik hekayə toplularının; "Dəlixana" (1942), "Məhşər səhrası" (1944) povestlərinin, həmçinin "Astarı ilə üzü bir" (1955) avtobioqrafik povestin müəllifidir. Pyeslər, İran mədəniyyəti tarixinə dair məqalələr yazmışdır. "Xalq dili və idiomlar lüğəti" tərtib etmişdir (1962). Bəzi hekayələri Azərb. dilinə tərcümə olunmuşdur.

**CAMANOVA** Roza Umbetovna (16.4. 1928, Aktübinsk – 27.12.2013, Alma-Atı) – qazax müğənnisi (soprano). SSRİ xalq artisti (1959). Qazax. SSR Dövlət mükafatı laureatı (1972). Alma-Ata konservatoriyasını (1954) bitirmişdir. 1953 ildən Qazaxıstan Opera və Balet Teatrının solisti olmuşdur. Əsas partiyaları: Sara ("Birjan və Sara", M.Tulebayev), Nazıqum ("Nazıqum", K.Kujamyarov), Tatyana ("Yevgeni Onegin", P. Çaykovski), Çio-Çio-san ("Çio-Çio-san", J. Puççini), Marqarita ("Faust", Ş. Quno), Aysulu ("Aysulu" S. Məhəmmədcanov), Ajar ("Abay", Ə. Jubanov və L. Həmidi). Qazaxıstan Teatr Cəmiyyətinin sədri (1962–80), Beynəlxalq Teatr İnstitutunun vitse-prezidenti (1968) olmuşdur. 1977 ildən Qazaxıstan Milli Konservatoriyasında dərs demişdir (1987 ildən prof.).



**CAMÁNTAU** – Qırğızıstanda dağ silsiləsi. Tyanşanda, Çatırgöldən şm.-q.-də yerləşir. Arpa çayından q.-də Fərqanə silsiləsi ilə qovuşur. Uz. təqr. 70 *km*, hünd. 4718 *m*-ədəkdir. Çökmə və metamorfik süxurlardan ibarətdir. Yüksək dağlıq relyefə malikdir. C. yamacı Arpa çayına doğru dik düşür, şm. yamacı mailidir. Yamacları seyrək çöl bitkiləri ilə, yuxarıları isə Alp çəmənliyi ilə örtülüdür.

**CAMAŞƏİR** – Azərb. Resp. Lerik r-nu Əliabad ə.d.-ndə kənd. R-n mərkəzindən 17 *km* şm.-ş.-də, Peştəsər silsiləsinin ətəyindədir. Əh. 308 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, tibb məntəqəsi; 17 əsrə aid Seyid Davud qəbiristanlığı, orta əsrlərə aid daş qoç fiqurları var.

**CAMBİ** (Jambi) – Sumatra a.-nın (İndoneziya) ş.-ində 1901 ilədək mövcud olmuş sultanlıq. C. dövləti ilk dəfə 7 əsrin 2-ci yarısında, *Şrivicaya* imperiyasının tabeliyində olarkən Çin salnaməsində qeyd edilir. 13 əsrin sonlarından 16 əsrin birinci yarısına qədər *Macapahit* imperiyasının tərkibinə daxil idi. Macapahitin süqutundan (16 əsr) sonra C. müstəqillik qazandı. 17 əsrin 1-ci rübündən hollandlar və ingilislərlə ədviyyat ticarəti aparırdı; 17 əsrin ortalarında Hollandiya Ost-Hind şirkətinin hakimiyyəti altına düşdü. 1834 il müqaviləsinə görə, C. sultanı Hollandiyanın suverenliyini qəbul etdi. 19 əsrdə hollandlara qarşı baş vermiş bir sıra üsyanlar silah gücünə yatırıldı. 1901 ildə hollandlar sultanı devirərək C.-ni özlərinin İndoneziyadakı birbaşa idarə etdikləri mülklərinə qatdılar. 1945 ildə müstəqil İndoneziya Resp.-nın yaradılmasından sonra keçmiş sultanlığın ərazisində C. əyaləti təşkil olundu.

**CÁMBİ** – bax *Xari* (çay).

**CÁMBİ** (Jambi) – İndoneziyada, Sumatra a.-nın c.-ş. hissəsində şəhər. Cambi əyalətinin inz. m. Əh. 586,9 min. (2014). Xari çayında port. Neft hasilatı r-nunun mərkəzidir. Kauçukun ilkin emalı müəssisəsi, un-t var.

**CÁMBİ** (Jambi) – İndoneziyada, Sumatra a.-nın mərkəzi hissəsində, Xari çayının sahilində əyalət. Sah. 44,9 min $km^2$. Əh. 3 mln. (2010). İnz. m. Cambi ş.-dir.

**CÁMBU**, Z a m b u – monqol xalqlarının əsatirlərində *Cambudvipada*, Mapama dənizinin sahilində bitən ağac; dünya ağacının variantlarından biri. Buddizm kosmologiyasına görə, adı onun yetişmiş meyvələrinin Mapama dənizinə tökülərkən yaranan "cambu" səsindən götürülmüşdür. Meyvələrinin bir hissəsi əjdahalar padşahının qidasını təşkil edir, digər hissəsi isə Dzambu çayında qızıla çevrilir. Kalmık əsatirlərində Zambu Oçir oron adlı yerdə bitir, onun hər biri alaçıq boyda olan meyvələri çay vasitəsilə dünya okeanına tökülür və Lu-xan onlarla qidalanır. Dünya okeanında Zambu ağacının ətrafında yaşayan nəhəng ilan ağacdan düşən meyvə və yarpaqları udur. Derbet əfsanəsinə görə, Zambu dünya dağı Sumerunun ətəyində bitir, onun meyvələri isə tanrılar (tenqrilər) və iblislər (asuralar) arasında düşmənçiliyə səbəb olur.

**CAMBUDVİPA** (sanskrit dilində "Cambu materiki" sözündəndir; monqolca Cambudiib, Zambativ), C a m b u l i n q (Tibet dilində "Cambu materiki" sözündən; monqol dilində Zambuulin) – buddizm kosmologiyasında kainatın Sumeru dağının c.-unda yerləşən dörd materikindən biri; insanların dünyası. C.-nın mərkəzində keçmiş, hazırkı və gələcək buddaların məskəni olan Maqadha səltənəti, şm.-ında, Qarlıdağ və Ətirlidağın arasında isə əjdahalar padşahının evi və dördkünc Mapama dənizi [Qanq, Sindhu (Hind), Bakçu və Sita çayları öz başlanğıcını buradan götürür] yerləşir, onun sahillərində *Cambu* ağacı bitir. Daha şimalda ağacların hökmdarı Sala yaşayır. C.-nın q.-ində Uddiyana dövləti var; buradakı almaz sarayda dakinilər yaşayırlar. C.-nın c.-unda, Potala dağının çıxıntısında Avalokiteşvaranın, dağın ətəyində isə Taranın məskənidir. C.-nın ş.-ində, Utayşan dağında Mancuşri yaşayır.

**CAMBÚL** – Qazaxıstanda, *Taraz* ş.-nin 1938–97 illərdə adı.

**CAMBUL CABAYEV** (28.2.1846, Jetisu – 22.6.1945, Alma-Ata) – qazax şair-akını. SSRİ Dövlət mükafatı laureatı (1941). Məşhur şair-akın Süyümbayın şagirdidir. *Dombranın* müşayiəti ilə "Batır Ötəgən", "Batır Süranşi", "Batır Səurık" və s. dastanlar onun ifasında yazıya alınmışdır. "Şikayət", "İlxıçı", "Qara qərar" balladalarında qazax xalqının həyatının realist təsvirini vermiş, bayların və çar məmurlarının özbaşınalığını tənqid etmişdir. 1916 ildə xalq üsyanını müdafiə etdiyi üçün həbs olunmuşdur. Yaradıcılığının sonrakı dövrünə aid şeirləri ("Çapay", "Qafqaza salam", "Leninqradlılar – əziz övladlarım", "Zirvədə çinar" və s.) vətəndaş müharibəsinə, sosializm quruculuğuna, Böyük Vətən müharibəsinə həsr edilmişdir. Yaradıcılığı janr müxtəlifliyi (poetik düşüncə, nəğmələr, mədhetmə və s.) ilə seçilir. Akın sənətini forma və üslubca zənginləşdirmişdir. S. Vurğun "Şeirimizin ağsaqqalı" şeirini C.C.-ə həsr etmişdir. Bakıda olmuş, "Bakı nəğməsi" adlı şeir qoşmuşdur. Qazax. Resp.-da adına vil. var. Almatı vil.-ndə, yaşadığı aildə şərəfinə xatirə kompleksi yaradılmışdır (1982).



Ə s ə r l ə r i: Batır Ötəgən. B., 1949; Laylay. B., 1949.

*Əd.:* X ə l i l o v P. SSRİ xalqları ədəbiyyatı. H.2; C ə f ə r o v N. Türk xalqları ədəbiyyatı. 4 cilddə. C.4. B., 2007.

**CAMBUL VİLAYƏTİ** – Qazax.-ın c.-unda vilayət. 1939 il oktyabrın 14-də təşkil olunmuşdur. Sah. 144,2 min $km^2$. Əh. 1 mln. (2011). 10 r-nu, 4 şəhəri, 13 qəs. var. Mərkəzi Taraz ş.-dir.



**Təbiət.** Ərazisi, əsasən, düzənlikdir. Şm. hissəsini Bədbəxttala səhrası tutur. C.-ş.-i, ş.-i və c.-u dağlıqdır. Maks. hünd. 4000 *m*. Faydalı qazıntıları: fosforitlər, flüorit, qızıl, mis, uran, əlvan metallar, barit, daş kömür, qaz, tikinti materialları. İqlimi kəskin kontinentaldır. Orta temp-r yanvarda –5 dən –10°C-yədək, iyulda 20 –27°C-dir. İllik yağıntı 350–900 *mm*. Mühüm çayları: Çu, Talas, Assa və s. Ən böyük gölləri: Balxaş (c.-q. hissəsi), Biylikol, Akkol, Aşikol. Boz-qonur səhra, boz və şabalıdı torpaqlar yayılmışdır. Söyüd-iydə, ağcaqovaq-küknar meşələri, qamışlıqlar, ağotlu-şırımlı topal və yovşanlı-şoranotlu çöllərlə örtülüdür. 2100 *m*-dən yüksəkdə subalp və Alp çəmənlikləri var. Heyvanları: ceyran, cüyür, sayqak, dağkeçisi, canavar, tülkü, porsuq, gəlincik, qaban, ondatra, sünbülqıran, ərəbdovşanı, dovşan, sürünənlər və s. Göl və çayları balıqla zəngindir.

**Təsərrüfat.** Yerli təbii ehtiyatlar və k.t. xammalı bazasında kimya, yüngül, yeyinti və tikinti sənayesi müəssisələri fəaliyyət göstərir. Mədən-kimya kombinatı (Qaratau, fosforitlərin hasilatı və emalı üzrə), superfosfat z-dları (Cambul), yüngül sənaye müəssisələrindən xrom, rezin məmulatlar z-dları, dəri-ayaqqabı kombinatı, yunun ilkin emalı, tikiş, qalantereya f-kləri (Cambul), dəri kombinatı (Georgiyevka); yeyinti sənayesi müəssisələrindən şəkər kombinatı (Cambul), şəkər z-dları (Çu, Oytal), ət, spirt-araq kombinatları, şərab, balıq, pivə z-dları (Cambul), süd və yağ-pendir z-dları (Cambul, Qaratau, Çu və r-n mərkəzlərində) var. Maşınqayırma və metal emalı müəssisələri – ehtiyat hissələri, kommunal avadanlıq, aqreqat-təmir, texnoloji metal konstruksiyalar, təmir-mexaniki (Cambul, Çu, Luqovaya), avtomobil təmiri (Qranitoqorsk) z-dları ilə təmsil olunmuşdur. Kərpic (Cambul, Mixaylovka), gips, körpü və dəmir-beton məmulatları, iripanelli evtikmə z-dları, tikinti hissələri və konstruksiyalar (Cambul, Qaratau) kombinatları, yol əhəngi və doldurucular (Georgiyevka) z-du; mebel f-ki (Cambul) fəaliyyət göstərir.

C.v.-nin energetikası təbii qaz və qismən də su enerjisinə əsaslanır.

Heyvandarlıq və suvarma, qismən dəmyə əkinçiliyi k.t.-nın əsasını təşkil edir. Bağçılıq, üzümçülük inkişaf etmişdir.

**CAMIŞBASAN** – İrəvan xanlığında Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Cığındərə bölgəsində, Vedi çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin 2-ci yarısında kənd yaxınlığda salınmış Əzizkəndə (Aşağı Camışbasan) qatılmışdır. Qədim Camışbasan k.-nin xarabalıqları, oradakı müsəlman qəbiristanlığının qalıqları son vaxtlara qədər qalmaqda idi.

**CAMIŞLAR** – boşbuynuzlular fəsiləsinə yaxın məməli heyvan cinsləri. Çox vaxt iki cinsə ayırırlar. Asiya C.-ı (Bubalus) və Afrika C.-ı (Syncerus). Bədəninin uz. 100–290 *sm*, quyruğunun uz. 15–90 *sm*-dir; cidov hünd. 62–180 *sm*, kütləsi 150–1200 *kq*-dır. Bədəni iri, boynu qısa, ayaqları güclüdür; üst dodağının ön hissəsində çılpaq və nəm "burun güzgüsü" var. Erkəkləri dişilərindən iri olur və onların buynuzu daha uzundur. Tük örtüyü qısa və ya orta uzunluqda, yumşaq, yaxud coddur, bəzən, qismən tüksüz olur. Belinin rəngi tünd-qonur və tünd-bozdan qaraya qədər dəyişir. Quyruğunun ucunda tük topası var. A s i y a C.-ı cinsi 2 yarımcins: bir hind camışı (B. bubalis) növü olan A s i y a c a m ı ş ı (Bubalus) yarımcinsinə və bəzən ayrıca cins sayılan, *anoa*, dağ anoası (B. quarlesi) və tamarau (B. mindorensis) növlərini birləşdirən anoa (Anoa) yarımcinsinə ayrılır. Cənubi və Cənubi-Şərqi Asiyada yayılmışlar. Meşələrdə və sıx cəngəlliklərdə yaşayır; bataqlıq yerlərdə yaşamağa üstünlük verir. Enli

Cambul vil. Çu çayı.



Cambul vil. Bədbəxttala səhrası. Andasay yasaqlığı.



dırnaqları olduğuna görə bataq yerlərdə asan hərəkət edir; uzağa, həm də yaxşı üzür. Afrika camışı (S. caffer) Böyük səhranın c. tərəfindəki ərazilərdə yaşayır və dağ r-nlarının 4000 *m*-ədək yüksəkliklərinə yayılaraq, müxtəlif landşaflarda (quru savannalardan tropik meşələrə qədər) məskunlaşır.

C.-ın qida rasionu, əsasən, bitkilərdən (yarpaqlar, budaqlar, meyvələr, şirəli ot və su bitkiləri) ibarətdir. Ailə qrupları (anoa), yaxud sürülərlə (Asiya C.-ı) yaşayır; Afrika camışı bəzən 2 min və daha artıq fərddən ibarət sürü halında toplaşır. Adətən bir bala doğur. 25–30 il yaşayır. Asiya camışı e.ə. 3-cü minillikdə əhliləşdirilmişdir; onun əhliləşdirilmiş cinsləri bütün dünyada geniş yayılmışdır; qoşqu heyvanı, südlük və ətlik qaramal kimi istifadə olunur. Azərb.-da C.-ın damazlıq kitabı açılmış, Azərb. Camışçılar Cəmiyyəti yaradılmışdır. Azərb.-da C.-ın damazlıq və məhsuldarlıq keyfiyyətlərini A.Ə.*Ağabəyli* öyrənmiş və inkişaf etdirmişdir. C. xarici mühitin mənfi təsirlərinə, Azərb.-ın iqlim və yem şəraitinə, qan-parazitar xəstəliklərə davamlılığı, südünün yağlılığı və məhsuldarlığı, pəhriz əhəmiyyəti, keyfiyyətcə inək südündən 2 dəfə üstün olması ilə fərqlənir. Camış südündən qaymaq, süzmə, şor, pendir, yağ və ayran alınır. Landşaftların antropogen dəyişikliyi nəticəsində yalnız vəhşi Asiya C.-ının azsaylı populyasiyaları qalmışdır. C.-ın bütün növləri BTMİ-nın "Qırmızı kitab"ına daxil edilmişdir.

**CAMIŞLI** – İrəvan xanlığının Abaran mahalında (9.9.1930 ildən Abaran, 3.1.1935 ildən Aparan r-nu) azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra kəndin azərb. əhalisi qovulmuş, burada İrandan və Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir.



Afrika camışları. Masay Mara qoruğu (Keniya).

**CAMİ** (جامى) Əbdürrəhman Nurəddin ibn Əhməd (7.11.1414, İran, Nişapur yaxınlığında Cam – 9.11.1492, indiki Əfqanıstan, Herat) – fars şairi, filosof, musiqiçi. Klassik farsdilli poeziyanın son görkəmli nümayəndəsi. Nüfuzlu ruhani ailəsində doğulmuşdur. Heratda, Səmərqənddə mədrəsə təhsili almış, ənənəvi elmlərlə (ərəb dili, Quran, hədislər, hüquq) bərabər, fəlsəfəni və dəqiq elmləri də öyrənmişdir. C. gənc yaşlarından *təsəvvüflə* maraqlanmışdır; Heratda *nəqşbəndilik* təriqətinin başçısı Səadəddin Kaşqarinin müridi olmuşdur. *Qəsidə, qəzəl* və *məsnəvilərin* müəllifi kimi böyük şöhrət qazanmışdır. *Nizami Gəncəvinin* "Xəmsə"sinə nəzirə olaraq "Həft övrəng" ("Yeddi ərş") əsərini yazmışdır. Buraya "Silsilət əz-zəhəb" ("Qızıl zəncir", h. 1–3, 1472 – 86) hekayə və rəvayətlər toplusu, "Səlaman və Əbsal" (1480) poeması, "Töhfət ül-əhrar" ("Azadələrə töhfə", 1481–82) didaktik poeması, "Sübhət ül-əbrar" ("Möminlərin təsbehi", 1482—83) didaktik-mistik poeması, "Yusif və Züleyxa" (1413), "Leyli və Məcnun" (1484) sufi məhəbbət alleqoriyaları, "Xirədnameyi-İsgəndər" ("İsgəndərin müdriklik kitabı", təqr. 1485) didaktik poeması daxildir. C.-nin şeirləri "Fatihət üş-şəbab" ("Gəncliyin ilk fəsli", 1479), "Vasitət ül-iqd" ("Boyunbağının orta gövhəri", 1480) və "Hatimət ül-həyat" ("Həyatın sonu", 1490–91) adlı üç poetik divanda birləşmişdir. *İbn Sina* rasionalizminin tənqid edildiyi "Ruhun şöləsi" və "Sirlər



Əbdürrəhman Cami. Rəssam K. Behzad. Miniatür. 15 əsr.

dənizi" ("Bəhr əl-əsrar", 1475) dini-fəlsəfi qəsidələri ən məşhur əsərlərindəndir. Sufiliyə dair bir neçə traktatın, 600-dən çox sufinin tərcümeyi-halının verildiyi "Nəfəhat əl-üns min həzərat əl-qüds" ("Qüdsiyyətdən gələn üns töhfələri", 1476–78) toplusunun müəllifidir. C. bir çox elmi əsərin, ədəbi irsində mühüm yer tutan "Musiqi haqqında traktat"ın müəllifidir. Şeir parçaları ilə müşayiət olunan "Baharistan" (1487) adlı nəsr əsəri Sədinin "Gülüstan"ına nəzirə olaraq yazılmışdır. C.-nin şeirləri forma və bədii kamilliyi ilə seçilir. Müəmmaları bütün Yaxın və Orta Şərqdə məşhurdur. M.Füzuli C.-nin "Hədisi-ərbəin" ("Qırx hədis") adlı fəlsəfi-didaktik əsərini Azərb. dilinə mənzum tərcümə etmişdir.

C.-nin fars ədəbiyyatı tarixinin klassik dövrünü əks etdirən yaradıcılığı Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatına güclü təsir göstərmişdir. AMEA-nın M. Füzuli ad. Əlyazmalar İn-tu "Əbdürrəhman Cami" əlyazmaları kataloqunun 1-ci cildini nəşrə hazırlayaraq çap etdirmişdir (2009).

Əsərləri: Baharistan. B., 1964; Yusif və Züleyxa. B., 1965; Избр. произв. Т.1-4, Душанбе. 1972 – 81; Seçilmiş əsərləri. B., 2004.

*Əd.:* Quliyev A. Əbdürrəhman Cami. B., 1964; yenə onun, Əbdürrəhman Caminin "Yusif və Züleyxa" poeması. B., 1969; Бертельс Е.Э. Навои и Джами. М., 1965; А.Джами. Сб. статей. Душанбе, 1965; Брагинский И.С. 12 миниатюр. 2 изд., М., 1976.

**"CAMİ ƏL-MƏANİ"** – azərb.-lı müəlliflərin də əsərlərinin daxil olduğu toplu. Əlyazmada 12–16 əsrlərdə türk, cağatay və fars dillərində yazılmış nəzm və nəsr nümunələri toplanmışdır. Tərtibçisi məlum deyildir. 1534 ilin fevralında tamamlandığı qeyd olunmuşdur. Dövrümüzədək gəlib çatmış yeganə nüsxə İstanbulun Nuri-Osmaniyyə kitabxanasında saxlanılır. Topluya Seyid Yəhya Bakuvinin 9 risaləsi, Fəridəddin Əttar, Seyid Hüseyni, Şah Nemətüllah Vəli, Nasir Xosrov, Ədhəmi Şərqi, Piri İbrahim Gülşəni, Dədə Ömər Rövşəni, Cəmali, Qayğısız Ələddin və Kamal Ümminin şeirləri, Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsərinin xülasəsi, Nəsimi, Xəlili və Cəfərinin qəzəlləri, Yunus İmrənin 219 ilahisi və "Risalət ənnüshiyyə" əsəri, "Qul Übeydi" təxəllüsü ilə yazan Şeybani hökmdarı Übeydullah Xanın əsərlərindən seçmələr, Nizami Gəncəvi, Xacə Kirmani, Mövlana Cəlaləddin, Qasım Ənvar, Əhməd Cami və Hafiz Şirazinin şeirlərindən nümunələr daxildir.







Cammu. Bahu istehkamı.



Camna çayı Allahabad şəhəri yaxınlığında.

**CÁMMU** – Hindistanın şm.-ında şəhər. Cammu və Kəşmir ştatlarının ikinci inz. m. (qış paytaxtı). Əh. 651,8 min (2011; aqlomerasiyada 951,4 min). Tavi çayı dərəsində, Himalay ön dağlığında, Dhaoladhar silsiləsinin ətəyində, 300–400 *m* yüksəklikdə yerləşir. Nəql. qovşağı.

Raqhunath (Şm. Hindistanda ən böyük məbədlərdən biri), Ranbireşvar (75 *m* hünd. qüllə ilə birlikdə) məbədləri, Bahu istehkamı (şəhərin ən qədim tikililərindən biri), maharacə sarayı (1820); un-t (1969), Doqra incəsənət qalereyası (1954) var. Ticarət-sənətkarlıq mərkəzidir. Kimya, ağac emalı, toxuculuq (ipək və yun parça istehsalı) sənayesi müəssisələri fəaliyyət göstərir. Metal emal edilir.

C. yaxınlığında Vayşnodevi məbədi (hinduistlərin mühüm ziyarət mərkəzi) yerləşir.

**CÁMMU VƏ KƏŞMİR** – Hindistanın şm.-ında ştat. Sah. 222,2 min *km²*. Əh. 12,5 mln. (2011), əsasən, kəşmirlilərdir. İnz. m. Srinaqar (qış paytaxtı – Cammu) ş.-dir. Ərazisini Qaraqorum və Qərbi Himalayın dağ silsilələri kəsir. Buzlaqlar var. Dağ yamacları iynəyarpaqlı və enliyarpaqlı meşələrlə örtülüdür. İqlimi subtropik, mussondur. Mühüm çayları Hind (qolu Kilkitlə) və Celamdır. C.və K.-in bir hissəsi Pakistan hökuməti tərəfindən idarə olunur.

Ştatın iqtisadiyyatı k. t. və turizmə (Şilimar bağları, hinduist ziyarətgahları) əsaslanır. İpəkçilik, balıq ovçuluğu, ixrac üçün k. t. məhsullarının (meyvə, tərəvəz, dənli bitkilər, zəfəran) və kustar məmulatların (xalça və şal) istehsalı, ağac emalı (kriket toxmaqlarının hazırlanması), bağçılıq inkişaf etmişdir.

**CÁMNA**, Cumna, Yamuna – Hindistanda çay. Qanq çayının ən uzun sağ qolu. Uz. 1384 *km*, hövzəsinin sah. 351 min *km²*. Mərkəzi Himalay d-rının Zaskar silsiləsindəki buzlaqlardan başlanır. Hind-Qanq düzənliyi ilə axır. Ən böyük qolu – Çambal çayı. Ortaillik su sərfi təqr. 2,5 min *m³/san*. Musson yağışları yay gursululuğu yaradır; tez-tez daşqınlar olur. C.-dan çoxsaylı suvarma kanalları çəkilmişdir. Dehlidən aşağı hissəsi gəmiçiliyə yararlıdır. Suvarmada istifadə olunur. Dehli, Fəridabad, Aqra, Allahabad ş.-ləri C. sahilindədir.

**CAMNÁQAR**, Navanaqar – Hindistanın q.-ində, Qucarat ştatında şəhər. Əh. 529,3 min (2011; aqlomerasiyada 614,3 min). Kathiyavar y-a-nda yerləşir. Nəql. qovşağı. Aeroport. C.-ın avanportu Bedi şəhərdən 6 *km*-lik məsafədə, Kaç körfəzindədir.

Şəhərin əsası 1540 ildə Racəsthan hakimi Cam Raval tərəfindən qoyulmuşdur; 1948 ilə qədər Navanaqar racəliyinin paytaxtı olmuşdur. Dörd caynist məbədi (16–17 əsrlər) var. Sənaye-ticarət mərkəzidir. İri neft emalı z-du var. Toxuculuq (pambıq, yun parçalar), şüşə-saxsı, metal emalı, rezin-texniki sənayesi müəssisələri fəaliyyət göstərir; avtomobil istehsal edilir. Bədii sənətkarlıq (bürünc və gümüşdən məmulatların hazırlanması, qızılı saplarla tikmələr və s.); qədim boyaqçı sənəti (bəndhani) inkişaf etmişdir.

C. yaxınlığında, Pirotan mərcan a.-nda Hindistanın yeganə dəniz milli parkı – Qalf-of-Kaç yerləşir; boksit çıxarılır.

Cammu şəhərinrdən görünüş.





Camnaqar. Lakhota gölündə saray-muzey.

**CAMPARA** – Azər. Resp. Zaqatala r-nunda çay. Muxax çayından ayrılaraq Qanıx (Alazan) çayına tökülür. Uz. 29 *km*. Suvarmada istifadə olunur.

**CAMSARAN,** Camsran, Camsrin (Tibet dilində) – Mərkəzi Asiyada yayılmış buddizmdə dokşitlər və çoycinlər kateqoriyalarına aid müharibə allahı. C. adının mənşəyi "bacı və qardaş" (monqolca eqeçi duu) kimi verilir. C.-ın digər adı Beqdze ("zirehli") onun ikonoqrafiyadakı surətini əks etdirir: zirehli, qırmızı geyimli, qırmızı bənizli, tünd sarı-qırmızı saçlı, alovsaçan qaşları və bığı olan silahlanmış döyüşçü; monqolca onu Ulaan saxius ("qırmızı mühafiz") adlandırırlar. Onun bir əlində mis qılınc, digərində isə düşmənin ciyəri və ürəyidir. C. missaçlı yakşasın (qəddar ruh) oğludur, insanın və atların qanından əmələ gələn dənizdə, dördkünc mis dağda (yaxud məzarlıqda) yaşayır. C.-ın mənşəyi məlum deyil: ehtimal ki, o, Tibet allahı olmayan buddizməqədərki allahdır. Kubera və bəzən onun mücəssəmələrindən biri hesab edilən Geserlə uyğunlaşdırılır.

**CAMUŞƏLƏN** – İranın Ərdəbil ostanında kənd. Mişkin şəhristanının Mərkəzi bölgəsinin Şərqi Mişkin kəndistanında, Mişkin ş.-ndən 30 *km* c.-ş.-dədir.

**CAN** – müxtəlif mədəniyyətlərdə, dinlərdə, fəlsəfi təlimlərdə geniş məna çalarları ilə: hər bir canlı varlıqda mövcud olan universal həyat başlanğıcı, vital qüvvə (bunun ifrat ifadəsi *panpsixizmdə* kosmosun ümumi canlılığı haqqında təsəvvürdür) kimi; fərdi mövcudluğa bütövlük və fasiləsizlik verən qeyri-maddi ölümsüz substansiya kimi; bütün şüurlu və qeyri-şüuri psixi proseslərin substratı kimi təqdim olunmuş təməl anlayış.

**Can haqqında arxaik təsəvvürlər** ruhlara – müxtəlif predmet və hadisələrin personifikasiyalarına (bax *Animizm*), o cümlədən şəxsi himayəçi-ruhlara inancla sıx bağlı olmuşdur. İnsanın C.-ının yerləşdiyi yeri çox zaman insan üçün həyat qüvvəsi sayılan bədənin müəyyən hissələri ilə (ürək, baş, qara ciyər, mədə, fallos və s.) əlaqələndirir, sümüklərə, qana (qanın rəmzi məna daşıması, qurbankəsmə mərasimlərindəki rolu da buradan irəli gəlir), nəfəsə aid edir, onu kölgəsi, güzgüdəki inikası, şəxsi fetişi (məs., *çurinqa*), rəmzi, yaxud portret təsviri və s. ilə eyniləşdirirdilər. C.-a zərərverici, yaxud şəfaverici magiya vasitəsilə təsir göstərmək mümkün hesab edilirdi (xəstəlik və ölüm çox zaman cadugər tərəfindən C.-ın oğurlanması kimi başa düşülürdü). Bədəni tərk etmiş (yuxuda, trans zamanı, ölümdən sonra) C. tüstü, quşlar, böcəklər, siçanlar və s. şəklində təsəvvür oluna bilərdi. İnsanda bir çox C.-ın mövcudluğu haqqında təsəvvürlər də yayılmışdı (məs., altaylılarda kut – oğurlanması ölümlə nəticələnən həyat qüvvəsi; tın – nəfəs; sür – insanın oxşarı, xəyalatı; körmös – ölənin C.-ıdır). Ölülərin C.-ı çox zaman xüsusi kateqoriyaya aid edilirdi; onlar haqqında təsəvvürlər axirət dünyasının obrazlarından və əcdadların kultundan doğurdu. Onlara canlıların tələbatları (qidaya, suya, istiyə və s.) xas idi.; evdəki (ocaq, soba, pəncərə), yaxud evdən kənardakı (məskunlaşmayan yerlər – meşə, səhra və s.; çay sahili, yolayrıcı və s.) müəyyən sitayiş yerləri onlarla əlaqələndirilirdi. Belə güman edilirdi ki, ölümdən sonra C.-ın mövcudluğu insanın həyat və ölüm şəraitindən, dəfn və yas mərasiminin (bax *Dəfn*) düzgün keçirilməsindən asılıdır; mərasimi düzgün keçirilməmiş ölülər canlılara zərər verməyə başlayır. Ölülərin C.-ının ilin müəyyən vaxtlarında (Avropa xalqlarında yay və qış günəşduruşunda, yaz və payız gecə-gündüz bərabərliyində) canlılara xüsusən yaxın olması haqqında inanclar qalmaqda idi. Ölənin C.-ının öz nəslinin törəmələrində (çox zaman nəvələrində) dirçəlməsi inancı geniş yayılmışdı.

**Hindistan fəlsəfəsində can.** Artıq Vedalarda bədən C.-ı və bədəndən fərqli C. (azad C.) haqqında ayrı-ayrı təsəvvürlər mövcud idi (qədim hind ədəbiyyatında bu təsəvvürlər eyni terminlə ifadə olunurdu). Etimologiyasına görə daha çox nəfəslə əlaqələndirilən *Atman* termini də ölməz qeyri-maddi C.-ın sinoniminə çevrilməzdən əvvəl həyat qüvvəsi və sürətli hərəkətlə (küləyin hərəkətinə oxşar) assosiasiya edilirdi. *Upanişadlarda* vahid C. konsepsiyası yoxdur: o gah yuxuda bədəni tərk edərək, bütün dünyəvi sevinclərə qovuşan zərif insan surəti kimi, gah da həyat prinsipi (*civa*), həyat enerjisi (*prana*), doğulan zaman bədəni canlandıran və onun fəaliyyətini tənzimləyən zərif substansiya kimi təsvir edilir. Bədən ölərkən onu tərk edən C. ya dəfn tonqalının tüstüsü ilə bir sıra dəyişilmələrə məruz qalaraq, yerdə yenidən mövcud olmaq üçün əcdadların yolu ilə göylərə yollanır, ya da allahların yolu ilə Brahman dünyasına gedir və bir daha yenidən doğulmur. Nəhayət, C. Brahmana bərabər tutulan dəyişilməz ali prinsip (Atman, *Puruşa*) qismində də təqdim edilir.

C. fəlsəfə məktəblərində iki əsas perspektivdə nəzərdən keçirilmişdir: "yenidəndoğulma" (*sansara*) perspektivində C. həm fəaliyyət və idrak mənbəyi, həm də mənəvi əvəz subyekti kimi; "xilasolma" (*mokşa*, *nirvana*) perspektivində isə mütləq subyekt, xalis seyrçi şüur kimi çıxış edir.

Hind filosofları C.-ın ölümdənsonrakı mövcudluğunu, C.-nın ölçüsünü (bədənlə bir böyüklükdə, atoma bərabər olmasını, yaxud sonsuzluğunu), onun mövcudluğunun sübutayetirmə imkanını müzakirə edirdilər. Belə ki, vayşeşiklər C.-ı hiss orqanları tərəfindən qavranılmayan hesab edərək, onun mövcudluğunu onun həyat fəaliyyəti (gözün açılıb-yumulması, nəfəsalma, yaranın sağalması), şüur, affektlər və iradi hərəkətlər, nitq praktikası





kimi təzahürlərində görürdülər. Sonralar *nyaya* və *vayşeşika* məktəblərinə mənsub müəlliflər Kumarila Bhatta tərəfdarlarının ardınca təsdiq edirdilər ki, C. hər halda "daxili qavrama" orqanı – manas vasitəsilə qavranılır.

"Xilasolma" perspektivində C. "yenidəndoğulma" prosesinin toxunmadığı və hər hansı xüsusiyyətdən məhrum fərd fövqündəki "Mən" kimi nəzərdən keçirilir. C. insanın dəyişilməz və zaman xaricində daxili mahiyyəti olmaqla, xalis, yəni oyaqlıq, yuxugörmə ilə müşayiət olunan yuxu və dərin yuxu durumlarında özü ilə eyniyyət təşkil edən obyektsiz şüurdur (sotterioloji yönümlü məktəblərdə, xüsusən Kəşmir şivaizmində; nyaya və vayşeşikada şüur C.-ın keyfiyyətlərindən yalnız biri sayılır). Öz-özünü işıqlandıran işıq mənbəyinə oxşadılan C.-ın sübutlara ehtiyacı yoxdur. *Brahmanizmin,* sonralar isə *hinduizmin* fəlsəfi məktəblərinin, demək olar ki, hamısı fərdi C.-ı bədən-psixi məhdudiyyətlərlə bağlı aşağı "mən" sayaraq onu bədən-psixi kompleksi tərəfindən təsirə məruz qalmayan ali subyektə qarşı qoymuşlar: insanın məqsədi aşağı "mən"i kənara atıb, özünün universal ruhi başlanğıcla (Atmanla, Brahmanla, Puruşa ilə) eyniyyətini dərk etməkdir.

Buddizm filosofları məhz belə dəyişilməz ali "Mən"i (Atman) inkar edərək göstərirdilər ki, insan fərdini əmələ gətirən ani durumlar – dharmalar axınında dəyişilməz heç nə yoxdur və ola da bilməz, əks halda mənəvi kamilləşmə mümkün olmazdı, zira Atman dəyişilməzdirsə, onda o, yaxşı hərəkətdən daha yaxşıya, pis hərəkətdən daha pisə çevrilə bilməz. Brahmanizm filosofları buddistlərlə mübahisədə ali Atmanın mövcudluğunun mürəkkəb sübutlarını inkişaf etdirmişlər.

**Can antik fəlsəfədə.** Homerdə C.-psüxe (yun.ήχυψ) müxtəlif kontekstlərdə bədəni sonuncu nəfəslə tərk edən "həyat qüvvəsi" və insanın ölümündən sonra Aiddə mövcud olan, lakin şüur və yaddaşdan tamamilə məhrum cisimsiz "kabus" kimi çıxış edir. C.-nın yeni, antihomer konsepsiyası e. ə. 6 əsrdən başlayaraq *pifaqoreizm* və orfizmdə yayılırdı: C. "iblis", yəni ilahi mənşəli ölməz varlıq kimi başa düşülür, onun heyvanların və bitkilərin bədənində səyyahlığı titanların ilkin günahına görə aldığı "cəzadır", "bədən" ruhun "məzarı"dır, pak həyatın məqsədi – pislikdən "təmizlənmə" (katarsis), günahın yuyulması və C.-ın göydəki ilkin vətəninə qayıtmasıdır. Heraklit istisna olmaqla, C.-ın dini-esxatoloji problematikası hər şeydən əvvəl C.-ın bioloji funksiyaları (C. "həyat"dır) ilə maraqlanan və onu adətən hava və nəfəs kimi anlayan İoniya ənənələrinə yaddır; bu zaman *mikrokosmos* və *makrokosmos* paralelizmi çərçivəsində dünya C.-ı çox vaxt postulat kimi nəzərdən keçirilir (xüsusən *Diogen Apollonloniyalı*).

Platonun orfik-pifaqorçu konsepsiyadan intişar edən C. haqqında təlimi ondan çoxaspektliliyi ilə fərqlənir. Epistemoloji aspekt "Fedon"da işlənib-hazırlanmışdır: cisimsiz C.-ın ölməzliyi və fövqəlhissi aləmə əzəli yaxınlığı ideyaların "xatirələr" vasitəsilə dərkini mümkün edir. C. "Fedra"da hərəkətin ontoloji prinsipi (arxe) kimi çıxış edir, "Timey"də dünya C.-ı kosmosu və göy cisimlərini idarə edir. C.-ın sosial-etik planda sistemli şərhi "Dövlət"də verilmişdir: C.-ın üç hissəsinin ("rasional, emosional-qəzəbli və şəhvətli") iyerarxiyası cəmiyyətin mühafizəçi-filosoflar, döyüşçülər və sənətkar-əkinçilər təbəqələrindən ibarət üçhissəli bölgüsü ilə əlaqələndirilir. "Timey"ə əsasən demiurqun yaratdığı yalnız ali hissə ölməzdir. Aristotelin "Can haqqında" traktatının psixofizioloji yönümü onun erkən "Yevdem" dialoqunun platonçu konsepsiyası ilə kəskin təzad yaradır. Aristotel kosmologiyadan C.-nı kənar edərək "özühərəkətedən" başlanğıc funksiyasını təbiətə vermiş, C.-ın üç "qabiliyyətini" fərqləndirmişdir: "qidalandırıcı", "hissedici" və "noetik" (intellektual); birincisi bitkilərə, birincisi və ikincisi heyvanlara, hər üçü isə yalnız insanlara xasdır. Can və bədən öz aralarında akt və potensiya, *forma* və *materiya* kimi əlaqəlidir və buna görə də bölünməzdir; "ağıllı", noetik canın yalnız fəal hissəsi "ayrılan" və ölməzdir. Stoisizm C.-ın İoniya (bədən) anlamına qayıtdı və C.-da pankosmik pnevmanın bir hissəsini görməklə hilozoistik panpsixizm (Anaksimen – Heraklit – Diogen) ənənəsini son həddə çatdırdı. İnsanın C.-nı 8 hissədən ibarətdir: beş hiss orqanı, nitq qabiliyyəti, toxum qabiliyyəti və "əmr verən" mərkəz. Epikürə görə, C. "odlu, havalı, pnevmatik və duyğuya məsul dördüncü adsız" element atomlarının konqlomeratıdır.

Orta platonizm və neopifaqoreizmdə C. haqqında pifaqorçu-platonçu təlimə qayıdış baş verir, lakin bu zaman C. və ağlın (nus) daha kəskin diferensiasiyasına və birincinin ikinciyə iyerarxik tabeçiliyinə meyil müşahidə olunur. Plutarx materiyaya irrasional C.-ı – motor gücünü şamil edir və Platonun "Qanunlar"ının 10-cu kitabından oxuduğu Kainatın şər C.-ı haqqında fikri qəbul edir. Plotinə görə, dünya C.-ı üçüncü hipostas kimi ağlın-huşun əksidir, mənsub olduğu cisimsiz aləmlə özünün yaratdığı hissi aləm arasında vasitəçidir və bununla da mahiyyətcə demiurq funksiyasını öz üzərinə götürür. Mikrokosm qismində olan insan C.-ı dünya C.-ının analoqudur; yuxarı yönəldikdə o, obyekt və subyektin fərqlənmədiyi nus fəaliyyətinə qalxır; aşağı yönəldikdə isə diskursiv düşüncə və hissi qavrayış vasitəsilə praktik fəaliyyətə enir.

**Can patristika və orta əsrlər fəlsəfəsində.** Erkən xristian yazıçıları platonizmin əksinə olaraq çox zaman qeyd edirdilər ki, C. təbiət etibarilə ölməz deyildir, lakin Allaha münasibətindən asılı olaraq həm ölməyə, həm də ölməzliyə qabildir; bəziləri hətta günahkarların C.-ının tamamilə məhv olcağını düşünürdü (Arnobi, "Bütpərəstlərə qarşı"). Qismən stoisizmin təsiri altında bir sıra erkən xristian müəllifi (Tertullian, "Can haqqında") C.-ın bədənli olmasını müdafiə edirdi. Digərləri (Origen, *Avqustin*) isə, əksinə, təbiətinə görə C.-ın bədənsiz və ölməz olması ideyasını inkişaf etdirirdilər ki, bu da xristian ilahiyyatında təsbit olunmuşdur. C. haqqında xristian təlimi Qriqori Nissalının və Avqustinin yaradıcılığında təşəkkül tapmışdır. Qriqori Nissalıya görə, ilk növbədə zəka olan C. cisimsizdir və bədənin hər bir hissəsində yerləşərək onu canlandırır (Allah bütün universumda olduğu kimi; məhz buna görə də insan mikrokosmdur). Avqustin C.-ı "zəka ilə əlaqəli, bədəni idarəetməyə uyğunlaşdırılmış substansiya" kimi müəyyənləşdirir və C.-ın qabiliyyətlərinin üçhissəli bölgüsünü ("yaddaş-zəka-iradə") formulə edir. C.-ın bu əsasda Kassiodor tərəfindən verilmiş tərifini 13 əsrə qədər hamı qəbul etmişdir: "Can Allah tərəfindən yaradılan, öz cismini (bədənini) canlandıran, zəkalı və ölməz, həm xeyirə, həm də şərə meyillənə bilən xüsusi ruhi substansiyadır".

12 əsrdə Avqustin trixotomiyası detallaşdırılır və ona əlavələr edilir, C.-ın hisslərlə qavranılan obyektlərin obrazlarını onları bilavasitə qavramadan formalaşdırmaq qabiliyyəti təxəyyül anlayışı kimi yenidən daxil edilir, dərrakə (ratio, diskursiv idrak) ilə intuitiv zəkanın (intellectus, mahiyyətlərin sadə müşahidəsi) fərqləndirilməsinə başlanır. C. və bədən münasibətləri daha çox Avqustin

ənənələri məcrasında – iki müxtəlif substansiyaların (təbiətin) "birliyi" kimi nəzərdən keçirilir; bu zaman bölünməz sadə C. bədəni canlandırır, bədən isə canın aləti olur.

13 əsr katolik ilahiyyatında Aristotelin ideyaları mənimsənilməklə insanın zəkalı C.-ına bədənin onunla vəhdətdə olan yeganə substansial forması kimi baxılırdı.

*Averroizm* nümayəndələri (Brabantlı Siger, Dakiyalı Boetsi və b.) C.-ın üç növü və əsas qabiliyyətləri haqqında Aristotel təlimini qəbul edərək, onu *İbn Rüşdün* (lat. Averroes) monopsixizmi ruhunda, katolik ənənəsinə zidd gedərək şərh etmişlər: yalnız bitki və hiss C.-ı fərdidir, zəka C.-ı isə bütün insanlar üçün vahiddir. Bu ölməz, fərdüstü C. insan bədəninin forması olmaqla onunla heç bir mahiyyət birliyi təşkil etmir.

Fransıskçi avqustinçiliyin nümayəndələri (Bonaventura, Gentli Henrix, Duns Skot və b.) tomizmlə polemikada C.-ın bütöv müstəqil substansiya olması haqqında təsəvvürü, eləcə də, insan bədəni formalarının çoxluğunu və C.-da ruhi materiyanın mövcudluğunu müdafiə edirdilər.

Sonrakı sxolastikada (14 əsrin əvvəllərindən) C. haqqında ənənəvi təlimin rasional əsaslandırılmasının mümkünlüyünə şübhə ilə yanaşılırdı.

**Can ərəb-müsəlman fikrində** (ər. – nəfs) həmçinin "özlük", "mən"bildirirdi və çox vaxt ruhla eyniləşdirilirdi. Qurana (15:29, 38:72) və sünnəyə görə, Allah ilk insanı – Adəmi yaradaraq ona C. vermişdir; Adəmin törəmələri onu ana bətnində xüsusi mələyin vasitəsilə alırlar. Ölümdən sonra bədəndən ayrı düşən C. onunla məhşər günündə birləşir. Rasional ilahiyyat (kəlam) üçün bədənə kənardan gələn və, deməli, öləri olan C. haqqında təsəvvür səciyyəvidir; İbn Qəyyum əl-Cövziyyə (ö.1350) "Ruh haqqında kitab"ında C.-ın maddi təbiətinə dair 116 sübut gətirmişdir. C.-ın qeyri-maddiliyi, substansiallığı və ölməzliyi haqqında təlimi baxışları müsəlman ilahiyyatındakı hakim təsəvvürlərdən uzaq olan aristotelçi filosoflar müdafiə edirdilər; bu zaman ölməzlik müxtəlif cür başa düşülürdü. Əgər *İbn Sina* hər cür canı ölməz sayırdısa, əl-Farabi yalnız özünün potensial zəkasını gerçəkləşdirmiş "nurlu" canları ölməz sayırdı, İbn Rüşd isə bütün insanlar üçün ümumi olan vahid zəkanın ölməzliyini təsdiq edirdi. Filosofların və *sufizmin* bir çox nümayəndəsinin (İbn əl-Ərəbi və onun məktəbi) nəzərincə, hər bir insan üçün məhşər günü onun ölümündən dərhal sonra başlayır, dirilmə isə yalnız C.-ın (bədənin yox) ilahi aləmə qayıtmasıdır; dünya C.-ı haqqında neoplatonizmə yaxın olan təsəvvürlər də inkişaf etdirilirdi. İnsan C-ının ali hissəsini sufilər "ruh" adlandırırdılar. Canın hicrəti haqqında təlim bəzi məzhəblər, ilk növbədə şiə məzhəbləri arasında tərəfdarlar tapmışdı.

**Can Yeni dövr fəlsəfəsində.** İtaliyada İntibah dövründə C.-ın ölməzliyi problemi ortodoksal tomizm nümayəndələri, Paduya məktəbinin averroistləri və Boloniya məktəbinin nümayəndələri arasında gedən diskussiyaların mərkəzində dururdu. Kuzanlı Nikolayın inkar etdiyi dünya C.-ının mövcudluğu yenidən M. Fiçino və *C. Bruno* tərəfindən əsaslandırıldı.

17–18 əsrlərdə C. problemi rasionalist və empirik ənənələr məcrasında müxtəlif cür həll olunurdu. R. Dekartın fəlsəfəsində C. ağılla (mens) eyniləşdirilir və düşünən substansiyanın son təzahürü kimi ölçülü substansiyanın son təzahürü olan bədəndən prinsipcə fərqlidir. Düşünən C. insanın mahiyyətidir, təxəyyül və hisslər ağlın yalnız moduslarıdır; müvafiq olaraq heyvanlar da bədən kimi candan məhrum avtomatlar kimi nəzərdən keçirilir. C. və bədənin qarşılıqlı fəaliyyəti problemi bu dövr fəlsəfəsində mərkəzi problemlərdən biri idi. Dekarta görə, əzgiləbənzər vəzi vasitəsilə həyata keçirilən bu qarşılıqlı fəaliyyət okkazionalizm nümayəndələri tərəfindən hər bir konkret halda Allahın birbaşa müdaxiləsi, Q. V. Leybnits tərəfindən isə fiziki və mental hadisələr arasında əvvəlcədən müəyyənləşdirilmiş harmoniya kimi izah edilirdi. Leybnitsin ontoloji konsepsiyasına nüfuz edən panpsixizm onun monadalar – "həyat qüvvəsi", varlığın hər biri əzəldən və qavrayış-persepsiyalara və səylərə malik qeyri-maddi substansial vahidləri haqqında təlimində bitkin ifadəsini tapmışdır.

Monadaların sonsuz çoxluğu iyerarxiyasında hisslərə – yaddaşla müşayiət olunan aydın qavrayışlara malik monada-canlar (onların heyvanlarda olmasının inkarını Leybnits karteziançılığın kobud səhvi sayırdı) aşağı monadalar (animae analoga) ilə zəkalı monadalar-ruhlar arasında orta mövqe tutur. Leybnitsin davamçısı X. *Volf* C.-ı özünü başqa şeylərdən fərqləndirə bilən vahid qeyri-maddi substansiya kimi təfsir etmiş və C.-ın yeganə bir təsəvvüretmə qabiliyyətindən onun psixi qabiliyyətlərinin müxtəlifliyini tapmışdır (Volfun şagirdi A.Q. *Baumqarten* C.-ı dünyanı təsəvvüretmə qabiliyyəti ilə sadəcə eyniləşdirmişdir).

Yeni dövr empirizmində C. özünün substansial vəhdətini itirdi. C. Lokk "İnsan zəkası haqqında təcrübə" əsərində yalnız insanın öz təcrübəsini, hərəkətini, "mən"ini dərketmə qabiliyyəti ilə təmin olunan şəxsiyyətin özü ilə eyniyyətindən bəhs edir. D. Yum C.-ın vahidliyini tam zahiri görüntü saymış, Lokkun şəxsiyyətin özü ilə eyniyyətinə dair təsəvvürünü tənqid etmiş, sübuta yetirmişdir ki, insan təcrübəsini refleksiya deyil, yaddaş birləşdirib bir araya gətirir: yalnız təəssüratlar "dəstəsi" mövcuddur ki, o da sonradan süni surətdə bədənsiz (cisimsiz) substansiya kimi C. ideyasına çevrilir.

X.Volfun rasional psixologiyasını tənqid edən İ. Kant düşünən substansiya kimi "canın" metafizik görüntüsü arxasında təcrübədən əvvəl gələn mənlik şüurunun vəhdətini aşkarlayır. C. ideyası şəxsiyyət eyniyyətinin əsasını təşkil edən dəyişilməz sadə substansiya haqqında zəka anlayışı qismində müstəsna tənzimləyici səciyyəyə malikdir. Kanta görə, məntiq deyil, yalnız əxlaq, praktiki zəkanın tələbi bizi Allahın mövcudluğunu və canın ölməzliyini qəbul etməyə meyillləndirir.

F.V. Şellinqin ("Dünya canı haqqında", 1798) təsiri altında təşəkkül tapan alman romantizmi naturfəlsəfəsində C.-ın ümumkosmosik qüvvə kimi genetik aspektləri nəzərdən keçirilir (Q.H. Şubertin, 1830, K. Q. Karusun, 1846 və b. "canın tarixi" üzrə əsərləri). Onun üçün səciyyəvi olan C.-ın şüursuz təbiətinə müraciət sonradan E. fon Hartmanın və C.-nı ruha qarşı qoyan L. Klagesin əsərlərində inkişaf etmişdir.

Yalnız özünümüşahidədə və davranışdakı təzahürlərində təcrübi olaraq dərk edilən insan yaşantılarının substansial vəhdətini bildirən hipotetik anlayış kimi C. 19 əsrin ortalarından başlayaraq müşahidə və eksperimentlərə əsaslanan (F. Langenin formulə etdiyi "cansız psixologiya" prinsipi) elmi psixologiyadan tədricən çıxarılır. 1916 ildə S.L. Frankın dediyi kimi, biz "can haqqında bir təlimin başqası ilə (məzmunca və xaraktercə) əvəzlənməsi faktının deyil, can haqqında təlimin tamamilə kənarlaşdırılması faktı qarşısındayıq" ("Bilik predmeti. İnsanın canı", 1995). Lakin müxtəlif psixi proses və funksiyaların – təfəkkür, hissetmə, təsəvvür, həmçinin davranış aktlarının öyrənilməsi bu proseslərin fasiləsizliyinin və sabitliyin, eləcə də bu aktların aid olduğu fərdi şüurun, "mən"lə identikliyinin əsasları haqqında sualları cavabsız qoyur.

*Əd.:* Sinha K.P. The self in İndian philosophy. Calkutta, 1991; Kesarcodi-Watson İ. Approaches to personhood in İndian thought. Delhi, 1994; Ganeri J. The concealed art of the soul: theories of the selfe And practices of truth in İndian ethics and epistemology. Oxf.; N. Y., 2007. Corbin H. Spiritual body and celestial earth. Princeton, 1977; Abul Quasem M. Salvation of the soul and İslamic devotions. L., 1983; Мысли о душе. Русская метафизика XVIII в. СПб., 1996; Swinburne R. The evolution of the soul. Oxf., 1997; Мареева Е.В. Проблема души в классической и неклассической философии. М., 2003; Психология и философия: Возвращение души. М., 2003; MsGraw J.J. Brain and belief: An exploration of the human soul. Del Maar. 2004; Der Begriff der Seele in der Philosophiegeschichte / Hrsg. Von H.-D. Klein. *W*ürzbeurg, 2005.

**CANAĞA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Açırlı kəndistanında, Marağa ş.-ndən 61 *km* c.-ş.-dədir.

**CANAXIR** – Azərb. Resp. Xaçmaz r-nunun Canaxır k.-nin şm.-ında son antik dövr – orta əsrlərə aid şəhər yeri. 14 iri və xırda təpədən ibarətdir. Təpələr dərin dərələrlə bir-birindən ayrılır. Əsas təpələr çiy kərpic və möhrələrlə əhatə olunmuşdur. Kəşfiyyat xarakterli arxeoloji axtarışlar (1977) zamanı şirli və şirsiz gil qab məmulatı, dəndaşı və s. toplanmışdır. Yaxınlığındakı qəbiristandan müxtəlif maddi mədəniyyət nümunələri (küplər, tunc güzgü, bəzək əşyaları, silahlar və s.) tapılmışdır.

1992–93 illərdə T.M. *Dostiyevin* rəhbərliyi ilə BDU-nun Müşkür ekspedisiyası bu ərazidə arxeoloji qazıntılar aparmışdır. "Ortatəpə" adlanan təpədə üç mədəni təbəqə (1–3 əsrlər; 4–7 əsrlər; 12–15 əsrlər) müəyyənləşdirilmişdir. "Xunatəpə" adlanan təpədə son antik dövrə aid şəhərin içqalası, şm.-da isə "Aşağıtəpə" adlanan təpədə nekropol aşkarlanmışdır. Abidədə 18 torpaq qəbir tədqiq olunmuşdur. Qəbirlərin dibinə, əsasən, çaydaşı, bəzən isə kömür qırıntıları qoyulmuşdur. Ölülər az bükülü vəziyyətdə sağ, yaxud sol böyrü üstə dəfn olunmuşdur. 17 qəbirdə tək, 1 qəbirdə isə qoşa meyit basdırılmışdır. Dəfn avadanlığı keramika məmulatından (küpələr, bardaqlar, kasalar, camlar və s.) və müxtəlif bəzək əşyalarından (metal, şüşə və minerallardan düzəldilmiş qolbaqlar, sancaqlar, asmalar, düymələr, toqqalar, muncuqlar və s.) ibarətdir. Erkən orta əsrlər C.-ın çiçəklənmə dövrü idi. Bu dövrdə "Qışlaq yeri" və "Yataq yeri" adlı yeni iri təpələr məskunlaşmış, şəhərin sahəsi xeyli genişlənmişdi. Lakin antik içqala hansısa səbəbdən tərk edilmişdi. Ehtimal ki, bu zaman C. Massaget (Maskut) hökmdarlığının mühüm mərkəzlərindən biri olmuşdur. 7–8 əsrlərdə şəhər ciddi dağıntılara məruz qalmış, "Ortatəpə" sakinləri tərəfindən tərk edilmişdi. 9–12 əsrlərdə yaşayış yalnız III və IX təpələrdə, həmçinin "Çinarınüstü" adlanan kiçik ərazidə mövcud idi. 13 əsrdə monqolların hücumundan sonra əhali yenidən "Ortatəpə"yə köçmüşdür. 15 əsrin sonlarına qədər burada məskən mövcud olmuşdur; yaşayış evlərinin və dəmirçixananın qalıqları, təndirlər, təsərrüfat quyuları, çoxsaylı şirli və şirsiz, həmçinin boyanmış keramika aşkarlanmışdır. Şəhər sakinlərinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq idi. Ovçuluq və balıqçılıq mühüm əhəmiyyət kəsb edirdi. Arxeoloji tapıntılar burada dulusçuluq və toxuculuğun da yayıldığını təsdiqləyir. C. sakinləri kiçik ailələrə məxsus, bünövrəsi çaydaşından olan çiy kərpicdən tikilmiş evlərdə yaşayırdılar. Yaşayış evlərinin ətrafında təsərrüfat tikililəri (anbar, təndir və s.) yerləşirdi.

**CANAXIR** – Azərb. Resp. Xaçmaz r-nunun Hülövlü ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* c.-da, Ağçayın sahilində, Samur-Dəvəçi ovalığındadır. Əh. 225 (2011); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Klub, kitabxana var.

Kəndin şm.-ındakı orta əsrlərə aid arxeoloji abidə 14 iri və xırda təpədən ibarətdir. Müxtəlif ölçüdə və formada olan təpələr dərin dərələrlə bir-birindən ayrılır. Abidəni yerli əhali Xunatəpə adlandırır. Əsas təpələr çiy kərpic və gil möhrələrlə əhatə olunmuşdur. Kəşfiyyat xarakterli arxeoloji axtarışlar zamanı şirli və şirsiz gil qab məmulatı, dəndaşı və s. toplanmışdır. Yaxınlığındakı qəbiristandan müxtəlif maddi mədəniyyət nümunələri (küplər, tunc güzgü, bəzək əşyaları, silahlar və s.) tapılmışdır. Ehtimal ki, şəhər yeri 1–12 əsrlərə aiddir.

**CANALI** – Azərb. Resp. Qazax r-nunun Hüseynbəyli ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* şm.-da, Gəncə-Qazax düzündədir. Əh. 1525 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, uşaq bağçası, feldşer-mama məntəqəsi, klub, kitabxana var.

**CANANLI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Xudafərin bölgəsinin Mincivan kəndistanında, Xudafərin qəs.-ndən 8 *km* c.-dadır.



**CANAŞİA** Simon Nikolayeviç (18.11.1900, indiki Gürc.-ın Maxaradze r-nunun Makvaneti k. – 15.11.1947, Tbilisi) – gürcü tarixçisi. Gürc. SSR (1941) və SSRİ (1943) EA-larının üzvü. SSRİ Dövlət mükafatı laureatı (1942, 1947). Tiflis Un-tini bitirmiş (1922), SSRİ EA Gürcüstan filialının Dil, Tarix və Maddi Mədəniyyət İn-tunun direktoru (1936–41), 1941 ildən Gürc. SSR EA-nın vitse-prezidenti, akademiyanın Tarix İn-tunun direktoru olmuşdur. 1940–47 illərdə Msxeta arxeoloji ekspedisiyasına rəhbərlik etmişdir. Gürcü tayfalarının mənşəyini, onların Qafqaz və Qədim Şərq xalqları ilə genetik əlaqələrini tədqiq etmişdir. Gürcüstanda feodal münasibətlərinin yaranması və inkişafının öyrənilməsində böyük xidməti olmuşdur. Mənbəşünaslığa və dilçiliyə aid əsərləri də var.

**CANAVAR** (lat. Lupus) – göyün c. yarımkürəsində bürc. Ən parlaq ulduzunun vizual *ulduz ölçüsü* 2,3-dür. Ən münasib görünmə şəraiti aprel–may aylarındadır. Azərbaycanda və qismən Rusiyanın ən c. rayonlarında görünür (bax *Ulduz xəritəsi*).

**CANAVAR** (Canis lupus) – *canavarlar* fəsiləsindən yırtıcı məməli heyvan. Bədəninin uz. 100–160 *sm*, cidov hünd. 100 *sm*-ə qədərdir. Başı iri, alnı enli, üzü xeyli uzunsov, qulaqları dik və iti ucludur. Boynu güclü, döşü enlidir. Ətrafları hündür və güclü; pəncə barmaqları sıxdır. Quyruğu sallaq, uz. 50 *sm*-ə qədərdir. Qışda tükləri yumşaq və sıx, yayda qısa, qaba, cod olur. Yaşayış yerindən asılı olaraq rəngi kəskin dəyişir: tundra C.-ı ağ, meşə C.-ı qonur çalarlı boz, səhra C.-ı kürən, yaxud oxra rənglidir. Əvvəllər C. bir sıra Arktika a-rı daxil olmaqla, demək olar ki, Avrasiya və Şm. Amerikanın hər yerində yayılmışdı. Lakin 18–20 əsrlərdə C.-ların insan tərəfindən təqib edilərək qırılması və əlverişli yaşama yerlərinin yox olması nəticəsində sayı çox azalmış, arealı isə xeyli daralmışdır. Onun yaşadığı ərazilərə Sakit və Buzlu okean a-


Adi canavar (Canis lupus).

rını çıxmaqla MDB ölkələri, İspaniya, Portuqaliya, İtaliya, Polşa, Skandinaviya və Balkan y.a.-rı, Asiyanın çox hissəsi, Şm. Amerika daxildir. C.-a tundradan (Arktika səhralarına girir) quru səhra və yarımsəhralara qədər müxtəlif landşaftlarda rast gəlinir; o meşə massivlərindən uzaq gəzir. Suvata yaxın çətinliklə keçilən və xəlvəti yerlərə üstünlük verir. Adətən, ailəvi qruplarla yaşayır. Qrupa 1 yaşadək (təzə doğulmuş) və 1–2 yaşlı balaları olan valideynlər daxildir, bəzən qrupa 3–5 yaşlı erkəklər də qoşulur.

Payızda və qışda C.-lar, adətən, 10–15 fərddən ibarət sürülər əmələ gətirirlər. Sürüdə başçıya tabe olmaq kimi dəqiq iyerarxiya münasibəti mövcuddur. C.-lar bir-birilə ünsiyyət zamanı müxtəlif vizual (mimika, xüsusi duruş), akustik (səs) və qoxu siqnallarından istifadə edirlər. Sürülər bir çox illər eyni ərazidə (diametri 60 *km*-ə qədər) yaşayır və onun sərhədlərini öz sidikləri ilə nişanlayırlar. Bəziləri miqrasiya edən dırnaqlı heyvanların ardınca köçür. C., əsasən, gecələr fəal olur. Tipik yırtıcıdır, qidasını vəhşi və dırnaqlı ev heyvanları, eləcə də marmot, dovşan, porsuq, xırda gəmiricilər və s. təşkil edir. Qida axtarışında, demək olar ki, dincəlmədən 25–40 (150-yədək) *km* məsafə qət edə bilir. Tək-tək, yaxud sürü ilə ova çıxır, şikarını təqib edən zaman saatda 70–80 *km*-ədək sürətlə qaçır. Yay qidalanmasında quşlar, qurbağa, kərtənkələ, ilan, cücülər böyük rol oynayır. C. yayda və payızda həvəslə giləmeyvə və meyvə yeyir. Canavarlar fəsilənin digər nümayəndələrinə, o cümlədən ev itlərinə hücum edir; kannibalizm halları da olur. C. monoqamdır; cütlər ömrü boyu birgə yaşayır. Cütləşmə dekabrdan marta qədər davam edir. Cavan və tək dişi C.-ın ətrafına erkəklər toplaşır, onların arasında şiddətli döyüşlər olur. Yaranmış ailə cütü kolların sıx cəngəlliklərində, porsuq, tülkü və marmotun sahibsiz yuvalarında, ağacların altında yaxşı maskalanmış yuva düzəldir. 3–10 (adətən, 5–6) kor bala doğur. Böyümüş balalar valideynlərinin və sürünün digər üzvlərinin mədələrindən gəyirib qaytardıqları ətlə, sonralar isə öldürülmüş şikarla qidalanır. Balaları hər iki valideyn böyüdür. Dişilər 2, erkəklər 3 ildən sonra cinsi yetkinliyə çatır. Təbii şəraitdə C. 15–16 il yaşayır. C.-lar dırnaqlı heyvanların sayını tənzimləmək və onların populyasiyalarının sağlamlaşdırılmasına xidmət etməklə təbii ekosistemlərdə mühüm rol oynayır. C. kənd (maralçılıq, heyvandarlıq) və ovçuluq təsərrüfatlarına ziyan vura bilir. Quduzluq virusunun, bir sıra helmintozların törədicilərinin daşıyıcısı və yayıcısıdır. Ev itlərinin əcdadı sayılır. C.-lar Azərb.-nın meşə və dağlıq zonalarında yayılmışlar.

*Əd.*: Павлов М.П. Волк. М., 1985; Животный мир Азербайджана. т.3, 2000.

**CANAVARDİŞ** (Lycodon) – suilanı fəsiləsindən zəhərsiz ilan cinsi. Alt və üst çənələrdəki ön dişləri arxa dişlərdən çox aralıdır, uzun əyilmiş köpək dişləri formasındadır. Əksəriyyəti Cənubi və Cənub-Şərqi Asiyanın tropik və subtropik meşələrində yaşayır. 30-adək növü


Eninəzolaqlı canavardiş (Lycodon striatus).

var. Eninəzolaqlı C. (L.striatus) Qərbi və Orta Asiyanın dağlıq yarımsəhra və çöllərində də (1800 *m* hünd.-dək) yayılmışdır. Bədəninin uz. 45 *sm*-ədəkdir. Rəngi eninə ağ və ya sarı zolaqları olan qara, yaxud tünd-qəhvəyi; qarnı açıq rəngdədir. Toranlıq sevəndir və gizli gecə həyatı keçirir. Daşların altında, torpaq çatlarında və heyvan yuvalarında sığınacaq tapır. Xırda kərtənkələlərlə qidalanır. 2–4 yumurta qoyur.

**CANAVARGİLƏSİ** (Daphne) – canavargiləsi fəsiləsindən yarpağıtökülən və ya qışdayaşıl bitki cinsi. Yarpaqları aztüklü, növbəli və ya qarşılıqlıdır. Ağ,


Yarpağıtökülən adi canavargiləsi (Daphne mezereum).

çəhrayı və ya sarımtıl çiçəkləri çiçək qrupunda toplanmışdır. Meyvəsi giləmeyvəyəbənzər şirəli çəyirdəkdir. Şərq yarımkürəsində, Avropa və Şimali Afrikadan Cənub-Şərqi Asiya, Avstraliya və Sakit okean a-rınadək təqr. 70 növü yayılmışdır. Ən geniş yayılmış növü yarpağıtökülən adi C.-dir (D. mezereum). Rusiyanın Avropa hissəsindəki meşələrdə, Qafqazda və Sibirdə bitir. Çəhrayı-qırmızı, ətirli çiçəkləri və oval qırmızı meyvələri olur. Dekorativ koldur, lakin bütün hissələri çox zəhərli olduğundan yalnız botanika bağlarında və xüsusi kolleksiyalarda becərilir. Homeopatiyada istifadə edilir.

**CANAVARLAR** (Canis) – *canavar* fəsiləsindən yırtıcı məməli heyvan cinsi. Cinsə vəhşi halda yaşayan 6–8 növ, o cümlədən *canavar*, kürən canavar (C. rufus), çəmən canavarı (koyot), *çaqqal*, zolaqlı çaqqal (C. adustus), yəhəraltı çaqqal (C. mesomelas), Efiopiya çaqqalı (C. simensis), həmçinin *itlər* daxildir. Bədəninin uz. 70 *sm*-dən (çaqqallar) 160 *sm*-ədək (canavar), kütləsi 6–80 *kq* olur. Quyruğu uzun (20–50 *sm*), yumşaqtüklüdür. Dişiləri erkəklərindən bir qədər kiçikdir. Rəngi qara tüklərlə qarışıq bozumtul, sarıyaçalan, yaxud kürənidir; beli, adətən daha tünd rəngdə olur. C. Avrasiyada (Hind-Çin və Malay arxipelaqından başqa), Afrikada (tropik meşələrdən və Madaqaskar a.-ndan başqa), Şimali və Mərkəzi Amerikada (c.-a Kosta–Rikaya qədər) yayılmışdır. İt insanların olduğu hər yerdə məskunlaşmışdır, vəhşi halda Avstraliyada və Yeni Qvi-






Efiopiya çaqqalı (Canis simensis).

neyada (*dinqo*) rast gəlinir. C. bütün landşaftlarda (tundra, meşə, çöl və səhralarda) yaşayır, 3–4 min *m* yüksəkliyə qədər dağlara qalxır. Ətyeyəndir, lakin yem rasionuna bitkilər də daxildir. Efiopiya çaqqalı və kürən canavar BTMİ-nın "Qırmızı kitab"ına daxil edilmişdir.

**CANBAXÇI** – Tiflis qub. Borçalı qəzasının Loru nahiyəsində (31.12.1937 ildən Kalinino, 19.4.1991 ildən Taşir r-nu) azərb.-ların yaşadığı kənd. 19 əsrin sonlarında kəndin azərb. əhalisi sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir.

**CANBAXIŞOV** Qələndər Surxay oğlu (d. 17.8.1957, Erm. SSR, Basarkeçər r-nu, Daşkənd k.) – Azərb. travmatoloqu, tibb e.d. (2000), prof. (2010), Azərb. Resp.-nın əməkdar həkimi (2000). Azərb. Dövlət Tibb İn-tunu (indiki Azərb. Tibb Un-tini) bitirmişdir (1980). Akad. Q.A. *İlizarovun* tələbəsi olmuşdur. 1987–90 illərdə akad. Q.A.İlizarov ad. "Bərpaedici Travmatologiya və Ortopediya" Rusiya Elmi Mərkəzində elmi işçi, 1990–99 illərdə Azərb. Elmi Tədqiqat Travmatologiya və Ortopediya İn-tunda baş elmi işçi, elmi katib, 1999–2006 illərdə həmin in-tun direktoru işləmiş və 2006 ildən kəskin travma bölməsinin elmi rəhbəridir. Ç. boyun 20–25 *sm* uzadılması üsullarını elmi surətdə əsaslandıraraq sistemləşdirmişdir. Borulu uzun sümüklərin ağır deformasiyaları və qısalıqları zamanı iki və daha çox səviyyədə kortikotomiyası, poliseqmentar osteosintezi, ətraf seqmentlərinin 80–100% uzadılması üsullarını tətbiq edərək inkişaf etdirmiş, uzun borulu sümüklərin sınıqlarının müalicəsi üçün yeni yivli mil (xarici fiksə aparatı) ixtira edərək onunla osteosintez üsullarını işləmişdir, 90-adək elmi əsərin müəllifidir. Səhiyyə Nazirliyinin baş travmatoloq-ortopedi olmuşdur (1999–2006).

**CANBAR** – Azərb. Resp. Zəngilan r-nunda kənd. Canbar ə.d.-nin (Canbar,


Canbasqalanın xarabalıqları.

Ağkənd, Dərəli, Günqışlaq, Qazançı, Pirveys, Yuxarı Gəyəli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 30 *km* şm.-q.-də, dağ ətəyindədir. Əh. 49 (2011); işğaldan (1993, oktyabr) əvvəl əkinçilik, arıçılıq və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana, klub, poçt var idi.

**CANBASQALA** – Qızılqum səhrasında (Qaraqalpaq Resp.-nın Turtkul r-nu) e.ə. 4 əsr – eramızın 1 əsrinə aid qala xarabalığı. C.-nın müdafiə divarları düzbucaqlı sahə (200×170 *m*) əmələ gətirir; bu, yaşayış tikililəri yerləşən iki böyük məhəllədən ibarətdir. Arxeoloji qazıntılar zamanı (S.P. Tolstov, 1939) yaşayış binaları və icmaya məxsus od məbədinin qalıqları tapılmışdır. C. əhalisi əkinçilik və maldarlıqla məşğul olmuşdur. C.-nın yaxınlığında ibtidai icma dövrünə aid düşərgələr, o cümlədən Canbas–4 düşərgəsi (bax *Kelteminar mədəniyyəti*) aşkar edilmişdir.

**CANBEHAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Mehranrud kəndistanında, Bostanabad qəs.-ndən 7 *km* şm.-dadır.

**CANCEROLAR**, yammalar, yemlər – Efiopiyanın c.-q.-ndə Gibe və Omo çayları arasında yaşayan *kuşilər* qrupundan xalq. C.-ın bir hissəsi Cimma şəhərindən q.-də öz qəsəbələrini təşkil etmişlər. Sayları dəqiq məlum deyil (təqr. bir neçə min nəfər). Cancero dilində danışırlar. Dindarları xristiandır.

19 əsrin sonlarınadək C.-ın Mva sülaləsinin idarə etdiyi müstəqil knyazlığı olmuşdur. Knyaz həm də dini hakim idi. Ənənəvi məşğuliyyətləri xış əkinçiliyidir (arpa, kalış, mans, enset bananı, qəhvə, tərəvəzlər). Qoşqu heyvanı kimi öküzdən istifadə olunur. Toxuculuq, dulusçuluq və dəmirçilik sənəti inkişaf etmişdir. Ənənəvi həbəş evlərində (dairəvi komalar) yaşayırlar. Ənənəvi geyimləri plaşdır (şamma). Monoqam ailələrdə yaşasalar da, əvvəllər cancero kişiləri 2-dən 8-dək arvad ala bilərdilər. Ənənəvi inancları totemizmdir.

**CANDAR** (Candari) – Gürc.-nın Kvemo Kartli mahalının Marneuli bələdiyyəsi ərazisində azərb.-ların yaşadığı kənd. Marneulidən 3 *km* şm.-da, dəniz səviyyəsindən 460 *m* yüksəklikdə yerləşir. Marneuli ş. aqlomerasiyasına daxildir. Əh. 2000 (2002); əsasən, əkinçiliklə məşğuldur. Azərb. dilində məktəb 1922 ildən fəaliyyət göstərir.

**CANDAR** (Candari) – Gürc.-nın Kvemo Kartli mahalının Qardabani bələdiyyəsi ərazisində azərb.-ların yaşadığı kənd. Qardabanidən 12 *km* ş.-də, dəniz səviyyəsindən 320 *m* yüksəklikdə yerləşir. Əh. 3118 (2002); əsasən, əkinçiliklə məşğuldur. Azərb. dilində məktəb 1922 ildən fəaliyyət göstərir.

**CANDARBAYEV** Kurmanbay (7.1. 1905, Çimkənd vil., Sayram r-nu – 9.7.1973, Alma-Ata) – qazax aktyoru, rejissor və müğənni; qazax dram teatrının banilərindən biri. Qazax SSR xalq artisti (1936), SSRİ Dövlət mükafatı laureatı (1949). Səhnə fəaliyyətinə 1925 ildən başlamış, Qazaxıstan



Opera və Balet Teatrının bədii rəhbəri (1944–48), baş rej. (1949–52; 1956–59), dram teatrının baş rej. (1959–61) işləmişdir. C. dram teatrında Sırım ("Qaragöz", M. Auezov), Furmanov ("Qiyam", B. Lavrenyov) rollarını, musiqili teatrda Bekejan ("Qız Jibek", Q. Musrepov), Er-Tarqın ("Er-Tarqın", Y. Brusilovski) partiyalarını ifa etmişdir. "Ayman və Şolpan" (M. Auezov), "Birjan və Sara" (M. Tulebayev), "Arşın mal alan" (Ü. Hacıbəyli), "Abay" (A. Jubanov və L. Həmidi) C.-in ən yaxşı rej.-luq işlərindəndir. Pedaqoji fəaliyyət göstərmişdir (1970 ildən prof.).

**CANDARGÖL** – Azərb. Resp. (Ağstafa r-nu) və Gürc.-da (Qardabani r-nu) göl. 380 *m* yüksəklikdə yerləşir. Tektonik-erozion mənşəlidir. Sah. 12,5 *km*². Maks. dərinliyi 6 *m*, həcmi 50 mln. *m*³-dən artıqdır. Suyunu, əsasən Kür çayı və Tbilisi su anbarından başlanan kanallardan alır. Suvarmada istifadə olunur. Balıqçılıq əhəmiyyəti var.

**CANDAROĞULLARI BƏYLİYİ**, İsfəndiyaroğulları bəyliyi – Anadoluda mövcud olmuş türk dövləti (1292–1462). Adını Şəmsəddin Yaman Candardan alan bəyliyə ən görkəmli hökmdarının adı ilə İsfəndiyaroğulları bəyliyi də deyilir. Bəylik Candara *Keyxatu xan* tərəfindən iqta kimi verilmiş Kastamonu və Sinop bölgələrini əhatə edirdi. Sülalənin banisi Alparslan, bəyliyin yaradıcısı isə Şəmsəddin Yaman Candardır. C.b.-nin yaranmasında monqol istilası və *Səlcuqilər dövlətinin* zəifləməsi mühüm rol oynamışdır. Şəmsəddin Yamanın oğlu I Süleyman [1309–40] Kastamonu, Safranbolu və Sinopu ələ keçirərək bəyliyə qatmış və mərkəzi Əflanidən Kastamonuya köçürtmüşdü. O, 1335 ildə monqol hökmdarı Əbu Səid Bahadır xanın vəfatından sonra yaranmış hərcmərclikdən istifadə edərək müstəqilliyini elan etmişdi. 14 əsrdə C.b. Bizans və Osmanlı dövləti üçün təhlükəli rəqibə çevrilmişdi. Osmanlı sultanları C.b.-ni tabe etməyə dəfələrlə səy göstərmişdilər.

1392 ildə *I Bəyazidin* ordusu Kastamonuda Candaroğulları sülaləsindən olan II Süleymanın ordusunu məğlub etdi; II Süleyman öldürüldü və bəyliyin bir hissəsi Osmanlı dövlətinə qatıldı. *Ankara vuruşmasında (1402)* Bəyazidə qalib gəldikdən sonra İsfəndiyar bəy Teymura tabe oldu. Lakin II Mehmed Fatehin Konstantinopolu tutması (1453) və Bizansın varlığına son qoyması Candaroğullarından İsmayıl bəyi qərb xristian dünyasına üz tutmağa məcbur etdi. Digər tərəfdən Trabzon imperiyası, ağqoyunlu *Uzun Həsən* və *Qaraman bəyliyi* osmanlılara qarşı ittifaqa girdilər. *II Mehmed* Trabzonu tutduqdan (1461) sonra Sinopu Osmanlı imperiyasına qatmaqla 1462 ildə C.b.-nin də siyasi varlığına son qoydu.

Qaraman bəyliyindən sonra Anadolunun ən uzun müddət ərzində mövcud olan dövləti C.b.-dir. Qara dənizin ən böyük portu sayılan Sinopun bəyliyin tərkibinə daxil edilməsi onun iqtisadi gücünü daha da artırmışdı. C.b.-nin ilk mərkəzi Əflani idi, sonralar Kastamonu və Sinopa köçürülmüşdü. C.b.-ndə torpaq mülkiyyəti formaları, Anadolu səlcuqlarında olduğu kimi, iqta, xassə, mülk və vəqf idi. Bəyliyin ali idarəetmə orqanı *divan*, rəsmi dili isə türk dili olmuşdur. C.b.-ndən malaxit və dəmir ixrac edilirdi. Osmanlı dövründə Kastamonu atları və ov quşları çox məşhur idi.

Candargöl.



**CANELİDZE** Yustin Yulianoviç (1883–1950) – sovet cərrahı, SSRİ Tibb EA-nın akad. (1944), SSRİ Tibb EA-nın Rəyasət Heyətinin üzvü (1944–46), RSFSR əməkdar elm xadimi (1936), Sosialist Əməyi Qəhrəmanı (1945), SSRİ Dövlət mükafatı laureatı (1949), tibb xidməti general-leytenantı. Tibb təhsilinə Xarkov Un-tində başlamış İsveçrədə başa çatdırmışdır. Moskva un-də həkim diplomu alaraq (1910), Peterburq Qadın Tibb İn-tunun hospital cərrahlıq kafedrasında (1911–14), hərbi-sanitar qatarında (1914–18) işləmişdir. Petroqrad Tibb İn-tunda ümumi cərrahlıq kafedrasında ordinator (1918 ildən), 1921 ildən prof., ümumi cərrahlıq kafedrasının müdiri, 1927–43 illərdə hospital cərrahlıq kafedrasının müdiri, eyni zamanda (1932 ildən) Leninqrad Təcili Yardım İn-tunun rəhbəri olmuşdur. 1939 ildən Hərbi Dəniz Donanmasının baş cərrahı və eyni zamanda 1943 ildən Hərbi Dəniz Tibb Akademiyasının hospital cərrahlıq kafedrasının rəisi işləmişdir.



Ümumi və bərpaedici cərrahlıq travmatologiya və ürək cərrahlığı məsələlərinə dair 100-dən artıq elmi əsərin müəllifidir. Yaralanmış ürək üzərində müvəffəqiyyətlə əməliyyat aparmış (1911) və dünyada ilk dəfə olaraq, qalxan aorta yarasına tikiş qoymuşdur (1913). Bir sıra əsərləri dərinin köçürülməsi və plastik əməliyyat məsələlərinə həsr edilmişdir. İki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Əsəri: Собрание сочинений, т. 1–5, М., 1953–59.

**CANƏHMƏDOV** Əhəd Xanəhməd oğlu (d. 23.11.1946, Xızı r-nunun Baxşılı k.) – tribologiya və tribotexnika sahəsində Azərb. alimi, texnika e.d. (1989), prof. (1991). Azərb. Neft və Kimya İn-tunu (indiki ADNA) bitirmişdir (1969). 1973–91 illərdə həmin in-tda, müxtəlif vəzifələrdə çalışmış, 1991 ildən kafedra müdiridir. Əsas elmi işləri neft-qaz avadanlıqlarında tribotexniki problemlər və onların sahə üzrə təcrübi tətbiqi məsələlərinə həsr edilmişdir. 250-dən çox elmi məqalənin, 4 monoqrafiyanın, 462 saylı elmi kəşfin müəllifidir. Bir sıra beynəlxalq konfranslarda çıxış etmişdir. 2014 ildə P.L. Kapitsa ad. qızıl medala layiq görülmüşdür.

Əsərləri: Триботехнические проблемы в нефтегазовом оборудовании. Б, 1998; Механика эластомеров в нефтегазовом оборудовании. Б, 2002; Нефтяная трибология. Б, 2003; Pakerin kipləndirici elementləri (L.S. Hacıyeva ilə birlikdə). B. 2004.

**CANƏZİZ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Qaladərəsi kəndistanında, Maku ş.-ndən 8 *km* c.-dadır.

**CANFİDA** – İrəvan xanlığının Sərdarabad mahalında (9.9.1930 ildən Sərdarabad, 2.3.1935 ildən Hoktemberyan r-nu), Alagöz dağının c. ətəyində, Araz çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 1919 ildə kənd erməni hücumlarına məruz qalaraq əhalisi qovulmuş və buraya Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir.

**CANGİR**, Cahangir, Jangir, Yangir (17 əsrin əvvəlləri – ?) – *Qazax xanlığının* xanı. Yesim xanın oğlu, Tauke xanın atasıdır. Bir məlumata görə 1628 ildə atasının, digər məlumata görə təqr. 1645 ildə qardaşı Canı bəyin varisi kimi hakimiyyətə gəlmişdir. Qazax çöllərində cunqarların (oyratların) ekspansiyasına qarşı mübarizə aparmışdır. Təqr. 1635 ildə cunqarlara əsir düşmüş, bir ildən sonra xilas olmuşdur. Vaxtının böyük hissəsini özünün Türküstandakı qərargahında keçirmiş, buradan Buxara və Mərkəzi Asiyadakı rus elçiləri ilə əlaqə saxlamışdır. Qazaxıstan tarixçilərinin fikrincə, C. cunqarlara qarşı mübarizədə qazax nəsillərinin müəyyən dərəcədə birləşməsinə nail olmuşdur. Cunqar-qazax müharibəsi (1643–47) zamanı Orbulaq döyüşündə C. cunqarları məğlubiyyətə uğratmışdır. Cəsurluğuna görə qazaxlardan Salkam (Vüqarlı) ləqəbini almışdır. Bəzi məlumatlara görə, C. 1652 ildə cunqarlarla döyüşdə həlak olmuş, digər məlumatlara görə 1680 ilədək hakimiyyətdə qalmışdır.

**CANGİR**, Canger, Jangir (1801, digər məlumatlara görə, 1803 – 23.8.1845, Torqun-Qala) – *Bukey Ordasının* xanı [1824–1845; 1815 ildən xanın vəliəhdi], qazax maarifçisi. *Bukey* xanın oğludur. İlk təhsilini evdə almışdır. 1810-cu illərin əvvəllərində tərbiyə edilməsi üçün Həştərxan qub.-nın qubernatoru (1812–18) S.S. Andreyevskinin ailəsinə verilmişdi. Rus, fars, ərəb dillərinə və Orta Asiya (çağatay) türklərinin yazısına yiyələnmişdi. İmperator I Aleksandrın 4.7.1823 il tarixli fərmanı ilə xan rütbəsi almış, 1824 il iyulun 8-də C.-in xan elan edilməsi təntənəli mərasimi keçirilmişdi. O, 1827 ildə Xan şurasını yaratdı. 1830-cu illərin əvvəllərində Bukey Ordasının idarəçilik sistemində xan hakimiyyətinin mərkəzləşdirilməsinə və hakimiyyət strukturlarının təşəkkülünə yönəlmiş islahat keçirdi. Sultanların xan tərəfindən təyin edilməsi sistemini tətbiq edərək onların hakimiyyətini məhdudlaşdırdı (C.-in hakimiyyətinin son illərində bütün sultanlar, demək olar ki, onun tərəfindən təyin edilmişdilər). C. nəsil tirlərinin başçılarını təsdiq edirdi (bəzən birbaşa təyin edirdi). C. sultanların və başçıların səlahiyyətlərini (vergilərin toplanması, nizam-intizamın qorunması, ticarətə kömək göstərilməsi) müəyyənləşdirirdi. Onun təşəbbüsü ilə "yasavullar" (xüsusi tapşırıqları yerinə yetirən şəxslər) və "bazar sultanları" (daimi ticarət yerlərində nizam-intizama nəzarət etmək məqsədilə) sistemi yaradıldı. Kargüzarlıq işlərini aparmaq məqsədilə C. iki bölmədən – tatar (daxili işlər üçün) və rus (Rusiya hökumət orqanları ilə əlaqə saxlamaq üçün) bölmələrindən ibarət xüsusi dəftərxana təşkil etdi. Köçərilərin oturaq həyata keçməsini, onlar tərəfindən binaların yaradılmasını, çöllərdə biçənək yerlərinin və meşələrin salınmasını, yerli mal-qara cinslərinin təkmilləşdirilməsini və k.t. avadanlığının gətirilməsini təşviq edirdi. Bukey Ordasında ilk daimi yaşayış məntəqələrinin: 1827 ildə Xan-Qalı (Xan İqamətgahı) kəndinin, 1841 ildə özünün yay iqamətgahı Torqun-Qalanın əsasını qoydu. Mübadilə ticarəti və ticarət sahibkarlığının inkişafını dəstəkləyirdi. 1833 ildən Xan İqamətgahında hər il rus tacirlərinin iştirakı ilə yarmarka fəaliyyət göstərirdi. Bu, Bukey Ordası qazaxlarının Rusiyanın Avropa regionu ilə ticari-iqtisadi əlaqələrinin intensivləşməsinə səbəb oldu. C.-in ən yaxşı otlaqları qazax əyanlarına paylaması Bukey Ordasında çoxsaylı üsyanlara gətirib çıxardı. C. 1841 ildə Xan İqamətgahında qazax uşaqları üçün dünyəvi ümumtəhsil məktəbinin əsasını qoydu. Bukey Ordasında islam dininin yayılmasında, aillərdə məktəb və mədrəsələrin tikintisində mühüm xidmətləri olmuşdur.

C. 1826 və 1844 illərdə Kazan Un-tinə gəlmiş, bir neçə qədim əlyazmanı un-tə hədiyyə etmişdi; 1840 ildən un-tin fəxri üzvü idi. Xan İqamətgahında tarix muzeyini yaratmışdı. Böyük silah kolleksiyasına malik idi.

C.-in oğullarından sultan Hacı Qubaydulla Canger xan oğlu (18.5.1840 – 13.3.1909) daha məşhurdur.

**CANHƏSƏN** – Azərb. Resp. Xocalı r-nunun Kosalar ə.d.-ndə kənd. R-n mərkəzindən 19 *km* c.-q.-də, Qarabağ silsiləsinin şm.-ş. yamacındadır. Əh. 107 (2011); işğaldan (1992, fevral) əvvəl əkinçilik, arıçılıq və maldarlıqla məşğul olmuşdur. İbtidai məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi var idi.

**CANI**, Yuxarı Canı – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Keşişkənd, 3.1.1935 ildən Mikoyan, 6.12.1957 ildən Yeğeqnadzor r-nu), dəniz səviyyəsindən 2300 *m* yüksəklikdə azərb.-ların yaşadığı kənd. 1918 ildə ermənilər tərəfindən təcavüzə məruz qalan əhali kəndi tərk etməyə məcbur olmuş, 1922 ildə onların bir qismi geri qayıtmış və yenidən burada məskunlaşmışdır. Lakin 1939 ildə kənd ləğv edilərək əhalisinin bir hissəsi qonşu Qabaxlı k.-na köçürülmüş, bir hissəsi isə Şərurun, Goranboyun və Qarabağın müxtəlif kəndlərində, xüsusilə Xocalıda məskunlaşmışdır.

**CANI OĞLU ABDULLA**, Kərbəlayı Abdulla (təqr.1777, Şuşa – 1838, Şuşa) – Azərb. şairi. Klassik və aşıq şeiri tərzində, Azərb. və fars dillərində lirik və satirik şeirlər yazmışdır. Qəzəl və müxəmməsləri bədii dəyəri ilə diqqəti cəlb edir. 19 əsr Azərb. şairi Kərbəlayı Səfi Valeh ilə dostluq etmiş, onunla şeirləşmişdir. "Ey iki gözüm, qıl belə şahbazə tamaşa" misrası ilə başlanan cığalı müxəmməsi geniş yayılmışdır. Həcvləri ilə məşhur olmuşdur.

Əsəri: Müxəmməslər. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, c.8., XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatı. B., 1988.

*Əd.:* Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə, c. I, B., 2005.

**CANIBEKOV** Vladimir Aleksandroviç [d.13.5.1942, Qazaxıstan SSR, Cənubi Qazaxıstan vil., Bostanlıq r-nunun İsgəndər k. (Özbəkistan, indiki Daşkənd vil. Bostanlıq r-nunun İsgəndər qəs.)] – SSRİ təyyarəçi-kosmonavtı, aviasiya gen. m.-u., iki dəfə Sovet İttifaqı Qəhrəmanı (1978, 1981). Yeysk Ali Hərbi Aviasiya Təyyarəçilər Məktəbini bitirdikdən (1965) sonra HHQ-də təyya-



rəçi-təlimatçı kimi xidmət etmişdir. 1970 ildən kosmonavtlar dəstəsindədir. 5 kosmik uçuş keçirmişdir. İlk uçuşunu (10–16.1.1978) "Soyuz-27" kosmik gəmisində (KG) gəmi komandiri kimi və "Salyut-6" orbital stansiyasında həyata keçirmişdir. Uçuş 5 *sutka* 22 *saat* 59 *dəq.* davam etmişdir. İkinci uçuşu (22–30.3.1981) "Soyuz-39" KG (beynəlxalq sov.-monqol ekipajının komandiri kimi) və "Salyut-6" orbital stansiyasında olmuşdur (uçuş müddəti 7 *sutka* 20 *saat* 42 *dəq.*). Üçüncü uçuşu (24.6.–2.7.1982) sov.-fransız ekipajının komandiri kimi "Soyuz T-6" KG və "Soyuz T-5" KG ilə birləşmiş "Salyut-7" orbital stansiyasında yerinə yetirmişdir. Uçuş 7 *sutka* 21 *saat* 51 *dəq.* davam etmişdir. 17–25.7.1984 ildə "Soyuz T-12" və "Soyuz T-11" KG ilə birləşmiş "Salyut-7" orbital stansiyasında komandir kimi dördüncü uçuşu həyata keçirmişdir. Uçuşun davam etdiyi 11 *sutka* 19 *saat* 14 *dəq.* ərzində o, açıq kosmik fəzaya çıxışı həyata keçirmişdir (3 *saat* 35 *dəq.*). 112 *sutka* 3 *saat* 51 *dəq.* davam edən beşinci uçuşu (6.6.–26.9.1985) "Soyuz T–13" KG-ndə (gəminin komandiri kimi) və "Salyut-7" orbital stansiyasında yerinə yetirmişdir. Açıq kosmosda 5 *saat* davam edən mürəkkəb texnoloji əməliyyatları yerinə yetirmişdir. 5 dəfə Lenin ordeni, Fransanın Fəxri Legion ordeni (1982) və medallarla təltif olunmuşdur.

**CANIBƏY** Əbül Müzəffər Mahmud Cəlaləddin (?–1357) – *Qızıl Orda* xanı [1342–57], Özbək xanın oğlu və varisi. İki qardaşını öldürüb hakimiyyətə gəlmişdi. Rus knyazlıqlarının və Litvanın daxili işlərinə fəal müdaxilə edirdi. Moskva böyük knyazları Semyon Qordı və II İvan Krasnı C.-dən asılı olmuşlar. Hakimiyyətini möhkəmlətmək üçün Qızıl Ordada islam dinini yayırdı. C.-in hakimiyyəti zamanı Qızıl Ordanın birliyi və siyasi qüdrəti saxlanılsa da, güclənməkdə olan yerli hakimlərin ayrılma meyilləri artırdı. 1346–47 illərdə yayılan taun epidemiyası Qızıl Ordada böyük tələfata, həmçinin onun zəifləməsinə gətirib çıxartmışdı. 1352 ildə Ağ Ordaya hücum edərək öz müttəfiqi Çimtay xanı hakimiyyətə gətirmişdi. *Hülakular dövlətinin* dağılmasından istifadə edən və şirvanşah *Kavusla* ittifaqa girən C.-in 1356/57 ildə Azərb.-a yürüşü zamanı Təbriz (burada öz adından sikkə kəsdirmişdi), Marağa və s. şəhərlər tutulmuş, Çobani hökmdarı Əşrəf edam edilmişdi. Lakin tezliklə Təbrizdə üsyan baş vermiş, hakimiyyət C.-ə düşmən olan Cəlairilərin əlinə keçmişdi. C. Qızıl Ordaya qayıdarkən yolda həlak olmuşdur. Onun xəstəlikdən ölməsi, yaxud oğlu Bərdibəy tərəfindən qətlə yetirilməsi də ehtimal edilir.

**CANIBƏY** – İrəvan xanlığının Gərnibasar mahalında (9.9.1930 ildən Qəmərli, 4.9.1945 ildən Artaşat r-nu) azərb.-ların yaşadığı kənd. Dərələyəz mahalındakı Canı kənd və çay adları ilə mənşəcə eynidir. Cənubi Qafqaza, Təbrizə yürüşlər etmiş Qızıl Orda xanı Canı bəyin (1341–1357) adı ilə əlaqədar olması ehtimal olunur. 18 əsrin sonlarında müharibələr nəticəsində kənd xaraba qalmışdır.

**CANIBƏYİLƏR,** Canoğulları, Canilər – Buxarada xan sülaləsi [1599–1753/85]. Bax *Həştərxanilər*.

**CANIBƏYLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Diglə kəndistanında, Horand qəs.-ndən 26 *km* c.-dadır.

**CANİBƏYOV** Nazil Fazil oğlu (d. 21. 9. 1942, Bakı) – Azərb. kimyaçısı, kimya e.d.(1987), prof. (1994), AMEA-nın m. üzvü (2007). Azərb. Dövlət Un-tini bitirmişdir (1965).



AMEA-nın Y. Məmmədəliyev ad. Neft-Kimya Prosesləri İn-tunda laboratoriya müdiridir (1986 ildən). Tədqiqatları polifunksional kompleksonların, kompleksonatların və metalkompleks birləşmələrin sintezi və onların polimer materiallarda, sürtkü yağlarında, yanacaqlarda aşqarlar və polimerləşmədə katalizatorlar kimi istifadə edilməsi sahəsindədir. 169 elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.



Canik dağları.

**CANİK DAĞLARI** – Türkiyədə, Pont d-rının orta hissəsi. Qızıl İrmaq və Melet çayları arasındadır. Uz. təqr. 180 *km*, orta eni 60 *km*, hünd. 2098 *m* (Əyriqırıq təpəsi). Əsasən andezitərdən, traxitlərdən, qumdaşılarından ibarətdir. Şm.-q.-dən c.-ş.-ə uzanan C. d. Yaşıl İrmaq çay dərəsi ilə yarılır. Yüksəkliklərə il ərzində 1000 *mm*-ədək yağıntı düşür. Şm. yamacında aşağı qurşaqda (400–700 *m*-ədək) kolluqlu, enliyarpaqlı meşələr, yuxarı qurşaqda enliyarpaqlı və iynəyarpaqlı meşələr; c. yamacında şam-palıd meşələri, yuxarı qurşaqda friqana yayılmışdır. Dərələrdə üzümçülük və tütünçülük inkişaf etmişdir. C. d-rının q. hissəsindəki Qaradağ aşırımından (940 *m*) keçən d.y. Qara dəniz bölgəsini İç Anadolu bölgəsilə birləşdirir.

**CANİŞİN** (far. جانشين – hökmdarı əvəz edən, müavin) – Azərb.-da *Sasanilərin* təyin etdiyi hakimlər, həmçinin Xilafət dövründə əmirlikləri idarə edən ərəb sərkərdələri.

**CANKƏND,** Yangikənd, əl-Kəryət əl-hədisə, Dihi-Nau, Şəhrkənd – Mərkəzi Qazaxıstandan Xarəzm və Volqaboyuna gedən karvan yolunun üstündə iri ticarət mərkəzi. Eramızın birinci əsrlərində meydana gəlmiş, yazılı mənbələrdə adı 10 əsrdən qeyd olunmuşdur. 10–11 əsrlərdə oğuz dövlətinin paytaxtı idi. 12 əsrdə tərk edilmişdir. C.-in xarabalıqları Aşağı Sırdəryanın sol sahilində Kazalinsk ş.-ndən 25 *km* c.-q.-də yerləşir. C. 1867 ildə P.İ. Lerx, 1946 və 1963 illərdə S.P. Tolstov tərəfindən tədqiq edilmiş, şəhərin tarixi, mədəniyyəti və əhalinin məşğuliyyətləri haqqında məlumatlar toplanmışdır.

**CANQAÇAR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin İcərud kəndistanında, Zəncan ş.-ndən 68 *km* c.-q.-dədir.

**"CANQAR"** – kalmık və monqol qəhrəmanlıq eposu. Qərbi monqol (oyrat) mənşəlidir. Əsasən, 15 əsrdə formalaşmışdır. Ehtimal ki, 17 əsrin əvvəllərinədək Canqar haqqında vahid mahnılar silsiləsi olmuş, sonradan monqol və kalmık variantları müxtəlif yollarla inkişaf etmişdir.

Monqol "C."-ı Monqolustanın müxtəlif rayonlarında yayılmış ayrı-ayrı şifahi rəvayətlər formasında mövcuddur (17 versiyası məlumdur). Eposun tədqiqinə 20 əsrin əvvəllərindən başlanılmışdır. Süjet xəttinin əsasını igid Canqarın düşmənlərlə mübarizəsi təşkil edir. Eposun ənənəvi ifası yayla çalınan musiqi alətinin (morinxur) müşayiəti ilə boğazda oxumadır.

Kalmık "C."-ında vətəndaşları Canqar və onun 12 bahadırının himayəsi altında bolluq və əmin-amanlıq şəraitində yaşayan əbədi gənclik ölkəsi Bumba tərənnüm edilir. Kalmık "C."-ı 4 silsilə (cəmi 25 versiya) formasında məlumdur, onlardan ən mükəmməli canqarçı Eelyan Ovlanın epik repertuarındakı 10 mahnıdan ibarət silsilədir (V.L. Kotviç tərəfindən 1908–1910 illərdə Malıye Derbeti ulusunda yazıya alınmışdır). 19 əsrin ortalarında Kalmıkiyada ifanın 2 ənənəsi qeydə alınmışdır: avazlı reçitativ (şeirlərin nəğmə kimi oxunması) və söyləmə (mənsur mətn). Müğənnilər (canqarçı duulçi; özlərini, adətən, "duuldq" dombrada müşayiət edirlər) dastançılardan (canqarçı kulçi) daha çox şöhrət qazanmışdılar. Mətnlər, avazlar, ifa manerası müəllimdən şagirdə keçirdi: 1970 ilin sonu – 80 illərdə Eelyan Ovla məktəbinin nümayəndələri K. Laciyev və B. Küskeyevin oxumaları yazıya alınmışdır.

Canqarçı müsabiqələrinin (1940 ildə Kalmıkiyada "C."-ın 500 illiyi şərəfinə epik müğənnilərin olimpiadası keçirilmişdir) təşkili epik ənənələrin qorunmasına şərait yaradır.

Mətnlər: Canqar haqqında epos. Ulan-Bator, 1968 (monqol dilində); Музыка "Джангара": Сб. эпических напевов / Сост. В.К. Шивлянова. Элиста, 1990.

**CANQUR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Heris bölgəsinin Ətraf kəndistanında, Heris qəs.-ndən 21 *km* c.-q.-dədir.

**CANQUR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Mehranrud kəndistanında, Təbriz ş.-ndən 17 *km* c.-ş.-dədir.

**CANNOTTİ** (Giannotti) Donato (27.11. 1492, Florensiya – 27.12.1573, Roma) – italyan humanisti, siyasi xadim, alim, komedioqraf. Pizada təhsil almışdır. 1527 ildə N. *Makiavellinin* ölümündən sonra Florensiya resp.-nda katib vəzifəsini tutmuş, *Mediçinin* qayıdışından sonra 1530 ildə qovulmuş, Romada və Venesiyada yaşamışdır. C. əqidəli respublikaçı olmuş, Florensiyada idarətmə sistemi haqqında "Dela repubblica fiorentina" (1531) traktatını yazmış və "Dialogi de Republica Venetorum" (1540) kitabında Venesiya üçün aristokratik, monarxiya və demokratik institutlarının qarışığından ibarət ideal dövlət quruluşu layihəsini vermişdir. "Vurğun qoca" (1533 və 1536 illər arasında, *Plavtın* "Tacir"inin süjeti əsasında) və "Milesia" komediyalarının müəllifidir. *Mikelancelonun* yaxın dostu idi.

**CANSUQUROV** İlyas (1.5.1894, Alma-Ata vil.-ti, 4 №-li ail, indiki Aksu r-nunun Cansuqurov qəs., – 26.2.1938, Alma-Ata) – qazax yazıçısı, tərcüməçi. Moskva kommunist jurnalistikası in-tunda oxumuşdur (1925–28). Müasir qazax ədəbiyyatının yaradıcılarından biridir. 1934–36 illərdə Qazaxıstan Yazıçılar İttifaqının ilk sədri olmuşdur.



"Səhra" (1920), "Musiqiçi" (1935), "Kulager" (1936) poemalarında qazax xalqının inqilabaqədərki həyatı əks olunmuşdur; "Yoldaşlar" (1933) romanı siyasi quruluşun dəyişməsi dövründə meydana gələn sosial ziddiyyətlərdən bəhs edir. "Qisas" (1931), "Türksib", "İsatay Mahambet" (hər ikisi 1936) pyeslərinin müəllifidir. Tərcümələri var. 1937 ildə repressiya olunmuş, ölümündən sonra bəraət almışdır.

Əsərləri: Рассказы и фельетоны. А.-А., 1958; Стихи и поэмы. М., 1962.

**CANTƏPƏ,** Birinci Cantəpə, İkinci Cantəpə – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasında (9.9. 1930 ildən İcevan r-nu) azərb.-ların yaşadığı kənd. Əvvəllər qışlaq kimi mövcud olmuş, sonralar məskunlaşaraq kəndə çevrilmiş, 1930-cu illərdə kollektivləşmə ilə əlaqədar ləğv edilmişdir.

**CANVERMƏ,** aqoniya (yun. ἀγωνία – mübarizə) – klinik ölümlə müşayiət olunan həyatın son anları. Yardımçı tədbirlər olmadıqda isə bioloji ölümlə nəticələnir, lakin heç də həmişə dönməz hal deyildir, bəzən (məs., qanaxma nəticəsində baş vermiş C.) insanı xilas etmək mümkün olur. Şüurun itməsi (koma), sefalik (kəllə-beyin) reflekslərin sönməsi, tənəffüs ritminin pozulması, onun azalması və ya bu dövrdə yardımçı tənəffüs əzələləri rolunu oynayan boyun və çiyin qurşağı əzələlərinin qoşulması nəticəsində qabırğa və ya diafraqmal tənəffüsün aktivləşməsi ilə səciyyələnir. C.-dən əvvəl (həm də aqoniyaönü müddətdə) qeyri-müntəzəm vuran nəbz, bəzən də arterial təzyiq artır. C. şiddətləndikcə ürək ritmi itir, təzyiq sıfra enir, EKQ-də klinik ölüm baş verməzdən qabaq ancaq tək-tük impulslar qeydə alınır. Nizamsız titrək dartılmalar, habelə qeyri-iradi sidik ifrazı və defekasiya halları ola bilər. C.-nin müddəti bir neçə saniyədən 1–2 saata qədər çəkir. Tənəffüsün və qan dövranının dayanması ilə klinik ölüm baş verir.

**CANYATAQ** – Azərb. Resp. Tərtər r-nunda kənd. Canyataq ə.d.-nin (Canyataq, Gülyataq k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 30 *km* c.-q.-də, dağ ətəyindədir. Əh. 168 (2011); işğaldan (1993, aprel) əvvəl əkinçilik və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, mədəniyyət evi, klub, tibb məntəqəsi var idi.

**CAPARİDZE** Uça İlya Malakiyeviç (17.8.1906, Kutaisi qub., Qari k. – 7 və ya 8.6.1988, Tbilisi) – gürcü boyakarı və qrafiki. SSRİ xalq rəssamı (1963). Azərb. SSR əməkdar incəsənət xadimi (1981). SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü (1958). SSRİ (1942) və Gürc. SSR (1987) Dövlət mükafatları laureatı. Tiflisdə M. Toidzenin Xalq





U. Caparidze. "Xeyir-dua" (1957, şəxsi kolleksiya, ABŞ).

rəssamlıq studiyasında (1922–24) və Rəssamlıq Akademiyasında (1924–25, 1928–31) təhsil almışdır. Erkən yaradıcılığına L. Qudiaşvilinin təsiri (rənglərin ifadəliliyi, kompozisiyanın dekorativliyi) olmuşdur. 1932–36 illərdə Moskvada yaşamışdır. C. tarixi tabloların ("1901 ildə Tiflisdə 1 may nümayişi", 1939–41), məişət rəsmlərinin ("Ananın düşüncələri", 1945, Dövlət incəsənət muzeyi, Tbilisi; "Babanın fəxri", 1954, Şərq xalqları muzeyi, Moskva; "Kolxoz bazarı", 1960, Şəkil qalereyası, Tbilisi), portretlərin (bəstəkar Z. P. Paliaşvili, 1940; şair Q.V. Tabidze, 1943; aktrisa V.İ. Ancaparidze, 1956 və b.), mənzərələrin, kitab illüstrasiyalarının (Q.V. Tabidze, İ.Q. *Çavçavadze* və b.-nın kitablarına) müəllifidir. "Xeyir-dua" (1957, şəxsi kolleksiya, ABŞ) tablosuna görə Ümumdünya sərgisinin gümüş medalını (1958, Brüssel) almışdır. Tbilisi Rəssamlıq Akademiyasında dərs demişdir (1936 ildən; 1944 ildən prof., 1942–48 illərdə direktor).

Azərb. rəssam kadrlarının hazırlanmasında xidməti olmuşdur (V. Nərimanbəyov, Ə. Hüseynov və b.).

**CAR** – Azərb. Resp. Zaqatala r-nunda kənd. Car ə.d.-nin (Car, Axaxdərə, Zilban k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 2 *km* şm.-ş.-də, dağ ətəyindədir. Əh. 2535 (2011); heyvandarlıq və bitkiçiliklə məşğuldur. Tam orta məktəb, ümumi orta məktəb, mədəniyyət evi, 3 kitabxana, 2 klub, ambulatoriya var. C.-da "Cingözqala" (14 əsr), "Şeytanqala" (17 əsr), Köhnə kazarma (19 əsr) və s. memarlıq abidələri qalmışdır.

**CARANOR** (Qora) – Gürcüstanın Kvemo Kartli mahalının Dmanisi (Başkeçid) bələdiyyəsi ərazisində azərb.-ların yaşadığı kənd. Hazırda Qora adlanır. Əh. 38 (2002); maldarlıqla məşğuldur.

**CAR-BALAKƏN** – Azərb.-da tarixi ərazi. Dağıstan, Gəncə xanlığı və Gürcüstanla həmsərhəd idi. 1803 ildə Gürcüstandakı rus qoşunu gen.-m. V.S. Qulyakovun komandanlığı ilə C.-B.-ə hücum etdi. Yerli əhali çar qoşununa kəskin müqavimət göstərdi. V.S. Qulyakovun öldürülməsindən sonra çar hökumətinin cəza tədbirlərindən çəkinən yerli əhali 1804 ildə öz nümayəndələrini Tiflisə göndərərək Rusiyanın itaətini qəbul etdiyini və ildə 220 pud ipək verəcəyini öhdəsinə götürdü. 1830 ildə C.-B.-in ərazisi hərbi-inzibati *Car-Balakən vilayətinə* çevrildi.

**CAR-BALAKƏN CAMAATLIĞI** – Azərb.-ın şm.-q.-ində ata xətti ilə qohum nəsillərdən (toxumlardan) olan şəxslərin ittifaqı. Bütün yaşlı kişilərin yığıncaqlarında, ağsaqqal və ya hərbi başçı seçilməsində eyni hüququ vardı. Nəsli əmlakın idarə edilməsində, kəbin kəsilməsində, barışıq, mübahisəli və s. məsələlərin həllində toxum başçısı mühüm rol oynayırdı. İbtidai icma münasibətlərinin dağılması ilə camaatlıqda sosial təbəqələr yarandı. Varlılardan seçilən ağsaqqal vəzifəsi tədricən irsi oldu.

Müxtəlif toxum üzvlərinin ayrılması nəticəsində camaatlığın ərazisində 2–3 qarışıq toxumu və ya tirəni birləşdirən kənd icmaları yarandı. İcmanın idarə edilməsi toxumda olduğu kimi idi. Kəndlər Car, Balakən, Katex, Tala, Muxax və Cənik camaatlıqlarında birləşdilər. Hər bir camaatlıq avar kəndlilərindən və onlara tabe olan yengiloy və muğal kəndlərindən ibarət idi. Müharibə, sülh və s. mühüm məsələləri camaatlığın hər toxumundan göndərilmiş bir neçə feodal nümayəndələrinin iştirak etdiyi müşavirə həll edirdi. Feodal ünsürlərin güclənməsi ilə əlaqədar müşavirələrin rolu azaldı. Camaatlığı baş kovxa, qazı və bir neçə toxum ağsaqqalından ibarət icraedici orqan idarə edirdi. Onlar, əsasən, feodal nümayəndələrindən seçilirdilər. Camaatlıq Car və Tala gözündə (ittifaqında) birləşirdi. 19 əsrin 30-cu illərinə kimi Katex və Balakən Car camaatlığının vassalı vəziyyətində idi.

1803 ilin martında çar ordusu C.-B.c.-nın müqavimətini qırdıqdan sonra aprelin 12-də Tiflisdə aparılan barışıq şərtlərinə əsasən daxili idarə sistemi saxlanılmaqla camaatlığın ərazisi Rusiyaya birləşdirildi. *Car-Balakən üsyanından (1830)* sonra rus qoşunu C.-B.c.-nın ərazisini yenidən tutdu və *Car-Balakən* vilayəti təşkil edildi.

**CAR-BALAKƏN DAİRƏSİ** – bax *Zaqatala dairəsi*.

**CAR-BALAKƏN ÜSYANI (1830)** – Car-Balakən əhalisinin çarizmin müstəmləkə zülmünə qarşı üsyanı. Car torpaqlarının rus qoşunları tərəfindən işğalına, yeni üsuli-idarənin tətbiqinə və vergi qalıqlarının zorla toplanmasına, çar məmurlarının özbaşınalığına qarşı çevrilmişdi. İyunda dağlıların dəstələri Car-Balakənə daxil oldu. Carlılar, balakənlilər, katexlilər və b. tezliklə onlara qoşuldu. İyunun 21-də Yeni Zaqatala qalası yaxınlığındakı döyüşdə rus qoşunu qələbə çaldı. Bundan sonra yerli əhalinin istismarı daha da gücləndi. Bu zaman carlılar və vilayətin digər sakinləri dağlıların başçılarından olan Həmzət bəylə əlaqəyə girdilər. Sentyabrın 12-də Həmzət bəy 2 min nəfərlik dəstə ilə Cara daxil oldu və yerli əhali üsyan qaldıraraq ona qoşuldu. Oktyabrın 15-də çar qoşunları ilə üsyançılar arasındakı vuruşmada dağlılar və carlılar qalib gəldilər. Lakin üsyançılar arasındakı fikir ayrılığını görən çar generalları dağlıların başçılarından biri ilə saziş bağlayaraq, onların Zaqatadan getməsinə nail oldular. Həmzət bəy ilə də belə saziş bağlayan rus qoşunu noyabrın 14-də əhalinin mərdliklə müqavimətinə baxmayaraq Cara soxuldu və üsyançılara divan tutmağa başladı. Üsyan başçısı hesab edilən 32 nəfər həbs edildi. 1830 ilin dekabrında başlanan üsyan da məğlub oldu. Üsyanın məğlubiyyətinin əsas səbəbləri onun qeyri-mütəşəkkilliyi və məhdud xarakter daşıması, üsyançılar arasında birliyin olmaması və ayrı-ayrı sosial qruplar arasında ziddiyyətlər idi.

**CAR-BALAKƏN VİLAYƏTİ** – Azərb.-da hərbi-inzibati ərazi vahidi. *Car-Balakən üsyanı (1830)* yatırıldıqdan sonra yaradılmışdır. Mərkəzi Balakən kəndi idi. Şm.-dan Dağıstan, c. və c.-ş.-dən Yelizavetpol, q.-dən Tiflis qub.-ları ilə həmsərhəd idi. C.-B.v.-nin tərkibinə Car, Yenikənd, Tala, Balakən, Dağ mahalları daxil idi. 1830 il martın 4-də C.-B.v.-ni idarəetmə qaydaları nəşr olunmuşdu. Vilayətin idarə heyətinə rəis, Qafqaz baş komandanı tərəfindən təsdiq edilmiş 2 rus məmuru, 6 ağsaqqal və xəzinədar daxil idi. 1840 il aprelin 10-da "Zaqafqaziya diyarının idarəçiliyinin təşkili" adlı sənədə əsasən C.-B.v. Balakən qəzası adlandırılmış və Gürcü-İmeretiya qub.-nın tərkibinə qatılmışdır. 1846 ildə *İlisu sultanlığı* ilə birlikdə Car-Balakən hərbi dairəsinə, 1860 ildə isə *Zaqatala dairəsinə* çevrilmişdi.

**CARCÁN** – RF-də, Saxa (Yakutiya) Resp.-nda çay. Lena çayının sağ qolu. Uz. 352 *km*, hövzəsinin sah. 11400 $km^2$. Orulqan silsiləsinin (Verxoyansk dağlıq ölkəsi) q. yamaclarından başlanır; q.-ə axır. Qarışıq mənbədən qidalanır.

**CARCAR** – bir sıra Yaxın Şərq ölkəsində, o cümlədən Azərb.-da (xüsusilə Naxçıvan ərazisində) qədim k.t. aləti. Uz. 2 *m*, eni 1,5 *m* olan iki paralel qoldan, onları birləşdirən iki taxtadan, habelə iki oxa (çarx) geydirilən ərsinəbənzər dəmir dişlərdən ibarət idi. C.-ın qolları üzərində onu idarə edən üçün oturacaq düzəldilirdi. C.-a bir və ya iki öküz qoşulurdu. Alət hərəkətə gətirildikcə onun hər iki oxu fırlanaraq taxılı döyürdü. C. küləşin samana çevrilməsinədək işlədilir, daha sonra onu *vəl* əvəz edirdi.

**CARCARİS** – İrəvan xanlığının Abaran mahalında (9.9.1930 ildən Abaran, 3.1.1935 ildən Aparan r-nu), Abaran çayının yuxarı axarında azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra kəndin azərb. əhalisi qovulmuş, burada Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir. Sonralar ermənilər kəndi tərk etmiş və 19 əsrin 2-ci yarısında burada yezidi kürdlər məskunlaşmışlar. 25.1.1978 ildə kəndin adı dəyişdirilərək Derek qoyulmuşdur.

**CARCILI** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Bərgəşli kəndistanında, Urmiya ş.-ndən 7 *km* şm.-ş.-dədir.

**CARCUR** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Düzkənd, 7.12.1945 ildən Axuryan r-nu), Arpaçay sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra azərb.-lar kənddən qovulmuş, burada Türkiyədən və İrandan gəlmə ermənilər yerləşdirilmişdir.



Carin-Nur gölü.

**CARÇI** – keçmişdə bəzi Şərq ölkələrində, o cümlədən Azərb.-da, şəhər və böyük kəndlərin müxtəlif məhəllələrində yüksək səslə car çəkərək əhalini mühüm hadisələrdən agah edən, zəruri məsələləri nəzərə çatdıran şəxs. Səfəvilər dövründə mülki və hərbi vəzifə olmuşdur. C.-lar carçıbaşının rəhbərliyi altında fəaliyyət göstərirdilər. Divanda çalışan C.-lar "divan carçıları", hərbi xidmətdə topçubaşının tabeliyində olanlar isə "topxana carçıları" adlanırdı. "Divan carçılarına" vəzir başçılıq edirdi. Nadir şahın dövründə orduda xüsusi C.-lar dəstəsi var idi.

**CARÇI** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Zəncan ş.-ndən 12 *km* şm.-dadır.

**CARÇI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 13 *km* şm.-q.-dədir.

**CARÇILI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Miyandab bölgəsinin Mərhəmətabaq kəndistanında, Miyandab qəs.-ndən 11,5 *km* şm.-q.-dədir.

**CARÇIYEV** Murtuz Zeynal oğlu (15.9.1910, Qazax r-nu, Çaylı k. – 28.10.1985, Qazax ş.) – Sosialist Əməyi Qəhrəmanı (1948). Böyük Vətən müharibəsi iştirakçısı. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ-nin Qırmızı Ulduz, Qırmızı Bayraq ordenləri ilə təltif edilmişdir.



**CARDAM** – Azərb. Resp. Ağdaş r-nunda kənd. Cardam ə.d.-nin mərkəzi. R-n mərkəzindən 14 *km* c.-da, Türyan çayının sahilində, Şirvan düzündədir. Əh. 1390 (2011); əkinçilik, heyvandarlıq və meyvəçiliklə məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**CARDAM** – bax *Heyva*.

**CARHEC**, Carhaç – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasında (9.9.1930 ildən İcevan r-nu), Ağstafa çayının sol sahilində azərb. kəndi. 1918 ildə əhalisi daşnaklar tərəfindən qovulmuş, burada xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. C. sovet dövründə Dilican şəhər sovetliyinin tərkibinə qatılmış, 1940 ildə Kuybışev, 1992 ildə isə yaxınlıqdakı Ağarçin məbədinin adı ilə Ağarçin adlandırılmışdır.

**CARİ TƏMİR** – bax *Təmir*.

**CÁRİNQ**, Kyarinq-So – Çində göl. Tibet yaylasında, dağarası çökəklikdədir. 4708 *m* yüksəklikdə yerləşir. Uz. 65 *km*, eni 15 *km*-ədək, sah. 674 $km^2$-dir. Yaxınlığındakı Sikunq gölünə axını var. Noyabrdan mayadək donmuş olur. Balıqla zəngindir.

**CÁRİN-NUR**, Gyarinq So – Çində, Sinxay əyalətində göl. Kunlun d-rındadır. Butsinşan və Bayan-Xara-Ula silsilələri arasındakı bataqlıq çuxurda, təqr. 4200 *m* yüksəklikdə yerləşir. Sah. təqr. 600 $km^2$, dərinliyi 8 *m*-ədəkdir. Xuanxe çayının yuxarı axını C.-N.-dan keçir.

**CARİYƏ** – keçmişdə Yaxın Şərqin bir sıra ölkəsində, o cümlədən Azərb.-da saraylarda və varlı evlərində xidmət edən qulluqçu, qaravaş, kəniz. Müharibə zamanı əsir düşmüş, yaxud bir hakim tərəfindən digərinə bağışlanmış qızlardan ibarət olan C.-lərə bəzən toxuculuq, tikiş və s. sənətlər də öyrədilirdi. Şəriətə görə, kəbin kəsdirməklə C.-yə evlənmək olardı. C., əsasən, qırx yaşından sonra azad edilirdi.

**CARKUTAN** – Özbəkistan Resp. Surxandərya vil.-nin Şerabad r-nunda Tunc dövrünə aid arxeoloji kompleks (e.ə. 1900–1600 illər). 1973 ildə rus və özbək arxeoloqları (Ş.R. Pidayev, V.N. Pilipko, A.A. Əsgərov) tərəfindən aşkar edilmişdir; özbək və özbək-alman ekspedisiyaları tərəfindən tədqiq olunmuşdur. Şəhər yeri (sah. 4 *ha*), ona bitişik məskən və məzarlıqlar bir neçə təpədə yerləşir. Yaşayış tikililəri massivi, şəhər yerindəki "od məbədi" (bürcləri olan düzbucaqlı divarlarla əhatələnmiş və mərkəzində mehrab yerləşən səki), saray və ona bitişik qala, 1500 dəfn yeri (meyitlər bükülü vəziyyətdə, daha sonrakı dövrlərə aid qəbirlərdə isə yumşaq toxumalardan ayrılmış sümüklər dəfn olunmuşdur) öyrənilmişdir. Tunc alətlər, bəzək əşyaları (o cümlədən başlıqları muflon, qoyun və s. formalarda olan sancaqlar); üzərində həndəsi naxışlar, yaxud heyvan təsvirləri olan tunc, daş, saxsı və gəcdən düzəldilmiş möhürlər; məbəddə antropomorf və zoomorf saxsı heykəlciklər, su quşları formasında qablar, qab qırıqları və səthində cızılmış təsvirlər (quş, qoç, uzunqulaq, ilan, qurbağa, qaban, qamışlıq pişiyi, əqrəb və s.) olan qab altlıqları aşkar olunmuşdur. Şəhər yerində e.ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərində sakinlərin şəhəri tərk etməsi dövrünə aid zibil çalaları var. C. Şimali Bəlx sivilizasiyası ocaqlarından birinin (*Daşlı mədəniyyətinə* bənzər) mərkəzi idi. Məbəd, bəzi qəbirlər və tapıntılar "protozərdüşti" kultla əlaqələndirilir. C.-ın materialları əsasında xronoloji cədvəl işlənib hazırlanmış və Özb.-ın c.-unda Tunc dövrünün Carkutan mərhələsi müəyyənləşdirilmişdir.

**CARLI** – Azərb. Resp. Kürdəmir r-nunda kənd. Carlı ə.d.-nin (Carlı, Quşlar k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 36 *km* c.-da, Kür çayının sol sahilində, Şirvan düzündədir. Əh. 1300 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**CARMO** – İraqın Süleymaniyyə ş. yaxınlığında, Zaqros d-rının q. yamaclarında Erkən Neolit dövrünə (e.ə. 7-ci minilliyin 1-ci yarısı) aid yaşayış məskəni. İraqın qədim tarix üzrə departamenti tərəfindən aşkar edilmişdir. R. *Breydvudun* rəhbərliyi ilə Çikaqo Un-tinin ekspedisiyası burada qazıntılar (1948, 1950–51, 1954–55) aparmışdır. Breydvud C. materialları əsasında ilk dəfə Neolit inqilabı prosesini tədqiq etmiş və Yaxın Şərqdə istehsal təsərrüfatının meydana gəlməsi mərkəzlərindən biri olan Zaqros mədəni birliyi haqqında fərziyyə irəli sürmüşdür.

Sah. təqr. 1,3 *ha* olan *təlldə* 6-dan 16-yadək mədəni təbəqə aşkar edilmişdir. Məskəndə eyni vaxtda 25-ə qədər ev olmuşdur. Çox zaman iri çaydaşından ibarət bünövrə üstündə tikilən divarlar gillə bərkidilmiş yastı saman kərpiclərdən hörülürdü. 5-ci təbəqədə digər evlərdən aralı yerləşən ev 10 $m^2$ sah. olan yaşayış otağından və bir neçə təsərrüfat tikilisindən ibarət idi. Tikililərin birində bacası olan dairəvi tağlı soba yerləşirdi. Nukleuslar, bıçaqvarı lövhələr, çaxmaqdaşı və dəvəgözüdən (obsidian) həndəsi formalarda çoxsaylı mikrolitlər (o cümlədən, üst təbəqələr üçün səciyyəvi olan qurşaqdırma alətlərin içlikləri), bazalt dəndaşılar, toxmaqlar, oxranın əzilməsi üçün paletkalar aşkar olunmuşdur. Yarımkürəvi daş kasalar, yastı oturacaqlı qədəhlər və yastı piyalələr səciyyəvidir. Keramika yalnız 5 üst təbəqədə tapılmışdır: küplər, dərin kasalar, şaquli istiqamətdə yapma qulpları olan qədəhlər; gildə saman qatışığı var. Çoxu cilalı olan xörək qablarının üst hissəsi xurmayı naxışlarla – çəpinə vurulmuş cızıqlar, yaxud dalğavarı xətlər və nöqtələrlə, içi tor şəklində olan romblarla bəzədilmişdir; mətbəx qablarının ağzında yapmalar vardır. Daş alətlərin sümük saplaqları, iynələr, hamarlayıcı daşlar və s. aşkar edilmişdir. Mərmərəbənzər daşdan düzəldilmiş qolbaqlar novcuq, çəp, yaxud spiralvarı çərtmələrlə bəzədilmişdir; muncuqlar daşdan, sümükdən və gildən hazırlanmışdır. Gildən düzəldilmiş qaçan heyvan heykəlcikləri; olduqca dəqiq işlənilmiş qadın heykəlciklərində bəzən sifətlər və saç düzümləri də təsvir olunurdu. Təsərrüfatın əsasını əkinçilik (buğda, arpa), yığıcılıq (yabanı noxud, mərci, püstə, palıd qozası) və heyvandarlıq (davar, donuz) təşkil edirdi; it əhliləşdirilmişdi.



Carmo. Dəvəgözüdən (obsidian) düzəldilmiş tiyələr. E.ə. 7-ci minillik.

**CARO,** carov qoyunu – Azərb.-da yetişdirilən qabayunlu aborigen cins. Resp.-nın c.-ş.-indəki dağ r-nlarının meşə otlaqlarına yaxşı uyğunlaşmış yağlıquyruq qoyunlardır. Rəngi müxtəlifdir. Əsasən, ağ və ya tünd-qara, həmçinin açıq-boz, gümüşü, kürən, ala-bula olur. Eksteryerinə görə ləzgi qoyunlarına çox oxşardır. Təmizqanlıdır. Kütləsi 18–20 *kq*, quyruğunun kütləsi 2–4 *kq*-dır. Laktasiya ərzində 50–60 *l* süd verir. İldə iki dəfə qırxılır. Yun qırxımı qoçlarda 2,8–3 *kq*, ana qoyunlarda 2,4 *kq* olur.



Caro qoyunu.

**CASE** [C(omputer)-A(ided) S(oftware/System) E(ngineering) – kompüter vasitəsilə proqram təminatının/sisteminin yaradılması)] – informasiya sistemlərinin yaradılmasının avtomatlaşdırılması sistemi. C. sisteminə informasiya sisteminin yaradılması və müşayiət edilməsi proseslərini dəstəkləyən proqram vasitələri daxildir. C. informasiya sisteminin yaradılmasında aşağıdakı proseslərin avtomatlaşdırılmasını təmin edir: sistemə verilən sifarişin təhlili və tələblərin formalaşdırılması; verilənlər bazasının və tətbiqlərin layihələndirilməsi; proqram kodunun generasiyası; testləmə; keyfiyyətin təmini; konfiqurasiyanın və layihənin idarə olunması. Müxtəlif təyinatlı C. vasitələrinin ümumi sayı 500-dən artıqdır. C. sisteminin və vasitələrinin əsas məqsədi proqram təminatının layihələndirilməsini onun kodlaşdırılmasından və sonrakı mərhələlərdən (testləmə, sənədləşdirmə və s.) ayırmaq, həmçinin proqram məhsulunun hazırlanmasının bütün proseslərini avtomatlaşdırmaqdır. Müasir C. sistemlər, informasiya sistemlərinin yaradılması ilə yanaşı, onun təkrar hazırlanmasını da təmin edir. Bu isə tətbiqi proqramların hazırlanmasını sürətləndirir və onların keyfiyyətini artırır. C. vasitələri içərisində ən yüksək tələb proqram generatorlarına qoyulur.

*Əd.:* Kərimov S.Q., İnformasiya sistemləri. B., 2008.

**CÁSPER MİLLİ PARKI** – Kanadanın q.-ində, Albert əyalətindədir. Sah. təqr. 1,1 mln. *ha*. 1907 ildə Atabaska çayının yuxarı axınında, Qayalı dağların iynəyarpaqlı meşələrlə və Alp çəmənləri ilə örtülü ş. yamaclarında (3747 *m*-ədək yüksəlikdə) yaradılmışdır; buzlaqlar var. Heyvanlardan qara və qonur ayı (qrizli), maral, dələ, vaşaq, puma, qar qoyunu; təqr. 200 növ quş məskunlaşmışdır. Parkı gəzmək üçün təqr. 1000 *km* piyada marşrutu salınmışdır. Banf, Yoxo və Kuteney milli parkları ilə birləşərək vahid kompleks əmələ gətirir.

**CASUSLUQ** – dövlət sirrini, hərbi sirri və s. məxfi məlumatları digər dövlətə vermək məqsədilə yığmaq və oğurlamaqdan ibarət fəaliyyət. Bütün ölkələrin qanunvericiliyində C. təqib edilir. Azərb. Resp. Cinayət Məcəlləsində C. dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə cinayət növü kimi təsbit olunmuşdur (m. 276).

**CAŞİRAN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Əşnəviyə bölgəsinin Ətraf kəndistanında, Əşnəviyə qəs.-ndən 17 *km* c.-ş.-dədir.

**CATA** – Kalimantan a.-nda məskunlaşan nqacuların əsatirlərində ilanabənzər qadın ilahə. O, əzəlidir, sualtı dünyanın dərinliklərində yaşayır. C.-nın təbəələri alt dünyada antropomorf quruluşa malik olsalar da, orta dünyaya (Yerə) qalxarkən timsaha çevrilirlər. *Mahatalanın* yaratdığı Yer Dünya okeanında C.-nın quyruğu ilə başı arasında yerləşir və onun hürgücünə söykənir. Digər versiyalara görə, C. Yerə dolanaraq öz quyruğunu dişləyir. Mahatala ilə ambivalent vəhdət təşkil edən C. nqacuların tətbiqi sənətində müxtəlif şəkildə təsvir olunur.

**CÁTAKA** (sanskrit və pali dillərində hərfi mənası – doğulma, yaxud doğulmaya aid) – buddist ədəbiyyatında *Budda Şakyamuninin* əvvəlki doğulmalarından bəhs edən əsər. C.-lar arasında buddist təlimini vəz etmək üçün uyğunlaşdırılmış nağıllar, təmsillər və əfsanələr də vardır. Pali kanonunda 500-dən artıq C. qorunub saxlanmışdır. Sanskrit dilində ədəbi işlənilmiş ən məşhur C. Aryaşuranın (4 əsrdə yaşadığı ehtimal olunur) "Cataka-mala"sıdır. Hind C.-larının tərcümələri və yenidən işlənilmiş variantları Çin, Tibet, monqol və digər Asiya xalqları dillərində mövcuddur; C. süjetləri təsviri sənətə böyük təsir göstərmişdir. Avropada C.-lar 19 əsrdən öyrənilir və tərcümə edilir.

**CATLAR,** catilər (sanskritcə kasta, qəbilə, tayfa) – eramızın əvvəllərində Pəncabın q. r-nlarında və Şimali Hindistanda məskunlaşmış iri tayfa qrupu. Ümumi sayları bir neçə mln. nəfərdir. Pəncab dilində (dialektləri catki-hindi, hindki və s.) danışırlar, urdu dili də yayılmışdır. Dindarları Pakistanda müsəlmandır, Hindistanda isə *siqhizmin* ardıcıllarıdır; hinduistlər də var.

Eramızın əvvəllərində C.-ın əcdadlarının maldar tayfaları Pəncabın q. r-nlarında məskunlaşmışlar. Sonralar Şimali Hindistanda yayılmış C. *pəncablıların* etnik əsasını təşkil etmiş və *siqhlərin* icmasına daxil olmuşlar. Hindistanda C.-ın əksəriyyəti eyniadlı əkinçi kastaya çevrildi. Orta əsrlərdə Böyük Moğollarla davamlı müharibələr aparan C. müstəqil dövlətlərini qurmuşlar. 1849 ildə bu dövlət ingilis müstəmləkəçiləri tərəfindən zəbt edilmişdir.

Əsas məşğuliyyətləri xış əkinçiliyi və maldarlıqdır. Nikahları monoqam və patrilokaldır. Qohumluq ata xətti ilə hesablanır. Yastı damlı ənənəvi evləri təsərrüfat tikililəri ilə birlikdə saman və kərpicdən hörülmüşdür. Kişilər uzun, enli köynək (bəzən köynək və çiyinlik), şalvar, *dhoti*, yaxud lungi geyinirlər. Baş geyimləri *çalmadır*. Qadınlar büzməli uzun yubka (çox vaxt şalvarla əvəz olunur), uzun enli kofta, şal, şəhərli qadınlar sari və şalvarla kofta geyinirlər.

**CÁTRA** (sanskritcə hərəkət, səfər, səyahət, təntənəli nümayiş, bayram; sonralar – tamaşa) – xalq tamaşasının qədim növü, musiqi, nəğmə, rəqs və oyunlarla müşayiət olunan kütləvi gəzintilər. 1-ci minilliyin sonu – 2-ci minilliyin əvvəlində yaranmışdır; ən çox Hindistanın şm.-ş.-ində və Nepalda yayılmışdır. C., əsasən, kortəbii, hər hansı ailə, icma şənlikləri və yaxud dini bayramlar zamanı təşkil olunur. Müxtəlif yerlərdə və istənilən vaxtlarda (məs., axşam vaxtı kəndin ortasında tonqal ətrafında) keçirilə, müxtəlif miqyasda (lokal-etnikdən ümummilliyədək) ola bilər. C. Benqaliya və Orissada 15–16 əsrlərdə musiqili rəqs dramının (catraqan) mifoloji süjetləri əsasında teatrlaşdırılmış tamaşa kimi yaranmışdır. Açıq havada, şüvüllər üzərinə tarım çəkilmiş böyük örtük (aktyorlar və tamaşaçılar üçün) altında oynanılır. 18 əsrin sonlarından repertuarı xeyli genişlənmiş, ənənəvi C. sənəti tədricən peşəkar sənətə çevrilmişdir.

**CAUNPUR SULTANLIĞI** – Şimali Hindistanda Dehli ilə Benqal sultanlıqları arasında müsəlman dövləti (1394–1479). Qərbdə Aliqarhdan tutmuş ş.-də Şimali Bihara qədər olan əraziləri əhatə edirdi. *Dehli sultanlığının* dağılması nəticəsində yaranmışdır. Əsası Tüğlagilərin son nümayəndəsi II Mahmud şahın vəziri Məlik Sərvər (sonralar Məlik üş-Şark) tərəfindən qoyulmuşdur. Şarkilər sülaləsinin görkəmli nümayəndələri İbrahim şah [1402–36] və Mahmud şahdır [1436–58]. Hindistanın digər dövlət və sultanlıqları ilə, o cümlədən Dehli, Malva, Orissa

Casper Milli Parkı (Kanada).



və Benqaliya ilə aramsız müharibələr aparmışdır; çox vaxt hücum edən tərəf olmuşdur. Bununla belə 1479 ildə Dehli sultanı *Bəhlul Lodi* Hüseyn şah Şarkini [1458–79] məğlub etmiş və C.s. yenidən Dehli sultanlığına qatılmışdır (1479). C.s. Şimali Hindistanda islam incəsənəti və elminin mərkəzi olmuşdur.

**CAUZCAN** – Əfqanıstanın şm.-ında əyalət. Sah. 11,8 min $km^2$. Əh. 512 min (2012). İnz. m. Şibirqan ş.-dir.

**CAVABDEH** – məhkəmədə baxılan mülki iş, yaxud iqtisad məhkəməsində baxılan təsərrüfat mübahisəsi tərəflərindən biri. C. iddia tələbinə görə işə cəlb olunur. Vətəndaşlar, hüquqi şəxs hüququndan istifadə edən müəssisə, təşkilat, idarə C. ola bilər. İqtisad məhkəməsində isə yalnız hüquqi şəxslər C.-dir.

**CAVABVERİCİ** – bax *Avtomatik cavabverən*.

**CAVAD** – Azərb.-da tarixi şəhər. Mənbələrdə 16 əsrdən qeyd olunur. Kür və Araz çayları qovşağında yerləşirdi. Şirvan bəylərbəyiliyinin əsas şəhərlərindən birinə çevrilən C.-da sənətkarlıq və ticarət inkişaf etmişdi. Səfəvi-Osmanlı müharibələri dövründə C. osmanlılar tərəfindən işğal edilmişdi. 1606/07 ildə osmanlılar Səfəvilərin Şirvana daxil olmalarının qarşısını almaq məqsədilə C. barəsini dağıtmışdılar. C. 18 əsrin ortalarından *Cavad xanlığının* mərkəzi idi. Azərb.-ın və İranın bir sıra şəhərləri ilə ticarət əlaqələri saxlayan C. 1768 ildə Quba xanlığına tabe edildi. Şimali Azərb.-ın Rusiya tərəfindən işğalından sonra çarizmin köçürmə siyasəti ilə əlaqədar C.-a xeyli rus əhalisi köçürüldü və o, 1888 ildən Petropavlovka adlandırıldı. Sovet hakimiyyəti dövründə C.-a M.Ə. *Sabirin* şərəfinə Sabirabad adı verildi.

**CAVAD** – Azərb. Resp. Sabirabad r-nunda kənd. Cavad ə.d.-nin (Cavad, Əlicanlı, Həsənli, Zəngənə k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 4 *km* şm.-da, Kür çayının sahilində, Şirvan düzündədir. Əh. 3540 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. 2 tam orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**CAVAD HASARI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Miyandab bölgəsinin Mərhəmətabad kəndistanında, Miyandab qəs.-ndən 18 *km* şm.-q.-dədir.

**CAVAD HEYƏT** (Cavad M i r z ə l i o ğ l u; 24.5.1925, Təbriz – 12.8. 2014, Bakı) – Azərb. həkim-cərrahı, türkoloq, publisist. Beynəlxalq Cərrahlar Cəmiyyəti İdarə Heyətinin (1963) və Paris Beynəlxalq Cərrahlıq Akademiyasının (1983) üzvü. 1941–52 illərdə Tehran, İstanbul və Paris un-tlərində tibb təhsili almış, türk, fars, ingilis və s. dilləri mükəmməl öyrənmişdir. Tehran Azad İslam Un-tinin Cərrahiyyə kafedrasının müdiri və prof.-u (1988) olmuşdur. İranda eksperimental cərrahiyyənin əsasını qoymuş, ilk dəfə açıq ürək (1962), transplantasiya əməliyyatlarını həyata keçirmişdir. Tehranda fars dilində "Daneşe-pezeşki" ("Tibb elmi") adlı jurnal dərc etdirmişdir (1963–75). Cərrahiyyəyə dair kitabları var.



Dil və ədəbiyyat sahəsində tədqiqatları Azərb. dilinin tərəqqisi və inkişafı, ədəbi dil ilə xalq danışıq dilinin bir-birinə qarşılıqlı təsiri, türk dili və onun ləhcələri, Azərb. şifahi xalq ədəbiyyatının araşdırılması, ədəbiyyatşünaslıq və s. məsələlərə həsr edilmişdir. Tehranda Azərb. və fars dillərində *"Varlıq"* ədəbi jurnalını təsis etmişdir (1979). Türkologiyaya dair yeddi cildlik əsər yazmışdır. Elmi araşdırmaları Azərb., Türkiyə, İran və Amerika mətbuatında vaxtaşırı çap edilmişdir. Xarici ölkələrdə keçirilən ədəbiyyat toplantılarında, türkoloji konqres və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Türk Dil Qurumunun (Türkiyə) fəxri sədri, Azərb.-ın müxtəlif un-tlərinin fəxri doktoru və prof.-u olmuşdur.

Ə s ə r l ə r i: Azərbaycan ədəbiyyat tarixinə bir baxış. B., 1980; Türk dili və ləhcələrinin tarixinə bir baxış. B., 1987; Azərbaycan şifahi xalq ədəbiyyatı. B., 1988; İki dilin müqayisəsi. B., 1989; Türklərin tarix və mədəniyyətinə bir baxış. B., 1993.

**CAVAD XAN** (? – 3.1.1804, Gəncə) – Gəncə xanı [1787–1804], Ziyadoğluları nəslindən idi. C.x. müstəqil siyasət yeridərək Gəncə xanlığının Gürcüstandan nominal asılılığına son qoydu, Qazax, Borçalı, Şəmşəddil, Şəmkir və s. yerlər Gəncə xanlığına daxil edildi. C.x. Qarabağ xanlığı və Kartli-Kaxeti ilə uzun müddət mübarizə aparmışdır. C.x. Ağa Məhəmməd şah Qacarın Tiflisə hücumunda (1795) iştirak etmişdi. Ağa Məhəmməd şah Qacar geri çəkildikdən sonra Qarabağ hakimi İbrahimxəlil xan II İrakli ilə birlikdə hücum edib Gəncəni mühasirəyə aldı. C.x.-dan on min manat bac və girov alan İbrahimxəlil xan geri çəkildi. Az sonra II İrakli yenidən Gəncəyə hücum etdi. C.x. 400 gürcü əsirini geri qaytarmaq şərti ilə II İrakli ilə münaqişəni aradan qaldırdı. 1796 ildə C.x. Rusiyanın himayəsinə keçmək məqsədi ilə Cənubi Qafqazdakı rus qoşunlarının komandanı gen. V. Zubova müraciət etdi. Oktyabrın 21-də gen. Rimski-Korsakovun başçılıq etdiyi dəstə Gəncəyə daxil oldu. Lakin az sonra rus qoşunu Azərb.-dan geri çağırıldı. İbrahimxəlil xan və Şəki hakimi Səlim xanla saziş bağlayan II İrakli C.x.-ı devirərək yerinə Şəmşəddildən olan Əli Sultanı hakimiyyətə gətirməyi qərara aldı. Lakin Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza yürüşü (1797) xəbərini eşidən müttəfiqlər geri çəkildi. Rusiyaya müraciət etdiyinə



görə cəzalandırılacağından ehtiyat edib üzrxahlıq üçün Şuşaya şahın yanına gələn C.x. zindana salındı. Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra C.x. yenidən Gəncəyə qayıtdı.

Gürcüstan Rusiyaya birləşdikdə (1801) C.x. oğlu Hüseynqulu ağanın başçılığı ilə Şəmşəddilə qoşun göndərib 29 kəndi Gəncə xanlığı ərazisinə qatdı. Rusiya C.x.-a narazılığını bildirdi və Şəmşəddildən əl çəkməsini tələb etdi. C.x. bu tələbi rədd etdikdə gen.-m. O. Lazarevin başçılığı ilə Gəncəyə qoşun göndərildi. C.x. Rusiya və Gürcüstanla dostluq əlaqəsini saxlamaq əzmində olduğunu bildirdi və Lazarevdən rus qoşunlarının Şəmşəddildən çıxarılmasını tələb etdi. 1803 ilin noyabrında gen. P.D. Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. Əvvəlcə dinc yolla Gəncəni ələ keçirməyə cəhd göstərən Sisianov C.x.-a hədələyici məktublar yazaraq qalanın təslim olunmasını tələb etdi. Lakin bu tələbi rədd edən C.x. ona ciddi müqavimət göstərdi. Çar qoşunlarının qəti





hücumu zamanı C.x. və onun oğlu Hüseynqulu ağa döyüşdə həlak oldular. Onlar Gəncədəki Şah Abbas məscidinin həyətində dəfn edildilər.

**CAVAD XANLIĞI** – 18 əsrin ortalarında Azərb.-da yaranmış kiçik dövlət. Şamaxı, Talış, Qaradağ və Qarabağ xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Cavad ş. olmuşdur. Əhalisi, əsasən, əkinçilik və maldarlıqla məşğul olan C.x.-nda süni suvarma inkişaf etmişdi. Xanlığın əsasını şahsevən tayfasından olan Həsən xan qoymuşdu. Qonşu xanlıqlara nisbətən hərbi-inzibati cəhətdən zəif olan C.x. 1768 ildə Quba xanlığının vassallığına çevrildi. Azərb. torpaqlarını Quba xanlığı ətrafında birləşdirməyə çalışan Fətəli xanın hərbi-siyasi tədbirlərində C.x. da silahlı dəstəsi ilə iştirak edirdi (məs., Qarabağa və Ərdəbilə hərbi yürüşlər və s.). 1778 ilin aprelində Gilanlı Hidayət xan C.x.-na soxuldu. Qaraqaytaq usmisi Əmir Həmzə ilə mübarizə aparan Fətəli xan C.x.-na kömək göstərə bilmədi. Lakin Fətəli xandan ehtiyat edən Hidayət xan geri çəkildi. Sonralar C.x. tamamilə Quba xanlığından asılı vəziyyətə düşdü. C.x.-nın ərazisi Gülüstan müqaviləsinə (1813) əsasən Quba xanlığının tərkibində Rusiyaya birləşdirildi.

**CAVAD QƏZASI** – Şimali Azərb.-ın Rusiya imperiyasının hakimiyyəti altında olduğu dövrdə təşkil edilmiş inz. ə. v. Rus çarı II Aleksandrın [1855–81] Zaqafqaziya və Qafqaz diyarının idarəçiliyinin dəyişdirilməsi haqqında 1867 il 9 dekabr tarixli fərmanına əsasən yaradılmışdır. Mərkəzi Salyan şəhəri idi. Bakı qub.-nın ən iri qəzası olmuşdur. 1870 il məlumatına görə, ərazisi 9837,5 *kv. verst* idi. Bu, quberniya ərazisinin 28,69%-ni təşkil edirdi. 1859–63 illər kameral təsvirinin yekunları əsasında aparılmış hesablamaya görə, C.q.-nda 13142 həyət, 60966 nəfər əhali var idi. 19 əsrin 70-ci illərində çar hökumətinin köçürmə siyasəti nəticəsində C.q.-nda yeni rus yaşayış məntəqəsi – Novo-İvanovka k. meydana gəldi. 1900 ildə burada rus kəndlərinin sayı dördə çatmışdı. Rus yaşayış məntəqələrinin sakinləri ilə yerli icmalar və yaxud sahibkarlar arasında torpaq sahələrinin yeni məntəqələrə verilməsi üstündə mübahisələr baş verirdi. 20 əsrin əvvəllərində C.q.-nda pambıqçılıq inkişaf edirdi. Qafqaz təqviminin (1917) məlumatına görə, C.q.-nın ərazisi 8396,97 *kv. verst* (1870 ilə nisbətən 1441,5 *kv. verst* az), əhalinin sayı isə 162305 nəfər idi. Qəzada çar üsuli-idarəsinə qarşı çıxışlar baş vermişdi. Bolşeviklər Bakıda hakimiyyəti ələ aldıqdan sonra Bakı quberniya komissarı M. Əzizbəyov başda olmaqla, qırmızı ordunun 240 nəfərlik dəstəsi Bakıdan Salyana gəlmiş və 1918 il aprelin 21-də Salyanda sovet hakimiyyəti qurmuşdu. Aprelin sonlarında sovet hakimiyyəti hərbi qüvvənin tətbiqi ilə bütün qəzaya yayılmışdı. Bakı türk-Azərbaycan qüvvələri tərəfindən azad olunduqdan sonra (1918, 15 sentyabr) C.q.-nda Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti bərqərar edildi. *Aprel işğalından (1920)* sonra Azərbaycan SSR yaradıldıqda C.q. yenidən sovetləşdirildi. Azərb. SSR-in rayonlaşdırılması zamanı (1929) Cavad (Salyan) qəzası ləğv edildi.

**CAVADXAN STRUKTURU** – Yevlax-Ağcabədi çökəkliyi neftli-qazlı r-nunda, Muradxanlı neft yatağından 18–20 *km* c.-ş.-də neftli-qazlı struktur. Hacıqasımlı qalxımı ilə vahid qırışıqlıq sistemi yaradır. Struktur Üst Təbaşirin səthinə görə ("P" seysmik horizontu) c.-q.–şm.-ş. istiqamətində uzanan asimmetrik antiklinaldan ibarətdir; ölçüləri 3,5x2,5 *km*-dir; Orta Eosen üzrə bu ölçülər 2,5x1,4 *km* təşkil edir. Üst Eosen çöküntülərinə görə C.s. çıxıntıya çevrilir. Sahənin neft-qazlılıq perspektivliyi Orta Eosen və Üst Təbaşir çöküntüləri ilə əlaqələndirilir.

**CAVADXANLI** – Azərb. Resp. İmişli r-nunun Qaralar ə.d.-ndə kənd. R-n mərkəzindən 8 *km* şm.-ş.-də, Mil düzündədir. Əh. 1179 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb var.

**CAVADLAR** – Azərb. Resp. Xocalı r-nunun Kosalar ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* c.-q.-də, Qarabağ silsiləsinin şm.-ş. yamacındadır. Əh. 225 (2011); işğaldan (1992, fevral) əvvəl əkinçilik, arıçılıq və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, 2 kitabxana, klub, feldşer-mama məntəqəsi var idi.

**CAVADLI** Zeynəb Bəhmən qızı (d.19.7. 1991, Bakı) – Azərb. idmançısı. Gimnastika üzrə Avropa çempionatının gümüş (2009, Azərbaycan), dünya çempionatının komanda hesabında bürünc (2009, Yaponiya) mükafatçısıdır.

**CAVADOV** Ağahüseyn Xəlil oğlu (22.4.1894, Bakı yaxınlığındakı Xırdalan k. – 20.7.1981, Bakı) – Azərb. aktyoru. Azərb. SSR. xalq artisti (1938). Səhnə fəaliyyətinə 1920 ildən başlamış, Bakı Azad Tənqid-Təbliğ Teatrında (1921–33), Gəncə Dram Teatrında (1933–38) çıxış etmişdir. 1938–42 illərdə Azərb. Musiqili Komediya Teatrının səhnəsində Məşədi İbad, Soltan bəy ("O olmasın, bu olsun", "Arşın mal alan", Ü. Hacıbəyli), Kəblə Hüseynəli ("Beş manatlıq gəlin", S.Rüstəmov), Uzun ("Toy kimindir?", A. Məşədibəyov) və s. rolları oynamışdır. 1942 ildən Azərb. Dövlət Dram Teatrının aktyoru olmuş, dəmirçi Musa, Bərbərzadə, Mirzə Salman ("Toy", "Xoşbəxtlər", "Nişanlı qız", S. Rəhman), Ocaqqulu, Həmzə, İmamverdi ("Almaz", "Solğun çiçəklər", "1905-ci ildə", C. Cabbarlı) və s. yaddaqalan obrazları yaratmışdır. Platon ("Şeyx Sənan", H. Cavid), Qənimət ("Cavanşir", M. Hüseyn), Luka Lukiç ("Müfəttiş", N. Qoqol), Brabansio ("Otello", U. Şekspir) və s. rollarda çıxış etmişdir. C.-un yaratdığı obrazlar orijinallığı, güclü milli koloriti, komizmi, bədii ifadəliliyi və emosionallığı ilə fərqlənmişdir. "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi bir sıra filmlərdə ("Bəxtiyar", 1955, rej. L. Səfərov; "Görüş", 1955, rej. T. Tağızadə; "O olmasın, bu olsun", 1956, rej. H. Seyidzadə; "Əhməd haradadır?", 1963, rej. A. İsgəndərov; "Şərikli çörək", 1969, rej. Ş. Mahmudbəyov və s.) çəkilmişdir.





A. Cavadov "Şərikli çörək" filmində İsmayıl baba rolunda.

*Əd.:* A d i l B. Ağahüseyn Cavadov. B., 1976.

**CAVADOV** Cəlil Məmmədəli oğlu (15.8.1916, Bakı – 6.2.1980, Bakı) – Azərb. hərbi xadimi, kontr-admiral (1968). 1935–36 illərdə "Azərqaz" trestində işləmişdir. Moskva Kimya-Texnologiya İn-tuna daxil olmuş (1936), 1937 ildən sovet ordusunda xidmət etmişdir. Qara dəniz Ali Hərbi Dənizçilik Məktəbini bitirmişdir (Sevastopol, 1941). Böyük Vətən müharibəsi (1941–45) döv-



ründə Sevastopol, Qafqaz və Sovet Zapolyaryesinin müdafiəsində Dunay, Qara dəniz, Şimal Hərbi Donanmalarının tərkibində alman faşistlərinə qarşı döyüşlərdə iştirak etmişdir. Müharibədən sonra Xəzər Hərbi-Dəniz Donanmasında xidmət etmişdir. 1949 ildən Azərb. SSR Orduya, Aviasiyaya və Donanmaya Könüllü Yardım Cəmiyyəti (OADKYC) sistemində müxtəlif vəzifələrdə çalışmışdır. 1954 ildən OADKYC Resp. MK-nın sədri olmuşdur. 1971 ildə ehtiyata çıxmış və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında iştirak etmişdir. 2 Qırmızı Ulduz ordeni və medallarla təltif olunmuşdur.

**CAVADOV** Əbdülağa Əbdüləli oğlu (d. 28.4.1920, Bakının Zirə k.) – Azərb. geoloqu, geologiya-mineralogiya e.d. (1970), prof. (1978). 1954 ildə Azərb. Sənaye İn-tunu (indiki ADNA) bitirmişdir. "Balaxanıneft" NQÇİ-də geoloq, böyük geoloq (1954–64), "Qaradağneft" NQÇİ-də baş geoloq (1964–74), SOKAR-ın Neft-Qaz Elmi Tədqiqat Layihə İn-tunda laboratoriya müdiri (1974–78), Azərb. Neft və Kimya İn-tunda müəllim, "Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" fakültəsinin dekanı (1978–86) vəzifələrində çalışmışdır. Tədqiqatları Cənub-Qərbi Abşeronun geologiyası və Məhsuldar qatın alt şöbəsinin neft-qazlılığına həsr olunmuşdur. 120-dən çox elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. "Vətən müharibəsi" (I və II dərəcəli), "Qırmızı Ulduz" ordenləri ilə təltif olunmuşdur.

**CAVADOV** Fəxrəddin Gülmirzə oğlu (20.4.1951, Bakı, Buzovna qəs. – 9.1. 2009, Bakı) – Azərb. tibb alimi, tibb e.d. (2008), Azərb. Resp.-nın əməkdar həkimi (2006). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1974). Bakı ş.-də həkim (1974–78), Azərb. Dövlət Tibb İn-tunun urologiya kafedrasında assistent (1978–86), Azərb. KP Mərkəzi Komitəsinin elm və təhsil, iqtsadi-sosial şöbələrində məsul vəzifələrdə (1986–90), Azərb. Resp. səhiyyə nazirinin birinci müavini (1990–96), Ə.Əliyev ad. Azərb. Dövlət Həkimləri Təkmilləşdirmə İn-tunun prorektoru (1998–2000), Azərb. Resp. Dövlət Neft Şirkətinin Mərkəzi Neftçilər Xəstəxanasının baş həkimi (2000–2009) işləmişdir. Tədqiqatları urologiyanın aktual problemlərinə və səhiyyənin təşkili məsələlərinə həsr edilmişdir.

**CAVADOV** Fuad Musa oğlu (d.10.2. 1957, Gədəbəy r-nu, Mutudərə k.) – Azərb. hüquqşünası, hüquq e. d. (2001), prof. (2010). Azərb. Dövlət Un-tini bitirmişdir (1979). AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İn-tunda elmi işçi olmuş, hüquq-mühafizə, ədliyyə və icra orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır. 3-cü dərəcəli dövlət ədliyyə müşaviridir. 1996 ildən Azərb. Elmi Tədqiqat Məhkəmə Ekspertizası İt-tunun direktoru, 1998 ildən Mərkəzi Seçki Komissiyasının, 2006 ildən Azərbaycan–Avropa işçi qrupunun üzvü, 2008 ildən Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası mərkəzinin rəisidir. Bir sıra kitab və metodik vəsaitin müəllifidir.

**CAVADOV** Hüseyn Ağabala oğlu (30.12.1905, Bakı – 13.12.1979, Bakı) – Sosialist Əməyi Qəhrəmanı (1948). Bakının Oktyabr r-nu Zəhmətkeş Deputatları Sovetinin sədri, Qazax və Lənkəran rayon partiya komitələrinin birinci katibi işləmişdir (1928–40). Böyük Vətən müharibəsində (1941–45) Cənub cəbhəsi siyasi idarəsinin təlimatçısı, 77-ci və 212-ci atıcı diviziyaları siyasi şöbəsinin rəisi olmuşdur. 1946 ildə orudan buraxıldıqdan sonra AKP Qazax rayon komitəsinin birinci katibi seçilmişdir. 1948–67 illərdə Azərb. SSR Daxili İşlər Nazirliyi orqanlarında məsul vəzifələrdə çalışmışdır. 3-cü dərəcəli milis komissarı olan C. 1967 ildə istefaya çıxmışdır. Azərb. SSR Ali Sovetinin (1–3-cü çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və medallarla təltif edilmişdir.



**CAVADOV** Qəmərşah Cəllad oğlu (23.2. 1938, Quba r-nunun Aydınkənd k. – 27.4.2005, Bakı) – Azərb. etnoqrafı, tarix e. d. (1990), prof. (1999). Azərb. Dövlət Un-tini bitirmişdir (1961). Azərb. EA-nın Tarix İn-tunda kiçik elmi işçi (1967–74), baş elmi işçi (1974–92) və Milli Münasibətlər İn-tunda şöbə müdiri (1992–2002), AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İn-tunda aparıcı elmi işçi (2002–04), M.Füzuli ad. Əlyazmalar İn-tunda aparıcı və baş elmi işçi (2004 ildən) vəzifələrində çalışmışdır. 200-dən çox elmi əsərin, o cümlədən bir neçə monoqrafiya və kitabın müəllifidir.

Əsərləri: XIX və XX əsrin əvvəllərində Azərbaycanın əkinçilik alətləri. B., 1979; Народная земледельческая техника Азербайджана. Б., 1989; Azərbaycanda el köməyi adətləri. B., 1993.

**CAVADOV** Qulam Məhərrəm oğlu (d.4.12.1930, Bərdə r.-nunun, Mustafaağalı k. – 11.7.1993, həmin k.) – Azərb. SSR əməkdar pambıq ustası. Sosialist Əməyi Qəhrəmanı (1971). 1944–70 illərdə Bərdə r-nundakı kolxozlarda kolxozçu, briqadir, 1971 ildən kolxoz sədri vəzifəsində işləmişdir. 1970 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinə deputat (6, 7-ci çağırış) seçilmişdir. 2 dəfə Lenin ordeni və medallarla təltif edilmişdir.

**CAVADOV** Maqsud Əlisimran oğlu (13.4.1902, İsmayıllı r-nunun Basqal k. – 25.5.1972, Bakı) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1957), prof. (1959). Azərb. SSR EA m. üzvü (1962). Azərb. SSR əməkdar elm xadimi (1962). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1930). Azərb. Dövlət Un-tinin prorektoru (1944–52) və həndəsə kafedrasının müdiri (1938–72) olmuşdur. Tədqiqatları koordinat nöqtələri cəbrin elementləri olan müxtəlif fəzalara, bimetrik sistem nəzəriyyəsinin müxtəlif həndəsi məsələlərə tətbiqinə, alternionlar cəbri, həqiqi, kompleks və ikiqat matrislər cəbrləri üzərində afin, proyektiv və qeyri-Evklid fəzalarının qurulmasına və həqiqi həndəsələrə tətbiqinin öyrənilməsinə aiddir. "Azərbaycanda riyaziyyat elminin inkişafı tarixi" kitabının müəllifidir (Ə.İ. Hüseynovla birlikdə, B., 1962). Elmi kadrların hazırlanmasında xidməti var. Lenin ordeni, 2 Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.



Əsəri: Vektor hesabı. B., 1972.

**CAVADOV** Mayis Həbib oğlu (22.3. 1929, İsmayıllı r-nunun Basqal k. – 27.10.1992, Bakı) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1966), prof. (1969), Azərb. SSR EA m. üzvü (1980), Azərb. Resp. əməkdar elm xadimi (1981). Azərb. Dövlət Un-tini bitirmişdir (1952). Azərb. SSR EA Riyaziyyat və Mexanika İn-tunda şöbə müdiri işləmişdir (1967–69). 1970–92 illərdə Azərb. Dövlət Pedaqoji İn-tunda (indiki ADPU) cəbr və ədədlər nəzəriyyəsi kafedrasına rəhbərlik etmişdir. İlk elmi əsəri ikitərtibli ümumi hiperbolik tənliklər üçün qoyulmuş qarışıq məsələnin ümumiləşmiş funksiyalar sinfində həllinin varlığı və yeganəliyi probleminə həsr edilmişdir. O, öz-özünə qoşma olmayan operatorların məxsusi funksiyalarının bir hissəsinin çoxqat tamlığını və alınan riyazi nəticənin mexanikanın bir sıra məsələlərinə tətbiqini öyrənmişdir. Onun bir sıra işləri kiçik parametrdən asılı dəyişəntipli tənliklər üçün qoyulmuş sərhəd məsələsinin həllinin həmin parametrə nəzərən asimptotikasının öyrənilməsinə həsr olunmuşdur. 50-dən çox elmi əsərin müəllifidir.



**CAVADOV** Natiq Hacı oğlu – (d.8.3. 1955, Ağdam ş.) – avtomatika sahəsində Azərb. alimi, texnika e.d. (2007), prof. (2010). Azərb. Dövlət Un-tini bitirmişdir (1979). 1978–93 illərdə Azərb. Milli Aerokosmik Agentliyində müxtəlif vəzifələrdə çalışmış, 1993–2003 illərdə həmin agentliyin tərkibindəki Kosmik Cihazqayırma Təcrübə z-dunun direktoru olmuşdur. 2003 ildən "Sənayeavtomatika" İB-nin baş direktoru vəzifəsində işləyir. 200-dən çox elmi məqalənin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. Bir çox beynəlxalq konfranslarda çıxış etmişdir.

Əsərləri: Взаимодействие когерентного излучения с веществом (F.D. Qasımov, Q.Q. Çervyakov ilə birlikdə). Б.–Таганрог, 2006; Информационное и инструментальное обеспечение в технологических системах (A.V. Pismenov, M.D. Skubilin ilə birlikdə). Б., 2007.

**CAVADOV** Rizvan Şıxbünyat oğlu (15.12.1918, Bakı – 14.2.1978, Bakı) – Azərb. tibb alimi, tibb e.d. (1969), Azərb. SSR əməkdar həkimi (1964). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1943). Mərəzə r-n səhiyyə şöbəsinin müdiri (1943–45), Yevlax r-n səhiyyə şöbəsinin müdiri (1946–53), Azərb. SSR Səhiyyə Nazirliyində baş inspektor (1945–46), Sanitar-Epidemioloji İdarənin rəisi (1953–55), səhiyyə nazirinin müavini (1955–60), səhiyyə nazirinin birinci müavini və Azərb SSR Baş Dövlət Sanitar həkimi (1960–71), Azərb. SSR Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İn-tunun direktoru (1972–78) olmuşdur. Tədqiqatları bir sıra infeksion və parazitar xəstəliklərin Azərb.-da epidemioloji xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir. 180-ə yaxın elmi əsərin müəllifidir. 2 dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.

Əsəri: Фавизм. Б., 1975.

**CAVADOV** Təyyar Salam oğlu (d.27.4. 1960, Sabirabad r-nunun Mürsəlli k.) – Azərb. ədəbiyyatşünası, tənqidçi, filologiya e.d. (2007). Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki ADPU) bitirmişdir (1981). Həmin ildən Sabirabad r-nu Qalaqayın kənd orta məktəbində müəllim, direktor müavini işləmişdir. 1991 ildən ADPU-da, 1997 ildən Bakı Qızlar Un-tində pedaqoji fəaliyyət göstərir. Tədqiqatları müasir Azərb. romanının poetikası və janr təkamülü problemlərinə həsr olunmuşdur.

Əsərləri: Pedaqoji mühit və uşaq ədəbiyyatı. B., 1992; Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar. B., 2009.

**CAVADOV** Tural Yaşar oğlu (d.11.2. 1991, Salyan r-nunun Şorsulu k.) – Azərb. idmançısı. Zorxana və pəhləvani güləş üzrə gənclər arasında Avropa (2010, Belarus) çempionudur.

**CAVADOV** Vüsal Yaşar oğlu (d.23.4. 1984, Salyan) – Azərb. idmançısı. Zorxana və pəhləvani güləş üzrə Avropa (2009, Almaniya) çempionu, Dünya kubokunun (2010, Türkiyə) sahibidir. Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir (2005).

**CAVADOVA** Afaq Qalib qızı (d.15.9. 1988, Zərdab) – Azərb. idmançısı. Universal döyüş üzrə dünya çempionatının (2008, Rusiya; 2009, Çexiya) bürünc, Avropa çempionatının (2009, Azərbaycan) gümüş mükafatçısı, dünya (2010, Rusiya) və Avropa (2010, Azərbaycan) çempionudur.

**CAVADOVA** Həqiqət Əliəşrəf qızı (d.9.10.1939, Bakı) – Azərb. kimyaçısı, texnika e.d. (1992). Azərb. Dövlət Un-tini bitirmişdir (1962). AMEA Aşqarlar Kimyası İn-tunda laboratoriya müdiridir (1988 ildən). Tədqiqatları müxtəlif funksional təsirli yeni fosfor, kükürd və azot tərkibli üzvi birləşmələr ilə sənaye aşqarları əsasında müxtəlif növ dizel mühərrikləri üçün motor yağlarının, sürtkü kompozisiyalarının işlənib hazırlanması sahəsindədir. 130 elmi əsərin müəllifidir.



**CAVADZADƏ** Mirməmməd Cavad oğlu (18.5.1927, Lənkəran – 7.8.2008, Bakı) – Azərb. cərrah-uroloqu, tibb e.d. (1962), prof. (1964). SSRİ Tibb EA m. üzvü (1974), Azərb. EA akad. (1982). Azərb. SSR əməkdar elm xadimi (1968), Azərb. SSR Dövlət mükafatı (1974), SSRİ Dövlət mükafatı (1982) laureatıdır. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1948). 1948–51 illərdə Astara r-n xəstəxanasında baş həkim və cərrahiyyə şöbəsinin müdiri işləmişdir. 1954 ildən Simferopol Tibb İn-tunun fakültativ cərrahlıq kafedrasında assistent, dosent, 1957 ildən 2-ci Moskva Tibb İn-tunun urologiya kafedrasında assistent, 1963 ildən Ə. Əliyev ad. Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunda urologiya və operativ nefrologiya kafedrasının müdiri, 1975 ildən həmin in-tun rektoru və eyni zamanda Azərb. SSR Səhiyyə Nazirliyinin baş uroloqu olmuşdur.



C. operativ urologiya və nefrologiyaya, böyrəkdaşı xəstəliklərinin, böyrəküstü vəzinin şişlərinin müalicəsinə, sidik-cinsiyyət orqanları inkişafının anomaliyalarına, böyrək və sidiklik şişlərinə, kəskin və xroniki böyrək çatışmazlığının müalicəsinə həsr olunmuş 200-dən artıq elmi əsərin, o cümlədən 12 monoqrafiyanın müəllifidir. Böyrək polikistozunun orijinal əməliyyat üsulunu təklif etmiş, böyrək və sidik axarında daş olması hallarında az travma ilə cərrahi əməliyyat aparmış, aşağı subkortikal pielolitotomiya, polikistozlu böyrəyin omentorevaskulyarizasiyası variantlarını və s. təklif etmişdir.

C.-nin təşəbbüsü ilə Bakıda ixtisaslaşdırılmış Urologiya Klinikası açılmışdır (1966). C. Ümumittifaq Elmi Uroloqlar Cəmiyyətinin sədr müavini, Azərb. Uroloqlar Cəmiyyətinin (1965), SSRİ–Fransa Dostluq Cəmiyyəti Azərb. şöbəsinin (1972), Beynəlxalq Uroloqlar Cəmiyyətinin üzvü, Azərb. SSR Ali Sovetinin (9–11-ci çağırış) deputatı olmuşdur. Oktyabr İnqilabı, "Şərəf nişanı", Azərb. Resp.-nın "İstiqlal" ordenləri ilə təltif edilmişdir. Resp. Uroloji Klinikasına C.-nin adı verilmişdir.

Əsərləri: Камни мочеточников. М., 1961; Поликистоз почек. М., 1964; Радиоизотопные исследования в оперативной уронефрологии (F.H. Hüseynov ilə birlikdə). B., 1973; Urologiya (K.A. İsmayılov ilə birlikdə). B., 1974; Хурургия аномалий почек (M.E. Şükürov ilə birlikdə). B., 1977; Гемостаз при хирургической операции органов мочеполевой системы (S.N. Linev ilə



Cavaxet yaylası. Tabatskuri gölü.

birlikdə). M., 1977; Хирургическая почечная недостаточность (P.S. Malkov ilə birlikdə). M., 1978; Урология (N.Atanosov və İ.Viktorovun redaktorluğu ilə). София, 1979; Нейрогенные дисфункции мочевого пузыря (V.M. Derjavin, J.L.Vişnevski ilə birlikdə). M., 1989.

**CAVADZADƏ** Samir Mirməmməd oğlu (d.3.3.1967, Bakı) – Azərb. tibb alimi, tibb. e.d. (1998), prof. (2005). M.C.*Cavadzadənin* oğludur. Azərb. Dövlət Tibb. İn-tunu bitirmişdir (1988). 1990 ildən Azərb. Resp. Səhiyyə Nazirliyinin Əziz Əliyev ad. Azərb. Dövlət Həkimləri Təkmilləşdirmə İn-tunda işləyir, 2009 ildən həmin in-tda urologiya kafedrasının müdiridir. Tədqiqatları s i d i k d a ş ı xəstəliyində distansion zərbə dalğalı litotripsiya və aşağı sidik yollarının xəstəliklərində transuretral rezeksiya yolu ilə müasir müalicə üsullarına həsr olunmuşdur. 50-yə qədər elmi əsərin, o cümlədən bir monoqrafiyanın müəllifidir.

Ə s ə r i: Мочекаменная болезнь в эндемическом регионе. Б., 1996.

**CAVADZADƏ** Seyid Cəfər Seyid Cavad oğlu – bax *Pişəvəri.*

**CAVAXET SİLSİLƏSİ**, K e ç u t d a ğ l a r ı, Y a ş d a ğ l a r – Gürc. və Erm.-da dağ silsiləsi. Uz. təqr. 50 *km*. Maks. hünd. 3196 *m* (Açkasar d.). Əsasən, traxit lavalarından ibarətdir. Çoxlu yağıntı düşür ("Yaş dağlar" adı da buradan götürülmüşdür). Göllər və bulaqlar var. Yamaclarında dağ çölləri, subalp və Alp çəmənləri yayılmışdır.

**CAVAXET YAYLASI** – Cənubi Qafqazda (Gürc.-da) yayla. Trialet silsiləsindən c.-da, Kür çayı (q.-də) ilə Aşağı Kartli düzənliyi (ş.-də) arasında yerləşir, Cənubi Gürcüstan yaylasının bir hissəsidir. Hünd. 3300 *m*-ədək olan meridional silsilələrdən (şm.-q.-də Samsar, c.-ş.-də Cavaxet) və hünd. 1200–1700 *m* olan platolardan (Salkin, Qomaret, Dmanisi və Axalkalaki) ibarətdir. Andezit-bazalt və traxit lavalarından təşkil olunmuşdur. Çuxurlarda çoxlu tektonik, yaxud vulkanik mənşəli göllər (Paravani, Tabatskuri və s.) var. Dağ çölləri və subalp çəmənlərindən otlaq kimi istifadə olunur.

**CAVAXİŞVİLİ** İvan (İvane) Aleksandroviç (23.4.1876, Tiflis – 18.11.1940, Tbilisi) – gürcü tarixçisi, SSRİ EA akad. (1939). SSRİ Dövlət mükafatı laureatı (1947, ölümündən sonra). Peterburq Un-tinin Şərq dilləri fakültəsini bitirmişdir (1899). Peterburq, 1918 ildən Tiflis (1919–26 illərdə rektor) un-tlərində işləmiş, 1921–30 illərdə Gürc. tarix-etnoqrafiya cəmiyyətinin sədri, 1937 ildən Ş. Rustaveli ad. muzeyin direktoru olmuş, Msxeta arxeoloji ekspedisiyasına rəhbərlik etmişdir (1937–40). Cənubi Qafqazın tarix və etnoqrafiyasının öyrənilməsi üzrə müasir elmi məktəbin əsasını qoyanlardan biridir. Başlıca tədqiqatları Gürc.-ın qədim və orta əsrlər tarixinə ["Gürcü xalqının tarixi" (1–4 cildlər, 1908–49), "Gürcü hüququ tarixi" (1–2 cildlər, 1928–29), "Gürcüstanın iqtisadi tarixi" (1–2 cildlər, 1930–34)] aiddir. C.-nin əsərlərində gürcü xalqının tarixi Qafqaz və Yaxın Şərq xalqlarının tarixi ilə sıx əlaqədə tədqiq olunur. C. mənbəşünaslığın və köməkçi tarix fənlərinin inkişafına böyük diqqət yetirmiş, Gürcüstan tarixinə dair çoxlu mənbələri üzə çıxarmış və nəşr etdirmişdir. Tbilisi Dövlət Un-ti onun adını daşıyır.



**CAVAXİŞVİLİ** Mixail Savviç (təxəllüsü; əsl soyadı A d a m a ş v i l i) (20.11.1880, Borçalı qəzasının Seraqvi k. – 1937) – gürcü yazıçısı. Krım varlı kəndli ailəsində doğulmuşdur. Bağçılıq və üzümçülük məktəbində təhsil almışdır (1901). Ədəbi debütü "Çançura" (1903) hekayəsidir. 1906 ildə istibdad əleyhinə yazdığı məqalələrinə görə məhkəməyə cəlb olunmuşdur; 1907 ildə xaricə getmiş, Avropa və Amerikaya səyahət etmişdir. 1909 ildə Gürcüstana qayıtmış və müxalif yönümlü olduğuna görə çox keçmədən bağlanan "Eri" ("Millət") jurnalının nəşrinə rəhbərlik etmişdir. C. dəfələrlə həbs və sürgün olunmuşdur. Qırmızı Xaç nümayəndəsi kimi Türkiyə (1915) və İranda (1918) işləmişdir. 1908–24 illərdə C. jurnalistika ilə fəal məşğul olmuş, ictimai-siyasi mövzuda publisistik məqalələr yazmışdır ("Bizim taleyimiz", 1917; "Gürcü-Osmanlı münasibətlərindən", 1918 və s.). "Qulyabanı" (1924), "Əridilmiş zəncir" (1924), "Lambalo və Kaşa" (1925), "Kvaçi Kvaçantiradze" (1924), "Cakos Xiznebi" (1924; "Cakonun kirayənişinləri"), "Ağ yaxalıq" (1926), "Givi Şaduri" (1928) hekayə və povestlərinin müəllifidir. "Marabdalı Arsen" (1933–36) romanı 19 əsrdə Gürcüstandakı kəndli üsyanından, "Qadının taleyi" (1936) romanı 1905–07 illər inqilabının Gürcüstana təsirindən bəhs edir. C-nin hekayələrinin motivləri əsasında O.V. *Taktakişvili* "Üç novella" (1967), "Arvadbaz" (1978) operalarını yazmışdır. G. de Mopassan, A.P. Çexov və H. Senkeviçin əsərlərini gürcü dilinə tərcümə etmişdir. Repressiya olunmuşdur. C.-nin yaradıcılığında Azərb. mövzusu mühüm yer tutur. "Günahsız Abdulla", "Ləmbəli" povestləri bilavasitə Azərb. həyatından bəhs edir. "Marabdalı Arsen" romanında və b. əsərlərində də müsbət azərb. surətləri yaratmışdır. C. Azərb. dilinə və folkloruna bələd olmuş, əsərlərində azərb.-ca çoxlu söz, ifadə, cümlə və bayatılar işlətmişdir. Anadan olmasının 100 illiyi Azərb.-da da qeyd olunmuşdur. Marneulidə abidəsi qoyulmuşdur (1981).

Ə s ə r l ə r i: Torpaq çakir. Seçilmiş əsərləri. B., 1980; Əsərləri külliyyatı: C.1-5, Tbilisi, 1969–75 (gürcü dilində).

*Əd.*: V ə l i y e v H. Azərbaycan folkloru və ədəbiyyatı gürcü mənbələrində. B., 1984.

**CAVAN PLATFORMA** – bax *Platforma.*





**CAVANAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Dizmar kəndistanında, Vərzəqan qəs.-ndən 36 *km* q.-dədir.

**CAVANQALA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Əcəbşir bölgəsinin Dircərud kəndistanında, Əcəbşir qəs.-ndən 9 *km* şm.-ş.-dədir.



Cavanşir. Rəssam K. Xanlarov. 1941.

**CAVANŞİR** (təqr. 616–680) – dövlət xadimi, sərkərdə; Albaniyanın (Qafqaz) hökmdarı [637–680; digər məlumata görə 642–683], *Varaz Qriqorun* oğludur. *Mehranilər* sülaləsindən idi. Hələ atasının sağlığından ölkənin idarə olunmasında yaxından iştirak etmişdi. C. Sasani ordusunun tərkibində ərəblərə qarşı vuruşan alban hərbi hissəsinin komandanı kimi döyüşlərdə fərqlənmişdi. Ərəblərə məğlub olan Sasani qoşunlarının qalıqları Albaniyaya soxulduqda erməni sərkərdəsi Smbat Baqratuni və İberiya hökmdarı Atrnersexlə ittifaq bağlayan C. iranlıları Uti və Şakaşen vil.-lərində məğlubiyyətə uğratdı. Ərəblər Nəhavənd yaxınlığında Sasani qoşununu darmadağın etdikdən (642) sonra Albaniyaya soxuldular. C. ərəblərə qarşı Bizansla ittifaq bağladı. 662 ildə Bələncər yaxınlığında ərəbləri məğlub edən xəzərlər Kür çayınadək irəlilədilər. C. xəzərlərin geri çəkilməsinə müvəffəq oldu. 664/65 ildə xəzərlər yenidən Albaniyaya hücum etdilər. Xəzərlərin üstün qüvvələri ilə mübarizənin faydasız olduğunu görən C. onlarla sülh bağladı və xaqanın qızı ilə evlənərək qohumluq əlaqələri yaratdı. Albaniyanı Xilafətin təhlükəsindən qurtarmağa çalışan və Bizansdan hərbi yardım almayan C. 667 ildə Əməvi hökmdarı I Müaviyə [661–680] ilə danışıqlar aparmaq üçün Dəməşqə getdi. Dəməşq sülhünə görə Albaniya daxili müstəqilliyini saxlaya bildi. 670 ildə C. Xilafət ilə Bizans arasında danışıqlarda iştirak etmək üçün yenidən Dəməşqə dəvət olundu. Danışıqlardan sonra Albaniyadan alınan vergi və xəracın miqdarı üççat azaldıldı; Sünik knyazlığı C.-ə tabe edildi. Mərkəzi hakimiyyət əleyhinə çıxan iri feodallara qarşı amansız mübarizə aparan C. sui-qəsd nəticəsində öldürüldü.

C.-in hakimiyyəti dövründə Albaniyada iqtisadi həyat nisbətən dirçəlmiş, elm və mədəniyyət inkişaf etmişdi. Onun sarayında xeyli alim, şair, memar və b. toplanmışdı. Alban tarixinin tərtibinə də həmin dövrdə başlanmışdı. Alban şairi Davdaq (7 əsr) C.-in ölümü münasibətilə elegiya (mərsiyə səciyyəli qəsidə) yazmışdı. Mehdi Hüseynin "Cavanşir" pyesi C.-ə həsr olunmuşdur.



Alban çarı Cavanşir. Tunc buxurdan. 7 əsr. Ermitaj.

**CAVANŞİR** Behbud xan Azad oğlu (1886, indiki Tərtər r-nunun Azad Qaraqoyunlu k. – 1921, İstanbul) – Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) dövlət və ictimai xadimi. Almaniyada və İngiltərədə təhsil almışdır. Alman, ingilis, fransız, rus və gürcü dillərini mükəmməl bilirdi. 1912 ildə Frayberqdə (Al- maniya) Dağ-Mədən Akademiyasını bitirmiş, neft emalı müəssisələrində baş mühəndis işləmişdir. "Rusiya Texnika Cəmiyyəti"nin üzvü idi. Elmi fəaliyyətlə də məşğul olmuşdur. "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin rəhbərlərindən biri idi. Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü olmuşdur (1917). Bakıda 1918 il mart soyqırımı zamanı barışıq komitəsində iştirak etmişdir. 1918 ilin iyun-dekabr aylarında AXC hökumətində daxili işlər naziri olmuş, 1918 ilin oktyabrından eyni zamanda ticarət və sənaye naziri vəzifəsini icra etmişdir. AXC parlamentinə seçilmiş, bitərəflər fraksiyasının üzvü olmuşdur. 1919 ildə "Dəyanət" ticarət birliyinin təsis olunmasında yaxından iştirak etmişdir. *Aprel işğalından (1920)* sonra neft sənayesində çalışmışdır. Avadanlıq almaq üçün İstanbula göndərilən C. orada erməni terrorçusu tərəfindən odlu silahla yaralanmış, xəstəxanada vəfat etmişdir.



**CAVANŞİR** Rəşid Cəmil oğlu (d.17.7. 1951, Bakı) – Azərb. geoloqu, geologiya-mineralogiya e.d. (1988), prof. (1997), AMEA m. üzvü (2001). 1973 ildə Azərb. Neft və Kimya İn-tunu (indiki ADNA) bitirmişdir. Həmin in-tda müəllim işləmişdir (1976–78). 1978–95 illərdə Azərb. EA Dərin Neft və Qaz Yataqları Problemləri İn-tunda kiçik elmi işçidən elmi işlər üzrə direktor müavini vəzifəsinədək yüksəlmişdir. 1995 ildən BP şirkətində çalışır. 2010 ildən BP-nin Azərb.-Gürc.-Türkiyə üzrə prezidentidir. Elmi tədqiqatları neft-qaz geologiyası və geofizikası sahəsinə aiddir. C. terrigen neftli-qazlı qatlarda lay təzyiqlərinin, süxurların kollektorluq və ekranlaşdırıcı xüsusiyyətlərinin nəzəri modeli və proqnozlaşdırma üsullarını işləmiş, elektron mikroskopiya əsasında tam sıxılmaya uğramamış gillərin məsamə fəzası strukturu və mineraloji xüsusiyyətlərini öyrənmişdir. 210-dan çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın, bir sıra tiraların, metodik vəsaitlərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ə s ə r l ə r i: Прогнозирование физических свойств коллекторов и покрышек нефти и газа. M., 1982; Геофизические методы изучения геофлюидальных давлений. Б., 1986; Моделирование систем нефтегазовой геологии. M., 1990; Геофизические методы изучения природных резервуаров нефти и газа. Б., 1993.

**CAVANŞİR QALASI** – Azərb.-da tarixi qala. İsmayıllı r-nunun Talıstan k.-ndən 4 *km* şm.-da, Ağçayın sağ sahilindədir. Abidənin adı Albaniya (Qafqaz) hökmdarı *Cavanşirin* adı ilə bağlıdır. Sah. 1,5 *ha*-dan, xarici divarlarının uz. 600 *m*-dən artıqdır. Əsas hissədən və içqaladan ibarətdir. Əsas hissəsinin cənub divarlarının hünd. 10 *m*-dən çoxdur. Düzgün ol-



Cavanşir qalası. Rekonstruksiya.

mayan çoxbucaqlıya bənzər içqala dağın ən hündür yerində tikilmişdir. Qalanın şm. qurtaracağında eni 2 *m*, uz. isə 50 *m* olan divar-çıxıntı var. Divar silindrvarı bürclə tamamlanır. C.q.-nın təqr. 7 əsrdə tikildiyi ehtimal edilir.

**CAVANŞİR QƏZASI** – Şimali Azərb. Rusiya imperiyasının tərkibində olduğu zaman yaradılmış inz. ə. v. 1873 il qanununa əsasən təşkil edilmişdi. Mərkəzi Tərtər yaşayış məntəqəsi idi. Qəza idarə sistemi mövcud idi. Qafqaz təqviminin (1917) məlumatına əsasən ərazisi 4654,06 *kv. verst*, əhalisi 75730 nəfər idi. Əhali, əsasən, əkinçilik, balıqçılıq, ipəkçilik və maldarlıqla məşğul olurdu. Qəzada çar idarə üsuluna və sosial ədalətsizliyə qarşı çıxışlar baş verirdi. Çarizmin devrilməsindən sonra ermənilər qəzada möhkəmlənməyə və azərb.-lara qarşı soyqırımına başlamaq məqsədilə tədbirlər görməyə başlamışdılar. Erməni silahlı dəstələri 1917 ilin dekabrından Kolanı və digər qonşu kənd icmalarına basqınlar edir, dağ və aran kəndlərinin əlaqəsini kəsməyə çalışırdılar. Ermənilər 1918 ilin yaz və yay aylarında Tərtər su hövzəsi çaylarını bəndə salaraq, istiqamətini dəyişdirir, azərb.-ların əkinlərinə zərər vurmağa cəhd göstərirdilər. Ermənilərin qəddarlığı və düşmənçilik hərəkətləri nəticəsində qəzanın təkcə dağətəyi hissəsindəki müsəlmanlara ən azı onlarla mln. manat ziyan dəymişdi.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) qurulduqdan sonra C.q.-nda hakimiyyətin möhkəmləndirilməsinə xüsusi diqqət verilirdi. Erməni təcavüzünün artmasını nəzərə alaraq, 1919 il 13 yanvar tarixli qərarla qəza Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları ilə birgə müvəqqəti gen.-qubernatorluqda birləşdirildi. AXC hökumətinin ciddi səyləri nəticəsində qəzanı erməni işğalından qorumaq mümkün oldu. AXC-nin süqutundan sonra Qarabağda, o cümlədən C.q.-nda sovetləşməyə qarşı baş verən üsyanlar 11-ci qırmızı ordu tərəfindən amansızlıqla yatırıldı, sovetləşmə həyata keçirildi. 1929 ildə Azərb. SSR-in rayonlaşdırılması ilə əlaqədar C.q. ləğv edildi.

**CAVANŞİR SU ANBARI** – Azərb. Resp. Ağsu r-nu ərazisində, r-n mərkəzindən 4 *km* c.-ş.-də, Qaramməmmədli k.-nin yaxınlığındadır. 1961 ildə istifadəyə verilmişdir. Ümumi həcmi 4,6 mln. $m^3$, faydalı həcmi 4,0 mln. $m^3$. Suyu kanalla Ağsu çayından axıdılır. Suvarmada istifadə olunur.

**CAVANŞİROV** Əfsər Bayram oğlu (8.11.1930, Füzuli r-nunun Horadiz k. – 20.5.2005, Bakı) – Azərb. bəstəkarı. Azərb. SSR əməkdar incəsənət xadimi (1982). Bakı Musiqi Texnikumunu (1951) və Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1958; prof. C.Hacıyevin sinfini). 1950 ildən müxtəlif musiqi kollektivlərində xormeyster işləmişdir. Yaradıcılığının erkən dövründə uşaqlar üçün "Gənc turistlər" süitası (1966), "Dəcəl pişiklər" (1968) və s. musiqili səhnə əsərləri yazmışdır. Əsərləri nikbin ruhu, forma sadəliyi, xalq musiqisindən qidalanması ilə seçilir: ork. üçün yazılmış "Azərbaycan mənim vətənimdir" uvertürası (1974), "Günəşli Azərbaycanım" simfonik poeması (1984) və s. C.-un yaradıcılığında xor üçün yazılmış əsərlər mühüm yer tutur: "Bənövşə" (1963), "Mənim taleyim" balladası (1964), "Gəzək bizim elləri" (1965), "Dağlar", "Gecə keçir", "Əzizim", "Xatirələr", "Payız" (hamısı 1979) və s. C. uşaqlar üçün solo və xor mahnıları da yazmışdır. C. "Murad-Muratino" uşaq operasının (1980-ci illər), a kapellaların, kamera-instrumental və kamera-vokal musiqinin, mahnıların ("Sevirəm səni", "Şirin yuxum olasan" və s.) müəllifidir. Bir sıra xalq mahnılarını xor üçün işləmişdir.

Azərb. Dövlət Teleradio Verilişləri Şirkəti "Bənövşə" uşaq mahnı və rəqs ansamblının bədii rəhbəri və baş dirijoru (1958 ildən) olmuşdur.

**CAVÁRA** Dauda Kayraba (d. 1924, Baracalli) – Qambiya dövlət xadimi. 1953 ildə Qlazqo (B.Britaniya) Un-tinin baytarlıq kollecini bitirmişdir. 1954 ildə Qambiyaya qayıtdıqdan sonra dövlət baytarlıq xidmətində çalışmış, 1958–60 illərdə Qambiyanın baş baytarı olmuşdur. 1959 ilin dekabrında Xalq Mütərəqqi Partiyasını yaradaraq onun liderinə çevrildi. 1960–61 illərdə maarif və sosial rifah naziri, 1962–63 illərdə birinci nazir idi. 1963 ilin oktyabrında Qambiyaya daxili özünüidarə hüququ verildikdən sonra baş nazir oldu. 1965 ilin fevralından müstəqil Qambiyanın baş naziri (1965–67 illərdə eyni zamanda xarici işlər naziri), 1970–94 illərdə ölkə prezidenti (1970 il konstitusiyasına görə həm də hökumət başçısı) olmuşdur. 1994 ildə baş vermiş hərbi çevrilişdən sonra siyasi fəaliyyətini dayandırmışdır.

**CAVİD** Hüseyn – bax *Hüseyn Cavid.*

**CAVİDAN** ibn Səhl (? – 816) – Azərb.-da xürrəmilər hərəkatı rəhbəri, sərkərdə; *Bəzz* qalasının sahibi. Xırda feodal olan C. Azərb. və ona qonşu ölkələrdə yayılmış və kəndli müharibəsinə çevrilmiş xürrəmilər hərəkatına başçılıq edirdi. Hərəkatın bu dövrü C.-ın adı ilə bağlıdır. 807/08 ildə xəlifə Harun ər-Rəşidin göndərdiyi ərəb qoşunu C.-ın başçılıq etdiyi xürrəmiləri məğlubiyyətə uğratdı. Üsyançıların bir qismi dağlara çəkilə bildi və Xilafətə qarşı mübarizəni davam etdirdi. Ərəb tarixçilərindən Təbəri, ibn Nədim və b. C.-ın Babəklə görüşməsi barədə maraqlı məlumatlar vermişlər. Həmin məlumatlara görə Zəncanda qoyunlarını satıb Bəzzə qayıdan C. Bilalabad k.-ndə kasıb dul qadın Bərumənddin evində gecələməyə məcbur olmuş, onun





oğlu Babəkin fərasət və bacarığını görüb öz dəstəsinə götürmüşdü. 816 ildə xürrəmilər hərəkatına rəhbərlik etmək üstündə C.-la Əbu İmran arasında mübarizə kəskinləşdi. Döyüşlərin birində Əbu İmranı öldürən C. ağır yaralanmış və 3 gündən sonra vəfat etmişdi. Onun ölümündən sonra Azərb. xalqının Xilafətə qarşı azadlıq müharibəsinə *Babək* başçılıq etdi (bax həmçinin *Babəkilər hərəkatı, Xürrəmilər hərəkatı*).

**CÁYA** (Jaya, Djaja) (1965 ilədək Karstens, 1965–69 illərdə Sukarno) – İndoneziyada, Yeni Qvineya a.-nın q.-ində, Okeaniyada ən hündür zirvə. Sudirman d-rındadır (Maoke dağ sistemi). Hünd. 5030 *m*. Kristallik süxurlardan ibarətdir. 4400 *m*-dən yüksəkdə daimi qar və buzlaqlar (sah. təqr. 15 $km^2$) var.

**CAYÁNTA BHÁTTA** (təqr. 840–900, Kəşmir) – Hind filosofu, *nyayanın* nümayəndəsi. Kəşmir racəsinin xidmətində olan məşhur alim-brahmanlar ailəsindən idi. O, geniş erudisiyası və öz dövrünün fəlsəfi fikrini dərindən bilməsi ilə fərqlənirdi. Dövrümüzədək gəlib çatmamış "Ahamadambara" dramının və qrammatika üzrə əsərlərin müəllifidir. "Nyaya-sutra"lara sərbəst şərhdən ibarət olan əsas əsəri "Nyaya-manjari" ("Məntiq buketi") hind filosofları arasında son dərəcə populyar olmuşdur.

"Nyaya-manjari" səhih idrakın mənbələri (pramana) və obyektləri (prameya), həmçinin qavrayışın (pratyakşa), məntiqi nəticənin (anumana), səbəbiyyətin təbiəti, hissə və tamın nisbəti, teodiseya məsələləri və s.-in nəzərdən keçirildiyi 12 bölmədən ibarətdir. *Vedaların* ciddi tərəfdarı olan C. B. Onların mötəbərliyinə dair *mimansa* ardıcıllarının təklif etdikləri sübutları qeyri-qənaətbəxş sayırdı. Lakin onun mimansa və buddizmlə apardığı polemikası bütövlükdə öz tolerantlığı və qarşı tərəfin mövqelərini müfəssəl şərh etməsi ilə seçilirdi, bu isə onun əsərinə ensiklopedik xarakter verirdi.

C. B. məkan və zamanın qavranılması məsələsində mimansa tərəfdarları ilə hətta razılaşmış (nyaya və vayşeşikada onlar qavranılmayan sayılırdı), lakin eyni zamanda onların idrakı hərəkət hesab etmələrinə tənqidi yanaşmışdır.

**CAYAPÚRA** – 2010 ilədək *Port-Numbay* ş.-nin adı.

**CAYAVÁRDENE** Cunius Riçard (17.9.1906, Kolombo – 1.11.1996, orada) – Şri-Lankanın dövlət və siyasi xadimi. Zadəgan sinqal ailəsindəndir. Seylonda kral və un-t kolleclərində təhsil almış, 1932–40



Caya zirvəsi.

illərdə vəkil işləmişdir. 1943 ildə Seylon Milli Konqresi partiyasına üzv olmuşdur. 1946 ildən Birləşmiş Milli Partiyanın (BMP) liderlərindən biri idi. 1948 ildə Seylon (1972 ildən Şri-Lanka) müstəqillik qazandıqdan sonra maliyyə naziri (1948–53), k.t. və ərzaq naziri (1953–56), dövlət naziri (1965–70), müdafiə və xarici işlər nazirliklərinin parlament katibi, 1960–77 illərdə parlamentdə BMP fraksiyasının lideri olmuşdur. 1973 ildə BMP-nin sədri seçilmişdir. 1977 ilin iyulundan 1978 ilin martınadək baş nazir, eyni zamanda müdafiə, planlaşdırma və iqtisadiyyat, planların yerinə yetirilməsinə nəzarət naziri idi. 1978 ilin fevralında Şri-Lankanın ilk prezidenti seçilmişdir; həm də müdafiə naziri, planların yerinə yetirilməsi üzrə nazir, ali təhsil naziri, silahlı qüvvələrin ali baş komandanı vəzifələrini tuturdu. 1982 ildə 6 il müddətinə yenidən prezident seçilmişdir. C. bazar iqtisadiyyatının inkişafına yönəlmiş islahatlar aparmış, dövlət müəssisələrini sahibkarlara vermiş, özəl kapitalın inkişafı və xarici kapitalın ölkəyə cəlb olunması məqsədilə azad ticarət zonaları yaratmışdı. C.-nin prezidentliyi dövründə sinqal və tamil icmaları arasında münasibətlərin gərginləşməsi 1983 ildə vətəndaş müharibəsinə gətirib çıxarmışdı. C. tamil separatizmini pisləmiş, ölkədə vəziyyətin normallaşdırılması məqsədilə bir sıra diplomatik və hərbi addımlar atmışdı. Onun təşəbbüsü ilə 1987 ildə Şri-Lankaya Hindistan hərbi kontingenti yeridilmişdi. 1989 ildə istefa vermişdir.

**CAYAVARMÁN II** (ölümündən sonrakı adı Parameşvara) (təqr. 770–850, Hariharalaya) – Kambucadeşa kralı [802–850], Anqkor imperiyasının (802–1432) banisi. Mənşəcə khmer olduğu ehtimal edilir. Yava a.-ndan gəlmiş II C. Yava vassalı olan Çenla krallığının taxtına yiyələnmiş, 802 ildə krallığın müstəqilliyinə nail olmuşdu. Şivaizmin devaracə (tanrı-çar) kultunu dövlət səviyyəsinə qaldıraraq qanuniləşdirmiş, bu da ona qüdrətli dövlət yaratmağa imkan vermişdi. Uzunmüddətli müharibələr nəticəsində khmerlərin birləşdirilməsinə və indiki Kamboca və Cənubi Vyetnam ərazilərini əhatə edən imperiyanın yaranmasına nail olmuşdu. "Çakravartin" ("dünyanın hökmdarı") titulunu qəbul etmişdi. II C. əsasını qoyduğu İndrapura, Hariharalaya, Amarendrapura, Mahendraparvata şəhərlərində, həmçinin Anqkorda hinduist məbədlərinin tikintisinə xüsusi diqqət ayırmışdı.

**CAYAVARMÁN VII** – Kambucadeşa kralı [1181–1219]. 1160 ildə atası II Dharanindravarmanın ölümündən sonra VII C. qəsbkarlıqla hakimiyyətə gələn II Yaşovarman [1160–66] və Tribhuvanadityavarman [1166–77] ilə mübarizə aparmışdı. 1167 ildə khmer hüdudlarına müdaxilə edən Çampa dövlətinin qoşunlarını Anqkor torpaqlarından tamamilə qovduqdan sonra özünü kral elan etmişdi. VII C.-ın dövründə orta əsr Kambucadeşa dövləti özünün ən qüdrətli çağını yaşadı. Anqkor monarxiyasının nüfuzu şm.-da Vyentyana, ş.-də Şərqi Çin dənizinə, c.-da Malakka y-a-nın mərkəzi

hissəsinə, q.-də Birmayadək yayılmışdı. VII C.-ın dövründə çoxlu sayda məbədlər, qalalar, müsafir evləri, xəstəxanalar tikilmiş, yollar salınmış, imperiyanın paytaxtı *Anqkor-Thom* şəhəri yenidən inşa edilmişdi.

**CAYDAQ CÜLLÜT** (Himantopus himantopus) – cüllütlər yarımdəstəsinin çovdarçılar fəsiləsindən quş. Bədəninin uz. təqr. 37 *sm*-ədək olur. Lələk örtüyü ağ-qaradır. Dimdiyi nazik, uzun və qaradır, ayaqları çox uzun və çəhrayıdır. C.c. Cənubi Avropada, Cənubi Asiyada, Afrikada, Avstraliyada, Y.Zelandiyada və Amerikada (şm.-dan başqa) yayılmışdır. Azərb.-a nəsil vermək üçün gəlir (Xəzər adalarında). Şirin və şorsulu göllərin sahillərində və dənizlərin sahilboyunda yaşayır. Koloniyalarla yuvalayır. 4 yumurta qoyur. 25–26 gün kürt yatır. Su cücüləri və d. onurğasızlarla, balıq və qurbağaların kürüsü, qışda, həmçinin su bitkilərinin toxumları ilə qidalanır.



Caydaq cüllüt (Himantopus himantopus).

**CAYDAQLAR** – *leyləkkimilərin* köhnəlmiş adı. bax *Leyləkkimilər*.

**CAYÉVER**, Giyever (Giaever) Ayvar (İvar) (d. 5.4.1929, Norveç, Bergen) – Amerika fiziki, Nobel mükafatı laureatı (1973, L. *Esaki* ilə birlikdə). Tronheymdə Norveç Texnologiya İn-tunu bitirmişdir (1952). Norveç patent bürosunda işləmişdir (1953–54). 1956 ildən ABŞ-da "General Electric" kompaniyasında işləmiş (1956–88), 1988 ildən Rensseler Politexnik İn-tunun (Nyu-York ştatı, Troy ş.) professorudur. Əsas elmi işləri fiziki elektronikanın problemlərinə, ifratkeçiriciliyə, biofizikaya aiddir. Elektronikada geniş istifadə olunan keçiricilərdə və ifratkeçiricilərdə tunelləmə hadisəsinin eksperimental müşahidə üsulunu işləmişdir. Bərk cisimlərin səthlərində qəfəs membranlarının xassəsini və zülal molekullarının təbiətini, immunologiyanın problemlərini tədqiq etmişdir.



**CAYLOLO** – bax *Halmahera*.

**CAYNİZM** (Cina Mahaviranın davamçısını bildirən "cayna" sözündən) – təqr. e. ə. 6 əsrdən Hindistanda mövcud olan dini-fəlsəfi ənənə. Buddizmlə birlikdə C. şraman cərəyanıdır, yəni *Vedaların* dini nüfuzunu inkar edən və yenidəndoğulmalardan xilasın (*mokşa, nirvana*) özünəməxsus yolunu bəyan edən ənənədir. C. qeyri-zorakılığı, bütün canlılara zərər yetirməməni vəz etməsi ilə tanınır. *Ahimsa* özünəməxsus dözümlülük prinsipi kimi yalnız etikada deyil, məntiqdə də öz əksini tapmışdır (nəzər nöqtələrinin çoxluğu ideyası). Caynalar fəlsəfi və ədəbi mətnlər (sanskrit və orta-hind – prakrita dillərində), qrammatika üzrə traktatlar, məbəd heykəltəraşlığı və C.-in əfsanəvi müjdəçilərinin – tirthankarların (hərfi mənası – bərənin/körpünün yaradıcısı) heykəllərini yaratmışlar. Caynalar Hindistan əhalisinin 0,5%-ni (4,8 mln. nəfər, 1996 il məlumatları) təşkil edirlər. Müasir Hindistanda C.-in əsas yayılma regionları Racəsthan, Qucarat, Maharaştra və Karnataka ştatlarıdır.

**Yaranma və parçalanma**. Rəvayətə görə, C. həqiqətlərini bizim dünya epoxasında (bax Dünya epoxaları haqqında təlim – *kalpa*) bəyan etmiş ilk tirthankar Rişabha olmuşdur. Caynalar ehtimal edirlər ki, C. özünün mövcudluğu ərzində yeddi dəfə Hindistanda yox olmuş və növbəti tirthankar tərəfindən yenidən bəyan edilmişdir.Təlimin fasiləsiz ötürülməsi yalnız 16-cı tirthankar Şantinathadan başlayaraq bərqərar olmuşdur. C.-in parçalanmasının zamanı və səbəbləri haqqında dəqiq məlumat yoxdur, ən erkən xatırlamalar 5 əsrə aiddir. Ehtimal ki, indiyədək qorunub saxlanan bu parçalanma C.-də əzəldən mövcud olan iki tendensiyanı əks etdirir: birincisi (diqambarlar) "Cinanın həyat tərzi"ni (cinakalpa) təmsil etmiş və əsasən, Hindistanın cənubunda və şərqində yayılmışdı, ikincisi (şvetambarlar) isə "ağsaqqalların həyat tərzi"ni (sthavirakalpa) təmsil etməklə daha çox Hindistanın şimal-qərbində və mərkəzində lokallaşmışdı.

**Təlim.** C. ardıcılları "üç mirvari"yə (triratna): düzgün görmə, düzgün bilik və düzgün davranışa yiyələnməklə sansaradan xilasa (mokşa) nail olurlar. Birincisi dünyanı C.-də təsvir olunduğu kimi görməkdən, Mahaviranın təliminin mütləq həqiqiliyinə inanmaqdan; ikincisi doqquz kateqoriyanın: can (civa), qeyri-can (aciva), bağlılıq (bandha), karmanın cana axması (asrava), axının dayanması (samvara), karmanın məhvi (nircara), xilas (mokşa), xeyirxahlıq (punya) və günahın (papa) köməyi ilə təsvir olunan bütün varlığın həqiqi dərkindən ibarətdir.

**Can** (civa) C.-də şüura (çetena) malik olan bədənsiz məhvedilməz varlıqdır; şüurun istiqamətlənməsi (upayoqa) iki növdə çıxış edir: bilik (cnyana) və görmə (darşana). Çox sayda can mövcuddur, bütün varlığın canlanma dərəcəsi pranların – hər bir canın xüsusi psixofiziki amillərinin sayından asılıdır; pranlar dörddür: qüvvə, nəfəs, həyat və hisslər. Müxtəlif canlarda hisslərin sayı birdən beşə qədər dəyişir. Canlar rənginə görə fərqlənir (qara, tünd-göy, boz, sarı, çəhrayı və ağ) və onların ölçüləri yerləşdikləri bədənə uyğundur. Hindistanın digər təlimlərindən fərqli olaraq, C.-də hesab edilir ki, həyatın özü olan can bütün bədənə sirayət edərək onu doldurur. Canın təzahürünün müxtəlif vasitələri onun bir mövcudiyyət səviyyəsindən digərinə, bir bədəndən digər bədənə keçmək bacarığı ilə müəyyənləşir. Canın qayəsi onun qeyri-candan asılılığı, bağlılıq dərəcəsi ilə müəyyənləşir.

**Qeyri-can.** C.-də qeyri-can (aciva) sahəsinə materiya (pudqala), hərəkətin (dharma) və sükunətin (adharma) şərtləri, məkan (akaşa) və zaman (kala) aiddir. Qeyri-canın dörd substansiyası (zaman istisna olmaqla) və can "ölçülü olan substansiya"lar (astikaya) sayılır. Bütün görünən və görünməyən dünyanı təşkil edən materiya bir dada, rəngə, iyə, həmçinin iki lamisə növünə malik, lakin səsdən məhrum olan əbədi və bölünməz vahidlərdən, ilkin atomlardan ibarətdir. İlkin atomlar onlara xas olan "yapışqanlıq" və "quruluq" keyfiyyətlərinin sayəsində birləşir, atom birləşmələri kobud və incə ola bilir. Atomların minimum birləşməsi nöqtəni, nöqtələrin birləşməsi yeri, yerlərin birləşməsi isə hiss orqanlarının qavradığı həcmli obyekti əmələ gətirir. Ətraf aləmin obyektlərini təşkil edən kobud materiya ilə yanaşı, materiyanın incə, hiss orqanlarının qavraya bilmədiyi maddəni – karmanı təmsil edən xüsusi növü də mövcuddur. Məhz bu maddə canın təcəssümünün şərtlərini müəyyənləşdirir. Karma materiyası səkkiz növdə olur: biliyi kölgələyən, görməni kölgələyən, hissləri doğuran, yanlışa aparan, həyatın müddətini müəyyənləşdirən, bədəni formalaşdıran, ailəni müəyyənləşdirən və qüvvəni kölgələyən. Bundan əlavə, karma xeyirxah (punya) və qüsurlu (papa) ola bilər.

C.-də digər varlıqlarda dəyişiklik yaradana zaman deyilir. Ən kiçik ölçü vahidi zamanın "atomları" olan anlardır. Anların birləşməsindən dəqiqələr, saatlar, illər və s. yaranır. Məkan hər şeyə yer verən substansiyadır və onun ən kiçik vahidi nöqtədir. Bütün varlıqlar (o cümlədən bədəndə təcəssümünü tapan can) məkanın müəyyən bir nöqtəsini tutur və bu nöqtələr saysız-hesabsız ola bilər. Yalnız zaman məkanın ana bərabər olan bir nöqtəsini tutur. Məkanın və zamanın vahidləri bir-birinə uyğundur: an məkanın bir nöqtəsindən digərinə qədər məsafədir, yəni nöqtə ölçüsündə olan atomun nöqtə ölçüsündə olan məkanı keçmək üçün lazım olan zamanıdır. Məkanda yerdəyişməyə və bir yerdə durmaya qarşılıqlı əlaqəli iki substansiya – hərəkət şərtləri və sükunət şərtləri səbəb olur (su balıqların suda hərəkətinə, torpaq hərəkət edən predmetlərin bir yerdə durmasına imkan verdiyi kimi).

**Kosmologiya.** C.-də dünya (loka) üçsəviyyəli aləm kimi təsvir edilir: aşağı aləm (adho-loka) müəyyən rəng (ləl-cəvahirat, şəkər, qum, palçıq, tüstü, qaranlıq, tam zülmət rəngi) üzrə adlanan yeddi torpaqdan ibarət cəhənnəm (naraki) sakinlərinə məxsus sferadır; orta aləm (madhya-loka) insanların və heyvanların məskunlaşdığı məkandır, onun mərkəzində Cambudvipa (Hindistan) kontinenti yerləşir; yüksək aləm (urdhva-loka) dörd sinif allahlarının qaldığı səmadır. Dünyanın ən yüksək nöqtəsi kamilləşmiş, xilas olmuş (siddha, hərfi mənası – çatmış) canların (siddha-loka, yaxud siddhakşetra) məkanıdır. Dünyanın hüdudlarından kənarda qeyri-dünya (aloka) yerləşir və orada heç nə yoxdur. Dünya haqqında bilikləri iki yolla: bilavasitə, yəni hissiyyat orqanlarının köməyi olmadan və bilvasitə əldə etmək mümkündür.

**İdrak haqqında təlim.** C.-də bilik (pramana) mənbələri aşağıdakılar hesab edilir: 1) hissi qavrayış və məntiqi nəticə (mati); 2) C.-in müqəddəs mətnləri, yaxud ustadın sözləri (şruti); 3) bəsirət (avadhi); 4) telepatiya (manah-napyaya); 5) hər şeyi bilmə (kevala cnyana). Mənbələrin ilk üçü həm həqiqi, həm də yalançı, son ikisi yalnız həqiqi ola bilər. C.-ə görə, gerçəklik çoxölçülü olduğundan, "birtərəfli olmadığından", hər hansı predmet, yaxud hadisə haqqında yalnız bir yanaşma, yaxud bir nöqteyi-nəzər daxilində tam və adekvat bilik əldə etmək mümkün deyil. "Birtərəfli olmama" (anekantavada) konsepsiyası iki bölmədən ibarətdir: nöqteyi-nəzərlər haqqında təlimdən (nayyavada) və "müəyyən mənada" doktrinadan (syadvada). Birincisi hər hansı predmeti yeddi nöqteyi-nəzərdən qiymətləndirməyi öyrədir: 1) nayqamya – məqsədli, "teleoloji", yaxud obyektin ümumi və xüsusi xassələrinin qarşılıqlı əlaqəsini nəzərdən keçirir; 2) samqraha – əşyanı predmetlərin müəyyən sinfinə mənsub olması kimi nəzərdən keçirir; 3) vyavahra – adi; 4) ricusutra – məkan-zaman daxilində; 5) şabda – kontekstual; 6) samabhirudha – etimoloji; 7) evambhuta – konkret obyektə münasibətdə söz kökünün yalnız bir mənasını fiksə edir. Lakin C.-in bir çox mütəfəkkiri əksər hallarda yalnız iki nöqteyi-nəzəri istifadə edirdilər (ehtimal ki, buddist fəlsəfəsinin təsiri ilə): əsl, təmiz, həqiqi və adi, qeyri-təmiz, qeyri-həqiqi. Syadvada (syad, hərfi mənası – ola bilsin, müəyyən mənada) istənilən obyekti yeddi mövqedən təsvir edir: müəyyən mənada 1) mövcuddur, 2) mövcud deyildir, 3) mövcuddur və mövcud deyildir, 4) qeyri-təsvirediləndir, 5) mövcuddur və qeyri-təsvirediləndir, 6) mövcud deyil və qeyri-təsvirediləndir, 7) mövcuddur, mövcud deyildir və qeyri-təsvirediləndir.

**Etika.** Dünyanı həqiqi görməni müşayiət edən düzgün davranış özündə karmanın cana axmasının dayandırılmasını (samvara) və toplanmış karmanın məhvini (nircara) ehtiva edir; bunun üçün aşağıdakılar gərəkdir: 1) beş böyük qadağanı tətbiq etmək (zor işlətməmək, oğurlamamaq, düzgünlük, bağlanmamaq və bakirəlik); 2) qidalanmada, yerimədə, nitqdə, əşyalar almaqda ehtiyatı gözləmək; 3) bədən, nitq və ağıl üzərində nəzarəti həyata keçirmək; 4) 10 xeyirxahlığa (mülayimlik, tabeçilik, qətiyyət, təmizlik, düzgünlük, özünürametmə, askeza, bədəndən imtina, tərki-dünyalıq, bakirəlik) yüksək səviyyədə yetişmək; 5) bu dünyanın faniliyi, qeyri-təmizliyi haqqında, xilasolma zərurəti, canın və qeyri-canın fərqi və s. haqqında düşünmək; 6) təmkinli olmaq; 7) meditasiya üçün təkliyə çəkilmək. Karmanın məhv edilməsi bunlarla yanaşı, asketik təcrübənin müxtəlif növlərini də (dadlı qidadan imtina, qida rasionunun məhdudlaşdırılması və s.) nəzərdə tutur. Sərt askeza nəticəsində civa azad olmuş cana (siddha) çevrilə və bir daha yeni həyatlarda təcəssüm tapmaya bilər. Bədən qılafından tamamilə azad olan can dünya universumunun (siddha-loka) yuxarısına yönəlir. C.-də xilasolma canın təbii vəziyyəti hesab olunur, bu vəziyyətdə o öz təmiz şüurunu tam göstərir və hər şeyi bilmə əbədi səadətinə çatır.

**Məktəblər və kult.** Müasir C.-in şvetambar məktəbləri murtipucaka, sthanakavasi və terapantha, diqambar məktəbləri isə bisapantha, terapantha, taranapantha, qumanapantha və kancipanthadır.

**CAYPÚR** – Hindistanın şm.-q.-ində şəhər. Racəsthan ştatının inz. m. Əh. 2,9 mln. (2007). Aravalli silsiləsinin ətəklərində, 431 *m* hünd.-də yerləşir. İri nəql. qovşağı. Beynəlxalq aeroport.

Caypur. Cal-Mahal sarayı ("Su saray").





Caypur. Hava-Mahal sarayı

Əsasını 1728 ildə, 12 əsrdə bu torpaqları işğal etmiş racput tirələrindən birinin nümayəndəsi – Amber maharacəsi II Cay Sinqh qoymuşdur. Moğol imperiyasının vassalı olmuş Caypur racəliyinin eyniadlı yeni paytaxtı kimi yaradılmışdır. 1947 ildə Hindistan müstəqilliyik qazandıqdan sonra C. Racəsthan ştatının inzibati mərkəzi oldu (1948).

Divarlarla əhatə olunmuş köhnə şəhərin memarlığında çəhrayı qumdaşıdan çox istifadə edildiyi üçün C. "çəhrayı şəhər" kimi məşhurdur. Onun düzgün planlaşdırılması qədim hind memarlığı ənənələrinin (düz bucaq altında kəsişən geniş küçələr dünyanın 4 cəhətinə istiqamətləndirilmişdir) davamıdır: Hava-Mahal sarayı ("Küləklər sarayı"; 18 əsrin 2-ci yarısı) orijinaldır: onun ornamentli fasadında 953 pəncərə var. Çandra-Mahal sarayı (18 əsr; hazırda Caypur maharacəsinin muzeyi), Cantar-Mantar rəsədxanası (1728–34), bağlar, fəvvarələr və s.-nin daxil olduğu şəhər sarayı kompleksinin (köhnə C. meydanının 1/7 hissəsi) qəribə üslubunda racput və moğol memarlığının elementləri birləşir. Şəhər divarları xaricində 19–20 əsrə aid evləri olan C.-un yeni hissəsi yerləşir. Şəhərdə Racəstan un-ti (1947); 50-yə yaxın kollec (o cümlədən k.t., tibb, mühəndislik və s.); Albert muzeyi (1876, 1886 ildə açılmışdır; miniatür, xalça, silah və s.-dən ibarət kolleksiya) fəaliyyət göstərir. C. Hindistanda kriket mərkəzlərindən biridir. "Savay Mansinqx" stadionunda (təqr. 30 min tamaşaçı tutur) 1987 və 1996 illərdə kriket üzrə Dünya kuboku yarışları keçirilmişdir.

Caypur. Hava-Qalta məbəd kompleksi.



Mühüm sənaye-ticarət mərkəzidir. Kimya, elektrotexnika, sement, şüşə-saxsı, yüngül (o cümlədən pambıq parça), yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir. C. Hindistanda qiymətli və yarımqiymətli daşların və əlvan daşların emalı üzrə ən iri mərkəzdir.

Bədii sənətkarlıq (zərgərlik məmulatlarının rəngkarlıq miniatürlərinin, xalçaların hazırlanması; zərbətmə, fil sümüyü və daş üzərində oyma və s.); turizm inkişaf etmişdir. C.-un yaxınlığında Amber ş.-nin içqalasında, racəstxan knyazlarının sarayı (16 əsrin sonu – 17 əsr), Cayqarx istehkamı, çariça Sisodinin bağları, Qalta məbəd kompleksi (18 əsr, divar naxışları) var.

**CAZ** (ing.jazz) – qeyri-akademik musiqi növü. 19 əsrin sonu – 20 əsrin əvvəllərində ABŞ-ın cənubunda afroamerikalıların və Avropa musiqi ənənələrinin qarşılıqlı təsiri nəticəsində yaranmışdır. Sonralar ABŞ və Qərbi Avropada qrammofon yazıları və radio verilişlərinin sürətlə yayılması sayəsində kütləvi populyarlıq qazanmışdır. C.-ın stilistik əlamətləri tez tanınandır, onların dinləyiciyə təsirini psixoterapiya ilə müqayisə etmək olar. C.-ın mənbəyi kupletli mahnıdır; iki tip kuplet forması səciyyəvidir: "blüz kvadratı" və mahnı forması. C. afroamerikalıların xalq yaradıcılığının improvizasiya formalarında, əmək, dini, dünyəvi mahnılarında, həmçinin ABŞ-ın ağdərili məskunlarının məişət-rəqs musiqisində yaranmışdır. Termin 1920-ci illərdə yayılmağa başlamışdır; əvvəlcə kiçik orkestrlər (*caz-band*), həmçinin onların ifa etdiyi musiqi belə adlanırdı. 1900–1910-cu illərdə C.-da "Yeni Orlean üslubu" formalaşdı. Üslub üçün ritm-qrupun (zərb alətləri, nəfəs, yaxud simli bas, banco, bəzən fp.) müşayiəti fonunda orkestrin melodik qrupunun (kornet, klarnet, trombon) kollektiv improvizasiyası səciyyəvidir. Əsas mövzunun kollektiv şərhindən sonra solo improvizasiya nəzərdə tutulan rəqs pyeslərinin ifa normaları tədricən müəyyən edildi. 1920-ci illərin "Çikaqo üslubu" (ən məşhur nümayəndələri trubaçalanlar Kinq Oliver və *L.Armstronqdur*) bununla səciyyələnir. 1930-cu illərin əvvəlində böyük orkestrlərin – biq-bendlərin fəaliyyəti ilə əlaqədar xüsusi aranjimanı olan *svinq* üslubu yarandı; burada melodik alətlər qrupunun (4–5 saksofon, 3–4 truba, 3–4 trombon) və ritm-qrupun səslənməsi qarşı-qarşıya qoyulur. F. Henderson, Dyuk *Ellinqton*, bir qədər sonra B. *Qudmen*, T. Dorsi, K. Beysi və Q. Millerin orkestrləri böyük şöhrət qazandı. C.-ın kommersiya növü (caz elementli pop-musiqi) və simfocaz xüsusi populyarlıq qazandı. Simfocazın ən görkəmli nümayəndəsi Pol Uaytmen oldu (*C.Gerşvinin* "Blüz üslubunda rapsodiya"sının sifarişçisi kimi məşhurdur).

1940-cı illərin əvvəllərində Nyu-Yorkun "Bördlend" klubu ətrafında qruplaşmış və C.-ın əyləncə-rəqs funksiyası ilə kifayətlənməyən afroamerikalı musiqiçilərin (alt-saksofonçu Ç.Parker, trubaçalan Dizzi *Gillespi*, pianoçular B. Pauell, T. Monk və b.) yaradıcı axtarışları nəticəsində dissonant mövzuların istifadəsinə, mürəkkəb harmoniyaya, improvizəçinin artan roluna əsaslanan bi-bop (səsi təqlid edən söz) üslubu yarandı. "Ehtiraslı", sinirli bi-bop üslubuna qarşı 1950-ci illərdə virtuoz improvizə texnikasını ənənəvi kompozisiya vasitələri (o cümlədən imitasiyalı polifoniya) yumşaq səslənmə, sakit ifaçılıq tərzi ilə birləşdirən "kul" üslubu (ing. cool, hərfi mənası – sərin) meydana gəldi. Sonradan ağır orkestr səslənməsi ilə seçilən "proqressiv" üslubu (S. Kenton, B. Ribörn) və avanqard akademik musiqi ilə C.-ı sintez edən üçüncü (G.Şuller, C.Lyuis) cərəyan yarandı.

1950-ci illərdən başlayaraq böyük sayda müxtəlif C. məktəbləri, cərəyanlar, üslublar meydana gəldi: "hard-bop" (ing. hard – bərk, sərt); "fri-caz" ( ing. free – azad, sərbəst; O. Kolmen, D. Çerri, A. Ayler); "modal" C. (trubaçalan M. *Deyvis*, tenor-saksofoncu C. *Koltreyn*); caz-rok (pianoçular Çik Koria, Herbi Henkok, Co Zavinul, gitaraçı C. Maklaflin, skripkaçı J.L. Ponti və b.). Müğənnilərdən E. *Fitscerald* və S. Boan, pianoçular O. *Piterson* və *B.Evans*, alt-saksofonçu Ç. *Parker*, skripkaçı S. *Qrappelli*, gitaraçılar Co Pass və C. Skofild, kontrabasçalan Ç. Minqus, vibrafonçu G. Börton, "Manhetten Transfer" vokal ansamblı və b. tanınmış C. ustalarıdır.

C.-ın dəbdə olan rəqs ritmləri və folklorla qarşılıqlı təsiri nəticəsində ritm-endblüz, *rok-n-roll*, bossa-nova, soul, fyujn, fanki, smus-caz (ing. smooth – hamar, düz; "hamarlanmış" caz) və s. yarandı. Qeyri-Amerika mənşəli özünəməxsus caz musiqiçilərinin meydana gəlməsi milli caz məktəblərinin yaranmasına səbəb oldu. Lakin caz ritminin elementləri, harmoniyası və melodikasından bir çox akademik bəstəkarlar – K.Debüssi, M.Ravel, P.Hindemit, D.Miyo, C.Gerşvin, L.Bernstayn, İ.F.Stravinski, D.D.Şostakoviç və b. istifadə etsələr də, bütünlüklə Avropa ölkələri və SSRİ-də C.-a ilkin reaksiya birmənalı olmamışdır.

Azərb.-da 1941 ildə yaradılmış Azərb. Dövlət Caz Orkestri (bədii rəhbəri Niyazi, musiqi rəhbəri T.Quliyev, ifaçı və solistlər T.Quliyev, P.Rüstəmbəyov, İ.Kələntərov, V.Alladin, A.Bünyadzadə, D.Bağırbəyova və b.) SSRİ-də ilk C. ork.-larından idi. Sonralar fəaliyyətə başlayan Azərb. Dövlət Estrada orkestri (1956–74; bədii rəhbəri *R.Hacıyev*) və Azərb. Televiziyası və Radiosu Estrada-Simfonik Orkestri (1955 ildən; bədii rəhbəri T. *Əhmədov*) heyətləri və repertuarlarına görə C. kollektivinə yaxın idi. Azərb.-da C. elementləri ilə xalq musiqisinin, xüsusilə muğam sənətinin sintezi *V.Mustafazadənin* yaradıcılığında orijinal şəkildə əks olunmuşdu. Azərb.-da bir sıra ansamblar, eləcə də ayrı-ayrı musiqiçilər – "Qaya" Dövlət vokal-instrumental ansamblı, Tallin, Moskva, Tbilisi, Bakı və s. şəhərlərdə keçirilmiş Ümumittifaq C. musiqisi festivallarının laureatı R. *Babayev* C.-ın müxtəlif növlərinə müraciət edirdilər. Azərb. bəstəkarlarının musiqisinə də C.-ın müəyyən təsiri olmuşdur (Q.Qarayevin "Blüz"ləri, 23-cü fp. prelüdü, səs və caz ork. üçün 3 noktürnü, F. Qarayev və V.Mustafazadənin fp. konsertləri, Q. Qarayev, T. Quliyev, R. Hacıyev, T.Əhmədov, X. Mirzəzadə, Ə. Əzizov və b.-nın estrada və kino musiqisi). Məşhur caz ifaçısı Ə. Mustafazadə (Telonyus Monk ad. pianoçular müsabiqəsinin qalibi, Vaşınqton; Almaniya Səs Akademiyasının və "Sony"nin Exo mükafatları laureatı), gənc cazmenlərdən Azərb. Resp. əməkdar artisti İ. Sarabski ("Montreux Jazz Festivalı"nın qalibi, 2009, İsveçrə), və Ş. Növrəsli (bir çox C. festivalının laureatı) Azərb. C. musiqisini beynəlxalq səviyyədə uğurla təmsil edirlər. 1983 ildən Bakıda V. Mustafazadənin xatirəsinə həsr olunmuş beynəlxalq C. festivalı keçirilir.

**CAZ MURİÁN** – İranda axarsız çökəklik. İran yaylasının c.-ş.-indədir. Uz. təqr. 300 *km*, eni 140 *km*-ədək, hünd. təqr. 360 *m*-dir. Səthi bataqlıqlaşmış düzənlikdir; mütəhərrik iri qum massivləri var. Yazda çaylar daşan zaman su ilə dolur, dəyişkən ölçülü dayaz (20–30 *sm*) şor göllər əmələ gəlir; sahilində qamışlıqlar var.

**CAZ-BÁND**, caz-bend, caz-bənd (jazz band) – caz musiqisini ifa edən kiçik orkestr və ya ansambl (5–10 ifaçı). Simfonik caz, simfocaz da adlanır. Adı 1916–17 illərdə yaranmışdır. Yeni Orleanın agdərili musiqiçilərinin "Stein's Dixie Jazz Band" (sonralar "Original Dixieland Jazz Band), "Dixieland Jazz Band" (Tom Braunun rəhbərliyi ilə) və afroamerikan musiqiçilərinin "Creole Jazz Band" (Kinq Oliverin rəhbərliyi ilə; L. *Armstronq* bu ansamblda çalmışdır) ansamblları ilk C. b.-lar idi. "C.b" adı "Oriqinal Dixieland Jazz Band" ansamblının ifa etdiyi caz musiqisinin ilk lent yazısından götürülmüşdür.

**CAZİBƏ** (qravitasiya, qravitasiya qarşılıqlı təsiri) – istənilən növ materiyalar arasında universal qarşılıqlı təsir. Qarşılıqlı təsir nisbətən zəif olduqda və cismlər $c$ işıq sürətinə nəzərən yavaş hərəkət etdikdə, İ. *Nyutonun* ümumdünya cazibə qanunu ödənir. C. ümumi halda A. *Eynşteynin* ümumi nisbilik nəzəriyyəsi ilə təsvir edilir. Ümumi nisbilik nəzəriyyəsi C.-ni materiyanın məkan və zamanın xassələrinə, məkan-zamanın bu xassələrinin də öz növbəsində cismlərin hərəkətinə və başqa fiziki proseslərə təsiri kimi təsvir edir. Beləliklə, müasir C. nəzəriyyəsi başqa növ qarşılıqlı təsir (elektromaqnit, güclü və zəif) nəzəriyyələrindən kəskin fərqlənir. Lakin müasir fiziklərin əksəriyyəti belə hesab edir ki, çox yüksək enerjilərdə bütün fundamental qarşılıqlı təsir növləri vahid qarşılıqlı təsirə birləşir.

**Nyutonun cazibə nəzəriyyəsi.** Cismlərin ümumi xassəsi kimi C. haqqında ilk mülahizələr antik dövrə aiddir. 16 və 17 əsrlərdə cismlərin qarşılıqlı cəzb olunmasının mövcudluğunun sübutuna edilən cəhdlər Avropada yenidən dirçəldi. Alman alimi İ. *Kepler* hesab edirdi ki, "ağırlıq bütün cismlərin qarşılıqlı yaxınlaşmaya olan səyidir". Ümumdünya C. qanununun qəti və dürüst ifadəsini 1687 ildə Nyuton özünün əsas elmi əsəri olan "Natural fəlsəfənin riyazi başlanğıcı"nda vermişdir. Nyutonun C. qanununda deyilir ki, hər hansı iki $m_A$ və $m_B$ kütləli maddi zərrəcik kütlələrinin hasili ilə düz, aralarındakı məsafənin ($r$) kvadratı ilə tərs mütənasib olan $F$ qüvvəsi ilə birbirini cəzb edir:

$$F = G\frac{m_A m_B}{r^2} \qquad (1)$$

(maddi zərrəciklər dedikdə xətti ölçüləri

aralarındakı məsafəyə nisbətən çox kiçik olan istənilən cismlər başa düşülür). $G$ mütənasiblik əmsalı *qravitasiya sabiti* adlanır. Q. *Kavendiş* laboratoriyada iki kürə arasındakı cazibə qüvvəsini ölçmüş və ilk dəfə olaraq 1798 ildə $G$-nin ədədi qiymətini təyin etmişdir. Müasir məlumatlara görə:

$$G=6{,}6745(8)\cdot 10^{-8}\,sm^3/q\cdot san^2=6{,}6745(8)\cdot 10^{-11}\,m^3/kq\cdot san^2$$

(1) qanununa görə C. qüvvəsi zərrəciklərin vəziyyətindən yalnız həmin zaman anında asılıdır, yəni qravitasiya qarşılıqlı təsiri ani yayılır.

Çoxlu sayda başqa zərrəciklər (və ya hər hansı fəza oblastında fasiləsiz paylanmış maddə) tərəfindən verilən zərrəciyə təsir edən C. qüvvəsini hesablamaq üçün ayrı-ayrı zərrəciklərin təsir qüvvələrini vektor şəklində toplamaq (fasiləsiz paylanmış maddə halında inteqrallamaq) lazımdır. Beləliklə, Nyutonun C. nəzəriyyəsində *superpozisiya prinsipi* ödənir. Nyuton nəzəri olaraq sübut etdi ki, maddənin sferik simmetrik paylandığı sonlu ölçülü iki kürə arasındakı C. qüvvəsi də (1) düsturu ilə ifadə olunur, burada $m_A$ və $m_B$ – kürələrin tam kütlələri, $r$ – onların mərkəzləri arasındakı məsafədir. Maddənin ixtiyari paylanması zamanı verilən nöqtədə sınaq zərrəciyinə təsir edən C. qüvvəsi bu zərrəciyin kütləsinin C. sahəsinin intensivliyi adlanan $\boldsymbol{g}$ vektoruna vurma hasili kimi ifadə oluna bilər. $\boldsymbol{g}$ modulca nə qədər böyük olarsa, C. sahəsi də bir o qədər güclü olar.

Nyuton qanunundan belə çıxır ki, C. sahəsi – potensial sahədir, yəni onun $\boldsymbol{g}$ intensivliyi q r a v i t a s i y a p o t e n s i a l ı adlanan müəyyən $\varphi$ skalyar kəmiyyətinin qradiyenti kimi ifadə edilə bilər:

$$\boldsymbol{g}=-\mathrm{grad}\,\varphi. \qquad (2)$$

Məs., $m$ kütləli zərrəcik üçün C. sahəsinin potensialı

$$\varphi=-G\frac{m}{r}. \qquad (3)$$

$\rho=\rho(\boldsymbol{r})$ fəzasında maddə sıxlığının ixtiyari paylanması verilərsə, bu paylanmanın qravitasiya potensialını və, deməli, bütün fəzada $\boldsymbol{g}$ qravitasiya sahəsinin intensivliyini hesablamaq olar. $\varphi$ potensialı *Puasson tənliyinin* həlli kimi təyin edilir:

$$\Delta\varphi=4\pi G\rho, \qquad (4)$$

burada $\Delta=d^2/dx^2+d^2/dy^2+d^2/dz^2$ Laplas operatorudur.

Hər hansı cismin və ya cismlər sisteminin qravitasiya potensialı həmin cismi və ya sistemi təşkil edən zərrəciklərin C. sahələrinin potensiallarının cəmi (superpozisiya prinsipi), yəni (3) ifadəsinin inteqralı şəklində yazıla bilər:

$$\varphi=-\int G\frac{dm}{r}\,. \qquad (4a)$$

İnteqrallama cismin (və ya cismlər sisteminin) bütün kütləsi üzrə aparılır, $r$ – $dm$ kütlə elementindən potensial hesablanan nöqtəyə qədər olan məsafədir. (4$a$) ifadəsi (4) Puasson tənliyinin həllidir. Təcrid olunmuş cismin (cismlər sisteminin) potensialı birqiymətli təyin edilmir. Məs., potensiala ixtiyari sabit əlavə etmək olar. Lakin cismdən uzaqda, sonsuzluqda potensial sıfıra bərabər qəbul olunursa, onda potensial Puasson tənliyinin (4$a$) şəklində həlli ilə birqiymətli təyin edilir.

Nyutonun C. nəzəriyyəsi və Nyuton mexanikası təbiətşünaslığın çox böyük nailiyyəti oldu. Onlar böyük dəqiqliklə bir çox hadisələri, o cümlədən təbii və süni cismlərin Günəş sistemində və başqa göy cismləri sistemlərində (ikiqat ulduzlarda, ulduz topalarında, qalaktikalarda) hərəkətini təsvir etməyə imkan verir. Nyutonun C. nəzəriyyəsi əsasında Neptun planetinin və Sirius peykinin mövcudluğu və bir çox başqa hadisələr haqqında qabaqcadan verilən xəbərlər öz parlaq təsdiqini tapdı. Astronomiyanın fundamenti olan Nyutonun C. qanunu əsasında göy cismlərinin quruluşu və hərəkəti, təkamülü hesablanır, onların kütlələri təyin edilir. Yerin qravitasiya sahəsinin dəqiq təyini onun səthi altında kütlənin paylanmasını müəyyən etməyə imkan verir (qravimetrik kəşfiyyat). Lakin C. bəzi hallarda Nyuton qanunu ilə təsvir oluna bilmir.

**Nyutonun cazibə qanununun ümumiləşdirilməsinin zəruriliyi.** Nyutonun nəzəriyyəsi C.-nin ani yayılmasını fərz edir və buna görə xüsusi nisbilik nəzəriyyəsi (bax *Nisbilik nəzəriyyəsi*) ilə uzlaşmır (bu nəzəriyyə təsdiq edir ki, heç bir qarşılıqlı təsir işığın vakuumdakı sürətindən böyük sürətlə yayıla bilməz). Nyutonun C. nəzəriyyəsinin tətbiqini məhdudlaşdıran şərtləri təyin edək. Bu nəzəriyyə xüsusi nisbilik nəzəriyyəsi ilə uzlaşmadığına görə onu güclü C. sahəsində bu sahənin təsiri ilə $c$ işıq sürətinə yaxın sürətlə hərəkət edən cismə tətbiq etmək olmaz. Nəzərə alınmayacaq dərəcədə kiçik başlanğıc sürətlə sonsuzluqdan müəyyən nöqtəyə qədər sərbəst düşən cismin bu nöqtədə aldığı sürət, həmin nöqtədə $\varphi$ qravitasiya potensialı modulunun kvadrat kökünün qiyməti tərtibində olur (fərz edilir ki, sonsuzluqda $\varphi=0$). Beləliklə, Nyuton nəzəriyyəsini yalnız o halda tətbiq etmək olar ki,

$$|\varphi|\ll c^2 \qquad (5)$$

olsun.

Adi göy cismlərinin C. sahələrində bu şərt ödənir: məs., Günəş səthində $|\varphi|/c^2\approx 4\cdot 10^{-6}$, *ağ cırtdanların* səthində isə $10^{-3}$ tərtibdədir.

Nyuton nəzəriyyəsi ağır kütləli cismlərin yanından işıq sürətinə yaxın sürətlə uçan zərrəciklərin hərəkətini hətta (5) şərtini ödəyən zəif cazibə sahəsində də hesablamağa yaramır. O cümlədən, bu nəzəriyyə C. sahəsində işığın trayektoriyasını hesablamağa tətbiq oluna bilmir. Nəhayət, Nyuton nəzəriyyəsi $r\gg\lambda=c\tau$ ($\tau$ – sistemdə xarakterik hərəkət müddəti, məs., ikiqat ulduz sistemində dövr periodu) məsafələrində hərəkət edən cismlərin yaratdığı dəyişən C. sahəsinin hesablamalarında işlədilə bilmir. Doğrudan da, Nyuton nəzəriyyəsinə əsasən, sistemdən hər hansı məsafədə C. sahəsi bu sahənin təyin edildiyi anda kütlənin vəziyyəti ilə müəyyən olunur, yəni cismin sistemdə yerdəyişməsi ilə bağlı olan qravitasiya sahəsinin dəyişmələri ani olaraq istənilən $r$ məsafəsinə ötürülür ki, bu da xüsusi nisbilik nəzəriyyəsinə ziddir.

C. nəzəriyyəsini xüsusi nisbilik nəzəriyyəsi əsasında 1915–16 illərdə Eynşteyn ümumiləşdirmiş və yeni nəzəriyyəni ümumi nisbilik nəzəriyyəsi (ÜNN) adlandırmışdır.

**Ekvivalentlik prinsipi.** C. sahəsinin Nyuton nəzəriyyəsindən məlum olan və Eynşteynin yeni nisbilik nəzəriyyəsinin əsasını təşkil edən ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, C., kütləsindən, kimyəvi tərkibindən və başqa xassələrindən asılı olmayaraq, bütün cismlərə eyni təcil verərək eyni cür təsir edir. Məs., Yerin C. sahəsinin təsiri altında müxtəlif cismlər onun səthinə eyni təcillə – *sərbəst düşmə təcili* ilə düşür. Bu fakt Q. *Qaliley* tərəfindən təcrübə yolu ilə sübut edilmiş və cismin C. sahəsi ilə qarşılıqlı təsirini müəyyən edən və (1) qanununa daxil olan qravitasiya və ya ağır $m_a$ kütləsinə və cismin ona təsir edən qüvvəyə göstərdiyi müqaviməti təyin edən və Nyutonun ikinci qanununa daxil olan $m_ə$ ətalət kütləsinə ciddi mütənasiblik prinsipi kimi ifadə edilə bilər. C. sahəsində cismin hərəkət tənliyi:

$$m_ə\boldsymbol{a}=\boldsymbol{F}=m_a\boldsymbol{g}, \qquad (6)$$

$\boldsymbol{a}$ – qravitasiya sahəsinin $\boldsymbol{g}$ intensivliyinin təsiri nəticəsində cismin aldığı təcil. $m_ə$ – ətalət kütləsi $m_a$-ya mütənasib olarsa və istənilən cism üçün mütənasiblik əmsalı eynidirsə, onda ölçü vahidini elə seçmək olar ki, bu əmsal vahidə bərabər olsun, $m_ə=m_a$; bu halda (6) tənliyində kütlələr ixtisar edilir, $\boldsymbol{a}$ təcili kütlədən asılı olmur və Qaliley qanununa əsasən, C. sahəsinin $\boldsymbol{g}$ intensivliyinə bərabər olur.

Beləliklə, başlanğıc sürəti eyni olan bütün cismlər C. sahəsində tamamilə eyni cür hərəkət edir. Bu fakt C. sahəsində və C. sahəsi olmadıqda (lakin təcilli hesablama sisteminə nəzərən) cismlərin hərəkəti arasında dərin oxşarlıq olduğunu göstərir. Belə ki, C. olmadıqda müxtəlif kütləli cismlər ətalətə görə düzxətli və bərabərsürətli hərəkət edir. Bu cismləri C. sahəsindən kənarda mühərrikin işi hesabına sabit təcillə hərəkət edən kosmik gəminin kabinəsindən müşahidə etdikdə, bütün cismlər kabinəyə görə eyni sabit təcillə və gəminin hərəkətinin əksi istiqamətdə hərəkət edəcəklər ki, bu da cismlərin sabit bircinsli C. sahəsində eyni təcillə düşməsi kimidir. Yer səthindəki sərbəstdüşmə təcilinə bərabər təcillə hərəkət edən kosmik gəmidə təsir edən ətalət qüvvəsi Yer səthində dayanmış gəmidə həqiqi C. sahəsində təsir edən qravitasiya qüvvələrindən fərqlənmir. Deməli, təcilli hesablama sistemində (kosmik gəmi ilə bağlı) ətalət qüvvələri qravitasiya sahəsinə ekvivalentdir. Bu fakt Eynşteynin ekvivalentlik prinsipi ilə ifadə edilir. Bu prinsipə əsasən, C. sahəsinin yuxarıda təsvir edilən oxşarının əksinə olan üsulu həyata keçirmək, yəni sərbəstdüşmə təcili ilə hərəkət edən hesablama sistemini daxil etməklə verilən nöqtədə həqiqi qravitasiya sahəsini "yox etmək" olar. Məs., yaxşı məlumdur ki, Yerin C. sahəsi ətrafında sərbəst hərəkət edən kosmik gəminin (mühərrik söndürülüb) kabinəsində çəkisizlik baş verir – C. qüvvələri olmur. Eynşteyn hesab edirdi ki, yalnız mexaniki hərəkət deyil, ümumiyyətlə, bütün fiziki proseslər həqiqi C. sahəsində və C. sahəsi olmayan təcilli sistemdə eyni qanunlarla baş verir. Bu prinsip, yalnız mexanika qanunlarına aid olan "zəif ekvivalentlik prinsipindən" fərqli olaraq, "güclü ekvivalentlik prinsipi" adını aldı.

**Eynşteynin cazibə nəzəriyyəsi.** C. sahəsi olmadıqda sabit təcillə hərəkət edən hesablama sistemi (mühərriki işləyən kosmik gəmi) yalnız bütün məkanda qiymət və istiqamətcə eyni olan bircins qravitasiya sahəsinə bənzəyir. Lakin ayrı-ayrı cismlərin yaratdığı C. sahələri belə deyil. Məs., Yerin sferik C. sahəsinin oxşarını tapmaq üçün müxtəlif nöqtələrdə təcilin müxtəlif istiqamətlərinə malik təcilli sistemlər lazımdır. Müxtəlif sistemlərdə olan müşahidəçilər öz aralarında əlaqə quraraq məlumat edəcəklər ki, onlar bir-birinə nəzərən təcilli hərəkət edirlər və bununla da həqiqi C. sahəsinin yoxluğunu aşkara çıxaracaqlar. Beləliklə, adi məkanda və ya daha dəqiqi, xüsusi nisbilik nəzəriyyəsinin məkan-zamanında təcilli hesablama sisteminin tətbiqi həqiqi C. sahəsi ilə uzlaşmır. Eynşteyn göstərdi ki, ekvivalentlik prinsipinə görə həqiqi qravitasiya sahəsi hər bir nöqtədə uyğun lokal təcilli sistemlərə ekvivalentdirsə, onda istənilən sonlu oblastda məkan-zaman əyilmiş (qeyri-Evklid) olur. Bu o deməkdir ki, üçölçülü fəzada həndəsə, ümumiyyətlə qeyri-Evklid olacaq (üçbucağın bucaqlarının cəmi 2π-yə bərabər deyil, çevrənin uz.-nun radiusa nisbəti 2π-dən fərqlənir və s.), zaman isə müxtəlif nöqtələrdə müxtəlif cür axacaq. Beləliklə, Eynşteynin C. nəzəriyyəsinə əsasən, həqiqi qravitasiya sahəsi dördölçülü məkan-zamanın əyilməsinin (Evklid həndəsəsindən fərqli olaraq) təzahürüdür.

Qeyd etmək lazımdır ki, Eynşteynin C. nəzəriyyəsinin yaranması yalnız N.İ. *Lobaçevskinin*, macar riyaziyyatçısı Y. *Bolyayın*, alman riyaziyyatçıları K. *Qaus* və B. *Rimanın* qeyri-Evklid həndəsəsinin kəşfindən sonra mümkün oldu.

C. olmadıqda xüsusi nisbilik nəzəriyyəsinin məkan-zamanında cismin hərəkəti ətalət üzrə düz xətlə və ya riyazi dildə ekstremal (g e o d e z i k) xətlə təsvir olunur. Eynşteynin C. nəzəriyyəsinin əsas ideyası ondan ibarətdir ki, C. sahəsində bütün cismlər məkan-zamanda geodezik xətlər üzrə hərəkət edir, lakin xətlər əyilmişlər və, deməli, geodezik xətlər əyri xətlərdir. Müşahidəçi bu hərəkəti üçölçülü məkan-zamanda əyri trayektoriyalar üzrə dəyişənsürətli hərəkət kimi başa düşür. Verilən C. sahəsində başlanğıc şərtləri eyni olan bütün cismlər, kütləsindən və tərkibindən asılı olmayaraq, eyni geodezik xətlər üzrə tamamilə eyni cür hərəkət edəcək. Ona görə də istənilən cismlərin sürətlərinin dəyişməsi, yəni onların təcili verilən qravitasiya sahəsində eynidir. Müxtəlif kütləli cismlərin təcillərinin eyni olması ağır və ətalət kütlələrinin dəqiq mütənasib olduğunu [(6) düsturuna bax] göstərir və bu kütlələr fərqlənmir.

Məkan-zaman əyriliyini qravitasiya sahəsinin mənbələri yaradır. C., yəni məkan-zaman əyilməsi yalnız cismi təşkil edən maddənin kütləsi ilə deyil, həm də sistemdə iştirak edən bütün enerji növləri ilə təyin edilir. Bu ideya xüsusi nisbilik nəzəriyyəsinin kütlə ($m$) və enerjinin ($\varepsilon$) ekvivalentlik prinsipinin C. nəzəriyyəsi üçün ümumiləşdirilməsi nəticəsində meydana gəlmişdir: $\varepsilon=mc^2$. Həmin ideyaya əsasən, C. kütlələrin yalnız məkanda paylanmasından deyil, həm də onların hərəkətindən, cismlərdə olan təzyiq və gərilmələrdən, elektromaqnit sahəsindən və bütün başqa fiziki sahələrdən asılıdır.

Nəhayət, Eynşteynin C. nəzəriyyəsində xüsusi nisbilik nəzəriyyəsinin bütün qarşılıqlı təsir növlərinin sonlu sürətlə paylanması haqqındakı nəticə ümumiləşdirilir. Eynşteynə görə, qravitasiya sahələrinin dəyişmələri vakuumda $c$ sürəti ilə yayılır.

E y n ş t e y n i n c a z i b ə t ə n l i y i. Xüsusi nisbilik nəzəriyyəsində *ətalət hesablama sistemində* (ə.h.s) məkan-zamanda sonsuz yaxın iki hadisə arasındakı dördölçülü "məsafənin" kvadratı

$$ds^2=(cdt)^2-dx^2-dy^2-dz^2 \qquad (7)$$

şəklində yazılır. $t$ – zaman, $x$, $y$, $z$ – düzbucaqlı Dekart koordinatları. Bu sistem Qaliley koordinat sistemi adlanır. (7) ifadəsi Evklid üçölçülü fəzasında Dekart koordinatlarında məsafənin kvadratı üçün olan ifadə ilə analojidir. Belə məkan-zamanı yastı (düz), Evklid, yaxud daha dəqiqi, zamanın xüsusi xarakterini qeyd etməklə psevdoevklid adlandırırlar: (7) ifadəsindəki fəza koordinatları qarşısındakı "–" işarələrindən fərqli olaraq $(cdt)^2$ qarşısında "+" işarəsi durur. Beləliklə, xüsusi nisbilik nəzəriyyəsi yastı məkan-zamanda (*Minkovski məkan-zamanı*) fiziki proseslərin nəzəriyyəsidir. Lakin bu nəzəriyyədə intervalı (7) şəklində yazılan Dekart koordinatlarından istifadə etmək vacib deyil. İxtiyari əyrixətli koordinatlar daxil etmək olar. Onda $ds^2$ bu yeni koordinatlarla ümumi kvadratik formada ifadə edilər:

$$ds^2=g_{ik}dx^idx^k\,, \qquad (8)$$

($i$, $k$=0, 1, 2, 3), $x^1$, $x^2$, $x^3$ – ixtiyari fəza koordinatları, $x^0$ – zaman koordinatı (burada və sonra iki dəfə rast gələn indekslər üzrə cəmləmə aparılır). Fiziki nöqteyi-nəzərdən ixtiyari koordinatlara keçid həm də ə.h.s.-ndən təcillə (ümumi halda müxtəlif nöqtələrdə müxtəlif) hərəkət edən, deformasiya olunan və fırlanan,

qeyri-Dekart koordinatların (və özbaşına işləyən saatların) istifadə edildiyi sistemə keçidi göstərir. Belə sistemlərin istifadə olunmasının mürəkkəb görünməsinə baxmayaraq, onlar praktiki olaraq əlverişlidir. Lakin interval olduqca sadə yazılan (7) Qaliley sistemindən də xüsusi nisbilik nəzəriyyəsində həmişə istifadə etmək olar [bu halda (8) düsturunda $i \neq k$ olduqda $g_{ik}=0$, $i=1, 2, 3$ olduqda $g_{00}=1$, $g_{ii}=-1$].

ÜNN-də məkan-zaman yastı deyil, əyridir. Belə məkan-zamanda (sonlu, böyük oblastlarda) Dekart koordinatlarını daxil etmək olmaz, əyrixətli koordinatların istifadəsi isə qaçılmazdır. Əyri məkan-zamanın sonlu oblastlarında $ds^2$ əyri koordinatlarda ümumi şəkildə yazılır (8). Dörd koordinatın funksiyası olan $g_{ik}$-nı bilərək, məkan-zamanın bütün həndəsi xassələrini təyin etmək olar. Hesab edirlər ki, $g_{ik}$ kəmiyyətləri m ə k a n - z a m a n ı n m e t r i k a s ı n ı təyin edir, bütün $g_{ik}$-ların cəmini isə m e t r i k  t e n z o r adlandırırlar. $g_{ik}$ köməyi ilə hesablama sisteminin müxtəlif nöqtələrində zamanın axma sürəti və üçölçülü fəzada nöqtələr arasındakı məsafələr hesablanır. Məs., hesablama sistemində hərəkətsiz vəziyyətdə olan saata görə $d\tau$ sonsuz kiçik zaman intervalını hesablamaq üçün düstur $d\tau = \sqrt{g_{00}}dx^0/san$ şəklində olur. C. sahəsində $g_{00}$ kəmiyyəti müxtəlif nöqtələrdə müxtəlifdir, deməli, zamanın axma sürəti C. sahəsindən asılıdır. Belə ki, sahə güclü olduqca, zaman sahədən kənardakı müşahidəçiyə görə olan zamana nisbətən zəif axır.

ÜNN-in riyazi aparatı tenzor hesablamadır; onun qanunları ixtiyari əyrixətli koordinatlarda k o v a r i a n t  ş ə k i l d ə yazılır (xüsusi halda bu, ixtiyari hesablama sistemlərindəki yazılışı ifadə edir). C. nəzəriyyəsinin əsas məsələsi ÜNN-ndə məkan-zaman həndəsəsinin tapılmasına uyğun olan qravitasiya sahəsinin təyin edilməsidir. Bu axırıncı məsələ $g_{ik}$ metrik tenzorun tapılmasına gətirir.

Eynşteynin C. tənlikləri $g_{ik}$ kəmiyyətlərini sahəni yaradan materiyanı xarakterizə edən kəmiyyətlərlə (sıxlıq, impuls seli və s.) əlaqələndirir. Bu tənliklər aşağıdakı şəkildə yazılır:

$$R_{ik} - \frac{1}{2} g_{ik} R = \frac{8\pi G}{c^4} T_{ik}. \qquad (9)$$

Burada $R_{ik} - g_{ik}$ ilə ifadə olunan Riççi tenzoru, onun koordinatlar üzrə birinci və ikinci tərtib törəmələri; $R=R_{ik}g^{ik}$ ($g^{ik}$ kəmiyyətləri $g_{ik}g^{km}=\delta_i^m$ tənliklərindən təyin edilir, $\delta_i^m$ – Kroneker simvolu: $i=m$ olduqda $\delta_i^m=1$, $i \neq m$ olduqda $\delta_i^m=0$); $T_{ik}$ materiyanın enerji-impuls tenzorudur, o, komponentləri materiyanı və onun hərəkətini (fiziki materiya dedikdə adi maddə və fiziki sahə başa düşülür) xarakterizə edən sıxlıq, impuls seli və s. kəmiyyətlərlə ifadə olunur.

ÜNN-in yaranmasından az sonra Eynşteyn göstərdi ki (1917), yeni nəzəriyyənin əsas prinsiplərini saxlamaqla (9) tənliklərini dəyişmək imkanı var. Bu dəyişiklik (9) tənliklərinin sağ tərəfinə kosmoloji həd deyilən $\Lambda g_{ik}$ həddinin əlavə edilməsindən ibarətdir. $\Lambda$ sabiti kosmoloji sabit adlanır, ölçüsü $sm^{-2}$-dir. Nəzəriyyənin belə mürəkkəbləşdirilməsinin səbəbi Eynşteynin zamandan asılı olmayan Kainat modelini yaratmağa cəhd etməsi idi. Kosmoloji həddə enerji sıxlığını və vakuum təzyiqini (və ya gərilməsini) təsvir edən kəmiyyət kimi baxmaq olar. Lakin 20-ci illərin ortalarında A.A. *Fridman* göstərdi ki, $\Lambda$-sız Eynşteyn tənlikləri Kainatın təkamül (qeyri-stasionar) modelinə gətirir, Amerika astronomu E. *Habbl* isə 1929 ildə qalaktikalar üçün *qırmızı yerdəyişmə* qanununu kəşf edərək bu modeli təsdiq etdi. Eynşteynin Kainatın statikliyi haqqındakı ideyası düz olmadı; $\Lambda$-həddi olan tənliklərin də Kainatın modelinin qeyri-stasionar həlli üçün yararlı olmasına baxmayaraq, $\Lambda$-həddinin zəruriliyinə ehtiyac qalmadı. Qeyd etmək lazımdır ki, $\Lambda$-nı sıfırdan fərqli hesab etmək üçün hələlik müşahidə eksperimenti və ya nəzəri əsas yoxdur. Hər halda, əgər $\Lambda \neq 0$ olarsa, onda astrofiziki müşahidələrə əsasən, onun mütləq qiyməti həddindən artıq azdır: $|\Lambda|<10^{-55}$ $sm^{-2}$. O, yalnız kosmologiyada əhəmiyyət daşıya bilər və C. nəzəriyyəsinin bütün başqa məsələlərinə praktiki olaraq təsir etmir. Bundan sonra hər yerdə $\Lambda=0$ götürüləcək.

(9) tənlikləri zahiri cəhətdən Nyuton potensialı üçün olan (4) tənliyinə oxşardır. Hər iki halda solda sahəni xarakterizə edən kəmiyyətlər, sağda isə sahəni yaradan materiyanı xarakterizə edən kəmiyyətlər durur. Lakin (9) tənlikləri bir sıra əhəmiyyətli xüsusiyyətlərə malikdir. (4) tənliyi xəttidir və ona görə də superpozisiya prinsipini ödəyir. O, sərbəst (ixtiyari) hərəkət edən kütlələrin hər hansı paylanması üçün $\varphi$ qravitasiya potensialının hesablamağa imkan verir. Nyutonun C. sahəsi kütlələrin hərəkətindən asılı deyil, ona görə də (4) tənliyi onların hərəkətini təyin etmir. Kütlələrin hərəkəti Nyuton mexanikasının ikinci qanununa (6) əsasən təyin edilir. ÜNN-də (9) tənlikləri xətti deyil, superpozisiya prinsipini ödəmir. Bu nəzəriyyədə tənliklərin sağ tərəfini ($T_{ik}$) materiyanın hərəkətindən asılı olan ixtiyari şəklə salmaq, sonra da qravitasiya sahəsini ($g_{ik}$) hesablamaq olmaz. Eynşteyn tənliklərinin həlli eyni zamanda sahəni yaradan materiyanın hərəkətinin təyininə və sahənin özünün hesablanmasına gətirir. Burada əsas odur ki, C. sahəsi tənlikləri özündə C. sahəsindəki kütlələrin hərəkət tənliklərini də saxlayır. Fiziki nöqteyi-nəzərdən bu, ÜNN-də materiyanın məkan-zaman əyriliyinin yaratmasına və bu əyriliyin də onu yaradan materiyanın hərəkətinə təsir etməsinə uyğun gəlir.

Zəif qravitasiya sahələri halında məkan-zaman metrikası Evklid metrikasından az fərqlənir və Eynşteyn tənlikləri təxmini olaraq Nyuton nəzəriyyəsinin (4) və (6) tənliklərinə keçir (hərəkətlərin işıq sürətinə ($c$) nisbətən və sahə mənbəyindən olan məsafələrin $\lambda=c\tau$-ya nisbətən çox kiçik olması hallarına baxılarsa, burada $\tau$ – sahə mənbəyində cisimlərin vəziyyətinin xarakterik dəyişmə müddətidir). Bu halda Nyuton tənliklərinə kiçik düzəlişlərin edilməsi ilə kifayətlənmək olar. Bu düzəlişlərə uyğun effektlər ÜNN-i eksperimentlə yoxlamağa imkan verir. Eynşteyn nəzəriyyəsinin effektləri xüsusilə güclü qravitasiya sahələrində çox mühüm yer tutur.

ÜNN-in bir çox nəticələri Nyutonun C. nəzəriyyəsinin nəticələrindən keyfiyyətcə fərqlənir. Onlardan ən mühümləri *qara deşiklərin* yaranması, məkan-zamanın sinqulyarlığı (nəzəriyyəyə görə, zərrəciklərin və bizə məlum formada olan adi sahələrin mövcudluğunun formal olaraq yox olduğu yerlər) və qravitasiya dalğalarının mövcudluğu (*qravitasiya şüalanması*) ilə bağlıdır.

**Kvant effektləri. Eynşteynin cazibə nəzəriyyəsinin tətbiq olunma hüdudları.** ÜNN kvant nəzəriyyəsi deyil. Bu baxımdan o, Maksvellin klassik elektrodinamikasına oxşardır. Lakin daha ümumi mühakimələr göstərir ki, qravitasiya sahəsi eynilə elektromaqnit sahəsi kimi kvant qanunlarına tabe olmalıdır. Əks halda elektronlar, fotonlar və s. üçün olan qeyri-müəyyənlik prinsipi ilə ziddiyyət yaranardı. Kvant nəzəriyyəsinin qravitasiyaya tətbiqi göstərir ki, qravitasiya dalğalarına sükunət kütləsi sıfır, spini 2 ($h$ vahidlərində) olan q r a v i t o n – kvant seli kimi baxmaq olar.

Kainatda və laboratoriya şəraitlərində mümkün olan proseslərin böyük əksəriyyətində qravitasiyanın kvant effektləri həddindən artıq zəif olduğundan Eynşteynin qeyri-kvant nəzəriyyəsindən də istifadə etmək olar. Lakin məkan-zaman əyriliyi çox böyük olan C. sahəsinin sinqulyarlığı yaxınlığında kvant effektləri mühüm əhəmiyyət daşımalıdır. Ölçü nəzəriyyəsindən belə nəticə çıxır ki, məkan-zamanın əyrilik radiusu $r_{pl} = \sqrt{Gh/c^3}$ olduqda qravitasiyada kvant effektləri tətbiq olunur. $r_{pl}$ məsafəsi Plank uzunluğu adlanır; o, çox cüzidir: $r_{pl} \approx 10^{-33} sm$. Belə şərtlərdə ÜNN yaramır.

Sinqulyar hallar *qravitasiya kollapsının* gedişində baş verir. Sinqulyarlıq keçmişdə genişlənən Kainatda olmuşdu (bax *Kosmologiya*). Sinqulyar hallara tətbiq olunan C.-nin ardıcıl kvant nəzəriyyəsi hələlik mövcud deyil. Zərrəciklərin ekstremal hallara uyğun olan enerjilərində ($\varepsilon \approx \sqrt{\hbar c^5/G} \approx 10^{16} erq$) fiziki qarşılıqlı təsirlərin bütün növləri, ehtimal ki, vahid qarşılıqlı təsir kimi təzahür edir.

Kvant effektləri qara deşiklərin C. sahəsində zərrəciklərin yaranmasına səbəb olur. Ulduzlardan törəyən və Günəşin kütləsi ilə müqayisə edilə bilən qara deşiklər üçün bu effektlər çox cüzidir. Lakin Kainatın genişlənməsinin əvvəlki dövrlərində prinsipcə baş verə bilən kiçik kütləli ($10^{15}$ $q$-dan az) qara deşiklər üçün onlar əhəmiyyətli ola bilər.

**Eynşteyn nəzəriyyəsinin eksperimental yoxlanması.** ÜNN əsasında ekvivalentlik prinsipi durur: tərkibindən və kütləsindən asılı olmayaraq bütün cisimlər, materiyanın bütün növləri C. sahəsində eyni təcillə düşürlər. Onun mümkün qədər böyük dəqiqliklə yoxlanması çox mühüm eksperimental məsələdir. Macar fiziki L. *Etveş* burulma tərəzisinin köməyi ilə ekvivalentlik prinsipinin doğruluğunu $10^{-8}$-ə qədər dəqiqliklə sübut etdi; Amerika fiziki R. Dikke əməkdaşları ilə birlikdə bu dəqiqliyi $10^{-10}$-a, V.B. Braginski isə əməkdaşları ilə birlikdə $10^{-12}$-yə çatdırdı. Ekvivalentlik prinsipinin başqa üsulla yoxlanması, elə qravitasiya sahəsində işığın yayılması zamanı onun $v$ tezliyinin dəyişməsi haqqındakı nəticədir. Nəzəriyyəyə görə qravitasiya potensiallar fərqi $\varphi_1-\varphi_2$ olan nöqtələr arasında işığın yayılması zamanı tezliyin dəyişməsi ($\Delta v$):

$$\frac{\Delta v}{v} = \frac{\varphi_1-\varphi_2}{c^2}. \qquad (10)$$

Laboratoriyadakı eksperimentlər ən azı 1%-ə qədər (bax *Mössbauer effekti*), təyyarələrdəki və raketlərdəki eksperimentlər isə 0,04%-ə qədər dəqiqliklə bu düsturu təsdiq etdi.

Nəzəriyyənin əsaslarının yoxlanmasına aid olan bu eksperimentlərdən başqa, onun nəticələri bir sıra təcrübələrlə də yoxlanmışdır. Nəzəriyyəyə görə, işıq şüası ağır kütləli cisimlərin yaxınlığından keçən zaman əyilməlidir. Analoji əyilmə Nyutonun C. nəzəriyyəsindən də çıxır, lakin ÜNN ikiqat böyük effektin olmasını öncədən göstərir. Ulduzların şüası Günəş yaxınlığından keçən zaman çoxsaylı müşahidələr ÜNN-də öncədən deyilən bu effekti 20% dəqiqliklə təsdiq etdi (Günəş diskinin kənarında 1,75″ əyilmə). Müasir texnikanın köməyi ilə yerdənkənar nöqtəvi radiomənbələrin müşahidələri nəticəsində daha böyük dəqiqlik əldə edilmişdir. Bu üsulla nəzəriyyənin öncədəməsi 6%-dən az olmayan dəqiqliklə təsdiq olundu (1980).

Yuxarıda deyilənlərlə sıx bağlı olan başqa effekt, ÜNN effektlərinin nəzərə alınmadığı düsturların verdiyi nəticələrdən fərqli olaraq, C. sahəsində işığın daha uzun müddətə yayılmasıdır. Günəşin yaxınlığından keçən şüa üçün bu əlavə ləngimə təxminən $2\cdot 10^{-4}$ $san$-dir. Aparılan eksperimentlər nəzəriyyənin öncədəməsini 2% dəqiqliklə təsdiq etdi (1980).

Nəhayət, ÜNN-də öncədeyilən daha bir effekt Günəş ətrafında hərəkət edən planetlərin elliptik orbitdə əlavə olaraq zəif dönmələridir. Merkuri orbiti üçün daha böyük olan bu effekt 100 ildə 43″-dir. Bu öncədemə eksperimental olaraq 1%-ə qədər dəqiqliklə təsdiq olundu.

ÜNN-də öncədeyilən qravitasiya dalğaları birbaşa eksperimentlərdə hələlik aşkar edilməmişdir, lakin göy cismi sistemlərinin onları şüalandırmasının nəticələri müşahidə olunmuşdur. ÜNN-nə əsasən, qravitasiya dalğalarının şüalanmasına görə ikiqat ulduz sistemində orbital hərəkət müddəti azalmalıdır. Bu azalma, komponentlərindən biri *pulsar PSR* 193+16 olan sistemdə aşkar edilmişdir. ÜNN-in hesablamalarına görə bu sistemdə 1 dövr müddətinin nisbi azalması $-2{,}40\cdot 10^{-12}$ olmalıdır, 1982 ildə aparılan müşahidələr isə $(-2{,}30\pm 0{,}2)\cdot 10^{-12}$ qiyməti verir.

Beləliklə, əldə olan bütün eksperimental məlumatlar Eynşteynin C. nəzəriyyəsinin əsasını təşkil edən müddəaların doğruluğunu təsdiq edir.

**CAZİBƏ QÜVVƏSİ** – bax *Cazibə*.

**CAZİBƏ NƏZƏRİYYƏSİ** – bax *Cazibə*.

**CAZİBƏ SAHƏSİ** – bax *Cazibə*.

**CD-ROM** – [ing. C(ompact) D(isc) – kompakt disk + R(ead) O(nly) M(emory) – oxumaq üçün yaddaş] yazılmış informasiyanın yalnız oxunması üçün nəzərdə tutulan *kompakt disk*; "sidi-rom" kimi tələffüz edilir. İlk vaxtlar audioyazıların saxlanması üçün istifadə olunurdu. İnformasiya diskin mərkəzindən kənarlarına doğru istiqamətdə polikarbonat əsasa yeridilmiş *cığırlarla* (pitlərlə) spiralvarı yazılır. Audioyazıların saxlanması üçün nəzərdə tutulan CD-DA-da (Compact Disc-Digital Audio) 73 *dəq* yüksək keyfiyyətli səsləndirmə mümkündür. Belə CD-lərin işlənmiş versiyası olan CD-ROM-da digər rəqəmli verilənləri saxlamaq olurdu. Sonralar CD-ROM bazası əsasında birdəfəlik yazı üçün (CD-R), çoxsaylı yazı üçün (CD-RW) kompakt disklər hazırlandı. CD-ROM-lar proqram təminatı, kompyuter oyunları, multimedia və s. verilənlərin yayılmasının ən ucuz və geniş yayılmış vasitəsidir. CD-ROM-a yazılma formatı 1 diskdə müxtəlif xarakterli informasiyaları – kompyuter verilənlərini (fayl, proqram təminatı; oxunma yalnız kompyuterlərdə mümkündür), audioyazıları, video, mətn və şəkilləri eyni zamanda saxlamağa imkan verir. CD-ROM-ların inkişaf etdirilməsi nəticəsində DVD-ROM-lar (4,7 Gbayt verilənləri saxlamaq üçün rəqəmli videodisk) yaradılmışdır.

**CEBÁŞ SİLSİLƏSİ** – RF-də, Xakas Resp. və Krasnoyarsk diyarı ərazilərində, Qərbi Sayan d-rının şm. yamacında silsilə. Kantegir çayının (Yeniseyin sol qolu) yuxarı axınında sol sahil boyu uzanır. Uz. təqr. 100 $km$, hünd. 2510 $m$-ədəkdir. Metamorfik şistlərdən, əhəngdaşılarından, peridotitlərdən, bəzi yerlərdə qranitlərdən ibarətdir. Yamaclarında küknar, sidr, ağ şamdan ibarət iynəyarpaqlı meşələr yayılmışdır.

**CEBZUN-DAMBA-XUTUXTA VIII** (1870 – 20.5.1924, Urqa) – monqolların sonuncu teokratik hakimi – boqdo gegen. 1875 ildə Tibetin paytaxtı Lhasadan karvanla gəlmiş, ölmüş hakimin reinkarnasiyası (xutuxta) kimi boqdo gegenin taxtına yiyələnmişdir. Onun hakimiyyəti dövründə Monqolustanın müstəqil dövlətçiliyi bərpa edilmişdir. 1911 ildə Monqolustanın şimal xanları Urqada (indiki Ulan-Bator) keçirilən xuralda VIII C.-D.-x.-nı Monqolustanın xanı elan etmişdilər. Lakin son nəticədə bu dövlət Rusiya, Çin və Monqolustan arasında bağlanmış Kyaxta sazişinə (1915) görə, Çin Resp.-nın tərkibində muxtar ərazi

statusu ilə kifayətlənmişdi. Monqolustan milli-demokratik inqilabı (1921) müstəqil dövlətçiliyi bərpa etdikdən sonra monarxın hakimiyyəti məhdudlaşdırıldı. Monqolustan VIII C.-D.-x.-nın ölümündən sonra xalq respublikası elan olundu.

**CECƏ** – bax *Jmıx*.

**CECİM** – əl ilə toxunulan parça, yaxud xovsuz xalça növü. Eni 35–40 *sm*, uz. 16 *m*-ədək və daha artıq olur. Toxunma prosesində müxtəlif rəngli (ağ, qırmızı, sarı, palıdı) *əriş* ipləri dəzgaha çəkilir, arişlərin arasından sadə formada birrəngli *arğac* ipləri keçirilir. C.-in şaquli istiqamətli enli və ensiz zolaqlarının üzəri çox vaxt müxtəlif formalı həndəsi elementlərlə bəzədilir. C.-in iki üzü də eyni olur. C.-dən vaxtilə qadın və kişi geyimləri, döşəküzü, yük pərdəsi, örtüklər, çanta və yəhər qaşlığı tikmək üçün, eləcə də döşənəcək və divar xalçası kimi istifadə edilmişdir. C.-in əsas istehsal mərkəzləri Qazax, Qarabağ, Naxçıvan, Şəki, Şirvan zonaları, Göyçə mahalı, Cənubi Azərb. olmuşdur. Şirvanda C. daha çox ipəkdən, Qarabağda, Göyçədə isə yundan toxunurdu.

**CEDEROVTALA** – Azərb. Resp. Balakən r-nunun Sarıbulaq ə.d.-ndə kənd. R-n mərkəzindən 8 *km* c.-q.-də, Balakən çayının sahilində, Qanıx-Əyriçay çökəkliyindədir. Əh. 904 (2011); əkinçilik, bağçılıq, arıçılıqla məşğuldur. Məscid var.

Cecim nümunələrindən fraqmentlər. 19 əsr –20 əsrin əvvəlləri. R. Mustafayev ad. Azərb. Milli İncəsənət Muzeyi. Bakı.



**CEFFERSON** (Jefferson) Tomas (13.4. 1743, Virginiya, Albemarl qraflığı, Şaduell – 4.7.1826, Montisello) – ABŞ dövlət və siyasi xadimi, ABŞ-ın 3-cü prezidenti, Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə dövründə (1775–83) burjua-demokratik cərəyanın ideoloqu, memar, filosof, hüquqşünas. Uilyam və Mariya kollecində təhsil almış, 1767 ildən hüquqşünas işləmişdir. 1769–74 illərdə Virginiya qanunverici məclisinin üzvü olarkən Şimali Amerika koloniyalarının müstəqilliyi uğrunda fəal mübarizəyə qoşulmuşdur. 1773 ildə Virginiyada inqilabi hakimiyyət orqanı olan, həmçinin digər koloniyalarla əlaqə yaradan Koordinasiya komitəsinin yaradılmasının təşəbbüskarlarından biri olmuşdur. 1774 ildə ona şöhrət qazandıran "Britaniya Amerikası hüquqlarının ümumi icmalı" adlı pamfletini nəşr etdirmişdir. Pamfletdə sübut olunurdu ki, Britaniya parlamentinin öz qanunlarını zorla koloniyalara tətbiq etmək hüququ yoxdur. 1775–76 illərdə Kontinental konqresin üzvü olmuşdur. 1776 ildə əsasını xalq suverenliyinin maarifçi konsepsiyası təşkil edən ABŞ *İstiqlaliyyət bəyannaməsinin* müəllifi idi. 1776–79 illərdə Virginiya Nümayəndələr palatasının üzvü olmuşdur. Dövlətin dindən ayrılmasının ABŞ Konstitusiyasında qanuniləşdirilməsinə səbəb olan və digər ştatların konstitusiyalarına təsir göstərən "Din azadlığı haqqında Virginiya statutu"nu (1779) işləyib hazırlamışdır. Özünün redaksiyası ilə "Əhdi-cədidi" (Cefferson Bibliyası) tərtib etmişdir. 1778 ildə bütün vətəndaşların öz hüquqlarını bilməsi məqsədilə və onların maariflənməsini, təhsil hüququnun hamıya şamil olunmasını nəzərdə tutan "Biliklərin ümumi yayılması haqqında bill"i işləyib hazırlamışdır.



1779–81 illərdə Virginiyanın qubernatoru olmuşdur. 1775–83 illərdə ABŞ-ın müstəqilliyi uğrunda müharibə şəraitində ştatın müdafiəsini təşkil etmək cəhdi uğursuzluqla nəticələnmişdir. 1781 ildə istefada olarkən ona ensiklopedist alim şöhrəti gətirən "Virginiya ştatı haqqında qeydlər" (1787 ildə nəşr olunmuşdur) üzərində işləmişdir. 1783 ildə siyasətə qayıtmış və Konqresdə qanunların hazırlanması fəaliyyəti ilə məşğul olmuşdur. 1784 ildə Qərb torpaqlarının milliləşdirilməsini və bütün yeni birləşdirilmiş vilayətlərdə köləliyin qadağan olunmasını Konqresə təklif etmişdir (bu təklif yalnız şm.-q. ştatlarında həyata keçirilmişdi). 1784–89 illərdə Fransada olmuşdur (1785 ildən xüsusi tapşırıqlar üzrə səfir kimi). Parisdə amerikan ticarəti üçün əhəmiyyətli güzəştlərə nail ola bilmişdir. 1790 ildə C. *Vaşinqton* hökumətində ABŞ dövlət katibi vəzifəsini tutmuşdur. *Böyük Fransa inqilabını* dəstəkləmişdir. Konqresdə C. Medisonun başçılığı ilə A. Hamiltona müxalif demokratlar (respublikaçılar) fraksiyasının yaranması ilə onun tanınmış liderlərindən biri olmuş, fraksiyanın özü isə Cefferson respublikaçıları adlanmağa başlamışdır. 1793 ildə Vaşinqton hökumətinin siyasəti ilə razılaşmadığına görə istefa vermişdir. 1796 il seçkilərindən sonra yaxın dostu, lakin siyasi opponenti olan federalist C. Adamsın administrasiyasında vitse-prezident olmuşdur.

1800 il seçkilərində Cefferson respublikaçılarının qələbəsindən sonra ABŞ prezidenti vəzifəsini tutmuş (1801), 1804 ildə isə növbəti müddətə seçilmişdir. C. Vaşinqtonda – ABŞ-ın yeni tikilən paytaxtında inauqurasiya nitqini söyləmiş ilk prezident idi. C. kursu praqmatizm və Amerika cəmiyyətinin müxtəlif təbəqələri arasında kompromis əldə etmək səyləri ilə seçilirdi. Sənaye istehsalı (əkinçilik, ticarət və gəmiçiliklə yanaşı) ABŞ-ın çiçəklənməsinin əsaslarından biri elan olunmuşdu. C.-un prezidentliyi dövründə ABŞ Fransadan Luizinanı əldə etmiş (1803) və bunun nəticəsində ölkənin ərazisi 2 dəfə artmışdı. 1803–06 illərdə Sakit okean sahillərinə çatmış və Şimali Amerikanın q. rayonlarının öyrənilməsində mühüm nailiyyətlər əldə etmiş transkontinental ekspedisiya (M. Lyuis və U. Klarkın rəhbərliyi ilə) təşkil olunmuşdu. C. məhkəmə hakimiyyəti orqanlarına təsir uğrunda federalist müxalifətlə mübarizə aparmış, 1805–07 illərdə özünün keçmiş vitse-prezidenti A. Berrin ABŞ-ı parçalamaq cəhdinə qarşı çıxmışdır. *Napoleon müharibələri (1799–1815)* dövründə Avropa dövlətləri arasındakı münaqişəyə ABŞ-ın cəlb edilməməsi üçün 1807 ilin dekabrında amerikalıların B.Britaniya və Fransa ilə ticarətinə embarqo qoyan qanunun qəbuluna nail olmuşdu. Lakin 1809 ilədək qüvvədə olmuş bu qanun ABŞ-ın iqtisadiyyatına mənfi təsir göstərmiş və ölkədə narazılığın artmasına gətirib çıxartmışdı. 1807 ilin sonunda C.-un üçüncü dəfə prezidentliyə namizədliyini irəli sürməkdən imtina etməsi ABŞ-ın siyasi həyatında 1940 ilədək davam etmiş mühüm ənənənin əsasını qoydu. 1809 ildə prezident səlahiyyətlərinin bitməsi ilə əlaqədar C. siyasətdən uzaqlaşsa da, onun amerikan cəmiyyətinin mənəvi və ictimai həyatına təsiri davam edirdi.

Ömrünün son 17 ilini C. özünün Montisello (Virginiya ştatı) malikanəsində keçirmişdi. Məktublaşmanı asanlaşdırmaq məqsədilə C. poliqrafı adlandırılmış surətçıxarma aparatını ixtira etmişdi. İngiltərə-Amerika müharibəsi (1812–14) gedişində Vaşinqtonun ingilislər tərəfindən yandırılmasından sonra özünün iri kitabxanasının böyük hissəsini (həmçinin xəritələr kolleksiyasını) hökumətə vermiş, bununla da *Amerika Birləşmiş Ştatlarının Konqress Kitabxanasının* əsasını qoymuşdur. Şarlotsvilldə Virginiya Un-tinin təşkili planını hazırlamış (1819 ildə qəbul olunmuşdur), 1825 ildə həmin un-tin ilk rektoru seçilmişdir.

C. ABŞ memarlığının inkişafında mühüm rol oynamışdır. ABŞ-dakı ictimai binaların memarlığında klassik Roma cərəyanının banisi hesab edilir. 1797–1815 illərdə Amerika Fəlsəfə Cəmiyyətinin prezidenti olmuşdur. Fəlsəfi və ictimai baxışları etibarilə idealist idi.

ABŞ İstiqlaliyyət bəyannaməsinin imzalanmasının 50 illiyi günündə vəfat etmişdir. C.-un şərəfinə şəhərlər, çay və dağlar, kollec və un-tlər, meydan və küçələr adlandırılmışdır. Onun portreti 2 dollarlıq banknotun və 50 sentlik sikkənin üzərində əks olunmuşdur. C.-un anadan olmasının 200 illiyi ilə əlaqədar Vaşinqtonda memorial açılmışdır.

**CEFFERSON-SİTİ** (Jefferson City) – ABŞ-ın mərkəzi hissəsində şəhər. Missuri ştatının inz. m. Əh. 43,1 min (2011; aqlomerasiyada təqr. 150 min). Missuri çayının sağ sahilində yerləşir. Avtomobil yolları qovşağı, Sent-Luis–Kanzas-Siti d.y. xəttində st. Çay portu. Kolumbiya regional aeroportu (C.-S.-dən şm.-da).

Əsası 1821 ildə ştatın inzibati mərkəzi kimi qoyulmuşdur. T. *Ceffersonun* şərəfinə adlandırılmışdır. 1839 ildən şəhərdir. 1830-cu illərdən burada Almaniyadan gəlmələr sürətlə məskunlaşmışlar. 1993 ildə baş vermiş daşqın nəticəsində güclü dağıntılara məruz qalmışdır.

Linkoln Un-ti [1866, əsası Amerika Birləşmiş Ştatlarında Vətəndaş müharibəsi (1861–65) veteranları – afroamerikalılar tərəfindən qoyulmuşdur], Missuri ştatı muzeyi (italyan renessansı üslubunda tikilmiş Kapitoli binasında, 1911–18), Missuri ştatının hərb tarixi muzeyi, Kristofer Mausun evi (1854) var. Hər il caz festivalı keçirilir (1994 ildən, sentyabrda).

C.-S.-nin işləyən əhalisinin 60%-dən çoxu (təqr. 17 min nəfər; 2005) ştatın inzibati idarələrində, aqlomerasiyada işləyənlərin təqr. 10%-i sənayedə çalışır. Ayaqqabı, avtomobil detalları və ləvazimatları (oturacaq, radiator və s.), elektrotexnika avadanlığı və kosmetika istehsal edilir; poliqrafiya müəssisələri var. K.t. r-nunun ticarət-bölüşdürücü mərkəzidir (qarğıdalı, buğda, soya paxlası və s.).

**CEFRİ** (Jeffery) Artur (18.10.1892, Avstraliya, Melburn – 2.8.1959, Kanada, Yeni Şotlandiya) – avstraliyalı şərqşünas. Melburn un-tində təhsil almış, Birinci dünya müharibəsində iştirak etmişdir. 1921 ildə Qahirədəki Amerika un-ti nəzdində Şərq Araşdırmaları Mərkəzinə (School of Oriental Studies) müəllim kimi dəvət edilmişdir. 1929 ildə Edinburq un-tində (İngiltərə) doktorluq dərəcəsi almış, 1938 ildən Kolumbiya un-tinin (ABŞ) Yaxın və Orta Şərq dilləri fakültəsinin dekanı olmuşdur. Metodist kilsəsinə mənsub idi.

C.-nin araşdırmaları Quranın müxtəlif qiraət qaydalarına, Məhəmməd peyğəmbərin həyatına, islam və xristianlığın əlaqələrinə həsr olunmuşdur. *İbn Ərəbinin* "Şəcərət əl-kövn" əsərini ingilis dilinə tərcümə etmişdir. "İslam Ensiklopediyası"nın 2-ci nəşrində ("Encyclopaedia of Islam", Vol. 1, Leiden: E.J.Brill, 1960) bəzi məqalələrin müəllifidir.

Əsərləri: The Foreign Vocabulary of the Qur'an, Boroda, 1938; The Qur'an as Scripture, New York, 1952; Islam, Muhammad and His Religion, New York, 1952; Qur'an Selections, New York, 1958; A Reader on Islam, The Hague, 1962.

**CEHİZ** – valideynlərin və qohumların gəlinə oğlanın evinə köçdüyü zaman bağışladığı əmlak (pul, əşya, mebel, paltar və s.). C. vermək ənənəsi qəbilənin dağılması və monoqam nikaha keçid dövründə meydana çıxmışdır. C. əvvəllər qəbilə əmlakından ayrılır və gəlinin xüsusi mülkiyyəti hesab olunurdu. Sonsuz qadın vəfat etdikdə C. onun qəbiləsinə qaytarılırdı. Patriarxatın möhkəmləndiyi ilk dövrlərdə ər-arvadın ümumi mülkiyyəti sayılan C. ərin xüsusi mülkiyyətinə çevrildi.

Valideynin yeni ailə quran övladına imkan daxilində ev avadanlığı, məişət əşyaları ilə yardım etməsi qədim adətdir.

**CEHİZDAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Heris kəndistanında, Sərab ş.-indən 18 *km* c.-q.-dədir.

**CEK,** gözəl, yaxud adi bala dovdaq (Chlamydotis undulata) – *durnakimilər* dəstəsinin dovdaqlar fəsiləsindən quş cinsi. Uz. 55–65 *sm*, kütləsi 2,5 *kq*-adək olur. Bədən quruluşu möhkəm, boynu uzun, ayaqları güclü və üçbarmaqlıdır. Lələklərinin rəngi müdafiəedicidir; başında kiçik ağ kəkil, boynunda qara boyunluq var. Erkəkləri dişilərdən nəzərə çarpacaq dərəcədə iridir. Şm. Afrika, Qərbi, Orta və Mərkəzi Asiyanın səhra və yarımsəhralarında yaşayır; Azərb.-da yalnız köçmə vaxtı olur. Səssiz və ehtiyatlıdır; çox gəzir, saatda 30–40 *km* sürətlə qaçır. Adətən, tək-tək, yaxud cüt-cüt yaşayır, nadir hallarda kiçik qruplar əmələ gətirir. Yayda, əsasən, cücülərlə, xırda suda-quruda yaşayanlar və sürünənlərlə, qışda çox vaxt bitki mənşəli qida (meyvə, soğanaq, toxum) ilə qidalanır. Poliqamdır. Yuvası – torpaqda qazdığı dayaz çuxurdur; adətən 2–3, bəzən 6 yumurta qoyur; yalnız dişisi kürt yatır və ətcəbalaları bəs-

Cek, yaxud gözəl dovdaq (Chlamydotis undulata).





Cekson şəhəri. Kapitoli.

ləyir. Yaşayış şəraitinin pisləşməsi və ovlanma nəticəsində sayı kəskin azalmaqdadır. Ovu qadağandır. BTMİ, RF və Azərb. Resp.-nın "Qırmızı kitab"larına daxil edilmişdir.

**CEK** – Azərb. Resp. Quba r-nunun Əlik ə.d.-ndə kənd. R-n mərkəzindən 35 *km* c.-q.-də, dağlıq ərazidədir. Əh. 333 (2011); maldarlıqla məşğuldur. İbtidai məktəb, klub, kitabxana var.

**CEK KED ÜSYANI (1450)** – İngiltərənin c.-ş.-indəki Kent qraflığında Cek (yaxud Con) Ked adı ilə tanınan qeyri-müəyyən əsilli şəxsin rəhbərliyi ilə baş vermiş üsyan. Üsyan Susseks, Esseks, Surrey qraflıqlarına yayılmışdı. 1450 ilin iyununda üsyançıların sayı təqr. 20 min nəfər idi. Hakimiyyətin laqeydliyindən və ingilislərin *Yüzillik müharibədə (1337–1453)* məğlubiyyətlərindən narazı olan üsyançılar məhkəmə və inzibati islahatların keçirilməsini tələb edir, "ədalətsiz" vergilərə, korrupsiyaya qarşı çıxış edirdilər. Üsyanın əsas qüvvələri orta və xırda kəndlilər, həmçinin sənətkarlar və xırda tacirlər idilər. "The complaint of the Poor commons of the Kent" adlı siyasi manifestdə yalnız sadə xalqın deyil, hökumət üzvlərinin və bəzi lendlordların da şikayətləri öz əksini tapmışdı. 1450 il iyunun 18-də Sevenoks (Kent) yaxınlığında kral qoşunlarını darmadağın edən üsyançılar ordusu iyulun 2-də Londona daxil olmuşdu. Kral VI Henrix [1421–71] paytaxtı tərk etmişdi. Kral məmurlarının bir neçəsi öldürülmüş, varlı tacirlərin evləri qarət olunmuşdu. İyulun 5-də üsyançılar şəhərlilərin qoşunu və Tauer qarnizonu tərəfindən Londondan sıxışdırılıb çıxarılmışdılar. 1451 ildə üsyan tədricən zəifləməyə başlamış, çoxları əfv olunaraq evlərinə qayıtmışdılar. Əfv fərmanlarına görə, üsyançılar arasında 1 cəngavər, 2 parlament üzvü və 18 skvayr var idi. Cek Ked özü 1450 il iyulun 12-də döyüşdə həlak olmuşdu. Ayrı-ayrı üsyançı dəstələr isə mübarizəni 1454 ilədək davam etdirmişdilər.

**CÉKSON** (Jackson) – ABŞ-da şəhər. Missisipi ştatının inz. m. və ən iri şəhəri. Əh. 173,5 min (2010; şəhərətrafı ilə 539,0 min (2010). Ştatın mərkəzi hissəsində, Perl çayı sahilindədir. Avtomagistrallar və d.y.-ları qovşağı. M. Evers ad. beynəlxalq aeroport.

Əsası 1821 ildə Missisipi ştatının inzibati mərkəzi kimi qoyulmuşdur. E. *Ceksonun* şərəfinə adlandırılmışdır. 1863 ildə, *Amerika Birləşmiş Ştatlarında Vətəndaş müharibəsi (1861–65)* gedişində gen. U.T. Şermanın başçılığı ilə şimallıların qoşunları tərəfindən şəhərin böyük hissəsi yandırılmışdı. 19 əsrin 2-ci yarısında d.y.-larının çəkilməsi (1840 ildə çəkilmiş ilk d.y. xətti şəhərin içərisindən keçirdi) ilə əlaqədar C. Cənubun iri ticarət mərkəzinə çevrilmişdi. 1930-cu illərdə C. yaxınlığında təbii qaz yataqlarının aşkar olunması sənayenin inkişafına təkan vermişdir.

Şəhərin mərkəzi hissəsi Perl çayının sağ sahilində yerləşir. Klassisizm üslubunda binalar saxlanılmışdır: köhnə Kapitoli (1833–40, memar U. Nikols, 1961 ildən Missisipi ştatının tarix muzeyi), qubernatorun iqamətgahı (1839–42, memar Nikols), Şəhər məclisi binası (1846). İşgüzar mərkəzin göydələnləri arasında "Am-Saut-Plaza" (1920–1970-ci illər) ən hündür binadır (97 *m*, 1975).

Missisipi Un-tinin tibb mərkəzi (1955), Cekson Un-ti (1877), bir sıra kollec və s. var. Muzeyləri: Missisipi incəsənət muzeyi (1903, müasir adı 1978 ildən), Missisipi təbiyyat elmləri, Missisipi meşə və kənd təsərrüfatı və s. Şəhər məclisinin binasında Şəhər incəsənət qalereyası, Smit Robertson mədəniyyət mərkəzi və muzeyi, Missisipi incəsənət mərkəzi yerləşir. "Yeni səhnə" teatrı, Missisipi operası (1945), Missisipi baleti, Missisipi simfonik orkestri (1944) fəaliyyət göstərir. Zoopark, Cekson Un-tinin Botanika bağı və s. var. Balet artistlərinin beynəlxalq müsabiqəsi (1979 ildən, 4 ildən bir, iyunda); Missipi ştatı yarmarkası (hər il oktyabrda) keçirilir.

İşləyən əhalinin təqr. 80%-i xidmət sferasında çalışır. Ştatın ən mühüm ticarət və maliyyə mərkəzi olan C.-da "Cal-Maine Foods", "EastGroup Properties", "Knobias", "Parkway Properties", "Trustmark Corporation" və s. ticarət şirkətlərinin ofis və mənzil-qərargahları yerləşir. Aparıcı sahələr: maşınqayırma (elektrik maşınları və avadanlıqları), metallurgiya və yeyinti sənayesidir. K.t. xammalı (C. maldarlıq, quşçuluq, soya, pambıq becərilməsi rayonu mərkəzidir) emal edilir.

**CEKSON** (Jackson John) Con (1835–1911) – ingilis oftalmoloqu və nevropatoloqu; tibb doktoru (1860), London Kral Cəmiyyətinin (1878) və Kral Həkimlər Kollecinin fəxri üzvü. London xəstəxanaları və hospitallarında işləmişdir. 1870 ildə epilepsiyanın formalarından birini, bulbar alternasiya edən sindromu təsvir etmiş, həraki mərkəzlərin lokalizasiyasının insanın böyük beyin yarımkürələri qabığının ön mərkəzi şırımında olduğunu müəyyən etmişdir (1864). İlk dəfə (1864) mərkəzi sinir sistemi xəstəliklərinin diaqnostikası üçün oftalmoskopiyanın əhəmiyyətini göstərmiş, böyük beyin yarımkürələri qabığının müvafiq sahələrinin funksional pozulmaları ilə epilepsiya və epilepsiyaya oxşar tutmaların əlaqəsini əsaslandırmış (1875), sensor aqnoziyanı təsvir etmişdir (1866).







Mərkəzi sinir sisteminin təkamülü və dissolyusiyası haqqında C.-un fikirləri təkamül morfologiyasının inkişafına və sinir sistemi xəstəlikləri zamanı bir sıra klinik simptomların şərh olunmasına təsir göstərmişdir.

Əsərləri: A study of convulsions, Trans. Andrews med. Grad. Ass, v. 3, p. 162, 1869; On a case of paralysis of the tongue from hemorrhage in the medulla oblongata, Lancet, v. 2, p. 770, 1872; Selected writings, v. 1–2, N.Y., 1958.

**CEKSON** (Jackson) Endryu (15.3.1767, indiki Cənubi Karolina ştatında, Uakshos – 8.6.1845, Tennessi ştatı, Hermitic) – ABŞ hərbi və dövlət xadimi, ABŞ-ın 7-ci prezidenti. İrland mühaciri ailəsindəndir. 13 yaşında C. *Vaşinqtonun* ordusuna qoşulmuş, ingilislərə əsir düşmüşdü. 1784–87 illərdə Solsberqdə hüquq təhsili almışdır. 1788 ildən Şimali Karolinanın (indiki Tennessi ştatının ərazisi) qərb dairəsinin prokuroru idi. 1796 ildə Tennessi ştatı konstitusiyasının işlənib hazırlanmasında iştirak etmiş, 1796 ilin dekabrı – 1797 ilin martında ABŞ Konqresinin Nümayəndələr palatasında Tennessi ştatının təmsilçisi olmuş, Cefferson respublikaçılarına qoşulmuşdur. C. *İngiltərə-Amerika müharibəsində (1812–14)* böyük şöhrət qazanmışdı. 1813–14 illərdə Corciya və Alabama ştatlarında ingilislər tərəfində vuruşan kriklər hindi tayfasına qarşı döyüşən orduya komandanlıq etmiş, gen.-m. rütbəsini almışdı. ABŞ və B.Britaniya arasında sülh bağlanmasına baxmayaraq, 1815 ilin yanvarında Yeni Orlean yaxınlığında Britaniya qoşunlarını darmadağın etmiş, "vətən xilaskarı" adını qazanmışdır. C. 1818 ildə seminolların məğlubiyyəti və ispan Şərqi Floridasının işğalı ilə nəticələnmiş hərbi əməliyyata komandanlıq etmişdir. 1821 ildə Floridanın tamamilə ABŞ-ın tərkibinə qatılmasından sonra onun hərbi qubernatoru olmuşdur. 1823 ildə Tennessi ştatından Senata üzv seçilmişdir. 1824 ildə prezidentliyə namizədliyini irəli sürmüş, lakin kifayət qədər səs toplaya bilməmişdir. 1828 ildə keçirilmiş növbəti seçkilərdə demokratik respublikaçılar koalisiyasının (sonralar ABŞ Demokratlar Partiyası) dəstəyi ilə qalib gəlmişdir; 1832 ildə yenidən prezident seçilmişdir.



C. prezident olduğu illərdə ABŞ iqtisadiyyatını, əsasən, şimal ştatlarının mənafeyinə uyğun olaraq sərt şəkildə nizamlayan Milli bankın fəaliyyətini dayandırdı. Bu, ABŞ-da, xüsusilə Cənubda maliyyə fəallığının artmasına, özəl sahibkarlığın inkişafına, idxal olunan bəzi mallara gömrük rüsumunun endirilməsinə, əmtəə qıtlığının aradan qaldırılmasına, federal hökumətin "daxili yaxşılaşdırmalar" sistemində iştirakının azalmasına şərait yaratdı. C. ləğvetmə təcrübəsinin (bəzi ştatların öz ərazilərində federal qanunların icrasından imtina etməsi) möhkəmlənməsinə qəti müqavimət göstərmişdir. İri plantasiyaların sahibi və quldar olmuş C. 1836 ildə köləliyi qanuniləşdirmiş və onun ləğvi ilə bağlı məsələnin ABŞ Konqresində müzakirəsinə qadağa qoymuşdur (1844 ilədək qüvvədə qalmışdır). C. administrasiyasının yerli hindilərə qarşı sərt siyasəti bir çox hindi tayfasının məhvinə, sağ qalanlarının isə Missisipi çayının digər sahilinə köçməsinə səbəb olmuşdur. Onun dövründə ABŞ-da ikipartiyalı sistem formalaşmağa başlamış, partiyalar isə elitar cəmiyyətlərdən açıq təşkilatlara çevrilmişdi. ABŞ Konqresinə və ştatların legislaturalarına seçkilərdə ağdərili kişilər üçün əmlak senzi ləğv edilmiş, siyasi həyatda "spoil system" – dövlət aparatının seçkilərdə qalib gəlmiş partiyanın üzvlərindən təşkil olunması prinsipi bərqərar olunmuşdur. ABŞ-da orta təbəqənin formalaşmasında böyük rol oynamış və ona arxalanmış C. Amerika tarixinə "xalq prezidenti" və "bərabər imkanlar" tərəfdarı kimi düşmüşdür. Onun portreti 20 dollarlıq ABŞ banknotu üzərində əks olunmuşdur. ABŞ-dakı Cekson (Missisipi ştatının inz. mərkəzi) və Ceksonvill (Florida ştatında; 1822 ilədək Kauford) şəhərləri onun şərəfinə adlandırılmışdır.

**CÉKSON** Maykl Cozef (29.8.1958, İndiana ştatı, Geri ş. – 25.6.2009, Kaliforniya, Los-Anceles) – Amerika pop-müğənnisi (tenor), rəqqas, xoreoqraf, mahnılar müəllifi. Pop-musiqisi tarixində ən uğurlu ifaçı. "Pop-musiqisi kralı" kimi məşhurdur. Çoxuşaqlı zənci ailəsində anadan olmuşdur. Uşaq yaşlarından Milad bayramlarında çıxış etmiş, "Jackson 5" qrupunun üzvü kimi tanınmış, sonralar solo ifaçı kimi şöhrət qazanmışdır. 1982 ildə çıxmış "Thriller" albomu ən çox satılan albom kimi Ginnesin rekordlar kitabına (13 dəfə) düşmüşdür; albom 8 "Qremmi" mükafatı və 7 Amerika Musiqi Mükafatına layiq görülmüşdür. 1984 ildə C. "Say Say Say" kompozisiyasında Pol *Makkartni* ilə çıxış etmişdir. 1987 ildə C. üçölçülü "Captain EO" filmində çəkilmişdir. Yaradıcılığı boyu tirajı milyonlarla olan albomlar buraxdırmışdır ("Dangerous", 1991; "History: Past, Present and Future – Book 1", 1995; "Blood on the Danse floor", 1997 və s.). 2001 ildə "You Rosk My World" sinqli daxil olmaqla 16 treki özündə birləşdirən "İnvincible" ("Məğlubedilməz") klipi; 2003 ildə C.-un "Number Ones" xitlər məcmuəsi; 2004 ildə 5 diskdən ibarət lent yazıları, 1969–2004 illəri və 1992 ildəki canlı konserti də əhatə edən "Michael Jackson: The Ultimate Collection' Box Set" adlı albomu buraxılmışdır. C.-un son dəfə yazdırdığı albomun çapı 2009 ildə nəzərdə tutulmuş, lakin onun 50 yaşında qəflətən vəfat etməsi buna mane olmuşdur. Dünyanın bir çox ölkəsinə qastrol səfərləri etmişdir.



**CÉKSONVİLL** (Jacksonville) – ABŞ-ın c.-ş.-ində, Florida ştatında şəhər. Əh. 821,8 min (2010; aqlomerasiyada 1,3 mln.). Florida y-a-nın şm.-ş.-ində, Sent-Cons çayının Atlantika okeanına töküldüyü yerdədir. Sahəsinə görə (302 $km^2$-lik daxili akvatoriya ilə birlikdə 2,3 min $km^2$) ölkənin ən iri şəhərlərindən biridir. Nəql. qovşağı. Dərin sularda yerləşən dəniz portu (2006 ildə yük dövriyyəsi 8,7 mln. *t*; 1,2 mln. ədəddən çox avtomobil, qəhvə və s. idxalı; ağac və meşə materiallarının, sellüloz-kağız sənayesi məhsullarının, fosfatların ixracı); kruiz terminalı (Bahama a-rı və Ki-Uest a. ilə əlaqə) var. Beynəlxalq aeroport; yerli aeroportlar (Kreyq və Herlonq).

18 əsrin sonlarından Kauford (Cowford) məskəni İspaniya Floridasının tər-


Ceksonvill şəhərindən görünüş.

kibində olmuşdur; 1821 ildə ABŞ-ın tərkibinə keçmiş və Floridanın ilk hərbi qubernatoru gen. E. *Ceksonun* şərəfinə adlandırılmışdır. 1832 ildən (digər məlumata görə, 1842 ildən) şəhər statusu almışdır. ABŞ-da Vətəndaş müharibəsi (1861–65) zamanı cənublular ordusunun ərzaq bazası idi. 19 əsrin 2-ci yarısında məşhur qış kurortu olmuşdur. 1901 ildə yanğına məruz qalmışdır. 20 əsrin əvvəllərində maliyyə-kredit fəaliyyətinin mühüm mərkəzlərindən biri idi. 1940-cı illərdə C. və onun ətrafında ABŞ HDD-nın bazaları yaradılmışdır.

C.-in işgüzar rayonu mərkəzində (Sent-Cons çayının sol sahilində) bank, ofis və hotel binaları ilə əhatə olunmuş Hemminq parkı yerləşir. Ceksonvill Un-ti (1934), Şm.Florida Un-ti (1969); Edvard Uoters kolleci (1866) və s. var. C. kütləvi kitabxanası (ştatın ən iri kitabxanalarından biri, Əsas kitabxana və təqr. 20 filialdan ibarətdir), Elm və tarix muzeyi (1941; indiki adı 1988 ildən), Kammerlər incəsənət və parklar muzeyi (1959; 1961 ildə açılmışdır; Avropa və Amerika rəssamlarının əsərləri, Meysen çinisi kolleksiyası; Sent-Cons çayının sahilində yerləşən muzey binasının ətrafında ingilis və italyan üslubunda parklar), Müasir incəsənət muzeyi (1924; indiki adı 2006 ildən), Dəniz muzeyi (1985) və s.; Florida teatrı (1927), C. simfonik orkestri (1949) fəaliyyət göstərir. Zoopark. Hər il musiqi festivalları, o cümlədən, caz (1984 ildən) və kinofestival (may ayında) və s.; C. Sərgi mərkəzində hər il k.t. yarmarkası (noyabr ayında) keçirilir. Milli futbol liqasının Amerika futbolu üzrə "Ceksonvill Caquars" komandası "Alltel Stadium" (84 min yer) stadionunda çıxış edir. 2005 ildə Superboul (Amerika futbolu çempionatının final oyunu) C.-də təşkil olunmuşdur. C. yaxınlığında qolf üzrə "Pleyers Çampyonşip" və tennis üzrə ənənəvi böyük turnirlər keçirilir.

Celam çayı Müzəffərabad (Pakistan) yaxınlığında.



Topdansatış ticarəti, maliyyə və informasiya xidmətləri mərkəzidir. C.-də "Fidelity National Financial" (sığorta), "VyStar Financial Group" (maliyyə fəaliyyəti), "TNT Logistics" (yüklərin ekspress-poçtla çatdırılması), "Winn-Dixie" (supermarketlər şəbəkəsi), "CSX Transportation" (dəmiryolları şəbəkəsi) və s. şirkətlərin ofis və mənzil-qərargahları yerləşir. Ənənəvi (ağac emalı, sellüloz-kağız və s.) və yeni (biotexnologiyalardan və s. istifadə etməklə) sənaye sahələri müəssisələri; "Vistakon" (kontakt linzaları), "Colomer USA" ("Revlon" markalı kosmetika) və s. şirkətlərin mənzil-qərargahları və istehsalatları fəaliyyət göstərir. Gəmiqayırma və gəmi təmiri inkişaf etmişdir (HDD-nın tərsanələri). HDD-nın, dəniz aviasiyasının bazaları var.

**CÉLAM** – Hindistan və Pakistanda çay. Çinab çayının (Hind çayı hövzəsi) sağ qolu. Uz. 810 *km*, hövzəsinin sah. 55,3 min $km^2$. Pir-Pəncəl silsiləsindən (Himalay d-rı) başlanır. Yuxarı axınında Kəşmir vadisini kəsir, Vular gölündən keçir, aşağı axınında isə dərin dərə ilə Himalay d-rının şm.-q. hissəsini kəsərək, Hind-Qanq ovalığına çıxır. Qarışıq mənbələrdən qidalanır, yağış suları üstünlük təşkil edir. Ortaillik su sərfi təqr. 900 $m^3/san$, yay mussonları zamanı 20 min $m^3/san$. Düzənlikdə gəmiçiliyə yararlıdır. Suvarmada istifadə olunur. Srinaqar (Hindistan), Celam (Pakistan) ş.-ləri C. sahilindədir.

**CÉLAM** – Pakistanın şm.-ş.-ində, Pəncab əyalətində şəhər. Əh. 209,3 min (2010). Celam çayı sahilində, Hindistanla sərhəddən 10 *km*-lik məsafədə yerləşir. Nəql. qovşağı. Poliqrafiya avadanlığı istehsal olunur. Sement, şüşə, yeyinti, tütün, ağac emalı sənayesi müəssisələri fəaliyyət göstərir. Kustar sənətkarlıq (ağac üzərində oyma, bədii metal) inkişaf etmişdir.

C. yaxınlığında, Celam çayında Manqla bəndi və qala var.





**CÉLFA** (ər. الجلفة) – Əlcəzairin şm.-ında şəhər. Eyniadlı vilayənin inz. m. Əh. 289,2 min (2008). Böyük Səhra Atlas d-rının mərkəzi hissəsində dəniz səviyyəsindən 1153 *m* yüksəklikdə yerləşir. D-y st. K.t. r-nunun ticarət mərkəzi.

**CELÓNQ** (Geelong) – Avstraliyanın c.-unda, Viktoriya ştatında şəhər. Əh. 143,9 min (2011). Bass boğazının Port-Fillip körfəzindəki Korio buxtasında yerləşir. Dəniz portu (yük dövriyyəsi 12 mln. *t*-dan çoxdur, 2006; əsasən, neft və neft məhsulları, buğda, mineral gübrə). Nəql. qovşağı. Avalon aeroportu.

Əsası 1837 ildə qoyulmuşdur. 1841 ildə C. portundan B.Britaniyaya qoyun yununun (19 əsrdə Avstraliyanın əsas ixrac əmtəəsi) ilk partiyası göndərilmişdi. 1857 ildə d.y. xətti C.-u Melburn ilə birləşdirdi. 1910 ildə şəhər statusu almışdır. 1920–30-cu illərdə C.-un sənaye mərkəzi (yun emalı üzrə 3 f-k, viski z-du, "İnternational Harvester" Amerika firmasının k.t. texnikasını istehsal edən f-ki) və iri port kimi (əsasən, buğda ixracı) əhəmiyyəti artmışdı.

Tarixi tikililər müasir turizm infrastrukturu ilə birləşir. Dikin Un-ti (1974), Celonq-kollec (1861), Qordon texnologiya kolleci (1887), Kardiniya beynəlxalq kolleci (1995); Rəssamlıq qalereyası (1896), yun milli muzeyi (1988), dəniz muzeyi (1968), avtomobil muzeyi (1999); İncəsənət mərkəzi (1981; tərkibində Ford və Blakiston teatrları), Skilld stadionu (2005 ilədək Kardiniya-park adlanmışdır) var.

İşləyən əhalinin 76%-i xidmət sferasında, təqr. 20%-i sənaye sahəsində çalışır. "Shell" şirkətinin neft emalı z-du (1954 ildən; Avstraliyada ən iri z-dlardan biridir: 2004 ildə 6,1 mlrd. *l*-dən çox neft məhsulları – benzin, dizel yanacağı və s.), "Ford Motors" şirkətinin avtomobil z-du (1926 ildən), alüminium istehsalı z-du (1963 ildən; ildə təqr. 185 min *t* alüminium) fəaliyyət göstərir. Xalça ("Godfrey Hirst" şirkəti), geyim və sörfinq aksessuarları ("Rip Curl" firması) və s. istehsal olunur.

**CEM** (ing. jam – mürəbbə) – meyvə və giləmeyvələri şəkər şərbətində bişirməklə alınan qida məhsulu. C. əzilmiş meyvə və giləmeyvələrdən ibarət qatı jele (homogen) və ya şərbətdə bütöv giləmeyvə və doğranmış meyvə (heterogen) şəklində ola bilər. Müxtəlif ərzaq məhsullarının (laylı un məmulatları, yoqurt, dondurma, kəsmik və s.) hazırlanmasında da istifadə edilir. C. qidanın, mikroelementlərin,


Celonq şəhərindən görünüş.

vitaminlərin tam həzm olunmasına kömək edir, maddələr mübadiləsini yaxşılaşdırır.

**"CÉMİNİ"** [ing. Gemini – hərfi mənada Əkizlər (bürc)], "C e m i n a y" – Yerətrafı orbitdə uçmaq üçün ABŞ-da buraxılan ikiyerli kosmik gəmi (KG) seriyasının adı. "C.-1" KG-si (pilotsuz) 1964 ildə, ilk pilotlu "C.-3" KG-si isə 1965 ildə buraxılmışdır. "C." radiolokator bölməsindən (ön), oriyentasiya sistemi bölməsindən, kəsik konus formalı endirilən aparatdan (skafandrlı kosmonavtları yerləşdirmək üçün) və aqreqat bölməsindən (arxa) ibarətdir. "C." kosmik UA-larına yaxınlaşmaq və birləşmək məqsədilə manevr etmək üçün aparat və tormoz mühərrikləri ilə, həmçinin kosmonavtın açıq kosmosa çıxması üçün sistemlə təchiz edilmişdir. Həyat təminatı sistemi 14 sutkaya hesablanmışdır. Enerji təchizatı sistemində istilik elementlərindən istifadə edilmişdir. Gəmi yalnız suya enmək üçün nəzərdə tutulmuşdur. "C."-nin maks. kütləsi 3,2–3,8 *t*, uz. 5,79 *m*, maks. diametri 3,05 *m*, maks. uçuş hünd. 1370 *km*-dir. Proqram üzrə elmi və tibbi-biol. tədqiqatlar, texniki eksperimentlər aparılmış, Yer, bulud örtüyü, səma cisimləri müşahidə edilmiş və fotoşəkilləri çəkilmiş, "Apollon" proqramı üzrə Ay ekspedisiyalarına hazırlıq üçün məlumatlar toplanılmışdır. "C." KG-sində 12 uçuş (10 uçuş pilotlu) olmuşdur. Uçuşlar zamanı kosmonavtlar 5 dəfə açıq kosmosa çıxmışlar.

**CEMSONİT** (Şotlandiya mineraloqu R. Ceymsonun şərəfinə adlandırılmışdır) – mineral. Qurğuşun və dəmirin təbii sulfoduzu – $Pb_4FeSb_6S_{14}$. Monoklinik sinqoniyada kristallaşır. Kristalları iynəvarı, sapvarıdır. Qarışıq lifli, radial şüalı yaxud dənəvər aqreqatları var. Qurğuşunu-bozdan dəmiri-qarayadək rəngdə olur. Metal parıltılıdır. Sərtliyi 2,5, sıxlığı 5630–5710 $kq/m^3$-dir. Kövrəkdir. C. orta və aşağı temp-rlu hidrotermal yataqlarda əmələ gəlir; qurğuşun-sink, qızıl-sürmə və digər polimetal yataqlarda rast gəlinir. Qurğu-


"Cemini-7" kosmik gəmisi.


Cemsonit.

şun və sürmənin ikincidərəcəli filizidir. RF, Ukrayna, Çexiya və s. ölkələrdə yataqları var.

**"CENERAL ELEKTRİK"**, "C e n e r a l e l e k t r i k k o m p a n i" ("General Electric Company") – geniş spektrdə elektrotexnika məhsullarının işlənməsi, istehsalı və satışı ilə məşğul olan iri transmilli şirkət. Mənzil-qərargahı Ferfild ş.-indədir (ABŞ, Konnektikut ştatı).

Amerika ixtiraçısı və biznesmeni T. *Edison* 1877 ildə Nyu-Cersi ştatında iş prinsipi elektriklə əlaqəli cihazların xassələrinin tədqiqi və onların sınaqları ilə məşğul olan laboratoriya açdı. 1880 ilin yanvarında T. Edison közərmə (elektrik) lampasının ixtirasına patent aldı. 1890 ildə "Edison General Electric Company" şirkəti təsis edildi və həmin il şirkət özünün elektrik lampası istehsal edən ilk f.-kini açdı. 1892 ildə onun "Thomson-Houston Electric Company" elektrotexnika şirkəti ilə birləşməsi nəticəsində "C.e." yarandı. "C.e." ilk dəfə 1900 ildə ABŞ-da şirkətin maraqları naminə əsaslı tədqiqatlar aparan xüsusi bölmə açdı. O vaxtdan başlayaraq "C.e." həm sənayedə tətbiq edilən, həm də məişətdə işlədilən ən qabaqcıl elektrik cihazları, elektrotexniki alətlər və qurğuların istehsalı üzrə dünyada liderdir. Hazırda "C.e." çoxprofilli şirkətdir. Onun "GE Commercial Finance" bölməsi maliyyə bazarında işləyir: müştərilərinə lizinq xidmətləri, kredit, borc, dövriyyə kapitalı və s. təqdim edir. "GE Healthcare" bölməsinin fəaliyyəti tibbi xidmətlər və texnologiyaların (əsasən onkoloji, ürək-damar, neyroloji xəstəliklərin erkən diaqnostikası və müalicəsi üçün müxtəlif cihazlar və məhsulların) yayılması ilə bağlıdır. "GE Industrial" bölməsi elektrotexniki, işıqlandırıcı və digər sənaye cihazlarının; istehsalın avtomatlaşdırılması sistemlərinin; plastik kütlə, rezin-texniki və kvars məhsullarının; idarəetmə və əməliyyat xidmətlərinin təhlükəsizlik sistemlərinin istehsalına və bütün dünyada satışına məsuliyyət daşıyır. "GE Infrastructure" inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə elmtutumlu texnologiyalar və əmtəələr, o cümlədən aviasiya mühərrikləri, enerji, neft, qaz, su istehsalı və d.y. nəql. sahəsində texnoloji xidmətlər; aviasiya və elektrotexniki məhsulların alışı üzrə maliyyə və lizinq xidmətləri təqdim edən aparıcı tədarükçülərdən biridir. "GE Money" bölməsi 50-dən çox ölkədə pərakəndə ticarətin, xüsusi şəxslərin, avtomobil dilerlərinin, ipoteka krediti proqramı iştirakçılarının kredit tələbatlarını təmin edir.

**"CENERAL MOTORS"**, "C e n e r a l m o t o r s k o r p o r e y ş e n" ("General Motors Corporation") – dünya avtomobil sənayesinin liderlərindən olan transmilli şirkət. Mənzil-qərargahı *Detroyt* ş.-ndədir (ABŞ, Miçiqan ştatı). "*Byuik*", "*Şevrole*", "*Kadillak*", "Ci-Em-Si", "Ci-Em-Deu", "Hammer", "*Holden*", "*Opel*", "*Saab*", "Saturn", "*Voksholl*", "*Pontiak*" markalı minik və yük avtomobilləri istehsal edir; sığorta və maliyyə bölmələri var. "C.m."-un ilk bölməsi 1897 ildə P.İ.Olds tərəfindən təsis edilmiş "Olds Motor Vehicle Company" şirkəti olmuşdur. 1899 ildə şirkət səhm kapitalı 500 min dollar olan "Olds Motor Works" şirkətinin avtomobilləri üçün motorlar istehsal edən "Olds Gasoline Engine Works" ilə birləşmişdi. Bu birlik ABŞ-da avtomobil istehsalı üzrə ixtisaslaşdırılmış ilk z-dun Detroytda tikilməsinə imkan yaratmışdı. 1901 ildə "*Oldsmobil*" markası ilə buraxılan açıq kuzalı avtomobil Amerikanın seriya ilə istehsal olunan ilk nəql. vasitəsi oldu. Məşhur "Kadillak" markasının tarixi isə 1902 ildən, Q. Lilendin Detroytda "Cadillac Automobile Company" şirkətini təsis etməsi ilə başlanmışdır. 1905 ildə şirkət birsilindrli "Oseola" avtomobilini istehsal etmişdir. 1907 ildə "*Byuik*" şirkəti ilk dördsilindrli avtomobilini buraxmışdır. Həmin il U. Merfinin Pontiak ş.-ində (Miçiqan şt.) təsis etdiyi "Oakland Motor Car Company" on ildən sonra "Pontiac Motor" şirkətinə çevrildi. 1908 ildə "Byuick Motor Car Comrany" əsasında "General Motors Company" şirkəti yaradıldı və "Olds Motor Works" şirkəti onun bir hissəsi oldu. "General Motors Company" 1909 ildə "Oakland Motor Car Company"nin yarısını və tezliklə bütün şirkəti, sonra "Cadillac Automobile Company", həmçinin Pontiakda yerləşən "Rapid Motor Vehicle" (onun əsasında yük avtomobilləri istehsal edildi), 1918 ildə Detroytdakı "Chevrolet Motor Company" şirkətlərini aldı. 1923 ildə Kopenhagendə "C.m."-un "Şevrole" avtomobillərini yığan ilk xarici z-du yaradıldı. Sonrakı illərdə "C.m."-un fəaliyyəti genişlənərək demək olar ki, bütün ölkələrə və qitələrə yayılmışdı. Şirkət müxtəlif illərdə aviasiyaqayırma biznesini inkişaf etdirmiş, d.y. nəql. hərəkət vasitələrinin işlənməsi və istehsalında iştirak etmişdir. "C.m." müharibə illərində (1942 ildən) hərbi təyinatlı məhsulların istehsalı ilə məşğul olmuşdur. Avtomobil istehsalında bir sıra yeniliklər, o cümlədən ilk sərt üstlü avtomobil kuzası (1949), daşıyıcı kuzası ilk dəfə plastik kütlədən hazırlanan "Şevrole-korvett" (1953), motoru arxada yerləşən, mühərriki hava ilə soyudulan "Şevrole-korveyr" (1959), ön intiqallı "Oldsmobil-tornado" (1965) "C.m." şirkətinə məxsusdur. 1985 ildə "C.m." yığcam avtomobillərin istehsalı üçün yüksək dərəcədə avtomatlaşdırılmış yeni avtomobil bölməsi olan "Saturn"u təşkil etmişdir. 1931 ildən 2008 ilədək "C.m." dünyanın ən böyük avtomobil istehsalçısı olmuşdur (2008 ildə bu status "Tayota"ya keçib). 21 əsrin əvvəllərində "C.m." 34 ölkədə yerləşən müəssisələrində hər il 9 mln. minik və yük avtomobili istehsal edir. Korporasiyanın ticarət şəbəkəsi ABŞ və Kanadada 14 min, başqa ölkələrdə isə 5 mindən çox dileri əhatə edir. 2008 ildən "C.m."-un Azərb. Resp.-nda da rəsmi dileri fəaliyyət göstərir.

**CENÉVRƏ** (fr. Genève, alm. Genf) – İsveçrənin c.-q.-ində şəhər. Cenevrə kantonunun paytaxtı. Əh. 192,1 min (2012; aqlomerasiyada 915 min, təqr. 44%-i əcnəbilərdir; əhalisinin sayına görə Sürixdən sonra ölkənin 2-ci şəhəri). 372 *m* yüksəklikdə, Cenevrə gölü sahilində, Rona çayının göldən çıxdığı yerdə port. İri nəql. qovşağı. C.-də Avropanın bir neçə mühüm avtomagistralı (C.–Bern–Sürix, C.–Turin–Genuya, C.–Qrenobl–Marsel, C.–Lion, C.–Dijon–Paris) qovuşur. Mühüm d.y. qovşağıdır; C.–Paris, C.–Marsel, C.–Monpelye, C.–Sürix–Sankt-Hallen və C.–Bil–Bazel istiqamətlərində yüksəksürətli qatarlar işləyir. Beynəlxalq avtovağzal və 2 d.y. vağzalı var. Beynəlxalq Kuantren aeroportu ölkənin ən böyük aeroportlarından biridir; ildə 7 mln.-dan çox sərnişinə xidmət göstərir.

İlk dəfə Yuli Sezarın "Qall müharibəsi haqqında qeydləri"ndə Genava adı altında romalıların helvetlərə qarşı mübarizəsində dayaq düşərgəsi kimi qeyd olunur (e.ə. 58 il). Təqr. eramızın 400 ilində burada yepiskopluq təsis edilmişdi. 443 ildən *Burqundiya* krallığının tərkibində, 443–461 illərdə Burqundiya krallarının iqamətgahlarından biri olmuş, 534 ildə *Frank dövlətinin* hakimiyyətinə keçmiş, onun süqutundan (888) sonra Yuxarı Burqundiyanın, 1032 ildən Müqəddəs Roma imperiyasının torpaqlarına qatılmışdı. 1124 ildən yepiskopların idarəçiliyi altında idi. 14 əsrdə və xüsusilə 15 əsrin 1-ci yarısında C. yarmarkaları ilə məşhur olmuş, sonralar bank-kredit əməliyyatlarının mərkəzinə çevrilmişdi. 1519 ildə Fri-







Cenevrə şəhərindən görünüş.

burla, 1526 ildə Bernlə ittifaq bağlayaraq "ittifaq torpaqları" qismində İsveçrə konfederasiyasına qoşulmuşdu. 1533 ildə yepiskop C.-dən qovulmuş, U. Svinqli və G. Farelin, 1536–38 illərdə və 1541 ildən sonra J. *Kalvinin* ideyaları əsasında Reformasiya keçirilmişdir; Kalvinin zamanında C. Avropa əhəmiyyətli kalvinizm mərkəzinə ("protestant Roması") çevrilmişdi. Kalvinin qanunları 1792 ilədək C. həyatının hüquqi əsasını təşkil edirdi. 1536 ildən C. aristokratik respublika idi. 1584 ildə Bern və Sürixlə "əbədi ittifaq" bağlamışdı. 1589–1602 illərdə Fransanın və Bernin köməyilə Savoyya hersoqları ilə mübarizədə özünün müstəqilliyini qorumuşdu. 16–17 əsrlərdə protestant immiqrantların axını C.-də saat və zərgərlik istehsalının inkişafına şərait yaratmışdı. Şəhər patrisiatının ağalığı və siyasi hüquqları məhdudlaşdırılmış xeyli sayda yerli sakinin (Natifs) olması 1792 il inqilabının baş verməsinə təkan verdi. İnqilabın gedişində aristokratik hökumət devrilmiş, konstitusiyaya yenidən baxılmış, bütün vətəndaşların bərabərliyi bəyan edilmişdi. 1798–1813 illərdə Fransa tərəfindən ilhaq olunmuş (Leman dep-tinin əsas şəhəri), 1815 ildə Savoyya və Fransadan ona birləşdirilmiş torpaqlarla birlikdə İsveçrənin 22-ci kantonunu təşkil etmişdi. Radikalların 1846 il inqilabı zamanı C.-də siyasi sistem və təhsil sistemində islahatlar keçirilmişdi. 19 əsrin 2-ci yarısı – 20 əsrin əvvəllərində Avropanın müxtəlif ölkələrindən inqilabi mühacirətin iri mərkəzi idi. 1866 ildə burada Birinci İnternasionalın 1-ci konqresi keçirilmişdi. 1907 ildə C.-də kilsə dövlətdən ayrılmışdı.

C. beynəlxalq konfransların çağırıldığı, beynəlxalq müqavilələrin bağlandığı ənənəvi yerdir. 20 əsrdə, xüsusən İkinci dünya müharibəsindən sonra, C. çoxsaylı beynəlxalq təşkilatların və təsisatların yerləşdiyi məkana çevrildi. 1919–46 illərdə burada *Millətlər Cəmiyyəti* yerləşirdi. C.-də BMT-nin Avropadakı mənzil-qərargahı, Avropa iqtisadi komissiyası, həmçinin BMT-nin bir çox struktur bölmələrinin, o cümlədən: BMT-nin Ticarət və inkişaf konfransının, BMT-nin Sənaye inkişafı təşkilatının, BMT-nin Narkotiklər və cinayətkarlıqla bağlı idarəsinin, BMT-nin Kompensasiya komissiyasının, BMT-nin Qaçqınlarla iş üzrə Ali komissarlığının mənzil-qərargahları yerləşir. C. *Avropa Azad Ticarət Assosiasiyasının*, *Ümumdünya Ticarət Təşkilatının*, *Ümumdünya Səhiyyə Təşkilatının*, *Beynəlxalq Əmək Təşkilatının*, *Ümumdünya İntellektual Mülkiyyət Təşkilatının*, Beynəlxalq miqrasiyalar üzrə təşkilatın, Beynəlxalq telekommunikasiya ittifaqının, *Ümumdünya meteorologiya təşkilatının*, Beynəlxalq hava nəqliyyatı assosiasiyasının, Parlamentlərarası ittifaqın və bir sıra digər beynəlxalq təsisatların iqamətgahıdır. C.-də həmçinin 100-dən artıq müxtəlif qeyri-hökumət təşkilatı, o cümlədən Beynəlxalq *Qırmızı Xaç* komitəsi (1863 ildən), Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara cəmiyyətləri federasiyası, Ümumdünya kilsələr şurası yerləşir. Ümumdünya iqtisadi forumunun (əsas illik sessiyası Davosda keçirilir) mənzil-qərargahı C.-nin şəhərətrafındadır.

Ronanın sol sahilindəki Köhnə şəhərdə Sen-Pyer kilsəsi (1160-cı illər – təqr. 1232) olan meydan; "Malle" hoteli (1721, memar J. F. Blondel, hazırda Beynəlxalq Reformasiya muzeyidir); Sen-Jermen kilsəsi (13 əsrin ortalarında əsası qoyulmuş, 1334–15 əsrdə yenidən tikilmişdir), şəhərdə ilk kalvinist kilsəsi Tampl-de-la-Füsteri (1715, memar J. Ven), qotik ratuşa (Hotel-de-vil, 15 əsr, fransız renessansı üslubunda 1617 ildə genişləndirilmişdir, memar F.Petito), şəhərin ən qədim yaşayış binası "Tavelin evi" (1334, hazırda Köhnə şəhər muzeyidir); renessans və klassisizm üslubunda inşa edilmiş mülklər: Turrettinin evi (1617–20, memarlar J. Patta, F. Petito), Lüllen malikanəsi (hazırda de Sössür; 1707–12, memar J. Abey), "Enar" sarayı (1817–21, memarlar C. Saluççi, J.V. Noble, S. Voşe, neoklassisizm üslubunda; indi Bələdiyyə binasıdır); asma körpü (1822–23, memar Q. Düfur) və s. var. Ronanın sağ sahilindəki Yeni şəhərdə eyniadlı kilsəsi (10 əsrdə erkən roman üslubunda inşa olunmuş, 15 əsrdə qotik üslubda yenidən tikilmişdir) olan Sen-Jerve məhəlləsi yerləşir. 20 əsrin memarlıq abidələri: Kornaven vağzalı (1925–28, memar X. Vittver), "Klarte evi" (1930–32, memarlar Ş.E. *Le Korbüzye*, P. Jannere), Millətlər Sarayı (1929–38, memarlar J. Flegenheymer, A. P. Neno, J. Vaqo və b.; hazırda BMT-nin Avropadakı mənzil-qərargahı), *Nüvə tədqiqatları üzrə Avropa təşkilatının* (C. yaxınlığında, 1954–60, memarlar R. və P. Steyger), Ümumdünya Səhiyyə Təşkilatının (1961, memar J. Çumi) binaları. C.-də J.J. Russo (1834–35, heykəltəraş J.J. Pradye) və Reformasiya abidələri var. Cenevrə gölündəki fəvvarə (1891) şəhərin simvoludur.

C. ölkədə aparıcı ETTKİ mərkəzlərindən biridir. Burada Avropa nüvə tədqiqatları təşkilatı (şəhərin yaxınlığında, Fransa ilə sərhəddə) və BMT sisteminin ən mühüm elmi tədqiqat in-tları: BMT-nin Tədris və elmi tədqiqat in-tu (YUNITAR), BMT nəzdində Sosial inkişaf elmi tədqiqat in-tu (YUNRISD), BMT-nin Tərksilah problemlərinin tədqiqi üzrə in-tu (YUNIDIR), həmçinin Avropa sosial elmlər akademiyası, Ali beynəlxalq tədqiqatlar in-tu, BƏT-in Beynəlxalq sosial-əmək tədqiqatları in-tu; Beynəlxalq geoinformasiya tədqiqatları mərkəzi və s. var. Ali təhsil müəssisələri arasında C. un-ti (əsası 1559 ildə J. Kalvin tərəfindən akademiya kimi qoyulmuşdur, indiki



Cenevrə. Arian muzeyi.

statusu 1873 ildəndir; bina – 1868–71; tələbələrin təqr. 40%-i əcnəbilərdir), Maliyyə və menecment un-ti (1971), Ali idarəçilik və biznes in-tu (INSAM un-ti kimi tanınır), C. Ali diplomatiya və beynəlxalq münasibətlər məktəbi (aparıcı özəl un-tlərdən biri); Ali zərif sənətlər və dizayn məktəbi (1748), Ali tətbiqi sənət məktəbi (1876), konservatoriya (1835), C. saat ustaları məktəbi; İsveçrədə aparıcı astronomiya mərkəzi olan C. Rəsədxanası (1772); C. kütləvi və universitet kitabxanası – İsveçrədə beş ən iri kitabxanadan biri (1562; təqr. 2 mln. nüsxə, o cümlədən 6,5 min əlyazması), BƏT kitabxanası (1919) fəaliyyət göstərir.

Əsas muzeyləri: təbiyyat tarixi (1820), Arian (1884; keramika, çini və saxsı məmulatlar), etnoqrafiya (1901), incəsənət və tarix (1910, bina 1903-10, memarlar C. və M. Kamoletti), Köhnə şəhər (1986), müasir və tətbiqi sənət (MAMSO; 1994), Beynəlxalq Reformasiya muzeyi (2005), Barbye-Müller muzeyi. Digər muzeylərdən J.J. Russonun muzeyi (1916), Volter in-tu və muzeyi (1952), Müasir incəsənət (1968), Qırmızı Xaç və Qırmızı Ay, həmçinin Molonyu villasında saat muzeyi, Patek Filipp (16–21 əsrlər C., İsveçrə və Avropa ustalarının saat və minalı məmulatlar kolleksiyası) muzeyi, saat firmalarının ("Rolex" və s.) mənzil-qərargahlarında yerləşən muzeylər, Beynəlxalq avtomobil muzeyi, Cenevrə gölü muzeyi. A. Baurun Cenevrə bədii kolleksiyası (1944; 1964 ildə açılmışdır; Çin və Yaponiya incəsənəti; manuskriptlər, nefrit, çini məmulatlar və s.). Malta ordeni muzeyi

Cenevrə. Qran-teatr.




(şəhərətrafı Kompezyedə). İsveçrə şokoladı emalatxanası (İsveçrədə şokolad istehsalı tarixinə dair ekspozisiya) var.

Qran-teatr (1879; Parisdəki "Qrand-Opera" teatrının binasına bənzər tikilmişdir), "Sen-Jerve", Marionet teatrı və s.; Roman İsveçrəsi orkestri (1918 ildə E. Anserme tərəfindən yaradılmışdır), "Viktoriya-holl" böyük konsert zalı (1894 ildə açılmışdır) var. Musiqi ifaçılarının beynəlxalq müsabiqəsi (1939) keçirilir.

Şəhər iqtisadiyyatının müasir strukturunda çoxsaylı beynəlxalq təşkilat və müəssisələrə (nümayəndəliklərin çoxu şəhərin şm. hissəsində, C.-nin Beynəlxalq mərkəzi – Cite İnternacionale hüdudlarında cəmləşmişdir) yüksək səviyyəli xidmət göstərilməsinə istiqamətlənmiş xidmət sferası (işləyənlərin təqr. 90%-i) üstünlük təşkil edir. C. İsveçrə və Avropanın iri maliyyə-bank mərkəzi olsa da, fəaliyyət miqyasına görə Sürixdən xeyli geri qalır. C.-də UBS və "Crédit Suisse" (idarə heyətləri Sürixdədir) iki iri İsveçrə bankının filialları, iri xarici (xüsusən fransız) və milli banklar, o cümlədən İsveçrənin ən iri özəl banklarından biri olan (illik dövriyyəsi təqr. 130 mlrd. avro, 2005), Pictet Bank (əsası 1805 ildə qoyulmuşdur), Bordier Bank, SCS Alliance Bank, "Lombard Odier Darier Hentsch & Cie" (2002 ildə C.-nin iki ən qədim özəl bankir evinin – "Lombard Odier & Cie" və "Darier Hentsch & Cie"nin birləşməsi ilə yaranmışdır) yerləşir. "Crédit Agricole (Suisse) S.A." [əsası 1876 ildə qoyulmuş "Crédit Lyonnais (Suisse) S.A." ilə "Crédit Agricole İndosuez (Suisse) S.A."nın 2005 ildə birləşməsindən yaranan], BNP Paribas Private Bank (Switzerland) S.A. və CBG Compagnie Bancaire Genève xarici kapitalın üstünlük təşkil etdiyi İsveçrə bankları arasında aparıcı mövqe tutur. C. fond birjası qiymətli kağızlarla əməliyyatların dövriyyəsi üzrə İsveçrədə Sürix fond birjasından sonra ikinci yeri tutur. "Geneva Financial Center Foundation" fondu dünyanın bir çox ölkəsində investisiya layihələrini maliyyələşdirir.

C. işgüzar xidmətlərin, beynəlxalq, topdansatış və pərakəndə ticarətin, sığorta və reklam biznesinin mühüm mərkəzidir. İri beynəlxalq korporasiyaların, o cümlədən "Serono S.A." (biotexnologiya, əczaçılıq), "Sun Microsystems İnc.", "ST Microelectronics", "Hewlett - Packard" (elektron biznesi), "JT İnternational" (tütün sənayesi), "Mediterranian Shipping Company" (dəniz gəmiçiliyi, beynəlxalq kruizlərin təşkili), "İnvista" (toxuculuq və tikiş sənayesi, sintetik və süni lif istehsalı) və "Procter & Gamble"ın (kosmetik vasitələr, ətriyyat, əczaçılıq, gigiyena vasitələri və s.) mənzil-qərargahları və ya Avropadakı baş ofisləri C.-də yerləşir. "SİTA" şirkəti (mənzil-qərargahı C.-dədir) mülki aviasiyaya telekommunikasiya və informasiya xidməti göstərilməsi sahəsində dünya lideridir; onun törəmə firması olan "On Air" uçuş zamanı mobil əlaqəni təmin edən sistemlərin dünya bazarında başlıca tədarükçüsüdür; digər törəmə firması "CHAMP Cargosystems" yalnız yük aviaşirkətlərinə xidmət göstərən dünyada yeganə İT-provayderdir. "Société Générale de Surveillance S.A." (SGS, əsası 1878 ildə qoyulmuşdur) korporasiyası dünyanın aparıcı sürveyer (əmtəələrin yoxlanılması, test edilməsi və sertifikatlaşdırılması) şirkətlərindən biridir; "Electronic Arts" şirkəti dünyada video- və kompyuter oyunlarının ən iri müstəqil istehsalçılarındandır. Xidmət sferasında fəaliyyət göstərən aparıcı İsveçrə şirkətlərindən olan C. firmaları: "Univalor S.A." (maliyyə menecmenti, sığorta xidmətləri), "Julliard İmmobilier S.A." və "Naef + Partner" (daşınmaz əmlakın idarə edilməsi üzrə əməliyyatlar), "Addor & Julliard" (arxitektura, dizayn, şəhərsalma), "PEG Engineering S.A." (injinirinq və konsaltinq), "Edipresse" nəşriyyat qrupu. C.-də iri dövri nəşrlər ("Tribune de Genève", "Le Temps", "Le Courrier") çap edilir, İsveçrənin fransızdilli əhali yaşayan hissəsində ən iri radio- və televiziya yayımı korporasiyalarının ("Radio Suisse Romande" və "Télévision Suisse Romande") mənzil-qərargahları yerləşir. C.-nin beynəlxalq ixtisaslaşmasında aparıcı sahələrdən biri də yüksəkkeyfiyyətli tibbi xidmətin (əsasən, kardiocərrahiyə, onkologiya, radiologiya, urologiya, ginekologiya, oftalmologiya sahələrində) göstərilməsidir; burada milli və ümumavropa əhəmiyyətli klinikalar cəmləşmişdir. Yüksək inkişaf etmiş turizm infrastrukturuna malik olan böyük turizm (o cümlədən, işgüzar və konqres) mərkəzidir; şəhərdə İsveçrənin aparıcı turizm agentlikləri və şirkətləri ("Magnafin S.A." və s.) yerləşir.

Sənaye istehsalının həcminə görə C. İsveçrədə Sürix və Bazeldən sonra üçüncü yeri tutur. Sənayenin aparıcı sahəsi – yüksəkixtisaslı heyətə istiqamətlənən və elmtutumlu məhsul istehsal edən maşınqayırmadır. C. Avropada ən böyük saat istehsalı mərkəzidir və ölkənin saat sənayesinin başlıca təşkilati-idarəetmə mərkəzidir; 21 əsrin əvvəllərində sahədəki istehsalın və kapitalın təmərküzləşməsinə baxmayaraq, çox sayda kiçik, o cümlədən ailə firmaları qalmışdır. Ən iri istehsalçı – "Swatch Group AG"dır (mənzil-qərargahı Bil ş.-ndədir); 14 saat firmasını özündə birləşdirən bu aparıcı İsveçrə korporasiyasının (ayrı-ayrı illərdə dünya üzrə saat ixracatının təqr. 1/5-i) sənaye müəssisələrinin, ofislərinin, logistika və texniki xidmətlərinin xeyli hissəsi C.-də və şəhərətrafında cəmləşmişdir: başlıca brendləri: "Breguet", "Omega", "Blancpain", "Tissot", "Certina". C.-də digər nisbətən kiçik, lakin dünya miqyasında məşhur olan saat şirkətləri də yerləşir: "Manufactures des Montres Rolex S.A." (əsası 1905 ildə qoyulmuşdur), "Patek Philippe S.A." (1839), "Longines" (1832), "Haas & Cie" (1848; nadir və eksklüziv ultra nazik saat modelləri). Bahalı saat istehsalı üzrə ixtisaslaşmış bəzi firmalar (o cümlədən əsası 1830 ildə qoyulmuş "Baume et Mercier" və 1860 ildə qoyulmuş "Chopard") həm də zərgərlik məmulatlarının mühüm istehsalçılarıdır. Maşınqayırmanın digər sahələri də yüksək inkişaf səviyyələri ilə seçilir: geodeziya alətləri, dəqiq ölçü cihazları, dəqiq metalkəsən dəzgahlar, tibbi aparatlar və s. istehsalı. 20 əsrin sonu – 21 əsrin əvvəllərində elektron sənayesi sürətlə inkişaf edir. "ST Microelectronics" müəssisələri mikroçiplər, "Sun Microsystems İnc." müəssisələri kompyuter şəbəkələri üçün serverlər, proqram təminatı istehsal edir, şirkətin özünün istehsal etdiyi aparatlar vasitəsilə (C.-də "Sun Microsystems İnc."in sınaq



Cenevrə mayakı.

və hesablama mərkəzi də yerləşir) inteqrasiya olunmuş bank sistemlərinin testləşdirilməsini həyata keçirir. "ABB High Voltage Technologies Ltd" ("Asea Brown Boveri" İsveç-İsveçrənin korporasiyasının törəmə firması) şirkəti müxtəlif çeşidli elektrotexnika məhsulları (orta gərginlikli yarımstansiyalar, gərginlik sıçrayışlarını aradan qaldıran sistemlər, güc çevirgəcləri və s.) istehsal edir. Lokomotiv- və vaqonqayırma, tramvay istehsalı, nəql. vasitələri üçün porşenli kompressorların, elektrovozlar, turbinlər üçün sürətölçən ("ABB Sécheron S.A.", "Oerlikon") istehsalı inkişaf etmişdir.

C. Avropada ətriyyat sənayesi və ətirli

Cenevrə beynəlxalq avtosalonu. 2013 il.





Cenevrə gölü. İsveçrə.

maddələr istehsalının ən mühüm mərkəzlərindən biridir. Aparıcı istehsalçılar "Givaudan S.A." ("elit" ətriyyat və kosmetik vasitələrin istehsalı üzrə ixtisaslaşmışdır; ətirli maddələrin və tamlı-aromatik inqrediyentlərin istehsalı və satışı həcminə görə dünyada birinci yeri tutur, dünya ətir bazarında birincilərdəndir; şəxsi gigiyena vasitələri və s. də istehsal edir) və "Firmenich" (əsası 1895 ildə qoyulmuşdur; yeyinti sənayesi – ət məhsulları, alkoqolsuz içkilər, qənnadı məmulatları üçün aromatik maddələrin istehsalı üzrə dünya liderlərindən biridir; bahalı ətriyyat məhsulları da istehsal edir) şirkətləridir. Əczaçılıq sənayesi "Serono S.A." firmasının (əsası 1906 ildə qoyulmuşdur; 2006 ildən kapitalın 2/3-si "Merck KGaA" Almaniya əczaçılıq konserninə məxsusdur; dağınıq skleroz və onkoloji xəstəliklərin müalicəsi üçün preparatların işlənib hazırlanması və istehsalında dünya liderlərindən biridir) müəssisələri və digər nisbətən kiçik şirkətlər ilə təmsil olunmuşdur.

Tamlı məhsullar (xüsusən, şokolad və tütün); poliqrafiya, tikiş, toxuculuq, mebel və s. sənaye sahələri var. Ənənəvi olaraq zərgərlik (C.-nin bir sıra zərgərlik və zərgərlik-saat firması "Richemont Group" korporasiyasına daxildir) inkişaf etmişdir.

**CENÉVRƏ GÖLÜ**, Leman (alm. Genfersee, fr. Lac de Genève, Lac Léman) – İsveçrə və Fransada göl. Alp d-rındakı göllərin ən böyüyü. Sah. 582 $km^2$, uz. 72 *km*, ən enli yeri 14 *km*, dərinliyi 310 *m*-ədəkdir. 372 *m* yüksəklikdə, Qərbi Alp və Yura d-rı arasında qədim buzlaq dərəsində yerləşir. Sahilləri əsasən hündür və sıldırımlıdır. Rona çayı C.g.-ndən keçir; çayın axını göldən çıxdığı yerdə bəndlə tənzimlənir. C.g. hövzəsinin çayları qar və buzlaqlardan qidalandığı üçün suyun səviyyəsi yayda qışa nisbətən 1 *m*-ədək qalxır. Səth suyunun temp-ru yayda 19–24°C, qışda 4–5°C olur. Göl çox mənzərəlidir, iqlimi yumşaq və istidir. Balıqla zəngindir. Gəmiçilik var. Cenevrə, Lozanna, Montrö, Veve (İsveçrə) və Evyan-le-ben (Fransa) kimi şəhəri və kurortlar gölün sahilindədir. Sahilləri boyu avtomobil və d.y.-ları keçir. Turizm inkişaf etmişdir.

**CENÉVRƏ KONFRANSI (1927)** – B.Britaniya (C.O. *Çemberlen*), Fransa (A. *Brian*), Almaniya (Q. *Ştrezeman*), İtaliya (V. Şaloyya), Belçika (E. *Vandervelde*) və Yaponiya (K. İsii) xarici işlər nazirlərinin konfransı. İyunun 14–16-da Cenevrədə *Millətlər Cəmiyyəti* Şurasının sessiyası zamanı keçirilmişdir. Çin inqilabını (1925–27) dəstəkləməsi ilə əlaqədar olaraq B.Britaniya hökumətinin SSRİ ilə diplomatik və ticarət əlaqələrini kəsməsindən sonra Çemberlenin təşəbbüsü ilə çağırılmışdır. Konfransda antisovet koalisiyasının yaradılmasına ümid edən Çemberlen "Kominternin təbliğatına qarşı" birgə bəyannamə dərc etmək təklifi irəli sürdü. C.k. iştirakçıları arasındakı ziddiyyətlər və onlardan bəzilərinin SSRİ ilə iqtisadi əlaqələri saxlamaq səyləri nəticəsində Çemberlenin planı müvəffəqiyyətsizliyə uğradı. Ştrezeman və Brian bəyannaməni imzalamaqdan imtina etdilər, Yaponiya təmsilçisi isə ehtiyatlı mövqe tutdu. C.k.-nın yekun sənədinə görə, konfrans iştirakçıları *Lokarno müqavilələrinə (1925)* riayət etməyi öhdələrinə götürdülər.

**CENEVRƏ KONVENSİYALARI (1949)** – müharibənin aparılmasının humanitar qaydalarını müəyyən edən və 1949 il avqustun 12-də Cenevrədə (İsveçrə) imzalanmış çoxtərəfli beynəlxalq sazişlər: 1) döyüşən orduda yaralıların və xəstələrin aqibətini yaxşılaşdırmaq haqqında konvensiya; 2) dənizdəki hərbi qüvvələrin tərkibində olan yaralıların, xəstələrin və gəmi qəzasına uğramış şəxslərin aqibətini yaxşılaşdırmaq haqqında konvensiya; 3) hərbi əsirlərlə davranış haqqında konvensiya; 4) müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında konvensiya. C.k. müasir beynəlxalq hüququn əsas prinsipini təsbit etdi: müharibə düşmənin yalnız hərbi qüvvələrinə qarşı aparılır; mülki əhaliyə, xəstələrə, yaralılara, hərbi əsirlərə və b. qarşı hərbi əməliyyatlar qadağandır. C.k. müharibə qurbanlarının müdafiəsi haqqında əvvəllər Haaqa konvensiyalarında (1899 və 1907), Cenevrədə imzalanmış konvensiyalarda (1864, 1906, 1929) təsbit olunmuş beynəlxalq-hüquqi normaları inkişaf etdirdi. C.k. müharibə elan edilən hallarda, yaxud hər hansı silahlı münaqişə baş verdikdə, hətta müharibə edən tərəflərdən birinin müharibə vəziyyətini qəbul etmədiyi hallarda və ərazilərin hətta hərbi müqavimətlə üzləşmədən işğal olunduğu vəziyyətlərdə tətbiq edilir. Əgər C.k.-nda iştirak etməyən qarşı tərəf özünün hərbi əməliyyatlarında onların müddəalarına əməl edərsə, C.k.-nın iştirakçıları üçün də bu müddəalara riayət etmək məcburidir. C.k.-nın müddəaları bitərəf ölkələr üçün də məcburidir.

C.k. iştirakçı ölkələrin bu konvensiyaların müddəalarını pozmuş, yaxud onları pozan hansısa əməliyyat aparmağı əmr etmiş şəxslərin axtarışı və cəzalandırılması vəzifələrini də nəzərdə tutur. Həmin şəxslər ərazisində cinayət törətdikləri ölkənin məhkəməsinə, yaxud C.k.-nın iştirakçısı olan və həmin şəxslərin təqsirləri haqqında sübutları olan istənilən ölkənin məhkəməsinə verilirlər. Yaralıların, xəstələrin, hərbi əsirlərin və mülki əhalinin qəsdən öldürülməsi, işgəncə verilməsi və onlarla vəhşicəsinə davranılması, o cümlədən bioloji təcrübələrin aparılması, sağlamlığa zərər vurulması, hərbi əsirlərin düşmən ordusunda xidmətə məcbur edilməsi, girov götürülməsi, hərbi zərurət olmadan mülkiyyətə ciddi ziyan vurulması və s. C.k.-nın ciddi pozulmaları hesab olunur. C.k.-nın pozulmasında təqsirli bilinən şəxslər hərbi cinayətkar hesab edilməli və cinayət məsuliyyətinə cəlb olunmalıdırlar.





**CENEVRƏ MÜŞAVİRƏSİ (1955)** – SSRİ (N.A. Bulqanin), ABŞ (D.D. *Eyzenhauer*), B.Britaniya (A. *İden*) və Fransa (E. For) hökumət başçılarının iştirakı ilə Avropada təhlükəsizlik məsələlərinə dair müşavirə. Müşavirənin işində təmsil olunan dövlətlərin xarici işlər nazirləri və digər dövlət xadimləri də iştirak edirdilər (sovet nümayəndə heyətinin tərkibinə N.S. *Xruşşov*, G.K. *Jukov*, A.A. *Qromıko* və b. daxil idi). İyulun 18–23-də Cenevrədə SSRİ-nin təşəbbüsü ilə sovet nümayəndə heyəti tərəfindən *Berlin müşavirəsində (1954)* təklif olunmuş "Avropada kollektiv təhlükəsizlik haqqında ümumavropa müqaviləsi" layihəsinin müzakirəsini davam etdirmək məqsədilə çağırılmışdı. Layihə bütün hərbi blokların ləğv edilməsini, Avropa dövlətlərinin hücum etməmək və təcavüz zamanı qarşılıqlı yardım göstərmək öhdəlikləri götürməsini nəzərdə tuturdu. Berlin müşavirəsi iştirakçılarının müqavilə layihəsinə mənfi münasibətini nəzərə alan sovet nümayəndə heyəti kollektiv təhlükəsizlik sisteminin mərhələli şəkildə (birinci mərhələdə həm *Şimali Atlantika Müqaviləsi Təşkilatını*, həm də *Varşava Müqaviləsi Təşkilatını* saxlamaq şərtilə) yaradılması planını müzakirəyə çıxartdı. Bundan başqa, sovet tərəfi Avropa dövlətlərinin hərbi qüvvə tətbiqindən qarşılıqlı surətdə imtina etmək haqqında müqavilə bağlamaq (kollektiv təhlükəsizlik haqqında müqavilə bağlanana qədər qüvvədə qalmalı idi) təşəbbüsünü irəli sürdü. SSRİ nümayəndə heyəti Almaniya Demokratik Resp.-nın AFR-in tərkibinə qatılmasına (sonuncunun Avropa müdafiə birliyində üzvlüyünün saxlanılması şərtilə) qarşı çıxdı, hər iki alman dövləti arasında münasibətlərin normallaşdırılmasının və onların Avropada kollektiv təhlükəsizlik sistemində iştirakının zəruriliyini qeyd etdi. SSRİ-nin təklifləri müşavirə iştirakçıları tərəfindən qəbul olunmadı. Müşavirənin yekun sənədində xarici işlər nazirlərinə hökumət başçılarının müzakirə etdiyi məsələlərə baxmağı davam etdirmək həvalə olundu.

**CENEVRƏ PROTOKOLLARI (1922, 1924, 1925)** – Cenevrədə Millətlər Cəmiyyətinin himayəsi altında imzalanmış beynəlxalq sazişlər.

Cenevrə protokolları (1922) – "Avstriyaya borc haqqında və anşlusun qadağan edilməsi haqqında" üç protokol. Oktyabrın 4-də Millətlər Cəmiyyətində Avstriyanın 650 mln. qızıl kron həcmində ona borc verilməsi xahişinin (milli valyuta məzənnəsinin aşağı düşməsi ilə əlaqədar) müzakirəsindən sonra Avstriya nümayəndələri ilə B.Britaniya, Fransa, İtaliya, Çexoslovakiya nümayəndələri arasında imzalanmışdır. Borcun siyasi zəmanəti qismində Avstriya hökuməti *Sen-Jermen sülh müqaviləsinə (1919)* müvafiq olaraq Avstriyanın müstəqilliyinin pozulmasına, onun başqa dövlətlə birləşməsinə gətirib çıxaracaq bütün iqtisadi və maliyyə müqavilələrindən imtina etmək öhdəliyini götürmüşdü. Bununla o, *anşluss* siyasətindən əl çəkdiyini təsdiq etmişdi. Millətlər Cəmiyyəti 1926 il iyunun 30-dək Avstriyanın iqtisadi və maliyyə öhdəliklərini yerinə yetirməsinə nəzarət edirdi; Avstriya hökumətinin üzərinə götürdüyü siyasi öhdəliklər 1938 ilin martında Avstriya müstəqilliyini itirdikdən sonra qüvvədən düşdü.

Cenevrə protokolu (1924) – "Beynəlxalq münaqişələrin sülh yolu ilə nizamlanması haqqında" adı ilə oktyabrın 2-də Millətlər Cəmiyyətinin Assambleyasında qəbul edilmiş sənəd. 21 dövlətin, o cümlədən Fransa, İspaniya, Bolqarıstan, Polşa, Braziliya nümayəndələri tərəfindən imzalanmışdır. Ölkələr, təcavüzə qarşı müqavimət və Millətlər Cəmiyyətinin qərarı ilə həyata keçirilən əməliyyatlar istisna olmaqla, beynəlxalq münaqişələrin həlli üçün hərbi qüvvə tətbiqindən çəkinmək öhdəliyini götürmüşdülər. Protokolun ilkin müzakirəsi gedişində Millətlər Cəmiyyətinin üzvü olmayan SSRİ layihəni rədd etmiş (12.3.1924 il tarixli nota) və silahların məhdudlaşdırılması haqqında təklif irəli sürmüşdü. C.p. (1924) dövlətlərin əksəriyyəti – Millətlər Cəmiyyəti Şurasının daimi üzvləri (həmin dövrdə B.Britaniya, Fransa, İtaliya və Yaponiya) və digər 10 üzvü tərəfindən ratifikasiya olunmadığı üçün qüvvəyə minməmişdi.

Cenevrə protokolu (1925) – "Müharibədə boğucu, zəhərli, yaxud digər buna bənzər qaz və bakterioloji vasitələrin istifadəsinin qadağan edilməsi haqqında" sənəd. İyunun 17-də 37 dövlətin, o cümlədən ABŞ, B.Britaniya, Fransa, Almaniya, Yaponiya nümayəndələri tərəfindən imzalanmışdır. 1928 il fevralın 8-də qüvvəyə minmişdi. C.p.-nun istinad etdiyi müqavilələrin sırasına yeganə məqsədi boğucu və zəhərli qazları yaymaq olan mərmilərdən istifadə etməmək haqqında Haaqa bəyannaməsi (1899), *Versal sülh müqaviləsi (1919)*, Sen-Jermen sülh müqaviləsi (1919), *Nöyi sülh müqaviləsi (1919)*, *Trianon sülh müqaviləsi (1920)*, *Sevr sülh müqaviləsi (1920)*, həmçinin *Vaşinqton konfransında (1921–22)* qəbul edilmiş dənizdə müharibə zamanı neytral və müharibə etməyən ölkələrin vətəndaşlarının həyatının qorunması, müharibə gedişində zəhərli qazlar və kimyəvi vasitələrdən istifadəyə dair xəbərdarlıq haqqında saziş daxildir. C.p. iştirakçıları kimyəvi silahların istifadəsinin qadağan olunmasını qəbul etdiklərini təsdiq etmiş və bu qadağanın bakterioloji vasitələrə də şamil olunması ilə razılaşmışdılar. C.p. (1925) müddətsiz müqavilədir. 130-dan çox dövlət C.p.-nun (1925) üzvüdür (2007).

**CENEVRƏ SAZİŞLƏRİ (1954)** – *Berlin müşavirəsinin (1954)* qərarına müvafiq olaraq Koreya və Hind-Çində vəziyyəti dinc yolla nizama salmaq məsələsi ilə əlaqədar SSRİ, ÇXR, B.Britaniya, ABŞ və Fransa xarici işlər nazirlərinin Cenevrədə çağırılmış müşavirəsində (26.4.–21.7.1954) qəbul olunmuşdu. Hind-Çin məsələsinin müzakirəsində Vyetnam Demokratik Resp.-nın, Kambocanın, Laosun və Cənubi Vyetnamın nümayəndələri də iştirak etmişdilər. Sazişlər Fransanın Hind-Çin xalqlarına qarşı apardığı 8 illik müharibəyə son qoydu. Vyetnamda hərbi əməliyyatların dayandırılması haqqında sazişə əsasən 17-ci paraleldən cənubda keçən müvəqqəti demarkasiya xətti və müharibə edən tərəflərin qoşunlarının oradan çıxarılması üçün 300 günlük müddət müəyyənləşdirilmişdi. Laos və Kambocada hərbi əməliyyatların dayandırılması haqqında sazişlər Fransa İttifaqı qoşunlarının, eləcə də Vyetnam könüllülərinin bu ölkələrin ərazisindən çıxarılmasını nəzərdə tuturdu; Laosun Patet-Lao müqavimət qüvvələri ölkənin şm.-ş. əyalətlərinə çəkilməli idi. Vyetnam, Laos və Kamboca hərbi ittifaqlara qoşulmamaq öhdəliyi götürmüş, onların ərazilərində hərbi bazaların yaradılması qadağan edilmişdi. 1955 ildə Laos və Kambocada, 1956 ilin iyulunadək isə Vyetnamda müstəqillik, suverenlik, birlik, ərazi bütövlüyü və bu dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri əsasında ümumi azad seçkilərin keçirilməsi nəzərdə tutulmuşdu. Sazişlərin yerinə yetirilməsinə nəzarət etmək məqsədilə Hindistan, Polşa və Kanada nümayəndələrindən ibarət Beynəlxalq komissiya yaradılmışdı. Sazişlər Yekun bəyannamədə

ümumiləşdirilmişdi. ABŞ nümayəndəsi buna qoşulmaqdan imtina etmiş və ABŞ-ın Cenevrədə imzalanmış sazişləri nəzərə alması və onları pozmaqdan çəkinməsi haqqında birtərəfli bəyanatını elan etdi. Müşavirənin qərarlarına müvafiq olaraq Vyetnam, Laos və Kambocada hərbi əməliyyatlar dayandırıldı. 1955 ildə Kambocada, 1958 ildə Laosda seçkilər keçirildi. Vyetnamda ümumi seçkilər haqqında qərar açıq şəkildə sazişləri tanımamaq yolunu tutmuş, sonra isə təcavüzkar *"Vyetnam müharibəsi"*nə başlamış ABŞ tərəfindən dəstəklənən (Hind-Çin ölkələrinin SEATO blokunun məsuliyyət dairəsi elan edilməsi, Vyetnam Resp.-nın separat hökumətinin formalaşdırılmasına yardım göstərilməsi və onun diplomatik səviyyədə tanınması, Vyetnamın c.-unda hərbi bazalar, həmçinin dayaq məntəqələri şəbəkəsinin və s. yaradılması) Cənubi Vyetnam hökuməti tərəfindən pozuldu.

**CENEVRƏ SAZİŞLƏRİ (1962)** – Laosda vəziyyəti dinc yolla nizama salmaq məsələsi ilə əlaqədar Cenevrədə Beynəlxalq müşavirədə (16.5.1961–23.7.1962) imzalanmış sənədlər. Müşavirə SSRİ və B.Britaniyanın təşəbbüsü ilə çağırılmış və onların sədrliyi ilə keçirilmişdi. Müşavirədə ÇXR, Vyetnam Demokratik Resp., Vyetnam Resp., Polşa, ABŞ, Fransa, Hindistan, Birma, Kamboca, Kanada, Tayland və 1962 ilin iyununda milli koalision hökumət yaratmaq haqqında razılığa gəlmiş Laosun üç siyasi qruplaşmasının nümayəndələri – şahzadə *Suvanna Fuma* (bitərəflərdən), şahzadə *Sufanuvonq* (Laosun Vətənpərvərlik Cəbhəsindən), şahzadə Bun Um və gen. Fumi Nosavan (sağlardan) da iştirak edirdilər. Sazişlər Laosun bitərəfliyi haqqında Bəyannamədən (Laos hökumətinin bitərəflik haqqında 1962 il 7 sentyabr tarixli bəyanatı onun tərkib hissəsi idi) və müşavirə iştirakçılarının "Laos krallığının suverenliyi, müstəqilliyi, bitərəfliyi, birliyi və ərazi bütövlüyünə" hörmət etməyə hazır olduqlarının, onun işlərinə qarışmayacaqlarının və onu hərbi sazişlərə cəlb etməyəcəklərinin qeyd edildiyi Bəyannaməyə əlavə Protokoldan ibarət idi. Bəyannamə Laos ərazisində vətəndaş müharibəsinin tamamilə dayandırılmasını, xarici qoşunların və onlara xidmət personalının ölkədən çıxarılmasını nəzərdə tuturdu. Sazişin yerinə yetirilməsinə nəzarət Hindistan, Polşa və Kanada təmsilçilərindən ibarət beynəlxalq komissiyaya həvalə edilirdi. Sazişlərin yerinə yetirilməsi ABŞ və onun müttəfiqlərinin dəstəyi ilə 1963 ilin aprelində Laosun Vətənpərvərlik Cəbhəsinə qarşı hərbi əməliyyatlara başlamış (1973 ilin fevralınadək davam etmişdi) sağ qruplaşma tərəfindən pozuldu.

**CENKİNSON** (Jenkinson) Entoni (1529–1610) – ingilis səyyahı, tacir. 1557–72 illərdə dörd dəfə Rusiyada, 1558–59 illərdə Orta Asiyada olmuşdur. *Moskva şirkətinin* nümayəndəsi kimi 1562–63 illərdə Səfəvilər dövlətinə göndərilmiş və şah I Təhmasib tərəfindən qəbul edilmişdi (20.11.1562). C.-un səyahətnaməsində Dərbənd, Şabran, Şamaxı, Ərəş, Cavad, Ərdəbil, Təbriz və s. şəhərlər, Səfəvilər dövlətində ipək ticarəti, Volqa-Xəzər ticarət yolunun İngiltərə üçün sərfəli olması, o cümlədən Şirvan kralı adlandırdığı bəylərbəyi Abdulla xan Ustaclının onu Şamaxıda qonaq etməsi (süfrəyə 290-dək xörək, müxtəlif yemək və s. qoyulması) və s. haqqında məlumat verilmişdir.

**CENNER** (Jenner) Eduard (17.5.1749 – Qlosterşir qraflığı, Berkli, – 26.1.1823, orada) – ingilis həkimi, çiçəkdöymənin banisi. Təbabəti Londonda C. *Xanterin* rəhbərliyi altında öyrənmişdir. 1773 ildən Qlosterşirdə həkim işləmişdir. Təbii çiçəyin spesifik profilaktika üsulunu kəşf etmişdir. 8 yaşlı oğlanı – Ceyms Fipsi 14.5.1796 ildə inək çiçəyi ilə peyvənd etmişdi. 6 həftədən sonra o, təbii çiçəklə peyvənd olunmuş, lakin uşaq təbii çiçəklə xəstələnməmişdi. C. B.Britaniyada vaksinlə peyvənd etmək məqsədilə Londonda 1803 ildə yaradılan Cenner Kral Cəmiyyətinin (Royal Jennerian Society) ilk və ömürlük sədri olmuş, bu da ölkədə çiçəkdən ölənlərin sayının 3 dəfədən çox azalması ilə nəticələnmişdir. 1808 ildə B.Britaniyada çiçəkdöymə dövlət səviyyəsində tətbiq edilmişdir.



Ə s ə r l ə r i: An inquiry into the causes and effects of the variolae vaccinae, a disease discovered in some of the western countries of England. L., 1798; Further observations on the variolae vaccinae, or cow pox. L., 1799.

**CENNİNQS** (Jennings) Herbert Spenser (1868–1947) – Amerika bioloqu, zooloq. Rusiya EA-nın əcnəbi m. üzvü (1924 ildən); SSRİ EA-nın əcnəbi m. üzvü (1925). Birhüceyrəli orqanizmlərin genetikasını tədqiq edən ilk alimlərdən biridir. Əsərləri heyvanların ekologiyası və populyasiya genetikasına həsr edilmişdir.

**CENTİLE** (Gentile) Covanni (30.5.1875, Kastelvetrano – 15.4.1944, Florensiya) – italyan filosofu, dövlət xadimi, "aktual idealizm" sisteminin yaradıcısı. Palermo (1906 ildən), Piza (1914 ildən) və Roma (1918–43) un-tlərinin prof.-u olmuşdur. 1903–22 illərdə B. *Kroçe* ilə birlikdə "La Critica" jurnalını nəşr etmişdir. C. faşist hərəkatını dəstəkləmiş, B. Mussolininin birinci hökumətində xalq təhsili naziri olarkən (1922–24) genişmiqyaslı pedaqoji islahat aparmışdır (14 yaşınadək uşaqların icbari təhsilə cəlb edilməsi; ali təhsil müəssisələrində tədrisi yaxşılaşdırmaq məqsədilə onların sayının ixtisar edilməsi; tədris formasının sərbəst seçimi saxlanılmaqla bütün məktəblərdə, o cümlədən özəl məktəblərdə icbari dövlət imtahanlarının tətbiqi). Konstitusiya islahatı üzrə komissiyanın sədri (1925–28), Böyük Faşist Şurasının üzvü (1925–1929), "İtaliya ensiklopediyası"nın elmi rəhbəri (1925–44), İtaliya EA-nın prezidenti (1943–44) olmuşdur. Partizanlar tərəfindən öldürülmüşdür.



C. son dərəcə mücərrəd olan "təmiz varlıq" anlayışından bütün kateqoriyaları çıxarmağı (Hegelin "Məntiq elmi"ndə baş verdiyi kimi) qeyri-mümkün sayaraq, İ. Kant, İ. Q. Fixte və G. V. F. Hegel ideyalarının sintezi ruhunda "Hegel dialektikasının islahatına" başlamışdı. C.-yə görə, dialektik proses yalnız konkretdən mücərrədə keçə bilər, əksinə isə yox, çünki özühərəkilik enerjisinə yalnız konkret olan malikdir. Konkret olan isə real subyektin canlı "düşünən fikri"dir; subyekt qismində "dünya ruhu" yox, fasiləsiz yaradıcılıq fəaliyyətində obyektiv dünyanın yeni-yeni formalarını yaradan transsendental Mən çıxış edir. C.-nin sonrakı əsərlərində "transsendental Mən" bəzən Allahla – "sonsuz və mütləq Şəxsiyyət"-lə eyniləşdirilir. Empirik Mən və adi şüur üçün ruhun bu fəaliyyətinin yalnız obyektivləşdirilmiş izləri – artıq aktdan fakta, "əbədi indidən" ölü keçmişə çevrilən "düşünülmüş fikir" əlçatandır. C. 1943 ildə yazdığı və ölümündən sonra dərc edilmiş "Cəmiyyətin genezisi və strukturu" ("Genesi e struttura della sosieta", 1946) əsərində "yeni humanizm"– "əmək adamı"nın humanizmi (del'uomo che lavora) ideyasını irəli sürmüşdür. C. fəlsəfəsi müharibədənsonrakı dövrdə N. *Abbanyano* və b.-nın "pozitiv ekzistensializm"inə təsir göstərmişdir.





Ə s ə r l ə r i: La filosofia di Marx. Pisa, 1899; La riforma della dialettica hegeliana. Messina, 1923; La filosofia dell'arte. Firenze, 1931; La riforma della scuola in İtalia. Mil., 1932; Opere filosofiche. Mil., 1991.

*Əd.:* P a r d o F. La filosofia di G. Gentile (Geneci, sviluppo, unita sistematica, critica). Firenze, 1972; Lo Schiavo A. İntroduzione a Gentile. Roma; Bari, 1974.

**CENTİLESKİ** (Gentileschi) – 16 – 17 əsrin ortaları italyan rəssamları ailəsi. İtaliya *karavaccizminin* ən görkəmli nümayəndələri.

O r a t s i o (9.7.1563, Piza – 7.2.1639, London) – yaradıcılığının erkən dövrləri italyan *manyerizmi* ilə bağlı olmuşdur, lakin 1605 ildən dəzgah rəngkarlığı əsərlərində *Karavacconun* (1590-cı illərin sonlarında Romaya gələn C. burada onunla tanış olmuşdur) təsiri hiss olunur. O, monumental rəngkarlıq sahəsində də çalışmışdır: Müq. Pyotr kilsəsinin günbəzinin mozaikalarının yaradılmasında (1609–10; A. Tassi ilə birlikdə) iştirak etmiş, Kasino Muz (1611–12), Palatso Kvirinaledə Saladel-Konsistorio (1612, hamısı Romadadır) və s. üçün rəsmlər çəkmiş; Genuyada Savoyya hersoqunun sarayında (1623–26) işləmişdir. Parisdə Mariya Mediçinin sifarişi ilə Lüksemburq sarayı üçün bir neçə alleqorik kompozisiya (1624–25) yaratmışdır. 1626 ildən Londonda I Karlın saray rəssamı olmuş, burada qızı Artemiziyanın iştirakı ilə Qrinviçdəki Kuins-hausun Böyük zalının plafonunu işləmişdir (1638–39, hazırda Malboro-haus, London).

A r t e m i z i y a (8.7.1593, Roma – 1652 və ya 1653, Neapol) – Oratsionun şagirdi olmuş, həmçinin A. Tassidən dərs almışdır. 1612 ildə Florensiyaya köçmüşdür. Dəfələrlə "Yudif və Olofern" haqqında Bibliya süjetinə müraciət etmişdir ("Oloferni öldürən Yudif", 1611–12, Kapodimonte Milli Muzeyi, Neapol; "Yudif Olofernin başı ilə", təqr. 1613–14, Uffitsi qalereyası, Florensiya). 1616 ildə Florensiya Rəsm Akademiyasına üzv seçilən ilk qadın olmuşdur. 1620 ildə Romaya qayıtmış, Genuyada işləmişdir. 1630 ildən Neapolda yaşamışdır. İngiltərəyə səfər etmişdir (1630-cu illərin sonu). Yaradıcılığı üçün naturalizm, yüksək ekspressiya səciyyəvidir.

O. Centileski. "Danaya" (1621). Klivlend İncəsənət muzeyi.



**CENTİLİ** (Gentili) Alberiko (14.1.1552, San-Cenezio – 19.6.1608, İngiltərə, Oksford) – italyan hüquqşünası, son sxolastika dövrü nümayəndəsi və beynəlxalq hüquq üzrə mütəxəssis. Təhsilini Peruca ş.-ndəki un-tdə almışdır. Dini təqiblərə məruz qalaraq, İtaliyadan İngiltərəyə qaçmışdır, Oksfordda mülki hüquqdan dərs demişdir. Beynəlxalq hüquqda xalqlar hüququnu təbliğ etmiş, qall adətlərinə (mos gallicus) qarşı italyan adətlərini (mos italicos) müdafiə etmişdir. Bu mənada onu "xalqlar hüququnun atası" adlandırırlar. Qanunların şərhi məsələləri ilə də məşğul olmuşdur.

**CENTLMEN** (ing. gentleman) – 1) ilkin mənada nəcabətli adam, əsilzadə, zadəgan. 2) B.Britaniyada və digər ingilisdilli ölkələrdə qəbul olunmuş kübar qaydaqanunlara ciddi riayət edən alicənab adam. 3) İngilisdilli ölkələrdə kişilərə ehtiram əlaməti olaraq edilən xitab.

M ə c a z i  m ə n a d a yaxşı tərbiyə almış adam.

**CENTLMEN SAZİŞİ** (ing. gentlemen's agreement) – adətən, şifahi formada bağlanan və etibarlılıq prinsiplərinə əsaslanan qeyri-rəsmi, sənədlərlə təsdiqlənməmiş beynəlxalq saziş növü. C.s.-nə riayət edilməməsi yalnız əxlaqi planda nəticələrə səbəb olur. C.s. sadələşdirilmiş sazişlər kateqoriyasına daxildir.

**CENTRİ** (ing. gentry, gentle – alicənab, əsilzadə) – 1) 16–18 əsrlərdə İngiltərədə öz təsərrüfatlarını kapitalist münasibətləri əsasında quran "burjualaşmış" zadəganlar (yeni zadəganlar). 16–17 əsrlərdə İngiltərədə baş vermiş aqrar çevriliş nəticəsində onlar kralın bəxş etdiyi torpaqların, müsadirə olunmuş kilsə torpaqlarının satılması



A. Centileski. "Avtoportret" (1630). Kensinqtoy sarayı (London).

və icma torpaqlarının kəndlilərin əlindən alınması hesabına öz mülkiyyətlərini xeyli genişləndirmişdilər. Təsərrüfatçılığın yeni üsullarını tətbiq edərək feodal rentasını özlərinin yaratdıqları sənaye müəssisələrindən (mahud, taxta-şalban, dəri istehsalı), dəmir və qalay mədənlərindən, dəniz ticarətindən, icarəyə verilən torpaqlardan əldə olunan gəlirlər ilə birləşdirirdilər. *Mayorat* adətinə görə, zadəganların kiçik oğulları ata evini tərk edərək məmur, din xadimi, tacir, manufaktura sahibi, dənizçi olurdular. İqtisadi mövqelərinin möhkəmlənməsi C.-nin siyasi səhnəyə çıxması üçün zəmin yaratmışdı. C. nümayəndələri İcmalar palatasına seçilir, məhkəmə hakimi, şerif təyin edilirdilər. Onların arasından lord titulu almış bir çox siyasi xadim (Sesillər, Rassellər, Herbertlər və b.-ları) çıxmışdı. 17 əsr İngiltərə inqilabında C. təbəqəsi fəal iştirak etmişdir (C. Hempden, C. Pim, O. *Kromvel*, C. *Lilbern*). 18 əsrin əvvəllərində C. daxilində təbəqələşmə başlamışdı: onların bir qismi lordların sıralarına daxil olmuş, digərləri ticarət burjuaziyasına qoşulmuş, xeyli hissəsi isə xırda zadəgan olaraq qalmışdılar. 2) Çindəki *şenşi* təbəqəsinin Avropa ədəbiyyatında yayılmış adı.

**CERAVALAR,** c a r a v a l a r (Cere r-nu əhalisinin hausa dilindəki adından) – Nigeriyada xalqlar qrupu: anazelelər, yaxud azellelər (ceravaların özləri), quzuvalar, azuralar (çokobolar), ano buzelər (bucavalar), amaplar (amolar, yaxud amavalar), anafecazilər (cancilər), anorubunalar (ribinavalar), nfa çaralar,



Cerba adası sahilləri.

gezavalar, limoravalar, tauravalar, sanqavalar, abizilər (pitilər), yaxud ribanlar, afusarelər (dağ ceravaları), o cümlədən rukubalar ("dağ adamları") və b. Cos ş.-ndən şm.-da (Plato, Bauçi və Kaduna ştatları ilə sərhəddə) yaşayırlar. Sayları 200 min nəfərdir (1995). Niger-Kordofan dil ailəsinin Benue-Konqo qrupuna aid olan cerava dilinin dialektlərində danışırlar. C.-ın əksəriyyəti ənənəvi etiqadlarını saxlayır; müsəlmanları da var.

Əsas məşğuliyyətləri toxa əkinçiliyidir (darı, kassava, qvaza, yams, paxlalılar). Maddi mədəniyyətləri zəif öyrənilmişdir. Əsas yeməkləri bitkilərdən (sıyıq, şorba, bişirilmiş paxla, köküyumrular) hazırlanır. Sosial təşkilatlanmanın əsasını böyük ailələrdən ibarət icmalar təşkil edir. Əcdadların və təbiət qüvvələrinin kultları, magiya, cadugərlik, totemizm yayılmışdır. İnisiasiya mərasimləri keçirilir. Türkəçarəçilər, "yağışı çağıranlar" böyük nüfuza malikdirlər.

**CÉRBA** – Aralıq dənizində ada. Tunis sahillərində, Qabes körfəzinin c. hissəsindədir. Tunisin mülkiyyətidir. Sah. 514 $km^2$, əh. 139,6 min (2004). Səthi düzənlikdir; Antropogen çöküntülərdən ibarətdir. Quyu suyundan və gətirmə sulardan istifadə olunur. Xurma palmaları, zeytun və əncir ağacları becərilir. Balıq və süngər ovlanır. Turizm inkişaf etmişdir. Əsas şəhəri Xumt-Sukdur.

**CÉRDAP SU ANBARI** (Cerdap-I) – Rumıniya və Serbiyada, Dunay çayı üzərindədir; Qərbi Avropada ən böyük su anbarlarından biridir. 1969–71 illərdə doldurulmuşdur. Sah. 320 $km^2$, uz. 230 *km*, həcmi 5 $km^3$. Energetika, gəmiçilik, daşqınlarla mübarizə və rekreasiya məqsədləri üçün istifadə olunur.

Cerdap-I bəndinin aşağı byefində (80 *km* aşağıda) suyun səviyyəsini tənzimləmək məqsədilə 1984 ildə Cerdap-II bəndi və 2 $km^3$ həcmində kompensasiyaedici su anbarı istismara verilmişdir.

**CERGİN DÖVLƏT TƏBİƏT QORUĞU** – RF-nin, Buryat Resp.-nda Barquzin çayının yuxarı axınındadır. Sah. 2378 $km^2$. 1992 ildə yaradılmışdır. Relyefi dağ silsilələri, dərin dərələr, yüksək dağlıq platolardan ibarətdir. Ərazisinin 75%-indən çoxu meşələrlə örtülüdür. Şaquli zonallıq səciyyəvidir. 500–1200 *m* yüksəklikdə çöl sahələri ilə növbələşən tozağacı və qaraşam meşə-çölləri üstünlük təşkil edir; şam və ağcaqovaq meşələrinə rast gəlinir. 1300 *m* yüksəkliyədək, əsasən, qara şamlıqlardan ibarət dağ-tayqa meşələri tozağacı, sidr kolları və qarışıq şam meşələri ilə əvəz olunur. 1500 *m*-dən yüksəkdə hols qurşağı gəlir; qırıntı daşlar, bəzi yerlərdə şibyə, dağ tundrası və s. bitkilər yayılmışdır. Qayaların dibində subalp çəmənləri və çeşmə bataqlıqları var. Heyvanlardan – sincab, ağ dovşan, kabarqa, cüyür, maral, sığın, qaban var; şimal süzəni, Asiya burunduku, samur səciyyəvidir; canavar, tülkü, vaşaq, qonur ayı, uzunquyruq və qarapapaq sünbülqırana, az sayda Şimal maralı və Sibir porsuğuna rast gəlinir. Çoxlu sayda quşlar (tetra, qarabağır, Sibir xoruzu, qırğı, bildirçin, qara çalağan və s.); subasarda yaşılbaş və bizquyruq ördək, adi meşəördəyi, cüllüt, qağayı, boz vağ; sututarlarda alabalıq, Sibir nərəsi, kütüm və s. var.

**CÉRI DZÚAR** – osetin mifologiyasında allah; ruhi xəstələrin şəfavericisi. Ceri k. (Cənubi Osetiyanın Cava r-nu) yaxınlığındakı hündür dağda kiçik kilsədə yaşayır. Şəfa tapanın iradəsi ilə qurbanlıq heyvan ətinin bir hissəsi zəvvarlara paylanırdı. Xəstəni qorxutmaq məqsədilə kəndirlə qayadan aşağı sallayır, bədəninə hansı şər ruhların daxil olduğunu söyləməyi tələb edirdilər. Çəkilən adlar bir kağıza yazılır, sonra həmin kağız yandırılırdı. Bundan sonra xəstənin sağalacağı hesab olunurdu. C.D. Gürcüstanın qonşu rayonlarının sakinlərinə də məlum idi.

Cerdap su anbarı.



Cergin Dövlət Təbiət Qoruğu.



**CERİMBEL,** C i r i m b e l – Azərb. Resp. Yardımlı r-nunun Şəfəqli ə.d.-ndə kənd. R-n mərkəzindən 10 *km* q.-də, Peştəsər silsiləsinin ətəyindədir. Əh. 404 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**CÉRMİ** (Germi) Pyetro (14.9.1914, Liquriya, Genuya, başqa məlumatda Kolombo – 5.12.1974, Roma) – italyan kinorejissoru, ssenaristi və aktyoru. *Neorealizmin* banilərindən biri. Romada Eksperimental kinomərkəzdə əvvəl aktyorluq, sonra rejissorluq şöbələrini bitirmişdir. "Şahid" filmi (1946) rej. debütü olmuşdur. "Yolunu azmış gənclik" (1947), "Qanun naminə" (1949), "Ümid yolu" (1950, Qərbi Berlin Beynəlxalq kinofestivalının mükafatı) və "Şəhər müdafiə olunur" (1951, Venesiya Beynəlxalq kinofestivalının mükafatı) filmləri C.-ni neorealizmin aparıcı sənətkarlarından biri etmişdir. Neorealizm hərəkatının tənəzzülü dövründə "Takka del Lupodan olan quldur", "Prezident arvadı" (hər ikisi 1952), "Qısqanclıq" (1953) kommersiya filmlərini çəkmişdir. C. öz filmlərinin həm ssenaristi olmuş, həm də aktyor kimi ("Maşinist", 1956, San-Sebastyan Beynəlxalq kinofestivalının mükafatı; "İradəsiz kişi", 1958, psixoloji dramlarında; antifaşist "Lənətə gəlmiş çaşqınlıq", 1959) yaddaqalan obrazlar yaratmışdır. Onun böyük uğur qazanmış "İtalyansayağı boşanma" (1961, Beynəlxalq Kann kinofestivalının mükafatı, "Oskar" mükafatı), "Aldadılmış və atılmış qadın" (1964), "Xa- nımlar və cənablar" (1965, Kann Beynəlxalq kinofestivalının baş mükafatı) filmləri "italyansayağı komediya"nın əsasını qoymuşdur. "Əxlaqsız" (1967), "Serafino" (1968, Moskva Beynəlxalq kinofestivalının baş mükafatı), "Şabalıdlar dadlıdır" (1970), "Alfredo, Alfredo" (1971) və s. filmləri var. "Fransaya qaçış", "Yovanka və başqaları", "Dodaq boyası", "La Viaçça" filmlərində çəkilmişdir. 1974 ildə "Mənim dostlarım" komediyası üzərində isə başlamış, lakin çəkiliş vaxtı vəfat etmişdir. Filmi M. Moniçelli tamamlamışdır.

"İtalyansayağı boşanma" filmindən (1961; rej. P. Cermi) kadr.



**CERÓM** (Jerome) Cerom Klapka (2.5.1859, Staffordşir qraflığı, Uolsoll – 14.6.1927, Northempton) – ingilis yazıçısı. Müflisləşmiş fermer ailəsində doğulmuşdur. Gənc yaşlarında vəkil köməkçisi, aktyor və jurnalist işləmişdir. 1-ci dünya müharibəsi illərində könüllü olaraq Fransa ordusunun sanitar dəstəsində xidmət etmişdir. Yumoristik "Tənbəl" ("The idler", 1892–97) jurnalını və "Bu gün" ("To-day", 1893–97) həftəliyini çap etdirmişdir. Oçerklərdən ibarət ilk kitabları ("Səhnədə və səhnə arxasında: bəxtsiz aktyorun kəsə yolu", 1885; "Səhnə mühiti", 1889) teatra həsr olunmuşdur. İngilis yumoristik ənənələrini inkişaf etdirən "Tənbəlin mənasız fikirləri" (1886) esselər kitabı və "Qayıqdakı üç nəfər (iti hesaba almamaqla)" (1899) romanı ilə şöhrət qazanmışdır. "Üç nəfər velosipeddə" (1900), "Pol Kelver" (1902) romanlarının, hekayə və pyeslərin, "Mənim həyatım və mənim dövrüm" (1926) avtobioqrafik əsərin müəllifidir. "Dördüncü mərtəbənin sakini" (1907) pyesi məşhurdur.

Ə s ə r l ə r i: Собр. соч. М., 1912. Т. 1–12; Скряга из Саардама. М.; П., 1923; Рассказы. М., 2004.



Cersi adası.

**CÉRSİ** (Jersey) – La-Manş boğazında Normand a-rı qrupunun ən böyük adası. B.Britaniya ərazisidir. Fransa sahilləri yaxınlığındadır. Sah. 116,3 $km^2$-dir. Hünd. 148 *m*-ədəkdir. Kristallik süxurlardan ibarətdir. İri şəhəri və portu Sent-Helierdir. Maldarlıq (Cersi qaramal cinsi yetişdirilir), bostançılıq, gülçülük inkişaf etmişdir. İngilis zooloqu C. Darrell tərəfindən təşkil olunmuş zoopark var. Turizm inkişaf etmişdir.

**CÉRSİ** (ing. jersey; Cersi a.-nın adından) – trikotaj növü; yun, pambıq, ipək, yaxud sintetik saplardan əriş toxunması (çoxsaplı) ilə hazırlanır.

**CERSİ QARAMALI** – iribuynuzlu südlük qaramal cinsi. 18 əsrin əvvəllərində İngiltərənin Cersi a.-nda yerli qaramalın yağlı südlülük istiqamətli seleksiyası ilə yetişdirilmişdir. Rəngi açıq-kürəndən tünd-qonura qədər olur. Heyvanlar zərif, möhkəm konstitusiyalıdır. Üz hissəsi qısa, boynu uzun və yastı, döşü dərin və ensizdir. Cidovu sivri və hündür, qabırğaları dəyirmidir, çəpinə yerləşir, beli uzun, arxa hissəsi enlidir. Yelini normal inkişaf edib, bəzən bədən quruluşunda

Cersi inəyi.





Cersi-Siti şəhərindən görünüş.

qüsurlara rast gəlinir (döş və çanağı ensiz, əzələləri zəif və s.). Buğaların diri kütləsi 550–600 *kq*, inəklərinki 350–400 *kq*, hünd. müvafiq olaraq 130–135 *sm* və 120–125 *sm*-dir. Süd sağımı ildə 2800–5000 *kq*, südünün yağlılığı 5,5–6,5%-dir. C.c. inəkləri sakit, buğaları temperamentlidir. C.c. İngiltərə, Danimarka, Almaniya, Fransa, ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiyada, həmçinin Asiya və Afrikanın bəzi ölkələrində məhdud sayda yayılmışdır.

**CÉRSİ-SİTİ** (Jersey City) – ABŞ-ın şm.-ş.-ində, Nyu-Cersi ştatında şəhər. Əh. 247,6 min (2010). Nyu-Yorkun q. şəhərətrafında, Hudzon çayının sağ sahilində, Manhetten a.-nın qarşı tərəfindədir. Nəql. qovşağı. Port (Nyu-York port kompleksinin bir hissəsi). 1630 ildə salınmışdır. Elektrotexnika, radioelektronika, kimya, yüngül və yeyinti sənayesi inkişaf etmişdir.

**CESEGEY TOYÓN** – yakut əsatirlərində atların çoxalmasına kömək edən, onların hamisi olan allah. İnsan və ya ucadan kişnəyən ayğır kimi təsəvvür edilirdi. Bəzi əsatirlərdə kainatın yaradıcısı Yurüng ayı toyonun kiçik qardaşıdır. C.T. arvadı ilə birlikdə şm.-ş.-də, göyün dördüncü qatında, üzərinə ağ atın gönü çəkilmiş qədim altıbucaqlı taxta evdə yaşayır.

**CESPİLİT** – bax *Dəmirli kvarsit*.

**CÉSSELTON** – bax *Kota-Kinabalu*.

**CESSÚR** – Banqladeşin c.-q.-ində, Khulna vil.-ndə şəhər. Əh. 260,8 min (2010). Bhayrab çayı sahilində yerləşir. D.y. st. Aeroport.

Şəhər Kəlkətədən Dəkkəyə gedən yolun üstündə ticarət mərkəzi kimi inkişaf etmişdir. Politexnik in-t; Cessur dairə məktəbi (1838; ölkənin qədim və ən nüfuzlu dövlət məktəblərindən biri), Racşahi Un-tinin 4 kolleci və s. var. Kütləvi kitabxana (1854; Banqladeşdə ilk kitabxanalardan biri) fəaliyyət göstərir.

C. mühüm sənaye mərkəzidir. 6 kimya z-du (plastik kütlə istehsalı), 4 poladəritmə z-du; toxuculuq və diyircəkli qələm istehsal edən f-klər; yeyinti sənayesi (yağ, çəltiktəmizləyən) müəssisələri; ədva istehsalı, buz hazırlayan 2 z-d və s. fəaliyyət göstərir. Kustar istehsal – toxuculuq, bambukdan məmulatlar, tikiş, zərgərlik, dəmirçilik, dulusçuluq sənəti inkişaf etmişdir. C. k.t. rayonunun (düyü, şəkər qamışı, xurma və s. ticarəti) ticarət-paylaşdırıcı mərkəzidir.

Banqladeş Hərbi-Hava Akademiyası C. yaxınlığındadır.

Cetimtau silsiləsi.



**CET** (JET; Joint Eurorean Torus – birləşdirilmiş Avropa tokamakı) – *tokamak* tipli eksperimental qurğu; Birlik ölkələri ilə Britaniyanın atom enerjisi üzrə idarəsinin laboratoriyasında (Kalem, Oksford yaxınlığında) qurulmuşdur. C.-də yüksəktemp-rlu plazma ilk dəfə 1983 ildə alınmışdır. Qurğuda plazmanın həcmi 100 $m^3$-ə qədərdir; cərəyan bir neçə meqaamperə çata bilir, plazmanın saxlanma müddəti bir neçə *san*-dir. C.-də aparılmış sınaqlar deytron-tritron plazmasında termonüvə sintezinin həyata keçirilməsinin mümkünlüyünü (1991); maqnit sahəsinin gərginliyi 3,8 *Tl*, ionların temp-ru 30 *keV*, elektronların sıxlığı $5 \cdot 10^{19}$ $m^{-3}$ olduqda termonüvə reaksiyasından maks. enerji ayrılmasına (16 *MVt*; 1997) nail olmaq imkanını təsdiq etdi. Plazmanın C.-də alınmış parametrləri və onun saxlanma vaxtı (müddəti) idarəolunan termonüvə sintezinin praktiki həyata keçirilməsi üçün lazım olan qiymətə çatmışdır. 2006 ildə Kadaraş ş.-ində (Fransa) ITER (International Thermonuclear Experimental Reactor – Beynəlxalq termonüvə eksperimental reaktoru) tipli daha güclü termonüvə qurğusunun tikilməsi qərara alınmışdır.

**CETİMTAU**, C e t i m – Qırğ.-da, Tyanşanda silsilə. Terskey Alatausu silsiləsindən c.-dadır. Uz. 120 *km*, hünd. 4931 *m*-ədəkdir. Yüksək dağlıq relyefi üstünlük təşkil edir. C. ətəkləri boyu Narın çayı axır. Yamaclarında çəmən, çöl və çəmən-çöl bitkiləri yayılmışdır. Zirvələrində daimi qar, ş. hissəsində buzlaqlar var.

**CÉVONS** (Jevons) Uilyam Stenli (1.9. 1835, Liverpul – 13.8.1882, Şərqi Susseks qraflığı, Hastinqs yaxınlığında) – ingilis məntiqçisi, iqtisadçısı və statistiki, ingilis *marjinalizm* məktəbinin banisi. London kral cəmiyyətinin üzvü (1872). İqtisadi fikrin riyazi məktəbinin nümayəndəsi, C. *Bulun* davamçısıdır. Londonda Un-t kollecində oxumuş, kimya üzrə ixtisaslaşmışdır. 1854–59 illərdə Sidneydəki (Avstraliya) sikkəxanada əyarvuran işləmişdir. B.Britaniyaya qayıtdıqdan sonra yenidən Un-t kollecinə daxil olmuş, 1862 ildə magistr dərəcəsi almış, 1866–75 illərdə Mançester Un-tnin Ouens-kollecinin məntiq, fəlsəfə və siyasi iqtisad prof.-u, 1876–80 illərdə Londonda Un-t kollecinin siyasi iqtisad prof.-u olmuşdur.



C. özünün siyasi iqtisadın ümumi riyazi nəzəriyyəsini ilk dəfə 1862 ildə irəli sürmüş, "Siyasi iqtisad nəzəriyyəsi" ("The theory of political economy", 1871) kitabında inkişaf etdirmişdir. K.*Menger* və M.E.L. *Valrasla* birlikdə "son hədd faydalılığı" kimi nəzərdən keçirilən dəyər nəzəriyyəsinin banisidir. O, həmçinin əmtəələrin insan istəklərini təmin etmək qabiliyyətindən törəmə olan dəyər konsepsiyasını müdafiə etmişdir. C. ilk dəfə olaraq qızılın dəyərinin mövsümi dəyişməsindən işgüzar fəallıq səviyyəsinin dəyişməsi prosesinin asılı olduğunu, eləcə də pulun alıcılıq qabiliyyəti ilə bağlı məsələləri tədqiq etmişdir. C.-un 1875 ildə "Pul və mübadilə mexanizmi" ("Money and the mechanism of exchange"), 1882 ildə isə "Dövlət əməyə münasibətdə" ("The State in relation to labour") kitabları çapdan çıxmışdır.

C. əsərlərində faydalılıq, yəni tələb və istehlak məsələlərini tədqiq etmiş, riyazi aparatdan geniş istifadə etmişdir. Azalan son hədd faydalılığı qanununun tərifini vermiş və onun köməyilə "mübadilə tənliyini" tapmışdır: tarazlıq vəziyyətində istehlak olunan əmtəələrin artım nisbətləri ən axırda təmin edilən tələbatların intensivliyinin müvafiq nisbətlərinə (və ya C.-un təbirincə, "faydalılığın son dərəcələrinə") bərabər olmalıdır. Elmə verdiyi ən mühüm töhfə əmək təklifi nəzəriyyəsidir. Əməyin ağırlığı onun müddəti artdıqca əvvəlcə azalır, sonra isə çoxalır, halbuki əmək ilə istehsal edilən məhsulun son hədd faydalılığı monoton olaraq azalır. Rasional hərəkət edən işçi, əməyin son hədd ağırlığı ilə məhsulun (gəlirin) son hədd faydalılığını tarazlaşdıracaqdır.

C. həmçinin məntiqi tədqiqatları, ilk növbədə "bənzərlərin əvəz olunması" (siniflərin hesablanması nəzəriyyəsi çərçivəsində) prinsipi və induktiv məntiqi ehtimal nəzəriyyəsi ilə əlaqələndirmək cəhdi ilə tanınmışdır. Onun məntiqə dair başlıca əsəri "Elmin prinsipləri: məntiq və elmi metod haqqında traktat"-ıdır ("The principles of sciense: a treatise on logic and scientific method", 1874).

**CEY** – keçmişdə Azərb.-ın q. zonasında yayılmış qarşılıqlı yardım forması. C. əkin, biçin, taxıl döyülməsi, suvarma kanallarının çəkilməsi, yaşayış və təsərrüfat binalarının tikilməsi və kollektiv əmək tələb edən digər təsərrüfat işlərinin görülməsi üçün təşkil edilirdi. Kəndlilər əkin və biçin zamanı iş heyvanı və alətlərini müvəqqəti birləşdirir, növbə ilə torpaqları birgə əkir və biçirdilər. Ehtimal ki, ibtidai icma dövründən məlumdur (bax həmçinin *əvrəz*, *iməcilik*, «*ortaqlıq*»).

**CEY MÜQAVİLƏSİ (1794)** – ABŞ ilə B.Britaniya arasında dostluq, ticarət və gəmiçilik haqqında sənəd. Noyabrın 19-da Londonda ABŞ Ali məhkəməsinin üzvü, xüsusi müvəkkil C. Cey və B.Britaniyanın xarici işlər naziri lord Qrenvill tərəfindən imzalanmışdır. C.m.-nin məqsədi Versal sülh müqaviləsinin (1783) bəzi maddələrinin yerinə yetirilməməsi ilə əlaqədar B.Britaniya ilə ABŞ arasındakı mübahisələrin nizamlanması idi. C.m.-nin şərtlərinə görə, ABŞ və B.Britaniya portları arasında yükdaşıyan gəmilər üçün vahid rejim tətbiq olunur, lakin Vest-Hindlə ticarət edən ABŞ gəmilərinin tonnajı 70 *t*-la məhdudlaşdırılırdı. Bu gəmilər Vest-Hind mallarını yalnız ABŞ-a daşıya bilərdilər; onlara pambıq, patka, qənd, qəhvə və kakao daşımaq qadağan olunurdu. ABŞ-Kanada sərhədində xəz ticarətinə və hər iki tərəfin gəmilərinə Missisipi çayı boyunca naviqasiyaya icazə verilirdi. B.Britaniya Versal sülh müqaviləsinə (1783) görə ABŞ-a verilmiş ərazilərdəki sərhəd istehkamlarını 1796 il iyunun 1-dək tərk etmək öhdəliyini götürmüşdü. C.m. ABŞ-Kanada sərhədlərinin dəqiqləşdirilməsi və *Şimali Amerikada istiqlaliyyət müharibəsi (1775–83)* zamanı tərəflərə dəymiş maddi ziyanın ödənilməsi üzrə ingilis-amerikan komissiyalarının yaradılmasını nəzərdə tuturdu. C.m. 1795 il iyunun 24-də ABŞ senatı tərəfindən təsdiq edilmiş, 1795 il oktyabrın 28-də qüvvəyə minmişdi. Hüquqi cəhətdən qeyri-bərabər sənəd kimi C.m.-nin ABŞ ictimaiyyətində doğurduğu narazılığı ABŞ prezidenti C. *Vaşinqton* və maliyyə naziri A. Hamilton aradan qaldırmağa nail olmuşdular. C.m. ABŞ ilə B.Britaniya münasibətlərindəki gərginliyi müvəqqəti olaraq azaltmış və 1803 ilədək, Napoleon Fransası ilə iqtisadi əlaqələr saxlayan dövlətlərə qarşı Britaniya hökuməti cəza tədbirləri görməyə başlayanadək iki ölkə arasında ticarətin inkişafına imkan yaratmışdı. Vest-Hindlə ticarət məsələsi 1830 ildə qəti olaraq ABŞ-ın xeyrinə, Kanada ilə sərhədin dəqiqləşdirilməsi isə yalnız 1842 ildə həll edilmişdi.

**CEYHÁN** – Türkiyədə, Kiçik Asiya y-anın c.-unda çay. Uz. 509 *km*, hövzəsinin sah. 21,2 min $km^2$. Şərqi Tavr d-rından başlanır. Çukurova ovalığı ilə axır. Aralıq dənizinin İskəndərun körfəzinə tökülür; delta əmələ gətirir. Yağış və qar suları ilə qidalanır. Ortaillik su sərfi 237,7 $m^3$/*san*. Yazda bolsulu olur. Suvarmada istifadə edilir. Ceyhan ş. C. sahilindədir.

**CEYHAN** – Türkiyənin c.-unda, Adana ilində şəhər. Əh. 159,2 min (2013). Adana ş.-ndən 43 *km* ş.-də, Ceyhan çayı sa-

Ceyhan çayı Adana yaxınlığında.



hilindədir. D.y. st. Neftdaşıma portu. İki neft kəmərinin (Şimali İraqdan çəkilmiş köhnə və yeni Bakı–Tbilisi–Ceyhan) son məntəqəsi. K.t. r-nunun (taxıl, tərəvəz, küncüd, pambıq) mərkəzi. Toxuculuq və yeyinti sənayesi müəssisələri var.

**CEYHUN** – Amudərya çayının ərəbcə adı. Bax *Amudərya.*

**CEYMS,** Cems (James) Uilyam (11.1.1842, Nyu-York – 26.8.1910, ABŞ, Nyu-Hempşir, Çokorua) – amerikan psixoloqu və filosofu, elmi psixologiyanın yaradıcılarından biri. Yazıçı H. *Ceymsin* qardaşıdır. Harvard un-tini bitirmişdir (tibb doktoru, 1869). Harvardda anatomiya, fiziologiya, psixologiya və fəlsəfədən dərs demiş, 1876 ildə ABŞ-da ilk eksperimental psixologiya laboratoriyasının əsasını qoymuşdur.



1890 ildə nəşr etdirdiyi "The principles of psychology" ("Psixologiyanın elmi əsasları") kitabında psixologiya elminin başlıca bölmələrini sistemləşdirmiş, xüsusən şüur, emosiyalar, iradə və şəxsiyyət problemlərinin tədqiqində uğurlar qazanmışdır. C. psixi həyatı mühitə uyğunlaşmaya yönəlmiş fəallıq kimi nəzərdən keçirməklə, psixologiyada *funksionalizmin* yaradıcılarından biri olmuşdur. Onun fikrincə, şəxsiyyət özündə "fiziki şəxsiyyəti" (bədən, paltar, ev və s.), başqaları tərəfindən qəbul edilməyə yönəlmiş "sosial şəxsiyyəti" (sosial şəxsiyyət çoxcəhətlidir və insanın identikləşdirildiyi sosial rolları – dost, ata, tabeçilikdə olan işçi və s.-ni ehtiva edir) və "ruhani şəxsiyyəti" (ideallar, düşüncələr, daxili fəallıq hissi və s.) birləşdirir. C. psixologiyaya şəxsiyyəti səciyyələndirən "özünüqiymətləndirmə", "özünəhörmət", "özünəeyniyyətlilik" kimi mühüm anlayışları gətirmişdir. Onun təklif etdiyi emosiyaların periferik nəzəriyyəsinə (Ceyms – Lange nəzəriyyəsi) görə, emosiyalar az əvvəl baş vermiş və qavranılana reflektor reaksiya ilə bağlı olan fizioloji dəyişiklikləri əks etdirir (biz ağladığımıza görə kədərlənirik, titrədiyimizə görə qorxuruq və s.). Bu nəzəriyyə bir neçə onilliklər ta eksperimental şəkildə təkzib olunanadək emosiyalar psixologiyasının inkişafını müəyyənləşdirmişdir. İradə psixologiyasında təsəvvürlərdən iradi hərəkətlərə keçid mexanizmləri haqqında məsələni ilk dəfə C. qaldırmışdır. *Parapsixologiya, spiritizm* fenomenlərinin, şüur durumu kimi dini təcrübənin psixoloji öyrənilməsinin təşəbbüskarlarından biri olan C. belə nəticəyə gəlmişdi ki, insanın adi şüuru insan psixikasının çeşidli imkanları okeanında kiçik adaya bənzəyir.

1890-cı illərdə C. fəlsəfəyə maraq göstərmiş, Ç.S. *Pirsin* ardınca *praqmatizm* konsepsiyasını inkişaf etdirmişdir.

Pedaqogikaya dair əsərlərində C. instinkt və emosiyaların həlledici təsirindən çıxış etməklə, tərbiyə prosesini insan səylərinin və vərdişlərinin müəyyən davranış formaları şəklində təşkil olunması kimi nəzərdən keçirmişdir. Şagirdlərin psixi həyatının dərinliyinə nüfuz etməyən formal tədris üsullarına qarşı çıxmışdır. C.-in bu görüşləri praqmatik pedaqogikada inkişaf etdirildi.

1900-cü illərdə C. Avropanı və ABŞ-ı səyahət etmiş, əsasən fəlsəfi mövzularda mühazirələr oxumuşdur. Edinburq (1902) və Harvard (1903) un-tləri ona hüquq doktoru elmi dərəcəsi vermişlər. C. psixologiyaya böyük təsir göstərmişdir; C. *Dyui*, C.H. *Mid*, E. *Husserl*, B. *Rassel*, L. *Vitgenşteyn* və b. onun ideyalarına əsaslanan filosoflardan olmuşlar.

**CEYMS** (James) Henri (15.4.1843, Nyu-York – 28.2.1916, London) – Amerika yazıçısı. U.*Ceymsin* qardaşıdır. 1855–58 illərdə ailəsi ilə Avropada yaşamışdır. Harvard hüquq məktəbində (1862–63) oxumuşdur. "Səh-vin faciəsi" (1864; anonim çap olunmuşdur) hekayəsi ilə yaradıcılığa başlamışdır. C.-in əsərlərini müntəzəm olaraq ABŞ-da çap etdirən U.D. *Houelslə* yaxınlaşmışdır. 1866 ildən C., əsasən, Britaniya və Fransada (1870-ci illərdə C. Röskin, U. *Morris*, C. *Eliot*, Q. *Flober*, J. və E. de *Qonkur* qardaşları, E. *Zolya*, İ.S. *Turgenev* və b.-ları ilə ünsiyyətdə olmuşdur), 1876 ildən isə Londonda yaşamış, Britaniya vətəndaşlığını qəbul etmişdir (1915). Yaradıcılığına *Hotornun* ("Hotorn" kitabı ona həsr olunmuşdur, 1870), Eliot və Turgenevin təsiri olmuşdur. C. yaradıcılığının əsas mövzularından biri Avropa və Amerikanın sosial psixologiyasının müqayisəsidir: "Roderik Hadson" (1876), "Amerikalı" (1877), "Avropalılar" (1878), "Vaşinqton meydanı" (1881), "Bostonlular" (1886) romanları; "Coşqun ziyarətçi" (1871), "Dezi Miller" (1879) novellaları. "Qadın portreti" (1881) romanı C.-in ən yaxşı əsəridir. "Knyaginya Kazamassima" (1886), "Faciəvi muza" (1890), "Meyzi nəyi bilirdi" (1897), "Poyntonun qənimətləri" (1897), "Göyərçin qanadları" (1902), "Səfirlər" (1903), "Qızıl cam" romanlarının, çoxsaylı novellaların ("Londonun mühasirəsi", 1883; "Aspernin məktubları", 1888; "Ustad dərsi", 1892; "Cəngəllikdəki heyvan", 1903; "Vintin dönməsi", 1898, B. *Britten* əsərin süjeti əsasında opera yazmışdır, 1954) müəllifidir. C. özünün ədəbi-nəzəri baxışlarını "Nəsr sənəti" (1884) essesində, 1907–09 illərdə nəşr olunmuş əsərləri külliyyatının cildlərinə yazdığı müqəddimələrdə ifadə etmişdir. Dram, nağıl və gündəlik səciyyəli nasir nümunələri yaratmışdır. C.-in əsərlərinin ingilis-amerikan *modernizminin* təşəkkülündə, *yeni tənqidin* formalaşmasında mühüm rolu olmuşdur.



Əsərləri: The complete plays. Phil., 1949. N.Y.,1990; Complete tales. L., 1962 – 1964.Vol.1-12; Повести и рассказы. М., 1983.

**CEYMS** Rey (? – ?) – ABŞ ordusunun polkovniki. Antanta dövlətlərinin Ermənistana ali komissar təyin etdiyi ABŞ polkovniki V. Haskelin müavini olmuşdur. 1919 ilin oktyabrında Haskel Parisə çağırıldıqda, onu əvəz edən C.R. Naxçıvanda və Şərur-Dərələyəzdə neytral zona məsələsini müzakirə etmək üçün Bakıya gəlmiş, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə danışıqlar aparmış, oktyabrın 24-də V. Haskelin Naxçıvanda neytral zona yaratmaq haqqında bəyanatını Müsəlman Milli Şurası qarşısında elan etmişdir. Bəyanata əsasən, Şərur və Naxçıvanda ABŞ qubernatorluğunun yaradılması, polkovnik E. Dellinin qubernator təyin edilməsinə dair sərəncam imzalamış, lakin Milli Şuranın və Naxçıvan əhalisinin təkidilə qərarını dəyişdirərək, polkovnik Dellinin Naxçıvanda ABŞ ali komissarının nümayəndəsi kimi qalmasına razılıq vermişdir. C.R. Naxçıvana səfərində neytral zona üçün nəzərdə tutulan bu ərazini Azərb.-dan ayırmağın mümkün olmadığını anlamışdır. 1919 il noyabrın 23-də Azərb.-la Erm. arasında bağlanmış sazişi ABŞ tərəfindən təminatçı kimi C.R. də imzalamışdır. Sazişin 3-cü bəndinə görə, tərəflər hər hansı məsələni dinc yolla həll edə bilmədikdə C.R.-in







Ceyms çayı. Riçmond. Virginiya.

başçılığı ilə neytral şəxslərdən ibarət münsiflər məhkəməsinin qərarını özləri üçün məcburi hesab etməli idilər. C.R. həmçinin *Harbord missiyasının* Azərb. üzrə müvəkkili olmuşdur.

**CEYMS,** Cems (James) – ABŞ-da, Virginiya ştatında çay. Uz. təqr. 550 *km*, hövzəsinin sah. 25,1 min $km^2$. Cekson və Kaupasçer çaylarının qovuşmasından yaranır. Alleqan d-rının (Appalaç sistemi) c. hissəsindən başlanır, Mavi silsiləni (Dəmir Darvazalar dərəsində), Pidmont yaylasını və Atlantikayanı ovalığını kəsərək, Çesapik körfəzinə tökülür; uzun ensiz estuari əmələ gətirir. Əsasən, yağış suları ilə qidalanır. Güclü daşqınlar olur. Ortaillik su sərfi Riçmond ş. yaxınlığında 210 $m^3/san$, maks. 5 min $m^3/san$. Riçmonddan aşağıda gəmiçiliyə yararlıdır. Mənsəbində Norfolk dəniz portu var.

**CEYMS,** Cems (James), Dakota – ABŞ-da, Şimali və Cənubi Dakota ştatları ərazisində çay. Missuri çayının sol qolu. Uz. təqr. 1140 *km*, hövzəsinin sah. 57,2 min $km^2$. Missuri yaylasından başlanır, geniş dərə ilə Böyük Düzənliklərin çıxıntısına paralel axır. Əsasən, qar suları ilə qidalanır. Yazda qısamüddətə gursulu, yayda daşqınlar, qalan dövrlərdə azsulu olur. Ortaillik su sərfi təqr. 50 $m^3/san$. Suvarmada istifadə edilir.

**CEYMS KÖRFƏZİ** – Kanada sahillərində, Hudzon körfəzinin c. hissəsindədir. Quruya doğru 400 *km* uzanır. Dərinliyi 100 *m*-ədəkdir. Mərkəzi hissəsində adalar qrupu (ən böyüyü Akimiski a.) var. Olbani, İstmeyn və s. çaylar C.k.-na tökülür. İlin çox hissəsi buzla örtülü olur.

**CEYMSTAUN** (Jamestown) – Müqəddəs Yelena a.-nın (B. Britaniyanın mülkü) inz. m. Əh. 0,714 min (2008). Atlantika okeanında Ceyms buxtasında port. Çətənə lifi və kanat ixrac olunur. Sənətkarlıq, balıq ovu inkişaf etmişdir. Gəmilərin su ilə təchizatı bazasıdır.

Ceyms çayı. Şimali Dakota.



**CEYRAN** (Gazella subgutturosa) – boşbuynuzlular fəsiləsinin qazellər cinsinə aid məməli heyvan. Bədəninin uz. 115 *sm*-ədək, cidov hünd. 75 *sm*-ədək, kütləsi 33 *kq*-adək olur. Buynuz yalnız erkəklərdə olur; uz. 30 (bəzən 41) *sm*-ə qədər, liraşəkilli, eninəhalqalı, qaradır. Tükü yumşaq və hamardır. Boynu uzun və zərifdir. Dişiləri erkəklərindən balacadır. Beli və yan tərəfi bozumtul-sarı, boynu, qarnı və ayaqlarının içəri tərəfi ağ, quyruğunun fırçavarı ucu qaradır; arxa hissəsində ağ quyruqaltı "güzgü" səciyyəvidir. Cavan C.-ın sifətində "üz naxışı" (burnunun üst hissəsindəki qəhvəyi ləkə və gözündən ağız bucağına qədər uzanan qara zolaq) yaxşı görünür. C. Qərbi, Orta və Mərkəzi Asiyada yayılmışdır. Səhra və yarımsəhralarda yaşayır, dağətəyi daşlıqlara da daxil olur. Yem rasionu mövsümlər üzrə dəyişir. Ot bitkiləri (o cümlədən dəvətikanı və soğanotu), kolların budaqları ilə qidalanır. Suvata bir neçə gündən bir gəlir, şor su da içə bilir. C. təqib olunan zaman saatda 62 *km*-ədək sürətlə qaça bilir. Balalı ana C.-lar qaçmır, gizlənirlər. C. yayda kiçik qruplarla (2–15 baş), qışda isə sayı bir neçə yüz başdan ibarət sürülərlə yaşayır. Hövrəyəgəlmə oktyabr–noyabr aylarında olur. Bu zaman erkəklər çuxur qazır və onu öz ifrazatları ilə nişanlayırlar. Hər erkək 2–5 dişi fərd toplayıb, rəqiblərlə vuruşaraq onları qoruyur. Dişilər həyatının ikinci, erkəklər isə üçüncü ilində ilk dəfə çoxalmada iştirak edir. Boğazlıq dövrü 5–5,5 ay çəkir, 1–2 bala doğur. Əti dadlı, dərisi qiymətlidir. Keçmişdə C. yerli əhali üçün əsas ov obyekti idi. 1960 illərdə C.-ın sayı kəskin azalmış, mühafizə tədbirləri nəticəsində artmış, lakin 21 əsrin baş-

Ceyran (Gazella subgutturosa).



langıcında sayı yenidən azalmağa başlamışdır. Azərb.-da bir növü yayılmışdır. 1996–98 illərdə Şirvan qoruğunda C.-ların sayı təxm. 5 minə çatmışdı (2003). Azərb.-da C. Şirvan Dövlət qoruğunda, Bəndovan və Korçay yasaqlıqlarında mühafizə olunur. BTMİ və Azərb. Resp.-nın "Qırmızı kitab"larına daxil edilmişdir.

*Əd:* Q u l i y e v S. Tanış olun ceyran! B., 2004.

**CEYRAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Səracu kəndistanında, Marağadan 48 *km* ş.-dədir.

**CEYRANBATAN** – Azərb. Resp. Bakı ş. Abşeron r-nunda qəsəbə. Ceyranbatan ə.d.-nin mərkəzi. R-n mərkəzindən 14 *km* şm.-q.-də, Bakı ş.-ndən 26 *km* məsafədə, Bakı–Sumqayıt avtomobil yolu kənarında, Ceyranbatan su anbarının sahilindədir. Əh. 12 min (2011). 2 tam orta məktəb, uşaq bağçası, uşaq musiqi və incəsənət məktəbi, mədəniyyət evi, klub, kitabxana, tibb məntəqəsi var.

**CEYRANBATAN SU ANBARI** – Azərb. Resp. Abşeron r-nu ərazisindədir. Təbii çökəklikdə yerləşir. 1956 ildə istifadəyə verilmişdir. Anbarın uz. 8,74 *km*, maks. eni 2,15 *km*, maks. dərinliyi 28,5 *m*, su aynasının sah. 12,6 $km^2$, ümumi həcmi 181,2 mln. $m^3$, faydalı həcmi 150,0 mln. $m^3$-dir. Suyunu *Samur–Abşeron kanalından* alır. Şm.-q. sahilində uz. 6 *km*, hünd. 13 *m*-ə çatan bənd tikilmişdir. 15 min *ha* əkin sahəsinin suvarılmasında, Bakı və Sumqayıt ş.-lərinin su təchizində istifadə edilir. C.s.a. içməli su mənbəyi olduğuna görə 1960 ildə onun ətrafında üç zolaqdan ibarət sanitar-mühafizə zonası yaradılmışdır.

**CEYRANBULAĞI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkmən bölgəsinin Üçtəpə kəndistanında, Türkmən qəs.-ndən 6 *km* c.-q.-dədir.

**CEYRANÇÖL** – Azərb. Resp. Ağstafa r-nunun Poylu ə.d.-ndə qəsəbə. R-n mərkəzindən 2 *km* şm.-da, Ağstafa çayının (Kürün qolu) sağ sahilində, Gəncə-Qazax düzənliyindədir. Əh. 14 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tibb məntəqəsi var.

**CEYRANÇÖL** – Azərb. Resp.-da, Kür çökəkliyində fiziki-coğrafi sahə. Ağstafa, Tovuz, Şəmkir, Samux r-nları ərazisində, Kür və Qabırrı (İori) çayları arasındadır. C.-q.-də Mingəçevir su anbarı ilə əhatələnir. Q.-dən ş.-ə 130 *km* məsafədə uzanır, eni 20–30 *km* arasındadır. Bir neçə silsilə, tirə, düzənlik və dərələrdən ibarətdir. Hünd. 890 *m*-ə (Çobandağ) qədərdir. Neogen və Antropogen çöküntülərindən ibarətdir. Mülayim-isti yarımsəhra və quru çöl iqlimi var. İllik yağıntı 200–300 *mm*. Əsas landşaftı yarımsəhradır. Qış otlağıdır. Neft yatağı var. *Eldar şamı Dövlət Təbiət Qoruğu* C. ərazisindədir.

**CEYRANÇÖL STRUKTURU** – Kür və Qabırrı çayarası neftli-qazlı r-nunda, Tərsdəllər neft yatağından 13–15 *km* şm.-q.-də neftli-qazlı struktur. Orta Eosenin səthinə görə (III seysmik horizont) qırışıq cənub-şimal yönlü gömülməyə malik üçelementli struktur çıxıntıdan ibarətdir. 1800–2400 *m* izoxətləri çərçivəsində çıxıntının uzunluğu şərti olaraq 5 *km*, eni isə 4,5 *km* qəbul edilir. Sahənin neft-qazlılıq perspektivliyi Orta Eosen – Üst Tabaşir çöküntüləri ilə əlaqələndirilir.

Ceyranbatan su anbarı.



**CEYRANDƏRƏQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 27 *km* q.-dədir.

**"CEYRANI"** – Azərb. xalq rəqsi və rəqs melodiyası. Rəqsin hərəkətlərində ceyrana xas cəldlik, zəriflik ifadə olunur. Adətən, qadınlar tərəfindən ifa edilir. "C." rəqsini müşayiət edən eyniadlı lirik melodiya üçün səlislik, ayrı-ayrı musiqi frazalarının təkrarı səciyyəvidir; məqam əsası şur və rast, musiqi ölçüsü 6/8, tempi itidir.

**CEYRANKEÇMƏZ** – Azərb. Resp. Qobustan r-nunun Şıxzahırlı ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* c.-ş.-də, Bakı – Qazax avtomobil yolunun kənarında, Ceyrankeçməz çayı sahilindədir. Əh. 23 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur.

**CEYRANKEÇMƏZ** – Azərb. Resp.-nda çay. Qobustan, Abşeron və Qaradağ r-nları ərazilərindən axır. Uz. 100 *km*, hövzəsinin sah. 896 $km^2$. Baş Qafqaz silsiləsinin c.-ş. qurtaracağından 800 *m* hünd.-dən başlanır. Xəzər dənizinə tökülür. Əsasən, yağış suları ilə qidalanır. Daimi axarı yoxdur.

**CEYRANLAR** – *Qobustanda*, Kiçikdaş d.-nın şm.-ş. ətəyində Daş dövrünə aid düşərgə. Qədim qayaüstü təsvirlər qeydə alınmış 49, 49a, 49b №-li daşların arasında, sah. 12 $m^2$ olan yarımörtülü sığınacaqda aşkar edilmişdir (1973). Nəfis ceyran rəsmlərinin çoxluğuna görə belə adlandırılmışdır. Öküz, insan (əsasən, qadın) və s. rəsmlər də var. Döymə üsulu ilə qadın təsvirləri xüsusilə maraqlıdır. Daş dövrü qalıqlarına sığınacağın içində, orta əsrlərdə maldarların buranı qışlaq yeri kimi istifadə etməsi nəticəsində əmələ gəlmiş təbəqənin altında rast gəlinmişdir. Burada mədəni təbəqə materialı dəniz qumu ilə qarışdığı üçün onun səviyyəsi və qalınlığı dəqiq müəyyən edilməmişdir. Qazıntı zamanı sığınacaqdan orta əsrlərə aid gil qab qırıqları və iki yerdə ocaq qalığı olan çürüntülü torpaq, onun altında 1 *m* dərinlikdə Daş dövrü qalıqlarına malik gil və qum qarışıq torpaq qatı aşkar edilmişdir. Düşərgənin divarındakı rəsmlərin aşağı hissəsini və üzərində öküz, yay-oxla silahlanmış adam, nərəbalığı təsvirləri olan üç ədəd əhəngdaşı parçasını da qum təbəqəsi örtmüşdür. Bu, müəyyən dövrdə (təqr. 13–11 min il əvvəl) Xəzərin dəniz səviyyəsinin C. düşərgəsinədək qalxmasının nəticəsidir. Arxeoloji qazıntılar zamanı C. düşərgəsindən çaxmaqdaşıdan nüvə, qaşov, trapesiya, bıçaqvarı lövhədən düzəldilmiş seqmentşəkilli alət, yanları dişəkli mikrolövhə, işlənmiş dişəkli qəlpə və adi qəlpə, çaydaşıdan qəlpə, çopperşəkilli alət, qaşov və bir ucundan burma üsulu ilə yarımçıq dəlik açılmış uzunsov əşya, dəvəgözüdən qəlpə, hündür qaşov, dişəkli qəlpə və s. alətlər tapılmışdır. Bu tapıntılar Üst Paleolitdən Mezolitə keçid dövrü və Neolit dövrünün əvvəlləri üçün səciyyəvidir.

**CEYRANLAR** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Baranduzçay kəndistanında, Urmiyadan 23 *km* c.-ş.-dədir.

**CEYRANLI** – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Paşalı, 12.10.1956 ildən Əzizbəyov, 19.4.1991 ildən Vayk r-nu), Arpaçayın yaxınlığında azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd ermənilərin hücumuna məruz qalaraq yandırılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar didərgin düşmüş, kənd xaraba qalmışdır.

**CEYRANLI** – Azərb. Resp. Şabran r-nunun Əmirxanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* c.-q.-də, dağlıq ərazidədir. Əh. 250 (2011); maldarlıq və əkinçiliklə məşğuldur. Kitabxana var.

**CEYTUN**, Ç a x m a q d a ş - B e y i k – Aşqabaddan (Tür.) 25 *km* şm.-q.-də Neolit dövrünə aid məskən (e.ə. 6-cı minilliyin əvvəlləri) və onun materialları əsasında Cənubi Tür. və Şimal-Şərqi İranda müəyyənləşdirilmiş erkən əkinçilik mədəniyyəti (e.ə. 6-cı minillik). Məskən 1940-cı illərdə A.A. Maruşşenko tərəfindən aşkar edilmiş, qazıntılar B.A. *Kuftin* (1952), V.M. *Masson* (1955–59, 1962–63), sovet-ingilis ekspedisiyası (V.M. Masson, D. Harris; 1989–92) tərəfindən aparılmışdır.

C. təlli (təqr. 1 *ha*) 5 inşaat təbəqəsindən (3,5 *m*) ibarətdir. Samanlı kərpicdən tikilmiş birotaqlı evlər səciyyəvidir; evlərin interyeri standartdır: təsərrüfat bölməsi girişin sağ tərəfində, böyük "buxarı" sağ divarın ortasında, çıxıntılı taxça isə qarşı tərəfdə yerləşir, döşəmə ağ gəclə suvanır və çox vaxt qırmızı boya ilə rənglənir, yaxud həsirlə örtülürdü. Evlərin ətrafında yardımçı binalar və bir neçə paralel divardan ibarət tikililərin (ehtimal ki, taxıl anbarları) olduğu həyətlər yerləşirdi. Pessecik-Təpədə (C. mədəniyyətinin orta mərhələsi) daxili sütunları və pilyastrları olan məbəd tədqiq edilmişdir; ocağın qarşısındakı suvanmış ağ divar qara və qırmızı boya ilə naxışlanmışdır (həndəsi ornamentlər, heyvan təsvirləri). Məskənlərin təbəqəsində fərdi dəfn yerləri var.




**Ceytunda tapılmış maddi mədəniyyət nümunələri:** *1* – oraq; *2* – balta; *3, 4* – itiuclular; *5* – burğu; *6* – ox ucluğu; *7, 8* – muncuqlar; *9* – nukleus; *10* – balıqqulağıdan asma; *11* – iy; *12, 13* – bəzək əşyaları; *14, 17, 18* – qablar üzərindəki müxtəlif naxışlar; *15, 16* – heyvan fiqurları.

Qazıntılar zamanı çaxmaqdaşıdan nukleuslar, lövhəciklər, qaşovlar, matqablar, çoxsaylı mikrolitlər və s. aşkar olunmuşdur. Çopan-Təpədən mikrolit içlikləri olan sümükdən düzəldilmiş biçin bıçağı tapılmışdır. Cilalanmış kərki-baltalar, sıxaclar və s. də var. Səhənglər, silindrik xörək kasaları və yastıoturacaqlı qədəhlər, gildən düzəldilmiş dördkünc qablar; qabın üzərindəki açıq çəhrayı, yaxud darçını anqob qəhvəyi naxışlarla bəzədilirdi: erkən mərhələdə şaquli dalğavarı xətlər və qövs qrupları; orta mərhələdə şaquli xətlər və ziqzaqlar, son mərhələdə fərqli çalarlı üçbucaqlar, üfüqi dalğavarı xətlər, ağac təsvirləri üstünlük təşkil edirdi. Sümükdən, daşdan, balıqqulağıdan olan muncuqlara və cilalanmış daş asmalara (müxtəlif heyvan formasında da var) təsadüf olunur. Daş və gildən kəsik-konusvarı "fişkalar", terrakotadan antropomorf və zoomorf fiqurlar da aşkar edilmişdir. Təsərrüfatın əsasını əkin- çilik (buğda, arpa), davar (son mərhələdə qaramal) yetişdirilməsi, həmçinin ceyran, az miqdarda dağkeçisi və qoyun, tülkü, dovşan və s. ovu təşkil edirdi; it əhliləşdirilmişdi.

C. mədəniyyətinin mənşəyi 7-ci minilliyin 2-ci yarısında erkən əkinçi tayfaların Zaqrosdan hərəkəti ilə bağlıdır. Mikrolit industriyasında Mezolit dövründə Cənubi Xəzəryanı ərazilərdə məskunlaşmış ovçuların ənənələri izlənilir. 6-cı minilliyin sonu – 5-ci minilliyin əvvəllərində C. və I A *Anau* mədəniyyət tiplərinin qarşılıqlı təsiri nəticəsində I *Namazqa* tipli mədəniyyət təşəkkül tapmışdı.

**CEZQAZQAN** – Qazax.-ın mərkəzi hissəsində, Qaraqanda vil.-ndə şəhər. Əh. 84,6 min (2013). Kengir su anbarının (Qara Kengir çayında) sahilində yerləşir. D.y. st. Avtomobil yolları qovşağı. Beynəlxalq aeroport.

C.-ın tarixi qədimdən mis filizləri yataqlarının işlənilməsi ilə bağlıdır. 1920–30-cu illərdə bu yataqların fəal istismarına başlanılmış, 1937 ildə Türküstan-Sibir d.y.-nun xətti çəkilmişdir. 1938 ildə Yeni Cezqazqan (1941 ildən Böyük Cezqazqan) qəs.-nin əsası qoyulmuşdur. 1940–43 illərdə qəsəbə C. islah-əmək düşərgəsinin (məhbusları Cezqazqan mis kombinatını tikirdilər), 1948–56 illərdə Çöl düşərgəsinin (1954 ilədək 4 nömrəli Xüsusi düşərgə; məhbusları kombinatda, sənaye və yaşayış obyektlərinin tikintisində çalışırdılar) mərkəzi idi. Cinayət maddələri üzrə məhkum olunanların Çöl düşərgəsinə köçürülməsi səbəbindən 1954 il mayın 17-dən iyunun 26-dək məhbusların Kengir üsyanı baş vermişdi (hərbi hissələrin dəstəyi ilə yatırılmışdı). 1954 ildən şəhər statusunu almışdır. 1973–97 illərdə Cezqazqan (1995 ildən Jezqazqan) vil.-nin mərkəzi olmuşdur.

Müq. Andrey məbədi (1990-cı illər) var. Abidələri: "İlk qurucular" (1978), "Kosmosu fəth edənlərə"; "Kosmos" monumenti.

O. Baykonurov ad. un-t (1956), Pedaqoji in-t var. Kosmonavtika, tarix-arxeologiya muzeyləri, S. Kojamkulov ad. Musiqili Dram Teatrı fəaliyyət göstərir.

Böyük əlvan metallurgiya (zənginləşdirici f-klər, mistökmə z-du və s.) mərkəzidir. Tikinti materialları (dəmir-beton məmulatları, asfalt-beton z-dları), yüngül

(trikotaj f-ki) və yeyinti (ət kombinatı, süd z-du) sənayesi müəssisələri fəaliyyət göstərir.

C.-ın yaxınlığında qədim metallurgiya və metal emalının öyrənilməsi üçün əhəmiyyətli olan bir sıra arxeoloji abidə yerləşir. C. və onun ətrafında mis filizinin çıxarılması, ehtimal ki, e.ə. 3-cü minillikdə Uralyanı *Quyu qəbirləri mədəniyyəti* və Sayan-Altay *Afanasyev mədəniyyəti* daşıyıcılarına yaxın olan köçəri qruplarla bağlıdır. İlk mədənçilər daş lövhələrlə hasarlanmış qəbirlərdə, arxası üstə dəfn edilmişlər; baş və ayaq tərəflərinə mis minerallları qalağı və mis filizi parçaları, yanlarına mədən qazıma işində istifadə olunan əmək alətləri (mədən külüngülər, kiçik linglər, kərkilər) qoyulmuşdu. Son Tunc dövründə bu ərazi *Avrasiya çöl metallurgiya əyalətinin* ən iri mədən-metallurgiya mərkəzlərindən biri idi. Mədən işçilərinin və metallurqların məskənləri (*Andronovo mədəniyyəti, Köbəli keramika mədəniyyəti*) və onların məzarlıqları bir-birindən 3–8 *km* məsafədə olmaqla Kengir və Jezda çayları boyu zəncirvarı yerləşir. İrimiqyaslı qədim mədən işlərinin, Tunc dövrünə aid metalərітmə prosesinin və əridilmiş metalın izləri açıq mədən yerləri və "karxanalar", posa, suaşıran hovuz, bənd, kanal, su quyusu, misəridən kürələr və s. kimi tapıntılarla təmsil olunur. Orta əsrlərdə Milıquduk şəhər yerində iri əlvan metal emalı mərkəzi yerləşirdi, dulusçuluq, daşyonma, saxsı qablar, kaşı istehsalı və digər sənət sahələri inkişaf etmişdi.

C.-dan 45–60 *km* şm.-da, Qara Kengir çayı sahilində Alaş xan, Cuçi xan, Canseit, Kelintam, Bestam və b.-nın mavi günbəzli sərdabaları (12–13 əsrlər), Dombaul və Duzen Sandıbayulının (1833–66) türbələri yerləşir.

**CƏBBƏXANA** (ər. جبه – silah, hərbi ləvazimat + xana) – silah, döyüş sursatı, texnika və s. hazırlanan və saxlanılan yer. Bax həmçinin *Arsenal*.

**CƏBDƏRƏQ** – İranın Ərdəbil ostanında kənd. Meşkin şəhristanının Mərkəzi bölgəsinin Qərbi Meşkin kəndistanında, Meşkinşəhrdən 14 *km* şm.-dadır.

**CƏBƏÇİLİ** – İrəvan xanlığının Zəngibasar mahalında (31.12.1937 ildən Zəngibasar, 14.1.1969 ildən Masis r-nu), azərb.-ların yaşadığı kənd. 1918 ilin əvvəllərində kənd erməni daşnaklarının hücumuna məruz qalmış, əhalisi isə qaçqın düşmüşdür. Kənddə Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir. Bölgədə sovet hakimiyyətinin qələbəsindən sonra kəndin qaçqın əhalisi geri qayıtmış və ermənilərlə birgə yaşamışdır. Lakin 1949 ildə kəndin azərb. əhalisi yenidən deportasiya olunmuş və 27.2. 1960 ildə kəndin adı dəyişdirilərək Crahovit qoyulmuşdur.

**CƏBƏDAR** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Kəlxoran kəndistanında, Ərdəbil ş.-indən 10 *km* şm.-q.-də, Ərdəbil–Meşkin avtomobil yolunun üstündədir.

**CƏBƏL** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Baranduzçay kəndistanında, Urmiyadan 26 *km* c.-ş.-dədir.

**CƏBƏL** – Tür.-da şəhər tipli qəsəbə. D.y. st. Xörək duzu çıxarılır və narınlaşdırılır. C.-dən 4 *km* ş.-də Böyük Balxan d.-nın ətəyindəki mağarada çoxtəbəqəli arxeoloji abidə tapılmışdır. Burada 1949–50 illərdə A.P. Okladnikov qazıntı aparmışdır. Axtarışlar zamanı Mezolit dövrünə aid müxtəlif alətlər (prizmavarı və konusvarı nukleuslar, bıçaqşəkilli lövhələr, dairəvi qaşovlar və s.) aşkar edilmişdir. Üst Mezolit təbəqəsində sivri dibli keramikaya təsadüf olunmuşdur. Yuxarı təbəqələr Neolit və Tunc dövrünün əvvəlinə aiddir.

**CƏBƏL–DRUZ**, Əd-Druz (ər. جبل الدروز) – Suriyanın c.-unda vulkan massivi. Maks. hünd. 1800 *m* (Əl-Ceyna d). Əsasən bazaltdan ibarətdir; lava axınları ilə əhatələnmişdir. Zirvə və yamaclarında Pliosen püskürmələrinin kraterləri var. Səhra bitkiləri yayılmışdır.

**CƏBƏL-ƏNSARİYƏ** (ər. النصيرية جبال), Nusayriyyə – Suriyanın q.-ində dağ massivi. Meridional istiqamətdə təqr. 130 *km* məsafədə uzanır, eni 40 *km*-ədək, hünd. 1550 *m*-ədəkdir. Əsasən əhəngdaşlarından ibarətdir, yastı zirvəlidir, ş.-dən Əl-Qab tektonik çökəkliyi ilə əhatələnmişdir. Q. yamacına 1500 *mm*-ədək yağıntı düşür. Qışda 1200 *m*-dən yüksəkdə qar olur. Yamaclarında palıd, dəfnə, sərv, şam meşələri və kolluqlar yayılmışdır.

**CƏBƏL-İRHUD** – Mərakeşdə Erkən Paleolit dövrünə aid yaşayış məskəni. 1962 ildə fransız paleontoloqu E. Ennuşi tərəfindən aşkar edilmişdir. Mustye dövrünə aid (təqr. 55 min il əvvəl) mədəni təbəqədən Yaxın Şərq (bax *Kafzex*) tapıntılarına oxşar əmək alətləri üzə çıxarılmışdır. *Homo sapiensə* (son arxaik sapiens və ya yeni versiyaya görə *Homo helmei*) aid edilən 2 kəllə aşkar edilmişdir: 1) C.-İ. 1-də – 30–40 yaşları arasında olan kişiyə məxsusdur. Bir sıra əlamətləri (sümüklərin xeyli qalın olması, iri gözyuvasıüstü yastıq, alçaq alın və kəllə qafatası, uzun quruluşlu sifət, iri göz hədəqələri, ənsənin "şinyonabənzər" forması, inkişaf etmiş proqnatizm və üzün yuxarı hissəsinin yastılığı, enli armudvarı dəlik, köpək dişləri çalasının olmaması və s.) Neandertal adama xas olan xüsusiyyətlər kimi şərh edilir; 2) C.-İ. 2-də – Fələstində (Kafzex) və Şimali Afrikada (Təfərəlt və Vadi-Xalfa) tapılmış qədim insan sümüklərinə oxşar kəllənin fraqmentləri aşkar edilmişdir. Polisentrizm tərəfdarları (fransız antropoloqları A. Vallua, J. Yublen və b.) C.-İ. 2-də Ternifin *atlantropundan* başlayan təkamülün Afrika qolunun sübutunu görürlər; Avropadakı *Heydelberq adamını* da bu mədəniyyət ocağı ilə bağlayırlar (E. Agirre və M.A. de Lümley).

**CƏBƏL-ONK FOSFORİT YATAĞI** – Əlcəzairin şm.-ş.-ində, Tebessa ş. yaxınlığındadır. 1965 ildən açıq üsulla istismar olunur. Fosforitin ümumi ehtiyatı 24 mlrd. *t*, təsdiq olunmuş ehtiyatı 2 mlrd. *t*, $P_2O_5$-in filizdəki orta miqdarı 28,8%-dir. *Ərəbistan-Afrika fosforitli əyalətinin* Əlcəzair-Tunis fosforitli hövzəsi hüdudlarındadır; Atlas qırışıqlıq sisteminin ş. hissəsindəki sinklinalla əlaqədardır. Erkən Tabaşir-Paleogen yaşlı süxurlar məhsuldardır. Fosforitli horizontun qalınlığı 60 *m*-ədəkdir. Horizontun fosfat filizləri ilə daha zəngin ($P_2O_5$ 25–32%) layının qalınlığı 25–30 *m*-dir. Məhsuldar qatın döşəməsini mergellər və gilli əhəngdaşlar, tavanını silisiumlu və gipsli əhəngdaşılar, mergellər təşkil edir.

**CƏBƏLPÜR** – Hindistanın mərkəzi hissəsində, Madhya-Pradeş ştatında şəhər. Əh. 1,05 mln. (2011; aqlomerasiyada 1,27 mln). Narmada çayı vadisində yerləşir. İri nəql. qovşağı.

9–10 əsrlərdə Tripuri racəliyinin paytaxtı olmuşdur. 1781 ildən C.-da marathaların mənzil-qərargahı, 1818 ildən Britaniyanın hərbi bazası, Sauqor və Narmada ərazilərindəki Britaniya canişininin mənzil-qərargahı yerləşirdi. 1864 ildə şəhər statusunu almışdır.

Rani Durqavati un-ti (1836 ildə tarix kolleci kimi əsası qoyulmuş, 1957 ildən un-tdir; 1983 ildən indiki adını daşıyır), C.Nehru ad. k.t. un-ti (1964), mühəndislik, tibb. hüquq və s. kollecləri var. Ştatın Ali məhkəməsi, Tropik meşə ETİ burada yerləşir.

C. sənaye-ticarət mərkəzidir. Döyüş sursatları (4 f-k) istehsal olunur. Maşınqayırma (yük avtomobilləri, elek-







Cəbəlpur. Madan-Mahal (12 əsr) qond qəsri.

trotexnika məmulatları, telekommunikasiya avadanlığı və s.) və metal emalı inkişaf etmişdir; kimya (o cümlədən texniki rezin məmulatları), sement, şüşə, pambıq parça sənayesi müəssisələri fəaliyyət göstərir; saxsı, tikiş məmulatları və s. istehsal olunur. Oduncaq ticarəti aparılır. K.t. xammalı (buğda, çəltik, darı, manqo) emal edilir. C. yaxınlığında, şəhəri əhatə edən çoxsaylı təpələrin birində Madan-Mahal (12 əsr) qədim qond qəsri yerləşir. Şəhərətrafı mərmər dərələri və Bhedaqhat şəlaləsi var. Yaxınlığında boksit çıxarılır.

**CƏBƏLÜTTARİQ**, Cəbəli-Tariq (ər. جبل طارق), Gibraltar – B. Britaniyanın dənizaşırı ərazisi. Pireney y-anın c.-unda yerləşir. Şm.-da İspaniya ilə həmsərhəddir (1,2 *km*), q. sahillərini Alxesiras buxtasının suları, c. və ş. sahillərini Aralıq dənizinin suları yuyur. Sah. 6,5 $km^2$. Əh. 30 min (2012; 80,6%-i C. vətəndaşları, 11,6%-i B. Britaniya vətəndaşları – hərbiçilərin ailələri, sahibkarlar, muzdlu fəhlələr və s., 7,8%-i digər ölkələrin vətəndaşları). İnz. m. Cəbəlüttariq ş.-dir. Rəsmi dil ingilis dili, pul vahidi Cəbəlüttariq funtudur.

C.-də əhali sıxlığı çox yüksəkdir (1 $km^2$-də 4615,4 nəfər); yüksək məskunlaşma, əsasən, q. sahilindədir.

**Təbiət.** C. Pireney y-a-na qum bərzəxi ilə birləşən kiçik y-a-da yerləşir. Səthi qayalıqlardan ibarətdir. Q.-də ensiz sahil ovalığı ilə əhatələnən əhəngdaşıdan ibarət Cəbəlüttariq qayası (hünd. 423 *m*-ədək, C.-in ən yüksək nöqtəsi) şm.-dan c.-a 5 *km* məsafədə uzanır; dənizə dik düşən c. yamacının hünd. təqr. 300 *m*-dir. Karst inkişaf etmişdir. Subtropik iqlimi var. Qışı mülayim, yayı isti, quru keçir. Yanvarda orta temp-r 13,4°C, avqustda – 24,2°C təşkil edir. Yağıntının illik miqdarı təqr. 770 *mm*-dir. Səth axınları yoxdur. Yamaclarda kolluqlar, zeytun və püstə ağacları yayılmışdır. Faunasını köçəri quşlar, qarabatdaq, kəklik təşkil edir; sahil sularında delfinlər var. Apper-Rok təbiət rezervatında Avropada yeganə meymun növü – maqotların koloniyası məskunlaşmışdır.

**Tarix.** C. qədim yunanlara və romalılara Kalpe (yun. Κάλπη, lat. Calpe) adı ilə məlum idi. 8 əsrdə ərəblər tərəfindən qalaya çevrilmiş və ərəb sərkərdəsi Tariq ibn Səidin şərəfinə Cəbəl ət-Tariq (Tariqin dağı) adlandırılmışdır. Sonralar bu ad təhrif olunaraq Gibraltar şəklini almışdır. 1309–33 və 1462 ildən 18 əsrin əvvəllərinədək qala ispanların əlində olmuşdur. 1704 ildə *İspaniya irsi* uğrunda müharibənin (1701–14) gedişində C. ingilislər tərəfindən zəbt edilmişdi. *Utrext sülhünə (1713)* görə B.Britaniyanın hakimiyyəti altında qalmışdı. B.Britaniya C.-dən Hindistan, Afrika, Yaxın və Orta Şərqdə müstəmləkə işğalları aparmaq üçün dayaq məntəqəsi kimi istifadə edirdi. 18 əsrdə İspaniya hökuməti C.-i B.Britaniya hökuməti ilə saziş bağlamaqla, yaxud zor gücünə geri almaq üçün dəfələrlə cəhd göstərdi. İspanlar tərəfindən C.-in dördillik inadlı mühasirəsi (21.6. 1779–6.2.1783) tam uğursuzluqla nəticələndi. 1869 ildə Süveyş kanalının tikintisi ilə əlaqədar C.-in əhəmiyyəti daha da artdı. 1907 il mayın 16-da B.Britaniya, Fransa və İspaniya arasında Cəbəlüttariq boğazında status-kvonun saxlanılmasına dair saziş imzalandı. Birinci və İkinci dünya müharibələri dövründə Britaniyanın güclü hərbi bazası olan C. bu günədək öz əhəmiyyətini saxlamaqdadır.

İkinci dünya müharibəsindən sonra C. məsələsi B.Britaniya ilə İspaniya arasında kəskin ziddiyyətlər mənbəyi olaraq qalırdı. Bu ərazidə öz hüquqlarını təsbit etdirməyə çalışan B.Britaniya hökuməti 1967 il sentyabrın 10-da C. əhalisi arasında onun gələcəkdə hansı dövlətə məxsus olacağı məsələsinə dair referendum keçirdi. Referendum iştirakçılarının 99,6%-i mövcud statusun saxlanılmasına səs verdi. Lakin 1967 il dekabrın 19-da BMT Baş Məclisi referendumun keçirilməsini BMT qərarlarına zidd olduğunu elan edərək B.Britaniya və İspaniyaya C.-in müstəmləkəçiliyinin ləğvi barədə danışıqları davam etdirməyi məsləhət gördü. 1969 ilin mayında C.-in yeni konstitusiyası qəbul edildi, B.Britaniyanın bu mülkü üzərində nəzarəti möhkəmləndi. İspaniya hökuməti B.Britaniyaya təzyiq göstərmək məqsədilə C. ilə quru sərhədini bağlayaraq buraya ispan fəhlələrinin gəlməsinin qarşısını aldı; İspaniya ilə C. arasında əlaqələr kəsildi. 1970 ildə bu məhdudiyyətlər bir qədər yumşaldıldı. İspaniya yalnız 1985 ildə C.-in blokadasını tamamilə aradan qaldırdı.

1999 ildə İspaniya ilə B.Britaniya arasındakı ziddiyyətlər C.-in sahilboyu sularında balıq ovu məsələsi ilə bağlı olaraq yenidən kəskinləşdi. 2001 ildə Britaniya hökuməti C.-in gələcəyinə, o cümlədən onun suverenitetinin B.Britaniya ilə İspaniya arasında bölüşdürülməsinə dair saziş imzalamağa hazır olduğunu bəyan etdi. Lakin referendumda (2002, 7 noyabr) iştirak edən C. sakinlərinin 99%-i suverenliyin bölüşdürülməsinin mümkünlüyünü rədd etdi. Bu da İspaniyada kəskin narazılıq doğurdu (C. ilə telefon, hava və dəniz əlaqələrinə məhdudiyyətlər qoyuldu). Bu narazılıqlar Britaniya hökumətinin C.-in statusunu əhalinin istəyinə rəğmən dəyişmək hüququna malik olmadığını bəyan etməsindən sonra daha da kəskinləşdi. 2004 ildə C. sakinləri ilk dəfə Avropa parlamentinə seçkilərdə iştirak etdilər. C. ərazisi Cə-



Cəbəlüttariq ərazisi.

nub-Qərbi İngiltərə seçki dairəsinin tərkibinə salındı. 2004 ilin yayında Britaniyanın atom gəmilərinin C.-ə gəlməsi İspaniya tərəfinin yeni narazılığına səbəb oldu. 2004 ilin oktyabrında B.Britaniya və İspaniya C.-in gələcəyi ilə bağlı danışıqların yeni mərhələsinə başladılar.

**Təsərrüfat.** 1980-ci illərin ortalarınadək C., demək olar ki, yalnız hərbi baza kimi inkişaf etmiş (ÜDM-in 60%-ndən çoxu hərbi sektorun payına düşürdü, 1984), təsərrüfat tamamilə ingilis ordu və donanmasına (gəmilərin təmiri və bunkerlənməsi, elektrik təchizatı və s.) xidmət etməyə yönəldilmişdi. 1980-ci illərin ortalarından C.-in müdafiə əhəmiyyəti azalmağa başlamışdır (21 əsrin əvvəllərində hərbi sektorun ÜDM-də payı 7% olmuşdur).

Təsərrüfatın ən böyük sektoru xidmət sferasıdır (işləyənlərin 84,3%-i); ÜDM-in 25–30%-i maliyyə fəaliyyəti (ofşor biznesi daxil olmaqla), gəmiçiliyin nəqliyyat xidmətləri və turizm kimi başlıca sahələrin hər birinin, təqr. 15%-i isə rabitə və telekommunikasiyaların payına düşür. ÜDM-in həcmi 1,275 mlrd. dollar (alıcılıq qabiliyyəti pariteti üzrə, 2008), adambaşına 43,0 min dollardır (dünyada 20-ci yer). ÜDM-in real artımı 6%-dir (2008). C.-in iqtisadiyyatında bir sıra iri firma, o cümlədən mobil rabitə ("Gibraltar Nynex Communications İnternational"), beynəlxalq telekommunikasiyalar ("Gibraltar Telecommunications"), neft məhsulları ilə təchizat və s. sahələrdə fəaliyyət göstərir. Beynəlxalq biznes üçün vergi güzəştləri haqqında qanunun qəbul edilməsindən (1967) sonra C. maliyyə mərkəzi kimi inkişaf edir; ofşor zonası kimi geniş tanınır.

C. bunkerləmə portu (Qərbi Aralıq dənizi ölkələrində ən böyük, dünyada ən böyüklərdən biri) kimi beynəlxalq əhəmiyyətə malikdir (gəmilərin 95%-ndən çoxu yanacaq doldurmaq üçün daxil olur; 1980-ci illərin sonundan bunkerləmənin miqyası xeyli artmışdır). Gəmilərin bunkerlənməsi üzrə əsas şirkətlər: "Gibunco/CEPSA" ("Gibunco Group" və İspaniyanın "CEPSA" şirkətlərinin birgə müəssisəsi), "Vemaoil" və "Aegean Bunkering" (Yunanıstan), "Shell Gibraltar" (B. Britaniya) və "Texaco FAMM" (ABŞ). Yanacağın böyük hissəsi İspaniyadan daxil olur ("CEPSA" şirkətinin neft emalı z-du, Alxesiras ş.). William's Way ("Texaco" şirkəti) neft anbarı C.-in ş. sahilindədir.

Xarici turizm inkişaf edir (2004 ildə 7,6 mln. nəfər; əsasən, İspaniya və B. Britaniyadan). Əsas görməli yerləri: Sultan Əbd əl-Mömin qalasının qalıqları və mağaralarla (140-dan çox) birlikdə Cəbəllütariq qayası, Böyük mühasirə tunelləri (tunellər labirintindən ibarət 18 əsrə aid nadir fortifikasiya sistemi), Alameda Nəbatat bağı (600-dən çox bitki növü), Apper-Rok təbiət rezervatı. Şopinq (alınan mallara rüsum qoyulmur) geniş yayılmışdır. Qumar biznesi (kazino) var.

Sənaye az inkişaf etmişdir (işləyənlərin 4,5%-i). Əsas sahələr – elektroenergetika (elektrik enerjisi istehsalı 142,0 mln. *kVt-saat,* 2006), su təchizatı (Alxesiras buxtasında şor suyu şirinləşdirən qurğu; 2004 ildə 1,2 mln. $m^3$), şüşə sənayesi (əl işi olan suvenir məhsulları), yeyinti və tütün sənayesi (əsasən, alkoqolsuz içkilər, pivə istehsalı, siqaretlərin qablaşdırılması); doklar mülki gəmilərin təmiri, bunkerlənməsi və ərzaqla doldurulması üzrə ixtisaslaşır.

Əsas nəql. növü avtomobildir; hərəkət sağtərəflidir. Avtomobil yollarının uz. 29 *km*-dir; avtobus nəql. inkişaf etmişdir. Avtoparkında 16,5 min minik, 2,6 min yük avtomobili və avtobuslar, 6,2 min motosikl var (2004). İspaniya ilə əlaqələr yalnız quru ilə həyata keçirilir. Aeroport (İspaniya ilə sərhəddə); B. Britaniya və Mərakeşlə müntəzəm aviasiya əlaqəsi var. C. Aralıq dənizi və Şimali Avropa ölkələri ilə sərnişin gəmiçiliyi, Mərakeşlə bərə keçidi ilə əlaqə yaradır. C. 2003 ildə 167 sərnişin və 133 ticarət gəmisi qəbul etmişdir. C.-in ticarət donanmasına 160 gəmi daxildir, onlardan 148-i xarici (əsasən, Almaniya) gəmi sahiblərinə məxsusdur. Asma kanat yolu var.

İdxalın dəyəri 2967 mln. dollardır, onun 90%-i neft və neft məhsullarının payına düşür (təqr. ildə 4 mln. *t*); digər maddələr – ərzaq, istehlak malları, tikinti materialları, maşın və avadanlıqlar. Əsas idxalçılar İspaniya (19,9%), Rusiya (18,4%), B. Britaniya (10,8%), İtaliya (8,8%), Almaniya (7,5%), ABŞ (5,1%), İsveç (4,7%), Fransa (4,2%). İxracın (əsasən, reeksport) dəyəri 271 mln. dollardır, o cümlədən neft və neft məhsullarının payı – 51%, emal sənayesi məhsulları – 41%, digərləri – 8%. Əsas ixracçılar Fransa (19,4%), İspaniya (14,1%), Türkmənistan (12,1%), İsveçrə (11,7%), Almaniya (10,1%), B. Britaniya (9,1%), Yunanıstan (6,8%) (2004).

**CƏBƏLÜTTARİQ BOĞAZI** (isp. Estrecho de Gibraltar) – Pireney y-a-nın c. qurtaracağı (Avropa) ilə Afrikanın şm.-q. hissəsi arasında boğaz. Atlantika okeanını Aralıq dənizi ilə birləşdirir. Şm. sahilində Cəbəlüttariq qaya massivi, c.-da Sidi-Musa d. yüksəlir. Uz. 59 *km*, eni 14–44 *km*, dərinliyi farvaterdə 53 *m* (maks. 1180 *m*). Boğazda ikilaylı axın mövcuddur; qalınlığı 170 *m* olan üst lay q.-dən ş.-ə 3,7–7,5 *km/saat* sürətlə axmaqla ay ərzində orta temp-ru 17°C, duzluluğu təqr. 36‰ olan 2–10 min $km^3$ Atlantika suyunu Aralıq dənizinə keçirir. Alt layda axının sürəti 1,8–9,0 *km/saat* olmaqla əksinədir – ş.-dən q.-ə. Bu axın həmin müddət ərzində temp-ru 13,5°C, duzluluğu 38‰ olan 1–6 min $km^3$ Aralıq



Cəbəlüttariq boğazının kosmosdan görünüşü.

dənizi suyunu Atlantika okeanına ötürür. Daşınan su kütlələri arasındakı fərq Aralıq dənizindəki səth buxarlanması ilə əlaqədardır. Coğrafi mövqeyinə görə C.b. böyük iqtisadi və strateji əhəmiyyətə malikdir. Boğaz İngiltərənin Cəbəlüttariq mülkünün nəzarəti altındadır. Cəbəlüttariq (B.Britaniya), Alxesiras, La-Linea və Seuta (İspaniya), Tanjer (Mərakeş) portları C.b. sahilindədir.

**CƏBƏRTİ** Əbdürrəhman (1753/1754 – 1826) – Misir tarixçisi. Qahirə üləmaları nəslindəndir. C. *əl-Əzhərin* mötəbər şeyxlərindən biri idi. Onun başlıca əsəri olan "Əcaib əl-asar fi-t-təracim və-l-əxbar" ("Tərcümeyi-hallar və hadisələrdən ibarət heyrətamiz əsərlər") adlı dördcildlik salnaməsi 17 əsrin sonlarından 1822 ilədək Misir tarixinə dair ərəb mənbələrindən ən qiymətlisidir. Salnamənin böyük hissəsi C.-nin müasirləri olan yüksəkvəzifəli şəxslərin (məmlük bəylərinin, şeyxlərin və s.) tərcümeyi-hallarından ibarətdir. C. məmlük ağalığına və Fransa işğalçılarına qarşı xalq azadlıq hərəkatını dəstəkləmişdir. Misir paşası *Məhəmmədəlini* kəskin tənqid etdiyinə görə C.-nin salnaməsi 1879 ilədək qadağan olunmuşdu.

**CƏBƏRUT** (ər. جبروت – qüdrət, əzəmət) – islam fəlsəfəsində aləmlərdən biri. Quranda və erkən sufi mətnlərində "C." sözünə rast gəlinmir. Bu anlayışı təsəvvüfə gətirən İbn Ərəbi, Əziz Nəsəfi, Əbdülkərim əl-Cili, Sührəvərdi və b. sufilər onu bəzən ideyalar aləmi, bəzən də sabit ideyalar ("əyani-sabitə") ilə eyniləşdirmişlər. Qəzzali və İbn Ərəbiyə görə, C. *mülk* ilə *mələkut* arasında orta aləmdir. Bəzi mənbələrdə yuxarıdan aşağıya doğru sıralanan C., mələkut və mülk aləmlərini Sührəvərdi müvafiq ardıcıllıqla ağıl, nəfs və materiya kimi izah etmişdir. Bir sıra təsəvvüf alimləri Allahın zatını (substansiya) C., əzəli atributlarını ("sifətləri") isə mələkut adlandırmışdır. Bütün varlıqların sabit ideyaları mütləq fatalizmin hökm sürdüyü C.-da yerləşir.

**CƏBƏSOY** Əli Fuad (23.9.1882, İstanbul – 10.1.1968, İstanbul) – Türkiyə siyasi və hərbi xadimi, gen., Türkiyə parlamentinin üzvü (1924, 1931, 1950), onun spikeri (1948).



Atatürkün silahdaşı və onun yaxın dostu olmuşdur. İstanbulda hərbi məktəbi və hərbi akademiyanı bitirmişdir. Beyrut və Rumelidə xidmət etmişdir. *İtaliya-Türkiyə müharibəsində (1911–12), Balkan müharibələrində (1912–13)* və *Birinci dünya müharibəsində (1914–18)* iştirak etmişdir. 5-ci, 25-ci, 14-cü piyada diviziyalarının, 20-ci ordu korpusunun, Qərbi Anadolu Milli ordusunun, 2-ci ordunun komandanı olmuşdur. 1919 ildə Osmanlı imperiyasının İtaliyada hərbi attaşesi, 1921 ildə Türkiyənin SSRİ-dəki səfiri təyin edilmişdir. Türkiyə hökumətinin 1921 ilin martında Moskvada RSFSR ilə dostluq və qardaşlıq müqaviləsinin imzalanmasında iştirak etmişdir. 1924 ildə Mütərəqqi Respublika Partiyasının lideri seçilmiş, 1934–43 illərdə ictimai işlər naziri olmuşdur.

**CƏBHƏ** – 1) bir qayda olaraq müharibənin başlanması ilə əlaqədar yaradılan operativ-strateji birləşmə. C.-yə bir neçə ordu birləşməsi, aviasiya, əlahiddə ümumqoşun birləşmələri, müxtəlif qoşun növlərinin, xüsusi qoşunların hissə və birləşmələri və s. daxil ola bilər. 2) Silahlı qüvvələrin hərbi əməliyyat meydanında düşmənə qarşı düzülmə xətti. 3) Döyüş əməliyyatlarının aparıldığı r-n (zona, zolaq), ("cəbhə" və "cəbhə arxası" anlayışlarında). 4) Qoşunların döyüş sırasının düşmən səmtinə olan tərəfi. 5) Hərbi qulluqçular (maşınlar) sırasının ön tərəfi.

**CƏBHƏ** – 1) siyasi partiyaların, həmkarlar ittifaqlarının və b. təşkilatların ümumi məqsəd uğrunda mübarizə aparmaq üçün yaradılmış birliyi. 2) Eyni zamanda bir neçə iş prosesinin həyata keçirildiyi yer, sahə. Həmçinin bax *Atmosfer cəbhəsi.*

**CƏBİNƏD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Ataşbəy kəndistanında, Səriskənd qəs.-ndən 35 *km* q.-dədir.

**CƏBİYEV** Əvəz Əbdülhəsən oğlu (20.4.1922, Masallı r-nu, Ərkivan k. – 20.10.1977, Bakı) – Azərb. tibb alimi, terapevt, tibb e.d. (1968), prof. (1971). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1948). Bakı şəhəri 3-saylı tibb məktəbində müəllim (1951–52), Bakı şəhəri 1-saylı klinik xəstəxanada həkim və şöbə müdiri, Azərb. Dövlət Tibb İn-tunun hospital terapiyası kafedrasının prof.-u işləmişdir (1971–77). Tədqiqatları, əsasən ürəyin işemik xəstəliklərinin öyrənilməsinə həsr edilmişdir. 60-dan artıq elmi əsərin müəllifidir.

**CƏBİYEV** Xudaverdi Salman oğlu (1886, Ağsu r-nunun Bico k. – 3.7.1975, orada) – Sosialist Əməyi Qəhrəmanı (1948). 1947 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**CƏBİYEV** Qafar Cəfər oğlu (d.17.8. 1950, İsmayıllı r-nunun Talıstan k.) – Azərb. arxeoloqu, tarix e.d. (2008), əməkdar jurnalist (2013). Kirovabad Dövlət Pedaqoji İn-tunu (indiki Gəncə Dövlət Un-ti) bitirmişdir (1974). Orta məktəb müəllimi (1973–74), "Zəhmətkeş" qəzetində şöbə müdiri və redaktor müavini (1975–81) işləmişdir. 1981 ildən Azərb. EA Arxeologiya və Etnoqrafiya İn-tunda baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi vəzifələrində çalışmışdır. "Azərbaycan" qəzetinin xüsusi müxbiri (1990–2003) olmuş, 2003 ildən Milli Televiziya və Radio Şurasının üzvü. 2013 ildən həmin Şuranın sədr müavinidir. Bakı, Qəbələ, Ağsu-İsmayıllı arxeoloji ekspedisiyalarının tərkibində antik və orta əsr abidələrini tədqiq etmişdir. 2004 ildən Ağsu, Kürdəmir və Qəbələ arxeoloji ekspedisiyalarının rəhbəridir. 100-dən çox elmi əsərin, o cümlədən bir neçə monoqrafiya və kitabın müəllifidir.

Ə s ə r l ə r i: Azərbaycan keramikası. B., 2004; Girdiman tarixi (IV–IX əsrlər). B., 2010.

**CƏBİYEV** Mirzə Ağamurad oğlu (22.2. 1925, indiki Astara r-nunun Hamoşam k. – 10.2.1978, Astara ş.) – Sovet İttifaqı Qəhrəmanı (19.4.1945), baş leytenant. 1943 ildə orduya çağırılmışdır. 1943–45 illərdə Belorusiya, Litva, Polşa və Almaniyada gedən vuruşmalarda iştirak etmişdir. 1945 ilin aprelində Königsberq (indiki Kaliningrad) ş. uğrundakı döyüşlərdə qəhrəmanlıq göstərmişdir. 1946 ildə ordudan buraxılmış, Astara r-nunda kənd sovetinin sədri, sonra isə sovxoz direktoru olmuşdur. Qırmızı Bayraq, 3-cü dərəcəli Şöhrət, Qırmızı Ulduz ordenləri və medallarla təltif edilmişdir.



**CƏBİYEV** Rauf Mirzə oğlu (d.25.11. 1935) – Azərb. iqtisadçısı, iqtisad e.d. (1991), prof. (1993). Azərb. Dövlət Un-tini (1965) və Azərb. Xalq Təsərrüfatı İn-tunu (1971) bitirmişdir. Azərb. SSR Nazirlər Sovetinin Qiymət Komitəsində müxtəlif vəzifələrdə (1969–72), Azərb. SSR Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat İn-tunda şöbə müdiri (1972–85), Azərb. SSR Dövlət Plan Komitəsində şöbə müdiri (1985–90), Azərb. Dövlət İqtisad Un-tində kafedra müdiri (1990–97) işləmişdir. 2007 ildən AMEA-nın İqtisadiyyat İn-tunda baş elmi işçidir. Tədqiqatları təsərrüfat mexanizminin təkmilləşdirilməsi, Azərb.-da bazar infrastrukturunun formalaşması və inkişafı məsələlərinə həsr olunmuşdur. 300-dən çox elmi əsərin, o cümlədən 18 kitab və monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**CƏBİYEVA** Sona Ələkbər qızı (16.12. 1929, Bakı – 10.12.1974, Bakı) – Azərb. fizioloqu. Biologiya e.d. (1973). ADU-nu bitirmişdir (1952). Un-tdə "İnsan və heyvan fiziologiyası" kafedrasında baş laborant, Azərb. EA-nın Fiziologiya sektorunda kiçik elmi işçi, böyük elmi işçi, elmi katib (1956–74) işləmişdir. Tədqiqatı ontogenezdə normada və rentgen şüalanmasından sonra qlikemiyanın tənziminin endokrin mexanizminə həsr edilmişdir. 35-ədək elmi əsərin müəllifidir.

**CƏBİYEVA** Zeynəb Ağa qızı (d. 1920, Göyçay r-nunun Aşağı Qaraməryəm k. – 21.4.2003, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1948). 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (2, 3-cü çağırış) deputatı olmuşdur.

**CƏBR** [orta əsr lat. cəbr, ərəb əl-cəbr – tənliyin ayrı-ayrı hissələrinin birləşməsi], riyaziyyatın cəbri əməlləri öyrənən ən qədim bölməsi. O, riyazi obyektlər üzərində əməliyyatları öyrənir və riyaziyyatın ümumi anlayış və üsullarının dürüst ifadə olunmasına kömək edir. C.-in məqsəd və metodları əvvəlcə tənliklərin qurulması və onların həllindən ibarət olmuşdur. Tənliklərin araşdırılması ilə əlaqədar ədəd anlayışı inkişaf etmişdir, mənfi, rasional, irrasional və kompleks ədədlər C.-ə daxil edilmişdir; bu ədədi sistemlərin xassələrinin birgə araşdırılması C.-ə aiddir. C.-də ədədlər üzərində aparılan əməliyyatların xassələrini konkret ədədlərin iştirak etmədiyi formada ifadə etməyə imkan verən hərfi işarələmələr formalaşmışdır. Hərfi ifadələrin müəyyən qayda üzrə (əməliyyatların xassələri ilə əlaqədar) dəyişdirilməsi klassik C. aparatını təşkil edir. C.-in inkişafı riyaziyyatın yeni sahələrinin, xüsusilə riyazi analizin, diferensial və inteqral hesabının inkişafına böyük təsir göstərdi. Ədədlərin toplanması və vurulmasına analoji olan əməliyyatların aparıldığı hər yerdə C.-in tətbiqi mümkündür. Bu əməliyyatlar müxtəliftəbiətli obyektlər üzərində aparıla bilər. Cəbri üsulların belə geniş tətbiqinə misal olaraq vektor cəbrini (bax *Xətti cəbr*) və onun sonrakı ümumiləşməsi olan və müasir fizikanın ən vacib vasitələrindən sayılan tenzor cəbrini göstərmək olar (bax *Tenzor hesabı*).

C. daha geniş, müasir anlamda öz xassələrinə görə ədədlərin toplanması və vurulmasına oxşar cəbri əməliyyatlar adlanan bu və ya digər təbiətli obyektlər sistemi haqqında elm kimi təyin oluna bilər. C., sistemləri, onlar üzərində verilmiş cəbri əməliyyatların xassələrinə görə siniflərə bölür və yeni obyektlər sistemində yeni məna verən tənliklərin araşdırılması və həlli məsələsi daxil olmaqla bu sistemlərdə təbii olaraq meydana çıxan müxtəlif məsələləri öyrənir (vektor, matris, operator tənliyin həlli ola bilər). Yalnız 20 əsrdə C. haqqında formalaşan bu yeni münasibət təkcə riyaziyyatda deyil, digər elmlərdə, o cümlədən fizikada da cəbri üsulların tətbiq oblastının sonrakı genişlənməsinə səbəb olmuşdur. Bu hadisə C.-in riyaziyyatın başqa sahələri ilə əlaqəsini möhkəmləndirmiş və onların inkişafında C.-in təsirini genişləndirmişdir.

**Tarixi oçerk**. C., əməliyyatları əvvəlcə ancaq tam ədədlərin, sonra isə kəsrlərin toplanması, çıxılması, vurulması və bölünməsindən ibarət olan hesab fənninin önünə keçmişdir. Əvvəllər C.-in hesabdan fərqi ondan ibarət olmuşdur ki, C.-ə məchul kəmiyyət daxil edir, məsələnin şərtinə əsasən əməliyyat apararaq tənlik qurur və bu tənlikdən məchulu tapırdılar. Hesab məsələlərinin belə izahının elementlərinə Axmesin qədim misir papiruslarında (bax *Riyazi papiruslar*) rast gəlinir, burada axtarılan kəmiyyət uyğun heroqliflə işarə olunur. Qədim misirlilər kifayət qədər çətin məsələləri (hesabi və həndəsi tənasüblərlə əlaqəli) həll edirdilər. Məsələlərin həm dürüst ifadəsi, həm də həlli şifahi və yalnız konkret ədədi misallar şəklində verilirdi.

20 əsrin əvvəllərində *riyazi mixi mətnlər* oxundu və qədim Babilistan mədəniyyəti öyrənildi. Babilistanlılar 4000 il bizdən qabaq xüsusi cədvəllərin köməyi ilə müxtəlif məsələləri həll edə bilmişlər; bunlardan bəziləri kvadrat tənliklərin və hətta 3-dərəcəli tənliyin bir növünün həlli ilə eynigücüdür.

Riyaziyyata məntiqi isbatları birinci dəfə qədim yunan həndəsəçiləri daxil etmişlər. Həndəsi üsullar çərçivəsində bir çox riyazi məsələlər həndəsə dilində izah edilmişdir: kəmiyyətlər uzunluq kimi, iki kəmiyyətin hasili düzbucaqlının sahəsi kimi və s. şərh olunmuşdur. Müasir riyaziyyat dilində, məs., "kvadrat" adı kəmiyyətin öz-özünə hasili kimi saxlanılmışdır. Qədim yunan riyaziyyatının qeyri-həndəsi inkişaf xəttinə *Diofantın* "Hesab" traktatı aiddir, burada o, 1-ci, 2-ci və daha yüksək dərəcəli tənliklərlə kifayət qədər sərbəst əməliyyat aparır. Bu elmi əsərdə hərfi işarələmələrdən və mənfi ədədlərdən istifadə cəhdlərini görmək olur. Konkret misallarda 2-məchullu 3-dərəcəli tənliklərin rasional ədədlərlə həlli üsulları qabaqcadan düşünülür.

Qədim yunan elminin nailiyyətləri orta əsr Şərq alimləri, o cümlədən əl-*Xarəzmi* və *Biruni* tərəfindən inkişaf etdirilmişdir. Şərqin alimləri onlara məlum olan riyaziyyatı özlərinin orijinal emalları ilə Avropaya ötürürdülər, onlar xüsusən C.-lə daha çox məşğul olurdular. "C." termini əl-Xarəzmin, tənliyin çevrilməsi üsullarından biri mənasını verən "Əl-cəbr əl-mukaba-la" əsərinin adından irəli gəlir. Əl-Xarəzmi dövründən C.-ə riyaziyyatın ayrıca bölməsi kimi baxmaq olar.

Orta əsr Şərq riyaziyyatçıları bütün əməlləri sözlərlə ifadə ediblər. C.-in sonrakı tərəqqisi yalnız əməllərin işarə olunması üçün əlverişli simvolların yaranmasından sonra mümkün olmuşdur (bax





*Riyazi işarələr*). Bu proses çox ləng gedirdi və ancaq 15 əsrin axırında indi qəbul edilmiş + və – işarələri meydana gəldi. Sonra qüvvət, kök işarələri və həmçinin mötərizə daxil edilmiş və ümumbəşəri təsdiqini tapmışdır. 17 əsrin ortalarında müasir C.-in simvollar aparatı tam şəkildə formalaşdı – yalnız axtarılan məchul deyil, ümumiyyətlə, məsələdə iştirak edən kəmiyyətlər də hərflərlə işarə olundu. Buna qədər C.-də və hesabda ümumi qaydalar və isbatlar olsa da, yalnız ədədi misallara baxılmış, demək olar ki, hər hansı bir ümumi fikir söyləmək mümkün olmamışdır. Hətta, o vaxtın elementar dərslikləri bir ümumi qaydanın əvəzinə onlarla xüsusi qaydalar vermişlər. İlk dəfə F. *Viyet* 1591 ildə məchul kəmiyyətləri *A*, *E*, *I*,..., saitləri, məlumları isə *B*, *S*, *D*,... samitləri ilə işarə edərək məsələni ümumi şəkildə yazmağa başladı. O, bu hərfləri o zamankı riyazi əməliyyatların işarələri ilə əlaqələndirdi və beləliklə, müasir C. üçün səciyyəvi olan ilk hərfi düsturlar meydana gəldi. R. *Dekartdan* başlayaraq məchulları işarə etmək üçün, bir qayda olaraq, latın əlifbasının sonuncu hərfləri *x*, *y*, *z*-dən istifadə edilir.

Konkret ədədləri əvəz edən hərflər üzərində əməliyyatlar və simvolik işarələmələrin daxil edilməsi çox böyük əhəmiyyət kəsb etmişdir. Bu düstur dili olmasaydı, riyaziyyatın 17 əsrdən başlayaraq sürətli inkişafı, riyazi analizin yaradılması, mexanika və fizika qanunlarının riyazi ifadəsi mümkün olmazdı.

Tarixən C.-in birinci məsələsi cəbri tənliklərin həlli, yəni onların köklərinin tapılması olmuşdur. Mənfi ədədlərin meydana çıxması tənliklərin həllində böyük rol oynamışdır. Onları hind riyaziyyatçıları 10 əsrdə riyaziyyata gətirdi, lakin orta əsr Şərq alimləri onlardan istifadə etmədilər. Mənfi ədədlərlə işləməyə tədricən öyrəşirdilər; buna mənfi ədədlərin əyani məna kəsb etdiyi ticarət hesablamaları (məs., zərər, itki, borc) səbəb olmuşdur. Mənfi ədədlərin qəti olaraq istifadəsinə ancaq 17 əsrdə, R. Dekart tərəfindən onların əyani həndəsi təsviri verildikdən sonra başlanıldı.

*Cəbri tənliklərin* həlli zamanı ədədi oblastın genişlənməsi tələbatı ortaya çıxdı. Məs., ikidərəcəli tənliyin həlli zamanı irrasional ədədlər meydana çıxır (bax, həmçinin *Cəbri ədəd*). Kökalma ilə hələ qədim yunan və Orta Asiya riyaziyyatçıları qarşılaşmış, onların təqribi hesablanması üçün ağıllı üsullar təklif etmişdilər. İrrasionallığa ədədi baxış olduqca gec formalaşmışdır. Kompleks ədədlərin daxil edilməsi 18 əsrə təsadüf edir.

İstənilən *n* dərəcəli tənliyin *n* kökü, ümumiyyətlə desək, *n* kompleks kökü vardır, həm də bu kompleks əmsallı tənliklər üçün də doğrudur. C.-in əsas teoremi adlanan bu mühüm teorem birinci dəfə 17 əsrdə dürüst ifadə olunmuşdur. Onun isbatını 18 əsrin axırlarında K. *Qauss* vermişdir. Bütün məlum isbatlarda bu və ya digər formada kəsilməzlikdən istifadə etməli idilər; beləliklə, C.-in əsas teoreminin isbatı C.-in sərhədlərindən kənara çıxaraq riyaziyyatın bütövlükdə tamlığını nümayiş etdirmişdir.

Bir çox nəzəri və təcrübi məsələlər bir tənliyə deyil, bir neçə məchullu tənliklər sisteminə gətirilir. Xətti tənliklər sistemi xüsusilə mühümdür. Təcrübədə rast gəldiyimiz tənliklər sistemi bu sadə sistemlərə gətirilir. Xətti tənliklər sisteminin həlli müxtəlif tətbiqi məsələlərin həlləri tərkibində əsas hissəni təşkil edir. Q. *Leybnits* 1693 ildə müəyyən etdi ki, xətti tənliklər sisteminin öyrənilməsində sistem tənliklərin əmsallarından düzəldilmiş *matris* əsas rol oynayır. Sonralar matrislər C.-də sərbəst öyrənilmə obyektinə çevrildi, belə ki, onların rolu xətti tənliklər sistemi nəzəriyyəsinə tətbiq edilməklə tamamlanmır.

*Analitik həndəsənin* meydana gəlməsi C.-lə sıx əlaqədardır. Əgər qədim yunanlarda sırf cəbri məsələlər həndəsi formaya salınırdısa, sonralar ifadənin cəbri imkanları o qədər əlverişli və aydın oldu ki, həndəsi məsələlər cəbri düsturlar dilinə köçürüldü.

17 əsrin axırı 18 əsrin əvvəllərində sonsuz kiçilənlər analizi yaranmış və sürətlə yayılmışdır, bu hadisə riyaziyyatın inkişafında və onun tətbiqində böyük rol oynamışdır. Buna C.-in inkişafının çox böyük təsiri olmuşdur. Xüsusilə hərfi ifadələr və onlar üzərində aparılan əməllər hələ 16–17 əsrlərdə riyazi kəmiyyətlərə dəyişənlər kimi baxılmasına səbəb olmuşdur ki, bu da sonsuz kiçik kəmiyyətlərin təhlili üçün səciyyəvidir, burada bir kəmiyyətin kəsilməz dəyişməsinə, adətən başqa kəmiyyətin kəsilməz dəyişməsi (həmin dəyişənin funksiyası) uyğun gəlir.

C. və riyazi analiz 17–18 əsrlərdə bir-biri ilə sıx əlaqədə inkişaf etmişdi. C.-ə analizin anlayış və üsulları daxil olmuş, bu istiqamətdə onu İ. *Nyuton* zənginləşdirmişdir. Digər tərəfdən C. analizə inkişaf etmiş düsturlar və çevirmələr toplusu vermiş, bunlar inteqral hesabının və diferensial tənliklər nəzəriyyəsinin inkişafının başlanğıc dövründə böyük rol oynamışdır. L. *Eyler* dərsliyinin işıq üzü görməsi bu dövrdə ən böyük hadisə olmuşdur. 18 – 19 əsrlərdə C.-in analizdən fərqi, onun əsas predmetinin sonlu və diskret olması ilə xarakterizə olunurdu. Əsas əməliyyatlar, məs., toplama C.-də sonlu sayda aparılır. 19 əsrin birinci yarısında N.İ. *Lobaçevski* öz kitablarından birini "Cəbr, yaxud sonluların hesablanması" (1834) adlandıraraq, C.-in bu xüsusiyyətini qeyd edir.

18 əsrə yaxın C. təxminən, bu günlərə qədər orta məktəbdə öyrədilən həcmdə idi. Bu C. toplama, vurma, onların tərsi olan çıxma və bölmə əməllərini, eləcə də qüvvətəyüksəltmə və onun tərsi olan kökalmanı əhatə edir. Bu əməllər ədədlər, yaxud hərflər üzərində aparılır, onlar müsbət və ya mənfi, rasional və ya irrasional ədədləri ifadə edə bilər. 18 əsrə qədər elementar C.-ə aid yığılmış materialın rus dilində izahı ilk dəfə L.F. Maqnitskinin "Hesabda..." əsərində verilmişdir.

18–19 əsrlərdəki C. hər şeydən əvvəl çoxhədlilər cəbridir. Beləliklə, C.-in obyekti (predmeti) analizin obyektindən daha dardır. Bununla belə, C. və riyazi analizin toxunma nöqtələrinin sayı çoxdur, artmaqda davam edir və onların arasında kəskin sədd yoxdur. Bir çox hallarda çoxhədlilərin olduqca sadə funksiyalar kimi öyrənilməsi funksiyaların ümumi nəzəriyyəsinin inkişafına kömək etmişdir. Riyaziyyatın bütün tarixi boyu daha mürəkkəb funksiyaların öyrənilməsi çoxhədlilərin və ya sıraların öyrənilməsi tendensiyasına gətirib çıxarır. Digər tərəfdən, C. riyazi analiz üçün səciyyəvi olan kəsilməzlik və sonsuzluq ideyalarından daha çox istifadə etməyə başlayır.

**Cəbrin müasir vəziyyəti**. Müasir C. üçün üzərində əməliyyatlar aparılan obyektlər deyil, əməliyyatların xassələri səciyyəvidir. Sadə bir misal bunu izləməyə imkan verir. $(a+b)^2=a^2+2ab+b^2$ düsturu məlumdur. Onun nəticəsi aşağıdakı bərabərliklər silsiləsidir:

$$(a+b)^2=(a+b)(a+b)=(a+b)a+(a+b)b=$$
$$=(a^2+ba)+(ab+b^2)=a^2+(ba+ab)+b^2=$$
$$=a^2+2ab+b^2.$$

Burada distributivlik qanunu iki dəfə istifadə edilmişdir, toplama zamanı toplananları qruplaşdırmağa imkan verən assosiativlik qanunundan, nəhayət, $ba=ab$ kommutativlik qanunundan istifadə olunmuşdur. *a* və *b* obyektlərinin necəliyi maraqlı deyil, əhəmiyyətlisi odur ki, onlar obyektlərin deyil, əməliyyatların xassələrinə aid sadalanan tələbləri ödəyən iki əməlin – toplama və vurma əməlləri-

nin təyin olunduğu çoxluqdan olsunlar. *a* və *b* vektorlar olduqda düstur öz gücündə qalır, bu halda sol tərəfdəki toplama vektorların toplanması, sağ tərəfdəki düsturlar isə ədədlərin toplanmasıdır; vurulma dedikdə vektorların skalyar vurulması başa düşülür. Bu düsturda *a* və *b* əvəzinə kommutativ matrislər (yəni elələrini ki, *ab*=*ba* olsun, matris üçün bu ödənilməyə də bilər), iki asılı olmayan dəyişənə görə diferensiallama operatorlarını və s. də qoymaq olar.

Obyektlərin təbiətindən yayınaraq, lakin onların üzərindəki əməliyyatların müəyyən xassələrini qeyd edərək cəbri əməliyyatlara malik çoxluq anlayışına gəlirlər (bax *Universal cəbr*). Riyaziyyatın inkişafı və onun tətbiqinin gedişində əvvəllər nisbətən az olan cəbri strukturların tipləri ayırd edilirdi: qruplar, *sahələr*, *vektor fəzalar*, assosiativ halqalar və cəbrlər, *modullar*. Sonralar öyrənmə predmeti başqa siniflər: qeyri-assosiativ halqalar və cəbrlər (o cümlədən, Li cəbrləri, Jordan cəbrləri), qəfəslər, yarımqruplar və b. oldu (bax *Qruplar nəzəriyyəsi*, *Halqalar nəzəriyyəsi*, *Li cəbri nəzəriyyəsi*, *Qəfəslər nəzəriyyəsi*). C.-in həm riyaziyyatın özündə, həm də təbiət elmlərində çoxlu sayda tətbiqləri olan bölməsi qruplar nəzəriyyəsidir. C.-in riyazi məntiqlə də sıx əlaqəsi vardır (bax *Bul cəbri*, *Modellər nəzəriyyəsi*).

C.-in cəbri əməliyyatları əlavə quruluşlarla təmin olunmuş çoxluqlarda öyrənən bölmələri də inkişaf edir. Beləliklə, topoloji cəbr, Li qruplar nəzəriyyəsi (yəni hamar çoxobrazlılar qrupu), müxtəlif nizamlanmış sistemlər nəzəriyyəsi yarandı. Cəbri ədədlər nəzəriyyəsindən meydana gələn sahələr nəzəriyyəsi və kommutativ halqaların öyrənilməsi *cəbri həndəsənin* əsasını təşkil edən *kommutativ cəbrə* aiddir. Topologiyanın təsiri altında C.-in yeni bölməsi – *homoloji cəbr* meydana çıxdı ki, bu da öz növbəsində yalnız C.-də deyil, praktiki olaraq riyaziyyatın bütün sahələrində anlayışların təsviri üçün yeni universal dil yaradan *kateqoriyalar nəzəriyyəsinin* yaranmasına səbəb oldu.

C.-in riyaziyyatın daxilindəki fundamental rolu ilə yanaşı, böyük tətbiqi əhəmiyyəti də vardır: o, fizikada (mexanikada simplektik formalar, kvant nəzəriyyəsində Li qrupunun təsviri, sahə nəzəriyyəsində Li super cəbri, kristalloqrafiyada Fyodorov qrupları), diskret riyaziyyatda (avtomatlar nəzəriyyəsi, kodlaşdırmanın cəbri nəzəriyyəsi), riyazi iqtisadiyyatda (xətti bərabərsizliklər) və s. tətbiq olunur.

**CƏBRAYIL**, Cəbrəil, Cibril (ər. جبرئيل, ivritcə גַּבְרִיאֵל, yun. Γαβριήλ) – monoteist dinlərdə və islamda Allaha yaxın dörd mələkdən biri. Bibliyada C. adı dörd dəfə çəkilmişdir. *Əhdi-ətiqdə* daha çox ilahi qüdrəti, *Əhdi-cədiddə* isə dinclik və əmin-amanlığı təcəssüm etdirir. İudaizmdə və xristianlıqda C. çətinlik, sıxıntı gətirən, ikinci dərəcəli mələk (Mikayıldan sonra) kimi qəbul edilir. Quranda üç dəfə adı çəkilmiş, müxtəlif ayələrdə "ər-ruh əl-əmin", "ruh ül-qüds" və s. adlarla xatırlanmışdır. Başlıca missiyası peyğəmbərlərlə Allah arasında əlaqə yaratmaq, çətinliklərdə onlara yardım etməkdir. İsa Məsihin dünyaya gəlməsində iştirak etməsi bütün monoteist dinlərdə qəbul olunur. İslama görə, C. Quranı Məhəmməd peyğəmbərə 23 il ərzində ayrı-ayrı vəhylər şəklində çatdırmışdır. Rəvayətlərə görə, çox vaxt səhabə Dihyə ibn Xəlifənin surətində, iki dəfə isə öz real surətində peyğəmbərə görünmüşdür.

İslam fəlsəfəsi və irfanında C. ağıl və ruhla eyniləşdirilir. Mələklərin ağlın mərtəbələri olduğunu qəbul edən *İbn Sina vəhy* prosesini peyğəmbərin "fəal ağıl"la (*demiurq*) əlaqəyə girməsi kimi izah edirdi. *Sührəvərdiyə* görə, C. insanların canını potensial formadan ("qüvvə") real formaya ("feil") keçirir; lazımi qabiliyyətə malik olan hər bir insan onunla əlaqəyə girə bilər. İrfanda C. həyatın başlanğıcı, ilahi biliklərin təcəssümü və peyğəmbərlərin müəllimidir. *İbn Ərəbiyə* görə, C. *qiyamətdən* əvvəl dörd, qiyamətdən sonra isə səkkiz mələklə birlikdə *ərşin* daşıyısıdır. O, istər müqəddəs kitablarla, istər real formada Allahın sözünü çatdırır. Onun real sözünün isbatı İsa Məsihdir (Quranda İsa "Allahın sözü" adlandırılır, 4:171). Ədəbiyyatda C. bəzən simurqla da eyniləşdirilmişdir.

**CƏBRAYIL** – Azərb. Resp.-nda şəhər (1950–80 illərdə ştq.). Cəbrayıl r-nunun mərkəzi. Əh. 8,2 min (2011). Qarabağ silsiləsinin ətəyindədir. Avtomobil yolları qovşağı. Bakıdan 323 *km* aralı, Mahmudlu d.y. st.-ndan (Bakı–Horadiz d.y.) 14 *km* aralıdır.

İşğaldan (1993) əvvəl şəhərdə 3 ümumtəhsil məktəbi, 2 kütləvi kitabxana, mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun xatirə muzeyi, xalça emalatxanası fəaliyyət göstərmişdir. Memarlıq abidələrindən erkən orta əsrlərə aid Ağoğlan nekropolu, 19 əsrə aid Sultan Allahverdi hamamı, şəhərin ş.-q.-ində orta əsrlərə aid qəbiristanlıq var idi.

**CƏBRAYIL QƏZASI** – Azərb.-da Yelizavetpol (Gəncə) quberniyası tərkibində mövcud olmuş inzibati ərazi. 1873 il qanununa əsasən təşkil edilmişdi. Mərkəzi eyniadlı yaşayış məntəqəsi idi. 19 əsrin əvvəllərində Rusiyanın Azərb.-a qarşı işğalçılıq müharibəsində vuruşmuş rus zabitlərindən P.M. Karyaginin adı ilə Karyagin qəzası (1905) adlandırılmışdı. Qəza idarə sistemi mövcud idi. Qafqaz təqviminin (1917) məlumatına görə, ərazisi 3276,31 *kv. verst* (1 *verst* = 1,0668 *km*), əhalisi isə 89584 nəfər idi. Əhali, əsasən, əkinçilik, bağçılıq, ipəkçilik və maldarlıqla məşğul olurdu. Qəzada çar idarəçilik rejiminə və sosial ədalətsizliyə qarşı kəndli çıxışları baş vermişdi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) qurulduqdan az sonra, hökumətin 1918 il 30 iyul tarixli qərarı ilə qəzanın əvvəlki adı bərpa edilmişdi. 1919 il 13 yanvar tarixli qərar əsasında Cavanşir, Şuşa və Zəngəzur qəzaları ilə birlikdə müvəqqəti gen.-qubernatorluqda birləşdirilmişdi. AXC hökumətinin və yerli idarə orqanlarının tədbirlərinə baxmayaraq, 1918 il dekabrın ilk günlərində ermənilər qəzanın azərb. əhalisinə qarşı silahlı qətllərə başlamışdılar. Lakin AXC hökuməti Qarabağda erməni təcavüzünün qarşısını ala bilmişdi. Azərb. SSR-in rayonlaşdırılması ilə əlaqədar C.q. 1929 ildə ləğv edildi.

**CƏBRAYIL RAYONU** – Azərb. Resp.-nda inz. r-n. 1930 ildə təşkil edilmişdir. Kiçik Qafqazın c.-ş.-ində, Araz çayının sol sahilindədir. R-n 1993 ilin avqust ayında Ermənistan tərəfindən işğal edilmişdir. Sah. 1049,8 $km^2$. Əh. 65,5 min (2011; Azərb.-ın digər r-nlarında məskunlaşmışdır). R-n şm.-dan Xocavənd, şm.-ş.-dən Füzuli, q.-dən Qubadlı, c.-q.-dən Zəngilan r-nları ilə, c. və c.-ş.-dən İranla həmsərhəddir. R-nda 1 şəhər, 2 qəsəbə, 91 kənd var. Mərkəzi Cəbrayıl ş.-dir.

**Təbiət.** Səthi, əsasən, maili düzənlik (İncəçöl və Gəyan çölü), şm.-da alçaq dağlıqdır (Qarabağ silsiləsinin c.-ş. ətəkləri). Hünd. Araz çayı sahilində təqr.











Qarabağ silsiləsinin ətəkləri.

200 *m* (bəzi yerlərdə daha alçaq), şm.-da 1000 *m* və daha yüksəkdir. Dağlıq hissədə Tabaşir, düzənlik hissədə Neogen və qismən Antropogen çöküntüləri yayılmışdır. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temp-r yanvarda 0–2°C, iyulda 24–25°C-dir. İllik yağıntı 400–



Dairəvi türbə. 17 əsr. Xubyarlı kəndi.

500 *mm*-dir. Çayları (Çaxmaqçay, İncəçay və s.) qısa və müvəqqəti axarlıdır; r-nun İranla sərhədindən axan Araz hövzəsinə aiddir. Dağ-şabalıdı, şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yarımsəhra, dağ-kserofit bitki örtüyü üstündür. İşğala qədər 17,2 min *ha*-da meşələr var idi. Heyvanları: canavar, tülkü, süleysin, çölsiçanı və s.

**Təsərrüfat.** İqtisadiyyatında əsas yeri taxılçılıq, heyvandarlıq tuturdu. Baramaçılıq, üzümçülük və quşçuluq da inkişaf etmişdi. İşğala qədər 60 min *t*-dan çox üzüm istehsal olunurdu. R-nda tikiş, xalça, cihazqayırma sexləri, ümumilikdə 8 sənaye obyekti fəaliyyət göstərirdi.

**Mədəni quruculuq və səhiyyə.** Erməni işğalına (1993) qədər r-nda 72 ümumtəhsil, 1 peşə, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 78 kitabxana fəaliyyət göstərirdi. 127 tarixi memarlıq abidəsi, o cümlədən Sultan Məcid hamamı (18 əsr), Xubyarlı k.-ndəki Dairəvi və Səkkizguşəli türbələr (19 əsr), Şıxlar k.-ndəki Dairəvi türbə (14 əsr), Diridağda Qız qalası olmuşdur. İşğal nəticəsində mədəniyyət müəssisələri və abidələr dağıdılmışdır.

Resp.-nın müxtəlif bölgələrində C.r-nunun 45 ümumtəhsil məktəbi (8374 şagird), 11 məktəbəqədər (440 uşaq), 1 məktəbdənkənar (264 şagird) və 1 ilk peşə-ixtisas (74 şagird) təhsili müəssisəsi fəaliyyət göstərir (2013/14). R-nda 50 çarpayılıq 1 xəstəxana, əhaliyə ambulatoriya yardımı göstərən 2 müalicə müəssisəsi, 95 həkim, 425 orta tibb işçisi var (2011).

İşğala qədər r-nda 6 xəstəxana, 18 feldşer-mama məntəqəsi, sanitariya-epidemioloji st., vərəm dispanseri fəaliyyət göstərirdi.



15 aşırımlı Xudafərin körpüsü. 7 əsr.

**CƏBRAYILBƏYLİ** Cəmo Adil oğlu (29.1.1887, Şamaxı – 30.7.1965, Şamaxı r-nunun Çuxuryurd k.) – Azərb. pedaqoqu, metodist, publisist. Pedaqoji elmlər namizədi, dosent (1942), Azərb.-ın əməkdar müəllimi (1942). Azərb. Dövlət Pedaqoji İn-tunun biologiya fakültəsini (1931) bitirmişdir. Pedaqoji fəaliyyətə 1908 ildən başlamış, Şamaxı (1908–14) və Bakı (1914 ildən) məktəblərində müəllimlik etmişdir. Şamaxıda "Nicat" maarif cəmiyyətinin şöbəsini açmaq məqsədilə Z.Hacıbəyov ilə birlikdə 1915 ilin yayında Ü. Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını tamaşaya qoymuşdur. Bakıda çıxan "Məktəb" jurnalında uşaq pyesləri, hekayələr, şeirlər dərc etdirmişdir. A.Naseh, M.Ə.Sabir və A.Səhhətlə yaxın dost olmuşdur. "Cəmo" imzasıyla şeirlər yazmışdır (Azərb.Resp.-nın hazırkı himninin mətninin C.-yə məxsus olması fikri də var; belə ki, 1919 ildə Bakıda dərc edilmiş "Milli nəğmələr" kitabındakı "Vətən marşı" şeirinin mətni indiki himnin sözləri ilə eynidir. Şeirin sonunda isə "Cəmo bəy" imzası vardır). Bakıdakı *darülmüəllimində* (1922–31), Sənaye Akademiyasında (1932–37), Bakı Müəllimləri Təkmilləşdirmə İn-tunda, Azərb. Elmi Tədqiqat Pedaqogika İn-tunda (1938–64) işləmişdir. C. bir sıra dərsliklərin ("Təbiətə ilk addım", "Müxtəsər nəbatat", "Heyvanat dərsləri" və s.), 30-dan çox elmi-metodik kitabın müəllifidir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Botanikanın tədrisi haqqında. B., 1955; Xatirələrim. B., 1966; Təbiət haqqında hekayələr. B., 1972.

**CƏBRAYILOV** Allahverən Cəbrayıl oğlu (d.15.5.1940, Füzuli r-nunun Horadiz k.) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1972), prof. (1973), Amerika Riyaziyyat Cəmiyyətinin üzvü (1970). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1962). Əmək fəaliyyətinə Moskva Enegetika İn-tunda ali riyaziyyat kafedrasında dosent kimi başlamışdır (1972). 1974–75 illərdə Azərbaycan Dövlət Un-tində işləmiş, 1975–2012 illərdə AMİU-da ali riyaziyyat kafedrasının müdiri olmuşdur. 2012 ildən həmin un-tdə prof.-konsultant kimi çalışır. Diferensiallanan funksiyalar üçün yeni inteqral anlayışını almış, diferensial funksiyalar fəzasının nəzəriyyəsini qurmuş, fəzalar üçün daxilolma teoremlərini isbat etmiş və bu teoremlərin harmonik analizə tətbiqini vermişdir. 100-dən çox elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**CƏBRAYILOV** Cəbrayıl Əli oğlu (d.22.3.1950, Masallı r-nunun, Ərkivan k.) – Azərb. idmançısı. Ağır atletika üzrə beynəlxalq dərəcəli SSRİ idman ustası (1980), beynəlxalq dərəcəli hakim (1999), əməkdar məşqçi (2000), "Fəxri bədən tərbiyəsi və idman işçisi" dir (2000). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1973).

**CƏBRAYILOV** Əhmədiyyə Mikayıl oğlu (22.9.1920, indiki Şəki r-nunun Oxut k. – 11.10.1994, Oxut k.) – Fransada Müqavimət hərəkatı iştirakçısı, partizan. Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1970). 1941 ildə sovet ordusuna çağırılmışdır. 1942 ilin mayında Donbas uğrundakı döyüşlərdə ağır yaralanmış və əsir alınmış, Daxau və Elzas-Lotaringiya ölüm düşərgələrinə göndərilmişdi. 1942 ilin noyabrında Fransada əsirlikdən qaçmış və partizanlara qoşulmuşdu. "Armed Mişel", "Rus Armed" və b. adlarla Fransanın azadlığı uğrunda vuruşmalarda iştirak etmişdir. Ordudan buraxıldıqdan (1946) sonra Şəki r-nundakı N. Nərimanov ad. kolxozda işləmişdir. Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı ordenləri və medallarla, habelə Fransanın orden və medalları ilə (o cümlədən şəxsi igidliyə görə verilən ən yüksək "Hərbi medal"la; bu, hərbi paradda sıravi əsgərə gen.-dan irəlidə addımlamaq hüququ verir) təltif edilmişdir. Haqqında povest, oçerk, pyes və s. yazılmış, sənədli filmlər çəkilmişdir.



**CƏBRAYILOV** Fəxrəddin Mövsüm oğlu (d. 12.8.1958, Erm. SSR Gorus ş.) – Azərb.-ın Milli Qəhrəmanı (4.4. 1995). 1992 ilin oktyabrında peşəkar zabit kimi motoatıcı batalyonun komandiri təyin olunmuşdur. 1993 ildə Beyləqan istiqamətində gedən döyüşdə qərargah rəisi olaraq düşmənin xeyli canlı qüvvəsini məhv etmişdir. 1994 ilin fevralında briqada komandiri olan C. Füzuli və Kəlbəcər istiqamətində gedən döyüşlərdə mərdlik göstərmişdir. 1994 ilin oktyabr ayında "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur. Hazırda polkovnik rütbəsində Milli Ordu sıralarında xidmətini davam etdirir.



**CƏBRAYILOV** Qubad Əli oğlu (d.15.4.1939, Masallı r-nunun, Ərkivan k.) – Azərb. idmançısı. Ağır atletika üzrə SSRİ idman ustası (1965), əməkdar məşqçi (1996), beynəlxalq dərəcəli hakim (1998), "Fəxri bədən tərbiyəsi və idman işçisi" dir (2001). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1962).

**CƏBRAYILOV** Qurban Məmmədsadıq oğlu (d.30.7.1955, Neftçala r-nunun Bankə qəs.) – Azərb. idmançısı. Boks üzrə Avropa (EABA,2000) və beynəlxalq (AİBA,2005) dərəcəli hakimdir. Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1993).

**CƏBRAYILOV** Məlikməmməd (Malik) Saday oğlu (d.15.5.1945, Hacıqabul r-nunun Qızılburun k.) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1998), prof. (1991). Azərb. Resp. əməkdar müəllimi (2006). Azərb. Dövlət Pedaqoji İn-tunu (ADPİ, indiki ADPU) bitirmişdir (1967). 1989–92 illərdə ADPİ-nin qiyabi, 1994–96 illərdə qiyabi və axşam təhsili üzrə prorektoru olmuşdur. 1996 ildən ADPU-nun tədris işləri üzrə prorektorudur. Tədqiqatları vektor qiymətli funksiyalar fəzalarına daxilolma teoremləri və onların operator əmsallı diferensial tənliklərə tətbiqi sahəsindədir. 90-dan çox elmi əsərin müəllifidir.

**CƏBRAYILOV** Məzahir Həmid oğlu (5.5.1909, Bakı ş. Şağan k. – 16.11.1976, həmin k.-də) – Azərb. aqrokimyaçısı, k.t.e.d. (1962), prof. (1969), Sosialist Əməyi Qəhrəmanı (1948). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1931). Həmin in-tun prorektoru (1938–40), rektoru (1940–42) olmuşdur. Ali Partiya məktəbini bitirmişdir (1956). C. 1957–76 illərdə müxtəlif ictimai vəzifələrdə çalışmışdır. Tədqiqatları Abşeron, Quba, Lənkəran r-nlarında açıq və örtülü qrunt şəraitində becərilən tərəvəz bitkiləri üçün makro- və mikroelementlərin istifadəsinə həsr edilmişdir. 100-dən artıq elmi əsərin müəllifidir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur. Lenin, "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.



**CƏBRAYILOV** Mikayıl Əhmədiyyə oğlu (27.4.1952, Şəki r-nunun Oxud k. – 15.12.1990, Əsgəran r-nunun Kosalar k.) – Azərb.-ın Milli Qəhrəmanı (6.6.1992, ölümündən sonra). Əhmədiyyə *Cəbrayılovun* oğludur. N. Rizayev ad. Bakı xüsusi milis məktəbini bitirmişdir (1978). Baş leytenant rütbəsində Şəki ş. polis şöbəsində sahə müvəkkili vəzifəsində çalışmışdır. Əsgəran r-nu Cəmilli k. uğrunda gedən döyüşlərdə rəşadət göstərmişdir. Əsgəran r-nu Kosalar k. yaxınlığında düşmənlə gedən qeyri-bərabər döyüşdə kənd sakinləri və döyüş yoldaşlarını xilas edərkən həlak olmuşdur. Oxud k.-ndə dəfn edilmişdir. Adına Şəki ş.-ndə küçə var.



**CƏBRAYILOV** Şakir Əbiş oğlu (1941–2002) – Azərb. iqtisadçısı, iqtisad e.d. (1995). Azərb. Dövlət Un-tini (1968) və MDU-nu (1973) bitirmişdir. Azərb. Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İn-tunda müxtəlif vəzifələrdə, o cümlədən direktor müavini (1973–75; 1982–2002), Azərb. SSR Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat İn-tunda bölmə rəisi (1975–82) işləmişdir. Bir sıra mühüm planlaşdırma məsələlərinin riyazi modellərinin ilk quruluşunu vermiş C.-un həmin modellərin işlənməsində zəruri hesab edilən alqoritm və proqramların keçmiş İttifaq səviyyəsində tərtib və tətbiq olunmasında xüsusi rolu vardır. 120-dən çox elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**CƏBRAYILOV** Tahir Rza oğlu (15.2.1937, Quba r-nunun Birinci Nügədi k. – 28.9.1986, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1973). 1973 ildə heyvandarlıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni, həmçinin Xalqlar dostluğu və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.



**CƏBRAYILOV** Tofiq Əli oğlu (d.5.8. 1947, Bakı) – Azərb. idmançısı. Ağır atletika üzrə SSRİ idman ustası (1976), "Fəxri bədən tərbiyəsi və idman işçisi" (2000), beynəlxalq dərəcəli hakimdir (2010). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1976).

**CƏBRAYILOVA** Svetlana əli qızı (d. 28. 7.1941, Bakı ) – Azərb. filoloqu, ədəbiyyatşünas, filologiya e.d. (1991), prof. (1994). Azərb. Dövlət Rus dili və Ədəbiyyatı İn-tunu bitirmişdir (1964). 2007 ildən Azərb.Pedaqoji Dillər Un-tinin xarici ölkələr ədəbiyyatı kafedrasının müdiridir. Əsas tədqiqatları ədəbi prosesdə mövzu və forma vahidliyi, insan və zaman problemlərinə həsr olunmuşdur. Monoqrafiya və dərsliklərin müəllifidir

Ə s ə r l ə r i: Человек и время в западногерманской литературе XX века. В., 1990; Художественный мир Г. Бёлля в контексте литературы Германии XX века. В., 2008;

**CƏBRƏVAN**, C a b r ə v a n – Azərb.-da orta əsr şəhəri. Ərəb müəlliflərindən İbn Xordadbeh, Qüdama, İstəxri, Yaqut Həməvi və b. C. haqqında məlumat vermişlər. İbn Xordadbehə görə, Bərzədən 8, Nərizdən isə 4 *fərsəx* məsafədə yerləşirdi. Yaqut Həməvinin məlumatına görə, C. Urmiya gölündən 4 *fərsəx* c.-da, Təbriz yaxınlığnda kiçik, lakin abad şəhərlərdən biri olmuşdur. Monqol hücumları zamanı dağıldığı ehtimal edilir.

**CƏBRİ ÇOXOBRAZLI** – cəbri həndəsədə əsas tədqiqat obyekti; $x_1, ..., x_n$ koordinatları

$$\begin{matrix} F_1(x_1, ..., x_n)=0 \\ \text{- - - - - - - - - -} \\ F_m(x_1, ..., x_n)=0 \end{matrix} \qquad (1)$$

tənliklər sisteminin həlli olan nöqtələr çoxluğu kimi əvvəlcədən *n* ölçülü fəzada təyin olunmuşdur. $F_1, ..., F_m$ – $x_1, ..., x_n$-lərdən asılı çoxhədlilərdir. Hər bir C.ç. müəyyən ölçüyə malikdir, bu ölçü çoxobrazlı üzərində nöqtəni təyin edən, asılı olmayan parametrlərin sayını göstərir. *Konik kəsiklər* cəbri əyrilərə misaldır.

Sonralar afin, proyektiv və mücərrəd verilən C.ç.-nı fərqləndirməyə başladılar. Hər bir C.ç. üçün onun həm də sabit meydan və ya əsas meydan adlanan *k* təyin meydanı qeyd olunur. Afin C.ç. $A_k^n$ afin fəzasında *k* meydanı üzərində koordinatları $x_1, ..., x_n$ olan (1) şəklində cəbri tənliklər sistemi ilə verilir. Analoji olaraq proyektiv C.ç. bircins cəbri tənliklər sistemi ilə bircins koordinatları $y_0, y_1, ..., y_n$ olan proyektiv $P_k^n$ fəzasında verilir. Adi diferensial çoxobrazlılar Evklid kürələrindən düzəldiyi kimi, mücərrəd verilən C.ç. afinlərdən düzəlir. Hər mücərrəd verilən C.ç. proyektiv fəzaya daxil ola bilməz.

Bütünlüklə ($X$ və boş çoxluqlar daxil olmaqla) alt çoxobrazlı olan qapalı alt çoxluqlarla hər bir $X$ C.ç.-da Zariski topologiyası daxil edilir. Bu topologiya güclü ayrılabilən deyildir; məs., sonsuz *k* meydanı üzərində $A_k^1$ afin düz xətti üzərində istənilən iki açıq boş olmayan altçoxluqlar kəsişirlər.

Zariski topologiyası $X$ üzərində quruluş adlanan $o_X$ lokal halqalar dəstəsi təyin etməyə imkan yaradır. $o_X$ dəstəsinin $x=(x_1, ..., x_n)\in X$ nöqtəsində $o_x$ layı requlyar funksiyaların $x$-də zoğlarından ibarətdir. Hər bir zoğ (birqiymətli olmayan) $x$-in hər hansı bir ətrafında

$$\frac{P(x_1, ..., x_n)}{Q(x_1, ..., x_n)}$$

şəklində rasional funksiya ilə göstərilir, burada $P$ və $Q$ – çoxhədlilərdir və $Q(x)\neq 0$. $o_x$ dəstəsinin $A(x)$ qlobal kəsiklər halqası $X$ üzərində koordinat halqası adlanır – bu bütün $X$ çoxobrazlısı üzərində requlyar olan funksiyalar halqasıdır.

C.ç.-lar üçün iki növ inikaslara baxılır: requlyar (adətən morfizm adlanan) və rasional. Requlyar inikaslar lokal koordinatlarda çoxhədlilərlə, rasional inikaslar isə rasional funksiyalarla, yəni çoxhədlilərin nisbəti şəklində verilir. Rasional inikaslar hər yerdə təyin olunmaya bilər. Tərsi olan rasional inikaslar birasional inikaslar adlanır.

$X$ gətirilməyən C.ç.-nın ölçüsü topoloji olaraq $X$-ə daxil edilmiş müxtəlif boş olmayan qapalı altçoxluqlar zəncirinin maks. uzunluğu kimi və ya cəbri olaraq $X$-də cəbri asılı olmayan rasional funksiyaların maks. sayı kimi təyin olunur. Hər iki tərif eyni bir ədədi verir. Ölçüsü 1 olan C.ç.-lar *cəbri əyrilər*, ölçüsü 2 olanlar isə *cəbri səthlərdir*. $n$-ölçülü afin, yaxud proyektiv fəzada hipersəthlər bir tənliklə verilir və ölçüsü $n-1$-ə bərabərdir.

Proyektiv C.ç.-nın afin C.ç.-dan əsas fərqi onun tamlığındadır, bu isə kompaktlığın topoloji anlayışının cəbri analoqudur. $C$ kompleks ədədlər meydanı üzərində hər bir proyektiv çoxobrazlı kompaktdır. Ölçüsü sıfırdan böyük olan afin çoxobrazlı kompakt deyildir. Proyektiv çoxobrazlılara izomorf olmayan tam C.ç.-lar var. Yalnız sabitlər tam C.ç.-lar üzərində hər yerdə requlyar funksiyalardır.

Qeyri-məxsusilik (hamarlıq) anlayışı C.ç.-lar üçün ən mühüm anlayışdır. Bu anlayış lokaldır və hər bir nöqtə üçün təyin edilir. Əgər $(\partial F_i/\partial x_j)$ matrisinin ranqı $x\in X$ nöqtəsində maksimaldırsa, onda, $x\in X$ nöqtəsi (1) sisteminin təyinində qeyri-məxsusi (hamar) nöqtə adlanır. Bu şərt analizdə qeyri-aşkar funksiyanın varlıq şərtinə uyğun gəlir. Əgər C.ç.-nın bütün nöqtələri qeyri-məxsusidirsə, onda o, qeyri-məxsusi (hamar), əks halda, məxsusi C.ç. adlanır. C.ç.-nın ümumiləşmələri sxemlər və cəbri fəzalardır.

**CƏBRİ ƏDƏD** – $f(x)=0$ tənliyini ödəyən α ədədi, burada

$f(x)=a_nx^n + a_{n-1}x^{n-1} +...+ a_1x + a_0$, $n, a_n, a_{n-1}, ..., a_1, a_0$ tam ədədlərdir, $n\geq 1$, $a_n\neq 0$; $a_n, a_{n-1}, ..., a_1, a_0$ ədədlərinin ən böyük ortaq böləni vahidə bərabərdir; başqa sözlə, $f(\alpha)=0$-dır, yəni α $f(x)$ çoxhədlisinin kökküdür. C.ə.-ə misallar:

$$\alpha_1=\sqrt[3]{2}, \; f(x)=x^3-2,$$
$$\alpha_2=\sqrt{3}+1, \; f(x)=x^2-2x-2,$$
$$\alpha_3=i, \; f(x)=x^2+1.$$

$a\neq 0$, $a$ və $b$ tam ədəd olduqda istənilən $\alpha=b/a$ rasional ədədi cəbri ədəddir, belə ki, o, $f(x)=ax-b$ çoxhədlisinin köküdür. Kökü α olan tam əmsallı eynilik kimi sıfra bərabər olmayan bütün çoxhədlilərin dərəcələrinin ən kiçiyinə α C.ə.-inin dərəcəsi deyilir. Yuxarıdakı misallarda $\alpha_1$ ədədinin dərəcəsi 3, $\alpha_2$ və $\alpha_3$ ədədlərinin dərəcəsi isə 2-dir. Yalnız və yalnız rasional ədədlərin dərəcəsi 1-ə bərabərdir. Cəbri olmayan həqiqi və ya kompleks ədəd transsendent ədəd adlanır. Beləliklə, transsendent ədəd tam əmsallı heç bir $f(x)$ çoxhədlisinin kökü ola bilməz, yəni $f(x)\not\equiv 0$. Belə ki, tam əmsallı bütün çoxhədlilər çoxluğu hesabidirsə, C.ə.-lər çoxluğu da hesabidir. Bütün həqiqi ədədlər çoxluğu hesabi deyildir (*Kantor teoremi*), yəni demək olar ki, bütün həqiqi ədədlər transsendentdir. Lakin konkret ədədin transsendentliyinin isbatı məsələsi çox vaxt çətinlik yaradır və transsendentliyin isbatı üçün xüsusi analitik üsullar işlənib hazırlanmışdır.

C.ə.-ə rasional ədədlərlə yaxınlaşmaq çətin olur: məs., aşağıdakı *Liuvill teoremi* doğrudur: əgər α $n$ dərəcəli ($n\geq 2$) həqiqi C.ə.-dirsə, onda yalnız α-dan asılı olan elə $C$ müsbət ədədi var ki, istənilən tam $p$ və $q$, $q>0$ ədədləri üçün

$$|\alpha - p/q| > Cq^{-n}$$

bərabərsizliyi ödənilir.

Xüsusi halda bu teoremdən çıxır ki,

$$\alpha = \sum_{n=1}^{\infty} a^{-n!}$$

şəklində olan α ədədləri transsendent ədədlərdir, burada $a\geq 2$ tam ədəddir (Liuvill ədədləri).

Əgər α – $n$ dərəcəli C.ə.-dirsə və kökü α olan $n$ dərəcəli $f(x)$ çoxhədlisi ən böyük $a_n=1$ əmsalına malikdirsə, onda α tam C.ə. adlanır.

C.ə.-in tam ədədlərin adi hesabına bənzəyən, lakin ondan prinsipial olaraq fərqlənən hesabı qurulmuşdur. Məs., bəzi hallarda belə hesabda ədədlərin sadə vuruqlara birqiymətli ayrılışı haqqındakı teorem ödənilmir. C.ə.-lər tətbiqlərini *Diofant tənlikləri* nəzəriyyəsində tapır.

**CƏBRİ ƏDƏDLƏR NƏZƏRİYYƏSİ** – ədədlər nəzəriyyəsinin bölməsi; əsas məsələsi *cəbri ədədlər* meydanlarının tam ədədlərinin xassələrini öyrənməkdir. Tam rasional ədədlərdən tam cəbri ədədlərə keçmə gözlənilən analogiya ilə müşayiət edilmir. Tam cəbri ədədlər tam rasional ədədlərin xassələrindən fərqli olan bir sıra xassələrə malikdir.

Analogiyanın birinci dəfə pozulması vahidlərə aiddir. V a h i d (dəqiq desək, c ə b r i  v a h i d) tam cəbri ədədlər halqasında 1-in böləni olan tam cəbri ədədə deyilir (əgər elə tam cəbri γ ədədi varsa ki, β=αγ, onda, deyirlər ki, tam cəbri α ədədi tam cəbri β ədədini bölür). Rasional ədədlər meydanı yalnız iki vahidə, yəni +1 və –1-ə malik olduğu halda, cəbri ədədlərin ümumi meydanında sonsuz sayda vahid ola bilər, həm də nəzərə almaq lazımdır ki, vahidlər sonsuz multiplikativ qrup əmələ gətirir. Meydanın vahidlər qrupunun qurulmasını P. *Dirixle* aydınlaşdırmışdır.

$Q$ rasional ədədlər meydanından cəbri ədədlər meydanına keçid zamanı analogiyanın ikinci dəfə pozulması tam rasional ədədlərin sadə vuruqlara ayrılması zamanı birqiymətliliyin pozulması ilə əlaqədardır. Məs., 6 rəqəmini $Q(\sqrt{-5})$ meydanında hasil şəklində iki müxtəlif üsulla göstərmək olar: $6=2\cdot 3=(1+\sqrt{-5})(1-\sqrt{-5})$.

Analogiyanı üçüncü dəfə sadə ədədlər pozur. Cəbri ədədlər meydanına keçərkən onlar, ümumiyyətlə desək, sadə olmur, belə ki, $Q(\sqrt{-1})$ meydanında sadə $5=(2+\sqrt{-1})(2-\sqrt{-1})$ ədədi sadə olmur, 7 ədədi isə sadə olaraq qalır. Təbii olaraq belə bir sual ortaya çıxır: verilmiş sadə ədədin $Q$ meydanının hər hansı genişlənməsinə keçidi zamanı sadə olaraq qalması və ya sadəlik pozulduqda nə qədər sayda vuruğa ayrılması məsələsini birmənalı şəkildə cavablandıran bir qayda tapmaq olarmı? Cəbri meydanlarda tam ədədlərin birqiymətli olmayan ayrılışı problemi E. *Kummerin ideal ədədləri* daxil etməsi ilə həll edilmişdir. Yəni əgər $k$ meydanında $k$-dan olan istənilən tam ədədin birqiymətli parçalandığı sadə ədədlər yoxdursa, onda $k$ üzərində sonlu dərəcəli elə $K/k$ genişlənməsi tapılar ki, orada $k$ meydanı üçün sadə ədəd rolunu oynayan lazımi miqdarda ədədlər olsun. Bu ədədləri E. Kummer ideal ədədlər adlandırmışdır (belə ki, onlar başlanğıc $k$ meydanına daxil deyil). İdeal ədədləri cəlb etməklə ayrılışın birqiymətliliyi haqqında teorem bərpa edilir (vahid cəbri vuruq dəqiqliyi ilə). Sonralar ideal ədəd anlayışı ekvivalent *ideal* anlayışı ilə əvəz olundu. Cəbri ədədlər meydanına keçid zamanı sadə ədədlərin ayrılışı məsələsi sadə ideallar dilində yenidən ifadə edilir. Bu məsələ müasir C.ə.n.-nin mərkəzi hissəsi olan siniflər meydanı nəzəriyyəsinin yaranmasına səbəb oldu. Bu məsələnin birinci həlli də E. Kummerə aiddir.

Nəhayət, axırıncı məsələ cəbri ədədlər meydanının ümumi quruluşuna aiddir. $Q$ meydanı sıfır xarakteristikalı minimal meydandır, o, cəbri ədədlərin istənilən başqa meydanında yerləşir. Verilmiş $K$ meydanı sonsuz, yaxud sonlu sayda neçə alt meydanı daxilinə alır və onlar necə qurulmuşdur? Müvafiq məsələni E. *Qalua* həll etmişdir. $Q$ üzərində $n$ dərəcəli $K$ genişlənməsinin alt meydanları sayının sonluğu $K$ meydanının bütün alt meydanları və onun Qalua qrupunun bütün alt qrupları arasında qarşılıqlı birqiymətli uyğunluğun (Qalua uyğunluğunun) varlığından çıxır (bax *Qalua nəzəriyyəsi*). Qalua qrupunun bütün alt qruplarının elementlərinin sayı sonludur və $n$-i aşmır.

Bu dörd məsələ C.ə.n-ndə əsasdır və bunların həlli bu nəzəriyyənin məzmununu təşkil edir. Qiymətləndirmələrin miqdarı və onların alınma üsulları məsələlərində C.ə.n. analitik ədədlər nəzəriyyəsi ilə sıx bağlıdır.

**CƏBRİ ƏYRİ** – Dekart koodinatlarda cəbri tənliklə verilən əyri, ümumi halda – ölçüsü 1 olan *cəbri çoxobrazlı*. Afin və proyektiv düz xətlər, 2-ci tərtib əyrilər C.ə.-yə sadə misallardır. $\mathbf{A}_k^2$ afin müstəvisində müstəvi C.ə. bir

$$F(x, y)=0$$

cəbri tənliyi ilə və ya hər hansı $k$ meydanı üzərindəki $\mathbf{P}_k^2$ proyektiv müstəvisində bir bircinsli

$$\Phi(x_0, x_1, x_2)=0$$

cəbri tənliyi ilə verilir. $F(x, y)$ və $\Phi(x_0,x_1,x_2)$ çoxhədlilərinin dərəcəsi uyğun C.ə.-nin dərəcəsi (və ya tərtibi) adlanır. İstənilən ölçülü fəzalarda müstəvi əyrilərə izomorf olmayan afin və proyektiv əyrilər vardır.

*Cəbri həndəsədə* əsasən cəbri qapalı əsas meydan üzərində qeyri-məxsusi proyektiv C.ə. öyrənilir. C.ə. üçün əsas məsələ onların birasional təsnifatıdır. Hər bir birasional sinifdə izomorfizm dəqiqliyi ilə tam yeganə qeyri-məxsusi əyri var. O, proyektiv fəzalara (müxtəlif üsullarla) izomorf daxil edilə bilər. $X$ C.ə.-sinin yeganə diskret birasional invariantı onun $g=g(X)$ növüdür. O, $X$ üzərində requlyar diferensial formalar fəzasının ölçüsünə bərabərdir və istənilən mənfi olmayan tam qiymətlər alır. $g=0$ qiyməti rasional əyriləri xarakterizə edir, bu əyrilər $\mathbf{P}_k^1$ proyektiv düz xətti ilə örtülən əyrilərdir. $g=1$ növlü əyrilər *elliptik əyrilər* adlanır. İzomorfizm dəqiqliyi ilə onlar $\mathbf{A}_k^1$ afin düz xətti ilə parametrizasiya olunurlar. Qeyd olunmuş $g\geq 2$ növlü bütün əyrilərin izomorfizm sinifləri modulların çoxobrazlısı adlanan $3g-3$ ölçülü gətirilməyən $M_{3g-3}$ cəbri çoxobrazlısını əmələ gətirir.

$g\geq 2$ növlü hər bir əyri üçün onun $g-1$ ölçülü $P_k^{g-1}$ proyektiv fəzasına kanonik inikası təyin olunmuşdur. İnikas izomorf daxilolma olduğu zaman (bu zaman onun obrazı $2g-2$ dərəcəli əyri olur), C.ə. kanonik, əks halda isə hiperelliptik adlanır. $g\geq 2$ növlü hiperelliptik əyri $y^2=P(x)$ şəkilli afin tənliklə verilə bilər, burada $P(x)$ təkrarlanan kökü olmayan $2g+2$ dərəcəli çoxhədlidir.

C.ə. nəzəriyyəsi 18 əsrin axırında elliptik əyrilərin, dəqiq desək, **C** kompleks ədədlər meydanında elliptik inteqralların nəzəriyyəsi kimi meydana gəlmişdir. N. *Abel* 1826 ildə sonralar *Abel inteqralları* adlanan daha ümumi inteqrallara baxmış və **C** meydanı üzərində C.ə.-nin ümumi nəzəriyyəsinin əsasını qoymuşdur.

N. Abel və K. *Yakobi* həm də C.ə.-nin kompleks tora inikasını da qurdular, belə ki, teta-funksiyaların köməyi ilə proyektiv fəzaya daxilolma orada Yakobi çoxobrazlısı və ya $X$ əyrisinin yakobianı adlanan proyektiv cəbri çoxobrazlının quruluşunu (strukturunu) yaradır. İxtiyari meydanlar üzərində C.ə.-lərin yakobianlar nəzəriyyəsi 1940 illərdə A. *Veylin* işlərində inkişaf etdirilmişdir.

Kompleks dəyişənli cəbri funksiyaları öyrənərək, B. *Riman* 1851 ildə, indi *Riman səthi* adlanan (birölçülü kompleks çoxobrazlı) anlayışı daxil etmiş və kompleks C.ə.-lərin topologiyalarının öyrənilməsinə başlanmasının əsasını qoymuşdur. Növün topoloji mənası uyğun

kompakt Riman səthinin qollarının sayı kimi aydınlaşdırılır. $\mathbf{P}^1_{\mathbf{C}}$ üçün Riman səthi Riman sferasıdır, elliptik əyri üçün birölçülüdür, kompleksdir.

C.ə. və avtomorf funksiyaların əlaqəsinə aid bax *Avtomorf funksiya* məq. Müasir nəzəriyyədə C.ə.-nin sonlu və ədədi meydanlar üzərində hesabi xassələri də öyrənilir.

**CƏBRİ HƏNDƏSƏ** – riyaziyyatın cəbri tənliklərin həlli ilə əlaqədar olan həndəsi obyektləri öyrənən bölməsi. Cəbri çoxobrazlılar (cəbri əyrilər, cəbri səthlər, cəbri qruplar) və onların ümumiləşmələri (sxemlər, cəbri səthlər) belə obyektlərdəndir. C.h.-də iki cür inikaslara: çoxhədlilərlə verilən requlyar (morfizmlər) və rasional funksiyalarla verilən rasional inikaslara baxılır. Tərsi olan requlyar inikas birequlyar inikas və ya izomorfizm, tərsi olan rasional inikas isə birasional izomorfizm adlanır. C.h.-nin əsas məsələsi izomorfizm və ya birasional ekvivalentlik dəqiqliyi ilə obyektlərin təsnifatıdır. Təsnifat kiçik ölçülərdən başlayır (bax *Cəbri əyri*, *Cəbri səth*). Müasir C.h.-də onun digər riyazi fənlərlə: kommutativ cəbr, homoloji cəbr, qruplar nəzəriyyəsi, ədədlər nəzəriyyəsi, topologiya, diferensial həndəsə, kompleks analiz, diferensial tənliklər, riyazi fizika, kodlaşdırmanın cəbri nəzəriyyəsi ilə qarşılıqlı əlaqəsi əsas maraq doğurur. C.h.-də iki qrup araşdırma üsulu ayrılır: kommutativ cəbr və proyektiv həndəsədən istifadə etməklə cəbri-həndəsi və kompleks analiz və topologiyadan istifadə etməklə transsendent üsul.

C.h.-nin yaranması 17 əsrə, həndəsi fiqurları uyğun cəbri tənliklərin həlləri toplusu kimi ifadə etməyə imkan verən koordinat sisteminin həndəsəyə daxil edilməsi dövrünə təsadüf edir. İlk obyektlər analitik həndəsədə öyrənilən 2-ci tərtib əyrilər və səthlər olmuşdur. Proyektiv həndəsənin inkişafı ilə aydın olmuşdur ki, əyri və səthlərin proyektiv təsnifatı daha təbii və tədqiqedilləndir. Cəbri tənliklərin həllərinin həndəsi fiqurlarla ifadəsi zamanı meydana çıxan həndəsi duyum yeni məsələlərin qoyuluşunda və nəticələrin qabaqcadan deyilməsində böyük rol oynamışdır. Həndəsi üsulların əyaniliyi də faydalı olur, məs., birasional nəzəriyyədə proyektləşdirmə üsulundan istifadəetmə. Xüsusi sinif cəbri əyrilərin və səthlərin öyrənilməsi 19 əsrə qədər, əsasən proyektiv həndəsədə davam etdirilir. C.h.-nin inkişafında prinsipial dəyişiklik 18 əsrin axırı, 19 əsrin əvvəlində elliptik əyrilərin, daha dəqiq desək, elliptik inteqralların kompleks analizin vasitələri ilə öyrənilməsi ilə əlaqədar baş vermişdir.

$$\int R(x, y)dx \qquad (1)$$

şəklində inteqrallar öyrənilmişdir, burada $R(x,y)$ rasional funksiya, $x$ və $y$ isə bir-biri ilə

$$F(x, y)=0 \qquad (2)$$

cəbri tənliyi ilə əlaqəlidir.

(2) tənliyi müstəvi afin cəbri əyrisini ifadə edir. Əgər bu əyri rasionaldırsa, yəni $x=\varphi(t)$, $y=\psi(t)$ rasional funksiyaları ilə parametrləşdirilə bilirsə, onda dəyişənləri əvəzetmə yolu ilə (1) inteqralı rasional funksiyadan asılı inteqrala gətirilir və sonlu şəkildə hesablanır. Lakin elliptik əyrilər üçün (xüsusən yüksək növlü cəbri əyrilər üçün) belə inteqrallar yuxarı limit funksiyası kimi çoxqiymətli olur (bax *Abel inteqralı*). Bu inteqralların öyrənilməsi cəbri əyrilər nəzəriyyəsinin əsasını qoymuşdur. N. *Abel* və K. *Yakobi* tərəfindən qurulan Yakobi çoxobrazlıları adlanan çoxobrazlılarla C.h.-nin daha çox öyrənilən çoxölçülü obyektlərinin – Abel çoxobrazlılarının ümumi nəzəriyyəsi başlanır. Toplama əməliyyatının təyin olunduğu nöqtələr üçün proyektiv çoxobrazlılar belə adlanır. Onlar hamısı **C** meydanı üzərində kompleks torlardır. Birölçülü Abel çoxobrazlısı elliptik əyridir. İxtiyari meydanlar üzərində cəbri əyrilərin Yakobi çoxobrazlıları nəzəriyyəsi 1940 illərdə A. *Veylin* işlərində inkişaf etdirilmişdir.

C.h.-nin inkişafında əhəmiyyətli irəliləyiş B. *Rimanın* işləri ilə bağlıdır. O, indi Riman səthi (eyni zamanda birölçülü kompleks çoxobrazlı) adlanan səth anlayışını daxil etmişdir. **C** meydanı üzərində $g$ növlü qeyri-məxsusi proyektiv $X$ əyrisinin Riman səthi $g$ qolları olan istiqamətləndirilmiş kompakt səthdir. Belə səthlərin proyektiv fəzalara inikası üçün qütblərinin qatlılığı divizorlarla məhdudlanan meromorf funksiyaların xətti fəzalarından istifadə edilir.

$$D=\sum n_P P$$

divizoru tam $\{n_P\}$ əmsallı $\{P\}$ nöqtələrinin sonlu xətti formal kombinasiyasıdır. Polyusların qatlılığı $P$ nöqtələrində $n_P$ ədədləri ilə məhdudlanan $L\{D\}$ meromorf funksiyalar fəzası sonlu ölçülüdürlər. Onların $l(D)$ ölçüsü üçün Riman

$$l(D) \geq \deg D+1-g$$

bərabərsizliyini almışdır. Burada $\deg D=\sum n_P$. $D$ divizorunun dərəcəsi, $g$ isə $X$ əyrisinin (Riman səthinin) növüdür. Alman riyaziyyatçısı E. Rox isbat etmişdir ki,

$$l(D)-l(K-D)=\deg D+1-g$$

burada $K$ kanonik divizor, yəni istənilən $f(z)dz$ diferensialının sıfır və polyuslarının (qütblərinin) divizorudur, $f(z)$ $X$-də meromorf funksiyadır (Riman–Rox teoremi). Sonralar bu teorem istənilən ölçülü cəbri çoxobrazlılara əvvəlcə alman riyaziyyatçısı F. Xirtsebrux tərəfindən, sonra isə daha ümumi formada fransız riyaziyyatçısı A. Qrotendik tərəfindən ümumiləşdirilmişdir. Riman–Rox teoremi C.h.-də ən mühüm texniki vəsaitlərdən biridir.

Cəbri çoxobrazlıların analitik nəzəriyyəsinin inkişafına əhəmiyyətli töhvəni K. *Veyerştrass*, A. *Puankare*, S. *Lefşets*, A. *Kartan*, J. *Lere* vermişlər. 1870-ci illərdə alman riyaziyyatçıları A. Klebşa və M. Nöterin işlərindən başlayaraq analitik nəzəriyyə ilə yanaşı, cəbri-həndəsi nəzəriyyə də inkişaf edirdi. Əgər Abel və Rimanda əsas obyekt funksiya idisə, Klebşa və Nöterdə əsas obyekt əyrinin özüdür. Cəbri əyrilərin öyrənilməsinin ümumi proqramı yaradıldı. Cəbri-həndəsi nəzəriyyədə cəbri əyrilərin öyrənilməsi zamanı birasional çevirmələrə nəzərən invariant nəticələr böyük maraq doğurur.

Ölçüsü 1-dən böyük olan cəbri çoxobrazlıların öyrənilməsi 19-cu əsrin 2-ci yarısından 3-cü tərtib səthlərdən başlanmışdır. 19 əsr və 20 əsrin əvvəllərində cəbri səthlərin birasional nəzəriyyəsinin inkişafı C.h.-nin İtaliya məktəbi ilə əlaqədardır (Q. Kastelnikov, F. Enrikves, Q. Fano, və F. Severi). Cəbri səthlərin birasional təsnifatı praktiki olaraq 1920-ci illərdə yerinə yetirilmişdir.

C.h.-nin İtaliya məktəbində həndəsi üsullar üstünlük təşkil etmişdir. 20 əsrin birinci yarısında B.L. *Van der Varden*, A. Veyl və O. *Zariski* tərəfindən C.h.-nin əsasını möhkəmləndirmək məqsədilə mücərrəd cəbrin aksiomatik üsullarından istifadə etməklə C.h.-nin cəbrləşdirilməsi üçün təşəbbüs göstərilmişdir. C.h.-nin tətbiq oblastı ixtiyari meydanlar üzərində cəbri çoxobrazlının öyrənilməsi istiqamətində genişlənmişdir. İlk dəfə hesab tipli C.h.-yə maraq A. Puankarenin müqayisə nəzəriyyəsinə sonlu sahələr üzrə cəbri tənliklər nəzəriyyəsi kimi baxmaq ideyası ilə əlaqədar ortaya çıxmışdır. 1920-ci illərin başlanğıcında alman riyaziyyatçısı E. Artin cəbri ədədlər nəzəriyyəsinə paralel olaraq sonlu sabit meydanlı bir dəyişəndən asılı cəbri funksiyalar nəzəriyyəsini inkişaf etdirmiş, o cümlədən sonlu meydan üzərində cəbri əyrilərin dzeta-funksiyasını təyin etmişdir. Belə dzeta-funksiyalar üçün Riman fərziyyəsinin analoqu sonlu meydan üzərində əyri üzərindəki nöqtələr sayı üçün hər hansı qiymətləndirmə ilə eynigüclüdür. Riman fərziyyəsinin analoqu elliptik əyrilər üçün 1930-cu illərdə alman riyaziyyatçısı X. Xasse və istənilən növ əyrilər üçün bir qədər sonra Veyl tərəfindən isbat edilmişdir. Bununla əlaqədar Veyl ixtiyari meydanlar üzərində C.h.-nin qurulmasına başlayaraq mücərrəd C.h.-nin əsasını qoymuşdur. Fransız riyaziyyatçısı J.P. Serr 1950-ci illərdə C.h.-yə dəstələr nəzəriyyəsini tətbiq etməyə başlamışdır.

1960-cı illərdə C.h.-yə cəbri çoxobrazlıları ümumiləşdirən sxemlər anlayışı daxil edilmişdir. Sxemlər nəzəriyyəsi ilə birlikdə C.h.-yə funktor və kateqoriyalar dili daxil oldu. Yeni dil C.h.-nin imkanlarını genişləndirdi və transsendent üsullarla alınan çoxlu sayda klassik konstruksiyaları kommutativ cəbrə və hesaba sərbəst köçürməyə imkan yaratdı. Sxemlər nəzəriyyəsinin bilavasitə təsiri bir sıra klassik problemlərin həllinə kömək göstərdi. C.h.-də mühüm nəticələr 1964 ildə amerika riyaziyyatçısı X. Xironak (hər bir çoxobrazlı sıfır xarakteristikalı meydan üzərində qeyri-məxsusi çoxobrazlıya birasional izomorfdur), Qrotendik və Belçika riyaziyyatçısı P. Delin tərəfindən (istənilən ölçülü çoxobrazlı üçün Riman hipotezinin analoqu) alınmışdır (1973). Cəbri çoxobrazlılar hesabında alman riyaziyyatçısı Q. Faltinqs (1983) tərəfindən növü 1-dən çox olan cəbri əyrilər üçün rasional nöqtələrin sayının sonluluğu haqqında Mordella hipotezinin düzgünlüyü və E. Uaylz (1993) tərəfindən Fermanın sonuncu teoremi isbat edilmişdir.

Ciddi nəzəri əsaslar və münasib formallıq C.h.-nin klassik problemlərinə yeni baxış yaratmağa imkan verdi. Lakin bəzi problemlər, məs., cəbri silsilələr haqqında Xodca hipotezlərinin isbatı və ya təkzib edilməsi, yaxud ölçüsü 4 və ondan böyük olan hamar kubik hipersəthlər üçün rasionallıq problemi hələ də öz həllini tapmamışdır.

C.h. ədədlər nəzəriyyəsində, qruplar nəzəriyyəsində, diferensial tənliklər nəzəriyyəsində, funksional analizdə, nəzəri fizikada və kodlaşdırma nəzəriyyəsində tətbiq olunur.

**CƏBRİ *K*-NƏZƏRİYYƏ** – $R$-in istənilən halqası üçün təyin olunan $K$ qrupunu ($K_n(R)$, $n$=0, 1,....) öyrənən nəzəriyyə.

$K_0(R)$ qrupu fransız riyaziyyatçısı A. Qrotendik tərəfindən daxil edilmişdir (1957). Onun doğuranları sonlu yaranmış $P$, $Q$ modullarının $R$ halqası üzərində $[P]$, $[Q]$ izomorfizm sinifləridir (bax *Modul*, *Homoloji cəbr*). $K_0(R)$ qrupunun yaradıcı münasibətləri $[P]+[Q]=[P\oplus Q]$ şəklindədir. Əgər $R$ meydan və ya meydan üzərində çoxhədlilər halqasıdırsa, $K_0(R)$ qrupu $\mathbf{Z}$ tam ədədlər halqasıdır.

Uaythed qrupu adlanan $K_1(R)$ qrupu (1950 ildə Amerika riyaziyyatçısı C. Uaythed tərəfindən riyaziyyata daxil edilmişdir) əmsalları $R$-dən olan bütün matrislər qrupu $GL(R)$-in elementar matrislərdən, yəni vahid matrisdən yalnız bir yeganə diaqonal həddi ilə fərqlənən matrislərdən düzəlmiş $E(R)$ alt qrupuna görə faktor qrupu ilə üst-üstə düşür. Əgər $R$ meydandırsa, $K_1(R)$ $R$ meydanının $R^*$ multiplikativ qrupu ilə üst-üstə düşür.

$K_2(R)$ qrupu C. *Milnor* tərəfindən riyaziyyata daxil edilmişdir (1971), o elementar matrislər arasındakı bütün qeyri-trivial münasibətlər qrupu ilə üst-üstə düşür. Əgər $R$ meydandırsa, onda, $K_2(R)$ qrupu aşağıdakı münasibətləri ödəyən $\{a, b\}$ ($a, b\in R^*$) simvolları ilə yaranır.

$$\{a_1, a_2, b\}=\{a_1, b\}+\{a_2, b\},$$
$$\{a, b_1, b_2\}=\{a, b_1\}+\{a, b_2\}$$

və 0 və 1-ə bərabər olmayan $a$-lar üçün $\{a, 1-a\}=0$.

Bütün $n\geq 0$-lar üçün $K_n(R)$ qrupları Amerika riyaziyyatçısı D. Kuillen tərəfindən qurulmuşdur (1972). Bundan əvvəl Milnor meydanlar üçün $K_n(R)$ qrupunu hər bir arqumentə görə bixətti və hər hansı $i$ üçün $a_i+a_{i+1}=0$ olduqda,

$$\{a_1,..., a_n\}=0 \text{ olan } \{a_1,..., a_n\}, \quad a_i\in R^*$$

simvolları ilə verərək təyin etmişdir. Milnor qrupu Kuillen qrupu ilə üst-üstə düşmür.

$K$ qruplarının köməyi ilə başqa üsullarla həlli mümkün olmayan bir çox çətin məsələlər həll olunmuşdur. A. Qrotendik tərəfindən daxil edilən $K_0(R)$ qrupu *cəbri həndəsədə* Riman–Rox–Xirtsebrux teoremlərinin ümumiləşməsi və isbatı üçün istifadə edilmişdir. C. Uaythed tərəfindən daxil edilən $K_1(R)$ qrupu konqruyens məsələnin həllində əsas rol oynamışdır: tutaq ki, $K$ – ədədi meydan ($\mathbf{Q}$ meydanının sonlu genişlənməsi) və $\mathbf{R}$ onun tam ədədlər halqasıdır (əgər $K=\mathbf{Q}$-sa, onda, $R=\mathbf{Z}$); müəyyən etmək lazımdır ki, $SL_n(R)$-də sonlu indeksli hər bir alt qrup modulu vahid olan hər hansı $I\subset R$ idealı ilə müqayisə olunan bütün matrislər qrupunun daxilinə alırmı? Məsələ $\mathbf{R}$ həqiqi ədədlər meydanının $K$ alt meydanı üçün müsbət həll edilir. Milnor meydanının $K$ qrupunun cəbri qapanmasını Qalua qrupunun kohomologiyaları ilə əlaqələndirmək olar (Merkurev–Suslin, Voyevodski teoremləri). $K$ qruplarının köməyi ilə topologiyada elliptik operatorun indeksi haqqında, sfera üzərində vektor sahələr haqqında və s. məsələlər həll olunmuşdur. C.$K$-nəzəriyyə ədədlər nəzəriyyəsində də öz tətbiqini tapır (lokal sahələrin Abel genişlənmələrinin Qalua qruplarının tapılması, tam nöqtələrdə dzeta-funksiyaların qiymətlərinin hesablanması və s.).

**CƏBRİ SƏTH** – ümumi halda ikiölçülü *cəbri çoxobrazlı* olub Dekart koordinatlarında cəbri tənliklərlə verilən səth. Analitik həndəsədə öyrənilən afin və proyektiv müstəviləri və 2-ci tərtib səthləri cəbri səthlərə misal göstərmək olar. *Cəbri həndəsədə* öyrənilən C.s. əsasən proyektiv və qeyri-məxsusi səthlərdir. Əyrilərdən fərqli olaraq, C.s.-lər bir çox diskret invariantlara malikdir. C.s.-lər nəzəriyyəsinin əsas məsələsi belə səthlərin təsnifatıdır. C.s.-in birasional təsnifatında minimal model anlayışı əsas yer tutur: istənilən qeyri-məxsusi proyektiv C.s. requlyardır və birasional olaraq ya minimal modelə, ya xətti səthə, ya da proyektiv müstəviyə inikas olunur. Minimal model izomorfizm dəqiqliyi ilə öz birasional sinifində yeganədir.

C.s.-in öyrənilməsinə 19 əsrin ortalarından 3-cü tərtib C.s.-in öyrənilməsi ilə başlanılmışdır. C.s.-in ardıcıl birasional nəzəriyyəsi əsasən Q. Kastelnuov və F. Enrikves başda olmaqla İtaliya həndəsəçiləri tərəfindən 19 əsrin sonu və 20 əsrin əv-vələrində qurulmuşdur. C.s.-in müasir nəzəriyyəsi onun klassik nəzəriyyəsini prinsip etibarilə dəyişmədən dəqiqləşdirir və təkmilləşdirir. C.s. nəzəriyyəsi ölçüsü 2-dən böyük olan səthlər üçün ümumiləşdirilir. C.s.-lər *Diofant tənliklər* nəzəriyyəsində tətbiq edilir.

**CƏBRİ TƏNLİK** – $F(x_1, ..., x_m)=0$ (1) şəklində olan tənlik, burada $F$ $m$ məchul dəyişəndən asılı çoxhədlidir.

Fərz edilir ki, çoxhədlinin əmsalları, qeyd olunmuş əsas $K$ meydanına aiddir. C.t.-in həlli məchulların $K$ meydanından (və ya onun genişlənməsindən) götürülən elə $x_1^*$, ..., $x_m^*$ qiymətlər külliyyatına deyilir ki, onları $F$ çoxhədlisində yerinə qoyduqda onu sıfıra çevirir. C.t. nəzəriyyəsinin əsas məsələsi verilmiş C.t.-in həllinin varlıq şərtinin tapılması və bütün həllər çoxluğunun təsviridir.

Birməchullu C.t.

$$F(x)=a_0x^n+a_1x^{n-1}+...+a_n=0 \qquad (1)$$

şəklində olur.

Fərz edilir ki, $n>0$ və $a_0 \neq 0$. $n$ ədədi tənliyin dərəcəsi, $a_0, a_1, ..., a_n$ ədədləri isə onun əmsallarıdır. $x$ məchulunun tənliyin həlləri olan qiymətləri, tənliyin və eləcə də $F(x)$ çoxhədlisinin kökləri adlanır. Əgər $\alpha$ (1) tənliyinin köküdürsə, onda $F(x)$ çoxhədlisi $(x-\alpha)$-ya qalıqsız bölünür (Bezu teoremi). Əgər $F(x)$ çoxhədlisi $(x-\alpha)^k$-ya bölünürsə və $(x-\alpha)^{k+1}$-ə bölünmürsə, onda əsas $K$ meydanının (və ya onun genişlənməsinin) $\alpha$ elementi C.t.-in $k$-qat kökü adlanır. Qatlılığı bir olan köklər tənliyin sadə kökləri də adlanır.

Əmsalları $K$ meydanından olan hər bir $n$ dərəcəli çoxhədlinin $K$-da olan köklərinin sayı onların qatlılığı nəzərə alınmaqla $n$-dən çox deyil. Əgər $K$ meydanı cəbri qapalıdırsa, onda hər bir belə çoxhədli köklərin qatlılığı nəzərə alınmaqla $n$ kökə malikdir. Xüsusi halda, bu, **C** kompleks ədədlər meydanı üçün doğrudur (cəbrin əsas teoremi). Bezu teoremindən çıxır ki, $F(x)$-i

$$F(x)=a_0 (x-\alpha_1)...(x-\alpha_n)$$

şəklində göstərmək olar, burada, $\alpha_1, ..., \alpha_n$ tənliyin kökləridir. Tənliyin kökləri və əmsalları Viyet düsturları ilə əlaqəlidir.

$$(-1)^n a_0\alpha_1...\alpha_n = a_n,$$
$$(-1)^{n-1} a_0(\alpha_1\alpha_2...\alpha_{n-1} + \alpha_1...\alpha_{n-2}\alpha_n + \alpha_2\alpha_3...\alpha_n) = a_{n-1},$$
$$\cdots\cdots\cdots\cdots$$
$$(-1)a_0(\alpha_1+\alpha_2+...+\alpha_n)=a_1 .$$

$n \leq 4$ dərəcəli hər bir tənlik radikallarda həll olunur. Bu o deməkdir ki, tənliyin kökləri üçün onları tənliyin əmsalları vasitəsilə ifadə edən və yalnız toplama, çıxma, vurma, bölmə və kökalmadan istifadə edilən aşkar düsturlar vardır. $n=2$ olduqda (kvadrat tənlik halında) düsturlar aşağıdakı şəkildə olur:

$$\alpha_1 = \frac{-a_1 + \sqrt{a_1^2 - 4a_0a_2}}{2a_0},$$

$$\alpha_2 = \frac{-a_1 - \sqrt{a_1^2 - 4a_0a_2}}{2a_0}$$

İkinci və üçüncü dərəcəli tənliklərin xüsusi şəkillərinə gətirilən məsələlərin həllinə Qədim Babilistanın mixi mətnlərində rast gəlinir. Kvadrat tənliklərin həlli nəzəriyyəsinin ilk şərhi 3 əsrdə *Diofantın* "Hesab"ında verilmişdir. 3-cü və 4-cü dərəcəli tənliklərin radikallarla həlli ümumi şəkildə 16 əsrdə İtaliya riyaziyyatçıları C. *Kardano* və L. *Ferrari* tərəfindən alınmışdır. Dərəcəsi 4-dən yuxarı olan tənliklərin ümumi həllinin radikallarla tapılmasına təxminən 300 il cəhd edildi. 1826 ildə N. *Abel* isbat etdi ki, bu mümkün deyil (lakin dərəcəsi $n>4$ olan konkret tənliklər üçün belə düsturların olmasının mümkünlüyü inkar edilmir). C.t.-in hansı şərtlər daxilində radikallarla həllinin mümkünlüyü haqqında məsələnin tam həllini E. *Qalua* tapmışdır (1830). Tənliklərin radikallarla həll olması məsələsi pərgar və xətkeş vasitəsilə həndəsi qurmalarla, o cümlədən çevrənin $n$ bərabər hissəyə bölünməsi, kubun ikiqat artmasının qeyri-mümkünlüyünün isbatı, bucağın triseksiyası və dairənin kvadraturası ilə sıx əlaqədardır.

Tənliyin əmsallarının və köklərinin ədədlər (**Z** tam ədədlər, **Q** rasional ədədlər, **R** həqiqi ədədlər və ya **C** kompleks ədədlər meydanından) olması çox mühümdür. Bu zaman çox vaxt bu meydanların xüsusi xassələrindən istifadə edirlər (məs., onlarda topologiyanın və nizamlanmanın olmasından). Bu halda, xüsusi funksiyalardan istifadə edərək, dərəcəsi 4-dən yuxarı olan tənliklərin həlli üçün aşkar düsturlar almaq olar.

Əmsalları **R** və **C**-dən olan tənliklərin köklərinin praktik olaraq tapılması üçün təqribi üsullardan istifadə edirlər. Həqiqi əmsallı tənliklərin həqiqi köklərinin sayının yuxarıdan qiymətləndirilməsi üçün Dekart teoremindən istifadə etmək olar: qatlılığı nəzərə alınmaqla müsbət köklərin sayı tənliyin sıfırdan fərqli əmsalları ardıcıllığında dəyişən işarəlilərin sayına bərabər və ya ondan cüt ədəd qədər azdır.

Köklər üçün çoxlu sayda qiymətləndirmələr mövcuddur. Məs., **C** meydanı üzrə $|a_i|$, $i=1,..., n$ kəmiyyətləri

$$1 + \max_{i>0} |a_i| / |a_0| \text{-ni}$$

aşmır.

Əgər əmsallar həqiqidirlərsə və $a_0 \geq a_1 \geq ... \geq a_n \geq 0$-dırsa, onda tənliyin bütün kökləri kompleks müstəvidə vahid dairədə yerləşir.

Mexaniki sistemlərin dayanıqlığının öyrənilməsi ilə əlaqədar belə bir sual ortaya çıxır ki, verilmiş $F(x)$ çoxobrazlısının bütün kökləri nə zaman mənfi həqiqi hissəyə malik olur [Raus–Qurvits (Hurwitz) məsələsi]. Belə $F$ çoxhədlilərini dayanıqlı çoxhədlilər adlandırırlar. Dayanıqlı çoxhədlilər haqqındakı əsas nəticələr Ş. *Ermitə*, ingilis alimi E. Rausa, alman riyaziyyatçıları A. Qurvitsə, İ. *Şura* aiddir.

Bir neçə məchullu C.t. sistemi *cəbri həndəsədə* öyrənilir. $Q$ meydanı kimi qapalı olmayan meydanlar üzərində C.t.-in öyrənilməsi *Diofant tənliklər* nəzəriyyəsinin ayrıca bölməsinə həvalə edilir.

$$F_1(x_1, ..., x_m)=0,$$
$$\text{----------------------}$$
$$F_k (x_1, ..., x_m)=0$$

şəklində olan tənliklər sistemi C.t.-lər sistemi adlanır.

1 dərəcəli tənliklər sistemi (xətti tənliklər) *xətti cəbrdə* öyrənilir.

C.t. sisteminin həllərinin sayı haqqında ən sadə nəticə $k+1$ dəyişəndən asılı $k$ sayda bircins tənliyin olduğu hala aiddir. Bütün $x_1^*, ..., x_{k+1}^*$ həlləri $\lambda x_1^*, ..., \lambda x_{k+1}^*$ həlləri sinfinə birləşir, burada $\lambda \neq 0$ $K$ meydanına daxildir. Onda sistemin sıfırdan fərqli həllərinin sayı onların qatlılığı nəzərə alınmaqla ümumi halda $F_1, ..., F_k$ çoxhədlilərinin dərəcələrinin hasilinə bərabərdir. Ümumilik şərti ondan ibarətdir ki, $F_1, ..., F_k$ çoxhədlilərinin əmsalları $A$ afin fəzasında əmsalların $A$-ya nisbətən ciddi kiçik ölçüyə malik olan hər hansı cəbri çoxobrazlısına daxil deyildir (Bezu teoremi).

Qeyri-bircins cəbri tənliklər sisteminə baxıldıqda onların həllərinin sayının tapılması üçün qüvvətdən daha zəif olan invariantlardan, yəni Nyuton çoxüzlülərindən istifadə etmək zəruridir. Əgər

$$F(x_1, ..., x_n)=\sum a_i x_1^{i_1}...x_n^{i_n},$$

burada, $i=(i_1, ..., i_n) \in \mathbf{Z}^n$, onda $R^n$ fəzasında, $a_i \neq 0$ şərtini ödəyən $i$ nöqtələrinin qabarıq örtüyü $F$ çoxhədlisinin Nyuton çoxüzlüsü adlanır. Cəbri tənliklər sisteminin həllərinin sayı $F_1,..., F_k$ çoxhədlilərinin Nyuton çoxüzlüləri vasitəsilə ifadə olunur.

**CƏBRİ TOPOLOGİYA** – riyaziyyatın həndəsi fiqurların (geniş mənada–kəsilməzlikdən danışmaq mümkün olan istənilən obyektlərin) və onların bir-birinə inikaslarının kəsilməz deformasiyalarda (homotopiyalarda) dəyişməyən xassələrini öyrənən bölməsi. C.t.-nın əsas məqsədi belə xassələrin hamısını aşkarlamaqdır. "C.t." adının özü bu sahədəki məsələlərin həlli zamanı cəbri anlayış və üsulların təyinedici rolundan irəli gəlir. Xassələri C.t.-da öyrənilən ən fundamental obyektlərin sinifləri: komplekslər (çoxüzlülər, poluedrlər) – simplisial, qəfəsli və b.; çoxobrazlılar – qapalı və açıq, öz növbəsində, hamar (diferensiallanan), analitik, kompleks-analitik, hissə-hissə xətti və nəhayət, tamam kəsilməzliyə (topolojiyə) ayrılan sərhədli; çəp hasillər (təbəqələnmə) və onların kəsikləri. C.t.-da baxılan inikasların əsas tipləri – ixtiyari kəsilməz, hissə-hissə xətti və hamar inikaslar və ya onların alt sinifləri: homeomorfizmlər, o cümlədən kəsilməz, hissə-hissə xətti və ya hamar homeomorfizmlər (diffeomorfizmlər); bir obyektin başqasına daxil edilməsi, eləcə də yükləmə (lokal daxilolmalar, immersiyalar). Deformasiya anlayışı C.t.-nın ən mühüm anlayışlarındandır. Bir obyektin başqasına (hər hansı bir sinifdən olan) inikası deformasiyaya uğrayır. Homotopiya və ya kəsilməz (hamar, hissə-hissə xətti) inikasın ixtiyari kəsilməz (hamar, hissə-hissə xətti) deformasiyası deformasiyanın əsas növlərindəndir. İzotopiya (kəsilməz, hamar, hissə-hissə xətti), yəni homeomorfizmin, daxilolmanın və ya yükləmənin deformasiyası, deformasiya prosesində zamanın hər anında homeomorfizm, daxilolma və ya yükləmə olaraq qalır. C.t.-nın əsas daxili problemləri çoxobrazlıların homeomorfizmlərə nəzərən təsnifatı (kəsilməz, hamar, hissə-hissə xətti), daxilolmaların (yükləmələrin) izotopiyalara (requlyar homotopiyalara) nəzərən təsnifatı, homotopiyalara nəzərən ümumi kəsilməz inikasların təsnifatı problemləridir. Bu məsələlərin həllində komplekslərin və çoxobrazlıların homotopik növ və ya homotopik ekvivalentliyə nəzərən təsnifatı mühüm rol oynayır.

Üçölçülü həndəsi fiqurlar arasında olan kobud topoloji fərqlərin (müxtəlifliyin) sadəlövh başa düşülməsi hələ qədim dövrlərdən mövcud idi. Aydındır ki, əgər üçölçülü oblastda (fiqurda) oblastı kəsmədən əysək və özünü özü ilə kəssək, dəlik və qolların sayı dəyişməz. Gəmi kəndirlərindən düzəldilmiş düyünlərin mürəkkəbliyi qədim yunanların diqqətini cəlb etmişdi. Lakin dəqiq riyazi münasibətlər və teoremlər şəklində birinci topoloji müşahidələr yalnız 18 əsrdə D. *Eylerə* məxsusdur: qabarıq çoxüzlünün təpələrinin sayı minus tillərinin sayı plyus üzlərinin sayı 2-yə bərabərdir; sonralar A. *Puankare* göstərmişdir ki, oxşar alternativ cəm istənilən kompleksin topoloji invariantıdır.

19 əsrin 2 rübündə vəziyyət dəyişdi: K. *Qauss* M. *Faradeyin* elektromaqnit hadisələri ilə əlaqədar olan təcrübələrinin analizindən sonra bir sıra qeyri-trivial topoloji müşahidələrə gəldi. Xüsusilə, o, kəsişməyən deformasiyalarda dəyişməyən üçölçülü fəzada kəsişməyən iki qapalı əyrinin ilişmə ədədini tapdı. Oxşar xassələrin dəqiq nəzəriyyəsinin qurulması məsələsini də məhz Qauss qoymuşdur. "Topologiya" termini onun şagirdi İ. Listinqin işlərində meydana gəlmişdir. İkiölçülü çoxobrazlıların topoloji nəzəriyyəsini B. *Riman* əsaslı şəkildə inkişaf etdirmişdir (Riman səthləri). Ümumiyyətlə, ikiölçülü topologiya, əslində, o vaxt yeni sayılan O. *Koşinin* əsərlərindəki müstəvi üzərində kompleks analizin və N. *Abel*, K. *Yakobi* və Rimanın əsərlərindəki qeyri-trivial topologiyalı ikiölçülü çoxobrazlıların ən mühüm hissəsi kimi meydana çıxmışdır. Bir sıra topoloji müşahidələr fiziklər tərəfindən edilmişdir: U. *Tomson* düyünlərlə maraqlanmışdır. O, onlar tərəfindən hidrodinamikada kəşf edilən qapalı burulğanlı xətlərin maraqlı xassələrinə əsaslanmış və atomların təsnifatı üçün düyünləri tətbiq etmək istəmişdir (bu, yanlış fikir idi). Onun şagirdi P. Teyt düyünlər nəzəriyyəsini ilk dəfə ardıcıl surətdə inkişaf etdirməyə başlamış, onun 19 əsrin axırında söylədiyi maraqlı fərziyyələr bu yaxınlarda isbat olunmuşdur. C. *Maksvell* müxtəlif indeksli funksiyaların böhran nöqtələrinin sayı arasındakı münasibətə diqqət yetirmişdir: izolə edilmiş ada üçün çuxurların sayı çıxılsın aşırımların sayı üstə gəl təpələrin sayı 1-ə bərabərdir. A. Puankare topologiyanı "Situs təhlil" adı altında riyaziyyatın ayrıca bir oblastı kimi daxil etmişdir. Ən sadə və fundamental topoloji xarakteristikaların içərisində dəlik və qolların ümumiləşdirilmiş sayı aşkar edilir: bu, $k$ nömrəli Betti ədədləridir (araşdırılan fəzada, oblastda və ya çoxobrazlıda müəyyən mənada asılı olmayan $k$-ölçülü dövrlərin sayı). Bu xarakteristikalar və onların sonrakı ümumiləşmələri homologiyalar adını almışdır. Puankare ikiölçülü çoxobrazlıların topoloji təsnifatını vermişdir. O, çox mühüm topoloji invariant – başlanğıcı və sonu bir ümumi nöqtədə olan qapalı yolların homotopik siniflərindən ibarət olan fəzaların fundamental qrupunu elmə daxil etmiş və örtüklərin topoloji nəzəriyyəsini qurmuşdur. Onun tərəfindən Puankarenin ikilik qanunu adlanan qanun kəşf edilmişdir. Bu qanuna görə qapalı $n$-ölçülü çoxobrazlılar üçün müəyyən növ $k$ və $n-k$ tipli Betti ədədləri üst-üstə düşür. Üçölçülü çoxobrazlıların təsnifatı problemi böyük çətinliklərlə üzləşir: hər bir birrabitəli üçölçülü çoxobrazlının (burada fundamental qrup yeganədir) sferaya homeomorfluğu son zamanlara qədər isbat edilməmişdir. Bu, Puankare hipotezidir.

20 əsrin əvvəllərində riyaziyyatın bu oblastı topologiya adını daşıyırdı. 1930-cu illərdə cəbri üsullar həlledici rol oynadığı zaman həmin oblast S. *Lefşetsin* sayəsində C.t. adlandırılmışdır.

Topologiya ilə gətirilmiş fikir zənginliyi bu oblastı 20 əsrin ortalarından başlayaraq dünya riyaziyyatının mərkəzinə qoydu. Məs., qabaqcıl sayılan və yaşı 40-ı aşmayan fəal riyaziyyatçılara 1950 ildən 2002 ilə qədər Beynəlxalq riyaziyyat konqreslərində 44 Filds medalı təqdim olunmuşdur. Riyazi nailiyyətlərin əsas hissəsi həmin illərdə topologiyaya aid olan J.P. Serr (1954), R. Tom (1958), C. Milnor (1962), M. Atya (1966), S. Smeyl (1966), S.P. Novikov (1970), D. Kuillen (1978), U. Törston (1982), S. Donaldson (1986), M. Fridman (1986), E. Vitten (1990), U. Cons (1990), M. Kontseviç (1998), eləcə də topologiya, cəbri həndəsə və homoloji cəbr ideyalarının qovuşuğunda işləmiş K. Kodayra (1950), A. Qrotendik (1966), D. Mamford (1974), P. Delin (1978), Yau Şintan (1982), V. Voevodski (2002) onların arasındadır. 1954 ildən 1970 ilə qədər Filds medallarının təxminən yarısı riyaziyyatın bir çox başqa sahələrinə təsir göstərən topoloqlara təqdim olunmuşdur.

**CƏBRİLİK** – bax *Fatalizm*.

**CƏBRİN ƏSAS TEOREMİ** – bax *Cəbr*.

**CƏCİN** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Kəlxoran kəndistanında, Ərdəbil ş.-indən 10 *km* q.-də, Ərdəbil–Təbriz avtomobil yolunun üstündədir.

**CƏDAQİYƏ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Əbhər bölgəsinin Əbhərrud kəndistanında, Əbhər qəs.-ndən 39 *km* şm.-q.-dədir.

**CƏDİDİZM** (ər. جديد – yeni sözündən), cədidçilik – 19 əsrin 2-ci yarısında Rusiya müsəlmanları arasında təhsil və mədəniyyətin yeniləşməsi uğrunda yaranmış hərəkat, eləcə də mütərəqqi pedaqoji cərəyan. Bax *Üsuli-cədid*.

**CƏDVƏL**, h e s a b l a m a t e x n i k a s ı n d a – verilənlərin ikiölçülü massiv şəklində formal təsviri. Verilənlərin telemalının texniki vasitələrini əks etdirən makroəmrlərin ardıcıllığından ibarət C. a b o n e n t C.-i adlanır. Proqramın translyasiyası zamanı a s s e m b l e r C.-indən istifadə edilir; əvvəlcədən hazırlanmış daimi (məs., əməliyyatlar C.-i) və translyasiya zamanı formalaşan müvəqqəti C.-lərdən (məs., adlar, literallar, səhvlər C.-i) ibarətdir. D o ğ r u l u q (məntiqi əməliyyat) C.-ində giriş dəyişənlərinin bütün mümkün qiymət kombinasiyaları və funksiyanın onlara uyğun qiymətləri verilir. Proqramda istifadə edilmiş, translyator tərəfindən verilən identifakatorlar və onların atributlarının siyahısından ibarət C.-ə a d (simvol,

identifikator) C.-i deyilir. Sütun və sətrlərə bölünmüş düzbucaqlı C. formasında göstərilən dialoq (interaktiv) emaletmə sistemi *e l e k t r o n* C. adlanır; C.-in xanalarında yerləşdirilən ədədlər, sətbrlər, yaxud düsturlar həmin xana ilə digər xanalar arasında asılılıqları ifadə edir. Xanalardakı verilənləri dəyişdikcə C.-dəki hesablama avtomatik yerinə yetirilir. Excel, Lotus 1-2-3, Quattro Pro ən geniş yayılmış elektron C.-lərdir. Bax həmçinin *Cədvəl prosessoru*.

**CƏDVƏL PROSESSORU**, c ə d v ə l r e d a k t o r u – kompyuterlərdə elektron cədvəl şəklində verilmiş informasiyalarla işləmək üçün nəzərdə tutulmuş tətbiqi proqram. İlk cədvəl redaktoru (VisiCalc) 1979 ildə Apple II kompyuteri üçün işlənmişdir. 1982 ildə isə IBM PC üçün Lotus 1-2-3 C.p. hazırlandı. O, elektron cədvəllərin hesablama imkanlarını, işçi qrafiki və relyasiya verilənlər bazasının idarəetmə sisteminin funksiyasını özündə birləşdirir. Sonralar Multiplan, Quattro Pro, SuperCalc və s. kimi C.p.-ları yaradıldı. C.p. müxtəlif smetaların, çoxsaylı hesablama cədvəllərinin, diaqram və qrafiklərin qurulmasını sadələşdirir; böyük həcmdə cari verilənləri, nəticələri, həmçinin onlar arasındakı əlaqəni (cəbri və məntiqi münasibətləri) cədvəl formasında saxlamağa imkan verir. Cari verilənlər dəyişdikcə nəticələr avtomatik hesablanır və cədvələ daxil edilir; alınan nəticələrin dəyişməsini izləmək və çoxsaylı həll variantlarından ən səmərəlisini seçmək olur. Qrafik rejimin olması cədvəldə verilmiş rəqəmli informasiyanı qrafik və diaqram şəklində təsvir etməyə imkan verir. Elektron cədvəllər hesablamaları avtomatikləşdirməklə yanaşı müxtəlif variant və vəziyyətlərin modelləşdirilməsi üçün də effektiv vasitədir. Elektron cədvəllərin əsas elementləri sütun, sütunun başlığı, sətir, sətrin başlığı, aktiv və qeyri-aktiv xanalardır. C.p.-nda simvollarla (mətnlərlə), ədədlərlə, məntiqi və tarixi göstərən müxtəlif tip verilənlərlə işləmək mümkündür. Hesablamaları avtomatlaşdırmaq üçün elektron cədvəlin xanasına düsturlar daxil edilir. Cəbri, məntiqi və eynitipli düsturlar olur. Cəbri düsturlarda hesab əməllərindən (toplama, çıxma, vurma, bölmə, qüvvətə yüksəltmə) istifadə olunur və aparılan hesablamaların nəticələri ədədlərdir. Məntiqi düsturlar şərtdən ibarət olur və onun doğru, yaxud yalan olması müəyyənləşdirilir. Eyni struktura (quruluşa) malik olan və yalnız konkret istinadlara (ünvanlara) görə fərqlənən düsturlar eynitipli düsturlardır. C.p.-nun iş rejimləri bunlardır: elektron cədvəlin qurulması; hesablamaların idarə edilməsi rejimi; düsturların əks olunması rejimi; qrafik rejim; elektron cədvəlin verilənlər bazası kimi işləməsi. Microsoft Office paketinə daxil olan Microsoft Excel proqramı cədvəl strukturuna malik sənədlərlə işləmək üçün ən səmərəli C.p.-dur.

**CƏƏD İBN DİRHƏM** (جعد ابن درهم) (? – 738/742, Kufə) – 8 əsr *mütəkəllimi*. Doğulduğu yer (Hərran, yaxud Xorasan) və tarix dəqiq məlum deyildir. Uzun müddət Dəməşqdə yaşamışdır. Vəhb ibn Münəbbihdən dərs almış, sonuncu Əməvi xəlifəsi Mərvan ibn Məhəmmədin tərbiyəçisi və müəllimi olmuşdur. Bəsrə, Kufə və b. şəhərləri gəzərək fikirlərini yaymışdır. Kufədə *Cəhm ibn Səfvanla* görüşmüş, onun formalaşmasına ciddi təsir göstərmişdir. Hakim ideologiya ilə uzlaşmayan fikirlərinə görə bir müddət həbsdə olmuş, xəlifə Hişam ibn Əbdülməlikin göstərişi ilə edam edilmişdir.

C. ibn D.-in görüşlərini dörd müddəa səciyyələndirir: 1) kainat "cövhərlər" (substansiyalar) və "ərəzlər"dən (aksidensiyalardan) ibarətdir. Bunlar "hadis" (sonradan yaradılmış) olduğundan kainat bütövlükdə hadisdir; 2) Allahın öz "zat"ından (substansiyasından) başqa heç bir "qədim" (yaradılmamış, əzəli) "sifəti" (atributu) yoxdur; 3) Quran əzəli deyil, sonradan yaradılmışdır; 4) insan öz hərəkətlərində tam iradə azadlığına malikdir. C. ibn D. islam dünyasında qədəriyyə (bax: *qədərilər*) haqqında fikir yürütmüş ilk mütəkəllimlərdən biridir. *Mötəzilə* bir sıra məsələlərdə C. ibn D.-in fikirlərinin davamı hesab olunur.

**CƏFALI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Qavdul kəndistanında, Marağadan 42 *km* c.-ş.-dədir.

**CƏFƏR ƏS-SADİQ** (جعفر الصادق), Ə b u A b d u l l a h C ə f ə r i b n M ə h ə m m ə d ə s - S a d i q (702, Mədinə – 766, Mədinə) – şiələrin 6-cı imamı (733 ildən), Cəfəri fiqh məktəbinin banisi. 5-ci imam *Məhəmməd əl-Baqirin* oğludur. Anası Ümmü Fərvə *Əbu Bəkrin* nəslindəndir. Mədinədə yaşamış və vəfat etmişdir. Məzarı *Cənnətül-Bəqidədir*.

C. əs-S. Əməvilər hakimiyyətinin sonuna və Abbasilər hakimiyyətinin əvvəlinə təsadüf edən gərgin siyasi şəraitdə yaşamışdır. Atası Məhəmməd əl-Baqir və babası, 4-cü imam *Zeyn əl-Abidin* kimi siyasi fəaliyyət göstərməmişdir. "İslam hökuməti" adı altında öz mənafelərini düşünən xəlifələrə, xüsusilə də Abbasi xəlifəsi Mənsur Dəvaniqiyə qarşı barışmaz mövqedə dayansa da, ictimai vəziyyəti və xalqın mənəvi-psixoloji durumunu nəzərə alaraq hakimiyyətə qarşı silahlı mübarizənin əleyhinə olmuşdur. Əməviləri devirərək hakimiyyətə gəlməkdən ötrü Abbasi tərəfdarlarının ona beyət təkliflərini rədd etmiş, Abbasilər qiyamına qoşulmamışdır. Buna baxmayaraq, Mənsurun göstərişi ilə bir müddət həbsdə qalmış, torpaqları müsadirə olunmuşdu. Dinc mübarizəyə üstünlük verən C. əs-S. Mədinədə maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur. Onun sayı getdikcə artan tələbələri ölkənin hər yerinə yayılmışdılar. C. əs-S.-in xalq arasındakı nüfuzunu nəzərə alan xəlifə Mənsur onu birbaşa qətlə yetirməkdən çəkinmiş, imama qarşı bir neçə dəfə sui-qəsd təşkil etmişdi. Bir sıra mənbədə C. əs-S.-in Mənsur tərəfindən zəhərlənərək öldürüldüyü bildirilir.

Dini elmləri (hədis, təfsir, fiqh) yaymaqla ailə ənənəsini davam etdirən C. əs-S. mötədil şiələrin rəhbərinə çevrilmişdi. Elmin inkişafı üçün yaranan geniş imkanlar, yəhudi və yunan alimlərinin fikirləri ilə tanışlıq, eləcə də mürəkkəb ictimai və siyasi proseslər fonunda müxtəlif cərəyanların və ifrat radikal qrupların meydana gəldiyi bir dövrdə C. əs-S. elmi məclislər təşkil edir, ifrat mövqedə duranlar və dini səhv təbliğ edənlərlə mübarizə aparırdı. Müxtəlif yönlü mənbələrdə onun dövrünün bütün elmlərinə bələd olması və heç bir elmi mübahisədə uduzmaması barədə qeydlər var. Mənbələrdə həmçinin C. əs-S.-in *cəfr*, xəvas, yuxuyozma kimi gizli elmlərə vaqif olması, eləcə də gələcəkdən xəbərvermə bacarığı göstərilir. *Təsəvvüf* tarixində xüsusi yeri olan C. əs-S.-in adı "silsileyi-aliyyə"yə (ən böyük mürşidlər silsiləsi) daxil edilmişdir. O, islam dininin şiəyönlü fəlsəfi bazasını yaratmış, zühddən (asketizm) təsəvvüfə (mistisizm) keçidi təmin etmişdir. O, həm də Quran mətninin alleqorik şərhi haqqında təlimin banisi sayılır. Şiələrin C. əs-S.-dən başlayaraq Quranın şərhində alleqorik yozuma üstünlük verməleri sufizmin epistemoloji köklərini yaratmışdır, hərçənd ki, ortodoks şiələr C. əs-S.-in təsəvvüflə heç bir əlaqəsi olmadığını göstərir. Sünnilər C. əs-S.-i hədislərin mükəmməl bilicisi kimi tanıyır və hədis elmində onu "siqə" (etibarlı) qəbul edirlər.

C. əs-S. xüsusi teoloji sistemin – təməlini "ilahi nur"un əbədi manifestasiyasının ("təcəlli") təşkil etdiyi imamilik doktrinasının yaradıcısıdır. Atasının sistemləşdirməyə başladığı, lakin vəfatı ilə yarımçıq qalan bu doktrinanı formalaşdırmaqda davam edən C. əs-S. Mədinədə dini və dünyəvi elmləri tədris edən və dörd minə yaxın tələbəsi (onların arasında sonradan Bəsrə fəlsəfə məktəbinin banisi Həsən Bəsri, mötəzilənin banisi Vasil ibn Əta, "kimyanın atası" sayılan *Cabir ibn Həyyan*, maliki və hənəfi məzhəblərinin baniləri *Malik ibn Ənəs* və *Əbu Hənifə* və b. var idilər) olan böyük elm mərkəzi təsis etmişdi. Ardıcılları cəfərilər adlanan hüquq sistemi, *cəfəriyyə* məzhəbi burada meydana gəlmişdir.

C. əs-S. "qiyas" (analogiya) yolu ilə dini hökmlər verməyin əleyhinə olmuş, bu metoddan istifadə edən Əbu Hənifəni tənqid etmişdir. Eləcə də, Quranın şərhində şəxsi fikrə əsaslanmağı qəbul etməmişdir. İradə məsələsində mötədil mövqe tutmuş, nə iradə azadlığının ("təfviz"), nə də alın yazısının ("cəbr") mütləqliyini təsdiqləməmişdir.

Bir çox müasir müsəlman aliminin "ərəb elmi ənənəsinin atası" saydığı C. əs-S.-ə müxtəlif yönlü mənbələrdə bir sıra əsərlər ("Misbah əş-şəriə", "Təfsir əl-Quran", "Kitab əl-cifr", "İhtilac əl-əza", "Tövhid əl-Müfəzzəl" və s.) aid edilsə də, onun müəllifliyini təsdiqləyəcək qəti dəlillər yoxdur. Bu əsərlərin əksəriyyəti özlərini onun elminin "qoruyucuları" kimi təqdim edən və fikirlərində ona istinad edən tələbələrinə aiddir. C. əs-S.-in vəfatından sonra şiələrin böyük əksəriyyəti onun oğlu *Musa əl-Kazimi* 7-ci imam kimi qəbul etmişlər. Digər tərəfdən hələ imamın sağlığında bəzi şiələr onun oğlu İsmayılı davamçısı saymışlar. Lakin İsmayıl atasından əvvəl vəfat (762) etdiyinə görə, C. əs-S.-dən sonra İsmayılın tərəfdarları onun oğlu Məhəmmədi imam kimi tanımışlar və beləliklə də şiəliyin bir qolu olan *ismailililik* meydana gəlmişdir.

*Əd.*: B e l y a y e v Y.A. Müsəlman təriqətləri. B., 1991; P i ş v a y i M. İmamların tarixi. B., 2011; B a y a t F. Türk təsəvvüf ədəbiyyatı, B., 2011; М а с с э А. Ислам. М., 1963.

**CƏFƏR XƏNDAN** (təxəllüsü, əsl adı və soyadı Cəfər Zeynal oğlu H a c ı y e v; 8.5.1910, İrəvan – 10.8.1961, Bakı) – Azərb. ədəbiyyatşünası, tənqidçi, şair. Filologiya e.d. (1950), prof. (1950). Gəncə Pedaqoji Texnikumunu və Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir. 1925–29 illərdə fəhlə fakültəsində müəllimlik etmiş, 1932–41 illərdə Azərb. Dövlət Pedaqoji İn-tunda dərs demişdir. Böyük Vətən müharibəsində (1941–45) iştirak etmiş, siyasi işçi, cəbhə qəzetlərində redaktor müavini işləmişdir. Azərb. Dövlət Un-ti filologiya fakültəsinin dekanı (1947–49), un-tin rektoru (1950–54), Azərb. ədəbiyyatı kafedrasının müdiri olmuşdur (1952–61). 20 əsrin əvvəlləri Azərb. ədəbiyyatına, xüsusən M.Ə. Sabirin həyat və yaradıcılığına ("Sabir", 1940; "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri", nəşri 1962; və s.), Azərb. sovet ədəbiyyatına, 20 əsr Cənubi Azərb. demokratik ədəbiyyatına dair əsərlərin, orta və ali məktəblər üçün dərsliklərin, "Ədəbiyyat nəzəriyyəsi" (1958) kitabının müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti olmuşdur. "Bəyaz gecələr" (1936), "Cəbhə şeirləri" , "Qafqaz" (hər ikisi1942), "İlk ayrılıq" (1944) və s. şeir kitabları nəşr olunmuşdur. Nizami, Xaqani, Heyran xanım, Ömər Xəyyam və b.-nın şeirlərini, M.F.Axundzadənin "Puşkinin ölümünə Şərq poeması"nı Azərb. dilinə tərcümə etmişdir. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.



Ə s ə r l ə r i: XX əsr Azərbaycan ədəbiyyatı tarixi. B., 1955; Molla Nəsrəddin. B., 1956; Mikayıl Müşfiq. B., 1956; Mir Cəlal. B., 1958; Ədəbi qeydlər. B., 1966; Seçilmiş əsərləri. B., 1972; Ədəbiyyatımızın dünəni və bu günü. B., 1980; Uğur yolu. B., 1987.

**CƏFƏR TƏBRİZİ**, F ə r i d ə d d i n C ə f ə r T ə b r i z i (? – ?) – 15 əsr Azərb. xəttatı. 1421 ildə *Baysunqur* Qiyasəddin (1397–1434) Azərb.-a səfərindən qayıdarkən C.T.-ni özü ilə Herata gətirmiş, saray kitabxanasının müdiri təyin etmişdir. 1430 ildə Baysunqur Qiyasəddin üçün hazırlanmış Sədinin "Gülüstan" əsərinin 1426 il tarixli əlyazması (Çester Bitti kitabxanası, Dublin), Firdovsinin "Şahnamə" əsərinin nüsxəsi ən yaxşı işlərindəndir. C.T.-nin nəstəliq, nəsx, süls və s. xətlərlə yazdığı əlyazmalar M.Y. Saltıkov-Şedrin ad. kitabxanada (Sankt-Peterburq), Topqapı muzeyində (İstanbul) və s. yerlərdə saxlanılır. C.T.-nin Orta Şərqdə xəttatlıq və kitab sənətinin inkişafında mühüm rolu olmuşdur.

**CƏFƏRABAD** – Şaur çayının sol sahilində Suzdan 7 *km* şm.-da Erkən Eneolit dövrünə aid məskən (İran, Xuzistan ostanı). Arxeoloji qazıntılar fransız arxeoloqları R. de Mekkenem və L. Le Breton (1930, 1934), J. Dolfus (1969–1974) tərəfindən aparılmışdır. C. *təllində* (sah. təqr. 0,3 *ha*, hünd. 7 *m*) 3 dövrə aid təbəqələr müəyyənləşdirilmişdir.

I C. d ö v r ü (6–4 təbəqələr; e.ə. 6-cı minilliyin sonu – 5-ci minilliyin əvvəlləri; Suziana a dövrü) – çınqılla döşənmiş və gillə suvanmış, ocaqları olan 2–3 kiçik evdən ibarət komplekslərin sıx yerləşdiyi məskənin sah. təqr. 1800 $m^2$-dir; məskənin şm. hissəsində geniş həyət yerləşir. Evin künclərində arxası üstə uzadılmış vəziyyətdə, şimaldan cənuba istiqamətləndirilmiş 3 uşaq qəbri tədqiq olunmuş, onlardan birində oxra izləri və cilalanmış daş balta-kərki aşkarlanmışdır. Tapıntılar arasında daş toxalar, dəstələr, sürtgəclər və s., çaxmaqdaşıdan bıçaqşəkilli lövhələr, sümük iynələr və s. var. Piyalələr, kasalar, qazanlar, iridənəli aşqarı olan gildən silindrik qablar; xırdadənəli aşqarı olan gildən hazırlanmış bardaqlar, piyalələr, konusvarı qədəhlər, camlar və kasaların (çox vaxt kiçik novlu) bütün səthi, bəzən isə içərisi naxışlarla (qırmızı-qəhvəyi, yaxud bozumtul həndəsi naxışlar, nadir hallarda antropomorf və zoomorf təsvirlər) bəzədilmişdir. Terrakotadan düzəldilmiş qadın fiqurları, heyvan heykəlcikləri, təkərşəkilli və konusvarı iplikbəndlər çox vaxt qəhvəyi rəngli naxışlarla bəzədilmişdir. E.ə. 5-ci minilliyin 1-ci yarısında məskənin həyatında fasilə baş verdi.

II C. d ö v r ü n ə (3m–3n təbəqələri; e.ə. 5-ci minilliyin ortaları; Suziana c – Erkən Bendebal – Çoqa-Miş) 2 dairəvi ikiyaruslu dulus kürəsi və böyük miqdarda naxışlı, qırmızı- və bozcilalı qablar aiddir.

III C. d ö v r ü n d ə (3d–1 təbəqələri; e.ə. 4100–3900 illər; Suz A dövrü) tikililərin qalıqları və çiy kərpicdən düzəldilmiş sistada qablarla birlikdə arxası üstə uzadılmış vəziyyətdə dəfn edilmiş 2 uşaq qəbri tədqiq olunmuşdur. İri yarımsferik, yaxud konusvarı camlar, hündür boğazı və çıxıntı-qulpları olan kürəşəkilli qablar və çıxıntı-qulpları olan qazanlar; piyalələr, qədəhlər, naxışlı bardaqlar (həndəsi motivli kompozisiyalar, əl-ələ tutan insanların, burma buynuzlu keçilərin təsvirləri) aşkar edilmişdir. Terrakotadan düzəldilən naxışlı öküz, it, qoyun, quş heykəlcikləri, boya, yaxud batıq ornamentlərlə bəzədilmiş konusvarı, təkərşəkilli, zəngvarı iplikbəndlər səciyyəvidir. Daşdan və terrakotadan olan möhürlər tapılmışdır.

**CƏFƏRABAD** – Azərb. Resp. Cəbrayıl r-nunun Karxulu ə.d.-ndə kənd. R-n mərkəzindən 22 *km* c.-ş.-də, Araz çayının sol sahilində, düzənlikdədir. Əh. 145 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, taxılçılıq, üzümçülük, baramaçılıqla məşğul olmuşdur. Kitabxana, tibb məntəqəsi var idi.

**CƏFƏRABAD** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Ovoğlu kəndistanında, Xoy ş.-ndən 28 *km* şm.-ş.-dədir.

**CƏFƏRABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkmən bölgəsinin Üçtəpə kəndistanında, Miyanədən 14 *km* q.-dədir.

**CƏFƏRABAD** – İrəvan xanlığının Sərdarabad mahalında (9.9.1930 ildən Sərdarabad, 2.3.1935 ildən Oktemberyan r-nu), Alagöz dağının c. ətəyində, Araz çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra kəndin azərb. əhalisi qovulmuş, burada İran və Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir. 4.4.1946 ildə kəndin adı dəyişdirilərək Getaşen qoyulmuşdur.

**CƏFƏRABAD,** Y u x a r ı  G ö y k ə n d – İrəvan xanlığının Zəngibasar mahalında (31.12.1937 ildən Zəngibasar, 14.1.1969 ildən Masis r-nu), Zəngi çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 1826–29 illərdə bölgənin ruslar tərəfindən işğalı ilə əlaqədar kəndin əhalisi Türkiyəyə köçmüş və burada İranın Xoy, Salmas vilayətlərindən köçürülmüş ermənilər yerləşdirilmişdir. 4.4.1946 ildə kəndin adı dəyişdirilərək Arqavand qoyulmuşdur. Məşhur Cəfərabad (Pir Hüseyn) türbəsi bu kəndin ərazisində idi.

**CƏFƏRABAD** – Azərb. Resp. Şəki r-nunda kənd. Cəfərabad ə.d.-nin (Cəfərabad, Çolaqlı, Göybulaq, Kəhrizoba, Təpəcənnət k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 24 *km* c.-da, Şəki–Yevlax avtomobil yolu kənarında, Qanıx-Əyriçay çökəkliyindədir. Əh. 2071 (2011); maldarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, peşə məktəbi, kitabxana, klub, tibb məntəqəsi, poçt, ATS var.

**CƏFƏRABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Dizmar kəndistanında, Vərzəqan qəs.-indən 27 *km* şm.-dadır.

**CƏFƏRABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Miyandab bölgəsinin Mərhəmətabad kəndistanında, Miyanədən 4,5 *km* şm.-dadır.

**CƏFƏRBƏYLİ** – Azərb. Resp. Ağcabədi r-nunda kənd. Cəfərbəyli ə.d.-nin mərkəzi. R-n mərkəzindən 6 *km* şm.-q.-də, Qarqar çayının sol sahilində, Qarabağ düzündədir. Əh. 881 (2011); taxılçılıq, pambıqçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, klub, tibb məntəqəsi; yaxınlığında Tunc dövrünə aid Sümüklütəpə kurqanı var.

**CƏFƏRXAN** – Azərb. Resp. Saatlı r-nunun Əbil ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* şm.-ş.-də, Araz çayının sağ sahilindədir. Əh. 436 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Ümumi orta məktəb, mədəniyyət evi, uşaq bağçası, kitabxana hidrometeoroloji st., Muğan Meliorasiya təcrübə st. fəaliyyət göstərir.

**CƏFƏRXAN QƏBİRİSTANLIĞI** – Azərb. Resp. Saatlı r-nunun Cəfərxan k.-dən 2 *km* ş.-də antik dövrə (e.ə. 1-ci minilliyin son rübü) aid arxeoloji abidə. Üç tip qəbir abidəsi (küp, torpaq, çiy kərpiclə hörülmüş) qeydə alınmışdır. Forması müxtəlif olan qəbirlərdən tapılmış arxeoloji materiallar eyni dövrün məhsuludur. Ölülər qəbirlərdə bükülü vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərə bəzək əşyaları, müxtəlif tip və ölçülü gil qablar (süddan biçimli və çaydan tipli qablar, küpə, cam, bardaq, sərnic və s.) qoyulmuşdur. Tapıntılar Azərb.-da geniş yayılmış *Yaloylutəpə mədəniyyətinin* həmdövr abidələri ilə oxşarlığını, Araz çayının aşağı axarında Muğan düzü əhalisinin oturaq həyat sürdüyünü, əkinçiliklə məşğul olduğunu, Kiçik Asiya, Aralıq dənizi abidələri ilə müəyyən yaxınlığı isə onların mədəni və iqtisadi əlaqələrini göstərir.

Cəfərxan qəbiristanından tapılmış saxsı qablar.



**CƏFƏRXANLI** – Azərb. Resp. Cəlilabad r-nunun Üçtəpə ə.d.-ndə kənd. R-n mərkəzindən 20 *km.* şm.-q.-də, düzənlik ərazidədir. Əh. 1054 (2011); əkinçilik, üzümçülük və maldarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana var.

**CƏFƏRXANOVA** Roza Heydər qızı (13.2.1927, Nax. MR, Ordubad – 18.5.2010, Naxçıvan) – Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (2000). 1942–48 illərdə Ordubad Dövlət Dram Teatrında fəaliyyət göstərmiş, 1948–2010 illərdə C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olmuşdur. Bir sıra xarakterik, yaddaqalan obrazlar yaratmışdır. Əsas rolları: Şirin ("Fərhad və Şirin", S. Vurğun), Həyat ("Həyat", M. İbrahimov), Zəhra ("Şeyx Sənan", H. Cavid), Pəri, Solmaz, Dilbər ("Solğun çiçəklər", "Od gəlini", "Sevil", C. Cabbarlı), İradə ("Göz həkimi", İ. Səfərli) və s.



**CƏFƏRİ** Məhəmmədtaqi (16.8.1925, Təbriz – 16.11.1998, Tehran) – Azərb. alimi. Təbrizin "Talibiyyə" mədrəsəsində oxumuş, təhsilini Tehran, Qum və Nəcəfdə davam etdirmişdir. Məşhəddə *ictihad* şəhadətnaməsi almışdır. Fəlsəfə, hüquq, sosial antropologiya, estetika, ədəbiyyat, irfan, kəlam və s. sahələrə dair 40-dan çox əsərin müəllifidir. *Əli ibn Əbu Talibin* "Nəhcül-bəlağə" əsərinə, eləcə də N. Gəncəvi, C. Rumi və Ö. Xəyyamın şeirlərinə şərhlər yazmışdır. B.Rassel, D.Yum, R.E.Yum və A.N.Uaythedin fikirlərinin təhlil-tənqidinə dair əsərləri var.

**CƏFƏRİ** (Petroselinum) – çətirçiçəklilər fəsiləsindən bitki cinsi. Birillik və ya ikiillik otlardır. Məlum olan 3 növündən biri – bostan, yaxud əkin C.-si (R. sativum və ya R. erisum) becərilir. İkiillik, çarpaz mayalanan bitkidir. Birinci il yarpaq rozeti və meyvəkökü, ikinci il isə çiçək gövdəsi (hünd. 75–150 *sm*) və toxumları əmələ gəlir. Yarpaqları üçərləkvarı bölümlü, hamar və qıvrımdır. Çiçəkləri xırda, sarımtıl-yaşıl, ikicinsiyyətlidir. Meyvəsi qoşa toxumcadır, toxumları xırda, xüsusi iylidir. Vətəni Aralıq dənizi ölkələridir. Bir çox ölkələrdə becərilir. 2 növü məlumdur: köklü C. (qalınlaşmış, budaqlanmayan meyvəköklü) və yarpaq C. (nazik meyvəköklü







Əkin cəfərisi (Petroselinum sativum).

və budaqlanan yarpaqları). Köklü C. soyuğadavamlıdır, toxumları 2–3°C temp-rda cücərir. Meyvəkökləri tarlada qalın qar örtüyü altında qışlayır. C. müxtəlif iqlim şəraitində, payız, erkən yaz və yay əkinlərində bitir. Quraqlığa davamsızdır. Ətrinə görə qiymətlidir. Toxumu, yarpağı və otundan sidikqovucu və yelqovucu dərman hazırlanır. Yaşıl və qurudulmuş yarpaqları, kökü bir çox xörəklərdə, həmçinin konserv sənayesində istifadə olunur.

**CƏFƏRİYYƏ** (الجعفرية), ə l - C ə f ə r i y y ə – *isnaəşəriyyə* şiələrinin fiqh məzhəbi. *Cəfər əs-Sadiqin* adı ilə bağlıdır. Sünnilər tərəfindən də dörd sünni məzhəbi – *hənəfiyyə, şafiiyyə, hənbəliyyə* və *malikiyyə* ilə yanaşı beş doğru məzhəbdən biri kimi təsbit edilir.

İmamilik ənənəsi C.-nin meydana gəlməsini Cəfər əs-Sadiqin fəaliyyəti ilə əlaqələndirir və sonradan bu məzhəbin təməlini təşkil edən, dini-hüquqi və əxlaqi təlimlərin prinsiplərini işıqlandıran bir sıra əsərləri də ona aid edir.

C. də sünni hüquq məktəblərinin formalaşdığı şərtlər daxilində təşəkkül tapmışdır. Sünni fəqihləri fiqh məsələlərində yalnız *Qurana* və *sünnəyə* əsaslanan "əshab əl-hədis" və məntiqi nəticəyə, şəxsi fikrə əsaslanan "əshab ər-rəy" qruplarına bölündükləri kimi, imami fəqihləri arasında da əxbarilər və üsulilər olmaqla iki məktəb yaranmışdı. Əxbarilər dini biliklərin və fiqhin yeganə mənbəyi kimi imamlardan nəql olunan hədis və rəvayətlərə ("əxbar") əsaslanan ənənəçilər, üsulilər isə fiqh məsələlərində nəzəri əsaslandırmaya söykənən və hüququn dörd mənbəyini (Quran, sünnə, *icma* və ağıl) qəbul edən rasionalistlər idilər. Lakin bu, C.-nin bölünməsinə dəlalət etmirdi. Belə ki, şiəliyin təməl prinsiplərinə eyni yanaşan bu iki məktəb yalnız şəriət hökmləri çıxarmağın elmi əsaslarında və metodunda fərqlənirdi. İmami-cəfəri fiqh məktəbinin əsl təmsilçiləri üsulilərdir.

C.-nin inkişafında ilkin imamilər dövründə yaranmış bu iki tendensiya zaman keçdikcə aralarındakı mübarizə gedişində iki zidd məktəbə çevrilmişdir. Bu ziddiyyət imamların fiziki yoxluğundan – icmaya rəhbərlik problemi ortaya çıxdıqdan sonra açıq şəkil almışdır. 10–11 əsrlərdə *Buveyhilər* dövründə hər iki məktəb özünün hüquq doktrinasını işləyib hazırlamışdı. Qum və Rey ənənəçilərinin (Kuleyni, İbn Babəveyh Səduq) əleyhinə olan İraq imami-rasionalistləri (Məhəmməd Müfid, Şərif Mürtəza, Şeyx Tusi) fiqhin cəfəri metodologiyasını işləmişdilər. Şərif Mürtəza (ö. 1044) "Əz-Zəriə ila üsul əş-şəriə" əsərində cəfəri fiqhinin prinsiplərini sadalamış, Şeyx Tusi (ö. 1067) isə "Əl-Uddə fi üsul əl-fiqh" traktatında həmin prinsiplərin xülasəsini vermişdir. Üsulilər məktəbinin ilk nümayəndələrindən biri kimi Məhəmməd ibn Əhməd İskafi (ö. 991) göstərilir. Məktəblərin adları isə xeyli sonra meydana gəlmişdir. Reydən olan imami fəqihi Əbdülcəlil Qəzvini təxm. 1170 ildə ilk dəfə bu iki məktəbi "əxbariyyə" və "üsuliyyə" adı ilə xatırlamış, birincisi "dar görüşlü ənənəçilər"in, ikincisi isə dini məsələlərdə rasionalist metoda əsaslananların məktəbi kimi səciyyələndirmişdir.

Hər iki məktəbin hüquq sistemində hədislər təməl prinsipi (üsulilərdə dörd prisipdən biri, əxbarilərdə isə yeganə prinsip) olduğundan, hədis toplularının hazırlanmasına xüsusi diqqət yetirilmişdir. Ən erkən və nisbətən əhatəli toplu imami ilahiyyatçısı və fəqihi, imamilik məzhəbinin "islahatçısı" ("mücəddid") Kuleyninin 20 ilə yazdığı və 16 mindən çox hədisin toplandığı "əl-Kafi" əsəridir. Zaman keçdikcə, "əl-Kafi" C.-nin dörd əsas kitabından ("əl-üsul əl-ərbəə") birinə çevrilmişdir. Digər üç kitab Xorasan fəqihi İbn Babəveyh Səduqun 9 mindən çox hədisi əhatə edən "Mən la yəhzəruhu əl-fəqih" toplusu və Şeyx Tusinin "Təhzib əl-əhkam" (13 mindən çox), "əl-İstibsar fima uxtulifə min əl-əxbar" (5,5 mindən çox) toplularıdır.

Bu mənbələrin bütün imamilər tərəfindən qəbul olunmasına baxmayaraq, hədislərin toplanması və sistemləşdirilməsi işi davam etdirilirdi. 17 əsrdə Kaşani (ö. 1680) dörd kitabı "əl-Vafi" adı altında topladı. Xorasan fəqihi Hürr Amili (ö. 1693) onları əlavə hədislərlə təkmilləşdirərək, 30 cildlik "Təfsil vəsail əş-şiə" külliyyatını hazırladı. Eyni zamanda Məhəmməd Baqir Məclisi (ö. 1699) "Bihar əl-ənvar" toplusunu tərtib etdi. Sonradan başqa topluların da hazırlanmasına baxmayaraq, onlar əvvəlkilər qədər mötəbər sayılmır.

Hədis toplularının tərtibi ilə yanaşı əxbarilərin və üsulilərin hüquqi doktrinası da işlənib hazırlanırdı. C.-nin və əxbarilərlə üsulilər arasındakı münasibətlərin inkişafında mühüm mərhələ monqol istilaları dövrünə təsadüf etmiş və imami fəqihlərinin ictihad prinsipini (dini-hüquqi məsələlərdə sərbəst qərar vermək) qəbul etməsi ilə bağlı idi. Şəriət arqumentləri əsasında qərar vermək üçün bu prinsipi ilk qəbul edənlərdən biri İbn Mütəhhər (ö. 1325) olmuşdur. "Mükəlləflər"in (yetkinlik yaşına çatmışların) ictihadı ilə "müctəhidlər"in (dini hökm verənlərin) ictihadını fərqləndirən İbn Mütəhhər ictihadı "üləma"nın (alimlərin) xüsusi səlahiyyəti kimi nəzərdən keçirən və müctəhidləri imamların canişinləri kimi tanıyan ilk imami alimidir.

Üsulilərin dini-hüquqi doktrinasının formalaşması ənənəçi əxbarilərlə sərt mübarizə şəraitində baş veridi. Əxbarilər 18 əsrdə İranda Məhəmməd Əmin Əstərabadinin fəaliyyəti sayəsində öz mövqelərini möhkəmlətmişdilər. Lakin imamların fiziki yoxluğu şəraitində şəriətin izahı zərurəti yarandığından üsulilərin nüfuzu artırdı. İmami fəqihi Məhəmməd Baqir Vəhid Bəhbəhani (1706–83) üsuli məktəbinin nüfuzunu bərpa etməklə yanaşı, müctəhidlərin nəzəri mühakimələrinin qanuniliyini əsaslandıraraq, C.-nin tarixində yeni mərhələ açdı.

19 əsrdən İranda üsulilər üstünlük təşkil edirdi. 20 əsrdə onlar öz doktrinalarının iki əsas müddəasını formalaşdırdılar: "ələmiyyət" (bilikdə üstünlük) və "vilayəti-fəqih" (fəqih idarəçiliyi).

Etiqadın təqlidlə deyil, dəlillə gerçəkləşməsi mövqeyindən çıxış edən üsulilər dinin təməl prinsiplərində ("üsul əd-din") – təkallahlılıq, peyğəmbərlik və imamət məsələlərində təqlidi yolverilməz hesab edirlər.

**CƏFƏRQULİYEV** Mirağa Əşrəf oğlu (d. 8.11.1940, Lerik r-nunun Günəşli k.) – Azərb. hüquqşünası, hüquq e.d. (1990), prof. (2010), ədliyyə gen.-m.-u (1987). SSRİ DİN-in Akademiyasını (1969) bitirmişdir. 1972–2001 illərdə hüquq-mühafizə, partiya və dövlət orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır. 2007 ildən AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İn-tunda baş elmi işçidir. 150-dən çox elmi əsərin və bir neçə dərs vəsaitinin müəllifidir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

Əsərləri: Проблемы национального языка в судопроизводстве. Б., 1989; Национальный язык и право. Б., 1990; Azərbaycan Respublikasının cinayət prosesi. B., 2008.

**CƏFƏRQULU XAN** Məhəmmədhəsən ağa oğlu (1783, Şuşa – 1864, Şuşa) – Qarabağ xanı, İbrahimxəlil xanın nəvəsi, gen.-m. (1850). Rusiya-İran müharibəsi (1804–13) zamanı başçılıq etdiyi süvari dəstəsi ilə İran vəliəhdi *Abbas Mirzənin* 20 minlik ordusuna qarşı vuruşmuşdur. Qarabağ xanlığının qanuni varisi olan C.x.-ın yerinə əmisi Mehdiqulu xanın hakimiyyətə keçməsi onunla çar hakimiyyət orqanları arasında narazılığa səbəb oldu. 1812 ildə Abbas Mirzə Qarabağa yürüş edərkən ona rəğbət göstərməkdə təqsirləndirilən C.x. həbs olunmaq təhlükəsindən qorxaraq İrana qaçdı. Sonralar Qafqaz baş komandanının icazəsi ilə geri qayıdan C.x. 1814 ildə Qarabağ xanı təsdiq edildi. Əslində hakimiyyət başında formal olsa da Mehdiqulu xan dururdu. Məhz buna görə də C.x. yenidən İrana getdi. Bir müddətdən sonra vətənə dönən C.x.-ın 1822 ildə əmlakı müsadirə olundu, özü isə Simbirskə sürgün edildi. 1824 ildən Peterburqda yaşayan C.x.-ın 1829 ildə bütün əmlakı qaytarıldı və Qarabağda yaşamasına icazə verildi. "Nəva" təxəllüsü ilə şerlər yazmışdır. Q.B. Zakir bir sıra satiralarında, M.F. Axundova yazdığı mənzum məktubunda C.x.-ın rəiyyətə etdiyi zülmü kəskin satira atəşinə tutmuşdur. 2-ci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilmişdir.

**CƏFƏRLİ** – Azərb. Resp. Ağsu r-nunun Kəndoba ə.d.-ndə kənd. R-n mərkəzindən 29 *km* c.-da, Şirvan düzündədir. Əh. 533 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**CƏFƏRLİ** – Azərb. Resp. Cəlilabad r-nunun Astanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* c.-q.-də, dağlıq ərazidədir. Əh. 420 (2011); əkinçilik və maldarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**CƏFƏRLİ** – Azərb. Resp. Gədəbəy r-nunun Daryurd ə.d.-ndə kənd. R-n mərkəzindən 18 *km* q.-də, dağlıq ərazidədir. Əh. 351 (2011); əkinçilik (kartofçuluq) və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**CƏFƏRLİ** – Azərb. Resp. İmişli r-nunda kənd. Cəfərli ə.d.-nin (Cəfərli, Hacımustafalı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 6 *km* q.-də, Mil düzündədir. Əh. 3711 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. 1 tam orta məktəb, 2 ümumi orta məktəb, 2 kitabxana, mədəniyyət evi, klub, 2 tibb məntəqəsi var.

**CƏFƏRLİ** – Azərb. Resp. Qazax r-nunda kənd. Cəfərli ə.d.-nin (Cəfərli, Bala Cəfərli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 14 *km* c.-q.-də, dağ ətəyindədir. Əh. 1141 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, klub, tibb məntəqəsi var.

**CƏFƏRLİ** (Samtreti) – Gürc.-nın Kvemo Kartli mahalının Bolnisi bələdiyyəsi ərazisində azərb.-ların yaşadığı kənd. 1991 ildə adı dəyişdirilərək Samtreti qoyulmuşdur. Bolnisidən 7 *km* ş.-də, dəniz səviyyəsindən 430 *m* yüksəklikdə yerləşir. Əh. 541 (2002); maldarlıq və əkinçiliklə məşğuldur. Kənddə 1930 ildən Azərb. dilində məktəb fəaliyyət göstərir.

**CƏFƏRLİ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Gorayim kəndistanında, Ərdəbil ş.-indən 25 *km* c.-dadır.

**CƏFƏRLİ**, Cəfərli Günnüt – İrəvan xanlığında Vedibasar mahalının (9.9. 1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Çanaxçıdərə bölgəsində azərb.-ların yaşadığı kənd. 1826–29 illərdə Rusiya-İran, Rusiya-Türkiyə müharibələri zamanı kənd dağıdılmış, əhalisi isə Günnüt k. yaxınlığında eyniadlı yeni kənd salmışdır; bu kənd Cəfərli-Günnüt adı ilə də tanınmışdır. 1918–20 illərdə kənd erməni daşnaklarının təcavüzünə məruz qalmış, əhalisi didərgin salınmışdır. 1922 ildə geri qayıdan əhali kəndi yenidən abadlaşdırmış, lakin 1949 ildə kəndin azərb. əhalisi Azərb.-a deportasiya olunmuşdur.

**CƏFƏRLİ NEFT YATAĞI** – Azərb. Resp. İmişli r-nu ərazisində, Yevlax–Ağcabədi çökəkliyi neftli-qazlı r-nunda neft yatağı. Struktur 1978 ildə qravimaqnit kəşfiyyat işləri nəticəsində aşkar olunmuş, 1982 ildə isə seysmik kəşfiyyat vasitəsilə təsdiqlənmişdir. Tektonik cəhətdən C.n.y. 4×3 *km* ölçüsündə günbəzvarı qırışıqdır və Muradxanlı qalxımının c.-ş. davamıdır. Qırışığın şm.-ş. qanadı c.-q. qanadına nisbətən az meyillidir. Sahədə axtarış-kəşfiyyat qazma işlərinə 1983 ildə başlanılmışdır. Yataq 1984 ildə açılmış (quyu №1, Orta Eosen, 145 $m^3$/*gün* neft), həmin ildən də işlənməyə verilmişdir. Yatağın kəsilişi Dördüncü dövr çöküntülərindən Üst Tabaşirə kimi öyrənilmişdir; neft-qazlılıq Orta Eosenin mergellərdən, əhəng daşlardan, qum təbəqələri ilə növbələşən gillərdən, alevrolitlərdən ibarət çöküntülərlə ilə əlaqədardır. Məhsuldar layın orta yatma dərinliyi 3900 *m*-dir. Neftli kollektorlar terrigen-karbonatlı və çatlı süxürlardan ibarətdir. Kollektorların məsaməliyi orta hesabla 4%, keçiriciliyi 0,036 *mkm*$^2$-dir. Neftin sıxlığı 877 *kq*/$m^3$, tərkibində parafinin miqdarı 15%, asfaltenlər 9,9%, qatran 1,72%-dir. İşlənmənin əvvəlindən 1.1.2011 il tarixinə cəmi 0,5 mln. *t* neft, 14 mln. $m^3$ qaz hasil edilmişdir.

**CƏFƏROĞLU** Əhməd (Cəfərzadə Əhməd İsmayıl oğlu, 17.4.1899, Gəncə – 6.1.1975, İstanbul) – dilçi, ədəbiyyatşünas, filologiya e.d. (1929), prof. (1938). Üç yaşında ikən atasını itirmiş, ailə vəziyyəti ilə əlaqədar olaraq Orta Asiyaya köçmüşdür. İlk təhsilini Səmərqənddə almışdır. Bir müddətdən sonra Gəncəyə dönmüşdür. 1919 ildə Bakı Un-tinin tarix-filologiya fakültəsinə daxil olmuşdur. Azərb. Xalq Cümhuriyyətinin süqutundan sonra məcburən Türkiyəyə mühacirət etmişdir. İstanbul Un-tinin Ədəbiyyat fakültəsini (1924) bitirmişdir. 1925–29 illərdə Berlin və Breslau un-tlərində təhsilini davam etdirmişdir. İstanbul Un-tinin müasir türk dili tarixi kafedrasının dosenti (1929), kafedra müdiri (1946–1973) olmuşdur. Həmin un-tin nəzdindəki Türkologiya İn-tuna rəhbərlik etmişdir (1966–1973). Polşa Şərqşünaslar Cəmiyyətinin həqiqi üzvü (1937), Polşa EA m. üzvü (1938), Macarıstan EA nəzdində fəaliyyət göstərən Körösi-Skoma cəmiyyətinin m. üzvü (1944), Beynəlxalq Dialektologiya Mərkəzinin və Ural-Altay cəmiyyətinin üzvü (1953) seçilmişdir. Türkiyədə 1-ci Beynəlxalq Türkoloji konqresin təşkili və keçirilməsi onun adı ilə bağlıdır (1973). Beynəlxalq Onomastika Cəmiyyətində Türkiyəni təmsil etmişdir (1949 ildən). "Azərbaycan yurd bilgisi" jurnalının yaradıcısı və baş redaktoru (1932–1934), "Türk amacı" dərgisinin redaktoru (1942–1943) olmuşdur. Türkoloji tədqiqatlarına görə İspaniyanın "De Alfonso El Sabio" ordeni ilə təltif edilmişdir (1955). Türk dili tarixi, Azərbaycan dili və ədəbiyyatı, türk xalqlarının ədəbi-mədəni irsinə dair əsərlərin və tərcümələrin müəllifidir. Tədqiqatları qədim türk yazılı abidələri, folklorşünaslıq, ədəbiyyatşünaslıq və nəzəriyyə problemləri, klassik və müasir Azərb. ədəbiyyatına həsr olunmuşdur. 400-ə yaxın əsəri var. Avropanın bir çox un-tində mühazirələr oxumuşdur.

Əsərləri: XIX əsr azəri şairi Siraci. 1932; XVII əsr şairi Məlikbəy Avcı. 1933; Mirzə Şəfi haqqında qeydlər. 1928; Dilimizin dünəni, bu günü və sabahı. 1934; İlk türk dilçisi Kaşqarlı Mahmud. 1938; Azərbaycan dil və ədəbiyyatının dönüm nöqtələri. 1953; Müasir Azərbaycan ədəbiyyatına bir baxış. 1954.

**CƏFƏROV** Abbas Məhəmməd oğlu (1900, indiki Xocavənd r-nunun, Verindəri k. – 1.5.1981, Ağcabədi ş.) – Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**CƏFƏROV** Ağaşirin Ağaməmməd oğlu (25.2.1906, indiki Neftçala r-nunun Ballıcalı k. – 3.5.1984, Neftçala r-nunun Dördlər k.) – Sovet İttifaqı Qəhrəmanı (1.11.1943), starşina. 1928–30 illərdə sovet ordusunda xidmət etmiş, sonralar neft mədənlərində fəhlə, Neftçala r-nunda kolxozçu olmuşdur. Böyük Vətən müharibəsində (1941–45) Berlinədək döyüş yolu keçmiş, 416-cı Azərb. diviziyasının tərkibində Qafqaz, Mozdok, Taqanroq və Ukraynanın azad edilməsi uğrundakı vuruşmalarda iştirak etmişdir. 1943 ildə Melitopol ş. ətrafında düşmənin müdafiə xəttinin yarılmasında igidlik göstərmişdir. 1945 ildə ordudan buraxılmışdır. 1945–53 illərdə Neftçala r-nunda rəhbər, sovet və təsərrüfat işlərində çalışmışdır. 1953 ildən Azərneft Birliyi Qobustan Texnoloji Nəqliyyat İdarəsinin traktorçusu idi. 2-ci dərəcəli Vətən müharibəsi ordeni və medallarla təltif olunmuşdur.



**CƏFƏROV** Akif Allahyar oğlu (9.10. 1930, Tiflis – 30.11.1992, Bakı) – Azərb. mühəndis-geoloqu. Geologiya-mineralogiya elmlər namizədi (1966). Sosialist Əməyi Qəhrəmanı (1960). 1955 ildə Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir. "Gürganneft" Mədənlər İdarəsində (indiki "Neft Daşları") usta köməkçisi, usta, mədən müdiri, baş mühəndis (1955–67), "Nərimanovneft" Mədənlər İdarəsinin rəisi (1967–70; 1972–78), "Cənub" NQÇİ-nin rəisi (1971–72), "Xəzərdənizneftqazsənaye" Birliyinin rəis müavini, baş mühəndis (1978–84) vəzifələrində çalışmışdır. 1984 ildən ömrünün sonunadək "Azərneft" İB-nin baş direktoru olmuşdur. AKP-nin 25-ci qurultayında MK üzvü seçilmiş, Sov.İKP 22-ci qurultayının nümayəndəsi, SSRİ Ali Sovetinin (6-cı çağırış), Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, həmçinin SSRİ XTNS-nın iki qızıl medalı ilə təltif edilmişdir.



**CƏFƏROV** Araz Azad oğlu (d.5.3.1983, Bakı) – Azərb. idmançısı. Yunan-Roma güləşi üzrə idman ustası (2010), zorxana və pəhləvani güləş üzrə 1-ci Avropa çempionatının (2007, Almaniya) qalibidir. Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir (2007).

**CƏFƏROV** Arif Səttar oğlu (6.10.1937, Bakı – 1.12.1998, Bakı) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1996), prof. (1997). Azərb. Dövlət Un-tini (ADU, indiki BDU) bitirmişdir (1961). 1964 ildən Azərb. EA-nın Mexanika-Riyaziyyat İn-tunda fəaliyyətə başlamışdır. ADU-da çalışmış (1970–97), elmi işlər üzrə dekan müavini olmuşdur (1994–97). Funksiya periodik olmadıqda S.N. *Bernşteyn* və C. Ceksonun dönməzlik teoremlər sinfi ilə bağlı olan yaxınlaşma nəzəriyyələri məsələlərinin ümumi şəkildə həllini vermişdir. Sferik və cəbri çoxhədlilərlə yaxınlaşmalar üzrə nəticələr almış, siniflərin cəmlənmə üsullarını araşdırmışdır. 70-dən çox elmi əsərin müəllifidir.

**CƏFƏROV** Asəf (Ağasəf) Əlisgəndər oğlu (27.7.1927, Bakı – 3.4. 2000, Bakı) – Azərb. boyakarı. Azərb. Resp. xalq rəssamı (1989). Ə.Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq Məktəbini (1950) və V.İ. Surikov ad. Moskva Rəssamlıq İn-tunu (1957) bitirmişdir. Tematik tablolar və məişət səhnələrinin ("Həyat", 1960; "Görüş", 1965; "Mənim Azərbaycanım", 1972; "Musiqiçilər", 1976; "Arxeoloqlar", 1978; "Axşam çağı", 1980 və s.), mənzərə və natürmortların ("Buzovna kəndi", 1965; "Dəniz qayaları", 1974; "Fırtınalı Xəzər", 1976; "Akvarium", 1977; "Xınalıq kəndi", 1989; "Dağ yolu", 1991; "Qızılı günəşin batması", 1997 və s.), portretlərin ("Bəstəkar Arif Məlikov", 1967; "Şair Əlağa Vahid", 1969; "SSRİ xalq artisti Rəşid Behbudov", 1976; "Qızım Lalə", 1977; "Niyazi", 1990; "Səttar Bəhlulzadə", 1995 və s.) müəllifidir. Hindistan və Pakistan mövzusunda tablolar çəkmişdir. Əsərləri Moskvanın Tretyakov qalereyasında, Şərq Xalqları İncəsənəti Muzeyində, İstanbul Milli Qalereyasında, Bakı muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Bakıda (1977, 1979, 1998) və Moskvada (1983) fərdi sərgiləri təşkil olunmuşdur.



*Əd.:* Габибов Н., Асаф Джафаров, М., 1981.

**CƏFƏROV** Asif Süleyman Paşa oğlu (d.12.11.1934, Quba r-nunun Pirvahid k.) – polimer materialların emalı sahəsində Azərb. alimi, texnika e.d. (2008). Azərb. Neft və Kimya İn-tunu bitirmişdir (1959). 1959–64 illərdə SSRİ Dövlət Kimya Komitəsinin "Poçt qutusu" müəssisəsində, ÜİET Olefinlər İn-tunda (indiki Azərb. Dövlət Elmi Tədqiqat "Olefin" İn-tunda) müxtəlif vəzifələrdə çalışmışdır. 2003–05 illərdə "Polimerkompozit" Elmi İstehsalat Müəssisəsinin direktoru olmuşdur. 2007 ildən Azərb. Standartlaşdırma və Sertifikatlaşdırma İn-tunda şöbə müdiridir. Elmi işləri polimerlərin

A. Cəfərov. "V.Mustafazadənin portreti". 1975.



emalı, modifikasiyası və tətbiqi, metal-üzvi birləşmələr əsasında bərk heterogen raket yanacaqları üçün katalizator-plastifikatorların işlənib hazırlanması və s. sahəsindədir. C. 230-dan artıq elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Əsəri: Физико-механические свойства полиэтилена среднего давления и его применение в радиотехнике. Киев, 1988.

**CƏFƏROV** Azər Məmməd oğlu (d.7.6. 1954, Zərdab ş.) – Azərb. hüquqşünası, hüquq e.d. (2008), Azərb. Resp.-nın əməkdar hüquqşünası (2008). 2-ci dərəcəli dövlət ədliyyə müşaviridir. Azərb. Dövlət Un-tini bitirmişdir (1979). Vəkillər kollegiyasının üzvü olmuş, 1982 ildən prokurorluq və ədliyyə orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır. 2012 ildən ədliyyə nazirinin müavinidir.

**CƏFƏROV** Bayram İsmayıl oğlu (d.22. 3.1906, Cəlilabad r-nunun Andreyevka k. – 2.10.1992, həmin r-nun Üçtəpə k.) – Soialist Əməyi Qəhrəmanı (1951). 1950 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (2–4-cü çağırış) deputatı olmuşdur. İki Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.



**CƏFƏROV** Cavanşir Xəlil oğlu (d.21.6. 1953, Bakı) – Azərb. dirijoru. Azərb. Resp. əməkdar incəsənət xadimi (2000), Azərb. Resp. xalq artisti (2005). Bakı Musiqi Texnikumunun xor dirijorluğu sinfini (1972) və Leninqrad Dövlət Konservatoriyasının xor dirijorluğu fakültəsini (1977) bitirmişdir. 1979–80 illərdə Azərb. Dövlət Akademik Opera və Balet Teatrının xormeysteri, 1980–85 illərdə Azərb. Dövlət Filarmoniyası Dövlət Xor Kapellasının baş dirijoru və bədii rəhbəri olmuşdur. 1985–89 illərdə Azərb. Dövlət Musiqili Komediya Teatrının baş dirijoru olmuşdur. 1990–94 illərdə Şəmkir r-n mədəniyyət şöbəsində fəaliyyət göstərmiş, 1994–96 illərdə yenidən Musiqili Komediya Teatrında dirijor işləmişdir. 1996 ildən Azərb. Dövlət Akademik Opera və Balet Teatrının baş dirijorudur. C. "Koroğlu", "Leyli və Məcnun", "Arşın mal alan" (Ü.Hacıbəyli), "Aşıq Qərib" (Z.Hacıbəyov), "Şah İsmayıl" (M.Maqomayev), "Sevil", "Min bir gecə" (F.Əmirov), "Yeddi gözəl", "Don Kixot" (Q.Qarayev), "Karmen" (J.Bize), "Sonalar gölü" (P.İ. Çaykovski), "Aida", "Trubadur" (C.Verdi), "Çio-Çio-san" (C.Puççini), "Jizel" (A.Ş.Adan) və s. tamaşalara dirijorluq etmişdir. 1986 ildən Azərb. Dövlət Konservatoriyasında (indiki BMA-da), həmçinin 2007 ildən Azərb. Milli Konservatoriyasında pedaqoji fəaliyyət göstərir (2011 ildən prof.).



**CƏFƏROV** Cəfər Əsəd oğlu (d.1.7.1932, Erm. SSR, Əştərək r-nunun Hamamlı k.) – Azərb. dilçisi, filologiya e.d. (1992), prof. (1994). Azərb. Dövlət Un-tini (1958) bitirmişdir. 1964 ildən indiki Azərb. Dövlət Pedaqoji Un-tində pedaqoji fəaliyyət göstərir. Tədqiqatları nitq hissələrində keçid prosesləri və konversiya məsələlərinə həsr edilmişdir.

Əsərləri: Azərbaycan dilində inkarlığın ifadə vasitələri. B., 2000; Nitq hissələrində keçid prosesləri və konversiya. B., 2009.

**CƏFƏROV** Cəfər Haşım oğlu (7.9.1914, Bakı – 19.9.1973, Bakı) – Azərb. teatrşünası, ədəbiyyatşünas və ictimai xadim. Azərb. SSR əməkdar incəsənət xadimi (1972). Sənətşünaslıq doktoru (1961), prof. (1963), Azərb. SSR. EA m. üzvü (1962). A. Bubnov ad. Moskva Pedaqoji İn-tunu (1937) bitirmişdir. 1930-cu illərdə tənqidçilik fəaliyyətinə başlamış. "Ədəbiyyat qəzeti"ndə tənqid bölməsinin müdiri, Azərb. Dram Teatrında ədəbi hissə müdiri (1937–38), "Bakı kinostudiyası"nda ssenari şöbəsinin rəisi (1938–39), Azərb. Yazıçılar İttifaqının məsul katibi (1939) olmuşdur. AKP MK mədəni-maarif müəssisələri bölməsinin müdiri (1947–49), "Pravda" qəzetinin Azərb. üzrə müxbiri (1951), AKP MK bədii ədəbiyyat və incəsənət şöbəsi müdirinin müavini (1951–53), Azərb. SSR mədəniyyət nazirinin birinci müavini (1953–54), AKP MK katibi (1967–71) vəzifələrində çalışmışdır. 1959–73 illərdə Azərb. SSR EA Memarlıq və İncəsənət İn-tu teatr və kino şöbəsinin müdiri işləmişdir. 1934 ildən ali məktəblərdə pedaqoji fəaliyyət göstərmişdir. Azərb. teatrşünaslığının inkişafında C.-un mühüm xidməti var. O, Azərb. teatr tarixi, teatr nəzəriyyəsi, görkəmli səhnə ustalarının (H. Ərəblinski, C. Zeynalov, A.M. Şərifzadə, H. Rzayeva, İ. Hidayətzadə) yaradıcılığına, həmçinin rus və dünya dramaturgiyasına dair əsərlərin müəllifidir. C. 6 cildlik "Sovet dram teatrı tarixi"nin (M., 1966–71) redaksiya heyətinin üzvü və müəlliflərindən idi. Elmi kadrların hazırlanmasında böyük xidməti olmuşdur. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı seçilmişdir.



Əsərləri: Cəfər Cabbarlı. B., 1959; Azərbaycan dram teatrı. B., 1959; Vilyam Şekspir. B., 1964; Azərbaycan teatrı (1873–1973), B., 1974; М.Ф. Ахундов. Критико-биографический очерк. M., 1962.

**CƏFƏROV** Cəfər Məmməd oğlu (d.21. 4.1960, Naxçıvan ş.) – Azərb. tarixçisi, tarix e. d. (2010). MDU-nun tarix fakültəsini və aspiranturasını bitirmişdir (1986). BDU-da böyük laborant, müəllim, baş müəllim, dosent (1987–94), tarix üzrə ixtisaslaşmış doktorluq şurasının elmi katibi (1990–94), BDU-nun tarix fakültəsinin dekan müavini (1992–94), Azərb. Resp. Gənclər və İdman Nazirliyinin Gənclərlə İş üzrə Baş İdarəsinin rəisi (1994–98), Beynəlxalq Mətbuat Mərkəzinin direktoru (2003–04) işləmişdir. BMT İnkişaf proqramı və Azərb. hökumətinin birgə layihələrinin (1998–2003; 2004–06) milli koordinatoru olmuşdur. 2006 ildən Azərb. Turizm İn-tunun rektorudur. 70-ə yaxın elmi əsərin müəllifidir.

Əsərləri: Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu – 30-cu illər). B., 2008; Stalinizm və Azərbaycan kəndi. B., 2011.

**CƏFƏROV** Çərkəz Məmiş oğlu (d.18. 6.1942, indiki Şərur r-nunun Dəmirçi k.) – Azərb. cərrahı, tibb e.d. (1988), prof. (2003), Azərb. Resp.-nın əməkdar həkimi (2000). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1965). 1967–95 illərdə Elmi Tədqiqat Kliniki və Eksperimental Təbabət İn-tunda işləmiş, 1995 ildən Azərb. Tibb Un-tinin ümumi cərrahlıq və anesteziologiya kafedrasının müdiridir. 250-dən artıq elmi əsərin müəllifidir. Tədqiqatları, cərrahi əməliyyatdan sonra yaraların irinli ağırlaşmalarının öyrənilməsinə, qida borusunun bir sıra cərrahi əməliyyatlarının təkmilləşdirilməsinə həsr edilmişdir.

**CƏFƏROV** Elçin Aydın oğlu (d.6.12. 1985, Bakı) – Azərb. idmançısı. Karate üzrə Dünya kubokunun qalibi (2009, Odessa), Avropa çempionatının gümüş (2010, Odessa) mükafatçısıdır. Azərb. Dövlət Neft Akademiyasını bitirmişdir (2006).





**CƏFƏROV** Elçin Lənkəran oğlu (d.7.2. 1959, Ağdam) – Azərb. idmançısı. Yunan-Roma güləşi üzrə əməkdar məşqçi (1992), əməkdar bədən tərbiyəsi və idman xadimi (2008). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1987). Azərb. Resp.-nın "Şöhrət" ordeni, həmçinin Olimpiya ordeni ilə təltif edilmişdir.

**CƏFƏROV** Elimxan Süleyman oğlu (9.4. 1955, Erm. SSR-in Kalinino r-nunun Soyuqbulaq k.) – Azərb. radiobioloqu-radioekoloqu, biol. e. d. (2004), prof. (2008) Azərb. Dövlət Un-tini (indiki BDU) fizika f-ni bitirmişdir (1977). 1980 ildə Azərb. SSR EA-nın Fizika İn-tunda elmi fəaliyyətə başlamış, 1981–85 illərdə Moskva Kimyəvi Fizika İn-tunda təcrübəçi-tədqiqatçı olmuşdur. 1985–2003 illərdə AMEA-nın Botanika İn-tunda müxtəlif vəzifələrdə çalışmışdır. 2003 ildən AMEA-nın Radiasiya Problemləri İn-tunda laboratoriya rəhbəridir. Sumqayıt Dövlət Un-tinin prof.-udur. Tədqiqatları tritiumla nişanlama metodu ilə albumin molekulunun fəza quruluşu və kiçik dozalı radiasiyanın bioloji təsir mexanizminin aydınlaşdırılmasına həsr edilmişdir. "Radiobiologiyanın müasir problemləri" üzrə Beynəlxalq Şuranın üzvüdür (2008). 140 elmi əsərin 2 monoqrafiyanın və 2 ixtiranın müəllifidir.

Əsərləri: Структура и конформационные особенности сывороточного альбумина (совм. с Л.А. Алиевым). Б., 1990; E.S. Cəfərov. İnsan zərdabı albumininin funksiyaları, quruluşu və konformasiya çevrilmələri. B., 2003.

**CƏFƏROV** Əbdül Xalıq Cəfər oğlu (23.10.1898, Bakı – 1964, Bakı) – Azərb. tibb alimi, tibb e.d. (1948), prof. (1950). 1916 ildə Sankt-Peterburqda gimnaziyanı, 1924 ildə Saratov Un-tini bitirmişdir. 1924 ildən Azərb. Dövlət Un-tinin dəri-zöhrəvi xəstəliklər klinikasında, Azərb. Tibb İn-tunun dəri-zöhrəvi xəstəliklər kafedrasında işləmişdir. 70-ə qədər elmi əsərin müəllifidir. Tədqiqatları, dəri və zöhrəvi xəstəliklər zamanı sinir sistemində gedən dəyişikliklərin öyrənilməsinə həsr edilmişdir.

**CƏFƏROV** Əsədulla Qüdrət oğlu (d.14. 3.1949, Masallı r-nunun Ərkivan k.) – Azərb. arxeoloqu, tarix e. d. (1992). Azərb. Dövlət Un-tini bitirmişdir (1973). Azərb. EA Tarix İn-tunda (1971–73), SSRİ EA Arxeologiya İn-tunun Leninqrad bölməsində təcrübəçi-tədqiqatçı (1975–77), Azərb. EA Tarix İn-tunda kiçik elmi işçi (1977–84), baş elmi işçi (1984–92) olmuşdur. AMEA Arxeologiya və Etnoqrafiya İn-tunda aparıcı elmi işçi (1992–94) vəzifəsində çalışmış, 1994 ildən şöbə müdiridir. Qafqazdakı Kudaro, Axştır, Barakayev, Monaş və digər düşərgələrdə aparılan arxeoloji qazıntılarda iştirak etmişdir (1976–78). C.-un rəhbərlik etdiyi Paleolit arxeoloji ekspedisiyası (1983; 1985; 1987; 1993; 2007) Naxçıvanda Qazma, Kəlbəcərdə Orta Şurtan və Lerik r-nu ərazisində Buzeyir və Luvandçay Paleolit düşərgələrini kəşf etmişdir. Azıx və Tağlar Paleolit düşərgələrinin əsas tədqiqatçılardan biridir. Elmi kadrların hazırlanmasında xidməti var. 100-dən çox elmi əsərin, o cümlədən 1 monoqrafiyanın və 5 kitabın müəllifidir.

Əsərləri: Azərbaycanın Mustye mədəniyyəti. B., 1983; Quruçay dərəsində. B., 1990; Azərbaycanda Orta Paleolit. B., 1999; Azərbaycanın ilk sakinləri. B., 2004.

**CƏFƏROV** Faiq Əliqulu oğlu (1.5.1974, Cəlilabad r-nunun Şiləvəngə k. – 19.8. 1999) – Azərb.-ın Milli Qəhrəmanı (27.12.1995), gizir. 1992 ildə Azərb. Milli Ordusunun Naxçıvan sərhəd dəstəsində hərbi xidmətə başlamışdır. 1995 ilin martında dövlət çevrilişinə cəhd edən qüvvələrin zərərsizləşdirilməsində fəal iştirak etmiş, ağır yaralanmışdır. Sağaldıqdan sonra yenidən hərbi xidmətə qayıtmışdır. Avtomobil qəzasında həlak olmuşdur.



**CƏFƏROV** Faiq İlahi oğlu (10.1.1940, Erm. SSR, Mehri r-nunun Nüvədi k. – 30.1.2008, Bakı) – Azərb. fizioloqu, tibb e.d. (1991), prof. (1992), AMEA-nın m. üzvü (2001), Azərb. Resp. əməkdar müəllimi (2001). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1963). 1967 ildən həmin in-tun normal fiziologiya kafedrasında işləmiş (1991 ildən kafedra müdiri), eyni zamanda in-tun I müalicə-profilaktika fakültəsinin dekanı (1993–95), "Neyrofiziologiya və funksional neyrokimya problemləri elmi tədqiqat laboratoriyası"nın rəhbəri (2006–08) olmuşdur. 160-dan artıq elmi əsərin müəllifidir.



**CƏFƏROV** Fuad Yaqub oğlu (27.3.1955, Bakı – 14.11.2004, Bakı) – Azərb. idmançısı. Şahmat üzrə əməkdar məşqçi (1994), beynəlxalq dərəcəli hakim (1994). Azərb. Dövlət Un-tini bitirmişdir (1981). Resp. şahmat mərkəzinin direktoru olmuşdur.

**CƏFƏROV** Hadı Cəfər oğlu (25.9.1923, Bakı–14.9.1985, Bakı) – Azərb. geofiziki. Geologiya-mineralogiya e.d. (1975), prof. (1977). Azərb. SSR əməkdar elm və texnika xadimi (1982). 1948 ildə Azərb. Sənaye İn-tunu bitirmişdir (indiki ADNA). (1972–85 illərdə həmin in-da faydalı qazıntı yataqlarının geofiziki metodlarla kəşfiyyatı kafedrasının müdiri işləmişdir. 1951–57 illərdə ADU-da (indiki BDU) dərs demişdir. Əsas elmi işləri neftli-qazlı əyalətlərin geofiziki metodlarla tədqiqinin nəzəri və praktiki problemlərinin həlli ilə əlaqədardır. Elmi və mühəndis kadrların hazırlanmasında xidməti olmuşdur.

Əsərləri: Геолого-геофизическая характеристика Прикаспийского нефтеносного района Азербайджана. Б., 1962 (R.H. Abdullayevlə birlikdə); Теория и практика интерпретации геофизических наблюдений. Б., 1964 (R.H. Abdullayevlə birlikdə).

**CƏFƏROV** Hafiz Yusif oğlu (d.26.4. 1947, Bakı) – Azərb. idmançısı. Stend atıcılığı üzrə SSRİ idman ustası (1964), Azərb. SSR əməkdar məşqçisi (1981), SSRİ əməkdar məşqçisi (1984), əməkdar bədən tərbiyəsi və idman işçisi (1984), əməkdar bədən tərbiyəsi və idman xadimi (2008). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1970). Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**CƏFƏROV** Həmzə Rza oğlu (d.25.9. 1949, Nax. MR, Culfa r-nunun Yaycı k.) – Azərb. tarixçisi, tarix e. d. (2008), prof. (2010). Azərb. Dövlət Pedaqoji İn-tunun Naxçıvan filialını bitirmişdir (1971). Naxçıvan Dövlət Pedaqoji İn-tunda (indiki Naxçıvan Dövlət Un-ti) kabinə müdiri (1973–77), müəllim (1977–92), kafedra müdiri (1992–97), həmkarlar ittifaqı komitəsinin sədri (1997–2002), Nax. MR təhsil naziri (2002–05) vəzifələrində çalışmışdır. Nax. MR Ali Məclisinin (2-ci çağırış) deputatı, "Hüquq siyasəti və dövlət quruculuğu məsələləri" daimi komissiyasının sədri olmuşdur. 200-ə yaxın elmi əsərin, o cümlədən bir neçə monoqrafiya, kitab, dərslik və dərs vəsaitinin müəllifidir.

Əsərləri: Azərbaycanda gənclər hərəkatının təşəkkülü və inkişafı. B., 2007; Azərbaycanda gənclər hərəkatı (XX əsr). B., 2009.

**CƏFƏROV** Hidayət Fərrux oğlu (d.8.9.1946, indiki Beyləqan r-nunun Əlinəzərli k.) – Azərb. arxeoloqu, tarix e. d. (1996), prof. (2003), əməkdar müəllim (2006). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1968). 1968–70 illərdə orta məktəbdə müəllim, direktor müavini, direktor olmuşdur. Azərb. EA Tarix İn-tunda, sonra isə Arxeologiya və Etnoqrafiya İn-tunda işləmişdir (1970–89). Gəncə-Qazax, Şamxor, Mil-Qarabağ arxeoloji ekspedisiyalarında iştirak etmiş (1971 ildən), Şamxor arxeoloji ekspedisiyasının rəhbəri (1978), Mil-Qarabağ arxeoloji ekspedisiyasının rəis müavini olmuşdur (1980–88). 1989 ildən (1996–98 illər istisna olmaqla) Azərb. Dövlət İqtisad Un-tində Azərb. tarixi kafedrasının müdiri, 2007 ildən AMEA Arxeologiya və Etnoqrafiya İn-tunun Eneolit və Tunc dövrü şöbəsinin rəhbəridir. 2008 ildən Qarabağ arxeoloji ekspedisiyasının rəisidir. Elmi kadrların hazırlanmasında xidməti var. 200-ə yaxın elmi əsərin, o cümlədən monoqrafiya və dərsliyin müəllifidir.

**CƏFƏROV** Hüseyn Məmməd oğlu (30.12.1917, Gəncə – 17.1.1998, Bakı) – inşaat sahəsində alim, texnika e.d. (1973), prof. (1983). 1941 ildə Azərb. Sənaye İn-tunu (indiki ADNA) bitirmişdir. Mingəçevir Su Elektrik St.-nda baş mühəndis, Azərb. EA-nın Naxçıvan ET İn-tunda direktor, Azərb. ET Tikinti Materialları və Məmulatları İn-tunda laboratoriya müdiri, Azərb. İnşaat Mühəndisləri İn-tunda (indiki Memarlıq və İnşaat İn-tu) kafedra müdiri vəzifələrində çalışmışdır. Əsas elmi işləri tikinti texnologiyasına, inşaat materialları və məmulatlarının tədqiqinə aiddir. 112 elmi əsərin müəllifidir.

**CƏFƏROV** Xansuvar Fərzəli oğlu (8.1.1936, Erm. SSR Gorus r-nunun, Şamsız k. – 28.9.2011, Bakı) – meliorasiya sahəsində Azərb. alimi, texnika e.d. (1991), prof. (1994). 1958 ildə Azərb. Politexnik İn-tunu bitirmişdir. 1958–86 illərdə Azərb. Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İn-tunda müxtəlif vəzifələrdə çalışmışdır. 1986–89 illərdə Kuba Resp.-da elmi ezamiyyətdə olmuşdur. 1989–2011 illərdə Azərb. Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İn-tunda işləmişdir. Elmi tədqiqatları şoran torpaqlarda dərin şum və dərindən yumşaldılma aparılması, müvəqqəti dayaz drenlər tətbiq edilməsi, kimyəvi meliorantlardan, elektrik cərəyanından istifadə etməklə və s. üsullarla torpaqların duzsuzlaşdırılması sahəsindədir. 150-dən çox elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**CƏFƏROV** İbrahim Həsən oğlu (d.20.1.1956, Nax. MR-in Şərur r-nunun Düdəngə k.) – Azərb. fitopatoloqu. K.t. e.d. (2005), prof. (2011). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1985). Azərb. Kənd Təsərrüfatı Akademiyasında dekan (1993–2002), dosent (2002–09) olmuşdur, 2009 ildən Azərb. Dövlət Aqrar Un-tinin tədris işləri üzrə prorektorudur. Tədqiqatları müxtəlif k.t. bitkilərinin (çəyirdəkli meyvə bitkiləri, üzüm, şəkər çuğunduru və s.) xəstəlik törədicilərini öyrənməklə əsas xəstəliklərə qarşı mübarizə tədbirləri sisteminin işlənilməsinə həsr edilmişdir. 120-dən artıq elmi əsərin müəllifidir.

**CƏFƏROV** İlhami Yusif oğlu (d.24.7.1950, Şuşa r-nu, Aşağı Quşçu k.) – Azərb. dilçisi, filologiya e.d. (2011). Azərb. Dövlət Pedaqoji İn-tunu (1972) bitirmişdir. 2006 ildən AMEA-nın Nəsimi ad. Dilçilik İn-tunda işləyir. Tədqiqatları Suziana və Urartu kitabələrinin teonim və etnonimləri, alban, iber, h'ay dillərinin türk leksikası problemlərinə həsr edilmişdir. 60-dan çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir.

Əsərləri: Türk, Urartu, Alban etnolinqvistik uyğunluqları. B., 2008; Türk dillərində teonim və etnonimlər. B., 2010.

**CƏFƏROV** İmran Bayram oğlu (d.24.8.1931) – Azərb. filosofu, fəlsəfə e.d. (1986), prof. (1988), əməkdar müəllim (2000). Azərb. Dövlət Un-tini (indiki BDU, 1956) və Moskva İqtisadiyyat Un-tini (1960) bitirmişdir. Azərb. LKGİ MK-də təlimatçı, şöbə müdiri, Azərb. SSR Nazirlər Sovetində baş referent, köməkçi, şöbə müdiri müavini, AKP MK yanında Bakı Ali Partiya Məktəbinin rəhbər partiya və sovet işçilərinin ixtisasartırma kurslarının tədris işləri üzrə direktor müavini, 1990–93 və 1998–2010 illərdə ADNA-da prorektor vəzifəsində işləmişdir. 1989 ildən ADNA-da "İctimai fənlər" kafedrasının müdiridir. Sosial fəlsəfə, dövlət quruculuğu, milli təhlükəsizlik strategiyası və s. problemlərlə bağlı 500-dən artıq elmi əsərin, o cümlədən 6 kitab və monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. Tərəqqi medalı ilə təltif edilmişdir (2010).

**CƏFƏROV** İsax Əli oğlu (1928, Gəncə – 28.11.1985, Gəncə) – Azərb. idmançısı. Sərbəst güləş üzrə Azərb. SSR əməkdar məşqçisi (1960), SSRİ əməkdar məşqçisi (1965). Tələbələri arasında dünya, Avropa, SSRİ çempionu və mükafatçıları vardır.

**CƏFƏROV** İsgəndər Həsən oğlu (d.30.12.1940, İmişli r-nunun Əlipənahlı k.) – Azərb. fiziki, fizika-riyaziyyat e.d. (1979), prof. (1987). AMEA-nın m. üzvü (2014). Əməkdar elm xadimi (2012). Azərb. Dövlət Un-tini bitirmişdir (1962). Əmək fəaliyyətinə Azərb. Politexnik İn-tunda (indiki Azərb. Dövlət Texniki Un-ti) baş müəllim kimi başlamışdır. 1969–76 illərdə Azərb. SSR EA-nın Fizika İn-tunun nüvə fizikası laboratoriyasında baş elmi işçi, 1976 ildən laboratoriya müdiri vəzifəsində çalışmışdır. 1985–89 illərdə Naxçıvan Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) rektoru olmuşdur. Azərb. Dövlət Pedaqoji İn-tunda (indiki ADPU) fizika fakültəsinin dekanı (1990–95), 1995 ildən nəzəri fizika kafedrasının müdiridir. Tədqiqatları yüksək enerjilər fizikası – elementar zərrəciklər və onların qarşılıqlı təsirləri nəzəriyyəsi sahəsindədir. Elementar zərrəciklərin zəif və elektrozəif qarşılıqlı təsirlərinin bir sıra modelini irəli sürmüş, onların realistlik dərəcəsini yoxlamaq üçün çoxlu sayda prosesin ehtimallarını və effektiv kəsiklərini hesablamış, zərrəciklərin qarşılıqlı təsirlərinə çox həssas olan bir sıra effektlər (neytral cərəyan effektləri) aşkar etmişdir. 160-a qədər elmi əsərin müəllifidir.



**CƏFƏROV** Qara Mustafa oğlu (d.11.2.1954, Qazax r-nu) – Azərb fiziki, fizika-riyaziyyat e.d. (1999), prof. (2004). Azərb. Dövlət Un-tini bitirmişdir (1976). Azərb. Elmi-Tədqiqat Əkinçilik İn-tunda baş mühəndis vəzifəsində (1977–80), AMEA Fizika İn-tunda (1980–2006) çalışmışdır. 2001 ildən Azərb. Dövlət İqtisad Un-tində fizika kafedrasının prof. Tədqiqatları bərk cism fizikası, yarımkeçiricilərin kristallofizikası sahəsindədir. Bu sahədə aldığı elmi nəticələr mis, gümüş xalkogenidlərində fazaəmələgəlmə və struktur keçidləri qanunauyğunluqlarını müəyyən etməyə imkan vermişdir. 100-ə qədər elmi əsərin müəllifidir.

**CƏFƏROV** Maarif Əli oğlu (d.4.08.1960, Laçın r-nunun Minkənd k.) – Azərb. fiziki, fizika-riyaziyyat e.d. (2007), prof. (2010). Azərbaycan Dövlət Un-tini bitirmişdir (1982). Əmək fəaliyyətinə keçmiş SSRİ Müdafiə Nazirliyinin Tətbiqi Fizika İn-tunun Bakı filialında mühəndis kimi başlamışdır (1982). 1989–93 illərdə Fotoelektronika Elmi-Tədqiqat İn-tunda böyük elmi işçi vəzifəsində işləmişdir. 1994 ildən BDU-nun fizika fakültəsi nəzdində Bərk cisimlər elektronikası elmi-tədqiqat laboratoriyasının müdiridir. Tədqiqatları $A^{II}B^{IV}$ tipli birləşmələrin və onların bərk məhlullarının kimyəvi çökdürülmüş nazik təbəqələrində elektron proseslərinə aiddir. 150-dən çox elmi əsərin müəllifidir.

**CƏFƏROV** Məmməd Abdulla oğlu (d.16.12.1926, Şərur r-nunun Şahtaxtı k. – 12.2.1997, Naxçıvan ş.) – Sosialist Əməyi Qəhrəmanı (1949). Naxçıvan r-nu, "Azərbaycan" kolxozunda briqadir, sədr, Naxçıvan şəhər inkubator st.-sında və Şərur r-nu 3-saylı tütünçülük sovxozunda direktor və s. vəzifələrdə işləmişdir. 1948 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur. Əmək şöhrəti ordeni və medallarla təltif edilmişdir.



**CƏFƏROV** Məmməd Cəfər – bax *Məmməd Cəfər*.

**CƏFƏROV** Məmmədtağı İbrahim oğlu (15.6.1936, Erm. SSR, Amasiya r-nunun Oxçuoğlu k. – 17.6.2007, Gəncə) – Azərb. torpaqşünası. AMEA-nın akad. (2001). K.t.e.d. (1973), prof. (1975). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1959). 1959–83-illərdə həmin İn-tda Kənd Təsərrüfatı istehsalının təşkili kafedrasında müxtəlif vəzifələrdə çalışmışdır. Azərb. Kənd Təsərrüfatı İn-tunun rektoru olmuşdur (1983–89; 1995–2007). Tədqiqatları Azərb. torpaqlarında və əkinçiliyində fosfatlar probleminə, gübrələmə sisteminə, irimiqyaslı torpaq xəritələrinin tərtibi və istifadəsinə həsr edilmişdir. 200-dən çox elmi əsərin, o cümlədən ikicildlik dərsliyin, 8 dərs vəsaitinin və 1 monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.



Əsəri: Проблема фосфатов в почвах и земледелии Азербайджана, Б., 1982.

**CƏFƏROV** (Cəfərzadə) Məmmədyusif Hacıbaba oğlu (14.3.1885, Bakı – 15.5.1938, Bakı, Şağan k.) – Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) banilərindən biri; AXC parlamentinin sədr müavini (2.2.1920–27.4.1920). Bakı kişi gimnaziyasını (1907) və MDU-nun hüquq fakültəsini (1912) fərqlənmə diplomu ilə bitirmişdir. Təhsil illərində Moskvada oxuyan azərb. tələbələrin yaratdığı "Azərbaycan etnoqrafik konsert gecələri"nin və "Azərbaycan həmyerlilər təşkilatı"nın üzvü, sonralar isə rəhbərlərindən biri olmuşdur.



Bakıya qayıdaraq məhkəmədə barışdırıcı hakim köməkçisi vəzifəsində çalışmışdır. 1912 ildə Bakı, Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən 4-cü Dövlət dumasına seçilən yeganə müsəlman deputat idi.

C. 1912–17 illərdə Sankt-Peterburqda fəaliyyət göstərən 4-cü Dövlət dumasının Müsəlman fraksiyasının, büdcə, köçürmə, sorğu, məhkəmə islahatı, hərbi və dəniz işləri üzrə komissiyalarının üzvü seçilmişdir. C. dumada çıxışları zamanı çar hökumətinin müstəmləkəçilik siyasətini, Cənubi Qafqaz əhalisinə, xüsusən müsəlmanların maariflənməsinə laqeyd münasibət göstərildiyini, hüquqlarının məhdudlaşdırıldığını, milli məktəblərin bağlandığını tənqid etmiş və kazarmaya çevrilmiş məscidlərin geri qaytarılmasını Müsəlman fraksiyası adından tələb etmişdir. Çarizmin köçürmə siyasətinə öz mənfi münasibətini bildirən C., bunun "yerli ünsürü sıxışdırmaq yolu ilə ucqarlarda rus ünsürünü gücləndirmək" məqsədi daşıdığını göstərirdi. Köçürmə nəticəsində ən yaxşı torpaqların yerli əhalidən alınıb gəlmə əhaliyə verilməsini, yerli əhalinin yaşamaq imkanlarının əlindən alınmasını C. "dövlət işi yox", yerli əhaliyə qarşı yönəldilmiş "dövlət bəlası" hesab edirdi.

Rusiyada baş verən Fevral inqilabını (1917) rəğbətlə qarşılayan C. 1917 il martın 9-da Müvəqqəti hökumətin göstərişi ilə 4-cü Dövlət dumasının üzvlərindən yaradılan *Xüsusi Zaqafqaziya Komitəsinin* tərkibinə daxil idi. Həmin komitədə ona sənaye və ticarət işlərinə rəhbərlik tapşırılmışdı. Komitə "Müvəqqəti hökumət tərəfindən 1917 il martın 6-da bütün xalqa elan olunmuş prinsiplər əsasında Zaqafqaziya diyarında möhkəm qayda yaratmalı və diyarda hakimiyyət orqanını təşkil etməli idi". C. Fevral inqilabı nəticəsində əldə olunmuş azadlığı qoruyub saxlamaq üçün bütün səyləri birləşdirməyə çağırırdı: "Bu azadlığı əlinizdən verməyin, onu əlinizdə möhkəm saxlayın, iç işləri barədə isə sonra danışarıq". Çarizmin devrilməsi ərəfəsində fəaliyyət göstərmiş 4-cü Duma tribunasından istifadə edən C. "mərkəzləşdirilmiş bürokratik mexanizmin Rusiyanın özgə xalqlarının milli hisslərini" təhqir etdiyini tam açıqlığı ilə bildirmişdi.

C. 1917 il aprelin 15–20-də Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında çıxış etmiş, müsəlmanları birliyə çağırmışdı. Həmin il noyabrın 15-də Tiflisdə yaradılan Zaqafqaziya Komissarlığında C. ticarət və sənaye komissarı vəzifəsini tutmuşdu. C. 1918 il fevralın 23-dən Tiflisdə işə başlayan Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü, bu fraksiyanın ümumi rəyasət heyətinin sədr müavini idi. O, seymin və müsəlman fraksiyasının iclaslarında dəfələrlə çıxış edərək Cənubi Qafqaz xalqlarını dostluğa, ədavəti aradan qaldırmağa, əldə edilmiş azadlığı qorumağa çağırmış, Türkiyə dövləti ilə danışıqlara başlamağı və sülh sazişi bağlamağı təklif etmişdir.

1918 il mayın 27-də Müsəlman fraksiyasının fövqəladə iclasında M.Ə. *Rəsulzadənin* sədrliyi ilə yaradılan Müvəqqəti Milli Şuranın İcraiyyə Komitəsinin tərkibinə C. da seçilmişdi. C. Azərbaycan Milli Şurasının 1918 il mayın 28-dəki iclasında qəbul etdiyi *İstiqlal bəyannaməsini* imzalayanlardan biri olmuşdur. Həmin iclasda F. Xoyskinin təşkil etdiyi ilk Azərbaycan hökumətinin tərkibində C. ticarət və sənaye naziri vəzifəsini tutmuşdur; iyunun 17-də hökumət istefa verdikdən sonra, C. AXC-nin Gürc. Resp.-nda diplomatik nümayəndəsi olmuşdur (1919 il martın ortalarınadək). O, bu vəzifədə Azərb. və Gürc. hökumətləri arasında dostluq əlaqələrinin yaradılmasında, keçmiş Zaqafqaziya Demokratik Federativ Respublikasının əmlakının bölüşdürülməsində, Gürc. və Dağlılar resp.-ları nümayəndələrinin Tiflisdə keçirilmiş konfransında yaxından iştirak etmiş və əlavə müvəqqəti kağız pul buraxılması haqqında Azərb.-la Gürc. arasında müqaviləni imzalamışdır.

1919 il martın 14-də N. *Yusifbəylinin* təşkil etdiyi 4-cü hökumətdə C. xarici işlər naziri vəzifəsini tutmuş, bu vəzifədə 1919

il dekabrın 22-ə qədər çalışmışdır. C. bir diplomat kimi AXC-nin mənafeyini müdafiə etmişdir. Bu onun imzaladığı Gürc. və Azərb. resp.-ları arasında hərbi-müdafiə sahəsində əməkdaşlıq haqqında müqavilədə, Azərb., Gürc. və Erm. resp.-ları arasında sazişdə, azərb.-lara qarşı soyqırımı və ayrı-seçkilik siyasəti əleyhinə Erm. Xarici İşlər Nazirliyinə, müsəlman əhalisinin mənafeyinin, əmlakının müdafiəsinə, Azərb.-ın ərazi bütövlüyünün qorunmasına dair B.Britaniyanın Cənubi Qafqazdakı və Bakıdakı qoşunlarının komandanlıqlarına göndərdiyi notalarda və s. aydın əksini tapmışdır. C.-un sərəncamı ilə çar Rusiyanın Cənubi Qafqazda siyasətinə dair sənədlər toplusunu hazırlamaq üçün xüsusi komissiya yaradılmışdı.

1920 il fevralın 2-də M.Ə. Rəsulzadənin təklifi ilə parlament sədrinin birinci müavini seçilmiş və AXC-nin süqutunadək bu vəzifədə çalışmışdır. C. 1920 il aprelin 27-də parlamentin son iclasında gərgin müzakirələrdən sonra hakimiyyətin Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə verilməsi haqqında qərarı imzalamışdır. AXC-nin süqutundan sonra Azərbaycanın pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi işləmişdir.

**CƏFƏROV** Mikayıl Məhəmməd oğlu (d. 7.7.1939, Gürc. SSR, Marneuli r-nunun Dəmyə-Gorarxı k.) – Azərb. dilçisi, filologiya e.d. (1998), prof. (2004). Azərb. Pedaqoji Dillər İn-tunu bitirmişdir (1969). 1984 ildən indiki BDU-da kafedra müdiridir. Tədqiqatları 17–20 əsrlər rus dilində mürəkkəb sifətlər və sözlərin struktur-semantik inkişafı məsələlərinə həsr olunmuşdur. 60-dan çox elmi əsərin müəllifidir.

Əsərləri: Лексический аспект в преподавании русского языка как неродного. Б., 2000; Очерки по истории русского словосложения. Б., 2009.

**CƏFƏROV** Namiq Vaqif oğlu (d.27.8. 1976, Bakı) – Azərb. idmançısı. Poverliftinq üzrə dörd dəfə Avropa (2008, Çexiya; 2011, Rusiya, müxtəlif hərəkətlərdə; 2012, Ukrayna), üç dəfə dünya (2008, İngiltərə; 2011, ABŞ; 2012, Rusiya) çempionu, iki dəfə Dünya kuboku yarışlarının (2010, Azərb; 2011, Rusiya) qalibidir. Rusiya Dövlət Sosial Un-tetini bitirmişdir (2009).



**CƏFƏROV** Nizami Qulu oğlu (d.21.9. 1959, Qazax r-nunun Zəlimxan k.) – Azərb. dilçisi və ədəbiyyatşünası, ictimai xadim. Filologiya e.d. (1992), prof. (1994), AMEA-nın m. üzvü (2001). Əməkdar elm xadimi (2000). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1982). BDU-nun filologiya fakültəsinin dekanı (1994–2001) olmuş, 2001 ildən ümumi dilçilik kafedrasının müdiri, eyni zamanda Atatürk Mərkəzinin direktorudur. Tədqiqatları Azərb. dilində sadə cümlənin struktur-semantik inkişafı, 18 əsr Azərb. ədəbi dili, Azərb. türkcəsinin milliləşməsi və azərbaycanşünaslığın əsasları və inkişafı tarixinə, qədim türk və türk xalqları ədəbiyyatı tarixi və müasir ədəbi prosesə bağlı problemlərə həsr olunmuşdur. Çox sayda elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifidir. Əsərləri Türkiyə və İranda nəşr edilmişdir. Azərb. Resp. Milli Məclisinin (2–3 çağırış) deputatı, Mədəniyyət məsələləri üzrə daimi Komitənin sədridir.



Əsərləri: Füzulidən Vaqifə qədər. B., 1991; Klassiklerden çağdaşlara. İstanbul, 2006; Azərbaycanşünaslığın əsasları. Təbriz, 2007; Seçilmiş əsərləri. C. 1–5. B., 2007; Türk xalqları ədəbiyyatı. C. 1–4. B., 2006–2007.

**CƏFƏROV** Nurəddin Cəmaləddin oğlu (6.10.1933, Nuxa (indiki Şəki) ş.–15.7. 2007, Bakı; Şəkidə dəfn olunub) – yeraltı hidroqazodinamika, neft və qaz yataqlarının işlənilməsi sahəsində Azərb. alimi, texnika e.d. (1992). 1959 ildə Azərb. Pedaqoji Un-ti (indiki Azərb. Pedaqoji Un-ti) fizika-riyaziyyat fakültəsini bitirmişdir. 1965–2003 illərdə Azərb. EA Dəniz Neft və Qaz Yataqlarının Problemləri İn-tunda müxtəlif vəzifələrdə, 2003–07 illərdə AMEA-nın Geologiya İn-tunda elmi məsləhətçi işləmişdir. Tədqiqatları neft və qaz yataqlarının işlənilməsinin texnoloji göstəricilərinin proqnozlaşdırılmasının sadələşdirilməsi və etibarlılığının artırılması üçün kompleks-analitik və analitik rəqəmli hesabat üsullarının işlənib hazırlanması sahəsindədir. C. 130-dan çox elmi məqalənin, o cümlədən 1 monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. İ.M. Qubkin ad. mükafata layiq görülmüşdür (1985).

**CƏFƏROV** Rauf Qədir oğlu (d. 10.02. 1961, İrəvan) – Azərb. fiziki, fizika-riyaziyyat e.d. (2007). Azərb. Dövlət Un-tini bitirmişdir (1983). Əmək fəaliyyətinə AMEA Fotoelektronika elmi-tədqiqat in-tutunda mühəndis kimi başlamışdır (1983–87), BDU-da baş laborant (1987–92), baş müəllim (1992–93), Rusiya EA P.N. Lebedev ad. Fizika İn-tutunda elmi işçi (1993–95), aparıcı elmi işçi (1999–2005) vəzifəsində çalışmışdır. 2005 ildən BDU-nun Fizika Problemləri İn-tutunun baş elmi işçisidir. Tədqiqatları elementar zərrəciklər fizikasının riyazi aparatı olan kvant sahə nəzəriyyəsinə, çoxzərrəcikli sistemlərin rabitəli hallarını öyrənən, qeyri-perturbativ kvant sahə nəzəriyyəsi metodlarına həsr olunan Bete–Salpeter tənliklərinin araşdırılması probleminə aiddir. 50-dən çox elmi əsərin müəllifidir.

**CƏFƏROV** Samir Qadir oğlu (d.19.11. 1976, Nax. MR, Babək r-nunun Nehrəm k.) – Azərb. müğənnisi (tenor). Azərb. Resp. xalq artisti (2012). Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-tini (1997) və Bakı Musiqi Akademiyasını (2001, F. Qasımovanın sinfini) bitirmişdir. 2003–05 illərdə Moskvada Q.P. Vişnevskayanın Opera ifaçılığı mərkəzində təhsilini davam etdirmişdir. 2009 ildən Azərb. Dövlət Opera və Balet Teatrının solistidir. Əsas partiyaları: Koroğlu ("Koroğlu", Ü. Hacıbəyli), Onegin ("Yevgeni Onegin", P.İ. Çaykovski), Hersoq, Alfred ("Riqoletto", "Traviata", C. Verdi), Turiddu ("Kənd namusu", P. Maskanyi). N.A. Rimski-Korsakov və S.V. Raxmaninovun əsərlərindən ayrı-ayrı partiyaları ifa etmişdir. Azərb. Milli Konservatoriyasında pedaqoji fəaliyyət göstərir (2012 ildən). Xarici ölkələrdə qastrol səfərlərində olmuşdur.



**CƏFƏROV** Səftər Məmməd oğlu (1900, Bakı yaxınlığındakı Pirşağı k.– 16.11. 1961, Bakı) – sovet dövlət xadimi. 1915 ildən Bakının müxtəlif sənaye müəssisələrində çalışmış və fəhlə hərəkatına qoşulmuşdur. 1920 ilin yanvarından Sov. İKP üzvü. Azərb.-da sovet hakimiyyətinin qələbəsindən sonra Qırmızı orduda xidmət etmiş, Azərb. atıcı diviziyasında batalyon və polk komissarı, hərbi komissar, 1926–32 illərdə Azərb. atıcı diviziyası, 2-ci Qafqaz diviziyası və Xəzər hərbi donanmasının hərbi prokuroru olmuşdur. Azərb. SSR-in xalq ədliyyə komissarı və prokuroru (1932–35), Nax. MSSR MİK-in sədri, SSRİ XKS yanında Azərb. SSR-in daimi nümayəndəsi (1935–40), xalq torpaq komissarı (1940–47) işləmişdir. C. Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin katibi (1947–57), sədr müavini (1957–59), sədri (1959–61) vəzifələrində çalışmışdır. Sov. İKP 22-ci qurultayında Sov. İKP Mərkəzi Təftiş Komissiyasının üzvü seçilmişdir. Azərb. KP MK Bürosunun üzvü və Azərb. SSR Ali Sovetinin (1–5-ci çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, 2 Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.

**CƏFƏROV** Səlim Əbdüllətif oğlu (1.6.1907, Dağıstan, Rutul r-nunun Saxur k. – 30. 4.1978, Bakı) – Azərb. dilçisi, filologiya e.d. (1959), prof. (1961). Azərb. SSR Dövlət mükafatı laureatı (1974). Müasir Azərb. dilinin qrammatikası və leksikologiyasına dair tədqiqatların, ali və orta məktəb dərsliklərinin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Əsərləri: Müasir Azərbaycan dilində söz yaradıcılığı. B., 1960; Müasir Azərbaycan dili. Leksika. B., 1982.

**CƏFƏROV** Sənan Allahverdi oğlu (d.28.6.1984, Cəbrayıl r-nun Soltanlı k.) – Azərb. idmançısı. Karate üzrə Avropa çempionatının bürünc (2006, Odessa, Ukrayna), dünya çempionatının gümüş (2011, Antalya, Türkiyə) mükafatçısıdır.

**CƏFƏROV** Səyyəddin Məşədi oğlu [d.15.2.1949, Xanlar ş. (indiki Göygöl ş.)] – kibernetika və idarəetmə sahəsində Azərb. alimi, texnika e.d. (1989), prof. (1990). 1971 ildə Azərb. Neft və Kimya İn-tunu (AzNKİ; indiki ADNA) bitirmişdir. 1971–80 illərdə "Neftkimyaavtomat" ET və Layihə İn-tunda, 1980–89 illərdə AzNKİ-də müxtəlif vəzifələrdə çalışmışdır. 1990 ildən ADNA-nın prof.-udur. Elmi işləri müasir idarəetmə nəzəriyyəsinə, intellektual sistemlərin qurulma prinsiplərinə aiddir. 100-dən çox elmi əsərin müəllifidir. Beynəlxalq elmi konfranslarda çıxış etmişdir. Elmi kadrların hazırlanmasında xidməti var.

Əsərləri: Müasir idarəetmə nəzəriyyəsi (R.Ə. Əliyev və M.C. Babayev ilə birlikdə). B., 2002; İntellektual sistemlərin qurulma prinsipləri (başqaları ilə birlikdə). B., 2005.

**CƏFƏROV** Şəmsəddin Məmməd oğlu (10.5.1925, Qazax r-nunun Molla Cəfərli k. – 10.4.1976, Bakı) – Azərb. filosofu, fəlsəfə e.d. (1973). MDU-nu bitirmişdir (1950). Tədqiqatları M.F. Axundovun sosial-siyasi və fəlsəfi görüşlərinin öyrənilməsinə həsr olunmuşdur. Azərb. Teatr İn-tutunda fəlsəfə kafedrasının təşkilatçısı və ilk müdiri (1966) olmuşdur.

**CƏFƏROV** Telman Həmzağa oğlu (d.22.7.1963, Yardımlı r-nunun Vəlixanlı k.) – Azərb. ədəbiyyatşünası, tərcüməçi. Filologiya e.d. (2004), prof. (2009). Azərb. Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tunu (indiki BSU) bitirmişdir (1985). "Mütərcim" Tərcümə və Nəşriyyat-Poliqrafiya Mərkəzinin təsisçisi və direktoru (1993 ildən), "Mütərcim" jurnalının baş redaktoru (1996 ildən), BSU nəzdindəki məktəb-lisey kompleksinin direktorudur (1996 ildən). Tədqiqatları qədim rus ədəbiyyatında slavyan-türk əlaqələrinə, ədəbiyyat tarixinə və tərcümə problemlərinə həsr olunmuşdur.200-dən çox elmi əsərin, o cümlədən monoqrafiyaların müəllifidir.

Əsərləri: Тюркские элементы в русской литературе XV–XVII веков. М., 2003; XV–XVII Yüzyıl Rus Edebiyatında Türkler. Ankara, 2010; Avrasiyaçılıq ideyaları müasirlik prizmasında. B., 2010.

**CƏFƏROV** Təyyar Cümşüd oğlu (d.18. 7.1939, Bakı) – Azərb. fiziki, AMEA-nın akad. (2014; m. üzv 1998). Azərb. Dövlət Un-tini bitirmişdir (1961). 1961–78 illərdə SSRİ EA-nın A.F. İoffe ad. Fizika-Texnika İn-tunda müxtəlif vəzifələrdə, o cümlədən Diffuziya Prosesləri Sektorunun rəhbəri vəzifəsində çalışmışdır. 1979–93 illərdə AMEA-nın Fizika İn-tunda direktor müavini olmuşdur. 1993 ildən həmin in-tda şöbə müdiri vəzifəsində işləyir. Tədqiqatları bərk cism fizikası və yarımkeçiricilər elektronikası sahəsindədir. Onun elmi araşdırmaları əsasən iki istiqamətdədir: yarımkeçiricilərdə diffuziya hadisələri və Günəş, hidrogen enerjisi çevricilərinin fizikası və texnologiyası. C. tələbələri ilə birlikdə elementar və mürəkkəb yarımkeçiricilər əsasında Günəş enerjisini elektrik enerjisinə çevirən effektiv Günəş elementlərini işləyib hazırlamışdır. O, ətraf mühitin monitorinqi üçün zəruri olan, alışqan və zərərli qazlara yüksək dərəcədə həssas olan nanoquruluşlu silisium əsasında yeni tip sensorların hazırlanma texnologiyasını işləmişdir. Bu tip quruluşların biosensor xüsusiyyətlərinə də malik olduğu kəşf edilmişdir. Metal məsaməli silisium quruluşların əsasında, hidrogenin kimyəvi enerjisini elektrik enerjisinə çevirən və ətraf mühiti çirkləndirməyən PEM (Proton Exchange Membrane) tipli "hidrogen elementlərinin" alınması texnologiyasını işləmişdir. Hidrogen elementindəki fiziki hadisələrin mexanizmləri araşdırılmış və göstərilmişdir ki, bu tip hidrogen elementləri təmiz elektrik enerjisi mənbəyi kimi istifadə edilə bilər. C. bu mövzuda bir sıra beynəlxalq (NATO, TUBİTAK, STCU, DPT) layihələrin rəhbəri olmuşdur. Azərb. Neft və Kimya Akademiyasında (1980–93), İstanbulun Yıldız Texniki Un-tində (1993–2004) mühazirələr oxumuşdur. 220 elmi əsərin və 3 monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.



Əsərləri: Atomic Diffusion in Semiconductor Structures (H.B. Abdullayev ilə birlikdə). Harwood Academic Publishers, London–Paris–New-York, 1987; Дефекты и диффузия в эпитаксиальных структурах. Наука, Л., 1978; Радиационно-стимулированная диффузия в полупроводниках. Энергоатомиздат, М., 1987.

**CƏFƏROV** Valeh Cabbar oğlu (d.2. 11.1943, Gədəbəy r-nunun Arıqıran k.) – Azərb. kimyaçısı, kimya e.d. (2009), AMEA-nın m. üzvü (2014). Azərb. Neft və Kimya İn-tunu (indiki ADNA) bitirmişdir (1967). Azərb. EA Polimer Materialları İn-tunda direktor müavini (1980–84), baş mühəndis (1984–1991), H. Zərdabi ad. Gəncə Dövlət Pedaqoji İn-tunda elmi-tədqiqat bölməsinin və aspirantura şöbəsinin müdiri (1991–93) işləmişdir; 1993 ildən AMEA Polimer Materialları İn-tunda direktor müavini, həmçinin ekologiya və texnologiya problemləri laboratoriyasının müdiri vəzifələrində çalışır. Tədqiqatları polimer kompozisiya materiallarının alınmasına həsr edilmişdir. 150 elmi əsərin müəllifidir.

**CƏFƏROV** Zeynal Rza oğlu (d.25.6. 1929, Goranboy r-nunun Borsunlu k.) – Azərb. otorinolarinqoloqu, tibb e.d. (1989), prof. (1990). Kuybışev (indiki Samara) Tibb İn-tunu bitirmişdir (1956). 1968 ildən Azərb. Dövlət Tibb İn-tunun qulaq, burun, boğaz xəstəlikləri kafedrasında (1982–95 illərdə kafedra müdiri, 1995 ildən prof.) işləyir. Tədqiqatları müxtəlif peşə sahələrində çalışan işçilərdə boğaz, qulaq xəstəliklərinin öyrənilməsinə həsr edilmişdir.

**CƏFƏROVA** Bahar Cumay qızı (d.3.5. 1953, Şəki ş.) – Azərb. filoloqu, dilçi, filologiya e.d. (2007). Azərb. Pedaqoji Xarici Dillər İn-tunu (1974) bitirmişdir.

2009 ildən Azərb. Resp. Fövqəladə Hallar Nazirliyi Akademiyasının humanitar fənlər kafedrasının müdiridir. Tədqiqatları terminoloji lüğətlərin elmi əsasları və tərtibi prinsiplərinə, ingilis və Azərb. dillərində feilin zamanlar sisteminə həsr olunmuşdur. 50-dən çox elmi əsərin, o cümlədən bir monoqrafiyanın müəllifidir.

Əsərləri: Terminoloji lüğətçilik məsələləri. B., 1999; İngilis və Azərbaycan dillərində feilin zamanlar sistemi. B., 2004.

**CƏFƏROVA** Bəsti Əli qızı (d. 13.6.1959, Bakı) – Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1998), prof. (2013). Azərb. Dövlət İncəsənət İn-tunu (A. İsgəndərovun sinfini) bitirmişdir (1980). Həmin ildən Azərb. Dövlət Akademik Milli Dram Teatrında fəaliyyət göstərir. C.-nın səhnə yaradıcılığında lirik, psixoloji-dramatik, facia və bəzən də komik xarakterli obrazlar əsas yer tutur: Nazlı, Bənövşə ("Əliqulu evlənir", Nişanlı qız", S. Rəhman), Xavər ("İblis", H. Cavid), Solmaz, Pəri ("Od gəlini", "Solğun çiçəklər", C. Cabbarlı), Lalə ("Büllur sarayda", İ. Əfəndiyev), Bədidə ("Qanlı Nigar", S. Şendil), Pakizə ("Mirzə Şəfi Vazeh", N. Xəzri), Ağabəyim ağa ("Hökmdar və qızı", İ. Əfəndiyev), Ədilə ("Poçt şöbəsində xəyal", Elçin), Fedra ("Fedra", J. Rasin), Afət ("Afət", H. Cavid) Natəvan ("Xurşid banu Natəvan", İ. Əfəndiyev), Kesaliya ("Kaş araba aşmayaydı!...", O. Ş. İoseliani), Qadın ("İnsan səsi", J. Kokto), Şəhrəbanu xanım ("Müsyö Jordan və dərviş Məstəli şah", M.F. Axundzadə), Xanuma ("Xanuma", A. Saqarelli). C. həmçinin "Tədris teatrı"nın ("Mən Dədə Qorqud...", "Kitabi-Dədə Qorqud" dastanı əsasında; "Təskinlik verməyi unutmayın", S. Ekzüperinin "Kiçik şahzadə" əsəri əsasında), "Yuğ" Dövlət teatrının ("Salam", M. Şəhriyarın "Heydərbabaya salam" əsəri əsasında) hazırladığı tamaşalarda maraqlı obrazlar yaratmış, televiziya tamaşalarında ("Solğun çiçəklər", C. Cabbarlı; "Ər və arvad" M. Bayciyev; "Astana", A. Dudarev; "Analar", Ə. Cəfərzadə və s.), rej. O. Mirqasımovun "Günaydın, mələyim" (2008) filmində çəkilmişdir. 2004 ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Un-tində pedaqoji fəaliyyət göstərir.



**CƏFƏROVA** Elmira Əsəd qızı (d.7.6. 1937, Naxçıvan) Azərb. fiziki, fizika-riyaziyyat e. d. (2007). Lomonosov ad. Moskva Dövlət Un-tini bitirmişdir (1961). 1961 ildə Azərb. SSR EA-nın Fizika İn-tunda fəaliyyətə başlamışdır. 2000 ildən AMEA-nın Fizika İn-tunda "Heteroquruluşlar fizikası" laboratoriyasının müdiridir. Tədqiqatları bərk cism elektronikası və heteroquruluşlar fizikası sahəsindədir. Aldığı nəticələrə əsasən yarımkeçiricilərdə və hazır cihazlarda aşqar mərkəzlərini identifikasiya etmək olur. 120-dən çox elmi əsərin müəllifidir.

**CƏFƏROVA** Əminə Surxay qızı (d.1925 Ağdam – 13.08.2011, Bakı) – Sosialist Əməyi Qəhrəmanı (1949). Ağdam r-nundakı Natəvan ad. üzümçülük sovxozunda manqabaşçısı və s. vəzifələrdə işləmişdir (1941–71). 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 3 dəfə Lenin ordeni ilə təltif edilmişdir.



**CƏFƏROVA** Rəna Ələkbər qızı (d.20. 1.1953, Tovuz) – Azərb. kimyaçısı, kimya e.d. (2006), Azərb. Dövlət Un-tini bitirmişdir (1975). AMEA-nın Y. Məmmədəliyev ad. Neft-Kimya Prosesləri İn-tunda böyük elmi işçi, aparıcı elmi işçi işləmişdir; 2007 ildən baş elmi işçi vəzifəsində çalışır. Tədqiqatları neft və neft məhsulları əsasında neft lüminoforlarının işlənib-hazırlanması, onların müxtəlif fiziki və fiziki-kimyəvi üsullarla tədqiqi və tətbiqi sahəsindədir. 115 elmi əsərin müəllifidir.

**CƏFƏROVA** Sonaxanım Əli qızı (24.1. 1928, Bakı – 26.7.1994, Bakı) – Azərb. pediatrı, tibb e.d. (1971), prof. (1972). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1952). 1963–68 illərdə Ə.Əliyev ad. Azərb. Dövlət Həkimləri Təkmilləşdirmə İn-tunun pediatriya kafedrasında assistent, 1968–80 illərdə Azərb. Dövlət Tibb İn-tunun uşaq xəstəliklərinin propedevtikası kafedrasında assistent, prof., 1980–93 illərdə Azərb. Elmi-Tədqiqat Ana və Uşaq mühafizəsi İn-tunun (indiki K.Y. Fərəcova ad. Elmi-Tədqiqat Pediatriya İn-tu) direktoru işləmişdir. 80-dən artıq elmi əsərin müəllifidir. Tədqiqatları uşaqlarda böyrəküstü vəzinin qabıq maddəsinin funksional vəziyyətinin öyrənilməsinə həsr edilmişdir.

**CƏFƏRZADƏ** Əlisgəndər Hacıbaba oğlu (14.10.1875, Bakı – 1941, Bakı) – Azərb. maarif xadimi, publisist, tərcüməçi. M. *Cəfərovun* qardaşıdır. Bakıda ilk xüsusi rus-müsəlman məktəbində (1887–90) oxumuşdur. III Aleksandr kişi gimnaziyasında xüsusi komissiya qarşısında imtahan verərək, Azərb. dili müəllimi hüququnu almışdır (1897). N. Nərimanovun Bakıda C.-nin evində təşkil etdiyi qiraətxanada müdir (1895–98), 2-ci rus-müsəlman məktəbində, Aleksey ali ibtidai məktəbində müəllim (1897–1920), "*Nəşri-maarif*" cəmiyyətində katib (1906–18), Azərb. SSR Xalq Maarifi Komissarlığında nəşriyyat şöbəsinin (1920–24), "Azərnəşr"də uşaq ədəbiyyatı bölməsinin müdiri, istehsalat şöbəsinin müdir müavini, texniki redaktor (1924–32), Azərneft Birliyində kadr şöbəsinin rəisi (1932–38) işləmişdir. Xalq maarifin milli zəmində inkişafı sahəsində C.-nin xidmətləri böyükdür. "Nəşri-maarif"in Bakı və onun kəndlərində açdığı ibtidai məktəblərin müəllim kadrları, dərslik və metodiki vəsaitlərlə təmin olunması işinə rəhbərlik etmişdir. Azərb.-da ana dilində müstəqil uşaq mətbuatının yaranması C.-nin adı ilə bağlıdır. C. "Dəbistan" adlı ilk pedaqoji jurnalın redaktoru və naşiri, "Maarif" adlı ilk uşaq jurnalının da üç redaktorundan biri olmuşdur. "Həyat" qəzetinin (1905–06) baş mürəttibi, R. Əfəndiyevin "Bəsirətül-ətfal" (1902) müntəbəxatının, "Füqara füyuzatı" (1921) jurnalının, M.Ə. Sabirin "Hophopnamə"sinin (1922) naşiri idi. Görkəmli adamların həyatına ("Əkbər şah", "Hacı Seyid Əzim Şirvani", "Müəllim Naci", "Əlişir Nəvai", "Əli bəy Hüseynzadə", "Həsən bəy Məlikov"), texnikaya və memarlığa dair məqalələri, həmçinin hekayələri uşaqların fikri və mənəvi inkişafında böyük rol oynamışdır. "Kilidi-ədəbiyyat" (1900) dərsliyinin (S.M. Qənizadə ilə birlikdə) və "Müsləhəddin Sədi Şirazinin tərcümeyi-halı ilə bərabər onun "Gülüstan" kitabına bir nəzər" elmi əsərinin müəllifidir.

1925–32 illərdə ilk Azərb. sovet təqvimlərini hazırlayıb nəşr etdirmiş, coğrafi terminlərin Azərb. dilinə tərcüməsində iştirak etmişdir. Əmək Qəhrəmanı adına layiq görülmüşdür (1932).

**CƏFƏRZADƏ** Əzizə Məmməd qızı (29.12.1921, Bakı – 4.9.2003, Bakı; Hacıqabul r-nunun Tağılı k.-ndə dəfn edilmişdir) – Azərb. yazıçısı, ədəbiyyatşünas, ictimai xadim. Azərb Resp. xalq yazıçısı (2001). Filologiya e.d. (1970), prof. (1975). Azərb. Dövlət Un-tini bitirmişdir (1946). "Azərbaycanfilm" kinostudiyasında şöbə rəisi (1945–46), teatr məktəbində müdir (1947–49), qiyabi pedaqoji in-tda dosent, kafedra müdiri (1950–55), Kamçatka Pedaqoji İn-tunda dosent (1956), Azərb. EA Əlyazmalar İn-tunda baş elmi işçi, şöbə müdiri (1957–74) olmuşdur. 1974 ildən ömrünün sonunadək BDU-da pedaqoji fəaliyyət göstərmişdir.



19 əsr Azərb. ədəbiyyatını, aşıq poeziyasını, Azərb. şairlərindən Nişat Şirvani, Ağa Məsih Şirvani, Abdulla Padarlı, Mücrim Kərim Vardanlı, eləcə də qadın şair və aşıqlarının yaradıcılığını öyrənmiş, onların əsərlərini toplayıb nəşr etdirmişdir ("Fatma xanım Kəminə", 1971; "Könül çırpıntıları", 1972; "Azərbaycanın aşıq və şair qadınları", 1974, 1991; "Hər budaqdan bir yarpaq", 1983 və s.). Çap olunmuş ilk əsəri "Əzrayıl" hekayəsidir ("Ədəbiyyat" qəzeti, 1937). "Natəvan haqqında hekayələr" adlı ilk kitabı 1963 ildə nəşr edilmişdir. Əsasən, tarixi janrda yazmışdır. S.Ə.Şirvaniyə ("Aləmdə səsim var mənim", 1973–78), Nişat Şirvaniyə ("Vətənə qayıt", 1977) və A.Səhhətə ("Yad et məni", 1980) həsr olunmuş "Şirvan" trilogiyasının müəllifidir. "Bakı-1501" (1981) romanının mövzusu 16 əsr Azərb. tarixindən alınmışdır. Coğrafiyaşünas *Zeynalabdin Şirvaninin* həyatını əks etdirən "Eldən-elə" (1992), 19 əsrin əvvəllərində rus qoşunlarının Şirvana hücumundan bəhs edən "Gülüstandan öncə" (1996), Cənubi Azərb.-da yaşayıb-yaratmış şairə, *Babilik* hərəkatının liderlərindən olan *Tahirə Qürrətüleynin* həyatından bəhs edən "Zərrintac-Tahirə" (1996), 20 əsrdə baş verən ictimai-siyasi hadisələr fonunda yarımbioqrafik "Rübabə-sultanım" (2001), M. Füzulinin həyatını təsvir edən "Eşq sultanı" (2003) romanlarının müəllifidir. 20 əsrdə İranda *Babilik* hərəkatının əks-sədası kimi baş verən faciəvi tarixə həsr edilmiş "İşığa doğru" (1998), Azərb.-da yaşayan İran azərb.-larının Stalin rejimi tərəfindən deportasiyasından bəhs edən "Xəzərin göz yaşları" (2003) və s. povestləri var. "Sahibsiz ev" (1966), "Əllərini mənə ver" (1970), "Sənsən ümidim" (1984), "Xəyalım mənim" (2002) və s. povestlərinin mövzusu müasir həyatdan alınmışdır. Xatirələri ("Qızıl sahilə səyahət", 1968 və s.), bayatıları, Azərb. xalqının adət-ənənələri, etnoqrafiyası ilə bağlı yazıları var. Uşaqlar üçün də hekayə və nağıllar yazmışdır ("Qızımın hekayələri", 1964; "Anamın nağılları", 1982; "Çiçəklərim", 1988; "Pişik dili", 2001 və s.). S.Smirnovun "Brest qalası", A.Lixanovun "Mənim generalım", "Povestlər", Ş.Rəşidovun "Güclü dalğa", S.Çokumun "Bizim diyar", Ə.Kabaklının "Əjdaha daşı", Şəmsi Bellinin "Atatürkün eşq macərası" və s. əsərləri Azərb. dilinə çevirmişdir. Əsərləri fars, tacik, ərəb, rus, ingilis, qazax, qaraçay və s. dillərə tərcümə edilmişdir. C. həmçinin ictimai fəaliyyət göstərmiş, 1981–89 illərdə Resp. Qadınlar Şurasının sədri vəzifəsində çalışmışdır. Xeyriyyəçiliklə məşğul olmuş, Hacıqabul r-nunun Tağılı k.-ndə öz vəsaiti hesabına orta məktəb və klub binası tikdirmişdir (1979). Həyat və yaradıcılığı haqqında televiziya filmi ("Əzizə Cəfərzadə", 1999, rej. V. Behbudov) çəkilmişdir. Azərb. Resp-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Əsərləri: Azərbaycan poeziyasında xalq şeiri üslubu. C. 1.B., 1981; C.2, B., 1999; Cəlaliyyə. B., 1983; Sabir. B., 1989; Anamın masalları. İstanbul, 1990; Bir səsin faciəsi. B., 1995; Aləmdə səsim var mənim. B., 2006.

**CƏFƏRZADƏ** Gövhər Hacı Məcid qızı, Şövqiyyə (1883, Şamaxı – 1936, Bakı) – Azərb. müəllimi. İlk təhsilini evdə almışdır. Şamaxıda öz evində ikisinifli qız məktəbi ("Məktəbi-Şövqiyyə", 1912–18) açaraq burada dərs demişdir. C.-nin 1911–12 illərdə "Məktəb" və "İşıq" jurnallarında maarif, mədəniyyət və qadın azadlığı məsələlərinə dair məqalələri dərc olunmuşdur. Ali təhsil aldıqdan sonra C. Ucarda və Bakının bir sıra məktəblərində müəllimlik etmiş, savad kurslarında qadınlara dərs demişdir.

**CƏFƏRZADƏ** İshaq Məmmədrza oğlu (14.8.1895, Gəncə – 5.1.1982, Bakı) – ilk Azərb. arxeoloq və etnoqraflarından biri. Tarix elmləri namizədi (1944), Azərb. SSR əməkdar elm xadimi (1965). Azərb. Ali Pedaqoji İn-tunu (1927), Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini (1930) bitirmişdir. 1925 ildən Azərb.-ı Tədqiq və Tətəbbö Cəmiyyətinin, Azərb.-ın Qədim Abidələrinin Mühafizə Komitəsinin üzvü, Azərb. Dövlət Muzeyinin elmi əməkdaşı olmuşdur. 1933 ildən Azərb. EA Tarix İn-tunda işləmiş, arxeologiya şöbəsinə başçılıq etmişdir. Azərb. ərazisində 70-dən çox maddi mədəniyyət abidəsini aşkara çıxarmışdır. Xocalı, Qızılvəng, Çovdar, Yaloylutəpə, Örənqala və s. arxeoloji ekspedisiyalarında, həmçinin onlarca etnoqrafik səfərlərdə iştirak etmişdir. Gəncə (1938–40), Abşeron, Səbayıl, Qobustan (1939–50) və s. arxeoloji ekspedisiyaların təşkilatçısı və rəhbəri olmuşdur. *Qobustan qayaüstü təsvirlərinin* tədqiqi və öyrənilməsi C.-nin adı ilə bağlıdır. Azərb. ərazisində qədim dövrdə yaşamış qəbilə və tayfaların adət-ənənələrini də tədqiq etmişdir. Azərb.-da arxeologiya və etnoqrafiyanın inkişafında, arxeoloq kadrlarının hazırlanmasında böyük xidməti var. Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.

Əsərləri: Историко-археологический очерк старой Гянджи (Родина Низами). Б.. 1949; Гобустан. Наскальные изображения. Б., 1973.

**CƏFƏRZADƏ** Rauf Məmməd oğlu [d.13.7.1952, Əli Bayramlı r-nu, Tağılı k. (indiki Hacıqabul r-nu ərazisində)] – aviasiya sahəsində Azərb. alimi, texnika e.d. (2005), prof. (2011). Azərb. Dövlət Pedaqoji İn-tunu (1978) və Sankt-Peterburq Aviasiya Akademiyasını (1992) bitirmişdir. Əsas elmi işləri hava gəmilərinin ekstremal şəraitlərdə istismarının elmi əsaslarına həsr edilmişdir. 40-dan artıq elmi əsərin müəllifidir. Milli Aviasiya Akademiyasında kafedra müdiri (1996–99), uçuş işləri üzrə prorektor (1999–2010) vəzifəsində çalışmış, 2010 ildən Trenajor Mərkəzinin direktorudur. Aviasiya sahəsində milli kadrların hazırlanmasında xidməti var.

**"CƏFR"** (ərəb. الجفر), "əl-Cəfr", "əl-Cifr"– 1) islamda ezoterik bilgiləri əhatə edən və *Əli ibn Əbu Talibə* aid olunan kitab. Adətən "əl-Camiə" kitabı ilə yanaşı qeyd edilir. Bir sıra rəvayətə görə, "əl-C." Məhəmməd peyğəmbərin bütün keçmiş və gələcək hadisələr haqqında vəhy yolu ilə əldə etdiyi məlumatları dikta etməsi ilə yazılmışdır. "Əl-Camiə"dən fərqli olaraq, "əl-C."-i peyğəmbərdən və imamlardan başqa heç kim görməmişdir. Kitab iudaizmdəki Əhd sandığı kimi ilahi hakimiyyət nişanəsidir. Bəzi mənbələrdə *Cəfər əs-Sadiqə* aid edilir. 2) Gələcəkdən, yaxud qeybdən xəbərverməyə yönələn ezoterik təlim. "C." termini tədricən bütün öncəgörmə kitablarına, sonralar bu bilgiləri öyrədən elm sahəsinə şamil olunmuşdur. Hərflər və rəqəmlərin gizli mənalarına əsaslandığına görə "elm əl-ədəd" (numerologiya), "elm əl-hüruf" (hərf elmi), "elm əl-ladun" (ilahi elm), əbcəd hesabı və s. ilə sıx bağlıdır. Ərəb hərflərinin müxtəlif cür sıralanması baxımından böyük və kiçik C.-lər fərqləndirilir. Əsasən, əbcəd sıra-

lanmasından istifadə olunur. C.-in əsasını 28 hərfin müxtəlif kombinasiyalarından ibarət cədvəl təşkil edir. Cədvəl hər birində 28 səhifə, hər səhifəsində 28 sətir, hər sətrində 28 xana olan 28 hissədən ibarətdir. Hər xanada 4 hərf yazılır. C.-lə məşğul olanlar bu cədvəldə kainatın bütün sirlərinin şifrələndiyini söyləmişlər. C. ismaililər vasitəsilə Şimal-Qərbi Afrikada da yayılmış, onun başlıca nümayəndəsi Mövəhhidlərin banisi Məhəmməd ibn Tumirt (ö. 1130) olmuşdur. İlk mövəhhidi xəlifəsi Əbd əl-Mömində [1130–63] "Əl-C." kitabının olması haqqında da qeydlər var.

**CƏFRİ** Sərdar Əli (29.11.1913, Qonda mahalı, Balrampur ş. – 1.8.2000, ?) – hind yazıçısı, ictimai xadim. Urdu dilində yazmışdır. Dehlidə un-t bitirmişdir. Hindistan Xalq Teatrları Assosiasiyasının yaradıcılarından biridir. Yaradıcılığa nəsr əsərləri ilə başlayan C. sonralar poeziyaya müraciət etmişdir. "Pərvaz" (1943), "Yeni dünyaya salam" (1947), "Asiya oyandı" (1950), "Daş divar" (1953) və s. şeir və poema kitablarının müəllifidir. Faşizm əleyhinə yazılmış "Bu kimin qanıdır?"(1943) pyesi böyük uğur qazanmışdır. C.-nin novatorçu üslubunun əsas cəhəti urdu poeziyası üçün yeni olan sərbəst şeirdən geniş istifadədir. "Mütərəqqi ədəbiyyat" (1951) adlı tədqiqat əsəri var. O, həmçinin urdu klassiklərinin (Qalib, Mir Taki Mir) əsərlərini çap etdirmişdir. Bəzi şeirləri Azərb. dilinə tərcümə olunmuşdur. "Bakı" şeiri var. Nizami Gəncəvinin 840 illik yubileyində iştirak etmişdir (1981).

*Əd:* Мухамедов Н. Али Сардар Джафри и его поэзия. Ташкент, 1969.

**CƏĞAL** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyahçeşmə bölgəsinin Bəhbəhcik kəndistanında, Siyahçeşmə qəs.-ndən 20 *km* şm.-ş.-dədir.

**CƏĞİR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 25 *km* q.-dədir.

**CƏĞNAB** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Səncid bölgəsinin Givi kəndistanında, Səncid qəs.-ndən 10 *km* şm.-dadır.

**CƏĞNAB** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Ətraf kəndistanında, Kəlibər qəs.-ndən 12 *km* c.-dadır.

**CƏHƏNDİR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Miyanə–Təbriz avtomobil yolunun 11 *km*-liyindədir.

**CƏHƏNNƏM** (ər. جهنم – dərin quyu; ivritcə "ge hinnom" – "hinnom vadisi" sözündən) – əksər dini təlimlərə görə, əbədi əzaba məhkum edilmiş günahkarların məskəni. Ölümdən sonra ikinci həyat və həmin həyatda pis əməllərə görə cəza anlayışına bütün dinlərdə rast gəlinir. *Hinduizmdə* C. ("naraloka") yenidən dünyaya qayıtmaq üçün təmizlənmə yeri, buddizmdə pis insanların cəzalandırıldığı məkandır. *Əhdi-ətiqdə* C.-in konkret təsviri yoxdur. *Əhdi-cədidə* görə, C. şeytanın və onun mələklərinin cəza yeridir (Mat 25:41). Quranda 77 ayədə yer alan C. kafirlərin, zalımların əzab görəcəyi yer kimi təsvir edilir. İslam mənbələrində geniş mənada C.-i, dar mənada onun işgəncə formaları və hissələrindən birini ifadə etmək baxımından müxtəlif adlardan istifadə edilmişdir. Ehtimal ki, C.-in yeddi qapısı olduğunu bildirən ayəyə (15:44) əsasən C.-in təbəqələrini ifadə edən yeddi ad daha məşhur olmuşdur: cəhənnəm, cəhim (qat-qat yanan və istiliyi çox olan alov), haviyə (uçurum), hütəmə (məhv edən alov), ləza (saf alov), səir (alov) və səqər (tamamilə yandıran alov).

**CƏHƏNNƏM DAŞI** – bax *Gümüş-nitrat.*

**CƏHƏTLƏR** – üfüqün dörd baş nöqtəsi: *şimal, cənub, şərq, qərb.*

**CƏHƏTLİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Rövzəçay kəndistanında, Urmiyadan 6 *km* şm.-q.-dədir.

**CƏHİRÇAY** – Azərb. Resp.-nda çay. Kürün sağ qolu. Gədəbəy və Şəmkir r-nları ərazisindən axır. Uz. 58 *km*, hövzəsinin sah. 326 *km*². Şahdağ silsiləsindən başlanır. Şəmkir su anbarına tökülür. Əsasən yağış və yeraltı sularla qidalanır. Suvarmada istifadə olunur. Üzərində SES var.

**CƏHM İBN SƏFVAN** (جهم ابن صفوان) Əbu Muhriz (? – 745/746, indiki Türkmənistan, Mərv) – *cəhmiyyə* təriqətinin banisi, islamın erkən sxolastiklərindən biri. 734–746 illərdə Xorasanın şərqində *Əməvilərə* qarşı üsyan qaldıran Haris ibn Surəycinin katibi olmuş, Əməvilərə əsir düşərək edam edilmişdir.

C. ibn S. Mərv, Tirmiz, Bəlx və Kufəyə səyahət etmiş, Kufədə *Cəad ibn Dirhəmlə* tanış olmuş, bir sıra *kəlam* məsələlərində ondan təsirlənmişdi. Öz görüşlərini ilk dəfə Xorasan və Tirmizdə yaymağa başlamışdır. Allahın öz yaratdıqlarına xas "sifətlər"lə (atributlarla) səciyyələnə bilməsi fikrini inkar edən C. ibn S.-a görə, Allahdan başqa hər şey "hadis"dir (sonradan yaradılmış) və buna görə əzəldə Onun elm və qüdrətinin təsir obyekti mövcud olmadığından, Allahın əzəldə elmli və qüdrətli olmasını söyləmək mümkün deyil. C. ibn S. iradə məsələsində cəbriyyəyə (fatalizmə) meyil edirdi; Allaha inamı mənəviyyata, sözlərə və yaxşı işlərə şamil etməyərək, onun yalnız Allah haqqında biliklərdən ibarət olduğunu göstərirdi. C. ibn S., mötəzililər kimi, insanların Allahı görə bilməsi mümkünlüyünü rədd edirdi. Quranın əzəli deyil, "məxluq" (yaradılmış) olması və Qurandakı ilahi vəhyin rasional dərkinin zəruriliyi fikirlərini müdafiə edirdi.

Orta əsrlərin müsəlman ilahiyyatçıları tərəfindən C. ibn S.-ın islam aləmində hamının qəbul etdiyi fikirlərə zidd görüşləri sərt tənqid olunurdu. Onun görüşləri ölümündən sonra geniş yayılmış, ardıcılları cəhmiyyə təriqətində birləşmişlər.

**CƏHMİYYƏ** – islam tarixində ilk təriqətlərdən biri. Bu ad əvvəllər *kəlam* və fəlsəfə ilə məşğul olanlara da şamil edilmişdir. C.-nin yeganə məlum nümayəndəsi onun banisi olan *Cəhm ibn Səfvandır* (8 əsr). 10 əsrə qədər Tirmiz, Nəhavənd və Xorasanda mövcud olmuş, fundamental əsaslara malik təriqət kimi formalaşmadan *əşariliyə* qarışaraq dağılmışdır. C.-yə görə, Allah yerdə və göydə mövcud olan, yalnız ağılla dərk edilən, bütün atributlardan uzaq bənzərsiz bir varlıqdır. Allahın elmi əzəli deyil, buna görə də bir varlığı yaratmamışdan əvvəl onun barəsində heç bir biliyə malik olmur. Cəhmilər iman və küfrü də özünəməxsus şəkildə izah etmişlər: iman Allah, peyğəmbər və onlarla bağlı bütün məlumatlara dair insanda mütləq biliyin formalaşması, küfr isə həmin biliyin olmamasıdır. C. ortodoks islam cərəyanları tərəfindən *bidət* elan olunmuşdu.

**CƏHRƏ** – yun, pambıq və s. əyirən alət; *toxuculuğun* inkişafı ilə əlaqədar yaranmışdır. C. toxuculuqda mühüm ixtiralardan biri olmuşdur. Mingəçevirdə təqr. 3–7 əsrlərə aid katakomba qəbirlərdən bir neçə ağac iy aşkar edilmişdir. C. qurma və bütöv çarxlı olur. Çox hissəsi ağacdan hazırlanan C.-nin oturacağı uz. 60–70 *sm* olan yastı ağacdan (döşək) ibarətdir. Döşəyin hər iki ucuna ağac yastıqlar keçirilir. C.-nin iki qolu baş yastıqda açılmış deşiyə bərkidilir. C. topunun ortasından keçən ox qollardakı deşikdən keçirilir, iç tərəfdən oxun ucuna əlcək bərkidilir. C. topunun diametri 35–55 *sm*, qalınlığı 5–8 *sm* olan bütöv ağacdan hazırlanır. C. döşəyinin ayaq hissəsinə iyin keçməsi üçün üzərində deşiyi olan iki ağac mıx birləşdirilir. Mıxların ortasından keçirilən gön qulaqlara iy taxılır. İyə tağalaq keçirilir. Bu isə ipin dolaşıb iyə mane olmasına imkan vermir. C. hərəkətə gətirilir və top ilə iyi birləşdirən giriş dairə boyunca fırladılır.







Cəhrə. Naxçıvan Xalça Muzeyi.

**CƏHRİ** – Azərb. Resp. Babək r-nunda (Nax. MR) kənd. Cəhri ə.d.-nin mərkəzi. R.-n mərkəzindən 23 *km* şm.-da, Cəhriçayın sahilində, dağətəyi ərazidədir. Əh. 9557 (2011); taxılçılıq, maldarlıq və tərəvəzçiliklə məşğuldur. 2 orta məktəb, uşaq musiqi məktəbi, mədəniyyət evi, kənd sahə xəstəxanası, baytarlıq məntəqəsi, uşaq bağçası, 5 kitabxana, klub, rabitə şöbəsi, 3 məscid var. C. k.-nin şm.-ş.-ində orta əsrə aid yaşayış yeri (İşıqlar) qeydə alınmışdır.

**CƏHRİ MİNERAL SU YATAĞI** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində, Cəhri k.-ndən 5 *km* şm.-dadır.

Suyunun temp-ru 18°C, debiti 26 *m³/gün*, minerallaşma dərəcəsi 4,1 *q/l*-dir.

Balneoloji tərkibi:

$$CO_2 1{,}3 M\, 4{,}1 \frac{HCO_3 53 Cl 26 SO_4 21}{(Na+K) 47 Ca 33 Mg 20}$$

pH 6,5 D26 *m³/gün* T 18°C

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-xlorlu, natriumlu-kalsiumlu-magneziumludur. İçməyə yararlıdır.

**CƏHRİÇAY** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində çay. Naxçıvançayın sağ qolu. Uz. 45 *km*, hövzəsinin sah. 442 *km*². Dərələyəz silsiləsindən (2320 *m* hünd.-dən) başlanır. Qar, yağış və yeraltı sularla qidalanır. Suvarmada istifadə olunur.

**CƏHRİÇAY ÇINQIL-QUM QARIŞIĞI YATAĞI** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində, Cəhriçay hövzəsində, Cəhri k.-nin c.-q. və q. hissələrindədir. Geol. quruluşunda müasir dövrün allüvial-delüvial çöküntüləri – çaqıl, çınqıl və qum qarışığı iştirak edir. Çaqıl və çınqıllar əhəngdaşı, mergel, porfirit, tuf-qumdaşı və tuf-brekçiya qırıntılarından ibarətdir. Sah. 2,18 *km*², faydalı qatın qalınlığı 4,84 *m*-ə qədərdir. Çınqıl-qum qarışığı hidrotexniki tikinti işləri üçün öyrənilmişdir. Yatağın sənaye ehtiyatı 10094 min *m*³-dir.

**CƏHRİÇAY MERGEL YATAĞI** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində, Naxçıvan ş.-ndən 25–30 *km* şm.-da, Cəhriçayın hövzəsindədir. Geol. quruluşunda Üst Tabaşirin Kampan və Santon mərtəbələrinin əhəngdaşı, mergel, əhəngli mergel və gilli mergel süxurları iştirak edir. Yatağın tektonik quruluşunda şm.-q. istiqamətli sinklinal qırışıqlıq qeyd olunur. Sah. 6,4 *km*², faydalı qatın öyrənilmiş qalınlığı 63 *m*-ə çatır. Yataqda yayılmış süxurlar sement istehsalına yararlıdır. Yataq sənaye istismarına hazırlanır. Ehtiyatı 1049 mln. *t*-dur.

**CƏHŞİYARİ** (الجهشياري), Ə b u  A b d u l l a h  M ə h ə m m ə d  C ə h ş i y a r i (? – təqr. 942) – ərəb tarixçisi, "Kitab əl-vüzəra və-l küttab" ("Vəzirlər və katiblərin kitabı") əsərinin müəllifi. Əsərdə Azərb.-dan qonşu ölkələrə neft ixracatı, ərəblərin Azərb.-da yürütdükləri torpaq və vergi siyasəti (xüsusilə Harun ər-Rəşid dövründə) və s. haqqında da məlumat var.

**CƏQCƏQ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Gorayim kəndistanında, Ərdəbil ş.-ndən 42 *km* c.-dadır.

**CƏLAİRİLƏR** – Cəlairi hökmdarları sülaləsi [1341–1431]. Cəlairi tayfasından idilər. Banisi *Şeyx Həsən Cəlairidir*. Görkəmli nümayəndələri: Şeyx Həsən Cəlairi, *Şeyx Üveys*, Sultan Əhməd. Hökmdarları: Şeyx Həsən Cəlairi [1341–56], Şeyx Üveys [1356–74], Hüseyn [1374–82], Sultan Əhməd [1382–1410]; Kürdüstanda: Bəyazid [1382–83], Şah Vələd [1410–11], Mahmud [1411–15; 1422–24], Üveys [1415–21], Məhəmməd [1421–22], Hüseyn [1424–31].

C. Hakimiyyət uğrunda Elxanilər (Hülakular), Çobanilər, Teymurilər və Qaraqoyunlularla mübarizə aparmışlar. Qaraqoyunluların hakimiyyətə gəlməsi ilə C.-in hökmdarlığına son qoyulmuşdur.

**CƏLAİRİLƏR DÖVLƏTİ** (1341–1431) – orta əsrlərdə mövcud olmuş dövlət. Tərkibinə İraq-i Ərəb, İraq-i Əcəm, Kürdüstan, Azərb. (Şirvandan başqa), Gürcüstan, Ermənistan, Deyləm, Xorasan, Cəzirə, Luristan, Xuzistan və s. ərazilər daxil idi. Paytaxtı Bağdad, bir müddət isə Təbriz olmuşdur. Təsərrüfatın əsasını əkinçilik, bağçılıq, maldarlıq, ipəkçilik təşkil edirdi. Şəhərlərdə ticarət və sənətkarlıq (zərgərlik, misgərlik, bəzzazlıq, dəmirçilik, toxuculuq, xarratlıq, dərzilik və s.) geniş yayılmışdı. Azərb.-da isə xüsusən ipəkçilik, toxuculuq və xalçaçılıq inkişaf etmişdi.

Əhalidən toplanılan vergilər, xarici ticarətdən alınan gəlir C.d. iqtisadiyyatının əsas mənbəyi idi. Dövlətin daxili siyasətində (xüsusən iqtisadi həyatda) oturaq feodallar və ali müsəlman ruhaniləri, orduda isə, əsasən, köçəri feodallar mühüm rol oynayırdılar.

Elxani hökmdarı Əbu Səidin öldürülməsindən (1335) sonra feodal ara müharibələrinin fəal iştirakçısı olan cəlairi tayfa başçısı, Rum vil.-nin hakimi Şeyx Həsən Cəlairi (Bozorq) 1336 ildə Elxanilər nəslindən Məhəmməd xanı hökmdar elan etdi. Təbrizi tutduqdan sonra Şeyx Həsən Cəlairi qısa müddətdə İraqı da ələ keçirərək Azərb., İraq və Rum vil.-ni Məhəmməd xanın adından idarə etməyə başladı. Lakin 1338 ildə Çobani Şeyx Həsənə (Kiçik) məğlub olan (Məhəmməd xan Çobanilərə əsir düşdü) Şeyx Həsən Cəlairi İraqa çəkildi. Tərəflər arasında bağlanmış sülhə görə Azərb. Cəlairilərin əlindən çıxdı. Şeyx Həsən Cəlairi Xorasandan qaçmış Elxani şahzadəsi Toğa Teymuru hökmdar elan etdi. Lakin, çox keçmədən onu da Cahan Teymur xanla əvəz edib İraq-i Ərəb, Xuzistan və Diyarbəkirdə möhkəmləndi. Şeyx Həsən Cəlairi 1340–41 illərdə Azərb.-a iki dəfə yürüş etsə də, müvəffəqiyyət qazana bilmədi. Şeyx Həsən Cəlairi 1341 ildə Cahan Teymuru taxtdan salaraq müstəqil C.d.-ni yaratdı. O, 1344 ilin əvvəllərində Təbrizi tutsa da, bir müddətdən sonra Bağdada çəkilməyə məcbur oldu. Şeyx Həsən Cəlairinin ölümündən sonra yerinə oğlu Şeyx Üveys [1356–74] keçdi. O, 1357/58 ildə Qızıl Ordanın Azərb.-dakı əmiri Əxicuqu məğlub edib Təbrizi tutdu. Bir müddətdən sonra Şeyx Üveys Bağdada qayıtdıqda Əxicuq yenidən Təbrizi ələ keçirdi. 1359 ilin sentyabrından Azərb. C.d.-nin tərkibinə daxil edildi. Şeyx Üveys dövründə C.d. xeyli gücləndi; Təbriz dövlətin paytaxtına çevrildi.

Şeyx Üveysin ölümündən sonra hakimiyyətə oğlu Hüseyn keçdi. Sultan Hüseyn dövründə [1374–82] C.d. hakimiyyət uğrunda gedən çəkişmələr nəticəsində xeyli zəiflədi, Sultan Hüseyn Arran və Muğanda hərbi qüvvə toplayan qardaşı Əhməd tərəfindən öldürüldü. Təbrizdə taxta çıxan Sultan Əhmədin dövründə [1382–1410] daxili və xarici düşmənlərlə

mübarizə daha da şiddətləndi. Qaraqoyunlu *Qara Məhəmmədin* köməyi ilə İraqi Ərəbi yenidən ələ keçirən Sultan Əhməd sonralar digər qardaşı Bəyazidlə bağladığı sazişə əsasən ancaq Azərb.-ın idarəsi ilə kifayətlənməli oldu. Lakin 1383 ildə Marağa yaxınlığındakı vuruşmadan sonra C.d.-nin bütün ərazisi Sultan Əhmədin hakimiyyəti altında birləşdi. Teymuru qabaqlayıb Azərb.-ı zəbt etməyə çalışan Qızıl Orda xanı Toxtamış 1385 ilin qışında 90 minlik qoşunla hücuma keçib Təbrizi qarət etdi. 1386 ildə Teymurun qoşunu Təbrizi tutdu. Sultan Əhməd Bağdada, onun əmirlərinin bir qismi isə *Əlincə qalasına* çəkildi. Əlincə qalası Cəlairilərin Teymurilərə qarşı Azərb.-da əsas müdafiə istehkamına çevrildi. Əlincə qalasının müdafiəsinə əmir *Altun* başçılıq edirdi. Teymurilərin işğal etdiyi ərazilər Miranşahın ixtiyarına verildi. Teymur Səmərqəndə qayıtdıqdan sonra Azərb.-da azadlıq hərəkatı gücləndi. Teymurilərə qarşı Sultan Əhməd, Əlincə qalasının müdafiəçiləri, Mahmud Xalxalinin tərəfdarları, Təbriz və Marağa əmirləri, həmçinin Qara Yusifin başçılığı ilə Qaraqoyunlular mübarizə aparırdı. 1387–92 illərdə Təbriz dəfələrlə əldən-ələ keçdi. 1392 ildə Teymurun qoşunları ikinci dəfə Təbrizi işğal etdi. Həmin dövrdə Azərb.-da Cəlairilərin hökmranlığı əslində ləğv olunmuşdu. Təkcə əmir Altunun başçılığı ilə Əlincə qalası mübarizəni davam etdirirdi. 1400 ildə Əlincə qalasının süqutu ilə Teymurilər C.d.-nin bütün ərazisini ələ keçirdilər. Sultan Əhməd yalnız Teymurun vəfatından sonra Misirdən Azərb.-a qayıtdı. Qaraqoyunlu Qara Yusifin köməyi ilə Təbrizdə yenidən hakimiyyətə keçən Sultan Əhməd qeyri-qanuni vergilər və amansız rəftarı ilə əhalinin nifrətini qazandı. Özünə qarşı sui-qəsd təşkil edilməsindən xəbər tutan Sultan Əhməd Bağdada qaçdı. 1410 ildə yenidən Təbrizə daxil olan Sultan Əhməd Qara Yusiflə döyüşdə öldürüldü. Onun ölümü ilə Azərb.-da C.d.-nə son qoyuldu. 1412 ildə qaraqoyunlular Bağdadı tutdu.

Şeyx Üveysin hakimiyyət illəri istisna olmaqla Cəlairilər dövründə Azərb. daxili çəkişmələrinin və xarici müdaxilələrin meydanına çevrilmişdi. Toxtamış və Teymurun hərbi yürüşləri ölkənin təsərrüfatına, elm və mədəniyyətin inkişafına ciddi zərbə vursa da, Təbriz və s. şəhərlər əvvəlki əhəmiyyətini nisbətən saxlamışdı. Cəlairilər dövründə Əsrar Təbrizi, Məhəmməd ibn Hinduşah Naxçıvani, Əbu Bəkr əl-Qütbi əl-Əhəri, Zeyn əd-din ibn Həmdullah Qəzvini, Əbdülqadir Marağayi və b. elm və mədəniyyət xadimləri yaşayıb-yaratmışlar.

**CƏLAL ALİ ƏHMƏD** (2.12.1923, Tehran – 9.9.1969, İran Əsalim) – İran yazıçısı, tərcüməçi. Tehranda Ali Pedaqoji Məktəbi bitirmişdir. Fars dilində, xalq danışıq dilinə yaxın üslubda yazmışdır. Simvolik və kinayəli ifadə tərzi əsərlərinin başlıca xüsusiyyətidir. Yaradıcılığa kiçik hekayə və tənqidi məqalələrlə başlamışdır. "Ziyalıların xidmət və xəyanəti" əsərində İranda Azərb. dilinin qadağan olunmasını ciddi şəkildə tənqid etmiş və bütün problemlərin əsasında bu məsələnin dayandığını söyləmişdir. "Görüş" (1945), "Çəkdiyimiz iztirablar" (1947), "Setar" (1948), "Çoxarvadlılıq" (1952) hekayə toplularının, "Pətəklərin sərgüzəşti", "Məktəb direktoru" (hər ikisi 1958), "Nun vəl-qələm" (1961), "Torpağın lənəti" (1967), "Beş hekayə" (1971), "Qəbir üstündə bir daş" (1981) romanlarının müəllifidir. "Ovrazan" (1954), "Buyinzəhranın tat əhalisi" (1958), "Xark adası: Fars körfəzinin incisi" (1960), "Miqatda bir saman çöpü" (1966) kimi yol qeydləri var. F. Dostoyevskinin "Qumarbaz", A. Kamyunun "Yad", J.P. Sartrın "Çirkli əllər" və b. əsərləri fars dilinə tərcümə etmişdir. Pedaqoji fəaliyyətlə də məşğul olmuşdur.

**CƏLAL SAHİR ƏROZAN** (29.9.1883, İstanbul – 16.11.1935, Kadıköy) – türk yazıçısı, şair. İndiki İstanbul və Davud Paşa liseylərində oxumuş, Hüquq məktəbində təhsilini davam etdirmişdir. C.S.Ə. 1903 ildə Xarici işlər idarəsində katib işləmiş, daha sonra Mərcan, Kabataş edadiyyələrində, İstanbul və Qalatasaray liseylərində, İstanbul Müəllim məktəbində pedaqoji fəaliyyət göstərmişdir. Böyük Millət Məclisinə Zonquldağdan millət vəkili (1928–35) seçilmişdir. 1899 ildən şeirləri müxtəlif jurnallarda "Sahir", "Əhməd Cəlal", "Hikmət Cəlal", "Velhan", "Şarik" təxəllüsləri ilə çap olunmuşdur. Əsərlərində qadın və məhəbbət mövzularına üstünlük vermişdir. "Qardaş səsi", "Bəyaz kölgələr", "Böhran", "Qara kitab", "Simon", "Qiraəti-ədəbiyyə", "Uşaq şeirləri" topluları, "İstanbul üçün millət vəkili namizədlərim" adlı əsərləri var. 1909 ildə "Fecri Ati" ədəbi məclisini yaratmış, 1920–21 illərdə həmin məclisin üzvləri və digər şair və yazıçıların yaradıcılığını əhatə edən antologiya xarakterli səkkiz kitab çap etdirmişdir.

**CƏLALABAD** – Qırğızıstanda şəhər, Cəlalabad vil.-nin inz. m. Əh. 89 min (2009). Fərqanə vadisinin ş. hissəsində, 970 *m* hünd.-də, Qaradərya çayının hövzəsində yerləşir. Bişkek–Oş avtomobil yolunun üstündədir. D.y. st. Avtomobil aqreqatları, ştepsel ayrılmaları, k.t. texnikasının təmiri və s. z-dlar fəaliyyət göstərir. Yüngül (pambıqtəmizləyən z-d, ayaqqabı, tikiş f-kləri), yeyinti (süd məhsulları, konservlər, qənnadı məmulatı və s.), ağac emalı (o cümlədən mebel f-ki) sənayesi inkişaf etmişdir. Tikinti materialları istehsal olunur. Şəhərin əsası 1877 ildə qoyulmuşdur.

**CƏLALABAD** – Qırğızıstanda balneoloji-palçıq və iqlim kurortu. Qaradərya çayı hövzəsində. 970 *m* hündürlükdə, Fərqanə dərəsinin şərq hissəsində yerləşir. İqlimi kontinentaldır; qışı yumşaq (yanvarda orta temp-r təqr. –2°C), yayı isti, qurudur (iyulda orta temp-r təqr. 27°C). İqlimlə yanaşı, isti mineral su (azotlu xloridli-hidrokarbonatlı-sulfatlı natrium-kalsiumlu) və torflu müalicə palçığı istifadə olunur. Həzm, hərəkət və dayaq, sinir sistemləri, orqanları, böyrək xəstəlikləri müalicə olunur.

**CƏLALABAD** – Əfqanıstanın ş.-ində şəhər. Nanqarhar əyalətinin inz. m. Əh. 217,9 min (2007). Kabil çayı dərəsində, təqr. 590 *m* yüksəklikdə, Kabil ş.-ndən 177 *km* ş.-də, Əfqanıstanla Pakistanı birləşdirən Xayber keçidi yaxınlığındadır. Təqr. 1570 ildə Böyük moğol hökmdarı *Əkbər* Cəlaləddin tərəfindən salınmışdır. 1834 ildə əfqan əmiri Dost Məhəmmədin mülklərinə daxil edilmişdir. Əmir Həbibulla və onun oğlu Əmənulla xanın türbəsi qalmışdır. Un-t (1963), tibb kolleci var. Kabil–Pişəvər avtomobil yolu üzərində mühüm nəql. və ticarət mərkəzidir.

İri k.t. vahəsinin (portağal, xurma, şəkər qamışı, çəltik və s. dənli bitkilər) mərkəzidir. Yeyinti (o cümlədən şəkər), kağız sənayesi müəssisələri; Cəlalabad irriqasiya kanalının əsas bəndində İES fəaliyyət göstərir.

20 əsrin sonları – 21 əsrin əvvəllərindəki hərbi əməliyyatlara qədər C. əfqan zadəganlarının qış kurortu idi. Hərbi əməliyyatlar zamanı şəhər dağıntılara məruz qalmışdır.

**CƏLALABAD VİLAYƏTİ** – Qırğızıstanda vil. 1939 il noyabrın 21-də təşkil edilmişdir (1959 ildə ləğv edilərək ərazisi Oş vil.-nə birləşdirilmiş, 1990 ildə yenidən bərpa olunmuşdur). Sah. 33,7 min $km^2$. Əh. 1,04 mln. (2011). 8 r-nu, 5 şəhəri, 5 qəs. var. Mərkəzi Cəlalabad ş.-dir.

**Təbiət.** Vil.-in ərazisini Fərqanə vadisinin şm.-ş. kənarı və Qərbi Tyanşanın sil-






Cəlalabad vilayəti. Toktoqul su anbarı.

silələri (Talas Alatausu, Susamurtau, Pskem, Fərqanə, Çandalaş, Çatkal və s.) tutur; ən yüksək nöqtəsi Çatkal silsiləsindədir (4503 *m*). Faydalı qazıntıları: neft, qaz, daş kömür, polimetal filizləri və s. İqlimi mülayim, kontinentaldır; vadilərdə quraqdır. Orta temp-r 1000–1100 *m* yüksəklikdə yanvarda – 4°C, iyulda 26°C-dir; illik yağıntı 400–1000 *mm*. Daha yüksək r-nlarda iqlim soyuqdur. Ən böyük çayı Narındır



(üzərində SES, Toktoqul su anbarı var). 1500 *m* yüksəkliyə qədər yerləşən sahələrdə boz torpaqlar və yarımsəhra tipli bitki örtüyü inkişaf etmişdir. 1500–3000 *m* yüksəkdə quru dağ çölləri, çəmən-çöl bitkiləri, Çatkal və Fərqanə silsilələrinin yamaclarında yabanı meyvə ağaclarından ibarət meşələr yayılmışdır. 3000 *m*-dən yuxarıda subalp və Alp çəmənlikləri yerləşir. Tülkü, canavar, porsuq, oxlu kirpi, qonur ayı, çöldonuzu, cüyür, qayakeçisi, qar bəbiri və s. var.

**Təsərrüfat.** Neft, qaz, daş kömür (Kok-Yanqak, Taş-Kumır) və polimetal filizləri hasil olunur. Maşınqayırma, elektrotexnika, tikinti, pambıqtəmizləmə, yüngül və yeyinti sənayesi inkişaf etmişdir. Fərqanə dərəsində suvarma əkinçiliyi (dənli bitkilər, pambıq, tütün, üzüm), bağçılıq, heyvandarlıq, ipəkçilik, yamaclarda dəmyə əkinçiliyi, dağlarda qoyunçuluq; avtomobil, d. y., aviasiya və boru kəməri nəql. inkişaf etmişdir.

**CƏLALƏDDİN FİRUZ HİLCİ**, Firuzşah Halaci – *Hilcilər* sülaləsinin banisi, Dehli sultanlığında bu sülalədən olan ilk hökmdar [1290–96]. 1290 ildə məmlük sultanlarından olan Dehli hökmdarı Keyqubadı öldürərək hakimiyyətə keçmişdi. Paytaxtını Dehlidən Kiluqhariyə köçürmüş və onu abadlaşdıraraq "şəhri nov" ("yeni şəhər") adlandırmışdı. Yerli əmirlərin və racələrin müqavimətinin qarşısını aldıqdan və mərkəzi hakimiyyəti möhkəmləndirdikdən sonra Dehlini yenidən paytaxt etmişdi. Hülakuları məğlubiyyətə uğratmış (1292), islamı qəbul etmiş monqolları Dehlinin ətrafında yerləşdirmişdi. Hakimiyyət uğrunda mübarizədə kürəkəni Əlaəddin Hilci tərəfindən öldürülmüşdür.

**CƏLALƏDDİN MƏHƏMMƏD YƏZDİ** (təqr. 1611/12 – ?) – Səfəvi tarixçisi, münəccim. I Şah Abbasın [1587–1629] sarayında münəccimbaşı olmuş, Azərb.-a və qonşu ölkələrə hərbi səfərlərində onu müşayiət etmişdir. C.M.Y.-nin 1576–1611 illərdə baş vermiş hadisələrdən bəhs edən "Tarix-i Abbasi" əsəri Azərb. tarixinin öyrənilməsində mühüm mənbələrdən biridir.

**CƏLALƏDDİN MƏNQBURNU** (? – avqust, 1231) – Xarəzmşah (1220 ildən) *Məhəmməd II Əlaəddinin* oğlu. Atasının ölümündən sonra xarəzmlilərin monqol-tatarlara qarşı mübarizəsinə başçılıq etmişdi. Xorasanda güclü qoşun toplayıb Pərvanə yaxınlığında monqollara zərbə vurmuş, lakin 1221 il noyabrın 24-də Çingiz xana məğlub olaraq Hindistana qaçmışdı. 1225 ildə Azərb.-ı (Şirvandan başqa), Gürcüstan və Ermənistanın bir hissəsini işğal etmişdi. 1231 ildə *Bəndərin* başçılığı ilə Gəncədə C.M.-ya qarşı güclü üsyan qalxmışdı. C.M.-nun yaratdığı dövlət möhkəm deyildi. Bundan istifadə edən monqollar 1231 ildə yenidən Azərb.-a soxuldular; döyüşdə məğlub olan C. Kürdüstana qaçdı və orada öldürüldü.

**CƏLALƏDDİN TƏBRİZİ** (?, Təbriz – 1244, Benqal, Panduh) – *sührəvərdiyyə* təriqətinin şeyxi. Atasının vəfatından sonra Bağdada gedərək Şihabəddin *Sührəvərdinin* müridi olmuşdur. Hindistana səfər etmiş, Nişapurda Fəridəddin Əttarla görüşmüşdür. Dehlidə Şəmsəddin İltutmuş tərəfindən ehtiramla qarşılanmışdır. Bir müddət sonra Panduha köçən C.T. sührəvərdiyyə təlimini yaymağa başlamış, Benqalda islam dininin yayılmasında mühüm rol oynamışdır. Panduhda inşa etdirdiyi "Bari-dərgah" xanəgahında hər hicri ili rəcəb ayının 21–22-də C.T.-nin vəfatının ildönümü ("Urs" mərasimi) qeyd olunur. Panduh yaxınlığındakı Deva Tallada inşa etdirdiyi, hazırda Təbrizabad kimi məşhur olan xanəgah genişləndirilərək məscid və digər tikililərdən ibarət kompleksə çevrilmişdir. C.T.-yə aid edilən "Allahın doxsan doqquz adının şərhi" əsəri dövrümüzədək gəlib çatmamışdır.

**CƏLALİLƏR** – 16–17 əsrlərdə Osmanlı imperiyasında antifeodal xalq üsyanlarının iştirakçıları; 1518–19 illərdə Tokatda başlanan üsyanın rəhbəri şeyx Cəlalinin adı ilə bağlıdır. C. hərəkatı Türkiyənin ayrı-ayrı yerlərində, müxtəlif vaxtlarda baş vermişdi. C.-in ən böyük üsyanlarından biri 1595–1609 illərdə olmuş və Kiçik Asiyanın böyük bir hissəsini əhatə etmişdir. Üsyanın birinci mərhələsində (1595–1603) kəndli kütlələri və şəhər yoxsulları ilə birlikdə xırda feodallar və *sipahi* dəstələri də iştirak etmişdi; sultan hökuməti feodalları öz tərəfinə çəkməklə üsyanı müvəqqəti yatıra bilmişdi. 1-ci mərhələdə Qara Yazıcı – Dəli Həsən üsyanı geniş yayılmışdı. İkinci mərhələ (1603–09) baş verən sırf kəndli üsyanında 200 mindən çox kəndli iştirak etmişdi. 1608 ildə Alaca vadisində sultan ordusu üsyançıları ağır məğlubiyyətə uğratdıqdan sonra üsyan zəifləməyə başladı. Sultan ordusunun sərkərdəsi Murad paşa 100 minə yaxın üsyançıya divan tutdu. 1609 ildə sultan feodal özbaşınalığını cilovlamaq, kəndlilər üzərinə qoyulmuş vergiləri yüngülləşdirmək məqsədi ilə "Ədalət fərmanı" verməyə məcbur oldu.

**CƏLALİLƏR HƏRƏKATI** – 16–17 əsrlərdə Türkiyə, Azərb. və qonşu ərazilərdə antifeodal kəndli hərəkatı. Əvvəllər Osmanlı imperiyasında başlayan C.h. (bax *Cəlalilər*) tezliklə geniş əraziyə yayıldı. Ayrı-ayrı cəlali dəstələrinə bəzən mərkəzi hökumətdən narazı feodallar başçılıq etsə də, hərəkatın əsas iştirakçıları feodal istismarından təngə gəlmiş

kəndlilər idi. Həmin feodalların bir çoxu sonralar xəyanət edərək hökumət tərəfinə keçmiş və kəndli hərəkatının məğlubiyyətinə səbəb olmuşdular. Osmanlı qoşunlarına məğlub olan bəzi cəlali dəstələri Səfəvilər tərəfə keçdi. Cəlali qüvvələrindən osmanlılara qarşı mübarizədə istifadə etməyi nəzərdə tutan Səfəvi hökmdarı I Şah Abbas [1587–1629] Anadolu cəlalilərini ayrı-ayrı ərazilərdə yerləşdirdi. Lakın I Şah Abbasın yürütdüyü siyasətdən narazı qalan cəlalilər Səfəvi torpaqlarını tərk etdilər.

Azərb.-da C.h. əvvəllər osmanlı işğalçılarına, sonralar isə şah hakimiyyəti, yerli bəy və xanlara qarşı yönəlmişdi. 16 əsrin sonları – 17 əsrin əvvəllərində Azərb. və qonşu ölkələrdə xeyli cəlali dəstəsi fəaliyyət göstərirdi. 1591 ildə baş vermiş Təbriz üsyanı da cəlalilərin adı ilə bağlıdır. Kürd feodallarının köməyinə arxalanan Təbriz hakimi Cəfər paşa üsyanı qan içində boğdu. Osmanlıların və yerli feodalların amansız zülm və istismarı var-yoxdan çıxmış kəndlilərin kütləvi surətdə cəlali dəstələrinə qoşulmasına səbəb olurdu. C.h. Çuxursəd bəylərbəyiliyi, xüsusilə Naxçıvan mahalı və Arazboyu ərazidə daha geniş yayılmışdı. Azərb.-da fəaliyyət göstərən cəlali dəstə başçılarından ən məşhuru Koroğlu idi (bunu bəzi tədqiqatlar və toponimik faktlar söyləməyə əsas verir).

Yerlərdə işğalçıların və mərkəzi dövlət hakimiyyətinin tədricən möhkəmlənməsi cəlalilərin mübarizə meydanından çıxmasına səbəb oldu. Bütün kəndli hərəkatlarına xas olan pərakəndəlik, vahid istiqamətverici rəhbərliyin olmaması və s. C.h. üçün də səciyyəvi idi. Bax həmçinin *Koroğlu*, *"Koroğlu"* dastanı, *Koroğlu qalaları*, *Çənlibel*.

**CƏLALOV** Fəraqət Səndəl oğlu (d.14.11.1952, Lənkəran r-nunun Şağlaser k.) – Azərb. idmançısı. Sərbəst güləş üzrə SSRİ idman ustası (1976), əməkdar məşqçi (1991), beynəlxalq dərəcəli hakim (1994), "Fəxri bədən tərbiyəsi və idman işçisi" (2002). Azərb. Pedaqoji Dillər İn-tunu bitirmişdir (1974).

**CƏLALZADƏ MUSTAFA ÇƏLƏBİ,** Qoca Nişancı (təqr. 1490/91, Tosya – 1567, İstanbul) – Osmanlı dövlət xadimi, tarixçi. Bir sıra dövlət vəzifələrində çalışmış, 1516 ildə baş vəzir Piri Mehmed paşanın katibi, 1525 ildən təqr. 10 il sultan dəftərxanasının rəisi olmuşdur. 1534 ildə sultan Süleyman Qanuninin İraqa səfəri zamanı nişancı (qanun, fərman, məktub və s. sənədləri tərtib edib, möhürləyən şəxs) təyin edilmiş və 23 il bu vəzifədə çalışmışdır. Osmanlı imperiyasının 16 əsrin ortalarınadək olan dövrünü əks etdirən, böyük faktiki materiallarla zəngin olan "Təbəqatül-məmalik və dərəcatül-məsalik" ("Ölkələrin dərəcələri və səfərlərin pillələri") və sultan Səlimin hakimiyyətindən bəhs edən "Məasir-i Səlim Xani" əsərlərinin müəllifidir.

**CƏLALZADƏ SALEH ÇƏLƏBİ** (1494/95, Vulçitrin – 1565, İstanbul) – Osmanlı tarixçisi və şairi. *Cəlalzadə Mustafa Çələbinin* qardaşıdır. Müdərris və qazı vəzifələrində çalışmışdır. Sultan Süleymanın əmri ilə "Firuz şah hekayəsi"ni farscadan tərcümə etmişdir (1542/1543; 8 cilddə). Misir bəylərbəyi Hadım Davud paşanı təftiş etmək üçün Misirə göndərilmişdi. 1546 ildə "Tarixi-i Misr-i cədid" əsərini tamamlamışdır. 1550 ildə təqaüdə çıxaraq İstanbula qayıtmışdır. Şahzadə Bəyazidin əmri ilə 1557 ildə Cəmaləddin Məhəmməd Avfinin tarix və əxlaqa dair "Cavami ül-hekayət və lavami ül-rəvayət" əsərini farscadan tərcümə etmişdir. "Tarix-i sultan Süleyman", "Kitab ül-müxtəsər fi əhval il-bəşər", "Tarix-i fəth-i Budin", "Fəthnamə-i Rodos" və s. tarixi əsərlərin, həmçinin "Leyli və Məcnun" məsnəvisinin, "Divan", "Münşəat" və s. ədəbi əsərlərin müəllifidir.

**CƏLAYİR** – Azərb. Resp. Ağsu r-nunun Kəndoba ə.d.-ndə kənd. R-n mərkəzindən 27 *km* c.-da, Şirvan düzündədir. Əh. 1641 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**CƏLAYİR** – Azərb. Resp. Cəlilabad r-nunda kənd. Cəlayir ə.d.-nin (Cəlayir, Lallar, Mirzəli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 27 *km* q.-də, İnçəçayın sahilində, Burovar silsiləsinin ətəyindədir. Əh. 990 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, ATS var.

**CƏLAYİR** – Azərb. Resp. Qax r-nunun Sarıbaş ə.d.-ndə kənd. R-n mərkəzindən 27 *km* c.-q.-də, Qanıx-Əyriçay çökəkliyindədir. Əh. 1470 (2011); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, uşaq bağçası, 2 kitabxana, tibb məntəqəsi var.

**CƏLAYİR** – İranın Ərdəbil ostanında kənd. Meşkin şəhristanının Mərkəzi bölgəsinin Şərqi Meşkin kəndistanında, Meşkin ş.-ndən 27 *km* şm.-ş.-dədir.

**CƏLAYİR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 22 *km* şm.-ş.-dədir.

**CƏLD KƏRTƏNKƏLƏCİK** (Eremias velox Pall) – əsl kərtənkələciklər fəsiləsinin kərtənkələciklər cinsindən sürünən heyvan. Azərb.-da E.v. caucasika yarımnövü yaşayır. Əsasən, boz, yaxud qum rənglidir. Belinin ortası zolaqsız və seyrək tünd çillərlə örtülüdür. Bədəninin yan tərəflərində tünd haşiyəli göy gözcüklər var. Quyruğunun və bud hissələrinin rəngi al-qırmızıdan tünd-narıncıya qədər dəyişir. Gövdəsinin uz. 83,6 *mm*-ədək olur. Şərqi Ön Qafqazda və Cənubi Qafqazda, Aşağı Volqaboyunda, Mərkəzi Asiyada yayılmışdır; Əfqanıstanın şimalında, Çində və İranda rast gəlinir. C.k. təhlükə zamanı kolların arasında, yarıq və çatlarda gizlənir. Güclü hərəkətilə quma tez girə bilir. Yuva qazmağa qabildir. Seyrək yovşanlı və dənli bitkilər olan yarımsəhra zonasında yaşayır. Abşeronda çox rast gəlinir. Oktyabrda qış yuxusuna gedir, yazda oyanır; 2–3 həftə sonra isə cütləşmə başlayır. Düşməni kələz ilanıdır. Əsas qidası cücülərdir.



Cəld kərtənkələcik (Eremias velox).

**CƏLDƏKİ** (الجلدكي), İzzəddin Aydəmir ibn Əli əl-Cəldəki (?, Xorasan, Cəldək k. – 1342, Qahirə) – İran alimi, müsəlman əl-kimyasının sonuncu nümayəndəsi. Klassik nəzəri biliklərlə yanaşı, təcrübi biliklərə də malik olmuş, ilk dəfə nitrat turşusu vasitəsilə gümüşü qızıldan ayırmışdır. Kimyəvi tərkiblərdə maddə miqdarının sabit nisbətlər qanununu müəyyən etmişdir. Metalların oksidləşməsi və bu prosesdə baş verən dəyişikliklər barədə qeydləri var. Tianlı Apolloninin "Yeddi kitab"ını, *Əli ibn Əbu Talibin* "əl-Bəyan" xütbəsini (hər ikisi fransız dilinə tərcümə olunmuşdur) və s. əsərləri şərh etmişdir. Əsərlərinin əsas mövzusu kimya, təbiətin tarixi, "elm əl-xəvass" (xassələr elmi), *Cabir ibn Həyyanın* "nisbətlər nəzəriyyəsi" və s.-dir. Əlyazmaları dünyanın bir sıra kitabxanasında saxlanır.





**CƏLƏB** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Amasiya r-nu), Arpaçayın sol sahilində azərb.-ların yaşadığı kənd. 1860 ildə kəndin azərb. əhalisi qovulmuş, burada xaricdən köçürülmüş ermənilər yerləşdirilmişdir. 26.4.1946 ildə kəndin adı dəyişdirilərək Cradzor qoyulmuşdur.

**CƏLƏBƏR** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Dulbəkş kəndistanında, Urmiya ş.-ndən 53 *km* c.-ş.-dədir.

**CƏLƏQIRAN** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Nəmin bölgəsində, Ərdəbil ş.-ndən 22 *km* şm.-dadır.

**CƏLİ** – ərəb kalliqrafiyasında xətt növlərinin iri forması. Böyük kağızda yazıldığından *tumar* da adlandırılmış, ölçü vahidi kimi də istifadə olunmuşdur. Ümumiyyətlə, geniş ağızlı qələmlə yazılmış yazıya C. deyilirdi. C. ilə yazılacaq mətnin sahəsinə görə hərflərin eni və hündürlüyü hesablanaraq, qəliblər hazırlanır. Mətn qəlibdən tökülmüş kömür tozunun üzərində yazılır və ya mərmərə həkk edilir. İlk cəlinəvisin Nəbəvi məscidinin divarına C.-kufi xətlə Quranın Şəms surəsini yazmış Xəttat Səəd olduğu bildirilir. C.-süls, C.-nəstəliq, C.-divani kimi növləri daha geniş yayılmışdır. 14 əsrədək yalnız süls və nəsxin C.-sindən istifadə olunmuşdur. 1453 ildən sonra vüsətlə inkişaf edən C.-sülsün ən görkəmli nümayəndələri bu yazıda məktəb yaratmış türk xəttatları Mustafa Rakim (ö. 1826) və Mahmud Cəlaləddin (ö. 1829) olmuşlar. 14 əsrdə İranda nəstəliq xəttinin yaradılması ilə C.-nəstəliq meydana gəlmişdir. Lövhə və kitabələrin yazılmasında geniş istifadə olunan C.-nəstəliq Azərb., İran, Əfqanıstan, Hindistan, Orta Asiya və Türkiyədə yayılmışdır. Türk xəttatları tərəfindən yaradılmış C.-divani *divani* xətt növünün formalarından biri olsa da, onların arasında fərqlər var. İkişəkilli hərflər özündən sonrakı hərflə birləşmədiyi üçün C.-divaninin oxunuşu nisbətən rahatdır, daha enli qələmlə yazılır, hərfləri daha bəzəkli olub bir-birini kəsir. Qızılı, qara, qırmızı, yaxud yaşıl olmaqla hər sətir bir rəngdə yazılır. Əsasən, rəsmi mətnlərdə istifadə olunur.

**CƏLİL** Musa – bax *Musa Cəlil*.

**CƏLİLABAD** (1967 ilədək Astraxanbazar) – Azərb. Resp.-nda şəhər (1952 ildən). Cəlilabad r-nunun mərkəzi. Əh. 43,5 min (2011). Bakıdan 215 *km* aralı, Ələt–Astara avtomobil yolu üzərində, dəniz səviyyəsindən 25 *m* hünd.-də, Mişar çayı sahilində, Muğan düzündədir.



Cəlilabad. Tarix-diyarşünaslıq muzeyi.

Şəhərin şm.-q.-ində, ş.-ində və c.-q.-ində (Qurudərə yaşayış yeri) e.ə. 4-cü minilliyə aid yaşayış yerləri və Tunc dövrünə aid Xamşahratəpə yaşayış yeri; 19–20 əsrin əvvəllərinə aid hamamlar, şəhərin c.-ş.-ində orta əsrlərə aid Nadirtəpə yaşayış yeri var.

4 çörəkbişirmə və qənnadı sexi, tikiş, xalça sexləri, asfalt z-du, mebel f-ki, tərəvəz məhsullarının emalı müəssisəsi, broyler f-ki, istehsal gücü gündə 100 *t* olan dəyirman, taxıl məhsullarının təmizlənməsi və saxlanılması üçün 10 min *t*-luq anbar kompleksi; telekommunikasiya qovşağı, poçt filialı və onun üç müştəri xidmətləri şöbəsi, 7 bank filialı, 2 qeyri-bank təşkilatı, elektrikpaylayıcı şəbəkə, qaz istismarı şəbəkəsi fəaliyyət göstərir. Şəhər nəql. minik avtomobilləri və kiçik tutumlu mikroavtobuslardan ibarətdir.

Ş.-də 8 ümumtəhsil məktəbi (6788 şagird), 9 məktəbəqədər (625 uşaq), 5 məktəbdənkənar (1431 şagird), 1 ilk peşə-ixtisas təhsili (60 şagird), 1 orta ixtisas təhsili müəssisəsi, o cümlədən Azərb. Müəllimlər İn-tunun filialı (419 tələbə) var (2013/14). C.-da 20 əsrin əvvəllərində inşa edilmiş məscid, Böyük Vətən müharibəsində həlak olmuş cəlilabadlıların xatirəsinə həsr edilmiş "Ana abidəsi" kompleksi, şəhərin mərkəzində milli memarlıq üslubunda işlənilmiş "Qala qapı" abidə kompleksi, şahmat məktəbi, uşaq incəsənət mərkəzi, mədəniyyət evi, 4 klub, 7 kitabxana, tarix-diyarşünaslıq muzeyi, şəkil qalereyası, parklar və s. var (2012). Cəlil *Məmmədquluzadənin* şərəfinə adlandırılmışdır.

**CƏLİLABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Quruçay kəndistanında, Qaraağac qəs.-ndən 30 *km* şm.-q.-dədir.

**CƏLİLABAD** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin Qarapişli kəndistanında, Zəncan ş.-ndən 48 *km* şm.-q.-dədir.

**CƏLİLABAD NEFTLİ-QAZLI RAYONU** – Azərb. Resp.-nın c. bölgəsində neftli-qazlı r-n. Talış-Vəndam qravitasiya maks.-u və Talış d-rı arası zonada yerləşir; c.-ş.-dən Xəzər dənizi, q.-dən İranla həmsərhəddir. Ərazidə geol. xəritəyəalma, qravimetrik, az həcmdə seysmik işlər, Ağdaş, Lazran, Tumarxanlı sahələrində struktur-axtarış, Novoqolovka, Cəlayir və Ağdaş sahələrində isə dərin qazma işləri aparılmışdır. Ağdaş, Lazran, Tumarxanlı sahələrində qazılmış quyularda neft-qaz təzahürləri müşahidə edilmişdir. C. n.-q.r. mürəkkəb tektonik quruluşa malikdir. Ərazidə Astara, Alaşar-Burovar, Biləsuvar-Novoqolovka antiklinoriumları və Yardımlı, Cəlilabad sinklinoriumları ayrılır. R-nun geol. quruluşunda Tabaşir, Paleogen, Neogen və Dördüncü dövr çöküntüləri iştirak edir. Alt Tabaşir çöküntüləri mergellərdən, Üst Tabaşir çöküntüləri əhəngdaşı, mergel və gillərdən, Paleosen, Eosen və Oliqosen-Miosen çöküntüləri gil, qum, konqlomerat və tuf süxurlarının növbələşməsindən, Üst Pliosen (Akçaqıl, Abşeron) və Dördüncü dövr çöküntüləri isə gil, qum, qumca, çınqıllardan ibarətdir. R-n ərazisində çöküntü süxurların ümumi qalınlığı 6–6,5 *km*-ə çatır. C.n.-q.r.-nunda perspektivli obyektlər kimi Eosen və Oliqosen-Miosen çöküntüləri əhəmiyyət kəsb edir.

**CƏLİLABAD RAYONU** (1967 ilədək Astraxanbazar r-nu) – Azərb. Resp.-nda inz. r-n. 1930 ildə təşkil edilmişdir. Ərazisi Lənkəran ovalığının şm.-ında və Muğan düzünün c.-undadır. Sah. 1441,4 $km^2$. Əh. 197,6 min (2011). R-n şm.-dan Biləsuvar, ş.-dən Neftçala, c.-ş.-dən Masallı, c.-dan Yardımlı r-nları ilə, q.-dən İranla həmsərhəddir. R-nda 2 şəhər, 117 kənd var (2011). Mərkəzi Cəlilabad ş.-dir.












Cəlilabad. Burovar silsiləsinin ətəkləri.

**Təbiət.** Səthi, əsasən, düzənlik (Muğan düzü, qismən Lənkəran ovalığı), c.-q.-də alçaq dağlıqdır (Burovar silsiləsinin şm.-q. hissəsi). Hünd. 1000 *m*-ə qədərdir. Ş. hissədə bəzi yerlər okean səviyyəsindən aşağıdır. Antropogen, dağlıq hissədə Paleogen və Neogen çöküntüləri yayılmışdır. Əsasən, yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl, yayı quraq keçən mülayim-isti iqlimə malikdir. Orta temp-r yanvarda 1–3°C, iyulda 25–30°C-dir. İllik yağıntı 400–600 *mm*-dir. Çayları (Həmşirə, Göytəpəçay, İncəçay və s.), əsasən, müvəqqəti axarlıdır. Ən böyük çayı İranla sərhəddə Bolqar çayıdır. Allüvial-çəmən, şabalıdı, qəhvəyi dağ-meşə və s. torpaqlar yayılmışdır. Yarımsəhra, çöl, dağ-kserofit bitkiləri və s. inkişaf etmişdir. Meşələr var (sah. 17,2 min *ha*, 2011). Heyvanları: çöldonuzu, süleysin, qumsiçanı, canavar, tülkü və s. Quş (bəzgək, dovdaq) qışlaqları var.

**Əhali.** Orta sıxlıq 1 $km^2$-də 137 nəfərdir. Kənd əhalisi 70,4 %-dir. Cəlilabad, Göytəpə ş.-ləri, Üçtəpə, Alar, Uzuntəpə, Günəşli, Privolnoye k.-ləri ən iri yaşayış məntəqələridir.

**Təsərrüfat.** Rayonun iqtisadiyyatında aqrar sahə, xüsusilə taxılçılıq, kartofçuluq, üzümçülük və heyvandarlıq mühüm yer tutur. K.t.-na yararlı torpaqlar 97 min 359 *ha*-dır: əkin sahələri 65564 *ha*, çoxillik əkinlər 983 *ha*, dincə qoyulmuş torpaqlar 574 *ha*, biçənək sahələri 2733 *ha*, örüş sahələri 9925 *ha* təşkil edir. Suvarılan torpaqlar 9165 *ha*-dır. Suvarma üçün başlanğıcını Araz çayından götürən Əzizbəyov kanalından, rayon ərazisindəki Göytəpəçay, İncəçay, Mişarçay və Cəfərxanlı su anbarlarından istifadə olunur. Suvarılan sahələrin 75%-ində dənli bitkilər, 5%-ində texniki bitkilər, 6%-ində bostan bitkiləri və kartof, 14%-ində yem bitkiləri əkilir. Son illər Fransa, Gürcüstan və Moldovadan gətirilmiş tinglər hesabına üzümlüklərin sahəsi genişləndirilərək 1177 *ha*-a çatdırılmış, 2011 ildə 6862 *t* üzüm istehsal olunmuşdur.

Rayonda heyvandarlıq inkişaf etdirilmiş, mal-qaranın cins tərkibi xaricdən gətirilmiş damazlıq heyvanlar hesabına yaxşılaşdırılmışdır. Qaramal 98500 baş, davar 122 min baş, ev quşlarının sayı 600 mindir. Quşçuluqla məşğul olan ayrı-ayrı fiziki şəxslərə məxsus 4 sex və illik istehsal gücü 300 min *t* olan broyler f-ki fəaliyyət göstərir.

Rayonda "Ruslan" mebel f-ki, tikinti materialları hazırlayan sexlər və kərpic z-du, beton dirəklər sexi, 2 asfalt z-du, xalça və tikiş sexləri, üzüm emalı müəssisəsi, tərəvəz məhsullarının konservləşdirilməsi ilə məşğul olan sex, müasir tipli un dəyirmanları, iri taxıl anbarları və tərəvəz

Cəlilabad. Heydər Əliyev seyrəngahı.



Cəlilabad broyler ASC.





Cəlilabad. Z. Əliyeva ad. orta məktəb.



Cəlilabad. Olimpiya İdman Kompleksi.

məhsullarının saxlanılması üçün soyuducu kameralar, çörəkbişirmə və qənnadı sexləri var.

Bakı–Astara dəmir və avtomobil yollarının rayon ərazisindən keçməsi də rayonun iqtisadiyyatına müsbət təsir göstərir.

**Mədəni quruculuq və səhiyyə.** R.-nda 125 ümumtəhsil məktəbi (27403 şagird), 18 məktəbəqədər (1041 uşaq), 5 məktəbdənkənar (1431 şagird), uşaq musiqi məktəbi, uşaq incəsənət məktəbi, 2 ilk peşə-ixtisas təhsili (476 şagird), 1 orta ixtisas təhsili müəssisəsi, o cümlədən Azərb. Müəllimlər İn-tunun filialı (419 tələbə) var (2013/14). R-nda 1 şəhər mədəniyyət sarayı, 18 kənd mədəniyyət evi, 24 klub müəssisəsi, 94 kitabxana, 2 muzey, şəkil qalereyası, şahmat məktəbi, uşaq-gənclər idman məktəbi, 7 kompleks idman qurğusu, 3 min yerlik stadion fəaliyyət göstərir (2012). R-nda 365 çarpayılıq 9 xəstəxana, o cümlədən vərəm xəstəxanası, əhaliyə ambulatoriya-poliklinika yardımı göstərən 37 müalicə müəssisəsi, gigiyena və epidemiologiya mərkəzi, 276 həkim, 802 orta tibb işçisi var (2011).

**CƏLİLİ** Həmidizadə (əsl adı Əbdülcəlildir;1488, Bursa – 1569, Bursa) – türk divan şairi. Bursada təhsil aldıqdan sonra İstanbula getmiş, burada Sultan I Səlimə mədhiyyələr yazsa da, qiymətləndirilməmişdir. Bursaya qayıdaraq ömrünün sonunadək orada yaşamışdır. Şeirləri sadə və axıcı üslubdadır. Ə. Nəvai, H. Həmdi və Behişti Əhməd Sinan Çələbidən sonra türk dilində yazılmış dördüncü "Xəmsə"nin ("Xosrov və Şirin", 1512; "Leyli və Məcnun", 1514;"Yüz yarpaqlı tikansız gül"; "Həcrnamə", 1509; və "Məhəknamə") müəllifidir. 303 qəzəl, 6 qitə, 8 müəmma və s. şeirlərdən ibarət divanı var; yeganə nüsxəsi Fransa Milli Kitabxanasındadır. "Tərcümeyi-Şahnamə" və "Yusif və Züleyxa" əsərlərinin də olduğu ehtimal edilir.

**"CƏLİLİ"** – aşıq havası. 18 əsrdə aşıq Cəlil tərəfindən yaradıldığı ehtimal edilir. "Baş Cəlili" ("Qaragöz", yaxud "Qaragöz bala", "Çıldır çiçəyi") və "Orta Cəlili" (çox vaxt "Cəlili", bəzən "Süsənbəri") adlı iki növü var. "Baş Cəlili"nin poetik mətni qoşma, məqam əsası segah, musiqi ölçüsü 6/8, tempi mülayim-tezdir; sazda "Şah pərdə" kökündə ifa olunur. "Orta Cəlili"nin poetik mətni qoşma, məqam əsası rast, musiqi ölçüsü 6/8, tempi mülayim-cəlddir; sazda "Ürfanı" kökündə ifa olunur. "Orta Cəlili"nin instrumental variantları da var.

**CƏLİLKƏND** – Azərb. Resp. Şərur r-nunda (Nax. MR) kənd. Cəlilkənd ə.d.-nin mərkəzi. R-n mərkəzindən 4 *km* şm.-ş.-də, Naxçıvan–Sədərək avtomobil yolunun sol tərəfində, Şərur düzündədir. Əh. 2021 (2011); yemçilik, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, ambulatoriya, uşaq bağçası, muzey, poçt var. Kənddə inşa üsulu və texnikasına görə e.ə. 2-ci minilliyin əvvəlinə aid edilən siklop tikililəri (xalq arasında q a l a ç a deyilir) var.

**CƏLİLKƏND** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyəhçeşmə bölgəsinin Çaldıran kəndistanında, Siyəhçeşmə qəs.-ndən 6 *km* ş.-dədir.

**CƏLİLLİ** – Azərb. Resp. Tovuz r-nunda kənd Cəlilli ə.d.-nin mərkəzi. R-n mərkəzindən 5 *km* şm.-da, Bakı–Qazax avtomobil yolunun kənarında, Gəncə-Qazax düzündədir. Əh. 1989 (2011); heyvandarlıq, əkinçilik və üzümçülüklə məşğuldur. Tam orta məktəb, uşaq bağçası, klub, tibb məntəqəsi var.

**CƏLİLOV** Firudin Ağası oğlu (d.6.5. 1947, Erm. Resp., Vedi r-nunun Qarabağlar k.) – Azərb. dilçisi, filologiya e. d. (1989). Azərb. Dövlət Un-tinin filologiya fakültəsini bitirmiş (1972), həmin un-tin Azərb. dilçiliyi kafedrasında çalışmışdır (1972 94). Tədqiqatları türk dillərinə, türk xalqlarının mifologiya və etnoqrafiyasına və s. sahələrə həsr olunmuşdur. "Azərbaycan dilinin morfonologiyası" kitabı Beynəlxalq Türkoloji qurultayın (1996) mükafatına layiq görülmüşdür. Əsərləri xarici ölkələrdə çap olunmuşdur. Türk dil qurumunun m. üzvü (1996) və fəxri üzvü (2000) seçilmişdir. Azərb. SSR Ali Sovetinin deputatı (12-ci çağırış), "Dövlət Əlifba komissiyası"nın rəhbəri (1990), Azərb. Resp. Ali Soveti Milli Şurasının "Təhsil, elm, mədəniyyət və din məsələləri" komissiyasının sədri (1991), Baş nazirin müavini (1992), ali və orta ixtisas təhsili naziri (1993) olmuşdur. Bir çox ölkədə məruzələrlə çıxış etmişdir.

Ə s ə r l ə r i: Azərbaycan dilinin səs quruluşu. B., 1983; Azərbaycan dilinin morfonologiyası. B., 1988; Morfonolojik rekonstrüksyon ve etimoloji. İzmir, 1993; Azər xalqı. B., 2000.

**CƏLİLOV** Kamil Cəlil oğlu (d.29.1. 1938, Bakı, Buzovna k.) – Azərb. qoboyçalanı. Azərb. Resp. xalq artisti (2000). A. Zeynallı ad. Musiqi məktəbini (1959) və Azərb. Dövlət Konservatoriyasını (1965) bitirmişdir. 1965–69 illərdə Azərb. Dövlət Televiziya və Radiosu Kamera Orkestrinin, 1965 ildən G. Əliyevanın rəhbərlik etdiyi "Dan ulduzu" instrumental ansamblının solisti olmuşdur. Azərb. müğamlarının ilk dəfə qoboyda səslənməsi, eləcə də xalq çalğı alətlərinə qoboyun daxil edilməsi C.-un adı ilə bağlıdır. Xalq mahnıları və ritmik müğamların ("Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" və s.) mahir ifaçısı kimi tanınmışdır. Repertuarına muğamlar (Segah, Dügah, Zəminxarə, Çahargah, Zabul, Rahab, Bayatı-Şiraz, Bayatı-kürd və s.), aşıq havaları ("Baş sarıtel", "Cəlili", "Yanıq Kərəmi" və s.), xalq mahnıları ("Sarı bülbül", "Apardı sellər Saranı", "Küçələrə su səpmişəm", "Sarı gəlin" və s.), Azərb. bəstəkarlarının (Ü.Hacıbəyli, F.Əmirov, Q.Qarayev, C.Hacıyev, C.Cahangirov, Ə.Abbasov, A.Məlikov, T.Quliyev, A.Əlizadə, O.Kazımov və b.) əsərləri, "Azərbaycan təranələri" kompozisiyası (musiqisi C.-undur), həmçinin Qərbi Avropa və rus bəstəkarlarının (İ.S.Bax, Ş.Quno, V.A. Motsart, F.Y.Haydn, Y.F.Hendel, A.Borodin, S.V.Raxmaninov, N.A.Rimski-Korsakov və b.) musiqisi daxildir. 1976 ildə Manilada (Filippin) keçirilmiş 4-cü Beynəlxalq Asiya və Afrika ölkələri musiqi müsabiqəsində "Çahargah ahəngi"nin ifasina görə laureat (1-ci mükafat) adına layiq görülmüşdür. Dünyanın bir çox ölkəsində qastrolda olmuşdur. 1957–62 illərdə Mədəni-Maarif Texnikumunda, 1989 ildən Azərb. Milli Konservatoriyası nəzdindəki incəsənət gimnaziyasında pedaqoji fəaliyyət göstərir. Haqqında "Kamil" televiziya filmi çəkilmişdir (1997). Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.



**CƏLİLOV** Qurban Nizaməddin oğlu [27.10.1927, Nuxa (indiki Şəki) – 1.10. 2000, Bakı] – neft və qaz yataqlarının işlənməsi və yeraltı hidroqaz dinamikası sahəsində Azərb. alimi, texnika e.d. (1963), prof. (1966), AMEA-nın akad. (1989; m. üzv 1972). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1950). Azərb. SSR EA Dərin Neft və Qaz Yataqları Problemləri İn-tunun direktor müavini (1974 ildən) və Azərb. SSR EA Yer Elmləri bölməsinin akad. katibinin müavini (1980 ildən) olmuşdur. C. neft quyularının sulaşması və qarşılıqlı təsiri, su-neft sərhədinin hərəkəti ilə əlaqədar məsələləri tədqiq etmiş, çoxlaylı neft və qaz yataqlarının işlənməsinin hidrodinamik hesablama üsullarını işləyib hazırlamış, müxtəlif kollektora malik bircinsli olmayan yataqların riyazi mo- dellərini təklif etmişdir. Ümumittifaq konfranslarda, nəzəri və tətbiqi mexanika üzrə 9-cu Ümumdünya konqresində (Moskva, 1973) məruzə etmişdir. 230-dan çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir. Yüksəkixtisaslı kadrların hazırlanmasında xidmətləri var. İ.M. Qubkin ad. mükafata layiq görülmüşdür (1985). Xalqlar dostluğu ordeni və medallarla təltif olunmuşdur.



Ə s ə r l ə r i: Вопросы перемещения контура нефтеносности и обводнения скважин. Б., 1974; Вопросы обводнения скважин в многопластовых месторождениях (başqaları ilə birlikdə). Б., 1980.

**CƏLİLOV** Mərdan Fərəc oğlu (d.29.6. 1952, Bakı ş., Mərdəkan qəs.) – energetika sahəsində Azərb. alimi, texnika e.d. (1999), prof. (2000). Azərb. Neft və Kimya İn-tunu (AzNKİ; indiki ADNA) bitirmişdir (1974). 1974–75 illərdə "Şimal" DRES-də, 1975–78 illərdə AzNKİ-də böyük mühəndis, 1985 ildən AMİU-da dosent, prof. vəzifələrində işləmişdir. 2004–13 illərdə AMİU-da kafedra müdiri olmuşdur. Hazırda AMİU və Aviasiya Milli Akademiyasında pedaqoji fəaliyyət göstərir. Əsas elmi işləri istilik energetikası müəssisələri üçün əlavə suyun ekoloji təmiz və iqtisadi səmərəli üsullarla hazırlanmasına aiddir. 160-dan çox elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r i: Химическое обессоливание воды на ТЭС с сокращенными количествами реагентов и стоков. Б., 1966.

**CƏLİLOV** Namiq Sərdar oğlu (d.18.2. 1955, Naxçıvan, Şahbuz r-nunun Aşağı Qışlaq k.) – Azərb. astronomu, fizika-riyaziyyat e.d. (2004), AMEA-nın m. üzvü (2007). Azərb. Dövlət Un-tini bitirmişdir (1977). Elmi fəaliyyətinə Naxçıvan MR-nın Batabat Astrofizika Rəsədxanasında baş laborant kimi başlamışdır (1977). Kosmik Tədqiqatlar Elm-istehsalat Birliyində (1983–86), Moskva vil., Troitsk ş.-ndə Yer Maqnetizmi, İonosfer və Radiodalğaların Yayılması İn-tunda (1986–2005) işləmişdir. 2005 ildən N. Tusi ad. Şamaxı Astrofizika Rəsədxanasında (ŞAR) şöbə müdiri vəzifəsində çalışır. Tədqiqatları Günəş və ulduzların pulsasiyasının fizikası sahəsindədir. Bu tədqiqatlar əsasında Günəşin neytrino tomoqrafiyasının nəzəri bazisi yaradılmışdır. Göstərilmişdir ki, Günəşin periodik maqnit aktivliyi onun məxsusi qlobal rəqslərinin təzahürü kimi yarana bilər. Bundan başqa, müəyyən edilmişdir ki, Günəşdə 1500–30000 illik məxsusi burulğanlı rəqslər baş verə bilər və bunlar Yerin iqlimində qlobal dəyişikliklərə gətirib çıxara bilər. 100-dən çox elmi əsərin, və 1 monoqrafiyanın müəllifidir.

Ə s ə r i: "Глобальные колебания Солнца" (Ştaude Y. ilə birlikdə). Баку, "ЭЛМ", 2005, 250 с.

**CƏLİLOVA** Roza İsmayıl qızı (d.17.5. 1929, Dəvəçi ş.) – Azərb. rəqqasəsi. Azərb. Resp. xalq artisti (2007). Bakı Xoreoqrafiya Məktəbini (1947) bitirmişdir. 1947–49 illərdə Azərb. Opera və Balet Teatrında işləmiş, 1949–69 illərdə Azərb. Dövlət Mahnı və Rəqs Ansamblında rəqqasə, 1969–73 illərdə isə həmin ansamblın bədii rəhbəri olmuşdur. Azərb. Resp. Mədəniyyət Nazirliyi Xalq Yaradıcılığı Elmi-Metodik Mərkəzində baletmeyster (1973–83), İraqda xoreoqrafiya məktəbində müəllim (1984) işləmişdir. C.-nın repertuarına Azərb. milli rəqsləri ("Bənövşə", "Novruzu", "Zərif yerişli", "Qaragöz", "Tirməşal", "Lalə", "Tərəkəmə", "Naznaz", "Ənzəli" və s.), həmçinin iran, hind, ərəb, benqal və b. xalqların rəqsləri daxildir.



R. Cəlilova. Lirik rəqs – "İlk bahar". 1965.



“Qavalla rəqs”, “Azərbaycan süitası”, “Ağ çiçək”, “Muleyli”, “Yallı”, “Durnalar”, “Sabirabadı” rəqslərinə quruluş vermişdir. Azərb.-ın bir sıra rayonlarında rəqs kollektivlərinin yaradılmasında xidməti var. Bir çox xarici ölkədə qastrol səfərlərində olmuşdur.

**CƏLQAY** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Bənab bölgəsinin Bənacu kəndistanında, Bənab qəs.-ndən 5 *km* c.-dadır.

**CƏLLADLI** – İrəvan xanlığının Dərəçiçək mahalında (9.9.1930 ildən Axta, 30.6.1959 ildən Razdan r-nu) azərb.-ların yaşadığı kənd. “İrəvan əyalətinin icmal dəftəri”ndə (1728) kənd haqqında məlumat var. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalı zamanı kənd dağıdılmış, əhalisi isə qonşu Dərəçiçək k.-nə köçmüşdür.

**CƏM** (lat. summa – yekun, ümumi miqdar) – kəmiyyətlərin (ədədlərin, funksiyaların, vektorların, matrislərin və s.) toplanması əməlinin nəticəsi. *a* və *b* ədədlərinin C.-i *a+b* ilə, *n* sayda $a_1, a_2, ..., a_n$ ədələrinin C.-i ∑ simvolu ilə işarə edilir:

$$a_1 + a_2 + ... + a_n = \sum_{i=1}^{n} a_i = \sum_1^n a_i.$$

∑ işarəsini elmə L. *Eyler* daxil etmişdir (1755).

**CƏM,** d i l ç i l i k d ə – kəmiyyət kateqoriyası formalarından biri. İsimlərdə ayrı-ayrı əşyaların çoxluğunu, feillərdə iş və hərəkətin çoxlu subyektə məxsusluğunu bildirir. 6 növü müəyyən edilmişdir: 1) distributiv C. – başqa əşyalarla ayrı-ayrılıqda əlaqədar olan çoxlu əşyaları bildirmək üçün, hər əşyanın özü ilə əlaqədar əşyaları ayırmaq üçün işlənən C.-lik; 2) mübaliğə C.-i – nitqə xüsusi əhəmiyyət vermək üçün, danışanın müəyyən qüvvə ilə, kollektivlə əlaqədar olduğunu bildirmək üçün birinci şəxsin təki yerinə C. əvəzliyinin və müvafiq feil formasının işlədilməsi; 3) müəllif C.-i – birinci şəxsin təki əvəzinə (daha çox yazılı dildə) təvazökarlıq əlaməti olaraq birinci şəxsin C.-inin işlədilməsi; 4) nəzakət C.-i – bir şəxsə müraciət edərkən ikinci şəxs C. şəxs əvəzliyinin işlədilməsi; 5) təmtəraqlılıq C.-i – keçmiş həyat tərzi ilə əlaqədar hökmdarların işlətdiyi “biz” (“mən” mənasında) və onlara müraciətlə deyilən “siz” əvəzlikləri və müvafiq feil formaları; 6) təxmini C. – təxmini şəkildə və qeyri-dəqiq surətdə sıra saylarını işlətməklə müəyyən zaman anlayışı bildirən C.-dir.

*Əd.:* A d i l o v M.İ, V e r d i y e v a Z.N., A ğ a y e v a F.M. İzahlı dilçilik terminləri. B., 1989.

**CƏMADİYÜLAXİR** – bax *Hicri təqvimi.*

**CƏMADİYÜLƏVVƏL** – bax *Hicri təqvimi.*

**CƏMALƏDDİN ƏL-ƏFQANİ** – bax *Əfqani* Cəmaləddin.

**CƏMALƏDDİN ƏRDƏBİLİ** Yusif ibn İbrahim (?, Ərdəbil – 1397) – Azərb. alimi və hüquqşünası (fəqih). Müsəlman hüququnun (fiqhin) dərin bilicisi idi. Təbriz, Qəzvin və s. şəhərlərdə təhsil almış, sonra Ərdəbilə qayıtmışdır. Azərb. hüquqşünas alimi və şairi Əbdülkərim Rəfi Qəzvininin (ö. 1226) davamçısı olmuşdur. Şafii hüquq məktəbinin son görkəmli nümayəndəsidir. Əsərləri Orta Asiyadan Misirədək yayılmış, 19 əsrin sonunadək şafii hüquqşünas və hakimlərinin əsas müraciət mənbəyi olmuşdur. Onun “Əl-ənvar li-əməl əl-əbrar” (“Doğruçuların əməlləri üçün işıq”) əsərinə 15–19 əsrlərdə çoxlu şərh, haşiyə, təliqə və izah yazılmışdır. C.Ə.-nin “Əl-Əzhar” (“Çiçəklər”), “Əl-Fəraiz” (“Vərəsəlik”) və s. əsərləri orta əsrlər fiqhinin maraqlı abidələrindəndir. Əsərlərinin əlyazma nüsxələri AMEA-nın M.Füzuli ad. Əlyazmalar İn-tunda, eləcə də Paris Milli kitabxanası, Misir Milli kitabxanası (Qahirə), Kral Səud untinin kitabxanası (Ər-Riyad) və s. yerlərdə saxlanılır.

**CƏMALƏDDİN ət-Türki** (?–?) (əsl adı Əbu Məhəmməd Abdullah ət-Türkidir) – 14 əsr türk dilçisi. Həyatı haqqında məlumat azdır. Qıpçaq dilinin öyrənilməsi üçün mühüm mənbə sayılan “Məmlük dövləti dövrünə aid ərəbcə-qıpçaqca lüğət” adlı əsəri ilə tanınmışdır. Əsərin yeganə əlyazma nüsxəsi Fransa Milli Kitabxanasında saxlanılır. Əsər iki hissədən ibarətdir (1. İsimlər; 2. Feillər). Polyak türkoloqu A.Zayonçkovski tərəfindən (birinci hissəsi fransızca, ikinci hissəsi polyak dilində) nəşr edilmişdir.

**CƏMAYEL** Bəşir (1947, Beyrut – 14.9.1982, Beyrut) – Livan dövlət xadimi. Ə. *Cəmayelin* qardaşıdır. Vəkil olarkən kətaiblər arasında fəal rol oynamış, ordunu təkmilləşdirməyə çalışmışdır. 1975 ilin aprelində Fələstin Müqavimət Hərəkatının (FMH) və Milli Tərəqqipərvər Qüvvələrinin (MTQ) sağ xristian qüvvələri arasında daxili ziddiyyətlər kəskinləşmiş və Livanda vətəndaş müharibəsi başlamışdı. Bir ildən sonra C. Kətaiblər ordu şurasının (iyul, 1976 il), sonra isə Livan ordusunun (1976, avqust) baş komandanı olmuşdur. ABŞ-ın vasitəçiliyi ilə Kemp-Deviddə imzalanmış Misir-İsrail sövdələşməsini pisləmiş, ərəb dövlətlərinin Bağdad müşavirələrində (1978, 1979) iştirak etmişdir. C. Livan hərbi qüvvələrinin baş komandanı, Kətaiblər siyasi şurasının üzvü, Təhlükəsizlik şurasının sədri idi. Pozitiv bitərəflik, bloklara qoşulmamaq siyasəti yeridən C. İsrail təcavüzünə qarşı ərəb ölkələri birliyinin möhkəmləndirilməsinə səy göstərmişdir. 1982 ilin avqustunda Livanın prezidenti seçilmiş, bu vəzifəni icra etməyinə bir neçə gün qalmış sui-qəsd nəticəsində öldürülmüşdür.

**CƏMAYEL** Əmin (d. 1942, Bikfayə) – Livan dövlət xadimi. 1970 ildə millət vəkili seçilmişdir Qardaşı B. *Cəmayelin* öldürülməsindən sonra ölkə prezidenti (1982, sentyabr) olmuşdur. Millətçi olan C. ölkəsinin dinamik qüvvələrinin birləşməsi və xarici qüvvələrin ölkədən sıxışdırılması üçün çalışırdı. Beynəlxalq aləmdən dəstək gözləyən C. İsrail silahlı qüvvələrinin Livandan geri çəkilməsi üçün 1982 ilin dekabrında İsrail hökuməti ilə görüşlər keçirmişdi. İsveçrədə “Beynəlxalq sülh konfransının” keçirilməsinin və Livanda sülhün bərqərar olmasının təşəbbüskarı olmuşdur. Suriya və onun Livandakı müttəfiqləri ilə kompromisə nail olmağa çalışmışdır. 1988 ildə prezidentlik müddəti bitdikdən sonra istefa vermişdir.

**CƏMCƏMLİ** – Azərb. Resp. Qobustan r-nunda kənd. Cəmcəmli ə.d.-nin (Cəmcəmli, Damlamaca k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 10 *km* c.-da, dağ ətəyindədir. Əh. 1271 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, klub, kitabxana, ambulatoriya var.

**CƏMDƏT-NƏSR** – Bağdaddan (İraq) 100 *km* c.-ş.-də, Dəclə çayının sağ sahilində e.ə. 3-cü minilliyin 1-ci yarısına aid yaşayış məskəni. Aşağı təbəqələrinə uyğun olaraq Mesopotamiya mədəniyyətinin *Uruk* dövrünü əvəz etmiş dövrü də (digər adı “Yazıyaqədərki”; e.ə. 3100–2900 illər) C.-N. adlandırılmışdır. 1925–28 illərdə ingilis arxeoloqları S. Lanqdon, E. Makkey, V. Vatelin tərəfindən tədqiq edilmişdir. *Təll* çiy kərpicdən hörülmüş müdafiə divarları ilə əhatələnmişdir. Gildən düzəldilmiş evlər var; ağac, qamış və gildən damı olan qab və s. aşkarlanmışdır. Qara və ya qırmızı həndəsi naxışlarla, gil üzərində, yaxud sarı fonda quş və keçi fiqurları ilə bəzədilmişdir; cızılmış ornamentlərə nadir hallarda təsadüf olunur, qabların çoxu naxışsızdır. Bəzi qabların boyanmış yuxarı hissəsi ayrıca hazırlanmışdır. Qranit, porfirit, əhəngdaşı və kalsitdən düzəldilmiş qablar formaca gil qablara oxşardır. Toppuz ucluqları, taxma daş ülgüclü oraqlar, sapı dəlikli balta, yaxşı bişirilmiş gildən hazırlanmış yastı kərki-baltalar, mis kərkilər, mis, gümüş və qurğuşundan düzəldilmiş qablar aşkarlanmışdır. Əhəngdaşı, kirəc, balıqqulağı və bütöv şüşədən olan muncuqlar tapılmışdır. Heyvanların, nadir hallarda insanların xətti-sxematik təsviri olan (C.-N. üslubu) silindrik möhürlərə (İrandan Misirədək yayılmışdır) və əhəngdaşı, mərmər, kirəc və minadan həndəsi naxışlı ştamplara rast gəlinir. C.-N. yaşayış məskəninin təbəqəsində təsərrüfat sənədləri – piktoqrafik işarələri olan gil lövhələr tapılmışdır; belə lövhələr (ilk dəfə Uruk dövründə meydana gəlmişdir) Şumer yazısının əsasını təşkil etmişdir (bax *Mixi yazı*).



Cəmdət-Nəsrdə aşkar edilmiş qablar. Aşmola muzeyi (Oksford).

**CƏMƏL VURUŞMASI (656)** – Məhəmməd peyğəmbərin dul arvadı *Aişənin* Əli ibn Əbu Talibə beyət etməməsi səbəbindən baş vermiş toqquşmar. Xəlifə *Osman* ibn Affanın öldürülməsindən sonra onun yerinə keçmiş Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni Əliyə qarşı Məkkədə təbliğata başlamış Aişə tərəfdarları (Təlha, Zübeyr, Abdullah bin Ömər, Yəmən valisi Yala, Bəsrə valisi Abdullah) ilə birlikdə Bəsrə ş.-ni ələ keçirmişdi. Mədinədə təhlükəsizliyinin təmin ediləcəyinə şübhə ilə yanaşan Əli əvvəlcə Kufəyə getmiş, orada qüvvə toplayaraq Bəsrəyə yürüş etmişdi. Vuruşma Bəsrə yaxınlığındakı Hüreybədə, Aişənin mindiyi dəvənin (ər. cəməl) ətrafında baş vermişdi. Əlinin zəfəri ilə nəticələnən bu döyüşdə Təlha öldürülmüş, Aişə isə əsir alınaraq hörmətlə Mədinəyə göndərilmişdi.

**“CƏMİ ÜL-ƏNVA ƏL-ƏDƏB ƏL-FARİSİ”** (جامع الأنواع الأدب الفارسى) – Şeyx Əhməd Bardaklının yazdığı lüğət və türk dilində ədəbiyyatşünaslığa dair ilk kitab (1502). Lüğət 5 hissəyə bölünür. 1-ci hissə fars dilindəki sözlərin türkcə qarşılığından ibarətdir (sözlərin düzülüşü onların son hərflərinə uyğun verilmişdir); 2-ci hissə farsca feilləri və onların türk dilindəki mənalarını əhatə edir; 3-cü hissədə hərflərin simvolları, 4-cü hissədə isə illər, aylar və planetlərlə bağlı məlumatlar toplanmışdır. 5-ci hissə şeir qaydalarını, əruz vəzninə dair məlumatları və ədəbi janrları əhatə edir; misallarla izahatlar verilir. Yeganə nüsxəsi İstanbuldakı Milli kitabxanada saxlanılır.

**CƏMİL BUSEYNƏ,** Əbu Əmir Cəmil ibn Abdullah (?, Hicaz, Vadi əl-Qura – 701, Misir) – ərəb şairi. Həyatı haqqında məlumat azdır. Əmisi qızı Buseynəyə yazdığı sevgi şeirləri ilə “C.B.” kimi məşhurlaşmışdır. Buseynənin ailəsi tərəfindən təhdidlərə məruz qalmış, bir müddət Yəməndə, Suriyada, Vadi əl-Qurada yaşamış, sonra Misirə getmişdir. Şeirlərindəki təxəyyül gücünə, ifadə sadəliyinə, səmimi duyğuların təsvirinə görə C.B. platonik məhəbbəti tərənnüm edən ərəb şairləri arasında xüsusi yer tutur. Sözlərinə nəğmələr qoşulmuş, uzun müddət Əməvi və Abbasi saraylarında ifa olunmuşdur. Rəcəz, fəxriyyə və həcvlər də yazmışdır. Əsasən, şair Küseyyir Uzzənin dilindən yazıya alınmış şeirləri Beyrutda (1934, 1953), Qahirədə (1958) divan şəklində çap olunmuşdur.

**CƏMİL CAHİD BƏY** (1883, İstanbul – 15.7.1956, İstanbul) – Türkiyə hərbi xadimi, *Qafqaz İslam Ordusunun* fəal xadimlərindən biri. Hərbi yardım üçün Azərb. ərazisinə yetişən ilk hərbi hissələrdən birinin komandiri olmuşdur. *Batum müqavilələrinin* (*1918*) imzalanması ərəfəsində Türkiyənin 3-cü ordu komandanı *Vehib paşa* Qazaxla Gəncə arasındakı st.-ları və d.y. xəttini qorumaq üçün Azərb.-a minbaşı (mayor) C.C.b.-in komanlığı altında qarışıq tərkibli dəstənin göndərilməsinə dair *Nuru paşaya* əmr vermişdi.



1918 il iyunun 4-də iki dövlət arasında Batumda imzalanan müqavilədən sonra C.C.b.-in komandanlığı altında 9-cu alayın da daxil olduğu 5-ci Qafqaz firqəsi bütünlüklə Qafqaz İslam Ordusunun tabeliyinə verildi. Alay iyunun 7-də Qazaxda, iyunun 9-da isə artıq Gəncədə idi. İyunun 11–12-də Gəncədə erməni-daşnak silahlı dəstələri tərksilah edildi. Sonra bir müddət Gəncə ətrafının təhlükəsizliyinin təmin edilməsi də 9-cu alaya tapşırıldı.

1918 il avqustun 13-də C.C.b. Şərq cəbhəsi komandanlığının tərkibinə daxil olan Cənub qrupunun komandanı təyin edildi. Avqustun sonlarında Qafqaz İslam Ordusunun Bakı ətrafındakı qüvvələri yenidən qruplaşdırıldı və C.C.b. yeni yaradılan Qərb qrupunun rəhbəri təyin edildi. Bakı azad edildikdən sonra C.C.b. həm şəhərin komendantı, həm də 1-ci Azərbaycan piyada diviziyasının komandanı oldu. C.C.b.-in uzun müddət komandiri olduğu 9-cu Qafqaz alayı da 1-ci Azərbaycan diviziyasının tərkibinə verildi. 1918 ilin oktyabrında Qarabağın erməni-daşnak qoşunlarından təmizlənməsinin əsas ağırlığı 1-ci Azərbaycan diviziyasının üzərinə düşdü.

Türkiyəyə qayıtdıqdan sonra ölkədə aparılan istiqlal mücadiləsinə qoşulan C.C.b. gen. rütbəsinə layiq görüldü. 1940 ildə gen.-polk. rütbəsində jandarm qüvvələri komandanı, 1943–46 illərdə ordu gen.-ı rütbəsində 1-ci ordu komandanı, 1946–47 illərdə Türkiyənin milli müdafiə naziri olmuşdur.

**CƏMİLƏ** – Əlcəzairin şm.-ş.-ində, Təll-Atlas d-rında, Setiv vil.-ndə kənd. Eramızın 96–97 illərində Qədim Romanın bərbərlərlə mübarizəsi zamanı hərbi koloniya və istehkam kimi salınmış Kuikul (Cuicul, Cuiculum) şəhərinin yerində yaranmışdır. Şəhərin çiçəklənmə dövrü 2 əsrin ortaları – 4 əsrə, Roma əyaləti Numidiyanın iri mərkəzi olduğu vaxta təsadüf edir. 3 əsrdə əhalisinin sayı 20 min nəfərə çatmışdı. 455 ildə vandallar tərəfindən tutulmuş, 533 ildə bizanslılar tərəfindən geri alınmışdı. 6 əsrin sonlarında şəhərin tənəzzülü başlamışdı. 1909 ildən etibarən C.-də müntəzəm qazıntılar aparılır. Qədim şəhərin şm. hissəsi (2 əsrdə qala divarları ilə əhatələnmişdir) müntəzəm planlıdır: hər iki tərəfində sıra sütunlar olan enli döşənmiş əsas küçə, Köhnə forumun (mərkəzində – relyefli qurbangah; Roma kuriyası, kapitoli və bazilikasının qalıqları – hamısı 2 əsrə aiddir), bazar, Venera məbədi və yaşayış evlərinin (bəziləri mozaikalı) xarabalıqları aşkar olunmuşdur. Şəhərin bayırında 3 min nəfər tamaşaçı yeri olan teatr binası (161), Kommod termaları (183–185), Karakalla tağı (216), Severlərin forumu (3 əsrin 1-ci rübü), “Apsidalı ev”, fəvvarələr inşa edilmişdi; xristianlar məhəlləsindəki (4 əsr – 5 əsrin əvvəlləri) baptisterinin (4 əsr), iki bazilika və arxiyepiskop sarayının qalıq-



Cəmilə. Qədim şəhərin xarabalıqları.

ları qalmışdır. Qədim şəhərin xarabalıqları *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

Arxeologiya muzeyi (C.-də tapılmış antik mozaikalar, heykəllər, keramika, tunc əşyalar) fəaliyyət göstərir.

**CƏMİLLƏR** – Azərb. Resp. Şuşa r-nunun Şırlan ə.d.-ndə kənd. R-n mərkəzindən 32 *km* q.-də, dağlıq ərazidədir. Əh. 52 (2011); işğaldan (1992, may) əvvəl heyvandarlıqla məşğul olmuşdur. Tibb məntəqəsi, kitabxana var idi.

**CƏMİLLİ** – Azərb. Resp. Füzuli r-nunun Qacar ə.d.-ndə kənd. R-n mərkəzindən 13 *km* şm.-q.-də, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilindədir. Əh. 65 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olmuşdur. Əsas məktəb, klub, kitabxana var idi.

**CƏMİLLİ** – Azərb. Resp. Xocalı r-nunda kənd. Cəmilli ə.d.-nin mərkəzi. R-n mərkəzindən 12 *km* c.-q.-də, Qarabağ silsiləsinin şm.-ş. yamacındadır. Əh. 981 (2011); işğaldan (1992, fevral) əvvəl əkinçilik, bostançılıq və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, 2 kitabxana, 2 klub, ambulatoriya var idi.

**CƏMİLLİ** – Azərb. Resp. Kəlbəcər r-nunun Seyidlər ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* şm.-da, Murovdağ silsiləsinin c. ətəyində, Lev çayının (Tərtər çayının qolu) sahilindədir. Əh. 1108 (2011); işğaldan (1993, aprel) əvvəl heyvandarlıq və tütünçülüklə məşğul olmuşdur. Orta məktəb, feldşer-mama məntəqəsi, klub, kitabxana, uşaq bağçası var idi.

**CƏMİLLİ** – Azərb. Resp. Tərtər r-nunda kənd. Cəmilli ə.d.-nin (Cəmilli, Bala Kəngərli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 6 *km* şm.-da, Qarabağ düzündədir. Əh. 1570 (2011); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, 2 kitabxana, klub, tibb məntəqəsi var.

**CƏMİLLİNSKİ** Səməd bəy (?–?) – Azərb. dövlət xadimi. *Azərbaycan Xalq Cümhuriyyəti* (AXC) dövründə (1918–20) Qarabağ gen.-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkil olmuş, 1919 ilin avqustunda Qərbi Azərb.-ın (Naxçıvan mahalının) gen.-qubernatoru təyin edilmişdir. Mənzil-qərargahı əvvəl Ordubadda, sonra isə Naxçıvanda idi. C. bölgənin idarə olunmasında, erməni-daşnak silahlı dəstələrindən təmizlənməsində, cari problemlərin həllində səylər göstərmiş, qaçqınların yerləşdirilməsi və təminatı məsələlərinə böyük diqqət yetirmişdir. C. Naxçıvan mahalı və ətrafının İrandan müdafiəsi, sonuncunun ermənipərəst siyasətinin dəf olunması sahəsində mühüm işlər görmüşdür. O, İranın bölgə ilə bağlı niyyətlərini Naxçıvan diyarını AXC-dən ayırmaq məqsədini güdən ingilis siyasətinin astar üzü kimi qiymətləndirirdi. Mahalın idarəçiliyi ilə əlaqədar yerli siyasi qüvvələrlə (Kəlbalı xan və s.) yaranan fikir ayrılıqları üzündən 1920 il fevralın sonunda vəzifəsindən getmək istəsə də, AXC-nin süqutunadək həmin vəzifədə qalmışdır.

**CƏMİRAN** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Nəmin bölgəsində, Ərdəbil ş.-ndən 25 *km* şm.-q.-dədir.

**CƏMİYYƏT** – Azərb. Resp. Xocavənd r-nunda kənd. Cəmiyyət ə.d.-nin mərkəzi. R-n mərkəzindən 22 *km* q.-də, Qarabağ silsiləsinin şm.-ş. ətəyindədir. Əh. 150 (2011); işğaldan (1992, oktyabr) əvvəl üzümçülük və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var idi.

**CƏMİYYƏT** – mövcudluğun ümumi şərtləri, maraqlar, normalar, dəyərlər, dünya haqqında təsəvvürlər və vahid identiklik əsasında birləşmiş fərdlərin birgə həyat fəaliyyətinin müxtəlif formaları. Çox zaman bu anlayış milli-dövləti qurumlarda birləşən və dəqiq məhdudlaşdırılmış müəyyən bir ərazidə yaşayan insanların az-çox əhəmiyyətli çoxluğuna aid edilir (məs., rus C., fransız C., ingilis C.). Lakin geniş sosioloji mənada bu anlayış insanların birgə yaşayışının ən müxtəlif formalarına, o cümlədən sosial qrup, sosial şəbəkə, sosial siniflər, kilsə, icma, birlik, təşkilat, assosiasiya, ittifaq, kollektiv, korporasiya, yoldaşlıq, sekta, quldur dəstəsi, kütlə və s. bu kimi formalarına da şamil olunur. O həm tamamilə xırda sosial törəmələri məs., kiçik qrupları (iki, yaxud üç fərddən ibarət diadaları və triadaları, nuklear ailələri və s.), həm də böyük, o cümlədən qlobal sivilizasiyalar, imperiyalar, milli dövlətlər və onların ittifaqları miqyaslarına çatan cəmiyyətləri ehtiva edir.

**Cəmiyyət anlayışının tarixi inkişafı.** C. anlayışı çox qədim dövlərdən mövcuddur. Antik dövrdə o, sonrakı dövrlərlə müqayisədə konkret, nisbətən dar məna daşıyırdı. Qədim Yunanıstanda κοινωνία və *polis*, Qədim Romada müvafiq olaraq societas və civitas kimi anlayışlar müasir C.-in proobrazları qismində çıxış edirdi.

Dostluğa, yaxud əmlak-müqavilə münasibətlərinə əsaslanan kompaniya (ticari, sənətkarlıq və s.) C. qismində nəzərdən keçirilirdi; onun üzvü socius (kompanyon) adlanırdı. Özündə yalnız ər-arvadı, valideynləri və uşaqları deyil, bütün evdəkiləri, o cümlədən qulları, ev heyvanlarını, irsən keçən ev əmlakını ehtiva edən və hüquqi- təsərrüfat vahidi olan ailə (familia) də C. hesab edilirdi. Bu anlayış bir çox cəhətdən müasir "kompaniya", "təsərrüfat yoldaşlığı", "məhdud məsuliyyətli cəmiyyət", "səhmdar cəmiyyəti" (əsasən, qapalı tipli) və s. anlayışlara yaxın idi. Bu tip ictimai qurumların xüsusiyyəti ondan ibarət idi ki, ona mənəvi və hüquqi şəxs, yaxud subyekt xassələri verilirdi.

Antik dövrdə C. əsas etibarilə müəyyən məqsədlərə çatmaq üçün insanlar tərəfindən yaradılmış konkret müqaviləli birlik kimi başa düşülsə də, hələ o zaman *kiniklər* və *stoisizm* nümayəndələri bu təsəvvürü genişləndirməyə səy göstərirdilər. Stoiklərə görə, C. idealda bütün insanları – vahid ümumdünya dövləti olan Kosmopolisin vətəndaşlarını əhatə edir.

Orta əsrlər dövrü Avropasında ən geniş cəmiyyət kimi insan nəslinin birliyi ideyası *Avqustinin* və b. xristian mütəfəkkirlərinin əsərlərində davam və inkişaf etdirilmişdir. Gündəlik həyatda C. anlayışı daha çox konfessional səciyyə daşıyır, eyni zamanda kənd icması, şəhər kommunası, sex, korporasiya mənalarını da bildirirdi. Sonralar o, gah ali zümrə hüdudlarına qədər daralır, gah da Yeni dövrdə formalaşmış milli dövlətlər miqyasına qədər genişlənirdi. 18–19 əsrlərdə ümumavropa və ümumbəşəri cəmiyyətlər ideyası formulə edilirdi.

16–18 əsrlərin mexanika və astronomiya ideyaları, xüsusilə İ. *Nyutonun* ümumdünya cazibə qanunu C. strukturunun anlaşılmasına təsir göstərdi. C. öz aralarında sosial cazibə və itələmə qüvvələri ilə bağlı fərdlərin sistemi kimi nəzərdən keçirilməyə başladı. Bu zaman *ictimai müqavilə* (H. *Qrotsi*, T. *Hobbs*, J.J. *Russo*), yaxud ictimai heyvan olan, insana xas birləşməyə meyillilik (Ş.L. *Monteskyö*) birləşdirici başlanğıc hesab edilirdi. Mexanizm, maşın haqqında, 18 əsrdən başlayaraq və xüsusilə 19 əsrdə orqanizm haqqında təsəvvürlər sosial sistemin mexanistik və orqanizmik (bax *Mexanisizm*, *Orqanisizm*) şərhlərinin formalaşmasında mühüm rol oynadı. Yeni dövrdə C.-in daimi qanunauyğun inkişafı haqqında təsəvvür yarandı; bu inkişafın əsasını texnika və sənaye nailiyyətlərində reallaşdırılan bilik, ilk növbədə elmi bilik təşkil edirdi.

18 əsrin sonlarından müxtəlif sosial fikir cərəyanları C.-i dövlətin əsası kimi nəzərdən keçirərək, onu dövlətdən fərqləndirməyə, hətta ona qarşı qoymağa başladılar: əgər dövlət və onun institutları (idarəetmə orqanları, qanunlar və s.) C.-ə əsaslanmırsa, yaxud ona ziddirsə, o zaman dövlət möhkəm deyil və tarix səhnəsindən çıxır. Bununla əlaqədar *vətəndaş cəmiyyəti* konsepsiyaları formalaşmağa başlayır (A. *Fergüson*, H.V.F. *Hegel*, K. *Marks* və b).

19 əsrin 1-ci rübündən başlayaraq, C. və "sosiallıq" insanları birləşdirən, yəni əvvəllər ənənəvi dini inancların, kilsənin və monarxiya hakimiyyətinin etdiklərini həyata keçirən başlıca prinsip oldu. C. sakrallaşdırma obyektinə çevrildi, ona insanların rifahının əsas, yaxud yeganə şərti kimi yanaşmağa başladılar. Lakin bu şərtin reallığa çevrilməsi üçün C. yeni əsaslar üzərində yenidən təşkil olunmalı idi. Bu ideya yalnız nəzəriyyədə deyil, sosial təcrübədə də təsbit edildi. "İctimai" ("sosial") olan ayrı-ayrı insanların, millətlərin və hakim siniflərin eqoizminə qarşı qoyulur, idealda ümumbəşəri olan ilə yaxınlaşırdı. 19 əsrin ortalarına yaxın Yeni dövrün *liberalizm*, *konservatizm*, *sosializm* (o cümlədən *kommunizm*) kimi əsas sosial-fəlsəfi fikir cərəyanları formalaşırdı. "Sosial məsələ", C.-in yanlış qurulması ideyası, onun lazımi qaydada inkişaf etməməsi və dəyişdirilməsi zərurəti nəzəri təlimlərdə və sosial təcrübədə 20 əsrədək mərkəzi yer tutdu.

19 əsr sosiologiyasında müxtəlif cəmiyyətlərin fasiləsiz çoxalaraq, perspektivdə ümumbəşəri C.-də birləşəcəyi haqqında təsəvvür təşəkkül tapmağa başladı. 19 əsrin sonları – 20 əsrin əvvəllərində sosioloqlar sosial "mikrohissəciklər"i aşkarlamağa səy göstərərək, kiçik ictimai qurumlara, o cümlədən kiçik qruplara, mikrocəmiyyətlərə, fərdlərarası qarşılıqlı fəaliyyətlərə daha çox diqqət ayırmağa başladılar.

**Sosiologiyada və sosial fəlsəfədə cəmiyyət anlayışı.** Biliyin digər sahələri (mənəvi, dini və s.) kimi, elmdə də C. anlayışının şərhi zamanı müxtəlif nöqteyi-nəzərlər üzə çıxır. Onlardan birinə əsasən, C. təbii qurumdur, insan əzəldən öz təbiəti etibarilə, arı, yaxud qarışqa kimi, C.-dən kənarda mövcud ola bilməyən ictimai varlıqdır (Aristotel). İctimai həyatın bütün formaları – qruplar, assosiasiyalar, ittifaqlar, dövlətlər və s. bu əzəli sosiallığın təzahürüdür (Ş.L. Monteskyö və b.).

Digər nöqteyi-nəzərə görə, C. süni qurumdur, insanın əzəli təbii vəziyyəti isə cəmiyyətdənkənardır, yaxud antiictimaidir (T. Hobbsa görə, "hamının hamıya qarşı müharibəsi"). C. insanların özləri tərəfindən öz xeyirləri üçün könüllü, yaxud məcburi şəkildə yaradılır və dəstəklənir. Bu anlamda dövlət C.-lə ya eyniləşdirilir, ya da onun əsas başlanğıcı kimi çıxış edir.

Sosioloji *nominalizm* nümayəndələri üçün C. (qrup, assosiasiya və s.) fərdlərin məcmusu, yaxud müəyyən çoxluğunu bildirən sadəcə addır, konkret C.-in özünəməxsusluğunu onların şüur və hərəkətlərindən çıxış edərək anlamaq olar (M. *Veber* və b., bax həmçinin *Metodoloji fərdiyyətçilik*). Buna zidd olaraq, sosioloji *realizm*, yaxud *xolizm* nöqteyi-nəzərinə görə, C. (qrup, assosiasiya və s.) fərdlərin qarşılıqlı fəaliyyəti nəticəsində yaranan, onlara münasibətdə müstəqil olub əks təsir göstərən xüsusi reallıqdır (E. *Dürkheym* və b.).

C.-in monist nəzəriyyələrində hansısa bir amil materialist və naturalist şərhlərdə (iqtisadiyyat, insanın bioloji təbiəti, iqlim və coğrafi şərait və s.) "maddi olan", yaxud idealist və spiritualist konsepsiyalarda "ruhani" (ideyalar, inanclar və s.) başlıca, müəyyənləşdirici qismində fərqləndirilir. Plüralist şərhlərdə C. həm öz daxilində olan, həm də ona kənardan nüfuz edən müxtəlif qüvvələrin və tendensiyaların qarşılıqlı fəaliyyətlərinin nəticəsi kimi çıxış edir.

Bir sıra sosioloji nəzəriyyələrdə C. əsas etibarilə münaqişələr və qarşıdurmalar meydanı kimi (K. Marks, *sosial darvinizmin* bəzi növləri), digərlərində isə ilk növbədə həmrəylik və barışıq məkanı kimi (O. *Kont*, E. Dürkheym, T. *Parsons*) nəzərdən keçirilir.

**Cəmiyyətin strukturu və tipləri.** Müasir C.-in strukturu mürəkkəb və diferensiasiyalı səciyyə daşıyır. C., onu təşkil edən insanlardan əlavə, insanlar arasındakı qarşılıqlı fəaliyyət və münasibətləri, eləcə də sosial institutlar, normalar və dəyərlərin, statuslar və rolların müəyyən sistemini ehtiva edir. Miqyasına görə böyük C.-lər iqtisadi, siyasi, əxlaqi, hüquqi, dini və s. kimi müxtəlif alt sistemlərdən ibarətdir. Sosial sistemlər fərdlərin bu və ya digər şəkildə şərh etdiyi və reallaşdırdığı müəyyən nümunələr, işarələr, rəmzlər, mənalar və məqsədlərdən ibarət *mədəniyyət* sistemlərindən ayrılmazdır. Sosial sistemlər fərdlərin fərdi və qarşılıqlı fəaliyyətinin nəticəsidir və çox zaman onların öz qarşılarına qoyduqları məqsədlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Bu məqsədlər özündə bir tərəfdən sabitlik, varislik elementlərini, digər tərəfdən isə dəyişkənlik və innovasiyalılıq elementlərini birləşdirir.

Sosiologiyada və digər sosial elmlərdə cəmiyyətlərin müxtəlif meyarlara əsaslanan bir çox tipologiya və təsnifatları işlənib hazırlanmışdır. Təkamülçü və proqressiv nəzəriyyələrdə C.-in müxtəlif növləri sosial təkamülün müəyyən tarixi mərhələləri ("pillələri") kimi nəzərdən keçirilir. Digər hallarda onlar planetin

müxtəlif regionlarında, yaxud daha geniş ictimai qurumlar çərçivəsində eyni vaxtda yanaşı mövcud olan növlər kimi aşkarlanır və tədqiq olunur. Öz aralarında teztez kəsişən və qismən üst-üstə düşən ən geniş yayılmış tipologiyalara aşağıdakılar aiddir.

Təsərrüfatın aparılması üsuluna görə: 1) yığıcılar, ovçular və balıqçılar C-i.; 2) çoban və maldar C.-ləri; 3) əkinçiliyin, insanların və heyvanların əzələ enerjisinin aparıcı yer tutduğu aqrar C.-lər; 4) maşınların mexaniki enerjisinin istifadəsinə əsaslanan *sənaye cəmiyyəti*; 5) xidmət sferasının ən mühüm rol oynadığı *postsənaye cəmiyyəti*.

Sivilizasiyanın inkişafı səviyyəsinə görə "vəhşi", "barbar" və "sivil" C.-lər fərqləndirilir (A. Fergüson, L.H. *Morqan* və b.).

"İstehsal üsulu"na (K. Marks) görə ibtidai-icma; antik; "Asiya istehsal üsulu"na əsaslanan; feodal; burjua; kommunist ictimai formasiyaları (Gesellschaftsformationen) olur.

İctimai qarşılıqlı əlaqələrin səciyyəsinə görə irsi və dəyişməz xarakter daşıyan nüfuza, hakimiyyətə, asılılığa əsaslanan "status" C.-i və azadlığa, razılaşmalara əsaslanan "müqavilə" C.-i fərqləndirilir.

Sosial institutların və qrupların diferensiasiyası səviyyəsinə görə "ibtidai", "aralıq" və "müasir" C.-lər mövcuddur (T. Parsons).

Böyük və kiçik, qlobal və lokal; oturaq və köçəri; kənd və şəhər; qəbilə-tayfa və dövlət; "hərbi" və "sənaye" (K.A. *Sen-Simon*, O. Kont, H. *Spenser*); yazılı və yazısız (yazıyaqədərki); *qapalı cəmiyyət* və *açıq cəmiyyət* (A. *Berqson*, K. *Popper*) və s. məlumdur.

**20 əsrin sonu – 19 əsrin əvvəllərində cəmiyyət anlayışı.** 20 əsrin ortalarından, sosioloji nəzəriyyədə xolizmin və *struktur funksionalizminin* hökmranlığı ilə əlaqədar və bu hökmranlığa reaksiya olaraq, bir sıra sosioloqlar "ifrat sosiallaşdırılmış" insan konsepsiyasına, ictimai proseslərdə fərdlərin rolunun yetərincə qiymətləndirilməməsinə, C.-in hər şeyə cavabdeh olan və fərdləri hər hansı şəxsi məsuliyyətdən azad edən "şəxsiyyət" kimi şərh olunmasına qarşı çıxdılar. Bu anlamda C. konkret fərdlərin və qrupların, o cümlədən kütlə üzərində hakimiyyət mənsublarının şəxsi maraqlarını gizlədən rahat ideoloji pərdəyə çevrilirdi. Bununla əlaqədar, C. anlayışının özünün istifadə olunması məqsədəuyğunluğu ilə bağlı şübhələr və hətta ondan ümumiyyətlə imtina edilməsinə çağırışlar meydana gəldi. Belə mövqe bir halda sosioloji nominalizmin dirçəlişinə əsaslanırdı, digər halda onunla bağlı idi ki, müasir C.-in yaşadığı transformasiyalar (sosial təcrübələrin, sosial *mobilliyin*, ünsiyyətin və s. yeni növlərinin yaranması) C.-in özü-özlüyündə yoxa çıxması kimi qəbul olunurdu. C. ən mühüm dünyagörüşü və elmi anlayışlardan biri olmaqda davam etsə də, 19 əsrlə müqayisədə o, əhəmiyyətli dərəcədə dəyişmişdir. Sosial reallığın təbiətinin, özü-özlüyündə C.-in yeni interpretasiyaları yaranır. Müasir C.-in ən mühüm xüsusiyyətlərini, uğradığı dəyişiklikləri aşkarlamağa səy göstərən tədqiqatların, nəzəriyyələrin sayı artır və onlarda C.-in *kütləvi cəmiyyət*, "postsənaye" (D. Bell və b.), "postkapitalist", "son", yaxud "yüksək" modern C.-i (E. *Giddens*), *informasiya cəmiyyəti*, bilik C.-i, *risk cəmiyyəti* (U. Bek, Almaniya), qloballaşan, "qlokallaşan" (bax *Qlokallaşma*), şəbəkə (M. *Kastels*), KİV-in, xüsusilə İnternet də daxil olmaqla yeni informasiya vasitələrinin böyük rol oynadığı "medialaşdırılmış" (H.M. *Mak-Lüenin* əsərlərindən intişar tapmış nəzəriyyələr), "postmodern", əyləncə C.-i (G. Debor, Fransa) və s. kimi xarakteristikaları öz əksini tapmışdır.

Müasir dünyada "çoxsaylı modernlər", yəni modernləşmiş C.-lər mövcuddur, onların spesifik xüsusiyyətləri tarixi və ənənəvi irsləri ilə əlaqəlidir. Yer kürəsinin müxtəlif nöqtələrində ənənəçiliyin residivləri, arxaikləşmə və antimodernləşmə tendensiyaları zaman-zaman üzə çıxır, lakin dünyada ən müxtəlif C.-lər birgə yaşamaqda davam edir. "Böyük" C.-lərin, "kiçik" C.-lərin, eləcə də onların daxilindəki qrupların (etnik, konfessional, irqi və s.) arasındakı münasibətlər mürəkkəb olaraq qalır. Bütün irimiqyaslı tarixi proseslər (məs., sənayeləşmə, yaxud urbanizasiya) kimi, qloballaşma da bəzi problemləri həll edir, digərlərini həll edə bilmir, yaxud yenilərini doğurur. Bir sıra beynəlxalq birlik və təşkilatların (BMT, YUNESKO, ÜST, ÜTT, MAQATE, "Sərhədsiz həkimlər" və s.) fəaliyyəti göstərir ki, "dünya cəmiyyəti", onun mövcudluğu bütünlüklə əldə olunmuş nəticə yox, xeyli dərəcədə layihə halında olsa da, tamamilə real qurumdur.

**CƏMİYYƏT ADALARI** (Îles de la Société), Y o l d a ş l ı q a d a l a r ı – Sakit okeanın c.-unda, Polineziyada arxipelaq. Fransanın mülkü. Sah. 1,6 min $km^2$. Əh. 235,3 min (2012). İnz. m. Papeete ş.-dir. İki qrup: Küləktutan və Küləktutmayan adalardan ibarətdir. Ən böyük adası Taitidir (sah. 1042 $km^2$). Adaların çoxu vulkan mənşəlidir, mərcan rifləri ilə əhatələnmişdir. Maks. hünd. 2241 *m* (Taiti a.-nda). Tropik dəniz iqlimi var. Ortaaylıq temp-rlar 20-dən 26°C-yədəkdir. Yağıntıların illik miqdarı 1500–2500 *mm*. Rütubətli meşələr, tropik bitki plantasiyaları var. Fosforit çıxarılır. Sədəf və mirvari əldə edilir. Balıq ovlanır. C.a.-nı 1767 ildə ingilis C. Uollis kəşf etmişdir. London kral cəmiyyətinin şərəfinə adlandırılmışdır.

**CƏMİYYƏTÜL-ÜLƏMAYİ HİND** (CÜH; urduca جمعیت علماء ہند) – Hindistanın islam təşkilatlarından biri, müsəlman ruhaniləri birliyi. 22.11.1919 ildə Dehlidə 25 ruhaninin iştirakı ilə yaradılmış, ilk iclası həmin ilin dekabrında *Amritsar* ş.-ndə keçirilmişdir. Cəmiyyətin əsas məqsədləri Hindistan müsəlmanlarına vahid rəhbərliyi həyata keçirmək, onların hüquqlarını qorumaq, müqəddəs məkanları mühafizə etmək idi. *Qandinin* rəhbərlik etdiyi vətəndaş itaətsizliyi hərəkatını rəsmən dəstəkləmişdir. Qeyri-müsəlman əhali ilə mehriban münasibətlərə xüsusi diqqət yetirən CÜH "vahid millət" ("muttəhidə qaumiyyət") konsepsiyasını irəli sürmüş, Hindistanın parçalanmasına və ayrıca islam dövlətinin yaradılmasına qarşı çıxmışdır. Eyni zamanda Hindistan Milli Konqresinin (HMK) vahid dövlət konsepsiyasını qəbul etməyərək, federal hökumətin yaradılmasının tərəfdarı olmuşdur. Cəmiyyətin Pakistanın yaradılmasına qarşı çıxmasını M. *İqbal* sərt tənqid etmişdir. Hindistan müstəqillik qazandıqdan sonra müsəlmanların müqəddəratının təyin edilməsinə dair CÜH daxilində fikir ayrılığı yaranmışdı. 1945 ildə islam dövlətinin yaradılmasını dəstəkləyənlər ayrılaraq, Şəbir Əhməd Osmaninin rəhbərliyi ilə "*Cəmiyyətül-Üləmayi İslam*" partiyasında birləşmişlər. 1970-ci illərdən cəmiyyətin Hindistan müsəlmanları arasında nüfuz və etimadı zəifləmişdir.

**CƏMİYYƏTÜL-ÜLƏMAYİ İSLAM** (CÜİ) – Pakistanda islam partiyası. İslam dövlətinin yaradılmasını dəstəkləyənlər "*Cəmiyyətül-Üləmayi Hind*" təşkilatının tərkibindən ayrılaraq 1945 ildə Kəlkətədə CÜİ-ni təsis etmişlər. Şəbir Əhməd Osmani partiyanın ilk sədri olmuşdur. 1947 ildə Pakistan müstəqillik qazandıqdan sonra Osmani başda olmaqla partiyanın bir çox üzvü oraya mühacirət etmiş və partiyanı yenidən qurmuşlar. CÜİ üzvləri dəfələrlə ölkənin ən yüksək nümayəndəli orqanlarına seçilmişlər. Partiya ayrı-ayrı vaxtlarda Demokratik Hərəkat Komitəsi ("Cəmhuri məclisi-əməl"), Demokratik Birlik Cəbhəsi ("Muttəhidə cəmhuri məhaz"), Pakistan Milli Alyansı, Birgə Fəaliyyət Şurasının ("Muttəhidə məclisi-əməl") tərkibinə daxil olmuşdur. Ölkədə "ədalətli islam qaydaları"nın bərqərar olunmasının tərəfdarı kimi CÜİ müasir Pakistanın siyasi həyatında fəal iştirak edir. Partiya silahlı mübarizənin əleyhinə olduğunu bildirsə də, "Taliban" hərəkatının yaranmasına yardım etmiş, "Əl-Qaidə"yə dəstək vermişdir. CÜİ-nin himayəsi altında fəaliyyət göstərən ən aktiv hərbiləşdirilmiş ekstremist təşkilat "Sipahi Səhabeyi-Pakistan"dır (Peyğəmbərin paksitanlı döyüşçüləri). CÜİ-nin təşkilati strukturu partiyanın rəhbərini (əmiri) və onun müavinlərini seçən Ümumi mərkəzi şuradan, məşvərət və icraiyyə şuralarından ibarətdir.

**CƏMLƏMƏ** (d a ğ ı l a n s ı r a l a r ı n, a r d ı c ı l l ı q l a r ı n v ə i n t e q r a l l a r ı n) – müvafiq sıraların cəmlərinin, ardıcıllıqların limitlərinin, inteqralların qiymətlərinin hesablanması. "C." termini sıranın öz cəminin (ardıcıllığın limitinin, inteqralın qiymətinin) müəyyən olunması deməkdir. Burada adi təyinetmə zamanı bu qiymətlər mövcud olmur, yəni sıra (ardıcıllıq, inteqral) dağılır.

Dağılan sıralara praktikada tez-tez rast gəlinir, onlar şərti yığılan sıraların bir-birinə vurulması, funksiyaların Furye sırasına ayrılışı, funksional sıraların diferensiallanması, inteqrallanması və s. hallarda meydana çıxa bilər. Dağılan sıralara və inteqrallara, məs., elektromaqnit sahə nəzəriyyəsində və müasir fizikanın digər bölmələrində rast gəlinir. Bir çox hallarda dağılan sıralar üçün yığılan sıranın adi cəminin bəzi əsas xassələrinə malik olan cəmi ümumiləşmiş mənada tapmaq olar. Adətən, $\sum_{n=0}^{\infty} a_n$ sırası $S$-ə, $\sum_{n=0}^{\infty} b_n$ sırası isə $T$-yə cəmləndikdə, $\sum_{n=0}^{\infty} (\lambda a_n+\mu b_n)$ sırasının $\lambda S+\mu T$-yə cəmlənməsi, $\sum_{n=1}^{\infty} a_n$ sırasının isə $S-a_0$-a cəmlənməsi tələb olunur. Bundan başqa, çox vaxt r e q u l y a r C. metodlarına, yəni hər bir yığılan sıranı onun adi cəminə cəmləyən metodlara baxılır. C. metodlarının əksəriyyətində dağılan sıraya, məlum mənada, hər hansı yığılan sıranın limiti kimi baxılır.

$$\sum_{n=0}^{\infty} a_n \qquad (1)$$

sırasının hər bir həddi hər hansı $\lambda_n(t)$ vuruğuna elə vurulur ki, vurmadan sonra cəmi $\sigma(t)$ olan yığılan

$$\sum_{n=0}^{\infty} a_n \lambda_n(t) \qquad (2)$$

sırası alınsın. Bu halda $\lambda_n(t)$ vuruğu elə seçilir ki, $t$ parametrinin hər hansı kəsilməz və diskret dəyişməsi zamanı hər bir qeyd olunmuş $n$ üçün $\lambda_n(t)$-nin limiti 1-ə bərabər olsun. Onda (2) sırasının hədləri (1) sırasının uyğun hədlərinə yaxınlaşır. Əgər bu halda $\sigma(t)$-nin limiti varsa, onda bu limit vuruqların verilmiş seçiminə (və ya verilmiş C. metodlarına) uyğun gələn (1) sırasının ü m u m i l ə ş m i ş c ə m i adlanır. Məs., $n\leq t$ olduqda $\lambda_n(t)=1$, $n>t$ olduqda $\lambda_n(t)=0$ fərz etsək və $t\to\infty$ götürsək, sıranın adi cəmi anlayışı alınar; $t<1$ və $t\to 1$ üçün $\lambda_n(t)=t^n$ olduqda A b e l – P u a s s o n c ə m l ə m ə m e t o d u alınır. Çox vaxt sıranın hədlərinin $\lambda_n(t)$-yə vurulmasının nəticəsi yox, sıranın xüsusi cəmlərinin uyğun dəyişməsi qeyd olunur. Məs., ədədi ortaların Ç e z a r o c ə m l ə m ə m e t o d u n d a fərz edilir ki,

$$S = \lim_{m\to\infty} \sigma_m ,$$

burada

$$\sigma_m = \frac{1}{m+1} (S_0 + ... + S_m),$$

$$S_k = a_0 + ... + a_k .$$

Bu metod $n\leq m$ olduqda $\lambda_n(m)=(m-n+1)/(m+1)$ və $n>m$ olduqda $\lambda_n(m)=0$ seçiminə uyğun gəlir. Əgər

$$A_n^0 = S_n ,\ A_n^k = A_0^{k-1} + ... + A_n^{k-1},$$

$$E_n^0 = 1 ,\ E_n^n = E_0^{k-1} + ... + E_n^{k-1}$$

fərz etsək, onda $\lim_{n\to\infty} (A_n^k / E_n^k)=A$ mövcud olan halda deyirlər ki, sıra $A$-ya $k$-cı tərtib Çezaro metodu ilə cəmlənir. Həmçinin kəsr tərtibli Çezaro metoduna da baxılır. $k$-nın böyüməsi ilə Çezaro metodunun imkanları artır, yəni bu metodla cəmlənən sıralar çoxluğu genişlənir. Hər hansı tərtibdən Çezaro metodu ilə cəmlənən hər hansı sıra Abel–Puasson metodu ilə də həmin cəmə cəmlənir. Məs., $1 - 1 + 1 - ...+ (-1)^{n-1} + ...$ sırası Abel–Puasson metodu ilə 1/2 qiymətinə cəmlənir, belə ki,

$$\sum_{n=0}^{\infty} (-1)^{n-1} t^n = \frac{1}{1+t} ,\ \lim_{t\to 1} \frac{1}{1+t} = \frac{1}{2} .$$

Çezaro metodu da həmin qiyməti verir, belə ki,

$$S_{2n}=1,\ S_{2n+1}=0,$$

$$S_{2n}=(n+1)/(2n+1),\ \sigma_{2n+1}=1/2,$$

$$\lim_{k\to\infty} \sigma_k = 1/2.$$

Çezaro və Abel – Puasson metodları triqonometrik sıralar nəzəriyyəsində funksiyaların öz Furye sırasına görə tapılması üçün tətbiq olunur, belə ki, istənilən kəsilməz funksiyanın Furye sırası 1-ci tərtib Çezaro metodu ilə bu funksiyaya cəmlənir. Q.F. Voronoy xüsusi halları Çezaro metodları olan C. üsulu təklif etmişdir. Tutaq ki, $p_n\geq 0$, $p_0=0$, $P_n=p_0+p_1+... +p_n$, onda, Voronoya görə,

$$\lim_{m\to\infty} \frac{p_m s_0 + ... + p_0 s_m}{P_m}$$

limiti sıranın ümumiləşmiş cəmi adlanır.

$$\lim_{n\to\infty} \frac{p_n}{P_n} = 0$$

olarsa, V o r o n o y c ə m l ə m ə m e t o d u requlyardır.

Dağılan inteqralların C. nəzəriyyəsi dağılan sıraların C. nəzəriyyəsinə analojidir. Məs., əgər

$$\int_0^{\infty} f(x)dx$$

inteqralı dağılırsa və

$$\lim_{N\to\infty} \int_0^N (1-\frac{x}{N})^{\lambda} f(x)dx = A$$

limiti varsa, onda deyirlər ki, birinci inteqral $A$-ya $\lambda$ tərtibli Çezaro metodu ilə cəmlənir.

**CƏMLƏNƏN FUNKSİYA** – bax *Funksiyalar nəzəriyyəsi.*

**CƏMLƏYİCİ** – EHM-in hesablama qurğusunda sadə əməliyyatlar əsasında ədədlərin toplanmasını yerinə yetirən əsas qovşaq və ya bu əməliyyatı aparan ayrıca cihaz. Rəqəmlərin və əmrlərin kodları üzərindəki əməliyyatlar (çıxma, vurma, bölmə, modifikasiya və s.) cəmləmə və sürüşdürmə əməliyyatlarına gətirildiyi üçün C.-nin xarakteristikası EHM-in çoxsaylı parametrləri təyin edir. C.-lərin sxemləri operatorların mərtəbələrinin daxilolma üsuluna, seçilmiş hesablama sisteminə, iş (əməliyyat) prinsipinə, köçürmə vahidlərinin ötürülmə üsuluna və iş məntiqinə görə fərqlənirlər. C. işləmə sürəti (iki kodun cəmlənmə vaxtı) və aparat sərfi ilə xarakterizə edilir. C.-lərin yaddaşı olmayan növü kombinasiyalı C., yığıcı registr şəklində olanı yığan C., toplananların bütün mərtəbələrini eyni vaxtda emal edəni paralel C., ardıcıl emal edəni isə ardıcıl C. adlanır.

**CƏMRƏ** (ər. الجمرة) – atəş parçası, çınqıl daşı) – *həcc* ayinlərindən birinin icra olunduğu məkan. Həmçinin ziyarətçilərin həmin məkanda atdıqları daşları bildirir. "Şeytan daşlama" ("rəmy ül-cimar") ayini rəvayətə görə, İbrahim pey-

ğəmbərin şeytanı qovmaq üçün ona daş atmasını, eləcə də hər bir müsəlmanın öz daxilindəki mənfi xüsusiyyətləri qovaraq mənən paklanmasını simvolizə edir.

**CƏMŞİD,** C ə m ş e d – İran mifologiyasında və dastanında Pişdadilər sülaləsindən hökmdar; "Avesta"da – *Yima*. C.-in arvadı və bacısı (bəzi əlyazmalarda qızı) Arnavazdır. "Şahnamədə" C.-in yeddi yüzillik hökmranlıq dövrü "qızıl əsr" adlandırılır. C. insanlara heyvan dərisi əvəzinə parçadan olan paltarlar geyinməyi öyrətmiş, dövlətçiliyi və təbəqələrə bölgünü yaratmışdı. *Əhrimən* onu aldadaraq ürəyinə lovğalıq salmışdı. C. özünü allah hesab etmiş, buna görə də cəzalandırılmışdı. Əyanlar yadelli hökmdar Zöhhakı dəvət etməyi qərara almışdılar. Zöhhak İrana hücum etmiş, C.-i öldürmüş və Şərin minillik hökmranlığının başlanğıcını qoymuşdu. C.-in qisasını nəvəsi Firidun almışdı.

**CƏMŞİDABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Miyandab bölgəsinin Mərhəmətabad kəndistanında, Miyandab qəs.-ndən 28 *km* şm.-q.-dədir.

**CƏMŞİDİLƏR** – Əfqanıstanın şm.-q.-ində (Herat əyalətinin şm.-ında), İranın şm.-ş.-ində (Xorasan ostanının şm.-ş.-ində) və Türkmənistanın c.-unda xalq. Əsasən, Kuşka çayının yuxarı axarında, Badxız yüksəkliyində (əsas mərkəzləri – Kuşk və Yakdaraxt) yaşayırlar. Sayları Əfqanıstanda 120 min nəfər, İranda 26 min nəfərdir (2006). *Dəri dilinin* cəmşidi dialektində danışırlar. Dindarları müsəlmandır.

*Çaharaymaklılar* qrupuna daxildirlər, lakin özləri buna qarşı çıxaraq mənşələrini əfsanəvi İran şahı Cəmşidlə əlaqələndirirlər. 1392–93 illərdə sərhədləri qorumaq şərtilə *Teymur* tərəfindən Badxıza köçürülmüşlər. *Nadir şahın* Heratı tutmasından (1732) sonra 4 il Məşhəd yaxınlığında məskunlaşmışlar. Yar Məhəmməd xanın dövründə (1844) imtiyazlı mövqelərini itirən C.-in bir qismi Xivəyə qaçmışdı. 1908 ildə təqr. 10 min nəfər cəmşidi əmir Həbibullanın təqibindən qaçaraq Rusiyaya sığınmışdı.

Ənənəvi məşğuliyyətləri yarımköçəri maldarlıq (əsasən qoyun, o cümlədən qaragül və quyruqlu, həmçinin keçi, dəvə, at) və xış əkinçiliyidir (buğda, arpa, qarayonca, yonca, pambıq, bostan bitkiləri). Toxuma, toxuculuq, gön-dəri istehsalı inkişaf etmişdir. Qış evləri möhrədəndir (varlılarda bəzən dam örtüyü günbəz formasında olur), yay evləri (çappari) alaçıq, yaxud çadırdır. Qohumluğu ata xətti ilə hesablanan qəbilələr qalmaqdadır. Ənənəvi kişi geyimləri pambıq parçadan köynək və şalvar, bafta ilə bəzədilmiş qara qolsuz köynək, bəzək əşyalarından üzüklər, bəzən bir qulaqda sırğa; qadın geyimləri ağ və ya rəngli çaxçur, köynək, örtük; üzüklər, sırğalar, enli qoşa qolbaqlar, boyunbağı, rozetkaşəkilli burun bəzəkləridir. Əsas yeməkləri çörək və süd məhsullarıdır. Musiqi və rəqs folkloru saxlanılmışdır.

**CƏMŞİDOV** Şamil Allahverdi oğlu (5.5. 1920, Ağcabədi ş. – 10.12.2008, Bakı) – Azərb. ədəbiyyatşünası, filologiya e.d. (1986), əməkdar elm xadimi (1999). Azərb. Dövlət Un-tini bitirmişdir (1949). Böyük Vətən müharibəsində (1941–45) iştirak etmiş, ağır yaralanaraq ordudan tərxis olunmuşdur. AMEA-nın M. Füzuli ad. Əlyazmalar İn-tunda elmi işçi (1957–2008; 1968 ildən baş elmi işçi) işləmişdir. Tədqiqatları M.Füzuli, M.P.Vaqif, Y.V.Çəmənzəminli, M.S.Növrəs və b.-nın həyat və yaradıcılığına, Azərb. şifahi xalq ədəbiyyatının müxtəlif sahələrinə həsr olunmuşdur. C.-un elmi fəaliyyəti, əsasən, "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlıdır; abidə üzərində 30 ildən çox tədqiqat işi aparmış, dünya türkologiyasında qorqudşünas kimi tanınmışdır. "Seyfəlmülk" dastanını çap etdirmişdir. Qəzəlləri, satiraları və lirik şeirləri var ("Nisgilli vərəqlər, tikanlı yarpaqlar", 1998). Türkiyə, İran, Almaniya, Fransa və s. ölkələrdə keçirilən elmi simpoziumlarda çıxış etmişdir. Atatürk ad. Türk Dil Qurumunun fəxri üzvü olmuşdur.

Ə s ə r l ə r i: "Kitabi-Dədə Qorqud"u vərəqləyərkən. B., 1969; "Kitabi-Dədə Qorqud" (monoqrafiya). Ankara, 1990; "Kitabi-Dədə Qorqud" (tarixi, coğrafi, tekstoloji tədqiq və Drezden əlyazmasının dürüstləşdirilmiş elmi mətni). B., 1999; Azərbaycan yazılı dastan abidələrinin tədqiqi (monoqrafiya). B., 2002.

**CƏMŞİDPUR,** T a t a n a q a r – Hindistanın ş.-ində Charkhand ştatında şəhər. Əh. 1,3 mln. (2011). Çhota-Naqpur yastıdağlığının c.-ş.-ində, Suvarnarekha çayı sahilindədir. Nəql. qovşağı.

20 əsrin əvvəllərində sənayeçi Cəmşidci Tata tərəfindən salınmış və onun şərəfinə adlandırılmışdır. Dəmir filizləri, manqan və daş kömürün yerli yataqları əsasında metallurqiya mərkəzi kimi inkişaf etmişdir. Hindistan Milli metallurgiya laboratoriyası, Milli Texnologiya İn-tu (1960), biznes-məktəb (ölkənin ən yaxşı məktəblərindən biri), kolleclər (o cümlədən tibb) var. C. ağır sənaye mərkəzidir: nəql. və k.t. maşınqayırması müəssisələri fəaliyyət göstərir; energetika avadanlığı, elektrotexnika məmulatları və s. istehsal olunur. Kimya, sement sənayesi, polad borular istehsalı inkişaf etmişdir. C. ölkənin inkişaf etmiş infrastruktura malik, ən yaxşı planlaşdırılmış və yaşıllaşdırılmış şəhərlərindən biridir.

**CƏNAB ŞƏHABƏDDİN** (2.4.1871, Tunis, Monastir ş. – 13.2.1934, İstanbul) – türk yazıçısı. İstanbulda hərbi tibb məktəbini bitirmiş (1889), təhsilini Parisdə təkmilləşdirmişdir (1890–94). Heydərpaşa xəstəxanasında, Mersin və Rodosda həkimlik etmiş, İstanbulun müxtəlif vilayətlərində səhiyyə müfəttişi işləmişdir. 1-ci dünya müharibəsi (1914–18) başlayanda təqaüdə çıxmış, 1922 ildək darülfünunda pedaqoji fəaliyyət göstərmişdir. İlk qəzəli 1885 ildə "Səadət" qəzetində çap edilmişdir. Yaradıcılığının erkən dövründə, əsasən, Şeyx Vəsfi, Müəllim Naci və *Namiq Kamalın* qəzəllərinə nəzirə və təxmislər yazmışdır. Parisdə oxuduğu illərdə fransız ədəbiyyatı, xüsusilə simvolistlərlə tanışlığı yaradıcılığına güclü təsir göstərmişdir. *Tofiq Fikrətin* başçılıq etdiyi "Sərvəti-fünun" ədəbi qrupunun nümayəndələrindən biridir. Əsasən, əruz vəznində yazmışdır. Məhəbbət və təbiət lirikası yüksək şeiriyyəti ilə seçilir. Nəsr əsərləri, "Həcc yolunda" (1907), "Avropadan məktublar" (1919) esseləri, "Yalan" (1911), "Gözübağlıca" (1917) pyesləri, türk və Qərbi Avropa ədəbiyyatına dair əsərləri var. "Əvrakiəyyam" (1915), "Nəsr-i hərb, nəsr-i sülh və tiryəki sözləri" (1918) kitablarının müəllifidir.

Ə s ə r l ə r i: Vilyam Şekspiyer. İstanbul, 1931; Cenap Şahabettinin Bütün Şiirleri. İstanbul, 1984.

**CƏNDAHAR** – Azərb. Resp. Siyəzən r-nunun Zarat ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* c.-ş.-də, Xəzər dənizi sahilindədir. Əh. 46 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur.

**CƏNGAN** – Azərb. Resp. Cəlilabad r-nunda kənd. Cəngan ə.d.-nin (Cəngan, Ağusəm, Çinar, Fərəcullalı, Ləzran, Soltankənd k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 18 *km* c.-q.-də, Burovar silsiləsinin ətəyindədir. Əh. 596 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**CƏNGAN** – Azərb. Resp. Neftçala r-nunda kənd. Cəngan ə.d.-nin (Cəngan, Bala Surra, Beştalı, Ərəbqardaşbəyli, Qaraqaşlı, Şorkənd k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 60 *km* şm.-q.-də, Kür çayı sahilində, Cənub-Şərqi Şirvan düzündədir. Əh. 415 (2012); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana var.

**CƏNGAN** – Azərb. Resp. Sabirabad r-nunun Muğan Gəncəli ə.d.-ndə kənd. R-n mərkəzindən 68 *km* c.-ş.-də, Kür çayının sahilində, Muğan düzündədir. Əh. 1969 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**CƏNGAN** – Azərb. Resp. Salyan r-nunun Kür Qaraqaşlı ə.d.-ndə kənd. R-n mərkəzindən 5 *km* c.-ş.-də, Salyan–Neftçala avtomobil yolundan 3 *km* aralı, Kür çayının sahilində, Salyan düzündədir. Əh. 374 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, "Nurgün-Aqro" MMC-yə məxsus heyvandarlıq müəssisəsi var.

**CƏNGAVƏR,** r ı t s a r (polyakca rycerz; alm. Ritter – süvari sözündən) – orta əsrlərdə Qərbi Avropada hərbi-mülkədar silkinin nümayəndəsi; ağır silahlı süvari döyüşçü. Məcazi mənada – igid, fədakar, alicənab adam.

**CƏNGAVƏR QOŞUNLARI,** r ı t s a r q o ş u n l a r ı – ağır silahlı süvari qoşunları. 10–13 əsrlərdə Qərbi Avropa feodal ordularının əsas qüvvəsi idi. C.q. xırda və orta feodallardan və onların silahlı nökərlərindən ibarət olurdu. C.q.-nın quruluşu feodal torpaq sahibliyinin pilləli sistemini əks etdirirdi. C.q.-nın əsas silahları qılınc, ağır nizə, təbərzin, gürz və ya əmud idi. Ağır silah və zirehli geyim C.q.-na döyüşdə çevik olmağa imkan vermirdi. 14 əsrin ortalarından odlu silahla silahlanan piyada qoşunun meydana çıxması ilə C.q. əhəmiyyətini itirdi.

**CƏNGAVƏRLİK ROMANI** – orta əsrlər *kurtuaz ədəbiyyatının* əsas janrlarından biri. İlk dəfə 12 əsrin ortalarında feodalizm mühitində, cəngavərliyin yüksəlişi dövründə Fransada meydana gəlmişdir. Cəsarət, alicənablıq motivlərini qəhrəmanlıq dastanlarından əxz etmişdir. Eposdan fərqli olaraq C.r.-nda nəsli, yaxud vassall vəzifəsi üçün deyil, öz şərəfi və sevgilisini şöhrətləndirmək naminə qəhrəmanlıqlar göstərən fərdiləşdirilmiş qəhrəman-cəngavərin psixologiyasının təhlili ön plana çəkilir. Fantastik motivlərin ekzotik təsvirlərinin çoxluğu C.r.-nı xalq nağılları, Şərq ədəbiyyatı, Mərkəzi və Şimali Avropanın xristianlığaqədərki mifologiyası ilə yaxınlaşdırır. C.r.-na qədim keltlərin və germanların yenidən nəzərdən keçirilmiş dastanları, antik dövr yazıçıları (Ovidi) təsir göstərmişlər.

"Dəyirmi masa" cəngavərləri, britlərin əfsanəvi kralı Artur (bax *Artur əfsanələri*), Tristan və İzoldanın məhəbbəti (bax "*Triston və İzolda*"), müq. Qraalın axtarışları haqqında romanlar daha populyar idi. İlk C.r.-ları nəzmlə yazılmışdır; 13 əsrin ortalarından onun nəsrlə işlənməsi (məs., Lanselot haqqında silsilə) meydana gəlmiş, C.r. həmçinin Almaniya və İngiltərədə yaranmağa başlamışdır. C.r. ilə bərabər cəngavərlik povesti və novellası da inkişaf etmişdir. Artıq 13 əsrdə C.r.-na parodiyalar meydana gəlməyə başlamışdır. 15 əsrdə janr tədricən tənəzzülə uğramış, lakin kitab çapının başlanması ilə bayağı şəkildə yenidən canlanmışdı. İntibah dövrü ideyalarını özündə əks etdirən C.r. İspaniyada həmin vaxtda inkişaf etmişdi. Servantes "Don Kixot" əsərində özlüyündə janrın nümunələrinin eriqonçu davamçılarını lağa qoymuşdur. Avropa C.r.-ndan asılı olmadan bu janra yaxın olan əsərlər müstəqil şəkildə Şərq ("Gendzi-Monoqatari" yapon povesti) ədəbiyyatlarında da mövcud olmuşdur.

**CƏNGƏLİLƏR** (far. جنگل – meşə sözündəndir) – 1912 ildə Gilanda (İranın şm.-ı) başlanan partizan hərəkatının iştirakçıları. C.-in əsas bazası dağ meşələri idi. *İran inqilabını (1905–11)* yatırmaq üçün şah hökumətinə kömək məqsədilə İranın şm.-ına daxil olmuş rus qoşunlarına qarşı mübarizə aparırdılar. C. hərəkatının sosial bazasını kəndlilər, xırda torpaq sahibləri, tacirlər təşkil edirdi. C. 1917 ildən *Kiçik xanın* başçılığı altında "İttihadi-islam" ("İslamın birliyi") komitəsinin rəhbərliyi ilə fəaliyyət göstərir, İranın müstəqilliyi və ictimai həyatda islamın erkən normalarına qayıtmaq uğrunda mübarizə aparırdılar. 1920-ci illərin əvvəllərində C.-in dəstələri şah qoşunları tərəfindən darmadağın edildi.

**CƏNGƏLLİK** – (ing. jungle, hindi dilində – cəngəl sözündən – meşə, sıx cəngəllik) – hündür, qabagövdəli taxıl bitkiləri ilə birgə bitən ağaclıq-kolluq bitki qruplaşması. Tropik ölkələrin musson sahələrində, əsasən Cənubi və Cənub-Şərqi Asiyada (Hindistan, Hind-Çin, Zond a.-rı və s.) yayılmışdır. Gövdələrinə lianlar (əksərən rotanq palması) sarmaşmış bambuk, sal ağacı, akasiya və sterkulilərin (ağac və kol) çoxluğu cəngəlliyi keçilməz edir. Cəngəlliyin ot örtüyündə yabanı şəkər qamışı, eriantus və s. olur. Torpaqların təsərrüfat üçün mənimsənilməsi nəticəsində cəngəlliyin sahəsi hər yerdə azalır; onların olduqca zəngin flora və faunası indi kəskin azalmışdır. C., adətən, antropogen mənşəlidir və keçmiş əkin sahələrinin, qırılmış və yandırılmış meşələrin yerində və s.-də yayılmışdır. Tropik meşələrin bataqlıqlaşmış, oduncaqlı, lianlar basmış, keçilməz sahələrini də çox vaxt səhvən C. adlandırırlar.

**CƏNGƏMİRAN** – Azərb. Resp. Lerik r-nunda kənd. Cəngəmiran ə.d.-nin (Cəngəmiran, Pirzəküçə k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 3 *km* c.-ş.-də, Peştəsər silsiləsinin şm.-ş. yamacındadır. Əh. 1450 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi var. E.ə. 12–10 əsrlərə aid Coni daş qutu nekropolu, orta əsrlərə aid Zəkəriyyə türbəsi və "Xəlifə Zəkəriyyə" qəbiristanlığı, 15–17 əsrlərə aid Cəngəmiran yaşayış yeri, 15–16 əsrlərə aid Coni yaşayış yeri, 17 əsrə aid daş qoç fiqurları, sənduqə və insan başının heykəli var.

**CƏNGƏNƏVUD** – Azərb. Resp. Lerik r-nunun Vizəzəmin ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* ş.-də, Kəncəvü çayının (Lənkəran çayının qolu) sahilində, Peştəsər silsiləsinin şm.-ş. yamacındadır. Əh. 338 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur.

**CƏNGİ** – İrəvan xanlığının Abaran mahalında (9.9.1930 ildən Abaran, 3.1.1935 ildən Aparan r-nu), Abaran çayının yuxarı axarında azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra kəndin azərb. əhalisi qovulmuş, burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 19 əsrin 2-ci yarısından kənddə yezidi kürdlər də məskunlaşmışlar. 19.4.1950 ildə kəndin adı dəyişdirilərək Vardablur qoyulmuşdur.

**CƏNGİ** – qəhrəmani və cəngavərlik ruhlu kütləvi kişi rəqsi və xalq instrumental musiqisi janrı. C.-də qılınc və qalxan oynatmaq, at çapmaq, nizə atmaq, güləş və s. kimi hərəkətlər əksini tapır. Pəhləvanların yarışında, cıdırda və s. səslənir. Adətən, zurnaçılar dəstəsi və ya müxtəlif tərkibli xalq çalğı alətləri ansamblларının müşayiəti ilə ifa olunur. İlk dəfə Ü. Hacıbəylinin "Koroğlu" operasına daxil etdiyi C.-dən sonralar digər bəstəkarlar (S. Hacıbəyov, Q. Qarayev, C. Cahangirov, S. Ələsgərov, S.Rüstəmov, V. Adıgözəlov, A. Əlizadə və b.) da istifadə etmişlər.

**CƏNGİ** – Azərb. Resp. Qobustan r-nunun Nabur ə.d.-ndə kənd. R-n mərkəzindən 11 *km* şm.-da, dağlıq ərazidədir.



Cəngitau zirvəsi.

Əh. 101 (2011); heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb var.

**"CƏNGİ KOROĞLU"** – qəhrəmani xarakterli aşıq havası. "Koroğlu" dastanı ilə əlaqədar yaranmışdır. "Dəli Koroğlu", "Təbil cəngi", "Zərbi Koroğlu" da adlanır. Poetik mətni qoşmadır. Sazda beçə pərdədən şah pərdə kökündə ifa olunur. Musiqi ölçüsü 6/8, tempi mülayim tez, lad əsası rastdır. Melodiyanın instrumental variantları da mövcuddur. Adətən, zurnaçıların müşayiəti ilə ifa edilir.

**CƏNGİLƏR** – Gürcüstanın Şidi Kartli mahalının Kaspi bələdiyyəsi ərazisində azərb.-ların yaşadığı kənd. Kaspidən 23 *km* ş.-də, dəniz səviyyəsindən 580 *m* yüksəklikdə yerləşir. Qarabağlılar k. kimi də tanınır. Əh. 300 (2002); əkinçilik və maldarlıqla məşğuldur. C.-də gürcü dilində təhsil verən məktəb fəaliyyət göstərir.

**CƏNGİTAU,** C ə n g i – Böyük Qafqazın mərkəzi hissəsində RF (Kabarda-Balkar Resp.) və Gürc. sərhədində zirvə. Hünd. 5058 *m*. Qranitlərdən ibarətdir. *Bezengi* buzlağı başlanğıcını C. zirvəsindən götürür.

**CƏNGTƏPƏ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Avacıq kəndistanında, Makudan 29 *km* q.-dədir.

**CƏNİK VURUŞMASI** – 1738 il oktyabrın 26-da Car və Tala üsyançılarının (onlara Tabasaran, Xınalıq, Axtıpara və s. yerlərdən gəlmiş 20 min nəfər dağlı da kömək edirdi) İran qoşunu ilə döyüşü. Divanə İbrahim və Xəlilin başçılıq etdiyi üsyançılar Nadir şahın [1736–47] qardaşı İbrahim xanın 30 (bəzi mənbələrdə 32) minlik qoşununu məğlubiyyətə uğratdılar. Döyüş zamanı İbrahim xan və ona kömək edən gəncəli Uğurlu xan öldürüldü. İran qoşununun qalıqları geri çəkildi.

**CƏNNƏT** (ər. الجنّة – bitki və ağacları ilə torpağı örtən bağça) – bir sıra dini təlimlərə (iudaizm, buddizm, xristianlıq, islam) görə, möminlərin ruhlarının əbədi xoşbəxt yaşayacağı yer. Yunan ədəbiyyatında bu sözün qarşılığı olan "paradeisos"u ilk dəfə Ksenofan bağça mənasında işlətmişdir. İbtidai dinlərdəki C. anlayışı haqqında yalnız müqəddəs kitablarda, qismən də başqa mənbələrdə məlumat verilir. C. inancıyla bağlı ilk yazılı mənbə e.ə 2-ci minilliyə aid Şumer mixi yazılarıdır. Burada C. "xoşbəxt insanlar ölkəsi, ölümsüzlər ölkəsi, həyat ölkəsi" kimi xarakterizə edilir. *İudaizmdə* C.-i bildirən "Gan Eden" (Eden bağı), yaxud "Pardes" (bağça) üç mənada anlaşılır: Allahın *Adəmi* yerləşdirdiyi Eden bağçası, dirilmədən əvvəl yaxşı insanların qaldığı yer və yaxşı insanların əbədi qalacaqları yer. Xristianlıqda C. səmada yerləşən və yalnız doğru insanların daxil ola biləcəyi əbədi həyat məkanıdır. Quranda bütün cəm formaları da daxil olmaqla C. sözü 147 dəfə işlənir: iyirmi beş yerdə dünyadakı bağlar, altı yerdə Adəm ilə Həvvanın qovulduğu məkan, bir yerdə Məhəmməd peyğəmbərin səmada *Cəbrayılı* gördüyü məkan, digər yerlərdə isə axirət C.-i mənalarında. İslam mənbələrində C.-i ifadə edən Ədn, Firdövs, Darus-sələm, Darül-müqamə və s. sözlərə də rast gəlinir.

**CƏNNƏT QUŞLARI** (Paradisaeidae) – sərçəkimilər dəstəsindən quş fəsiləsi. Uz. 14–100 *sm*-ə qədər olur. Dimdiyi qüvvətli, bəzilərində uzundur. Quyruğu qısa, düz, yaxud uzun və pilləlidir. Rəngi tünd, metal parıltılı, bəzi növləri əlvandır; qırmızı, sarı, yaxud sürməyi rənglər üstünlük təşkil edir. Erkəklərin əksəriyyətinin başında, yanlarında və quyruğunda cinsi səsləşmə zamanı nümayiş etdirdikləri "bəzəyici" lələklər olur. 45 növü var. Yeni Qvineya, Molukk a-rı və Avstraliyanın şm.-ş.-ində, dağ meşələrində yayılmışdır. Oturaq həyat keçirir. Ağacda yuvalayır; 2 yumurta qoyur. Bəzi növləri monoqamdır və ömürlük cütlər yaradır. Toxum, giləmeyvə, cücü, qurbağa və kərtənkələ ilə qidalanır. Əvvəllər C.q.-nı lələklərinə görə ovlayırdılar. 20 əsrdə onların ovuna qadağa qoyulmuşdur. C.q.-nın kral C.q. (Cicinnurus respublica), mavi C.q. (Paradisaea rudolphi), Lentşakilli C.q. (Astrapia mayeri) və s. növləri var. Bunlardan lentşəkilli C.q. ən uzunquyruqlu növdür.

**CƏNNƏT QUŞU** (lat. Apus) – göyün Cənub yarımkürəsində qütbətrafı bürc. Ən parlaq ulduzunun vizual *ulduz ölçüsü* 3,9-dur. Azərb.-da görünmür (bax *Ulduz xəritəsi*).

**CƏNNƏTİ** Əbdülxalıq Əbdülqafar oğlu, Q a f a r z a d ə (1855, Bakı – 6.6. 1931, Bakı) – Azərb. şairi. *"Məcmə üşşüəra"nın* fəal üzvlərindən olmuşdur. Klassik üslubda, Azərb. və fars dillərində yazmışdır. Şeirləri "İqbal", "Təkamül", "Həyat", "Füyuzat", "Babayi-Əmir" və s. qəzet və jurnallarda dərc olunmuşdur. İctimai məzmunlu şeirlər ["Ey vətəndaşlar", "Vətən təranəsi", "Torpaq", "Ehda" ("Səttarxanın ruhi-pür fütuhinə") və s.] yazmışdır. Poemaları ("Qız qalası", "Qılınc və qələm"), təmsilləri var. "Dəmir", "Qələm", "Hürriyyət" və s. şeirlərin müəllifidir. Əsərləri AMEA-nin M. Füzuli ad. Əlyazmalar İn-tunda saxlanılır.

Ə s ə r l ə r i: Şe'rlər. "Deyilən söz yadigardır" kitabında (tərtibçi C. Rəmzi). B., 1980; Şe'rlər. "Poetik məclislər" kitabında (toplayanı və tərtib edəni N. Qarayev). B., 1987.

*Əd.:* M i r C ə l a l. Əbdülxalıq Cənnəti, "Ədəbiyyat məcmuəsi". Nizami ad. Ədəbiyyat İnstitutunun əsərləri, c. I. 1946; Ə s g ə r o v a A. Əbdülxalıq Cənnəti əsərlərinin avtoqraf nüsxələri haqqında. Azərb. EA xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası), 1987, №2.

**CƏNNƏTLİ** – İrəvan xanlığı Gərnibasar mahalının (9.9.1930 ildən Qəmərli, 4.9.1945 ildən Artaşat r-nu) dağlıq hissəsində, Gərni çayının sağ kənarında azərb. kəndi. 1918 ildə C. əhalisinin bir hissəsi silahlı erməni quldurları tərəfindən qətlə yetirilmiş, sağ qalanlar didərgin salınmış, onların dədə-baba yurdunda İrandan və Türkiyədən gəlmə xeyli erməni ailəsi yerləşdirilmişdi. 1922 ildə C.-yə qayıdan azərb.-lar onu yenidən abadlaşdırmışdılar, lakin, 1948–49 illərdə Azərb. SSR-ə deportasiya olundular. C. 1940 ildən Zovaşen, 1967 ildən isə dəyişdirilərək Lancazat adlandırılmışdır.





**Cənnət quşları** *(soldan)*: kral cənnət quşu (Cicinnurus respublica); mavi cənnət quşu (Paradisaea rudolphi); altılələkli c.q. (Parotia lawesi).

**CƏNNƏTÖVLƏNG** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Qızılkeçili kəndistanında, Mahnişan qəs.-ndən 24 *km* ş.-dədir.

**CƏNNƏTÜL-BƏQİ** (جنة البقيع), B ə q i, B ə q i ə l - ğ ə r q ə d – Mədinənin c.-ş.-ində yerləşən ilk müsəlman məzarlığı. İlk mühacirlərdən Osman ibn Məzun, ənsarlardan isə Əsəd ibn Zürarə, Məhəmməd peyğəmbərin qızları, oğlu İbrahim, əmisi Abbas, xalası Səfiyyə, dayəsi Həlimə, isnaəşəri şiələrinin dörd imamı (Həsən ibn Əli, Əli ibn Hüseyn, Məhəmməd əl-Baqir, Cəfər əs-Sadiq) və b. burada dəfn edilmişdir. Peyğəmbərin qızı Fatimənin məzarının C.-B.-də olması mübahisəlidir. 1926 ildə Səudiyyə Ərəbistanın ilk kralı Əbdüləziz ibn Səud məzarları dağıtdırmışdır. Hazırda məzarların üzərinə heç bir yazısı, yaxud qeydiyyatı olmayan daşlar qoyulmuşdur.

**CƏNUB,** c ə n u b n ö q t ə s i – üfüqün əsas cəhətlərindən biri; həqiqi üfüqün dünyanın Cənub qütbünə yaxın göy meridianı ilə kəsişmə nöqtəsi (bax *Göy sferası*).

**CƏNUB ADASI** (South Island) – Yeni Zelandiyanın ən iri adası. Şimal a.-ndan Kuk boğazı, Stüart a.-ndan Fovo boğazı ilə ayrılır. Sah. 152 min $km^2$. Əh. 1 mln. (2010). Ərazisi dağlıqdır, böyük hissəsini Cənubi Alp d-rı (hünd. 3764 *m*-ədək, Kuk d.) tutur. Dağ meşələri və çəmənləri yayılmışdır; dağların yuxarı hissələri daimi qar və buzlaqlarla örtülüdür. Fyordlend, Maunt-Kuk və s. milli parklar var. Ş.-də ölkənin əsas əkinçilik r-nu – Kenterberi düzənliyi yerləşir. Əsas şəhəri Kraystçerçdir.

**CƏNUB BALIĞI** (lat. Piscis Austrinus) – göyün Cənub yarımkürəsində bürc. Ən parlaq ulduzu *Fəməlhutdur*. Azərb.-da görünür (bax *Ulduz xəritəsi*).

**CƏNUB BUZLU SAHƏSİ** (Sørfonna) – Şpitsbergen arxipelaqında, Şimal-Şərq Torpağı a.-nın buz örtüyünün c. hissəsi. Norveçin ərazisidir. Sah. 2350 $km^2$. Hünd. 721 *m*-ədək; buzun qalınlığı 400 *m*-ədək. Brosvel çıxıntı buzlağı Barens dənizində 20–30 *km* məsafədə uzanır. C.b.s. şm. və şm.-ş.-də Şəqr buzlu sahəsi ilə birləşir.

**CƏNUB ÇUXURU** – Sakit okeanın c.-q.-ində sualtı çuxur. Q.-dən dərin Kermadek və Tonqa novları və Yeni Zelandiya sualtı platosu, şm.-dan Kuk və Tubuai a-rını formalaşdıran sualtı silsilələr, ş. və c.-dan Şərqi və Cənubi Sakit okean qalxımları ilə əhatə olunmuşdur. Çoxlu sualtı dağlar və riflər var. Eni təqr. 4600 *km*. 5000 *m* dərinliklər üstünlük təşkil edir. (maks. dərinlik şm.-q.-də 6600 *m*). Dib çöküntüləri qırmızı gildən və diatome lilindən ibarətdir.

**CƏNUB HİDRASI** (lat. Hydrus) – göyün Cənub yarımkürəsində bürc. Ən parlaq ulduzunun vizual *ulduz ölçüsü* 2,9-dur. Azərb.-da görünmür (bax *Ulduz xəritəsi*).

**CƏNUB XAÇI** – *Xaç* bürcünün sinonimi.

**CƏNUB KANALI** (Canal du Midi) – Fransanın c.-unda gəmiçilik kanalı. Atlantika okeanındakı Bordo portunu Aralıq dənizindəki Set portu ilə əlaqələndirir. Haronna çayından başlanır. Ümumi uz. 241 *km*-dir. 65 şlüzü var. 1666–81 illərdə tikilmişdir. İllik yük dövriyyəsi 500 min *t*-a yaxındır.

**CƏNUB QAZ-KONDENSAT YATAĞI** – Xəzər dənizinin Azərb. sektorunda, Abşeron arxipelaqı neftli-qazlı r-nunda qaz-kondensat yatağı. Bakı ş.-ndən 60 *km* ş.-də, Çilov a.-ndan 5 *km* c.-da yerləşir. Yatağın yerləşdiyi sahədə dənizin dərinliyi 8–20 *m* arasında dəyişir. Cənub strukturu 1945–50 illərdə aparılmış seysmik kəşfiyyat işləri nəticəsində müəyyən edilmişdir. Struktur Darvin sayı – Pirallahı a. – Gürgan-dəniz antiklinal zonanın c.-ş. davamında yerləşir və ondan geniş yəhərlə ayrılır. Strukturun c.-q. qanadının yatma bucağı 18°, şm.-ş. qanadınınkı isə 10°-dir. Sahədə axtarış-kəşfiyyat qazıma işlərinə 1951 ildə başlanmışdır. Yataq 1962 ildə açılmış (quyu № 2; Qırmakialtı lay dəstəsi; 450–500 $m^3$*/gün* qaz, 45–50 *t/gün* kondensat) və 1964 ildə işlənməyə verilmişdir. Yatağın kəsilişində Məhsuldar qatın Qırmakialtı, Qırmaki, Qırmakiüstü qumlu və Balaxanı lay dəstələrinin VI və V horizontlarının qazlılığı müəyyən edilmişdir. Kollektorların məsaməliliyi 10%, keçiriciliyi 0,05 *mkm*$^2$-dir. Qazın xüs.ç. 0,60 *q/sm*$^3$-dir; tərkibi əsasən metan (94–96%), az miqdarda etan, propan, butan və karbon ($CO_2$) qazından ibarətdir. İşlənmənin əvvəlindən 1.1.2011 tarixinədək cəmi 12 mlrd. $m^3$ qaz və 1,0 mln. *t* kondensat hasil edilmişdir.

**CƏNUB QÜTBÜ** – bax *Coğrafi qütblər*.

**CƏNUB OKEANI** – Atlantika, Hind və Sakit okeanın Antarktidaya bitişik c.



Cənub adasında Kuk dağları.

hissələrinin ədəbiyyatda rast gələnən şərti adı. Bu okean ilk dəfə 1650 ildə holland coğrafiyaçısı B. Varenius tərəfindən ayrılmışdır. C.o.-nın təxmini sərhədi Antarktika konvergensiyası zonasının şm. sərhəddi təqr. 55° c.e. qəbul olunmuşdur. "C.o." terminindən dənizçilik praktikasında istifadə edilmir.

**CƏNUB SİKLONU** – Avropa ərazisində cənub enliklərindən (adətən Aralıq dənizi, Balkan y-a, Qara dəniz, Xəzər dənizi) gələn siklon. C.s. aydın nəzərə çarpan temp-r asimmetriyasına malik olur. C.s. qışda qar, çovğun, yayda külli miqdarda yağıntı, leysan, tufan, çox vaxt daşqınlar yaradır. Aralıq dənizinin ş.-indən Xəzər dənizinə doğru hərəkət edən C.s. Azərb. Resp.-nın hava şəraitinə təsir göstərir.

**CƏNUB TACI** (lat. Corona Australis) – göyün Cənub yarımkürəsində bürc. Ən parlaq ulduzunun vizual *ulduz ölçüsü* 4-dür. Azərb.-da görünür (bax *Ulduz xəritəsi*).

**CƏNUB ÜÇBUCAĞI** (lat. Triangulum Australe) – göyün Cənub yarımkürəsində bürc. Ən parlaq ulduzunun vizual *ulduz ölçüsü* 1,9-dur. Azərb.-da görünmür (bax *Ulduz xəritəsi*).

**CƏNUB YARIMADASI** – İslandiyada region. Sah. 0,9 $km^2$. Əh. 21 min (2011). İnz. m. Keblavnik ş.-dir.

**CƏNUBİ** – İslandiyada region. Sah. 24,5 $km^2$. Əh. 24 min (2013). İnz. m. Selfoss ş.-dir.

**CƏNUBİ AFRİKA** – Konqo–Zambezi suayırıcı platosundan c.-da (12–13° c.e.-ndən c.-da) təbii vilayət. Madaqaskar, Komor və Maskaren adaları da C.A.-ya aiddir. Səthinin çox hissəsini hünd. 1500–2000 *m*-ə çatan yastıdağlıqlarla (Əjdaha d-rında 3482 *m*-ədək, Tabana-Ntlenyana d.) haşiyələnən, Atlantika və Hind okeanlarının sahilyanı düzənliklərinə dik düşən (bax *Böyük Çıxıntı*) yüksək Kalahari düzənlikləri tutur. Ucqar c.-unda Kap d-rı yerləşir. İqlimi əsasən, tropik passatdır, c.-unda subtropikdir. Yağıntının ortaillik miqdarı q. yastıdağlıqlarında 250–300 *mm*, platolarda 500–700 *mm*, Böyük Çıxıntının yamaclarında 1000–2000 *mm*-dir. İri çayları: Zambezi, Limpopo, Oranj, Kunene. Enliyarpaqlı tropik seyrək meşələr, müxtəlif tip savanna və səhralar, ucqar c.-da subtropik həmişəyaşıl meşələr var. CAR, Lesoto, Svazilend, Namibiya, Botsvana, Zimbabve və qismən Anqola, Zambiya, Malavi, Mozambik əraziləri, Komor a-rı, Seyşel a-rı, Madaqaskar, Mavriki ada dövlətləri, həmçinin Reyunyon a. (Fransanın mülkiyyəti) C.A.-ya daxildir.

**CƏNUBİ AFRİKA İTTİFAQI** – *Cənubi Afrika Respublikasının* 1910–61 illərdə adı.

**CƏNUBİ AFRİKA RESPUBLİKASI**, CAR (afrikaansca Republiek van Suid-Afrika; ing. Republic of South Africa).






### Ümumi məlumat

Afrikanın ucqar c.-unda dövlət. Şm.-dan Botsvana və Zimbabve, şm.-ş.-dən Mozambik və Svazilend, şm.-q.-dən Namibiya ilə həmsərhəddir. Q.-dən Atlantika okeanı, c.-dan və ş.-dən Hind okeanı ilə hüdudlanır. CAR ərazisində *anklav* şəklində Lesoto dövləti yerləşir. Sah. 1,2 mln. $km^2$. Əh. təqr. 50 mln. (2010). Paytaxtı Pretoriya ş.-dir; parlamentin iqamətgahı Keyptaun ş.-ndə yerləşir. Rəsmi dillər afrikaans və ingilis dilləridir, pul vahidi renddir. İnz. cəhətdən 9 əyalətə bölünür.

CAR BMT-nin (1946), ABT-nin (1994), Afrika İttifaqının (2002), ÜTT-nin (1995), BVF-nin (1945) üzvüdür.

### Dövlət quruluşu

CAR unitar dövlətdir. İdarəetmə forması parlament respublikası, dövlət başçısı prezidentdir. Qanunverici hakimiyyəti 2 palatadan ibarət parlament həyata keçirir: Əyalətlərin milli şurası (yuxarı palata – 90 deputat), Milli assambleya (aşağı palata – 400 deputat). Əhalisinin







sayından asılı olmayaraq hər əyalət yuxarı palataya 10 deputat göndərir. Aşağı palatanın üzvləri proporsional seçki sistemi əsasında, yarısı ümummilli siyahılar, yarısı isə əyalət siyahıları üzrə 5 il müddətinə seçilir. Hökumət aşağı palatada formalaşır və seçkilərdə səs çoxluğu əldə etmiş partiya lideri ölkənin prezidenti olur.

Ölkədə çoxpartiyalı sistem mövcuddur. Əsas siyasi partiyalar: Afrika milli konqresi, Demokratik alyans və əsasən, etnik zulusları təmsil edən Azadlıq partiyası-İnkata.

**İnzibati ərazi bölgüsü (2009)**

| Əyalətlər | Sahəsi, min $km^2$ | Əhalisi, min *nəfər* | İnzibati mərkəzi |
|---|---|---|---|
| Qərbi Kap | 129,4 | 4839,8 (2007) | Keyptaun |
| Şimali Kap | 361,8 | 1102,2 (2007) | Kimberli |
| Şərqi Kap | 169,6 | 6436,8 (2001) | Bişo |
| Kvazulu-Natal | 92,1 | 9426,0 (2001) | Pitermarisburq |
| Fri-Steyt | 129,5 | 2706,8 (2001) | Blumfonteyn |
| Şimal-Qərb | 116,3 | 3394,2 (2007) | Mmabatxo |
| Qautenq | 17,0 | 10531,3 (2009) | Yohannesburq |
| Mpumalanqa | 79,5 | 3123,0 (2001) | Nelspreyt |
| Şimal | 123,9 | 5373,6 (2001) | Pitersburq |

### Təbiət

CAR ərazisi 22° c.e.-ndən c.-da, tropik və subtropik qurşaqlarda yerləşir. Sahilləri, əsasən, dağlıqdır; az miqdarda əlverişli körfəz və buxtaları var. Sahil xəttinin uz. 2798 *km*-dir.

**Relyef**. Ölkə ərazisinin çox hissəsini plato və yastıdağlıqlar tutur: şm.-ş.-də şişzirvəli kristallik silsilələrlə (Soutpansberge, Vaterberq, Vitvatersrand), həmçinin yastızirvəli qalıq massivlərlə müşayiət olunan *Veld* platoları seriyası, Vaal çayının sağsahilboyunda Kuruman, Langeberq və s. qalıq dağlar ilə Kap platosu, c.-da Yuxarı Karru qıraq platoları, q.-də Kiçik Namakvalend yastıdağlığı (orta hünd. 1200 *m*), Oranj çayından şm.-da 900–1000 *m* yüksəklikdə quru çay dərələri ilə kəsilmiş *Kalahari* düzənlikləri yerləşir. Plato və yastıdağlıqların ş.-də sahilboyu düzənliyə, c.-da Böyük Karru çökəkliyinə düşən dik yamacları–*Böyük Çıxıntı* ölkə ərazisi relyefinin ən səciyyəvi elementidir. Çıxıntının arxasında *Kap dağları* yüksəlir. Mühüm landşaft səddi olan Böyük Çıxıntı ölkənin daxili r-nları ilə əlaqəni çətinləşdirir.

**Geoloji quruluş və faydalı qazıntılar**. CAR ərazisinin böyük hissəsi Kembriyəqədər yaşlı *Afrika platformasının* c. kənarı hüdudlarındadır; yalnız Kap d-rı Hersin qırışıqlığı vilayətinə aiddir. Transvaal massivi, Arxey, Orta və Son Proterozoyun mütəhərrik qurşaqları, Karru və Kalahari sineklizləri platformanın əsas strukturlarıdır. Massivdə qranit-qneyslərdən, qranulitlərdən, yaşıldaş vulkanik-çökmə qatlardan ibarət platforma bünövrəsini Üst Arxey – Orta Proterozoyun platforma çexolu (terrigen və karbonatlı çöküntülər, qızıllı konqlomeratlar, riolitlər, andezitlər, bazaltlar və onların tufları) örtür. Platformanın sonrakı inkişaf mərhələlərində Buşveld lopoliti (qabbrolar, noritlər, peridotitlər, anortozitlər, qranitlər), karbonatitlər, siyenitlər, kimberlitlər və Mezozoyun qələvi qranitləri ilə yarılmış Transvaal sineklizi yaranır. Keys qurşağının q.-ində qırışıqlığa məruz qalmış Proterozoy yaşlı terrigen, vulkanik və karbonat süxurlar zolağı izlənilir. Bu r-nda metamorfizmə uğramış çexol (Vend–Kembri) Keys qurşağında peqmatitlərin əmələ gəlməsi və q.-də qranit intruziyalarının soxulması ilə formalaşmışdır. Fanerozoyun çökmə çexolunu Paleozoy-Mezozoyun terrigen və kömürlü çöküntüləri, Erkən Yura yaşlı bazaltlar (Karru sineklizi və bir sıra qrabenlər, ş.-də Mozambik çökəyi), Kaynozoyun qumları (Kalahari sineklizi) təşkil edir. C.-da Ordovik – Alt Karbonun miogeosinklinal çöküntülərindən ibarət Kap qırışıqlıq qurşağı Karru sineklizinə qovuşur.

CAR faydalı qazıntı yataqları ilə zəngindir. Uran, manqan, xrom, qurğuşun, sink, qızıl, platin və almazın iri yataqları *Buşveld kompleksi* və Üst Arxeyin *Vitvatersrand* sistemi ilə əlaqədardır. Daş kömür, dəmir filizi, nikel, titan, vanadium, mis, gümüş, qalay, volfram, kobalt, beril, litium, sürmə, torium, zirkon, flüorit, barit, apatit, vermikulit, korund, talk, qrafit, mika, asbest və s. yataqları da var.

**İqlim**, əsasən, tropik, 30° c.e.-ndən c.-da subtropikdir. Daxili r-nların iqlimini Hind okeanından gələn rütubətli küləklərin qarşısını kəsən Böyük Çıxıntı formalaşdırır. Sahilboyu ovalıqlarda və Böyük Çıxıntının küləktutan yamaclarında il ərzində 1000–2000 *mm*, daxili r-nlarda və c.-q.-də 150 *mm*-ədək yağıntı düşür. Yastıdağlıqda yay aylarının orta temp-ru 18–27°C, qış aylarınkı 7–10°C-dir. C.-q.-də və Veld platosunda 6 ay müddətində şaxtalar olur; quraqlıq səciyyəvidir. Subtropiklərdə yay aylarının orta temp-ru təqr. 21°C, qış aylarınkı 13°C-dən az, yağıntının illik miqdarı 700 *mm*-ədəkdir. Atlantika okeanı sahilində səhra iqlimi hakimdir; temp-r yayda 18–24°C, qışda 11–15°C, yağıntı 100 *mm*-ədək olur.

**Daxili sular**. Daimi axarı olan çayların çoxu Hind okeanı hövzəsinə aiddir; ən mühümləri Limpopo, Tugela və Qreyt-Fişdir. Ölkənin ən böyük çayı Oranj At-

Oranj çayında Auqrabis şəlaləsi.






lantika hövzəsinə aiddir. Kalahari düzənliklərinin bəzilərində epizodik daxili axım var.

**Torpaqları, bitki örtüyü və heyvanlar aləmi.** Ölkədə, əsasən, qırmızı, qırmızı-qonur, qara və boz-qəhvəyi torpaqlar yayılmışdır. Qırmızı-qonur torpaqlar səhra-çöl sahələri, qırmızı torpaqlar isə quru çöllər üçün səciyyəvidir. Quru savannaların "qara torf" adlandırılan dəmirli qara torpaqları məhsuldarlığı ilə seçilir. Yüksəkliklərdə çox vaxt qələviləşmiş qırmızı torpaqlara rast gəlinir. Sahilboyu r-nların torpaqları müxtəlifliyi ilə fərqlənir. C.-q. sahilboyu münbit qonur torpaqlar sahəsidir. Yamacların düzgün şumlanmaması, mal-qaranın otarılması torpağın strukturunun pozulmasına və eroziyaya uğramasına səbəb olur. Quru iqlim süni suvarma problemi yaradır. Torpaqların cəmi 15%-i k.t.-na yararlıdır.

Ölkənin bitki aləmi zəngin və rəngarəngdir. İki floristik vilayətə (Kap və Paleotropik) aid olan təqr. 15 min bitki növü vardır. Savanna, yarımsəhra və səhra zonalarının bitkiləri üstünlük təşkil edir. Daha rütubətli r-nlarda müxtəlif palmalar, baobablar, podokarpuslar, qiymətli ağac cinsləri və taxıl otları bitir; Aşağı Velddə park-savanna, yaxud savanna-mopane, Buşvelddə akasiya-südləyən savannası yerləşir. Yarımsəhra və səhra zonaları q. sahilboyu düzənliyi, Yuxarı, Böyük və Kiçik Karrunu və Kalaharinin ən quraq hissəsini tutur. Şm.-q. r-nlarında sukkulentlər, yaxud "daş bitkilər" bitir; Namibiya ilə sərhəddə, qumlu torpaqlarda taxıllar üstünlük təşkil edir.

Böyük Veldi otlu çöllər (qrasveld) tutur. Qrasveld ərazisinin 60%-dən çoxu taxıllarla örtülmüşdür, Rütubətli ş. r-n-





larında hündür temeda (1 $m$-ədək), quraq r-nlarda alçaq temeda (hünd. 0,5 $m$-ədək) yayılmışdır; burada həmçinin daşdayan və topalın müxtəlif növləri vardır.

Ölkə ərazisinin təqr. 6,7%-ni meşələr tutur. Şərq sahilboyunda tipik savannalar, 30° c.e.-ndən c.-da kiçik sahələrdə müxtəlif lianalar və epifitlərlə qarışıq fikuslardan, Kap şümşad ağacı, Kap qırmızı ağacı və Kap ebenasından ibarət subtropik və sərtyarpaqlı həmişəyaşıl kolluqlar, meşələr, dağ yamaclarının bəzi yerlərində subtropik musson meşələri yayılmışdır.

Heyvanlar aləmi yırtıcılardan (vəhşi pişiklər, kaftarlar, panterlər, hepardlar, şirlər), çoxsaylı dırnaqlılardan, fillərdən ibarətdir. Bir neçə viver, iriqulaq it, gəmiricilərin bir neçə cinsi, qızılı göstəbəklər, 15 quş cinsi endemikdir. Ölkədə təqr. 40 minədək cücü və 200 növ ilan, təqr. 150 termit növmüxtəlifliyi məlumdur; şm.-ş.-də sese milçəyi və malyariya ağcaqanadlarının yayılma ocaqları var.

Heyvanlar aləmi qoruqlarda və milli parklarda yaxşı mühafizə edilmişdir. Krüger, Kalahari–Gemsbok və s. milli parkları, çoxsaylı qoruqlar, faunistik rezervatlar vardır.



Əjdaha dağları.

## Əhali

Təqr. 26 mln. nəfər *bantu dilləri* ailəsinə mənsub Afrika xalqlarıdır [zulular (7,9 mln.), kosalar (təqr. 7,4 mln.), tsvanalar (3,7 mln.), pedilər (təqr. 2,9 mln.), sutolar (təqr. 4,1 mln.) və s.; 1998]. Zəncilər – 79,4%, ağlar – 9,2%, digərləri (əsasən mulatlar) – 8,8%, hindlilər və asiyalılar – 2,6% təşkil edir (2010). Əhalisinin sayına görə (49,9 mln. nəfər) dünyada 26-cı yeri tutur (2010). Orta sıxlıq 1 $km^2$-də 41 nəfərdir (2011). Son iki onillik ərzində ölkə əhalisinin sayı İİÇ virusuna yoluxma, həmçinin ağların sayının azalması səbəbindən, demək olar ki, dəyişmir. CAR-da 11 dil rəsmi dövlət dilidir (ingilis dili, afrikaans, venda, zulu, kosa, ndebele, svati, şimali soto, sesoto, tsvano, tsonqo). Əhalinin əksəriyyəti xristiandır (77,3%), müsəlmanlar (1,3%) və digər dinlərə mənsub olanlar da var. Gözlənilən orta ömür müddəti 49 ildir (kişilərdə – 50, qadınlarda – 48 ildir; 2008). İÇİ virusunun yayılması səbəbindən CAR-da ölüm səviyyəsi doğum səviyyəsini üstələyir (2010 ildə əhalinin azalması – 0,05%; fertilliyin göstəricisi 1 qadına 2,33 uşaqdır). Ölkədə ağların sayının tədricən azalması Şimali Amerika, Avropa, Avstraliya və Yeni Zelandiyaya mühacirətlə bağlıdır. 1985–2005 illərdə CAR-dan təqr. 0,9 mln. ağ əhali (əsasən 40 yaşa qədər olanlar və onların uşaqları) köçmüşdür. Qaradərili əhali isə digər Afrika ölkələrindən mühacir axını hesabına artır. Əmək qabiliyyəti olanların sayı 18 mln. nəfərdir. İşləyən əhalinin 65%-i xidmət sahəsində, 26%-i sənayedə, 9%-i k.t.-nda çalışır (2008). İri şəhərləri (2007): Yohannesburq – 3888180 nəfər, Keyptaun – 3497097 nəfər, Pretoriya – 2345908 nəfər, Durban – 536644 nəfər.

### Tarixi oçerk

CAR ərazisinin qədim sakinləri *hottentotlar* və *buşmenlər* olmuş, avropalı-

Kosa qadınları.



Zulu ailəsi.





Kryuger Milli Parkı.

ların gəlişindən xeyli əvvəl bu ərazidə *bantular* yaşamışlar. 1652 ildə Hollandiyanın Ost-Hind şirkəti Afrikanın c.-unda Kap koloniyası yaratmışdı. Avropalı müstəmləkəçilər (əsasən, hollandlar) *afrikanyorlar* (burlar) adlanırdılar. 1806 ildə Kap koloniyasını ingilislər tutduqdan sonra burlar başqa torpaqları zəbt etməyə başladılar; 19 əsrin 30-cu illərində zuluların torpağında Natal resp.-nı yaratdılar. 1843 ildə B.Britaniya Natalı işğal etdi. Burlar Afrika xalqlarından zəbt etdikləri torpaqlarda Transvaal resp. və Azad Oranj dövləti yaratdılar. *İngilis-bur müharibəsi (1899–1902)* nəticəsində B.Britaniya bu torpaqları da tutdu. İngiltərənin işğal etdiyi ərazilər 1910 ildə B.Britaniyanın dominionu elan olunmuş Cənubi Afrika İttifaqında (CAİ) birləşdirildi. 1931 ildə B.Britaniya parlamenti CAİ-nın istiqlaliyyətini tanıdı. İkinci dünya müharibəsi (1939–45) başlandıqdan sonra CAİ Almaniya (1939) və Yaponiyaya (1941) müharibə elan etdi. Müharibədən sonra ABŞ İngiltərənin zəifləməsindən istifadə edərək CAİ iqtisadiyyatında üstün mövqe tutdu. 1948 ildə Millətçi partiya hakimiyyətə gəldikdən sonra CAİ hökuməti apartheyd və irqçilik siyasəti yeritməyə başladı. Qaradərili əhalinin hüquqları məhdudlaşdırıldı, "ağlar üçün Cənubi Afrika" yaradıldı. Apartheyd siyasəti nəticəsində qaradərili əhali qismən və yaxud tamamilə CAR vətəndaşı olmaq, seçkilərdə iştirak etmək və seçilmək, azad şəkildə hərəkət etmək (zəncilərə günbatandan sonra küçəyə çıxmaq, o cümlədən hakimiyyət orqanlarının icazəsi olmadan "ağ" rayonlarda görünmək, gündüzlər iri şəhərlərə gəlmək), qarışıq nikah, tibbi xidmət ("ağlar üçün" olan tibbi xidmətdən istifadə etmək qadağan idi, lakin bu dövrdə "qaralar üçün" tibbi xidmət qətiyyən inkişaf etməmişdi) təhsil, işə qəbul olunmaq hüquqlarından məhrum edildi. CAİ 1961 il mayın 31-də CAR elan olundu.

CAR irqçi rejimi ölkənin ərazi bölgüsünü əbədiləşdirmək üçün Afrika mənşəli əhalini CAR vətəndaşlığından məhrum edərək etnik qruplara bölmək məqsədi ilə bantustanlar (CAR ərazisində oyuncaq Afrika dövlətləri) yaratdı [ölkə ərazisinin cəmi 13%-ini təşkil edən 10 bantustan təşkil edildi (1951–94); 4 bantustana 1976–81 illərdə "müstəqillik" verilmişdi]. 1985 ilin iyununda CAR Namibiyada sazişçi qruplaşmaların iştirakı ilə oyuncaq keçid hökuməti yaratdı. Afrikada yeni müstəmləkəçiliyin dayağı olan CAR irqçi rejimi Anqola, Mozambik və digər qonşu dövlətlərin ərazilərinə təcavüzkar basqınlar edirdi. CAR xalqı milli azadlıq hərəkatının başlıca qüvvəsi olan Afrika Milli Konqresinin (AMK) rəhbərliyi ilə (başçılarının çoxu dəfələrlə həbs edilmiş, N. *Mandela* ömürlük həbsə məhkum edilmişdi) mövcud rejimə qarşı bütün vasitələrlə (o cümlədən silahlı) mübarizə aparırdı. 1984–86 illərdə güclü xalq çıxışları oldu; 1985 ilin iyulunda və 1986 ilin iyununda ölkədə fövqəladə vəziyyət elan edilməsinə, amansız terror tədbirlərinə baxmayaraq apartheyd rejiminə qarşı mübarizə daha geniş vüsət aldı.

1989 ilin sentyabrında ölkə prezidenti seçilən Frederik de Klerk apartheyd siyasətinin tədricən ləğvinə başladı. Qanunların çoxu ləğv edildi, N. Mandela həbsdən buraxıldı. 1994 ildə ölkədə ilk dəfə ümumi demokratik seçkilər keçirildi. Seçkilərdə bu günə qədər hakimiyyətdə olan Afrika Milli Konqresi qalib gəldi. 21 əsrin əvvəllərində CAR-da qeyri-leqal miqrasiyalar problemi kəskin surətdə özünü büruzə verdi. Apartheydin ləğvindən və xarici sərhədlərə nəzarətin əhəmiyyətli dərəcədə zəifləməsindən sonra Zimbabve, Anqola, Mozambik və Şərqi Afrikanın digər ölkələrindən qeyri-leqal mühacir axını gücləndi. Bu, CAR vətəndaşlarının narazılığına səbəb oldu. 2008 ilin mayında Yohannesburq və Durbanda mühacirlərə qarşı kütləvi çıxışlar başladı.

Limpopo çayı.







Polis qüvvələri vəziyyətə nəzarəti itirdi. CAR prezidenti Tabo Mbeki ölkədəki qarışıqlığı aradan qaldırmaq məqsədilə ordu qüvvələrindən istifadə edilməsinə icazə verdi. Apartheyd rejiminin ləğvindən sonra CAR-da ilk dəfə ordu dövlət tərəfindən vətəndaşlara qarşı istifadə olundu.

CAR və Azərb. Resp. arasında diplomatik əlaqələr 1992 il aprelin 29-da qurulmuş və hər iki dövlətin Türkiyə Resp.-dakı səfirlikləri tərəfindən qarşılıqlı əlaqələrin həyata keçirilməsi barədə razılıq əldə olunmuşdur. 2004 ildə CAR-ın Azərb. Resp.-da səfiri təyin edilmişdir. 2010 ildə Azərb. Resp.-nın CAR-da səfirliyi təsis olunmuşdur.



Keyptaun ətrafında üzüm bağları.

### Təsərrüfat

Sənaye-aqrar ölkəsi olan CAR Afrikanın ən inkişaf etmiş dövlətidir. Adambaşına düşən ÜDM 11500 dollardır (2013, alıcılıq qabiliyyəti pariteti üzrə). ÜDM-in strukturunda sənaye 29%, k.t. 2,6%, xidmət sferası 68,4% təşkil edir. Sənayenin aparıcı sahələrindən biri mədənçıxarma sənayesidir. Yanacaq-enerji resurslarının əsası daş kömürdür. Elektrik enerjisi başlıca olaraq İES-də istehsal olunur. CAR qızıl, platin, almaz, xromit, manqan filizi, vanadium, antimonit, həmçinin asbest hasilatına, uran konsentratlarının istehsalına görə dünyada aparıcı yerlərdən birini tutur. Dəmir filizi, əlvan metal filizlərindən mis, antimonit, qalay, nikel çıxarılır. Emal sənayesi sahələrindən ən çox maşınqayırma və metal emalı inkişaf etmişdir (mədən avadanlığı, qaldırıcı kranlar, qazanlar, d.y. vaqonları və s. istehsalı; əsas mərkəzləri – Cermiston, Sprinqs, Ferinixinq); qara (Pretoriya, Fanderbeylpark, Ferinixinq, Nyukasl) və əlvan metallurgiya (Sprinqs, Cermiston, Pretoriya, Okip), kimya (mineral gübrələr, lak və boyalar və s. istehsalı; Yohannesburq, Keyptaun, Durban rayonları), yeyinti (Keyptaun, Port-Elizabet və İst-Londonda tərəvəz, meyvə, balıq konservləri istehsal olunur), toxuculuq (Yohannesburq, Durban, Keyptaun və s.) müəssisələri fəaliyyət göstərir. Əsas sənaye r-nları ölkənin ş.-ində və şm.-ş.-indədir.

K ə n d   t ə s ə r r ü f a t ı məhsullarının böyük hissəsi avropalılara məxsus fermer təsərrüfatlarından daxil olur. Ölkə ərazisinin 10,8%-ini becərilən sahələr, 66,7%-ini çəmən və otlaqlar, 6,7%-ini meşələr tutur. Əsas k.t. bitkiləri: qarğıdalı, buğda, şəkər qamışı. Meyvəçilik (şaftalı, ərik, alma və s.) və üzümçülük inkişaf etmişdir. Sitrus meyvələri, həmçinin banan, ananas, tütün becərilir. Heyvandarlıq, xüsusən qoyunçuluq mühüm əhəmiyyət kəsb edir. Qaramal və davar yetişdirilir (Afrikada aparıcı yerlərdən birini tutur); quşçuluq inkişaf etmişdir.

N ə q l i y y a t. Dəmir yollarının uz. 20,2 *km*-dir (2008). Avtomobil yollarının uz. 364,1 *km*-dir, 62,995 *km*-i bərk örtüklüdür (2002). Portları: Durban, Keyptaun, Riçards-Bey, Saldanya, Port-Elizabet, İst-London.

X a r i c i   t i c a r ə t. Mineral və k.t. xammalı, mədənçıxarma sənayesi yarımfabrikatları, kimya və k.t. məhsulları ixrac olunur. Əsas xarici ticarət tərəfdaşları: Çin, Almaniya, ABŞ, Yaponiya, Hindistan.

### Silahlı qüvvələr

1994 ildə ilk demokratik seçkilərin keçirilməsindən və yeni konstitusiyanın qəbul olunmasından sonra CAR silahlı qüvvələrini Milli müdafiə qüvvələri əvəz etmişdir. Milli müdafiə qüvvələri quru qoşunları (QQ), HDQ, HHQ və tibbi-hərbi xidmətdən ibarətdir. QQ xaricdə istehsal olunmuş toplar və raketlərlə; HHQ 26 qırıcı təyyarə (İsveç istehsalı), 62 nəqliyyat təyyarəsi (əsasən, ABŞ və İspaniya istehsalı), 72 təlim təyyarəsi (B.Britaniya və İsveçrə istehsalı) və 74 helikopterlə (CAR, Almaniya və İtaliya istehsalı) silahlanmışdır (2013). HDQ-nə hərbi-dəniz donanması, hərbi-dəniz aviasiyası və xüsusi təyinatlı bölmə və hissələr daxildir. HDQ 3 donanmadan (sualtı qayıqlar, patrul qüvvələri, minatutan və minadüzən qüv-

Venetia almaz mədəni. Limpopo əyaləti.





Keyptaun şəhərindən görünüş.

vələr) ibarətdir. CAR HDQ-nin əsas hərbi-dəniz bazası Keyptaun yaxınlığındakı Saymons-Taundur. 4 ehtiyat hərbi-dəniz bazası (2008 ilədək istifadə olunmayan) Keyptaun, Durban, İst-London və Port-Elizabetdə yerləşir. Donanma 3 sualtı qayıq, 4 freqat, 2 minaəleyhinə gəmi, 6 gözətçi kater, 2 köməkçi gəmi, 3 yedəkdən ibarətdir. Dəniz aviasiyası 1 axtarış-xilasedici təyyarə (ABŞ istehsalı) və 2 helikopterdən (B.Britaniya və CAR istehsalı) ibarətdir. Ordu ümumi əsgəri mükəlləfiyyət haqqında qanun əsasında və muzdla komplektləşdirilir. Hərbi xərclər ÜDM-in 1,7 %-ini təşkil edir (2006).

**Səhiyyə. İdman**

Səhiyyəyə qoyulan ümumi xərclər 2009 ildə ÜDM-in 8,5 %-ni təşkil etmişdir (adam-başına 862 dollar).

CAR Olimpiya Oyunlarına ilk dəfə 1904 ildə qoşulmuşdur. 1960 ilə kimi CAR idmançıları bütün Yay Olimpiya Oyunlarında iştirak etmişlər. CAR-da apartheyid siyasətinə cavab olaraq BMT Baş Assambleyasının qətnaməsilə (1962) diskvalifikasiya edilən ölkə 1964–88 illərdə Olimpiya Oyunlarında iştirak etməmişdir. 1990 ildən sonra CAR yenidən Olimpiya hərəkatına qoşulmuşdur. 1991 ildə Cənubi Afrika İdman Konfederasiyası və Olimpiya Komitəsi yaradılmışdır.

Pretoriya universiteti.



CAR idmançıları Olimpiya Oyunlarında 70 medal, o cümlədən 20 qızıl, 24 gümüş, 26 bürünc medal qazanmışlar (1992–2012).

**Təhsil. Elm və mədəniyyət müəssisələri**

CAR-ın təhsil sistemi 3 pilləlidir: orta məktəb, ali təhsil un-tləri (akademik) və texnologiya un-tləri. Dövlət un-tləri 3 tipə bölünür: ənənəvi un-tlər, texnologiya un-tləri, ümumiləşdirilmiş un-tlər. 23 dövlət un-ti, o cümlədən 11 ənənəvi, 6 texnoloji və müxtəlif sahələri əhatə edən 6 ümumiləşdirilmiş un-t vardır. Keyptaun un-ti (1829, statusu 1918), Stellonboş Rodos un-ti (1904, statusu 1947), Pretoriya un-ti (1908, statusu 1930); Mərkəzi texnoloji un-t (1981), Vaal texnoloji un-ti (1966); Zululand un-ti (1960), Venda un-ti (1982) və s. fəaliyyət göstərir.

CAR Təhsil və Araşdırma Alyansı (1999); Cənubi Afrikanın Ali Təhsil Təşkilatı (2005), Şimal Metropolisinin Ali Təhsil Müəssisələri Fondu (1995), Keyp Ali Təhsil Konsorsiumu (1993; "Adamastor Trast" adı ilə tanınmışdır); elmi tədqiqat müəssisələri, elmi cəmiyyətlər, elmi mərkəzlər, o cümlədən "Radkliff" rəsədxanası (1773 ildən 1934 ilədək "Oksford" un-tinin tərkibində olmuş, 1934 ildən Pretoriyaya köçürülmüşdür), K.t. tədqiqatları direktoratı, Cənubi Afrika milli heyvanat parkı (z o o p a r k), Cənubi Afrika Geoloji Xidmət İdarəsi, Cənubi Afrika Elm və İncəsənət Akademiyası, Afrika İn-tu (REA-nın Afrikanın





kompleks öyrənilməsi üzrə elmi tədqiqat in-tu; 1959) və s. vardır.

**Kutləvi informasiya vasitələri**

CAR-da 36 gündəlik və həftəlik qəzet (ing., afrikaans, zulu və kosa dillərində) çıxır. Ən iri qəzet və jurnallar: "Beeld", "Daily Sun", "Mail and Guardian", "City Press", "Sunday Times" və s. ; "Huisgenoot" (həftəlik), "Fair Lady", "Sarie", "İnsig", "Kickoff" və s.

Radio 1936, televiziya 1976 ildən fəaliyyətə başlamış, verilişlər ing. və afrikaans dillərində, 1981 ildən zulu, kosa, suto və tsvana dillərində yayımlanır. SABC dövlət teleradio şirkətinin televiziya stansiyaları (SABC1, SABC2, SABC3, eTV və s.), kabel (1986) və peyk (1995) televiziyaları, həmçinin, əsasən, ing. dilində yayımlanan 40-dan çox radiostansiya (əsasən, paytaxt Yohannesburqda) fəaliyyət göstərir (2012).

**Ədəbiyyat**

CAR ədəbiyyatı zəngin şifahi ənənələr – zulus, buşmen və hottentot nağıllarının, həmçinin ölkədə məskunlaşmış başqa xalqların əsatir, mahnı və atalar sözlərinin əsasında yaranmışdır. Müasir ədəbiyyat, əsasən, afrikaans və ingilis, zulu, kosa, suto, tsvana və b. xalqların dillərində inkişaf edir. Afrika dillərində ədəbiyyat 19 əsrin 2-ci yarısında yazının meydana gəlməsi (latın əlifbası əsasında) ilə təşəkkül tapmışdır. Məşhur bantu yazıçısı, suto dilində ədəbiyyatın banisi Tomas Mofolonun (1877–1948) "Çaka" (1925) tarixi romanı CAR hüdudlarından kənarda da məşhur olmuşdur. 19 əsrin sonu – 20 əsrin əvvəllərində ingilisdilli ədəbiyyatın banisi Oliv Şrayner (1855–1920) milli azadlıq mövzusunda əsərlər ("Afrika fermasının tarixi", 1883; "Birindən digərinə",1926; "Undina" 1928 və s.), F.E. Sellirs inqilabi-romantik şeirlər yazmışlar. Bu dövrdə yaranmış əsərlərdə (C. Dube, M. Fuze, R. Zlomo, K.Mkayi, B.U. Vilakazi, Sara Gertruda Millin, L. van der Post, U. Plumer və b.) irqçilik əleyhinə mübarizə motivləri öz əksini tapmışdır. Afrikaans ədəbiyyatında ilk tənqidi-realist əsəri Y. van Brüggen yazmışdır. 1930 ildə Robert Zlomo da isizulu dilində zulusların əfsanəvi rəhbəri Çaka haqqında kitab çap etdirmişdi. 2-ci dünya müharibəsindən sonra ədəbiyyatda tənqidi-realist və mütərəqqi meyillər daha da artdı. Kəskin senzura və hakimiyyət nümayəndələrinin özbaşınalığı bir çox mütərəqqi yazıçı və



Yohannesburq şəhərindən görünüş.

şairləri ölkəni tərk etməyə məcbur etdi. Apartheid rejimi dövründə P. *Abrahams*, X. Blum, N. *Qordimer* və C. Koupun müstəmləkəçilik və irqçilik əleyhinə romanları geniş şöhrət qazanmışdı. C. Qordon, F. Altman, A.La Quma, C. Metyuz, Eliza Müller, A. Brink, K. Sxuman, Y. Rabi və b.-nın nəsr əsərlərində, B. Breytenbax, A.K. Nortye, K. Piters, A.N. Kumalo, B. Feynberq, D.Y. Opperman, İ.Yonker, A. Fula, A. Small, S.V. Petersen, P. Filander və b.-nın şeirlərində kəskin sosial problemlər əks olunurdu.

1991 ildə CAR yazıçıları arasında ilk dəfə *N. Qordimer* Nobel mükafatına layiq görüldü. 1990–2000-ci illərin tanınmış yazıçıları: Andre Brink, Stiven Qrey, Sindive Maqona, Mayk Nikola (böyük şöhrət qazanmış "Atlı" romanının müəllifi), Entoni Fleyşer, Con Eppel. 2003 ildə Nobel mükafatına yenidən CAR yazıçısı C. *Kutzi* layiq görüldü. Yazıçılar Anci Kroq, U.Smit, A.Peyton və B.Hed ölkə hüdudlarından kənarda da tanınmışlar. qazanmışlar. Şairlərdən Breyten Breytenbax, Dennis Brutus, B.U.Vilakazi, Masizi Kunene, Riçard Riv, M.U.Serote, Meri Morrison Uebster və b. məşhurdur. CAR şair və yazıçılarının bəzi əsərləri Azərb. dilinə tərcümə olunmuşdur. P. Abrahamsın "İldırımlı yollarla" romanı əsasında Q. Qarayev eyniadlı balet yazmışdır.

**Memarlıq və təsviri sənət**

Hottentot, zulu və kosaların ənənəvi məskənləri "Kraal" adlanan mal-qara ağılı (dairəvi və oval) və onun perimetri boyunca bir-birinə sıx yerləşən komalardır. Müasir Lesedi k.-ndə zulu, kosa, ba-

Afrika Milli Konqresinin binası. Pretoriya.





"Böyük köç" monumenti. 1949. Pretoriya.



Milli Tarix muzeyi. Pretoriya.

suto və pedi xalqlarının tipik yaşayış evləri yenidən tikilmişdir. Ndebele xalqının dairəvi və düzbucaqlı komalarının divarları rəsmlərlə (insan, ev, həndəsi fiqurlar və s. təsviri) bəzədilmişdir. Yaşayış məskəni pilləli çıxıntıları olan hasarla əhatə olunmuşdur.

17 əsrdə ilk kolonistlərin gəlişi ilə birlikdə, memarlıq da yaranmağa başladı. Yeni koloniyada inşaat işləri sürətlə gedirdi. Tezliklə burada yerli şəraitə uyğun işlənilmiş, sonralar kap-holland adını almış, 17–18 əsrlər holland memarlığı ruhunda orijinal memarlıq üslubu yarandı. Bugünədək Keyptaun rayonunda tipik holland və Cənubi Afrika elementlərini özündə birləşdirən bu üslubda inşa edilmiş çoxlu tikililərə rast gəlinir. 18 əsrin sonlarında CAR memarlığında (fasadı təmtəraqlı heykəltəraşlıq dekoru ilə seçilən) fransız renessansı memarlığı elementləri yaranır.

19 əsrin əvvəllərində qızıl yataqlarının aşkar edilməsi olduqca primitiv tikilən şəhərlərin sürətli inkişafına səbəb oldu. Yalnız 20 əsrin 20-ci illərində CAR memarlığında Avropa, ABŞ və Latın Amerikası ölkələrinin ən görkəmli memarlarının yaradıcılıq ənənələri əsasında modern üslubda inşa edilən müasir tikililər meydana gəldi. CAR şəhərlərinin müasir memarlığını son dərəcə abad, əzəmətli inzibati mərkəzlər, ticarət firmaları, kontorlar, banklar, varlı mülklər (kərpiç, şüşə və dəmir-beton konstruksiyalar) təşkil edir. U.Q. Makintoş, A. L. Meyrinq, Rods-Harrison, B. Sandroka, X. Ştraux və b. görkəmli memarlardır.

CAR-da təsviri sənət eramızdan xeyli əvvəl yaranmışdır. Əjdaha dağlarının mağara və kahalarında, buşmenlərin qayaüstü rəsmləri – insanların, heyvan və ya fantastik varlıqların minerallar, həmçinin su və heyvan piyində həll edilmiş əhəng və his ilə çəkilmiş təsvirləri saxlanılmışdır. Bu təsvirlərin çox hissəsi (3,6 min) Riet çayı sahillərində (Kimberli yaxınlığında) tapılmışdır. 10,2 min il yaşı olan ən qədim qayaüstü təsvirlər Vanderverk mağarasında (Kuruman yaxınlığında) aşkar edilmişdir. Vitvatersrand un-tində (Yohannesburq ş.) qayaüstü rəsmləri öyrənən nadir institut fəaliyyət göstərir.

CAR-da professional təsviri sənət 20 əsrin əvvəllərindən inkişaf edir. 1947 ildən Fransada yaşayan Jerard Sekoto və Jorj Pemba və Jerar Bhenqu milli incəsənətin baniləri hesab olunurlar. J. Sekoto Avropada tanınmış ilk Afrika rəssamıdır.

1950–60 illərdə "taunşiplərin incəsənəti" cərəyanı yaranmışdı. Rəssamlar Mxlaba Dumile-Feni və Efraim Nqatane bu cərəyanın görkəmli nümayəndələri idi. Heykəltəraşlar: N. Qümede, C. Kubxek, Q. Mavuso, Sidney Kumalo, A. Eyçab və b. Ceremi Vafer, Diana Viktor, Tommi Motsvay Dumile, Qladius Mnqudlandu, Karel Nel və b. müasir CAR rəssamlarıdır. Tablolarında 1990-cı illərdə ölkədə baş verən dəyişiklikləri əks etdirən qaradərili qadın rəssam Helen Makqabo Sebidinin yaradıcılığı geniş şöhrət qazanmışdı. Hər il Qreymstaun ş.-ndə (Şərqi Keyp) milli incəsənət festivalı keçirilir. Keyptaun ş.-də CAR Milli Rəsm Qalereyası (1871 ildə yaradılmışdır), Durban ş.-də rəssamlıq qalereyası, Port-Elizabet ş.-ndə kral VI Georq ad. incəsənət qalereyası, Pretoriya, Yohannesburq və b. ş.-lərdə diyarşünaslıq muzeyləri fəaliyyət göstərir.

Əjdaha dağlarında qayaüstü təsvirlər.



Nqatane E. "Yaxınlaşma". 1964. Şəxsi kolleksiya.







2006-cı ilin fevralında Yohannesburqda "Stendard benk" qalereyasında Pablo Pikassonun əsərlərinin Afrikada ilk dəfə sərgisi açılmışdır. Məşhur rəssamın 84 tablosundan başqa, sərgidə onun şəxsi kolleksiyasından 29 Afrika maskası və kiçik heykəllər də nümayiş etdirilmişdir.

Zulularda rəngli muncuqlardan bəzəklərin hazırlanması geniş yayılmış, keramika istehsalı inkişaf etmişdir. Ən tanınmış müasir zulu dulusçularından biri Nesta Nala 1995 ildə Durbanda keçirilən Birinci milli sənətkarlıq sərgisində baş mükafata layiq görülmüşdür. Zulularda həmçinin palma budağı və yarpaqlarından səbət, qab, həsir, kiçik süfrə hörmə, dərman qutusu, pivə süzmək üçün filterlər (pivə mərasimi zuluların həyatının əsas hissəsdir) hazırlama geniş yayılmışdır. Xlobisdən olan müasir sənətkar R. Ndvandvenin hazırladığı nadir kiçik qablar zərifliyi ilə seçilir. Ağac üzərində oyma (bütöv ağac parçalarından düzəldilmiş və cilalanmış həndəsi ornamentlərlə bəzədilmiş çömçələr, qaşıqlar, boşqablar; eləcə də başaltılar – zulularda bunlar onları öz nəslinin keçmişi ilə bağlayan halqa hesab olunur) sənəti də inkişaf etmişdir.

### Musiqi

Cənubi Afrika aborigenlərinin musiqisi CAR-ın musiqi mədəniyyətinin tərkib hissəsidir. Şaxşaxların, zərb alətlərinin və primitiv fleytaların müşayiəti ilə nadir cingiltili Afrika dilində oxuyan buşmenlər musiqiyə öz ov rituallarını gətirmişdilər. Qottentotlar fleytadan istifadə edərək daha mürəkkəb musiqilər ifa edirdilər. Bantuların hər tayfasının özünəməxsus tonallığı və harmoniyası olan xarakterik mahnıları var idi, lakin musiqi strukturunun baza hissəsi polifoniya cəhətdən eyni olmuşdur. Bantular "nqoma" (böyük) və "marumba" (kiçik) təbillərində virtuoz ifaları ilə məşhurdurlar. Tarixi süjetlər bantu xalqlarının mahnı və dastanlarının başlıca mövzusudur. Qədim ənənələrə malik milli musiqi Afrika xalqlarının, avropalı məskunların və Asiya mühacirlərinin zəngin ənənələri əsasında formalaşmışdır. Musiqi alətlərində ifa, nəğmə və rəqslər cənubi afrikalıların gündəlik həyatı ilə sıx bağlıdır. Arfa, təbillər, gitara, ksilofonlar, kaman (qora), saksofon və s. musiqi alətləri var. CAR-da musiqi alətlərində ansambl halında ifa populyardır. Solo və xor oxuma inkişaf etmişdir. Matabele və şona xalqlarının xor oxumalarında polifonik priyomlardan istifadə olunur. Soto xalqında mahnılar 2 yerə bölünür: rəqsləri müşayiət edən və hərəkətsiz mahnılar. "Ovçular rəqsi" (ndlamu), "məhsul rəqsləri" (iqoma) və s. yayılmışdır. 1912 ildə Keyptaunda musiqi kolleci açılmışdır. Bəstəkarlıq məktəbi 1940–50 illərdə yaranmağa başlamışdır (bəstəkarlar A. van Vik, B. Gerstman, C.P. Moxaneloa, P. Reynir, Q. Faqan). 1950 ildə Yohannesburq ş.-ndə musiqi və dram məktəbi, sonralar Pretoriya, Natal və s. un-tlərin nəzdində musiqi fakültələri açılmışdır. 1930–50 illərdə yeni musiqi üslubları (kvela, mbube, cayv) yaranmışdır. Müstəqillik uğrunda mübarizə illərində "qəhrəmanlıq mahnıları" geniş yayılmışdı. 2000 ildə San-Siti ş.-ndə Ümumafrika musiqi festivalı, 2003 ilin dekabrında Yohannesburq ş.-ndə Beynəlxalq "Kora" musiqi mükafatının təqdimetmə mərasimi keçirilmişdir. CAR musiqiçiləri 18 nominasiya üzrə olan mükafatın 5-ni almışlar. Apartheyd rejiminin təqibinə məruz qalmış müğənni qadın Miriam Makeva 30 ildən çox mühacirətdə olmuş və 50 illik yaradıcılıq fəaliyyəti dövründə dünyanın 70 bəstəkarının 300-dən artıq mahnısını yazdırmışdır; iki dəfə "Qremmi" (1964; 2002) musiqi mükafatına layiq görülmüşdür. Populyar müğənni Brenda Fassi (ö. 2004 ildə) "Biq dads" qrupu ilə 1990–2000 illərdə ABŞ, Avropa, Avstraliya, Yeni Zelandiya və Braziliyada qastrolda olmuşdur. Onun məşhur "Qəlbin harayı" albomu 1998 ildə yazılmışdır. CAR-ın opera müğənniləri arasında Sibongile Kumalo, Subongile Mnqoma və b. var.



Zulu rəqqasları.

2005 ilin fevralında "Ledismit blek mambazo" vokal qrupu "Ən yaxşı ənənəvi beynəlxalq musiqi albomu" nominasiyasında "Qremmi" musiqi mükafatına layiq görülmüşdür. Qrup 30 ildən artıqdır ki, Afrika melodiyalarının mürəkkəb xor kompozisiyalarını müasir aranjimanda ifa edir; tirajı 6 mln nüsxədən artıq olan 40 albom yazdırmışdır. CAR-ın digər müasir müğənniləri və musiqi qrupları: İvon Çaki Çaki, Laki Dube, Konstansiya Maqoqo (zulusların ənənəvi mahnılarının məşhur ifaçısı), "Bonqo maffin", "Bum şaka", "Coyus selebreşn", "Mandoza" və s. Paytaxtda D. Brubek və B. Raçabanenin rəhbərliyi ilə caz kvinteti fəaliyyət göstərir. Milli opera janrı yaradılmışdır (ən yaxşı nümunəsi T. Matçikizanın "Kinq-Konq" operasıdır, 1959). CAR-da simfonik ork.-lər (Durban, Yohannesburq və Keyptaunda), musiqini təbliğ edən cəmiyyətlər, musiqi tədrisi müəssisələri və s. fəaliyyət göstərir.

### Teatr

Hələ müstəmləkəçilikdən xeyli əvvəl bantular və hottentotlar arasında musiqi müşayiətli teatrlaşdırılmış hekayətlər mövcud idi. İlk teatr 1801 ildə Keyptaun ş.-ndə açılmışdı. Afrikaans dilində teatr tamaşaları 1920-ci illərə aid edilir. Cənubi Afrika İttifaqı (CAİ) yaradıldıqdan və Birinci dünya müharibəsindən sonrakı illərdə teatr sənətinə maraq artdı. İkinci dünya müharibəsindən sonra ölkədə irqçiliyin, apartheyd siyasətinin, senzura-



"Təbil" filmindən (2004) kadr.

nın güclənməsi teatr sənətinin inkişafı üçün əngələ çevrildi. Ölkədə qaradərili aktyorların yeganə professional truppası olan Eoan teatrı (1934 ildə Keyptaunda C. Holt yaratmışdı) musiqi, balet və dram sənətini təbliğ edirdi. 1948 ildə Milli teatr təşkilatının əsası qoyuldu. CAR-da ən yaxşı tamaşa meydançaları əcnəbi varyetelər və digər əyləncəli proqram ifaçılarının ixtiyarında idi. Afrika teatrı xadimlərinə isə təkcə əsatiri, dini süjetləri səhnələşdirməyə və melodramatik müzikllləri tamaşaya qoymağa icazə verilirdi. 1970-ci illərdən Keyptaunda "Litl tietr", "Labia" və "Hofmeyr" teatr qrupları fəaliyyət göstərirdi. Afrika teatrı aktyorlarının ilk truppası 1950-ci illərdə yazıçı və dramaturq Ezekil Mpaxlel tərəfindən yaradılmışdı. Dramaturq, rej. və teatr xadimi Atol Fuqard dünya şöhrəti qazanmışdı. Q. Gente, İnqrid Yonker, P. Maku və b. dramaturqlar fəaliyyət göstərirdi. Hazırda CAR-da Pretoriya Dövlət Teatrı, Elizabet Sneddon ad. (Durban ş.) teatr və s. var. 2001 ildə Pretoriya Dövlət Teatrında "Sonalar gölü" baleti tamaşaya qoyulmuşdur. CAR-da opera sənəti inkişaf etmişdir. 1893 ildə Keyptaunda ilk opera teatrı açılmışdı. 2005 ildə Jorj Bizenin məşhur "Karmen" operası kosa dilinə tərcümə edilmiş və ekranlaşdırılmışdır. Bu, Afrika dillərinə tərcümə edilən ilk operadır. Klassik operanın süjeti Afrika reallıqlarına uyğunlaşdırılmışdır: hadisələr Keyptaunun yaxınlığında qaradərili insanların yaşadığı qəsəbədə baş verir. Baş rolu 29 yaşlı vokalçı Polin Malefane ifa etmişdir. Yohannesburq teatrı Afrikada ən məşhur teatrlardan sayılır. Şəhərdə hər il "The Arts Alive İnternational Festival" adlanan poeziya, musiqi, rəqs, teatr festivalı keçirilir.

### Kino

CAR-da ilk kinoxronika 1912 ildə çəkilmişdir. 1915 ildən "Kilarni film" kinostudiyası müntəzəm olaraq bədii filmlər çəkməyə başlamışdır. "Kolonistlər" (1916) və "Qurbanlıq rəmzi" (1918) adlı ilk səssiz bədii filmlərdə burların və ingilislərin Cənubi Afrikanı istila etməsindən, ağ istilaçıların qəhrəmanlığından bəhs edilir. Səsli kinonun yaranmasından sonra filmlər (əsasən, melodramlar, tarixi epopeya və komediyalar) ingilis və afrikaans dillərində çəkilirdi. 1960–80-ci illərin bəzi filmləri ("Qonaq", rej. R. Deveniş, "Vulkan, oyan", rej. L. Nqakan və s.) irqçilik əleyhinə idi və onların çoxu ekrana çıxmamışdı. P. Deyvis, V. Kentric, K. Ostin də bu dövrün rej.-ları idi. 1979 ildən Durban ş.-ndə Cənubi Afrikanın ən böyük beynəlxalq kinofestivalı keçirilir. 25-ci kinofestivalda (iyun 2004) Cənubi Afrika dövlətlərindən 250, o cümlədən CAR-dan 50 (6 bədii) film nümayiş etdirilmişdir. 2004 ildə Hollivud kino ulduzu Şarliz Teron (Yohannesburqda doğulmuşdur) "Monstr" adlı Hollivud filmindəki qadın rolunun ifasına görə "Oskar" mükafatı almışdır. O, həmçinin "Qızıl qlobus" Amerika kinomükafatını alan ilk afrikalı aktrisadır.

Anci Kroqun "Vətənimin məktəbi" romanı üzrə məşhur CAR rej.-u Leon Şusterin çəkdiyi film 2004 ildə Berlin kinofestivalında mükafata layiq görülmüşdür. 2005 ildə həmin festivalda CAR-ın "Karmen" film-operası da mükafat almışdır. Populyar "Dünən" filmində (yaradıcıları Darrell Ruudt və Anand Sinqh) baş rolda məşhur aktrisa Leteli Kumalo çəkilmişdir. CAR kinematoqrafçılarının yaradıcılığı 2005 ildə Uaqaduqu (Burkina-Faso) ş.-ndə iki ildən bir keçirilən Ümumafrika bədii və televiziya filmləri festivalında (FESPAKO) yüksək qiymətləndirilmişdir. Kinoforumun baş mükafatını – "Yennegi çaparı" qızıl heykəlciyi rej. Zola Masekonun "Təbil" filmi almışdır. Festivalda CAR rej.-ları Ramadan Suleman ("Zulu sevgi məktubu") və Teddi Mater ("Maks və Mona" filmi) də mükafatlandırılmışlar. Keyptaun ş. sürətlə kino sənayesi mərkəzinə çevrilir. Ölkədə hər il 12–13 film çəkilir. Keyptaun yaxınlığında Drimuorld adını almış böyük kinostudiya-şəhər tikilir. CAR kinoaktyorları L. Kumalo, Desmond Dube və Motusi Maqano 2004 ildə çəkilişləri Yohannesburqda aparılan "Ruanda hoteli" Hollivud filmində çəkilmişlər. İoan Qabriel, Lans Semüels, Ken Kampu müasir dövrün kinorejissorlarıdır. Sənədli filmlər rej-u Dirk de Filyersin filmləri şöhrət qazanmışdır.

*Əd.:* Ястребова П.И. Южно-Африканский Союз после второй мировой войны. М., 1952; Картузов С.П. Литература стран Африки. Сб.1. М., 1964; Мандела Н. Нет лёгкого пути к свободе. М., 1968; Воронина В.Л. "Архитектура Южной Африки" в кн. "Всеобщая история архитектуры". Т. 8; М. 1969–1973; Фольклор и литература народов Африки. М., 1970; Никитина И.А. Захват бурских республик Англией (1899–1902). М., 1970; Искусство народов Африки, М., 1975; Black theatre in South Afrika. "Fact paper on southern Afrika", 1976; Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005.

**CƏNUBİ AFRİKALILAR** – bax *Anql-afrikalılar*.

**CƏNUBİ ALDAN DƏMİR FİLİZİ RAYONU** – Saxa (Yakut) Resp. (RF) Aldan r-nu ərazisində təmas-metasomatik mənşəli dəmir filizi yataqları. Aldan qalxanı hüdudlarında Erkən Arxey çöküntülərindədir. 1946–50 illərdə kəşf olunmuşdur. Filiz r-nu hər biri bir neçə yatağı özündə birləşdirən Tayojno-Leqliyersk (ümumi ehtiyatı 2,1 mlrd. *t*), Des-Savgelsk (2,8 mlrd. *t*) və Sivaqlinsk yataqlar qrupundan ibarətdir. Nisbətən iri yataqları Tayojnı və Desovskdır. Ən qalın (65 *m*) filiz layı Tayojnı yatağında aşkar olunmuşdur. C. A.d.f.r.-nun ümumi ehtiyatının 75%-i bu laydadır. Filizlər maqnetit, forsterit-maqnetit və s. tərkiblidir və bura dəmirdən başqa, kükürd, mis, kobalt da daxildir. Maqnetit, pirrotin əsas, pirit, xalkopirit, lüdvigit, aşarit ikincidərəcəli minerallardır. Desovsk yatağında filizli horizont layvarı silikatmaqnetitli filiz kütlələrinin piroksenli və piroksen-amfibollu şistlərin və qneyslərin növbələşməsindən ibarətdir. Ümumi ehtiyatı 702 mln. *t*-dur. Filiz kütləri 4–5 *km*-ədək məsafədə uzanır. Tərkibi dəmir, kükürd və misdən ibarətdir. Sivaqlinsk yataqlar qrupu sənaye əhəmiyyəti kəsb etməyən xırda yataqlardan ibarətdir.

**CƏNUBİ ALİÇUR** – Tacikistanda dağ silsiləsi. Pamir d-rının c.-unda, Aliçur çayının sol sahili boyu təqr. 150 *km* məsafədə uzanır. Hünd. 5706 *m* (Qızıldəngi d.). Əsasən qranit, qneys, kristallik şistlərdən ibarətdir. Yamaclarında yüksək dağlıq səhralar, buzlaq və firn sahələri (sah. təqr. 68 $km^2$) var.







Cənubi Aliçur silsiləsi.



Cənubi Alp dağları. Kuk dağı.

**CƏNUBİ ALP DAĞLARI** (Southern Alps), Yeni Zelandiya Alp dağları – Yeni Zelandiyada silsilə. Cənub a.-nın c.-q.-indən şm.-ş.-inə təqr. 600 *km* məsafədə uzanır. Hünd. 3764 *m* (Kuk d.). Əsasən kristallik şistlərdən, qranit və peridotit intruziyalarından ibarətdir. Səthi kəskin parçalanmışdır; daimi qar və buzlaqlar (buzlaqların ümumi sah. 1000 $km^2$) var. Alp relyef formaları səciyyəvidir. Q. yamaclarında həmişəyaşıl fıstıq və iynəyarpaqlı ağaclar, kolluqlar və dağ çəmənləri; ş. yamaclarında həmişəyaşıl kolluqlar yayılmışdır. Fyordlend, Maunt-Kuk, Arturs-Pass və s. milli parklar buradadır. Artur aşırımından adanın ş. və q. sahillərini birləşdirən d.y. və avtomobil yolu keçir.

**CƏNUBİ ALTAY** – Cənubi Altay və Qazax.-da dağ silsiləsi. Uz. təqr. 125 *km*. Hünd. 3483 *m*. Yamaclarında (1400–1500 *m* hünd.-ədək) çöl landşaftı; 2100–2200 *m* hünd.-ədək qaraşam meşələri; yüksək dağlıq qurşaqda subalp və Alp çəmənləri yayılmışdır Ümumi sah. təqr. 116 $km^2$ olan buzlaqlar (o cümlədən Alaxin – uz. 5 *km*, sah. 19,5 $km^2$) var.



Cənubi Altay silsiləsi.

**CƏNUBİ AMERİKA** – Qərb yarımkürəsinin c.-unda materik. Böyüklüyünə görə dünyanın dördüncü materiki.

### Ümumi məlumat

Sah. 17,7 mln. $km^2$, adalarla (Küləktutmayan, Trinidad, Folklend, Cənubi Çili, Qalapaqos a-rı, Odlu Torpaq arxipelaqı və s.) birlikdə 18,28 mln. $km^2$. Əh. 387,5 mln. (2011). Ucqar nöqtələri: şm.-da Quaxira y-a-nda Qalyinas burnu (12°28′ şm.e.), c.-da Bransuik y-a-nda Frouord burnu (53°54′ c.e.), ş.-də Kabu-Branku burnu (34°47′ q.u.), q.-də Parinyas burnu (81°20′ q.u.). Şm.-dan Karib dənizi, ş.-dən Atlantika okeanı, c.-dan Magellan boğazı, q.-dən Sakit okeanla əhatələnir. Panama bərzəxi onu Mərkəzi və Şimali Amerika ilə əlaqələndirir. Şm.-dan c.-a 7350 *km*, q.-dən ş.-ə təqr. 4900 *km* məsafədə uzanır. Sahil xətti, c.-q. hissəsi istisna olmaqla, az girintili-çıxıntılıdır. Ayrı-ayrı iri körfəzlər (q.-də Quayakil, şm.-da Venesuela və Marakaybo laqun gölü və c.-ş.-də La-Plata) qurunun içərisinə doğru xeyli uzanır.

Yer kürəsinin ən hünd. gölü Titikaka (3812 *m*), ən yüksək şəlaləsi Anxel (1054 *m*), ən yüksək paytaxtı La-Pas (3700 *m*), ən quraq yeri Atakama səhrası (ortaillik yağıntı 50 *mm*-dən az), ən iri, uzunluğuna görə isə ikinci çayı Amazon (7000 *km*) C.A. materikindədir.

C.A. materiki bir neçə paralel silsilələrdən ibarət And d-rı sistemi, Braziliya yaylasının ş. və şm.-ş.-ində qədim kontinental platformanın qalxmış qalıqları, Orinoko çayının düzənliyi, Amazon çayının tropik düzənliyi, Pampa-Çako düzənliyi və Pataqoniya platosu fiziki-coğrafi regionlarına bölünür.

Materik ərazisində 12 dövlət (Argentina, Boliviya, Braziliya, Çili, Ekvador, Kolumbiya, Qayana, Paraqvay, Peru, Surinam, Uruqvay, Venesuela) və Fransanın mülkü Qviana yerləşir.

### Təbiət

**Relyef.** Materikin q.-ni *And dağları* (maks. hünd. 6959 *m*, Akonkaqua d.), ş.-ini Qviana (3014 *m*, Neblina d.) və Braziliya (2890 *m*, Bandeyra d.) yastıdağlıqları tutur. And d-rı ilə yastıdağlıqlar arasında Amazon, Lyanos-Orinoko, Lyanos-Mamore, Pantanal, Qran-Çako, Çayarası və Pampa ovalıq və düzənlikləri yerləşir. Pampadan c.-da hünd. 2200 *m*-ədək olan Pataqoniya platosu yüksəlir.

Qviana və Braziliya yastıdağlıqlarının relyefində hünd. 1500–1700 *m* olan maili-dalğalı düzənliklər üstünlük təşkil edir. Düzənliklərin səthində konusvarı qalıq




zirvələr, tirələr və, əsasən, qumdaşılardan ibarət masa yüksəklikləri (Auyan-Tepui və Rorayma və s.) nəzərə çarpır. Braziliya yastıdağlığının ş. kənarı "kəllə qənd" formasına oxşar (məs., Rio-de-Janeyroda Pan-di-Asukar) ayrı-ayrı massivlərə (Syerra-da-Mantikeyra və s.) parçalanmışdır. Relyefdə Braziliya yastıdağlığının çökəklikləri monoklinal-lay düzənliklərindən, akkumulyasiya düzənliklərindən (San-Fransisku çayının çökəkliyi və s.), yaxud lava platosundan (Parana çayının orta axınında) ibarətdir. Pataqoniyanın relyefində qədim moren və su-buzlaq çöküntüləri ilə örtülmüş laylı, o cümlədən pilləli vulkanik platolar üstünlük təşkil edir. Platoların səthi dərin kanyonlarla parçalanmışdır; denudasiyanın arid formaları xarakterikdir. And d-rı Yer kürəsinin ən uzun (təqr. 9000 *km*) və ən yüksək dağ sistemlərindən biridir. C.A.-nı şm.-dan və q.-dən əhatə edir. Relyefi haqqında bax *And dağları* məqaləsinə.

**Geoloji quruluş.** C.A.-da geoloji cəhətdən, əsasən, iki struktur (mərkəzdə və ş.-də Cənubi Amerika platforması və materiki şm.-dan və q.-dən əhatə edən And dağlıq qurşağı) ayrılır. Cənubi Amerika platformasının bünövrəsi müxtəlif yaşlı (Arxeydən Erkən Paleozoyadək) bloklardan (Qviana, Qərbi Braziliya, Şərqi Braziliya və s. qalxanlar) ibarətdir. Qviana və Qərbi Braziliya qalxanları Arxey və Alt Proterozoyun metamorfizləşmiş və intensiv deformasiyaya uğramış süxurlarından (qneyslər, kristallik şistlər və qranitlər), həmçinin Orta, yaxud Üst Proterozoy qranitlərindən təşkil olunmuşdur. Şərqi Braziliya qalxanı Son Proterozoyun geosinklinal qırışıqlıq sistemləri ilə bölünmüş və haşiyələnmiş ayrı-ayrı Kembriyəqədər yaşlı bloklardan (San-Fransisku massivi və s.) ibarətdir. Kembri–Ordovikdə bu qalxanların qədim bünövrəsi çoxsaylı qranit intruziyaları ilə yarılmışdır. Cənubi Amerika platformasının qalxanlararası hissələri, əsasən, kontinental çöküntülərlə örtülmüşdür. Platforma ilə And geosinklinal qurşağı arasında Orinoko, Qran-Çako və La-Plata tektonik çökəklikləri; And qırışıqlığı, Qviana və Braziliya qalxanları arasında isə Amazon çökəkliyi yerləşir. Çökəkliklər dəniz çöküntüləri və aşınmış süxurlarla dolmuşdur. Cənubi Amerika platformasının c. hissəsindəki Pataqoniya plitəsi, adətən, müstəqil struktur vahidi kimi qəbul edilir; Paleozoyun aşağılarını da əhatə edən nisbətən cavan bünövrəsi ilə fərqlənir. And dağlıq qurşağı Alp orogeni dövründə (Kaynozoyda) formalaşmağa başlamışdır. Dağlıq qurşağın geoloji quruluşu haqqında bax *And dağları* məqaləsinə.



Amazon çayı. Braziliya.

**Faydalı qazıntılar.** C.A. faydalı qazıntılarla zəngindir. İri dəmir filizi yataqları Venesuela (Orinoko çayı hövzəsi) və Braziliyada (Minas-Jerays ştatı) Kembriyəqədər yaşlı süxurlarla, nadir elementlərin yataqları Şərqi Braziliyada ultraəsasi qələvi intruziyaları ilə, And d-rında misli qurşağdakı yataqlar qranit batolitləri ilə, qalay, sürmə, gümüş, mis, qurğuşun, sink, volfram, qızıl, platin və s. nadir və əlvan metal (Peru və Boliviyada) filiz yataqları Kaynozoyun vulkanik və subvulkanik əmələgəlmələri ilə, neft və təbii qaz yataqları Kaynozoy molassları ilə dolmuş ön çökəkliklər zolağı ilə əlaqədardır. Çilidə iri şora və dəmir filizi, Kolumbiyada zümrüd yataqları var.

**İqlim.** C.A.-nın iqlimini, əsasən, And d-rı formalaşdırır. Dağların ş. yamacları Atlantika okeanından gələn rütubəti özündə toplayır və onun Mərkəzi And d-rının daxili yaylalarına və Sakit okean sahillərinə keçməsinə mane olur. Eyni zamanda materikin düzəngah hissəsi Sakit okeanın təsirindən məhrumdur. Nəticədə ən çox illik yağıntı (5000–8000 *mm*) And d-rının küləktutan yamaclarının Qərbi Kolumbiya və Cənubi Çili ərazilərinə düşür. Amazon ovalığının q.-i və And d-rının ona bitişik yamaclarında, Qviana və Braziliya yastıdağlıqlarının ş. yamaclarında və Parana platosunda 2000–3000 *mm* və daha çox, materikin ş.-ində 35° c.e.-nədək olan ərazilərdə (qu-

And dağları. Çili.






**Cənubi Amerikanın heyvanlar aləmi:** *1* – pampa pişiyi; *2* – adi nandu; *3* – doqquzqurşaq zirehli; *4* – pudu; *5* – anakonda; *6* – yallı canavar; *7* – oxlu kirpi; *8* – Pataqoniya marası; *9* – “quldur” balıq; *10* – ağüzlü saki; *11* – ərincək; *12* – iri qarışqayeyən; *13* – inka susüpürəni; *14* – qara tısbağa; *15* – kolluq iti.





raqlıq keçən ucqar şm.-ı, Braziliya yastıdağlığının şm.-ş.-ini və Daxili düzənliklərin q.-ini çıxmaqla) 1000–2000 *mm* yağıntı olur. Mərkəzi Çilidə yağıntının illik miqdarı c.-dan şm.-a doğru azalır (3000–2000 *mm*). Pataqoniyada il quraq keçir (150–250 *mm*). Sakit okean sahilboyunda 5–27° c.e.-ləri arasında (Atakama səhrası da buradadır) və Mərkəzi And yaylasının c.-unda illərlə yağıntı düşmür. C.A.-nın ərazisi 6 iqlim qurşağında (ekvatorial, şm.-i və c.-i subekvatorial, c.-i tropik, subtropik və mülayim) yerləşir. Amazon ovalığı və Qviana yastıdağlığının q.-ində, And d-rının Şimali Ekvador və Cənubi Kolumbiyadakı hissələrində isti (dağlarda sərin) və daim rütubətli olan ekvatorial iqlim yayılmışdır. Ekvatorial qurşaqdan şm.-dakı və c.-dakı (20° c.e.-nədək) sahələr, həmçinin Amazon ovalığının ş.-i və Qərbi Ekvador böyük temp-r amplitudları və quraq fəslin olması ilə seçilən subekvatorial iqlim qurşağına daxildir. Tropik qurşaq ş.-də (24–28° c.e.-nədək) rütubətli passat iqlimi, sahilboyunda isti və ekvatorial qurşaqdakına oxşar iqlim, yaylalarda qışda temp-run 0°C-yədək aşağı düşdüyü iqlim, Qran-Çakoda yayı rütubətli keçən kontinental iqlim, And d-rında kəskin kontinental yüksək dağlıq-səhra iqlimi, q. sahilboyunda (5 və 28° c.e.-ləri arasında) bir qədər sərin keçən yarımsəhra iqlimi ilə səciyyələnir. Subtropik qurşağın (38–42° c.e.-nədək) ş.-ində (Braziliya yastıdağlığının c.-u və Pampanın ş.-i) rütubətli və isti, mərkəzində isti yayı olan quru kontinental, q.-ində Aralıq dənizi tipli (38° c.e.-nədək quru və 32–42° c.e.-lərində bir qədər rütubətli) iqlim yayılmışdır. Mülayim qurşağın Pataqoniya hissəsi yarımsəhra, And d-rının q. yamacındakı hissəsi isə okean tipli çox rütubətli iqlimə malikdir. C.A. ərazisində temp-r rejiminin mövsümi tərəddüdü yalnız subtropik və mülayim iqlim qurşaqlarında, həmçinin tropik dağ r-nlarındadır. Materikin şm. düzənlik hissəsindən c. tropikinə kimi orta aylıq temp-r 20–28°C təşkil edir (maks. 47°C Qran-Çakoda müşahidə edilmişdir). Çilinin c.-unda temp-run illik tərəddüdü çox kiçikdir (1–8°C iyulda, 7–14°C yanvarda).

**Daxili sular.** C.A. ərazisinin çox hissəsi Atlantika okeanı hövzəsinə aiddir. Hövzəsinin sahəsinə və sululuğuna görə Yer kürəsinin ən böyük çayı sayılan Amazon buradan axır. Onun subekvatorial və tropik qurşaqlarından axan çoxlu qolları və digər çaylar [Parana (Paraqvayla birlikdə), Orinoko, San-Fransisku və s.], əsasən, yağış suları ilə qidalanır; gursulu dövrləri yayda, azsulu dövrləri isə qışda olur; yaylalardan keçərkən onlar astana və şəlalələr yaradır. Orinoko çayının Çurun qolu üzərində dünyanın ən hündür şəlaləsi olan Anxel şəlaləsi yerləşir. Parana çayının qolu uzərində isə İquasu şəlaləsi yerləşir. Dərin dərələrlə axan Pataqoniya çayları azsuludur. Sakit okeana tökülən qısa, gursulu çaylar yağış və qar suları ilə qidalanır. Qran-Çako, Pampa, And d-rından q.-dəki geniş səhralı sahələr səth axımından məhrumdur və çoxlu şorsulu göllərə malikdir. And d-rının c.-unda iri buzlaq mənşəli göllər (Buenos-Ayres və s.), mərkəzində tektonik mənşəli Titikaka, materikin şm.-ında Marakaybo laqun gölü yerləşir.



Anhel şəlaləsi. Venesuela.

**Torpaqlar və bitki örtüyü.** Ekvatorial iqlim qurşağında podzollaşmış lateritli torpaqlarda həmişəyaşıl rütubətli sıx meşələr – hileylər bitir. Subekvatorial iqlim qurşaqlarında quraqlıq dövrünün müddətindən asılı olaraq yarpağını tökən həmişəyaşıl meşələrə (Amazon ovalığının ş.-i, Qviana yastıdağlığı, Braziliya yastıdağlığının şm.-ı və Peru And d-rının ş.-i), hündürotlu savannalara – lyanosa (Orinoko ovalığı), kollu savannalara – kampos-serradosa (Braziliya yastıdağlığının mərkəzi hissəsi) və ya quraq seyrək meşələrə – kaatinqaya (Braziliya yastıdağlığının şm.-ş.-i), həmçinin qırmızı, qəhvəyi-qırmızı və qırmızı-qonur torpaqların müxtəlif tiplərinə rast gəlinir. Tropik qurşaqda Braziliya yastıdağlığının lateritli torpaqlarındakı rütubətli tropik meşələr Qran-Çakoda qəhvəyi-qırmızı torpaqlarda bitən quraq seyrək meşələrlə, And d-rındakı platolarda və q. sahilboyunda isə səhralarla əvəz olunur.

Subtropiklərdə, Braziliya yastıdağlığının c.-undakı qırmızı torpaqlarda iynəyarpaqlı meşələr (24–30° c.e.-ləri), qırmızımtıl-qara torpqlarda otlu savannalar (30° c.e.-ndən c.-da) yayılmışdır; Pampadakı boz-qəhvəyi torpaqlarda və q.-ə getdikcə quru çöl və yarımsəhralara keçən qaramtıl torpaqlarda çəmən-çöl bitkiləri, q.-dəki (28–42° c.e.-ləri) isə qəhvəyi torpaqlarda sərtyarpaqlı ağaclardan ibarət meşələr və kolluqlar, həmçinin qonur meşə torpaqlarında həmişəyaşıl və iynəyarpaqlı ağaclar bitir. Pataqoniyada qonur torpaqları olan kollu yarımsəhra, And d-rının c.-unda isə qonur dağ-meşə torpaqlı sıx qarışıq meşələr üstündür. C.A. heveya, kinə, qırmızı ağac, qəhvə və s. qiymətli bitkilərin vətənidir.

**Heyvanlar aləmi**. C.A.-nın heyvanlar aləmi müxtəlif və zəngindir. Aşağı enliklərin sıx meşələrində ağaclarda yaşayan heyvanlardan enliburun meymun, ərincək, xırda qarışqayeyən, oxlu kirpi, opossum, kinkaj kimi endemik növlərə rast gəlinir. Digər heyvanlardan nəhəng zirehli, iri qarışqayeyən, tapir, yaquar, yallı canavar, paka, aquti, kapibara, su donuzu və s. xarakterikdir. Çaylarda Yer kürəsinin şirin su faunasının 1/3-ini təşkil edən təqr. 2000 balıq növü yaşayır. Quş fauna-



Atakama səhrasında (Çili) lamalar.

sı (tutuquşu, kolibri, hoasin, kərkəs və s.) və sürünənlər (zəhərli ilan, su anakondası, kərtənkələ, tısbağa və s.) olduqca zəngindir. Savanna və seyrək meşəliklərdə xırda maral növləri, çoxlu gəmirici və nandu dəvəquşusuna rast gəlinir. Çöl və yarımsəhralarda puma, pampa maralı, pampa pişiyi, Magellan iti, samur, bataqlıq qunduzu, tuko-tuko, Darvin tutuquşusu və s. geniş yayılmışdır. Cənubi And d-rındakı meşələr üçün pudu və yemul maralları xarakterikdir; Mərkəzi And d-rında relikt eynəkli ayılara rast gəlinir. Əhliləşdirilmiş lama cinsləri böyük təsərrüfat əhəmiyyətinə malikdir.

**Xüsusi mühafizə olunan təbii ərazilər.** C.A. ərazisində təqr. 100 milli park (Argentinada Nauel-Uapi və Los-Qlasyares, Braziliyada İtatiaya və İquasu, Çilidə Los-Paraquas və s.) və qoruqlar var. Qorunan ərazilərin sahəsi materik ərazisinin 1%-ini təşkil edir, o cümlədən Peruda – təqr. 6 mln. *ha*, Argentinada – 2,6 mln., Venesuelada təqr. 2 mln.; bu ərazilərdə qiymətli meşələr və heyvan növləri, həmçinin mənzərəli rekreasiya landşaftları qorunur.

**Coğrafi kəşflər tarixi.** Atlantika okeanının q. hissəsindəki böyük kəşflərin başlanğıcını 1498 ildə X. *Kolumbun* ekspedisiyası qoymuşdur. Ekspedisiya Trinidad a.-nı, materik sahilinin Orinoko çayı deltasından Pariya y-a və Marqarita a.-nadək olan hissəsini kəşf etmişdir. 1499–1501 illərdə ispan səyyahları A. Oxeda və R. Bastidasın ekspedisiyaları C.A.-nın şm.sahillərinin Kolumb tərəfindən başlanmış tədqiqini başa çatdırmışlar. *Ameriqo Vespuççinin* iştirak etdiyi Portuqaliya ekspedisiyası 1501–02 illərdə C.A.-nın ş. sahili boyu 25° c.e.-nədək üzərək, onun materik olduğunu sübut etmişdir. 1507 ildə holland coğrafiyaşünası M. Valdzemüller yenicə kəşf olunmuş cənub materikini A. Vespuççinin şərəfinə "Amerika" adlandırmağı təklif etmişdir. 1541 ildən sonra bu ad hər iki qərb materikinə aid edildi. 1515–16 illərdə ispan səyyahı X. Solis C.A.-nın ş. sahili boyu 25–35° c.e.-nədək üzmüş, La-Plata körfəzini, Uruqvay və Parana çaylarının aşağı axınlarını kəşf etmişdir. 1520 ildə F. *Magellanın* ekspedisiyası materikin Atlantika okeanı sahillərinin öyrənilməsini başa çatdırmışdır. C.A.-nın Sakit okean sahilləri 1522–58 illərdə ispan dəniz ekspedisiyaları tərəfindən kəşf edilmişdir. 1578 ildə ingilis F. Dreyk Magellan boğazından keçərkən tufana düşmüş, c.-a dönmüş, apardığı tədqiqatlar nəticəsində Odlu Torpağın arxipelaq olduğunu sübuta yetirmişdir. Materiki q.-dən ş.-ə ilk dəfə 1541 ildə ispan Q. Pisarronun ekspedisiyası keçmişdir.

C.A.-nın elmi cəhətdən ilk tədqiqatçıları meridian qövsünü ölçmək üçün 1736–43 illərdə keçirilmiş Ekvatorial ekspedisiyanın iştirakçıları fransızlar Ş. Kondamin və P. Buger olmuşlar. Müstəmləkəçilik dövrünün axırlarında La-Plata (ispan F. Asara) və Orinoko (alman A. Humboldt və fransız E. Bonplan) hövzələrinin kompleks şəkildə öyrənilməsi həyata keçirilmişdir. C.A. sahillərinin düzgün təsviri, əsasən, 19 əsrin ortalarında ingilis ekspedisiyası (F. Kinq və R. Fitsroy) tərəfindən verilmişdir. Rus alim və səyyahlarından A.S. İonin, N.M. Albov, G.G. Manizer, N.İ. Vavilov da C.A.-da böyük tədqiqat işləri aparmışlar.

**Əhali.** Antropoloji və etnik tərkib. C.A.-nın indiki əhalisi antropoloji cəhətdən olduqca müxtəlifdir. Yerli əhali olan hindilər Amerika irqinə, Avropadan gələnlərin nəsilləri Avropa irqinə, afrikalı qulların nəsilləri zənci irqinə mənsubdurlar; C.A.-da *metislər, mulatlar, sambolar* da yaşayırlar. 15–16 əsrlərdə C.A.-ya avropalılar (portuqallar və ispanlar) gələndən, 16 əsrdə Afrikadan zənci qullar gətiriləndən sonra materikin etnik tərkibi dəyişdi; müxtəlif əhali qrupları əmələ gəldi. Yerli hindilər C.A.-nın sahil zonasını müstəmləkəyə çevirmiş portuqallar və ispanlarla qaynayıb-qarışmış, müvafiq şəkildə portuqal və ispan dillərində danışmışlar. Zəncilərin C.A.-ya gətirilməsi nəticəsində avropalı-zənci və zənci-hindi mənşəli əhali təşəkkül tapdı. 19 əsrin 1-ci qərinəsində C.A.-da müxtəlif irqə mənsub yeni etnik qruplar yarandı. C.A. ölkələri müstəqillik qazanandan sonra Argentina, Braziliya və Uruqvayda Avropadan (İtaliya, Almaniya və s.), Qayana və Surinamda Asiyadan (əsasən, Çin və Hindistandan) gələnlərin hesabına etnik tərkibdə kəskin dəyişiklik yarandı.

Müasir C.A. əhalisinin əksəriyyəti mənşəcə hindilərlə avropalıların (Şimal-Şərqdə isə zəncilərlə avropalıların) qarışmasından əmələ gəlmişdir. Yerli hindi xalq və tayfaları olan keçualar (təqr. 14,8 mln.), aymaralar (2,5 mln.), araukanlar (870 min; 1995), quaranilər və b., əsasən, Peru, Boliviya, Kolumbiya, Ekvador, Qvatemala, Paraqvay, Braziliya, Çili, Argentina və s. ölkələrdə yaşayırlar. Keçualar və quaranilər öz dillərində danışırlar. C.A.-nın əksər dövlətlərində rəsmi dil ispan dili, Braziliyada portuqal dilidir. Peruda 2-ci rəsmi dil keçua dilidir. Qayanada, Trinidad və Tobaqoda rəsmi dil ingilis, Surinamda holland, Fransa Qvianasında fransız dilidir. Dindarların əksəriyyəti xristiandır. Hindilər və Afrika zəncilərinin bir qismi ənənəvi dini etiqadlarını saxlayırlar.

**CƏNUBİ AMERİKA KORDİLYER DAĞLARI** – bax *And dağları.*

**CƏNUBİ AMERİKA MİSLİ QURŞAĞI** – dünyada ən iri misli əyalətlərdən biri. Əsasən Kolumbiya, Ekvador, Peru, Çili və Argentina ərazilərində yerləşir. Cənubi Amerikanın Sakit okean sahili boyu təqr. 4 min *km* məsafədə uzanır. Qurşaqda misin ümumi ehtiyatı 268 mln. *t*, filizlərdə misin miqdarı 0,4–3,5%-dir.





Ümumi ehtiyatın 82%-indən çoxu Çili ərazisindəki yataqlarda, təqr. 12%-i Peruda, 3%-i Argentinada, 1,7%-i Kolumbiyada, qalan hissəsi Ekvadordadır. Tektonik cəhətdən C.A.m.q. *Şərqi Sakit okean mütəhərrik qurşağının* And d-rı daxili qırışıqlıq zonası ilə əlaqədardır. Mezozoy və Paleogen-Neogenin batolitləri və kiçik intruziyaları ilə yarılmış, əsasən, Paleogen-Mezozoy yaşlı vulkanogen və çökmə süxurlardan ibarətdir. Qurşaq köndələninə tektonik pozulmalarla ayrı-ayrı seqmentlərə bölünmüşdür. Yataqlar əsasən mis ehtiyatının ən çox toplandığı mis-porfir və ehtiyatına görə kiçik skarn geol.-sənaye tiplidir. Əsas mis-porfir yataqları: Pantanos-Peqadorsito, Mokoa (Kolumbiya); Çauça (Ekvador); Santa-Rosa, Serro-Verde, Kuaxone, Kelyaveko, Tokepala, La-Qranxa (Peru); Çukikamata və El-Tenyente (dünyanın ən iri yataqları), Abra, Çuki-Norte, Syerra-Qorda, El-Salvador, Potrerilyos, Andokolyo, Los-Pelambres, Andina, Los-Bronses, Sur-Sur və s. (Çili); El-Paçon, Baxo-de-la-Alumbrera (Argentina). Əksər mis-porfir tip yataqlar Paleogen-Neogen yaşlı intruziyalarla assosiasiya yaradır. Bu tip yataqlarda filizləşmənin qalınlığı 2–4 *km*, yatma dərinliyi 1–3 *km*-dir. İlkin filizlər xalkopirit, molibdenit və piritdən ibarətdir. Molibdenin miqdarı əksər yataqlarda 0,008–0,04%-dir, az miqdarda renium, qızıl və gümüş çıxarılır. Qurşağın mis-porfir yataqları üçün təkrar zənginləşmə zonası səciyyəvidir. Skarn tip yataqlar intruziyaların təmas zonaları ilə əlaqədardır, mürəkkəb morfologiyası, kiçik ölçüləri ilə fərqlənir; sahə və kəsiliş üzrə mis qeyri-bərabər paylansa da, onun miqdarı yüksəkdir (orta hesabla 1,5–3%). Filizlərin tərkibinə, həmçinin dəmir, qızıl, gümüş, kobalt, selen, tellur və molibden daxildir. Qeyd olunmuş geol.-sənaye tip yataqlardan başqa, qurşaq ərazisində möhtəvi, damar, stratiform tipli yataqlar da aşkar edilmişdir. Mis filizi hasilatı əsasən Çili (region ölkələri hasilatının 78%-i) və Peruda, az miqdarda Argentina və Kolumbiyada aparılır. Region ölkələrində hasil olunmuş mis tamamilə ixrac olunur. Misli qurşaqda manqan, gümüş, qızıl, qurğuşun və sink filizi yataqları da məlumdur.

**CƏNUBİ AMERİKA PLATFORMASI** – eyniadlı materikdə platforma. Bax *Cənubi Amerika.*

**CƏNUBİ ANTİL SİLSİLƏSİ** – Atlantika okeanının c.-unda sualtı silsilə. Cənubi Amerika And d-rının davamı ehtimal olunur. Skoşa dənizini ayıran adalar qövsündən ibarətdir. Uz. 3500 *km*, eni 200 *km*-ədək, yalı üzərində dərinlik 3000 *m*, ən dayaz hissəsinin dərinliyi 159 *m*-dir. C.A.s.-nin nisbətən yüksək hissələri Cənubi Sandviç, Cənubi Şetlend, Cənubi Orkney, Cənubi Georgiya vulkanik adalarıdır. Fəaliyyətdə olan vulkanlar (Leskov, Zavadski və s.) var. Silsilənin ətəkləri Cənubi Sandviç a-rından ş.-də rəlyefli dərin novla dövrələnmişdir.



Cənubi Anyuy silsiləsi.

**CƏNUBİ ANYUY SİLSİLƏSİ**, Anyuy silsiləsi – RF-nin Çukot Muxtar Mahalı ərazisində dağ silsiləsi. Sibirin şm.-ş.-ində, Böyük və Kiçik Anyuy (Kolıma çayının qolları) çayları arasındadır. Uz. təqr. 380 *km*. Hünd. 1779 *m*-ədəkdir. Qranit intruziyaları ilə yarılmış Üst Yura və Trias yaşlı qumdaşı, şist və argillitlərdən ibarətdir. Qədim buzlaşma izləri var. Yamaclarında tundra bitkiləri, çay dərələri boyunca nadir qaraşam meşələri, zirvələrində dağ-tundra landşaftı yayılmışdır.

**CƏNUBİ ASİYA** – Asiyada təbii vilayət. Hindistan y-a və ona yaxın adaları, Hind-Qanq ovalığını və onun dağlıq kənarlarını (Himalay və Hindiquş d-rının c. yamaclarını, İran yaylasının c.-ş. hissəsini əhatə edir. Sah. 5,1 mln. $km^2$. Tropik meşələr, savannalar, q.-ində səhralıqlar var. Tropik əkinçilik yayılmışdır. Hindistan, Pakistan, Banqladeş, Nepal, Butan, Şri-Lanka və Maldiv dövlətləri C.A. ərazisindədir.

**CƏNUBİ AŞAĞI KALİFORNİYA** – Meksikada, Kaliforniya y-a-nın c.-unda ştat. Sah. 7,1 min $km^2$. Əh. 637 min (2010). İnz. m. La-Pas ş.-dir.

**CƏNUBİ ATLANTİKA ANTİSİKLONU**, Müqəddəs Yelena adası antisiklonu – Atlantika okeanının c. r-nları üzərində davamlı yüksək atmosfer təzyiqi sahəsi. Bütün il ərzində, xüsusən qışda aşkarlanır. Cənub yarımkürəsinin subtropik qurşağında atmosfer fəaliyyətinin mərkəzlərindən biridir.

**CƏNUBİ ATLANTİKA SİLSİLƏSİ** – Atlantika okeanında, Çeyn qırılmasından c.-da (ekvator yaxınlığında), Orta Atlantika sualtı silsiləsinin bir hissəsi. Meridian istiqamətində 6,5 min *km* məsafədə uzanır; Buve a. r-nunda (təqr. 55° c.e.) enlik istiqamətində ş.-ə doğru dönür və Afrika-Antarktika silsiləsi adını alır. Eni 1600 *km*-ədəkdir. Səthi güclü parçalanmışdır. Yalı üzərində dərinlik c. hissəsində 1800 *m*-dən 3400 *m*-ədəkdir. Yamaclarında sualtı vulkanlar var; bəzi zirvələr adalar (Vozneseniya, Müqəddəs Yelena, Tristan-da-Kunya, Qof, Buve) əmələ gətirir.

**CƏNUBİ AVSTRALİYA** (South Australia) – Avstraliya İttifaqında ştat. Hind okeanının Böyük Avstraliya körfəzi sahilindədir. Sah. 984 min $km^2$. Əh. 1,65 mln. (2012). İnz. m. Adelaida ş.-dir. Ərazinin çox hissəsi dağ massivləri ilə ayrılmış səhra düzənlikləri və çökəkliklərdən, ş.-də və c.-ş.-də dağlar və həmişəyaşıl kolluqlardan ibarətdir. Əkinçilik (buğda, arpa, çovdar), bağçılıq, üzümçülük və heyvandarlıq inkişaf etmişdir. Qara və əlvan metallurgiya, maşınqayırma, şərabçılıq, neft-kimya sənayesi var. Mis, dəmir filizi, təbii qaz, daş kömür çıxarılır. Əsas portları: Uayalla, Port-Stanvak, Port-Adelaida, Port-Piri.



Savalan dağları.

**CƏNUBİ AVSTRALİYA ÇUXURU** – Hind okeanının c.-ş. hissəsində, Avstraliyadan c.-da sualtı çuxur. Şm. və şm.-ş.-dən Avstraliya materik yamacı, c.-dan Avstraliya-Antarktika sualtı qalxımı ilə sərhədlənir. Uz. təqr. 2400 *km*, eni təqr. 900 *km*. Üstünlük təşkil edən dərinlik 5000 *m*, maks. dərinlik 7102 *m* (Diamantina qırılması zonasında). Çuxurun ş. hissəsi hamar abissal düzənlikdir; şm.-q. hissədə dibi nov və silsilələrlə parçalanmışdır. Dib çöküntüləri əsasən, qırmızı gillərdən, şm. və ş. kənarları boyunda foraminiferli lillərdən ibarətdir.

**CƏNUBİ AZƏRBAYCAN**, İ r a n  A z ə r b a y c a n ı.

Urmiya gölü.



**Ümumi məlumat**

Azərb.-ın şimal hissəsi Rusiyaya birləşdirildikdən sonra onun İranın tərkibində qalan cənub hissəsi. İranın şm.-q.-indədir. Şm.-da Azərb. Resp. və qismən Erm. Resp., q.-də Türkiyə və İraqla həmsərhəddir. Ş.-də Xəzər dənizi ilə əhatələnir. C.A.-ın Azərb. Resp. ilə sərhədini çox yerdə çaylar Araz, Bolqar və Astara çayları, Talış silsiləsi təşkil edir. 1938 ilədək rəsmən "Azərbaycan əyaləti" (Qacarların hakimiyyəti dövründə eyni zamanda "Azərbaycan məmləkəti") adı ilə İranın dörd əyalətindən biri olmuşdur. 1906 il seçki nizamnaməsinə görə bu əyalətə Təbriz, Urmiya, Xoy, Deyləmqan, Maku, Marağa, Binab, Miandoab, Sovucbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Meşkin, Astara, Xalxal, Sərab, Miyanə (Mianc) və Sianqala mahalları daxil idi. "Azərbaycan əyalətinə" Qacarların hakimiyyətinin ilk dövründə əhalisi, əsasən, azərb.-lardan ibarət olan daha 3 mahal (Zəncan, Qəzvin, Həmədan) daxil olmuşdu. 1938 ildə İranda keçirilmiş inzibati ərazi bölgüsünə əsasən ölkə ostanlara (əyalətlərə) bölündükdə C.A. ərazisinin çox hissəsi "Şərqi Azərbaycan" (sah. 67,1 min $km^2$, inz. m. Təbriz ş.) və "Qərbi Azərbaycan" (sah. 43,7 min $km^2$, inz. m. Urmiya ş.) ostanlarına ayrıldı. Zəncan və bəzi mahal və kəndlər qonşu ostanlara daxil edildi. 1954 ildə Astara və ətraf ərazilər Şərqi Azərbaycan ostanından alınaraq Gilan ostanına qatıldı. Sonralar Zəncan heç bir ostana daxil olmayan ayrıca qubernatorluğa, 1977–78 illərdə isə ostana çevrildi.

C.A. İranın inzibati bölgüsündə, əsasən, aşağıdakı ostanlardan ibarətdir: Qərbi Azərbaycan ostanı (mərkəzi Urmiya ş.), Şərqi Azərbaycan ostanı (mərkəzi Təbriz ş.), Ərdəbil ostanı (mərkəzi Ərdəbil ş.), Zəncan ostanı (mərkəzi Zəncan ş.), Qəzvin ostanı (mərkəzi Qəzvin ş.) və qismən Gilan, Həmədan ostanları. Sah. təqr. 127 min $km^2$. Əh. təqr. 30 mln. (2010).

**Təbiət**

C.A.-ın səthi, əsasən, dağlıqdır. Ərazi, əsas etibarilə geol. quruluşu müxtəlif olan və çox yerdə şm.-q.-dən c.-ş.-ə uzanan silsilələrdən ibarətdir. Şm.-da Qaradağ silsiləsi, ş.-də Talış və Boqrov d-rı, c.-da Şahverdi silsiləsi, q.-də Kürdüstan d-rı, mərkəzi hissədə Savalan və Bozquş silsilələri var. Ən hündür zirvəsi Savalan d.-dır (4821 *m*). Silsilələrin yan qolları müxtəlif tipli dərələr və qapalı çökəkliklər əmələ gətirmişdir. Xəzər dənizi sahili boyunca dar ovalıq uzanır. Muğan düzünün bir hissəsi C.A. ərazisinə (şm.-ş.-də) daxildir. Faydalı qazıntıları: neft, dəmir, mis, gümüş-qurğuşun, alüminium filizləri, daş kömür və s.

İqlimi kontinental, quru subtropik, mülayimdir. Orta temp-r yanvarda düzənlik sahələrdə təqr. 0–5°C-dən dağlarda –5°C-yədək, iyulda müvafiq olaraq 25–27°C (dərələrdə təqr. 30°C) və 4–6°C-dir. Talış d-rı Xəzər dənizindən gələn rütubəti saxladığından burada yağıntı, adətən, 300–600 *mm*, bəzi yerlərdə 1000 *mm*-ə qədərdir. Mühüm çayları: Qotur, Qarasu (Araz hövzəsi), Qızılüzən (Xəzər hövzəsi), Coqatu (Urmiya gölü hövzəsi). Əsasən, dağ tünd-boz və yuyulmuş torpaqlar, bəzi yerlərdə tipik və açıq-boz skeletli çəmən-şorakət, şorakətli və s. torpaqlar yayılmışdır. Ərazisinin çox hissəsində yarımsəhra bitkiləri üstündür.





Şm., şm.-ş. və ş. hissəsində enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs, göyrüş, qaraağac, ağcaqayın və s.) və Hirkan meşələri (şabalıdyarpaq palıd, dəmirağac və s.) var. Meşələrin yuxarı sərhədi 2000–2400 *m*-dən keçir. Dərələrdə yemişan, əzgil, itburnu və s. bitir. Heyvanları: bəbir, qonur ayı, canavar, çöldonuzu, maral, ceyran, cüyür, çaqqal, tülkü, kaftar, müxtəlif gəmiricilər (ərəbdovşanı, korca, qumsiçanı və s.), sürünənlər (gürzə, kərtənkələ və s.), müxtəlif quşlar (kəklik, turac, qırqovul, qartal, sağsağan, göyərçin və s.).

**Tarixi oçerk**

C ə n u b i  A z ə r b a y c a n  1 9  ə s r i n  b i r i n c i  y a r ı s ı n d a. *Türkmənçay müqaviləsinə (1828)* əsasən İranın hakimiyyəti altında qalan Azərb.-ın c.-unda 19 əsrin birinci yarısında əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq və sənətkarlıq idi. Müharibədənsonrakı nisbi sakitlik k.t.-nda və sənətkarlıqda müəyyən canlanma yaratmışdır. Lakin ölkəyə Avropadan sənaye mallarının axını toxuculuğa zərbə vururdu. Ölkədə muzdlu əməkdən istifadə olunan manufaktura tipli müəssisələr də inkişaf edirdi. Pambıq, ipək yun parça istehsal olunan ənənəvi sənət sahələrində tənəzzül baş verir, xalçaçılıq kimi mühüm və geniş yayılmış sahədə isə yeni kapitalist istehsal üsulu inkişafa başlayırdı.

Xalçaları, ipəyi və pambıq-kətan parçaları ilə məşhur olan Təbriz İranın ən böyük ticarət mərkəzlərindən biri idi. Bu dövrdə İranın Rusiya, Türkiyə və Qərbi Avropa ölkələri ilə ticarətində Təbrizin xüsusi çəkisi yüksək idi. Əcnəbi səyyahın yazdığına görə, "Avropa ilə ticarətdə İranın baş şəhəri, şübhəsiz, Təbriz" idi. Təbrizdən Rusiyaya göndərilən malların əksəriyyəti Şimali Azərb.-da satılırdı.

19 əsrin ortalarında C.A.-ın feodal münasibətlərində ciddi dəyişiklik baş verməmişdi. Kəndlilərin əksəriyyəti torpaqsız idi. Əkin yerlərindən paydarlıq icarəsi əsasında istifadə edilirdi. Kəndlilər ata-babadan əkib becərdikləri torpaqlar üzərində sahiblik hüququna malik idilər. 1843 il qanunu da bunu təsdiq etdi. Kəndli, bir qayda olaraq, məhsulların təqr. yarısını, bəzən daha çox hissəsini məhsul və qismən də pulla torpaq sahibinə renta, dövlətə isə vergi kimi verirdi. Yarımköçəri maldar kəndlilər isə, əsasən, tayfa başçılarının mal-qarasını saxlayırdılar.

*Gülüstan müqaviləsindən (1813)* sonra İran hökuməti ölkənin dörd əyalətindən



Araz çayı. Culfa şəhristanı.

biri olan C.A. əyalətində bir sıra nüfuzlu və qüdrətli xanların, o cümlədən Maku, Urmiya, Gərgər xanlarının hakimiyyətini tanımaqla, onların daxili müstəqilliyini saxladı. Siyasi cəhətdən İran dövlətinə tabe olan bu yarımmüstəqil xanlıqlar (xüsusən Maku xanlığı) uzun müddət öz daxili sərbəstliyini qoruya bildi. Qacarların hakimiyyəti dövründə İran ordusunun əsas piyada və süvari hissələrini məhz C.A.-ın müxtəlif tayfaları – əfşarlar, şəqqaqilər və eləcə İranın başqa yerlərində yaşayan Azərbaycan türk tayfaları təşkil edirdilər. C.A.-dakı digər xanlıqlar ləğv edilmişdi. Lakin onların xalq kütlələri üzərindəki ağalığı toxunulmaz qalırdı. Beləliklə, əhali həm yerli xanların, həm də hakim sülalənin zülmünə məruz qalırdı.

Fətəli şahdan [1797–1834] başlayaraq, Qacarların daxili və xarici siyasətində C.A. xüsusi yer tuturdu. C.A. "vəliəhdnişin" hesab edilmiş, "darüssəltənə" adlandırılan Təbriz isə həmişə vəliəhdlərin iqamətgahı olmuşdur. Təbriz ikinci paytaxt hesab edildiyi üçün diplomatik nümayəndəliklər də burada yerləşirdi.

19 əsrin ortalarında əhali arasında, xüsusən, sənətkarlar, xırda tacirlər və kəndlilər içərisində narazılıqlar artır və bəzən ayrı-ayrı çıxışlar baş verirdi. Belə çıxışlardan biri *Babi üsyanları* (1848–52) oldu. Babilər hərəkatının banisi özünü *Bab* elan edən Seyid Əli Məhəmməd idi. Tacir, sənətkar və kəndlilərin arzularını əks etdirən babilik feodallara, ali ruhanilərə və xarici kapitala qarşı çevrilmişdi. C.A.-da Babın çoxlu ardıcılı (Zəncanda Molla Məhəmmədəli, Zərrintac, Təbrizdə ərdəbilli Molla Yusif və b.) var idi.

Babilər hərəkatının ən mühüm çıxışları Zəncanda olmuşdur. 1850 ilin yazında burada babilərin sayı 15 minə çatırdı. Molla Məhəmmədəlinin başçılığı ilə üsyançılar may ayında şəhər qalasını tutdular. Şah hökuməti tərəfindən üsyançılara qarşı göndərilmiş qoşun və feodal dəstələri iyunun əvvəlində Zəncanı mühasirəyə aldılar. 1850 il dekabrın sonunda Zəncan üsyanı amansızlıqla yatırıldı.

Babilər hərəkatı məğlub edilsə də, İranda, eləcə də C.A.-da Babın tərəfdarları çox idi. Sonrakı dövrlərdə babilərin sayı iki mln.-u ötmüşdür.

C ə n u b i  A z ə r b a y c a n  1 9  ə s r i n  i k i n c i  y a r ı s ı n d a. Bu dövrdə C.A. İranın əsas taxıl istehsalı və satışı bazarlarından biri olaraq qalırdı. Lakin xarici bazar üçün nəzərdə tutulmuş məhsullar, o cümlədən tütün istehsalı genişləndiyindən, taxıl əkini sahəsi azalmağa başlamışdı. Əsrin sonuna yaxın kəndlilərin mükəlləfiyyətləri xeyli artmışdı. İri feodallar böyük qazanc əldə etmək məqsədilə taxıl möhtəkirliyi ilə də məşğul olurdular. Taxıl möhtəkirliyinin amansızlığı 1898 ildə Təbriz və başqa ş.-lərdə əhalinin çıxışlarına səbəb olmuşdu. Bu dövrdə C.A. kəndində torpaqsız və aztorpaqlı kəndlilərin sayı xeyli çoxalmışdı. 19 əsrin son rübündə C.A. şəhərlərində ictimai münasibətlərdə əsas rolu formalaşmaqda



Urmiya şəhərindən görünüş.

olan burjuaziya və fəhlələr oynayırdılar. Lakin C.A.-da sənaye burjuaziyasının təşəkkülü ləng gedirdi. Belə ki, ölkəyə xarici kapital axını yerli sahibkarlığa mane olur, yeni sənaye-ticarət müəssisələrinin yaradılmasına imkan vermirdi. Yalnız ticarət burjuaziyası az-çox fəaliyyət göstərə bilirdi. Xarici kapitalın iqtisadi təzyiqinə davam gətirmək məqsədilə 19 əsrin 90-cı illərində iri ticarət burjuaziyasının nümayəndələri birləşməyə meyil göstərirdilər. Yeni açılmış sənaye müəssisələrində fəhlələrin sayı artırdı. Fəhlələr amansızcasına istismar olunurdu. Şəhərlərdəki yoxsulların sayı kəsbkarlığa gələn kəndlilərin hesabına daim artırdı. Yoxsullar şəhərlərdə baş verən bütün çıxışların fəal iştirakçısı olurdular. Şəhər əhalisinin orta təbəqəsinə daxil olan xırda tacirlər, ruhanilər və ziyalılar da hakim dairələrə qarşı çıxışlarda fəal iştirak edirdilər. 19 əsrin son rübündən İran iqtisadiyyatı getdikcə daha çox xarici bazardan asılı olurdu. Xalça istehsalı kapitalist inkişaf yoluna keçən sahələrdən idi. Azərb. xalçaları Amerika və Avropa bazarlarında da satılırdı. Sənətkarlığın bir sıra sahələri fabrik məhsulları ilə rəqabətə tab gətirməyərək tənəzzülə uğrayırdı. 19 əsrin sonlarında C.A.-ın idxalat və ixracatında Rusiya mühüm yer tuturdu. Lakin Rusiyadan buraya gətirilən nisbətən ucuz fabrik-zavod məmulatı C.A. daxilində bu növ malların istehsalına mənfi təsir göstərirdi.

C.A.-dan xaricə iş dalınca gedən kəsbkarların az bir qismi Türkiyəyə, qalanları isə Cənubi Qafqaza, əsasən, Şimali Azərb.-a, həmçinin Volqaboyuna, Mərkəzi Asiyaya və digər yerlərə gedirdilər.

Dövlət məmurlarının özbaşınalığı, yerli ağaların zülmü, xarici kapital nümayəndələrinin təzyiqi geniş xalq kütlələri içərisində böyük narazılığa səbəb olurdu. Əsrin sonunda ölkədə sosial ziddiyyətlər zəminində bəzi şəhər və kəndlərdə müxtəlif xarakterli çıxışlar baş vermişdi. C.A.-da kəndlilərin vergi verməkdən boyun qaçırmaları, şikayət ərizələri yazmaları, silahsız müqavimət göstərmələri qeyri-fəal mübarizə formaları kimi geniş yayılmışdı. Şəhərlərdə az-çox yayılmış mübarizə forması əyalət, vilayət və mahal başçılarına qarşı yönəlmiş çıxışlar idi. Belə çıxışlardan biri Təbriz vilayətinin valisi Sahib-Divana qarşı çevrilmişdi. Uzun müddət davam edən etirazlardan sonra, nəhayət, 1881 ildə Təbriz əhalisi Sahib-Divanı C.A.-dan qova bildi. 1898 ilin avqust-sentyabr aylarında Təbrizdə Zeynəbin başçılığı ilə sırf qadın üsyanı baş verdi. Üsyançı qadınlar Təbrizdə möhtəkirlərin taxıl anbarlarını üzə çıxararaq taxılı əhaliyə paylayırdılar. İranda ingilis kapitalisti Talbota qarşı yönəlmiş "Tənbəki üsyanı"nda da Təbriz hərəkatın mühüm mərkəzlərindən biri idi. Təbrizdə və C.A.-ın digər yerlərində əhalinin qətiyyəti nəticəsində Nəsrəddin şah ingilis şirkətinin C.A.-da fəaliyyətini dayandırmağa məcbur oldu.

Cənubi Azərbaycan 20 əsrin əvvəlləri – 30-cu illərində. 20 əsrin başlanğıcında kəndlərdə feodal istismarının şiddətlənməsi, ölkənin Rusiya və İngiltərənin yarımmüstəmləkəsinə çevrilməsi, sosial tarazlığın pozulması və s. İranda, o cümlədən C.A.-da narazı qüvvələrin sayını xeyli artırmışdı. İnqilab ərəfəsində C.A. kəndlərindən qazanc dalınca təkcə Rusiyaya, xüsusilə Şimali Azərb.-a gedən 300 min kəsbkar bu narazı qüvvələrin bir hissəsi idi.

1905 ildə Təbrizdə və başqa şəhərlərdə çıxışlar baş verdi. Dekabrın 12-də Tehranda, Təbrizdə, Ərdəbildə, Xoyda, Zəncanda və digər şəhərlərdə bütün ticarət yerləri bağlandı. Bununla da *İran inqilabı (1905–11)* başladı. İnqilab iştirakçılarının əsas tələbləri məclis çağırılması, xarici məmurların tutduqları vəzifələrindən kənar edilməsi, onların ölkədən qovulması və s.-dən ibarət idi. 1906 il sentyabrın sonunda Təbrizdə tətil, mitinq və etiraz nümayişlərinin arası kəsilmirdi. Sentyabrın 29-da şah hökumətinin Təbrizə göndərdiyi cavabda Azərb.-dan məclisə nümayəndələr seçilməsi üçün tezliklə seçkilər keçiriləcəyi xüsusi olaraq qeyd edilirdi. Təbrizdəki sentyabr hadisələri əsas qanunun qəbul olunmasına və məclisin açılmasına kömək etdi. Bu hadisələrdə Təbrizdə hələ inqilabdan bir il əvvəl yaranmış "İctimaiyyun-e amiyyun" ("Mücahid") sosial-demokrat qrupu mühüm rol oynadı. 1905–11 illər inqilabı dövründə Təbriz təşkilatı və onun "Gizli mərkəz" adlanan rəhbər orqanı bütün demokratik qüvvələri birləşdirmək və silahlandırmaqda mühüm işlər gördü.

1906 ildə Təbrizdə məclisə seçkilər başladı. Bu məqsədlə hərəkat başçılarından əncümən (şura) seçildi. Müxtəlif adlarla fəaliyyət göstərmiş bu şura daha çox "Azərbaycan əyalət şurası" kimi tanınmış, əyalətin idarəetmə orqanı funksiyalarını yerinə yetirmişdir. Şuralar C.A.-ın Urmiya, Ərdəbil, Marağa, Səlmas, Maku, Zəncan, Xalxal və digər şəhərlərində yaradıldı. Azərbaycan əyalət şurasının hakimiyyət orqanı kimi fəaliyyət göstərməsində "Gizli mərkəz" mühüm rol oynamışdır. Bu orqanlarının birgə rəhbərliyi nəticəsində mücahid dəstələri təşkil edilmişdi. C.A.-da məclisə nümayəndələrin seçilməsi dekabrın əvvəllərində başa çatdı.

1906 il dekabrın 30-da Müzəffərəddin şah [1896–1907] konstitusiyanı imzaladı. Lakin 1907 il yanvarın 19-da taxta çıxmış







Təbriz şəhərndən görünüş.

Məhəmmədəli şah [1907–09] konstitusiyanı tanımadı. 1907 il fevralın 8-də Təbrizdə "Gizli mərkəz"in başçılığı ilə İran inqilabı dövründə ilk silahlı üsyan baş verdi. Həmin gün bütün dövlət idarələri, kazarma və cəbbəxanalar ələ keçirildi. Əyalət valisi və başqa dövlət nümayəndələri həbs olundular. Şəhərdə hakimiyyət əyalət əncüməninin əlinə keçdi və üsyançıların konstitusiya ilə bağlı tələbləri şaha çatdırıldı. Avqust ayında şahın C.A.-a yeni vali təyin etməsi Təbrizdə və vilayətlərin çoxunda ikihakimiyyətliliyin yaranmasına səbəb oldu.

C.A. nümayəndələrinin Tehrana gəlməsi irtica ilə demokratik qüvvələr arasındakı qarşıdurmanı daha da kəskinləşdirdi. Nümayəndələrin məclisdə irəli sürdüyü tələblər şah tərəfindən rədd edildi. Lakin Təbriz və Tehran, eləcə də ölkənin bir çox yerində inqilabçıların çıxışları nəticəsində şah tələbləri qəbul etməyə məcbur oldu.

Azərb. əyalət şurası və Təbriz sosial-demokrat təşkilatının silahlı dəstələri Təbriz üzərinə yeriyən əks-inqilabi qüvvələrin qarşısını almağa müvəffəq oldu. Şəhərdə keçirilən mitinqlərdə ilk dəfə olaraq Məhəmmədəli şahın taxtdan salınması tələbi irəli sürüldü. Demokratik hərəkatın qarşısını ala bilməyəciyini görən şah 1907 il oktyabrın 7-də konstitusiyanı təsdiq etməyə məcbur oldu.

Şah rejimi 1908 ilin may–iyun aylarında mərkəzdə inqilaba qarşı yenidən hücuma keçdi. İyunun 23-də şahın göstərişi ilə İrandakı kazak briqadasının komandiri rus polkovniki Lyaxov Tehranda məclisin və Azərb. şurasının binalarını top atəşinə tutdu. Nəticədə məclis dağıdıldı, inqilabçılara divan tutuldu. Bununla da paytaxtda əks-inqilabi çevriliş həyata keçirildi. Həmin hadisələrlə eyni vaxtda irticaçı qüvvələr Təbrizdə inqilabçılar üzərinə hücuma keçdilər. C.A. və onun paytaxtı Təbriz inqilabın əsas mərkəzinə çevrildi. "İctimaiyyun-e amiyyun" ("Mücahid") təşkilatının başçılıq etdiyi hərəkat 40 min nəfərlik əks-inqilab qüvvələrin hücumunun qarşısını ala bildi. Təbrizdə inqilabi qüvvələrə *Səttərxan* başçılıq edirdi. Təbriz, həmçinin C.A.-ın bir çox vil.-i 11 ay inqilabçıların əlində qaldı. Əks-inqilabi çevriliş zamanı ləğv edilmiş məclis, əncümənlər, demokratik mətbuat və s. yenidən fəaliyyətə başladı. 1909 il aprelin 25-də çar qoşunlarının müdaxiləsi nəticəsində inqilabi hərəkat yatırıldı [bax həmçinin *Təbriz üsyanı (1908–09)*].

1909 il iyulun əvvəlində Məhəmmədəli şah devrildi, onun oğlu Əhməd şah [1909–25] elan olundu. Konstitusiya yenidən bərpa edildi. C.A.-ın bəzi şəhərlərində çar qoşunlarının yerləşdirilməsinə baxmayaraq Urmiya, Mərənd, Miyanə, Xalxal, Sərab, Astara və digər yerlərdə konstitusiyaya uyğun olaraq şuraların hakimiyyəti bərpa edildi. 1911 il dekabrın 20-də çar qoşunlarının Təbrizə hücumu və dekabrın 28-də şəhərin düşmən tərəfindən tutulması inqilabın məğlubiyyəti ilə nəticələndi. Çar zabitlərinin Təbrizdə qurduqları hərbi məhkəmənin hökmü ilə hərəkatın fəal üzvləri edam edildi. C.A.-ın digər şəhərlərində də inqilab başçılarına divan tutuldu, vilayət şuraları dağıdıldı, terror və irtica hökm sürməyə başladı.

Birinci dünya müharibəsi (1914–18) dövründə İran özünü bitərəf elan etsə də, onun şm.-q. əraziləri, o cümlədən C.A. torpaqları Antanta və alman-türk blokunun hərbi əməliyyatlar meydanına çevrildi. Müharibə illərində ölkədə bahalıq artır, aclıq və yoluxucu xəstəliklər tüğyan edirdi. C.A. rus qoşunlarının işğalı altında qalmaqda idi. Rusiyada Fevral inqilabı və Oktyabr çevrilişindən sonra Şimali Azərb.-da baş verən köklü dəyişikliklər C.A.-a da güclü təsir göstərdi. Əhalinin çıxışlarına İran Demokrat Partiyasının (İDP) Azərbaycan Əyalət Komitəsi istiqamət verirdi. Komitəyə Şeyx Məhəmməd *Xiyabani* rəhbərlik edirdi. Sərabda, Ərdəbildə, Zəncanda, Urmiyada İDP-nin yerli komitələri yaradılmışdı. İDP Azərbaycan Əyalət Komitəsinin (İDPAƏK) mətbu orqanı – "Təcəddüd" qəzeti nəşr olunmağa başladı (1917). Təbriz, Urmiya və Ərdəbildə dövlət məmurlarının özbaşınalığına qarşı çıxışlar baş verirdi. Xalq kütlələrinin tələbi ilə C.A. valisi və Urmiya hakimi vəzifələrindən kənar edildilər. 1917 il avqustun 24-də Təbrizdə keçirilmiş İDPAƏK-in konfransı Azərbaycan Demokrat Firqəsini (ADF) müstəqil elan edərək Ş.M.Xiyabani başda olmaqla Mərkəzi Komitəsini seçdi. ADF, xüsusilə onun sol cinahı xalq hərəkatının rəhbər təşkilatına çevrildi. C.A. şəhərlərində keçirilən mitinqlərdə əhali imperialistlərin əlində oyuncağa çevrilmiş hökumətin istefa verməsini, İranda demokratik hökumət təşkil olunmasını tələb edirdi.



Təbriz. Xalça bazarı.

1917 ilin sonunda Vüsuqüddövlə hökuməti istefa verdi. 1918 ilin əvvəllərində Rusiya öz qoşunlarını İrandan çıxartdı. 1918 ilin yazında ingilislər gen. Denstervilin komandanlığı altında C.A. şəhərlərini işğal edərək, orada ingilis zabitlərinin başçılığı ilə polis və qoşun dəstələri yartdılar. Eyni zamanda, açıq ingilispərəst siyasət yürüdən Vüsuqüddövlə yenidən hakimiyyətə qaytarıldı. C.A.-ın şm.-q.-ində rus və fransız zabitlərinin, Amerika missionerlərinin təhriki ilə ermənilər, kürdlər və aysorlar azərb.-lara qarşı qırğınlar törədirdilər. ADF ingilislərə qarşı başlamış çıxışlara istiqamət verir, əyaləti bürümüş aclıqla əlaqədar yardım komitələrinin köməyilə taxıl möhtəkirləri ilə mübarizə aparır, qırğınların qarşısını almaq üçün tədbirlər görürdü.

1918 ildə Türkiyə hərbi hissələrinin C.A.-a daxil olması bu qırğınların qarşısını aldı. Onlar yazda əyalətin bütün ərazisini tutdular və 1918 il noyabrın sonunadək əyalətdə qaldılar. Türklər buradan çıxarıldıqdan sonra ingilislər bütün C.A.-ı zəbt etdilər. 1919 il avqustun 9-da ölkənin talanmasına şərait yaradan İngiltərə-İran sazişi kütlələri ayağa qaldırdı. Bu saziş Şərqdə İran, o cümlədən C.A.-la bağlı xüsusi planları olan ABŞ dövlətini də narahat edirdi. Amerika siyasi dairələri sazişdən narazı qüvvələri ingilislərə qarşı çıxmağa sövq edir, maliyyə yardımı və başqa vədlər verirdilər. Sazişin bağlanması C.A. milli azadlıq hərəkatına yeni təkan verdi. Əyalətdə ingilis müstəmləkəçilərinə və İran hökumətinə qarşı mübarizə şiddətləndi. C.A.-a göndərilən yeni ingilis hərbi dəstələri demokratik qüvvələrə qarşı amansız tədbirlər həyata keçirdi. ADF gizli fəaliyyətə keçdi. Buna baxmayaraq, Təbriz, Zəncan, Xoy və digər ş.-lərdə sazişin ləğvini, Vüsuqüddövlənin dövlət işlərindən kənarlaşdırılmasını tələb edən çıxışlar davam edirdi. 1919 il oktyabrın sonlarında baş vermiş üsyan nəticəsində vali Təbrizdən qovuldu. 1920 ilin mart ayında ingilislərə qarşı izdihamlı nümayiş keçirildi. Təbrizdəki ingilis komandanlığı nümayişçilərin tələbi ilə hərbi hissələrini Təbrizdən çıxartdı. Aprel ayının ilk günlərində ADF-nin üzvlərində bir neçəsinin həbs edilməsi yeni üsyana səbəb oldu. 1920 il aprelin 7-də Təbrizdə silahlı üsyan qələbə çaldı. Üsyançılar dövlət idarələrini ələ keçirdilər, polis dəstələri şəhəri tərk etməyə məcbur oldular. C.A. *Azadistan* (Azadlıq ölkəsi) adlandırıldı. Xiyabaninin başçılığı ilə İDPAƏK-in üzvlərindən İctimai İdarə Heyəti (İİH) təşkil edildi.

Azərb. əyalətinə vali göndərilən Eynüddövlə İİH-nin tələblərini qəbul etdikdən sonra Təbrizə daxil oldu. Lakin bu tələbləri sözdə qəbul etmiş Eynüddövlə üsyanı yatırmaq məqsədilə demokratlara qarşı qiyam təşkil etməyə çalışırdı. Bu işdə ingilislər də fəal iştirak edirdilər. Mayın 10-da qiyamın hazırlanmasından xəbərdar olan demokratlar qiyamçıları həbs etdilər. İngilislər Xiyabani ilə danışığa gəldilər, nəticədə Xiyabaninin tələbi ilə hind sipahiləri Təbrizdən çıxarılaraq C.A.-dan kənar edildilər. Təbriz üsyanından az sonra Xoy mahalında, Ərdəbil, Astara, Marağa, Əhər və Zəncanda üsyanlar baş verdi.

1920 il iyunun 23-də ADF-nin qərarı ilə İİH əsasında Milli Hökumət (MH) yaradıldı. MH-nin tələbi ilə vali Eynüddövlə və onun məmurları Təbrizdən çıxarıldı. MH ticarət burjuaziyasının aşağı və orta təbəqələrinin xüsusi mülkiyyətinin toxunulmazlığına təminat verdi. Milli qvardiya yaradıldı, eyni zamanda jandarm və polis dəstələri təşkil edildi. Bəzi kəndlərdə dövlət torpaqları kəndlilər arasında bölüşdürüldü; Təbrizdə xalça f-ki, k.t. bankı və milli bank, xəstəxana, məktəblər (o cümlədən pulsuz qız məktəbi) və s. açıldı.

İranın yeni baş naziri Müşirüddövlə üsyançılara qarşı hücum hazırladı. Təbrizə kazak briqadası cəlb olundu, başqa yerlərdən süvari dəstələri də çağırıldı. Sentyabrın 12-də İngiltərənin bilavasitə köməyi ilə əks-inqilabi qüvvələr hücuma keçdilər. Sentyabrın 14-də Xiyabani öldürüldü. İrticaçılar üsyançılara amansız divan tutdular.

1921 ilin sentyabrında Təbrizdə ADF-nin təşəbbüsü ilə Xiyabaninin qətlinin ildönümünə həsr edilmiş və 10 minədək iştirakçısı olan mitinq keçirildi. Sentyabrın sonu – oktyabrın əvvəllərində ADF Təbriz təşkilatının gizli konfransı çağırıldı. Konfrans yerli təşkilatları bərpa etmək və demokratik hərəkatı genişləndirmək çağırışı ilə xalqa müraciət etdi və yeni komitə seçdi. 1922 ilin yanvarında mayor Ə. Lahutinin başçılığı ilə C.A.-dakı jandarm hissələri mərkəzi hökumət əleyhinə üsyan qaldırdılar. Demokratların bir hissəsi onlara qoşuldu. Üsyan fevralın ortalarında İrandakı kazak dəstələri artilleriyasının yardımı ilə hökumət qoşunları tərəfindən amansızlıqla yatırıldı.

1924 ildə yeni seçilmiş İran parlamenti 1925 ildə Qacarların devrildiyini elan etdi, həmin ilin dekabrında çağırılmış Məclisi-Müəssisan polkovnik Rza xanı şah seçdi. Rza şah Pəhləvinin dövründə [1925–41] C.A.-da iqtisadi həyat daha da tənəzzülə uğradı. İran dövlətinin milli zülm, ayrı-seçkilik və farslaşdırma siyasəti Azərb. xalqının iqtisadi, mədəni inkişafına ciddi zərbə vurdu. Bu siyasət nəticəsində C.A.-ın hələ Birinci dünya müharibəsi (1914–18) dövründə dağılmış və müharibədən əvvəlki səviyyəyə çatmamış iqtisadiyyatı durğunluq vəziyyətdə qaldı. Ağır vəziyyət istibdada və xarici imperialistlərin zülmünə qarşı çıxışlara səbəb olurdu (1930 ildə Təbriz kibrit f-kindəki həyəcanlar). C.A. İranın başqa əyalətləri ilə müqayisədə sənaye cəhətdən xeyli geri qaldı (1920–30-cu illərdə C.A.-da bir dənə də iri sənaye müəssisəsi yaradılmamışdı). Təbriz əvvəlki iqtisadi və siyasi əhəmiyyətini itirdi. Azərb. xalqı ən adi hüquqdan – ana dilindən istifadə imkanından tamamilə məhrum edildi. Şah monarxiyasının mürtəce milli siyasəti İranda yaşayan azərb.-ları SSRİ tərkibində olan Şimali Azərb.-ın ictimai, siyasi, iqtisadi və mədəni həyatda qazandığı nailiyyətlərdən istifadə etmək imkanından da məhrum etdi.







Şeyx Səfiəddin məqbərə kompleksi. Ərdəbil.

**Cənubi Azərbaycan 1940-cı – 70-ci illərdə.** 1941–46 illərdə C.A.-da demokratik və milli azadlıq hərəkatı genişləndikcə İngiltərə və ABŞ-ın Şərq siyasətində bu bölgə daha önəmli yer tuturdu. SSRİ-nin qəsbkarlıq planlarında da C.A.-ın xüsusi yeri var idi. İkinci dünya müharibəsinin (1939–1945) əvvəlində İran hökuməti öz bitərəfliyini elan etsə də, Rza şah və İranın hakim dairələri faşistpərəst mövqe tutmuş, ölkəni Almaniya kəşfiyyatının fəaliyyət meydanına çevirmişdilər. Buna görə Sovet-İran müqaviləsinin (1921) 6-cı maddəsinə əsasən 1941 il avqustun 25-də SSRİ və az sonra B. Britaniya İrana qoşun yeritdilər. Sovet qoşunları İranın şm. regionlarını, o cümlədən Azərb. əyalətini tutdu.

İlk vaxtlar kortəbii çıxışlar, mitinq və nümayişlər şəklində olan hərəkat getdikcə mütəşəkkil ictimai-siyasi mübarizə formasını aldı. Təbriz yenidən ümumiran demokratik hərəkatının əsas mərkəzlərindən biri oldu. 1941 ilin sentyabr-oktyabr aylarından burada xalq kütlələrinin mitinq və yığıncaqları, nümayişləri genişləndi. 1941 il sentyabrın29-da İran Xalq Partiyası (İXP) yaradıldı. 1941 ilin sonu – 1942 ilin əvvəllərində C.A.-ın bir çox ş.-lərində onun komitələri, həmçinin ictimai-siyasi və mədəni-maarif klublar, yeni həmkarlar təşkilatları, antifaşist birlik və cəmiyyətləri təşkil olundu. 1942–44 illərdə bir sıra nüfuzlu qəzet Azərb. dilində çıxmağa başladı.

1945 ilin yayında C.A.-da demokratik hərəkatın ikinci mərhələsi başlandı. Sentyabr ayında C.A.-ın bir sıra yerlərində silahlı fədai dəstələri formalaşdı. Fədailər quldur dəstələrinin basqınlarını dəf edir, şəhər və kəndlərin təhlükəsizliyini təmin edirdilər. 1945 il sentyabrın 3-də başda Seyid Cəfər Pişəvəri olmaqla Azərb. demokratların bir qrupu Azərbaycan Demokrat Firqəsinin (ADF) yaradılması haqqında bəyanatla çıxış etdi. Bəyanatda partiyanın proqram prinsipləri – İran dövləti tərkibində C.A.-a inzibati-təsərrüfat, mədəni muxtariyyət verilməsi, İranın siyasi həyatının demokratikləşdirilməsi, geniş xalq kütlələrinin mənafeyinə uyğun olan ictimai-iqtisadi islahatların keçirilməsi və s. məsələlər şərh olunurdu.

C.A.-da milli-demokratik və azadlıq hərəkatının gedişini İ.V.Stalin diqqət mərkəzində saxlayırdı. O, ADF-nin yaradılmasında, təşkilata S.C. Pişəvərinin başçılıq etməsində israrlı olub, hərəkatın maddi-mənəvi təminatı haqqında M.C. Bağırova göstərişlər vermişdi. 1945 ilin avqustunda Pişəvərinin sovet Azərb.-ında M.C.Bağırovla görüşü olmuşdu.

Sentyabrın 13-də ADF təsisçilərinin ilk konfransı keçirildi. Konfrans müvəqqəti komitə seçdi və tezliklə partiyanın birinci qurultayının çağırılmasını qərara aldı. ADF-nin yaranması, onun proqramı əhalinin müxtəlif təbəqələri içərisində rəğbətlə qarşılandı. 1945 il oktyabrın 2–4-də ADF-nin qurultayı keçirildi. Qurultay partiyanın 3 sentyabr tarixli bəyanıtının əsas müddəalarını proqram və nizamnamə kimi qəbul etdi. Pişəvəri başda olmaqla partiyanın Mərkəzi Komitəsi seçildi.

ADF açıq şəkildə fədai dəstələri yaratmağa başladı. İlin sonunadək Marağa, Maku, Mərənd, Sərab, Ərdəbil, Astara, Zəncan ş.-lərində, sonra isə C.A.-ın digər yerlərində hakimiyyət orqanları yaradıldı. Təbrizdə hökumət qoşunlarının bir sıra zabitləri yeni hakimiyyətin tərəfinə keçdi.

Noyabrın 21-də Azərbaycan Xalq Konqresi çağırıldı. Özünü Müəssislər məclisi elan etmiş konqres ümumi seçkilər yolu ilə Milli məclisin formalaşdırılması və Milli hökumətin yaradılması tələbini irəli sürdü. Milli hökumət İran dövlətçiliyi çərçivəsində fəaliyyət göstərərək C.A.-ın milli-mədəni muxtariyyətini təmin etməli idi. Noyabrın 27-dən dekabrın 1-dək C.A.-da seçkilər keçirildi. Dekabrın 12-də Milli məclis S.C.Pişəvərinin başçılığı ilə Milli hökumət yaratdı.

Milli hökumətin yaradılması ilə C.A.-da demokratik hərəkatın üçüncü – milli quruculuq mərhələsi başlandı. 1946 ilin yanvar–fevral aylarında Milli hökumət tərəfindən mahal, şəhər, qəsəbə və kənd əncümənlərinə seçkilər keçirildi və müvafiq strukturların yaradılmasına başlandı. Milli hökumət 1946 il fevralın 16-da aqrar qanun qəbul etdi. Qanuna görə, dövlət mülkiyyətində olan "xalisə" torpaqlar, habelə C.A.-dan qaçmış və ona qarşı mübarizəni davam etdirən mülkədarların və digər sahibkarların torpaqları kəndlilər arasında bölüşdürüldü. Mayın 12-də "Əmək haqqında qanun" qəbul edildi. Qanuna əsasən, fəhlə və qulluqçuların iş şəraiti yaxşılaşdırılır, fəhlələrə həmkarlar ittifaqları vasitəsilə müəssisələrin işinə nəzarət etmək hüququ verilirdi. Sənaye və ticarətin inkişafına, iqtisadiyyatın maliyyələşdirilməsinə və vergi sisteminin təkmilləşdirilməsinə yönəldilmiş bir sıra digər qanunlar da qəbul edildi.

Milli hökumətin ən böyük nailiyyəti 1946 il yanvarın 6-da Milli məclis tərəfindən qəbul edilmiş "Dil haqqında qanun" idi. Qanuna görə, Azərb. dili bütün C.A. ərazisində rəsmi dövlət dili elan olunurdu. Qısa zamanda ana dilində

dərsliklərin, müxtəlif ədəbiyyat, qəzet və jurnalların nəşrinə, radioverilişlərin təşkilinə başlanıldı.

İran hökuməti xalqı aldatmaq məqsədi ilə Milli hökumətlə danışıqlara başladı. 1946 ilin iyununda Təbrizdə müqavilə imzalandı. Müqaviləyə əsasən C.A.-dakı Milli hökumət Azərb. əyalət əncüməni statusunu qəbul etdi.

1946 il mayın 8-də sovet hərbi hissələrinin İranın şm. ərazilərindən, o cümlədən C.A. ərazisindən çıxarılması başa çatdı. Bundan sonra İran hökuməti yeni parlament seçkilərində qayda-qanunu təmin etmək bəhanəsi ilə C.A.-a qoşun yeritdi. Dekabrın 1-dən bir neçə istiqamətdə hücuma keçən mərkəzi hökumət qoşunları ilə fədailər arasında qanlı döyüşlər başlandı. Lakin Milli hökumət kütləvi qan tökülməsi, vətəndaş müharibəsinin baş verməsi təhlükəsini aradan qaldırmaq üçün silahlı qüvvələrə döyüşləri dayandırmaq göstərişi verdi. Müqavimətsiz irəliləyən İran qoşunu dekabrın 12-də Təbrizə daxil oldu. Minlərlə adam güllələndi və həbsə alındı. Kütləvi təqiblər başladı. Milli hakimiyyət dövründə az-çox siyasi fəallıq göstərən kəndlilər, fəhlələr, ziyalılar, bir çox sahibkarlar təqiblərə məruz qaldılar. ADF və Milli hökumətin rəhbərləri güllələndilər, dar ağacından asıldılar. Hərəkatın fəalları İranın c. bölgələrinə sürgün edildilər. On minlərlə vətənpərvər mühacirət etməyə məcbur oldu. Onların çox hissəsi Azərb. SSR-ə keçdi.

C.A.-dakı 1941–46 illər milli azadlıq hərəkatı məğlubiyyətə uğrasa da, ölkənin sonrakı tarixinə böyük təsir göstərdi, xalqda öz milli varlığı, tarixi və mədəniyyəti ideyasını möhkəmlətdi, bu məqsədlər uğrunda gələcək mübarizə üçün təməl yaratdı.

1941–46 illər milli-azadlıq hərəkatı yatırıldıqdan sonra C.A.-da şiddətli polis terroru ilə müşayiət olunan iqtisadi durğunluq dövrü başlandı. Amansız təqiblərə baxmayaraq xalq mübarizəni dayandırmadı. 1949–53 illərdə İranda tətil hərəkatının önündə C.A. fəhlələri (Təbrizin toxuculuq f-ki, gön-dəri z-du və s.) gedirdi. 1953 ildə Təbriz un-tində (darülfünunda) tələbələrin tətili oldu. Hərəkat nəticəsində İranın neft sənayesi üzərində İngiltərənin inhisarına son qoyulsa da, İran cəmiyyətindəki mövcud ziddiyyətləri aradan qaldırmadı. Ölkəni, xüsusən C.A.-ı 20 əsrin 50-ci illərinin sonu – 60-cı illərinin əvvəllərində güclü kəndli çıxışları bürüdü. İran hökuməti islahatlar keçirmək məcburiyyətində qaldı.

1962 ildən başlayaraq 70-ci illərin ortalarınadək "ağ inqilab" adı ilə yuxarıdan həyata keçirilən genişmiqyaslı islahatlar ölkənin kapitalist inkişafını sürətləndirdi. 1962 ildə keçirilmiş aqrar islahatı nəticəsində C.A.-da kəndlilərin təqr. 80 %-i torpaq sahiblərinə çevrilsə də, bu, C.A. kəndlilərinin sosial vəziyyətində köklü dəyişikliklər yaratmadı. Kənd əhalisinin şəhərə axını artdı. 1960–70-ci illərdə C.A.-da sənaye də ləng inkişaf edirdi. Bu səbəbdən əhali işləmək üçün Tehrana və İranın c.-undakı sənaye mərkəzlərinə axışırdı (1976 il məlumatına görə, Tehran əhalisinin 1,5 mln. nəfərini azərb.-lar təşkil edirdi).

Məhəmməd Rza şah diktaturası dövründə İranda qeyri-fars millətlərin hüquqları daha da tapdalanırdı. Azərb.-ları fars milləti tərkibində əritmək məqsədi ilə onları doğma yerlərindən farslar yaşayan əyalətlərə köçürtmək, saylarını qəsdən göstərməmək və s. açıq assimilyasiya tədbirləri keçirilir, İranda ikinci ən böyük xalqın dili və ədəbiyyatı, maddi mədəniyyəti inkar edilirdi. Azərb. dilində heç bir məktəb, mətbuat orqanı, nəşriyyat fəaliyyət göstərmirdi. Azərb.-ların etnogenezi, İrandakı azərb.-lar ilə SSRİ-də yaşayan azərb.-ların tarixi birliyi və s. məsələləri qəsdən təhrif edən, İranda yaşayan azərb.-ların ayrıca millət olmasını inkar etməyə cəhd göstərən şah diktaturası paniranizm təbliğatını hər vasitə ilə qızışdırırdı, Azərb. SSR ilə hər hansı tanışlığın qarşısını almağa çalışırdı. Şah hökumətinin yarım əsrdən çox C.A.-da "milli vəhdət" adı altında apardığı hakim millətçilik siyasətinə və ağır terror şəraitinə baxmayaraq, azərb.-lar şah üsuli-idarəsinə, yerli mürtəce qüvvələrə qarşı qətiyyətlə mübarizə aparmışlar.

*Cənubi Azərbaycan İslam inqilabı illərində və sonrakı dövrdə.* 1977 ilin payızından başlayaraq C.A.-da bir sıra çıxışlar oldu. İranda sosial ziddiyyətlərin son dərəcə kəskinləşməsi nəticəsində baş vermiş 1978–79 illər inqilabında C.A. zəhmətkeşləri fəal iştirak etdilər. 1978 il fevralın 18-də Təbrizdə şah rejiminə qarşı yönəlmiş üsyan İranda yeni inqilabın başlanğıcı oldu. Təbriz üsyanını təcili olaraq göndərilmiş böyük hərbi hissələr, tank və zirehli maşın birləşmələrinin hücumu nəticəsində yatırıldı. Minlərlə adam öldürüldü. Təbriz üsyanı bütün İran cəmiyyətinə təsir göstərdi ("üsyan şahlıq üsulunun fəqərə sütununu qırdı"), İran xalqlarını inqilabi çıxışlara səfərbər etdi. Təbriz hadisələrindən sonra İranda demokratik iniqilab sürətləndi.

1978–79 illər inqilabı zamanı Təbrizlə yanaşı Urmiya, Ərdəbil, Astara, Marağa, Zəncan və s. Azərb. şəhərləri şah diktaturasına qarşı inqilabi mübarizənin əsas mərkəzlərindən biri oldu. C.A. əhalisinin demək olar, bütün sinif və təbəqələri – fəhlələr, kəndlilər, tələbə və şagirdlər, orta burjuaziya nümayəndələri, ziyalılar və ruhanilər inqilabda iştirak etdilər. İnqilabın gedişində İranda ümumi demokratikləşmə uğrunda mübarizə ilə yanaşı, başqa millətlərlə birlikdə azərb.-lar da milli tələblər (azərb.-lar üçün də bərabər hüquq təmin edilməsi, C.A.-a İran daxilində muxtariyyət verilməsi, Azərb. dili və mədəniyyətinin inkişafına şərait yaradılması və s.) irəli sürdülər. Təzyiqlər nəticəsində şah 1979 il yanvarın 16-da İrandan qaçdı. Fevralın 1-də R.M.Xomeyninin Parisdən Tehrana gəlməsi münasibəti ilə C.A.-da, xüsusən Təbrizdə nümayişlər daha izdihamlı şəkil aldı. Fevralın 15-də Təbrizdə əks-inqilabi qüvvələr qiyam qaldırsa da, bir gün sonra şah tərəfdarları zərərsizləşdirildi və nəzarət xalqın əlinə keçdi. Beləliklə, 1979 il fevralın 11-də Tehranda qələbə çalan inqilab fevralın 16-da C.A.-da başa çatdırıldı. 1978–79 illər İran inqilabı dövründə azərb.-lar 25 min nəfərə yaxın qurban verdilər.

İnqilabın qələbəsindən sonra ölkə iqtisadi durğunluq vəziyyətindən çıxdı, C.A.-da sənaye və k.t.-nın inkişafında canlanma yarandı. Azərb.-ların böyük əksəriyyəti İslam inqilabından sonra demokratik azadlıqlar verilməsini, eləcə də milli hüquqların yüksək səviyyədə təmin edilməsini gözləyirdilər. Bu tələblər yeni konstitusiyanın müvafiq maddələrində az-çox öz əksini tapsa da, çoxu kağız üzərində qalmışdı. Azərb.-lar üçün ən ağrılı məsələ milli dilin statusunu müəyyən edən konstitusiyanın 15-ci maddəsi idi. Digər yerli dillərin fars dili ilə yanaşı mətbuatda, kütləvi informasiya vasitələrində və məktəblərdə milli ədəbiyyatın tədrisində işlənməsi azad elan edilsə də, C.A.-dakı məktəblərdə bu həyata keçirilmədi.

1991 ildə Piruz Dilənçinin başçılığı ilə bir qrup siyasətçi və ziyalı tərəfindən Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatı (CAMAH) yaradıldı. CAMAH-ın əsas məqsədi müstəqil C.A. dövlətinin yaradılması və bütöv Azərb.-nın qurul-









Təbriz. Göy məscid (*sağda* daxili qapılardan biri). 1465. Xaqani parkı.

ması idi. 1999 ildə Təbrizdə milli hərəkatın yüksəlişi zamanı Mahmudəli Çöhrəqani CAMAH-ın rəhbəri seçildi. 2002 ildə təşkilatdaxili fikir ayrılığı səbəbindən M.Çöhrəqani CAMAH-dan uzaqlaşdırıldı və təşkilatın başçısı yenidən P. Dilənçi oldu. Bundan sonra M.Çöhrəqani CAMAH təşkilatından çıxmış bir neçə tərəfdarı ilə Güney Azərbaycan Milli Oyanış Hərəkatını (GAMOH) yaratdı.

2006 ildə C.A.-da "karikatura qalmaqalı" baş verdi. Mayın 12-də "İran" qəzetinin uşaq səhifəsində azərb.-ları və Azərb. dilini təhqir edən karikatura və şəkilaltı yazı çap olunmuşdu. Bundan sonra Təbriz, Ərdəbil, Xoy, Urmiya, Miandoab (Qoşaçay), Marağa və Zəncanda azərb.-lar mitinqlərə toplaşdı. Mitinqlər 10 gün davam etdi, bəzi yerlərdə polislə toqquşmalar baş verdi. Rəsmi məlumatlara görə, mitinqlər nəticəsində 4 nəfər həlak oldu, 330 nəfər həbs edildi. Bundan sonra karikaturanı çap edən "İran" qəzeti bağlandı.

C.A. üçün ekoloji fəlakətə çevrilə biləcək Urmiya gölünün quruması ilə əlaqədar 2010 ildən etiraz çıxışları başladı. 2011 il avqustun 27-də Təbrizdə və Urmiya ş.-ndə etiraz aksiyası keçirildi. Bu aksiada təqr. 20 min nəfər iştirak edirdi. Polislə baş verən toqquşmalar nəticəsində 50 nəfərdən çox iştirakçı yaralandı, 100 nəfərdən çoxu tutuldu. Bir neçə gün sonra, sentyabrın 3-də Təbriz və Urmiyadakı aksiyalar zamanı 100-dən çox etirazçı həbs olundu. Sentyabrın 9-da Təbriz ş.-nin stadionunda təqr. 30 min nəfər etiraz aksiyası keçirdi, 40 nəfər yaralandı, yüzlərlə adam müvəqqəti saxlanıldı. Sentyabrın 12-də Ərdəbildə də, İran İslam Resp.-nın prezidenti M.Əhmədinicatın şəhərə gəlişi zamanı, etiraz aksiyası keçirildi. C.A.-da keçirilən etiraz aksiyaları nəticəsində İran hökuməti Urmiya gölünün Araz çayından, yaxud Xəzər dənizindən gətirilən su ilə doldurulması və bu məqsədlə vəsait ayrılması barədə qərar qəbul etdi.

**Memarlıq və təsviri sənət**

C.A.-da sənətkarlığın tarixi çox qədimdir. Manna dövlətində memarlıq, daşyonma və bənnalıq sənətləri inkişaf etmişdi. Memarlığın başlıca sahəsi şəhərsalma olmuşdur. Aşşur və Urartu təcavüzündən qorunmaq üçün çoxlu müdafiə istehkamları, gözətçi məntəqələri və qalalar tikilmişdi. İzirtu, Parda və b. şəhərlər hasara alınmış, bir çox qalalar (Buştu, Zirdakka, Zible, İştatti, Uşkaya) möhtəşəm divarlarla əhatə olunmuşdu. Həsənli qalasının özülü daş plitələrlə (3,2 *m* qalınlığında) hörülmüş, hünd. 10 *m* olmuş qala divarı boyu hər 30–35 *m*-dən bir kvadratşəkilli bürclər tikilmişdi. Qala içərisindəki zəngin saray və məbədin, 2 və 3 mərtəbəli evlərin qalıqları dövrümüzədək saxlanılmışdır. Otaqların divarlarına şirli kərpiclə üzlük çəkilməsi Aşşur memarlığına xas idi. Zibe (Ziviyə) qalasının divarı 7,5 *m* qalınlığında olmuşdur. Hər iki qalanın tikintisində kvadratşəkilli çiy kərpicdən (34x34x9 *sm*; 38x38x16 *sm*) istifadə edilmişdir.

Həsənli və Marlıqtəpədə tapılan qızıl və gümüş qab-qaçaq, zərgərlik məmulatı qiymətli metalların bədii emalının, zərgərliyin çox yüksək səviyyədə olduğunu göstərir. Marlıqtəpədən şm.-da yerləşən Kaluraz qəbiristanından üzərində müxtəlif rəsmlər olan qızıl və gümüş qədəhlər aşkar edilmişdir. Mis, tunc, gümüş və qızıl boyunbağılar, sırğalar, bilərziklər Həsənli, Marlıqtəpə və Kaluraz zərgərlik məmulatına aiddir. Zərgərlik sənətində burma qızıl teldən geniş istifadə olunmuşdur. Manna zərgərliyində döymə, qəlibətökmə, bəndvurma, həkketmə, oyma, lehimləmə, cilalama və s. iş üsulları geniş yayılmışdı. Eramızdan əvvəl 8–7 əsrlərə aid Ziviyə dəfinəsindəy tapılmış 341 əşyadan 43-ü qızıl, 71-i gümüş, 103-ü fil sümüyündən olmuşdur. Qızıl və gümüş ritonlar Qaflantı adlanan qədim şəhərdə də tapılmışdır. Ziviyədə fil sümüyündən düzəldilən bəzəklər saray mebelinin (taxt, yataq dəsti, mücrü və s.) dekorunda istifadə olunurdu. Ziviyə sənətkarları Həsənli və Marlıqtəpə ustalarının varisləri idilər.

Marağa 12–13 əsrlərdə C.A.-ın memarlıq və kaşıkarlıq mərkəzlərindən olmuşdur. 1259 ildə təsis edilmiş Marağa rəsədxanası dünyada məşhur idi. Bu dövrdə çoxlu bürcvarı türbələr tikilmişdi ("Qırmızı günbəz", 1148, memar Bəkir Məhəmməd, "Göy günbəz", 1196, memar Əhməd Məhəmməd oğlu və s.).



Mirzə Əli. "Xosrov Barbədin musiqisini dinləyərkən". Nizaminin "Xosrov və Şirin" əsərinə miniatür. 1539–43. Britaniya muzeyi. London.

13 əsr müharibələrindən sonra, Təbriz ş. istisna olmaqla, ölkə memarlığının inkişafı zəiflədi. Əhalinin Təbrizə axını ilə əlaqədar şəhərin xaricində 4 şəhərcik yarandı: "Arquniyyə", "Qazaniyyə", "Rəbi- Rəşid, "Ədvab əl-birr". Qazaniyyədə Qazan xan məqbərəsi, Cümə məscidi, rəsədxana, Qanun evi və yaşayış binaları yerləşirdi. Bu dövr məqbərələrinin çoxu qülləvarı formada idi. Şirli kərpiç və rəngli mozaikadan istifadə edilirdi. Tikililərin üz hörgüsündə həndəsi xətlər üzrə ikirəngli kərpicin işlədilməsi inşaya gözəllik verirdi. Ornamentlər mürəkkəb rəsmlərlə əvəz olunur, nəbati naxışlar üstünlük təşkil edirdi (Şam Qazan məqbərəsi, divarın eni 33 kərpic, kərpicin ağırlığı 10 batman). Bir çox abidənin məhv olmasına baxmayaraq Təbriz, əsasən, orta əsr simasını qoruyub saxlamışdır. Şəhərdə çoxlu məscid (Böyük Cümə məscidi, 11 əsr; Həsənşah məscidi, 15 əsr; İmamcümə məscidi, 19 əsr), mədrəsə ("Sadiqiyyə", "Talibiyyə", "Zahiriyyə", hamısı 17 əsr), türbə, körpü və qədim yaşayış binaları qalmışdır. Əlişah məscidi (1311, hünd. 25 *m,* tağının hünd. 80 arşın, divarlarının qalınlığı 3 *m;* məscidi Hulaku elxanlarından Olcaytu və Əbu Səidin vəziri olmuş memar Əlişah Təbrizi tikdirmişdi), Göy məscid və s. məşhur memarlıq komplekslərinin qalıqları mühafizə olunmuşdur. "Həşt behişt" ("Səkkiz cənnət", 1486) sarayı, Dar üş-şəfa, Müzəffəriyyə (1467), Nəsriyyə (1478–1485) kompleksləri, Göy məscid (1465) və s. abidələrdə Təbriz memarlıq məktəbinin üslub xüsusiyyətləri əksini tapmışdır. "İslamın firuzəsi" adlandırılan Göy məscidin memarlıq quruluşu (monumental günbəz, kvadrat formalı böyük salon, rumi və islimi ornamentli naxışlar, kaşı və oyma bəzəklər, nəstəliq, küfi, süls və rüqə xətləri ilə işlənmiş kitabələr) 15 əsr C.A. memarlıq-inşaat sənətinin şah əsəridir (memarlar Tacəddin Əlişah Təbrizi, Əsir Əli, Xacə Əli Kücəci, Xoca Əli Hafiz və b.; bəzək ustaları Nizam Bəndgiz, Abdulla Seyrəf Təbrizi, Nemətullah Bəvvab, Əli Rza Abbasi Təbrizi və b.). Səfəvi hökmdarlarından Şah İsmayıl, Şah Təhmasib, I Şah Abbas və II Şah Abbasın sənətə və ədəbiyyata bağlılığı bu sahənin inkişafına öz təsirini göstərmişdir. 13 əsrin sonu – 14 əsrin əvvəllərində formalaşmış Təbriz miniatür məktəbi tezliklə Yaxın və Orta Şərqdə kitab sənəti və miniatür boyakarlığının ən qüdrətli mərkəzinə çevrilmişdi. 14 əsrin əvvəllərində *Rəşidəddinin* təşkil etdiyi kitabxanada yerli xəttat və rəssamlarla yanaşı Şərqi Türküstan, Orta Asiya və s. Şərq ölkələrindən olan sənətkarlar fəaliyyət göstərirdilər. Bu dövrdə hazırlanan əlyazmalarından "Vərqa və Gülşa" (13 əsr, Topqapı muzeyi, İstanbul), Rəşidəddinin "Cami ət-təvarix" əsərinin məlum nüsxələrinə (1306, Edinburq un-ti, Şotlandiya; 1314, Kral Asiya Cəmiyyəti, London; 1318, Topqapı muzeyi, İstanbul) çəkilmiş illüstrasiyalar Şərqdə miniatür sənətinin ən qədim nümunələrindəndir. 14 əsrin ortalarında qrafik üsulla boyakarlığın sintezindən bədii üslub yaranmış, bu üslubdan "Böyük Təbriz Şahnaməsi"nin miniatürlərində istifadə olunmuşdur. 15 əsrin əvvəllərində Nizaminin "Xosrov və Şirin" poemasının (1405–1410, Frir qalereyası, Vaşinqton), əsrin sonlarında isə "Xəmsə"nin əlyazmasına (1481, Topqapı muzeyi, İstanbul) çəkilmiş miniatürlər bədii kamilliyi ilə seçilir. Təbrizdə Şah İsmayıl və Şah Təhmasibin saray kitabxanasında ustad Sultan Məhəmmədin rəhbərliyi ilə Şərqin görkəmli sənətkarları Mir Müsəvvir, Mirzə Əli Təbrizi, Mir Seyid Əli, Müzəffər Əli, Kəmaləddin Behzad, Ağamirək İsfahani və b. fəaliyyət göstərirdilər.

Ağa Mirək. "İki həkimin mübahisəsi". Nizaminin "Sirlər xəzinəsi" əsərinə miniatür. 1539–43. Britaniya muzeyi. London.



Orta əsrlərdə Şərqdə, o cümlədən C.A.-da xəttatlıq sənəti inşkişaf etmişdi. 14 əsrdə yaşamış Abdulla Seyrəfi Təbrizi, Bədrəddin Məhəmməd Təbrizi və b. xəttatlar bədii əsərlərin üzünü köçürməklə yanaşı binaların bəzək və kitabələrini də işləmişlər. 14 əsrin sonu – 15 əsrin əvvəllərindən xəttatlığın yeni inkişaf mərhələsi başlamışdır (Cəfər Təbrizi, Əzhər Təbrizi, Əli Rza Abbasi Təbrizi). 16 əsrdə bəzi hökmdarlar da xəttatlıqla məşğul olmuşlar (I Şah İsmayıl, I Şah Təhmasib). Hərtərəfli istedada malik olan (şair, rəssam, nəqqaş) xəttatlar əlyazmalarına miniatürlər çəkmiş (Sadıq bəy Əfşar, Əli Rza Abbasi Təbrizi), metalişləmə, kitab tərtibatı və s. sahələrdə fəaliyyət göstərmişlər.

Təbriz rəssamları kitab miniatürləri çəkməklə yanaşı, Təbriz, Qəzvin, İsfahan, Ərdəbil saraylarının, məscid binalarının divar, tavan və qapılarını rəsmlərlə bəzəmişlər ("Həşt behişt", "Çehel sütün"). 17 əsrin əvvəlində I Şah Abbasın təşəbbüsü ilə İsfahanda təsviri sənət məktəbi yaranmışdı.

Azərbaycan Səfəvilər dövlətinin banisi I Şah İsmayılın hakimiyyəti dövründə [1501–24] rəngkarlıq, xəttatlıq, memarlıq inkişaf etmişdi. Təbriz xalçaçılıq məktəbi hələ orta əsrlərdən şöhrət tapmışdı. Londonun Viktoriya və Albert muzeyində saxlanılan "Şeyx Səfi" xalçası Təbrizdə toxunmuşdur. Şəhərdəki ən qədim abidələrdən olan Məqbərət üş-şüərada (Şairlər qəbiristanı) qiymətli sənət nümunələri var.

14–17 əsrlərdə Ərdəbil şəhərinin əsasını mərkəzi şəhər ansamblı təşkil edirdi. Ansambl Şeyx Səfiəddin kompleksindən (12–14 əsrlər), onun qarşısındakı böyük meydan, hamam, karvansara və s.-dən ibarət idi. Şeyx Səfiəddin kompleksinə səkkizbucaqlı məscid (13 əsr), Şeyx Səfiəddin türbəsi (14 əsr), Şeyx Səfiəddin məscidi (16 əsr), giriş portalı (1648), Çinixana binası və kitabxana daxildir.

Ərdəbildə Şah İsmayıl muzeyi, Ərdəbil şeyxlərinə aid tarixi abidələr, Ərdəbil idman sarayı mövcuddur.

20 əsr tikililəri arasında Bələdiyyə idarəsinin binası, Təbriz un-ti kompleksi, Gülüstan bağı və s. var. Çox sayda bağlar, yaşıllıqlar (Yaqub şah bağı, Şeyx Səfi xiyabanı) şəhəri olmuş Təbriz müasir dövrdə də həmin xüsusiyyətlərini saxlamışdır. Şəhərdə milli qəhrəmanlara (Səttarxan, Bağırxan və Xiyabani), şairlərə (Q. *Təbrizi*, Ş. *Təbrizi*, S. *Təbrizi*, *Şəhriyar* və b.), rəssam *Kəmaləddin Behzada* heykəllər qoyulmuşdur. "Konka abidəsi" şəhərdəki maraqlı abidələrdəndir.

Təbriz bazarı (10 əsr; sah. 7 $km^2$; burada üstüörtülü 22 ticarət keçidi, 24 karvansara, 28 məscid, 8 mədrəsə və s. var) *Ümumdünya irsi* siyahısına salınmışdır.

Rəssamlardan İ. *Əhrari* (d. 1938), Ə. *Behkəlam* (d. 1944), M. Fəsinəki (d. 1944), N. Nurməhəmmədzadə (d. 1953), V. Müəzzin (d. 1960), Ə. Vəkili (d. 1961), B. Xudabəndə (d. 1974), heykəltəraşlardan D. Müstəfəvizadə (d. 1954), R. Xudadat (d. 1960) və b. müasir C.A. təsviri sənətini inkişaf etdirirlər.

### Ədəbiyyat

1813 və 1828 illərdə Azərb. torpaqlarının Rusiya ilə İran arasında bölüşdürülməsindən sonra eyni inkişaf yolu keçmiş ədəbi proses də Şimalda və Cənubda fərqli xüsusiyyətlər kəsb etməyə başlamışdır. 19 əsrin 1-ci yarısında bütün Azərb. ədəbiyyatında olduğu kimi, onun Cənub qolunda da aşıq şeiri və lirik poeziya əsas yer tuturdu. Ə. *Nəbatinin* şeirlərində nikbin ruh, həyat eşqi, nəcib insani duyğular tərənnüm olunurdu. *Heyran xanım*, Əndəlib *Qaracadaği*, M.*Aciz*, M.*Dilsuz*, H.M. *Şükuhi*, H.R. Sərraf, M.Ə.*Ləli*, M.Hidəci və b. lirik şeirin gözəl nümunələrini yaratmışlar. Ə.Raci mərsiyələrlə yanaşı, lirik şeirlər də yazmışdır. M.Xalxalinin "Sələbiyyə" ("Tülkünamə") əsərində ictimai qüsurlar tənqid edilirdi. 19 əsrin 2-ci yarısında maarifçi ədəbiyyat yarandı. Bu dövrdə M.F. *Axundzadənin* bilavasitə təsiri ilə ilk dram əsərləri yazılmışdır (Mirzağa Təbrizinin pyesləri); onun davamçıları Zeynalabdin Marağayi, M.Y. Müstəşarüddövlə və M.Ə. Talıbovun əsərləri 1905–11 illər İran inqilabının ideoloji və siyasi cəhətdən hazırlanmasında mühüm rol oynamışdır. 20 əsrin əvvəllərində ictimai-siyasi publisistika ədəbiyyatın aparıcı janrlarından birinə çevrildi. Bu istiqamətin nümayəndələri M. Siqqətülislam, Ə. Səfərov, Səid Səlmasi, Ş.M. *Xiyabani* və b. realist-demokratik Azərb. ədəbiyyatını inkişaf etdirmişlər. Sabir ədəbi məktəbinin görkəmli davamçısı M. Möcüzün, Hambalın (Bayraməli Abbaszadə) satirik şeirlərində ictimai eybəcərliklər kəskin tənqid olunurdu. 20-ci illərdə ədəbiyyatda yeniləşmə başlandı, *"Təcəddüd"* qəzetinin ətrafında toplaşan azərb. şairlər Tağı Rüfət, Cəfər Xamneyi, Şəms Kəsmayi İran ədəbiyyatında yeni şeirin təməlini qoydular. Beləliklə, C.A.-da 1905 – 11 illərdə məşrutə ədəbiyyatı, 1917–20 illərdə "Təcəddüd" (yeniləşmə) ədəbiyyatı meydana gəldi. Bu dövrdə C. Məmmədquluzadənin Təbrizdəki fəaliyyəti, "Molla Nəsrəddin" jurnalını orada nəşr etdirməsi (1921) ictimai şüurun inkişafına, sosial-mədəni tərəqqiyə böyük təsir göstərmişdir.

40-cı illərdən ədəbiyyatda zülm və istibdada, faşizmə və imperializmə qarşı mübarizə, milli azadlıq ideyaları xüsusilə gücləndi. C.A.-da milli azadlıq və demokratik hərəkatın qələbəsi, Azərbaycan Milli hökumətinin qurulması mədəni həyatın bütün sahələrində olduğu kimi, ədəbiyyatın da inkişafı üçün şərait yaratdı. "Şairlər məclisi", *"Azərbaycan şair və ədiblər cəmiyyəti"* (1947 ildən Cənubi Azərbaycan Yazıçıları Cəmiyyəti) təşkil olundu, ədəbi mətbuat vüsət aldı, demokratik ədəbiyyat meydana gəldi, aşıq ədəbiyyatı inkişaf etdi. M. Etimad, Əli Fitrət, İbrahim Zakir, M. Niknam, M. Səfvət, B. Azəroğlu, F. Məhzun, H. Nasiri, M. Çavuşi, Əli Tudə, Mədinə Gülgün, A. Pənahi, H. Billuri, Aşıq Hüseyn Cavan, F. Xoşginabi, İ. Cəfərpur, Söhrab Tahir, Q.Cahani və b. milli azadlıq hərəkatının qələbəsini, xalqın qəhrəmanlıq keçmişini, sosial tərəqqi ideyalarını tərənnüm edən əsərlər yazdılar.

Şah rejiminin farslaşdırma siyasətinə baxmayaraq, ana dilində ədəbiyyat 50–70-ci illərdə də inkişaf etmişdir (Səhənd, Kərimi, Əli Təbrizi, Həbib Sahir, Səbahi, Səməd Behrəngi, Savalan, Sönməz, Coşğun, Yəhya Şeyda və b.). Məhəmmədhüseyn *Şəhriyar* Azərb. dilində yazdığı "Heydərbabaya salam" poeması və bir sıra şeirləri ilə C.A. poeziyasına yeni vüsət vermişdir. Poemaya həm Şimali, həm də Cənubi Azərb.-da, həmçinin Türkiyədə onlarla cavab yazılmışdır. Azərb. folklorunun toplanması və nəşri sahəsində müəyyən işlər görülmüş (Səməd Behrəngi, M. Fərzanə, S. Cavid, Aydın Təbrizli və b.), C.A. ədəbiyyatına dair tədqiqatlar aparılmışdır (M. Tərbiyət, Əhməd Kəsrəvi, Müdərris Təbrizi, M. Naxçıvani, H. Naxçıvani, M. Müctehidi, H.Məmmədzadə, Q.Kəndli, M.Müsəddiq, M.Mənafi və b.).



"Ağach" xalçası. Təbriz məktəbi. 19 əsr. L. Kərimov ad. Azərbaycan Xalçaçı və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi. Bakı.

"Xosrov və Şirin" xalçası. Təbriz məktəbi. 18 əsr. Milli Azərbaycan Tarixi Muzeyi. Bakı.



1979 il inqilabından sonra anadilli ədəbiyyat daha da inkişaf etməyə başlamışdır. 1981– 94 illərdə Azərb. EA-nın Nizami ad. Ədəbiyyat İn-tu 4 cildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nı nəşr etmişdir. Yaradıcılığını Şimalda davam etdirən B. Azəroğlu, Ə. Tudə, M. Gülgün, H. Billuri, S. Tahir hər iki tayda yaranan Azərb. ədəbiyyatını qiymətli nümunələrlə zənginləşdirmişlər. Müasir dövrdə Həmidə Rəiszadə (Səhər), Məcid Səbbağe (Yalqız), Həmid Azəri Azad, Məhəmmədrza Sövkəti, İmran Səlahi, Əli Ətaiyyə, Nəsir Paygüzar, Həmid Səxa Mehr kimi şairlər həm satirik , həm də ictimai-tənqidi şeirlərilə çıxış edirlər. Nasir Mənzari, Tağı Fazili, Əbdüləli Karəng, Nigar Xiyavi, Nöhrə Vəfai, kimi müasir yazıçılar Əbdürrəhim Talıbov, Hacı Zeynalabdin, Məmmədəli Manafzadə Sabit, S.C. *Pişəvəri* və Qulamhüseyn *Sayedinin* qoyduqları böyük yolu davam etdirirlər. Müasir C.A. ədəbiyyatının inkişafında *Cavad Heyətin "Varlıq"* jurnalının müstəsna rolu vardır.

Hazırda Azərb. Resp. ilə C.A. arasında ədəbi əlaqələr genişlənir; Azərb. ədəbiyyatının bir sıra nümunələri C.A.-da çap edilmişdir. C.A. şair və yazıçılarının əsərləri də Azərb. Resp.-nda müntəzəm nəşr olunur.

**Teatr**

C.A.-da teatrın yaranıb inkişaf etməsi milli azadlıq hərəkatı ilə bağlı olmuşdur. İlk teatr 1905–11 illər İran inqilabı dövründə N. Nərimanovun başçılığı və M. *Şəfizadənin* təşəbbüsü ilə yaradılmışdı (bax *Təbriz teatrı*). 1906 ildə Tehranda "Türk dram dəstəsi" adlı teatr truppası fəaliyyətə başlamışdı. 1909–21 illərdə "Azərbaycan artistləri dəstəsi" fəaliyyət göstərmişdir. Azərb. əyalət əncüməni və Səttarxan teatrın təşkili və vəsaitlə təmin edilməsi haqqında xüsusi göstəriş vermişdi. Heydər Əmioğlunun təşəbbüsü ilə Xoy və Urmiya şəhərlərində də teatr tamaşaları verilirdi. Təbrizdə Azərb. teatrının təşkilində *Sidqi Ruhullanın* böyük xidməti olmuşdur. O, 1909 ildə Təbrizdə qastrolda olarkən yerli ziyalılardan dəstə toplayaraq, burada "Bəxtsiz cavan" (Ə. Haqverdiyev), "Zorən təbib" (J. Molyer) və s. tamaşalar göstərmişdir. 1920 ildə Təbrizdə S. Ruhulla, M. Şəfizadə, M.R. *Vaizzadə* və b.-nın təşəbbüsü ilə ilk teatr binası – "Xeyriyyə teatrı" tikilmişdir. Şeyx Məhəmməd Xiyabani teatrın ideya istiqaməti ilə yaxından maraqlanırdı. 20-ci illərdə Təbrizdə yaşayan C. Məmmədquluzadə və onun qardaşı Ələkbər Məmmədqulu oğlu teatrın fəaliyyətinə yardım göstərmişlər. Təbriz, Urmiya və Xoy ş.-lərində Ü. Hacıbəylinin "Arşın mal alan", "Məşədi İbad", "Ər və arvad" ("Kəblə Qubad" adı ilə) musiqili komediyaları, "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu" operaları; Z. Hacıbəyovun "Aşıq Qərib" operası tamaşaya qoyulmuşdu.

1927 ildə Təbrizdə "Şir-e xorşid" teatr binası tikildi. Teatra nəzarət edən maarif və polis idarələri azərb.-ları farslaşdırmaq üçün teatrdan da istifadə etməyə çalışırdılar. Azərb. dilində pyes yazılması və oynanılmasının qadağan edilməsi teatrın inkişafına mane olurdu. Bu dövrdə tamaşaya qoyulan bir çox kiçik həcmli səhnə əsəri dövlət təbliğatı tələblərinə uyğunlaşdırıldığından həyat həqiqətindən uzaq, məzmunca sönük, bədii cəhətdən zəif idi. Buna baxmarayaq, qabaqcıl teatr xadimlərinin mübarizəsi və fəaliyyəti sayəsində bir sıra mütərəqqi səhnə əsəri tamaşaya qoyulmuşdu.

Təbriz teatrının inkişafında "Cəmiyyəti-islahi-tərəqqiyi maarifi-Azərbaycan" (1921), "Ariyen" ("Ariya-nijad", 1922–41), "Ayineyi-ibrət" (1924–30), "Dram-Təbriz" (1929) və s. truppaların, teatr xadimlərindən M. Şəfizadə, R. *Şərqli*, M.R. Vaizzadə, M.S. *Kirmanşahlı*, R. *Abdullazadə* və b.-nın böyük rolu olmuşdur.

1945 ildə Azərbaycan Milli hökümətinin yaranması milli mədəniyyətin inkişafına zəmin yaratdı. 1945–46 illərdə "Anamın kitabı" (C. Məmmədquluzadə), "1905–ci ildə", "Sevil", "Od gəlini" (C. Cabbarlı), "Arşın mal alan", "Məşədi İbad", "Əsli və Kərəm", "Leyli və Məcnun" (Ü. Hacıbəyli), "Eşq və İntiqam" (S.S. Axundov) və s. əsərlər Təbriz və b. şəhərlərin teatr repertuarına daxil edilmişdi. 1946 ildə Təbrizdə ilk Azərb. Dövlət Teatrı yaradılmışdı. Urmiya, Xoy, Ərdəbil, Marağa, Zəncan və s. şəhərlərdə də teatr truppaları yaradılmış, Ərdəbil və Marağada teatr binalarının tikilməsinə başlanmışdı. 1946 ildə C.A.-da *Təbriz Dövlət Filarmoniyası* da fəaliyyət göstərmişdir. Milli hökümət teatr xadimlərinə yaxından kömək göstərirdi. Bu dövrdə "Azərbaycan nümayişi", "Azərbaycan anası", "Ərbab və əkinci" və s. pyeslər tamaşaya qoyulmuşdu. Ölkədə milli azadlıq hərəkatının süqutundan sonra, 1946 ilin dekabrında Azərb. Dövlət Teatrı da bağlandı.

Şimali Azərb.-ın M.A. Əliyev, Ə. Qurbanov, Ə. Salahlı, İ. İsfahanlı, Qəmər xanım, M. Mərdanov, İ. Əfəndiyev, H. Sarabski, H. Hacıbababəyov, S. Qacar, Ə. Sadıqov, H. Rzayeva kimi aktyor və opera müğənnilərinin C.A.-a qastrollarının teatrın inkişafına böyük köməyi olmuşdur. Qısa müddət ərzində (1948–1949) Tehranın "Ziba" teatr salonunda azərb. incəsənət xadimləri tərəfindən türk dilində bir sıra tamaşa və konsertlər verilmişdi. Tədbirin təşkilinə yazıçı G. Səbahinin qardaşı S. Səbahi başçılıq etmişdi. S. Səbahi 10 ilə yaxın (1949–1950) müddət ərzində 40-dan çox əsəri, o cümlədən C. Cabbarlının, M.F. Axundzadənin, H. Cavidin, Ü. Hacıbəylinin əsərlərini fars dilində tamaşaya qoymuşdu. 1978–79-cu illər inqilabından sonra C.A.-da ana dilində bir sıra tamaşalar hazırlanmışdır.

1994 ildə rej. Hüseyn Lələ ana dilində "Alın yazısı"nı, M. Şəhriyarın "Heydərbabaya salam" poeması əsasında eyniadlı musiqili-ədəbi kompozisiyanı Tehranın "Vəhdət" konsert və teatr salonunda səhnəyə qoymuşdur. Aktyorlardan H. Çavuşi, S. Xeyirxah, Y. Xeyrulla, Ə. Aicazi, Ş. Əhmədi, M. S. Kərimzadə, S. Zəmani, F. Ayseyni, R. Şadxah, İ. Əsgəri, A. Əlipur; kinorejissorlardan Ə. Salmanpur M. P. Fərşbafi; teatrşünas M. Şami müasir dövrün tanınmış sənətkarlarıdır.

**Musiqi**

19 əsrin sonu – 20 əsrin birinci yarısında Əbülhəsənxan Azər İqbal Şərq vokal sənətinin ən görkəmli nümayəndələrindən biri olmuşdur. 1908 ildən İran inqilabına (1905–11) qoşulmuş Əbülhəsənxan C.A. milli teatrının, orkestrin yaranmasında və bir sıra mədəni islahatların həyata keçirilməsində fəal iştirak etmişdir. Güclü, məlahətli, gözəl tembrli səsə malik Əbülhəsənxan klassik muğamların qoruyucusu idi. C.A. vokalçılarının bütöv bir nəsli onun ifaçılıq məktəbinin yetirməsidir.

20 əsrin 40-cı illərində Təbrizdə filarmoniya fəaliyyətə başladı. Filarmoniya C.A. musiqi xadimlərini vahid sənət ocağında birləşdirmək məqsədi ilə yaradılmışdı. Filarmoniyanın müdiri şair *Əli Tudə*, bədii rəhbəri bəstəkar Hacı *Xanməmmədov* idi. Filarmoniyada milli orkestr (əsasını bəstəkar C. *Cahangirov* qoymuşdu), aşıqlar ansamblı (rəhbəri aşıq Hüseyn Cavan), oğlan və qızlardan ibarət rəqs ansamblı (rəhbəri Bəhmən Heydərzadə), sazçı qızlar ansamblı fəaliyyət göstərirdi; repertuarında muğam, təsnif, xalq mahnıları, aşıq musiqisi əsas yer tuturdu. Həsən Üzzari, Qulam Hüseynxan, Yaqub Nəvapərəst, İsmayıl Tiğ (kamança), Mahmud Fərnam (dəf), Böyük İbadi (santur), Hacağa Üzzari (viola), Aşıq İsa (saz), Nailə xanım (rəqqasə), müğənnilərdən Ələsgər Rizvan, Sahib Ruhi (Şükürov), Hidayət Məmmədzadə, Səməd Dəbbağ, Puran xanım, Raziyə xanım, Fatma xanım və b. Təbriz filarmoniyasının məşhur solistlərindən olmuşlar. 1946 ildə filarmoniyanın fəaliyyəti dayandırılmışdı.



Təbrizdə qadın və qızlar savadsızlığın ləğvetmə kurslarında. 1945–46 illər.



Təbrizdə 1945–46 illərdə türk dilində nəşr olunmuş məktəb dərslikləri.

50–60-cı illərdə Mustafa Payan C.A.-ın tanınmış muğam ustalarından olmuşdur. Müasir dövrün məşhur müğənnilərindən biri də Faiqə Atəşindir (Ququş). Bəstəkar Əli Səliminin "Ayrılıq" mahnısı onun ifasında populyarlıq qazanmışdır. Ə. Səliminin "Fantaziya", "Elim, günüm, şövkətim" və s. filmlər üçün bəstələdiyi musiqi, "Aman ayrılıq", "Sizə salam gətirmişəm" və s. mahnıları dünya azərbaycanlıları arasında geniş yayılmışdır. Müğənnilər Səlim Ərdəbili, Araz Elsəs, Yaqub Zurufçu, xanəndə Rəsul Qurbani, ifaçılardan Hamid Qudərzi, Solmaz Kərimpur, bəstəçi və pianoçu Pərviz Bərzigər, musiqişünaslar Seyid Cavan Hüseyni, Cavad Kərimnejad, aşıq Çingiz Mehdipur, ansambl rəhbəri Rəhim Şəhriyari, dirijor Fərhad Fəxrəddini C.A.-ın tanınmış musiqiçiləridir. Bülbül ad. Beynəlxalq Musiqi Festivalının qaliblərindən biri Həsən Ənamidir.

**Təhsil**

İslam mədəniyyətinin tərkib hissəsi olan məktəb (ibtidai təhsil), mədrəsə (orta təhsil) və məzhərdən (fərdi ali təhsil) ibarət 3 mərhələli təhsil sistemi yayılıb möhkəmlənmişdir.

C.A.-da ilk mədrəsələr 10–11 əsrlərdə Marağa və Xoyda yaranmış, əsasən, Təbriz və Həmədanda cəmləşmişdi. 11–12 əsrlərdə Marağada Əhməd ağa, Atabəkiyyə, əl-Qazi, Xoyda əl-Fərəc əl-Xüveyyi mədrəsələri, Təbrizdə isə mədrəsələrlə yanaşı, "Hikmət evləri" kimi tanınan tədris-müalicə müəssisələri fəaliyyət göstərmişdir. C.A.-da 13 əsrdən etibarən məscidlərin nəzdində "yetimlər evi" və "təlim evi" adları ilə fəaliyyət göstərən xeyriyyə müəssisələrində ibtidai təhsil də verilirdi. 13–15 əsrlərdə Təbriz yaxınlığındakı Rəb-i-Rəşidi şəhərciyində əsası Fəzlullah Rəşidəddin tərəfindən qoyulmuş Rəşidiyyə (14 əsrdə Yaxın və Orta Şərqin ən böyük darülfünunu;100 il fəaliyyət göstərmişdir) ilə yanaşı, Qiyasiyyə, Qazaniyyə, Fələkiyyə, Dəməşqiyyə, Məqsudiyyə, Müzəffəriyyə, Nəsriyyə mədrəsələri, Ərdəbildə Darül-irşad mədrəsəsi, Marağa rəsədxanasının (1259) nəzdində "Böyük riyaziyyat məktəbi" kimi məşhurlaşan, tədrislə yanaşı elmi araşdırmalarla məşğul olan mədrəsə fəaliyyət göstərmişdir.

Səfəvilər dövründə (1501–1736) C.A.-ın Təbriz, Marağa və Ərdəbil şəhərləri maarif və mədəniyyət mərkəzlərinə çevrilmişdi. Bu dövrdə məktəb və mədrəsələrdə dərslər ərəb, fars və Azərb. (türk) dillərində aparılırdı. 17 əsrin ortalarında Təbrizdə 600 məhəllə məktəbi, 47 mədrəsə fəaliyyət göstərirdi. Talibiyyə və Sadiqiyyə mədrəsələri Təbrizin ən məşhur mədrəsələri idi. Nadir şah Əfşarın [1736–47] hakimiyyəti dövründə vəqf torpaqları ləğv edildən (1736) sonra gəlir mənbəyini itirən məktəb və mədrəsələrin əksəriyyəti bağlandı. Bu, 18 əsrdə maarif və mədəniyyətin tənəzzülə uğramasına səbəb oldu.

19 əsrin əvvəllərində Rusiya-İran müharibəsi nəticəsində Azərb.-ın işğal edilərək ikiyə parçalanması təhsil sisteminin inkişafına öz təsirini göstərdi. Təhsil ölkənin hər iki hissəsində müstəmləkəçilik prinsiplərinə əsaslansa da, şimalda müxtəlif tipli dünyəvi dövlət təhsil müəssisələrinin yayılması ümumilikdə elm və mədəniyyətin yüksəlişinə səbəb oldu. Həmin dövrdə C.A.-da ilkin təhsili hələ də ənənəvi müsəlman təhsil sisteminə əsaslanan məktəblər, orta və ali təhsili isə mədrəsələr verirdi. Mədrəsələr Təbriz, Xoy, Urmiya, Ərdəbil və Marağa kimi iri şəhərlərdə fəaliyyət göstərirdi. Bütün məktəb və mədrəsələrdə tədris fars dilində idi. 19 əsrin 2-ci yarısında C.A.-da təhsilin inkişafında mühüm irəliləyişlər baş verdi. 1869 ildə Təbrizdə "Mədrəseye-Nasiri" adlı məktəbin açılması C.A.-da yeni təhsilə doğru atılan ilk addım oldu. 1877 ildə, əsasən, hərbi və mülki məmurlar, həkimlər, əczaçılar hazırlayan yeni məktəbin – Təbriz dövlət mədrəsəsinin (Təbriz Darülfünunu, son illərdə "Müzəffəriyyə mədrəsəsi") açılması ilə C.A.-da müasir tipli təhsilin əsası qoyuldu. Darülfünun 20 il fəaliyyət göstərmiş və hər il 40-45 məzunu olmuşdur. 1878–1904 illərdə Urmiyada Ali Tibb Məktəbi açılmışdı.

Azərb. maarifçisi Mirzə Həsən *Rüşdiyyə* 1888 ildə Təbrizdə "Dəbistan" adlı ilk üsuli-cədid məktəbini təsis etmişdi. Bu məktəb Səfəvilər dövründən sonra C.A.-da ilk Azərb. milli məktəbi idi. M.F.Axundzadənin və K.D.Uşinskinin yeni təhsil üsulu və pedaqoji nəzəriyyələrilə yaxından tanış olan Rüşdiyyə yaratdığı məktəblərdə ilk dəfə olaraq əlifbanı yeni– sövti üsulla Azərb. dili əsasında tədris etməyə başlamış, çoxlu dərsliklər, o cümlədən "Vətən dili" (1894), "Ana dili" (1894) kitablarını yazmışdır. 1893 ildə Təbrizdə növbəti məktəbi açarkən Rüşdiyyəyə görkəmli ictimai xadim, yazıçı Mirzə Əbdürrəhim *Talıbovla* xeyriyyəçi Hacı Zeynalabdin *Tağıyev* məktəb ləvazimatı ilə kömək etmiş və maddi yardım göstərmişlər. Bu məktəblərin təsiri altında C.A.-ın digər şəhərlərində yeni "rüşdiyyələr" – "Məd-

rəseye-Kamal" (Mirzə Hüseyn Kamal, 1897), "Tərbiyət" (Seyid Hüseyn xan Ədalət, Mirzə Məhəmmədəli xan Tərbiyət, Seyid Məhəmməd Şəbüstəri və Seyid Həsən Tağızadə, 1899), "Loğmaniyyə" (Loğmanülmülk,1899) mədrəsələri açılmışdı. İlk dəfə tam orta məktəb kimi təşkil edilən və orta məktəb kursuna əsaslanan "Loğmaniyyə" mədrəsəsində dini dərslərlə yanaşı ərəb, ingilis, fransız, rus dilləri, fars ədəbiyyatı, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, təbiətşünaslıq, əzcaçılıq və rəssamlıq tədris olunurdu. C.A.-da tətbiq edilən yeni təlim üsulunun İranda təhsilin inkişafına güclü təkan verməsinə baxmayaraq, bu məktəblərin müəllimləri daim təqib edilir, hətta qətlə yetirilirdi. "Dəbistan" (1887) məktəbi əlifbanın yeni üsulla tədrisinə görə dağıdıllıb talan edildikdən sonra Rüşdiyyə "Mədrəseye-Rüşdiyyə" (1888) adlı yeni məktəb açmış, lakin tezliklə bu məktəb də dağıdılmışdı. "Mədrəseye-Kamal" və "Loğmaniyyə" mədrəsələri də 1903 ildə talan edilmiş, "Loğmaniyyə" 1905 ildə bərpa olunmuşdu. 1905 ilə qədər "rüşdiyyələr" 9 dəfə dağıdılaraq talan edilmişdi. Ölkədə sürətlə yayılan "rüşdiyyələr" cəmi bir neçə ildən sonra şahın əmri ilə bağlanmış, azərb. maarifçi sürgün edilmişdi. 19 əsrin sonu – 20 əsrin əvvəllərində C.A.-ın şəhər və kəndlərində fəaliyyət göstərən 150 özəl və ümumi məktəbin, 10 mədrəsənin çoxu cəmiyyətin sosial, siyasi və mədəni inkişafından geri qalırdı. Buna görə də 1900 ildə azərb. maarifpərvərlər daha səmərəli fəaliyyət göstərmək məqsədi ilə birləşərək gizli "maarif əncüməni" yaratmışdılar. Lakin onların fəaliyyət dairəsi ibtidai məktəb səviyyəsi ilə məhdudlaşır, əsasən, Təbrizi əhatə edirdi, qızların təhsili isə, ümumiyyətlə, nəzərdə tutulmurdu.

1905–11 illər İran inqilabı dövründə C.A.-da ana dilində tədris təhsilin əsas vəzifəsinə çevrilmiş, 37 milli məktəb (Təbrizdə 22) açılmışdı. İran mədəniyyət tarixində ilk dəfə təhsil üzrə "maarif əncümənləri" təşkil olunmuş, əyalət mərkəzlərində kitabxanalar fəaliyyətə başlamışdı. 1907 ildə fevral silahlı üsyanından sonra Təbriz, Urmiya və Marağada, 1908 ildə Ərdəbildə və Mərənddə, 1909 ildə Xalxalda və Astarada, həmçinin vilayət mərkəzlərində yeni məktəblər açılmış, 1913 ildə "Azərbaycan maarif əncüməni" təşkil olunmuşdu. Bu qurum ilk dəfə bütün C.A. ərazisində Azərb. dilində təhsilə keçilməsinə təşəbbüs göstərdi, həmçinin tədrisin keyfiyyətini yüksəltmək məqsədilə xırda məktəblərin birləşdirilməsinə başladı. 1912–13 tədris ilində Təbrizdə Ələviyyə Piran və Fatimə Fərhəng tərəfindən "İffət" və "Fərhəng" adlı qız məktəbləri təsis olundu. 1916 ildə "Duşizəqan" adlı qız məktəbi açıldı. Bu məktəblərdə yalnız yuxarı və orta təbəqədən olan qızlar oxuya bilərdi. Həmin dövrdə Təbrizdə qafqazlı Yusif bəy Qazızadənin rəhbərlik etdiyi rus məktəbində azərb. uşaqları da təhsil alırdı.1911–25 illərdə C.A.-da 50-dən çox (Təbrizdə 29) məktəb vardı. Həmin məktəblərdə Azərb. və fars dillərindən başqa ərəb, fransız və rus dilləri də tədris edilirdi. İran məclisi (2-ci çağırış, 1911) Təbrizdə bir ibtidai dövlət məktəbi açmaq haqqında qanun qəbul etsə də, burada ilk orta məktəb 1917 ildə təsis olundu.

1920 il iyunun 23-də yaradılmış Milli hökumət maarif sahəsində də islahatlara başlamış, aprel–sentyabr aylarında məktəblərdə Azərb. dilinin tədrisinə diqqəti artırmışdı. "Məmmədiyyə", "Hikmət" və başqa məktəblərlə yanaşı, pulsuz xüsusi qız məktəbi də açılmış, bu məktəblərə Bakı və Türkiyədən müəllimlər dəvət edilmişdi. Azərb. dili dövlət dili elan edildikdən sonra ana dilində dərsliklərin, həmçinin əsas təbliğat vasitələrindən olan qəzetlərin nəşrinə başlanmışdı. Lakin həmin ilin 14 sentyabrında Ş.M.Xiyabani öldürüldü və ilin axırlarında dövlət məktəblərində Azərb. dilinin tədrisi dayandırıldı. 1921–25 illərdə C.A. üzrə maarif işlərinin başçısı vəzifəsində işləyən azərb. maarifçi-demokrat Məhəmmədəli *Tərbiyət* qadağan və təzyiqlərə baxmayaraq, Təbrizdə qız məktəbinin, C.A.-ın əyalət, şəhər və kəndlərində isə məktəb və kitabxanaların açılmasına, həmin məktəblərin milli kadrlarla təmin edilməsinə nail olmuş, maarif və mədəniyyətin inkişafına, tədrisin elm və dünyəvilik istiqamətində aparılmasına böyük əmək sərf etmişdir. Rza şahın [1925–41] hakimiyyətə gəlişindən sonra, 1926 ildən məktəblərdə Azərb. dilində tədris qadağan olundu. Bu dövrdə ibtidai məktəblərdə, hətta tənəffüs zamanı Azərb. dilində danışan şagirdlər cərimələnir, müəllimlər işdən qovulurdu. 1927 ildə Təbrizdə məktəblərin farslaşdırılmasına qarşı bir neçə etiraz nümayişi keçirilmişdi. 1933–34 illərdə C.A.-da 27 orta, 186 ibtidai məktəbdə 30 min azərb. şagird fars dilində təhsil alırdı. 1934–35 illərdə Təbriz və Urmiyada "Daneşsəra" (pedaqoji məktəb), 1934–41 illərdə C.A.-da 105-ə qədər (Təbrizdə 15) məktəb təsis edilmişdi. 1938–39 illərdə C.A.-da fəaliyyət göstərən 257 ibtidai, 52 orta məktəbdə tədris fars dilində idi.

1941–45 illərdə məktəblərdə dövlət Azərb. dilinə qoyulmuş qadağanı ləğv etmiş, Milli Məclisin 1946 il 6 yanvar tarixli iclasında qəbul etdiyi "Dil haqqında" qanuna əsasən Azərb. dili C.A. ərazisində rəsmi dil elan olunmuşdu. Məktəblərdə tədris ana dilində aparılır, C.A.-da yaşayan milli azlıqların öz dillərində təhsil almaq hüququ saxlanılırdı. Qısa zamanda ana dilində dərsliklərin (ilk növbədə 1–4 siniflər üçün), qəzet və jurnalların nəşrinə başlanmış, onlarla kitabxana və qiraətxana, kəndlərdə yüzlərlə yeni məktəb açılmışdı. Milli Hökumətin süqutundan sonra Azərb. dili yenidən qadağan olundu, ana dilindəki bütün kitablar, dərsliklər yandırıldı, fars dili C.A.-ın bütün idarə, müəssisə və təşkilatlarında, həmçinin təhsil sistemində rəsmi yazı və danışıq dili elan edildi, Azərb. Un-ti (1979 ildən *Təbriz Universiteti)* bağlandı. 1943 ildə ümumiran üzrə icbari ibtidai təhsilin həyata keçirilməsinə baxmayaraq, 1945–46 illərin məlumatına görə C.A.-da əhalinin 89%-i savadsız idi.

1953–54 illərdə C.A.-da 833 ibtidai və 64 orta məktəb (müvafiq olaraq ölkə məktəblərinin 14 və 12%-i) olmuşdur. 1956 ilin məlumatlarına görə bütün məktəb yaşlı uşaqların yalnız 17%-i, kənd yerlərində isə 6,6 %-i (İran üzrə müvafiq olaraq 25% və 15,5%), məktəb yaşlı qızların orta hesabla 8,2%-i təhsil almışdır. 1958–59 illərdə C.A.-da təhsilin inkişafına ayrılan vəsait ölkə üzrə ayrılan vəsaitin təqr. 10%-ni təşkil edirdi. Həmin dövrdə C.A.-da əhalinin 76%-nin kənddə yaşamasına baxmayaraq, bu məbləğin 84–85%-i şəhər, 15–16%-i kənd yerləri üçün nəzərdə tutulmuşdu. 1963 ildə İranda "Maarif ordusu"nun yaradılması, 1968 ildə yeni məktəb islahatlarının aparılması, 1974 ildə ibtidai və natamam orta məktəblərdə təhsilin pulsuz elan edilməsi C.A.-da maarif sahəsindəki vəziyyəti dəyişmədi. 1975/76 tədris ilində C.A.-da "Maarif ordusu"nun 2440 məktəbi, 683 savadsızlığın ləğvi kursu fəaliyyət göstərmiş, bu məktəblərdə ordunun 3287 üzvü tədrislə məşğul olmuş, 103700 şagird və yaşlı əhalinin 20960 nəfəri təhsilə cəlb edilmişdi.

1960–70 illərdə şah rejiminin "milli vəhdət" adı altında azərb.-lara qarşı apardığı şovinist siyasət C.A.-da xüsusi təzyiq vasitəsi kimi təzahür edir, milli ayrı-seçkilik maarif sahəsində özünü daha aydın göstərir, dövlət Azərb. dilində təhsilə, qəzet-jurnal və kitab nəşrinə qoyulan qadağanı ləğv etmirdi. 1978–79 illər İran inqilabı dövründə 25 min nəfərə yaxın qurban verən azərb.-ların əsas tələbi – milli dilin statusu müəyyənləşmədi. 1979 ildə qəbul edilmiş ölkə Konstitusiyasında (15-ci maddə) ölkə mətbuatında, digər kütləvi informasiya vasitələrində və məktəblərdə fars dili ilə yanaşı yerli və etnik dillərin işlənməsi, həmçinin milli ədəbiyyatın tədrisi azad elan olunsa da, C.A.-dakı məktəblərdə ana dilində təhsilə hələ də icazə verilmir. 1996-97 illərdə C.A.-ın (Şərqi və Qərbi Azərb., Ərdəbil, Zəncan və Həmədan əyalətləri ilə birlikdə) orta məktəblərində təhsil alanların sayı 1976 ilə nisbətən 34,7% artmışdır. Son illər İranda bütün ölkə üzrə ibtidai təhsil icbari olduğundan məktəbyaşlı uşaqların əksəriyyəti təhsilə cəlb edilmişdir.

**Ali təhsil**. 1947–78 illərdə C.A.-da ali təhsil çox ləng inkişaf etmişdir. Əsası 1946 ildə Milli Hökumət tərəfindən qoyulan Azərbaycan Un-ti (Təbriz Un-ti) bu dövrdə yeganə ali təhsil müəssisəsi və elmi mərkəz idi. Un-tin 3 fakültəsi (pedaqoji, tibb və k.t) olmuş və bu fakültələrə müvafiq olaraq 120, 60 və 60 tələbə qəbul edilmişdi. Milli Hökumətin süqutundan sonra ləğv edilən un-t, onu İran milliyyətçiliyinin "etibarlı dayağı"na çevirmək məqsədilə 1949 ildə bərpa edildi. Lakin un-t tezliklə İranda antiimperialist hərəkatın ən mühüm mərkəzinə çevrildi və yalnız bundan sonra hakimiyyət un-tdəki kazarma nizam-intizamını ləğv etdi, təhsil proqramı dəyişdirildi, tədrisin keyfiyyəti yaxşılaşdırıldı, yuxarı kurs tələbələrinə təqaüdlərin verilməsinə başlandı. Un-tdə Azərb.-ın tarixi, ədəbiyyatı, etnoqrafiyası, sosial-siyasi vəziyyəti, iqtisadi və coğrafi problemləri, ölkənin siyasi həyatındakı yeri və rolu və digər məsələlərlə bağlı elmi tədqiqatlara, həmçinin diplom işlərinə çox az (əsasən iqtisadiyyat və coğrafiya məsələləri) yer verilir. 1953–78 illərdə un-tin azərb. məzunlarının əksəriyyəti işləmək üçün başqa şəhərlərə və ölkələrə getdiklərindən C.A.-da elmi işçilər, mütəxəssis kadrlar, müəllim və prof.-lar azlıq təşkil etmişdir. Tələbələrin milli tərkibinə xüsusi əhəmiyyət verilir, uğurla imtahan verən azərb. abituriyentləri mərkəzləşdirilmiş imtahan komissiyasının qərarı ilə Tehrana və başqa şəhərlərə göndərməklə un-tdə azərb.-ların çoxluq təşkil etməsinin qarşısı alınırdı. Un-tdə azərb. tələbələrin ümumi sayı 1962 ilə qədər 2247 nəfər olmuş, tələbələrin təqribən 75 faizini Tehran, Rəşt, Qəzvin, Həmədan, Qum, İsfahan, Ərak, Şiraz, Səbzivar, Kirmanşah, Məşhəd, Sari, Lahican, Kuçan, Şahsuvar, Yəzd və Ənzəlidən gələnlər təşkil etmişdir. Azərb.-lar təhsillərini başa vurandan sonra işsizliyə və digər səbəblərə görə xaricə mühacirət edir, qeyri azərb.-lar isə un-ti bitirəndən sonra geri qayıdırdılar. Siyasətlə yaxın olduğuna görə un-tdə hüquq və jurnalistika fakültələri yaradılmamışdı. 1983/84 tədris ilində Təbriz Un-tində 5421 tələbə (ölkə üzrə tələbələrin 7%-i, yəni ölkə un-tləri içərisində 7-ci yerdə idi) təhsil almışdır. Təbriz Un-ti İranın 2-ci ən böyük un-ti (20 minə yaxın tələbə), 5 əsas və 14 nüfuzlu un-tindən biri, eyni zamanda regional elmi mərkəzdir. Təbrizdə Tibb Elmləri Un-ti, Tərbiyət Pedaqoji və İncəsənət un-tləri, bir neçə in-t daxil olmaqla, 20-yə yaxın ali təhsil müəssisəsi, həmçinin Şərqi Azərb. elm və texnologiya mərkəzi fəaliyyət göstərir (2012).

C.A.-ın Urmiya ş.-ndə 1878 ildə fəaliyyətə başlayan və İranın ilk un-ti olan Ali Tibb Məktəbi Tehran Un-ti (1904) açılandan sonra ləğv edilmişdi. 1966 ildə burada Kərəc K.T. İn-tunun filialı açıldı və 30 nəfər tələbə qəbul edildi. Bu filial sonra Urmiya K.T. İn-tuna çevrildi, daha sonra un-t statusu aldı. 1975/76 tədris ilində un-tdə 526, 1983/84 tədris ilində 940 tələbə (ölkə üzrə tələbələrin 1,2 %-i, ölkə un-tləri içərisində axırıncı yer) təhsil almışdır. Urmiya Un-ti, Tibb, Texnologiya, Azad Urmiya İslam un-tləri və s. un-tlər, kolleclər və texnikumlar var. C.A.-nın iri şəhərlərindən Marağada Azad Un-t, Payam-e Nur və Marağa un-tləri, Ərdəbildə Tibb Un-ti, Xoyda və Makuda azad un-tlər, Sərabda Azad Sərab İslam Un-tinin və Payam Nur Un-tinin filialları, Zəncanda Zəncan Un-ti, Tibb Un-ti və Azad Zəncan İslam Un-tinin filialı, həmçinin Fundamental Elmlər üzrə Qabaqcıl Tədqiqatlar İn-tu, kolleclər və texnikumlar fəaliyyət göstərir (2012).

1996/97 tədris ilində C.A.-da ali təhsilin inkişaf dinamikasında nisbətən irəliləyiş olmuşdur. Milli bölgənin ali məktəblərində təhsil alan oğlan (48774) və qızların (25021) ümumi sayı 73795-ə çatmışdır. Bu, ölkənin ali məktəblərində təhsil alan gənclərin ümumi sayının (597070) 12,7 %-ni təşkil edirdi.

## Mətbuat

**Nəşriyyat işi**. Təbrizdə 1817 ildə Abbas Mirzə və çap ustası Ağa Zeynalabdin tərəfindən ilk litoqrafiya mətbəəsinin təsis olunması ilə C.A.-da, eyni zamanda İranda mətbəə-nəşriyyat işinin əsası qoyulmuşdur. C.A.-da və İranda müasir kitab nəşri də həmin mətbəədə çap olunan ilk kitab – "Fəthnamə" adlı tarixi əsərlə başlamışdır. 1822–23 illərdə Peterburqdan gətirilən avadanlıqlarla Təbrizdə daha iki litoqrafiya mətbəəsi qurulmuşdu. Bu mətbəələrin də ustaları çap işini Rusiyada öyrənmiş azərb.-lar – Mirzə Cəfər Təbrizi və Mirzə Əsədulla idi. 1824 ildən sonra C.A.-ın Urmiya (burada 1840-cı illərdən sonra Amerika, İngiltərə, Fransa və Rusiya missionerləri də mətbəələr açmışdı), Şiraz, Ərdəbil və Xoy, İranın Rəşt və Məşhəd şəhərlərində də mətbəələr açılmışdı. Həmin dövrdə İranda mətbəə açmaq və kitab nəşri işi bu sahədə şöhrət qazanmış azərb.-lara (xüsusilə Tehranda Fətəli şahın göstərişi ilə bir sıra əsərləri nəşrə hazırlayaraq çap etmiş, İsfahanda ilk mətbəəni qurub işə salmış Ağa Zeynalabdin Təbriziyə) həvalə olunurdu. İlk mətbəə C.A.-da yaradıldığına və çap sənəti ölkəyə buradan yayıldığına görə İran ərazisində uzun müddət mətbəə Azərb. dilində "basmaxana", çap ustaları "basmaçı" adlandırılmışdır. C.A.-ın, həmçinin İranın ilk naşiri və publisisti, şəxsi mətbəə sahibi azərb. Mirzə Cabbar Təzkirəçi (Nazimülmüham) Tehran qəzetləri üçün Avropa qəzetlərindən elm, mədəniyyət və sənaye yenilikləri ilə bağlı məqalələri tərcümə etmişdir. Burada ilk tərcümə kitabı 1819 ildə Təbrizdə çap edilmiş, 1871 ildə isə İranda ilk tərcümə idarəsi "Darültərcümə" yaradılmışdır. C.A.-da ilk vaxtlarda klassik Şərq ədəbiyyatı nümunələri, mədhiyyələr, tarixi və dini sxolastik əsərlər nəşr olunmuş, 1850–52 illərdə Füzuli və Nəbatinin əsərlərinin, 1855 ildə isə Əhməd Fazil Ərdəbilinin (16-cı əsr) Azərb. dilində yazdığı "Əqaide-İslam" dini-tarixi əsərin nəşri ilə Azərb. dillində kitab nəşrinin əsası qoyulmuşdur. Baş nazir Mirzə Tağı xan Əmir Kəbirin apardığı islahatlar nəticəsində 1851–52 illərdə Təbriz mətbəələrində artıq fransız dilindən tərcümələr əsasında hazırlanmış 288 səhifəlik coğrafiya kitabı, həmçinin Volterin "Böyük Pyotr", "On ikinci Karl" və ingilis yazıçısı Kempbelin "Böyük İskəndər" adlı tarixi-bioqrafik əsəri nəşr olunmuşdu. Əmir Kəbir öldürüləndən son-


CƏNUBİ AZƏRBAYCAN

ra belə kitabların nəşri dayandırılmışdır.

C.A.-da kitab nəşri 1880–90 illərdə yeni vüsət almış, Təbrizdə daha çox Avropa dillərindən tərcümələr əsasında tərtib edilən kitablar, xüsusilə coğrafiya kitabları (Mirzə Rəfiəddin xanın "Coğrafiya elminin əsasları", "Əyləncəli coğrafiya", Mirzə Seyidəli xan Vüqarülmülk Təbrizinin bir sıra əsərləri, M.Tərbiyətin "İnsanlar və ölkələr" əsəri və s.) nəşr olunmuşdur. XIX əsrin sonlarında milli şüurun oyanması mütərəqqi dövri mətbuatın yaranmasını sürətləndirməklə yanaşı, kitabların da mövzusunu və məzmununu dəyişmiş, Təbrizdə Azərb. tarixinə dair əsərlər və hər iki tayda yaranan ədəbi nümunələr doğma dildə çap edilmişdir. C.A.-da dövlət dilinin fars dilində olması və əsərlərin üzünün xəttatlar tərəfindən köçürüldükdən sonra çap edilməsi burada kitab nəşrinin inkişafını ləngidən amillərdən idi.

**Mətbuat.** C.A.-da ilk qəzetin 1837-38 illərdə Mirzə Saleh tərəfindən nəşr edildiyi bildirilsə də, bu haqda başqa məlumat olmadığından mətbuat tarixi 19 əsrin 2-ci yarısından, 1858 ildə Təbrizdə hökumətin rəsmi orqanı kimi fars dilində nəşr edilən "Əxbare Darüssəltəneye Azərbaycan" ("Azərbaycan") qəzeti ilə başlayır. 1880 ildə "Təbriz" adlı ilk özəl qəzetin, 1884 ildə isə "Mədəniyyət" qəzetinin nəşrə başlaması ilə ictimai fikri əks etdirən ilk mətbu orqanları meydana gəlmiş, 1893–99 illərdə (bəzi məlumatlara görə 1893–96) Nəsirəddin şahın əmri ilə Təbrizdə Azərb. dilində "Nasiri" adlı qəzet çıxmışdır.

C.A.-da qəzet və jurnallar, əsasən, fars dilində çıxdığından bir sıra milli xüsusiyyətləri əks etdirmir, təzyiqlərə görə qısa ömürlü olur, digər tərəfdən İran mühitində mətbuatın ictimai-siyasi reallıqları əks etdirməməsi və başqa amillər mütərəqqi mətbuatın yaranmasını ləngidirdi. Buna görə də M.F.Axundzadə 1871 ildə "Kritika–yüksək İranın "Millət" qəzeti münşisinə" adlı məqaləsində İran mətbuatını tənqid edərək, mütərəqqi mətbuatı yaratmağa çağırmışdı. Şimali Azərb.-da 1875 ildən nəşrə başlayan "Əkinçi" qəzetinin C.A.-da milli mətbuatın yaranmasına və yayılmasına ciddi təsiri olmuşdur. Ümumiyyətlə, Şimali Azərb.-ın mütərəqqi mətbuatının C.A. mətbuatına təsiri daim, xüsusilə mühüm siyasi hadisələrin baş verdiyi 1905–11;1917–20 illərdə güclü idi.

Mütərəqqi mətbuatın yaranıb formalaşmasında 19-cu əsrin 70-ci illərindən xaricə mühacirətə məcbur olan demokratik düşüncəli azərb. naşirlər və ictimai xadimlərin nəşr etdikləri qəzetlərin xüsusi rolu olmuşdur. 1875 ildə İstanbulda *"Əxtər"* ("Ulduz") adlı ilk mühacir qəzeti nəşr edilmişdir. "Əxtər"in naşiri və redaktorları görkəmli azərb. alim və publisistlər Məhəmməd Tahir Təbrizi və Mirzə Mehdi Əxtər idi. Qəzetin nəşrində Məhəmməd Tofiq Xəbirülmülk, Şeyx Əhməd Ruhi, Mirzə Əbdürrəhim Talıbov kimi azərb.-larla birlikdə farslar – Ağaxan Kirmani, Mirzə Həbib İsfahani də iştirak etmişlər. 1895 ildə "Əxtər"in Türkiyədə nəşri qadağan olunmuşdur. Türkiyəyə mühacirət edən Azərb. maarifçisi M.Ə.Talıbov 1888 ildə İstanbulda C.A., həmçinin İran mətbuatının ilk satirik istiqamətli qəzeti olan *"Şahsevən"*in (xəttat Seyid Məhəmməd Şəbüstəri, 300 tirajla) nəşrinə başlamışdı. C.A.-ın mətbuat tarixində İran rejiminin ölkəni tərk etməyə məcbur etdiyi Azərb. ziyalılarının, tarixi 1875 ildən başlayan və hələ də davam edən mühacirət mətbuatının xüsusi yeri var.



1893–98 illərdə ildə Təbrizdə azərb. dilində nəşr edilən "Nasiri" qəzeti.

C.A. və İran mütərəqqi mətbuatının yaranmasında 19-cu əsrin sonlarında mühacir maarifçi-demokrat qəzetləri tərəfindən nəşr edilib İrana gizli gətirilən kitabçaların və gecə vərəqələrinin də böyük rolu olmuşdur. İnqilab illərində əsas təbliğat vasitəsinə çevrilən "kiçik mətbuat"ın – gecə vərəqələrinin nəşri genişlənmişdi. Məhəmmədəli Tərbiyət "Danişməndane Azərbaycan"da 1892 ildə Təbrizdə Azərb. türkcəsində "Şəbnamə" ("Gecə vərəqələri", müdiri Əliqulu Səfərov, mühərriri Seyid Hüseynxan Ədalət) adlı 1 səh.-lik satirik (karikatura və məqalədən ibarət) qəzetin nəşrə başlaması haqda məlumat vermişdi. C.A., həmçinin İran mətbuat tarixində *"Gəncineyi-fünun"* ("Fənlərin xəzinəsi", ayda iki dəfə) adlı ilk jurnalı 1902-03 illərdə M.Tərbiyət S.H.Ədalət və Seyid Həsən Tağızadə ilə birlikdə Təbrizdə nəşr etmişdi. İran inqilabı ərəfəsində C.A.-da mütərəqqi fikrin yayılmasına, elmin və ədəbiyyatın təbliğinə xidmət göstərən jurnalın fəaliyyəti qadağan edilmiş, M.Tərbiyət isə mühacirətə getməyə məcbur olmuşdu. Təbrizdə çıxan "Əlhədid" (1897; red. S.H.Ədalət), "Ədəb" (1898; red. Ədibülməmalik), *"Ehtiyac"* (1898; daha sonra "İqbal), "Kamal" (1899; Mirzə Hüseyn Təbibzadə), "Məarifət" (1901; Abdulla Cahanşahi) kimi mütərəqqi qəzetlərin nəşri də təzyiqlərə görə uzun sürməmişdir.

1905–11 illər İran inqilabına qədər C.A.-da 18 adda qəzet və jurnal buraxılmışdı. Bu dövrdə "Azərbaycan" (1904; 1907), "Ana dili" (1909), "Təbriz" (1910), "Müsavat" (1908), "Əncümən" (1905-07; bəzi mənbələrə görə 1909), "Ədalət" (1906), "Məzəli", "Fəryad" (1907), "Zənbur" (1909), "Mücahid", "Mükafat" (1909), "İslam" (1911) və s. qəzet və jurnallar dərc olunurdu (bəziləri müxtəlif vaxtlarda Bakıda). İran mətbuatına siyasi karikatura və felyeton janrlarını gətirən "Azərbaycan" jurnalının təsiri altında Təbrizdə "Buqələmun", "Kəsalət", "Tənqid" kimi satirik qəzet və jurnalların nəşri başladı. Bununla da C.A.-da və İranda antiimperialist ruhlu satirik mətbuatın əsası qoyuldu. 1911 ildə İstanbulda azərb. ziyalılar tərəfindən Azərb. və fars dillərində demokratik və antiimperialist mövqeli satirik "Şeyda" qəzeti (red. Hacı Həsən Cəfərzadə) nəşr olunurdu. İnqilab dövründə mətbu orqanlarının sayı 50-yə çatmışdı. Azərb. Əyalət Əncümənin "Naleyi millət" (1909, ilk adı "Nəvayi millət") adlı həftəlik qəzeti Təbrizdə fars və azərb. dillərində (cəmi 22 sayı) nəşr edilirdi. 1910–11 illərdə xalq hərəkatını müdafiə edən burjua-demokratik mətbuatı (Təbrizdə "Şəfəq", "Təbriz", Xoyda "İslah", "Mükafat", Urmiyada "Fərvərdin" qəzetləri) əsasən qeyri-leqal yolla dərc olunur, gizli vərəqələr və kitabçalar çap edib yayırdı. Ə.Səfərov, Seyid Məhəmməd Əbülziya (Şəbüstəri),





S.H.Ədalət, Mirzağa Naleye-Millət, Ziyaülüləma, M.Tərbiyət, M.Qənizadə, S.Salmasi, S.H.Şərifzadə, M.Həkkakbaşı, H.Ə.Davafürüş, Mahmud Əşrəfzadə, Mirzə Qafarxan Zunuzi (Siyahpuş), Nurullaxan Yekani, Mirzə Hüseyn Kamal, Əhməd Süheyli, Seyid Ələkbər Vəkili, İsmayıl Yekani, Mirzağa Mərəndi (Mükafat) və başqa naşir və publisistlər çətin şəraitdə siyasi publisistikanı inkişaf etdirdilər.

İran inqilabının məğlubiyyətindən sonra ölkədə qəzet və jurnalların əksəriyyəti bağlansa da, 1917 ildə Rusiyada baş verən Fevral inqilabının təsiri ilə mətbuat yenidən inkişaf etməyə başladı. "Molla Nəsrəddin" ənənələrinə əsaslanan və C.A.-da İran inqilabı dövründən formalaşmağa başlayan ictimai-siyasi publisistika bu illərdə aparıcı janrlardan birinə çevrildi. Bu janrın nümayəndələrindən olan S.M.Əbülziya (Şəbüstəri) və Seyid Hüseyn Ədalətin "İrane-nou" (1909-11), "Ana dili" (1909), "Ədalət" (1906) qəzetlərindəki felyetonları, Cəmşid Ərdəşir Əfşarın pamflet və esseləri xüsusi əhəmiyyət kəsb edirdi.

Milli azadlıq hərəkatı dövründə C.A.-da nəşr olunan qəzetlər arasında ən əhəmiyyətlisi əsası Əbülqasim Füyuzat və Şeyx Məhəmməd Xiyabani tərəfindən qoyulan *"Təcəddüd"* (1917, "Yeniləşmə") qəzeti idi. C.A.-da milli azadlıq hərəkatı (1917-20) dövründə Azərb. Əyalət Komitəsinin mətbu orqanı – "Təcəddüd" qəzeti fars dilində həftəlik nəşr olunurdu. C.A.-da milli–azadlıq hərəkatının başlamasında Azərbaycan Demokrat Firqəsinin Bakıdakı təşkilatının *"Azərbaycan"* (1918) və Təbrizdəki "Təcəddüd" qəzetlərinin əhəmiyyətli rolu olmuşdur. ADF silahlı üsyan planını 1920 ilin 6 aprelində "Təcəddüd" qəzetinin redaksiyasında hazırlamış, Milli Hökumət (MH) 1920 il iyunun 23-nə qədər "Təcəddüd" qəzeti redaksiyasının binasında yerləşmişdir. Həmin il sentyabrın 14-ndə "Təcəddüd" qəzetinin binası əksinqilabçı qüvvələr tərəfindən dağıdıldı. Bundan sonra gənclər təşkilatının mətbu orqanı *"Azadistan"* dərgisi (1920, redaktoru Mirzə Tağıxan Rəfət) nəşrə başladı.

1920-30-cu illərdə İranda dövlət səviyyəsində aparılan ayrı-seçkilik və farslaşdırma siyasəti C.A.-da vəziyyəti gərginləşdirdi: ana dilində danışmaq, təhsil almaq, qəzet və kitab nəşr etmək qadağan olunmuşdu.

C.A.-ın mətbuat tarixində demokratik hərəkatın yüksəldiyi 1941–45 illər demokratik ruhlu, 1945–46 illər Azərb. dilli milli demokratik mətbuatın vüsət aldığı dövr kimi xarakterizə olunur. İXP yaradıldıqdan (1941, sentyabr) sonra C.A.-da demokratik ruhlu qəzet və jurnallar (Təbrizdə "Azərbaycan", *"Azad millət"*, "Setareye Azərbaycan", "Ədəbiyyat səhifəsi", "Yumruq", Urmiyada "Keyvan" və s.) nəşrə başladı. "Azərbaycan cəmiyyəti"nin mətbu orqanı *"Azərbaycan"* qəzeti demokratik və milli qüvvələrin səfərbər edilməsində mühüm rol oynadı. Lakin 1942 ilin əvvəllərində cəmiyyətin və qəzetin fəaliyyəti qadağan olundu. Bu dövrdə Azərb. türkcəsi ictimai-siyasi əhəmiyyət kəsb edən mühüm amilə çevrilmişdi. 1942–44 illərdə bir sıra nüfuzlu qəzetlər Azərb. dilində çıxırdı.



1845–46 illərdə Təbrizdə azərb. dilində nəşr edilən "Azad millət" qəzeti.

C.A.-da mədəniyyətin inkişafında Şimali Azərb.-ın təsiri və rolu həlledici əhəmiyyətə malik idi. Sovet ordusu İran ərazisinə daxil olarkən dövlət rəhbərliyi Şimali Azərb.-dan göndərilənlərə C.A.-ın milli-mədəni və siyasi dirçəlişinə yardım etmək tapşırığı da vermişdi. C.A.-da sovet ordusunun azərb. zabit və əsgərləri üçün 1941 il oktyabrın 11-ndən Azərb. dilində ərəb qrafikası ilə nəşr olunan, əslində isə yerli əhali üçün nəzərdə tutulan *"Vətən yolunda"* (Təbriz) və *"Qızıl əsgər"* (Urmiya) qəzetləri burada ədəbi dilin formalaşmasında və milli şüurun genişlənməsində mühüm rol oynadı. 1941–45 illərdə Təbrizdə Məhəmməd Biriyanın nəşr etdiyi "Ədəbiyyat səhifəsi", 1943–44 illərdə S.C.Pişəvərinin rəhbərliyi ilə Tehranda nəşr olunan *"Ajir"* ("Həyəcan"), 1945 ildə "Azərbaycan", 1946 ildə "Azad millət" qəzetləri Azərb. dilində çıxırdı. Əsas təbliğat vasitələrindən olan qəzetlərin, həmçinin dərsliklərin nəşri çap işinin inkişafını sürətləndirdi. O dövrdə C.A.-da Azərb dilində 50-yə yaxın qəzet və jurnal nəşr olunmuş, radio st.-sı yaradılmışdı. Azərb. Milli Hökumətinin devrilməsindən 1978-79-cu illər inqilabına kimi C.A.-da Azərb. dilinin mətbuatda işlədilməsi qadağan olunmuşdu. Təbrizdə 1950 ildən nəşrə başlayan *"Azər Abadiqan"* qəzeti Azərb. və fars dillərində çıxırdı. Həmin dövrdə C.A.-da 20-yə yaxın müxtəlif ideya istiqamətli qəzet və jurnal fars dilində çap olunurdu, burada 70-ci illərin sonlarında fars, ingilis və fransız dillərində 5 qəzetin (3-ü Təbrizdə, 2-si Ərdəbil və Zəncanda) və 10 jurnalın (9-u Təbrizdə, 1-i Zəncanda) nəşr edilməsinə baxmayaraq, Azərb. dilində heç bir mətbu orqanı nəşr edilmirdi. 1978-79 illər İran inqilabından sonra Azərb.dilli mətbuat yenidən öz fəaliyyətini bərpa etdi. "Koroğlu", "Yoldaş", "İnqilab yolunda" jurnalları "21 Azər" hərəkatının başvermə səbəblərini araşdıran xüsusi məqalələr dərc etməyə başladı. Tehranda rəsmi "Ettelaat", həmçininn "Səhənd", "Keyhane həvayi" qəzetlərinin "Yol" adı ilə Azərb. dilində əlavələri, 1991 ilin əvvəllərindən "Yol" və "İslami birlik" jurnalları nəşr olunur. Təbrizdə Azərb. və fars dilərində çıxan "Foruqe azadi" ("Azadlıq işığı") qəzeti nəşrini davam etdirir.

1978–79 il İran inqilabından sonra C.A.-da Azərb. dilində "Azadlıq", "Azərbadaqan", "Azərbaycan-ayəndə", "Azərbaycanın səsi", "Ərk", "Körpü", "Günəş", "Odlar yurdu", "Səhənd" və s. qəzetlər, "Azərbaycan əncüməni", "Çənlibel", "Dədə Qorqud", "Ettelaate Azərbaycan", "Yaşıl yarpaqlar", "Ulduz", "Varlıq" və s. jurnalllar nəşr olunurdu. Lakin 1983 ildə milli dillərdə nəşr olunan, o cümlədən C.A.-da çıxan qəzet və jurnalların əksəriyyəti bağlandı, 1980-ci ilin sonlarından bu məhdudiyyətlərin tədricən aradan qaldırılmasına başlandı.

**Radio və televiziya.** C.A.-da ilk radiostansiya 1946 ildə Milli Hökumət tərəfindən yaradılmışdı. 1957 və 1967 illərdə Təbrizdə, 1964 və 1968 illərdə Urmiyada müxtəlif gücə malik və müxtəlif dalğalarda veriliş aparan radiostansiyalar təşkil edildi. İranda "ağ inqilab" adı ilə aparılan islahatlardan sonra yerli radiostan-

siyalarda Azərb. dilindəki verilişlərin sayı və müddəti nisbətən artırıldı. İran dövlətinin radio və televiziyanın inkişafına xüsusi əhəmiyyət verməsi əslində bundan əhaliyə ideoloji təsir vasitəsi kimi istifadə etmək məqsədi daşıyırdı. 60-cı illərdə Təbriz və Urmiya radiolarında Azərb. dilində musiqi, dini, siyasi və ədəbi verilişlərin sayı az da olsa, artırıldı, ən böyük radiostansiya sayılan "Sədaye İran"da verilişlərin vaxtı gün ərzində iki saat uzadıldı. Bu verilişlərin əsas hissəsini müsiqi proqramları təşkil edir, xəbərlər və digər verilişlər birmənalı olaraq, azərb.-ları mövcud rejimə qarşı mübarizədən çəkindirmək məqsədi daşıyırdı. 70-ci illərin sonunda ümumiyyətlə, həm mərkəzi, həm də yerli radio və televiziyalarda Azərb. dilində verilişlər dayandırıldı, yalnız ucqarlarda yaşayan əhali üçün Təbriz, Urmiya və Ərdəbil şəbəkələrində güclü senzuranın nəzarəti altında beş dəqiqəlik verilişlər yayımlanmağa başladı.

C.A.-da ilk televiziya st.-sı 1972 ildə yaradılmış, Təbriz və Urmiyada televiziya st.-ları, Miyandoabda isə ötürücü st. mövcud olmuşdur. 1978–79 illər İran inqilabı ərəfəsində Zəncanda və Ərdəbildə televiziya mərkəzləri yaradılmışdır. C.A.-ın radio və televiziya sistemi texnoloji baxımdan yeniləşsə də, verilişlərin məzmununda heç bir keyfiyyət dəyişikliyi edilməmişdir. 1987 ildən sonra C.A.-ın bir sıra şəhərlərində yayımlanan radiolarda Azərb. dilində proqramlara diqqət artılırılmış, Təbriz radiosunda belə verilişlərin müddəti 10 saata çatdırılmışdır.

**Kitabxanalar.** 11–13 əsrlərdə Azərbaycanın iri mədəniyyət və təhsil mərkəzlərində saray kitabxanaları təşkil edildi. Belə kitabxanaların Təbriz, Gəncə, Şamaxı və s. şəhərlərdə olması barədə Nizaminin, Xaqaninin, digər alim və şairlərin əsərlərində məlumat vardır. Qəzvin ş.-nin şm.-ında yerləşən Ələmut qalasındakı "Seyyidanə" kitabxanası 12 əsrin 90-cı illərində fəaliyyətə başlamışdır. Qala və kitabxana İsmaililər dövlətinin banisi Həsən Səbbah (1055–1124) tərəfindən yaradılmışdır. "Seyyidanə" kitabxanasının Azərbaycanla yanaşı, xarici ölkələrdə də oxucuları var idi. Nəsirəddin Tusi 13 əsrin 30-cu illərində Kuhistanda həbs olunub Ələmut qalasında saxlandığı dövrdə bu kitabxanada işləmiş, bir neçə ilə həmin kitabxananın müdiri olmuşdur.

13 əsrdə Təbrizdə Qazan xanın sarayında zəngin kitabxana təşkil olunmuş, bu məqsədlə xüsusi bina tikilmişdir. Dövlət kitabxanası hüququna malik həmin kitabxanada qiymətli elmi və dini əsərlərlə yanaşı dövlət fərmanları, diplomatik məktublar və digər rəsmi sənədlər də toplanmışdır. Kitabxananın idarə olunması xüsusi kitabdarlar tərəfindən həyata keçirilmişdir.

Təbrizin Qazan adlanan hissəsində daha iki böyük dövlət əhəmiyyətli kitabxana olmuşdur: "Beytül-kütub" ("Kitab evi") və "Beytül-qanun" ("Qanun evi"). Bu kitabxanalarda müxtəlif elm sahələrinə dair zəngin əlyazmaları mühafizə edilmişdir. 1300 ildə görkəmli alim Fəzlullah Rəşidəddin tərəfindən Təbrizin şm.-ş.-ində salınmış "Rəbi-Rəşidi" şəhərciyindəki un-tin zəngin kitabxanası olmuş, bu kitabxanada bir çox Şərq ölkələrindən gətirilmiş müxtəlif elm sahələrinə dair 60 mindən artıq ədəbiyyat saxlanılmışdır.

Böyük alim N. Tusinin (bilavasitə rəhbərliyi və iştirakı ilə 1258–61 illərdə yaradılmış) Marağa rəsədxanasının kitabxanası olmuşdur. Burada müxtəlif elm sahələrinə dair kitablar, o cümlədən N. Tusinin özünün 100-dən artıq əsəri vardı. Kitabxana fondunun ümumi həcmi 400 min nüsxə idi.

Səfəvi hökmdarı I Şah İsmayıl (Xətai) tərəfindən yaradılmış Təbriz saray kitabxanasında Şərqin böyük klassiklərindən Nizaminin, Firdövsinin, Sədinin, Hafizin, Əssar Təbrizinin qiymətli əlyazmaları vardı. Kitabxananın nəzdində həmçinin əlyazma kitablarını hazırlayan, köçürən, miniatürlərlə bəzəyən, cildləyən, bədii tərtibatını təmin edən emalatxana da fəaliyyət göstərirdi. 1522 ildə I Şah İsmayıl tərəfindən kitabxananın fəaliyyətinə dair xüsusi fərman imzalanmış, bu fərmanla görkəmli rəssam *Kəmaləddin Behzad* kitabxananın rəisi vəzifəsinə təyin olunmuşdu. 1545 ildə Təbriz saray kitabxanasında beş məşhur xəttat, 8 ustad rəssam, 3 müzəhhib, 1 cildçi çalışırdı.

I Şah İsmayıl tərəfindən ikinci kitabxana Ərdəbildə, babası Şeyx Səfinin şərəfinə tikdirdiyi məqbərənin nəzdində yaradılmış və bu elm, mədəniyyət ocağı kitabxana işi tarixində Şeyx Səfi kitabxanası kimi məşhurlaşmışdır. Səfəvilər sülaləsinin hakimiyyətdə olduğu 235 il ərzində fəaliyyət göstərən bu kitabxanaya I Şah İsmayıldan sonra bütün Səfəvi hökmdarları tərəfindən qiymətli kitabların hədiyyə edilməsi ənənəyə çevrilmişdi. 17–18 əsrlərdə bu kitabxanada olmuş bir sıra Avropa alimləri, səyyahlar və elçilər orada saxlanılan qiymətli əlyazmalar haqqında məlumatlar vermişlər. 1852 ildə Ərdəbilə daxil olan rus qoşunlarının başçısı general Suxtelen Şeyx Səfi kitabxanasının bütün kitablarını A. S. Qriboyedovun köməyi ilə Sankt-Peterburq İmperator Kitabxanasına (indiki Saltıkov-Şedrin adına Rusiya Milli Kitabxanası) göndərmiş və bu kitablar həmin kitabxananın Şərq fondunun əsasını təşkil etmişdir (əlyazmaların əksəriyyəti indi də orada saxlanılmaqdadır).

C.A.-da ilk kütləvi kitabxana 1921 ildə Təbrizdə tanınmış maarifçi *Məhəmmədəli Tərbiyət* (1877–1940) tərəfindən yaradılmışdır. Əvvəlcə "Məarife – ümumi kitabxana və qəraətxana" adlanan kitabxanaya sonralar təsisçinin adı verilmişdir. 1956 ildə Təbriz Milli Kitabxanası yaradılarkən [ilk başçısı azərb. filoloq *Əziz Dövlətabadi* (1922–2009) olmuşdur] Tərbiyət kitabxanasının əlyazması nüsxələri oraya aparılmışdır. İranın ilk səbt kitabı Rəb rəsidi və vəqfnaməsi bu kitaxbanada saxlanılır. C.A.-nın ilk ictimai kitabxanası 1924 ildə Astarada (İran) yaradılmışdır. Kitabxanada 15 min nüsxə kitab saxlanılır, 783 nəfər abunəçisi var (2014). 2009 ildə Azərb. Resp. və İran kitabxanaları arasında sərgilərin, seminarların, konfransların, elmi-mədəni toplantıların keçirilməsinə dair razılaşma imzalanmışdır.

*Əd.:* Т а г и е в а Ш. Национально-освободительное движение в Иранском Азербайджанс (1917-1920). Б., 1956; M ə r d a n o v M. Xatirələrim. B., 1969; S a d ı q. Təbriz teatrı tarixindən, onun "Seçilmiş əsərləri" kitabında. B., 1971; Ə l i y e v M. Xatirələrim. B., 1974; A ğ a s i N.M. Müasir İran. B., 1976; B i l l u r i H. Məhəmməd-Hüseyn Şəhriyar. B.,1984; Cənubi Azərbaycan tarixinin oçerki (1828–1917). B., 1985; Ç e ş m a z ə r M.M. ADP-nin yaranması və fəaliyyəti (1945–1946). B., 1986; Cənubi Azəıbaycan ədəbiyyatı antalogiyası, 4 cilddə, c.1–4, B., 1981–1994; T a ğ ı y e v a Ş. 1920-ci il Təbriz üsyanı. B., 1990; A l m a z Ə l i q ı z ı: Güney Azərbaycan ədəbiyyatı. B., 1998; T a ğ ı y e v a Ş., R ə h i m l i Ə., B a y r a m z a d ə S. Güney Azərbaycan. B., 2000; E. U z u n. Güney Azcrbaycan basın tarihi (1816–2002). Trabzon, 2002; R ə h i m l i Ə. Güney Azərbaycanda milli-demokratik hərəkat. B., 2003; H ə s ə n l i C. Soyuq müharibənin başladığı yer – Güney Azərbaycan (1945–1946). B., 1999; y e n ə o n u n, Cənubi Azərbaycan ədəbiyyatı məsələləri. B; 2005; Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, c. 1–2, B., 2004–2007; N a z i m R i z v a n. Cənubi Azərbaycan ədəbiyyatının yeni inkişaf mərhələsi (1850–1920-ci illər). B., 2005; Azərbaycan tarixi. B., 2009; C a v a d H e y ə t. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda, c. 1, B., 2011.





**CƏNUBİ AZƏRBAYCAN ŞAİR VƏ ƏDİBLƏR CƏMİYYƏTİ** – bax *Azərbaycan Şair və Ədiblər Cəmiyyəti; Cənubi Azərbaycan. Ədəbiyyat.*

**CƏNUBİ AZƏRBAYCAN SOYQIRIMI (1917–18)** – erməni və aysor silahlı birləşmələrinin Cənubi Azərb.-da türk-müsəlman əhalisinə qarşı törətdiyi soyqırımı. Rusiya və ABŞ-ın himayəsinə arxalanan erməni-aysor hərbi birləşmələri əvvəlcə Urmiya ş. ətrafında mövqe tutaraq, yerli əhalini soyub-talayır, gündüz barışıq vəd etsələr də, gecələr şəhərin ayrı-ayrı məhəllələrini yandırıb, viran qoyurdular. Onların bu cinayətlərdə toplardan da istifadə etməsi əhali arasında böyük təlaşa səbəb olurdu. S.Ə.Kəsrəvinin yazdığına görə, şəhəri top atəşinə tutan ermənilər əhali arasında vahimə yaradır, dinc əhaliyə divan tutur, evləri yandırır, kütləvi qətl-qarət törədirdilər. 1918 il martın 17-də, ilaxır çərşənbədə erməni daşnakları və aysorlar 500-dən çox evi odlayıb, 10 mindən çox azərb.-nı qətlə yetirdilər. Xalq arasında "Urmi bəlvası" kimi adlanan bu qanlı faciələr indi də xatirələrdən silinməmişdir.

Urmiya, Səlmas, Xoy, Maku, Dilməqan şəhərlərində və ətraf kəndlərdə azərb.-ların soyqırımı davam etdiyi vaxt Osmanlı ordusu köməyə gəldi. 1918 ilin iyununda Xoy ş.-nə çatan türk ordusu oradan Səlmasa doğru hərəkət etdi. Bir neçə günlük döyüşlərdən sonra darmadağın edilən ermənilər qaçmağa başladılar; onlar geri çəkilərkən belə, kəndlərə od vurur, insanları qətlə yetirirdilər.

Həmin vaxt daşnak Andronik erməni-aysor qoşunu ilə birləşmək üçün 8 min nəfərlik hərbi qüvvə ilə Culfa yolundan hərəkət etdi. Ermənilər Xoy ş.-ni ələ keçirib, əhalini qırdıqdan sonra özləri ilə gətirdikləri 10 min erməni ailəsini burada yerləşdirmək və Azərb.-ın bu hissəsini Ermənistana birləşdirmək niyyətində idilər. 1918 il iyunun 24-də Andronikin qoşunu Xoy ş.-ni mühasirəyə aldı. Ermənilər Urmiyada törətdikləri vəhşilikləri burada da davam etdirdilər. Silahlı müdafiə dəstələri yaradan şəhər sakinləri düşmənə ciddi müqavimət göstərdilər. Şəhərin müdafiəsində qadınlar da iştirak edirdilər. Şəhəri top atəşinə tutan ermənilər Səlmas tərəfdən Osmanlı ordusunun yaxınlaşdığını gördükdə geri döndülər. Ermənilər zəif müdafiə olunan şəhər və kəndlərə basqınlar edir, yeni faciələr törədirdilər.

1917–18 illərdə Cənubi Azərb.-ın qərb bölgələrində onlarla şəhər və kənd viran qoyuldu, talan edildi, 190 minə yaxın azərb. qətlə yetirildi.



Cənubi Buq çayı.

**CƏNUBİ BUQ** – Ukraynanın c.-q.-ində çay. Uz. 806 *km*, hövzəsinin sah. 63,7 min $km^2$. Podol yüksəkliyi və Qaradənizyanı ovalıqla axır. Qara dənizin Dnepr limanına tökülür. Yuxarı axını bataqlıqlaşmış ərazidən keçir; orta axınında astanalar var. Əsas qolları: sağdan Kodıma, Savranka; soldan Sinyuxa, İnqul. Qarışıq mənbədən qidalanır. Ortaillik su sərfi Aleksandrovka k. yaxınlığında 87,6 $m^3/san$. Noyabrdan fevraladək donmuş olur. Fevralın sonu mayın əvvəlinə qədər gursuludur. C.B. hövzəsində ümumi sah. 268 $km^2$ olan 4 min göl və su anbarları var. Mənsəbindən Vinnitsa ş.-nədək gəmiçiliyə yararlıdır. Balıq (suf, durnabalığı, xulbalıq, çömçə balığı) ovlanır. Suvarmada istifadə olunur. SES-lər var. Xmelnitski, Xmelnik, Vinnitsa, Qayvoron, Pervomaysk, Voznesensk, Nikolayev ş.-ləri C.B. sahilindədir.

**CƏNUBİ ÇEXİYA VİLAYƏTİ** – Çexiyanın c.-unda inz. ərazi. Sah. 10056 $km^2$. Əh. 636,4 min (2013). İnz. m. Çeske-Budeyovitse ş.-dir.

**CƏNUBİ ÇƏLƏKƏN** – Xəzər dənizinin ş.-ində Türkmən körfəzinin şm. hissəsi. Çələkən y-a-nın c. sahilindədir. Xəzər dənizindən Dərviş y-a və Cənubi Çələkən dili ilə ayrılır. Uz. təqr. 20 *km*, eni 35 *km*, dərinliyi 5–7 *m*. Alaca portu var.

**CƏNUBİ ÇİN DAĞLARI** – Şərqi Çinin c.-unda, Cənubi Çin platforması hüdudlarında dağlar. C.-ş.-ə doğru uz. təqr. 2000 *km* olan qövs əmələ gətirir. Bir neçə dağ silsiləsi (Nanlin, Uişan) və massivindən ibarətdir. 800–1000 *m* yüksəkliklər üstünlük təşkil edir. Ən yüksək nöqtəsi 2158 *m*-dir. Silsilənin ox zonası, əsasən, qranit və digər kristallik süxurlardan ibarətdir; ətrafında əhəngdaşıları, qumdaşıları, gil şistləri yayılmışdır; karst inkişaf etmişdir. C.Ç.d. mühüm iqlimayırıcıdır; ondan şm.-da subtropik, c.-da isə tropik landşaftlar üstünlük təşkil edir. Şm. yamaclarında enliyarpaqlı (palıd, qarağac, vələs, fıstıq), c.-unda həmişəyaşıl (dəfnə ağacı, maqnoliya və s.) meşələr yayılmışdır. Meşə yasaqlıqları (o cümlədən Uişan) var.

**CƏNUBİ ÇİN DƏNİZİ** – Sakit okeanın q.-ində, Cənub-Şərqi Asiya sahillərində, Hind-Çin və Malakka yarımadaları ilə Kalimantan, Palavan, Luson və Tayvan adaları arasında yarımqapalı dəniz. Dənizi şm.-da Tayvan boğazı Şərqi Çin dənizi, şm.-ş.-də Başi və Luson boğazları Sakit okean, ş.-də Balasbak boğazı Sulu dənizi, c.-q.-də Sinqapur boğazı Hind okeanı, c.-da Karimata boğazı Yava dənizi ilə birləşdirir. Sah. 3537 min $km^2$, maks. dərinliyi 5560 *m*-dir. Sahil xətti zəif parçalanmışdır; körfəzləri (ən böyükləri: Bakbo, Siam) və adaları (ən böyüyü Haynan) var. C.Ç.d-nə iri çaylar (Sinszyan, Xonqxa, Mekonq, Menam-Çao-Praya) tökülür. İqlimi tropik, c.-da ekvatorial mussondur. Qışda şm.-ş., yayda c. və c.-q. küləkləri üstünlük təşkil edir. Yay və payızda tez-tez tayfunlar olur. Suyunun temp-u fevralda 20–27°C, avqustda 28–29°C, duzluluğu 31–34‰-dir. Yağıntının illik miqdar 2000–2500 *mm*. Qabar-



Cənubi Çin dağları. Uişan silsiləsi.

malar (4 *m*-ədək) sutkalıq və yarımsutkalıq olur. Balıq (tunes, siyənək, sardina və s.) ovlanır. Mühüm portları: Banqkok (Tayland), Syanqan, Quançjou (Çin), Xoşimin, Hayfon (Vyetnam), Manila (Filippin).

**CƏNUBİ ÇİN PLATFORMASI**, Yanszı platforması – Çinin c.-ş.-inin bir hissəsini əhatə edən qədim platforma. *Çin-Koreya platformasından* Paleozoy qırışıqlıq qurşağı (Sinlin silsiləsi) ilə ayrılır. Platforma səthinin böyük hissəsi Son Proterozoyun Siniy, Paleozoy və Mezozoyun dəniz və kontinental çöküntüləri ilə örtülmüşdür. Bu çöküntülərin qalınlığı Sıçuan əyalətindəki sineklizdə (depressiyada) və Yunnan-Quyçjou yaylasının mərkəzi hissəsində bir neçə *km*-ə çatır. Kembriyəqədər yaşlı kristallik bünövrə (qneyslər, metamorfik şistlər) yalnız Yanszı çayından c.-da səthə çıxır. Sıçuan sineklizi də daxil olmaqla platformanın q. hissəsi Son Proterozoy qırışıqlığı, ş. hissəsi isə Silur dövrünün sonunda Kaledon qırışıqlığı prosesində konsolidə olunmuş plitələrdən ibarətdir. C.Ç.p.-nın bütün ərazisi Tabaşir dövrünün sonunda intensiv deformasiyalara məruz qalmışdır. Platforma ərazisində volfram, qalay, sürmə, civə, boksit, dəmir və manqan filizi, daş kömür, yanar şist, neft və duz yataqları var.

**CƏNUBİ ÇU SİLSİLƏSİ** – RF-də, Altay Resp. ərazisindədir. Altayın mərkəzi hissəsində, Çuya və Arqut çaylarının suayırıcısıdır. Uz. 120 *km*, hünd. 3960 *m*-ədək (İrbistu d.). Alp relyefi üstünlük təşkil edir. Çayların yuxarı axınında ümumi sah. 140 *km*² olan 130-dan çox buzlaq var. Yamacların ətəklərində çöl landşaftı, yüksək dağlıq qurşaqda dağ tundraları, çəmənlər, daş qırıntıları yayılmışdır. Şm. yamaclarında və çay dərələrində dağ meşələrinə rast gəlinir.

**CƏNUBİ DAKOTA** (South Dakota ) – ABŞ-ın şm.-ında ştat. Sah. 199,5 min *km*². Əh. 833,4 min (2012). İnz. m. Pirr ş.-dir. Ərazisi Böyük və Mərkəzi düzənliklərdə yerləşir. Hünd. ş.-də 300 *m*, q.-də 1000 *m* (maks. 2207 *m*). Səthi çay dərələri və yarğanlarla intensiv parçalanmışdır. Mülayim kontinental iqlimi var. Orta temp-r yanvarda –10–15°C, iyulda +20 –23°C-dir. İllik yağıntı 350–500 *mm*. Ərazidən Missuri çayı axır. Çoxlu su anbarı var. İqtisadiyyatının əsasını k.t. təşkil edir. Heyvandarlıq və əkinçilik inkişaf etmişdir. Ət, unüyütmə sənayesi, pendir və yağ müəssisələri var. K.t. alətləri istehsal olunur. Qızıl və uran filizi çıxarılır.

**CƏNUBİ DANİMARKA** – Danimarkada region. Sah. 12,2 min *km*². Əh. 1,2 mln. (2013). İnz. m. Vayle ş.-dir.

**CƏNUBİ DUBLİN** – İrlandiyanın ş.-ində qraflıq. Sah. 223 *km*². Əh. 265 min (2011). İnz. m. Tallaxt ş.-dir.

**CƏNUBİ EGEY ADALARI** – Yunanıstanda əyalət. Sah. 5,3 min *km*². Əh. 309 min (2011). İnz. m. Ermupolis ş.-dir.

**CƏNUBİ GEORGİYA** (South Georgia) – Atlantika okeanının c.-q.-ində, Antarktikada vulkanik ada. Sah. təqr. 4,2 min *km*². Hünd. 2934 *m* (Pacet d.) Əksər hissəsi qar və buzla örtülüdür. Çoxlu dəniz quşları, pinqvin koloniyaları və dəniz fillərinin məskənidir. Qrütviken portu C.G.-nın sahilindədir. Meteoroloji st. var. 1775 ildə C. Kukun ekspedisiyası kəşf etmişdir. İngilis kralı II Georqun şərəfinə adlandırılmışdır.

**CƏNUBİ HALMAHERALILAR** – İndoneziyada, Molukk a-rında xalqlar qrupu: makian-dalamlar (Makian və Kayoa adaları), bulilər, vedalar, qanelər, patanilər, savailər (Halmahera a.-nın c. hissəsində). Sayları 85 min nəfərdir (1995). Dilləri biak, varopen və digər dillərlə birlikdə Cənubi Halmahera-Qərbi Yeni Qvineya yarımqrupunu təşkil edir. Dindarların əksəriyyəti müsəlmandır, savailər ənənəvi etiqadlarını saxlayırlar.

C.h.-a Ternate, Tidore və İndoneziyanın q. vilayətlərindən olan miqrantların ("ticarətçi etnoslar" – bulilər, vedalar, qanelər, makian-dalamlar, patanilər) aborigen əhali ilə qaynayıb-qarışması nəticəsində əmələ gəlmiş xalqlar, o cümlədən ölkənin içərilərində məskunlaşmış yerli xalqlar (savailər) daxildir. 15–20 əsrlərdə Ternate və Tidore sultanlıqlarına tabe olmuş, onları ardıcıl surətdə Halmahera a.-nın şm. hissəsindən c.-a doğru sıxışdıran ternatelilər və tidorelilərin, həmçinin Şimali halmaheralıların güclü təsirinə məruz qalmışlar.

Cənubi Çin dənizi. Xalonq buxtası (Bakbo körfəzi).









Cənubi Çu silsiləsi. İrbistu dağı.

Əsas məşğuliyyətləri saqo istehsalı, balıqçılıq, "ticarətçi etnoslar" arasında vasitəçi ticarətdir. Makian-dalamlar az miqdarda çəltik becərir, kopra istehsal edirlər. Sənət sahələrindən toxuma və toxuculuq inkişaf etmişdir.

**CƏNUBİ HİND ANTİSİKLONU**, Mavriki adası antisiklonu – Hind okeanı üzərində, ekvatordan c.-da yüksək atm. təzyiqi sahəsi. Bütün il ərzində, xüsusən qışda aşkarlanır. Cənub yarımkürəsinin subtropik, qismən isə tropik qurşağında atm. fəaliyyəti mərkəzlərindən biridir.

**CƏNUBİ HOLLANDİYA** – Niderlandda əyalət. Sah. 3,4 min *km*². Əh. 3,56 mln. (2013). İnz. m. Haaqa ş.-dir.

**CƏNUBİ XANQAY PLATOSU** – Monqolustanda, Xanqay yaylasının c. hissəsi. Hünd. 3012 *m*. (Boqda-Ula d.). Şm.-da Xanqay silsiləsinin sıldırımlı c. yamacı, c.-da Göllər dərəsinə uçurumlu çıxıntı ilə əhatələnmişdir. Quru çölləri otlaq kimi istifadə olunur.

**CƏNUBİ XƏZƏR ÇÖKƏKLİYİ** – bax *Lənkəran çökəkliyi*.

**CƏNUBİ XƏZƏR NEFTLİ-QAZLI ƏYALƏTİ** – Əsasən, Azərb. Resp. ərazisində, Gürc.-ın ş., Tür.-ın q. hissəsində neftli-qazlı əyalət. Sah. 200 min *km*²-dən çoxdur. Tektonik cəhətdən *Cənubi Xəzər çökəkliyinin* (*Lənkəran çökəkliyinin*), Kür dağarası əyilmənin, Aladağ-Messarial pilləsinin və Kopetdağ meqantiklinoriumunun q. qurtaracağının daxil olduğu ərazi Alp geosinklinalı sistemində gömülmüş böyük bir sahəni əhatə edir. C.X.n.-q.ə. şm.-dan Böyük Qafqaz meqantiklinoriumu, Orta-Xəzər dərinlik qırılması və Böyük Balxan antiklinoriumu, q.-dən Dziruls massivi, c.-dan Kiçik Qafqaz və Əlburz dağ sistemi, ş.-dən isə Kopetdağ meqantiklinoriumu ilə sərhədlənir. Ən dərin gömülmüş hissədə bünövrənin yatma dərinliyi 20 *km*-dən çoxdur.

C.X.n.-q.ə. sahəsində neft-qaz hasilatı çoxəsrlik tarixə malikdir. Azərb. və Tür.-də əl ilə qazılmış quyular vasitəsilə neftin hasil edilməsi qədim zamanlarda mövcud olmuşdur. Azərb. ərazisində C.X.n.-q.ə. sahəsində dünyada ən qədim neftçıxarma r-nu – Abşeron (Bakı) yerləşir. Azərb. dünya neft sənayesinin inkişaf tarixində çox böyük rol oynamışdır. Məhz burada əvvəl quruda, sonra isə dənizdə yataqların mənimsənilməsinin bir çox üsulları ilk dəfə işlənilmiş və tətbiq edilmişdir. 1847 ildə Abşeron y-a-nda Bakı ş.-nin yaxınlığında, Bibiheybət yatağında, sonra isə Balaxanı yatağında dünyada ilk dəfə neft quyularının mexaniki üsulla qazılması metodikası tətbiq edilmişdir. 1949 ildə Xəzərin Azərb. sektorunda, sahildən 40 *km* məsafədə açıq dənizdə dünyada ilk neft yatağı – Neft Daşları kəşf edilmişdir. 20 əsrin əvvəllərində əyalət ərazisində neft-qaz axtarış işləri planlı şəkildə aparılmağa başlamışdır. C.X.n.-q.ə. sahəsində axtarış qazıma işləri, əsasən, Pliosen çöküntülərində aparılmışdır. Əyalətin əsas neftli-qazlı kompleksi Azərb.-da Orta Pliosenin Məhsuldar qat çöküntüləri, Tür.-da isə onun analoqu olan Qırmızı qat çöküntüləri ilə əlaqədardır. Məhsuldar qat bir sıra qum, qumdaşı və gillərin ritmik növbələşməsindən ibarətdir. Onun maks. açılmış qalınlığı Cənubi Xəzər çökəkliyinin dərin sulu hissəsində (Naxçıvan sahəsi) 5000 *m*-ə çatır. Məhsuldar qatın Abşeron fasiyası maks. qumluluqla xarakterizə olunur. Abşeron y-a yataqlarında Məhsuldar qat kollektorları yüksək keçiriciliyə və məsaməliliyə malik kvars qumlarından ibarətdir. Kəsilişdə 40-a yaxın neftli-qazlı obyekt ayrılır. Laylar tağ şəkilli olub, tektonik və litoloji cəhətdən ekranlaşmışdır. Yataqlar antiklinal quruluşa aid edilməklə bir çox müxtəlif amplitudlu qırılmalar və palçıq vulkanları ilə mürəkkəbləşmişdir. Neftlər sıxlığı 850–910 *kq/m*³ olan naften-metan tərkiblidir; kükürdün miqdarı 0,4%, parafinin miqdarı 18%-ə qədərdir. Qaz kondensatının tərkibində yüngül karbohidrogenlər üstünlük təşkil edir, parafin, qatran, asfalten yox dərəcəsindədir. Kondensatın sıxlığı 729–813 *kq/m*³-dir. Sərbəst qazlar tərkibində çox az miqdarda $CO_2$, $N_2$ olan metandan ibarətdir. C.X.n.-q.ə.-nin Azərb. hissəsində Pliosen çöküntülərində – quruda Balaxanı-Sabunçu-Ramana, Bibiheybət, Binəqədi (1896), Suraxanı (1904), Lökbatan-Puta-Quşxana (1925), Neftçala (1931), Qala (1932), Qaradağ (1936), Buzovna-Maştağa (1940), Kürovdağ (1955), Mişovdağ (1956), Kürsəngi (1960) və d., dənizdə Neft Daşları (1949), Qum a.-dəniz (1952), Səngəçal-Duvannı-Xərə Zirə (1963), Bahar (1968), Bulla-dəniz (1973; indiki Xərə Zirə dəniz), Günəşli (1979), Çıraq (1984), Azəri (1985), Kəpəz (1988), Qarabağ (1998), Əşrəfi (1998), Şahdəniz

Cənubi Georgiya adası. Kral pinqvinlərinin koloniyası.





Cənubi Karpat dağları. Moldovyanu zirvəsi.

(1999, dünyada ən iri dəniz kondensat yatağı), Ümid (2010), Abşeron (2011) və s. yataqlar kəşf edilmişdir.

Miosen, Paleogen və Mezozoy çöküntülərində aparılmış axtarış-kəşfiyyat qazma işlərinin həcmi müqayisədə böyük deyildir. Azərb.-da Paleogen və Neogen çöküntülərində axtarış işlərinə 1926 ildən, Mezozoy çöküntülərində isə 1949 ildən başlanılmışdır. Maykop (Miosenin alt hissəsi – Üst Paleogen) lay dəstəsinin sənaye neft-qazlılığı 1938 ildə Siyəzən sahəsində müəyyən edilmişdir, sonradan Acıdərə (1947), Naftalan (1950), Umbakı (1951, Orta Miosen – Alt Paleogen), Şərqi Hacıvəli (1952) və s. kəşf edilmişdir. Mezozoyun Tabaşir çöküntülərində sənaye əhəmiyyətli neft yatağı 1971 ildə Muradxanlı sahəsində, 1981 ildə Zərdab sahəsində açılmışdır; Paleogenin Eosen çöküntülərinin sənaye əhəmiyyətli neftqazlılığı 1983 ildə Tərsdəllər sahəsində, 1984 ildə Cəfərli sahəsində müəyyən edilmişdir. Ümumiyyətlə, C.X.n.-q.ə.-ndə təqr. 120, o cümlədən Azərb.-ın quru və dəniz sahələrində 80 yataq kəşf edilmişdir.

*Əd.*: Нефтегазоносные провинции СССР. М., 1977; Геология Азербайджана, Т. VII. Нефть и газ. Б., 2008.

**CƏNUBİ XƏZƏR OVALIĞI** – İranın şm.-da, Xəzər dənizinin c. sahili boyunda ovalıq. Uz. 525 *km*, eni 40 *km*-ədəkdir. İqlimi subtropikdir. İllik yağıntı 1000 *mm*-dən çoxdur. Meşələr, qamışlıqlar və bataqlıqlar var. Su quşları qışlağıdır. K.t. r-nu (çəltik, çay, pambıq, sitrus meyvələri, üzüm) mərkəzidir. Neft və qaz yataqları var. Mühüm şəhərləri: Ənzəli, Rəşt, Sari.

**CƏNUBİ XORASAN** – İranda ostan. Sah. 69,6 min $km^2$. Əh. 636,4 min (2006). İnz. m. Bircənd ş.-dir.

**CƏNUBİ KALİMANTAN** – İndoneziyada əyalət. Sah. 38,9 min $km^2$. Əh. 3,6 mln. (2010). İnz. m. Bancarmasin ş.-dir.

**CƏNUBİ KAROLİNA** (South Carolina) – ABŞ-ın c.-ş.-ində, Atlantika okeanı sahilində ştat. Sah. 82,9 min $km^2$. Əh. 4,6 mln. (2010). İnz. m. Kolumbiya ş.-dir. Ərazisinin c.-ş. hissəsində Atlantikayanı ovalıq, şm.-q. hissəsi Pidmont platosu və Appalaç d-rının qollarıdır (hünd. 1083 *m*-ədək). İqlimi mülayim subtropikdir. Orta temp-r qışda 5–10°C (minimal – 2°C), yayda 21–23°C. İllik yağıntı 1000–1200 *mm*. Tez-tez qasırğalar (tornado) olur. SES-lər və su anbarları var. Savanna və Santi çayları gəmiçiliyə yararlıdır. C.K. sənaye-aqrar ştatıdır. Pambıq parça istehsalına görə ABŞ-da birinci yeri tutur. Trikotaj, tikiş, ağac emalı, sellüloz-kağız, yeyinti, metal emalı, gəmiqayırma, atom sənayesi inkişaf etmişdir. Mineral gübrələr istehsal edilir. Əsasən pambıq, tütün, tərəvəz və qarğıdalı əkilir. Əsas portu Çarlstondur.

**CƏNUBİ KARPAT DAĞLARI**, T r a n s i l v a n i y a  A l p  d a ğ l a r ı (Carpatdii Meridionali) – Karpat d-rının Rumınıyadakı hissəsi. Q.-dən ş.-ə, Dunay çayında *Dəmir Darvazalar* dərəsindən Praxova çayınadək təqr. 300 *km* məsafədə uzanır. Hünd. 2544 *m*-ədəkdir. (Moldovyanu d.). Qranitlərdən, qneyslərdən, həmçinin əhəngdaşılarından, qumdaşlarından təşkil olunmuş yüksək dağlıq massivlərindən (Fegeraş, Retezat və s.) ibarətdir. Nisbətən yüksək zirvələri Alp relyef formasına malikdir. Səthi Jiu, Olt, Çerna çay dərələri ilə parçalanmışdır; dərələr boyu avtomobil və d.y.-ları keçir. Dağlar seysmikdir. Yamacları 900–1000 *m* yüksəkliyədək enliyarpaqlı (fıstıq, palıd), yuxarılarda iynəyarpaqlı meşələrlə, subalp və Alp çəmənləri ilə örtülüdür. Neft, daş kömür, xörək duzu yataqları; dağiqlim və balneoloji kurortlar; Retezat Milli Parkı və bir neçə qoruq var.

**CƏNUBİ KELTMA** – RF-də, Perm diyarında çay, Kamanın sol qolu. Uz. 172 *km*, hövzəsinin sah. 5270 $km^2$. Qarışıq mənbədən, əsasən qar suları ilə qidalanır. Noyabrın əvvəlindən aprelin axırınadək donur. Əsas qolu Timşerdir.

**CƏNUBİ KOREYA** – bax *Koreya Respublikası*.

**CƏNUBİ KÓRSİKA** (Corse-du-Sud) – Fransada, Korsika a.-nın c.-unda departament. Sah. 4014 $km^2$. Əh. 143,6 min (2010). İnz. m. Ayaçço ş.-dir.

**CƏNUBİ KVÁRKEN**, S y o d r a  K v a r k e n (Södra Kvarken) – Baltika dənizində, Aland a-rı ilə Skandinaviya y-a arasında boğaz. Botniya körfəzini Baltika dənizi ilə birləşdirir. Eni təqr. 40 *km*, dərinliyi 244 *m*-ədəkdir. Qış sərt keçdikdə donur.

**CƏNUBİ QAZAXISTAN VİLAYƏTİ** (1962–92 illərdə Çimkənd vil.) – Qazaxıstanın c.-unda vil. 1932 il martın 10-da təşkil olunmuşdur. Sah. 118,6 min $km^2$. Əh. 2,6 mln. (2011). 4 şəhəri, 11 r-nu var. Mərkəzi Şımkənd ş.-dir.

**Təbiət.** Ərazisini, əsasən, Turan ovalığının ş. hissəsi, Tyanşan d-rının q. qolları və şm.-da *Bədbəxttala* səhrası tutur. Vil.-in mərkəzində Karatau silsiləsi (hünd. 2176 *m*.), c.-ş.-ində Talas Alatausunun q. kənarları yerləşir. Faydalı qazıntıları: polimetal filizlər, dəmir filizi, əhəngdaşı, gips, kvars qumu, odadavamlı gillər, bentonit gilləri, mineral boyalar, azqiymətli daşlar və s. İqlimi kəskin kontinentaldır. Orta temp-r yanvarda –11-



dən (şm.-da) -2°C-yədək (c.-da), iyulda şm.-da və c.-q.-də 26 –29°C, c.-ş.-də 19 – 25°C-dir. İllik yağıntı 100–400 *mm*, c.-ş.-də 400–800 *mm*, yüksəkdağlıq sahələrdə 1000 *mm*-ə qədər və daha çoxdur. Ən böyük çayı Sırdəryadır. Suvarma kanalları və su anbarları, çoxlu xırda göl var. Əsasən, boz torpaqlar yayılmışdır. Dağətəyi sahələrin aşağı hissələri və düzənlik r-nların bitki örtüyü səhra-çöl tiplidir. Dağlarda yabanı meyvə ağacları, göyrüş və tozağacından ibarət meşələr bitir. Çayların subasar hissəsində tuqay meşələri və qamışlıqlara rast gəlinir. Qayakeçisi, arxar, bəbir, ayı, canavar, tülkü, çöldonuzu, safsar, çoxlu gəmirici, quş və s. var. Qoruq yaradılmışdır.

**Təsərrüfat.** Sənaye əlvan metallurgiya, kimya, daş kömür, neft və tikinti sahələrinin sürətli inkişafına istiqamətləndirilmişdir. Vil. pambıq, bitki yağı, meyvə, tərəvəz, makaron, tütün məmulatlarının iri istehsalçısı və tədarükçüsüdür.

Vilayət k.t. məhsullarının istehsalı və emalı, toxuculuq, neft və neft məhsulları, tikinti materialları, uran istehsalı, metallurgiya üzrə ixtisaslaşmışdır. Respublikanın ümumi istehsalında vil.-n payı: pambıq lifi – 100%, transformator – 99,2%, əczaçılıq preparatları – 48%, benzin – 46,1%, yanacaq mazutu – 22,9%, sement – 16,8%, pivə – 16,7%, şərab – 24,9% və un – 15%. Vil. uran ehtiyatına görə Qazaxıstanda birinci, fosforit və dəmir filizi ehtiyatına görə isə üçüncü yerdədir.

K.t. məhsullarının ümumi həcmi 59,7 mlrd. tenqe, o cümlədən heyvandarlıq məhsulları 58,1 mlrd. tenqe, bitkiçilik məhsulları 1,5 mlrd. tenqe təşkil etmişdir (2012). Vil.-də qaramalın ümumi sayı (2012) – 1042,6 min, davar – 4921,1 min, at – 218,2 min, dəvə – 22,4 min, quş – 3061,7 min başdır.

Vil.-də iki istiqamətdə ümumi uz. 444,6 *km* olan d.y. xətti; uz. 5,3 min *km* olan avtomobil yolu (5,2 min *km*-i bərk örtüklü) var.

**CƏNUBİ LUOLAR** – Şərqi Afrikada Nilboyu xalqlar qrupu. Uqandanın şm.-ında yaşayırlar: lanqolar (Şimal vil.-nin c.-unda, Kyoqo gölündən şm.-da 1,7 mln. nəfər); açolilər [özlərini akoli adlandırırlar; Şimal vil.-ndə 1,3 mln. nəfər (2010); 50 min nəfərdən çox həmçinin Sudanın c.-unda Şərqi Ekvatorial vil.-in c.-q.-ində Açoli dağında yaşayır]; kumamlar (ikumamalar, ikokolemular, akokolemular; Kvania və Kyoqo gölləri arasında, Şərq vil.-nin şm.-q-ində Kaberamaido dairəsində təqr. 200 min nəfər).



Cənubi Kazaxıstan vilayəti. Karatau silsiləsi.

Uqandanın c.-ş.-ində (Şərq vil.-nin ş.-ində Tororo dairəsi) copadholalar (padholalar, damalar, budamalar; 480 min nəfər), Keniyanın c.-q.-ində, Viktoriya gölündən ş.-də (Nyanza əyaləti) coluolar yaşayırlar. Alurlar (özlərini coalur adlandırırlar) Albert gölündən şm.-q.-də (Uqandanın Şimal vil.-nin c.-q.-ində, Nebbi dairəsində 640 min nəfər və Konqo Demokratik Resp.-nın şm.-ş.-ində, Yuxarı Konqo əyalətinin ş.-ində 880 min nəfər) məskunlaşmışlar. Ümumi sayları 10 mln. nəfərdən çoxdur (2009). Nilboyu dillərin qərbi luo qrupunun cənub yarımqrupuna daxil olan dillərdə danışırlar. Dindarların əksəriyyəti xristiandır, müsəlmanları da var.

Rəvayətə görə, C. l. indiki əraziyə 15–17 əsrlərdə Cənubi Sudandan gəlmiş və avtoxton xalqları qismən özlərinə tabe etmişlər. 17 əsrin sonlarından C.l.-da icma birlikləri (ruot) formalaşmışdır. 20 əsrin sonları – 21 əsrin əvvəllərində açolilər Uqandadakı vətəndaş müharibəsində fəal iştirak edirlər: üsyançıların başçısı və Uqanda Hərbi Şurasının sədri Tito Okello (1985–86), Müqavimət ordusunun lideri C. Koni və b. açolilərin nümayəndəsidir. ABŞ prezidenti B. Obamanın atası coluo mənşəlidir.

Ənənəvi mədəniyyətləri Şərqi Afrikanın Nilboyu xalqları üçün səciyyəvidir. Toxa əkinçiliyi (darı-elevsina, kalış, paxlalı bitkilər, küncüd, maniok), yarımköçəri və köçəbə maldarlıq (qaramal və davar), ovçuluqla məşğul olurlar. Sənət sahələri dəmirçilik, hörmə, ağac üzərində oyma, dəri emalıdır. Dairəvi evlərin karkası gillə suvanmış budaqlardan hörülür, dam örtüyü dirəklər üzərindəki talvardan ibarətdir. *Şimali luolarda* olduğu kimi taxıl anbarları da var. Ənənəvi geyimləri dəri və lifdən hazırlanır. Alurlarda kasta bölgüsü, əmək bölgüsü ilə əlaqədar yaş sinifləri sistemi mövcud idi. Ənənəvi sosial təşkilatlanmanın əsasını kənd və böyük ailə icmaları, həmçinin qohumluğu ata xətti ilə hesablanan qəbilələr təşkil edir. Dəfn mərasimlərində iştirak etmək öhdəliyi üzrə qəbilələr iki-iki birləşir. Qohumluq bildirən terminlər sistemi bifurkativ tiplidir. Baş allaha (Cok, coluolarda Nyansi) inam, mahnı və rəqs folkloru, etnogenetik və tarixi rəvayətlər saxlanılmışdır. Açoli şair və antropoloq Okot p'Bitekin yaradıcılığı məlumdur.

**CƏNUBİ MORAVİYA VİLAYƏTİ** – Çexiyanın c.-unda inzibati ərazi. Sah. 7196,5 $km^2$. Əh. 1,2 mln. (2011). İnz. m. Brno ş.-dir.

**CƏNUBİ MÚYA SİLSİLƏSİ** – RF-də, Buryat Resp. ərazisindir. Baykalarxasınında Stanovoy yaylası sistemindədir. Barquzin çayının başlanğıcından Çara çayının yuxarı axınınadək 400 *km* məsafədə uzanır; Vitim çayı ilə kəsişir. Hünd. 2701 *m*. Qranitlərdən, kristallik şistlərdən, metamorfizləşmiş əhəngdaşılarından, dolomitlərdən ibarətdir. Yamaclarında qaraşam tayqası, 1400 *m*-dən yuxarıda sidr kolluqları və dağ tundrası yayılmışdır.

**CƏNUBİ ORKNÉY ADALARI** (South Orkney Islands) – Atlantika okeanının



Cənubi Muya silsiləsi. Vitim çayı.

c.-q.-ində, Antarktikada vulkanik adalar qrupu. 4 böyük (Koroneyşen, Lori, Pouell, Siqni) və təqr. 40 kiçik adadan ibarətdir. Sah. 621 *km*². Səthi dağlıqdır. Maks. hünd. 1266 *m* (Nivea d.). Əsasən buz və qarla örtülüdür; mamırlı-şibyəli sahələrə rast gəlinir. Suiti və dəniz quş koloniyalarının məskənidir. İki elmi st. (İngiltərə və Argentina) fəaliyyət göstərir. 1821 ildə ingilis və amerikan sənaye sahibkarları C. Pouell və N. Palmer kəşf etmişlər.

**CƏNUBİ OSETİYA MUXTAR VİLAYƏTİ**, C ə n u b i   O s e t i y a – 1922–90 illərdə Gürc. SSR tərkibində mövcud olmuş muxtar vil.

**CƏNUBİ PASSÁT AXINI** – Dünya okeanının cənub tropik enliklərində ş.-dən q.-ə istiqamətlənən isti səth axını. Passatların – davamlı küləklərin təsiri altında yaranır. Sakit okeanda Peru, Atlantika okeanında Benqal, Hind okeanında Qərbi Avstraliya axınlarının davamıdır; Ekvatora yaxınlaşanda qızaraq, C.P.a-na çevrilir və q.-ə doğru yönəlir.

**CƏNUBİ RODEZİYA** – *Zimbabve* dövlətinin 1979 ilədək adı.

**CƏNUBİ SAKİT OKEAN ANTİSİKLONU** – Sakit okeanın c. r-nları üzərində ilboyu (xüsusən qışda) davamlı yüksək atmosfer təzyiqi sahəsi. Cənub yarımkürəsində subtropik və qismən tropik qurşaqlarda atm. fəaliyyəti mərkəzlərindən biridir.

Cənubi Orkney adaları. Siqni adasının sahilləri.



**CƏNUBİ SAKİT OKEAN QALXIMI**, C ə n u b i   S a k i t   o k e a n   s i l s i l ə s i – Sakit okeanın c.-unda orta okean silsiləsi; Avstraliya-Antarktida sualtı qalxımının ş. davamı. Şm.-ş. istiqamətində 4100 *km* məsafədə uzanır. 135° q.u. r-nunda Şərqi Sakit okean sualtı qalxımından Eltanin qırılması ilə ayrılır. Eni 750 *km*-ədək, dibinin dərinliyi 4500 *m*-ədəkdir. Silsilənin yalı üzərində 2500–3000 *m* dərinliklər üstünlük təşkil edir (minimal 878 *m*). Digər orta okean silsilələrindən eninin genişliyi, səthinin zəif parçalanması və rift zonasının zəif təzahürü ilə fərqlənir. C.S.o.q.-nı yarıb keçən qırılmalar silsiləni ayrı-ayrı seqmentlərə parçalayaraq c.-dan soyuq dib sularının şm.-da yerləşən çuxurlara sərbəst daxil olmasına şərait yaradır.

**CƏNUBİ SÁNDVİÇ ADALARI** (South Sandwich Islands) – Atlantika okeanının c.-q.-ində, Antarktikada qövsvarı vulkanik adalar qrupu. 8 böyük və çoxlu kiçik ada və qayalardan ibarətdir. Sah. təqr. 300 *km*². Maks. hünd. 1372 *m* (Belinda d., Montaqyu a.-nda). Əsasən, vulkanik süxurlardan (bazaltlardan, tuflardan, vulkan külündən) ibarətdir. Buz və qarla örtülüdür. Fəaliyyətdə olan vulkanlar (Bristol a.-nda); çoxlu quşlar, suiti məskənləri var. 1775 ildə C. Kukun ekspedisiyası kəşf etmişdir.

**CƏNUBİ SÁNDVİÇ NOVU** – Atlantika okeanının c.-q.-ində, Cənubi Sandviç a-rının sualtı ş. yamaclarında dərin nov. Uz. təqr. 1380 *km*, orta eni 68 *km*, maks. dərinliyi 8325 *m*-dir.

**CƏNUBİ SİBİR İRQİ** – monqol və Avropa irqlərinin Cənubi Sibir, Qazaxıstan və Orta Asiyada qarışması prosesində əmələ gəlmiş keçid irqlərdən biri. Əlamətləri qazaxlar üçün daha tipikdir, lakin Mərkəzi Asiya, MXR və Şm.-Q. Çinin digər xalqlarında da rast gəlinir. Üzləri yastı, enli və uzun, burunları orta dərəcədə çıxıntılı, saqqalları seyrək, saçları və gözləri tündrəngli, boyları orta olur; braxikefaliya ilə səciyyələnirlər. Məşhur antropoloq V.P. Alekseyevin təsnifatına görə, C.S.i. Amerika–Asiya irqinin şərq qolunun Asiya tirəsinə aiddir və Altay–Sayan populyasiyaları (cənubi altaylılar, xakasların və şorların bəzi qrupları); Qazaxıstan populyasiyaları (qazaxlar, noqaylar, qaraqalpaqlar, başqırd və uyğurların bəzi qrupları); Tyanşanboyu populyasiya (qırğızlar) qruplarından ibarətdir. C.S.i.-nin qarışıq mənşəli olmasını təsdiqləmək üçün qədim dövrlərə aid kifayət qədər antropoloji məlumat







Cənubi Sandviç adaları. Bristol adası.






vardır. Avropa və monqol irqlərinin Avrasiya çöllərində qarışmasının başlanğıcı e.ə. I minilliyin ortalarına aid edilir.

**CƏNUBİ SPORÁD ADALARI** (Nótiai Sporādes) D o d e k a n e s (Dodekánēsos) – Egey dənizində, Kiçik Asiya y-anın c.-q. sahili yaxınlığında adalar qrupu. Yunanıstan ərazisinə daxildir. Sah. 3541 *km*². Əh. 200 min (2005). Əsas adaları: Rodos, Samos, İkariya, Kos, Karpatos. Relyefi dağlıqdır. Maks. hünd. 1434 *m* (Samos a.-nda Kerketefs d.). Kolluqlar, bəzi yerlərdə həmişəyaşıl palıd, şam və sərv meşələri yayılmışdır. Əhalinin əsas məşğuliyyəti subtropik əkinçilik (üzümçülük), bağçılıq, heyvandarlıq (davar) və balıqçılıqdır. Rodos və Samos ş.-ləri C.S.a.-ndadır.

**CƏNUBİ SUDAN**, C ə n u b i   S u d a n   R e s p u b l i k a s ı.

**Ümumi məlumat**

Afrikanın ş.-ində dövlət. Ş.-dən Efiopiya, c.-dan Keniya, Uqanda və Konqo Demokratik Resp., q.-dən Mərkəzi Afrika Resp. və şm.-dan Sudanla həmsərhəddir. Sah. 619,7 min *km*². Əh. 8,3 mln. (2011). Paytaxtı Cuba ş.-dir. Rəsmi dil ingilis dili, pul vahidi Cənubi Sudan funtudur. İnzibati cəhətdən 10 ştata (əyalətə) bölünür: Vərab, Yuxarı Nil, Şərqi Ekvatorial, Concley, Qərbi Ekvatorial, Qərbi Bəhr-ül-Ğəzal, Qərbi Yuxarı Nil, Göllü, Şimali Bəhr-ül-Ğəzal, Mərkəzi Ekvatorial (Bəhr-ül-Cəbəl).

C.S. BMT-nin (2011), BVF-nin (2012) üzvüdür.

**Təbiət**

C.S.-ın ərazisi Afrika platformasının şm.-ş. hissəsindədir. 300–1000 *m* yüksəkliklər üstünlük təşkil edir. C.-unu Şərqi Afrika yastıdağlığının qolları (ölkənin ən yüksək nöqtəsi Kinyeti d. – 3187 *m*), ş.-ini isə Efiopiya yaylasının qolları tutur. Faydalı qazıntıları: neft, dəmir filizi, mis, gümüş, qızıl.

Cənubi Sporad adaları. Kerketefs dağı (Samos adası).







Kinyeti dağı.

İqlimi ekvatorial mussondur. Orta aylıq temp-r 23–30°C, illik yağıntı 1000–1400 *mm*-dir. Ən böyük çayı C.S.-ı c.-dan şm.-a kəsib keçən Nildir; ölkə ərazisində o əvvəlcə Bəhr-ül-Cəbəl, sonra isə Ağ Nil (Bəhr-ül-Əbyad) adlanır. Əsas qolları Bəhr-ül-Ğəzal və Sobatdır.

**Əhali**

Əhalinin böyük hissəsi zənci irqinə mənsubdur. Nilboyu xalqlar qrupundan olan dinkalar, nuerlər, azandelər, barilər və şilluklar əhalinin əsas hissəsini təşkil edirlər. Nilboyu dillərində, Mərkəzi Sudan dillərində və digər dil və ləhcələrdə danışırlar; dinka dili daha geniş yayılmışdır. Əhalinin orta sıxlığı 1 $km^2$-də 13,3 nəfərdir (2008). İri şəhəri paytaxt Cubadır (172,7 min nəfər; 2007). Dindarları xristianlar və ənənəvi Afrika animistləridir.

**Tarixi oçerk**

Afrikanın Avropa dövlətləri tərəfindən müstəmləkələşdirilməsinə qədər C.S.-da müasir anlayışda dövlət qurumları mövcud olmamışdır. 1820–21 illərdə Osmanlı imperiyasının vassalı olan Misir hakimi Məhəmməd Əli tərəfindən regionun fəal kolonizasiyası zamanı müəyyən inkişaf baş vermişdir. Sudanda Şimalla Cənubun qarşıdurmasının tarixi 19 əsrdən başlayır. 1899 ildə bağlanmış Misir-Britaniya müqaviləsinə görə bu iki dövlət uzun müddət Sudanı birgə idarə etmişdir. Əslində isə Sudan britaniyalıların nəzarəti altında idi. Britaniya müstəmləkəçiləri burada öz mövqelərini möhkəmləndirmək üçün C.S.-da xristianlaşdırma siyasəti aparır, cənubda yaşayan xristian və animist Afrika qəbilələri ilə şimalda yaşayan müsəlmanlar arasında münasibətləri daim gərginləşdirirdilər. 1952 il Misir inqilabından sonra rəsmi Qahirə Sudan xalqının öz müqəddəratını təyin etmək hüququnu tanıdı. Sonrakı illərdə Sudanda parlament seçkiləri keçirildi, dövlət təsisatları yaradıldı, Misir və B.Britaniya qoşunları ölkə ərazisindən çıxarıldı.

1956 il yanvarın 1-də Sudanın dövlət müstəqilliyi elan edildikdə Şimal-Cənub qarşıdurması artıq başlamışdı. 1972 ildə Əddis-Əbəbədə imzalanmış sülh müqaviləsi ərəb Şimalı və zənci Cənubu arasında Birinci vətəndaş müharibəsinə (1955–72) son qoydu. Müqaviləyə görə Cənuba daxili idarəetmə məsələlərində muxtariyyət verildi. 1969 ildə hərbi çevriliş nəticəsində C. Nimeyrinin hakimiyyətə gəlişi ilə siyasi və ictimai həyatı islamlaşdırmaq cəhdləri qüvvətləndi. 1983 ildə yaradılmış Cənubi Sudan Xalq Azadlıq Hərəkatı və onun hərbi qanadı olan Sudan Xalq Azadlıq Ordusu mərkəzi hökumət qüvvələrinə qarşı əməliyyatları bərpa etdi. Buna formal səbəb kimi Sudan hökumətinin Cənubun inzibati-ərazi bölgüsünü dəyişdirməsi və burada şəriət normalarını tətbiq etməsi göstərilirdi. Qonşu ölkələrin, xüsusilə Efiopiya və Uqandanın cənublulara geniş dəstək verməsi vətəndaş müharibəsini daha da qızışdırırdı. Silahlı qarşıdurma 20 ildən çox davam etdi. 2002–04 illərdə Şimalla Cənub arasında aparılan danışıqlar 2005 il yanvarın 9-da Keniyanın paytaxtı Nayrobidə sülh sazişinin imzalanması ilə nəticələndi, Cənubun lideri C. Qaranq Sudanın vitse-prezidenti oldu. Bu sənəd ölkədə vətəndaş müharibəsinə formal olaraq son qoydu. Hərbi əməliyyatların gedişində 2 mln. sudanlı həlak oldu, təxminən 4 mln. nəfər qaçqın düşdü. Sazişin şərtlərinə görə, Cənuba 6 il müddətinə geniş muxtariyyət verilir, sonra isə bu ərazinin statusu ilə bağlı referendum keçirilməli idi. Neft hasilatından əldə olunan gəlir mərkəzi hökumət və Cənub muxtariyyətinin rəhbərliyi arasında bərabər şəkildə bölünməli idi. Bu saziş gərginliyi bir qədər azaltdı. 2005 il iyulun 30-da C. Qaranqın helikopter qəzasında həlak olmasından sonra vəziyyət yenidən gərginləşdi. 2007 ilin sentyabrında C.S. münaqişəsini nizama salmaq üçün BMT-nin baş katibi Pan Gi Mun Sudana gəldi. Beynəlxalq birlik münaqişə zonasına sülhməramlı və humanitar qüvvələrini yeritdi. 2010 ilin iyununda ABŞ referendumda müsbət nəticə əldə olunacağı təqdirdə yeni dövləti tanıyacağını bəyan etdi. 2011 il yanvarın 4-də Sudan prezidenti Ömər əl-Bəşir C.S.-ın paytaxtı Cubaya səfəri zamanı referendumun nəticələrini tanıyacağını vəd etdi. Referendumun nəticələrinə görə 2011 il iyulun 9-da C.S. müstəqil dövlət elan edildi. 2012 il aprelin 18-dən BVF və Ümumdünya bankının üzvüdür.




**Təsərrüfat**

Neft ölkənin əsas ehtiyatıdır. Neft satışından əldə edilən gəlir C.S.-ın dövlət büdcəsinin təqr. 98%-ini təşkil edir.

Ölkənin iqtisadiyyatı xeyli dərəcədə k.t.-ndan asılıdır. Pambıq, yerfındığı, kalış, darı, buğda, yapışqan, şəkər qamışı, manqo, papaya, banan, batat və küncüd başlıca k.t. bitkiləridir. Əsas meşə ehtiyatları Qərbi Ekvatorial və Mərkəzi Ekvatorial ştatlarında yerləşir.

C.S. beynəlxalq bazara oduncaq ixrac edir. Qida məhsulları, kimya sənayesi məhsulları, nəql. avadanlıqları, polad, maşınqayırma məhsulları, toxuculuq ipliyi və parçalar, həmçinin taxıl idxal edilir.

**CƏNUBİ SULAVESİ** – İndoneziyanın Sulavesi a.-nda əyalət. Sah. 46 min $km^2$. Əh. 8 mln. (2010). İnz. m. Makasar ş.-dir.

**CƏNUBİ SUMATRA** – İndoneziyanın Sumatra a.-nda əyalət. Sah. 91,6 min $km^2$. Əh. 7,4 mln. (2010). İnz. m. Palembang ş.-dir.

**CƏNUBİ SYÉRRA-MÁDRE**, Syerra Madre-del-Sur (Sierra Madre del



Ağ Nil (Bəhr-ül-Əbyad) çayı.



Sudd bataqlığında kənd.



Cənubi Syerra-Madre silsiləsi.

Sur) – Meksikanın c.-unda, Kordilyer dağ sistemində silsilə. Sakit okean sahili boyu təqr. 1000 *km* məsafədə uzanır. Maks. hünd. 3703 *m* (Teotepek d.). Əsasən kristallik süxurlardan ibarətdir; lava örtüklərinə rast gəlinir. Meşələr və kolluqlarla örtülüdür. C. yamaclarında tropik bitki plantasiyaları var. Qızıl, gümüş, sürmə çıxarılır. İri dəmir filizi yatağı (Las-Truças) var.

**CƏNUBİ ŞETLEND ADALARI** (South Shetland Islands) – Antarktida y-a-nın şm.-q. sahilləri yaxınlığında, Dreyk boğazında vulkanik adalar qrupu. 11 iri və çoxlu xırda ada və qayalardan ibarətdir. Sah. təqr. 4,3 min *km*². Maks. hünd. 2300 *m* (Klarnes a.-nda). Vulkanik, metamorfik və qismən çökmə süxurlardan ibarətdir. Səthi buz və qarla örtülüdür; mamır və şibyə bitkiləri xarakterikdir. Suiti, pinqvin koloniyaları və dəniz quşlarının məskənidir. Argentina, İngiltərə, Çili və RF-nin elmi st.-ları var. 1819 ildə ingilis dəniz səyyahı U. Smit kəşf etmişdir.

**CƏNUBİ ŞOTLANDİYA YÜKSƏKLİYİ** – B. Britaniyada, Şotlandiyanın c.-unda yüksəklik. Orta Şotlandiya ovalığı ilə (şm.-da) Pennin d-rı (c.-da) arasındadır. C.-q.-dən şm.-ş.-ə təqr. 180 *km* məsafədə uzanır; eni 100 *km*-ədək, hünd. 842 *m*-ədəkdir (Merrik d.). Əsasən qranit

Cənubi Şetlend adaları. Klarnes adası.



və kristallik şistlərdən təşkil olunmuş ayrı-ayrı massivlərdən ibarətdir. Səthi alçaq təpəliklərdir. Qədim buzlaşmanın izləri (karlar, morenlər, buzlaq daşı sahələri və s.) var. Torfluqlar, şam və tozağacı meşələri yayılmışdır. Tərəvəzçilik, heyvandarlıq (südçülük) təsərrüfatları fəaliyyət göstərir.

**CƏNUBİ TİPPERERİ** – İrlandiyada qraflıq. Sah. 2,3 min *km*². Əh. 88 min (2011). İnz. m. Klonmel ş.-dir.

**CƏNUBİ UÉLS KÖMÜR HÖVZƏSİ** – B.Britaniyanın ən iri və qədim kömür hövzələrindəndir. Bristol körfəzinin şm. sahilində, qismən şelf zonasında yerləşir. Sah. 2,3 min *km*². Kömürün ümumi ehtiyatı 9,5 mlrd. *t*-dur. 13 əsrdən yeraltı üsulla istismar olunur. Kömürlülük Karbon dövrünün çöküntüləri ilə əlaqədardır; 3 paralik tip qat ayrılır; ilk ikisi sənaye əhəmiyyəti daşımır. Üst Karbon yaşlı 3-cü kömürlü qat 1–2 *m* qalınlıqlı 20-yədək laydan ibarətdir. Daş kömürün antrasit və yüksək metamorfizmə uğramış növlərində küllülük 2–5 %; digər növlərində isə 11%-ədəkdir; kükürd 0,6–3,0%; fosfor 0,1–4,0%; yanma istiliyi 8450–8700 *kkal/kq*-dır. Əsas hasilat mərkəzi Ronta ş.-dir.

**CƏNUBİ URÁL** – Ural d-rının Ufa çayından Ural çayınadək olan hissəsi. Uz. 550 *km*, hünd. 1638 *m*-ədəkdir (Yamantau d.). Yamaclarının çox hissəsi tayqa meşələridir; qarışıq və enliyarpaqlı meşələrə rast gəlinir. Çöllərin böyük hissəsi şumlanmışdır.

**CƏNUBİ URÁL BOKSİT YATAQLARI QRUPU** – RF-də, Çelyabinsk vil. və qismən Başq. Resp. ərazilərində, Cənubi Uralın q. yamacında yerləşir. Yataqlar 1934 ildə kəşf olunmuşdur, 1937 ildən yeraltı üsulla istismar olunur. Yataqlar r-nu şm.-ş. istiqamətində 80 *km* məsafədə uzanır. Üst Devon yaşlı süxurlarda təqr. 40-adək yataq və filiz təzahürü məlumdur. Uluir sinklinalının c.-ş. qanadında yerləşən Novopristan qrup yataqları sənaye əhəmiyyətlidir. Yataqlar Üst Devonun Üst Frans mərtəbəsinin süxurları ilə əlaqədardır; lay və linzavarı tiplidir; Famen mərtəbəsinin əhəngdaşları və dolomitləri ilə örtülmüşlər. Filiz layının orta qalınlığı 1,5 *m*-dir; oolitli boksitlərdən ibarətdir. Boksitlərdə $Al_2O_3$ 48–53% təşkil edir.

**CƏNUBİ URÁL KÖMÜR HÖVZƏSİ** – RF-nin Başq. Resp.-nın c. hissəsində və Orenburq vil. ərazisində yerləşir. 1950 ildən istismar olunur. 300 *m* dərinliyədək ehtiyatı 1,08 mlrd. *t* boz kö-







Cənubi Ural. Yamantau dağı.

mürdən ibarətdir. Hasilat mərkəzi Kumertau ş.-dir.

**CƏNUBİ YAKÚTİYA KÖMÜR HÖVZƏSİ** – RF-də, Saxa (Yakutiya) Resp. ərazisində, Aldan yaylasının c. hissəsində yerləşir. 1849 ildə kəşf edilmişdir. Stanovoy silsiləsinin şm. yamacları boyu (q.-də Olyokma çayından ş.-də Uçur çayınadək) 60–150 *km* enində zolaqla 750 *km* məsafədə uzanır. Hövzənin ümumi sah. 25 min *km*²-dir. 5 kömür r-nundan ibarətdir: Tunqurçinsk (Usmunsk), Aldan-Çulmansk, Itımcinsk, Qonamsk, Tokkinsk. Kəşf olunmuş ehtiyatı 3 mlrd. *t*, proqnoz ehtiyatı 22.9 mldr. *t*-dur. Aldan-Çulmansk kömür r-nu daha çox öyrənilmişdir; burada 5 yataq (Çulmansk, Neryunqrinsk, Denisovsk, Muastaxsk və Kabaktinsk) kəşf olunmuşdur. Əsas proqnoz ehtiyatlar Tokkinsk kömür r-nunda cəmlənmişdir. Mezozoyun 400–5000 *m* qalınlığında çöküntüləri kömürlüdür; uzunsov çökəkliklər və qırılmalar sistemi ilə ayrılmış iri çökəkliklərdə yatır. Aldan-Çulmansk r-nunda bu çöküntülər Duray, Kabaktin, Berkakit (Üst Yura) və Neryunqrin (Üst Təbaşir) lay dəstələrinə ayrılır. Neryunqrin lay dəstəsi daha çox kömürlüdür; Neryunqrinsk yatağında kömürlü qatın qalınlığı 10–60 *m*-dir. Digər lay dəstələrinin hər birində 1–3 *m* qalınlıqda 10-adək kömür qatı aşkar edilmişdir. Daş kömürün küllülüyü 10–18%, yanma istiliyi 33–36 *MC/kq*-dır. Neryunqrinsk yatağında istismar açıq üsulla aparılır. Hasilat mərkəzi Neryunqri ş.-dir.

**CƏNUBİ YORKŞİR** – B. Britaniyada, İngiltərənin mərkəzi hissəsində qraflıq. 1974 ildə təşkil edilmişdir. Sah. 1552 *km*². Əh. 1,3 mln. (2011). İnz. m. Şeffild ş.-dir.

**CƏNUB-QƏRB ADALARI** – İndoneziyada adalar qrupu. Bax *Barat Daya*.

**CƏNUB-QƏRBİ AFRİKA** – 1968 ilədək *Namibiyanın* adı.

**CƏNUB-QƏRBİ ASİYA** – Asiyada təbii vilayət. Ərəbistan y-a-nı və ona yaxın bəzi əraziləri əhatə edir. Sah. 3 mln. *km*²-dən çoxdur. Yastıdağlıq relyef üstünlük təşkil edir, kənarlarını dağlar (hünd. 3600 *m*-ədək) tutur. Tropik səhralar (Böyük və Kiçik Nəfud, Rub-əl-Xali) və yarımsəhralar var. Səudiyyə Ərəbistanı, Küveyt, Bəhreyn, Qatar, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Yəmən, eləcə də İordaniya və İraqın c. hissləri C.-Q.A.-dadır.

**CƏNUB-QƏRBİ AZƏRBAYCAN MÜVƏQQƏTİ HÖKUMƏTİ** – bax *Araz Türk Cümhuriyyəti*.

**CƏNUB-QƏRBİ QAFQAZ CÜMHURİYYƏTİ (CQQC)**, Qars Demokratik Cümhuriyyəti – Cənub-Qərbi Qafqazda yaranmış demokratik respublika. Osmanlı imperiyası ilə Antanta dövlətləri arasında *Mudros barışığı (1918)* ərəfəsində və ondan az sonra Cənub-Qərbi Qafqazda bir neçə dövlət qurumu yarandı. 1918 il oktyabrın 29-da Ö.F.Nemanzadənin başçılığı ilə Ahıska hökuməti quruldu. 1918 il noyabrın 5-də "Qars İslam Şurası" adı ilə milli hökumət yaradıldı; hökuməti yaradanlar sırasında P. Fəxrəddin (Ərdoğan) bəy, K. Emin ağa və b. vardı. Noyabrın 14-də çağırılan birinci Qars konqresində Emin ağa "Qars İslam Şurası"na sədr seçildi. Noyabrın 30-da "Qars İslam Şurası"nın dəvəti ilə Naxçıvan, Ordubad, Qəmərli, Sürməli (İqdır), Şərqi Şoragöl, Ahıska, Axalkələk və Batum bölgələrindən gələn 60 nəfərlik nümayəndə heyətinin iştirakı ilə 2-ci Qars konqresi keçirildi. Batumdan Ordubada qədər ərazidə Qars Milli Şura hökuməti quruldu. 12 nəfərdən ibarət hökumətə İ. Cahangirzadə rəhbərlik edirdi. Rus ordusunun zabiti olmuş İ.Cahangirzadə *Araz Türk Cümhuriyyətinin* hərbi naziri kimi bölgə əhalisinin silahlandırılmasına və hərbi təlimlər keçməsinə rəhbərlik etmişdi. Qars Milli Şura hökumətinin əsas vəzifəsi daşnakların türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlarının və bölgəni işğal etməyə çalışan gürcü qoşunlarının hücumlarının qarşısını almaq və əhalinin təhlükəzsizliyini təmin etmək idi.

1919 il yanvarın 13-də Qarsa gələn ingilis gen.-ı Bisç Ermənistan hökumətinin S. Korqanovu Qars vil.-nin başçısı təyin etdiyini bildirdi. Milli Şura hökuməti bəyan etdi ki, bölgə əhalisinin 85%-i türklərdən ibarətdir və vil.-in rəhbərliyinə erməninin təyin edilməsi Vilson prinsiplərinə ziddir. Bundan sonra gen. Bisç Milli Şura hökumətini tanıdığını bildirdi və Gümrüyə qayıtdı.

1919 il yanvarın 17-də Qarsda keçirilən toplantıda Cənub-Qərbi Qafqaz hökumətinin yaradıldığı elan olundu. Bu siyasi qurum CQQC və ya Qars Demokratik Cümhuriyyəti adlandı. Cümhuriyyətin 40 min *kv. km* ərazisi, 1,7 mln. nəfər (1,5 mln.-u türk-müsəlman) əhalisi, üçrəngli (ağ, yaşıl və qara), ay-ulduzlu bayrağı var idi. Dövlət dili kimi türk dili qəbul edilmişdi. Hökumətin rəsmi orqanı Batumda çap olunan "Sədayi-millət" qəzeti idi. CQQC-nin 18 maddədən ibarət Konstitusiyası qəbul olunmuşdu.

Qısa müddətdə CQQC-nin Müvəqqəti hökuməti təşkil edildi. İ. Cahangirzadə cümhurbaşqanı seçildi. Nazirlər şurasının tərkibi beynəlmiləl idi: xarici işlər naziri vəzifəsinə türk P. Fəxrəddin bəy, xalq maarifi naziri vəzifəsinə əvvəlcə yunan M.Andreyanot, sonra isə türk M. Kocaoğlu təyin edildilər. 65 deputatdan ibarət parlament yaradıldı. Ə. Oktay (Ə. Hacıyev) parlamentin sədri seçildi.

Yeni yaranan dövlət ixtisaslı kadrlar və maliyyə baxımından çətinliklərlə üzləş-



Cənub-Şərq burnu.

di. CQQC hökuməti 1919 il yanvarın 25-də AXC-yə müraciət edərək, hərbi və maddi yardım istədi. Buna cavab olaraq, AXC hökuməti CQQC-yə hərbi təlim keçmək üçün zabitlər və xeyli qızıl pul göndərdi.

CQQC yarandığı gündən Erm. və Gürc. hökumətlərinin təcavüzkar siyasəti ilə üzləşdi. CQQC-nin silahlı qüvvələri 15,5 min nəfərdən ibarət idi. Bu qüvvə ilə iki dövlətin təzyiqlərinə davam gətirmək mümkün deyildi. Digər tərəfdən isə Erm.-ı və Gürc.-ı ingilislər dəstəkləyirdilər. İngilslər CQQC-nin ərazisini Erm. və Gürc. arasında bölüşdürmək istəyirdilər. Onlar üzdə AXC hökumətini CQQC ilə bağlı status-kvonu saxlayacaqlarına inandırmağa çalışsalar da əslində, CQQC-nin ləğvi istiqamətində fəaliyyət göstərirdilər. Ermənilər 1919 il aprelin 12-də ingilislərin dəstəyi ilə Qars vil.-nə soxuldular. AXC hökuməti ermənilərin Qarsda törətdiyi soyqırımı ilə bağlı Britaniya komandanlığına etirazını bildirdi. Buna baxmayaraq, ingilislər CQQC hökumətinin 35 üzvünü həbs edərək, zirehli qatarla Gümrüyə, sonra isə Batumdan Malta a.-na sürgünə göndərdilər. Bununla da CQQC süqut etdi. Aprelin 14-də ingilis gen.-ı Devinin tövsiyəsi ilə 6 türk, 1 rus, 1 yunandan ibarət yeni Milli Şura yaradıldı. Aprelin 19-da S. Korqanov Qarsda qubernator kimi fəaliyyətə başladı. Bunun ardınca, erməni qoşunları Qars vil.-nə soxuldular. Yerli müsəlman-türk əhali dəhşətli soyqırımına məruz qaldı. Aprelin 30-da qondarma Milli Şura ləvğ edildi.

Cənub-Şərqi Şirvan düzənliyi.



İ. Cahangirzadə başda olmaqla, CQQC-nin hökumət üzvləri yalnız 1921 il mayın 23-də Azərb. XKS-nin sədri N. Nərimanovun köməyi sayəsində Malta a.-nda əsirlikdən azad edilərək vətənə qayıtdılar.

**CƏNUB-ŞƏRQ ADALARI**, S e l a t a n - T i m u r – İndoneziyanın c.-ş.-ində, *Molukk adaları* sistemində 3 ada qrupunun (Aru, Kay, Tanimbar) ümumi adı. Sah. 15,5 min $km^2$. Səthi düzənlikdir, həmişəyaşıl meşələrlə örtülüdür. Tropik əkinçilik; balıqçılıq var. Aru a-rında mirvari toplanır, tısbağa ovlanır.

**CƏNUB-ŞƏRQ BURNU** (South East Point) – Avstraliya materikinin Uilsons-Promontori (39°11′ c.e. və 146°25′ ş.u.) y-a-nda c. qurtaracağı. Bass boğazına uzanır.

**CƏNUB-ŞƏRQİ ASİYA** – Asiyada təbii vilayət. Hind-Çin y-a, Malayya arxipelaqı və yaxın əraziləri əhatə edir. Sah. 4,5 mln. $km^2$. Relyefi orta dağlıq və təpəli düzənliklərdən ibarətdir. Rütubətli ekvatorial və subekvatorial musson iqlimi hakimdir. Tropik meşələr və savannalar var. Bruney, Vyetnam, İndoneziya, Kamboca, Laos, Malayziya, Myanma, Sinqapur, Tayland, Filippin dövlətləri C.-Ş.A.-dadır.

**CƏNUB-ŞƏRQİ ASİYA DÖVLƏTLƏRİ CƏMİYYƏTİ** (Association of South East Asian Nations; ASEAN) – İndoneziya, Malayziya, Sinqapur, Tayland, Filippin, Bruney, Vyetnam, Laos, Myanma və Kambocanın daxil olduğu məhəlli cəmiyyət (müşahidəçi statusunda Papua-Yeni Qvineya və Şərqi-Timor). 1967 il avqustun 8-də yaradılmışdır. Məqsədi cəmiyyətə daxil olan ölkələr arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığı inkişaf etdirməkdir. Rəhbər orqanı – xarici işlər nazirlərinin sessiyası və Daimi komitədir (Banqkokda). 1976 ildən hökumət və dövlət başçılarının müşavirələri keçirilir.

**CƏNUB-ŞƏRQİ ŞİRVAN DÜZƏNLİYİ** – Azərb. Resp.-nda düzənlik. Kür-Araz ovalığının bir hissəsi. Ş.-dən Xəzər dənizi ilə əhatələnir. Q. və c. sərhədləri boyu axan Kür çayı onu Muğan və Salyan düzlərindən ayırır. Şm.-dan *Navahı düzünə* qovuşur. Əsasən, okean səviyyəsindən aşağıda (–28 *m*-ədək) yerləşir. Təpəlik və yüksəkliklərə rast gəlinir. Çoxlu palçıq vulkanı (Bəndovan, Dürovdağ, Göytəpə və s.) var. Neogen və Antropogen çöküntülərindən ibarətdir. Neft və qaz çıxarılır. Yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlimi var.





*Baş Şirvan kollektoru* bu düzənlikdən keçir. Yarımsəhra və səhra tipli bitki örtüyü üstündür. Ərazisində *Şirvan Dövlət Təbiət Qoruğu* yerləşir. Pambıq, üzüm və s. yetişdirilir. Qış otlaqları var.

**CƏNUB-ŞƏRQİ SULAVESİ** – İndoneziyada əyalət. Sah. 36.8 min $km^2$. Əh. 2,2 mln. (2010). İnz. m. Kendari ş.-dir.

**CƏNZƏ** – Azərb.-ın qədim Qazaka ş.-nin ərəb mənbələrində adı (bax *Qazaka*).

**CƏRAŞ** – İordaniyanın şm.-q.-ində şəhər. Eyniadlı qubernatorluğun inz. m. Əh. 27,6 min (2006).

Dekapolis (Bibliyada On şəhər) şəhərlərindən biri olan qədim şəhərin (yun. Γέρασα, yaxud Γαρασα, lat. Gerasa) xarabalıqları indiki C.-dan q.-də yerləşir. Gerasa yunan məskəni e.ə. 4 əsrin sonları – 2 əsrdə nabatilərin Carş (Carşu) k. ərazisində yaranmışdır; e.ə. 1 əsrdə Zevs və Artemida məbədlərinin yerləşdiyi mühüm dini mərkəzə çevrilmişdir. Samilər, yunanlar və romalıların qarışıq şəkildə yaşadıqları antik C. karvan yollarının üstündə yerləşirdi; şəhərdə sinkretik kultlar mövcud idi. Roma dövründə (çiçəklənməsi eramızın 2 əsrinə – Antoninlər dövrünə təsadüf edir) C. baş plan (1 əsrin ortaları) üzrə genişləndirilmiş, darvazası olan müdafiə divarı ilə əhatələnmişdi (1 əsrin son rübü – 2 əsrin əvvəlləri).

Sıra sütunları olan baş kilsələr və Oval meydanı şəhərin planlaşdırma karkasını təşkil etmişdir. 1–3 əsrlər memarlıq abidələrindən mərmər heykəltəraşlıq və oyma dekor fraqmentləri ilə: Adrianın zəfər tağı (129), Cənub qapısı, Zevs, Artemida məbədləri, böyük Cənub və kiçik Şimal teatrları, cıdır meydanı və termlərin xarabalıqları qalmaqdadır. Bizans imperiyası dövründə C.-da xristian məbədləri (4 əsrin ortaları – 7 əsrin əvvəlləri; zəlzələ nəticəsində dağılmışdır, özüllər, döşəmələrin mozaikaları, divarların və sütunların fraqmentləri saxlanılmışdır) tikilmişdir: baş kilsə (4 əsrin ortaları), Müq. Fyodor kilsəsi (496) və s.

614 ildə Sasanilər, təqr. 635 ildə ərəblər tərəfindən tutulmuşdur. Səlib yürüşləri zamanı dağıdılmış, 13 əsrdə "xarabalıqlar bağına" çevrilmişdir. 1920-ci illərdən bərpasına başlanılmışdır. Müasir C.-ın altında antik şəhərin yaşayış məhəllələrinin olduğu ehtimal edilir. Arxeoloji muzey var.

**CƏRCO** – *Türkmənabad* ş.-nin 1999 ilədək adı.

**CƏRCO VİLAYƏTİ** – bax *Lebap vilayəti*.

**CƏRCO YEMİŞİ** – xalq seleksiyası ilə yetişdirilmiş sort. Vətəni Orta Asiyadır. Azərb.-da qədimdən becərilir. Gecyetişəndir. Bostançılığın inkişaf etdiyi bölgələrin çoxunda yayılmışdır. Həmin bölgələrin ekoloji şəraitinin uzunmüddətli təsiri C.y.-ndə müəyyən dəyişiklikləri formalaşdırmışdır. Azərb.-da yaşıl gülabi, qara gülabi və sarı gülabi kimi üç sortu geniş yayılmışdır. Tağı uzun, yarpaqları enli, ürəkvarı (uz. 13 *sm*, eni 19 *sm*), meyvələri yumurtavarı və uzunsov olur. Hər yemişin kütləsi 8 *kq*-a çatır. Yaşıl və qara gülabı meyvələrinin səthi hamar, naxışı zəif torludur (tor əsasən saplaqətrafı hissədə olur). Sarı gülabı sortu da naxışsızdır, tor meyvənin bütün səthini əhatə edir. C.y. çox şirin, ağ, qalın, sıx, yapışqanliflidir. Toxumları sarı rəngdə, iri və ensizdir. 135–140 günə yetişir. Eyni vaxtda yetişdiyindən məhsul birdəfəlik yığılır. Hər *ha*-dan 30 *t*-a qədər məhsul götürülür. Saxlanmağa (4–5 ay) və daşınmaya davamlıdır.

**CƏRƏYAN DAŞIYICILARININ YÜRÜKLÜYÜ** (bərk cismdə) – elektrik sahəsinin bərk naqillərdə yaratdığı yükdaşıyıcıların istiqamətlənmiş hərəkət sürətinin ($\upsilon_{dr}$ d r e y f  s ü r ə t i) bu sahənin *E* intensivliyinə olan nisbəti:

$$\mu=\upsilon_{dr}/E. \quad (1)$$

Eyni bir cismdə müxtəlif növ yükdaşıyıcıların yürüklükləri (μ), anizotrop kristalların isə sahənin istiqamətindən asılı olaraq eyni bir növ yükdaşıyıcıların yürüklükləri fərqlənirlər. Elektron və deşiklərin yürüklüyü elektronların kristalda səpilmə prosesləri ilə təyin edilir. Kristal qəfəsin *defektlərindən* və həmçinin onun istilik rəqslərindən (fononlar) səpilmə baş verir. Yükdaşıyıcı fonon buraxmaq və ya udmaqla öz *kvaziimpulsunu* və deməli, sürətini dəyişir. Ona görə də $\mu$ temp-rdan çox asılıdır. Otaq temp-runda ($T\approx300$K) əsasən fononlardan səpilmə üstünlük təşkil edir, temp-run aşağı düşməsi ilə bu prosesin ehtimalı azalır və defektlərdən (xüsusən yüklənmiş) səpilmə əsas yer tutur ki, bunun da ehtimalı yükdaşıyıcıların enerjisinin azalması ilə artır.

Orta dreyf sürəti $\upsilon_{dr}=eE\tau/m^*$, burada $e$ – yük, $m^*$ – effektiv kütlə, $\tau$ – iki ardıcıl səpilmə aktı arasındakı zaman intervalıdır (s ə r b ə s t  y o l a  s ə r f  o l u n a n  z a m a n). Buradan:

$$\mu = e\tau/m^*. \quad (2)$$

Bərk naqillərdə C.d.y. geniş intervalda ($10^5 sm^2/san$ – $10^{-3} sm^2/san$) dəyişir və $T$=300K-də kiçik olur. Dəyişən elektrik sahəsində $\upsilon_{dr}$ fazaca sahənin $E$ intensivliyi ilə üst-üstə düşməyə bilər və o zaman C.d.y. sahənin tezliyindən asılı olur.

**CƏRƏYAN DÜZLƏNDİRİCİSİ** – dəyişən elektrik cərəyanını sabit cərəyana çevirmək üçün qurğu. C.d.-nin əsas elementi cərəyanı yalnız (yaxud, əsasən) bir istiqamətə buraxan *elektrik ventilidir*. Ventillərin dövri kommutasiyası nəticəsində C.d.-nin çıxışında biristiqamətli döyünən cərəyan yaranır. Tətbiq edilən ventilin tipinə görə C.d. vakuumlu (kenotronlu), qazboşalmalı, yarımkeçiricili, elektrik kontaktlı; düzləndirmə sxeminə görə bir və ya iki yarımperiodlu, körpü sxemli və sıfır çıxışlı; fazasının sayına görə birfazalı və çoxfazalı olur. Təyinatından asılı olaraq, C.d. tənzimləyən (adətən diodlu) və ya tənzimlənən (idarəolunan ventillər və elektrik açarları əsasında) düzəldilir. C.d. enerji mənbəyinə birbaşa, yaxud uzlaşdırıcı transformator vasitəsilə qoşulur. Sadə birfazalı, bir yarımperiodlu C.d. yarımkeçirici diod, aktiv yük və dəyişən cərəyan mənbəyindən ibarətdir. Düzləndirilən cərəyanın (gərginliyin) döyünməsini azaltmaq üçün C.d.-nin çıxışı ilə yük arasında hamarlayıcı *elektrik süzgəci* qoşulur. Birfazalı C.d. radio aparatlarının qidalanma sistemlərində, avtomatika və telemexanika qurğularında geniş tətbiq edilir. Üçfazalı qida mənbəyində uzlaşdırıcı transformatorların fazalarının və ventil bloklarının kaskadlı (paralel, yaxud ardıcıl) birləşmələrinin sayının artırılması hesabına çoxfazalı (6, 12, 24 və daha çox sayda faza) düzləndirmə sxemi almaq mümkündür. Çoxfazalı Ç.d.-ndə çıxış gərginliyinin döyünmə səviyyəsi aşağı olur, bundan əlavə, düzləndiricidə, ventil bloklarının kaskadlı birləşməsi çıxış gərginliyini yüksəltməyə (ardıcıl birləşmədə), yaxud yolverilən çıxış cərəyanını artırmağa (paralel birləşmədə) imkan verir. Belə C.d., əsasən, güclü sənaye qurğularını qidalandırmaq üçün tətbiq edilir.

**CƏRƏYAN GÜCLƏNDİRİCİSİ** – elektrik rəqslərini gücləndirmək üçün qurğu. Gücləndirilən rəqslərin gücləndirici elementə təsiri nəticəsində *sabit cərəyan* mənbəyinin nisbətən böyük enerjisini C.g. *dəyişən cərəyan* enerjisinə çevirir. Hər bir C.g. tezliklər zolağı ilə xarakterizə olunur. Əgər zolağın aşağı hədd tezliyi sıfıra yaxın olursa, sabit cərəyan gücləndiricisi, sıfırdan fərqli olduqda isə dəyişən cərəyan gücləndiricisi adlanır. C.g. radiotexnikada, rabitə texnikasında, ölçmə texnikasında və s. aparatlarda tətbiq edilir.

**CƏRƏYAN HÜDUDLAYICISI** – nəzarət edilən qurğuda cərəyan şiddəti yolverilən qiymətdən çox olduqda dövrəni

müəyyən müddət (bir neçə *dəq*) avtomatik ayıran alçaqgərginlikli elektrik aparatı. 10 *A*-dən çox olmayan cərəyan şiddəti üçün hazırlanır və azgüclü işlədicilərdə istifadə edilir. İş prinsipinə görə elektromaqnit və istilik C.h. vardır.

**CƏRƏYAN MƏNBƏLƏRİ** – müxtəlif növ enerjiləri elektrik enerjisinə çevirən qurğular. Çevrilən enerjinin növünə görə, şərti olaraq, kimyəvi və fiziki C.m.-nə ayrılır.

**Kimyəvi** C.m. (*qalvanik elementlər* və *akkumulyatorlar*) haqqında ilk məlumatlar 19 əsrə aiddir. 1940 ilə qədər dünyada yalnız bir neçə qalvanik element və akkumulyator tipi yaradılmışdır. Kimyəvi C.m. elektrik cərəyanını oksidləşmə-reduksiya reaksiyalarının enerjisi hesabına hasil edir. İstismar sxeminə və elektrik şəbəkəsinə enerji vermək qabiliyyətinə görə kimyəvi C.m. birinci (ilkin), ikinci enerji mənbələrinə və yanacaq elementlərinə ayrılır; ehtiyat enerji mənbələri ayrıca qrup təşkil edir. İ l k i n C.m.-nin (qalvanik elementlər və batareyalar) kimyəvi reagentlərinin enerjisindən bir dəfə istifadə olunur və enerji sərf edildikdən (boşaldıqdan) sonra o, iş qabiliyyətini itirir. İ k i n c i C.m.-nin (*elektrik akkumulyatorları* və *akkumulyator batareyaları*) enerjisindən dəfələrlə istifadə etmək olur; boşaldıqdan sonra onları yenidən (xarici mənbədən əks istiqamətdə cərəyan yaratmaqla) yükləmək mümkündür. Y a n a c a q  e l e m e n t l ə r i (*elektrokimyəvi generatorlar*) uzun müddət fasiləsiz olaraq elektrik cərəyanı hasil etməyə qadirdir. Təbii yanacaq enerjisini bilavasitə elektrik enerjisinə çevirən generatorlar daha perspektivlidir. E h t i y a t C.m. də yalnız bir dəfə istifadə üçündür; lakin qalvanik elementlərdən fərqli olaraq, onlarda reagent və elektrolit bilavasitə istifadəyə başlamazdan əvvəl aktivləşdirilir. Ehtiyat C.m., əsasən, uzun müddət ehtiyat (işləməyən) vəziyyətində saxlanılan elektrik aparatlarının qidalandırılması üçün tətbiq edilir.

**Fiziki** C.m. mexaniki, istilik, elektromaqnit, işıq, həmçinin radiasiya şüalanmaları və nüvə parçalanmaları enerjisini elektrik enerjisinə çevirən qurğulardır. Fiziki C.m.-nə elektromaşın və termoelektrik generatorları, termoemissiya çeviriciləri, maqnitohidrodinamik generatorlar, həmçinin günəş şüalarının və atom parçalanmasının enerjisini çevirən generatorlar aid edilir. Müasir energetikada daha geniş yayılmış C.m. olan *elektromaşın generatorları* (mexaniki enerjini elektrik enerjisinə çevirir) gücünə (*Vt*-ın hissələrindən *GVt*-a qədər), təyinatına və istismar xüsusiyyətlərinə (stasionar, nəql., ehtiyat və s.), ilkin mühərrikin növünə (məs., turbogenerator, hidrogenerator), işlək cisminə (buxar, su, qaz) və s. görə təsnif olunur. *Termoelektrik generator* (TEG) istilik enerjisini birbaşa elektrik enerjisinə çevirmək üçündür. Yarımkeçirici termoelementlər əsasında olan TEG-lər daha səmərəlidir; onların gücü yüzlərlə *kVt*-a, f.i.ə. 20%-ə çatır. TEG-lərin elektromaşın generatorlarına nisbətən üstünlüyü hərəkətli hissələrin olmaması, etibarlı işləməsi və xidmət müddətinin uzun (25 ilədək) olmasıdır. T e r m o e m i s s i y a  ç e v i r i c i l ə r i n i n işi qızmış metalın səthindən elektron buraxılması hadisəsinə əsaslanır. Termoemissiya çeviricilərində cərəyan şiddəti, katod emissiyası cərəyan şiddəti ilə məhdudlaşır; f.i.ə. elektrodların qızma temp-rundan asılıdır və 30%-ə çatır. 1990-cı illərdən günəş enerjisini elektrik enerjisinə çevirən fotoelektrik generatorları daha geniş tətbiq olunur. Onlarda elektrik enerjisi *fotoelementə* işıq şüaları düşərkən baş verən proseslər nəticəsində meydana çıxır. Silisium əsaslı günəş batareyalarının gücü 10 *kVt*-a, f.i.ə. 10–20%-ə çatır, xidmət müddəti demək olar ki, qeyri-məhduddur.

*Maqnitohidrodinamik generatorlar* maqnit sahəsində hərəkət edən elektrikkeçirən mühitin (məs., aşağıtemp-rlu plazmanın) enerjisini elektrik enerjisinə çevirir. Belə C.m.-nin f.i.ə. (bir aqreqatda 500 *MVt* qədər güc olarsa) 40%-ə çatır. Sənaye energetikası üçün təbii üzvi yanacaqdan (qaz, kömür) istifadə edilən plazma maqnitohidrodinamik (MHD) generatorlar daha perspektivlidir. 21 əsrin əvvəllərində ABŞ, Yaponiya, Rusiya və s. ölkələrdə elektrik gücü onlarla *MVt*-a çatan bir sıra MHD-qurğular işlənib hazırlanmışdır. Nüvə (atom) batareyası radioaktiv elementlərin nüvə parçalanması zamanı ayrılan enerjini elektrik enerjisinə çevirir. Atom batareyalarının gücü bir neçə yüz *Vt*-dan çox olmur, gərginliyi 20 *kV*-a, xidmət müddəti 25 ilə qədərdir.

**CƏRƏYAN MÜHAFİZƏSİ** – nəzarət edilən elektrik dövrəsində cərəyan şiddəti tələb olunan (lazımi) qiymətdən yüksək olduqda avtomatik işə düşən *rele mühafizəsi*. Selektivliyinin (seçiciliyin) təmin edilməsi üsullarından asılı olaraq, C.m. maks. cərəyandan və qısaqapanma cərəyanından mühafizə (cərəyan kəsilməsi) növlərinə ayrılır. Maks. C.m. elektrik dövrəsində ifrat maks. cərəyan şiddəti ilə yüklənmələrə reaksiya verir; dövrədən keçən cərəyan şiddəti yükdən keçərək maks. yolverilən cərəyandan yüksək olduqda C.m. işə düşür. Maks. C.m.-ndə cərəyan relesi və zaman relesindən, yaxud hər ikisinin bir relédə birləşməsindən istifadə olunur. Dövrələrin qısaqapanma cərəyanından mühafizəsi üçün maks. cərəyan relesi tətbiq edilir. C.m. elektrik şəbəkələrini, maşınlarını, transformatorlarını və s. ifratyüklənmədən və qısaqapanmadan qorumaq üçündür.

**CƏRƏYAN STABİLİZATORU** – elektrik dövrəsində yükün qiymətlərinin dəyişməsi (müəyyən hədd daxilində) zamanı elektrik cərəyanı (əsasən, sabit cərəyan) şiddətinin müəyyən (lazımi) qiymətini avtomatik sabit saxlayan qurğu. Cərəyan volt-amper xarakteristikası kəskin qeyri-xəttiliyə malik elektron cihazları (*baretter*, elektrovakuum diodu), yaxud cərəyana görə mənfi əksəlaqəyə malik elektron gücləndiriciləri vasitəsilə sabitləşdirilir.

**CƏRƏYAN ŞİDDƏTİ** – *elektrik cərəyanının* skalyar xarakteristikası; naqilin en kəsiyindən $\Delta t$ zaman intervalında keçən $\Delta q$ yükünün həmin intervala olan nisbətinə bərabərdir: $i = \Delta q/\Delta t$. C.ş. vahidi *amperdir*. C.ş. ölçmək üçün *ampermetrdən* istifadə edilir.

**CƏRƏYAN TƏRƏZİSİ** – bax *Amper tərəzi*.

**CƏRƏYAN TRANSFORMATORU** – böyük güclü (şiddətli) dəyişən elektrik cərəyanını (bəzi hallarda xüsusi sxem üzrə olan sabit cərəyanı) standart ölçü cihazları ilə ölçmək üçün əlverişli qiymətlərə çevirən *ölçü transformatoru*. C.t.-nun birinci dolağı ardıcıl olaraq cərəyanı ölçüləcək dövrəyə, ikinci dolağı isə ölçü cihazı və mühafizə relesi olan dövrəyə qoşulur. Ölçmə cərəyanının nominal şiddəti 5*A*-dən 5*kA*-dək, gərginliyi isə 380 *V*-dan 750 *kVt*-a qədər olan C.t.-ları istehsal edilir. C.t. işçi gərginliyə (aşağı və yüksəkgərginlikli), tətbiq sahəsinə (ölçmə, mühafizə, laboratoriya), birinci dolaqdakı sarğıların sayına (bir və çox sarğılı) və s. görə təsnif olunur.

**CƏRƏYANGÖTÜRƏN**, c ə r ə y a n  q ə b u l e d i c i s i – elektrikləşdirilmiş hərəkət vasitələri, qaldırıcı kran və s.-nin hərəkəti zamanı elektrik cərəyanını kontakt naqilindən (məftilindən), yaxud relsdən götürən (qəbul edən) qurğu. C.-in lingli (trolleybuslarda), pantoqraflı (bəzən sadəcə pantoqraf adlanır; elektrik lokomotivi və qatarlarında) halqavarı (gəmi qurğularında) və s. növləri olur.







Pantoqraflı cərəyan qəbuledicisi.



Codtüklü bağ cərgəvəri (Polystichum setiferum).

**CƏRƏYANIN MƏHDUDLAŞDIRILMASI** – bax *Cərəyan hüdudlayıcısı*.

**CƏRƏYANLARIN PONDERMOTOR QARŞILIQLI TƏSİRİ** – cərəyanlı naqillərdə yaranan maqnit sahələri vasitəsilə bu cərəyanların mexaniki qarşılıqlı təsiri. Cərəyanlı ($I_1$ və $I_2$) iki $l_1$ və $l_2$ naqillər üçün $I_1\Delta l_1$ cərəyan elementinin $I_2\Delta l_2$ cərəyan elementinə göstərdiyi $\Delta \boldsymbol{F}_{12}$ təsir qüvvəsi (şəkil)




$$\Delta \boldsymbol{F}_{12} = \frac{\mu I_1 I_2}{4\pi R^2}\left[\Delta l_2\left[\Delta l_1 \boldsymbol{R}_{12}\right]\right]$$

bərabərdir, burada μ – mühitin maqnit nüfuzluğu, $\boldsymbol{R}_{12}$ – $\Delta l_1$-dən $\Delta l_2$-yə doğru yönəlmiş və elementlər arasındakı məsafəyə bərabər olan vektordur. Analoji olaraq $\Delta \boldsymbol{F}_{21}$ qüvvəsi təyin edilir. Ümumi halda elementar qüvvələr Nyutonun 3-cü qanununu ödəmir, lakin hər iki konturun uzunluğu üzrə inteqrallama yolu ilə hesablanmış qapalı cərəyanların $F_{12}$ və $F_{21}$ pondermotor qüvvələri bu qanunu ödəyir: $F_{12} = -F_{21}$ (daha ətraflı bax *Amper teoremi*).

**CƏRGƏVƏR** (Polystichum) – ayıdöşəyi fəsiləsindən qıjılar cinsi. Çoxillik kökümsovlu otlardır. Hünd. 2 *m*-ədək olur. Yarpaqları lələkli, adətən sərt dərili, çox vaxt tikanlı dişciklidir. Sorusları (sporangi toplusu) girdə, çox vaxt qalxanvarı büründək (induzi) ilə örtülüdür. Hər iki yarımkürədə 250-yədək növü yayılmışdır; meşə və qayalarda bitir. Bəzi növlərindən bəzək bitkisi kimi açıq qruntda və oranjereyalarda istifadə olunur. C.-in, (xüsusilə P. setiferum, P. aculeatum və s.) bağda bitən çoxlu formaları var.

**CƏRİD**, Ş ə t t - ə l - C ə r i d (ər. الجريد شط) – Tunisin mərkəzi hissəsində, dəniz səviyyəsindən 16 *m* yüksəkdə axarsız çökəklik. Uz. 120 *km*, eni 60 *km*. Yağışlı mövsümdə (qışda) şor gölə, ilin quraq vaxtında isə quruyaraq şoranlığa çevrilir. Kənarlarında şirin qrunt suyu çıxışları və artezian quyuları var.

**CƏRİMƏ** – pul tənbehi; qanunla müəyyən edilmiş hallarda və qaydada tətbiq olunan maddi təsir tədbiri (Azərb. Resp. Cinayət Məcəlləsi, m. 44.1).

1. *Dəbbə pulu* növü kimi C. sabit məbləğdə, yaxud öhdəlik məbləğinin faizi ilə müəyyən edilir. C., ümumi qayda olaraq, birdəfəlik alınan pul məbləğidir. C. öhdəliyin icrasını təminetmə üsullarından biri olmaqla (öhdəlik icra edilmədiyi və ya lazımı qaydada icra edilmədiyinə görə təqsirli tərəfdən tutulur), onun pozulmasına görə məsuliyyət tədbiridir.

2. C. əsas və ya əlavə cəza tədbiridir. Əlavə cəza kimi C. məhkəmələr tərəfindən yalnız Azərb. Resp.-nın Cinayət Məcəlləsinin xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda təyin edilə bilər. C.-nı ödəməkdən boyun qaçıran şəxslərə bu cəza növü ictimai işlər, islah işləri və ya müəyyən müddətə azadlıqdan məhrumetmə ilə əvəz oluna bilər.

3. İnzibati tənbeh kimi C. inzibati xəta törətmiş şəxslərin üzərinə qoyulur. C. qoyulması əsasları və qaydası, onun məbləği, C. qoymaq səlahiyyəti olan dövlət orqanları və vəzifəli şəxslərin dairəsi Azərb. Resp.-nın qanunvericiliyi ilə müəyyənləşdirilir. C. törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla Azərb. Resp. qanunvericiliyi ilə müəyyən edilmiş minimum əməkhaqqı məbləğinin 100 mislindən 5000 mislinədək miqdarda təyin edilir. İnzibati cərimə məhkumluq yaratmır.

4. Məhkəmə də prosessual qanunvericilikdə nəzərdə tutulmuş hallarda və ölçüdə C. təyin edə bilər.

**CƏRİN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Xudabəndəli kəndistanında, Qiydar qəs.-ndən 27 *km* c.-ş.-dədir.

**CƏRİR** ibn Ətiyyə əl-Xətəba ət-Təmimi (təqr. 650 Səudiyyə Ərəbistanı Yəmamə, – 728 və ya 732 Yəmamə) – ərəb şairi. Əməvi valisi Həccacın saray şairi olmuş, yazdığı *həcvlər* ilə məşhurlaşmışdır. Təqr. 40 il müddətində öz dövrünün 80-ə yaxın

Cərid.



şairini həcv etdiyi söylənilir. *Fərəzdəq* və *Əxtəllə* qarşılıqlı həcvləri ("Nəqaiz Cərir və əl-Fərəzdəq", Leyden, 1912; Qahirə, 1935), ("Nəqaiz Cərir və Əxtəl", Beyrut, 1922) daha məşhurdur. Şeirlərinin dili sadə və axıcıdır. Mədhiyyələr, qəzəllər, mərsiyələr, fəxriyyələr də yazmışdır. Divanı bir neçə dəfə (Qahirə, 1895, 1935; Beyrut, 1960) nəşr olunmuşdur.

**CƏRRAHİYYƏ** (جراحیه) – sufi təriqəti. Silsiləsi ramazaniyyə və əhmədiyyə vasitəsilə *xəlvətiyyəyə* bağlıdır. Əsası 1703 ildə Nurəddin Cərrahi (1672–1733) tərəfindən qoyulmuş C. 18–19 əsrlərdə İstanbulda və Balkan y-a-nda yayılmışdı. C.-də xalqın ən müxtəlif təbəqələri təmsil olunurdu. 1925 ildə Türkiyədə xanəgahlar bağlandıqdan sonra bir müddət gizli fəaliyyət göstərmişdir. Türkiyənin müxtəlif şəhərlərində, eləcə də Mosul, Nafplion (Yunanıstan) və Tripolidə 29 təkyəsi məlumdur.

**CƏRRAHLIQ**, c ə r r a h i y y ə – (yun. χειρουργία, χείρ – əl + έργον – hərəkət, iş) – tibbin, xəstəliklərin tibbi əməliyyat ilə müalicəsini öyrənən, onun metod, üsul və texnikasını işləyib-hazırlayan sahəsi; əsas müalicə üsulu cərrahi müdaxilə olan xəstəlikləri öyrənir. *Terapiya* ilə yanaşı, aparıcı elmi klinik fənn olan C. bəsit praktik "əl işi"ndən müasir səviyyəyə kimi inkişaf etmişdir. C. – həkimdən cərrahi müdaxilənin texnikasına yiyələnməklə yanaşı, həm də xəstəyə müalicə üsulunu tətbiq etməyi əsaslandıran ümumbioloji və tibbi bilikləri bilməyi də tələb edir. Cərrahi xəstəliklər anlayışı elmi biliklərin inkişaf etməsinə müvafiq olaraq öz sərhədlərini dəyişir. Məs., 19 əsrin axırlarına kimi təbabət *appendisitin* cərrahi üsulla müalicəsini bilmirdi və bu xəstəlik terapiya sahəsinə aid edilirdi; müasir praktik təbabətdə kəskin appendisit cərrahi xəstəliklərə aid edilir və yalnız cərrahi müdaxilə yolu ilə müalicə olunur. 20 əsrin ortalarına kimi ürək xəstəliklərini yalnız terapevtlər öyrənir və müalicə edirdilər. Lakin 20 əsrin 2-ci yarısından ürək qüsurlarının – ürək anev- rizmi, stenokardiya və miokard infarktının öyrənilməsi və cərrahi üsulla müalicəsi ilə məşğul olan ürək-damar C.-ı sürətlə inkişaf etməyə başladı. Müasir C.-ın nailiyyətləri təbiətşünaslığın və texnikanın nailiyyətləri ilə, *anesteziologiyanın, reanimatologiyanın, hemotransfuziologiyanın* inkişafı ilə əlaqədardır, bu da müdaxiləsi çətin olan həyati vacib orqanların (ürək, ağ ciyərlər, magistral damarlar, baş və onurğa beyni) xəstəlikləri zamanı cərrahi müalicə üsullarını tətbiq etməyə imkan verir.

**Cərrahlığın tarixi.** C. terapiya və məmalıq ilə yanaşı ən qədim tibbi ixtisaslardandır. Arxeoloji tapıntılardan və qədim əlyazmalardan məlumdur ki, hələ Daş dövründə cərrahi üsulla müalicə cəhdləri olmuşdur; e.ə. 3–2-ci minilliklərdə Misirdə qanalma, çıxıqların yerinə salınması, qeysər kəsiyi, sidiklikdən daşın çıxarılması və s. əməliyyatlar aparılırdı; Qədim Hindistanda burun qüsurlarını aradan qaldırmaq üçün dəri plastikası (dodaq dərisindən istifadə etməklə) tətbiq olunurdu; Qədim Yunanıstanda *Hippokrat* dövründən qalmış C.-a aid əsərlərdə kəllənin trepanasiyası, boşluqların deşilməsi, sınıqların müalicəsi və s. operativ əməliyyatlar və çoxlu cərrahi alətlər təsvir edilmişdir; Selsin əsərlərində məs., iri damarları bağlayaraq, qanaxmanın qarşısının alınması ilə amputasiyanın təsviri verilmişdir; 2 əsrdə Qədim Roma həkimi Antillus damarların anevrizimini operativ üsulla müalicə etmiş, özündən sonra fistulaların müalicəsinə, daşparçalanmaya dair əsərlər qoyub getmişdir.

Orta əsr təbabəti, dini ehkamlara riayət edərək, qan axıdılmasına qarşı çıxaraq, anatomiyanın meyit üzərində öyrənilməsinə qadağa qoymuşdur. Bu, "alim" həkimlərin məşğul olduğu tibbin və kustar sənətə çevrilən cərrahlığın bir-birinə qarşı qoyulması ilə nəticələnmişdi. İntibah dövründə C.-ın inkişafının elmi əsasını anatomiyanın nailiyyətləri (*Vezali*, Fallopi və Yevstaxinin işləri ilə əlaqədar olan) təşkil edirdi. Odlu silahların meydana çıxması müharibələr zamanı kütləvi yaralanmalara səbəb oldu və yaraların müalicəsinə olan tələbatı gücləndirdi; bunun da C.-ın inkişafında müəyyən rolu oldu. Elmi C.-ın banilərindən biri olan A.*Pare* amputasiyanın texnikasını, sarğılar və odlu silah yaralarının müalicəsi haqqında təlim işləyib-hazırladı. Onun müasiri olan fransız cərrahı P.Franko qasıq yırtığı üzərində əməliyyat və daşçıxarmanın texnikasını təkmilləşdirdi. Bunlardan başqa, C.-ın təşəkkül tapmasında 16 əsrdə B. Maci (İtaliya) və F.Vürts (İsveçrə), 17–18 əsrlərdə V.Fabrisi (Almaniya), C. Hanter (B. Britaniya), A. Skarpa (İtaliya) mühüm rol oynadılar. 1731 ildə Parisdə Cərrahlar Akademiyası təsis edildi və ona Paris Un-tinin tibb fakültəsi ilə eyni hüquq verildi (1743). Bununla da C. həkimlik sənəti kimi rəsmən təsdiq edildi.

19 əsrdə cərrahi praktikada *narkozun* və *aseptikanın* tətbiqi C.-ın inkişaf etməsinə səbəb oldu. Belə ki, operativ texnikanın lazımi qədər işlənib hazırlanmasına baxmayaraq, C.-ın inkişafını əngəlləyən iki əsas problemi – cərrahi əməliyyatın ağrısızlaşdırılması və yaranın sonrakı irinləmədən qorunmasını həll etməyə imkan verdi. 1846 ildə efir narkozu təklif edildi (U.Morton), bir il sonra narkoz vasitəsi kimi xloroform buxarları tətbiq olundu (C.Simpson). 1867 ildə C.*Lister* yaraya düşən mikroorqanizmlərlə mübarizə aparılmasını təklif etməklə karbol turşusu məhlulunun köməyi ilə *antiseptikanın* başlanğıcını qoydu. Bunu, 19 əsrin sonlarında cərrah alətləri və digər vasitələrdə olan mikroorqanizm və onların sporlarınının əməliyyatdan əvvəl fiziki agentlərlə (ağların və alətlərin suda qaynadılması, buxarla sterilizasiya və s.) məhv edilməsinə əsaslan aseptika əvəz etdi. 20 əsrdə rentgen şüalarının kəşfi daxildə yerləşən orqan və toxumaların müayinə edilməsinə imkan verdi və C.-da diaqnostikanı xeyli yaxşılaşdırdı; sidik yollarına, düz bağırsağa, qida borusuna və s. baxmağa imkan verən *endoskopiyanın* inkişafı da buna kömək etdi.

19 əsrdə Fransada C.-ın nailiyyətləri D. Larrey, Q. Düpyuitren, J. Lisfran (1790–1847) və b.-nın adları ilə bağlıdır. 1826 ildə A. Lamberin təklif etdiyi seroseroz tikiş mədə-bağırsaq C.-ının əsası olaraq qalır. İngilis cərrahları, əsasən iri arterial kötüklərin sarınması, yırtıq boşluğunun yarılıb açılmasının aradan götürülməsi əməliyyatı, sümüklərdə və oynaqlarda cərrahi əməliyyatların texnikasını işləyib-hazırladılar (E. Kuper, C. Pecet və b.). 19 əsrin axırıncı rübündə C.-ın inkişafında aparıcı rol Almaniya və Avstriyaya keçir. Bir çox cərrahi əməliyyatlara adı verilən B. Langenbek və mədə cərrahiyyəsinin əsasını qoyan T. *Bilrot* alman elmi C.-ının baniləri olmuşlar. İsveçrə cərrahı T. *Koxer*, alman cərrahları F. Esmarx (1823–1908), E. Berqman (1836–1907), F.Trendelenburq (1844–1924), İ. Mikuliç (1850–1905), A. *Bir* (1861–1949) və b. onların şagird və ardıcılları idilər.

*Topoqrafik anatomiyanın* (əməliyyatların səmərəli aparılmasının əsasları) və müasir *hərbi-səhra cərrahlığının* banisi, narkozun və antiseptikanın Rusiyada geniş tətbiq olunmasının pioneri, C.-da anatomik-fizioloji istiqamətin görkəmli nümayəndəsi, rus cərrahı və anatomu N.İ. *Piroqovun* fəaliyyətinin çiçəklənməsi 19 əsrin ortalarına düşür. Rusiyada C.-ın sonrakı inkişafı N.V.Sklifosovski, A.A. Bobrov, P.İ.Dyakonov, N.A.Velyaminov və b.-nın adı ilə bağlıdır.

19 əsrin sonu–20 əsrin əvvəllərində ABŞ-da iri cərrahiyyə müəssisələrinin (Roçesterdə Meyo klinikası kimi) yüksək texniki avadanlıqla təchiz olunması ilə əlaqədar C.-ın sürətli inkişafına başlandı. H.U. Kuşinq, C. Krayl (1864 –1943) və digər, Amerika cərrahlarının əsərləri dünya şöhrəti qazandı (1864 –1943).

**Müasir cərrahlıq.** Müasir təbabət üçün səciyyəvi olan dar sahələrə ayrılma və eyni zamanda müəyyən orqan və sistemlərin patologiyası, xəstəliklərin diaqnostikası, müalicəsi və profilaktikasını öyrənən kompleks bölmələrin (məs., *Kardiologiya*) əmələ gəlməsi ilə müxtəlif sahələrin qarışıq sahələrlə birləşməsi kimi xarakterik proseslər C.-ı əsaslı surətdə dəyişdirdi. Hələ 19 əsrin ortalarında müstəqil tibbi sahələrə (*oftalmologiya, otorinolaringologiya, urologiya, ortopediya* və *travmatologiya*) çevrilən bölmələrin C.-dan ayrılması başlandı. *Onkologiya* 20 əsrdə ayrıldı. 20 əsrin ortalarında xüsusi müayinə və müalicə üsullarının meydana gəlməsi ilə şərtlənən ayrılma və ixtisaslaşma prosesi müstəqil *proktologiya* elmi bölməsinin formalaşmasına səbəb oldu; ağ ciyər (bax *Pulmonologiya*) və damar C.-ının da fənn kimi ayrılması davam etdi. Zədələnmiş orqanları təkcə kənar etmək deyil, həm də bərpa etmək üçün 20 əsrin əvvəllərində cərrahların başladığı işlər anadangəlmə və qazanılmış qüsurların aradan qaldırılması məqsədilə aparılan plastik əməliyyatların həyata keçirilməsi ilə nəticələndi (bax *Plastik cərrahlıq*). C.-ın tərəqqisi əhəmiyyətli dərəcədə qanköçürmə, şokla mübarizə üsulları, antibiotiklərdən istifadə haqqında təlimlərin işlənib-hazırlanması ilə müəyyən olunur.

Keçmiş SSRİ-də C.-ın inkişafında S.P. Fyodorov, İ.İ. Qrekov, S.İ. Spasokukotski, V.N. Şamov, N.N. Burdenko, eləcə də M.M. *Mirqasımov*, M.A. *Topçubaşov* və b.-nın böyük xidmətləri olmuşdur.

20 əsrin sonlarında bir neçə yerdən deşməklə kəsiksiz əməliyyat aparmağa imkan verən endoskopik cərrahiyyə üsulları işlənib-hazırlandı. Müasir dövrdə bunlar C.-ın bir çox sahələrində: urologiyada (prostat adenoması, sidiklik şişi, sidik yolları daşının transuretral üsullarla çıxarılması), abdominal C.-da (appendiksin, mədə və bağırsaq şişlərinin endoskopik üsulla çıxarılması), neyrocərrahlıqda, hətta plastik C.-da geniş tətbiq edilir.

20 əsrin 2-ci yarısında anesteziologiyanın inkişafı, süni qan dövranı aparatının tətbiqi, orqanizmin hipotermiyası və s. nailiyyətlər ürək cərrahlığının inkişafına səbəb oldu. Bu elmi sahəyə R.Brok, H.Sutter (B. Britaniya), Ç.Beyli, M. de Bekki, A.Blelok, D.Kuli, D.Harken (ABŞ), P.Valdoni, A.Dolotti (İtaliya), K.Kraford (İsveç) və bir çox başqaları; keçmiş SSRİ-də N.M.Amosov, A.N. Bakulev, V.İ. Burakovski, A.A. Vişnevski, P.A. Kupriyanov, E.N. Meşalkin, B.V. Petrovski və b. böyük töhfələr vermişlər. Fiziologiya və immunologiyanın nailiyyətləri 1960–70 illərdə cərrahlara böyrəyi, ürəyi, qara ciyəri müvəffəqiyyətlə köçürməyə və transplantologiyanın (bax *Transplantasiya*) əsasını qoymağa imkan verdi. Ürəyin insandan insana ilk dəfə müvəffəqiyyətlə köçürülməsini K.*Barnard* (CAR; 1967), ürək-ağ ciyər kompleksinin köçürülməsini isə D. Kuli (ABŞ; 1968) həyata keçirmişlər.

C.-ın tədrisi tibb un-tləri və fakültələrinin cərrahiyyə kafedralarında, habelə bəzi in-tların, o cümlədən Azərb. Tibb Un-tinin topoqrafik anatomiya və operativ cərrahiyyə kafedrasında həyata keçirilir; cərrahların sonrakı hazırlanması və ixtisaslaşması cərrahi klinikalarda (rezidenturada, Həkimləri Təkmilləşdirmə İntunda) və iri xəstəxana şöbələrində aparılır. İri C. klinikaları, C.-ın müxtəlif sahələri üzrə elmi-tədqiqat in-tları (Azərb. Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İn-tu və s.), elmi mərkəzlər (M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Milli Onkologiya Elmi Mərkəzi və s.) C. üzrə elmi-tədqiqat işləri aparır. Azərb. Cərrahlar Cəmiyyəti 1950 ildə Ümumittifaq Cərrahlar Cəmiyyəti tərkibində yaradılmış və 1953 ildən Beynəlxalq Cərrahlar Cəmiyyətinə daxildir. Azərb. Resp.-nda ümumi cərrahlığa aid tədqiqatlar "Azərbaycan tibb jurnalı"nda, "Sağlamlıq", "Cərrahiyyə", "Azərbaycan təbabətinin nailiyyətləri" jurnallarında dərc olunur.

**Baytarlıq cərrahlığı** ilk növbədə k.t. heyvanlarının travma alması ilə bağlı olan cərrahi xəstəliklərin diaqnostikası, müalicəsi, profilaktikası üsullarını işləyib hazırlayır. Anestiziologiya məsələlərini, müxtəlif növ heyvanlarda yara (zədə) proseslərinin, ətrafların, həzm və b. sistemlərində cərrahi əməliyyatın xüsusiyyətlərini öyrənir. Tədris fənni kimi baytarlıq cərrahlığının ü m u m i və x ü s u s i C., oftalmologiya (göz xəstəlikləri), ortopediya (dırnaq xəstəlikləri və heyvanların nallanması), topoqrafik anatomiya ilə birlikdə o p e r a t i v C. bölmələri vardır. 1945 ilədək h ə r b i - s ə h r a b a y t a r l ı q C.-ı C.-ın tərkib hissəsi idi. Cərrahi baytarlıq yardımı müalicənin iqtisadi cəhətdən məqsədyönlü ciddi uçotuna əsaslanır. Buna görə də baytarlıq C.-ının başlıca vəzifəsi k.t. heyvanlarının azalmış, yaxud itirilmiş məhsuldarlığının cüzi məsrəflə və qısa müddətdə bərpa edilməsindən ibarətdir.

**CƏSUR FİLİPP** (Philip II; fr. Philippe le Hardi; ing. Philip the Bold) (17.1.1342, Fransa, Pontuaz – 27.4.1404, Brabant, Qalle) – Burqundiya hersoqu [1363–1404]. Burqundiya hersoqluğu ona atası II İoann tərəfindən bağışlanılmışdı. C.F. sülalə nikahı və satın alma yolu ilə Şimali və Mərkəzi Fransada, Flandriya və Niderlandda ərazilər ələ keçirmişdir. Qardaşı oğlu VI Karl uşaq olduğu üçün, C.F. dövləti qardaşları ilə birlikdə idarə edir, İngiltərə və Almaniya ilə dostluq münasibətləri saxlayırdı. Karlın ağlını itirməsindən (1392) sonra, C.F. Fransanın həqiqi hökmdarına çevrilmişdi. O, İngiltərə ilə ittifaq bağlamış (1396) və *Avinyon əsirliyinə* qarşı çıxmışdır.

**CƏSUR KARL** (fr. Charles le Téméraire) [10.11.(digər məlumatlara görə, 11.11.)1433, Dijon – 5.1.1477, Nansi] – Burqundiya hersoqu (1467 ildən), *Valua* sülaləsinin yan qolunun nümayəndəsi. *Xeyirxah Filipp* və Portuqaliyalı İzabellanın (1397–1471) oğlu. Flandriyada tərbiyə almışdır. Gentdə baş vermiş üsyanın (1452–53) yatırılmasında iştirak etmişdir. Burqundiya hersoqluğunun geniş, lakin pərakəndə yerləşən torpaqlarını birəşdirib müstəqil krallıq yaratmağa çalışırdı. Fransa fyeflərinin Paris parlamentinin tabeliyindən çıxarılması məqsədilə məhkəmə sistemində islahat keçirmişdir. 1473 ildə (Tionvil ordonansı) Mehelendə özünün şimal mülkləri üçün vahid ali məhkəmə orqanı (parlament) və maliyyə idarəsini (hesablama palatası) yaratmışdır. Peşəkar ordunun (1471 və 1473 illərin ordonansları) təşkili onun adı ilə bağlıdır. Fransadakı mülklərinin müstəqilliyini ələ etmək məqsədi ilə öz süzereni kral *XI Lüdoviklə* siyasi rəqabət aparmış, onun mərkəzləşdirmə siyasətinə qarşı çıxmışdır. 1465 ildə Ümumi rifah liqasında iştirak etmişdir. İngiltərənin dəstəyinə ümid edərək *IV Eduardın* bacısı Marqarita (1446–1503) ilə evlənmişdir. Öz mülklərini genişləndirərək, 1474–77 illərdə İsveçrə və Lotaringiya ilə fasiləsiz müharibələr (Burqundiya müharibələri) aparmışdır.

Nansinin mühasirəsi zamanı həlak olmuşdur. Onun Fransa mülkləri (Pikardiya, Burqundiya hersoqluğu, Franş-Konte, Artua və Bulonne) XI Lüdovik tərəfindən ilhaq edilmişdir. Qalan torpaqların varisi isə C.K.-ın qızı Burqundiyalı Mariya olmuşdur. C.K. sağlığında Böyük Aslan, Döyüşçü, Qorxulu və İgid ləqəbləri ilə məşhur idi; Cəsur ləqəbi isə ona 18 əsrin sonu – 19 əsrin əvvəllərində verilmişdi.

**CƏVAHİRLİ** – Azərb. Resp. Ağdam r-nunun Göytəpə ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* şm.-da, Qarabağ düzündədir. Əh. 507 (2011); işğaldan (1994, aprel) əvvəl taxılçılıq, heyvandarlıq, pambıqçılıq, bağçılıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, klub, tibb məntəqəsi var idi.

**CƏYİRLİ** – Azərb. Resp. Bərdə r-nunun Güloğlular ə.d.-ndə kənd. R-n mərkəzindən 3 *km* şm.-da, Bərdə–Yevlax avtomobil yolunun kənarında, düzənlikdədir. Əh. 984 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tibb məntəqəsi, 18 əsrə aid günbəz var.

**CƏYİRLİ** – Azərb. Resp. Göyçay r-nunda kənd. Cəyirli ə.d.-nin (Cəyirli, Kürdəmiş, Qubadlı Şıxlı, Türkmən k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 4 *km* c.-da, Yuxarı Şirvan kanalının və Göyçay çayının sahilindədir. Əh. 1311 (2011); maldarlıq, meyvəçilik, tərəvəzçiliklə məşğuldur. Daş-qum karxanası, tam orta məktəb, uşaq bağçası, kitabxana, tibb məntəqəsi, poçt, ATS var.

**CƏYİRLİ** – Azərb. Resp. Göyçay r-nunun Çərəkə ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* c.-da, Göyçay çayının sahilində, Şirvan düzündədir. Əh. 300 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tibb məntəqəsi var.

**CƏYİRLİ** – Azərb. Resp. Qobustan r-nunda kənd. Cəyirli ə.d.-nin (Cəyirli, Çelov k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 6 *km* şm.-q.-də, dağ ətəyindədir. Əh. 2472 (2011); heyvandarlıq, əkinçilik və xalçaçılıqla məşğuldur. 2 tam orta məktəb, əsas məktəb, klub, kitabxana, tibb məntəqəsi, poçt var.

**CƏYİRLİ** – Azərb. Resp. Qobustan r-nu ərazisində fəaliyyətdə olan palçıq vulkanı. Şimali C. (Cəyirli k.-ndən 1,5 *km* şm.-q.-də ) və Cənubi C. sopka (Cəyirli k.-dən 2 *km* c.-da) qrupundan ibarətdir. Cənubi C.-də sopka və qrifonların yayıldığı sahə (240 *ha*) sopka brekçiyası ilə örtülmüşdür (1959 ilin 1-ci yarısında burada iki güclü püskürmə baş vermişdir). Şimali C. vulkan nisbi hünd. 6–8 *m* olan kəsik konus şəklindədir; konusun 150×150 *m* ölçülü kəsim səthində qaz və bulanıq su ayıran iki kiçik qrifon vardır.

**CƏYİRLİ** – Azərb. Resp. Şəki r-nunda kənd. Cəyirli ə.d.-nin (Cəyirli, Qozlubulaq k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 55 *km* c.-da, dağ ətəyindədir. Əh. 2145 (2011); heyvandarlıq, üzümçülük və əkinçiliklə məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, klub, tibb məntəqəsi var.

**CƏYİRLİ SU QOVŞAĞI** – Azərb. Resp. Şəki r-nunda, Əlican çayı üstündədir. 1962 ildə istifadəyə verilmişdir. Qovşaqdan Cəyirli suvarma kanalı (suburaxma qabiliyyəti 2,5 $m^3/san$) başlanır.

**CƏYİRLİLƏR** (əsl adları ç a k u r l u, ç a k i r l i) – türkdilli tayfa. Əvvəllər Orta Asiyada yaşayan C. sonralar İran, Kiçik Asiya və Cənubi Qafqaz ərazisində məskunlaşmışdılar. Qaraqoyunlu və Ağqoyunlu tayfa birliklərinə daxil olan C. Ərdəbil, Muğan və s. yerlərdə yaşamışlar. 19 əsrin ortalarında Cavad qəzasında yaşayan və maldarlıqla məşğul olan C. 90 ailədən ibarət idi. Azərb.-da Cəyirli (Bərdə, Göyçay, Şəki, Şamaxı r-nları) və Çaxırlı (İmişli, Göyçay, Masallı, Cəbrayıl r-nları) k.-lərinin adı, ehtimal ki, C.-lə əlaqədardır.

**CƏYLİ** – Azərb. Resp. Kürdəmir r-nunda kənd. Cəyli ə.d.-nin (Cəyli, Bala Kəngərli, Şahbəyli, Ucarlı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 15 *km* şm.-ş.-də, Şirvan düzündədir. Əh. 1613 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**CƏZA** – törədilən cinayətə görə dövlət məcburiyyəti tədbiri; dövlətin adından məhkəmənin hökmü ilə tətbiq edilir. İbtidai icma cəmiyyətində C. olmamış, baş verən münaqişələr isə *qan intiqamı, talion* adətləri əsasında tənzimlənirdi. İlk C. tədbirlərindən olan *katorqa* quldarlıq cəmiyyətində meydana gəlmişdir. 18 əsrdə C.-nın məqsədi ilk növbədə qorxutmaq idi; *ölüm cəzası*, qəsdən şikəstetmə, cismani cəza ən ağır cəza növləri olmuşdur. Almaniya və İtaliyada faşizm dövründə C. terror vasitəsi idi.

Azərb. Resp.-nda C.-nın mahiyyəti və məqsədi cinayət qanunvericiliyində müəyyən edilmişdir. Qanuna görə C. sosial ədalətin bərpası, məhkumları islah etmək və onları yenidən tərbiyələndirmək, məhkumlar tərəfindən yeni cinayət edilməsinin qarşısını almaq (xüsusi xəbərdaredici C.), habelə başqa şəxslər tərəfindən yeni cinayət edilməsinin qarşısını almaq (ümumi xəbərdaredici C.) məqsədini güdür. Cəzanı çəkmə rejiminə riayət edilməsi, məhkumların ictimai-faydalı əməkdə iştirakı, məhkumlarla siyasi-tərbiyə işi, onlara ümumi təhsil və texniki peşə təhsili vermək həmin məqsədə nail olmaqda əsas vasitədir. C. cinayətkarlığın qarşısının alınmasına yönəldilmiş sosial tədbirlər kompleksində mühüm tədbirlərdən biridir. Cinayət etmiş şəxslər barəsində C. yalnız məhkəmənin hökmü ilə tətbiq edilir. Cinayət qanunu C. təyin etmənin ümumi prinsiplərini müəyyənləşdirmişdir. Məhkəmə, C. təyin edərkən, törədilmiş cinayətin xarakterini və *ictimai təhlükə* dərəcəsini, təqsirkarın şəxsiyyətini, məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən halları nəzərə alır. Cinayət məcəlləsində C. tədbirlərinin dəqiq siyahısı müəyyən edilmişdir. Əsas cəza tədbirləri: ictimai işlər; azadlıqdan məhrum etmədən *islah işləri*; azadlığın məhdudlaşdırılması; *azadlıqdan məhrumetmə*; *ömürlük azadlıqdan məhrumetmə* (CM, 43.1 maddə); müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrumetmə; *cərimə* (CM, 43.2 maddə). Əlavə cəza tədbirləri: xüsusi addan və ya hərbi rütbədən məhrumetmə; nəqliyyat vasitələrini idarəetmə hüququndan məhrumetmə; əmlak müsadirəsi; valideynlik hüquqlarından məhrumetmə; Azərb. Resp.-nın hüdudlarından kənara məcburi çıxarılma (CM, 43.3 maddə).

**CƏZA SİYASƏTİ**, c i n a y ə t k a r l ı q - l a m ü b a r i z ə s i y a s ə t i – müəyyən cəmiyyətdə dövlətin özünün iqtisadi, siyasi və s. mənafelərini qorumaq məqsədi ilə cinayətkarlığa qarşı mübarizə metodları və vasitələri. C.s. dövlətin daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir.

**CƏZAYİRİ** (جزايرى) Seyyid Nemətullah (1640, İraq, Bəsrə, Səbbağiyyə – 1700, İran, Lorestan, Poldoxtər) – islam hüquqçusu, cəfəri fiqhinin nümayəndəsi. İsfahanda əllamə Məhəmmədbaqir Məclisidən dərs almış, onun "Bihar əl-ənvar" toplusunun tərtibində iştirak etmişdir. Şəriət hökmlərinin çıxarılmasında üsulilik və əxbarilik arasında orta mövqe tutmuşdur. On beşə yaxın əsərin müəllifidir. Bir sıra əsərlərə qeydlər ("Nəhcül-bəlağə", *Əli ibn Əbu Talib*; "Əməl əl-amal", Hürr Amili və s.) və şərhlər ("Səhifeyi-səccadiyyə", *Əli ibn əl-Hüseyn*; "Təhzib əl-əhkam", Şeyx Tusi və s.) yazmışdır.

**CƏZƏRİ**, İsmayıl bin Rəzzaz, əsl adı Bədiüz-Zaman Əbül-İzz Əbubəkr bin ər-Rəzzaz (?–?) – mexanika sahəsində tədqiqatlar aparmış türk alimi. *Artuklular* dövründə sarayın (Diyarbəkir) baş mühəndisi (rəis ül-amali) olmuşdur (1174–1206). Əmir Nəsirəddin Mahmudun istəyi ilə yazdığı "Kitab fi marifətil-hiyelil-həndəsiyyə" ("əl-Cami beynəl-ilm vəl-amelin-nafi fi sina atil-hiyəl") adlı məşhur əsərini 1205 ildə tamamlamışdır. Kitabda su və qəndil sayğacları (saatları), qanalma və s. məqsədlərlə işlədilən qablar, mexaniki musiqi alətləri, fəvvarələr, su nasosları, o cümlədən suyu müəyyən fasilələrlə boşaldılan qablar, konusşəkilli vannalar, bürünc və misin qapalı qum qəliblərinə tökülməsi, təkərlərin balansı, taxta modellərin (şablonların) işlədilməsi, suaxıdanların (suaşıranların) tənzimlənməsi, sorma borularından istifadə və s. haqqında məlumatlar verilmişdir; alətlərin rəsmləri müxtəlif rəngli mürəkkəblərlə işlənmiş, onların iş prinsipinin izahı verilmiş, quraşdırılma üsulu və nəhayət işləmə qaydası göstərilmişdir. Kitabın Topqapı sarayı Sultan 3-cü Əhməd kitabxanasında saxlanılan 1206 il nüsxəsinin ön sözündə rəsm və şəkillərin C. tərəfindən çəkildiyi, yazıların isə Hisnikeyfalı Məhəmməd bin Yusif bin Osman tərəfindən müəllifin variantından köçürüldüyü bildirilir. Tədqiqatçılar əsərin mövcud olan 14 (15) nüsxəsindən (beşi Türkiyədədir) Oksford Bodli kitabxanasındakı "Bodli nüsxəsinin" mətnini əsas götürmüşlər. Kitabın bəzi bölmələri alman dilinə tərcümə edilərək (E. Viedemann və F. Hauzer) ilk dəfə 1908–21 illərdə müxtəlif jurnallarda məqalələr şəklində çap olunmuşdur. 1974 ildə Donald R. Hill kitabı ingilis dilinə çevirərək nəşr etdirmişdir. Kitabda göstərilən su sayğaclarından biri 1976 ildə islam festivalı üçün London Elm Muzeyində, digəri isə İstanbul Texniki Un-tində yenidən düzəldilmiş və işlədilmişdir. C.-nin ixtiralarından bəziləri bir neçə əsrdən sonra Avropada yenidən kəşf edilmişdir. Məs., Avropada qapalı qum qəlibləri ilə tökmə 1500-cü illərdə tətbiq olunmuşdur, konusşəkilli vannalardan ilk dəfə Leonardo da Vinçi bəhs etmişdir, su sayğaclarında səviyyəyə nəzarət cihazına bənzəyən və buxar qazanlarında işlədiləcək alətin patenti İngiltərədə 1784 ildə alınmışdır. C.-nin quraşdırdığı su çarxı ilə işləyən nasosun texnikanın inkişafında, ən çox buxar maşını və sorma nasosunun yaradılmasında böyük əhəmiyyəti olmuşdur.

**CƏZİRƏ**, Ə l - C ə z i r ə – İraq, Suriya və Türkiyədə plato. Mesopotamiyanın şm. hissəsi. Şm.-dan və ş.-dən Tavr və Zaqros d-rının qolları ilə sərhədlənir, q.-də və c.-q.-də tədricən Suriya səhrası və Ərəbistan y-a-na keçir, c.-ş.-də Mesopotamiyanın c. düzənlik hissəsindən çıxıntı ilə ayrılır. Düzənlik c.-ş.-dən şm.-q.-ə doğru 200 *m*-dən 450 *m*-ədək yüksəlir. Dağ tirələrində hünd. 1460 *m*-ədək çatır (Sincar massivində Şelmira d.). Düzənliyin səthi Dəclə və Fərat çaylarının terraslaşmış dərələri, onların qolları, həmçinin vadilərin quru dərələri ilə kəsilmişdir. C. Tabaşir və Miosenin qumdaşı və əhəngdaşılarından, allüvium və bazalt sahələrindən ibarətdir. Şm.-da İraq ərazisində iri neft yataqları (Kərkük və s.) var. İqlimi subtropikdir. Yayı isti quru, qışı mülayim rütubətli keçən Aralıq dənizi iqlimi hakimdir. C.-da səhra, şm.-da dağətəyi düzənliklərdə yarımsəhra landşaftları üstünlük təşkil edir; dağ yamaclarında nadir püstə meşələri, vahələrdə və çay dərələrində qovaq, söyüd, yulğun ağaclarından ibarət qalıq meşə sahələri var.

**"CƏZİRƏ"**, Ə l - C ə z i r ə (الجزيرة; ing. "Al Jazeera Media Network") – beynəlxalq ərəbdilli peyk mediaşirkəti. 1996 ildə Qatarda təsis edilmişdir. Mənzil-qərargahı Doha ş.-ndə yerləşir. Bir neçə telekanalı ("Al Jazeera İnternational", "Al Jazeera Mubasher", "Al Jazeera English", "Al Jazeera Documentary Channel" və s.) fəaliyyət göstərir. Verilişlər paytaxtda və digər ölkələrdə yerləşən agentliklər tərəfindən həyata keçirilir. 1999 ildən sutkalıq yayıma başlamışdır. "C."-nin ərəb (2001 ildən) və ingilisdilli (2003 ildən) İnternet saytları, 2009 ildən isə bu saytların mobil variantı istifadəyə verilmişdir.

**CƏZVAN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin Zəncanrud kəndistanında, Zəncan ş.-ndən 90 *km* şm.-q.-dədir.

**CHANQAR** – Harappa mədəniyyətindən sonrakı dövrə, təqr. e.ə. 12–11 əsrlərə aid arxeoloji mədəniyyət. Sind vil.-nin (Pakistan) bir sıra məskənlərində müəyyənləşdirilmişdir. İlk dəfə 20 əsrin 20-ci illərində Sinddə Chanqar k. yaxınlığında aşkar edilmişdir. Stratiqrafik baxımdan C. mədəniyyəti ən yaxşı *Çanhu-Daroda* izlənilmişdir (burada C. mədəniyyətinin təbəqəsi Harappadan sonrakı *Chukar* mədəniyyətinə aid təbəqə üzərində yerləşir). Qazıntılar nəticəsində aydın olmuşdur ki, C. mədəniyyəti daşıyıcılarının azsaylı qrupu "chukarlılar" tərəfindən tərk edilmiş Çanhu-Daronu bir müddət işğal altında saxlamışlar. Şimali Bəlucistan və İran mədəniyyətlərinə müəyyən oxşarlığı C. mədəniyyətinin adı çəkilən ərazilərdəki tayfaların tədricən *Hind* çayı vadisində yayılması nəticəsində yarandığını ehtimal etməyə imkan verir. Bir sıra alimlərin (məs., S.K. Dikşit) C. mədəniyyəti daşıyıcılarını arilərlə eyniləşdirməsi arxeologiya, tarix və dilçilik materiallarına uyğun deyildir.

**CHANQ-SƏDR**, C h a n q – Pakistanın ş.-ində, Pəncab əyalətində şəhər. Əh. 354,2 min (2007). Çinab çayı dərəsindədir. Nəql. qovşağı. Şəhər 1288 ildə Chanq adı ilə salınmışdır. Sonradan ticarət və nəql. mərkəzi olan Maqhiana ilə birləşmişdir; 1954 ildən C.-S. adlanır.

Yüngül (tikiş, dəri və s.), yeyinti (k.t. məhsullarının emalı) sənayesi müəssisələri fəaliyyət göstərir; metal, dulusçuluq məmulatları istehsal olunur.

**CHANSİ** – Hindistanın mərkəzi hissəsində, Uttar-Pradeş ştatında şəhər. Əh. 427,5 min (2007). Malva platosunun şm.-ş. hissəsində, Camni çayının (Camna çayının qolu) sol sahilindədir. Mühüm d.y. və avtomobil yolları qovşağı.

Chansi şəhərindən görünüş.



1613 ildə Orçha racəsinin əmri ilə əsası qoyulmuş qalanın ətrafında yaranmışdır. Strateji əhəmiyyətinə görə C.-ni Bundelkhandın qapıları adlandırırlar. 17 əsrdən 19 əsrin ortalarınadək eyniadlı racəliyin paytaxtı olmuşdur. *Lakşmi Bainin* başçılığı ilə *Hindistanda xalq üsyanının (1857–59)* mərkəzlərindən biri idi.

C.-də qala (1613), Rani-Mahal sarayı (1769–96, hazırda muzeydir), Maha-Lakşmi məbədi; Bundelkhand un-ti (1975), Mühəndis-texnologiya in-tu, Dövlət muzeyi var. Qara metallurgiya, d.y. texnikasının təmiri üzrə müəssisələr fəaliyyət göstərir. Kustar sənətkarlıq (ipək məmulatların istehsalı və s.), xalçaçılıq inkişaf etmişdir. C. yaxınlığında Orçha ş. (əsası 16 əsrin əvvəllərində qoyulmuşdur), 16–17 əsrlərə aid sarayları, məbədləri və məqbərələri olan qala yerləşir.

**CHUKAR** – Sinddə (Pakistan) Son Tunc dövrünə (e.ə. 2-ci minilliyin 2-ci yarısı) aid arxeoloji mədəniyyət, *Harappa mədəniyyətinin* son mərhələsi. Chukar k.-nin (Larkana ş.-ndən 9,5 *km* qərbdə və Mohenco-Darodan 27 *km* məsafədə) adı ilə adlandırılmışdır; 1928 ildə N.C. Məcumdar burada "Harappadan sonrakı" təbəqəni aşkarlamışdır. B.Britaniya arxeoloqu E. Makkeyin *Çanhu-Daroda* apardığı arxeoloji qazıntılar (1935–36) C. mədəniyyətinin digər abidələrdə də yayıldığını təsdiq etmişdir. Bir sıra tədqiqatçılar C. mədəniyyətini gəlmə hesab edir və *arilərlə* əlaqələndirirdilər. M.R. Muqhalın C.-da apardığı yeni qazıntılar (1973–74) Harappa mədəniyyəti ənənəsinin C.-dakı 3 mərhələsi boyunca fasiləsiz davamını sübut etmişdir.

Chukar mədəniyyəti. Çanhu-Darodan aşkarlanmış naxışlı keramika nümunələri (E. Makkeyə görə).



Daşqınlardan qorunmaq məqsədilə platformalarda salınan və düzbucaqlı məhəllələri, o cümlədən sənətkar məhəllələri (saxsı məmulatların, muncuqların, möhürlərin hazırlanması) olan yaşayış məskənləri; su quyuları, drenaj sistemi, bişmiş kərpicdən yaşayış və təsərrüfat tikililəri aşkar edilmişdir. Dulus çarxında hazırlanmış keramika Harappa mədəniyyəti nümunələrinə nisbətən daha kobud işlənmişdir. Muqhal bunu Son Harappa mədəniyyəti üslubu kimi səciyyələndirir: qırmızı anqobun üzərində ağ fonda qırmızı və qəhvəyi boyalarla işlənmiş qara naxışlar və s. Tunc və mis qablar, kərkilər, bıçaqlar və sancaqlar; daş dənəzənlər, həvəngdəstələr; saxsı muncuqlar; gildən həndəsi naxışlı, nadir hallarda isə keçi təsvirli dairəvi həmayil-möhürlər vardır. Çanhu-Darodan aşkarlanmış 2 ədəd kiçik ölçülü (hünd. 6 və 4,4 *sm*) unikal tunc əşya (ikitəkərli araba modelləri) arilərin mədəniyyətinin təsirini əks etdirir. Çanhu-Daroda Harappa evinin küncündə içərisində insan kəlləsi, iri balıqqulağı, tuncdan düzəldilmiş 4 ədəd yastı kelt və üzük olan qab tapılmışdır. Keltlər, üzüklər və sancaqlar (6-dan 29-a qədər əşya) C. mədəniyyətinin dəfinələri üçün səciyyəvidir. Harappanın "N" məzarlığında 2 təbəqədən ibarət dəfn yeri aşkar edilmişdir: aşağı təbəqədə meyitlər basdırılmışdır, yuxarı təbəqədə isə içərisində yandırılmış cəsədlərin qalıqları olan urnalar yerləşdirilmişdir; hər iki ayin R-37 Harappa məzarlığından fərqlidir. Üst təbəqədən tapılmış keramika üzərindəki naxışlar *Riqvedanın* 10-cu mandalasındakı bəzi süjetlərlə uyğunluq təşkil edir. C. mədəniyyətinə Cənubi Bəlucistan, Pəncab (Pakistan) və Qucaratdakı (Hindistan) abidələr zaman və xarakter etibarilə yaxındır. C. mədəniyyətini gətirilmə *Chanqar* mədəniyyəti, Bəlucistanda Kulli V (yaxud Londo) kompleksi, Qucaratda "qara və qırmızı keramika" mədəniyyətləri, Pəncabda oxra və boz boyalı keramika mədəniyyətləri əvəz etmişdir. Bəzi arxeoloqlar birinci və sonuncu mədəniyyəti arilərlə, qalanlarını isə Hindistanın erkən tarixi mədəniyyətlərinin formalaşmasında iştirak etmiş yerli əhali ilə əlaqələndirirlər.

**CIBILLI**, C i b i k l i – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (1930 ildən Qafan r-nu) azərb.-ların yaşadığı kənd. 1930-cu illərin sonlarında kənd ləğv edilərək əhalisi qonşu azərb. kəndlərinə köçürülmüşdür.

**CIDIR,** a t ç ı l ı q  y a r ı ş ı – *ippodrom*, yaxud düzəngahda müəyyən məsafəni qət etmək üzrə keçirilən atçılıq idmanı yarışı. Hamar yolda cıdır yarışları 1200–3200 *m* (milli idmanda 7 *km*-dək ) məsafəyə, maneəli yolda isə (yolun hər *km*-ində 1 *m* hünd.-də çırpı qoyulur) 2–3 *km* məsafəyə keçirilir. S t i p - ç e y z cıdırda atçapmanın ən mürəkkəb növüdür. Bu yarışda 6–7 *km*-ədək məsafədə qoyulmuş 18 maneə (hünd. 140 *sm*, eni 5,5 *m*-ədək olan ağır, hərəkətsiz maneə) dəf edilməlidir. K r o s s (dərə-təpəli yerlərdə atçapma) 3 *km*-dən 8 *km*-ədək məsafəyə (hər *km*-ə 3 təbii maneə düşmək şərti ilə) mütləq, yaxud sərbəst marşrutla keçirilir. Azərb.-da milli atçılıq idmanının "sürpapaq", "piyalə və ox", "çövkən", "papaqoyunu", "baharbənd", "yaylıq oyunları" və b. növləri vardır. Yarışlarda, əsasən, Qarabağ və Dilbaz atlarından istifadə olunur. *Bakı Dövlət Cıdır meydanı* 1923 ildən fəaliyyət göstərir. 1996 ildə Azərb. Atçılıq İdmanı Federasiyası (ARAF) yaradılmışdır. 2009 ildən resp. və beynəlxalq miqyaslı yarışlar, o cümlədən "Bakı", "Bahar" kubokları, Qafqazda ilk beynəlxalq turnir – Dünya kubokunun təsnifat mərhələsi, "Sərhədçi", klublar kuboku, "Qızıl payız", "Qız qalası", "Murad", "Embawood", "Grand Motors", "ARAF" kuboku yarışları keçirilmiş, Azərb.-da ilk Atçılıq festivalı (2010) təşkil edilmişdir.

**CIDIR MEYDANI** – bax *İppodrom*.

**CIĞA** – aşıq şeiri şəkli; təcnis, müxəmməs, gəraylı kimi kiçik həcmli poetik əsərlərin bəndlərinə əlavə olunaraq, məzmun və forma rəngarəngliyi yaradan qısa misralar. Çevik ahəngli C. çox vaxt əsərin leytmotivinin qabarıq surətdə ifadə olunmasına kömək edir. *Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli* və b. cığalı təcnisin gözəl nümunələrini yaratmışlar. *Aşıq Hüseyn Cavanın* cığalı gəraylıları məşhurdur.

**CIĞATAY** – Azərb. Resp. Xaçmaz r-nunun Qaraçı ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* c.-ş.-də, Ağçayın sahilində, Samur-Dəvəçi ovalığındadır. Əh. 539 (2011); maldarlıq, əkinçilik və bağçılıqla məşğuldur. İbtidai məktəb, kitabxana, tibb məntəqəsi var.





**CIĞATAY** – İranın Ərdəbil ostanında kənd. Meşkin şəhristanının Mərkəzi bölgəsinin Ərşəq kəndistanında, Meşkin ş.-ndən 32 *km* şm.-dadır.

**CIĞATAY** – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Paşalı, 12.10.1956 ildən Əzizbəyov, 19.4.1991 ildən Vayk r-nu), Arpa çayının yaxınlığında azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd ermənilərin hücumuna məruz qalmış, əhalisinin çox hissəsi qətlə yetirilmiş, sağ qalanlar didərgin düşmüşlər. 1922 ildə kəndin qaçqın əhalisi geri qayıtsa da, ermənilər onlara dağıdılmış evlərini bərpa etməyə imkan vermədiyindən kənd xaraba qalmışdır.

**CIĞATELLİ** – Azərb. Resp. Qəbələ r-nunda kənd. Cığatelli ə.d.-nin mərkəzi. R-n mərkəzindən 8 *km* q.-də, Qanıx-Əyriçay çökəkliyindədir. Əh. 637 (2011); taxılçılıq, heyvandarlıq və bağçılıqla məşğuldur. Tam orta məktəb, kitabxana, klub, poçt var.

**CIĞIN QARAQOYUNLU**, A ş a ğ ı  Q a r a q o y u n l u, Q a r a q o y u n l u – İrəvan xanlığı Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Cığındərə bölgəsində, Vedi çayının sahilində azərb.-ların yaşadığı kənd. Kənd adını Oğuz türklərinin məşhur qaraqoyunlu tayfasının adından götürmüşdür. Kəndin yuxarı hissəsində Yuxarı Qaraqoyunlu k. salındıqdan sonra Cığın Qaraqoyunlu kəndi həm də Aşağı Qaraqoyunlu kimi tanınmışdır. 19 əsrin sonlarında hər iki kənd birləşib əvvəlki adı ilə Cığın Qaraqoyunlu adlansa da, 1935 ildə adı dəyişdirilərək sadəcə Qaraqoyunlu qoyulmuşdur. Kənd 1918–20 illərdə erməni-daşnak təcavüzü nəticəsində dağıdılmış, əhalisi qovulmuşdur. 1922 ildə geri qayıdan əhali yenidən kəndi bərpa edib, yaşamışlar. 1949 ildə kəndin əhalisi Azərbaycana deportasiya olunmuş, kənd isə o vaxtdan xaraba qalmışdır.

**CIĞIR**, i z (h e s a b l a m a  t e x n i k a s ı n d a) – maqnit diski səthinin başlıqla oxuna və yazıla bilən hissəsi. Maqnit diskindəki C., uz. boyunca verilənlər yazılan, müəyyən radiusa malik çevrə şəklində olub 0-dan başlayaraq kənarlardan mərkəzə doğru nömrələnir. Disk aparıcısında bir neçə başlıq olarsa, onların altındakı bütün maqnit səthlərindəki eyni nömrəli C.-lar yığını s i l i n d r adlanır. Disklər silindrlərə bölündüyü üçün bir C.-dan digərinə keçid zamanı başlıqların yerini dəyişməsinə ehtiyac olmadığından yazma və oxuma vaxtı azalır. Kompakt diskdə (CD-ROM-da) informasiya spiralşəkilli xətt boyunca yazılır; C.-lar mikrodərinliklər (pitlər) ardıcıllığı şəklində olur.

**CIĞIRAÇAN** – səpin maşınlarına quraşdırılan və torpaqda şırım açıb oraya toxum tökən və üzərini torpaqla örtən işlək orqan. Konstruksiyasına görə C.-lar diskli, xizəkvarı, anker tipli, rotorlu-çala əmələ gətirən və s. olur. Dənsəpən maşınlarda ikidiskli və anker tipli C. tətbiq olunur. Rotorlu-çala əmələ gətirən C. kətan və çuğundur, xizəkvarı C. isə qarğıdalı və tərəvəz bitkiləri əkən maşınlara quraşdırılır.



Anker tipli cığıraçan.

**CIĞKİMİLƏR** (Juncaceae) – birləpəli bitki fəsiləsi. Çoxillik, yaxud birillik otlar, bəzən kollardır. Yarpaqları qınlı, xətvarı hamar və ya silindrikdir; bəzən bütün yarpaqları qına qədər reduksiya olunur. Çiçəkləri görkəmsiz, düzgün, adətən ikicinsli, küləklə tozlanan, başcıqvarı, topa halında, süpürgəşəkilli, yaxud çətirvarı çiçək qrupunda toplanmış, bəzən tək-tək yerləşmişdir. Fincanabənzər çiçəkyanlığı, 6 yaşılımtıl və ya qonur yarpağı, 6 erkəkciyi olur. Meyvəsi qutucuqdur. 400 növü əhatə edən 8–9, o cümlədən Azərb.-da 2 cinsi (21 növü) var. C. mülayim və soyuq r-nlarda və tropiklərin yüksək dağlıq ərazilərində, əsasən rütubətli və bataqlıq yerlərdə bitir. Bəzi növləri səbət və s. əşyaların toxunmasında istifadə olunur.

Cığkimilər. Əyilən cığ (Juncus inflexus).



**CIĞQIŞLAĞI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkmən bölgəsinin Ətraf kəndistanında, Türkmən qəs.-ndən 17 *km* c.-ş.-dədir.

**CILFIR** – Azərb. Resp. Qubadlı r-nunun Göyərcik ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* şm.-q.-də, dağətəyi ərazidədir. Əh. 45 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq və əkinçiliklə məşğul olmuşdur. Klub var idi.

**CILIZ**, C i l i z ə – Tiflis qub. Borçalı qəzasının Loru nahiyəsində (9.9.1930 ildən Allahverdi, 19.9.1969 ildən Tumanyan r-nu) azərb.-ların yaşadığı kənd. 19 əsrdə kəndə yunanlar da köçürülüb gətirilmişdir. 1920 ildə isə kəndə İrandan və Türkiyədən gəlmə çoxlu sayda erməni əhali yerləşdirilmişdir. 1988 ildə kəndin bütün azərb. əhalisi ermənilər tərəfindən soyqırıma məruz qalaraq kənddən qovulmuşlar.

**CILIZQUYRUQ QOYUNLAR** – quyruq fəqərələri ətrafında yağ toplanmayan qoyunlar. C.q. qısa və uzunquyruq olur. Qısaquyruq qrupuna aid qoyunların quyruğunun ucu çapma oynağına çatır (Romanov, Şimali qısaquyruq, Oparin, Sibirin şm. r-nlarının qoyunları). Uzunquyruq qrupuna aid olan qoyunların quyruğunun ucu isə çapma oynağından aşağı düşür. Bütün zərifyunlu qoyun cinsləri (Gürcüstan qoyunu istisna olmaqla), siqay qoyunları, tezyetişən ingilis ətlik cinsləri, Reşetilov qoyunu və s. C.q.-a aiddir.

Cılızquyruq Romanov qoyunu.



**CILQA XAN**, Cılqa xaan – yakut mifologiyasında yeni doğulan körpənin taleyini təyin edən ayılar (yuxarı və orta dünyaların xeyirxah allahları) sırasından allah. C.x. *Yurüng ayı toyonun* yaratdığı allahlara aid deyil. Əsatirlərə görə, C.x. arvadı Çınqıs biislə birlikdə göyün yazılar və naxışlarla dolu şm.-q. hissəsində yaşayır. Uşaq doğumu hamisi *Nelbey ayısıt* uşaq verməyəndə, onun canını C.x.-dan istəyirdilər. Hesab edilirdi ki, canı C.x.-dan alan uşağın taleyi etibarlıdır, təsadüfi xəstəlikdən və ya bədbəxtlikdən ölə bilməz. Heyvan tələfatı və aclıq zamanı da C.x.-dan yardım istəyirdilər.

**CIR** – təbii şəraitdə öz-özünə bitən: 1) meyvəçilikdə toxumlardan yetişdirilən cavan ağaclar (toxmaçar; peyvəndetmədə calaqaltı kimi işlədilir); 2) meşəçilikdə toxumdan bitmiş 2–3-yaşlı cavan ağaclar.

**CIR MƏRSİN** – erikakimilər fəsiləsindən vaksinium (Vaccinium) cinsinin adlarından biri. Həmişəyaşıl, yarpağınıtökən kollar, kolcuqlar və yarımkollardır. Çiçəklərinin 4–5 üzvlü ikiqat çiçəkyanlığı bitişikləçəklidir; çiçək tacı zəngşəkilli, kürəvarı, yaxud çarxvarıdır. Meyvəsi giləmeyvədir. Yer kürəsinin subtropik, mülayim və soyuq qurşaqlarında (əsasən, şm yarımkürəsində) cinsin 700-dən artıq növü bitir. Əksəriyyəti yaxşı balverəndir.

Əsl C.m. (qonobobel, V.*uliqinosum*) Avrasiyada geniş yayılmışdır. Hünd. 30–120 *sm* olan yarpağınıtökən koldur. Yarpaqları ellipsşəkilli tamkənarlı, hər iki tərəfdən göy ərplə örtülüdür. Qoltuq çiçəkləri çiçək qrupunda tək-tək, yaxud 2–3 ədəd olur. Çiçək tacı bitişikləçəkli, kürəvarı beşbölümlü, ağ, yaxud çəhrayı çalarlıdır. Giləmeyvələri tünd-göy mavi rəngli, şarşəkilli və ya azacıq uzunsov, ləti yaşılımtıl, turşməzədir. Meyvələrinin tərkibində B, C və PP vitaminləri var; damarbərkidici və iltihab əleyhinə təsirə malikdir; təzə və konservləşdirilmiş halda yeyilir. Ondan meyvə şərbəti, tinkturalar, kvaslar hazırlanır. Sistit, dizenteriya və b. xəstəliklər zamanı, həmçinin qida boyağı kimi, yarpaq və zoğlarından qurdqovucu, yarasağaldıcı və maddələr mübadiləsini normallaşdıran vasitə kimi istifadə edilir. Geniş becərilən Amerika növlərindən daryarpaq C.m. (V. *anqustifolium*), hündürboylu C.m. (V. *corymbosum*) və bir çox digərləri də vaksinium cinsinə daxildir. Ellipsşəkilli parlaq yarpaqlarının uz. 8 *sm*-ədək olan, yarpağını tökən hündürboylu (hünd. 250 *sm*-ədək) C.m. kolu Qərbi Avropada və ABŞ-da giləmeyvəli



Cır mərsin (Vaccinium angustifolium).

və dekorativ bitki kimi intensiv becərilir. Çiçəkləri salxımşəkilli çiçək qrupunda toplanmışdır. Mavidən qara rəngə qədər olan meyvələrinin diametri təqr. 2 *sm*-dir; hər salxımda 5–15 ədəd yerləşir, rəngsiz ləti turşaşirin dadlıdır; eyni vaxtda yetişmir (iyul–avqust), uzun müddət tökülmür.

Torfla zəngin neytral reaksiyalı torpaqlarda becərilir. Bitki su və işıqsevəndir, lakin çox suvarılmaya dözmür. Soyuq qış zamanı qarın səviyyəsindən yuxarıda yerləşən bir- və ikiillik zoğlarını don vura bilir. C.m. yaşıl və oduncaqlaşmış qələmlərlə çoxaldılır; əkin yazda aparılır. 2–3 illiyində bar verməyə başlayır; hər yaşlı koldan 4 *kq*-adək giləmeyvə yığılır, 30 ilədək bar verir. Sortları Rannokas, Blükrop, Diksi və s.-dir. Zərərvericiləri: mənənə, yarpaqbükən. Xəstəlikləri: *boz çürümə*, fomopsis və s.

**CIRCIRAMAKİMİLƏR** (Cicadinea) – bərabərqanadlı cücülər yarımdəstəsi. Uz. 3–65 *mm*, açılmış halda qanadlarının uz. 18,5 *sm*-dir. Başı qısa, gözləri çox qabağa çıxmışdır; təpəsində üçbucaqşəkilli 3 sadə gözcük var. Qılcıqşəkilli qısa bığcıqları 7 buğumdan (seqmentdən), ağız hissələri üçüzvlü sorucu ağız aparatından ibarətdir; ön qanadları arxa qanadlardan uzundur; qanadları əsasən şəffaf, bəzən əlvan, yaxud qaradır. Orta ayaqların budları qısa və enli, ön budları yoğun, aşağı tərəfdən tikanlı, baldırları silindrvarıdır. Qarıncığı çox yoğundur: dişilərdə yumurtaqoyanla, erkəklərdə isə kopulyasiya aparatı ilə qurtarır. C.-in əksəriyyəti dünyanın hər yerində, əsasən isti ölkələrdə yayılmışdır. Onlar ağac və kollarda yaşayır, yaxşı uçurlar. Erkək fərdlər daha çox günün ən isti vaxtında cırıldayır, çünki havanın istiliyi cırcıramanın oxumağa sərf etdiyi enerji üçün mühüm mənbədir. C.-də əzələlərlə titrədilən xüsusi səs membranı var. Çıxarılan səs bədəndəki xüsusi boşluqlarda rezonans yaradaraq gurlaşır.

C. sorucu ağız aparatı (dişilər həm də yumurtaqoyanı) ilə ağacları deşib şirəsini sorur; yumurtalarını bitkilərin qabığı altına qoyur. Sürfələr yoğun, yöndəmsiz bədənlidir, hamar və bərk kutikula yoğun ayaqları ilə seçilir; tikanlarla örtülmüş ön ayaqları enlibudlu və enlibaldırlıdır. Cavan sürfələr yerüstü həyat tərzi zamanı bitkinin gövdəsini, yeraltı həyat tərzinə keçdikdə isə kökünü sorur. Sürfələr bir neçə il (bəzən 17 ilədək) yaşayır. Qabıqqoymalardan sonra sürfələrdə qanadların rüşeymi inkişaf edir; son qabıqqoyma, adətən, ağaclar üzərində olur.

Dünyada təqr. 2500 növ cırcırama məlumdur. Azərb.-da C.-in 11 fəsiləyə aid 186 növü qeyd edilmişdir. C.-in bir çox növü k.t. bitkilərinin (buğda, pambıq, qarayonca, meyvə-tərəvəz) zərərvericisi və ya xəstəliktörədicisidir.

**CIRCIRAMALAR**, iynəcələr (Aeshnidae) – müxtəlifqanadlı cırcıramalar fəsiləsi. İri cücülərdir; açılmış halda qanadlarının uz. 18 *sm*-ədək olur. Dünyanın hər yerində yayılmışdır. 110 növdən,



İynəcə (Anax imperator).

Azərb.-da 60 növü məlumdur. Sürfələrinin uz. 6 *sm*-ədəkdir. Axarsız duzay şirinsu hövzələrində yaşayır. Yırtıcıdır; qanadlı C.-ın ovu iri cücülər (onları havada tutur və yeyir), balıq körpələrinin sürfələri, çömçəquyruqlar və onurğasız su heyvanlarıdır. Balıqçılığa ziyan vurur.

**CIRDAXAN** – Azərb. Resp. Yevlax r-nunun Varvara ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* şm.-q.-də, Kür çayının sağ sahilində, düzənlikdədir. Ərazidən Hacıqabul–Qazax magistral qaz kəməri keçir. Əh. 448 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**CIRDATƏPƏ** – Azərb. Resp. Sədərək r-nunun (Nax. MR) Sədərək k.-ndən c.-q.-də Araz çayı yaxınlığında yaşayış yeri; Naxçıvan-İrəvan d.y. çəkilərkən dağıdılmışdır. Abidənin salamat qalan





hissəsinin sah. təqr. 1 *ha*-dır. C.-də arxeoloq N. Museyibli tərəfindən kəşfiyyat qazıntısı aparılmış, mədəni təbəqə 2 *m* dərinliyədək öyrənilmişdir. Qazıntı zamanı ərazidən Son Tunc – Erkən Dəmir dövrünə, həmçinin orta əsrlərə aid keramika məmulatı, boz rəngli tufdan hazırlanmış dən daşları aşkar olunmuşdur. C. yaşayış yeri e.ə. 2–1-ci minilliklərə aid edilir. Erkən orta əsrlər dövründə yaşayış yerində həyat yenidən canlanmışdı.

**CIRHACI** – Azərb.-da xalq seleksiyası yolu ilə alınmış qədim alma sortu. Qış alma sortlarına daxildir. Ağacının hünd. 9–10 *m*, çətiri geniş, yastı və girdədir. Meyvəsi yaşılımtıl, üzəri al-qırmızı xət-



Cırhacı alma sortu.

lidir; orta böyüklükdədir (6–6,5 *sm*). Çəkisi 100–160 *q*-adək, ləti ağ, ətirli, şirəli olur. Tərkibində 10,4% şəkər və 0,07% turşu var. Oktyabrın 2-ci yarısında yetişir. Mayın axırınadək saxlamaq mümkündür. Hər ağacdan 150 *kq*-adək məhsul yığılır. Əsasən Quba–Xaçmaz zonasında əkilir.

**CIRQURD** – Azərb. Resp. Göyçay r-nunun Bığır ə.d.-ndə kənd. R-n mərkəzindən 15 *km* c.-ş.-də, düzənlikdədir. Əh. 126 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. İbtidai məktəb, tibb məntəqəsi var.

**CIRLAŞMA** (*kvant mexanikasında*) – müəyyən sistemi (atomu, molekulu və s.) xarakterizə edən hər hansı $L$ fiziki kəmiyyətinin bu sistemin müxtəlif hallarında eyni qiymətə malik olması. $L$-in eyni bir qiymətinə uyğun gələn halların sayı verilən kəmiyyətin cırlaşma dərəcəsi adlanır.

Kvant mexanikasında sistemin *enerji səviyyələrinin* C.-sı çox mühüm haldır; bu zaman müəyyən enerjiyə malik olan sistem bir neçə müxtəlif hallarda ola bilir. Məs., sərbəst zərrəcik üçün sonsuz C. enerjisi mövcuddur: zərrəciyin enerjisi impulsun yalnız ədədi qiyməti ilə müəyyən edilir, impuls isə istənilən istiqamətdə ola bilər (yəni sonsuz sayda üsullarla seçilə bilər). Bu misalda sistemin C. və fiziki *simmetriyası* arasında əlaqənin olması aydın şəkildə özünü göstərir; burada simmetriya fəzada bütün istiqamətlərin eynihüquqlu olması deməkdir.

Zərrəcik xarici elektrik sahəsində hərəkət etdikdə C. sahənin hansı simmetriya xüsusiyyətlərinə malik olmasından asılı olaraq, onun quruluşu ilə əhəmiyyətli dərəcədə əlaqəli olur. Əgər sahə sferik simmetrikdirsə, yəni istiqamətlərin eynihüquqluluğu saxlanırsa, onda zərrəciyin (məs., atomda elektronun) hərəkət miqdarının *orbital momenti*, *maqnit momenti* və spininin istiqamətləri zərrəciyin (atomun) enerjisinə təsir edə bilməz. Deməli, enerji səviyyəsinin cırlaşması burada da mövcuddur. Lakin bu sistemi $H$ *maqnit sahəsində* yerləşdirsək, onda $\mu$ maqnit momentinin istiqaməti onun qiymətinə təsir etməyə başlayacaq; müxtəlif halların ($\mu$-nün müxtəlif istiqamətləri) enerjisinin əvvəlcə üst-üstə düşən qiymətləri indi fərqlənirlər: zərrəciyin maqnit momentinin maqnit sahəsi ilə qarşılıqlı təsiri nəticəsində zərrəcik əlavə qiyməti maqnit momenti və sahənin qarşılıqlı oriyentasiyasından (səmtləşməsindən) asılı olan əlavə $\mu_H H$ enerjisi alır ($\mu_H$ – $\mu$-nün $H$ sahəsi istiqamətinə proyeksiyası olub kvant mexanikasında yalnız diskret qiymətlər ala bilər). Enerji səviyyəsinin "parçalanması" baş verir, yəni konkret şəraitdən asılı olaraq, C. tam və ya qismən (C. dərəcəsi azalır) götürülür. Enerji səviyyələrinin (atomların, molekulların, kristalların) maqnit sahəsində bu cür paylanması *Zeeman effekti* adlanır. Səviyyələrin parçalanması xarici elektrik sahəsində də olur (*Ştark effekti*).

Beləliklə, münasib qarşılıqlı təsirlərin "daxil edilməsi" C.-nın götürülməsinə (simmetriyanın sayının azalmasına) səbəb olur. Qarşılıqlı təsirlər "kənar edildikdə" isə, əksinə, sistemin simmetriyası artır və C. baş verir. Bu, elementar zərrəciklərin təsnifatı üçün əhəmiyyətlidir. Məs., elektromaqnit və zəif qarşılıqlı təsir nəzərə alınmadıqda (onlar "kənar edildikdə") neytron və protonun xassələri eyni olur və onlara eyni bir zərrəciyin – nuklonun iki müxtəlif (yalnız elektrik yükünə görə fərqlənən) halı kimi baxmaq olar. Bu halda nuklon ikiqat cırlaşmış halda olur.

**CIRLAŞMA TEMPERATURU** – qazın kvant xassələrinin təzahür etdiyi müəyyən temp-rdan aşağı temp-r (bax *Cırlaşmış qaz*). *Boze-qaz* üçün C.t. elə temp-rdur ki, bundan aşağıda *Boze-Eynşteyn kondensasiyası* – zərrəciklərin müəyyən hissəsinin sıfır impulsu hala keçməsi baş verir. İdeal boze-qaz üçün C.t. (kelvinlərlə)

$$T_0 = \frac{3{,}3}{g^{2/3}} \frac{\hbar^2}{mk} \left(\frac{N}{V}\right)^{2/3},$$

burada $N$ – qaz zərrəciklərinin tam sayı, $V$ – həcm, $m$ – zərrəciyin kütləsi, $g = 2J+1$, $J$ – zərrəciyin *spini*. $^4$He üçün $T_0 \sim 3$K.

*Fermi-qaz* üçün C.t. faza keçidi ilə əlaqəli deyil, o, mütləq sıfır temp-rda zərrəciklərin kelvinlərlə ifadə olunmuş, yəni $k$-ya bölünmüş maks. enerjisinə (*Fermi enerjisi*) bərabərdir. İdeal fermi-qaz üçün C.t. (kelvinlərlə)

$$T_0 = \frac{1}{2}\left(\frac{6\pi^2}{g}\right)^{2/3} \frac{\hbar^2}{mk} \left(\frac{N}{V}\right)^{2/3}.$$

C.t.-nda fermi-qazın aşağı səviyyələrinin, demək olar ki, hamısı dolmuş olur. Metallarda keçirici elektronlar üçün $T_0 \sim 10^4$ *K*.

**CIRLAŞMIŞ QAZ** – kvant mexanikasında bir-birindən seçilməyən eyni növ zərrəciklərin kvantmexaniki qarşılıqlı təsiri nəticəsində klassik ideal qazdan fərqli xassələrə malik olan qaz (bax *Eynilik prinsipi*). Belə təsirin nəticəsində mümkün enerji səviyyələrinin zərrəciklərlə dolması verilən səviyyədə digər zərrəciklərin mövcudluğundan asılı olur. Ona görə C.q.-ın istilik tutumu və təzyiqinin $T$ temp-rdan asılılığı klassik ideal qazdan fərqlənir; *entropiya*, *termodinamik potensial* və digər parametrlər başqa cür ifadə olunur.

Temp-run müəyyən qədər aşağı düşməsi ilə qazın cırlaşması başlayır. Bu temp-ra *cırlaşma temperaturu* deyilir. Tam cırlaşma mütləq sıfır temp-ra uyğundur. Zərrəciklər arasındakı $r$ orta məsafəsi zərrəciklərin $\lambda=h/m\upsilon$ *de Broyl dalğası* uz.-na nəzərən kiçik olduqca, bu zərrəciklərin eyniliyinin təsiri özünü daha qabarıq şəkildə göstərir, burada $m$ – zərrəciyin kütləsi, $\upsilon$ – onun sürətidir. $r \approx \lambda$ olduqda cırlaşma başlayır (klassik mexanika yalnız $r \gg \lambda$ olduqda qaz zərrəciklərinin istilik hərəkətinə tətbiq edilə bilir). Qaz zərrəciklərinin orta sürəti temp-rla əlaqəli olduğundan (sürət böyük olduqda, temp-r da böyük olur), zərrəciklərin kütləsi kiçik və onun sıxlığı böyük ($r$ kiçik) olduqda, $T_0$ cırlaşma temp-ru da yüksək olur. Ona görə də metallarda elektron qazı üçün cırlaşma temp-ru xüsusilə böyükdür ($T_0 \sim 10^4$K): elektronların kütləsi kiçik ($\sim 10^{-27}$ *q*), sıxlığı isə metallarda çox böyükdür ($\sim 10^{22}$–$10^{23}$ *sm*$^{-3}$). Metalların bərk halda olduğu bütün temp-rlarda elektron qazı cırlaşmış olur. Adi atomar və molekulyar qazlar üçün $T_0$ mütləq sıfıra yaxındır, belə ki, bu qazlar özünün

mövcud olduğu temp-r oblastında (mayeləşmə temp-runa qədər) praktiki olaraq həmişə klassik qaz xassələrinə malikdir.

Eyni zərrəciklərin bir-birinə kvant təsirinin xarakteri tam spinə (*bozon*) və yarımtam spinə (*fermion*) malik zərrəciklər üçün müxtəlif olduğuna görə cırlaşma zamanı da fermion qazı (*fermi-qaz*) və bozon qazı (*boze-qaz*) fərqli vəziyyətdə olurlar. Fermi-qazda (məs., metallarda elektron qazı) tam cırlaşma zamanı ($T$=0 K) F e r m i  s ə v i y y ə s i deyilən maks. səviyyəyə qədər bütün aşağı enerji səviyyələri dolmuş olur, sonrakıların isə hamısı boş qalır. Temp-run yüksəlməsi ilə elektronların yalnız Fermi səviyyəsinə yaxın səviyyələrdə yerləşən kiçik bir hissəsi bu səviyyələri azad edərək böyük enerjili boş səviyyələrə keçir.

Kütləsi sıfırdan fərqli olan boze-qaz zərrəciklərinin (atomların, molekulların) cırlaşması zamanı sistemin zərrəciklərinin müəyyən $N_{\varepsilon=0}$ hissəsi sıfır impulslu və deməli, sıfır enerjili hala keçir:

$$N_{\varepsilon=0} = N\,[1-(T/T_0)^{3/2}],$$

burada $N$ – zərrəciklərin tam sayıdır. Bu hadisə *Boze–Eynşteyn kondensasiyası* adlanır. Boze-qazın $S=1{,}28\ N(T/T_0)^{3/2}$ entropiyası və $C_V = 1{,}92\ N(T/T_0)^{3/2}$ istilik tutumu $T \to 0$ olduqda sıfıra yaxınlaşır, onun $p=21\ m^{3/2}\ T^{5/2} h^{-3}$ təzyiqi isə həcmdən asılı deyil, yəni boze-qaz doymuş buxarla oxşardır. Bu onunla izah edilir ki, kondensatın zərrəcikləri əsas enerji halında ($\varepsilon$=0 enerjili) olur, impulsları yoxdur və təzyiqə təsir etmir. Sıfır kütləli bozon qazı (məs., *foton* qazı) həmişə cırlaşmış olur və klassik statistika ona tətbiq edilə bilmir. Lakin sıfır impulslu foton mövcud olmadığına görə (foton həmişə işıq sürəti ilə hərəkət edir) onda Boze – Eynşteyn kondensasiyası baş vermir. $T$=0 olduqda foton qazı mövcud olmur.

**CIRLAŞMIŞ YARIMKEÇİRİCİLƏR** – yükdaşıyıcıları (keçirici elektronlar və deşiklər) böyük konsentrasiyaya malik olan *yarımkeçiricilər*. C.y.-də yükdaşıyıcılar *Fermi–Dirak statistikasına* tabedir, Fermi səviyyəsi keçirici zonada və ya valent zonasında yerləşir. Adi (cırlaşmamış) yarımkeçiricilərdə (yükdaşıyıcıların konsentrasiyası kiçikdir və onlar *Boltsman statistikasına* tabedir) Fermi səviyyəsi qadağan olunmuş zonada yerləşir. Yükdaşıyıcıların güclü injeksiyası şəraitində elektron və deşiklər eyni zamanda cırlaşa bilər. Bu halda Fermi səviyyəsi, biri keçirici zonada, digəri isə valent zonasında yerləşə bilən iki kvazisəviyyəyə parçalanır.

**CIRNATMA** – uşaq folkloru janrı. Kiçikyaşlı uşaqların nitqini inkişaf etdirmək, onlara düzgün danışıq və tələffüz vərdişlərini mənimsətmək məqsədi daşıyır (məs., Baş-başa, dırnaq daşa, Siz savaşa, biz tamaşa və s.).

*Əd.*: Azərbaycan şifahi xalq ədəbiyyatı. İki kitabda. Birinci kitab. B., 2001.

**CIRTDAN ANTİLOPLAR** (Neotragus) – boşbuynuzlular fəsiləsinin məməlilər cinsi. Bədəninin uz. 50–62 *sm*, hünd. 38 *sm*, kütləsi 2,5–6 *kq*-dır. Ətrafları nazik, boynu qısa, başı nisbətən böyük, beli qövsşəkilli əyilmiş, bədəni oma nahi-



Toranlıq antilopu (Neotragus moschatus).

yəsində cidova nisbətən hündürdür. Qısa buynuzları (2–12 *sm*) arxaya çəpinə yönəlmiş, onların ucları azacıq içəriyə qatlanmışdır. Beli kürəni-boz, bədəninin və quyruğunun aşağı hissəsi ağdır. Cinsin 3 növü var: cırtdan antilop (N.pyqmaeus), nəcib-sırtdan antilop (N.batesi) və toranlıq antilopu – suni (N.moschatus); Afrikada yaşayırlar. Sıx meşələrə, kol cəngəlliklərinə üstünlük verir, dağlara, 2000 *m*-ə qədər yüksəkliyə qalxa bilirlər. Yarpaq, zoğ, meyvə və müxtəlif otlarla qidalanır; tək-tək, cüt, yaxud ailəvi kiçik qruplarla gəzirlər. Təsərrüfat əhəmiyyəti yoxdur. Cırtdan və nəcib-cırtdan antilopların sayı azalmağa meyillidir. Sunilərin sayı az, lakin stabildir. C.a.-ın bütün növləri BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

**CIRTDAN BALİNA,** ə s l  b a l i n a (Capera marginata) – bığlı balinalar yarımdəstəsindən dəniz məməlisi. Xarici görünüşünə görə yarımdəstənin digər qruplarının müxtəlif əlamətlərinə uyğun gələn qədim növdür. Bu növ bığlı balinaların ən kiçiyi (bədəninin uz. 6,5 *m*-ə qədər, kütləsi 3–3,5 *t*) və ən nadiridir. Bədən forması və arxa tərəfin üçdə bir hissəsinin başlanğıcındakı oraqvarı bel üzgəcinin olması zolaqlı balinaları xatırladır. Başı bədənin ümumi uz.-unun təqr. 1/4-i qədərdir. Boyun fəqərələri bitişmiş, alt çənə əsl balinalarda olduğu kimi qövsvarı əyilmişdir. Boğazında iki dayaz bükük vardır. Döş üzgəcləri qısa və ensizdir. Bədəni və üzgəcləri qara, yaxud tünd-boz, qarnı bir qədər açıqrənglidir. Ağız boşluğu və süzücü aparat sarımtılağdır. Üst çənənin hər bir yarısında balina bığcığı, hünd. 70 *sm*-ədək olan 230-a qədər elastik lövhə vardır. C.b. Cənub yarımkürəsinin mülayim və soyuq sularında ola bilsin ki, sirkumpolyar yaşayır, lakin çox uzağa miqrasiya etmir. C.b.-ya həm sahilyanı sularda, həm də açıq dənizdə çox az rast gəlinir; əksər hallarda



Cırtdan balina (Caperea marginata).

tək-tək, yaxud cüt, nadir hallarda 8 başa qədər qrup halında, bəzən isə balinakimilərin digər növləri ilə birlikdə yaşayır. C.b. plankton xərçəngkimilərlə qidalanır. Növün biologiyası, demək olar ki, öyrənilməmişdir, ümumi sayı məlum deyil.

**CIRTDAN BİTKİLƏR** – müəyyən növ üçün qeyri-normal dərəcədə alçaqboylu olan bitkilər. *Cırtdanboyluluq* bitkilər aləmində çox yayılmışdır. Cırtanboyluluğa bitkilərin müxtəlif ekoloji amillərə reaksiya normalarının geniş diapazonu daxilində baş verən fenotipik dəyişkənliyin nəticəsi kimi baxılır; bu amillərin əlverişli rolu çox az olduqda bitki zəifləyir, nəticədə bitkinin böyüməsi və inkişafı dayanır ki, bu da biol. məhsuldarlığın azalmasına səbəb olur (məs., bataqlıqlarda tüklü tozağacı, yaxud adi şamağacının cırtdanboyluluğu). Cırtdan formalar bir sıra iri yosunlarda (makrofitlərdə), məs., fukusda vardır. C.b.-i bəzək məqsədi ilə süni yolla da almaq olur (məs., məşhur yapon *bonsay* texnologiyası ilə cırtdan ağacların yetişdirilməsi). Taxıl bitkilərinin cırtdan sortlarından istifadənin mühüm praktiki əhəmiyyəti vardır, çünki onların qısa və möhkəm küləş gövdəsi yatmaya qarşı davamlıdır və dənin ümumi kütləsinin artırılması istiqamətində seleksiya işlərinin aparılmasına imkan verir. Bir sıra hallarda cırtdanboyluluğa əlverişsiz mühit şə-





raitinə irsiyyətcə möhkəmlənmiş morfoloji uyğunlaşmaların məcmusu kimi baxılır. Bu hadisə xüsusilə yastıqotu cinsinin nümayəndələri (Draba) və mamırkimilərin, demək olar ki, bütün növləri üçün səciyyəvidir.

**CIRTDAN KAŞALOT** – dişli balinalar yarımdəstəsindən dəniz məməlisi. Bədəninin uz. 3,4 *m*-ədək, kütləsi 400 *kq*-a qədərdir, erkəkləri dişilərinə nisbətən iridir. Başı kiçik, qabaq hissəsi (üzü) dəyirmidir, üst çənənin üstündə *spermaset* kisəsi, başın aşağı hissəsində isə ağzı yerləşir. Dişləri uzun və geriyə əyilmiş, yuxarı his-



Cırtdan kaşalot (Kogia breviceps).

sədə 1–2 cüt, altda 8–16 cütdür. Oraqvarı bel üzgəci kiçikdir, lakin aydın görünür və təxminən bədənin orta hissəsində quyruğa yaxın yerləşir. Başa yaxın döş üzgəcləri qısa, enli və sivridir. Beli, yanları və üzgəcləri tünd-boz çalarlı, qarın nahiyəsi çəhrayı çalarlı, açıq rəngdə olur. Göz nahiyəsindən döş üzgəclərinə doğru açıqrəngli qövsvarı ləkələr uzanır. Dünya okeanının, əsasən, tropik və subtropik sularında yaşayır. Şelf yamacları zonasına meyl edərək sahildən aralı məskunlaşır. Tək-tək və ya qruplarla (6 başa qədər) rast gəlinir. Suyun dərinliyinə baş vurur, başıayaqlı molyusklar, balıqlar, bəzən də xərçəngkimilərlə qidalanır. Çoxalma müddətləri uzun, boğazlıq dövrü 9–10 aydır. Balasının uz. 1 *m*-ə qədər olur. Nadir heyvandır, demək olar ki, öyrənilməmişdir. Sənaye əhəmiyyəti yoxdur, ovlanması təsadüfi xarakter daşıyır.

**CIRTDAN QALAKTİKALAR** – ulduzlarının sayı bizim Qalaktikadakından onlarla dəfə az olan zəif işıqlı qalaktikalar. C.q. təbiətdə qalaktikaların ən çoxsaylı sinfidir, lakin zəif işıqlanmasına görə onların ətraflı öyrənilməsi nisbətən yaxın məsafələrdə mümkündür. C.q.-la adi qalaktikalar arasında kəskin sərhəd yoxdur. C.q. çox vaxt daha parlaq və böyük qalaktikaların peykləri olur və onlar qalaktikaların qrup və topalarına yığılır. Bir neçə onlarla C.q. qalaktikaların Yerli qrupunda aşkar edilmişdir: onların əksəriyyəti bizim Qalaktikaya, yaxud Andromeda dumanlığına yığılır. Ən kiçik C.q., kütləsi cəmi 1 mln. Günəş kütləsinə yaxın olan ən iri kürəvi ulduz topaları kimi kütləyə malikdir, lakin axırıncıdan xeyli böyük ölçüsünə və xeyli kiçik sıxlığına görə fərqlənir. C.q.-ın ölçüsü yüzdən az *pk*-dən bir neçə *kpk*-ə qədər olur və kütlələri bir neçə milyard Günəş kütləsinə çata bilir. Ən azı iki C.q. – Oxatan (Günəşdən məsafəsi 25 *kpk*) və Böyük köpək (10 *kpk*-dən daha az) bürclərində – bizim Qalaktikanın ətrafında yerləşir, orada onlar qabarma qüvvələrinin təsiri altında dağılır. Bizim Qalaktikanın ən yaxın peyklərindən Kiçik Magellan Buludunu, eləcə də Sekstant, Əjdaha və Kiçik Ayı bürclərində çox zəif parlaqlığı olan kiçik qalaktikaları C.q.-ına aid etmək olar.

Adi qalaktikalar kimi C.q. da müxtəlif yaşlı ulduzları (adətən, heliumdan daha ağır kimyəvi elementlərin çox zəif tərkibi ilə fərqlənən), eləcə də ulduzlararası qaz və qaranlıq (işıq saçmayan) materiyanı tərkibində saxlayır. C.q.-ın müşahidə olunan xüsusiyyətləri son dərəcə müxtəlifdir. Məlum C.q.-ın əksəriyyəti beş tipdən birinə aid edilə bilər. E l l i p t i k C.q. zəif işıqlı elliptik qalaktikaları təmsil edir. S f e r o i d a l C.q. – ən seyrək C.q., elliptik C.q.-dan xeyli dərəcədə zəif səthi parlaqlığı və son dərəcə kiçik həcmi sıxlığı ilə fərqlənir. Onlar qoca ulduzlardan yaranmış və demək olar ki, tərkiblərində qaz yoxdur. D ü z g ü n  o l m a y a n C.q. zəif işıqlığı ilə fərqlənən düzgün olmayan (nizamsız) qalaktikalar sinfinə aiddir. Bu C.q.-ın ulduzları fırlanan qalın disklər əmələ gətirir. Düzgün olmayan C.q.-da, adətən, daxilində ulduzlar əmələ gələn çoxlu qaz (bəzən kütləyə görə 50%-dən daha çox) vardır. Ulduz əmələ gəlməsinin intensivliyi qalaktikalarda son dərəcə fərqlidir ki, bu da onların olduqca müxtəlif xüsusiyyətlərə malik olmasını göstərir. M a v i  k o m p a k t C.q. – yüksək səthi parlaqlığa və mavi rəngə malik olan kiçik ölçülü qalaktikalardır. Bu C.q.-da ulduzəmələgəlmə alışması (qalaktikaların mavi rəngi bu səbəbdəndir) baş verir. U l t r a k o m p a k t C.q. – çox iri kürəvi topalara oxşayan bir neçə onlarla *pk* xarakterik ölçülərə malik sıx ulduz sistemindən ibarətdir. Onlar qalaktikaların bir neçə topalarında aşkar edilmişdir. Ultrakompakt C.q.-ın ən azı bir hissəsi dağılmış kiçik qalaktikaların mərkəzi ulduz topalarından ibarətdir. Təkamül prosesində C.q. öz tipini dəyişə bilər.

C.q.-ın əksəriyyəti milyardlarla il əvvəl sərbəst ulduz sistemləri kimi əmələ gəlmişdir, lakin ola bilsin ki, bəziləri nisbətən cavandır. C.q. iri qalaktikalarla axıb birləşərək axırıncıların formalaşmasında ehtimal ki, böyük rol oynamışlar.

**CIRTDAN ORKA** – delfinlər fəsiləsindən dəniz məməlisi. Erkəklərin bədəninin uz. 2,6 *m*-ədək, kütləsi 225 *kq*-adək olur. Dişi fərdlər erkəklərdən kiçikdir. Bədəninin ümumi rəngi qara və ya tünd-boz, belinin ortası qismən daha tünd;



Cırtdan orka (Feresa attenuata).

qarnı üzərində uzunsov ağ ləkə olur. Başı yumru, dodaqları və üzünün aşağı hissəsi bəzən ağımtıldır. Bel üzgəci üçbucaqlı, hündür, arxadan kəsikli olub, bədənin ortasında yerləşir. Döş üzgəclərinin ucu dəyirmidir. Üst çənədə 8–12, alt çənədə 10–13 cüt diş olur. C.o. Dünya okeanının tropik və subtropik açıq sularında yaşayır. Biologiyası yaxşı öyrənilməmişdir. Adətən 50 baş fərddən çox olmayan qruplar şəklində yaşayır. Nisbətən yavaş üzür. Əsasən, balıq və kalmarlarla qidalanır; bəzən delfinlərin başqa növlərinə də hücumetmələri qeydə alınmışdır. Sənaye əhəmiyyəti yoxdur.

**CIRTDANBOYLULUQ** – bax *Nanizm.*

**CIVIXLI,** Ç i b i k l i – Yelizavetpol (Gəncə) qub.-nda Qazax qəzasının Dilican nahiyəsində (9.9.1930 ildən Dilican, 31.12.1937 ildən Krasnoselo r-nu), Qaraqoyunlu dərəsində, Murğuz d. ilə üzbəüz, Tərsaçayın sağ sahilindən 2–3 *km* yüksəklikdə azərb.-ların yaşadığı kənd. 1919 ilin yazında erməni daşnak silahlılarının hücumları nəticəsində əhali kəndi tərk etməyə məcbur olmuş, bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra geri qayıtmışdır. 1988 ilin payızında kəndin azərb. əhalisi deportasiyaya məruz qalmışdır.

**CIZBIZ** – bir sıra Şərq və Qafqaz xalqları, o cümlədən azərb.-lar arasında geniş

yayılmış xörək növü. Əsasən, qoyun içalatından (şirin bağırsaq, ürək, böyrək, ciyər, iç piyi və s.) bişirilir. Əvvəlcə bağırsağı üst tərəfdən, sonra çevirib içini bol su ilə yuyurlar, xırda doğrayıb piylə tavada bir qədər bişirdikdən sonra içalatın qalan hissələrini və soğan əlavə edib qovururlar. Ehtimal ki, *maldarlığın* inkişafı ilə əlaqədar meydana gəlmişdir.

**CIZIXLAR** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (1937 ildən Qızılqoç, 1938 ildən Verin Qukasyan, 1956 ildən Qukasyan r-nu), Arpa çayının sol qolu sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra azərb.-lar kənddən qovulmuş və burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər. 12.11.1946 ildə kəndin adı dəyişdirilərək Tsoxamaraq qoyulmuşdur.

**CİBİR** – Azərb. Resp. Qusar r-nunun Piral ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* şm.-q.-də, dağlıq ərazidədir. Əh. 1135 (2011); əkinçilik, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, tibb məntəqəsi var.

**CİBUTİ** (Djibouti), Cibuti Respublikası (Republique de Djibouti).

### Ümumi məlumat

Afrikanın şm.-ş.-ində, *Afrika Buynuzu* r-nunda dövlət. Şm.-dan Eritreya, c.-ş.-dən Somali, c.-dan və q.-dən Efiopiya ilə həmsərhəddir. Ş.-dən Qırmızı dənizin







Ədən körfəzi ilə əhatə olunur (sahil xəttinin uz. 314 *km*). Sah. 23,2 min $km^2$. Əh. 790,7 min (2007). Paytaxtı Cibuti ş.-dir. Rəsmi dil ərəb və fransız dilləri, pul vahidi Cibuti frankıdır. İnz. cəhətdən 5 mahala bölünür.

C. BMT-nin (1977), ABT-nin (1977), BVF-nin (1978), ÜTT-nin (1995), Afrika İttifaqının (2002), Hərbi bloklara qoşulmamaq hərəkatının (1977), ƏDL-in (1977), İKT-nin (1994), Şərqi və Cənubi Afrika Ümumi bazarının (1994) üzvüdür; Aİ-nin assosiasiyalaşdırılmış üzvüdür.

### Dövlət quruluşu

C. unitar dövlətdir. Fransanın konstitusiya ənənəsində yazılmış Konstitusiyası 4.9.1992 ildə qəbul edilmişdir. İdarəetmə forması prezident respublikasıdır.

Dövlət və icraedici hakimiyyət başçısı iki turda mütləq çoxluq sistemi üzrə ümumi birbaşa seçkilər əsasında 6 il müddətinə seçilən (bir dəfə yenidən seçilmək hüququ ilə) prezidentdir. Prezident dövlət siyasətinin istiqamətlərini müəyyənləşdirir, reqlamentar hakimiyyəti həyata keçirir.

Ali qanunverici orqan birpalatalı parlamentdir (Milli məclis). Deputatlar gizli səsvermə yolu ilə ümumi birbaşa seçkilər əsasında 5 il müddətinə seçilirlər.

Ali icraedici hakimiyyət orqanı Baş nazirin rəhbərliyi altında fəaliyyət göstərən və prezidentə hesabat verən hökumətdir. Hökumət prezidentə öz funksiyalarını yerinə yetirməkdə kömək edən məşvərətçi orqan rolunu oynayır.

C. konstitusiyası islamı dövlət dini elan etmişdir.

C.-də çoxpartiyalı sistem mövcuddur. Əsas siyasi partiyalar: Tərəqqi uğrunda xalq birliyi, Birlik və demokratiyanın bərpası uğrunda cəbhə, Milli-demokrat partiyası, Sosial-demokrat xalq partiyası.

### Təbiət

Ədən körfəzi sahilləri abrazion-akkumulyativ ovalıqdır. Relyefində alçaq- və ortadağlıq vulkan massivləri alçaq platolarla növbələşir; ən hündür nöqtəsi Musa Əli d.-dır (2021 *m*). Tacura körfəzindən q.-də *Afar* çökəkliyində Asal gölünün çuxuru C. və Afrikanın ən aşağı nöqtəsidir (dəniz səviyyəsindən 153 *m* aşağı). Ölkənin mərkəzi və c.-q. hissələrində akkumulyativ-denudasion və akkumlyativ düzənliklər yayılmışdır; onların mərkəzindəki alçaq sahələrdə duzlu göllər və şoranlıqlar var.

C. ərazisi *Şərqi Afrika rift sisteminin* Afar çökəkliyi hüdudlarında yerləşir. Paleogen-Neogen platobazaltları və riolitlərindən, Dördüncü dövrün bazalt lavalarından təşkil olunmuşdur; düzənliklərdə isə Pliosen-Dördüncü dövrün göl, prolüvial və s. çöküntüləridir. Tez-tez zəlzələlər olur (ən güclüləri 1969, 1988, 1994 illərdə). Fəaliyyətdə olan vulkanlar və termal sular var. Faydalı qazıntıları: daşduz (Asal gölü), gips, təbii tikinti materialları.

İqlimi tropik ariddir. Orta temp-r yanvarda 25°C, iyulda 35°C-dir. İllik yağıntı 50 *mm*-dən (Asal gölü sahilində) 300 *mm*-ədəkdir (Tacura körfəzindən şm.-da dağ yamaclarında). C. ərazisində daimi axarlı çaylar yoxdur. Efiopiya ilə sərhəddə yeganə şirin sulu Abbe gölü yerləşir.

Bitki örtüyündə çox seyrək otluqlar və tək-tək bitən alçaqboylu akasiyaları olan taxıllı-kolcuqlu yarımsəhralar üstünlük təşkil edir. Şoranlarda sporobol və çərənin üstünlük təşkil etdiyi (çox olduğu) halofit bitki örtüyü formalaşır.

Day milli parkında (sah. 10 min *ha*) hündür ardıcdan ibarət iynəyarpaqlı seyrək meşə massivi mühafizə olunur. Ədən körfəzinin sahilləri boyunca manqr cəngəllikləri yerləşir. Məməlilərin 60-dan çox növü: müxtəlif dırnaqlılar (dikdik, beyra, tullanan antilop, Somali qızalı, kiçik kudu, köpgərəküz və s.), yırtıcılar (zolaqlı kaftar, gepard) və bir neçə növ meymun (hamadril, yaşıl əntərmeymun) yaşayır. Ornitofaunanın tərkibində bir neçə endemik növ (oxradöşlü frankolin, əlvan pitiliya) vardır.

### Əhali

C.-nin əsas əhalisini *kuşilər* (89,5%; bunlardan afarlar – 48,3%, somalilər 41,2%-dir) təşkil edir. C.-də həmçinin ərəblər (7,5%), fransızlar (2,3%), amharalar (0,4%), yunanlar (0,2%), hind-pakistanlılar və b. yaşayırlar.





**İnzibati ərazi bölgüsü (2007)**

| Mahallar | Sahəsi, min $km^2$ | Əhalisi, min *nəfər* | İnzibati mərkəzi |
|---|---|---|---|
| Əli Sabih | 2,4 | 61,7 | Əli-Sabih |
| Dikil | 7,2 | 18,5 | Dikil |
| Obok | 5,7 | 27,3 | Obok |
| Tacura | 7,3 | 34,1 | Tacura |
| Cibuti | 0,6 | 649,1 | Cibuti |

Əhalinin təbii artım göstəricisi 1000 nəfərə doğum səviyyəsi 39,5 nəfər, ölüm səviyyəsi isə 19,3 nəfər olmaqla 2% təşkil edir (2006). Fertilliyin yüksək göstəricisinə (hər qadına 5,3 uşaq) baxmayaraq, uşaq ölümü yüksəkdir (hər 1000 nəfər diri doğulan uşağa 102 nəfər; 2006). Əhalinin yaş tərkibi: 14 yaşadək olanlar – 43,4%, 15–64 yaş arası – 53,3%, yaşı 65-dən çox olanlar – 3,3%. Əhalinin orta yaş göstəricisi 18,2-dir. Gözlənilən orta ömür müddəti 43,2 ildir (kişilərdə 41,9, qadınlarda 44,5 ildir). Hər 105 kişiyə 100 qadın düşür. Əhalinin orta sıxlığı 1 $km^2$-də təqr. 34 nəfərdir. Əhalinin 81%-indən çoxu Cibuti ş.-ndə (642,8 min nəfər; 2007) yaşayır; digər iri şəhərləri (min nəfər; 2007): Əli Sabih (41,3), Tacura (22,9), Obok (18,3). İqtisadi fəal əhali 282 min nəfərdir (2000; məşğulluq strukturu haqqında məlumat yoxdur). İşsizliyin yüksək həddə (50%-dən çox) çatması qonşu ölkələrdən kütləvi qaçqın axını ilə bağlıdır.

### Tarix

İndiki C.-nin ərazisi qədim dövrlərdən məskunlaşmışdır; ehtimal ki, e.ə. 3–1-ci minilliklərdə Misirlə geniş ticarət aparmış Punt dövlətinin tərkibində olmuşdur. E.ə. 3 əsrdə buraya Yunanıstan, Hindistan, İran və Cənubi Ərəbistandan tacirlər gəlməyə başlamışdılar. Eramızın 5–6 əsrlərində *Aksum çarlığının*, 13–15 əsrlərdə isə *Yifət* dövlətinin tərkibində idi. 7–8 əsrlərdə buraya ərəblərin köçüb gəlməsi C.-nin əsas etnoslarından biri olan *afarların* islam dinini qəbul etməsinə səbəb olmuşdur. 12–17 əsrlərdə C.-də müsəlman sultanlıqları və əmirlikləri yaranmışdı. 16 əsrdə Somali y-a-nın sahillərinə qısa müddət portuqallar nəzarət etmişlər.

1840-cı illərdən Fransanın C.-yə marağı artdı. 1884–85 illərdə Fransa C.-də Raheyta, Tacura, Qobad sultanlıqları üzərində öz protektoratını qura bildi, 1887 ildə isə Tacura körfəzinin bütün sahillərinə yiyələndi. 1888 ilin fevralında B. Britaniya Fransanın Afrika Buynuzundakı mülklərini tanıdı, eyni zamanda bu ərazidə hər iki dövlətin mülklərinin sərhədlərinin müəyyən edilməsi haqqında razılıq əldə edildi. Fransızlar tərəfindən 1888 ildə əsası qoyulmuş Cibuti portu 1892 ildə Fransa mülklərinin inzibati mərkəzinə çevrildi. 1896 il mayın 20-də protektorat *Fransa Somalisi* adlandırıldı. Onun sərhədləri 1897 ildə Fransa nümayəndələri ilə Efiopiya imperatoru *II Menelik* arasında bağlanmış müqavilə (bu sərhədləri 1945 və 1954 illərdə imperator *I Hayle Selassiye* təsdiqlədi) və 1900–1901 illərdə bağlanmış Fransa-İtaliya protokolları ilə müəyyən edildi. Protektoratın iqtisadi həyatı C. ş.-nin ətrafında cəmləşirdi. Əhalinin xeyli hissəsi bu portda xidmətə cəlb olunmuşdu. C. əhalisinin əsas məşğuliyyəti ənənəvi yarımköçəri maldarlıq, balıqçılıq və mirvari hasilatıdır. 1917 ildə C.-ni Efiopiya ilə birləşdirən d.y. çəkildi. C. Hind okeanı sahillərində mühüm hərbi-strateji və iqtisadi məntəqəyə çevrildi.

1930-cu illərdə İtaliyanın C.-yə iddiası Fransa tərəfindən dəf edildi. 1940–42 illərdə C. "*Vişi*" hökuməti tərəfindən idarə olunurdu. 1942 ilin sonlarından "Döyüşən Fransa", 1944 ildən Fransa respublikası hökumətinin nəzarətində idi. 1946 ildə elə həmin ildə yaradılmış Fransa İt-




tifaqının tərkibində Fransanın "dənizaşırı ərazisi" elan edilmişdi. 1957 ildə C.-də yerli özünüidarəetmənin genişləndirilməsinə yönəldilmiş inzibati islahat aparıldı. 1958 ildə keçirilən referendumun nəticələrinə görə C. Fransa Birliyinə (Fransa İttifaqının varisi) daxil oldu, öz nümayəndələrini Fransa parlamenti və Fransa Birliyi assambleyasına göndərmək hüququ aldı. 1966 ildə Ş. de Qoll C.-yə səfər etdi. Onun gəlişi müstəqillik tələb edən xalq kütlələrinin kütləvi nümayişləri ilə müşayiət olundu. Lakin 1967 ilin martında keçirilən referendum əhalinin 60%-inin müstəqillik ideyasını dəstəkləmədiyini göstərdi. 1967 ilin iyulunda C. Fransanın Afarlar və İssalar Ərazisi adlanmağa başladı və geniş muxtariyyət hüququ əldə etdi. 1960-cı illərdə C.-də etnik əlamətlərə əsaslanan ilk siyasi partiyalar (Xalq Hərəkatı Partiyası, Afarların Demokratik

Musa Əli dağı.





Asal gölü.

Birliyi) yaranmağa başladı. 1971 ildə C.-nin geniş xalq kütlələrinin və Fransa demokratik qüvvələrinin dəstəyi ilə etnoslararası partiya – Afrika Xalq Liqası (LPAİ; 1975 ildən sonra Müstəqillik uğrunda Afrika Xalq Liqası) yaradıldı. LPAİ ölkənin müstəqilliyi uğrunda hərəkatın təşəbbüsçüsü oldu. Liqanın fəaliyyəti, BMT-nin və Afrika Birliyi Təşkilatının (ABT) tələbləri nəticəsində Fransa növbəti referendumun keçirilməsinə razılıq verməyə məcbur oldu. 1977 il mayın 8-də keçirilən referendumda iştirak edənlərin 98,7%-i C.-nin müstəqilliyinə səs verdi.

1977 il iyunun 27-də Cibuti Respublikası yaradıldı və elə həmin il BMT, ABT, ƏDL-ə üzv oldu. Ölkənin ilk prezidenti LPAİ sədri Həsən Quled Aptidon seçildi. Siyasi demokratiyanı inkişaf etdirmək, liberal iqtisadiyyatın əsaslarını möhkəmlətmək və birləşməmək siyasəti həyata keçirildi. C. müstəqil resp. elan olunduqdan sonra afarlar və somalilər (issalar) arasında etnik qarşıdurma kəskinləşdi. Etnoslararası ziddiyyətlərin qarşısını almaq məqsədilə 1979 ilin martında Quled Aptidonun başçılığı ilə Tərəqqi Uğrunda Xalq Birliyi (TUXB) partiyası yaradıldı. 1981 il seçkilərində Quled Aptidonun növbəti müddətə prezident seçilməsindən sonra müxalif partiyaların fəaliyyəti qadağan olundu (1992 ilədək) və prezidentin şəxsi hakimiyyəti rejimi tətbiq edildi. Prezidentin təkhakimiyyətliliyi və hakimiyyət orqanlarının issalara zor tətbiq etməsi C.-də vətəndaş müharibəsinə (1991–94) səbəb oldu. Afarların hərbi qruplaşması olan Birlik və demokratiyanın bərpası uğrunda cəbhə (BDBUC)

Dolare konteyner terminalı.



hökumət ordusuna qarşı mübarizə apardı. 1994 ilin dekabrında qarşı tərəflər sülh müqaviləsi imzaladılar. Cəbhənin 2 nəfər nümayəndəsi hökumətin tərkibinə daxil oldu. BDBUC-un mötədil qanadı leqal partiya kimi tanındı və hakimiyyətdə olan TUXB ilə koalisiya yaradaraq 1997 il parlament seçkilərində iştirak etdi. Cəbhənin radikal qanadı isə silahlı mübarizəni 2001 ildə hökumətlə sülh müqaviləsinin bağlanmasına qədər davam etdirdi. 1999 ilin mayında TUXB-un namizədi, 20 ildən artıq Quled Aptidonun baş müşaviri olmuş İ.Ö. Gelleh prezident seçildi (2005 ildə ikinci dəfə). Bəzi müxalif partiyaların 2003 il yanvarın 1-də keçirilən parlament seçkilərini boykot etməsinə baxmayaraq, yenidən başda TUXB olmaqla koalisiya qələbə çaldı. Gelleh hökumətinin daxili siyasətində işsizlik (gənclər arasında 60%-ə çatır) və yoxsulluqla mübarizə, etnik ziddiyyətlərin aradan qaldırılması üstünlük təşkil edir. Xarici siyasətdə C. ənənəvi olaraq Fransa (2002 ildən bu iki dövlət arasındakı münasibətlərdə soyuqlaşma müşahidə olunur), BƏƏ və Səudiyyə Ərəbistanı ilə əməkdaşlığa üstünlük verir.

### Təsərrüfat

C. dinamik inkişaf edən Afrika ölkəsidir. Cibuti portunun, beynəlxalq aeroportun, Cibuti–Əddis-Əbəbə d.y.-nın fəaliyyətindən, miqrant işçilərin pul köçürmələrindən asılı olan ölkə iqtisadiyyatı ticarətə və onunla bağlı xidmətlərə yönəldilmişdir. Hökumətin siyasəti xarici yardımın və kapitalın cəlb edilməsinə istiqamətlənmişdir. ABŞ dollarından asılı olan Cibuti frankının sərbəst konversiya edilməsi ilə şərtlənən maliyyə sektoru əhəmiyyətli yer tutur. Xarici hərbi birləşmələrə (Fransa, ABŞ və Almaniya hərbi-dəniz donanması bazaları) xidmət göstərilməsi gəlirlərin mühüm mənbəyidir. ÜDM-in həcmi təqr. 2,505 mlrd. dollar (alıcılıq qabiliyyəti pariteti üzrə; 2013), adambaşına – 2,7 min dollar; real ÜDM artımı təqr. 5% (2013); insan inkişafı indeksi 0,445 (2013; dünyanın 186 ölkəsi arasında 164-cü yer) təşkil edir. ÜDM-in strukturu (2013): xidmət sferası – 79,7%, sənaye – 17,3%, k.t. – 3%.

**Sənaye** istehsalı zəif inkişaf etmişdir, əsas sənaye mərkəzi Cibuti şəhəridir. K.t. xammalı və dəniz məhsullarının emalı, yeyinti (süd, unüyütmə, qənnadı məmulatları, mineral su z-du), toxuculuq, dəri, kağız, əczaçılıq sahələri üzrə kiçik müəssisələr üstünlük təşkil edir. Cibuti portunda neftin emalı və saxlanılması üzrə məhdud istehsal obyektləri cəmləşmişdir. Tikinti materialları istehsal olunur, dəniz duzunun buxarlandırma ilə alınması üzrə z-d, mexaniki və tikiş emalatxanaları var. Sənaye istehsalı artımı ildə təqr. 3% təşkil edir.

Elektrik enerjisi istehsalı (325 mln. *kVt.saat*; 6 İES fəaliyyət göstərir) ölkənin daxili tələbatını (302,3 mln. *kVt.saat*; 2010) tamamilə ödəyir.

**Kənd təsərrüfatı.** K.t. və balıqçılıq ərzağa olan milli tələbatın təqr. 10%-ini təmin edir. Becərilən torpaqlar, demək olar ki, yoxdur. K.t.-nın əsas istiqamətləri köçəri və yarımköçəri maldarlıqdır (keçi, qoyun, dəvə, qaramal, eşşək). Əsasən, tərəvəz və bostan meyvələri yetişdirilir. Balıqçılıq, mirvari, mərcan, dəniz süngəri hasilatı inkişaf etmişdir.

**Nəqliyyat.** Cibuti – Əddis-Əbəbə (C. ərazisindəki hissəsi 100 *km*; C. və Efiopiyanın müştərək mülkiyyətindədir) d.y. fəaliyyət göstərir. Avtomobil yollarının uz. 3,6 min *km*, o cümlədən bərkörtüklü 400 *km* (2011) təşkil edir. Əsas yük daşınmaları 2000 ildə "Dubai Ports İnternational" şirkətinə 20 illik icarəyə verilmiş Cibuti dəniz portu (yük dövriyyəsi ildə təqr. 6 mln. *t* və təqr. 250 min İFE konteyner) vasitəsilə həyata keçirilir. 2006 ildən portdan 10 *km* məsafədə 1,2 mln konteyner güclü yeni Dorale portu fəaliyyət göstərir. 13 aeroport var (2011), onlardan 3-nün bərkörtüklü uçuş-enış zolağı var. Beynəlxalq aeroport Cibutidə yerləşir.

**Xarici ticarət.** Əmtəə idxalının dəyəri (593,3 mln. dollar; 2013) ənənəvi olaraq əmtəə ixracının (90,8 mln. dollar) dəyərini üstələyir. Əsas ixrac maddələri: göndəri; qəhvənin tranzit ixracı, təkrar ixrac əməliyyatları. İxrac üzrə əsas ticarət tərəfdaşları (2012): Somali (80,1%), Yəmən (4,1%), BƏƏ (4,4%). Nəql. avadanlığı, ərzaq, neft məhsulları, kimyəvi preparatlar, dərman vasitələri, sənaye məmulatları, əsasən, Hindistan (10,6%), Çin (24,4%), Səudiyyə Ərəbistanı (16,4%), İndoneziya (7,3%), həmçinin Efiopiya, İtaliya, Fransa və s. ölkələrdən idxal edilir (2012).



Cibuti Beynəlxalq aeroportu.

### Silahlı qüvvələr

C.-nin silahlı qüvvələri (SQ; 2004) QQ (8 min nəfər), HHQ (0,25 min nəfər), HDQ (təqr. 0,2 min nəfər), həmçinin hərbiləşdirilmiş qurumlardan – jandarmeriya (1,4 min nəfər) və milli təhlükəsizlik xidmətindən (2,5 min nəfər) ibarətdir. Ali baş komandan prezidentdir. Silahlı qüvvələrə bilavasitə rəhbərliyi müdafiə naziri və baş qərargah rəisi həyata keçirir. C.-nin SQ 27 zirehli döyüş maşını, səhra və zenit artilleriyası, minaatanlar; təqr. 15 təyyarə və helikopter; 7 gözətçi katerlə silahlanmışdır. Bütün silahlar və hərbi texnika Fransa istehsalıdır. Komplektləşdirmə muzdlu xidmət əsasında həyata keçirilir (xidmət müddəti 5–7 ildir). Əsgərlər və kiçik komanda heyəti yerli tədris mərkəzlərində, zabit heyəti isə Fransa və digər xarici ölkələrin hərbi tədris müəssisələrində hazırlanır. Paytaxt Cibutinin yaxınlığında Fransaya məxsus hərbi baza (3 mindən çox hərbi qulluqçu) yerləşir. Səfərbərlik ehtiyatlarının ümumi sayı 105,8 min nəfər, o cümlədən hərbi xidmətə yararlı olanlar 62 min nəfərdir.

### Səhiyyə. İdman

C.-də əhalinin hər 100 min nəfərinə 18 həkim, 7 stomatoloq, 36 orta tibb işçisi, 32 əczaçı (2005), 5 mama (2004), stasionarlarda 161 xəstəxana çarpayısı (2001) düşür. Səhiyyəyə qoyulan xərc ÜDM-in 5,7%-ni (büdcə hesabına maliyyələşmə; 66,9%, o cümlədən sosial sığorta ilə 12,9%; özəl sektor ilə 33,1%) təşkil edir (2003). Ölümün əsas səbəbləri infeksion xəstəliklərdir (bakterial və amyöb dizenteriya, A hepatiti, malyariya, yatalaq). Əhalinin hər 100 min nəfərinə vərəmlə 733,7, malyariya ilə 1616 xəstələnmə hadisəsi düşür (2004). Tibbi yardımı xalq təbabətinin cəlb edilməsinə, tibbi yardımın keyfiyyətinin yaxşılaşdırılmasına, narkomaniya və siqaretçəkmənin profilaktikasına, malyariya, vərəm, İİÇ ilə mübarizəyə yönəldilmiş səhiyyənin dövlət və özəl sektorları göstərir.

1983 ildə yaradılmış Milli Olimpiya Komitəsi 1984 ildən Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmışdır. C. idmançıları Olimpiya Oyunlarında mükafata layiq yerlər tutmamışlar. Futbol ən populyar idman növlərindəndir. 1979 ildə C. Futbol Federasiyası təsis edilmiş, 1986 ildən Afrika Futbol Konfederasiyasının (AFK), 1994 ildən isə FİFA-nın üzvüdür.

### Kütləvi informasiya vasitələri

Rəsmi qəzetlər: həftəlik "La Nation de Djibouti" (1899 ildən, fr. və ərəb dillərində) və "Journal Officiel de la République de Djibouti" (1977 ildən, fr. dilində). Tərəqqi Uğrunda Xalq Birliyi Partiyasının mətbu orqanı "Le Progrès" qəzeti (1980 ildən), həmçinin, "Le Temps" qəzeti, "Le Renouveau" həftəliyi və s. buraxılır. 1956 ildə Dövlət Radio və Televiziya Verilişləri Xidməti təsis edilmişdir. Verilişlər fransız, ərəb, afar və somali dillərində paytaxt Cibutidə və şəhərətrafında yayımlanır. 1978 ildə Cibuti İnformasiya Agentliyi (Agence Djiboutienne d'İnformation) yaradılmışdır (1982 ildən fəaliyyət göstərir). ABŞ tərəfindən maliyyələşdirilən "Radio Sawa" Cibuti ş.-indəki st.-dan Şərqi Afrika ərazisinə ərəb dilində verilişlər yayımlayır (2006).

### Mədəniyyət

T ə h s i l. 6 illik ibtidai təhsil icbari və pulsuzdur, lakin şagirdlərin əksəriyyəti üçün Quranın öyrənilməsi ilə başa çatır. İbtidai məktəblər dövlətin və Roma-ka-





CİBUTİ



Tacura çimərlikləri.

tolik kilsəsinin tabeliyindədir. Orta məktəbdə təhsil müddəti 7 ildir. Əhalinin savadlılıq səviyyəsi 68,6% təşkil edir (2012). Cibuti Un-ti (2006) ali təhsil verir.

Ədəbiyyat 20 əsrin son rübündə fransız dilində formalaşmağa başladı. A. Vaberinin yaradıcılığında kəskin sosial-siyasi problemlər, o cümlədən müasir cəmiyyətdə Afrika ənənələrinin qorunub saxlanılması məsələləri qaldırılır ["Kölgəsiz ölkə" (1994), "Kəllələrin məhsulu" (2000) hekayə topluları, "Tranzit" romanı (2003)]. Mövzu və süjetlərin müxtəlifliyi İ.A. Abdi və A.M. Roblenin dramaturgiyasını fərqləndirən cəhətlərdir. Poeziya Ş. Vatt və İ.Y. Elminin yaradıcılığı ilə təmsil olunur.

Musiqi mədəniyyəti afarlar, somalilər və ərəblərin ənənələri ilə təmsil olunur. Şeyx Əhməd məşhur ənənəvi afar müğənnisidir. Şəhərlərdə qərb musiqisi üslubları və formaları yayılmışdır. 1982 ildə "Mədəni forum" musiqi festivalı keçirilmişdir.

**CİBÚTİ** (Djibouti) – Cibutinin paytaxtı. Ayrıca inz. mahal statusuna malikdir. Əh. 649,1 min (2007). Hind okeanının Tacura körfəzi sahilindədir. Avtomobil yolları qovşağı. Cibuti–Əddis-Əbəbə d.y.-nun (1917) sonuncu st. Beynəlxalq aeroport. Hind okeanı hövzəsinin q. hissəsində mühüm port (ildə təqr. 6 mln. *t* yük və təqr. 250 min İFE konteyner; əsasən, qəhvə, dəri, duz ixrac edilir, neft və neft məhsulları idxal olunur).

1888 ildə fransızlar tərəfindən dəniz portu kimi salınmışdır. 1896 ildən *Fransa Somalisinin* (1967 ildən Fransanın Afar və İssa ərazisi) inzibati mərkəzi idi. 1977 ildən Cibuti dövlətinin paytaxtıdır. 1949 ildən C. azad port elan olunmuşdur.

19 əsrin sonu – 20 əsrin ortalarına aid müstəmləkə tikililəri saxlanılmışdır. Prezident sarayı, Hamuli məscidi; un-t (2006) var.

Şəhərin iqtisadiyyatı gəmiçilik xidmətindən, o cümlədən Süveyş kanalı vasitəsilə tranzit yükdaşımalarına Efiopiya (dənizə çıxışı yoxdur) və Somalinin şm.-q.-indən xarici ticarət yükdaşımalarına, Səudiyyə Ərəbistanından tankerlərə, həmçinin fransız hərbi-dəniz donanmasına xidmətdən asılıdır. Neft emalı, toxuculuq, dəri, yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir, gəmi təmiri aparılır. Balıqçılıq inkişaf etmişdir.

**CİCƏL** (ər. جيجل) – Əlcəzairin şm.-ında şəhər. Eyniadlı vilayətin inz. m. Əh. 135 min (2008). Aralıq dənizi sahilində port (mantar və k.t. məhsulları ixracı). Ağac emalı, qida və toxuculuq sənayesi müəssisələri var. Skikda–Cicəl qaz kəmərinin son məntəqəsidir.

**CİCİBİNƏ** – Azərb. Resp. Zaqatala r-nunun Mazıx ə.d.-ndə kənd. R-n mərkəzindən 15 *km* şm.-q.-də, Katexçayın sahilindədir. Əh. 34 (2011); maldarlıqla məşğuldur.

**CİCİMLİ** – Azərb. Resp. Bərdə r-nunun Mehdixanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* şm.-q.-də, düzənlikdədir. Əh. 325 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, klub var.

**CİCİMLİ** – Azərb. Resp. Laçın r-nunda kənd. Cicimli ə.d.-nin (Cicimli, Aşağı Cicimli, Qazıdərə k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 32 *km* c.-q.-də, Qarabağ vulkanik yaylasında, Ağsuçayın (Həkəri çayının qolu) sahilindədir. Əh. 426 (2011); işğaldan (1992, may) əvvəl əkinçilik, bağçılıq, bostançılıq, heyvandarlıq və arıçılıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, kitabxana, mədəniyyət evi, feldşer-mama məntəqəsi var idi.

Arxeoloji abidələrdən kurqan, Dəmir dövrünə aid "Qız qəbri" kurqanı, orta əsrlərə aid Çobandaş, memarlıq abidələrindən Məlikəjdər türbəsi (14 əsr), türbə (17–18 əsrlər) var.

Cibuti şəhərindən görünüş.







**CİD** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Nəmin bölgəsində, Ərdəbil ş.-ndən 30 *km* şm.-ş.-dədir.

**CİDA** – qədim silah növü. Daş və sümük uclu C.-lardan Üst Paleolit dövründən istifadə edilmişdir. C., əsasən, oxla tanış olmayan tayfalar (məs., avstraliyalılar) üçün səciyyəvi idi. Dəmir C. Qədim Yunanıstan və Romada istifadə edilirdi. Orta əsrlərdə Qərbi Avropada və Rusiyada geniş yayılmışdı. Şərq ölkələrində, o cümlədən Azərb.-da müxtəlif dövrlərə aid qəbir abidələrindən (Qəbələ, Nüydi, Mingəçevir, Şamaxı və s.) çoxlu C. tapılmışdır.

**CİDÁ** – RF-də, Buryat Resp.-nda çay. Selenqa çayının sol qolu. Uz. 567 *km*, hövzəsinin sah. 23,5 min $km^2$. Hamardaban silsiləsinin q. hissəsinin c. yamaclarından başlanır. Cidin silsiləsinə paralel axır. Yuxarı axını gursulu, astanalıdır. Əsasən yağış suları ilə qidalanır. Ortaillik su sərfi Cida d.y. st. yaxınlığında 72,7 $m^3/san$.-dir. Noyabrdan aprelədək buzla örtülür. C. çayı hövzəsində ümumi sah. 10 $km^2$ olan 188 kiçik göl var. Ağac axıdılır.

**CİDDƏ** (جدة) – Səudiyyə Ərəbistanının q.-ində şəhər. Əh. 3 mln. (2007). Qırmızı dənizdə port: yük dövriyyəsi 39,5 mln. *t* (əsasən, neft və neft məhsulları) və 2,8 mln. İFE konteynerlər (2005). Kral Əbd əl-Əziz ad. beynəlxalq aeroport. Avtomobil yolları qovşağı.



Ciddə şəhərindən görünüş.

Müsəlman zəvvarlarının Məkkə və Mədinə yolları üstündə port kimi 7 əsrdən məlumdur; 1916 ildə britaniyalılar tərəfindən işğal edilmiş, 1925 ildən Hicaz Krallığı, Nəcd sultanlığı və birləşdirilmiş vilayətlərin tərkibində olmuşdur; 1932 ildən Səudiyyə Ərəbistanı Krallığının tərkibindədir.

Ş.-in qədim hissəsində mərcan əhəngdaşıdan sıx və qeyri-müntəzəm inşa edilmiş, eyvanlı, oyma qapılı, pəncərələri, şəbəkəli evləri olan (18–20 əsrin əvvəlləri) dar küçələr saxlanılmışdır. Məscidlər, şəhər istehkamının qüllə və darvazaları (1574, 1947 ildə sökülmüş, 1970-ci illərdə bərpa edilmişdir) C.-nin memarlıq abidələrindəndir Dənizkənarı məhəllələrdə Avropa tipli binaları olan yaşıllaşdırılmış düz küçələr mövcuddur. Müasir tikililər arasında Milli kommersiya bankı (1982, memar Q. Bunşaft), şəhər məscidi (1980-ci illər, memar A.V. əl-Vəkil), Kral Fəhd fəvvarəsi (1980-ci illər) var.

Kral Əbd əl-Əziz ad. un-t (1967), Ərəb Açıq Un-ti, Aviasiya akademiyası (2004), Tibb un-ti və kolleclər; etnoqrafiya (1956), şəhər muzeyi, A.R.X.Xəlil

Cida çayı.



Kral Fəhd fəvvarəsi.





"Üzən məscid".

muzeyi fəaliyyət göstərir. Futbol klublarından 6 dəfə ölkə çempionu "Əl-İttihad" oyunlarını "Şahzadə Abdulla Feysəl" stadionunda (37 min yer), 2 dəfə ölkə çempionu "Əl-Əhli" klubu "Şahzadə Sultan bin Fəhd" stadionunda (24 min yer) keçirir. 1989 ildə futbol üzrə gənclər arasında dünya çempionatının oyunları keçirilmişdir.

Ölkənin mühüm iqtisadi və ticarət mərkəzidir. Neft emalı və neft-kimya; poladtökmə və metal emalı; sement, mebel, yüngül (o cümlədən, dəri-ayaqqabı, toxuculuq), yeyinti sənayesi inkişaf etmişdir; tikinti materialları (mərmər emalı və s.) istehsalı aparılır. Dəniz suyunun şirinləşdirilməsi üzrə iri z-d fəaliyyət göstərir. Gəmi təmiri; dini əşyalar istehsal olunur.

**CİDDƏ MÜQAVİLƏSİ (1927)** – B.Britaniya ilə Hicaz Krallığı, Nəcd sultanlığı və birləşdirilmiş vilayətlər (1932 ildən Səudiyyə Ərəbistanı) arasında müqavilə; mayın 20-də Ciddədə (Hicaz) imzalanmışdır. B.Britaniya Səudiyyə dövlətinin *İbn Səudun* başçılığı altında birləşməsini və tam istiqlaliyyət qazanmasını tanıdı, ona silah satmağa razılıq verdi. İbn Səud B.Britaniyanın İran körfəzi əmirliklərinə "xüsusi münasibətini" (Küveyt, Bəhreyn, Qatar, Oman üzərində ingilis protektoratını) tanımağı öhdəsinə götürdü. C.m. əvvəlcə 7 illiyə imzalanmış, 1936 və 1943 illərdə vaxtı uzadılmışdı.

**CİDDİ** Hüseyn Əhməd oğlu (1922, Təbriz – 13.8.1987, Bakı) – Azərb. arxeoloqu, tarix e. d. (1983). 1945 ildə Cənubi Azərb.-da baş verən milli-demokratik hərəkatın iştirakçısı və *Azərbaycan Demokrat Firqəsinin* üzvü olmuşdur. Milli hökumətdə rayon milisi rəisi, Zabit məktəbi komandirinin siyasi işlər üzrə müavini, xalq qoşunlarının Axtarış idarəsi rəisi vəzifəsində çalışmışdır. Təbriz Şəhər Komitəsi və Mərkəzi Komitəsinin üzvü idi. SSRİ-yə gəldikdən (1946) sonra AK(b)P nəzdindəki Partiya məktəbində təhsil almışdır (1947–52). 1953 ildən Azərb. EA Tarix İn-tunda işləmişdir. 100-ə yaxın elmi əsərin, o cümlədən 1 monoqrafiya və bir neçə kitabın müəllifidir.

Əsəri: Средневековый город Шемаха (IX–XVII вв.). Б., 1981.

**CİDİN SİLSİLƏSİ** – RF (Buryat Resp.) ilə Monqolustanın sərhədində dağ silsiləsi. Q.-dən ş.-ə sərhəd boyu 350 *km* uzanır. Hünd. 2035 *m*. Relyefində yastı zirvəli orta dağlıqlar daha çoxdur. Qranit və metomorfizləşmiş süxurlardan ibarətdir. Yamacları əsasən meşələrlə (qaraşam, sidr) örtülüdür.

**CİFT** – bax *Plasenta*; həmçinin *Hamiləlik*.

**CİFTƏLİ**, Q a y q u l u Ç i v t ə l i – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Qızılqoç, 4.1.1938 ildən Verin Qukasyan, 12.10. 1956 ildən Qukasyan r-nu), Tellidərə çayının (Arpa çayının qolu) sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra azərb.-lar kənddən qovulmuş və burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Mənbələrdə kənd- din adı Qayqulu Çivtəli kimi də qeydə alınmışdır. 12.11.1946 ildə kəndin adı dəyişdirilərək Zuyqaxpyur qoyulmuşdur.

**CİFTİ SAZ**, c ü f t i s a z – saz növü. Mənası "ikiqat" saz deməkdir. Erkən orta əsrlərdə Azərb.-da geniş yayılmışdı. Alətin quruluşu və tətbiqi haqqında məlumat azdır. Mənbələrə görə, C.s.-ın çanağı bərk ağacdan yonulur, açıq səthinə dəridən üz çəkilirdi, simləri də çox vaxt ceyran dərisindən düzəldilir, möhkəm çəkilərək mizrabla çalınırdı. Ehtimala görə, C.s. qoltuq sazının meydana gəlməsində örnək olmuşdur. "C.s." adına Nizaminin "Xəmsə"sində rast gəlinir.

**CİHAD** (ərəb. الجهاد – müqəddəs müharibə, din uğrunda müharibə; hərfi mənası – cəhd etmək, səy göstərmək, mübarizə etmək) – islam dininin *Qurana* əsaslanan mühüm təlimatlarından biri, Allah yolunda mübarizə. Geniş mənada insanın canı və malı ilə islam dininə xidmətini ifadə edir. Başqalarını pis əməllərdən çəkindirmək, yaxşı işlərə dəvət etmək, *cəmiyyətin* rifahı naminə fəaliyyət göstərmək, ədalətsizliyə etiraz etmək və s. C. hesab olunur. Ən böyük C. ("əl-cihad əl-əkbər") insanın özü ilə mübarizəsi və mənən təkmilləşməsidir. Konkret mənada C. islam uğrunda döyüşdür. Quranda 4 dəfə (9:24, 22:78, 25:52, 60:1) adı çəkilir. *Fiqh* kitablarında ibtidai və difai (müdafiə xarakterli) C.-lar fərqləndirilir. Bir sıra müsəlman alimlərin fikrincə, C. müsəlmanlarla qeyri-müsəlmanlar arasında daimi mübarizə deyil, yalnız islam dininin və müsəlmanların təhlükəsizliyi məsələsinin ən son həlli yoludur. C. edən müsəlmanlara təbiətə ziyan vurmaq, qadınları, qocaları və uşaqları öldürmək, əsirlərlə kobud davranmaq və s. qeyri-humanist hərəkətlər qadağan olunur. C. islama dəvət etmək məqsədilə başladıqda, əks tərəfin islamı qəbul etməsi, təslim olması və ya tərəflər arasında müqavilə bağlanması ilə tamamlanır. Müasir müsəlman ədəbiyyatında C. təcavüzə müqavimət göstərmək gücündə olan iqtisadi və hərbi qüdrətə yiyələnmək, milli müstəqilliyi möhkəmləndirmək, sosial-iqtisadi inkişaf proqramlarını həyata keçirmək, konkret vəzifələri (məhsul uğrunda, savadsızlığı ləğv etmək uğrunda və s.) yerinə yetirmək kimi şərh olunur.

**CİHAZ** – 1) ölçü, qeydiyyat və nəzarət işləri aparmaq, avadanlığı qorumaq, maşın və qurğuları idarə etmək, texnoloji prosesləri tənzimləmək, hesablamaq və s.





üçün tətbiq olunan qurğu və mexanizmlərin ümumi adı. 2) Dəzgah, maşın, qurğu, nəql. vasitələrində əməliyyatın hər hansı bir müstəqil hissəsini yerinə yetirən xüsusi tərtibat. Məs., toxuculuq dəzgahlarında *əriş* sapları qırıldıqda dəzgahı avtomatik dayandırmaq üçün istifadə edilən lamel C.-ı, odlu silahları və raket silahlarını hədəfə tuşlamaq üçün nişangah C.-ı. 3) Hər hansı bir qanunauyğunluğu nümayiş etdirmək üçün əyani tədris vəsaiti (məs., fiziki C., kimyəvi C.)

**CİHAZ YAĞLARI** – neftdən alınan yüksək təmizliyə malik (və ya sintetik) sürtkü yağları. Təyinatına görə –10°C-dən 50°C-yə qədər temp-rlarda işləyən, –70°C-yədək temp-rda işləmək qabiliyyətinə malik aşağıtemp-rlu və 150–250°C-də tətbiq edilən yüksəktemp-rlu C. y. olur. C. y. dəqiq mexanizmləri, saatları, yüksəkdövriyyəli yataqları, nəzarət-ölçü cihazlarının mexanizmlərini yağlamaq üçün istifadə edilir.

**CİJİKRUT CİVƏ-SÜRMƏ YATAĞI** – Tacikistanda, Zərəfşan–Hissar civə-sürmə qurşağı hüdudlarında yerləşir. 1940 ildə kəşf olunub, 1954 ildə yeraltı üsulla istismar edilir. Filizləşmə Üst Silur–Alt Devon karbonatlı süxurların xırdalanmasından yaranmış brekçiya qatı (qalınlığı 10–20 *m*-dən 200 *m*-ədək və daha çoxdur) ilə əlaqədardır. Əsas filiz mineralları: antimonit, kinovar, nadir hallarda metasinnabarit. Filizlər sürmə və civədən (100:1 nisbətdə) başqa tallium, selen və tellur tərkiblidir. Sənaye mərkəzi Zərəfşan ş.-dir.

**CİL** – İrəvan quberniyasında Yeni Bayazid qəzasının Çəmbərək nahiyəsində (31.12.1937 ildən Krasnoselo r-nu), Göyçə gölünün sahilində azərb.-ların yaşadığı kənd. 1919 ilin yazında erməni quldur dəstələrinin hücumu nəticəsində kəndi tərk etməyə məcbur olan əhali Azərb. ərazisində yerləşən qonşu kəndlərə sığınmışdır. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra azərb.-lar geri qayıtmış, lakin 1988 il noyabrın sonlarında yenidən deporasiya olunmuşlar.

**CİL** – Azərb. Resp. Lənkəran r-nunun Şağlaser ə.d.-ndə kənd. R-n mərkəzindən 13 *km* şm.-q.-də, Cil çayının sahilində, Lənkəran ovalığındadır. Əh. 2494 (2011); tərəvəzçilik, çayçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, tibb məntəqəsi, klub, kitabxana; 19 əsrə aid Xəlifə türbəsi və məscid var.

**CİL**, q u m o t u (Carex) – *cilkimilər fəsiləsindən* bitki cinsi. Örtülütoxumlu, bir-



Qumluq cili (Carex arenaria).

ləpəli, birevlidir. Boş, yaxud sıx çim, bəzən kəsəklər əmələgətirən, sürünən və ya qısa kökümsovlu çoxillik otdur. Yarpaqları qınlı, xətvarı, itikənarlı və ensizdilciklidir. Bircinsiyyətli çiçəkləri sünbülcükdə yerləşib, çiçək qrupunda toplanır; çiçəkyanlığı yoxdur. 1500-ədək (başqa məlumata görə 2000-ədək) növü, əsasən mülayim və soyuq qurşaqlarda bitir. Azərb.-da 61 növü var. Onlardan 4-ü – qumluq C.-i (Carex arenaria), parv C.-i (Carex brevicollis), neştərvarı C. (Carex lanceolata), mikeli C.-idir. (Carex michelii). Bəzi növlərindən tibdə işlədilən brevikollin preparatı hazırlanır. C.-dən quru ot və silos tədarük edilir. Bir çox növündən toxuculuqda və kağız-karton istehsalında istifadə olunur. C. dekorativ bitki kimi də becərilir.

**CİLALAMA**, a r x e o l o g i y a d a – Neolit dövründən balta, kərki, iskənə və digər daş əmək alətlərinin tiyəsinin və ya bütöv səthinin, Erkən Tunc dövründən isə gil qabların üzərinin pardaqlanması (şüyrələnməsi) üçün işlədilən texniki üsul.

**CİLALAMA** – məmulatda müəyyən xassəli səth təbəqəsi almaq, habelə onun üzərinə dekorativ parlaqlıq vermək üçün tamamlama emalı. M e t a l l a r d a C. fetr və ya mahuddan hazırlanmış sürətlə fırlanan yumşaq dairələri, yaxud sürətlə hərəkət edən lentləri olan *cilalama dəzgahlarında* (dairə və lentlərin səthinə C. yaxması çəkilir), həmçinin mayeli abraziv emal qurğularında (emal edilən detalın yerləşdirildiyi barabanda abraziv materiallar sərbəst yerini dəyişir) aparılır. Bəzi hallarda elektrolitik C.-dan (elektroliz üsulundan) da istifadə edilir. M e b e l v ə x a r r a t l ı q istehsalatında C. taxta məmulat üzərində güzgü parlaqlıqlı səth alınması prosesidir. İki üsulla aparılır: xarrat C.-sında taxta üzərindəki məsamələr, əsasən, şəffaf qatran (politura) ilə tədricən doldurulub hamarlanır və səthə spirtdə həll olunmuş əhənglə parlaqlıq verilir. D a ş l a r ı C. üçün (pardaqlama əməliyyatından sonra) onların üzərinə çox narın ovuntu (məs., qalay-oksid) səpib, dairə formasında yaş keçə ilə sürtürlər.

**CİLALAMA DƏZGAHI** – maşınqayırma və cihazqayırmada məmulat səthini cilalamaq üçün dəzgah. Sürtücülü, mayeli və mərkəzdənqaçma C.d.-ları var. Sürtücülü C.d.-nda detal dəzgah stolunda müəyyən vəziyyətdə saxlanılır və onun səthi şpindelə taxılmış fırlanan sürtücü ilə cilalanır. Sürtücülər yumşaq metal (məs., mis), taxta, fetr və ya dəridən hazırlanır; *cilalama materialları* sürtücünün üzərinə yaxılır, yaxud emal prosesində verilir. Mayeli C.d.-nda məmulat kameraya qoyulur və abrazivlə doydurulmuş maye şırnağı ilə cilalanır. Mərkəzdənqaçma C.d.-nda içərisi abraziv ovuntu və ya suspenziya ilə doldurulmuş qab olur; qab fırlandıqda abraziv qarışıq da fırlanır və tərpənməz detalı cilalayır. Mürəkkəb formalı məmulatları cilalamaq üçün mayeli və mərkəzdənqaçma C.d.-ndan istifadə edilir.

**CİLALAMA MATERİALLARI** – *cilalama* və yetirmə əməliyyatlarında işlədilən çox narın dispers ovuntu şəklində maddələr, habelə həmin maddələrdən hazırlanan yaxma (pasta) və suspenziyalar. Ovuntular bərk (məs., almaz, korund) və yumşaq (dəmir, xrom və alüminium oksidləri, ultramarin və s.) maddələrə ayrılır. Bərk ovuntular yetirmə və ilkin, yumşaq ovuntular isə son cilalama əməliyyatlarında işlədilir. Yaxmalar ovuntu, piy, bitişdirici, səthi-aktiv və s. maddələrdən ibarət olur. Suspenziyanın tərkibində ovuntu ilə yanaşı, turşu və qələvi məhlulları, korroziya inhibitorları da olur. Bax həmçinin *Abraziv materiallar*.

**CİLANİ**, Əbdülqadir əl-Cilani – bax *Əbdülqadir Geylani*.

**CİLBERT** (Gilbert) Qrov Karl (6.5.1843, Roçester – 1.5.1918, Cekson, Miçiqan ştatı) – amerikan geoloqu və geomorfoloqu, ABŞ Milli EA üzvü (1883). Roçester Un-tini bitirmişdir (1862). Amerika Geologiya Cəmiyyətinin pre- zidenti (1893 və 1909). Kordilyer d-rının qayma quruluşlu



olduğunu müəyyənləşdirmişdir. İlk dəfə intruziyanın xüsusi formasını ("lakkolit") aşkar etmişdir. Çaylar vasitəsilə süxurların yuyulma və daşınma proseslərini, eləcə də yer qabığının şaquli yerdəyişməsi, suyun və küləyin erozion fəaliyyəti nəticəsində yaranan relyef formalarını tədqiq etmişdir. Tektonik hərəkətləri iki kateqoriyaya ayırmışdır (1890): "epeyrogenik" (yer qabığının böyük bir hissəsinin tədrici şaquli hərəkəti) və "orogenik" (dağəmələgəlmə). "Diastrofizm" terminini (müasir elmi ədəbiyyatda "tektogenez") tətbiq etmişdir.

*Əd.*: Report on the geology of the Henry Mountains. 2nd ed. Wash., 1880; Glaciers and glaciation. Wash., 1910.

**CİLD**, kitab cildi – içərisinə kitab bloku yerləşdirilən möhkəm, bərk qabıq və ona yapışdırılmış əlavə funksional elementlər (*forzas*, *kaptal*, tənzif qapaqlar); karton, parça, kağız, polimer və s. materiallardan hazırlanır. İlk kitab C.-lərinə Avropada eramızın I əsrində əl ilə perqamentə yazılmış kitablarda təsadüf edilir. C. qabığının növünə, bərkidilməsi, möhkəmləndirilməsi və bloka birləşdirilməsi üsullarına görə müxtəlif olur. C. qabığı üç cür hazırlanır: bütöv C. (bütöv materialdan hazırlanır), quraşdırma C. (iki karton zolağının və kitabın kötüyü ilə birlikdə qalın kağız parçasının üzəri ayrı-ayrılıqda müxtəlif materialla örtülür), plastik kütlə C. (bərk, yumşaq və yarımbərk). Yumşaq, bərk, yarımdəri, supercild, lederin, kolenkor və s. C.-lər olur. Müasir dövrdə daha çox istifadə olunan yumşaq C. qalın (bərk) kağızdan, lakla örtülmüş və ya nazik plastik təbəqə ilə laminasiya olunmuş kağızdan hazırlanır. Blok belə C.-ə sapla tikilməklə və ya tikişsiz yapışdırmaqla yerləşdirilir. Tikişsiz yapışdırma üsulu çox istifadə edilən kitablar üçün əlverişsizdir (vərəqlər tez qopa bilər). Tikiş sapları ilə bərkidilmiş kitablar baha başa gəlsə də uzunömürlü və istifadə üçün daha rahatdır. Bərk C. laminasiya edilmiş və edilməmiş, yaxud parça ilə örtülmüş kartondan hazırlanır. Rəngarəng, əlavə çıxarıla bilən üzü (örtüyü) olan bərk C. supercild adlanır. Yarımdəri C.-də kitab bloku kötüyü və qabığın küncləri dəri ilə örtülür. Lederin C. üz tərəfinə elastik polimer təbəqə (əsasən, nitrosellüloz), arxa tərəfinə nişasta təbəqəsi çəkilmiş pambıq parçadan, kolenkor C. nişasta-kaolin örtüklü pambıq parçadan hazırlanır.

**CİLD**, hesablama texnikasında – verilənlər daşıyıcısı; xarici yaddaş qurğusunun standart yeri dəyişdirilə bilən bloku. Bloka müraciət bir yazma-oxuma mexanizmi vasitəsilə edilir. Müvəqqəti verilənlər yığımı və xüsusi sorğu (daimi verilənlər yığımı) üçün məhdudiyyətsiz açıq olan C. ümumi; saxlanılan verilənlərin yalnız ardıcıl emalına imkan verən C. ardıcıl; saxlanılan verilənlərə həm ardıcıl, həm də birbaşa müraciəti təmin edən C. birbaşa müraciətli C. adlanır. İşçi C. məhdudiyyətsiz olaraq müvəqqəti və daimi verilənlər yığımını saxlamağa imkan verir. Əməliyyat sistemi kataloqlarının bir və ya bir neçə indeksi idarəedici C.-də, sistem kataloqu və əməliyyat sisteminin nüvəsi rezident C.-də yerləşir.

**CİLD MATERİALLARI** – kitab cildlərini hazırlamaq üçün materiallar. Kitab çapı işi inkişaf etdikcə C.m. qismində dəri, perqament, parça və kağızdan ardıcıllıqla istifadə edilmişdir. Müasir dövrdə C.m. polimer hopdurulmuş və ya üzərinə polimer təbəqə çəkilmiş əsasdan (kağız, toxunmamış material, parça, karton, təbii və süni dəri), həmçinin polimer kompozisiya örtüklərindən ibarətdir. Kağız və toxunmamış materiallara lazımi möhkəmliyi vermək üçün onlara, əsasən, lateks hopdurulur, üz tərəfi naxışbasma ilə emal edilir. Örtük materiallarında bitişdirici kimi nitrosellüloz, polivinil-xlorid tətbiq edilir. Poliolefin və poliefir tərkibli kompozisiya materialları da örtük materialı kimi işlənir. Daha çox istifadə edilən C.m.-ndan olan cildləmə kartonu tərkibinə görə kağıza yaxın olub elə həmin texnologiya ilə hazırlanır. Lakin kartonun əsasını təşkil edən bitki lifləri qatranlı qarışıqlardan az təmizlənir, karton çox vaxt ağardılmır, məsaməliliyi və rütubəttutumluğu çox olur, əyilmə zamanı sınır. Cildləmə kartonu möhkəm, qabarmayadavamlı, yüksək hopdurma, asan kəsilmə qabiliyyətinə malik olmalıdır. Kağız əsaslı C.m.-na həmçinin səthinə polivinilxlorid təbəqə çəkilmiş balakron və bumvinil aiddir. Balakron bütün növ *cildhazırlayan maşınlarda* rahat sürüşür, həmçinin folqa ilə naxışbasmada və trafaretlə çapda asanlıqla dekorasiya edilir; kitab, fotoalbom, sənədlər qovluğu və s. cildlənməsi üçün istifadə olunur. Dərini imitasiya edən bumvinil böyük mexaniki davamlılığı və yaxşı hopdurma qabiliyyəti ilə seçilir. Poliuretan örtüklü süni dərini temp-r və təzyiqlə emal etməklə toxunmamış əsaslı geniş çeşiddə, müxtəlif rəngli və naxışbasmalı C.m. alınır. Parça əsaslı C.m.-na kolenkor, lederin aiddir. Lederinin kağız və parça əsaslı 2 növü var. Lederin suyadavamlıdır, naxışlı, parıltılı səthə malikdir. Kolenkor C.m. da pambıq parça (mitkal) əsasında hazırlanır. Üz tərəfi mineral doldurucu və rəngləyicilərdən ibarət rənglənmiş təbəqə şəklindədir. Əsasın astar tərəfinə mineral dolduruculu açıq rəngli qrunt çəkilir. Xüsusi əhəmiyyətli və qiymətli kitabların cildlənməsində isə C.m. kimi təbii dəridən istifadə edilir.

**CİLDHAZIRLAYAN MAŞIN** – kitab cildləri hazırlamaq üçün bir sıra avtomatik mexanizmlərin işini birləşdirən aqreqat. Aşağıdakı əməliyyatları yerinə yetirir: cild parçasına və ya kağızına yapışqan yaxır, onun üzərinə karton və kötük hissəsini yapışdırır, küncləri kəsib düzəldir, kənarları qatlayır, cildi *kalandrdan* keçirir. Vərəqşəkilli parça və kağız yarımfabrikatlarla, yaxud rulonşəkilli üzqabığı materialları ilə işləyən növləri olur. Müasir dövrdə cildin hazırlanmasında müxtəlif əməliyyatlar üçün maşının sazlanmasını kompüterlə idarə edən; iş parametrləri və səhvlər barədə məlumatları əks etdirən, lazımi informasiyanı cəld daxil etmək üçün sadə proqram təminatlı sensor displeylə təchiz edilmiş; mərkəzi yağlama sistemli; rəqəm idarəli yapışdırma aparatlı; soyuq və isti yapışqanla yapışdırmanı yerinə yetirən; hazır cildləri sayma imkanı olan avtomat və yarımavtomat C.m.-lar istehsal edilir.

**CİLDƏBAXAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Molla Yaqub kəndistanında, Sərab ş.-ndən 13 *km* c.-ş.-dədir.

**CİLDLƏMƏ** – kitab hazırlanmasında aparılan tamamlama prosesi. Tikilmiş, yapışdırılmış və ya digər üsullarla birləşdirilmiş kitab bloku C. zamanı 3 tərəfdən kəsilir, kötüyünə lazımi forma verilir, oraya rəngli şərid (tesma) və kağız yapışdırılır. Sonra *cild* qabığı hazırlanır, *forzasın* köməyi ilə kitab bloku ona birləşdirilir. Cildləmə mexanikləşdirilmiş axın xətlərində (buraya kəsici maşınlar, blok emal edən aqreqat, sıxma presləri, kitab yerləşdirmə və s. maşınları daxildir), yaxud cildləmə avadanlıqlarında yerinə yetirilir. Bax *Cildhazırlayan maşın, Cildləmə avadanlıqları və maşınları*.

**CİLDLƏMƏ AVADANLIQLARI VƏ MAŞINLARI** – kitab hazırlanmasında cildləmə prosesini yerinə yetirən maşınlar və qurğular. Cildləmə avadanlıqlarına cildləmə maşınları, termocildləmə maşınları, böyük həcmli yapışdırmalar üçün steplerlər, arxiv cildləməsi üçün deşikaçan-perforatorlar aiddir. Cildləmə maşınları vərəqləri bir-birinə plastik və ya metal yayla bərkitmə maşınları üçündür. Plastik yayla bərkitmə maşınları daha geniş yayılmışdır, çünki yayı lazımi vaxt açaraq, istənilən vərəqi asanlıqla dəyişmək olur. Belə cildləmə zamanı vərəqlər 180° çevrilə bilir. Metal yayla cildləyən maşınlar, əsasən, yazı kitabçaları, təqvimlər və s. üçün istifadə edilir. Belə cildləmədən sonra vərəqləri dəyişmək mümkün deyil, açılmış vərəqlər həmişə bir müstəvidə yerləşir və 360° çevrilə bilir. Termocildləmə maşınlarında cildlənəcək vərəqlər toplusu uyğun ölçülü xüsusi qovluğa (termocildə) yerləşdirilir. İsidici element vasitəsilə termocildin kötüyünə çəkilmiş polimer yumşalır, vərəqlər qaynar və yumşaq polimerə yapışır. Bu üsulla cildləmədə də vərəqləri sonradan dəyişmək mümkün olmur.

**CİLƏN** – Azərb. Resp. Xocavənd r-nunun Arakül ə.d.-ndə kənd. R-n mərkəzindən 69 *km* c.-q.-də, Qarabağ silsiləsinin c.-ş. ətəyindədir. Əh. 50 (2011); işğaldan (1992, oktyabr) əvvəl üzümçülük və maldarlıqla məşğul olmuşdur. Əsas məktəb, klub, kitabxana, tibb məntəqəsi var idi.

**CİLİ** (Gigli) Benyamino (20.3.1890, Rekanati – 30.11.1957, Roma) – italyan müğənnisi. 20 əsrin ən məşhur lirik tenorlarından biri. Çəkməçi ailəsində anadan olmuşdur. 1908–10 illərdə Roma-da A. Bonuççi-dən, 1911–14 illərdə isə "Santa-Çeçilia" Roma konservatoriyasında A. Kotonyi və E. Rozatinidən dərs almışdır.



1914 ildə vokalçıların Parmada keçirilən Beynəlxalq musabiqəsinin 1-ci mükafatına layiq görülmüş C.-nin həmin ildə opera səhnəsində debütü olmuşdur (A. Ponkyellinin "Cokonda" tamaşasında Ensonun partiyası, Roviqo ş. teatrı), sonralar İtaliyanın müxtəlif teatrlarında çıxış etmişdir. 1920–32 illərdə "Metropolitenopera" (Nyu-York) teatrının solisti olmuşdur. 1932 ildə İtaliyaya qayıtmış, əsasən, Roma səhnəsində (o cümlədən 2-ci dünya müharibəsi illərində) oxumuşdur. Avropa və Amerikada qastrolda olmuşdur (1930 ildən dəfələrlə "Kovent-Qarden" teatrında çıxış etmişdir). 1954 ildə opera səhnəsini tərk etmişdir. 19–20 əsrin əvvələrinin romantik və verist operalarından (V. Bellini, Q. Donisetti, C. Verdi, C. Puççini, J. Bize, J. Massne və b.) partiyalar (cəmi təqr. 60) repertuarının əsasını təşkil etmişdir. Neapol mahnılarının ifası müğənniyə geniş populyarlıq qazandırmışdır. 16 musiqili filmdə çəkilmişdir. Çoxlu audio yazıları, o cümlədən C.-nin iştirakı ilə 7 opera tamaşası bütünlüklə saxlanılmışdır.

**CİLKİMİLƏR** (Cyperaceae) – birləpəli bitki fəsiləsi. Çoxillik, bəzən birillik ot; tropiklərdə ağacvarı formasına da rast gəlinir. Xətvarı yarpaqları qında yerləşir, bəzisində reduksiya olunur. Xırda çiçəkləri sünbüldə toplanır. Meyvəsi birtoxumlu dəndir. Yer kürəsində, xüsusilə Şimal yarımkürəsinin mülayim və soyuq qurşaqlarında təqr. 90, o cümlədən Azərb.-da 19 cinsi var. Bəzi növləri torf əmələgəlməsində iştirak edir, bir qismi dərman və dekorativ bitkidir. C.f.-ndən olan bitkilərin kökümsov, gövdə və yarpağından səbət, kəndir və s. hazırlanmasında istifadə edilir.



Qara-qonur cil (Cyperus fuscus).

**CİLLİK** – Azərb. Resp. Balakən r-nunun Qazma ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* c.-q.-də, Qanıx-Əyriçay çökəkliyindədir. Əh. 624 (2011); əkinçilik, bağçılıq, arıçılıq və heyvandarlıqla məşğuldur. Tibb məntəqəsi var.

**CİLÓ DAĞI** – bax *Buzul Dağı*.

**CİLODARLI** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Kağızkonan bölgəsinin eyniadlı kəndistanında, Xalxal–Miyanə avtomobil yolunun 4 *km*-liyindədir.

**CİLOGİR** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Gorayim kəndistanında, Ərdəbil ş.-ndən 36 *km* c.-q.-dədir.

**CİLOVDARLI** – Azərb. Resp. Tovuz r-nunun Qədirli ə.d.-ndə kənd. R-n mərkəzindən 10 *km* şm.-da, Kür çayının sağ sahilindədir. Əh. 1359 (2011); heyvandarlıq, əkinçilik və üzümçülüklə məşğuldur. Uşaq bağçası, kitabxana, tibb məntəqəsi var.

**CİLOVXANLI** – Azərb. Resp. Zərdab r-nunun Birinci Alıcanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 22 *km* şm.-q.-də, Şirvan düzündədir. Əh. 574 (2011); maldarlıq, quşçuluq və meyvəçiliklə məşğuldur. İbtidai məktəb, kitabxana var.

**CİMÁRA**, Cimaray-Xox, Gimaray-Xox – Böyük Qafqazda zirvə.

Cimara zirvəsi.





Cinal silsiləsi.

Kazbekdən 9 *km* q.-dədir. Hünd. 4780 *m*. Gilli şistlərdən, metamorfik süxur və diabazlardan ibarətdir. Qarla örtülüdür. Q. yamacından Midaqrabin, c. yamacından Savitisi buzlaqları enir. Buzlaqların ümumi sah. 37 $km^2$-dir.

**CİMCİMAX** – Azərb. Resp. Zaqatala r-nunun Mamrux ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* ş.-də, dağlıq ərazidədir. Əh. 392 (2011); maldarlıq və əkinçiliklə məşğuldur. Ümumi orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi, məscid var.

**CİMCİMAX MİNERAL SU BULAQLARI** – Azərb. Resp. Zaqatala r-nu ərazisində, Cimcimax k.-ndən 3,5 *km* şm.-ş.-dədir. Köklü süxur çatlarından çıxır. Suyu bulanıqdır; temp-ru 22°C, debiti 10 $m^3$/*gün*, minerallaşma dərəcəsi 1,8 *q/l*-dir. Balneoloji tərkibi:

$$M\,1{,}8\frac{HCO_3 51 Cl 43}{Na 89 (Ca 11)}$$

pH 7,8 D10 $m^3$/*gün* T 22°C

Suyu hidrogen-sulfid qazlı, az minerallaşmış, xlorlu-hidrokarbonatlı, natriumludur. Yerli əhali tərəfindən müalicə üçün istifadə edilir.

**CİMİ** – Azərb. Resp. Quba r-nunda çay. Uz. 29 *km*, hövzəsinin sah. 160 $km^2$. Baş Qafqaz silsiləsindən başlanır. Babaçayla birləşərək Vəlvələ çayını əmələ gətirir. Əsasən qar və qismən yağış suları ilə qidalanır.

**CİMİ** – Azərb. Resp. Quba r-nunun Qonaqkənd ə.d.-ndə kənd. R-n mərkəzindən 46 *km* c.-da, Cimi çayının sahilində, dağətəyi ərazidədir. Əh. 1186 (2011); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta və ibtidai məktəb, klub, kitabxana, tibb məntəqəsi, məscid var.

**CİMİ MİNERAL SU BULAQLARI** – Azərb. Resp. Quba r-nu ərazisində, Cimi k.-ndən 5 *km* c.-da zəif minerallaşmış (1,2 *q/l*), isti (42°C) və soyuq (14°C) bulaqlar. Debitləri uyğun olaraq 0,1 *l/san* və 0,02 *l/san*. Balneoloji tərkibi:

$$M\,1{,}2\frac{HCO_3 80 (SO_4 14)}{Na 96 (Ca 3)}$$

pH 7,2 D10,4$m^3$/*gün* T 42–14°C

Suyu hidrokarbonatlı-natriumludur.

**CİMKROUİZM** (ing. jimcrowism, Jim-Crow – 1828 ildən ABŞ-da afroamerikalılara verilən təhqiramiz ləqəb) – ABŞ-da qaradərili əhalinin irqi ayrı-seçkiliyini və seqreqasiyasını əbədiləşdirməyə yönəldilmiş rasist tədbirlər və ənənələr sistemi (işlə təminolunma, zəhmənthaqqı, təhsil, səhiyyə, həmçinin siyasi, o cümlədən seçki, nəqliyyatdan istifadə hüququ ilə bağlı məsələlərdə və s.). C. sistemi ABŞ-da 19 əsrin sonuncu rübü – 20 əsrin əvvəllərində yaradılmışdır. 1954 ildə ABŞ Ali Məhkəməsi bütün vətəndaşların konstitusion bərabərlik prinsipinin təmin olunmasını və irqi qanunların ləğvini tələb etdi. Vətəndaş hüquqları uğrunda hərəkatın təsiri altında Vətəndaş hüquqları haqqında aktın qəbul edilməsi ilə (1964 ilin iyulunda qüvvəyə minmişdir) C. sistemi formal olaraq ləğv edilmişdir.

**CİN**, ə c i n n ə (ər. الجن) – gözəgörünməz varlıq. Quranda 22 dəfə adı çəkilmişdir. Qurana görə, C.-lər tüstüsüz oddan yaradılmış varlıqlardır (15:27). C.-ə inam hələ islamaqədərki ərəb mifologiyasında mövcud olmuş, islam dininin yaranması ilə başqa xalqlara (farslar, azərb.-lar və b.) da keçmişdir. *Cahiliyyə* dövründə ərəblər hər şairin bir C.-i olduğuna və ondan ilham aldığına inanmışlar. Ərəb rəvayətlərinə əsasən, C.-lərin şeytan, marid, ifrit, əbqəri, qul və s. növləri var. Onlar müxtəlif formalara (insan, heyvan, bitki və s.) düşə bilir. Azərb. və İran folklorunda C.-in qarşılığı div və pəridir. Onlar, əsasən təkgözlü, uzunbaşlı, iridişli və s. formalarda təsvir olunur.

**CİN** (ing. gin; hol. jenever – ardıc) – tünd spirtli içki. Neytral buğda spirtindən alınır; ardıc meyvələri və aromatlaşdırıcılar (cirə və zirə toxumları, sitrus) əlavə edildiyi üçün məxsusi tama malikdir. İlk dəfə 17 əsrdə Hollandiyada Fransisk Silvius adlı həkim hazırlamışdır. 2 növü daha geniş yayılmışdır – tərkibində 35% spirt olan, təbii tamlı buğda (səməni) ilə aromatlaşdırılmış holland C.-i və B.Britaniya və ABŞ-da geniş yayılmış 40%-dən çox spirti olan təmizlənmiş London C.-i. C. təmiz halda və ya kokteyldə, yaxud su qatılaraq içilir. C. müalicəvi xüsusiyyətlərə də malikdir, malyariya və s. tropik xəstəliklərin profilaktikası üçün işlənir. Belçikada (Xasselt ş.) Milli C. muzeyi var.

**CİNAH**, h ə r b i d ə – *sıranın* sağ və sol qurtaracaqları; qoşunların *döyüş nizamının* sağ və sol tərəfləri. Sıra döndükdə C. dəyişmir. Bir qayda olaraq, döyüş nizamının (operativ düzümün) ən zəif yeridir; buna görə də əməliyyat zamanı düşmən tərəflər bir-birinə C.-dan zərbə vurmağa cəhd edirlər.

**CİNAL** – Şimali Qafqazda, RF-nin Stavropol diyarı və Kabarda-Balkar Resp. ərazilərində silsilə; Otlaq silsiləsinin bir hissəsi. Kislovodsk ş.-ndən c.-ş.-dədir. Tabaşir yaşlı qumdaşı və əhəngdaşılarından ibarət kuestadır. Hünd. 1542 *m*-ədək (Yuxarı Cinal d.). Çoxsaylı mağaraoyuqlar var. Dağ-çöl landşaftları yayılmışdır.

**CİNAS** – bax *Təcnis*.

**CİNAYƏT** – qanunçuluğun və hüquq qaydasının ciddi surətdə pozulması; cinayət cəzasına səbəb olur. Cinayət qanunvericiliyinə (Azərb. Resp.-nın Cinayət Məcəlləsi, m. 14.1) görə, cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməllərin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi C. hesab edilir. Müəyyən əməli C. kimi xarakterizə edən əlamətlərin məcmusu *cinayət tərkibi* adlanır. C.-in əsas əlaməti ictimai təhlükədir.

C. digər hüquq pozmalarından və xətalardan (xırda xuliqanlıq, xırda oğurluq, itaət etməmə, nəql.-da bəzi qaydaları pozma və s.) öz xarakteri və ictimai təhlükə dərəcəsinə görə fərqlənir. Sonuncular ictimai təhlükə dərəcəsi az olduğuna görə inzibati və ya intizam məsuliyyətinə səbəb olur. Həm qanunla mühafizə olunan mənafeyə faktik zərər vurulduqda, həm də təqsirkarın iradəsindən asılı olmayaraq cinayətkar fəaliyyət başa çatmadıqda (yəni C.-ə h a z ı r l ı q və y a C.-ə s u i - q ə s d mövcud olduqda) əməl C. hesab edilir. Bax həmçinin *Cinayətkarlıq, Məhkumluq*.

**CİNAYƏT AXTARIŞI** – Azərb. Resp.-nda polis orqanları sistemi; şəxsiyyətə, vətəndaşların şəxsi mülkiyyətinə, ictimai qaydalara (asayişə) və təhlükəsizliyə qarşı yönəldilmiş cinayətlərin qarşısını almaq, onların törədilməsinin səbəb və şəraitini aradan qaldırmaq, üstünü açmaq sahəsində əməliyyat-axtarış tədbirləri və öz səlahiyyətlərinə aid digər tədbirləri həyata keçirir.

**CİNAYƏT ETMƏ MƏRHƏLƏLƏRİ** – bax *Cinayət*.

**CİNAYƏT HÜQUQU** – hüquq sahəsi. C.h. ictimai və dövlət quruluşunu, mülkiyyəti, vətəndaşların səhhətini və qanunla müdafiə olunan mənafelərini cinayətkar qəsdlərdən qorumaq vəzifəsini həyata keçirir. Hansı əməllərin ictimai təhlükəli (*cinayət*) olduğunu, bu əməlləri törətməyə görə cəza tədbirlərini və cəzanın təyini şərtlərini C.h.-nun normaları müəyyən edir. Azərb. Resp.-nda C.h. humanizm prinsiplərinə əsaslanır. Həmin prinsip cəzaya əvəz (qisas) almaq vasitəsi kimi baxmamağı, məhkumları islah etməyi və yenidən tərbiyələndirməyi, vaxtından əvvəl (o cümlədən şərti olaraq vaxtından əvvəl) azad etmənin mümkünlüyünü, müəyyən hallarda cinayət məsuliyyətindən və cəzadan azad edərək ictimai təsir tədbirlərinin tətbiqini nəzərdə tutur.

C.h. ümumi və xüsusi hissələrə bölünür. Ümumi hissədə *cinayət məsuliyyətinin* ümumi müddəalarından bəhs edilir, cinayətin anlayışı verilir, *təqsirin* formaları, cinayət məsuliyyətini aradan qaldıran hallar (anlaqsızlıq, *zəruri müdafiə, son zərurət*), cinayətin edilmə mərhələləri, cəzanın məqsəd və vəzifələri, cəzanın növləri, onların təyini qaydası və şərtləri, cəzadan azad etmə və s. kimi məsələlər əhatə olunur.

C.h.-nun xüsusi hissəsinin normaları Azərb. Resp.-nın CM-nin xüsusi hissəsində nəzərdə tutulmuşdur. Xüsusi hissənin normaları konkret ictimai təhlükəli əməllərdən hansının cinayət olmasını və bunlar üçün cəzaları müəyyən edir. Cəza tədbirləri əməlin xarakteri və ictimai təhlükəsi nəzərə alınmaqla müəyyən olunmuşdur (bax *Cəza*).

**CİNAYƏT İŞİ BAŞLAMA** – cinayət prosesinin ilk mərhələsi; həmin mərhələdə prokuror, müstəntiq, təhqiqat orqanı, yaxud hakim baş vermiş və ya hazırlanan cinayət haqqında ərizələrə və məlumatlara baxır və C.i.b., yaxud onu rədd etmək haqqında və ya ərizənin, yaxud məlumatın istintaq aidiyyəti (məhkəmə aidiyyəti) üzrə verilməsi haqda qərar (qətnamə, qərardad) qəbul edir.

**CİNAYƏT QANUNVERİCİLİYİ** – cinayət məsuliyyətinin prinsiplərini, əsaslarını, həddini və *cinayət* hesab edilən əməlləri, həmçinin onların törədilməsinə görə cəzanın növlərini və ölçüsünü müəyyən edən hüquq normalarının məcmusu.

Azərb. Resp.-nın C.q. ölkənin cinayət qanunlarından ibarətdir. C.q.-nin vəzifələri, cinayət məsuliyyətinin əsasları və həddi, cinayət anlayışı, *təqsirin* forması, *zəruri müdafiə*, cinayətə hazırlıq və *sui-qəsd*, *iştirakçılıq* anlayışları, cəzanın məqsəd və vəzifələri, növləri, tətbiqi prinsipləri və qaydası və s. Azərb. Resp.-nın Cinayət Məcəlləsində (CM) müəyyən edilmişdir. Bax həmçinin *Cinayət hüququ*.

**CİNAYƏT MƏCƏLLƏSİ** (CM) – cinayət məsuliyyətinin əsaslarını, şərtlərini və həddini müəyyən edən məcəllələşdirilmiş qanunvericilik aktı. Azərb. Resp.-nın CM 1999 il dekabrın 30-da qəbul edilmiş, 2000 il sentyabrın 1-də qüvvəyə minmişdir. CM ümumi və xüsusi hissədən, 12 bölmədən, 35 fəsildən və 353 maddədən ibarətdir. Ümumi hissədə CM-nin vəzifələri, cinayət məsuliyyətinin əsasları nəzərdə tutulur, cinayət anlayışı, təqsirin formaları, cinayətdə iştirakçılığın anlayışı verilir, cəzanın məqsədi və vəzifələri müəyyən edilir, növləri sadalanır, cəza təyininin və cəzadan azad etmənin qayda və prinsipləri göstərilir. Xüsusi hissədə cinayət hesab olunan və cəzalandırılan ictimai təhlükəli əməllərin dəqiq siyahısı verilir, xüsusi konkret cinayətlərin daha mühüm əlamətləri, həmçinin bu cinayətlərə görə cəza tədbirləri nəzərdə tutulur. Bax həmçinin *Cinayət hüququ*.

**CİNAYƏT MƏSULİYYƏTİ** – hüquqi məsuliyyətin bir növü. Cinayət qanununda nəzərdə tutulmuş ictimai təhlükəli əməl törədildikdə (qəsdən və ya ehtiyatsızlıqdan), habelə cinayətə hazırlığa, cinayətə qəsd etməyə və *iştirakçılığa* görə C.m. yaranır. C.m.-nə cəlb etməyə yalnız törədilmiş əməldə *cinayət tərkibi* əlamətləri müəyyən edildikdə yol verilir. C.m.-nə cəlb etmə cinayət işi başlamağı, onun istintaqını və məhkəmədə baxılmasını nəzərdə tutur. Cinayət işi üzrə ibtidai istintaq və məhkəmə istintaqı qaydası cinayət-prosessual hüquq normaları ilə, məhkəmə hökmündə göstərilən cəzanın icrası isə (yəni C.m.-nin faktik reallaşması) islah-əmək qanunvericiliyi normaları ilə tənzimlənir. *Məhkumluğun* ödənilməsi və ya götürülməsi ilə C.m.-nin bütün nəticələri aradan qalxır.

**CİNAYƏT PROSESİ** – 1) təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının *cinayət-prosessual hüquqla* müəyyən olunmuş qaydada cinayət işləri başlama, onların istintaqı və həlli sahəsində fəaliyyəti. C.p. cinayətlərin tezliklə və bütünlüklə açılmasını, cinayətkarların mütləq və ədalətli surətdə cəzalandırılmasının təmin olunmasını öz məqsədi hesab edir; qanunçuluğun möhkəmləndirilməsinə, cinayətlərin qarşısının alınmasına, vətəndaşları qanunları icra etmək ruhunda tərbiyələndirməyə kömək göstərir. C.p.-ni səlahiyyətli orqanlar həyata keçirir. C.p. bir sıra ardıcıl mərhələdən ibarətdir: *cinayət işi başlama, təhqiqat, ibtidai istintaq, məhkəməyə vermə*, məhkəmə aydınlaşdırması, *kassasiya* icraatı, hökmün icrası, bir sıra halda isə *nəzarət* icraatı və yeni açılmış hallara görə icraat.

2) C.p.-nin qanunauyğunluqlarını, əsas anlayışlarını və prinsiplərini, normativ qaydaları və onların həyata keçirilməsini və s. öyrənən hüquq elmi sahəsi.

**CİNAYƏT TƏRKİBİ** – cinayət qanununda nəzərdə tutulan və ictimai təhlükəli əməli *cinayət* kimi xarakterizə edən əlamətlərin məcmusu. Törədilən hərəkətin (hərəkətsizliyin) faktik əlamətlərinin cinayət qanununda nəzərdə tutulmuş C.t. əlamətlərinə uyğun gəlməsi əməlin cinayət hesab edilməsi üçün əsasdır. C.t. əlamətlərinə uyğun əməlin törədilməsi cinayət məsuliyyətinin yeganə əsasıdır. C.t.-nə cinayət obyektini, cinayət subyektini, cinayətin obyektiv və subyektiv cəhətlərini xarakterizə edən 4 qrup əlamət daxildir. Şəxsin hərəkətlərində bu əlamətlərdən birinin belə olmaması, əməldə C.t.-nin olmamasını göstərir və iş prosesin hansı mərhələsində olmasından asılı olmayaraq şərtsiz dayandırılır.

**CİNAYƏTDƏ İŞTİRAKÇILIQ** – bax *İştirakçılıq*.

**CİNAYƏTİ QEYDƏALMA**, k r i m i n a l i s t i k u ç o t – cinayətlərin qarşısının alınması və açılması üçün maraq oyadan obyektlərin əlamətlərinin təsbit

edilməsinin, həmçinin obyektlər haqqında məlumatların saxlanması və sistemləşdirilməsinin üsul və vasitələrinin məcmusu. C.q. üçün çox zaman kartoteka (C.q. obyektləri haqqında məlumatlar qeyd olunmuş qeydiyyat kartları) tərtib edilir, yaxud kolleksiya düzəldilir. İstintaq və məhkəmə orqanları C.q. məlumatlarından obyektləri eyniləşdirmək (*identikləşdirmə*), axtarmaq və s. üçün istifadə edirlər. Cinayətkarlar, tutulmuş və xəbərsiz itkin düşmüş şəxslər, tanınmamış meyitlər, heyvanlar, əşyalar, cinayət faktları C.q. obyektləridir. İnsanların qeydə alınması anket məlumatlarına, zahiri görünüşün əlamətlərinə, əl barmaqlarının papilyar naxışlarına (bax *Daktiloskopiya*) görə aparılır.

**CİNAYƏTİ TÖFSİFETMƏ** – törədilmiş *cinayətin* bu və ya digər *cinayət tərkibi* əlamətlərinə müvafiq olmasını müəyyən etmə. Cəza tədbirini düzgün müəyyən etmək üçün zəruridir.

**CİNAYƏTKARLIQ** – cəmiyyətin müəyyən inkişaf mərhələsində yaranmış sosial hadisə. Hər hansı konkret dövr ərzində müəyyən dövlətdə (və ya onun regionunda) törədilmiş bütün cinayətlərin məcmusu ilə xarakterizə olunur. C.-ın xarakteri və məzmunu müxtəlif ictimai-iqtisadi formasiyalarda müxtəlif olmuşdur. Onun səviyyəsi və quruluşu müəyyən formasiyanın ayrı-ayrı inkişaf dövrlərində də dəyişir. C. səviyyəsinə (cinayətlərin və cinayətkarların mütləq miqdarı və ya, məs., 100 min əhaliyə görə əmsalı), strukturuna (cinayətlərin növlərinə və iri qruplarına, ictimai təhlükəlilik dərəcəsinə və s. görə bölünməsi), cinayətkarlar kontingentinin xüsusiyyətlərinə (cinsi, yaşı, işinin növü və s.), dinamikasına (onun vəziyyətinin müəyyən vaxt ərzində dəyişməsi) görə xarakterizə olunur.

C.-ın səbəbləri kompleks-sosial hadisələrdən irəli gəlib, adamların yaşayışının maddi və ideoloji şəraiti ilə bağlıdır. Bax həmçinin *Uşaq cinayətkarlığı, Cinayət.*

**CİNAYƏTKARLIQLA BEYNƏLXALQ MÜBARİZƏ KONVENSİYALARI** – ayrı-ayrı dövlətlərə və onların vətəndaşlarının həyatına qarşı yönəldilmiş ağır cinayətlərlə birgə mübarizə haqqında beynəlxalq sazişlər. Onlar aşağıdakılardır: "Pornoqrafik əşyaların və vasitələrin hazırlanması və yayılmasına qarşı mübarizə haqqında" (1923); "Saxta pul nişanı kəsməklə mübarizəyə dair" (1929); "Təcavüzkarlığın müəyyən edilməsi haqqında" (1933); "Terrorçuluğun xəbərdar edilməsi və qarşısının alınması haqqında" (1937); "Genosid cinayətinin xəbərdar edilməsi və belə cinayətə görə cəzalandırmaq haqqında" (1948); "Mədəniyyət incilərinin hərbi iğtişaş vaxtı müdafiəsi haqqında" (1954); "Dəniz quldurluğu ilə mübarizə haqqında" (1958); "Narkotik maddələr haqqında vahid saziş" (1961); "Hava gəmilərində törədilən cinayətlər və bir sıra digər hərəkətlər barəsində" (1963); "Hava gəmilərinin qanunsuz ələ keçirilməsi ilə mübarizə haqqında" (1970); "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilmiş qanunsuz aktlarla mübarizə haqqında" (1971); "Apartheyd cinayətinin qarşısının alınması və ona görə cəza verilməsi haqqında" (1973); "Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" (1979); "Nüvə materialının fiziki müdafiəsi barəsində" (1980) və s.

**CİNAYƏTLƏRİN CƏMİ** – bir əməldə iki və ya daha çox cinayət əlamətlərinin olması, yaxud bir şəxsin iki və ya daha çox cinayət etməsi. Məhkəmə hər bir cinayət üçün ayrılıqda cəza təyin edir, sonra isə onları qanunla müəyyən edilmiş qaydada toplamaqla qəti cəza müəyyən edir.

**CİNAYƏT-PROSESSUAL HÜQUQ** – hüquq sahəsi; məhkəmə, prokurorluq, istintaq və təhqiqat orqanlarının cinayət işi başlama, cinayət işinin istintaqı və həlli sahəsindəki fəaliyyətini nizamlayır. C.-p.h. cinayət mühakimə icraatının qaydasını və məzmununu müəyyən edir, onunla əlaqədar yaranan hüquq münasibətlərini, cinayət prosesini həyata keçirən orqanların, proses iştirakçılarının hüquq və vəzifələrini nizamlayır və s. C.-p.h.-un əsas müddəaları aşağıdakılardır: qanunla müəyyən olunmuş qaydada cinayət məsuliyyətinə cəlb etmə; şəxsiyyətin toxunulmazlığı; ədalət mühakiməsinin yalnız məhkəmə tərəfindən həyata keçirilməsi; *hakimlərin müstəqilliyi*, aşkarlıq və müdafiə hüququnun təmin edilməsi; işin bütünlüklə, hərtərəfli və obyektiv tədqiqi və s.

**CİNAYƏT-PROSESSUAL MƏCƏLLƏSİ** (CPM) – cinayət işlərinin istintaqını və məhkəmədə baxılması qaydasını müəyyənləşdirən qanunvericilik aktı. Azərb. Resp.-nın CPM 14.7.2000 ildə qəbul edilmiş, 1.9.2000 ildə qüvvəyə minmişdir. CPM ümumi və xüsusi hissədən, 11 bölmədən, 58 fəsildən, 521 maddədən ibarətdir. CPM aşağıdakıları müəyyən edir: cinayət işi başlama və cinayətin istintaqı; məhkəməyə vermə; məhkəmə aydınlaşdırması, kassasiya və nəzarət icraatı və yeni açılmış hallara görə işlərin təzələnməsi; hökm icra olunan zaman prosessual məsələlərin həlli sahəsində təhqiqat; istintaq orqanlarının, prokurorun və məhkəmənin fəaliyyət qaydası. Eyni zamanda CPM vətəndaşların, ictimaiyyət nümayəndələrinin, idarələrin, müəssisələrin, təşkilatların cinayət işlərinin icraatında iştirakı qaydasını, proses iştirakçılarının hər birinin prosessual hüquq və vəzifələrinin həcmini və onların həyata keçirilməsinin təminatlarını müəyyənləşdirir.

**CİNCA** (Jinja) – Uqandanın c.-unda şəhər. Şərq vil.-nin inz. m. Əh. 97,4 min (2007; əhalisinin sayına görə ölkənin dördüncü şəhəri). Kampaladan 80 *km* şm.-ş.-də, Viktoriya-Nil çayının mənsəbi yaxınlığında yerləşir. Viktoriya gölündə port. Avtomobil yolları qovşağı. Kampala–Tororo–Mombasa (Keniya) xəttində d.y. st. Aeroport.

1901 ildə ticarət məskəni və Britaniya müstəmləkə hakimiyyətinin inzibati mərkəzi kimi əsası qoyulmuşdur.1950-ci illərdən iri sənaye mərkəzinə çevrilmişdir. Poladtökmə, misəritmə istehsalı; yüngül (toxuculuq, tikiş, dəri), yeyinti (un, şəkər tozu, yağ, pivə istehsalı, balıq emalı), ağac emalı (ağac yonqarı plitələri z-du, faner f-ki) sənayesi inkişaf etmişdir.

C. yaxınlığında "Owen Falls" SES-i fəaliyyət göstərir.

**CİNCAR** (Lamium album) – *dodaqçiçəklilər* fəsiləsindən çoxillik ot bitkisi. Yarpağının formasına görə gicitkənə oxşayır. Şimal yarımkürəsinin mülayim zonasında yayılmışdır. Azərb.-da alaq otu kimi tanınır. Çiçək və yarpaqlarında aşı maddəsi, saponin, askorbin turşusu var. Balverən bitkidir.



Cincar (Lamium album).

**CİNCARTALA** – Azərb. Resp. Balakən r-nunun Hənifə ə.d.-ndə kənd. R-n mərkəzindən 11 *km* c.-q.-də, Qanıx–Əyriçay çökəkliyindədir. Əh. 68 (2011); əkinçilik, bağçılıq, arıçılıq və maldarlıqla məşğuldur.





**CİNCİLİM** (Stellaria) – qərənfilçiçəklilər fəsiləsindən çoxillik, bəzən bir və ikiillik ot bitkisi. Yarpaqları qarşılıqlı, xətli-lansetvarıdan yumurtavarı formaya qədər olur. Çiçəkləri ağ, əsasən 5-üzvlü, ləçəkləri ikibölümlü, bəzən oyuqlu, 10-erkəkciklidir. Meyvəsi qutucuqdur. Yer kürəsində 120 (bəzi göstəricilərə görə 200-ədək) növü yayılmışdır. Vegetativ yolla çoxalır. Azərb.-da 5 növü bitir: C. (S. media), məchul C. (S. neqlecta), solğun C. (S. pallida), lansetvarı C. (S. holostea) və İran C.-i (S. persica). Lansetvarı C. (S. holostea) balverən bitkidir. C. (S. media) qaramal, cücə və oxuyan quşlar üçün yaxşı yemdir. Çəmən, meşə və meşə kənarında, bəzən əkin yerlərində bitən taxılabənzər C. növü at və qaramal üçün zəhərlidir. Bəzi növləri dovğa, kətə və s. bişirdikdə istifadə edilir.



Adi cincilim (Stellaria media).

**CİNDAĞ** – Azərb. Resp. Şahbuz r-nu (Nax.MR) ərazisində dağ. Zəngəzur silsiləsinin q. yamacında, Ağbulaq k.-ndən 3,5 *km* c.-ş.-dədir. Hünd. 2673 *m*. Konusvarı formada subvulkandır.

**CİNDAĞ** – Azərb. Resp. Ordubad r-nu (Nax.MR) ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Parağa k.-ndən 3,5 *km* c.-dadır. Hünd. 1779 *m*. Konusvarı formadadır. C. yamacı sıldırımdır.

**CİNDAR** – Azərb. Resp. Quba r-nunun Rustov ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* c.-da, dağətəyi ərazidədir. Əh. 162 (2011); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur.

**CİNGİRDAĞ** – Azərb. Resp.-nda, Bakının Qaradağ r-nundakı Qobustan qəs.-nin c.-ş.-ində, Səngəçal d.y. st.-ndan 8–10 *km* q.-də dağ. Ş. tərəfi və şm. ucu dik, üstü q.-ə tərəf maili və əhəngdaşılarla örtülüdür. *Qobustan qaya təsvirləri* kolleksiyasına daxil olan qədim rəsmlər aşkar edilmiş üç abidədən (*Böyükdaş*, Kiçikdaş və C.) biridir. C.-ın şm.-ş. ətəyinə uçub düşmüş qayaların bəzisinin üstündə və buradakı *Yazılıtəpə* sahəsindəki 164 daş üzərində çoxlu qədim təsvir qeydə alınmışdır. *Qavaldaş* da C. ərazisindədir. C. xalq arasında müqəddəs yer sayılmış, yerli əhali onu "Cingir baba" adlandırmışdır.



Cingirdağ qayaüstü təsvirləri.

**CİNİ** (Gini) Korrado (23.5.1884, Motta-di-Livensa – 13.3.1965, Roma) – italyan statistiki, demoqraf, 20 əsrin ən görkəmli statistik-riyaziyyatçılarından biri, Kalyari, Paduya, Cenevrə, Harvard, Roma un-tlərinin statistika üzrə prof.-u. "Metron" beynəlxalq statistika jurnalının (1920), "La Vita Economica İtaliana" jurnalının (1926–43) banisi və rəhbəri, Beynəlxalq Sosiologiya İn-tunun vitse-prezidenti, Mərkəzi Statistika İn-tunun (Roma) prezidenti olmuşdur. 1929 ildə C. əhalinin məskunlaşması problemlərinin öyrənilməsi üzrə İtaliya komitəsini yaratmışdır. C.-nin irəli sürdüyü sosial metabolizm konsepsiyasına görə cəmiyyətin təbii təkrar istehsal səviyyəsi yuxarı olan aşağı təbəqələri hesabına təbii təkrar istehsal səviyyəsi aşağı olan yüksək təbəqələrdə artım baş verməsə, onda bu, sonuncuların məhvinə gətirib çıxara bilər.

C. təqr. min elmi işin, o cümlədən statistikanın metodologiyasına dair iki fundamental klassik sistemli əsərin (1955, 1960) müəllifidir. Onun "Statistikada məntiq" (1962) əsəri statistik metodologiyanı demoqrafiya, iqtisadiyyat, sığorta və s.-yə uyğun olaraq inkişaf etdirməyə imkan vermişdir. Onun adını daşıyan (*Cini əmsalı*) və müxtəlif bölüşdürmələrdə (məs., gəlirin təmərküzləşməsi) qeyri-bərabərliyi ölçən əmsalın ixtiraçısıdır. Orta hesabidən asılı olmayan dispersiya ölçüsünü ("Cini orta fərqi"), statistik əlaqənin yeni göstəricisi olan "razılaşma əmsalı"nı işləyib hazırlamış, orta kəmiyyət anlayışını keyfiyyət variasiyalarına aid etmişdir.

Əsərləri: Sulla misura della concentrazione e della variabilità dei caratteri. Mil., 1914; Memorie di metodologia statistica. Mil., 1955. Vol. 1: Variabilità e concentrazione; Memorie di metodologia statistica. Mil., 1960. Vol. 2: Transvariazione; Средние величины. М., 1970; Логика в статистике. М., 1973.

**CİNİ ƏMSALI** (indeksi) – tədqiq edilən əlamətin təmərküzləşməsi və ya onun *statistik məcmu* vahidləri və ya vahidlər qrupu üzrə qeyri-bərabər paylanması dərəcəsinin qiymətləndirilməsi üçün statistikada istifadə edilən göstərici. Ayrı-ayrı vahidlərdə əlamətin nisbi həcmlərinin cəmləşməsi müvafiq olaraq məcmunun qalan hissəsinin vahidlərinin nisbi həcminin proporsional şəkildə azalmasına gətirib çıxarır, bu isə bölgünün qeyri-bərabərliyinə səbəb olur. Belə qeyri-bərabərlik gəlirlərin əhali qrupları üzrə, əmək resurslarının ölkə regionları üzrə, aktivlərin kredit təşkilatları üzrə və s. bölgüsündə ola bilər. Konkret sahələrdə "təmərküzləşmə" termini ilə yanaşı "lokallaşdırma" və ya "diferensiasiya" terminləri də istifadə edilir.

C.ə.-nın hesablanması təmərküzləşmə əyrisindən (Lorens əyrisi) istifadəyə əsaslanır. Onun qurulması üçün tədqiq edilən məcmu vahidlərinin bölgü tezliyinə və onunla qarşılıqlı əlaqədə öyrənilən əlamətin bölgü tezliyinə dair məlumat olmalıdır. Bu zaman, hesablamaların asanlaşdırılması və verilənlərin analitikliyinin yüksəldilməsi üçün məcmu vahidləri mümkün qədər bərabər qruplara: hər birində 10% vahid olmaqla 10 qrupa və ya hər birində 20% vahid olmaqla 5 qrupa bölünür. Belə ki, məs. statistika təcrübəsində əhalinin gəlirlər üzrə diferensiasiyasını tədqiq edərkən onların artım dərəcəsinə görə 5 qrupu fərqləndirilir: birincisi – ən az gəlirli, beşincisi – ən çox gəlirli.

Lorens əyrisi düzbucaqlı koordinat sistemində qurulur. Absis oxu üzərində məcmu həcmin yığılmış tezlikləri, ordinat oxu üzərində əlamət həcminin yığılmış tezliklər əks olunur. Alınan əyri təmərküzləşmənin həcmini xarakterizə edir.

Bölgü tam bərabər olarsa, onda sıralanmış məcmu vahidlərinin (əhalinin) ilk 20%-i əlamətin həcminin (məcmu gəlirlərin) 20%-inə malikdir, vahidlərin ilk 40%-i müvafiq olaraq əlamətin həcminin 40%-inə uyğun gəlir və s. Belə bölgü qrafikin aşağı sol küncündən yuxarı sağ küncünə doğru keçən və bərabər bölgünü

əks etdirən düz xətlə göstərilir. Tədqiq edilən əlamətin təmərküzləşməsi nə qədər sıx olarsa, Lorens əyrisi bərabər bölgü xəttindən bir o qədər aşağı əyilir və əksinə, təmərküzləşmə nə qədər zəifdirsə, əyri düz xəttə bir o qədər yaxın olur.

Təmərküzləşmə dərəcəsi (şəkil) bərabər bölgü xətti və Lorens əyrisi ilə hüdudlanmış A fiqurunun sahəsi ilə müəyyən edilir. A sahəsi nə qədər çox və B sahəsi

Lorens əyrisinin ümumi görünüşü.




müvafiq şəkildə nə qədər az olarsa, təmərküzləşmə dərəcəsi bir o qədər yüksəkdir. A sahəsinin bərabər bölgü xəttindən aşağıda qalan üçbucağın sahəsi ilə müqayisəsinə əsaslanan C.ə.-nın hesablanma düsturu

$$G = 1 - 2\sum_{i=1}^{k} d_{xi} d_{yi}^{H} + \sum_{i=1}^{k} d_{xi} d_{yi} \text{-dir.}$$

Burada $d_{xi}$ – ümumi məcmu həcmdə *i*-ci qrupun payı; $d_{yi}$ – əlamətin ümumi həcmində *i*-ci qrupun payı; $d_{yi}^{H}$ – əlamətin ümumi həcmində *i-ci* qrupun toplanmış payıdır.

C.ə.-nın qiymətləri 0-dan 1-ə qədər intervaldadır. Belə ki, C=0 gəlirlərin tam bərabər bölgüsünü, C=1 maks. hədd isə bütün gəlirlərin bir faiz ailənin əlində cəmləşdiyini əks etdirir. C.ə.-nın (indeksinin) səciyyəvi qiyməti iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə 0,2 (Skandinaviya ölkələrində) ilə 0,35 (ABŞ) arasında dəyişir; iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə isə 0,4–0,5-dir.

**CİNİ İNDEKSİ** – bax *Cini əmsalı.*

**CİNKƏNDİ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin İcarud kəndistanında, Germi qəs.-ndən 8 *km* şm.-ş.-dədir.

**CİNQIŞLAĞI** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Gorayim kəndistanında, Ərdəbil ş.-ndən 28 *km* c.-da, Xalxal–Ərdəbil avtomobil yolunun üstündədir.

**CİNLİ** – Azərb. Resp. Ağdam r-nunun Əlimədətli ə.d.-ndə kənd. R-n mərkəzindən 31 *km* şm.-q.-də, Qarabağ düzündədir. Əh. 355 (2011); işğaldan (1993, iyul) əvvəl heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var idi.

**CİNLİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Qaraqoyun kəndistanında, Maku ş.-ndən 34 *km* c.-ş.-dədir.

**CİNLİ BOLUSLU** – Goranboy r-nunda *Boluslu* k.-nin 2011 ilədək adı.

**CİNLİ ZEYNALLI** – Azərb. Resp. Goranboy r-nunun Nərimanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 4 *km* şm.-ş.-də düzənlikdədir. Əh. 452 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur.

**CİNNƏ** Məhəmməd Əli (25.12.1876, Kəraçi – 11.9.1948, orada) – Britaniya Hindistanının siyasi xadimi, Pakistanın dövlət xadimi. Kəraçi və Bombeydə hüquq üzrə təhsil almış, 1893–96 illərdə təhsilini Londonda davam etdirmişdi. Kəraçiyə qayıtdıqdan sonra vəkil olmuş, 1897 ildən Bombey (indiki Mumbai) Ali məhkəməsində işləmişdir. 1905 ildə *Hindistan Milli Konqresinin* (HMK) aparıcı xadimlərindən biri olan D.Naorocinin şəxsi katibi olmuş, 1906 ildə HMK-nə qoşulmuşdu. 1913 ildən eyni zamanda Müsəlman Cəmiyyətinin (MC) fəaliyyətində iştirak etmiş; 1920 ildən onun lideri olmuşdur. Siyasi fəaliyyətinin ilk mərhələsində müstəmləkəçiliyə qarşı mübarizədə müsəlman və hinduistlərin birgə mübarizəsinin tərəfdarı idi. 1916 ildə Lakhnau ş.-ndə HMK və MC-nin birgə fəaliyyəti haqqında paktın bağlanmasında yaxından iştirak etmişdi. 1920 ildə M.K.*Qandi* ilə milli azadlıq hərəkatının forma və metodları məsələsi üzrə fikir ayrılığı səbəbindən HMK-dən çıxmışdır.



1930–34 illərdə B.Britaniyada yaşamış, "Dairəvi masa" konfranslarında (1930–32) Hindistan nümayəndə heyətinin üzvü olmuşdur. 1930-cu illərdə C. müsəlman hərəkatının ayrılması ideyasına tərəfdar çıxmışdır. Bu xəttin əsasını şair, mütəfəkkir və ictimai xadim M.*İqbalın* ideyalarının təsiri ilə C.-nin işləyib hazırladığı Hindistanda "iki millət nəzəriyyəsi" təşkil edirdi. Bu nəzəriyyəyə görə, müsəlmanlar Cənubi Asiyada müstəqil dövlətçilik iddiasına olmaq hüququna malikdirlər. 1940 ilin martında MC-nin Lahorda keçirilən qurultayında C.-nin rəhbərliyi altında Hindistan müsəlmanlarının müstəqil dövlət yaratmaq kursunu elan edən "Pakistan qətnaməsi" qəbul olundu. C. bu dövlətə dünyəvi demokratik səciyyə daşımasının tərəfdarı idi.

1947 ilin avqustunda Britaniya Hindistanının iki dominiona parçalanmasından və Pakistanın müstəqilliyinin elan edilməsindən sonra C. onun gen.-qubernatoru olmuşdur. Hələ sağlığında C.-yə "Qaid-i əzəm" ("Böyük lider") fəxri adı verilmişdi.

**CİNS** (lat. genus, qədim yun. γένος), 1) s i s t e m a t i k a d a – bioloji sistematikada iерarxik təsnifatın əsas kateqoriyalarından biri, fəsilədən və tribadan aşağıda və növdən yuxarıda yerləşir. Məs., bostan ağ kəpənəkləri cinsi (Pieris) ağ kəpənəklər fəsiləsinin (Pieridae) cinslərindən biridir. Öz növbəsində bostan ağ kəpənəkləri (Pieris) növlərdən ibarətdir; ağ kələm kəpənəyi (Pieris brassicae) də bunlardan biridir.

Tərkibindəki növlərin miqdarına görə C. politip (çoxlu növləri olan), oliqotip (növlərinin sayı az olan) və monotip (bir növü olan) ola bilər. C.-in elmi adı uninominaldır, yəni bir sözdən ibarətdir. Bioloji nomenklatura kodeksləri bu sözün latın formasında, yəni latın əlifbası hərfləri ilə yazılmasını və latın qrammatikası qaydalarına tabe olmağı tələb edir. C.-in adı isim kimi tək halda böyük hərflə yazılmalıdır. Digər məhdudiyyət yoxdur, buna görə də C.-in adı klassik latın dilindən götürülmüş söz kimi (məs., tülkü cinsinin adı-Vulpes), eləcə də hər hansı dilin (çox vaxt qədim yunan) latınlaşdırılmış sözü ola bilər. Çox vaxt cinsin adı familiya və yaxud addan əmələ gələn söz olur (məs., çiçəkli bitkilər cinsinin adı Linnaea Karl Linneyin familiyalarının variantlarından (Linnaeus) biridir.

C. adının əsasından fəsilə qrupları taksonlarının adı (tribalar, fəsilələr və onlardan törənən ranqlar) əmələ gəlir.

C. adlarının əmələ gəlməsi və tətbiqi qaydaları botanika və zoologiya nomenklaturalarının beynəlxalq kodekslərindən, bakteriyaların və virusların buna oxşar nomenklatura kodekslərindən yazılmış qaydalarla müəyyən olunur.

Kodekslər tarixən yaranmışdır və təsnifat haqqında müasir anlayışları əks etdirmir. Məs., hazırda göbələklərin və şibyələrin Bitkilər taksonuna daxil olmamasına baxmayaraq, onların adları botanika nomenklaturası kodeksi ilə tənzimlənir. 2) H e y v a n d a r l ı q d a eyni bir növdən olan, eyni mənşəli, nəslə ötürülən oxşar eksteryer-konstitusiya və təsərrüfat əlamətlərinə malik, həmçinin həyat şəraitinə oxşar tələbləri olan k.t. heyvanlarının (qaramal, qoyun, at, donuz və b.) dayanıqlı qrupu. C.-ə, adətən, çoxlu sayda heyvan daxil olur, çünki yalnız bu halda C. daxilində onun sonrakı mükəlləşməsinə istiqamətlənmiş yaradıcı seçmə aparmaq mümkündür. C. nəsilcə eyni olmayan fərdlərdən təşkil olunur, lakin onun tərkibində olan genetik cəhətdən müxtəlif tiplər bi sistemə gətirilmişdir və buna görə də C. heyvanların yetişdirilməsi zamanı genetik yaradıcılığa imkan verən mürəkkəb quruluşa malikdir.

**CİNS** (ing. jeans), c i n s p a r ç a – sıx toxunuşlu, bəzən sintetik liflər də qatılmış pambıq parça; kobud, yumşaq, yaxud xovlu olur. Şalvar, ətək, gödəkçə və s. tikmək üçün istifadə edilir. Müxtəlif rəng çalarlarında, şəkilli, naxışlarla bəzədilmiş, sürtülüb köhnəlmiş, qaynadılmış görünüşlü buraxılır. 1853 ildə amerikan iş adamı Levi Strauss çadır və tent (gün və yağışdan qorunmaq üçün talvar) üçün işlənən, üzü və astarı qəhvəyi rəngdə olan parçadan fəhlələrə iş şalvarı (yuxarısı olmayan kombinozona bənzəyən) tikdirdi. Parça İtaliya portu Genuyadan idxal edilirdi və burada yük taylarının üzərinə "Genes" möhürü vurulurdu. Amerikalılar bu sözü ingiliscə – "jeans" kimi oxuyurdular. Nəticədə bu fəhlə şalvarları C. və onların tikildiyi parça isə C. parça adlanmağa başladı. Strauss çadır *brezenti* ehtiyatı qurtaranda Fransanın Nim ş.-ndən sıx toxunuşlu və göy rəngli sarja – denim aldı və ondan göy rəngdə paltar istehsalına başladı. C. parça ilk vaxtlar dənimə nisbətən azdavamlı idi.

**CİNSİ CİNAYƏTLƏR** – cinsi toxunulmazlığa qarşı cinayətkar qəsdlər. Cinayət hüququnda aşağıdakılar C.c. hesab edilir: *zorlama*, qadını cinsi əlaqəyə girməyə vadar etmə, cinsi yetkinliyə çatmamış şəxslə cinsi əlaqədə olma, həddi-büluğa çatmamışlar barəsində əxlaqsız hərəkətlər, uşaqbazlıq.

**CİNSİ ÇOXALMA** – heyvan və bitki orqanizmlərinin müxtəlif çoxalma növləri; adətən, mayalanma nəticəsində – yəni dişi və erkək cinsiyyət hüceyrələri olan qamətlərin birləşməsindən yaranan ziqotadan inkişaf edən yeni orqanizm. Partenogenez çoxalma da C.ç.-ya aid edilir; yəni yeni orqanizm mayalanmamış dişi cinsiyyət hüceyrəsindən inkişaf edir. (bax *Partenogenez*).

C.ç. heyvan və bitkilərin bütün tiplərinin nümayəndələri üçün səciyyəvidir, yalnız bakteriyalar və göy-yaşıl yosunlar üçün dəqiq müəyyən edilməmişdir. Birləşən qamətlərin formasından, nisbi böyüklüyündən və hərəkiliyindən asılı olaraq C.ç.-nın, yaxud cinsi prosesin *izoqamiya*, anizoqamiya, *heteroqamiya*, ooqamiya növləri ayırd edilir. Bax *Qeyri-cinsi çoxalma*.

**CİNSİ DİMORFİZM** – bax *Dimorfizm*.

**CİNSİ HƏVƏS** – növün çoxalmasına yönəlmiş bioloji instinktlər əsasında yaranan istək və onlarla bağlı duyğu və həyəcan kompleksi. Buraya xromosomların genetik dəsti, beyinin diensefalit şöbəsi, daxili sekresiya vəzilərinin inkişafı və fərdi psixo-sosial təcrübənin formalaşması ilə bağlı olan cinsi əlaqəyə meyl daxildir. Avstriya psixoloqu, psixiatr və nevropatoloq Z. *Freyd* C.h. anlayışını ifadə edən "*libido sexualis*" terminini təklif etmişdir. C.h. əsasən şərtsiz refleks-lərlə tərənnüm olunan təbii instinktdir və nəslin davam etdirilməsinə yönəlmişdir. Cinsi əlaqə zamanı həzzalma bu instinktin güclənməsi üçün təbii xüsusiyyətdir. Biol. cəhətdən C.h.-in gücü və davamlılığı androgen hormonların, xüsusən də kişi və qadında böyrəküstü vəzilərdən, kişidə toxumluqlardan, qadında yumurtalıqlardan qana ifraz edilən testesteronun miqdarından asılıdır.

"C.h." məfhumu heyvanlarda çoxalma və cütləşmə ilə bağlı bir sıra davranış komplekslərini özündə əks etdirir. Dişi heyvanın yumurtalığındakı yumurtalar yetişmiş, özləri isə mayalanmaya hazır olduqları zaman erkəklə yaxınlıq axtarırlar. Heyvanlarda C.h. və bunun nəticəsi olan cütləşmənin yeganə məqsədi yetişmiş yumurtaların mayalanmasıdır.

**CİNSİ HİBRİDLƏR** – bax *Hibridləşdirmə*.

**CİNSİ XROMATİN** – heteroqametin (X və Y cinsiyyət xromosomları olan) heyvanlarda və insanda bölünməyən hüceyrə nüvələrində aşkar edilən rənglənən sıx hissə. C.x. X-xromatinə, yaxud Barr cisimciyinə (1949 ildə ingilis tədqiqatçısı M.Barr və L.Bertram kəşf edilmişdir) və Y-xromatinə (1970 ildə İsveç alimləri T.Kasperson və L.Sex tərəfindən kəşf olunmuşdur) ayrılır. X-xromatini əsasi boyaqlarla intensiv rənglənən, çox vaxt nüvə örtüyünün yanında yerləşən aypara, yaxud dəyirmi formalı cismcikdir (0,7–1,2 *mkm*). Y-xromatini ölçüsünə görə xeyli kiçikdir və nüvənin flüroxromlarla (akrixin, akrixiniprit) boyanması və ultrabənövşəyi işıqda tədqiqi zamanı aşkar edilir. Qadın cinsi (XX tipi) fərdlərində X-xromosomlarından biri qeyri-fəal olur və bu da onun daha güclü spirallaşması və sıxlaşması ilə bağlıdır. İnterfazalı nüvədəki spirallaşmış X-xromosomu, həm də X-xromatin şəklində görünür. İnsan və bəzi primatların Y-xromosomunda intensiv flüoressensiya verən heteroxromatinli böyük sahə var. Beləliklə, interfazalı nüvənin sadə texniki tədqiqinə əsasən cinsiyyət xromosomları sisteminin vəziyyəti barədə fikir yürütmək olar. X-xromatini çox vaxt qadınlarda bütün toxuma hüceyrələrinin nüvələrində rast gəlinir (məs., ağızın selikli qişasının epitelisində 15–60% nüvə olur). X-xromatinli nüvələrin sayı verilmiş toxumada hüceyrələrin çoxalma intensivliyindən və orqanizmin hormonal vəziyyətindən asılıdır.

C.x.-in miqdarının dəyişməsi cinsiyyət xromosomlarının miqdarının dəyişməsini göstərir; bu, karotipin analizi ilə dəqiq müəyyən edilir. Uşağın cinsiyyətini müəyyənləşdirmək üçün C.x.-in təyin edilməsindən geniş istifadə olunur (həzində uşaq doğulana qədər də bu mümkündür və cinsiyyətlə bağlı xəstəliklərin irsi keçməsi zamanı vacibdir). Bax *Xromatin, Xromosomlar*.

**CİNSİ POZĞUNLUQ** – cinsi həvəs, yaxud onu təminetmə meylinin qeyri-normal pozğunluğu. C.p. zamanı cinsi həvəs qeyri-adekvat obyektlərə – özünə (autoerotizm), eyni cinsə (kişi və qadın *homoseksualizmi*), uşağa (pedofiliya), qan qohumlarına (insestofiliya, yaxın qohumlar arasında cinsi əlaqə), heyvana (zoofiliya – heyvanla cinsi əlaqə), meyitə (nekrofiliya) və s.-yə yönələ bilər. C.p., həmçinin, əks-cinsə məxsus paltarı geyinmə həvəsi (transvestizm), cinsi əlaqəyə, yaxud çılpaq cinsiyyət orqanlarına tamaşa etmək (vuaerizm), əks cinsdən olan şəxslərin qarşısında bilərəkdən çılpaq gəzmə (eksgibisionizm), habelə əşyalara qarşı (kişilər üçün, məs., qadının hörüyü, burun dəsmalı, ayaqqabısı və s.) şövqlənmək (bu, həmin insanda cinsi həvəs törədir – fetişizm) şəklində meydana çıxır. C.p.-un digər formalarında cinsi məmnunluq partnyorla ancaq amansız davranış şəraitində (sadizm), yaxud əksinə onların verdiyi əziyyət zamanı (mazoxizm) olur. C.p. bəzən normal cinsi həyatla yanaşı davam edə bilər.

C.p.-u cinsiyyət deviasiyasından – ümumi qəbul olunmuş cinsi davranış formalarına görə xəstəlik vəziyyətinə aid olmayan meyilliliklərdən (məs., əksər halda *onanizmdən*) fərqləndirmək lazımdır.

C.p. – çox vaxt şəraitlə şərtlənən təngə gətirilən həvəsdir (bax *Nevrozlar*). Bunun başvermə mexanizmi cinsi həyəcanlanma ilə cinsi cəhətdən etinasız (indiferent) qıcıqlandırıcıların eyni vaxta düşməsi zamanı şərti reflektor əlaqənin yaranmasıdır (məs., fetişizm, eksgibisionizm, sadizm, mazoxizm və s. zamanı). Buna vaxtından əvvəl cinsi qıcıqlanma və inert şərti reflektor əlaqələrin formalaşmasına meyillilik kömək edir. Bəzi müəlliflər kişi və qadın homoseksualizminin, habelə transvestizmin bir hissəsini irsi səbəblərlə, yaxud dölün bətndaxili dövrdə cinsi ayrılma pozuntuları ilə əlaqədar anadangəlmə patologiyaya aid edirlər. Bəzi sinir və psixi xəstəliklər (məs., ensefalit, baş beyinin travmatik zədələnmələri, şizofreniya), endokrin və d. pozuntular da C.p.-un əmələgəlmə səbəbləri ola bilər.

Müalicəsi onu törədən səbəblərdən asılıdır. *Psixoterapiya*, hormonal preparatlar və neyroleptik dərmanlar tətbiq olunur. Profilaktikası düzgün cinsi tərbiyə işi və yoldan çıxardılmaya qarşı mübarizə.

**CİNSİ SEÇMƏ**, cinsi seçmə – təkamül prosesində *ikincili cinsiyyət əlamətlərinin* meydana çıxmasını müəyyən edən *təbii seçmənin* xüsusi forması. C.s. anlayışı 1859 ildə (xüsusilə 1871 ildə) *Ç.Darvin* tərəfindən irəli sürülmüş və əsaslandırılmışdır. Belə əlamətlərə ördəklərdə, tovuz quşunda, tetralarda və bir çox başqa quşlarda lələklərin əlvan "nikah" rəngi, cücülərin "rəqsləri", quşların çoxalma ərəfəsində səsləşməsi, erkək quşların və məməlilərin "turnir döyüşləri", dişiləri cəlb etmək üçün erkəklərin müxtəlif səs siqnalları, cücülərdə, məməlilərdə və s.-də əks cinsin fərdlərini cəlb edən iy vəziləri aiddir. Kəskin fərqlənən əlamətlər (rəng və s.), əsasən erkəklərdə inkişaf etmişdir; dişilər (xüsusilə çoxalma dövründə), adətən, qoruyucu rəngi və forması, müvafiq davranışı və s. ilə daha çox qorunmuş olurlar. C.s. təsirinin ilkin əsası erkək və dişi fərdlərin tanıdıcı əlamətlərindəki fərqlər olmuşdur. Ehtimal ki, bununla bir növdən olan əks cinslərin fərdlərinin görüşməsi asanlaşır və başqa növlərin fərdləri ilə çarpazlaşmanın qarşısı alınırdı. Cinsiyyət əlamətləri daha aydın görünən fərdlər əks cinsin nümayəndələrini asan cəlb edir; bu isə həmin fərdlərin daha artıq çoxalmasına səbəb olur. C.s. növlər arasındakı təcridin etoloji (davranış) təcrid mexanizmlərinin təkmilləşməsini müəyyən edən amillərdən biridir. Bəzən C.s.-nin təsiri təbii seçmənin digər istiqamətlərinin təsirləri ilə ziddiyyət təşkil edir, belə ki, müvəffəqiyyətli çoxalmanı artıran, lakin bütövlükdə növün həyat qabiliyyətini artırmayan genotiplər qalır. Lakin bu C.s.-ni təbii seçmə ilə ziddiyyət təşkil etdiyini düşünməyə və onu müstəqil təkamül faktoru hesab etməyə əsas vermir.

**CİNSİ SOYUQLUQ**, (lat. frigidus) – qadınlarda cinsi əlaqəyə həvəsin olmaması (kişilərdə cinsi həvəsin yoxluğu, yaxud zəifliyi alibidemiya adlanır).

C.s. fizioloji (endokrin pozuntuları) və ya psixoloji (nevrozlar) səbəblərdən, həmçinin iltihabi proseslər (yumurtalıqların, uşaqlığın və uşaqlıq yolunun iltihabı), xlamidioz və bəzi başqa yoluxucu xəstəliklərdən yarana bilər. C.s.-un profilaktikasında uşaq vaxtlarından verilən tərbiyənin – (cinsi məsələlərə marağın düzgün formalaşdırılmasının) böyük əhəmiyyəti var. Qızlara uşaqlıq dövrünün ilk üç ilində daha çox diqqət və qayğı göstərilməlidir.

C.s.-un müalicəsi zamanı onun əmələgəlmə səbəbindən asılı olaraq, psixoterapiya, hormonal preparatlar, fizioterapiya və s. tətbiq edilir. Cinsi məmnunluğun olmaması (anorqazmiya) çox vaxt C.s.-un deyil, cinsi həyatın disharmoniyaya uğraması nəticəsində törəyir və bir çox hallarda həkim-seksoloqun məsləhəti ilə aradan qaldırılır.

**CİNSİ YETKİNLİK** – heyvan orqanizminin fərdi inkişafında dövr; bu dövrdə o dərin daxili dəyişilmə yolu ilə cinsi yetkinliyə (çoxalma qabiliyyətinə) çatır. İnsanda C.y. skeletin ayrı-ayrı seqmentlərinin böyüməsinin sürətlənməsi və sonradan bədənin son proporsiyalarının yaranması, *ikincili cinsi əlamətlərin*, cinsiyyət orqanlarının formalaşmasının başa çatması ilə xarakterizə olunur. C.y.-in mühüm əlaməti – cinsiyyət vəzilərinin spesifik xarici və daxili sekresiya məhsulları ifrazatıdır; bu, qızlarda aybaşı tsiklinin, oğlanlarda eyakulyasiyanın (adətən pollüsiya zamanı) yaranması ilə özünü göstərir. C.y. hormonal tənzimlənmə, fiziki inkişaf və psixi sferanın dəyişilməsi proseslərini əhatə edir. Belə ki, sonuncuda cinsi düşüncənin əmələgəlməsi yəni insanın nəinki özünü müəyyən cinsi təmsil etməsini anlaması ilə, həm də özünün seksual davranışını həmin cəmiyyətdə qəbul olunan mənəvi-etik qaydalara uyğun tənzimlənməsi ilə baş verir. Cinsi düşüncənin formalaşmasını şərti olaraq bir neçə mərhələyə ayırmaq olar: cinsi fərqlər haqqında spesifik hisslər olmayan ən sadə təsəvvürlər; platonik aşiqlik; genital sferaya istiqamətlənmiş spesfik seksual emosiyaların oyanması; yetkin cinsi düşüncə – onun bütün komponentlərinin harmonik nisbətdə olması.

C.y.-in başlanması və sürəti konstitusional amillərin və xarici mühit təsirlərinin qarşılıqlı fəaliyyəti ilə müəyyən edilir. C.y.-in yaş hüdüdu geniş fərdi dəyişməyə meyillidir və (*akselerasiya* prosesi nəzərə alınmaqla) aşağıdakı dövrə uyğun gəlir: qızlarda 8–9 yaşdan 16–17 yaşa qədər, oğlanlarda 10–11 yaşdan 19–20 yaşa qədər. Əlverişsiz məişət şəraiti və s. təsirlər (keyfiyyətsiz qida, keçirilmiş xəstəliklər) fiziki, psixi və cinsi inkişafın ləngiməsində, sürətlənməsində (nadir hallarda) və disharmoniyasında özünü göstərir.

**CİNSİ YOLLA YOLUXAN İNFEKSİYALAR** (CYYİ; cinsi yolla yoluxan xəstəliklər) – *zöhrəvi xəstəliklərin*, başlıca olaraq cinsiyyət orqanlarını zədələyən xəstəliklər (urogenital xlamidioz və trixomoniaz, genital herpes, qoturluq və s.), eləcə də ən çox digər orqanları zədələyən xəstəliklər – İİV–infeksiyası, B-hepatiti, amyöbiazın daxil olduğu (20-dən çox) xəstəlik qrupu. Bu xəstəliklərin cinsi yolla yoluxma əlamətinə görə birləşdirilməsi həkimin diaqnozqoyması və müalicə taktikasını müəyyən etmək üçün vacibdir, həmçinin bu, xəstənin cinsi partnyorunun da müayinə və müalicə olunmasını şərtləndirir.

Müasir təbabətin ən mühüm problemlərindən biri CYYİ-nin geniş yayılmasıdır – reproduktiv funksiyaların pozulmalarının inkişaf riskinin, uşaqlarda anadangəlmə xəstəliklərin yaranma ehtimalının və bu xəstəliklərin xeyli ağır keçməsilə əlilləşmə ehtimalının olmasıdır.

CYYİ-nin cinsi kontaktla yoluxmasından başqa, ümumi qab-qacaq, dəsmal, öpüş vasitəsilə də yoluxması mümkündür. CYYİ həmçinin "vertikal üzrə" – xəstə anadan uşağa, o cümlədən bətndaxili inkişaf dövründə, habelə tibbi yardım göstərilən zaman sanitariya-gigiyena qaydaları gözlənilmədikdə, qanköçürmə zamanı da keçə bilər. CYYİ-nin yayılmasında sosial-iqtisadi həyat şəraiti, o cümlədən çoxlu sayda "ideoloji" qadağaların aradan qaldırılması və psixo-seksual inkişafın yeni şəraitinin formalaşması ilə əlaqədar, adamların, əsasən də gənclərin seksual davranış xüsusiyyətləri böyük əhəmiyyət kəsb edir. Onlar bir tərəfdən, gənclərin dövri mətbuatda cins məsələlərini sərbəst müzakirə etməsini, digər tərəfdən də seksuallıq sahəyə aid düşünülmüş məlumatların çatışmazlığı ilə xarakterizə olunur. Gənclərin vaxtından əvvəl seksual təcrübəsi cinsi partnyorların sayının artmasına və CYYİ-yə yoluxma riskinin yüksəlməsinə səbəb olur.

CYYİ-nin müasir nəzarət sisteminin və bu xəstəliyin profilaktikasının fərqləndirici xüsusiyyəti onun hüquqi cəmiyyət prinsipləri nəzərə alınmaqla liberallaşdırılmasıdır. Bu da vətəndaşların hüquq və imtiyazlarının təmin olunmasını, dövlət nəzarətini nəzərdə tutur.

Profilaktikası xəstələrin fəal surətdə aşkar olunması, onların müalicəsi, müalicənin keyfiyyətli və tam aparılması üzərində dəqiq nəzarət, cinsi partnyorların aşkara çıxarılması və sanasiyası; yüksək riskli qruplar və əhalinin rəsmi sənədlərlə müayinə edilmiş – dekretləşdirilmiş qrupları arasında CYYİ-yə yoluxanların fəal surətdə aşkarlanması, sanitariya maarifi işinin aparılması daxil edilən dispanser üsuluna əsaslanır.

**CİNSİ ZƏİFLİK** – bax *İmpotensiya*.

**CİNSİYYƏT**, cins, orqanizmlərin cinsiyyəti – orqanizmdə mahiyyəti mayalanma ilə nəticələnən və cinsi çoxalmanı təmin edən genetik morfofizioloji xüsusiyyətlərin məcmusu. Mayalanma zamanı erkək və dişi cinsiyyət hüceyrələri – qametlər birləşərək *ziqota* yaradır və yeni orqanizmin inkişafını təmin edir. Yeni orqanizmin hüceyrələrində ata və ana xromosomlarının yerdəyişməsi nəticəsində (bax *Rekombinasiya*) haploid dəstlər əmələ gəlir (valideyn xromosomlarının homoloji sahələrinin mübadiləsi – *krossinqover* və *meyoz* – zamanı onların qız hüceyrələrinə ayrılması). Buna görə də ikicinsiyyətli *populyasiyalarda*, adətən genetik cəhətdən müxtəlif fərdlər çoxluğu meydana çıxır; bu, uyğunlaşmış formaların təbii seçilməsi üçün daha əlverişli şərait yaradır. Cinsi çoxalmanın qeyri-cinsi çoxalmadan əsas üstünlüyü elə bundadır. Cinsi çoxalma heyvanlarda və ali bitkilərdə daha çoxdur; bir çox mikroorqanizmlərdə də rast gəlinir (məs., bakteriyalarda konyuqasiya – irsi material olan DNT sapları ilə qismən mübadilə vasitəsilə müşayiət olunur). Birhüceyrəli orqanizmlərin cinsi prosesində eyni bir hüceyrə həm bədən hüceyrəsi, həm də cinsi hüceyrə ola bilər. Çoxhüceyrəli diploid orqanizmlərdə xüsusi haploid hüceyrələr vardır; bunlar dişi cinsdə iri və azhərəkətli, yaxud hərəkətsiz, erkək cinsdə isə xırda və adətən hərəkətli olur. Bitkilərin əksəriyyətində və yalnız bəzi heyvanlarda hər iki tip qamet eyni bir fərd tərəfindən (bax *Hermafroditizm*), heyvanların əksəriyyətində isə iki müxtəlif fərd – erkəklər və dişilər tərəfindən yaradılır. Fərqli C. hüceyrələri əmələ gətirməklə yanaşı erkəklər və dişilər bir sıra morfoloji və fizioloji əlamətləri ilə, həmçinin cinsiyyət hüceyrələrinin birləşməsini təmin edən cinsi davranışla da bir-birindən fərqlənirlər.

Cinsiyyətin müəyyən olunması. Bütün orqanizmlər, o cümlədən ayrıcinsiyyətlilər genetik cəhətdən biseksualdırlar (ikicinsli); belə ki, onların ziqotaları genetik informasiyanı qəbul edərək erkək və dişi C. əlamətlərinin inkişafına imkan yaradır. İkicinsiyyətli bitkilərdə və bəzi hermafrodit heyvanlarda erkək və dişi reproduktiv orqanlar və cinsiyyət hüceyrələri daxili mühitin təsiri altında genetik cəhətdən eyni olan hüceyrələrdən inkişaf edir. Hüceyrələrin bir halda dişi, digər halda erkək reproduktiv orqanlar kimi inkişaf mexanizmi tam öyrənilməmişdir. Nadir hallarda ayrıcinsiyyətli növlərdə xarici mühitin təsiri ilə potensial biseksual ziqotalar dişi, yaxud erkək fərdə çevrilir. Məs., dəniz həlqəvi qurdu bonelliyanın sürfəsi dişinin xortumcuğunda məskunlaşanda erkək, dənizin dibinə çökdükdə isə dişi fərd kimi inkişaf edir. *Arisaema yaponica* bitkisinin qida maddələri ilə zəngin iri kök yumrularından dişi çiçəkli bitkilər, xırda kök yumrularından isə erkək çiçəkli bitkilər əmələ gəlir. Xarici mühitin təsiri altında C.-in müəyyən olunması fenotipik, yaxud modifikasiyalı təyinolunma adlanır.

C.-in genetik müəyyən olunması geniş yayılmışdır. Bu halda ziqota mayalanma zamanı, həmçinin, hər iki cinsin əlamətlərini inkişaf etdirmək üçün potensial imkanlar qazanır. Lakin ziqotaların yarısında genetik amillərin təsiri altında erkək cinsin, digər yarısında isə dişi cinsin inkişaf tendensiyası güclənir. Xüsusi xromosom mexanizmi nəslin bir yarısına qadın cinsiyyət genlərinin, digər yarısına isə kişi cinsiyyət genlərinin ötürülməsini təmin edir.

20 əsrin əvvəllərində müəyyən edilmişdir ki, bəzi cücü növlərinin erkək fərdlərinin diploid (ikiqat xromosom dəsti olan) hüceyrələrində homoloji xromosomlar cütü ilə yanaşı, cüt olmayan bir xromosom da olur. Dişidə isə iki belə xromosom var. Digər cücü növlərinin erkəklərində bütün xromosomlar cütdür, lakin cütlərdən birində onlar morfoloji cəhətdən bir-birinə uyğun deyil. C.-in müəyyənləşdirilməsində iştirak edən bu xromosomlar *cinsiyyət xromosomları*, qalanları isə *autosomlar* adlandırılmışdır. Sonralar cinsiyyət xromosomları bir çox ayrıcinsiyyətli orqanizmlərdə aşkar edilmişdir. Həm erkəklərdə və həm də dişilərdə olan C. xromosomu X-xromosom, yalnız erkəklərdə olan isə Y-xromosom adlandırılmışdır. Erkəyin C. xromosomları bir-birinə uyğun XO, yaxud XY, dişilərinki isə XX-formulası kimi göstərilir. Bir cinsi xromosomu olan erkəklər bərabər miqdarda X-xromosomu olan və X-xromosomu olmayan qametləri, yəni yalnız bir haploid autosom (A) dəsti olan qametləri, dişilər isə yalnız X-xromosomu olan qametləri hasil edir. Erkək və dişi qametlərinin təsadüfi birləşməsindən sonra əmələ gələn ziqotaların yarısının iki XX-xromosomu, digər yarısının isə yalnız bir X-xromosomu olur. Birincilər dişi, ikincilər isə erkək olur.

C. xromosomları müxtəlif olan erkəklər X-xromosomlu və Y-xromosomlu qametləri bərabər miqdarda hasil edir. Həmin növün dişi qametləri genetik cəhətdən eyni olub, hərəsi bir X-xromosom daşıyır. Nəticədə yumurtahüceyrələrin bir yarısı Y-xromosomlu spermatozoidlərlə, digər yarısı isə X-xromosomlu spermatozoidlərlə mayalanır. XY-quruluşlu ilk ziqotalar erkək cinsi fərdlər, XX-quruluşlu olan ikincilər isə dişi cinsi fərdlər kimi inkişaf edir. Bir X-xromosomu, yaxud iki müxtəlif (XY) xromosomları olan erkəklər heteroqamet cins, XX-xromosomu olan dişilər isə homoqamet olur. Bundan fərqli olaraq bir çox heyvanlarda dişilər heteroqamet cinsi olur. Onların cinsi xromosomları Z və W, yaxud XY, homoqamet erkəklərin cinsi xromosomları isə ZZ, yaxud XX hərfləri ilə işarə edilir. Məməlilərdə, nematodlarda, molyusklarda, dərisitikanlılarda və buğumayaqlıların əksəriyyətində erkək cins heteroqametdir. Cücülərdə və balıqlarda həm erkək, həm dişi cinsdə heteroqametlik müşahidə olunur. Dişi cinsi heteroqametlik quşlara, sürünənlərə və bəzi suda-quruda yaşayanlara xasdır.

Ziqotaya xas olan biseksual potensiyaları autosomlarda yerləşən və C. realizatorları olan digər genlərin nəzarəti

altında təzahür edən genlər şərtləndirir. Məhz bu genlər bir halda dişi C.-in, digər halda erkək C.-in inkişafına səbəb olan genlərə yol açır. XO və XX tipi üzrə C.-in genetik müəyyən olunması zamanı dişi C.-i yaradan genlər X-xromosomlarında, erkək C.-i yaradan genlər isə autosomlarda məhdudlaşmışdır. Dişi cinsiyyəti müəyyən edən amillərin haploid dəstdə olaraq bir X-xromosomunda, erkək cinsiyyəti müəyyən edən amillərin isə diploid dəstdə olaraq autosom xromosomlarda yerləşdiyi halda erkək orqanizm inkişaf edir. Dişi cinsiyyəti müəyyən edən amillərin diploid dəstdə olaraq iki X-xromosomunda (XX) yerləşdiyi halda dişi orqanizm əmələ gəlir.

İnsanda C.-in müəyyən edilməsində Y-xromosomu əsas rol oynayır. Qeyri-adi hallarda o, normal autosom dəsti olmaq şərti ilə 2, 3 və hətta 4 X-xromosomla uzlaşır. Bu, patoloji sapmalara səbəb olsa da, belə xromosom dəsti olan bütün fərdlər erkək C.-li olur. C.-in müəyyən edilməsində Y-xromosomunun rolu heyvanların bir çox növlərində, bitkilər arasında isə çəmən ququotunda (mürgüotu) qeyd olunmuşdur. Drozofilin Y-xromosomunda, demək olar ki, genlər yoxdur, yəni o irsi cəhətdən inertdir; dişi realizatorları X-xromosomunda, erkək C. realizatorları isə autosomlarda məhdudlaşmışdır. C.-in inkişafına X-xromosomunun autosom xromosom dəstinə olan nisbəti (X:A) ilə nəzarət olunur, dişi fərddə şərti olaraq 2X:2A=1 kimi qəbul edilən bu nisbət drozofilin erkəklərində 0,5-ə (X:2A=0,5) bərabərdir. Bu nisbətin (C. indeksinin) vahiddən yuxarı artması dişi C. əlamətlərinin həddən artıq inkişafına – "ifrat dişiliyə", 0,5-dən aşağı düşməsi isə erkək C. əlamətlərinin daha çox təzahür etməsinə – "ifrat erkəkliyə" səbəb olur. C. indeksləri 0,67 və 0,75 olan fərdlər hər iki C.-in əlamətlərinin aralıq inkişafına malikdir və intersekslər adlanır. İnterseksuallıq hadisəsi bütün nəsillərə ötürülən irsi informasiyanın biseksual potensiyasını nümayiş etdirir.

Cinsi əlamətlərin inkişafına aid genetik nəzarət mexanizmi *hüceyrədaxili* və *hüceyrəarası* ola bilər. C.-in hüceyrədaxili müəyyən olunması (məs., cücülərdə) C. hormonlarının əmələ gəlməsilə deyil, yalnız məhdud hüceyrələrdə fəaliyyət göstərən genlərlə bağlıdır. Bu zaman bir orqanizmdə erkək və dişi əlamətləri olan bədən hissələri bir-birinə təsir göstərmədən, normal inkişaf edə bilər (bax *Ginandromorfizm*). Məməlilər və quşlar üçün səciyyəvi olan C.-in hüceyrəarası müəyyən olunması zamanı genlərin nəzarəti altında ifraz edilən C. hormonları orqanizmin bütün hüceyrələrinə keçərək müvafiq cinsi əlamətlərin fenotipik inkişafına səbəb olur. C.-in təyin edilməsi proqam, sinqam və epiqam olur. C.-in proqam müəyyən olunması yumurtanın mayalanmasına qədər, məs., tez və ləng artan yumurtahüceyrələrə ayrılması zamanı baş verir. Hər iki növ yumurtahüceyrənin genetik cəhətdən eyni olmalarına baxmayaraq birincilər iri olur və mayalanmadan sonra onlardan dişilər əmələ gəlir, ikincilər kiçikölçülü olur və onlardan erkək fərdlər yaranır. C.-in sinqam müəyyən olunması mayalanma prosesinin müxtəlif mərhələlərində baş verir. Heteroqametli və fizioloji polispermiyalı (yumurtahüceyrənin bir neçə spermatozoidlə mayalanması) bəzi erkək növlərdə cinsi hüceyrə nüvələrinin birləşməsi məqamında C. müəyyən edilir (*karioqamiya*). Yumurtahüceyrənin nüvəsi Y-xromosomlu erkək nüvə ilə birləşəndə erkək fərd, X-xromosom erkək nüvə ilə birləşəndə dişi fərd inkişaf edir. Dişi heteroqametlik zamanı nəslin C.-i meyoz vaxtı C. xromosomlarından hansının yumurtahüceyrənin nüvəsinə düşməsindən asılıdır. Əgər nüvədə Z-xromosomudursa erkək, W-xromosomudursa dişi fərd inkişaf edir. Beləliklə, bu halda ziqotanın C.-i karioqamiyadan əvvəl müəyyən olunur. C.-in epiqam təyin edilməsi C.-i fenotipik müəyyən olunan ayrıcinsli növlərdə erkək və ya dişi C.-in inkişafı mayalanmadan sonra xarici mühitin təsiri ilə şərtləndirilir.

Əlamətlərin C.-dən asılı olması. Əlamətlər C.-dən məhdudlaşmış və nəzarət edilmiş halda asılıdır. Cinsi diferensiasiya ilə əlaqədar olaraq əlamətlərin məhdud bir hissəsi, onların polimer genlərinin hər iki C.-in autosomlarında yerləşməsinə baxmayaraq C.-lərin yalnız birində (süd və yumurta məhsulu istehsalı yalnız dişi C.-ə aiddir) təzahür edə bilər. C. əlamətlərini müəyyən genlərin autosomlarda bərabər olmasına baxmayaraq hər iki C.-in nəzarət etdiyi əlamətlər ya hər iki C.-də (müxtəlif təzahür dərəcəsində), yaxud C.-lərin birində (qoçlarda buynuzların, erkək keçilərdə saqqalın daha güclü inkişafı) aşkar olunur. Onların əlamətlərindəki fərqlər müxtəlif C.-lərin orqanizmlərində fizioloji proseslərin xeyli fərqli olmasının nəticəsidir.

C.-lə ilişikli olan əlamətləri müəyyən edən genlər həm cüt həm də tək cinsi xromosomlarda məhdudlaşır və buna görə də hər iki C.-in autosomlarında məhdudlaşan cüt genlərin əmələ gətirdiyi əlamətlərdən fərqli şəkildə nəslə ötürülür. Genlər heteroqamet erkəyin tək Y-xromosomunda məhdudlaşırsa, onların yaratdığı əlamətlər ancaq erkək nəslə, heteroqamet dişi xromosomda yaranan əlamətlər isə yalnız dişi nəslə keçə bilər. İrsən keçən belə əlamətlər holandrık əlamətlər adlanır. İrsən keçmənin bu tipi bəzi balıqlarda və cücülərdə aşkar edilmişdir. Başqa növ heyvanlarda bu, tam dürüstlüyü ilə sübut olunmamışdır. Genlərin homoloji X,-yaxud Z-xromosomlarında yerləşməsi zamanı onların yaratdığı əlamətlər C.-lə ilişik şəkildə irsən keçmə tipi çarpaz adı almış və bu zaman ananın ressesiv əlaməti erkək nəsldə, dominant əlaməti isə dişi nəsldə təzahür edə bilər. (T.H. Morqan); bu hala bir çox heyvan növlərində rast gəlinir (məs., pişiklərin üçrəngliliyi, toyuqlarda lələklərin zolaqlı olması və onun böyümə sürəti). C.-lə ilişik çoxlu mutasiyalar drozofildə və ipəkqurdunda aşkar edilmişdir.

Orqanizmin inkişafı zamanı C.-lə ilişikli olan letal genlər ölümə səbəb olur. Əgər homoqamet valideyn letallıq üzrə heteroziqotdursa, homoloji cinsi xromosomların birində (X, yaxud Z) yerləşən letal gen – ölüm geni üzrə heteroqametdirsə, onda heteroqamet nəslinin yarısı bu geni alacaq və onun məhvedici təsirinə qarşı genotipdə normal allel olmadığından məhv olacaqdır. Dişi C.-in heteroqametliyi zamanı ölüm genlərindən qızların yarısı, kişi heteroqametliyi zamanı oğlanların yarısı məhv olur. Bəzən heteroqamet C.-də X- və Z-xromosomlarındakı mutant genlər nəslin həyat qabilliyyətini qismən aşağı salır, yaxud müxtəlif xəstəliklərə səbəb olur. İnsanda orqanizmin normal həyat fəaliyyətinin pozulmasına səbəb olan 50-dən artıq C.-lə ilişik mutasiya aşkar edilmişdir (bax *Xromosom xəstəlikləri*).

Cinsiyyətlərin nisbəti. C.-in fenotipik müəyyənləşdirilməsi inkişaf edən orqanizmlərin miqdarından asılıdır. C.-in genetik müəyyən olunması zamanı növlərin əksəriyyətində bir qayda olaraq C.-lərin nisbəti 1:1 və ya buna çox yaxın olur. Lakin C.-in bu cür müəyyən olunmasında sapmalar vardır. Belə ki, erkək heteroqametli məməlilərin bəzi növlərində erkəklər bir qayda olaraq 1–2 % artıq doğulur.





Cinsiyyətin tənzimlənməsi. Orqanizmlərin arasında nisbət C.-lərin birinə tərəf əhəmiyyətli dərəcədə artırsa, həmin C., adətən daha məhsuldar olur. C.-in 4 əsas istiqamətdə aparılan tənzimlənmə üsulları vardır və bunların istifadəsi C.-in təyin edilməsi tipindən, növün bioloji və təsərrüfat xüsusiyyətlərindən asılıdır.

C.-in fenotipik yolla yenidən təyin edilməsi. C. genlərinin təsiri hormonlar vasitəsilə reallaşırsa, bir C. orqanı digərinə köçürüldükdə (bax *Qonadalar*), yaxud C. hormonlarının, həmçinin bəzi aminturşuların qarşı orqanizmə yeridilməsi zamanı cinsi əlamətlər dəyişir. C.-in fenotipik dəyişikliklərinin dərəcəsi orqanizmə yeridilmiş preparatın növündən və dozasından asılıdır. Lakin, nadir hallarda (bəzi balıqlarda və suda-quruda yaşayanlarda) C.-ini fenotipik cəhətdən dəyişən fərdlər genotipik C.-in əksinə olan qametlər hasil edir. Hormonların təsiri bitəndə sonrakı nəsildə C.-in təyin edilməsinin genetik mexanizmi yenidən güclənir.

C.-in müəyyən olunmasında genetik mexanizmin idarə edilməsi, yaxud C. xromosomlarının yumurtahüceyrədə süni uyğunlaşması. C. nisbətinin məqsədyönlü dəyişilməsi ipəkqurdu üzərində onun C.-i qətiyyətlə müəyyən edən C. xromosomları (ZW–♀; ZZ–♂) ilə aparılan eksperimentlər sayəsində əldə edilmişdir.

Mayalanmamış yumurtalar qızdırıldıqdan sonra bölünməsini başa vurmayan diploid nüvənin hesabına partenogenetik inkişaf (bax *Partenogenez*) edir. Partenogenetik embrionun bütün hüceyrələri ZW cinsiyyət xromosomlarını daxil olmaqla ana strukturunu saxlayır və dişi fərd kimi inkişaf edir (B.L. Astaurov). İonlaşdırıcı şüalanmanın və istiliyin təsiri ilə təzə mayalanmış yumurtada dişi nüvəsinin inkişafını dayandıraraq onu erkək istiqamətində inkişafına yönəltmək mümkün olmuşdur. Erkək ziqotasının diploid nüvəsi iki erkək nüvəsinin birləşməsi yolu ilə əmələ gəlir və buna görə quruluşu ZZ olur. Belə ziqotalardan həmişə erkək C.-li tırtıllar törəyir (X. Xasimoto, B.L. Astaurov). İpəkqurdunun k.t. növündə C.-in sərbəst tənzimlənməsi problemi ilk dəfə bu üsullarla həll edilmişdir.

C.-in erkən tanınması. Yumurtadan çıxan cücələrin C.-lə ilişikli lələk rənginə görə beçə və fərələrə ayrılması, həmçinin ipəkqurdunun C. əlamətlərinə görə bir-birindən seçilməsi mümkündür. İonlaşdırıcı şüalanmanın təsiri ilə ipəkqurdu yumurtalarının qara rəng almasına səbəb olan dominant gen autosomdan W-cinsiyyət xromosomuna köçürülmüşdür. Xromosomların ilişikliyi nəslə davamlı surətdə keçir. Dominant genin köçürüldüyü W-xromosomu yumurtalara düşəndə onlar tünd rəngli olur və dişi fərdlər kimi inkişaf edir. Dominant geni almayan erkək C.-li yumurtalar piqmentləşməmiş qalır. Fotoelektrik avtomatlar müxtəlif rəngli yumurtaları C.-ə görə böyük sürətlə ayırırlar. Belə üsulla yetişdirilən nişanlanmış ipəkqurdu cinsləri (V.A. Strunnikov və L.M. Qulamova) müasir ipəkçilikdə öz təcrübi tətbiqini tapır. 20 əsrin 60-cı illərində ingilis alimləri R. Eduards və R. Qardnerin təcrübələrində məməlilərdə yalnız bir C.-ə aid nəslin doğulması qeyd edilmişdir. Adadovşanlarında rüşeymlər ilkin mərhələdə ana bətnindən çıxarılıb, sitoloji üsulla onların C.-i müəyyən edilmiş, arzuolunmayan C.-in rüşeymləri çıxdaş olunmuş, lazımlı C.-in rüşeymləri isə balalığa qaytarılmışdı. Qaytarılan rüşeymlərin 20%-i həmin mühitdə sağ qalıb inkişaf etmişdilər.

Cinsiyyətin təkamülü. Artıq bir çox birhüceyrəlilərə (yosunlara, ibtidailərə) xas olan ayrıcinsiyyətlilik (biseksuallıq) qarışıqcinsiyyətlilikdən törəmişdir. Yalnız bəzi hallarda (məs., *parazitizm* zamanı) qarışıqcinsiyyətlilik təkrarən ayrıcinsiyyətlilikdən yarana bilərdi. Belə ki, parazit xərçəngkimilərdə qarışıqcinsiyyətlilikdən ayrıcinsiyyətliliyə bütün keçidlər müşahidə olunur (məs., yaxşı inkişaf etmiş dişiləri və cırtdan erkəkləri olan ayrıcinsiyyətli növlər–hermafroditizmə doğru açıq-aşkar irəliləyişdir). C.-in fenotipik müəyyən olunması genetik təyin edilmədən daha qədimdir; çünki, təkamülün ilkin mərhələlərində cinsi xromosomların xüsusi aparatı mövcud deyildi. Təkamülün müəyyən mərhələlərində yaranan xüsusi cinsi xromosomlar (balıqlarda, suda-quruda yaşayanlarda) ilk əvvəl morfoloji cəhətdən autosomlardan fərqlənmirdi, onlar barədə yalnız C.-lə ilisik əlamətlərə görə mühakimə yürütmək olardı. Cinsi xromosomlarla autosomlar arasında morfoloji fərqlərdən sonra X- və Y-xromosomları arasındakı fərqlənmə baş verir; bu isə onlar arasındakı konyuqasiyanı getdikcə azaldır və krossinqover (çarpazlaşma) zamanı ara sahələrin yerdəyişməsini çətinləşdirir. Bütün bunlar C. xromosomlarının xüsusi funksiyalarının yerinə yetirilməsinə, yəni dişi və erkək C.-inin əmələ gəlməsinə imkan yaradır. Y-xromosomun tamamilə itməsi C.-in genetik təyin edilməsini daha da təkmilləşdirir yəni: C. autosomların və xromosomların sayı arasındakı tarazlıqla müəyyən olunur.

*Əd.:* Астауров Б. Л., Генетика пола, в сб.: Актуальные вопросы современной генетики, [М.], 1966; Бреславец Л. П., Определение и наследственность пола у высших растений, "Тр. по прикладной ботанике, генетике и селекции, Сер. 2", 1934, № 6; Рыжков В. Л., Генетика пола, [Хар. ], 1936; Лобашев М. Е., Генетика, 2 изд., Л., 1967.

**CİNSİYYƏT HORMONLARI** – insanın və onurğalı heyvanların cinsiyyət vəzilərində əmələgələn və cinsi fərqlənməni, cinsi çoxalma prosesini tənzimləyən steroid hormonlar. Cinsiyyətin genetik formalaşmasına baxmayaraq, bu proseslər mürəkkəb və qarşılıqlı əlaqələr sistemi ilə tənzimlənir; məməlilərdə buna C.h.-ndan əlavə həmçinin, hipofizdə hazırlanan hormonlar [lüteinləşdirici hormon (LH), follikulu stimullaşdıran hormon (FSH), *prolaktin*] və *adrenokortikotrop hormon*; ciftin hazırladığı xorion qonadotrop hormon; müxtəlif toxumalarda əsasən reproduktiv orqanlarda hazırlanan *prostaqlandinlər* daxildir. Kişi C.h. (*androgenlər*) toxumluqların interstisial toxumasında əmələ gəlir, əsas nümayəndəsi *testosterondur*. Qadın C.h. yumurtalıqlarda sintez olunur və *estrogenlərə* (yetişmiş follikul hüceyrələrində yaranır, əsas nümayəndəsi *estradioldur*) və hestagenlərə, yaxud progestinlərə (*sarı cism* hüceyrələrində yaranır; əsas nümayəndəsi *progesterondur*) bölünür. C.h.-nın bir hissəsi böyrəküstü vəzilərin qabığında, hamiləlik zamanı ciftə də sintez olunur. Estrogenlər həm də kişi, androgenlər isə qadın fərdlərin cinsiyyətlərində də əmələ gəlir. Ona görə hər cinsiyyətin cinsi əlamətlərinin fərqlənməsi ilk növbədə bu və ya digər tip C.h.-nın miqdar nisbətindən asılıdır. Steroid C.h.-nın biosintezi, əsasən, *xolesterindən* əmələ gəlir (cücülərdə xolesterin sintez etmək qabiliyyəti olmadığına görə onlarda bu proses bağlanmışdır). Onların toxumluqlarda və yumurtalıqlarda biosintez mərhələləri progesteron əmələgəlmə mərhələsinə qədər bir-birinə uyğun olur. Steroid C.h.-nın biosintezi hipofizar LH və FSH ilə nizamlanır; yaranan C.h. öz növbəsində geriyə əlaqə prinsipi üzrə hipotalamus – hipofiz sisteminə təsir yolu ilə LH və FSH sekresiyasına təsir edir. Cinsiyyət vəzilərində C.h. biosintezinin intensivləşməsini əksetdirən cinsi yetişmənin başlan-

ması yəqin ki, hipotalamusun C.h.-na qarşı həssaslıq həddinin artmasından asılıdır. Bununla əlaqədar onda hipofizin LH və FSH sekresiyasını stimullaşdıran spesifik peptidlərin yaranması kəskin surətdə artır.

Yaşlı orqanizmdə C.h.-nın rolu reproduktiv funksiyanı təmin etməkdən ibarətdir. Steroid C.h. *ikincili cinsi əlamətlərin* inkişafına və sabit cinsi əlaqənin əmələgəlməsinə nəzarət edir; estrogenlərin və hestagenlərin qarşılıqlı təsiri uşaqlığı mayalanmış yumurtahüceyrənin implantasiyasına hazırlayır və sonra hamiləliyin saxlanılmasını və vaxtında doğuşu təmin edir. Yaşlı kişilərdə androgenlərin sekresiyası bir bərabərdə gedir, yaşlı qadınlarda isə estrogenlərin və hestagenlərin seksiyası cinsi sikl boyunca dəyişir. Hamiləlik zamanı qadın C.h. ciftdə də əmələ gəldiyi üçün onların biosintezi kəskin sürətdə artır. Steroid C.h.-nın biokimyəvi təsir mexanizmi onların toxumalarından asılı olan spesifik reseptorlarla əlaqələnməsindən və sonradan müvafiq fermentlərin biosintezinin aktivləşməsindən ibarət olur. onların

C.h. nəinki reproduktiv funksiyaya, həm də orqanizmin digər sistemlərinə də çox mühüm təsir edir. C.h. tibdə həm istər endokrin xəstəliklərin əvəzedici terapiyası üçün, istərsə də mama-ginekoloji xəstəliklərin müalicəsində və prostatın, süd vəzilərinin yenitörəmələri zamanı şişə qarşı dərman kimi (bax həmçinin *Hormonal preparatlar*) istifadə olunur. Əksər hallarda kimyəvi yolla modifikasiya edilmiş C.h.-ndan istifadə edilir ki, onlardan istənilən fizioloji təsir seçimi artırılmış olur.

C.h.-na analoji maddələrin ən ibtidai orqanizmlərdə olduğunu görmək olar. Bəzi növ *askomisetlərdə, fikomisetlərdə* və s. göbələklərdə cinsi çoxalmanın hormonal tənzimlənməsi haqqında məlumatlar vardır. Achlya bisexualis su-kif göbələklərində kişi və qadın hif cinsiyyət hüceyrələri onların əmələgəlməsini və birləşməsini qarşılıqlı surətdə stimullaşdıran maddələr sekresiya edir; qadından ifraz edilən a n t e r i d i o l steroidlər sinfinə aid edilir. Bir sıra mikroorqanizmlərdə (Blakeslea trispora, Mucor, Rhizopus və s.-nin bəzi növləri) *karotinoidlər* sinfinə yaxın olan t r i s p o r t u r ş u s u buna oxşar rol oynayır. Bir cinsiyyət hüceyrəsində sekresiya olunan maddə digər cinsiyyət hüceyrəsinə onları əhatə edən mühit vasitəsilə çatır. Kişi və qadın qametləri müəyyən mühitdə nə qədər tam ayrılırsa, bu nizamlayıcıların hormon əlamətləri təsirini bir o qədər çox itirir və cinsiyyət feromonlarının təsirini xatırladır.

**CİNSİYYƏT HÜCEYRƏLƏRİ** – bax *Qametlər.*

**CİNSİYYƏT XROMOSOMLARI** – ayrıcinsiyyətli orqanizmlərdə hüceyrələrin xromosom yığımında xüsusi C.x. müəyyən edən, onu formalaşdıran, nəslə keçirən genlərin yığıldığı xromosom cütü. 1891 ildə alman tədqiqatçısı Q.Henninq və 20 əsrin əvvəllərində K.Mak-Klanq və E.Uilson erkək və dişi cücülərin xromosom yığımında xüsusi C.x. aşkar etmiş və təsvirini vermişlər; sonralar C.x. bir çox ayrıcinsiyyətli orqanizmlərdə aşkar edildi. Beləliklə, cinsiyyət faktorlarının xüsusi C.x.-nda toplandığı müəyyənləşdirildi. Bu cütlər müxtəlif böyüklükdə olur; daha iriləri dişi cinsə məxsus X-xromosomu, kiçikləri isə Y-xromosomu adlanır. Heyvanlar aləmində cinsiyyəti nəslə C.x. keçirir. Həm erkəklər və həm də dişilərdə bir cüt xromosom digərlərindən fərqlənir; digərləri isə biri-birinə bənzəyir. Belə oxşar xromosom A ilə işarə edilən autosom xromosomlardır. Erkək və dişilər ancaq bir xromosomla bir-birindən fərqlənir. Belə xromosomlara C.x. deyilir, XX və XY ilə işarə edilir. Deməli, dişi orqanizmin hüceyrələrində autosom xromosomlardan başqa iki X-xromosomu (XX) olur; erkək orqanizmlərin hüceyrələrində isə autosom xromosomlardan başqa iki eyni olmayan X və Y-xromosomları (XY) olur. Dişi fərdlər XX, erkək fərdlər isə XY kimi göstərilir. X və Y-xromosomları fərqlənirlər; bu xromosomlar tərkiblərindəki genlərin miqdarına görə də fərqlidirlər.

Dişi fərdlərdə *meyoz* prosesində xromosomlarda baş verən reduksiya nəticəsində hər bir yumurtahüceyrə iki X xromosomdan ancaq birini daşıyır. Ona görə də dişi fərdlər homoqamet cins adlandırılır. Erkək fərdlər meyoz prosesində X və Y-xromosomu daşıyan qametlər hazırlayır; bu səbəbdən də erkək fərdlər heteroqamet adlandırılmışdır. Dişi fərdlərin bir tipdə hazırladığı yumurtahüceyrələr, erkək fərdlərin hazırladığı X-xromosomu daşıyan spermatozoidlər ilə mayalandıqda X+X=XX genotipinə malik dişi fərdlər, Y-xromosomu daşıyan spermatozoidlə mayalandıqda isə X+Y=XY genotipli erkək fərdlər yaranır.

İnsanda cinsiyyətin müəyyən edilməsində Y-xromosomu həlledici rol oynayır. XY-xromosomu olan kişi yeganə X-xromosomunu anadan alır. C.x.-nda olan genlər yeni nəslə belə ötürülür. Mayalanma prosesində cinsiyyət hüceyrələrinin təsadüfi birləşməsi nəticəsində bərabər miqdarda dişilər (XX) və erkəklər (XY) əmələ gəlir. Elə canlılar vardır ki, onlarda dişi və erkək cinsiyyət homoziqot olduğu halda, kəpənəklərdə, sürünənlərdə, quşlarda erkək C.x. əksinədir. İnsanda, drozofildə və bir çox başqa orqanizmlərdə dişi cinsiyyət homoziqot olduğu halda kəpənəklərdə, sürünənlərdə, quşlarda erkək cinsiyyət homoqametdir. Onlarda erkəklərin kariotipi XX, dişilərdə XY kimi göstərilir. Elə orqanizmlər də olur ki, dişilər iki (XX), erkəklər isə ancaq X-xromosomu daşıyır; onlarda Y-xromosomu olmur. Bu orqanizmlərin xromosom kompleksi dişilərdə A+XX, erkəklərdə A+XO kimi göstərilir. Bitkilər aləmində də (mamır, quzuotu, əvəlik, elodeya və s.) C.x. müşahidə edilmişdir. Çiyələkdə dişi XY, erkək isə XX tiplidir; bunda meyozdan sonra 2 növ yumurtahüceyrə əmələ gəlir, xromosom dəstinə görə bütün spermatozoidlər isə eyni olur, yəni hamısı bir tip xromosom daşıyır.

C.x.-nda cinsiyyəti müəyyən edən genlərdən başqa müxtəlif əlamətləri müəyyənləşdirən cinsiyyətlə ilişikli genlər var (X-xromosomunda bunlar çox, Y-də isə bir qədər az). Bunların irsi keçməsi, cinsiyyətin irsi keçməsi ilə bağlıdır. İnsanda *hemofiliyanın* və *albinizmin* resessiv genləri buna misal ola bilər. Bu genlər qadın xromosomunun yalnız birində olarsa qadınlarda deyil, kişilərdə təzahür edir. Beləliklə, qadınlar cinsiyyətlə ilişikli xəstəliklərin gizli daşıyıcılarıdır. İnsan hüceyrələrində C.x.-nın normal saydan kənara çıxması inkişafın pozulmasına (*Xromosom xəstəlikləri*), qadınlarda Şereşevski – Terner (XO) (alçaq boyluluq, sonsuzluq, əqli cəhətdən zəif inkişafetmə), kişilərdə Klaynfelter (XXY) (hündür boyluluq, uzun ətraflar, cinsiyyət əlamətlərinin pozulması, sonsuzluq, əqli cəhətdən zəif inkişafetmə) adı ilə məşhur olan sindromların əmələ gəlməsi ilə nəticələnir; bu sindromlar zamanı X-xromosomların sayı 4-ə (XXXXY) çata bilər, həmçinin qadınlarda X-xromosomunun trisomiya sindromu psixikanın pozulması və yumurtalıqların tam inkişaf etməməsi kimi aşkar olunur.

**CİNSİYYƏT ORQANLARI**, c i n s i y y ə t   ü z v l ə r i, c i n s i   ç o x a l m a   o r q a n l a r ı – cinsi yolla çoxalmanı təmin edən orqanlar.

**Heyvanların** C.o.-na cinsiyyət vəziləri sayılan *qonadalar* (toxumluqlar və yumurtalıqlar), cinsiyyət axarları (toxum yolu və balalıq yolu), bəzi əlavə törəmələr və kopulyasiya orqanları aiddir.

Yastı qurdların əksəriyyətində şəklini dəyişmiş yumurtalıqlar qida maddələri ilə zəngin, lakin inkişaf qabiliyyəti olmayan, rüşeymi qidalandıran sarılıq hüceyrələri əmələ gətirir. C.o.-nın əlavə törəmələrinə müxtəlif vəziləri aid edirlər; erkəklərdə onlar spermatozoidlər üçün fizioloji mühit olan və onların fəallığını gücləndirən sekret, dişilərdə isə yumurta qişasını əmələ gətirən maddələr ifraz edir. Əlavə orqanlara həmçinin toxum kisəcikləri və toxum qəbulediciləri (toxumu saxlamaq üçün rezervuar) aid edilir. Diridoğan heyvanlarda C.o.-na rüşeymin böyüməsi (yetişməsi) üçün lazım olan bütün mexanizmlər aiddir. Heyvanların əksəriyyətinə ayrıcinsiyyətlilik, bəzi növlərinə isə hermafroditizm xasdır. Süngərlərdə və bəzi kirpikli qurdlarda qonadalar yoxdur, onların cinsiyyət hüceyrələri parenximada səpələniblər və xaricə bədən divarının yırtıldığı yerdən, yaxud ağız dəliyi vasitəsilə çıxır. Bağırsaqboşluqlularda C.o. bədənin müəyyən yerlərində yerləşən kiçik qonadalardır. Yastı qurdların əksəriyyəti müxtəlif əlavə orqanları olan hermafrodit cinsiyyət sisteminə malikdir. Nemertinlərdə bədən boyunca təkrarlanan qısa sadə axacaqları olan kisəşəkilli qonadalar vardır.

İlk bədənboşluqlu qurdlar ayrıcinsiyyətli olub sadə cinsiyyət sisteminə malikdirlər. Halqavari qurdlar, molyusklar, exiuridlər, sipunkulidlər, briozoylar və çiyinayaqlılarda cinsiyyət vəziləri ikincili bədən boşluğunun divarlarında yaranır; cinsiyyət axacaqları qonadalarla birləşməyən kanallar şəklində olan cinsiyyət yolları – selomoduktlardır. Cinsiyyət məhsulları əvvəlcə ikinci bədən boşluğuna, sonra selomoduktların ağzı xaricə açılan qıfına düşür. Buğumayaqlılarda qonadalar ikinci bədən boşluğu divarlarının törəmələri, onların axacaqları isə selomoduktların törəməsidir. Dərisitikanlılarda qonadalar, adətən, 5 şüalı simmetriya üzrə yerləşmişlər. Yalnız holoturilərdə qonadalar təkdir. Kəlləsizlərdə (neştərçə) qonadalar qələməyanı boşluğun divarlarına sıx yapışan kiçik, axacaqsız, cüt kisəciklərdir. Cinsi yetişkənlik anına yaxın inkişaf edən sperma qısa axacaq vasitəsilə qələməyanı boşluğa axır, yumurtalar isə yumurtalıq və qələməyanı boşluqların divarlarının yırtıldığı yerdən keçir.

Onurğalılarda C.o. onlarla birlikdə vahid sidik-cinsiyyət sistemi əmələ gətirən ifrazat orqanları ilə əlaqədardır. Dəyirmiağızlılarda qonadaların yalnız birinci cütü axacaqsızdır. Cinsiyyət məhsulları heyvanların bədənində olan cinsiyyət dəlikləri vasitəsilə xaricə çıxır. Ağzıçənəlilərdə qonadalar, adətən cüt olub bədən boşluğunda yerləşir. Cinsiyyət məhsulları orqanizmdən bir qayda olaraq, kloakaya açılan ifrazat sistemi kanalları vasitəsilə xaric olunur. Sümüklü balıqlarda yumurtalıqların və toxumluqların boşluğu çox vaxt xaricə açılan qısa kanalla davam edir. Bəzi selaxilərdə, ximerlərdə və sümüklü balıqlarda kopulyasiya orqanı vardır. Suda-quruda yaşayanlarda yumurtalıqlar və toxumluqlar qarın boşluğunun bel tərəfinə doğru mezenterilərdə asılmış halda yerləşir. Yetişmiş yumurtalar kloakaya açılan uzun əyri-üyrü balalıq yolu vasitəsilə bədən boşluğundan çıxır. Erkəklərin cinsiyyət məhsulları, həmçinin kloakaya açılan sperma yolu vasitəsilə bayıra çıxır. Ayaqsızların xüsusi kopulyasiya orqanları vardır. Sürünənlərdə cüt qonadalar cinsiyyət axacaqları ilə kloakaya açılır. Sperma yolunun son şöbəsi toxum qovuqcuğu əmələ gətirir. Bəzi kərtənkələlərdə və ilanlarda yumurtalıqlar və balalıq yolu assimetrik yerləşir. Quşlarda yumurtaların iri olması ilə əlaqədar olaraq yalnız sol yumurtalıq və sol yumurta borusu var. Kopulyasiya orqanları demək olar ki, sürünənlərin hamısında (hatteriyadan başqa) və bəzi quşlarda (yüyürənlər, tinamu, qazkimilər və bəzi toyuqkimilər) inkişaf etmişdir. Məməlilərdə yumurtalıqlar qarın boşluğunun arxa hissəsində yerləşmişlər. Birdəliklilərdə cüt yumurtalıqlar və balalıq yolu sidik-cinsiyyət sinusuna açılır. Hər balalıq yolunun arxa hissəsi genişlənib balalığı əmələ gətirir. Kisəlilərdə hər balalıq yolu 3 şöbəyə ayrılır: ön, yaxud fallop borusu, orta, yaxud balalıq və arxa sidik-cinsiyyət sinusuna açılan vagina. Plasentalılarda balalıq yollarının arxa ucları birləşərək həmişə sidik-cinsiyyət sinusuna açılan tək vaginanı, alilərdə çox güclü reduksiya olunmuş balalıq yolu dəhlizini əmələ gətirir. Bir çox gəmiricilərdə, həmçinin fillərdə balalıq yolunun balalıq hissələri tamamilə ayrılmışdır (ikiləşmiş balalıq); bəzi gəmiricilərdə, yırtıcılarda, donuzlarda arxa şöbələrlə qismən birləşmişdir (ikibölümlü); bəzi yırtıcılarda, dırnaqlılarda, cücüyeyənlərdə, balinakimilərdə, demək olar ki, tamamilə birləşmiş (qovuşmuş) ikibuynuzlu balalıq əmələ gətirmişdir; qoluqanadlılarda, meymunlarda, insanda (uşaqlıq) tamamilə birləşmişdir (sadə balalıq). Toxumluqlar birdəliklilərdə, bəzi kəmdişlilərdə, cücüyeyənlərdə, balinakimilərdə, fillərdə, sirenlərdə qarın boşluğunun arxa hissəsində, kisəlilərdə və plasentalıların əksəriyyətində isə bədən boşluğundan (kisəlilərdə cütləşmə orqanının önündə, plasentalılarda ondan arxada yerləşən) xayalığa düşür.

**İnsanın C.o.** K i ş i C.o. Daxili kişi C.o.-na *xayalar*, xaya artımı, toxumçıxarıcı axacaq, toxum qovuqcuğu, *prostat vəzi*, kuper vəziləri; xarici kişi C.o.-na xayalıq və cinsiyyət üzvü (penis) daxildir. Xaya artımı xayanın arxa kənarına söykənir və spermatozoidlərin toplanması üçündür; onun kanalı 45–50 *sm* uzunluqda olan toxumçıxarıcı axacağa keçir, bu isə toxum ciyəsinin tərkibində əvvəlcə qasıq kanalı ilə qarın boşluğuna daxil olur, sonra kiçik çanağa enir və sidik kisəsinin arxasında toxum qovuqcuğunun çıxarıcı axacağı ilə birləşərək toxumtullayıcı axacaq əmələ gətirir və sidik kanalına açılır. Toxum qovuqcuqları sidik kisəsinin arxa və aşağı hissəsində yerləşir və toxumu durulaşdıran, spermatozoidlərin hərəkətini asanlaşdıran qatı zülali maye ifraz edir. Kuper vəziləri hər biri noxud dənəsi boyda olan cüt orqandır, cinsiyyət üzvünün kökündə yerləşirlər; toxumaxıtma zamanı sidik kanalına şirə ifraz edirlər. Cinsiyyət üzvü sidik xaric etmək və toxum tullamaq üçündür; başcığı, cismi və qasıq sümüyünə birləşən kökü vardır; başcığında sidik kanalının xarici dəliyi yerləşir. Cinsiyyət üzvü ağ qişa və nazik dəri ilə örtülmüş mağaralı cisimdən (iki- yuxarı və aşağı) ibarətdir; dəri, başcıq nahiyəsində kənar cismə keçir.

Q a d ı n C.o. Daxili qadın C.o. kiçik çanaqda yerləşir; onlara *yumurtalıqlar*, *uşaqlıq borusu*, *uşaqlıq* və *uşaqlıq yolu* aiddir. Xarici qadın C.o.-na uşaqlıq yolu dəhlizi, böyük və kiçik cinsiyyət dodaqları və klitor daxildir. Böyük cinsiyyət dodaqları qasıq qabarığından aralığa doğru gedən və cinsiyyət yarığını əhatə edən iki dəri büküşüdür. Kiçik cinsiyyət dodaqları böyük cinsiyyət dodaqları arasında yerləşir və onların arasında uşaqlıq yolu dəhlizi olur. Uşaqlıq yolu dəhlizinin ön şöbəsinə sidik kanalının xarici dəliyi, ondan arxada isə uşaqlıq yolu girəcəyi yerləşir. Klitor iki mağaralı cisimdən ibarətdir, onun uşaqlıq yolu dəhlizinin ön şöbəsində yerləşən, başcığı, cismi və

qasıq sümüyünə birləşən iki ayaqcığı vardır. Klitorun başcığı və kiçik cinsiyyət dodaqları sinir ucları ilə zəngin olur. Bartolin vəziləri noxud dənəsi boyda olub uşaqlıq yolu girəcəyinin cüt vəziləridir və kiçik cinsiyyət dodaqlarının əsasında yerləşir; onların şirəsi uşaqlıq yolu dəhlizini nəmləndirir.

C.o.-nın inkişaf anomaliyalarına k r i p t o r x i z m, h i p o s p a d i y a, epispadiya, ikili və ikibuynuzlu uşaqlıq, ikili uşaqlıq yolu daxildir. C.o. xəstəlikləri haqqında bax *Qadın xəstəlikləri*, *Uroloji xəstəliklər*, *Zöhrəvi xəstəliklər*. Bax həmçinin Aybaşı, *Cinsi yetişkənlik*.

**Bitkilərin və göbələklərin C.o.** İbtidai bitkilərin əksəriyyətində bunlar birhüceyrəli, ali bitkilərdə çoxhüceyrəli olub xarici steril hüceyrələrdən ibarət divarı vardır. Əksər izoqam bitkilərdə (bax *İzoqamiya*) C.o. başqa hüceyrələrdən fərqlənmir, lakin bəzi nümayəndələrdə daha iri, yaxud çoxhüceyrəlidir (məs., bəzi qonur yosunlarda). Ooqam bitkilərin (bax *Ooqamiya*) erkək C.o. anteridi, dişi C.o. ooqoni (yosunların əksəriyyəti, bəzi göbələklər), karpoqon (qırmızı yosunlar) arxeqoni (mamır və qıjıkimilər) adlanır. Anteridilərdə spermatozoidlər, yaxud qamçısız spermasilər (məs., qırmızı yosunlarda), dişi C.o.-ında yumurtahüceyrələr əmələ gəlir. Ooqonilər birhüceyrəlidir (xara yosunları istisna olmaqla). Kolbaşəkilli ikihüceyrəli karpaqon içərisində yumurtahüceyrəsi olan qarıncıqdan və spermasiləri tutan ensiz uzun trixoginadan ibarətdir. Arxeqoninin qarıncığında yumurtahüceyrə və qarıncıq kanalcıq hüceyrəsi, ensiz (dar) boğazında isə kanalcıq hüceyrələri yerləşir. Kisəli göbələklərin əksəriyyətində anteridinin çoxnüvəli protoplastı trixogin (arxikarpın yuxarı hissəsi) vasitəsilə onun bazal hissəsinə – askoqona, çoxnüvəli protoplasta keçir (cinsi proses – qametangioqamiya). Ziqomiset göbələklərində, iki qametanginin qametlərə ayrılmayan protoplastları da birləşir. Bəzi birhüceyrəli yosunlar (məs., xlamidomonadalar) özləri elə bil ki, qametlər əmələ gətirərək qametangilərə çevrilirlər. İki hüceyrənin protoplastlarının birləşdiyi konyuqat yosunlarda (məs., spirogirada), həmçinin bazidili göbələklərdə (ilkin mitselilərin hüceyrələri qovuşur) xüsusi C.o. yoxdur. Təkamül prosesində toxumlu bitkilər erkək C.o.-nı, bütün örtülütoxumlular və bəzi çılpaqtoxumlular (qnetum, vellviçiya) dişi C.o.-nı itirmişlər. Spermatozoidlər, yaxud qamçısız spermilər onların erkək qametofitlərində – tozcuq dənələrində, yumurtahüceyrələr isə dişi qametofitlərdə – rüşeym kisəciklərində (örtülütoxumlularda), yaxud ilkin endospermdə (çılpaqtoxumlularda) əmələ gəlir.

**CİNSİYYƏT VƏZİLƏRİ,** q o n a d a l a r – insan və heyvanlarda cinsiyyət hüceyrələri (yumurta və spermatozoidlər) yaradan orqanlar. Ali heyvanların C.v. qana cinsiyyət hormonları ifraz edir. C.v.-nin sekresiyadaxili funksiyası qonadotrop hormonlarla tənzimlənir.

**CİOK** Uilyam Frensis (12.5.1895, Kanada, Niaqara-Fols – 28.3.1982, Kaliforniya ştatı, Oklend) – Amerika fiziki-kimyaçısı, ABŞ Milli EA üzvü (1936), Nobel mükafatı laureatı (1949). Berklidə Kaliforniya Un-ti-ni bitirmiş (1920), orada işləmişdir (1934 ildən prof.). Əsas işləri ifrat aşağı temp-rlarda maddələrin termodinamikasının öyrənilməsinə həsr edilmişdir. Termodinamikanın üçüncü qanununun təcrübi yoxlanması üzrə tədqiqatlar aparmışdır (1920 ildən). 1*K*-dən aşağı temp-r almaq üçün adiabatik maqnitsizləşdirmə üsulunu (P. *Debaydan* asılı olmayaraq) və ifrat aşağı temp-run ölçülmə üsulunu işləyib-hazırlamış (1927); 0,25 *K* temp-runu almış və bir sıra maddələrin entropiyasını təyin etmiş (1933); atomların istilik hərəkəti olmayan temp-r sahəsində (0,01K) eksperimental tədqiqatlar aparmışdır. Atom çəkiləri (kütlələri) şkalasının dəyişilməsinə gətirib çıxaran O və O izotoplarının (1929, tələbəsi C. Constonla birlikdə), *orto-* və *para-*hidrogenin mövcudluğu haqqında nəzəri mülahizələri təcrübi sübut etmişdir.



**CİP** (Jeep) – ABŞ-da istehsal edilən, keçid qabiliyyəti yüksək olan minik və yük-sərnişin avtomobili. İkinci dünya müharibəsi zamanı ABŞ ordusunun sifarişi ilə "American Bantam" firmasında işlənib hazırlanmışdır. C.-in ilk nümunələri "Villis Overlənd" ("Willys Overlənd") və "Ford Motor" şirkətlərinin müharibə illərində (1943 ildən) ABŞ ordusu üçün istehsal etdiyi "Villis" və "Ford" avtomobilləridir. C.-in adının mənşəyi dəqiq məlum deyil və onun ordudakı adı GP-dən (general-purpose – ümumi təyinatlı) götürüldüyü güman edilir. Müharibədən sonra "Villis Overlənd" C.-in müxtəlif "mülki" variantlarını istehsal etməyə başladı. C.-in istehsalı 1953 ildən "Kayser-Frayzer" ("Kaiser-Fraizer") şirkətinin, 1970 ildən "American motors" ("American Motors") konserninin, 1987 ildən "Kraysler Motors" ("Chrysler Motors") konserninin nəzarətinə keçmişdir. C. dünyada ən məşhur avtomobil markalarından biridir. Mühərrikinin işlək həcmi 3,6–5,7 *l*, gücü 140–250 *kVt*, maks. sürəti 240 *km/saat*-adək ("Cip Qrand Çeroki", "Jeep Grand Cherokee"), yük-sərnişin avtomobillərinin tam kütləsi 1,9–3,7 *t*, yükqaldırma qabiliyyəti 0,6–1,5 *t*-dur.



"Cip Qrand Çeroki WK2" avtomobili (2010).

**CİRANUS,** Y e n i C i r a n u s – İrəvan xanlığının Gərnibasar mahalında (9.9.1930 ildən Qəmərli, 4.9.1945 ildən Artaşat r-nu), Gərni çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalı zamanı kənd dağıdılmış, onun yerində salınmış yeni kənd Yeni Ciranus adlanmış və burada İrandan və Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir. Sonralar Yeni Ciranus kəndinin adı Nor Craşen kimi qeydə alınmış, 19.4.1950 ildə isə dəyişdirilərək Craşen qoyulmuşdur.

**CİRCİS,** C ə r c i s (ər. جرجيس) (? – təqr. 303) – islam rəvayətlərinə görə, *İsadan* sonra yaşamış müq. şəxs, yaxud peyğəmbər. Xristianlıqda Müq. Georgi adı ilə tanınan C. haqqında məlumata, əsasən, kanonik və apokrifik rəvayətlərdə rast gəlinir. Orta Bizans ənənələrinə görə, C. Kappadokiyada dünyaya gəlmişdir. Pravoslav Şərqində Müq. Georgi kultu 4 əsrdə yayılmışdır. 7 əsrin sonu – 8 əsrin əvvəllərində Müq. Georgi müsəlman ərəbləri arasında C. kimi tanınmışdır. Quranda və səhih hədislərdə C.-in adı çəkilmir. Vəhb ibn Münəbbih (7–8 əsrlər), Qütbəddin *Rəvəndi* (12 əsr), Nemətullah *Cəzayiri* (12 əsr) və b. onun haqqında məlumat vermişlər. Ən geniş məlumata *Təbərinin* (9–10 əsrlər) "Peyğəmbərlər və hökmdarların tarixi" əsərində rast gəlinir. Fələstinli "saleh bir bəndə" olan C. İsanın sonuncu *apostollarını* görmüşdür. Ticarətlə məşğul olmuş, qazancını kasıblara paylamışdır. Təkallahlılığı yaymaq üçün Mosula getmiş, oranın bütpərəst hökmdarı Dazanə tərəfindən işgəncələrə məruz qalmış, üç dəfə müxtəlif üsullarla edam olunmuş və hər dəfə yenidən dirilmişdir. C.-in göstərdiyi möcüzələr haqqında rəvayətlər onun peyğəmbər olması barədə fikirlər yaratmışdır. C. bəzən ölümsüz peyğəmbərlər kimi qəbul edilən Xızır və İlyasla eyniləşdirilir. Azərb.-nın Beyləqan r-nunda C.-in dəfn olunduğu ehtimal edilən ziyarətgah var.

**CİRDƏK** – Azərb. Resp. Tovuz r-nunun Çatax ə.d.-ndə kənd. R-n mərkəzindən 35 *km* c.-da, Əsrik çayının sahilindədir. Əh. 290 (2011); heyvandarlıq, əkinçilik və üzümçülüklə məşğuldur. Kitabxana, klub var.

**CİRƏ** (Cuminum) – çətirçiçəklilər fəsiləsindən birillik ot bitkisi cinsi. Çılpaq, alçaqboylu, ləçəkləri ağ, yaxud qırmızımtıl, meyvəsi uzunsov və ikitoxumludur. Aralıq dənizinin cənub ölkələri, Orta Asiya və Qafqazda yayılmış 2 növdən 1-i Azərb.-da becərilir, bəzən yabanı halda rast gəlinir. Toxumunun tərkibində 2,5–4% efir yağı, 16–22% kitrə, xlorofil və bəzi turşular olur. Vegetasiya müddəti 120–150 gün çəkir. C. iyun – iyulda çiçəkləyir, meyvələri avqust – sentyabrda yetişir.

Xalq təbabətində C.-dən soyuqdəymədə yumşaldıcı, bəlğəmgətirici, xroniki mədə-bağırsaq xəstəliklərində, köpyatıran və iştahaartıran vasitə kimi istifadə edilir. C. yağı və onun komponentləri, meyvələri ətriyyat, qida və əczaçılıq sənayesində tətbiq edilir.

Adi cirə (Cuminum cyminum) və meyvəsi.



**CİRƏ ALDEHİDİ** – təbii üzvi birləşmə, 4-$CH_3OC_6H_4CHO$; efir yağlarında olur. Yemişan gülü ətirli, rəngsiz mayedir; etanolda yaxşı, suda az həll olur. C.a. *anetolun* ozon, xrom qarışığı və s. ilə, *p*-krezolun metil efirinin (kalium-oksalat və mis duzları iştirakında) kalium-persulfatla oksidləşdirilməsindən, 4-hidroksibenzaldehidin metilləşməsindən alınır. C.a. ətriyyat kompozisiyalarında ətirli maddə, qalvanotexnikada aşqar kimi, dərman preparatlarının sintezində (bilitrast, betazin) istifadə edilir.

**CİRQA** (ehtimal ki, monqol mənşəli sözdür) – Əfqanıstan və Pakistanda ağsaqqallar şurası, həmçinin əfqan tayfa nümayəndələrinin məclisi. Feodal münasibətlərinin təşəkkülü dövründə əfqanlarda tayfanın bütün tamhüquqlu üzvlərinin məclisi (əhli-cirqa) qəbilə başçılarının məclisi (cirqa və malikan) tərəfindən sıxışdırılmağa başlamışdı. İndiki Əfqanıstanda fövqəladə dövlət məsələlərinin həlli zamanı tayfa və ali əyanların, mülkədar, iri kapital, ali müsəlman ruhanilərinin nümayəndələrinin ibarət Böyük C. (Loyya C.) çağırılır (Böyük C.-nın fəaliyyəti konstitusiya ilə nizamlanmır).

**"CİRO D, İTALİYA"** ("İl Giro d, İtalia" – "İtaliya Turu") – mövsümün üç ən böyük velosiped yarışından biri (bax həmçinin "*Vuelta*" və "*Tur de Frans*"); 1909 ildən "La Gazzetta dello Sport" qəzetinin təşəbbüsü ilə keçirilir. İtaliya yolları ilə (mərhələləri Fransa, Avstriya və b. ölkələrdə ümumi məsafəsi təqr. 3500 *km*-dir (21 mərhələ), finişi Milan ş.-dir. İlk qalib – L. Qanna (İtaliya). Ən çox qələbə qazananlar: A.Binda, F. Koppi (hər ikisi – İtaliya), E. Merks (Belçika) (hamısında 5 qələbə). M. Çipollini 42 dəfə mərhələ yarışlarının qalibi olmuşdur. Velosiped yarışı zamanı ən fəal idmançılar üçün bir neçə nominasiya nəzərdə tutulmuşdur: lider üçün (çəhrayı mayka), ən yaxşı sprinter (tünd qırmızı) və "dağ kralı" üçün (yaşıl).

**CİSC** [ing. C(omplex) I(nstruction) S(et) C(omputer) – tam əmrlər dəsti olan kompüter], k i s k – kompüter prosessorunun ənənəvi arxitekturası; *RISC*-prosessora (qısaldılmış əmrlər dəsti olan prosessora) əksdir. CİSC-də əmrlərin uzunluğu qeyri-sabitdir, hesabi əməliyyatlar bir əmrdə kodlaşdırılır və o, hər biri ciddi müəyyənləşdirilmiş funksiyaları yerinə yetirən azsaylı registrlərə malikdir. 80x86 və 680x0 prosessorları CİSC-prosessorlara aiddir, lakin çox vaxt CİSC-prosessorun daxilində RİSC arxitekturasından istifadə edilir.

**CİSM BUCAĞI** – hər hansı konik səthlə məhdudlanan fəza hissəsi (şəkil 1); üçüzlü və çoxüzlü bucaqlar C.b.-nın xüsusi hallarıdır. C.b., mərkəzi konik səthin təpəsində olan sferadan həmin C.b. ilə kəsilən sfera hissəsinin *S* sahəsinin, sfera radiusunun kvadratına nisbəti ilə ölçülür. Aydındır ki, C.b. adsız ədədlərlə ölçülür. Məs., fəzanın 1/8 hissəsindən (oktant, şəkil 2) ibarət olan C.b. $4\pi R^2/8R^2 = \pi/2$ ədədi ilə ölçülür. C.b.-nın ölçü vahidi *steradiandır* (*ster*). Tam sfera $4\pi$ steradiana bərabər olan C.b. təşkil edir.




**CİSMİN DÜŞMƏSİ** – başlanğıc sürəti sıfra bərabər olan cismin Yerin cazibə sahəsində hərəkəti. C.d. Yerin mərkəzinədək olan *r* məsafəsindən asılı olan *cazibə* qüvvəsinin və mühitin (hava və ya su) $\upsilon$ hərəkət sürətindən asılı olan müqavimət qüvvəsinin təsiri altında baş verir. C.d.-nə Yerin sutkalıq $\omega \approx 0{,}0000729$ *rad/san* bucaq sürəti ilə fırlanması da təsir edir.

Əgər Yerin qeyri-sferikliyi və onun fırlanmasının təsiri ($\omega$ kiçik olduğuna görə), həmçinin ya çox aşağı hündürlükdən (düşmə sürəti kiçik olanda), ya da çox böyük hündürlükdən (yolun əsas hissəsini havasız fəzada keçəndə) düşmə zamanı havanın müqaviməti nəzərə alınmazsa, onda düşən cismin hərəkəti Yerin mərkəzinə doğru yönəlmiş düz xətt boyunca olar. Yerin radiusuna (*R*) nəzərən çox kiçik hündürlükdən (*h*) (Yer səthindən hesablanan) C.d. zamanı cazibə qüvvəsinin *r*-dən asılılığını nəzərə almamaq olar və hesab etmək olar ki, cismin ağırlıq mərkəzi sabit $g_0$ təcili ilə və

$$\upsilon = \sqrt{2g_0x} \qquad (1)$$

qanunu üzrə yeyinləşən sürətlə hərəkət edir; burada *x* – başlanğıc nöqtədən hesablanan gedilən yoldur. Böyük hündür-

lükdən C.d. zamanı cazibə qüvvəsinin $r$-dən ($r=R+h-x$) asılılığını nəzərə almaq lazımdır. Bu halda düşən cismin təcili $\omega=g_0R^2/r^2$ qanunu üzrə, sürəti isə

$$\upsilon=\sqrt{\frac{2g_0x}{(1+h/R)/[1+(h-x)/R]}} \qquad (2)$$

qanunu üzrə dəyişir.

$x=h$ olduqda (2) düsturu Yerə düşmə anındakı sürəti verir, $h \ll R$ olduqda isə (1) düsturuna keçir.

Aşağı hündürlükdən C.d.-nə Yerin fırlanmasının əsas təsiri, köçürülə bilən inersiya qüvvəsini cazibə qüvvəsinə əlavə etməklə nəzərə alınır. Bu iki qüvvənin cəmi ədədi qiymətcə cismin çəkisinə bərabər olub şaquli istiqamətdə yönəlmiş *P ağırlıq qüvvəsini* verir və C.d. onun təsiri altında baş verir. Bu halda $g$ sərbəst düşmə təcili (*ağırlıq qüvvəsi təcili*) həm ədədi qiymətcə, həm də istiqamətcə $g_0$-dan bir qədər fərqlənir və $\varphi$ coğrafi en dairəsindən asılı olur. Ətalət *Koriolis qüvvəsinin* daxil edilməsi nəzərə alınan Yerin fırlanmasının əlavə təsiri birinci yaxınlaşmada düşən cismlərin şaqulidən şərqə doğru meylinə səbəb olur.

Mühitin $F=0,5c_x\rho S\upsilon^2$ müqavimət qüvvəsi C.d.-nə əhəmiyyətli dərəcədə təsir edir, burada $S$ – *midel kəsiyi* sahəsi, $\rho$ – havanın sıxlığı, $c_x$ – cismin formasından və ümumi halda onun sürətindən asılı olan müqavimət əmsalıdır. Havada $h \ll R$ hündürlükdən düşmə zamanı $\rho$, $g$ və $c_x$-i sabit hesab etmək olar, onda düşmə surəti

$$\upsilon=\upsilon_h\sqrt{1-\exp(-2gx)/\upsilon_h^2} \qquad (3)$$

burada $\upsilon_h=\sqrt{2P/c_x\rho S}$. (3) düsturundan görünür ki, $x$-in artması ilə $\upsilon$ düşmənin həddi sürəti adlanan $\upsilon_h$-a yaxınlaşır. $c_x$ və $S$ kifayət qədər böyük olduqda $\upsilon$ qiyməti yolun başlanğıc kiçik hissəsində $\upsilon_h$-a yaxın olur və bundan sonra C.d. praktiki olaraq sabit $\upsilon_h$ sürəti ilə baş verir.

**CİSMLƏR FƏZASI** (optikada) – bax *Optik xəyal.*

**CİSMLƏRİN ÜZMƏSİ** – mayeyə (və ya qaza) qismən və ya tam salınmış bərk cismin tarazlıq halı. C.ü. nəzəriyyəsinin əsas məsələsi mayeyə salınmış cismin tarazlıq vəziyyətini təyin etmək, tarazlığın dayanıqlı olması şərtlərini aydınlaşdırmaqdır. C.ü.-nin ən sadə şərtini *Arximed qanunu* göstərir.

C.ü. nəzəriyyəsinin əsas anlayışları (şəkil 1): 1) cismin subasımı (tonnaj) – tarazlıq halındakı cismin sıxışdırıb çıxardığı mayenin çəkisi (cismin çəkisi ilə üst-üstə düşür); 2) mümkün olan yük sukəsimi (xətti) müstəvisi – çəkisi cismin subasımına bərabər olan maye həcmini bu cismdən ayıran hər hansı $ab$ müstəvisi; 3) yük sukəsimi səthi – hər nöqtəsində toxunan müstəvi mümkün yük sukəsimi müstəvisi olan I səth; 4) subasımı mərkəzi – mümkün olan yük sukəsimi müstəvisi ilə ayrılan $A$ həcminin ağırlıq mərkəzi; 5) subasımı mərkəzlərinin səthi – subasımı mərkəzlərinin həndəsi yeri olan II səth.




**Şəkil 1.** $ab$, $a_1b_1$, $a_2b_2$ – mümkün olan yük sukəsimi müstəviləri; $A$, $A_1$, $A_2$ – $ab$, $a_1b_1$, $a_2b_2$ müstəviləri ilə ayrılan həcmlərə görə subasımı mərkəzləri. I – yük sukəsimi səthi; II – subasımı mərkəzlərinin səthi.

Cism mayeyə mümkün olan hər hansı yük sukəsimi müstəvisinə ($ab$) qədər salındıqda (şəkil 2), cismə bu müstəviyə perpendikulyar istiqamətdə (şaquli yuxarı) $A$ mərkəzindən keçən ***F itələyici qüvvə*** və ədədi qiymətcə ona bərabər olan ***P*** ağırlıq qüvvəsi təsir edir. C.ü. nəzəriyyəsində isbat edildiyi kimi, ***F*** qüvvəsinin istiqaməti eyni zamanda $A$ nöqtəsində II səthin $A_n$ normalının istiqaməti ilə üst-üstə düşür.

Tarazlıq halında ***F*** və ***P*** qüvvələri bir düz xətt boyunca yönəlməlidir, yəni $A$

**Şəkil 2.** Yük sukəsiminə ($ab$) qədər mayeyə salınmış cismə təsir edən qüvvələr.




mərkəzindən II səthə qaldırılmış normal cismin $C$ ağırlıq mərkəzindən keçməlidir (şəkil 1-də $A_1C$, $A_2C$ normalları). $C$ ağırlıq mərkəzindən keçən II səthin normallarının sayı üzən cismin mümkün olan tarazlıq vəziyyətlərinin sayını göstərir. Cismi tarazlıq vəziyyətindən çıxardıqda ona ***F***, ***P*** *cüt qüvvələri* təsir edər. Bu cütlük cismi tarazlıq vəziyyətinə qaytarmağa çalışarsa, tarazlıq dayanıqlı, əks halda isə dayanıqsızdır. Tarazlığın dayanıqlığı haqqında *metamərkəzin* vəziyyətinə görə fikir söyləmək olar. Digər sadə əlamət: $A$ və $C$ mərkəzləri arasındakı məsafə qonşu vəziyyətlərdəkinə nisbətən ən kiçikdirsə, tarazlıq dayanıqlı olur (şəkil 1-də $a_2b_2$ müstəvisinə qədər salınmada tarazlıq dayanıqlı, $a_1b_1$-ə qədərdə isə dayanıqsızdır).

**CİŞABAD** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Şirdan bölgəsinin Yuxarı Tarım kəndistanında, Şirdan qəs.-ndən 38 *km* şm.-q.-dədir.

**CİU-CİTSU,** d z y ü d s z y ü t s u (yaponca. – yüngül zərbə sənəti) – ilk dövrdə samurayların fiziki və döyüş hazırlığı növü. Silahsız özünümüdafiə fəndləri və silahla davranış sistemini özündə birləşdirirdi. Ən cox 12 – 19 əsrlərdə inkişaf etmişdi. Sonradan C.-c. çoxsaylı məktəb və növlərə – *cüdo, aykido, karate,* kendoya ayrılmışdır. Özünümüdafiənin döyüş (tətbiqi) fəndləri sistemi kimi yayılmışdır.

Yaponiya sakinlərinin bu döyüş sənətilə 10 əsrdə ölkəyə Çindən gələn rahib və tacirlər vasitəsilə tanış olduqları ehtimal edilir. Buna qədər Yaponiyada silahsız özünümüdafiənin ənənəvi *sumo* güləşi əsasında formalaşan və "kumi uti" adlanan müxtəlif formaları olmuşdur. 12 əsrdə Yaponiyada gen. S. Saburo tərəfindən yaradılmış "əlbəyaxa döyüş" məktəbi mövcud idi; bu məktəbin fəndləri 13 əsrdə yazılmış buddist əsəri olan "Kondzyaku – monoqatari"də təsvir edilmişdir. 1532 ildə isə X. Takenouti C.-c. texnikasını sistemləşdirmişdir. C.-c. ustaları ənənəvi fəndləri Çin döyüş məktəblərinə xas olan hərəkətlərlə birləşdirərək, primitiv döyüş texnikasını təkmilləşdirirdilər. C. -c. ilə döyüşçülər və sadə şəhər sakinləri də məşğul olurdular.

C.-c.-nun ən mühüm üslublarına (məs., yosin-ryu, kusin-ryu, sekiquti-ryu) həmçinin əl və ayaq zərbələri, kəskin ağrılı və boğucu fəndlər daxil edilmişdi. C.-c. üslublarının çoxunda silah ilə, xüsusən qılıncla təkbətək döyüşlər yayılmışdı. Yaponiyada Tokuqava sülaləsi dövründə 700 yaxın döyüş sənəti məktəbi fəaliyyət göstərmiş və onların hər birinin özünəməxsus üslubu olmuşdur.

Alman prof. E. Beltsın təşəbbüsü ilə 19 əsrin sonunda C.-c. döyüş sənəti Tokio un-tinin proqramına daxil edilmişdir. Onun tələbələrindən biri C.-c. əsasında sonradan *cüdo* güləşini yaratmış D. Kano idi.

C.-c.-nun üç əsas istiqaməti fərqləndirilir: 1) klassik yapon üslubları; bunlarla məşğul olanlar ənənələrə ciddi riayət edir və qədim fəndləri öyrənirlər; 2) Meydzi dövründə yaranan üslublar "qosindzyutsu" və ya "nixon qosindzyutsu" adlanır. Bu üslublara cüdo, karate və aykido kimi müasir döyüş sənətlərinin ciddi təsiri olmuşdur; 3) Yaponiya hüdudlarından kənarda yaranan və "qaydzin qosindzyutsu" adlandırılan üslublar. Bunların yapon döyüş sənəti ənənələrilə bağlılığı yoxdur, özlərinin konsepsiya və kvalifikasiya metodları vardır.

**CİVA** (sanskritcə jīva – canlı) – hind dini-fəlsəfi ənənəsində canlı varlıq, can. Dünya şüurunun – *Brahmanın* subyektiv aspekti kimi çıxış edən *atmandan* fərqli olaraq, C. ilk növbədə ayrıca fərdi candır. Caynizmdə C. anlayışı üç kateqoriyalı canlı məxluqları əhatə edir: 1) kamilləşmiş azadolunmuş canlar (siddha); 2) *sansara* ilə əlaqəli olan canlar (baddha) – lamisəyə malik bitkilərdən tutmuş insanlara, şeytanlara və allahlaradək; 3) cəhənnəm sakinləri (narakiya). Bütün C.-lar təbiəti etibarilə əbədi və hər şeyi biləndir, lakin materiyanın (karma) axını səbəbindən onlar sansaraya bağlı olur. Ortodoksal cərəyanlar arasında C. haqqında təsəvvürlər ilk növbədə *vedanta* məktəblərində işlənib hazırlanırdı. Mahiyyətcə atmanla eyniyyət təşkil edən C. *advayta-vedantada* nadanlıq üzündən müvəqqəti cismani və psixi xüsusiyyətləri özünə aid edir, bu səbəbdən onun fərdiliyi illüzordur. *Vişişta-advaytada* C. ali Brahmanın öz fərdiliyini qoruyan parçası və eyni zamanda atributudur.

**CİVANMÚKTA** [sanskritcə jivanmukta – həyatda ikən sansaradan azadolunmuş (xilasa yetmiş); həmçinin jivanmukti – həyatda ikən sansaradan azadolunmaya yetişmə] – hinduizmdə keçmiş *karmanın* istəklərindən və izlərindən fiziki ölümünə qədər tamamilə azad olunmuş, bilgisizliyi dəf etmiş (avidya) və özünün Mütləqlə vəhdətini dərk etmiş müqəddəs şəxs. C. konsepsiyası advaytada və *vedantanın* digər məktəblərində, həmçinin *tantrizmin* müxtəlif cərəyanlarında inkişaf etmişdir. C. apofatik-paradoksal təsvir edilir: "azadolunmuş" sanki yuxugörmələrsiz yuxudadır, yuxuda ayıqdır, ağla (manasa) malik deyil, əbədi xoşbəxtdir, heç nə arzulamır, qərəzsizdir və hamı ilə eyni dərəcədə mehribandır, özünə qarşı laqeyddir və s. C. adi, xeyirxah insanlardan fərqlənmir, lakin reallıqda o, tamamilə dünya xaricindədir. *Nyaya, vayşeşika* və *mimansa* C. olmağın mümkünlüyünü qəbul etmir; *sankhya* isə terminin özünü işlətməsə də onu qəbul edir.

**CİVƏ** (Hydrargyrum), Hg – kimyəvi element; elementlərin dövri sisteminin II qrupundadır, at. n. 80, at. k. 200,59. Təbiətdə C. yeddi stabil izotopdan ibarətdir: $^{196}Hg$(0,146%), $^{198}Hg$ (10,02%), $^{199}Hg$(16,84%), $^{200}Hg$ (23, 13%), $^{201}Hg$ (13,22%), $^{202}Hg$ (29,80%), $^{204}Hg$ (6,85%)

**Tarixi arayış. C.** təbii külçə halında hələ b.e.2200 il əvvəl qədim Çin, Hind, Misir xalqlarına məlum idi. Həmçinin qədim yunanlar və romalılar kinovardan HgS boya, kosmetika və dərman vasitələrində istifadə ediblər.

**Təbiətdə yayılması.** C.-nin miqdarı yer qabığında kütləcə $7,0\cdot10^{-6}$ %, dəniz suyunda 1,03 *mq/m*³, atmosferdə $2\cdot10^{-3}$ *mq/m*³-dur. C. səpələnmiş elementlərə aiddir (bütün C.-nin yalnız 0,02%-i yataqlarda toplanmış şəkildədir). C. təbiətdə sərbəst halda rast gəlinir. 30-dan çox mineral əmələ gətirir. Əsas filiz mineralı kinovardır HgS. C. mineralları izomorf qatışıqlar şəklində kvarsda, xalsedonda, karbonatlarda, mikada, qurğuşun-sink filizlərində rast gəlinir. Hidrosfer, litosfer və atmosferin mübadilə proseslərində çoxlu miqdarda C. iştirak edir. Filizlərdə C.-nin miqdarı 0,05-dən 6–7%-ədəkdir.

**Xassələri.** C.-nin xarici elektron təbəqəsinin quruluşu $5s^25p^65d^{10}6s^2$; oksidləşmə dərəcəsi +1 və +2; elektrona hərislik 0,19 *eV*; Polinqə görə elektromənfilik 1,9; atom radiusu 0,155 *nm*, kovalent radius 0,149 *nm*, ion radiusu (mötərizədə koordinasiya ədədi göstərilir) $Hg^+$ 0,111 *nm* (3), 0,133 *nm* (6), $Hg^{2+}$ 0,083 *nm* (2), 0,110 *nm* (4), 0,116 *nm* (6), 0,128 *nm* (8). Diamaqnitdir, xüsusi maqnit həssaslığı $78,3\cdot10^{-6}$.

C. otaq temp-runda maye halda olan yeganə metaldır; gümüşü-ağ rənglidir; buxarı rəngsizdir; $t_{ər.}$ –38,87°C, $t_{qayn.}$ 356,58°C; 20°C-də sıxlığı 13545 *kq/m*³; istilikkeçiriciliyi [*Vt/(sm*·K)]: 0,0782 (273,2K), 0,0830 (298,2 K), 0,0947 (373,2 K).

Oksigen və quru hava adi temp-rda C.-ni oksidləşdirmir, lakin UB şüaların təsirindən və yaxud elektron bombardımanı zamanı C.-nin ok-sidləşməsi xeyli sürətlənir. Rütubətli havada C. oksid təbəqəsi ilə örtülür. C. 300°C-dən yuxarı temp-rda oksigenlə və otaq temp-runda ozonla civə oksidinə HgO qədər oksidləşir. C. normal şəraitdə $H_2$ ilə reaksiyaya girmir, lakin atomar hidrogenlə qazşəkilli hidrid HgH əmələ gətirir. Dietil efirində $HgJ_2$ ilə $Li[AlH_4]$-ün qarşılıqlı təsirindən $HgH_2$ alınır. C. quru HCl, HF, $H_2S$, $NH_3$, $PH_3$ və $AsH_3$ ilə 200° C-dən aşağı temp-rda reaksiyaya girmir; HBr, HJ, $H_2Se$, narın xırdalanmış S ilə 18–25°C-də qarşılıqlı təsirdə olur. Halogenlərarası birləşmələr BrCl, JCl, JBr, kükürd halogenidlər ($S_2Cl_2$, $S_2Br_2$), nitrozilxlorid ilə Hg(II) birləşmələri əmələ gətirir. $N_2$, P, As, C, Si, B, Ge ilə reaksiyaya girmir. Duru sulfat və xlorid turşularında həll olmur, *çar arağında*, $HNO_3$ və isti qatı $H_2SO_4$-də həll olur. Halogenlərlə fəal qarşılıqlı təsirdən civə halogenidləri, xalkogenidlərlə reaksiyasından civə xalkogenidləri (HgS, HgSe, HgTe) alınır. C. bir çox metallarla ərintilər – amalqamalar əmələ gətirir. C.-nin *civəüzvi birləşmələri* məlumdur. Bir çox C. birləşmələri uçucudur, işıqda parçalanır. HgO-in $NH_3$ ilə və yaxud $HgCl_2$-in $NaN_3$ ilə reaksiyasından civə(II)azid $Hg(N_3)_2$ (inisiatorlaşdırıcı partlayıcı maddə); $CH_3COOH$-ün HgO ilə 60°C-də qarşılıqlı təsirindən civə(II)asetat $Hg(OCOCH_3)_2$; C.-nin $HNO_3$ ilə 45°C-dən aşağı temp-rda civə(I)nitrat $Hg_2(NO_3)_2$; isti, qatı $HNO_3$ ilə reaksiyasından civə(II)nitrat $Hg(NO_3)_2$; $Hg_2(NO_3)_2$ məhlullarından duru $H_2SO_4$ ilə çökdürülməklə civə(I)sulfat $Hg_2SO_4$; Hg və yaxud HgO-in qatı $H_2SO_4$ ilə qarşılıqlı təsirindən civə(II)sulfat $HgSO_4$ alınır.

**Alınması.** C. əsasən pirometallurji üsulla filiz və konsentratların qaynar laylı, borulu, mufel və s. sobalarda 700–800°C-də oksidləşmə-reduksiya ilə yandırılaraq alınır. Yandırılma zamanı əsas filizdə kinovar şəklində olan C. metala qədər reduksiya olunur:

$$HgS+O_2=Hg+SO_2.$$

Xüsusi təmiz C. almaq üçün civəelektrodlu elektrolizerlərdə dördmərhələli elektrokimyəvi saflaşdırmadan istifadə olunur.

**Tətbiqi. C.** aşındırıcı qələvilərin və xlorun elektrokimyəvi alınmasında maye katod kimi, həmçinin polyaroqraflar

üçün; *civə ventilləri*, qazboşalma işıq mənbələri (*lüminessent* və *civə lampaları*), diffuziyalı vakuum nasosları və nəzarət-ölçü cihazlarının (*termometr, barometr, manometr* və s.) istehsalında və bir çox digər sahələrdə istifadə edilir.

**Ətraf mühitdə.** Metallik C. həyatı üçün çox zəhərli maddədir. C.-nin buxarı və birləşmələri də olduqca zəhərlidir, orqanizmdə toplanır, ağ ciyər toxumalarında asan sorbsiya olunur, qana keçir, C.-nin ionlaradək fermentativ oksidləşməsindən alınan zülal molekulları, çoxsaylı fermentlərlə birləşmələr əmələ gətirir, maddələr mübadiləsini pozur, sinir sistemini zədələyir. C.-nin ekoloji sistemə mənfi təsiri ilk öncə su mühitində özünü göstərir; belə ki, birhüceyrəli dəniz yosunlarının və balıqların həyat fəaliyyəti zəifləyir, fotosintez pozulur, nitratlar, fosfatlar, ammoniumun birləşmələri və s. assimilyasiya olunur. C. buxarları fitozəhərlidir, bitkilərin qocalmasını sürətləndirir.

*Əd.:* Трахтенберг Т.М., Коршун Т.М. Ртуть и ее соединения в окружающей среде. К.,1990.

**CİVƏ AMALQAMASI** – bax *Amalqama.*

**CİVƏ DÜZLƏNDİRİCİSİ** – dəyişən elektrik cərəyanını *civə ventilinin* köməyi ilə sabit cərəyana çevirmək üçün qurğu. C.d., əsasən, düzləndirilmiş elektrik cərəyanını sıfırdan maks. qiymətədək dəyişdirmək (cərəyan şiddətinin nominal qiymətində) tələb olunan sabit cərəyan intiqalları üçün hazırlanır. 20 əsrin 60-cı illərindən daha çox yarımkeçirici düzləndiricilərlə əvəz olunmağa başlamışdır.

**CİVƏ FİLİZLƏRİ** – tərkibindən civənin alınması texniki cəhətdən mümkün, iqtisadi cəhətdən məqsədəuyğun hesab edilən təbii mineral aqreqatları. Mühüm filiz mineralı kinovardır – HgS (86,2%-i Hg). C.f., əsasən aşağı temp-rlu (100–250°C) hidrotermal məhlullarla əmələ gəlir. Layvarı, damar, yuva və ştorkverk formalarında olur. Kvarslaşmış qumdaşı, əhəngdaşı və dolomitlərdə, listvenitləşmə zonalarında, serpentinlərin şistlərlə kontaktında, effuziv və çökmə süxurlarda yerləşir. Ukrayna (Donbas), RF (Çukot y-a, Kamçatka, Saxalin), İspaniya (Almaden və s.), ABŞ (Nyu-Almaden, Sulfur-Bank və s.), İtaliya (Monte-Ampata və s.), Slovakiya (Zlata Banya), Əlcəzair, Meksika, Azərb. (Ağyataq, Levçay, Şorbulaq, Ağqaya, Narzalı və s.) və s. ölkələrdə yataqları var.

**CİVƏ LAMPASI** – *qazboşalma işıq mənbəyi;* iş prinsipi civə buxarındakı elektrik boşalması zamanı, əsasən, spektrin ultrabənövşəyi və görünən oblastlarında optik şüalanma yaranmasına əsaslanır. Civə buxarının təzyiqinə görə C.l.-nın alçaqtəzyiqli (*lüminessent lampa, eritem lampa, bakterisid lampa*), yüksəktəzyiqli (*metallogen lampalar* və s.) və ifrat yüksəktəzyiqli növləri var. İşıqvermə qabiliyyəti 30–70 *lm*-dir. C.l. işıqlandırmada (məs., projektor qurğularında), işıqla surətçıxarmada, həmçinin tibbi məqsədlər və s.-də tətbiq olunur.

**CİVƏ SÜTUNU** – bax *Millimetr civə sütunu.*

**CİVƏ TURBİNİ** – işlək cismi civə buxarı olan turbin. 20 əsrin 40-cı illərində hesab edirdilər ki, civənin bir sıra xassələri (məs., nisbətən aşağı təzyiqlərdə civə buxarının doyma temp-runun yüksək olması) civə-su energetika qurğularında C.t.-nindən səmərəli istifadəyə imkan verir. Lakin C.t. işlək cismin nisbətən baha və zəhərli olduğuna görə geniş yayılmadı.

**CİVƏ VENTİLİ** – civə buxarında müstəqil qövs boşalması baş verən çoxelektrodlu qazboşalma cihazı; birtərəfli keçiriciliyə malikdir. Civə buxarının təzyiqi 1–10 *mPa*-dır. Boşalma kömür, yaxud metal anodda müsbət gərginlik və civə katodda işıqlanan sahələr (elektronlar buraxan katod ləkələri adlanır) olduqda baş verir. C.v.-ndə boşalmanın başverməə anını alışdırıcı elektroda idarəedici impulslar verməklə tənzimləmək olur. C.v.-nin idarəolunma üsuluna görə *iqnitron* və *eksitron* növləri var. C.v. sənaye tezlikli güclü cərəyanları düzləndirmək üçün, həmçinin impuls qurğularında idarəetmə boşalıcısı kimi tətbiq edilir.

**CİVƏ-KVARS LAMPASI** – intensiv ultrabənövşəyi şüalanma mənbəyi olan *civə lampası*. C.-k.l.-nın balonu çətinəriyən şəffaf kvarsdan hazırlanır və yüksək təzyiqlərə qədər civə buxarı və təsirsiz qaz qarışığı ilə doldurulur. Borusunun daxilinə lüminofor çəkilmiş C.-k.l.-ndan işıq mənbəyi kimi, lüminoforsuz C.-k.l.-ndan isə tibbdə işıqla müalicədə istifadə edilir.

**CİVƏ-ÜZVİ BİRLƏŞMƏLƏR** – molekulunda karbon atomu civə atomu ilə birbaşa əlaqəli olan metal-üzvi birləşmə. C.-ü.b.-in çoxu RR′ $Hg_n$RHgX (R,R′ – eyni, yaxud müxtəlif üzvi radikallar; X–Hal, mineral yaxud üzvi turşu qalığı, OH, OR:, SH, SR:, $NR_2$ və s.) tipli Hg(II), yalnız az hissəsi Hg(I) birləşmələri ilə təmsil olunur. $Alk_2Hg$ tipli C.-ü.b. spesifik iyli, rəngsiz maye və yaxud aşağı temp-rda əriyən monomer bərk maddələrdir; üzvi həllediciłərdə həll olur. $Ar_2Hg$ tipli C.-ü.b. bərk maddələrdir, bir çox üzvi həllediciłərdə yaxşı, alifatik karbohidrogenlərdə çətin həll olur. Bir qayda olaraq, $R_2Hg$ birləşmələri suda həll olmur, R flüorlaşmış radikal olduqda istisna təşkil edir. AlkHgX və ArHgX tipli C.-ü.b. adətən kristallik maddələrdir; kiçik molekullu alkil tərkibli birləşmələr uçucudur, ion tipli (X–$NO_3$, $ClO_4$ və s.) birləşmələr istisna olmaqla, suda həll olmur, alifatik karbohidrogenlərdə çətin, polyar üzvi həllediciłərdə həll olur.

C.-ü.b.-i bir qayda olaraq atmosfer oksigeni ilə oksidləşməyə davamlıdır, lakin tərkibində ikili və ya üçlü alkil, allil, benzil olan birləşmələri hava ilə uzun müddət təmasda olduqda oksidləşə bilər. Halogenlərlə, mineral və üzvi turşularla qarşılıqlı təsirdə olur. C.-ü.b.-in termoliz və fotolizindən alınan sərbəst radikalların təbiətindən yaxud digər substratların iştirakından asılı olaraq müxtəlif məhsullar alına bilər.

C.-ü.b. su, spirtlər, karbonil birləşmələri ilə reaksiyaya girmir. C.-ü.b. əvəzetmə, yenidənmetallaşma reaksiyalarına daxil olur. C.-ü.b. merkurilləşdirmə, solvomerkurilləşdirmə, diazot üsulu (Nesmeyanov reaksiyası), karbon, sulfon və sulfin turşularının civətərkibli törəmələrinin parçalanması, həmçinin, elektrokimyəvi sintez, simmetrikləşmə, disproporsiyalaşma, yenidənpaylanma, anion mübadiləsi, desimmetrikləşmə və s. reaksiyaları ilə alınır.

C.-ü.b. yüksəktəmiz metal-üzvi birləşmələrin alınması üçün tətbiq edilir. Bəzi C.-ü.b. funqisid və toxumların dərmanlanmasında istifadə edilir. C.-ü.b. çox zəhərlidir. Bu birləşmələr dəri ilə adsorbsiya edilir, gözü, yuxarı tənəffüs yollarını qıcıqlandırır.

**CİVRİŞ** – İrəvan xanlığının Qırxbulaq mahalında (9.9.1930 ildən Kotayk, 12.10.1961 ildən Abovyan r-nu), Qırxbulaq çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra kəndin azərb. əhalisi qovulmuş, kəndə İrandan, Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir. Az sonra geri qayıdan azərb.-lar kənddə yenidən məskunlaşmışlar. 1905 ildə kəndin azərb. əhalisi erməni daşnakları tərəfindən yenidən qovulmuşdur.





**CİVZƏ**, sızanaq, akne (lat. acne – pozulmuş, yun. akmē – təpə) – müxtəlif dəri səpmələrinin ümumiləşdirilmiş adı; çox vaxt piy vəzilərinin funksiyasının pozulması ilə əlaqədar olur. C.-nin bir neçə növü ayırd edilir. A d i, yaxud g ə n c l i k C.-ləri cinsi yetkinləşmə dövründə əmələ gəlir və əsasən üzdə, sinədə, kürəkdə yerləşir. Ölçüsü noxud dənəsi böyüklüyünə qədər olan çəhrayı düyüncük şəklindədir, bəzən piy tıxacları ilə dolu olur, tez-tez irinləyir; onların əmələgəlməsində hormonal dəyişikliklərin, infeksiyanın, irsi meyilliliyin rolu vardır. Q ı r m ı z ı və ya ç ə h r a y ı C. çox vaxt yaşı 40-dan yuxarı olan qadınlarda əmələ gəlir və üzün dərisində kiçik damarların dayanıqlı genişlənmələri (teleangiektaziyalar), bəzən də irinləyən qırmızı düyüncüklərin meydana çıxması ilə səciyyələnir. P e ş ə və d ə r m a n C.-ləri neft məhsulları ilə təmasda olduqda, yod, brom, hormonal və bəzi başqa preparatların qəbulu nəticəsində əmələ gəlir. M ü a l i c ə s i: xarici – çalxalamalar, mazlar, spirtli sürtmələr; ümumi – vitaminlər, antibiotiklər, hormonlar, fizioterapiya.

**CİYA** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Şırdan bölgəsinin Yuxarı Tarım kəndistanında, Şırdan qəs.-ndən 62 *km* şm.-q.-dədir.

**CİYARAN** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Hir kəndistanında, Ərdəbil ş.-ndən 20 *km* c.-ş.-dədir.

**CİYƏN**, suqamışı (Typha) – ciyənkimilər fəsiləsindən birləpəli bitki cinsi. Birevli, çoxillik su və ya bataqlıq otlarıdır. Hünd. 3 *m*-dən 4 *m*-ədək olur; uzun və yoğun sürünən kökümsovu var. Yarpaqları, əsasən, enli, yaxud ensiz xətvarı olub, gövdənin əsasından çıxır. Çiçəkləri xırda, ayrıcinsiyyətlidir; erkəkcikli çiçəkləri çılpaq, dişicikli çiçəklərində isə çoxlu nazik və uzun tükcükdən ibarət çiçəkyanlığı var; gövdənin ucunda 2 sıx, əsasən, silindrik çiçək qrupunda toplanmışdır. Meyvəsi fındıqcadır. Yer kürəsində təqr. 20-yədək növü yayılmışdır. Avropa, Qafqaz, Sibir və Orta Asiyada bitən bəzi növləri bəzən böyük cəngəlliklər əmələ gətirir. Azərb.-da 7 növü var. C.-dən yem komponenti, tikinti materialı, həmçinin kağız istehsalında xammal kimi istifadə edilir. Yarpaqlarından səbət, həsir, kəndir və s. toxunur. Kökümsovu nişasta ilə zəngin olduğundan ondatra, bataqlıq qunduzu və s. üçün yaxşı yemdir. Bəzi növləri çəltik sahəsinin alağıdır. Çiçəkaltlığı tükcüklərindən sellüloz, kinolentlər alınmasında; heyvan yunu ilə qarışığından fetr istehsalında istifadə edilir.

Laksman ciyəni (Týpha laxmánnii).





Cizak şəhərindən görünüş.

**CİYƏRBƏND** – Tür.-da e.ə. 4/3 əsrlər – eramızın 12 əsrində mövcud olmuş və Amudərya çayının indiki məcrasından 3 *km* məsafədə, Darqanata ş.-dən 50 *km* şm.-da yerləşən şəhər yeri. Ciyərbənd (Cigərbənd, Cəfərbənd) ş. orta əsr ərəb müəllifləri tərəfindən qeyd olunur. C.-in yalnız içqalası qalmışdır; burada 1974–76 illərdə O.A. Vişnevskaya tərəfindən qazıntılar aparılmışdır. Qala, ehtimal ki, oval planlı olmuş, təqr. e.ə. 4/3 əsrlərdə tikilmişdir; divarların qalınlığı 6,5 *m*-dəkdir, dairəvi bürcləri var idi; eramızın 5–7 əsrlərində qismən bərpa edilmişdi. 9 əsrdə qədim qalanın dağıntılarının yerləşdiyi təpədə orta əsr şəhərinin içqalası tikilmişdir. İçqalada bir neçə bina, məscid və minarə qalıqları tədqiq olunmuşdur. 9–11 əsrlərə aid unikal tikili "od məbədi" kimi şərh edilir; böyük otağın mərkəzində 45 *sm* hünd.-də kərpic döşəmə qalmışdır. Döşəmənin cənub tərəfində kənarları yapma yarımsütunlarla bəzədilmiş dairəvi taxça yerləşir. Kiçik otağın mərkəzində oyuğu olan antropomorf gil ocaq var. Tədqiqatçıların fikrincə, "müqəddəs od" taxçanın qarşısındakı xüsusi qabda közərir, dini mərasimlər zamanı isə antropomorf ocaqda qalanırdı. Tapıntılar arasında 200-dən çox bütöv qab, orta əsr içqala divarının altındakı qədim qalanın yanmış anbarında aşkar olunmuş keramika, tunc ləyən və küp, hicri 406 ilə (1016 il) aid dinar və s. var.

**CİYƏRSİZ SALAMANDRLAR** – bax *Su salamandrları.*

**CİZAK** – Özbəkistanın ş.-ində şəhər. Cizak vil.-nin mərkəzi. Əh. 159,5 min (2007). Sanzar çayı sahilində, 460 *m* hünd.-də, Böyük Özbəkistan yolu üzərindədir. Nəql. qovşağı.

Orta Asiyanın ən qədim ticarət məskənlərindən birinin yerində meydana gəlmişdir. 8 əsrdə divarla əhatələnmişdir (dəfələrlə bərpa edilmişdir). Ərəb istilasınadək (8 əsr) Ustruşana tarixi vil.-nin iri şəhəri idi. 16 əsrdən *Buxara xanlığının*, sonra *Buxara əmirliyinin* tərkibində olmuşdur. Orta əsr qalalarından Bizlərtəpə, Urdatəpə və Qalatəpənin (11–12 əsrlər) xarabalıqları, qədim hamamlar (16–17 əsrlər), mədrəsə (1860) qalmışdır.

Pedaqoji (1974) və politexnik (1992) in-tlar; dünyaşünaslıq muzeyi, musiqili-dram teatrı (1950) var.

Vil.-in iri sənaye və mədəniyyət mər-

kəzidir. Yeyinti (ət kombinatı, süd z-du), yüngül (trikotaj, tikiş və s.) sənaye, k.t. maşınqayırması müəssisələri fəaliyyət göstərir. Polietilen örtüklər, qaz ötürülməsi üçün polietilen borular, tikinti materialları (o cümlədən irriqasiya kanalları üçün üzlük və s.) istehsal edilir. Evtikmə kombinatı; akkumulyator, pambıqtəmizləmə z-dları və s. fəaliyyət göstərir.

Ş.-in yaxınlığından Daşkənd–Cizak–Buxara qaz kəməri keçir.

**CİZAK VİLAYƏTİ** – Özbəkistanda vilayət. Sah. 21,2 min $km^2$. Əh. 910,5 min (2005). 12 tumanı (r-nu), 6 şəhəri, 4 qəs. var. Mərkəzi Cizak ş.-dir.





Cizak vilayəti. Nurata silsiləsi.

**Təbiət**. Ərazinin c. hissəsində Türküstan silsiləsinin q. qolları (Malquzor silsiləsi), mərkəzi, şm. və şm.-ş. hissələrində *Ac çöl* və *Qızılqum*, q.-ində Nurata silsiləsinin qolları yerləşir. Ən yüksək nöqtələr (4000 *m* və daha çox) c.-da və q.-dədir (2165 *m*, Həyatbaşı d.). İqlimi kəskin kontinentaldır. Orta temp-r yanvarda 1–4°C, iyulda 26–28°C-dir. İllik yağıntı 250–450 *mm*. Mühüm çayları: Zaamin, Sanzar və s. Boz torpaqlar, dağlıq sahədə çimli qonur torpaqlar üstündür. Düzənlikdə səhra bitkiləri yayılmışdır. Çay sahillərində tuqaylar, dağlarda meşələr, biçənəklər və otlaqlar var. Heyvanları: sünbülqıran, ərəbdovşanı, karca, çaqqal, canavar, tülkü, porsuq və s.

**Təsərrüfat.** Resp.-nın mühüm aqrar-sənaye regionudur. ÜRM-in strukturunda k.t.-nın həcmi 40,8%, nəql. və rabitə – 7,7%, tikinti – 7,6%, sənaye – 6,7%, ticarət və ictimai iaşə – 6,7% təşkil edir (2010). Trikotaj və corab məmulatları; un, qarışıq yem; qələvi akkumulyatorların istehsalı üzrə Mərkəzi Asiyada aparıcı yer tutur.

Akkumulyator batareyaları, plastik kütlə məmulatları, polietilen boru və pərdə, xalq istehlakı malları, pambıq və ipək parça, trikotaj, corab məmulatları, unüyütmə və yağ istehsalı üzrə ixtisaslaşmış müəssisələr fəaliyyət göstərir. Bağçılıq, üzümçülük, ipəkçilik, quşçuluq, qaragül qoyunçuluğu, ətlik heyvandarlıq inkişaf etmişdir; pambıq, buğda, meyvə (yemiş, qarpız), tərəvəz, yemlik bitkilər yetişdirilir. Əsas nəql. növü avtomobildir (4071,8 *km*). D.y.-unun uz. 250 *km*-dir.

**CİZAN** – Səudiyyə Ərəbistanında əyalət. Sah. 11,7 min $km^2$. Əh. 1,35 mln. (2010). Mərkəzi Cizan ş.-dir.

**CİZƏ**, ə l - C i z ə (الجيزة) – Misirdə şəhər. Qahirənin c.-q. şəhərətrafı. Cizə mühafazasının inz. m. Əh. 3,6 mln. (2012; Əhalisinin sayına görə Qahirə və İsgəndəriyyə şəhərlərindən sonra ölkənin üçüncü şəhəri). Nil çayının sol sahilində port. Nəql. qovşağı; Metro xətti ilə Qahirəyə bağlanır. Turizm mərkəzidir.

C. yaxınlığında fironların IV sülaləsinin nümayəndələri *Xeops* (Xufu), *Xefren* (Xafra) və Mikerinin (Menkaurun) e.ə. 3-cü minilliyin 1-ci yarısında tikilmiş və ellinizm dövrü ədəbiyyatında Dünyanın yeddi möcüzəsi sırasına daxil edilmiş əzəmətli Memfis nekropolu qalmışdır. Piramidalar divarlarla əhatələnmiş sahələrin arasında yerləşir, onların ətrafında fironun heykəlləri olan xatirə (anım) məbədləri, kiçik piramida-peyklər və əyanların dəfn edildiyi *mastablar* var. Hər üç piramida (içərisindəki dəhlizlər, şaxtalar və dəfn kameraları daxil olmaqla) şm.-c. oxu üzrə planlaşdırılmış, kənarları ilə dünyanın dörd baş cəhətinə istiqamətlənmiş, əhəngdaşı bloklarından inşa olunmuş və kip birləşdirilmiş daş lövhələrlə üzlənmişdir. Girişi şm.-dan olmuşdur. C.-də qazıntılar 1815 ildən aparılır. Əsas tikili olan Böyük piramida və ya "Xeopsun üfüqü" (memar Xemiun; çəkisi 2,5 *t*-dan 30 *t*-dək olan daş bloklardan quraşdırılmışdır; kvadrat oturacağın tərəfləri təqr. 230 *m*-dir; ilkin hünd. 146,6 *m*, hazırda 137 *m*-ə yaxındır; dağılmış üst hissəsinin yerində kiçik platforma yaranmışdır) iki məbədlə (yuxarı və aşağı məbəd uz. 800 *m* olan döşənmiş yol vasitəsi ilə birləşir) və digər tikililərlə ansambl təşkil edir. Xefren piramidası nisbətən hündür sahədə yerləşir, lakin ölçüsü daha kiçikdir (oturacağın tərəfləri 215,25 *m*, hünd. 143,5 *m*-dir). Aşağıda, yolun yaxınlığında yerləşən və uzanmış şiri xatırladan qayadan (uz. 57 *m*, hünd. 20 *m*) inşaatçılar tərəfindən məbədin və piramidanın simvolik gözətçisi – firon Xefrenin *sfinks* surətində, "Böyük sfinks" adlandırılan nəhəng heykəli yonulmuşdur. Mikerin piramidasının (oturacağın tərəfləri 108,4 *m*, ilkin hünd. 66,5 *m*-dir) aşağı hissəsinə qranitdən, yuxarı hissəsinə isə ağ əhəngdaşından üz çəkilmişdir. C. piramidaları haqqında antik müəlliflər Herodot, Siciliyalı Diodor, Strabon, Böyük Plini məlumat vermişlər. C. nekropolu *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.



Cizə şəhərindən görünüş.

Piramidaların yerləşdiyi sahədə Qədim Misir əsilzadələrinin dəfn olunduğu 7 mindən artıq sərdabadan ibarət nekropol var. Qədim padşahlıq dövründə (e.ə. təqr. 2800 – təqr. 2250) Misirin təsərrüfatının, iqtisadi və mədəni həyatının öyrənilməsi üçün C. abidələri qiymətli materiallarla zəngindir. Sərdabalardan əmək alətləri, silahlar, çaxmaqdaşından bıçaqlar, dulusçuluq məmulatı, heykəltəraşlıq əsərləri və s. tapılmışdır. Bəzi sərdabalarda mərhumun həyatından səhnələr təsvir olunan barelyeflər, həmçinin heroqlif yazılar aşkar edilmişdir.

Nekropolun yaxınlığında piramidaların tikintisində iştirak edənlərin qəsəbəsi yerləşirdi: mərkəzləşdirilmiş taxıl anbarı ilə birlikdə inzibati bina, müntəzəm planlı küçələri və kərpic divarlarla biri-birindən ayrılmış "qalereya" məhəllələri olan hasarlanmış sahə, ağac dirəklər üzərində hipostil zal, nəzarətçi evləri, misgər emalatxanası, mətbəxlər, çörəkxanalar, anbarlar və s. tikililər,o cümlədən 1600–2000 işçi üçün nəzərdə tutulmuş "yataqxanalar" və s. Ehtimal ki, qəsəbədə dulusçuluq emalatxanası da var idi. Burada böyük miqdarda kül, keramika, mal-qara, donuz, balıq sümükləri, daş dəstəciklər və dəyirmandaşıları, çörək bişirmək üçün saxsı formalar, pivə üçün qablar, gil iplikbəndlər, çaxmaqdaşından bıçaq, balıq tutmaq üçün mis qarmaq, təqr. 70 saxsı muncuqdan ibarət boyunbağı aşkarlanmışdır. Yaşayış sahəsində tək-tək uşaq qəbirlərinə rast gəlinir, qəsəbənin xaricində fəhlələrin qəbiristanı yerləşir. E.ə. 1-ci minilliyə, həmçinin Roma və xristianlıq dövrünə aid qəbirlər var.



Cizə. Böyük Misir piramidaları.

Şəhərdə Qahirə Un-ti (1908; 1924 ildən C.-yə köçürülmüşdür), Ali Tətbiqi Sənətlər məktəbi, Oftalmologiya ETİ və s. var. Milli muzey; zoopark fəaliyyət göstərir. Misir kinostudiyalarının çoxu C.-də yerləşir.

C. buğda ticarətinin iri mərkəzidir. Metallurgiya, avtomobil, radiotexnika, kimya, toxuculuq, ayaqqabı, tütün, yeyinti (o cümlədən pivə istehsalı), ağac emalı, sement sənayesi müəssisələri fəaliyyət göstərir.

**CİZGİ KİNOSU** – bax *Animasiya kinosu.*

**CİZGİLƏMƏ CİHAZI** – çertyojda karandaş və ya tuşla ox xəttinə nəzərən müəyyən bucaq altında, bir-birinə paralel xətlər (cizgilər) çəkmək üçün alət. Cizgilər arasındakı məsafə 0,1 *mm*-dən 10 *mm*-ədək götürülür.

**CİZYƏ** (جزيه) – Ərəb xilafətində, sonralar isə digər müsəlman ölkələrində toplanılan can vergisi. İlk vaxtlar qeyri-müsəlman əhalidən (zimmi) dövlətin xeyrinə toplanırdı. Quranda adı çəkilir (9: 29). 7 əsrdə hələ *xəracdan* seçilmirdi; 8 əsrin əvvəllərində fərdi məsuliyyətli xüsusi vergi kimi müəyyənləşdirildi. C. həddi-büluğa çatmış kişilərdən (qocalar, əlillər, dilənçilər və qullar istisna olmaqla; 8 əsrin əvvəllərinədək rahiblər də C.-dən azad idilər) toplanırdı. C., əsasən, pul, bəzən də natura (paltar, heyvan, taxıl və s.) şəklində və hissə-hissə ödənilirdi. 11–13 əsrlərdə müsəlman dövlətlərinin əksəriyyətində C. ödənilməsi üçün başqa dinə mənsub olan icmaların kollektiv məsuliyyəti bərpa edildi. C.-nin miqdarı vergi ödəyicilərinin əmlakından asılı olurdu. Varlılar ildə 48 (ayda 4), ortagəlirli şəxslər 24 (ayda 2), aşağı təbəqədən olanlar isə 12 (ayda 1) dirhəm C. verməli idi. Bu bölgü 15 əsrədək saxlanıldı; sonralar pulun dəyərinin aşağı düşməsi ilə əlaqədar C.-nin həcmində vaxtaşırı dəyişikliklər edilirdi. Osmanlı imperiyasında C. 18 əsrin sonlarınadək mövcud idi.

**CLİPPER** – 1) verilənlər bazasının idarəetmə sistemi. Tərkibinə sürətli proqramlar kompilyatoru, əlaqələr redaktoru, menyu stilində istifadəçi interfeysinə malik interaktiv simvol sazlayıcısı, sistem funksiyalarının obyekt modullarının geniş kitabxanası, həmçinin bir sıra xidməti proqramlar (utilitlər) daxildir. Digər kompilyatorlarla (məs., C və Assembler) yaradılmış obyekt modullarını da tərtib etməyə imkan verən genişləndirmə vasitələrinə malikdir. *dBase* sistemlərindən fərqli olaraq, icra sistemi kompilyatorlarla həyata keçirilir. 2) Rəqəmli məlumatları şifrələmək üçün mikrosxem.

**COBERTİ** (Gioberti) Vinçenso (5.4. 1801, Turin – 26.10.1852, Paris) – italyan filosofu, publisist, dövlət xadimi, Risorcimentonun başlıca ideoloqlarından biri. Turin Un.-tinin ilahiyyət fakültəsini bitirmişdir (1823). 1825 ildən keşiş, 1826 ildən Pyemontda saray kapellanı olmuşdur. Gizli cəmiyyətlə əlaqədə şübhəli bilinərək 1833 ildə həbs edilmiş və Pyemontdan sürgün edilmiş, Parisdə və 1834–45 illərdə əsas əsərlərinin buraxıldığı Brüsseldə yaşamışdır. Onun İtaliyanın milli dirçəlişi və papanın başçılığı altında dövlətlər federasiyasında birləşməsi proqramından ibarət "İtalyanların mənəvi və sivil birinciliyi haqqında" ("Del primato morale e civile degli Italiani", 1843) və "Müasir yezuit" ("Il gesuita moderno", vol. 1–7, 1846–47) əsərləri, həmçinin dini-fəlsəfi kitabları çox geniş populyarlıq qazanmışdı. İtaliyaya zəfərlə qayıdışı C.-nin Pyemontun deputatlar palatasına deputat seçilməsi (1848), onun prezidenti olması ilə başa çatmışdı; 1848 ilin dekabrından 1849 ilin fevralınadək nazirlər kabinetinə başçılıq etmişdir. Avstriya ilə müharibədə Pyemontun məğlubiyyətindən (1849) sonra Parisdə könüllü sürgündə olmuş, başlıca fəlsəfi əsəri "Protologiya"nın ("Della Protologia"; tamamlanmamışdır, 1857 ildə nəşr edilmişdir) üzərində işləmişdir. "İtaliyanın sivil bərpasına dair" ("Del rinnovamento civile d'Italia", vol. 1–2, 1851) siyasi traktatında gələcəyin İtaliyası unitar dünyəvi dövlət kimi təsəvvür edilmişdir.

"Fəlsəfənin öyrənilməsinə giriş" ("Introduzione allo studio della filosofia", vol. 1–4, 1840) əsərində dində (protestantizm) və fəlsəfədə "psixologizm"in tənqidi ilə çıxış edən C. xristian platonizmi ənənəsinə əsaslanaraq "ontologizm" prinsipini ona qarşı qoymuşdur. C.-nin fəlsəfi sisteminin mərkəzində yaratma ideyası durur, onun düsturu: "Var olan mövcud olanı yaradır" (L'Ente crea l'esistente). Var olanın (yəni Tanrının) mövcudiyyətlə eyniləşdirilməsi panteizmə, yaxud hətta materializmə aparıb çıxarır. "İkinci yaradıcı tsikl" insanın mənən başqa şəklə düşməsi prosesi və onun Tanrıya yetməsidir. C.-nin əsərləri Vatikan tərəfindən "Yasaqlanmış kitablar indeksi"nə daxil edilmişdi. C. *Centilinin* aktual idealizminə və M.F. Şakkanın dini spiritualizminə C.-nin təsiri olmuşdur.

Əsərləri: Epistolario. Firenze, 1927-1937. Vol. 1-11; Edizione nazionale delle opere... Mil.; Padova, 1938-1977. Vol. 1-31.

*Əd.:* Giamonna G. La problematica filosofica e pedagogica di V.Gioberti. Catania, 1973.

**COBOL** [CO(mmon) B(usiness)-O(riented) L(anguage)], kobol – prosedur-yönlü proqramlaşdırma dili. 1961 ildə Kodasil (COnference on Date SYstems Languages) assosiasiyası tərəfindən yaradılmışdır. İqtisadiyyatda və idarəetmədə böyükhəcmli informasiyaların işlənməsi, məntiqi təhlili və sintezinə aid məsələlərin proqramlaşdırılması üçün nəzərdə tutulmuşdur. 1960–70-ci illərdə ABŞ-da ən çox (80%) istifadə edilən proqramlaşdırma dili olmuşdur. Fayllarla işləmək üçün geniş imkanlarının olması ilə fərqlənir.

**COBS** Stiven Pol (ing. Jobs Paul Steven, 24.2.1955, San-Fransisko – 5.10.2011, Palo-Alto) – amerikan ixtiraçısı və biznesmeni. 1976 ildə yaradılan Apple Computer şirkətinin həmtəsisçisi, 1980 ildə korporasiyaya çevrildikdə isə onun direktorlar şurasının sədri (1980–84 illərdə) olmuşdur. 1970-ci illərin sonlarında C. "Apple"nin həmtəsisçisi Stiv Voznyak, Mayk Markkul və başqa həmkarları ilə birlikdə "Apple II" – fərdi kompüterlərin kommersiya baxımından uğurlu seriyalarından birini layihələndirmiş, işləyib hazırlamış və satışa buraxmışdır. "Apple"nin 1984 ildə istehsal etdiyi "Macintosh" kompüterində ilk dəfə tətbiq olunmuş istifadəçinin qrafik interfeysi və "siçan" manipulyatoru, daha sonra əlavələr interfeysi üçün standarta çevrildi. Rəhbərlikdəki çəkişmələr üzündən 1985 ildə "Apple"ni məcburən tərk edən C. ali məktəblər və biznes üçün kompüter platforması işləyib hazırlayan "NeXT Computer" şirkətinin əsasını qoydu. 1996 ildə "Apple" "NeXT"i aldıqdan sonra C. yenidən özünün yaratdığı şirkətə qayıtdı və 1997–2011 illərdə onun baş icraçı direktoru oldu. 1986 ildə C. "Lucasfilm" kompüter qrafikası bölməsini ("Pixar Animation Studios" adlandırıldı) aldı və 2006 ildə "Disney" şirkətinə satılanadək onun baş icraçı direktoru, həmçinin əsas səhmdarı (50,1%) oldu. C. "Disney" şirkətinin direktorlar şurasının üzvü (2006–11) və ən iri səhmdarı (səhmlərin təxm. 7%-i ilə) idi. Bu dövrdə çəkilmiş "Superailə" (2004); "Ratatuy" (2007); "VALL-I" (2008) və s. tammetrajlı annimasiya filmləri "Oskar" mükafatına layiq görülmüşdü. C.-un müəllifi, yaxud həmmüəllifi olduğu 200-dən çox ixtira (kompüterlər, səs qurğuları, klaviaturalar, qidalandırıcı adapterlər və s.) patent almışdır.



**COCKAN** – Tiflis qub.-nda Borçalı qəzasının Loru nahiyəsində (9.9.1930 ildən Allahverdi, 19.9.1969 ildən Tumanyan r-nu) azərb.-ların yaşadığı kənd.

**COCUQ MƏRCANLI** – Azərb. Resp. Cəbrayıl r-nunda kənd. Cocuq Mərcanlı ə.d.-nin mərkəzi. R-n mərkəzindən 35 *km* ş.-də, Araz çayının sol sahilində, düzənlikdədir. Əh. 1317 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, taxılçılıq, üzümçülük, baramaçılıqla məşğul olurdu. Orta məktəb, kitabxana, klub, tibb məntəqəsi var idi.

**COD SU** – bax *Suyun codluğu.*

**CODARET** – Gürc.-nın Msxeta-Mtianetiya mahalının Msxeta bələdiyyəsi ərazisində azərb.-ların yaşadığı kənd. Msxetadan 30 *km* şm.-ş.-də yerləşir. Əh. 320 (2002); əkinçilik və maldarlıqla məşğuldur. Məktəb gürcü dilindədir.

**CODHPÚR**, Marvar – Hindistanın şm.-q.-ində, Racəsthan ştatında şəhər. Əh. 959,6 min (2007). Marvar səhrasının kənarında yerləşmişdir. Nəql. qovşağı.

1459 ildə racputların Rathor sülaləsindən olan maharacə Rao Codha tərəfindən salınmışdır. Racəliyin paytaxtı idi. 1818 ildə B. Britaniyanın Hindistandakı mülklərinə qatıldı. Hindistan müstəqillik qazandıqdan sonra Racəsthan ştatının tərkibindədir (1949 ildən).

Şəhərdəki təpənin zirvəsində qalın divarları və 7 darvazası olan 1459 ildə əsası qoyulmuş, 16–18 əsrlərdə tamamlanan Mehranqarh qalası yerləşir (Hindistanda ən böyük qalalardan biri). Daxilində maharacələrin sarayları (o cümlədən Moti-Mahal, 1595–1619), zərif naxışlı memarlıq detalları və çoxlu heykəltəraşlıq bəzəkləri ilə seçilən, Çamunda – Mataci məbədi (15 əsr) saxlanılmışdır. Təpənin ətəyində, şəhərin düzən hissəsində təqr. 10 *km* uz.-da divarla (1532–73) əhatə olunmuş 16–19 əsrlərə aid məbədlər (divar rəsmləri, 18–20 əsrin əvvəlləri), naxışlarla bəzədilmiş yaşayış evləri, C. hökmdarlarının mərmər kenotafı və memorialı (Casvand-Thada, 1899), Can-Mandi örtülü bazarı yerləşir. Möhtəşəm Umayd Bhavan sarayı (1929–44, memar Q.V. Lankaster; hazırda maharacənin iqamətgahı, mehmanxana və muzeydir) özündə hinduist memarlığı və ar deko üslubu elementlərini birləşdirir. C.-u *brahmanların* evlərinin rənginə görə "mavi şəhər" adlandırırlar. Mərkəzi quraq zonanın ETİ (1959), un-t (1962); toxuculuq, metal emalı, kimya-əczaçılıq sənayesi müəssisələri fəaliyyət göstərir. Bədii sənətkarlıq inkişaf etmişdir. C.-un şm. qurtaracağında qala, məbəd xarabalıqları, qədim Mandora şəhərinin bağları var. C. yaxınlığındakı qədim Osian şəhərində 8–11 əsrlərə aid məbədlərin qalıqları saxlanılır.



Codhpur şəhərindən görünüş.

**CODRELL-BENK RADİOASTRONOMİYA RƏSƏDXANASI** – Mançester Un-tinin (Böyük Britaniya) elmi tədqiqat müəssisəsi. 1945 ildə Mançesterdən 32 *km* c.-da yaradılıb. Əsas aləti mütəhərrik parabolik antenalı B. Lovell adına 76-metrlik radioteleskopdur (1957 ildə qurulmuşdur). Başqa alətləri: oval antenası (26×32 *m*) olan "Mark-2" radioteleskopu, Kanar a.-larında yerləşdirilmiş kiçik ölçülü 14 radioteleskop-"rupor"dan ibarət sistem [Very Small Array ("Çox kiçik antena")]. Pulsarların, kvazarların, aktiv qalaktikaların radiomüşahidələri, relikt şüalanmanın öyrənilməsi, astronomik cihazqayırma, süni kosmik obyektlərin radiolokasiya izlənməsi, yerdənkənar mədəniyyətlərin axtarışı tədqiqatların əsas istiqamətləridir. C.-B.R.R. interferometrik müşahidə üsullarının inkişafında böyük rol oynamışdır. 217 *km*-ə qədər məsafədə paylaşdırılmış 7 radioteleskopdan (o cümlədən B. Lovell ad. və "Mark-2" teleskoplardan) ibarət Britaniyanın MERLİN radiointerferometrik sisteminin mərkəzidir.

**CÓFFRİ** (Joffrey) Robert (əsl adı və soyadı – Abdulla Caffa Ənvər Bəy Xan, Ənvər Bəy Khan) (24.12.1930, Sietl – 25.3.1988, Nyu-York) – Amerika balet artisti, xoreoqraf, pedaqoq. 1941 ildən Sietldə M.E. Uellsdən dərs almışdır. 1950 ildən Nyu-Yorkda, Amerika baleti məktəbində A.N. Obuxov və P.N. Vladimirovdan klassik rəqsi, Ali Səhnə Sənəti Məktəbində M. O'Donnel və G. Şurrdan *modern rəqsi* öyrənmişdir. 1949–50 illərdə R. *Petinin* "Paris baleti"ndə, 1951–53 illərdə M. O'Donnelin Amerika truppasında işləmişdir. 1948 ildən estradada çıxış etmiş, özü üçün, M. *Ramberin* şirkəti (1955, London) və b.-ları üçün rəqslər qurmuşdur. 1952 ildə Nyu-Yorkda "Amerikan balle senter" studiyasını və 1954 ildə studiyanın əsasında "Robert Coffri balle konsert" truppasını təşkil etmişdir. C. Fildin musiqisi əsasında "İlahələrin rəqsi" və F. Pulenkin musiqisi əsasında "Bal-maskarad" (hər ikisi 1954), A. Şönberqin musiqisi əsasında "Ay Pyerosu" (1955) tamaşalarını hazırlamışdır.

1956 ildə C. Arpino ilə birlikdə "Robert Coffri tietr balle" truppasını yaratmış (truppa bir neçə dəfə adını dəyişmişdir, 1966 ildən "Siti senter Coffri balle", 1977 ildən "Coffri balle"; 1982 ildən Los-Ancelesdə, 1995 ildən Çikaqoda), L. Harrisonun musiqisi əsasında "Qamelan" (1962) baletini, K. Sirkusun musiqisi əsasında "Astarta" (1967) rok-baletini, R. Vaqnerin musiqisi əsasında "Xatirələr" (1973) baletini səhnəyə qoymuşdur. Sonralar baletmeysterlikdən uzaqlaşaraq, pedaqoq və bədii rəhbər işləmiş, müasir xoreoqrafları (T. Tarp, A. Eyli, U. Forsayt) teatra dəvət etmişdir. 1910–30-cu illərin repertuarlardan çıxmış əfsanəvi baletlərinin tamaşaları [K. Yossun ("Yaşıl masa", F. Koen, 1967), L.F. Myasinin ("Parad", E. Sati, 1973), V.F. Nijinskinin ("Müqəddəs bahar", İ.F. Stravinski, 1987) və b.] truppanın ən böyük uğurlarından olmuşdur.



B. Lovell adına və "Mark-2" radioteleskopları.

**COĞANBOZORG** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Mehranrud kəndistanında, Bostanabad qəs.-ndən 12 *km* c.-q.-dədir.

**COĞANKİÇİK** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Ucan kəndistanında, Bostanabad qəs.-ndən 9 *km* c.-dadır.

**COĞRAFİ ATLAS** – Coğrafi xəritələr toplusu. Bax *Atlas* (coğrafi).

**COĞRAFİ ENLİK** – bax *Coğrafi koordinatlar.*

**COĞRAFİ XƏRİTƏLƏR** – Yer səthinin müstəvi üzərində kiçildilmiş, ümumiləşdirilmiş, riyazi müəyyənləşdirilmiş təsviri (modeli); müxtəlif təbii obyektlərin və ictimai hadisələrin yerləşməsini, vəziyyətini və əlaqəsini qəbul edilmiş şərti işarələr sistemi vasitəsilə göstərir. C.x.-in əsas məzmunu coğrafi sistemlərin, onların komponentlərinin, həmçinin onlarda baş verən dinamik proseslərin keyfiyyət və

kəmiyyət xarakteristikalarından, qarşılıqlı əlaqələrindən ibarətdir. C.x. aşağıdakı xüsusiyyətlərə malikdir: 1) C.x.-in xüsusi riyazi qanun (*kartoqrafik proyeksiyalar*) əsasında tərtib edilməsi təsvir olunan obyektlərin vəziyyəti, ölçüsü və forması haqqında onlardan düzgün məlumat alınmasına imkan verir; 2) xəritələrin tərtibində şərti işarələrin tətbiq edilməsi Yer səthinin istənilən miqyasda kiçildilməsinə, horizontalların köməyi ilə relyefin təsvirinə imkan yaradır; 3) xəritələrin tərtibində onun mövzusuna, miqyas imkanına uyğun olaraq, təsvir edilən obyektlərin ən mühümləri seçilir və ümumiləşdirilir (kartoqrafik ümumiləşdirmə).

C.x. məzmununa, miqyasına və ərazi əlamətlərinə görə təsnif edilir; ümumcoğrafi, tematik və xüsusi xəritələrə ayrılır. Ümumcoğrafi xəritələrdə Yer səthi onun üzərində olan obyektlərin əsas elementlər məcmusu (relyef, hidroqrafiya, meşələr, bataqlıqlar, qumlar, yaşayış məntəqələri, sosial-mədəni obyektlər, yollar şəbəkəsi, sərhədlər və s.) əks olunur. Tematik xəritələr geosistemin ayrı-ayrı komponentlərinə, hər hansı müəyyən mövzuya (geol., iqlim və s.) həsr olunur və üç əsas sinfə bölünür: 1) fiziki-coğrafi xəritələr; 2) sosial-iqtisadi xəritələr (əhali və xidmət, təsərrüfat və infrastrukturlar, mədəniyyət, siyasi-inzibati, tarixi); 3) ekoloji xəritələr. Xüsusi xəritələr konkret texniki məsələlərin (tədris, naviqasiya, kadastr, layihə və s.) həlli üçün nəzərdə tutulur. C.x. əhatə dairəsinə görə fərqlənir: dünyanın, yarımkürələrin, materiklərin, okeanların, dövlətlərin xəritələri və s. Adətən C.x.-in miqyasa görə də bölgüsü aparılır (irimiqyaslı, ortamiqyaslı, xırdamiqyaslı xəritələr), lakin belə bölgünün sərhədləri şərtidir və ayrı-ayrı dövlətlərdə fərqlidir. İrimiqyaslı ümumcoğrafi xəritələrə *topoqrafik xəritələr* deyilir. C.x. analiz-sintez səviyyəsinə görə analitik (bunlarda təbiətin, əhalinin, iqtisadiyyatın hər hansı bir elementi, yaxud hətta onların xüsusiyyətlərindən biri verilir); kompleks [bunlarda qarşılıqlı əlaqədə olan hadisələrin bir neçəsi (məs., təzyiq, külək və yağıntı) eyni zamanda göstərilir]; sintetik (bunlarda obyektin, ya da hadisənin inteqral xarakteristikası əks etdirilir; məs., iqlim tipləri xəritəsi) olur. Daha böyük ümumiləşdirmə dərəcəsi hadisəni vahid bütöv kimi xarakterizə edən sintetik xəritələrdə müşahidə edilir. Kartoqrafiyanın şərti işarələri obyektlərin kəmiyyət və keyfiyyət xarakteristikasını (məs., meşənin növləri, avtomobil yollarının örtüyü və eni, bataqlıqların keçilə bilinməsi), insanın görə bilmədiyi obyektləri (okeanın dib relyefi, böyük dərinliklərdə yer qabığının quruluşu və s.), hiss orqanlarının bilavasitə qavraya bilmədiyi təbii hadisələri (maqnit meyli, ağırlıq qüvvəsi anomaliyası və s.), proseslərin zaman və məkanca dinamikasını (atm. burulğanları, yükdaşımalar, əhalinin miqrasiyası) C.x.-də əks etdirməyə imkan verir. C.x.-dən, miqyas və növündən asılı olaraq x.t.-nda, elm və tədris işlərində, hərbi sahədə və s.-də geniş istifadə edilir.

*Əd.*: Piriyev R.X. Kartoqrafiya. B., 1975; Hüseynov A.M. Topoqrafik xəritələr və onların istifadə olunması. B., 1982; Салищев К.А. Картоведение. 3-е изд. М., 1990.

**COĞRAFİ KOORDİNATLAR** – Yer səthində nöqtələrin vəziyyətini təyin edən kəmiyyətlər; coğrafi enlik və coğrafi uzunluqlardan ibarətdir. Coğrafi enlik (φ) verilmiş nöqtədən keçən şaquli xətlə Yerin ekvator müstəvisi arasındakı bucağa deyilir və ekvatordan şimala və cənuba 0°-dən 90°-yədək hesablanır. Bunlara uyğun olaraq, coğrafi enlik Şimal və Cənub enliyi adlanır. Coğrafi uzunluq (λ) başlanğıc meridian (*Qrinviç meridianı*) müstəvisi ilə verilmiş nöqtədən keçən coğrafi meridian müstəvisi arasındakı *ikiüzlü bucağa* deyilir və başlanğıc meridiandan şərqə (şərq uzunluğu) və qərbə (qərb uzunluğu) 0°-dən 180°-yədək hesablanır. C.k. astronomik və geodezik üsullarla tapılır. Astronomik koordinatlar həmin nöqtələrdə göy cisimlərini bucaqölçən alətlərlə, geodezik koordinatlar isə geodeziya ölçmələri və onların Yer ellipsoidi üzərində hesablanması üsulu ilə təyin edilir.

*M* nöqtəsinin coğrafi koordinatları: enlik – φ (*MCN* bucağı), uzunluq – λ (*OCN* bucağı).




**COĞRAFİ QURŞAQLAR**, fiziki-coğrafi qurşaqlar, təbii qurşaqlar – *coğrafi təbəqənin* iri enlik-zonallıq bölgüsü. İstilik və rütubət rejimi, hava kütlələri dövranı, biokimyəvi və geomorfoloji proseslərin özünəməxsus təzahürü və ritmikliyi, bitki örtüyünün vegetasiyası və s. xüsusiyyətləri ilə səciyyələnir. Qurşaq daxilində iqlim amilləri kəskin dəyişilə bilər ki, bu da C.q.-da müxtəlif coğrafi zonalar və yarımzonalar ayırmağa imkan verir. C.q. relyefin, okean axınlarının təsirindən genişlənə, yaxud darala bilər. Quruda adətən ekvatordan qütblərə doğru ekvatorial, iki (Şimal və Cənub yarımkürələrində) subekvatorial, iki tropik, iki subtropik, iki mülayim; yüksək enliklərdə: Şimal yarımkürəsində subarktik və arktika, Cənub yarımkürəsində subantarktik və antarktika qurşaqlarını ayırırlar. C.q. Dünya okeanında da izlənir; burada onlar bir-birinə daha çox oxşardır. Azərb. Resp. ərazisi, əsasən subtropik qurşaqdadır (Şimal yarımkürəsi).

**COĞRAFİ QÜTBLƏR** – *Yer oxunun* Yer səthi ilə kəsişdiyi nöqtələr. Biri Şimal Buzlu okeanında, digəri Antarktida materikində yerləşən iki – Şimal və Cənub qütbləri mövcuddur. Bütün coğrafi meridianlar C.q.-də birləşir. C.q.-də adi cəhətlər yoxdur, vaxt gecə və gündüzə bölünmür; günəş ilin bir yarısı heç görünmür (qütb gecəsi), digər yarısı heç batmır (qütb gündüzü). C.q. Yer səthində daimi vəziyyətdə olmur və hər tərəfi 25–30 *m*-ə bərabər kvadratdan kənara çıxmayan mürəkkəb əyri üzrə yerlərini dəyişir. İlk dəfə Şimal coğrafi qütbünü R. *Piri* (1909, 6 aprel); Cənub coğrafi qütbünü isə R. *Amundsen* (1911, 14 dekabr) fəth etmişlər.

**COĞRAFİ LANDŞAFT** – təbii ərazi kompleksi; birtipli geol. quruluş, relyef, hidroiqlim rejimi, uyğun torpaq və biosenozları, həmçinin xarakterik morfoloji strukturu ilə seçilən və genetik cəhətdən yekcins olan ərazi. C.l.-ın 2-ci mənası landşaftın maddi komponentləri arasındakı qarşılıqlı təsir və əlaqənin xüsusiyyətləri və onun yaranma səbəbləri, morfoloji vahidlərinin məkanca uyğunluğu, onların dinamikliyi və zamanca inkişafı ilə müəyyən olunur. Süxur, su, buz, qar, torpaq, hava kütlələri, bitki və heyvanlar C.l.-ın komponentləridir. Komponentlərin landşaftdaxili əlaqəsi maddələr və enerji mübadiləsi ilə həyata keçir. C.l. günəş enerjisi və Yerin daxili enerjisindən asılı olan proseslərin təsiri ilə fəaliyyət göstərir və inkişaf edir. Müasir C.l.-lar paleolandşaftların sonrakı inkişafı prosesində formalaşmış və insanın fəaliyyəti nəticəsində böyük dəyişikliklərə məruz qalmışdır. Nəticədə təbii landşaftlardan fərqli antropogen landşaftlar (bax *Antropogen landşaft* məqaləsinə) yaranmışdır. C.l.-lar şöbələrə (quru, su), sistemlərə (su-istilik balansının zonalar üzrə fərqlənməsinə əsasən), siniflərə (hipsometrik vəziyyətə əsasən düzənlik və dağ, zonallıq xüsusiyyətinə görə üfüqi və şaquli), qruplara (su-geokimyəvi rejimin tipinə əsasən), tiplərə (zonal torpaq-bioiqlim əlamətlərinin ümumiliyinə görə) və növlərə (yerli fiziki coğrafi proseslərin təzahüründəki fərqlərə əsasən) bölünür. Düzənlik landşaftları ovalıq və yüksəklik, dağ landşaftları isə orta və alçaq dağlıq, ön dağlıq və dağarası yarımsiniflərə ayrılır. Azərb.-ın təbii şəraiti mürəkkəb olduğundan onun ərazisində inkişaf etmiş landşaftlar da müxtəlifliyi ilə səciyyələnir. Resp. ərazisində landşaftlar dağlıq və düzənlik landşaftlarına bölünməklə bir sıra landşaftdaxili tip və yarımtiplərə ayrılır:

1. Yüksək dağlığın nival və qismən nival-buzlaq landşaftı. Əsasən Böyük Qafqazın (Baş Qafqaz silsiləsi, Yan silsilə), qismən Kiçik Qafqazın (Murovdağ, Zəngəzur silsilələri, Qarabağ vulkanik yaylası və s.) təqr. 3000 *m*-dən yüksəkdə yerləşən sahələrini əhatə edir.

2. Yüksək dağlığın Alp, subalp və çəmən-çöl landşaftı. Böyük Qafqazda (Baş Qafqaz silsiləsi, Yan silsilə) və Kiçik Qafqazda (Şahdağ, Murovdağ, Zəngəzur və s. silsilələr, Qarabağ yaylası) 2000–2200 *m*-dən 3000 *m*-ədək hünd.-ləri əhatə edir.

3. Orta dağlığın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-kol landşaftı. Bu landşaft resp.-nın dağlıq landşaft zonaları arasında daha geniş yer tutur. Böyük Qafqaz, Kiçik Qafqaz (Nax. MR-in sahəsi istisna olmaqla) və Talış d-rının yamaclarında təqr 1200 *m*-dən 1800 *m*-ə, bəzi yerlərdə 2000–2200 *m*-ədək hünd.-ləri əhatə edir.

4. Orta dağlığın dağ-kserofit landşaftı. Nax. MR-də (Zəngəzur və Dərələyəz silsilələrində), qismən Talış d-rında (Talış və Peştəsər silsilələrinin q. və c.-q. hissələrində) inkişaf etmişdir. Nax. MR-də təqr. 1100 *m*-dən 2000 *m*-ədək, Talış d-rında dağarası çökəkliklərdə 1300 *m*-dən 1900 *m*-ədək hünd.-ləri əhatə edir.

5. Alçaq dağlığın çöl, qismən meşə-çöl landşaftı. Böyük Qafqazın c. yamaclarında, Kiçik Qafqazın kənar hissələrində, Talışda Burovar silsiləsinin şm.-q.-ində (əsasən Cəlilabad r-nu ərazisində) 100–150 *m*-dən 1000 *m*-ədək hünd.-ləri əhatə edir.

6. Alçaq dağlığın yarımsəhra landşaftı. Qobustanda, Ceyrançöldə, Bozdağ (Gəncə Bozdağı) silsiləsində, Acınohur çölü və onun ətrafında, 50–100 *m*-dən 1000 *m*-ədək hünd.-ləri əhatə edir.

7. Dağ ətəklərinin enliyarpaqlı meşə landşaftı. Böyük Qafqazın c.-ş. hissəsinin şm. yamacında və Talış d-rının alçaq dağlıq hissələrində inkişaf etmişdir. 100–300 *m*-ədək hünd.-ləri əhatə edir.

8. Ön dağlığın kserofit və çöl landşaftı. Bu landşaft tipi Qusar maili düzənliyinin ş.-ində, Ceyrançöl və Acınohur ön dağlığının c. kənarında və s. ərazilərdə inkişaf etmişdir. 100 *m*-dən 1100 *m*-ə qədər hünd.-ləri əhatə edir.

9. Ovalıq-düzənliklərin meşə-çəmən landşaftı. Qanıx-Əyriçay çökəkliyində, Lənkəran ovalığının c., Samur-Dəvəçi ovalığının şm.-q. hissəsində (Şollar düzü), dəniz sahillərində –27 *m*-dən 200 *m*-ədək hünd.-ləri əhatə edir.

10. Düzənliklərin quru-çöl landşaftı. Gəncə-Qazax düzənliyini, Şirvan düzünün şm., Mil və Qarabağ düzlərinin alçaq dağlığa qovuşduğu c. hissələrini, gətirmə konuslarını, konuslararası çökəklikləri, terrasları və allüvial-prolüvial düzənlikləri əhatə edir.

11. Ovalıqların və dağarası düzənliklərin yarımsəhra landşaftı. Azərb.-dakı bu landşaft zonası ən geniş sahəyə malikdir (ərazinin təqr. 25%-i). Kür-Araz ovalığının çox hissəsini, Nax. MR-in Arazboyu düzənliklərini, Abşeron y-a-nı və Samur-Dəvəçi ovalığının c.-ş. yarısını əhatə edir. Hünd. –27 *m*-dən (Xəzər dənizi sahilində) 600–1000 *m*-ə (Nax. MR-də) qədərdir.

C.l.-ların tədqiqi və onların xəritələşdirilməsinin təbiəti mühafizə və ondan səmərəli istifadə məsələlərinin öyrənilməsi və həllində mühüm elmi və təcrübi əhəmiyyəti var.

**COĞRAFİ MERİDİAN** – Yer səthi üzərindəki hər hansı nöqtədən və Yerin fırlanma oxundan keçən müstəvi ilə Yer kürəsi səthinin kəsişdiyi xətt. *Krasovski ellipsoidinə* görə, C.m.-ın tam uz. 40008,550 *km*-dir. Bax həmçinin *Coğrafi koordinatlar* məqaləsinə.

**COĞRAFİ MÖVQE** – Yer səthindəki hər hansı bir məntəqə, yaxud arealın onlardan kənarda yerləşən ərazi və ya obyektlərə nisbətən olan vəziyyəti. C.m: riyazi coğrafiyada – verilmiş məntəqə, yaxud arealın enlik və uzunluğu, fiziki coğrafiyada isə – onların fiziki-coğrafi obyektlərə (materik, dağ, okean, dəniz, çay, göl və s.) nisbətən vəziyyəti; iqtisadi və siyasi coğrafiyada – ölkə, r-n, yaşayış məntəqəsi və s. obyektlərin digər iqtisadi-coğrafi (rabitə yolları, bazar, təsərrüfat mərkəzi və s.) və fiziki-coğrafi obyektlərə, həmçinin ölkənin başqa ölkə qruplarına nisbətən olan vəziyyəti deməkdir. C.m. ölkə, r-n, şəhər və digər yaşayış məntəqələrinin inkişaf şərtlərindən biridir.

**COĞRAFİ MÜHİT** – cəmiyyəti əhatə edən və insan həyatı üçün daim zəruri olan təbiət. Cəmiyyət inkişaf etdikcə bəşəriyyətin tarixi təcrübəsinə cəlb edilən təbii hadisələr çərçivəsi dəyişilir və daha da genişlənir. Coğrafi əsərlərdə "C.m." termini çox vaxt *coğrafi təbəqənin* sinonimi kimi işlədilir.

Ölkənin təbiəti və coğrafi şəraiti cəmiyyətin inkişaf qanunauyğunluğuna və ictimai-iqtisadi formasiyaların bir-biri ilə əvəz olunmasına həlledici təsir göstərə bilməz, yalnız onu ya sürətləndirə, ya da zəiflədə bilər. C.m.-in cəmiyyətə təsiri maddi istehsalın inkişaf səviyyəsindən və ictimai quruluşun xarakterindən asılıdır. Məs., yeraltı sərvətlərin axtarışı, təbii sərvətlərdən, su yollarından istifadə və s. məhsuldar qüvvələrin inkişaf səviyyəsi və xüsusiyyəti, hakim istehsal münasibətləri ilə sıx bağlıdır. Elmi-texniki inqilab dövründə (20 əsrin ortalarından) öz tələbatını ödəməyə çalışan cəmiyyətin C.m.-ə təsiri planetar xarakter almışdır; ekoloji problemlər (ətraf mühitin çirklənməsi, təbii sərvətlərin tükənməsi, biogeokimyəvi sikllərin trasformasiyası və s.) gərginləşmişdir. Yer kürəsində yaşayış və istirahət üçün yararlı ərazilərin azalması artıq yüksək keyfiyyətli C.m.-in (təmiz su, hava, pozulmamış landşaft, canlı və cansız təbiətin rəngarəngliyi və onun antropogen təsirdən sonra bərpa olunma xüsusiyyəti) mühüm problemə çevrilməsinə gətirib çıxartdı. Cəmiyyətin və C.m.-in harmonik əlaqəsi bəşəriyyət qarşısında qlobal problem kimi durmaqdadır.

"C.m." anlayışı ilk dəfə fransız coğrafiyaşünası J.J.E. Reklyu tərəfindən təklif olunmuşdur.

*Əd.*: Реклю Э. Человек и Земля. СПб., 1906–1909. Т. 1–6; Григорьев А.А. Типы географической среды; избранные теоретические

произведения. М., 1970; А н у ч и н В.А. Географический фактор в развитии общества. М., 1982.

**COĞRAFİ POSSİBİLİZM** – 19 əsrin sonu – 20 əsrin əvvəllərində yaranmış coğrafi cərəyan; mövcud imkanlar arasında seçim azadlığı haqqında fəlsəfi konsepsiyanın coğrafi təfsiri şəklində coğrafi determinizmin sərt müddəalarına cavab olaraq meydana gəlmişdir. L. Fevrin "Tarixə coğrafi giriş" əsərindəki C.p. əsasları sonra insan coğrafiyası fransız məktəbinin nümayəndələri Vidal de Blaş, J. Brün, həmçinin ABŞ-da İ. Boumen və K. Zauer, Almaniyada O. Şlüter və b. tərəfindən inkişaf etdirilmişdir. C.p.-də cəmiyyətin inkişafında coğrafi faktorun rolu nəzərə alınır, lakin ön plana insanın yalnız yaşayış mühitindəki təbii şəraitə uyğunlaşması imkanları və səyləri deyil, onları öz məqsədləri üçün istifadə etməsi çıxır. Bu cür ikitərəfli proses gedişində ərazi mənimsənilməsinin müxtəlif mədəni-təsərrüfat tipləri və lokal bütöv sistemlər – mədəni landşaftlar formalaşır ki, C.p. konsepsiyasına əsasən coğrafi tədqiqatın əsas obyekti də onlar olmalıdır. Məhz sükunət və hərəkət halında mədəni landşaftlar ölkələrin, regionların, etnosların və milli birliklərin təkamül prosesini əks etdirir.

**COĞRAFİ SƏRHƏDLƏR** – bir-birindən hər hansı bir əlamətinə görə fərqlənən yanaşı əraziləri (landşaft, iqtisadi, etnik, siyasi-inzibati və s. zonalar) ayıran xətt, yaxud keçid zolağı. C.s. kəskin (məs., dövlət sərhədləri), yaxud qeyri-kəskin (landşaftlar və iqtisadi r-nlar arasında və s.) olur. Qeyri-kəskin sərhədlər adətən keçid zolağı təşkil edir. C.s.-in iki əsas funksiyasını ayırırlar: sədd (çətin keçilən maneələr, dövlət sərhədləri və s.) və təmas (dənizsahili və dağətəyi zonalar, sərhədyanı xüsusi iqtisadi zonalar və s.). Ölkələrin C.s.-i, dövlət sərhədləri xüsusi hüquqi rejim (sərhədlərin demarkasiyası və delimitləşməsi) əsasında müəyyənləşdirilir.

**COĞRAFİ TƏBƏQƏ** – litosfer, hidrosfer, atmosfer və biosfer qatlarını əhatə edən, genetik və funksional vəhdət olan Yer təbəqəsi. Mürəkkəb tərkibi və quruluşu ilə xarakterizə olunur. Bütünlüklə biosfer və hidrosferi, litosferin hipergenez sahəsini, atmosferin isə stratopauza təbəqəsinə qədərki hissəsini əhatə edir. Maks. qalınlığı təqr. 40 *km*-dir. C.t.-də gedən bütün proseslər Günəş enerjisi, Yerin daxili istiliyi və qravitasiya enerjisi ilə bağlıdır. Heliotermik zona (qalınlığı onlarla *m*-dir) hüdudlarında temp-run gündəlik və illik tərəddüdü günəş enerjisinin axını ilə müəyyənləşir. Yer kürəsi atmosferin üst qatında il ərzində 10760 $MC/m^2$ istilik alır və bunun yalnız 3160 $MC/m^2$-ni əks etdirir. Bu Yerin təkindən gələn istilikdən bir neçə min dəfə çoxdur. Günəş enerjisinin kürə şəkilli Yer səthində qeyri-bərabər paylanması təbii şəraitin qlobal məkan diferensasiyasına gətirib çıxarır (bax *Coğrafi qurşaqlar*). C.t.-nin formalaşmasında Yerin daxili istiliyinin əhəmiyyəti böyükdür; litosfer makrostrukturlarının müxtəlifliyi (kontinentlərin, dağ sistemlərinin, geniş düzənliklərin, okean çökəkliklərinin və s. yaranması və inkişafı) endogen amillərin təsiri ilə əlaqədardır. C.t. Yerin uzun müddətli (4,6 mlrd. il) təkamülü nəticəsində formalaşmışdır. Yer qabığını təşkil edən müxtəlif növ süxurlar, hava kütlələri, su, torpaq örtüyü, biosenoz C.t.-nin əsas maddi komponentlərini təşkil edir. Təbəqənin tərkib hissələri arasında fasiləsiz maddi və enerji mübadiləsi ilə şərtlənən vəhdəti, bu proseslərdə iştirak edən maddənin ilkin həcminin məhdudluğu şəraitində onların ümumi yüksək effektivliyini təmin edən maddi və enerji dövranı, müxtəlif proseslərin hadisələrin vaxt baxımından təkrarlanması, ekzogen, endogen proseslərin qarşılıqlı təsiri altında bütöv sistem kimi fasiləsiz inkişafı C.t.-yə xas mühüm əlamətlərdir. C.t. *fiziki coğrafiyanın* tədqiqat obyektidir. "C.t" terminini ilk dəfə 1932 ildə A.A. *Qriqoryev* işlətmişdir.

*Əd.*: Г р и г о р ь е в А.А. Опыт аналитической характеристики состава и строения физико-географической оболочки земного шара. Л.; М., 1937; y e n ə d ə o n u n. Закономерности строения и развития географической среды. М., 1966.

**COĞRAFİ UZUNLUQ** – bax *Coğrafi koordinatlar*.

**COĞRAFİ ZONA**, f i z i k i - c o ğ r a f i z o n a, t ə b i i z o n a, l a n d ş a f t z o n a s ı – Yerin coğrafi təbəqəsinin nisbətən iri sahəsi. *Coğrafi qurşaqlar* daxilində hidrotermik şəraitin (istilik və rütubətin nisbəti) diferensiasiyası nəticəsində formalaşıb. Hər bir C.z. təbii şəraitin nisbi vahidliyi ilə səciyyələnir (məs., meşə zonaları, çöl zonaları və s.); tarixən formalaşmış C.z.-lar da var (məs., nisbətən qədim ekvatorial meşə zonaları, nisbətən cavan tundra zonaları). C.z.-lar, ekvatordan qütblərə, okeanlardan materiklərin daxilinə doğru dəyişir; adətən enlik istiqamətində bir və ya bir neçə materikdən keçməklə uzanır. C.z.-ların aydın seçilən sərhədləri yoxdur. Dağlıq r-nlarda, əsasən, oroqrafik amillərin təsiri nəticəsində enlik üzrə zonallıq pozulur və submeridional istiqamət alır (məs., Şimali Amerikanın meşə-çölləri, çölləri, yarımsəhraları). Dünya okeanında C.z.-lar aydın nəzərə çarpmır. Əksər zonalar yarımzonalara bölünür (məs., tayqanın şimal, orta və cənub yarımzonaları). Coğrafi təbəqənin ayrı-ayrı komponentlərinə (bitki, torpaq, hidrologiya, okean dibində çöküntütoplanma və s.) görə fərqlənən zonalar da müəyyən mənada C.z.-lara, yaxud təbii zonalara aid edilir.

**COĞRAFİ ZONALLIQ**, t ə b i i z o n a l l ı q – Ekvatordan qütblərə doğru təbii şərait və landşaft dəyişmələrini ardıcıllıqla izhar edən Yer örtüyünün coğrafi ərazi diferensiyasının xüsusi forması. Zonallığın əsas səbəbi Yerin forması və onun Günəşə nisbətən tutduğu vəziyyətidir; coğrafi enliklər üzrə günəş şüalarının qeyri-bərabər paylanmasıdır. Komponent (iqlim, su, torpaq, bitki, heyvanlar aləmi və s.) və kompleks yaxud landşaft zonallığını ayırırlar. Landşaft zonallığı *coğrafi qurşaqlar* və zonaların bu qurşaqlar daxilində qanunauyğun dəyişməsidir. Zonallıq geniş düzənlik sahələrində (məs., Şərqi Avropa, Qərbi Sibir) daha qabarıq şəkildə öz əksini tapmır; dağlarda zonallıq yüksəklik qurşaqları şəklində nəzərə çarpır. Okeanlarda səthi (eninə) zonallıqla yanaşı şaquli və dib zonallığını da ayırırlar (bax *Dünya Okeanı zonallığı* məqaləsinə). C.z. Yer səthindən coğrafi təbəqənin alt və üst sərhədlərinə yaxınlaşdıqca, Yer qabığının 15–30 *m* dərinliyində, okeanların abissal zonalarında, troposferin üst sərhədinə doğru tədricən itir. Zonallıq təzahürü hələ antik dövrdən məlum idi. *Herodot* üç istilik qurşağını (soyuq, mülayim və isti) ayırırdı; 4 əsrdə Yevdoks Knidski Yerin kürə şəklində olmasına əsaslanaraq beş iqlim zonasını (tropik, iki mülayim, iki qütb) fərqləndirirdi. Zonallıq təliminin inkişafında alman təbiətşünası A. *Humboldtun* xüsusi yeri var. Onun "Təbiət mənzərələri" əsərində bitki örtüyünün yayılma qanunauyğunluğunun iqlimdən asılılığı, enlik və şaquli zonallıq məsələləri öz əksini tapmışdır. Zonallığın müasir anlayışı V.V. *Dokuçayevin* adı ilə bağlıdır. O ilk dəfə (1898) zonallığı təbiətin mühüm fundamental qanunu kimi formalaşdırmışdır. 20 əsrdə zonallıq təliminin inkişafına L.S. *Berq* və A.A. Qriqoryev öz töhfələrini vermişlər. Berq Yerin coğrafi örtüyündə 13 təbii zona ayrılmışdır. Qriqoryev zonallığın formalaşmasına radiasiya balansının illik qiyməti və yanğıntının illik miqdarı ilə yanaşı, onların nisbətinin də təsiri olduğunu göstərmişdir. 2004 ildə rus fiziki coğrafiya alimləri (B.A. Alekseyev, Q.N. Qolubev, E.P. Romanova) təqdim etdikləri Yer səthinin yeni qurşaq-zonallıq modelində 13 coğrafi qurşaq və 36 landşaft zonası ayırmışlar.

*Əd.:* Г р и г о р ь е в А.А., Б у д ы к о М.И. О периодическом законе географической зональности. Доклады АН СССР. 1956. Т. 110. №1; Л у к а ш о в а Е.Н. Основные закономерности природной зональности и ее проявление на суше земли. Вестник МГУ. Сер. 5. Географическая. 1966. № 6; А л е к с е е в Б.А., Г о л у б е в Г.Н., Р о м а н о в а Э.П. Глобальная модель современных ландшафтов мира. География, общество, окружающая среда. М., 2004. Т. 2: Функционирование и современное состояние ландшафтов.

**COĞRAFİYA** (*geo... + ...qrafiya*) – *coğrafi təbəqənin* strukturunu, təkamülünü, təbii, təbii-iqtisadi coğrafi sistemlərin qarşılıqlı əlaqəsini və paylanmasını öyrənən təbii və ictimai elmlər kompleksi. Coğrafi tədqiqatlar cəmiyyətin ərazi təşkilinin, əhalinin fəaliyyət sahələrinin yerləşməsinin, təbii ehtiyatlardan səmərəli istifadə edilməsinin, coğrafi proqnozlar hazırlanmasının, cəmiyyətin davamlı inkişafının ekoloji təhlükəsizliyinin elmi cəhətdən əsaslandırılması məqsədi ilə aparılır. C.-nın ən mühüm tədqiqat obyekti insan və cəmiyyətin qarşılıqlı əlaqəsi prosesləri, coğrafi mühitin komponentlərinin yerləşməsi və qarşılıqlı təsirinin qanunauyğunluqlarını tapmaq, onların uzlaşmasını müəyyən etməkdir. Tədqiqat obyektinin geniş və mürəkkəbliyinə görə vahid elm olan C. bir neçə ixtisaslaşmış sahələrə ayrılmışdır. C. termini ilk dəfə e.ə. 3 əsrdə K. *Eratosfen* tərəfindən işlədilmişdir.

**Coğrafiyanın quruluşu.** *Fiziki coğrafiya* bütövlükdə coğrafi təbəqəyə aid kompleks elmləri – *yerşünaslığı* (ümumi fiziki C.), *landşaftşünaslığı* (regional fiziki C.) və *paleocoğrafiyanı* (təkamül C.-sı) özündə birləşdirir. C. elminin uzunmüddətli inkişafı prosesində coğrafi təbəqənin ayrı-ayrı komponentlərini öyrənən *geomorfologiya, geokriologiya, iqlimşünaslıq və meteorologiya, hidrologiya* (*qurunun hidrologiyası və okeanologiyaya* ayrılır), *qlyasiologiya, torpaq coğrafiyası* və *biocoğrafiya* kimi xüsusi elmi istiqamətlər formalaşmışdır.

*Sosial-iqtisadi coğrafiyaya sosial coğrafiya, iqtisadi coğrafiya* (bəzən təsərrüfat C.-sı adlandırılır) və *siyasi coğrafiya* daxildir. İngilisdilli ölkələrdə ictimai coğrafi elmlərin məcmusu "human geography" termini ilə ifadə edilir. Sosial-iqtisadi C. *əhali coğrafiyası, geourbanistika*, mədəniyyət coğrafiyası, *turizm coğrafiyası, sənaye coğrafiyası, kənd təsərrüfatı coğrafiyası, nəqliyyat coğrafiyası, xidmət sahələri coğrafiyası* kimi xüsusi elm sahələrinə ayrılır.

İnteqral coğrafiya elmlərinə *kartoqrafiya, ölkəşünaslıq, tarixi coğrafiya* aiddir. C.-nın inkişafı *tibbi coğrafiya, rekreasiya coğrafiyası*, hərbi C., meliorasiya C.-sı və s. tətbiqi coğrafi elmlərin və istiqamətlərin yaranmasına səbəb olmuşdur; onlar C.-nı digər elm sahələri ilə əlaqələndirir. Coğrafi təbəqənin bütün komponentlərinin, yaxud bir çoxunun inkişafında ümumcoğrafi qanunauyğunluqları aşkar etmək, onların modelini yaratmaq cəhdi *nəzəri coğrafiyanın* təşəkkülü üçün zəmin olmuşdur.

C. dünyabaxışlı elmi kimi fəlsəfə və tarixlə, coğrafi təbəqənin təbii komponentlərinin öyrənilməsində fizika, kimya, geol., biol. və filologiya (toponimlərlə əlaqədar) elmləri ilə, sosiosferin tədqiqində iqtisadiyyat, sosiologiya, demoqrafiya və s. ilə qarşılıqlı əlaqədə formalaşmışdır. Eyni zamanda C. öz nəzəriyyələri və metodologiyası ilə yaxın elmləri həmişə zənginləşdirir; dinamik inkişafda olan elmi istiqamətlərdə – *ekocoğrafiyada*, democoğrafiyada, etnik C.-da, landşaft planlaşdırılmasında, regional iqtisadiyyatda və s. sahələrdə elmi biliklərin coğrafiləşməsi prosesi özünü göstərir.

**Coğrafiyanın tədqiqat metodları.** C. aşağıdakı tədqiqat üsullarından istifadə edir: ümumi-elmi (riyazi və fiziki modelləşdirmə, sistemli təhlil, tarixilik); konkret-elmi (geokimyəvi, geofiziki, paleocoğrafi, texniki-iqtisadi, iqtisadi-statistik, sosioloji); informasiya əldə edilməsinin praktiki yolları və metodları (çöl müşahidə, distansiya, o cümlədən aerokosmik, laboratoriya, radiokimyəvi, anketləşdirmə, seçim və b.); informasiyaların nəzəri və empirik ümumiləşdirilməsi (indukasiya, qiymətləndirmə, analoq, təsnifat aparma); informasiyaların təhlili və saxlanması (o cümlədən elektron formada).

C.-da müqayisəli coğrafi (təsviri), kartoqarfik, təkamül-tarixi (paleocoğrafi), riyazi (coğrafi informasiya), fiziki (geofiziki) və geokimyəvi tədqiqat metodlarından geniş istifadə olunur. Müqayisəli metodun fiziki C.-da təşəkkülü və inkişafında A. *Humboldt*, K.İ. Arsenyev, K. *Ritter*, P.P. *Semyonov-Tyanşanskinin* xidmətləri böyükdür. Metodun əsasında təbii zonaların, regionların, məhəllin, elementar təbii-ərazi komplekslərinin və başqalarının coğrafi təsviri durur; onlarda tipik, əsas və xüsusi qruplar ayrılır. Obyektlərin elmi təsnifatı və rayonlaşdırılması coğrafi təsvirlərin ümumiləşdirilməsi forması kimi qəbul edilir. Kartoqrafik metod hadisələrin elmi dərkedilməsində, təhlilində və proqnozunda coğrafi xəritələrin tətbiqinə əsaslanır. Bu metoddan coğrafi obyektlərin məkanca yerləşməsinin qanunauyğunluqlarının, qarşılıqlı əlaqəsinin, asılılıq və inkişafının tədqiqində istifadə olunur. Xəritələr coğrafi tədqiqatların nəticələri, eyni zamanda yeni coğrafi biliklərin əldə edilməsi vasitəsidir. Təkamül-tarixi metod təbii və antropogen landşaftların, təbii-təsərrüfat, məskunlaşma sistemlərinin və s. zamandaxili inkişaf qanunlarını və qanunauyğunluqlarını öyrənir. Fiziki C.-nın bir sahəsi kimi riyazi C.-nın tədqiq etdiyi sahələrə Yerin forması və ölçülərinin öyrənilməsi, onun hərəkəti haqqında məlumatların toplanması, astronomiya-geodeziya məsələlərinin həlli aiddir. Kəmiyyət, sonra isə riyazi metodların inkişafı 1950-ci illər və 1960-cı illərin əvvəllərində başlanmışdır.

Yerin və onun landşaftlarının geokimyəvi metodla tədqiqi landşaftların geokimyası çərçivəsində inkişaf edir, onun köməyi ilə kimyəvi elementlər və onların birləşmələrinin paylanması öyrənilir. Geokimyəvi təhlillər təbii geosistemlərdə və bütövlükdə landşaftlarda kimyəvi elementlərin miqdarını təyin etməyə imkan verir. Fiziki metod meteorologiya, iqlimşünaslıq, okeanologiya və b. elm sahələrində geniş istifadə olunur. Kompleks stasionar fiziki-coğrafi tədqiqatlar aparılması nəticəsində *landşaft geofizikası* inkişaf edir. İqtisadi C.-nın əsas metodlarına iqtisadi rayonlaşdırma; iqtisadi, sosial və siyasi hadisələrin ərazilər üzrə diferensiasiyasının müəyyən edilməsi; ölkələr, yaşayış məntəqələri və b. tədqiqat obyektlərinin təsnifatı; riyazi-statistika metodu; sosial, iqtisadi və siyasi hadisələrin yerləşməsinin ərazi təşkili; ərazilərin mənimsənilməsinin sosial-iqtisadi proseslərinin öyrənilməsi aiddir.

### Elmin inkişaf tarixi

C. ən qədim elmlərdən biridir və o, əsrlər boyu əsasən yeni ərazilərin kəşf edilməsinə və təsvirinə xidmət etmişdir. İlk coğrafi məlumatlara Şərq xalqlarının

qədim yazılı mənbələrində rast gəlinir. Babilistana, Qədim Misirə və Qədim Çinə aid dəqiq coğrafi məlumatların (qədim xəritə və planlar, səyahətlər haqqında məlumatlar) tarixi e.ə. 4-3-cü minilliklərə gedib çıxır. O dövrün C.-sı haqqında məlumatlar *Herodot, Aristotel*, Eratosfen, *Strabon, Ptolemey* və b.-nın əsərlərində ümumiləşdirilmişdir. C.-nın inkişafında Şərqin ensiklopediyaçı alimlərindən *İbn Sinanın, Biruninin*, səyyahlardan *İbn Bəttutənin, İdrisinin*, yeni coğrafi məlumatların əldə edilməsində Venesiya və Genuya tacirlərinin mühüm rolu olmuşdur. Avropalı səyyah *Marko Polo* Çinə səyahət etmiş, Mərkəzi, Şərqi və Cənubi Asiya ölkələrinin təsvirini vermişdir. Tverli tacir Afanasi *Nikitin* Xəzər dənizi, Qara dəniz və Ərəbistan dənizindən keçməklə Hindistanın sahillərinə çatmış, bu ölkənin təbiəti, əhalisinin həyat və məişətini təsvir etmişdir. 15–17 əsrlərdə *Böyük Coğrafi kəşflər* nəticəsində materiklərin sərhədləri müəyyənləşdirildi, o vaxtadək məlum olmayan ölkələrin təbiəti və əhalisinə dair məlumatlar əldə edildi, Dünya okeanının vahidliyi haqqında təsəvvürlər təsdiqləndi. Bu dövrün ən mühüm coğrafi əsəri B. *Vareniusun* "Ümumi coğrafiya" kitabıdır (1650).

**Coğrafiya 18–19 əsrlərdə.** 18 əsrin 1-ci yarısında Ş.L. *Monteskyö* "Qanunların ruhu haqqında" əsərində (1748) J. Bodenin təbii şəraitin, ilk növbədə iqlimin dövlət və ictimai quruluşa, məişətə, əxlaqa, insanların psixologiyasına əsas təsiredici amil olması ideyalarını inkişaf etdirmişdir. C.-da metodologiyanın inkişafına V.N. *Tatişşev* böyük töhvə vermişdir. "Ümumiyyətlə coğrafiya və rus coğrafiyası" əsərində o, C.-nın Yer səthini və ya onun böyük sahələrini əhatə edən universal, yaxud ümumi C., müxtəlif ölkələri təsvir edən xüsusi C., və ölkənin ayrı-ayrı hissələrini və ya ayrıca şəhərləri öyrənən topoqrafiya və ya ərazi təsviri C.-sı sahələrini ayırmışdır. M.V. *Lomonosov* 18 əsrin ortalarında təbiətin inkişafında vaxt amilinin rolu haqqında ideya irəli sürmüş, "iqtisadi coğrafiya" terminini elmə daxil etmişdir. A. Humboldtun çöl ekspedisiyasında toplanmış materialların ümumiləşdirilməsi əsasında C.-da müqayisəli metod yaranmış, Yerin iqlimlərinin təsnifatı işlənmiş, enlik zonallığı və şaquli qurşaqlıq qanunları əsaslandırılmışdır.

19 əsrin 2-ci yarısında coğrafi amillərin insanların həyatında, ölkələrin inkişafında həlledici rol oynamasını təsdiq edən coğrafi determinizm ideyası geniş yayıldı. Bu fikirləri öz əsərlərində əsas kimi götürən alman alimi K. Ritter "yerşünaslıq" terminini elmə daxil etmiş, "landşaft" terminini aydınlaşdırmağa, xalqların taleyində təbiətin təsirinin əsas amil olduğunu sübut etməyə çalışmış, coğrafi siyasətin ("geopolitika") əsasını yaratmışdır. Bu dövrdə V.İ. *Vernadski* tərəfindən antropogen amilin planetar rolu əsaslandırılmış, insanların şüurlu fəaliyyətinin noosferin yaranmasına gətirməsi haqqında təsəvvürlər inkişaf etdirilmişdir.

19 əsrdə Azərb.-da C.-nın inkişafı sahəsində Abasqulu ağa *Bakıxanovun* (1794–1847), *Hacı Zeynalabdin Şirvaninin* (1780–1838) xüsusi rolu olmuşdur. A. Bakıxanov uzun illər Rusiya, Polşa, Ərəb ölkələrində olmuş, C. sahəsində "Qəribə kəşflər" və "Kainatın sirləri" əsərlərini yazmışdır. Hacı Zeynalabdin Şirvani öz əsərlərində Yaxın və Orta Şərq ölkələri, Orta Asiya, Hindistan, Həbəşistan (Efiopiya), Azərb. və Erm.-ın təbiəti, coğrafiyası, etnoqrafiyası və s. haqqında dəyərli mülahizələr irəli sürmüşdür.

**Azərbaycan coğrafiyası 20 əsrdə.** Azərb.-da C. elminin inkişafında və bu sahədə mütəxəssislərin hazırlanmasında Həsən bəy *Zərdabi* (1842–1907), *Qafur Rəşad* Mirzəzadə (1884-1943), Məhəmmədhəsən *Vəliyev* (Baharlı) (1896-1937) və b.-nın mühüm rolu olmuşdur. 20 əsrin əvvəlində Q.R. Mirzəzadənin "Qafqazın coğrafiyası" (1909), "Ümumi coğrafiya" (1911) və "Azərbaycan coğrafiyası" (1921) kitabları çap edilmişdir. M. Vəliyevin 1920 ildə Azərb.-ın iqtisadi C.-sına aid ana dilində nəşr etdirdiyi kitabda Azərb.-ın ümumi coğrafi səciyyəsini geniş işıqlandırmışdır. 1937 ildə SSRİ EA Azərb. filialı tərkibində Coğrafiya bölməsinin, 1945 ildə həmin bölmənin əsasında Coğrafiya İnstitutunun yaradılması, indiki BDU-da (1944) və ADPU-da (1934) coğrafiya fakültələrinin təşkili C. elminin inkişafına geniş imkanlar açdı. Azərb. C. elmi məktəbinin yaradılmasında və onun inkişafında H.B. *Əliyev*, H.Ə. *Əliyev*, B.Ə. *Budaqov*, Ə.M. *Şıxlinski*, Q. *Gül*, Ə.M. *Hacızadə*, Ə.A. *Mədətzadə*, S.H. *Rüstəmov*, M.A. *Müseyibov* və b.-nın xüsusi xidmətləri olmuşdur.

20 əsrin 2-ci yarısından iqtisadi C.-nın sahələri üzrə bir sıra tədqiqatlar aparılmışdır: sənaye və təbii ehtiyatların öyrənilməsində Ə.M. Hacızadə, k.t. C.-sında B.T. *Nəzirova*, xidmət sahələri və turizmdə M.A. *Abramov*, A.H. *Salmanov*, təbii fəlakətlərin təsərrüfata təsirinin tədqiqində N.A. *Babaxanovun* əsərlərinin xüsusi rolu vardır. Əhali C.-sı və şəhərlərin öyrənilməsi sahəsində məktəb yaranmışdır (A.A. *Nadirov*, E.Q. *Mehrəliyev*, Ş.Y. *Göyçaylı*, V.Ə. *Əfəndiyev*, Z.N. *Eminov* və b.-rı). Resp.-nın landşaft qurşaqlarının öyrənilməsi ilə B.Ə. Budaqov, N.K. *Kərəmov*, M.A. Müseyibov, paleocoğrafi inkişaf istiqamətlərinin tədqiqi ilə Ə.V. *Məmmədov*, B.C. *Ələsgərov*, S.S. *Vəliyev* məşğul olmuşlar. Geomorfologiya elmi 50-ci illərdən başlayaraq inkişaf etmişdir (B.Ə. Budaqov, N.Ş. *Şirinov*, B.A. *Antonov*, M.A. Müseyibov, E.K. *Əlizadə*, X.K. *Tanrıverdiyev*, H.A. *Xəlilov* və b.). 20-ci illərdən başlayaraq resp.-nın iqlimi İ.V. Fiqurovski, Ə.M. Şıxlinski, sonralar Ə.A. Mədətzadə, Ə.C. *Əyyubov* tərəfindən öyrənilmişdir. Hidrologiya elminin inkişafı, çayların hidroloji xüsusiyyətlərinin öyrənilməsi S.H. *Rüstəmov*, R.M. *Qaşqay*, M.Ə. *Məmmədov*, F.Ə. *İmanovun* adı ilə bağlıdır. Xəzər dənizi üzrə tədqiqatların əsasını Q.K. Gül qoymuşdur. Dənizdə R.M. *Məmmədov*, T.M. *Tatarayev* və b.-nın apardığı ölçmələr və tədqiqatlar mühüm elmi və praktiki əhəmiyyət kəsb edir. Azərb.-da torpaq C.-sı sahəsində S.A. *Zaxarov*, H.Ə. Əliyev, M.E. *Salayev* tədqiqat işləri aparmışlar.

**20 əsrdə ABŞ və Qərbi Avropada coğrafiyanın inkişafı.** 20 əsrdə C.-nın spesifik inkişaf xüsusiyyətlərini Fransa, Almaniya, İngiltərə-Amerika və İsveç milli məktəblərinin ənənələri müəyyənləşdirdi. A. Hetnerin xoroloji yanaşma konsepsiyası ABŞ-da R. Hartşornun işlərində inkişaf etdirildi. 20 əsrin 1-ci yarısında bu nəzəriyyə əsasında B. Britaniyada, ABŞ-da, Avstraliyada rayonlaşdırma, o cümlədən torpaqların qiymətləndirilməsi üzrə işlər aparıldı. Almaniyada Z. Passarge, E. Banze, A. *Penk*, O. Şlüter; ABŞ-da K. Zauer, İ. Boumen bu məsələlərin tədqiqində əhəmiyyətli işlər gördülər. Fransada regional coğrafiya məktəbi (P. Vidal de la Blaş, A. Demanjon, E. de Martonn, J. Bojö-Qarnye) formalaşdı. 20 əsrin əvvəllərində ingilisdilli C.-da populyar olan coğrafi determinizm iqtisadi və tarixi prosesləri bilavasitə təbii şəraitlə əlaqələndirirdi. Biocoğrafiya elmi məktəbinin yaradıcısı V.N. Sukaçov və onun ardıcılları fotosintez haqqında təlimin əsasını qoydular, meşələrin coğrafi tipologiyasını işləyib hazırladılar, biogeosenozlar haqqında təlimi yaratdılar. Ç. *Darvinin* əsərlərinin təsiri ilə C.-ya, ilk növbədə geomorfologiyaya (V.M. Devis) təkamül ideyaları daxil oldu. ABŞ-da (K. Zauer) və B. Britaniyada (H. Derbi) tarixi coğrafiya məktəbləri formalaşdı. 20 əsrin 1-ci yarısında baş verən siyasi hadisələr geosiyasi nəzəriyyənin inkişafına təkan verdi. Bu nəzəriyyəyə görə dövlət öz varlığı üçün həyati məkan tələb edən bir orqanizm kimi təsəvvür olunurdu (F. *Ratsel*, R. Çellen, X. *Makinder*). 20 əsrin 2-ci yarısında C.-nın əsas məqsədi riyazi metodlardan və aerokosmik informasiyadan istifadə etməklə məkan analizi metodologiyasının hazırlanması idi. İngiltərə və Amerikanın sosial-iqtisadi yönümlü coğrafiyaçıları (F. Şeffer, B. Berri, V. Harrison, P. Hagget, V. Bunqe, U. İzard) bu sahədə liderlik edirdilər. 1950-ci illərdə "kəmiyyət inqilabı" öz yüksək nöqtəsinə çatdı. 1960-70-ci illərdə coğrafi tədqiqatların ekologiyalaşdırılması (D. Stoddart, A. Qoudi, Q. Haze, İ. Simmons, F. Heyer) aydınlaşdı. Təbii fəlakətlərin, onların sosial-iqtisadi nəticələrinin öyrənilməsi üzrə tədqiqat işlərinin (G. Uayt, R. Çorli, D. Parker) həcmi artdı. 1970-80-ci illərdə təbii proseslərin və məkan üzrə obyektlərin zamana görə iyerarxiyası probleminin öyrənilməsi ön plana çəkildi. Landşaft ekologiyası formalaşdı. Niderland (İ. Zonnenveld, R.Yonqman), Slovakiya (M. Rujiçka, L. Mikloş), B.Britaniya (R. Heynes-Yanq, R. Buns), İsveç (M. İze), Danimarka (Y. Brandt), Fransa (M. Qordon, A. Dekam), ABŞ (R. O' Neyl, R. Forman, M. Terner, R. Qardner, D. Uins), İsrail (Z. Navex), Avstraliya (R. Hobs), Norveç (Q. Fray), Polşa (A. Rixlinq, Y. Solon, L. Rıjkovski) və Almaniyada (H. Lazer, O. Bastian) landşaft-ekoloji tədqiqat mərkəzləri yarandı. 1982 ildən Beynəlxalq Landşaft Ekologiyası Assosiasiyası fəaliyyətə başladı. 1990-cı illərdən landşaftın qavranması və estetikası üzrə tədqiqatlar (əsasən, Fransada; J. Bertran və A. Dekam) genişləndi.

**Müasir coğrafiyanın əsas problemləri.** 21 əsrdə C. elminin qarşısında qlobal ekoloji böhranın yaratdığı problemlərin (meşələrin qırılması və səhralaşma, faydalı qazıntıların tükənməsi, ətraf mühitin çirklənməsi, şirin su ehtiyatlarının azalması) həlli məsələləri durur. Dünyada gedən güclü qloballaşma müsbət meyillərlə yanaşı, ölkələr arasında fərqləri artırır, cəmiyyətin köhnə qlobal problemlərini kəskinləşdirir, yenilərini yaradır. Bütün bunlar C.-nın qarşısında təbii, sosial-iqtisadi və geosiyasi proseslərin dinamikasının tədqiqi, qlobal, regional sosial-iqtisadi və siyasi vəziyyətin proqnozlaşdırılması, ətraf mühitin mühafizəsi üzrə tövsiyələrin hazırlanması kimi yeni vəzifələr qoyur. Yer üzərində bioloji, etnik və landşaft müxtəlifliyini saxlamaq, iqlimin dəyişməsinə antropogen təsiri azaltmaq 21 əsr ekologiyasının mühüm məsələlərindəndir.

**Elmi təşkilatlar və nəşr.** Azərb.-da coğrafi tədqiqatlar, yüksək ixtisaslı coğrafiyaçı mütəxəssislərin hazırlanması, elmi jurnalların çap edilməsi ilə AMEA Coğrafiya İnstitutu, Bakı Dövlət Universiteti, Gəncə, Sumqayıt, Naxçıvan, Lənkəran Dövlət Universitetlərinin "Coğrafiya" fakültələri məşğul olur. Elmi, təhsil və praktiki coğrafiyanın müxtəlif sahələri üzrə fəaliyyətin istiqamətlərini 1957 ildə yaradılmış Azərbaycan Coğrafiya Cəmiyyəti əlaqələndirir. C. sahəsində elmi əsərlər çap olunan jurnallar: AMEA Xəbərləri, "Yer elmləri" seriyası, BDU, ADPU, Nax. DU Xəbərləri, "Coğrafiya" seriyası, Azərbaycan Coğrafiya Cəmiyyətinin Elmi əsərləri.

Azərb.-da "Azərbaycan SSR fiziki-coğrafi atlası" (1948), "Azərbaycan SSR atlası" (1963), "Azərbaycan SSR atlası" (tədris, 1979), "Azərbaycan SSR istilik balansı atlası" (1979) və "Azərbaycan Respublikasının atlası" (2011) nəşr olunmuşdur.

Xarici ölkələrdə coğrafi tədqiqatlar və coğrafiyaçıların hazırlanmasının əsas mərkəzləri universitetlərdə cəmlənir. Bir sıra ölkələrdə, o cümlədən MDB məkanında Elmlər Akademiyasının tərkibində Coğrafiya İnstitutları fəaliyyət göstərir. Dünyanın əksər ölkələrinin coğrafiyaçıları Beynəlxalq Coğrafiya İttifaqında birləşir, hər 4 ildən bir Beynəlxalq Coğrafiya Konqresi çağırılır. Kartoqrafların beynəlxalq fəaliyyətini Beynəlxalq Kartoqrafiya Assosiasiyası tənzimləyir.

*Əd.:* Геттнер А. География, ее история, сущность и методы. Л.; М., 1930; Берг Л.С. Географические зоны Советского Союза. М., 1947-1952. Т. 1-2; Баранский Н.Н. Экономическая картография. 2-е изд. М., 1960; Страбон. География в 17-ти книгах: Перевод с греческого Г.А. Стратановского. М., Наука, 1964; Григорьев А.А. Закономерности строения и развития географической среды. М., 1966; Бунге В. Теоретическая география. М., 1967; Хаггет П. Пространственный анализ в экономической географии. М., 1968; Исаченко А.Г. Развитие географических идей. М., 1971; Саушкин Ю.Г. Экономическая география: история, теория, методы и практика. М., 1973; Vəlixanlı N.M. 9–12 əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. B., Elm, 1974; Жекулин В.С. Историческая география: предмет и методы. Л., 1982; "Coğrafiya" elmi 50 ildə. B., Elm, 1986; B.Ə. Budaqov. Azərbaycan təbiəti. Bakı, 1988; Максаковский В.П. Историческая география мира. М., 1997; M.A. Müseyibov. Azərbaycanın fiziki coğrafiyası. B., Maarif, 1998; Экономическая география мирового развития: 20 век. СПб., 2003; Богучарсков В.Т. История географии. Учебник для вузов. М., Академический проект, 2006; Azərbaycan Respublikasının coğrafiyası. II cild. B., 2013.

**COĞRAFİYA CƏMİYYƏTİ BUZLAĞI** – Tac.-da Pamir d-rında dendrit buzlağı. Elmlər Akademiyası və Darvaz silsilələrinin qovuşduğu yerdə, Vanç çayının yuxarı axınında yerləşir. Sah. təqr. 64,4 *km*², uz. 24,2 *km*-dir; 2580 *m*-ədək enir.

**COHÓR** (Johore, Johor) – Malayziyada, Malakka y-a-nın c. hissəsində ştat (sultanlıq). Sah. 19 min *km*². Əh. 3 mln. (2010). İnz. m. Cohor-Baru ş.-dir. Boksit, dəmir və qalay filizləri çıxarılır.

1511 ilədək Malakka sultanlığının tərkibində olmuşdur. Malakka ş. portuqallar tərəfindən zəbt edildikdən sonra Malakka hökmdarı Mahmud C. sultanlığının əsasını qoydu. 16 əsr – 17 əsrin 1-ci yarısında C. hollandların müttəfiqi olaraq Malakkada portuqallara qarşı mübarizə aparırdı. 17 əsrin 2-ci yarısında C. öz hakimiyyətini Cənubi, Mərkəzi və Şərqi Malayya, həmçinin Sumatra a-nın ş. sahillərinə qədər genişləndirdi. 1689 ildə Hollandiya hökuməti ilə qeyri-bərabər müqavilə bağladı. 1722 ildə Sulavesi a-nda yaşayan *bugilər* əvvəlcə C.-u, 18 əsrin 40-cı illərində isə demək olar ki, bütün Malayyanı ələ keçirdilər. 18 əsrin sonlarında C.-un ərazisi sultanlığın feodal nəsillərindən birinin müstəqil mülkünə çevrildi. 1819 ildə ingilislər əvvəlcə C.-un tərkibində olan Sinqapur a.-nda öz faktoriyalarını yaratdılar, 1855 və 1885 illərdə isə C. ilə imzaladıqları müqavilə ilə sultanlığı İngiltərənin protektoratı elan etdilər. 1914 ildə C.-a sultanlığın hökumətinə nəzarət edən Britaniya baş müşaviri təyin edildi. 1946–48 illərdə C. Malayya ittifaqının, 1948–57 illərdə isə İngiltərənin mustəmləkəsi olan Malayya Federasiyasının tərkibinə daxil idi. 1957 ildən C. sultanlığı Müstəqil Malayya Federasiyasının (1963 ildən Malayziya Federasiyası) tərkibindədir.

**COHÓR-BÁRU**, Yeni Cohor (Johor Bahru, Johor Baharu) – Malayziyada şəhər. Cohor ştatının (sultanlığının) inz. m. Əh. 876,0 min (2007; şəhərətrafı ilə 1,8



Cohor-Baru şəhərindən görünüş.

mln.-dan çox). Malakka y-a-nın c.-unda, Malayziyanı Sinqapurdan ayıran Cohor boğazının şm. sahilində yerləşir. Əh. 5,5 mln. olan Sinqapur–Cohor-Baru transsərhəd şəhər aqlomerasiyasına daxildir. İri nəql. qovşağı. Sinqapur ilə damba vasitəsilə birləşir (1924; uz. 1056 *m*, 6 zolaqlı avtostrada, d.y. əlaqəsi). Müasir avtomobil magistralları qovşağı. Dəniz portu (kauçuk, palma yağı, meyvə, boksit və s. ixracı); Malayziyanın ən iri Tancunq-Pelepas konteyner portu (C.-B.-dan q.-də; 2005 ildə yük dövriyyəsi təqr. 4,5 mln. İFE konteyner). Beynəlxalq aeroport (Senay).

1855 ildə Malayya balıqçılarının Tancunq-putri məskəni kimi meydana gəlmişdir. 1866 ildə sultan Əbu Bəkr *Cohor* sultanlığının paytaxtını bura köçürərək onu C.-B. adlandırmışdır. 20 əsrin ortalarından Sinqapurun sənaye peyk-şəhəri kimi inkişaf edir.

Şəhərin cənubunda, Cohor boğazının sahilyanı hissəsində C.-B.-nun işgüzar mərkəzi yerləşir. Şəhərin mərkəzi hissəsində İstana-Besar (1866), Bukit-Serene (1933) sarayları, Dövlət katibliyi binası, neorenessans üslubunda inşa edilmiş Əbu Bəkr məscidi (1892) saxlanılmışdır. Sultan Əbu Bəkr muzeyi, Botanika bağı, zoopark var.

Malayziya texnologiya un-ti (1904, 1975 ildən indiki adı ilə), MARA texnologiya un-tinin (1956) filialı və s. var.

Malayziyanın ən sürətlə inkişaf edən iqtisadi mərkəzlərindən biri (əhəmiyyətinə görə Kuala-Lumpur və Pinanq şəhər aqlomerasiyalarından sonra 3-cü), ölkənin c.-unun başlıca regional inkişaf qütbüdür. İşləyənlərin 1/2-indən çoxu sənayedə çalışır, sakinlərinin böyük hissəsinin iş yeri Sinqapurdadır. İqtisadiyyatda Sinqapur kapitalı üstünlük təşkil edir. C.-B. dünyada təbii kauçuk emalının mühüm mərkəzlərindən biridir. Ağ dəmir istehsalı üzrə z-d, "General Motors" korporasiyasının avtomobilqurașdırma müəssisəsi fəaliyyət göstərir. Ticarət və nəql.-paylaşdırıcı (logistik) mərkəzdir (o cümlədən Sinqapurun ərzaq məhsulları ilə təchizatçısı). Turizm inkişaf etmişdir (hər il təqr. 10 mln. xarici turist – Malayziyaya gələnlərin təqr. 60%-i, əsasən, Sinqapur vətəndaşları). İri pərakəndə satış kompleksləri və ticarət rayonları (ilk növbədə Sinqapurdan gələnlər üçün nəzərdə tutulmuşdur) var.

C.-B.-dan ş.-də Pasir-Qudanq və Tancunq-Lanqsat (neft emalı, kimya sənayesi müəssisələri – etilen, propilen və onların törəmələrinin istehsalı; gəmiqayırma); şm. və şm.-q.-də elektronika (əsasən, Amerika və yapon TMK-larına məxsusdur), həmçinin toxuculuq, yağ, meyvə-tərəvəz konservi (konservləşdirilmiş ananas istehsalı və s.), ağac emalı sənayesi müəssisələrinin fəaliyyət göstərdiyi Senay, Skuday, Tebrau, Tampoy, Kulay azad iqtisadi zonaları yerləşir.

**COHOR SALNAMƏLƏRİ** – 17–19 əsrlərdəki *Cohor* tarixini əks etdirən salnamələr ("Hekayət Siak", "Perinqatan Səcərah Neqri Cohor", "Tühfət ən-Nəfis"). C.s. hakimiyyət uğrunda mübarizə aparan 3 yerli zadəgan qrupunun mənafelərini güdən Cohor müsəlman tarixşünaslığındakı Malayya, Minanqkabaus (Siak) və bugi istiqamətlərini əks etdirir. Malayya dilində ərəb qrafikası (cavi adlandırılır) ilə yazılmışdır. C.s. Cohor tarixini öyrənmək üçün qiymətli mənbədir.

Cohor-Baru. Əbu Bəkr məscidi.



Cohor-Baru. Şüşə məbədin interyeri.







**COKYAKÁRTA** (Daerah İstimewa Yogyakarta) – İndoneziyada, Yava a.-nın mərkəzi hissəsində xüsusi ərazi dairəsi. Sah. 3,1 min *km*². Əh. 3,1 mln. (2010). İnz. m. Cokyakarta ş.-dir.

**COKYAKÁRTA** (Yava dilində Yogyakarta, Jogjakarta, Djokjakarta) – Yava a.-nda eyniadlı paytaxtı ilə mövcud olmuş sultanlıq. Hollandların burada yerləşən Mataram dövlətinə son qoyduqdan sonra 1755 il fevralın 13-də Qyanti adlı yerdə yerli hakim dairələrin nümayəndələri ilə bağlanmış müqaviləsi əsasında yaranmışdır. Müqaviləyə görə Mataramın ərazisi iki dövlətə ayrıldı: C. və *Surakarta* (sonralar C. onunla düşmənçilik edirdi). C.-nın ilk sultanı Manqkubuminin qəbul etdiyi Xamenqku Buvono (I) titulunu C.-nın bütün sonrakı sultanları da qəbul etmişdilər. 1811–15 illərdə Cənub-Şərqi Asiyadakı holland müstəmləkələrini işğal etməyə çalışan ingilislər C. dövlətinə arxalanırdılar. Hollandiya müstəmləkəçilərinə qarşı *Diponeqoronun* başçılığı ilə Yava üsyanı (1825–30) baş vermişdi. İkinci dünya müharibəsinə qədər C. Niderland Hindistanının tərkibində "muxtar dövlət" hesab olunurdu; 1945 ildə müstəqil İndoneziya Respublikası yarandıqdan sonra irsi sultanların idarə etdiyi əlahiddə muxtar dairə statusunu almışdı. 1946–49 illərdə C. sultanlığının əsas şəhərinə müvəqqəti olaraq İndoneziya Respublikasının paytaxtı köçürülmüşdü.

**COKYAKÁRTA** (Yogyakarta, Joqjakarta, Djokjakarta) – İndoneziyada şəhər. Cokyakarta xüsusi ərazi dairəsinin inz. m. Əh. 669,9 min (2007; aqlomerasiyada 1,6 mln.). Hind okeanı sahilindən 35 *km*-lik məsafədə, Yava a.-nın mərkəzi hissəsində, Merapi vulkanından (hünd. 2911 *m*) c.-da yerləşir. Avtomobil yolları qovşağı, adanın digər şəhərləri ilə d.y. əlaqəsi. Beynəlxalq aeroport (Adisuçipto).

C. (Yava dilində "çiçəklənməli olan şəhər") 1755 ildə Yava şahzadəsi Manqkubumi tərəfindən eyniadlı sultanlığın paytaxtı kimi salınmışdır. 19–20 əsrlərdə Hollandiya müstəmləkə idarəçiliyinə qarşı milli müqavimətin dayağına çevrilmişdi. *Yava üsyanı (1825–30)* zamanı *Diponeqoronun* baş qərargahı, 1942–45 illərdə isə *Sukarnonun* başçılığı ilə xalq müqaviməti hərəkatının qərargahı C.-da yerləşirdi. 1946–49 illərdə C. İndoneziyanın müvəqqəti paytaxtı olmuşdur. Şəhər dəfələrlə zəlzələ və Merapi vulkanının püskürməsindən dağıntılara məruz qalmışdır (2006 il mayın 27-də baş vermiş zəlzələ nəticəsində təqr. 6 min nəfər həlak olmuşdur).



Cokyakarta. Prambanan hinduist məbədi.

Şəhərin tarixi mərkəzində Sultan sarayı ansamblı ("kraton", 18 əsr), park və Taman-Sari sarayının ("Su qəsri", 1758; 2006 ildən bərpa edilmişdir) qalıqları; şm. hissəsində müasir işgüzar mərkəzi (Calan-Malioboro əsas ticarət küçəsində 19–20 əsrlər holland müstəmləkə üslubunda olan binalar saxlanılmışdır) yerləşir. Benteng-Fredeburq holland qalası (1765; hazırda İndoneziyanın müstəqilliyi uğrunda mübarizə tarixi muzeyidir) bərpa edilmişdir.

Qadja-Mada Un-ti (1949) ölkənin ilk və ən nüfuzlu ali məktəbidir; C. Dövlət Un-ti, İndoneziya İncəsənət İn-tu (1984), həmçinin bir sıra qeyri-dövlət ali məktəbi, o cümlədən İndoneziya İslam Un-ti (1945); Klassik Yava rəqsi məktəbi və "Kölgələr" teatrı (vayanq-kulit); İslam kitabxanası (1942) və regional kitabxana (1949); İndoneziya Sonobudoyo incəsənəti muzeyi (1935), İndoneziyanın milli qəhrəmanı şahzadə Diponeqoro muzeyi, HHQ muzeyi; Okeanarium (dünyada akulalar üçün ən iri hovuzlardan biri), Pasar-Nqasem quş bazarı və s. fəaliyyət göstərir. Hər il C.-da İndoneziya musiqi və rəqs sənəti festivalı keçirilir.

C. turizm mərkəzidir. İşləyənlərin 2/3-sindən çoxu xidmət sferasında çalışır (əsasən, ticarət və əyləncə sənayesində). C. batik istehsalının iri mərkəzidir. C.-nın şəhərətrafı olan Kotagede (16–17 əsrlərdə Yavada Mataram imperiyasının paytaxtı olmuşdur) gümüş üzərində döymə və zərgərlik məmulatları istehsalı üzrə ölkənin başlıca mərkəzidir; şəhərətrafı Kasonqan ənənəvi İndoneziya keramikası istehsalının mühüm mərkəzidir. Toxuculuq və tikiş məmulatları (əsasən, batikdən geyimlər) istehsal olunur; yeyinti (şəkər, meyvə-tərəvəz konservi, yağ və s.), tütün, mebel sənayesi müəssisələri fəaliyyət göstərir; metal emal edilir, ənənəvi İndoneziya sənətkarlığı əşyaları və suvenirlər hazırlanır.

C.-nın yaxınlığında yerləşən 8–10 əsrlərə aid *Borobudur* Budda məbədi və *Prambanan* hinduist məbədi kompleksi *Ümumdünya irsi* siyahısına salınmışdır.

**COQAS** – Ermənistanda və Azərbaycan Resp.-nda (Qazax r-nu) çay. Ağstafa çayının sol qolu. Uz. 60 *km*. Hövzəsinin sah. 520 *km*². Təqr. 2000 *m* hünd.-dən başlanır. Su anbarı var.

**CÓLİ** (Jolu) Con (1.11.1857, İrlandiya, Offali qraflığı – 8.12.1933, Dublin) – ingilis geoloqu və geofiziki. Dublində Triniti-kollec bitirmişdir. Dublin Un-tinin prof.-u (1897 ildən) idi. Yerin istilik rejimi üçün radioaktiv elementlərin əhəmiyyətinə birinci olaraq C. diqqət yetirmiş-



Comolunqma (Everest) dağı.

dir. İlk dəfə müxtəlif dağ süxurlarında radioaktiv parçalanma prosesində elementlərin ayırdığı enerjinin miqdarını hesablamışıdır. Yer təkindəki proseslərin dövriliyinin tektonik proseslərin radioaktiv parçalanma ilə əlaqəsi fərziyyəsini irəli sürmüşdür (1925).

**COLİTTİ** (Giolitti) Covanni (27.10.1842, Mondovi – 17.7.1928, Kavur) – İtaliya dövlət və siyasi xadimi. Turin Un-tində hüquq təhsili (1860) almışdır. 1862 ildən Ədliyyə nazirliyində, sonra Maliyyə nazirliyində məmur olmuşdur. 1873 ildən baş maliyyə müfəttişi, 1877 ildən xəzinədarlıq katibi idi. 1882 ildə Liberal partiyasından parlamentə deputat seçilmiş, dövlət müşaviri təyin edilmişdi. Dəfələrlə nazirlər kabinetlərinin tərkibinə daxil olmuş (1889–90 illərdə maliyyə naziri, 1901–03 illərdə daxili işlər naziri), baş nazir vəzifəsini tutmuşdur (1892, may – 1893, noyabr; 1903, noyabr – 1905, mart; 1906, may – 1909, dekabr; 1911, mart – 1914, mart; 1920, iyun – 1921, iyun). C. İtaliyanın dövlət siyasətinə böyük təsir göstərmişdir. İtaliya tarixinin 1880-cı illərin sonundan 1920-ci illərin əvvəllərinə qədər olan dövrü İtaliya liberalizminin "qızıl əsri" hesab olunur və C. dövrü (eta giolittiana) adlandırılır. C.-nin baş nazir olduğu dövrdə İtaliyada liberal islahatlar keçirildi: dövlət sığortası tətbiq edildi, fəhlələrin həmkarlar ittifaqları yaratmaq və tətil keçirtmək hüquqları tanındı, əhalinin seçki hüququ genişləndirildi (1912 il islahatı nəticəsində seçicilərin sayı 2903 min nəfərdən 8443 min nəfərə qədər artdı). C. əvvəlcə sosialistlərlə əməkdaşlığı genişləndirməyə çalışırdı. 1903 ildə onların lideri F. Turatiyə hökumətə daxil olmağı təklif etdi. Lakin sonrakı illərdə C. öz mövqeyini dəyişdi və sosialistlərin parlamentə seçilməsinin qarşısını almaq məqsədilə 1913 ildə "Colitti–Centiloni paktının" bağlanmasına təşəbbüs göstərdi (pakt Vatikanla İtaliya dövləti arasındakı münaqişənin aradan qaldırılmasına imkan yaratdı). C.-nin dövründə İtaliya Şimali və Şərqi Afrikada fəal müstəmləkə siyasəti həyata keçirir, Osmanlı imperiyasına qarşı müharibə aparırdı [bax *İtaliya-Türkiyə müharibəsi (1911–12)*]. 1914–15 illərdə "bitərəflər" cəbhəsinə başçılıq edən C. İtaliyanın Birinci dünya müharibəsində iştirakına qarşı çıxış edirdi. 1920 ildə tətil hərəkatının yüksəlişi şəraitində həmkarlar ittifaqları ilə sənayeçilər konfederasiyası arasında danışıqlar aparılması təşəbbüsü ilə çıxış etdi, bu da müəssisələrin fəhlələr tərəfindən tutulmasının qarşısını aldı. 1920–21 illərdə C. faşist partiyasından olan deputatların hökumətə daxil edilməsinə tərəfdar idi, 1924 ildə B. *Mussoliniyə* qarşı müxalifətə keçdi, 1928 ildə İtaliyada parlament rejiminin ləğv olunmasının əleyhinə çıxış etdi.

**COM** [ing. C(omponent) O(bject) M(odel) – komponentlərin obyekt modeli], k o m – Windows mühitində obyektlərin qurulması və qarşılıqlı əlaqəsi üçün texnoloji standart. 1993 ildə Microsoft korporasiyası tərəfindən hazırlanmışdır. COM texnologiyası proqram təminatının qurulmasında hazır proqram komponentləri (hər biri eyni vaxtda bir çox proqramlarda istifadə edilə bilər) arasında qarşılıqlı əlaqələrin ümumiləşdirilmiş bir üsulla həyata keçirilməsi üçün yaradılmışdır; onun köməyi ilə proqram təminatının bir komponenti öz xidmətlərini digər hissəyə (komponentə) təqdim edir. Proqram təminatının istənilən komponenti COM obyektləri şəklində reallaşır. Hər bir obyekt bir və ya bir neçə interfeys təqdim edir, interfeys isə metodlardan (müəyyən əməliyyatı yerinə yetirən prosedur, yaxud funksiyalardan) ibarətdir.

*Əd.:* K ə r i m o v S.Q. İnformasiya sistemləri. B., 2008.

**COMƏRD** – Azərb. Resp. Kəlbəcər r-nunda kənd. Comərd ə.d.-nin (Comərd, Qaragüney, Nəcəfalı, Pirilər k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 23 *km* şm.-q.-də, Tutqunçayın (Tərtərin sağ qolu) sahilindədir. Əh. 439 (2012); işğaldan (1993, aprel) əvvəl maldarlıq və tütünçülüklə məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, klub, tibb məntəqəsi var idi.

**COMƏRDLİ**, C o m a r t l ı – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qarakilsə, 2.3.1940 ildən Sisyan r-nu), Dəliçayın sol sahilində, dəniz səviyyəsindən 2000 *m* yüksəklikdə azərb.-ların yaşadığı kənd. 1918 ildə erməni daşnakların hücumları nəticəsində kənd dağıdılmış, əhali isə Naxçıvana çəkilməyə məcbur olmuşdur. 1922 ildə doğma yurda qayıdan əhali kəndi bərpa edərək yenidən burada məskunlaşsa da, 1988 ilin dekabrında növbəti dəfə deportasiyaya məruz qalmışdır.

**COMOLÚNQMA**, E v e r e s t, S a g a r m a t h a – Yer kürəsində ən yüksək dağ massivi; Himalay d-rında, Nepalla Çin sərhədindədir. Hünd. 8848 *m* (1954 ildə rəsmi olaraq təyin olunmuşdur). Bünövrəsi Kembridən əvvəlki qneys və qranitlərdən, 7000 *m*-dən yüksəkdə Mezozoyun kristallik əhəngdaşı və şistlərindən ibarətdir. Piramida formalıdır, c. yamacı daha dikdir. Massivdən bütün istiqamətlərə ümumi sah. 1600 $km^2$ olan təqr. 600 buzlaq dili uzanır; ən iriləri – Q.-i və Ş.-i Ronqbuk, Kyetrak, Kxumbu. Şm. yamaclarında buzlaqlar 5200–5400 *m*-ədək, c. yamaclarında 4500–4700 *m*-ədək enirlər. Dağa Everest adı 1865 ildə Hindistanda Britaniya topoqrafiya xidmətinin rəhbəri gen. C. Everestin şərəfinə verilmişdir. C.-nın zirvəsinə birinci dəfə 1953 il mayın 29-da alpinistlərdən yeni zelandiyalı E. Hillari və nepallı (şerp) N. Tensinq çıxmışlar. 1980 il avqustun 20-də R. *Messner* dağın zirvəsinə təkbaşına qalxmışdı. 1953–2006 illərdə C.-ya 3200-dən çox alpinist qalxmışdır (onların 200-dən çoxu ölmüşdür). 1982 ilin mayında 11 sovet alpinisti ilk dəfə çətin keçilən şm.-q. yamacla C.-nın zirvəsinə qalxmışdı.

**COMPAQ** [ing. Comp(atibility) a(nd) q(uality) – uyğunluq və keyfiyyət], k o m p a q – fərdi kompüterlər istehsalı üzrə ABŞ şirkəti. 1982 ildə təsis edilmişdir. İlk məhsulu 1983 ildə Intel 8088 mikroprosessoru əsasında hazırlanan Compaq Portable fərdi kompüteri olmuşdur. 1985 ildə Intel 80286 mikroprosessoru əsasında Compaq Deskpro 286, 1986 ildə Intel 80386 mikroprosessoru əsasında Compaq Deskpro 386 fərdi kompüterlərini istehsal etməklə IBM şirkətini geridə qoymuşdur. 2002 ildə Hewlett-Packard şirkəti ilə birləşərək müstəqil fəaliyyətini sona çatdırmışdır. Compaq Armada, Compaq LTE noutbukları, Alpha prosessorları əsasında Compaq AlphaServer yüksək məhsuldarlıqlı serverlər seriyası, 32 bitlik prosessorlar (Intel Xeon) və 64 bitlik prosessorlar (Intel Itanium) əsasında Compaq ProLiant serverləri, Compaq Storage Works verilənləri saxlama sistemləri və s. C.-ın məhsulları idi.

**CON BELL** (1691, Entermoni – 1.7.1780, Entermoni) – şotlandiyalı həkim. 1714–47 illərdə Rusiyada xidmət etmişdir. Rusiyanın İrana (1715–18) və Çinə (1719–22) göndərdiyi elçiləri müşayiət edən nümayəndə heyətində həkim işləmişdir. 1732 ildə Rusiya-İngiltərə diplomatik münasibətləri bərpa olunduqdan sonra Rusiyada İngiltərə nümayəndəliyinin katibi olmuşdur. Rusiya və Türkiyə arasında sülh danışıqları aparmaq üçün həm Rusiya, həm də İngiltərə nümayəndəsi kimi Türkiyəyə göndərilmişdi (1737–38). B. İrana gedərkən Azərb.-da olmuşdur. Səyahətləri barədə yazdığı əsərdə Azərb. şəhərləri (Şamaxı, Bakı, Dərbənd, Lənkəran, Niyazabad, Təbriz və s., habelə Muğan) haqqında da məlumat vermişdir.

**CON REY** (29.11.1627, Esseks – 17.1.1705, orada) – ingilis təbiətşünası. London Kral cəmiyyətinin üzvü. 1670 ildə ilk dəfə qırmızı qarışqalardan qarışqa turşusu almışdır. Britaniya adaları bitkilərinin kataloqunu (1670), balıqlar (1676), quşlar (1685), sürünənlər və məməlilər (1693) haqqında kitablar nəşr etdirmişdir. Bitkilərin ikiləpəli və birləpəlilərə bölünməsini elmə daxil etmiş, bitkilərin rənginə işığın təsirini tədqiq etmiş, növün ilk bioloji konsepsiyasını (1682) vermişdir. Natural teologiya ənənəsində klassik əsər olan "Allahın müdrikliyi onun xəlq elədiklərindədir" əsərini çap etdirmişdir (1691).

Conka.



**CON RİD** – bax *Rid* Con.

**CONATAN ALMASI** – qədim Amerika alma sortu. 1826 ildə ABŞ-da Esopus Spitzenburg sortunun qələmlərindən alınmışdır. Erkən (3 ilində) barvermə dövrünə girir və bol məhsul verir. Meyvələri orta irilikdə, dəyirmidir. Çəkisi 140–165 q. Qabığı nazik, hamar, açıq-sarı, yaxşı işıqlandırmada meyvələri qızarır. Ləti sarımtıl, şirəli, zərif, ətirli, turşa-şirindir. Qış sortudur. Məhsulu sentyabrın axırında toplanır, fevral-mart ayına qədər saxlanır.



Conatan alma sortu.

**CONİ QƏBİRİSTANI** – Azərb. Resp. Lerik r-nunun Coni k. yaxınlığında Son Tunc dövrünə (e.ə. 2-ci minilliyin 2-ci yarısı) aid arxeoloji abidə. İlk dəfə 1890 ildə fransız arxeoloqu Jak de Morqan tətqiq etmişdir. Daş qutu qəbirlərdən ibarətdir. Qəbirlərdən çaxmaqdaşından düzəldilmiş ox ucluqları, tunc qılınc, xəncər, nizə ucluqları, bəzək əşyaları və s. tapılmışdır. *Talış-Muğan mədəniyyətinin* səciyyəvi abidəsidir.

**CONKA** (malaya dilində djonq; təhrif olunmuş çin dilində çuan – gəmi) – yastıdibli yelkənli yük gəmisi; burun və arxa tərəfi enli, bir qədər yuxarı qalxmış olur. Müasir C.-larda dor ağaclarının sayı 3-ədəkdir. Üfüqi tamasalarla əlaqələndirilmiş çiləkəndən olan yelkənləri dördbucaq formasındadır. C.-nın uz. 55 *m*-ə, eni 9 *m*-ə, yükgötürmə (yükqaldırma) qabiliyyəti 600 *t*-a qədərdir. Cənub-Şərqi Asiya və Uzaq Şərq ölkələrində geniş yayılmışdır.

**CONS** (Johns) Casper (d.15.5.1930, Corciya ştatı, Oqasta) – Amerika rəssamı, heykəltəraş və qrafik. 1949–51 illərdə Cənubi Karolina Un-tində təhsil almış, 1952 ildə Nyu-Yorka köçmüş və oradakı kommersiya rəssamlıq məktəbində oxumuşdur. 1954 ildə R. *Rauşenberqlə* görüşmüşdür; onların birgə yaradıcılıq fəaliyyəti Amerika *pop-artının* əsasını qoymuşdur. C. yaradıcılığında bu yeni istiqamət "Amerika bayraqları" (1954 ildən), "Hədəflər" (1955 ildən) silsilə əsərlərində öz əksini tapmışdır. Rəssam hamıya məlum işarələri bədii şəkildə təkrarlayaraq, bir növ təsviri tavtologiyalar yaratmışdır. 1960 ildə C. məişət əşyalarının (pivə bankaları və s.) tunc surətlərindən ibarət seriya yaratmışdır ("Naxışlı tunc", 1960, Rəssamlıq muzeyi, Bazel).

1960-cı illərdə C. litoqrafiya ilə məşğul olmuşdur; çap qrafikası üsulları onun 1970-ci illərdə yaratdığı əsərlərinin formal-plastik mövzusunu müəyyən etmişdir ("Adsız", 1972, Lüdviq muzeyi, Köln).

1980-ci illərdəki yaradıcılığında ötən dövrlərin müxtəlif motivləri birləşərək, onun əsərlərinə avtobioqrafik səciyyə vermişdir ("Qaçağan düşüncələr", 1983, Uitni Amerika incəsənəti muzeyi).

**CONS** (Jones) Riçard (1790, Kent qraflığı, Royal-Tanbric-Uels – 26.1.1855, Hartfordşir qraflığı, Heyliberi) – ingilis iqtisadçısı. 1816 ildə Kembric Un-tini bitirmişdir. Keşiş və eyni zamanda əvvəlcə Londonda siyasi iqtisad prof.-u olmuş, T. *Maltusun* ölümündən sonra isə Heyliberidəki kollecdə onun siyasi iqtisad kafedrasına rəhbərlik etmişdir (1835 ildən). D. *Rikardonun* təlimini tənqid etmişdir. İctimai istehsalın inkişafında kapitalizmə keçid fazası kimi baxmışdır. Belə ki, "yığılmış sərvət mülkiyyətçiləri" ilə "əsl fəhlələr" arasında antaqonizm yaratdığı üçün o, mütləq məhvə məhkumdur. Tarixi prosesi ilahi qüvvə tərəfindən idarə olunan zəif təkamül kimi təsvir edirdi. C. ilk dəfə olaraq kapitalı həm "toplanmış ehtiyat", həm də ictimai münasibət kimi nəzərdən keçirmişdir. O, kapitalın dəyər kəmiyyətini "köməkçi" (daimi) kapitala və "fəhlələrin saxlanılması üçün kapital"a ayırmış və B.Britaniyanın k.t. üçün onların nisbətini 5:1 kimi hesablamışdır. C. bu nisbətin artım tendensiyasını aşkar etməyə çalışmışdır. C. renta nəzəriyyəsini torpaqların azalan məhsuldarlıq qanunundan ayırmış və hesab etmişdir ki, rentanın mütləq kəmiyyəti (onun milli gəlirdəki payı istisna olmaqla) digər gəlirlərin kütləsi azalmadan da arta bilər. O, kapital yığımının mənfəət normasından deyil, onun kütləsindən asılı olduğunu göstərmişdir.

Əsəri: Экономические сочинения. Л.,1937.

**CONS** (Jones) Merion (d.12.10.1975, Los-Anceles) – Amerika idmançısı. Yüngül atletika üzrə Olimpiya Oyunlarında (2000, Sidney) 5 medal (100, 200 *m* məsafəyə qaçış və 4×400 *m* estafet yarışında qızıl; uzunluğatullanma və 4×100 *m* estafetdə bürünc) qazanmış yeganə idmançıdır. Müxtəlif məsafələrdə dəfələrlə dünya (1997, 1999, 2001) çempionu və mükafatçısı (1999, 2001) olmuş, Beynəlxalq Yüngül Atletika Federasiyası (IAAF) tərəfindən 3 dəfə ilin idmançısı (1997, 1998, 2000) seçilmişdir.



**CONS** Uilyams (28.8.1746, London – 27.4.1794, Kəlkətə) – ingilis şərqşünası. Oksford Un-tində oxumuşdur (1764–68). 41 dil bilirdi (13-ünü mükəmməl, 28-ini orta səviyyədə). "Şərq poeziyası haqqında traktat" adlı lk kitabı Danimarka kralı VII Kristianın sifarişi ilə fars dilindən fransız dilinə tərcümə etdiyi "Nadir şahın tarixi" ilə birlikdə 1770 ildə nəşr olunmuşdur. "Fars dilinin qrammatikası" (1771) və "Asiya dillərindən tərcümə şeirlər" (1772) kitablarından sonra 1773 ildə kralın fərmanı ilə Kopenhagen Kral Cəmiyyətinə üzv qəbul edilmişdir. "Asiya poeziyasının şərhinə dair altı əsər" kitabında (1774) türk, ərəb, fars, Çin, efiop və s. dillərdə yazılmış şeirlərdən, əruz və qafiyə problemlərindən bəhs olunur. C. əruz vəzni ilə yunan və latın şeir vəznləri arasında müqayisə aparmış, bir sıra ərəb şeirini müvafiq latın şeiri vəznində tərcümə etmişdir. 1783 ildə cəngavər və ser titulu aldıqdan sonra Kəlkətə Ali Məhkəməsinə hakim təyin olunmuş və Hindistana göndərilmişdir. 1784 ildə burada Benqal Asiya Cəmiyyətini yaratmışdır. İlk dəfə sanskrit dilini Avropa dilləri ilə müqayisə edərək sonralar hind-Avropa ailəsinə daxil olunan dillərin qohumluğu nəzəriyyəsini irəli sürmüşdür. İslamaqədər yeddi ərəb qəsidəsinin əslini və tərcüməsini ("Müəlləqat", 1782), Hatifinin "Leyli və Məcnun" poemasının (1788), Beydəbanın "Kəlilə və Dimnə"sinin ("Hitopadesa", 1789), Vedalardan bəzi parçaların, Kalidasanın "Şakuntala"sının (Kəlkətə, 1789; London, 1790) tərcüməsini, Siracəddin Səcavəndinin "Əl-Fəraiz əs-Siraciyyə" əsərinin ("İslamda varisin vəsiyyət olunmamış əmlak üzərində vərəsəlik hüququ" adı ilə, 1792) şərhlərlə tərcüməsini nəşr etdirmişdir. Firdövsinin "Şahnamə"sindən seçmə hissələrin latın dilinə, N. Gəncəvinin bəzi şeirlərinin ingilis dilinə ilk tərcüməsi də C.-a məxsusdur.

**CONS BOĞAZI** (Jones Sound) – Kanada Arktika arxipelaqında boğaz. Devon və Elsmir a-rı arasındadır. Eni 60–80 *km*. İlin çox hissəsi buzla örtülü olur. C.b.-nda q.-dən ş.-ə – Baffin dənizinə zəif axın var.

**CÓNSON** (Jonson) Bencamin (Ben) (11.6.1572, London – 6.8.1637, London) – ingilis dramaturqu, şair. Keşiş ailəsində doğulmuşdur. Londonda Vestminster məktəbini bitirmişdir. Könüllü olaraq Flandriyada vuruşmuş, təqr. 1592 ildə İngiltərəyə qayıtmışdır. Təqr. 1597 ildə aktyor və dramaturq kimi F. Henslounun teatr truppasına qəbul edilmişdir. 1598 ildə dueldə baş vermiş qətlə görə həbs olunsa da, nüfuzlu dostlarının sayəsində əfv edilmişdir. 1604 ildə saray şairi təyin edilmişdir. 1616 ildə əsərlərinin külliyyatını (folio) nəşr etdirmiş və şair-laureat adını almışdır. 1628 ildən London ş.-nin salnaməçisi olmuşdur.

Əsasən, komediyaları ilə məşhurlaşmış C. ingilis İntibah dövrünün görkəmli dramaturqlarından biridir. "Qlobus" teatrında tamaşaya qoyulmuş (rollardan birini U. *Şekspir* oynamışdır) "Hərənin öz qəribəliyi var" (1598) və "Hər adamın qəribəliyi olmur" (1599) komediyaları ilə uğur qazanmışdır. C. ən yaxşı komediyalarını 1604–14 illərdə yazmışdır: "Volpone, yaxud Tülkü" (1606), "Kimyagər" (1610) – zehniyyətə və okkultizmə aludəçiliyi, "Varfolomey yarmarkası" (1614) – 17 əsrin əvvəllərində ingilis cəmiyyətinin satirik panoramını əks etdirirdi. Bu pyeslərin əsas qəhrəmanları intriqaların əsl virtuozları olan mənfi personajlardır. C. ingilis dramaturgiyasında klassisizmin banisidir: o, danışan adlardan geniş istifadə etmişdir; Roma tarixindən götürülmüş "Seyanın süqutu" (1603) faciəsinin süjetində ingilis dramaturgiyasında ilk dəfə olaraq məkan, zaman və hərəkət birliyi qaydasını tətbiq etmişdir. 1600-cü illərin ortalarından C. səhnəqraf İ. Consla əməkdaşlıq edərək, saray tamaşaları üçün *maskalar* yazmışdır: "Çirkinlik haqqında maska" (1605), "Gözəllik haqqında maska" (1608) və s. C.-un poetik irsində Şekspirin ölümünə yazdığı elegiya seçilir (Şekspirin ilk foliosunda çap olunmuşdur, 1623). Ədəbi-nəzəri fikirləri "Tikinti üçün meşələr, yaxud İnsanlar və hadisələr barəsində kəşflər" (1640) kitabında əksini tapmışdır.

Əsərləri: Works. Oxf., 1925–1952. Vol.1–11; Пьесы. Л.; М., 1960.

**CONSON** (Johnson) Endryu (29.12. 1808, Şimali Karolina ştatı, Roli – 31.7.1875, Tennessi ştatı, Karters-Steyşen) – ABŞ-ın 17-ci prezidenti. Peşə etibarilə dərzi idi. 1830-cu illərin sonlarında ABŞ Demokratlar Partiyasına qoşulmuşdur. C. Cənub ştatları senatorlarından 1861 ildə quldar Amerika Konfederativ Ştatlarının yaradılması əleyhinə səs vermiş yeganə senator idi. *Amerika Birləşmiş Ştatlarında Vətəndaş müharibəsi (1861–65)* illərində federal hökumət tərəfindən Tennessi ştatının hərbi qubernatoru təyin edilmişdir (1862). 1865 ilin mart–aprel aylarında ABŞ-ın vitse-prezidenti, A. *Linkolnun* öldürülməsindən sonra ABŞ-ın prezidenti (1865–68) olmuşdur. C.-un irəli sürdüyü "Cənubun rekonstruksiyası" proqramı əslində cənub ştatlarında bütün hakimiyyətin plantatorların əlində saxlanmasın imkan verirdi. C. 1868 ildə konstitusiyanın pozulmasında ittiham olunan C.-a qarşı impiçment prosedurası başlamışdır (onu hakimiyyətdən uzaqlaşdırmaq üçün cəmi 1 səs çatmamışdı). Prezident səlahiyyətləri bitdikdən sonra siyasətdən uzaqlaşmışdır.



**CÓNSON** (Johnson) Filip Kortelyu (8.7.1906, Ohayo ştatı, Klivlend – 25.1.2005, Konnektikut ştatı, Nyu-Keynan) – amerikan memarı, sənətşünas, kolleksiyaçı. Kembricdəki (ABŞ) Harvard Un-tində humanitar elmləri (1923–30) və memarlığı (1940–43; V. *Qropius* və M. *Bröyerdən*) öyrənmişdir. 1930 ildə müasir incəsənəti öyrənmək məqsədilə Avropaya səyahət etmişdir. Nyu-Yorkdakı Müasir İncəsənət Muzeyində memarlıq şöbəsinin direktoru (1932–34 və 1946–54 illərdə) olmuş, burada Heykəllər bağını yaratmışdır (1952, 1964). C. amerikalıları avanqard Avropa memarlığı ilə tanış etmək məqsədilə sərgi təşkil etmiş, *beynəlmiləl üslub* haqqında kitab (1932) buraxmışdır. L. *Mis van der Roenin* davamçısı olmuş C. memarın sərgisini təşkil etmiş, haqqında monoqrafiya (1947) yazmışdır; onunla Nyu-Yorkda "Siqrem bildinq" layihəsində (1956–58) birgə işləmişdir. Sonralar müxtəlif üslubların motivləri ilə eksperimentlər etmişdir: Port-Çesterdə sinaqoq (1956), Dumbarton-Oksda Kolumbaqədərki Amerika İncəsənəti Muzeyi (1963), Linkoln-mərkəzdə Nyu-York ştatının teatrı (Nyu-York, 1964, R. Fosterlə birlikdə) və s. C. Börci (1967–91) ilə birlikdə son *modernizm* (Minneapolisdə IDS mərkəzi, 1974; Hyustonda "Penzoyl pleys", 1986; Qarden-Qrovda "Büllur kilsə", Kaliforniya, 1980) və *postmodernizm* (Hyustonda Amerika Bankının mərkəzi binası, 1984; Nyu-Yorkda AT&T, indiki "Soni bildinq", binası 1979–84) üslublarında çoxmərtəbəli binalar inşa etmişdir. 1988 ildə Nyu-Yorkdakı Müasir İncəsənət Muzeyində *dekonstruktivizm* sərgisinin kuratoru olmuşdur. C. Nyu-Keynandakı malikanə ansamblını (məşhur "Şüşə ev", 1949–50, rəngkarlıq qalereyası, 1965; heykəltəraşlıq qalereyası, 1970; kitabxana, 1980; qonaq evi, 1985; giriş pavilyonu, 1995 və s. tikililərlə) muzey yaradılması üçün vəsiyyət etmişdir.

*Əd.:* Schulze F.P. Johnson: life and work. Chi., 1996.

**CÓNSON** (Johnson) Con Harold (19.1.1918, Arkanzas – 8.8.2005, Çikaqo) – amerikalı naşir. Çikaqoya köçərək jurnalistika fəaliyyətilə məşğul olmuşdur. 1942 ildən qaradərililər üçün "Neqro Daycest" ("Negro Digest") qəzetini buraxmış, 1945 ildə "Eboni" jurnalının (tirajı 1,8 mln., 2002) əsasını qoymuşdur. "Conson Pablişinq Ko." ("Johnson Publishing Co.") şirkətini quraraq qaradərili oxucu auditoriyasına hesablanmış kitab və jurnalların nəşrinə başlamışdır. Sonralar radioverilişlər və sığorta işi ilə yanaşı kosmetik vasitələrin istehsalı ilə də məşğul olmuşdur.

**CONSON** (Johnson) Lindon Beyns (27.8.1908, Texas ştatı, Stonuoll – 22.1. 1973, Texas ştatı, San-Antonio) – ABŞ-ın 36-cı prezidenti. Fermer ailəsində anadan olmuşdur. 1930 ildə Müəllimlər kollecini bitirmiş, bir müddət dərs demişdir. 1939–48 illərdə ABŞ Demokratlar Partiyasından Nümayəndələr palatasının üzvü, 1949–61 illərdə Texas ştatından senator, 1953–60 illərdə Senatda demokratların lideri, 1961–63 illərdə ABŞ-ın vitse-prezidenti olmuşdur. C. *Kennedi* öldürüldükdən sonra (1963, noyabr) prezident vəzifəsinə keçmiş, 1964 il seçkiləri zamanı yenidən bu vəzifəyə seçilmişdir. C. Demokratlar partiyasının sentrist dairələrini təmsil edirdi; Texas ştatının maliyyə və neft korporasiyaları ilə sıx bağlı idi. Daxili siyasətində C. "böyük cəmiyyətin" qurulması şüarı altında mənzil tikintisi, səhiyyə və təhsildə islahatlar aparılmasının təşəbbüskarı olmuşdur. C.-un prezidentliyi dövründə qaradərili əhalinin hüquq bərabərliyini təmin edən "Vətəndaş hüquqları aktı" qəbul olunmuşdur (1964 ilin iyulunda qüvvəyə minmişdir). Bu akt formal olaraq afroamerikalıların irqi ayrı-seçkiliyinə son qoymuşdur. ABŞ-ın Vyetnamda apardığı ədalətsiz müharibə, Dominikan Respublikasına qarşı 1965 il silahlı müdaxiləsi, 1967 il Yaxın Şərq münaqişəsi zamanı İsrailin ərəb ölkələrinə qarşı təcavüzünün müdafiə olunması və s. də C.-un prezidentlik illərini səciyyələndirir. C. 1968 ildə prezidentlik müddəti qurtardıqdan sonra siyasi fəaliyyətdən uzaqlaşmışdır.



**CÓNSON** (Johnson) Maykl Dueyn (d.13.9.1967, Texas ştatı, Dallas) – Amerika idmançısı. Yüngül atletika üzrə 5 dəfə Olimpiya (1992, Barselona, 4×400 *m* estafet; 1996, Atlanta, 200 və 400 *m* məsafəyə qaçış; 2000, Sidney, 400 *m* məsafəyə qaçış və 4×400 *m* estafet), dəfələrlə

F.K. Conson. Qarden-Qrovda "Büllur kilsə".





dünya (1991, 200 *m* qaçış; 1993, 400 *m* qaçış və 4×400 *m* estafet; 1995, 200 və 400 *m* qaçış və 4×400 *m* estafet; 1997, 400 *m* qaçış; 1999, 400 *m* qaçış və 4×400 *m* estafet) çempionu və rekordçusu (1996, 200 *m*, 19,32 *san*; 1999, 400 *m*, 43,18 *san*) olmuşdur. 2000 ildə idman karyerasını bitirdikdən sonra idman teleşərhçisi kimi çalışır.

**CONU** – Azərb. Resp. Lerik r-nunun Tülüconu ə.d.-ndə kənd. R-n mərkəzindən 45 *km* c.-ş.-də, Peştəsər silsiləsinin ətəyindədir. Əh. 362 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, poçt və ATS var. Son Tunc – Erkən Dəmir dövrünə aid nekropol, 18 əsrə aid Baba Məhəmməd və Baba Həsən türbələri, həmçinin çoxsaylı daş qoç fiqurları var.

**CORAB** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Nir kəndistanında, Ərdəbil ş.-ndən 25 *km* q.-dədir.

**CORABTOXUYAN MAŞIN** – corab və corab məmulatları toxumaq üçün trikotaj maşını. Əl ilə işlədilən ilk C.m. 1589 ildə ixtira edilmişdir. Bu maşınlarda trikotaj parça bir və ya daha çox sapdan bir neçə ilgək (ilmə) yaratmaqla alınır; hər ilmə cərgəsi bir və ya bir neçə əvvəlki cərgədəki ilmələrdən keçərək toxunurdu. Müasir toxuculuq sənayesi başlanğıcını bu sadə maşından almışdır. İlgəkyaratma prosesi fasiləsiz gedən dairəvi C.m. daha geniş yayılmışdır. Dairəvi C.m.-da bütün növ corab və corab məmulatları toxunur. Qadın corablarını toxumaq üçün iki, dörd və səkkiz ilgəkyaradan sistemi olan birsilindrli C.m.-dan istifadə olunur. Birsilindrli C.m.-ın naxışvurma mexanizmi də var. İkisilindrli dairəvi C.m.-da, əsasən, uşaqlar üçün corab məmulatları və bütün növdə corablar toxunur.

**CORAT** – Azərb. Resp. Sumqayıt ş. tabeçiliyində qəsəbə. Corat ə.d.-nin mərkəzi. Sumqayıt ş.-nin ş.-ində, Xəzər dənizi sahilində, Abşeron y-a-ndadır. Əh. 12750 (2012). Tam orta məktəb, kitabxana, klub, poliklinika, uşaq bağçası var.

Abşeronun qədim kəndlərindəndir. Tarixi zəif öyrənilmişdir. Bəzi mənbələrdə monqolların corat adlı tayfası ilə əlaqələndirilir. Kəndin əhalisi, əsasən, əkinçilik və heyvandarlıqla məşğuldur.

**CORATAN**, Ç o r a t a n – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasında (9.9. 1930 ildən Şəmşəddin r-nu) azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalından sonra kəndin azərb. əhalisi ermənilər tərəfindən soyqırıma məruz qalaraq qovulmuşlar. Abşeron r-nundakı Corat qəsəbə adı ilə eyni kökdəndir və qədim türk tayfalarından olan Çor (Çur, Şor) tayfasının adını daşıyır.

**CÓRBA** [ing. C(ommon) O(bject) R(equest) B(roker) A(rchitecture) – obyektlərə sorğular brokerinin (vasitəçisinin) ümumi arxitekturası], k o r b a – 120 kampaniyanın daxil olduğu OMG (Object Management Group) konsorsiumunun obyektlərlə (Windows, şəbəkə) manipulyasiya texnologiyası üzrə işçi qrupunun hazırladığı standart və ona müvafiq texnologiya. C. təcrid olunmuş sistemlərin inteqrasiyasını həyata keçirmək üçün proqram təminatı mexanizmidir. C. şəbəkənin ayrı-ayrı qovşaqlarında işləyən, müxtəlif proqramlaşdırma dillərində yazılmış proqramların bir-birinə, eyni prosesin ünvan fəzasında yerləşənlər kimi asanlıqla qarşılıqlı təsir göstərmək imkanı verir.

**CORCÉSKU** (Georgescu) Corce (28.9. 1887, Tulça, Sulina – 1.9.1964, Buxarest) – rumın dirijoru, violonçelçalan. Buxarest konservatoriyasını (K. Dimitreskunun violonçel sinfini) bitirmiş (1910), Berlində Ali musiqi məktəbində X. Bekkerin violonçel sinfində (1910–14) oxumuş, burada kompozisiya və dirijorluqla da məşğul olmuşdur. 1911–16 illərdə simli "Marto-kvartet"in heyətində violonçel ifaçısı kimi çıxış etmişdir. 1916–18 illərdə R. Ştraus və A. fon Nikişdən dirijorluq dərsi almışdır. Dirijor kimi debütü Berlin filarmonik orkestri ilə olmuşdur (1918). Buxarest filarmoniyasının orkestrini (1920) yaratmış (hazırda C. Enesku ad. Simfonik orkestr), 1944 ilə qədər və 1954–64 illərdə onun baş dirijoru olmuşdur. 1922–40 illərdə (fasilələrlə) Buxarest Opera Teatrının dirijoru və direktoru, 1950–53 illərdə Buxarest konservatoriyasının prof.-u idi. Repertuarında müasir musiqi əsas yer tuturdu.

**CORCİ VAHİDLƏR SİSTEMİ** (MKSA vahidlər sistemi) – əsas vahidləri metr, kiloqram, saniyə, amper olan elektrik və maqnit kəmiyyətlərinin vahidlər sistemi. 1901 ildə italyan elektrotexniki və fiziki C. Corci təklif etmişdir. SI işlənib-hazırlanan zaman onun tərkib hissəsinə daxil edilmişdir.

**CÓRCİYA** (Georgia) – ABŞ-ın c.-ş.-ində ştat. Sah. 152,6 min $km^2$. Əh. 9,7 mln. (2010). İnz. m. Atlanta ş.-dir. Ərazisinin çox hissəsini alçaq dənizyanı düzənlik tutur. Şm. və şm.-q.-də Appalaç d-rının ətəkləri və qolları yerləşir. İqlimi rütubətli subtropikdir. Dağlarda, əsasən, palıd, şam və fıstıqdan ibarət meşə sahələrinə rast gəlinir. Yağıntının illik miqdarı 1300–1600 *mm*-dir.

16 əsrdə yerli əhalisi hindi tayfaları *çiroki* və *kriklərdən* ibarət olan C. ərazisini ispanlar (E. de Sotonun və, ehtimal ki, X. Ponse de Leonun ekspedisiyaları) mənimsəməyə başladılar. 1670-ci illərdə C. ispanlar ilə ingilislər arasında mübarizə meydanına çevrildi. 1704 ildə ingilislər yerli hindilərlə birlikdə ispanları sıxışdırıb çıxardılar, 1715–16 illərdə isə keçmiş müttəfiqləri olmuş hindilərə divan tutdular. 1719 ildə C. ingilislərin Karolina koloniyasının əyaləti elan edildi. 1732 ildən İngiltərə kralı II Georqun şərəfinə C. koloniyası adlandırıldı. C.-nın ilk qubernatoru olmuş, hərbi xadim və filantrop C. Oqltorp C.-nı İngiltərədə yaşayan yoxsulların sığınacağına çevirmək arzusunda idi. Koloniyada quldarlıq, spirtli içkilərin istifadəsi qadağan edildi. 1733 ildə C.-ya İngiltərədən ilk mühacirlər gəldilər. Əhalinin burada məskunlaşması prosesi ləng gedirdi, C. uzun müddət İspaniya Floridası ilə sərhəddə hərbi dayaq məntəqəsi idi. 1752 ildən etibarən koloniyanın idarəçiliyi bilavasitə B. Britaniya kralının səlahiyyətinə keçdi. 1776 ildə, *Şimali Amerikada istiqlaliyyət müharibəsi* (*1775–83*) gedişində C. İngiltərənin keçmiş 12 koloniyası ilə birlikdə ABŞ-ı yaratdılar. 1829 ildə C.-nın şimalında qızıl yataqları aşkar edildi. "Qızıl həyəcanı" C.-ya ağdərili əhalinin kütləvi axınına səbəb oldu. 1830 ildə C.-da yaşayan hindilərin bir qismi rezervasiyalara (indiki Oklaxoma ərazisinə) yerləşdirildi, onların kütləvi surətdə köçürülməsi 1838–39 illərdə də davam edirdi. 1861 ilin əvvəlində C. ABŞ-ın tərkibindən çıxaraq Amerika Konfederativ Ştatlarına (C.-da doğulmuş A. Stivens Konfederasiyanın vitse-prezidenti seçildi) daxil oldu. 1864 ildə C. ərazisində *Amerika Birləşmiş Ştatlarında Vətəndaş müharibəsinin* (*1861–65*) həlledici döyüşləri baş







Corciya ştatı. Blu-Ric silsiləsi.

verdi. 1865–70 illərdə C.-da hərbi idarəçilik tətbiq edildi (federal qoşunlar burada 1877 ilədək qaldı). 1960-cı illərdə C. *Vətəndaş hüquqları uğrunda hərəkatın* mərkəzlərindən biri idi.

Ştatın iqtisadiyyatı üçün xidmət sferası, sənaye, k.t., turizm və s. sahələrin inkişafı səciyyəvidir. ÜDM-in həcmi 396 mlrd. dollar (2007), adambaşına 33,5 min dollar (ölkə üzrə 37-ci yer) təşkil etmişdir.

Əlverişli coğrafi mövqeyi ştatı iri nəql., sənaye və rabitə mərkəzinə çevirmişdir. Nəql. və elektrotexnika maşınqayırması, toxuculuq, tikiş, yeyinti, kimya və tütün sənayesi inkişaf etmişdir. C.-da bir sıra iri korporasiyalar: AT&T Mobility (telekommunikasiya), The Home Depot və Oxford İndustries (pərakəndə ticarət), Delta Air Lines (aviadaşımalar), SunTrust Banks (maliyyə xidmətləri), United Parcel Service (poçt xidməti və logistika), The Coca-Cola Company (yeyinti sənayesi), Aflac (maliyyə xidməti), Southern Company (energetika), İntercontinental Exchange (maliyyə xidməti), Genuine Parts (maşınqayırma), AGCO (maşınqayırma), Rock-Tenn (kağız və qablaşdırma sənayesi), Newell Rubbermaid (istehlak malları), Chick-fil-A və Waffle House (ictimai iaşə), NCR Corporation (elektronika) və s.; bəzi media-qrupların (Turner Broadcasting System və Cox Enterprises), telekanalların (CNN, TNT, Cartoon Network, Bumerang, TBS və The Weather Channel) mənzil-qərargahları yerləşir. Lockheed Martin (Mariettada) və General Dynamics (Savannada) şirkətinin aviasiya z-dları, Kia Motors şirkətinin z-dları (Uest-Poynt), İnternational Paper şirkətinin kağız f-kləri (Savanna), SABMiller şirkətinin pivə z-dları (Olban) ştatın iri müəssisələrindəndir. Yüksəkkeyfiyyətli mərmər, kaolin gili, qum, çınqıl hasil edilir.

C.-da k.t. yüksək inkişaf etmişdir. Tütün, pambıq, qarğıdalı, yerfındığı (istehsalın həcminə görə ABŞ ştatları arasında birinci yer), çiyələk, soya bitkiləri, müxtəlif tərəvəzlər və s. becərilir. C.-da şaftalı çox yetişdirildiyinə görə, buranı "şaftalı ştatı" da adlandırırlar. Heyvandarlıq qaramal (əsasən, südlük cinslər), donuzçuluq və quşçuluq ilə təmsil olunmuşdur.

Ştatın enerjisinin təqr. 25%-ini 2 AES istehsal edir.

**CÓRCİYA BOĞAZI** – Vankuver adası ilə Kanadanın c.-q. sahilləri arasındadır. Uz. təqr. 240 *km*, eni 25–30 *km*. Dərinliyi 400 *m*-ədək. Çoxlu ada var. Kanada sahilində Vankuver ş. yerləşir.

**CORCÓNE** (Giorgione; Zorzi, Zorzon; əsl adı və soyadı Corco Barbarelli da Kastelfranko) (təqr. 1477, Veneto, Kastelfranko – oktyabr və ya noyabr 1510, Venesiya) – italyan rəssamı. V. *Karpaçço* və C. *Bellinidən* dərs aldığı ehtimal olunur. İntibah dövrü Venesiya məktəbinin görkəmli nümayəndəsi olan C. humanist dünyagörüşlü savadlı patrisilərin sifariş-



B. Corcone. "Tufan". Təqr. 1506–07. Akademiya qalereyası (Venesiya).



Corctaun (Qayana) şəhərindən görünüş.

lərini yerinə yetirmişdir. Əsərlərinin yaranma tarixinin müəyyənləşdirilməsi, onların üslubca rəssama yaxın olan ardıcıllarının sənət nümunələrindən fərqləndirilməsi incəsənət tarixində ciddi problem olaraq qalır. Belə ki, "Kənd konserti" (Luvr) ənənəvi olaraq C.-nin əsəri hesab edilsə də, hazırda bir sıra tədqiqatçılar onu *Tisianın* gənclik dövrü yaradıcılığına aid edirlər. C.-nin dövrümüzədək saxlanılmış əsərlərinin çoxu 1500–1510 illərdə yaradılmışdır. İlk əsərlərində Karpaççonun təhkiyə üslubunun əlamətləri, C. Bellininin mənzərə və ikonoqrafik motivləri nəzərə çarpır ("Moiseyin od ilə sınağa çəkilməsi" və "Solomonun məhkəməsi", hər ikisi təqr. 1498–1500, Uffitsi qalereyası, Florensiya; "Müqəddəs ailə", təqr. 1500, Milli incəsənət qalereyası, Vaşinqton).

Corctaun (Qayana). Şəhər bələdiyyəsi.



C. yaradıcılığının yetkinlik dövrü Venesiya kondotyeri T. Kostansionun kapellası üçün mehrabın ["Madonna körpəsi və gələcəyin müqəddəsləri ilə" ("Madonna Kastelfranko"), 1504–05, San-Liberale kilsəsi, Kastelfranko], həmçinin "Çobanların təzimi" (təqr. 1504–05, Milli incəsənət qalereyası, Vaşinqton) əsərlərinin yaradılması ilə başlayır. "Madonna Kastelfranko"nun mehrab obrazı dinc sükunətdən doğan ovqat yaradır. "Yudif" (Ermitaj, S-Peterburq) tablosu koloritin tonal keçidlərinin harmoniyasına əsaslanan dolğunluğu ilə seçilir. Kiçik rəngkarlıq formalarına müraciət edən C. Renessans dəzgah rəsminin görkəmli ustalarından biri olmuşdur. C. mifoloji və alleqorik mövzularda "Üç filosof" (1507–08, Rəngkarlıq-tarix muzeyi, Vyana), "Yatmış Venera" (təqr. 1508, Şəkil qalereyası, Drezden), "Tufan" (təqr. 1506–07, Akademiya qalereyası, Venesiya) kimi əsərlər və "Laura" (1506, Rəngkarlıq-tarix muzeyi, Vyana), "Qoca qadın" (1508–09, Akademiya qalereyası, Venesiya) alleqorik portretlərini yaratmışdır. O, həmçinin monumental-dekorativ silsilə əsərlərin (Venesiyada alman karvansarasının fasadında alleqorik fiqurlar; Dojlar sarayı üçün monumental tablo, 1507, saxlanılmamışdır) müəllifidir. C. kolorizmi 16 əsr Venesiya boyakarlığına, xüsusən gənc Tisian və Sebastyano del Pyombonun yaradıcılığına güclü təsir etmişdir.

**CÓRCTAUN** (Georgetown) – Qayananın paytaxtı, Demerara-Maxayka regionunun inz. m. Əh. 239 min (2009). Ölkənin şm.-ş.-ində, Atlantika okeanı sahilində, Demerara çayının mənsəbi yaxınlığındadır. İri nəql. mərkəzi. Dəniz portu (boksit, qızıl, şəkər, rom, sitrus meyvələri, düyü, krevet, meşə materialları ixracı). Çeddi Caqan ad. beynəlxalq aeroport (C.-un 41 *km*-liyində). Daxili yükdaşımalar Oql aeroportu vasitəsilədir.

Əsası 1781 ildə ingilislər tərəfindən qoyulmuş, III Georqun şərəfinə adlandırılmışdır. 1784 ildən Tabrok (Stabruk) adı ilə Cənubi Amerikadakı Niderland mülklərinin inzibati mərkəzi olmuşdur. 1812 ildə B. Britaniyanın hakimiyyətinə keçmiş, əvvəlki adı qaytarılmışdır. 1831–1966 illərdə Britaniya Qvianasının mərkəzi olmuş, 1966 ildən Qayananın paytaxtıdır.

Şəhərin planının əsasını geniş, yaşıllaşdırılmış küçələrin düzbucaqlı şəbəkəsi təşkil edir. C.-un işgüzar və ticarət r-nlarında 1950-ci illərin dəmir-beton binaları üstünlük təşkil edir; digər məhəllələrdə, əsasən, ağacdan hündür kərpiç dayaqlar üzərində birmərtəbəli evlər inşa edilmişdir. Memarlıq abidələri: Müq. Andrey kirxası (1811–18), Sent-Corc anglikan kilsəsi (ağacdan, 1889–94, memar A. Blomfild), katolik kilsəsi (1915–20-ci illər), Milli assambleya (1829–34) və Ratuşanın (1887–89) binaları və s.

Qayana un-ti (1963), Karnegi iqtisad məktəbi (1933), Texniki in-t (1951); pedaqoji, k.-t. və b. kolleclər, incəsənət məktəbi (1975), Qayana peşə hazırlığı mərkəzi (1966) və s.; Qayana milli kitabxanası (1909), Qayana milli muzeyi (1853), Uolter Rofun antropologiya muzeyi (1974); "Gild tieter" teatrı, Milli mədəni mərkəz (1976); Botanika bağı, zoopark (1952) fəaliyyət göstərir.

İqtisadiyyatda xidmət sferası üstünlük təşkil edir; Latın Amerikası ölkələrinin





KARİKOM iqtisadi birliyinin, ölkənin ən böyük şəkər korporasiyası "Guyana Sugar Corporation"un, həmçinin bir sıra aparıcı şirkətlərin, o cümlədən maliyyə (Bank of Guyana, "Weiting and Richter", "N. Osman İnvestments", "Western Union Guyana" və s.), konsaltinq ("KPMG Guyana"), telekommunikasiya və rabitə ("National Communications Network", "Guyana Telephone end Telegraph Company" və s.), ticarət ("Guyana Stores"), kommunal xidmətlər, mehmanxana biznesi şirkətlərinin mənzil-qərargahları yerləşir. Şəhərin gəlirinin böyük hissəsi C. portu vasitəsilə məhsul ixracatı zamanı göstərilən nəql. xidmətlərinin hesabına formalaşır. Şəkər, rom, pivə, tütün məmulatı, qablaşdırma materialları, mebel istehsalı, ağac emalı üzrə müəssisələr fəaliyyət göstərir.

C. yaxınlığında Kayetur Milli Parkı (tropik flora və fauna) yerləşir.

**CÓRCTAUN** (Georgetown), Pinanq – Malayziyada şəhər. Pinanq ştatının (qubernatorluğunun) inz. m. Əh. 174,3 min (2007; aqlomerasiyada 1,7 mln. Əhalisinin sayına görə Kuala-Lampur paytaxt aqlomerasiyasından sonra ölkənin 2-ci şəhəri). Pinanq a.-nın ş. hissəsində, Malakka boğazı sahilində yerləşir. Qərbi Malayziyanın mühüm nəql. mərkəzidir. Malakka y-a ilə körpü (1985; Cənub-Şərqi Asiyada ən uzun –13,5 *km*– körpülərdən biri), avtomobil və d.y. əlaqəsi var. Dəniz portu (yük dövriyyəsinə görə ölkədə 3-cü). Beynəlxalq aeroport (Pinanq-Bayan-Lepas).

1820 ilədək İngiltərə kralı III Georqun şərəfinə Fort-Kornuollis adlanırdı. 1957 ilədək Britaniyanın Streyts-Setlments koloniyasının tərkibində idi; 20 əsrin ortalarına-dək dəniz daşımalarının yükboşaltma bazası, kauçuk və qalay ixracatı məntəqəsi idi. Elektron sənayesinin inkişafı ilə əlaqədar 1980-ci illərdən şəhərin iqtisadi yüksəlişi başladı. 20 əsrin sonlarınadək C. dünyada ən böyük qalay əridilməsi mərkəzlərindən biri idi (C.-da iri qalayəritmə zavodu 1998 ildə bağlanmışdır).

Pinanq a.-nın cənub qurtaracağında yerləşən C.-un mərkəzi hissəsində "Komtar" göydələni (232 *m*) və başqa çoxmərtəbəli ofis binaları var. Kornuollis Britaniya fortu (1793, 1810 ildə yenidən tikilmişdir), Müq. Georgi kilsəsi (1818), Ali məhkəmənin binası (1903), həmçinin Kuan-İn Çin məbədi (1801), Kapitan Kelinq məscidi (19 əsrin əvvəli), 33 *m*-lik Budda heykəli olan Vat-Çayya-Manqkalaram Budda məbədi C.-nun memarlıq abidələrindəndir.



Corctaun (Malayziya) şəhərindən görünüş.

Pinanq dövlət muzeyi (1963). Malayziya Elm Un-ti (1969, ölkənin ən iri ali məktəblərindən biri, C.-un Minden şəhərətrafındadır) var. Üç dəfə Malayziya çempionu (1982–2001) olmuş "Pinanq" futbol klubu "Pinanq" stadionunda (20 min yer) çıxış edir.

Pinanq aqlomerasiyası əhəmiyyətinə görə Kuala-Lumpur aqlomerasiyasından sonra Malayziyanın ikinci iqtisadi mərkəzi, ölkənin ən mühüm regional inkişaf qütblərindən biridir. İşləyən əhalinin ½-indən çoxu sənayedə çalışır. Cənub-Şərqi Asiyanın elektron sənayesinin iri mərkəzi, "Silikon ada" adlanan azad iqtisadi zonanın və Qərbi Malayziyanın yüksək texnologiyaların inkişafı rayonunun təşkilati mərkəzidir. Sənaye müəssisələri (Amerika TMK-ları – AMD, "Dell", "Agilent", "Osram", "Motorola", Yaponiya TMK-ları – "Matsushita Electric", "Sony", "Canon" və s.-ə məxsusdur), əsasən, C.-un şəhərətrafında yerləşir: yarımkeçiricilər, müxtəlif növ elektron avadanlığı və aparatlar, o cümlədən kompyuterin periferiya qurğuları, video- və audiotexnika, foto- və videokameralar, həmçinin saat, kondisioner və s. istehsal edilir. Qara metallurgiya "Malayawata Steel" (ildə 0,8 mln. *t* polad) və "Tata Steel" (ildə 1,3 mln. *t* polad) şirkətlərinin z-dları, boru prokatı z-du (ildə 36 min *t*) ilə təmsil olunur. "Malaysia Smelting" şirkətinin qalayəritmə z-du (Batteruertdə, ildə təqr. 40 min *t* qalay) fəaliyyət göstərir. Avtomobil mühərrikləri (ildə 120 min) istehsal edilir. Sənayenin kauçuk, toxuculuq, yeyinti (yağ, meyvə-tərəvəz konservləri) sahələri inkişaf etmişdir. İES (450 *MVt*) var.

Turizm, istirahət və su idmanı növləri mərkəzidir (C.-dan şm.-da Ferringi-Biç dəniz çimərliyi). Hər il beynəlxalq qayıq yarışları keçirilir. Malayziyada ən böyük Budda məbədi Kek-Lok-Sı, ilanlar məbədi (Lacivərd bulud məbədi), Botanika bağı, dünyada kəpənək yetişdirən ən böyük fermalardan biri C.-un yaxınlığında yerləşir.

**CÓRCTAUN** (Georgetown) – Vest-Hinddə Kayman a-rının inz. m. Əh. 31,8 min (2007). Böyük Kayman a.-nın c.-q.-ində, Karib dənizi sahilində port (yük dövriyyəsi təqr. 0,4 mln. *t* və 19 mindən çox IFE konteyner; 2006). 18 əsrə aid tikililər, o cümlədən Corc fortu saxlanılmışdır. Kayman a-rı Milli muzeyi (1990, bina 10 əsrə aiddir), Milli qalereya, Kaymanın dəniz sərvətləri muzeyi fəaliyyət göstərir.

C. iri ofşor mərkəzidir (2000-ci illərin əvvəllərində 600-dən çox xarici bank və maliyyə təşkilatı qeydiyyatdan keçmişdir). Əsasən, birgünlük kruiz turizmi (çimərlik istirahəti, dayvinq və snorklinq; hər il 700-dən artıq kruiz gəmisi C. portu-

na daxil olur) inkişaf etmişdir. Başlıca turizm r-nu şəhərin şm.-q.-indədir. C.-un yaxınlığında beynəlxalq aeroport var.

**CÓRDAN** Devid Starr (19.01.1851, Nyu-York ştatı, Geynsvill – 19.09.1931, Kaliforniya, Palo – Alto) – Amerika ixtioloqu, zooloq və pasifist 1869 ildə Kornel Un-tinə daxil olmuş 1872 ildə magistr dərəcəsi almışdır. Fəlsəfə d-ru (1878), Bluminqtondakı İndiana Un-tinin prof.-u (1879), prezidenti (1884–91), Stenford Un-tinin prof.-u, ilk prezidenti (1891–1913) və kansleri (1916 ılədək) olmuşdur. Əsas əsərləri: "Dəniz növləri istisna edilməklə Missisipi çayından ş.-ə və Şimali Karolina ilə Tennessidən şm.-a doğru olan ərazilər daxil olmaqla Birləşmiş Ştatların şm.-ındakı onurğalılara dair məlumat kitabı" (1876), "Şimali və Orta Amerikanın balıqları" 1896–1900 illər Evermanla birlikdə) adlı dördcildli klassik məlumat kitabıdır. Bir sıra zooloji taksonların təsvirini vermişdir. Balıqların üç cinsi və onlarca növü C.-ın adı ilə adlandırılmışdır. 1986 ildə onun şərəfinə Beynəlxalq Cordan mükafatı təsis edilmişdir. 20 əsrdə C. publisistika ilə məşğul olmuş, yevgenikaya aid əsərlər nəşr etdirmişdir.

**CÓRDAN** (Jordan) Maykl Ceffri (d.17.2.1963, Nyu-York) – Amerika idmançısı. Dünyanın 20 əsr ən yaxşı basketbolçularından biri (müdafiəçi). İdman karyerasını 1981 ildə Şm. Karolina Un-tetində başlamış, 1982 ildə Milli Tələbə Assosiasiyası çempionatının qalibi olmuşdur. 2 dəfə Olimpiya Oyunları (1984, 1992) çempionu, "Çikaqo Bulls" komandasının heyətində (1984 ildən) 6 dəfə Milli Basketbol Assosiasiyası (MBA) çempionatının qalibi (1991, 1992, 1993, 1996, 1997, 1998) olmuş, mövsümün yekunlarına görə 5 dəfə MBA-nın ən dəyərli oyunçusu (1988, 1991, 1992, 1996, 1998) seçilmişdir. "Çikaqo Bulls" (1984–98) və "Vaşinqton Uizards" (2001–2003) komandalarında çıxışı zamanı müntəzəm çempionatların 1072 oyununda 32 292 xal, 179 pley-off oyununda isə 5987 xal toplamışdır. "Bütün ulduzlar"ın 14 oyununda iştirak etmiş, 262 rekord xal toplamış, 1988,1996,1998 illərin ən səmərəli oyunçusu olmuşdur. 1996 ildə MBA tarixində 50 ən yaxşı oyunçu sırasına daxil edilmişdir. İdman karyerasını bitirdikdən sonra ictimai fəaliyyət göstərir və bizneslə məşğul olur; "Cordan" markası altında idman geyimləri istehsal edilir. 2006 ildən MBA-nın "Şarlott Bobkets" komandasının müştərək sahibidir. "Kosmik Cem" bədii multiplikasiya filmində (1996) çəkilmişdir.



**CORLU** – Azərb. Resp. Qəbələ r-nunun Mirzəbəyli ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* c.-q.-də, Qəbələ–Şəki avtomobil yolu üzərində, Qanıx–Əyriçay çökəkliyindədir. Əh. 1883 (2011); taxılçılıq, heyvandarlıq və meyvəçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**COS** (Jos) – Qərbi Afrikada, Nigeriyanın mərkəzi hissəsində plato. Niger və Benue çayları arasındadır. Ümumi sah. təqr. 7,7 min $km^2$. Kristallik süxurların qalıq massivindən (hünd. 1200–1400 *m*) ibarətdir. Səthini lava örtükləri, sönmüş vulkan konusları və qranit pikləri (1735 *m*-ədək) tutur. Landşaftı yüksəkotlu törəmə savannalardır. İri qalay–nadir metal filizləri r-nudur. Niger çayının çoxsaylı qolları və Çad gölü hövzəsinin çayları başlanğıcını C.-dan götürür. Yağıntıların illik miqdarı 1200–1400 *mm*-ədəkdir.

**COS** (Jos) – Nigeriyanın mərkəzi hissəsində şəhər. Plato ştatının inz. m. Əh. 860,9 min (2007). Cos platosunda təqr. 1250 *m* yüksəklikdə yerləşir. Avtomobil yolları qovşağı, d.y. st. (1914 ildən).

Əsası 20 əsrin əvvəllərində ingilislər tərəfindən qoyulmuşdur. 1967 ildən Benue-Plato ştatının, 1975 ildən Plato ştatının inzibati mərkəzidir.

Roma-katolik kilsəsi arxiyepiskopunun iqamətgahı burada yerləşir. Un-t (1975), YUNESKO-nun muzeyşünaslıq məktəbi; Milli muzey (1952; Nok mədəniyyəti terrakota və müasir Nigeriya keramika kolleksiyaları), Afrika Tədqiqatları İn-tunun muzeyi (1965; yoruba incəsənəti əsərləri), açıq səma altında ənənəvi Afrika memarlığı muzeyi; Botanika bağı, zoopark var.

C. mədən r-nu mərkəzidir (qalay, niobium, tantal, volfram filizləri yataqlarının işlənilməsi). Qalayəritmə, poladyayma, mexaniki təmir z-du, yeyinti sənayesi (o cümlədən pivə istehsalı) müəssisələri fəaliyyət göstərir; mebel, cut parça istehsal olunur; oduncaq, xam dəri emal olunur. Kurort zonasıdır.

C.-dan 50 *km* c.-da Neolit dövrünə aid düşərgələr vardır.

**COS PLATO QALAY FİLİZİ RAYONU** – Nigeriyanın mərkəzi hissəsində, Plato ştatında, Laqos ş.-nin 700 *km*-liyindədir. Sah. 3,5 $km^2$. 17 əsrdən məlumdur. Sənaye istismarı 1909 ildən açıq üsulla aparılır. Müxtəlif yaşlı qranitlərlə yarılmış Kembriyəqədərki metamorfik süxurlardan (qneyslər, kristallik şistlər və amfibolitlər) ibarətdir. Qalay və tantalniobiumlu filizləşmə əsasən Yura yaşlı qranit komplekslərin təmasındadır. Köklü yataqlarda ehtiyatı azdır; hasilat əsasən, səpinti yataqlarda aparılır. Burada kassiteritin miqdarı 100 $q/m^3$-dən 47 $kq/m^3$-ədək, kolumbit-tantallitlərin miqdarı isə 0,06-dan 0,3 $kq/m^3$-ədəkdir. Allüvial səpintilərdə 140 min *t* kassiterit, 5 min *t* kolumbit-tantallit ehtiyatı təsdiq olunmuşdur.

**COSER**, C e s e r (Qədim Misir dilində; ehtimal ki, "Müqəddəs" anlamını verən sonrakı ləqəbdir), N e ç e r h e t (Qədim Misir dilində; hökmdar adı) – Qədim Misirdə III sülalənin (e.ə. 27 əsr) 2-ci fironu. Onun hakimiyyəti illərində Yuxarı və Aşağı Misirin qüdrətli dövlətdə birləşdirilməsi sona çatmış, Qədim Şahlıq dövrü başlamış, Memfis şəhəri paytaxt olmuşdur. C. Sinay y-a-nın köçərilərinə qalib gəlmiş və buradakı mis yataqlarını ələ keçirmişdi. Nubiyanın bir hissəsini işğal etmiş, Nil çayının 1-ci astanasından c.-da müdafiə xətti yaratmışdı. Qədim Misirdə piramidaların inşası C.-in dövründən başlamışdır. Sehel a.-nda aşkar edilmiş "Aclıq stelası" (e.ə. 2 əsr) C.-in hakimiyyəti dövründə yeddi il davam etmiş aclıqdan məlumat verir. Misiri daşqın allahlarının adlarını öyrənmiş, onlar üçün qurbanvermə müəyyənləşdirmiş ali mənsəb sahibi müdrik *İmhotep* xilas etmişdir. Sonradan müqəddəsləşdirilmiş İmhotep Sakkarada firon C. üçün ilk böyük pilləvarı piramidası (hünd. 62,5 *m*) və müxtəlif ibadətgahları olan möhtəşəm dəfn kompleksi tikdirmişdir. Piramidanın yaxınlığındakı xüsusi otaqda C.-in heykəli, piramidanın altındakı yeraltı qalereyalarda isə ayinlərin icrası zamanı C.-in təsvir olunduğu 6 relyef və 40 min daş vaza (bəzilərinin üzərində C.-dən əvvəlki Misir fironlarının adları var) tapılmışdır. Bəzi alimlərin fikrincə, C.-in dövründə 365 günlük təqvim tərtib edilmişdir. Kompleksdəki qazıntı və bərpa işlərini J.F. Loerin başçılıq etdiyi fransız ekspedisiyası həyata keçirir.

**COŞALI** – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Keşişkənd, 3.1.1935 ildən Mikoyan, 6.12.1957 ildən Yeğeqnadzor r-nu) azərb.-ların yaşadığı kənd. 19 əsrdə bölgənin Rusiya tərəfindən işğalından sonra kənd dağılmış, 1830-cu illərdən sonra isə xarabalığa çevrilmişdir.

**COT** (hindi, benqali dillərində) – Hindistanda geniş mənada əkinçilik, təsərrüfat işi. 19 əsrdə Benqaliyada "C." termini təsərrüfat fəaliyyətinin rəiyyət, həmçinin *zəmindarlarla* rəiyyət arasında vasitəçilər tərəfindən əsas formalarını bildirirdi: nic C. – torpağın əkinçi ailəsi tərəfindən becərilməsi; mahindari C. – muzdurun (mahindarın) köməyi ilə torpağın becərilməsi; krişani C. – zəhməthaqqı əvəzi yığılan məhsuldan pay alan muzdur tərəfindən torpağın becərilməsi; barqa C. – torpağın yardarlığa verilməsi; thika C. – müəyyən edilmiş məbləğə torpağın icarəyə verilməsi. Bəzən "C." sözü torpaq rentası mənasında da işlədilir.

**COTDAR** – Hindistanda geniş mənada torpaq sahibi; Benqaliyada 19 əsrdən başlayaraq torpağı icarəyə verən, yaxud onu muzdlular vasitəsilə becərən iri rəiyyət və ya vasitəçi icarədar. 1955–59 illərdə Qərbi Benqaliya ştatında *zəmindari* sisteminin ləğvindən sonra C. mülkədar və varlı kəndlilərin ümumi adına çevrildi.

**CÓTTO** (Giotto; Giotto di Bondone) (1266–1276 illər arasında, Florensiya yaxınlığında Vespinyano – 8.1.1337, Florensiya) – italyan rəssamı, memar və mozaika ustası. C.-nun yaradıcılıq fəaliyyəti Assizidə (1309 ilədək), Paduyada (1303–06), Florensiyada (1311–15, 1320, 1325, 1334–37), Romada (1312 ilədək, 1320), Neapolda Anju (1328–33) və Milanda Viskonti (1334–37) hersoqlarının saraylarındakı sənədlərdə əksini tapmışdır. C. Çimabuenin tələbəsi hesab olunur. Sənətkar eyni zamanda bədii mənbələrdən geniş diapazonda (o cümlədən Bizans incəsənəti, fransız qotikası, Roma antik incəsənəti, erkən xristianlıq mozaikaları, N. və C. Pizanonun protorenessans heykəltəraşlığı, həmçinin P. Kavallini başda olmaqla Roma boyakarlıq məktəbi əsərlərindən) istifadə etmiş, orta əsrlər Qərb bədii ənənələrini sintez edərək, Avropa incəsənətini yeni inkişaf səviyyəsinə çıxarmışdır. C. yaradıcılığının ilkin dövrü və üslubca formalaşması Assizidəki Müq.



Cotto di Bondone. "Onyisanti Madonnası". Təqr. 1310. Uffitsi qalereyası. Florensiya.

Fransisk Yuxarı kilsəsinin divar rəsmləri ilə bağlıdır. Bu rəsmlərdə ("Bulaq möcüzəsi"; "Quşlara moizə") bilavasitə vizual qavrayış elementlərindən istifadə etməklə C. 13 əsr italyan boyakarlığının bizanslaşan üslubundakı şərtiliyi dəf etmək yolunu tutmuşdu.

C. özünün yaradıcılıq imkanlarını Paduyadakı Kapella del-Arenanın rəsmlərində (1303–06) parlaq şəkildə həyata keçirmişdir; burada memarlıq məkanının boyakarlıqla təşkili sistemi hərtərəfli tamamlanmışdır. C. mehrab obrazlarının yaradılması ənənəsinə (onlara özünün freskalarının bəzi xüsusiyyətlərini əlavə etməklə) də yenilik gətirmişdir. Florensiyadakı Santa-Mariya-Novella kilsəsində (1301 ilədək), Riminidə San-Françesko kilsəsində və Kapella del-Arenadakı (Şəhər muzeyi, Paduya) "Çarmıxaçəkilmə"-lər Çimabue ənənəsindən bəhrələnsə də, şərti fon ilə İsanın naturalist həcmli bədəninin yaratdığı kontrast hesabına emosional gərginlik kəsb etmişdir.

Müasirlərinin C.-ya müstəsna münasibətləri olmuşdur. C.-nun yaradıcılığı C. *Bokkaçço*, F. *Petrarka* və C. *Villani* tərəfindən yüksək qiymətləndirilmişdir. Dante özünün ədəbiyyatdakı mövqeyini C.-nun rəngkarlıqda tutduğu mövqe ilə müqayisə etmişdir. Onun əsərləri İtaliya Protorenessans incəsənətinin formalaşmasında müəyyənedici rol oynamış, həmçinin Florensiya Erkən İntibahının inkişafı üçün başlanğıc nöqtəsi olmuşdur; rəngkarlıqda C. islahatının təsiri 14 əsr Alpaşırı Avropa incəsənətində də özünü göstərmişdir.

**"CÓTTO"** – Qalley kometinin tədqiqi üçün buraxılmış Qərbi Avropa avtomatik planetlərarası stansiyasının adı. Çəkisi 960 *kq*-dır. "C." 2 iyul 1985 ildə buraxılmış, 14 mart 1986 ildə nüvədən 600 *km*-ə qədər məsafədə komet topasından keçərək uçuşu başa çatdırmışdır.

**COUL** (C, J) – Sİ-də iş, enerji və istilik miqdarı vahidi. C.P. *Coulun* şərəfinə adlandırılmışdır. 1*C* 1*N* sabit qüvvənin təsiri ilə nöqtənin 1 *m* yerdəyişməsi zamanı görülən işə bərabərdir.

$$1C=1N{\cdot}m=1Vt{\cdot}san=10^7erq=$$
$$=0{,}2388\ kal=6{,}24{\cdot}10^{18}\,eV.$$



**COUL** (Joule) Ceyms Preskott [24.12.1818, Solford, Lankaşir qraflığı (indiki Böyük Mançester) – 11.10.1889, Seyl, Çeşir qraflığı] – ingilis fiziki, London Kral Cəmiyyətinin üzvü (1850). Mançester yaxınlığında pivə z-dunun sahibi idi. Ev təhsili almışdı. Müəllimi C. *Daltonun* təsiri altında fizikaya böyük maraq göstərərək, fiziki eksperimentlər aparmağa başlayan C. elektromaqnit hadisələrinin öyrənilməsinə, alçaq temp-rlar fizikasına, enerjinin saxlanması qanununun əsaslandırılmasına böyük töhfə vermişdir. Ferromaqnetiklərin maqnitlənməsi zamanı doyma effektini (1840) və maqnitostriksiyanı (1842) aşkar etmişdir. 1841 ildə (E.X. *Lentsdən* asılı olmayaraq, 1843 ildə nəşr olunmuşdur) C. naqildən cərəyan keçərkən ayrılan istilik miqdarının naqilin müqavimətindən və cərəyan şiddətindən asılılığını müəyyən etmişdir (*Coul–Lents qanunu*). 1843–50 illərdə mexaniki enerjinin istilik enerjisinə keçməsinin mümkünlüyünü göstərdi və istiliyin mexaniki ekvivalentini hesabladı ki, bu da enerjinin saxlanması qanununun eksperimentlə əsaslandırılması oldu. İstiliyə zərraciklərin hərəkəti kimi baxaraq, bəzi qazların istilik tutumlarını nəzəri olaraq təyin etmiş və göstərmişdir ki, ideal qazın daxili enerjisi yalnız temp-rdan asılıdır (*Coul qanunu*). U. *Tomsonla* birlikdə (1852–62) qazın məsaməli arakəsmədən adiabatik keçməsi zamanı onun soyumasını müşahidə etmiş və öyrənmişdir

(*Coul–Tomson effekti*). London Kral Cəmiyyətinin qızıl medalı (1852), London Kral Cəmiyyətinin Q. Kopli medalı (1866) ilə təltif olunmuşdur. İş, enerji və istilik miqdarı vahidi coul (*C*) adlandırılmışdır.

**COUL İTKİLƏRİ** – elektromaqnit sahəsinin enerji itkisi; buna səbəb həmin enerjinin mühitin istilik hərəkəti enerjisinə çevrilməsidir. Sabit elektrik cərəyanı halında C.i. *Coul-Lents qanunu* ilə təyin edilir və elektrik sahəsinin yükdaşıyıcılar üzərində gördüyü işə bərabərdir: $q=jE$, burada $q$ – C.i. gücü (vahid zamanda itən enerjinin sıxlığı), $E$ – elektrik sahəsinin intensivliyi, $j$ – cərəyanın sıxlığıdır. Om qanunu ödəndikdə ($j=\sigma E$) $q=j^2/\sigma$. Mənbənin enerjisinin işlədiciyə optimal verilməsi üçün işlədicinin müqavimətinə və mənbənin daxili müqavimətinə ayrılan istilik miqdarı eyni olmalıdır (E.X. *Lents* tərəfindən eksperimental olaraq müəyyən edilmişdir).

**COUL QANUNU** – termodinamikanın qanunu; bu qanuna görə, ideal qazın $U$ daxili enerjisi qazın $V$ həcmindən asılı deyil və yalnız temp-run funksiyasıdır. 1845 ildə C.P. *Coul* boşalmış qazlarla təcrübə apararkən müəyyən etmişdir. $U$-nun $V$-dən asılı olmaması

$$(\partial U/\partial V)_T = T(\partial p/\partial T)_V - p$$

termodinamik ifadəsindən (burada $p$ – qazın təzyiqi, $T$ – mütləq temp-rdur) və 1 *mol* ideal qaz üçün olan $pV=RT$ ($R$ – universal qaz sabitidir) hal tənliyindən çıxır. C.q.-nun kiçik sıxlıqlı qazlara tətbiq olunma dərəcəsini *Coul-Tomson effektinin* qiyməti ilə müəyyən etmək olar. İdeal qazda effekt baş vermir. İdeal qaz üçün $U$-nun $V$-dən asılı olmaması qazların kinetik nəzəriyyəsinə əsasən asanlıqla izah edilir: ideal qazda molekullar arasında qarşılıqlı təsir olmadığına görə, onların arasındakı orta məsafənin (deməli, həm də qazın həcminin) dəyişməsi qazın daxili enerjisini dəyişmir.

**COUL–LENTS QANUNU** – elektrik cərəyanının istilik təsirinə aid qanun; bu qanuna görə $R$ müqavimətli naqildən (dövrə hissəsindən ) $I$ sabit cərəyan keçərkən vahid zamanda ayrılan $Q$ istilik miqdarı $Q=RI^2$ bərabərdir. Diferensial şəkildə C.–L.q. belə ifadə olunur: $q=\rho j^2=j^2/\sigma$, burada $q$ – ayrılan istiliyin həcmi sıxlığı, $j$ – cərəyanın sıxlığı, $\rho$ – xüsusi müqavimət, $\sigma$ – mühitin elektrik keçiriciliyidir (bax həmçinin *Coul itkiləri*). Qanun 1841 ildə C.P. *Coul* tərəfindən müəyyən edilmiş, 1842 ildə E.X. *Lentsin* dəqiq təcrübələri ilə təsdiq olunmuşdur.

C.–L.q.-nun ilkin ifadəsi Om qanunu – $j=\sigma E$ ($E$ – elektrik sahəsinin intensivliyi) ödənilən dispersiyasız xətti izotrop mühitlər üçün doğrudur. Lakin C.–L.q. müxtəlif ümumiləşdirmələrə yol verir və dəyişən cərəyanlara da şamil edilə bilər.

**COUL-TOMSON EFFEKTİ** – real qazın məsaməli arakəsmədən stasionar adiabatik keçməsi zamanı onun temp-runun dəyişməsi. Bu zaman arakəsmədən solda və sağda qazın təzyiqi sabit qalır. Hadisə C.P. *Coul* və U. *Tomson* tərəfindən real qazın daxili enerjisinin onun həcmindən asılılığını öyrənmək məqsədilə 1852–62 illərdə aparılan təcrübələrin gedişində aşkar edilmiş və tədqiq olunmuşdur. Məsaməli arakəsmədən axan qazın həcmi $V_1$-dən $V_2$-yə qədər ($V_2>V_1$) dəyişir və bu zaman $p_2V_2-p_1V_1$ işi görülür, burada $p_1$ və $p_2$ ($p_1>p_2$) qazın arakəsmədən keçəndən əvvəlki və sonrakı təzyiqləridir. Qaz istilik almadığından (adiabatiklik şərtinə görə), termodinamikanın birinci qanununa əsasən, onun gördüyü iş $U$ daxili enerjisinin dəyişməsi hesabına olur. Ona görə də istilikdən təcridolunma şəraitlərində entalpiya adlanan $H=U+pV$ kəmiyyəti sabit qalır. Entalpiyanın sabitliyi şərtinə görə, vahid təzyiqdə temp-run dəyişməsi (diferensial C.–T.e. deyilən)

$$\left(\frac{\Delta T}{\Delta p}\right)_H = \frac{T\left(\frac{\partial V}{\partial T}\right)_p - V}{C_p} \qquad (1)$$

bərabərdir, burada $C_p$ sabit təzyiqdə istilik tutumudur. 1 mol ideal qaz üçün $V=RT/p$ ($R$ – universal qaz sabiti), deməli, $T(\partial V/\partial T)_p = V$, yəni ideal qaz üçün C.–T.e. ödənmir.

Real qazlar üçün temp-run dəyişməsi həm müsbət və həm də mənfi ola bilər. *Van der Vaals tənliyi* hal tənliyi kimi istifadə edildikdə seyrəkləşmiş qaz üçün (1) ifadəsi

$$\left(\frac{\Delta T}{\Delta p}\right)_H = \frac{1}{C_p}\left(\frac{2a}{RT} - b\right) \qquad (2)$$

şəklini alır, burada $a$ və $b$ Van der Vaals tənliyinə daxil olan sabit ədədlərdir. (2) düsturundan görünür ki, $\Delta T/\Delta p$ kəmiyyətinin qiyməti $a$ və $b$ sabitləri arasındakı əlaqədən, yəni molekullar arasındakı cazibə qüvvələrini göstərən $a$ və itələmə qüvvələrini göstərən $b$ sabitlərinin hansının böyük rol oynamasından asılıdır. $2a/RT>b$ olduqda C.-T.e. müsbət, $2a/RT<b$ olduqda isə mənfi olur. C.-T.e.-nin sıfıra bərabər olduğu

$$T_i = \frac{2a}{Rb} \qquad (3)$$

temp-ru inversiya temp-ru ($T_i$) adlanır (bu temp-rda effekt işarəsini dəyişir). (3) düsturu inversiya temp-ru ilə *böhran temperaturunu* ($T_b$) müqaisə etməyə imkan verir: $a/b=(27/8)RT_b$ olduğuna görə $T_i$=6,75 $T_b$ .

Bu ifadə ilə inversiya temp-runun yalnız təxmini qiymətinin təyin edilməsinə baxmayaraq, təcrübə göstərir ki, $T_b$ aşağı olduqca $T_i$ də aşağı olur. Məs., oksigen üçün $T_b$= 154,6 *K*, $T_i$ =893 *K*; hidrogen üçün $T_b$= 33 *K*, $T_i$=204,6 *K*.

Sıx qazlar üçün $T_i$ qazın təzyiqindən və sıxlığından asılı olan hal funksiyasıdır və inversiya nöqtələrinin həndəsi yeri inversiya əyrisini əmələ gətirir.

Diferensial C.–T.e.-ndən fərqli olaraq ("diferensial" adı $\Delta T$ və $\Delta p$ kəmiyyətlərinin kiçik olmasını göstərir), inteqral C.–T.e.-ndə təzyiq fərqləri xeyli böyük qiymətlərə – onlarla və yüzlərlə atm.-ə çatır. İnteqral C.–T.e. aşağı temp-rların alınması və qazların mayeləşdirilməsi üçün texnikada geniş istifadə olunur.

**COVÁNNA** (Giovanna) – 1) I Covanna (təqr. 1326, Neapol – 27.5.1382, indiki Bazilikata vil., San-Fele qəsri) – *Anjular sülaləsindən* Neapol kraliçası [1343–81]. Babası Robertdən sonra hakimiyyətə keçmişdir. 1348 ildə Avinyonu Roma papasına satmışdır. Böyük təfriqə (1378–1417) zamanı antipapa VII Klimentin tərəfində olmuşdur. 1381 ildə VII Klimentin rəqibi VI *Urbanın* dəstəyi ilə Anjular sülaləsinin yan qolunun nümayəndəsi və sonralar III Karl [1382–86] adı altında Neapol kralı olmuş hersoq Duratso tərəfindən devrilmişdir. 2) II Covanna (23.6.1373, Dalmasiya, Zadar – 2.2.1435, Neapol) – Neapol kraliçası [1414–35], III Karlın qızı, Neapol taxtında Anjular sülaləsinin sonuncu nümayəndəsi.

**COVANYÓLİ** (Giovagnoli) Raffaello (13.3.1838, Roma – 15.8.1915, Roma) – italyan yazıçısı. *Risorcimento* hərəkatının iştirakçısı, C. *Haribaldinin* silahdaşı olmuşdur; İtaliyanın birləşdirilməsindən sonra parlamentə deputat seçilmişdir. Romada tarixdən dərs demişdir. Qədim Roma tarixindəki hadisələrdən bəhs edən "Spartak" (1874), "Plautilla" (1878), "Messalina" (1885) və s. romanlarında V. *Skott* və A. *Dümanın* (ata) təsiri hiss olunur; bu romanlarda idraki cəhət dinamik süjetlə birləşərək, 20 əsr kinematoqrafiyası və kütləvi ədəbiyyatı üçün səciyyəvi olan peplum janrını (antik mövzuda tamaşa və melodram elementlərinin üstünlük təşkil etdiyi kvazi tarixi təhkiyə) qabaqlamışdır. "Spartak" romanı Azərb. dilinə (ilk dəfə 1928 ildə) tərcümə edilmişdir.



**COVİ** – İranda (Xuzistan) Suz ş.-ndən 10 *km* şm.-da, Şur çayının sol sahilində Erkən Eneolit dövrünə aid məskən. Fransız arxeoloqları R. Makkenem (1934–35) və J. Dolfusun (1975) apardıqları stratiqrafik qazıntıların nəticəsində aşkar edilmişdir. *Cəfərabad*, C. və Bəndəbal məskənlərinin materialları əsasında fransız tədqiqatçısı L. Le Breton tərəfindən Suz A mədəniyyətinin sələfi olan Suziana komplekslərinin ardıcıllığı müəyyən edilmişdir. C. məskəni 2 təlldən (sahəsi təqr. 3 *ha*, hünd. 10 *m*) ibarətdir və burada 17 arxeoloji təbəqə aşkar edilmişdir (üç üst təbəqə çox zədələnmişdir); I C. kompleksində (16–13-cü təbəqələr; e.ə. 5-ci minilliyin 1-ci yarısı; Suziana b dövrü) aşkar edilmiş keramika nümunələri I Cəfərabad kompleksi ənənələrinin davamı olsa da, qabların keyfiyyəti daha yüksəkdir. Buradan altlıqları və diblərində cızılmış işarələr olan qablar tapılmışdır; qabların ornamentlərində həndəsi motivlər üstünlük təşkil edir. II C. (12 – 4/5-ci təbəqələr; e.ə. 5-ci minilliyin ortaları; Suziana c dövrü) keramikasının naxışları arasında insan fiqurları, xətvarı keçi təsvirləri, xaçşəkilli və ulduzşəkilli motivlər var. Suziananın digər sinxron məskənlərində olduğu kimi, C.-də də daş toxalar, ağırlaşdırıcı halqalar, dəstələr, sümükdən iynələr, terrakotadan düzəldilmiş iylər, heyvan fiqurları və s. tapılmışdır.

**COVQAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 21 *km* şm.-ş.-dədir.

**COVŞANI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Marağa ş.-ndən 85 *km* c.-dadır.

**COY SİLSİLƏSİ** – RF-nin, Xakasiya Resp. ərazisində, Qərbi Sayanın şm. hissəsində dağ silsiləsi. Abakan və Yenisey çayları arasında, Coy çayının sol sahili boyundadır. Uz. təqr. 75 *km*. Hünd. 1440 *m*-ədək (İzıx d.). Şist və əhəngdaşından ibarətdir; bəzi yerlərdə "coy" qranitləri ilə yarılmışdır. Şm. yamaclarında 800–900 *m*-ədək qaraşam və şam, yuxarıda tünd iynəyarpaqlı tayqa meşələri yayılmışdır.

**CÓYNER-KÉRSİ** (Joyner-Kersee) Jaklin (Ceki) (d.3.3.1962, İllinoys ştatı, İst-Sent-Luis) – Amerika idmançısı. Yüngül atletika tarixində yeddinövçülükdə 7000 artıq xal toplamış yeganə idmançıdır. 3 dəfə Olimpiya Oyunları (1988, Seul, yeddinövçülük və uzununatullanma; 1992, Barselona, yeddinövçülük) çempionu, Olimpiya Oyunlarının gümüş (1984, Los-Anceles, yeddinövçülük) və bürünc (1992, Barselona; 1996, Atlanta, uzununatullanma) mükafatçısı, dəfələrlə dünya (1987, 1991, uzununatullanma; 1991, 1993, yeddinövçülük) çempionu olmuş, yeddinövçülükdə 4 dəfə dünya rekordu müəyyən etmişdir (sonuncu dəfə 1988 ildə, 7291 xal). "Sports Illustrated" jurnalının sorğusuna əsasən 20 əsrin ən yaxşı yüngülatleti seçilmişdir.Kaliforniya Untini bitirmişdir (1985).



**COYS** (Joyce) Geyms (Ceyms Avqustin Aloizius) (2.2.1882, Dublinin şəhərətrafı Ratqar – 13.1.1941, Sürix) – irland yazıçısı. İngilis dilində yazmışdır. Yoxsullaşmış vergi məmurunun ailəsində doğulmuşdur. Yezuit kolleclərində (Klonqous-Vud, 1882–92; Belveder, 1893–97) təhsil aldıqdan sonra katolisizmdən uzaqlaşmışdır; Dublin un-t kollecini (1902) bitirmiş, burada ingilis, fransız, italyan ədəbiyyatlarını öyrənmişdir. Parisə səfərindən (1903 – 04) sonra ingilis dilindən dərs demiş, Romada bankda işləmişdir. 1912 ildə son dəfə İrlandiyaya səfər etmişdir. 1-ci dünya müharibəsi dövründə Sürixdə olmuşdur. 1920 – 40 illərdə Parisdə yaşamış, E. Paund, E. *Heminquey*, V. Larbo, həmçinin 1935–37 illərdə onun katibi işləmiş S. *Bekketlə* ünsiyyətdə olmuşdur. Hələ uşaq ikən şeir və nəsr əsərləri yazmışdır; tələbəlik illəri yaradıcılığına H. *İbsen*, G. *Hauptman*, U.B. *Yeyts*, Q.D. Annunsio təsir göstərmişlər Yaradıcılığa yeni başlayan müəllif kimi irland İntibahı xadimləri tərəfindən müdafiə olunsa da,C. onların milli sənət ideyasını qəbul etməmişdir.

"İbsenin yeni dram" məqaləsi (1900) C.-un ilk mətbu işidir. Erkən şeirləri "Kamera musiqisi" (1907) toplusunda çap olunmuşdur. E. Paund bu şeirlərdən birini *imajizmin* ilk antologiyasına (1914) daxil etmişdir . C.-un gündəlik şəhər həyatına həsr olunmuş "Dublinlilər" (1905, nəşri 1914) novellalar kitabı qeyri-adi kompozisiya və üslubuna görə uzun müddət çap edilməmişdir. "Sənətkarın cavanlıq portreti" (1906, jurnal nəşri 1914–15, kitab nəşri 1916) avtobioqrafik romanı yazıçının təşəkkülü, yaradıcılıq azadlığı naminə verdiyi qurbanlar (ailə, millət, katolik məzhəbi) haqqındadır. C.-un başlıca əsəri "Uliss" (1900-cü illərdə yazmağa başlamışdır; 1918–20 illərdə ABŞ-da "Little Review" avanqard jurnalında dərc olunmuşdur, nəşr senzura tərəfindən dayandırılmışdır; 1922 ildə Parisdə tam nəşr edilmişdur) romanıdır. Dublin həyatından bir gün (C.-un gələcək həyat yoldaşı ilə görüş günü – 16.6.1904) romanda Avropa mədəniyyətinin matrisası kimi çıxış edir. Bibliya və ədəbi (Homer, F. Rable, U. Şekspir və b.) allüziyalar rəzillik və komiklikdə ülviliyin və faciəviliyin parodiyalı təsvir olunması C.-a romanın üç əsas qəhrəmanını ata, ana və oğulun arxetipik fiqurları kimi, Dublini isə "müasir apokalipsis" şəhəri kimi təsvir etməyə imkan verir. 1924 ildən C. "Finneqanın ehsanı" (1939) eksperimental süjetsiz romanından fraqmentlər nəşr etdirmişdir; mürəkkəb dil cinaslarından (qədim və yeni dillərin materialları əsasında) istifadə edən yazıçı "sadə insanın" və onun ailə üzvlərinin yuxularını ölüm, dirilmə, inkarnasiya haqqında miflərin, tarixin təkrarlanması, ümumdünya metamorfozası ideyalarının inikası kimi izah etmişdir.

Əsəri: Стихотворения. М., 2003.

**CÓYSTİK** [ing. joystick (joy+stick) – "həzz çubuğu"] – informasiyanı kompüterə daxil etmək və obyektə displeyin ekranında koordinatlar vermək üçün əllə idarə olunan vasitə. C. kompüterin xarici qurğularına aiddir. Tərpənməz əsasa (platformaya) bərkidilən və əyilməklə



"Thrustmaster TFlight Stick X" coystiki.

ikiölçülü müstəvidə istiqaməti təyin edən dəstəkdən ibarətdir. Dəstəyin və əsasın üzərində müxtəlif təyinatlı düymə və açarlar yerləşir. Dəstəyin öz oxu ətrafında fırlana bilməsi, ikinci dəstəyin, yaxud əlavə təkərciyin olması və s. koordinatları təkcə *x* və *y* koordinat oxları boyunca deyil, həmçinin *z* oxu üzrə də dəyişməyə imkan verir. C. sərbəstlik dərəcəsinə və uyğun olaraq, idarəolunan obyektin vəziyyətinin dəyişdiyi müstəvilərin sayına görə 3 növə ayrılır: birölçülü (obyekt aşağı-yuxarı və ya sağa-sola hərəkət etdirilir), ikiölçülü (obyekt 2 müstəvidə idarə olunur) və üçölçülü (obyekt hər 3 müstəvidə idarə olunur). Analoq və rəqəm (diskret) C.-lər olur. D i s k r e t C.-in sensorları yalnız 2 qiymət ala bilər: "0" və ya "1", qoşulma-açılma. Bu zaman düymənin hər basılması bir idarəedici impuls verir və kursorun vəziyyətini bir mövqeyə dəyişir; kursorun dəyişmə diapazonu qeyri-məhduddur və yalnız düymələrin basılmalarının sayı ilə təyin edilir. Belə C.-lər fərdi kompüterlər üçün köhnəlmiş sayılır, lakin oyun qoşquları, mobil telefonlar və s.-də istifadə edilir. A n a l o q C.-də çıxış siqnalı dəstəyin əyilmə bucağından asılı olaraq, "0"-dan maks.-a qədər müntəzəm dəyişir; dəstək nə qədər çox əyilirsə, siqnalın səviyyəsi də bir o qədər yüksək olur. Kursorun dəyişmə diapazonu dəstəyin hərəkəti və istifadə edilən sensorların imkanları ilə məhdudlaşır. Bəzi C.-lər oyun və tədris prosesində reallığa yaxın hisslər (dəstəyin yerdəyişmə istiqamətindən asılı olaraq verilmiş qüvvəyə müqavimət, vibrasiya və s.) yaradan əks-əlaqə mexanizmləri ilə təchiz edilir. Standart USB (standart ardıcıl şin) interfeysindən istifadə C.-lərin istənilən növ kompüter və oyun qoşqularına asanlıqla qoşulmasına imkan yaradır. C., əsasən, oyun proqramları, trenajorlar və s. üçün istifadə edilir.

**COZEFSON** (Josephson) Brayan Deyvid (d. 4.1.1940, Kardiff) – Britaniya fiziki, London Kral Cəmiyyətinin üzvü (1970), Nobel mükafatı laureatı (1973). Kembric Un-tini bitirmiş (1964) və orada işləmişdir (1974 ildən prof.). Əsas elmi işləri tunel effektinə və ifratkeçiriciliyə aiddir. Özünün adını daşıyan effekti kəşf etmişdir (stasionar və qeyri-stasionar *Cozefson effekti*).



**COZEFSON EFFEKTİ** – iki ifratkeçiricini ayıran nazik dielektrik laydan (Cozefson kontaktı adlanan) ifratkeçirici cərəyanın keçməsi; ingilis fiziki B. *Cozefson* tərəfindən ifratkeçiricilik nəzəriyyəsinə əsasən qabaqcadan söylənilmiş (1962), 1963 ildə təcrübi olaraq müşahidə edilmişdir. Keçiricilik elektronları dielektrikdən (adətən qalınlığı ~ 10Å=$10^{-9}$ *m* olan metal oksidi plyonkası) *tunel effektinin* sayəsində keçir. Əgər Cozefson kontaktından keçən cərəyan böhran kontakt cərəyanı adlanan cərəyandan çox deyilsə, kontaktda gərginlik düşküsü olmur (s t a s i o n a r C.e.). Kontaktdan keçən cərəyan böhran cərəyanından böyük olduqda isə kontaktda gərginlik düşküsü yaranır və kontakt elektromaqnit dalğaları şüalandırır (q e y r i - s t a s i o n a r C.e.). Elektromaqnit dalğalarını yalnız dəyişən cərəyan şüalandıra bilir, məhz belə cərəyan kontaktda *V* s a b i t gərginlik düşküsü zamanı Cozefson kontaktının içində keçir. *v* şüalanma tezliyi *V* ilə $v=2eV/h$ düsturu ilə bağlıdır, *e* – elektronun yükü, *h* – Plank sabitidir. Şüalanma onunla şərtlənir ki, ifratkeçiriciliyi yaradan cütlənmiş elektronlar kontaktdan keçdikdə ifratkeçiricinin əsas halına nisbətən əlavə 2 *eV* enerji qazanır. Elektron cütlərinin əsas hala qayıtması üçün yeganə imkan $hv=2eV$ kvant elektromaqnit enerjisini şüalandırmaqdır. C.e. ifratkeçiricilərdə elektron nizamlılığını – faza koherentliyini göstərir: bütün elektron cütləri (Kuper cütləri, bax *Kuper effekti*) əsas halda, onların $\psi=|\psi|e^{i\varphi}$ *dalğa funksiyasını* xarakterizə edən eyni fazaya (φ) malikdir. Cozefson kontaktına müəyyən $\varphi^*=\varphi_1-\varphi_2$ fazalar fərqi uyğundur, burada $\varphi_1$ və $\varphi_2$ – kontaktla ayrılmış ifratkeçiricilər üçün dalğa funksiyası fazasının qiymətləridir. Kvant mexanikasına əsasən φ* fazalar fərqi olanda kontaktdan $j=j_0\sin\varphi^*$ sıxlıqlı cərəyan axmalıdır. Bu cərəyanın təcrübədə müşahidə edilməsi sübut edir ki, təbiətdə bilavasitə dalğa funksiyasının fazası ilə təyin olunan makroskopik hadisələr mövcuddur.

İfratkeçiricilər nazik sədlə (körpücüklə və ya nöqtəvi kontaktla) birləşdirildikdə, həmçinin onların arasında normal halda olan (ifratkeçirici olmayan) metalın və ya yarımkeçiricinin nazik layı yerləşərsə, analoji effekt müşahidə edilir. Cozefson kontaktları ilə birlikdə belə sistemlər z ə i f ə l a q ə l i i f r a t k e ç i r i c i l ə r adlanır.

C.e. əsasında ifratkeçirici kvant interferometrləri, müxtəlif çeşidli generatorlar, detektorlar, qarışdırıcılar və giqa- və terahers diapazonlarında gücləndiricilər yaradılmışdır. C.e.-nə, əsasən, müasir üsullarla $2\cdot10^{-8}$ xəta ilə $2e/h\approx4{,}83594000\cdot10^{14}$ *Hs/V* nisbəti ölçülmüşdür.

**CÖCƏKƏND**, Q ı z ı l Ş ə f ə q – Tiflis qub.-nda Borçalı qəzasının Loru nahiyəsində (31.12.1937 ildən Kalinino, 19.4.1991 ildən Taşir r-nu), dəniz səviyyəsindən 1622 *m* yüksəklikdə azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd erməni daşnaklarının hücumlarına məruz qalsa da, əhali kəndi tərk etməmişdir. 3.1.1935 ildə kəndin adı dəyişdirilərək Qızıl Şəfəq qoyulmuşdur. 1988 ildə isə kəndin əhalisi deportasiya edilmişdir.

**CÖCƏVƏNG** – Tiflis qub.-nda Borçalı qəzasının Loru nahiyəsində (31.12.1937 ildən Noyemberyan r-nu) azərb.-ların yaşadığı kənd. 1971 ildə rayon mərkəzi Barana (4.1.1938 ildən Noyemberyan) qəsəbə statusu aldıqdan sonra C. ləğv edilərək qəs.-nin inzibati ərazisinə qatılmışdır. Kəndin ərazisində 12–13 əsrlərə aid tarixi abidələr (türk qəbirləri, qala divarları və s.) vardır.

**CÖKƏ** (Tilia) – cökəkimilər fəsiləsindən yarpağı tökülən ağac cinsi. Gövdəsinin hünd. 40 *m*-ədək olur. Yarpaqları növbəli, ürəkşəkilli, adətən kənarları dişli, uzunsaplaqlıdır. Çiçəkləri beşüzvlü, ikicinsiyyətli, ağımtıl və ya sarımtıldır; qalxanşəkilli, yaxud çətirşəkilli, bəzən salxımşəkilli çiçək qrupunda yerləşir. Çiçəkləmə dövründə xoşagələn, bal ətirli olur. Meyvələri bir, bəzən ikitoxumlu fındığabənzər qutucuqdur; çiçəkaltlığı yarpaqları ilə birlikdə yayılır. Kök sistemi güclü, dərin və küləyədavamlıdır. Toxum, pöhrə və qələmlə çoxalır. Kölgəyə və qışadavamlıdır. 150 ilə qədər (bəzən 300 və daha çox) yaşayır. Şimal yarımkürəsinin mülayim-isti qurşaqları üçün xarakterik olan təqr. 45 növü məlumdur; Qafqazda, o cümlədən Azərb.-da C. cinsinə aid 4 növ: xırdayarpaq C., iriyarpaq C., Qafqaz C.-si, Prilipko C.-si yayımışdır. Tropik (Çinin c.-ş.-i) və subtropik (Çin və Hind-Çin) ərazilərin dağ r-nlarında rast gəlinir. Rusiyanın Avropa hissəsində qarışıq və təmiz C. meşələrini formalaşdıran ürəkvarı, yaxud xırdayarpaq C. (T. cordata) geniş yayılmışdır. Orta Uralda (Başqırdıstanda, Perm diyarında) və ona yaxın ərazilərdə böyük sahələri tutur. Qafqazda digər növlərlə, xüsusilə ürəkvarı C. ilə hibridləşdirilmiş beqoniyayarpaq C. (T. beqoniifolia) bitir. Çox az rast gəlinən Sibir C.-si (T.sibirica) Sibirdə üstünlük təşkil edir və buzlaşmayaqədərki dövrün relikt növü olub Kuznetsk Alatausu dağlarının ətəklərində bitir, "cökə adası" adlanan qiymətli meşə massivi əmələ gətirir.



Xırdayarpaq cökə (Tilia cordata) ağacları, yarpağı və çiçəyi.

C.-nin ağ oduncağı cəhrayımtıl çalarlıdır, çatlamır və qabarmır (əyilmir), yaxşı emal olunur. Ondan çəllək, taxta qab, faner, kibrit, musiqi aləti, mebel hazırlanır. Cavan ağacların floemasından (alt qabığından) çarıq, girdə qutular hazırlanır və kəndli məişətində geniş istifadə edilirdi. Yaşlı ağacların floemasının suda isladılmış lifindən əsasən, duzlu və quru balıqlar üçün tara və s. hazırlanır.

C.-ni həmişə balverən bitkilərin şahı adlandırırlar. C. balı ən yaxşı bal hesab olunur. Ürəkvarı C.-nin kütləvi yayıldığı r-nlarda gün ərzində bir arı ailəsi 10–15 *kq*-adək bal hazırlayır. C. balı və C. çiçəyi (qurudulmuş) ilə dəmlənən çay qədimdən tərlədici vasitə sayılır. C.-dən dekorativ bitki kimi yaşıllaşdırmada geniş istifadə edilir. C.-nin sıx çətiri kölgə və sərinlik verir, havanı tozdan və qazdan təmizləyir, C. xəzəli tez çürüyür, qida maddələrini torpağa qaytarır.

**CÖKƏKİMİLƏR** (Tiliaceae) – ikiləpəli çiçəkli bitkilər fəsiləsi. Yarpaqları tökülən, yaxud həmişəyaşıl, əsasında oduncaqlanan ağac, kol və otlardır. Yarpaqları növbəli, bütövdən tutmuş dişli və dilimli (hətta cinsin daxilində) formaya qədər olur, yarpaqaltlığı teztöküləndir. Çiçəkləri ikicinsiyyətli, bəzən bircinsiyyətli, 5(4)-üzvlü olur, adətən çiçək qruplarında toplanır. Kasayarpaqları və ləçəkləri bitişik deyil. Erkəkcikləri çoxsaylıdır (bəzən 10-dan az). 2, 5 dişicikdən (ginesey), yaxud çoxlu bitişik meyvəyarpaqcığından ibarət, hər yuvasında bir və ya bir neçə toxum başlanğıcı olan üst yumurtalıqdan ibarətdir. Quru, yaxud ətli meyvələri çoxtoxumlu, bəzən isə birtoxumlu qutucuqdur; külək və ya heyvanlar vasitəsilə, fəsilənin dəniz kənarında bitən növlərinin nümayəndələri həm də şor su ilə yayılır. Asiya, Amerika, Afrika və Avstraliyanın tropik və subtropik ərazilərində geniş yayılan 400-ədək növü birləşdirən 46 cinsi məlumdur. Yalnız bir cökə cinsinin arealı Şimal yarımkürəsinin mülayim enliklərinə daxil olur. Tropik ərazilərdə C.-in ən iri cinsləri – qreviya (*Grevia*), *cut* və sparmanniyadır (*Sparmannia*). C., adətən meşə bitkiləridir və bitki örtüyündə əhəmiyyətli rol oynayır. C.-in çoxu balverən və dekorativ bitkilərdir; yaşıllaşdırmada geniş istifadə olunur. Cut cinsinin bəzi növlərindən suyadavamlı möhkəm lif alınır. Rombşəkilli triumfetta (*Triumfetta rhomboidea*) dərman bitkisi kimi becərilir. Qreviya cinsinə aid bir sıra növlərin meyvəsi yeməlidir.

Cökəkimilər. Rombşəkilli triumfetta (Triumfetta rhomboidea). Kolu,yarpağı və çiçəyi.



**CÖMBƏRLİ** – Gürcüstanın Msxeta Mtianetiya mahalının Msxeta bələdiyyəsi ərazisində azərb.-ların yaşadığı kənd. Msxetadan 21 *km* ş.-də, Tbilisi–Qori avtomobil yolunun kənarında yerləşir. Əh. 1000 (2002); əkinçilik və maldarlıqla məşğuldur. Məktəb gürcü dilindədir.

**CÖNGƏ** – 5–6 aylıqdan 16–18 aylığa qədər olan (cütləşməyə buraxılanadək) inək balası. C. döllük (damazlıq) üçün saxlanılır. Ətlik və qoşqu üçün istifadə ediləcək C.-lər axtalanır.

**CÖVDƏT PAŞA** (Əhməd) (18.9.1822 və ya 1823, Lofça,– 25.5.1895, İstanbul) – Osmanlı dövlət xadimi, hüquqşünas, tarixçi. 1855–65 illərdə dövlət tarixnəvisi, sonralar qubernator, nazir, Dövlət şurasının sədri vəzifələrində çalışmışdır. 1868–76 illərdə C.p.-nın rəhbərliyi altında Osmanlı imperiyasının ilk mülki məcəlləsi tərtib edilmişdir. C. tarix, islam, qrammatika, məntiq və ritorika üzrə əsərlərin müəllifidir. Onun 1774–1826 illəri əhatə edən 12 cildlik "Tarix" əsəri və memuarları ("Qeydlər") 18–19 əsrlər Osmanlı imperiyasının hərbi-siyasi və ictimai-iqtisadi tarixinə dair faktiki materiallarla zəngindir.

**CÖVHƏRİ TƏBRİZİ**, Mirzə Müqim Cövhəri Təbrizi (?–?) – 17 əsr Azərb. şairi. Atası Əli Təbrizi tanınmış zərgər idi. C.T. İsfahanda yaşamış, bir müddət zərgərlik və ticarətlə məşğul olmuşdur. Dəfələrlə Hindistana səfər etmişdir. Herat hakimi Həsən xan Şamlı ilə görüşmüş, ona mədhiyyə yazmışdır. Divanı dövrümüzədək gəlib çatmamış, yalnız təzkirə və cünglərdə şeirlərindən bəzi parçalar qalmışdır: Həsən xanın mədhi, II Şah Abbasın sarayının tərifi, Türküstan hökmdarı Nədr Məhəmməd xanın II Şah Abbasın sarayına gəlişinin təsviri və s. Şeirlərindəki *maddeyi-tarixlər* bir sıra hadisələrin tarixini müəyyənləşdirməyə imkan verir. Bütün məlum şeirləri fars dilindədir. İsfahanda xəstəlikdən vəfat etmişdir.

**CÖVÜZ** – 1) cövüz fəsiləsindən həmişəyaşıl ikievli ağac cinsi. Sarımtıl çiçəkləri



Ətirli cövüz (Myristica fragrans); ağacı və meyvəsi.

salxım və ya çətirəbənzər çiçək qrupunda yerləşir; meyvəsi çəyirdəkdir. Tropik ölkələrdə 120-yədək növü məlumdur. Ədviyyat kimi ə t i r l i C.-ün (M. fragrans) meyvəsindən istifadə olunur. Vətəni Asiyanın c.-ş.-indəki adalar, Hindistan, Şri-Lanka və Afrikanın ş.-indəki Mavriki, Madaqaskar a-rı və s. C.-dən kulinariyada və yeyinti sənayesində, ondan alınan efir yağından isə tibdə, ətriyyat və tütün istehsalında istifadə olunur. 2) Azərb.-ın bəzi zonalarında, habelə İran, Türkiyə və s. ölkələrdə *qozun* sinonimidir.

**CÖVZCANİ** Əbu Ömər Minhacəddin Osman ibn Siracəddin (1193, Lahor – 1262, Dehli) – orta əsr tarixçisi. Gənclik illərini Firuzkuhdakı sarayda keçirmiş, sonra Tulekə (1220) getmişdir. Quri şahzadələrindən olan Məlik Nəsrəddinin yanında xidmət etmişdir (1221). 1226 ildə monqol istilaçılarından qaçaraq bir neçə dəfə elçi göndərildiyi Hindistana gəlmiş, Mədrəseyi-Firuzda baş müdərris olmuşdur (1227). 1228 ildə Sultan Şəmsəddin İltutmuşla birlikdə Dehliyə gələrək Nəsriyyə mədrəsəsində müdərrislik etmiş, 1241 ildə ölkənin baş qazısı təyin edilmişdir. 1247 ildən Dehli sultanı Nəsrəddin Mahmudun sarayında fəaliyyət göstərmişdir. C.-nin "Təbəqat-i Nasiri" adlı əsəri (1260) islam tarixi, hind-türk sultanları və Qurilər haqqında məlumatlarla zəngindir. Əsər Dehli sultanlığının və İranın monqol istilası dövründəki tarixinin öyrənilməsi baxımından qiymətli mənbədir.

**CÖYRƏOĞLU** Qara (?, Borçalı mahalının Qızılhacılı k. – 1929, Borçalı) – xalq qəhrəmanı. C. 1918 ildə Andronikin Borçalıya soxulan erməni-daşnak quldur dəstələrini geri oturtmuş, ermənilərin Dürnik k. tərəfdən Qızılhacılıya hücumunun qarşısını almışdı; düşmən itki verərək, qaçmağa məcbur olmuşdu. Qanlı döyüşlərdən biri "Bolus döyüşü" adı ilə tarixə düşən və indiki Bolnisi uğrunda gedən döyüş idi. Andronikin 800 nəfərlik quldur dəstəsi Bolnisiyə hücum etdikdə, Xaçınlı k.-nin erməniləri də onlara qoşulmuşdular. Yel dağı yaxınlığındakı vuruşmada C.-nun dəstəsi Axalkələkdə, Sağamoyda, Boqdanovkada azğınlıq edən erməni dəstəsini darmadağın etmişdi. Lakin bu yerlərdə sovet hakimiyyəti qurulduqdan sonra, 1928 ildə Şulaveri rayon partiya komitəsində məsul vəzifələr tutan ermənilərin əli ilə həbs olunan C. 1929 ildə qətlə yetirilmişdir. 1933 ildə C.-nun ailəsi Şimali Qazaxıstanın Akmolinsk vil.-nə sürgün olunmuşdu. C. xalqın yaddaşında Borçalı mahalının Qaçaq Nəbisi kimi qalmış, onun haqqında rəvayətlər, mahnılar qoşulmuşdur.

**CRAXOR**, K ə n d C r a x o r u – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu), Oxçu çayının sağ sahilində, Baldırğanlı d.-nın ətəyində azərb.-ların yaşadığı kənd. 1988 ilin noyabrında kəndin azərb. əhalisi deportasiya olunmuşdur.

**CUANQLAR** (özlərini belə adlandırırlar, mənası – "insan"), p a t r a s a - a r a (özlərini belə də adlandırırlar, mənası – "geyimi yarpaqlardan olanlar") – Hindistanda munda qrupundan xalq. Mərkəzi Hindistanın Çhota-Naqpur yaylasının c.-unda (Orissa ştatı) yaşayırlar. Sayları 20 min nəfərdən çoxdur (1998). Cuanq dilində danışırlar. Oriya dili də yayılmışdır. Ənənəvi dini etiqadlarını saxlamışlar.

Ənənəvi məşğuliyyətləri talalarda toxa əkinçiliyi (darı, yağlı bitkilər, çəltik), ovçuluq, yığıcılıq və balıqçılıqdır; C.-ın bir çoxu tütün sənayesi üçün kedu yarpaqlarını yığırlar. 19 əsrin ortalarınadək daş alətlərdən istifadə edən C. duluşçuluğun nə olduğunu bilmirdilər. C. ayrı-ayrı kənd icmaları (3–10 ailə) halında yaşayırlar, bəzən qida tapmaq məqsədilə vaxtaşırı başqa yerə köçürlər. Düzbucaq planlı cuanq kəndi, bambuk divarları gillə suvanmış, damı palma yarpaqları və ya xüsusi otlarla örtülmüş 10–15 evdən ibarətdir. Torpaq bütün icmaya məxsusdur və hər il ayrı-ayrı ailələr arasında bölüşdürülür. C.-ın icma başçıları (padxanlar), kahinləri (bayta, naqam və ya niqam) var. Qəbilələrə bölgü, "subay evləri" (mandaqhar və canqribasa), endoqamiya (qəbilələrarası nikah), başlıq verilməsi, dul qadınların yenidən ərə getməsi (qonşu oriyalardan fərqli olaraq) adətləri qalmaqdadır. Animist inanclar yayılmışdır. Baş allah Burhom Burhanın kultu saxlanılmışdır.

**CUANŞER** – 11 əsr gürcü tarixçisi. "Hökmdarlar hökmdarı Vaxtanq Qorqasalın həyatı" əsərində Sasanilər dövlətinin hərbi-inzibati sistemində Albaniyanın (Qafqaz) yeri haqqında da məlumat verilir, Albaniyada və Kartlidə sasani canişininin iqamətgahı Bərdədən, həmçinin Şimali Qafqazda *hunların* tayfa ittifaqından və onların Albaniyaya hücumlarından bəhs edilir. Əsərdə Vaxtanq Qorqasal çox idealizə olunmuşdur. C.-in əsəri Leonti Mrovelinin xronikasının davamı kimi *"Kartlis Sxovrebaya"* daxil edilmişdir.

**CÚBA** – Cənubi Sudan Resp.-nın paytaxtı. Mərkəzi Ekvatoriya ştatının inz.m. Əh. 372,4 min (2011). Ağ Nilin sol sahilindədir. Çay portu (Nil çayında gəmiçiliyin son məntəqəsi). Cənubi Sudanı Konqo Demokratik Resp., Uqanda, Keniya ilə birləşdirən avtomobil yolları qovşağı.

Sudanda Vətəndaş müharibəsinin (1955–72; 1983–2005) gedişində cənub separatçılarının mərkəzi olmuşdur. Sonuncu vətəndaş müharibəsi zamanı 1993 ildən hökumət qoşunlarının nəzarəti altında idi. 2005 ilin yanvarında bağlanmış sülh müqaviləsinə əsasən şəhər Sudan milli-azadlıq ordusunun nəzarətinə keçdi. 2011 ildən Cənubi Sudan Resp.-nın paytaxtıdır. Milli un-t (1975) var. Yeyinti, ağac emalı sənayesinin kiçik müəssisələri fəaliyyət göstərir.

**CÚBBA**, Cuba (Jubba, Juba) – Efiopiya və Somalidə çay. Efiopiya yaylasından başlanan Genale, Daua və Uoyb çaylarının birləşməsindən (Dolo-Odo ş. yaxınlığında) əmələ gəlir. Uz. 1600 *km* (Genalenin mənbəyindən), hövzəsinin sah. 750 min $km^2$ (Uebi-Şabelle çayı ilə birlikdə). Qalla-Somali platosundan keçir (burada buxarlanma nəticəsində çoxlu su itirir), sahilyanı ovalıqdan axaraq Hind okeanına tökülür. Əsasən yağış suları ilə qidalanır. Ortaillik su sərfi 550 $m^3/san$. Rütubətli mövsümdə (aprel – iyun, sentyabr – noyabr) Bardere ş.-nədək gəmiçiliyə yararlıdır.

**CUC MİLLİ PARKI** (Djoudj) – Seneqalda, Seneqal çayı deltasında milli park. 1971 ildə yaradılmışdır. Sah. 160 $km^2$. Tropik quru iqlim, göyəm meşələri, savanna; mövsümi su bitkiləri zonasıdır.





100-dən çox quş növü, çoxlu palearktik köçəri quşlar (qışlamaya 3 mln.-dan çox quş uçub gəlir) məskunlaşmışdır. Flaminqo, qarabatdaq və vağın müxtəlif növləri səciyyəvidir; minlərcə çəhrayı qutan yuvalayır. *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.



Cubba çayı. Somali.

**CUCİ** (? – təqr. 1227) – monqol sərkərdəsi, *Çingiz xanın* böyük oğlu və hərbi planlarının əsas icraçısı. Çin (1211–15), Orta Asiya (1219–21) və Dəşt-i Qıpçağın işğalında iştirak etmişdir. Çingiz xanın imperiyasının İrtışdan q.-dakı hissəsinin (Cuci ulusunun) idarəçiliyi 1224 ildə C.-yə tapşırılmışdı. Bəzi məlumatlara görə, Çingiz xanın gizli əmri ilə öldürülmüşdür. C. nəslinin bəzi nümayəndələri Azərb. ərazisinə soxulmuş, onu müəyyən müddət Cuci ulusunun tərkibinə daxil etmişdilər.

**CUCİLƏR** – 13–18 əsrlərdə Şərqi Avropa, Qərbi Sibir və Mərkəzi Asiyanın müxtəlif dövlət və siyasi qurumlarında hakimiyyətdə olmuş *Çingizilər* sülaləsinin bir qolu. Banisi Çingiz xanın böyük oğlu və hərbi planlarının əsas icraçısı, Cənubi Sibir (1207–08; bu səfər nəticəsində Tuva, Xakasiya və Altay Monqol imperiyasına birləşdirilmişdi), Şimali Çin (1211–15), Orta Asiya (1219–22) səfərlərində və *Dəşt-i Qıpçağın* işğalında iştirak etmiş *Cucidir* (? – 1226 və ya 1227). 1224 ildə atasının əmri ilə Xarəzm hakimi təyin edilmişdi. Monqol imperiyasının İrtış çayından q.-dakı hissəsi Cuciyə mülk qismində verilmişdi.

Çingiz xanın ölümündən sonra (1227) C. Cuci mülkünün irsi sahiblərinə çevrildilər; onların torpaqları tarixi ədəbiyyatda Cuci ulusu adlandırılır. C. torpaqlarının böyük hissəsi onlar tərəfindən monqol-tatar yürüşləri zamanı ələ keçirilmişdi. 13 əsrin ortalarında C. Qərbi Sibir, Xarəzm, Dəşt-i Qıpçaq, Orta Volqaboyunu nəzarətdə saxlayırdılar. Bir çox rus knyazı Qızıl Orda xanları olan C.-in vassalına çevrilmişdilər. Cuci ulusunun bütün ərazisi Cucinin çoxsaylı oğullarının və onların nəsillərinin mülkiyyətinə keçmişdi.

Cucinin böyük oğlu O r d u (Ordu-İçen) (? – 1251) C. nəslinə başçılığı qardaşı *Batuya* vermiş, özü isə vərəsələri ilə birgə Cuci ulusunun ş. hissəsini idarə etmişdir.

Cucinin ikinci oğlu *Batu* idi. Onun oğlu S a r t a k (? – 1257) Qızıl Orda xanı [1256–57], Sartakın oğlu, yaxud qardaşı U l a q ç i (? – 1257) də Qızıl Orda xanı [1257]; Sartakın qohumları: *Mengli-Teymur*; T u d ə - M e n g ü (? – təqr. 1287 ildən sonra) Qızıl Orda xanı [1282–87] olmuşlar. Mengli-Teymurun qohumu T u l a b u ğ a (Talabuğa) (? – 1290 ildən sonra) Qızıl Orda xanı [1287–90] idi. Mengli-Teymurun ən məşhur oğlu *Toxtadır*. Toxtanın qohumu *Özbəkdir*. Onun oğulları arasında ən məşhurları: T i n i b ə y (? – 1341), Qızıl Orda xanı [1341] və *Canıbəydir*. Canıbəyin oğlu B ə r d i b ə y (? – 1359) Qızıl Orda xanı [1357–59] olmuşdur.

Cucinin üçüncü oğlu *Bərkənin* varisi yox idi.

Cucinin beşinci oğlu Ş i b a n ı n (Şeyban) (? – ?) 9-cu nəslindən xələfi özbək xanı [1412–68] olmuş Ə b ü l x e y r (1412–68) Mərkəzi Asiyanın güclü dövlətlərindən birinin əsasını qoymuşdur. Onun nəvəsi M ə h ə m m ə d Ş e y b a n i (1451–1510) *Şeybanilər* sülaləsinin banisidir. Şibanın 9-cu nəslindən xələfi *İbrahim* (İbak), onun nəvəsi isə *Kuçum* idi. Kuçumun oğlu Əli (? – 1618) sonuncu Sibir xanı [1598–1604] olmuşdur. Şibanın 11-ci nəslindən xələfi İ l b a r s (? – 1538) *Xivə xanlığının* hakim sülaləsinin banisi idi.

Cucinin 7-ci oğlu B u v a l ı n (Movala) (? – ?) nəvəsi *Noqay* olmuşdur.

Cucinin 13-cü oğlu Tuğa Teymurun (? – ?) 4-cü nəslindən xələfi A b d u l l a (? – təqr. 1370) Mamay Ordasının xanı [1362–70] idi. Ehtimal ki, onun oğlu olan M ə h ə m m ə d B ü l ə k (? – 1580) Mamay Ordasının xanı [1370–80] olmuşdur. Tuğa Teymurun 6-cı nəslindən xələfi *Toxtamış* idi.

Cuc Milli Parkı.





Cuğa karvansarası (fraqment). 12–13 əsrlər.

Tuğa Teymurun 7-ci nəslindən xələfi *Uluq Məhəmməd* Kazan xanlığının əsasını qoymuşdur. Onun oğulları: M a h m u d (? – təqr. 1463) Kazan xanı [1446 – təqr. 1463]; Q a s ı m (? – 1468) isə *Qasım çarlığının* [1452–68] banisi idi. Mahmudun oğulları: X ə l i l (? – 1467) təqr. 1463–67 illərdə, İ b r a h i m (? – 1479) isə 1467–79 illərdə Kazan xanları olmuşlar. İbrahimin oğulları: Ə l i (? – 1489 ildən sonra), Kazan xanı [1479–84, 1485–87], Voloqdada sürgündə vəfat etmişdir; Q u d a y Q u l (21.12.1505 ildən Pyotr İbrahimoviç) (? – 13.3.1523) – şahzadə, Moskva knyazı III Vasilinin bacısı ilə evlənmişdi; *Məhəmməd Əmin;* Kazan xanı [1496–1502] Ə b d əl-L ə t i f (? – 1517) taxtdan devrilmiş və sürgün edilmişdir.

Tuğa Teymurun 8-ci nəslindən xələfi I Hacı Gəray – *Gərayilər* sülaləsinin banisi idi. Tuğa Teymurun 9-cu nəslindən xələfləri – qardaşlar: Böyük Orda xanı [1459–65] M a h m u d (? – 1465 ildən sonra) və *Əhməddir*. Mahmudun oğulları: Ə b d əl-K ə r i m (? – 1514) 1502–14 illərdə, C a n ı b ə y (? – 1521) isə 1514–21 illərdə Həştərxan xanlığının xanları idilər. Əbd əl-Kərimin oğlu – Ə b d ə r-R ə h m a n (? – 1543) 1533–37 və 1539–43 illərdə Həştərxan xanı olmuşdur. Əhmədin oğulları: S ə i d Ə h m ə d (? – 1502 ildən sonra) – Böyük Orda xanı [1481–1490-cı illərin sonu]; Ş e y x Ə h m ə d (? – 1528 ildən sonra) – Böyük Orda xanı [1481–1502] və Həştərxan xanı [təqr. 1525–28 illərdə], Səid-Əhmədin oğlu – Q a s ı m (? – təqr. 1532) Həştərxan xanı [? – təqr. 1532] idi. Qasımın qohumu – *Şah Əli*, Əhmədin nəticəsi *Dərviş Əlidir*.

Tuğa Teymurun 9-cu nəslinin digər qolundan xələfləri *Qazax xanlığının* baniləri və 1462 – təqr. 1474 illərdə xanları olan G ə r a y (? – təqr. 1474) və C a n ı b ə y (? – təqr. 1474) olmuşlar. Gərayın oğlu B u r u n d u k (? – 1511) Qazax xanı [təqr. 1474–1511] idi. Canıbəyin nəvəsi *Qasım*, onun oğulları: M a m a ş (? – 1523), Qazax xanlığının xanı [1518–23]; N o v r u z Ə h m ə d (? – təqr. 1535), Qazax xanı [1526–35]; *Haqq-Nəzər* olmuşlar. Onların qohumları: B u y d a ş (? – 1534), Qazax xanı [1533–34]; T a h i r (? – ?), Qazax xanı [1523–33]; T u q u m (? – 1537), Qazax xanı [1526–33], Böyük juz xanı [1533–37]; Ş i q a y (? – 1582), Böyük juz xanı [1575–80] və Qazax xanı [1580–82] idilər. Şiqayın oğulları: Böyük və Orta juzların xanı [1582–86], Qazax xanı [1586–98] T ə v ə k k ü l (? – 1598) və *Yesimdir*. Yesimin oğlu *Cangir* (17 əsrin əvvəli – ?), Cahangirin oğlu *Tauke* idi. Tuğa Teymurun xələflərinə qazax juzlarının və *Bukey Ordasının* xanları – *Əbülxeyr*, *Ablay*, *Vəli xan*, *Bukey*, *Cangir* (1801, digər məlumatlara görə 1803–45), habelə qazax maarifçisi *Ç. Vəlixanov* aiddir.

**CUĞA** – Azərb. Resp. Culfa r-nunun (Nax. MR) Gülüstan (keçmiş Cuğa) k.-ndən şm.-q.-də, orta əsrlərə aid yaşayış yeri. Şm.-da hündür dağ silsiləsi, c.-da Araz çayı, q.-də qəbiristanlıqla (bax *Cuğa nekropolu*) hüdudlanır. Araz çayının sol sahilində ensiz zolaq şəklində q.-dən ş.-ə doğru uzanır. Yaşayış binaları tamamilə dağıdılmış, tikinti qalıqları (bişmiş kərpic) ətrafa səpələnmişdir. Buradan müxtəlif ornamentlə bəzədilmiş çəhrayı rəngdə şirli və şirsiz saxsı məmulatı (fayansdan hazırlanmış kasalar xüsusilə diqqəti cəlb edir), mis sikkələr və digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapıntılara əsasən C. 11–17 əsrlərə aid edilir.

**CUĞA KARVANSARASI** – Azərb. memarlıq abidəsi. Culfa r-nunun Gülüstan (keçmiş Cuğa) k.-ndə, Araz çayının sol sahilindədir. C. k.-nın qalıqları 1974 ildə çöl-tədqiqat işləri zamanı aşkar edilmiş, tikilinin planı 1978 ildə tam üzə çıxarılmışdır. Bakı–Culfa d.y. xətti çəkilərkən (1939–40) karvansaranın təqr. yarısı dağılmışdır. Tədqiqatlar nəticəsində C. k.-nın Azərb.-da yol karvansaraları içərisində ən görkəmli abidə olduğu müəyyənləşdirilmişdir. Ümumi uz. 37 *m* olan C.k.-nın eyni tipi Araz çayının sağ sahilində, demək olar ki, bütünlüklə salamat qalmışdır. Karvansaraların hər iki sahildə üzbəüz yerləşməsi hələ Araz çayı üzərində körpü (bax *Cuğa körpüsü*) tikilməzdən əvvəl burada çay bərəsinin işlədiyini göstərir və karvansaraların inşası tarixini 13 əsrin əvvəllərinə aparıb çıxarır. Karvansaralar çaydaşıdan tikilmiş və gəc məhlulu ilə suvanmışdır. C. k.-nın aşkar olunmuş hissəsində çoxlu yaşayış otaqları vardır. Bəzi otaqların örtük hissəsi maraqlı konstruksiyaya malikdir. Binanın ş. tərəfində sağ və solda tağ formasında dərin divar oyuqları olan böyük zal mövcuddur. Bu zal haqqında qəti fikir söyləmək çətindir. Lakin belə plan quruluşuna malik köhnə məscidlər də məlumdur.

**CUĞA KÖRPÜSÜ** – Azərb. memarlıq abidəsi (12–13 əsrlər). İndiki Culfa ş.-nin yaxınlığında, dar dərədə qədim Cuğa ş.-nin xarabalıqları qalmışdır. Araz çayı üzərində C.k.-nün salınması ilə şəhərin beynəlxalq ticarət yolu üzərində böyük mərkəz kimi əhəmiyyəti artmışdır. Körpünün qalıqları dövrümüzədək gəlib çatmışdır. Hazırda C.k.-nün yalnız 5 dayağı qalmışdır. Birinci istisna olmaqla, digər dayaqlar üzlüyü tökülmüş çaydaşı hörgüsü qalıqlarıdır. Salamat qalmış sahil dayağının suya baxan səthində 4 sıra dairəvi boşluqları olan körpü tağının dabanı görünür. Ehtimal ki, onlar hörgünün içinə qoyulmuş ağac bağlayıcıların yuvalarıdır. Belə oyuqlar digər dayaqların





Cuğa körpüsünün qalıqları. 12–13 əsrlər.



qalıqlarında da vardır. Körpü dayağının çaya baxan tərəfində nazik və hündür arakəsmələrlə 3 hissəyə bölünmüş qapı yeri qalmışdır. Çayın içindəki 2-ci dayaqda da üçhissəli bölgünün izləri müşahidə olunur. Sahil dayağının dağa uzanan divar qalıqları orta əsr tarixçisi Şərəfəddin Əli Yəzdinin təsvir etdiyi karvansaranın xarabalıqlarıdır. Karvansara körpü dayağına doğru uzanan yolun üstündədir. Körpünün tikintisi üçün əsas inşaat materialı kimi qırmızımtıl çaydaşıdan və əhəng məhlulundan istifadə edilmişdir. Tikinti massivinin müxtəlif hissələrində bu dövr üçün səciyyəvi olan kvadrat kərpiç hörgüsü müşahidə olunur.

**CUĞA MİNERAL SUYU** – bax *Gülüstan mineral suyu.*

**CUĞA NEKROPOLU** – Azərb. Resp. Culfa r-nunun (Nax. MR) Gülüstan (keçmiş Cuğa) k.-ndən şm.-q.-də, eyniadlı yaşayış yerinin q. qurtaracağında orta əsrlərə aid arxeoloji abidə. Sahəsi təqr. 10 *ha*-dır. Müxtəlif dövrlərə aid olan qəbir abidələri daşdan qoç fiqurları, daş sənduqələr, düzbucaqlı prizma formasında hazırlanmış sinədaşı və başdaşılarından ibarətdir. Başdaşıların üzərində müxtəlif sujetli təsvirlərə (çox vaxt qanadlı əjdaha obrazına) təsadüf olunur. Qəbir abidələri, əsasən, 11–17 əsrlərə aid edilir.

**CUKANOVİÇ** (Dukanović) Milo (d.15.2.1962, Nikşiç) – Monteneqro siyasi xadimi. Podqoritsa un-tinin iqtisadiyyat fakültəsini bitirmişdir (1986). 1980-ci illərdə Yuqoslaviya Kommunistləri İttifaqının fəal üzvü olmuş, 1989 ildə onun MK-nə üzv seçilmişdir. Sosialistlərin Demokratik Partiyasının yaradıcılarından biri idi. S. Miloşeviçin dəstəyi ilə 1991–97 illərdə Monteneqronun baş naziri olmuşdur. 1998–2002 illərdə ölkə prezidenti, 2002 ildən baş nazir idi. Monteneqronun Serbiya ilə ittifaq dövlətinin tərkibindən çıxmasının təşəbbüskarı olmuşdur. Ölkənin Avropa Birliyinə daxil olmasının tərəfdarı idi. 2006 ilin mayında keçirilmiş referendumun nəticələrinə görə Monteneqro müstəqil dövlət oldu; həmin ilin noyabrında C. istefa verdi.

**CUKİBİZƏN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Ətraf kəndistanında, Qaraağac qəs.-ndən 36 *km* c.-q.-dədir.

**CUKİTEYMUR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Quruçay kəndistanında, Qaraağac qəs.-ndən 37 *km* c.-q.-dədir.

**CUKUNLAR,** c u k u m l a r, c u k o n l a r, k p a n z o l a r, n d a m a l a r, k v a n a l a r, k o r o r o f a l a r, k v a r a r a f a l a r (özlərini v a p a, a v a p a n, c i b a adlandırırlar) – Nigeriyada (Qonqola, Plato, Bauçi, Benue ştatları; 200 min nəfər) və Kamerunda (70 min nəfər) xalq. Cibu, kona, vukari, abinsi (abissi) qruplarına bölünür. Niger-Kordofan dil ailəsinin Benue-Konqo qrupuna aid cukun dilində danışırlar. Hausa dili də yayılmışdır. Yazıları latın əlifbası əsasındadır. Ənənəvi etiqadlarını saxlayırlar; C.-ın bir hissəsi müsəlmandır.

Etnogenetik əfsanələr C.-ın Kamerunun şm.-ş.-indən köç etmələrini sübut edir. 14–19 əsrlərdə C.-ın Kororofa adlı erkən siyasi qurumu mövcud olmuşdur. Əsas məşğuliyyətləri talalarda toxa əkinçiliyidir. Başlıca ərzaq bitkiləri yams, darı, kalış, kokoyams, maniok, yer fındığı və tərəvəzdir. Geniş ərazilərin se-se milçəyi ilə yoluxması səbəbindən maldarlıq az yayılmışdır. Yığıcılıq yardımçı xarakter daşıyır. Dulusçuluq inkişaf etmişdir. Yaşayış məskənləri pərakəndə formadadır. Təsərrüfatları komalar qrupundan ibarətdir: yaşayış və qonaq komaları, təsərrüfat tikililəri və anbarlar. Möhrə divarlarla əhatələnmiş dairəvi planlı evlərin konusvarı damı çubuqlardan hörülmüş və üstü otla örtülmüşdür. Düzbucaqlı planlı evlər də var. Ənənəvi geyimləri bel sarğısıdır; tədricən avropasayağı geyimlər yayılır. Yeməkləri (sıyıq, şorba), əsasən, əkinçilik məhsullarından (kökü-yumrular və s.) hazırlanır. Ənənəvi sosial quruluşun əsasını böyük ailələrdən ibarət icmalar, qəbilə təşkilatı və kişi ittifaqları təşkil edir. Nikah patrilokaldır, qohumluq ata xətti ilə hesablanır. Ənənəvi etiqadları əcdadların və təbiət qüvvələrinin kultu, cadugərlik, magiyadır. Folklorun bütün əsas janrları yayılmışdır.

**CUQARA** (Sorghum cernuum) – taxıllar fəsiləsinə aid *kalış* cinsindən birillik ot bitkisi. Çox qısa budaqcıqlara malik və çiçək qrupu altında əyilmiş gövdəsi olan sıx süpürgə çiçək qrupu ilə fərqlənir. Quraqlığa çox davamlıdır. Ərzaq (yarma, un) və yem (quru ot, silos) bitkisi kimi Hindistan, İran, Əfqanıstan, Aralıq dənizi ölkələri, tropik Afrika, ABŞ-da becərilir. Dən tərkibinin 70%-ə qədəri nişastadır və ondan yarma, un, spirt emal edilir, heyvanların yemlənməsində istifadə olunur.

**CUQCÚR** – RF-də, Xabarovsk diyarında dağlar. Oxot dənizinə doğru qövsvarı əyilmiş asimmetrik silsilələr və massivlər sistemi. Şm.-ş.-dən c.-q.-ə (Aldanın sağ qolu Uçur çayının mənbəyindən) doğru 900 *km* məsafədə uzanır; eni 175–200 *km*. Ən yüksək nöqtəsi 1906 *m* (Topko d.). Relyefində erozion-denudasion ortadağlıqlar (1200–1400 *m*), alçaqdağlıqlar (700–1000 *m*) və struktur platolar üstünlük təşkil edir. Yal hissəsi önü yüksəkdağlıqdır. Yamaclarında *kurumlar* səciyyəvidir. C.-un c.-q. hissəsi Kembriyəqədər yaşlı qneys və qranitlərdən, şm.-ş. hissəsi isə Mezozoy yaşlı şist və əhəngdaşlarından təşkil olunmuşdur; sonuncular Tabaşir və Paleogenin qalın lava və tuf qatları ilə örtülüdür. C. Aldan və Oxot dənizi hövzələri çaylarının suayırıcısıdır. Mülayim musson iqlimi var; qışı sərt və qarlı, yayı tutğun və yağışlıdır; yanvarda orta temp-r –24,5°C, avqustda 12,9°C-dir. Yağıntıların illik miqdarı q.-ə (400 *mm*-ədək) nisbətən ş.-də iki dəfə çoxdur. Çoxillik donuşluq yayılmışdır; buzlaqlar var.

Q. yamacında şam və Ayan küknarı qarışıq qarışamdan ibarət açıq iynəyarpaqlı tayqa meşələri, ş. yamacında həmçinin Ayan küknarı və ağqabıq ağşam və s. qarışıq Oxot tipli tünd iynəyarpaqlı tayqa massivləri üstünlük təşkil edir; 1000–1300 *m* yüksəklikdə qaraşam



Cuqcur Dövlət Təbiət Qoruğu. Antıkan gölü.

seyrək meşəliyi, sərili sidr və qızılağac cəngəllikləri bitir. Holslarda daşlı və daşlı-şibyəli tundra yerləşir. Çay dərələri boyunca qovaq-çozen meşələri vardır. *Cuqcur Dövlət Təbiət Qoruğu* C. ərazisindədir.

**CUQCÚR DÖVLƏT TƏBİƏT QORUĞU** – RF-nin Xabarovsk diyarındadır. *Cuqcur* d-rını, eləcə də Oxot dənizi akvatoriyasını əhatə edir. 1990 ildə yaradılmışdır. Sah. 8063 $km^2$, o cümlədən 537 $km^2$ su akvatoriyası. Qoruqda yüksəklik qurşağı səciyyəvidir. Dağ yamaclarında qaraşam tayqası, sidr kolluqları, yuxarıda dağ tundrası, dərələrdə küknar meşələri yayılmışdır. Antıkan gölü köçəri su quşlarının yaz və payız uçuşları mövsümündə istirahət yeridir. Qoruqda qonur ayı, sığın, Sibir porsuğu, samur, qar qoyunu, qarapapaq marmot və s., quşlardan Sibir xoruzu, sidr quşu, ağ kəklik, dağ haçaqanadı və s. məskunlaşmışdır. Qızılquş, berkut, şunqar, ağçiyinli dəniz qartalı, çay qaranquşu, yapalaq RF-nin Qırmızı Kitabına salınmışdır.

**CUQDIR** – RF-nin Amur vil.-nin şm.-ş.-ində dağ silsiləsi. Stanovoy və Mayski silsilələrini birləşdirir. Zeya və Uda çay hövzələrinin suayırıcısıdır. Uz. 100 *km*-dir. 1000–1500 *m* hündürlüklər təşkil edir. Maks. hünd. 2107 *m*. Qranitlərlə parçalanmış metamorfik şistlərdən ibarətdir. Qədim düzəlmə səthlərin geniş sahələri var; zirvələri gümbəzvarıdır. Yamaclarında qaraşam tayqası, yuxarıda sidr kolluqları, dağlıq tundradır.

**CUQÚ** (Djougou) – Beninin q.-ində şəhər. Donqa dep-tinin inz. m. Əh. 237 min (2012; əhalisinin sayına görə ölkənin dördüncü şəhəridir). Avtomobil yolları qovşağı. Aeroport. Roma katolik kilsəsi yepiskopunun iqamətgahı. K.t. (əsasən, pambıqçılıq) r-nu mərkəzidir. Yeyinti sənayesi, pambıqtəmizləmə müəssisələri var.

**CUL** – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Paşalı, 12.10.1956 ildən Əzizbəyov, 19.4.1991 ildən Vayk r-nu) azərb.-ların yaşadığı kənd. 1918 ildə erməni hücumları nəticəsində kənd dağıdılmış, sağ qalan əhali isə kəndi tərk etməyə məcbur olmuş və Naxçıvana çəkilmişdir. 1922 ildə geri qayıtmış əhali 1948–49 illərdə yenidən Azərb.-ın, əsasən, İmişli, Yevlax, Salyan və Beyləqan r-nlarına deportasiya olunmuşdur. 19.4.1950 ildə kəndin adı dəyişdirilərək Artivan qoyulmuşdur.

**CULAHƏ,** Culha – Azərb.-da orta əsrlərə aid yaşayış məntəqəsi. Araz çayının dağ ətəyindən keçdiyi yerə yaxın ərazidə idi. Burada Arazın üzərində məşhur *Ziyaülmülk körpüsü* salınmışdı. 18 əsrin ilk rübündə Naxçıvan sancağının Dərəşam nahiyəsinin tərkibinə daxil idi. Ehtimal ki, müasir Culfanın əvvəlki adı olmuşdur.

**CULFA** – Azərb. Resp.-nda (Nax. MR) şəhər (1935–48 illərdə ştq). Culfa r-nunun mərkəzi. Əh. 12396 (2011). Bakı–Yerevan d.y.-nda st. (Təbrizə xətt ayrılır). Naxçıvan ş.-ndən 40 *km* c.-ş.-də, Ordubad–Naxçıvan avtomobil yolunun kənarında, Araz çayının sahilindədir.

Mənbələrdə Cuqa, Culax kimi də adı çəkilən C.-nın salındığı tarix dəqiq müəyyənləşdirilməmişdir. Şəhərin 6 əsrdə salındığı ehtimal edilir. "Culfa" sözü orta əsrlərdə "cükki" tacir təşkilatının adı ilə əlaqələndirilir. Qədim C.-nın xarabalığı indiki şəhərdən 3 *km* aralıdadır. 1939–40 illərdə d.y. çəkilərkən C. ərazisində təsadüfən aşkar olunmuş nekropol dağıdılmışdır (bax *Culfa nekropolu*). Tədqiqatçılar orta əsr mənbələrində qeyd olunan *Culahə* yaşayış məntəqəsini C. ilə eyniləşdirirlər.

Tranzit karvan yolu üzərində yerləşən C.-nın Xilafət tərkibinə daxil olduqdan sonra iqtisadi əhəmiyyəti artdı. 9–12 əsrlərdə C.-da sənətkarlıq və ticarət daha da inkişaf etdi. C. Avropa və Asiya ölkələri arasındakı tranzit ticarətdə əsas məntəqələrdən birinə çevrilmişdi. Monqol hücumları zamanı C. tənəzzül etdi. Sonralar Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil olan C.-da iqtisadi həyat nisbətən dirçəlməyə başladı. Səfəvilər dövründə C. daha da inkişaf edərək 15 əsrin 2-ci yarısından mühüm ticarət mərkəzinə çevrildi. C. 16 əsrin 2-ci yarısında beynəlxalq ipək ticarətində mühüm rol oynayırdı. Həmin dövrdə C.-da təqr. 3 min ev (15–20 min əhali) vardı. C. tacirləri Rusiya, Şərq ölkələri, Venesiya, Marsel, Amsterdam və s. Avropa şəhərləri ilə ipək ticarəti edirdilər. Orta əsr Avropa səyyah və tacirləri C.-da gözəl binalar, qala divarları, karvansaralar və s. olduğunu göstərmişlər. Səfəvi şahı I Təhmasib [1524–76] şəhərin iqtisadi əhəmiyyətini nəzərə alaraq əhalini vergi və mükəlləfiyyətlərdən azad etmişdi.

Səfəvi–Osmanlı müharibələri zamanı C. dəfələrlə əldən-ələ keçdi. 1604 ilin payızında I Şah Abbas C.-nı osmanlılardan geri qaytara bildi. Lakin osmanlı qoşunlarının yeni hücumu zamanı C. əhalisi zorla İsfahana köçürüldü, şəhər isə xarabalığa çevrildi. İsfahan yaxınlığında "Yeni Culfa" adlı şəhər salındı (bax *"Böyük sürgün"*).

18 əsrdə əvvəlki əhəmiyyətini itirən C. *Naxçıvan xanlığının* tərkibinə daxil edildi. Türkmənçay müqaviləsinə (1828) əsasən C. Naxçıvan xanlığının tərkibində Rusiyaya birləşdirildi.

3 ümumtəhsil məktəbi (1561 şagird), 6 məktəbdənkənar təhsil müəssisəsi (3463 uşaq), 1 ilk peşə-ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir (2010/11).

**CULFA** – İranın şm.-q.-ində, Cənubi Azərb.-da şəhər. Şərqi Azərb. ostanında Culfa şəhristanının inz. m. Əh. 56 min (2006). Arazın sağ sahilində, Azərb. Resp.-ndakı Culfa ş.-nin (Arazın sol sahilində, Nax. MR ərazisində) qənşərindədir. Təbrizlə əlaqəsi d.y. və avtomobil yolu ilədir.

**CULFA DÜZÜ** – Azərb. Resp. Culfa r-nunda (Nax. MR) maili düzənlik. *Arazboyu düzənliklərdən* biri. Hünd. 700 *m*-dən (Araz çayı sahilində) 1000 *m*-ə qədərdir. Əlincəçayın aşağı axınının sol sahilindən başlayaraq ş.-də Yaycı düzünədək, şm.-da Darıdağın ətəklərinədək geniş bir ərazini tutur. Gülüstan düzü də adlanır. C.d.-nün şm. və şm.-ş. hissəsində sel çöküntüləri, c. və c.-q.-ində isə çay çöküntüləri daha çoxdur. Otlaq kimi istifadə olunan C.d.-nə Arazdan su çəkilmiş və əkin sahələri genişləndirilmişdir. Culfa ş. C.d.-ndədir.

C.d.-ndəki qədim yaşayış yerlərində və nekropollarda aparılmış arxeoloji qazıntıların nəticələri bu ərazidə e.ə. 3-cü minillikdən başlayaraq son orta əsrlərə qədər fasiləsiz həyat olduğunu təsdiqləyir.

*Əd.*: Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. B., 1999.

**CULFA KONQLOMERAT YATAĞI** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində, Culfa d.y. st.-ndan 14 *km* şm.-ş.-də, Əlincəçay körpüsündən 7–8 *km* c.-q.-dədir. Geol. quruluşunda Orta Eosenin müxtəlif ölçülü konqlomeratları iştirak edir. Konqlomeratlar tünd-boz, boz, sarımtıl-boz rəngli silisləşmiş əqiq görünüşlü arevrolitlərdən ibarətdir və əhəngli tufogen materialla möhkəm sementləşmişdir. Yataq tektonik cəhətdən Nehrəm–Cuğa antiklinalının qanadında yerləşir. Sah. 0,105 $km^2$, faydalı qatın qalınlığı 12,6–56 *m*-dir. Yüksək dekorativliyə malik üzlük daşı istehsalında, bəzək əşyaları hazırlanmasında istifadə edilə bilər. Yatağın sənaye ehtiyatı 2367 min $m^3$-dir.

**CULFA MƏRTƏBƏSİ** – Azərb. Resp. Culfa dərəsində (Nax. MR) Paleozoy çöküntülərinin geol. kəsilişdə özünəməxsus paleontoloji qalıqların alt və üst təbəqələri. Lay dəstəsinin qalınlığı 40 *m*-ə qədərdir. Amerika tədqiqatçıları H. Şenk və digərləri tərəfindən 1941 ildə ayrılmışdır. C. m. əhəngdaşılarından və onlarla növbələşən argillitlərdən ibarətdir. Paleontoloji cəhətdən Araxoceras latissimum Ruzh., Vestkotoceras paralellum Ruzh., Pseudotoceras djoulfence (Abich) və s. ammonoidlər ilə səciyyələnir. C. m. Dünyanın bir çox ölkəsində Tetis qurşağında Paleozoy dövründə Perm sisteminin üst mərtəbəsi kimi ayrılır.

**CULFA NEKROPOLU** – Azərb. Resp. Culfa ş. yaxınlığında Tunc dövrünə aid qədim qəbiristanlıq. 1939–40 illərdə Culfa d.y. xətti çəkilərkən təsadüfən aşkar olunmuşdur. Dağıdılmış daş qutu qəbirlərdən ibarətdir. Ərazidən monoxrom və polixrom boyalı gil qablar (küpə, kasa, çaydan və qədəh tipli qab nümunələri), yüksək sənətkarlıqla işlənmiş müxtəlif tunc bəzəklər (üzəri cızma ornamentli bilərzik və boyunbağılar), metal əşyalar (yastı tiyəli, şəbəkəli dəstəyi olan xəncər, Ön Asiya tipli dörd xəncər, ox və nizə ucluqları, sancaqlar, tunc toppuz və s.) tapılmışdır. Tapıntılar e.ə. 13–9 əsrlərə aid edilir. Əldə olunmuş materiallar Gürcüstan Dövlət Tarix Muzeyində saxlanılır.

**CULFA RAYONU** – Azərb. Resp.-nda (Nax. MR) inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Şm.-ş.-də Erm. ilə, c.-da İranla həmsərhəddir. Sah. 994,4 $km^2$. Əh. 43,1 min (2011). R-nda 1 şəhər, 24 kənd var. Mərkəzi Culfa ş.-dir.

**Əhali.** Orta sıxlıq 1 $km^2$-də 43,3 nəfərdir. İri yaşayış məntəqələri Culfa ş., Yaycı, Əbrəqunis və Bənənyar k.-ləridir.

Culfa şəhəri. Dəmiryol vağzalı.



Culfa şəhəri. Mərkəzi xəstəxana.



İlandağ. Culfa rayonu.











Əlincəçay xanəgahı. 13 əsr (Xanəgah kəndi).

**Təbiət.** R-nun Erm. ilə sərhədi boyu Zəngəzur silsiləsinin yal hissəsi uzanır. Silsilə Araz çayına doğru alçalaraq *Arazboyu düzənliklərə* (Culfa düzənliyi və s.) keçir. R-nun ən yüksək nöqtəsi Erm. Resp. ilə sərhəddəki Dəmirlidağdır (3368 *m*). Tabaşir–Neogen çöküntüləri geniş yayılmışdır. Faydalı qazıntıları: mərgmüş filizləri, gips, gəc və s. Mineral sular (Darıdağ, Nəhəcir və s.) çıxır. Ərazinin çox hissəsində yay quraq və isti keçir. Arazboyu ərazidə yayı quru isti, qışı soyuq keçən yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta temp-r yanvarda –10-dan –3°C-yə qədər, iyulda 19–28°C-dir. İllik yağıntı 200–600 *mm*. Çayları (Əlincə, Qaradərə və s.) Araz hövzəsinə aiddir. Su anbarları yaradılmışdır.

Əsasən, dağ-çəmən, qəhvəyi dağ-meşə, dağ-şabalıdı, boz, çəmən-boz, allüvial-çəmən torpaqları yayılmışdır. Arazboyu düzənliklərdə və alçaq dağlıq sahələrdə səhra və yarımsəhra, ortadağlıqda isə dağ-kserofit bitkiləri, yüksəkdağlıq sahədə subalp çəmənləri var. Enliyarpaqlı dağ meşələrinə (palıd, fıstıq, vələs) rast gəlinir. Muflon, qayakeçisi, canavar, tülkü, boz dovşan, ular və s. var.

**Təsərrüfat.** Əsasən, k.t. r-nudur. Üzümçülük və heyvandarlıq inkişaf etmişdir.

**Mədəni quruculuq və səhiyyə.** R.-nda 28 ümumtəhsil məktəbi (5275 şagird), 6 məktəbdənkənar təhsil müəssisəsi (3463 uşaq), 1 ilk peşə-ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir (2010/11). 30 kitabxana, 36 klub və mədəniyyət evi, 1 muzey var. Memarlıq abidələrindən Gülüstan k.-ndə türbə, karvansara (13 əsr), kəndin yaxınlığında, Araz çayı üzərində körpü (13 əsr), Xanəgah k.-ndə Əlincəqala (7–8 əsrlər), Əlincəçay xanəgahı (12 əsrin sonu – 13 əsrin əvvəlləri), Qazançı k.-ndə körpü (1551), hamam (17 əsr), məscid (19 əsr), orta əsrlərə aid qala divarları, bürclər və s. mühafizə olunmuşdur. Abidələr üzərində yenidənqurma və bərpa işləri aparılmışdır.

R-nda 75 çarpayılıq 2 xəstəxana, əhaliyə ambulatoriya-poliklinika yardımı göstərən 15 müalicə müəssisəsi, gigiyena və epidemiologiya mərkəzi, 39 həkim, 169 orta tibb işçisi var (2011).

**CULUXLU** (Tecisi) – Gürcüstanın Kvemo Kartli mahalının Zalqa bələdiyyəsi ərazisində azərb.-ların yaşadığı kənd. Hazırda Tecisi adlanır. Zalqadan 23 *km* aralıda, dəniz səviyyəsindən 1740 *m* yüksəklikdə yerləşir. Əh. 607 (2006); maldarlıqla məşğuldur.

**CULUKÚL,** C u l u - K o l – RF-nin Altay Resp. ərazisində göl. Şapşal silsiləsinin ətəyindəki çuxurda, 2199 *m* hünd.-də yerləşir. Moren mənşəlidir. Sah. 29,5 $km^2$, uz. 10 *km*, eni 3 *km*-dir. Ən dərin yeri təqr. 7 *m*-dir. Göldən Çulışman çayı axır. Balıqla zəngindir.

**CULYARD MUSİQİ MƏKTƏBİ** (Juilliard School) – Amerikada ali musiqi-teatr təhsili məktəbi. Əsası Musiqi Sənəti İn-tu kimi 1905 ildə F. Damroş tərəfindən qoyulmuşdur. 1924 ildə O. Culyard (Amerika fabrikantı və mesenatı, 1836–1919) fondu yaradıldıqdan sonra Culyard musiqi məktəbi adlanmışdır (1926). Xoreoqrafiya və teatr fakültələri təşkil edildikdən sonra indiki adını

Gülüstan kəndində türbə. 13 əsr.



Culukul gölü.





Culyard Musiqi Məktəbi.

daşıyır (1969). 2001 ildə caz şöbəsi açılmışdır (Caz Tədqiqi İn-tu). U. Şumen, V. Persiketti, P. Mennin, U. Berqsma, R. Levina, L. Persinger, R. Mann və b.-ları müxtəlif illərdə C.M.M.-ndə dərs demişlər. Pianoçu V. *Klibern*, skripkaçılar İ. Perlman, P. Tsukerman, violonçelçalan Y.-Y. *Ma*, müğənni L. *Prays*, dirijor C. *Levayn*, caz pianoçusu və bəstəkarı Çik Koria məktəbin məzunları olmuşlar. C.M.M.-nin nəzdində *Culyard simli kvarteti* (1946), Culyard simfonik orkestri (1986), Amerika mis nəfəs alətləri kvinteti (1987), Nyu-York ağac nəfəs alətləri kvinteti (1987), Opera studiyası fəaliyyət göstərir. Tədris ili ərzində illüstrasiyalı "The Juilliard Journal" nəşr edilir. 1985 ildən hər il "Focus!" müasir musiqi festivalı keçirilir.

**CULYARD SİMLİ KVARTETİ** (Juilliard String Quartet) – 1946 ildə Nyu-Yorkda bəstəkar, Culyard məktəbinin rəhbəri U. Şumen tərəfindən yaradılmışdır. Kvartetin ilk heyətinə R. Mann (1-ci skripka), R. Koff (2-ci skripka), R. Xillyer (alt), A. Uinoqrad (violonçel) daxil idilər. Heyətdə dəfələrlə dəyişiklik edilmişdir. 2006 ildə kvartetin heyətində C. Smirnoff (1-ci skripka), R. Koups (2-ci skripka), S. Rouds (alt), C. Krosnik (violonçel) çalmışlar. Klassik repertuarla yanaşı (V.A. Motsart, Y. Haydn və b.) 20 əsr musiqisi (o cümlədən A. Şönberqin, A. fon Vebernin), xüsusən də müasir Amerika bəstəkarlarının əsərləri (kvartet yeni Amerika musiqisindən 60-a yaxın əsəri ilk dəfə ifa etmişdir) ifa olunur. Dünya üzrə geniş qastrol səfərlərinə çıxan C.S.K. bir çox beynəlxalq musiqi festivallarının iştirakçısıdır.

**CUMADİ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Dicuycin kəndistanında, Ərdəbil ş.-ndən 16 *km* q.-dadır.

**CUMAXMATOV** Asanxan Cumaxmatoviç (16.7.1923, Qırğ. Resp., Kant r-nu, İssık-Ata qışlağı – 21.7.2008, Bişkek) – qırğız dirijoru. SSRİ xalq arstisti (1976). Moskva konservatoriyasını bitirmişdir (1958). 1948 ildən Qırğ. Opera və Balet Teatrının (1958–66 illərdə və 1973 ildən baş dirijor), 1969 ildən eyni zamanda Qırğ. Radio və Televiziyası Simfonik Ork.-nin dirijoru idi. Milli opera və balet sənətinin inkişafında böyük xidmətləri olmuşdur. C. dünyanın aparıcı vokal ustalarının iştirakı ilə bir çox konsert proqramı hazırlamışdır. C.-un rəhbərliyi ilə resp.-da ilk dəfə "Karmen" (1949, J. Bize), "Qaratoxmaq qadın" (1950, P.İ. Çaykovski), "Su pərisi" (1951, A.S. Darqomıjski), qırğız bəstəkarlarından M. Abdrayev və A. Amanbayevin "Kim-kantti" (1948), M. Rauxvergerin "Kokul", V. Vlasov və V.Q. Ferenin "Altın kız" (1949), "İssık-Kul sahillərində" (1951) əsərləri tamaşaya qoyulmuşdur.



**CUMAKƏND** – Azərb. Resp. Şəki r-nunda kənd. Cumakənd ə.d.-nin mərkəzi. R-n mərkəzindən 35 *km* q.-də, düzənlikdədir. Əh. 2203 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi; tunc dövrünə aid Cumakənd nekropolu, yaşayış yeri var.

**CUMALAR** – Azərb. Resp. Bərdə r-nunun Mirzəxan Qaraqoyunlu ə.d.-ndə kənd. R-n mərkəzindən 8 *km* ş.-də, düzənlikdədir. Əh. 635 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, tibb məntəqəsi, klub var.

**CUMALIYEVA** Muminat Camal qızı (1926, Balakən r-nunun Qazma k. – 1.3.1967, orada) – Sosialist Əməyi Qəhrəmanı (1948). 1947 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**CUMBLATLAR**, Canbolatlar – 18–20 əsrlərdə Livan tarixində mühüm rol oynamış dürzi nəsli (yerli əmirlər və osmanlı idarəçiliyinə qarşı 1778–88, 1822, 1841 illərdə baş verən üsyanlara rəhbərlik etmişdilər). 20 əsrdə C.-ın ən tanınmış nümayəndəsi druz icmasının lideri və Mütərəqqi Sosialist Partiyasının (MSP, 1949) banisi Kamal Cumblat (1917–77) idi. O, solçu olmaqla Livanda siyasi vəzifələrin konfessional mənsubiyyətə görə bölüşdürülməsinə qarşı çıxış edirdi. C. 1969 ildən MSP-də ölkənin sol təşkilatları və Fələstin milli hərəkatı ilə ittifaqa girmişdilər. C. Livanın daxili münaqişələrində (1958, 1975–76) fəal iştirak etmişdilər. Kamal Cumblatın öldürülməsindən (16.3.1977) sonra C.-ın və Livanın dürzi icmasının başçısı onun oğlu, 1970-ci illərdə Livanda vətəndaş müharibəsi gedişində Suriyanın dəstəklədiyi sol-müsəlman alyansının tərkibində fəaliyyət göstərən Valid Cumblat olmuşdur. Vətəndaş müharibəsi qurtardıqdan (1990) və partiya milislərinin silahsızlaşdırılmasından sonra Valid Cumblatın nüfuzu azalsa da, 21 əsrin əvvəllərində C. Livanın siyasi səhnəsində güclərini qoruyub saxlaya bilmişlər.

**CUMQÁL ÇUXURU** – Qırğızıstanda, Tyanşanda dağarası çuxur. İssıkkul gölündən q.-də, 1500–2500 *m* hünd.-də yerləşir. Uz. təqr. 70 *km*, eni 30 *km*-ədəkdir. Şm.-dan Cumqaltau, c.-dan Moldotau silsilələri ilə əhatələnir. Allüvial çöküntülərdən ibarətdir. Relyefi kəskin parçalanmış dağətəyi düzənlikdir. Çuxurdan Cumqal çayı axır. Quru çöl və səhra bitkiləri yayılmışdır. Otlaq kimi istifadə olunur.

**CUMQÁLTAU**, Cumqoltau – Qırğızıstanda, Tyanşanın şm.-ında, İssıkkul gölündən q.-də dağ silsiləsi. Q.-də Kökömeren çay dərəsi ilə Suusamırtau silsiləsindən ayrılır. Enlik istiqamətində 100 *km*-dən çox məsafədə uzanır. Hünd. 3948 *m*-ədəkdir. Qumdaşı, şist və qranitlərdən ibarətdir. Yüksək dağlıq relyef üstünlük təşkil edir. Yamacları çəmən bitkiləri, kolluqlar, ardıc və küknar meşələri ilə örtülüdür.



Cumqaltau silsiləsi. Kökömeren çayı.

**CUMURU** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Ənqut kəndistanında, Germi–Ərdəbil avtomobil yolunun 35 *km*-liyindədir.

**CUNİYƏ** – Livanın q.-ində şəhər. Dağlıq Livan mühafazasındadır. Əh. 102,2 min (2012). Aralıq dənizi sahilində, dağlarla əhatə olunmuş Cuniya buxtasında, Beyrutdan 20 *km* şm.-dadır. Nəql. qovşağı. Port. Paytaxt Beyrutu ölkənin şm.-ı ilə birləşdirən sahil avtomobil yolu C.-dən keçir.

Vətəndaş müharibəsinin başlamasından sonra (1975) sürətlə inkişaf etmişdir.

C. turizm mərkəzidir; sahil boyunca çoxsaylı hotellər, restoranlar, əyləncə kompleksləri (o cümlədən Yaxın Şərqdə ən iri kazinolardan biri "Kazino dü Liban") var. Şəhərin görməli yeri ətrafında 20-dək monastır və kilsənin (ən qədimi Paduyalı Müq. Antoni kilsəsi, 1628) yerləşdiyi Müq. Məryəm heykəlidir (tunc, 19 əsrin sonları).

Sent-Espri-de-Kaslik Un-ti (1961; qeyri-dövlət) var. Çoxsaylı mağaralar (Ceyta kahası və s.).

**CUNQAR** (ehtimal ki, bu ad *Cunqar xanlığı* haqqında epik xatirədir), Canqaray, Canrvay, Cunra (monqol dilində), Canqar (kalmık və monqol dillərində), Janqar (buryat dilində) – monqollarda, kalmıklarda və oyratlarda əsas epik personaj. Ən çox ehtimal edilən etimologiyası "yetim", "tənha"dır; ilk əcdad və ilk insan kimi epik qəhrəman haqqında qədim təsəvvürlərə uyğun gəlir. Eposa görə, C. mifik "başlanğıc dövründə" dünyaya gələn yetimdir. Bir yaşında C. müxtəlif əjdahalarla (manquslarla) mübarizə aparır, beş yaşında onu məhv etmək istəyən Şikşirgi adlı pəhləvana əsir düşür. Yeddi yaşında o, c.-ş.-dəki diyarın hökmdarının qızı, gözəl Şabdalla evlənir və nümunəvi Bumba ölkəsinə başçılıq edir. Digər varianta görə, atasının xanlığını talan etmiş dörd xandan qaçıb Xonqorla birlikdə dağ mağarasında gizlənən C.-ı Xonqor hökmdar elan edir. Xonqor C.-ın dövlətində birinci pəhləvan, Altan Çeçi isə onun müdrik müşaviri olur. C.-ın sehrli 12 rəqəmi (12 pəhləvan) ilə səciyyələnən dəstəsinə ailə və mülklərini tərk etmiş, buna görə də C. kimi yetim, tənha sayılan keçmiş xanlar Sanal, Sabar, Minqyan da könüllü və ya məcburi şəkildə daxil olurlar. C. mədəni qəhrəmanın və cahan hökmdarının ayrı-ayrı cəhətlərini özündə birləşdirir. Onun hakimiyyətini 40 xan (ümumiliyin folklor-mifik ifadəsi) tanıyır.

**CUNQAR XANLIĞI** – ÇXR-in Sintzyan-Uyğur muxtar r-nunun ş. hissəsinin və MXR-in Kobdo, Zavxan və Ubsanur aymaklarının ayrı-ayrı r-nlarının ərazisində *oyratların* (çorosların, *torqutların*, *derbetlərin*, *xoşutların* və b.) dövləti. Müasir ədəbiyyatda çox vaxt Oyrat xanlığı adlandırılır.

Cunqarların erkən tarixinə dair səhih mənbələr azdır. Onların meydana gəlməsini Çingiz xan ordusunun təqr. 40 min nəfərlik (4 tümənlik) "sol cinahı" (zuun qar – cunqarlar etnik adı, Cunqariya buradandır) ilə bağlayırlar. Monqol imperiyasının parçalanmasından sonra Çinə gedən ticarət yollarına nəzarət uğrunda 14 əsrin ortalarında oyrat və xalxa (şərqi monqollar) hakimləri arasında uzunmüddətli mübarizə başladı. 15 əsrin birinci

Cuniyə şəhərindən görünüş.



yarısında oyrat hakimləri Toqon [1418–40] və onun oğlu Essen bütün Monqolustanı tabe etdilər, lakin az sonra məğlub olaraq öz hüdudlarına çəkildilər. Sonrakı bir yarım əsrdə Qərbi Monqolustan ərazisində, əsasən, kiçik xanlıqlar mövcud idi. 1620-ci illərin sonunda çorosların başçısı Xaara-Xula çorosları və derbetlərin böyük hissəsini birləşdirdi. Çorosların təzyiqi nəticəsində torqutlar və derbetlərin bir hissəsi Xo-Urlyukun başçılığı ilə Volqanın aşağı axarına gələrək Kalmık xanlığını, Turu-Bayxu (Quşi) xanın başçılıq etdiyi xoşutlar isə c.-a doğru hərəkət edərək Kukunor gölü ətrafında xanlıq yaratdılar. Bu yerdəyişmə nəticəsində köçəri oyratlar q.-də Xəzər dənizindən ş.-də Alaşana qədər, şm.-da Uraldan c.-da Hindistanadək olan ərazilərdə yayıldılar.

C.x.-nın yaranması 1635 il, Tibet Dalay-lamasından Erdeni *Batır-Xuntayci* titulunu almış Xoro-Xotsin Batırın (Xaara-Xulanın oğlu) hakimiyyətinin ilk ili hesab olunur. Xoro-Xotsin Batır Xo-Urlyuk və Turu-Bayxu xanla əlaqələr saxlayır, Rus dövləti ilə 1620 ildə Xaara-Xula tərəfindən əsası qoyulmuş ticarət və diplomatik əlaqələri genişləndirir, daimi yaşayış məskənləri yaradır, əkinçiliyi inkişaf etdirirdi. Batır-xuntayci 1640 ildə 44 oyrat knyazı və baş xalxa hakimlərinin iştirakı ilə *Cunqariya qurultayının* çağırılmasının təşəbbüskarlarından biri olmuşdur. Qurultayda qəbul olunmuş qanunnamənin ilk maddələri mancurlara qarşı müqavimət göstərmək üçün bütün qüvvələrin birləşməsini nəzərdə tuturdu. Lakin koalisiya tezliklə dağıldı və Çini zəbt edərək orada Sin sülaləsinin əsasını qoymuş mancur ekspansiyasına qarşı mübarizənin rəhbəri ümumoyrat xanı Qaldan oldu. Onun varisləri – Tseven Ravdan [1698–1727] və sonuncunun oğlu Qaldan Tserenin [1727–45] hakimiyyəti dövründə C.x. müstəqil Monqol dövlətçiliyinin sonuncu dayağı idi. C.x. qazax juzlarına və mancurlara qarşı uğurlu mübarizə aparmış, Tibetə bir neçə yürüş təşkil etmişdi. Xanlıqda əkinçilik və sənətkarlıq, o cümlədən toxuculuq, metaltökmə və top istehsalı inkişaf etmişdi. Qaldan Tserenin ölümü ilə ölkədə başlayan 10 illik daxili çəkişmələrdən Sin sülaləsi faydalandı. 1755–57 illərdə mancur-Çin ordusunun 3 dəfə C.x.-na soxulması oyrat xanı *Amursananın* başçılığı ilə üsyana səbəb olmuşdu. Üsyanı yatırdıqdan və oyratların əksəriyyətini qırdıqdan sonra mancurlar 1758 ildə C.x.-na son qoydular.

**CUNQÁRİYA ALATAUSU** – Qazaxıstan və Çində dağ silsiləsi. Alakul gölündən İli çayı dərəsinədək 450 *km* məsafədə uzanır. Eni 50–190 *km*-dir. Bir neçə paralel silsilədən ibarətdir. Maks. hünd. 4622 *m*-dir. Ş.-də *Cunqariya Qapıları* ilə sərhədlənir. Qədim düzəlmə səthlərinin qalıqları və 3000–4000 *m* yüksəklikdə yerləşən daha cavan yüksək platolar silsilənin bayır yamaclarına pilləvarı görkəm verir. Silsilənin şm. və q. ətəkləri gətirmə konuslar zolağı ilə, c. ətəkləri isə *adırlarla* əhatələnmişdir. C.A.-nun şm.-ını Devon və Karbonun qumdaşı, alevrolit və şistləri, c.-unu Karbon və Permin vulkan süxurları təşkil edir; mərkəzi hissəsində daha qədim kristallik süxurlar çıxır. Polimetal filiz yataqları (Təkəli, Göysu), radonlu mineral su bulaqları var. C.A. ətəklərinin iqlimi sərt kontinentaldır; yayı isti (iyulun orta temp-ru 20°C-dən artıq), qışı soyuqdur (yanvarın orta temp-ru –12°C); yağıntının illik miqdarı 200–300 *mm*-dir. Orta dağlıqda iyulun orta temp-ru 10–13°C-dir; şm.-q. yamaclarda 600–800 *mm* yağıntı düşür. Daha sərt şəraiti olan yüksək dağlıqda iyulda orta temp-r 5–6°C-yədəkdir. 2600–2800 *m*-dən yuxarıda çoxillik donuşluq yayılmışdır. İri çayları Karatal, Ağsu və Lepsi Balxaş gölünə tökülür; xırda çaylar dağətəyi düzənliklərin qumlarında itir. Qar xətti 3200–3800 *m* hünd.-dən keçir. Şm. yamaclarında Sibir landşaftlarının elementlərinə rast gəlinir: dağətəyi çöllər 1500 *m* yüksəklikdə çəmən-meşə landşaftı ilə əvəzlənir; 2400 *m* yüksəklikdə subalp, 2800 *m*-dən yuxarı Alp çəmənləridir. C. yamaclarında Orta Asiya landşaftları üstünlük təşkil edir; burada səhralar 600 *m* yüksəklikdə yarımsəhralarla əvəzlənir, 1300 *m*-dən yüksəkdə çöllər, 2300 *m*-dən sonra subalp və Alp çəmənləri gəlir. 3200 *m*-dən yuxarıda qlyasial-nival landşaftlar hakimdir; ümumi sah. 1100 *km*² olan 1350-dən çox buzlaq məlumdur.

**CUNQÁRİYA DÜZƏNLİYİ**, Cunqariya çökəkliyi, Cunqariya – Çinin şm.-q.-indədir. Sah. təqr. 380 min *km*². Şm.-da Monqol Altayı d-rı, c.-da Şərqi Tyanşan silsilələri ilə sərhədlənir. 400–1000 *m* yüksəkliklər üstünlük təşkil edir (minimal 189 *m*, Ebi-Nur gölü). C.d.-nin böyük mərkəzi hissəsini səhralar təşkil edir; qum tirələri və barxan massivləri var; dağ ətəkləri çınqıllı-çaqıldaşılı düzənliklərdən ibarətdir. Tyanşanın ş. ətəklərində takırlar və şoranlıqlar yayılmışdır. Düzənliyin kənarları boyu vahələr zolağı yerləşir. C.d. çöküntülərin akkumulyasiyası ilə müşayiət olunan müasir enmələr nəticəsində formalaşmışdır. Qalın qədim və müasir örtük



Cunqariya Alatausu. Qazaxıstan.





çöküntülərindən təşkil olunmuşdur. Neft yataqları var. İqlimi mülayim kontinentaldır; quru soyuq qışı (yanvarın orta temp-rları –16-dan –20°C-yədək), quru isti yayı (iyulun orta temp-rları 22–26°C) var. Böyük illik (80°C-yə qədər) və sutkalıq (25°C-yə qədər) temperatur amplitudları səciyyəvidir. Tez- tez güclü küləklər əsir. Yağıntının illik miqdarı 200 *mm*, dağətəyi düzənliklərdə 600 *mm*-ədəkdir. Böyük çayları Manas və Urunqudur. Irtış çayının yuxarı axını C.d.-nin şm.-ındadır (burada o Qara İrtış adlanır). Bütün çaylar (Qara Irtış çayından başqa) daxili axım hövzəsinə aiddir. Çayların böyük hissəsindən ətraf ərazilərin suvarılmasında istifadə olunur. Əksər çayların məcraları yalnız arabir yağan güclü yağışlar nəticəsində su ilə dolur. Yerli əhali quru çay yataqları boyu qazılmış su quyularından istifadə edir. Düzənliyin q.-ində bir neçə iri göl (Ebi-Nur, Manas, Baqa-Nur, Telli-Nur, Ulyunqur) var.



Cunqariya qapıları. Kosmosdan görünüş (NASA).

**CUNQÁRİYA QAPILARI** – Qazaxıstan və Çində dağ keçidi. Q.-də *Cunqariya Alatausu* dağ sistemi ilə, ş.-də Barlık və Mayli silsilələri arasındadır. *Balxaş-Alakul çuxurunu* Cunqariya düzənliyinin q.-indəki Ebi-Nur çuxuru ilə birləşdirir. Hünd. 400 *m*-ədək. Uz. təqr. 50 *km*, eni 10–13 *km* olan dəhliz antesedent dərədir (Neogenin və Dördüncü dövrün rütubətli epoxalarında Orta Asiyadan çay axımı olub). Şm. hissəsində Jalanaşkul gölü var. Fəlakətli sürətə (80 *m/san*) çatan və külli miqdarda çınqıl, xırda çay daşı və toz daşıyan güclü küləklər səciyyəvidir. Yarımsəhra landşaftı üstünlük təşkil edir; yamaclarında otlaq kimi istifadə olunan çöllər var. C.Q. *Böyük İpək Yolunun* qollarından biridir. Qazax.-dan Çinə gedən d.y. (Aktoqay–Drujba–Urumçi) C.Q.-ndən keçir.

**CUNQARİYA QURULTAYI** – 1640 ilin sentyabrında 44 ən iri monqol feodalının iştirakı ilə Cunqariyada keçirilmişdir. Oyrat (Cunqar) xanlığının hökmdarı *Batır-Xuntaycinin* təşəbbüsü ilə mübahisələrin nizamlanması, mancur işğalına qarşı monqol hakimləri ittifaqının yaradılması, həmçinin feodalların mövqeyinin möhkəmləndirilməsi üçün adət hüquqlarının kodifikasiyası məqsədilə çağırılmışdı. Sentyabrın 5-də açılmış qurultayda iri monqol xanlıqları Xalxa, Oyrat, həmçinin Kalmıkiya və Kukunorun başçıları iştirak edirdilər. Qurultay iştirakçıları monqol xanlarının ittifaqına sadiq qalacaqlarına dair and içmiş və Monqol-oyrat qanunnaməsini (*Saaciyn-biçiq*) işləyib hazırlamışdılar (1640). Lakin müxtəlif feodal qruplaşmaları arasındakı ziddiyyətlər, həmçinin mancur sülaləsinin fitnələri səbəbindən az sonra bu ittifaq dağılmış, yeni müharibələr və daxili çəkişmələr başlamışdı. Saaciyn-biçiqdə təsbit olunmuş feodal hüquq normaları qurultaydan sonra da xeyli müddət qüvvədə qalmış və sonrakı qanunların əsasını təşkil etmişdir.

**CÚNO** (Juneau) – ABŞ-da şəhər. Alyaska ştatının inz. m. Əh. 32,2 min (2007). Alyaskanın c.-ş.-indədir. Şəhər ərazisinin materik hissəsi Qastino boğazı sahilində, Cuno d.-nın ətəyindədir. C. bələdiyyəsi ərazisinin tərkibinə boğazın qarşı sahilində yerləşən Aleksandr arxipelaqındakı Duqlas a. da daxildir (1970 ildən). Sakit okeanda port (il boyu fəaliyyətdədir), Alyaska dəniz yolunun (Alyaskanın c. və c.-ş. sahillərinin, eləcə də Aleut a-rının ş. hissəsinin portları arasında bərə əlaqəsi sistemi) mühüm portu. Beynəlxalq aeroport. Uaythors ş. (Kanada) ilə d.y. əlaqəsi var.

1880 ildə qızıl yatağı yaxınlığında qızılçıxaranların düşərgəsi kimi salınmışdır (1867 ildə amerikalılar tərəfindən Alyaskanın Rusiyadan alınmasından sonra burada əsası qoyulmuş ilk şəhər), 1881 ildə yatağı kəşf edənlərdən biri olan C. Cunonun (Júnó) adı ilə adlandırılmışdır. 1900 ildən Alyaska ərazisinin, 1959 ildən Alyaska ştatının inz. m.-dir.

Cuno şəhərindən görünüş.



Memarlıq nümunələrindən Müq. Nikolay kilsəsi (1894), ştat kapitolisinin binası (1931) var. Alyaska un-tinin filialı–Cənub-Şərqi Alyaska Un-ti, Alyaska Dövlət Kitabxanası (1900), Alyaska Dövlət Muzeyi, Cuno-Duqlas şəhər muzeyi; "Perseverans" teatrı, 2 opera truppası, o cümlədən Lirik opera fəaliyyət göstərir. Funikulyor (Roberts dağına qalxır).

İşləyənlərin təqr. 45%-i C. ştatının və bələdiyyəsinin, həmçinin müxtəlif federal agentliklərindövlət idarələrində məşğuldur. Təqr. 12%-i şəhər iqtisadiyyatının daha dinamik inkişaf edən sahəsində – turizm sferasında (təqr. 2 min işçi yeri, 2005) çalışır. C. Alyaska sahilləri boyunca kruiz reysləri edən bütün sərnişin dəniz gəmiləri üçün məcburi dayanacaqdır; kruizlər zamanı C.-ya təqr. 1 mln. nəfər (2005) səfər edir, fərdi olaraq isə hər il şəhərə təqr. 150 min nəfər gəlir. C.-nun özəl fəaliyyət göstərən əhalisinin təqr. 3%-i (500 nəfərdən artıq) kommersiya balıqçılığının aparılması üçün lisenziyaya malikdir.

C. yaxınlığında, Admiralti a.-nda tərkibində sink (təqr. 14%), qurğuşun (təqr. 6%) olan polimetal filizlər, həmçinin qızıl və gümüş hasil edilir (Qrin-Krik mədəni ABŞ-da gümüş hasilatçıları arasında ən mühümlərindən biridir, "Kennecott Minerals" və "Hecla Mining" şirkətlərinin müştərək mülkiyyətidir). Kensinqton mədənində qızıl çıxarılır. Şəhərin 18 *km*-liyində ölkənin yeganə buzlağı Mendenholl yerləşir (buzlağa avtomobili lə getmək olur).

**CUNUD** – Azərb. Resp. Şəki r-nunun Baş Layısqı ə.d.-ndə kənd. R-n mərkəzindən 33 *km* şm.-q.-də, Baş Qafqaz silsiləsinin c. ətəyindədir. Əh. 1015 (2009); heyvandarlıq və bitkiçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, məscid var.

**CUOK,** C o k, C u o k - A t a n q, Ç u o k a t a n q – şilluk mifologiyasında baş allah, demiurq. Göyü və yeri, qara və ağ gildən insanları yaratmışdır. Bəzi əsatirlərə görə, C. insanları ağ yaratmış, lakin uzunmüddətli işdən sonra onun əlləri və gil qaralmış, bundan sonra qaradərili insanlar meydana gəlmişdir. C. gah göydə, gah da ölülər dünyasında yaşayır; bütün ruhlar ona tabedir. Yağışı idarə edir. C. yerə canlandırıcı yağış göndərən göy öküzü obrazında təsvir olunur. C. ilk insana sünbül vermiş, bundan da bütün dənli bitkilər törəmişdir. İnsanlar C.-un məmləkətindən odu itin köməyi ilə oğurlamışlar; quyruğuna saman bağlanmış it quyruğunu oda tutmuş, saman alışmış və o, yanan odu insanlara gətirmişdir.

Şilluklarda hakim Nyikanqa qəbiləsinin əfsanəvi əcdadına sitayişin yayılması ilə əlaqədar C. haqqında təsəvvürlər ikinci plana keçmişdir.

**CURASDAN** – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasında (9.9.1930 ildən İcevan r-nu) azərb.-ların yaşadığı kənd. Kənd əvvəllər qışlaq kimi mövcud olmuş, məskunlaşdıqdan sonra kəndə çevrilmişdir. 1930-cu illərdə kollektivləşmə ilə əlaqədar kənd ləğv edilmiş, əhalisi qonşu azərb. kəndlərinə köçürülmüşdür.

Curcu şəhərindən görünüş.



**CURCU** (Giurgiu) – Rumıniyanın c.-unda şəhər. Curcu judetinin inz. m. Əh. 61,4 min (2011). Dunay çayının sol sahilində, Ruse ş.-nin (Bolqarıstan) qarşısında yerləşir. Avtomobil və d.y.-ları qovşağı. Çay portu (Buxarestin avanportu). Dunay çayı üzərində ikiyaruslu körpü (1954; Rumıniya-Bolqarıstan sərhədində yeganə körpü). İri neft terminalı var.

14 əsrdə genuyalılar tərəfindən möhkəmləndirilmiş port kimi salınmış, Genuyanın hamisi müq. Georginin (San Giorgio) şərəfinə adlandırılmışdır. 14 əsrin sonu – 15 əsrin əvvəllərində Valaxiya knyazlığının gömrük, hərbi və inzibati məntəqəsi olmuşdur (1395 və 1403 illərdə qala kimi qeyd edilir). 1417–1829 illərdə Osmanlı dövlətinin hakimiyyəti altında idi. Valaxiya ilə Türkiyə arasındakı müharibələrin gedişində (1659 ildə yandırılmışdı), həmçinin Rusiya-Türkiyə müharibələri zamanı dəfələrlə hərbi əməliyyatlar meydanına çevrilmişdi. 19 əsrin ortalarından müntəzəm dairəvi plan üzrə tikilmişdir. 1861 ildən Rumıniyanın tərkibindədir. Birinci dünya müharibəsi, həmçinin İkinci dünya müharibəsi zamanı (1944 ildə) böyük dağıntılara məruz qalmışdı.

Paleolit dövrünə aid məskənin (təqr. e.ə. 22 əsr) qalıqlarından ibarət "Malu Roşu" ("Qırmızı Sahil") arxeoloji abidəsi C. şəhərindədir. Şəhərdə orta əsrlər Valaxiya qalasının (sonradan Tabiya türk qalası, 14 əsrin sonları – 18 əsr, 1829 ildə dağıdılmışdır) xarabalıqları, Saat qülləsi (18 əsr) var. Kilsələr: Müq. Nikolay (1830), Müq. Georgi (1840), Müq. Troitsa, Uspeniye (hər ikisi 1852), Blaqoveşeniye (1864). Şəhər və port tikililəri ansamblı 19–20 əsrlərə aiddir. Bolqarıstan-Rumıniya Un-tlərarası Avropa mərkəzi (2001), T. Antonesku ad. qəza tarix muzeyi (1934), İstiqlaliyyət muzeyi, İ. Vasilesku teatrı var.

Kimya (plastik kütlə, boyalar, ağardıcılar, yuyucu tozlar), ağac emalı sənayesi müəssisələri fəaliyyət göstərir; gəmi təmiri tərsanələri var; tikinti materialları (o cümlədən dəmir-beton konstruksiyalar) istehsal olunur. Yeyinti (unüyütmə, ətsüd, balıq, yağ-piy, konserv, şəkər sənayesi, spirtli içkilər istehsalı və s.), toxuculuq (pambıq parça məmulatı, xalça və s.), tikiş sənayesi inkişaf etmişdir. İri sənaye parkının yaradıldığı (kompüter quraşdırılması, geyim və aksessuar istehsalı; anbar terminalları və s.) azad sahibkarlıq zonası (1996) var.

İri k.t. r-nu mərkəzidir (dənli bitkilər, şəkər çuğunduru və günəbaxan əkinləri; bostançılıq, bağçılıq, südlük heyvandarlıq).

**CURCU** (Giurgiu) – Rumıniyanın c.-unda judet. Sah. 3,5 min $km^2$. Əh. 265 min (2011). İnz. m. Curcu ş.-dir.

**CURUXEV** – Azərb. Resp. Qusar r-nunun Çətgün k.-ndən c.-ş.-də, Qusar çayının sol sahilindəki təpədə 9–12 əsrlərə aid yaşayış yeri. Qazıntılar zamanı C.-dən gil qab qırıqları, hünd. 1 *m*-ə çatan çaydaşıdan divar qalıqları, daş döşəmələr, təsərrüfat quyuları və s. aşkar olunmuşdur.

**CUŞİN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Dizmar kəndistanında, Vərzəqan qəs.-ndən 26 *km* q.-dədir.

**CUT,** h i n d k ə n d i r i (Corchorus) – cökəkimilər fəsiləsindən yarımkol və ot cinsi. Yarpaqları növbəli, oval-neştərvarı, dişlidir, əsasında əlavə törəmələr olur. Sarı xırda çiçəkləri tək-tək və ya 2–3 ədəd olmaqla yarpaq qoltuqlarında yerləşir, ikicinsiyyətlidir. Meyvəsi xırda toxumları olan kürəşəkilli, yaxud uzunsov qutucuqdur. İstilik, işıq və rütubətsevəndir. Təqr. 40 növü var. Hər iki yarımkürənin tropik və subtropik qurşaqlarında yayılmışdır. C.-un vətəni sayılan Hindistanda birillik, qısameyvəli, yaxud ağ C. (C. capsularis), uzunmeyvəli, yaxud bostan C.-u (C. olitorius) qədimdən lifli bitki kimi becərilir. Gövdəsinin hünd. 2,5–4 *m*, dikduran və azbudaqlıdır, tərkibində 20–25% lif olur (hiqroskopik və tullantısızdır); möhkəm kisə materialı və qaba kətan hazırlanır, pambıq və yun ilə qarışığından geyim istehsalı üçün istifadə edilir. C.-un toxumlarından texniki yağ və əczaçılıq sənayesində istifadə olunan qlükozidlər alınır. C.-un əsas istehsalçıları Hindistan, Banqladeş, Myanmadır. Özbəkistanda müvəffəqiyyətlə becərilir. C. lifinin dünyada məhsuldarlığı orta hesabla 1,8 *t/ha*, ümumi yığımı 4 mln. *t*-dan çoxdur.

Ağ cut (Corchorus capsularis). Çiçəyi və meyvəsi.



**CUVAR** – keçmişdə bir sıra Şərq ölkəsində, o cümlədən Azərb.-da suvarma suyunun ayrı-ayrı təsərrüfatlar arasında bölgüsünə və növbəsinə nəzarət edən şəxs. C.-ları hər il kənd camaatı seçirdi. Onların əmək haqqını razılaşma əsasında ayrıayrı təsərrüfatlar natura ilə ödəyirdilər. C.-lar suyun paylanmasını çox vaxt möhtəkirlik obyektinə çevirirdilər. Bəzən ana arxlara nəzarət üçün *mirab* tərəfindən baş C. (qara C.) da təyin edilirdi. Azərb.-ın ayrı-ayrı zonalarında C. bəndivançı, abiyar, uyar, subölən və s. adlanırdı.

**CUVARLI** (C u v a r l i n s k i) Cavad Nəcəf oğlu (15.2.1886, indiki Füzuli r-nunun Cuvarlı k. – 1963, Bakı) – Azərb. maarifçisi, pedaqoq. Pedaqoji fəaliyyətə 1907 ildə Tiflisdə Aleksandr Müəllimlər İn-tunu bitirdikdən sonra başlamış, 1918 ilədək Yelizavetpolda dərs demiş, 1921 ilə kimi Gəncə və Şamxor qəzaları xalq məktəblərinin inspektoru vəzifəsində çalışmışdır. 1921–29 illərdə Azərb. SSR Xalq Maarifi Komissarlığında işləmiş, 1931–33 illərdə Azərb. Sənət Şurası Kombinatında fəhlə təhsili sistemində, 1938 ildən Azərb. Dövlət Pedaqoji İn-tunda, 1951 ildən Azərb. Politexnik İn-tunda müəllimlik etmiş, 1938 ildən həm də Azərb. Elmi Tədqiqat Pedaqoji Elmlər İn-tunda elmi işçi olmuşdur. C. bir sıra elmi, pedaqoji, metodiki məqalələrin və tədris vəsaitlərinin müəllifi və tərcüməçisidir.

**CUVARLI** Çingiz Mehdi oğlu (1.5. 1913, Gəncə – 13.8.2000, Bakı) – energetika sahəsində Azərb. alimi, texnika e.d. (1951), prof. (1953). Azərb. SSR EA akad. (1962; m. üzvü 1959). SSRİ Dövlət mükafatı laureatı (1985). Azərb. SSR Dövlət mükafatı laureatı (1978), SSRİ-nin fəxri energetiki (1979). Azərb. SSR əməkdar elm xadimi (1982). 1936 ildə Azərb. Sənaye İn-tunu (indiki ADNA) bitirmişdir. Gəncə ş. elektrik şəbəkəsinin baş mühəndisi və direktoru (1942–46), Energetika İn-tunun direktoru (1960–62), yüksəkgərginlikli şəbəkələr laboratoriyasının rəhbəri (1951–77), Azərb. SSR EA-nın fizika-texnika və riyaziyyat elmləri şöbəsinin akad. katibi (1962–68), 1962 ildən Azərb. SSR EA-nın Fizika İn-tunun elektrofizika laboratoriyasının müdiri olmuşdur. Elektrik şəbəkələrindəki mürəkkəb keçid proseslərinin öyrənilməsində rəqəmlə hesablayan elektron maşınlarının tətbiqi üsullarını və güclü energetika sistemləri şəbəkəsində artıqyüklənmə və qısaqapanma cərəyanlarının məhdudlaşdırılması üsullarını işləyib hazırlamış, yüksəkgərginlikli elektrik izolyasiyasında gedən fiziki prosesləri öyrənmiş, elektrik sahəsi və boşalmalarından sənayedə texnoloji proseslərin intensivləşdirilməsi üçün istifadə və s. sahələrdə tədqiqatlar aparmışdır. Azərb. Sovet Ensiklopediyasının Baş redaksiya heyətinin üzvü olmuşdur (1976–87). Yüksəkixtisaslı kadrlar hazırlanmasında xidməti var. SSRİ EA-nın P.N. Yabloçkov ad. mükafatına layiq görülmüşdür (1973).



Ə s ə r l ə r i: Электротермические способы увеличения нефтеотдачи пластов. Б., 1962; Электроизоляционные масла. М., 1962; Математическое моделирование волновых процессов в электрических сетях. Б., 1975; Частичный разряд в газовых включениях высоковольтной изоляции. Б., 1983.

**CUVARLI** – Azərb. Resp. Füzuli r-nunda kənd. Cuvarlı ə.d.-nin (Cuvarlı, Çimən, Xələfşə k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 6 *km* c.-da, dağ ətəyindədir. Əh. 400 (2011); işğaldan (1993, avqust) əvvəl taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana, klub, uşaq bağçası, tibb məntəqəsi var idi.

**CUZĞUN** (Calliqonum) – qırxbuğumkimilər fəsiləsindən bitki cinsi. Çox budaqlanan, yarpağıtökülən kol səciyyəvi zoğ dəstələrindən ibarət zərif çətirli kiçik ağacdır (hünd. təqr. 4 *m*). Yarpaqları xətvarı, demək olar ki, iynəşəkilli, əsasında

Yarpaqsız cuzğun (Calligonum aphyllum).



özünəməxsus yarpaqaltlığı borusu olur. Çiçəkləri xırda, müxtəlifrəngli, ətirli, ikicinsiyyətlidir; qoltuqda tək-tək yerləşmişdir. Meyvələri uzun çıxıntılı, yaxud qılçıqlı xırda fındıqcadır. yeməlidir. Bu çıxıntılar, qılçıqlar onun külək vasitəsilə yayılmasına səbəb olur. Təqr. 80 növü var. Əksəriyyəti Orta və Mərkəzi Asiya səhralarında yayılmışdır. Qumluqda yaxşı bitir (qumbərkidici kimi istifadə edilir), demək olar ki, ucuna qədər qumla örtülsə də qurumur. Azərb.-da Abşeron y-a-nda C.-un bir növü (Callıqonum bakuensis) yayılmışdır.

**CÜBBƏ** – üst geyimi; xalat, arxalıq. Adətən, enli və uzun olur. C.-nin qolları, boynunun arxası, yaxası, bəzən də qabaq ətəyi zərbaf naxışları ilə bəzədilirdi. Hələ orta əsrlərdən Yaxın Şərq, Orta Asiya, Azərb. və s. ölkələrdə geniş yayılmışdı. C., əsasən, rəsmi görüş və mərasimlərdə geyilirdi.

**CÜBEYL** (جبيل) – Livanda, Dağlıq Livan mühafazasında şəhər. Əh. 44,4 min (2008). Aralıq dənizi sahilindədir. D.y. st. C. eramızın 7 əsrində ərəblər tərəfindən qədim *Bibl* ş.-nin yerində salınmışdır.

**CÜBRAN** (جبران) Xəlil Cübran (6.1.1883, Livan, Bşarra k. – 10.4.1931, Nyu-York) – Livan yazıçısı, rəssam. 1895 ildə ailəsi ilə ABŞ-a mühacirət etmiş, Bostonda yaşamışdır. "Mühacir" ərəb qəzetində məqalələri dərc olunmuşdur (1904 ildən). C. 1908 ildə rəssamlıq təhsili almaq üçün Parisə getmiş, 1910 ildə ABŞ-a qayıdaraq ömrünün sonuna qədər Nyu-Yorkda yaşamışdır. Əsərlərini, əsasən, ingilis dilində yazmışdır. 1906 ildə ərəb dilində "Vadinin pəriləri", 1908 ildə "Asi ruhlar" kitablarını çap etdirmişdir. "Tufanlar" (1920) hekayələr kitabında, "Qırıq qanadlar" (1912) povestində qadın hüquqsuzluğunu, mövhumatı tənqid etmişdir. Şeirlərin ("Göz yaşı və təbəssüm" toplusu, 1914), musiqiyə dair əsərlərin, rəsm əsərlərinin müəllifidir. "Peyğəmbər" (1923, ingiliscə) kitabı ilə məşhurlaşmışdır. 1920 ildə ABŞ-da mühacir Suriya və Livan yazıçılarının "əl-Məhcər" ədəbi ittifaqını yaratmışdır. Yaradıcılığı ərəb ədəbiyyatı və boyakarlığının inkişafına güclü təsir göstərmişdir. Bəzi hekayələri Azərb. dilinə tərcümə edilmişdir.

*Əd.*: İmanquliyeva A. Cübran Xəlil Cübran. B., 1975.

**CÜCANLI,** Cücənli – Azərb. Resp. Gədəbəy r-nunun İsalı ə.d.-ndə kənd. R-n mərkəzindən 50 *km* q.-də, Şahdağ silsiləsinin ətəyindədir. Əh. 141 (2011); əkinçilik (kartofçuluq) və heyvandarlıqla məşğuldur. Kitabxana var.

**CÜCƏLİ QUŞLAR** – bax *Maturonat quşlar*.

**CÜCÜK** – Azərb. Resp. Ağdaş r-nunun Qaradağlı ə.d.-ndə kənd. R-n mərkəzindən 4 *km* c.-q.-də, Türyan çayının sağ sahilindən 4 *km* aralı, Şirvan düzündədir. Əh. 327 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, tibb məntəqəsi, poçt var.

**CÜCÜLƏR,** həşərat (İnsecta) – buğumayaqlılar tipindən onurğasız heyvanlar sinfi. Bədəni buğumludur, xarici skelet əmələgətirən möhkəm kutikula ilə örtülüdür; 3 hissəyə–baş, döş və qarıncığa ayrılır. Başında ağız orqanı, sadə, yaxud fasetli gözlər və bir cüt bığcığı olur. Bığcığı – antenaları (sapşəkilli, lələkşəkilli, daraqşəkilli, mişarşəkilli və s.) var. Ağzı sorucu, sancıcı-sorucu, yalayıcı, gəmirici tiplidir. Döşün qarın tərəfinə 3 cüt ayaq birləşir. Ayaqlar, funksiyalarına uyğun olaraq, yeriyici, üzücü, sıçrayıcı, qazıyıcı, tutucu və s. olur. Yetkin C.-də inkişaf etmiş ayaqlar yoxdur. Qanadlı C.-in orta və arxa döşündə damarlı-torlu-pərdəli qanadları var. Qabaq qanadların bir qismi sərt xitindir və qatlanmır. Qarın hissəsi 11 buğumdan ibarətdir. 8–9-uncu buğumlarında cinsiyyət çıxıntıları olur.

Anatomik quruluşu mürəkkəbdir. Həzm sistemi ön, orta, arxa şöbələrdən və tüpürcək vəzilərindən ibarət bağırsaq kanalından təşkil olunub. Qan dövranı sistemi mükəmməl deyil, əsasən, qanı başa doğru hərəkət etdirən və şərti olaraq "ürək" adlanan bel damarından ibarətdir. Tənəffüs orqanları hava boruları olan traxeyalardır. Suda yaşayan C. qəlsəmə ilə tənəffüs edir. İfrazat orqanları malpigi borularıdır. Sinir sistemi başda olan sinir düyünlərindən, udlaqüstü və onunla birləşən udlaqaltı düyünlərdən, və sinir zəncirlərindən ibarətdir. C.-in inkişafı və bir çox həyat fəaliyyəti prosesləri sinir sistemi ilə əlaqədar olan endokrin vəzilərinin ifraz etdiyi hormonlarla tənzim edilir. Bir çox C.-də iyli, zəhərli, mum ifrazedən və s. vəzilər olur. C. ikicinsiyyətlidir; çoxalması müxtəlif üsullarla (məs., homogenez, partenogenez, poliembrioniya, pedogenez) gedir. Ali cücülərin erkəklərində kopulyasiya aparatı var. Görmədən başqa, C.-də toxunma, duyğu, dad, eşitmə və hiqrotermik hisslər də var. Davranış reaksiyaları çox müxtəlif və mürəkkəbdir.

C.-də inkişaf mərhələlər üzrə olub, metamorfozsuz, natamam və tam metamorfozlu gedir. Bir nəslin inkişafı, C.-in növündən, onun diapauza xarakterindən, mövsüm ərzində inkişafetmə şəraitindən və müddətindən asılı olaraq, bir həftədən bir neçə ilə kimi davam edir.

Sistematikası. C.-in 34 dəstəyə mənsub 1 mln.-dan çox, o cümlədən Azərb.-da 13 mindən çox növü məlumdur. Azərb. faunasında C.-in 25 minə yaxın növünün yayıldığı ehtimal olunur. C. 2 yarımsinfə bölünür. 1) ibtidailər (ilkqanadsızlar, yaxud apteriqotlar); 2) ali qanadlılar (yaxud pteriqotlar). İbtidai qanadsız C.-ə bığcıqsızlar, ayaqquyruqlular, haçaquyruqlular və qılquyruqlular dəstəsi mənsubdur. Ali qanadlılar yarımsinfinə qədim qanadlılardan gündəcələr və iynəcələr, yeniqanadlılar qrupundan natamam metamorfozlu C.-dən yüyürüklər, termitlər, dəvədəlləyilər, baharçılar, düzqanadlılar, bərabərqanadlılar, bitlər, tripslər və s. aiddir. Tam metamorfozlu C.-ə yelpikqanadlılar, şırıldacalar, kəpənəklər, birələr, pərdəqanadlılar və s. daxildir. C.-in təbiətdə rolu çox müxtəlifdir; onlar maddələr dövranında iştirak edib ən müxtəlif qida mənbələrindən faydalanır, sanitar vəzifəsi daşıyır, torpağın bərpa olunması prosesini tənzimləyir, bəzi növləri quşların, balıqların, məməlilərin qidasıdır. Çiçəkli bitkilərin tozlanmasında rolu böyükdür. Qiymətli qida və texniki məhsullar verirlər (bal, ipək, rəng). Bəziləri zərərvericiləri və alaqları məhv etdiyindən faydalıdır. C. arasında çoxlu bitki və heyvan zərərvericiləri də var. Qansoran C.-in bəziləri insan və heyvanlar üçün təhlükəli olan xəstəliklərin keçiriciləridir.

Ayaqquyruqluların tək-tək qalıqları Orta Devonda aşkar edilmişdir. Karbon dövrünün ortalarından C.-in sayı artmağa başlamış, sonra isə nəslikəsilmiş bir sıra dəstələr (paleodiktiopterlər, nəhəng iynəcələr, yüyürüklər və s.) meydana çıxmışdır. Permdə ilk böcəklər, əqrəblər və s., Triasda ilk pərdəqanadlılar meydana gəlmişdir. Yura dövrünün C.-i yalnız Avrasiyadan məlumdur. Erkən Tabaşir dövründən başlayaraq çoxlu yeni fəsilələr aşkara çıxdı. C.-in qazıntı qalıqları keçmişin geol. çöküntülərinin yaşını, iqlim və biogeosenozları müəyyənləşdirməyə kömək edir. C.-in 500-ədək yeni növü tapılmış və geniş kolleksiyası toplanmışdır.

*Əd.*: Azərbaycanda kənd təsərrüfatı bitkilərinin ziyanvericiləri və xəstəlikləri (N.H.Səmədov, H.R. İbrahimov və B.B. Xəlilovun redaktorluğu ilə). B., 1965; Bey-Bienko Г.Я. Общая энтомология. M., 1980.



**Cücülər:** *1* – macar karabid böcəyi (Carabus hungaricus); *2* – haşiyəli üzər (Dytiscus marginalis); *3* – maral böcək (Lucanus cervus); *4* – qarğıdalı peyin böcəyi (Pentodon idiota); *5* – xaçlı şıqqıldaq (Selatosomus cruciatus); *6* – uzunbığ boz odunkəsən (Acanthocinus aedilis); *7* – əqrəb milçək (Panorpa communis); *8* adi qarışqa aslanı (Myrmeleon formicarius); *9* – at qansoranı (Hippobosca equina); *10* – malyariya ağcaqanadı (Anopheles stephensi); *11* – adi maxaon (Papilio machaon); *12* – qarışqa-ağacovan (Camponotus aethiops); *13* – bal arısı (honeybee); *14* – zorka (Anthocharis cardamines); *15* – eşşəkarısı quququşu (Bombus-vestalis).

**CÜDA** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Əngut kəndistanında, Germi qəs.-ndən 25 *km* şm.-dadır.

**CÜDO** (yaponca. cü – yumşaqlıq, do – yol) – güləşçilərin müxtəlif fəndlərlə (badalaq, çarpaz fəndatma və s.) bir-birini xalça üzərinə yıxmaq cəhdinə əsaslanan yapon milli güləşi. Güləş vaxtı parter vəziyyətində olan rəqibi 25 *san.* kürəyi üstə xalçaya sıxıb saxlamaq, yaxud ağrılı və boğucu fəndlərlə ona məğlubiyyəti qəbul etdirmək lazımdır. Güləşçinin rəqibi üzərində qələbəsi ən yüksək xalla – "ippon" la (təmiz qələbə) qiymətləndirilir; "vazaari" (yarımqələbə), "yuko" və "koko" xalları ilə də qiymətləndirmə olur. İdmançılar kimono (belə dolanan 3 *m*-lik sərbəst kəmərlə birlikdə) və sərbəst biçimli şalvardan ibarət xüsusi geyim formasında – cüdogidə ayaqyalın mübarizə aparırlar. Kəmərin rəngi idmançının dərəcəsini bildirir: məs., ağ kəmər – yeni məşğul olanlar üçün (6-cı kyüdən) və qara kəmər – usta səviyyəsinə çatanlar (məs., 1-ci dan, ən yüksək – 10-cu dandır) üçün. Döyüşlər "tatami" ( preslənmiş samandan hazırlanmış həsir) üzərində 5 *dəq.* (kişilər) və 4 *dəq.* (qadınlar) olmaqla fasiləsiz keçirilir.

C. güləşi *ciu-citsu* idman növünün əsasında prof. D. *Kano* (1860 – 1938) tərəfindən yaradılmışdır. O, 1882 ildə Tokioda özünün açdığı Kodokan (Yolu dərketmə məktəbi) məktəbində C.-nu tədris etmişdir; 4 ildən sonra artıq burada 50 cüdoçu məşğul olurdu. 1890 ildə Kano sistemi məktəblərin tədris proqramına daxil edilmişdi. "Çevikliklə qələbə qazan" prinsipinə əsaslanan D. Kano yarışlar zamanı müxtəlif fəndatma üsullarının tətbiqini işləyib hazırlamışdır. Onun tədris üsulu iki aspekt üzərində qurulmuşdur: "geri çəkilmək" və "müqavimət göstərmək". D. Kano hesab edirdi ki, onun yaratdığı döyüş növü üç prinsipə – mülayimlik, gücdən səmərəli istifadə, qarşılıqlı kömək və dəstəyə əsaslanır. İdman C.-sunun əsasını randori (sparrinq) təşkil etmişdir.

19 əsrin sonu – 20 əsrin əvvəllərindən C. Avropa, Asiya və Amerika ölkələrinə yayılmışdır; güləşin bu növü ən çox ABŞ, Fransa, Niderland, AFR, KXDR və b. ölkələrdə inkişaf etmişdir. 1951 ildə yaradılmış Beynəlxalq Cüdo Federasiyasının (ICF) ilk prezidenti D. Kanonun oglu R. Kano olmuşdur. C. üzrə dünya çempionatları 1956 ildən (kişilər arasında) və 1980 ildən (qadınlar arasında) keçirilir. Olimpiya Oyunlarının proqramına 1964 ildən (1968 il istisna edilməklə, kişilər) və 1992 ildən (qadınlar) daxildir. Rəsmi yarışlarda kişilər 8 proqram növü üzrə (7 çəki – 60, 66, 73, 81, 90, 100, 100 *kq* artıq və bir mütləq çəki dərəcəsi), həmçinin qadınlar 8 proqram növündə (7 çəki– 48,52,57,63,70,78,78 *kq* artıq və bir mütləq çəki dərəcəsi) yarışırlar. Dəfələrlə dünya və Olimpiya Oyunları çempionları A. Gesink, V. Ryüska (hər ikisi Niderland), V. Legen (Polşa), P. Zayzenbaxer (Avstriya), D. Duye (Fransa), X. Sayto, T. Nomura, Y. Yamasita (hamısı Yaponiya); qadınlardan – İ. Berqmans (Belçika) və R. Tamura (Yaponiya) dünyanın ən güclü cüdoçularındandırlar. (Bax həmçinin *Azərbaycan Cüdo Federasiyası*).

**CÜLLÜTKİMİLƏR** (Charadriiformes) – quşlar dəstəsi; xırda və ortaboylu quşlardır. C.-in ayağı uzundur, yaxşı qaçır və üzürlər. Əksəriyyətinin qanadları uzun və ensiz, bəzilərininki enli olur. Quyruğu qısadır. Sükan lələkləri çoxunda 12, bekaslarda 26 ədəddir. Dimdiyi ovu tutmaqla əlaqədar müxtəlif formada (qısa, uzun, düz, əyri və s.) olur. 11 fəsiləsi, 300-dən çox növü var. Geniş yayılmışlar. Dəniz, göl və çay sahilində, bəziləri quraq çöl və səhralarda, digərləri meşələrdə yaşayır. Azərb.-da 63 növü var. Yerdə və qaya üzərində yuvalayır. Çoxu monoqamdır. 1–5, yumurta qoyur. C. suda və quruda yaşayan onurğasızlarla qidalanırlar. C.-in bəzi növləri ov obyektidir.



Sağsağanı alacüllüt (Haemantopus ostralegus).

**CÜLYAN** – Azərb. Resp. İsmayıllı r-nunda kənd. Cülyan ə.d.-nin mərkəzi. R-n mərkəzindən 3 *km* şm.-da, Bakı–Qəbələ avtomobil yolu üstündə, Niyaldağ silsiləsinin c. yamacındadır. Əh. 1394 (2011); heyvandarlıq, əkinçilik və tərəvəzçiliklə məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**CÜLYAN** – Azərb. Resp. İsmayıllı r-nunun Müdri ə.d.-ndə kənd. R-n mərkəzindən 47 *km* şm.-ş.-də, Girdiman çayının sahilində, Niyaldağ silsiləsinin yamacındadır. Əh. 119 (2011); heyvandarlıq, arıçılıq və meyvəçiliklə məşğuldur. Ümumi orta məktəb, feldşer-mama məntəqəsi var.

**CÜMƏ** (ər. الجمعة ) – 1) hicri təqvimdə həftənin son günü, müsəlmanlarda istirahət və bayram günü. Quranın 62-ci surəsi C. adlanır. İslam rəvayətlərinə görə, bir sıra mühüm tarixi hadisələr (*Adəmin* yaradılması, *cənnətdən* çıxarılması, *İbrahimə* qurbanlıq qoçunun göndərilməsi, *Məhəmməd* peyğəmbərin dünyaya gəlməsi və s.) C. günü baş vermişdir. C. "günlərin ən üstünü", "günlərin rəhbəri", "Allahın günü" də adlandırılmışdır. C. *iudaizmin* şənbəsi kimi mütləq istirahət günü deyildir. C. ilk dövrlərdən dini əhəmiyyəti ilə yanaşı mühüm ictimai, siyasi, iqtisadi əhəmiyyət kəsb etmişdir. Bəzi ölkələrdə "C." anlayışı ilə bağlı müxtəlif inanclar (bəxtin açılması, arzuların reallaşması və s.) meydana gəlmişdir. Sufilər hər C. xüsusi şeir, rəqs və zikr məclisləri təşkil edirdilər; 2) C. günündə xüsusi ayinlərlə icra olunan namazın adı. C. günü böyük məscidlərdə iki *xütbə* ilə müşayiət olunan iki *rükət* namaz qılınır. Keçmişdə (qismən indiki dövrdə də) bu xütbələrdən xalqın həftə boyu baş vermiş mühüm siyasi, ictimai hadisələrlə məlumatlandırılması və yeni təyinatların elan edilməsi üçün istifadə olunur, namazdan sonra xəlifənin, şəhər valisinin, yaxud başqa vəzifəli şəxsin əhali ilə görüşü təşkil edilirdi.

**CÜMƏLİ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Qışlaqat Əfşar kəndistanında, Qiydar qəs.-ndən 41 *km* q.-dədir.

**CÜMƏLİYEV** Xajim (Kajiqali) (28.12. 1907, Uralsk vil., Karatobe r-nunun Akkozı k. – 23.12.1968, Alma-Ata) – qazax şairi, ədəbiyyatşünas. Qazax. SSR EA h. üzvü (1967). SSRİ Dövlət mükafatı laureatı (1948). Qazax Pedaqoji İn-tunu bitirmiş, həmin in-tda qazax ədəbiyyatı kafedrasının müdiri işləmişdir (1937–68). "Yerxoja və Yegizbay" (1928), "Qanlı aşırım" (1934) poemaları qazax ailində sinfi mübarizəyə həsr olunmuşdur. "Birjan və Sara" operasının librettosunu C. yazmışdır (1941). "Təkbətək döyüş" (1947, A. Sarsenbayevlə birgə) dramının müəllifidir. Qazax ədəbiyyatına dair tədqiqatları var.

Ə s ə r l ə r i: Избранное. Поэмы. А.-А., 1958; Избр. А.-А., 1963 (на казах. яз.).

**"CÜMHURİYYƏT"** – Türkiyədə 1924 ildən nəşr olunan gündəlik siyasi qəzet. Təsisçisi və baş redaktoru Y. N. *Abalıoğlu* olmuşdur. Qəzetin adını Mustafa Kamal *Atatürk* vermişdir. *Ziya Gökalp*, *Xalid Ziya*, *Fuad Köprülü*, Əhməd Rəfiq və b. "C."-in nəşrində yaxından iştirak etmişlər. 1925–52 illərdə qəzet "Le Republique" adı ilə fr. dilində də buraxılmışdır. Nəşrə 7 min tirajla başlayan qəzetin tirajı 1960-cı illərdə 100 mindən çox olmuşdur. Qəzet şeir, roman, hekayə, məqalə və s. janrlar üzrə Yunis Nadi mükafatını (1946) təsis etmişdir.

**CÜMLƏ** – bir və ya bir neçə sözdən ibarət, bitkin fikir ifadə edən nitq vahidi. Azərb. dilində intonasiyaya görə 3 növü (nəqli, nida və sual C.-si) var. C. quruluşca sadə və mürəkkəb olur. Sadə C.-lər baş üzvlərin (*mübtəda* və *xəbər*) iştirakına görə təktərkibli (adlıq, şəxsiz C.-lər) və cüttərkibli (müxtəsər C.-lər) olur. Bəzi sadə C.-lər həm təktərkibli, həm də cüttərkibli (yarımçıq, sadə, geniş C.-lər) ola bilər. Mürəkkəb C.-lər məna və formaca bağlı sadə C.-lərin birləşməsindən əmələ gəlir. Mürəkkəb C.-lərin də iki növü vardır: tabeli (biri o birindən sintaktik cəhətdən asılı olan) və tabesiz (tərkib hissələri sintaktik cəhətdən bərabərhüquqlu) C.-lər. Tabeli mürəkkəb C.-lərin tabeedici hissəsinə *baş C.*, tabe hissəsinə *budaq C.* deyilir. C.-də sözlər arasında sintaktik əlaqələr *idarə*, *uzlaşma* və *yanaşma* vasitəsi ilə yaradılır.

*Əd.:* Müasir Azərbaycan dili. 3 cilddə. C. 3, B., 1981.

**CÜMŞÜDLÜ** – Azərb. Resp. Göygöl r-nunun Balçılı ə.d.-ndə kənd. R-n mərkəzindən 18 *km* şm.-q.-də, Qoşqar çayının sol sahilində, Bakı–Qazax avtomobil yolunun kənarındadır. Əh. 1694 (2011); əkinçilik, quşçuluq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, xəstəxana var.

**CÜMŞÜDOV** Sabir Qənbər oğlu (d.5.5. 1936, Astara r-nu) – nəql. və rabitə iqtisadiyyatı sahəsində Azərb. alimi, iqtisad e.d. (1971), prof. (2010). Azərb. Politexnik İn-tunu bitirmişdir (1958). Resp. Avtomobil Nəql. Nazirliyinin avtotəsərrüfatlarında baş mühəndis (1958–62), Azərb. Politexnik İn-tunda (indiki AzTU) müəllim və baş müəllim (1965–67), dosent (1968 ildən) kimi fəaliyyət göstərmiş, 1980 ildən kafedra müdiri vəzifəsində çalışır. 350-dən çox elmi əsərin, 2 monoqrafiyanın müəllifidir.

Ə s ə r l ə r i: Avtonəqliyyat müəssisələri və nəqliyyat qovşaqları işinin təkmilləşdirilməsi problemləri. B., 1995; Neft-qaz sənayesi məhsullarının nəqliyyatda istifadəsinin ekoloji və iqtisadi səmərəliliyi. B., 2009.

**CÜNABADİ** Mirzəbəy ibn Həsən əl-Hüseyni – Səfəvi tarixçisi. Bax *Qunabadi* Mirzəbəy ibn Həsən əl-Hüseyni.

**CÜNEYD** ( الجنيد ) Əbül-Qasım bin Məhəmməd əl-Qəvariri (təqr. 820, Bağdad – 910, orada) – sufi-alim. "Tavus ül-üləma", "sultan ül-mühəqqiqin" və "seyyid ət-taifə" ləqəbləri ilə məşhur olmuşdur. Əbu Saur İbrahim əl-Bağdadidən (ö. 854) *fiqhi* öyrənmişdir. Sufizmdə C.-in ustadları dayısı Səri əs-Səqəti (ö. 867), Bağdad təsəvvüf məktəbinin yaradıcısı əl-Haris əl-Mühasibi (ö. 857) olmuşlar.

O, *sufizmdə* "səkr" (Allaha sevgidən məstlik) təliminə qarşı "səhv" (tam özünənəzarət) rasionalist təliminin yaradıcısıdır. *Bistaminin* Allaha qovuşmaq haqqında təlimini (fəna) qəbul edərək, onun əsasında "ayıqlıq təlimi"ni yaratmış və fənanı məqsəd deyil, Allaha qovuşmaq yolunda aralıq mərhələ kimi nəzərdən keçirmişdir.

C.-in bir əsəri – qismən Quranın ayrı-ayrı ayələrinə şərhlər formasında olan sufi məzmunlu məktubları (risalə) 1962 ildə Londonda, ingiliscə tərcüməsi ilə birlikdə çap olunmuşdur. Bir sıra irfani müddəaları ortodoks islamla uzlaşdıran C.-in təlimi sufi mistikləri arasında geniş yayılmışdı. Müsəlman əxlaqının ortodoksal əsaslarının qorunması ona dözümlü münasibət bəslədiyindən C.-in adı sonrakı dövrlərin bir çox təriqətinin ruhani genealogiyasına (silsilə) salınmışdır. Bu isə üləmaların və hakimiyyət dairələrinin nəzərində həmin təriqətlərin mömin və mötədil olmasına zəmanət idi.

**CÜNG** – Azərb. əlyazma kitabı növlərindən biri. Adətən, ədəbiyyat həvəskarları və xanəndələr tərəfindən tərtib edilən C.-lərə seçmə şeirlər, yaxud ayrı-ayrı beytlər salınırdı. Bir çox əsərin yeganə mətninin, yaxud variantının qorunub saxlanmasında, ədəbiyyat tarixinin yazılmasında C.-lərin əhəmiyyəti böyükdür. C.-lər bir neçə növə bölünür: müəyyən janrda yazılmış əsərləri (qəzəl, qəsidə, rübai və s.) əhatə edən C.-lər; C.-ü tərtib edənin bəyənib seçdiyi müxtəlif janrda əsərləri əhatə edən C.-lər; müəyyən prinsip gözlənilmədən yazılan bayaza oxşar C.-lər. Belə C.-lərə şeirlərlə yanaşı lətifələr, dərman nüsxələri, xatirələr, məddeyi-tarixlər və s. yazılar da daxil edilirdi. Yazılma tarixi, yeri və tərtibçisi göstərilən C.-lərin böyük elmi əhəmiyyəti var. Azərb. MEA M. Füzuli ad. Əlyazmalar İn-tunda Azərb., fars və ərəb dillərində çoxlu C. saxlanılır.

**CÜNUNİ ƏRDƏBİLİ** (? – ?) – Azərb. şairi. 17 əsrin sonu – 18 əsrin əvvəllərində yaşayıb yaratmışdır. Həyatı haqqında məlumat azdır. Mənbələrdə 1695 ildə Ərdəbildə yaşadığı göstərilir. Azərb. və fars dillərində yazmışdır. Qəzəl, qəsidə, rübai və tərcibənddən ibarət 3254 beytlik divanının 156 səhifəlik yeganə əlyazması Təbrizdə saxlanılır. "Cəngnamə" əsəri Azərb. dilindədir. Əsərləri çap olunmamışdır.

**CÜRCAN** – *Gürgan* vil.-nin ərəbcə adı.

**CÜRCANİ** (الجرجاني) Əbdülqahir (Əbu Bəkr Əbdülqahir ibn Əbdürrəhman əl-Cürcani) (?, İran, Cürcan – 1078/79, orada) – ərəb dilçisi, ədəbiyyatşünas. Həyatı haqqında məlumat azdır. *Xətib Təbrizinin* müəllimi olmuşdur. Əsərlərini ərəbcə yazmışdır. İlk dəfə ideya ilə nitqin strukturu arasındakı əlaqəyə dair ona qədər dağınıq şəkildə mövcud olmuş fikirləri ümumiləşdirərək nəzəri cəhətdən əsaslandırmış və bununla da stilistikanın ayrıca fənn kimi formalaşmasına təkan vermişdir. "Dəlail əl-icaz" əsərində Quranın nəzmi (Quranın söz, məna və quruluş cəhətdən bir tam olması) haqqında bilikləri ilk dəfə toplayıb, nəzəriyyə şəklinə salmışdır. "Əsrar əl-bəlağə", "Risalət əş-şafiyyə", "Əl-umdə fit-təfsir", "Əl-Müğni" (Əbu Əli Farisinin "Əl-İzah" əsərinin şərhi), "Əl-Miftah", "Əl-Cüməl", "Əl-Əvamil əl-miə", "Kitab fil-əruz", "Şərh əl-Fatihə", "Ət-Tətimmə fin-nəhv" və s. əsərləri var. Ərəb dilində şeirlər də yazmışdır. Şeirlərində zəmanədən şikayət motivləri üstünlük təşkil edir. Səlcuqi vəziri Nizam ül-mülkə mədhiyyəsi var. Fəxrəddin Razi, Səkkaki, Sədəddin Təftəzani və b.-nın əsərlərində C.-nin güclü təsiri hiss olunur.

**CÜRCANİ**, ə l - C ü r c a n i (الجرجاني) Əbülhəsən Əli (təqr. 928 – 1001, yaxud 1002, Rey) – ərəb ədəbiyyatşünası, şair. İranın fəthindən sonra Cürcana köçən ərəbəsilli ailədə doğulmuşdur. Nişapur, İran, İraq və Suriyada mühüm elmi biliklər əldə etmişdir. Cürcanda qazi, Reydə baş qazi olmuşdur. "Əl-visatə beynə əl-Mütənəbbi və xüsumihi" ("Mütənəbbi və onun əleyhdarları arasında vasitəçilik") adlı məşhur əsərində Mütənəbbinin yaradıcılığını başqa şairlərin yaradıcılığı ilə müqayisəli şəkildə təhlil etmişdir. Əsər 1913 ildə çap edilmişdir. C.-nin tarixi-müqayisəli araşdırma metodunu inkişaf etdirən Xətib Təbrizi sistem halına salmışdır. Fiqhə dair "Kitab fi'l-vəkalə", Məhəmməd Peyğəmbərin həyatından, mühüm tarixi hadisələrdən bəhs

edən "Təhzibüt-tarix" əsərlərinin müəllifidir. Divanı dövrümüzədək gəlib çatmamışdır.

Əsəri: Ebü'l Hasan el-Cürcānī. El-Vesāta beyne'l-Mütenebbî ve husûmih (nşr. Ahmed Ârif ez-Zeyn). Sayda 1331/1913.

**CÜRCANİ** (ər. الجرجاني) Seyid Şərif Əli ibn Məhəmməd (1339, Cürcan – 1413, Şiraz) – İran təbiətşünası, filosof, ilahiyyətçi alim. Dini biliklərə Misirdə yiyələndikdən sonra Şirazda yaşamışdır. C. "Ət-Tərifat" ("Təriflər", İstanbul, 1900), "Təqsim əl-ülum" ("Elmlərin bölgüsü"), "Məratib əl-maucudat" ("Mövcudatın mərtəbələri") adlı traktatlar yazmış, N. Tusinin, Əzüdəddin İcinin, Sədəddin Təftəzaninin və b.-nın məntiqə, fəlsəfəyə, kəlama dair traktatlarını şərh etmişdir.

**CÜRCİ ZEYDAN,** Corci Zeydan (جورجي زيدان) (14.12.1861, Beyrut–21.8.1914, Qahirə) – ərəb yazıçısı, publisist, alim (Misir). Əsli Livandandır. Beyrutda tibb kollecində oxumuşdur (1881 – 82). İngilis, fransız, alman, yəhudi və Suriya dillərini bilmişdir. 1884 ildə "Əz-zaman" qəzeti ilə əməkdaşlıq etmiş, həmin ildən tərcüməçi kimi ingilis hərbi qüvvələrinin tərkibində Sudana göndərilmişdir. 1885 ildə Beyruta qayıtmışdır. 1880-ci illərdə Misirə mühacirət etmişdir. 1892 ildən ərəb Şərqində məşhur olan "Əl-Hilal" ("Aypara") qəzetinin nəşrinə başlamışdır. 1886 ildə İngiltərə, Fransa və İsveçrədə səyahətdə olmuşdur. Yeni ərəb ədəbiyyatında tarixi roman janrının (17 roman) banisidir; çoxunun mövzusu 7 – 13 əsrlər ərəb tarixindən götürülmüşdür ("Əzrayi-Qüreyş", "On yeddi ramazan", "Misirli gəlin", "Kərbəla yanğısı" və s.). "Məmlüklərin azğınlığı", "Qaçqın məmlük" romanları 18–19 əsrlər Misir tarixindən, "Əsir əl-Mehdi" romanı 19 əsrin sonunda Sudanda ingilis qoşunları əleyhinə üsyandan bəhs edir. "Osmanlı inqilabı", "Məhəbbət savaşı" romanları müasir mövzudadır. Əsərləri bir sıra dillərə, o cümlədən Azərb. dilinə tərcümə edilmişdir. "İslam mədəniyyəti tarixi" (1902–06), "Ərəb dili tarixi" (1904), "Ərəb ədəbiyyatı tarixi" (1911–14) və s. elmi əsərləri var.

*Əd.:* Крачковский И. Ю. Избр. соч., т.3. М.-Л., 1956; Араслы Э. Джирджи Зейдан и арабский исторический роман. М., 1967.

**CÜRƏ SAZ** – kiçik saz. Orta əsrlərdə "coğor", "coğur", "cuxur" da adlanmışdır. Əvvəllər 4–5 simi, 6–7 pərdəsi olmuşdur; hazırda C.s.-ın 17–18 pərdəsi var. Səsi nisbətən zildir. C.s.-dan, adətən, qadın aşıqlar istifadə edirlər. Azərb. xalq



Cürə saz.

calğı alətləri ork. və ansambllarının tərkibinə daxildir.

**CÜRƏXAN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin Qarapişili kəndistanında, Zəncan ş.-ndən 46 *km* ş.-dədir.

**CÜT** – Azərb.-da ən qədim şum aləti kompleksi. Xış və cüt sözləri eyni bir alətə verilən sinonim adlardır. Hind-Avropa mənşəli "cüft" sözünün dəyişilmiş forması olan C. iki deməkdir. Azərb.-da sadə xışa adətən iki baş (bir cüt) öküz qoşulduğuna görə o, C. də adlandırılmışdır.

**CÜT ƏDƏD** – 2-yə qalıqsız bölünən tam ədəd. Hər hansı C.ə.-i $2m$ şəklində göstərmək olar ($m$ – tam ədəddir).

**CÜT ƏKİNÇİLİYİ** – xış (cüt) şum alətinin meydana gəlməsi ilə bağlı olan əkinçilik formalarından biri. *Toxa əkinçiliyini* əvəz etmişdir. Azərb.-da Tunc dövrünün ortalarından mövcuddur. Əkinçilik tarixində toxa əkinçiliyinə nisbətən irəliyə doğru mühüm addım olmuşdur. C.ə. əsrlər boyu Azərb. xalqının təsərrüfatında mühüm rol oynamış, kotanın meydana çıxdığı dövrdə də dağ və dağətəyi torpaqların əkilib becərilməsində istifadə edilmişdir.

**CÜT FUNKSİYA** – təyin oblastından olan hər bir $x$ üçün $f(-x)=f(x)$ şərtini ödəyən $f(x)$ funksiyası. C.f.-nın təyin oblastı $x=0$ nöqtəsinə nəzərən simmetrikdir. Məs., $x^2$, $\cos x$, $\ln|x|$ – C.f.-lardır. C.f.-nın qrafiki ordinat oxuna nəzərən simmetrikdir. C.f.-nın cəmi, fərqi, hasili, qisməti də C.f.-dır.

**CÜT QÜVVƏLƏR** – bərk cismə təsir edən, mütləq qiymətcə bərabər olan və əks tərəflərə paralel yönələn (yəni $\boldsymbol{P'}=-\boldsymbol{P}$) iki $\boldsymbol{P}$ və $\boldsymbol{P'}$ qüvvələr sistemi. C.q.-in əvəzləyicisi yoxdur, yəni onu bir qüvvə ilə əvəz etmək (deməli, həm də tarazlaşdırmaq) olmaz.

C.q.-in təsir xətləri arasındakı $l$ məsafəsi onun qolu adlanır. Bu qüvvələrin bərk cismə təsiri $\boldsymbol{M}$ vektor momenti ilə xarakterizə olunur. Mütləq qiymətcə $Pl$-ə bərabər olan $\boldsymbol{M}$ vektor momenti hərəkət müstəvisinə perpendikulyar olub elə tərəfə yönəlir ki, C.q.-in əmələ gətirdiyi dönmə, oradan saat əqrəbi hərəkətinin əks istiqamətində görünür (sağ koordinat sistemində). C.q.-in əsas xüsusiyyəti ondan ibarətdir ki, $\boldsymbol{M}$ momentini sabit saxladıqda bu qüvvələri müstəvinin istənilən yerinə və ya bu müstəviyə paralel müstəviyə köçürdükdə, həmçinin C.q. mütləq qiymətini və qolunun uzunluğunu dəyişdikdə onun verilən cismə olan təsiri dəyişmir. Beləliklə, C.q. momentini cismin istənilən nöqtəsinə tətbiq etmək olar. Eyni bir cismə tətbiq edilən eyni $\boldsymbol{M}$ momentinə malik iki C.q. bir-birinə mexaniki ekvivalentdir. Verilən bərk cismə tətbiq




edilən istənilən C.q. sistemi momenti bu C.q. sisteminin momentlərinin – vektorlarının həndəsi cəminə bərabər olan bir cüt qüvvəyə mexaniki ekvivalentdir. Əgər hər hansı C.q. sistemi momentlərinin – vektorlarının həndəsi cəmi sıfra bərabərdirsə, onda bu C.q. sistemi tarazlıqda olur.

**CÜT QÜVVƏLƏR MOMENTİ** – bax *Cüt qüvvələr*.

**CÜTBAŞI,** cüftbaşı, cütpulu – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, o cümlədən Azərb.-da vergi. Mövsüm ərzində bir cüt öküzlə şumlanmış əkin sahəsinin məhsuluna görə alınırdı. Natura, bəzən də pulla toplanılırdı. II Şah Abbasın [1642–66] 1656 il fərmanına görə *soyurqal* torpaqlarından C. alınmırdı.

**CÜTCÜ** – Azərb. Resp. Xocavənd r-nunun Sos ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* c.-q.-də, dağ ətəyindədir. Əh. 61 (2011); işgaldan (1992, oktyabr) əvvəl üzümçülük və meyvəçiliklə məşğul olurdu. Əsas məktəb, klub, kitabxana var idi.

**CÜTDIRNAQLILAR** (Artiodactyla) – məməli heyvan dəstəsi. Otyeyəndirlər. Xarakterik xüsusiyyətləri ətrafların əsas oxunun 3-cü və 4-cü barmaqların arasından keçməsidir. Ətraflarında 3-cü və 4-cü barmaqlar qalmışdır (bir cüt – adı da buradandır). 2-ci və 5-ci barmaqlar çox zəifdir və ya itmişdir. Alt çənədə olan köpək dişlər çox vaxt kəsici dişlərə oxşayır. Kəsici və köpək dişlər üst çənədə zəif inkişaf etmişdir, bəzi növlərdə isə yoxdur. Körpücük sümüyü olmur. Mədə ya sadə, ya da mürəkkəb – çoxkameralıdır. 2 yarımdəstəsi var: gövşəməyənlər (Nonruminantia), gövşəyənlər (Ruminantia). Azərb.-da C.-ın 8 növü (çöldonuzu, dağkeçisi, Dağıstan turu, vəhşi qoyun–muflon, ceyran, cüyür, köpgər və Qafqaz maralı) yaşayır.

**CÜTLƏŞDİRMƏ,** k. t. heyvanlarının cütləşdirilməsi – dişi heyvanların törədicilərlə təbii mayalanma üsulu. Dişi heyvan həvəs dövründə cütləşdirilir. Heyvanlar ilk dəfə C.-yə yetkinliyə çatdıqdan sonra (ayğır və madyanlar 3 yaşında, qoç və qoyunlar 15–18 aylığında, erkək və dişi donuzlar 9–10 aylığında) buraxılır. Tezyetişən cinslər gecyetişənlərə nisbətən tez cütləşirdirilir. C. iki üsulla aparılır: sərbəst C. (otlaqlarda və ya örüşlərdə erkəklər dişilərlə birgə saxlandıqda) və ayrılıqda C. (ayrılıqda saxlanılan erkək təhkim olunmuş dişilərlə cütləşdirilir); bu üsul daha əlverişlidir. Müxtəlifcinsli heyvanları cütləşdirməkdən alınan cinslər daha da mükəmməlləşir. Heyvandarlıqda və quşçuluqda nəslin artırılması, yeni əlamətlərə malik fərdlərin yaradılması, damazlıq erkək və dişilərin seçilməsi və s. C. yolu ilə aparılır. Bəzəkli dərisi olan heyvanların və bəzəkli lələkləri olan quşların yaradılması istiqamətində də C. aparılır. Lakin heyvandarlıqda daha mütərəqqi üsul sayılan *süni mayalanmadan* daha çox istifadə edilir.

**CÜTLƏŞMƏ** (lat. copulatio – birləşmə) – 1) cütləşmə; kopulyasiya orqanları olan heyvanlarda cinsi əlaqə (məs., hatteriya, soxulcanlar), həmçinin cinsi çoxalma zamanı kopulyasiya orqanları olmayan iki fərdin birləşməsi. 2) Xarici görünüşcə demək olar ki, az fərqlənən və ya heç fərqlənməyən cinsiyyət hüceyrələrinin (qametlər), yaxud fərdlərin (ibtidailərdə) birləşməsi prosesi (bax *İzoqamiya*). Əgər erkək qamet dişi qametdən kəskin fərqlənirsə, onların birləşmə prosesi *mayalanma* adlanır.

**CÜTLƏŞMƏ XƏSTƏLİYİ** – təkdırnaqlıların invazion xəstəliyi. Törədicisi Trypanosoma equiperdum ibtidaisidir. Xəstəliyi xəstə heyvanlar yayır. Yoluxma, əsasən cütləşmə zamanı baş verir. Əlamətləri: cinsiyyət orqanlarının şişməsi, dərinin, sinir sisteminin zədələnməsi; xroniki xəstə heyvanlarda dodağın, qulağın parezi və iflici, arıqlama, anemiya. Müalicəsi: naqanın, novarsenol, surmin və antrisidin tətbiqi. Profilaktikası: cütləşmə kampaniyasından əvvəl bütün ayğır və madyanlar kliniki və seroloji cəhətdən müayinə edilir. Xəstə və seroloji reaksiyası müsbət olan heyvanlar ya təcrid olunub müalicə edilir, ya da öldürülür.

**CÜTLƏŞMƏ ORQANLARI** (kopulyasiya orqanları) – heyvanlarda erkəyin spermanı dişinin bədəninə daxil edən, dişinin isə onu qəbul edən orqanları. Erkəklərin C.o. həm də (çox vaxt) spermanı qısa, yaxud uzun müddət həyat qabiliyyətli vəziyyətində saxlamaq üçündür. C.o.-na yalnız daxilən mayalanan heyvanlar: bir çox qurdlar, molyusklar, buğumayaqlılar, bəzi balıqlar, suda-quruda yaşayanlar, ayaqsız sürünənlər (qatteriyalardan başqa), bəzi quşlar və bütün məməlilər malikdir. Cinsiyyət axarlarının uc hissələrinin iştirakı ilə yaranan əsl C.o. və kopulyasiya funksiyası ikincidərəcəli olan, cinsiyyət sistemi ilə anatomik əlaqədar olmayan C.o.-na ayırd edilir. Erkəklərdə C.o. funksiyasını xüsusi ixtisaslaşmış ətraflar (xərçəngkimilər və hörümçəklər), üzgəc çıxıntıları (balıqlar), ağız orqanları (gənələr, bövlər, bəzi qanadsız cücülər), ayaqcıqlar (başıayaqlı molyusklar, bax *Hektokotil*) yerinə yetirir.

**CÜTLÜK** – mikrozərrəciyin (molekulun, atomun, atom nüvəsinin, elementar zərrəciyin) halının kvantmexaniki xarakteristikası; bu zərrəciyin dalğa funksiyasının güzgü əksolunmaya (*fəza inversiyasına*) nəzərən simmetriya xassəsini ifadə edir. Güclü və elektromaqnit qarşılıqlı təsirlərlə şərtlənən proseslərdə C.-ün saxlanması qanunu mövcuddur: başlanğıc halda müəyyən növ güzgü simmetriyasına malik olan fiziki sistem bütün sonrakı zaman anlarında bu simmetriyanı saxlayır. C.-ün saxlanması atomların və atom nüvələrinin elektromaqnit şüalanması üçün, nüvə reaksiyaları və elementar zərrəciklərin qarşılıqlı çevrilmə reaksiyaları üçün bir sıra *seçmə qaydalarına* gətirir.

C.-ün saxlanması qanununu şüalandırıcı antena misalında nümayiş etdirmək olar (həndəsi forması və hər bir zaman anında cərəyanların paylanması güzgü simmetriyasına malikdir). C.-ün saxlanması qanununa görə, antena şüalanmasının istiqamətlənmə diaqramı da bu cür simmetriyaya malik olacaqdır.

*Zəif qarşılıqlı təsirdə* C.-ün saxlanması qanunu pozulur; zəif qarşılıqlı təsir xüsusi halda nüvənin *beta-parçalanmasını* şərtləndirir. Bu cür pozulmanın mümkünlüyü 1956 ildə Çin fizikləri *Li* Szundao və *Yanq* Çjennin tərəfindən qabaqcadan xəbər verilmiş və 1957 ildə *Vu* Szyansyun (əməkdaşları ilə birlikdə, ABŞ) tərəfindən nüvələrin β-parçalanmasında, həmçinin L. *Lederman* (əməkdaşları ilə birlikdə, ABŞ) tərəfindən müonun parçalanmasında eksperimental təsdiqini tapmışdır. Y.Q. Abov, V.M. Lobaşov və b. nuklon-nuklon qarşılıqlı təsirində C.-ün zəif pozulduğunu aşkar etmişlər. Atomların elektromaqnit şüalanmasında C.-ün zəif pozulmasına dair eksperimental göstərişlər var.

*a* şəkilində Vunun təcrübəsinin sxemi verilmişdir. Tərkibində radioaktiv $^{60}Co$ izotopu olan nümunə dairəvi cərəyanın maqnit sahəsində yerləşdirilmişdir ($B$ – maqnit induksiyasıdır). Bu sahə kobalt nüvələrinin maqnit momentlərini $B$ boyunca yönəldir (qurğu təqr. $1K$ temp-rda kriostatda yerləşdirilmişdir). Cərəyanlı naqilin daxilində elektronların sürətlərinin istiqaməti kiçik oxla göstərilmişdir. Antena misalındakı kimi, bütün sistem dairəvi cərəyanın axdığı müstəviyə nəzərən güzgü simmetriyasına malikdir. C.-ün saxlanması qanunu ödəndiyi zaman β-parçalanma elektronlarının şüalanma intensivliyi bu müstəvinin hər iki tərəfində eyni olmalıdır. Eksperimentdə isə kəskin asimmetriya müşahidə olundu: müstəvinin bir tərəfində digər tərəfinə nəzərən 40% çox elektron buraxılmışdı. Beləliklə, Vunun təcrübəsindən çıxır ki, tədqiq olunan sistem güzgü simmetriyasına malik deyil.

Hələ 1952 ildə Amerika fiziki E. *Viqner* öz əməkdaşları ilə birlikdə qeyd etmişdi ki, güzgüdən əksolunma zamanı elektronlar eyni kütləli müsbət yüklü zərrəciklərə – pozitronlara keçirlər və ümumiyyətlə bütün zərrəciklər uyğun antizərrəciklərə keçirlər. Sistemin bütün zərrəciklərinin antizərrəciklərlə əvəz edilməsi ilə müşayiət olunan güzgüdən əks-



olunmanı L.D. *Landau kombinələnmiş inversiya* adlandırmışdır. Təbiət qanunlarının kombinələnmiş inversiyaya nəzərən simmetriyası *həqiqi neytral zərrəciklər* və sistemlər üçün kombinəedilmiş cütlüyün saxlanması qanununa gətirir. C.-ün saxlanması qanununu kombinələnmiş C.-ün saxlanması qanunu ilə əvəz etdikdə Vu təcrübəsinin sxemi artıq güzgü simmetriyasına malik olmur, çünki bu təcrübənin (şəkil b) güzgü əksi naqilin antimaddəsindəki pozitronların dairəvi cərəyanının maqnit sahəsində antiprotonlardan və antineytronlardan ibarət olan antikobalt nüvəsinin pozitron β-parçalanması olacaqdır (pozitronun yükü müsbət olduğundan naqilin yükdaşıyıcılarının həmin istiqamətində cərəyanın işarəsi dəyişir ki, bu da *B* işarəsinin dəyişməsinə səbəb olur).

Müəyyən olunmuşdur ki, bütün zəif qarşılıqlı təsir prosesləri üçün C.-ün saxlanması qanunu güclü surətdə pozulur.

Kvant nəzəriyyəsində C. mikrozərrəciklərin əsas və həyəcanlanmış hallarını xarakterizə edən fiziki kəmiyyətdir. C.-ün saxlanması qanunu ödəndikdə o yalnız iki: +1 və –1 qiymətlərinə malik ola bilər. Zəif qarşılıqlı təsirin sayəsində, verilmiş C. halına əks C.-yə malik halın kiçik aşqarı əlavə olunur. Atomlarda və atom nüvələrində bu aşqar $10^{-6}$–$10^{-7}$-ni keçmir (lakin nüvələrdə C.-ün saxlanmaması effektlərini bir neçə tərtib gücləndirən xüsusi səbəblər ola bilər). Ona görə də hər bir zərrəcik yaxşı dəqiqliklə ya +1-ə, ya da –1-ə bərabər olan müəyyən bir daxili *P* cütlüyünə malikdir; *P*=+1 olduqda zərrəciklər cüt, *P*= –1 olduqda isə tək adlanır. Məs., $\pi^0$- mezon təkdir. Spini yarımtam olan zərrəciklərin – fermionların daxili C.-ü qeyri-müəyyəndir, lakin uyğun antizərrəciklərin C.-ünə əksdir. Bu, məs., sıfır orbital momentli *kvark* və antikvarkdan düzəlmiş mezonların (π, *K*, ρ, ω, φ və s.) mənfi daxili C.-ünü şərtləndirir. Spini tam olan zərrəciklər (bozonlar) üçün zərrəciyin və antizərrəciyin C.-ü eynidir. Orbital momentləri $hl_1$, ..., $hl_n$ olan zərrəciklərdən ibarət sistemin C.-ü

$$P_1 \dots P_n (-1)^{l_1+\dots+l_n}$$

bərabərdir, burada $P_1,\dots,P_n$ – sistemin zərrəciklərinin daxili C.-ü, $l_1,\dots,l_n$ mənfi olmayan tam ədədlərdir.

Elektromaqnit sahəsinin kvantlarının (fotonların) nə daxili C.-ü, nə də orbital momenti var. Fotonun C.-ü onun multipolluğu ilə təyin olunur (bax *Multipol*). Elektrik $2^l$-sahəsinin C.-ü $(-1)^l$-ə, maqnit $2^l$-sahəsinin C.-ü isə $(-1)^{l+1}$-ə bərabərdir. Ona görə də *l*-i cüt olan elektrik multipol fotonu və ya *l*-i tək olan maqnit multipol fotonu buraxarkən, yaxud udarkən fiziki mikrosistemin C.-ü saxlanır, qalan hallarda isə əksinə dəyişir. Bu, molekulların, atomların və nüvələrin elektromaqnit şüalanması üçün C.-ə nəzərən seçmə qaydalarına gətirir.

*Əd.:* Ли Цзун-дао, Янг Чженьнин, Вопрос о сохранении четности в слабых взаимодействиях, в кн. Новые свойства симметрии елементарных частиц, пер. с англ., М., 1957; Ву Цзянь-сюн [и др.], Экспериментальная проверка сохранения четности при β-распаде, там же, с. 69.; Абов Ю.Г. [и др.], Repeated experiment to observe the weak nucleon–nucleon interaction "Physics Letters", 1968, v. 27 B, № 1, p. 16; Лобашов В.М., Эксперименты по обнаружению несохранения четности в ядерных силах, "Вестник АН СССР", 1969, №2.

**CÜTÜN DOĞULMASI** (zərrəcik-anticərrəcik cütünün) – elementar zərrəciklərin qarşılıqlı çevrilmə növlərindən biri; bu zaman elektromaqnit və ya hər hansı başqa bir qarşılıqlı təsir nəticəsində eyni zamanda zərrəcik və *antizərrəcik* yaranır. C.d. mümkünlüyü relyativistik *Dirak tənliyinin* nəticəsi əsasında qabaqcadan xəbər verilmişdi. 1933 ildə fransız fizikləri İ. *Küri* və F. *Jolio-Küri* maqnit sahəsində yerləşdirilmiş Vilson kamerasının köməyi ilə radioaktiv mənbəyin buraxdığı γ-kvantlarından elektron-pozitron cütünün doğulduğunu müşahidə etdilər.

Enerjinin və impulsun saxlanması qanunlarına görə, tək bir foton tərəfindən c.d. qeyri-mümkündür. Foton tərəfindən cütün doğulması prosesləri nüvənin və atom elektronlarının Kulon sahəsində (şəkildə xaçla işarə olunub) fotonun $\varepsilon_\gamma$ enerjisi zərrəciyin sükunət enerjisinin iki mislini keçəndə baş verir və $\varepsilon_\gamma$ 10–30 *MeV*-dən böyük olanda (maddədən asılı olaraq) γ-kvantların maddədən keçməsi zamanı onların enerji itkisinin başlıca mexanizmidir. C.d. prosesi həmçinin zərrəciklərin toqquşması və ya parçalanması prosesində yaranan γ* virtual foton (bax *Virtual zərrəciklər*) vasitəsilə də mümkündür. C.d.-nın bu cür mexanizmi həmçinin fotonun konversiyası adlanır. Əgər fotonun (real və ya virtual) enerjisi çox böyükdürsə, onda o, istənilən zərrəcik-antizərrəcik cütünü, məs, $\mu^+\mu^-$ müonlar cütünü törədə bilər.

Əgər nüvədə elektromaqnit keçidi zamanı real fotonun yaranması tam momentin saxlanması qanunu ilə qadağan olunmuşsa, onda bu cür keçid yalnız γ kvantların atom elektronunda daxili konversiyası və ya (kifayət qədər böyük enerjidə) γ-nın elektron-pozitron cütünə konversiyası hesabına baş verir.




Yüksək enerjili zərrəciklərin toqquşmalarında həmçinin müon cütlərinin doğulması da baş verir. Adron toqquşmalarında $\mu^+\mu^-$ cütlərinin doğulmasını adronların tərkibinə daxil olan *kvarkların* və antikvarkların elektromaqnit *annihilyasiyası* və ya kvarkların kvarklarla, ya da *qlüonlarla* toqquşmaları zamanı yaranan tormoz şüalanması fotonlarının konversiyası prosesləri ilə əlaqələndirirlər. Ona görə də böyük eninə (toqquşma oxuna nəzərən) impulslara malik $\mu^+\mu^-$ və $e^+e^-$ cütlərinin doğulması proseslərini *kvant xromodinamikası* və kvark-parton modeli (bax *Partonlar*) çərçivələrində təhlil edirlər. Kiçik eninə impulslara malik $\mu^+\mu^-$ cütünün doğulmasında adronların elektromaqnit parçalanmaları (məs., $\eta\to\gamma+\mu^++\mu^-$, $\omega\to\pi^0+\mu^++\mu^-$) mühüm rol oynaya bilər. Adronların elektromaqnit parçalanmalarında C.d. (konversiya) proseslərinin öyrənilməsi adronların elektromaqnit *formfaktorları* haqqında informasiya almağa imkan verir. Yeni ağır zərrəciklər – *c*- və *b*-kvarklar və ya $\tau^\pm$-leptonlar cütünün doğulması prosesləri və onların sonrakı lepton parçalanmaları adron toqquşmalarında birbaşa leptonlar deyilən cütlərin mənbəyidir.

Ümumi halda əks işarəli lepton və ya barion yüklərinə malik zərrəciklər cütünün yaranmasının istənilən prosesinə lepton və ya kvarklar cütünün, məs., $e\tilde{\nu}_e$, $u\bar{d}$ cütünün doğulması prosesi kimi baxmaq olar.

**CÜVEYNİ** (الجوينی), Əlaəddin Ata Məlik ibn Bəhaəddin Məhəmməd əl-Cüveyni (təqr. 1225/26 – 6.3.1283) – İran tarixçisi, siyasi xadim. Gənc yaşlarından monqolların yanında xidmətə başlamış, 1259 ildə Bağdad hakimi (məlik) təyin olunmuşdu. 1281 ildə Abaqa xan dövründə [1265–82] maliyyə dolaşıqlığına yol verdiyi üçün həbs edilmiş, 1282 ildə Elxani Əhməd Təkudar [1282–84] tərəfindən vəzifəsinə qaytarılmışdı. Lakin çox keçmədən yenidən əmlakı müsadirə edilməklə vəzifədən kənar olunmuşdu. Azərb.-da (Arran) ölmüşdür.

C.-nin 1260 ildə tamamladığı 3 cildlik "Tarix-i cahangüşay" ("Dünya fatehinin tarixi") əsərində monqol qoşunlarının Azərb.-a hücumları, Xarəzmşah Cəlaləddinin Azərb.-ı işğal etməsi, monqolların ağır vergi siyasətinə qarşı təbrizlilərin çıxışı və s. haqqında da məlumat var.

**CÜVEYNİ** Şəmsəddin Məhəmməd ibn Məhəmməd (? – 1284, Azərbaycan, Əhər ş.) – Elxani dövlət xadimi. Əlaəddin Ata Məlik *Cüveyninin* qardaşıdır. Hülaku xan tərəfindən sahib-i divan (1263) təyin olunmuşdu. Abaqa xanın [1265–82] hakimiyyəti illərində ona Anadoluda vəziyyəti qaydaya salmaq tapşırılmışdı. C. Məhəmməd bəy Qaramanoğlu üsyanını (1268) səlcuq qoşununun köməyi ilə yatırtmışdı. Səlcuqların Elxanilərə olan borclarını bağışlamışdı. Abaqa xanın hakimiyyətinin son illərində sıxışdırılsa da, Elxani Əhməd Təkudar [1282–84] hakimiyyətə gəlincə əvvəlki nüfuzunu yenidən qazanmışdı. Lakin Əhməd Təkudar Arqun tərəfindən hakimiyyətdən devrildikdən sonra İsfahana qaçmaq məcburiyyətində qalmışdı. O, ailəsinin toxunulmaz qalması məqsədilə təslim olmuşdu; dövlət əmlakını mənimsəmək və Abaqa xanı zəhərləməkdə ittiham edilərək öldürülmüşdü. Böyük siyasətçi olmaqla yanaşı elm və sənətin himayədarı kimi də tanınırdı.

**CÜVƏ** – Azərb. Resp. Ağdaş r-nunun Korarx ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* şm.-q.-dədir. Əh. 521 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana var.

**CÜYÜR**, əlik (Capreolus) – maralkimilər fəsiləsindən məməli heyvan cinsi. 2 növü var. Sibir C.-ünün (*C.pyqarqus*) bədəninin uz. 151 *sm*-ədək, cidov hünd. 100 *sm*-ədək, kütləsi 60 *kq*-adək olur. Avropa C.-ü (*C. capreolus*) kiçikdir: bədəninin uz. təqr. 136 *sm*-ədək, cidov hünd. 92 *sm*-ədək, kütləsi 40 *kq*-a qədər olur. Bədəni yaraşıqlı, qamətli, boynu uzun, ayaqları nazik və hündürdür. Qulaqları uzun və enlidir. Yalnız erkəklərin buynuz olur; o, nisbətən kiçik (Sibir C.-ündə iridir), kəsiyi dəyirmidir, gözüstü çıxıntısı yoxdur; adətən buynuzun ucları 3 çıxıntılıdır. Rəngi birrəngli kürənqonur, qarnı daha açıq, qışda gümüşüqonur olur. Quyruğu rudimentardır, quyruqətrafı "ayna", adətən, ağdır.

Avropa C.-ü Avropanın hər yerində, Qafqaz və Cənub-Qərbi Asiyada; Sibir C.-ü Sibirin c.-unda, Uzaq Şərq, Orta Asiya d-rı, Monqolustan, Şimali və Şərqi Çində yayılmışdır. Azərb.-da yaşayan C. Avropa yarımnövüdür. Vaxtilə resp.-da geniş yayılan C. hazırda ancaq Böyük Qafqazın, Kiçik Qafqazın və Lənkəran zonasının dağətəyi meşələrində qalmışdır; mühafizə olunur. C. qarışıq meşələrə, göl-məçəli, ağacları kəsilmiş və ya açıq sahələrə (talalara) üstünlük verir. Çöllük və səhralıqlarda, su hövzələri ətrafında yerləşən cəngəlliklərdə yaşayır, antropogen landşaftları da sevir. Ot bitkiləri, ağac və kolların yarpaq və zoğları, qışda kolların, cavan ağacların tumurcuq və nazik budaqları ilə qidalanır. Yayda təktək, payızda 10–30 fərddən ibarət sürülərlə gəzir. Sibir C.-ü 500 fərddən ibarət sürü ilə köç edə bilir. Hövrəyəgəlmə iyul-oktyabr aylarında olur. Boğazlıq dövrü 6–9 aydır: 2 (bəzən 3) bala doğur. 11–12 (bəzən 16) ildək yaşayır.



Avropa cüyürü (Capreolus capreolus).

**CÜZAM**, lepra (lat. λέπρα – cüzam, λεπός – pulcuqlu) – dərinin, periferik sinir sisteminin, digər orqan və sistemlərin zədələnməsi ilə keçən infeksion xəstəlik. C. insanın çox qədim xəstəliklərinə aiddir. C. Avropa ölkələrinə (əvvəlcə Yunanıstana və İtaliyaya) e.ə. 5–3 əsrlərdə ticarət əlaqələrinin genişlənməsi, müharibələr və s. nəticəsində ilk dəfə Misirdən, Finikiyadan və Asiya ölkələrindən gətirilmişdir. E.ə. 1 əsrdə onun Avropada yayılmasına Cənub-Şərqi Asiya ölkələrində uzunsürən yürüşdən qayıtmış Pompeyin ordusu səbəb olmuşdur. Cənubi və Mərkəzi Amerika ölkələrinə C.-ı 16–18 əsrlərdə avropalılar gətirmişlər. C. haqqında olan ilk məlumatlarda (*Aristotel*, e.ə. 4 əsr) xəstəlik-satyriasis və ya leontia (leontiasis) adlandırıldı. Xəstəliyin daha tam klinik simptomlarını 2 əsrdə *Aretey* və *Qalen* təsvir etmişlər. C.-ın yayılmasının məhdudlaşdırılmasına yönəldilmiş ilk dövlət qanunvericiliyi 5–8 əsrlərdə Avropada meydana çıxmışdır. Avropada C.-ın yayılmasının ən yüksək dövrü 10–13 əsrlərə təsadüf edir (onu uzun müddət elefantiaz da adlandırmışlar). C. haqqında təlimin (leprologiya adlanan) inkişaf tarixində ən əhəmiyyətli hadisə onun törədicilərini Norveç həkimi Q. *Hansen* tərəfindən kəşf olunmasıdır (1873). 20–21 əsrlərdə əsas endemik ölkələr Braziliya, Konqo, Madaqaskar, Mozambik, Hindistan, Nepal və s. hesab olunur. 21 əsrin əvvəllərində dünyada C. ilə xəstələnmə hər 10 min nəfərə düşən 1 hadisədən artıq olmur.

C.-ın törədicisi – Mycobacterium leprae hominis–mikobakteriyasıdır. C.-la yoluxma yüksək deyil, xəstəliyin əsas yoluxma və yayılma mənbəyi C.-ın lepromatoz tipi (çoxlu miqdarda mikobakteriya daşıyıcıları) adlanan xəstələrdir. Yoluxma uzunmüddətli təmas zamanı, əksərən, hava-damcı yolu ilə baş verir (endemik zonalarda doğulan uşaqlar xüsusilə həssas olur). Hesab edilir ki, əhalinin əsas kütləsi orqanizmə düşən C. törədicilərinə qarşı genetik immun müdafiə qabiliyyətinə malikdir.

İnkubasiya dövrü bir neçə aydan 10 ilə qədər və daha çoxdur. Lepromatoz, tuberkuloid və üç diferensləşməyən C. tip (əsil diferensləşməyən C., diferensləşməyən lepromatoz və diferensləşməyən tuberkuloid) ayırd edilir.

Lepromatoz C. tipi ən ağır və yoluxucudur. Dəri zədələnmələri leproma (hüdudlanmış qabarcıqlar) və müxtəlif infiltratlar şəklində üzdə ("şir sifəti" adlanan simptom), əllərin arxasında, baldırda yerləşir. Lepromalar xora əmələ gətirməklə dağıla bilər. Sinirlərin zədələnməsi nəticəsində dərinin bütün hissiyyat növləri (temp-r, ağrı və toxunma) pozulur və bu çox vaxt ağır yanıq və travmalara səbəb olur. Xəstələrin bir qismində üzün və ətrafların əzələləri zəifləyir və arıqlayır, bəzən əl və ayaq barmaqlarının dağılması və qopması, ayağın altında dərin xoralar müşahidə olunur.

Tuberkuloid C. tip nisbətən xoşxassəli olması ilə səciyyələnir və müalicəsi yaxşı gedir. Zədələnmiş ocaqda dəri həssaslığının və tərləmənin pozulması tipik haldır. Sinir kötüklərinin spesifik leproz zədələnməsi əzələlərin atrofiyası, əl və ayaq barmaqlarının qopması və trofik



Cvaneng almaz yatağı.

xoralarla keçən ağır trofik pozulmalar baş verir.

Diferensləşməyən C. tipləri əsasən nevroloji simptomlarla (həssaslığın pozulması və s.), habelə müxtəlif böyüklükdə və müxtəlif şəkildə olan eritematoz hiperpiqmentləşmiş və piqmentsizləşmiş ləkələrlə səciyyələnir. Zədələnmə ocağında tüklər tökülür, həssaslıq tədricən itir və tər ifrazı pozulur, əzələlərdə atrofiyanın inkişafı aşağı və yuxarı ətrafların deformasiyasına səbəb olur. Üz maskayabənzər şəkil alır, mimika itir, göz qapaqlarının tam örtülməməsi (laqoftalm) meydana çıxır. İflic və parezlər, kontraktura inkişaf edir; barmaqların qopması ola bilər. Ayağın altında çətin müalicə olunan dərin xoralar əmələ gəlir.

Diferensləşməyən C.-ın diaqnozu hələ müstəqil tipli C. kimi formalaşmamış və çox vaxt dəri həssaslığının olmaması, cüzi nəzərə çarpan piqmentsizləşmə ilə səciyyələnən ən ilk əlamətlər zamanı həkimə müraciət etdikdə qoyulur.

C.-ın diaqnostikası anamnez məlumatlarına (endemik zonada olmaq və s.), kliniki əlamətlərə, burunun selikli qişasından götürülmüş qaşıntının bakterioloji müayinəsinə, lepromin sınağının (dəridaxili allergik sınaq) və biopsiyanın nəticələrinə əsaslanır.

Müalicəsi: *leprozoriyalarda* polikimyəvi terapiya (diaminodifenilsulfon, lampren və rifampisin) ilə həyata keçirilir. Leproz reaksiyaların (C.-ın vaxtaşırı kəskinləşməsi) inkişafı zamanı talidomid təyin edilir. Profilaktikası: endemik zonalarda kütləvi müayinələr aparılır, nəzarət olunan ambulator müalicə proqramı, habelə bütün yenidoğulmuşlara BCJ aparılması həyata keçirilir.

**CVÁNENQ** (Jwaneng) **ALMAZ YATAĞI** – Botsvanada, Qaboron ş.-dən 110 *km* q.-də almaz yataqları qrupu. Ehtiyatına və hasil edilən almazın illik dəyərinə görə dünyada ən iri yataqlardan biridir. 1970 ildə kəşf edilmiş, 1982 ildən açıq üsulla istismar olunur. Karxananın dərinliyi 273 *m-dir* (2004); 600 *m* dərinlikdən sonra yatağın yeraltı istismarı nəzərdə tutulur. 720 *m* dərinliyədək yatağın ümumi ehtiyatı 428 mln. *kar*-dır (1,65 *mm*-dən böyük almazlar üçün). Yataqlar kimberlit tiplidir; Arxeyin Kalahari kratonunun mərkəzi hissəsinə aid edilir. 12 kimberlit borusu aşkar olunmuşdur, yalnız biri (Erkən Trias yaşlısı) sənaye əhəmiyyətlidir. Yan süxurlar Paleozoy-Trias daykaları ilə yarılmış Proterozoy yaşlı dolomit və gil şistlərindən ibarətdir. Örtük çöküntülərinin qalınlığı 65 *m*-dir.

Ən böyük borunun sahəsi (Dördüncü dövr çöküntüləri altında) 52 *ha*-dır. Dərinliyə getdikcə borunun ölçüsü kiçilir və Şimalı, Mərkəzi (almazın maks. Konsentrasiyası buradadır), Cənub və Dördüncü borulara parçalanır. Boruların yan divarları dikdir; 600 *m* dərinliyədək yalnız krater fasiyası süxurları ilə dolmuşdur, hipabbisal və diatrem fasiyalar hələ aşkar edilməmişdir. Şimal borusunun mərkəzi hissəsində, digər borulardan fərqli olaraq, piroklastik əmələgəlmələr aşkar olunmuşdur. Süxurlarda almazın orta miqdarı 1,20–1,35 *kar/t*-dur. Dərinliyə getdikcə almazın miqdarı artır.

2005 ilədək 15,6 mln. *kar* almaz hasil olunmuşdu. 25–35%-i zərgərliyə yararlıdır; 2 və daha çox *kar* almazın payı yüksəkdir. İndiyədək hasil olunmuş almazlardan ən böyüyünün kütləsi 350 *kar*-dır. Almazlar əsasən rəngsiz və şəffafdır, nadir hallarda sarı və açıq-yaşıl rənglərinə rast gəlinir.



# Ç

Ç – müasir Azərb. əlifbasının "çe" adlanan dördüncü hərfi. Azərb. ədəbi dilində bu hərflə ifadə olunan kar, dilönü-yuvaq, qovuşuq ağız samitinin işarəsidir. Ərəb qrafikalı Azərb. əlifbasında "چ" şəklində, Kirill qrafikalı Azərb. əlifbasında isə "Ч" (böyük, çap şəkli; yazı şəkli – 𝒰) və "ч" (kiçik, çap şəkli; yazı şəkli – ꭓ) kimi yazılaraq, "çe" adlanmışdır. Latın qrafikalı müasir Azərb. əlifbasında yazılış şəkli belədir: böyük – Ç (çap), *Ç* (əlyazma); kiçik – ç (çap), *ç* (əlyazma). Azərb. dilində sözün əvvəlində (çöl), ortasında (açar) və sonunda (əsasən, təkhecalı sözlərdə; saç) işlənilir



Uybat çaatası.

**ÇAADÁYEV** Pyotr Yakovleviç (7.6. 1794, Moskva – 26.4.1856, orada) – rus mütəfəkkiri, publisist. 1816 ildən A.S. Puşkinin yaxın dostu. Vətən müharibəsində (1812) iştirak etmiş, 1819 ildə "Xoşbəxtlik ittifaqına", 1821 ildə isə Dekabristlərin şimal cəmiyyətinə üzv qəbul edilmiş, lakin bu cəmiyyətlərdə əməli fəaliyyət göstərməmişdir.



Aropaya səyahət zamanı (1823–26) *Şellinq* və F.R. *Lamenne* (1782–1854) ilə tanış olmuş, onların dini-fəlsəfi baxışları Ç.-ə dərin təsir göstərmişdir. 1829–31 illərdə özünün başlıca əsərini – "Tarixin fəlsəfəsinə dair məktubları"nı (sonralar "Fəlsəfi məktublar" adlanmışdır) yazmışdır. "Bəşər övladının ümumdünya təlim-tərbiyəsindən" Rusiyanın kənarda qalması, milli özündənrazılığın və ruhi durğunluğun əngələ çevrilməsi ilə bağlı acı etiraflarla dolu birinci məktubun "Teleskop" jurnalında çap edilməsi (1836) hakimiyyət orqanlarının kəskin narazılığına səbəb olmuşdu; "Teleskop" bağlanmış, Ç. isə "ali fərmayişlə" dəli elan edilmişdi. İttihamlara cavab olaraq yazdığı "Dəlinin apologiyası" (1837) müəllifin sağlığında işıq üzü görməmişdir. Rus fəlsəfi fikrinin inkişafında Ç.-in görüşləri mühüm stimul olmuşdur.

**ÇAATAS** (xakas dilində – müharibə daşı) – Minusa çökəkliyində (əsasən, Xakasiya Resp. ərazisindəki Abakan və Yenisey çayları hövzəsində) 6–9 əsrlərə aid məzarlıqların və arxeoloji mədəniyyətin adı. Daş qalağından ibarət kurqanlar şaquli vəziyyətdə qoyulmuş lövhə və stelalarla (bəzən Orxon-Yenisey kitabələri ilə) əhatələnmişdir. Kurqanaltı kvadratşəkilli qəbir quyularında meyityandırma adətinin izlərinə, içərisində yemək və içki qalıqları olan qablara rast gəlinmişdir. Gümüş və qızıl qablar, silahlar, qoşqu ləvazimatı və s. əşyalarla birlikdə dəfn edilmiş əyanlara məxsus iri kurqanların (diametri 30 *m*; bax *Kopyon çaatası, Uybat çaatası*) ətrafında icmanın sıravi üzvlərinin kiçik kurqanları yerləşir.

**ÇABUKİANİ** Vaxtanq Mixayloviç (12.3.1910, Tiflis – 6.4.1992, Tbilisi) – gürcü balet artisti, baletmeyster və pedaqoq. SSRİ xalq artisti (1950). Sosialist Əməyi Qəhrəmanı (1990), Lenin mükafatı laureatı (1958). SSRİ Dövlət mükafatı laureatı (1941, 1948, 1951). 1924 ildə Tiflisdə balet studiyasını bitirdikdən sonra Z.P. Paliaşvili ad. Opera və Balet teatrının truppasına qəbul edilmişdir. 1926 ildə Leninqrad xoreoqrafiya məktəbinə daxil olmuşdur. 1929–41 illərdə Leninqrad Opera və Balet Teatrının solisti işləmişdir. Bazil ("Don Kixot", A. Minkus), Carci ("Dağların qəlbi", A. Balançivadze), Albert ("Jizel", A. Adan), Jerom ("Parisin alovu", B. Asafyev), Frondoso ("Laurensiya", A. Kreyn) və s. partiyalarda çıxış etmişdir. Ç. burada "Dağların qəlbi" (1938), "Laurensiya" (1939), "Otello" (1960) baletlərinə quruluş vermişdir. 1941 ildən Tbilisidə yaşamış, 1973 ilədək Z.P. Paliaşvili ad. teatrın balet truppasına rəhbərlik etmiş, burada "Sinatle" (Q. Kiladze), "Qorda" (D. Toradze), "Demon" (S. Sinsadze), "Otello" (A. Maça-



variani) və s. baletləri tamaşaya qoymuşdur. Otello partiyasının ifası ona böyük şöhrət qazandırmışdır. 1968 ilədək rəqqas kimi çıxış etmişdir. 1950–73 illərdə pedaqoji fəaliyyət göstərmişdir. Ç. "Gürcü baleti ustaları" (1955) və "Otello" (1961) filmlərinin ssenari müəllifi və quruluşçu rej.-dur. ABŞ, İtaliya, Latın Amerikası ölkələri və s. yerlərdə qastrolda olmuş, Yaponiya, İran və Macarıstanda baletlər tamaşaya qoymuşdur.

*Əd.*: Кригер Б. Вахтанг Чабукиани. Л.–М., 1960.

**ÇAÇVAN**, çaçvan pac (təhrif olunmuş far. چشم بند – göz üçün sarğı) – at qılından sıx hörülmüş düzbucaqlı formada qadın üz örtüyü (bax *Pərəncə*).

**ÇAD** (Tchad, Chad) – Mərkəzi Afrikada Nigeriya, Niger, Çad və Kamerunun həmhüdud ərazilərində axarsız göl. 240 *m* yüksəklikdə, geniş və hamar depressiyada yerləşir. Uz. 270 *km*, eni 150 *km*-ədəkdir. Sah. 10–26 min $km^2$ (səviyyənin çoxillik tərəddüdü ilə əlaqədar olaraq dəyişir), dərinliyi uyğun olaraq 4–11 *m*. Yüksək rütubətli iqlim epoxalarında (sonuncu 5–6 min il bundan əvvəl) gölün sah. 400 min $km^2$-ədək çatmışdır. Q. və c. sahilləri alçaqdır; əksər hissəsi bataqlaşmışdır. Şm.-ş. və ş. sahilləri kəskin parçalanmışdır; çoxlu adalar var. Şari, Komaduqu-Yobe və bir neçə kiçik çaylar Ç. gölünə tökülür. Səviyyənin ortaillik tərəddüdü təqr. 1 *m*-dir. Çayların mənsəbi yaxınlığında gölün suyu şirin, qalan hissədə az duzludur; minerallaşmanın zəif olması suyun daima dəyişməsi ilə əlaqədardır; ətraf ərazilərin qrunt su hövzələri göldən qidalanır. Lamantin, begemot, timsah, çoxlu su və bataqlıq quşları var. Balıq ovlanır. Şari və Komaduqu-Yobe çaylarının mənsəbləri arası gəmiçiliyə yararlıdır. Gölün şm.-ş. sahilində təbii soda yataqları var.

**İnzibati ərazi bölgüsü (2008)**

| İnzibati vahidlər | Sahəsi, min $km^2$ | Əhalisi, *min nəfər* | İnzibati mərkəzi |
|---|---|---|---|
| Batha | 88 | 527,0 | Ati |
| Bəhr-ül-Ğəzal | 53 | 97,3 | Fayya-Larjo |
| Borku | 241 | 260,9 | Musoro |
| Ennedi | 211 | 173,6 | Fada |
| Gera | 62 | 553,8 | Monqo |
| Hacer-Lamis | 29 | 563,0 | Masakori |
| Kanem | 75 | 354,6 | Mao |
| Qərbi Loqon | 9 | 683,3 | Mundu |
| Qərbi Mayo-Kebi | 14 | 569,1 | Pala |
| Lak | 23 | 451,2 | Bol |
| Mandul | 17 | 637,1 | Kumra |
| Ncamena | 1 | 993,5 | Ncamena |
| Orta Şari | 41 | 598,3 | Sarx |
| Salamat | 66 | 308,6 | Am-Timan |
| Sila (Dar-Sila) | 37 | 289,8 | Qoz-Beyda |
| Şari-Bagirmi | 46 | 621,8 | Masenya |
| Şərqi Loqon | 24 | 796,5 | Doba |
| Şərqi Mayo-Kebi | 19 | 769,2 | Bonqor |
| Tancile | 17 | 682,8 | Lai |
| Tibesti | 130 | 22,0 | Bardai |
| Vadday | 30 | 731,7 | Abeşe |
| Vadi-Fera | 51 | 494,9 | Biltin |

70-ci illərin əvvəlindən başlanmış və 1985 ilədək davam edən quraqlıq nəticəsində gölün və onun ətraf sahələrinin ekologiyasına, təsərrüfatına böyük ziyan dəymişdir.

**ÇAD** (Tchad), Çad Respublikası (La République du Tchad).

**Ümumi məlumat.** Mərkəzi Afrikada dövlət. Şm.-da Liviya, ş.-də Sudan, c.-da Mərkəzi Afrika Resp., c.-q.-də Kamerun, q.-də Nigeriya və Niger ilə həmsərhəddir. Sah. 1284 min $km^2$. Əh. 11 mln. (2013). Paytaxtı Ncamena ş.-dir. Rəsmi dil fransız və ərəb dilləri, pul vahidi Afrika frankıdır. Ərazisi son inzibati islahata (2008, 19 fevral) əsasən 22 prefekturaya (regiona) bölünür.

Ç. BMT-nin (1960), ABT-nin (1963), BVF-in (1963) üzvüdür.

**Dövlət quruluşu.** Ç. unitar dövlətdir. Konstitusiyası 31.3.1996 ildə qəbul edilmişdir. İdarəetmə forması prezident respublikasıdır. Dövlətin və icraedici hakimiyyətin başçısı olan prezident, həm

Çad gölü. Çad.














də silahlı qüvvələrin Ali baş komandanıdır. Konstitusiyaya 6 iyun 2005 ildə edilmiş dəyişikliklərə əsasən prezident ümumi, birbaşa və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir (təkrar seçilmə məhdudiyyəti yoxdur).

Qanunverici hakimiyyət Milli məclisə (155 deputat) məxsusdur. Deputatlar ümumi, birbaşa və gizli səsvermə yolu ilə 4 il müddətinə seçilirlər. Konstitusiyaya 2005 ildə edilmiş dəyişikliklərə görə, parlamentin yuxarı palatası Senat ləğv edilmişdir.

Ç.-da çoxpartiyalı sistem mövcuddur. Əsas siyasi partiyalar: Demokratiya və inkişaf uğrunda birləşmiş qüvvələr, Federal respublika uğrunda silahlı qüvvələr, Çadın ədalət və demokratiya uğrunda hərəkatı.

**Təbiət.** Relyef. Ç.-ın şm.-ını *Böyük Səhra*, c.-unu *Sahel* və qismən *Sudan* təbii vil. tutur. Ölkə ərazisinin çox hissəsi yastı düzənlikdir (*Bodele* çökəkliyi, 190 *m*); q.-ində hünd. 250–300 *m*, şm., ş. və c.-unda 350–400 *m* və daha çoxdur. Düzənliyin şm. hissəsində mütəhərrik qumlar geniş yayılmışdır. Şm.-da Tibesti yaylası (hünd. 3415 *m*, Emi-Kusi d.), şm.-ş.-də Erdi (1115 *m*) və Ennedi (1450 *m*) platoları, c.-ş.-də Vadai massivi (1790 *m*, Gera d.) yerləşir.

Geoloji quruluş və faydalı qazıntılar. Ç. ərazisi Afrika platformasının şm.-ş.-ində yerləşir. Kembriyəqədərki özülün metamorfik süxurları Tibesti yaylasında, Vadai massivində və ölkənin c.-q.-ində səthə çıxır. Platforma örtüyü Paleozoy, Tabaşir (Tibesti yaylası, Erdi və Ennedi platoları) və Kaynozoyun (Çad sineklizi) müxtəlif çökmə süxurlarından ibarətdir. Tibesti yaylası və Vadai massivində Kaynozoyun vulkan süxurları geniş yayılmışdır. Əsas faydalı qazıntıları: təbii soda (Çad gölünün şm.-ş.-ində), boksit (Mundu və Lai yataqları), dəmir filizi (Vadai), qalay, volfram, sink (Tibesti), uran (Ennedi), neft (Şari çayı hövzəsi) və s.




Ncamena. Parlamentin binası.





Tibesti platosu.

İ q l i m. İqlimi şm.-da tropik səhradır. Orta temp-r yanvarda 15°C, iyulda 30–35°C-dir; temp-run gündəlik amplitudu böyükdür (orta hesabla 20°C). Yağıntının illik miqdarı 100–250 *mm* (bəzi yerlərdə 50 *mm*-dən də az). Qum burulğanları yaradan güclü küləklər səciyyəvidir. C.-da qışı quraq keçən ekvatorial musson iqlimi hakimdir. Orta temp-r yanvarda 21–24°C, aprel–mayda 30–33°C-dir. Yağıntının illik miqdarı 250–500 *mm*, ucqar c.-da 1000 *mm*-ədək.

D a x i l i  s u l a r. Ölkənin şm.-ında daimi səth suları axını yoxdur. Quru çay dərələri nadir hallarda yağan yağışlar zamanı dolur. C.-da çay şəbəkəsi sıxdır. Ən böyük çayı Çad gölünə tökülən Şari və onun Kamerunla sərhəd boyu axan sol qolu Loqonedir. Digər çaylar – Salamat, Auk (MAR-la sərhəd boyu axır) Şarinin sağ qollarıdır. Ən böyük gölü Çaddır; İro və Fitri kiçik göllərdir. Batha çayı Fitri gölünə tökülür. Yağışlar mövsümündə daşan çaylar ətrafda bataqlıqlar yaradır.

T o r p a q l a r,  b i t k i  ö r t ü y ü  v ə  h e y v a n l a r  a l ə m i. Ölkənin şm.-ında bitkisiz daşlı səhralar üstünlük təşkil edir. 15–16° şm.e.-ndən c.-da qırmızı-qonur, ucqar c.-da qələviləşmiş qırmızı-qonur torpaqlar yayılmışdır. Subasarlarda və göl sahillərində bataqlıqlara rast gəlinir.

Səhralaşmış savanna bitkiləri, ucqar c.-da baobab və dum palması qarışıq tipik savannalar yayılmışdır; çay dərələrində xurma palması və üzüm bitir. Savannalarda müxtəlif otlar və akasiyalar vardır. Meşələr və kolluqlar ölkə ərazisinin 25,7 %-ni tutur.

Heyvanlardan lamantin, begemot, timsah, fil, kərgədan, camış, antilop, zürafə, şir, bəbir, çaqqal, kaftar, hippopotam, cücülər, çoxlu sürünən yaşayır; quşlardan dəvəquşu, su və bataqlıq quşları çoxdur. Balıqçılıq inkişaf etmişdir. Ölkədə parklar,qoruqlar, təbii komplekslər və mühafizə edilən ərazilər azdır. Zakuma, Manda milli parkları, Sinianka-Minia və Uadi-Rime rezervatları vardır.

**Əhali.** Ölkədə 200-dən çox etnik qrup vardır; şm.-da və mərkəzi r-nlarda, əsasən, müsəlman olan ərəblər, tubular, zaqavalar, kanembular, vadanlar, fulbelər, hausalar, mabalar, c.-da isə animist və xristian olan saralar və b. yaşayırlar. 120-yə yaxın dil və ləhcə yayılmışdır. Əhalinin savadlılıq səviyyəsi 47,5%-dir (56% kişilərdə, 39,3% qadınlarda). Şəhər əhalisi 28%, urbanizasiya səviyyəsi 4,6%-dir. Əhalinin yalnız 34%-i təmiz içməli sudan istifadə edə bilir. Əhalinin yaş tərkibi: 14 yaşadək – 45%, 15– 64 yaşarası – 51%, 64 yaşdan yuxarı – 2,9%-dir; orta yaş həddi 16,8 ildir (kişilərdə 15,6; qadınlarda 17,9 il). Ortaillik artım 2,009%-dir (2011). Doğum səviyyəsi 1000 nəfərə 39,4 nəfər, ölüm səviyyəsi 1000 nəfərə 15,47 nəfər, uşaq ölümü 1000 nəfər diri doğulan uşağa 95,31 nəfərdir (oğlanlar üçün 101,18, qızlar üçün 89,22). Orta ömür müddəti 48,33 ildir (kişilərdə 47,28, qadınlarda 49,43 ildir). Fertilliyin göstəricisi 1 qadına 5,05 uşaqdır (2011). İİV-ə yoluxanlar 3,4%-dir (2009). Xarici miqrasiya saldosu 1000 nəfərə 4,84 nəfərdir. Əhalinin əksəriyyəti müsəlman (57,8%), 40%-i xristiandır. Ənənəvi etiqadlarını saxlayanlar da var.

Şari çayı.



**Tarixi oçerk.** Ç. ərazisi qədim zamanlardan məskunlaşmışdır; burada 9 əsrdə Kanem, 12–14 əsrlərdə Vadai (ş. hissəsində), 16 əsrdən Bagirmi (mərkəzi hissədə) dövlətləri mövcud olmuşdur. 19 əsrin sonunda bütün Ç. ərazisi Rəbbah dövlətinin tərkibində idi. 1900 ildən 1914 ilədək Ç. ərazisi fransızlar tərəfindən işğal edilmiş, ölkədə müstəmləkə rejimi bərqərar olmuşdu. İkinci dünya müharibəsindən sonra Ç.-da milli azadlıq hərəkatı genişləndi. 1958 il noyabrın 28-də Ç. Fransa Millətlər Cəmiyyəti daxilində muxtariyyət hüququ əldə etdi; 1960 il avqustun 11-də müstəqil dövlət oldu. 1960 ildən BMT-nin üzvüdür. 1975 il aprelin 13-də zabitlər dövlət çevrilişi etdilər. 1979 ilin noyabrında 11 hərbi-siyasi qruplaşma arasında razılığa əsasən Milli Birlik Keçid hökuməti (MBKH) yaradıldı; Çad Milli Azadlıq Cəbhəsinin (FROLİNA) lideri Qukuni Ueddey dövlət başçısı, Şimal Silahlı Qüvvələrinin başçısı Hissen Habre dövlət milli müdafiə naziri təyin olundular. 1980 ilin martında H.Habre qiyam qaldırdı. Ç. hökumət qoşunları Liviya ordu hissələrinin köməyi ilə qiyamı yatıra bildilər (1980, dekabr). Yeni qüvvələr toplayan H.Habre 1981 ildə Sudan ərazisindən yenidən Ç.-a soxuldu və 1982 ilin iyulunda Ncamenanı tutaraq hakimiyyəti ələ keçirdi. Q.Ueddeyin başçılığı ilə FROLİNA ətrafında birləşmiş vətənpərvər qüvvələr imperialistpərəst Habre rejiminə qarşı silahlı mübarizəyə qalxdılar (1983, iyun). Eyni zamanda MBKH qardaş qırğınına son qoymaq üçün H.Habre rejimi ilə ölkənin gələcək siyasi quruluşu barədə danışıqlara başlamağa hazır olduğunu bildirdi. Lakin ABŞ imperializminin təhriki ilə əvvəlcə Zair, sonra isə Fransa özünün qoşun hissələrini Habrenin köməyinə göndərdi. 1984 ilin sentyabrında Fransa və Liviya hökumətləri arasında əldə edilmiş razılığa əsasən Fransa və Liviya ordu hissələri Ç.-dan çıxarıldı, milli barışıq üçün əlverişli şərait yarandı. Lakin Qərbin yardımına arxalanan H.Habre rejimi hər vəchlə danışıqlara başlamaqdan boyun qaçırırdı.

Ç.-dakı mövcud rejimə qarşı çıxan yeddi hərbi-siyasi qruplaşma rəhbərlərinin 1986 ilin noyabrında keçirilmiş müşavirəsində MBKH-nin yenidən təşkili qərara alındı. İnqilabi Demokratik Şuranın baş katibi əş-Şeyx Umar MBKH-nin yeni sədri oldu.

1990 ildə ehtiyatda olan hərbi pilot İdris Debinin başçılığı altında üsyançı qruplaşma Habreni devirdi. Bunun ardınca ölkədə konfrans keçirildi və hökumətpərəst siyasi hərəkat olan Vətənpərvər Qurtuluş Hərəkatı (Patriotic Salvation Movement) yaradıldı. 2004 ilin mayında İ.Debiyə qarşı zaqava etnik qrupuna mənsub (prezident özü də bu qrupa mənsubdur) zabit və əsgərlərin çevriliş cəhdi baş verdi.

2005 ildən Ç. Sudanla müharibə şəraitindədir. 2006–08 illərdə Sudanın dəstəyi ilə Birləşmiş cəbhənin üsyançıları dəfələrlə paytaxtı ələ keçirməyə və diktatoru devirməyə cəhd göstərmişlər.

**Təsərrüfat.** Ç. iqtisadi cəhətdən geridə qalmış aqrar ölkədir. ÜDM-in həcmi təqr. 28 mlrd. dollar (alıcılıq qabiliyyəti pariteti üzrə; 2013), adambaşına – 2,5 min dollar; real ÜDM artımı təqr. 3,9% (2013); insan inkişafı indeksi 0,340 (2013; dünyanın 186 ölkəsi arasında 184-cü yer) təşkil edir. ÜDM-in strukturu (2013): xidmət sferası – 43,8%, sənaye – 9,9%, k.t. – 46,3%. Əsas ixrac bitkisi olan pambıq (ildə 213 min *t* pambıq yığılır) ən çox Ç.-ın c. və q. hissələrində becərilir. Əsas ərzaq bitkiləri: darı və kalış (ildə təqr. 700 min *t*), çəltik, araxisdir. Əhalinin 1/3 hissəsi köçəri və yarımköçəri maldarlıq ilə məşğuldur. Qaramalın ümumi sayı 4,9 mln. başdır; keçi – 3,2 mln., qoyun – 2,2 mln., dəvə – 0,7 mln. təşkil edir. Balıqçılıq (ildə 60 min *t*) mühüm yer tutur. Sənayesi əsasən, k.t. xammalının emalı (yağ, ət sənayesi, çəltiktəmizləmə və s.) və toxuculuq üzrə xırda müəssisələrdən ibarətdir. Ç. gölündən soda hasil edilir. Elektrik enerjisi istehsalı ildə 98 mln. *kVt/saat* təşkil edir (2010). D.y. yoxdur. Avtomobil yollarının uz. 40 min *km*-dir, o cümlədən 1%-i bərk örtüklüdür (2013). Loqone və Şari çayları gəmiçiliyə yararlıdır.

Pambıq, diri mal-qara, ət, dəri və s. ixrac edilir. Əsas xarici ticarət tərəfdaşları – ABŞ, Fransa, Portuqaliya, Almaniya, Belçika, Lüksemburq, Çin və Nigeriyadır.

**Silahlı qüvvələr.** Silahlı qüvvələr (SQ) quru qoşunları (QQ), HHQ və jandarmeriyadan ibarətdir. SQ çağırış və kö-



Yoa gölü.

Çad gölü yaxınlığında kənd.





Zakuma Milli Parkı.

nüllülük prinsipi əsasında komplektləşdirilir. 20 yaşı tamam olan kişilər hərbi xidmətə çağırılır. Xidmət müddəti 3 ildir. Könüllü hərbi xidmətə 18 yaşından icazə verilir. 21 yaşına çatmış qadınlar 1 illik hərbi xidmət keçməli, yaxud həmin müddət ərzində dövlət mülki xidmətində qulluq etməlidirlər. Hərbi xidmətə yararlı olan 16–49 yaş arası kişilər 1183242 nəfər, 16–49 yaş arası qadınlar 1395811 nəfərdir. Hərbi xərclər ÜDM-in 1,7%-ni təşkil edir (2006; dünyada 90-cı yer). HHQ 4 nəql. təyyarəsi, 6 ümumi təyinatlı təyyarə, 8 təlim-məşq təyyarəsi, 10 ümumi təyinatlı helikopter, 4 nəql.-döyüş helikopteri ilə silahlanmışdır.

T ə h s i l. Ç.-ın təhsil sisteminə məktəbəqədər təhsil müəssisələri (2–6 yaşlı uşaqlar üçün), ibtidai (6–11 yaşlı uşaqlar üçün), orta təhsil (11–18 yaşlı uşaqlar üçün) ilk peşə-texniki təhsil məktəbləri və ali məktəblər daxildir. Ç.-da 1918 ildə ilk müsəlman məktəbi "Ecole Mohamed Illech" açılmışdır. 1942 ildə dövlət orta məktəbləri açılmış, 1950 ilin ortalarında məktəb proqramı təsdiq olunmuşdur. Ç. müstəqillik qazandıqdan sonra Savadsızlığın ləğvi üzrə dövlət mərkəzi yaradılmış (1962) və 4 illik icbari təhsil haqqında qanun qəbul edilmişdir (1967).

Millətlər meydanı. Ncamena.




Tədris fransız dilindədir. Ncamena un-ti (1971; indiki adı 1994 ildəndir) və Roi Faycal un-ti fəaliyyət göstərir; Abeşe Elm və Texnologiya İn-tu (1997), Milli Statistika və İqtisadi tədqiqatlar İn-tu, Pambıq və Toxuculuq Elmi Tədqiqat İn-tu və s.; Elmi Araşdırmalara Yardım Milli Mərkəzi var.

Ə d ə b i y y a t. Əsasən, xalq nağıl və əfsanələri əsasında inkişaf etmişdir. Fransız dilində milli ədəbiyyat 1906 ildə yaranmışdır. İlk nəşr olunan əsər J. B. Səidin "Çaddan olan uşaq" (1967) romanıdır. Baba Mustafa, Antuan Bangi və Kulsi Lamko tanınmış yazıçılardır. 2003 ildə ədəbi tənqidçi Əhməd Taboye 20 əsrin 40-cı illəri Ç. ədəbiyyatı antologiyasını çap etdirmişdir.

T ə s v i r i  v ə  d e k o r a t i v  s ə n ə t. Ç.-ın c.-unda qədim Sao mədəniyyəti abidələri (əsasən, 8–10 əsrlər) aşkar edilmişdir (məskən qalıqları, məişət keramikası, terrakotadan, tuncdan insan və heyvan heykəlcikləri). Kənd yaşayış məskənləri çəpər, yaxud möhrə hasarla əhatələnən daxmalardan ibarətdir. Şəhərlərdə daxili həyətli və yastı damlı evlər tikilir. Dəri məmulatı istehsalı, toxuculuq, tikmə, metalişləmə, hörmə, dulusçuluq sənətləri inkişaf etmişdir.

M u s i q i. Ç. musiqisindəki rəngarənglik əhalinin etnik tərkibinin müxtəlif olmasından irəli gəlir. Mahnı və rəqslərin çoxu müəyyən peşə (ovçular rəqsi – mdomdanq), mərasim (ndon, mbessi, bayan rəqsləri oğlan və qızların yetkinlik yaşına çatmaları münasibətilə, klyaq rəqsi dəfn zamanı ifa olunur və bayramlarla (amdjermane, mbille, sai, basaka, djoro-djoro) bağlıdır; mədhiyyə xarakterli mahnılar xalq yaradıcılığında xüsusi yer tutur. Qadınlar, əsasən, instrumental müşayiət olmadan vokal musiqini ifa edirlər; tuareqlərdə istisna olaraq qadınlar xorla ifalarını təbillə müşayiət edirlər. Musiqi alətlərindən təbil (gil və müxtəlif ağaclardan düzəldilmiş), eləcə də şaxşax, zənglər, bir neçə növ ksilofon geniş yayılmışdır. Kişilərin simli musiqi alətində çalması, qadınların oxuması xalq musiqisi üçün səciyyəvidir. Keleli kimi simli alətlərdə yalnız kişilər çalır. Xu-xu, kakaki, marakas, lütnya və s. ənənəvi musiqi alətləridir. Kanembu xalqı musiqi aləti kimi fleyta və barabandan, sara xalqı isə fıştırıq və arfadan istifadə edir.

1960 ildə müstəqillik qazandıqdan sonra ölkədə musiqi mədəniyyətinə diqqət artmışdır. Pop musiqisi geniş yayılmışdır: "International Challal" və "Afrikan Melodu" pop qrupları fəaliyyət göstərir. Ncamena Un-tinin nəzdində təşkil olunmuş Milli Mərkəz musiqi folklorunun toplanması və işlənilməsi üzrə iş aparır. 1970 ildə Milli Rəqs Ansamblı yaradılmışdır.

K i n o. Ç.-da istehsal olunan ilk film rej. E. Seylinin sənədli "Largeau" lentidir (1966). "The Child of Chad" (1969) və "The Discovery of Chad" (1972) filmlərini də E. Seyli çəkmişdir. Vətəndaş müharibəsi ilə əlaqədar kino istehsalı sahəsində böyük fasilə yaranmışdı. 1994 ildə Zara Məhəmməd Yaqubun "Dilemme au Feminin" və İssa Serjin "A Taxi for Aouzou" filmləri, 1999 ildə "l'Enfance confisquel" (rej. Zara Yaqub) və "Bye Bye Afrika" [Məhəmməd Saleh Harun (Ç.-ın tammetrajlı film çəkmiş ilk rej.-u)], 2003 ildə Məhəmməd Harunun "Abouna" filmi çəkilmişdir. 1950-ci illərdə tikilmiş və uzun müddət bağlı qalmış "Normandu" kinoteatrı bərpadan sonra 2011 ildə yenidən açılmışdır. Filmlərin çoxu fransız dilində çəkilir.

*Əd.*: B r a n d i l y M. Un exorcisme musical chez les Kotoko, в кн: La musique dans la vie.

**ÇAD ARTEZİAN HÖVZƏSİ** – Çad ərazisini, Nigeriyanın şm.-q.-ini, Nigerin ş.-ini və Əlcəzairin c.-ş.-ini əhatə edir. Sah. 1,64 mln. *km*²-dir. Struktur cəhətdən Çad sineklizi və onu haşiyələyən Kembriyəqədər massivlərin (Daqomeya-Nigeriya, Ahaqqar, Tibesti, Kamerun) yamacları hüdudlarındadır. Alt Tabaşirin süxurları ilə əlaqədar şirin suyun proqnoz ehtiyatı 20 min *km*³, Pliosen-Dördüncü dövr süxurları ilə əlaqədar isə 3,6 min *km*³-dir. Alt Tabaşir çöküntülərindəki sular hidrokarbonatlı-kükürdlü-kalsiumlu-maqneziumludur; quyuların debiti 0,1–8 *l/san*-dir. Pliosen-Dördüncü dövr çöküntülərindəki sular hidrokarbonatlı-natriumlu və kükürdlü-hidrokarbonatlı-natriumludur; 5–10 *m* dərinlikdə qrunt sularının artezian quyularında debiti 2,5–30 *l/san*-dir. 400 *m*-dən yuxarı dərinlikdə sular basqılıdır, quyuların debiti 5–10 *l*/san təşkil edir.

**ÇAD DİLLƏRİ**, h a u s a - k o t o k o  d i l l ə r i – Qərbi və Mərkəzi Afrikada yayılmış dillər qrupu. Afrasiya dillərinə aid edilir (bax *Sami – Hami dilləri*). Genetik baxımdan 3 yarımqrupa bölünür: 1) Qərbi Çad (Şimali Nigeriya) – hausa; anqas, sura, gerka, ankve, montol; karekare, boleva, nqamo, kanakuru (dera); varci, paa (afa); bade, nqizim; ron (fyer, bokos, sa, kulere) və s.; 2) Mərkəzi Çad (Şm.)-Şərqi Nigeriya, Şimali Kamerun, Çad) – tera, qaanda; bura, margi, kilba (xıba); xigi; bata; laamanq (xidkala) və s.; vandala (mandara), qamerqu, paduko, qlavda; sukur; matakam, gisiqa; daba; gider; kotoko (loqone, buduma və s.); musqu; masa və s.; 3) Şərqi Çad (Çad, Mərkəzi Afrika Resp.) – kera, nançere, somray, modqel, sokoro, mubi, tumak, tuburi və s. Ç.d.-nin ümumi sayı 150-dən çoxdur. Alman alimləri (İ. Lukas, D. Vesterman) Ç.d.-ni tipoloji əlamətlərinə əsasən iki müstəqil qrupa – Çad və Çad-hami qrupuna ayırır. Bunlardan yalnız Çad-hami dilləri Afrasiya (sami-hami) dillərinə qohum dil hesab olunur. C. *Qrinberq* isə Ç.d.-nin hamısının Afrasiya (sami-hami) dillərinə aid olduğunu sübut etmişdir.

Ç.d.-nin fonetikası üçün zəngin konsonantizm xarakterikdir. Morfoloji strukturu tipoloji cəhətdən müxtəlifdir.

*Əd.:* Д ь я к о н о в И.М. Семитохамитские языки. М., 1965; W e s t e r m a n n D., B r y a n M. The languages of West Africa. L., 1970.

**ÇADIR** – müvəqqəti yaşayış üçün ev tipi. Azərb.-da Ç.-ın bir sıra növləri (ağ Ç., qara Ç., kolux) yayılmışdır. A ğ Ç. yerə dikinə basdırılmış dirək (ucuna ortasında dəlik olan 0,2–0,25 *m* radiuslu taxta keçirilir) və üzərinə konusvarı formada çəkilmiş brezentdən ibarətdir. Q a r a Ç.-ın əsasını yerə bərkidilmiş 6–8 çubuq təşkil edir. Üstü dördkünc qara yun palazla örtülür. K o l u x Ç.-ın əsasını bir-birindən 3–4 *m* aralı yerə bərkidilmiş bir cüt dirək (hünd. 1,5–2 *m*) və onları birləşdirən köndələn tirdən ibarət karkas təşkil edir. Ç.-ın aşağı hissəsi yerə vurulmuş mıxçalara ip vasitəsilə bərkidilir. Hazırda Mərkəzi və Orta Asiyada, Sibirdə və s. yerlərdə mal-qaranın köçürüldüyü otlaqlarda, düşərgə və yaylaqlarda Ç.-dan istifadə edirlər.

**ÇADIRLI** (2008 ilədək Şatrovka) – Azərb. Resp. Salyan r-nunun Qaraçala ə.d.-ndə kənd. R-n mərkəzindən 39 *km* şm.-da, Salyan–Şirvan avtomobil yolu kənarında, Kür çayının sol sahilində, Cənub-Şərqi Şirvan düzündədir. Əh. 1515 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.



Çadobets çayı.

**ÇADOBETS** – RF-nin Krasnoyarsk diyarında çay. Anqaranın sağ qolu. Uz. 647 *km*, hövzəsinin sah. 19,7 min *km*². Orta Sibir yaylasında axır. Qar və yağış suları ilə qidalanır. Gursuludur (may-iyun), yayda daşqınlar olur. Yarkino k. yaxınlığında orta su sərfi 55,2 *m*³/*san*-dir. Oktyabrdan mayadək donmuş olur.

**ÇADRA** – müsəlman qadınların üst geyim örtüyü. Adətən, evdən kənara çıxarkən yaşınmaq məqsədilə istifadə edilir. Ç. başdan ayağadək bütün bədəni örtür, təkcə göz hissəsi açıq saxlanılır. Ç. ağ, göy, boz, qara rəngli parçadan düzbucaqlı, yaxud oval formada olur. İranda, Əfqanıstanda, ərəb ölkələrində (İraq, Yəmən və s.) Ç.-dan, əsasən, şəhərlərdə istifadə edirlər.

**ÇAĞACIQ** – Azərb. Resp. Quba və Xaçmaz r-nlarında çay. Uz. 65 *km*, hövzəsinin sah. 288 *km*². Yan silsilədən, 1780 *m* hünd.-dən başlanır. Xəzər dənizinə tökülür. Əsasən, yağış suları ilə qidalanır. Suvarmada istifadə olunur.

**ÇAĞADÜZ** – Azərb. Resp. Xocavənd r-nunun Tağaverd ə.d.-ndə kənd. R-n mərkəzindən 55 *km* c.-q.-də, dağlıq ərazidədir. Əh. 127 (2011); işğaldan (1992, oktyabr) əvvəl maldarlıqla məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var idi.

**ÇAĞAN MİNERAL SU BULAQLARI** – Azərb. Resp. Şamaxı r-nu ərazisində, r-n mərkəzindən 11 *km* şm.-q.-də, Qırxbulaq çayının sol sahilində, təqr. 510 *m* yüksəklikdə yerləşir; iki termal bulaqdan ibarətdir. Birinci bulaqda suyun temp-ru

36,3°C, debiti 170 $m^3$/*gün*, minerallaşma dərəcəsi 0,9 *q/l*-dir. Balneoloji tərkibi:

$$M\,0{,}9\frac{Cl61HCO_3 34}{Na91(Ca8)}$$

T 36,3°C D 170 $m^3$/*gün* pH 7,5

Suyu hidrogen-sulfid və metan qazlı, bromlu, yodlu, xlorlu, hidrokarbonatlı, natriumlu-kalsiumludur.

İkinci bulaqda suyun temp-ru 33,2°C, debiti 130 $m^3$/*gün*, minerallaşma dərəcəsi 1,7 *q/l*-dir. Balneoloji tərkibi:

$$M\,1{,}7\frac{SO_4 74(Cl14)}{Na75Ca22}$$

T 33,2°C D 130 $m^3$/*gün* pH 7,4

Suyu hidrogen-sulfid və metan qazlı, sulfatlı, xlorlu, natriumlu, kalsiumludur. Yerli əhali hər iki sudan vanna qəbulu üçün istifadə edir.

*Əd.:* Тагиев И.И., Ибрагимова И.Ш., Бабаев А.М. Ресурсы минеральных и термальных вод Азербайджана. Б., 2001

**ÇAĞANƏ** – kamanla çalınan simli musiqi aləti; kasayabənzər dərin çanağı, 3–4 simi olmuşdur. Ç. tipli simli musiqi aləti Gürcüstan və Dağıstanda da geniş yayılmışdı. Orta əsr klassik şairlərin (Qətran Təbrizi) əsərlərində zərb musiqi aləti kimi də adı çəkilir. Ç. aləti musiqişünas M. Kərimov tərəfindən 20 əsrin sonlarında bərpa edilmiş və qədim musiqi alətləri ansamblında istifadə olunur.


Çağanə.

**ÇAĞIRƏHMƏD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Acırlı kəndistanında, Marağa ş.-ndən 31 *km* c.-q.-dədir.

**ÇAĞIRIŞ OPERATORU** – proqramlaşdırma dillərində CALL (çağırış, müraciət) altproqramına müraciət edən, ona idarəetməni və verilənləri (arqumentləri) ötürən *operator*.

**ÇAĞIRIŞ SİQNALI**, t a n ı n m a s i q n a l ı – radiostansiyanın hər iş seansının əvvəlində verilən səs siqnalları (söz, musiqi, ifadə və s.); qəbul zamanı st.-nın tanınması üçündür.

**ÇAĞIRMA** – 1) r a b i t ə t e x n i k a s ı n d a tərəflərdən birinin digəri ilə mərkəzi stansiya vasitəsilə əlaqə yaratması prosesi; 2) qurğular arasında rabitə yaratmaq üçün onlardan biri tərəfindən sabit və ya dəyişən cərəyan şəklində göndərilən siqnal; 3) h e s a b l a m a t e x n i k a s ı n d a – a) giriş şərtlərini dəqiqləşdirmək və idarəetməni giriş nöqtəsindən başlamaqla maşın proqramının aktivləşdirilməsi; b) telekommunikasiya və ya məsafədən idarəetmə sistemlərində rabitə seanslarının başlanması əməliyyatı.

**ÇAĞRI BƏY**, D a v u d Ç a ğ r ı b ə y b i n M i k a y ı l S ə l c u q (990–1060) – səlcuq məliki, *Səlcuqun* nəvəsi, Mikayıl Yabqunun oğlu, sultan *Alp Arslanın* atası. Qardaşı *Toğrul bəylə* yanaşı, Səlcuq dövlətinin banisi idi. *Qəznəvilərin* oğuz tayfalarını sıxışdırması Ç.b.-in tayfasının Xorasandan Mərvə köçməsinə səbəb olmuşdur. Yetkinlik yaşında Ç.b qardaşı Toğrul bəylə Qınıq tayfasına başçılıq etmişdir. İki qardaş tədricən ətraflarındakı bütün oğuz tayfalarını birləşdirməklə Qəznəvilərə qarşı qəti hücuma keçmişdilər. Nisa döyüşündə (1035) səlcuqlara məğlub olan I Məsud Qəznəvi [1030–41] Ç.b.-ə "dehqan" titulunu və Dehistan əyalətini vermişdi. Məsud Qəznəvi sülh müqaviləsinin şərtlərinə əməl etmədiyindən Ç.b. 1037 ildə Mərvi, 1038 ildə isə Heratı ələ keçirmişdi. Mərv yaxınlığında baş vermiş *Dəndənəkan vuruşmasında (1040)* Ç.b. Məsud Qəznəvini yenidən məğlubiyyətə uğratmışdı. Böyük Səlcuq imperiyasının təməlini qoymuş bu zəfərdən sonra toplanan qurultayda Toğrul bəy dövlətin başçısı, Ç.b. isə mərkəzi Mərv olmaqla Ceyhun (Amudərya) ilə Qəznə arasındakı torpaqların məliki elan olunmuşdu. Ç.b.-in başçılığı ilə səlcuq ordusu Xarəzm, İran, Əfqanıstan, Şərqi Anadolu, İraq, Azərb. və Ermənistanı zəbt etmişdi. Ç.b. oğlu Alp Arslanı Qəznəvilərə qarşı vuruşan ordunun başçısı təyin etmiş, onu qıpçaq başbuğunun qızı ilə evləndirərək qıpçaqları öz tərəfinə çəkmişdi. Uzunmüddətli qəznəvi-səlcuqi müharibələri 1058 ildə Sultan İbrahimin Qəznə taxtına çıxması, hər iki dövlətin öz sərhədlərini müəyyənləşdirərək, birbirinə hücum etməmək haqqında müqavilə bağlaması ilə nəticələnmişdi. Ç.b. Serahsda vəfat etmiş, Alp Arslan atasının cənazəsini Mərvə gətirtmişdi. Toğrul bəyin övladı olmadığından Səlcuqilər sülaləsini Ç.b.-in xələfləri davam etdirdilər.

**ÇAĞUŞ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Razlıq kəndistanında, Sərab ş.-ndən 3 *km* şm.-dadır.

**ÇAHAR** – Azərb. Resp. İmişli r-nunun Qaradonlu ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* c.-da, Araz çayının sağ sahilində, Muğan düzündədir. Əh. 1218 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana var.

**ÇAHARAYMAKLILAR** (far. چهار – "dörd" + türk. oymaq – "el", "ulus"; "dörd oymaq") – Əfqanıstanın şm.-q.-ində (təqr. 1 mln. 404 min nəfər), İranın şm.-ş.-ində (təqr. 209 min nəfər) və Tacikistanda (təqr. 7 min nəfər) yaşayan qohum xalqlar qrupu; İran və türk-monqol mənşəli tayfaların qaynayıb-qarışması nəticəsində əmələ gəlmişlər. *Cəmşidilər*, *firuzkuhilər* (f i r u z a k u h i l ə r), *teymanilər* (t a y m a n i l ə r) və *teymurilərdən* ibarətdir. Suri (z u r i), tahiri və xəzəri (k a l a y i - n a u) subetnik qrupları da var. Ümumi sayları təqr. 1 mln. 620 min nəfərdir (2012). Türk sözlərinin üstünlük təşkil etdiyi dəri dilinin aymaki dialektində danışırlar. Dindarları müsəlmandır.

Ulu vətənləri Sistan olan cəmşidilər özlərini şah Cəmşidin nəslindən hesab edirlər. Əfsanəyə görə, firuzkuhilər Teymur tərəfindən Mazandarandakı Firuzkuh qalasından köçürülmüşlər. Teymanilər qıpçaqların və durzailərin tayfa ittifaqından ibarətdirlər. Teymurilər etnonimi, ehtimal ki, əmir Teymurla bağlıdır. Rəvayətə əsasən, Teymurun öz sərkərdələrindən birinə bağışladığı teymurilər sərkərdənin başçılığı altında Herata gəlib çıxmışdılar.

19 əsrin sonlarına qədər köçəri maldarlıqla məşğul olan Ç. tədricən oturaq həyata keçmişlər. Əkinçilik (buğda, arpa, yağlı bitkilər) və heyvandarlıqla (əsasən, qoyunçuluq) məşğul olurlar. Toxuculuq, dabbağlıq və s. də inkişaf etmişdir. Mövsümçülük yayılmışdır. Ç.-ın əksəriyyəti yurdlarda yaşayır. Geyimləri tuman və köynəkdir. Kişilər üçün yapıncı səciyyəvidir. Qadınlar çoxsaylı bəzək əşyası, o cümlədən burun sırğası taxırlar. Yeməkləri: buğda və ya arpa çörəyi, ağartı məhsulları (qatıq, kəsmik, qurut, kərə yağı), xəmir xörəkləri və s. İctimai məişətdə və ailədə patriarxal ənənələr saxlanılır. Levirat və qonaqpərvərlik adətləri qalmaqdadır.

**ÇAHARBƏRUD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Dəhxarqan bölgəsinin Ətraf kəndistanında, Dəhxarqan qəs.-ndən 21 *km* c.-ş.-dədir.





**ÇAHARBÜRC** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Miyandab bölgəsinin Mərhəmətabad kəndistanında, Miyandab qəs.-ndən 21 *km* şm.-q.-dədir.

**ÇAHARDULU** – İranın Şərqi Azərbaycan ostanında kəndistan. Marağa şəhristanının Mərkəzi bölgəsinin c.-ş.-indədir.

**ÇAHARGAH** – *muğam*. 1) Azərb. musiqisində irihəcmli muğamlardan biri. Mayeyi-çahargah, Bəstənigar, Manəndi-müxalif, Hisar, Qərrə, Məalif, Müxalif, Məğlub, Mənsuriyyə, Üzzal şöbələrindən ibarətdir. Ç. ekspressivliyi, gərgin dramatizmi, mübariz ruhu ilə fərqlənir. 2) Azərb. xalq musiqisinin əsas məqamlarından biri. *Əbdülqadir Marağayi* və Əbdürrəhman Caminin musiqi nəzəriyyəsinə




dair traktatlarında Ç. məqamının adı "şöbə" kimi çəkilmişdir. Ç. şöbəsinin səsdüzümü 4 tondan ibarət olmuşdur (adı da buradandır). Müasir Azərb. musiqisində Ç. bir neçə şöbədən ibarət inkişaf etmiş məqamdır. Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" əsərində Ç. məqamının 2 növ səsdüzümünü vermişdir. Ç. muğamı, onun bütün təsnif və rəngləri, bir çox Azərb. xalq mahnı və rəqs melodiyaları Ç. məqamına əsaslanır.

**ÇAHARQALA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Təkab bölgəsində, Təkab qəs.-ndən 8 *km* şm.-q.-dədir.

**ÇAHARLAR** (monqol dilində "nökər", "xanın müşayiətçisi", "qoruyucu") – Çində monqolların tərkibində subetnik qrup. Sintszyan-Uyğur və Daxili Monqolustan muxtar r-nlarında yaşayırlar. Sayları Çində 12 min nəfərdir. Monqolustanda yaşayan 3 min çahar xalxalarla qaynayıb-qarışmışdır. Monqol dilinin dialektində danışırlar. Etnonim 13 əsrdən məlumdur. Əvvəllər sosial qrup olan Ç. sonralar etnosa çevrilmişlər. Çahar xanlığı Daxili Monqolustanın güclü dövlətlərindən biri olmuş, 17 əsrdə Çinin tərkibinə daxil edilmişdir. Mədəniyyətləri qonşu monqol qruplarına yaxındır.

**ÇAHAROYMAQ** – İranın Şərqi Azərbaycan ostanında kəndistan. Marağa şəhristanının Qaraağac bölgəsinin şm.-ındadır.

**ÇAHARPARƏ**, ç a l p a r ə – idiofonlu, zərblə çalınan qədim musiqi aləti. Qara rəngli abnos ağacından düzəldilən Ç. dörd hissədən ibarət olurdu (adı da buradan götürülmüşdür: farsca, çahar – dörd və parə – hissə). Qoşa ağac çubuqla çalınır. Müasir dövrdə bəzi ansambllarda istifadə olunur.

**ÇAHARTAĞ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Ənquran kəndistanında, Mahnişan qəs.-ndən 50 *km* c.-ş.-dədir.

**ÇAHARTAĞ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Təkab bölgəsinin Əhmədabad kəndistanında, Təkab qəs.-ndən 31 *km* şm.-ş.-dədir.

**ÇAHARTAR**, ç a r t a r – dördsimli *tənburun* bir növü. Armudabənzər çanaqdan, uzun qoldan ibarət Ç.-ı metal mizrabla çalmışlar. İran musiqişünası Ruhulla Xaliqinin verdiyi məlumata görə, bu aləti Şah İsmayıl Xətainin atası Şeyx Heydər icad etmişdir. Orta əsrlərdə Azərb.-da geniş yayılmış, 19 əsrdən tədricən aradan çıxmışdır. Evliya Çələbi "Səyahətnamə" əsərində dövrünün ən məşhur çahartarçalanı azərb. Muradağa Naxçıvaninin adını çəkmişdir. Ç.-dan hazırda Azərb.-da "İrs" folklor ansamblında, Tac. və Özb.-da qismən istifadə olunur.

**ÇAHARYEK**, ç a r y e k (far. چهاریک – dörddə bir) – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, o cümlədən Azərb.-da vergi. Torpaq sahibinin xeyrinə natura şəklində toplanılırdı. Miqdarı icarəyə verilmiş əkin sahələrində yetişdirilən məhsulun dörddə biri həcmində idi. Səfəvilər dövründə geniş yayılmışdı. Xanlıqlar dövründə *bəhrə*, *malcəhət* adı ilə də toplanılırdı.

**ÇAXÇAXLI** – Azərb. Resp. Xaçmaz r-nunun Susayqışlaq ə.d.-ndə kənd. R-n mərkəzindən 31 *km* şm.-da, Samur-Dəvəçi ovalığındadır. Əh. 220 (2011); maldarlıq və tərəvəzçiliklə məşğuldur.

**ÇAXÇUR** – qadın geyim dəstinə aid libas növü. Əsasən, şəhər qadınlarına, ən çox isə kübar ailələrə məxsus idi. Ayağı büzməli şalvarı xatırladırdı. Yaxın və Orta Şərq ölkələrində, Orta Asiya, Qafqaz, o cümlədən Azərb.-da geniş yayılmışdı. Hazırda dəbli geyim elementi kimi də istifadə olunur.

**ÇAXIR** – bax *Şərab*.

**ÇAXIR ÇƏMƏNİ** – İranın Ərdəbil ostanında kənd. Meşgin şəhristanının Mərkəzi bölgəsinin Ərşəq kəndistanında, Meşgin şəhrdən 42 *km* şm.-dadır.

**ÇAXIR DAŞI** – bax *Çaxır turşuları*.

**ÇAXIR SPİRTİ** – bax *Etil spirti*.

**ÇAXIR TURŞULARI**, d i h i d r o k s i k ə h r ə b a t u r ş u l a r ı – ikiəsaslı doymuş alifatik *hidroksiturşular*, HOOCCH(OH)CH(OH)COOH. Üç stereoizomer (*D*-çaxır, *L*-çaxır və mezoçaxır turşuları) və rasemat (üzüm turşusunun) şəklində mövcuddur.

*D*-Çaxır turşusu (çaxır daşı və ya çaxır turşusu) çoxlu meyvə və giləmeyvələrdə olur; rəngsiz kristal maddədir, $t_{ər}$ 170°C, sıxlığı 1760 $kq/m^3$, xüsusi optiki fırlanması +11,98° ($H_2O$). *D*-Çaxır turşusunun pirolizindən *piroüzüm turşusu* əmələ gəlir. *D*-Çaxır turşusunun duzları və efirləri tartratlar adlanır. Çaxır saxlanıldıqda çökən çaxır daşına – kalium-hidrotartrata HOOCCH(OH)CH(OH)COOK mineral turşularla təsirindən *D*-çaxır turşusu alınır. *D*-Çaxır turşusu məhlulunu qələvi ilə qaynatdıqda optiki qeyri-fəal üzüm və mezoçaxır turşularının qarışığı əmələ gəlir.

Üzüm turşusu ( $t_{ər}$ 205°C, sıxlığı 1687 $kq/m^3$) ilə xlorid turşusu 130°C-ə qədər qızdırıldıqda qismən mezoçaxır turşusuna ( $t_{ər}$ 140°C, sıxlığı 1666 $kq/m^3$ ) – *D*- və *L*- çaxır turşularının diastereomerinə çevrilir. Rasematın parçalanmasından L-çaxır turşusu (*D*-çaxır turşusunun optiki izomerləri) alınır.

Ç.t. və onun duzları qida və toxuculuq sənayesində, tibdə, qalvanoplastikada, üzvi sintezdə, analitik kimyada (məs., *seqnet duzu*, Felinq reaktivinin hazırlanmasında) tətbiq edilir.

**ÇAXIRLI** – Azərb. Resp. Cəbrayıl r-nunun Mehdili ə.d.-ndə kənd. R-n mərkəzindən 31 *km* c.-ş.-də, Araz çayının sol sahilində, düzənlikdədir. Əh. 694 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, taxılçılıq, üzümçülük, baramaçılıqla məşğul olurdu. Orta məktəb, kitabxana, tibb məntəqəsi var idi.

**ÇAXIRLI** – Azərb. Resp. Göyçay r-nunda kənd. Çaxırlı ə.d.-nin mərkəzi. R-n mərkəzindən 25 *km* c.-ş.-də, Şirvan düzündədir. Əh. 3335 (2011); maldarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, uşaq bağçası, mədəniyyət evi, tibb məntəqəsi var.

**ÇAXIRLI** – Azərb. Resp. İmişli r-nunun Məzrəli ə.d.-ndə kənd. R-n mərkəzindən 18 *km* c.-da, Muğan düzündədir. Əh. 1561 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi var.

**ÇAXIRLI** – Azərb. Resp. Masallı r-nunda kənd. Çaxırlı ə.d.-nin (Çaxırlı, Bala Təklə,

İmanlı, Kəlbəhüseynli, Sarıcəfərli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 18 *km* şm.-q.-də, Lənkəran ovalığındadır. Əh. 1999 (2011); maldarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi var.

K.-də Tunc dövrünə aid kurqan, orta əsrlərə aid Ç. qalası, Seyid Nəbiəddin ocağı (18 əsr), məscid (19 əsr) yerləşir.

**ÇAXIRLI** – İrəvan xanlığının Göyçə mahalında (9.9.1930 ildən Basarkeçər, 11.6. 1969 ildən Vardenis r-nu), Çaxırlı k. yaxınlığında yayla.

**ÇAXIRLI,** Q ı z ı l b u l a q – İrəvan xanlığının Göyçə mahalında (9.9.1930 ildən Basarkeçər, 11.6. 1969 ildən Vardenis r-nu), Göyçə gölünün c.-q. sahilində, Qızılbulaq çayının kənarında azərb.-ların yaşadığı kənd. İlkin mənbələrdə kəndin adının Qızılbulaq, ikinci adının isə Çaxırlı olduğu qeyd edilmişdir. 1918–19 illərdə kənd erməni-daşnak təcavüzünə məruz qalmış, əhalisi qovulmuş və burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922 ildə kəndin keçmiş sakinlərindən bir hissəsi geri qayıtmışdır. 25.1.1978 ildə kəndin adı dəyişdirilərək Sovetakert, 19.4.1991 ildə isə yenidən dəyişdirilərək Xaçaxpyur qoyulmuşdur. 1988 ilin noyabr-dekabr aylarında kəndin bütün azərb. əhalisi növbəti dəfə doğma yurdundan deportasiya olunmuşdur.

**ÇAXLAMAZ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Qavdul kəndistanında, Marağa ş.-ndən 58 *km* c.-ş.-dədir.

**ÇAXMA SÜZGƏC** – özüaxıdan drenaj qurğusu; perforasiyalı metal borudan (uz. 1 *m*, diametri 30–50 *mm*) və sulu qumların qurudulması üçün, həmçinin şaxtaların qazılması, karyerlərin yeraltı qurudulması zamanı işlədilən suaxıdan borulardan ibarətdir.

**ÇAXMAQ** – çaxmaqdaşına sürtməklə (vurmaqla) od almaq üçün işlədilmiş dəmir və ya polad məmulat. Girdə və ya düzbucaqlı-oval formalı olurdu. Ç.-dan uzun müddət, dəmir meydana çıxandan kibrit ixtira olunanadək (19 əsr) istifadə edilmişdir.

**ÇAXMAQ** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Amasiya r-nu), Arpaçayın sağ sahilində azərb.-ların yaşadığı kənd. 1916–18 illərdə kənd erməni təcavüzünə məruz qalmış, dağıdılmış, əhalisi isə Türkiyə ərazisinə köçmüşdür. 1922 ildə geri qayıtmış əhali kəndi yenidən bərpa etmişdir. Bu zaman kəndə xaricdən gəlmə ermənilər də yerləşdirilmişdir. 1988 ildə kəndin bütün azərb. əhalisi yenidən deportasiyaya məruz qalmışdır. 19.4.1991 ildə kəndin adı dəyişdirilərək Kamxut qoyulmuşdur.

**ÇAXMAQBULAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 30 *km* şm.-q.-dədir.

**ÇAXMAQDAŞI** – silisium-oksidin (kvars, xalsedon, nadir hallarda opalın) kristallik və amorf aqreqatı. Təbiətdə əhəngdaşı və yazı tabaşiri arasında konkresiya və lay şəklində geniş yayılmışdır. Çöküntülərin diagenezi, süxurların katagenezi və aşınma zamanı əmələ gəlir. Rəngi sarımtıl-bozdan qaraya-



Çaxmaqdaşı.

dək dəyişir. Sərtliyi 7, sınması qabıqvarıdır. Qoparıldıqda iti kəsici uc əmələ gətirdiyindən insanlar C.-dan Dəmir dövrünədək daş alətlər hazırlanmasında və s. istifadə etmişlər.

**ÇAXMAQDAŞILI TÜFƏNG** – çaxmaqdaşılı sürgüsü olan odlu əl silahı. 16–19 əsrlərdə müxtəlif ölkələrin ordularında istifadə olunmuşdur. Ç. t.-lərdə çaxmaqdaşı və fırlanan *çaxmaq* vasitəsilə alınan qığılcım atımı (barıtı) alışdırırdı. Ç.t.-in kalibri 17,5–21,5 *mm*, ağırlığı 4–5,6 *kq*, atəş məsafəsi tüfəngin növündən (hamar və ya yivli lüləli) asılı olaraq 140–800 *m* idi. Hamarlüləli Ç.t. ilə *dəq*-də bir, yivli lüləli tüfənglə isə 5 *dəq*-də bir atəş açmaq mümkün idi. 19 əsrdə Ç.t. zərbəli sürgülü tüfənglərlə əvəz edilmişdir.

**ÇAXMAQLI** – Azərb. Resp. Xaçmaz r-nunun Qaraçı ə.d.-ndə kənd. R-n mərkəzindən 7 *km* c.-ş.-də, Ağçayın sağ sahilində, Samur-Dəvəçi ovalığındadır. Əh. 143 (2011); maldarlıq, əkinçilik, bağçılıq və tərəvəzçiliklə məşğuldur.

**ÇAXMAQLI** – Azərb. Resp. Qazax r-nunun İkinci Şıxlı k.-ndən 7 *km* c.-da Mustye dövrünə aid düşərgə. 1964 ildə qeydə alınmış və sonralar tədqiq edilmişdir. Buradan 356 ədəd daş məmulatı (qaşov tipli və bizburun alətlər üstünlük təşkil edir) tapılmışdır. Alətlər təsadüfi, qeyri-standart qəlpələrdən hazırlanmışdır. Nukleus formaları və onların üzərindəki qoparma izləri sübut edir ki, yararlı qəlpələr başqa yerlərə aparılmış və istifadə olunmuşdur.

**ÇAXMAQLI** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Poldəşt bölgəsinin Kəlçərat kəndistanında, Poldəşt qəs.-ndən 36 *km* c.-dadır.

**ÇAXMAQLIDAĞ** – Azərb. Resp. Ordubad r-nu (Nax. MR) ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Bist k.-ndən 2 *km* şm.-q.-dədir. Hünd. 2018 *m*.

**ÇAXMAQLIDAĞ** – Tiflis qub.-nın Loru-Borçalı qəzasında (31.12.1937 ildən Vorontsovka r-nu), r-nun Cücəkənd k.- nin şm.-q.-ində dağ.

**ÇAXMAQLILAR** – türkdilli tayfa. Adları Məhəmməd Kazımın (18 əsr) "Tarix-i aləm arayi Nadiri" əsərində çəkilir. Qubalı Fətəli xan dövründə [1758–89] tayfa başçısı şahsevən Məhəmməd xanın tabeliyində Ərdəbil ətrafından Quba xanlığına köçüb, Müşkür və Şabran mahallarında məskunlaşmış səkkiz şahsevən tayfası arasında Ç. da var idi. Çaxmaqlı (Xaçmaz r-nunda və Qazax r-nunda toponim) adlarının Ç.-la əlaqədar olması ehtimal edilir.

**ÇAXNAQLAR NEFT YATAĞI** – Abşeron y-a-nın şm.-q. hissəsində, Abşeron neftli-qazlı r-nunda, Bakı ş.-ndən 9 *km* q.-də yerləşir. Struktur Binəqədi antiklinalının davamı olub, monoklinal quruluşa malikdir. Sahə axtarış-kəşfiyyat işlərinə 1925 ildə daxil edilmişdir. Strukturun ölçüləri Qırmaki lay dəstəsi üzrə 3,5×1,8 *km* təşkil edir. Yataq 1937 ildə açılmış, 1938 ildə işlənməyə daxil edilmişdir. İşlənmənin ilk illərində Qırmaki lay dəstəsi, sonralar isə (1939 ildən) Qırmakialtı lay dəstəsi istismara daxil edilmişdir. Yatağın geoloji quruluşunda Məhsuldar qatın Qala lay dəstəsindən başqa bütün lay dəstələri iştirak edir. Yataq ərazisində Məhsuldar qatın ümumi qalınlığı 1180 *m*-dir; gilli və qumlu layların növbələşməsindən ibarətdir. Məhsuldar layların yatma dərinliyi 470–1280 *m* arasında dəyişir. İşlənmədə olan laylara müxtəlif illərdə suvurma prosesi həyata keçirilmişdir. Kollektorların məsaməliyi 24–25%, keçiriciliyi 0,058 $mkm^2$-dir. Neftin sıxlığı 912 $kq/m^3$, tərkibində parafinin miqdarı 0,24%, asfaltenlər 1,34%, qatran 33%-dir. İşlənmənin əvvəlindən 1.1.2011 il tarixinə cəmi 7,9 mln. *t* neft, 0,7 mlrd. $m^3$ qaz hasil edilmişdir.

**ÇAXRAQCIL** (Oenanthe) – qaratoyuq fəsiləsindən quruda yaşayan quş cinsi. Uz. 13,5–18 *sm*, kütləsi 12 *q*-dan (Kipr Ç.-ı, Oe. cypriaca) 44 *q*-a qədər (ağquyruq Ç., Oe. leucura) olur; erkəkləri dişilərindən bir az iridir. Bədəni qamətli, qanadları uzun; quyruğu, qısadır. Beli, quyruqüstü və sükan lələklərinin əsası ağ və ya kürən, ucları isə, adətən qaradır. Əksər növlərində erkəklərin cütləşmə rəngi alabəzəkdir; qara, boz, qonur, kürən, çəhrayımtıl və ağ rənglərdə olur; dişiləri az əlvan və qonurumtuldur; cavan quşlar xallıdır. Yerdə tullana-tullana hərəkət edir, quyruğunu və qanadlarını yellədərək, tez-tez otururlar. Ç.-ın təqr. 22 növü, Avrasiya və Afrikanın arid dağlarında, çöllərində və səhralarında yaşayır. Aralıq dənizi və Monqolustandan Arktika a-larına qədər yuvalayan adi Ç.-a, həmçinin Şimali Amerikada rast gəlinir. Dağlarda 4500 *m* hünd.-lüyə qədər yayılmışdır; oturaq və köçəri növləri var. Azərb.-da 7 növü məlumdur. Bunlardan adi Ç. (Oe.oenanthe), keçəl Ç. (Oe.pleschanca), qaraboyun Ç. (Oe. finschii), kürənquyruq Ç. (Oe. xanthoprymna) növləri Naxçıvan yaylaqlarında, Abşeronda, aran zonasında yaşayır; oynaq Ç. (Oe. isabellina), səhra Ç.-ı (Oe. deserti), ala Ç. (Oe. hispanica) Azərb.-a nəsil vermək üçün gəlir. Kasaşəkilli yuvasını qaya yarıqlarında, daşlıqlardakı oyuq, köhnə yuva, koğuş, yaxud tikililərdə gizlədir. 5–6 yumurta qoyur. Dişi fərd 13–14 gün kürt yatır. Balaları hər iki valideyn yemləyir; cavan quşlar 11–14 gündən sonra yuvanı tərk edir, 3 həftəliyində uçmağa başlayır. Cücüyeyən quşlardır; buğumayaqlılarla, bəzən toxum, giləmeyvə və kiçik sürünənlərlə qidalanırlar. Kürənquyruq Ç. Azərbaycan Respublikasının "Qırmızı kitabı"na daxil edilmişdir.







Adi çaxraqcıl (Oenanthe oenanthe).

**ÇAXRUXÁDZE** (? – ?) – 12 əsr gürcü şairi. Gürcü hökmdarı *Tamaranı* mədh edən ("Tamariani" toplusu) qəsidələrində o dövr gürcü ictimai-siyasi fikri də əksini tapmışdır.Ç-nin zərif poetik üslubu "Çaxruxauli" klassik gürcü poeziyasında geniş yayılmışdı.

**ÇAK** ("balta"), ç a k l a r – mayyaların əsatirlərində yağış və ildırım allahı. Ehtimal ki, əvvəllər ağacları qıran, əkin yeri üçün meşə sahələrini təmizləyən allah (adı buradan götürülmüşdür), lakin sonralar yağış, tarla və böyüyən qarğıdalı allahı hesab edilmişdir. Ç.-ın adi atributları balta və alovlanan məşəldir (qırılmış ağacların yandırılması rəmzi). Ç. tək və cəm hallarda (dünyanın dörd tərəfi və rəng simvolikası ilə bağlı olan dörd Ç.; ş. – qırmızı, şm. – ağ, q. – qara, c. – sarı) olurdu. Xalq təsəvvürlərində çoxlu Ç. qeyd edilir. Tlaloklar (bax *Tlalok*) kimi, Ç. da suyu balqabaqdan hazırlanmış qabda, yaxud evinin dörd küncünə qoyulan qablarda saxlayır. Ç.-lar meşə, mağara və təbii quyularda (senotlarda) yaşayırlar. Ç.-a sitayiş Yukatan y-a-nda yaşayan mayyalarda saxlanılmışdır.

**ÇÁKA** Xan (ing. Chaka Khan; əsl adı və soyadı İvett Mari Stivens; d.23.3.1953, ABŞ, İllinoys) – Amerika caz müğənnisi.



1965 ildə debütü olmuşdur. Çikaqonun müxtəlif klublarında ("The Crystalettes", "The Shades of Black", "Losk & Chain", "Lyfe" və "Baby Huer & The Babysittes") və yerli "Afro-Arts" teatrında çıxış etmişdir. 1972 ildə "Ask Rufus" (qısa adı "Rufus") qrupuna qoşulmuşdur. 1978 ildə solo fəaliyyətinə başlamışdır (1979, 1981 və 1989 illərdə yenidən "Rufus"la əməkdaşlıq etmişdir). "I'm Every Woman", "What Cha' Gonna Do For Me" və "Got to be There" sinqlları ona böyük şöhrət gətirmişdir. "I Feel For You" adlı albomu isə "ən yaxşı ritm-end-blüz müğənnisi" kateqoriyasında "Qremmi" mükafatı qazanmışdır. Sonralar Ç. solo fəaliyyətini davam etdirmişdir; Stiv *Uander* ("Higher Love"), Devid Boui ("Underqround"), Kvinsi Cons və Rey Çarlz ("I'll, be qood to you"), həmçinin Yoni Mitçel, Ray Kuder və Lenni Bayt ilə birgə lent yazıları var.



Məktəbli çakma qızları. Banqladeş.



**ÇAKMAK** Mustafa Fevzi, Fevzi paşa, Müşir Fevzi, ya da Marşal Çakmak (12.1.1876, İstanbul – 10.4.1950, orada) – Türkiyə siyasi və hərbi xadimi. Türkiyə Cümhuriyyətinin iki marşalından (digəri *Atatürkdür*) biri, baş nazir, Baş qərargah rəisi, Atatürkün yaxın silahdaşı. Balkan müharibələrinin, Birinci dünya müharibəsinin, İstiqlal müharibəsinin, İkinci *Yunanıstan-Türkiyə müharibəsinin* iştirakçısı olmuşdur. Kuleli (1890) və Panqalti (1898) Ali hərbi məktəblərini bitirmiş, 1898 ildə Osmanlı ordusuna leytenant kimi daxil olmuşdur. 1918 ildən Ç. Osmanlı imperiyasının ordu komandanı və hərbi naziri idi. 1920 ildə Atatürkün ardınca Samsuna gedərək İstiqlal müharibəsinə qoşulmuşdu. 1921 il iyulun 10-da yunanların Afyon və Kütahyaya daxil olmasından sonra Ç. orduya nəzarəti öz üzərinə götürmüşdü. O, türk ordusunun geriyə çəkilməsinin qarşısını almış, 22 gün davam edən Sakarya vuruşmasında (1921, 23 avqust – 13 sentyabr) yunanları darmadağın etmişdi. Ç. və Atatürkün başçılığı ilə türk ordusunun Dumlupınarda böyük qələbəsindən (1922, 31 avqust) sonra hər ikisi marşal rütbəsi ilə təltif olunmuşlar. Ç. Türkiyə Böyük Millət Məclisinin baş naziri (24.01.1921 – 9.7.1922) vəzifəsində çalışmışdır. 1924 ildə parlamenti tərk etmiş və siyasətdən uzaqlaşmışdır. 1923–44 illərdə Türkiyə silahlı qüvvələrinin Baş qərargah rəisi olmuşdur.

**ÇAKMALAR** – Banqladeşdə (Çittaqonq vil.-nin dağlıq dairəsi) və Hindistanın sərhəd r-nlarında xalq. Ümumi sayları 540 min (Banqladeşdə 440 min, Hin-

distanda 100 min) nəfərdir. Mədəniyyətləri və məişətləri *myanmalara* yaxındır. Müasir Ç. benqallar tərəfindən assimilyasiyaya uğrayırlar. Sin-Tibet dil ailəsinin mərkəzi qrupuna aid dildə danışırlar. Ç.-ın əksəriyyəti benqal dilindən istifadə edir. Dindarları, əsasən, buddistdir, ənənəvi etiqadlarını saxlayanlar da var.

**ÇAKO** (Chako) – Argentinanın şm.-ş.-ində əyalət. Sah. 99,6 min $km^2$. Əh. 1 mln. (2010). İnz. m. Resistensiya ş.-dir.

**ÇÁKO** – bax *Qran Çako*.

**ÇAKO MÜHARİBƏSİ (1932–35)** – Paraqvay ilə Boliviya arasındakı sərhəddə yerləşən və mübahisəli ərazi sayılan Çako (Chaco) vil. uğrunda müharibə. 20 əsrin 20-ci illərində bu vil.-də neft yataqlarının aşkar edilməsi ABŞ və İngiltərənin Latın Amerikası ölkələrindəki inhisarları arasında kəskin mübarizəyə səbəb oldu. ABŞ kapitalına bağlı Boliviya və İngiltərədən asılı olan Paraqvay arasındakı ərazi iddiaları silahlı toqquşmalara (1927–28), tərəflər arasında diplomatik münasibətlərin pozulmasına və müharibənin başlanmasına gətirib çıxartdı (1932, iyul). Müharibənin gedişində ABŞ Boliviyanı, İngiltərə isə Paraqvayı açıq-aşkar dəstəkləyir və silahla təmin edirdi. 1934 ilin iyununda paraqvaylılar mübahisəli ərazinin çox hissəsini ələ keçirdilər, lakin müharibə hər iki tərəfin böyük itkilər (250 min ölən və yaralanan) verməsinə, ehtiyatların tükənməsinə və daxili siyasi vəziyyətin kəskinləşməsinə səbəb oldu. 1935 ilin iyununda ABŞ, Argentina, Braziliya, Çili, Peru və Uruqvayın vasitəçiliyi ilə barışıq əldə edildi. 1938 il iyulun 21-də bağlanmış sülh müqaviləsinə görə, mübahisəli ərazinin çox hissəsi Paraqvayın ixtiyarına verildi, lakin artıq 20 əsrin 40-cı illərindən bu ərazi ABŞ neft inhisarlarının nəzarətinə keçdi.

**ÇAKONA** (isp. chacona, ital. ciaccona, fr. chaconne) – qədim rəqs. 16 əsrin sonlarından məlumdur. 17 əsrdən əzəmətli səciyyə kəsb etmişdir. Tempi asta, ölçüsü 3/4-dür. J.B. Lüllinin baletlərində final nömrəsi kimi istifadə olunmuşdur. 17–18 əsrlərdə basda təkrarlanan mövzuda *passakalyeyə* yaxın instrumental pyes kimi formalaşmışdır. Bəstəkar T.A. Vitaliyə aid edilən bas ilə skripka üçün Ç. və İ.S. Baxın solo skripka üçün re minor partitasından Ç. xüsusi populyarlıq qazanmışdır. Ç. formasında çoxlu pyes, o cümlədən L.V. Bethovenin fp. üçün 32 do minor variasiyası yazılmışdır. 17–18 əsr bəstəkarları operaların finalında Ç. formasını tətbiq etmişlər.

**ÇAKÓVSKİ** Aleksandr Borisoviç (26.8.1913, Peterburq – 17.2.1994, Moskva) – rus yazıçısı, ictimai xadim. Sosialist Əməyi Qəhrəmanı (1973). Lenin mükafatı (1978) və SSRİ Dövlət mükafatı (1950, 1983) laureatı. M. Qorki ad. Ədəbiyyat İn-tunu bitirmişdir (1938). Yaradıcılığa 1937 ildən tənqidçi kimi başlamışdır. "Bu, Leninqradda olmuşdur" (kitab 1,1944), "Lida" (kitab 2, 1945), "Sülh günləri" (kitab 3,1947) adlı lirik-publisistik trilogiyanın müəllifidir. "Ömrün bir ili" (1956), "Seçdiyimiz yollar" (1960) romanları, "Uzaq ulduzun işığı" (1962), "Gəlin" (1966) povestləri mənəvi-əxlaqi problemlərə həsr olunmuşdur. "Mühasirə" (kitab 1–5, 1968–75) romanında Leninqrad uğrunda vuruşma, bu vuruşmanın müharibənin gedişindəki tarixi əhəmiyyəti təsvir olunmuşdur. "Qələbə" (kitab 1–3, 1978–81) romanı müharibənin son günlərindən bəhs edir. "Tamamlanmamış portret" (1984), "Nürnberq xəyalları" (1990) romanları, publisistik yazıları var. *"İnostrannaya literatura"* jurnalının (1954–63), *"Literaturnaya qazeta"*nın (1962–88) baş redaktoru, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1962–91) olmuşdur. Bir sıra əsəri ekranlaşdırılmışdır.

Əsərləri: Mühasirə. Kitab 1–5, B., 1978–85; Литература, политика, жизнь. М., 1982.

**ÇÁKRA** (sanskritcə dairə, çarx) – qədim hind ordusunda işlədilmiş atma silah növü. Kənarları kəsici olan polad halqadan ibarət idi. Ç. əlin orta barmağı ilə fırladılıb düşmən tərəfə atılırdı.

**ÇAKRABORTİ** Mithun (d.16.6.1947, Hindistan, Qərbi Benqaliya, Kəlkətə) – hind aktyoru. Kəlkətədəki Şotland kilsə kollecində oxumuşdur. 1971 ildə Bombeyə gəlmiş, burada işə düzəlmiş, bir qədər sonra imtahan verərək, Puna ş.-ndəki Kino İn-tutuna qəbul olunmuşdur. Təhsil aldığı illərdə filmlərdə epizodik rollar oynamışdır. 1976 ildə ekranlara çıxan "Kral ovu" filmində çəkilmişdir. Film böyük uğur qazanmış, Milli kinofestivalda "Qızıl lotos" mükafatına layiq görülmüş, Ç. isə ölkənin ən yaxşı kino aktyoru kimi qəbul edilmişdir. 1982 ildə ekranlara çıxan "Disko rəqqası" filmi Ç.-yə hədsiz populyarlıq gətirmişdir. 1995 ildə "Cəllad" filmindəki roluna görə "ən yaxşı mənfi rol" nominasiyası üzrə nüfuzlu "Filmfare" jurnalının mükafatına layiq görülmüşdür. 300-dən artıq filmə çəkilmişdir ("Qədim ehramın sirri", 1983; "Boksçu", 1984; "Ana andı", 1984; "Oyna, oyna", 1987; "Qanqa, Camna, Sarasvati", 1988; "Vəkil", "Müharibə allahı", 1998; "Benqal pələngi", 2001; "Onları tale birləşdirdi", 2008; "Varislər", 2008; "Şən fırıldaqçılar", 2010).



**ÇAKRAVÁTİN**, çakravártin ("təkərçevirən") – buddizm mifologiyasında bütün dünyada ədalətli dövlət yaradan ideal şah. Buddaların dünyayaya gəlmədikləri bir vaxtda doğulurlar. Buddalar kimi, onlar da mahapuruşalakşanalara (ulu insan əlamətləri) malikdirlər və onların dünyaya gəlişi də eyni möcüzələrlə müşayiət olunur. Hər bir Ç.-in yeddi sərvəti vardır: havada uçan çarx (onun köməyi ilə Ç. və onun ordusu dünyanın istənilən nöqtəsinə çatır); fövqəltəbii qabiliyyətləri olan fil və at; uzaqlara işıq saçan qiymətli daş; gözəlliyi, daxili ləyaqəti və əsilzadəliyi ilə fərqlənən şahzadə qız; Ç.-in müdrik müşavir və uğurlu sərkərdə qismində çıxış edən böyük oğlu (ümumiyyətlə, Ç.-in 100 oğlu var).

**ÇÁKRİ** – Tayland (Siam) kralları sülaləsi (1782 ildən); banisi Siam sərkərdəsi Çakri olmuşdur. Nümayəndələri: I Rama [1782–1809], II Rama [1809–24], III Rama [1824–51], IV Rama [1851–68], V Rama [1868–1910], VI Rama [1910–25], Praçatipok [1925–35], Ananda Mahidon [1935–46], Pumipon Adulyadet (IX Rama) [1946 ildən].

**ÇAQA**, tozağacı qara göbələyi – qov göbələkləri fəsiləsindən göbələk; əsasən, tozağacının gövdəsində törəmə (şiş) şəklində inkişaf edir. Ç.-nın cövhəri befungin – bəzi mədə və bağırsaq xəstəliklərinin müalicəsində, bədxassəli şişlərdən əziyyət çəkən xəstələrin bir sıra hallarda əhvalını yaxşılaşdıran ümumi qüvvətləndirici və simptomatik vasitə kimi istifadə edilir.

Çaqa.



**ÇAQANDO** – KXDR-in şm.-q.-ində əyalət. Sah. 16,6 min $km^2$. Əh. 1,1 mln. (2009). İnz. m. Kanqe ş.-dir.

**ÇAQIL** – ölçüsü 1–10 *sm* (digər təsnifatlara görə 1–20 *sm*) olan yuvarlaq süxur qırıntısı. Ç. tərkibcə maqmatik, çökmə, metamorfik süxurlardan və texnogen materiallardan ibarətdir. Ç.-ın forması süxurun maddə tərkibindən, tekstur və struktur xüsusiyyətlərindən, qırıntıların ilkin formasından və həmçinin köçürmə mühitinin xarakterindən asılı olaraq dairəvi, yumurtavarı, yastı və s. olur. Müasir və qədim çökmə qatlarda geniş yayılmışdır.

**ÇAQIL DAŞI** – iriqırıntılı çaqıllardan ibarət çökmə süxur. Çaqıllararası boşluqlar xırda qırıntılı materialla (qum, alevrit və s.) dolmuş və yaxud boş olur. Üstünlük təşkil edən ölçülərindən asılı olaraq xırda (1–2,5 *sm*), orta (2,5–5 *sm*) və iri (5–10 *sm*) dənəli Ç.d. ayırırlar. Petroqrafik tərkibinə görə polimikt (müxtəlif tərkibli çaqıllardan), oliqomikt (2–3 süxurun çaqıllarından) və monomikt (bircinsli çaqıllardan) olur. Ç.d.-ları dağ çaylarının yataqlarında, nadir hallarda düzənlik çaylarında və fırtınalı açıq dəniz sahillərində (Ç.d.-lı plyajlar) yaranır. Çaqılların petroqrafik tərkibinin analizi aşınmış dağların, dağılmış vulkanların, onların gətirilmə mənbələrini bərpa etməyə və kəsilişlərin strtiqrafik müqayisəsinə imkan yaradır. Tikinti materialı (xüsusilə yol tikintisində) və beton doldurucusu kimi işlədilir; nadir hallarda qızıllı olur. Sementləşmiş Ç.d. *konqlomerat* adlanır.

**ÇAQQAL** (Canis aureus) – canavarlar fəsiləsindən yırtıcı məməli heyvan. Canavara oxşayır, lakin ondan xeyli kiçikdir. Quyruğu nisbətən qısa, sifəti sivridir. Uz. 71–82 *sm*, quyruğu 20 *sm*-ə, kütləsi 7–13 *kq*-a qədər olur. Rəngi qışda kürəni-boz, yayda kürəni olur. Avropanın c.-unda, Şimali Afrikada, Asiyanın c.-unda və Şri-Lanka (Seylon) a.-nda, Qafqazda, Orta Asiyada yayılmışdır. Azərb.-da aran zonası düzənliklərinin sıx cəngəlliklərində, bəzən səhra və dağətəklərində rast gəlinir. Ç. gəmirici və quşlarla, eləcə də leş, qida tullantıları, meyvə ilə qidalanır. Yanvarda cütləşir. Boğazlıq dövrü 60–63 gündür; 4–9 bala doğur. Əsasən, gecələr fəal olur. Təsərrüfat əhəmiyyəti azdır. Dərisi az dəyərlidir. Ov təsərrüfatına və quşçuluğa ziyan vurur.

Adi çaqqal (Canis aureus).





Adi çaqqalqanqalı (Onopordum acanthium).

**ÇAQQALQANQALI** (Onopordum) – mürəkkəbçiçəklilər fəsiləsindən olan bir çox tikanlı bitkilərin adı (əsasən, Onopordum cinsi). Qərbi Avropa və Şimali Afrikada, əsasən Aralıq dənizi ölkələrində 40-dan çox növü yayılmışdır. Azərb.-da 2 növü: adi Ç. (O. acanthium L.) və müxtəlif tikanlı Ç. (O. heteracanthum) bitir. Adi Ç. ikiillik bitkidir. Düz, tikanlı və enliqanadlı gövdəsi yuxarıdan budaqlanır. Uz. 50–150 *sm*-dir. Yarpaqları uzunsov, enli, kənarları tikanlı, çiçək tacı al-qırmızı, səbəti kürəşəkillidir. Toxumları uzunsov-yumurtavarı və ya uzunsovdur. Kökü, cavan gövdəsi, çiçək yatağı, yarpaq saplaqları yeyilir. Yarpaqlarında 33,1% C vitamini, toxumlarında 15–18% yağ var. Balverən bitkidir.

**ÇAQQALLI** – Azərb. Resp. Qəbələ r-nunda, Qədim Qəbələnin Səlbir və Qala sahələrindən təqr. 2 *km* ş.-də şəhər yeri. Qaraçayla Qocalançay arasındadır. Sah. 50 *ha*-dan çoxdur. 1959 ildə aparılan arxeoloji qazıntılar nəticəsində Qəbələnin ilk vaxtlarda məhz Ç. sahəsində yerləşdiyi müəyyənləşdirilmişdir. E.ə. 3-cü minillikdə Ç.-da yaşayış olmuş, e.ə. 4 əsrin sonu – 3 əsrin əvvəllərində burada şəhər meydana gəlmişdir. Ç.-dan antik dövrə aid müdafiə istehkamları, üstü kirəmitlə örtülmüş böyük ictimai binalar və kiçik tikinti qalıqları, müxtəlif silahlar (qılınc, xəncər, nizə, ox ucları və s.), əmək alətləri (bıçaq, dəhrə, oraq, iynə və s.), zərgərlik məmulatı (üzük, sırğa, biləzik, muncuq və s.), gil qablar (küp, səhəng, kuzə, cam, vaza və s.), sikkələr və s. aşkarlanmışdır. Əhali maldarlıq, əkinçilik və sənətkarlıqla məşğul olmuşdur. Ç.-da həyat eramızın I əsrinin axırlarınadək davam etmişdir.

**ÇAQQALLIQ TƏPƏLƏRİ** – Azərb. Resp. Şabran r-nunun Aygünlü k.-ndən 0,5 *km* c.-q.-də, Samur–Abşeron kanalının hər iki sahilində Erkən Tunc dövrünə (e.ə. 3-cü minillik) aid yaşayış yeri. İki təpədən ibarətdir. Hünd. 12 *m*, sah. 2300 $m^2$ olan birinci təpə Samur–Abşeron kanalının inşası zamanı dağılmış, 3 *m* qalınlığında mədəni təbəqə aşkar olunmuşdur. Hünd. 6 *m*, sah. 2600 $m^2$ olan ikinci təpədə mədəni təbəqə (qalınlığı 2 *m*-ə yaxın) müəyyənləşdirilmişdir. Ç.t.-ndən, əsasən, qara rəngli, üstü cilalı gil qab (cam, çəllək, vaza və s.) qırıqları, daş məmulatı, çəkiclər, gəzli balta, oraq dişi, dən daşları və s. tapılmışdır. Yaşayış yeri Erkən Tunc dövrü əkinçi tayfalarının mədəniyyəti üçün səciyyəvidir.

**ÇAQODİŞŞA** (yuxarı axınında Çaqoda) – RF-də, Leninqrad və Voloqda vil.-lərində çay. Moloqa çayının (Volqa hövzəsi) sol qolu. Uz. 242 *km*, hövzəsinin sah. 9680 $km^2$. Tixvin tirəsindən başlanır. Qidalanması qarışıqdır, qar suları üstünlük təşkil edir. Meqrino k. yaxınlığında ortaillik su sərfi 55,4 $m^3$/*san*-dir. Apreldən mayadək gursudur. Noyabr-dekabrdan aprelin sonu mayın əvvəlinədək donmuş olur. 157 *km*-lik

Çaqodişşa çayı.





Çaqos arxipelaqı. Dieqo-Qarsia adası.

aşağı axını Tixvin su sisteminə daxildir. Ç. hövzəsində ümumi sah. 194 $km^2$ olan təqr. 1,5 min göl və su anbarları var.

**ÇAQOS ARXİPELAQI** – Hind okeanında arxipelaq. Sah təqr. 200 $km^2$. Sualtı Maldiv silsiləsinin mərcan rifləri ilə haşiyələnmiş 5 qrup mərcan atollarından ibarətdir. Kakos palması yetişdirilir. Balıqçılıq inkişaf etmişdir. Ən böyük adası (25 $km^2$) Diyeqo-Qarsiadır (1973 ildən ABŞ-ın hərbi bazası yerləşir).

**ÇAQOS NOVU** – Hind okeanın mərkəzi hissəsində ensiz nov. Maldiv a-rının c.-ş. və Çaqos arxipelaqının ş. sualtı yamacları boyunca uzanır. Uz. 510 *km*, orta eni 25 *km*, dərinliyi 5408 *m*-ədəkdir. Dib çöküntüləri foraminiferli lillərdən ibarətdir.

**ÇAQRA** – RF-də, Samara vil. ərazisində çay. Volqa çayının sol qolu. Uz. 251 *km*, hövzəsinin sah. 3440 $km^2$. Kamennı Sırt yüksəkliyindən başlanır. Saratov su anbarına tökülür. Əsasən qar suyu ilə qidalanır. Apreldə gursuludur. Mənsəbindən 78 *km* məsafədə ortaillik su sərfi 3,5 $m^3$*/san*-dir. Yuxarı axınında yayda quruyur. Noyabr-dekabrdan aprelin əvvəlinədək donmuş olur.

**ÇAL** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sırdan bölgəsinin Yuxarı Tarım kəndistanında, Sırdan qəs.-ndən 54 *km* şm.-q.-dədir.

**ÇAL** – İrəvan qub. Yeni Bayazid qəzasının Çəmbərək bölgəsində (31.12.1937 ildən Krasnoselo r-nu), Toxluca k.-nin ş.-ində dağ.

**ÇALAĞAN** (Milvus) – qırğıkimilər fəsiləsindən quş cinsi. Uz. 55–73 *sm*, kütləsi 630–1600 *q*-dır. Uzun qarmaqlı dimdiyi var. Dişiləri erkəklərindən iri olur. Qanadları uzun, bir qədər enli, quyruğu uzun (20–32 *sm*), ucu kəsilmiş formadadır. Pəncə lüləsi qısa, yarımtüklü, ön hissədə köndələn lövhəciklərlə örtülmüşdür. 2 növü var. Q a r a Ç.-ın (M. migrans) lələkləri tünd cizgili, müxtəlif çalarlı, boz, alt hissəsi oxra və ya kürən çalarlıdır; qanadları demək olar ki, qaradır. Quyruğunda dərin olmayan (uz. 4–7*sm*) kəsik var. Dimdiyi qara və ya sarı, dimdiyinin dibi və ayaqları sarıdır. Erkəkləri və dişiləri eyni rəngdədir; cavan fərdləri daha açıq rəngli və alabəzəkdir. Afrika, Asiya və Avropada (65–68° şm. eninə

Qırmızı çalağan (Milvus milvus).



qədər) yayılmışdır. Avropanın ucqar qərbində, Sibirin şərqində rast gəlinmir, geniş səhraları xoşlamır. Dağlarda 3300 *m* hündürlüyə qədər rast gəlinir. Mərkəzi Afrikada və Cənubi Asiyada qışlayır.

Q ı r m ı z ı Ç. (M. milvus) nisbətən iridir: lələkləri daha açıq rəngli və qırmızıkürəndir; quyruğunda (7–9 *sm*) kəsik var. Qərbi və Mərkəzi Avropada, Şimal-Qərbi Afrikada və Yaşılburun a-larında, dağlarda (800 *m* hündürlüyə qədər) yuvalayır; Şimal populyasiyası Aralıq dənizi ölkələrində qışlayır. Azərb.-da hər iki növü yayılmışdır. Ç. göl və çaya yaxın olan, ağac bitkiləri bitən açıq landşaftları xoşlayır. Uçuşu yüngül, manevrlidir. Ovunu havada süzərək izləyir. Hər şey yeyir, bəzən rasionunda cücülər və gəmiricilər üstünlük təşkil edir. Leş və tullantılarla qidalanır. Səsi cingiltili zəngulədir. Ayrı-ayrı cütlərlə və ya seyrək koloniyalarla (100 cütə qədər) məskunlaşır. Hər iki quş yuvasını ağaclarda (caydaqkimilərin və ya qarğaların koloniyasında), sıldırım qayalarda və ya binalarda tikir. 1–4 yumurta qoyur (adətən 2–3); əsasən, dişi fərd 26–38 gün kürt yatır. Ətcəbalalar yuvada 45 günə qədər qalır. Lakin valideynlər onları uzun müddət yemləyir və qayğısına qalırlar. Qara və qırmızı Ç. azalmaqda olan növ kimi BTMİ-nin və Azərbaycan Respublikasının "Qırmızı kitab"larına daxil edilmişdir.

**ÇALAĞANTƏPƏ** – Azərb. Resp. Ağdam r-nunun Əfətli k. yaxınlığında Eneolit dövrünə aid yaşayış yeri. Ç.-də müxtəlif yaşayış və təsərrüfat tikililərinin, dulus kürələrinin qalıqları və qəbirlər aşkar edilmişdir. Çiy kərpicdən tikilmiş binalar dairəvi planlıdır. Evlərin birində divarlar əhənglə ağardılmış və qırmızı boya ilə naxışlanmışdır. Evlərdə həsir qalığına da təsadüf edilir. Təsərrüfat tikililərindən birində yanğın nəticəsində kömürləşmiş xeyli buğda, arpa, həmçinin venəmir dənləri aşkar olunmuşdur. Başqa tikilidə 3 iri küp basdırılmışdır. Ç. əhalisi oturaq həyat keçirmiş, əkinçilik və maldarlıqla məşğul olmuşdur. Süni suvarma geniş yayılmışdı.

Ç.-dən çoxlu daş və sümükişləmə, dulusçuluq və s. maddi mədəniyyət qalıqları tapılmışdır. Gildən düzəldilmiş və boya ilə naxışlanmış donuz fiqurunun baş hissəsi Cənubi Qafqazda heykəltəraşlığa aid ən qədim nümunələrdəndir. Ç.-də ölülər (bəzən həsirə bükülü halda) zəngin və zərif bəzək əşyaları ilə birlikdə evlərin döşəməsi altında və ya həyətyanı sahədə








**Çalağantəpədən aşkar olunmuş maddi mədəniyyət nümunələri:**
*1, 2* – dəvəgözündən (obsidian) alətlər; *3, 4* – sümük qaşıqlar;
*5, 10* – sümük pardaqlayıcılar; *6, 7* – sümük bizlər; *8* – sümük alət;
*1, 9* – muncuqlar; *11, 12* – saxsı qablar; *13* – daş toppuz başlığı.

basdırılmışdır. Sağlığında daşıdığı bütün bəzək əşyaları ilə dəfn olunmuş bir uşaq qəbirindən 2000-dən çox bəzək tapılmışdır. Ç.-də aşkar edilmiş ağac kömürünün radiokarbon üsulu ilə analizi yaşayış yerinin e.ə. 5-ci minilliyin 1-ci yarısına aid olduğunu göstərir.

**ÇALAQAZAN MAŞIN** – torpaqda dairəvi-silindrik şəkildə çala qazan k.t. maşını; traktora quraşdırılır (asılır). Əsasən, kommunal, yol, tikinti və meşəpark təsərrüfatında ağacların, kolların əkilməsi, həmçinin dirəklərin basdırılması üçün istifadə edilir. Adətən, diametri 0,3–1 *m*, dərinliyi 1,3 *m*-ədək çalalar qazır. Əsas işlək hissələri qoruyucu muftalı kardan valı, reduktor, dəyişən işçi orqanlar (müxtəlif ölçülü qazıcılar), dayaq lövhələri və hidrotənzimləyicidir. Hər bir qazıcının (burovun) boruşəkilli əsasına iki gavahın və çalaqazma prosesində torpağı çıxardan şneklər qaynaqlanmışdır. Əsasın aşağı ucu mərkəzləyici burğu şəklindədir. C.m.-ın işi traktorun kabinəsindəki asma sisteminin idarə dəstəyi ilə idarə edilir. .

**ÇALASI** – bax *Acıtma*.

**ÇALBAYIR SİLSİLƏSİ** – Azərb. Resp. Laçın r-nunda silsilə. Şəlvə və Piçənis çayları (Həkəri çayı hövzəsi) arasındadır. Mıxtökən silsiləsinin c.-ş. qollarından birini təşkil edir. Uz. 18,5 *km*. Yamaclarında meşələr (fındıq, vələs, palıd), suayırıcında çəmənliklər üstünlük təşkil edir.

**ÇALBURUN** – Azərb. Resp. Gədəbəy r-nunda kənd. Çalburun ə.d.-nin mərkəzi. R-n mərkəzindən 18 *km* c.-da, dağ ətəyindədir. Əh. 1844 (2011); heyvandarlıq və əkinçiliklə (kartofçuluq) məşğuldur. Tam orta məktəb, uşaq bağçası, mədəniyyət evi, 2 kitabxana, tibb məntəqəsi var.

**ÇALÇİUTLİKÜE** ("onun libası nefritdəndir"), Matlalkueye ("onun libası mavidir") – astek əsatirlərində şirin su, göl, dəniz və çay ilahəsi, *Tlalokun* arvadı, tlalokların bacısı, Sentson-Mimişkoanın (səmanın şm. hissəsinin ulduzlarının) anası. Ç. su axınının mərkəzində əyləşən, iki hörüyü, mavi və ağ lentlərdən ibarət baş geyimi olan gənc qadın kimi təsvir edilir. Ç. su yolları ilə səyahət edənlərin himayəçisidir.

**ÇALDAŞ** – Azərb. Resp. Gədəbəy r-nunda kənd. Çaldaş ə.d.-nin (Çaldaş, Səbətkeçməz k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 13 *km* c.-q.-də, Çaldaş çayının (Şəmkir çayının sol qolu) sahilində, dağ ətəyindədir. Əh. 1196 (2011); heyvandarlıq və əkinçiliklə (kartofçuluq) məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var. *Çaldaş mineral su bulağı* bu ərazidədir.

**ÇALDAŞ** – Azərb. Resp. Oğuz və Qəbələ r-nları sərhədində, Baş Qafqaz silsiləsinin c. yamacında dağ. Hünd. 3468,3 *m*.

**ÇALDAŞ** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Amasiya r-nu) azərb.-ların yaşadığı kənd. Təpəköy k.-nin yaxınlığında yerləşmiş, 18 əsrin sonları – 19 əsrin əvvəllərində xarabalığa çevrilmişdir.

**ÇALDAŞ MİNERAL SU BULAĞI** – Azərb. Resp. Gədəbəy r-nunun Çaldaş k. ərazisində, Çaldaş çayının (Şəmkir çayının sol qolu) dərəsindədir. Suyunun temp-ru 12°C, debiti 90 $m^3$*/gün*, minerallaşma dərəcəsi 0,8 *q/l*-dir. Balneoloji tərkibi:

$$M\,0{,}8\,\frac{HCO_3 88 (SO_4 10)}{Na38Ca35Mg25}$$

T 12°C D 90 $m^3$/gün pH 6,4

Suyu Narzan tiplidir; zəif minerallaşmış, karbon qazlı, hidrokarbonatlı, sulfatlı, natriumlu-kalsiumlu-maqneziumludur.

**ÇALDIRAN** – İranın Qərbi Azərbaycan ostanında kəndistan. Maku şəhristanının Siyahçeşmə bölgəsindədir.

**ÇALDIRAN VURUŞMASI (1514)** – Səfəvilərlə Osmanlılar arasında Çaldıran düzündə (Maku ş. yaxınlığında) baş vermişdir. Səfəvilər dövlətinin güclənməsi Osmanlı imperiyasını narahat edirdi. Hələ 1504 ildə sultan II Bəyazid [1481–1512] Səfəvilər dövlətini tanısa da, osmanlılar Azərb.-ı və digər qonşu ölkələri işğal etmək niyyətindən əl çəkməmişdilər. Səfəvilərlə müharibə təqdirində Osmanlı imperiyası ərazisində yaşayan qızılbaşların arxada üsyan qaldıracaqlarından çəkinən sultan I Səlim [1512–20] onlardan təqr. 40 minini edam və sürgün etdirdi. Təqr. 300 topdan, tüfənglə silahlanmış yeniçəri dəstələrindən və s. qoşun növlərindən ibarət osmanlı ordusu avqust ayında Səfəvilər dövlətinin ərazisinə soxuldu. Avqustun 23-də baş verən döyüşdə hər iki tərəf ağır itkiyə məruz qaldı. Osmanlı ordusunun sağ cinahına Anadolu bəylərbəyisi Sinan paşa, sol cinahına isə Rumeli bəylərbəyisi Həsən paşa komandanlıq edirdi. Bir-birinə zəncirlə bağlanmış toplar və yeniçəri dəstələri mərkəzdə yerləşdirilmişdi. Heç bir odlu silahı və topu olmayan qızılbaş ordusu sayca osmanlılardan xeyli az idi. Müharibəyə kifayət qədər hazırlaşmayan I Şah İsmayıl yaxın adamlarının məsləhətinə baxmayaraq, düşməni qəflətən yaxalayaraq məğlubiyyətə uğratmaq üçün gözlənilmədən hücum etməkdən boyun qaçırdı. Səfəvi ordusunun sağ cinahına Durmuş xan Şamlı, sol cinahına isə Məhəmməd xan Ustaclı komandanlıq edirdi. I Şah İsmayıl təkbətək döyüşdə osmanlı pəhləvanı Əli bəy Məlquc oğlunu qılıncdan keçirdi. Lakin osmanlı piyadasını geri oturdan qızılbaş süvarisi düşmən toplarının atəşinə məruz qaldı. Yaralanmış I Şah İsmayıl ölkənin içərilərinə doğru çəkildi. Məğlubiyyətə uğrayan qızılbaşlar Məhəmməd xan Ustaclı, Saru Pirə Ustaclı, Hüseyn bəy Lələ Şamlı, Xadim bəy Xülafə, osmanlılar isə Həsən paşa, Məlquc oğlu, Üveys bəy, Süleyman bəy kimi sərkərdələrini itirdilər. Hücuma keçən osmanlı qoşunu Xoy, Mərənd və Təbrizi tutdu. Lakin osmanlı ordusunda müharibəni davam etdirmək əleyhinə narazı əhvali-ruhiyyə yarandığından sultan I Səlim Təbrizdə cəmi altı gün qaldıqdan sonra şəhəri tərk etdi. Sultan I Səlim geri



Çaldıran vuruşması (1514). Çehelsütun sarayında (İsfahan) divar rəsmi. 1647 il.

çəkilərkən bir neçə min sənətkar ailəsini İstanbula köçürdü. Çaldırandakı məğlubiyyət Səfəvilər dövlətinin hərbi-siyasi nüfuzuna ağır zərbə vurdu.

**ÇALGƏR** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Mərkəzi bölgəsinin Xanəndəbil kəndistanında, Xalxal ş.-ndən 11 *km* q.-dədir.

**ÇALXAN YAŞAYIŞ YERİ** – Azərb. Resp. Kəngərli r-nunun (Nax. MR) Çalxanqala k.-nin c.-q.-ində Son Tunc dövrünə aid yaşayış yeri. 1978 ildə Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Tədqiqatlar zamanı qalınlığı 2 *m* olan mədəni təbəqə müəyyənləşdirilmişdir. Aşınma nəticəsində təbəqə dağılmış, zəngin arxeoloji material üzə çıxmışdır. Kül qarışıq gil laylardan ibarət mədəni təbəqədən keramika qalıqları, xırdabuynuzlu heyvan sümükləri, çaxmaqdaşı qırıntıları tapılmışdır. Gil qablar, əsasən, üzəri qara və qırmızı rənglərlə naxışlanmış monoxrom qablardan ibarətdir. Dalğalı və düz xətlərlə, cızma ornamentlərlə bəzədilmiş boz və qırmızı rəngli sadə gil qablara da təsadüf olunmuşdur. Tapıntılar arasında tufdan düzəldilmiş dən daşları, həvəng və dəstələr, sürtgəclər və s. var. Yaşayış yeri e.ə. 1-ci minilliyə aid edilir.

Çalxanqala. Qala divarının qalıqları.



**ÇALXANQALA** – Azərb. Resp. Babək r-nunun (Nax. MR) Payız k. yaxınlığında, Cəhriçayın sağ sahilində arxeoloji abidə; xalq arasında Oğlanqala da adlanır. Çalxan d.-nda yerləşdiyinə görə Çalxanqala adını almışdır. 1969 ildə O. *Həbibullayev* və V. *Əliyev* tərəfindən qeydə alınan abidədə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Əlverişli təbii mövqedə yerləşən qaladan Cəhriçay və Naxçıvançay vadisini bütövlükdə nəzarətdə saxlamaq mümkün idi. Çalxan d. hər tərəfdən sıldırım qayalarla əhatələnmişdir və qalaya əsas giriş yolu c. tərəfdən, Cəhriçayın sağ sahilindən başlanır. Buradan qalaya qalxarkən yol boyu qayaaltı sığınacaqlara təsadüf edilir. Sığınacaqlar yaşayış yeri kimi istifadə olunduğundan burada xeyli maddi-mədəniyyət qalıqları – kül yığınları, daş alət parçaları, gil qab qırıqları qalmışdır. Ehtimal ki, Çalxan d.-nda qədim insanların məskunlaşması bu sığınacaqlardan başlamışdır. Qala divarı yüngülcə yonulmuş iri qaya parçalarından inşa olunmuşdur. Onların bəzisi bir neçə ton ağırlığındadır. Divar, yerin relyefinə uyğun olaraq, bucaqşəkilli çıxıntılara malikdir. Qala divarının salamat qalmış hissəsinin uz. 450 *m*, eni 2,7 *m*, hünd. 2,5 *m*-dir. Qalaya girişin eni 2,7 *m*-dir. Giriş qapısı üstdən iri daş plitələrlə örtülmüşdür. Tədqiqatlar zamanı düzbucaqlı planlı yaşayış tikililərinin qalıqları aşkar edilmişdir. Qalanın içərisindəki qayalarda qazılmış daş hovuzlar yağış suyunun yığılması və sakinlərin su ilə təmin olunmasında mühüm rol oynamışdır. Düşmən basqınları zamanı qalaya xeyli adam yığıldığından, hovuzlar bütün əhalini su ilə təmin edə bilməzdi. Buna görə qalanın yaxınlığından axan Cəhriçaya enmək üçün yeraltı yol düzəldilmişdi; yeraltı yollardan həm də gizli çaparların göndərilməsi və düşmənə qəfil zərbələr vurmaq üçün də istifadə olunurdu. Tikinti texnikasına görə Ç. Nax. ərazisində olan Oğlanqala və Qazançı qalası ilə oxşardır. Belə tikililər Cənubi Qafqaz və Yaxın Şərq ölkələrində də mövcud olmuşdur. Lakin müdafiə sisteminə görə Ç. bu qalaların heç birini təkrar etmir. Nəhəng qaya parçalarından inşa olunmuş belə qalalar arxeoloji ədəbiyyatda siklop tikililər kimi səciyyələndirilir. Çəhriçay vadisində yaşayan yerli əhalinin müdafiə olunması məqsədilə inşa edilmiş Ç.-nın qala divarlarının üst tərəfi çiy kərpicdən tikilmişdir. Xarici düşmənlərin bu əraziyə hücumları e.ə. 2-ci minilliyin ikinci yarısı – 1-ci minilliyin başlanğıcında xüsusilə güclənmişdi. Qonşuluqda möhkəmlənən Aşşur və Urartu kimi təcavüzkar dövlətlər Nax. ərazisi üçün böyük təhlükə yaradırdı. Qalanın içərisinin zəngin bitki örtüyü burada nəinki insanların yaşaması, həmçinin heyvan sürülərini saxlamaq üçün şəraitin olduğunu göstərir. Vaxtilə buradan toplanmış maddi-mədəniyyət nümunələri nəşr edilməmişdir və hazırda harada saxlanılması da məlum deyildir. Tədqiqatçılar Ç.-nın inşa tarixini e.ə. 2-ci minilliyə aid edirlər.

*Əd.:* Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Б., 1998.





**ÇALXANQALA** – Azərb. Resp. Babək r-nunda (Nax. MR) kənd. Çalxanqala ə.d.-nin mərkəzi. R-n mərkəzindən 33 *km* şm.-q.-də, Dərələyəz silsiləsinin c. ətəyindədir. Əh. 2290 (2011); əkinçilik, üzümçülük və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, kitabxana, poçt şöbəsi, ATS, ambulatoriya, baytarlıq məntəqəsi var. Yaxınlığındakı qədim Çalxanqala qalasının adı ilə adlandırılmışdır.

**ÇALXANQALA KURQANLARI** – Azərb. Resp. Kəngərli r-nunun (Nax. MR) Çalxanqala k. yaxınlığında, Nax. ş.-ndən 40 *km* şm.-q.-də e.ə. 3–2-ci minilliklərə (Orta Tunc dövrü) aid arxeoloji abidə. Ç.k. Nax. ərazisində tədqiq edilmiş ilk kurqanlardır. Konusvarı formada olan kurqanların diametri 8–10 *m*, hünd. 1,2 *m*-dir. Ç.k.-nın altında dördkünc formalı torpaq qəbir yerləşir. Kurqanlardan gil məmulatı (o cümlədən çəhrayı astarlı qara qablar, boyalı qablar, boz rəngli qablar və s., tunc xəncər, nizə ucları, skelet qalıqları), sancaq, düymə, muncuqlar və s. tapılmışdır. Boyalı qablar Qızılburun, Zurnabad, Nəhəcir, I və II *Kültəpə* qablarına tam oxşardır. Müxtəlif formalı gil qabların üzəri tünd-qırmızı rənglə örtülmüş, qara rəngli həndəsi naxışlarla bəzədilmişdir (bunlar, çox güman ki, *Kür-Araz mədəniyyətinin* təsiri ilə bağlıdır). Tunc xəncər yastıtiyəli və qısadəstəklidir. Boruşəkilli dəstəyi olan nizə ucu Orta Tunc dövrü üçün, rombvarı yastı nizə ucu isə Kür-Araz mədəniyyəti üçün səciyyəvidir, Qobustan kurqanından tapılmış nizə uclarına oxşardır. Ç.k.-ndan Yaxın Şərq ölkələrindən gətirilmiş göy, şirli muncuqlar da aşkar olunmuşdur. Tapıntılar Tunc dövründə Azərb.-ın Yaxın Şərq ölkələri ilə iqtisadi və mədəni əlaqələrini öyrənməyə imkan verir.

*Əd.:* Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. B., 1977.

**ÇALXANQALA TUF YATAĞI** – Azərb. Resp. Kəngərli r-nu (Nax. MR) ərazisində, Çalxanqala k.-ndən 6 *km* ş.-dədir. Geoloji quruluşunda Alt Tabaşirin Alb mərtəbəsinin çəhrayımtıl-boz və çəhrayı rəngli, xırdadənəli tuflarından ibarət vulkanogen qat iştirak edir. Vulkanogen qat yuxarıdan aşağıya doğru kvars-porfirit, tuf-brekçiya, tufqumdaşı və tuf-lavadan ibarətdir. Qatın ümumi qalınlığı 140 *m*-ə çatır. Yataq tektonik cəhətdən Yaycı–Əznəbürt sinklinalının c.-q. qanadında yerləşir və monoklinal yatım təşkil edir. Sah. 1 $km^2$, faydalı qatın öyrənilən qalınlığı 20–25 *m*-dir. Tuflar "200"–"4400" markalı divar daşı istehsalına yararlıdır. Yataq 1977 ildən konservasiya olunub; sənaye ehtiyatı 243 min $m^3$-dir.



Çalxanqala. Rekonstruksiya.

**ÇALI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Qavdul kəndistanında, Marağa ş.-ndən 15 *km* c.-ş.-dədir.

**ÇALLI** – Azərb. Resp. Zərdab r-nunda kənd. Çallı ə.d.-nin mərkəzi. R-n mərkəzindən 12 *km* şm.-da, Zərdab–Ucar avtomobil yolu kənarında, Şirvan düzündədir. Əh. 3245 (2011); əkinçilik, heyvandarlıq və quşçuluqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, xəstəxana var.

**ÇALLIBADYANLI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Quruçay kəndistanında, Qaraağac qəs.-ndən 39 *km* şm.-q.-dədir.

**ÇALMA** – baş geyimi növü. Keçmişdə Yaxın və Orta Şərq, Şimali Afrika, Orta Asiya, Qafqaz, o cümlədən Azərb. və s. ölkələrdə müsəlman xalqları arasında geniş yayılmışdı. Ç. ipək, yun, qumaş və ağ rəngli toxuma parçadan olurdu, çox vaxt fəs və ya araqçının üstündən dolanırdı. Müxtəlif xalqlarda parçanın rənginə, keyfiyyətinə, böyüklüyünə, dolama tərzinə görə Ç. sahibinin sosial təbəqə, məzhəb və təriqət mənsubiyyətini təyin etmək olurdu. Qadın Ç.-sı kələğayı və ya ipək örtükdən, dördkünc və uzunsov formada olurdu, əsasən, evdə geyilirdi (bax həmçinin *Dingə* və *Əmmamə*).

**ÇALMA XORXOR** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Muğan kəndistanında, Biləsuvar ş.-ndən 30 *km* q.-dədir.

**ÇALOV** – 1) torpaqqazan və qaldırıcı-nəqledici maşınlarda – materialın (torpağın, süxurun,

**Çalxanqala kurqanlarından aşkar edilmiş məmulat və əşyalar:** *1, 2, 7* – badya tipli gil qablar; *3, 4, 5, 11* – küpə tipli sadə və monoxrom boyalı gil qablar; *6* – kasa tipli monoxrom boyalı gil qab; *8* – tunc xəncər; *9* – tunc sancaq; *10* – tunc nizə ucu.



məhsulun və s.) bir hissəsini tutmaq və ümumi kütlədən ayırıb götürərək yükləmə (boşaltma) yerinə aparmaq üçün işlək orqan. Ç. zəncirə (zəncirli *ekskavator*, *torpaqqazan maşın*, *draq*, *noriya* və *elevatorlarda*), rotora (rotorlu ekskavatorlarda), dəstəyə (düz və əkskürəkli ekskavatorlarda, birçalovlu yükləyicilərdə), çərçivəyə və ya kanatla yüksaxlayan konstruksiyaya (*draqlayn* və qreyferlərdə) bərkidilir. Tökmə, qaynaqlanmış və ştamplanmış Ç.-lar olur. 2) m e t a l l u r g i y a d a – əridilmiş metalı, şteyni və ya posanı qısa müddətdə saxlamaq, nəql etmək və boşaltmaq üçün polad, yaxud çuqun qab. İsti metalın və şteynin yeyici təsirindən mühafizə üçün Ç.-un gövdəsi, adətən, içəridən odadavamlı kərpiclə hörülür və ya (əlvan metallurgiyada) konverter posası ilə işlənilir. Tutumu təyinatından asılı olaraq 140 *t*-a (çuqundaşıyan Ç.), 360 *t*-a (çuqunu konverterə tökmək üçün Ç.) və 480 *t*-a (poladı tökmək üçün Ç.) qədər olur. Ç. körpülü kranlar vasitəsilə, yaxud da d.y. arabacıqlarında hərəkət etdirilir. Posadaşıyan Ç. maye posanı əritmə aqreqatından yenidən emal yerinə və s. nəql etmək, vakuum-Ç. elektroliz vannalarından (məs., alüminiumun elektrolizi zamanı) ərintiləri ayırıb çıxarmaq üçündür. Tökmə sənayesində ərintini qəliblərə tökmək üçün əl Ç.-u (tutumu 15–100 *kq*), monorelslə hərəkət etdirilən kiçik asma Ç. (tutumu 120 *kq*-adək) və kran Ç.-ları (tutumu 100 *t*-adək) istifadə olunur.

**ÇALOV** – quru çoxtoxumlu meyvə; bir və ya bir neçə bitişməmiş meyvə yarpağından əmələ gəlir və çox vaxt toxumlar birləşən tikişdən, yaxud meyvə yarpağının bel damarı boyunca formalaşan uzununa dəlikdən açılır. Çiçəkli bitkilərin ən sadə meyvəsidir. Maqnoliyalar (maqnoliya və s.), bəzi qaymaqçiçəklilər (kəpənəkçiçək, akvilegiya, mahmızçiçək, sunərgizi, əsbəçiçəyi) və qızılgül fəsilələrinin (topulqa və s.) nümayəndələri üçün səciyyəvidir. Yetişmiş Ç.-un meyvəyanlığı bir qayda olaraq nazik kağız konsistensiyalı, maqnoliya və buynuzbaşda isə qalın dərivarıdır. Çiçəkdəki meyvə yarpaqlarının sayından asılı olaraq Ç. müxtəlif növlərdə bir, üç və çox çalovla təmsil olunur.

İriçiçək çoxçalovlu maqnoliya (Magnólia grandiflóra).



**ÇALOVCUQ,** m a r a l d i l i (Phyllitis) – Polypodiaceae fəsiləsindən qıjı cinsi. Çoxillik həmişəyaşıl, uz. 60 *sm*-ə qədər olan otlardır. Yuxarıya doğru inkişaf edən kökümsovu qısadır. Yarpaqları (vayilər) parlaq-yaşıl, bütöv, qısa sap-



Maraldili çalovçıq (Phyllitis scolopendrium).

laqlıdır. Yarpaq ayası lansetvarı, tamkənarlı, ürəkvarı əsaslıdır. Enlixətvarı sorusları damarboyu yarpağın alt tərəfində yerləşir və xətvarı bürüncəklərlə örtülmüşdür. Şimal yarımkürəsində 10 növü yayılmışdır. Torpaqda, qaya və yığıntılarda, rütubətli və kölgəli meşələrdə bitir. Ç. dekorativ bitkidir və bağlarda yetişdirilir. Yarpaq ayası dalğalı olan formaları daha qiymətlidir. Yarpaqları xalq təbabətində və homeopatiyada istifadə olunur. Azərb.-da Kiçik Qafqaz və Talış meşələrində Ç.-un maraldili (Phyllitis scolopendrium) növü bitir.

**ÇALOVLU ELEVÁTOR** – səpələnən yükləri hərəkət edən lentlərə (lentli elevator) və ya zəncirlərə (zəncirli elevator) bərkidilmiş çalovlarla qaldırmaq üçün fasiləsiz işləyən maşın. Çalovun tutumu 1 *l*-dən 130 *l*-ədək, hərəkət sürəti 1 *m/san*-dən 4 *m/san*-yədək, yükün qaldırılma hünd. 40 *m*-dir. Ç.e. metallurgiya, maşınqayırma, kimya və yeyinti sənayesində, zənginləşdirmə f-kləri, taxıl anbarları və s.-də istifadə edilir.

**ÇALOVLU KONVÉYER** – nəqledici orqanı dartı lenti və ya zəncirdən asılmış çalovlar şəklində olan *konveyer*. Ç.k. səpələnən materialların istənilən istiqamətdə yerini dəyişir (hərəkət etdirir) və istənilən təyin olunmuş yerə boşaldır. Ədədi yüklər üçün uyğun olaraq, çalovları nənnilərlə əvəz edilmiş nənnili konveyerlər tətbiq olunur. Yüklərin nisbətən qısa məsafələrə, şaquli və maili istiqamətlərə göndərilməsi üçün *çalovlu elevatordan* istifadə edilir.

**ÇALOVLU TURBİN,** P e l t o n t u r b i n i – işlək çarxının üzərindəki pərləri çalov şəklində olan hidravlik aktiv turbin. Ç.t.-i amerikalı mühəndis A.Pelton

**Şaquli hidravlik turbinin sxemi:** *1* – boru kəməri; 2 – ucluq; *3* – işlək çarx; *4* –val; *5* – işlək pərlər







kəşf etmiş, 1889 ildə patent almışdır. Ç.t. basqısı 400–600 *m* olan SES-lərdə tətbiq edilir. Pərlərin sayı 12-dən 40-adək olur. Hər bir pər "bıçaq"la ayrılmış iki əyrixətli səth şəklində düzəldilmişdir. İşlək çarx elə yerləşdirilməlidir ki, "bıçaqların" kəskisi şırnağın oxu ilə uyğun gəlsin. Fırlanma zamanı pərin arxa tərəfinin şırnağa zərbəsinin qarşısını almaq üçün pərdə xüsusi yarıq nəzərdə tutulmuşdur. İşlək çarxın pərlərinə (çalova) su ucluqdan 165 *m/ saat* sürətlə (çalovun ortasından keçən çevrəyə toxunan istiqamətində) daxil olur. Suyun sərfi və gücü ucluğun içərisində yerləşdirilib onun çıxış kəsiyi sahəsini dəyişdirən hərəkətli iynə vasitəsilə tənzimlənir. Valın vəziyyətinə görə üfüqi və şaquli Ç.t. olur. Ç.t.-in konstruksiyası ucluqların ümumi sayından, yəni şırnaqların sayından asılıdır. Üfüqi turbinlərdə bir və ya iki şırnaqlı, şaquli turbinlərdə isə 1–6 şırnaqlı sxemlər tətbiq edilir. Üfüqi aqreqatlarda bir və ya iki, şaquli turbinlərdə isə bir, bəzən də iki işlək çarxı olan turbinlərdən istifadə olunur.

**ÇALOV-SOBA** – poladın sobadankənar emalı üçün qövsi qızdıran qurğudan və qapaqlı *çalovdan* ibarət texnoloji aqreqat. Ç.-s.-da əritmə sobalarının (konverter, qövs-elektrik sobası, marten sobası) ma-

**Çalav-sobanın sxemi:** *1* – cərəyanverici; *2* – qrafitləşmiş elektrodlar; *3* – ferroərintilər üçün bunker; *4* – texnoloji qazların çıxarılması üçün sistem; *5* – susoyudan qapaq; *6* – elektrik qövsləri; *7* – saflaşdırılmış posa; *8* – maye metal; *9* – içi hörgülü (futerlənmiş) çalov; *10* – qaz üfləyicisi; *11* – çalovun (poladdaşıyan) nəqli üçün qurğu; *12* – üfləmə qurğusu; *13* – şiber sürgülü buraxılış dəliyi.





Çalpara.

ye dəmir-karbon yarımməhsulundan lazımi kimyəvi tərkibdə və keyfiyyətdə oksigensizləşdirilmiş, legirlənmiş və saflaşdırılmış polad alınır. Ç.-s.-nın daxilində maye metalın güzgü səthində qövsi qızdırılma nəticəsində ferroərintilərlə legirləmə zamanı metalın soyumasının qarşısı alınır və poladın fasiləsiz tökülməsi üçün lazım olan temp-r saxlanılır. Ovuntuvarı posayaradan materialların injeksiyası lazımi qalınlıqda (qövsün uz.-ndan 20–30% çox) saflaşdırılmış posa qatı yaradır; posa təbəqəsi güclü istilik şüalarının çalovun iç hörgüsünə təsirini zəifl ədir. Qızdırılma sürəti 3–5 *K/san* olduqda elektrik enerjisinin xüsusi sərfi 30–50 *kVt·saat/t* təşkil edir. Ç.-s.-nın tutumu 20–350 *t*-dur. Qara metallurgiyada Ç.-s.-dan istifadə poladın alınması texnoloji prosesinin məhsuldarlığını artırır.

**ÇALPARA** – Yaxın Şərq və Asiya ölkələrində, eləcə də Azərb.-da geniş yayılmış zərb musiqi aləti. Diametri 40–45 *mm* olan xırda mis sinclər ilgək vasitəsilə hər iki əlin baş və şəhadət barmağına taxılır, bir-birinə toxundurmaqla səsləndirilir. Ç.-dan, adətən, rəqqasələr istifadə edirlər. Ç.-ya xalq arasında zil və ya zil-para da deyilir.

**ÇAM DİLLƏRİ,** t y a m d i l l ə r i – Kamboca və Vyetnam ərazisində yaşayan xalqların–tyamların və dağlı tyamların dilləri. Caray (230 min nəfər) və çam (280 min nəfər) dilləri ən böyük dillərdir. Ən kiçik dil tsat (təqr. 3 min nəfər daşıyıcısı var) dilidir. *Avstroneziya dilləri* ailəsinin Qərbi Zond zonasının Malayya – çam qolunun tərkibində ayrıca qrup təşkil edir. İndoneziya, Filippin, Okeaniya, Madaqaskar və Tayvan dilləri ilə qohum dillərdir. Ç.d.-nə 8–10 dil daxildir. Onları 2 yarımqrupa bölürlər: şimal və cənub. Şm. yarımqrupuna tsat dili daxildir; c. yarımqrupu da 2 yerə ayrılır: 1) sahilyanı dillər – tru (çru, çrau, çuru), çam (çam, tyam), raqlay (roqlay), ray (seyyu, cənubi raqlay); 2) dağlı dilləri (Plato qrupu): xroy (xaroy), caray (zyaray); ede (rde, rade).

*Əd.*: Языки и диалекты мира. Проспект и словник. М., 1982.

**ÇAMALAR** – Perunun ş.-ində (Ukayalinin orta axarında) hindilərin panolar qrupundan xalq. Sayları 15 min nəfərdir (1982). Əksəriyyəti ispan dilini bilir. Dindarları xristiandır.

Ç. müstəmləkə dövründə konibo və şipibo adlı qohum tayfaların qaynayıb-qarışması nəticəsində formalaşmışlar. Konibolar 8 əsrdən etibarən Ukayalinin orta axarında yaşayırdılar. Onların 500–1000 nəfərlik iri məskənləri, güclü başçıları, inkişaf etmiş təsviri sənəti mövcud olmuşdur. Ukayali çayının iri qollarının sahillərində yaşayan şipiboların sosial təşkilatlanması konibolara nisbətən sadə idi.

Ç.-ın əsas məşğuliyyətləri subasar torpaqlarda əkinçilik, balıqçılıq, muzdla işdir. Əsas sosial vahidləri qohumluğu ana xətti ilə hesablanan böyük ailədir; keçmişdə poliginiya səciyyəvi idi (hərbi basqınlar zamanı qadınları ələ keçirirdilər). Nuklear ailələr kiçik meydanı əhatə edən, ikiyamaclı damı olan düzbucaqlı evlərdə yaşayırlar. Hər evin yanında yemək hazırlamaq üçün talvar olur. 20 və daha artıq belə ev təsərrüfatı çay və ya göl sahili boyunca yerləşir. Gündəlik yeməkləri balıq və bişirilmiş banandır. Qadınlar bayramlarda manioktan pivə hazırlayırlar. Geyimləri uzun köynək-kuşmadır; kreolsayağı geyimlər də yayılır. Keramika istehsalı (qadınlar) və ağacişləmə (kişilər), o cümlədən oyulmuş qayıqların düzəldilməsi inkişaf etmişdir. Bir çox əşyalar, xüsusilə pivə qabları Ukayali hövzəsində yaşayan tayfaların əksəriyyəti üçün səciyyəvi olan naxışlarla bəzədilir.

20 əsrin ortalarınadək xristianlığaqədərki ayin və inancların qalıqları qalmaqda idi. Ç. hazırda xristian bayramlarının vaxtına uyğunlaşdırılmış ənənəvi mərasimlərini saxlayırlar.

**ÇAMALALILAR,** ç a m a l a l i l ə r, ç a m a l a d i l ə r, ç a m a - i q a l a r (özlərini belə adlandırırlar – "qayşı qurusu") – Rusiya Federasiyasında xalq. Dağ. Resp.-nda (Tsumadi r-nu, 7,2 min nəfər) və Çeçen Resp.-nda (2,1 min nəfər) yaşayırlar. Ümumi sayları 9,5 min nəfərdir. SSRİ-də əhalinin siyahıyaalınması keçirilərkən Ç. avarlara aid edilirdilər. Nax-Dağıstan dil ailəsinin çamalal dilində danışırlar. Dialektləri: qakvari və giqatli. Avar, rus, qismən də çeçen dilləri yayılmışdır. Məktəblərdə dərslər avar dilində aparılır. Dindarları müsəlmandır.

Ənənəvi məşğuliyyətləri əkinçilik və



Çambal çayı.

maldarlıqdır. Arpa, buğda və qarğıdalı becərirlər. Heyvandarlıqda köçəbə qoyunçuluq üstünlük təşkil edir. Bağçılıq, arıçılıq, üzümçülük (Andi Koysusu çayı dərəsində) inkişaf etmişdir. Sənət sahələri mahudçuluq, keçəçilik, palaztoxuma, mis qablar və ağac məmulatları istehsalı, gümüş emalı, dəmirçilik, dabbağlıqdır. Ç.-ın çoxu Çeçenistana, həmçinin Dağıstanın şəhər və taxıl r-nlarına mövsümi işlərə gedirdi. Hazırda maldarlıq, xış əkinçiliyi, bostançılıq, bağçılıq, qismən arıçılıq və sənətkarlıqla məşğuldurlar.

Kiçik ailə üstünlük təşkil edir. Kuzen nikahları yayılmışdır. Qohumluğu ata xətti ilə hesablanan qruplar – toxumlar mövcuddur. Sıx və pilləli yaşayış məskənləri, gözətçi qüllələri ilə əhatələnmiş olurdu. Hər məskən 5–12 məhəllədən (toxum məskənlərindən) ibarət idi. Hər məhəllənin öz məscidi var idi, kəndin mərkəzində isə Cümə məscidi yerləşirdi. Kənd icmasına nüfuzlu toxumlardan seçilmiş kəndxudalar başçılıq edirdi. Kəndlərin yeni hissəsi pərakəndə planlıdır.

Kvadrat planlı, küçə tərəfdən girişi olan 1, 2 və 3 mərtəbəli daş evlər relyefdən və sakinlərin imkanından asılı olaraq bir- və çoxkameralıdır. Evlərin yastı dam örtükləri möhrədən, döşəmələri daş və gildəndir. Son zamanlar dörd- və ya ikiyamaclı, şifer və ya dəmir taxtapuşlu damı və taxta döşəməsi, dərin özüllü kürsülük-anbarı olan evlər (bir mərtəbə yarım) tikilir.

Ənənəvi kişi geyimləri köynək və şalvar, beşmet, çərkəzi, qoyun dərisindən tikilmiş müxtəlif tipli kürk, qolsuz köynək, gödəkçə, keçədən yapıncı, baş geyimi isə konusvarı yun papaq, ayaq geyimləri xam dəridən çarıqlar, keçə çəkmələr, toxunma yun corablardan ibarətdir. Qadın geyimlərinə köynək, üstündən əlvan kəmər bağlanan tünd rəngli paltar, şalvar və qoyun dərisindən tikilmiş kürk, baş geyiminə isə çutqu və onun üstündən örtülən evdə toxunmuş mahuddan hazırlanmış baş yaylığı daxildir. Kişi bəzək əşyaları kəmər, xəncər, vəznədir, qadınlar isə çutquya tikilmiş alın zənciri (gümüş və ya misdən), boyunbağı, asmalar, üzük, sırğa və s. taxırdılar.

Gündəlik yeməkləri *xəngəldir*. Çörək, əsasən, duzsuzdur. Ç.-ın nəğmə və rəqs folkloru zəngindir. Mahnılarını avar dilində ifa edirlər. Əsas musiqi alətləri *pandur*, *zurna* və *dəfdir*. Təqvimi mərasimlərindən ən başlıcası "birinci şırım" bayramıdır. Dağ ruhlarına inam, xalq demonologiyası, müqəddəslərin və əcdadların kultu saxlanılmışdır. Türkəçarəlik, falçılıq, yağışın, Günəşin çağırılması ayinləri, magiyanın müxtəlif növləri yayılmışdı.

**ÇAMBAL** – Hindistanda çay. Camna çayının (Qanq hövzəsi) sağ qolu. Uz. təqr. 830 *km*, hövzəsinin sah. təqr. 135 min $km^2$. Dekan yaylasının şm.-ından, Vindhya d-rından başlanır, Malva platosu ilə, aşağı axınında isə Hind-Qanq ovalığı ilə axır. Yağış suları ilə qidalanır, yayda gursuludur. Ortaillik su sərfi təqr. 600 $m^3/san$, maks. 20 min $m^3/san$-dəkdir. Əsasən suvarmada istifadə olunur. Rampur ş. yaxınlığında iri su anbarı yaradılmışdır. SES-lər var. Ayrı-ayrı sahələrdə gəmiçiliyə yararlıdır. Kota ş.-i Ç.-ın sahilindədir.

**ÇAMBALAR,** ç a m p a l a r, t s a m b a l a r, c a m b a l a r, s a m a b u l a r, s a m a l a r (özlərini belə adlandırırlar), dinqalar, lekolar – Nigeriyada (Qonqola ştatı, 340 min nəfər) və Kamerunda (Benue çayının yuxarı axarları, 300 min nəfər) yaşayan xalq. Subetnik qrupları: çambalekon, kunqana, suntan, donqa, takum. Niger-Kordofan dil ailəsinin şərqi adamaua qrupuna aid olan çamba-leko, yaxud suntai dilində danışırlar. Əksəriyyəti ənənəvi etiqadlarını saxlayır, müsəlmanlar da var.

Ənənəvi məşğuliyyətləri qaramal yetişdirilməsidir. Sənətkarlıq sahələri dulusçuluq və zənbilhörmədir. Sosial təşkilatlanmanın əsasını böyük ailələrdən ibarət icmalar və patrilateral ekzoqam qruplar təşkil edir. Virilokal nikah, levirat, sororat və satınalma nikah mövcuddur. Evlər dairəvidir, divarları möhrədəndir, konusvarı damı küləşlə örtülür. Divarlar çox vaxt rəsmlər və ornamentlərlə bəzədilir. Ənənəvi kişi geyimləri bel sarğısı, qadınlarda isə lif və ya muncuqlardan düzəldilən önlükdür. Əsas yeməkləri süd və süd məhsullarıdır. Əcdadların və təbiət qüvvələrinin kultu, magiya, falçılıq yayılmışdır. Əsas folklor janrları nəğmələr, atalar sözü və nağıllardır.

**ÇAMDÓ,** Ç a b d o – Çində, Tibet Muxtar r-nunda şəhər. Əh. 599 min (2007). Lantsantszyan (Mekonq) çayı dərəsində, dəniz səviyyəsindən 3000 *m* yüksəklikdə, Sikan–Tibet avtomobil yolu kənarındadır. Kimya, metal emalı, yeyinti sənayesi müəssisələri var.

**ÇAMIRLI** – İrəvan xanlığının Göyçə mahalında (9.9.1930 ildən Basarkeçər, 11.6. 1969 ildən Vardenis r-nu), Alagöl çayının sahilində azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd erməni-daşnak hücumlarına məruz qalmış, dağıdılmış, əhalisi isə qovulmuşdur. 1922 ildə kəndin qaçqın əhalisi geri qayıdaraq kəndi yenidən abadlaşdırmış, lakin 1929 ildə kənd ləğv edilmiş, əhalisi qonşu kəndlərə köçürülmüşdür.

**ÇAMIRLI** – İrəvan xanlığının Abaran mahalında (9.9.1930 ildən Abaran, 3.1. 1935 ildən Aparan r-nu) azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd erməni təcavüzünə məruz qalmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar qaçqın düşmüşlər.

**ÇAMLAR** – bax *Tyamlar*.

**ÇAMLIBEL FARUK NAFİZ** (18.5. 1898, İstanbul – 8.11.1973, Fəthiyyə) – türk şairi, dramaturq. 1918 ildə "İrəli" qəzetində işləmişdir. 1922–24 illərdə Kayseri, Ankara və İstanbul liseylərində, Arnavutköy amerikan qız kollecində müəllimlik etmişdir. 1946 ildə Demokrat partiyasından İstanbul millət vəkili se-







Çamdo şəhərindən görünüş.

çilmiş, 1960 il inqilabı dövründə partiyanın millət vəkili seçilmiş digər üzvləri ilə birlikdə həbs edilmişdir. 1961 ildə azadlığa buraxıldıqdan sonra bir daha siyasətə qayıtmamışdır.

İlk şeirləri "Pəyam" və "Sərvəti-fünun" jurnallarında nəşr olunmuşdur. Erkən yaradıcılığına Cənab Şəhabəddin, Tofiq Fikrət və Əhməd Haşimin təsiri olmuşdur. 1918 ildə "Şərqin sultanları" adlı ilk şeir kitabı nəşr edilmişdir. Şeirləri "Ədəbiyyate-ümumiyyə", "Böyük məcmuə", "Nədim", "Ümid", "Ulduz" jurnallarında çap olunmuşdur. 1922 ildən sonra heca vəznində sadə dillə yazdığı şeirlərində Anadolu həyatının real gerçəkliklərini əks etdirmişdir. Əruz vəznində də şeirlər yazmışdır. Satirik şeirlərini "Akbaba", "Karikatura", "Mizah" jurnallarında çap etdirmişdir. "İlk göz ağrısı" (1922), "Sövq-təbii" (1925), "Canavar" (1926), "Axın" (1932), "Qəhrəman" (1933), "Ataş" (1939), "Yayla qartalı"(1945) adlı dram əsərləri, "Ulduz yağışı" (1936) adlı romanı, "Tofiq Fikrətin həyat və yaradıcılığı" (1937) adlı bioqrafik əsəri və s. vardır.

**ÇAMORROLAR** (özlərini belə adlandırırlar; ehtimal ki, çamori – "başçı" və ya çamauri – "bu daha yaxşıdır" sözlərindəndir; başqa etimologiyalar da mövcuddur) – Mikroneziya xalqı, Marianna a-rının yerli əhalisi. Şimali Marianna Adaları Birliyində 16 min nəfər və ABŞ mülkü olan Quam a.-nda 80 min nəfər yaşayır. Avstroneziya dil ailəsinin qərb qoluna aid çamorro dilində danışırlar. İngilis dili də yayılmışdır. Dindarları xristiandır.

Digər Mikroneziya xalqlarından fərqli olaraq, Ç.-ın (*belaular* kimi) mənşəyini e.ə. 2-ci minilliyin ortalarında Filippin və İndoneziyadan köçənlərlə bağlayırlar. Bunu dil mənsubiyyətləri, ən qədim keramika növünün (Mariana qırmızı keramikası) oxşarlığı və Okeaniya üçün unikal olan çəltik becərilməsi təsdiq edir. Ç. meqalit mədəniyyətinin qədim abidələri olan məşhur lattelər (yarımkürə şəklində ucları olan nəhəng daş sütun sıraları) də Cənub-Şərqi Asiyadakı yortacəsaslı tikililər prinsipinin tətbiqi kimi şərh edilir. Avropalılarla əlaqələri 1561 ildən başlamışdır. İspaniyanın müstəmləkəçilik siyasəti bir sıra üsyanlara [ispan-çamorro müharibələrinə (1670–95)] səbəb olmuşdu. Üsyanlar qəddarcasına yatırıldıqdan, ispanlar tərəfindən Ç.-ın bütün kişi əhalisi məhv edildikdən sonra onların sayı 100 min nəfərdən 3 min nəfərə enmişdi. 18 əsrin sonlarında köklü Ç. qalmamışdı. İndiki Ç. çamorro qadınlarının ispanlar, filippinlilər, meksikalılar və yaponlarla (əsgər və kolonistlərlə) qarışıq nikahlarından törəmələrdir.

Ənənəvi rəqs edən çamorro uşaqları.



Ç.-ın ənənəvi məşğuliyyətləri tala əkinçiliyi, əsas əkinçilik alətləri yerqazan çubuq və daş toxa olmuşdur. Çəltik, yams, banan, kokos, şəkər çuğunduru becərilirdi. Dəniz tısbağası, yarasa, müxtəlif quşların əti ilə də qidalanırdılar. Balıqçılıq və yığıcılıqla da məşğul olurdular. Bütün əkin-biçin işləri kişilərə həvalə edilirdi. Onlar dənizdə üçbucaq yelkənli qoşa qayıqlarda torla balıq tuturdular. Ç. yortacəsaslı evlərdə (əyanlar), yaxud yarpaqdan düzəldilmiş komalarda yaşayırdılar. Mübadilə (Marianna a-rı daxilində və Karolina arxipelaqı ilə) yayılmışdı; mübadilə ekvivalenti sapa düzülmüş balıqqulağı idi. Geyimləri bitki liflərindən hörülmüş belbağıdan ibarət olmuşdur. Yağış zamanı və bayram günlərində yarpaqlardan düzəldilmiş dəbilqə və çiyinlik geyinirdilər.

Əsas sosial vahidləri kənd əhalisini təşkil edən və qohumluğu ana xətti ilə hesablanan ailə qrupları idi. Başçının hakimiyyəti altında bir neçə kənd birləşirdi. Cəmiyyət üç zümrəyə bölünürdü: ali başçılar (matua), kiçik başçılar (atçaot) və sadə adamlar (manqat-çanq). Subay evləri mövcud idi. Çamorro qadınları yüksək sosial statusa malik idilər: onlar kənd şuralarında iştirak edir, məhkəmə qərarları çıxarır, özlərinin məclislərini çağırır və ərlərinin mülkünə varis olurdular. Əsas kultları əcdadlara sitayiş idi. İspan istilasından sonra ölənlərin (xüsusilə başçıların) kultu yayılmışdı. Ənənəvi mədəniyyətlərindən yalnız ayrı-ayrı ünsürlər qalmışdır: bayramlarda "çamorrita mahnıları"nın ifası, sənət növlərindən hörmə, balıqqulağından bəzək əşyalarının düzəldilməsi, ağac üzərində oyma. Ç. arasında betel çeynəmək adəti yayılmışdır. Hazırda evləri müasir tikinti materiallarından inşa edilir, geyimləri avropasayağıdır. Ç.-ın əksəriyyəti muzdla işləyir, əsasən, Quam a.-ndakı ABŞ hərbi bazalarına xidmət göstərir. Ç.-da etnik özünüdərketmə güclüdür.

**ÇAMPA** – bax *Tyampa*.

**ÇAMSULVARAYEV** Çamsulvara Baqomedoviç (d.6.9.1984, RF-nin Dağ. Resp., Mahaçqala) – Azərb. idmançısı. Sərbəst güləş üzrə 74 *kq* çəki dərə-

cəsində Avropa çempionatının bürünc (2007, Sofiya; 2008, Tampere; 2010, Bakı), dünya çempionatının bürünc (2007, Bakı) və gümüş (2009, Herninq) mükafatçısı, Avropa çempionudur (2009, Vilnüs).



**ÇAN** Ceki (ing. Jackie Chan; əsl adı Chan Kong Sand; d. 7.4.1954, Honkonq) – Çin və Amerika aktyoru, kaskadyor, kinorejissor, prodüser, ssenarist, müğənni. Yoxsul çinli ailəsində doğulmuşdur. 6 yaşından Honkonqdakı Pekin opera məktəbinə getmişdir; səhnə hazırlığından başqa, bu məktəb ona bədənini məharətlə idarə etməyi də öyrətmişdir. Ç. həmçinin kun-fu döyüş sənəti ilə maraqlanmışdır. 8–10 yaşlarından filmlərdə epizodik rollara çəkilmişdir. Kino karyerasına kaskadyor kimi başlamışdır. 1970-ci illərin ortalarından kinoda daha böyük rollar oynamağa başlamış, sonralar özü də filmlər çəkmişdir. "Sərxoş usta" filmində Ç. səhlənkar və zirək Von Tey Xun rolunu oynamışdır. 1983 ildə "Proyekt "A"-nın (Project "A") çəkilişlərində Ç. rəsmən öz kaskadyor qrupunu yaratmış və sonralar bu qrupla başqa filmlərdə də çəkilmişdir. Ç. dəfələrlə "Böyük dalaşma", "Top nüvəsi yarışları", "Top nüvəsi yarışları – 2", "Havadar" layihələri ilə 1980-ci illərin əvvəlində Amerika kino bazarına daxil olmağa cəhd göstərmişdir. Ç. əsl şöhrəti "Bronksda araşdırma" (1995) filmindən sonra qazanmışdır. "İlk zərbə", "İldırımı dəf edən", "Şanxay günortası" (2000) filmləri və "Ceki Çanın macəraları" ("Jackie Chan Adventures") animasiya serialı çox böyük tamaşaçı rəğbəti qazanmışdır. Ç. 100-dən artıq filmdə baş rola çəkilmişdir. Dünyada ən məşhur Asiya aktyorlarından biridir. O, pop ifaçısı kimi də tanınır. 1984 ildən 100 mahnıdan ibarət 20 albom çap etdirmişdir. Ç. xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olur və bir çox layihələrdə iştirak edir. 1990-cı illərin ortalarından Hollivudda işləyir.



**ÇAN KAYŞİ,** Szyan Sze-şi (31.10.1887, Çjetszyan əyaləti, Fınxua ş. – 5.4.1975, Taybey) – Çin hərbi və siyasi xadimi, marşal, generalissimus. 1925 ildən Çində xalq inqilabı nəticəsində devrilmiş (1949) *Qomindan* rejiminin başçısı. Tacir ailəsində anadan olmuşdur. 1903–06 illərdə Fınxuada Avropa təhsili almışdır. 1907–09 illərdə Baodin və Sinbu hərbi məktəblərini bitirdikdən sonra kadet rütbəsində hərbi xidmətə başlamışdır. 1915–16 illərdə Ç.K. Şanxayda Yuan Şikay hakimiyyətinə qarşı silahlı çıxışlarda fəal iştirak edərək *Sun Yatsenin* yaxın silahdaşına çevrilmişdir. 1918 ildə o, inqilabi qüvvələrin mərkəzi olan Quançjouda əməliyyat idarəsinin rəisi, daha sonra Qomindan ordusunun 2-ci birləşməsinin komandanı, 1923 ildə baş qərargah rəisi, 1924 ildə Quançjouda açılmış Vampu hərbi məktəbinin rəisi təyin olunmuşdur. Sun Yatsenin vəfatından (1925) sonra Ç.K. 1-ci milli inqilabi ordunun komandanı seçilərək Qomindan partiyasının əsas hərbi fiqruna çevrilmiş, 1926 ildə partiyanın Mərkəzi İcra Komitəsinin üzvü seçilmişdi. Şimal yürüşü (1926–27) zamanı Milli İnqilab Ordusunun baş komandanı idi. 1927 il aprelin 12-də əksinqilabi çevriliş edərək ölkədə irticaçı diktator rejimi yaratmışdı. Həmin ilin avqust ayında siyasi intriqalar nəticəsində istefa verməsinə baxmayaraq, 1928 ilin yanvarında yenidən Milli İnqilab Ordusunun baş komandanı olmuş və Şimal yürüşünü uğurla başa çatdırmışdır. 1928 il oktyabrın 8-də Çin Resp. Milli hökumətinin sədri seçilmişdir. 1937 ildə Yaponiyanın Çinə hücumundan sonra Çin Kommunist Partiyası (ÇKP) ilə birgə antiyapon milli cəbhəsini yaratmışdır. Həmin il Ç.K. Çin Resp.-nın generalissimusu olmuşdur. ÇKP ilə koalisiyalı hökumət yaratmaq haqqında uğursuz danışıqlardan (1946, iyul) sonra baş vermiş vətəndaş müharibəsində Ç.K. Qomindanın ÇKP-yə qarşı mübarizəsinin rəhbəri idi. 1948 ilin mayında Çin Resp.-nın prezidenti vəzifəsini icra etməyə başlamışdır.



1949 ildə Çinin materik hissəsində qomindançıların Çin Xalq Azadlıq Ordusuna məğlubiyyətindən sonra Ç.K. Tayvan a.-na qaçaraq, orada hökumətin və Qomindanın başçısı olmuşdur. Ç.K. Çin Resp.-nın (Tayvandakı dövlətin rəsmi adı) prezidenti (1950 ildən) və silahlı qüvvələrinin baş komandanı idi. 1970-ci illərin əvvəllərinədək ABŞ tərəfindən dəstəklənən Ç.K. rejiminin nümayəndələri BMT-də Çini təmsil edirdilər, lakin 1971 il oktyabrın 25-dən bu yeri ÇXR-in nümayəndəsi tutmuşdur. Ç.K.-nin ölümündən sonra onun oğlu Szyan Szinqo Tayvan hökumətinin yeni başçısı olmuşdur.

**ÇANAXÇI,** Aşağı Çanaxçı – İrəvan xanlığında Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Çanaxçı bölgəsində, Hortun çayının yuxarı axarında azərb.-ların yaşadığı kənd. İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra kəndə İrandan köçürülmüş erməni ailələri yerləşdirilmişdir. 19 əsrin ortalarında kəndin azərb. əhalisi tamamilə sıxışdırılıb çıxarılmışdır.

1830-cu illərdə yaxınlıqdakı Hortun kəndi Yuxarı Çanaxçı adlandırıldığından Ç. mənbələrdə Aşağı Ç. kimi də qeyd olunurdu.

**ÇANAXÇI** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu) azərb.-ların yaşadığı kənd. 20 əsrin əvvəllərində kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi qovulmuş və kənd xaraba qalmışdır.

**ÇANAQ,** çanaq qurşağı – skeletin bir hissəsi; məməli heyvanlarda arxa, insanda aşağı ətrafları birləşdirən hissə. Ç. insanın onurğası və bədəninin bütün yuxarı hissəsi üçün istinaddır; *bud-çanaq oynağında* bud sümüyü ilə birləşir. Yetkin insanın Ç.-ı oma, büzdüm və bir cüt adsız Ç. sümüklərindən ibarətdir. Çanaq sümükləri öndə öz aralarında qasıq bitişməsi, arxada isə oma sümüyü ilə güclü bağlarla möhkəmlənmiş cüt oma-qalça oynağı şəklində birləşir. Adsız sümüklərin hər biri qalça, oturaq və böyümə dövrünün sonunda birləşən qasıq sümüklərindən ibarətdir. Onların xaricdən birləşmə yerində sirkə kasası yerləşmişdir. Ç.-ın quruluşunun cinsi xüsusiyyətləri vardır: qadın Ç.-ı kişi Ç.-ına nisbətən daha enli və az dərindir. Böyük və kiçik Ç. ayırd edilir. Böyük Ç. öndən qarın divarının ön yumşaq toxumaları, arxadan – onurğa, yanlardan – qalça sümüyünün qanadları ilə; kiçik Ç. öndən qasıq sümükləri, arxadan – oma və büzdümlə, yanlardan oturaq sümüyü və yumşaq toxumalarla hüdudlanır. Böyük Ç.-da qarın boşluğunun aşağı şöbəsinin orqanları, kiçik Ç.-da düz bağırsaq, sidiklik, kişilərdə prostat vəzi və toxum qovuqcuğu, qadınlarda – uşaqlıq, uşaqlıq





artımları və uşaqlıq yolu yerləşir. Ç.-ın ölçüləri xüsusi ölçmələrlə, qadınlarda isə həm də uşaqlıq yolunun müayinəsi ilə təyin edilir. Ç. sümüyü arxadan bel və onurğa əzələlərinin və öndən qarın əzələlərinin bağlanma yeridir; Ç.-dan, həmçinin aşağı ətraf əzələləri başlayır. Ç. nahiyəsi əzələlərindən ən böyüyü – cüt böyük sağrı əzələsidir. Ç. divarının və onun daxili orqanlarının qan təchizatı cüt daxili qalça arteriyalarının şaxələri ilə; innervasiyası oma kələfi şaxələri (bax *Sinir kələfləri*) ilə yerinə yetirilir.

Ç. zədələnmələrindən ən təhlükəlisi güclü travmatik qüvvə təsirindən baş verən *sınıqlardır* (çanaq halqasının fasiləsizliyinin pozulması, yaxud pozulmaması ilə). *Çıxıqlar* nadir hallarda təsadüf edilir; lakin uşaqlarda Ç.-ın travması zamanı sümüklərin sınmasına nisbətən daha çox bağların qırılması və çıxıqlar (məs., bud-çanaq oynağında) baş verir. Oma-qalça və qasıq bitişmələrində sümüklərin eyni vaxtda yerdəyişməsi zamanı Ç.-ın yarısının çıxığı baş verir. *Doğuş* zamanı bəzən Ç.-ın qasıq bitişməsinin aralanması mümkündür. Sirkə kasası nahiyəsinin sınıqları budun çıxması ilə birgə ola bilər. Ç. sümüklərinin sınıqları onun daxili orqanlarının zədələnməsi ilə, çox vaxt sidikliyin və sidik kanalının partlaması ilə müşayiət oluna bilər. Ç.-ın xəstəlikləri: hematogen *osteomielit*, bu zaman, adətən qalça sümüyünün qanadı və oma sümüyü zədələnir; *brusellyoz* və revmatoid *artrit* zamanı oma-qalça oynağının zədələnməsi.

**ÇANAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Gərmaduz kəndistanında, Kəlibər qəs.-ndən 36 *km* şm.-ş.-dədir.

**ÇANAQ** – 1) məişət qabı. Azərb.-ın şm.-ş. zonasında geniş yayılmışdı. Əsasən, ağacdan (qoz, fındıq, qızılağac) hazırlanırdı. Qaymaq qoymaq, pendir hazırlamaq və s. üçün işlədilirdi. Dərinliyi 7–10 *sm*, diametri 50–80 *sm*, qalınlığı 4–5 *sm* olur. Xüsusi ustalar – çanaqçılar tərəfindən əl ilə və ya ağaciçləmə dəzgahında düzəldilirdi. Üzü naxışlanırdı.

2) Azərb.-da ənənəvi həcm ölçüsü vahidi. Silindrvarı qab olan Ç.-ın ortasına göndən qurşaq sarılır və əldə tutmaq üçün xüsusi halqa keçirilirdi. Hünd. 30–40 *sm*, diametri 60–70 *sm* idi. Bir Ç. 7–8 *kq* buğda, 5–6 *kq* darı, 8 *kq* düyüyə bərabər idi. Azərb.-ın q. zonasında bir dərzdən alınan taxılın miqdarı bir Ç. (5 *kq*) hesab edilirdi. Xalq arasında yarım Ç. ölçü vahidi də yayılmışdı.

3) Azərb. Müvəqqəti İnqilab Komitəsinin 1921 il 17 may tarixli "Bütün ərzaq inhisarı növlərinin ləğv edilməsi haqqında" dekretinə əsasən ərzaq vergisi əvəzində könüllü məhsul rüsumu – "çanaq" qoyulmuşdu. 1922 ildə "çanaq" ərzaq vergisi ilə əvəz edildi.

**ÇANAQ YAŞAYIŞ YERİ** – Azərb. Resp. Sədərək r-nunun (Nax. MR) Sədərək k. yaxınlığında Son Tunc və Erkən Dəmir dövrünə aid yaşayış yeri. Arxeoloji qazıntılar aparılmamışdır. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı əldə olunmuş maddi mədəniyyət nümunələrinə əsasən Ç.y.y. e.ə. 2–1-ci minilliklərə aid edilir.

**ÇANAQBULAQ** – Azərb. Resp. Yardımlı r-nunun Aşağı Astanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 28 *km* şm.-ş.-də, Burovar silsiləsinin c.-q. ətəyindədir. Əh. 662 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana var.

**ÇANAQBULAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Quruçay kəndistanında, Qaraağac qəs.-ndən 35 *km* şm.-q.-dədir.

**ÇANAQBULAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkmən bölgəsinin Bərvanan kəndistanında, Türkmən qəs.-dən 9 *km* ş.-dədir.

**ÇANAQBULAQ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Muğan kəndistanında, Biləsuvar–Aslanduz avtomobil yolunun üstündədir.

**ÇANAQBULAQ** – İranın Ərdəbil ostanında kənd. Meşgin şəhristanının Mərkəzi bölgəsinin Şərqi Meşgin kəndistanında, Meşginşəhrdən 27 *km* c.-ş.-dədir.

**ÇANAQÇI,** Cəhənnəmdərə – Erm. və Azərb. Resp. (Nax. MR Sədərək və Şərur r-nları) ərazilərində çay. Arazın sol qolu. Uz. 42 *km*, hövzəsinin sah. 189 $km^2$. 2520 *m* hünd.-dən başlanır. Əsasən, yağış suları ilə qidalanır. İllik axım həcmi 27,4 mln. $m^3$-dir. Yayda bəzən quruyur. Suvarmada istifadə edilir.

**ÇANAQÇI** – Azərb. Resp. Xocalı r-nunda kənd. Çanaqçı ə.d.-nin (Çanaqçı, Sığnaq k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 20 *km* c.-da, Qarabağ silsiləsinin ətəyindədir. Əhalisi işğaldan (1992, fevral) əvvəl əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, memarlıq abidələrindən qala, arxeoloji abidələrdən Tunc dövrünə aid qəbiristan var idi.

**ÇANAQÇI** – Azərb. Resp. Daşkəsən r-nunda kənd. Çanaqçı ə.d.-nin (Çanaqçı, Zivlan k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 21 *km* c.-ş.-də, Çanaqçı çayının (Gəncə çayının sağ qolu) sahilində, dağ ətəyindədir. Əh. 412 (2011); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**ÇANAQÇI** – Gədəbəy r-nunda kənd. 25 oktyabr 2011 ilədək *Ağamalı* k. Bax *Ağamalı*.

**ÇANAQQALA** (Çanakkale) – Türkiyənin şm.-q.-ində şəhər. Çanaqqala ilinin inz. m. Əh. 91 min (2008). Dardanel boğazı sahilində port. Avtomobil yolları qovşağı.

Ç. yaxınlığında ən qədim yaşayış məskəni – indiki Kumtəpə Neolit dövründə (təqr. e.ə. 4800 il) meydana gəl-

Çanaqqala şəhərindən görünüş.





Çanbayşan. Baytouşan vulkanı.

mişdi. Sonralar bu məskənin sakinləri Troya ş.-nin əsasını qoymuşlar. Ç. osmanlıların qalası kimi 15 əsrdə tikilmişdi. 17 əsrdə Ç. dulusçuluq mərkəzinə çevrilmiş, 18–19 əsrlərdə isə burada dulusçuluq sahəsi yüksək mərhələsinə çatmışdı. Birinci dünya müharibəsi (1914–18) zamanı keçirilən Dardanel əməliyyatının (1915–16) əsas döyüşləri Ç.-nın ətrafında baş vermişdi.

Yeyinti, keramika sənayesi, gəmiqayırma və gəmi təmiri müəssisələri var. Balıq konservlərinin istehsalı mərkəzidir. Turizm inkişaf etmişdir.

**ÇANAQQALA** – Türkiyənin şm.-q.-ində, Mərmərə bölgəsində il. Sah. 9,9 min $km^2$. Əh. 474,8 min (2008). İnz. m. Çanaqqala ş.-dir. İlin ərazisi Çanaqqala boğazı ilə iki hissəyə bölünür. Böyük hissəsi Anadoluda (Asiya qitəsində), digər hissəsi Frakiyadadır (Avropa qitəsində). Səthi, əsasən dağlıqdır; ovalıqlar az yer tutur. Kiçik çaylarının bir qismi Mərmərə dənizi hövzəsinə, digər qismi isə Çanaqqala boğazı hövzəsinə aiddir. İqtisadiyyatını heyvandarlıq (qoyun, keçi və s.) və əkinçilik (taxıl, pambıq) təşkil edir; günəbaxan, tütün, zeytun, tərəvəz yetişdirilir.

Çan-çan şəhərinin xarabalıqları.



**ÇANAQQALA BOĞAZI** (Çanakkale boğazı) – *Dardanel* boğazının türk dilində adı.

**ÇANAQLI** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Nazlı kəndistanında, Urmiya ş.-ndən 18 *km* şm.-q.-dədir.

**ÇANAQLI BAĞA** – bax *Tısbağa.*

**ÇANAQLI XƏRÇƏNGLƏR,** ostrakodlar (Ostrakoda) – xərçənglər sinfindən onurğasız heyvanlar yarımsinfi. Bədəni kirəcdən təşkil olunmuş ikitaylı və ya ikiçanaqlı çanağın daxilində yerləşir. Uz. 0,2–23 *mm*-dir. Başı gövdədən zəif seçilir. Gövdədə 3 cüt ayaq var. Ç.x.-in əksəriyyətində bir sadə göz, bəzilərində isə 2 mürəkkəb göz olur. 2000-ə qədər növü məlumdur. Ç.x.-in əksəriyyəti su hövzələrinin dibində yaşayır. Vətəgə əhəmiyyətli balıqların qidasını təşkil edir. Qazıntı qalıqlarına Kembri dövründən rast gəlinir; neft və qaz yataqlarının kəşfiyyatında əhəmiyyətlidir. Xəzər dənizində 88 növ və yarımnövü, Azərb.-nın daxili sularında isə 19 növü qeydə alınmışdır.

**ÇANAQLI NASÓS,** çömçəli nasos – fırlanan gövdəsi və mayeni qəbul etmək və axıtmaq üçün tərpənməz qurğusu olan dinamik nasos. Maye boru kəmərindən nasos gövdəsinin oxu boyunca daxil olur, fırlanan gövdənin girinti-çıxıntılı daxili divarları ilə aparılaraq kənara (periferiyaya) atılır, tərpənməz axıdıcıya (çanağa) tökülür. Maye çanaqdakı deşikdən diffuzor kanalına (axıdıcının içərisində yerləşir), daxil olur, sonra isə oxboyu ötürülərək təzyiq borusuna tərəf axır. Ç.n. çıxışda təzyiq 20 *MPa*-a qədər olduqda az miqdarda bərk qarışıqsız mayeləri (yanacaq, maye metallar, aqressiv və s. mayelər) vurmaq üçün tətbiq edilir.

**ÇANAQLI YASTICALAR** (Diaspididae) – koksidlər yarımdəstəsindən bərabərqanadlı cücü fəsiləsi. Bədəninin uz. 2 *mm*-ədək olub, mum lövhə (çanaq) ilə örtülüdür (adı da buradandır). Cinsi dimorfizm aydın görünür. Dişiləri qanadsız və ayaqsızdır; erkəkləri dişilərindən xırdadır. Dünyada 3600, o cümlədən Azərb.-da 158 növü var. Ağaclarda, kolluqlarda, bəzən də otluqlarda yaşayır. Bir çox növləri sitrus, alma, gavalı, şaftalı, tut və s.-nin zərərvericisidir.

**ÇANBAYŞÁN,** Koreya dilində Çanpeksan – Çində və Koreyada, Mancuriya-Koreya d-rında vulkanik yayla. Bazaltlardan ibarətdir. Səthi çay dərələri ilə kəskin parçalanmışdır. Hünd. 1000–2000 *m* (ən hündür nöqtəsi 2750 *m*; Baytouşan vulkanı). İynəyarpaqlı meşələr, sidr cəngəllikləri var.

**ÇAN-ÇAN** (Chan Chan) – Peruda, Moçe çayı dərəsində (Truxilyo ş. yaxınlığında) inklərəqədərki (bax *İnklər*) dövrdə mövcud olmuş qədim şəhər (sah. təqr. 18 $km^2$). Ç.-Ç. indiki Tumbes ş.-ndən Fortales çayı dərəsinə qədər sahilyanı ərazidə e.ə. 2-ci minilliyin 1-ci yarısında yayılmış çimuların (əfsanəvi Çimor dövlətinin) arxeoloji mədəniyyətinin mərkəzi idi. Düzbucaq planlı, hündür divarlarla (9 *m*-ə qədər) əhatələnmiş Ç.-Ç.-ın məhəllələri meydan, hovuz, çiy kərpicdən tikilmiş ictimai binalar və çoxotaqlı evlərdən ibarət idi. Divarların çoxu balıq, quş, heyvan və insanların həndəsiləşdirilmiş təsvirləri olan "xalçavarı" oyma ilə bəzədilmişdir. Ç.-Ç.-ın qalıqları bir çox səyyahlar tərəfindən təsvir edilmişdir.

**ÇANÇJİ** – Çində, Şansi əyalətində şəhər. Əh. 3 mln. (2005). Çjanşuy çayının (Xuanxe hövzəsi) yuxarı axınında yerləşir.

Daş kömür çıxarılır. Metallurgiya, maşınqayırma və hərbi sənaye müəssisələri fəaliyyət göstərir. Sənətkarlıq inkişaf etmişdir.

**ÇANÇJÓU,** Utszin – Çində, Szyansu əyalətində şəhər. Əh. 531 min (şəhərətrafı ilə birlikdə, 2003). Nəql. qovşağı və böyük kanalda port. Maşınqayırma (lokomotiv, traktor, dizel), metallurgiya, elektron, toxuculuq, kimya sənayesi müəssisələri fəaliyyət göstərir.

**ÇANÇÚN** – Çinin şm.-ş.-ində, İtunxe çayı sahilində şəhər. Girin əyalətinin inz. m. Əh. şəhərətrafı ilə birlikdə təqr. 6 mln. (2003). İri d.y. qovşağı, aeroport.

Ç. 19 əsrin əvvəllərində salınmışdır. 1897–1903 illərdə Şərqi Çin d.y.-nun çəkilməsindən sonra iri ticarət-nəql. mərkəzinə çevrilmişdir. 1931 ildə Yaponiya tərəfindən işğal olunan Ç. Sintszin ("Yeni paytaxt") adlandırılaraq oyuncaq Mançjou-Qo dövlətinin paytaxtı elan edilmişdir. 1945 ildə sovet qoşunları tərəfindən tutulmuşdur. Sovet qoşunlarının çıxarılmasından sonra qomindançıların əlinə keçmişdir (1946). 1948 ilin oktyabrında Çin Xalq Azadlıq Ordusu qomindançıları Ç.-dan qovmuşdur.

Maşınqayırma (nəql. vasitələri, başlıca olaraq avtomobillər, dəzgahlar, radiotexnika, optik cihazlar, elektronika) mərkəzidir; kimya (şin, plastik kütlə, gübrə, dərman preparatları), toxuculuq, yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir. Tikinti materialları istehsal olunur. Kustar sənətkarlıq inkişaf etmişdir. Çin EA-nın filialı, un-t var.



Çançjou şəhərindən görünüş.

**ÇANDAR KRİŞAN,** Krişan Çandar (19.11.1913, Vəzirabad – 7.3.1977, Bombey) – hind yazıçısı. Lahorda xristian kollecini bitirmişdir (1934). Əsasən urdu dilində yazmışdır. İlk hekayəsi 1932 ildə çap olunmuşdur. Kəndli üsyanından bəhs edən "Tarlalar oyananda" (1951) povestinin, "Fırtına salxımları" (1954) romanının müəllifidir. Əsərlərində ["Məğlubiyyət" (1958) romanı, "Ulağın sərgüzəştləri" (1958–65) satirik trilogiyası, "Kağız gəmicik" (1966) povesti və s.] aktual sosial problemlər əksini tapmışdır. Mütərəqqi Hindistan yazıçıları cəmiyyətinin baş katibi olmuşdur (1953 ildən).

Əsərləri: Tarlalar oyananda. B., 1955; Seçilmiş əsərləri. B., 1959; Başayaq ağac. Nağıl-povest. B., 1980.

**ÇANDÉ** – Çində, Xunan əyalətində şəhər. Əh. 301 min (2003). Yuantszyan çayı sahilində, Duntinxu gölü yaxınlığındadır. Gəmi, dəzgah, elektrik cihazları, kimyəvi preparatlar, parça, kağız istehsal edilir.

**ÇÁNDERNAQÓR** – Hindistanın ş.-ində, Qərbi Benqaliya ştatında şəhər. Əh. 162,2 min (2001). Böyük Kəlkətə şəhər aqlomerasiyasına daxildir. Qanq çayı deltasında Huqli qolu sahilindədir. D.y. st. Port. Cut, pambıq parça, mebel sənayesi müəssisələri fəaliyyət göstərir. Muzey, rəssamlıq qalereyası var.

1673–1950 illərdə Ç. Fransanın mülklərinə daxil idi.

**ÇANDİQARH** – Hindistanda müttəfiq ərazi vahidi. Ölkənin şm.-q.-ində Himalay d-rının ətəklərindədir. Sah. 114 $km^2$. Əh. 1,1 mln. (2007). İnz. m. Çandiqarx ş.-dir.

**ÇANDİQARH** – Hindistanın şm.-q.-ində, Himalay d-rının ətəyində şəhər. Pəncab və Haryana ştatlarının, həmçinin Çandiqarh ittifaq ərazisinin inz. m. Əh. 504 min (2003).

Kimya sənayesi və maşınqayırma inkişaf etmişdir. Un-t var; 1951–56 illərdə Ş. Le Korbüzjenin rəhbərliyi altında hind və xarici memarların layihəsi əsasında inşa olunmuşdur.

**ÇÁNDLER** Valter Marrion (8.12.1867, Missisipi ştatı, Yazu ş. – 16.3.1935, Nyu-York) – ABŞ dövlət və siyasi xadimi. Nyu-York ş.-ndən ABŞ Konqresi nümayəndələr palatasının üzvü. Baltik ölkələri, Azərb. və Gürc.-ın mənafelərini müdafiə etmək haqqında bu ölkələrin nümayəndələri ilə müqavilələr imzalamışdı. Ə. *Topçubaşov* Ç.-lə iki müqavilə imzalamışdı (1919, sentyabr). Birinci müqaviləyə görə, Ç. təbliğat məsələləri ilə bağlı Azərb. nümayəndə heyətinə hüquq məsləhətçisi qəbul edilirdi. O, 3 ay müddətinə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) mənafeyini və müstəqilliyini müdafiə etməyi öz üzərinə götürürdü. Müqavilədə Ç.-ə ödənilməli məbləğin miqdarı və müddəti göstərilirdi. Az sonra imzalanan ikinci müqavilə ABŞ-ın AXC-nin tam müstəqilliyini tanımaqdan imtina edəcəyi təqdirdə Ç.-ə kompensasiyanın ödənilməsini nəzərdə tuturdu. Ə. Topçubaşov və Ç.-in imzaladığı müqavilə Azərb. parlamentində təsdiq edildikdən və Azərb. hökuməti tərəfindən möhürləndikdən sonra qüvvəyə minirdi. Ç. Gürc.-la da təxminən eyni məzmunda müqavilə imzalamışdı.

1919 il sentyabrın 26-da Ə. Topçubaşov Ç. vasitəsilə prezident V. *Vilsona* məktub və Azərb.-nın iqtisadi, maliyyə vəziyyətinə dair material və xəritələr göndərdi. Ç. 1919 il oktyabrın 18-də Ə. Topçubaşova göndərdiyi birinci məktubunda ABŞ-da ermənilərin Azərb. əleyhinə geniş təbliğat aparmasından bəhs edir, noyabrın 1-də yazdığı növbəti məktubunda ABŞ-da ermənilərə münasibətdə xristian həmrəyliyinin xeyli qüvvətləndiyini qeyd edirdi. 1919 il 10 noyabr tarixli məktubunda isə yeni yaranmış respublikaların müstəqilliyinin tanınması ilə bağlı ABŞ Dövlət departamentinə sorğu ilə müraciət etdiyini və aldığı cavabda departamentdə yeni yaranmış respublikaların xeyrinə rəyin dəyişməkdə olduğunu bildirirdi. O, qeyd edirdi ki, kiçik xalqlar öz müstəqilliklərinin tanınmasını bir neçə ay, yəni çar generallarının tam məğlubiyyətinədək gözləməli olacaqlar. Ç. Azərb.-ın istiqlaliyyətini tanımaq üçün bütün vasitələrdən istifadə edəcəyini bildirirdi. Ə. Topçubaşov Paris sülh konfransında müntəzəm olaraq Ç.-ə Qafqazla, o cümlədən Azərb.-la bağlı cərəyan edən hadisələr haqqında geniş məlumat verirdi.

**ÇANDPÚR** – Banqladeşdə, Çittaqonq vil.-ndə şəhər. Əh. 94,8 min (2001). Qanq çayının deltasındadır. D.y. st. Port.

**ÇANDRAQÚPTA** – Qədim Hindistanda *Quptalar* sülaləsindən olan hakimləri. I Ç. mənşəcə *Maqadha* sülaləsinə mənsub idi. Uğurlu xarici siyasət (xüsusilə liççhavlar tayfasından olan Kumaradevi ilə sülalə nikahı) və hərbi yolla tədricən öz mövqeyini möhkəmlətmiş və bütün Maqadhanın hökmdarına [320 – təqr. 340] çevrilmişdi. I Ç. Qupta imperiyasının əsasını qoymuşdur. Onun taxta çıxdığı tarix qədim və orta əsr Hindistanında geniş yayılmış "Quptalar erası" tarix hesabının başlanğıcı olmuşdur. I Ç.-nın nəvəsi II Ç. [380–415] böyük qardaşı Ramaquptanı devirərək hakimiyyətə gəlmişdi. Formalaşmış imperiyanın varisi olan II Ç. onun sərhədlərini xeyli genişləndirmişdi. "Qərbi kşatraplar dövləti"nin (Qucarat ərazisi) fəthi imperiyanın Ərəbistan dənizinə çıxışını təmin etmişdi. II Ç.-nın hakimiyyət illəri Qupta imperiyasının ən qüdrətli çağı, Qədim Hindistanın iqtisadi rifahı, həmçinin mədəniyyətinin ("Quptaların qızıl əsri") çiçəklənməsi dövrü idi.

**ÇANDRAQÚPTA** – Maurya dövlətinin banisi və hökmdarı [e.ə. 317–293]. Gəncliyində *Maqadha* hökmdarları olan Nandlara xidmət etmiş, sonra onlarla hakimiyyət uğrunda mübarizə aparmış, məğlub olaraq ölkənin şm.-q.-inə qaçmışdı. Hindistana soxulan Makedoniyalı İsgəndəri Nandlara qarşı müharibəyə təhrik etmiş, İsgəndər Hindistandan getdikdən sonra Dhan Nandı devirərək hakimiyyəti ələ almışdı. Ardıcıl müharibələr nəticəsində bütün Şimali Hindistanı özünə tabe etmiş və Maurya ümumhindistan imperiyasının əsasını qoymuşdur. E.ə. 305 ildə I *Selevk Nikatorun* hücumunu dəf etmiş, onunla sülh bağlayaraq 500 fil müqabilində Hind çayından q.-ə doğru geniş əraziləri ələ keçirmiş və Selevkin qızı ilə evlənmişdi. Bir sıra məlumatlara görə e.ə. 293 ildə caynizmi qəbul edərək tərki-dünya olmuşdur.

**ÇANDRAPÚR**, Ç a n d a – Hindistanın q. hissəsində, Maharaştra ştatında şəhər. Əh. 373 min (2011). Dekan yaylasının şm.-ındadır. Avtomobil və d.y.-ları qovşağı.

Ç. regionun iri sənaye mərkəzidir. Daş kömür və əhəngdaşı hasilatı, sement, ferromanqan istehsalı, sellüloz-kağız sənayesi və s. sahələr inkişaf etmişdir. Şəhərin 6 *km*-liyində iri İES var.

**ÇANDRASEKÁR** (Chandrasekhar) Subrahmanyan (19.10.1910, Hindistan, Lahor – 21.8.1995, ABŞ, Çikaqo, İllinoys) – Amerika fiziki və astrofiziki. Nobel mükafatı laureatı (1983). London Kral Cəmiyyətinin üzvü (1944). Mədrəsdə un-ti bitirmişdir (1930). 1933 ildə Kembric Un-tində fəlsəfə doktoru dərəcəsini almış və 1936 ilə qədər orada işləmişdir. 1936 ildə ABŞ-a köçmüşdür (1953 ildə Amerika vətəndaşlığını qəbul etmişdir). 1937 ildən Yerks rəsədxanasında işləmiş və Çikaqo Un-tində dərs demişdir (1942 ildən prof.). Əsas tədqiqat işləri ulduzların quruluşu, ulduz atmosferi və onların dinamikası, həmçinin riyazi fizika (stoxastik proseslər nəzəriyyəsi) sahəsindədir. Ağ cırtdanların kütləsinin yuxarı həddinin (Ç. həddi) olmasını qabaqcadan deyən və ulduzların təkamülünün sonuncu mərhələsini təyin edən, ulduzun kütlə və radiusunun universal nisbətini verən ağ cırtdanlar nəzəriyyəsini inkişaf etdirmişdir. Ulduzlar sisteminin dinamikasını, ulduzların müstəvi-paralel atmosferlərində şüalanma enerjisinin keçməsini tədqiq etmişdir. Ümumi nisbilik nəzəriyyəsi çərçivəsində hidrodinamik və hidromaqnit dayanıqlıq probleminə baxmışdır.



**ÇANE,** X e n e – qədim Çin mifologiyasında İ adlı oxatanın arvadı, Ay ilahəsi. "Xuaynantszı"da (e.ə. 2 əsr) verilmiş əfsanəyə görə, Ç. ərinin Si-vanmudan aldığı ölməzlik məlhəmini gizli içmiş və Aya getmişdir. Ehtimal ki, hələ eramızdan əvvəl Ç.-nin Ayda üçayaqlı qurbağaya-çana çevrilməsi haqqında təsəvvür də yayılmışdı. Ayda onunla birlikdə Yue tu ("Ay dovşanı") yaşayır. Ay dovşanı və ay qurbağası ilk dəfə e.ə. 2 əsrə aid olan Mavanduy kurqanından tapılmış dəfn dirəyi üzərində təsvir olunmuşdur. Ç. genetik cəhətdən qədim Ay ilahəsi Çansinin obrazı ilə əlaqələndirilir. Orta əsr müəlliflərinə görə, qurbağa yanın, dovşan isə inin təcəssümüdür (bax *İn və yan*).

**ÇANEKELƏR** – popolukolar, sokelər və masateklərin əsatirlərində meşədə yaşayan xırda varlıqlar. Ç. insanlara münasibətdə xeyirxah, bəzən də dəcəl cırtdanlardır. Onları rəhmə gətirmək üçün qurban verilməlidir. Ç. yerli camaatın tlaloklar (bax *Tlalok*) və ya çaklar (bax *Çak*) haqqında ispanlaraqədərki təsəvvürlərinin rudimentləridir.

**ÇANHU-DARO** – Tunc dövrünə aid çoxtəbəqəli məskən qalıqlarının yerləşdiyi üç təpənin adı. Mohenco-Darodan 130 *km* c.-ş.-də və Hind çayından 19 *km* ş.-də (Şimali Sind, Pakistan) yerləşir. Ç.-D. 1931 ildə hind arxeoloqu N.Q. Məcmudar, 1935–36 illərdə isə ingilis arxeoloqu E.Makkey tərəfindən tədqiq edilmişdir. Aşağı təbəqələri *Harappa* mədəniyyətinin (e.ə. 23–17 əsrlər) üç mərhələsinə aid edilir. E.ə. 16–15 əsrlərdə *Chukar*, e.ə. 12–11 əsrlərdə isə *Chanqar* mədəniyyətlərinin əhalisi burada məskən salmışdı. Ç.-D. materiallarına əsaslanan bəzi tədqiqatçılara görə, Hind vadisinin yerli əhalisini gəlmə veda ariləri əvəz etmişlər.

Çanhu-Darodan tapılmış boyalı saxsı qab.
İncəsənət Muzeyi. Boston (ABŞ).







**ÇANI** – RF-nin Novosibirsk vil.-ndə, Baraba çölündə, 106 *m* yüksəklikdə axarsız göl. Sah. 1990–2600 $km^2$ (səviyyə dəyişkənliyindən asılı olaraq), orta dərinliyi 2,2 *m*, maks. dərinliyi 10 *m*-ədəkdir. Sahilləri güclü parçalanmışdır; şm.-ş.-dən c.-q.-ə uzanan çoxlu ada var. Göl Kiçik Ç. gölü ilə axarla birləşir. Əsasən, qar suları ilə qidalanır. Səviyyə tərəddüdü amplitudu təqr. 3 *m*-dir. Oktyabrın ikinci yarısı –noyabrın birinci yarısından mayadək donmuş olur. Suyu şortəhərdir. Balıq ovlanır.



Çanı gölü.

**ÇANİNLƏR** – Koreya mifologiyasında nəhənglər. Ç. və onların Koreya relyefinin və adalarının yaradılması ilə bağlı əməlləri haqqında çoxlu mifoloji süjetlər (Maqo xalmi, *Sonmunde xalmun* haqqında) qorunub saxlanılmışdır. Çinlilərin "Tan sülaləsinin yeni tarixi"ndə hündürboylu antropomorf Ç.-in Silla dövləti ərazisində yaşadıqlarına dair rəvayət vardır. Bu rəvayətə görə, Ç.-in boyu 30 *fut*, dişləri mişar kimi iti, pəncələri qarmaq kimidir; bədənləri qara türklə örtülmüşdür.

**ÇANKIRI** – Türkiyənin İç Anadolu bölgəsində il. Sah. 7,4 min $km^2$. Əh. 176 min (2008). İnz. m. Çankırı ş.-dir. Səthi əsasən dağlıqdır (şm.-da İlgəz, c.-da Koroğlu d-rı). Koroğlu d-rı Qızıl İrmaq çayı dərəsinə doğru enərək düzənliklərə keçir. İlin dağlıq hissəsi yüksək seysmikliyi ilə seçilir. İqlimi kontinentaldır, qışı soyuq (yanvarın orta temp-ru 0,2°C), yayı istidir (iyulun orta temp-ru 23,5°C). Çay şəbəkəsini, əsasən, Qızıl İrmaq və onun qolları və Soğanlı çayının yuxarı axını təşkil edir. Yağıntının illik miqdarı 500–700 *mm*, dağlarda 1000 *mm*-dir. Faydalı qazıntıları: daşduz, gips, mis, qonur kömür və s. İqtisadiyyatını əkinçilik (taxıl, tərəvəz) və heyvandarlıq təşkil edir. Kustar toxuculuq inkişaf etmişdir.

**ÇANKIRI** – Türkiyənin mərkəzi hissəsində şəhər. Çankırı ilinin inz. m. Əh. 69,6 min (2010). Ankaradan 131 *km* şm.-ş.-də, Koroğlu d-rının ətəklərində yerləşir. D.y. və avtomobil yolları qovşağı.

Şəhərin tarixi e.ə. 2000 ildən başlanır. *Hett dövlətinin* tərkibinə daxil olan Ç. dövlətin süqutundan sonra frigiyalılar (e.ə. 12 əsr), *kimmerlər* (e.ə. 700 il), *Əhəmənilər* (e.ə. 546 il) və *Makedoniyalı İsgəndərin* (e.ə. 334) istilasına məruz qalmışdır. İsgəndərin ölümündən sonra *Selevkilərin*, daha sonra Paflaqoniya, Vifiniya və Pont dövlətlərinin tərkibində idi. E.ə. 2 əsrdə Qalatiya dövlətinin paytaxtı olmuşdur. E.ə. 41 ildə Romanın tərkibinə qatılaraq Germanikopolis adlandırılmışdır. *Əməvilərin* Anadoluya hücumları (711, 727 və 731 illər) zamanı Ç. qalasını ələ keçirmək mümkün olmadığından ərəb mənbələrində qalanın adı "Dəmir qala" (Hısn el-hadid) kimi qeyd edilir. *Malazgird döyüşündən (1071)* sonra Anadolunun böyük hissəsi səlcuqların hakimiyyətinə keçdiyi üçün Ç. Amasya və Kastamonu ilə birlikdə *Danişməndilər* bəyliyinin tərkibinə qatılmış, *Səlcuqilər dövlətinin* parçalanmasından sonra *Candaroğulları bəyliyinə* keçmişdir. Bəzi mənbələrə görə, *I Muradın*, digərlərinə görə, *I Bəyazidin* hakimiyyəti dövründə Osmanlı imperiyasının tərkibinə qatılmış, lakin *Ankara vuruşmasından (1402)* sonra Teymur tərəfindən Candaroğullarına qaytarılmışdır. *II Muradın* hakimiyyəti illərində Ç. qəti olaraq osmanlı torpaqlarına qatılmışdır (1423). *Cəlalilər hərəkatı* (16–17 əsrlər) dövründə möhkəm qala olan şəhər üsyançıların əlinə keçməmişdir. Osmanlı imperiyasında Anadoludakı sancaq mərkəzi, *Tənzimatdan* sonra Kastamonudakı sancaq mərkəzi idi. Türkiyə Cümhuriyyəti dövründə il mərkəzi olmuşdur.

**ÇANQALAR** (özlərini belə adlandırırlar), ç a n q a v a l a r, k e n q a l a r,

Çankırı şəhərindən görünüş.





Çanşa şəhərindən görünüş.

kenqavalar, kyanqalar (özlərini belə də adlandırırlar) – Niger çayının hər iki sahili boyu, Nigerin (Qaya dep-ti), Nigeriyanın (Kebbi ştatının Dendi və Baqudo dairələri) və Beninin (Melanvillin ətrafları) həmsərhəd r-nlarında yaşayırlar. Hausalar, fulbelər, busalar, zarmalar, dendilərlə qarışıq yaşayırlar. Sayları 30 min nəfərdən çoxdur. Ç., əsasən, Nigeriyanın solsahil Ç.-ına, Nigerdəki monzonlara və b. Ç.-a (onlara az öyrənilmiş tulumava, yaxud tulmey etnik qrupu yaxındır), busalarla qarışmış İllonun sağsahil Ç.-ına və Kasatinin sağsahil Ç.-ına bölünürlər. Ç.-ın müxtəlif qruplarının Kebbidəki zarmalar və hausalarla (kabavalar) sıx əlaqələri var. Ç.-ın çoxu dendilər, hausalar və zarmalar tərəfindən assimilyasiyaya uğramışdır. Ç.-ın dili (şanqa və busa dillərinə yaxındır) Niger-Kordofan ailəsinin mande dillərinin ş. yarımqrupuna aiddir. Niger Resp.-nda və Nigeriyada (Dendi dairəsi) Niger çayının solsahil kəndlərinin çoxunda yaşayan Ç. öz dillərini itirərək zarma, sonra isə hausa dilinə keçmişlər. Beninin sağsahil və Baqudo dairəsinin Ç.-ı ikidillidirlər (dendi–çanqa); onların bir qismi yalnız dendi dilində danışır. Son illər Nigerin sağ sahilində hausa dili yayılmışdır. Çanqa dilinin yazı sistemi yoxdur. Dindarların əksəriyyəti müsəlmandır. İkinci dünya müharibəsinədək sağsahil Ç.-ı ənənəvi etiqadlarını (məhsuldarlıq və əcdadların kultları, magiya, cadugərlik) qoruyub saxlamışdılar.

Ç.-ın və qonşu xalqların etnogenetik rəvayətlərində Ç. haqqında ilk sakinlər və "Yerin sahibləri" kimi bəhs olunur. Busaların, həmçinin müsəlman yazılı ənənəsinin təsiri ilə Ç. özlərini islamın zəfərindən sonra Məkkədən qaçmış bütpərəst qureyşilərin nəsillərindən hesab edirlər. Bəzi rəvayətlərdə Ç.-ın Sonqay imperiyasının baniləri kimi adları çəkilir. Təsərrüfatın əsasını dincə qoyulmuş torpaqlarda əkinçilik təşkil edir. Yeməkləri bitki və balıqdan hazırlanır; Ç. son zamanlaradək, qonşu etnik qruplardan fərqli olaraq, balıqçılıqla məşğul olmamışlar. Sərhədyanı ərazilərdə ticarət inkişaf etmişdir. Solsahil Ç. satış üçün duz çıxarırlar. Ənənəvi sosial təşkilatlanmanın əsasını böyük ailələrdən ibarət kənd icmaları və qəbilələr təşkil edir. Nikah virilokaldır, qohumluq ata xətti ilə hesablanır. Kəndin başçısı kyanqa (adı etnonimə uyğundur) qərarları ağsaqqalların razılığı ilə qəbul edir. İlloda kənd icmalarında hakimiyyət ənənəvi olaraq busalara, Dendi dairəsinin qarışıq əhalisi olan bəzi kəndlərində isə hausa-kabavalara məxsusdur.

**ÇANQTAN**, Canqtanq – Çində, Tibet yaylasının şm. hissəsinin adı. 5000 *m* yüksəklikdə yerləşən təpəli düzənliklərdən ibarətdir. Dağ silsilələri (nisbi hünd. 500–1500 *m*), çınqıllı səhralar, şoranlıqlar, göllər var.

**ÇANQVAT** – Taylandın inzibati ərazi bölgüsü vahidi.

**ÇANLAR** (Trần) – Dayvyetdə (Vyetnam) 1225–1400 illərdə hakimiyyətdə olmuş sülalə. Baniləri 13 əsrin əvvəllərində baş vermiş daxili çəkişmələr nəticəsində hakimiyyətə gələn Çan feodal nəslinin nümayəndələri olmuşlar. Ç. dövründə kənd icmalarının saxlanılması ilə yanaşı, feodal-məmurların (kuanların) şərti torpaq mülkiyyəti də genişlənirdi. Ç. 13 əsrin 2-ci yarısında monqol istilasına qarşı mübarizəyə uğurla başçılıq edirdilər; 14 əsrin əvvəllərində onlar O və Ri vil.-nin c. hissəsini (indiki Kuanqçi və Txıatxyen əyalətlərinin c. əraziləri) tutmuş, 14 əsrin ortalarında Laos tayfaları ilə uğursuz müharibələr aparmışlar. 1378 ildən Dayvyetin faktiki hakimi olan *Xo Kyui Li* tərəfindən 1400 ildə devrilmişdir. Çinin Dayvyeti işğal etdiyi illərdə (1407–27) Ç. sülaləsinin nümayəndələri – "Son Ç." [1407–13] 1413 ilədək azadlıq hərəkatına başçılıq edirdilər.

**ÇANSIN**, Poksu – Koreya mifologiyasında kəndləri şər qüvvələrdən və bəlalardan qoruyan qüdrətli ruhlar. Ç.-ın kəndin və ya monastırın girəcəyində, fetişləşdirilmiş təsvirləri ağac və daşdan hazırlanmış sütunşəkilli bütləri (sütunların yuxarı hissəsində gözlərini bərəldən və dişlərini ağardan kişi və qadın başları oyulurdu) yolayrıcı və ya yol kənarında qoyulurdu. Öz funksiyalarına görə Sonan və dağ ruhlarına (sansinlərə) yaxındır. Sonrakı dövrlərdə Ç. sərhəd işarələri kimi də istifadə olunurdu.

***ÇANŞÁ** – Çində şəhər. Xunan əyalətinin inz. m. Əh. 1,33 mln. (2003). Syantszyan çayı sahilində port. Nəql. qovşağı.

Ç. Çinin ən qədim şəhərlərindən biridir. E.ə. 5 əsrdən Ç.-nın yerində yaşayış məskənləri olmuşdur. Çjanqo dövründə (e.ə. 5–3 əsrlər) mühüm siyasi rol oynamış *Çu* çarlığının formalaşması mərkəzlərindən biri idi. Bu dövrə aid dəfn yerlərində aparılan qazıntılar özünəməxsus Çu mədəniyyətinin əsas cəhətlərini (lak, ağac və tuncdan hazırlanmış məmulatlar) bərpa etməyə, rənglənmiş insan heykəlciklərinin tapıntıları isə əhalinin fiziki tipi haqqında təsəvvür yaratmağa imkan verir. Ç.-nın yaxınlığında üzərində dövrümüzə qədər gəlib çatmış ən qədim Çin mətnləri yazılmış bambuk tamasalar aşkar edilmişdir. Sin sülaləsi dövründə [e.ə. 221–207] Ç. dairə mərkəzi, sonralar müxtəlif vaxtlarda dairə, vilayət və ya qəza mərkəzi olmuşdur. Xan sülaləsi dövründə [e.ə. 3 əsr – eramızın 3 əsri] Ç.-da üzəri lakla örtülmüş məmulatların və tunc güzgülərin istehsalı inkişaf etmişdi (sonralar Çinin digər rayonlarına da yayılmışdı).

Sin sülaləsi [1644–1912] dövründə və sonra Xunan əyalətinin əsas şəhəri idi. 1904 ildə burada Çində ilk inqilabi təşkilatlardan biri olan Xuasinxoy yaradılmışdı. 1910 ildə Ç.-da "çəltik qiyamı" adlı xalq üsyanı baş vermişdir. 1925–27 illər inqilabı dövründə Ç. kütləvi inqilabi hərəkat mərkəzlərindən biri idi. 1941 və 1944–45 illərdə Ç. yapon qoşunları tərəfindən işğal olunmuşdu. Sonralar qomindançıların nəzarəti altına keçmişdi. 1949 ilin avqustunda Çin Xalq Azadlıq Ordusu tərəfindən azad edilmişdir.

İnkişaf etmiş k.t. r-nu mərkəzidir. Çəltik bazarıdır. Yüngül və yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir; polad, alüminium, dəzgah, elektrik və sənaye avadanlığı, vaqon, gübrə istehsal olunur.

**ÇANTELLƏR** (özlərini belə adlandırırlar) – Nepalda xalq. Sayları təqr. 5 min nəfərdir. Sin-Tibet dil ailəsinin mərkəzi qrupuna aid çantelkura dilində danışırlar. Nepali dili də yayılmışdır. Dindarları hinduistdir. 2 qrupa bölünürlər. Bhuci Khola, Nissi-Khola və Taman-Khola çaylarının hövzələrində, Baqlunq distriktinin şm.-q.-ndəki dağlarda məskunlaşan, nepallılar və maqarlar arasında azlıq təşkil edən qərbi Ç. maqarlar tərəfindən assimilyasiyaya uğrayırlar. Şərqi Ç. Dhaulagiri d. silsiləsində, Myaqdi distriktindəki ("8 min dağ ölkəsi") Myaqdi-Khola və Rauqhat-Khola çayları vadisində yaşayırlar.

Şifahi rəvayətlərə görə, Ç. qərbdən köçüb gəlmişlər. Rəsmi sənədlərdə və siyahıyaalmalarda çox vaxt maqarlar kimi qeyd olunurlar, belə ki, Britaniya və Hindistan ordusunda xidmət zamanı özlərini qəsdən yaxşı əsgər adını qazanmış şimali maqarların bölməsinə aid edirdilər. Hələ 20 əsrin əvvəllərində əsas məşğuliyyətləri mis hasilatı idi və zəruri malları misin mübadiləsi vasitəsilə əldə edirdilər. Tədricən maqarlardan mənimsənilmiş terraslarda yerləşən dəmyə torpaqlarında xış əkinçiliyinə keçmişlər. Qarğıdalı, arpa, buğda, qarabaşaq, tərəvəz, nadir hallarda darı və çətənə (satış üçün) becərir, kartof və düyünü alırdılar. Maldarlıq (qaramal və davar, nadir hallarda kəl) inkişaf etmişdir. Mal-qaranı kəndlərin ətrafında, biçilmiş sahələrdə və uzaqlarda yerləşən otlaqlarda otarırlar (hər 6–8 həftədən sonra mal-qara yeni yerlərə sürülür). Varlı Ç.-in 100 baş və daha çox mal-qaradan ibarət naxırı olur. Yığıcılıq da yayılmışdır. Qərbi Ç.-in kəndləri pərakəndə, şərqi Ç.-də isə sıx formadadır. Hər bir küçədə toplantı yeri və iş mərkəzi olan daşla döşənmiş meydançalar yerləşir. Keçmişdə bambuk və ya samandan damları olan birmərtəbəli daş evlər tikilirdi. Əkinçiliyə keçdikdən sonra şimali maqarların evlərinə oxşar şifer damı







Çaoçjou şəhərindən görünüş.

və verandası olan ikimərtəbəli daş evlər tikməyə başladılar. Pəncərəsi olan yuxarı mərtəbə anbar kimi istifadə olunur, işıq düşməyən aşağı mərtəbədə isə mətbəx (açıq ocaqla) və yaşayış otaqları yerləşir. Soyuq havalarda burada mal-qara da saxlanılır. Yayda evlərin yanında və otlaqlarda mal-qara üçün bambuk həsirlərdən müvəqqəti sığınacaqlar quraşdırırlar. Geyimləri maqarların paltarlarına oxşardır. Yeməkləri əkinçilik və yığıcılıq məhsullarından, həmçinin ətdən bişirilir. İnək və camış südündən əridilmiş yağ – qhiu hazırlanır. Sosial strukturları öyrənilməmişdir. Yerli allahlara (Bhuli, Bara və Siddha), iblislərin və ölülərin ruhuna inanc qorunub saxlanılmışdır. Şamanizm və cadugərlik yayılmışdır.

**ÇANTSZYAN** – *Yansızı* çayının adlarından biri.

**ÇÁO** – ilk dəfə (13 əsr) Çində istifadə olunmuş aşağı dəyərli kağız pul, əskinas. Uzunsov, dördkünc formada kəsilən Ç.-nun hər iki tərəfində yazı verilir və dəyəri göstərilirdi. Ç.-nun tədavülə buraxılması qızıl və gümüş sikkələrin əldən-ələ keçməsinin, dəyərini itirməsinin qarşısını alır və onun dövlət xəzinəsində toplanmasına şərait yaradırdı. İqtisadi böhran keçirən *Elxanilər dövlətinin* xəzinə borclarını ödəmək, dövlət xərclərini təmin etmək məqsədilə 1294 ildə Keyxatu xan [1291–95] Ç. kəsilməsi barədə fərman vermişdi. Məcburi surətdə tədavülə buraxılsa da, əhali tərəfindən qəbul edilməyən Ç. 2 aydan sonra aradan götürüldü.

**ÇAOÇJÓU**, Çaoan – Çinin c.-ş.-ində, Quandun əyalətində şəhər. Əh. 222 min (2003). Xantszyan çayında port. Maşınqayırma, ağac emalı, kağız, yeyinti sənayesi müəssisələri var. Kustar sənətkarlıq inkişaf etmişdir.

**ÇAOTHİ**, Phra Phum Çaothi – siamlıların mifologiyasında torpağın, yaxud müəyyən bir yerin ağası olan ruh. Əvvəllər Ç. hər bir kəndi qoruyan allah idi. Taylandın şm.-ında Ç. (Kauthi) bəzən Fanyanaqla (yerin ilanabənzər ruhu), bəzən isə *Thoranii* (Yeri təcəssüm edən ruh) ilə eyniləşdirilir.

**ÇAP**, kalibr – 1) odlu silahların lüləsinin, həmçinin mərminin (minanın, güllənin) diametri. Ç. silahın gücünü təyin edən əsas kəmiyyətlərdən biridir. Hamarlüləli silahlarda lülənin daxili diametri ilə, yivli silahlarda isə lülədə qarşı-qarşıya duran yiv səthləri arasındakı (Rusiya və s. ölkələrdə), yaxud yiv dərinlikləri arasındakı (ABŞ, B.Britaniya və s.) məsafə ilə ölçülür; mərmi və güllələrdə ən böyük en kəsiyi ilə təyin olunur. Konusşəkilli lülələrdə giriş və çıxış Ç.-larına ayrılır. Mərminin Ç.-ı silahın Ç.-ına bərabər, ondan böyük və kiçik ola bilər. Artilleriya silahlarının Ç.-ı anlayışı ilk dəfə 16 əsrin ortalarında sferik mərminin kütləsindən asılı olaraq yaradılmışdır. 1540 ildə Nürnberqdə daş və çuqun top güllələrinin şkalası işlənib hazırlanmışdır. Ç.-ın ölçüsü xətti vahidlərlə (*mm*, düym) göstərilir. Rusiyada metrik sistem qəbul edildikdən sonra (1917 ildən) bütün növ silahların Ç.-ı *mm*-lə ölçülür: məs., 152 *mm*-lik haubitsa, 85 *mm*-lik top, 7,62 *mm*-lik tüfəng və s. Ç. ABŞ-da düymün yüzdə bir, B.Britaniyada isə mində bir hissəsi ilə,

qarşısında nöqtə olan tam rəqəm şəklində ifadə olunur. Məs., .30 (ABŞ) və .300 (B.Britaniya) işarəsi 0,3 düym (7,62 *mm*) ölçülü Ç.-a uyğun gəlir. Artilleriyada Ç., həm də nisbi kəmiyyəti ifadə edir; belə ki, silah lüləsinin uzunluq Ç.-ı bu uzunluğun lülə kanalının diametrinə nisbəti kimi xarakterizə olunur (məs., lülənin uz. 5 Ç.-dır). Ov tüfənglərinin Ç.-ı 1 ingilis funtu (453 *q*) ağırlığında təmiz qurğuşundan tökülmüş və tüfəngin lülə kanalına araboşluqsuz yerləşən güllələrin sayı ilə təyin edilir. Məs., diametri lülə kanalının diametrinə bərabər 12, 16, 20 və daha çox girdə güllə tökülübsə, belə gülləli tüfəng müvafiq olaraq 12, 16, 20 və s. Ç.-lı adlanır. 2) Aviasiya bombasının Ç.-ı onun *kq* (Rusiya və s.) və ya funt (ABŞ və s.) ilə ifadə olunmuş kütləsidir.

**ÇAP BOYAĞI** – bax *Poliqrafiya boyağı*.

**ÇAP FORMASI**, çap qəlibi – dəfələrlə çap surəti almaq üçün mətn və təsviri informasiya daşıyıcısı; çap materialı üzərində boyalı iz buraxan çapedici elementlərdən və araboşluğu elementlərindən (sözlərin və sətirlərin araboşluğu üçün) ibarətdir. Müxtəlif növləri var: *yüksək çapda* – yığı, klişe, fotopolimer forma (qəlib), stereotip; *yastı çapda* – monometal (məs., alüminium), polimetal (məs., polad əsasda mis, xrom), şüşə forma; *dərin çapda* – misləşdirilmiş və xromlaşdırılmış silindrlər Ç.f.-dır. Ç.f. materialı kimi əlvan metallar, ərintilər, plastik kütlə, rezin, metal, yaxud kağız folqa və s. istifadə edilir.

**ÇAP QURĞUSU**, printer – informasiyanın EHM-də (kompüterdə) emalı nəticələrini hərf-rəqəm və ya qrafik formada rulon, yaxud vərəq kağızda avtomatik çap edən qurğu. Əsas elementi fırlanan baraban olan ilk Ç.q. 1953 ildə "Remington Rand" şirkəti tərəfindən yaradılmışdır. Təsvirin daşıyıcıya köçürülmə prinsipinə görə liter, matris, şırnaqlı, sublimasiyalı, termik, lazer Ç.q. növlərinə ayrılır. Ç.q.-nun çapedici mexanizmi çapedici orqandan, çapedici orqanın intiqal sistemindən, rəqəm və hərf informasiyasını elektrik siqnalına çevirən elektron çeviricilərdən ibarətdir. Çapedici mexanizmin tipinə və onun qeydedici orqanının daşıyıcıya göstərdiyi təsir üsuluna görə kontaktlı (liter, matris və s. Ç.q.) və kontaktsız çaplı (şırnaqlı, lazer, termiki və s. Ç.q.); çap rənglərinin sayına görə ağ-qara (monoxrom) və rəngli Ç.q. olur. Çap ediləcək verilənlər mənbədən Ç.q.-na naqillə və naqilsiz ötürülür.



OKİ Microline 5520-ECO matrs printeri.

Matris printerləri (matris Ç.q.) 1964 ildə "Seiko Epson" yapon korporasiyası tərəfindən hazırlanmışdır. Çap başlığı elektromaqnit vasitəsilə hərəkətə gətirilən iynələr yığınından (iynə matrisi) ibarətdir. Başlıq kağız boyu sətirlərlə hərəkət etdikcə bu iynələr rəngləyici lentin səthindən vurmaqla nöqtələrdən



Epson L800 şırnaqlı printeri.

ibarət təsvir formalaşdırır. Bu printerlərin əsas mənfi cəhəti monoxromluğu, aşağı iş sürəti və yüksək küy yaratmasıdır.

Şırnaqlı printerlərin iş prinsipi təsvirin nöqtələrdən ibarət olması ilə matris printerlərinə bənzəsə də bu printerlərin çap başlığı maye rəngdən istifadə edir. Çap başlığı ucundan xırda rəng damcıları çiləməklə kağız üzərində təsvir yaradır. Rəng pyezoelektrik və

HP LaserJet Pro CP1025nw lazer printeri.



termik üsullarla çilənir. Şırnaqlı printerlərdə çap başlığı rəngverən kartricə birləşdirilmiş və ya ayrı (kartric dəyişilərkən sökülməyən) formada qurulur.

Lazer printerləri ilk dəfə 20 əsrin 70-ci illərində qurulmuşdu. Bu tip printerlərdə təsvirin formalaşdırılması üçün kseroqrafiya prinsipindən istifadə edilirdi. Lazer printerləri yüksək çap sürətinə malikdir və işə tam hazırlığına da nisbətən az vaxt tələb olunur. Çap sürəti şırnaqlı və s. printerlərdən yüksəkdir, müxtəlif kağız və plyonkadan (məs., teksturalı) istifadə edə bilirlər. Belə Ç.q.-nda əldə edilmiş çap məhsulu rütubətə və ətraf mühitin aqressiv təsirlərinə daha davamlıdır. Lakin toner daşıyıcıda istiliklə toplandığı üçün müəyyən vaxtdan sonra təsvir qopa bilər.

Son zamanlar printer, skaner, surətçıxarma aparatı və telefaksın funksiyalarını özündə birləşdirən çoxfunksiyalı Ç.q. geniş yayılmışdır. Belə birləşmə texniki cəhətdən səmərəli və istifadə üçün çox rahatdır. Proqram təminatı birbaşa İnternetə qoşulmağa imkan verən Ç.q. kompüterdən asılı olmadan fəaliyyət göstərə bilir.

Ç.q.-ları bir düymə düşən nöqtələrin sayı (ayırdetmə qabiliyyəti), çap sürəti (bir dəqiqədə çap olunan vərəqlərin sayı), rənglilik (monoxrom və ya rəngli), keş-yaddaşın həcmi (faylın çapolunma sürətinə təsir edir), işinin etibarlığı və s. ilə xarakterizə edilir. "Brother", "Canon", "Epson", "Hewlett-Paskard" və s. istehsalçıların printerləri geniş tətbiq edilir.

**ÇAP LÖVHƏSİ** – üzərində hər hansı (məs., fotokimyəvi) üsulla asma elektron və radio elementləri (o cümlədən mikromodul və inteqral sxemləri) birləşdirmək üçün kontakt sahəsi olan elektrikkeçirici zərif zolaqlar (çap naqilləri) yerləşdirilmiş lövhə. Ç.l. elektroizolyasiyalı materiallardan (getinaks, tekstolit, keramika və s.) hazırlanır. *Çap montajı* üçündür. Bir və çoxtərəfli, bir və çoxtəbəqəli Ç.l.-nə ayrılır.

**ÇAP MAŞINI**, poliqrafiyada – üzü çıxarılacaq mətn, illüstrasiya və s.-nin dəfələrlə, böyük miqdarda çap surətini almaq (kitab, qəzet, jurnal tirajını çap etmək) üçün poliqrafiya maşını. Ç.m. poliqrafiya avadanlığı növüdür; əsas qurğuları rəngi *çap formasından* kağıza köçürən çap aparatı, çap aparatına kağızı ötürən və maşından çap surətini çıxaran kağızverma sistemi, çap olunmuş məhsulu qəbul və emal etmək üçün əlavə qurğular, intiqal və maşını idarəetmə sistemindən ibarətdir. Bəzi Ç.m.-larında nəmləşdirici aparat və quruducu qurğu da olur. Çap üsuluna görə mətbəə (hündür çap üçün) Ç.m., ofset Ç.m. və dərin Ç.m.; çap üçün verilən kağızın növünə görə vərəqə, rulona çap edən; rənglərin sayına görə bir, iki və çoxrəngli; rəngin köçürülmə üsuluna görə isə mexaniki (kontakt), elektrik və elektromaqnit Ç.m. növləri olur. Çap formasının və kağızı (və ya digər materialı) maşına sıxan səthin quruluşuna görə rotasiya çap maşını, yastı çap maşını və tigelli çap maşını növləri var. Daha məhsuldar olan rotasiya Ç.m.-nda kağız və çap forması silindrik səthlərdə yerləşir. Vərəqə və rulon kağıza çap edir. Rotasiya Ç.m.-ları çapın bütün əsas növlərində (yüksək, yastı və dərin çap) tətbiq edilir; vərəq rotasiya Ç.m.-ları yüksəkkeyfiyyətli çoxrəngli təsvirlərin alınması, rulon rotasiya Ç.m.-ları qəzet, jurnal və kitab çap edilməsində işlənir. Yastı Ç.m.-nda forma irəli-geri hərəkət edən yastı stola – *talerə*, kağız isə fırlanan silindrə bərkidilir. Yastı Ç.m. yalnız yüksək çap üsulu ilə çap edir. İş sürəti vərəq rotasiya maşınlarından aşağıdır. Lakin onlar aztirajlı çaplar üçün çox səmərəlidir. İkidövrlü (silindri bir tsikl ərzində iki dəfə fırlanır), birdövrlü, stopsilindrli (dayanan silindrli) və reversiv növləri var. Tigelli Ç. m.-nda çap surəti çap forması ilə kağızı formaya sıxan metal tava – tigelin qarşılıqlı təsiri nəticəsində alınır. Bu maşınlar kiçik formatlı, aztirajlı mətn və illüstrasiyaların çapı üçün istifadə olunur.

**ÇAP MONTAJI** – elektron aparatların montaj üsulu; komplektləşdirici elementlər (tranzistor, diod, rezistor və s.) *çap lövhəsində*, orada yerləşdirilmiş birləşdirici çap naqilləri (keçiriciləri) ilə quraşdırılır. Elementləri lövhə üzərində bərkitmək üçün onların çıxışları xüsusi deliklərə (adətən, kontakt sahəsindən keçən) qoyulub lehimlənir. Ç.m. aparatların ölçü və kütlələrini azaltmağa, onların etibarlığını yüksəltməyə, kütləvi istehsalında bir çox texnoloji prosesləri avtomatlaşdırmağa və mexanikləşdirməyə imkan verir.

**ÇAP SXEMİ** – radioelektron və elektrotexniki qurğunun *çap montajı* üsulu ilə hazırlanmış qovşağı; kontakt sahələri ilə cərəyan keçiricilərinin (naqillərinin) *çap lövhəsi* üzərində yerləşmə sxemi. Ç.s. qalınörtük texnologiyası ilə hazırlanır; bu üsulla çap lövhəsi üzərində cərəyan naqilləri (keçiricilərin plyonka analoqu), *rezistorlar*, *kondensatorlar*, induktivlik sarğacları, *transformatorlar*, birləşdiricilər və s. elementlər yaradılır.

**ÇAPACAQ** – Erkən və Orta Paleolit dövründə ibtidai insanların işlətdikləri daş əmək aləti. Ovlanan heyvanları doğramaq, yarmaq, həmçinin ağacları kəsmək, bitki köklərini çıxarmaq və s. üçün istifadə olunmuşdur. Ürəkşəkilli, badamvarı, kəskin itiağızlı və s. Ç.-lar müəyyən edilmişdir. Son tədqiqatlar Ç.-dan, əsasən, Aşöl dövründə istifadə olunduğunu göstərir. Mustye dövründə isə Ç.-dan nadir hallarda istifadə edilmişdir. Paleolit abidələrindən, xüsusilə Azərb. (Azıx mağarasından və Qazax r-nu ərazisindən), Gürc. və Krımdakı abidələrdən çoxlu Ç. tapılmışdır.

**ÇAPAĞAN** – Azərb. Resp. Şəki r-nunun Aşağı Küngüt ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* c.-ş.-də, Şəki–Oğuz avtomobil yolundan 5 *km* aralı, Küngüt çayının sahilində, Qanıx-Əyriçay çökəkliyindədir. Əh. 337 (2011); heyvandarlıq və bitkiçiliklə məşğuldur. Ümumi orta məktəb, kitabxana, klub, tibb məntəqəsi var.

**ÇAPAQ** (Abramis) – çəkikimilər fəsiləsindən balıq cinsi. Bədəni enli, yanlardan basıqdır. Uz., adətən 30 *sm*, kütləsi 1 *kq*-adək olur, bəzən uz. 50–80 *sm*-ə, kütləsi 5–9 *kq*-a çatan fərdlərinə də rast gəlinir. Qarnı üzərində uzun anal (15–45 şüadan ibarətdir) və qarın üzgəcləri arasında pulcuqsuz kil yerləşmişdir; ağzı hərəkətlidir. 3 növü var: ağgöz, çapaq (A. brama) və göybalıq. Orta və Şimali Avropa, Qafqaz və Kiçik Asiyanın sularında, Aral dənizi hövzəsində; Azərb.-da Xəzər dənizinin Kür ağzına yaxın yerlərində, Kür, Araz



Adi çapaq (Abramis brama).

çaylarında, Kürətrafı su hövzələrində, Mingəçevir su anbarında və s.-də yayılmışdır. Yarımkeçici və oturaq həyat tərzi keçirən formaları var. Ç.-ın körpələri – zooplanktonla, yetkinləri – qruntun 10 *sm*-ədək dərinliyində olan dib onurğasızları ilə qidalanırlar. İri fərdlər körpə balıqları da yeyə bilər. 14 ilə qədər yaşayır; 3–5 yaşında cinsi yetişkənliyə çatır. 90–340 minə qədər kürü verir və kürüləmə yazın sonunda – yayın başlanğıcında olur; kürüsünü bitkilərin üzərinə tökür. Ç. şirin su balıq vətəgələrinin (şirin suda ovum) və süni balıqyetişdirmə təsərrüfatının əsas obyektlərindəndir.

Bədən formasına görə Ç.-a bənzər Amur Ç.-ları (həmin fəsilədən Megalobrama və Parabramis cinsləri) və dəniz Ç.-ları fəsiləsinin (Bramidae, xanıkimilər dəstəsi) nümayəndələri də Ç. adlandırılır.

**ÇAPAQAN** – İranın Ərdəbil ostanında kənd. Meşgin şəhristanının Mərkəzi bölgəsinin Şərqi Mişgin kəndistanında, Mişginşəhr–Ərdəbil avtomobil yolunun 6 *km*-liyindədir.

**ÇAPALA** (Chapala) – Meksikada, Meksika yaylasının c.-unda göl. Təqr. 1500 *m* hünd.-dədir. Sah. 1038 $km^2$ (ölkədə ən

Çapala gölü.



böyük). Orta dərinliyi təqr. 7 *m*, ən dərin yeri 33 *m*; son illər suqoruyucu meşələrin qırılması və suyunun suvarmaya götürülməsi ilə əlaqədar səviyyəsi aşağı düşməkdədir. Gölə Lerma çayı tökülür. Sakit okeana tökülən Rio-Qrande-de-Santyaqo çayı göldən axır. Sahillərində kurortlar var. Okotlan ş. Ç. sahilindədir. Qvadalaxaru ş.-nin su təchizatı Ç.-dandır.

**ÇAPAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 14 *km* şm.-dadır.

**ÇAPAN** – İrəvan xanlığının Vedibasar mahalında (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) çay. Köhnə Şahablı k.-nin ərazisindən axır.

**ÇAPAND** – Azərb. Resp. Cəbrayıl r-nunun Horovlu ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* c.-ş.-də, düzənlikdədir. Əh. 178 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olmuşdur. Orta məktəb, kitabxana, klub var idi.

**ÇAPARLI** – Azərb. Resp. Ağsu r-nunda kənd. Çaparlı ə.d.-nin (Çaparlı, Ağabəyli, Qiyaslı, Rəhimağalı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 7 *km* c.-ş.-də, Ləngəbiz silsiləsinin ətəyindədir. Əh. 762 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**ÇAPARLI** – Azərb. Resp. Şəmkir r-nunda kənd. Çaparlı ə.d.-nin (Çaparlı, Məşədihüseynli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 10 *km* şm.-ş.-də, Gəncə-Qazax düzənliyində, Bakı–Qazax d.y. xəttinin yaxınlığındadır. Əh. 1739 (2011); heyvandarlıq, taxılçılıq, meyvəçilik və tərəvəzçiliklə məşğuldur. Tam orta məktəb, uşaq bağçası, klub, kitabxana, tibb məntəqəsi, poçt var.

**ÇAPÁYEVKA,** Moça – RF-də, Samara vil.-ndə çay. Volqanın sol qolu. Uz. 298 *km*, hövzəsinin sah. 4310 $km^2$. Mavi Sırt yüksəkliyinin yamaclarından başlanır, enli dərə ilə axır, Saratov su anbarına tökülür. Əsasən, qar suyu ilə qidalanır. Yuxarı axarında quruyur. Mənsəbindən 179 *km* məsafədə ortaillik su sərfi 2,53 $m^3/san$-dir. Noyabrdan apreledək donmuş olur. Ç. hövzəsində ümumi sah. 3,16 $km^2$ olan 148 kiçik göl var. Çapayevsk ş.-ndən (34 *km*) gəmiçiliyə yararlıdır.

**ÇAPÁYEVSK** (1929 ilədək İvaşşenkovo) – RF-nin Samara vil.-ndə şəhər. Əh. 73,4 min (2010). Çapayevka çayının (Volqanın qolu) sahilindədir. D.y. st. V.İ. Çapayevin şərəfinə adlandırılmışdır. Kimyəvi gübrələr z-du, tikiş f-ki, yeyinti sənayesi müəssisələri var.

Çapayevka çayı.





**ČÁPEK** (Capek) Karel (9.1.1890, Male-Svatonyovitse – 25.12.1938, Praqa) – çex yazıçısı. Praqa Un-tinin fəlsəfə fakültəsini bitirmiş (1915), kitabxanaçı, ev müəllimi işləmiş, jurnalistlik etmişdir. 1967 ildən çap olunmağa başlamışdır. İlk hekayələrini (1908 – 13) qardaşı Yosef Çapeklə birgə yazmışdır. "R.U.R." (1920), "Makropulos üsulu" (1922) sosial-fantastik pyesləri, "Mütləq fabriki" (1922), "Krakatit" (1924) romanları ona dünya şöhrəti gətirmişdir. "İtaliyadan məktublar" (1923), "İngiltərədən məktublar" (1924) adlı yol oçerkləri, yumoristik hekayələri ("Çarmıxa çəkmə", 1917; "Üzücü hekayələr", 1921) var. "Hordubal" (1933), "Meteor" və "Adi həyat" (hər ikisi 1934) trilogiyasının, "Salamandrlarla müharibə" (1936) fantastik romanının, "Ağ xəstəlik" (1937), "Ana" (1938) pyeslərinin müəllifidir. Ç.K. faşizmə qarşı çıxmışdır. Ölümündən sonra arxivi xanımı tərəfindən gizlədilmiş, yalnız müharibədən sonra aşkar edilmişdir. "Mən niyə kommunist deyiləm" məşhur məqaləsi ilə sosializmə rəğbət bəsləmədiyini bildirmişdir. Əsərləri qadağan edilmiş, yalnız 20 əsrin 50–60-cı illərində yenidən nəşr olunmağa başlamışdır. "Soyğunçu" (lirik, 1920), "Həşəratların həyatından" (parodiyalı, 1921) komediyaları, "İlk xilasedici qız" (1937) povesti, "Apokriflər" (fəlsəfi-yumoristik; 1922) kitabı var. Ç.K-in yaradıcılığı müasir sosial fantastikanın inkişafına böyük təsir göstərmişdir.

Əsərləri: İtmiş məktub. Hekayələr. B., 1960; Избранное. Минск, 1982; Seçilmiş əsərləri. B., 2006.

*Əd.*: Никольский С.В. Карел Чапек – фантаст и сатирик. М., 1973.

**ÇAPLA NAXIŞVURAN MAŞIN** (toxuculuqda) – parça üzərində bir və ya bir neçə rəngli naxışlar vurmaq üçün maşın. Ç.n.m. üzərinə naxışlar həkk edilmiş çap valları olan silindrik maşınlara və torşəkilli şablonlarla çapedən maşınlara ayrılır. Silindrik Ç.n.m. daha geniş yayılmışdır. Bu maşının əsas işlək orqanı, üzəri ilə bəzək vurulacaq parca hərəkət etdirilən, fırlanan içiboş silindrdir. Silindrin ətrafında bir və ya bir neçə (çoxrəngli çap üçün) çapedən val yerləşdirilir, səthinə isə 10–16 qat müxtəlif parça və kirza təbəqəsindən ibarət elastik örtük çəkilir. İş prosesində çapedən vallar fasiləsiz hərəkət edən parcaya sıxılır. Çoxrəngli naxışvurmada hər bir val parçaya naxışın (bəzəyin, şəklin) ancaq bir rəngə uyğun hissəsini vurur. Çapedən vallara fırlanan fırçalarla rəng çəkilir. Torşəkilli şablonlu Ç.n.m.-da rəng polad lövhə vasitəsilə şablona sürtülür və ya basılır. Torda rəngin keçməsi lazım olmayan hissələr lak plyonka ilə örtülür.

**ÇAPLIGİN** Sergey Alekseyeviç (5.4.1869, Ryazan qub.-nın Ranenburq ş., indiki Lipetsk vil. Çaplıgin ş. – 8.10.1942, Novosibirsk) – nəzəri mexanika sahəsində rus alimi, müasir hidroaerodinamikanın banilərindən biri. SSRİ EA







akad. (1929; m. üzvü 1924), Sosialist Əməyi Qəhrəmanı (1941), RSFSR-in əməkdar elm xadimi (1929). N.Y. *Jukovskinin* şagirdi. Moskva Un-tini bitirmişdir (1890). Jukovskinin təqdimatı ilə prof. adına hazırlıq üçün orada saxlanılmışdır, onun təsiri ilə Ç.-in yazdığı ilk elmi əsərlər hidromexanikaya, sonrakı əsərləri əsasən, nəzəri mexanikanın iki klassik məsələsinin tədqiqinə aiddir (inteqrallanmayan rabitələri olduqda cismin hərəkəti, tərpənməz nöqtə ətrafında ağır bərk cismin hərəkəti). O, ilk dəfə qeyri-holonom sistemlər üçün hərəkət tənliklərini çıxarmış (1897), bərk cismin mayedə hərəkət nəzəriyyəsi və rabitələri inteqrallanmayan cismin hərəkətinə dair tədqiqatlarına görə Peterburq EA fəxri qızıl medalını almışdır. "Qaz şırnaqları haqqında" doktorluq dissertasiyasında (1902) səs sürətinə qədərki istənilən sürətdə qazın şırnaqlı hərəkətinin tədqiqi üsulunu vermişdir. Ç. qanad profillərinin qaldırıcı qüvvəsinin kəmiyyətcə təyini üçün üsullar vermiş, aeromexanika və aviasiyanın bir sıra mühüm məsələlərini (qaldırıcı qüvvənin tətbiq nöqtəsinin və qərarlaşmış uçuşda qüvvələrin təyini, uçuşda qanadın dayanıqlığına aid məsələlər və s.) həll etmişdir.

Ç. riyazyyat sahəsində də mühüm işlər görmüşdür. Onun diferensial tənliklərin inteqrallanmasına aid işləri riyaziyyatın böyük nailiyyətlərindən biridir. Ç. 1918 ildə Jukovskinin təşəbbüsü ilə Mərkəzi Aerohidrodinamika İn-tunun (MAHİ) yaradılmasına cəlb edilmiş, 1928–31 illərdə həmin in-tun direktoru işləmişdir. 2 dəfə Lenin ordeni, 2 Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur. SSRİ EA "Mexanika sahəsində ən yaxşı orijinal tədqiqata görə" Ç. adına mükafat təsis etmişdir (1942).

Əsəri: Избр. труды, М., 1976 (серия "Классики науки").

**ÇAPLIGİN BƏRABƏRSİZLİYİ** – ən mühüm diferensial bərabərsizliklərdən biri. Əgər $y'(x)=f(x,y)$ tənliyi və $u(x)$, $v(x)$ funksiyaları

$$u'(x)-f(x,u)>0,\ v'(x)-f(x,v)<0\ (x_0\le x\le x_1)$$

bərabərsizliklərini ödəyirlərsə və $u(x_0)=v(x_0)=y_0$ olarsa, onda $y'(x)=f(x,y)$ diferensial tənliyinin $(x_0, y_0)$ nöqtəsindən keçən $y(x)$ həlli $u(x)$ və $v(x)$ funksiyaları arasında qiymət alır, yəni $u(x)>y(x)>v(x)$, $(x_0<x\le x_1)$. Bu teorem (burada ən sadə hal üçün ifadə edilmişdir) S.A. *Çaplıgin* tərəfindən isbat edilmiş və diferensial tənliklərin təqribi inteqrallanması üsulunun əsasına daxil edilmişdir (bax *Çaplıgin üsulu*). Çaplıgin

$$y^{(n)}-f(x, y, y', \ldots, y^{(n-1)})=0$$

tənliyi üçün analoji teoremi isbat etmiş və onu xüsusi törəməli tənliklər üzrə inkişaf etdirmişdir.

**ÇAPLIGİN ÜSULU** – diferensial tənliklərin təqribi inteqrallanması üsulu; S.A. *Çaplıgin* tərəfindən təklif edilmişdir (1919). Ç.ü. dəqiqlik dərəcəsi əvvəlcədən verilmiş diferensial tənliyi, verilmiş diferensial tənliyin axtarılan $y$ həllinə yalnız daha dəqiq approksimasiya edən və

$$u_n \ge u_{n+1} \ge y \ge v_{n+1} \ge v_n$$

şərtini ödəyən $\{u_n\}$ və $\{v_n\}$ funksiyalar ardıcıllığının qurulması yolu ilə təqribi həll etməyə imkan verir. $\{u_n\}$ və $\{v_n\}$ ardıcıllıqlarının qurulması üsulu Çaplıginin diferensial bərabərsizliklər haqqındakı teoremində əsaslandırılmışdır və o, özündə məlum *Nyuton üsulunun* diferensial tənliklər halındakı ümumiləşməsini ifadə edir. Belə ki, yığılma sürəti Nyuton üsulundakı yığılma sürəti ilə eynidir (yəni xətanın tərtibi $2^{2n}$- dir).



**ÇÁPLİN** (Chaplin) Çarlz Spenser (16.4.1889, London – 25.12.1977, İsveçrə, Veve) – Amerika rejissoru, aktyor, ssenarist, prodüser. Mənşəcə ingilisdir. Müzik-holl aktyorları ailəsində doğulmuşdur. 1907 ildə F. Karnonun məşhur pantomima truppasına qəbul olunmuş, pantomima üzrə istedadlı komediya aktyoru, akrobat və ekvilibrist kimi yetişmişdir. Karnonun truppasının ABŞ-a qastrolları zamanı (1913) Ç. M. *Sennettin* rəhbərlik etdiyi "Kistoun" kino şirkəti ilə müqavilə bağlamış, ilk dəfə 1914 ildə "Dolanacaq pulu qazanarkən" filmində çəkilmişdir. Həmin ildən rej.-luq fəaliyyətinə başlamışdır.

Ç.-in yaradıcılığında qrotesk və parodiya üslubları, eləcə də pantomima, müzik-holl və sirk sənətlərinin ifadə vasitələri əhəmiyyətli yer tutmuşdur. O, sonralar məşhurlaşmış sərgərdan Çarlinin "maskasını" yaradarkən özünəməxsus cizgilər axtarıb tapmış (təpəsi yumru şlyapa, balaca qara bığlar, əl ağacı və ona ördək yerişi yeridən böyük başmaqlar), bu obrazın tragikomik xarakterini gücləndirməyə müvəffəq olmuşdur ("Onun yeni işi", 1915, "Gecə saat birdə" və "Sketinq-rinq", 1916, "Müalicə", 1917). "Balaca adam"ın səadət ümidlərinin qeyri-reallığı "Avara" və "Bank" (1915), "Polis" (1916), "Sakit küçə" və "Mühacir" (1917) filmlərində ifadə olunmuşdur. "İt günü", "Silahı çiyninə al", "Günəşli tərəf", "Balaca", "Maaş günü", "Piliqrim" Ç.-in aktyorluq istedadının zirvəsini nümayiş etdirən filmlərdir.

1914 ildə "Kistoun"un 34 filmində

Ç. Çaplin. "Böyük şəhərin işıqları" filmində.





Çar kurqanı.

çəkilərək (onlardan təqr. yarısının ssenarisini Ç. özü yazmışdı), Ç. Amerika kinosunun ən istedadlı komiklərindən biri kimi məşhurlaşmış və yaradıcılıq müstəqilliyi qazanmışdır. 1915–16 illərdə o, "Esseney", 1916–17 illərdə isə "Myuçuel" firmalarında ssenarist, rej., aktyor kimi çalışaraq, öz filmlərini çəkmişdir.

Ç. 1923 ildə özəl "Çarlz S. Çaplin film korporeyşen" kinofirmasını yaratmış, rejissor-müəllif kimi qısametrajlı komik filmlərdən tammetrajlı filmlər çəkməyə keçmişdir. İlk böyük işi "Parisli qız" (1923, Ç. özü bu filmdə çəkilməmişdir) psixoloji dramıdır. Növbəti "Qızıl hərisliyi" (1925) filmi ekssentrik komediyanın şedevri sayılır. Daha sonra "Sirk" (1928), "Böyük şəhərin işıqları" (1931), "Yeni əyyamlar" (1936) filmlərini çəkmişdir. "Böyük diktator" (1940) filmində faşizmin mahiyyətini cəsarətlə ifşa edən Ç. Qərb mədəniyyətinin ən mütərəqqi xadimləri sırasına çıxmışdır. 1974 ildə Ç. özünün ən qəmgin və acı "Müsyö Verdu" filmini bitirir. "Səhnə işıqları" (1952) filmi (1972 ildə musiqisinə görə "Oskar" mük.) Ç.-in yaradıcılığının zirvəsi hesab edilir. O, 1957 ildə B. Britaniyada amerikan həyat tərzini satira atəşinə tutan kədərli "Kral Nyu-Yorkda" filmini, 1967 ildə isə son rej. işi olan "Honkonqlu qrafinya" romantik komediyasını yaratmışdır (Ç. epizodik rolda çəkilmişdir). Ç. 1928 və 1972 illərdə "Oskar" xüsusi prizinə, 1972 ildə bütövlükdə yaradıcılığına görə Venesiya BKF-nın qızıl prizinə, 1954 ildə xalqlar arasında sülhü və dostluğu möhkəmlətmək işində böyük xidmətlərinə görə Beynəlxalq Sülh mükafatına layiq görülmüşdür. Dramatik, lirik və yumoristik səhnələrin və vəziyyətlərin üzvi uyarlığı Ç. filmlərinin ən diqqətəlayiq cəhətlərindəndir. Böyük artist, rejissor, humanist olan Ç. dünya kinosunun inkişafına böyük təsir göstərmişdir.

Əsərləri: Səhnə işıqları. B., 1973; Моя биография. M., 1966.

Əd.: Авенариус Г.А. Чарльз Спенсер Чаплин. Очерк раннего периода творчества. M., 1960; Кукаркин А. Чарльз Чаплин и его фильмы. M., 1966.

**ÇAPMA MAŞINI** – süxur massivini dağıtma prosesini asanlaşdırmaq məqsədilə qalın faydalı qazıntı (kömür, yanar şist, duz, balıqqulağılı əhəng, tuf və s.) layında dərin yarıq açmaq üçün maşın; az meyilli, maili və dik laylarda işləyə bilir. 1761 ildə B.Britaniyada M.Menzis kömürü çapmaq üçün yaratdığı ilk mexaniki tərtibata patent almışdır. 1852 ildə S.Borinq (B.Britaniya) Ç.m. üçün fırlanan diskli işçi orqan quraşdırdı. 19 əsrin 50-ci illərinin ortalarında əvvəlcə pnevmatik, sonra elektrik intiqalı olan ştanqlı Ç.m., 1864 ildə işçi orqanı *bar* olan zəncirli Ç.m. hazırlandı. Kəskilərlə təchiz edilmiş zəncirli barları olan maşınların yaradılması ilə 20 əsrin 30-cu illərində diskli, ştanqlı və zəncirli Ç.m.-lar əhəmiyyətini itirdi. Ç.m.-nın konstruksiyasına işçi orqan (bar, ştanq), transmissiya, ötürmə (yerdəyişmə) mexanizmi, elektrik və ya pnevmatik mühərrik daxildir. Ç.m. icra orqanının tipinə, ötürməsinə, istifadə edilən enerji növünə, ötürmə sürətinin nizamlanma üsullarına görə təsnif olunur. Əsas növləri köndələn barlı, uzununa barlı, fırlanan barlı və universal Ç.m.-dır. Ç.m.-nın əsasında yükləmə maşınları, çapma-yükləmə maşınları və kömürçıxaran kombaynların ilk konstruksiyaları hazırlanmışdır.

**ÇAPMALI** – *Qobustanda, Böyükdaş* d. ərazisində üzərində qədim qayaüstü təsvirlər olan 108, 109 və 110 saylı qayaların arasında sığınacaq tipli yaşayış yeri. 108 saylı qaya üzərində yağış suyu yığmaq üçün iri hovuz çapılmış və bununla əlaqədar olaraq yaşayış yeri "çapmalı" adlandırılmışdır. Arxeoloji qazıntılar nəticəsində (1972–73) Ç.-dan Tunc və antik dövrlərdə, orta əsrlərdə istifadə edildiyi müəyyən olunmuşdur. Əhəngdaşıdan ağırlıq daşları, daş kirkirələrin üst daşı, dəndaşı qırıqları, çaydaşı, çaxmaqdaşı və obsidiandan (dəvəgözü) qəlpələr, qara, boz, qırmızı rəngli şirli qab qırıqları aşkar edilmişdir. Gil qablar *Xocalı-Gədəbəy mədəniyyətinin* gil qablarına oxşardır. Orta əsrlər dövrünə aid qabların çoxunu qazan və çıraq qırıqları təşkil edir. Bu dövrə aid təbəqədən içərisi gillə suvanmış təndir formalı ocaq qurğusu (ehtimal ki, dini xarakter daşıyır) aşkar edilmişdir.

Əd.: Muradova F.M. Qobustan Tunc dövründə. B., 1979.

**ÇÁPRA** – Hindistanın ş.-ində, Bihar ştatında şəhər. Əh. 222 min (2011). Qanq çayının sol sahilindədir. Nəql. qovşağı. Şora hasilatı və emalı var.

**ÇAPUQ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin İcərud kəndistanında, Zəncan ş.-ndən 8 *km* c.-q.-dədir.

**ÇAR** (lat. Caesar – sezar, Roma imperatorlarının titulu) – qədim və orta əsr dövlətlərində hökmdar titulu. Tarixi ədəbiyyatda qədim Babilistan, Aşşur, Çin, Hindistan, İran, Yunanıstan, respublikayaqədərki Roma, ellinist Misir və Azərb. ərazisində yerləşən Albaniyanın hakimləri Ç. adlandırılır. Ç. kral tituluna uyğun olan ali dövlət ünvanıdır (imperatordan sonra). Bolqarıstanda monarxlar 10–14 əsrlərdə və 1908 ildən monarxiyanın ləğvinədək (1946) Ç. titulu daşımışlar. Bizansın süqutundan (1453) sonra Rusiyada 1547–1721 illərdə dövlət başçısının rəsmi titulu idi. İlk Ç. IV İvan Qroznı olmuşdur. I Pyotr dövründə imperator titulu ilə əvəz edilmişdi (1721).

**ÇAR ARAĞI** – bax *Zərhal*.

**ÇAR KURQANI** – Kerç ş.-nin 4 *km*-liyində e.ə. 4 əsrə aid qəbir abidəsi. Ehtimal ki, Bospor çarlarından birinin qəbiridir. Hələ qədim dövrdə talan edilən Ç.k. 1837 ildə aşkar olunaraq öyrənilmişdir. 17 *m* qalınlığında daş və torpaq təbəqəsi altında düzbucaqlı planlı (4,24×4,4 *m*), hündür (8,37 *m*) daş sərdaba yerləşir. Sərdabanın, həmçinin onun 2,8 *m* enində, 7,14 *m* hündürlüyündəki yolunun üstü (uz. 36 *m*) yonulmamış daşlardan pilləli tağla örtülmüşdür.



Çara çayı.

**ÇÁRA** – RF-nin Baykalarxası diyarı, İrkutsk vil. və Saxa (Yakutiya) Resp.-nda çay. Olyokmanın (Lena hövzəsi) sol qolu. Uz. 851 *km*, hövzəsinin sah. 87,6 min $km^2$. Kodar silsiləsindən başlanır. Astanalıdır. Qarışıq mənbədən qidalanır. Maydan sentyabradək gursuludur. Tokko k. yaxınlığında orta su sərfi 624 $m^3$/*san*-dir. Oktyabrdan mayadək donmuş olur. Əsas qolları: Juya, Tokko. Gəmiçiliyə yararlıdır. Hövzəsində *Udokan filiz rayonu* yerləşir. Ç.-nın yuxarı axını boyu *Baykal–Amur magistralı* keçir.

**ÇARAQ** – Azərb. Resp. Şabran r-nunda kənd. Çaraq ə.d.-nin (Çaraq, Güləh, Hacıiskəndərli, Kyünçal, Təkyə, Uqah k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 55 *km* c.-q.-də, dağətəyi ərazidədir. Əh. 75 (2011); maldarlıq, əkinçilik və bağçılıqla məşğuldur.

**ÇARALĞA** – bax *Dəzgah*.

**ÇARBAĞ**, Xürrəmabad, Yuxarı Çarbağ – İrəvan xanlığının Zəngibasar mahalında (31.12.1937 ildən Zəngibasar, 14.1.1969 ildən Masis r-nu) azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd erməni daşnaklarının hücumuna məruz qalmış, əhalisinə qəddarcasına divan tutulmuş, sağ qalanlar kəndi tərk etməyə məcbur olmuşlar. Bundan sonra kəndə çoxlu sayda Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922 ildə kəndin azərb. əhalisinin bir hissəsi doğma yurda qayıtmış, lakin az sonra İrəvan ş.-nin genişləndirilməsi bəhanəsi ilə kənd rəsmi olaraq ləğv edilmiş, ərazisi İrəvan ş.-nə qatılmışdır. Kənddən sıxışdırılıb çıxarılan azərb. əhalinin bir hissəsi qonşu Zəngibasar r-nunun kəndlərində məskunlaşmış, bir hissəsi isə Azərb. SSR-ə köçmüşdür.

**ÇARDAQ** – binanın damı ilə çatılı örtüyü arasında olan qapalı yerləşgə. Ç.-da ventilyasiya kameraları və kanalları, su borularının paylayıcıları, liftlərin maşın bölmələri yerləşir. Binanın eni və yamaclarının mailliyi böyük olduqda ikiyaruslu düzəldilir; Ç.-dan yaşayış yeri və təsərrüfat sahəsi kimi istifadə edilir (bax *Mansarda*).

**ÇARDAQ QUŞLARI**, külbəçilər (Ptilonorhynchidae), – sərçəkimilər dəstəsindən quş fəsiləsi; cənnət quşları fəsiləsinə yaxındır. Bədəninin uz. 22–40 *sm*, dimdiyi qısa, azca əyilmiş formada, bəzilərində ucu qarmaqlıdır. Qanadları və quyruğu qısa, ayaqları güclüdür. Bir çox Ç.q.-nda cinsi dimorfizm yaxşı nəzərə çarpır: erkəklərdə üstünlük təşkil edən rənglər sarı, narıncı, göy və bənövşəyi çalarlı, dişi fərdlərin rəngi az əlvan olur. Qalan növlərdə erkəklər və dişilər nəzərə çarpmayan qəhvəyi, boz və yaşıl rəng çalarları ilə rənglənmişdir. 8 cinsi, 18 növü var. Avstraliyanın şimalında və şərqində, Yeni Qvineya və ona qonşu adalardakı rütubətli tropik meşələrdə yaşayır. Gündüz fəal olurlar; oturaq və ya köçəri həyat keçirirlər. Çığırqan, qulaq batıran səsləri var; bəziləri səsləri təqlid edirlər. Bitki mənşəli qidalara (xırda meyvə, tumurcuq, yarpaq, çiçək, toxum və s.) üstünlük verir, həmçinin cücüləri, onların sürfələrini, qurdları, hörümçəkləri və s yeyə bilir; yerdə və ağacların çətirlərində yemlənirlər. Əlvan rəngli Ç.q. daimi cütlər əmələ gətirmir (poliqamdırlar). Onlar üçün mürəkkəb cinsi davranış xarakterikdir. Cütləşmə dövründə bir çox növlərin erkəkləri yerdə budaqlardan meydança düzəldir; bunun əsas bəzək elementi xırda budaqlardan düzəldilən ikiçatlı külbə və ya geniş girişi olan dairəvi koma formasında olan tikilidir (adı da buradandır). Meydança lələk, balıqqulağı, daş, çiçək, giləmeyvə, cücü və s. ilə bəzədilir. Hər bir erkək öz meydançasını 4–5 ay ərzində (cinsi fəallıq vəziyyətində qalana qədər) qoruyur. Meydançanın və külbələrin yanında cütləşmə oyunları və cütləşmə baş verir. Sonradan dişi fərd yaxınlıqdakı ağacda kasaşəkilli yuva tikir, oraya 1–3 (adətən 2) yumurta qoyur və ətcəbalaları yemləyir; bəzən yemləmədə erkəklər də iştirak edir. Ç.q.-nın 2 növü BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

Bənövşəyi külbəçi (Ptilonorhynchus violaceus).



**ÇARDAQ ZAĞA** – *Qobustanda*, Böyükdaş d. ərazisində üzərində təsvirlər olan 12 və 13 saylı qayalar arasında sığınacaq. Qayaların birində e.ə. 4-cü minilliyə aid kollektiv əmək səhnəsi təsviri xüsusilə əhəmiyyətlidir. Arxeoloji qazıntılar zamanı (1965) çaxmaqdaşı və çaydaşıdan əmək alətləri, gil qab qırıqları, təndir tipli ocaq qalığı və s. aşkar olunmuşdur. Tapıntılar sığınacaqdan Eneolit və Tunc dövrlərində, həmçinin orta əsrlərdə müvəqqəti yaşayış üçün istifadə edildiyini göstərir.

Əd.: Muradova F.M. Qobustan Tunc dövründə. B., 1979; Джафарзаде И.М. Гобустан. Наскальные изображения. Б., 1973.

**ÇARDAQLI** – İrəvan xanlığı Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Cığındərə bölgəsində, Çardaqlı d.-nın ətəyində azərb.-ların yaşadığı kənd. 18 əsrin axırlarında bölgədə gedən qanlı müharibələr nəticəsində kənd tamamilə dağıdılmış, torpaqları ətraf kəndlərin ərazisinə qatılmışdır.

**ÇARDAQLI** – Azərb. Resp. Qubadlı r-nunda kənd. Çardaqlı ə.d.-nin (Çardaqlı, Əyin, Xələc, Tarovlu k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 10 *km* q.-də, dağ ətəyindədir. Əh. 110 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq və əkinçiliklə məşğul olmuşdur. Orta məktəb, kitabxana var idi.

**ÇARDAQLI** – Azərb. Resp. Tərtər r-nunda kənd. Çardaqlı ə.d.-nin (Çardaqlı, Lüləsaz, Meqrelalay k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 25 *km* c.-q.-də, dağ ətəyindədir. Əh. 1452 (2011); işğaldan (1993, may) əvvəl əkinçilik və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi var idi.

**ÇARDAQLI ABİDƏLƏRİ** – Azərb. Resp. Beyləqan r-nunun Aşağı Çəmənli k.-ndən 1,5 *km* q.-də qədim yaşayış yeri. Araz çayının keçmiş yatağının sol sahilində yeddi təpədən ibarətdir. Dördü Erkən Tunc dövrünə, üçü orta əsrlərə [bax *Kültəpə* (Beyləqan r-nu)] aiddir. Erkən Tunc dövrü təpələrindən toplanılmış müxtəlif saxsı qablardan ibarət arxeoloji materiallar (əksəriyyəti qara və boz cilalı, qismən də qırmızı rəngli cam, küpə, bardaq, xeyrə və s.) *Kür-Araz mədəniyyətinin* son mərhələsi (e.ə. 3-cü minilliyin sonları) üçün səciyyəvidir. Çoxunun qulpu lentvarı və ilgəkşəkilli yarımkürəvi formadadır. Tapıntıların bir qismi əmək alətlərindən (dəndaşı, sürtgəc, dəvəgözüdən kəsərlər və s.) ibarətdir. Erkən Tunc dövrü əhalisi oturaq həyat sürmüş, əkinçilik və maldarlıqla məşğul olmuşdur.

**ÇARDAŞ** (macar. csárdás – kənd yeməkxanası) – macar xalq rəqsi. 19 əsrin ortalarında meydana gəlmişdir. Musiqi ölçüsü 2/4-dir. 2 hissədən (asta və cəld) ibarətdir. Ritmi sinkoplaşdırılmışdır, improvizə səciyyəvidir. 20 əsrin əvvəllərində yayılmış populyar bal rəqslərinin əsasını təşkil etmişdir. Professional musiqidə Ç.-dan F. Listin "Macar rapsodiyaları"nda, İ. Bramsın "Macar rəqsləri"ndə, P. Çaykovskinin "Sonalar gölü" və L. Delibin "Koppeliya" baletlərində istifadə olunmuşdur.

**ÇARHAN** – Azərb. Resp. Şamaxı r-nunda palçıq vulkanı. Eyniadlı kəndin yaxınlığındadır. 140-dək sopka, salz və qrifonu var. Qaz, palçıq və neft ayırır. Sopka və qrifonlar ensiz (40–50 *m*) bir zolaq şəklində ş.-dən q.-ə 100–120 *m* məsafədə uzanır. Sopkaların ətrafında kiçik qırlı sahələr var. Ç. palçıq vulkanı tektonik cəhətdən Mədrəsə–Çarhan antiklinalının c.-ş. periklinalının pozulmuş tağı ilə əlaqədardır.

**ÇARHAN** – Azərb. Resp. Şamaxı r-nunda kənd. Çarhan ə.d.-nin (Çarhan, Nüydi, Sabirli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 9 *km* c.-da, Ləngəbiz silsiləsinin ətəyindədir. Əh. 2919 (2011); üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğuldur. Tam və ümumi orta məktəb, uşaq bağçası, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**ÇARX** – bax *Dişli çarx*.

**ÇARXAÇU** – Azərb. Resp. Quba r-nunun Xaltan ə.d.-ndə kənd. R-n mərkəzindən 75 *km* c.-ş.-də, Çarxaçu çayının (Gilgilçayın qolu) sahilində, dağ ətəyindədir. Əh. 233 (2011); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**ÇARXANA** – Azərb. Resp. Qəbələ r-nunda kənd. Çarxana ə.d.-nin mərkəzi. R-n mərkəzindən 23 *km* c.-q.-də, Qəbələ–Ağdaş avtomobil yolu üzərindədir. Əh. 847 (2011); taxılçılıq, maldarlıq, qismən üzümçülük və meyvəçiliklə məşğuldur. Ümumi orta məktəb var.

**ÇARXANA** – Azərb. Resp. Siyəzən r-nunun Sədan ə.d-ndə kənd. R-n mərkəzindən 7 *km* c.-q.-də, Baş Qafqaz silsiləsinin şm.-ş. ətəyindədir. Əh. 53 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. –

**ÇARXI** – Azərb. Resp. Xaçmaz r-nunda kənd. Çarxı ə.d.-nin (Çarxı, Xanlıqoba k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 12 *km* c.-ş.-də, Bakı–Moskva d.y. xəttində st., Samur-Dəvəçi ovalığındadır. Əh. 3131 (2011); maldarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Tam orta məktəb, 2 ümumi orta məktəb, xəstəxana, 2 klub, kitabxana var.

**ÇARXQOLLU PRES** – dəmirçi-ştamplama maşını. Pəstah Ç.p.-də elektrik mühərriki ilə işləyən çarxqolu mexanizmlə hərəkətə gətirilən işlək orqanın təzyiqi altında deformasiya olunur. Sürüngəcin intiqalına görə Ç.p.-in çarxqolu-ekssentrik, çarxqolu-dirsəkli, çarxqolu-lingli (balansirli) və çarxqolu-yumruqlu-lingli növləri var. Ç.p.-də həcmi və təbəqə ştamplaması, əymə, düzəltmə və s. işlər aparılır.

**ÇARXQOLU** – *çarxqolu mexanizminin* tərpənməz ox ətrafında tam dövr edən bəndi. Ç. fırlanma oxuna nəzərən ekssentrik yerləşmiş sapfa və ya barmaqdan ibarətdir. Sapfa və valın oxları arasındakı məsafə Ç.-nun radiusudur.

**ÇARXQOLU MEXANİZMİ** – hərəkəti bir növdən digərinə (məs., müntəzəm fırlanma hərəkətini irəliləmə hərəkətinə, qeyri-müntəzəm fırlanmaya, yırğalanmaya) çevirən bəndli mexanizm. Ç.m.-nin *çarxqolu* və ya *kulis mexanizmi* şəklində olan fırlanan bəndi dayaq (tərpənməz bənd) ilə və digər mexanizm bəndi ilə oynaqla (kinematik cüt) əlaqəlidir. Çarxqolu sapfa və ya barmaqdan ibarətdir. Barmaq sürüngəc ilə oynaqla (daxiliyanma mühərrikləri, porşenli kompressorlar və s.-də sürüngəcin funksiyasını porşen yerinə yetirir), yaxud sürgüqolu ilə birləşdirilir. Ç.m., adətən, fırlanan və irəliləyən kinematik cütlərə malikdir və müstəvi (bütün bəndləri paralel müstəvilərdə hərəkətli), fəza, dörd və çoxbəndli olur. Daha geniş yayılmış müstəvi dördbəndli Ç.m. dörd qrupa bölünür: o y n a q l ı  d ö r d b ə n d l i (bir çarxqolunun müntəzəm fırlanmasını digərinin qeyri-müntəzəm fırlanma hərəkətinə çevirir); ç a r x q o l u - b a l a n s i r l i (qollu; çarxqolunun fırlanma hərəkətini qolun yırğalanma hərəkətinə çevirir); ç a r x q o l u - s ü r ü n g ə c l i (çarxqolunun fırlanma hərəkətini sürüngəcin düzxətli irəliləmə-geriləmə hərəkətinə və ya əksinə çevirir); metalkəsmə dəzgahlarının kəsmə hərəkətinin intiqalında istifadə olunan ç a r x q o l u - k u l i s (çarxqolunun müntəzəm fırlanma hərəkətini kulisin qeyri-müntəzəm fırlanma, yırğalanma və ya irəli-geri hərəkətinə çevirir). Ç.m.-nin çoxunda hərəkətin çarxqoluna ötürülməsi mümkün olmur, belə hal tərpənməz, yaxud ölü vəziyyət adlanır. Bu zaman hərəkətə gətirilən çarxqolu fırlanma istiqamətini əksinə dəyişə bilir, nəticədə qüvvə qazancı xeyli artır. Alınmış böyük qüvvə işçi maşınlarda (məs., preslərdə) istifadə edilir. Bir çox hallarda (yeyinti, əczaçılıq sənayesinin texnoloji xətlərində, burğu başlığı şpindelləri intiqallarında, dəmirçi presləri mexanizmlərində) müstəvi çoxbəndli Ç.m.-lər tətbiq edilir. Fəza dördbəndli Ç.m. çarxqolunun fırlanma oxuna perpendikulyar ox ətrafında qolun (balansirin) yırğalanma hərəkətini almaq üçündür.

**Müstəvi çarxqolu mexanizmləri:** *a* – çarxqolu-balansirli (qollu); *b* – çarxqolu-sürüngəcli; *c* – çarxqolu-kulis; *1* – çarxqolu; *2* – sürgüqolu; *3* – balansir (qol); *4* – sürüngəc; *5* – kulis.









"Klermont" çarxlı buxar gəmisi. 1909.

**ÇARXQOLU-SÜRÜNGƏCLİ MEXANİZM** – bax *Çarxqolu mexanizmi*.

**ÇARXLI GƏMİ** – hərəkətvericisi bir və ya iki avar çarxı olan gəmi; avar çarxları gəminin kənarlarında (bortlarında) və ya arxasında yerləşirdi. İlk yararlı Ç.g. 1807 ildə amerikalı ixtiraçı R. Fultonun yaratdığı "Klermont" buxar gəmisi olmuşdur.

**ÇARIQ** – göndən tikilmiş ayaqqabı növü. Ehtimal ki, maldarlığın inkişafı ilə əlaqədar yaranmışdır. Əsasən, kənd əhalisi üçün səciyyəvi idi. Gön ayağın ölçüsündə biçilir, yanlardan 1–1,5 *sm*-lik məsafələrdə deliklər açılır. Həmin dəliklərdən keçirilən köşə ilə yanları, ön və daban hissəsi yığılır; Ç.-ın kənarındakı ilgəklərə çarıqbağı salınır və baldıra dolanır. Azərb.-da Ç.-ın şatırı, quşburnu, qızqaytaran,



Çarıq.

şirmayı, kalmanı, əcəmi və s. formaları olmuşdur.

**ÇARIQÇI BAHADIR** (1870, Şuşa – 1930, Şuşa) – Azərb. xanəndəsi. Azərb. muğamlarını məşhur xanəndələr Məşədi İsi, Cabbar Qaryağdı oğlu, Keçəçi oğlu Məhəmməd və Ələsgər Abdullayevdən öyrənmişdir. Bir sıra muğamların, təsnif və xalq mahnılarının mahir ifaçısı olmuşdur.

**ÇARIN**, Ş a r ı n (yuxarı axınında – S o l - k o d a ğ s u, orta axınında – K e g e n) – Qazax.-da, Almatı vil.-ndə çay. İli çayının sol qolu. Uz. 427 *km*, hövzəsinin sah. 7720 *km*$^2$. Ketmen silsiləsinin c. yamacından başlanır, aşağı axınında qollara bölünür. Qar və qrunt suları ilə qidalanır. Mənsəbindən 84 *km* məsafədə orta su sərfi 35,4 *m*$^3$/*san*-dir. Noyabr–fevraldan mart–aprelin əvvəllərinədək donmuş olur. Suvarmada istifadə olunur.

**ÇARIŞ** – RF-də, Altay diyarında çay. Obun sol qolu. Uz. 547 *km*, hövzəsinin sah. 22,2 min *km*$^2$. Korqon silsiləsindən başlanır. Qarışıq mənbədən, əsasən, qar suyu ilə qidalanır. Mənsəbindən 82 *km* məsafədə orta su sərfi 192 *m*$^3$/*san*-dir. Əsas qolları: soldan – İnya, Belaya, Loktevka; sağdan – Maralixa. Mənsəbindən 83 *km* məsafədə gəmiçiliyə yararlıdır. Suvarmada istifadə olunur. Oktyabrın sonu–noyabrdan mart–aprelin əvvəllərinədək donmuş olur. Hövzəsində ümumi sah. 46,4 *km*$^2$ olan 500-dən çox göl var.

**ÇARİKAR** (چاریکار) – Əfqanıstanın ş.-ində şəhər. Pərvan əyalətinin inz. m. Əh. 34 min (2002). Kunduz–Kabil avtomobil yolu üzərindədir. Dulusçuluq inkişaf etmişdir.

**ÇARQUN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Qaraqoyun kəndistanında, Maku ş.-ndən 32 *km* c.-ş.-dədir.

**ÇARLANQUŞ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin Çaypara kəndistanında, Zəncan ş.-ndən 102 *km* q.-dədir.

Çarın çayı.



Çarış çayı.





Çarlston şəhərindən (Cənubi Karolina) görünüş.

**ÇARLSTON** (Charleston) – ABŞ-ın c.-ş.-ində, Cənubi Karolina ştatında şəhər. Əh. 120 min (2010). Atlantika okeanı sahilində, Aşli çayının mənsəbi yaxınlığında port. Mühüm ticarət və nəql. mərkəzi.

Kimya (sintetik lif, üzvi kimya preparatları istehsalı), gəmiqayırma, ağac emalı, tikiş sənayesi müəssisələri fəaliyyət göstərir. Əlvan metallurgiya inkişaf etmişdir. Daxili yanma mühərrikləri, rabitə vasitələri, tibb alətləri istehsal edilir. Şəhər 1670 ildə salınmışdır.

**ÇÁRLSTON** (Charleston) – ABŞ-ın ş.-ində şəhər. Qərbi Virginiya ştatının inz. m. Əh. 51, 4 min (2010). Kanova çayı sahilində port. Mühüm nəql. qovşağı.

Kimya sənayesinin iri mərkəzidir (üzvi kimya preparatları, plastik kütlə, mineral gübrələr və s. istehsalı). Metal emalı, neft emalı sənayesi müəssisələri fəaliyyət göstərir. Ç. r-nunda daş kömür hasil edilir.

**ÇARLSTON** (ing. charleston) – amerikan bal rəqsi. 1920-ci illərdə Çarlston ş.-ndə (ABŞ, Cənubi Karolina ştatı) meydana gəlmiş, sonralar Avropada geniş yayılmışdır. Ç. zənci rəqsləri əsasında yaranmışdır. Musiqi ölçüsü 4/4, ritmi sinkoplaşdırılmışdır. 1960-cı illərin sonu – 1970-ci illərin əvvəllərində yenidən populyarlaşmışdır.

**ÇARNOKİT** (Kəlkətə ş.-nin əsasını qoyan C. Çarnokanın adı ilə) – süxur; mikroklinli qranitin hiperstenli növü. Kalium çöl şpatlarından (15–20%), oliqoklazdan (təqr. 50%), kvarsdan (təqr. 30%) və hiperstendən (2–7%) ibarətdir. Tərkibində həmçinin qranat, diopsid, biotit, hornblend, aksessor minerallardan maqnetit, apatit, zirkon və s. iştirak edir. Rəngi tünd, nadir hallarda mavi çalarlı açıq bozdur. Qranit allotriomorfdənəli, bəzən porfir strukturludur. Metasomatik mənşəli hesab olunur. "Ç." termini ilk dəfə 1900 ildə ingilis geoloqu T. Holland tərəfindən təklif olunmuşdur.

**ÇARPAZ DÜZ XƏTLƏR** – fəzada bir müstəvi üzərində yerləşməyən düz xətlər.

Fəzanın ixtiyari nöqtəsindən keçən və Ç.d.x.-ə paralel olan istənilən iki düz xətt arasındakı bucağa Ç.d.x. arasındakı b u c a q deyilir. Əgər *a* və *b* Ç.d.x.-in istiqamətverici vektorlarıdırsa, Ç.d.x. arasındakı bucağın kosinusu

$$\cos\varphi = \pm\frac{(a, b)}{|a|\cdot|b|}$$

düsturu ilə ifadə olunur. Ç.d.x.-dən hər birini kəsən və onlara perpendikulyar olan düz xətt iki Ç.d.x.-in o r t a q p e r p e n d i k u l y a r ı adlanır. İstənilən iki Ç.d.x. üçün yeganə ortaq perpendikulyar var. İki $r=r_1+at_1$ və $r=r_2+bt_2$ Ç.d.x.-inin ortaq perpendikulyarının tənliyi

$$((r-r_1), a, [a, b])=0$$
$$((r-r_2), b, [a, b])=0$$

şəklində olur.

Ortaq perpendikulyarın ucları Ç.d.x.-in üzərində yerləşən parçasına (və ya Ç.d.x.-in yerləşdiyi paralel müstəvilər arasındakı məsafəyə) Ç.d.x. arasındakı m ə s a f ə deyilir. Ç.d.x. arasındakı *d* məsafəsi

$$d = \frac{|((r_1-r_2), a, b)|}{|[a,b]|}$$

düsturu ilə ifadə olunur.

**ÇARPAZ TOZLANMA** – bax *Tozlanma.*

**ÇARPAZLAŞDIRMA,** h i b r i d l ə ş d i r m ə – bitki və heyvan seleksiyası üsullarından biri. İrsiyyətcə fərqlənən iki genotipin mayalanma vasitəsilə təbii və ya süni yolla birləşməsi. Təsərrüfat üçün faydalı olan əlamətlərə görə seçmə və taylaşdırma, yeni cinslərin (sortların) yetişdirilməsi üçün başlanğıc material olan hibridlərin və mələzlərin alınması məqsədilə tətbiq edilir. Qohumarası Ç. (inbridinq) və qeyri-qohumarası Ç. (autbridinq) kimi müxtəlif sistemlər vardır. Autbridinq variantları bunlardır: cinsarası (sortarası) Ç. (krossbridinq), xətarası Ç. (inkrossinq – bir cinsin, sortun qohum Ç.-sı xətləri arasında Ç.), inkrossbridinq – müxtəlif cinsin, sortun qohum Ç.-sı; topkroc–seleksiya olunmuş xüsusi qohum erkək xətlərin qohum olmayan dişi xətlərlə Ç.-sı) və daha uzaq növlərin Ç.-sı. Heyvandarlıqda Ç. mələzləşdirmə mənasını daşıyır ki, bu da geriyə Ç., törətmə Ç.-sı, çevirici Ç., sənaye Ç.-sına bölünür. Bax həmçinin *Hibridləşdirmə.*

**ÇARŞAB** – Şərq ölkələrində, o cümlədən Azərb.-da yayılmış qadın baş geyimi. Əsasən, dördkünc formada, müxtəlif ölçülərdə olur. Tovlu ipəkdən toxunur. Azərb.-da başlıca istehsal mərkəzləri Şamaxı, Basqal, Mücü, Şəki, Gəncə, Şuşa olmuşdur (bax həmçinin *Çadra*).

**ÇÁRSKİ** (əsl soyadı T a n x e l s o n) Yuzef Davidoviç (27.12.1897, Tiflis – 16.11.1948, Bakı) – Azərb. aktyoru. Azərb. SSR xalq artisti (1940). Səhnə fəaliyyətinə 1919 ildə Tiflisdə başlamış, Batumi, Rostov-Don, Krasnodar, Odessa, Moskva teatrlarında işləmişdir. 1928 ildən Azərb. Rus Dram Teatrının aktyoru olmuşdur. Ç.-nin ifası incə yumoru və dərin lirizmi ilə seçilmişdir. Rolları: Karandışev ("Çehizsiz qız", A. Ostrovski), Kulıgin ("Üç bacı", A. Çexov), Şvandya ("Lyubov Yarovaya", K. Trenyov), Senya Perçatkin ("Özgə uşağı", B. Şkvarkin), İmamverdi ("1905-ci ildə", C. Cabbarlı), Şapur, təlxək ("Fərhad və Şirin", "Vaqif", S. Vurğun), Nəcəf ("Şərqin səhəri", Ə. Məmmədxanlı), saatsaz ("Kreml saatı", N. Poqodin), ser Endrü ("On ikinci gecə", U. Şekspir) və b.

Y.D. Çarski Şvandya ("Lyubov Yarovaya", K. Trenyov) rolunda.



**ÇARTAĞ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Səracu kəndistanında, Marağa ş.-ndən 17 *km* şm.-q.-dədir.

**ÇARTAĞLI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 27 *km* şm.-q.-dədir.

**ÇARTER** (ing. charter – gəmini icarə etmək) – nəql. vasitəsinin və ya onun müəyyən hissəsinin müvəqqəti və ya bir dəfə (bir reys) üçün icarəsinə dair nəql. vasitəsinin (gəmi, təyyarə və s.) sahibi ilə icarəçi (kirayəçi) arasında bağlanan saziş. Bu halda icarəçi qismində mükafatlandırma, ödəmə müqabilində və müqavilədə göstərilən qaydalara, şərtlərə uyğun olaraq müəyyən müddətə əmlaka (nəql. vasitəsinə) sahiblik və ondan istifadə hüququ əldə edən şəxs çıxış edir.

Ç.-də tərəflərin adı, fraxtın həcmi, gəminin və yükün işarələri, yüklənmə yeri, təyinat portu mütləq əks olunmalıdır.

**ÇARTƏPƏ** – Azərb. Resp. Quba r-nunun Xucbala ə.d.-ndə kənd. R-n mərkəzindən 10 *km* şm.-da, Qusarçayın sahilindədir. Əh. 820 (2011); maldarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Ümumi orta məktəb; məscid var.

**ÇARTİST ƏDƏBİYYATI** – çartist hərəkatı dövründə yaranmış ədəbiyyat. Ç.ə demokratik ədəbi ənənələrlə (C.Q. Bayron, P. B.Şelli və b.) bağlı olmuşdur. Çartist poeziyasının nümayəndələri arasında peşəkar şairlərlə (E. Cons, U.C. Linton, C. Massi) yanaşı, öz əsərlərini çartist jurnal ("Fəhlə") və qəzetlərində ("Şimal ulduzu", "Xalq qəzeti") dərc etdirən (əsasən, anonim) fəhlə şairlər də var idi. İnkişafının ilk mərhələsində inqilabi romantizmə meyil edən Ç.ə.-nda sonralar (T.M. Uilerin, Consun nəsr əsərləri) realist tendensiyalar güclənmişdir. Publisistika, satirik oçerk (D. Cerrold), ədəbi tənqid (C.Qarni, C. Massi) C.ə -nin əsas janrları olmuşdur.

*Əd.:* Y e l i z a r o v a M.Y. və başqaları. XIX əsr xarici ədəbiyyat tarixi. B., 1964.

**ÇARVÁKA** (sankritcə) – qədim və orta əsrlər hind materialist təlimi; lokayatanın sonrakı növü. Ç. nümayəndələrinin öz əsərləri bizə gəlib çatmamışdır. Hind dini-fəlsəfi fikrinin ortodoksal sistemlərini, onların əsasında duran *vedaların* prinsiplərini rədd edən Ç.-ya görə, yalnız birbaşa qavramanın köməyi ilə dərk olunan həqiqidir, təkcə bu dünya mövcuddur, yeganə reallıq materiyadır. Diqqətini etik konsepsiyanın işlənib hazırlanmasına yönəldən Ç. xeyir və şər anlayışlarını insan xəyalının yaratdığı illüziya hesab edir; Ç.-ya əsasən, hissi varlığın yalnız iztirabı və həzzi realdır. Tərki-dünyalıq məhdudiyyətinin zəruriliyini inkar edən Ç. həzzi insan varlığının yeganə məqsədi sayır. Ardıcıl materializmi və hedonist mahiyyəti sayəsində Ç. hind fəlsəfi fikir tarixində (o cümlədən qeyri-ortodoksal fəlsəfi sistemlər arasında da) nadir hadisədir.

**"ÇARYAGİTİ"** – buddizmin mahiyyətinə dair mənzum mətnlər. Qədim benqal dilindən tərcümədə "həqiqi yolun nəğməsi" deməkdir. Əlyazmaları ilk dəfə 20 əsrin əvvəllərində benqal filoloqu Horoproşad Şastri tərəfindən Nepalda aşkar edilmişdir. 50 qısa mənzum mətndən ibarət "Ç." nümunələrində tantrik buddizmin ideyaları və ritualları əks olunmuş, müəyyən ezoterik təcrübələr rəmzlərlə yazılmışdır. Dil xüsusiyyətinə görə 10–12 əsrlərə aid edilir. Tibet və monqol dillərinə tərcüməsi müvafiq olaraq Tibet və monqol buddizminin qanunlarına uyğunlaşdırılmışdır. "Ç."-nin müəllifləri əfsanəvi buddizm müqəddəsləri siddhilər hesab olunur, lakin burada müəllif sözü daha çox rəmzi məna daşıyır. Tibet və Nepal ənənələrində bu tip mətnlərin yazılı və şifahi şəkildə yaşayan, tədqiq olunmamış digər nümunələri də var.

**ÇASSAJİ** – laklarda mifoloji personaj, külək ağası. Antropomorf görünüşlü, uzun, dağınıq saçları olan qadın kimi təsəvvür olunur. Xəlvət yerdə yerləşən evdə yaşayır. Məzlumları, yetimləri himayə edən Ç. tənbəllərə qarşı amansızdır. Ç. pis işlər görmüş insanlara hər şeyi sovuran külək göndərir, torpaqları qurudur. Onu rəhmə gətirmək üçün qurbanlıq qoyunun piyini odda əridirdilər. Ç. surətinə qəddar analığı tərəfindən incidilən zəhmətkeş qız haqqında sehrli nağılda da rast gəlinir.

**ÇASTUŞKA** – rus xalq yaradıcılığında sözlü-musiqili janr, iti tempdə ifa olunan qısa mahnı. Adətən, 4 misradan ibarət olur. Müstəqil janr kimi 19 əsrin sonlarında formalaşmış, 20 əsrin 1-ci yarısında daha geniş yayılmışdır. Ç. ənənəvi rus mahnıları ilə sıx bağlıdır; adətən, bir melodiya üstündə bütöv silsilələrlə ifa olunur; qarmon, balalaykanın müşayiəti ilə və ya müşayiətsiz oxunur. Əsasən, məhəbbət-məişət mövzusunda olan Ç.-lar solo, duet və xor şəklində ifa edilir. Günün hadisələrinə cavab verən Ç.-lar, adətən, poetik improvizasiya kimi yaranır. Müəyyən şəxsə, yaxud tamaşaçılara müraciətlə oxunur. Folklor Ç.-larının təsiri ilə ədəbi Ç.-lar meydana gəlmişdir (D. Bednı, V. Mayakovski, A. Prokofyev və b.).

**ÇAŞIR** – bax *İlankölgəsi.*

**ÇAT** (ing. chat – söhbətləşmək) – İnternetdə və kompüter şəbəkəsində real zaman rejimində məlumat mübadiləsi və ünsiyyət vasitəsi, həmçinin belə ünsiyyəti təşkil edən proqram təminatı. "Ç." anlayışı 1988 ildə IRC (Internet Relay Chat – retranslyasiya edilən İnternet – söhbət) protokolu işləndikdən sonra meydana çıxdı və geniş yayıldı. Ç.-ın vebçat, videoçat, ani məlumatlar sistemi və teleçat növləri mövcuddur. V e b ç a t d a Ç. iştirakçıları və moderatorların yazdığı məlumatları oxumaq mümkündür. Ç.-ın səhifəsi avtomatik olaraq yeniləşdirilir. V i d e o ç a t d a mətn mübadiləsi ilə yanaşı vebkameralarla təsvirlər (görüntülər) də translyasiya edilir. Hazırda səslə ünsiyyətə imkan verən sistemlər də tətbiq olunur. Ani məlumatlar sistemi ilə mətn, səs siqnalları, təsvir və s. məlumatlar ötürülə bilər. Bu sistemdə məlumat mübadiləsi real zamanda ani məlumatlar xidməti ilə aparılır. Müxtəlif TV kanallarından (məs., MTV, RU.TV, Bridge-TV) istifadə edilən t e l e ç a t d a məlumat mobil telefondan SMS göndərməklə ötürülür.

**ÇATADAVAMLILIQ** – dəmir-beton konstruksiyaların, onlara təsir edən yükləri çatlar əmələ gətirmədən qəbul etmək qabiliyyəti. Ç. boruların, rezervuarların (çənlərin), qazholderlərin və s. sukeçirməzliyini təmin etmək, tüstü borularını və s. zərərli təsirlərdən (qaz, buxar və s.) qorumaq, d.y. şpallarına, kranaltı tirlərə və s.-yə yüklərin dəfələrlə təkrarlanan təsiri zamanı onların möhkəmliyini saxlamaq üçün zəruri və mühüm göstəricidir.

**ÇATAX** – Azərb. Resp. Tovuz r-nunda kənd. Çatax ə.d.-nin (Çatax, Cirdək, Hacılar, Kazımlı, Qandalar, Qoşa, Muncuqlu, Pələkli, Şıxheybət k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 40 *km* c.-da, Tovuz –



Çatkal çayı.

saqqallar şurası” səciyyəvidir. lər ər və atanın patriarxal haki- əsaslanır. “Bramadero” və s. simlər səciyyəvidir.

– Qırğızıstanda və Özbəkis- Çarvak su anbarı yaradılana ik çayının (Sırdərya hövzəsi) sol cil edirdi. Uz. 223 *km*, hövzəsinin *km*². Talas Alatausu silsiləsinin clarından başlanır. Yuxarı axının- yamaclı enli dərə ilə, Ters çayı yerdən aşağıda dərin dərə ilə n, qar suları ilə qidalanır. Mən- ılığında ortaillik su sərfi 122 ıks. 920 $m^3$/*san*-dir.

**DAĞ-MEŞƏ QORUĞU** – atkal silsiləsinin q. ətəklərində, csəklikdə yerləşir. Daşkəndin 70 dir. Başqızılsay və Maydantal ən ibarətdir. Ümumi sah. 35,7 1947 ildə Qərbi Tyanşanın dağ-meşə və çəmən təbii komplekslərini öyrənmək və qorumaq məqsədilə yaradılmışdır. Buradakı tuqay meşələrində tozağacı (Maydantal sahəsi) söyüd və qovaq ağacları (Başqızılsay sahəsi) üstünlük təşkil edir. Faunası dağ keçisi, qaban, cüyür, ayı, canavar, tülkü, porsuq, dələ, kəklik, ular, keçəl kərkəs, toğlugötürən, quzğun və s.-dən ibarətdir; qar bəbiri və Menzbira marmotuna rast gəlinir. Tereksay çayı sahillərində qədim qayaüstü rəsmlər aşkar olunmuşdur.

**ÇATKÁL DƏRƏSİ** – Qərbi Tyanşanda (Qırğ.), Çatkal çayının yuxarı axınında dərə. Pskem və Sandalaş silsilələri (şm.-q.-də) ilə Çatkal silsiləsi (c.-ş.-də) arasındadır. Şm.-da Talas Alatausu ilə sərhədlənir. Hünd. aşağı hissədə 1000 *m*, yuxarı hissədə 2500 *m*-dir. Dibində və yamaclarında çöllər, qoz və ardıc meşələri, dağ otlaqları var.

**ÇATKÁL SİLSİLƏSİ** – Qərbi Tyanşanda (Qırğ. və Özb.-da) dağ silsiləsi. Şm.-q.-də Fərqanə vadisi ilə sərhədlənir. Uz. təqr. 200 *km*. Orta hünd. 3500 *m* (maks. hünd. 4503 *m*). Şist, əhəngdaşı və qranitlərdən ibarətdir. Şm. yamacı dikdir; az meyilli c. yamaclarında qoz, Tyanşan küknarı, ağ şam, ardıc meşələri; yuxarılarda çəmənlər var. Ç.s.-nin q. ətəklərində *Çatkal dağ-meşə qoruğu* yerləşir.

Çatkal silsiləsi.



**ÇATQAYA** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Nəmin bölgəsində, Ərdəbildən 16 *km* şm.-dadır.

**ÇATQI** – bax *Dam*.

**ÇATLAR** – süxurlarda, demək olar ki, cüzi və ya heç bir yerdəyişmə yaratmayan qırılmalar. Ç. mənşəyinə görə tektonik (tektoklazlar) və qeyri-tektonik olurlar. Tektonik çatlar inkişafda olan strukturların daxilində baş verən deformasiyalarla sıx əlaqədə olur. Qeyri-tektonik çatlar, əsasən, gec *diagenez* və *epigenez* prosesləri ilə bağlıdır. Yer üzərinə çıxan süxurlarda, dağ-mədən qazımalarında, kernlərdə adi gözlə müşahidə edilən Ç. makroçat, eni 3 *sm*-dən az olan Ç. klivaj çatları adlanırlar. Ç. əmələ gəlməsinə səbəb olan mexaniki təsirlərdən asılı olaraq aralanma, əyilmə, qırılma, sadə, ümumi və s. ayrılır.

**ÇATMA,** Ç a t m a d a ğ – İrəvan xanlığı Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Millidərə bölgəsində, Çatmadağda azərb.-ların yaşadığı kənd. 1863 ildə Vedibasar mahalının Kiçik Vedi k.-ndən köçüb gəlmiş ailələr tərəfindən salınmışdır. Uzun müddət Çatmadağ k. adlanmışdır. 1918–20 illərdə kənd erməni daşnaklarının hücumlarına məruz qalmış, dağıdılmış, əhalisi qovulmuşdur. 1922 ildə əhalinin bir hissəsi geri qayıtmış və bu zaman kəndə yeni köçmüş müsəlman kürdləri ilə yanaşı yaşamışdır. 1930-cu illərdə kənd ləğv edilmiş, əhalisi Vedi və Qəmərli r-nlarının kəndlərinə köçüb getməyə məcbur olmuşdur.

**ÇATTANÚQA** (Chattanooga) – ABŞ-ın c.-ş.-ində, Tennessi ştatında şəhər. Əh. 167,7 min (2010). Nəql. qovşağı. Tennessi çayında port. Kimya (süni və sintetik lif, elektrokimya), toxuculuq, yeyinti, sellüloz-kağız, şüşə sənayesi inkişaf etmişdir. Qara metallurgiya (çuquntökmə müəssisələri, ferroərintilərin əridilməsi), metal emalı, maşınqayırma (o cümlədən elektrik məişət cihazlarının istehsalı) müəssisələri fəaliyyət göstərir. Un-t; Ç.-nın şəhərətrafında AES və SES var.

**ÇÁTTERTON** (Chatterton) Tomas (20.11.1752, Bristol – 24.8.1770, London) – ingilis şairi. 15 əsrə aid uydurma rahib Tomas Rauli adından orta əsrlər ingilis dilində balladalar (“Mərhəmət haqqında gözəl ballada”), poemalar (“Turnir”, “Kabuslar parlamenti”, “Hastinqs yaxınlığında döyüş”), ekloqalar, satiralar, apokrifik bioqrafiyalar və traktatlar (“İngiltərədə boyakarlığın yüksəlişi”) yazmışdır. Dram əsərlərin (“İyela” faciəvi interlüdiyası, “Qisas”burleski 1770 ildə tamaşaya qoyulmuşdur),öz dövrünün poeziyası ruhunda şeirlər və stlizasiyaların, siyasi məqalələrin müəllifidir. 1770 ilin aprelində Londona köçmüş, ehtiyac və X. Uolpolun onun mistifikasiyalarını ifşa etməsi gənc şairi intihara təhrik etmişdir. Bütün yazdıqları ölümündən sonra nəşr edilmişdur.



Çattanuqa şəhərindən görünüş.

**ÇÁUN QUBASI** – Şərqi Sibir dənizinin ş.-ində körfəz. Dənizlə əlaqəsi Orta və Kiçik Çaun boğazları ilədir. Uz. 150 *km*, eni 100 *km*, maks. dərinliyi 25 *m*-dir. Q. sahili ovalıq, ş. sahili nisbətən hündürdür. Körfəzə dənizdən girişi Ayon və Çenkul a-rı bağlayır. Çoxlu xırda çay tökülür. Yay aylarında dəniz axınlarının yüksək enliklərdən gətirdiyi çoxillik buzlar körfəzin girəcəyində üst-üstə yığılaraq Ayon buz massivini yaradır. Ş. sahilində Pevek portu var. –

**ÇAUŞÉSKU** (Ceauşescu) Nikolaye (26.1.1918, Olt mahalı, Skorniçeşti k.- 25.12.1989, Tırqovişte) – Rumıniya dövlət və siyasi xadimi, RSR Sosialist Əməyi Qəhrəmanı (1964), 3 dəfə RSR qəhrəmanı. Kəndli ailəsində doğulmuşdur. 1932 ildə inqilabi fəhlə hərəkatına qoşulmuşdur. 1933 ildə Kommunist Gənclər İttifaqına (KGİ) daxil olmuş, az sonra onun MK-sına seçilmişdir. 1936 ildə Rumıniya Kommunist Partiyasına (RKP) daxil olmuşdur. 1939–40 illərdə KGİ Buxarest şəhər komitəsinin katibi və RKP MK yanında gənclər arasında iş üzrə Mərkəzi komissiyanın üzvü idi. İnqilabi fəaliyyətinə görə 1940 ildə hərbi faşist rejimi tərəfindən həbs edilmiş və 1944 ilədək həbsxanada olmuşdur. 1944–45 illərdə KGİ MK katibi vəzifəsini yerinə yetirmişdir. 1945 ildə RKP MK üzvlüyünə namizəd, 1948 ildə RKP MK üzvü seçilmişdir. 1948–50 illərdə k.t. naziri, 1950–54 illərdə müdafiə nazirinin müavini işləmişdir. 1955 ildə RKP MK Siyasi Bürosunun üzvü seçilmişdir. 1965 ilin martından RKP MK birinci katibi, 1965 ilin iyulundan RKP MK Baş katibi idi. 1969 ilin avqustundan RKP Baş katibi, 1967 ildən RSR Dövlət Şurasının sədri, 1968 ildən Demokratiya və Sosialist Birliyi Cəbhəsinin sədri, 1969 ildən Müdafiə Şurasının sədri və Silahlı qüvvələrin Ali Baş komandanı, 1973 ildən RSR-in iqtisadi və sosial inkişafı Ali Şurasının sədri, 1974 ilin martından 1989 ilədək RSR prezidenti olmuşdur.

Ç. müstəqil siyasət yürütməyə çalışaraq, SSRİ ilə yanaşı, Qərb ölkələri ilə də dostluq əlaqələrini saxlayır, onlardan maddi yardım alırdı. Onun hakimiyyəti illərində özü və ailə üzvlərinin dəbdəbəli həyatı, dövlət büdcəsini israfla xərcləməsi ölkənin xarici dövlətlərə olan borcunu artırmışdı. 1970-ci illərin sonunda ölkənin borcu 70 mlrd. dollara çatmışdı. Rumıniya iqtisadi iflas ərəfəsində idi. 1980 ildən xarici borcların ödənilməsi ölkənin əsas prioritetinə çevrilmişdi. Ölkədə istehsal edilən məhsulların böyük hissəsinin ixraca göndərilməsi məhsul qıtlığına gətirib çıxarmışdı. 1989 ilin yayında Rumıniya bütün xarici borclarını ödəsə də, qıtlıqla yanaşı, kütləvi ixracın da qarşısını ala bilməmişdi. 1989 ilin dekabrında ölkədə (xüsusilə Transilvaniyada) narazılıqlar baş vermişdi. Ç.-nun 1989 il dekabrın 17-də Timişorda nümayişçilərin güllələnməsinə qərar verməsi üsyanı daha da alovlandırmışdı. Diktator və arvadı senatın damından qaçmağa cəhd etsələr də, Tırqovişte ş.-ndə həbs edildilər. Dekabrın 25-də rumın hərbiçilərinin qurduğu məhkəmə Ç. və arvadını soyqırımında ittiham edərək, onlar barəsində ölüm hökmü çıxardı. Güllələnmiş Ç. və arvadının meyitləri bir neçə gün stadionda qaldıqdan sonra Buxarestdə dəfn edilmişdir.

**ÇAUTAUKVEN MƏRTƏBƏSİ** (Chautauquan, ABŞ) – Şimali Amerikada Devon sisteminin üst şöbəsinin üst mərtəbəsi, Qərbi Avropanın Famen mərtəbəsinə uyğundur.

**ÇAVÁŞ VARMANÉ MİLLİ PARKI** – RF-də, Çuvaş Resp. ərazisindədir. Sah. 25,2 min *ha*. 1993 ildə Volqaboyu yüksəklikdəki meşə massivlərini qorumaq məqsədilə yaradılmışdır.

Çavaş Varmane Milli Parkı.



lə axır. Əsasən, yağış suları ilə qida-
aydan sentyabradək daşqınlar olur.
əsində ümumi sah. 16,5 $km^2$ olan
var.
– RF-də, Tomsk vil.-ndə çay. Ob ça-
l qolu. Parbiq və Bakçar çaylarının
asından yaranır. Uz. 194 *km*, höv-
sah. 27,2 min $km^2$. Qarışıq mənbə-
sən qar suları ilə qidalanır. Aprelin
ıdan iyulun əvvəlinədək daşqınlar
aillik su sərfi Podqornoye k. yaxın-
30,3 $m^3/san$-dir. Noyabrdan aprelə-
muş olur. Ağac axıdılır. Gəmiçilik
rarlıdır. Ç. hövzəsində ümumi sah.
$^2$ olan 4 mindən çox göl var.
**ASI** (Entre-Rios) – Cənubi Ameri-
*axili düzənliklərində*, Argentinanın
ıdə təbii vilayət. Parana və Uruqvay
ırasında (27° və 34° c.e.-ləri arası)
Səthi alçaq (hünd. 50 –110 *m*) allü-
ənliklərdən ibarətdir; şm. hissəsini
ataqlıqlar, mərkəzini və c.-nu səthi
ləri ilə parçalanmış düzənliklər və
əliklər tutur. İqlimi subtropik, rütu-
Yayı isti (yanvarın orta temp-ru 24
qışı yumşaqdır (iyulun orta temp-
7° C), soyuq c.-q. küləkləri (pam-
manı –5°C-yədək düşür. Yağıntının
miqdarı 1000 –1700 *mm*-dir. Ç.-nın
ində Parana çayında tez-tez fəlakət-
ılar olur. Torpaq örtüyünü, əsasən,
rf torpaqlar təşkil edir. Parana və
ın geniş çaybasarlarında bataqlıq
ənliklərlə növbələşən həmişəyaşıl
vlərindən ibarət qalereya meşələri,
azilərdə kolluqlar, sıx və hündür
kilər yayılmışdır. Əhalinin sıx məs-
ğı yerlərdə antropogen landşaftlar
a üçün otlaqlar, düyü, çay, tütün
yaları, şam və evkaliptdən ibarət
şəsalma sahələri və s.) üstünlük
ir. 20 əsrin əvvəlində bataqlıqların
ssəsi qurudulmuşdur. Qalan su-ba-
ələrində bir çox nadir heyvan növ-
nquyruq susamuru, bataqlıq maralı,
timsahı) məskunlaşmışdır. Ç.-nda,
Parana və Uruqvayın çaybasarla-
-dan çox qorunan kiçik təbii ərazi
ıar, Pre-Delta milli parkları) var.
ıanın qorunan ən iri ərazilərindən
eriya əyalət təbiət qoruğu Ramsar
iyası çərçivəsində qorunan beynəl-
miyyətli su-bataqlıq sahələrinə da-
ışdir.


Л у к а ш о в а Е.Н. Южная Америка. Фи-
еография. М., 1958.


**XI** – Azərb. Resp. Göyçay r-nunun
qal ə.d.-ndə kənd. R-n mərkəzindən
.-də, Şirvan düzündədir. Əh. 1750
heyvandarlıq və bağçılıqla məş-

ğuldur. Ümumi orta məktəb, tibb məntəqəsi, uşaq bağçası var.

**ÇAYBAĞI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Qavdul kəndistanındadır.

**ÇAYBASAR,** İ l a n l ı – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9. 1930 ildən Amasiya r-nu), Arpaçayın sağ sahilində azərb.-ların yaşadığı kənd. 1916–18 illərdə kənd erməni təcavüzünə məruz qalmış, dağıdılmış, əhalisi Türkiyə ərazisinə sığınmağa məcbur olmuşdur. 1922 ildə sağ qalanlar doğma kəndə qayıtmışlar. Qərbi azərb.-ların 1988 il soyqırımı zamanı kəndin azərb. əhalisi qovulub kənddən çıxarılmışdır. 26.4.1946 ildə kəndin İlanlı adı dəyişdirilərək Çaybasar, 19.4.1991 ildə isə yenidən dəyişdirilərək Aravet qoyulmuşdur.

**ÇAYBASAR** – İranın Qərbi Azərbaycan ostanında kəndistan. Maku şəhristanının Poldəşt bölgəsinin q.-indədir.

**ÇAYBUDAYAN MAŞIN** – zoğəmələgəlməni gücləndirmək və çay kolu cərgələrini maşınla yığım üçün əlverişli formaya salmaq məqsədilə çay kollarını budayan aparat. Çay plantasiyalarında, əsasən, kəsici hissəsi seqment tipli olan, asılan (traktora, özügedən şassi və ya *çayyığan maşına*) Ç.m.-dan istifadə edilir. Bunlar budamaqla çay koluna forma verən və kolu kökündən budayan maşın qruplarına ayrılır. Ç.m. kəsici aparatla birgə çərçivədən, hərəkət ötürücü hissələrdən və kəsmə hünd.-nü nizamlayan hidravlik mexanizmdən ibarətdir. Budama hünd. 50–70 *sm*-dir; eni 60–80 *sm* olan sıx çay kolu cərgələrinə forma verir. Dağlıq və maşın işləməyən sahələrdə çay kollarının budanması üçün əl ilə işlədilən Ç.m.-lar tətbiq edilir.

**ÇAYDAÇAPANLAR,** h a ç a q a n a d l ı l a r (Motacillidae) – sərçəkimilər dəstəsindən quş fəsiləsi. Bədəninin uz. 13–22 *sm*-dir. Ayaqları uzun, dimdiyi nazik, biz kimi itidir. Boynu qısa, quyruğu nisbətən uzun, qanadları itidir. Qanadında ikinci dərəcəli çalma lələkləri uzun olduğu üçün qanad haçalı görünür (adı da buradandır). 5 cinsi, 57 növü var. Yer kürəsinin hər yerində yayılmışdır. Ç.-ın bir çoxu köçəridir. Azərb.-da 2 cinsə mənsub 10 növü var. Əsasən, açıqlıqda yaşayır. Cücülər və digər xırda onurğasızlarla qidalanır. Faydalı quşlardır.

Ağ titrəkquyruq (Motacilla alba).



**ÇAYIN DÜŞMƏSİ** – çayın mənbə və mənsəbi yaxud uzunluğu boyu hər hansı iki nöqtəsi arasında su səviyyəsinin hündürlük fərqi. Hər hansı bir sahədə Ç.d.-nin həmin sahədə çayın məcrasının uzunluğuna olan nisbətinə meyillilik deyilir. Adətən çay məcrasının 1 *km*-lik uzunluğuna uyğun gələn düşmə hesablanır. Tipik düzənlik çayları üçün bu 1 *km*-ə bir neçə *sm*, dağ çayları üçün 1 *km*-ə bir neçə *m* təşkil edir.

**ÇAYIN MEYİLLİYİ** – çayın hər hansı bir hissəsində onun düşməsinin həmin hissədəki uzunluğa nisbətidir. Nisbi qiymətlərlə (% -lə yaxud ‰ –lə) ifadə olunur. Ç.m., adətən, mənbədən mənsəbə doğru azalır və çayın axım sürətini müəyyənləşdirir. Meyillik çayın sabit və az sulu dövründə sahələr üzrə aparılır və bu ölçüləri ortalamaqla çayın bütöv uzunluğu üçün tapılır. Çayın köndələninə meyilliyi (su güzgüsünün əyriliyi) çay yatağının formasından, külək və digər səbəblərdən asılı olaraq yaranır.

**ÇAYIR** (Cynodon) – taxıllar fəsiləsindən bitki cinsi. Gövdəsi yarpaqlıdır. Sürünən uzun kökümsovu, yerə yatan və qalxan zoğları olan çoxillik otdur. Çiçək qrupu sünbülşəkilli, barmaqvarı yerləşmiş 3–8 budaqcıqdır. Sünbülcükləri xırdadır. Yarpaqları xətvarıdır. Səhra, yarımsəhra və bozqırlarda geniş yayılmışdır. Tropik, subtropik və mülayim qurşaqlarda 10 növü məlumdur. Azərb.-da barmaqvarı Ç. (C. dactylon), bəzən Bermudotu adlanan 1 növü bitir. Tapdalanmaya davamlıdır; biçildikdən sonra tez cücərir. Qazon salınmasında və torpaqların bərkidilməsində istifadə olunur. K.t. heyvanlarının yaxşı yediyi qiymətli otlaq bitkisi; tarla və bağlarda isə alaqdır. M ü b a r i z ə t ə d b i r l ə r i: kökümsovları qazıb çıxarmaq, torpağı dırmıqlamaq, şumdan qabaq torpağı *herbisidlə* işləmək.

Barmaqvarı çayır (Cynodon dactylon).



**ÇAYIRLI** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin İcərud kəndistanında, Zəncandan 50 *km* c.-q.-dədir.

**ÇAYKƏND** – Azərb. Resp. Daşkəsən r-nunun Çovdar ə.d.-ndə kənd. R-n mərkəzindən 32 *km* şm.-da, Qoşqarçayın sahilində, dağ ətəyindədir. Əh. 96 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur.

**ÇAYKƏND** – Azərb. Resp. Göygöl r-nunda kənd. Çaykənd ə.d.-nin mərkəzi. R-n mərkəzindən 20 *km* c.-da, Kürək çayının sahilində, dağ ətəyindədir. Əh. 2284 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam və ümumi orta məktəb, mədəniyyət evi, uşaq bağçası, xəstəxana, 2 kitabxana var.

**ÇAYKƏND** – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Paşalı, 12.10.1956 ildən Əzizbəyov, 19.4.1991 ildən Vayk r-nu), Arpa çayının yaxınlığında azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi qovulmuşdur. 1922 ildə qaçqın əhalinin bir hissəsi geri qayıtmış və kəndi bərpa etmişlər. Lakin 1949 ildə kəndin əhalisi yenidən deportasiya olunmuş və Azərb.-ın, əsasən, Yevlax və Tərtər r-nlarına köçürülmüşdür, kəndin təsərrüfatı isə Terp k.-nə birləşdirilmişdir.

**ÇAYKƏND** – Azərb. Resp. Kəlbəcər r-nunda kənd. Çaykənd ə.d.-nin (Çaykənd, Kəndyeri, Qasımlar, Mişni, Rəhimli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 7 *km* şm.-ş.-də, Tərtər çayının sahilində, dağ ətəyindədir. Əh. 615 (2011); işğaldan (1993, aprel) əvvəl heyvandarlıq və tütünçülüklə məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, kitabxana, mədəniyyət evi, feldşer-mama məntəqəsi var idi.

**ÇAYKƏND** – Azərb. Resp. Şuşa r-nunun Şırlan ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* şm.-q.-də, Qarabağ silsiləsindədir. Əh. 231 (2011); işğaldan (1992, may) əvvəl heyvandarlıqla məşğul olmuşdur. Tibb məntəqəsi, kitabxana, tikiş sexi var idi.

**ÇAYKƏND** – Yelizavetpol (Gəncə) qub.-nda Qazax qəzasının (9.9.1930 ildən Dilican, 31.12.1937 ildən Krasnoselo r-nu) Qaraqoyunlu dərəsində, Tərsa çayının yaxınlığında azərb.-ların yaşadığı kənd. 1919 ildə Ç. kəndi erməni daşnaklarının hücumuna məruz qalmış, əhalisi qovulmuşdur. 1921 ildə kəndin qaçqın əhalisi geri qayıtsa da, bir hissəsi 1948–53 illərdə yenidən deportasiya olunmuş və Azərb.-ın Qazax, Ağstafa, Tovuz, Şəmkir r-nlarında məskunlaşmışdır. 1988 ildə kəndin qalmış əhalisi də kəndi tərk etməyə məcbur olaraq Azərb.-ın Şəmkir r-nunun Barum-Barsum k.-nə yerləşmişdir. 19.4.1991 ildə Ç. kəndinin adı dəyişdirilərək Dprabak qoyulmuşdur.

**ÇAYKƏND** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Ənquran kəndistanında, Mahnişan qəs.-ndən 27 *km* c.-dadır.

**ÇAYKƏND DƏFİNƏSİ** – Azərb. Resp. Göygöl r-nunun Çaykənd k.-ndə tapılmış (1935) gümüş sikkə dəfinəsi. Dəfinə (ümumi çəkisi 4830 *q*) 2297 sikkədən ibarətdir. Sikkələr Osmanlı sultanları II Mehmed və II Bəyazid (1 sikkə), Ağqoyunlu Rüstəm və Məhəmməd (2), Şirvanşah Fərrux Yəsar və II Şeyx İbrahim (1930), habelə Səfəvi I İsmayılın (354) hakimiyyəti dövründə kəsilmişdir. Ç.d.-nin 16 əsrin 1-ci rübündə basdırıldığı ehtimal olunur. Ç.d. 15 əsrin axırı – 16 əsrin əvvəllərində Azərb. tarixinin bəzi problemlərini, pul dövriyyəsi, maliyyə və çəki sistemini öyrənmək üçün qiymətli mənbədir. Dəfinə Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır.

**ÇAYKƏNDİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 7 *km* c.-dadır.

**ÇAYKƏNDİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 35 *km* q.-dədir.

**ÇAYKOVSKİ** Pyotr İliç (7.5.1840, indiki Udm. Resp., Votkinsk ş. – 6.11.1893, Peterburq) – rus bəstəkarı, dirijor, musiqi xadimi. Mədən mühəndisi ailəsində doğulmuşdur. Uşaqlıqdan musiqiyə həvəs göstərmiş, 5 yaşından fp.-da çalmağı öyrənmişdir. 1859 ildə Peterburq hüquqşünaslıq məktəbini bitirmiş, Ədliyyə Nazirliyində işə düzəlmişdir.



İlk kompozisiya təcrübələri bu dövrə təsadüf edir. 1861 ildə Rus Musiqi Cəmiyyətinin (RMC; sonralar Peterburq konservatoriyası) musiqi siniflərində məşğul olmağa başlamış, burada N.İ. Zaremba (musiqi nəzəriyyəsi) və A.Q. *Rubinşteyndən* (bəstəkarlıq) dərs almışdır. Konservatoriyada oxuduğu illərdə bir sıra əsər ("Tufan" uvertürası, A.N. Ostrovskinin dramı üzrə və s.) bəstələmişdir. 1865 ildə konservatoriyanı fərqlənmə ilə bitirmiş, 1866 ildə Moskvaya köçmüşdür. RMC Moskva şöbəsinin müəllimi, həmin ilin payızında Moskva konservatoriyasının prof.-u olmuşdur. Musiqi nəzəriyyəsinə dair bir neçə əsər tərcümə etmiş, "Harmoniya dəsrliyi"ni (1872) yazmış, 1868 ildən mətbuatda musiqi tənqidçisi kimi çıxış etmişdir.

Həmin ildə Peterburq bəstəkarlarından bir qrupu – "*Qüdrətli dəstə*" üzvləri ilə tanış olmuş, bu tanışlıq nəticəsində Ç.-nin proqramlı musiqiyə marağı artmışdır. M.A.Balakirevin məsləhəti ilə "Romeo və Cülyetta" (Ü.Şekspirin əsəri üzrə) uvertüra-fantaziyasını yazmışdır. Rusiyanın tarixi keçmişi, rus xalq məişəti "Opriçnik" (1872), "Çereviçki" (1885) operalarında, Ostrovskinin "Qar qız" pyesinə yazılmış musiqidə (1873), "Sonalar gölü" (1876) baletində, 2-ci (1872) və 3-cü (1875) simfoniyalarında, "Françeska da Rimini" (1876) simfonik fantaziyasında, fp. ilə ork. üçün 1-ci konsertində (1874–75), violonçel ilə ork. üçün "Rokoko mövzusunda variasiyalar"ında (1876), 3 simli kvartetində (1871, 1874, 1876) və s. əsərlərdə öz əksini tapmışdır.

1877 ildə Ç. ağır ruhi sarsıntı keçirmiş, pedaqoji işdən imtina edərək (Moskva konservatoriyasını 1878 ilin payızında həmişəlik tərk etmişdir) bir müddət (1885 ilədək), əsasən, İsveçrə, İtaliya və Ukraynada yaşamışdır. Bu illərdə o, 4-cü simfoniyanı (1877), "Yevgeni Onegin" operasını (A.S. Puşkinin əsəri üzrə, 1877–78) yaratmışdır.

70-ci illərin sonu – 80-cı illərin əvvəllərində "Orlean qızı" (F. Şillerin əsəri üzrə, 1878–79) və "Mazepa" (Puşkinin "Poltava" poeması üzrə, 1881–83) operalarını, "Moskva" kantatasını, 3 ork. süitasını (1878–79, 1883, 1884), "İtalyan kapriççiosu"nu (1880), ork. üçün "1812-ci il" təntənəli uvertürasını (1880), simli ork. üçün serenadanı (1880), skripka üçün konserti (1878), fp. ilə ork. üçün 2-ci konserti (1879–80), "Böyük sənətkarın xatirəsinə" (N.Q.Rubinşteynin ölümünə, 1881) fp. triosunu və s. əsərlər yaratmışdır.

80-ci illərin ortalarında Ç. fəal ictimai-musiqi fəaliyyətinə qayıtmış, 1885 ildə RMC Moskva şöbəsinin direktoru vəzifəsinə seçilmişdir. Ç.-nin yaradıcılığı



"Yatmış gözəl" baletindən (P.İ. Çaykovski) səhnə. Böyük Teatr (Moskva).

ı və xaricdə geniş şöhrət qazan- )mrünün son illərində dirijor ›aliyyət göstərmişdir. 1887–88 və 'də Ç. Qərbi Avropaya (Alma- ıiya, Fransa, İngiltərə) səyahət )1 ildə ABŞ-da olmuş və bir ne- ik konsertə dirijorluq etmişdir. › Paris Zərif Sənətlər Akade- m. üzv seçilmiş, 1893 ildə ona Un-tinin fəxri musiqi doktoru ıişdir.

lərin 2-ci yarısı – 90-cı illərin əv- › Ç. bir sıra böyük əsərlər ya- : "Füsunkar qadın" (1885– aratoxmaq qadın" (1890), "İo- 391) operaları, "Yatmış gözəl ) və "Şelkunçik" (1891–92) baletləri, 5-ci və 6-cı "Patetik" simfoniyalar (1888 və 1893), "Manfred" simfoniyası, "Hamlet" uvertüra-fantaziyası (1888), ork. üçün "Motsartiana" süitası (1887), fp. ilə ork. üçün 3-cü konsert (1893), "Florensiya haqqında xatirə" (1890–92) seksteti, bir sıra fp. pyesi, romanslar və s.

Ç.-nin proqramlı simfonik əsərlərində Şekspirin ("Romeo və Cülyetta", "Fırtına", "Hamlet"), Dantenin ("Françeska da Rimini"), Bayronun ("Manfred") ölməz obrazları öz əksini tapmışdır. Bu əsərlərin çoxu 70-ci illərin əvvəli və ortalarında yaranmışdır. Janr elementlərinin genişliyindən, müxtəlifliyindən orkestr süitalarında, simli ork. üçün "İtalyan kapriççiosu"nda istifadə edilmişdir. Ç. konsert janrını zənginləşdirmişdir. Onun fp. ilə ork. üçün 1-ci və 2-ci konsertləri, skripka ilə ork. üçün konserti dünya musiqi xəzinəsinin ən gözəl nümunələridir.

Çaykovski şəhərindən görünüş



"Orlean qızı" və "Mazepa" operalarında Ç. yenidən tarixi mövzuya müraciət edərək, gərgin inkişaf edən hadisələrlə dolu kəskin dramatik süjetlər seçmişdir. Ç.-nın opera yaradıcılığında "Füsunkar qadın" xüsusi yer tutur; burada məişət süjeti faciə səviyyəsinə yüksəlir. Güclü xarakter və ehtirasların toqquşması bu operada xalq faciəsi ilə birləşir. "Qaratoxmaq qadın" Ç.-nin opera realizminin zirvəsini təşkil edir. Birpərdəli "İolanta" (1891) əsəri Ç.-nin sonuncu operasıdır.

A. Ostrovskinin "Qar qız" pyesinə yazdığı musiqi Ç.-nin yaradıcılığında xüsusi yer tutur. Burada bəstəkar xalqın məişətinə, xalq mahnılarının intonasiya quruluşuna inçəliklə nüfuz etmişdir.

Ç. kamera-instrumental musiqisində də simfonik yaradıcılığında əksini tapan obrazlara müraciət etmiş, rus simli kvartetinin ilk klassik nümunələrini yaratmışdır. 1-ci və 2-ci kvartetlərdə xalq-məişət həyatı və lirik obrazlar üstünlük təşkil edir. 3-cü kvartet elegiya ruhunda yazılmışdır. "Florensiya haqqında xatirələr" simli sekstetində yüngül və şəffaf səslənmə yüksək polifonik ustalıqla birləşir.

Ç.-nin lirik fp. pyesləri də geniş yayılmışdır. Onların arasında rus təbiəti və məişətini əks etdirən "İlin fəsilləri" (1875–76) poetik lövhələri seçilir. Fp. pyeslərindən həcminə görə monumental "Böyük sonata" (1878) fərqlənir. Burada bəstəkar R. Şumanın romantik sonata ənənələrini inkişaf etdirmişdir. "Rus skersosu" (1867), "Dumka" (1886) əsərləri virtuoz konsert xarakteri daşıyır.

Ç. yaradıcılığının əsas sahələrindən birini romanslar təskil edir. Səmimilik, insan hisslərinin qabarıq göstərilməsi onları dinləyicilərə sevdirmiş və müəllifə populyarlıq qazandırmışdır. 1958 ildən (4 ildən bir) Moskvada ifaçıların Ç. ad. beynəlxalq müsabiqəsi keçirilir.

Ç. 1887 ilin mayında Bakıda olmuşdur. Onun "Yevgeni Onegin", "Qaratoxmaq qadın", "İolanta" operaları, "Sonalar gölü", "Yatmış gözəl", "Şelkunçik" baletləri Azərb. Dövlət Akademik Opera və Balet Teatrının, bir çox simfonik və instrumental əsəri isə Azərb. ifaçılarının repertuarındadır.

**ÇAYKÖVSKİ** – RF-nin Perm diyarında şəhər. Çaykovski r-nunun mərkəzi. Əh. 82,9 min (2010). Votkinsk su anbarı sahilində, Perm ş.-ndən 260 *km* c.-q.-dədir. "Çaykovski tekstil" şirkəti (ipək parçalar, ştapel iplik), sintetik kauçuk z-du, "Toçmaş" EİB (vakuum texnikası və s.) fəaliyyət göstərir; tikinti materialları istehsal olunur. 1955 ildə Votkinsk SES-in tikintisi ilə əlaqədar salınmışdır. Teatr, diyarşünaslıq muzeyi, şəkil qalereyası var. Rus bəstəkarı P.İ. Çaykovskininin şərəfinə adlandırılmışdır.



**ÇAYQARAQAŞLI** – Azərb. Resp. Şabran r-nunun Çölquşçu ə.d.-ndə kənd. R-n mərkəzindən 27 *km* şm.-da, Samur-Dəvəçi ovalığındadır. Əh. 500 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**ÇAYQARAQOYUNLU** – Azərb. Resp. Şəki r-nunun Turan ə.d.-ndə kənd. R-n mərkəzindən 45 *km* c.-da, Əlican çayının sahilində, dağətəyi düzənlikdədir. Əh. 1665 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Ümumi orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi var.

**ÇAYQAYTARA,** Gedərgəl – İrəvan xanlığının Qırxbulaq mahalında (9.9.1930 ildən Kotayk, 12.10.1961 ildən Abovyan r-nu) azərb.-ların yaşadıgı kənd. 19 əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığına hücumu zamanı kənd tamamilə dağıdılmış və xaraba qalmışdır. Kənd oradakı Gedərgəl məbədinin adı ilə mənbələrdə Gedərgəl k. də adlanmışdır.

**ÇAYQIRAQ** – Azərb. Resp. Masallı r-nunun Bədəlan ə.d.-ndə kənd. R-n mərkəzindən 10 *km* c.-da, Masallı–Boradigah–Lənkəran avtomobil yolu kənarında, Lənkəran ovalığındadır. Əh. 1444 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Ümumi orta məktəb, məscid var.

**ÇAYQIŞLAQ** – Azərb. Resp. Quba r-nunun Zərqava ə.d.-ndə kənd. R-n mərkəzindən 28 *km* c.-ş.-də, Şabran çayının sahilindədir. Əh. 145 (2011); maldarlıq, əkinçilik, tərəvəzçilik və bağçılıqla məşğuldur.

**ÇAYQIŞLAQ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Uryad kəndistanında, Mahnişan qəs.-ndən 48 *km* şm.-q.-dədir.

**ÇAYQOŞAN** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Şahrud bölgəsinin Xuruş-Rüstəm kəndistanında, Xalxal–Miyanə avtomobil yolunun 40 *km*-liyindədir.

**ÇAYQOVUŞAN** – Azərb. Resp. İsmayıllı r-nunun İstisu ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* şm.-q.-də, Bakı–Qəbələ magistral yolundan 6 *km* aralı, Göyçay çayının sahilindədir. Əh. 150 (2011); əkinçilik və maldarlıqla məşğuldur.

**ÇAYQOVUŞAN** – Azərb. Resp. Kəlbəcər r-nunun Ağdaban ə.d.-ndə kənd. R-n mərkəzindən 28 *km* şm.-ş.-də, Buzluq və Ağdaban çayları arasında, Murovdağ silsiləsinin c. ətəyindədir. Əh. 505 (2011); işğaldan (1993, aprel) əvvəl heyvandarlıq və bağçılıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, klub, kitabxana, mədəniyyət evi, feldşer-mama məntəqəsi var idi.

**ÇAYQURBANÇI** – Azərb. Resp. Şamaxı r-nunda palçıq vulkanı. Eyniadlı kənddən 2 *km* c.-q.-də, Qozluçayın sağ sahilindədir. 3 qrupa bölünən təqr. 80 sopka, qrifon və salz var. Qaz, neftli palçıq çıxır. Vulkan Çayqurbançı antiklinal qırışığının şm.-q. qanadı ilə əlaqədardır.

**ÇAYLAQ** – Azərb. Resp. Cəbrayıl r-nunda çay. Arazın sol qolu. Uz. 32 *km*, hövzəsinin sah. 190 $km^2$. Qarabağ silsiləsindən başlanır. Əsasən, yağış suları ilə qidalanır. Suvarmada istifadə olunur. Yayda quruyur.

**ÇAYLAQ** – müvəqqəti axarlı *çay yatağı*.

**ÇAYLAQQALA** – Azərb. Resp. Xocavənd r-nunda kənd. Çaylaqqala ə.d.-nin (Çaylaqqala, Arpagədik, Petrosaşen k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 90 *km* c.-q.-də, Qarabağ silsiləsindədir. Əh. 62 (2011); işğaldan (1992, oktyabr) əvvəl maldarlıqla məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var idi.

**ÇAYLARIN HİDROLOGİYASI** – bax *Qurunun hidrologiyası*.

**ÇAYLARIN ŞLÜZLƏNMƏSİ** – çaylarda suyun səviyyəsini təbii şəraitdəkinə nisbətən yüksəldən hidroqovşaqlar qurmaq yolu ilə onların ayrı-ayrı hissələrində dərinliyinin artırılması. Ç.ş. gəmiçilik şəraitini yaxşılaşdırmaq və su ehtiyatlarından kompleks istifadə üçün tətbiq olunur.

**ÇAYLARIN TƏNZİMLƏNMƏSİ** – bax *Məcraların tənzimlənməsi*. –

**ÇAYLD** (Child) Çarlz Menninq (2.2.1869, Miçiqan, İpsilanti – 19.12.1954, Kaliforniya Palo-Alto) – Amerika bioloqu. 1890 ildə Kanzasda Vislian Un-tini bitirmişdir. 1895–1934 illərdə Çikaqo Un-tində (1916 ildən prof.), 1937 ildən Stenford Un-tində (Kaliforniya) işləmişdir. Əsas tədqiqatları sitologiya və embriologiya sahəsindədir. Müəllifi olduğu fizioloji qradientlər nəzəriyyəsi ilə onurğalıların embrional inkişaf proseslərini və çoxhüceyrəli heyvanların inkişafında differensiasiya və inteqrasiya hadisəsini izah etməyə çalışmışdır. Bu nəzəriyyəyə görə bədənin ayrı-ayrı şöbələri (məs., yastı qurdların) maddələr mübadiləsinin intensivliyinin və zədələyici agentlərə (oksigen çatışmazlığına, zəhərlərə) qarşı həssaslığın müxtəliflikləri ilə səciyyələnir. Belə ki, bu fizioloji xassələr bədənin bir ucundan digərinədək və ya bədənin hər hansı bir qurtaracağından ortasınadək tədricən azalır və ya çoxalır. Ç. nəzəriyyəsi obyektiv hadisələri əks etdirir, lakin orqanizmin fərdi inkişafını bütövlükdə izah etmir.

Əsəri: İndividuality in organisms. Chi., 1915.

*Əd.*: Жинкин Л.Н., Канаев И.И. Чайлд "Природа". 1940, №2.

**ÇAYLD** (Childe) Qordon Vir (14.4.1892, Avstraliya, Sidney – 19.10.1957, Sidney yaxınlığında) – ingilis arxeoloqu. Britaniya akademiyasının üzvü (1940), London un-ti arxeologiya in-tunun direktoru (1946–56). Şotlandiya, Şimali İrlandiya və Orkney a-rında arxeoloji qazıntılar aparmışdır. Əsas əsərləri Avropa və Şər-

Çayqurbançı palçıq vulkanı.



ıədim tarixinə həsr olunmuşdur. siya nəzəriyyəsi"nə qarşı çıxmış- nçiliyin meydana gəlməsi və in- tədqiq etmişdir.

·ləri: Прогресс и археология. М., стоков европейской цивилизации. М., ревнейший Восток в свете новых . М., 1956.

– Azərb. Resp. Qazax r-nunda ıylı ə.d.-nin (Çaylı, Kommuna k.- ldir) mərkəzi. R-n mərkəzindən 8 q.-də, düzənlikdədir. Əh. 7220 eyvandarlıq və əkinçiliklə məşğul- n orta məktəb, uşaq bağçası, 2 ki- klub, mədəniyyət evi, tibb məntə-

2005 ilədək Fioletovka) – Azərb. ləsuvar r-nunda kənd. Çaylı ə.d.- əzi. R-n mərkəzindən 7 *km* şm.-q.- bəyov adına kanalın kənarında, –Bəhramtəpə avtomobil yolundan lı, Muğan düzündədir. Əh. 2209 kinçilik və heyvandarlıqla məşğul- orta məktəb, feldşer-mama məntə- əxana, poçt, ATS var.

– Azərb. Resp. Göygöl r-nunda ylı ə.d.-nin mərkəzi. R-n mərkə- ' *km* ş.-də, Kürək çayının sahilin- əyindədir. Əh. 910 (2011); əkin- eyvandarlıqla məşğuldur. Tam orta nədəniyyət evi, tibb məntəqəsi, var.

– Azərb. Resp. Şəmkir r-nunun d.-ndə kənd. R-n mərkəzindən 16 Şəmkir çayının sahilindədir. Əh. l); heyvandarlıq, tərəvəzçilik və klə məşğuldur. Tibb məntəqəsi

Azərb. Resp. Tərtər r-nunda kənd. ·nin (Çaylı, Suqovuşan, Təpəkənd ildir) mərkəzi. R-n mərkəzindən q.-də, Tərtər çayının sahilində,

çayotu (Catabrosa aquatica).



dağ ətəyindədir. Əh. 162 (2011); işğaldan (1993, iyun) əvvəl əkinçilik və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, klub, xəstəxana var idi.

**ÇAYLI QƏBİRİSTANI** – Azərb. Resp. Qazax r-nunun Çaylı k.-ndə Tunc dövrünün sonu – Dəmir dövrünə aid qəbiristan. Arxeoloji tədqiqatlar zamanı (1954) dağıdılmış qəbirlərdən dördtilli tunc biz və iynə, boz rəngli gil qablar tapılmışdır. Qazıntı zamanı aşkar edilmiş gil, kömür, mis külçə və s. qalıqları burada istehsal ocaqlarının, zoomorf qulplu mis qabın külçə ilə birlikdə tapılması isə misgərxananın olmasını göstərir.

**ÇAYLI STRUKTURU** – Azərb. Resp. Yevlax-Ağcabədi çökəkliyi neftli-qazlı r-nunda, Qazanbulaq neft yatağından 6 *km* q.-də yerləşir. Struktur 1994 ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilmişdir. Seysmik məlumatlara görə struktur şm.-q.–c.-ş. istiqamətdə uzanan braxiantiklinaldan ibarətdir. Üst Tabaşirin yuxarılarına görə strukturun ölçüləri 3,5x2 *km*, amplitudası 100 *m*-dir. Geoloji kəsilişində Üst Tabaşir (vulkanik və karbonat fasiyalarda), Eosen (karbonat-terrigen), Maykop, Akçaqıl və Abşeron çöküntüləri iştirak edir. Strukturun neft-qazlılıq perspektivliyi Üst Tabaşir və Orta Eosen çöküntüləri ilə əlaqələndirilir.

**ÇAYLI YEMİŞİ**, D a d a ş t u m u – Abşeronda xalq seleksiyası yolu ilə yetişdirilmiş sort. Tağı qısa, yarpaqları böyrəkvarıdır. Meyvələri uzunsovdur. Rəngi açıq-yaşıl, qabığı narın torlu, ləti sıx, şirəli və ağ krem rənglidir. Dadı çox şirindir; toxumları ağımtıl-sarı, orta irilikdə, yumurtavarıdır. 90–100 günə yetişir. Hər *ha*-dan 25 *t*-a qədər məhsul götürülür. Saxlanmağa və daşınmağa orta davamlıdır.




**Çaytəmizləyən maşının işinin texnoloji sxemi:**
*1* – yük bunkeri; *2* – yükvuran və *3* – təmizləyici transportyorlar; *4* – diskli çıxarma transportyoru; *5* – bunker; *6, 8* – tullantılar qutusu; *7* – baraban; *9* – təmizlənmiş çay yarpağını çıxarmaq üçün transportyor; *10* – təmizlənmiş çay yarpağı üçün tara.

**ÇAYOTU** (Catabrosa) – birləpəlilər fəsiləsindən çoxillik bitki cinsi. Çiçək qrupu dağınıq süpürgədir. Sünbülcükləri 2–3 çiçəkli, uzunsov, yanlardan basıqdır. Sünbülcük pulcuqları pərdəşəkilli, ucu dişli, 1–3 damarlıdır. 3 damarlı alt çiçək pulcuğu pərdəşəkilli, qabarıq, ucu kütdür. Dənciyi uzunsovdur. Əsasən, Avropanın və Şimali Amerikanın mülayim ərazilərində bitir. Dünyada yayılan 3 növündən Azərb.-da 2 növü bitir. Arandan yuxarı dağ qurşağınadək bataqlıq və çay sahillərində rast gəlinir. Yalançı Ç. növü Lənkəran ətrafında yayılmışdır.

**ÇAYPARA** – İranın Qərbi Azərbaycan ostanında kəndistan. Xoy şəhristanının Qara Ziyəddin bölgəsinin şm.-ındadır.

**ÇAYRƏSULLU** – Azərb. Resp. Gədəbəy r-nunda kənd. Çay Rəsullu ə.d.-nin (Çay Rəsullu, Bəydəmirli, Turşsu k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 50 *km* şm.-q.-də, Axınca çayının sahilində, dağ ətəyindədir. Əh. 914 (2011); heyvandarlıq və əkinçiliklə (kartofçuluq) məşğuldur. Tam orta məktəb, klub, 2 kitabxana, yanğından mühafizə məntəqəsi var.

**ÇAYRUD** – Azərb. Resp. Lerik r-nunda kənd. Çayrud ə.d.-nin (Çayrud, Andurma, Anzolu, Piyəküçə, Rvarud, Təngəbin k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 17 *km* c.-ş.-də, Peştəsər silsiləsinin ətəyindədir. Əh. 1967 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam və ümumi orta məktəb, uşaq bağçası, kitabxana, mədəniyyət evi, xəstəxana var.

**ÇAYTALVAR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Kələboz kəndistanında, Miyanə ş.-ndən 21 *km* c.-q.-dədir.

**ÇAYTƏMİZLƏYƏN MAŞIN** – əl ilə və ya maşınla yığılmış çay yarpağını qatışıqlardan təmizləmək üçün stasionar maşın. Onun iş sxemi: çay yarpağı yük bunkerindən yükvuran transportyorla təmizləyici transportyora ötürülür; burada qatışıqlar hava axını ilə ayrılır və tullantı qutusuna atılır. Yerdə qalan kütlə səthi göz-göz olan barabana verilir, orada xəlbirləndikdən sonra isə qablaşdırılır. Barabanda qalan (xəlbirlənməmiş) çay yarpaqları barabandan tullantı qutusuna boşaldılır. Ç.m. 2 elektrik mühərriki ilə işləyir.

**ÇAYTİKANI** (Hippophae) – iydə fəsiləsindən çoxillik ikievli bitki cinsi. Budaqları tikanlı kol və ya ağacdır. Yarpaqları xətvarı və ya xətvarı-lansetvarı, gümüşü tükcüklərlə örtülüdür. Sarı çiçəkləri ayrıcinsiyyətli, xırdadır; erkəkcik çiçəkləri ikibölümlü çiçəkyanlıqlı və 4 erkəkcikli, dişicik çiçəkləri 2 dilimli boruvarı çiçəkyanlıqlıdır. Sarı və ya narıncı-qırmızı meyvəsi çəyirdəkvarı toxumlu, ləti sulu və ətlidir. Avrasiyanın, əsasən mülayim qurşaqlarında 7 növü, Azərb.-da 1 növü – adi Ç. (H. rhamnoides) yayılmışdır. Ç. dəniz, göl sahillərində, çayların subasarlarında, qumlu, çınqıllı sahələrdə, dağlarda 2100 *m*-ədək yüksəkliklə bitir. Ç. meyvəverən və dekorativ bitkidir; həmçinin qum, sürüşmə, yamac və yarğanların bərkidilməsi, və meşəsalınması üçün becərilir. Meyvəsində (100 *q*-ında) 10–12 *mq*% karotin, 273 *mq*%-ə qədər C vitamini, 0,79 *mq* fol turşusu, B qrupu, P, E vitaminləri olur; mürəbbə, cem, jele hazırlanır; müalicəvi əhəmiyyətli Ç. yağının alınmasında lətindən (10,4–14,95%) və toxumundan (11–17%) istifadə edilir. Yağın tərkibi karotin, karotinoidlər (180 *mq*%), tokoferol (110 *mq*%) və olein, linol, palmitin, stearin turşularının qliseridlərinin qarışığından ibarətdir. Ç. yağı bəzi yanıq və yaraların, dərinin şüa zədələnmələrinin, ekzema, yataq yarası xəstəlikləri və s. müalicəsində; selikli qişanın iltihabı, rentgen müalicəsi, qida borusu xərçənginin müalicəsi üçün profilaktika üçün, mədə və onikibarmaq bağırsağın xorası, uşaqlıq boynunun eroziyası, uşaqlıq yolu iltihabı və s.-də istifadə edilir. Ç. yarpaqlarından boyaq və aşı maddəsi alınır.



Çaytikanı (Hippophae rhamnoides).
Kolu və meyvəsi.

**ÇAYTUMAS** – Azərb. Resp. Qubadlı r-nunun Həmzəli ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* c.-ş.-də, Həkəri çayının sol sahilindədir. Əh. 694 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq və əkinçiliklə məşğul olmuşdur. Orta məktəb, kitabxana, mədəniyyət evi var idi.

**ÇAYÜZÜ** – Azərb. Resp. Yardımlı r-nunda kənd. Çayüzü ə.d.-nin (Çayüzü, Avur, Dağüzü, Nisəqələ k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 5 *km* c.-q.-də, Viləş çayının sahilində, Peştəsər silsiləsinin şm.-ş. ətəyindədir. Əh. 932 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, klub, tibb və rabitə məntəqələri var. *Mehdi Hüseynzadənin* büstü qoyulmuşdur.

**ÇAYYIĞAN MAŞIN** – çoxillik çay kollarından cavan yaşıl 2–3 yarpaqlı zoğları yığmaq üçün maşın. 20 əsrin əvvəllərində çay yarpağı yığımında əl əməyini yüngülləşdirmək üçün ilk cəhdlər edilmişdi. Bu məqsədlə ilk dəfə 1910 ildə Yaponiyada xüsusi qayçı tətbiq edildi. Kəsici aparatı otçalan tipində olan ilk Ç.m. modelində traktor və at dartı qüvvəsindən istifadə olunmuşdur. 1951 ildə daraqvarı-pnevmatik tipli qoşqulu Ç.m. işlənib hazırlandı. 1963 ildən başlayaraq düzənlik və mailliyi 20°-dək olan sahələrdə çay yarpağı yığan maşınlar istehsal edildi. Sonralar asılma və əl ilə işlədilən, eləcə də düzənlik və dağlıq yerlərdə hərəkət edən Ç.m.-lar geniş yayıldı. Ç.m.-nın əsas hissələri: qövsvari seqment tipli biçən aparat, sorucu borular (və ya kanal), ventilyator, barabanlı və lentli transportyor-çeşidləyici, çay bunkeri, lazımsız qatışıqlar üçün qutu, idarəetmə mexanizmi. İşlək orqanlar, özügedən şassinin gücayıran valı və hidrosistemi ilə hərəkətə gətirilir. Ç.m.-ların en götürümü 1,5 *m*-dən 2,05 *m*-dək olur. Saatda 0,2 *ha* sahədən çay yarpağı yığır.

**ÇAZOV** Yevgeni İvanoviç (d. 10.6.1929, Qorki, indiki Nijni Novqorod) – Rusiya terapevti, kardioloq. SSRİ EA-nın akad. (1979), SSRİ Tibb EA-nın akad. (1971) və Rəyasət Heyətinin üzvü (1972). RSFSR-in əməkdar elm xadimi (1974). Sosialist Əməyi Qəhrəmanı (1978). Lenin mükafatı laureatı (1982), SSRİ Dövlət mükafatı laureatı (1969, 1976, 1991), SSRİ Nazirlər Soveti mükafatı laureatı, Rusiya Federasiyasının Dövlət mükafatı (2004) laureatı. Kiyev Tibb İn-tunu bitirdikdən (1953) sonra I-ci Moskva Tibb İn-tunda və A.L. *Myasnikovun* rəhbərliyi altında SSRİ Tibb EA Terapiya İn-tunda işləmişdir. 1965 ildən Terapiya İn-tunun, 1967 ildən həmin in-t əsasında yaradılmış SSRİ Tibb EA Myasnikov ad. Kardiologiya İn-tunun direktoru olmuşdur. C. 1976 ildən SSRİ Tibb EA Ümumittifaq Kardioloji Elmi Mərkəzinin (1992 ildən 1996 ilədək – Rusiya Tibb EA Kardioloji Elmi Mərkəzi, 1996 ildən Rusiya Kardioloji Elmi İstehsalat Kompleksi) direktorudur; eyni zamanda SSRİ Səhiyyə Nazirliyi yanında IV Baş İdarənin rəisi (1967–86), SSRİ Səhiyyə nazirinin müavini (1968–86), SSRİ Səhiyyə naziri (1986–90) işləmişdir. Tədqiqatları, əsasən, tromboz-lara, miokard infarktına, miokard metabolizminə, qan dövranının çatışmazlığına və kardiologiyanın digər məsələlərinə həsr edilmişdir. 500-dən artıq elmi əsərin, o cümlədən 15-dən artıq monoqrafiyanın müəllifidir. Ümumittifaq Kardioloqlar Cəmiyyətinin (1975; 1991 ildən Rusiya Federasiyası Kardioloqlar Cəmiyyətinin) sədri, bir sıra xarici ölkələrin EA-nın fəxri üzvüdür. 1985 ildə Nobel mükafatı almış "Dünya həkimləri nüvə müharibəsinin qarşısını almaq uğrunda" beynəlxalq hərəkatın SSRİ tərəfindən sədri olmuşdur. Yüksəkixtisaslı elmi kadrlar hazırlığı sahəsində xüsusi xidmətləri var. 4 dəfə Lenin ordeni, Rusiya Federasiyasının I və II dərəcəli "Vətən qarşısında xidmətlərinə görə" ordenləri ilə təltif edilmişdir.



Ə s ə r l ə r i : Экспериментальные некрозы миокарда. М., 1963 (həmmüəllif); Тромбозы и эмболии в клинике внутренних болезней. М. – Варшава, 1966; Инфаркт миокарда. М., 1971 (həmmüəllif); Нарушения ритма сердца. М., 1972 (V.M.Boqolyubovla birlikdə); Очерки неотложной кардиологии. М., 1973; Эпифиз: место и роль в системе нейроэндокринной регуляции. М., 1974 (V.A. İsaçenkovla birlikdə); Антикоагулянты и фибринолитические средства. М., 1977 (K.M.Lakinlə birlikdə); Советская кардиология. М., 1986.

**ÇEBÁN** Tamara Savelyevna (22.11.1914, Mold., Berezloji k., – 23.10.1990, Kişinyov) – moldav müğənnisi (soprano). SSRİ xalq artisti (1960), SSRİ Dövlət mükafatı laureatı (1950). Kişinyov konservatoriyasını (L. Babiçin vokal sinfini) bitirmiş (1946), həmçinin Saratov konservatoriyasında təhsil almışdır. 1945–51 illərdə Kişinyov opera studiyasında çıxış

Mold. ra-
n solisti
r; 1951–
lə "Flu-
moldav
ı alətləri
çıxış et-
-lə birgə
ılkələrdə
r vermiş-



i ildən Kişinyov İncəsənət İn-
kaldan dərs demişdir (1976 ildən
Ç. moldav xalq mahnılarının
ırında 400-dən artıq mahnı, o
ı "Lyana", "Morişka", "Lelise
nahnıları olmuşdur), müxtəlif
mahnılarının, həmçinin moldav
arının əsərlərinin (Kokinin "Ye-
", Georgisenin "Kenesye" və s.)
'açısı idi.

**KUL** – RF-nin Çelyabinsk vil.-n-
h. 19,8 *km*². Cənubi Uralın ş. ya-
320 *m* yüksəklikdədir. Qarışıq
ı, əsasən, qar suları ilə qidalanır.
ərəddüdü 1,25 *m*-ədəkdir, ən yük-
yə iyunda olur. Noyabrın birinci
ı mayadək donmuş olur. Ç.-dan
yı (Ob hövzəsi) başlanır. Sahilləri
dir. İstirahət evləri və sanatoriya-
ebarkul ş. Ç. sahilindədir.

V Pafnuti Lvoviç [4(16).5.1821,
ub., indiki Kaluqa vil. Okatovo
1(8.12).1894, Peterburq] – rus
tçısı və mexaniki; adyunkt
Peterb. EA-nın ekstraordinar
ən), ordinar akad. (1859 ildən). Berlin EA (1871), Bolonya EA (1873), Paris EA (1874), London Kral Cəmiyyətinin (1877), İsveç EA-nın (1893) üzvü və bir çox rus və əcnəbi elmi cəmiyyətlərin, akademiyaların və universitetlərin fəxri üzvü seçilmişdir. Moskva Un-tini bitirmişdir (1841). 1850 ildə Peterb. Un-tinin prof.-u olmuşdur. 1882 ildə istefa vermiş və bütünlüklə elmi işlə məşğul olmuşdur. Peterb. riyaziyyat məktəbinin banisidir.



Tədqiqatları funksiyaların yaxınlaşması nəzəriyyəsi, inteqral hesabı, ədədlər nəzəriyyəsi, ehtimallar nəzəriyyəsi, mexanizmlər nəzəriyyəsi və riyaziyyatın bir çox başqa sahələrinə aiddir.

Ehtimallar nəzəriyyəsinin *limit teoremlərinin* yeni isbat üsulunu – momentlər metodunu yaratmışdır. O, *böyük ədədlər qanununu* olduqca ümumi şəkildə isbat etmişdir. Ç.-in ehtimallar nəzəriyyəsinə dair işləri bu sahənin inkişafında mühüm rol oynamışdır.

Evkliddən sonra ilk dəfə Ç. ədədlər nəzəriyyəsində sadə ədədlərin paylanma məsələsinin öyrənilməsini əhəmiyyətli dərəcədə inkişaf etdirmişdir. (1849,1852).

Ç-in ədədlərin rasional ədədlərlə yaxınlaşmasına həsr olunmuş işi Diofant yaxınlaşmalar nəzəriyyəsinin inkişafında mühüm rol oynamışdır.

Çebarkul gölü.



Ç.-in çoxsaylı işləri riyazi analiz sahəsindədir. Cəbri funksiyalarda və loqarifmlərdə bir neçə irrasional ifadələrin inteqrallanmasını tədqiq etmişdir. Elementar funksiyalarda *diferensial binomun* inteqrallanma şərtləri haqqında olan məşhur teorem alınmışdır (1853). Riyazi analizə dair tədqiqatları *ortoqonal çoxhədlilər* nəzəriyyəsinin qurulmasına aiddir. *Ən kiçik kvadratlar üsulu* vasitəsilə parabolik *interpolyasiya* bu nəzəriyyənin yaranmasına səbəb olmuşdur. Ç.-in momentlər və kvadratur düsturlar problemləri üzrə tədqiqatları həmin ideyalar sahəsinə aiddir.

Ç. *funksiyaların konstruktiv nəzəriyyəsinin* banisidir; onun əsas tərkib elementi funksiyaların ən yaxşı yaxınlaşmaları nəzəriyyəsidir (bax *Funksiyaların yaxınlaşması və interpolyasiyası, Çebışev çoxhədliləri*). Ç. həmçinin kvadratik yaxınlaşmaya, cəbri çoxhədlilərlə yaxınlaşmaya, triqonometrik polinomların vasitəsilə və rasional funksiyaların köməyi ilə yaxınlaşmaya da baxmışdır.

Ç. maşın və mexanizmlər nəzəriyyəsi sahəsində xüsusilə şarnir mexanizmlərinin sintezinə və o cümlədən Uatt paraleloqramına (1861, 1869, 1871,1879 və s.) həsr olunmuş tədqiqatlar aparmışdır. O, konkret mexanizmlərin hazırlanmasına xüsusi fikir vermiş, canlı heyvanın hərəkətini təqlid edən maşın, avtomat arifmometr yaratmışdır.

SSRİ EA Ç.-in şərəfinə riyaziyyat sahəsində mükafat təsis etmişdir (1944).

**ÇEBIŞEV BƏRABƏRSİZLİYİ** – 1) monoton ədədi ardıcıllıqlar və funksiyalar üçün bərabərsizlik. $a_1 \le a_2 \le \ldots \le a_n$ və $b_1 \le b_2 \le \ldots \le b_n$ və ya $a_1 \ge a_2 \ge \ldots \ge a_n$ və $b_1 \ge b_2 \ge \ldots \ge b_n$ ($a_n \ge 0$, $b_n \ge 0$) sonlu ardıcıllıqları üçün Ç.b.

$$\left(\sum_{k=1}^{n} a_k\right)\left(\sum_{k=1}^{n} b_k\right) \le n\sum_{k=1}^{n} a_k b_k \qquad (1)$$

şəklindədir. Ç.b.-nin inteqral şəkli aşağıdakı kimidir:

$$\left(\int_a^b f(x)dx\right)\cdot\left(\int_a^b g(x)dx\right) \le$$

$$\le (b-a)\int_a^b f(x)g(x)dx\ , \qquad (2)$$

burada $f(x) \ge 0$, $g(x) \ge 0$ və hər iki funksiya ya azalandır, ya da artandır. Əgər bir ardıcıllıq (funksiya) artırsa, digər ardıcıllıq (funksiya) isə azalırsa, onda (1) və (2) bərabərsizliklərinin işarələri əksinə dəyişir. Bərabərsizliklər P.L. *Çebışev* tərəfindən verilmişdir (1882).

2) Ç.b., Byeneme–Çebışev bərabərsizliyi – təsadüfi kəmiyyətin onun riyazi gözləməsindən yayınma ehtimalı üçün yuxarı sərhədi təyin edən bərabərsizlik. Tutaq ki, $X$ – riyazi gözləməsi $EX=a$ və dispersiyası $DX=\sigma^2$ olan təsadüfi kəmiyyətdir. Ç.b. aşağıdakından ibarətdir: istənilən $\varepsilon > 0$ üçün

$$|X-a| \ge \varepsilon$$

hadisəsinin ehtimalı $\sigma^2/\varepsilon^2$-nı aşmır və ya

$$P\{|X-a| \ge t\sigma\} \le \frac{1}{t^2}$$

Bu bərabərsizliyi J. Byeneme (1853) və P.L. Çebışev (1867) bir-birindən asılı olmadan aşkar etmişlər. Müasir ədəbiyyatda onu çox vaxt Ç.b. adlandırırlar. Ola bilər ki, bu, P.L. Çebışevin *böyük ədədlər qanununun* ümumiləşməsinin isbatı zamanı bu bərabərsizlikdən istifadə etməsi ilə əlaqədar olmuşdur. Bəzi əlavə fərziyyələrlə Ç.b.-nin dəqiqliyi artırıla bilər: $\frac{1}{t^2}$ dərəcə qiymətləndirməsi $t$-nin artması ilə böyük sürətlə azalan $2e^{-\frac{t^2}{4}}$ əmsallı qiymətləndirmə ilə əvəz oluna bilər. Ç.b. və onun bütün mümkün ümumiləşmələri *Çebışev teoreminin* sadə nəticəsidir: riyazi gözləməsi $EX$ olan $X$ təsadüfi kəmiyyəti $X \ge 0$ olarsa, istənilən $\varepsilon > 0$ üçün

$$P\{X \ge \varepsilon\} \le \frac{EX}{\varepsilon}$$

olar.

**ÇEBIŞEV ÇOXHƏDLİLƏRİ** – 1854 ildə P.L. *Çebışev* tərəfindən $-1 \le x \le 1$ parçasında tapılan ortoqonal çoxhədlilər sistemi.

Birinci növ Çebışev çoxhədliləri aşağıdakı düsturla təyin olunur:

$$T_n(x) = \cos(n \arccos x) =$$

$$= \frac{2^n n!}{(2n)!}\sqrt{1-x^2}\,\frac{d^n}{dx^n}\left[(1-x^2)^{n-\frac{1}{2}}\right];$$

xüsusi halda

$$T_0(x)=1,\ T_1(x)=x,\ T_2(x)=2x^2-1,$$

$$T_3(x)=4x^3-3x,\ T_4(x)=8x^4-8x^2+1$$

olur.

Onlar $-1 \le x \le 1$ parçasında $\frac{1}{\sqrt{1-x^2}}$

çəkisi ilə ortoqonaldır, yəni

$$\int_{-1}^{+1}\frac{T_m(x)T_n(x)}{\sqrt{1-x^2}}dx = \begin{cases} 0, & m \ne n \\ \frac{\pi}{2}, & m = n \ge 1 \\ \pi, & m = n = 0\,. \end{cases}$$

Birinci növ $\frac{1}{2^{n-1}}T_n(x)$ Ç.ç sıfırdan ən az meyil edir. Bu o deməkdir ki, əmsalı 1-dən böyük olan bütün $n$ dərəcəli çoxhədlilər içərisində məhz $\max\left|\frac{1}{2^{n-1}}T_n(x)\right|$ maksimum modulu $-1 \le x \le 1$ parçasında ən kiçik qiymətə malikdir, belə ki, bu maksimum $\frac{1}{2^{n-1}}$-ə bərabərdir.

$y=T_n(x)$ Ç.ç.

$$(1-x^2)y''-xy'+n^2y=0$$

diferensial tənliyini ödəyir və onlar üçün

$$T_{n+1}(x)=2xT_n(x)-T_{n-1}(x)$$

rekurrent düsturu doğrudur.

$U_n(x)$ ikinci növ Çebışev çoxhədliləri $-1 \le x \le 1$ parçasında $\sqrt{1-x^2}$ çəkisi ilə ortoqonaldır:

$$\int_{-1}^{+1}\sqrt{1-x^2}\,U_m(x)U_n(x)dx = \begin{cases} 0, & m \ne n \\ \frac{\pi}{2}, & m = n. \end{cases}$$

Onlar

$$U_n(x) = \frac{\sin[(n+1)\arccos x]}{\sqrt{1-x^2}} =$$

$$= \frac{2^n(n+1)!}{(2n+1)!}\frac{1}{\sqrt{1-x^2}}\frac{d^n}{dx^n}\left[(1-x^2)^{n+\frac{1}{2}}\right]$$

düsturu ilə təyin olunur; xüsusi halda

$$U_0(x)=1,\ U_1(x)=2x,\ U_2(x)=4x^2-1,$$

$$U_3(x)=8x^3-4x,\ U_4(x)=16x^4-12x^2+1.$$

İkinci növ Ç.ç. üçün diferensial tənlik və rekurrent düstur aşağıdakı şəkildə olar:

$$(1-x^2)y''-3xy'+n(n+2)y=0$$

$$U_{n+1}(x)=2xU_n(x)-U_{n-1}(x).$$

Birinci və ikinci növ Ç.ç.

$$U_n(x) = \frac{1}{n+1}\frac{dT_{n+1}(x)}{dx}$$

ifadəsi ilə əlaqəlidir.

**ÇEBIŞEV FUNKSİYASI** – P.L. *Çebışev* tərəfindən daxil edilmiş ədədi-nəzəri funksiya (1851). Bax *Ədədlər nəzəriyyəsi.*

**ÇEBIŞEV KVADRATUR DÜSTURU** – müəyyən inteqralın təqribi hesablanması üçün düstur:

$$\int_{-1}^{1} f(x)dx \approx \frac{2}{n}\sum_{i=1}^{n} f(x_i)\ ,$$

dərəcəsi $n-1$-dən yüksək olmayan çoxhədlilər üçün dəqiqdir, burada $n$ interpolyasiya düyünlərinin sayıdır. Ç.k.d.-nda bəzi $n$-lər üçün $x_i$ qiymətləri hesablanmışdır. Məs., $n=9$ üçün $x_1=-x_9=0{,}911589$; $x_2=-x_8=0{,}601019$; $x_3=-x_7=0{,}528762$; $x_4=-x_6=0{,}167906$; $x_5=0$.

$n=8$ və $n>9$ olduqda $x_i$ absisləri kompleks qiymətlər alır, ona görə Ç.k.d. yalnız $n=1,2,3,4,5,6,7,9$ üçün tətbiqolunandır. Ç.k.d. P.L. *Çebışev* tərəfindən isbat edilmişdir (1873).

**ÇEBIŞEV PARALELOQRAMI** – yastı, dördbəndli oynaqlı mexanizm; bəndin bir sıra nöqtələrinin (şəkildə $M$ nöqtəsi) yönəldici tətbiq etmədən hərəkətini təsvir etmək üçündür. 1868 ildə rus riyaziyyatçısı və mexaniki P.L. *Çebışev* tərəfindən təklif olunmuşdur. Dinamometrik indikator və başqa cihazlarda tətbiq edilir; başqa analoji mexanizmlərə nisbətən nöqtənin hərəkətinin düz xəttə daha yaxşı yaxınlaşmasına malikdir.




**Çebışev paraleloqramı növü (λ-şəkilli mexanizm):** *a, b, d* – mexanizmin ölçüləri; $3d - a = 2b$.

**ÇEBIŞEV TEOREMİ** – 1) diferensial binom haqqında:

$$x^m(a+bx^n)^p$$

diferensial binomundan asılı olan qeyri-müəyyən inteqralın istənilən $m, n, p$ üçün elementar funksiya ilə ifadə olunmaması. Yalnız $p$, $(m+1)/n$, $(m+1)/n+p$ ədədlərindən birinin tam olması halı istisna təşkil edir. Burada $a$ və $b$ həqiqi, $m, n, p$ isə rasional ədədlərdir. P.L. *Çebışev* tərəfindən isbat edilmişdir (1853).

2) Ən yaxşı yaxınlaşmalar haqqında Ç.t. – funksiyaların yaxınlaşmaları nəzəriyyəsi teoremi. P.L. Çebışev tərəfindən isbat edilmişdir (1854).

3) Ehtimallar nəzəriyyəsində Ç.t. – bax *Böyük ədədlər qanunu, Çebışev bərabərsizliyi.*

**ÇEBOKSÁRI,** Şupaşkar – RF-də şəhər. Çuvaş Resp.-nın paytaxtı. Əh. 447,9 min (2010). Volqa çayında port. D.y. st. Avtomobil yolları qovşağı. Aeroport.

1469 ildən məlumdur. 17 əsrin sonu – 18 əsrdə Volqaboyunda mühüm ticarət



Çeboksarı şəhərindən görünüş.

(duz, taxıl, xəz, dəri və s.) şəhəri idi. 1781 ildən Kazan qub.-nın qəza şəhəri olmuşdur. 1920 ildən Çuvaş MV-nin, 1925 ildən Çuvaş MSSR-in paytaxtı, 1992 ildən Çuvaş Resp.-nın paytaxtıdır.

Ş.-in mərkəzi hissəsi amfiteatr şəklində 7 təpənin ətəyində yerləşmişdir. 17–18 əsrlərə aid bir çox tikili (monastırlar, kilsələr, məbədlər) saxlanılmışdır. 1930–50-ci illərdə şəhərin mərkəzi ansamblı (Hökumət evi, 1940, memarlar V.M. Abakumov, A.M. Bazileviç və s.) yaradıldı. 1969 ildən şəhər yeni baş plana əsasən qurulur (5–9 mərtəbəli evləri olan yeni mikrorayonlar və 18 mərtəbəli monolit binalar). Çuvaş Akademik Dram Teatrı, Çuvaş musiqili, Rus dram, Gənc tamaşaçılar və Kukla teatrları, filarmoniya var. Rəssamlıq muzeyi (1939), Diyarşünaslıq muzeyi (1921) var. V.İ. Çapayevə (1960), çuvaş şairi K. V. İvanova (1952), çuvaş maarifçisi İ. Y. Yakovlevə (1971) və b.-a abidələr qoyulmuşdur. "Himayəçi ana" monumental heykəli şəhərin mərkəzindədir.

Çuvaş Dövlət Pedaqoji İn-tu (1930), Çuvaş Dövlət Kənd Təsərrüfatı Akademiyası (1931), Çuvaş Dövlət Un-ti (1967), Çuvaş Dövlət Mədəniyyət və İncəsənət İn-tu (2000) və s.; Çuvaş Dövlət Humanitar Elmlər İn-tu (1930), Geoloji və Geoekoloji Problemlər ETİ, Ekologiya və Təbiətdən İstifadə ETİ və s. var.

Sənayenin aparıcı sahələri: maşınqayırma və metal emalı ("Prompribor", "Elektropribor" və s. İB; maşınqayırma, aqreqat, elektroaparat, "Çuvaşkabel" və s. z-dlar), yüngül (pambıq parça kombinatı, trikotaj-corab və lenttoxuma f-ki və s.) və yeyinti sənayesi. Tikinti materialları istehsal olunur. SES var.

Çecu şəhərindən görünüş.



**ÇECÚ,** Ç e ç j u – Koreya Resh.-nda şəhər. Çecudo a.-nın (əyalətinin) inz. m. Əh. 259 min (2010). Çecu boğazında port. Yeyinti sənayesi, kustar məmulatlar istehsalı var. Balıq ovlanır. Aeroport.

**ÇECUDÓ,** Ç e ç j u d o – Şərqi Çin dənizində ada. Koreya y-a-ndan Çecu boğazı ilə ayrılır. Koreya Resp. ərazisidir. Sah. 1850 $km^2$. Sahilləri, əsasən, sıldırımlıdır. Vulkanik süxurlardan ibarətdir. Hünd. 1950 *m*-ədəkdir (Hallasan vulkanı; 10 əsrdə püskürmüşdür). İqlimi subtropik mussondur; yağıntının illik miqdarı 2000 *mm*-ədəkdir. Meşələr var. Çəltik, arpa və s. əkilir; balıq, molyusk ovlanır. Əsas şəhəri Çecudur. *Ümumdünya irsi* siyahısına salınmışdır.

**ÇEÇÉN** – Xəzər dənizinin şm.-q. hissəsində ada. Dağ. Resp.-na aiddir. Aqraxan y-andan şm.-dadır. Səthi düzənlikdir. Uz. 12 *km*, eni 5 *km*-ədəkdir. Sahillərindən dənizə doğru qamışla örtülmüş qum dilləri uzanır.

**ÇEÇEN DİLİ** – *çeçenlərin* dili. Qafqaz dillərinin nax qrupuna daxildir. Bu dildə təqr. 1mln. 550 min adam danışır (2012). Bir neçə dialekti var. Fonetik tərkibi saitlərlə (diftonq, uzun və umlautlaşan saitlər) zəngindir. Ç.d.-ndə 6 ad sinfi, feilin hal, zaman, forma və tərz kateqoriyaları var. Say sistemi iyirmilikdir. Sintaksisi konstruksiya müxtəlifliyi ilə seçilir. Əlifbası əvvəlcə ərəb, 1927 ildən latın, 1938 ildən isə rus qrafikası əsasında yaradılmışdır.

*Əd.:* Языки народов СССР. Т. 4. Иберийско-кавказские языки. М., 1967; Языки Азии и Африки. Кн. 3. М., 1979.

**ÇEÇÉN DÜZƏNLİYİ,** Q r o z n ı d ü z ə n l i y i – RF-də, Çeçenistan Resp.-nda, maili dağətəyi düzənlik. Sunja çayının sağ sahili boyu 120 *km* məsafədə uzanır, eni 40







Çecudo adasının sahilləri.




*km*-ədəkdir. Hünd. 70–400 *m*. Səthi lösvarı gilcələrlə örtülmüş çaqıl daşlarından ibarətdir. Çəmən-qara torpaqları var; ərazinin böyük hissəsi şumlanmışdır.

**ÇEÇEN RESPUBLİKASI,** Ç e ç e n i s t a n, İ ç k e r i y a – RF-nin *Şimali Qafqaz federal dairəsində* respublika. Sah. 15,6 min $km^2$. Əh. 1324 min (2013). Paytaxtı Qroznı ş.-dir. 15 r-nu, 5 şəhəri, 3 ştq. var.

**Dövlət quruluşu.** Dövlət hakimiyyəti orqanları sistemi RF Konstitusiyası və Ç.R.-nın Konstitusiyası (23.3.2003) ilə müəyyənləşir. Dövlət hakimiyyətini parlament, dövlət başçısı və respublika Konstitusiyasına uyğun yaradılmış digər dövlət hakimiyyəti orqanları həyata keçirir. RF Prezidentinin təqdimatı ilə parlament tərəfindən təsdiq olunan dövlət başçısı respublikanın ali vəzifəli şəxsi və icraedici hakimiyyətin başçısıdır. O, hökuməti formalaşdırır və Hökumət sədrini təyin edir. Qanunverici hakimiyyəti birpalatalı partament (ümumi bərabər və birbaşa seçki hüququ üzrə, proporsional seçki sistemi ilə 5 il müddətinə seçilən 41 deputatdan ibarətdir) təmsil edir. Xarici dövlətin vətəndaşı olmayan, yaxud xarici dövlət ərazisində yaşama hüququna və ya daimi yaşama hüququ verən digər sənədə malik olmayan istənilən RF vətəndaşı parlamentin deputatı seçilə bilər. Parlament Ç.R.-nın Konstitusiyasını qəbul edir, dövlət başçısına Hökumət sədrini, müavinlərini və nazirləri təyin etmək üçün razılıq verir, Hesablama palatasını formalaşdırır, dövlət başçısının təqdimatı ilə Konstitusiya məhkəməsinin hakimlərini təyin edir və s.

**Təbiət.** Resp.-nın ərazisi Böyük Qafqazın şm. yamacında yerləşir. Səthi şm.-da düzənlik (Çeçen düzənliyi və Terek-Kuma ovalığı), c.-da dağlıqdır (ən yüksək nöqtəsi Tebulosmta d.-dır, 4493 *m*). Neft, qaz, tikinti materialları (əhəngdaşı, mergel, gips və s.) yataqları, mineral sular var. İqlimi kontinentaldır. Yanvarın orta temp-ru –3°C-dən (Terek-Kuma ovalığında) –12°C-yədək (dağlarda), iyulda müvafiq olaraq 24–25°C və 5–7°C-dir. Yağıntının illik miqdarı 300–600 *mm*-dir (dağlarda 1200 *mm*). Böyük çayları Terek, Sunja və onun qolu Arqundur. Çoxlu xırda göl var.

Çeçen düzənliyi.



Düzənliklərdə, əsasən, çəmən torpaqları yayılmışdır. Daha yüksək sahələrdə qaratorpaqlar, çay dərələrində bataqlıq-çəmən, dağlarda dağ-meşə və dağ-çəmən torpaqları yayılmışdır.

Çeçen düzənliyində çöl və meşə-çöl bitkiləri bitir. Dağlarda 2200 *m*-ədək olan yüksəklikdə enliyarpaqlı meşələr, daha yuxarıda subalp çəmənləri, Terek-Kuma ovalığında yovşan və şoran bitkiliyi yayılmışdır; rütubətli sahələr ceyranotulu və topal-şiyavlı çöldən ibarətdir.

Heyvanlardan daşlıq və meşə dələsi, qonur ayı, qaban, canavar, meşə pişiyi; quşlardan vəhşi ördək, qaz, Qafqaz qırqovulu və tetrası, qarabaş kərkəs, dağ hindtoyuğu, çoxlu sayda gəmiricilər, sürünənlər yaşayır.

**Əhali.** Ç.R.-nda *çeçenlər* (95,3%), *ruslar* (1,9%), *qumuqlar* (1,0%), *çamalalılar* (0,4%), *noqaylar* (0,3%), *inquşlar* (0,1%), *ləzgilər* (0,1%), *tatarlar* (0,1%), *tabasaranlılar* (0,1%), *türklər* (0,1%) və b. xalqlar yaşayır (2010). Orta sıxlıq 1 $km^2$-də 84,67 nəfərdir (2013). Şəhər əhalisi 34,81% təşkil edir (2013). Şəhərləri: Qroz-



Tebulosmta dağı.

nı – 250803 nəfər, Urus-Martan – 52399 nəfər, Şali – 46073 nəfər, Qudermes – 43969 nəfər, Arqun – 42797 nəfər (2010). Əmək qabiliyyətli insanlar əhalinin 57%-ini, əmək qabiliyyətli insanlardan yaşca kiçik olanlar 35%-ini, yaşca böyük olanlar isə 8%-ini təşkil edir. Ç.R.-nın konstitusiyasına görə, rəsmi dilləri – çeçen və rus dilləridir. Dindarların əksəriyyəti müsəlmandır, xristianlar da var.

**Tarixi məlumat.** Ç.R.-nın ərazisi Paleolit dövründən məskunlaşmışdır (əsasən, Kezenoy gölü və Xalxulau vadisi). Tunc dövründən (e.ə. 3–2-ci minilliklər), əsasən, qəbir abidələri qalmışdır. Əhali maldarlıq və əkinçiliklə məşğul olmuşdur. Maddi mədəniyyət abidələri qədim dövrlərdən Skifiya, Cənubi Qafqaz və Ön Asiya ilə əlaqələrin olduğunu göstərir. Yunan-Roma, gürcü və b. qaynaqlarda e.ə. 4–3 əsrlərdə Ç.R. ərazisinə noxçi (naxçi, noxço) ümumi adı altında qarqarlar, durdzuklar, isadiklər (sodlar), kistlər kimi çeçen tayfalarının köçməsi qeyd edilir. Eramızın 1 əsrində çeçenlər alanların tayfa birliyinə qatılmışlar. 4 əsrdə baş verən hun istilasından sonra Mərkəzi və Şimal-Şərqi Qafqaza yayılmış çeçenlər Qafqazın siyasi həyatında fəal rol oynamışlar. *Ərəb-xəzər müharibələri* (8 əsr) zamanı Əməvilərin valisi Mərvan ibn Məhəmmədin (sonralar Əməvi xəlifəsi *II Mərvan*) 736–738 illərdə Durdzukistana (Çeçenistana) təşkil etdiyi yürüşlərindən sonra Dağıstan və Çeçenistanda islam dini yayılmağa başlamışdı. Orta əsrlərdə Ç.R. ərazisinin düzənlik və dağlıq r-nlarının xeyli hissəsində *Alaniya* dövləti (9–13 əsrlər), bəzi dağlıq r-nlarında isə *Sərir* adlı dövlət qurumu mövcud idi. Monqol hücumlarından (1222 və 1238–40) sonra Terek çayının arxasındakı çöllər, qismən də Çeçen düzənliyi Qızıl Ordanın tərkibinə (Cuci ulusu) keçdi, indiki çeçen və inquşların əcdadları isə dağlıq yerlərə çəkilməyə məcbur oldular. 14 əsrdə çeçenlər Simsir erkən feodal dövlətini yaratdılar. 14 əsrin sonlarında (1395) çeçen torpaqlarına basqın edən *Teymur* Simsir dövlətini məhv etsə də, dağlıq əraziləri ələ keçirə bilmədi. 16 əsrədək Ç.R.-nın düzənlik ərazilərində Kabarda və Dağıstan hakimləri ağalıq edirdilər. 16 əsrin 1-ci yarısında çeçenlərin bir qismi tədricən düzənlik ərazilərə qayıtmağa başladı, eyni zamanda Həştərxan xanlığını işğal etmiş Rus dövlətinin Şimali Qafqazda təcavüzkar siyasəti gücləndi. Rus kazakları Terekboyu ərazilərdə kütləvi şəkildə məskunlaşmağa başladılar. Kabarda valiləri (hakimləri) rusların müttəfiqi kimi çıxış edirdilər. 1567 ildə Terek çayının sahilində ilk rus ostroqu (Terek qalası) inşa edildi. 1570-ci illərdə iri çeçen hakimlərindən biri olan Akkanın hökmdarı Şıx Mirzə Moskvaya səfirlik göndərdi və Rus dövlətinin himayəsinə keçdi. Lakin onun qətlindən və varisi Batayın devrilməsindən sonra 1610 ildə qumuq hakimləri Akkanı işğal etdilər. Çeçenlər kazak "məskənlərinə" daim basqınlar təşkil edirdilər. 1718 ildən sonra yeni qalaların inşası rusların Qafqazdakı mövqelərini xeyli möhkəmlətdi. Rusiya-İran müharibəsi (1722–23) zamanı I Pyotr bir müddət çeçen torpaqlarında qaldı. Məhz bu dövrdən ruslar naxço tayfasını çeçenlər ("Çeçen ail" adından), ölkələrini isə Çeçenistan (rusca Çeçnya) adlandırmağa başladılar. 1722–83 illərdə rus qoşunlarının Çeçenistana cəza ekspedisiyaları müntəzəm şəkil aldı. Cəza ekspedisiyaları "qiyamçı" aillərin yandırılması və ail ağsaqqallarının məcburən rus təbəəliyini qəbul etmələri ilə müşayiət olunurdu. Rus qalalarında saxlamaq üçün ən nüfuzlu nəsillərdən girovlar (əmanətlər) götürülürdü. Çeçenlər 1732 il iyulun 7-də rusları, 1735 ildə isə Krım xanının qüvvələrini məğlub etdilər. 18 əsrdə bir tərəfdən rus qoşunlarına, digər tərəfdən onlarla müttəfiq olan kabardalılara, qumuqlara və b.-na qarşı mübarizə aparan çeçenlər daha sıx birləşdilər. *Georgiyevsk traktatından (1783)* sonra Şeyx Mansur adını qəbul etmiş

Arqun çayı (Arqun dərəsi).





ÇEÇEN RESPUBLİKASI

Uşurmanın rəhbərliyi altında çeçenlərin 6 illik (1785–91) mübarizəsi Çeçenistanın böyük hissəsinin Rusiya tərəfindən işğalı ilə nəticələndi. 1810 ildə çeçenlərlə eyni kökdən olan inquşlar könüllü surətdə rus təbəəliyinə keçdikdən sonra ruslar tərəfindən ayrıca xalq kimi elan edildilər. Şimali Qafqazda qalaların tikilməsi, çeçenlərin və b. xalqların dağlara sıxışdırılması, münbit torpaqlarda kazakların yerləşdirilməsi və s. *Qazı Məhəmməd, Həmzət bəy* və *Şamilin* başçılığı ilə dağlılar hərəkatına səbəb oldu [bax *Qafqaz müharibəsi (1817–64)*]. 1859 ildə Şamilin (çeçenlər onun ən sadiq müttəfiqləri idi) məğlubiyyətindən sonra Çeçenistanın bütün ərazisi Xasavyurd dairəsi ilə birgə Rusiyanın tabeliyinə keçdi. 1860 ildə imperator II Aleksandrın fərmanı ilə Şimali Qafqazın ş.-ində Çeçenistan, İçkeriya, İnquş və Dağlıq dairələrindən ibarət Terek vil.-i yaradıldı. Bundan sonra Şimali Qafqazdan Türkiyəyə köçlər başladı. Eyni zamanda Baysunqur, Atabi Atayev və Dade Zalmayevin başçılığı altında üsyanlar baş verdi. Bir il davam edən sonuncu iri üsyan (1877) qəddarlıqla yatırıldı və başçısı Əlibəy Hacı Qroznıda edam edildi. 19 əsrin sonunda ticarət-sənaye burjuaziyası meydana gəldi. 1890-cı illərin əvvəllərində Vladiqafqaz d.y. çəkildi, Qroznı neft sənayesi sürətlə inkişafa başladı. Fəhlələrin əksəriyyətini gəlmə ruslar təşkil edirdi. Əmtəə əkinçiliyi və maldarlıq təsərrüfatın mühüm sahələri idi.

1917 il oktyabrın 26-da bolşeviklər Qroznıda sovet hakimiyyətini elan etdilər. 1918 ilin martında RSFSR tərkibində Terek Sovet Resp. yaradıldıqdan sonra Çeçenistan ərazisində Şeyx Uzun Hacının rəhbərliyi altında yaranmış və Osmanlı imperiyasının protektoratı olan Şimali Qafqaz əmirliyi 1918 il mayın 11-də Rusiyadan ayrıldığını və Dağlılar Respublikasının yaradılmasını elan etdi. 1918 ilin yayında biçeraxovçuların sovet hakimiyyəti əleyhinə qaldırdıqları qiyam avqust–noyabr aylarında yatırıldı. 1919 ilin fevralında A.İ. *Denikinin* qoşunları Şimali Qafqazı, o cümlədən Çeçenistanı tutdu. Lakin 11-ci qırmızı ordu və Terek vil.-nin üsyançı qoşun qrupu 1920 il martın 17-də Qroznıya daxil oldular, Çeçenistanda sovet hakimiyyəti bərpa olundu. 1920 il noyabrın 17-də Vladiqafqazda Terek vil. xalqlarının qurultayında yaradılan Dağlılar MSSR-ə Çeçenistan da daxil idi. 1922 ilin noyabrında Çeçenistan Dağlılar MSSR-dən ayrıldı və RSFSR tərkibində



Qroznı şəhərindən görünüş.

Çeçen MV təşkil edildi. 1934 il yanvarın 15-də Çeçen və İnquş muxtar vil.-ləri Çeçen-İnquş MV-də birləşdirildi və 1936 ildə MSSR-ə çevrildi. 1937–39 illərdə SSRİ-də yaşayan bir çox xalqlar kimi çeçenlər də İ.V. Stalin repressiyasının qurbanı oldular. Böyük Vətən müharibəsi dövründə 1942 ilin payızında alman qoşunları resp.-nın q. hissəsini işğal etdi, lakin Qroznı yaxınlığında dayandırıldı və 1943 ilin yanvarında buradan qovuldu. *Tehran konfransından (1943)* sonra çeçenləri alman qoşunları ilə əlbir olmaqda ittiham edən və 500 min çeçenin məhvinə qərar verən SSRİ hökuməti sonralar bu qərarı dəyişərək onları Orta Asiyaya və Qazaxıstana sürgün etdi. Sürgündə çeçenlərin əksəriyyəti məhv oldu. 1944 ildə Çeçen-İnquş MSSR ləğv edildi, onun ərazisinin böyük hissəsi Şimali Osetiya və Dağıstan MSSR, Gürcüstan SSR və Stavropol diyarı arasında bölüşdürüldü, qalan ərazidə isə Qroznı vilayəti yaradıldı. 1957 ildə Çeçen-İnquş MV bərpa olundu, çeçenlərə doğma yurdlarına qayıtmağa icazə verildi.

1980-ci illərin ortalarında "yenidənqurmanın" başlamasından sonra SSRİ resp.-larında, o cümlədən Çeçen-İnquş MSSR-də milli hərəkat genişləndi. 1990 ilin noyabrında Qroznıda keçirilmiş I Çeçen Milli qurultayında Çeçen Xalqının Ümummilli Konqresinin (ÇXÜK) İcraiyyə Komitəsi seçildi. ÇXÜK-in əsas məqsədi Çeçenistanın həm RSFSR, həm də SSRİ tərkibindən çıxması idi. Konq-

Kazenoyam gölü.






Çeçen Respublikası Milli Muzeyi.

resə sovet hərbi-hava qüvvələrinin gen.-m.-u C. *Dudayev* rəhbərlik edirdi. ÇXÜK ilə Çeçen-İnquş MSSR-in D. Zavqayevin başçılıq etdiyi rəsmi hakimiyyəti arasında münaqişə başladı. 1991 il iyunun 8-də ÇXÜK Çeçen-İnquş MSSR Ali Sovetinin devrildiyini, müstəqil Noxçi-ço Çeçen Respublikasının yaradıldığını elan etdi. Faktiki olaraq respublikada ikihakimiyyətlilik yarandı. Sentyabrın 6-da ÇXÜK-in silahlı tərəfdarlarının təzyiqi ilə Zavqayev istefa verdi, sentyabrın 15-də isə Çeçen-İnquş MSSR-in Ali Şurası özünü buraxdı. ÇXÜK rəhbərliyi ali hakimiyyətin ona keçdiyini, Rusiya qanunlarının və Çeçen-İnquş MSSR Konstitusiyasının qüvvədən düşdüyünü elan etdi. 1991 il oktyabrın 27-də keçirilən seçkilərdə ÇXÜK İcraiyyə Komitəsinin sədri C. Dudayev respublika prezidenti seçildi. 1991 il noyabrın 8-də RSFSR prezidenti B. *Yeltsin* Çeçen-İnquş MSSR-də fövqəladə vəziyyətin tətbiqi haqqında fərman verdi. Buna cavab olaraq C. Dudayev hərbi vəziyyət elan etdi və özünümüdafiə dəstələrinin yaradılması haqqında əmr verdi. Noyabrın 9-da Xanqala (Qroznı) aeroportuna rus hərbiçilərini daşıyan nəql. təyyarələri endi, lakin çeçenlərin silahlı dəstələri onları mühasirəyə aldı. Qafqazın dağlı xalqları konfederasiyası Çeçenistanı dəstəklədi. Rusiya hökuməti Xanqalada mühasirəyə alınan hərbiçilərin çıxarılması üçün Dudayevlə danışıqlar aparmaq məcburiyyətində qaldı. Çeçenistanda yerləşən rus qoşunları buradan çıxarıldı, silahların böyük hissəsi (o cümlədən tank və təyyarələr) çeçenlərə verildi. Dudayevin çevrilişindən sonra Çeçen-İnquş MSSR Çeçenistana və İnquşetiyaya parçalandı. Rəsmi şəkildə Çeçen-İnquş MSSR 1992 il dekabrın 10-da ləğv olundu. Çeçenistan müstəqilliyini elan etdi. 1992 ildə qəbul edilmiş yeni konstitusiyaya görə, Ç.R. müstəqil dünyəvi dövlət oldu, 1993 ildə isə Noxçi-ço Çeçen Respublikası İçkeriya Çeçen Respublikası (İÇR) adlandırıldı.

1993–94 illərdə C. Dudayev hakimiyyətinə qarşı müxalifət formalaşdı. 1993 ilin dekabrında yaranmış Çeçen Respublikası Müvəqqəti Şurasının (ÇRMŞ) əsas məqsədi Dudayevin hərbi yolla devrilməsi idi. 1994 ilin noyabrında ÇRMŞ-nin silahlı dəstələri və zirehli texnika ilə silahlanmış rus hərbiçiləri Qroznıya daxil olsalar da, məğlubiyyətə uğradılar. Bu uğursuz hücumdan sonra B. Yeltsin 1994 il noyabrın 30-da birinci çeçen müharibəsinin (1994–96) faktiki başlanğıcı olan "Çeçen Respublikası ərazisində konstitusiyanın və hüquq qaydalarının bərpa olunması haqqında" fərmanı imzaladı. 1994 il dekabrın 11-də Rusiya ordusunun bölmələri üç istiqamətdən Çeçenistana daxil oldular. Dekabrın 31-də Qroznıya həmlə başladı. Rus qoşunları Qroznını yalnız 1995 ilin martında tamamilə ələ keçirdilər. Burada D. Zavqayevin başçılığı ilə rusiyapərəst idarə yaradıldı. 1996 il aprelin 21-də İÇR prezidenti C. Dudayev Gexi-çu k. yaxınlığında aviaraket zərbəsi nəticəsində həlak oldu. Avqustun 6-da çeçen dəstələri Qroznı, Arqun və Quder-mesi tutdular. Ruslar sülh danışıqlarına başlamağa məcbur oldular. 1996 il avqustun 31-də Rusiya (Aleksandr Lebed) və İçkeriya (Aslan Məshədov) nümayəndələri arasında Dağıstanda Xasavyurd sazişi imzalandı. Sazişə görə, Rusiya qoşunları Çeçenistandan çıxarılmalı, Çeçenistan statusunun müəyyənləşdirilməsi isə beş il (2001 il dekabrın 31-dək) müddətinə təxirə salınmalı idi.

C. Dudayevin ölümündən sonra prezident səlahiyyətlərini müvəqqəti olaraq Z. Yandarbiyev icra edirdi. 1997 ildə keçirilən seçkilərdə A. Məshədov İÇR-in ikinci prezidenti seçildi. Lakin resp.-da real hakimiyyət səhra komandirlərinin əlində idi, hökumət isə yalnız Qroznı ş.-nə nəzarət edirdi.

İkinci çeçen müharibəsi (1999–2000) 1999 il sentyabrın 30-da Rusiya qoşunlarının Çeçenistana daxil olması və Terekboyu düzən ərazilərinin tutulması ilə başladı. Dekabrın 17-də Hava Desant Qoşunları iri kontingentinin Rusiya dövlət sərhədinin Çeçenistan sahəsinə çıxarılması nəticəsində İÇR-in Gürcüstanla əlaqələri kəsildi. Dekabrın 26-da rus qoşunları Qroznı ş.-nə yenidən hücuma keçdilər, lakin şəhəri yalnız 2000 il yanvarın 30-da tutdular. Mart ayının axırlarında hərbi əməliyyatların fəal mərhələsi başa çatdı, çeçenlər partizan müharibəsinə keçdilər.

İkinci çeçen müharibəsinin başlanğıcında Ç.R.-nda rusiyapərəst idarə yaradıldı. Onun rəhbəri müfti Əhməd Qədirov oldu. Çeçenistanın 2003 ildə qəbul edilmiş yeni konstitusiyasına görə, İÇR Rusiya Federasiyasının subyektidir. Həmin il keçirilmiş prezident seçkilərində Ə. Qədirov qalib gəldi. 2004 il mayın 9-da Qroznıda baş vermiş terror aktı nəticəsində Ə. Qədirov həlak oldu. Ç.R.-nın yeni prezidenti Alu Alxanov oldu. Onun istefasından (2007) sonra Ramzan Qədirov (Ə. Qədirovun oğlu) Ç.R.-nın prezidenti seçildi. R. Qədirovun prezidentliyi illərində Ç.R.-nın şəhər və kəndlərinin, müharibə nəticəsində dağıdılmış məscid, kilsə, muzey və digər tarixi abidələrin bərpasına başlanıldı.

**Təsərrüfat.** Ç.R. Şimali Qafqaz iqtisadi r-nuna daxildir. Hərbi əməliyyatlar başlayana qədər sənayenin əsas sahələri neft hasilatı, neft emalı və neft kimyası, maşınqayırma (neft avadanlıqları və s.), yeyinti, meşə və ağac emalı, yüngül, tikinti materialları istehsalı idi; bədii sənətkarlıq (daş üzərində oyma, bədii metal, xalçaçılıq) hərbi əməliyyatlar nəticəsində





tənəzzülə uğramışdır. K.t.-nda heyvandarlıq, meyvəçilik, üzümçülük, tərəvəzçilik inkişaf etmişdir; dənli bitkilər (buğda, çəltik), günəbaxan, şəkər çuğunduru becərilir.

**Səhiyyə.** Resp.-da 9752 çarpayılıq (əhalinin hər 10 min nəfərinə 69 çarpayı) 45 xəstəxana və 51 digər müalicə-profilaktika müəssisəsi, 59 həkim ambulatoriyası, 185 feldşer-mama məntəqəsi var (2014). 3121 həkim (əhalinin hər 10 min nəfərinə 23,2), 8467 orta tibb işçisi (əhalinin hər 10 min nəfərinə 62,9) çalışır.

Əhali arasında ölümün əsas səbəbləri qan dövranı sistemi xəstəlikləri (56%), yenitörəmələr (18,2%) və xarici amillərdir (5,8%). Resp.-da uşaq ölümü hər 1000 diri doğulana görə 15,0-dir (2014).

**Ədəbiyyat.** Çeçen ədəbiyyatı 20 əsrin 20-ci illərində çeçen yazısı ilə eyni zamanda meydana gəlmiş, milli folklor, klassik və müasir rus ədəbiyyatı təcrübəsinə əsaslanaraq, eyni kökdən olan *inquş ədəbiyyatı* ilə sıx əlaqədə inkişaf etmişdir. Ç. yazılı ədəbiyyatının banisi ilk çeçen povesti ("Aclıq") və romanının ("Petimat") müəllifi S.S.*Baduyevdir*. 30-cu illərdə M. Mamakayev, N. Muzayev və A. Mamakayevin poetik topluları və poemaları nəşr edilmişdir. Latın qrafikası əsasında ilk çeçen əlifbasını yaratmış X. Oşayev oçerk, pyes, "Odlu illər" tarixi tetralogiyasını yazmışdır. S. Arsanov tarixi romanlar müəllifi kimi tanınmışdır. Müharibədən sonrakı illərdə R. Axmatovanın lirikası şöhrət qazanmışdır. 60–70-ci illərdə nəsrdə oçerk və povest, tarixi roman janrları inkişaf edirdi,dramaturgiya mövzu genişliyi ilə seçilirdi. Müasir çeçen ədəbiyyatı xalqın mənəvi dünyasının formalaşmasına, milli, dini-etik ənənələrin yeni səviyyədə inkişafına xidmət edir. M.Geşayev, K.İbrahimov, Z.Musayev, A.Aydəmirov, A.Avtorxanov 21 əsr Ç. ədəbiyyatının görkəmli nümayəndələridir.

**Memarlıq və təsviri sənət.** Ç. ərazisindəki qədim mədəniyyət nümunələri e.ə. 3–1-ci minilliklərə aiddir. Skif-sarmat dövrü (e.ə. 7 əsr – eramızın 4 əsri) "*heyvani üslub*"da əsərlərlə, alanlar dövrü (8–13 əsrlər) katakomba sərdabaları ilə (Alkun, Duba-Yurt k.-ləri yaxınlığında), monqol-tatar dövrü (13 əsr – 15 əsrin əvvəlləri) Pliyevo k. yaxınlığındakı Borqa-Kaş mavzoleyi ilə təmsil olunur. Orta əsrlərdə dağlıq yerlərdə daşdan yaşayış və müdafiə tikililəri inşa edilirdi. 18 əsr – 20 əsrin əvvəllərində xalq yaşayış evləri dağlıq yerlərdə daşdan və ağacdan 1 və ya 2



Hacı Əhməd Qədirov məscidi. Qroznı.

mərtəbəli çoxotaqlı binalardan, düzənlik yerlərdə üstü kirəmitlə örtülən gilmöhrə (sonralar kərpicdən) tikililərdən ibarət idi. 1871 ildə Qroznının ilk planı hazırlanmışdır. 20 əsrdə Qroznı, Qudermes və Malkobekdə yaşayış və mədəni-məişət binalarının intensiv tikintisi aparılmış, geniş küçələr və prospektlər salınmışdır. 1940–50-ci illərdə Məktəblilər sarayı (1953, memar L.İ. Xait); Mərkəzi univermaq (1956, memar R. M. Vlasov); Respublika kitabxanası (1965, mühəndis V.M. İzmaylov və b.) üçün binalar inşa edilmişdir. M.Y. Lermontova, A.İ. Polejayevə, A.P. Çexova abidələr qoyulmuşdur.

2000-ci illərdə Qroznı ş. baş plana əsasən bərpa olunmuşdur (memarlar İ.M. Şnayder, Q.V. Terebinski, D.A. Qadiyev). Bu illərdə Ç.-da çoxmərtəbəli binalarla ("Qroznı-siti") yanaşı, məscidlər [Hacı Əhməd Qədirov məscidi ("Çeçenistanın ürəyi"), Şm. Qafqazda yeganə olan Alxan-Yurtdakı məscid kompleksi] inşa edilmişdir.

Xalq dekorativ-tətbiqi sənətində daş və ağac üzərində oyma, bədii metalişləmə, ağacdan, gildən və misdən ev avadanlığı, yapıncı, keçə xalçalar hazırlanması, qızıl və gümüş saplarla tikmə və s. inkişaf etmişdir. Ç. təsviri sənətində boyakarlıq və qrafika 1917 ildən sonra meydana gəlmişdir. Sovet dövrü təsviri sənətində tarixi və məişət janrları, portret və mənzərə (rəssamlar Y.N. Qaydukova, D.Q. İdrisov, V.K. Mordovin, Ş.A. Şamurzayev və b., qrafiklər X.A. Əhmədov, O.R. Çubarov), heykəltəraşlıq (V.P. Astapov, İ. D. Bekiçev, R.İ. Mamilov və b.), kitab qrafikası və teatr-dekorasiya sənəti inkişaf etmişdi. 1943 ildə yaradılmış Rəssamlar İttifaqının fəaliyyəti deportasiya zamanı dayandırılmış, yalnız 1950-ci illərdə bərpa edilmişdir.

21 əsr çeçen boyakarlığının tanınmış nümayəndələri F. Davudova, R. İjayev, S. Murtazəliyeva, R. Sərdalov və b. öz əsərlərində xalq yaradıcılığından bəhrələnirlər.

**Musiqi.** Ç. musiqisi c.-dan Dağıstan xalqları, q.-dən Gürcüstan və Şimali Osetiyanın etnik qrupları ilə qarşılıqlı təsir zəminində inkişaf etmişdir. Milli musiqi ənənələri şifahi xalq yaradıcılığı abidəsi olan "Nart" eposundan qaynaqlanır. Çeçen xalq mahnı və rəqs melodiyaları, instrumental musiqisi janr etibarilə rəngarəngdir (laduqlu yiş, xalxaran yiş). Yiş tipli mahnıların mətni ifaçılar tərəfindən tamam və ya qismən improvizə olunur (məzəli – zabariyn yiş, beşik mahnısı – aqanan yiş). Kişi xorunun ifasında dini məzmunlu mahnılar xüsusilə qeyd olunmalıdır (nəzm, zikr). Xalq mahnılarının solo, xor, birsəsli və çoxsəsli ifası ənənələri mövcuddur. Bəzi spesifik janrlı mahnılardan (laylalar, ağılar) başqa, hamısı instrumental müşayiətlə ifa olunur. Zərb aləti gema, nəfəsli tsuzam, dutra, máa, şedaq qədim xalq çalğı alətləridir. 19 əsrin 80–90-cı illərindən komuz (kexatpondur, yəni Qafqaz qarmonu) çeçenlərin ən populyar aləti olmuşdur. Zurna, ikitərəfli təbil, bayan, akkordeon, gitara geniş yayılmışdır.

Çeçen xalq musiqisinin toplanması, öyrənilməsi və nəşri üzrə geniş tədqiqatlara 20 əsrin 20-ci illərində başlanmış, hə-



"Vaynax" Dövlət Rəqs Ansamblı.

min dövrdə ilk dəfə T. Beybulatov tərəfindən yazıya alınmış çeçen melodiyaları dərc olunmuşdur. Resp.-da musiqi folkloru sahəsindəki işi Q.X. Mepurnov, N.S. Reçmenski, A.M. Şahbulatov, X. Axmadov və b. davam etdirmişlər. 1917 ildən resp.-da yeni tipli milli musiqi mədəniyyəti, peşəkar bəstəkarlıq yaradıcılığı yayılmağa başladı (A.A. Davidenkonun fp. üçün xalq melodiyalarının 30 işləməsi və a capella xoru üçün "Çeçen süitası", 1920-ci illər). Azərb. bəstəkarı M. Maqomayev çeçen musiqisinin inkişafına yaxından kömək etmişdir. Milli bəstəkarlıq məktəbinin banisi, ilk milli əsərlərin (çeçen inqilabçısı Aslanbəy Şəripova həsr edilmiş "Qəhrəmanlıq poeması", "Ç.-ın muxtariyyətinin on illiyinə həsr olunmuş poema", "Kollektiv dağlı rəqsi" və s.) müəllifi Q.X. Mepurnovdur. U. Beksultanov, S. Dimayev, A. Şahbulatov tanınmış bəstəkarlardır. İfaçılardan M. Aydəmirovanı, V. Daqayevi, A. Xamxoyevi, rəqqas M. *Esembayevi* göstərmək olar.

20 əsrin 80-ci illərindən mahnı-ballada janrı geniş yayılmışdır (müğənni İ. Alimsultanov). Çeçen bard mahnıları böyük populyarlıq qazanmışdır. Mahnıların əsas mövzusu çeçen müharibəsi və islam dininə aiddir. T. Mutsurayevin özünəməxsus ifaçılıq üslubu çeçen mahnı janrında mədəni hadisəyə çevrilmişdir. M. Aydayeva, A. Aydəmirova, A. Aydəmirov, J. Yevloyeva, Aza (X. Batayeva), E. Murtazaliyeva müasir çeçen estradasını təmsil edirlər. Xalq artisti T. Dadaşova, S. İslamov, M. Saqaipova, M. Mintsayev (Moskva Böyük Teatrının solisti) çeçen musiqi və mahnılarını geniş təbliğ edirlər. Bəstəkar, müğənni, xalq artisti Ə. Dimayevin yaradıcılığı folklor, klassik estrada, rok elementləri olan caz musiqisi ilə bağlıdır. L. Axmatova 2000-ci illərdə pop musiqisi janrında ilk ifaçı olmuşdur. A. Asalamov, B. Barakoyev, M. Yasayev və b. rok musiqiçiləridir. Resp.-da Dövlət simfonik orkestri, Dövlət filarmoniyası fəaliyyət göstərir.

Qroznı Dövlət Neft Texniki Universiteti.



**Teatr.** Qədim mərasimlərdə (toy, bayram, dəfn və s.) teatr sənəti elementləri olmuşdur. 20 əsrin 30-cu illərindən özfəaliyyət, sonra isə professional teatr sənəti inkişaf etmişdir. 1931 ildə Qroznıda çeçen teatr studiyası yaradıldı. Studiyanın tədris repertuarına S. Baduyevin pyesləri daxil idi. Teatrın debütü onun "Qırmızı qala" əsəri ilə olmuşdur (1933). Çeçen və inquş teatr studiyaları əsasında 1934 ildə Çeçen-İnquş Dram Teatrı yaradılmışdır. Çeçen milli teatrının formalaşmasında Azərb. rej.-larının (A. Tuqanov, M. Əlili) böyük rolu olmuşdur. M. *Esembayevin* iştirakı ilə "Azərbaycanfilm" kinostudiyasında "Mən rəqs edəcəyəm" (1963) bədii filmi çəkilmişdir. Teatr xadimləri: Y. Zubayrayev, T. Əliyeva, A. İsayeva, X. Xakişeva, A. Həmidov, V. Tatayev, X. Mustafayeva və b. Teatra V. Şatov, V. Şanin, T. Nefedov rəhbərlik etmiş, müxtəlif vaxtlarda burada rej.-dan V. Vaynşteyn, N. Desiq, A. Ridal, P. Xrlip, M. Minayev, E. Şmidt və b. işləmişlər. Milli kadrların hazırlanmasında Dövlət Teatr Sənəti İn-tunun böyük rolu olmuşdur. Teatrın repertuarına dünya klassiklərinin (U. Şekspir, F. Şiller, Q. Lorka, A. Puşkin, A. Ostrovski, N. Qoqol, A. Çexov) və milli dramaturqların əsərləri daxildir. 1960-cı illərdə teatrın səhnəsində "Boj-Əli", "Ölməzlər", "Sovdat və Daud" (A. Həmidov), "Azadlıq, ya ölüm", "Şeyx Mansur" (M. Solsayev), "Qonşular" (S. Nunuyev), "Qara hörük" (L. Yehyayev), "Taymiyev Beybulat" (M. Musayev), "Beşto" (M. Solsayev, M. Geşayev) və b. əsərlər tamaşaya qoyulmuşdur.

20 əsrin sonu–21 əsrin əvvəllərində hərbi münaqişə illərində də teatr fəaliyyətini davam etdirmiş və Şimali Qafqaz resp.-larında, Anapa ş.-ndə (Krasnodar vil.) çıxış etmiş, Fransada, Almaniyada qastrolda olmuşdur.

Resp.-da Qroznı rus dram teatrı (1904 ildən), Çeçen Dövlət Dram Teatrı (1931 ildən), Kukla Teatrı (1935 ildən), Çeçen Dövlət Gənc tamaşaçılar Teatrı (1937 ildən), Serlo Çeçen Dövlət Gənclər Teatrı (2005 ildən) fəaliyyət göstərir. 2000-ci illərdən Ç. dram teatrında aktyorlardan D. Omayev, R. Qiçayev, N. Xadiyev, X.B. İsrailov, X. Kutayev, U. Zubayrayev, A. Djamayev çıxış edirlər.

**Turizm və rekreasiya.** Resp.-da turizmin inkişafı üçün geniş resurslar vardır. "Şovda" ("Bulaq") turizm mərkəzi; və s. turizm obyektlərin isə bir neçə hoteli, "Zama", "Arena Siti", "Hotel Qroznı Siti", "Briz" və s. fəaliyyət göstərir.

**Təhsil və mədəni-maarif müəssisələri.** Qroznı Dövlət Neft İn-tu (1920; hazırda Qroznı Dövlət Neft Texniki Un-ti), Çeçen Dövlət Un-ti (1938), Çeçen Dövlət Pedaqoji İn-tu (1980), Rusiya İslam Un-ti (2009) var (hamısı Qroznıdadır). ÇR-ın EA, Milli kitabxana (əsası 1904 ildə qoyulmuşdur) və uşaq kitabxanası (1946); Milli muzey (əsası 1924 ildə qoyulmuşdur), etnoqrafik (1980), diyarşünaslıq (1962) muzeyləri fəaliyyət göstərir. Beynəlxalq rəqs və kino festivalları keçirilir.

**Kütləvi informasiya vasitələri.** Resp.-da çeçen və rus dillərində 18 qəzet çıxır. Ən iri qəzetlər: "Vesti respubliki", "Daymox", "Molodyojnaya smena", "İslaman zanarş", "Stolitsa plyus", "Arqun" və s. "Vaynax", "Orqa" ("Arqun"), "Nana" (çeçen və rus dillərində) və "Stelaad" ədəbi-bədii və ictimai-siyasi jurnalları nəşr olunur.

Radio 1928 ildə (çeçen və rus dillərində), televiziya isə 1958 ildə (çeçen, inquş və rus dillərində) yaradılmışdır. "Radio Kavkaz" ("Çeçnya svobodnaya", 1999; 2008 ildən indiki adı ilə) ölkədə ən iri radiostansiyadır. Resp.-da 3 teleradio şirkəti, həmçinin 2 informasiya agentliyi fəaliyyət göstərir (2013).

**ÇEÇENLƏR** (özlərini n o x ç i adlandırırlar) – RF-də xalq, Çeçen Resp.-nın əsas əhalisi. Çeçen Resp.-nda (1 mln. 206 min nəfər), İnquşetiyada (18,7 min), Dağıstanda (93,6 min), Kalmıkiyada (3,3 min), Şimali Osetiyada (2,2 min), Kabarda-Balkariyada (1,9 min), Stavropol diyarında (11,9 min), Rostov (11,4 min), Volqoqrad (9,6 min), Həştərxan (7,2 min), Saratov (5,7 min) və Tümen vil.-lərində, Moskvada (14,5 min), Xantı-Mansi muxtar dairəsində (6,8 min), həmçinin Gürcüstanda (7,9 min), Azərbaycanda (5 min), Qazaxıstanda (31,4 min), Qırğızıstanda (1,8 min), Ukraynada (2,8 min), Türkiyədə (70 min), İordaniyada (15 min), İsraildə (6 min), Suriyada (3 min), Avropa İttifaqı ölkələrində (130 min, o cümlədən Avstriyada 20 min), ABŞ, Kanada və s. ölkələrdə yaşayırlar. Ümumi sayları təqr. 1 mln. 550 min (2012) nəfərdir. Dindarları müsəlmandır. Nax-Dağıstan qrupuna aid olan *çeçen dilində* danışırlar. Akka (Aux), Çebirla, Melxista, İtumqala, Qalaynçoj, Key-İstxoy (Kisti) və düzənlik dialektləri var. Rus dili də yayılmışdır (74%-i sərbəst danışır). Yazıları 1917 ildən sonra əvvəlcə ərəb, 1927 ildən latın, 1938 ildən isə rus əlifbası əsasındadır.

Strabonun "Coğrafiya"sında adı çəkilən "qarqarlar" etnoniminin etimologiyası nax dillərindəki "gerqara" – "doğma", "yaxın" sözünə yaxındır. İsadiklər, dvallar və s. etnonimlər də, ehtimal ki, nax dillərindəndir. Bəzi orta əsr mənbələrində Ç.-i "noxçi dillərində danışanlar" (7 əsr), "noxçi xalqı" (14 əsr) adlandırırlar. 13 əsr fars qaynaqlarında adları sasanlar kimi qeyd olunur, sonralar bu ad rus sənədlərində də istifadə olunurdu. 16–17 əsrlərə aid mənbələrdə Ç.-in tayfa adlarına (içkeriyalılar – noxçmaxkxoy, okoklar – akkxiy, şubutlar – şatoy, çarbillər – çeberloy, melklər – malxiy, çantinlər – çantiy, şaroylar – şaroy, terloylar – terloy) rast gəlinir.

Protonaxların antropoloji tipinin Son Tunc – Erkən Dəmir dövründə formalaşdığı ehtimal olunur. Qafqazın şm. yamaclarında, həmçinin Ön Qafqazın çöllərində məskunlaşan qədim Ç. skiflər, sonralar sarmatlar və alanlarla əlaqə yaratmışdılar. Təqr. 8–12 əsrlərdə Çeçenistanın düzənlik zonasında və Şimali Qafqazın qonşu vil.-lərində polietnik *Alaniya* dövləti, Çeçenistanın dağlıq yerlərində və Dağıstanda isə *Sərir* dövlət qurumu formalaşmışdı. Monqolların yürüşlərindən (1222 və 1238–40) sonra Terekarxası və qismən Çeçen düzənliyi Qızıl Ordanın tərkibinə daxil idi. 14 əsrin sonlarında Çeçenistan əhalisi Simsir dövlətində birləşdi. 16–17 əsrlərdə Qafqaz bərzəxinə Osmanlı imperiyası (onun vassalı olan Krım xanlığı ilə birgə), İran və Rusiya daima iddia edirdilər. Dövlətlərarası mübarizənin gedişində çeçen torpaqlarında rusların ilk qalaları və kazak şəhərcikləri salınır, çeçen hakimləri və ail icmaları ilə Rusiya arasında diplomatik münasibətlər qurulurdu. Elə həmin vaxtdan Ç.-in məskunlaşma əraziləri tam olaraq formalaşdı. I Pyotrun İran yürüşündən (1722) sonra Rusiyanın Çeçenistana qarşı siyasəti müstəmləkə xarakteri daşımağa başladı. II Yekaterina hakimiyyətinin son illərində rus qoşunları Terekin sol sahilini tutaraq burada Qafqaz hərbi xəttinin bir hissəsini quraraq Mozdokdan Vladiqafqazadək Çeçenistan-Kabarda sərhədi boyunca qalalar saldılar. Bütün bunlar 18 əsrin sonu – 19 əsrin əvvəllərində Ç.-in milli azadlıq hərəkatının güclənməsinə təkan verdi. Təqr. 1840 ildə Çeçenistan və Dağıstan ərazisində Şamil teokratik dövlət – imamlıq yaratdı. Bu dövlət əvvəllər Rusiya ilə uğurlu müharibə aparsa da, 1859 ildə məğlub olmuş, Çeçenistan isə Aux Ç.-i və qumuqların məskunlaşdığı Xasavyurd mahalı ilə birlikdə Rusiyaya birləşdirilmiş və Terek vil.-nə daxil edilmişdir. 1922 ildə RSFSR tərkibində Çeçen MV yaradılmışdı. Qafqaz müharibəsi zamanı Çeçenistandan qoparılmış torpaqların bir hissəsi onun tərkibinə verilmişdir. Çeçen dilində kargüzarlıq və təhsil tətbiq olunmuş, digər mədəni və sosial-iqtisadi dəyişikliklər edilmişdi. Bununla yanaşı, 1920-ci illərdə başlamış və repressiyalarla müşayiət olunan kollektivləşdirmə Ç.-ə ağır zərbə vurmuşdu. 1934 ildə Çeçenistan İnquş MV ilə birləşdirilərək Çeçen-İnquş MV, 1936 ildən Çeçen-İnquş MSSR adlandırıldı. 1944 ilin fevralında 500 min çeçen və inquş zorla Qazaxıstana sürgün edildi. Onların əksəriyyəti sürgünün ilk illərində həlak oldu. 1944 ildə ləğv edilmiş Çeçen-İnquş MSSR 1957 ilin yanvarında bərpa edildi. Bununla belə bəzi dağlıq r-nlar Ç. üçün qapalı qaldı və oranın əvvəlki sakinlərini düzənlik aillərində və kazak stanitsalarında yerləşdirirdilər. Aux Ç.-i Dağıstana qayıtdılar. 1992 ildə RF xalq deputatları qurultayında Çeçen-İnquş Resp.-nın İnquş Resp.-na və Çeçen Resp.-na bölünməsi haqqında qərar qəbul edildi.



Milli çeçen geyimi.

Ənənəvi olaraq arpa, buğda, darı, yulaf, çovdar, kətan, paxla və s. becərilirdi.

Sonralar qarğıdalı və qarpız əkməyə başladılar. Bağçılıq və bostançılıq da inkişaf etmişdi. Şum alətləri kotan (qota), tirli alət (nox) idi. Üçtarlalı əkin sistemi yayılmışdı. Dağlıq vil.-lərdə köçəbə maldarlıq inkişaf etmişdi. Düzənliklərdə yetişdirilən qaramal qoşqu vasitəsi kimi istifadə olunurdu. Minik üçün cins atlar yetişdirilirdi. Çeçenistanın düzənlik və dağlıq r-nlarında təsərrüfat üzrə ixtisaslaşma var idi: dağlı Ç. mal-qara müqabilində düzənliklərdən taxıl alırdılar. Kustar istehsalı mühüm rol oynayırdı. Qroznı, Vedeno, Xasavyurd, Arqun mahallarında istehsal olunan çeçen mahudu böyük şöhrət qazanmışdı. Dəri emalı, həmçinin xalçaların, burkaların və digər keçə məhsullarının hazırlanması geniş yayılmışdı. Silah istehsalı mərkəzləri Starıye Atagi, Vedeno, Darqo, Şatoy, Cuqurtlar və s., dulusçuluq mərkəzləri isə Şali, Dubayurd, Starı yurd, Novı yurd və b. kəndlər idi. Həmçinin zərgərlik və dəmirçilik, ipəkçilik, sümük və buynuzişləmə geniş yayılmışdı.

Dağlıq kəndlər nizamsız, sıx tərkibli məskən formasında idi. Yastı damı olan ikimərtəbəli daş evlər geniş yayılmışdı. Aşağı mərtəbədə mal-qara saxlanılır, yuxarı mərtəbədə isə 2 yaşayış otağı yerləşirdi. Kəndlərin çoxunda 3–5 mərtəbəli yaşayış-müdafiə bürcü var idi. Yollar və çaylar boyu uzanan düzənlik məskənləri iri olurdu (500–600, hətta 4000-dək həyət). Sıra ilə yerləşən və qapısı eyvana açılan bir neçə otaqdan ibarət çubuqhörmə evlər səciyyəvidir. Əsas otaq ailə başçısına məxsus idi. Ailənin bütün həyatı ocağın yerləşdiyi bu otaqda keçirdi. Evli oğulların otaqları əsas otağa bitişik tikilirdi. Qonaqlar üçün bir otaq ayrılır, yaxud həyətdə məxsusi inşa olunurdu. Təsərrüfat tikililərinin yerləşdiyi həyət, adətən, hasarlanırdı. Çeçen evlərinin interyerinin fərqləndirici cəhəti mebelin olduqca az olması idi: otaqlara yalnız sandıq, üçayaqlı alçaq masa və bir neçə skamya qoyulurdu. Divarlara dəri, xalça və onların üzərində silah asılır, döşəmə həsirlə örtülürdü. Ocaq, onun üzərindəki zəncir və kül müqəddəs sayılırdı, onlara hörmətsizlik qan intiqamına səbəb olurdu. Hətta qatil də zəncirdən tutsa, qohum hüququ alırdı. Zəncirə and içirdilər və onunla lənətləyirdilər. Ocağın qoruyucusu evin ən yaşlı qadını idi. Ocaq otağı kişi və qadınlar üçün olan hissələrə ayırırdı.

Yun parçaların bir neçə növü mövcud idi. Quzu yunundan hazırlanmış "isxar" parçası yüksəkkeyfiyyətli, sağmal qoyun yunundan hazırlanmış parça isə aşağı keyfiyyətli hesab olunurdu. Ç. təqr. 16 əsrdən ipək və kətan parça istehsal edirdilər. Ənənəvi geyimləri Qafqaz xalqları üçün səciyyəvidir. Kişi geyimləri köynək, şalvar, beşmet və çərkəzidir. Tunikabiçimli köynəyin yaxalığı qabağdan düymələnirdi. Köynəyin üstündən kəmərinə xəncər bağlanan beşmet geyinirdilər. Çərkəzi bayram geyimi hesab olunurdu. Çərkəzilər beldən kəsiklə tikilir, ətəyi yuxarıdan aşağıya doğru getdikcə enlənirdi. Qurşağa qədər metal düymələrlə düymələnir, döş hissəsinə vəznələr tikilirdi. Aşağıya doğru daralan şalvarlar mahud, tumac və qoyun dərisindən tikilmiş corabların içinə salınırdı. Qış geyimləri qoyun dərisindən tikilmiş kürk və burkadır (verta). Kişi baş geyimləri qiymətli xəzdən tikilmiş, yuxarıya doğru genələn papaqlardır. Çobanlar xəz papaqlar geyinirdilər. Keçə papaqlar da var idi. Papaq kişi ləyaqətinin rəmzi hesab olunurdu, onun vurub yerə salınması qan intiqamına gətirib çıxarırdı. Qadın geyimlərinin əsas elementləri köynək və şalvar idi. Tunikabiçimli köynəyin uzunluğu bəzən dizədək, bəzən də yerədək olurdu, yaxalığı bir və ya üç düymə ilə bağlanırdı. Üst geyimləri beşmetdir. Bədənə oturan, ipək, məxmər və zərxaradan tikilən "qabli" bayram paltarı idi. Qablini döşlüklə geyinirdilər və kəmərlə bağlayırdılar. Bayramlarda qadınlar burnu bağlı və arxası açıq dabanlı başmaqlar geyirdilər. Qadın baş geyimləri bir ucu sinəyə düşən, digər ucu isə çiyni üstə kürəyə atılan böyük və kiçik yaylıqlar, şallardır (kortallar). Qadınlar (əsasən, yaşlılar) yaylığın altına arxasında hörük qını olan papaq (çuxta) geyirdilər. Geyimlərin rəngi qadınların statusu ilə (ərdə olan qadın, subay, yaxud dul qadın) müəyyənləşirdi.

Ənənəvi yeməkləri yazda, əsasən, bitki mənşəli qidalar, yayda meyvə, süddən hazırlanan xörəklər, qışda isə ət xörəkləridir. Gündəlik yeməkləri siskal-beram (pendir-çörək), şorbalar, sıyıqlar, fəsəli, varlılarda isə kald-dyattiy (yağla kəsmik), jija-qalnaş (düşbərə), bulyon, pendirli, ətli, boranılı və s. tərkibli kökələrdir.

Ç.-in və digər xalqların ailələrindən ibarət qonşu icması üstünlük təşkil edirdi. O, iri və yaxud bir neçə kiçik yaşayış məskəninin sakinlərini birləşdirirdi. İcmanın həyatı qəbilə bölmələri (tayp) nümayəndələrinin yığıncağında ("kxel") tənzimlənirdi. Kxeldə icmaçıların məhkəmə və digər işlərinə baxılırdı. Ümumicma yığıncağı ("icma kxeli") icma torpaqlarından istifadə qaydalarını tənzimləyir, əkin-biçin vaxtını təyin edir, qan düşmənləri arasında barışığa vasitəçilik edir və digər məsələlərə baxırdı. Dağlarda isə öz şivələri ilə fərqlənən xırda qohum qruplardan (qar) ibarət qəbilə məskənləri, həmçinin tayplardan ibarət iri birləşmələr – toxumlar qalmaqda idi. Satın alınmamış hərbi əsirlərdən olan qullar da mövcud idi. Uzunmüddətli xidmətdən sonra belə qullar sahiblərindən ailə qurmaq hüququ və torpaq sahəsi ala bilərdilər, lakin bundan sonra da tamhüquqlu icmaçı olmurdular. Qonaqpərvərlik, dostpərəstlik, qardaşlıq, qəbilə və qonşular arasında qarşılıqlı yardım, qan intiqamı adətləri böyük əhəmiyyət kəsb edirdi. Ən ağır cinayətlər qonağın, günahı bağışlanmış qan düşməninin öldürülməsi, zorlama və s. hesab olunurdu. Qan intiqamının elan edilməsi məsələsini icma ağsaqqalları həll edir, barışığın mümkünlüyünə və şərtlərinə isə ümumi yığıncaqda baxılırdı. Qisas, cəzalandırma və qətl qadınların yanında baş verə bilməzdi; hətta öz yaylığını başından açıb vuruşanların ayağının altına atan qadın qantökmənin qarşısını ala bilərdi. Ərlə arvad, kürəkənlə arvadın qohumları, gəlinlə ərin qohumları, valideynlərlə övladlar arasında çəkinmə adəti qalmışdır. Bəzi yerlərdə çoxarvadlılıq və levirat saxlanılırdı. Qəbilə birlikləri ekzoqam deyildi, üçüncü nəslədək olan qohumlarla evlənmək qadağan idi.

Folklorları zəngindir: rəvayətlər, əfsanələr, nağıllar, nəğmələr, epik dastanlar (nart-ortsxoy eposu, illi eposu və s.), rəqslər. Musiqi alətləri – qarmon, zurna, dəf (qaval), təbil (nağara) və s. Dağlara, ağaclara, meşəliklərə və s. inanc qorunub saxlanmışdır. İslamaqədərki panteonun əsas allahları Dela (günəş və səma allahı), Sela (şimşək və ildırım allahı), Qal-yerdı (maldarlıq himayəçisi), Yelta (ovçuluq himayəçisi), Tuşoli (məhsuldarlıq allahı), Eştr (axirət dünyasının allahı) və b. idi. İslam Çeçenistanda 8 əsrdən yayılmışdır. 20 əsrdə çeçen ziyalıları formalaşmışdır.

**ÇEÇOTKA** – bax *Step.*

**ÇEÇÚLİN** Dmitri Nikolayeviç (22.8.1901, indiki Ukr. Resp. Şostka ş. – 29.10.1981, Moskva) – rus memarı. SSRİ xalq memarı (1971). SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü (1979). Sosialist Əməyi Qəhrəmanı (1976). SSRİ Dövlət mükafatı laureatı (1941, 1953). 1945–49 illərdə Moskvanın baş memarı olmuşdur. Şəhərin yenidən qurulması planının həyata keçirilməsində fəal iştirak etmişdir: metropolitenin "Komsomolskaya" (1-ci növbəsi, 1935), "Kiyevskaya" (2-ci növbəsi, 1937–38), "Dinamo" (yerüstü vestibülü, 1938) stansiyaları, Çaykovski ad. konsert zalı (1940, K.K. Orlovla birgə), "Rossiya" mehmanxanası kompleksi (Mərkəzi konsert zalı ilə; 1967–74, müştərək) və s.





**ÇEDVİK** (Chadwick) Ceyms (20.10.1891, Mançester – 24.7.1974) – ingilis fiziki, London Kral Cəmiyyətinin üzvü (1927). Nobel mükafatı laureatı (1935). E. *Rezerfordun* şagirdi. Mançester və Kembric un-tlərini bitirmişdir. Kembric Un-tində dərs demiş və Kavendiş laboratoriyasının direktor müavini (1923–35), Liverpul Un-tinin prof. (1935–48) olmuşdur. Əsas işləri atom nüvəsi fizikasına aiddir. 1914 ildə beta-şüalanmanın kəsilməz enerji spektrini kəşf etmişdir. İlk işləri radioaktivliyə həsr olunmuşdur. 1920 ildə eksperimental olaraq nüvənin yükünün elementin sıra nömrəsinə bərabər olmasını təsdiq etmişdir. Alfa-zərrəciklərin təsiri altında elementlərin çevrilməsini (E. Rezerfordla birlikdə) və qamma-kvantlarla elektron-pozitron cütünün əmələ gəlməsini öyrənmişdir (P. *Blekket* və C. *Okkialini* ilə birlikdə). Ç.-in ən böyük xidmətlərindən biri, berillium hədəfi alfa-hissəciklər seli ilə şüalandırarkən neytronu kəşf etməsidir (1932). 1934–35 illərdə əməkdaşı M. Qoldhaberlə birlikdə qamma-kvantların təsiri altında deytronun neytron və protona fotodissosiasiyasına aid təcrübələr qoymuşdur. 1943–45 illərdə Los-Alamos (ABŞ) laboratoriyasında atom bombasının layihəsi üzərində işləyən ingilis alimləri qrupuna rəhbərlik etmişdir.



**ÇEHELGƏZ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Dicuycin kəndistanında, Ərdəbildən 15 *km* q.-dədir.

**ÇEHELSÜTUN** (far. چهل ستون – qırx+*sütun*) – orta əsrlərə aid Azərb. memarlıq abidəsi (1558). Qəzvindədir. Səfəvi şahı I Təhmasibin [1524–76] ziyafətlər və rəsmi qəbullar üçün tikdirdiyi saray köşkü olmuşdur. Qəzvin Səfəvilər dövlətinin paytaxtı olan dövrdə (1555–97/98) salınmış Cəfərabad saray şəhərciyinin əsas binalarından idi. "Dövlətxana" və "Təhmasib külafirəngisi" də adlanırdı. Ç., planda künclər kəsilmiş kvadrat şəkilli, ikimərtəbəli binadır. Birinci mərtəbə mərkəzində hovuz olan səkkizüzlü salondan və onu dövrələyən eyvandan ibarətdir. Həmin quruluş ikinci mərtəbədə də təkrar olunur. Ancaq birinci mərtəbədəki eyvanın ağır, sivri tağları ikinci mərtəbədə ağacdan hazırlanmış 40 zərif sütunla əvəz edilmişdir (Ç. adı da buradandır). Ç.-un bayır və iç divarlarının səthləri zəngin ornamentlərlə bəzədilmiş, interyerlərdə müxtəlif mövzulu divar rəsmləri çəkilmişdi. Bu rəsmlərin çoxunu 16 əsr Azərb. rəssamı *Müzəffər Əli*, digər qismini isə I Təhmasibin özü işləmişdi. Ç. dövrümüzədək öz ilkin görkəmini dəyişmiş şəkildə çatmış, bəzəkləri isə qalmamışdır.

**ÇEX DİLİ** – *çexlərin* dili. Çexiya Resp.-nın dövlət dili. Bu dildə 12 mln. adam danışır (2009). Slavyan dillərinin qərb qrupuna daxildir. 4 dialekt qrupu var. Səs sistemi uzun və qısa saitlərin bir-birini izləməsi, kar və cingiltili qoşa samitlərlə səciyyələnir. İsimlərdə cins, say və hallanma, ismi və feili sifətlərdə cins kateqoriyaları mövcuddur. Feil formaları zəngindir. İlk yazılı abidələri 13 əsrə aiddir. Müasir ədəbi dil 19 əsrdə formalaşmışdır. Yazısı latın əlifbasına əsaslanır. Ç.d.-nin spesifik səslərini bildirmək üçün diakritik işarələrdən istifadə olunur.

*Əd.:* Ш и р о к о в а А.Г. Чешский язык. М., 1961.

**ÇEX QARDAŞLARI,** B o h e m i y a q a r d a ş l a r ı (Moraviyada – M o r a v i y a q a r d a ş l a r ı) – *taborluların* məğlubiyyətindən sonra 15 əsrin ortalarında meydana gəlmiş və Roma papasından asılı olmayan müstəqil kilsə təşkilatına çevrilmiş çex dini təriqəti. Ç. q.-nın ilk icmaları yoxsulluğu, dünyəvi işlərdən kənarda qalmağı və s. təbliğ edirdi. 15 əsrin sonundan onların fəaliyyətində maarifçilik mühüm yer tuturdu. Çexiya üsyanının (1618–20) məğlubiyyətindən sonra təriqət darmadağın edilmiş, üzvləri isə Çexiya və Moraviyadan qovulmuşdular. Ç.q. sıralarından bir çox alim yetişmişdir (Yan Blaqoslav, Y.A. *Komenski* və b.).

**ÇEXANOVER** Aaron (d.1.10.1947, Hayfa, İsrail) – İsrail bioloqu, kimyaçı. Zülalın ubikvitin vasitəsilə deqradasiyası kəşfinə görə Nobel mükafatı laureatı (2004, A.*Herşko* və İ.*Rouz* ilə birlikdə). Biologiya üzrə İsrailin Dövlət mükafatına layiq görülmüşdür. Qüdsdə Yəhudi Un-tinin tibb fakültəsini bitirmişdir (1974). 1977–81 illərdə A. Herşkonun rəhbərliyi altında Hayfa Texnionunun biokimya laboratoriyasında işləmiş və 1981 ildə doktorluq dərəcəsi almışdır. Ç.-in A.Herşko, A.Varşavski və b. ilə hüceyrə biokimyasına dair tədqiqatları mütəxəssislər arasında geniş əks-



Cehelsütun sarayı.



sədа doğurmuşdur. 1986 ildən Texnionda biokimya kafedrasında işləmişdir. Onun ideyaları və tədqiqatları bəzi xəstəliklərin (xərçəng, astma) öyrənilməsində və müalicəsində yeni üsulların işlənib hazırlanması üçün əsas olmuşdur. 1996 ildə Avropa Molekulyar Biologiya təşkilatına və onun şurasına üzv seçilmişdir.

**ÇEXİYA** (Čechy), Çexiya Respublikası (Česká republika).





**İnzibati ərazi bölgüsü (2011)**

| Dairələr | Sahəsi, min $km^2$ | Əhalisi, min *nəfər* | İnzibati mərkəzi |
|---|---|---|---|
| Cənubi Çexiya | 10,1 | 643,0 | Çeske-Budeyovitse |
| Cənubi Moraviya | 7,2 | 1100,0 | Brno |
| Karlovi-Vari | 3,3 | 314,4 | Karlovi-Vari |
| Kraloveqrad | 4,8 | 561,1 | Qradets-Kralove |
| Liberets | 3,1 | 447,8 | Liberets |
| Moraviya-Sileziya | 5,4 | 1260,0 | Ostrava |
| Olomouts | 5,3 | 647,8 | Olomouts |
| Orta Çexiya | 11,0 | 1284,6 | Praqadan idarə olunur |
| Pardubitse | 4,5 | 520,4 | Pardubitse |
| Plzen | 7,6 | 579,6 | Plzen |
| Praqa (paytaxt dairəsi) | 0,5 | 1262,5 | |
| Usti | 5,3 | 852,5 | Usti-nad-Labem |
| Vısoçina | 6,8 | 515,3 | Yiqlava |
| Zlin | 4,0 | 597,0 | Zlin |

### Ümumi məlumat

Mərkəzi Avropada dövlət. Çexiya, Moraviya və qismən Sileziya tarixi əyalətlərindən ibarətdir. Şm.-da və şm.-ş.-də Polşa, c.-ş.-də Slovakiya, c.-da Avstriya, c.-q.-də və şm.-q.-də Almaniya ilə həmsərhəddir. Sah. 78,9 min $km^2$. Əh. 10,5 mln. (2011). Paytaxtı Praqa ş.-dir. Rəsmi dil çex dili, pul vahidi Çexiya kronasıdır. İnzibati cəhətdən 13 dairəyə və paytaxt dairəsinə bölünür.

Ç. BMT-nin (1993), NATO-nun (1999), AB-nin (2004), AŞ-nin (1993), ATƏT-in (1993), BYİB-in (1993), İƏİT-nin (1995), ÜTT-nin (1995) üzvüdür.

### Dövlət quruluşu

Ç. parlament respublikasıdır. Dövlət başçısı prezidentdir, parlament tərəfindən 5 il müddətinə seçilir. O, Konstitusiya Məhkəməsi hakimlərini təklif etmək, parlamentin Deputatlar palatasını buraxmaq, qanunlara veto qoymaq səlahiyyətlərinə malikdir. Prezident həmçinin baş naziri və onun təqdimatı ilə hökumətin digər üzvlərini təyin edir.

Qanunverici hakimiyyəti ikipalatalı parlament təmsil edir. Əsas qanunverici orqan olan Deputatlar palatası proporsional seçki sistemi üzrə 4 il müddətinə seçilən 200 deputatdan, Senat majoritar seçki dairələrindən 6 il müddətinə seçilən 81 nümayəndədən (nümayəndələrin üçdə biri hər iki ildən bir yenidən seçilir) ibarətdir. Deputatlar palatasının qəbul etdiyi qanun layihəsini Senatın rədd etmək hüququ var.

İcraedici hakimiyyəti Baş nazirin başçılıq etdiyi hökumət həyata keçirir. O, parlament qarşısında hesabat verir. Deputatlar palatasında hökumətə etimad məsələsi qoyula bilər.

Ç.-da çoxpartiyalı sistem mövcuddur. Əsas siyasi partiyalar: Vətəndaş demokratik partiyası, Çexiya sosial-demokrat partiyası, Çexiya və Moraviyanın kommunist partiyası, Xristian-demokratik ittifaqı – Çexoslovakiya xalq partiyası.

### Təbiət

**Relyef.** Ç. ərazisinin çox hissəsi Şumava, Çexiya Meşəsi, Filizli dağlar, Krkonoşe (hünd. 1602 *m*-ədək, Snejka d.–ölkənin ən yüksək nöqtəsi) dağ silsilələri ilə əhatələnən Çexiya massivindədir. Massivin daxili hissəsini yüksəkliklərlə ayrılmış bir sıra ovalıqdan və onları ayıran alçaq dağ massivlərindən ibarət Çexiya çuxuru təşkil edir. Ç.-nın c.-unda və mərkəzi hissəsində Çexiya-Moraviya yüksəkliyi yerləşir. Burada çoxsaylı karst relyef formaları (o cümlədən *Matsoxa* karst uçurumu) var. Ölkənin ş.-ini Karpat d-rının q. ətəkləri tutur.

**Geoloji quruluş və faydalı qazıntılar.** Çexiya massivi qədim Variss qırışıqlığı (bax *Hersin qırışıqlığı*) özülünün nüvəsini təşkil edir; Kembriyəqədər yaşlı qneyslərdən, maqmatitlərdən, kristallik şistlərdən, qranulitlərdən, Paleozoyun kvarsit və qumdaşılarından ibarətdir. Çökmə örtüyünü Tabaşir və Kaynozoyun, əsasən, qırıntılı süxurları təşkil edir. Ç.-nın ərazisi zəif seysmik zonada yerləşir. Zəlzələlərin episentri, adətən, həmişə ölkə ərazisindən kənarda (Alp və Karpat d-rında) olmuşdur. Nisbətən güclü (7 balədək) zəlzələlər Kraslitse, Trutnov, Opava d-rında baş vermişdir. Əsas faydalı qazıntıları daş kömür (*Ostrava-Karvin kömür hövzəsi*) və qonur kömürdür (*Şimali Çexiya qonur kömür hövzəsi*). Hidrotermal mənşəli çoxsaylı qurğuşun-sink filizi yataqları (*Prşibram*, Kutna-Qora, Strşibro, Zlate-Qori, Qorni-Beneşov, Qorni-Mesto), Moraviyada mis filizi yataqları (Starc-Ransko və s.), Filizli dağlarda Variss qranitoidləri ilə əlaqədar qalay və volfram yataqları (Sinovets, Krupka və s.), uran filizi yataqları, qiymətli və məmulat daşları, tikinti








materialları yataqları da var. Ç. mineral sularla da zəngindir. Bu suların əsasında Qərbi Ç.-da Karlovi-Vari, Marianske-Lazne, Frantişkovi-Lazne, Yaximov, Kinxvart, Konstantinovi-Lazne, Orta Ç.-da Podebradi, Moraviyada Luqaçovitse, Teplitse-Beçva, Darkov, Velke-Losini, Yesenik və s. kurortları fəaliyyət göstərir.

**İqlim.** İqlimi mülayimdir; yayı isti, qışı soyuq və rütubətlidir. İyulun orta temp-ru düzənliklərdə 19–20, dağlarda 4–8°C, yanvarın orta temp-ru uyğun olaraq –2-dən –4°C-yədək və –8-dən –10°C-yədəkdir. Yağıntının illik miqdarı düzənliklərdə 450–600 *mm*-dən dağlarda 1200–1600 *mm*-ə qədərdir.

**Daxili sular.** Ç. sıx, qısa çaylar şəbəkəsinə malikdir. Nisbətən iri çayları Laba (Elba) qolu Vltava ilə və Moravadır (Dunayın sol qolu). Yaz aylarında dağlarda qarın əriməsi ilə əlaqədar çayların çoxunda daşqınlar olur. Laba və Vltavanın aşağı axını gəmiçiliyə yararlıdır. Buzlaq və tektonik mənşəli kiçik göllər, su anbarları var.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** Ayrı-ayrı r-nların relyefində, iqlimində və hidrogeologiyasındakı fərqlər torpaq örtüyündə də özünü göstərir. Ən çox podzollu və qonur meşə torpaqları yayılmışdır; qaratorpaqlar və digər torpaqlar az yer tutur. Podzollu torpaqların xeyli hissəsi meşələrlə örtülüdür. Ölkənin mərkəzi r-nlarında və Moraviyada nisbətən əhəmiyyətli qaratorpaq ərazilər var. Dənli bitkilər, əsasən, qonur torpaqlarda əkilir.

Ç. Avropanın ən meşəli ölkələrindən biridir. Ərazisinin təqr. 30%-ni küknar və şam ağacı meşələri tutur. Meşə sərhədindən yuxarıda Alp çəmənlikləri yayılmışdır.

Karpat d-rında canavar, qonur ayı, vəhşi qaban, tülkü, köpgər, maral, qunduz, dələ, dovşan, quşlardan qırqovul var. Ölkə ərazisinin 12%-i təbiət parklarının və qoruqların payına düşür. Ən iri təbiət qoruğu ümumi sah. 168 min *ha* olan *Çexiya Meşəsidir*.

### Əhali

Əhalinin 95%-ini *çexlər*, təqr. 2%-ini slovaklar təşkil edir. İmmiqrantlar (ukraynalılar, vyetnamlılar, ruslar, almanlar, qaraçılar, macarlar) ölkə əhalisinin təqr. 4%-ini təşkil edir. Çex dilində danışan çexlər qərbi slavyan xalqlarına aiddirlər. Çex dili Çexiya, Orta Moraviya və Şərqi Moraviya dialektlərinə bölünür. Dindar-

Snejka dağı.





Vltava çayı.

ların əksəriyyəti xristiandır. Əhalinin orta sıxlığı 1 $km^2$-də 130 nəfərdir. Ç. yüksək urbanizasiyalı ölkədir: şəhər əhalisi təqr. 71%-dir; kənd əhalisinin sayı azalmaqdadır. Ən iri şəhəri və yeganə meqapolis Praqadır (1 mln. 188 min nəfər). Digər iri şəhərləri Brno, Ostrava, Plzen və Olomoutsdur. 1994–2005 illərdə əhalinin təbii azalması baş versə də, 2006 ildən başlayaraq ölüm səviyyəsinin azalması, doğum səviyyəsinin və miqrant axınının artması nəticəsində ortaillik artım müsbət olmuşdur. Fertillik göstəricisi 1 qadına 1,2 uşaqdır. Son illər Ç. uşaq ölümünün az olduğu ölkələr sırasına daxildir (1000 nəfər diri doğulan uşağa 4 nəfərdən az). Əmək qabiliyyətli əhalinin (15–65 yaş) xüsusi çəkisi təqr. 71,2%-dir. 15 yaşadək olanların xüsusi çəkisi 14,4%, yaşlıların isə (65 yaşdan yuxarı) xüsusi çəkisi 14,5%-dir. Ç.-da əhalinin orta yaş həddi 39,3 ildir (qadınlarda 41,1; kişilərdə 37,5). Gözlənilən orta ömür müddəti kişilərdə 72,9, qadınlarda 79,7 ildir. İqtisadi cəhətdən fəal olan əhali 51,5%-dir. İşsizlik səviyyəsi 7,3%-dir (2006).

### Tarixi oçerk

Ç. ərazisi Erkən Paleolit dövründən məskunlaşmışdır. Üst Paleolit dövründə Ç. ərazisində Qravett mədəniyyətinin daşıyıcıları olan kromanyonlar (bryunlar) yayılmışlar. Neolit dövründə Balkanlardan buraya qıfvarı qədəhlər mədəniyyətinin, sonralar isə qaytanlı keramika mədəniyyətinin daşıyıcıları olan maldar hind-Avropa xalqları köçmüşlər. Tunc dövründə Ç. ərazisində bir sıra arxeoloji mədəniyyət yayılmışdı. Onların daşıyıcıları, ehtimal ki, hind-Avropa dillərinin qərb qoluna (kentum) aid dillərdə danışırdılar. Erkən Dəmir dövründə (e.ə. 1-ci minilliyin 1-ci yarısı) Ç. Halştat mədəniyyəti arealına daxil idi. Burada keltlərin ilk məskənləri məhz bu mədəniyyətlə bağlıdır. Ç.-nın ən qədim tarixi sakinləri e.ə. 4 əsrdə Şimali İtaliyadan köçmüş, Laten mədəniyyətinin daşıyıcıları olan kelt tayfası *boylar* idi. Ölkə əvvəl latın adını Bohemiya (Bojohemum), sonra isə ondan törəmiş alman (Böhmen) adını boylardan almışdır. E.ə. 1 əsrin ortalarında keltləri german tayfaları sıxışdırmışlar (arxeologiyada bu dövr Planyan təbəqəsi adlanır). E.ə. 50 ildən eramızın 350/380 illərinədək Çexiya ərazisində germanlar üstünlük təşkil edirdilər. Eramızdan bir neçə il əvvəl ölkədə german tayfası *markomanlar* məskunlaşmışlar. Onların başçısı Marobod Orta Dunaydan Vislanın aşağı axarınadək olan torpaqlarda çoxsaylı şərqi german tayfalarını öz hakimiyyəti altında birləşdirmişdi. Marobodun yaratdığı dövlət çox yaşamadı. *Armini*, sonra isə Katvald (qotlar arasında sürgündə yaşamış əsilzadə markoman) ilə mübarizəyə davam gətirməyən Marobod e.ə. 19 ildə romalıların himayəsi altına keçmiş, ömrünün son günlərini Ravennada yaşamışdır. Bununla belə, markomanların qalıqları Çexiyada 5 əsrin əvvəllərinədək qalmışdı. Markomanlarla eyni vaxtda Çexiyanın şm. hissəsində mədəni-etnik cəhətdən qarışıq olan Kobıl arxeoloji qrupu qalmaqda idi. 2 əsrdən başlayaraq şm.-dan Pşevorsk mədəniyyəti (Moraviyada onun izləri Roma dövrünün başlanğıcından qeyd olunur) yayılmağa başlayır. 3 əsrin 1-ci yarısında Ç.-ya Lababoyu ərazilərdən əhalinin köçü başlamış, 3 əsrin 2-ci yarısında bu köçkünlər Moraviyada da (Kosteletsk qrupu) məskunlaşmışlar. Eyni zamanda Moraviyanın c.-unda yeni daimi məskənlərin meydana gəlməsi Roma qoşunlarının Ç. ərazisində *Markoman müharibəsində (165–180)* iştirakını sübut edir. Roma imperiyası Markoman müharibəsi başlayanadək tayfalararası mübarizədən və başçıların çəkişməsindən məharətlə istifadə edirdi. Qotlar tərəfindən sıxışdırılan markomanlar, kvadlar, həmçinin digər german və qeyri-german (yazıqlar, bastarnalar, sarmatlar) xalqları ittifaqa girərək Roma imperiyasının şm. əyalətlərini

Qara göl (Černé jezero).







tutmağa çalışırdılar. Mark Avreli bu basqının qarşısını çətinliklə almış, lakin Dunay çayı hələ uzun müddət Roma imperiyasının şm. sərhədi olaraq qalmışdı. 3 əsrdə markomanlar romalılar və qonşu german tayfaları ilə müharibələr aparmışlar. *Hunlar* Avropaya gəldikdə markomanlar onlara tabe olmuş, *Attilanın* Qalliyaya yürüşündə və *Katalaun döyüşündə (451)* iştirak etmişdilər. Bundan sonra markomanların Ç.-ya qayıdıb-qayıtmadıqları məlum deyil. Ehtimal ki, Ç. 5 əsrin 2-ci yarısında (slavyanlar burada tam məskunlaşanadək) şm.-dan Roma sərhədlərinə doğru bir-birinin ardınca hərəkət edən müxtəlif xalqlar tərəfindən tutulurdu. 5 əsrin sonu – 6 əsrin əvvəllərində Ç. ərazisində slavyan tayfaları məskunlaşmağa başlamışdılar. Ç. slavyanları 6 əsrin ikinci yarısında və 7 əsrin əvvəllərində Pannoniyada məskunlaşmış (568 ildə) *avarların* hakimiyyəti altında idilər. Konstantinopol üzərinə uğursuz yürüş (626), xəzərlərin və bulqarların hücumları avarların qüdrətini sarsıtdı. Müstəqillik uğrunda mübarizə Ç. slavyan tayfalarının müvəqqəti ittifaqının yaranmasına səbəb oldu. Digər slavyan xalqları da bu ittifaqa qoşulmuşdular. Təqr. 658 ildə tərtib olunmuş salnamənin məlumatlarına görə, 623 ildə Samo adlı frank taciri slavyanların torpaqlarına gələrək avarlara qarşı mübarizədə iştirak etmiş, sonralar isə Samo dövlətinin (623–658) kralı seçilmişdir. Bu tayfa ittifaqı o qədər qüdrətli idi ki, Frank kralı Daqobertin qoşunlarını Voqastisburq yaxınlığındakı 3 günlük döyüşdə (630) darmadağın etmişdi. Təhlükə sovuşduqdan sonra ittifaq dağıldı.

Yan Hus.






Karlovi-Vari yaxınlığında Loket qəsri. 1234 il.

9 əsrdə *Böyük Karlın* protektoratı olan Çexiya torpaqlarında xristianlıq yayılmağa başladı. Böyük Karl bütün Ç. torpaqlarına 500 gümüş qrivna və 120 öküz vergisi təyin etdi. Şərqi Frank krallığı Böyük Karlın Ç.-nı imperiyaya qatmaq iddialarının varisi oldu. Kral Alman Lüdovik 846 ildə Moraviyadan qayıdarkən Ç.-da ağır məğlubiyyətə uğradı. 845 ildə Regensburqda 14 qərbi çex knyazının xaç suyuna salınması Ç.-da xristian kilsəsinin yaranması üçün səbəb olmadı. 9 əsrin sonu – 10 əsrin əvvəllərində Ç. *Böyük Moraviya dövlətinin* tərkibinə daxil idi. 863 ildə Moraviyaya gələn *Kirill və Mefodi* alman yepiskopluğundan asılı olmayan slavyan kilsəsi yaratdılar (869). Moraviya knyazı Svyatopolkun ölümündən (894) sonra Ç. knyazı Borjivoyun oğulları Moraviya asılılığından azad olmaq istədilər. Onlar Regensburqda kral Arnulfun ali hakimiyyətini qəbul etmiş (895), vergi ödəməyə və Ç.-nın Regensburq yepiskopunun hakimiyyəti altına keçməsinə razı oldular. 10 əsrdə Prjemısloviçlər sülaləsi başda olmaqla erkən feodal çex dövləti (knyazlıq) yarandı. Knyaz Vratislav [905–921] Ç.-ya hücum edən macarları darmadağın etdi, Almaniyadakı hərcmərclikdən istifadə edərək krala ödənilən vergini dayandırdı, nəticədə Ç. knyazlığı müstəqil oldu. Onun oğlu Müq. Vaslav [921–935] zliçanları tabe etdi, onların əsas şəhəri Lyubitsanı tutdu. Daxili düşmənlərin öhdəsindən gələn Vaslavın Almaniya ilə mübarizə aparmağa lazımi qüvvəsi yox idi. 929 ildə alman kralı I Henrix Praqaya gəldi və knyazı vergi verməyə məcbur etdi. Müq. Vaslavın qardaşı I Boleslav Qroznı [935–967] qardaşını öldürərək hakimiyyəti ələ keçirdi. Boleslav 14 il almanlara qarşı mübarizə aparsa da, 950 ildə alman dövlətindən asılılığı qəbul etdi. Lex çayı yaxınlığındakı döyüşdə (955) çexlər macarlara qarşı almanların müttəfiqi kimi çıxış etdilər. Onlar üzərində qələbə Boleslava Moraviya, Oder və Elba çayının yuxarı axarlarındakı Polşa torpaqlarını Ç.-ya birləşdirmək imkanı verdi. Onun oğlu II (Mömin) Boleslav [967–999] imperator I Ottonun dəstəyi ilə Mayns arxiyepiskopuna tabe olan Praqa yepiskopluğunun əsasını qoydu. O, Ç.-nın c. və ş. hissələrini də ələ keçirərək (955) Prjemısloviçlər sülaləsinin hakimiyyəti altında çex torpaqlarının birləşdirilməsini başa çatdırdı. Onun oğlu III (Kürən) Boleslavın [999–1002/03] hakimiyyəti dövründə saray çəkişmələrindən istifadə edən Polşalı I Boleslav qardaşı Vladivoyu Praqada taxta çıxardı, onun ölümündən sonra hakimiyyəti öz əlinə aldı, Ç. knyazının digər qardaşlarını ölkədən qovdu. Alman kralı II Henrixin dəstəyi ilə Prjemısloviçlər hakimiyyətlərini geri ala bildilər. Lakin Polşalı I Boleslavın tutduğu çex torpaqları və Moraviya Polşanın hakimiyyəti altında qaldı. Knyaz Oldrjixin [1012–1033] hakimiyyətinin son illərində oğlu I Bryaçislav Polşadan Moraviyanı geri aldı və o dövrdən bu ölkə qəti olaraq Ç. dövlətinin tərkibinə daxil oldu. I Bryaçislavın [1034–1055] hakimiyyəti illəri



Rovensko pod Troska ş. yaxınlığında Troski qəsri. Təqr. 1380 il.

çexlərin Polşanı tutması və güclü qərbi slavyan imperiyasını yaratmaq cəhdi ilə əlamətdar idi. Bu cəhdin baş tutmamasının səbəbi papa IX Benediktin və imperator *III Henrixin* müdaxiləsi oldu. III Henrixin Praqaya yürüşü Ç.-nın "Müqəddəs Roma imperiyası" tərkibinə daxil edilməsi (1041) ilə nəticələndi.

1086 ildə Praqada knyaz II Vratislavın Ç. kralı [1086–92] elan edilməsi ilə bağlı tacqoyma mərasimi keçirildi. Kral titulu irsi deyildi. Lakin 1212 ildə Ç. kralları hakimiyyətinin irsən keçməsi hüququ Qızıl Siciliya bullası ilə təsdiqləndi. 1241 ildə Ç. kralı I Vatslav [1230–53] ilə Avstriya və Karintiya hersoqlarının birləşmiş qüvvələri monqol qoşunlarının Moraviya və Ç.-ya hücumlarını dəf etdilər. 13 əsrin sonu – 14 əsrin 1-ci yarısında Ç.-da mərkəzləşmiş monarxiya bərqərar oldu. I Karlın (1347 ildən *IV Karl*) dövründə [1346–78] kral hakimiyyəti daha da gücləndi, Praqada arxiyepiskopluq təsis olundu, 1348 ildə isə Praqa ş.-ndə Mərkəzi və Şərqi Avropada ilk un-tin əsası qoyuldu. Onun hakimiyyəti illərində yolların təmirinə və mühafizəsinə ciddi fikir verilməsi, tikinti işlərinin genişlənməsi (Praqa qradı, Müq. Vit kilsəsi, Karlşteyn qəsri, Praqada körpü və s.), ölkədə şərabçılıq, meşə və balıq təsərrüfatının inkişaf etməsi, Praqada yeni şəhərin əsasının qoyulması, sənaye sahələrinin və ticarətin çiçəklənməsi Ç. iqtisadiyyatının sürətli inkişafına səbəb oldu. I Karl Ç. krallığına məxsus torpaqları xeyli genişləndirdi: Yuxarı Pfalts, Türingiya və Saksoniyada mülkləri və şəhərləri satın aldı, bütün Sileziya üzərində ali hakimiyyəti möhkəmləndirdi, Aşağı Luzasiyanı və Brandenburq markqraflığını birləşdirdi. Ç.-da kral hakimiyyətini möhkəmlədən I Karl 1348 ildə vəliəhdlik haqqında qanun qəbul etdi: varislik hər zaman kralın böyük oğluna mənsubdur; qadınlar yalnız nəsildə kişi varisi olmadıqda hakimiyyətə gələ bilərdilər; həm kişi, həm qadın xətti ilə nəsil kəsildikdə, taxta kimin çıxacağına seym qərar verməli idi. Seymin seçki hüququ Qızıl bullada (1356) təsbit olundu. IV Vaslav [1378–1419] hələ atasının sağlığında Ç. kralı (1363), daha sonra imperator (1376) oldu, Ç., Sileziya, Luzasiyanın bir hissəsini və Ç. krallığının Almaniyadakı xırda mülklərini aldı. Qalan torpaqlar Lüksemburq nəslinin nümayəndələrinə verildi.

Feodal istismarının güclənməsi və *Renessans* ab-havası Praqa un-tinin rektoru Y. *Husun* çıxışına səbəb oldu. Hus mühazirə və əsərlərində katolik ruhanilərini və feodalları ifşa edir, kilsədə əsaslı dəyişikliklər tələb edirdi. Onun çıxışlarının fərqləndirici xüsusiyyətlərindən biri çex dilinə qayıtmaq tələbi idi. Bu tələb Husu milli azadlıq hərəkatının ideya ilhamçısına çevirdi. 1415 ildə Husun bidətçi kimi tonqalda yandırılması 4 il sonra Praqada antialman iğtişaşları ilə başlanan *Hus müharibələrinə (1419–34)* gətirib çıxartdı. 1420 il iyulun 14-də Y. *Jijka* almanların Praqaya hücumunun qarşısını aldı, 1422 il dekabrın 8-də imperator *I Sigizmundun* ordusunu darmadağın etdi. 1427 ildə husçular Almaniyanın içərilərinə doğru yürüş etdilər, 1428 ildə Vyananı mühasirəyə aldılar. 1433 il aprelin 14-də Bazel kilsə məclisi husçuların düzəlişlərini rədd etdi. Elə bu zaman husçular *taborlular* və mötədillərə parçalandılar. 1434 ildə taborlular darmadağın olundular, 1437 ildə isə onların sonuncu qalası alındı. Bundan sonra "kralsızlıq" ("İnterregna") (1439–52) dövrü başladı. Real hakimiyyət mötədil husçuların mənafeyini güdən yerli getmanların əlində cəmləşdi. Onlardan biri olan Yirji Podebrad [1458–71] 1448 il sentyabrın 3-də Praqanı tutdu və 1452 ildə seymdə ölkənin hökmdarı, 1458 ildə isə Ç. kralı elan edildi. Lakin katolik kilsəsi yeni kralı kafir elan etdi, Ç. taxtının sahibliyini isə Macarıstan kralı *Matyaş Korvinə (Hunyadiyə)* verdi. O, 1468 ildə Ç.-ya qarşı müharibəyə başladı, Moraviya və Sileziyanın Macarıstana qatılmasına nail oldu. Yerli maqnatların Ç. taxtına çıxardıqları II Vladislav Yagellon [1471–1516] sonralar Macarıstan kralı da oldu. Katolik müxalifət gücləndi, mötədillər isə tədricən lüteranlığı qəbul etdilər. Beləliklə, husçular hərəkatı ümumavropa Reformasiya hərəkatına qoşuldu.

*Mohaç vuruşmasında* (1526) Macarıstan və Ç. kralı II Layoşun [1516–26] sultan I *Süleyman Qanuniyə* məğlub olmasından və öldürülməsindən sonra Ç. krallığı və Macarıstan krallığının bir hissəsi (əsasən, indiki Slovakiya və Şimal-Qərbi Macarıstan) Avstriya Habsburqlarının hakimiyyətinə keçdi. Ç. muxtariyyətini qoruyub saxlaya bildi. Katolik partiyasını gücləndirmək məqsədi ilə *I Ferdinand* [1526–64] yezuit ordenini Praqaya dəvət etdi, onlar üçün Müq. Kliment kollegiyasını yaratdı (1556), Praqa arxiyepiskopluğunu bərpa etdi. 1602 ildə pikardlara (çex qardaşlarını istehza ilə belə adlandırırdılar) qarşı kral fərmanı imzalandı. Lakin protestantlar əvvəlki şikayətlərini kral fərmanı şəklində ifadə edərək və qoşun toplayaraq II Rudolfu [1576–1611] bu fərmanı imzalamağa məcbur etdilər (1609). Konsistoriyanı və un-ti zəbt edən, hər üç silkdən 10 defenzor seçən protestantlar dövlət içərisində dövlət qurmuşdular. II Rudolf muzdlu ordunun vasitəsilə çex protestantlarını itaətə gətirmək istəsə də, məğlubiyyətə uğradı, Rudolf taxtdan devrildi və Ç. kralı Matvey [1611–19] seçildi. Ç. katolikləri və protestantlarının rəqabəti *Otuzillik müharibəyə (1618–48)* səbəb oldu. Ç. protestantları kral Ferdinandı devirmək və kalvinçi Pfaltslı Fridrixi





taxta çıxarmaq istəyirdilər. Ferdinandı Katolik cəmiyyətində birləşmiş bavariyalılar, saksonlar və polyaklar dəstəkləyirdilər. 1620 ilin payızında Katolik cəmiyyətinin qoşunları Ç.-ya daxil oldular. Noyabrın 8-də çex qoşunu Belaya Qora (Praqa yaxınlığında) vuruşmasında darmadağın edildi, Pfaltslı Fridrix Ç.-dan qaçdı. Bu döyüşün nəticəsi olaraq Ç.-da protestantizmin və silki monarxiyanın taleyi həll olundu. 1618–20 illər üsyanı məğlubiyyətə uğradıqdan sonra Ç. Habsburqların əyalətinə çevrildi. 1627 ildə kralın imzaladığı fərmana əsasən Ç.-da *katolisizm* hakim dinə çevrildi. Praqa un-ti yezuitlərə verildi. Otuzillik müharibənin gətirdiyi fəlakətlər Ç.-nın iflasını başa çatdırdı: minlərlə məskən məhv edildi, əhalinin sayı 3 dəfə azaldı.

17 əsrdə almanların Ç.-ya yeni axını başlandı, buna səbəb yerli əhalinin Almaniya protestantları ilə dostluq münasibətləri və ölkədə lüteranlığın yayılması idi. II Ferdinand tərəfindən keçirilən müsadirə torpaqların xeyli hissəsinin əcnəbilərin əlinə keçməsinə gətirib çıxartdı. Təzə sahiblər boşalmış torpaqlarda almanları yerləşdirir, yeni alman məskənlərini yaradırdılar. Alman dilinin Ç.-da yayılması səbəblərindən biri Vyanadakı mərkəzi idarəetmə orqanları ilə əlaqə saxlamaq üçün bu dilin zəruri olması idi. 1784 ildən etibarən Praqa un-tində və gimnaziyalarda təhsil qəti olaraq alman dilində (əvvəl latın dilində) idi. Dövlət idarələrində də alman dili istifadə olunurdu.

II Ferdinandın [1620–37] dövründə Bohemiyanın muxtariyyəti ləğv edilərək Avstriyaya qatıldı. 1743 ildə *Mariya Tereziya* Ç. taxtını Vyanaya köçürsə də, II Leopold onu Praqaya qaytardı. 1749 ildə Mariya Tereziya Ç. və Avstriya dəftərxanalarını vahid dövlət dəftərxanasında birləşdirdi. Ç. saray dəftərxanasının və canişinliyin ləğvi Avstriyanın mərkəzləşdirmə siyasətinin qələbəsi idi. Xalq kütlələrinin yadelli ağalığına və feodal özbaşınalığına qarşı arasıkəsilməz üsyanları (1775 və s.) nəticəsində Habsburqlar 1775 ildə biyar əkinçiliyini məhdudlaşdırmağa, 1781 ildə isə kəndlilərin şəxsi asılılığını ləğv etməyə məcbur oldular. 1783 ildə İmperator II İosif yerli seçkili zemstvo və s. məhkəmələri ləğv edərək, yeni məhkəmə sistemini yaratdı. İmperator II Leopoldun hakimiyyəti illərində zemstvo qaydaları qismən bərpa edildi. 1792 ildə II Leopold Praqa un-tində çex dili kafedrasını təsis etdi. 18 əsrdə aparılmış islahatlar Ç. krallığının torpaqları arasındakı əlaqələri kəsdi. 18 əsrin sonundan kapitalist münasibətlərinin sürətli inkişafı çex millətinin formalaşmasına şərait yaratdı (bax *Çexlər*). 18 əsrin sonu – 19 əsrin 1-ci yarısında çex milli hərəkatı genişlənərək siyasi xarakter aldı. Praqadakı Svyatoslav məclisi (1848) Habsburqlar imperiyasında 1848–49 illər inqilabının başlanğıcı oldu. Bu inqilabın zirvəsi – Praqa üsyanı (1848, 12–16 iyun) məğlub olsa da, kəndliləri feodal asılılığından azad etdi və bu kapitalizmin sürətli inkişafına təkan verdi. 1848 ilin noyabrında Vyanada baş vermiş üsyandan istifadə edən çex deputatlar imperiya seyminin iclaslarının Moraviyada davam etdirilməsinə nail oldular. Bundan bir neçə gün sonra I Ferdinand qohumu *I Frans İosifin* xeyrinə taxtdan imtina etdi. Knyaz Vindişqretsin Vyana qarnizonu Macarıstan inqilabını yatırdıqdan sonra 1849 il martın 4-də Frans İosif dövlətin ümumi konstitusiyasını dərc etdirdi və seymi buraxdı. Hökumət bir neçə islahat keçirdi: kəndlilər feodal asılılığından azad edildi, şəhər və kənd idarəçiliyi nizamnaməsi qəbul olundu, un-tlərə qismən muxtariyyət verildi və s. 1851 il dekabrın 31-də Frans İosif 1849 il konstitusiyasını ləğv etdi və ölkədə mütləqiyyəti bərpa etdi. Ç.-da jurnalistlərin və çex milli hərəkatının təqibinə, almanların himayə edilməsinə başlanıldı. 1860 il oktyabrın 20-də "Ayrı-ayrı torpaqların tarixi hüquqları və Avstriya imperiyasında yaşayan xalqların özünüidarəetməsi haqqında" sənəd imzalandı. 1861 il fevralın 26-da imperatorun zemstvo idarələri hüquqlarının mərkəzi hakimiyyət baxımından müəyyənləşdirilməsi çex xalqının ümidlərini doğrultmadı. Bununla belə, çexlər öz deputatlarını həm yerli zemstvo (landtaq), həm də imperiya (reyxsrat) seymlərinə göndərdilər, lakin almanların xeyrinə keçirilmiş seçkilərdən narazı qaldıqlarını bəyan etdilər. Reyxsratda federativ çoxluq qazana bilməyən çex deputatlar palatanı tərk edərək (1863) fəaliyyətlərini zemstvo seymində davam etdilər. Deputatlar orta təhsil müəssisələrində təhsilin həm alman, həm də çex dilində keçirilməsinə nail odular (1866, 18 yanvar).

1867 ildə Avstriya imperiyası Avstriya-Macarıstana çevriləndə çexlərə muxtariyyət verilmədi. Lakin 1882 ildə Praqa un-ti çex və alman dilləri bölmələrinə ayrıldı, ticarət və sənaye palatalarına seçkilərə dəyişiklik edildi və s. 1883 ildən çex deputatlar zemstvo seymində üstünlük təşkil edirdilər. Seymin büdcəsi hesabına zemstvo bankının təsisi, Ç. krallığı muzeyi üçün dəbdəbəli binanın tikilməsi, seym hesabına Ç. tarixinə dair mənbələrin nəşr olunması və digər dəyişikliklər çexlərlə Ç.-da yaşayan almanlar arasında mübarizəni daha da şiddətləndirdi. Birinci dünya müharibəsi illərində çexlər Avstriya-Macarıstan ordusunda, Şərq cəbhəsində vuruşurdular.

Müharibədən sonra Antanta dövlətləri Habsburqlar imperiyasındakı xalqların milli azadlıq hərəkatını dəstəklədi. 1918 ilin oktyabrında millətçilərin və diplomatların ümumi səyləri ilə Ç., Slovakiya və Karpatarxası Ukraynadan ibarət çoxmillətli müstəqil Çexoslovakiya dövləti yaradıldı. Qeyri-millətlər (alman-

Vltava çayı üzərində Karl körpüsü. Praqa.





Praqa qəsri.

lar, macarlar, polyaklar, ukraynalılar və b.) Çexoslovakiya əhalisinin təqr. 1/3-ini təşkil edirdi. Bu ərazilərdə yaşayan almanların çıxışları yatırıldı. T.Q. *Masarik* ölkənin ilk prezidenti seçildi. Çexoslovakiyanın sərhədləri qalib dövlətlərin Almaniya və Avstriya-Macarıstanla bağladıqları Versal (1919), Sen-Jermen (1919) və Trianon (1920) sülh müqavilələri əsasında müəyyənləşdirildi. Müharibədən sonrakı ilk illərdə çex maliyyə kapitalının mövqeləri möhkəmləndi. Çex inhisarları dövlət aparatındakı nümayəndələrin və Antanta dövlətlərinin köməyi ilə tədricən Avstriya, alman və macar kapitalını sıxışdırır, Slovakiya və Karpatarxası Ukraynanın iqtisadiyyatını ələ keçirirdilər. Bununla yanaşı, xarici kapitalın (əsasən, Fransa, İngiltərə və ABŞ) Çexoslavkiyaya axını da güclənməkdə idi. Ölkədə 50-yədək müxtəlif siyasi partiya və birliklərin fəaliyyət göstərməsinə baxmayaraq, siyasi həyatda hakim mövqelər, əsasən, Aqrar (1899 ildə yaradılmışdı; 1922 ildən Əkinçilik və xırda kəndli əhalisinin respublikaçı partiyası) və Milli-demokrat partiyasına məxsus idi. 1920–21 illərdə Fransanın himayəsi altında Çexoslovakiya *Kiçik Antantaya* qoşuldu, 1924 ildə isə Fransa ilə hərbi-siyasi müqavilə imzaladı. 1920-ci illərin ortalarında ölkədə yaradılmış çex faşist təşkilatları fəallaşdı. 1933 ildə yaradılmış Sudet-alman partiyası faşist Almaniyasının birbaşa casusuna çevrildi. 1934 ildə Çexoslavakiya SSRİ-ni tanıdı, qarşılıqlı yardım barədə sovet-Fransa müqaviləsi imzalandıqdan (1935) sonra 1935 ilin mayında sovet hökuməti ilə müvafiq müqavilə bağladı. Masarik istefaya getdikdən sonra ölkənin ikinci prezidenti E. *Beneş* seçildi. Sudet-alman partiyası (başçısı K. Genleyn) Sudet vil.-nin Almaniyaya birləşdirilməsi tələbini irəli sürdü, 1938 il sentyabrın 12-də isə hərbi üsyan qaldırdı. Fransa və İngiltərənin hakim dairələri Çexoslovakiya ilə müttəfiq olduqlarına baxmayaraq, sentyabrın 22-də Münxendə Çexoslovakiyanın parçalanması barədə Almaniya və İtaliya ilə saziş bağladılar [bax *Münxen sazişi (1938)*]. 1938 ilin oktyabrında Almaniya Ç.-nın Sudet vil.-ni ələ keçirdi, 1939 ilin martında isə bütünlüklə Çexoslovakiyanı işğal edərək Ç. ərazisində (Sudet vil.-ndən başqa) oyuncaq "Bohemiya və Moraviya protektoratı"nı, Slovakiyada isə oyuncaq "müstəqil Slovakiya dövləti"ni yaratdı. Beneş başda olmaqla siyasi xadimlər 1939 ildə Parisdə Çexoslovakiya Milli Komitəsini, 1940 ildə isə onun əsasında Londonda Müvəqqəti hökumət yaratdılar. 1945 ilin martında Moskvada Müvəqqəti hökumət, Slovakiya Milli Şurası və Çexoslovakiya Kommunist partiyasının nümayəndələri arasında çex və slovakların Milli Cəbhəsini (MC) yaratmaq barədə saziş əldə edildi. Aprelin əvvəllərində Koşitse ş.-ndə MC hökuməti təşkil olundu. 1945 il mayın 5-də Praqa əhalisi Çexiya Milli Şurasının (ÇMŞ) rəhbərliyi altında faşistlərə qarşı üsyana qalxdı. Praqadakı alman ordusu hissələri tərksilah edildi və ya mühasirəyə alındı, onların silah anbarları və əksər strateji əhəmiyyətli obyektləri ələ keçirildi. Çex torpaqlarında hakimiyyətin ÇMŞ-nin sərəncamına keçdiyi elan olundu. Mayın 9-da Praqaya sovet qoşunları daxil oldu.

Faşist Almaniyası darmadağın edildikdən sonra Çexoslovakiya sovet təsir dairəsinə düşdü. Prezident Beneş 1948 ilin iyununda istefaya getməyə məcbur oldu. Çexoslovakiyanın prezidenti kommunistlərin rəhbəri K. *Qotvald* oldu. Onun ölümündən sonra hakimiyyətə A. Novotnı keçdi. 1960 ildə ölkə Çexoslovakiya Sosialist Respublikası (ÇSSR) elan olundu. Lakin 1960-cı illərin əvvəllərindən ÇSSR-də iqtisadi çətinliklər ortaya çıxdı. 1968 ildə islahatçı liderlər – ÇKP MK-nın birinci sədri A. *Dubçek*

Karlovi-Vari şəhərindən görünüş.







(yanvarın 5-də seçilmişdi) və prezident L. *Svoboda* başda olmaqla ölkədə "Praqa baharı" adlanan siyasi və mədəni liberallaşma dövrü başladı. Dövlət müəssisələrinin bir hissəsi özəl sahibkarlara qaytarıldı, iqtisadiyyat üzərində dövlət nəzarəti azaldıldı, çoxpartiyalı sistemin təşkilinə şərait yaradıldı, söz azadlığı tətbiq olundu. Liberallaşma ilə yanaşı ictimaiyyətdə antisovet əhval-ruhiyyə gücləndi. Lakin ÇKP rəhbərliyinin bir hissəsi ictimaiyyət üzərində partiya nəzarətinin azaldılmasına qarşı çıxdı, bu da L. *Brejnev* başda olmaqla SSRİ hökuməti tərəfindən islahatçıların hakimiyyətdən uzaqlaşdırılması üçün bəhanə kimi istifadə edildi. 1968 il martın 23-də Drezdendə keçirilən SSRİ, Polşa, ADR, Bolqarıstan, Macarıstan və ÇSSR kommunist partiyalarının görüşündə Çexoslovakiyadakı islahatlar tənqid olundu. Mayın 4-də Moskvada Dubçekin başçılığı ilə nümayəndə heyətini qəbul edərkən Brejnev ÇSSR-dəki vəziyyəti kəskin pislədi. 29 iyul – 1 avqustda Sov. İKP MK Siyasi Bürosunun prezident L. Svoboda və ÇKP MK Rəyasət Heyəti ilə görüşü keçirildi. Lakin təzyiqlərə baxmayaraq Dubçek islahatları dayandırmadı. Avqustun 20-dən 21-ə keçən gecə Varşava Müqaviləsi Təşkilatına (VMT) daxil olan ölkələrin (Rumıniya istisna olmaqla) qoşunları Çexoslovakiyaya müdaxilə ("Dunay" əməliyyatı; baş komandan gen. İ.Q. Pavlovski) etdi. Müdaxilədə iştirak edən hərbi kontingent 300 mindən çox əsgərdən, təqr. 7 min tank və zirehli transportyordan ibarət idi, onun əksəriyyətini sovet qoşunları təşkil edirdi. Müdaxilə islahatlara qəti şəkildə dəstək verən ÇKP qurultayının ərəfəsində baş verdi. Müxtəlif məlumatlara görə, müdaxilə zamanı 108 vətəndaş öldürüldü, 500-dən çox yaralandı. "Dunay" əməliyyatının siyasi məqsədi Çexoslovakiyada siyasi rəhbərliyin dəyişdirilməsi və SSRİ-yə qarşı mötədil rejimin bərqərar edilməsi idi. Avqustun 21-də Dubçek, baş nazir O. Çernik, parlamentin sədri Y. Smrkovski, ÇKP MK üzvləri Y. Şpaçek və B. Şimon, Milli cəbhənin rəhbəri F. Krigel Moskvaya gətirildilər. 1968 il avqustun 24–27-də Moskvada ÇSSR prezidenti L. Svoboda və Q. Husakla, həmçinin buraya gətirilən ÇSSR rəhbərliyi ilə danışıqlar keçirildi. Təzyiq və hədələr nəticəsində ÇSSR rəhbərləri (F. Krigeldən başqa) Moskva protokolunu imzalamağa məcbur oldu. Qəbul edilmiş bəyannamədə VMT qoşunlarının ÇSSR-dən çıxarılması ölkədə daxili vəziyyətin normallaşması ilə əlaqələndirilirdi. Sovet qoşunları Çexoslovakiya ərazisində 1991 ilədək qaldı. Müdaxilə nəticəsində ÇSSR-də siyasi və iqtisadi islahatlar prosesi dayandırıldı. ÇKP MK-nın 1969 il aprel plenumunda Qotvaldın dövründə repressiyaya məruz qalmış Q. Husak ÇKP-nin birinci katibi seçildi (sonralar ölkənin prezidenti oldu). Husak Dubçekin, demək olar ki, bütün islahatlarını ləğv etdi, islahatçılar vəzifələrindən uzaqlaşdırıldı, repressiyalar başladı. On minlərlə, o cümlədən mədəni elitanı təşkil edən insanlar ölkəni tərk etdi. 1988 ilin martında ölkədə ilk açıq etirazlar baş verdi. 1989 il yanvarın 15-dən 24-dək davam edən və katolik kilsə tərəfindən dəstəklənən kütləvi nümayişlər polis tərəfindən dağıdıldı, iştirakçılar həbslərə və repressiyalara məruz qaldılar. 1989 il noyabrın 17-də Praqada polis tələbələrin nümayişini qəddarlıqla dağıtdı. Bu hadisə "məxməri inqilab"ın başlanğıcı oldu. Noyabrın 20-də Praqada və b. şəhərlərdə



Krumlov qəsri. 13 əsr. Cənubi Bohemiya.

Sovet ordusu Praqada. May 1945 il.



Praqaya Sovet qoşunlarının yeridilməsi. Avqust 1968 il.





"Zetor" traktor zavodu. Brno ş.




"LEGİOS" dizel-hidravlik lokomotivi. Lounı ş.

kütləvi nümayişlər başladı. Xalq narazılığına "Vətəndaş forumu" (VF) adlı siyasi hərəkatda birləşən müxalif təşkilatlar başçılıq etdi. Noyabrın 21-də müxalifəti Çexiya kardinalı F. Tomaşek dəstəklədi. Müxalifətin və kütləvi nümayişlərin təzyiqi ilə ÇKP rəhbərliyi istefa verdi. ÇKP-nin yeni baş katibi P. Urbanek seçildi. Yeni hökumət hakimiyyəti müxalifətə şəksiz vermədiyinə görə, noyabrın 26-da Praqada izdihamlı mitinq keçirildi, 27-də isə ümumi tətil başladı. Noyabrın 29-da parlament ÇKP-nin rəhbər rolu barədə konstitusiya maddəsini ləğv etdi. Dekabrın 10-da ÇSSR prezidenti Q. Husak istefa verdi. Kommunistlərlə bərabər yer alan müxalifətin iştirakı ilə milli barışıq koalisiya hökuməti təşkil olundu. Dekabrın 29-da yenidən qurulmuş parlamentin iclasında A. Dubçek parlament sədri, yazıçı, VF-nin başçısı V. Havel isə ÇSSR prezidenti seçildi. Çexoslovakiyanın yeni rəhbərliyi siyasi plüralizm və bazar iqtisadiyyatının bərqərar olunması kursunu qəbul etdi. "Məxməri inqilabın" müvəffəqiyyətinə əlverişli beynəlxalq vəziyyət (Berlin divarının dağıdılması və SSRİ-də yenidənqurma siyasəti) şərait yaratdı. 1990 il martın 29-da Federal məclis ölkənin köhnə adını ləğv etdi. Apreldə "Çexiya və Slovakiya Federativ Respublikası" adı qəbul olundu. Ölkədə iqtisadi islahatlar keçirildi. 1993 il yanvarın 1-də Çexoslovakiya dinc yolla müstəqil Ç. və Slovakiya dövlətlərinə bölündü. 1993 ildə V. Havel Ç.-nın ilk prezidenti seçildi. 1998 ildə Havel ikinci dəfə prezident vəzifəsini tutdu. 1995 ildə Ç. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) qəbul edildi. 1999 ildə Ç. NATO-nun üzvü oldu. 2003 ildə V. Klaus Ç. prezidenti (2008 ildə ikinci müddətə) seçildi. 2004 ildə Ç. Avropa İttifaqına qoşuldu, eyni vaxtda Şengen sazişini də imzaladı. 2013 ildən M. Zeman Ç. prezidentidir.

Temelin AES. Çeske-Budeyovitse ş. yaxınlığında.



### Təsərrüfat

Ç. sənaye ölkəsidir. ÜDM-in həcmi təqr. 285,6 mlrd. dollar (alıcılıq qabiliyyəti pariteti üzrə; 2013), adambaşına – 26,3 min dollar; real ÜDM artımı təqr. 0,9% (2013); insan inkişafı indeksi 0,873 (2013; dünyanın 186 ölkəsi arasında 28-ci yer) təşkil edir. ÜDM-in strukturu (2012): xidmət sferası – 60,3%, sənaye – 37,4%, k.t. – 2,4%. Aparıcı sahələr: yanacaq-energetika, maşınqayırma (energetika və digər sənaye avadanlıqları, elektrotexnika məmulatları, avtomobil istehsalı), kimya (plastik kütlə, sintetik kauçuk, gübrə), yüngül (toxuculuq, trikotaj, ayaqqabı-dəri) və yeyinti (şəkər, pivə, ət, qənnadı) sənayesidir. Qonur və daş kömür (Ostrava-Karvin, Şimali Çexiya və Sokolov kömür hövzələri), dəmir və uran filizi hasil edilir. İldə 87,57 mlrd. *kVt·saat* elektrik enerjisi istehsal olunur (2012). Əsas sənaye mərkəzləri Praqa, Plzen, Ostrava və Brnodur.

Ölkə ərazisinin 43%-i k.t.-nda istifadə olunur, otlaq və çəmənliklər 11%, meşələr 33% təşkil edir. Ətlik-südlük heyvandarlıq, donuzçuluq və quşçuluq inkişaf etmişdir. Şəkər çuğunduru, taxıl, arpa, kartof, mayaotu, tərəvəz, müxtəlif meyvələr becərilir.

D.y.-larının uz. (min *km*) – 9,4, avtomobil yollarının uz. – 130,6 (o cümlədən 730 *km*-i bərk örtüklüdür); avtoparklar: minik avtomobilləri 3,1 mln., yük maşınları və avtobuslar 0,2 mln. təşkil edir; 128 aeroport var (2013).

Maşın və avadanlıqlar, kimyəvi preparatlar, yüngül və şüşə-keramika sənayesi məmulatları, yeyinti məhsulları ixrac edilir. Əsas xarici ticarət tərəfdaşları:







«Aircraft Industries» aviazavodu. Kunovitse ş.



Aero L-159 ALCA (Çexiya) hərbi təyyarəsi.

Almaniya, Slovakiya, Avstriya, Rusiya, Polşa və Çindir.

### Silahlı qüvvələr

Ç. silahlı qüvvələrinin (SQ) ümumi sayı 35 min nəfərdir (2012). SQ quru qoşunlarından (QQ) və HHQ-dən ibarətdir. Hərbi doktrinası müdafiə yönümlüdür. QQ 2 mexanikləşdirilmiş briqadadan, 1 artilleriya briqadasından və 1 kəşfiyyat batalyonundan ibarətdir. 154 tank (T–72M4CZ və T–72), 347 piyada döyüş maşını (PDM–1, PDM–2, BPzV), 127 zirehli avtomobil, döyüş maşını və transportyor (Pandur II, OT–90, OT–64, Dinqo), 196 tankəleyhinə kompleks (9P148, 9K111 "Faqot"), 55 özüyeriyən artilleriya qurğusu (vz77 "Dana"), 69 minaatanla silahlanmışdır. HHQ 3 təyyarə və 2 helikopter eskadrilyasından, həmçinin zenit-raket briqadasından ibarətdir. 39 döyüş təyyarəsi (JAS–39 Gripen, Aero Vodochody L–159A, Aero Vodochody L–159B, Aero Vodochody L–159T1, Saab JAS 39C, Saab JAS 39D), 20 nəql. təyyarəsi (Airbus A319–100, Tu–154, An–26, Canadair Challencer 601, LET L–410UVP–E, Yak–40), 30 təlim-məşq təyyarəsi (Aero Vodochody L–39C, Aero Vodochody L–39ZA, Zlin Z–142, LET L–410), 69 helikopter (Mi–8, Mi–24V, Mi–35, Mi–171Ş, PZL Mi–2, PZL W–3 Sokol) ilə silahlanmışdır. Döyüş texnikası SSRİ və Rusiya, Çexoslovakiya və Çexiya, Almaniya, Avstriya, İsveç, İspaniya, Kanada, Polşa istehsalıdır.

### Səhiyyə

Ç.-da xəstəxana çarpayılarının sayı əhalinin hər 1000 nəfərinə görə 8,7-dir. Səhiyyəyə qoyulan xərc ÜDM-in 7,9%-ini təşkil edir (2010). Ambulatoriya sektoru özəlləşdirilmiş, stasionar sektor dövlətə məxsusdur. Bütün əhali tibbi sığortaya malikdir. Səhiyyə sistemi üçün yüksək tibbi xidmət səciyyəvidir. Ç. çox inkişaf etmiş kurort müalicəsi sisteminə malikdir. Ölkədə bir neçə balneoloji kurort (Karlovi-Vari, Mariansike Lazne, Frantişkovı Lazne və s.) fəaliyyət göstərir.

### İdman

Futbol üzrə Ç. yığma komandası 1996 ildə keçirilən Avropa çempionatının gümüş mükafatçısı, hokkey üzrə Ç. yığma komandası isə 6 dəfə dünya çempionu olmuşdur. Olimpiya Oyunlarının onnövçülük yarışlarında R. Zmelik (1992, Barselona), R. Şebrle (2004, Afina) qızıl, T. Dvorjak bürünc (1996, Atlanta), avarçəkmənin maneələri dəfetmə yarışlarında L. Pollert (1992, Barselona), Ş. Xilgertova (1996, Atlanta; 2000, Sidney) qızıl, ikiyerli kanoedə avarçəkmədə M. Jiras və T. Mader (2000, Sidney), Y.Volf və O.Stenanek (2004, Afina) bürünc medal qazanmışlar. M. Navratilova və İ. Lendl böyük tennisdə uğurlar əldə etmişlər. 2000–12 illərdə Ç. idmançıları Olimpiya Oyunlarında 10 qızıl, 12 gümüş, 10 bürünc medal qazanmışlar.

### Təhsil

Ç.-da 6–16 yaşlı uşaqlar üçün təhsil icbari və pulsuzdur. Məktəb təhsili sistemi 4 pillədən ibarətdir: məktəbəqədər təhsil (2–5 yaş); ibtidai məktəb (6–15 yaş, icbari); orta məktəb, gimnaziya, kollej və un-t kollecləri. Məktəb təhsili 9 yaşdan 2 mərhələdə – ibtidai (1–5 siniflər) və orta təhsil (6–9 siniflər) həyata keçirilir. Ç.-nın ali təhsil sistemi ictimai, dövlət (polis və hərbi təhsil) və özəl un-tlərdən ibarətdir. Qədim un-tləri: Karl un-ti (1348, Praqa), Palats un-ti (1249 ildə kollec kimi yaradılmışdır, 1573 ildən un-t), Çexiya texniki un-ti (1717, Praqa), Masarik un-

Mendel Universiteti. Brno.



ti (1919,Brno), Mendel un-ti (1919, Brno) və s., 1989 ildən un-tlər yerləşdikləri regionun adı ilə adlandırılır. Qərbi Bohemiya un-ti (1990), Cənubi Çexiya un-ti (1990, Çeske-Budeevits), Liberets texniki un-ti (1994) və s. Dövlət ali təhsil müəssisələrində təhsil 26 yaşadək məhdudiyyətsiz və pulsuzdur. Tələbələrə 26 yaşadək tibbi sığorta ödənilir. Çexiya Elmlər Akademiyası [1993, Praqa; Çexiya Kral Elmi Cəmiyyəti (1790), Çexiya ədəbiyyat və incəsənət Elmlər Akademiyası, (1890), Çexoslovakiya Elmlər Akademiyasının (1952) əsasında yaradılmışdır]. EA-nın nəzdində 51 in-t: Astronomiya, Riyaziyyat, Geologiya, Kimya prosesləri, Etimologiya, İqtisadiyyat, Arxeologiya, Etnologiya, Slavyan və s. in-tlar var.

**Kütləvi informasiya vasitələri**

Ç.-da 75 gündəlik qəzet buraxılır. Ən iri gündəlik qəzetlər: "Blesk", "Metro", "Mladá-fronta Dnes", "Právo", "Slovo", "Lidové Noviny" və s.

Televiziya 1953 ildən, özəl kanallar 2006 ildən fəaliyyət göstərir. "Radio Praqa" dövlət radiostansiyası bir neçə dildə (çex, ing., alm., fr. və isp.) verilişlər hazırlayır. CTK (Ceska Tiskova Kancelar) çex və ing. dilində verilişlər yayımlayan yeganə xəbər agentliyidir [1945 ildə Praqa teleqraf agentliyinin (1918) bazasında yaradılmışdır]. İnternet istifadəçilərinin sayı 7,6 mln. (2012).

**Ədəbiyyat**

Ç.-da ədəbiyyat çex dilində inkişaf edir. Ç. yazılı ədəbiyyatının ilk nümunələri (qədim slavyan dilində dini nəğmələr, jitiyelər, əfsanələr) 9 əsrin sonu – 10 əsrin əvvəllərində qədim slavyan dilində yaranmışdır. 11 əsrin sonlarında Roma kilsəsinin təzyiqi ilə latın dili hakim oldu (Praqalı Kozmanın "Çex xronikası", 1125). 13 əsrin sonlarında çex dilində yazı meydana gəldi, dünyəvi ədəbiyyat inkişafa başladı. 14 əsrdə İntibah ideyalarının yayılması Ç. ədəbiyyatının yüksəlişinə imkan yaratdı. Tarixi əsərlər içərisində Dalimilovun xronikası adlanan mənzum əsər seçilirdi. Satirik və didaktik əsərlər, cəngavər ədəbiyyatı meydana gəldi. Məhəbbət lirikası, vaqantların lirik və satirik nəğmələri geniş yayıldı. S. Flyaşka kral və feodallar arasındakı ziddiyyətləri yaradıcılığında əks etdirən ilk məşhur çex yazıçısı idi ("Yeni dünya" əsəri). *Hus müharibələrinin (1419–34)* nəticəsi olaraq Ç. ədəbiyyatında vətənpərvərlik ideyaları Y. Hus, Y. Jelivski və P. Xelçitskinin yaradıcılığında qabarıq şəkildə əksini tapdı. 14 əsrin sonlarında yaranan əsərlərdə yadellilərin təzyiqinə qarşı etiraz əks olunmuş, islahatçı meyillər yaranmışdı. Hus ideologiyası üçün zəmin hazırlayan əsər yazanlardan ən görkəmlisi T. Ştitni idi.

1468 ildə Çexiyada kitab çapına başlandı. 15 əsrin sonlarında feodalizmin qüvvətlənməsi şəraitində çex müəlliflərinin diqqəti elmi əsərlərə yönəldi. Ədəbiyyatda humanist meyillər yarandı. Bəzi əsərlər orta əsrlərin mühafizəkar ənənələrinə qarşı etirazı əks etdirirdi. 16 əsrdə *xronika* janrı inkişaf etməyə başladı. 1620 ildə Habsburqların qələbəsindən sonra Ç.-nın müstəqilliyini itirərək feodal-katolik irticasının təsiri altına düşməsi 17–18 əsrlərdə ədəbiyyatın inkişafını ləngitdi. Latınların təsiri yenidən qüvvətləndi; çex kitabları məhv edildi. Bir çox yazıçı və mütəfəkkir xaricə mühacirət etdi. Onlardan ən görkəmlisi humanist pedaqoq Y.A. *Komenski* idi. Ç.-da rəsmi ədəbiyyatdan başqa, katolikliyin təbliğinə xidmət edən əlyazma əsərləri də mövcud idi. Çex kitablarının üzünü köçürərək gələcək nəsillər üçün saxlayırdılar. Ümumavropa barokko poeziyası istiqamətində məhəbbət lirikası inkişaf edirdi. Bu dövrdə şifahi xalq yaradıcılığı çex xalqının mənəvi həyatında böyük rol oynamışdır. Milli dirçəliş dövründə (18 əsrin sonu – 19 əsrin 1-ci yarısı) maarifçilik ideyaları (Y. Dobrovski), ədəbiyyatın milliliyi uğrunda mübarizə (A.Y. Puxmayer, Y. Yunqman, V. Qanka, Y. Kollar, P.Y. Şafarik və b.) vüsət aldı. Bu dövrdə Ç. ədəbiyyatı üçün folklora müraciət, keçmiş illərdə göstərilən qəhrəmanlığı idealizə etmə səciyyəvi idi. 19 əsrin 30-cu illərində inqilabi romantizm meydana gəldi (K.Q. Maxa), həmçinin milli dramaturgiya inkişaf etdi.

Ədəbiyyatın inkişafında 1848–49 illər inqilabının mühüm əhəmiyyəti olmuşdur. Ç. ədəbiyyatında realist ənənələr yarandı, sosial-tənqidi, mütləqiyyət əleyhinə meyillər (K. Qavliçek-Borovskinin publisistikası və satirik poeziyası) gücləndi. Milli dramaturgiyanın təşəkkülündə Y.K. Tıl mühüm rol oynadı ("Yan Qus" pyesi və s.); çex teatrında ilk dəfə onun tarixi dramlarında xalq aparıcı qüvvə kimi göstərilirdi. 50-ci illərdə B. *Nemtsovanın* sosial ziddiyyətləri əks etdirən və xalqı mənəvi-etik dəyərlərin əsas daşıyıcısı kimi təsvir edən povestləri xüsusi yer tuturdu ("Nənə"). K.Y. Erben romantik folklor ənənələrini davam etdirirdi.

60–80-ci illərdə Y. *Neruda* bədii yaradıcılığı ilə vətənpərvərlik və intim lirikanın realist poetikasını əsaslandırdı, ədəbiyyata şəhər həyatını gətirdi; meşşanlığın ifşası onun nəsrinin əsas motivlərindən idi. V. Qalekin, K. Svetlayanın romanlarında sosial-mənəvi problemlərə geniş yer verilirdi. Tarixi roman xeyli inkişaf etmişdi: A. İrasek çex tarixinin mühüm anlarını göstərərək, xalq azadlıq müharibəsi kimi Hus hərəkatının panoramını yaratmışdı. A. Staşek, Y. Arbes dövrün sosial problemlərinə müraciət edirdilər; sosial nöqsanların tənqidi, vətənpərvərlik motivləri, inqilabi dəyişikliyi əvvəlcədən hissetmə S. Çexin, Y.V. Sladekin, Y. Vrxlitskinin poeziyasına məxsus cəhətlər idi. V. Mrştik və *İrasek* realist dramlarında kəndlilərin faciəli taleyini təsvir edir, kapitalist münasibətlərinin kənd həyatına təsirini göstərirdilər. 90-cı illərdə sosial-tənqidi realizm gücləndi; şəxsiyyətin və cəmiyyətin qarşılıqlı münasibətləri, insanın mənəvi aləminin təsviri ədəbiyyatın əsas mövzusu oldu. 19 əsrin sonu – 20 əsrin əvvəllərində fəhlə hərəkatı, sosialist ideyaları ədəbi prosesə güclü təsir göstərdi. "Moderni revue" (1894–1925) jurnalında ifadə edilən modernist və dekadent tendensiyalar meydana gəldi. Simvolist şair A. Sovanın poeziyası üçün bəşəriyyət və azadlıq haqqında düşüncələr səciyyəvi idi. Görkəmli çex satiriki Y. *Qaşek* hekayə, pamflet və felyetonlarında xalqın Habsburqlar sülaləsinə, militarizmə nifrətini ifadə edirdi.

Çexoslovakiya resp.-nın yaradılması (1918) və ölkədə fəhlə hərəkatının yüksəlişi ədəbiyyatın inkişafında inqilabi poeziyanın, sosial-ifşaedici romanın böyük nailiyyətləri, sosialist realizminin, qüvvətli antifaşist ədəbiyyatının meydana gəlməsi ilə səciyyələnən yeni dövrün başlanğıcını qoydu. Ç. ədəbiyyatının slovak ədəbiyyatı ilə qarşılıqlı əlaqələri xeyli inkişaf etdi.

20-ci illərin əvvəllərində poeziyada nəzəriyyəçiləri S.K. *Neyman*, Y. Qora, İ. *Volker* olan proletar ədəbiyyatı, həmçinin marksist tənqidi (Z. Needlı, Y. *Fuçik* və b.) yarandı. Neyman "Qırmızı nəğmələr" kitabında vətənpərvərlik və təşviqat lirikasının yeni janrlarını əsaslandırdı; Volkerin yaradıcılığı ("Doğulma saatı" toplusu) inqilabi humanizm ideallarını əks etdirirdi, poetika sahəsində metaforaların güclənməsi və sərbəst şeirin yeni formalarının axtarışı nəzərə çarpırdı. Y. Seyfertin "Göz yaşlarında şəhər" toplusu inqilabi motivlərlə aşılanmışdı.





V. *Nezvalın* "Qəribə sehrbaz" poemasında inqilabi-romantik meyillər aydın görünürdü. 20-ci illər proletar nəsri Qaşekin məşhur "İgid əsgər Şveyqin dünya müharibəsindəki macəraları" antimilitarist romanı ilə təmsil olunurdu. A.M. Tilşova, K. Novıy və b. tənqidi realizmin nümayəndələri idilər. Görkəmli çex yazıçısı K. *Çapekin* demokratik yönümlü roman və pyesləri meydana gəldi ("R.U.R.", "Makropulos üsulu", "Mütləq fabriki").

30-cu illərin əvvəllərində iqtisadi böhran və sosial ziddiyyətlər, faşizm təhlükəsi Ç. ədəbiyyatında ideya-estetik polyarizasiyanı gücləndirdi. Klerikal-milli, faşizm yönümlü təmayüllərlə mübarizədə proqressiv yazıçılardan ibarət geniş cəbhə yarandı. Sol yazıçılarla müzakirələrdə incəsənət muxtariyyətinin avanqard konsepsiyası tənqidə məruz qaldı. Nezvalın 1934 ildə yaratdığı sürrealistlər qrupu (1938 ildə özü ləğv etmişdir) ilə polemikada tənqidçi-marksistlər (B. Vatslavek, K. Konrad, L. Ştoll, Neyman) sosialist realizminin estetikasını işləyib hazırladılar. Bu illərdə Neymanın və V. Zavadanın, F. Qalasın, Qoranın, Y. *Tauferin* vətənpərvərlik və antifaşist lirikası əsas yer tuturdu. Neyman həm sürrealist, həm də aktual siyasi şeirlər yazmışdır. 30-cu illərdə nəsrin inkişaf etməsi sosialist realizmi romanının yüksəlişinə səbəb oldu. M. *Mayerova*, M. *Puymanova*, T. Svatopluk, Y. Kratoxvil, V. *Vançuranın* romanları sosial yönümlü olması və dərin psixologizmi ilə seçilirdi. Çapekin faşizm əleyhinə yazdığı əsərlər beynəlxalq aləmdə nüfuz qazanmışdı. "Salamandrlarla müharibə" romanında, "Ağ xəstəlik" və "Ana" dramlarında militarizm və irqçilik nəzəriyyəsi satira atəşinə tutulurdu.

Faşist işğalı (1939–45) Ç. ədəbiyyatına ağır zərbə vurdu, bir çox yazıçı faşist düşərgələrində və həbsxanalarda həlak oldu. Dəhşətli təqib faşizmə qarşı müqavimət ideyalarını təbliğ edən mütərəqqi qüvvələrin birliyini sarsıda bilmədi. Fuçikin "Edamqabağı reportaj" əsəri ümumdünya şöhrəti qazandı.

Ç. işğaldan azad edildikdən (1945) sonra faşizmlə mübarizə və qələbə ədəbiyyatın əsas mövzusu idi. 50-ci illərdə sosialist realizmi Ç. ədəbiyyatında əsas cərəyan oldu. Sosializm quruculuğuna (V. Rjezaçın, B. Rjiqanın romanları) həsr edilmiş epik əsərlərə meyil yarandı (Puymanova, A. Zapototski və Rjiqanın romanları); faşizmə qarşı mübarizə mövzusu aktual olaraq qaldı. Nezvalın əsərləri dünya şöhrəti qazandı. Poeziya müasirlərin mənəvi aləmini, antimilitarist pafosu əks etdirirdi (Zavada, F. Qrubin, A. Kaynar); intim və peyzaj lirikasına geniş yer verilirdi (M. Florian). 50-ci illərin ortalarında normativist təmayüllərlə mübarizə genişləndi; yazıçılar yazdıqları əsərlərdə tarixi proseslə müasir dəyişikliyin real çətinliyini və ziddiyyətlərini göstərməyə çalışırdılar (Y. Otçenaşek, Z. Pluqarj).

60-cı illərin ortalarında nihilist meyillər gücləndi; qərb *modernizminin*, "Yeni romanın", absurd dramının və s. təsiri çoxaldı. 1968–69 illərdə Çexoslovakiyada baş verən siyasi böhran Ç. ədəbiyyatının inkişafına mənfi təsir göstərdi.

70-ci illərin əvvəllərində ədəbiyyatda keçmişin proqressiv ənənələrinin bərpa edilməsi, başqa ölkələrin ədəbiyyatları ilə əlaqələrin möhkəmlənməsi nəzərə çarpırdı. Tarixi nəsr həqiqi bəşəri dəyərlərin sarsılmazlığını iddia edirdi. Ədəbiyyatda sosial idealın müdafiəsi müasirliyin kəskin mənəvi-etik və ictimai problematikasını əks etdirən əsərlərin meydana gəlməsinə səbəb oldu; 2-ci dünya müharibəsi və faşizmə qarşı müqavimət 70-ci illər ədəbiyyatının əsas mövzularından idi. Ç. ədəbiyyatının bu dövr nailiyyətləri Y. *Kozakın*, Rjiqanın, Pluqarjın, Y. Kolarovanın, V. Nefin romanları, Zavadanın, Tauferin, İ. Skalanın, Florianın poetik yaradıcılığı ilə sıx bağlıdır.

1989 il noyabr inqilabından sonra Ç.-nın ədəbi mühiti yenidən inkişaf etmək imkanı qazandı. Yeni yazıçılar birliyi yarandı.Qadağan olunmuş əsərlər çap



Milli Muzey (Praqa).

Milli Texniki Muzey (Praqa).





Plzen şəhərindən görünüş.

edildi. 21əsrdə oxucular tərəfindən yaradıcılığı maraqla izlənən yazıçıların əsərləri nəşr olundu (M. Viveq, M. Urban, P. Qulov, Y. Balaban, Y.Qayiçek, Y. Topol, L. Rayner və b.).

Ç. şairlərinin əsərlərindən ibarət "Çex poeziyası" antologiyası, Y. Qaşek, K. Çapek, Y. Fuçik, Y. Neruda, V. Nezval, B. Nemtsova, M. Mayerova, M. Puymanova, İ. Taufer və b.-nın bəzi əsərləri Azərb. dilinə, klassik və müasir Azərb. ədəbiyyatından nümunələr isə çex dilinə tərcümə edilmişdir.

## Memarlıq və təsviri sənət

Ç.-da Paleolit dövrünə aid heykəltəraşlıq, Neolit dövrünə aid keramika nümunələri, protoslavyan, *Halştat mədəniyyəti* və *Laten mədəniyyəti* abidələri mühafizə olunmuşdur. Katolikliyin qəbulundan sonra Bizans, Karolinq nümunələrinə yaxın daş kilsələr inşa edilmişdir. 11–13 əsrlərdə roman üslubu təşəkkül tapmışdır [Praqa Qradındakı Müq. Vit (11 əsr) və Müq. Yirji (12 əsr) bazilikaları]. Divarların qalınlığı, konstruksiyaların möhtəşəmliyi, qüllələrin hündürlüyü kimi xüsusiyyətlər roman üslubuna xasdır. 12 əsrdə roman üslubu çiçəklənmə dövrünü keçirmişdir. Bu mərhələdə Müq. İrji məbədinin yenidən tikilməsi, Treşbiçdə bazilikanın, Rovnda Müq. Yakub kilsəsinin inşası başa çatdı. 13 əsrin ortaları – 15 əsrin 1-ci yarısında qotika üslubu inkişaf etmişdi. Bu dövrdə inşa edilmiş memarlıq nümunələrinin içərisində xüsusilə Karlşteyn qəsri (1348–57) məşhurdur. Xaçşəkilli qüllələrin, şəbəkəli ala-qapıların, həmçinin karkas konstruksiyaların inşasında qotik üslubdan istifadə olunmuşdu. Ç.-da Habsburqlar sülaləsinin hökmranlığı bərqərar olduqdan sonra (1526) memarlıqda renessans üslubu geniş yayılmışdı (Praqada Belveder, Şvartsenberq sarayları və s.). 17 əsrin 2-ci yarısından memarlıqda yeni üslub – təmtəraqlılığa, əzəmətliyə meyilli barokko üslubu yarandı. Bu dövr Ç. memarlığı çoxsayda bəzək və dekorativ elementləri ilə fərqlənirdi (Praqadakı Qalib olan Müq. Məryəm kostyolu). Praqa şəhərinin memarlığında 2 üslub – qotika və barokko üstünlük təşkil etmişdir. Məhz bu üslublar ilə Ç.-da çoxsaylı məşhur memarlıq abidələri yaranmışdır. 18 əsrin sonu – 19 əsrin əvvəllərində (bu dövr Ç. İntibahı da adlanır) milli azadlıq hərəkatının inkişafı ilə əlaqədar incəsənət də milli özünütəsdiq mübarizəsinə qoşuldu. 19 əsrin ortalarından memarlıqda milli romantika istiqaməti meydana gəldi. 19 əsrin sonu – 20 əsrin əvvəllərində modern üslubu rasionalizm təmayülləri ilə əvəz edildi. 1920–30-cu illər memarlığında milli funksionlizm məktəbi təşəkkül tapmışdı [Y. Qoçar, K. Qonzik, Y. Qavliçek; Vitkov dağında "Azadlıq" milli abidəsinin inşası (1929 ildən, memar Y. Zazvorka)].

Müqəddəs Vit bazilikası.



Ç. faşist əsarətindən azad edildikdən (1945) sonra incəsənətin inkişafı üçün yeni perspektivlər açıldı. Praqa, Qotvaldov, Olomouts və s. şəhərlərdə yeni yaşayış r-nları salındı. 1970-ci illərdən binaların plastik ifadəliliyi və fərdi simasının öyrənilməsi sahəsində axtarışlar aparılmışdır.

11–13 əsrlər təsviri sənətinə Almaniya və Bizans incəsənətinin təsiri olmuşdur. Ciddi obrazlardan (Strakonitsidən olan Madonna, 14 əsrin ortaları) lirizmə, zərifliyə meyil (Mixel Madonnası, 14 əsrin 2-ci yarısı) rəngkarlıqda özünü göstərirdi.

Barokko dövrü (17–18 əsrlər) Ç. təsviri sənətinə realist və demokratik təmayüllər xas idi [M. B. Braun və F.M. Brokof; (Praqadakı Karlov körpüsünün heykəlləri, 17 əsrin sonu – 18 əsrin əvvəli)]. Praqada "Vətənpərvər incəsənət dostları cəmiyyəti" (1796) və Rəssamlıq Akademiyasının təşkili (1799) təsviri sənətin inkişafına mühüm təsir göstərdi.

Natürmort, portret, həmçinin dini mövzularda olan əsərlərlə təmsil olunan Ç. təsviri sənəti milli, tarixi, klassisizm, romantizm və vətənpərvərlik ideyaları ilə ifadə olunurdu (L. Kol, A. Maxek, K. Postl, A. Manes və b.). 18 əsrin ortalarında rokoko və klassisizm əlamətləri meydana gəldi. 19 əsrin sonlarında rəssam M. Aleşin başçılıq etdiyi rəssamlar qrupu incəsənətin inkişafında əhəmiyyətli rol oynadı. Y.V. Mıslbek dövrün görkəmli heykəltəraşı idi. 1920–30-cu illərin təsviri sənətində realist və demokratik meyillər möhkəmləndi.

1920–30-cu illər təsviri sənətində realist-demokratik meyillər möhkəmləndi. Ç. faşist əsarətindən azad edildikdən (1945) sonra incəsənətin inkişafı üçün yeni perspektivlər açıldı. Praqa, Qotvaldov, Olomouts və s. şəhərlərdə yeni yaşayış r-nları salındı. Bu illərdə V. Makovski, K. Liditski, K. Pokornı, Y. Vaqner və b. heykəltəraşlar Qələbə, Praqa üsyanı qəhrəmanları, sovet döyüşçüləri, Ç. mədəniyyəti xadimləri şərəfinə abidələr yaratmışlar.

1970-ci illərdən binaların plastik ifadəliliyi və fərdi simasının öyrənilməsi sahəsində axtarışlar aparılmışdır. Bu illərin heykəltəraş, rəssam və qrafiklərinin yaradıcılığında tarixi inqilibi motivlər üstünlük təşkil edirdi (Y. Maleyovsk, M. Aksman, A. Zabransk, Y. Yuroj və b.). Ç.-da monumental dekorativ-tətbiqi sənət, bədii şüşə, parça, teatr-dekorasiya sənəti yüksək səviyyədə inkişaf edir.

Təqr. 1984 ildə Ç.-da postmodern yaradıcılıq konsepsiyası yayılmağa başladı (F. Skala, Y. David, M. Qabriel, Y. Rona və b.). Rəssamlardan K. Neprașa, E. Kmentova, Y. Andle, Y. Naçeradski 20 əsrin 80–90-cı illərində fiqurlu plastika sahəsində işləmişlər. M. Knijak heppeninq bədii yaradıcılıq üslubunun nümayəndəsidir (hazırda Praqadakı Milli qalereyanın direktorudur). T. Piştek hiperrealizmin nümayəndəsidir. P. Nikl 2005 ildə Yaponiyanın Aixi ş.-ndə EKSPO sərgisində Ç. sərgi kompozisiyasını təşkil etmişdir.



Karlşteyn qəsri.

## Musiqi

Çex musiqi mədəniyyəti ilk qaynaqlarını xalq musiqi yaradıcılığından almışdır. Musiqi folkloru xalq havaları (skoçna, sousedka, furiant və s.) ilə zəngindir. Qədim musiqi alətləri: yanmış gildən düzəldilmiş fişqırıqlar, oyuq sümükdən olan tütəklər, kasaşəkilli təbil və dəflər, çoxsaylı gurultulu alətlər, qonqlar, həmçinin metal truba və liralar. 10–13 əsrlərin liturgiyalarında latın dili ilə yanaşı katolik kilsə nəğmələri də yayılırdı. Əlyazması şəklində olan dini mahnılar məcmuəsi "Praqa tropari" 13 əsrin ən əhəmiyyətli abidəsidir. 12 əsrdən kütləvi, milad və pasxa tamaşaları geniş yayılmışdı, bu tamaşalarda aşağı təbəqədən olan ruhanilərlə yanaşı, tələbələr və xalqın nümayəndələri də iştirak edirdi, bu da xalq adət-ənənələrinin tamaşalara daxil olmasına səbəb olurdu. Latın və çex mətnlərinin bir-birini əvəz etdiyi mahnı-monoloqlar, mahnı dialoqlar da geniş yayılmışdı. Eyni zamanda dünyəvi janrlar da inkişaf edirdi. 13 əsrdə Ç.-da alman nüfuzu artırdı. Minnezingerlər sənətinin təsiri ilə Praqa pıtsar mədəniyyətinin mərkəzinə çevrilmiş, burada oxuma, incə poeziya və bəstəkarlıq sənəti üzrə yarışmalar keçirilirdi. Ç.-da ənənələri 19 əsrə qədər qorunub saxlanılmış ilk xalq dini tamaşalarının müəllifləri qəzərgi musiqiçilər olmuşlar (14–15 əsrlər). Artıq 1256 ildə Praqa kafedral kostyolunda orqan quraşdırılmışdı. Sitra, truba, litavralar, əl arfası, psalterium, kifara, fidel və b. alətlər yayılmışdı. 14 əsrdə çoxsəslilik barədə ilk yazılara rast gəlinir. 14 əsrin axırlarından Hus hərəkatı (1419–34) və 15 əsrdə Hus mahnılarının yaranması ilə əlaqədar musiqinin sosial-etik rolu artmışdı. 15–16 əsrlərdə Ç.-da çoxsəsli oxumalar geniş yayılmışdı. Bütün ölkədə xalq melodiyalarının, populyar dini mahnıların toplanması və işlənməsi ilə məşğul olan həvəskar musiqi cəmiyyətləri yaranmış, 16 əsrdə polifoniya məktəbi inkişaf etmişdi (A. Mixna, V. Qolan, Y. Rıxnovski, Y.T. Turnovski). Qavranması çətin olan niderland məktəbi bəstəkarlarının pyeslərindən fərqli olaraq adı çəkilən müəlliflərin əsərləri anlaşıqlı, sadə, zamanın tələblərinə cavab verən formalara uyğun idi. 16 əsrdən başlayaraq musiqi nəzəriyyəsi intensiv surətdə inkişaf edirdi; o, Praqa və Olomouts Universitetlərinin aparıcı fənni sayılırdı. V. Filomatın "Dörd musiqi kitabı – şam işığında yazılmış qısa şeirlər" (1512) və Y. Blaqoslavın "Çex qrammatikası", Y. Joskenin musiqi nəzəriyyəsinə aid "Musiqi" adlı dərsliyi (1571), sonralar latın dilində fənn lüğəti olmuş T.B. Yanovkanın "Böyük sənət xəzinəsinin açarı", Y. Brosmanın kompozisiya nəzəriyyəsi, instrumentovka və oxuma üzrə işləri böyük nüfuz qazanmışdı. 18 əsr milli polifonik məktəbin banisi B. Çernoqorski olmuşdur. Bu əsrdə Praqada (onu "Avropanın konservatoriyası" adlandırırdılar) işləyən görkəmli musiqi xadimləri F. Miça (simfonik musiqi), Y. Mısleveçek (opera),

Y. Benda (melodram), F. Benda (skripka musiqisi) Qərbi Avropa musiqisinin inkişafında əhəmiyyətli rol oynamışlar. Çex klassik musiqisinin banisi B. Smetana milli musiqi mədəniyyəti ilə dünya musiqi sənəti nailiyyətlərini əlaqələndirmiş, milli realizm sənətinin inkişafına təsir etmişdir. Praqada konservatoriyanın (1811), orqan məktəbinin (1831), Milli Teatrın (1881) açılması, "Çex kvarteti"-nin (1891), Ç. filarmoniyasının (1901) təşkil edilməsi musiqi ifaçılığının inkişafında mühüm rol oynamışdır. Çex skripka məktəbi və onun görkəmli nümayəndələri Y. Slavik, F. Laub, F. Ondrjiçek, O. Şevçik, Y. Kubelik; violonçelçalan Q. Viqan geniş şöhrət qazanmışdılar. Vokal sənəti yüksək bədii səviyyəyə çatmışdı; Y. Lev, Y. Paleçek, M. Sittova və b. (18 əsrin əvvəli), V. Geş, Q. Kavallorava, B. Benoni, B. Fyorsterova-Lautererova və b. (18 əsrin sonu – 19 əsr), K. Çex (19 əsrin sonu – 20 əsrin əvvəli) tanınmış opera müğənniləri idi. 20 əsrdə çex musiqisinin dünya şöhrəti qazanmasında A. Dvorjakın yaradıcılığı mühüm rol oynamışdır. 19 əsrin sonu – 20 əsrin əvvəllərində B. Smetana və A. Dvorjakın ənənələrini davam etdirən L. Yanaçek, Y. Suk, V. Novak yüksək səviyyəli musiqi əsərləri yaratmışlar. Opera, simfoniya, simfonik poemalar, kantatalar, müəllifi Y.B. Förster 19 əsrin sonu –20 əsrin əvvəllərində çex klassik musiqisinin ənənələrini davam etdirmişdir. Hər il ("Verdinin operaları", "Praqa baharı", "Praqa payızı") müxtəlif musiqi festivalları keçirilir. 50-ci illərin sonu – 60-cı illərin birinci yarısında caz və blüz inkişaf etmiş musiqi növü idi. Baş dirijor və klarnetçalan K. Kraytqartner, gitaraçı R. Daşek, müğənni V. Pruxova, saksafonçu Y. Konopasek ən məşhur musiqiçilərdən idilər.

Sosialist dövrünün bəzi ulduzları məxməri inqilabdan sonra səhnədən getsələr də populyarlıqları indi də qalıb məs., Karel Qott. 20 əsrin sonu – 21 əsrin əvvəllərində fəaliyyət göstərən yaradıcılığında rok, klassik avanqard, caz və çex xalq musiqisini sintez edən müğənni və skripkaçı İ. Bittova, zərb alətləri ifaçısı P. Faytın adları çəkilir. Çex tamaşaçıları və dinləyiciləri arasında müzikllər, pop, rok musiqisi böyük populyarlıq qazanmışdır: "Çex Krumlovu", "Kutna Qora", beynəlxalq caz festivalı "İnternational Jazz Festival Prague", hər il Qradtse Kralovda "Jazz goes to town" nüfuzlu jaz festivalı və s. keçirilir. Ən populyar və inkişaf etmiş hip-hop və rep janrı geniş yayılmışdır. Çex repinin veteranı sayılan "Peneri strycka Homeboye" qrupu "Repertuar" adlı albomu ilə 2001 ildə səhnədə göründü. "Jazz Q", "Energit", "İmpuls" ansamblları Ç. cazının yeni nümayəndələrini yetişdirmişdir. Ç.-da 11 opera teatrı, bir neçə filarmoniya, filarmonik orkestr, çex radio orkestri aparıcı ork.-lərdir. Praqa konservatoriyası, praqa musiqi sənəti akademiyası və Brnodakı Yanaçek ad. Musiqi Akademiyası fəaliyyət göstərir.

Praqa konservatoriyası.



**Balet**

Çex baletinin tarixi 1883 ildən başlayır. Praqa Milli Teatrının balet truppası ölkənin ən iri kollektivlərindəndir. 1882–84 illərdə teatra rəhbərlik etmiş V. Reyzinger ilk çex baletinin müəllifidir. 1884 ildə Reyzinger "Həşiş" baletini tamaşaya qoymuşdur. 1900–12 illərdə Milli Teatrın balet truppasına İtaliya balet məktəbinin nümayəndəsi A. Viskuzi rəhbərlik etmiş və O. Nedbalanın "Qonze haqqında nağıl" (1902), "Nağıldan nağıla " (1908), "Şahzadə Giatsinta" (1911) və s. əsərlər səhnəyə qoymuş, ansamblı genişləndirmiş, teatrda balet məktəbi yaratmışdır. Truppa klassik baletləri də (P.İ. Çaykovskinin "Sonalar gölü", "Şelkunçik", A. Adanın "Jizel") ifa edirdi. A. Koreska 20 əsrin əvvəlində ilk çex balerinası olmuşdur. 1884 – 1900 və 1912–23 illərdə teatrın baş baletmeyster və rəhbəri vəzifəsində A. Berqer çalışmışdır. Onu çex ifaçılıq məktəbinə rus balet sənətinin ənənələrini gətirmiş mənşəcə polyak olan R. Remislavski əvəz etmişdir (1923–27). Teatrın növbəti bədii rəhbəri xoreoqraf Y. Xladik (1927–1933) olmuş və o, tamaşa quruluşlarına tanınmış xoreoqraflar D. Ençik, Y. Nikolskayanı və b. dəvət etmişdir. 20 əsrin 70–80-ci illərində "Viktorka" (Z. Vostrjak), "Otello" (J. Qanuş), "Meteor" (M. Vatsek), "Xirosima" (V. Bukova), "Dənizçi haqqında ballada" (Z. Krşijek) və s. baletlər geniş şöhrət qazanmışdır. Milli Balet Teatrı Ç. Resp.-nın ən maraqlı kollektivlərindəndir və burada Rusiyada, Slovakiyada, Avstraliyada, B. Britaniyada, Almaniyada, Yaponiyada, İtaliyada yetişmiş ifaçılar çalışmışdır. Teatrın repertuarında klassik əsərlərlə yanaşı, müasir xoreoqrafik tamaşalar da geniş yer tutur. Son illər Milli Balet Teatrı ifaçılıq ustalığını çox yüksəltmiş və o, Avropanın aparıcı teatrları sırasına daxil olmuş, dünyanın bir çox ölkəsində müvəffəqiyyətlə çıxış etmişdir.

Praqa Baleti teatrı 1975–99 ilə qədər Praqa Kamera Balet adı ilə fəaliyyət göstərmişdir. Çex rəqs platforması festivalı çex rəqs sənətini hər il ən geniş nümayiş etdirən tədbirdir. Azərb. bəstəkar A. Məlikovun əsəri Ç. səhnəsində tamaşaya qoyulmuşdur.

**Teatr**

Ç. teatrının mənşəyi qədim bütpərəst qəbilələrin mərasim və ayinləri, sonralar isə kəndli bayramları ilə bağlıdır. 14 əsrdə misteriya tamaşalarına çex dilində





intermediyaların daxil edilməsi dini süjetlərdən məişət səhnəciklərinə keçidin başlanğıcı oldu. 18 əsrin sonu – 19 əsrin əvvəllərində milli azadlıq hərəkatının genişlənməsi teatr və dramaturgiyanın formalaşmasına təsir göstərdi. 19 əsrin 1-ci yarısında dramaturq Y. Tılın rəhbərliyi ilə professional truppa yaradıldı. Alman dili ilə yanaşı çex dilində də pyeslər tamaşaya qoyulmağa başladı. 1862 ildə Praqada ilk çex teatrının (Müvəqqəti teatr) əsası qoyuldu. Çex Milli Teatrının binası (1881 ildə açılmış, lakin az sonra yanmışdır. 1883 ildə bərpa edilmiş və yenidən fəaliyyətə başlamışdır) 19 əsrin sonlarına məxsus qiymətli memarlıq abidəsidir. Teatrda dram, opera və balet truppaları fəaliyyət göstərirdi. 20 əsrin əvvəllərində bir çox çex dram teatrı açıldı. Çex teatrının inkişafında Q. Kvagilova, E. Voyan, Y. Moşna, Y. Şmaqa, M. Gübnerova və b. mühüm rol oynadı. Teatrın həyatında milli-demokratik ruh yüksəldi. Sosialist Ç.-sında teatr ideoloji ştamp və qadağalardan qismən azad idi. 60–70-ci illərdə Ç.-da eksperimental kollektivlər – "kiçik formalı teatrlar" geniş fəaliyyət göstərirdi ("Na Zabradli", "Semafor") və b. P. Koqout, V. Qavel və b. gənc nəsil dramaturqlarının pyesləri çox populyar idi. Bu dövr rej. sənətinin inkişafı K. Palouş, Y. Sokolavski, Z. Muka, Y. Zabrovski, Y. Petrovitska, B. Rujek, Y. Şvortsova, Q. Vrvnova, V. Şmeral və b. təmsil edirdilər. Müasir dövrdə Çex teatr sənətinin ən populyar növü müzikllərdir. Tamaşalarda tanınmış aktyorlarla birgə estrada "ulduzları"da çıxış edirlər. "Hamlet", "Qocalar mayaotu yığımında", "Su pərisi", "Janna d' Ark" və s. maraqlı tamaşalardır. Ç. paytaxtında 30-dan artıq kiçik və böyük dram teatrı fəaliyyət göstərir. Repertuarda, əsasən, klassik çex və Avropa müəlliflərinin əsərlərinə daha çox yer verilir. Opera tamaşaları Milli Teatrla yanaşı Dövlət Opera Teatrının səhnəsində də qoyulur. Dramatik tamaşalar, müzikllər, opera, operetta kimi ənənəvi teatr sənəti formaları ilə yanaşı Ç.-da 20 əsrdə yaranmış nadir və özünəməxsus janrlar da vardır. Yeni janrlardan biri "Kölgə teatrı"dır. Bu teatrın tamaşaları böyük maraq doğurur. Səhnədə cərəyan edən hadisələri başa düşmək üçün çex dilini bilmək lazım deyil, sadəcə baxmaq və hiss etmək lazımdır. "Kölgə teatrı"nın əsas prinsipi həm sadə, həm də qeyri-adidir: qara paltar geyinmiş aktyorlar qara rəngli dekorasiyalar fonunda hərəkət edirlər; tamaşaçı müxtəlif yardımçı texniki vasitələri görmür, ona görə də tryuklar tamaşanın bir hissəsi kimi qəbul olunur. Q.t.-nın tamaşalarında hətta rekvizit və tamaşanı müşayiət edən musiqi də bir növ əsərin qəhrəmanlarına çevrilir. "Kölgə teatrı"nı yaradan P. Kratoxvil olmuşdur. Sosialist rejimi dövründə o, məcburi olaraq ABŞ-a köçmüş və 1981 ildə orada qeyri-adi janrda Ta Fantastika teatrını yaratmışdı. O, özünün verdiyi quruluşlarda rəqs və pantomimadan, "Kölgə teatrı"nın üsullarından istifadə edir. Černe divadlo Animato ("Qara animasiya teatrı"), Černe divadlo Jiriho Srnse "Jrrji Srntsın" ("Qara teatr") da məşhurdur.



Praqa Milli Teatrı.

Laterna Magika ("Sehirli fənər") teatrının ilk tamaşası 1958 ildə Brüsseldə keçirilmiş EXPO sərgisində göstərilmişdir. Yeni və qeyri-adi tamaşa, tamaşaçılara böyük təsir etmişdir. Teatr A. Radokin və Y. Svobodonun rəhbərliyi altında 1960-cı illərin əvvəlində Avropa ölkələrində uğurla çıxış etmişdir.

Müasir çex kukla teatrının tarixi 20 əsrin əvvəlindən başlanır. Teatrın əsasını J. Veseli və A. Myunstberq qoymuşdur. J. Skupa və M. Kirşner ölkənin ən məşhur kukla ustaları idi. Onların yaratdığı Şpeybl və Qurvinek adlı kukla marionetkalar həm uşaqlar həm də böyüklər arasında məhəbbətlə qarşılanmışdır. "Piroq və kuklalar" (Buchty a Louty) Ç.-da ən müasir kukla teatrıdır.

Milli teatrın filialları da var (Kolovrat teatrı və Soslovhıy teatr). Praqa Milli teatrında tamaşaların əksəriyyəti çex dilində oynanılır. Onun repertuarı həm klassik, həm də müasir əsərlərdən ibarətdir.

Ç.-nın dünya şöhrəti müğənnilərindən M. Kojenanı, D. Peskovanı (metsosoprano), həmçinin E. Urbanovanı və b.-nı göstərmək olar.

Müasir dövrdə Ç.-da Milli teatr, Dövlət opera teatrı, "Vinoqradda teatr", "Fidlovaçda teatr", "Zabradlidə teatr", "Semafor" teatrı, "All Colours Theatre", "Cerne divadlo Animato" teatr, "Divadlo İmage" teatrı, Narodni divadlo marionet teatrı və s. fəaliyyət göstərir.

**Kino**

Çex kinosunun banisi Yan Krşijenetskinin ilk filmləri 1898 ildə "Çex kinematoqrafı" pavilyonunda göstərilmişdir. İlk daimi kinozal Praqada 1907 ildə açılmışdır. Birinci dünya müharibəsindən sonra çex kino sənayesi sürətlə inkişaf etməyə başladı. Çex səssiz kinosunun "Məbəd inşaatçısı" tarixi dramı, "Müqəddəs Vit məbədinin orqançalanı" melodramı, "Erotikon" sosial dramı kimi nümunələri yarandı. İlk çex kinoaktrisası A. Ondrakova A. Hiçkokun "Onun etirafı" ilk səsli filmində əsas rolda çəkilmişdir. Səsli kinonun yaranması dövründə Ç.-da K. Lamaç, M. Friç, Q. Maxatı kimi rej.-lar meydana gəldi. Q. Maxatının "Ekstaz" və Yozef Rovenskinin "Çay" filmləri bu dövrün ən populyar kinoəsərləridir. X. Xaas, V. Burian, Y. Verix, L. Baarova, A. Mandlova, Y. Voskovets və b. tanınmış kinoaktyorlar idilər.

İkinci dünya müharibəsi zamanı çex kinematoqrafı Almaniyanın "qanadı altında" fəaliyyət göstərirdi. O dövr filmlərinin süjetləri tarixi mövzuda və ədəbi əsərlər üzrə idi. Komediya janrında tək-tək filmlər (rej. F. Çapın "Gecə kəpə-


"Biz bir-birimizə kömək etməliyik" filmindən kadr.

nəyi", rej. M. Freçin "Kristian" və b.) var idi.

Çex kinostudiyası "Barrandov" 1933 ildə Batslav və Miloş Qavel qardaşları tərəfindən yaradılmışdır. İkinci dünya müharibəsindən sonra bu studiya Avropada ən böyük kinopavilyonu olan güclü kinostudiyalardan biri sayılırdı. 1945 ildə "Barrandov" kinostudiyasının rəhbərlərindən biri Otakar Vavra Praqa kino məktəbini yaratmışdır. Gənc rej.-lar nəsli üçün əsl azad yaradıcılıq emalatxanası olan bu məktəbin çex kinematoqrafının təşəkkül tapmasında böyük rolu olmuşdur. 50-ci illərdə rej. B. Zemanın "Məğrur şahzadə qız" lenti müvəffəqiyyət qazanmışdı. Rej. K. Zemanın "Uzaq keçmişə aparan yol" və "İxtira" ilk tryuk filmləri idi. Teatr və kino rej.-u A. Kadokun "Laterna Magika" layihəsi çex mədəniyyətinin fenomeni oldu. Siyasi sistemin liberallaşması "yeni dalğa" nümayəndələrinin inkişafına imkan yaratdı. Ç.-da "yeni dalğa"nın ən məşhur nümayəndəsi dünya şöhrətli kinorej. M. Forman idi. Onun sinema-verite nümunəsi ilə çəkdiyi "Qara Pyotr" filmi bu janrda lentə alınmış ilk əsərdir. Kommunist rejiminin zəifləməsini rej.-lar yaradıcılıq yoluna qədəm qoymaq üçün siqnal kimi qəbul etdilər. O. Vavranın "Cadugər qadının başı üzərində gürz" tarixi filmində hadisələr 17 əsrdə cərəyan etsə də, onda açıq-aşkar Stalin rejiminə qarşı işarə vardı. 60-cı illərdə "Barrandov" kinostudiyasında V. Xitilova, İ. Mentsel, E. Şorm, M. Forman kimi tanınmış kinorejissorlar çalışırdı. Çex animasiya filmlərinin məşhur ənənələri bu gün də davam edir. Rej.-lardan Y. Trnka, G. Zeeman, G. Tırlova, Z. Millerin animasiya filmləri dəyərli sənət nümunələri kimi seçilir. 50–60-cı illərin ən məşhur çex filmləri: "Kölgədən qaçma" (1958), "Qızıl ulduzlu şahzadə xanım" (1959), "İyun günləri" (1961), "Yaşıl üfüqlər" (1962); "Ölümün adı Engelhendir" (1963), "Limonadlı Co" (1964), "Morrisvil qalasının kabusu" (1966), "Agentin axırı" (1967), "Zoluşka üçün üç fındıq" (1973). "Qocalar mayaotu yığımında" (1964) – ilk Avropa müzikllarından biri idi.

1970-ci illərin filmləri: "Yenə də göl-məçələrdə çapıram", "Açar", "Xəyanət günləri", "Sokolovo", "Praqanın azad edilməsi", "Böyük gecə, böyük gün". 80-ci illərin filmləri: "Kürən qız üçün sonata", "Partlayış saat beşdə olacaqdır".

Müasir çex kinosu milli ənənələrə riayət edən yeni nəsil istedadlı ssenaristlər, rej.-lar, aktyorlarla təmsil olunur. Ç.-nın müasir kinosu sələflərinin müxtəlif kino festivallarında dəfələrlə "Oskar" mükafatına layiq görülmüş filmlərindən ["Baş küçədəki mağaza" (1965), "Xüsusi təyinatlı qatar" (1966) və "Kolya" (1996)] bəhrələnir. Rej.-lar Y. Sverak, Y. Qrjebeyk, P. Yarxovski ("Biz bir-birimizə kömək etməliyik", 2000, "Oskar" mük.), S. Gedeon ("İdiotun qayıtması"), P. Zelenka "İblis ili", Beynəlxalq kinofestivalın mük., Karlovi-Vari), A. Brabets ("Siçovultutan", 2002, bir günə çəkildiyi üçün Ginesin rekordlar kitabına düşmüşdür) müasir çex kinematoqrafiyasının ən parlaq nümayəndələridir. Ç.-da 2004 ildən filmlərə "Elza" televiziya mükafatı verilir. Ç.-da dəbdə olan tibb mövzusunda seriallar da çəkilir: "Şəhər kənarında xəstəxana" və "Şəhər kənarındakı xəstəxana 20 ildən sonra". Hazırda ölkədə ildə 15-ə yaxın film çəkilir. Çex Kinematoqrafiyasının İnkişafına Yardım Fondu dövlət dəstəyini qrant şəklində həyata keçirir. Karlovi-Varidə Beynəlxalq kinofestivalları keçirilir.

"Barrandov-film" kinostudiyası "Azərbaycanfilm" kinostudiyası ilə birgə İ.P. Vatsek haqqında "Səmt küləyi" (1973, rej. E. Quliyev) bədii filmini çəkmişdir. V. Mustafayevin "Hər şey yaxşılığa doğru" filmi Karlovi-Vari festivalında (2000) "Azadlıq" prizinə layiq görülmüşdür.

*Əd.*: История Чехословакии. Т. 1–3, М., 1956–60; Комаров С. Чехословацкое кино. М., 1961; Карасек Б. О чешской музыке. М., 1965; Архитектура Чехословакии с древнейших времен до наших дней. Прага. 1965; Прутко И.И. История зарубежного кино, т. 2. М., 1970; История словацкой литературы. М., 1970; Шерлаимова С.А. Чешская поэзия XX века. 20–30-е гг. М., 1973; Виноградова Е.К. Графика и проблемы чешского искусства конца XIX – начала XX веков; Титова Л.Н. Чешский театр эпохи национального возрождения. М., 1980; Титова Л. Н. Чешский театр эпохи национального возрождения. М., 1980; Чехословацкая Социалистическая Республика. М., 1980; Никольский С.В. Две эпохи чешской литературы. М., 1981; Бирюков И. Чехословакия: люди и годы. М., 1986; Раннефеодальные государства и народности (южные и западные славяне VI–XII вв.). М., 1991; Лаптева Л.П. История Чехии периода феодализма (V – середина XVII в.). М., 1993; Седов В.В. Славяне: историко-археологическое исследование. М., 2002.

**ÇEXİYA KRONASI** – bax *Krona*.

**ÇEXİYA MASSİVİ**, Bohemiya massivi – əsasən, Çexiya ərazisində dağ massivi. Uz. təqr. 500 *km*, eni 300 *km*-ədəkdir. Mərkəzi hissəsi təpəli düzənlikdən (hünd. 300–600 *m*) ibarətdir; ayrı-ayrı qalxıntılar var. Qneyslərdən, kristallik şistlərdən, qumdaşılardan ibarətdir. Orta hünd.-lü dağlar (Sudet, hünd. 1602 *m*-ədək; Filizli dağlar, Çexiya meşəsi, Şumava) və Çexiya-Moraviya yüksəkliyi ilə əhatə olunmuşdur. 1200–1400 *m* yüksəklikdə iynəyarpaqlı və qarışıq meşələr, ondan yuxarıda dağ çəmənlikləridir. Polimetal filizlər, dəmir filizi, kömür, qrafit, kaolin, mineral bulaqlar var.

**ÇEXİYA MEŞƏSİ**, Bohemiya meşəsi (çexcə Ceský Les, alm. Böhmerwald) – Çexiya və AFR-də, Çexiya massivinin c.-q. hissəsində dağlar. Uz. 80 *km*, hünd. 1042 *m*-ədəkdir (Çerxov d.). Qranit, qneys, kristallik şistlərdən ibarətdir. Dərələrlə ayrılmış yastı zirvəli silsilələrdən ibarətdir. Buzlaq gölləri; fıstıq, küknar, ağ şam meşələri, dağ çəmənləri, torfluqlar var. Ağac tədarük edilir. Mal-qara otarılır. Qranit çıxarılır.

**ÇEXİYA-MORAVİYA YÜKSƏKLİYİ** – Çexiyada Çexiya massivinin c.-ş. hissəsi. Uz. təqr. 150 *km*, eni 10 *km*-ə, hünd. 837 *m*-ədəkdir (Yavorjitse d.). Qranit və qneyslərdən ibarətdir. Səthini, əsasən, çaylarla parçalanmış təpəliklər və alçaq dağlıqlar təşkil edir. Enliyarpaqlı və iynəyarpaqlı meşələr, çəmənlər, otlaqlar var.

**ÇEXLƏR** (özlərini çeşi adlandırırlar) – Çexiya Resp.-nda xalq [9 mln. 247 min nəfər; (2007); əvvəllər Ç.-in tərkibinə 1991 il siyahıyaalmasına görə, özlərini moravanlar və sileziyalılar adlandıran qruplar da daxil edilirdi], Çexiyanın əsas əhalisi. Həmçinin Slovakiyada (46 min nəfər), ABŞ-da (1 mln. 615 min nəfər), Kanadada (80 min nəfər), B.Britaniyada (təqr. 60 min nəfər), Argentinada (38 min nəfər), Almaniyada (təqr. 35 min nəfər), Avstraliyada (21 min nəfər), Avstriyada (20 min nəfər), İsveçrədə (20 min nəfər), Ukraynada (11 min nəfər), Fransada (11 min nəfər), Xorvatiyada (11 min nəfər), İsraildə (8 min nəfər), İsveçdə (8 min nəfər), İspaniyada (5,7 min nəfər), Rusiyada (təqr. 5,5 min nəfər), Braziliyada (5,4 min nəfər), İrlandiyada (5,3 min nəfər), Niderlandda (3,5 min nəfər), Rumıniyada (3,4 min nəfər), Polşada (3 min nəfər), CAR-da (2,3 min nəfər), Serbiyada (2,3 min nəfər), Meksikada (2 min nəfər), Bosniya və Herseqovinada (təqr. 0,8 min nəfər) yaşayırlar. Ümumi sayları 12 mln.-dan çoxdur. Hind-Avropa dil ailəsinin slavyan dilləri qrupunun q. yarımqrupuna aid olan *çex dilində* danışırlar. Əsas dialekt qrupları: Çexiya, Orta Moraviya, Şərqi Moraviya, Lyaş. Yazıları latın əlifbası əsasındadır. Dindarları xristiandır.

Slavyan tayfaları 6–7 əsrlərdə indiki Çexiya ərazisində məskunlaşmış, kelt və germanların qalıqlarını assimilyasiyaya uğradaraq hakim mövqe tutmuşlar. Yazılı mənbələrdə Bohemiya ərazisində (Çexiyanın latınca adı) ayrı-ayrı tayfaların (çexlər, xorvatlar, luçanlar, zliçanlar, deçanlar, pşovanlar, litomerjililər, hebanlar, qlomaçlar) adları qeyd olunur. Onların arasında ən güclüsü çex tayfa knyazlığı idi. 9 əsrdə (895 ilədək) çex torpaqları *Böyük Moraviya dövlətinin* tərkibində olmuşdur. Bu dövrdən başlayaraq burada Bizansdan xristianlıq yayılmağa başlamışdır. 9 əsrin sonu – 10 əsrin əvvəllərində Çexiya (Praqa) knyazlığı yaranmışdı, 10 əsrdə Moraviya da onun tərkibinə qatılmışdı. 12 əsrin ikinci yarısından Çexiya Müqəddəs Roma imperiyasının tərkibində idi. Çexiya kralları, katolik kilsə və zadəganlar tərəfindən almanların köçürülməsi, ölkənin etnik birliyinin pozulması və milli ziddiyyətlərin kəskinləşməsi 15 əsrin 1-ci yarısında *Hus müharibələrinə (1419–34)* səbəb oldu. 1526 ildə Çexiya Habsburqların hakimiyyəti altına keçdi. Habsburqlar çexləri almanlaşdırma siyasəti yürüdürdülər. 18 əsrdə zadəganlar alman dilini və mədəniyyətini mənimsədilər. 18 əsrin sonu – 19 əsrin birinci yarısında Ç.-də milli özünüdərketmə formalaşdı, çex ədəbi dili canlandı, milli maarif cəmiyyətləri fəaliyyətə başladı. 1918 ildə Avstriya-Macarıstan süqut etdikdən sonra çex və slovakların milli dövləti – Çexoslovakiya Resp. yaradıldı. 1993 il yanvarın 1-də Çexoslovakiya müstəqil Çexiya və Slovakiya dövlətlərinə bölündü.


Çexiya meşəsi.

Ç. arasında müxtəlif ərazi qrupları var. Çexiyanın kənd əhalisinin və tarixi Moraviya vil. sakinlərinin (burada qoraklar, Moraviya slovakları, valaxların və qanakların ərazi qrupları saxlanılmışdır) ənənəvi mədəniyyətləri fərqlidir. Ç.-in ənənəvi məşğuliyyətləri əkinçilik (dənli bitkilər, şəkər çuğunduru, yem bitkiləri, mayaotu), həmçinin bağçılıq və tərəvəzçilikdir. Maldarlıq (qaramal, donuzçuluq və quşçuluq) böyük rol oynayır. Xalq sənətkarlığı sahələrinə şüşə, keramika və fayans məmulatları istehsalı, krujevanın hörülməsi və çəkiçəkmə aiddir. Müasir Ç., əsasən, sənayedə çalışırlar.

Şəhərlilərin yarıdan çoxu əhalisi 20


Ənənəvi geyimli çexlər.

minədək olan, orta əsrlərdə yaranmış və radial-dairəvi planını qoruyub saxlamış kiçik şəhərlərdə yaşayır. Kəndləri, adətən, cərgəvi, küçə boyu və ya dairəvi formadadır. Dağlıq ərazi kəndlərində isə nizamsız sıx məskənlər üstünlük təşkil edir. Kənd evlərinin fasadı, adətən, küçəyə baxır, təsərrüfat tikililəri isə evlərlə bir damın altında yerləşir. Qapalı tipli malikanələr üstünlük təşkil edir. Ənənəvi kənd evləri 3 hissəyə bölünür: koma (izba), dəhliz-mətbəx, anbar (komora). Bəzən dəhlizdə komadakı sobanın ağzı çıxdığı konusvarı daş tikili – qara mətbəx yerləşir. Köhnə evlər adətən kərtmədir, ikiyamaclı damları saman və ya çiləkənlə örtülür. Divarları gillə suvanır, ağ, sarı və ya mavi boya ilə rənglənirdi. Meşəsiz ərazilərdə evlər möhrədən tikilirdi, 19 əsrin sonlarında isə kərpic evlər geniş yayılmışdı. Regional fərqlər evlərin xarici görünüşündə, xüsusilə divarların rənglənməsində və naxışlanmasında özünü büruzə verirdi.

Ənənəvi kişi geyimləri köynək, dizədək şalvar, jilet, üst mahud kaftan, qadın geyimləri isə uzun köynək, korset, büzməli gen yubka (çoxlu alt yubkalarla), önlük, ləçək və yaylıqdan ibarətdir. 19 əsrin ortalarından Ç. ənənəvi paltarlarını artıq geyinmirdilər; lakin bəzi r-nlarda o hələ də saxlanılır.

Ç.-in milli mətbəxi üçün un məmulatları səciyyəvidir: acıdılmış və ya şit xəmirdən hazırlanmış, içi meyvəli vareniklər (knedlik), blinlər, kökələr və s. Ənənəvi yeməkləri knedlik və kələmlə hazırlanmış donuz ətidir. Bayramlarda müxtəlif şirin bulkalar, kömbələr, pirojnalar, peçenyelər, pryaniklər, Milad bayramında isə xüsusi şirnili çörək bişirilir. Pivə, həmçinin qara qəhvə geniş yayılmışdır.

Ç.-in ənənəvi ailələri kiçikdir. Valideynlər sağlığında pay torpaqlarının bölünməməsi üçün təsərrüfatı və evi böyük oğula (mayorat) verirdilər, o isə öz növbəsində hər il onlara müəyyən məbləğ ödəyir, yaxud məhsulun bir hissəsini verirdi. Qədim ailə adətləri (xüsusilə toy adətləri) qalmaqdadır. Ç. təqvim bayramlarını (Milad bayramı, Maslenitsa, Pasxa, "Dojinka" məhsul bayramı) da qeyd edirlər.

Ç.-in zəngin folkloru var. Buraya tarixi nəğmələr və rəvayətlər, nağıllar, balladalar, mahnı və rəqslər (polka, sousedka və s.) daxildir. Hər bir kənddə, yaxud şəhər məhəlləsində xalq çalğı alətləri ansamblı var. Strajnitsa ş.-ndə keçirilən folklor festivalı çox məşhurdur.

**ÇEXOSLOVAKİYA** – 1918–93 illərdə Avropanın ş.-ində mövcud olmuş dövlət. Bax həmçinin *Çexiya* və *Slovakiya*.

**ÇÉXOV** (1954 ilədək Lopasnya qəs.) – RF-də, Moskva vil.-ndə şəhər. Çexov r-nunun mərkəzi. Əh. 60,7 min (2010). Lopasnya çayı (Oka çayının sol qolu) sahilində, Moskva–Simferopol avtomobil yolunun kənarındadır. D.y. st.

Energetika maşınqayırması, "Gidrostalkonstruksiya", körpü konstruksiyası, plastik kütlə z-dları; poliqrafiya, mebel kombinatları fəaliyyət göstərir. Şəhərin 12 *km*-liyində Melixovo k.-ndə A.P.Çexovun ədəbi-memorial muzey-qoruğu yerləşir.

**ÇÉXOV** Anton Pavloviç (29.1.1860, Taqanroq – 15.7.1904, Almaniya, Badenveyler; Moskvada dəfn olunmuşdur) – rus yazıçısı. Tacir ailəsində doğulmuşdur. 1879 ildə Taqanroq gimnaziyasını bitirdikdən sonra Moskvaya köçmüşdür Moskva Un-tinin tibb fakültəsini bitirmiş (1884), həkimlik etmişdir. İlk əsərləri 1880 ildən Moskva və Peterburq jurnallarında,daha çox "Antoşa Çexonte" imzası ilə çap olunmuşdur. "Melpomenanın nağılları" adlı ilk hekayələr kitabı 1884 ildə çapdan çıxmışdır. 1890 ildə Saxalinə getmiş, "Saxalin adası" (1893–94, ayrıca nəşri 1895) oçerklər kitabında oradakı məhbusların və sürgün olunmuşların acınacaqlı həyatını təsvir etmişdir. 1892 ildə Melixovo (Moskva yaxınlığında) malikanəsini almış və burada yaşamış,ictimai fəaliyyət göstərmiş, kəndlilərə tibbi yardım etmişdir. Ağır xəstələnən (vərəm) Ç. 1898 ildə Yaltaya köçmüş, burada L.N. Tolstoy, M. Qorki, İ.A. Bunin, A.İ. Kuprin və İ.İ. Levitanla görüşüb yaxınlaşmışdır; 1902 ildə M. Qorkinin qanunsuz olaraq akademiyaya üzv seçilməməsinə etiraz əlaməti olaraq, V.Q. Korolenko ilə birlikdə, akademik adından (1900 ildə seçilmişdi) imtina etmişdir. 1904 ildə arvadı – Moskva Bədaye Teatrının aktrisası O.L.Knipper-Çexova ilə birlikdə Badenveyler kurortuna müalicəyə getmiş, orada da vəfat etmişdir.



Ç. yaradıcılığında demokratik dünyagörüşü, o dövr rus həyatının bir sıra səciyyəvi cəhətləri bədii əksini tapmışdır. O, müxtəlif səpkidə 600-ə yaxın hekayə yazmışdır. İlk hekayələrində mülkədarların, çar məmurlarının mənəvi naqisliyini ("Məmurun ölümü", "Albion qızı", "Maska", "Yoğun və nazik" və s.), irtica və despotizmi ("Buqələmun", "Unter Prişibeyev" və s.) tənqid etmişdir. "Dərd", "Vanka" və s. hekayələrində "Çöl" (1888) povestində vətən təbiətinə vurğunluq, sadə insanlara rəğbət əks olunmuşdur. "6 nömrəli palata" (1892) povesti dəhşətli həbsxana həyatı əleyhinə kəskin etiraz ruhu ilə aşılanmışdır. Ziyalıların xalq qarşısında məsuliyyəti mövzusu, xalq taleyinə etinasızlıq, meşşanlıq, xudpəsəndlik kimi mənəvi eybəcərliklərin tənqidi, meşşan mühitinin insani keyfiyyətləri, müsbət idealları puç etməsi Ç. yaradıcılığının leytmotividir ["Qəmli əhvalat" (1889), "Ədəbiyyat müəllimi" (1889–94), "Tələbə" (1893), "Qılaflı adam", "Firəngüzümü", "Məhəbbət haqqında" (hamısı 1898), "İonıç" (1898), "Qadası" (1899) və s. hekayələr, "Mezoninli ev", "Mənim həyatım" (hər ikisi 1896) və s. povestlər]. "İt gəzdirən xanım" (1898) hekayəsində məhəbbətin mənəvi gücü təsvir olunmuşdur. "Üç il" (1895), "Mujiklər" (1897), "Yarğanda" (1900) povestlərində həyatın acısı bütün çılpaqlığı və sərtliyi ilə göstərilmişdir.

Ç. eyni zamanda, novator dramaturq, sosial-psixoloji və lirik dramlar müəllifidir: "İvanov" (1887), "Qağayı" (1896), "Vanya dayı" (1896, nəşri 1897), "Üç bacı" (1901), "Albalı bağı" (1904) pyesləri. Onun pyeslərində süjet xətti, konflikt mənəvi problemlər zəminində qurulur, insanın həyatın gündəlik cansıxıcı adiliyindən qurtulmaq cəhdləri təsvir olunur. Ç.-un əsərlərində bu və ya digər detal əsərin kompozisiyasında aparıcı amilə çevrilir. "Qağayı" pyesindəki "qağayı" obrazı yeni, parlaq və yüksək sənət haqqında arzuların, eyni zamanda, uğursuz və faciəli məhəbbətin rəmzidir.

Ç.-un yaradıcılığı özünəməxsus sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Bir yazıçı kimi Ç. üçün təmkinli, lakonik, yığcam təhkiyə üslubu səciyyəvidir. Əsərlərində gərgin süjet, konflikt yoxdur, dramatizm məhz ondadır ki, heç bir şey baş vermir, hər şey köhnə qaydasında qalır. Yaradıcılığının rus və dünya, xüsusilə Avropa ədəbiyyatında tənqidi realizmin inkişafına mühüm təsiri olmuşdur. Əsərləri dünya xalqları dillərinə tərcümə edilmiş, dəfələrlə ekranlaşdırılmış, pyesləri bir çox ölkələrin teatrlarında tamaşaya qoyulmuşdur.

Ç. Bakıda olmuş (1888), əsərləri 20 əsrin əvvəllərindən Azərb.-da da yayılmış, Azərb. dilinə tərcümə edilmişdir. Yaradıcılığı realist-demokratik Azərb. ədəbiyyatının inkişafına təsir göstərmişdir. Pyesləri ["Albalı bağı" ("Gilənar bağı" adı ilə), "Ayı", "Qız istəmək", "Vanya dayı", "İvanov", "Üç bacı" və s.] dəfələrlə Azərb. səhnəsində tamaşaya qoyulmuşdur.

Əsərləri: Hekayələr. B., 1966; Pyeslər. B., 1979; Seçilmiş əsərləri. B., 2006.

*Əd.*: Məmməd Arif. Anton Pavloviç Çexov, onun "Seçilmiş əsərləri" kitabında, c.3. B., 1970; Məmməd Cəfər. XIX əsr rus ədəbiyyatı. H.3. B., 1975; А.П. Чехов в воспоминаниях современников. М., 1986; Çəmənzəminli Y.V. Çexov, Qorki və L. Tolstoy, onun "Seçilmiş əsərləri" kitabında, c.3. B., 2005.

**ÇEK** (ing. cheque) – cari bank hesabı sahibinin ona xidmət edən banka çekdə göstərilən pul məbləğini konkret şəxsə (bu, çeki təqdim edən şəxs də ola bilər) ödəməsi və ya əmtəə və xidmətlərə görə nağdsız hesablaşmaları həyata keçirməsi üçün verdiyi əmrin əks olunduğu pul sənədi. Belə çek prosesi kommersiya bankı ilə çek sahibi arasında qabaqcadan çek müqaviləsi əsasında razılaşdırılır. Bank tərəfindən çekin ödənilməsi çek sahibinə verilən kredit hesabına da mümkündür.

**ÇEK** Tomas Robert (d. 8.12. 1947, ABŞ, Çikaqo) – Amerika biokimyaçısı. Kimya üzrə Nobel mükafatı laureatı (1989, S. Oltmenlə birlikdə). Berklidəki Kaliforniya Un-tini bitirmişdir (fəlsəfə d. 1975). Massaçusets Texnologiya İn-tunda işləmiş (1975 ildən), Boulderdə Kolorado Un-tinin prof.-u (1978) olmuşdur. Hovard Hyuz Tibb İn-tunun (Merilend ştatı) prezidentidir (2000 ildən). Tədqiqatları, əsasən, biokimya və molekulyar biologiya sahəsindədir. Ribonuklein turşularının katalitik fəallığını kəşf etmişdir. Ç., həmçinin genetik kodun DNT-dən RNT-yə keçirilməsi mexanizmini öyrənmişdir.



**ÇEKANÓVSKİ** Aleksandr Lavrentyeviç (24.2.1833, indi Ukraynanın Ternopol vil.-ndə Kremenets ş. – 30.10.1876, Peterburq) – Orta Sibirin tədqiqatçısı. Milliyyətcə polyakdır. 1863–64 illərdə Polşa qiyamında iştirakına görə Sibirə sürgün olunmuşdur. Rusiya Coğrafiya Cəmiyyəti Sibir şöbəsinin tapşırığına əsasən 1869–71 illərdə İrkutsk qub.-nın c.-unda geol. tədqiqatlar aparmışdır. Aşağı Tunquska çayı r-nunun (1873), Lena çayının aşağı axınının və xüsusən Olenyok çayı hövzəsinin (1874–75) geol.-sı barədə müfəssəl məlumatlar toplamışdır. Aşağı Tunquska r-nunda daş kömür və qrafit yataqlarını kəşf etmişdir. 1876 ildə onun Peterburqa gəlməsinə icazə verilmiş və o, burada tədqiqat apardığı ərazilərin coğrafiya, geol. və paleontologiyası üzrə topladığı materiallar üzərində işləməyə başlamışdır. Lena və Olenyok çayları arasındakı tirə Ç.-nin şərəfinə adlandırılmışdır.

*Əd.*: Клеопов И. Л. Александр Лаврентьевич Чекановский. 1833–1876. Л., 1972.

**ÇEKANÓVSKİ TİRƏSİ** – RF-də, Saxa (Yakutiya) Resp.-nda dağ tirəsi. Lena çayının sol sahili boyu 320 *km* məsafədə uzanır və onun deltasını c.-q.-də məhdudlaşdırır. Mezozoyun qumdaşı, alevrolit və gilli şistlərindən ibarətdir. Hünd. 450–500 *m* (maks. 529 *m*). Şibyəli və kolluq tundra yayılmışdır. Sibirin tədqiqatçısı A.L. *Çekanovskinin* şərəfinə adlandırılmışdır.

**ÇEKMARYÓV** Aleksandr Petroviç (12.9.1902, indiki Zaporojye vil., Kamensk-Dneprepetrovsk r-nu, Bolşaya Znamenka k. – 11.3.1975, Dnepropetrovsk) – metalların təzyiqlə emalı sahəsində rus alimi. SSRİ EA (1968) və USSR EA akad. (1948). Sosialist Əməyi Qəhrəmanı (1972). SSRİ Dövlət mükafatı laureatı (1941, 1949). Dnepropetrovsk Mədən İn-tunu bitirmişdir (1927). Əsas tədqiqatları metalayyma nəzəriyyəsinə, prokat avadanlığının təkmilləşdirilməsinə və yeni texnoloji proseslərin işlənilməsinə aiddir.



**ÇEQAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Səcaru kəndistanında, Marağadan 11 *km* c.-ş.-dədir.

**"ÇÉLLENCER"** – Amerikada buraxılan kosmik gəmilərin adı; bax "*Speys Şatl*". –

**ÇELENTÁNO** (Celentano) Adriano (d. 6.1.1938, Milan) – italyan aktyoru, estrada müğənnisi, rejissor. 12 yaşından musiqiyə maraq göstərmişdir. 1955 ildə özünün "Rock Boys" adlı rok qrupunu yaratmışdır. 1957 ildə qrupla Milanda keçirilən ilk İtaliya rok-n-rol festivalında iştirak etmiş və böyük müvəffəqiyyət qazanmışdır. 1979 ildə "Me Live" albomunu, Toto Kutunyo ilə birgə "Soli" albomunu buraxmışdır. 2000 ildə 11 kompozisiyadan ibarət "Esco di rado e parlo ancora meno" albomunu yazdırmışdır. 2002–2012 illərdə müğənnilik fəaliyyətini davam etdirən Ç.-nun çoxlu sayda albomları, diskləri çıxmışdır.

Ç. 1959 ildən kinoda çəkilir ("Uşaqlar və musiqili avtomat", rej. Lüçio Fulçi). 1960 ildə rej. F. *Fellininin* "Şirin həyat" filmində rok-n-rol müğənnisi epizodik rolunu oynamışdır. Rej. kimi debütü 1965 ildə ("Milanda supersoyğunçuluq" parodiya komediyası) olmuşdur. Çəkildiyi filmlərin çoxunda Ç. oxumur, əsasən, melodramatik, yaxud komik rollar ifa edir. Özünəməxsus yumor, ekssentriklik, gözəl plastika onu fərqləndirən xüsusiyyətlərdir. "Serafino" (1968, rej. P. Cermi), "Blef" (1976, rej. S. Korbuççi), "İnadkarın ram edilməsi" (1981), ""Ekselsior" Qrand hoteli" (1982, hər ikisinin rej.-ları F. Kastellano və C. Pipolo), "Binqo-

A. Çelentano. "İnadkarın ram edilməsi" filmində.



Bonqo" (1982, rej. P.F. Kampanile) və s. filmlərdə baş rolda çəkilmişdir.

**ÇELESTA** (ital. celesta, celeste – məftunedici) – klavişli musiqi aləti. Səsi zərif, zəngvarı və cingiltilidir. Kiçik pianino formasındadır. Fortepiano tipli mexanizmi var; xromatik köklənmiş metal plastinka və ya borular əsas tonun səslənmə-



Çelesta. 1920.

sini gücləndirən xüsusi köklənmiş qutuşəkilli rezonatorların üstündə yerləşir. Diapazonu birinci oktavanın do səsindən beşinci oktavanın do səsinə qədərdir.

**ÇELLİNİ** (Cellini) Benvenuto (3.11.1500, Florensiya – 13.2.1571, Florensiya) – italyan heykəltəraşı, zərgər və yazıçı. Yaradıcılığına *Mikelancelonun* təsiri olmuşdur. Florensiya, Piza, Bolonya, Venesiya, Roma (1532 – 40) və Parisdə, eləcə də Fontenblodakı I Fransiskin sarayında (1540–45) işləmişdir. *Manyerizmin* görkəmli nümayəndələrindən olan Ç. virtuoz heykəltəraşlıq və zərgərlik əsərləri yaratmış [Kral I Fransiskin duzqabısı (qızıl, mina, qiymətli daş-qaşlar, 1539–43, İncəsənət-Tarix Muzeyi, Vyana), "Narsis" (mərmər, 1540-cı illər, Milli muzey, Florensiya), "Çarmıxaçəkilmə" (mərmər, 1562, Eskorial kilsəsi, İspaniya)], tam dairəvi heykəl problemini cəsarətlə həll etmişdir ("Persey", tunc, 1545–54, Lociya dei Lansi, Florensiya). "Florensiyalı maestro Covanni Çellininin oğlu Benvenutonun Florensiyada özü tərəfindən yazılmış həyatı" adlı xatirələr kitabı Ç.-yə ümumdünya şöhrəti qazandırmışdır. 1558–65 illər arasında Ç.-nin diktəsi ilə yazılmış, macəra romanını xatırladan bu kitab tamamlanmamışdır. Ç.-nin incəsənət nəzəriyyəsinə aid əsərləri də var ("Zərgərlik sənəti və heykəltəraşlıq haqqında iki əsər", 1568).

*Əd.*: Виппер Б.Р., Бенвенуто Челлини, в его кн.: Статьи об искусстве. [М., 1970].

**ÇELMSFORD** (Chelmsford) – B. Britaniyanın c.-ş.-ində, Böyük Londondan şm.-ş.-də şəhər. Esseks qraflığının inz. m. Əh. 111,5 min (2011). Maşınqayırma, radioelektronika, yeyinti sənayesi müəssisələri var.

**ÇELOMEY** Vladimir Nikolayeviç (30.6.1914, Sedlets – 8.12.1984, Moskva) – mexanika və idarəetmə prosesləri sahəsində rus alimi. SSRİ EA akad. (1962; m. üzvü 1958). Sosialist Əməyi Qəhrəmanı (1959, 1963), Lenin mükafatı laureatı (1959), SSRİ Dövlət mükafatı laureatı (1967, 1974). Kiyev Aviasiya İnstitunu bitirmişdir (1937). P.İ.Baranov ad. Mərkəzi Aviasiya və motorqayırma İnstitunda çalışdığı dövrdə pulsasiya edən hava-reaktiv mühərriki düzəltmişdir (1942). Ç.-in rəhbərliyi altında raket, kosmik və aviasiya texnikasının bir sıra mühüm obyektləri yaradılmışdır. Əsas işləri maşınların konstruksiyası və dinamikasına, rəqs nəzəriyyəsinə, servomexanizmlər nəzəriyyəsinə və elastik sistemlərin dayanıqlığına həsr olunmuşdur. 5 dəfə Lenin ordeni, N.Y. Jukovski ad. qızıl medal və s. orden və medallarla təltif edilmişdir. Beynəlxalq Astronavtika Akademiyasının həqiqi üzvü seçilmişdir (1974).



**ÇELOV,** Ç a l o v – Azərb. Resp. Qobustan r-nunun Cəyirli ə.d.-ndə kənd. R-n mərkəzindən 5 *km* şm.-q.-də, dağətəyi ərazidədir. Əh. 1700 (2011); əkinçilik, xalçaçılıq və heyvandarlıqla məşğuldur. Tam və ibtidai orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**ÇELYABİNSK** – RF-də şəhər. Çelyabinsk vil.-nin inz. m. Əh. 1130,3 min (2010). Cənubi Uralın ş. yamacında, Miass çayı (Ob hövzəsi) sahilindədir. İri nəql. qovşağı. Aeroport.

Əsası 1736 ildə başqırd qəs. Selyabanın (Çelyaba) yerində qala kimi qoyulmuş, şəhərin adı da buradan götürülmüşdür. 1743 ildə şəhər statusu almış, İset əyalətinin inz. m. olmuşdur. 1781 ildən Yekaterinburq əyalətinin (Perm, sonra

Çellini B. "Persey". Tunc. 1545–54. Lociya den Lansi. Florensiya.



Çelyabinsk şəhərindən görünüş.







Ufa canişinliyinin) qəza şəhəri, 1919–23 illərdə Çelyabinsk qub.-nın mərkəzi olmuşdur. 19 əsrin 90-cı illərində Böyük Sibir magistralının və Yekaterinburqa d.y.-nun çəkilməsi ilə nəql. və ticarət mərkəzinə çevrilmişdi. 20 əsrin 30-cu illərində Ç. iri sənaye və mədəniyyət mərkəzi idi. *Böyük Vətən müharibəsi (1941–45)* dövründə Ç.-ə təqr. 60 sənaye müəssisəsi təxliyə edilmişdi.

Qara metallurgiya, maşınqayırma və metal emalı (traktorlar, yol maşınları, cihazlar, saatlar və s.), kimya, yüngül sənaye müəssisələri fəaliyyət göstərir.

Şəhərin qədim mərkəzi hissəsi yenidən qurulmuş, yeni rayonlar salınmışdır. Təbii yaşıl massivlər çoxluq təşkil edir. Şəhərdə 10 ali təhsil müəssisəsi, o cümlədən 4 un-t; opera və balet teatrı (1954), dram teatrı, kukla (1935) və gənc tamaşaçılar (1965) teatrları; filarmoniya, sirk, diyarşünaslıq və dekorativ-tətbiqi sənət muzeyləri, rəsm qalereyası (1952) fəaliyyət göstərir.



Çelyabinsk. Cənubi Ural Dövlət Universiteti.

**ÇELYABİNSK QONUR KÖMÜR HÖVZƏSİ** – RF-də, Çelyabinsk vil. ərazisindədir. Sah. 1300 $km^2$. Ehtiyatı 687 mln. *t*. Hövzə ərazisində kömür 1832 ildən məlumdur, 1907 ildən istismar olunur. Hövzədə 8 geoloji-sənaye əhəmiyyətli r-n ayrılıb; hasilat Kopeysk, Kamışinsk, Korkinsk və Yemanjelinsk r-nlarında aparılır. Kömür Trias-Yura çöküntüləri ilə əlaqədardır; uz. 170 *km*, eni 15 *km*-ədək olan qrabendə toplanmışdır. Kömürlü formasiyada kömür laylarının qalınlığı 0,8 *m*-dən 200 *m*-ədəkdir. Kömürün küllülüyü yüksəkdir (36%); kükürd 1,2%, rütubət 17%-dir. Yanma istiliyi 14 MC/*kq*. Hasilat mərkəzləri Kopeysk, Korkino, Yemanjelinsk şəhərləridir.

**ÇELYABİNSK VİLAYƏTİ** – RF-nin subyekti. Ural federal dairəsinə daxildir. 1934 il yanvarın 17-də yaradılmışdır. Sah. 87,9 min $km^2$. Əh. 3479,6 min (2012). 24 r-nu, 30 şəhəri, 30 ştq var. Mərkəzi Çelyabinsk ş.-dir.

**Təbiət**. Ç.v., əsasən, Orta və Cənubi Uralda yerləşir. Ş.-ini Qərbi Sibir düzənliyi tutur. Ən yüksək nöqtəsi 1406 *m* (Nurquş d.). Faydalı qazıntıları: dəmir filizi, maqnezit, qrafit, qonur kömür, odadavamlı gillər və s. İqlimi kontinentaldır. Orta temp-r yanvarda –16-dan –18°C-yədək, iyulda 17–20°C-dir. İllik yağıntı 300–500 *mm*. Vegetasiya dövrü 130–150 gündür. Əsas çayları: Ural, Miass. Şirinsulu göllər var. Su anbarları (Verxneuralsk və s.) yaradılmışdır. Əsasən, qara torpaqlar yayılmışdır; boz meşə, boz dağ-çəmən torpaqları da var. Ərazinin 1/4-i meşəlikdir (şamağacı, ağcaqovaq, çökə, palıd və s.). Sığın, tülkü, canavar, dovşan, ördək, qaz, qarabağır, tetra quşu və s. yaşayır. İlmen qoruğu Ç.v. ərazisindədir.

**Təsərrüfat.** Qara və əlvan metallurgiya, maşınqayırma və metal emalı (mədən və metallurgiya avadanlıqları, traktorlar, avtomobillər, dəzgahlar və s.), kimya (mineral gübrələr, sintetik qatran, laklar), yüngül, yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir, tikinti materialları istehsal edilir. Troitsk, Cənubi Ural, Çelyabinsk DRES-ləri var. Buğda, darı, yulaf, qarabaşaq, yem bitkiləri əkilir. Kartofçuluq, tərəvəzçilik və meyvəçilik, ətlik-südlük heyvandarlıq, donuzçuluq, qoyunçuluq inkişaf etmişdir.



**ÇELYUSKİN BURNU** – Taymır y-a-nın və Asiyanın materik hissəsinin şm. qurtaracağı (77°43' şm.e. və 104°18' ş.u.). 1742 ilin mayında S.İ. *Çelyuskin* kəşf etmişdir.

**ÇELYUSKİN** Semyon İvanoviç (təqr. 1700–1760-dan sonra) – rus qütb tədqiqatçısı, dənizçi, 3-cü dərəcəli kapitan. Böyük Şimal (2-ci Kamçatka) ekspedisiyasında (1733–43) iştirak etmiş, V.V. Prončişşevin, sonralar X.P. *Laptevin* dəstələrində işləmişdir. Taymır y-a-nın q. (76°42' şm.e.) və ş. (onun adı verilmiş burunadək) sahillərini təsvir etmişdir.

*Əd.:* Глушанков И.В., Первоисследователи Таймыра, в сб.: Полярный круг. М., 1974; Троицкий В.А., Географические открытия В.В. Прончищева, Х.П. Лаптева и С.И. Челюскина на Таймыре, в сб.: Летопись Севера [т. 7], М., 1975.

Çelyabinsk vilayəti. Turqoyak gölü.



**ÇEMBERLEN** (Chamberlain) Cozef (8.7.1836, London – 2.7.1914, London) – B.Britaniya dövlət xadimi. Fabrikant. Siyasi fəaliyyətinin ilk dövründə Liberallar partiyasının radikal cinahına mənsub olmuşdur. 1873–76 illərdə Birminhem meri olmuş, 1876 ildə parlament deputatı seçilmişdir. 1880–85 və 1886 illərdə U. Qladston hökumətinə daxil olmuşdur. İrlandiyaya muxtariyyət verilməsinə (bax *Homrul*) etiraz əlaməti olaraq Ç. və onun tərəfdarları Liberallar partiyasından çıxaraq mühafizəkarlara qoşulmuşdular. 1895–1903 illərdə müstəmləkələr naziri, ingilis-bur müharibəsi (1899–1902) dövründə B.Britaniyanın müstəmləkə ekspansiyasının əsas ilhamçısı və təşkilatçısı olmuşdur. 1906 ildə xəstəliyi ilə əlaqədar siyasi fəaliyyətdən uzaqlaşmışdır.

**ÇEMBERLEN** (Chamberlain) Nevill (18.3.1869, Birminhem, Ecbaston – 9.11.1940, Hekfild, Ridinq yaxınlığında) – B.Britaniya dövlət xadimi. C. *Çemberlenin* oğlu. 1918 ildən parlament deputatı, 1930–31 illərdə Mühafizəkarlar partiyasının sədri, 1937–40 illərdə baş nazir və Mühafizəkarlar partiyasının lideri olmuşdur. Faşist təcavüzünü SSRİ-yə qarşı yönəltmək məqsədilə Ç. hökuməti Hitler Almaniyasına bir sıra güzəştlərə getmiş [bax *Münxen sazişi (1938)*], Moskva danışıqlarına (1939) rəğmən Almaniya ilə gizli sövdələşməyə cəhd göstərmişdir [bax *London danışıqları (1939)*]. Lakin Ç. hökumətinin bu siyasəti boşa çıxdıqdan sonra B.Britaniya əlverişsiz bir şəraitdə İkinci dünya müharibəsinə qoşulmuşdu. 1940 ilin martında istefa verməyə məcbur olmuşdur.



**ÇEMBERLEN** (Chamberlain) Ostin (16.10.1863, Birminhem – 16.3.1937, London) – B.Britaniya dövlət xadimi. Mühafizəkar C. *Çemberlenin* oğlu. 1892 ildən parlament üzvü idi. 1924–29 illərdə xarici işlər naziri olmuşdur. B.Britaniyanın Avropada rəhbər mövqe tutmasına səy göstərmiş, SSRİ və Fransaya qarşı mübarizə məqsədilə Almaniyanın yenidən militaristləşdirilməsinə tərəfdar çıxmışdır [bax *Lokarno müqavilələri (1925)*]. Ç. SSRİ ilə diplomatik əlaqələri kəsməyin (1927, may) və ona qarşı yeni hərbi müdaxilə cəhdlərinin təşəbbüsçülərindən biri olmuşdur. Ömrünün son illərində Almaniyanın təcavüzkarlıq niyyətlərinin təhlükəli olduğunu göstərmişdir.

**ÇEMBERLEN** (Chamberlain) Ouen (10.7.1920, San-Fransisko – 28.2.2006, Berkli) – Amerika fiziki, ABŞ Milli EA-nın üzvü (1960). Nobel mükafatı laureatı (E. *Seqre* ilə birlikdə,1959). Çikaqo Un-tini bitirmişdir (1948), həmin un-tdə doktorluq elmi dərəcəsini almışdır (1949). Los-Alamos laboratoriyasında atom bombasının yaradılması üzərində çalışmışdır (1942–46). 1948 ildən Berklidə Kaliforniya Un-tində (1956 ildən prof.) işləmişdir. Əsas tədqiqat işləri nüvə fizikası və elementar zərrəciklər fizikası sahəsindədir. 1955 ildə E. Seqre və başqaları ilə birlikdə *antiprotonu* kəşf etmişdir.



**ÇEMBERS** (Chambers) – şotland naşirləri: R o b e r t (10.7.1802, Şotlandiya, Tviddeyl, Pibls–17.3.1871, Sent-Andrus) və U i l y a m (16.4.1800, Pibls–20.5.1883, Edinburq). 1832 ildə "Chambers's Edinburgh Journal"ı buraxmağa başlayan qardaşlar "W. & R. Chambers, Ltd." nəşriyyat şirkətini yaratdılar. Nəşr etdikləri "Çemberslər ensiklopediyası"nın əsasını alm. "Danışıq lüğəti"ndən tərcümələr təşkil edirdi. Tarixi hadisələrin təsviri baxımından etibarlı sayılan ensiklopediya bir neçə dəfə nəşr olunsa da, məlumatları köhnəldiyi üçün sonradan əhəmiyyətini itirmişdir.

**ÇEMULPÓ** – Koreya Resp.-nda *İnçhon* ş.-nin digər adı.

**ÇEMULPÓ** – Koreya y-a-nın q.-ində körfəz. Bax *Kanhvaman*.

**ÇEN** – 551–589 illərdə Cənubi Çində sülalə və paytaxtı Szyankan (indiki Nankin) olan dövlət; Cənub sülalələrindən sonuncusu. Banisi 6 əsrin ortalarında feodal qiyamları və kəndli həyəcanlarının yatırılması zamanı fərqlənmiş Lyan sülaləsinin sərkərdəsi Çen Ba-syan idi. Yanszı və Yuetszyan çaylarının hövzəsindəki ərazilər Ç.-in hakimiyyəti altında olmuşdur. Daxili münaqişələr və qonşu dövlətlərlə müharibələr Ç.-i zəifləmişdi. 589 ildə *Suy* sülaləsinin ordusu Ç.-i darmadağın etmiş və bununla Çinin birləşdirilməsini başa çatdırmışdı.

**ÇEN MODELİ** – semantik relyasiya verilənləri modeli. Modelin əsasını real mühitin bir-birindən fərqlənən bir sıra mahiyyətlərə bölünməsi təşkil edir; mahiyyətlər arasında əlaqələr olmalıdır. Amerika alimi Piter Çen Pinşan tərəfindən 1976 ildə təklif edilmişdir. Ç.m. müasir dövrdə verilənlər bazalarının infoloji modelinin (fiziki sistemin informasiya obyektlərini, onların xassələrini və arasındakı münasibətləri, sistemin dəyişmə dinamikasını və istifadəçinin sistemə olan tələblərini ifadə edən model) qurulması üçün əsas standart olmuşdur.

**ÇEN ŞEN,** Ç e n  Ş e (? – e.ə. 208) – Çində e.ə. 209–208 illərdə baş vermiş kəndli üsyanın əsas başçısı; muzdur. E.ə. 209 ildə sərhəd xidmətinə çağırılan Ç.Ş. həmin ilin avqustunda U Quanla birlikdə yeni əsgər-kəndli dəstələrinin iştirakı ilə ölkənin şm.-ında (indiki Anxoy əyaləti) Sin sülaləsinə qarşı silahlı üsyana başladı. Yerli əhali üsyanı dəstəklədi. Tezliklə üsyançılar hakimi Ç.Ş. və paytaxtı Çen ş. (Xenan əyaləti) olan Çu çarlığının yaradıldığını elan etdilər. E.ə. 208 ilin qışında Ç.Ş. xaincəsinə öldürüldü. Üsyan onun ölümündən sonra da davam etdirildi.

**ÇEN ŞEN VƏ U QUAN ÜSYANI** – e.ə. 209–208 illərdə Çində kəndli üsyanı. E.ə. 209 ilin avqustunda ölkənin şm.-ında (indiki Anxoy əyaləti) *Çen Şen* və U Quanın rəhbərliyi ilə başlamışdı. Üsyanın hərəkətverici qüvvələri kəndlilər idi; əsgərlər, sənətkarlar və bəzi məlumatlara görə, qullar da iştirak edirdilər. Hərəkatın mərkəzi olan Çen ş.-ində üsyançı dəstə rəhbərlərinin müşavirəsində Çen Şenin hakimiyyəti altında Çu çarlığının yaradıldığı elan olundu. O, əhalini Sin sülaləsini devirməyə çağırdı. E.ə. 208 ilin əvvəllərində üsyançılar Sin sülaləsinin paytaxtı Syanyana (Şensi əyaləti) daxil oldular. Anxoy əyalətinin şm. və mərkəzi hissəsi, bütün Xenan, Cənubi Şansi və Şərqi Şensi üsyançıların əlinə keçdi. Lakin hakim dairələrin xalq hərəkatına qoşulan müxalifətçi qruplaşmaları, əsasən, Sin sülaləsi tərəfindən məhv edilmiş çarlıqların irsi aristokratiyasının nümayəndələri tədricən üsyana rəhbərliyi ələ keçirdilər. Onlar xalq hərəkatından Sin sülaləsini devirmək, öz mülklərini və hüquqlarını bərpa etmək məqsədilə Çen Şenin tərəfdaşlarını rəhbərlikdən kənarlaşdırdılar, bəzilərini isə (o cümlədən U Quanı) məhv etdilər. E.ə. 208 ilin qışında Çen Şen də xaincəsinə öldürüldü. Çen Şenin ölümündən sonra "göysarıqlılar"ın dəstələri üsyanın özəyinə çevrildi. Lakin hakim dairələrin nümayəndələri kəndlilərlə birgə hərəkət etməkdən boyun qaçırdılar və bu, Sin ordusunun işini asanlaşdırdı. E.ə. 208 ilin fevralında üsyan yatırıldı. Çində ilk iri xalq üsyanının məğlub olmasına baxmayaraq, üsyan Sin imperiyasına ağır zərbə vurdu.





**ÇENÁB** – Hindistanda və Pakistanda çay. Bax *Çinab*.

**ÇENDÉ** – Çinin şm.-ş.-ində, Xebey əyalətində şəhər. Əh. 361 min (2004). Jexe çayı (Luanxe hövzəsi) sahilindədir. D.y. st. Qara və əlvan metallurgiya sənayesi var. Yaxınlığında daş kömür, dəmir filizi, əlvan metallar çıxarılır.



Çende. Tibet buddist məbədi kompleksi.

**ÇENDLER** (Chandler) Set Karlo (17.9.1846, Boston – 31.12.1913, Uelsli, Massaçusets) – Amerika astronomu. Harvard Un-tini bitirmişdir (1861). 1881–1904 illərdə Harvard rəsədxanasında işləmişdir. Əsas işləri Yerin en dairələrinin dəyişməsinin və qütblərinin hərəkətinin tədqiqinə həsr olunmuşdur. Müşahidələr əsasında (təqr.33 min) belə nəticəyə gəlmişdir ki, en dairələrin dəyişməsi, birinin dövrü 1 ilə, digərinki isə 14 aya bərabər olan iki periodik həddən ibarətdir; ikincisi Çendler dövrü adlandırılmışdır. Sayrışan ulduzların tədqiqinə aid bir çox işlər də ona məxsusdur.

**ÇENDRAVÁSİX** (Tjendrawasih), D o b e r a y – İndoneziyada, Yeni Qvineya a.-nın şm.-q.-ində y-a. Uz. 350 *km*, eni 200 *km*-ədəkdir. Adanın əsas hissəsindən eni 20 *km*-ədək olan bərzəxlə ayrılır. Şm. və ş.-i hünd. 3100 *m*-ədək (Qvamonqa d.) olan dağlardan, c.-u düzənlikdən ibarətdir. Rütubətli tropik meşələr, c.-unda bataqlıqlar yayılmışdır. Tropik əkinçilik inkişaf etmişdir. Neft yataqları (Klamono, Moqoi, Vasian) var. Q.-ində Soronq portu yerləşir.

**ÇENDÚ** – Çinin mərkəzi hissəsində şəhər. Sıçuan əyalətinin inz. m. Əh. 14 mln. (2010). Mintszyan çayı sahilindədir.

E.ə. 4 əsrdə salınmışdır. E.ə. 221–63 illərdə Şu çarlığının, eramızın 908–965 illərində Xou Şu (Son Şu) çarlığının paytaxtı idi. 1644–46 illərdə Çjan Syançjunun üsyançı ordusu tərəfindən tutulmuşdu. 17 əsrin 2-ci yarısında Çinin mancurlar tərəfindən işğalından sonra Sıçuan əyalətinin inz. m. olmuşdur. 1911 ilin sentyabrında xalq üsyanı zamanı üsyançılar tərəfindən mühasirəyə alınmışdı. 1949 il dekabrın 27-də Çin Xalq Azadlıq Ordusu tərəfindən qomindançılardan azad edilmişdir.

Ölkənin iri nəql. qovşağı və sənaye mərkəzidir. Çoxsahəli maşınqayırma (dəzgahlar, alətlər, radio aparatları, nəql. vasitələri), ağac emalı, metal emalı, yüngül və yeyinti sənayesi inkişaf etmişdir. Mis, alüminium, kimyəvi gübrələr istehsal olunur. Bədii sənətkarlıq (o cümlədən zərxara istehsalı); un-tlər var.

**ÇENLA** – 6–8 əsrlərdə Mekonq çayının orta axarında yaşamış mon-khmerlərin tayfa birləşməsi. Adı ilk dəfə *Funanın* Lin-idən *(Tyampa)* c.-q.-də yerləşən vassal mülkü kimi qeyd olunur. Yaranmasını əfsanəvi hökmdarlar Şrutavarman və onun oğlu Şreşthavarmanın adları ilə bağlayırlar. Ç. hakimi I İşanavarman (7 əsrin əvvəlləri – təqr. 635) Funanı işğal etmiş, hakimiyyətini q.-də Anqkoradək genişləndirmiş, Ç. dövlətinin paytaxtını Stunq-Sen çayının sahilində yerləşən İşanapura köçürmüşdü. Sonuncu hökmdarı Cayadevinin [8 əsrin əvvəlləri] hakimiyyəti zamanı bir-birinə düşmən olan mülklərə parçalanmışdı. Ç. dövründən kərpicdən tikilmiş ibadətgahlar, daşdan heykəltəraşlıq əsərləri, qədim khmer və sanskrit dillərində çoxsaylı epiqrafik abidələr qorunub saxlanılmışdır. Ç.-nın mədəni ənənələri *Kambucadeş* dövlətində inkişaf etmişdi.

**ÇENNAİ** (əvvəlki adı Mədrəs) – Hindistanın c.-unda şəhər. Tamilnad ştatının inz. m. Əh. 4,6 mln. (2009). Benqal körfəzi sahilində port. Mühüm nəql. qovşağı. Beynəlxalq aeroport.

Çendu. Tyanfu meydanı.





Çennai şəhərindən görünüş.

Hindistanın c. hissəsinin mühüm sənaye və mədəniyyət mərkəzidir. Toxuculuq, yeyinti, tütün, dəri, rezin, kimya, neft emalı, sement, poliqrafiya və elektrotexnika sənayesi, dəzgah və avtomobilqayırma, hərbi maşınqayırma inkişaf etmişdir.

Un-t; təbiət-tarix muzeyi; Miili rəssamlıq qalereyası; Coğrafiya cəmiyyəti fəaliyyət göstərir. Əsası 1639 ildə qoyulmuşdur.

**ÇENSTOXÓVA** (Czestochowa) – Polşanın c.-unda, Sileziya voyevodalığında şəhər. Əh. 248 min (2004). Varta çayı (Odra çayının sağ qolu) sahilindədir. Nəql. qovşağı.

Metallurgiya kombinatı var; maşınqayırma, toxuculuq (yun, kətan), yeyinti, kağız, mebel sənayesi müəssisələri fəaliyyət göstərir.

**ÇENTSZIYÁY** – ÇXR-in Şandun əyalətinin Lunşançen ş. yaxınlığında *Lunşan* mədəniyyətinə (e.ə. 3–2-ci minilliyin əvvəlləri) aid şəhər yeri. 1928 ildə aşkar edilmişdir. Yuxarısında payalar olan möhrə divarlarla əhatələnmişdir. Dairəvi planlı, mərkəzində gil sobası olan evlər gillə suvanmışdır. Əmək alətləri və silahlar daş, sümük və balıqqulağıdan hazırlanırdı. Metal məmulatlar aşkar edilməmişdir. Müxtəlif formalı qara və sarı rəngli keramika çox vaxt cilalanmışdır. Sakinləri əkinçiliklə məşğul olur, inək, at, qoyun, donuz və it yetişdirirdilər. Ç. tipli məskənlər Çində ibtidai icma dövrünün son mərhələsinə aiddir.

Çenstoxova. Jasna Gora monastırı. 1382 il.



**ÇEPANQLAR** – Nepalda xalq. Məşəli dağ yamaclarında və Mahabharat dağ silsiləsi çaylarının (Lothar-Khola və Male-Khola) vadilərində, ayrı-ayrı qrupları isə Nepalın c.-unda, Rapti çayından şm.-da yaşayırlar. Sayları 30 min nəfərdir (1995). Sin-Tibet dil ailəsinin mərkəzi qrupuna aid dildə, bəziləri isə nepali dilində də danışırlar. Ənənəvi etiqadlarını saxlayırlar.

19 əsrdə köçəri həyat tərzi keçirirdilər. Əsas məşğuliyyətləri ox və kaman, həmçinin çələ ilə ovçuluq və balıqçılıq idi. 20 əsrin ortalarında terraslarda toxa və şum əkinçiliyi (qarğıdalı, darı, kartof, qarabaşaq, tütün, xardal, sitrus bitkiləri) və maldarlıqla (zebukimilərdən olan inək, keçi, toyuq və donuz) məşğul olmağa başlamışlar. Tala əkinçiliyi yüksək dağlıq vil.-lərdə qarabaşaq becərmək üçün tətbiq edilir. Qonşularla mübadilə ticarəti yayılmışdır. Toxuculuq və əyiricilik məlum olmasa da, hörmə (balıq ovu ləvazimatı, zənbil) inkişaf etmişdir. Mövsümi işlər (yükdaşıma, müxtəlif xidmət növləri) yayılmışdır. Bəzi yerlərdə ənənəvi evləri (*kusundalarda* olduğu kimi, budaqlardan müvəqqəti talvar) qalmaqdadır. Müasir Ç. qalereyası olan ikimərtəbəli (ikinci mərtəbə yaşayış üçündür) evlərdə, həmçinin yortacəsaslı qoşaçatılı evlərdə yaşayırlar. Kişi geyimləri bel sarğısı və çiyinə taxılan şal, qadın geyimləri isə kofta və yubka, enli kəmərdir. Ümumnepal kasta sistemində Ç. olduqca aşağı statusa malikdirlər. Krosskuzen nikahlara üstünlük verilir, varlı Ç. arasında poliginiya rast gəlinir. Şamanizm, əcdadların və yerli allahların kultları yayılmışdır.

**ÇEPİKOV** Konstantin Romanoviç (25.12.1900, Smolensk vil. – 24.7.1989, Moskva) – rus geoloqu. SSRİ EA m. üzvü

Ənənəvi çepanq evləri.







(1953), SSRİ Dövlət mükafatı laureatı (1946). Moskva Dağ-Mədən Akademiyasını bitirmişdir (1929). Neft sənayesinin elmi-tədqiqat və istehsalat təşkilatlarında (1929–39; 1930–32 illərdə Neft Geoloji-Kəşfiyyat İn-tunun direktoru), SSRİ EA Geologiya Elmləri İn-tunda (1939–54; 1947 ildən neft laboratoriyasının müdiri), SSRİ EA Neft İn-tunda (1954–57 illərdə direktor müavini, 1957 ildən laboratoriya müdiri) çalışmışdır. Elmi əsərləri stratiqrafiya, litologiya, tektonika, kollektor süxurların formalaşma şəraiti, neft və qazın miqrasiyası, Şimali Qafqazın, Volqa-Ural vil.-nin, Sibirin, Saxalinin neftlilik-qazlılıq perspektivliyi məsələlərinə həsr olunmuşdur. Oktyabr İnqilabı ordeni və medallarla təltif edilmişdir.

**ÇEPTSÁ** – RF Udmurt Resp.-nda, Perm diyarı və Kirov vil.-ində çay. Vyatkanın (Volqa hövzəsi) sol qolu. Uz. 501 *km*, hövzəsinin sah. 20,4 min $km^2$. Yuxarı Kama yüksəkliyindən başlanır, aşağı axınında Vyatka Uvalını kəsib keçir. Əsasən qar suları ilə qidalanır. Ortaillik su sərfi Qradoboi k. yaxınlığında 123 $m^3/san$-dir. Ç. hövzəsində ümumi sah. 26,6 $km^2$ olan 500-dən çox göl var. Noyabrdan mayadək donmuş olur. Ağac axıdılır. Mənsəbindən 135 *km* məsafədə gəmiçiliyə yararlıdır. Sahilində Qlazov, Kirovo-Çepetsk ş.-ləri var.

**ÇERAPÚNCİ**, Çerrapunci – Hindistanın şm.-ş. hissəsində, Meqhalaya ştatında yaşayış məntəqəsi. Şillonq platosunda 1300 *m* yüksəklikdə yerləşir. Yer kürəsinin ən çox yağış düşən yeri (ildə 12000 *mm*) hesab olunur.

**ÇERÇÉN**, Çerçəndərya – Çinin q.-ində çay. Arkataq silsiləsindən başlanır. Kunlun d-rından çıxdıqdan sonra Təklə-Məkan səhrasının c.-ş. kənarı ilə axır. Karaburangöl gölünə tökülür (iyul-avqustda gursuluq dövründə Lobnor gölündən c.-q.-dəki bataqlıqlara çatır). Karaburangöl gölünədək uz. 725 *km*-dir. Dağlardan çıxdığı yerdə ortaillik su sərfi 20 $m^3/san$-dir. Çerçen vahəsini suvarır. Aşağı axınında ilin çox hissəsi susuz olur.

**ÇEREMXÓVO** – RF-nin İrkutsk vil.-ndə şəhər. Çeremxovo r-nunun mərkəzi. Əh. 52,6 min (2010). Transsibir magistralında, İrkutskdan 130 *km* şm.-q.-də d.y. st.

Daş kömür hasil edilir. Maşınqayırma, mexanika, qismən kokslaşdırma, "Ximik" z-dları fəaliyyət göstərir. Yüngül sənaye inkişaf etmişdir. 1772 ildə salınmışdır.

**ÇEREMÓŞ**, Çeremoşel – Ukraynanın q.-ində çay. Prut çayının sağ qolu. Uz. 80



Çeptsa çayı. Qlazov şəhəri (Udmurtiya) yaxınlığında.

*km*, hövzəsinin sah. 2560 $km^2$. Şərqi Karpatdan axan Qara Ç. (87 *km*) və Ağ Ç. (51 *km*) çaylarının qovuşmasından yaranır. Qarışıq mənbədən, əsasən, yağış suları ilə qidalanır. Qara Ç. və Ağ Ç. çaylarının qovuşduğu yerdən aşağıda ortaillik su sərfi 26,6 $m^3/san$-dir. Ağac axıdılır. Vijnitsa və Vaşkovtsı ş.-ləri Ç. sahilindədir.

**ÇERENKOV** Pavel Alekseyeviç [15(28).7.1904, N. Çiqla k., indiki Voronej vil. – 6.1.1990, Moskva) – rus fiziki, SSRİ EA akad. (1970; m. üzvü 1964). SSRİ Dövlət mükafatı laureatı (1946, 1952, 1977), Nobel mükafatı laureatı (1958). Voronej Un-tini bitirmişdir (1928). 1930 ildən SSRİ EA Fizika İn-tunda işləmişdir. Moskva Mühəndis-fizika İn-tunun prof.-u olmuşdur. Tədqiqatları fiziki optika, nüvə fizikası, kosmik şüalar fizikası, sürətləndiricilər texnikası sahəsindədir. 1934 ildə mayelərin lüminessensiyasını tədqiq edərkən, Ç. yeni optik effekti aşkara çıxarmışdır (bax *Çerenkov–Vavilov şüalanması*). Bu effekt əsasında yüklü zərrəciklərin qeydə alınması üsulları yaradılmışdır (bax *Çerenkov sayğacı*). 2 Lenin ordeni ilə təltif olunmuşdur.



**ÇERENKÓV SAYĞACI** – Çerenkov–Vavilov şüalanmasından istifadə edərək yüklü zərrəcikləri və γ-kvantları qeydə alan cihaz. Zərrəcik, işığın baxılan mühitdəki faza sürətindən ($\frac{c}{n}$, $n>1$ – maddənin sındırma əmsalıdır) böyük sürətlə ($v$) həmin mühitdə hərəkət etdikdə ($v>\frac{c}{n}$) işıq şüalandırır. Şüalanma istiqaməti ilə zərrəciyin hərəkət istiqaməti arasındakı θ təpə bucağı $\cos\theta = \frac{1}{\beta n}$ $(\beta = \frac{v}{c})$ düsturu ilə təyin edilir. $\theta < \frac{\pi}{2}$ olduğundan şüalanma yalnız elektronun hərəkət istiqamətində alınır və təpə bucağı θ olan konusun hüdudunda paylanır.

Ç.s.-nın iş prinsipi belədir: *R* radiatorundan ($v<\frac{c}{n}$ şərti ödənilən maddədən) *00* oxuna paralel istiqamətdə keçən sürətli yüklü zərrəcik parıltı yaradır. Parıltılar *00* oxu ilə θ bucağı altında yayılır. *R*-in silindrik səthindən tam daxili qayıtmaya uğrayır və onun K konik səthinə düşür. Bu səthdən əks olunan və *00* oxuna paralel istiqamətdə gedən şüalar L linzasının köməyilə F fotoartıranının katoduna toplanır. Katoddan çıxan siqnallar gücləndirilib uyğun qeydedici sistemə verilir. Radiator kimi üzvi şüşə ($n=1,5$), qurğuşun şüşə ($n=1,5$) və sudan ($n=1,33$) istifadə edilir. Ç.s., əsasən, iki növ olur: a) sürəti $\beta > \beta_{hədd} = \frac{1}{n}$ şərtini ödəyən bütün zərrəcikləri (həddi Ç.s.), b) müəyyən sürət intervalında ($v_1$-dən $v_2$-yədək) hərəkət edən zərrəcikləri (diferensial Ç.s.) qeyd edən sayğaclar. Ç.s.-nın sürətlərə görə ayırdetmə qabiliyyəti $\frac{\Delta\beta}{\beta}$-dır.

Ç.s. ilə elektronları, sürətli α-zərrəcikləri, γ-kvantları, yüksək enerjili protonları və mezonları qeydə almaq olur.

**ÇERENKOV–VAVİLOV ŞÜALANMASI (Çerenkov–Vavilov effekti)** – yüklü zərrəciyin mühitdə işıq şüalandırması; mühitdə sabit *v* sürəti ilə hərəkət edən zərrəciyin sürəti həmin mühitdə işığın faza sürətindən (işıq dalğalarının yayılma sürəti) böyük olduqda bu hadisə

baş verir. Çerenkov məhlulların γ-lüminessensiyasını tədqiq edərkən (γ-şüalarının təsiri altında) mayelərdə zəif göy işıqlanma aşkar etmişdir (1934). S.İ. *Vavilovun* təşəbbüsü ilə P.A. *Çerenkovun* apardığı eksperimentlər şüalanmanın aşağıdakı xarakterik xüsusiyyətlərini meydana çıxartdı: 1) işıqlanma bütün təmiz şəffaf mayelərdə müşahidə olunur, parlaqlığı onların kimyəvi tərkibindən az asılıdır; 2) şüalanmanın polyarlaşması əsasən ilkin şüa boyunca elektrik sahəsinin intensivlik vektoru istiqamətində olur; 3) *lüminessensiyadan* fərqli olaraq nə temp-r, nə də aşqar hesabına sönmə baş vermir. Bu məlumatlara əsasən Vavilov belə nəticəyə gəldi ki, müşahidə olunan hadisə lüminessensiya deyil, maddənin şüalanması zamanı yaranan və mayedə hərəkət edən sürətli elektronların işıq şüalandırmasıdır. Ç.–V.ş. yalnız mayelərə yox, həm də bərk cisimlərə və qazlara xasdır. Əvvəllər bəzi alimlər (məs., fransız alimi M.L. Malle) γ-şüalanmanın törətdiyi işıqlanmanı müşahidə etsələr də onun yeni, hələ öyrənilməmiş bir hadisə olduğu başa düşülməmişdi.

Ç.–V.ş.-nın mexanizmi İ.Y. *Tamm* və İ.M. *Frankın* (1937) klassik elektrodinamikanın tənliklərinə əsaslanan işində izah edilmişdir. V.L. *Ginzburqun* kvant baxışı da (1940) həmin nəticələrə gətirdi.

Ç.–V.ş.-nın əmələ gəlmə şərtini və onun istiqamətini Hüygens prinsipinin köməyi ilə izah etmək olar. Bunun üçün yüklü zərrəciyin hərəkət trayektoriyasının hər bir nöqtəsi (şəkil 1 və 2-də *A*, *B*, *C*, *D*) dalğa mənbəyi hesab edilir. Optik izotrop mühitdə $u=c/n$ sürəti ilə yayılan belə parsial dalğalar sferik olacaq, burada $n$ – mühitin sındırma əmsalı, $c$ – işığın vakuumdakı sürətidir. Fərz edək ki, zərrəcik $\upsilon$ sürəti ilə düzxətli bərabərsürətli hərəkət edərək müşahidə anında *E* nöqtəsində olmuşdur. Buna qədər olan $t$ müddətində o, *A* nöqtəsindən başlayaraq $AE=\upsilon t$ məsafəsini qət etmişdir. *A*-dan çıxan dalğalar müşahidə anında $R = ut$ radiuslu sfera şəklində olur. Şəkil 1 və 2-də ona *1* çevrəsi, *B*, *C*, *D*-dən çıxan dalğalara isə *2*, *3*, *4* çevrələri uyğundur. Hüygens prinsipinə görə parsial dalğalar, mühitdə yayılan işığın dalğa səthinə uyğun, ümumi qurşayanı istisna olmaqla, interferensiya nəticəsində bir-birini söndürür.




**Şəkil 2**. Yüklü zərrəciyin mühitdə $\upsilon>u$ sürəti ilə hərəkəti. Şüalanmanın yaratdığı dalğa vektoru və zərrəciyin sürətinin istiqamətləri arasındakı bucaq θ-ya bərabərdir.




**Şəkil 1**. Yüklü zərrəciyin mühitdə $\upsilon<u$ sürəti ilə hərəkəti. *1*, *2*, *3*, *4* sferaları uyğun olaraq *A*, *B*, *C*, *D* nöqtələrindən zərrəciyin buraxdığı parsial dalğaların vəziyyəti.

Zərrəciyin sürəti ($\upsilon$) işığın mühitdəki sürətindən ($u$) kiçikdirsə, işıq dalğaları zərrəciyi ötüb keçir və parsial dalğaların ümumi qurşayanı olmur– bütün çevrələr bir-birinin daxilində yerləşir (şəkil 1) və buna görə də $\upsilon<u$ sürəti ilə düzxətli bərabərsürətli hərəkət edən elektrik yükü işıq şüalandırmır.

Zərrəcik işıq dalğalarından böyük sürətlə hərəkət edərsə, yəni

$$\upsilon>u=c/n \text{ və ya } \beta n>1 \qquad (1)$$

olduqda (burada $\beta=\upsilon/c$), dalğalara uyğun sferalar kəsişirlər (şəkil 2), onların ümumi qurşayanı (dalğa səthi) təpəsi *E* nöqtəsində (zərrəciyin ani vəziyyəti ilə üst-üstə düşən) olan konusu təsvir edir; konusun normalları isə dalğa vektorlarını, yəni işığın yayılma istiqamətini təyin edir. Dalğa vektorunun zərrəciyin hərəkət istiqaməti ilə əmələ gətirdiyi θ bucağı

$$\cos\theta=u/\upsilon=c/n\upsilon=1/\beta n \qquad (2)$$

düsturu ilə təyin olunur.

Bu metodu optik anizotrop mühitə də tətbiq etmək olar. Belə mühitlər üçün (1) şərti bir qədər fərqli şəkildə ifadə olunur. Bütün hallarda əsas nəzəri düsturlar təcrübə ilə yaxşı uyğunlaşır.

Hesablama göstərir ki, optik izotrop mühitdə 1 *sm* məsafəni $\upsilon>u$ sürəti ilə keçən *e* yüklü zərrəcik

$$\varepsilon=\frac{e^2}{c^2}\int\limits_{\beta n(\omega)>1}\omega\left[1-\frac{1}{\beta^2 n^2(\omega)}\right]d\omega \qquad (3)$$

enerjisini şüalandırır ($\omega=2\pi c/\lambda$ – işığın dairəvi tezliyi, λ – vakuumda işıq şüasının dalğa uzunluğudur). İnteqralaltı ifadə Ç.–V.ş. spektrində enerjinin paylanmasını əks etdirir.

Mayelərdə və bərk cisimlərdə (1) şərti elektronlar üçün artıq ~$10^5 eV$ enerjilərində, kütləsi elektronların kütləsindən ~2000 dəfə böyük olan protonlar üçün ~$10^8 eV$ enerjilərində ödənməyə başlayır. Ç.–V.ş. əsasında yüksək enerjili zərrəciklələri qeyd etmək, onların sürətini ölçmək üçün geniş tətbiq olunan eksperimental metodlar işlənib hazırlanmışdır. Bu məqsədlə istifadə edilən cihazlar Çerenkov hesablayıcıları adlanır. Bu metodlar zərrəciyin kütləsini də hesablamağa imkan verir (məs., antiprotonun kəşfində həmin metoddan istifadə olunmuşdur).

Ç.–V.ş.-nın əsasını təşkil edən nəzəri məlumatlar müasir fizikada mühüm əhəmiyyət daşıyan digər hadisələrlə sıx bağlıdır (akustikada Max dalğaları, plazmada zərrəciklərin hərəkətinin dayanıqlığı və onda dalğaların generasiyası məsələləri, sürətləndiricilər nəzəriyyəsinin bəzi problemləri və həmçinin elektromaqnit dalğalarının gücləndirilməsi və generasiyası).

**ÇEREPOVÉTS** – RF-nin Voloqda vil.-ndə şəhər. Çerepovets r-nunun inz. m. Əh. 315 min (2012). Volqa-Baltika su yolunda, Rıbinsk su anbarında port. D.y. st.

14 əsrdə monastır ətrafında qəsəbə kimi meydana gəlmişdir. 1777 ildən Novqorod canişinliyində şəhər, 1918–27 illərdə Çerepovets qub.-nın mərkəzi, 1937 ildən Voloqda vil.-nin rayon mərkəzi olmuşdur. 1930-cu illərdə sənaye mərkəzinə çevrilmişdir.

Qara metallurgiya (metallurgiya, poladtökmə z-dları) və kimya ("Ammofos", "Azot" istehsalat birlikləri) sənayesinin iri mərkəzidir. Kibrit f-ki, silikat kərpic z-du var. Ç.-də rəsam V.V.Vereşşaginin evmuzeyi yerləşir.







Çerepovets şəhərindən görünüş.



Çerkaskul mədəniyyətinə aid keramika.

**ÇEREPOVÉTS SU ANBARI** – bax *Şeksna su anbarı.*

**ÇERGİN SİLSİLƏSİ** – RF-də, Altay Resp.-nın şm.-q.-ində silsilə. Pesçanaya və Sema çaylarının (Ob hövzəsi) suayırıcısıdır. Uz. təqr. 100 *km*, hünd. c.-da 1819 *m*-ədəkdir. Səthi kəskin parçalanmış orta hünd.-lü dağlardan ibarətdir. Qumdaşı və şistlərdən ibarətdir. Yamaclarında çəmən-çöl və şam meşələri yayılmışdır.

**ÇERKASKUL MƏDƏNİYYƏTİ** – Uralın c.-unda və Qərbi Sibirdə Tunc dövrünə aid arxeoloji mədəniyyət. 1964 ildə K.V. Salnikov tərəfindən müəyyənləşdirilmişdir. Uqrların əcdadlarına mənsub olması ehtimal edilir. Ç.m. indiki Sverdlovsk vil.-nin şm.-ında mövcud olmuş *Ayat mədəniyyətinin* əsasında təşəkkül tapmışdır. *Andronovo mədəniyyətinin* qonşuluğunda yerləşmiş və *Ananyino mədəniyyətinin* formalaşmasına təsir göstərmişdir. Ən mühüm abidələri İnqal vadisində yerləşir.

**ÇERKASOV** Nikolay Konstantinoviç (27.7.1903 – 14.9.1966) – rus aktyoru. SSRİ xalq artisti (1947). Lenin (1964), SSRİ Dövlət (1941, 1946, 1950, 1951 – iki dəfə) mükafatları laureatı. Leninqrad Səhnə Sənəti İn-tunu bitirdikdən (1926) sonra Leninqrad Gənc Tamaşaçılar Teatrında, 1933 ildən A.S. Puşkin ad. Leninqrad Dram Teatrında işləmişdir. Estradada da çıxış etmişdir ("Pat, Pataşon və Çarli Çaplin" triosunda). Geniş diapazonlu aktyor olan Ç. teatrda bir sıra tarixi şəxsiyyətlərin obrazını yaratmışdır: I Pyotr ("Birinci Pyotr", A.N. Tolstoy), M. Qorki ("Tufanlı il", A. Kapler və T. Zlatoqorova), İvan Qroznı ("Böyük hökmdar", V.A. Solovyov), İ.V. Miçurin ("Çiçəklər qoynunda", A. Dovjenko) və s. Ç. kino aktyoru kimi də geniş şöhrət qazanmışdır. Onun Jak Paqanel ("Kapitan Qrantın uşaqları", 1936), professor Polejayev ("Baltika deputatı", 1937), şahzadə Aleksey ("Birinci Pyotr", 1937–39), Aleksandr Nevski ("Aleksandr Nevski", 1938), İvan Qroznı ("İvan Qroznı", 1945, 1958) və s. rolları rus kino sənəti tarixində mühüm yer tutur. "Hər şey insanlara qalır" (1963, Dronov), "Ay sol tərəfdəndir" (1929, Kalugin), "Rəfiqələr" (1936, ağqvardiyaçı zabit), "Dostlar" (Beta) və "Xəzinələr adası" (pirat Billi Bons, hər ikisi 1938), "Onun adı Suxe Batordur" (1942, baron fon Ungern), "Bahar" (1947, kinorej. Qromov), "Yaxşı yol" (1949, Levaşov), "Üçüncü cavanlıq" (1966, Gedeonov) və s. filmlərdə çəkilmişdir. Ç. "Hindistanda" (1952), "Dördüncü Don Kixot" (1958), "Teatrda və kinoda" (1961) və s. əsərlərin müəllifidir.





Çergin silsiləsi.

**ÇERKÁSSI** – Ukraynada şəhər, Çerkassı vil.-nin mərkəzi. Əh. 286,2 min (2012). Kremençuq su anbarı sahilində port. Nəql. qovşağı.

1394 ildən Litvaya tabe olan Kiyev knyazlığının tərkibində məlumdur. *Lüblin uniyasından* (*1569*) sonra Polşa tərəfindən işğal edilmişdir. 1648 ildən Çerkassı kazak polkunun mərkəzi idi. *And-*



Çerkassı şəhərindən görünüş.



*rusovo barışığına* (*1667*) görə Polşanın hakimiyyətində qalmışdı. 1793 ildən Rusiya imperiyasının tərkibinə qatılmışdır; 1795 ildən qəza şəhəri, 1797 ildən Kiyev qub.-nın tərkibində, 1932 ildən Kiyev vil.-nin mərkəzi olmuşdur. 1954 ildən vilayət mərkəzidir.

Kimya, yeyinti (o cümlədən konserv, şəkər, süd, ət, tütün), yüngül (ipək kombinatı, trikotaj, toxuculuq f-kləri və s.) sənaye sahələri; maşınqayırma və metal emalı inkişaf etmişdir. Tikinti materialları istehsal edilir. Ağac emalı kombinatı fəaliyyət göstərir.

Şəhərdə teatrlar, filarmoniya, planetari, ölkəşünaslıq muzeyi və s. var.

**ÇERKÁSSI VİLAYƏTİ** – Ukraynada vil. 1954 il yanvarın 7-də təşkil edilmişdir. Sah. 20,9 min *km*². Əh. 1,3 mln. (2006). 20 r-nu, 16 şəhəri, 15 ştq. var. Mərkəzi Çerkassı ş.-dir.

**Təbiət.** Ç.v. Dnepr çayının orta axınının hər iki sahilində yerləşir. Sağsahil hissəsini, əsasən, Dneprboyu yüksəklik (maks. hünd. 270 *m*), solsahil hissəsini isə Dneprboyu ovalıq tutur. İqlimi mülayim kontinentaldır. Orta temp-r yanvarda –5,9°C, iyulda 19,5°C-dir. İllik yağıntı 450–560 *mm*. Ən böyük çayı Dneprdir. Kremençuq və Kanev su anbarlarının bir hissəsi Ç.v.-ndədir. Əsasən, qara, boz, çəmən və çimli torpaqlar yayılmışdır.

Çerkassı vilayəti. Kanev Təbiət Qoruğu.



Ərazinin təqr. 1/6-i meşədir. Sığın, maral, cüyür, çöldonuzu, sincab, canavar, tülkü, dovşan, dələ, qunduz, su samuru, ördək, cüllüt və s. var.

**Təsərrüfat.** Sənaye istehsalının strukturunda yeyinti sənayesi (39,9%), kimya sənayesi (26,9%), maşınqayırma və metal emalı (8%), yüngül sənaye (1,5%) üstünlük təşkil edir. Kömür, elektrik enerjisi hasil edilir; kimya sənayesi üçün mineral gübrələr, kimyəvi liflər, lak-boya materialları, kimyəvi reaktivlər, həlledicilər, polimer pərdə, dərman preparatları, ammonyak; emal sənayesi üçün hesablama texnikası, texnoloji avadanlıq; heyvandarlıq və yem istehsalı üçün maşın və avadanlıq istehsal olunur; xalq istehlakı mallarının istehsalı üzrə 300-dən çox sənaye müəssisəsi var.

Ukraynanın yüksək inkişaf etmiş k.t. regionudur, taxıl-çuğundur bitkiçiliyi, ət-lik-südlük heyvandarlıq üzrə ixtisaslaşır. 539 kollektiv k.t. müəssisəsi, 34 sovxoz və 555 fermer təsərrüfatı fəaliyyət göstərir.

**ÇERKÉSSK** (1825–1931 illərdə Batalpaşinsk stanitsası, 1931–39 illərdə Batalpaşinsk ş.) – RF-nin Stavropol diyarında şəhər. Qaraçay-Çərkəz Resp.-nın paytaxtı. Əh. 121,4 min (2010). Kuban çayı sahilindədir. D.y. st.

1804 ildə rus qoşunlarının türk sərkərdəsi Batal paşanı məğlubiyyətə uğratdıqları (1790) Kuban sərhəd xəttində hərbi istehkam kimi salınmışdır. 1860 ildən Kuban vil.-nin qəza mərkəzi olmuşdur. Ç. Hərbi Suxumi yolunun (1828–78 illərdə çəkilmişdir) başlanğıc məntəqəsidir. 1922 ildən Qaraçay-Çərkəz muxtar vilayətinin mərkəzi, 1991 ildən Qaraçay-Çərkəz Respublikasının paytaxtıdır.

Kimya İB; soyuducu maşınqayırması, aşağı voltlu aparatlar, texniki rezin məmulatları z-dları fəaliyyət göstərir. Yüngül, yeyinti sənayesi inkişaf etmişdir.

**ÇERMAK,** Çermak-Zeyzeneqq Qustav (19.4.1836, Littau, Olmyutsa yaxınlığında – 4.5.1927, Vyana) – Avstriya mineraloqu və petroqrafı. Vyana EA-nın həqiqi üzvü







Çerkessk şəhərindən görünüş.

(1875), Peterburq EA-nın fəxri üzvü (1912). Vyana Un-tini bitirmişdir, fəlsəfə doktoru (1860). 1861 ildən Vyana Un-tinin müəllimi, prof.-u (1868–1906), Mineralogiya kabinetinin direktoru (1868–77) olmuşdur. Əsərləri mürəkkəb silikatlar (çöl şpatları, piroksenlər, amfibollar, xloritlər, mikalar və s.) mineralogiyasına həsr olunmuşdur. Ç. silikatlarda alüminiumun ikili rolunu müəyyən etmiş, izomorfizm hadisəsini aydınlaşdırmış, meteoritlərin asteroidlərdə baş verən vulkan partlayışları nəticəsində yaranması nəzəriyyəsini təklif etmişdir. "Mineralogiya kursu"nun (1881) müəllifidir.

Piroksenlərin hipotetik komponentlərini təşkil edən Ç. silikatları onun şərəfinə adlandırılmışdır.

**ÇERMASÁN** – RF-də, Başq. Resp.-nda çay. Belaya çayının (Volqa hövzəsi) sol qolu. Uz. 186 *km*, hövzəsinin sah. 3970 *km*². Buqulma-Belebey yüksəkliyindən başlanır. Əsasən, qar suları ilə qidalanır. Ortaillik su sərfi 10 *m*³/*san*-dir. Noyabrdan apreladək donmuş olur.

**ÇERMOYEV** Əbdülməcid (Tapa) Orutseviç (15.3.1882, Qroznı – 1936) – dağlı azadlıq hərəkatı liderlərindən biri, çeçen siyasi və dövlət xadimi, neft sənayeçisi. Vladiqafqaz realnı məktəbini və Nikolay süvari məktəbini bitirmiş (1901), II Nikolayın şəxsi mühafizə dəstəsində xidmət etmişdir (1901–06). 1908 ildə Qroznı şəhərinə köçmüşdür. 1913 ildə "Aldanneft" şirkətini təsis etmiş və Çeçenistanın ən varlı neft sahibkarı olmuşdur. 1912 ildə 4-cü Dövlət dumasına seçilmiş və burada Şimali Qafqaz dağlılarının mənafelərinin müdafiəçisi kimi məşhurlaşmışdır. Ç. xeyriyyəçi kimi də tanınırdı. "Nəşri-maarif" cəmiyyətinin təşkil etdiyi "Müsəlman gecələri" tədbirlərində iştirak etmişdir. Birinci dünya müharibəsi (1914–18) dövründə Qafqaz yerli süvari diviziyasının zabiti olmuş, "Vəhşi diviziya"nın tərkibində döyüşən çeçen süvari alayını təşkil etmişdir. Fevral inqilabından (1917) sonra Şimali Qafqaz dağlı azadlıq hərəkatının liberal-demokrat qolunun liderinə çevrilmişdir. Şimali Qafqaz dağlılarının siyasi həmrəyliyi və istiqlaliyyətinin qızğın tərəfdarı olmuşdur. Balkar azadlıq hərəkatının rəhbəri Bəsyət Şaxanovla birlikdə Şimali Qafqaz Dağlı Xalqları İttifaqının yaradılmasının əsas təşəbbüsçülərindən olan Ç. Şimali Qafqaz Dağlıları Mərkəzi İcraiyyə Komitəsinin üzvü idi. Şimali Qafqaz və Dağıstanın dağlı xalqlarının 1-ci qurultayında (1917, may) Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Mərkəzi Komitəsinin sədri seçilmiş, dağlı xalqlarının 2-ci qurultayının (1917, sentyabr) sədri olmuşdur.

Rusiyada Oktyabr çevrilişindən (1917) sonra dağlıların kazaklarla birlikdə Terek-Dağıstan hökumətinin yaradılmasına etiraz olaraq, Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Mərkəzi Komitəsinin sədrliyindən istefa vermişdir. 1918 ildə Vladiqafqazın və Terek vilayətinin Sovet hökumətinin nəzarətinə keçməsindən sonra Temirxan-Şuraya gəlmiş və burada Şimali Qafqazın Cənubi Qafqaz İttifaqına qoşulması istiqamətində siyasi fəaliyyət göstərmişdir.

Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Mərkəzi Komitəsi istiqlaliyyətini elan etdikdən sonra Ç. yeni dağlı hökumətinin tanınması üçün xarici ölkələrə müraciət etmişdi. 1918 ilin martında Tiflisdə Zaqafqaziya seyminin Müsəlman fraksiyası ilə Şimali Qafqaz dağlılarının nümayəndə heyəti birgə iclas keçirmişdi. Əldə olunmuş razılığa əsasən, ikitərəfli münasibətlərin tənzimlənməsi üçün Azərbaycan və Şimali Qafqaz nümayəndələrinin xüsusi komissiyası yaradılmışdı. Komissiyaya Azərbaycan tərəfindən Fətəli xan *Xoyski*, Nəsib bəy *Yusifbəyli*, Aslan bəy *Səfikürdski*, dağlılar tərəfindən Heydər *Bammat*, Çermoyev və M.-Q. Dibirov daxil olmuşdular. 1918 il mayın 11-də Qafqaz dağlı xalqlarının İstiqlal bəyannaməsini Çermoyev və H.Bammat imzalamış, *Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının* yarandığını elan etmişdilər. Mayın 24-də Gəncədə Ç.-in sədrliyi ilə Şimali Qafqaz Respublikasının yeni hökuməti təşkil olunmuşdu. Hökumətin sədri Ç. Şimali Qafqazın bolşeviklərdən azad edilməsi üçün birgə hərbi tədbirlərə hazırlaşmağa başladı. Ç.-in təkidli xahişlərindən sonra Osmanlı hərbi dəstəsi Dağıstana göndərildi. Oktyabrın 9-da Dərbənd azad edildi. Oktyabrın 13-də Dərbənddə Ç. tərəfindən hökumətin vətəndə fəaliyyətə başlaması haqqında rəsmi məlumat elan olundu. 1918 il oktyabrın 17-də Ç. Biçeraxova ultimatum göndərərək, oktyabrın 20-dək bütün Dağıstan ərazilərini boşaltmağı tələb etdi. Rədd cavabı aldıqdan sonra osmanlı və dağıstanlılardan ibarət milli diviziyalar Petrovsk-Port uğrunda döyüşə başladılar. Oktyabrın 23-də Temirxan-Şura, noyabrın 7-də isə Petrovsk-Port azad edildi. Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının 11 may tarixli istiqlalı bir daha təsdiq olundu.

Osmanlı ordusu tərəfindən Dağıstanın biçeraxovçulardan və bolşeviklərdən təmizlənməsindən sonra Ç. rəhbərlik etdiyi hökumətlə birgə Temirxan-Şuraya gəlmiş və dövlət quruculuğu işlərinə başlamışdı. Ç.-in və Yusif İzzət paşanın ingilis nümayəndələri ilə görüşündə Dağlılar hökuməti hərbi əməliyyatları dayandırmağa razılıq vermişdi. Ç. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışında iştirak etmişdir. Onun yardım üçün dəfələrlə Azərbaycana müraciətləri təmin edilmişdi.

1918 il dekabrın 10-da Bakıda Şimali Qafqaz hökuməti ilə kazaklar və rusdilli əhalinin müxtəlif qruplarının təmsilçiləri arasında müqavilə imzalandı. Razılaşmaya əsasən yeni koalisiya hökumətinin təşkili nəzərdə tutulduğundan 1918 il dekabrın 15-də Ç.-in nazirlər kabineti istefa verdi. Ç. Avropa ölkələri ilə danışıqlara göndərilən yeni nümayəndə heyətinin sədri təyin olundu.

Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələrinin Antanta dövlətlərinin A.Kolçak hökumətini tanımasına etiraz bəyannaməsini Şimali Qafqaz nümayəndələri adından Ç. imzalamışdı.

1919 ilin mayında Dağıstanın deni-

kinçilər tərəfindən işğalından sonra yaranmış vəziyyətlə əlaqədar Versalda Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının nümayəndələri arasında siyasi və iqtisadi ittifaq bağlamaq haqqında danışıqlar başlandı. Mayın 30-da Versalda Ç.-in mənzilində Azərbaycan və Dağlılar Respublikası nümayəndələrinin birgə iclası keçirilmiş, *Qafqaz Konfederasiyası* yaratmaq məsələsi müzakirə olunmuşdu. Qafqazda Sovet hakimiyyəti qurulduqdan sonra Türkiyəyə mühacirət etmişdir.

*Əd*:. G ö y ü ş o v A. 1917–1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi. B., 2000; H ə s ə n o v C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918–1920-ci illər). B., 1993.

**ÇERNETSOV** Valeri Nikolayeviç (17.3.1905, Moskva – 29.3.1970, Moskva) – Rusiya uqrşünası, etnoqraf və arxeoloq. Tarix elmləri doktoru (1970). Preçisten in-tunun təbiyyat elmləri fakültəsini, Moskva elektrotexnika in-tunu bitirmişdir. 1923 ildə geodeziya ekspedisiyasının tərkibində Şimali Urala gəlmiş, həmin vaxtdan Şimali və Orta Ural xalqlarının tarixi, etnoqrafiyası və arxeologiyasının tədqiqinə başlamışdır. Regionda yaşadığı dövrdə *mansi dilini* öyrənmiş, bu dildə ilk əlifba kitabı və dərsliklərin tərtibçilərindən biri olmuşdur. 1930-cu illərdə Leninqrad pedaqoji in-tunda dərs demiş, Şimal xalqları in-tunun, sonralar Antropologiya və Etnoqrafiya muzeyinin, 1940 ildən ömrünün sonunadək SSRİ EA Maddi mədəniyyət tarixi institutunun əməkdaşı olmuşdur. Ç. Lozva, Sosva və Ob *mansilərinə* aid çoxlu etnoqrafik material toplamışdır. Onun arxeoloji tədqiqatları və kəşf etdiyi abidələr Ural arxeologiyasının "qızıl fonduna" daxildir. Ç. Tagil, Neyva, Rej, Tura və Serqa çayları boyu çoxsaylı qayaüstü təsvirləri aşkar etmiş, qeydə almış və onlara şərhlər vermişdir. İlk ekspedisiyalarını (1927, 1938) təkbaşına aparan Ç. 1950-ci illərin sonlarından SSRİ EA Arxeologiya İn-tunun ekspedisiyasının tərkibində axtarışlarını davam etdirmişdir. "Ural qayaüstü təsvirləri" (2 cilddə, 1964, 1970) kitabının müəllifidir.

**ÇERNIŞÉVSKİ** Nikolay Qavriloviç (24.7.1828, Saratov – 29.10.1889, Saratov) – rus yazıçısı, inqilabçı-demokrat, iqtisadçı, filosof. Peterburq un-tinin tarix-filologiya fakültəsini bitirmiş (1850), Saratov gimnaziyasında dərs demişdir (1851–53). 1853 ildə Peterburqa köçmüş, "Oteçestvennıye zapiski" jurnalında əməkdaşlıq etmişdir. 1853–56 illərdə "Sovremennik" jurnalının redaktoru və ideya rəhbəri olmuşdur. 1861–62 illərdə "Zemlya i volya" inqilabi təşkilatının əsas simalarından olan Ç.-nin artan nüfuzundan təşvişə düşən çar hökuməti 1862 ildə onu həbs edərək Petropavlovsk qalasına salmış, sonra ömürlük Sibirə sürgün etmişdir; 1883 ildə Ç.-yə Həştərxanda yaşamağa, 1889 ildə isə Saratova qayıtmağa icazə verilmişdi.



Ç.-nin yaradıcılığı rus ədəbiyyatı və incəsənətinin inkişafına böyük təsir göstərmişdir. "Nə etməli?" (1862–63) romanını, "Alferyev" (1863), "Bir qızın əhvalatı", "Barbarussanın davamçısı" (tamamlanmamışdır) povestlərini (hər ikisi 1865–71), "Bitməmiş dram", "Alicənab ər" pyeslərini (hər ikisi 1865–71), "Kiçik hekayələr" (1864) silsiləsini və s., ədəbi-tənqidi əsərlərini ["Tənqiddə səmimiyyət haqqında", "Yoxsulluq nöqsan deyil" (hər ikisi 1854), "Uşaqlıq və yeniyetməlik dövrü. Qraf L.N. Tolstoyun hərb mövzusunda hekayələri" (1856), "Nekrasov haqqında qeydlər" (1905 ildə nəşr edilmişdir)] həbsdə olarkən yazmışdır. Şərq, eləcə də Qafqaz, o cümlədən Azərb. mədəniyyətinə dərin maraq göstərmiş, onu təbliğ etmişdir. 1855 ildə Tiflisdə nəşr olunmuş "Zurna" almanaxı haqqında "Sovremennik" jurnalının həmin ildəki 7-ci nömrəsində dərc etdirdiyi resenziyada kitabın nəşrini müsbət qiymətləndirmiş, onun müəllifləri sırasında M.F.Axundzadənin adını 2-ci çəkmişdir. Tədqiqatçılar S.S. Pennin 1856 ildə rus dilində nəşr etdirdiyi "Koroğlu" eposu haqqında "Sovremennik"in həmin ilin 10-cu nömrəsində imzasız dərc olunmuş resenziyanın da Ç.-yə məxsus olduğunu göstərirlər. Resenziyada "Koroğlu"dan Azərb. xalqının milli ədəbi abidəsi kimi bəhs edilir, Koroğlu xalqın müdafiəçisi kimi qiymətləndirilir, azərb.-ların "milli qəhrəmanı, eyni zamanda milli şairi" adlandırılır. Ç. *Kazım bəylə* tanış olmuş, ondan Şərq dillərini öyrənmişdir.

Ə s ə r l ə r i: Sənətin varlığa estetik münasibəti. B., 1956; Nə etməli? B., 1974; Собр. соч. т. 1–5, М., 1974; Избр. педагогические сочинения. М., 1983.

*Əd.:* M ə m m ə d C ə f ə r. XIX əsr rus ədəbiyyatı, h. 2. B., 1972; Б а б а е в Г. Н.Г. Чернышевский об азербайджанской культуре в его кн.: Глубокие корни. Б., 1964.

**ÇERNIŞÓV** Aleksandr Alekseyeviç (21.8.1882, indiki Çerniqov vil., Loven – 18.4.1940, Moskva) – elektrotexnika sahəsində rus alimi. SSRİ EA akad. (1932; m. üzvü 1929). Lenin mükafatı laureatı (1930). Peterburq Politexnik İn-tunu bitirmiş (1907), 1936 llədək həmin in-tda (1919 ildən prof.), sonrakı illərdə isə SSRİ EA-nın bir sıra müəssisələrində işləmişdir. Əsas tədqiqatları yüksək gərginliklər texnikası və radiotexnika məsələlərinə aiddir. Ç., həmçinin elektrik ölçmələri, TV, radiotelefon rabitəsinin uzaqlığı, d.y.-larının elektrikləşdirilməsi problemləri, elmi işlərin təşkili və planlaşdırılması, elektrotexnika tarixi və s. ilə məşğul olmuşdur. Rusiyanın elektrikləşdirilməsinin dövlət planının hazırlanmasında iştirak etmişdir.

**ÇERNIŞOV** Feodosi Nikolayeviç (24.9.1856, Kiyev – 15.1.1914, Peterburq) – rus geoloqu və paleontoloqu. Peterburq EA akad. (1909). 1880 ildə Peterburq Dağ-Mədən İn-tunu bitirmişdir. 1882 ildən Geologiya komitəsində (1903 ildən direktor) işləmişdir. 1900 ildən Peterburq EA Geologiya muzeyinin direktoru olmuşdur. Ç. Uralın Paleozoy çöküntülərinin stratiqrafiyasını tərtib etmiş, qütbarxası ərazilərdə (Timan təpəliyi, Novaya Zemlya və Şpitsbergen arxipelaqları) apardığı tədqiqatlar nəticəsində Devon və Üst Karbonun faunasına görə bir sıra paleontoloji məlumatları ümumiləşdirmişdir. O, Uralın ş. yamacında petroqrafik tədqiqatlar aparmış və bu ərazidəki kristallik şistlərin Silur və Devonun çökmə süxurlarının metamorfizləşməsi nəticəsində yaranması qərarına gəlmişdir. Onun rəhbərliyi ilə 1892 ildə Donbasın geol. planaalınmasına başlanmışdır. Qütb Uralında tirəyə, Baykalarxasında silsiləyə, Novaya Zemlyada buzlaq və dağa, Taymır y-a-nda buxtaya Ç.-un adı verilmişdir.

**ÇERNIŞOV SİLSİLƏSİ** – RF-də, Amur vil.-ndə Tukurinqra–Caqdı dağ zəncirinin q. hissəsi. Nyukja (Olyokma hövzəsi), Oldoy və Tında (Amur hövzəsi) çaylarının suayrıcısıdır. Uz. 120 *km*, hünd 1572 *m*-ədəkdir (Lukinda d.). Qranit və kristallik şistlərdən ibarətdir. Dağ tayqası, yamaclarında sidr kolluqları yayılmışdır. F.N. *Çernışovun* şərəfinə adlandırılmışdır.

**ÇERNIŞOV TİRƏSİ** – RF-də, Komi Resp. və Arxangelsk vil.-ndə yüksəklik. C.-da Qütb Uralı ilə birləşir. Uz. təqr. 300 *km*, hünd. 205 *m*-ədəkdir. Səthi platovarıdır. Qumdaşı və əhəngdaşılarından ibarətdir. Şm.-da tundra, c.-da küknar və qara şam tayqasıdır. F.N. *Çernışovun* şərəfinə adlandırılmışdır.







Çerniqov şəhərindən görünüş.

**ÇERNİKOV** Anatoli Mitrofanoviç (4.12.1892, Odessa – 28.1.1941, Bakı) – tibb doktoru (1924), prof. (1928), Azərb. SSR əməkdar elm xadimi (1940). Moskva Un-tinin tibb fakültəsini bitirmişdir (1916). Zaqafqaziya Un-tinin və Tiflis Politexnik İn-tunun fiziologiya kafedralarında assistent (1918–19), Don Un-tinin farmakologiya kafedrasında prozektor (1919–21), Azərb. Dövlət Un-tinin fiziologiya kafedrasında prozektor, privat-dosent (1921–28), farmakologiya kafedrasında prof. (1928–35), Azərb. Xalq Səhiyyə Komissarlığının toksikologiya laboratoriyasının direktoru (1935–38), Azərb. Dövlət Tibb İn-tunun farmakologiya kafedrasının müdiri (1939–41) işləmişdir. 40-a qədər elmi əsərin müəllifidir. Tədqiqatları, orqanizmdə baş verən allergik reaksiyaların mexanizminin öyrənilməsinə həsr edilmişdir.

**ÇERNİQOV** – Ukraynada şəhər. Çerniqov vil.-nin mərkəzi. Əh. 296, 9 min (2011). Desna çayının sağ sahilində port. D.y. və avtomobil yolları qovşağı.

Ç. 9 əsrdə şərqi slavyan tayfası severyanların mərkəzi idi. 9 əsrin sonunda *Kiyev Rus dövlətinin* tərkibinə qatılmışdır. Salnamələrdə adı ilk dəfə 907 ildə qeyd olunur. 10–12 əsrlərdə iri sənət və ticarət şəhəri idi. 1024–36 və 1054–1239 illərdə Çerniqov knyazlığının (1037–53 illərdə Kiyev Rus dövlətinin tərkibində) paytaxtı olmuşdur. 1239 ildə monqollar tərəfindən dağıdılmışdı. 14 əsrin 2-ci yarısından *Böyük Litva knyazlığının* tərkibində idi. 1503 ildə Rus dövlətinə qatılmışdı. 1611 ildə polyaklar tərəfindən zəbt edilmiş, *Deulino barışığına (1618)* görə Polşaya verilmiş və onun tərkibində Çerniqov knyazlığının, 1635 ildən isə Çerniqov voyevodalığının mərkəzi olmuşdur. 1623 ildə şəhərə *Maqdeburq hüququ* verilmişdir. Şəhər əhalisi Ukrayna xalqının azadlıq müharibəsində (1648–54) fəal iştirak etmişdir. Ukraynanın Rusiyaya birləşdirilməsindən (1654) sonra Rus dövlətinin tərkibində olmuşdur. *Andrusovo barışığına (1667)* görə qəti olaraq Rusiyaya verilmişdir. Çerniqov canişinliyinin (1782 ildən), Malorossiya (1797 ildən), Çerniqov qub.-nın (1802 ildən) mərkəzi olmuşdur. Yerli ticarət mərkəzi kimi inkişaf etmişdir. 19 əsrin sonlarında d.y. xətti ilə Kiyevə birləşdirilmişdir. 1918 il yanvarın 19-da sovet hakimiyyəti qurulmuşdur. 1918 il martın 12-də Avstriya-Almaniya qoşunları tərəfindən işğal edilmişdir. 1918 ilin dekabrında şəhərdə hakimiyyət Ukrayna Direktoriyasının, 1919 il oktyabrın 12-də isə Denikinin əlinə keçmişdi. 1919 il noyabrın 7-də yenidən sovet hakimiyyəti bərpa olunmuşdur. 1925–30 illərdə Çerniqov dairəsinin, 1932 ildən Çerniqov vil.-nin mərkəzi idi. 1941 il sentyabrın 9-dan 1943 il sentyabrın 21-dək almanların işğalı altında olmuş, böyük dağıntılara məruz qalmışdır. Müharibədən sonra bərpa edilmişdir.

Yüngül, yeyinti, maşınqayırma (o cümlədən radiocihazlar istehsalı), kimya sənayesi müəssisələri; musiqi alətləri f-ki fəaliyyət göstərir.

Çerniqov. Troitsk monastırı. 17 əsr.



**ÇERNİQOV VİLAYƏTİ** – Ukr.-da vil. 1932 il oktyabrın 15-də təşkil edilmişdir. Sah. 31,9 min $km^2$. Əh. 1,0 mln. (2014). 22 r-nu, 15 şəhəri, 30 ştq. var. Mərkəzi Çerniqov ş.-dir.

**Təbiət.** Ç.v. ərazisinin çox hissəsi *Dnepryanı ovalıqdadır*. Faydalı qazıntıları: torf, neft, qaz və s. İqlimi mülayim





Çerniqov vilayəti. Böyük mavi göl.

kontinentaldır. Orta temp-r yanvarda – 7°C, iyulda 19°C-dir. İllik yağıntı 550–660 *mm*. Əsas çayı Desnadır. Vil.-in şm.-q. sərhədindən Dnepr və onun sol qolu Soj çayı axır. Vil.-in şm. hissəsində (Polesye), əsasən, çimli-podzol, c. hissəsində (meşə-çöl) qara torpaqlar yayılmışdır. Şm.-da qarışıq meşələr üstündür. Şm.-ş.-də Ukr. Resp. EA-nın "Trostyanets" dendrologiya parkı yerləşir. Heyvanları: dovşan, tülkü, su samuru, canavar, porsuq, dələ, sığın, cüyür, çöldonuzu və s. Zubr, ərəbdovşanı, yarasa, safsar, çöl durnası, bayquş, dovdaq Ukr.-nın Qırmızı kitabına salınmışdır.

**Təsərrüfat.** Mühüm aqrar-sənaye regionudur. Yeyinti, yanacaq, maşınqayırma və metal emalı, ağac emalı, sellüloz-kağız, yüngül sənaye üstünlük təşkil edir. Ölkə üzrə yun parça və divar kağızı istehsalı 80%-dən çox, kimyəvi liflər və iplər 30%, neft hasilatı 20% təşkil edir. Yanğınsöndürən maşınlar, şin istehsalı üçün kord parça, ASK üçün xüsusi növ avadanlıq istehsal edən yeganə vil.-dir.

K.t istehsalı üzrə kartof, şəkər, taxıl, heyvandarlıq məhsulları, həmçinin bal, meyvə, kətan və məşhur Nejin xıyarının iri tədarükçüsüdür. K.t. (yağ və balıq məhsullarından başqa) əhalinin ərzaq tələbatını tam ödəyir; mühüm ixrac imkanlarına malikdir. Faydalı qazıntılarla zəngindir: yüksəkkeyfiyyətli şüşə tozu (Repki r-nu); neft (İçnyansk, Prilusk, Varvin, Talayev r-nlarında neft-qaz yataqları); tabaşir (Novqorod-Seversk r-nu); kərpic xammalı (vil.-in bütün ərazisində); bişofit (Novopodolsk yatağı, İçnyansk r-nu; həcminə və müalicəvi keyfiyyətlərinə görə Ukraynada yeganə yataq).

Çernoqora dağ massivi.



Yanacaq sənayesi üzrə neft, qaz, qaz kondensatı və torf hasilatı, qazın ilkin emalı (Qnedinsevsk qaz emalı z-du) müəssisələri; maşınqayırma sənayesi üzrə yağınsöndürən avadanlıq ("Pojmaşina" SC), quşçuluq təsərrüfatı üçün avadanlıq ("Nejinselmaş" SC), "QAZ" avtomobilləri üçün komplektləmə və ehtiyat hissələri ("Çerniqovavtozapçast" z-du) istehsalı müəssisələri fəaliyyət göstərir.

K.t. mal və donuz əti istehsalı, taxıl, kartof, kətan və şəkər çuğundurunun becərilməsi üzrə ixtisaslaşır. Ətlik-südlük heyvandarlıq, donuzçuluq və quşçuluq, balıqçılıq, arıçılıq, bağçılıq inkişaf etmişdir.

**ÇERNOBIL** – Ukraynanın Kiyev vil.-ndə şəhər. Çernobıl r-nunun mərkəzi. Əh. 500 (2011). Pripyat çayının Kiyev su anbarına töküldüyü yerdə gəmi dayanacağı.

Çernobıl AES-indəki (Ç.-ın 18 *km*-liyindəPripyat ş.-ndə) qəza və ərazinin radioaktiv çirklənməsi ilə əlaqədar Ç. -ın əhalisi təxliyə edilmişdir. Qəzaya qədər inkişaf etmiş sənayesi olan r-n mərkəzi idi.

**ÇERNOQORA,** Ç o r n y e q o r ı – Ukrayna Resp.-nın İvano-Frankovsk və Zakarpatye vil.-ləri ərazisində, Meşəli Karpat dağlarının c.-ş. hissəsində ən yüksək dağ massivi. Hünd. 1800–2000 *m* (yüksək nöqtəsi 2061 *m* – Qoverla d.). Gilli şist, qum və mergellərdən ibarətdir. Yamacları fıstıq (900–1200 *m*), küknar (1200–1500 *m*) meşələri və Alp çəmənlikləri ilə örtülüdür.

**ÇERNOQÓRİYA** – bax *Monteneqro.*

**ÇERNOQORİYALILAR** – bax *Monteneqrolular.*

**ÇERNOQÓRSK** – RF-də, Xakas Resp.-nda şəhər. Əh. 75,5 min (2010). D.y. st. (Çernoqorskiye Kopi). Minusa kömür hövzəsinin mərkəzidir. Metaltökmə, tikinti materialları və yüngül sənaye (mahud parça) müəssisələri var. Yaxınlığında daş kömür çıxarılır.

**ÇERNOLES MƏDƏNİYYƏTİ** – Orta Dnepr boyunda (Ukrayna) skiflərəqədərki (e.ə. 10–8 əsrlər) əkinçi tayfalara məxsus arxeoloji mədəniyyət. İnqules çayının yuxarı axarında Çernoles şəhər yerinin adı ilə adlandırılmışdır. Ç.m.-nin mövcud olduğu dövrdə tunc və daş alətlər dəmirlə əvəz olunmuş, sümük alətlərdən geniş istifadə edilmişdir. Tuncdan dəstəyi olan xəncər və qılınc, tunc və sümükdən ox ucluqları, tuncdan enli qol-







Çernoles mədəniyyətinə aid keramika.

baq və asma məftil üzük Ç.m. üçün səciyyəvidir. Keramikası zambaqvarı qablar, şüyrələnmiş cam və küplərdən ibarətdir. Meyityandırma adəti (bəzən kurqan altında) yayılmışdı. Ç.m. 7 əsrdə skif mədəniyyəti arealına daxil olmuşdur.

**ÇERNOMÓRDİKOV** David Aronoviç (17.7.1869, Bakı – 31.1.1947, Moskva) – musiqi yazıçısı, bəstəkar və ictimai xadim. Bakıda pianoçu V.A. Voytsexovskidən, 1887–90 illərdə Parisdə P. Vidal (harmoniya) və J.O' Kellidən (fp.) dərs almışdır. 1901 ildə Peterburq konservatoriyasını bitirmişdir. Ç. simfoniya, uvertüra, simli kvartet, fp. pyesləri, xorlar, "Şimal əfsanəsi" poema-kantatasını yazmışdır. 1898 ildə ədəbi-musiqi fəaliyyətinə başlamışdır. Qəzet və jurnallarda D. Bıkov, Orfey, Çernomor, Dodo təxəllüsləri ilə məqalələr dərc etdirmişdir. 1908 ildən "Yəhudi xalq musiqisi cəmiyyəti"nin sədri, 1911–13 illərdə "Yeddi gün ərzində" ədəbi-bədii jurnalın redaktoru olmuşdur. 1914 ildən Bakıda işləmiş, burada musiqi məktəbi yaratmış, Bakı Musiqiçilər İttifaqını təşkil etmişdir (1917). Tiflis və Vladiqafqazda ictimai-siyasi və musiqi fəaliyyəti ilə məşğul olmuşdur (1920–21). 1922 ildən Moskvada işləmişdir. Ç.-un təşəbbüsü ilə 1923 ildə "Musiqi yenilikləri" jurnalı yaranmışdır. 1926–30 illərdə Yunanıstanda diplomatik işdə çalışmışdır. Qayıtdıqdan sonra Moskva Operetta Teatrının direktoru vəzifəsinə təyin olunmuş, konsert təşkilatlarında rəhbər vəzifələrdə işləmişdir.

**ÇERNÓV** Aleksandr Aleksandroviç (23.7.1877, Solikamsk – 23.1.1963, Sıktıvkar) – rus geoloqu və paleontoloqu. Sosialist Əməyi Qəhrəmanı (1957), RSFSR əməkdar elm xadimi (1946). Moskva Un-tini bitirmişdir (1903). 1907–09 illərdə P. K. Kozlovun monqol-Sıçuan ekspedisiyasında iştirak etmişdir. 1909–34 illərdə Moskva ali məktəblərində (1917 ildən prof.), 1935 ildən SSRİ EA sistemində çalışmışdır. Elmi işləri Orta və Şimali Uralın, Pay-Xoyun, Peçora ərazisinin geologiyası və faydalı qazıntılarının öyrənilməsinə həsr edilmişdir. *Peçora kömür hövzəsinin* varlığını nəzəri olaraq əsaslandırmış, Uxta neftli r-nunun strukturunu tədqiq etmişdir. İki Lenin ordeni və medallarla təltif edilmişdir. Komi Resp. ərazisində dağ tirəsinə Ç.-un adı verilmişdir.

**ÇERNÓV** Dimitri Konstantinoviç (1.11.1839, Peterburq – 2.1.1921, Yalta) – metallurgiya, metalşünaslıq və metalların termik emalı sahəsində rus alimi. Peterburq Praktiki Texnologiya İn-tunu bitirmişdir (1858). Ç. poladın struktur və xassələrinin onun qızmar mexaniki və termik emalından asılı olduğunu müəyyən etmiş, poladın böhran temp-runu kəşf etmişdir. *Közərmə rənglərinə* görə təyin edilən həmin temp-rlar *Çernov nöqtələri* adlanır. Əsərlərində polad külçəsinin kristallaşma nəzəriyyəsini şərh etmiş, kristalların yaranması və böyüməsi prosesini ətraflı tədqiq etmiş, külçənin struktur zonalarının sxemini vermiş, tökmə poladdakı defektləri hərtərəfli öyrənmişdir. O, əritmə zamanı



poladda oksigensizləşdirmə prosesinin tam getməsinin əhəmiyyətini, kompleks oksigensizləşdirici maddələr tətbiqinin məqsədəuyğunluğunu əsaslandırmış, tökmə polad istehsalının konverter üsulunu təkmilləşdirmək üçün xeyli iş görmüşdür. Onun artilleriya silahları istehsalı sahəsində də bir sıra mühüm tədqiqatları vardır. Ç. riyaziyyat, mexanika və aviasiyaya dair bir sıra işləri ilə də tanınır. O, rus metallurq və metalşünasları elmi məktəbinin əsasını qoymuşdur. Ç. Rusiya Metallurqlar Cəmiyyətinə fəxri sədr, İngiltərə Dəmir və Polad İn-tuna fəxri sədr müavini, Amerika Mədən Mühəndisləri İn-tuna fəxri üzv və s. seçilmişdir.

**ÇERNÓV NÖQTƏLƏRİ** – bərk poladı qızdırdıqda və ya soyutduqda onun struktur və xassələrini dəyişən faza çevrilmələrinin baş verdiyi böhran temp-rlar. 1868 ildə D.K. *Çernov* kəşf etmişdir. Həmin nöqtələr böhran nöqtələri də adlanır və poladın termiki emal rejiminin seçilməsində əsas götürülür.

**ÇERNOVTSI** (1944 ilədək Çernovitsı) – Ukr.-da şəhər. Çernovtsı vil.-nin mərkəzi. Əh. 253,8 min (2011). Karpat d-rının ətəyində, Prut çayı sahilindədir. D.y. və avtomobil yolları qovşağı. Aeroport.

12 əsrdə salınmışdır. Yazılı mənbələrdə adı ilk dəfə 1408 ildə qeyd olunur. 14 əsrin ortalarından 1774 ilədək Osmanlı imperiyasının vassalı olan Moldova knyazlığının tərkibində idi. 1775 ildə Avstriyaya (1867 ildən Avstriya-Macarıstan) qatılmış, 1786–1849 illərdə Qalisiyanın tərkibində Çernovtsı vil.-nin mərkəzi olmuşdur. 1916 ildə rus qoşunları tərəfindən tutulmuşdur. 1918 il noyabrın 11-də Rumıniya tərəfindən işğal edilmişdir. 1940 ilin iyununda Şimali Bukovina ilə birlikdə SSRİ-nin tərkibinə qatılmış və

Çernovtsı. Teatr meydanı.





Çernovtsı vilayəti. Xotin qalası.

Ukrayna SSR-in vil. mərkəzi olmuşdur. 1941 il iyulun 6-dan 1944 il martın 29-dək alman qoşunları tərəfindən işğal edilmiş, böyük dağıntılara məruz qalmışdır.

Maşınqayırma və metal emalı, yüngül, yeyinti (ət, yağ-piy, şəkər və s.), kimya, ağac emalı sənayesi müəssisələri fəaliyyət göstərir; tikinti materialları, sənətkarlıq məmulatı istehsal olunur.

**ÇERNOVTSI VİLAYƏTİ** – Ukraynada vil. 1940 il avqustun 9-da təşkil edilmişdir. Sah. 8,1 min *km*². Əh. 908 min (2014). 11 r-nu, 11 şəhəri, 8 ştq. var. Mərkəzi Çernovtsı ş.-dir.

**Təbiət.** Ç.v.-nin c.-q. hissəsi Ukrayna Karpat d-rında (hünd. 1565 *m*-ədək), mərkəzi hissəsi öndağlıqdadır. Vil.-in şm. hissəsi (Prut və Dnestr çayları arası) yüksəkliklər olan düzənlikdir (hünd. 515 *m*-ədək). İqlimi mülayim kontinentaldır. Orta temp-r yanvarda düzənlikdə –4°C-dən dağlarda –10°C-yədək, iyulda müvafiq olaraq 20–18°C və 18–10°C-dir. İllik yağıntı düzənlikdə 450–700 *mm*, dağlarda 800–1400 *mm*. Mühüm çayları Dnestr, Prut və Siretdir (Dunayın qolu). Boz meşə, podzollaşmış qara, çimli podzol, dağ qonur meşə, çimli qonur torpaqlar yayılmışdır. Ərazinin 30%-ə qədəri meşələr (küknar, ağ şam, palıd, vələs və s.) və kolluqlardır. Heyvanları: maral, cüyür, çöldonuzu, ayı, vaşaq və s. Sığın, zubr, xallı maral və s. iqlimə uyğunlaşdırılmışdır.



**Təsərrüfat.** Ukraynanın aqrar-sənaye regionudur. Neft, qaz emalı avadanlığı; taxta-şalban, faner, mebel; kərpic, tol, keramika, dəmir-beton konstruksiyalar; tikiş və trikotaj məmulatları, pambıq parça, ayaqqabı; şəkər, çörək-bulka məmulatı, spirt, günəbaxan yağı, ət, süd, meyvə-tərəvəz konservləri və s. istehsal edən 200-dən çox sənaye müəssisəsi fəaliyyət göstərir. Meşə və ağac emalı, tikinti materialları, yüngül, yeyinti, kimya, metal emalı, maşınqayırma və cihazqayırma sənaye sahələri, həmçinin sənətkarlıq (xalça, ağac məmulatı, bədii tikmə) inkişaf etmişdir.

Ukraynanın neft aparatları istehsalının ("Çernovtsı maşınqayırma zavodu" MMC) 100%-ini; corab məmulatları ("Malva" SC) istehsalının 15%-ini təmin edir. Toxuma avtomatları və onların ehtiyat hissələri ("Çernovtsıleqmaş"), inteqral sxemlər, mürəkkəb məişət texnikası ("Qraviton" z-du), elektron texnikası ("Kvarts" ASC), hesablama texnikası ("Elektronmaş" ASC) istehsal edən müəssisələr fəaliyyət göstərir.

Mineraloji ehtiyatlarla (mineral su və palçıq yataqları) zəngindir. Süfrə və müalicəvi suların sənaye doldurulması həyata keçirilir.

K.t. dənli bitkilər, kartof, şəkər çuğunduru, tərəvəz və günəbaxan; ət, süd, yumurta və yun istehsalı üzrə ixtisaslaşır. 600-dən çox fermer təsərrüfatı var.



**Çernyaxov mədəniyyətinə aid əşyalar:** daraq, fibulalar və kəmər toqqaları. 3–4 əsrlər. Ermitaj.

**ÇERNYAXOV MƏDƏNİYYƏTİ** – Aşağı Dunay boyundan Dneprin sol sahillərinə qədər olan çöl və meşə-çöl ərazidə 3–4 əsrlərdə yayılmış arxeoloji mədəniyyət. Ukraynanın Kiyev vil. Çernyaxov k.-nin adı ilə adlandırılmışdır. Ç.m. üçün möhkəmləndirilməmiş yaşayış məskəni və kurqansız qəbirlər səciyyəvidir. Əhalisi, əsasən, əkinçilik, maldarlıq, həmçinin ovçuluq, balıqçılıq və sənətkarlıqla məşğul idi. Ç.m.-nin müxtəlif tayfalara məxsus olduğu ehtimal edilir.

**ÇERNYÁYEVSKİ** Aleksey Osipoviç (1840, Şamaxı – 14.12.1894, Tiflis) – Azərb. maarifçisi, pedaqoq-metodist. Əmək fəaliyyətinə kənd poçtunda (1857) başlamış, 1866 ildə Mərəzə k.-ndə ilk xalq məktəbi yaratmış, Qori seminariyası Azərb. şöbəsinin ilk inspektoru (1879–93) olmuşdur. K.D. *Uşinskinin* mütərəqqi pedaqoji ideyalarının



Azərb.-da ilk davamçılarından biri, Şərqdə səs (sövti) üsulu ilə yazılmış ilk "Vətən dili" (Azərb. dilində 1882; eyniadlı əsərin 2-ci hissəsini 1888 ildə S.Vəlibəyovla birlikdə) və "Rus dili" dərsliklərinin müəllifidir. Azərb.-da ziyalı (xüsusən müəllim) kadrlarının hazırlanmasında (F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov, T.Bayraməlibəyov, S.Vəlibəyov, S.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov və b.) xidməti olmuşdur. Ç.-nin pedaqoji təcrübəsindən müasir dövrdə ibtidai sinif dərsliklərinin tərtibində istifadə edilir. Şamaxı r-nundakı Mərəzə qəsəbə orta məktəbinə Ç.-nin adı verilmişdir. İ.Şıxlının "Dəli Kür" romanında Ç.-nin obrazı yaradılmışdır.

*Əd.*: Köçərli F. Seçilmiş əsərləri. B., 1963; Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. B., 1966; Əhmədov H. Görkəmli maarifçi. "Azərbaycan məktəbi", 1981, № 2; Mehdizadə Z.M. A.O. Çernyayevski. Həyatı və pedaqoji fəaliyyəti B., 1983 (Azərb. və rus dillərində).

**ÇERRİTO** (Cerrito) Fanni (Françeska) (11.5.1817, Neapol – 6.5.1909, Paris) – italyan balet artisti. Rəqs təhsilini Neapolda San-Karlo teatrı məktəbində almış, sonralar K. Blazis, J. Perro və A. Sen-Leonun yanında sənətini təkmilləşdirmişdir. 1832 ildə San-Karlo teatrında debütü olmuşdur. 1836–37 illərdə Roma və Turində çıxışlarından sonra Vyanada, 1838–40 illərdə "La-Skala" teatrında (Milan), 1840–47 illərdə Londonda, 1847 ildə Parisdə, 1855–56 illərdə Peterburq və Moskvada qastrolda olmuşdur. 1857 ildə səhnəni tərk etmişdir. Ç. romantik baletin görkəmli nümayəndəsi, bir çox partiyaların ilk ifaçısı idi: Alma ("Alma, yaxud Od qızı", Kosta, 1842), Undina (Puninin eyniadlı baletində "ikinci adı "Nayada və balıqçı"), Kati ("Markitantka", Puni, 1844) və s.

**ÇÉRSKİ** Ivan Dementyeviç (Yan Dominikoviç) (15.5.1845, Vilna qub.-ndakı "Svolna" malikanəsi – 7.7.1892) – geoloq, paleontoloq, coğrafiyaşünas; Sibirin tədqiqatçısı. Milliyyətcə polyakdır. 1863–64 illərdə Polşa üsyanında iştirakına görə Omsk ş.-nə orduya göndərilməklə cəzalandırılmışdır. Q.N. *Potaninin* təsiri ilə Omsk r-nunda geol. və paleontoloji tədqiqatlara başlamışdır. 1871 ildə İrkutsk ş.-nə köçmüşdür. 1877–80 illərdə Baykal sahillərinin geol. quruluşunu öyrənmiş və geol. xəritəsini tərtib etmişdir. 1878 ildə Ç. relyefin təkamülü fikrini irəli sürmüşdür. Sibir üçün ilk tektonika-paleocoğrafiya sxemlərindən (sonralar E. Züss "Yerin siması" əsərində istifadə və inkişaf etdirmişdir) birini təklif etmişdir. 1885 ildə Peterburq EA-nın dəvəti ilə Peterburqa köçmüşdür. 1891 ildə oradan Kolıma və İndigirka çayları r-nundakı ekspedisiyaya yola düşmüşdür. Kolımanın aşağı axınlarını öyrənərkən vəfat etmişdir. Saxa (Yakutiya) Resp.-nda və Maqadan vil.-ndə dağ sistemi, Baykalarxasında silsilə Ç.-nin şərəfinə adlandırılmışdır.



Çerski silsiləsi. Ulaxan-Çistay massivi.

*Əd.*: Обручев В.А. Иван Дементьевич Черский, в кн.: Люди русской науки, Т– 1, М.– Л., 1948.

**ÇERSKİ SİLSİLƏSİ** – RF-də, Baykalarxasında dağ silsiləsi. Olenquy çayının yuxarı axınından Olyokma çayınadək 400 *km* məsafədə uzanır. Hünd. 1500 *m*-ədəkdir. Qranitlərdən, effuziv və çökmə süxurlardan ibarətdir. İynəyarpaqlı və qara şam meşələri var. İ.D. *Çerskinin* şərəfinə adlandırılmışdır.

**ÇERSKİ SİLSİLƏSİ** – RF-nin Saxa (Yakutiya) Resp. və Maqadan vil.-ndə dağ sistemi. Yana çayının aşağı axınından (şm.-q.-də) Kolıma çayının yuxarı axınınadək (c.-ş.-də) 1500 *km* məsafədə uzanır. Eni 400 *km*-ədəkdir. Tərkibinə Xadaranya (2185 *m*-ədək), Tas-Xayaxtax (2356 *m*), Çemalgin (2547 *m*), Kurundya (1919 *m*), Doqdo (2272 *m*), Çibaqalax (2449 *m*), Boronq (2681 *m*), Silyap (2703 *m*), Ulaxan-Çistay (3147 *m*, Qələbə d. – Ç.s.-nin ən yüksək nöqtəsi), Çerge (2332 *m*) və s. silsilələr daxildir. Ç.s. Sakit okean geosinklinal qurşağının Mezozoy qırışıqlığı sisteminə daxildir; Paleozoyun güclü dislokasiyaya və metamorfizmə uğramış karbonat süxurlarından ibarətdir. Kənarları Perm, Trias və Yuranın dəniz və kontinental çökün-tüləridir (şistlər, qumdaşılar). Qızıl, qalay və s. faydalı qazıntılar var. Orta hünd.-lü dağlar üstünlük təşkil edir. Ümumi sah. təqr. 157 *km*² olan 350-dən çox kar, asılı və dərə buzlaqları var. İqlimi sərt, kontinentaldır. Çoxillik donuşluq süxurları yayılmışdır. Əksər çaylar, o cümlədən, İndigirka və onun qolları silsilələri dar antesedent dərələrlə kəsir. Yamacları şm.-da 300 *m*-ədək, c.-da 1100 *m*-ədək tayqa meşələri ilə örtülüdür; yuxarılarda daşlı dağlıq tundra yayılmışdır. Ç.s. rus geoloqu və coğrafiyaşünası S.V. Obruçev tərəfindən tədqiq olunmuşdur. İ.D. *Çerskinin* şərəfinə adlandırılmışdır.

**ÇERTOMLIK** – Ukr. Resp.-nın Dnepropetrovsk vil.-nin Nikopol ş.-ndən 22 *km* şm.-q.-də e.ə. 4 əsrin sonuna aid skif hökmdarına məxsus kurqan. Hünd. 19,5 *m* olan kurqandan çoxlu at əsləhəsi, araba və s. tapılmışdır. Kurqanın altında künclərində dörd kamerası olan dərin quyu aşkar edilmişdir. Onlardan birində gənc xidmətçi ilə birlikdə şahzadə dəfn olunmuşdur. Kameradan çələng, qızıldan tikmələr, daraq, bilərzik, üzük, 14 amfora, skif təsvirli at bəzəkləri, gümüş nimçə, qaşıq və s. tapılmışdır. 2-ci kamerada silahlı və qızıl bəzəkli iki hərbçi dəfn edilmişdir. Digər iki kameradan çoxlu qızıl tikməli geyimlər, tunc qazan, ox, amfora və bıçaqlar tapılmışdır. Bu kameralardan birinin girəcəyində gözətçi dəfn olunmuşdur. Şahzadə dəfn olunan kamera beşinci yeraltı kamera ilə əlaqələnir. Hökmdara məxsus qəbirin bir hissəsi



Çertomlık kurqanından aşkar olunmuş gümüş amfora. Ermitaj S.-(Peterburq).



Çevonoqrad. S. Bandera küçəsi.



Çesapik görfəzi üzərində körpü. Merilend ştatı.

qarət olunmuşdur. Buraya müxtəlif qızıl əşyalar, iki tunc qazan, çıraq və s. qoyulmuşdur. Kameradakı taxçada qızıl tikməli geyim, qızıl lövhədən üzlüyü olan sadax, dəstəyi qızıl üzlüklü qılınc və s. gizlədilmişdir. Ç. tapıntıları nadir sənət nümunələridir. Ayrı-ayrı qəbirlərdə qızıl və gümüş əsləhəli 11 at skeleti tapılmışdır.

**ÇERTYÓJ** – əşyaların (əsasən, maşın, qurğu, tikili, texniki tərtibat və onların detallarının) hər hansı informasiya daşıyıcısı (kağız, kalka, plyonka, faner və s.) üzərində müəyyən miqyasa uyğun olaraq, qrafik obrazlar, yəni nöqtə, düz və əyri xətt parçaları, simvollar, şərti işarələr və s. vasitəsilə təsviri. Ç.-dan mətn illüstrasiyası kimi, yaxud məmulatı hazırlamaqdan ötrü tərtib olunan sənədlərin tərkibində istifadə edilir. Ç.-da əsas qovşaq və detalların dəqiqləşdirilmiş təsviri, detalların hazırlanması və onlara nəzarət üçün texniki tələblər, lazımi məlumatlar və s. göstərilə bilər. Praktikada işçi, quraşdırma, qabarit, montaj, təmir və s. Ç.-ları tərtib edilir. Texniki rəsm və ya sxem də Ç. növləridir.

**ÇERTYÓJ ALƏTLƏRİ** – çertyoj-qrafiki və surətçıxarma işlərini görmək üçün alət və tərtibatlar. Çertyoj pərgarı, həmçinin müxtəlif tip və ölçülü *kronpərgar, reysfeder, reysşina,* xətkeş, bucaqlıq, *transportir, lekal* və s. alətlər Ç.a.-nə aiddir. Müxtəlif pərgarlarla çəkilən radiusların diapazonu 0,5–300 *mm* və daha artıq ola bilər.

**ÇERTYÓJ CİHAZI** – çertyoj-qrafiki işlərin görülməsi üçün qurğu. Cihazın *çertyoj lövhəsi* çertyojda paralel xətlərin çəkilməsi üçün xüsusi tərtibatla təchiz olunur. Pantoqraf və koordinat sistemli Ç.c.-na ayrılır. P a n t o q r a f s i s t e m l i Ç.c. (kulman) paraleloqram şəklində oynaq birləşməli linglər sistemindən və onun üzərinə bərkidilmiş iki qarşılıqlı perpendikulyar xətkeşi olan bucaqölçən başlıqdan ibarətdir. K o o r d i n a t s i s t e m l i Ç.c. tərpənməz (hərəkətsiz) üfüqi istiqamətləndiriciyə malikdir.

**ÇERTYÓJ LÖVHƏSİ** – ölçüləri çertyojun tərəflərinin ölçülərindən 100–200 *mm* artıq olan müstəvi səthli lövhə; taxta, şüşə və plastik kütlədən, yaxud plastik kütlə ilə örtülmüş ağacyonqarlı tavalardan hazırlanır. Ç.l.-nin səthi tamamilə düz, hamar və yumşaq olmalıdır. Çertyojun çəkilməsi və ya surətinin çıxarılması işlərini asanlaşdırmaq üçün bəzən Ç.l. şəffaf materialdan hazırlanır, alt tərəfdən işıqlandırma cihazları ilə təchiz olunur. Kombinə edilmiş Ç.l.-nin yarısı miqyaslı toru və tənzimlənən işıqlandırıcısı olan üzvi şüşədən, digər yarısı isə taxtadan, yaxud yapışdırılmış ağacyonqarlı tavalardan düzəldilir. Portativ Ç.l.-nin ölçüləri 350×500 *mm*, konstruktor Ç.l.-nin – 1000×1350 *mm*, daha iriölçülü çertyojlar üçün 1350×5000 *mm* olur.

**ÇERTYÓJ-KONSTRUKTOR TEXNİKASI** – çertyojun qrafiki tərtibatı və hazırlanması prosesində tətbiq edilən texniki vəsait və materiallar. Əsas Ç.-k.t. vasitələri çertyojların yerləşdirilməsi və bərkidilməsi üçün *çertyoj lövhəsindən* və üzərində çertyoj lövhəsi, *çertyoj cihazı* (kulman), *çertyoj alətləri*, həmçinin köməkçi vasitələr yerləşdirilən çertyoj dəzgahından ibarətdir. Çertyoj-konstruktor işlərində kompüterlərdən və hesablama texnikası vasitələrindən geniş istifadə edilir.

**ÇERVÓN** (polyakca czerwony – qırmızı, qızıl) – 1) Pyotraqədərki Rusiyada tədavüldə olan xarici qızıl sikkələrin (*dukatların, sexinlərin*) ümumi adı; 2) 1701 ildə buraxılmış 3 rubl dəyərində rus qızıl sikkəsi (tərkibində qızıl 3,4 *q* idi), bəzən ikiqat Ç. kəsilirdi; 3) 1922–1947 illərdə SSRİ Dövlət Bankı tərəfindən 1, 2, 3, 5, 10, 25 və 50 Ç. dəyərində buraxılan bank biletləri. Ç.-un qızıl tərkibi 7,74234 *q* miqdarında xalis qızıl müəyyən edilmişdi. 1Ç. 10 rubl xəzinə biletinə bərabər idi. 1947 il pul islahatı nəticəsində Ç. rublla ifadə edilən yeni bank biletləri ilə əvəz olunmuşdur.

**ÇERVONOQRÁD** (1953 ilədək K r i s t i n o p o l) – Ukraynanın Lvov vil.-ndə şəhər. Əh. 68,3 min (2011). Qərbi Buq çayı sahilindədir. D.y. st. Kömür çıxarılır. "Universal" ("Kineskop" Lvov istehsalat birliyinin filialı) z-du, dəmir-beton məmulatları z-du, ağac emalı kombinatı, yüngül və yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir.

**ÇERVÓNOYE GÖLÜ,** Ç e r v o n o y e P o l e s y e, K n y a z - g ö l – Belarusda Qomel vil.-ndə ot basmış göl. Sah. 43,6 $km^2$, dərinliyi 4 *m*-ədəkdir. Qarışıq mənbədən qidalanır. Səviyyə tərəddüdü 0,8 *m*-dir; ən yüksək səviyyəsi mart–aprel aylarındadır. Noyabr–dekabrdan mart–aprelədək donmuş olur. Ç.g.-ndən drenaj kanalı və Bobrik çayı vasitəsilə Pripyat çayına axım həyata keçirilir. Balıq (çapaq, durnabalığı, xanı balığı və s.) ovlanır.

**ÇERYOXA** – RF-nin Pskov vil.-ndə çay. Velikaya çayının sağ qolu. Uz. 145 *km*, hövzəsinin sah. 3230 $km^2$. Bataqlıqlaşmış düzən ərazidən axır. Qarışıq mənbədən, əsasən, qar suları ilə qidalanır. Martın sonundan mayın əvvəlinədək gursuludur. Mənsəbindən 14 *km* yuxarıda ortaillik su sərfi 16,3 $m^3/san$-dir. Noyabrın ikinci yarısı – dekabrdan martın sonu – aprelədək donmuş olur.

**ÇESAPİK KÖRFƏZİ** (Chesapeake Bay) – ABŞ sahillərində Atlantika okeanının körfəzi. Uz. 315 *km*, eni 5–30 *km*, dərinliyi 27 *m*-ədək, farvaterdə 11 *m*-dən çoxdur. Sahilləri alçaq, bataqlıqlaşmış, girintili-çıxıntılıdır. Yarımgünlük qabarmalar olur (hünd. 1 *m*). Əsas portu Baltimor ş.-dir.

**ÇESKE-BUDEYOVİTSE** (České Budějovice) – Çexiyada şəhər. Cənubi Çexiya







Çeske-Budeyovitse. Prjemısl II Otakar meydanı.

vil.-nin inz. m. Əh. 93,6 min (2012). Vltava çayı sahilindədir. D.y. qovşağı.

Maşınqayırma, yeyinti ("Budvar" pivə z-du) və ağac emalı (kağız, karandaş və s. dəftərxana malları) sənayesi inkişaf etmişdir. 1265 ildə salınmışdır. 13–18 əsrlərə aid memarlıq abidələri var.

**ÇESOKSİN,** S e d j o n – Koreya mifologiyasında əsas ev ruhlarından biri (bax *Kasin*). Çumiza və ya düyü ilə dolu, ağzı ağ kağızla örtülmüş saxsı bardaq onun fetişi sayılırdı. Ç. haqqında qeydlərə "Samquk yusa"da (13 əsr) rast gəlinir. Şaman mifologiyasında Ç. Sambul-Çesok adlanır; bu adın birinci hissəsi (Sambul) buddist triadası (amitabha, avalokiteşvara və mahaşama), ikinci hissəsi isə (Çesok) *İndra* ilə bağlıdır. Burada o, əcdadların (Çosansin), məhsulun və doğumun (Samsin), həmçinin uzunömürlüyün hamisi kimi çıxış edir.

**ÇESTER** (Chester) – B. Britaniyanın q.-ində şəhər. Çeşir qraflığının inz. m. Əh. 118,2 min (2011). Liverpuldan 25 *km* c.-da, Di çayı sahilindədir. Nəql. qovşağı.

Ç. romalıların dövründə Kastra Devana adlı Roma Britaniyasının mühüm mərkəzi idi. Erkən orta əsrlərdə tərk edilmişdir (ehtimal ki, dağıdılmışdır). Anqlsaks dövründə "Legaceaster" adlandırılmışdır (Ç. adı da sonralar buradan alınmışdır). 13 əsrin ikinci yarısında İngiltərə krallarının Şimali Uelsi zəbt etmək uğrunda apardıqları mübarizənin mühüm dayaq məntəqəsi olmuşdur. Orta əsrlərdə iri çay portu (13 əsr – 14 əsrin birinci yarısında daha mühüm rol oynamışdır) olmuş, sonralar tədricən əvvəlki əhəmiyyətini itirmiş, 18–19 əsrlərdə isə port kimi qəti olaraq Liverpul tərəfindən sıxışdırılmışdır.

Qədim ticarət mərkəzidir. Suvenir istehsal edilir. Orta əsrlərin faxverkli tikililəri qorunub saxlanılmışdır. Qrovner muzeyi (yerli asari-ətiqə) var. Turizm mərkəzidir.

Çester kafedral kilsəsi. Əsası 13 əsrdə qoyulmuşdur.



**ÇESTER MƏRTƏBƏSİ** (ABŞ, Çester ş.-nə görə) – Şimali Amerikada Alt Karbonun üst mərtəbəsi; "Missisipi sisteminin şöbəsi" kimi baxılır. 1860 ildə Varthen tərəfindən ayrılmışdır. Təqr. Namyur mərtəbəsinin alt yarım mərtəbəsinə və bəlkə də Vize mərtəbəsinin ən üst hissəsinə uyğun gəlir.

**ÇESTERFİLD** (Chesterfield) – B. Britaniyada Derbişir qraflığında şəhər. Əh. 110,8 min (2008). Nəql. qovşağı.

Qara metallurgiya, maşınqayırma, şüşə-keramika, kimya, yeyinti sənayesi inkişaf etmişdir.

**ÇESTERTON** Hilbert Kit (29.5.1874, London – 14.6.1936, Bikonsfild) – ingilis yazıçısı, şair və dramaturq. Detektiv ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri. İlk təhsilini Müq. Pavel məktəbində almış, Sleydin məktəbində təsviri sənəti öyrənmişdir. "Vəhşi cəngavər" adlı ilk şeir kitabı 1890 ildə çap edilmişdir. 1896 ildən London nəşriyyatlarında çalışmağa başlamışdır. "Nottinq-Hilldən olan Napoleon" (1904), "Qəribə peşələr klubu" (1905), "Cümə axşamı olan adam" (1908) və s. romanları var. 80-ə yaxın kitab, 200 nağıl, 4000 esse, yüzlərlə şeir yazmışdır. Əsas obrazı keşiş Braun olan "Braun atanın sadəlövhlüyü" (1911), "Braun atanın müdrikliyi" (1914), "Braun atanın etimadsızlığı" (1926) və s. detektiv hekayə top- luları geniş yayılmışdır. Ədəbi-tənqidi əsərləri (Ç. Dikkens və b. haqqında) var. Xristianlığı mədh edən dini-fəlsəfi traktatlar yazmışdır.



Ə s ə r l ə r i: Избр. рассказы. М., 1971; Рассказы. М., 1974.

**ÇÉSTİ** (Cesti) Mark A n t o n i o (əsl adı – Pyetro) (5.8.1623, Aretsso – 14.10. 1669, Florensiya) – italyan bəstəkarı,

müğənni və kapelmeyster. 17 əsrin ən böyük opera bəstəkarlarından biri. Uşaqlıqdan kilsə xorlarında oxumuşdur. 1645 ildən Volterredə kilsə kapelmeysteri işləmişdir. İlk operaları "Orontea" (1649) və "Vurğun Sezar" (1651) Venesiyada tamaşaya qoyulmuşdur. 1652 ilin sonundan İnsbrukda ershersoq Ferdinand Karlın yanında xidmət etmişdir. Bu illərdə Ç.-nin əsərləri, xüsusən də ən çox müvəffəqiyyət qazanmış "Dori" (1661) operası İnsbruk, Florensiya və Venesiyada ifa olunmuşdur. Kozimo Mediçi sarayı üçün yaratdığı operaları və başqa əsərləri İtaliyada və onun hüdudlarından kənarda, xüsusən də Vyanada Ç.-yə geniş şöhrət gətirmişdi. 1666 ildən imperator I Leopoldun "fəxri kapelmeyster"i olmuşdur. 1667 ildə Vyanada yeni teatrda tamaşaya qoyulmuş "Qızıl alma" operasını imperator Leopoldun toyu münasibətilə yazmışdır. Ç-nin sonrakı operaları Vyana və Venesiyada tamaşaya qoyulmuşdur. Ömrünün sonunu İtaliyada yaşamışdır.

**ÇEŞİD** – xidmətlər cəmi; istehsalatda hazırlanan və ya bazarda təklif olunan məhsul və əmtəə növləri. Əmtəə çeşidi müəssisədə buraxılmış bütün məmulatların cəmidir. Əmtəə növləri, onların funksional xüsusiyyəti, keyfiyyəti və qiymətləri nəzərə alınaraq çeşid qruplarına bölünür.

Bazar iqtisadiyyatı şəraitində çeşidin formalaşması müəssisələrin qarşısında duran mühüm məsələlərdən biridir. Çeşidi formalaşdırmadan əvvəl müəssisə əmtəə növü istehsalının ən optimal variantını tapmalı və istehlakçı tələbinin strukturuna müvafiq olaraq müəssisəni məhsul istehsalına yönəldən çeşid konsepsiyasını işləyib hazırlamalıdır. Konsepsiyanın hazırlanması gedişində müxtəlif göstəricilər müəyyən edilir.

Məhsulun çeşidlənməsi təkcə mənfəətli əmtəənin yaradılması və istehsalını, müəyyən alıcı kateqoriyalarının tələblərinin təmin edilməsini deyil, həmçinin yeni müştərilərin qazanılmasını da nəzərdə tutur.

**ÇEŞİD STANI** – çeşidli metal istehsal edən *yayma stanı*.

**ÇEŞİDLƏMƏ**, h e s a b l a m a  t e x n i k a s ı n d a – müəyyən qaydalara uyğun olaraq çoxluğun elementlərinin qruplar üzrə bölünməsi. Ç. əlamətinin qiymətinin artmasına və ya azalmasına görə elementlərin nizamlanması ən çox yayılmış Ç. növlərindən biridir. Xarici yaddaşda yerləşən verilənlərin nizamlanması x a r i c i  Ç., əsas yaddaşda yerləşən verilənlərin nizamlanması isə d a x i l i  Ç. adlanır. Ü n v a n  üzrə Ç. zamanı verilmiş əlamətlər ardıcıllığına uyğun olaraq verilənlərin yerləşmə sırası dəyişmədən onların yeni ünvan ardıcıllığı formalaşdırılır. M ə r t ə b ə l ə r  ü z r ə  Ç.-də fayl əvvəlcə Ç. açarının kiçik mərtəbəsindəki rəqəmə görə, sonra növbəti rəqəmə görə və s. nizama salınır. Proses açarın bütün rəqəmləri bitənədək davam edir. B l o k l a r l a  Ç. zamanı ilkin fayl bir-birindən asılı olmayaraq nizama salınan və vahid faylda birləşdirilən bloklara (seqmentlərə) bölünür. Verilənlər toplusunu çeşidləyən kompüter proqramı ç e ş i d l ə y i c i  p r o q r a m adlanır.

**ÇEŞİDLƏMƏ TƏPƏSİ** – dəmiryol stansiyaları ərazisində qatarların tərtib olunması və vaqonların ayrılması üçün tikili. Ç.t.-nin iş aparılan yeri təpənin maili hissəsində yerləşdiyindən vaqonları müstəqil hərəkət etdirmək və onları çeşidləmə parkının yollarına paylaşdırmaq mümkün olur. Ç.t.-nin ən yüksək sahəsi (təpənin donqarı) 3,5–4,5 *m* yüksəklikdə yerləşir. Enişlə hərəkət edən vaqonlar (və ya qoşqudan açılmış eyni təyinatlı bir neçə vaqon) arasında yaradılan intervallar yoldəyişənə şaxələnən yollardan əvvəl vaqonların yolunu qatarların tərtibolunma planına uyğun dəyişdirməyə imkan verir. Vaqonların enmə sürətini və onlar arasındakı intervalları tənzimləmək üçün Ç.t.-ndə vaqon ləngidiciləri ilə təchiz olunmuş əyləc sahəsi (mövqeyi) qurulur, yaxud əyləc başmaqlarından istifadə olunur. İri çeşidləmə st.-nın Ç.t.-ndə atomatlaşdırılmış siqnallaşma sistemi fəaliyyət göstərir.

**ÇEŞİDLƏŞDİRİCİ MAŞIN**, k ə n d  t ə s ə r r ü f a t ı n d a – müxtəlif bitki toxumlarını və bəzi k.t. məhsullarını hər hansı əlamətlərinə – ölçülərinə, xüsusi çəkisinə, səthinin kələ-kötürlüyünə, formasına və s. görə çeşidlərə ayıran maşın. Ç.m.-ın əsas hissələri: şadara, xəlbir, ventilyator, triyer silindrləri və maili lövhələrdir.

**ÇEŞİDLƏYİCİ PNEVMATİK MASA** – müxtəlif bitki toxumlarını onların xüsusi çəkisinə görə təmizləmək və çeşidlərə ayırmaq üçün k.t. maşını Ç.p.m.-nın deka adlanan maili bölücü, dibində toru olan müstəvisinə daxil olan toxumlar uzunluq boyunca rəqsi hərəkət etdirilir (ələnir) və ventilyatordan verilən hava ilə üfürülür. Bu zaman ağır toxumlar dekanın dibinə düşür, "hövsənmiş" yüngül toxum və qarışıqlar isə toxum təbəqəsinin üstündə



Çeşidləyici pnevmatik masa.

hərəkət edir. Ç.p.m. saatda 2,5 *t*-adək dən çeşidləyir.

**ÇEŞİDLİ YAYIQ** – yayma üsulu ilə alınan müxtəlif en kəsikli (içi boş olmayan) metal məmulatlar (yayma profili); yayma sənayesi məhsullarının əsas növlərindən biri. Maşın detalları, inşaat və digər konstruksiyalar hazırlanmasında işlədilir. Ç.y.-lar sadə profillərə (dairə, kvadrat, altıbucaqlı, metal zolaq), fasonlu profillərə (rels, tir, bucaqşəkilli dəmir, şveller) və müxtəlif xüsusi profillərə (təkər, çənbər, kürə) bölünür.

**ÇEŞİR** (Cheshire) – B.Britaniyada qraflıq. Sah. 2,3 min $km^2$. Əh. 1 mln. (2008). İnz. m. Çester ş.-dir.

**ÇEŞMAN** – Azərb. Resp. Lerik r-nunun Züvüc ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* şm.-q.-də, Burovar silsiləsinin ətəyindədir. Əh. 272 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, tibb məntəqəsi var.

**ÇEŞMƏ** – bax *Bulaq*.

**ÇEŞMƏ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Vələdyan kəndistanında, Xoy ş.-ndən 15 *km* şm.-ş.-dədir.

**ÇEŞMƏ** – Türkiyənin q.-ində, Egey bölgəsinin İzmir ilində şəhər. Əh. 33,9 min (2011). Egey dənizinin Çeşmə buxtası sahilində, İzmirdən 84 *km* q.-dədir. Ç. buxtasında 1770 ildə Çeşmə vuruşması baş vermişdir.

Qədimdə İoniyanın əsas şəhərlərindən biri olan Kissus kimi tanınırdı. E.ə. 190 ildə Selevki hökmdarı III Antioxun romalılar tərəfindən məğlub edilməsindən sonra Roma imperiyasının tərkibinə qatılmışdır. İmperiyanın parçalanmasından sonra Bizansın hakimiyyəti altında qalmışdır. 14 əsrdə Osmanlı torpaqlarına qatılmış, ticarət mərkəzi və dəniz portuna çevrilmişdir. II Bəyazid 1508 ildə burada Ç. qalasını tikdirmişdi. 1770 ilin iyulunda







Çeşmə şəhərindən görünüş.

Rusiya–Türkiyə müharibəsinin (1768–1774) ən iri dəniz döyüşlərindən biri burada baş vermişdir. Sonralar bərpa edilmiş qala silah muzeyinə çevrilmişdir (1965).

**ÇEŞMƏBAR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Əbhər bölgəsinin Əbhərrud kəndistanında, Əbhər qəs.-ndən 36 *km* c.-q.-dədir.

**ÇEŞMƏBASAR** – Azərb. Resp. Babək r-nunda (Nax. MR) kənd. Çeşməbasar ə.d.-nin mərkəzi. R-n mərkəzindən 8 *km* aralı, Naxçıvan–Ordubad avtomobil yolunun kənarında, düzənlikdədir. Əh. 1051 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, poçt şöbəsi, tibb məntəqəsi, məscid var.

**ÇEŞMƏBASAR GİL YATAĞI** – Azərb. Resp. Babək r-nu (Nax. MR) ərazisində, Naxçıvan ş.-ndən 12–13 *km* c.-ş.-dədir. Geol. quruluşunda Orta Miosenin boz rəngli, bərk, zəif sementləşmiş, incə və orta dispersliliyə malik gil süxurları iştirak edir; bunlar hər yerdə Pleystosen yaşlı kontinental çöküntülərlə örtülmüşdür. Sah. 0,2 $km^2$, faydalı qatın qalınlığı 17–19 *m*-dir. Laboratoriya və yarımzavod tədqiqatlarının nəticələrinə görə gil aqloparit istehsalına yararlıdır. Yataqda aparılmış əlavə tədqiqatların nəticələrinə görə isə, gildən "125" markalı kərpic istehsalında istifadə etmək olar. Yatağın sənaye ehtiyatı 3417 min $m^3$-dir.

**ÇEŞMƏKEŞ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkmən bölgəsinin Gərm kəndistanında, Türkmən qəs.-ndən 15 *km* ş.-dədir.

**ÇEŞMƏKƏNAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Şəbüstər bölgəsinin Təsvic kəndistanında, Şəbüstər qəs.-ndən 45 *km* şm.-q.-dədir.

**ÇEŞMƏLİ** – Azərb. Resp. Şəki r-nunda kənd. Çeşməli ə.d.-nin (Çeşməli, Öryət k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 10 *km* c.-da, Şəki–Yevlax magistral yolu kənarındadır. Əh. 669 (2011); tingçilik və əkinçiliklə məşğuldur. Meyvə Tingliyi Dövlət İstehsal müəssisəsi, tam orta məktəb, uşaq bağçası, klub var.

**ÇEŞMƏLİ** – Azərb. Resp. Tovuz r-nunda kənd. Çeşməli ə.d.-nin (Çeşməli, Abbasqulular, Güvəndik, Papaqçılar k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 45 *km* c.-da, dağ ətəyindədir. Əh. 2364 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. 2 tam orta məktəb, ümumi orta məktəb, 3 kitabxana, 2 klub, ATS, tibb məntəqəsi, poçt var.

**ÇEŞMƏVƏZAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, bölgə mərkəzindən 9 *km* c.-q.-dədir.

**ÇEŞNİ** – Azərb. dekorativ-tətbiqi sənətində naxış və kompozisiya örnəyi. "Nəqşə" də adlanır. Dekorativ məmulatların bəzəkləri əvvəlcədən hazırlanmış Ç. əsasında işlənilir. Ç. rəssamlar, yaxud xalq sənətkarları tərəfindən kağız üzərində çəkilir, toxucular tərəfindən məmulata köçürülür. Ç.-də, adətən, kompozisiyanın bütün sxemi, bəzən yarısı, yaxud da dörddə biri, təkrar olunan ritmik naxış və kompozisiyanın isə bir qarışı (bir hissəsi) verilir.

Xalçaçılıqda naxış və kompozisiyaların Ç.-si ya bütövlükdə, ya da onun fraqmenti kiçik xalçalara (30×50 *sm*; 20×40 *sm*) köçürülüb toxunulur və bu üsulla da yayılır. Belə Ç. nümunələri "çeşni xalça" adlanır. Azərb.-nın görkəmli xalçaçı-rəssamları L. Kərimov və K. Əliyevin Ç.-ləri əsasında qiymətli xalçalar toxunmuşdur.

**ÇET** – RF-də, Tomsk vil. və Krasnoyarsk diyarında çay. Kiya çayının (Ob hövzəsi) sağ qolu. Uz. 432 *km*, hövzəsinin sah. 14,3 min $km^2$. Qərbi Sibir düzənliyinin c.-ş. kənarı ilə axır. Əsasən, qar suları ilə qidalanır. Mayda daşqınlar olur. Ortaillik su sərfi 66 $m^3$/*san*-dir. Oktyabrın sonu–noyabrın əvvəlindən aprelin sonu–mayın əvvəlinədək donmuş olur. Ağac axıdılır.

**ÇETLAS DAŞI** – RF-nin Komi Resp. və Arxangelsk vil.-ndə *Timan təpəliyinin* platoyabənzər q. tirəsi. Mezen və Pijma çayları arasındadır. Hünd. 471 *m*. Metamorfik şistlərdən ibarətdir. Qarışıq və iynəyarpaqlı meşələr; bataqlıqlar var.

**ÇETUMAL** (Çhetumal) – Meksikada şəhər. Kintana-Roo ştatının inz. m. Əh. 151,2 min (2010). Yukatan y-a-nın ş.-ində, Karib dənizi sahilində port. Avtomobil yolları qovşağı.

Meşə sənayesi (qiymətli tropik oduncaq növləri və çikle qatranının tədarükü) r-nu mərkəzidir. 1896 ildə salınmışdır. Ç. yaxınlığında hindi yaşayış məskəninin qalıqları saxlanılmışdır. Turizm inkişaf etmişdir.

**ÇETVERİKOV** Sergey Sergeyeviç (24.4.1880, Moskva – 2.7.1959, Qorki) – rus bioloqu. Moskva Un-tini bitirmişdir (1906). Ali Qadın kurslarının (Moskva, 1909–17), 2-ci Moskva Un-tinin (1917–19), 1-ci Moskva Un-tinin (1919–29) dosenti, Eksperimental Biologiya İn-tunda genetika şöbəsinin müdiri (Moskva, 1921–29), Qorki Un-tinin genetika kafedrasının müdiri (1935–48, 1938 ildən prof.) işləmişdir. Əsas əsərləri genetika, təkamül nəzəriyyəsi, entomologiya sahəsindədir. Mutasiyaların təbiətdə yaratdığı növlərin sıxlığı, genetik proseslərin əhəmiyyəti (mutasiyalar, sərbəst çarpazlaşdırma, seçmə) və növəmələgəlmədə və təkamüldə izolyasiya müddəalarını ilk dəfə irəli sürmüş, eyni zamanda təkamül genetikasının bünövrəsini qoyaraq Darvin təlimi ilə genetika arasında əlaqə (körpü) yaratmışdır. Təkamül təliminin inkişafına dair əsərlərinə görə Almaniyadakı (ADR) "Leopoldina" təbiətşünaslar akademiyası onu "Darvin planşeti" medalı (1959) ilə təltif etmişdir. "Şərəf nişanı" ordeni və medalları vardır.

**ÇEVİK PUL SİYASƏTİ** – faiz dərəcəsinin müəyyən səviyyədə saxlanılmasını nəzərdə tutur. Əgər pula olan tələbatın artması inflyasiya prosesləri ilə şərtlənərsə, bu zaman sərt monetar siyasətin aparılması üstün tutulur. Real dəyişənlərin dinamikasını pul tədavülü sürətinin gözlənilməz dəyişməsindən qorumaq lazım



Çeviot Hils dağları.

gəldikdə, faiz dərəcəsinin saxlanılması siyasəti məqbul görülür.

**ÇEVİK (ÜZƏN) VALYUTA MƏZƏNNƏSİ** – valyuta bazarında tələb və təklifin sərbəst tərəddüdü gedişində müəyyən edilən valyutanın mübadilə məzənnəsi.

Çevik valyuta məzənnəsi zamanı mübadilə məzənnəsinin qalxıb-enməsi məhdud deyildir. Buna görə də ixracatın və idxalatın həcminin dəyişməsini, həmçinin ticarət ödəmə balansını, cari hesabları əvvəlcədən müəyyənləşdirmək çətin olur. Bu isə iqtisadi situasiyanın bir qədər destabilləşməsinə səbəb ola bilər.

**ÇEVİK YADDAŞ** – dəyişən sayda verilənləri saxlayan yaddaş. Verilənlər qəbul edilən ardıcıllıqla xaric olunur, lakin xaricetmə (çıxış) sürəti dəyişdirilə bilər.

**ÇEVİOT HİLS** (Cheviot Hills), Ç e v i o t – B. Britaniyada alçaq dağlıq. Cənubi Şotlandiya yüksəkliyi ilə Pennin d-rı arasındadır. Hünd. 816 *m*-ədəkdir (Te-Çeviot d.). Qranitlərdən, vulkan tuflarından, əhəngdaşılarından, qumdaşılarından ibarətdir. Kolluqlar, çəmənliklər, torf bataqlıqları yayılmışdır. Qoyunçuluq inkişaf etmişdir.

**ÇEVİRGƏC** – 1) elektrik dövrəsinin kommutasiyası üçün elektrik aparatı. Sadə kontaktlı Ç.-ə kəsən açarı, daha universal Ç.-ə isə paket açarını misal göstərmək olar. Elektrik-güc qurğularında məsafədən və avtomatik idarəetmə sistemlərində Ç. kimi *elektrik açarı*, *kontroller*, *kontaktor*, əmr-kontroller və *reledən*; rabitə qurğularının zəif axınlı dövrələrində isə telefon və teleqraf kommutatorları, addımlı axtarıcılar və s.-dən istifadə olunur. Kontaktsız Ç.-lər (tranzistorlu, diodlu, tiristorlu və s.) geniş yayılmışdır. 2) TV kanalı Ç.-i – bax *Televiziya kanalı selektoru.*

**ÇEVİRİCİ** – bir kəmiyyəti başqa şəkilli və ya digər təbiətli kəmiyyətə çevirən cihaz (qurğu). Bax *Ölçmə çeviricisi, Funksional çevirici, Tezlik çeviricisi* və s.

**ÇEVİRİCİ KOTAN** – bax *Kotan.* –

**ÇEVİRİCİ QURĞU** – avtomatik idarəetmə və informasiyanın işlənməsi sistemində istifadə olunan qurğu; giriş siqnallarının bu və ya başqa fiziki təbiətli çıxış siqnallarına çevrilməsini (transformasiyasını) həyata keçirir. Çıxış siqnalları daxil olan informasiyanın işlənməsi, ölçülməsi və ya qeydiyyatını təmin edir. Bax *Deşifrator, Ölçmə çeviricisi.*

**ÇEVİRİCİ TEXNİKA** – *elektrotexnikanın* bölməsi; elektrik cərəyanının çevrilməsi (gərginliyə, tezliyə, fazaya və s. görə) üsulları və vasitələrinin, eləcə də müvafiq çevirici qurğular toplusunun işlənib hazırlanmasından bəhs edir. Ç.t. qurğuları dəyişən cərəyanı sabit və ya biristiqamətli döyünən cərəyana (*cərəyan düzləndiriciləri*), sabit, yaxud biristiqamətli döyünən cərəyanı dəyişən cərəyana (*invertorlar*), bir tezlikli dəyişən cərəyanı digər tezlikli dəyişən cərəyana (*tezlik çeviricisi*) çevirir, dəyişən cərəyanın fazalar sayını (faza bölücüləri), sabit və dəyişən cərəyanın qiymətini (sabit və dəyişən cərəyan tənzimləyiciləri və çeviriciləri) dəyişir. Kontaktsız kommutasiya-güc aparatları da Ç.t. qurğularına daxildir.

**ÇEVİRİCİ YARDIMÇI STANSİYA** – elektrik cərəyanını ventilli çeviricilər vasitəsilə, əsasən, tezliyə və fazalar sayına görə (məs., dəyişən cərəyanı sabit cərəyana, üçfazalı cərəyanı birfazalı cərəyana) çevirmək üçün elektrik stansiyası. Ç.y.s. elektrik nəql.-nı, elektrokimyəvi qurğuları, kontakt şəbəkələrini, induksiya və elektrik-qövs sobalarını və s. elektrik cərəyanı ilə təchiz etmək üçün quraşdırılır. Sabit cərəyanlı elektrikötürmə xətlərində Ç.y.s. xəttin başlanğıcında sənaye tezlikli üçfazalı cərəyanı sabit cərəyana (düzləndirici Ç.y.s.), xəttin sonunda isə əksinə (invertor Ç.y.s.-sı) çevirir.

**ÇEVİRMƏ** – hər hansı *X* çoxluğunun özünə *inikası*. Bəzən (xüsusilə, riyazi analiz və həndəsədə) hər hansı çoxluğu digər çoxluğa köçürən inikası da çevirmə adlandırırlar (məs., *Laplas çevirməsi, Furye çevirməsi* və s.).

Çoxluğun bütün Ç. külliyatı kompozisiya əməliyyatlarına nəzərən qapalıdır (yəni yarımqrup əmələ gətirir). Bütün tərs çevirmələr, yəni *X* çoxluğunun biyektiv çevirmələri qrup əmələ gətirir; ona *X* çoxluğunun *çevirmələr qrupu* deyilir.

**ÇEVİRMƏ**, h e s a b l a m a t e x n i k a s ı n d a – müəyyən bir çoxluğun özünə əks etdirilməsi; 1) sistematik üsulların tətbiqi əsasında cari proqramlardan onlara ekvivalent yeni proqramların (proqram Ç.-si) alınması; 2) riyazi analiz dilində yazılmış simvollu informasiyanın EHM-də çevrilməsi (analitik Ç.). Diferensiallama, inteqrallama, tənliklərin sadələşdirilməsi kimi məsələlərin həllində istifadə edilir; 3) bir tipin qiymətinin başqa tipin uyğun qiymətinə proqramda icra edilən aşkar (proqramçı tərəfindən əlavə edilmiş) və ya qeyri-aşkar (kompilyator tərəfindən əlavə edilmiş) çevrilməsi; 4) verilmiş obyektlər əsasında ekvivalent obyektlərin qurulması (ekvivalent Ç.). Ç. obyekti kimi alqoritmlər, ifadələr, proqramlar, modellər, sxemlər, kodlar, verilənlər ola bilər.

**ÇEVİRMƏLƏR QRUPU**, ə v ə z l ə m ə l ə r q r u p u – hər hansı çoxluğun bu çoxluqla birlikdə baxılan çevirmələr qrupu. Daha dəqiq, Ç.q. $(G, X)$ cütüdür, burada *G* qrup, *X* çoxluqdur. Ç.q. üçün $g\in G$ və $x\in X$ elementlərinə $gx\in X$ elementini qarşı qoyan və aşağıdakı şərtləri ödəyən $(g, x)\to gx$ əməliyyatı verilir:

1) $g(hx)=(gh)\,x$; $g, h\in G, x\in X$

2) $ex=x$, $x\in X$, $e$ – *G* qrupunun vahididir.

Əgər $(G, X)$ Ç.q. verilibsə, onda hər bir $g\in G$ elementi *X* çoxluğuna $t_g : x\mapsto gx$ inyektiv çevirməsini təyin edir. Belə ki, $t{:}g\mapsto t_g$ uyğunluğu, *G* qrupunun *X* çoxluğunun bütün biyektiv çevirmələr qrupu – $S(X)$ simmetrik qrupuna homomorfizmidir. Tərsinə, *G* qrupunun $S(X)$-ə homomorfizmi hər hansı $(G, X)$ Ç.q. əmələ gətirir. *t* – monomorfizmdirsə, Ç.q. e f f e k t i v Ç.q. adlanır. Bu halda, *G* qrupunu $S(X)$ qrupunun alt qrupu ilə eyniləşdirmək olar.

Abstrakt Ç.q. ilə yanaşı topoloji Ç.q.-na baxılır [bu halda, fərz edilir ki, *G* – topoloji qrup, *X* – topoloji fəzadır və $(g, x)\mapsto gx$ inikası kəsilməzdir]. Analoji olaraq Li çevirmələr qrupu və cəbri Ç.q. təyin edilir.




Ç.q. riyaziyyatın bir çox bölmələrində və onun tətbiqində mühüm rol oynayır. Qalua nəzəriyyəsi ilə bağlı olan qruplar nəzəriyyəsinin inkişafının birinci mərhələsində əvəzləmələr qrupu, yəni sonlu çoxluqların Ç.q. öyrənilmişdir. Diferensial tənliyin, bir sıra fiziki sistemlərin və s. öyrənilməsi zamanı Ç.q. – simmetriya qrupları meydana çıxır. Kifayət qədər geniş simmetriya qruplarının mövcudluğu məs., bəzi diferensial tənliklərin aşkar həllini qurmağa imkan verir. Ç.q. həndəsədə daha mühüm rol oynayır. Artıq Evklid planimetriyasında müstəvinin bütün hərəkətləri qrupu, paralel köçürmələr qrupu, verilmiş nöqtə ətrafında çevirmələr qrupu kimi Ç.q. meydana gəlmişdir. Müstəvi üzərindəki hər bir fiqurla onun simmetriya qrupu, yəni bu fiquru öz-özünə köçürən hərəkətlər qrupu əlaqəlidir. Əgər $t_g$ kimi $x\mapsto gx$ $(x\in G)$ sol yaxınlaşmasını götürsək, ixtiyari abstrakt *G* qrupu *G* çoxluğunda (effektiv) Ç.q.-na çevrilər.

**ÇEVRƏ** – bütün nöqtələri verilmiş nöqtədən (Ç.-nin mərkəzindən) bərabər məsafədə yerləşən qapalı müstəvi əyri; bu nöqtə əyri ilə eyni müstəvidə yerləşir. Çevrənin mərkəzini onun hər hansı nöqtəsi ilə birləşdirən parçaya Ç.-nin radiusu (*R*) deyilir (şəkil 1).

Çevrənin istənilən iki nöqtəsini birləşdirən parçaya v ə t ə r deyilir (şəkil 2). Mərkəzdən keçən vətər d i a m e t r adlanır. Diametr – ən uzun vətərdir; vətərin ortasından keçən diametr ona perpendikulyar olur.

Ç. üzərində olan nöqtədən çevrəyə yalnız bir toxunan çəkmək olar, bu toxunan həmin nöqtədən keçən radiusa perpendikulyardır (şəkil 3). Ç.-nin xaricində olan *M* nöqtəsindən çevrəyə toxunan və kəsən çəkilmişdirsə, onda toxunanın kvadratı kəsənin öz xarici hissəsinə hasilinə bərabərdir (şəkil 4).

Ç.-nin uz.-nun onun diametrinə nisbəti bütün çevrələr üçün sabit kəmiyyətdir; bu nisbət transsendent ədəddir, yunan hərfi π ($\pi$=3,14159...) ilə işarə edilir (bax *Pi*). Çevrənin uzunluğu $l=2\pi R$ düsturu ilə təyin olunur. Müstəvinin Ç. ilə əhatə olunan və mərkəzi Ç.-nin mərkəzi ilə üst-üstə düşən hissəsi *dairə* adlanır. Analitik həndəsə nöqteyi-nəzərindən Ç. düzbucaqlı koordinat siste- mində

$$(x-a)^2+(y-b)^2=R^2$$

şəklində tənliklə təyin olunan ikinci tərtib mərkəzi xətdir. Burada *a*, *b* Ç.-nin mərkəzinin koordinatlarıdır.

**ÇEYENLƏR** (siu dilində "özgə dil adamları"), d z i - t s i s - t a s ("bizim adamlar"; özlərini belə adlandırırlar) – ABŞ-da alqonkinlər qrupundan hindi xalq. Şimali və cənubi Ç.-ə bölünürlər. Sayları təqr. 12,5 min nəfərdir. Dilləri alqonkin-mosan dil ailəsinə aiddir; ingilis dili tərəfindən sıxışdırılır. Dindarları xristiandır.

Avropalılarla əlaqələr 17 əsrin sonlarına təsadüf edir. O zaman Ç. indiki Minnesota ştatının ərazisində yaşayırdılar. Məşğuliyyətləri əkinçilik, ovçuluq, balıqçılıq, yabanı çəltik yığımı idi. 19 əsrin əvvəllərində dakotalar tərəfindən Plat çayının yuxarı axarlarına (indiki Nebraska ştatı) sıxışdırılan Ç. bizon və antilop (qəzal) ovuna atla çıxmağa başlamışlar. 1820-ci illərin axırlarında Ç.-in bir hissəsi Arkanzas çayı boyunda (indiki Kolorado ştatının c.-u) məskunlaşaraq cənubi Ç.-in əsasını təşkil etmişdi. Qalanlar isə şimali Ç. qrupunu yaratmışdılar. Ənənəvi mədəniyyətləri, əsasən, Böyük düzənliklər hindiləri üçün səciyyəvidir. Böyük ailə, qohumluğun iki tərəfdən hesablanması, matrilokal nikah, məhdud poliginiya mövcud idi. Tayfanı 44 başçıdan ibarət seçkili şura idarə edirdi. Özünəməxsus mərasimlər keçirilirdi. ABŞ-la müqavilə münasibətləri 1825 ildən başlanır. 1867–75 illərdə cənubi Ç. və arapaxolar zorla indiki Oklahoma ştatı ərazisindəki rezervasiyaya köçürülmüşdülər. Şimali Ç. uzun mübarizədən sonra 1880-ci illərdə Montana ştatındakı rezervasiyada məskunlaşmışlar. Tayfa torpaq sahibliyi 1890 ildə ləvğ edilmişdir. 1937 ildə məhdud özünüidarəetmə bərpa olunmuşdur. İndiki Ç.-lər güclü metisləşməyə məruz qalmışlar. Muzdla işləyirlər.

**ÇEYİLAXTARMA** – Azərb. Resp.-nda palçıq vulkanı. Qobustanda, Umbakı neft yatağından 6–7,5 *km* şm. və şm.-ş.-dədir. Uz. 3 *km*, eni 0,7 *km* olan bəndşəkilli alçaq yüksəklikdən ibarətdir. Vulkanın yamacları radial istiqamətdə ayrılan çoxlu dərin yarğanlarla doğranmışdır. Sopka, qrifon və salzların paylanmasına görə vulkan şərq, şimal və qərb qruplarına bölünür. Tektonik cəhətdən Ç. eyniadlı strukturun tağında



Çeyenlər.
1909 il.



Çeyilaxtarma vulkanı.

uzununa pozulmaya uyğun gəlir. Vulkan ərazisində 275-ədək sopka, qrifon və salz var; bunların təqr. yarısı fəaliyyətdədir – su, qaz və palçıq ayırır, 30–35-ndə neft təbəqəsi müşahidə olunur. Sopka brekçiyasının yayıldığı sahə təqr. 700 *ha*-dır.

**ÇEYİLAXTARMA STRUKTURU** – Azərb. Resp. Qobustan r-nu ərazisində, Şamaxı-Qobustan neftli-qazlı r-nunda, Umbakı neft yatağından 12 *km* şm.-da yerləşir. Sahədə 1953–54 illərdə strukturaxtarış qazma işləri aparılmış, qırışığın geol. quruluşu 500–1200 *m*-yə qədər (Maykop) öyrənilmişdir. Qırışıq tağ hissədən uzununa keçən qırılma və Çeyilaxtarma palçıq vulkanı ilə mürəkkəbləşmiş braxiantiklinal quruluşa malikdir. Şm. qanadda layların yatım bucağı 60–70°, c. qanadda 35–40°-dir. Strukturun ölçüləri 12x4 *km*, hünd. 700–800 *m*-dir; neft-qazlılıq perspektivliyi Üst Tabaşir və Üst Maykop çöküntüləri ilə əlaqələndirilir.

**ÇEYİLDAĞ**, U m b a k ı – Azərb. Resp. Qaradağ r-nunda (Bakı ş.) qəs. Çeyildağ ə.d.-nin mərkəzi. R-n mərkəzindən 48 *km* c.-q.-də, Ələt tirəsinin şm.-ş. yamacındadır. Əh. 1139 (2011). Ümumi orta məktəb, kitabxana, mədəniyyət evi, Respublika Cüzəm xəstəxanası, tibb məntəqəsi, poçt, ATS var.

**ÇEYİLDAĞ** – Azərb. Resp.-nda palçıq vulkanı. Ceyrankeçməz depressiyasının q.-ində, Umbakı neft yatağından 4–4,5 *km* şm.-dadır. En istiqamətində Çeyildağ qəs.-ndən Zəyirdağadək hündür bənd şəklində uzanır. Bəndin yamacları çoxlu xırda və iri yarğanlarla doğranmışdır. Sopka, qrifon və salzların paylanmasına görə Ç. palçıq vulkanı 4 qrupa bölünür. Tektonik cəhətdən eyniadlı antiklinalın tağ hissəsinə uyğun gəlir. Sopka, qrifon və salzlar vulkanın qədim krateri hüdudlarında yerləşmişdir. Onların, demək olar ki, hamısı qaz və neft (pərdə şəklində) ayırır. Sopka brekçiyasının yayıldığı sahə 1349 *ha*-dır. Ən güclü püskürmələrindən biri 1870 ildə olmuşdur.

Çeyildağ vulkanı.



**ÇEYN** (Chain) Ernst Boris (19.6.1906, Berlin – 12.8.1979, Malreni, Meyo) – ingilis biokimyaçısı, Nobel mükafatı laureatı (1945, A. *Fleminq* və X.U. *Flori* ilə birgə). London Kral Cəmiyyətinin üzvü (1949), SSRİ EA-nın əcnəbi üzvü (1976). Berlin Un-tini bitirmişdir (1930). 1933 ildə B.Britaniyaya mühacirət etmiş, Kembricdəki Biokimya İn-tunda (1933–35), Oksford Un-tində (1935–48) işləmişdir. 1948 ildən Romada Beynəlxalq Kimyəvi Mikrobiologiya Mərkəzinin direktoru, 1950–61 illərdə orada biokimya prof.-u və elmi direktor olmuşdur. London Un-tində işləmişdir (1961 ildən). Əsərləri antibakterial mikroblu maddələrə, insulinin təsir mexanizminə, mikrobioloji istehsalın texnologiyasına, lizergin turşusunun əmələ gəlməsinə, göbələk metabolitlərinə həsr edilmişdir. 1939 ildə *penisillinin* ayrılması və təmizlənməsi üzrə rəhbərlik etdiyi işlərin nəticəsində penisillinin duzu kristal halında alınmışdır; penisillinin kimyəvi quruluşunu təyin etmişdir.



**ÇEZALPİNO**, S e z a l p i n (Cesalpino, Caesalpinus) Andrea (6.6.1519, Aresso – 23.2.1603, Roma) – təbabət sahəsində italyan alimi, təbiətşünas və filosof. Piza (1555) və Roma (1592) Un-tlərinin prof.-u. Qan dövranının öyrənilməsində U. *Harveyin* sələfi; böyük qan dövranını ilk dəfə təsvir etmişdir. Bitki morfologiyasının əsasını qoymuş (orqanların homologiyası və metamorfozuna dair anlayışları qabaqcadan bilmişdir), botanikanın inkişafına böyük təsir göstərmiş, başlıca olaraq, toxumların, çiçəklərin və meyvələrin quruluşuna əsaslanan (ağac və kolları 2, yarımkol və otları 12, toxumsuz bitkiləri 1 sinfə aid etmişdir) bitkilər aləminin ilk sistemini təklif etmişdir. Ç.-nun təbii-fəlsəfi baxışları Aristotelin təliminə əsaslanırdı.





**ÇEZENA** (Cesena) – Şimali İtaliyada, Emiliya-Romanya vil.-nin Forli-Çezena əyalətində şəhər. Əh. 97,5 min (2011). Qədim Emiliya yolunun üzərində, Adriatik dənizi yaxınlığındadır. D.y. st.

Maşınqayırma, ağac emalı sənayesi, tikinti materialları istehsalı, meyvə və tərəvəz emalı inkişaf etmişdir.

**ÇEZİ "MƏRTƏBƏSİ"** – Orta Ordovikin alt bölgüsü; bəzən yarımşöbə hesab edilir. 1842 ildə Şimali Amerikada (Nyu-York ştatı, Çezi k.) Emmons tərəfindən ayrılmışdır. Avropanın Llanvirn və bəlkə də Llandeyl yarımşöbələrinə uyğun gəlir.

**ÇƏBRİ STRUKTURU** – Azərb. Resp. Beyləqan r-nu ərazisində, Yevlax-Ağcabədi çökəkliyi neftli-qazlı r-nunda yerləşir. Struktur 1983 ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilmişdir; Üst Tabaşir çöküntülərinin səthinə görə en istiqamətində uzanan braxiantiklinaldan ibarətdir. Strukturun tağ hissəsi 800 *m*-lik izoxətlə hüdudlanır və bu çərçivədə onun ölçüləri 1,8x1,2 *km*, amplitudası 100 *m*-dir. Layların yatım bucağı 8–11°-dir. Strukturun geol. kəsilişində Üst Tabaşir, Eosen və Maykop çöküntüləri iştirak edir; neft-qazlılıq perspektivliyi Üst Tabaşir (vulkanogen-karbonat) və Orta Eosen (karbonat-terrigen) çöküntüləri ilə əlaqələndirilir.

**ÇƏCİK** – qadın bəzək əşyası, boğazaltı. Naxçıvan bölgəsində geniş yayılmışdır. Ç., əsasən, qızıldan hazırlanır. Formasına görə böyük və kiçik Ç. olur. Müxtəlif formalı boğazaltının aşağı hissəsindən üzərində qiymətli daşlar olan ətəklər, ondan sonra isə ay-ulduz-yarpaq formalı bəzəklər asılır. Naxçıvan bölgəsinin bəzi k.-lərində "çənbərə" adlanır. 19 əsr Naxçıvan zərgərlərinin hazırladıqları qiymətli Ç. nümunələri bir çox muzeydə saxlanılır.



Çəcik. Naxçıvan. 19 əsr.
Milli Azərb. Tarixi Muzeyi.

**ÇƏÇİNİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsində, Səriskənd qəs.-ndən 9 *km* c.-dadır.

**ÇƏHRAYILI LEPİOTA** (Lepiota brunneo-incarnata) – aqarikallar sırasından göbələk növü. Papaqcığı qəhvəyidir; kənarlara doğru parçalanır. Əsası çəhrayı pulcuqlar əmələ gətirir. Lövhəcikləri ağ, ayaqcığı qısadır. Şampinyona bənzəyir. Xoş ətirli və çox zəhərlidir. Tək-tək, yaxud qruplarla bitir. Ç.l. səhvən yeyildikdə ağır, çox vaxt isə ölümlə nəticələnən zəhərlənmələr verir. Azərb.-da meşə kənarında bitir.



Çəhrayılı lepiota (Lepiota brunneo-incarnata).

**ÇƏHRAYI SIĞIRÇIN** – bax *Murad quşu*.

**ÇƏKÇƏKİLƏR** (Saxicola) – sərçəkimilər dəstəsinin qaratoyuqlar fəsiləsindən quş cinsi. Bədəninin uz. 12,5–20 *sm*-dir. Dimdiyi enlidir. Avropa, Afrika və Asiyada 10 növü məlumdur. Azərb.-da 2 növü: çəmən Ç.-i (S. ruberta) və qarabaş Ç.-i (S. torquata) kolluq və çəmənlərdə, meşə bataqlıqları və talalarda yayılmışdır. Cücülərlə qidalanır. 4–7 yaşılımtıl-mavi yumurta qoyur. Təkcə dişisi, yaxud da hər iki cinsi kürt yatır. Yuvalarını yerdə, kolların altında, bəzən tikililərin deşikləri arasında qurur. Köçəridir.



Çəmən çəkçəkisi (Saxicola rubetra).

**ÇƏKƏN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 30 *km* q.-dədir.

**ÇƏKİ** – cismin, onun sərbəst düşməsinə mane olan dayağa (asqıya) göstərdiyi təsir qüvvəsi. Cism və dayaq (asqı) Yerə (planetə) nisbətən tərpənməz, yaxud düzxətli və bərabərsürətli hərəkətdə olarsa, cismin $P$ çəkisi *mg ağırlıq qüvvəsinə* bərabərdir, burada $m$ – cismin kütləsi, $g$ – sərbəstdüşmə təcilidir. Bu zaman nəzərdə tutulur ki, cismə başqa fiziki təbiətli qüvvələr (maqnit təbiətli qüvvələr, Arximed qüvvəsi və s.) təsir etmir. Cism və dayaq (asqı) $g$ vektorunun əksi istiqamətində yönəlmiş hər hansı bir $w$ təcili ilə hərəkət etdikdə Ç. $P=m(g-w)$. Xüsusi halda, $w=g$ olduqda cismin Ç.-si sıfıra bərabər olur və çəkisizlik halı başlayır.

Cismin Ç.-si yaylı və ya tenzometrik tərəzilərin köməyi ilə ölçülür. SI-də Ç.-nin ölçü vahidi Nyutondur (N).

**ÇƏKİ** (Cyprinus carpio) – çəkiyəbənzərlər dəstəsinin çəkikimilər fəsiləsindən balıq növü. Uz. 1 *m*-ədək, kütləsi 12 *kq*-adək olur. Aralıq dənizi, Qara dəniz, Xəzər və Aral dənizlərinin hövzələrində, İssık-Kul gölündə, Sakit okean hövzəsinin qərb hissəsindəki çaylarda və Şərqi Asiya çaylarında yaşayır. Daim şirin sularda yaşayanlar həmin su tutarlarında, yarımkeçici formalar isə dənizlərdə və göllərdə yaşayır, kürüləmək üçün çay ağızlarına miqrasiya edir. 2–3 yaşında cinsi yetişkənliyə çatır. 1,5 mln.-a yaxın kürü tökür. Kürüləmə apreldən iyula qədər hissə-hissə davam edir. Şirin və şortəhər sularda, sahil zonasındakı yumşaq bitkilər arasında, suyun temp-u 12–20°C olduqda kürüləyir. Kürü dənələri su bitkilərinə yapışır. Ç. onurğasız heyvanlarla və bitkilərlə qidalanır. Qiymətli vətəgə balığıdır. Ç.-nin mədəni forması *karp* seleksiya yolu ilə alınmışdır.

**ÇƏKİ ANALİZİ** – bax *Qravimetrik analiz*.

**ÇƏKİ İNDİKATORU**, y ü k i n d i k a t o r u – qazıma qurğusunun qarmağındakı yükü ölçmək və süxurdağıdan alətə düşən oxboyu yükləri təyin etmək üçün cihaz. Ç.i. tal kanatının tərpənməz qolunda (və ya onu bərkitmək üçün mexanizmdə) yerləşdirilən ilkin çeviricidən (yük vericisi), ölçülən kəmiyyəti əks etdirən və qeyd edən cihazlardan və rabitə xətlərindən (vericinin siqnalını cihazlara ötürür) ibarətdir.

**ÇƏKİB-QABLAŞDIRMA AVTOMATI** – səpələnən və ya xırda ədədi malları avtomatik çəkib, paket və s.-də qablaşdırmaq üçün maşın. Ç.-q.a.-nın əsas hissəsi dozalayıcı quruluşdur. Bu quruluş materialı kütlə, həcm və ya miqdarına (ədədi qablaşdırmada) görə porsiyalara ayırır. Ölçülmüş doza hazır paketə (polimer, plyonka, kağız və s. materiallardan) və ya qutuya tökülür, sonra bükülür, yaxud yapışdırılır. Ç.-q.a.-ndan yeyinti sənayesində qənnadı məmulatı, qənd, duz, ədviyyat və s.-ni çəkib qablaşdırmaq üçün istifadə edilir.

**ÇƏKİC**, maşınqayırmada – 1) metal pəstahları təzyiqlə (enən hissəsinin zərbələri ilə) emal edən maşın. Döymə və həcmi, yaxud təbəqə *ştamplama* Ç.-ləri var. İntiqalının növünə görə buxar-hava (su buxarı və ya sıxılmış hava ilə hərəkətə gətirilir), pnevmatik (işlək və kompressor porşenləri arasındakı havanın sıxılması və genişlənməsi hesabına işləyir), mexaniki (mütəhərrik hissələri mühərriklə mexaniki bağlanır), hidravlik (yüksək təzyiqli maye ilə hərəkətə gətirilir) və s. Ç.-lər mövcuddur. İş üsuluna görə Ç. sadə (düşən Ç.) və düşən (enən) hissəsi əlavə olaraq sürətləndirilən ikiqat təsirli növlərə ayrılır. Zərbəendirən hissələrdən (porşen, pistonqolu və toxmaq), ağır əsasdan – şabotdan (polad tökmə), çatı, intiqal və idarəetmə mexanizmindən ibarətdir. Kinematik birləşmiş 2 toxmaqdan ibarət şabotsuz Ç. də tətbiq edilir. Toxmaqlar qarşı-qarşıya eyni sürətlə hərəkət etdiyindən bünövrəyə zərbə enerjisi ötürülmür. 2) döymə metallar üçün başlıqdan və dəstəkdən ibarət əl aləti. Adətən, Ç. karbonlu (0,4–0,6% C) poladdan düzəldilir. Başlığının hər iki tərəfi (döyəc hissəsi) tablanır. Bir çox Ç. konstruksiyaları məlumdur.




**Əsas çəkic tiplərinin prinsipial sxemi:**
*a* – buxar-hava; *b* – pnevmatik; *c* – mexaniki; *ç* – hidravlik çəkiclər.

**ÇƏKİCBAŞ** (Sphyrna), çəkic balıq – çəkicbaşkimi akulalar fəsiləsinin yeganə cinsi. Başı çəkicə oxşayır (adı buradandır); gözləri başın iri yan çıxıntılarının ucunda yerləşir; uz. 6 *m*-ə, kütləsi 600 *kq*-a qədərdir. 10-a qədər növü məlumdur; okeanların ılıq sularında yaşayır, 1 növünə Yapon dənizində rast gəlinir. Ç. diridoğandır; 40-adək diri bala doğur. Əsasən, dib balıqları və onurğasızlarla qidalanır. İri fərdləri insan üçün təhlükəlidir. Vətəgə əhəmiyyəti azdır.

**ÇƏKİDİŞKİMİLƏR** (Cyprinodontiformes) – sümüklü balıqlar dəstəsi. Oliqosendən məlumdur. Zahirən *çəkikimilərə* bənzəyir. Bədəninin uz. 10–15 *sm*, ön hissədən silindrvarı, arxa tərəfdə yanlardan basıqdır. Pulcuqları tsikloidşəkillidir. Yan xətti yoxdur. Başının yuxarı ön hissəsi, adətən, basıqdır. Balaca, hərəkətli ağzı burnunun ucuna yaxın yerləşir. Dişləri çənələrdə, bel üzgəci anal üzgəcin üstündə yerləşir. Üzmə qovuğu qapalıdır. Müasir təsnifata görə Ç.-ə 4–5 fəsilə, təqr. 100 cins və 630-a qədər növ aiddir. Afrika, Cənubi Avropa, Cənub-Şərqi Asiyanın tropik və subtropik su hövzələrində yayılmışdır; əksər növləri şirinsu balıqlarıdır, bəziləri dənizin sahilyanı ərazilərinə keçir. Xırda onurğasızlar, digər balıqların kürüsü, bəzən xırda balıqlarla qidalanır. Ç. arasında qambuziyalar, dördgözkimilər və ceninsilər (Jenynsiidae, 4 növ) fəsiləsinə aid diridoğan formaları var. Onların anal üzgəcinin ön şüaları cütləşmə orqanına (qonopodi) çevrilib. Ç.-in ən böyük fəsiləsi olan çəkidişlilər (Cyprinodontidae, 30-dan çox cins, 250 növ; dəstənin tutduğu areal qədər ərazi tutur) kürü tökməklə çoxalır. Bu fəsiləyə çox vaxt aproxeylər fəsiləsi də (Aplocheilidae) daxil edilir. Ç. kürünü çoxlu çıxıntısı olan iri kürücüklərin yapışdığı bitkinin üzərinə tökür. Kürünü qorumaq üçün yuva qurur və ya onu quma və lilə basdırır (məs., quruyan su hövzələrinin sakinləri sinolebiyalar, pterolebiyalar, raxoviyalar, notobranxlar və afiosemionlar; hövzə quruyandan sonra törədicilər məhv olur, kürü, növbəti yağış mövsümünə qədər qruntda qalır). Ç. akvariumda yetişdirmək (*quppi*, pesiliya, *qılınclı*, qara qambuziyalar, qirardinuslar, afanilər, funduluslar, çəkidiş və b.) və laboratoriya tədqiqatları (həmçinin quppi) üçün obyektdir. Kiçik su hövzələrində yaşayan diridoğan qambuziyalar malyariya ağcaqanadlarının sürfələrini effektiv məhv edir. 48 növü BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

Çəkicbaş (Sphyrna).



**ÇƏKİKİMİLƏR** (Cyprinidae) – çəkiyəbənzərlər balıq dəstəsinin fəsiləsi. Hərəkətli ağzı çənəarası sümüklərlə haşiyələnmişdir. Dişləri (1–3 sıra) yalnız udlaq sümükləri üzərindədir. Bel üzgəcində 1 iti şüa var. Üzmə qovuğu 2–3 kameralıdır. Təqr. 280 cinsi, 1500-dən çox növü var. Ç. nisbətən istisevəndir, əsasən, Afrika (Madaqaskardan başqa), Avrasiya və Şimali Amerikanın şirin sularında yayılmışdır. Qütb dairəsindən şm.-da 10-a qədər növünə, Avstraliyada və Cənubi Amerikada isə yalnız süni yetişdirilən növlərinə rast gəlinir. Fitoplankton və zooplanktonla, bentos və detritlə, su bitkiləri ilə qidalanırlar; bəziləri yırtıcıdır. Kürünü bitkilərin, daşların, qumun üzərinə, mollyuskların çanağına (kərgələr), su qatlarına (qılıncbalıq) tökürlər; bəzi növləri, o cümlədən kampostomlar (Campostoma), rinixtlər (Rhinichthys) kürünü və hətta körpə balıqları qoruyurlar. Ç.-in bir çox növləri vətəgə (külmə, çapaq, çəki, şamayi, qarasol, qızılüzgəc və s.), akvakultura və akklimatizasiya (həmçinin çəki, dabanbalıq, ağ amur, qalınalın) obyektidir. Əlvan rəngli tropik növləri: bığlılar, puntiuslar, *danio*, harrılar və *dabanbalığın* müxtəlif formaları akvariumda yetişdirilir. BTMİ-nin "Qırmızı kitab"ına 150-yədək növü daxil edilmişdir.

**ÇƏKİSİZLİK** – ağırlıq qüvvəsinin təsiri altında, ağırlıq qüvvəsi sahəsində hərəkət edən cismin hissəciklərinin qarşılıqlı olaraq bir-birinə təzyiq etmədiyi hal. Cism Yerin ağırlıq sahəsində üfüqi müstəvi üzərində sükunət vəziyyətində olduqda, ona *ağırlıq qüvvəsi* və müstəvinin əks istiqamətə yönəlmiş reaksiya qüvvəsi təsir edir ki, bunun da nəticəsində cismin hissəcikləri qarşılıqlı bir-birinə təzyiq edir. İnsan orqanizmi belə təzyiqi ("çəkini") hiss edir. Analoji hal liftdə olan cismin şaquli olaraq yuxarıdan aşağıya $a \neq g$ ($g$ – sərbəstdüşmə təcilidir) təcili ilə düşməsi zamanı baş verir. $a=g$ olduqda








**Çəkikimilər:** *1* – çöprə (Misgurnus fossilis); *2* – ağ amur (Ctenopharyngodon idella); *3* – enlibaş (Leuciscus cephalus); *4* – kərgə (Rhodeus sericeus amarus); *5* – xəşəm (Aspius aspius); *6* – qızılı dabanbalıq (Carassius carassius); *7* – gümüşü dabanbalıq (Carassius auratus gibelio); *8* – qızılüzgəc (Scardinius erythrophthalmus); *9* – çapaq (Abramis brama); *10* – lilbalığı (Tinca tinca); *11* – marinka (Schizothorax intermedius); *12* – qumlaqçı (Gobio gobio); *13* – külmə (Rutilus rutilus); *14* – katla (Catla catla); *15* – Brandt qızılüzgəci (Tribolodon brandti) nikah bəzəyində; *16* – qarasol (Vimba vimba); *17* – altağız (Chondrostoma nasus); *18* – çəki (Cyprinus carpio); *19* – ağ qalınalın (Hypophthalmichthys molitrix); *20* – gümüşcə (Alburnus alburnus); *21* – Aral şirbiti (Barbus brachycephalus); *22* – qılıncbalıq (Pelecus cultratus); *23* – katostom (Catostomus catostomus).

isə cism (onun bütün hissəcikləri) və lift sərbəst düşür və qarşılıqlı olaraq bir-birinə heç bir təzyiq göstərmir, yəni Ç. baş verir. Bu halda Ç. halında olan cismin bütün hissəciklərinə ağırlıq qüvvələri təsir edir, lakin cismin səthinə xarici qüvvə (məs., dayaq reaksiyası) təsir etmədiyindən hissəciklərin bir-birinə qarşılıqlı təzyiqi yaranmır. Oxşar hallar YSP-də (və ya kosmik gəmidə) yerləşmiş cismlər üçün də müşahidə olunur. Bu cismlər və onları təşkil edən bütün zərrəciklər peyklə birlikdə müvafiq başlanğıc sürət alaraq ağırlıq qüvvəsinin təsiri altında öz orbitləri üzrə eyni bir təcillə (sərbəstdüşmə təcili kimi) hərəkət edir və bir-birinə təzyiq etmir, yəni Ç. halında olur.

Ümumiyyətlə, xarici qüvvələrin təsiri altında cism: *a*) yalnız kütləvi xarici qüvvələr (ağırlıq qüvvəsi) təsir etdikdə; *b*) bu kütləvi qüvvələrin sahəsi lokal bircins olduqda, yəni sahə qüvvəsi cismin bütün zərrəciklərinə onun hər bir vəziyyətində qiymət və istiqamətcə eyni təcil verdikdə; *c*) cismin bütün zərrəciklərinin başlanğıc sürəti qiymət və istiqamətcə eyni olduqda, (cism irəliləmə hərəkəti edir) Ç. halında olur. Beləliklə, Yerin radiusu ilə müqayisədə çox kiçik ölçüyə malik olan istənilən cism Yerin cazibə sahəsində başqa xarici qüvvələr iştirak etmədikdə, sərbəst irəliləmə hərəkəti edərkən Ç. halında olur. İstənilən digər göy cismlərinin də cazibə sahəsində hərəkəti zamanı həmin hal baş verir.

Ç. şərtlərinin YSP aqreqatlarının və cihazlarının, kosmik gəmilərin və raketdaşıyıcıların hazırlandığı Yer şəraitindən xeyli dərəcədə fərqlənməsi səbəbindən kosmonavtikanın digər problemləri arasında Ç. problemi mühüm yer tutur.

İnsan məskunlaşmış kosmik gəmilərin uçuşu zamanı Ç. şəraitinin xüsusiyyətlərini nəzərə almaq olduqca vacibdir. Ç. halında insanın həyat şəraiti adi yer şəraitindən kəskin surətdə fərqlənir ki, bu da onun bir sıra həyat funksiyalarının dəyişikliklərinə səbəb olur. Ona görə də insanın orbital (yerətrafı) və ya planetlərarası stansiyalarda uzunmüddətli uçuşu zamanı süni "ağırlıq" yaratmaq nəzərdə tutulur. Bunu, məs., işçi otağını stansiyanın mərkəzi hissəsi ətrafında fırlanan (yəni irəliləmə hərəkəti etməyən) kabinələrdə yerləşdirməklə əldə etmək olar. Bu fırlanma nəticəsində kabinədəki cismlər onun "döşəmə" rolunu oynayan yan səthinə sıxılacaq, cismlərin səthinə təsir edən "döşəmənin" reaksiyası isə süni "ağırlıq" yaradacaq.

**ÇƏKİYƏBƏNZƏRLƏR** (Cypriniformes) – sümüklü balıqlar dəstəsi. Üçüncü dövrdən məlumdur. Zahirən Ç.-in nümayəndələri siyənəklərə oxşayır, lakin onlardan Veber aparatının, bərk qidanı xırdalamaq və üyütmək üçün güclü çey-

nəmə aparatının (udlaq sümüklərində yerləşən dişlərdən və kirkirə daşından ibarətdir) olması, çənələrdə isə dişlərin olmaması ilə fərqlənir. Bədəni pulcuqlarla örtülü və ya çılpaqdır. Ağzı adətən hərəkətlidir, çox vaxt bığcıqları olur. Bir bel üzgəci var; qarın üzgəcləri qarnın ortasında yerləşir. Üzmə qovuğu 2 və daha çox hissədən ibarət olub, bağırsaqla birləşmişdir. Balitorikimilər (Balitoridae), ilişkənlər (Cobitidae), qarnıdəriqatlaqlar (Gastromyzonidae), sormacalılar (Gyrinocheilidae), *çəkikimilər*, (Cyprinidae), yastıüzgəclər (Homalopterudae), psilorinxlər (Psilorhynchidae) və katasomlar (Catastomidae) fəsilələrindən təqr. 2000 növü məlumdur. Xarasinkimilər və himnotokimilərin dəstələri əvvələr yarımdəstələr kimi Ç.-ə aid edilirdi. Şirin sularda yayılmışlar (əsasən, Avrasiya, Afrika və Şimali Amerikanın tropik və subtropik vilayətlərində); yalnız bəzi növləri keçicidir və dənizlərdə rast gəlinir. Ç.-in xarici görünüşü, həyat tərzi, qidalanması, çoxalması və davranışı böyük müxtəlifliyi ilə seçilir. Bir çox Ç. vətəgə və idman ovu obyektidir, nohur və akvariumlarda yetişdirilir. 173 növü BTMİnin "Qırmızı kitab"ına daxil edilmişdir.

**ÇƏKMƏ SOBASI**, u z a t m a s o b a s ı – metal zolaqların və ya məftillərin termiki, yaxud kimyəvi-termiki emalı üçün soba; zolaq və ya məftillər dayaq diyircəkləri ilə, yaxud qaz yastığında işçi fəzadan keçirilərək fasiləsiz olaraq uzadılır (çəkilir). Təyinatına görə tablama, normallaşdırma, tabalama, tabəksiltmə və s. üçün sobalara, quruluşuna görə üfüqi (bir və çoxmərtəbəli) və şaquli (qülləli soba) Ç.s.-na ayrılır. Zolaq bir (birsıralı Ç.s.) və ya bir neçə (çoxsıralı Ç.s.) keçidlə uzadılır.

**ÇƏLƏBİ** Asəf Halət (27.12.1907, İstanbul – 15.10.1958, İstanbul) – türk şairi, yazıçı. Qalatasaray liseyində oxumuş, atasından fransız və fars dillərini öyrənmiş, dövrün məşhur musiqişünaslarından musiqi dərsləri almışdır. Təhsilini tamamlamaq üçün Fransaya getmişdir. Qayıtdıqdan sonra bir müddət Üsküdar məhkəməsində katib olmuşdur. Uzun müddət İstanbul un-ti kitabxanasında işləmişdir. Yaradıcılığa klassik divan şeiri üslubunda rübai və qəzəllər yazmaqla başlamışdır. 1939 ildən yeni üslubda yazdığı şeirlərində mistisizm divan şeiri estetikası ilə birləşmişdir. Bir neçə şeir kitabının müəllifidir.

**ÇƏLƏBİ** Həsən (d.1937, Ərzurumun Oltu ilçəsinin İnci k.) – türk xəttatı və din xadimi. Xəttat H. Özyazıcı (nəsx), H. Aytaç (süls və nəsx) və K. Batanaydan (təliq və rüqə) xəttatlıq dərsləri almışdır. İlk sərgisi İstanbulda (1982), daha sonra Kuala-Lumpur (Malayziya, 1984) və Əmmanda (İordaniya, 1985) keçirilmişdir. 1976 ildən xəttatlıqdan dərs deyir. Müxtəlif ölkələrdə xəttatlıq üzrə keçirilən beynəlxalq yarışların münsiflər heyətində təmsil olunur. Türkiyədə və xaricdə bir çox məscid və türbələrin kitabələrini yazmış, bir sıra dövlət xadiminin şəxsi kolleksiyası üçün tuğralar hazırlamışdır. Ç.-nin ən məşhur işləri: Sultan Əhməd (uz. təqr. 7 *km*, 1974), Hırka-i Şərif və Bəyazid məscidlərinin qübbə və köşə yazıları, Məscidi Nəbəvidəki yazıların bərpası (1983–84), Qibləteyn məscidinin (Səudiyyə Ərəbistanı) yeni tikililərinin dekorativ yazıları (1986–87), İslam Tibb Mərkəzinin (Küveyt, 1986), Fateh məscidinin (Almaniya, 1991), Yohannesburq (CAR, 1997), Almatı (Qazaxıstan, 1999) və Kul Şərif (Kazan, Tatarıstan, 2005) cümə məscidlərinin qübbə və çevrə yazıları və s.

**ÇƏLƏBİ XAN** (?–1755) – Şəki xanı. Bax *Hacı Çələbi xan*.

**ÇƏLƏBİXAN QƏSƏBƏSİ** – Azərb. Resp. Şəki r-nunun Daşüz ə.d.-ndə qəsəbə. R-n mərkəzindən 16 *km* c.-q.-də, dağ ətəyindədir. Əh. 290 (2011); maldarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana var.

**ÇƏLƏBİLƏR** – Azərb. Resp. Bərdə r-nunda kənd. Çələbilər ə.d-nin (Çələbilər, Nifçi k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 25 *km* şm.-ş.-də, Kür çayının sağ sahilində, Qarabağ düzündədir. Əh. 830 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi, kitabxana, ATS var.

**ÇƏLƏBİLƏR** – Azərb. Resp. Cəbrayıl r-nunun Dağ Tumas ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* q.-də, Qarabağ silsiləsinin c.-q. ətəyində, Gəyan düzündədir. Əh. 27 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq və taxılçılıqla məşğul olurdu.

**ÇƏLƏBİYEV** Cavid Namiq oğlu (d.17. 5.1992, Sumqayıt) – Azərb. idmançısı. Boks üzrə Avropa çempionatının bürünc (2012, Kaliningrad) mükafatçısı, dünya çempionudur (2013, Almatı).

**ÇƏLƏBİYEV** Çələbi Abakar oğlu (11.10.1940, Qax r-nunun Sarıbaş k.– 13.3.2004, Sumqayıt) – Azərb. kimyaçısı, k.e.d. (1992), prof. (1994). Azərb. Neft və Kimya İn-tunu (indiki ADNA) bitirmişdir (1965). Azərb. EA Polimer Materialları İn-da böyük elmi işçi, laboratoriya müdiri (1982–2004) vəzifələrində işləmişdir. Tədqiqatları doymamış, aromatik və yüksəkmolekullu birləşmələrin maye fazada, əlaqəli sistemlərdə katalitik oksidləşməsi və oksidləşdiricilərin iştirakı ilə halogenləşmə proseslərinin öyrənilməsinə həsr edilmişdir. 201 elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**ÇƏLƏBİZADƏ** (K i ç i k) İsmayıl Asim (1680 – 15.2.1760) – Türkiyə dövlət xadimi, tarixçi. 1732–49 illərdə Yenişəhər, Bursa, Mədinə və İstanbulda qazı, 1755 ildən Anadolunun, 1759 ildən Rumelinin baş qazısı (kazəsgəri), 1759 ilin iyulundan şeyxülislam olmuşdur. 1722–28 illərdə Osmanlı imperiyasının rəsmi salnaməçisi idi. Onun "Tarix-i Çələbizadə" adlı əsəri 18 əsrin 10–40-cı illərini əhatə edir. *Teymurun* katibi, 14 əsr İran tarixçisi Xocə Qiyasəddinin Çinə göndərilən səfirliyin işi haqqında hesabatını Ç. türk dilinə tərcümə etmişdir (20 əsrin əvvəllərində İstanbulda "Əcayib ül-lətaif" adı ilə nəşr olunmuşdur).

**ÇƏLƏKƏN** – Tür.-da *Xəzər ş.-nin* 1992 ilədək adı.

**ÇƏLƏKƏN** – Xəzər dənizinin ş. sahilində, Tür.-da y-a. Əvvəllər ada olmuş, Xəzər dənizi səviyyəsinin enməsi nəticəsində 1937 ildən yarımadaya çevrilmişdir. Sah. təqr. 500 $km^2$, hünd. 100 *m*-ədəkdir. Səthi düzənlik, çox yerdə qumluq və şoranlıqdır. Neft, qaz, ozokerit çıxarılır. Balıq ovlanır.

**ÇƏLƏNBƏR** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Səncid bölgəsinin Givi kəndistanında, Səncid qəs.-ndən 10 *km* ş.-dədir.

**ÇƏLƏNG** – gül-çiçəkdən dairəvi şəkildə hörülən tac. Keçmişdə Azərb.-ın bəzi zonalarında toy günü rəfiqələri gəlin üçün Ç. hörür və başına qoyurdular (bax, həmçinin *Diadema*).

**ÇƏLİK** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Miyandab bölgəsinin Mərhəmətabad kəndistanında, Miyandab qəs.-ndən 25 *km* şm.-q.-dədir.

**ÇƏLİK** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin İcarud kəndistanında, Germi qəs.-ndən 12 *km* c.-ş.-dədir.

**ÇƏLLƏK MƏMULATLARI** – maye, yarımmaye və səpələnən məhsulların saxlanması üçün müxtəlifölçülü çəlləkvarı qablar. Əsasən, taxtadan və başqa ağac materiallarından (fanerdən, ağacyonqarlı, ağaclifli və ağac-plastik materiallardan) hazırlanır. Ç.m.-ndan şərab, pivə, şoraba kimi məhsulları saxlamaq üçün daha çox istifadə olunur.





**ÇƏLTARİ** – baş geyimi. Keçmişdə, əsasən, dərvişlər geyirdilər. *Külahı* xatırladır. Orta əsrlərdə təriqət başçıları və nüfuzlu ruhanilər Ç.-nin üzərinə sarıq bağlamaqla onu *əmmamə* formasına salırdılar.

**ÇƏLTİK** (Oryza) – taxıllar fəsiləsindən birillik və çoxillik bitki cinsi. 19 növü vardır. Tropiklərdə bitir. Mədəni növün – əkin Ç.-inin (O. sativa) (hind) ssp. brevis və (yapon) ssp. communis yarımnövlərinə ayrılan ə k i n Ç.-i (Ç.-in becərilən növü), həmçinin subtropiklərdə və mülayim qurşağın nisbətən isti r-nlarında yayılmışdır. Qərbi Afrikada ç ı l p a q Ç. (O. glaberrima) yetişdirilir. Qalan növləri yabanı bitir. Bunlardan bəziləri məs., Afrikada bitən n ö q t ə l i Ç. (O. punctata), q ı s a d i l c i k l i Ç. (O. brevili gulata) yerli əhalinin qidalanmasında böyük əhəmiyyət kəsb edir.


Əkin çəltiyi (Oryza sativa).

Əkin Ç.-i birillik bitkidir. Kök sistemi saçaqlıdır; uz. 30–40 *sm* (1 *m*-ədək) olur. Digər taxıl bitkilərinin köklərindən əmici tellərin az olması ilə fərqlənir. Gövdəsi hünd. 50 *sm*-dən 2, hətta 3–5 *m*-ə çatan (dərin suda bitən formaları) küləşdir. Ç. 3–5, seyrək əkində və bol qidalanmada isə 50 və daha çox barverən gövdə əmələ gətirir. Yerə yatmayan sortların gövdəsi çox möhkəmdir. Yarpaq qından və yaşıl, qırmızımtıl və ya bənövşəyi rəngli xətli-lansetli ensiz lövhədən ibarətdir. Çiçək qrupu uz. 10–30 *sm* olan süpürgədir. Birçiçəkli sünbülcüklər 2-ci sıranın budaqcıqlarında yerləşmişdir. Çiçəyi qılcıqlı formalarda qılcığı qırmızı, sarı və ya qonur rəngə boyanmış 2 enli çiçək pulcuğundan, 2 çiçəkyanlığı pərdəsi – lodikullardan, birtoxumlu yumurtalıq və 6 erkəkcikdən ibarətdir. Ç.-in meyvəsi – pərdəcikli dənmeyvədir; yapon növündə yumru və enli, hind növündə uzun və ensiz, içərisi ağ şüşəyəoxşar, yarımşüşəyəoxşar və ya unludur.

Əkin Ç.-yi yazlıq bitkidir. Vegetasiya dövrü 90–165 gündür. Bitki istiyə tələbkardır. Ç. Yer kürəsinin çox hissəsi üçün əsas taxıl bitkisidir. Ç.-dən bir çox xalqlar çörəyi əvəz edən müxtəlif yeməklər hazırlayırlar, dənindən yarma, spirt, nişasta, pivə, küləşindən kağız, ip, papaq, həsir və s., kəpəyindən heyvanlar üçün yem, yüksəkkeyfiyyətli yağ hazırlanır. Ç. ən qədim k.t. bitkilərindən biridir. Mənşəyi dəqiq məlum deyil, lakin N.İ. Vavilov və digər alimlərin fikrincə çəltikəkmə bir neçə min il əvvəl Hindistanda yaranıb; burada cinsin yabanı növlərinin, həmçinin yabanı və mədəni Ç.-in aralıq formalarının olması bu mülahizəni təsdiq edir. Mədəni Ç.-in ən qədim yeri Çindir; burada Ç. e.ə. 5-ci minillikdə becərilmişdir. Afrikada bu bitkini eramızdan 2 min il əvvəl, Avropada VIII əsrdən (Pireney y-a-nda) becərməyə başlamışlar. Amerika qitəsinə Ç. 15–16 əsrlərdə gətirilmişdir. ABŞ-da 17 əsrdə becərilməyə başlanmışdır. Cənubi Qafqaz və Orta Asiyaya da çəltikəkmə e.ə. 3–2 əsrdən məlumdur. Azərb.-da (Bəndovan, Beyləqan və s.) aparılan arxeoloji qazıntılar zamanı Ç. dənləri tapılmışdır. 19 əsrdə Lənkəran-Astara, Şəki-Zaqatala, Quba-Xaçmaz və s. zonalarda Ç. əkini sahələri genişlənmişdir. 50-dən çox Ç. (ənbərbu, akulə, ağcilə, sədri, reyhani, çampo, ağqılçıq, qaraqılçıq, sarıqılçıq və s.) sortu əkilirdi. Azərb.-da Astara və Ağdaş r-nlarında az miqdarda İran sortları (əsasən, sədri) əkilir.

Z ə r ə v e r i c i l ə r i: Ç. ağcaqanadı, arpa mineri, sahilyanı milçəyi, Ç. zəlicəsi, tripslər və s. X ə s t ə l i k l ə r i: pirikulyarioz, cücərtilərin çürüməsi, helmintosporioz, nematod xəstəlikləri.

*Əd.:* Г р и с т Д. Рис, пер. с англ., М., 1959; Теория и практика выращивания риса, пер., в англ., М., 1965; B o e s c h M.J. The word of rise, N.Y., 1967.

**ÇƏMBƏRƏK** – İrəvan xanlığı Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) aran hissəsində, Ağrıdağ dərəsində, İrəvan–Naxçıvan–Bakı d.y. xəttinin yaxınlığında azərb.-ların yaşadığı kənd. 1918–20 illərdə kənd erməni-daşnak hücumlarına məruz qalmış, dağıdılmış, əhalisi qovulmuşdur. 1922 ildə əhalinin bir hissəsi geri qayıtmış və kəndi yenidən abadlaşdırmışdır. Bu vaxt kənddə Türkiyədən gəlmiş xeyli erməni də yerləşdirilmişdir. 1935 ildə kənd qonşu Əfşarlı k. ilə birləşdirilmiş və Spandaryan ad. sovxoz yaradılmışdır. Az sonra isə adı dəyişdirilərək Surenavan qoyulmuşdur. Kənddə yaşayan sonuncu azərb. ailələri 1988 ildə kənddən qovulmuşdur.

**ÇƏMBƏRƏK AŞIRIMI** – Azərb. Resp. Gədəbəy r-nunda aşırım. Şahdağ silsiləsinin Keçəldağ qolundadır. Axınca çayının mənbəyində, Erm.-la sərhəddədir. Hünd. 2072 *m*.

**ÇƏMBƏRƏKƏND** – Azərb. Resp. Laçın r-nunun İrçan ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* c.-ş.-də, Qarabağ silsiləsinin c.-ş. ətəyindədir. Əh. 40 (2011); işğaldan (1992, may) əvvəl əkinçilik, bağçılıq, bostançılıq, heyvandarlıq və arıçılıqla məşğul olmuşdur.

**ÇƏMBƏRƏKƏND**, Ç ə m b ə r k ə n d – vaxtilə Bakı ş.-nin dağüstü hissəsində mövcud olmuş kənd. Nazirlər Kabinetinin, başqa inzibati binaların salındığı yerdən "Şəhidlər xiyabanı"na qədər olan ərazini əhatə edirdi. Adı burada məskunlaşmış və, əsasən, balıq duzlamaq, neft, mazut ixrac etmək üçün çəmbərlər hazırlayan ustaların peşəsi ilə əlaqədardır. Ç.-də eyni zamanda müxtəlif qoşqu arabaları (məs., qazalaq, fayton) da düzəldirdi. Əhalisi heyvan saxlayır, əkinçiliklə də məşğul olurdu. Köhnə bakılılar

indi də həmin əraziyə Ç. deyirlər. Hazırda burada çoxlu qədim və müasir tikililər, inzibati binalar, teleteatr, maarif-səhiyyə müəssisələri və s. var.

**ÇƏMƏ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Yuxarı Tarım kəndistanında, Sirdan qəs.-ndən 29 *km* q.-dədir.

**ÇƏMƏN** – bütün vegetasiya dövründə fasiləsiz inkişaf edən, çoxillik mezofil və mezotrof bitkilərdən ibarət ekosistem tipi; avtotrof komponent. Ç., əsasən, meşə və kolluqların qırılmış və yanmış yerlərində, bataqlıq və göllərin qurudulmuş sahələrində yaranmışdır. Təbii Ç. uzun müddət su basmış çaybasarlarda, dəniz sahillərində və çöllük regionların liman sahillərində, dağların yuxarı qurşaqlarında formalaşır. Ç. üçün otların kök və kökümsovları yerləşən torpağın üst qatının (çimin) əmələ gəlməsi səciyyəvidir. Ümumi fitokütlədən (1–10 *t/ha* quru maddə) yeraltı fitokütlə yerüstündəkindən 3–5 və daha çox dəfə artıqdır. Çəmən qruplarında taxıllar və ya cilkimilər üstünlük təşkil edir. Ç.-lər ot biçənəyi və otlaq kimi istifadə olunan qiymətli yem sahələridir; onlar üçün mövsümi və müxtəlif illik dəyişkənliyin kəskin nəzərə çarpması, örüş, ot biçini və ya meliorasiyanın təsirindən tez dəyişilməsi səciyyəvidir. M a t e r i k, s u b a s a r və y ü k s ə k d a ğ l ı q Ç.-ləri ayırd edilir. Çaybasarlardan kənarda yerləşən materik Ç.-ləri arasında quru dərələrdə bitən Ç. (yalnız atmosfer yağıntıları ilə suvarılan suayırıcı və yamaclarda) və o v a l ı q Ç.-ləri (torpaq-qrunt sularına yaxın çökəkliklərdə) olur. Quru dərə Ç.-ləri podzollu və boz-meşə torpaqlarında, meşə zonasındakı meşənin yerində yaranmışdır. Ovalıq Ç. meşə, meşə-çöl və çöl zonalarında yayılmışdır; onların torpağı quru dərə Ç.-lərinin torpağından zəngin, otluqları daha məhsuldardır. Subasar Ç. daşqın zamanı su basmış çay vadilərinə uyğun inkişaf edir. Tundradan səhralara qədər yayılmışdır; ən böyük sahələri meşə və meşə-çöl rayonlarındadır. Onlar materik Ç.-lərindən daha məhsuldar və növ tərkibinə görə daha müxtəlifdir. Yüksəkdağlıq Ç. (subalp və Alp) rütubətli və kifayət qədər isti iqlimli dağ rayonlarında (o cümlədən Alp, Karpat, Qafqaz, Tyan-Şan, Altay, Ural və s.), meşənin yuxarı sərhədindən yüksəkdə və meşə zolağında, qırılmış meşələrin yerində yayılmışdır. Nisbətən hündür otluqları olan subalp Ç.-lərdən biçənək və otlaq kimi istifadə olunur. Onlar yuxarıda yerləşən, alçaq otluqları olan və otlaq kimi işlədilən Alp Ç.-indən məhsuldardır. Məhsuldarlığı artırmaq üçün Ç.-lər becərilir (kəsəklər xırdalanır, çim yumşaldılır, gübrə verilir, başqa qiymətli otlar əkilir və s., rütubət çatışmayanda onlar suvarılır, həddən artıq nəmlənmiş Ç. qurudulur). Azərb.-da Ç.-lərin ümumi sahəsi 2,5 mln. *ha*-a yaxın, bitki örtüyü isə zəngindir. Burada 1000-ədək bitki növü var.

*Əd.:* Р а б о т н о в Т.А. Луговедение. 2-е изд. М., 1984.

**ÇƏMƏN AQREQATI** – daşlarla və ağac-kol bitkiləri ilə zibillənməyən torflu və mineral torpaqlardakı çəmən və otlaqları yaxşılaşdıran maşınlar kompleksi. Ç.a. bir keçid ərzində səpindən qabaq torpağı bıçaq və dişlərlə emal edən (frezləyən), gübrəni qarışdıran və səpən, dənli bitki və ot toxumlarını səpən frezlərdən, frezləmədən sonra torpağı düzləndirən (hamarlayan) və kipləşdirən böyük vərdənədən və səpindən sonra torpağı diyirlədib gətirən kiçik vərdənədən ibarətdir. Ç.a.-nın götürümü (1,5–2 *m*) aqreqatlaşdırılan traktordan asılıdır. Frezin işlək orqanları traktorun güc valından, toxumsəpənin işlək orqanları isə vərdənələrdən işə düşür. Ç.a.-nın məhsuldarlığı 0,4–0,5 *ha/saat*-dır. B.Britaniyada, Fransada eyni vaxtda torpağı yumşaldan, səpindən qabaq bərkidən və toxumu səpən qurğular tətbiq olunur. Bu qurğularda yumşaldıcı pəncə, yaxud dişlər, qoşulan vərdənə və çərgələrlə toxumsəpən səpici alət vardır.

**ÇƏMƏN DAĞI** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu) dağ.

**ÇƏMƏN KƏPƏNƏYİ** (Loxostege sticticalis, Pyrausta sticticalis) – enliqanad odlucalar fəsiləsindən (Pyraustidae) kəpənək; bəzən Grambidae fəsiləsinə aid edilir. Qanadları açılmış halda 18–28 *mm*, zeytuni-qonur qanadlarının ortasında və kənarlarında açıq rəngli ləkələr və zolaqlar var. Avrasiyanın və Şimali Amerikanın mülayim iqlimi ərazilərində, əsasən, çöl zolaqlarında yayılmışdır. Kəpənəklərin uçuşu iyun–sentyabr aylarında olur. Dişisi 650-yə qədər yumurta qoyur; arealın cənub r-nlarında ildə dördədək nəsil verir. Tırtılları (uz. 35 *mm*-ə qədər) yaşılımtıl-bozdur, beli boyunca bir, bədəninin yanlarında bir neçə tünd zolaq var; bir çox fəsilədən olan (35-ədək) müxtəlif ot bitkiləri üzərində inkişaf edir, 14–30 gün qidalanırlar. Axırıncı nəslin tırtılları torpağın üst qatında qurduğu baramada qışlayır; yazda puplaşır. K.t. bitkilərinin (əsasən, şəkər çuğunduru, günəbaxan, çoxillik paxlalılar, noxud, tərəvəz, bostan və efiryağlı bitkilər) təhlükəli zərərvericisidir. Yarpağı, çiçəkləri, meyvəni və ya bitkinin digər hissələrini zədələyərək məhsulun məhv olmasına və ya onun az yığılmasına gətirib çıxarır. M ü b a r i z ə t ə d b i r l ə r i: dərin dondurma şumu, becərilən bitkilərin cərgəarası işlənməsi, alaqların məhv edilməsi, biopreparatların və insektisidlərin səpilməsi.

Çəmən kəpənəyi (Loxostege sticticalis).



**ÇƏMƏN KƏRTƏNKƏLƏSİ** (Lacerta praticola) – kərtənkələlər cinsinin bir növü. Uz. 65 *mm*-dir. Başı istisna edilməklə üst tərəfdən qəhvəyiyəçalan boz, açıq-qonur, yaxud qəhvəyiyəçalan olur.



Çəmən kərtənkələsi (Lacerta praticola).

Bəzən tamam qara rənglilərinə də rast gəlinir. Balkan y-a-nda, İranın şm.-q.-ində, Böyük Qafqaz d-rının hər iki tərəfində yayılmışdır. Meşəlik, kolluq, çəmənliklərdə yaşayır. İldə 2 dəfə (4–6) yumurta qoyur. Xırda cücülər, hörümçəklər, soxulcanlar, mollyusklar və s. ilə qidalanır.

**ÇƏMƏN TORPAQLARI** – çəmən bitkilərinin altındakı torpaqlar; hidromorf torpaqlar qrupuna aiddir. Tünd-boz rəngli humus qatı, oxralı pas ləkəli qonur rəngli qat və qleyləşmiş karbonatlı torpaqəmələgətirən süxurlardan ibarətdir. Torpaq profilinin üst qatların reaksiyası neytral, alt qatları isə qələvidir. Əsaslarla tam doymuşdur. Humusun miqdarı 5–7% olub, dərinliyə doğru tədricən azalır. Qranulometrik və ümumi kimyəvi tərkibə görə profil diferensiasiya olunmayıb. Ç.t. 3 qrupa ayrılır.

**ÇƏMƏN-BATAQLIQ TORPAQLARI** – hidromorf, əsasən, rütubətli (Lənkəran) və bozqır-yarımsəhra (Kür-Araz ovalığı) zonalarında yayılmış torpaq tipi. Qapalı çökəkliklərdə uzunmüddətli səth və qrunt sularının təsirilə rütubətsevən çəmən-bataqlıq bitkiləri altında formalaşır. Profil quruluşu orqanogen torflaşmış qat, üzvi-mineral törəmələr və qonur-pas ləkələrilə birgə humuslu və çürüntülü-humuslu qat və tədricən torpaqəmələgətirən süxurlara keçən boz rəngli qleyli qat təşkil edir. Bu qatdan aşağıda sulu qat yerləşir. Çürüntülü çəmən-bataqlıq, lilli çəmən-bataqlıq torpaqlar yarımtipinə bölünür.

**ÇƏMƏN-BOZ TORPAQLAR** – boz torpaqlar zonasında səth və qrunt suları ilə rütubətlənmə şəraitində formalaşan torpaq tipi. Boz torpaqlardan profilcə genetik qatların zəif diferensiasiya olunması humuslu qatın nisbətən qalın, aşağı qatlarda isə göyümtül qleyləşmə əlamətlərinin müşahidə olunması ilə fərqlənir. Qrunt suyunun yerləşməsi səviyyəsinə görə 2 yarımtipə bölünür: çəmənvarı-boz və çəmən-boz. Nisbətən böyük sahələri Kür-Araz ovalığında, Samur-Dəvəçi və Naxçıvan düzənliklərində yayılmışdır.

**ÇƏMƏNÇİLİK** – 1) təbii yem sahələrinin yaxşılaşdırılması və sünilərinin yaradılması üzrə təşkilati və aqrotexniki tədbirlər kompleksi daxil olan bitkiçilik sahəsi. Heyvandarlığın yem bazasının yaradılmasında və heyvandarlıq məhsullarının rentabelliyinin təmin olunmasında vacib rol oynayan yem istehsalının bir hissəsidir; 2) yem sahələrinin yaradılması, yaxşılaşdırılması və səmərəli istifadəsinin nəzəri və metodik əsaslarını, texnologiyasını işləyib hazırlayan elm. Ç.-in əsasını çəmənşünaslıq (*geobotanikanın* bölməsi) təşkil edir. Ç. sahəsində ilk tədqiqatlar 19 əsrin ortalarına aiddir; tədqiqatlar, əsasən, Qərbi Avropa ölkələrinin nümunəvi sahələrində (məs., B.Britaniyada – Rotamsted təcrübə stansiyasında) aparılırdı. Azərb. Resp.-nda Ç. üzrə tədqiqatlar Elmi-Tədqiqat Yemçilik, Çəmənçilik və Otlaqlar İn-tunda aparılır.

**ÇƏMƏNLİ** – Azərb. Resp. Ağdam r-nunda kənd. Çəmənli ə.d.-nin (Çəmənli, Sarıcalı, Şükürağalı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 16 *km* şm.-ş.-də, Qarabağ düzündədir. Əh. 3247 (2011); pambıqçılıq, üzümçülük, taxılçılıq, baramaçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq musiqi məktəbi, 2 uşaq bağçası, kitabxana, mədəniyyət evi, xəstəxana, məscid var.

**ÇƏMƏNLİ** – Azərb. Resp. Şərur r-nunda (Nax. MR) kənd. Çəmənli ə.d.-nin (Çəmənli, Arpaçay k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 7 *km* c.-ş.-də, Arpaçayın sağ sahilindədir. Əh. 1024 (2011); heyvandarlıq, yemçilik, əkinçilik, taxılçılıq və tərəvəzçiliklə məşğuldur. Tam orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, baytarlıq məntəqəsi, poçt var.

**ÇƏMƏNLİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyahçeşmə bölgəsinin Bəhbəhcik kəndistanında, Siyahçeşmə qəs.-ndən 24 *km* şm.-ş.-dədir.

**ÇƏMƏNLİ** (2009 ilədək Dilənçilər) – Azərb. Resp. Bərdə r-nunun Zümürxan ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* şm.-q.-də, Qarabağ düzündədir. Əh. 264 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, məscid var.

**ÇƏMƏNLİ** – Azərb. Resp. İsmayıllı r-nunun Qalacıq ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* şm.-q.-də, Bakı–Qəbələ magistral yolundan 7 *km* aralı, Göyçay çayının sahilindədir. Əh. 279 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur.

**ÇƏMƏNLİCƏ** (Deschampsia) – taxıllar fəsiləsindən çoxillik ot cinsi. Gövdəsi düzdayanan, hünd. 120 (bəzən 150) *sm*-ədək olur. Yarpaqları darxətli, yastı və ya uzununa bükülmüş, sərtdir. Çiçək qrupu qol-budaqlı sıx süpürgədir. Sünbülcüklərinin uz. 2–7 *mm*, 2–3 çiçəklidir. Təqr. 60 növü hər iki yarımkürənin soyuq və mülayim qurşaqlarında və qismən tropik dağlarda yayılmışdır. Arktikada çiçəkli bitkilərin yayılmasının şimal sərhədinə qədər rast gəlinir: Antarktika Ç.-si (D. antarctica) – Antarktikanın çiçəkli bitkilərindən biridir. Azərb. Resp-nda 1 növü – çimlik Ç.-si (D. cespitosa) bitir. Yem keyfiyyəti aşağı olan Ç. çəmən alağıdır.

Çimlik çəmənlicəsi (Deschampsia cespitosa).



**ÇƏMƏNLİK CANAVARI**, k o y o t (Canis latrans) – canavarlar fəsiləsindən məməli heyvan. Bədəninin uz. 1 *m*-ədək, çiyinlərində hünd. 50 *sm*-ədək, kütləsi 21 *kq*-adək olur. Zahirən kiçik canavara oxşayır. Xəzi uzun, rəngi qara ləkəli qonur, qarnı açıq rəngli, quyruğunun ucu qaradır. Şimali və Mərkəzi Amerikanı Alyaskadan Panamaya qədər yayılmışdır; açıq düzənliklərə – səhralara, prerilərə və s. üstünlük verir; insandan qaçmır. Ç.c.-nın özünəməxsus gecə ulaması onun yaşayış yerinin xarakterik xüsusiyyətidir. Dovşan, gəmirici, kiçik heyvanlar, leş və müxtəlif meyvələrlə qidalanır. Bəzən kiçik qruplarla toplanıb iri ov ovlayırlar. Qısa məsafələrə 65 *km/s*-adək sürətlə qaçır, 4 *m*-ə qədər uz.-a tullanır, yaxşı üzür. Ç.c. tək, yaxud cüt, çoxlu yem olan yerlərdə sürü ilə yaşayır. Sığınacaq yeri yarğanlar, oyuqlardır, özgə yuvalarından da istifadə edir. Cütlər uzun müddət birlikdə qalır. 5–10 (19-adək) bala doğur; onları hər iki valideyn yemləyir. Heyvandarlığa və bağçılığa az ziyan vurur.



Çəmənlik canavarı (Canis latrans).

**ÇƏMƏN-ŞABALIDI TORPAQLAR** – yarımhidromorf rejimdə formalaşan torpaqlar; şabalıdı torpaqlar zonasında geomorfoloji cəhətdən mövsümi rütubətlənmə rejimli relyeflərdə yayılmışdır. Bu torpaqlar şabalıdı torpaqlara xas iqlim şəraitində və ana süxurlar üzərində inkişaf edir. Şabalıdı torpaqlardan fərqli olaraq nisbətən alçaq makro, mezo, mikrorelyef sahələrdə, dağətəyi şleyf

zolağında üstünlük təşkil edir. Bitki örtüyü şabalıdı torpaq bitkilərindən xeyli sıx və yüksəkdir. Bu da humus qatının qalın olması ilə əlaqədardır. Ağır qranulometrik tərkibin, profilin alt qatlarında bəzən qleyləşmə əlamətlərinin olması müşahidə edilir. Bu torpaqlar şabalıdı torpaqlara nisbətən zəif karbonatlı, məhsuldardır. Azərb. Resp.-nın dağətəyi r-nlarında relyefin çökəkliklərində lokal şəkildə yayılmışdır.

**ÇƏMƏNZƏMİN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Müvarəxun kəndistanında, Vərzəqan qəs.-ndən 25 *km* c.-dadır.

**ÇƏMƏNZƏMİNLİ**, Yusif Vəzir (təxəllüsü; əsl adı və soyadı Yusif Mirbaba oğlu Vəzirov) (12.9.1887, Şuşa – 3.1.1943, Qorki vil., Suxobezvodnoye k.) – Azərb. yazıçısı.



İbtidai və orta təhsilini Şuşa və Bakı realni məktəblərində almışdır (1897–1909). Kiyev Un-tinin hüquq fakültəsini bitirmişdir (1915). “Müdiri-möhtərəm” sərlövhəli ilk yazısı “Molla Nəsrəddin” jurnalının 24-cü nömrəsində (1906) dərc olunmuşdur. “Şahqulunun xeyir işi” (1907) adlı ilk hekayəsini də “Molla Nəsrəddin”in təsiri ilə yazmışdır. İlk kitabı 1911 ildə Kiyevdə nəşr olunmuşdur (“Məlikməmməd”). 1915–18 illərdə Saratov, Simferopol və Odessada olmuş, Azərb.-ı tanıtmaq, haqqında düzgün ictimai rəy yaratmaq sahəsində mühüm işlər görmüşdür; “Azərbaycan muxtariyyəti” kitabı (Bakı, 1917) çap edilmiş, “Azərbaycan və azərbaycanlılar” adlı silsilə məqalə və yazıları “Millət” qəzetində dərc olunmuşdur (1918). Ç. 1919 ildə *Azərbaycan Demokratik Respublikasının* Türkiyədə səlahiyyətli səfiri təyin edilmişdir. ADR-in süqutundan 8 ay sonra o, istefa vermiş, 1923 ildə Fransaya getmiş, Paris yaxınlığındakı Klişi ş.-ndə 3 il ağır fəhlə həyatı yaşamışdır. 1926 ildə Azərb.-a dönən Ç. “Gənc işçi” kooperativ nəşriyyatında bədii ədəbiyyat şöbəsinin müdiri (1926–27), Azərb. Dövlət Plan Komitəsinin əməkdaşı (1927–30), Azərnəşrdə tərcüməçi-redaktor (1935–38) işləmişdir. 1938–40 illərdə Ürkənc Pedaqoji İn-tunda (Özbəkistan) rus dili və ədəbiyyatı fakültəsini yaratmış, rus və xarici ölkələr ədəbiyyatı və dillər kafedrasının müdiri olmuşdur.

Ç. Azərb. tənqidi-realist ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Onun yaratdığı hekayələr Azərb. bədii nəsrinin kamil nümunələridir. Bu hekayələrdə xalqın ağır vəziyyəti (“Ağsaqqal”, “Xanın qəzəbi”, “Hacı”), çar üsuli-idarəsinin yaramazlığı, rüşvətxorluğun acı nəticələri (“Zeynal bəy”, “Polis paltosu”, “Nitq”), qadınların dözülməz həyatı (“Toy”, “Qumarbazın arvadı”, “Divanə”, “Müsəlman arvadının sərgüzəştləri”), yalançı din xadimlərinin özbaşınalığı (“Cənnətin qəbzi”, “Mərsiyəxan”), gənclərin mənəvi axtarışları, tələbə həyatının çətinlikləri (“Son bahar”, “Üç gecə”) realist təsvirini tapmış, gerilik və cəhalət ifşa olunmuşdur.

Roman janrının təşəkkül və inkişafında Ç.-nin mühüm xidməti var. Azərb. nəsrinin nailiyyətlərindən sayılan, mövzusu və qəhrəmanları ilə yeni olan “Studentlər” (1914 – 31) və onun ikinci kitabı hesab edilən “1917-ci ildə” (1931 – 34) romanlarında çarizm dövründə azərb. tələbələrin həyatı, ictimai idealları, inqilabi mübarizədə iştirakı bədii ifadəsini tapmışdır. Roman ilk dəfə müəllifin sağlığında 1931, 1935, 1936 illərdə çap edilmişdir. Əsərin 1968 və 1976 il nəşrlərində siyasi və ideoloji “təmizləmə” məqsədi ilə edilmiş ixtisarlar yeni nəşrlərdə bərpa olunmuşdur. Azərb. tarixi-fəlsəfi romanının ilk nümunəsi olan “Qızlar bulağı” (1934) öz orijinallığı ilə fərqlənir. Əsərdə Azərb. tarixi, mifologiyası və folklor materialları əsasında ulu babalarımızın həyat təcrübəsi, mənəviəxlaqi, fəlsəfi görüşləri, yaşayış tərzi, xalq adət-ənənələri əksini tapmışdır. Azərb. tarixi romanının klassik nümunəsi sayılan “Qan içində” (başqa adı “İki od arasında”, 1936 – 37; nəşri 1960 – 61) əsərində Ç. Qarabağ xanlığını bütün Azərb.-ın rəmzi kimi göstərmişdir. Romanda 18 əsrin 2-ci yarısında Azərb.-ın siyasi-ictimai həyatı təsvir olunmuş, qüvvətli, yaddaqalan surətlər (M.P. Vaqif, İbrahim xan və b.) yaradılmışdır. “Keçmiş səhifələr” (1926), “Qazanc yolunda” (1930), “Qaranlıqdan işığa” (1933) hekayə kitabları nəşr olunmuşdur. 20-ci illərdə müxtəlif səbəblərdən qürbətdə yaşayanların acınacaqlı taleyindən bəhs edən “Həzrəti Şəhriyar” (1935, nəşri 1980) komediyası, “Altunsaç” (1937) və s. ssenariləri var.

Ç. geniş diapozona malik görkəmli alim idi. O, 10-a yaxın Şərq və Avropa dillərini bilirdi. Ç.-nin tarixə, etnoqrafiyaya, folklora və ədəbiyyat tarixinə dair tədqiqatları, məqalələri bu gün də öz elmi əhəmiyyətini saxlamaqdadır. “Azərbaycan ədəbiyyatına bir nəzər” kitabı İstanbulda (1919) və Parisdə (1922) çap olunmuşdur. L. Tolstoy, İ. Turgenev, N. Qoqol, V. Hüqo və b.-nın əsərlərini Azərb. dilinə çevirmişdir. “Studentlər” romanına görə Ç. Azərb. Yazıçılar İttifaqının tərkibindən çıxarılmış, repressiyaya məruz qalmışdır. 1940 il yanvarın 27-də Ürkəncdə həbs edilərək Bakıya gətirilmiş, həmin ilin yayında Qorki vil.-nin Suxobezvodnoye k.-nə sürgün olunmuşdur. 1943 ildə pellaqra xəstəliyindən vəfat etmişdir. Bakıda ad. küçə var.

Əsərləri: Bir cavanın dəftəri. B., 1969; B крови. Избр., Б., 1985; İki od arasında. B., 2002; Əsərləri. C. 1–3, B., 2005.

*Əd.:* Azərbaycan sovet ədəbiyyatı tarixi. 2 cilddə. C. I, B., 1967; Axundova M. Yusif Vəzir Çəmənzəminli. B., 1981; Məmmədov K. Yusif Vəzir Çəmənzəminli. B., 1981; Abdullayev B. Y.V. Çəmənzəminli və folklor. B., 1981; Vəzirov O., Vəzirov F. Bir daha Əli və Nino haqqında. “Ədəbiyyat qəzeti”, 1992, 14 avqust; Bünyadov Z. Qırmızı terror. B., 1993.

**ÇƏN** – maye saxlamaq üçün böyük ölçülü metal tutum; bax *Rezervuar*.

**ÇƏN** – 1)Yer səthi yaxınlığında havanın asılı vəziyyətdə olan xırda su damcıları və ya buz kristalları arasında işıq səpələnməsinin təsiri ilə zəif tutqunlaşması. Görünüş, əsasən, 1 *km*-dən artıq olur; bəzən 100 və 10 *m*-lərədək azalır. 2) Sərbəst atm.-də havanın zəif tutqunlaşması, ilkin fazada olan buludlu təbəqə.

**ÇƏNAB** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Ətraf kəndistanında, Horand qəs.-ndən 5,5 *km* c.-dadır.

**ÇƏNBƏR** – 1) çəllək və s.-nin dövrəsinə keçirilən dəmir və digər materiallardan qurşaq; 2) keçmişdə suya və ya neftə yaxşı batması üçün dolun (tuluğun) yuxarı tərəfinə ağırlıq məqsədilə bağlanan dəmir halqa; 3) bax *Bugel*.

**ÇƏNBƏRBAĞIRSAQ** – bax *Bağırsaq*.

**ÇƏNBƏR-BARABAN**, maşınqayırmada vərəq materialdan hazırlanmış uc (kəllə) tərəfləri açıq (dibsiz) silindrik və ya konusşəkilli baraban; qazanxana qazanları, rezervuarlar, böyük diametrli boru kəmərləri və s. üçün pəstahdır.

**ÇƏNDAB** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Mərkəzi bölgəsinin Hir kəndistanında, Ərdəbil ş.-ndən 27 *km* c.-ş.-dədir.

**ÇƏNDAHAR** – Azərb. Resp. İsmayıllı r-nunun Həftəsov ə.d.-ndə kənd. R-n mərkəzindən 49 *km* şm.-ş.-də, Girdiman çayının





sahilində, Niyaldağ silsiləsinin ətəyindədir. Əh. 117 (2011); heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğuldur. İbtidai məktəb var.

**ÇƏNDİROV** Hüseyn İsgəndər oğlu (20.3.1927, Qazax r-nunun, Qırax Kəsəmənli k. – 19.5.2004, Bakı) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1970), prof. (1972). Azərb. Dövlət Un-tini (ADU, indiki BDU) bitirmişdir (1954). Əmək fəaliyyətinə 1957 ildə ADU-nun funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasında başlamış, diferensial və inteqral tənliklər kafedrasının dosenti (1965–69), müdiri (1969–94), prof.-u (1994–2004) olmuşdur. Tədqiqatları adi diferensial tənliklər və xüsusi törəməli tənliklər sahəsindədir. 50-yə yaxın elmi əsərin müəllifidir.

**ÇƏNƏ** – insanda kəllənin yeganə hərəkətli sümüyü; üzün alt şöbəsini təşkil edir. Nalşəkilli formada olması ilə səciyyələnir. Ç. cismindən yuxarı istiqamətə şaquli və ya çəpəki 2 şaxə gedir. Cismin yuxarı kənarı dişlər üçün 16 diş yuvası olan alveolyar qövsü təşkil edir. Hər şaxənin ucu 2 çıxıntıya bölünür: gicgah




**İnsanın çənəsi:** *1* – alveolyar çıxıntılar; *2* – çənə cismi; *3* – çənəaltı dəlik; 4 – çənə kanalı; *5* – çənə bucağı; *6* – çənə şaxələri; *7* – oynaq çıxıntılar; *8* – tac çıxıntıları; *9* – çənə dəliyi.

əzələsi bağlanmış, tac çıxıntısı və gicgah sümüyü ilə birləşmiş kondilus. Şaxə ilə cisim arasındakı bucaq 90°-dən 140°-yədək dəyişir. Ç.-dən sinirlər və dişləri qanla təchiz edən damarlar keçir.

**ÇƏNƏALTI VƏZİLƏR** – məməli heyvanlarda və insanda cüt ağız suyu vəziləri. Çənəaltı üçbucaqda yerləşir. İnsanda uz. 2,5–3,5 *sm*, eni 1,5 *sm*, çəkisi 15 *q*-dır. Quruluşuna görə qarışıq tipli mürəkkəb alveolyar – borulu vəzidir; ağız suyu ifraz edir.

**ÇƏNƏSİZLƏR** (Agnatha) – ibtidai su onurğalıları sinifüstü. Ağzı sovuran tiplidir, əsl çənələri yoxdur. Skeletdə sümük toxuması olmur; xorda həyatı boyu saxlanılır. Qəlsəmələləri kisəyə oxşardır. Qəfəsşəkilli qəlsəmə skeleti dəri altında yerləşir. Ç.-in çoxusunda tək iybilmə orqanı var; daxili qulaq 2 yarımdairəvi kanala malikdir. Qazıntı Ç. Kembridən Son Devona qədər məlumdur; inkişaf dövrü Son Silurdan Erkən Devona qədərdir. Onların uz. bir neçə *sm*-dən 1 *m*-ədək olur; xarici skeleti sümüklü, təküzgəclidir. Qidanın xırda hissəciklərini su ilə birlikdə sovuraraq və ya tutaraq qidalanırdılar. Müasir Ç.-ə 2 yarımsinifli (miksinlər və minoqalar) birgə dəyirmiağızlılar sinfi də aiddir. Bu yarımsiniflər bəzən müstəqil siniflər hesab edilir.

**ÇƏNG** – üçbucaq və ya trapesiya formalı (arfayabənzər) simli musiqi aləti. Orta əsrlərdə Azərb.-da geniş yayılmışdı; Ç.-də, əsasən, qadınlar çalmışlar. Qoşalaşmış 24 simi xromatik qaydada düzülmüşdür. Arfaşəkilli Ç.-lər hər iki əlin barmaqları ilə, qutuşəkilli (*simbala* bənzər) Ç.-lər isə ağac çubuqlar vasitəsilə səsləndirilmişdir. Ç. özbəklər, taciklər arasında da geniş yayılmışdır; hazırda ork.-də istifadə olunan Ç.-lərin müxtəlif növləri yaradılmışdır.



Çəng.

**ÇƏNGƏL** – qadınların başlarına bağladıqları zərgərlik məmulatı. Naxçıvan bölgəsində geniş yayılmışdır. Qızıldan və gümüşdən hazırlanan Ç. daha çox yaşlı qadınların baş örtüklərini (yaylıqlarını) saxlamaq üçün istifadə edilirdi. Hər iki ucunda baş örtüyünə bərkitmək üçün qarmaq (çəngəl) olduğundan belə adlandırılmışdır. Boğazın altından keçdikdə Azərb.-ın bəzi bölgələrində boğazaltı da adlanır.

**ÇƏNGƏLƏBƏNZƏR VƏZİ**, timus – insanda və onurğalı heyvanlarda paycıqlı daxili sekresiya vəzisi.

İnsanda Ç.v.-nin əsası dölün 1-ci ayının sonu, 2-ci ayın əvvəlində qoyulur. Ç.v. rüşeymi əvvəlcə ancaq epiteli toxumasından ibarət olur. İnkişaf prosesində C.v.-nin quruluşu mürəkkəbləşir və o, paycıqlı olur. İnsanda C.v. döş boşluğunun ön divararalığının yuxarı plevralararası sahəsində yerləşir. O, yenidoğulmuşlarda yaxşı inkişaf etmişdir. Doğum vaxtı, bu, ən böyük limfoid orqandır və onun toxuması orqanizmin bütün digər toxumalarından aktiv limfositlər hasil edir. Ç.v.-nin böyüməsi cinsi yetişkənlik başlanana qədər davam edir və bu vaxt onun kütləsi 30–40 *q* olur; bundan sonra onun əksinə inkişafı baş verir. Ç.v. xaricdən birləşdirici toxuma kapsulu ilə örtülmüşdür. Kapsuldan Ç.v.-nin daxilinə, onu paycıqlara bölən arakəsmələr gedir. Ç.v.-nin hər paycığında qabıq və beyin maddə ayırd edilir. Qabıq maddə torlu quruluşa malik epiteli toxumasından ibarətdir, ilgəklərində çoxlu miqdarda limfositlər yerləşir və buna görə Ç.v. limfoepitelial törəmələrə aid edilir. Quruluşuna görə qabıq maddəyə oxşar olan beyin maddədə limfositlər azdır; onun orta hissəsində konsentrik lay-lay yığılmış epiteli hüceyrələrindən əmələ gələn Ç.v.-nin ən xarakterik strukturu olan – Qassal cisimcikləri – dimetri 50 *mkm*-ə qədər olan laylı epiteli cisimcikləri yerləşir. 15 yaşda laylı epiteli cisimciklərinin sayı maksimuma çatır, sonra sürətlə azalır. Hətta qoca yaşlarda da Qassal cisimciklərinin yeni törəməsi davam edir. Yaşa dolduqca paycıqların qabıq hissəsində limfositlər azalır. Qabıq hissənin reduksiyası beyin hissəyə nisbətən sürətli gedir, lakin onun qalıqları vəzi maddəsi piy toxuması ilə tam əvəz olunduqdan sonra da saxlanılır.

Ç.v.-nin funksional əhəmiyyəti tam aydınlaşdırılmamışdır. İbtidai onurğalılarda Ç.v.-nin fəaliyyətinin mövsümiliyi, orqanizmdə onun boy və mineral mübadiləsinin tənzimlənməsində, habelə spesifik *immunitetin* formalaşmasında iştirakı haqqında məlumatlar vardır. Quşlarda Ç.v.-nə cinsi fəaliyyət dövründə daha çox sərf olunan labil nukleoproteidlərin deposu kimi də baxılır. Ç.v. digər daxili sekresiya vəziləri (böyrəküstü, hipofiz, cinsiyyət vəziləri) ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Ç.v. xarici – fiziki (şüalanma), kimyəvi (bir çox kanserogenlər), hormonal (böyrəküstü vəzi qabığının,

qalxanabənzər, cinsiyyət və d. vəzilərin hormonları) təsirlərə qarşı çox həssasdır. Ç.v. bunlara əksinə inkişaf və atrofiya ilə reaksiya verir. Ç.v.-nin qan təchizatı daxili döş arteriyasının, aorta qövsünün və çiyin-baş kötüyünün timus şaxələri; innervasiyası – azan, simpatik və diafraqmal sinirlərin şaxələri ilə yerinə yetirilir.

Ç.v.-nin normal inkişafdan kənara çıxma halları: aplaziya (tamam olmaması), bu, adətən, orqanizmin digər inkişaf qüsurları ilə birlikdə və hipoplaziya (Ç.v.-nin az inkişafı) – qalxanabənzər vəzinin hipoplaziyası və psixi geriliklə kombinasiyalı şəkildə olması ilə təsadüf edilir. Bəzi hallarda boğazda yerləşən əlavə vəzilər müşahidə edilir. Ç.v.-nin hiperplaziyası (xeyli böyüməsi) qonşu orqanların normal inkişafına mane ola bilər, tənəffüs pozuntusu və qəflətən ölüm törədə bilər; çox vaxt timiko-limfatik vəziyyətin meydana çıxmasına səbəb olur.

*Əd.:* Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека.В 2 томах. Том1, Б. 2004.

**ÇƏNGİ** – keçmişdə bəzi Şərq ölkələrində, həmçinin Azərb.-da saray məclislərinə, kişilərin iştirak etdiyi toy və ya şənliklərə dəvət edilən rəqqasə. Ç.-lər topuq və biləklərinə taxdıqları zınqırovları (xalxal) musiqiyə uyğun səsləndirərək rəqs edirdilər. Ç.-lər, əsasən, qaraçılardan olurdu. "Ç." termini Azərb.-da xalq arasında mənfi mənada işlədilir.

**ÇƏNGLİ**, Əlirzalar – İrəvan xanlığında Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Millidərə bölgəsində, Çəngli çayı (Vedi çayının sağ qolu) sahilində azərb.-ların yaşadığı kənd. 1918–20 illərdə kənd erməni-daşnak hücumlarına məruz qalmış, dağıdılmış, əhalisi qovulmuşdur. 1922 ildə geri qayıtmış, kəndi yenidən bərpa etmişdir. 1935 ildən kənd Əlirzalar adlandırılmışdır, 1930-cu illərin sonlarında kənd ləğv edilmiş, əhalisi qonşu Kotuz k.-nə köçürülmüşdür. 1950 ildə kəndin əhalisi Kotuz k.-nin əhalisi ilə birgə Azərb.-a deportasiya olunmuşdur.

**ÇƏNGMAS** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Əbhər bölgəsinin Əbhərrud kəndistanında, Əbhər qəs.-ndən 27 *km* c.-dadır.

**ÇƏNQAN** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Muğan kəndistanında, Germi qəs.-ndən 18 *km* c.-ş.-dadır.

**ÇƏNQUR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Səcarud kəndistanında, Qiydar qəs.-ndən 12 *km* şm.-q.-dədir.

**ÇƏNLİBEL** – rəvayətə görə, Azərb. xalq qəhrəmanı Koroğlunun əsas iqamətgahı, qala. Cənubi Qafqazda, xüsusilə Azərb.-da, həmçinin Yaxın və Orta Şərq ölkələrində Ç. adlı çoxlu sayda qala mövcuddur. Əsasən, uca dağ başında tikilmiş ən möhtəşəm qalalar xalq arasında Ç. qalası kimi tanınmışdır. 19 əsrə aid mənbələrdə Azərb.-da Ç. yaşayış məntəqəsinin adı çəkilir. A. Bakıxanov Xoy hakimi Cəfərqulu xan Dünbulinin bir müddət Naxçıvan yaxınlığında "Koroğlunun Çənlibelində" yaşadığını göstərmişdir (bax, həmçinin *Koroğlu*, *Koroğlu qalaları*).

**ÇƏNLİBEL** (1990 ilədək Çardaqlı) – Azərb. Resp. Şəmkir r-nunda kənd. Çənlibel ə.d.-nin mərkəzi. R-n mərkəzindən 25 *km* c.-q.-də, Şəmkir–Gədəbəy avtomobil yolu kənarında, dağ yamacındadır. Əh. 3286 (2011); heyvandarlıq, taxılçılıq və kartofçuluqla məşğuldur. 2 tam orta məktəb, uşaq bağçası, kitabxana, mədəniyyət evi, xalq tətbiqi sənəti muzeyi, xəstəxana, rabitə şöbəsi, ATS var.

**ÇƏNNƏB** – Azərb. Resp. Ordubad r-nunda (Nax. MR) kənd. Çənnəb ə.d.-nin mərkəzi. R-n mərkəzindən 32 *km* şm.-q.-də, dağ ətəyindədir. Əh. 561 (2011); bağçılıq, əkinçilik, arıçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**ÇƏNNƏB** – Azərb. Resp. Ordubad r-nunda (Nax. MR) çay. Gilançayın qolu. 1050 *m* hünd.-dən başlanır. Uz. 9 *km*. Qar, yağış və yeraltı sularla qidalanır.

**ÇƏNRƏQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Yengecə kəndistanında, Sərab ş.-ndən 18 *km* şm.-q.-dədir.

**ÇƏP ƏYİLMƏ**, metallar müqavimətində – bax *Əyilmə*.

**ÇƏPÇƏP** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin Zəncanrud kəndistanında, Zəncan ş.-ndən 66 *km* şm.-q.-dədir.

**ÇƏPDƏRƏ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin Sultantəpə kəndistanında, Zəncan ş.-ndən 54 *km* c.-q.-dədir.

**ÇƏPDİRƏK**, inşaat mexanikasında – şəbəkəli mil sistemlərində, məs., fermaların şəbəkələrində işlədilən çəp millər. Ç. aşırımlarda milin uz.-nu azaltmaq, beləliklə də *əyilmənin* qarşısını almaq üçün qoyulur.

**ÇƏPƏR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin Çaypara kəndistanında, Zəncan ş.-ndən 30 *km* şm.-q.-dədir.

**ÇƏPƏRQIRILAN** – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasında (9.9.1930 ildən İcevan r-nu) azərb.-ların yaşadığı kənd. Əvvəllər qışlaq kimi mövcud olmuşdur. 1930-cu illərdə kollektivləşmə ilə əlaqədar kənd ləğv edilmiş və əhalisi azərb.-lar yaşayan qonşu kəndlərə köçürülmüşdür.

**ÇƏPƏRLƏMƏ** (ing. enclosures) – icma torpaqlarının və qaydalarının spesifik ləğvi forması; kəndlilərin kütləvi ekspropriasiyası (*ilkin kapital yığımının* əsası) formalarından biri. Ç. klassik formada 15 əsrin sonu – 19 əsrin əvvəllərində İngiltərədə mövcud olmuşdur. 15 əsrin sonu – 16 əsrdə Ç.-yə əsas səbəb yunun qiymətinin artması idi. Bu dövrdə otlaqlarla yanaşı əkin sahələri də çəpərlənirdi. Bu da icma qaydalarının ləğvinə səbəb olurdu. Torpaqdan və onları becərməkdən məhrum olanlar evlərindən qovulur, pauperlərə – dilənçi və səfillərə çevrilirdilər. Çəpərlənmiş torpaqları ya lord özü istismar edir (yoxsullardan muzdurlar tutub işlətməklə), ya da iri fermerlərə icarəyə verirdi.

Ç. kəndin sosial tərkibini dəyişirdi; fermerlərin payı artır, müstəqil icma üzvü olan kəndlilərin payı azalırdı. Ç. *İngiltərə burjua inqilabından* (17 əsr) sonra aqrar münasibətlərin kapitalistcəsinə yenidən qurulması gedişində xüsusilə güclənmişdi. 18 əsrdə Ç. prosesinə parlament qarışdı və Ç. haqqında bir çox "xüsusi" aktlar verməklə onu leqallaşdırdı. Parlament Ç.-si adlanan bu Ç.-lər icma tarla sisteminin ləğvini və xırda torpaq sahibkarlarının məhvini başa çatdırdı. Ç. klassik kapitalist k.t. strukturunun yaranmasına səbəb oldu. Feodallar kapitalist tipli lendlordlara – torpaq sahibkarlarına çevrildilər (bax *Lendlordizm*). Burjuaziya ucuz işçi qüvvəsi ilə təmin olundu. Ç. Niderland, Fransa və Almaniyada da geniş yayılmışdı.

**ÇƏPƏRLƏYİCİ SÜZGƏC**, rejektor süzgəci – müəyyən tezlik zolaqlarındakı elektrik rəqslərini buraxmayan qurğu; başqa tezlikli bütün rəqslər buraxılır. Ç.s. radiodalğaların qəbulu zamanı yaxınlıqdakı güclü radiostansiyalardan olan maneələri (əngəlləri) zəiflətmək, TV proqramlarında səs müşayiəti tezliklərini korreksiya etmək və s. üçün tətbiq edilir.

**ÇƏPƏRSARMAŞIĞI** (Calystegia) – otsarmaşığı fəsiləsindən çoxillik sarmaşan və ya yerəyatan ot bitkisi cinsi. Uz. 3–5 *m* olur. Gövdəsi hamardır. Yarpaqları ürəkşəkilli və ya oxşəkillidir; ağ və ya çəhrayi çiçəkləri qıfvarı-zəngvarı, yarpaq qoltuğunda tək yerləşir. Meyvəsi dairəvi





Çəpərsarmaşığı (Calystegia sepium).

kisədir. Hər iki yarımkürənin mülayim qurşaqlarında 25-ədək növü yayılmışdır. Bəzi növləri dekorativ bitki kimi becərilir.

**ÇƏPGÖZLÜK**, strabizm, heterotropiya – gözün birinin görmənin ümumi fiksasiya nöqtəsindən uzaqlaşması. Bilinən Ç. kosmetik qüsur olmaqdan əlavə binokulyar görmə pozuntusu ilə müşayiət olunur. Xəstəlik müştərək Ç.-ə və iflicli Ç.-ə ayrılır. Müştərək Ç. – daha çox gözün hərəki pozuntusu kimi anadangəlmə patologiya və ya həyatının ilk illəri ərzində inkişaf edən patologiya olmaqla, 2–5% uşaqlarda təsadüf edilir. Bununla bərabər çəpləşən göz sağlam gözün hər bir hərəkəti zamanı onun ardınca uzaqlaşır, uzaqlaşma bucağı isə hər hansı istiqamətə baxışda sabit qalır. Bu forma Ç. monokulyar (gözün biri görmə oxundan uzaqlaşır) və növbələşən (hər iki göz görmə oxundan növbə ilə uzaqlaşır) ola bilər. Çəpləşən gözün əyilmə istiqamətinə görə, həmçinin konvergens (daxili – buruna tərəf) Ç. (70–80% hallarda) və divergens (xarici – tuşə tərəf) Ç. (15–20%) fərqləndirilir; nadir hallarda şaquli Ç. (yuxarı və ya aşağı əyilmə) müşahidə edilir. Müştərək Ç.-ün inkişafına meyillilik genetik amillərlə bağlıdır. Bunun səbəbi *gözün refraksiyasının* düzəldilməmiş anomaliyaları (uzaqdan görən uşaqlarda çox vaxt konvergent Ç. yaranır), bir gözün optik mühitinin şəffaflığının pozulması nəticəsində onun görməsinin azalması və ya korluğu (məs., katarakta, buynuz qişanın bulanması zamanı), göz dibinin xəstəlikləri (şişlər, mərkəzi distrofiyalar və s.), habelə sensomotor əlaqələrin pozulmasına səbəb olan və binokulyar görmənin formalaşmasına mane olan digər patoloji vəziyyətlər ola bilər.

İflicli, yaxud qeyri-müştərək Ç. gözün bir və ya bir neçə xarici hərəki əzələsinin iflici nəticəsində baş verir. O, müştərək Ç.-dən müxtəlif istiqamətlərə baxış zamanı dəyişkən uzaqlaşma bucağı ilə fərqlənir və bu, çəp gözün iflic olmuş əzələ tərəfə hərəkətinin məhdudlaşması və ya olmaması ilə özünü göstərir. Həmin tərəfə baxış *diplopiya* və zədələnmiş əzələlərin çatışmazlığını kompensasiya etmək üçün başın məcburi döndərilməsi ilə müşayiət olunur. İflicli Ç.-ün səbəbi kəllə-beyin travmaları, şişlər, görmə sinirinin infeksion zədələnməsi və s. ola bilər.

Müalicəsi: müştərək Ç.-də *ambliopiyanın* aradan qaldırılmasına və ya profilaktikasına yönəldilmiş gözün refraksiyanın müəyyən edilməsi və adekvat korreksiyanın seçilməsi, sağlam gözün okklüziyası və d. üsullardan istifadə etmək, habelə cərrahi korreksiya (gözün hərəki əzələlərinin dartılması yolu ilə gözün simmetrik vəziyyətinin bərpa edilməsi) və binokulyar görmənin bərpası. İflicli Ç.-də cərrahi müalicə mərhələsindən əvvəl əsas xəstəliyin müalicəsi aparılır, lakin binokulyar görmə nadir hallarda təmin olunur. Profilaktikası: uşaqların erkən yaşlarda kütləvi müayinədən keçirilməsi, *ametropiya* zamanı vaxtında gözlük təyin etmək, habelə travmatizmin və doğum travmasının qarşısını almaq. Gizli Ç. sağlam adamların əksəriyyətində olur. Bu zaman ideal əzələ tarazlığı olmur, lakin gözlərin simmetrik vəziyyəti hər iki gözün görmə şəkillərinin birləşməsi nəticəsində saxlanılır. Adətən, gizli Ç.-ün müalicəsi tələb olunmur.

*Əd.:* Quliyeva Z.T. Çəpgözlük. B., 1980; Шульпина Н.В., Алиева З.А., Мошетов Л.К. Актуальные проблемы офтальмологии. B., 1983; Офтальмология: Национальное руководство. M., 2008.

**ÇƏPİŞ**, oğlaq – yeni doğulmuş, südəmər keçi balası.

**ÇƏPKƏN** – Azərb.-da milli qadın geyimi. Ç. astarlı olub belə qədər bədənə kip biçilirdi. Yan tərəflərdə ətəyə yaxın hissədə çapığı olan Ç.-in əlcək ilə bitən qondarma qolları (astarı, qiymətli parçadan olan qollara bəzən düymələr tikilirdi) olurdu. Bel hissədən bağ ilə bağlanırdı. Ç. tirmə, darayı, məxmər, müxtəlif zərli parçalardan tikilirdi. Ç.-in yaxası, ətəyi, qolunun kənarları zərif bafta, kəbəzəncirə və s. tikmələrlə bəzədilirdi. Bəzən Ç.-in üstündən gümüş kəmər də bağlayırdılar. Ön Asiya, Yaxın Şərq xalqları arasında, Azərb.-da (xüsusilə Şuşa, Bakı, Şəki, Şamaxı zonalarında) geniş yayılmışdı.

Çəpkən.



**ÇƏPLİ** – Azərb. Resp. Kəlbəcər r-nunda kənd. Çəpli ə.d.-nin (Çəpli, İlyaslar k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 20 *km* şm.-ş.-də, Murovdağ silsiləsinin ətəyindədir. Əh. 451 (2011); işğaldan (1993, aprel) əvvəl heyvandarlıq və tütünçülüklə məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, klub, kitabxana, feldşer-mama məntəqəsi var idi.

**ÇƏPNİ** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu) azərb.-ların yaşadığı kəndi. 1828 ildə əhalisi qovularaq kənddən çıxarılmış, boşalmış evlərə isə İrandan köçürülmüş ermənilər yerləşdirilmişdir. 3.1.1935 ildə kəndin adı dəyişdirilərək Dzovagyuğ qoyulmuşdur.

**ÇƏPNİLƏR** – oğuz tayfalarından biri. Əvvəllər Orta Asiyada yaşayan Ç. Azərb.-a səlcuqların tərkibində gəlmişlər. Mənbələrdə cəbən, çapakı, çibni, çippi, cəbni kimi də adları çəkilir. Ç. xarəzmşah Cəlaləddinin [1220–31] hərbi yürüşlərində iştirak etmişlər. Keçmiş Çəpni (Quba qəzası), Çəbni (Göyçay qəzası) və indiki Çəpli (Kəlbəcər r-nu) kəndlərinin, habelə Cabani tarixi yerinin (Şamaxı r-nu) Ç.-lə əlaqədar olması ehtimal edilir.

**ÇƏRÇƏLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Yaft kəndistanında, Horand qəs.-ndən 16 *km* c.-dadır.

**ÇƏRÇİ** – keçmişdə Azərb.-da xırdavat alveri ilə məşğul olan səyyar satıcı. Ç. şəhər dükanlarından və iri tacirlərdən borc, yaxud nağd pulla alınmış xırdavat (ədviyyat, boyaq, xına, basma, iynə-sap, qayçı və s.) və digər məişət ləvazimatlarını qazancla kənd əhalisinə satmaqla məşğul olurdu.

**ÇƏRÇİBOĞAN** – Azərb. Resp. Şərur r-nunda (Nax. MR) kənd. Çərçiboğan ə.d.-nin (Çərçiboğan, Babəki k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 2,5 *km* c.-da, Şərur düzündədir. Əh. 3641 (2011); heyvandarlıq, əkinçilik və yemçiliklə məşğuldur. Tam orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, klub, kitabxana, tibb məntəqəsi, baytarlıq məntəqəsi, poçt, ATS, məscid var.

**ÇƏRCİLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Miyandab bölgəsinin Mərhəmətabad kəndistanında, Miyandab qəs.-ndən 9 *km* şm.-q.-dədir.

**ÇƏRÇİVƏ,** inşaat mexanikasında – həndəsi dəyişməyən mil sistemi; elementləri (rigel və dirək) bütün düyünlərdə, yaxud düyünlərin çoxunda birbirilə sərt (oynaqsız) birləşir. Ç. tikintidə geniş işlədilən *yüksaxlayan konstruksiyadır.* Sənaye və ictimai binaların, yaşayış evlərinin, körpülərin, dəniz-neft qurğularının, nəql. maşınlarının və s. tikililərin yüksaxlayan konstruksiyası kimi həm müstəvi, həm də fəza qurğularında işlədilir. Ç., əsasən, metal və dəmirbetondan, bəzən isə ağacdan (yapışqanla bərkidilmiş) quraşdırılır. Statik həllolunan və statik həllolunmayan növləri var. Yığma dəmir-beton və qabaqcadan gərginləşdirilmiş növləri də işlədilir. Monolitliyi, çevikliyi və fəzada yaxşı işlənməsi, həmçinin zəlzələyə davamlı olması Ç.-nin üstün cəhətləridir.

**ÇƏRÇİVƏ-ANTENA,** çərçivəşəkilli antena – məftil və ya bir neçə yastı məftil sarğıları şəklində düzəldilən istiqamətlənmiş *antena*; məftil sarğıları dairə, kvadrat və ya düzbucaqlı formada *çərçivə* əmələ gətirir. Çərçivənin perimetri şüalandırılan və qəbul olunan dalğaların uz.-dan xeyli az olur. Çərçivənin müstəvisi verici radiostansiya istiqamətində olduqda maks. siqnal qəbul edilir. Ç.-a.-dan, əsasən, *radiopelenqator*, radiokompas və s.-də istifadə olunur.

**ÇƏRÇİVƏLİ KÖRPÜ** – dayaq konstruksiyası (sütun, dirək və s.) aşırım hissəsinə rigellərlə sərt birləşdirilmiş *korpü.* Körpüsalmada bir-birinə oynaqla (mütəhərrik) birləşdirilmiş ayrı-ayrı T-şəkilli çərçivələrdən ibarət olan konsol tipli körpü konstruksiyasından daha çox istifadə olunur.

**ÇƏRƏAXITMA** – dişi heyvanlarda həvəsgəlmədən əvvəl cinsiyyət orqanından selikli maddənin ifraz olunması. Bundan sonra balalıqda ana hüceyrəsinin ovulyasiyası baş verir. Erkək fərdlə cütləşdikdə döllənmə ilə nəticələnir.

**ÇƏRƏCƏ** – Azərb. Resp. Göyçay r-nunun Çərəkə ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* c.-da, Şirvan düzündədir. Əh. 764 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**ÇƏRƏKDAR** – Azərb. Resp. Kəlbəcər r-nunda kənd. Çərəkdar ə.d.-nin mərkəzi. R-n mərkəzindən 26 *km* şm.-ş.-də, Tərtər çayının sahilindədir. Əh. 722 (2011); işğaldan (1993, aprel) əvvəl heyvandarlıq, arıçılıq, bağçılıq və tütünçülüklə məşğul olmuşdur. Orta məktəb, kitabxana, mədəniyyət evi, feldşer-mama məntəqəsi var idi.

**ÇƏRƏKƏ** – Azərb. Resp. Göyçay r-nunda kənd. Çərəkə ə.d.-nin (Çərəkə, Cəyirli, Çərəcə k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 12 *km* c.-da, Şirvan düzündədir. Əh. 3752 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. 2 tam orta məktəb, tibb məntəqəsi, klub, kitabxana, poçt, ATS var.

**ÇƏRƏKƏ** (fars. چرکه – dörddə bir) – Quranın bəzi surələrinin, həmçinin duaların məcmusundan ibarət kitabça. Keçmişdə Yaxın Şərq ölkələrində, eləcə də Azərb.-da Ç.-dən dərslik kimi istifadə olunurdu.

**ÇƏRƏKƏN** – Azərb. Resp. Cəbrayıl r-nunda kənd. Çərəkən ə.d.-nin (Çərəkən, Əfəndilər, Papı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 4 *km* şm.-ş-də, düzənlikdədir. Əh. 633 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana, klub, tibb məntəqəsi var idi.

**ÇƏRƏKTONLU SİSTEM** – oktavanın adi 12 yarımton əvəzinə 1/4 tonlu 24 bərabər intervallara bölünməsinə əsaslanan süni səs sistemi. 1910 ildən nəzəri cəhətdən əsaslandırılmışdır. Çex bəstəkarı və musiqi nəzəriyyəçisi A. Haba bu sistemi ardıcıl olaraq işləyib hazırlamışdır. 20 əsrin 20-ci illərində Ç.s. rus bəstəkarları və musiqi nəzəriyyəçilərindən A.M. Avraamov, G.M. Rimski-Korsakov və b. tərəfindən tədqiq olunaraq, yaradıcı şəkildə mənimsənilmişdi.

**ÇƏRƏLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Əbərqan kəndistanında, Sərab ş.-ndən 11,5 *km* q.-dədir.

**ÇƏRƏLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsində, Səriskənd qəs.-ndən 12 *km* şm.-dadır.

**ÇƏRƏLİ** – Azərb. Resp. Qubadlı r-nunda kənd. Çərəli ə.d.-nin (Çərəli, Boyunəkər, Saldaş k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 33 *km* c.-da, dağ ətəyindədir. Əh. 387 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var idi.

**ÇƏRƏN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkmən bölgəsinin Tirçayı kəndistanında, Türkmən qəs.-ndən 17 *km* şm.-ş.-dədir.

**ÇƏRƏZ** – məzə növü; püstə, ləbləbi, kişmiş, mövüc, albuxara, innab, badam, qoz və fındıq ləpəsi, alma və armud qaxı, qovurğa və s. ənənəvi Ç.-lərdir. Ç. qədim zamanlardan Azərb.-da toy-bayramların, şənliklərin, ziyafət süfrələrinin bəzəyidir.

**ÇƏRGƏR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Əbhər bölgəsinin Əbhərrud kəndistanında, Əbhər qəs.-ndən 34 *km* şm.-q.-dədir.

**ÇƏRXÇİ** – orta əsrlərdə Azərb.-da, habelə bəzi qonşu Şərq ölkələrində xüsusi hərbi süvari dəstənin döyüşçüsü. Osmanlı imperiyasında çərxəçi adlanırdı. Ç. dəstələri təcrübəli və cəsur döyüşçülərdən təşkil olunurdu. Döyüş adətən çərxçibaşının rəhbərdik etdiyi Ç.-lərin meydana girmələri ilə başlanırdı. Bu vəzifə ən görkəmli əmirlərə həvalə edilirdi. Məs., Çaldıran vuruşmasında (1514) qızılbaş çərxçibaşısı Məhəmməd xan Ustaclu, osmanlılarınkı isə Sarı Pirə olmuşdur. Hərbi sursatın əvvəlcədən döyüş meydanı yaxınlığına gətirilməsi də Ç.-lərin vəzifəsinə daxil idi. Ç. dəstələri yalnız döyüş ərəfəsində təşkil edilirdi.

**ÇƏRİK** – orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkəsində, o cümlədən Azərb.-da qeyri-nizami döyüşçü dəstəsi. Müharibə zamanı ayrı-ayrı vil.-lərdən yerli feodalın başçılığı ilə ordunun köməyinə göndərilən Ç.-lər adətən hərbi məşq keçməyən şəxslərdən təşkil olunurdu. "Köməkçi qoşun", "başıpozuq", "könüllü ləşkər", "çətə", "sərazad" və s. də adlanırdı. Ç. dəstələrinin üzvləri müharibə qurtardıqdan sonra öz yerlərinə qayıdırdılar.

**ÇƏRİKLİ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Qışlaqat Əfşar kəndistanında, Qiydar qəs.-ndən 51 *km* q.-dədir.

**ÇƏRKƏZ ƏDƏBİYYATI** – bax *Qaraçay-Çərkəz Respublikası* məqaləsinin "Mədəniyyət" bölməsinə.

**ÇƏRKƏZİ** – keçmişdə Qafqaz xalqlarında kişi üst geyimi (ətraflı məlumat üçün bax *Çuxa*).

**ÇƏRKƏZLƏR,** adıgelər (özlərini belə adlandırırlar) – Şimali Qafqazda adıqlar qrupundan xalq. Sayları Kabarda-Balkarda 493,5 min, Adıgeyada 110,2 min, Qaraçay-Çərkəzdə 57,3 min, Krasnodar diyarında 24 min, Stavropol diyarında 10,5 min nəfərdir (2010). Həmçinin Türkiyədə 1,5 mln., Almaniyada 20 min, Fransada 2 min, İordaniyada təqr. 74 min, Suriyada təqr. 20,5 min, İraqda 24 min, Liviyada 35 min, ABŞ-da 5 min, Misirdə 5 min, İsraildə 5 min, Livanda 1 min, Avstraliyada 1 min, Sudanda 1 min çərkəz yaşayır. Ümumi sayları təqr. 2,5 mln.-dur (2010). Keçmişdə qonşu xalqlar Ç.-in əcdadlarını "kabardalılar" "besleneylər", yaxud "adıqlar" adlandırırdılar. 19 əsrin ikinci yarısında Qafqazın Rusiyaya birləşdirilməsindən sonra Yaxın







Çərkəz rəqqasları.

Şərq ölkələrinə mühacirət etmiş Şimali və Qərbi Qafqazdan olan adıqlar və digər xalqlar çox vaxt "çərkəzlər" adlandırılırlar. Şimali Qafqaz dil ailəsinin abxazadıq qrupuna aid olan Kabarda-Çərkəz dilində (kabardalılarla yanaşı) danışırlar. Dindarları müsəlmandır.

Ç.-in adı, ehtimal ki, yunan müəlliflərinin "kerketlər" adlandırdıqları Qara dənizin şm.-ş. sahilində yaşamış bir qrup adıq əhalisinin adından törəmişdir. Çərkəzistan ərazisində adıqlar 5–7 əsrlərdə məskunlaşmışlar. 12–13 əsrlərdə adıqların bir hissəsi Terekboyu ərazilərə köçmüş, burada hakimiyyətləri Çərkəzistana da yayılan Böyük və Kiçik Kabarda dövlətlərinin əsasını qoymuşdular. 18 əsrin sonu – 19 əsrin əvvəllərində kabardalıların Çərkəzistan ərazisinə kütləvi köçü baş vermişdi. Ç.-in təşəkkülündə əsas komponentlərdən biri besleneylər olmuşlar. Onlar haqqında ilk məlumatlar 16 əsrə aiddir. 16–18 əsrlərdə besleneylər, beslinlər, besleney Ç.-i kimi, yaşadıqları ərazi isə Besleney, Bısleney, Besleney kabakları adı ilə məlum idi. 1922 ildə yaradılmış Qaraçay-Çərkəz MV 1991 ildə Qaraçay-Çərkəz Respublikası adlandırılmışdır.

Əsas məşğuliyyətləri köçəbə maldarlıqdır (qoyun, keçi, at, qaramal; islamı qəbul edənə qədər donuz). Kabarda cinsindən olan atların yetişdirilməsi xüsusi yer tuturdu. Ənənəvi sənətkarlıq sahələri, əsasən, maldarlıq məhsullarının emalı ilə bağlı idi – mahud, geyim, yapıncı və s. istehsalı. Çərkəz mahudu xüsusilə qonşu xalqlarda yüksək qiymətləndirilirdi. Çərkəzistanın c.-unda ağac emalı inkşaf etmişdi. Dəmirçilik və silahsazlıq geniş yayılmışdı.

Ç., əsasən, varlı icmaçılardan ibarət özünüidarəetmə orqanları olan müstəqil kənd icmalarında birləşirdilər. İcma üzvləri ellik zəmanətlə bağlı olur, ümumi torpaq sahələrindən və otlaqlardan istifadə edir, xalq yığıncaqlarında səsvermə səlahiyyətinə malik idilər. Qohumluğu ata xətti ilə hesablanan qruplar (qrupun üzvləri bəzən kəndlərdə xüsusi məhəllələr yaradırdılar), həmçinin qan intiqamı, qonaqpərvərlik, dostpərəstlik adətləri qorunub saxlanılırdı. 18 əsrə qədər 100-ə yaxın insanı birləşdirən və bir neçə nəsildən ibarət böyük patriarxal ailə üstünlük təşkil edirdi. Ailə icmaları 19 əsrin sonunda yenidən meydana gəldi. Nikahlar qəti olaraq ekzoqam idi. Nikah qadağaları hər iki tərəfdən olan bütün qohumlara və onların övladlarına, süd qohumluğu olan insanların nəsillərinə də şamil edilirdi. Levirat, sororat, atalıq, yalançı qohumluluq qalmaqda idi. Nikahlar başlıq (kalım) ödənilməsi ilə bağlanırdı.

Qaraçay-Çərkəz Resp.-nda müasir ailələrin çoxu 19 əsrin ikinci yarısında salınmışdır. 19 əsrdə və 20 əsrin əvvəllərində 12 ail, 20 əsrin 20-ci illərində isə 5 ail meydana gəlmişdi. Mülk hasarla əhatələnirdi. Yaşayış evlərinin fasadı cənuba doğru yönəldilirdi. Evlərin dirəkli karkas üzərində gillə suvanmış hörmə divarları, samanla örtülmüş qoşa və ya dördyamaclı hörmə damı, möhrə döşəməsi olurdu. Ev böyük ailəni təşkil edən kiçik ailələrin (ər-arvadın) sayına uyğun, birbiri ilə yanaşı olan, qapısı həyətə açılan bir və ya bir neçə otaqdan ibarət idi. Otaqlardan biri və ya ayrıca tikili qonaq otağı kimi istifadə edilirdi. Divarın yanında qapı ilə pəncərə arasında hörmə tüstü bacası olan açıq ocaq qurulurdu, ocağın içərisinə isə qazan asmaq üçün köndələn tir yerləşdirilirdi. Hörgülü təsərrüfat tikililəri çox vaxt dairəvi və ya oval formada olurdu. Müasir Ç. kvadrat planlı çoxotaqlı evlər tikirlər.

Ənənəvi kişi geyimləri çərkəzi, beşmet, şalvar, mahudla işlənmiş xəz papaq, yapıncı, kəmər, çust və yun corablardan ibarət idi; varlılar güləbətinlə işlənmiş qırmızı tumac çəkmə geyinirdilər. Hazırda milli geyimin tam dəstinə az rast gəlinir; onu, adətən, bayramlarda geyirlər.

Qadın geyimləri tam şəkildə 19 əsrdə formalaşmışdır. Paltarın qurşaqdan yerə qədər kəsməsi olurdu. Ziyafət paltarı ipəkdən, yaxud məxmərdən tikilir, güləbətinlə işlənir və tikmələrlə bəzədilirdi. Qırmızı rəngli paltarı yalnız əsilzadə qadınlar geyirdilər. Paltar gümüş kəmərlə bağlanırdı. Paltarın üstündən tünd qırmızı və ya qara parçadan qızılı və gümüşü bafta ilə bəzədilmiş gümüş ilgəkli kaftan geyinirdilər. Dəridən tikilmiş ayaqqabı gümüşlə bəzədilirdi. Çərkəz qadınının baş geyimi onun yaşından və ailə vəziyyətindən asılı idi. Uşaqlar başlarında yaylıq (örpək), yaxud başı açıq gəzirdilər, qızlar və gənc qadınlar (ilk övladın dünyaya gəlməsinə qədər) güləbətin və tikmə naxışlarla bəzədilmiş, mahud və ya məxmərlə işlənmiş hündür "qızıl papaq" taxır, üstdən isə nazik ipək yaylıq örtürdülər. Dünyaya uşaq gətirdikdən sonra qadın başını tünd yaylıq və şalla tamamilə örtürdü. Müasir çərkəz qadınları milli paltarlarını ancaq bayramlarda geyinirlər.

Yay mövsümündə, əsasən, süd məhsulları və tərəvəzlə qidalanırlar, qışda və yazda xəmir və ət yeməkləri üstünlük təşkil edir. Duzsuz xəmirdən bişirilmiş qatqat çörəklə yaşıl kalmık çayı (duz və qaymaqla) içilir. Mayalı çörək də bişirilirdi. Qarğıdalı unu və yarma geniş istifadə edilir. Ən sevimli yeməkləri sarımsaqlı və qırmızı istiotlu məzə ilə toyuq və hindtoyuğudur. Qoyun və mal əti soyutma şəklində, sarımsaqlı qatıqla yeyilir. Soyutma ətdən sonra mütləq işkənə, qızardılmış ətdən sonra isə qatıq verilir. Toy mərasimlərində və böyük bayramlarda darı və qarğıdalı unundan yüngül ballı içki (buza) hazırlanır. Bayramlarda buğda unundan halva çalınır və kökə bişirilir.

Folklorda əsas yeri ümumadıq süjetlərinə əsaslanan dastanlar, Nart eposu tutur. Mahnı ifaçıları və dastançılar incəsənəti (cequaki) inkşaf etmişdir. Ağılar, əmək və məzhəkəli mahnılar geniş yayılmışdır. Ənənəvi musiqi alətləri – skripka, bjamey (tütək), pxarçaç (zərb aləti),

əllə və çubuqlarla çalınan müxtəlif qavallardır. 18 əsrin sonlarında ruslardan qarmon mənimsənilmişdir. Qarmonda əsasən qadınlar, başqa alətlərdə isə kişilər ifa edirlər.

14–15 əsrlərdə Ç. xrstian hesab olunurdular. Xristianlıq burada Bizans və Gürcüstandan 10–12 əsrlərdə yayılmışdır. 14 əsrdən isə islam dini yayılmağa başlamışdır. 18 əsrdə Ç. tam olaraq islam dinini qəbul etsələr də, xristianlığın izləri 20 əsrə qədər qalmışdır. Ç. bir çox qədim allahlara – Thaqalec – məhsuldarlıq allahı, Mazıth – ovçuluq allahı, Meriss-arıçılıq allahı, Ahin – qaramal allahına, Yamş – keçi və qoyun allahı, Zeykueth – süvarilik allahı, Şibl – ildırım və şimşək allahı, Tlepş – metal və dəmirçilərin allahına sitayiş edirdilər.

**ÇƏRMƏDİL** – Azərb. Resp. İsmayıllı r-nunun Qubaxəlilli ə.d.-ndə kənd. R-n mərkəzindən 33 *km* c.-ş.-də, Girdiman çayının sahilində, Ağsu–Qaraməryəm avtomobil yolu kənarında, Qaraməryəm tirəsinin ətəyindədir. Əh. 85 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur.

**ÇƏRMƏVƏRAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, bölgə mərkəzindən 9 *km* c.-q.-dədir.

**ÇƏRMXORAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Abbaslı kəndistanında, Bostanabad qəs.-ndən 18 *km* c.-ş.-dədir.

**ÇƏRPƏLƏNG** – küləyin səthinə göstərdiyi təsir nəticəsində havada dayanan quruluş. Ç.-in əsas konstruktiv elementləri: parça və ya kağızdan hazırlanan, sərt karkasa çəkilmiş, yaxud karkassız, yumşaq aerodinamik səth; bucurqad və ya sarğaca sarınmış leyer (davamlı sap, kəndirli ip, polad tros); Ç.-ə leyerin və dayanıqlıq orqanının (quyruq) bərkidilməsi üçün yüyən. Ç. küləyin hərəkəti istiqamətinə müəyyən bucaq altında yerləşdirilir və yerdən leyerlə idarə olunur. Mənbələrdə Ç.-in e.ə. Çində düzəldilməsi barədə məlumatlar var. 18–20 əsrlərdə atm.-in tədqiqi, müxtəlif *metereoloji cihazların, antenaların*, aerofotoçəkilişlər məqsədilə fotoaparatların havaya qaldırılması və s. üçün istifadə edilmişdir. Ç. aerodinamik səthinin forma və quruluşuna görə növlərə ayrılır. B i r m ü s t ə v i l i (birsəthli) Ç. sadə konstruksiyalıdır, qaldırma qüvvəsi və küləyə qarşı davamlılığı azdır, yük bağlanan qaytandan ibarət quyruğu olur. Ç o x m ü s t ə v i l i (çoxsəthli) Ç. tetraedr və ya paralelepiped formalı ayrı-ayrı hissələrdən, qutulardan ibarətdir və yüksək



Çərpələng.

davamlılığa malikdir. Q r u p ş ə k i l l i (qatarşəkilli) Ç. bir neçə Ç.-in vahid mütəhərrik sistemdə birləşməsi ilə qurulur. Qatardakı Ç.-lərdən birinin sıradan çıxması yalnız qaldırıcı qüvvənin və qalxma hündürlüyünün azalmasına səbəb olur, Ç.-i istənilən vaxt təhlükəsiz yerdə endirməyə imkan verir. Ç. kifayət qədər möhkəm və sərt olmalı (səthinə təsir edən küləyin təzyiqindən qatlanmamalı), 3–4 *m/san* sürətlə əsən külək zamanı da uça bilməsi üçün çəkisi az olmalı, daşınmasının rahatlığı üçün tez yığılıb-sökülən olub, az yer tutmalıdır.

**ÇƏRTƏYƏZ** – Azərb. Resp. Kürdəmir r-nunun Mollakənd ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* c.-da, Kür çayının sol sahilində, Şirvan düzündədir. Əh. 581 (2011); əkinçilik və maldarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**ÇƏRVƏR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Kəndovan kəndistanında, bölgə mərkəzindən 4 *km* şm.-q.-dədir.

**ÇƏRZƏXUN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Ucar kəndistanında, Bostanabad qəs.-ndən 4 *km* c.-dadır.

**ÇƏTƏN** – hörmə; qarğıdan, yaxud ağac çubuqlarından hörülmüş çəpər. Qədimdə *aşsüzən* kimi də istifadə olunurdu.

**ÇƏTƏNƏ** – bax *Kənaf*.

**ÇƏTƏNƏ YAĞI** – isti presləmə yolu ilə çətənə toxumlarından alınan yağ. Tündyaşıl mayedir, sıxlığı 0,9292 *q/sm³*-dir. Əlif, lak, boya istehsalında və məhdud miqdarda ərzaq məhsulu kimi işlədilir.

**ÇƏTƏNƏYIĞAN KOMBAYN**, k ə n ə f y ı ğ a n k o m b a y n – çətənə bitkisini biçmək, onun gövdələrindən dərz bağlamaq və s. üçün k.t. maşını. Ç.k. hünd.1–3 *m* olan çətənə üçün nəzərdə tutulmuşdur; götürümünün eni 1,8 *m*, məhsuldarlığı 0,8 *ha/saat*-dır.

**ÇƏTGÜN** – Azərb. Resp. Qusar r-nunun Zindanmuruq ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* c.-q.-də, Qusar çayının sol sahilində, dağlıq ərazidədir. Əh. 162 (2011); əkinçilik, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, tibb məntəqəsi var.

**ÇƏTİNƏRİYƏN BİRLƏŞMƏLƏR** – ərimə temp-ru yüksək olan metalların bor (*boridlər*), karbon (*karbidlər*), azot (*nitridlər*), silisium (silisidlər), oksigen (oksidlər) ilə birləşmələri. Ç.b. iki qrupa ayrılır: metalkimilər və qeyri-metallar. İntermetallidlər, sulfidlər, fosfidlər, həmçinin berillium, alüminium və maqneziumun bor, karbon, azot və silisiumla kimyəvi birləşmələri (ərimə temp-ru 2500°C-dək olan) də Ç.b.-ə aid edilir. Ç.b.-in əksəriyyəti turşuların, qızmar aqressiv qazların, əridilmiş metalların, eləcə də duzların təsirinə yüksək davamlılığa malikdir.

**ÇƏTİR** – bütün çiçəklərin çiçək saplağı (bərabər uzunluqda) qısalmış əsas ox üzərində toplanmış bitki çiçək qrupu (sadə Ç., məs., albalı, novruzçiçəyi). Ç.-də əvvəl periferik, sonra daxili çiçəklər açılmağa



Yabanı yerkökünün (Daucus carota) çətiri.

başlayır. Əsas oxun təpəciyindən çıxan birinci sıranın oxlarında xırda (sadə) Ç.-lərin yerləşdiyi mürəkkəb (ikili) Ç. daha çox rast gəlinir; xırda Ç.-lər çətircik, onların yerləşdiyi oxlar isə şüalar adlanır. Mürəkkəb Ç.-ə çətirçiçəklilər fəsiləsinin bütün bitkilərinə xasdır (yerkökü, şüyüd, tütəkcə və s.)

**ÇƏTİR-GÖBƏLƏKLƏR** (Macrolepiota) – aqarikkimilər fəsiləsindən lövhəli iri bazidili göbələklər cinsi. Papaqcığı (diametri 10–25 *sm*) çətirşəkillidir; rəngi ağdan qırmızımtıl rəngə qədər olur, pulcuqlarla örtülüdür. Lövhələri ağdır, çox vaxt ayaqcıq yaxınlığında bitişib onun ətrafında yaxalıq əmələ gətirir. Ayaqcıq (uz. 15–20 *sm*, yoğunluğu 2,5–3 *sm*) əsasında yoğunlaşmış, yuxarısında hərəkətli enli halqa vardır. Bütün qitələrdə (Antarktidadan başqa) yayılmış 11-ədək







Alabəzək çətir-göbələk (Macrolepiota procera).

növü məlumdur; hamısı yeməlidir. Ən çox yayılanı alabəzək, yaxud hündür Ç.-g. (M. procera), qızaran, yaxud kilkəli Ç.-g. (M. rhacodes) və ağ, yaxud çöl Ç.-g.-idir (M. excoriata). Cavan ala-bəzək Ç.-g.-in papaqcığı yumurtaşəkilli, yetkin Ç.-g.-inki isə çətirşəkillidir, ortasında bozumtul-qonurumtul rəngli aralı yerləşən qonur pulcuqlu tinli çıxıntı vardır. Zəif göbələk iyi və qoz dadı verən ləti ağdır. Delikates göbələkdir. Bərk ayaqcıqları yeməklərə təkrarolunmaz ətir verir. Göbələk tozu hazırlamaq üçün onu bişirmək, qızartmaq və qurutmaq lazımdır. Qızaran Ç.-g.-in səthi çat-çat olan və seyrək, enli qəhvəyi pulcuqlu bozumtul-sarı-oxra rəngli papaqcığı var. Qalın, ağ ləti parçalandıqda, kəsildikdə havanın təsirindən qızarır. Şimal yarımkürəsinin mülayim qurşağında yayılmışdır. Meşələrdə çürüntülü torpaqlarda bitir. Ağ Ç.-g.-in papaqcığı ağımtıl, mərkəzi hissəsində qonurumtul rəngli, xırda nazik pulcuqlarla örtülüdür. Ağ lövhələri papaqcığın xüsusi çıxıntısına bitişərək (yapışaraq) ayaqcığın ətrafında halqaşəkilli quruluş əmələ gətirir. Çəmənlərdə, çöllərdə, bəzən meşə talalarında və kənarlarında rast gəlinir. Şimali Qafqazda, Sibirdə və Primorye ölkəsində yayılmışdır.

Buna yaxın olan Lepiota çətir cinsinin növləri kiçik ölçüləri (papaqcığın diametri 2–10 *sm*, bəzən 13 *sm*-ədək), hərəkətsiz halqaları lifli konsistensiyalı çoxlu pulcuqları ilə fərqlənir. Torpaqda, bitki qalıqları, yaşıl və ölü ağac gövdələri üzərində, meşələrdə və çəmənlərdə bitir. Cinsə 50-dən artıq növ daxildir. Çətir cinsində zəhərli növlərin olması və onların təyin edilməsindəki çətinliklərə görə bu cinsə mənsub göbələklərin yeyilməsi məsləhət görülmür.

**ÇƏTİRÇİÇƏKLİLƏR** (Umbelliferae və ya Apiaceae) – ikiləpəli çiçəkli bitkilərin ən böyük fəsilələrindən biri. Çoxillik, ikiillik və ya birillik otlar, bəzən kol və ağac bitkiləridir (sonuncular Cənubi Afrikada xüsusən çoxdur), həmçinin otşəkilli lianlardır (Pseudocarum). Yarpaqları növbəli, adətən yarılmış, üçqat və ya lələkli, yarpaqaltlıqsız (Hydrocotyloidea) yarımfəsiləsinin nümayəndələrindən başqa), lakin bütöv yarpaqlı cinsləri də var (Bupleurum, Homenackeria və s.). Ağ və ya sarı çiçəkləri 5-buğumlu, çiçək tacı bölümlüləçəkli, əsasən, ikicinsli, mürəkkəb (Ç.-in tipik əlaməti); bəzən sadə çətir və ya başcıqlara toplanmışdır; bir sıra növlərinin çətirlərində çiçəklərin cinsi diferensiasiyası müşahidə olunur; bəzi Ç. (Rumia və s.) ikievlidir. Bir çox növlərin çiçək kasacığı inkişaf etmiş dişlidir. Tozlanmanı, əsasən, cücülər yerinə yetirir. Ç.-in meyvəsi 2 bölümlü sütundan (karpofor) asılmış meyvəyə ayrılan (merikarp) sallaqmeyvədir. Çox vaxt bu tipə uyğun gəlməyən meyvələri təsadüf olunur; bunlar ayrılmayan və ya merikarpın biri inkişaf etməmiş, karpoforsuz və ya bölünməyən olur. Merikarpların və onların səthinin anatomik quruluşu (tüklənmə, müxtəlif şişlərin olması və ya olmaması) Ç.-in təsnifatının əsasını təşkil edir.

Ç. fəsiləsi demək olar ki, bütün Yer kürəsində yayılmışdır; 470 cinsi, təxm. 4 min növü var; taksonların konsentrasiyası ən çox Şimal yarımkürəsinin mülayim zonasında, onun hüdudları daxilində isə Asiyadadır. Çox geniş ekoloji diapazonda (düzənlikdən yüksəkdağlıq ərazilərə, Arktikadan tropiklərə qədər olan) rast gəlinir. Ç. fəsiləsi 3 yarımfəsiləyə bölünür; çətirçiçəklilər və ya kərəvizkimilər (Apioideae, 420 cins, 3080–3200 növ); meşəçətirotu fəsiləsi (Saniculoideae, 9 cins, 320–340 növ), suçətirikimilər (Hydrocotyloideae, 41 cins, 440–450 növ). Lakin son morfoloji və molekulyar tədqiqatlar suçətirikimilərin polifiliyasını və onların əsl Ç.-dən uzaq olduqlarını göstərmişdir. Ç. fəsiləsinin ən böyük cinsləri: *zımbırtikan* (təqr. 260 növ; yayılma mərkəzi – Mərkəzi və Cənubi Amerika); *öküzöldürən* (150-dən çox növ, demək olar ki, hamısı Avropada bitir); *çaşır* (185 növ, əsasən, Asiyada yayılmışdır). Ç. arasında insanın qədimdən istifadə etdiyi çoxlu yeyilən (yerkökü, kərəviz və s.), yem (məs., çətır, çaşır, baldırğan), ədva (keşniş, zirə, şüyüd, cirə və s.), dərman bitkiləri (tütəkcə, ammi, şişgövdə və s.) var. Ç. arasında zəhərli bitkilər də çoxdur; məs., su baldırğanı və badyan. Bəzi Ç. bostan və bağların alaq bitkiləridir (çaşır, mələkotu).

**ÇƏTİRDAŞDƏRƏSİ** – Azərb. Resp. Şahbuz r-nu (Nax.MR) ərazisində çay. Nursu çayının (Naxçıvançay hövzəsi) sol qolu. Şahbulaq gölündən bir qədər aşağı, 2375 *m* hünd.-dən başlanır. Uz. 7 *km*. Əsasən, bulaq və qar suları ilə qidalanır.

**ÇƏTİRYARPAQ** (Asperula) – boyaqotu fəsiləsindən birillik və çoxillik bitki cinsi. 4-tinli, hamar gövdəli, bəzən qarşılıqlı düzülmüş topa yarpaqları olan ot və ya yarımkollardır. Əsasən, 4-üzvlü, xırda çiçəkləri, adətən süpürgə və ya başcıqvarı çiçək qrupunda toplanmışdır. Meyvəsi quru, bölümlü (2 hissəyə ayrılır) fındıqcadır. Avrasiyada, əsasən, Aralıq dənizi



Ətirli çətiryarpaq (Asperula odorata).

sahilboyu ərazisində 90-adək növü (başqa məlumata görə 200-ədək) yayılmışdır. Azərb. Resp.-nda 10 növü məlumdur. Enliyarpaqlı və qarışıq meşə və yarğanlarda bitir. İyli Ç. (A. odorata), Alp Ç.-ı (A. alpina), ilişən Ç. (A. aparine) və s. növlərinə meşə, çəmən və əkin sahələrində çox rast gəlinir. Ç.-ın bir çox növü bal verən bitkilərdir. Mavi Ç. (A.azurea), parlaq Ç. (A. nitida) dekorativ bitki kimi becərilir. Bəzi növləri (məs., ətirli Ç.) dilqanadan cinsinə daxil edilir.

**ÇƏVAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Mehranrud kəndistanında, Təbriz ş.-ndən 12 *km* c.-ş.-dədir.

**ÇƏVAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Səcaru kəndistanında, Marağa ş.-ndən 14 *km* şm.-q.-dədir.

**ÇƏYİRDƏKLİ BİTKİLƏR** – bax *Meyvə bitkiləri.*

**ÇƏYİRDƏKMEYVƏ** – toxumu əhatə edən odunlaşmış çəyirdəkli, ətli və ya dərivarı qatlı meyvəyanlığı olan bitkilərin meyvəsi; Ç. bir- və çoxçəyirdəkli olur; apokarp *gineseydən* əmələ gəlir. Ərik, albalı, şaftalı, gilas və s. birçəyirdəkli meyvələrdir. Çoxçəyirdəkli meyvələr ümumi çiçək yatağında yerləşən çoxlu xırda birçəyirdəkli meyvələrdən ibarətdir (moruq, böyürtkən, daşböyürtkən və b.); birçəyirdəkli meyvələrin sayı daşböyürtkəndə 3–6-dan, moruq və böyürtkəndə bir neçə onluğa qədər dəyişir. Ç.-yə oxşar meyvə senokarp gineseydən inkişaf edən – perinaridir (məs., yemişan).

**ÇƏYİRTKƏKİMİLƏR** (Acridoidea) – düzqanadlılar dəstəsindən çoxsaylı cücü fəsiləüstü. Əksəriyyəti isti ölkələrdə yaşayır. Məlum növlərin 50%-dən çoxu tropik və subtropiklərdə məskunlaşmışdır. Uz. 9 *sm*, bığcıqları bədəninin yarısından qısadır. Qanadı 2 cütdür, bəzən inkişaf etməmiş olur. Arxa ayaqları sıçrayıcıdır. Səs aparatı arxa ayaqların budlarında və qanadüstlüklərində yerləşir. Ç.-də bədənin forması və rəngi cücünün davranışı ilə sıx uyğundur; yaşadığı mühiti xarakterizə edir. Bu uyğunluq həyat formasını müəyyənləşdirir. Yumurtaqoyanı qısadır. Yumurtanı torpağa, bəzən də bitki toxumalarına (topalarla) qoyur və köpüklü maye ilə bürüyür. Bu maye quruyur və yumurta kisəsi əmələ gətirir, bu da onu xarici mühitin təsirlərindən qoruyur. Sürfələr yazda çıxır və 1–1,5 aya inkişaf edir, 4–7 dəfə qabıq dəyişir. Dünyada 10000, Azərb.-da 150 növü məlumdur. Ç.-in hamısı bitkiyeyəndir. Bir çox növləri, xüsusən, sürü halında yaşayanlar məs., Sibir çəyirtkəsi, tündqanad çəyirtkə, atbasar çəyirtkə və s. k.t.-na böyük ziyan vurur. Bir sıra ölkələrdə çəyirtkə əleyhinə iri elmi və elm-istehsalat mərkəzləri yaradılmışdır.

**ÇƏYİRTKƏLƏR** – çəyirtkəkimilərin sürü halında yaşayan növləri. Cənubi Avropa, Cənubi və Şərqi Asiya, Afrika, Cənubi və Şimali Amerika və Avstraliyada yayılmışdır. Azərb.-da 125-dən çox növü var. Kütləvi çoxalma zamanı Ç. toplaşıb kuliqalar (sürfələrin topası), yaxud sürülər (yetkin Ç.- in toplanması) əmələ gətirirlər. Ç.-in qəflətən kütləvi uçuşu k.t. bitkiləri (taxıllar, pambıq və s.) üçün çox təhlükəlidir. Gündə 30 *km* sürətlə qida axtaran kuliqalar keçdikləri yerlərdə bütün yaşıllıqları məhv edir. Sürfələr və yetkin Ç. bitkinin yarpağını,



İtaliya çəyirtkəsi (Calliptamus italicus).

gövdəsini, sünbülünü, meyvəsini və s. yeyir. Bəzən sürünün ağırlığından ağaclar və kollar sınır. Hər fərd ömrü boyu 300 *q*-adək yaşıl kütlə yeyir. Gün ərzində sürfələr 20 – 30 dəfə qidalanır; kütləvi çoxalma dövründə fərdlərin sayı 1$m^2$-də bir neçə yüzə və hətta minə, məskunlaşdıqları sahə isə bəzən 1mln. *ha*-a çatır. Ç.- in vurduğu ziyan bəlaya, fəlakətə çevrilə bilər. Mübarizə tədbirləri: aldadıcı zəhərli yemlər, insektisidlərlə tozlandırılma, Ç.-in ocaqları olan xam torpaqlardan istifadə, səhraların və dincə qoyulmuş torpaqların şumlanması və s. Bu tədbirlər nəticəsində Ç.-in yayıldığı bir sıra ocaqlar ləğv edilmişdir.

**ÇHANVON** – Koreya Resp.-nda şəhər. Könsan-Namdo əyalətinin inz. m. Əh. 1,05 mln. (2010). Koreya y-a-nın c.-ş.-ində, Masan körfəzi sahilindədir.

1970-ci illərdə Koreyanın əsas hərbi sənaye mərkəzi idi. Tank, artilleriya, aviasiya texnikası istehsal olunurdu. 1990-cı illərdə Cənubi Koreyanın bütün hərbi istehsalının 70%-i burada cəmlənmişdi. Mülki təyinatlı məhsullar da istehsal olunur. Koreyanın əsas korporasiyalarının ["Samsung", "LG Electronics" (məişət elektronikası); "GM Korea" (avtomobillər); "Hyundai Wia" (avtokomplektləşdirici); "Hyundai Rotem" (d.y. texnikası), "Samsung Techwin" (videomüşahidə sistemləri, energetika və aviasiya avadanlığı); "Doosan Heavy İndustries & Construction" (energetika avadanlığı); "Doosan İnfracore" (tikinti texnikası); "Doosan Engine (dizel mühərrikləri); "STX Corporation" (gəmiqayırma)] istehsal gücləri Ç.-da yerləşir.

**ÇHONÁN** – Koreya Resp.-nda, Çhunçhon-Namdo əyalətində şəhər. Əh. 465 min (2004). Seul–Tecon–Pusan avtomobil yolunda mühüm nəql. qovşağı. Toxuculuq və yeyinti sənayesi inkişaf etmişdir.

**ÇHONCİN** – KXDR-də şəhər. Hamgön-Pukto əyalətinin inz. m. Əh. 330 min (2009). Yapon dənizi sahilində port. Nəql. qovşağı.

İri qara metallurgiya (Musan filizlərinin əsasında) mərkəzidir. Maşınqayırma (o cümlədən gəmi- və dəzgahqayırma, mədən avadanlığı istehsalı, k.t. maşınları), toxuculuq (o cümlədən süni ipək), kimya sənayesi inkişaf etmişdir. Tikinti materialları istehsal olunur. Balıqçılıq var.

**ÇHONCÚ** – Koreya Resp.-nda şəhər. Çhunçhon-Pukto əyalətinin inz. m. Əh. 638,7 min (2008). Nəql. qovşağı.

Toxuculuq (o cümlədən ipək) və tütün sənayesi mərkəzidir. K.t. maşınqayırması, kimya, yeyinti sənayesi, tütün, kağız, ağac emalı müəssisələri fəaliyyət göstərir. Ç. yaxınlığında nikel, qrafit hasil edilir.

**ÇHÓTA-NAQPUR** – Hindistanda plato. Hind-Qanq ovalığına doğru pillələrlə alçalan Dekan yaylasının şm.-ş. hissəsi. Uz. təqr. 400 *km*, eni 200 *km*-ə, hünd. 1366 *m*-ədəkdir (Parasnath d.). Qneyslərdən, kvarsitlərdən və qumdaşılarından ibarətdir, q.-də bazaltlarla örtülmüşdür. Dalğalı səthi geniş dərələrlə parçalanmışdır. Bitkiləri savanna tiplidir. Dəmir filizi, alüminium, daş kömür və s. çıxarılır. Çox hissəsi əkilir. Suvarma sistemləri (Damodar çayı və onun qollarında) var.

Çhanvon Milli Universiteti.







**ÇHUNCU** – Koreya Resp.-nda, Çhunçhon-Pukto əyalətində şəhər. Əh. 211,1 min (2010). D.y. st. Mineral gübrələr və plastik kütlə istehsalı müəssisələri var.

**ÇHUNÇHÓN** – Koreya Resp.-nın şm.-ında şəhər. Kanvondo əyalətinin inz. m. Əh. 262 min (2008). Soyanqan çayı (Pukxanqan çayı hövzəsi) sahilindədir. Nəql. qovşağı. Toxuculuq və kimya (mineral gübrə istehsalı) sənayesi var.

**ÇHUNÇHÓN-NAMDO,** Cənubi Çhunçhon – Koreya Resp.-nın q. hissəsində əyalət. Sah. 8,6 min $km^2$. Əh. 1,9 mln. (2009). İnz. m. Tecon ş.-dir.

**ÇHUNÇHÓN-PUKTO,** Şimali Çhunçhon – Koreya Resp.-nın mərkəzi hissəsində əyalət. Sah. 7,4 min $km^2$. Əh. 1,4 mln. (2009). İnz. m. Çhoncu ş.-dir.

**ÇXARTİŞVİLİ** Arçil Yevstafyeviç (19.1.1905, Tiflis – 1.7.1980, Tbilisi) – gürcü rejissoru. SSRİ xalq artisti (1968). SSRİ Dövlət mükafatı laureatı (1952). Kutaisi, Çeçen-İnquş, Batumi teatrlarında fəaliyyət göstərmiş (1930–48), K. Marcanişvili ad. teatra (Tbilisi) rəhbərlik etmiş (1949–52; 1963–64), Ş. Rustaveli ad. teatrda (Tbilisi) rej. (1957–62)



və baş rej. (1965–68) işləmişdir. Sonrakı illərdə (1980 ılədək) Gürcüstan Dövlət Filarmoniyasının bədii rəhbəri olmuşdur. Ən yaxşı rej.-luq işləri: "Qoçaq əsgər Şveyk" (1931, Y. Qaşekin əsəri üzrə), "Anzor" (1935, Ş. Şanşiaşvili), "İndi özgə əyyamlardır" (1939, A. Saqareli), "Şah Edip" (1946, Sofokl), "Onun ulduzu" (1951, İ. Mosaşvili), "Nikbin faciə" (1958, Vs. Vişnevski), "Dağlı qızı" (1960, R. Həmzətov), "Medeya" (1962, Evripid), "Qoca zurnaçılar" (1966, M. Eliozişvili) və s.

**ÇXEİDZE** Nikolay (Karlo) Semyonoviç (1864, Kutaisi qub.-nın Puti k. – 7.6.1926, Paris) – Gürc.-da istiqlal hərəkatının görkəmli xadimi. Rusiyada menşevik liderlərindən biri. 19 əsrin sonundan inqilabi hərəkata qoşulmuşdu. 3–cü və 4-cü Dövlət dumalarının deputatı, 4-cü dumada menşevik fraksiyasının sədri olmuşdur. Rusiyada 1917 il Fevral inqilabından sonra Dövlət duması Müvəqqəti komitəsinin üzvü. Petroqrad fəhlə və əsgər deputatları sovetinin, Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin (1-ci çağırış) sədri idi. Oktyabr çevrilişindən (1917) sonra Gürcüstan Müəssislər məclisinin, Zaqafqaziya seyminin, 1919 ildən Gürcüstan hökumətinin sədri idi. Gürc. Resp.-na dəstək almaq məqsədilə Antanta Şurası ilə danışıqlarda iştirak etmişdir (1918–21). Gürc.-da sovet hakimiyyəti qurulduqdan sonra xaricə getmiş, Parisdə intihar etmişdir.

**ÇXEİDZE** Revaz Davidoviç (d.8.12.1926, Kutaisi) – gürcü kinorejissoru, ssenarist. SSRİ xalq artisti (1980). Lenin mükafatı laureatı (1986). 1943–46 illərdə Tbilisi Teatr İn-tunda oxumuşdur. Ümumittifaq Dövlət Kinematoqrafiya İn-tunu (1953, S.İ. Yutkeviç və M.İ. Rommun emalatxanası) bitirmişdir. 1953 ildən "Gürcüstanfilm" kino-



studiyasının rejissorudur. Həmin ildə öz ssenarisi əsasında "Boris Pançadze", 1954 ildə "Bizim saray" və "Gürcüstan Dövlət Xalq Rəqs Ansamblı" (hər ikisi T.Y. Abuladze ilə birgə, Kann, 1956) sənədli filmlərini çəkmişdir. "Maqdananın Lurcası" (1955, Abuladze ilə birgə) filmi ən dəyərli işlərindəndir. "Bizim həyət" (1957), "Sxnetili Maya" (1959), "Xəzinə" (1961) və "Dəniz yolu" (1962) filmlərini çəkmişdir. Ç.-in ən məşhur filmlərindən biri "Əsgər atası"dır (1965). Oğlunu axtararaq, döyüşən ordu sıralarına düşən filmin qəhrəmanı (S. *Zakariadze*) döyüş yolunu ordu ilə birgə keçir, mərhəmət, müdriklik, yumor hissini saxlayaraq, müharibənin sərt sınaqlarından mərdliklə çıxır. Müxtəlif illərdə çəkdiyi filmlər: "Bu da gənclər!" (1969), "Tinglər" (1973), "Sənin oğlunam, torpaq" (1981, Ç.-nin və S. Jgentinin ssenarisi), "Sarışın" (1968, T. Mikadze ilə birgə), "Akasiyanın çiçəkləməsi" (1975), "Don-Kixot və Sançonun həyatı" (1988), "Tanrı dərgahından götürülmüş şam" (2008). Bir çox filmi kinofestivalların mükafatına layiq görülmüşdür. 1973 ildən "Gürcüstanfilm" kinostudiyasının direktoru işləmişdir.

**ÇXENKELİ** Akaki İvanoviç (1874, Kutaisi qub.-nın Xoni ş. – 5.1.1959, Paris) – Gürc.-da istiqlal hərəkatının görkəmli xadimi, gürcü menşevik liderlərindən biri. 4-cü Dövlət dumasının üzvü idi. Fevral inqilabından (1917) sonra Müvəqqəti hökumətin Cənubi Qafqazda komissarı, Xüsusi Zaqafqaziya Komitəsinin, Zaqafqaziya komissarlığının üzvü idi. 1918 ilin aprelində Zaqafqaziya Federativ Respublikası hökumətinin baş naziri və xarici işlər naziri təyin edilmişdi. Trabzonda (1918, mart) və Batumda (1918, may) Türkiyə ilə danışıqlarda Zaqafqaziya nümayəndə heyətinə başçılıq etmişdir. Gürc. hökumətinin xarici işlər naziri olmuşdur. 1921 ildən mühacirətdə yaşamışdır.

**ÇIĞIRĞAN** – Azərb. Resp. Sabirabad r-nunun Azadkənd ə.d.-ndə kənd. R-n mərkəzindən 49 *km* c.-ş.-də, Kür çayının sahilində, Muğan düzündədir. Əh. 894 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**ÇIĞIRQAN CÜLLÜT,** çöl çöküкburunu (Vanellus gregarius) – çovdarçıkimilər fəsiləsindən quş. Uz. 27–30 *sm*, kütləsi 100 – 200 *q* olur. Dimdiyi qısa, qara, ayaqları uzun, qaradır. Cütləşmə zamanı beli və döşü çəhrayı-boz, qarnı qəhvəyi ilə qara qarışıq, qalan lələkləri qara və ya ağdır. Erkəklər dişilərə nisbətən bir qədər əlvan olur. Cavan quşlar açıq rəngli, üst tərəfdən sarımtıl-boz, aşağıdan ağımtıldır. Cırıltılı, "krı-krı"-nı xatırladan səsi var. Ç.c. Qazaxıstanın quru çöllərində və yarımsəhralarında, Qərbi Sibirin c.-q.-ində yuvalayır. 20 əsrin sonuna qədər, həmçinin Avropanın c.-ş.-ində məskunlaşırdılar. Afrikanın şm-ş-ində, Yaxın Şərqdə, Pakistan və Hindistanda qışlayır; uçuş zamanı Qafqazönü ölkələrdə, Türkiyə və Suriyada toplaşırlar. Seyrək alçaq otluqlarda (xüsusən, otlaqlarda) məskunlaşmağa üstünlük verir; çox vaxt seyrək

Çığırqan cüllüt (Vanellus gregarius).



koloniyalar əmələ gətirirlər. Əsasən, böcəklər, düzqanadlılar, digər cücülər və onların sürfələrilə qidalanırlar. Yuvası yerdə, az otla döşənmiş çuxurdur. 4 (nadir hallarda 2–5) xallı yumurta qoyur; hər iki valideyn və ya dişi fərd 21–25 gün kürt yatır; balalar həyatlarının ilk günündən sərbəst qidalanır, 33–37 günlüyündə uça bilirlər. Ç.c. sayı kəskin azalan növ kimi BTMİ-nin "Qırmızı kitab"ına salınmışdır.

**ÇIĞIRTMA** – Azərb.-da geniş yayılmış yeməklərdən biri. Müxtəlif növləri olur: toyuq çığırtması, badımcan çığırtması və s.

**ÇIĞLI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkmən bölgəsinin Bərvanan kəndistanında, Türkmən qəs.-ndən 13 *km* c.-ş.-dədir.

**ÇIĞLI** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qeydar bölgəsinin Qışlaqat Əfşar kəndistanında, Qiydar qəs.-ndən 47 *km* c.-q.-dədir.

**ÇIĞMUR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Kələboz kəndistanında, Miyanə ş.-ndən 33 *km* c.-q.-dədir.

**ÇIĞRIQ** – bəzi kəsici alətləri (rayber, yiv burğusu, girdə pafta və s.) bərkitmək və fırlatmaq üçün əl ilə işlədilən alət. Daha çox işlədilən universal Ç.-da müxtəlif ölçülü kvadrat başlıqları tutmaq üçün dəyişdirilə bilən hissə olur.

**ÇIXARTMA XƏTTİ** – neft, qaz və qazkondensat quyularından, kompressordan, nasosdan verilən məhsulun bilavasitə daxil olduğu boru kəməri sahəsi. Quyuların Ç.x. quyu ağzından başlayır və qrup ölçmə qurğusunda bitir. Ç.x.-nin uz. bir neçə yüz *m*, boru kəmərinin diametri 73–100 *mm* olur.

**ÇIXDAŞ** – damazlıq işində az məhsuldar, qoca heyvanların sürüdən, naxırdan, ilxıdan ayrılması. Ç. edilən heyvanlar ətlik üçün istifadə olunur.

**ÇIXIQ** – oynağın funksiyasının pozulmasına səbəb olan oynaq uclarının onların fizioloji hərəkətlilik həddindən artıq dayanıqlı yerdəyişməsi. Yerdəyişmə dərəcəsinə görə Ç. tam və natamam (burxulma – oynaq səthlərinin bir-birinə qismən toxunması) ola bilər. Qazanılmış (patoloji və travmatik) və anadangəlmə Ç. ayırd edilir. P a t o l o j i Ç. hər hansı xəstəlik, məs., oynaqətrafı əzələlərin iflici, irinləmə zamanı sümüklərin oynaq səthinin və oynaq kapsulunun dağılması və s. səbəbdən yaranır. Bazu, said, bud, baldır diz qapağı, barmaq, ayaq və çənə sümüklərinin t r a v m a t i k Ç.-ları daha çox təsadüf edilir. Onlar oynaq nahiyəsində ağrı, deformasiya, hərəkətin pozulması, yaxud itirilməsi ilə meydana çıxır. Adətən, oynaq kapsulunun partlaması baş verir; vətərlər, əzələlər, sümüklər, damarlar, sinirlər də zədələnə bilər və bunlar a ğ ı r l a ş m ı ş Ç. adlanır. Bəzən oynaq kisəsinin və bağlarının zədələnməsi nəticəsində və vaxtında müalicə olunmayanda a d ə t i Ç. (çox vaxt bazu oynağında) inkişaf edə bilər. Travmatik Ç. zamanı ilk yardım göstərərkən Ç.-ı yerinə salmağa cəhd etmək olmaz, bu, bir qayda olaraq, əlavə travma törədir. *İmmobilizasiya* yolu ilə oynağın hərəkətsizliyini təmin etmək lazımdır. Buz və ya soyuq su doldurulmuş qovuq qoymaq olar. Qızdırıcı kompres yolverilməzdir. Travmadan sonra ilk saatlarda Ç. varsa yalnız həkimə müraciət olunmalıdır. C. rentgenoloji müayinədən sonra (sınığı istisna etmək üçün) ağrısızlaşdırılıb yerinə salınır və gips sarğısı qoyulur; sonralar müalicə gimnastikası, fizioterapiya həyata keçirilir.

Oynağın bütün elementlərinin inkişafdan qalması ilə əlaqədar olan a n a d a n g ə l m ə Ç.-lar arasında ən çox bud-çanaq oynağının Ç.-ı (1000 yeni doğulmuş uşağa görə 5–16 hadisə), yaxud anadangəlmə bud Ç.-ı (ABÇ) təsadüf edilir. ABÇ hadisələrinin bir hissəsi (8,2%-ə qədər) yaxın qohumlarda müşahidə edilir. ABÇ hipoplaziya, sirkə kasasının yastılaşması, bud sümüyünün yuxarı ucunun displaziyası, bud sümüyü başının ləng sümükləşməsi, bud-çanaq oynağının sinir-əzələ aparatındakı və onun qan təchizatında dəyişikliklər ilə səciyyələnən bud-çanaq oynağının inkişafdan qalması ilə əlaqədardır.

Südəmər uşaqlarda ABÇ sürüşmə simptomu, yaxud çıqqıltı simptomu (bud başının sirkə kasasından çıxması və yerinə düşməsi) ilə; bud-çanaq oynağında tərpənmənin məhdudlaşması (asimmetrik ola bilər), qasıq, sağrı-bud büküşlərinin asimmetriyası, aşağı ətrafın Ç. tərəfə qısalması ilə baş verir. 1 yaşdan yuxarı uşaqlarda yerişin pozulması (ikitərəfli Ç. zamanı – "ördək" yerişi, birtərəfli Ç.-da – "dalğıc" axsaması) qeyd edilir; ayaqların qısalması bud başının yuxarıya yerdəyişmə dərəcəsindən asılıdır. 3 aya qədər uşaqlarda ABÇ-yə şübhə olduqda ultrasəs, 3 aydan yuxarı uşaqlarda rentgenoqrafiya müayinəsi aparılır. Bud-çanaq oynağında görünən dəyişikliklər zamanı müalicənin taktikasını təyin etmək üçün artroqrafiyadan, kompüter və maqnit-rezonans tomoqrafiyadan, artroskopiyadan istifadə olunur. 3 yaşa qədər uşaqlarda konservativ müalicə aparılır: çəkici şinlər, şalvar, sarğı və s.; fizioterapiya (elektroforez, yaxınlaşdırıcı əzələlər nahiyəsinə parafin-ozokerit), müalicə gimnastikası, masaj. Yaşı 6 aydan yuxarı olan xəstələrin 20%-ində bud başının cərrahi üsulla salınması və oynağın yenidən qurulması aparılır. ABÇ-nin müalicəsi zamanı bud sümüyü başının aseptik nekroz ağırlaşması ola bilər.

Proqnoz əlverişlidir. M ü a l i c ə n i n nəticəsi Ç.-ın yerinə salınma müddətindən asılıdır, belə ki, bud sümüyünün başının çıxığı nə qədər tez yerinə salınarsa, nəticə bir o qədər yaxşı olur. P r o f i l a k t i k a s ı: təzə doğulmuşları ortopedik müayinə etmək, sərbəst bələmək, uşağı vaxtından əvvəl ayaq üstə qoymamaq.

**ÇIXIQ**, 1) ədədlər nəzəriyyəsində. $m$ ($m$ – natural ədəddir) moduluna nəzərən Ç. – bütün tam ədədlərin $m$-ə bölünməsi zamanı eyni qalıqların alındığı çoxluqdan olan ədəd. Verilmiş $m$ natural ədədinə nəzərən bütün tam ədədlər $m$ müxtəlif sinfə ayrılır: $m$-ə bölünmə zamanı eyni qalıq verən ədədlər bir sinfə aid olur. Məs., …, –9, –2, 5, 12, 19, … ədədləri 7-yə bölünmə zamanı qalıqda 5 verirlər, yəni 7 moduluna nəzərən bir Ç. sinfi əmələ gətirirlər. Bu sinifdən olan istənilən ədəd 7 moduluna nəzərən Ç.-dır. Beləliklə, verilmiş sinifdən olan ən kiçik müsbət Ç., bu sinifdən olan istənilən ədədin $m$-ə bölünməsi zamanı alınan qalığa bərabərdir. Əgər hər sinifdən bir Ç. götürsək, $m$ moduluna nəzərən tam çıxıqlar sistemi adlanan ədədlər külliyyatını alarıq. Məs., $m$=10 olduqda (0, 1, …, 9), (–5, –4, …, 3,4), (–4, –3, …, 4,5) külliyyatlarından hər biri 10 moduluna nəzərən tam Ç. sistemi əmələ gətirir. Tam Ç. sisteminin $m$ modulu ilə qarşılıqlı sadə olan bütün ədədləri $m$ moduluna nəzərən gətirilmiş çıxıqlar sistemi adlanan külliyyat əmələ gətirirlər. Məs., (1,3,7,9), (–3, –1, 1, 3) külliyyatlarından hər biri 10 moduluna nəzərən gətirilmiş Ç.-lar sistemidir.

Əgər $a$ və $b$ $m$ moduluna nəzərən eyni sinfə aiddirsə, onda deyilir ki, $a$, $b$ ilə $m$ moduluna nəzərən müqayisəolunandır və $a \equiv b \pmod m$ kimi yazılır. Bu əlaqə *müqayisə* adlanır. $m$ moduluna nəzərən müqayisə bərabərliklərin bir sıra xassələrinə malikdir: onları hədbəhəd toplamaq, çıxmaq, vurmaq olar; onlar həmçinin bərabərliklərin malik olmadıqları bir sıra xassələrə də malikdir. Əgər elə $b$ tapmaq olarsa ki, $a \equiv b^n \pmod m$ (dərəcəli Ç.) olsun, onda $m$ ilə qarşılıqlı sadə olan $a$ ədədi $n$ dərəcəli (burada $n \geq 2$-dir və natural ədəddir) Ç. adlanır; əks halda $a$ $m$ moduluna nəzərən $n$ dərəcəli qeyri-çıxıq adlanır. Dərəcəsi $n$=2 olan çıxıqlar (qeyri-çıxıqlar) kvadratik, dərəcəsi $n$=3 olan kubik, dərəcəsi $n$=4 olan bikvadratik çıxıqlar (qeyri-çıxıqlar) adlanır. Məs., $m$=7 olarsa, 1,2,4 ədədləri kvadratik Ç., 3, 5, 6 ədədləri isə 7 moduluna nəzərən kvadratik qeyri-çıxıqlar adlanır. 1, 6 ədədləri kubik Ç., 2, 3, 4, 5 ədədləri isə 7 moduluna nəzərən kubik qeyri-çıxıqlar adlanır.

2) Ç. kompleks dəyişənli funksiyalar nəzəriyyəsində. $f$ funksiyasının $z_0$ nöqtəsinin ətrafında $z-z_0$ dərəcələri üzrə sıraya ayrılışı zamanı (bax *Loran sırası*) $(z-z_0)^{-1}$-dəki əmsal, izolə edilmiş $z_0$, $z_0 \neq \infty$ nöqtəsində $f$ holomorf funksiyasının Ç.-ı adlanır. Adətən, $f$ funksiyasının $z_0$ nöqtəsindəki Ç.-ı $\mathrm{res}_{z_0} f$ ilə işarə edilir. Əgər $\gamma$ – mərkəzi $z_0$ nöqtəsində olan kifayət qədər kiçik radiuslu çevrə elədir ki, onun əhatə etdiyi dairədə $f$ funksiyası $z_0$-dan fərqli xüsusi nöqtələrə malik olmur və həm də $\gamma$ saat əqrəbinin əksinə istiqamətləndirilmişdirsə, onda,

$$\mathrm{res}_{z_0} f = \frac{1}{2\pi i} \int_{\gamma} f(z)dz.$$

Tutaq ki, $D$ – kompleks müstəvinin sərhədi $\Gamma$ olan hissə-hissə hamar oblastı elə istiqamətdədir ki, $\Gamma$ üzrə hərəkət etdikdə $D$ oblastı solda qalır. Əgər $z_1, \ldots, z_n$ $D$ oblastında $f$ funksiyasının xüsusi nöqtələridirsə, həmçinin $f$ $D$ oblastında və hər hansı $\Gamma$ ətrafında holomorfdursa, onda,

$$\int_{\Gamma} f(z)dz = 2\pi i \left(res_{z_1} f + \ldots + res_{z_n} f\right).$$

Ç. olduqca sadə tapıldığından, bu teorem inteqralların hesablanması üçün effektlidir.

**ÇIXINTIBƏND**, i n ş a a t d a – divar hörgüsündə kərpic çıxıntılarından əmələ gələn ornamental qurşaq.

**ÇIXIŞ**, s ü x u r l a r ı n ç ı x ı ş ı – köklü süxurların yer səthinə çıxması. Təbii Ç. (adətən çay sahillərində, dərələrdə, dağ silsilələrinin yamacında və s.) və süni Ç. (tunel, karxana, dağ mədən qazımalarında və s.) olur.

**ÇIXIŞ FAYLI** – bax *Fayl*.

**ÇIXIŞ İŞİ** – elektronun bərk cismdən və ya mayedən vakuuma çıxarılması üçün sərf olunan enerji. Elektronun vakuumdan səlt (kondensasiya olunmuş) mühitə keçməsi Ç.i.-nə (φ) bərabər olan enerji ayrılması ilə müşayiət olunur. Deməli, Ç.i. elektronun səlt mühitlə əlaqəsinin (rabitəsinin) ölçüsüdür; Ç.i. az olduqca elektronların emissiyası da asan olur. Ona görə də məs., *termoelektron emissiyasının* və ya avtoelektron emissiyasının (bax *Tunel emissiyası*) cərəyan sıxlığı Ç.i.-ndən eksponensial asılıdır.

Ç.i. keçiricilər, xüsusən *metallar* üçün daha mükəmməl öyrənilmişdir. O, səthin kristalloqrafik quruluşundan asılıdır. Kristalın kristalloqrafik üzü nə qədər sıx "dolubsa", φ də bir o qədər böyükdür. Ən kiçik Ç.i. (2 e*V*) qələvi metallara (Cs, Rb, K), ən böyüyü (5,5 e*V*) Pt qrupu metallarına məxsusdur.

Ç.i. səth strukturunun defektlərinə həssasdır; defekt φ-ni azaldır. Ç.i. səth aşqarlarından daha kəskin şəkildə asılıdır. Elektromənfi aşqarlar Ç.i.-ni adətən artırır, elektromüsbətlər isə azaldır.

Metalların elektron nəzəriyyəsi Ç.i.-nə elektronun Fermi səviyyəsindən vakuuma çıxarılması üçün lazım olan iş kimi baxır. Müasir nəzəriyyə verilən strukturlar və səthlər üçün φ-ni dəqiq hesablamağa hələlik imkan vermir. φ-nin qiymətləri haqqında əsas məlumatları eksperiment verir. φ-ni təyin etmək üçün emissiya və ya kontakt hadisələrindən (bax *Kontakt potensiallar fərqi*) istifadə edilir.

Ç.i. elektronların və ya ionların emissiyasında istifadə olunan *elektrovakuum cihazlarının* və həmçinin termoelektron enerji çeviriciləri kimi qurğuların hazırlanmasında nəzərə alınır.

**ÇIXIŞ VƏ GİRİŞ QURĞULARI** – bax *Giriş və çıxış qurğuları*.

**ÇIXMA** – *toplamanın* əksi olan hesab əməli; cəm və toplananlardan biri məlum olduqda o biri toplananı tapma əməlinə Ç. deyilir. Verilən cəm azalan, verilən toplanan çıxılan, Ç.-nın nəticəsi fərq adlanır. Müsbət ədədlər meydanında Ç. həmişə yerinəyetirilən olmur (kiçik ədəddən böyük ədədi çıxmaq olmaz). Bu vəziyyət hesaba sıfır və mənfi ədədlərin daxil edilməsi üçün formal səbəb oldu; ədədlər meydanının belə genişlənməsi ilə Ç. həmişə birqiymətli yerinəyetiriləndir.

**ÇILDIR** – Türkiyənin şm.-ş.-ində göl. Qars alçaq dağlığında, dağarası çuxurda 1959 *m* yüksəklikdə yerləşir. Sah. 123 *km*², dərinliyi 42 *m*-ədəkdir. Tektonik mənşəlidir. Gölə kiçik çaylar tökülür. Qars çayına (Araz hövzəsi) axını var. Qışda donur. Balıq ovlanır. Suvarmada istifadə edilir.

**ÇILDIR VURUŞMASI (1578)** – Osmanlı qoşunları ilə qızılbaş dəstələri arasında Çıldır gölü (indiki Türkiyə ərazisində) yaxınlığında baş vermiş döyüş. Ərzurumda yüz minlik ordu toplayan osmanlı sərkərdəsi Mustafa Lələ paşa Amasya müqaviləsini (1555) pozaraq hər iki dövlət arasında bitərəf zona sayılan Qars qalasını tutdu. Avqustun 9-da 15 minlik qızılbaş qoşunu osmanlıların ön hissələrini məğlubiyyətə uğradıb düşməni 2–3 fərsəx təqib etdi. Lakin Mustafa Lələ paşa ehtiyatda olan əsas qüvvələrini döyüş meydanına çıxartdı. Təqr. 10 min itki verən qızılbaş qoşunu məğlubiyyətə uğradı. Ç.v.-ndakı qələbə osmanlıların Gürcüstan və Şirvanı işğal etmələrini sürətləndirdi.

**ÇILDIRAN** – Azərb. Resp. Kəlbəcər r-nunda kənd. Çıldıran ə.d.-nin (Çıldıran, Dəvədaşı, Mehmana k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 71 *km* c.-ş.-də, dağ ətəyindədir. Əhalisi işğaldan (1993, aprel) əvvəl heyvandarlıq və tütünçülüklə məşğul olurdu. Orta məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi var idi.

**ÇILĞIR** – Azərb. Resp. Xaçmaz r-nunun Aşağı Zeyid ə.d.-ndə kənd. R-n mərkəzindən 10 *km* c.-q.-də, Vəlvələ çayının sol sahilində, Samur-Dəvəçi ovalığındadır. Əh. 641 (2011); maldarlıq, əkinçilik, bağçılıq və tərəvəzçiliklə məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**ÇILPAQ İLBİZLƏR** – saplaqgözlülər dəstəsindən ağ ciyərli, qarınayaqlı quru molyuskları; xarici çanağını itirmişdir (mantiyanın daxilində əhəngdən lövhə və ya dənəvər şəkildə olan rudiment var). Bədəni qurdabənzər və ya silindrikdir. Gündüzlər Ç.i. rütubətli və kölgəli yerlərdə (daşların, döşəmələrin altında, torpağın çatlarında, koğuşlarda və s.) gizlənir; toranlıq və gecə vaxtı 8–20°C temp-rda və kifayət qədər rütubət olduqda fəal olurlar. Əksəriyyəti tarla, tərəvəz, tütün və digər bitkilərə böyük ziyan vurur. Bədənləri ifraz etdiyi selikdən çox sürüşkəndir. Azərb.-da 19 növ və yarımnöv Ç.i. var. Onlar, əsasən, meşə dağətəyi və dağlıq zonaların rütubətli yerlərində yaşayırlar. Lənkəran təbii zonasında 12 növ Ç.i. qeydə alınmışdır. Krynickillus melanochephalus Ç.i.-i Azərb. ərazisində geniş yayılmışdır. Başlıca olaraq meşə və subalp zonalarında, su hövzələrinin sahilində daşların və otların altında, çürümüş kötüklərdə yaşayırlar. Azərb. faunasında ən iri Ç.i. Giqantomilax lederi növüdür. Dağlıq enliyarpaqlı meşələrdə yaşayır, ağac qabıqlarının, daşların altında və qayaların yarığında gizlənir.

Azərb.-da həmçinin Limax maculatus (Kalen.), Eulimax brandti, E. intermittens, Hyrcanolestes velitaris, Parmacella ibera, Milax caucasicus (Simr.) kimi Ç.i.-ə rast gəlinir.

Mübarizə tədbirləri: aqrotexniki (bağ və bostanların məhsul qalıqlarından təmizlənməsi, sahələrin və otlaqların qurudulması, alaq otlarının məhv edilməsi) və kimyəvi (limasidlərdən istifadə) üsullar tətbiq etmək; əkilmiş qiymətli bitki sahələrini ilbizləri qaçıran maddələrdən (mazut, mis kuporosu, kül və s.) istifadə etmək. Ç.i.-i əl ilə yığmaq. Bəzi Ç.i. k.t. heyvanlarında parazitlik edən bir sıra helmintlərin aralıq sahibidir.

**ÇILPAQÇALAR** – müxtəlif fəsilələrdən olan balıqlar. 1) – ilişgənkimilər fəsiləsinə aid şirinsu balıqları cinsi (Nemachilus). Dünyada 180-ə yaxın, Azərb.-da isə 2 cinsə aid 3 növü var. Şimali Qafqaz Ç.-ı (Nemachilus merga), Anqor Ç.-ı (N. angorae), Kür Ç.-ı (N. brandti). Bədənləri xırda ləkəli, başı basıq, ucu küt, alnı enlidir. Uz. 8,5 *sm*-ə, kütləsi 4,5 *q*-adək olan xırda balıqlardır. Quyruq üzgəcləri haçalı, zəif haçalı və dərin haçalıdır. Cinsi yetkinliyə 3,8–4,5 *sm* olduqda çatır. Kürülərini hissə-hissə tökür. Su dibində yaşayan onurğasız heyvanlarla, bəzən də balıq kürüsü və yosunlarla qidalanırlar. 2)qızılbalıqlar fəsiləsindən balıq cinsi (Salvelinus) Arktika çılpaqçası (S. alpinus) və kumja (S. leucomaenis) geniş ya-



Arktika çılpaqcası (Salvelinus alpinus).

yılmışdır; Ç. Avropa və Şimali Asiya sututarlarında yaşayır. Uz. 35–65 *sm* (bəzən 88 *sm*-ədək), kütləsi 1–3 *kq* (bəzən 15 *kq*-adək) olur. Keçici balıqlardır. Oktyabr-noyabr aylarında kürü tökür. Azərb.-da 6 növü məlumdur.

**ÇILPAQGÖZLÜLƏR** – (Ablepharus) – uzunayaqlar fəsiləsindən kərtənkələ cinsi. Uz. 15 *sm*-ədəkdir. Bədəni uzun, vərdənəşəkilli, hamar, dairəvi pulcuqlarla örtülmüşdür. Ətrafları 5 barmaqlıdır, zəif inkişaf etmişdir. Gözləri üzərində ayrı-ayrı hərəkətli göz qapaqlarının bitişməsi nəticəsində əmələ gəlmiş, hərəkətsiz şəffaf pərdə vardır (adı buradan götürülmüşdür). Qulaq dəliyi kiçikdir və ya dəri altında gizlənmişdir. 7 növü var. Avropanın c.-unda (Balkan y.-a.-sı və Egey dənizi a-rında), C. Cənubi Qafqazda, Qazaxıstanda, Qərbi və Cənubi Asiyada



Zolaqlı çılpaqgözlü (Ablepharus bivittatus).

yayılmışdır. Gündüzlər fəaldır. Əsasən, cücülərlə qidalanır. Yumurtaqoyandırlar. Səhra Ç.-ı (A. deserti) daha çox yayılmışdır. BTMİ-nin "Qırmızı kitab"ına Avropa Ç.-inin (A. kitaibelli) 3 yarımnövü salınmışdır. Azərb-da 2 növü: zolaqlı Ç. (A. bivittatus Men) və Asiya Ç.-i (A. pannonicus Licht) yaşayır. Hər iki növ Azərb.-ın "Qırmızı kitab"ına salınmışdır.

**ÇILPAQKİSƏLİLƏR** (Hemiascomycetes) – askomisetlər şöbəsindən ibtidai göbələk sinfi. Ç.-də meyvə cismi yoxdur, askosporlar olan kisə, tumurcuqlanan hüceyrələrdə və ya bilavasitə, mitseli üzərində əmələ gəlir. Ç.-ə tumurcuqlanan maya göbələkləri [maya göbələklərinin əksər növlərinin daxil olduğu saxaromisetlərin əsas sırası ilə (Saccharomysetales)] və bəzi mitselial mikroskop göbələklər aiddir. Sonuncular arasında spermoftorlular sırası var; bura bitkilərin meyvələrində inkişaf edən parazit göbələklər daxildir (məs., pambıq toxumlarını və qutucuğunu zədələyən Spermophthora gossypii); bu qrupun əksər nümayəndəri isti iqlimli rayonlarda, çox vaxt subtropiklərdə rast gəlinir.

**ÇILPAQQƏLSƏMƏLİLƏR** (Nudibranchia) – qarınayaqlılar sinfindən, dəniz arxaqəlsəməlilərindən molyusk sırası. Bədəni (uz. 20 *sm*-ədək) əlvan rənglidir. Çanaq və mantiyası reduksiyaya uğramışdır; yanlarında və belində çıxıntılar – ikincili qəlsəmələr inkişaf etmişdir (adı buradan götürülmüşdür). Təqr. 200 cinsi vardır. Ç.-in əksəriyyəti yırtıcıdır, bağırsaqboşluqlularla qidalanır; bağırsaqboşluqluların dalayıcı hüceyrələri Ç.-in həzm sistemindən bel çıxıntısına keçir və qoruyucu funksiyanı yerinə yetirir. Ç. başlıca olaraq dənizin sahilə yaxın yerlərində yaşayır, lakin plankton və nekton növləri də vardır.

**ÇILPAQTOXUMLULAR** (Pinophyta və ya Gymnospermae) – toxumlu ali bitkilər şöbəsi. Ç. arasında həmişəyaşıl, nadir hallarda yarpağını tökən ağac, kol və kolcuqlar, bəzən də sarılı kol bitkiləri və ya ağacşəkilli lianlar vardır. Yarpaqları formasına (iynəyarpaqlı, pulcuqşəkilli, xətvarı, lansetvarı, lələkvarı və s.), ölçüsünə və anatomik xüsusiyyətlərinə görə kəskin fərqlənir. Ç.-ın demək olar ki, hamısının oduncağı damarsızdır [acılıq fəsiləsi (efedra) istisnadır] və ötürücü elementlərdən – traxeidlərdən ibarətdir. Bütün Ç. 2 tip spor əmələ gətirir: xüsusi yarpaqlarda (meqasporofillərdə) yerləşən meqasporangilərdə formalaşan və dişi qametofitlərə başlanğıc verən meqasporlar; mikrosporofillərdə yerləşən mikrosporangilərdə inkişaf edən və erkək qametofitlərə başlanğıc verən mikrosporlar. Mikro- və meqasporofillər müxtəlif taksonomik qruplarda formasına və ölçüsünə görə fərqlənən qısalmış sporlu zoğlar – strobillər (qozalar) əmələ gətirir. Ç.-da strobillər bircinslidir – erkək (mikrosporofillərdən ibarətdir) və dişi (meqasporofillərdən ibarətdir); Ç. arasında həm birevli (hər iki tip strobilləri olan), həm də ikievlilər (yalnız erkək və ya ancaq dişi strobilləri olan nümayəndələr) vardır. Bir çox nəsli kəsilmiş Ç. sinfinin nümayəndələrindən – bennetitlərdə – strobillər ikicinsli olmuşdur.

Bitkilər aləminin inkişaf tarixində ilk dəfə Ç.-da çoxalma və yayılma funksiyasını daşıyan toxum meydana gəlmişdir. Toxum və toxum başlanğıcı meqasporofillərin üzərində "çılpaq" (adı buradan götürülmüşdür) yerləşərək ətraf mühitdən təcrid olunmamışdır. Ç.-ın həyat tsiklində cinsiyyətsiz (sporofit) və cinsiyyətli (qametofit) nəsillərin növbələşməsi və qametofitin dərin reduksiyası ilə müşahidə olunur. Dişi qametofit endospermdən ibarətdir və toxum başlanğıcının mərkəzi hissəsində yerləşən (nutsellus adlanan) şəklini dəyişmiş meqasporangi – yetişmiş yeganə meqaspordan inkişaf edir; qametofitin yuxarı hissəsində *arxeqonilər* yumurtahüceyrələrlə tutulur. Erkək qametofit (*anteridilər* yoxdur) və qametlər (spermilər) mikrosporların (tozcuqların) qılafı daxilində inkişaf edir; tozcuq toxum başlanğıcının mikropilinə düşdükdən sonra, qametofit tam inkişafa çatır. Tozcuq arxeqonilərdən birinə 2 spermi çatdırdıqda – tozcuq borusu formalaşır; spermilərdən biri yumurtahüceyrəni mayalandırır, ikincisi isə tələf olur. Tozcuq borusu toxumlu bitkilərdə mayalanma prosesini damcı-maye suyundan asılı olmayan etmişdir.

Ç. Üst Devon dövründən məlumdur. Paleozoyun Daş kömür və Perm dövrlərində Ç.-ın əksər sıralarının nümayəndələrinə artıq rast gəlinirdi; bunlar tam inkişafa Mezozoyda çatmışlar. Şöbəyə 6 sinif daxildir, onlardan toxumlu qıjılar (Lyginopteridopsida) və *bennettitlər* Təbaşir dövründə tamamilə tələf olmuşdur. Müasir Ç. *saqovnikkimilər, efedra, inqko və iynəyarpaqlılar* siniflərindən ibarətdir; bura 12 fəsilə, 72 cins və ikisi parazit olan 690 növ daxildir.

Azərb.-da Ç.-ın 20-dən çox növü vardır: Eldar şamı, sərv, qara şam, ardıc, qaraçöhrə, küknar, sidr şamı və s.

Ç. yerin bitki örtüyündə mühüm rol oynayır və dünya iqtisadiyyatında əhəmiyyətli sektor təşkil edir. Şamlar fəsiləsinin bir çox nümayəndələri, əsasən, Avrasiyanın şm. hissəsindəki və Şimali Amerikanın dağlıq iynəyarpaqlı və iynəyarpaqlı-enliyarpaqlı meşələrində və tayqa zonasında meşə əmələ gətirən cinslərdir. Aralıq dənizi ölkələrində, dağlıq Orta Asiyada və Şimali Amerikanın quraqlıq vilayətlərinin bitki örtüyündə ardıc meşələri, seyrək meşələr və sərili bitki formaları xeyli yer tutur. Tropiklərin bir sıra regionlarında və Cənub yarımkürəsində araukariya (Cənubi Amerika, Şərqi Avstraliya, Yeni Qvineya və yanaşı adalarda), aqatis (Cənub-Şərqi Asiya a-rı, Şərqi Avstraliya) və podokarp meşələri (Cənubi Amerika, Cənub-Şərqi Asiya a-rı, Yeni Zelandiya, Yeni Kaledoniya) böyük əhəmiyyət kəsb edir. Hər yerdə meşənin istifadəsində və istismar edilməsində iynəyarpaqlı meşələr başlıca obyekt hesab olunur. Ağac emalı, sellüloz-kağız və kimya sənayesi üçün əsas xammal mənbəyi olan oduncağın dünyadakı ehtiyatının 35%-indən çoxu bunlarda toplanmışdır. Ç.-ın həm yabanı, həm də xüsusi yetişdirillmiş bağ formaları – bəzək bitkiləridir. Ç.-ın bəzi növləri ölçüsünə, böyümə sürətinə, həmçinin həyati formalarına, yarpaqlarının rənginə və çalarlarına görə çox müxtəlif, eləcə də havanın toz və qazlarla çirklənməsinə qarşı davamlı olduğundan yaşıllaşdırma və landşaft dizaynı üçün ən cəlbedici qruplardan biridir. Bax həmçinin *Küknar, Qara şam, Ardıc, Ağ şam, Şam, Eldar şamı və s.*

**ÇINAQÇI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Xudafərin bölgəsinin Keyvan kəndistanında, Xudafərin qəs.-ndən 9 *km* ş.-dədir.

**ÇINQIL** – yarıdan çox hissəsi səthi hamarlanmış iri qırıntılardan (eninə ölçüləri 2–10 *mm*, digər təsnifatlara görə 1–10 *mm*) ibarət çökmə süxur. Ç. müxtəlif tərkibli, əsasən, kvars-silikat tərkibli, nadir hallarda mineral qırıntılarından ibarət olur. Qırıntılar arasındakı boşluqları qum və gil doldura bilər. Qırıntıların ölçüsündən asılı olaraq xırda (2–5 *mm*) və iri (5–10 *mm*) Ç. ayrılır. Mənşəyinə görə çay Ç.-ı, göl Ç.-ı, buzlaq Ç.-ı və s. növləri var. Çöküntülər kəsilişində Ç.-ın iştirakına əsasən qədim yuyulma sahələrini bərpa etmək olar. Sementləşmiş Ç. *qravelit* adlanır. Beton doldurucusu kimi, yol örtüklərinin və d.y.-nda ballast təbəqəsinin qurulmasında, su kəməri və hidrotexniki qurğuların süzgəclərində və s.-də istifadə olunur; kvars Ç.-ından şüşə alınır. Yataqlarına çay terraslarında, çaybasarlarda rast gəlinir.

**ÇINQILOTU** (Geum) – gülçiçəklilər fəsiləsindən çoxillik, kökümsovlu ot bitkisi cinsi. Kökyanı yarpaqlarının ucu iri dilimli, liraşəkilli-lələkvarı, gövdə yarpaqları üçbölümlüdür. Çiçəkləri tək-tək və ya başcıq çiçək qrupunda yerləşir, tünd-çəhrayı, qırmızı, sarı və ya narıncı olur. Meyvələri fındıqşəkillidir. Vegetativ orqanları cod tükcüklərlə örtülmüşdür. 60-adək növü var; Şimal və Cənub yarımkürələrinin mülayim və subtropik zonalarında (dağlıq ərazilər daxil olmaqla) yayılmışdır; Avstraliya və Antarktikadan başqa bütün qitələrdə rast gəlinir.

Azərb.-da 3 növü – G. urbanum, G. aleppicum, G. rivale var. Onlara əksər rayonlarda, arandan orta, bəzən yuxarı dağ qurşağınadək, meşə və kolluqlarda,



Şəhər çınqılotu (Geum urbanum).

rütubətli çəmənliklərdə, çay sahillərində rast gəlinir. Çəhrayı açıq çiçəkləri olan çay Ç. (G. rivale) növü seyrək yayılmışdır. Sarı çiçəkli şəhər Ç. (G.urbanum) ən çox yayılmış növdür. Ç. bitkisinin kök və kökümsovundan dəmləmə, cövhər; tozundan mədə-bağırsaq, ishal, dizenteriya, kolit, qusma, soyuqdəymə, tərlədici, qızdırma, əsəb, qaraciyər, vərəm, bronxit, astma, öskürək, ödqovucu, bəlğəmgətirici, büzüşdürücü, müqavimətartırıcı; uşaqlıq və babasil qanaxmalarında, diş diblərinin və s. müalicəsində istifadə edilir. Su ilə dəmləməsi boğaz ağrılarını, ağız nahiyəsinin, diş ətinin iltihabını və s.-ni aradan qaldıran qarqara kimi işlədilir.

Ç.-nun bir çox növləri çox dəyişkəndir və çox vaxt xeyli hibridlər əmələ gətirir.

**ÇINQILYUYAN QURĞU** – *çınqıl* və *qırmadaşdakı* qarışıqları kənar etmək məqsədilə onların yuyulması üçün qurğu. Barabanlı (ölçüsü 150 *mm*-ədək olan material parçaları üçün) və təknəli, yaxud yumruqcuqlu (ölçüsü 100 *mm*-ədək olan material parçaları üçün) Ç.q. növləri vardır.

**ÇIONQŞON**, Annam dağları – Hind-Çin y-a-nın ş.-ində, Vyetnam və La-

Çıonqşon. Annam dağlarının cənub yamacları. Vyetnam.



osda yayla. Uz. 1300 *km*, hünd. 2711 *m*-ədəkdir. Əsasən qranitlərdən və qədim çökmə süxurlardan ibarətdir; şm.-ında əhəngdaşılardır (karst inkişaf etmişdir). Q. və c.-unu bazalt lavasından ibarət geniş plato tutur. Ş. yamacları Cənubi Çin dənizinə dik, q. yamacları Mekonq çayı dərəsinə pillələrlə düşür. Ş. yamaclarında rütubətli tropik və iynəyarpaqlı meşələr, q. yamaclarında yarpağıtökülən nadir ağaclar və savanna tipli bitkilər yayılmışdır.

**ÇIRAXLI** – Azərb. Resp. Ağdam r-nunun Əhmədağalı ə.d.-ndə kənd. R-n mərkəzindən 17 *km* şm.-ş.-də, Qarabağ düzündədir. Əh. 740 (2011); taxılçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Kitabxana, tibb məntəqəsi var.

**ÇIRAQ** – binaları, otaqları, açıq sahələri və müxtəlif əşyaları işıqlandırmaq üçün cihaz (məişət əşyası). Daş Ç. Paleolit dövrünə aid Madlen düşərgəsində tapılmışdır. Gil Ç.-lar Eneolit dövründən məlumdur. Sonralar iki gözdən (piltə qoymaq və piy tökmək üçün) ibarət Ç.-lar meydana gəldi. Qədim Yunanıstan və Romada gil və tunc Ç.-lar zeytun yağı ilə işlədilirdi. Qazıntılar zamanı Azərb.-da (Bakı, Mingəçevir, Şamaxı, Qəbələ, Beyləqan, Gəncə və s.) müxtəlif Ç. növləri tapılmışdır.

Müasir elektrik Ç. işıqlandırma armaturundan (İA) və bir, yaxud bir neçə işıq mənbəyindən ibarətdir. İA işıq mənbəyini bərkitmək, elektrik cərəyanını işıq mənbəyinə ötürmək və s. üçündür. İA-nın əsas hissəsi Ç.-ın optik sistemidir. Qazboşalma işıq mənbəli Ç.-larda lampanı alışdırmaq və işini stabilləşdirmək üçün qurğu olur. Quraşdırılma qaydasına görə tavandan asılan, divariçi, divardan asılan, stolüstü, döşəmədə qoyulan və s., şaxtalarda əldə gəzdirilən və baş geyimində yerləşdirilən Ç. növləri var.

**Azərbaycan ərazisində tapılmış qədim çıraqlar:**
*1* – tunc çıraq, Şabran. 9–12 əsrlər; *2* – gil çıraq, Torpaqqala (Tovuz rayonu). Erkən orta əsrlər.



**ÇIRAQ** – Azərb. Resp. Kəlbəcər r-nunda kənd. Çıraq ə.d.-nin (Çıraq, Məmmədsəfi, Tövlədərə k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 18 *km* c.-q.-də, Tərtər çayının sahilindədir. Əh. 154 (2011); işğaldan (1993, aprel) əvvəl heyvandarlıqla məşğul olurdu. Əsas məktəb, klub, kitabxana, uşaq bağçası, feldşer-mama məntəqəsi var idi.

**ÇIRAQ HASARI** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Ətraf kəndistanında, Qiydar qəs.-ndən 17 *km* şm.-q.-dədir.

**ÇIRAQ NEFT-QAZ YATAĞI** – Xəzər dənizinin Azərb. sektorunda, Abşeron arxipelaqı neftli-qazlı r-nunda, Bakı ş.-ndən 120 *km* ş.-də yerləşir. Yatağın yerləşdiyi sahədə dənizin dərinliyi 85–300 *m* arasında dəyişir. Çıraq strukturu 1964 ildə aparılmış seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilmişdir; Abşeron-Balxanyanı antiklinal zonada, Günəşli və Azəri yataqlarının arasında yerləşir. Tektonik cəhətdən şm.-q. – c.-ş. istiqamətdə uzanan asimmetrik quruluşa malik qırışıqdan ibarətdir. Qırışıq uzununa və bir sıra eninə pozulmalarla və palçıq vulkanları ilə mürəkkəbləşmişdir. Şm.-ş. qanadda layların yatım bucağı 40-45°, c.-q. qanadda 25-30° təşkil edir. Məhsuldar qatın "Fasilə" lay dəstəsinə görə qırışıq 2500 *m* izoxətlə qapanır; ölçüləri 13,5x3,5 *km*, amplitudası 500 *m*-dir. Yataq 1985 ildə açılmışdır (quyu № 1, Fasilə lay dəstəsi – 275 *t/gün* neft, 20-30 min $m^3$*/gün* qaz; X horizont – 222 *t/gün* neft, 20 min $m^3$*/gün* qaz). Sonralar, 1985-91 illərdə qazılmış axtarış-kəşfiyyat quyuları vasitəsilə Məhsuldar qatın Balaxanı lay dəstəsinin IV, V, VI, VII, VIII, IX horizontlarının, Qırmakiüstü qumlu, Qırmakialtı, Qala lay dəstələrinin də neft-qazlılığı müəyyənləşdirilmişdir. Yatağın geol. kəsilişində Məhsuldar qatdan aşağıda yatan çöküntülər, Məhsuldar qat, Abşeron, Akçaqıl, Dördüncü dövr çöküntüləri iştirak edirlər. Litoloji cəhətdən

Stolüstü müasir çıraq.



onlar qum, qumdaşıları, alevrit və gillərin növbələşməsindən ibarətdir. Kollektorlar terrigen-məsaməlidirlər, ümumi effektiv qalınlıq 450 *m*, açıq məsaməlilik 20%, keçiricilik 0,4 *mkm*$^2$, neftlədoyma 74%, qaz amili 22,8 $m^3/t$-dur. Çıraq yatağı 1994 ildə imzalanmış "Əsrin müqaviləsi"nə – "Xəzər dənizinin Azərb. sektorundakı Azəri, Çıraq və Günəşli (dənizin dərin hissəsi) yataqlarının işlənməsi və hasilatın pay bölgüsünə dair" Sazişə daxil edilmiş yataqlardan biridir. Saziş çərçivəsində Çıraq sahəsində 1995 ildə 3D seysmik ölçü işləri aparılmış, 1996 ildə yatağın ehtiyatlarını dəqiqləşdirmək məqsədilə GÇA-1 nömrəli qiymətləndirici quyu qazılmışdır. "İlk neft layihəsi" çərçivəsində sahədə Çıraq-1 özülünün tikintisi və abadlaşdırılması 1996 ildə başa çatdırılmışdır. Həmin özüldən 1997 ildə birinci istismar quyusu qazılmış və həmin ilin 25 noyabrında ilk neft alınmışdır. 2011 ilin dekabr ayına qədər özüldən 34 istismar və 10 suvurucu quyu qazılmışdır. "Çıraq neft layihəsi" çərçivəsində yatağın q. hissəsində yeni özülün tikintisi və bu özüldən 48 quyunun qazılması planlaşdırılmışdır. Çıraq yatağında neftin sıxlığı 862,5 $kq/m^3$-dir. Neftin tərkibində parafinin miqdarı 2,2–9,2%, asfaltenlər 1,2–2,3%, qatran 4,6–7,4% təşkil edir. Çıxarıla bilən ilkin neft ehtiyatı 170 mln. *t* həcmində qiymətləndirilir. İşlənmənin əvvəlindən 1.12.2011 il tarixinə cəmi 77,1 mln. *t* neft, 16,5 mlrd. $m^3$ qaz hasil edilmişdir.

**ÇIRAQÇI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 22 *km* q.-dədir.

**ÇIRAQDƏRƏ KÜKÜRD-KOLÇEDAN YATAĞI** – Azərb. Resp. Göygöl r-nu ərazisindədir. Kürəkçayın (Kürün sağ qolu) hövzəsində, Toğanalı k. ilə Çıraq dərəsi arasında yerləşir. Tektonik cəhətdən Göygöl qalxımının mərkəzi hissəsi ilə əlaqədardır. Geol. quruluşunda Orta Yuranın vulkanogen-piroklastik əmələgəlmələri – Üst Bayosun riolitləri, Batın andezit və andezit-bazaltları, Üst Tabaşirin vulkanogen süxurları iştirak edir. Yataq ərazisində Yuranın vulkanogen süxurları diabaz, qabbro-diabaz, diabaz-porfirit daykaları ilə yarılır. Filizləşmə Üst Bayosun turş vulkanitlərində (riolitlərdə) ştoklar, linzalar, möhtəvi və damarcıqlar şəklindədir. Əsas filiz mineralları: pirit, melnikovit, markazit, xalkopirit, sfalerit, qalenit, tetraedrit, tennantit, maqnetit və s. Kükürd-kolçedan filizlərində kükürdün miqdarı 30–53%-dir.

**ÇIRAQQALA** – Azərb.-da orta əsrlərə aid qala. Şabran r-nunda Qalaaltı k. yaxınlığındadır. Ərazinin ən hündür dağ zirvəsindəki nəhəng qaya üzərində tikilmiş Ç. müdafiə xarakterli olmuşdur. Qayanın zirvəsində qala divarlarına bitişik baş bürc ucalır. Qalanın divarları və yarımdairəvi bürcləri (12-dək bürc) daşdan tikilmiş, yalnız baş bürcə kərpicdən üzlük çəkilmişdir. Ç.-nın ətrafında orta əsrlərə aid müxtəlif keramika qırıqları tapılmışdır. Qalanın 5–6 əsrlərdə, Sasanilər dövründə tikildiyi və 18 əsrədək istifadə edildiyi ehtimal olunur (bax həmçinin *Gilgilçay səddi*). Düşmənin yaxınlaşdığını xəbər vermək üçün qalanın baş bürcünün üstündə tonqal yandırılırdı. "Çıraqqala" adı da bununla əlaqədar yaranmışdır.

**ÇIRAQQAYA** – Azərb. Resp. Şabran r-nunda, Yan silsilənin c.-ş.-ində dağ. Hünd. 1232 *m*. Əsasən, Tabaşirin əhəngdaşılarından ibarərdir. Meşə, tarixi abidə (Çıraqqala), balneoloji kurort (Qalaaltı) var.

**ÇIRAQLI** – Azərb. Resp. Daşkəsən r-nunda kənd. Çıraqlı ə.d.-nin mərkəzi. R-n mərkəzindən 32 *km* c.-ş.-də, Murovdağ silsiləsinin ətəyindədir. Əh. 177 (2011); heyvandarlıq və kartofçuluqla məşğuldur. İbtidai məktəb, kitabxana, klub var.

**ÇIRAQLI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 8 *km* c.-dadır.

**ÇIRAQLI** – Azərb. Resp. Laçın r-nunun Kamallı ə.d.-ndə kənd. R-n mərkəzindən 36 *km* şm.-q.-də, Qarabağ vulkanik yaylasında, Minkənd çayının (Həkəri çayının sağ qolu) sahilindədir. Əh. 619 (2011); işğaldan (1992, may) əvvəl əkinçilik, bağçılıq, bostançılıq, heyvandarlıq və arıçılıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, kitabxana, feldşer-mama məntəqəsi var idi.

**ÇIRAQLI** – Azərb. Resp. Şamaxı r-nunun Sabir ə.d.-ndə kənd. R-n mərkəzindən 12 *km* c.-ş.-də, Pirsaat çayının sahilindədir. Əh. 225 (2011); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**ÇIRAQLI** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Düzkənd, 7.12.1945 ildən Axuryan r-nu), Arpa çayı boyunda azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində İrəvan xanlığı Rusiya tərəfindən işğal edilərkən kənd dağıdılmış, əhalisi qovulmuşdur və kənd xaraba qalmışdır. Az sonra kənddə İrandan və Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir. 7.12.1945 ildə kəndin adı dəyişdirilərək Crarat qoyulmuşdur.

**ÇIRAQLI,** Ç ı r a q o ğ l u – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Paşalı, 12.10.1956 ildən Əzizbəyov, 19.04.1991 ildən Vayk r-nu), Terp çayı sahilində azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd erməni təcavüzünə məruz qalmış, əhalisi isə qovulmuşdur. 1922 ildə kəndin qaçqın əhalisinin bir hissəsi geri qayıtmış, lakin ermənilər onların burada yaşamasına imkan verməmişdir. Bir müddətdən sonra kənd xarabalığa çevrilmişdir.



Çıraqqala. Şabran rayonu. Erkən orta əsrlər.

**ÇIRAQOV** Famil Musa oğlu (d.30.6. 1958, Gürc.SSR Bolnisi r-nunun Qoçulu k.) – Azərb. kimyaçısı, k.e.d. (2004), prof. (2007). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1984). BDU-nun analitik kimya kafedrasında mühəndis, baş laborant, dosent, prof. vəzifələrində işləmiş, 2006 ildən həmin kafedranın müdiridir. Tədqiqatları metallarla β-diketonların törəmələrinin kompleks birləşmələrinin sintezi, quruluşu, xassələri və analitik tətbiqinin öyrənilməsi sahəsindədir. 420-dən çox elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**ÇIRAQOV** Məmməd İsa oğlu (d.21.6. 1938, Gürc.-ın Bolnisi r-nu) – Azərb. geoloqu, geologiya-mineralogiya e.d. (1969), prof. (1993). 1962 ildə Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir. 1962–71 illərdə Azərb. EA Qeyri-üzvi və Fiziki Kimya in-tunun kiçik elmi işçisi, 1971 ildən Azərb. Dövlət Un-tinin baş müəllimi, dosenti, prof.-u olmuşdur. 2006 ildən BDU-nun Kristalloqrafiya, mineralogiya və geokimya kafedrasının müdiri vəzifəsində çalışır. Tədqiqatları iri kationlu silikatların kristallokimyası sahəsi üzrədir. 150-dən artıq elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir. Yüksək ixtisaslı kadrların hazırlanmasında xidməti var.

Ə s ə r i: Сравнительная кристаллохимия кальциевых и редкоземельных силикатов. Б., 2002.

**ÇIRAQOVA** Zəhra Əhməd qızı (1923, Gürc.-ın Bolnisi r-nunun Qoçulu k. – 15.07.1976, orada) – Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1936 ildən başlamış, müxtəlif işlərdə çalışmış, 1959 ildən Bolnisi r-nunun Qoçulu k.-ndəki təsərrüfatda sağıcı işləmişdir. Gürc. SSR-dən SSRİ Ali Sovetinə (8-ci çağırış) deputat seçilmişdir.

**ÇIRAQTƏPƏ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Təkab bölgəsinin Əhmədabad kəndistanında, Təkab qəs.-ndən 32 *km* şm.-ş.-dədir.

**ÇIRPILI** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Ağin, 12.10.1961 ildən Ani r-nu), Arpa çayının kənarında azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində kəndin azərb. əhalisi qovulmuş və buraya İrandan, Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir.

**ÇIRPMA** – lifli materialları (pambıq, yun, kətan və s.) kənar qarışıqlardan təmizləmək, yumşaltmaq (onu kiçik lif topalarına ayırmaq) və s. üçün onların emalı. Əyirmə istehsalatında emal Ç. maşınlarında aparılır; maşının işlək (çırpan) orqanının (bıçaqlı, iynəli didmə barabanının və çırpqacın) lif layına zərbəsinin təsiri altında material emal edilir.

**ÇİA** ("ay") – çibça-muiskaların miflərində ay ilahəsi. Çiminiqaqua dünyanı yaradarkən sonda ən gözəl qadını aya, ən yaraşıqlı kişini isə günəşə çevirmişdir.



Çianqmay şəhəri yaxınlığında Vat Praxat Doy Suthep məbədi. 1383 il.

Digər mifoloji süjetə görə insanların yaradıcısı, çibçaların ulu babası, Soqamoso k.-nin başçısı aya çevrilmişdir. Ç. obrazı məhsuldarlıq allahları Uitaka və Yubekayquayya ilə kontaminasiya olunmuşdur (ehtimal ki, tayfaların birləşməsi zamanı); belə ki, hər bir təcəssümün öz funksiyası var idi. Ç. buludları yaratmaqla və yağış yağdırmaqla torpağın məhsuldarlığını artırırdı; Uitaka məhəbbət allahı olmuşdur; Yubekayquayya şumun vaxtını təyin edir və məhsulu qoruyurdu. Bunların üçü də vəhdət təşkil edir və onlara çox vaxt birlikdə sitayiş edilirdi; belə ki, məhsuldarlıq allahına hər üç adla müraciət oluna bilərdi, lakin daha çox Ç.-nın adı çəkilirdi.

**ÇİÁNO** (Ciano) Qaleatso (18.3.1903, Livorno – 11.1.1944, Verona) – qraf, faşist İtaliyasının dövlət və siyasi xadimi, diplomat. B. *Mussolininin* kürəkəni. 1925 ildən diplomatik xidmətdə, 1936–43 illərdə xarici işlər naziri olmuşdur. İkinci dünya müharibəsi (1939–45) illərində İtaliya qoşunlarının hərbi məğlubiyyətləri və faşist rejiminin iflasa uğramağa (1942 ilin sonundan) başlaması səbəbindən İtaliya hakim dairələrindəki separat sülhün bağlanmasına meyilli olan qrupa qoşulmuşdu. 1943 ilin fevralında nazir vəzifəsindən azad edilmişdi. Mussoliniyə qarşı təşkil olunmuş sui-qəsddə iştirak etmiş, 1943 il iyulun 25-də Böyük faşist şurasında Mussolininin devrilməsi lehinə səs vermişdi. İtaliyanın alman qoşunları tərəfindən işğalından (1943 il, sentyabr) sonra Almaniyaya aparılmış və Şimali İtaliyada yaradılmış oyuncaq "İtaliya sosial respublikası" hökumətinə təslim edilmişdi. Faşist hərbi tribunalının qərarı ilə güllələnmişdir.

**ÇİANQMÁY**, Ç i y e n q m a y – Taylandda şəhər. Çianqmay çanqvatının (əyalətinin) inz. m. Əh. 148 min (2008). Pinq çayı sahilindədir. D.y. vasitəsilə Banqkokla əlaqəlidir. Yaxınlığında volfram, barit, qurğuşun, sink, mika, liqnit, neft yataqları var.

K.t. (çəltik, çay) və meşə sənayesi (tik) r-nu mərkəzidir. Yeyinti, taxta-şalban sənayesi müəssisələri fəaliyyət göstərir; ipək, lak istehsal olunur.

Ç. 13 əsrdə salınmışdır. Şəhərdə Çianqmay (1297) və Çet Yot (13 əsr) məbədləri var.

**ÇİANTÁR** – Pakistanın şm.-ında, Hindiquş d-rında ən iri mürəkkəb dərə buzlağı. Hindurac silsiləsinin şm. yamaclarındadır; 3660 *m*-ədək enir. Uz. 32 *km*, sah. 260 $km^2$. Kunar çayı (Hind hövzəsi) başlanğıcını Ç. buzlağından götürür.

**ÇİATURA** – Gürc.-da şəhər. Əh. 19,7 min (2008). Kvirila çayı dərəsində və ona bitişik platolarda yerləşir. Ç.-nın ətraf r-nlarını onun mərkəzi hissəsi ilə sərnişin hava-kanat yolları birləşdirir. D.y. st. Manqan filizi, kvars qumdaşı, mərmər çıxarılır. Slikat kərpici z-du, çay və tikiş f-kləri; ölkəşünaslıq muzeyi, dram teatrı var.

**ÇİATÚRA MANQAN YATAĞI** – Gürcüstanda iri manqan filizi yatağı. 1846 ildə kəşf olunmuşdur. 1879 ildən yerüstü (38%-i) və yeraltı üsullarla istismar olunur. Yatağın geol. quruluşunda Mezozoyun və Paleogen-Neogenin subhorizontal (1–6° şm.-ş. yatımlı) çökmə süxurları iştirak edir. Manqanlı horizontun ümumi qalınlığı 0,5–7 *m*, filiz laylarının (3–18) qalınlığı 30–35 *sm*-dir. Ümumi geol. ehtiyatın 26%-ini oksid filizləri, 45%-ini karbonat filizləri, 15%-ini oksidləşmiş filizlər, 14%-ini qarışıq filizlər təşkil edir. İnz. və sənaye mərkəzi Çiatura ş.-dir.

**ÇİAURÉLİ** Mixail Edişeroviç (6.2.1894, Tiflis – 31.10. 1974, Tbilisi) – gürcü rejissoru, ssenarist. SSRİ xalq artisti (1948). SSRİ Dövlət mükafatları laureatı (1941, 1943, 1946, 1947, 1950). Tbilisi Boyakarlıq və Heykəltəraşlıq Məktəbini bitirmişdir (1916). 1921 ildən teatrda rəssam, rej., aktyor işləmişdir. Kinoda aktyor kimi debütü "Arsen Corciaşvili" filmində olmuşdur (1921, Arsen). "Suram qalası" (1923, Osman ağa), "Keçmişin dəhşətləri" (1925, Harun), "Natella" (1926, Condo), "Xanuma" (1927, Siko) filmlərində çəkilmişdir. 1928 ildə Y.L. Dziqanla birgə "Birinci kornet Streşnev" filmini çəkmişdir. Ən yaxşı filmləri: "Son saatda" (1928), "Saba" (1929), "Axırıncı maskarad" (1934, ilk səsli gürcü filmi), "Arsen" (1937), "Georgi Saakadze" (1942–43), "Böyük şəfəq" (1938), "And" (1946), "Berlinin süqutu" (1950, Beynəlxalq kinofestivalın mük., Karlovi-Vari), "Otarın dul qadını" (1958), "Bir qız haqqında povest" (1960), "General və qızçiçəkləri" (1964), "İndi başqa zəmanədir" (1965). Bir neçə animasiya filmi də çəkmişdir.



**ÇİAURELİ** Sofya (Sofiko) Mixaylovna (21.5.1937, Tbilisi – 2.3.2008, Tbilisi) – gürcü artisti. Gürc. SSR xalq artisti (1976). SSRİ Dövlət mükafatı laueratı (1980). V. *Ancaparidze* və M. *Çiaurelinin* qızlarıdır. 1960 ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İn-tunu bitirmiş, həmin ildən K. Marcanişvili ad. teatrda işləmişdir. Debütü "Bizim həyət" (1957, Sit-sino) filmində olmuşdur. Daha çox müasirlərinin rolunu ifa etmişdir: Mzekala ("Xevsur balladası", 1966, Ümumittifaq kinofestivalının mük.), Sofiko ("Hüdudlar", 1970), Sidoniya ("Əllərinin hərarəti", 1972, Ümumittifaq kinofestivalının mük.), jurnalist Sofiko ("Şəxsi məsələlər üzrə bir neçə intervü", 1979). Müxtəlif ampluada çıxış etmişdir ("Narın rəngi", 1970, filmdə altı rolda çəkilmişdir; "Arzu ağacı", 1977, Fufala). Ç.-nin komik istedadı Sofiko ("Qəm yemə!", 1969), Vardo ("Veriya məhəlləsnin melodiyaları", 1973, Ümumittifaq kinofestivalının mük., 1974), Alisa ("O qadını axtarın", 1982 t/f) rollarında aşkara çıxmışdır. "Bir qız haqqında povest" (1960), "İnquri sahillərində" (1961), "General və qızçiçəkləri" (1964), "İndi başqa zəmanədir" (1965), "Təbəssümün qayıtması" (1968), "Əlibaba və 40 quldurun macəraları" (1979), "Suram qalası haqqında əfsanə" (1984), "Aşıq Qərib" (1988), "Gürcüstan haqqında xatirələr" (1991), "Nuhun gəmisi" (2000), "Ay vadisinin serenadası" (2005), "Mayak" (2006) və s. filmlərdə çəkilmişdir.





Çıraqqala. Şabran rayonu. Erkən orta əsrlər.

**ÇİBAQALÁX SİLSİLƏSİ** – RF-nin Saxa (Yakutiya) Resp.-nda, Çerski dağ sistemində silsilə. Tuostax çayının (Yana hövzəsi) dərəsindən Çibaqalax çayı (İndigirka hövzəsi) dərəsinədək 250 *km* məsafədə uzanır. Hünd. 2449 *m*-ədək. Əsasən, metamorfik süxurlardan, şistlərdən və qumdaşılarından ibarətdir. Yamaclarında qara şam meşələri, yuxarılarda sidr kolluqları və dağ tundrasıdır.

**ÇİBAN** – bax *Furunkul*.

**ÇİBÇA DİLLƏRİ** – çibça hindi tayfalarının dil ailəsi. Cənubi Amerikanın şm.-ş. hissəsi və Mərkəzi Amerikanın c. hissəsində (Peru, Ekvador, Kolumbiya, Venesuela, Panama, Kosta-Rika) yayılmışdır. Q. (yarımqruplar: talamanka, barbakoa, quatuso, kuna); Sakit okean (istmika, Kolumbiya); interand (paes, kokonuko, papayanense); ş. (kundinamarka, aruako, Mərkəzi Amerika) qruplarına bölünür. Bir sıra alimlər Ç.d. ilə birlikdə misumalpa (miskito, sumo, mataqalpa) və s. dilləri də makroçibça dil ailəsinə aid edirlər.

*Əd.:* M a s o n J.A. The languages of South American, Handbook of South American Indians. v. 6. Wash., 1950.

**ÇİBÇAKUM**, Ç i b ç a ç u m ("dayaq", "çibçaların gücü") – çibça-muiskaların mifologiyasında təbiət qüvvələrinin allahı, çibça torpaqlarının hamisi. Ç. bu torpaqlardan heç vaxt uzaqlaşmır. Bir gün adamlar onun qoyduğu adətlərə əməl etmədiyinə görə Sopo və Tivito çayları axınlarını dayandırdı və Boqota vadisini suya qərq etdi. Çibçaların xahişi ilə daşqının qarşısını alan Boçika Ç.-u çiyinlərində Yeri daşımağa məcbur etdi. Bəzən dincəlmək məqsədilə Ç. Yeri bir çiynindən o biri çiyninə yerləşdirdikdə zəlzələ baş verir. Ç.-a daha çox əkinçilər, zərgərlər və tacirlər sitayiş edirdilər. Ç.-a, əsasən, qızıl qurban verilirdi.

**ÇİBÇALAR** – Mərkəzi və Cənubi Amerikada hindi xalqları qrupu. Ümumi sayları 635 min nəfərdir, o cümlədən Kolumbiyada 320 min nəfər, Nikaraquada 160 min nəfər, Panamada 130 min nəfər, Kosta-Rikada 15 min nəfər, Hondurasda 10 min nəfərdir. Kabekarlar, bribrilər və terrabalar quaymilərə yaxın olan talamankalar qrupunda birləşirlər; kayapolar, koaykerlər və koloradolar pastolar qrupuna daxildirlər. Ç.-a kunalar, aruaklar, tunebolar, barilər, quatusolar, borukalar, sumolar, ramalar, miskitolar, quambialar, ehtimal ki, paeslər də aiddirlər. Dilləri makroçibça dil ailəsini təşkil edir.

Əsas ənənəvi məşğuliyyətləri talalarda toxa əkinçiliyi, bəzi yerlərdə suvarma əkinçiliyi və terraslı əkinçilik (qarğıdalı, maş, köküyumrular, şaftalı palması), ovçuluq, balıqçılıq, yığıcılıqdır. Ticarət və sənətkarlıq inkişaf etmişdir. Eramızın 1-ci minilliyinin ortalarından Ç.-ın arealında sakinlərinin sayı 1000 nəfərdən (bəzən 5000 nəfərdən) çox olan daimi yaşayış məskənləri, ictimai təbəqələşmə, protodövlətləri (ən iriləri muisklərdə), peşəkar kahinləri mövcud idi. Ənənəvi evlərinin əsas tipi divarları şüvül və qamışdan, dam örtüyü küləşdən olan dairəvi evlərdir (Kolumbiyanın şm.-ında və Mərkəzi Amerikada damın üstünə adətən keramika qabı qoyulurdu). Geyimləri qurşaqlar və bel sarğıları, ayanlarda pambıq parçadan tikilmiş zəngin naxışlı plaş və çiyinliklər, qızıl pektorallar (sinəbəndlər), taclar, bilərziklərdir. 18–19 əsrlərdə yerli xüsusiyyətləri saxlayan, evdə toxunan kreol tipində geyim yayılmışdı. Ənənəvi sosial təşkilatları əsasən qohumluğu ana xətti ilə hesablanan qəbilələrdir, nikahları matrilokaldır. Ənənəvi ayinləri arasında Ç.-ı Amazoniya hindilərindən fərqləndirən, Mezoamerika və Mərkəzi And d-rı xalqları ilə yaxınlaşdıran aqrar mərasimləri üstünlük təşkil edir. İnkişaf etmiş kosmoqoniya, antropomorf allahlar panteonu, qurbanvermə ilə müşayiət olunan günəş kultu səciyyəvidir. Ç.-ın müasir etnik inkişafının tendensiyaları müxtəlifdir. Terrabalar, quatusolar və b.-nı ispandilli əhali ilə assimilyasiya olunur; ucqarlarda yaşayan Ç. (tunebolar, pastolar, sumolar, barilər) isə qəbilə münasibətlərini və arxaik mədəniyyətlərini saxlayırlar.

**ÇİBİSOV** Konstantin Vladimiroviç (1.3. 1897, Moskva – 31.12.1988, orada) – fiziki-kimya sahəsində rus alimi, SSRİ EA m. üzvü (1946), SSRİ Dövlət mükafatı laureatı (1950). MDU-nu bitirmişdir (1922). MDU-nun prof. (1950 ildən), SSRİ EA Fotoqrafiya proseslərinin kimyası üzrə komissiyanın sədri (1948 ildən), Elmi Fotoqrafiya üzrə Beynəlxalq Komitənin fəxri pre-

zidenti (1974 ildən) olmuşdur. Əsas elmi əsərləri fotoqrafiya emulsiyalarının işığahəssaslıq nəzəriyyəsinin tədqiqinə və fotoqrafiya prosesi kimyasının öyrənilməsinə həsr edilmişdir. 4 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**ÇİBRAFRUİME** – çibça-muiskaların mifologiyasında müharibə allahı, döyüşçülərin hamisi. Boçikanın köməkçisi hesab olunurdu.

**ÇİBURDANİDZE** Mayya Qriqoryevna (d.17.1.1961, Kutaisi) – gürcü şahmatçısı, beynəlxalq qrossmeyster (1977), əməkdar idman ustası (1979), kişilər arasında beynəlxalq qrossmeyster (1984). SSRİ (1977) və dünya (1978) çempionu, 9 şahmat olimpiadasının [SSRİ yığma komandası tərkibində (1978, 1980, 1982, 1984, 1986); Gürc. yığma komandası tərkibində (1992, 1994, 1996, 2008)] qalibi olmuşdur.



**ÇİÇAQOV** Vasili Yakovleviç (11.3.1726 – 16.4.1809, Peterburq) – rus dəniz səyyahı, adm. (1782). 1764 ildə Arxangelskdən Şimali Amerika sahillərinə (Şimal Buzlu okeanından keçməklə) və oradan q.-ə – Berinq boğazından Kamçatkaya dəniz yolunu tapmaq üçün ekspedisiyaya rəhbərlik etmişdir. 1765 ildə ekspedisiya Şpitsbergen arxipelaqından şm.-q.-də 80° 26′ şm.e.-nə çatmış, lakin buzlar mane olduğundan geriyə – Arxangelskə dönmüşdür. 1766 ildə ikinci cəhd zamanı 80° 30′ şm.e.-nədək irəliləmək mümkün olmuşdur. Rus-türk müharibəsində (1768–74) Don donanmasına, rus-İsveç müharibəsində (1788–90) Baltika donanmasına başçılıq etmişdir. Novaya Zemlya arxipelaqında adalara, Şimali Amerikanın q. sahillərində Aleksandr arxipelaqında adaya, Cənubi Polineziyada Nauku-Xiva a.-nda körfəz və buruna, Küsü a.-nda buruna, Şpitsbergen a.-nda dağa Ç.-un adı verilmişdir.

**ÇİÇEN-İTSA** (Chichén-Itzá) – Yukatan y-a-nın (Meksika) şm.-ında *mayyaların* siyasi və mədəniyyət mərkəzi. Ehtimal ki, 8 əsrdə salınmışdır. 10 əsrdə Ç.-İ.-nı tolteklər işğal etmiş, 11 əsrin ortalarından Toltek dövlətinin paytaxtı olmuşdur. 1178 ildə Mayyapan, Uşmal və İtsmal şəhər-dövlətlərinin qoşunları tərəfindən dağıdılmışdır. İspan işğalı zamanı (16 əsr) xarabalıq idi. Ç.-İ. ərazisində dəfələrlə arxeoloji qazıntılar aparılmışdır; mayya-tolteklərə aid ən iri memarlıq abidələri "Qırmızı ev", "Qadın monastırı", "Kilsə", "Karakol" rəsədxanası, "Döyüşçülər məbədi" (hər iki məbəddə divar rəsmləri qalmışdır), "Kukulkan məbədi" (9-pilləli piramida, hünd. 24 *m*), "Kastilyo", 4 sıra sütunun qalıqları, top oyunu üçün böyük stadion və s. aşkar edilmişdir.

**ÇİÇERİN** Georgi Vasilyeviç (24.11.1872, Rusiyanın Tambov qub.-nın Karaul k. – 7.7.1936, Moskva) – Rusiya dövlət xadimi, diplomat. Zadəgan ailəsində doğulmuşdur. Peterburq Un-tini bitirmişdir (1896). 1904 ildə Almaniyaya mühacirət etmiş, 1905 ildə orada RSDFP-yə daxil olmuşdur. 1918 ilədək Fransa, Almaniya və İngiltərədə yaşamışdır. 1918 ildə RSFSR xalq xarici işlər komissarının müavini təyin edilmiş, sovet nümayəndə heyətinin tərkibində *Brest-Litovsk sülhünü (1918)* imzalamışdır. 1918–22 illərdə RSFSR, 1922–30 illərdə SSRİ xalq xarici işlər komissarı olmuşdur. 1920–21 illərdə Türkiyə, İran və Əfqanıstanla danışıqlar aparmış, Genuya (1922) və Lozanna (1922–23) konfranslarında sovet nümayəndə heyətinə başçılıq etmişdir.

1918 il sentyabrın 15-də Bakının Osmanlı-Azərb. birləşmiş hərbi qüvvələri tərəfindən azad edilməsindən dərhal sonra (sentyabrın 20-də) Ç. Türkiyə xarici işlər nazirinə nota verərək Osmanlı dövlətini Brest-Litovsk müqaviləsini pozmaqda ittiham etmiş, sentyabrın 21-də isə Almaniyanın baş konsuluna nota təqdim etmiş və "Rusiya respublikasının çox əhəmiyyətli şəhərlərindən birinin" – Bakının tutulmasına etirazını bildirmiş, bu akta qarşı müqavimət göstərmədiyi üçün Almaniyanı təqsirləndirmişdir. Çar Rusiyasının işğalçı imperiya siyasətini davam etdirən Sovet Rusiyası da xarici siyasətində Şərqə önəm verdiyindən xalq xarici işlər komissarlığı nəzdində Yaxın Şərq şöbəsi yaradılmışdı (1919). Ç. şöbə müdiri N. *Nərimanovla* birgə İran, Türkiyə, Azərb., Dağ. və Gürc.-nın fəhlə və kəndlilərinə ünvanlanmış müraciətlər imzalanmışdır. RSFSR-in *Azərbaycan Xalq Cümhuriyyəti* (AXC) ilə münasibətləri Ç.-in AXC xarici işlər nazirliyinə 1920 il 2 yanvar tarixli teleqramı ilə rəsmiləşdi. Bu sənədin və Ç.-in sonrakı notalarının əsas məqsədi Denikinə qarşı hərbi ittifaq yaratmaqdan ibarət olmuşdur. AXC hökumətinin xarici işlər naziri F. *Xoyski* cavab notalarında hər hansı danışıqlara yalnız AXC-nın müstəqilliyi və suverenliyinin qeyd-şərtsiz tanınması əsasında başlamağın mümkünlüyünü vurğulasa da, Ç. tərəfindən bu mövqe qəbul edilməmişdir. Ç. RSFSR-in mürəkkəb beynəlxalq vəziyyətini nəzərə alaraq, AXC ilə münasibətdə təmkinli davranmaq tərəfdarı olmuşdur. Lakin bütün diplomatik manevrlər səmərəli olmadığından əsas diqqət işğal amilinə yönəldildi. 11-ci qırmızı ordu bu hücumu həyata keçirdi. *Aprel işğalı (1920)* AXC-nin varlığına son qoydu. Ç.-in sovet hakimiyyəti illərində Azərb.-la, ümumiyyətlə, Şərqlə bağlı məsələlərdəki mövqeyini N. Nərimanov ardıcıl surətdə tənqid etmişdir.

Çiçen-İtsa. Kukulkan məbədi.







**ÇİÇERİN NOTALARI** – 1920 ilin yanvarından Rusiya hökuməti adından xarici işlər komissarı G.V.*Çiçerinin* Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hökumətinə göndərdiyi notalar. Bu notalar AXC-yə diplomatik təzyiq səciyyəsi daşıyırdı.

1920 il 2 yanvar tarixli notada çar gen.-ı Denikinin Azərb. və gürcü xalqlarının düşməni olduğu vurğulanır, onun qoşunlarına yubanmadan c.-dan zərbə endirmək təklif olunurdu. Nota amiranəlik və üstüörtülü hədə xarakteri daşıyırdı: "Biz, nə qədər ki gec deyil, Denikinə qarşı mübarizəyə başlamaq çağırışı ilə Azərbaycan xalqına müraciət edirik. Azərbaycan dövlətinin düzgün dərk edilmiş maraqları və onun zəhmətkeş siniflərinin sosial-siyasi maraqları Azərbaycanı bizim təklifimizə razılıqla cavab verməyə məcbur etməlidir".

Çiçerinin birinci notasını AXC-nin xarici işlər naziri F.Xoyski yanvarın 6-da aldı. Həmin gün Dövlət Müdafiə Komitəsinin təcili iclası keçirildi və qərara alındı ki, cavab notasında AXC-nin azad və müstəqil dövlət kimi Sovet Rusiyası ilə qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlara hazır olduğu bildirilsin. F. Xoyski yanvarın 14-də Çiçerinə cavab notasında yazırdı: "...Azərbaycan hökuməti öz daxili həyatını qurmaq işində rus xalqının mübarizəsinə müdaxiləni yolverilməz hesab edir. ...danışıqlar yolu ilə rus və Azərbaycan xalqları arasında hər iki dövlətin müstəqilliyi prinsipindən irəli gələn mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır".

1920 il 23 yanvar tarixli nota göndərilən zaman AXC-nin müstəqilliyi artıq Antanta dövlətləri tərəfindən tanınmışdı. Buna baxmayaraq, Çiçerinin ikinci notası daha amiranə və daha təcavüzkar məzmuna malik idi. AXC hökuməti Denikinlə əməkdaşlıqda ittiham olunur, F.Xoyskinin birinci notaya cavabı Denikinə qarşı mübarizədən imtina kimi qiymətləndirilir, Denikinin Azərb.-ın müstəqilliyi üçün təhlükə olmasından, milli müqəddəratın həllində sovet hökumətinin prinsiplərindən bəhs edilirdi. Notada Denikinə qarşı birgə mübarizə təklifi yenə təkrarlanır, lakin AXC-nin tanınması məsələsinin üstündən keçilirdi. Sovet Rusiyasının bu notası Azərb.-a silahlı müdaxilə və Bakını ələ keçirmək üçün açıq-aşkar diplomatik hazırlıq idi. V.İ. Lenin 1920 il 17 mart tarixli teleqramında sovet hökumətinin həmin niyyətini açıqladı: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli sovet hakimiyyətinin hazırlandığını tamamilə yəqin etmək lazımdır... Qüvvələr yeridilməsi haqqında Baş komandanla şərtləşin". Teleqramın surətində S. Orconikidze yazmışdı: "Teleqram Bakıya hücum hazırlanması dövrünə aiddir. Əməliyyat hazırlanmışdı...". F. Xoyski yeni notaya cavabında Denikinlə əməkdaşlıq barəsində Çiçerinin fikirlərinin əsassız olduğunu göstərmiş, rus və Azərb. xalqları arasında mehriban qonşuluq münasibətləri yaradılmasının vacibliyini qeyd etmiş, Azərb.-Rusiya danışıqlarının yalnız AXC müstəqilliyinin sovet hökuməti tərəfindən qeyd-şərtsiz tanınmasından sonra mümkün olacağını vurğulamışdı.

1920 il 21 fevral tarixli notada F.Xoyskinin cavabları təhlil olunur və sonda yenə də Denikinə qarşı birgə mübarizədə yubanmadan əməli razılığa gəlmək təklif edilirdi. Lakin Çiçerin "Sovet Rusiyası və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərə aid müxtəlif məsələlər üzrə mürəkkəb danışıqları" günün mühüm məsələsi hesab etmirdi. F.Xoyski 1920 il martın 7-də göndərdiyi cavab notasında Çiçerinin məhz bu fikrini diqqət mərkəzinə çəkərək, onun iradlarını əsassız saymış, AXC hökumətinin mövqeyini bir də açıqlamış, xalqların öz müqəddəratını təyinetmə prinsipinin sovet hökuməti üçün qarşı tərəfə təzyiq vasitəsi olduğuna işarə edərək, belə vasitədən imperialist dövlətlərinin tez-tez istifadə etdiyini göstərmişdi. Bununla F.Xoyski sovet hökumətinin AXC hökuməti ilə danışıqlara başlamaq niyyətində olub-olmadığı haqqında qəti cavab verməsini istəyirdi.

Sovet Rusiyasının Azərb.-a müdaxiləsi yaxınlaşırdı. Aprelin 15-də F.Xoyski Çiçerinə nota göndərdi və sovet qoşunlarının Azərb. sərhədləri yaxınlığında cəmlənməsinin səbəb və məqsədləri haqqında təcili məlumat verməyi xahiş etdi. Lakin nota cavabsız qaldı. Aprelin 27-də 11-ci Qırmızı Ordu Azərb. ərazisinə soxuldu.

**ÇİÇƏBAHAR**, qırmızıdil (Phytolacca) – çiçəbahar fəsiləsindən bitki cinsi. Hünd. 1–3 *m* olan, çoxbaşlı, kökümsovlu və şaquli mil köklü, çoxillik otdur. Bəzən kol və ağacvarı formada olur. Yoğun şaxəli, adətən, qırmızımtıl-yaşıl, hamar gövdəyə malikdir. Yarpaqları sadə, növbəli düzülmüş, ellipsvarı, 5–20 *sm* uz.-nda, bütövkənarlıdır. Çiçəkləri xırda, sadə çiçəkyanlıqlı, sıx salxımda yığılmışdır, ikicinsiyyətlidir. Giləyəoxşar meyvəsi qara və ya bənövşəyi-qara, şirəli-lətli, diametri təxm. 1 *sm*, yetişmiş halda yaşıl, ondilimlidir. Toxumları qaradır. İyun-avqust aylarında çiçəkləyir. Vətəni Şimali Amerikadır. Tropik və subtropik ölkələrdə, əsasən, Amerikada 35 növü; Azərb.-da 1 növü – P. amerikana var. Şimali və Cənubi Qafqazda yaşayış yerlərinin yaxınlığında, yolboyu alaq otu kimi bitir. Bəzək bitkisi kimi artırılır. Köklərində saxaroza, nişasta, oksidaza fermenti, efir yağları və s., yarpaqlarında C vitamini, flavonoidlər və s., meyvələrində karbohidratlar, $B_1$, PP vitaminləri, antosian, alkaloidlər və s., toxumlarında K vitamini və s. vardır. Köklərindən alınan ekstrakt işlətmə vasitəsi, bakteriostatik, yarasağaldıcı və s. kimi təsir edir. Amerika Ç.-ı Avropa və Asiyada şərab rəngi almaq üçün becərilir. Himalay, Çin və Yaponiyada rast gələnən giləmeyvəli Ç.-ın (Ph. acinosa) kökü, meyvəsi və yarpaqları yeyilir.



Amerika çiçəbaharı (Phytolacca americana).

**ÇİÇƏK** – insan və heyvanlarda virus mənşəli kəskin infeksion xəstəlik. İnsanda – təbii Ç. (variola vera) yüksək yoluxan, papulo-pustulyoz səpgilərlə təzahür edir; səpgilərin yerində çapıqlar əmələ gəlir. Hələ Qədim Misir və Çin əlyazmalarında, Qədim Yunanıstan və Roma həkimlərinin əsərlərində Ç. haqqında məlumat var. Xəstəlik 13 əsrdə səlib yürüşləri zamanı Asiyadan Avropaya, 16 əsrdə E.Kortesin gəmiləri ilə Avropadan Amerikaya yayılmışdır. 15–18 əsrlərdə Avropada baş verən Ç. epidemiyası yüz minlərcə adamın ölümünə səbəb olmuş, sağalanların üzü eybəcərləşmişdir. 18 əsrdə keçirilən karantinlər heç bir effekt

verməmişdir. İngilis həkimi E. *Cennerin* 1796 ildə kəşf etdiyi *çiçəkdöymə* üsulu xəstəliklə mübarizədə dönüş yaratdı. Lakin bu üsulun tətbiqi çox ləng gedirdi: Rusiyada 1891–1912 illərdə Ç.-lə hər il 100 minə qədər adam xəstələnirdi. Keçmiş SSRİ-də 1919 ildə aparılan məcburi çiçəkdöymə xəstəliyin xeyli azalmasına, 1937 ildə isə tamamilə ləğv edilməsinə səbəb oldu. Ümumdünya Səhiyyə Təşkilatı 1958 ildə bütün dünyada Ç.-in ləğv edilməsinə dair proqram hazırladı. Əhalinin Ç. əleyhinə qlobal vaksinasiyasını nəzərdə tutan bu proqram 1977 ildə uğurla yerinə yetirildi. Son xəstələnmə hadisəsi 1977 ildə Afrikada (Somali) qeyd olunmuşdur. Bundan sonra 1978 ildə İngiltərədə (Birminhem) Ç.-lə iki laborator yoluxma halı istisna olmaqla, təbii Ç.-lə xəstələnmə baş verməmişdir. Lakin Ç. virusu ilə bioterrorizm təhlükəsi saxlanmaqdadır.

Xəstəliyin törədicisi virusdur. İnfeksiya mənbəyi xəstələrdir. Virus hava ilə (selik damcıları, toz), bəzən əşyalarla (alt paltarı, geyim, oyuncaq) keçir. İnkubasiya dövrü 5–17 gün (orta hesabla 14 sutkadır). Xəstəlik qəflətən temp-run kəskin yüksəlməsi (40°C-yə qədər), baş-ağrısı, ürəkbulanma, bel nahiyəsində ağrılarla başlayır. Üçüncü günün axırından üzdə, ətraflarda, gövdədə, ayağın altında və ovucda qırmızı səpgilər əmələ gəlir. Səpgilər düyüncük, suluq, irinciklərə çevrilir, onlar da quruyur, qaysaqlanır, sonra qopur, yerində çapıqlar yaranır. Xəstəlik 35–45 gün davam edir. Ç.-in gedişinin müxtəlif variantları mümkündür: ağır gedişli q a t ı ş ı q (birləşən) Ç., səpgi elementləri bir-birilə bitişir; h e m o r r a g i k Ç. ("qara Ç."), buna müxtəlif orqan və toxumalara qansızmalar xarakterdir (yüksək letallıqla keçən çox ağır gedişə malikdir); v a r i o l o i d (yüngül forma), yüksək olmayan temp-r və tək-tək səpgilərlə, yaxud səpgisiz keçir. Ç.-ə tutulanlarda davamlı *immunitet* yaranır. M ü a l i c ə s i: Ç.-ə qarşı qammaqlobulin, antibiotiklər, vitaminlər. P r o f i l a k t i k a s ı: çiçəkdöymə, Ç.-ə tutulanları sağlamlardan təcrid etmək, xəstənin olduğu otağın, xəstənin paltarlarının dezinfeksiyası, xəstə ilə təmasda olanların vaksinasiyası.

*Əd.*: Q a r a y e v Z.Ö., Q u r b a n o v A.İ. Tibbi mikrobiologiya və immunologiya. B., 2010.

H e y v a n l a r d a – Ç.-in yaranmasına və yayılmasına səbəb qoyun və keçidə, meymunda, donuz, adadovşanı və digərlərində Ç. törədiciləri olan viruslardır. İnəklərin Ç. virusu və ona qohum olan çiçək vaksini virusuna inək və donuzlarla yanaşı, camış, dəvə, at, eşşək, qatır, fil, adadovşanı, meymun və insan da həssasdır. Quşların Ç. törədiciləri xüsusi yer tutur. Toyuqkimilərin Ç. virusu əsl toyuqkimilər yarımdəstəsinin, göyərçinlərdə Ç. göyərçinkimilər dəstəsinin, sarı bülbüllərdə Ç. virusu sərçəkimilər dəstəsinin quşları üçün patogendir. Quşların Ç. virusunun bəzi ştammları həm də onlarda quşların Ç. virusunun digər növlərinin virusuna qarşı immunitet yaratmaqla müxtəlif dəstələrin quşları üçün bi- və tripatogen ola bilər. Məməlilər, quşlar, xüsusilə cavan heyvanlar və dekorativ quşlar qışda və erkən yazda C.-lə tez-tez və ağır xəstələnirlər. Ç. viruslarının mənbəyi xəstə və Ç.-lə xəstələnmiş virusdaşıyıcı heyvanlar, həmçinin insanlardır. Heyvanlarda Ç. üçün yarımkəskin gediş, intoksikasiya, qızdırma, dəridə (ekzantemalar) və selikli (enantemalar) qişalarda rozeola, papula, vezikula, pustula və çapıqlar kimi özünəməxsus formalaşma mərhələləri keçən səpgilərin əmələ gəlməsi səciyyəvidir. Ç.-in vurduğu iqtisadi ziyan məhsuldarlığın (sağım, kütlə, yumurtlağanlıq) azalmasından, xüsusilə ağırlaşma hallarında (bronxopnevmoniya, qastroenterit) dərinin korlanmasından, heyvanların bir hissəsinin tələf olmasından ibarətdir. Diaqnoz klinik-epizootoloji və epidemioloji məlumatların, patoloji-anatomik dəyişikliklərin və laboratoriya tədqiqatlarının analizinə əsaslanır. Effektli spesifik müalicə üsulları yoxdur. Ağırlaşmaların qarşısının alınması və aradan qaldırılması üçün kimyəvi müalicə preparatlarından istifadə olunur. Heyvanlarda Ç.-lə mübarizə tədbirlərinin əsasını ciddi karantin və baytarlıq-sanitariya tədbirlərinin yerinə yetirilməsi təşkil edir. Profilaktika məqsədilə vaksinlər tətbiq olunur.

B i t k i l ə r d ə – Ç. çəyirdəkli meyvə bitkilərində Prunus virus 7 virusunun törətdiyi təhlükəli xəstəlikdir. Yarpaqlarda, meyvələrdə və çəyirdəklərdə sarı, yaxud tünd-bənövşəyi (zolaq, ya da halqa şəklində olan) ləkələrin əmələ gəlməsi ilə səciyyələnir. Gavalı, ərik, alça, şaftalı zədələnir. Xəstəliyin əlamətləri yarpaqlarda çiçəkləmədən 3–4 həftə sonra, meyvələrdə isə yetişmə dövründə aydın görünür. Bitkilərdə çiçəyin törədicisi peyvənd və əkin materialı, kök pöhrələri və xəstəlik daşıyıcısı olan cücülər (mənənələr) ilə yayılır. Toxumdan və torpaqdan virus keçmir. Ç. həssas bitkilərdə məhsulu 25–50% azaldır. Xəstə meyvələr dad keyfiyyətini itirir, yemək və sənaye emalı üçün yararsız olur. M ü b a r i z ə t ə d b i r l ə r i: yoluxmuş əkin materialının başqa yerə aparılmasını qadağan etmək; davamlı sortlar becərmək; qoca, cırlaşmış çəyirdəkli ağacların pöhrələrini, alaqları məhv etmək; xəstəlik törədicilərinin daşıyıcıları olan cücülərə qarşı mübarizə aparmaq.

**ÇİÇƏK** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Şapur bölgəsinin Ətraf kəndistanında, Şapur qəs.-ndən 8 *km* şm.-dadır.

**ÇİÇƏK TACI** – çiçəyin ləçəklərindən təşkil olunmuş ikiqat çiçək yanlığının daxili hissəsi. Ç.t. bölümlüləçəkli (maqnoliyalar, qaymaqçiçəklilər, suzanbağı fəsiləsi) və bitişik ləçəklərlə (əsasən, cücülərlə tozlanan çiçəkli bitkilər məs., paxlalılar, səhləblər) ola bilər. Adətən, Ç.t. – çiçəyin ən nəzərə çarpan hissəsidir. Rəng, forma və ölçü müxtəlifliyinə görə fərqlənən ləçəklərinin parlaq rəngi sayəsində o, nəinki tozlandırıcı cücüləri cəlb edir, hətta günəş şüası spektrinin bir hissəsini əks etdirərək çiçəyin çoxalma orqanlarını artıq qızmadan qoruyur. Ç.t. gecələr yumulараq çiçəyin həddindən artıq soyumasının və ya onun soyuq şehlə zədələnməsinin qarşısını alır.

**ÇİÇƏKDÖYMƏ**, ç i ç ə k p e y v ə n d - e t m ə – təbii çiçəyin profilaktika üsulu; insanı çiçək *vaksini* virusu ilə süni yoluxdurmaqla yaradılır. Aktiv *immunizasiya* növü. Qədim Çində, Hindistanda, Afrikada çiçəyə qarşı variolyasiya üsulu tətbiq edilirdi: sağlam adamların dərisi altına (yaxud burunun selikli qişasına) tərkibi çiçək qovuqcuğu və irincikdən ibarət maye (yaxud qurudulmuş çiçək irini) yeridilir, nəticədə çiçəklə xəstələnmə yüngül keçir və immunitet yaranırdı. Lakin bəzən variolyasiyadan sonra ağır xəstələnmə baş verirdi; bundan başqa yüngül formalı xəstə ətrafdakılar üçün infeksiya mənbəyi ola bilərdi; variolyasiya zamanı digər infeksion xəstəliklərlə yoluxma mümkün idi. 18 əsrdə bu üsul Avropa ölkələrində tətbiq edilirdi. 1796 ildə ingilis həkimi E. *Cenner* inək çiçəyi qovuqcuğu mayesi ilə immunizasiya təklif etdi. Bu üsul *vaksinasiya* (lat. vaccinum – inək) adlanır. Müasir vaksin – dananı çiçək vaksini virusu ilə yoluxdurmaqla hazırlanır. Ç.-nin həyata keçirilməsi nəticəsində bütün dünyada çiçəklə xəstələnmə 1978 ildən ləğv edilmişdir. 1981 ildən ÜST-nin qərarı ilə məcburi vaksinasiya aparılmır.

*Əd.*: Q a r a y e v Z.Ö., Q u r b a n o v A.İ. Tibbi mikrobiologiya və immunologiya. B., 2010.

**ÇİÇƏKLƏRİN TOZLANMASI** – bax *Tozlanma*.

**ÇİÇƏKLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Çahardulu kəndistanında, Marağa ş.-ndən 81 *km* c.-q.-dədir.

**ÇİÇƏKLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Əbərqan kəndistanında, Sərab ş.-ndən 28 *km* c.-q.-dədir.

**ÇİÇƏKLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Səhənd kəndistanında, Bostanabad qəs.-ndən 27 *km* c.-q.-dədir.

**ÇİÇƏKLİ** – İrəvan qub.-nın Yeni Bayazid qəzasında (31.12.1937 ildən Sevan r-nu), Zəngi çayının yuxarı axarı kənarında, Dilican–İrəvan yolunun yaxınlığında azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığına hücumu zamanı kənd dağıdılmış, əhalisi qovulmuş, az sonra geri qayıdanlar kəndi yenidən abadlaşdırmışlar. 1828–30 illərdə kənddə İran və Türkiyədən köçürülmüş ermənilər də yerləşdirilmişdir. 19 əsrin ortalarında azərb.-lar yenidən kənddən çıxarılmış, kəndin adı dəyişdirilərək Tsaxkunk qoyulmuşdur.

**ÇİÇƏKLİ** – Azərb. Resp. Sabirabad r-nunun Muğangəncəli ə.d.-ndə kənd. R-n mərkəzindən 80 *km* c.-ş.-də, Kür çayının sahilində, Muğan düzündədir. Əh. 1519 (2011); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**ÇİÇƏKLİ** – Azərb. Resp. Kəlbəcər r-nunda dağ. Qarabağ silsiləsinin şm.-ş.-ində, Tərtər çayının sol sahilindədir. Hünd. 2267,7 *m*. Yamacları meşə ilə örtülüdür.

**ÇİÇƏKLİ BAXIŞQALA** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Nazlı kəndistanında, Urmiya ş.-ndən 10 *km* şm.-ş.-dədir.

**ÇİÇƏKLİ BİTKİLƏR** – bax *Örtülütoxumlular*.

**ÇİÇƏKLİ HACIAĞA** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Nazlı kəndistanında, Ətraf qəs.-ndən 8 *km* şm.-dadır.

**ÇİÇƏKLİ MƏNSUR** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Nazlı kəndistanında, Urmiya ş.-ndan 4 *km* şm.-ş.-dədir.

**ÇİÇİ** – Azərb. Resp. Quba r-nunda kənd. Çiçi ə.d.-nin (Çiçi, Qənidərə, Raziyələr, Səbətlər, Sırt Çiçi, Təngəaltı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 50 *km* c.-ş.-də, dağ ətəyindədir. Əh. 787 (2011); maldarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi; 2 məscid var.

**ÇİÇİ** – bax *Gülçiçi*.

**ÇİÇİBABİN** Aleksey Yevgenyeviç (29.3. 1871, Poltava vil.-nin Kuzemin ş.–15.8. 1945, Paris) – rus üzvi-kimyaçısı. SSRİ EA akad. (1928, m.üzvü 1926). Lenin ad. mükafatı almışdır (1926). 1930–45 illərdə Fransada yaşamışdır. Əsas tədqiqatları tərkibində azot olan heterotsiklik birləşmələrin (əsasən piridinin) öyrənilməsinə aiddir. Aldehid və ketonların ammonyakla kondensləşməsindən piridinin törəmələrinin alınması üsulunu işləmiş, piridinə natrium-amidlə təsir etməklə ilk dəfə α-aminpiridini sintez etmişdir (*Çiçibabin reaksiyası*). Bir sıra alkaloidlərin (pilokarpin, antonin, bergenin) quruluşunu təyin etmişdir. Sərbəst aromatik radikalların və aldehidlərin sintezinə aid tədqiqatları var.

Ə s ə r l ə r i: О продуктах действия галоидных соединений на пиридин и хинолин, М.,1902; Исследования из области пиридиновых оснований, в1, М.,1918.

**ÇİÇİBABİN REAKSİYASI** – piridin və ona oxşar aromatik azoheterotsikllərin (xinolin, izoxinolin, benzimidazol və s.) natrium-amidlə aminləşməsi. Məs., piridinin $NaNH_2$ ilə qarşılıqlı təsirindən 2-aminpiridin və cüzi 4-aminpiridin (yüksək temp-rda) əmələ gəlir:

Ç.r. iki üsulla aparılır: aproton həlledicilərdə (toluol, ksilol, *p*-tsimol, vazelin yağı və s.) və maye ammonyakda. Həlledicilərdə reaksiya yüksək temp-rda (100° C-dən yuxarı) və heterogen mühitdə, maye ammonyakda isə aşağı temp-rda (–33° C-dən aşağı) və homogen mühitdə gedir. Ç.r. ilk dəfə 1914 ildə A.E. *Çiçibabin* və O. A. Zeyde tərəfindən təklif edilmişdir. Sonralar onun modifikasiyaları – heterotsikllərin natriumalkilamidlərlə alkilaminləşmə, natrium-hidrazidlə hidrazinləşmə, susuz tozşəkilli qələvi ilə qızdırmaqla hidroksilləşmə reaksiyaları təklif edilmişdir. Ç.r. üzrə molekuldaxili alkilaminləşmə də məlumdur. A.E. Çiçibabin daha iki reaksiyanı (bəzən onun adı ilə adlanan) kəşf etmişdir:

1) 2-alkilpiridinlərə α-halogenkarbonil birləşmələrin qarşılıqlı təsirindən indolizin törəmələrinin sintezi:



2) Aldehidlərin ammonyakla termiki tsiklokondensləşməsindən piridin törəmələrinin sintezi:



*Əd.*: П о ж а р с к и й А.Ф., С и м о н о в А.М.. Аминирование гетероциклов по Чичибабину, Ростов н/Д., 1971.

**ÇİÇİKLEYA** – Ukraynanın Odessa və Nikolayev vil.-lərində çay. Cənubi Buq çayının sağ qolu. Uz. 156 *km*, hövzəsinin sah. 2120 *km*². Qar suları ilə qidalanır. Fevralın sonundan aprelin əvvəlinədək gursuludur. Mənsəbindən 46 *km* məsafədə ortaillik su sərfi 1,9 *m³/san*-dir. İlin 7–8 ayı qurumuş olur. Noyabrdan fevraladək buz bağlayır.

**ÇİÇKAYUL**, Ç i ç k e - Y u l – RF-nin Tomsk vil.-ndə çay. Çulım çayının (Ob hövzəsi) sağ qolu. Uz. 450 *km*, hövzəsinin sah. 6150 *km*². Çulım düzənliyi ilə axır. Qarışıq mənbədən, əsasən, qar suları ilə qidalanır. Ortaillik su sərfi 28,2 *m³/san*-dir. Oktyabrın sonu–noyabrdan aprel–mayın əvvəlinədək donmuş olur. Mənsəbindən 192 *km* məsafədə gəmiçiliyə yararlıdır.

**ÇİFU** – Çində şəhər. Bax *Yantay*.

**ÇIGDƏMƏL**, Ç i k d a m a l – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Hamamlı, 26.9.1949 ildən Spitak r-nu ərazisində), Çubuxlu d.-nın ətəyində, Pəmbək çayının kənarında azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığına hücumu zamanı kəndin azərb. əhalisi sıxışdırılıb çıxarılmış və 1828–29 illərdə kənddə İranın Maku vil.-ndən köçürülmüş ermənilər yerləşdirilmişdir. Sonralar kəndin keçmiş azərb. sakinlərindən bir qismi geri qayıtsa



Çixaçov silsiləsi.

da, 20 əsrin əvvəllərində onlar yenidən kəndi tərk etməyə məcbur olmuşdur. 25.1.1978 ildə kəndin adı dəyişdirilərək Areveşoğ qoyulmuşdur. Kənddə e.ə. I minilliyə aid qala divarları qalmaqdadır.

**ÇİGİL**, Ç i g i l  a d a s ı  p a l ç ı q  v u l k a n ı – Xəzər dənizində, Bakı arxipelaqında ada. Bəndovan burnundan c.-ş.-də, Səngi Muğan a.-ndan c.-q.-dədir. Ada palçıq vulkanı konusunun qalığıdır. Sahilləri hündür, demək olar ki, uçurum şəklindədir, yalnız c.-ş. tərəfdən ensiz sahillə (çimərliklə) əhatə olunmuşdur. Akkumulyativ dillə birlikdə uz. 585 *m*, eni 425 *m*, maks. hünd. 42 *m*-dir. Palçıq vulkanı Bəndovan-dəniz antiklinal qırışığın c.-ş. periklinalında yerləşmişdir. Təzə sopka brekçiyası sahəsində qaz və neft pərdəli su ayıran qrifonlar var. Sonuncu dəfə 1932 ildə püskürdüyü güman edilir.

**ÇİGİL** – Azərb. Resp.-nda çay. Sumqayıt çayının sol qolu. Uz. 68 *km*, hövzəsinin sah. 549 $km^2$. Baş Qafqaz silsiləsinin c. yamacından başlanır, Şamaxı r-nu ərazisindən keçərək Qobustan və Xızı r-nları sərhədi boyu axır. Əsasən, yağış suları ilə qidalanır. Suvarmada istifadə olunur.

**ÇİGİL-DƏNİZ STRUKTURU** – Xəzər dənizinin Azərb. sektorunda, Bakı arxipelaqı neftli-qazlı vil.-ində, Bakı ş.-ndən 95 *km* c.-da, Bəndovan burnundan 25 *km* c.-ş.-də yerləşir. Strukturun yerləşdiyi sahədə dənizin dərinliyi 10–30 *m*-ə kimi dəyişir. 1952 ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilmişdir; şm.-q. – c.-ş. istiqamətdə uzanan asimmetrik antiklinaldan ibarətdir. C.-q. qanadda layların yatım bucağı 20–22°, şm.-ş. qanadda isə 10–12°-dir. Dərinliyə getdikcə yatım bucaqları daha da çoxalır. Məhsuldar qatın yuxarıları və Akçaqıl-Abşeron çöküntülərində Çigil-dəniz qırışığı struktur "buruna" çevrilir, tağ hissəsi palçıq vulkanı ilə mürəkkəbləşir. Məhsuldar qata görə strukturun ölçüləri 6x2,5 *km*, amplitudası 300 *m*-dir. Strukturun geol. kəsilişində Məhsuldar qat, Akçaqıl, Abşeron və Dördüncü dövr çöküntüləri iştirak edir; neft-qazlılıq perspektivliyi Məhsuldar qatın V, VII və VIII horizontları ilə əlaqələndirilir.

**ÇİGİLLƏR**, c i g i l l ə r – 10–11 əsrlərdə İssıkkul k.-ndən şm.-ş.-də və Tatar r-nunda məskunlaşmış türkdilli tayfa ittifaqı. Türkmən oğuzları Amudəryadan Çinə qədər uzanan ərazidə yaşayan türkləri Ç. adlandırırdılar. Köçəri həyat tərzi keçirir və maldarlıqla məşğul olurdular. Təqr. 900 ildə Ç. islam dinini qəbul etdilər. Bir qismi xristian idi. Qaraxanilər dövlətində mühüm rol oynamışdılar. 10 əsrin sonu – 11 əsrin əvvəllərində tədricən oturaq həyata keçmişlər. 11 əsrin birinci yarısında bir qismi Zərəfşan vadisinə gəlmiş, yerli əhali ilə qaynayıb-qarışmışdır.

**ÇİHOLD** (Tschihold) Yan (2.4.1902, Almaniya, Leypsiq – 11.8.1974, İsveçrə, Lokarno) – alman naşiri, kitab dizayneri və yazıçı. 1919 ildə "Kitab işi və qrafika akademiyasına" daxil olmuşdur. Onun "Elementare Tupographie" məcmuəsi və 1925 ildə çap olunmuş və "Die Neue Tupographie" kitabı yığı işində inqilab yaratmışdı. 1926 ildən "Alman kitab naşirləri məktəbi"ndə (Münxen) kalliqrafiya və yığı stilistikasından dərs demişdir. Ç.-un pedaqoji fəaliyyəti və nəşr etdiyi kitablar müasir və sonrakı dövr Avropa və Amerika rəssam və poliqrafiyaçılarının fəaliyyətinə güclü təsir göstərmişdir. Mətbəəçilik sənəti, Çin qrafikası, şrift və şrift tarixinə dair 50-dən çox kitabın müəllifidir. 1965 ildə Fəxri kral dizayneri adına layiq görülmüşdür.

**ÇİXAÇOV** Pyotr Aleksandroviç (28.8. 1808, Qatçina – 13.10.1890, Florensiya) – rus coğrafiyaçısı və geoloqu. Peterburq EA fəxri üzvü (1876). Rusiya coğrafiya cəmiyyətinin fəxri üzvü (1890). İtaliya və Cənubi Fransaya səyahəti zamanı Apennin y-a-nın geol. xəritəsini tərtib etmiş, Altay və Şimal-Qərbi Çinə səyahəti (1842) nəticəsində isə bu ərazilərin, həmçinin, Kuznetsk kömür hövzəsinin coğrafiyası və geologiyasını öyrənmişdir. 1847–63 illərdə Kiçik Asiyaya bir sıra ekspedisiyalar təşkil etmiş; 1877–78 illərdə İspaniya, Əlcəzair və Tunisə səyahət etmişdir. Ç., həmçinin, Osmanlı imperiyasının siyasi həyatına və iqtisadiyyatına, Avropa dövlətlərinin Şərq məsələləri siyasətinə dair bir sıra məqalələrin müəllifidir. Altayda silsiləyə Ç.-un adı verilmişdir.

**ÇİXAÇÓV KÖRFƏZİ** (1952 ilədək De-Kastri; rus coğrafiyaçısı və geoloqu P.A. *Çixaçovun* şərəfinə adı dəyişdirilmişdir) – Yapon dənizinin Rusiya sahillərində, Tatar boğazının şm. hissəsində körfəz. Uz. təqr. 12,5 *km*, eni girişdə 9 *km*, dərinliyi 9 *m*-ədəkdir. Yarımsutkalıq qabarmalar (1 *m*-ədək) olur. Qışda donur. De-Kastri portu Ç.k. sahilindədir.

**ÇİXAÇÓV SİLSİLƏSİ** – RF-nin Altay və Tıva Resp.-larında, Monqolustanla sərhəddə dağ silsiləsi. Uz. təqr. 100 *km*, hünd. 4029 *m*-ədəkdir. Qumdaşıları, əhəngdaşıları, kristallik şistlər və kvarsitlərdən ibarətdir. Kiçik buzlaqlar var. Yamaclarında dənli-yovşanlı çöllər və daşlı tundradır. P.A. *Çixaçovun* şərəfinə adlandırılmışdır.

**ÇİJÁPKA** – RF-nin Tomsk vil.-ndə çay. Vasyuqan çayının (Ob hövzəsi) sağ qolu. Uz. 511 *km*, hövzəsinin sah. 13,8 min $km^2$. Vasyuqan düzənliyi ilə axır. Qarışıq mənbədən, əsasən, qar suları ilə qidalanır. Maydan iyula qədər daşqınlar olur. Ortaillik su sərfi mənsəbindən 24 *km* məsafədə 85,5 $m^3$/*san*-dir. Oktyabrın sonu–noyabrın əvvəlindən aprelin sonu–mayadək donmuş olur. Ağac axıdılır. Mənsəbindən 108 *km* məsafədə gəmiçiliyə yararlıdır.

**ÇİJÉVSKİ** Aleksandr Leonidoviç (7.2 1897, Polşa, Sexanovets ş. – 20.12.1964. Moskva) – rus biofiziki, heliobiologiya və aeroionifikasiyanın banisi. Moskva Arxeologiya İn-tunu (1917) və Moskva Kommersiya İn-tunu (1918) bitirmişdir. Ç. Moskva Un-tinin fizika-riyaziyyat (1915–19) və tibb (1919–22) fakültələrində də oxumuşdur. Moskva Un-tində və Moskva Arxeologiya İn-tunda arxeologiyanın fiziki metodları kursunu tədris etmişdir (1917–27). 1931 ildə Mərkəzi elmi-tədqiqat ionizasiya laboratoriyasını təşkil etmişdir. 1937–42 illərdə SSRİ XKS nəzdində Sovetlər Sarayı Tikintisi idarəsinin iki laboratoriyasına, 1958–62 illərdə isə SSRİ Plan komitəsi nəzdində Aeroionifikasiya laboratoriyasına başçılıq etmişdir.

Canlı təbiətdəki proseslərə kosmik fiziki amillərin təsirini öyrənərək, Ç. Günəş aktivliyi tsikllləri ilə biosferdəki bir çox hadisələr arasındakı asılılığı müəyyənləşdirmiş və Yer kürəsi və onun ətrafının fiziki sahələrinin biosferin vəziyyətinə təsir göstərən əsas səbəblərdən hesab etmişdir. 1935 ildə Ç. Yerdə, eləcədə kosmosda insan üçün təhlükəli olan Günəş emissiyalarını proqnozlaşdırmağa imkan verən bakteriyaların metaxromaziyasını ("Çijevski–Velxover effekti" adlanır) aşkar etmişdir.

Havadakı mənfi və müsbət ionların canlı orqanizmlərə göstərdiyi əks-təsir faktını, dezionlaşdırılmış havanın patoloji təsirini və mənfi aeroionların stimullaşdırıcı təsirini ilk dəfə təcrübə yolu ilə müəyyənləşdirmiş (1919–30), tibdə, k.t.-nda, heyvandarlıqda süni aeroionizasiya tətbiq etmişdir (1930–36) və s. Hərəkət edən qanın struktur elementlərinin fəzavi təşkilini kəşf etmişdir. Bioloji fizika və kosmik biologiya üzrə Beynəlxalq konqresin fəxri prezidenti (ABŞ, 1939) olmuşdur.

Ə s ə r l ə r i: Физические факторы исторического процесса. Калуга, 1924; Эпидемические катастрофы и периодическая деятельность Солнца. М., 1930; Проблемы ионификации. Т. 1, 3, Воронеж, 1933–34; Структурный анализ движущейся крови. М., 1959; Аэроионификация в народном хозяйстве, М., 1960; Электрические и магнитные свойства эритроцитов. К., 1973; Вся жизнь, М., 1974; Земное эхо солнечных бурь. М., 1973.

*Əd.:* Солнце, электричество, жизнь. Сб., в. 1–3, М., 1969–76; Голованов Л.В. Вклад А.Л. Чижевского в космическую биологию. Труды 3-й Всесоюзной конференции по авиационной и космической медицине. Т. 3, М., 1969.

**ÇİJÉVSKİ** Nikolay Prokopyeviç (8.4. 1873, Kazan – 22.4.1952, Moskva) – metallurgiya və koks kimyası sahəsində rus alimi. SSRİ EA akad. (1939). SSRİ Dövlət mükafatı laureatı (1943). Peterburq Un-tini (1899), Leobendə (Avstriya) Mədən Akademiyasını (1902) və Kiyev Politexnik İn-tunu (1904) bitirmişdir. Əsas tədqiqatları dəmir və polad metallurgiyası, dəmirin birbaşa alınması, metallurgiyanın yanacaq bazasının genişləndirilməsi və koks sobalarının konstruksiya edilməsi sahəsindədir.

**ÇİJİKOV** David Mixayloviç (17.11. 1895, Vinnitsa vil., Novaya Priluka – 24.8.1974, Moskva) – rus metallurqu. SSRİ EA m.üzvi (1939). SSRİ Dövlət mükafatı laureatı (1942, 1951). Əsas tədqiqatları elektrotermiya metodları ilə əlvan və nadir metalların alınması nəzəriyyəsi və texnologiyası, polimetallik və qalay filizlərini xlorlama və sulfidli metalların elektrolizi sahəsindədir.

**ÇİJOV** Matvey Afanasyeviç (22.11. 1838, Pudovo k., hazırda Moskva vilayətindədir – 10.6.1916, Petroqrad) – rus heykəltəraşı. Moskvada Stroqanov bədii-sənaye məktəbində (1856–57), Moskva boyakarlıq, heykəltəraşlıq və memarlıq məktəbində (1857–60), Peterburq Rəssamlıq Akademiyasında (1860–67) təhsil almış, həmin akademiyanın həqiqi üzvü olmuşdur (1893). Peterburqda baron Ştiqlitsin Mərkəzi texniki rəssamlıq məktəbində dərs demişdir (1879–1910). Ç.-un əsərləri, xalq həyatından götürülmüş süjetlər və obrazların traktovkası baxımından ["Kəndli fəlakət içərisində" (bürünc, 1872, Rus muzeyi, S.-Peterburq; mərmər, 1873, Tretyakov qalereyası, Moskva), "Ana qızına ana dilini öyrədir" (gips, 1873, Rus muzeyi, S.-Peterburq)]. Peredvijniklərin yaradıcılığına yaxındır. Bir sıra portretlərin müəllifidir.



Çijapka çayı.

**ÇİKÁQO** (Chicago) – ABŞ-da, İllinoys ştatında şəhər. Əh. 2,86 mln. (2009; aqlomerasiyada 8 mln.-dan çox). İqtisadi əhəmiyyətinə və əhalisinin sayına görə ölkədə ikinci yeri (Nyu-Yorkdan sonra) tutur. Miçiqan gölünün c.-q. qurtaracağında, Çikaqo çayının ona töküldüyü yerdə port. Beynəlxalq aeroport (O'Hara). Dünyada ən iri d.y. qovşağı.

Ç. ərazisi qədimdən hindilərə məxsus idi. Şəhər 19 əsrin əvvəllərində tikilmiş Fort-Dirborn hərbi postunun yerində yaranmışdır. 1883 ildə şəhər statusu almışdır. 19 əsrin 40-cı illərindən sənaye sürətlə inkişaf etməyə başlamışdı. İllinoys-Miçiqan kanalının (1848) və şəhəri Atlantika okeanı ilə birləşdirən d.y.-nun (1852) çəkilməsi ilə əlaqədar əhalinin sürətli artımı nəticəsində (1860 ildə 109 min, 1890 ildə 1 mln. 100 min nəfər) Ç. Nyu-Yorkdan sonra 2-ci yerə çıxmışdı. 1870 ildə Ç.-da Birinci İnternasionalın bölməsi, 1880 ildə Fermerlərin Milli İttifaqı yaradılmışdı. 1871 ildə baş vermiş və binaların əksəriyyətini məhv etmiş yanğından sonra şəhər yenidən tikilmişdir. 1893 ildə Ç.-da Ümumdünya Kolumb sərgisi keçirilmiş, 1919 ildə ABŞ Kommunist Partiyası təsis olunmuşdur. 20 əsrin 60–70-ci illərdə Ç. zəncilərin vətəndaş hüquqları uğrunda mübarizə mərkəzlərindən biri idi.

Ç. ABŞ-ın mühüm memarlıq mərkəzidir. Göydələnlərin inşa edilməsinə (dəmirbetondan) ilk dəfə Ç.-da başlanmışdır (memarlar F.L. Rayt, L. Mis van der Roe və b.). Hündürmərtəbəli tikililər (1880–1990-cı illər, memarlar D.H. Börnem, D.N. Burnham, L. Salliven və b.), "Con Henkok senter" (100 mərtəbə, 1969–71), Sirs və Robak (109 mərtəbə, 442 *m*, 1970–74) kimi göydələnlər, yaşayış kompleksləri (memarlar L. Mis van der Roe, B. Qoldberq) Ç.-nun memarlıq simasını müəyyən edir.

Ç.-da ABŞ-ın böyük ali məktəblərindən Ç. un-ti, Şimal-Qərb və Depola un-t-



Çikaqo şəhərindən görünüş.

ləri, İllinoys Texnologiya İn-tu, bir sıra muzey, o cümlədən təbiət tarixi, elm və sənaye muzeyləri və s.; kitabxana, "Şubert-tietr", "Blekston-tietr" və s. fəaliyyət göstərir.

Ç. – ABŞ-ın mühüm maliyyə, ticarət, sənaye mərkəzlərindən biri; əhəmiyyətinə görə ölkənin ikinci (Nyu-Yorkdan sonra) maliyyə mərkəzi, ÜDM-in həcminə görə üçüncü (Nyu-York və Los-Ancelesdən sonra) ş.-dir və Ş. Amerikanın iri nəql. qovşağıdır. Burada ABŞ-ın 12 federal ehtiyat banklarından birinin, regional ipoteka banklarından birinin (FHLBank), iri birjaların ("CME Group"a birləşmiş Çikaqo Ticarət Palatası və Çikaqo ticarət birjası, Çikaqo opsion birjası, Çikaqo fond birjası, "One Chicago"), bir çox kommersiya bankının, broker və sığorta şirkətinin, ABŞ-ın "Fortune 500" siyahısına (ABŞ-ın ən iri şirkətlərinin) düşən 12 şirkətinin, o cümlədən "Boeing" aerokosmik korporasiyasının, "Motorola" telekommunikasiya şirkətinin, "Sears" pərakəndə satış, "McDonald's" restoranlar şəbəkəsinin mənzil-qərargahları, "Çikaqo-Lup" biznes mərkəzi (həcminə görə ölkədə Manhettendən sonra ikinci yerdədir) yerləşir.

Yeyinti məhsulları istehsalı (taxıl emalı; ət konservi f-kləri), metallurgiya (poladtökmə z-dları), maşınqayırma, elektron, kimya, neft emalı və poliqrafiya sənayesi müəssisələri fəaliyyət göstərir.

Metro və böyük taksoparkı var.

**ÇİKÁQO MƏKTƏBİ** – Amerika sosiologiyasında 20 əsrin 20-ci illərində formalaşmış istiqamət. Çikaqo Un-tinin sosiologiya kafedrasının əməkdaşları R. Park, E. Bercess, R. Makkenzi, Q. Zorbo, L. Virt və b.-nın adları ilə bağlıdır. Empirik sosioloji tədqiqatların inkişafında və şəhər sosiologiyasının təşəkkülündə mühüm xidməti olmuşdur. Park və Bercess sosiologiya üzrə ilk dərsliyin müəllifləridir.



Çikaqo. Elm və Sənaye Muzeyi.

Park fərdlər arasında qarşılıqlı təsirin iki səviyyəsini ayırmışdır: biotik və mədəni. Parka görə, təbiət populyasiyalarındakı qarşılıqlı təsirə bənzər biotik qarşılıqlı təsirin məhsulu icmadır. İnsan toplumunda yaşamaq uğrunda mübarizə, təbii seçim, mühitə uyğunlaşma əmək bölgüsünü və kooperasiyanı nəzərdə tutan iqtisadi rəqabətin çevrilmiş formasında çıxış edir ki, bunun da nəticəsi əhalinin və resursların məkan üzrə spesifik bölgüsü olur. Cəmiyyəti, yəni mütəşəkkil adətlərin, hisslərin, sosial yönümlənmələrin məcmusunu Park şəxsiyyətlərarası qarşılıqlı təsir, kommunikasiya kimi başa düşülən mədəni qarşılıqlı təsirin məhsulu hesab edirdi. Parka görə, "insan ekologiyası"nın öyrənəcəyi qarşılıqlı təsirin biotik səviyyəsi sosiologiyanın obyekti olan qarşılıqlı təsirin mədəni səviyyəsinin əsasını təşkil edir.

Ç.m.-nin diqqət mərkəzində kənaraçıxan davranış, sosial nəzarət, konsensusun saxlanılması problemləri dururdu.

Çikaqo sosioloqlarının konsepsiyasında şəhər kortəbii inkişaf edən orqanizm kimi şərh olunurdu; şəhər əhalisinin məruz qaldığı biotik proseslərin təsiri altında o, spesifik sosial-iqtisadi quruluş kəsb edirdi. 30-cu illərin sonlarında L. Virt şəhərin sosioloji tədqiqinin yeni metodunu təklif edərək, şəhər həyat tərzi anlayışını önə çəkmişdir. Ç.m.-nin ideyaları 50–60-cı illərdə A. Houli və "neo-ekoloji" istiqamətin nümayəndələri O. Dunkan, L. Şnore və b.-nın əsərlərində inkişaf etdirilmişdir.

*Əd.*: Park R.E., Burgess E.W. Introduction into the science of sociology. Chic., 1921; Lewid J.D., Smith R.L. American sociology and paragmatism: Mend, Chicago school and symbolic interactionism. Chic., 1980; Bulmer M. The Chicago school of sociology: institutionalisation, diversity and the rise of social research. L., 1984.

**"ÇİKÁQO TRİBYUN"** (Chicago Tribune) – ABŞ-ın aparıcı gündəlik qəzetlərindən biri. Çikaqo ş.-ndə buraxılır. 1847 ildə təsis edilmişdir. Yüksək tirajına və reklam gəlirinə görə dünyada aparıcı yerlərdən birini tutur.

**ÇİKASOLAR** (çokto dilində – "yaxın zamanlarda gedənlər") – ABŞ-da muskoqlar qrupundan hindi xalqı. Sayları 38 min nəfərdir, o cümlədən Oklahoma ştatında yerləşən tayfa ərazisində 7 min nəfərdən çoxdur (2010). Muskoq dilində







Ənənəvi geyimli çikaso qadını.

danışırlar. İngilis dili də yayılmışdır. Yazıları latın əlifbası əsasındadır. Dindarları xristiandır.

12–15 əsrlərdə çoktolarla birlikdə Missisipi çayının şərq sahillərinə gəlmiş, 16 əsrin əvvəllərində onlardan ayrılmışdılar. Ənənəvi mədəniyyətləri Şimali Amerikanın cənub-şərqi hindilər üçün səciyyəvidir. Talalarda toxa əkinçiliyi (qarğıdalı, yemiş, qabaq), ovçuluq, balıqçılıq və yığıcılıqla məşğul olurdular. Toxuculuq böyük əhəmiyyət kəsb edirdi. Ənənəvi evləri: hünd. 1 *m*-dək olan dairəvi torpaq bünövrənin üzərində tirlərdən tikilən, şüvüllərdən düzəldilən damının araları gil və otla doldurulan qış evi; düzbucaqlı, divarları ağardılmış ikiotaqlı yay evidir. Özünəməxsus idarəçilik sistemləri olan İspaniya və Panterlər fratriyasına, onlar da öz növbəsində qohumluğu ana xətti üzrə hesablanan 12 qəbiləyə bölünürdülər. Ali başçı (miko) yalnız İspaniya fratriyasından olurdu. Hərbi başçı (tişu miko) da var idi. Böyük ailə və matrilokal nikah mövcud idi. Ənənəvi etiqadları ruhların və əcdadların kultu, şamanizmdir; Ç. üçün ümumi ziyafət və rəqslərlə müşayiət olunan sağaltma ayini səciyyəvidir. Avropalılarla əlaqələr 1540 ildə başlamışdır. ABŞ-la bağlanmış qeyri-bərabər müqavilələr nəticəsində 18 əsrin sonları – 19 əsrin əvvəllərində torpaqlarının böyük hissəsini itirmiş, 1830-cu illərdə "Hindi ərazisi"nə (indiki Oklahoma ştatı), çoktoların torpaqlarına köçməyə məcbur olmuşdular. 1855 ildə çoktolardan ayrılmışlar. Tayfa idarəçiliyində varlı metislər əsas rol oynayırdılar. 1970 ildə başçı ("qubernator") seçmək hüququ qazanmışlar. Müasir Ç. fermer təsərrüfatı, muzdlu əməklə məşğul olurlar. Bəzi ənənəvi rəqslər və at yarışları qorunub saxlanılır.

**ÇİKDAMLI** – İrəvan xanlığı Gərnibasar mahalının (9.9.1930 ildən Qəmərli, 4.9. 1945 ildən Artaşat r-nu) düzənlik hissəsində, Gərni çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 1828–29 illərdə İranın Salmas vil.-ndən köçürülmüş ermənilər də burada yerləşdirilmişdir. 1918 ildə kəndin azərb. əhalisi kənddən tamamilə çıxarılmışdır. 20.8.1945 ildə kəndin adı dəyişdirilərək Azatavan qoyulmuşdur.

**ÇİKLÁYO** (Chiclayo) – Peruda şəhər. Lambayeke dep-tinin inz. m. Əh. 574 min (2007). Panamerika avtomobil yolu kənarındadır. D.y. st. K.t. r-nu (çəltik, şəkər qamışı) mərkəzidir. Yeyinti sənayesi (şəkər, çəltiktəmizləmə) müəssisələri fəaliyyət göstərir; tikinti materialları istehsal olunur. Un-t var. Şəhər 1835 ildə salınmışdır.

**ÇİKOBAVA** Arnold Stepanoviç (26.3. 1898, indiki Senak r-nu, Saçikobavo k. – 5.11.1985, Tbilisi) – gürcü dilçisi, Gürc. SSR EA akad. (1941), Tbilisi un-tinin prof. (1933 ildən). Ümumi dilçiliyə, Qafqaz dilləri tarixinə, morfologiya və sintaksisinə dair əsərlərin ["İber-Qafqaz dillərində erqativ quruluş problemi" (h.1–2, 1948–61), "İber-Qafqaz dilçiliyinə giriş" (1979 və s.)] müəllifidir.

Əsərləri: Введение в языкознание, ч. 1, 2. М., 1953; Проблема языка как предмета языкознания. М., 1959.

**ÇİKOMOSTOK** ("yeddi mağara") – astek miflərində Mexiko vadisindən şm.-q.-də yerləşən naua tayfalarının əfsanəvi ulu vətəni.

**ÇİKOVÁNİ** Simon İvanoviç (9.1.1903, Gürc.-ın Gegeçkori r-nunun Naesakovo k. – 24.4.1966, Tbilisi) – gürcü şairi. SSRİ Dövlət mükafatı laureatı (1947). "Kür sahilində düşüncələr" (1925), "Kolxida axşamları" (1933) və s. şeir silsilələrinin, "Qələbə" (1942), "Vətənim" (1944) və s. kitabların, "David Quramişvili haqqında nəğmə" (1942–46) lirik-epik poemasının və s. müəllifidir. "Gəncə dəftəri" (1964–65; N. Barataşviliyə həsr olunmuşdur), "Acarıstanda payız" silsilələri üçün fəlsəfi və sosial nikbinlik səciyyəvidir. Şeirləri Azərb. dilinə tərcümə olunmuşdur. Azərb. mövzusunda şeirləri, Azərb. poeziyasından tərcümələri var. Gürcüstan Yazıçılar İttifaqının sədri (1944–51) olmuşdur.

Əsərləri: Соч.: т.1–4, Т6., 1975–85.

**ÇİKÓY** – RF-də, Baykalarxası diyarda (qismən Monqolustanla sərhəddə) çay. Selenqa çayının sağ qolu. Uz. 769 *km*, hövzəsinin sah. 46,2 min $km^2$. Çikokon silsiləsindən başlanır. Əsasən, yağış suları ilə qidalanır. Yay və payızda daşqınlar olur. Ortaillik su sərfi 265 $m^3/san$. Oktyabrın sonu–noyabrdan aprel–mayın əvvəlinədək donmuş olur. Mənsəbindən 152 *km* məsafə-

Çiklayo şəhərinin mərkəzi.



Çikoy çayı.





Çikuraçki vulkanı.

də gəmiçiliyə yararlıdır. Ağac axıdılır. Suvarmada istifadə edilir.

**ÇİKURÁÇKİ** – RF-nin Saxalin vil.-ndə, Paramuşir a.-nda (Kuril a-rı) fəaliyyətdə olan vulkan. Hünd. 1816 *m.* Vulkan aparatı Pleystosen yaşlıdır. Kraterin diametri 450 *m*-ədəkdir. Bazalt və andezitlərdən ibarətdir. Yamaclarında qızılağac və sidr kolluqları yayılmışdır. 1853, 1854–59, 1958, 1961, 1964, 1973, 1986, 2002, 2003, 2005, 2007, 2008 illərdə püskürmüşdür. Püskürmələr arası müddətdə fumoral aktivlik müşahidə olunur.

**ÇİQALAR** (özlərini baçiqa adlandırırlar), b a k i q a l a r, k i q a l a r – Uqandanın şm.-q.-ində bantu qrupundan xalq. Sayları 1,679 mln. nəfərdir (2002). Kiqa (ruçiqa) dilində danışırlar. Dindarları xristiandır.

Ç. yerli əhali və qonşuluqdakı Ruanda, Mpororo, Nkore erkən dövləti qurumların (17–19 əsrlər) torpaqlarında gedən müharibələrdən xilas olmaq üçün Kigesi dağlıq r-nuna köçmüş qoxsaylı qohum bantudilli qruplar əsasında təşəkkül tapmışlar. Əfsanəvi hökmdar qadın Nyabinqa kultunun kahinləri böyük nüfuza malik idilər. Etnik özünüdərketmə Uqandanın müstəmləkəçilik və müstəqillik dövründə formalaşmışdır. Əsas ənənəvi məşğuliyyətləri talalarda toxa əkinçiliyi (darı, kalış, paxlalılar) və maldarlıqdır. Ayrı-ayrı köçəri maldar qrupları da var. Mal-qara dini ayinlərin icrası, başlıq verilməsi, vurulan ziyanın ödənilməsi və s. məqsədlər üçün istifadə olunurdu. Dulusçuluq, dəmirçilik, meşə arıçılığı, toxuma, ağac üzərində oyma inkişaf etmişdir. 19 əsrdə ev köləliyi (əsasən, qadınlar) mövcud idi. Xüsusi mülkiyyətçilik münasibətləri, mövsümçülük, əmtəə əkinçiliyi (qarğıdalı, buğda, şirin və adi kartof, yerfındığı, günəbaxan, tütün, qəhvə, tərəvəz) inkişaf etmişdir. Qohumluq ata xətti ilə hesablanır, nikah patrilokal və monoqamdır. Qəbilə ekzoqamiyası, matrilateral krosskuzen nikahı, böyük patriarxal ailənin rolu (xüsusilə nikah münasibətlərində) qismən saxlanılır. Maldarlar üçün, ruandalar və rundilərdə olduğu kimi, tutsilərə, xutulara və tvalara bölgü qalıqları səciyyəvidir. Ənənəvi məskənləri pərakəndə formadadır. Pətəkvarı evləri otlarla örtülür, malikanələri dairəvi planlıdır. Poliginiyalı ailələrdə hər bir qadının öz evi və torpaq sahəsi var idi. Hazırda Avropa tipli düzbucaqlı evlər üstünlük təşkil edir. Ənənəvi geyimləri ruandaların geyimlərinə yaxındır. Ənənəvi etiqadları (əcdadların, təbiət qüvvələrinin kultu) müstəmləkəçilik dövründə aradan çıxmış, lakin ailə ayinləri kimi qismən saxlanılmışdır.



Çiqalar.

**ÇİL QARATOYUQ** (Turdus viscivorus) – qaratoyuqlar fəsiləsindən quş. U z. 26–30 *sm*, kütləsi 150 *qr*-adək olur. Əsl qaratoyuqların iri nümayəndəsi Azərb.-da dağ meşələrində oturaq quş sayılır; lakin qışda bir hissəsi dərələrə və dağətəyi r-nlara da uçur. Üst tərəfi, qanadları və quyruğu zeytuni-boz, alt tərəfi ağ, lakin üzərində damcışəkilli qara naxışlar var; qanadlarının altı və qoltuqaltı lələkləri ağdır. Boğazı naxışsızdır. Cavan fərdlərin belində açıq rəngli cizgilər uzanır. Səsi melodik fit səsinə oxşayır. Avrasiyada (ş.-də Baykal gölünədək, c.-da Himalay d-rınadək) və Şimal-Qərbi Afrikada düzənlik və dağ meşələrində yaşayır. Hündürgövdəli seyrək şam və qarışıq meşələrdə yaşamağı sevir və dağların 2000 *m*-ədək yüksəkliyinə qalxır. Cənubi Avropada, Ön, Orta və Mərkəzi Asiyada qışlayır. Yayda, əsasən, soxulcan, molyusklar və cücülərlə, payızda və qışda müxtəlif giləmeyvələrlə qidalanır. Dişi fərd yuvanı ağaclarda 2–6 (15-ədək) *m* hündürlükdə tikir, 4–6 yaşılımtıl yumurta qoyur və 12–15 gün kürt yatır, ətcəbalaları hər iki valideyn yemləyir (12–16 gün).

Çil qaratoyuq (Turdus viscivorus).



**ÇİL TƏLXƏ** (Coluber ravergieri, Men), r ə n g b ə r ə n g t ə l x ə – təlxələr cinsindən ilan. Uz. 100 *sm*-ədək, quyruğu 2–3 dəfə qısa olan orta ölçülü ilandır. Sifətinin ucu küt halda dəyirmidir. Üst tərəfdən rəngi qonur-boz və ya bozumtul qəhvəyidir. Beli boyunca bir cərgə qonur, qonuraçalan-qəhvəyi, bəzən qara, əksər hallarda çəpinə və ya eninə xətlər keçir;



Çil təlxə (Coluber ravergieri).

bunlar bəzən çarpazlaşıb bir xətt əmələ gətirir. Qafqazda, o cümlədən Azərb.-da yayılmışdır. Rənginə görə 3 tipik yarımnövü var. İyun–iyul aylarında 5–18 yumurta qoyur. Gəmiricilər, qurbağalar, quşların ətcəbalaları və iri cücələrlə qidalanır. Gündüzlər fəaldır. Kol və ağaca yaxşı dırmanır. Qarmaqvarı əyilmiş başı ilə torpağı qazaraq yuva düzəldə bilir. Biogeosenozda mühüm rolu olduğundan əhəmiyyətlidir.

**ÇİLAXOR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Səcarud kəndistanında, Qiydar qəs.-ndən 30 *km* şm.-q.-dədir.

**ÇİLAXOR** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Mərkəzi bölgəsinin Xanəndəbil kəndistanında, Xalxal ş.-ndən 11 *km* q.-dədir.

**ÇİLAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Səracu kəndistanında, Marağa ş.-ndən 28 *km* ş.-dədir.

**ÇİLÇIRAQ** (far. چهل – qırx + چراغ – çıraq), q ə n d i l – binanın daxilini işıqlandırmaq üçün istifadə edilən dekorativ formalı məmulat. Formasına görə medalyona bənzəyən Ç.-ın mərkəzində böyük, kənarında isə kiçik və yüngül plafonlar olur. Ç.-ın əsasını təşkil edən mərkəzi medalyon və qollar, adətən, metaldan (qızıl, gümüş, bürünc, dəmir və s.), plafonlar isə şüşə, çini, büllur, keramika və s.-dən düzəldilir. Büllur Ç.-lar büllurdan kəsilmiş prizmavarı muncuqlarla bəzədilir. Orta əsrlərdə Ç.-ların dekorativ bəzəyində almaz, mirvari, xüsusilə firuzə geniş tətbiq olunurdu. Monumental, zəngin bəzəkli Ç.-lar məscidlərin, ziyarətgahların, kilsələrin, ictimai binaların və sarayların, kiçik həcmli Ç.-lar isə evlərin tavanından asılır. İşıqlandırma üçün qədim dövrlərdə Ç.-ın plafonları içərisinə qoyulan yağdan, şamdan, elektrik kəşf olunduqdan sonra isə elektrik lampalarından istifadə edilmişdir. Müasir elektrik Ç.-ları işıq tənzimləyicisi və iş rejimini məsafədən idarə edən pult ilə təchiz olunmuşdur. Dünyada ən böyük Ç. 2010 ildə Qatarın paytaxtı Doha ş.-ndə yandırılmışdır. Çəkisi 18 *t* olan bu Ç.-da elektronika ilə idarəolunan 165 min işıq diodundan istifadə edilmişdir.



Çilçıraq. Şeyx Zahid məscidi (Əbu Dabi).

**ÇİLƏ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Yuxarı Tarım kəndistanında, Sirdan qəs.-ndən 120 *km* şm.-q.-dədir.

**ÇİLƏBÜRT** – Azərb. Resp. Tərtər r-nunun Həsənqaya ə.d.-ndə kənd. R-n mərkəzindən 18 *km* şm.-ş.-də, Qarabağ düzündədir. Əh. işğaldan (1993, aprel) əvvəl əkinçilik, üzümçülük və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, tibb məntəqəsi, şərab z-du var idi.

**ÇİLƏBÜRT** (Çiləbörd, Cərabert, Crabert) **MƏLİKLİYİ** – orta əsrlərdə Qarabağın dağlıq hissəsində mövcud olmuş kiçik feodal hakimliyi. Mərkəzi Çiləbürt (Crabert) qalası idi. 15 əsrdə *Arsax-Xaçın knyazlığının* hökmdarı *Həsən Cəlalın* nəsli (*Cəlalilər*) qaraqoyunlu *Cahanşahdan* [1435–67] *məlik* titulunu aldıqdan sonra Cəlalilər beş muxtar alban məlikliyinə (Gülüstan, Çiləbürt, Xaçın, Vərəndə, Dizaq) parçalandı. Mənbələrdə Ç.m. ərazisinin Qırxqızdan Bərdə və Bayat meşəsinin kənarınadək, Xaçın və Qabartı çayından isə Tərtər çayınadək olması qeyd edilir. Burada toxumluq buğda və başqa taxıl məhsulu yetişdirilirdi. Ərazisinin böyük hissəsi meşəliklərdən və keçilməz yerlərdən ibarət idi. Ç.m. Səfəvilər dövründə Qarabağ (Gəncə) bəylərbəyiliyinə daxil idi. Ç.m. hakimi Məlik Allahqulu *Nadir şahın* [1736–48] xidmətində olmuş, rəşadətinə görə Nadir şahın əmri ilə Sultan Allahqulu çağırılmışdır. Qarabağ xanı *Pənahəli xan* [1748–63] məliklərin Nadir şahın verdiyi bütün imtiyazları ləğv etmişdi. 1787 ildə Məlik Məcnun üsyan qaldıraraq gürcü çarı II İraklidən yardım istəmişdi. 1795 ildə isə Qarabağa hücum edən *Ağa Məhəmməd şah Qacara* qoşulmuşdu. Şuşanı ələ keçirə bilməyən Ağa Məhəmməd şah Qacar Məlik Məcnunun və Qarabağ xanı *İbrahimxəlil xandan* [1763–1806] üz çevirmiş gəncəli *Cavad xanın* [1785–1804] təhriki ilə Tiflisə yürüş etmişdi. Buna cavab olaraq, II İrakli qoşun toplayaraq İbrahimxəlil xanla birlikdə Gəncəyə yürüş etmişdi. Gəncə zəbt olunmuş, Məlik Məcnun öldürülmüş, Cavad xan isə oğlunu və bacısını İbrahimxəlil xana əmanət vermişdi. Ç.m. 1813 ildə Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirilmişdi.

**ÇİLƏDANI** – Azərb. Resp. Sədərək r-nunun (Nax. MR) Sədərək k. yaxınlığında Tunc dövrünə aid yaşayış yeri. Arxeoloji qazıntılar aparılmamışdır. Əldə olunmuş yerüstü maddi mədəniyyət nümunələrinə əsasən Ç. yaşayış yerinin e.ə. 3–2-ci minilliklərə aid olması ehtimal edilir.



"Tecnoma" markalı (Fransa) asma çiləyici.

**ÇİLƏGİR** – Azərb. Resp. Xaçmaz r-nunun Nərəcan ə.d.-ndə kənd. R-n mərkəzindən 10 *km* şm.-da, Quruçayın sahilində, Samur-Dəvəçi ovalığındadır. Əh. 1277 (2011); heyvandarlıq, əkinçilik, meyvəçilik və tərəvəzçiliklə məşğuldur. Tam orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**ÇİLƏGİR** – Azərb. Resp. Qusar r-nunun Urva ə.d.-ndə kənd. R-n mərkəzindən 4 *km* c.-q.-də, Qusar çayı sahilində, dağətəyi düzənlikdədir. Əh. 1030 (2011); əkinçilik, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, tibb məntəqəsi var.

**ÇİLƏXANA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Mərkəzi kəndistanında, Kəlibər qəs.-ndən 15 *km* c.-ş.-dədir.

**ÇİLƏXANA**– İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Sərab ş.-ndən 13 *km* şm.-ş.-dədir.

**ÇİLƏXANA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Şəbüstər bölgəsinin Səyfiyan kəndistanında, Şəbüstər qəs.-ndən 7 *km* ş.-dədir.

**ÇİLƏNAB** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 14 *km* şm.-ş.-dədir.

**ÇİLƏYİCİ** – zəhərli maddələri (məhlul, suspenziya və müxtəlif qatılıqlı emulsiya şəklində) bitkilərə çiləmək üçün maşın. Ç. bitki zərərvericiləri və xəstəlikləri ilə mübarizə etmək, yığımdan əvvəl pambıq kolu yarpaqlarını tökmək, alaqları məhv etmək və s. üçün tətbiq edilir. Ç.-dən bi-naların dezinfeksiyasında da istifadə olunur. Universal (bir neçə növ bitkini dərmanlamaq üçün) və ixtisaslaşdırılmış (yalnız bir bitkini, məs., üzümlükləri) Ç.-lər olur. Aqreqatlaşdırma üsuluna görə traktor (qoşulan, yarımasma, asma və quraşdırılan), araba (elektrik mühərriki, yaxud daxiliyanma mühərriki intiqallı), aviasiya (intiqalı təyyarənin, helikopterin, motodeltaplanın işlək orqanlarındandır), həmçinin çanta və əl, o cümlədən bağ (əl intiqallı) Ç.-lərə, işçi mayenin sərfiyyatına görə tamhəcmli (damcıların ölçüsü 250 *mkm*-dən çox), azhəcmli (damcıların ölçüsü 50–250 *mkm*) və çox azhəcmli (damcıların ölçüsü 25–125 *mkm*) Ç.-lərə; çiləyici qurğuların növünə görə ştanqlı, ventilyatorlu və kombinə olunmuş Ç.-lərə ayrılır. Ştanqlı Ç.-lərdə maye təzyiq altında çiləmə ucluqlarına (səpələyicilər və forsunkalar) verilir; burada dispersləşərək emal olunan obyektə çilənir. Traktor Ç.-lərinin ştanqı tarla bitkilərinin dərmanlanmasında üfüqi, üzümlüklərin, maya sarmaşığı əkinlərinin dərmanlanmasında isə şaquli yerləşir. Aviasiya Ç.-ləri təyyarə, helikopter, yaxud deltaplanın gövdəsinə quraşdırılır. Bağların, meşə mühafizəsi zolaqlarının dərmanlanmasında işlənən ventilyatorlu Ç.-lərdə gübrələr hava axını vasitəsilə forsunkalarla çilənir. Kombinə edilmiş Ç.-lər ştanq-ventilyator qurğusu ilə təchiz edilir. Maye sərfiyyatı (çiləmə miqdarı) təzyiqin dəyişməsi və Ç.-nin yerdəyişməsi, səpələyicilərin sayı və diametri ilə tənzimlənir.

**ÇİLƏYİCİ-TOZLAYICI** – bitkilərə məhlul, suspenziya və emulsiya halında zəhərli maddə çiləmək (çiləyici), habelə quru zəhərli maddə tozu səpmək (tozlayıcı) üçün kombinə edilmiş maşın. Ç.-t.-dan pambıq kolunun yarpaqlarını tökmək, pambıq və digər k.t. bitkilərinin zərərvericiləri və xəstəlikləri ilə mübarizə üçün, ağacların profilaktik, bitkilərin isə cərgələrarası becərilməsi və s. üçün istifadə olunur.

**ÇİLƏYİCİ HOVUZ** – su dövranlı basqılı boru kəmərləri sistemi ilə təchiz olunmuş açıq çən (rezervuar); dövr edən suyu havaya sıçratmaqla onun temp-ru azaldılır. Eni 40–50 *m*-ədəkdir. İstilik-güc qurğusu, kompressor, transformator və s.-dən istifadə edən sənaye müəssisələrinin dövranlı su təchizatı sistemlərində tətbiq edilir. Suyun soyuma dərəcəsi havanın nəmliyi, temp-ru, küləyin gücü, istiqaməti və s.-dən asılıdır.

**ÇİLƏYİCİ TAPANÇA** – lak-boya materiallarını təzyiq altında çiləməklə, səthlərə rəng çəkmək üçün aparat. Lak-boya materiallarını sıxılmış havanın təsiri ilə çiləyən aparatlar pnevmatik Ç.t. adlanır. Alçaq (90 $kN/m^2$-ə qədər) və yüksək təzyiqli (90 $kN/m^2$-dən artıq) pnevmatik Ç.t.-lardan daha çox istifadə olunur. Bunların iş prinsipi boya tərkibinin ucluqdan təzyiq altında çıxan sıxılmış hava şırnağı vasitəsilə toz halına salınmasına əsaslanır. Rəngsazlıqda və s. işlərdə istifadə olunur. Məhsuldarlığı saatda 600 $m^2$-ədəkdir. Bax həmçinin *Rəngvuran pult*.

**ÇİLGƏZ** – Azərb. Resp. Kəlbəcər və Laçın r-nlarının sərhədində dağ. Qarabağ və Mıxtökən silsilələrinin birləşdiyi yerdədir. Hünd. 2358,5 *m*. Çəmənliklər var.

**ÇİLHÜCRƏ** – Tacikistanın Ura-Tübə r-nunun Şəhristan qəs.-ndən c.-da erkən orta əsrlərə (4 əsrin sonu – 8 əsrin əvvəlləri) aid qəsr. 1961–66 illərdə arxeoloji qazıntılar aparılmışdır. Dördbucaqlı planlı, qalın qala divarları ilə əhatələnmiş, donjonu və künclərində dairəvi bürcləri olan qəsr çiy kərpicdən tikilmişdir (3 inşaat qatı izlənilir). Ç.-nin memarlığında tağlı çatılar istifadə olunmuşdur. Daxili otaqlardan dama pandusları vasitəsilə qalxırdılar. Divar rəsmlərinin, ağaç heykəl və qab-qacağın qalıqları, həmçinin Tacikistan ərazisində ən qədim musiqi alətlərinin fraqmentləri, zərgərlik məmulatları, qızıl brakteat (sikkə) aşkar olunmuşdur. Ən qiymətli tapıntı epiqrafik abidələrdir: üzərində Soğd yazıları olan üç lövhəcik (onlardan biri borcun qaytarılması haqqında qəbz). Bu lövhəciklər əsasında Usruşana əhalisinin dil mənsubiyyəti və yazı sistemi məsələsinə aydınlıq gətirmişdir.

**ÇİLİ** (Chile), Çili Respublikası (República de Chile).

### Ümumi məlumat

Cənubi Amerikanın c.-q.-ində dövlət. Şm.-da Peru, şm.-ş.-də Boliviya, ş.-də Argentina ilə həmsərhəddir. Q.-də Sakit okeanla əhatələnir. Ərazisinə Odlu Torpaq a.-nın q. hissəsi, Çili arxipelaqının adaları (Çiloe, Uellinqton, Santa-İnes və s.) və San-










Ambrosio, San-Feliks, Xuan-Fernandes, Sala-i-Qomes, Pasxa a-rı daxildir. Sah. 756,9 min $km^2$. Əh. 17,2 mln. (2011). Paytaxtı Santyaqo ş.-dir. Rəsmi dil ispan dili, pul vahidi Çili pesosudur. İnzibati cəhətdən 15 vil.-ə (o cümlədən bir paytaxt dairəsinə) bölünür.

Ç. BMT-nin (1945), BYİB-in (1945), ADT-nin (1948), ÜTT-nin(1995), Cənubi Amerika Ümumi Bazarının (MERKOSUR; 2008), İƏİT-nin (2010) üzvüdür.

### Dövlət quruluşu

Çilidə fəaliyyətdə olan Konstitusiya 11 mart 1981 ildə qəbul edilmişdir; 1988 il referendumunda *Pinoçet* hakimiyyəti dövrünün bütün hüquqi normaları Konstitusiyadan çıxarılmışdır.



**İnzibati ərazi bölgüsü (2006)**

| Vilayətlər | Sahəsi, min $km^2$ | Əhalisi, min *nəfər* | İnzibati mərkəzi |
|---|---|---|---|
| Antofaqasta | 126,1 | 547,9 | Antofaqasta |
| Araukaniya | 31,9 | 1982,7 | Temuko |
| Arika-i-Parinakota | 17,0 | 189,7 | Arika |
| Atakama | 75,2 | 272,4 | Kopyapo |
| Aysen | 108,5 | 100,4 | Koyayke |
| Bio-Bio | 37,1 | 1982,6 | Konsepsyon |
| Kokimbo | 40,7 | 677,3 | La-Serena |
| Los-Laqos | 48,6 | 794,5 | Puerto-Mont |
| Los-Rios | 18,5 | 373,7 | Valdiviya |
| Maqalyanes və Çili Antarktikası | 132,4 | 156,5 | Punta-Arenas |
| Maule | 30,3 | 975,2 | Talka |
| O'Xiggins | 16,4 | 849,1 | Rankaqua |
| Santyaqo | 15,4 | 7003,1 | Santyaqo |
| Tarapaka | 42,3 | 286,1 | İkike |
| Valparaiso | 16,5 | 1850,9 | Valparaiso |

Dövlət və hökumət başçısı birbaşa ümumi seçkilər yolu ilə 4 il müddətinə (ikinci dəfə seçilmək hüququ yoxdur) seçilən prezidentdir. Prezident hökumət üzvlərini, səfirləri, bütün növ silahlı qüvvələrin komandanlarını və Milli polis rəisini təyin etmək, ali və apellyasiya məhkəmələrinin tərkibləri-ni müəyyənləşdirmək, qanunvericilik təşəbbüsü ilə parlamentə qanun layihələri çıxarmaq səlahiyyətlərinə malikdir.

Qanunverici hakimiyyət olan parlament iki palatadan – Senatdan və Deputatlar palatasından ibarətdir: Senatın 8 il müddətinə seçilən 38 üzvü (senatorların yarısı hər 4 ildən bir yenidən seçilir); Deputatlar palatasının 4 il müddətinə seçilən 120 üzvü (60 seçki dairəsinin hər birindən 2 nümayəndə) vardır.

Ç.-də çoxpartiyalı sistem mövcuddur. Əsas siyasi partiyalar: Xristian-demokrat partiyası, Demokratik partiya, Sosialist partiyası, Radikal sosial-demokratik partiya, Kommunist partiyası, Müstəqil demokratik ittifaq və s.

### Təbiət

Ç.-nin ərazisi Sakit okean sahilləri ilə And yüksəkdağlıqları arasında ensiz bir

Oxos-del-Salado dağı.






zolaqla (orta hesabla təqr. 175 *km*) şm.-dan c.-a 4300 *km* məsafədə uzanır.

**Relyef.** Ç. dağlıq ölkədir. Relyefində uzununa 3 qurşaq (ş.-də Baş And Kordilyer, q.-də And d-rının Sahil Kordilyer silsilələri və bunların arasında *Uzununa dərə*) mövcuddur. Sahil Kordilyer silsiləsi (hünd. 3200 *m*-ədək), demək olar ki, bütün uz. boyu düzxətli abrazion buxta sahilinə enərək, 41°30′ c.e.-ndən c.-da Cənubi Ç.-nin Çiloe və digər a-rına keçir. Tamaruqal və Atakama səhralarından ibarət olan Uzununa dərə (hünd. 2600 *m*-ədək) Ankud körfəzinədək tədricən enərək boğazlar sistemini yaradır. Baş And Kordilyer silsiləsi, əsasən, Ç. ilə Argentinanın sərhədi boyu keçir; Ç. ərazisində ən hünd. zirvəsi (6880 *m*) Oxos-del-Salado d.-dır; 35° c.e.-nədək əksər zirvələrin hünd. 6000 *m*-dən yuxarıdır və çoxu sönmüş və fəaliyyətdə olan (Qualyatiri, San-Pedro, Lyulyaylyako, Tupunqato, Maypo və s.) vulkan konusudur. C.-a doğru And d.-rı alçalır (San-Valentin d., 4058 *m*), vulkan zirvələrinə daha çox q. ətəklərində, əsasən, 37° və 43° c.e.-ləri arasında rast gəlinir; buzlaqlar çoxalır. Cənubi Ç.-nin sahilləri girintili-çıxıntılıdır. Ölkənin bütün ərazisi seysmik zonada yerləşir; tez-tez zəlzələlər olur.

Atakama səhrası.



**Geoloji quruluş və faydalı qazıntılar.** Ç.-nin bütün ərazisi And (Kordilyer) geosinklinal qırışıqlıq qurşağı hüdudlarında yerləşir. Qırışıqlığın bünövrəsini Paleozoy və Kembriyəqədər yaşlı metamorfik süxurlar təşkil edir. Çökmə örtüyü Yura-Tabaşirin çökmə qatlarından (ş.-də), andezitlərdən (q.-də), həmçinin Tabaşir-Paleogenin vulkanitlərindən ibarətdir. Tabaşir-Paleogen yaşlı qranitoidlər geniş yayılmışdır. Ölkənin c. hissəsi (Pataqoniya And d-rı) üçün Üst Yura və Alt Tabaşirin spilit-diabaz və fliş qatları və Üst Tabaşir-Paleogenin molassları səciyyəvidir; bu hissə Mərkəzi And d-rından daha mürəkkəb quruluşu ilə fərqlənir.

Ç. mis və şora ehtiyatına görə dünyada ilk yerlərdən birini tutur. İri kükürd, dəmir filizi, manqan, qurğuşun, sink, daş kömür, neft, qaz yataqları var. Nəhəng mis-porfir yataqları (Çukikamata, El-Salvador, El-Tenyente və s.) Tabaşir-Paleogenin vulkan-plutonik kompleksi ilə əlaqədardır. Mis filizlərinin emalı zamanı mislə yanaşı xeyli miqdarda molibden, gümüş, qızıl və nadir elementlər də alınır. Şora yataqları (Tokopilya, Pedro-de-Valdiviya, Mariya-Elena, İkike, Taltal və s.) duz, gips, boratlarla birlikdə Uzununa dərə qrabeninin qurumuş göllərindədir. Vulkan mənşəli kükürd yataqları (El-Takora, Konkola və s.) Ç.-nin Boliviya və Argentina ilə sərhədində yerləşir. Skarn tipli dəmir filizi yataqları, əsasən, Sahil Kordilyer d-rındadır (El-Romeral, El-Alqarrobo, El-Karmen, El-Tofo və s.); ən böyük yataq (El-Lako) Dördüncü dövrün eyniadlı vulkanı ilə əlaqədardır. Ölkədə manqan filizlərinin ehtiyatı çox azdır; sənaye əhəmiyyətli çökmə yataqları (Lambert, Korral-Kemado və s.) Sahil Kordilyer d-rındadır. Qurğuşun və sinkin Sahil Kordilyer d-rının şm.-ında hidrotermal damar tipli kiçik yataqları (Karakoles, Las-Kanyas və s.) var. Pataqoniya And d-rında kəşf olunmuş El-Toko kolçedan-polimetal yatağının filizlərində gümüş və mis də iştirak edir. Sənaye əhəmiyyətli kömürlü çöküntülər ölkənin q. və c. hissələrində yayılmışdır. Kömürün əsas yataqları Magellan boğazı r-nundadır; Paleogen çöküntüləri ilə əlaqədardır. Neft və qaz ehtiyatları cüzidir; əsasən, Kaynozoy molassları ilə dolmuş Magellan ön çökəyində (Odlu Torpaq a.) toplanmışdır.

**İqlim.** Ç.-nin ərazisi şm.-dan c.-a doğru müxtəlif iqlim qurşaqlarında yerləşir. Şimali Ç. (28° c.e.-nədək) tropik səhra iqliminə malikdir. Orta aylıq temp-r 12–16-dan 18–22°C-yədək, illik yağıntı And d-rının yamaclarında 100 *mm*-ədəkdir; Uzununa dərəyə illərlə yağıntı düşmür (Atakama səhrası). Sahil r-nları dumanlı və çiskinlidir. Mərkəzi Ç. (42° c.e.-nədək) Aralıq dənizi tipli subtropik iqlim qurşağında yerləşir. Orta aylıq temp-r 8-dən 22°C-yədək, illik yağıntı 2000–2500 *mm*-ədəkdir. Cənubi Ç.-də okean tipli rütubətli mülayim iqlim hakimdir. Orta aylıq temp-r 3-dən 18°C-yədək, illik yağıntı 2500–3000 *mm*-dən dağların küləktutan yamaclarında 6000–7000 *mm*-ədəkdir.

**Daxili sular.** Ç.-nin çayları qısa, gursuludur; Sakit okean hövzəsinə aiddir. Ən böyük çayları Bio-Bio, Kopyapo və Loadır. Çoxlu, əsasən, buzlaq mənşəli göl (Ranko, Lyankiue, Buenos-Ayres, San-Martin və s.) var. Ölkənin şm.-ında, dağarası çökəkliklərdə iri şoranlıqlara rast gəlinir. Şm.-dan c.-a doğru yağıntının miqdarının artması ilə əlaqədar qar xətti 6000 *m*-dən 500 *m*-ədək enir; 46°30′ c.e.-ndən aşağılarda buzlaqlar okean səviyyəsinədək düşür.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** Şimali Ç.-də torpaq-bitki örtüyü, demək olar ki, inkişaf etməmişdir. Sahil zolağında lomas səhra formasiyası səciyyəvidir. Orta C.-nin şm.-nda yarımsəhralar yerləşir; mərkəzi hissədə boz-qəhvəyi və qəhvəyi torpaqlarda kserofil kol cəngəllikləri (mattorales, espinales), And d-rının orta yamaclarındakı sahələrdə yuxarı getdikcə dağ çölləri ilə əvəz olunan cənub fıstığı meşələri vardır.

Uzununa dərədə təbii bitkilik qalmamışdır, burada bərkimiş qaratorpaq (vertisollar) arealları səciyyəvidir. Orta Ç.-nin c.-unda qonur-meşə, vulkanik (andosollar, trumao) və bataqlaşmış torpaqlarda rütubətli sıx həmişəyaşıl meşələr (hemigileya), And d-rında fıstıq-iynəyarpaqlı meşələr və Alp çəmənlikləri yerləşir. 46° c.e.-ndən c.-a subantarktika qarışıq meşələri yayılmışdır; ş. düzənliklərində qaratorpağabənzər və şabalıdı torpaqları olan çöllər, ucqar c.-da bataqlaşmış çəmənlər və torfluqlar vardır.

Şimali Ç.-də aquaraçay tülküsü, puma, sürünənlər, Cənubi Ç.-də pudu maralı və uemul, ckuns, samur, bataqlıq qunduzu, Magellan tülküsü kulpeo və s. yaşayır; quş çoxdur. Pataqoniyada quanako laması, gəmiricilər, dəvəquşu və s. vardır.

Mühafizə olunan ərazilər Vilyarrika, Los-Paraquas, Peres-Rosales, Pueue, Xuan-Fernandes milli parkları və Nauelbuta qoruğudur.



Bio-Bio çayı.

## Əhali

Ç.-nin əhalisi 3 əsas qrupdan ibarətdir: ispandilli çililiər; 20 əsrdə Avropa, Asiya, Amerikadan Ç.-yə gəlmiş və ispandilli çililərə qarışmamış immiqrantlar və onların nəsilləri; hindi xalqları. Əhalinin 90%-dən çoxu çililərdir. Hindilər-araukanlar (mapuçelər – 0,7 mln.), keçualar (50 min), aymaralar (20 min), odlutorpaqlılar, əksəriyyəti ispandilli çililər qarışmış Pasxa a.-ndakı polineziyalılar (rapanuililər) da yaşayırlar (1983). Çililərin təqr. 70%-i ağ irqə aiddir. Hindilər (ağ irqə qarışmış) əhalinin 26%-ini təşkil edir. İmmiqrantların milli tərkibi müxtəlifdir; ispanlar və italyanlar üstünlük təşkil edir. Dindarların əksəriyyəti xristiandır; müsəlmanlar da var. Hindilər dillərini və ənənəvi etiqadlarını qismən saxlamışlar. Əhalinin ortaillik artımı 1,8%-dir. Orta ömür müddəti kişilərdə 72, qadınlarda 78 ildir. Orta sıxlıq 1 $km^2$-də 22,1 nəfərdir (2013). Paytaxt Santyaqo və ətrafı daha sıx məskunlaşmışdır. Şəhər əhalisinin xüsusi çəkisi 87,7%-dir. Əsas şəhərləri: Santyaqo, Valparaiso, Vinya-del-Mar, Talkauano, Antofaqasta və s.

## Tarixi oçerk

Ç. ərazisində qədimdən müxtəlif hindi tayfaları məskunlaşmışlar. Ç. ərazisinin ilk sakinləri 13 min il əvvəl And dağlarının münbit vadilərində və Atakama səhrasının vahələrində məskunlaşmış mapuçelər olmuşlar. E.ə. 8–2-ci minilliklərdə Valle de Arikada ölülərin balzamlanması (mumiyalanması) ilə müşayiət olunan Çinkorro mədəniyyəti mövcud idi. Təqr. e.ə. 600 ildə Pasxa a.-nda Polineziya xalqları məskunlaşmışdılar. İspanların gəlişinədək Ç.-nin şm. hissəsində keçualar və aymaralar, mərkəzi hissəsində mapuçelər, c.-unda alakaluflar, yaqanlar, onalar və diagitlər yaşayırdılar. 13 əsrin sonu – 14 əsrin əvvəllərində Ç.-nin şm. hissəsi (Maule çayınadək) inklər tərəfindən işğal edildi. Maule çayından c.-da yaşayan mapuçe tayfaları inadlı müqavimət göstərərək inklərə tabe olmadılar. Ç. ərazisinə gələn ilk avropalı F. Magellan idi (1520). Magellan boğazı onun şərəfinə adlandırılmışdır. 1533 ildə F. Pisarronun başçılıq etdiyi ispan qoşunları böyük qüvvə sərf etmədən inklərin sərvətlərini ələ keçirsələr də, Atakama səhrası və And dağları ilə əhatə olunmuş Ç. ərazisinə doğru irəliləməyə cəsarət



Ranko gölü.

etmədilər. 1535–50-ci illərdə ispan konkistadorları Ç.-nin sahilboyu ərazilərini işğal edərək burada bir neçə şəhərin – Santyaqo, La-Serena, Valparaiso, Nueva-Estremadura, Konsepsyon (1550) və Valdiviyanın (1552) əsasını qoydular. 1541 ildə mapuçelər Santyaqonu ələ keçirməyə cəhd göstərdilər. İnklərin hakimiyyəti altında olan şm. r-nlarını ispanlar asanlıqla ələ keçirdilər. Mapuçelərin yaşadıqları r-nların tabe edilməsi isə hərbi əməliyyatlarla müşayiət olundu. 1553 ildə Lautaronun başçılığı ilə mapuçelər Tukapel yaxınlığında ispanlara qalib gəldilər, 1554 ildə isə Mariuenyu yaxınlığında ispanları darmadağın etdilər. 1557 ildə Lautaro öldürüldü. 1558 ildə Ç.-də Fernando de Santilyan tərəfindən ispanlar və mapuçelər arasında münasibətləri nizamlayan, "Santilyan vergiləri" adı ilə tanınan ilk qanunlar hazırlandı. 1578 ildə F. Dreyk Valparaiso portunu qarət etdi və La Serenanı tutmağa uğursuz cəhd göstərdi. Sonrakı yüzilliklər ərzində dəniz quldurları daima Ç. ərazisinə hücumlar təşkil edirdilər. 1597 ildə mapuçelərin başçısı seçilən Pelentaro Araukaniya yaxınlığındakı Valdaviya, Osorno və s. şəhərlərə qarşı geniş hücum əməliyyatlarına başladı. 1599 ildə mapuçelər Valdaviyanı ələ keçirdilər, ispan qoşunları isə Bio Bio çayının arxasına çəkildi. 1641 ildə bağlanmış Kuilli sülhünə görə, bu çay ispanlar və mapuçelər arasında sərhəd kimi tanındı. İspanlar itirilmiş torpaqları daima qaytarmağa çalışsalar da, onların cəhdləri baş tutmadı. Yalnız 100 ildən sonra, 1881 ildə Çili və Argentina qoşunları mapuçelərin ərazilərini geri almağa nail oldu. Bu 300 illik mübarizə "Arauko müharibəsi" adlandırılır.

16 əsrin ortalarında Ç. ərazisi Peru vitse-krallığının tərkibinə daxil edildi, 1788 ildə müstəqil general-kapitanlığa çevrildi. İspanlar Ç.-də qiymətli metalların zəngin yataqlarını aşkar edə bilmədilər və 17–18 əsrlərdə İspaniyanın yoxsul əyalətlərindən mühacirlərin, həmçinin baskların axını ilə müstəmləkələşdirmə kənd təsərrüfatı xarakteri aldı. Ç.-nin mərkəzi hissəsində buğda, arpa, çətənə, üzüm becərilməsinə, həmçinin qaramal və qoyun yetişdirilməsinə başlanıldı. Mis hasilatı 18 əsrdən mühüm əhəmiyyət kəsb etməyə başladı. Bununla da Ç.-nin müasir iqtisadiyyatının əsası qoyuldu. Bu dövrdə əhalinin metisləşməsi prosesi gedirdi. 19 əsrin əvvəllərində metislər əhalinin 80%-ini təşkil edirdilər.

18 əsrin 2-ci yarısında Ç.-də ispanlar və iri mülkədarlara qarşı xalq kütlələrinin mübarizəsi güclənərək 1780–82 illərdə azadlıq müharibəsinə çevrildi. İspaniya müstəmləkə idarəsi 1808 ildən Napoleon Bonapartın nəzarəti altında idi. Napoleon İspaniya taxtına öz qardaşı Jozefi çıxarmışdı. 1808 il sentyabrın 18-də Ç.-də ispan kralına sadiq qalan və öz ordusu olan hökumət xuntası yaradıldı. Bu hadisə krala sadiq royalistlər və X.M. Karreranın başçılıq etdiyi liberal vətənpərvərlər arasında vətəndaş müharibəsinə səbəb oldu. 1812 ildə Ç.-nin İspaniya kralından formal asılılığını nəzərdə tutan konstitusiya layihəsi hazırlandı. 1813 ildə vətənpərvərlər ordusunun başçısı B. O'Xiggins Karreranı əvəz etdi. 1814 il oktyabrın 1-də X.M. Karrera və B. O'Xigginsin rəhbərlik etdiyi Ç. azadlıq ordusu İspaniya qoşunlarına məğlub oldu, ordu rəhbərləri isə Argentiyaya qaçdı. 1814–17 illər rekonkistadorlar dövrü adlanır. Argentinalı X. San-Martinin köməyi ilə rekonkistadorlar ispanlara qarşı müştərək ordu təşkil etdilər. 1817 il fevralın 12-də bu ordu Çakabuko yaxınlığında sayca üstün olan ispanları darmadağın etdi. 1818 il fevralın 12-də Ç. müstəqil dövlət elan olundu. 1823 ildə köləlik ləğv edildi. 1826 ildə ispanlar üzərində qəti qələbə qazanıldı.

Tulor yaşayış məskəni. E.ə. 800 – b.e. 1100 illər. San-Pedro-de-Atakama.







1818 ildə respublika idarəçilik formasını təsbit edən Ç. konstitusiyası qəbul olundu. Bütün icraedici hakimiyyət ali hakim O'Xigginsin əlində cəmləndi. Ç. başqa dövlətlərlə münasibətlər qurmağa başladı. 1822 ildə B.Britaniya Ç.-yə 5 mln. peso məbləğində borc verdi, bununla da ölkədə ingilis kapitalının nüfuzu gücləndi. O'Xigginsin torpaq oliqarxiyası və katolik kilsəsinin imtiyazlarına qarşı mübarizəsi, mütərəqqi islahatlar keçirmək və kilsənin nüfuzunu məhdudlaşdırmaq cəhdləri feodal-klerikal dairələrin narazılığına səbəb oldu. 1822 ilin oktyabrında siyasi quruluşun demokratikləşdirilməsi və aristokratiyanın imtiyazlarının məhdudlaşdırılmasına doğru yönəlmiş yeni konstitusiyanın elan edilməsi ölkədə vəziyyətin daha da kəskinləşməsinə gətirib çıxardı. İrticaçı qüvvələrin təzyiqi ilə O'Xiggins öz səlahiyyətlərini dayandıraraq mühacirət etməyə məcbur oldu. 1823 ildə O'Xigginsin siyasətini davam etdirməyə çalışan gen. R. Freyre prezident seçildi. Müxtəlif qruplaşmalar arasında hakimiyyət uğrunda mübarizə 1830 ildə xarici kapitalistlərə arxalanan, torpaq sahibləri oliqarxiyasının və kilsənin mənafeyini təmsil edən mühafizəkarların qələbəsi ilə başa çatdı. 1833 il konstitusiyası onların hökmranlığını təsbit etdi. Mühafizəkar hökumətlər 1875 ilədək hakimiyyətdə qaldı. 19 əsrin 30–40-cı illərində Ç.-də çoxsaylı milli və xarici müəssisələr meydana gəldi.

1879 ildə B.Britaniya Peru və Boliviya ərazisindəki iri şora yataqlarını ələ keçirmək məqsədilə Ç.-ni onlara qarşı müharibəyə başlamağa təhrik etdi [İkinci Sakit okean müharibəsi (1879–83)]. Müharibə nəticəsində Perunun Tarapaka və Boliviyanın Antofaqasta əyalətləri Ç.-yə keçdi. Şora yataqlarının ələ keçirilməsi kapitalizmin sürətli inkişafına təkan verdi. 1886 ildə ölkənin müstəqil iqtisadi və siyasi inkişafının tərəfdarı olan liberal X.M. Balmasedanın hakimiyyətə gəlməsi xarici inhisarlar, kilsə və hərbçilərin ali təbəqələri tərəfindən müdafiə olunan oliqarxiyanın narazılığına səbəb oldu. Onlar tərəfindən başlanan vətəndaş müharibəsi nəticəsində 1891 ildə X.M. Balmaseda prezident vəzifəsindən getməyə məcbur oldu. Hakimiyyətə ölkənin ingilis, 20 əsrin əvvəllərindən isə amerikan kapitalına tabe olmasına şərait yaratmış maliyyə və torpaq sahibkarları elitasının nümayəndələri gəldilər. Ağır iqtisadi vəziyyət 1905–07 illərdə İkike, Antofaqasta, Konsepsyonda geniş vüsət almış zəhmətkeşlərin tətillərinə səbəb oldu. Fəhlə sinfinin mütəşəkkilliyi artdı. 1909 ildə Çili Fəhlələri Federasiyası (ÇFF), 1912 ildə Sosialist Fəhlə partiyası (SFP) yaradıldı.



Moailər – daş heykəllər. 10–16 əsrlər. Pasxa adası.

Birinci dünya müharibəsi (1914–18) zamanı Ç. bitərəf qaldı. Müharibədən sonra iqtisadi vəziyyətin pisləşməsi ilə əlaqədar və Rusiyada Oktyabr çevrilişinin (1917) təsiri altında ölkədə inqilabi hərəkat gücləndi. 1922 ildə SFP Çili Kommunist partiyası (ÇKP) kimi yenidən təşkil edildi. 1924 ilin sentyabrında A. Alessandri Palma hökuməti devrildi və hakimiyyətə hərbi xunta keçdi. 1925 ilin yanvarında hərbçilər K. İbanyes del Kamponun başçılığı ilə dövlət çevrilişi etdilər. Sentyabr ayında iri burjuaziya və torpaq oliqarxiyasının siyasi ittifaqını əks etdirən konstitusiya qəbul edildi. 1927 ildə hərbi nazir K. İbanyes prezidenti hakimiyyətdən uzaqlaşdıraraq diktatura qurdu. Kommunist partiyası, ÇFF, həmçinin anarxo-sindikalist təşkilatlar qanunsuz elan edildi. 1931 ildə diktatura əleyhinə donanmada üsyan baş verdi. 1932 ilin iyununda polkovnik M. Qrove Valyexonun başçılığı ilə sol zabitlər xuntası çevriliş edərək cəmi 12 gün mövcud olmuş Çili Sosialist Resp.-nın yarandığını elan etdilər. Tezliklə baş vermiş yeni hərbi qiyam nəticəsində respublika süquta uğradı. 1932 ilin oktyabrında A. Alessandri Palma yenidən hakimiyyətə gəldi. 1936 ilin martında kommunistlər, radikallar və sosialistlərin iştirakı ilə Xalq Cəbhəsi (XC) yaradıldı. 1938 ildə XC-nin namizədi radikal P. Agirre Serda prezident seçildi. Agirre hökuməti bir sıra mütərəqqi islahatlar (əmək qanunu, kəndlilər üçün bank krediti və s.) həyata keçirdi, lakin irticaçıların təzyiqi ilə aqrar islahatı həyata keçirməyə cəsarət etmədi. Sağ sosialistlərin xəyanəti nəticəsində 1941 ildə XC dağıldı. 1942 ildə ÇKP-nin təşəbbüsü ilə kommunistlər, radikallar və demokratların Demokratik İttifaqı (Dİ) yaradıldı.

Ç. 1945 ilin fevralında Almaniyaya, aprelində isə Yaponiyaya müharibə elan etsə də, faktiki olaraq İkinci dünya müharibəsində iştirak etmirdi. 1946 ildə Ç. prezidenti seçilən Dİ-nin namizədi radikal Q. Qonsales Videla hökuməti ABŞ-ın təhriki ilə 1947 ilin oktyabrında SSRİ ilə diplomatik münasibətləri (1944 ildə yaradılmışdı) pozdu. 1948 ildə Milli konqres "Demokratiyanın müdafiəsi haqqında qanun" qəbul etdi. Bu qanuna görə ÇKP, həmkarlar ittifaqları və digər demokratik təşkilatların fəaliyyəti qadağan olundu. Ç. iqtisadiyyatında hakim mövqeləri ABŞ inhisarları ələ keçirdi. Kommunistlərin təşəbbüsü ilə 1951 ildə Xalq cəbhəsi (isp. Frente del Pueblo), 1953 ildə Zəhmətkeşlərin Vahid Həmkarlar İttifaqları Mərkəzi, 1956 ildə



Çakabuko döyüşü. 1817 il.

isə kommunistləri, sosialistləri və digər sol qüvvələri birləşdirən Xalq Fəaliyyəti Cəbhəsi (XFC; isp. Frente de Acción Popular; FRAP) yaradıldı. XFC-nin təzyiqi ilə 1958 ildə "Demokratiyanın müdafiəsi haqqında qanun" ləğv edildi, ÇKP leqal fəaliyyətə başladı. 1958 ildə iri kapitalın dəstəklədiyi sağ qüvvələrin nümayəndəsi X. Alessandri prezident seçildi. Alessandri hökuməti ölkəni xarici kapitalın öhdəsinə verdi, fəhlə hərəkatını yatırtdı. 1964 ildə Xristian-Demokrat partiyasının sağ qanadının lideri E. Frey Montalva SSRİ ilə diplomatik münasibətləri bərpa etdi, bir sıra burjua-demokratik islahatların həyata keçirilməsini nəzərdə tutan "azadlıq şəraitində inqilab" proqramını elan etdi. Lakin hökumət tərəfindən misin "çililəşdirilməsi" (ABŞ inhisarlarına məxsus səhmlərin tədricən alınması) siyasəti ABŞ şirkətlərinin gəlirlərini demək olar ki, məhdudlaşdırmadı. 1967 ildə elan edilmiş aqrar islahat olduqca ləng həyata keçirilirdi. Bütün bunlar xalq kütlələrinin narazılığına, ÇKP və XFC-nin nüfuzunun artmasına səbəb olurdu.

1969 ilin dekabrında ölkədə ilk dəfə sol partiya və təşkilatların ittifaqı olan Xalq Birliyi yaradıldı. 1970 ilin sentyabr seçkiləri zamanı həmin blokun nümayəndəsi sosialist S. Alyende qələbə qazanaraq ölkənin prezidenti seçildi. S. Alyende hökumətinin irəli sürdüyü əsaslı sosial-iqtisadi dəyişikliklər proqramı əhalinin geniş təbəqələri tərəfindən rəğbətlə qarşılandı. ABŞ inhisarlarına məxsus olan mis-mədən müəssisələri milliləşdirildi, milli sənaye, mülkədar və maliyyə oliqarxiyasının fəaliyyəti məhdudlaşdırıldı, latifundizm sisteminə faktiki olaraq son qoyan aqrar islahat həyata keçirildi. Zəhmətkeşlərin maddi vəziyyətini və pensiya təminatını yaxşılaşdırmaq, mənzil tikintisini genişləndirmək, işsizliyi ləğv etmək məqsədilə mühüm tədbirlər həyata keçirildi. Kuba ilə diplomatik münasibətlər bərpa olundu, sosialist dövlətlərlə əlaqələr quruldu. Buna baxmayaraq Alyende hökuməti öz proqramını həyata keçirmək üçün tezliklə vəsait çatışmazlığı ilə üzləşdi. Xərclərin azaldılmasına yol verməmək üçün büdcə kəsirini aradan qaldırmaq məqsədilə hökumət pul çap etdirməyə başladı, qiymətlərin artmasının qarşısını almaq üçün isə əmtəə və xidmətlərin qiymətlərini nəzarət altına aldı. S. Alyendenin siyasəti mühafizəkar maliyyə, sənaye, latifundiya dairələrinin müqaviməti və xarici korporasiyaların təzyiqi ilə qarşılaşdı. Bu, sonradan iqtisadi böhrana gətirib çıxarmış iqtisadi çətinliklərin meydana gəlməsinə səbəb oldu. Hiperinflyasiya və əmtəə defisiti sağ müxalifət tərəfindən maliyyəşdirilən tətillər, küçə iğtişaşları və terrorizmlə müşayiət olunan sosial gərginliyin artmasına gətirib çıxardı. İri ABŞ və beynəlxalq bankların Ç.-yə qarşı kredit boykotu iqtisadi vəziyyəti daha da gərginləşdirdi. Prezident S. Alyende müntəzəm olaraq bir tərəfdən islahatları sürətləndirməyi tələb edən sol radikalların, digər tərəfdən isə islahatları dayandırmaq və sosial təminatlardan imtina etməyi tələb edən sağların təzyiqinə məruz qaldı. 1973 ilin sentyabrında baş vermiş hərbi qiyam zamanı S. Alyende intihar etdi. Gen. A. Pinoçetin başçılıq etdiyi hərbi xunta hakimiyyətə gəldi. Konstitusiya ləğv edildi, Milli konqres buraxıldı, sol və sol mərkəzçi partiya və təşkilatlar, həmçinin Zəhmətkeşlərin Vahid Həmkarlar İttifaqları qadağan olundu. Sağ partiyaların fəaliyyəti əvvəlcə "donduruldu", 1977 ildə isə tamamilə qadağan edildi. Sonra hərbi rejimin nəzarəti altında yeni "sarı" həmkarlar ittifaqları təsis edildi. Xunta bütün demokratik azadlıqları boğaraq ölkədə qanlı terror kampaniyasına başladı. 30 mindən çox vətənpərvər öldürüldü. Hərbi xunta xalqın sosial nailiyyətlərini məhv edərək torpağı latifundistlərə, müəssisələri isə əvvəlki sahiblərinə qaytardı, xarici inhisarlara təzminat ödədi. Sosialist ölkələri ilə diplomatik münasibətlər kəsildi. 1974 ildə A. Pinoçet Ç. prezidenti elan olundu. Hərbi xuntanın daxili və xarici siyasətinin başlıca prinsiplərini antikommunizm və militarizm təşkil edirdi. Ç. hökuməti imperialist dövlətləri, xüsusən ABŞ və İsrail ilə əlaqələri möhkəmləndirirdi. Hərbi xuntanın hakimiyyətdə olduğu illərdə ölkə iqtisadiyyatı fəlakətli vəziyyətə düşmüş, onun xarici borcu 22 mlrd. dollara çatmışdı (1986).

1978 ilin dekabrında Argentina və Ç. arasında müharibə təhlükəsi meydana gəldi. Qarşıdurmaya səbəb Biql boğazında (isp. Beagle) yerləşən, zəngin neft yataqlarına malik olmaları ehtimal edilən Lennoks, Pikton və Nuevo a-rı idi. Münaqişə Vatikanın köməyilə sülh yolu ilə həll olundu. 1985 il mayın 2-də sərhədlər haqqında saziş imzalandı. Müqaviləyə görə, hər üç ada Ç.-nin tərkibinə qatıldı.

1980 ildə yeni konstitusiya qəbul olundu, lakin onun tətbiqi 1988 ilədək təxirə salındı. 1988 ildə Ç.-nin bütün tarixi ərzində baş vermiş ən geniş kütləvi etiraz dalğaları və ABŞ-ın təzyiqi nəticəsində A. Pinoçet diktaturanın saxlanılması məsələsilə bağlı ümumxalq səsverməsinin keçirilməsinə razılıq verdi. Səsvermə ərəfəsində sağ partiyaların fəaliyyətinə icazə verildi. 1988 il oktyabrın 5-də A. Pinoçet səsvermədə məğlub oldu, onun yaratdığı Milli təhlükəsizlik şurası isə diktatorun səsvermənin nəticələrini tanımamaq və yeni çevriliş etmək təklifini rədd etdi. 1989 ildə Ç. demokratik idarəçilik üsuluna keçdi. 1990 ildə keçirilən seçkilərdə xristian-demokratların namizədi P. Eylvin qalib gələrək prezident vəzifəsini tutdu. Latın Amerikası ölkələrinin çoxunda olduğu kimi Ç.-də də "Həqiqət və barışıq komissiya"sı yaradıldı. 1993 ildə komissiya işini yekunlaşdıraraq nəticələrini dərc etdirdi. 1994–2000 illərdə solçuların namizədi E. Frey Ç. tarixində rekord səs çoxluğu (57%) ilə prezident seçildi. Onu R. Laqos əvəz etdi (2000–04). 2005 ildə antidemokratiya ünsürlərini, həmçinin hərbçilərin çoxsaylı imtiyazlarını ləğv edən konstitusiya islahatı keçirildi. 2006 ildə keçirilən prezident seçkilərində ilk dəfə qadın namizəd M. Baçelet prezident seçildi. 2010 il seçkilərində keçmiş prezident E. Freyin oğlu S. Pinyeranın prezident seçilməsi ilə son 50 il ərzində ilk dəfə sağçıların namizədi hakimiyyətə gəldi.







Çukikamata mis mədəni.

### Təsərrüfat

**Sənaye** cəhətdən Ç. Latın Amerikasının inkişaf etmiş ölkələrindəndir; dağmədən sənayesi, k.t. və balıqçılıq məhsullarının istehsalı və ixracı üzrə ixtisaslaşmışdır. Adambaşına düşən elektrik enerjisi və bir sıra sənaye məhsullarının (mis və dəmir filizləri, polad, sellüloz, kağız) istehsalı üzrə qitədə aparıcı yerlərdən birini tutur. ÜDM-in həcmi təqr. 335,5 mlrd. dollar (alıcılıq qibiliyyəti pariteti üzrə; 2013); adambaşına 19100 dollar; real ÜDM artımı təqr. 4,4% (2013), insan inkişafı indeksi 0,819 (2013; dünyanın 186 ölkəsi arasında 40-cı yer) təşkil edir. ÜDM-in strukturu (2013): xidmət sferası 61%, sənaye 35,4%, k.t. 3,6%. Ç. mis filizləri (müəyyən edilmiş ehtiyatları dünya ehtiyatlarının 1/4-indən çoxunu təşkil edir; hasilat ildə 3,1 mln. *t*, yataqları – Çukikamata, El-Tenyente, Andina, Salvador), təbii şora (ehtiyatlarına görə dünyada 1-ci yeri tutur, hasilat ildə təqr. 500 min *t*; Atakama səhrasının q. hissəsində, Tokopilya r-nu), molibden (onun istehsalı üzrə Ç. dünya liderlərindəndir; ildə 18 min *t*; yataqları – Çukikamata və Salvador) və kükürdün (təbii kükürd ehtiyatları üzrə Ç. dünyada İraqdan sonra 2-ci yerdədir) ehtiyatları və hasilatı üzrə dünyada aparıcı mövqe tutur. Dəmir filizi (ildə 8,2 mln. *t*), polimetal (əsasən, sink; ildə təqr. 30 min *t*), qiymətli (ildə 39 *t* qızıl və min *t* gümüş) və nadir (Ç. ərazisində dünyanın litium ehtiyatlarının 30%-dən çoxu, həmçinin selen, tellur, reniya çıxarılır) metallar, xörək duzu (ildə 3,5 mln. *t*, yarısından çoxu ixrac edilir), yod, neft və qaz (başlıca olaraq, Odlu Torpaq a.-nda və Magellan boğazının şm. sahilləri boyu), daş kömür hasil edilir. Elektrik enerjisi istehsalı ildə 62,86 mlrd. (2013) *kVt·saat* təşkil edir. Emal sənayesi sahələrindən yeyinti (Ç. – meyvə qurusu və şirələrinin, balıq konservi və ununun, həmçinin dünyada ən iri yüksəkkeyfiyyətli şərab istehsalçısı və ixracatçılarından biridir, şərab satışının həcmi üzrə Qərbi Avropada İtaliya və Fransadan sonra Ç. 3-cü yeri tutur), kimya (partlayıcı maddələrin istehsalı və ixracı; Vaparaiso, Santyaqa) və neft-kimya (Konsepsyon, Konkon, Manantyales), əlvan (Ç. Latın Amerikasında ən iri, dünyada isə aparıcı mis istehsalçılarındandır; ildə 1,3 mln. *t*; ilkin mis istehsalı üzrə dünyada 1-ci, saflaşdırılmış mis istehsalı üzrə ABŞ və Yaponiyadan sonra 3-cü yeri tutur; misəritmə mərkəzləri mis yataqlarına yaxın yerləşir: Çukikamata, Potrerilyos, El-Tenyente, Salvador) və qara (özünün dəmir və manqan filizləri əsasında; Uaçipato) metallurgiya, ağac emalı və sellüloz-kağız (kağız, karton, ağac-yonqar və ağac-lifli plitələr) daha çox inkişaf etmişdir. Ənənəvi olaraq toxuculuq və ayaqqabı-dəri (əsas mərkəzləri: Santyaqo, Valparaiso, Konsepsyon) sənayesi inkişaf etmişdir, maşınqayırma (gəmiqayırma) inkişaf etməkdədir.

**K.t.-nda** iri torpaq sahibkarlığı üstünlük təşkil edir. Ç. özünü ərzaq ilə tam təmin edir; bir sıra k.t. məhsulları ixrac olunur. Ölkə ərazisinin 15,3%-i k.t. üçün yararlıdır, otlaq və çəmənliklər 52,4%-ni tutur. Aparıcı sahə dənli bitkilərin (taxıl, arpa, yulaf, çəltik, qarğıdalı) istehsalı üzrə ixtisaslaşmış bitkiçilikdir. Həmçinin şəkər çuğunduru, günəbaxan, tütün be-

Üzüm plantasiyası. Kasablanka.





Torres del Peyn Milli Parkı.

cərilir. Əsas əkinçilik r-nu Mərkəzi Ç.-dir. Ölkənin şm.-nda daha çox qarğıdalı, c.-da isə kartof becərilir. Bağçılıq və üzümçülük inkişaf etmişdir. Ç. üzüm və kivi üzrə Latın Amerikasında aparıcı (Yeni Zelandiya və İtaliyadan sonra dünyada 3-cü) istehsalçı və ixracatçı, gavalı, armud, şaftalı və almanın iri ixracatçılarından biridir. Yığım (ildə mln. *t*): buğda 1,23; qarğıdalı 0,9; şəkər çuğunduru 2,8; kartof 0,9; pomidor 1,4; üzüm 1,53; alma 0,9. Ətlik-südlük (əsasən, otlaq) heyvandarlıq inkişaf etmişdir. Qaramalın ümumi sayı 3,9 mln. (Mərkəzi Ç. r-nlarında), davar 4,5 mln. (əsasən, Cənubi Ç.-də), donuz 1,5 mln. təşkil edir. Sahilboyu r-nlarda balıqçılıq (qızılbalıq, treska, tunes və s.) və dəniz məhsulları hasilatı (istridyə, krab, omar, krevet; ümumilikdə ildə 7,5 mln. *t* ovlanır) inkişaf etmişdir; dağ göllərində çoxlu balıq ovlanır.

**Xidmət sferası.** Ç. iqtisadiyyatında rekreasiya xidmətləri əhəmiyyətli yer tutur. Turizmdən əldə olunan gəlir 13,6% artaraq 4,5 mlrd. dollar təşkil etmişdir (1,5 mlrd. xarici turizmdən; 2005). Hər il ölkəyə 2,5 mln. xarici turist gəlir (2007).

Turistləri, əsasən, Ç.-nin təbiəti xüsusilə qoruqlar cəlb edir: Pampa del Tamaruqal Milli Qoruğu, Torres del Peyn Milli Parkı, Serro Kastillo Milli Qoruğu, Laquna San Rafael Milli Parkı və s. Mərkəzi And dağlarında çoxlu sayda beynəlxalq dərəcəli qış idmanı mərkəzləri (Portilo, Valle Nevado, Termas de Chillán) yerləşir. Arica, Antofaqasta, La Serena, Kokimbo və s. əsas yay (dekabr–mart) istirahət zonalarıdır. Vinya del Maar öz çimərlikləri, kazinosu, hər il burada keçirilən və Latın Amerikasında ən mühüm sayılan musiqi festivalı ilə şöhrət tapmışdır. Piçilemu çimərliyi Cənubi Amerikada ən yaxşı sörfinq məkanıdır. Ç.-yə turistləri cəlb edən həm də ölkənin tarixi abidələridir. R.P. Qustavo Le Peyn və San Migel de Azapa Arxeoloji muzeylərində dünyada ən qədim mumiyalar qorunub saxlanılır.

**Nəqliyyat.** D.y.-larının uz. (min) 7,8 *km*, avtomobil yollarının uz. 77,8 *km*-dir (o cümlədən 18,1%-i bərkörtüklü). Minik avtomobilləri avtoparkı (mln.) – 888,6, yük maşınları və avtobuslar 469,1. İri portları: Valparaiso, Antofaqasta, Arika, İkike, Punta-Arenas.

**Xarici iqtisadi əlaqələr.** Dağ-mədən sənayesi məhsulları (dəyərin təqr. 45%-i), ərzaq (20%-i, o cümlədən meyvə-tərəvəz, balıq və balıq konservləri, şirələr, şərab və s.), kağız və sellüloz, kimyəvi məhsullar ixrac edilir. Əsas xarici ticarət tərəfdaşları: ABŞ, Yaponiya. Braziliya, Argentina, Almaniya.

### Silahlı qüvvələr

Ç.-nin silahlı qüvvələri (SQ) quru qoşunları (QQ), HHQ və HDQ-dən ibarətdir. Ali baş komandan prezidentdir. İllik hərbi büdcə 1,66 mlrd. dollar təşkil edir (2005). HDQ hərbi-dəniz donanması, hərbi dəniz aviasiyası, dəniz piyadaları, xüsusi təyinatlı hissə və bölmələrdən ibarətdir. HDQ 4 sualtı qayıq, 8 freqat, 7 raketli kater, 3 desant gəmisi, 3 köməkçi gəmi, 1 təlim gəmisi, 30 təyyarə, 20 helikopter, döyüş-kəşfiyyat maşınları, tırtıllı və təkərli avtomobillər, qaubitsalarla silahlanmışdır. HHQ-nin tərkibində 185 təyyarə (o cümlədən döyüş təyyarəsi, təlim təyyarəsi, nəql. təyyarəsi və s.), 26 helikopter var. Silahları və hərbi texnikası, əsasən, ABŞ və Almaniya istehsalıdır. SQ çağırış əsasında komplektləşdirilir; hərbi xidmət müddəti QQ-də 12 ay, HHQ və HDQ-də 22 aydır. 2005 ildən müqavilə əsasında komplektləşdirmə həyata keçirilir.

### Səhiyyə

Ç.-nin Səhiyyə Nazirliyi tərkibində Səhiyyənin Milli Fondu, Çili İctimai Səhiyyə İn-tu, Qidalanma Mərkəzi fəaliyyət göstərir. Ç.-də əhalinin hər 1000 nəfərinə düşən doğum sayı 14,1, ölüm sayı 9,4-dür (2012). Əhalinin orta yaşı 32,8 ildir. Səhiyyəyə qoyulan ümumi xərc ÜDM-in 7,2 %-ni təşkil edir, adambaşına səhiyyə xərcləri 1606,1 ABŞ dolları, dövlət səhiyyə xərcləri 780,6 ABŞ dolları təşkil edir (2012). 2012 ildə ölkədə qızılyel ilə 876, göy öskürəklə 5762 xəstələnmə halı qeydə alınmışdır. Əhalinin hər 100 min nəfərindən 1,3-ü vərəmdən, 2,4-ü İİV-dən ölmüşdür. Ölkədə vərəmlə mübarizə məqsədilə Milli Büdcə Proqramı fəaliyyət göstərir.

### İdman

Bədən tərbiyəsi və idman məsələləri ilə Bədən Tərbiyəsi İn-tutu Təhsil Nazirliyi ilə birgə məşğul olur. Ç. Olimpiya Komitəsi 1896 ildə yaradılmışdır. Həmin ildən Ç. idmançıları Olimpiya Oyunlarında iştirak etmiş, boks (1gümüş, 2 bürünc medal, 1956), atçılıq idmanı (2 gümüş, 1952) və yüngül atletika (2 gümüş, 1928 və 1956) idman növlərində Olimpiya mükafatçıları olmuşlar. Son Olimpiya Oyunlarında (2000, 2004, 2008) Ç. idmançıları 2 qızıl, 1 gümüş, 2 bürünc medal qazanmışlar.

### Təhsil. Elm və mədəniyyət müəssisələri

İbtidai icbari təhsil 8 illik (6–14 yaş), orta təhsil 4 illikdir (14–18 yaş). Ali təhsil müəssisələrinə un-tlər, peşə in-tları və texniki tədris mərkəzləri daxildir. Ç.-də ali təhsil pulludur. Özəl un-tlər Təhsil akademiyasının nəzarətindədir. Ali təhsil müəssisələrinə Santo Tomas de Akino un-ti (əsası 1622 ildə qoyulmuş, 1738 ildə İspaniya kralı V Filippin şərəfinə San Filipp un-ti adlanmışdır), Çili un-ti (Universidad de Chile, Santyaqo, 1842), Atakama un-ti (1981), Talka un-ti (1981, Tecnika del Esfado un-ti əsasında yaradılmışdır) və c. daxildir. Dövlət un-tləri, əsasən, ali təhsil şurası və Çili un-tləri rektorları şurası tərəfindən koordinasiya edilir. Qədim un-tlər və peşə-texniki məktəbləri akademik muxtariyyətə malikdir. Elmi idarələri: Milli Astronomiya Rəsədxanası (1852), Seysmoloji və vulkanik aktivliyə nəzarət xidməti (1908), Riyazi modelləşdirmə mərkəzi (2000), Çili nüvə enerjisi komissiyası və s. 20-dən artıq milli və beynəlxalq əhəmiyyətli mərkəz fəaliyyət göstərir.

### Kütləvi informasiya vasitələri

Ç.-də 1922 ildən radio və 1957 ildən televiziya fəaliyyət göstərir. Burada 63 televiziya (1997) və 1490 radiostansiya var (2006). Metropolis-İntercom və VTR-Cabled kabel televiziyası şəbəkəsinin yayımları ölkənin 95%-ni əhatə edir (2002). "Agencia Chile Noticias" mətbuat agentliyi fəaliyyyət göstərir. Dövri mətbuat, əsasən, "El Mercurio" və "COPESA" (Consorcio Periodistico de Chile) mediaşirkətləri tərəfindən buraxılır. Paytaxt Santyaqoda 9 əsas qəzet, o cümlədən "El Mercurio", "Las Últimas Noticias" və s. qəzetlər çıxır. Xarici dillərdə də bir neçə qəzet çıxır: "Pichilemu News" (ing.), "The Santiago Times" (ing.), "Condor" (alm.) və s. İnternet istifadəçilərin sayı 5,57 mln. (2007).

### Ədəbiyyat

16 əsrə qədər ölkənin yerli sakinləri olan araukanların yazısı olmamışdır. Konkistadorların gəlişindən sonra yazılı ədəbiyyat ispan dilində inkişaf etməyə başlamışdır. İspan şairlərindən A. de Ersilyanın yerli əhalinin müstəmləkəçilərə qarşı müqavimətini əks etdirən "Araukana" və P. de Onyanın "Araukanın tabe edilməsi" poemaları bu dövrə aiddir. Kreol folkloru transformasiya olunmuş ispan xalq poeziyasından ibarət idi. 17–18 əsrlərdə tarixi xronika janrı inkişaf etdi (A. de Ovalye, "Çili krallığının tarixi xronikası"; D. de Rosales, "Çili krallığının ümumi tarixi", F. Nunyes de Pineda-i-Baskunyan, "Xoşbəxt əsir"). 1810–26 illərin azadlıq müharibəsi zamanı ədəbiyyatın əsas janrı publisistika idi. "Aurora de Chile" (1812 – 13) adlı ilk Ç. qəzetinin yaradıcısı A. Enrikes onun əsas nümayəndəsi olmuşdur. Müstəqillik qazandıqdan (1818) sonra buradakı siyasi həyatın nisbi sabitliyi nəticəsində Latın Amerikası ölkələrinin bir çox ədəbiyyat xadimi üçün Ç. sığınacaq yerinə çevrildi.



Çili Universiteti. Santyaqo.

Ç. mədəniyyətinin inkişafında Venesuela şair və alimi A. Belonun mühüm xidməti olmuşdur. Ç. ədəbiyyatında milli özünəməxsusluğun yaranması yazıçı, filosof, ictimai xadim X.V. Lastarriyanın adı ilə bağlıdır. 19 əsrin 1-ci yarısında poeziyada romantizm üstünlük təşkil edirdi, nəsrdə isə məişət təsviri (kostumbrizm) əsas yer tuturdu. Onun banisi X. Valyexo hekayələrində cəmiyyətin satirik təsvirini vermişdir. Kostumbrizm xüsusiyyətləri avtobioqrafik əsərlərdə və memuar ədəbiyyatında da üstünlük təşkil edirdi.

Latın Amerikasının başqa ölkələrindən əvvəl kapitalizm yoluna qədəm qoymuş Ç.-nin sosial-tarixi inkişafı 19 əsrin ortalarında ədəbiyyatda tənqidi realizmin meydana gəlməsinə səbəb oldu. Onun banisi A. Blest Qana idi. "Çili bəşəri komediyası" roman silsiləsində 19 əsrin ortalarındakı Ç. cəmiyyətini təsvir edirdi. Ədibin əsərlərinin ("Martin Rivas" romanı və s.) əsas mövzusu pulun hakim rol oynaması nəticəsində meydana gələn mənəvi konfliktlər idi. L. Orreqo Luko da "Böyük ev" əsərində mülkədar aristokratiyasının tənəzzülünü göstərmiş, Ç.-nin sosial həyatını tənqid etmişdir.

19 əsrin sonu – 20 əsrin əvvəllərində *modernizm* istiqamətində inkişaf edən Ç. poeziyasında Nikaraqua şairi R. Darionun mühüm xidməti olmuşdur. Onun təsiri ilə Ç. şairləri yeni şeir formaları və bədiilik yaratmağa çalışırdılar. Ç. poeziyasının inkişafında K. Pesoa Velisin xalq ruhu və sosial etirazla aşılanmış "Çili ürəyi" şeir kitabının mühüm rolu olmuşdur. 20 əsrin əvvəllərində nəsr Ç.-nin kəskin sosial problemlərini əks etdirirdi. B. Lilyo realist nağıllardan ibarət "Yerin altında" kitabında xarici şirkətlərin şaxtaçıları istismar etməsini amansızlıqla ifşa edirdi. X. Edvards Belo və b. romanlarında naturalizm estetikasına əsaslanırdılar. Başqa estetik mövqedə dayanan, əsasən, təbiəti və ölkənin kənd həyatını

ALMA Böyük Atakama Radioteleskopu.





Plasa de Armas meydanı. Santyaqo.

təsvir edən "kreolizm" ədəbiyyatı da inkişaf edirdi. "Kreolizm"in nəzəri prinsipləri onun ideya rəhbəri, milli Ç. xarakterinin təbii mühitdə formalaşdığını fərz edən M. Latorre tərəfindən ardıcıllıqla reallaşdırılmışdır. F. Qana, F. Santivan, L. Durand "kreolizm" yönümlü əsərlər yazmışlar. E. Barrios, P. Pradonun əsərləri üçün dünyanın simvolistcəsinə dərk edilməsi səciyyəvi idi. Modernizm A. D'Almarın yaradıcılığına müəyyən təsir etmişdir.

20-ci illərin əvvəllərində poeziya xüsusilə inkişaf etmişdir. Qabriel Mistralın yaradıcılığındakı lirik şeirlər modernist epiqonçuların zərif üslubu ilə zidddiyyət təşkil edirdi. "Ümidsizlik", "Tala" və "Şirəxana" topluları təkcə şairənin fərdi dünyasını deyil, eyni zamanda Latın Amerikası xalqlarının düşüncə tərzini də əks etdirirdi. Ç. *"kreasyonizm"inin* (ispanca "crear" yaratmaq deməkdir) nəzəriyyəçisi və rəhbəri V. Uydobronun poeziyası dünya avanqardizmi istiqamətində inkişaf edirdi; o, eyni zamanda əsərlərində sosial və siyasi problemlərə də maraq göstərirdi. 30-cu illərdə görkəmli İntim lirikadan və subyektiv poeziyadan ("Daimi yaşayış yeri – Torpaq", 1925–35) vətənpərvərlik poeziyasına ("İspaniya ürəklərdədir", 1937) keçid edən Ç. şairi P. *Neruda* sonralar Latın Amerikası ölkələri və insanları haqqında "Ümumdünya nəğməsi" (1950) epik poemasını yazdı. Şairlərdən P. de Roka, X. Valyexo, nasir X. S. Qonsales Vera, dramaturq A. Asevedo Ernandes və b. ictimai əhəmiyyətli mövzulara müraciət edirdilər.

1930-cu illərdə sosial məsələlərə maraq artdı. 40–50-ci illərdə N. Qusmanın ("Qan və ümid") və b.-nın fəhlə sinfinin həyatına həsr edilmiş romanları meydana gəldi. Fəhlələrin təsvirində tarixi optimizm, onların siyasi və mənəvi təkamülü V. Teytelboymun romanlarında daha mükəmməl ifadə olunmuşdur ("Şora oğlu"). F. Koloane "Qorn burnu", "Odlu torpaq", "Balinaların yolu" romanlarında dəniz sahilində yaşayanların təbiət hadisələri və sosial bəlalarla mübarizəsi təsvir olunmuşdur. L.E. Delanonun "Qumluqda toxum" və "Oyuq" romanlarında proletar şüurunun formalaşması əksini tapmışdır. M. Roxasın sosial problemlərin qəhrəmanın daxili aləminə nüfuz etdiyini göstərən "Oğrunun oğlu", "Şərabdan şirin", "Divarda kölgələr" romanları nəsrin inkişafında yeni mərhələ idi. E. Linin yaradıcılığında sosial kəskinlik nəzərə çarpırdı. 50 – 60-cı illərdə X. S.Qonsales Vera, K. Droget, F. Alcqriya və X. Donosonun yaradıcılığı üçün yeni təhkiyə texnikası, dərin psixologizm, şüurun gizli qatlarına nüfuzetmə səciyyəvi idi. 50–70-ci illərdə Nerudanın yaradıcılığında novatorçu meyillər gücləndi. Onun "Əzəli mətləblər haqqında odalar" kitabında və "Estravaqario" lirik-qrotesk şeir toplusunda gerçəkliyin fəlsəfi dərkinə cəhd olunur. Linin, X. Teylerin poeziya və nəsri kəskin sosial gərginliyi ilə səciyyələnirdi. 1970–73 illərdə Xalq Birliyinin hakimiyyəti dövründə sənədli-publisistik ədəbiyyat inkişaf etdi (Q. Atias "...və pullar axıb gəldi"). Ölkədə baş verən hərbi çevriliş ədəbiyyatın təbii inkişafına təsir göstərdi; bir sıra ədib və naşir xarici ölkələrə üz tutdu. 70-ci illərin 2-ci yarısında Ç. mühacirətinin xalqın faciəvi-tarixi təcrübəsini təkcə sənədli formada deyil, həm də orijinal bədii ifadə vasitələri ilə canlandıran böyük ədəbiyyatı formalaşdı (A. Skarmeta, "Yuxuda yanar qar görmüşdüm"; Teytelboym, "Daxili müharibə"; Donoso, "Kənd evi" və s. "Araucaria de Chile" (1978) və "Literatura Chilena en el Exilio" (1977) jurnalları ölkədən kənardakı ədəbi hərəkatın əsas mətbu orqanları idi.

Ç.-də hökm sürən diktatura dövründən sonra M.Serrano, A. Fuget, X.Koler, H.Kontreras və b.-nın timsalında yazıçıların yeni nəsli meydana gəldi. İ. Alyende, L.Sepulveda, E. Leteler və b. müasir Ç. ədəbiyyatının görkəmli nümayəndələridir. Ç. yazıçılarının bəzi əsərləri Azərb. dilinə tərcümə edilmişdir.

**Memarlıq və təsviri sənət**

Ölkənin şm.-ında qədim qala və məskən qalıqları mühafizə olunmuşdur. Hindilər Atakama səhrasında daşdan, kaktusdan, c.-da isə ağac və lildən komalar tikirdilər. Ölkənin ilk şəhəri Santyaqo (əsası 1541 ildə qoyulmuşdur) düzbucaqlı küçə şəbəkəsinə malikdir. Ş.-də Plasa de Armas mərkəzi meydanı, müstəmləkə dövrü binaları, kilsə (1541–1619), ratuşa (1775–1807, memarlar Toeska-i-Riçi, M. de Xara Kemada) və klassisizm üslubunda La-Moneda sarayı (1780–1805, memarlar X. Toeska-i-Riçi, A. Kabalero) var. Müstəmləkə dövründən sonra Ç. memarlığına fransız memarlıq məktəbinin böyük təsiri olmuşdur. 1841–53 illərdə Santyaqonun yenidən qurulması layihəsi tərtib olundu [milli memarlıq məktəbini yaratmış K.F. Bryune de Ben (1788–1855)]. Onun layihəsinə əsasən "Bələdiyyə teatrı" binası (1853), Mak-Klür pasajı inşa edildi. X. Qandarilyas, M. Aldunate, R. Braun, F. Vivaseta 19 əsrin 2-ci yarısı milli memarlıq məktəbinin nümayəndələridir. 19 əsrin sonunda memarlıqda eklektizm, 20 əsrin əvvəllərində modern üslubu ilə yanaşı milli ənənələrlə bağlı memarlıq inkişaf etmişdir.

1938–42 illərdə Santyaqo ş.-nin mərkəzi hissəsində bərpa işləri aparılmışdır. 50-ci illərdən başlayaraq Santyaqo, Arik, Antofaqasta və b. ş.-lərdə yaşayış rayonlarının kompleks inşasına başlanılmışdır (memarlar K. Bresani, K. Valdes, F. Kastilyo və b.). "Qonsales Kortes" (1960–63, memarlar S. Qonsales, E. və X. Mardones, X. Poblete) yaşayış kompleksi, Dövlət Texniki Un-tinin binası (1962–65, memarlar K. Breşani, Q. Valdes, F. Kastilyo), "Karrera" və "Portilyo" mehmanxanaları (memarlar X. Smit Miller, M. Lira), BMT-nin Latın Amerikasındakı iqtisadi komissiyasının binası (1960–66, memar E. Duart) və s. Ç.-nin müasir memarlıq tikililəridir.

Ç.-də qədim hindi mədəniyyəti qalıqları, o cümlədən atakama (şm.-da) və araukanlara (c.-da) məxsus həndəsi ornamentli və heyvan təsvirləri olan keramika məmulatları, Pasxa adasındakı nəhəng daş heykəllər, ağacdan düzəldilmiş əşyalar saxlanılmışdır. San-Pedro-de-Atakamada qaya rəsmləri aşkar edilmişdir.

Müstəmləkə dövründə dini boyakarlıq üstünlük təşkil edirdi. 19 əsrin 1-ci yarısında, əsasən, əcnəbi sənətkarlar (R.O.K. Monvuazen, Y.M. Rugendas, Ç. Vud və b.) fəaliyyət göstərirdilər. 1849 ildə Santyaqoda Zərif Sənətlər Məktəbi yaradıldı. 19 əsrin 2-ci yarısında akademik romantizm və klassisizm prinsiplərini realizm elementləri ilə sintez edən görkəmli rəssamlar Pedro Lira, M.A. Karo, K. San-Martin, A. Valensuela Puelma və b. milli peyzaj və tarixi janrın təməlini qoydular. 19 əsrin sonu – 20 əsrin əvvəllərində A. Valensuela Lyanos və X.F. Qonsalesin yaradıcılığına impressionizmin güclü təsiri olmuşdur. 1927–30-cu illərdə Ç.-də yayılmış modernist (sürrealizm, R. Matta; kubizm, K. Mori; abstraksionizm, N. Antunes; E. Sanyartu) "Monparnas" qrupu fəaliyyət göstərirdi. Qrafika ustası K.E. Alvares və boyakar M. Bonta yaradıcılığında xalq həyatı öz əksini tapırdı.

A. Santelises, N. Plas, V. Arias, L. Dominqes, S. Roman-Roxas Ç.-nin məşhur heykəltəraşları olmuşlar.

Ölkədə Santyaqo Milli Tarix Muzeyi, Milli Təbiət Tarixi Muzeyi, P. Nerudanın ev-muzeyi və s. fəaliyyət göstərir.

**Musiqi**

Qədim musiqi mədəniyyəti Ç. aborigenləri (əsasən, araukanlar) tərəfindən qorunub saxlanılmışdır. Solo və kollektiv ifa olunan müxtəlif mahnı (lirik, sevgi, uşaq, əmək, hərbi, ovsunlu) və rəqsləri var. Kultrun təbili, uada şaxşaxı (zərb), trutruka, lolkin, külkül, pifilka (nəfəs) araukanların geniş yayılmış musiqi alətləridir. Tonada, samakueka, kuando Ç.-nin kreol xalq musiqisi üçün xarakterik mahnı və mahnı-rəqs formalarıdır. Əsas musiqi alətləri: gitara, arfa, həmçinin peşəkar xalq müğənnilərinin istifadə etdiyi gitarron (uaso). Ç. professional musiqi sənəti ölkədə istiqlaliyyət uğrunda gedən mübarizə və respublika elan edilən illərdə inkişaf etməyə başlamışdır. 19 əsrin 1-ci yarısı və 2-ci yarısının əvvəllərində Santyaqoda filarmonik cəmiyyət (1827), ilk musiqi məktəbi (1849; 1851 ildən konservatoriya), "Teatro munisipal" (1857) təşkil edilmişdir. Ölkənin musiqi həyatında xarici qastrolçular əhəmiyyətli rol oynayırdılar (1830 ildə ilk dəfə italyan opera truppası çıxış etmişdir). 19 əsr bəstəkarları arasında M. Robles (ilk milli vətənpərvərlik mahnılarının müəllifi), X. Sapiola (mütərəqqi ictimai xadim, fəhlələr arasında musiqi hərəkatının təşəbbüsçüsü, publisist), ilk Ç. operasının müəllifi E. Ortis de Sarate seçilir. 20 əsrin 1-ci yarısında musiqidə iki əsas istiqamət müəyyənləşmişdi: milli üslub tərəfdarları, Ç. musiqisinin milli inkişaf yolunu tutanlar, öz yaradıcılıqlarında kreol və araukan folklorundan istifadə edənlər (X. Urrutiya Blondel, K. Lavin, P.U. Alyende, K. İsamit Alarkon) və Avropa musiqi cərəyanlarına – impressionizmə, ekspressionizmə, neoklassisizmə istinad edənlər (E. Soro, A. Kotapos, D. Santa-Krus Vilson, A. Letelyer Lyona, həmçinin X. Orreqo Salas, K. Botto, K. Riesko, A. Montesino, Q. Becerra). Santyaqoda Çili simfonik orkestri (1941), bələdiyyə simfonik orkestri (1955), Çili Un-tinin xoru (1945), simli kvartet (1954), Milli Konservatoriya, Musiqi Sənətini Yayan İn-t (1940) fəaliyyət göstərir.



Valdiviya şəhərindən görünüş.

Ç. müğənnisi M. Loyola Bakıda çıxış etmiş, Azərb. Dövlət Mahnı Teatrı (R. Behbudovun rəhbərliyi ilə) 1973 ildə Ç.-də qastrolda olmuşdur. Azərb. bəstəkarı X. Mirzəzadənin Ç. faciəsinin 10 illiyinə həsr etdiyi səs ilə fp. üçün "Ağı" (1983; "Pianto", italyanca mətnin müəllifi Ş. Məcidovdur) poemasını ingilis müğənnisi D. Dorrou ifa etmişdir.

20 əsrin sonu – 21 əsrin əvvəllərində Ç.-də elektron musiqi geniş yayılmışdır. R. Villa Lobos, A. Bucci, K. Vogel, Y. Bifman, Danieto, Nicolas Joar, C. Qonsales müasir elektron musiqisi ifaçılarıdır. Caz ustaları, əsasən, Almaniyada məskunlaşmış, yaradıcılıqlarını orada davam etdirirlər. Daha çox mis nəfəs alətləri, təbil və zərb alətlərindən istfadə olunur. Gənclər arasında rep populyardır.

**Balet**

Ç. ilk professional balet sənəti haqqında məlumatlar 19 əsrin ortalarına aiddir. 1857 ildə Santyaqo ş.-ndə "Teatro munisipal" teatrı yaranmışdı və orada tamaşalarına balet divertismentləri də daxil olan italyan operası çıxış edirdi. 1873 ildən başlayaraq teatrda balet tamaşaları da göstərilirdi. C. Engelmayer, B. Byanki, E. Luraski kimi avropalı balerinalarını tamaşalarda oynamağa dəvət edirdilər. 1917–18 illərdə A.P. Pavlovanın truppası Ç.-də qastrolda olmuşdur. 1921 ildə bu truppanın rəqqası Y. Kavesski Santyaqoda ilk balet məktəbi açmış, məktəb 1938 ilədək fəaliyyət göstərmişdir. Folklor rəqslərinə də maraq artmışdı. 1942 ildə "Teatro munisipal" R. Asevedo Raposonun hindi tayfalarının mərasim rəqslərindən istifadə et-



“Teatro munisipal” (Bələdiyyə teatrı). Santyaqo.

məklə yazılmış “Kaupolikan” opera-baletini tamaşaya qoymuşdu. İkinci dünya müharibəsi illərində Ç.-yə Avropa rəqs kollektivləri, o cümlədən K. Yossun (Almaniya) truppası gəlmiş və solistlər E. Utxoff və L. Botka Ç. Un-tinin nəzdində ilk daimi milli balet truppasını yaratmışlar. Truppanın müntəzəm çıxışları 1945 ildə başlamışdı. 1957 ildən truppa Milli balet adlanır.

Utxoff L. Delibin “Koppeliya” (1945), R. Ştrausun “İosif haqqında əfsanə” (1947), K.V. Qlyukun “Don Juan” (1950) və s. baletlərini səhnəyə qoymuşdur. 1967 ildən truppaya rəhbərlik etmiş P. Bunster burada K. Çavesin “Kalaukan”, Falyabelının “Boş stul” (1968) və b. əsərləri tamaşaya qoymuşdur. 1949 ildə baletmeysterlərdən N. Qrivtsova, V. Sulima klassik rəqs məktəbi və truppası yaratmış, B.V. Asafyevin “Baxçasaray fontanı”, R. Asevedonun “Üç paskual” milli baletini hazırlamışlar.

Rəqqas və xoreoqraf O. Çintolezi 1959 ildə “Teatro munisipal”ın nəzdində “El balet de arte moderno” truppasını təşkil etmişdir (1965 ildən Munisipal baleti; 1966 ildən rəhbəri olmuşdur). Truppa klassik balet məktəbi ənənələrinə əsaslanırdı. Avropa və Amerika baletmeysterləri S. Lifar, A. Tomski, M. Deyl, N. Berezov və b. klassik baletlərlə yanaşı, milli elementlərdən istifadə etməklə tamaşalar da yaradırdılar (“Canavar”, “Qanlı toy”). 60-cı illərin əvvəllərindən Ç. truppalarının repertuarına Latın Amerikası mövzusunda baletlər daxil edilir: A. Xinasterin “Suraso (1962, baletmeyster P. Bunster), X. Orrego Salasın “Küçə gimnastları” və b.

### Teatr

Ç.-nin teatr sənətinin kökləri yerli əhalinin adət-ənənələri ilə bağlıdır. İlk kütləvi milli truppadan ibarət teatr 1802 ildə Santyaqoda açılmışdır. Burada ispan və milli dramaturgiyanın yaradıcısı X. Eqaninin populyar “Borc məhəbbətə qalib gəlir”, “Pifaqorun sehrli kvadratı” əsərləri tamaşaya qoyulmuşdu. 1815 ildə Santyaqoda “Koliseo” teatrının, 1920 ildə isə Baş teatrın (qədim yunan, həmçinin Argentina və Ç. dramaturqlarının pyesləri tamaşaya qoyulurdu) binaları inşa olundu. Truppa rəhbəri Latorre ilk aktyor sənəti müəllimi oldu. 1842 ildə A. Belyonun “Şairin sevgisi” pyesi ilə Ç. Un-tinin teatrı açıldı (1857 ildən “Teatro munisipal”). 19 əsrdə ölkənin bir çox şəhərində teatrlar yaradıldı. 1871 ildə dramaturqlar və aktyorlar dram həvəskarları dərnəyində birləşdilər. 1912 ildə dramaturqlar cəmiyyəti, 1915 ildə isə teatr aktyorları cəmiyyəti yaradıldı. Aktyor və dramaturq K. Karola milli teatrın inkişafında mühüm rol oynadı. 20 əsrin 20-ci illərində Teatr Aktyorları Sindikatı yaradıldı (1954 ildə teatr aktyorları cəmiyyəti ilə birləşmişdir). Ç.-də teatrın formalaşmasında Milli Dramatik Şirkətin (1913) və Brüle-Bagenin truppasının (1917) mühüm rolu olmuşdur. A. Bryule, L. Kordova, R. Frontaura, E. Puelma, A. Flores kimi teatr xadimləri truppa ilə əməkdaşlıq edirdilər. Teatrın repertuarına A. Asevedo Ernandes, A. Muk, X. Luko Kruçaq və b. milli klassiklərin pyesləri daxil edilmişdi.

20 əsrin 30-cu illərində ispan aktrisası Marqarita Ksirqunun fəaliyyəti Ç.-nin teatr həyatını canlandırdı. Ç. Un-tində (1941), Katolik Un-tində (1943) eksperimental teatrlar yaradıldı və ölkənin teatr sənətinin inkişafında onların böyük rolu oldu.

Ç. Un-tinin teatrına rəhbərlik edən P. de la Barra yeni aktyor kadrları yetişdirmiş və yüksək bədii səviyyəli əsərlər səhnəyə qoymuşdur. Burada M. Maluenda, R. Parada, E. Martines, R. Sotokonil, M. Qonsales, V. Xara və b. aktyorlar, rej.-lar yetişmişlər. Dramaturq F. Josso 1946 ildə müstəqil teatr yaratmış, K.S. Stanislavskinn ideyalarını həyata keçirməyə çalışmışdır.

1959 ildə Ç. Un-tinin eksperimental teatrı əsasında Teatr İn-tu yaradılmışdır. 1950–60-cı illərdə sosial məzmunlu dramlar meydana gəldi: S. Vodanoviçin “Pis ad çıxarmış senator”, “Qoy itlər hürsün”, “Üzumlüklər”; F. Jossonun “Sələmçi” pyesləri; E. Volfun “Qorxu uşaqları”, “İradəsiz cütlük”, “Müdaxiləçilər”dramları, İ. Agirrenin “Ümid qəsəbəsi” və s. Dramaturq, teatr və kino rejissoru B. Qalemiri 1974 ildə “Qotik teatr” qrupunu yaratdı və F. Arrabalyanın “Aşşurun memarı və imperatoru” pyesini tamaşaya qoydu. Teatrda “Kimsəsiz” (1994), “Şərəfsiz Elestra” (2005), “Barux Spinoza” (2006) və s. əsərlər səhnəyə qoyulmuşdur.

### Kino

Yanğınsöndürənlərin Anibal Pinto meydanındakı manevrləri haqqında naməlum operatorun çəkdiyi ilk Ç. sənədli filmi 1902 ildə nümayiş etdirilmişdir. Ölkənin müstəqilliyinin 100 illiyi (1910) ilə əlaqədar bir neçə sənədli film çəkilmişdir: “Transand Çili-Argentina yolunun diqqətəlayiq yerləri”, “Selitra mədənlərinin mənzərəsi”, “Zərif sənətlər sarayının açılışı”. 1916 ildə rej. S. Cambastiani “Amansız nəticə” bədii filmini çəkmişdir. Əsas böyük firmalar “Cambastiani-films”, “Hans-frey-films”, “Andes-films” Santyaqo və Valparaisoda yerləşirdi. “Qədim Santyaqo” (1915), “Tələbələrin bayramı” (1916), “El-Tenyente mədəni haqqında xatirələr” (1919) kimi sənədli filmlər Ç. gerçəkliklərinin bəzi sosial aspektlərini işıqlandırırdı. 1917 ildən ölkədə tammetrajlı bədii filmlərin istehsalına başlandı. 20-ci illərin əvvəllərində Ç.-də ildə 10–12 film çəkilirdi (1925 ildə 16 film). Milli müstəqillik uğrunda mübarizə “Don Kipansa və Sanço Xote” (1921, rej. X. Bor), “Yuvasız quş” (1922, rej. K. Karyola), “Dənizdə çığırtı” (1924) və “Ölüm qusarı” (1925, hər ikisinin rej.-u P. Syenna), “İşıq və kölgə” (1925, rej. X. Delano) filmlərinin mərkəzi mövzusudur. 1934 ildə “Şimal və Cənub” ilk səsli filmi (rej. Delano) istehsal edilmişdir. Filmdə məşhur teatr aktyoru A. Flores və qadın müğənni X. Sur çəkilmişlər. 1934–38 illərdə, əsasən, qısametrajlı xronikalar və sənədli filmlər çəkilirdi. 40-cı illərin sonuna yaxın ABŞ-ın istehsal etdiyi kino məhsulları Ç. filmlərini tamamilə sıxışdırıb aradan çıxarmışdı. Kino sənayesinin inkişafına yardım təşkilatının və 1942 ildə “Çili-films” studiyasının yaranması vəziyyəti dəyişmədi. “Acı həqiqət” (1945, rej. K. Borkoske), “Oğurlanan adam” (1946, rej. Delano), “Ötüb-keçən sevgi” (1947, rej. Bor), “Lənətlənmiş addım” (1949, rej. F. Matter) cüzi miqdarda istehsal edilmiş filmlər sırasında idi.

1951–61 illərdə 13 tammetrajlı film çəkilmişdi (onlardan 5-i xarici rej.-lar tərəfindən). Bu illərdə rej.-lar E. de Miuoro, X. Delano, X. Bor, M. Frank fəaliyyət göstərirdilər. 1960 ildə Ç. Un-ti nəzdində Eksperimental kino şöbəsi və Sinematika yaradıldı. Gənc rej.-lar “Santyaqoya səyahət” (1960), “Qoy itlər hürsün” (1961), “Sükuta qayıdış” (1966, rej. N. Kramarenko) filmlərini çəkdilər. 60-cı illərin sonunda mütərəqqi qüvvələrin birləşməsi nəticəsində Ç.-də “yeni kino” fəaliyyətə başladı. Bu dövrdə “Çile-films” kinostudiyası kommunist və inqilabi yönümdə filmlər çəkməyə başladı: “Həsrəti çəkilən torpaq” və “Yoldaş Prezident” (rej. M. Littin), “Birinci il” (rej. P. Qusman), “Bir dua azdır” (rej. A. Fransiya), “Xeyriyyəçi” (rej. B. Gebel). Çevrilişin ilk günlərində, 1973 ilin sentyabrında “Çile-films” studiyası darmadağın edilmiş, kinoarxiv, lentlər, milli televiziya yandırılmış, 100 nəfərdən artıq kinematoqrafçı itkin düşmüşdü.

Çevrilişdən sonra Ç. kinosunun dirçəlişi ölkədən mühacirət etmiş kinematoqrafçıların fəal iştirakı ilə baş tutdu. Çəkilişi Ç.-də başlanmış, xaricdə sona çatmış filmlər: “Çili uğrunda döyüş” (rej. Qusman), “Tarix” (rej. S. və P. Kastilya), “Cinayət həbsxanası” (rej. R. Ruis), “Yumruqlar toplara qarşı” (rej. Q. Anseloviçi, O. Lyubert), “Tarix bizimdir və onu xalqlar yaradır” (rej. A. Ramires). Mühacirətdə çəkilmiş filmlər: “Çili üzərində gecə” (1977, rej. S. Alarkon, A. Kosarev), “Santa Esperansa” (1980) və “Kondorun süqutu” (1982, hər ikisinin rej.-u Alarkon), “Çili xronikası” (1975, rej. Labarka, Moskva Beynəlxalq kinofestivalının mük.), “Marusia mədənindəki hadisələr” (1975, rej. Uttin), “Əziz vətən” (1975, rej. B. Qonsales), “Yox olmuş məhbuslar” (1979, rej. S. Kastilya), “Santyaqoda yağış yağır” (1975, rej. E. Soto). Faşizmin ifşa edilməsi mühacirətdə olan Ç. rej.-larının əsas mövzusu idi.



“Ölüm qusarı” filmndən kadr.

1992 ildə Milli Bədii Fondun (Fondart) yaradılması kinonun inkişafına təkan verdi; fondun yardımı ilə bir çox filmlər istehsal olundu: “Conni yüz peso” (1993, rej. Q. Qraf-Marino), “Futbolun tarixi”, 1997, rej. A. Vud), “Qringito” (1998, rej. S. Kastilya), “Sentimental joker” (1999, rej. K. Qalas), “Qara mələk” (2000, rej. X. Olgin), “Oqu və Mampato Pasxa adasında” (2002, rej. A. Roxas) böyük müvəffəqiyyət qazanmış filmlərdir. Ç. filmləri bir sıra beynəlxalq kinofestivallarda mükafata layiq görülmüşdür: “Tacqoyma” (2000, rej. S. Kayossi), “Divanənin titrətməsi” (2001, rej. A. Vud), “Üç nəfərlik taksi” (2001, rej. O. Lubbert) və s.

Müasir Ç. kinematoqrafiyasının istehsalı olan “Qulluqçu qadın” (2009, rej. S. Silva) müstəqil Sandens kinofestivalının “Qızıl qlobus” (2010) mükafatına layiq görülmüşdür, P. Qusmanın “İşıq üçün nostalgiya” sənədli filminin 2010 ildə bir neçə beynəlxalq kinofestivalda debütü olmuşdur. “Violetta göylərə köçdü” (rej. A. Vud) və “Gənc və vəhşi” (rej. M. Rivas) filmləri 2012 ildə Sandens festivalının mükafatına layiq görülmüşdür.

*Əd.:* Очерки истории Чили. М., 1967; Формирование национальных литератур Латинской Америки. М., 1970; Альенде С. История принадлежит нам. Речи и статьи. 1970–73 гг. (пер. с испанского). М., 1974; Музыкальная культура стран Латинской Америки. М., 1974.

**ÇİLİ ARXİPELAQI** – Sakit okeanda Çilinin c.-q. sahilləri yaxınlığındakı adalar qrupunun ümumi adı. Çiliyə mənsubdur. Ən böyük adaları – Çiloe, Uellinqton, Santa-İnes (hünd. 1341 *m*-ədək). Adalar materik mənşəlidir. Tez-tez zəlzələlər (ən güclüsü 1960 ildə baş vermişdir) olur. Sahilləri fyordlarla parçalanmışdır. İqlimi mülayim, okean tipli, çox rütubətlidir. Sıx həmişəyaşıl və enliyarpaqlı meşələr var. Balıq ovlanır, ağac tədarük edilir. Əsas şəhəri və

Çili arxipelaqı. Vellinqton adası. Puerto Eden potu.



portu Ankuddur (Çiloe a.-nda). Ernando-Maqalyanes Milli Parkı Ç.a.-ndadır.

**ÇİLİ ÇUXURU** – Sakit okeanın c.-ş.-ində sualtı çuxur. Ş.-də Çili novu ilə, şm.-q.-də Sala-i-Qomes və Naska sualtı silsilələri ilə, c.-q.-də Çili qalxımı ilə əhatələnir. Uz. şm.-dan c.-a təqr. 1700 *km*, ş.-dən q.-ə təqr. 2400 *km*-dir. 3500–4000 *m* dərinliklər üstünlük təşkil edir; ən dərin yerləri (4800 *m*, 5537 *m*) ensiz novlardadır. Dib çöküntüləri, əsasən, alevritli-gilli karbonat lillərindən ibarətdir. Bəzi silsilələrin zirvələri adalar (Xuan-Fernandes və s.) əmələ gətirir.

**ÇİLİ QALXIMI** – Şərqi Sakit okean sualtı qalxımının qolu. Sakit okeanın c.-ş.-ində Çili və Bellinshauzen çuxurlarını ayırır. Uz. 2300 *km*, eni 500 *km*-ədəkdir; ətəkləri 4000 *m* dərinlikdədir, zirvəsi üzərində suyun dərinliyi 2266 *m*-dir. Ox hissəsi rift strukturuna malikdir.

**ÇİLİ NOVU** – Sakit okeanda And d-rının ətəyi boyu uzanan ensiz dərin sualtı çökəklik. Uz. 2690 *km*, eni 30–90 *km*, maks. dərinliyi 8180 *m*. Tipik struktur tikişə bənzəyir. Yer qabığı onun ş. bortunda materik quruluşludur, q. bortunda isə okean yer qabığı inkişaf tapmışdır.

**ÇİLİ ŞORASI** – bax *Şoralar*.

**ÇİLİK** – bax *Qələm*.

**ÇİLİK**, Ş i l i k (yuxarı axınında Canqırıq) – Qazax.-da, Almatı vil.-ndə çay. İli çayının sol qolu. Uz. 245 *km*, hövzəsinin sah. 4980 $km^2$. İliarxası Alatausunun c. yamacından başlanır; aşağı axını İli çuxurunda Kur-Çilik və Ulxun-Çilik qollarına ayrılır; Kapçaqay su anbarına tökülür. Qidalanması buzlaqqar mənşəlidir. Ortaillik su sərfi mənsəbindən 63 *km* məsafədə 32,2 $m^3/san$-dir. Suvarmada istifadə olunur.

**ÇİLİLABÓMBVE** (Chililabombwe) – Zambiyanın şm.-ında, Kopperbelt əyalətində şəhər. Əh. 93 min (2005). Ndola ş. ilə d.y. əlaqəsi var. İri mis yatağı hasilatı mərkəzidir.

**ÇİLİLİLƏR** (özlərini ç i l e n y o s adlandırırlar) – xalq, Çilinin əsas əhalisi. Ümumi sayları 11,78 mln. nəfərdir, onlardan 11,4 mln. nəfəri Çilidə yaşayır. Həmçinin Argentinanın qonşu rayonlarında (200 min nəfər), ABŞ-da (60 min nəfər), Venesuelada (18 min nəfər), İsveçdə (10 min nəfər), Avstraliyada (10 min nəfər) və s. ölkələrdə yaşayırlar. İspan dilinin yerli variantında danışırlar. Yazıları latın əlifbası əsasındadır. Dindarları xristiandır.

Ç.-in təşəkkülü Çilinin indiki mərkəzi rayonlarının (Atakama səhrasının cənub sərhədlərindən Bio-Bio çayınadək) ispanlar tərəfindən işğal edildiyi dövrə (16 əsrin ortaları) təsadüf edir. Konkistaya qədər bu ərazidə əkinçi hindi tayfaları pikunçelər (şimali araukanlar) və diagitlər (300–500 min nəfər) yaşayırdılar. İspandilli Ç. hindilərin Avropadan immiqrantlarla – *ispanlarla*, 19 əsrin 2-ci yarısından isə digər ölkələrdən gəlmələrlə qaynayıb-qarışması nəticəsində formalaşmışlar. Ölkənin c.-undakı boş torpaqların müstəmləkələşdirilməsi ilə əlaqədar olaraq, 1850–60-cı illərdə Çiliyə almanlar, sonra basklar, xorvatlar, irlandlar, italyanlar və fransızlar gəlirdilər. 20 əsrin 60-cı illərinin əvvəllərinədək ölkəyə gələn avropalı mühacirlər əsas etibarilə tez assimilyasiya olmuşlar. Müstəmləkəçilik dövründə Avropadan Çiliyə 50–70 min nəfər köçmüşdü. 1843 ildə ispandilli əhali təqr. 1,5 mln. nəfər təşkil edirdi. Hindilərin assimilyasiyasına qarışıq nikahlar (mühacirlər arasında qadınların sayının kifayət qədər olmamasına görə), metislərin iqtisadi və sosial üstünlük əldə etməsi şərait yaradırdı. 19 əsrin sonunadək Ç.-in əsas kütləsini inkilinolar (kəndlilər) təşkil edirdi. Maule çayından c.-da, Araukaniyanın sərhədində yaşayan gəlmələr arasında hindi komponentləri az əhəmiyyət kəsb edir, milli özünüdərketmə sürətlə formalaşırdı. Bu rayonun əhalisi İspaniya hökmranlığına qarşı mübarizədə (1810–18), araukanlarla sonrakı müharibələrdə və s.-də mühüm rol oynamışdır.



Gənc çililər.

Ənənəvi milli geyimli çilili.



Müasir Ç. mədən və emal sənayesi, ətlik heyvandarlıq, əkinçilik (dənli və subtropik bitkilər), meşə təsərrüfatı ilə məşğul olurlar.

Ç.-in maddi mədəniyyəti yerli hindi ənənələrinin mühüm təsirinin müşahidə olunduğu Cənubi Avropa tipinə aid edilir. "Həqiqi" Ç.-in ənənəvi tipi uaso (atlı çoban) obrazıdır. Bu obraz xalq təsviri sənətində, musiqi folklorunda geniş surətdə əks olunmuşdur. Xalq yaradıcılığında ispan və hindi ənənələri birləşir: folklorları ispan xalq poeziyasına yaxındır, toxuculuqda, fiqurlu keramika istehsalında, ağac üzərində oymada hindi elementləri güclüdür, rəqsləri Argentina və Peru rəqslərinə bənzəyir. Araukanlarla ispandilli Ç.-in mədəni yaxınlaşması prosesi davam edir.

**ÇİLİNGDİMDİKLƏR**, braxiopodlar – çıxıntılılar tipindən dəniz onurğasızları sinfi. Bədən uz. 8 *sm*-ədək olan ikitaylı çanaqla örtülüdür. Qrunta bərkidilmək üçün saplağı vardır. 280 müasir və 10 minə yaxın nəsli kəsilmiş növü məlumdur. Paleozoyun rəhbər qazıntısıdır.

**ÇİLİNGƏR İŞLƏRİ** – adətən, dəzgahda mexaniki emal edilmiş detalların əlavə emalı; metal məmulat hazırlanmasında detalları birləşdirmə, maşın və mexanizmləri yığma, həmçinin onları tənzimləmə ilə tamamlayıcı emal. Ç.i., adətən, əl ilə və ya mexanikləşdirilmiş alətlərlə aparılır. Ç.i.-nə nişanvurma, doğrama (çapma), düzəltmə və əymə, kəsmə, yeyələmə, burğulama, zenkerləmə, deşiklərin emalı





(rayberlənməsi), yivaçma, qaşovlama, sürtmə və tamamlama, pərçimləmə, lehimləmə və s. işlər daxildir. Ç.i., əsasən, sənaye müəssisələrində maşınların yığılması, habelə maşın və onların qovşaqlarının tənzimlənməsi və təmiri prosesində yerinə yetirilir.

**ÇİLİNGƏR-YIĞMA ALƏTİ** – yığma və *çilingər işləri* üçün mexanikləşdirilmiş, yaxud əl alətləri və tərtibatları. Maşınların yığılmasında detalların birləşdirilməsi və onların bir-birinə uyğunlaşdırılması zamanı müxtəlif Ç.-y.a. tətbiq edilir. Məmulatı iş vəziyyətində saxlamaq üçün *domkrat*, *məngənə* və s., həmçinin xüsusi yığma tərtibatları işlədilir; detalları bir-birinə uyğunlaşdırma işlərində *yeyə*, *nadfil*, abraziv bülöv, şaber və s., sökülən (yivli) birləşmələrin yığılmasında, qayka açarı, vintaçan və s.-dən istifadə edilir. Bundan başqa, çilingər-yığma işlərində müxtəlif nəzarət-ölçü və nişanlama alətləri də işlədilir.

**ÇİLİSAY FOSFORİT YATAĞI** – bax *Aktobe fosforitli hövzəsi*.

**ÇİLKOTİNLƏR** (özlərini s e i l x k o t i n – "Çilkotin çayının adamları" adlandırırlar) – Kanadada (Britaniya Kolumbiyası əyalətinin c.-q.-ində) Kordilyer atapaskları qrupundan hindi xalqı. Sayları 1,7 min nəfərdir. Çilkotin dilində danışırlar, ingilis dili də yayılmışdır. Dindarları xristiandır.

Ənənəvi əraziləri Çilkotin çayı hövzəsi, həmçinin Xomalko, Klinaklini və Din çaylarının yuxarı axarlarından Sahil silsiləsindəki buzlaqlarına qədər olan torpaqlardır. Ehtimal ki, şimaldan gələrək salişləri sıxışdırmışlar. Ənənəvi mədəniyyətləri subarktik Kordilyer üçün tipikdir, Plato hindiləri mədəniyyətinin təsirinə məruz qalmışdır. Quşları, dırnaqlıları (maral, qar keçisi və s.) və gəmiriciləri ovlayırdılar. Canavarlar, bayquşlar, ilanlar, qurbağalar tabu idi. Ayılarla bağlı mərasimlər səciyyəvidir. Ov formaları sürək ovu və tələ qurmaq olmuşdur. Həmçinin balıqçılıqla (o cümlədən torlarla buzaltı balıq ovu) və yığıcılıqla (giləmeyvə, kök, qaraşam ağacından kambini ərsinlə qopardırdılar) da məşğul olurdular. Ağır əşyaları itlərə yükləyir, qar üstündə yerimək üçün enli lövhələrdən istifadə edirdilər. Qayıqlardan (oyulmuş ağac gövdəsindən və ağac qabığından düzəldilən) bərə kimi və balıq ovu üçün istifadə edirdilər. Çilkotin çayının əsas keçidlərində tirlərdən körpü salırdılar. Qış məskənlərində şalban və şüvüllərdən tikilən evlərin ikiyamaclı damları olurdu. Günbəzli buxarxana hamamlar yayılmışdır. Geyimləri marmot, qunduz və dovşan dərisindən tikilirdi. Tatuirovka və üzün rənglənməsi səciyyəvi idi.

Vahid özünüdərkə malik idilər. Kiçik ailələr dəyişkəntərkibli qruplarda (düşərgələrdə) birləşirdilər. Oğlanların sınanması (inisiasiyası) səciyyəvi idi. Qohumluq ata və ana xətti ilə hesablanırdı. Ənənəvi kultları şamanizm, magiya, qoruyucu ruhların ayinləridir.

1815 ildən avropalılarla (xəz alveri ilə məşğul olan tacirlərlə) əlaqə saxlayırdılar. 1857 il "qızıl həyəcanı"ndan sonra qızıl mədənlərinin təchizatı yollarından biri Ç.-in ərazisindən keçirdi. Ağlarla yaranmış münaqişə nəticəsində Ç.-ə qarşı cəza ekspedisiyası ("Çilkotin müharibəsi", 1864) göndərilmişdi. 1870-ci illərdə Ç.-i xristianlaşdırdılar. 1875–76 illərdə onlar üçün məskənlərinin yerində kiçik rezervasiyalar ayrıldı. Təqr. 1880 ildə Çilkotin çayı vadisində ağların rançoları yaradıldı, Ç. rançolarda muzdla işləyirdilər. 19 əsrin sonlarından Ç.-in ənənəvi torpaqlarında 6 regional qrupları yarandı. Müasir Ç. ənənəvi mədəniyyətlərini və dillərini qoruyub saxlayırlar.

**ÇİLLƏ** (far. چله – qırx) – 1) ruhun təmizlənməsi məqsədilə qırx gün inzivaya çəkilməyi ifadə edən *təsəvvüf* termini. *Əbu Səid Əbül Xeyrdən* (10–11 əsrlər) sonra təsəvvüfün tərkib hissəsinə çevrilmiş, Ç.-nin icraolunma qaydasını *Sührəvərdi* dəqiqliklə təsbit etmişdir. 2) Azərb. xalq təqvimində qış fəslinin ilk iki ayının adı. Böyük Ç. və kiçik Ç.-dən ibarətdir. 3) Xalq arasında doğumdan, toydan, yaxud ölümdən keçən qırxgünlük müddətə də Ç. deyilir.

**ÇİLLƏR** – insanın dərisində solğun sarı, açıq-qəhvəyi, sarı-qəhvəyi və ya tündqəhvəyi rəngdə girdə piqment ləkələri. Adətən, autosom-dominant tipi üzrə irsi keçir. Histoloji olaraq epidermisin piqment qatında melanositlərin və melaninin miqdarının artması ilə səciyyələnir. Ç., adətən 5–6 yaşlarda UB şüaların təsiri nəticəsində meydana çıxır. Simmetrik və çox vaxt üzdə, saiddə, əllərdə olur. Ç.-in miqdarı yaz-yay mövsümündə artır, payız-qış mövsümündə isə azalır. Ç.-i kənar etmək üçün qabıqverici-ağardıcı maz, krem, maska və dərin qabıqverən kosmetik prosedurlardan istifadə olunur. Ç.-in baş verməsinin profilaktikası üçün yaz-yay mövsümündə mühafizəedici kremlər, pudralar tətbiq olunur, düz düşən günəş şüalarından qorunmaq məsləhət görülür.

**ÇİLLƏR** Tansu Pənbə (d. 23.10.1946, İstanbul) – Türkiyə iqtisadçısı və siyasətçisi, türk dünyasının ilk qadın baş naziri, prof. (1983). Acar əsillidir. İstanbulda Robert kolleci nəzdində İqtisadiyyat məktəbini bitirdikdən sonra, təhsilini Konnektikut Un-tində davam etdirmiş, doktor dərəcəsi almışdır. Dok-



torluq tədqiqatlarını ABŞ-ın Yel Un-tində tamamlamışdır. 1978 ildən İstanbuldakı Bosfor Un-tində, həmçinin hazırda fəaliyyət göstərməyən İstanbul bankında prezident vəzifəsində çalışmışdır. 1990 ilin noyabrında Doğru Yol partiyasına (DYP) üzv olmuş Ç. 1991 ildə İstanbuldan millət vəkili seçilmiş, S. *Dəmirəlin* koalisiya hökumətində iqtisadiyyat üzrə dövlət naziri idi. S. Dəmirəlin Türkiyə prezidenti seçilməsindən sonra, DYP-nin növbədənkənar qurultayında səs çoxluğu ilə partiya sədri və yeni hökumətin başçısı (1993–96) seçilmişdir. 1996–97 illərdə Türkiyənin xarici işlər naziri və baş nazir müavini idi. 1997 ildə hərbi çevriliş nəticəsində hakimiyyətdən uzaqlaşdırılmışdır. Onun hakimiyyəti dövründə Türkiyə və Aİ arasında gömrük sazişi imzalanmışdır. Ç.-in ən böyük uğurlarından biri İkinci dünya müharibəsi dövrünə aid köhnəlmiş silahlardan istifadə edən Türkiyə ordusunu Kürd Fəhlə partiyasından olan terroristlərə qarşı uğurlu əməliyyatlar keçirməyə qadir olan müasir silahlı qüvvələr kimi yenidən təşkil etməsi idi. O, ABŞ-ın, sonra isə Aİ-nın Kürd Fəhlə partiyasını terrorist təşkilatlar siyahısına daxil etmək haqqın-



Çiloe adası. Kastro şəhərindən görünüş.

da qərar çıxarmasına nail olmuşdur. Ç. 2002 ilin noyabrında keçirilən seçkilərdə məğlub olduqdan sonra siyasətdən uzaqlaşmışdır.

**ÇİLOÉ** (Chiloé) – Cənubi Çili sahillərində, Çili arxipelaqının ən böyük adası. Cənubi Amerika materikindən Çakao boğazı, Ankud və Korkovado körfəzləri ilə ayrılır. Sah. təqr. 8 min $km^2$. Q.-ində dağ massivləri (hünd. 820 *m*-ədək), ş.-ində təpəli düzənlikdir. Ş. sahilləri kəskin parçalanmışdır. Okean tipli mülayim iqlim hakimdir. Orta aylıq temp-r 7–14°C, yağıntılar ildə 2000–3000 *mm*-dir. Həmişəyaşıl qarışıq meşələr yayılmışdır. Ağac tədarük edilir. Balıq ovlanır, istridyə yığılır. Kartofun vətənidir. Əsas şəhəri və portu Ankuddur.

**ÇİLOV** – Xəzər dənizində ada. Abşeron arxipelaqında ən böyük adalardan biri. Xəzər dənizi səviyyəsinin enməsi nəticəsində Ördək a. ilə birləşmişdir. Uz. təqr. 8 *km*, eni 7 *km*-ədəkdir. Qumlu-gilli çöküntülərdən ibarətdir; səthi balıqqulaqları ilə örtülüdür. Ada 3 tərəfdən sualtı riflərlə əhatələnmişdir. C.-ş.-də gəmilərin güclü şimal küləklərindən qorunması üçün əlverişli körfəz var. Neft və qaz çıxarılır. Adadan Abşeron y-a-na neft və qaz kəmərləri çəkilmişdir. Çilov qəs. adanın ş. sahilindədir.

Çilpansinqo şəhərindən görünüş.



**ÇİLOV** – Azərb. Resp. Bakı ş. Pirallahı r-nunda qəsəbə. Çilov ə.d.-nin mərkəzi. Xəzər dənizində, Çilov a.-ndadır. Əh. 2000 (2011); neft-qaz istehsalı ilə məşğuldur. Tam orta məktəb, xəstəxana, poliklinika, klub, uşaq bağçası var.

**ÇİLOV ADASI NEFT YATAĞI** – Xəzər dənizinin Azərb. sektorunda, Abşeron arxipelaqı neftli-qazlı r-nunda, Bakı ş.-ndən 60–65 *km* ş.-də, Çilov a. sahəsində yerləşir. Yatağın yerləşdiyi sahədə dənizin dərinliyi 25 *m*-ədəkdir. Sahədə geofiziki, geol. və struktur xəritəyəalma işləri aparılmışdır. Yataq ölçüləri 6,5×4 *km* (Qırmakialtı lay dəstəsinə görə) olan asimmetrik antiklinal qırışığa malikdir. C.-q. qanadın yatma bucağı 55-70°, şm.-ş. qanadın yatma bucağı isə 30-35° təşkil edir. Qırışığın tağ hissəsi böyük amplitudaya (şaquli istiqamətdə 800 *m*, üfüqi istiqamətdə 700 *m*) malik üstəgəlmə tipli pozulma ilə mürəkkəbləşmişdir, c.-q. qanad şm.-ş. qanadın üzərinə qalxmışdır. Sahədə axtarış-kəşfiyyat qazmasına 1947 ildə başlanılmışdır. Yataq 1948 ildə kəşf olunmuş (quyu №3, Qala lay dəstəsi, 3 *t/gün* neft), 1951 ildə işlənməyə daxil edilmişdir. Ç.a.n.y.-nın stratiqrafik kəsilişində diatomitlər, Pont mərtəbəsi, Məhsuldar qat, Abşeron–Akçaqıl, qədim Xəzər və müasir dövr çöküntüləri iştirak edir. Kəsilişdə Məhsuldar qatın Qala, Qırmakialtı, Qırmaki və Qırmakiüstü qumlu lay dəstələrinin neftlilik-qazlılığı müəyyən edilmişdir. Kollektorların məsaməliyi 18–23 %, keçiriciliyi 0,051–0,167 *mkm*²-dir. Neftin sıxlığı kəsiliş boyu 883–933 *kq/m*³ arasında dəyişir. Neftin tərkibində qatranın miqdarı 13,1%, asfaltenlər 5,5%, parafin 0,65%, kükürd 0,13% təşkil edir. İşlənmənin əvvəlindən 1.1.2011 il tarixinə cəmi 4,9 mln. *t* neft, 0,6 mlrd. *m*³ qaz hasil edilmişdir.

**ÇİLOVXANLI** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Düzkənd, 7.12.1945 ildən Axuryan r-nu), İrəvan–Gümrü yolunun kənarında azərb.-ların yaşadığı kənd. 7.12.1945 ildə adı dəyişdirilərək Beniamin adlandırılmışdır.

**ÇİLPANSİNQO** (Chilpancingo), Çilpansinqo-de-los-Bravos – Meksikanın c.-q.-ində şəhər, Gerrero ştatının inz. m. Əh. 167 min (2005). Meksika – Akapulko avtomobil yolunun üzərindədir. Yaxınlığında mis filizi hasilatı var, ağac tədarük olunur.

**ÇİLTERN**, Çiltern-Xils (Chiltern Hills) – B. Britaniyanın c.-ş.-ində, Londonun ətrafında yüksəklik. Hünd. 260 *m*. C.-q.-dən şm.-ş.-ə 100 *km* məsafədə uzanmış kuest tirəsidir. Əhəngdaşılardan ibarətdir. Köndələn dərələrlə ayrı-ayrı təpələrə bölünmüşdür. Yamaclarında palıd, fıstıq, vələs ağaclarından ibarət meşə sahələri var.







Çilyan şəhərindən görünüş.

**ÇİLYÁN** (Chillan) – Çilinin c.-unda şəhər. Nyuble əyalətinin inz. m. Əh. 172 min (2007).

K.t. r-nunun (dənli bitkilər, tərəvəz, meyvə və s.) ticarət mərkəzidir. Ağac emalı, dəri-ayaqqabı, yeyinti (o cümlədən unüyütmə və yağ) sənayesi inkişaf etmişdir.

**ÇİM** – torpağın üst qatında inkişaf edən çəmən-ot bitkilərinin vegetativ orqanlarının çoxillik, sıx yerləşmiş bazal hissələrinin məcmusu. Bitki qalıqlarının anaerob-aerob torpaqəmələgəlmə şəraitində parçalanması nəticəsində Ç. qatında çoxlu humus, azot və kül elementləri toplanır. İnkişaf etmiş ot bitkilərinin saçaqlı kökləri torpaq hissəciklərini sıx birləşdirərək Ç. qatı əmələ gətirir. Ç. dağlıq ərazilərin Alp və subalp zonasının dağ-çəmən və çay vadilərinin allüvial-çəmən torpaqlarının üst qatında formalaşır. Qalınlığına (yuxa çimli 0–10 *sm*; qalın çimli 10–20 *sm*) və sıxlığına görə (yumşaq çimli, sıx çimli) növlərə ayrılır.

**ÇİM QATI** – bax *Çim*.

**ÇİMAROZA** (Cimarosa) Domeniko (17.12.1749, Neapol yaxınlığında Aversa – 11.1.1801, Venesiya) – italyan bəstəkarı, buffa-operanın görkəmli nümayəndələrindən biri. Qeyri-adi musiqi istedadı olan Ç. 1761 ildə "Santa-Mariya di Loreto" konservatoriyasına daxil olmuş və 1772 ildə oranı bitirmişdir. 1772 ildə Neapolda "Qrafın qəribəlikləri" adlı ilk buffa-operası tamaşaya qoyulmuşdur.



Ç. 1787 ildə Peterburqa dəvət olunmuş və 1791 ilə qədər saray kapelmeysteri işləmişdir. Burada "Günəş qızı" (1788), "Kleopatra" (1789) operalarını yazmış və tamaşaya qoymuşdur. 1791–92 illərdə Avstriya imperatorunun saray kapelmeysteri olmuş və burada dünya şöhrəti qazanmış, ən məşhur "Gizli nikah" (1792; bu əsər 1984 ildə Azərb. Dövlət Konservatoriyası yanında Ş. Məmmədova ad. Opera studiyasında tamaşaya qoyulmuşdur) buffa-operasını yaratmışdır. 1793 ildə C. İtaliyaya qayıtmış, Neapolda saray kapelmeysteri vəzifəsini tutmuşdur. 1799 ildə Neapolda respublika elan olunmasını sevinclə qarşılamış, bu hadisə ilə bağlı "Patriotik himn"i (sözləri L. Rossinindir) yazmışdır. Ç. həmçinin "Olimpiada" (1784), "Horatsilər və Kuriatsilər" (1796) seria-operalarının, oratoriyaların, kantataların, orkestr və kamera-instrumental əsərlərin və s. müəllifidir.

**ÇİMBAY** – Özbəkistanda, Qaraqalpaq Resp.-da şəhər. Çimbay r-nunun mərkəzi. Amudərya çayı sahilindədir. Pambıqtəmizləmə, kərpic, tikinti materialları, asfalt-beton z-dları, yeyinti sənayesi müəssisələri var.

**ÇİMBORÁSO** (Chimborazo) – Ekvadorun mərkəzi hissəsində əyalət. Sah. 5,3 min $km^2$. Əh. 459 min (2010). İnz. m. Riobamba ş.-dir. Sanqay Milli Parkının bir hissəsi əyalət ərazisindədir.

**ÇİMBORÁSO** (Chimborazo) – Ekvadorda Qərbi Kordilyer d-rının ş. yamacında sönmüş vulkan. Hünd. 6310 *m* (ölkənin ən yüksək nöqtəsi). Andezitlərdən ibarətdir. Yamacları yüksək dağlıq ekvatorial paramos çəmənləri ilə, 4700 *m*-dən yüksəkdə isə daimi qarla örtülüdür. Buzlaqlar var.

**ÇİMBÓTE** (Chimbote) – Perunun q.-ində, Ankaş dep-tində şəhər. Əh. 329 min (2007). Panamerika avtomobil yolu üzərində, Santa çayının mənsəbi yaxınlığındadır. Sakit okeanda port.

Qara metallurgiya inkişaf etmişdir.

Çimboraso vulkanı.





Çimbote şəhərindən görünüş.

Balıq ovunun və balıq unu istehsalının iri mərkəzidir.

**ÇİMBULAR**, k u m a n l a r – Papua–Yeni Qvineyanın mərkəzi dağlıq hissəsində papuas xalqı. Sayları təqr. 250 min nəfərdir. Transyeniqvineya dil ailəsinin çimbu dilində danışırlar. Dindarları xristiandır, ənənəvi etiqadlarını saxlayanlar da var.

Ənənəvi məşğuliyyətləri yüksək dağlıq ərazilərdə toxa əkinçiliyidir (əsas bitki batatdır). Donuzçuluq mühüm rol oynayır. 20 əsrin ortalarından qaramal, toyuq və at yetişdirir, satış üçün qəhvə becərirlər. Mövsümçülük inkişaf etmişdir. Ənənəvi məskənləri kişi evindən və onun ətrafında pərakəndə yerləşən, qadınların

Çimbu kişi.



uşaqları ilə birgə yaşadıqları evlərdən (donuzlar da burada saxlanılır) ibarətdir. Ç.-ın tayfaları qohumluğu ata xətti ilə hesablanan bir neçə qəbiləni birləşdirən qeyri-ekzoqam fratriyalara bölünür. Nikah patrilokaldır. Əvvəllər poliginiya, hazırda monoqam nikah yayılmışdır. Ənənəvi ictimai həyatın bütün sahələrində kişilər hakim mövqe tuturdular. Donuzlar bayramı əmlakın potlaç tipli paylama mərasimi ilə müşayiət olunurdu. Sinkretik xristian-animistik kultlar yayılmışdır.

**ÇİMƏN**, Ç ə m ə n – Azərb. Resp. Füzuli r-nunun Cuvarlı ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* c.-q.-də, dağ ətəyindədir. Əh. 365 (2011); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olmuşdur. Əsas məktəb, klub, kitabxana var idi.

**ÇİMƏNKƏND,** Y u x a r ı Q a r a b a ğ l a r , Ç i m ə n – İrəvan xanlığı Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Cığındərə bölgəsində, Vedi çayının kənarında azərb.-ların yaşadığı kənd, 1937–49 illərdə Qarabağlar r-nunun inz. m. 1920 ildə Vedibasarın erməni daşnakları tərəfindən işğalı ilə əlaqədar kənd camaatı Cənubi Azərb.-a sığınmışdır. 1922 ildə geri qayıdan əhali dağıdılmış kəndi bərpa etmiş, qonşu Aşağı Qarabağlar k. camaatı da Ç.-də məskunlaşmışlar. Həmin il Türkiyədən gəlmiş ermənilər kəndə yerləşdirilmişdir. 1937 ildə Vedi r-nunun iki inzibati rayona bölünməsi ilə əlaqədar Ç. r-nun dağlıq hissəsində yaradılmış yeni Qarabağlar r-nunun inz. m.-nə çevrilir və kənd sürətlə inkişaf edir. 1949 ildə Qarabağlar r-nu ləğv edilərək əhalisi Azərb.-a deportasiya olunur, ərazisi isə yenidən Vedi r-nuna birləşdirilir. 1950-ci illərdə əhalisinin bir hissəsi geri qayıtsa da, 1988 ildə ermənilər tərəfindən yenidən qovulurlar. 25.1.1978 ildə kəndin adı dəyişdirilərək Urtsadzor qoyulmuşdur.

**ÇİMƏRLİK FUTBOLU** – idman növü; ənənəvi futbol oyununun qaydaları əsasında yaradılmışdır. Yarışlar qumlu çimərliklərdə, 28×37 *m* ölçülü meydançada keçirilir. Oyunun qaydalarına görə, oyunçular hər hansı vəziyyətdə, hətta öz qapılarından birbaşa zərbə vura bilərlər. Hər komanda 5 oyunçudan ibarətdir (1 qapıçı və 4 oyunçu). Oyun zamanı futbolçular məhdudiyyətsiz sayda əvəz oluna bilərlər (ehtiyat skamyasında 3–5 oyunçu). Oyun hər hissəsi 12 dəq. olmaqla 3 hissədən ibarətdir. Ç.f. heç-heçə hesabı ilə bitmir. Oyunun əsas vaxtı bitdikdən sonra 3 dəq. əlavə hissə – "qızıl qol" oynanılır. Əgər əlavə hissədə də qol vurulmasa, penal zərbələri təyin edilir. Meydanda oyunu 2 hakim idarə edir (hakim – xronometrçi və ehtiyat hakim). Oyun vaxtı futbolçuya qarşı qayda pozuntusu olarsa, cərimə zərbəsi vurulur. Oyunçu ciddi xəsarət aldıqda meydançadan çıxır, cərimə zərbəsini isə hər hansı başqa futbolçu vurur. Ç.f. Braziliyada yaranmışdır. İlk qaydaları 1992 ildə Ümumdünya Çimərlik Futbolu Təşkilatı tərəfindən qəbul edilmişdir.

*Azərbaycan Çimərlik Futbolu Federasiyası* 2003 ildə yaradılmışdır

**ÇİMƏRLİK VOLEYBOLU** – idman növü. İki komanda arasında (hər komandada 2 oyunçu) torla ayrılmış qumlu oyun meydançasında keçirilir. Oyun 3 setdən ibarətdir; hər set 15 xal toplanana qədər davam edir. Final oyunları hərəsində 12 xal olmaqla 3 setdən təşkil olunur. Sonuncu setdə 2 xal üstünlüyü ilə qələbə əldə edilir.

Ç.v. 1920-ci illərdə Kaliforniyada çimərlikdə istirahət vaxtı əyləncə növü kimi yaranmışdır. 1930-cu illərdə Ç.v. Avropaya (Çexoslovakiya, Latviya, Bolqarıstan) yayılmışdır. İlk rəsmi yarışlar 1947 ildə təşkil edilsə də, Ç. v. 1970-ci illərdə populyarlıq qazanmışdır. 1987 ildə Beynəlxalq Voleybol Federasiyası Rio-de-Janeyroda Ç.v. üzrə dünya çempionatı keçirmişdir. 1993 ildən yarışlarda qadın idmançılar da çıxış etməyə başlamışlar. Ç.v. Olimpiya Oyunlarının proqramına 1996 ildə Atlantada daxil edilmişdir. Bu idman növündə Amerika qitəsinin voleybolçuları liderlik edirlər.





**ÇİMKƏND** – bax *Şımkənd.*

**ÇİMKƏND VİLAYƏTİ** – bax *Cənubi Qazaxıstan vilayəti.*

**ÇİMQAN** – Özbəkistan Resp.-da, Daşkənd vil.-ndə (Daşkənddən 90 *km* aralı) iqlim və qımızla müalicə kurortu. 1400–1450 *m* yüksəklikdə yerləşir. Yayı isti quru, qışı mülayim keçir. Orta temp-r yanvarda –5°C, iyulda 20°C-dir. İllik yağıntı 790 *mm*. Açıq formalı ağ ciyər vərəmi xəstələri üçün sanatoriya var.

**ÇİMLİ TORPAQLAR,** h u m u s l u b o z t o r p a q l a r – az dəyişilmiş torpaqəmələgətirən süxurlarla tədricən əvəz olunan, humus horizontu aydın görünən torpaqlar. Avrasiya və Şimali Amerikanın mülayim qurşaqlarındakı təbii zonaların geniş spektrində, həmçinin Arktikanın okeanboyu r-nlarında ot örtüklü bitki qruplaşmaları altında formalaşmışdır. Humus qatının qalınlığı 50 *sm*-dən çox deyil, rəngi boz, yaxud qonurumtul-boz, quruluşu kəsəklidir. Üst hissəsində, adətən, ot bitkiləri köklərinin sıxlaşdığı *çim* qatı yerləşir. Torpaqəmələgətirən süxurlar, əsasən, yumşaq, çox vaxt çınqıllı olur. Ç.t.-ın profili qranulometrik və ümumi kimyəvi tərkibinə görə zəif təbəqələşmişdir. Turş və ya zəif-turş reaksiyalıdır. Humusun miqdarı 4–6%-ə qədərdir, tərkibində fulvoturşular üstünlük təşkil edir. Dəmir oksidləri akkumulyasiyasının olması, mineral kütlənin transformasiyası, profilin aşağı hissəsində qleyləşməsi kimi zəif əlamətlərinə görə Ç.t. əsas yarımtiplərə (dəmirləşmiş, metamorfozlaşmış, qleyvarı və s.) ayrılır.

**ÇİMLİ-KARBONATLI TORPAQLAR** – Azərb. Resp.-nın dağ-meşə zonasında inkişaf etmiş ot örtüyü olan seyrək fıstıq və palıd meşəlikləri ətrafında "talalar" şəklində yayılmış torpaqlar. Ç.-k.t.-ın belə formalaşması, əsasən, tor- paqəmələgətirən süxurların karbonatlı olması nəticəsində baş verir. Seyrək meşəliklərə günəş şüasının çox düşməsi ayrı-ayrı sahələrin bozqırlaşmasına, ot bitkilərinin inkişafına və torpağın səthində çim qatının əmələ gəlməsinə səbəb olur. Torpaqəmələgəlmə prosesinin xüsusiyyətlərinə görə torpaq profilinin morfoloji quruluşu və rəngi kəskin fərqlənir, tünd humus qatı, kəskin keçidlə rəngli yüksək karbonatlı bərkimiş orta qatla əvəz olunur. Ç.-k.t. tipik və yuyulmuş torpaqlara bölünür. Yay otlaqları biçənəklər altında, bəzən də bağ əkinçiliyində istifadə olunur. Çimli-karbonatlı dağ-meşə torpaqları da bu tipə yaxın torpaqlardır. Rəngi qaradır. Mexaniki tərkibi gillidir. 1200–1500 *m* hün.-də palıd, vələs, fıstıq meşələri altında formalaşır. Karbonatların miqdarı 39–46%, humusun miqdarı 3,6–4,0%-dir; tərkibində fulvoturşular üstünlük təşkil edir. Qələvi reaksiyalıdır.

**ÇİMLİ-PODZOL TORPAQLAR** – çimli və podzol torpaqəmələgəlmə proseslərinin qarşılıqlı təsiri nəticəsində yaranan torpaqlar. Çimləşmə prosesinin təsiri nəticəsində torpaq profilinin üst hissəsində çimli-akkumulyativ humus qat, alt hissəsində podzollaşma prosesi təsirindən podzol qat formalaşır. Ç.-p.t. yuxa çim qatı, humusun və qida maddələrin az olması, turş mühiti və azməhsuldar podzol horizontunun olması ilə səciyyələnir. Ç.-p.t Avropa və Asiyanın tayqa-meşə zonasının c. regionlarında yayılmışdır. K.t. əkinləri üçün yararlıdır.

## Çapdan çıxmış cildlərə aid ƏLAVƏLƏR

**BLEKBÖRN** (Blackburn) Elizabet Elen (d.26.11.1948, Avstraliya, Hobart ş.) – Amerika sitogenetiki, Nobel mükafatı laureatı (2009, K. *Qreyder* və C. *Şostak* ilə birlikdə). London Kral cəmiyyətinin (1992), Amerika Mikrobiologiya Akademiyasının üzvüdür (1993). Melburn Un-tini (1972) bitirmişdir. 1975 ildə Kembric Un-tində (B. Britaniya) doktorluq dərəcəsini almışdır. 1975–77 illərdə Yel Un-tində (ABŞ, Konnektikut ştatı) molekulyar və hüceyrə biologiyası sahəsində çalışmış, Berklidəki Kaliforniya Un-tində (1978 ildən), San-Fransiskodakı Kaliforniya Un-tində (1990 ildən), Solk İntunda fəaliyyət göstərmişdir. Telomeraza fermentini, bu fermentin köməyi ilə xromosomların mühafizə mexanizmini kəşf etmişdir.



**BRAUN** (Brown) Ceyms Cozef (3.5.1933, Cənubi Karolina ştatı, Barnuell – 25.12.2006, Corciya ştatı, Atlanta) – Amerika müğənnisi, 20 əsr pop-musiqisinin ən tanınmış nümayəndələrindən biri. Yoxsul ailədə doğulmuşdur. 1954



ildə The Famous Flames musiqi kollektivinə üzv olan B. tezliklə onun liderinə çevrildi. B.-un 1956 ildə buraxılmış "Please Please Please" sinqli emosional ifa tərzi ilə (sonralar bu "soul" adlandı və ritm-end-blüz çartlarına daxil oldu) seçilirdi. 1960-cı illərin ortaları B.-un musiqi karyerasında qızıl dövr adlanır: onun populyarlığı bütün ölkəni fəth etdi. "İt's a Man's, Man's, Man's World" balladası, "I Got You (I Feel Good)" mahnısı, "Qremmi" mükafatına layiq görülmüş "Papa's Got a Brand New Bag" kompozisiyası və s. bu illərdə yaranmışdır. Fank üslubunda yazılmış ilk kompozisiya da B.-a məxsusdur. B.-un 1970-ci illər yaradıcılığında "Say It Loud – I'm Black and I'm Proud" ("Ucadan de ki, mən qarayam və bununla fəxr edirəm") kimi mahnılar üstünlük təşkil etmişdir. B. tərəfindən təməli qoyulmuş fank sonralar "disko" rəqs üslubuna çevrilərək 1970-ci sonlarında bütün dünyada yayılmışdı.

**"BÖYÜK TERROR",** müasir tarixşünaslıqda – 1937–38 illərdə SSRİ-nin qeyri-məhkəmə orqanları tərəfindən keçirilən ən irimiqyaslı siyasi repressiyaları bildirən anlayış. İlk dəfə 1968 ildə B.Britaniya tarixçisi R. Konkvest tərəfindən işlədilmişdir; sovet tarixşünaslığında "B.t."un sinonimi "yejovçuluq" idi.

İ.V. Stalinin "sinfi mübarizəni genişləndirmək, sinifləri məhv etmək, kapitalist sinfi qalıqlarını ləğv etmək yolu ilə proletariat diktaturası orqanlarını möhkəmləndirməklə, daxili və xarici düşmənlərlə mübarizədə" sosializmə doğru irəliləmək tezisinə uyğun olaraq ÜİK(b)P MK Siyasi Bürosunun qərarları əsasında həyata keçirilirdi. 1936 il Konstitusiyasına müvafiq olaraq SSRİ-də mərkəzi və yerli orqanlara ilk ümumi, birbaşa və bərabər seçkilərin keçirilməsi ilə eyni vaxta təsadüf edirdi və hakimiyyət orqanlarının seçkilərdə lazımi nəticələri əldə etmək səylərinə cavab verirdi. "B.t."un başlıca məqsədi ölkə rəhbərliyi tərəfindən sovet rejiminə düşmən hesab edilən şəxslərin məhvi və ya təcrid olunması idi. 1920-ci illər – 1930-cu illərin birinci yarısında xalq təsərrüfatının ayrı-ayrı sahələrində çalışan və təxribatçılıqda, ziyançılıqda günahlandırılan mütəxəssislərin ("Şaxta işi", "Sənayə partiyası işi" və s.), həmçinin "casus" təşkilatlarının ("Kontrol-K", "Metropoliten-Vikkers", Kimə-Zayena və s.) saxta məhkəmə işlərinin aparılmasında təcrübə qazanmış Xalq Daxili İşlər Komissarlığı (XDİK) orqanları tərəfindən həyata keçirilirdi.

"B.t." ÜİK(b)P MK-nın fevral-mart plenumundan (1937) sonra başladı. İyulun 2-də Siyasi Büro "qolçomaq əməliyyatı"na hazırlıq və onun keçirilməsi, ümumi şəkildə repressiya olunacaq şəxslərin kateqoriyalarının müəyyənləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında Siyasi Büro SSRİ vil.-ləri üzrə qeyri-məhkəmə repressiya orqanlarının şəxsi tərkibini ("üçlük"ləri) təsdiqlədi. Siyasi Büronun 31 iyul tarixli qərarı ilə SSRİ XDİK-in 00447 № li əmri (xalq daxili işlər komissarı N.İ. Yejov və xalq komissarı müavini M.P. Frinovskinin rəhbərliyi ilə işlənib hazırlanmışdı) qüvvəyə mindi, repressiya ediləcək şəxslərin ümumi sayı (258 min 950 nəfər) müəyyənləşdirildi. Əmrə əsasən həbs olunanlar iki kateqoriyaya bölünürdülər: 1-ci kateqoriyaya aid şəxslər ("qatı düşmənçilik əhval-ruhiyyəsində olan ünsürlər") üçün güllələnmə, 2-ci kateqoriyaya aid şəxslər ("bütün digər nisbətən az fəal olan, lakin hər halda düşmən ünsürlər") üçün 10 illik həbs cəzası nəzərdə tutulmuşdu. Əməliyyat 3 ay ərzində həyata keçirilməli idi.

Eyni zamanda ayrı-ayrı milli qruplar üzrə əməliyyat həyata keçirildi. Hakimiyyət orqanları onun səbəbini baş verəcək dünya müharibəsi şəraitində potensial "beşinci dəstə"nin məhvinin zəruriliyi ilə izah edirdilər. Əməliyyat 1937 il iyulun 20-də İ.V. Stalinin Yejova verdiyi göstərişə əsasən müdafiə müəssisələrində çalışan bütün almanların həbsinə dair əmrin hazırlanması ilə başlandı. ÜİK(b)P MK Siyasi Bürosu XDİK-in 25 iyul tarixli 00439 №-li (almanlara qarşı əməliyyat), 11 avqust tarixli 00485 №-li (polşalılara qarşı əməliyyat), 20 sentyabr tarixli 00593 №-li ["xarbinlilər"ə qarşı əməliyyat; 1935 ildə SSRİ tərəfindən Şərqi Çin dəmir yolunun (ŞÇDY) (bax *Çin Çançun d.y.*) satılmasından sonra SSRİ-yə qayıtmış sovet vətəndaşları; onlara Yaponiyanın potensial agentləri kimi baxırdılar] əmrlərini təsdiq etdi. XDİK-in sərəncamları ilə əməliyyatın miqyası və millətlərin sayı artırıldı: noyabrın 30-da latışlar, dekabrın 11-də yunanlar, dekabrın 14-də və 16-da finlər, estonlar, litvalılar, bolqarlar, 1938 il yanvarın 29-da iranlılar və b.-rına qarşı əməliyyatlar başladı. Həmin millətlərə mənsub şəxslərdən "təmizləmə" ilk növbədə XDİK orqanlarında, Qırmızı ordunun kəşfiyyat idarəsində və ordu sıralarında, xalq təsərrüfatının müdafiə əhəmiyyətli müəssisə və idarələrində, həmçinin onlara yaxın ərazilərdə aparılırdı. Həbs olunanların siyahıları Moskvaya göndərilirdi, XDİK rəhbəri və SSRİ prokuroru tərəfindən təsdiqlənərək icra edilməsi üçün yerli orqanlara qaytarılırdı. Milli mənsubiyyətə görə repressiyaların digər forması xalqların sərhədyanı rayonlardan ölkənin içərilərinə deportasiyası idi.

"B.t." zamanı 1937–38 illərdə "qolçomaq" adı ilə 1 mln. 575 min nəfər, "ayrı-ayrı millətlərə qarşı əməliyyat"ın gedişində isə təqr. 1 mln. nəfər həbs olundu. 1 mln. 344 min 923 nəfər (onlardan 1 mln. 210 min 172 nəfəri qeyri-məhkəmə orqanları tərəfindən) məhkum edildi. 668 min 305 nəfər güllələndi. "B.t." dövründəki repressiya özündən əvvəlki (1936 ildə 131168 nəfər həbs edilmişdi) və sonrakı (1939 ildə 44731 nəfər həbs edilmişdi) illərin repressiyasından geniş miqyası ilə fərqlənirdi. "B.t." siyasəti yalnız 1938 ilin payızında dayandırıldı. ÜİK(b)P MK və SSRİ XKS-nin 17.11.1938 il tarixli "Həbslər, prokuror nəzarəti və istintaq işinin aparılması haqqında" qərarına əsasən qeyri-məhkəmə orqanları ləğv edildi, dövlət təhlükəsizliyi orqanları prosessual norma və qanunların pozulmasında təqsirli bilindi.

"B.t." Azərb. xalqının tarixində qanlı iz buraxdı. A.M. Şərifzadə, B.V. Çobanzadə, C.C. Naxçıvanski, A.M. Sultanova, H. Cavid, Ə. Cavad, M.Müşfiq və yüzlərlə b.-ları onun qurbanına çevrildilər. 16 Azərb. gen.-ı repressiyaya məruz qaldı. İ.V. Stalinin deportasiya siyasəti böyük faciələrin davamı oldu. Təkcə 1937 ildə Azərb.-da "xalq düşməni" kimi 29 min nəfər güllələndi və ya Sibirə sürgün edildi. 1937–38 illərdə azərb.-ların bir qismi guya İran təbəəsi olduqlarına görə İrana sürgün edildi. Azərb. Resp.-nın Qazax.-dakı səfirliyinin məlumatına görə, Qazax.-da 150 min azərb. güllələnmiş (onlardan 28 min nəfərinə ölüm hökmünü qeyri-məhkəmə orqanları çıxarmışdır), yaxud sürgündə və həbsdə vəfat etmişdir.

## AME-də QƏBUL EDİLMİŞ İXTİSARLAR

a. – adası (ad yanında)
ad. – adına
adm. – admiral
akad. – akademik
alm. – almanca
a-rı – adaları (ad yanında)
at.k. – atom kütləsi
at.n. – atom nömrəsi
atm.– atmosfer
Azərb. – Azərbaycan
azərb. – azərbaycanlı
Başq. – Başqırdıstan
B.Britaniya – Böyük Britaniya
Bel. – Belarus
bəl. – bələdiyyə
biol. – biologiya, bioloji
c. – cənub
c. – cild (biblioqrafiyada)
c.e. – cənub enliyi
c.-q. – cənub-qərb
c.-ş. – cənub-şərq
d. – dağı (ad yanında)
d. – doğulmuşdur (başlıqda və mötərizədə)
Dağ. – Dağıstan
dep-t – departament
d-rı – dağları (ad yanında)
d.y. – dəmir yolu, dəmiryol
e.d. – elmlər doktoru
e.ə. – eramızdan əvvəl
e.h.q. – elektrik hərəkət qüvvəsi
Erm. – Ermənistan
ə.d. – ərazi dairəsi
əh. – əhalisi
ər. – ərəbcə
far. – farsca
f-k – fabrik
f.i.ə. – faydalı iş əmsalı
feldm. – feldmarşal
fp. – fortepiano
fr. – fransızca
gen. – general
gen.-l. – general-leytenant
gen.-m. – general-mayor
gen.-polk. – general-polkovnik
geol. – geoloji
Gürc. – Gürcüstan
h. – hissə (biblioqrafiyada)
hol. – hollandca
hünd. – hündürlük(yü)
x.t. – xalq təsərrüfatı
xüs.ç. – xüsusi çəki(si)
ill. – illüstrasiya
ing. – ingiliscə
in-t – institut
inz.ə.v. – inzibati ərazi vahidi
inz.m. – inzibati mərkəz(i)
isp. – ispanca
ital. – italyanca
k. – kəndi (ad yanında)
k.t. – kənd təsərrüfatı
koop. – kooperasiya
q. – qərb
q.u. – qərb uzunluğu
Qazax. – Qazaxıstan
qəs. – qəsəbə(si)
Qırğ. – Qırğızıstan
qub. – quberniya(sı)
lat. – latınca
m.üzvü – müxbir üzvü
maks. –maksimal, maksimum
man. – manat
mln. – milyon
mlrd. – milyard
mol.k. – molekul kütləsi
Mold. – Moldova
müq. – müqəddəs
nəql. – nəqliyyat(ı)
ork. – orkestr(i)
Özb. – Özbəkistan
prof. – professor
rej. – rejissor
resp. – respublika(sı)
r-n – rayon
rus. – rusca
s.-d. – sosial-demokrat
sah. – sahəsi
səh. – səhifə
st. – stansiya(sı)
ş. – şərq
ş. – şəhər(i) (ad yanında)
ş.u. – şərq uzunluğu
şm. – şimal
şm.e. – şimal enliyi
şm.-q. – şimal-qərb
şm.-ş. – şimal-şərq
ştq. – şəhər tipli qəsəbə
Tac. – Tacikistan
Tat. – Tatarıstan
temp-r –temperatur
təqr. – təqribən
tərc. – tərcüməsi, tərcümə edəni (biblioqrafiyada)
trl. – trilyon
Tür. – Türkmənistan
türk. – türkcə
Ukr. – Ukrayna
un-t – universitet
uz. – uzunluq(ğu)
və s. – və sair(ə)
və b. – və başqaları
vil. – vilayət(i)
y-a – yarımada(sı) (ad yanında)
yun. – yunanca
z-d – zavod

## ÖLÇÜ VAHİDLƏRİNİN QISALDILMIŞ İŞARƏLƏRİ

*A* – amper
*Å* – anqstrem
*a.q.* – at qüvvəsi
*A-saat* – amper-saat
*a.v.* –astronomik vahid
*B* – bel
*Be* – bome
*Bk* – bekkerel
*C* – coul
°C – dərəcə Selsi
*dB* – desibel
*dəq.* – dəqiqə
*dm* – desimetr
*dövr/dəq.* – 1 dəq.-də dövrlərin sayı
*dp* – dioptri
*eV* – elektronvolt
% – faiz
*F* – farad
*ha* – hektar
*hl* – hektolitr
*Hn* – henri
*Hs* – hers
*i. ili* – işıq ili
*K* – kelvin
*kal* – kalori
*kd* – kandela
*kar* – karat
*keV* – kiloelektronvolt
*Ki* – küri
*kkal* – kilokalori
*kq* – kiloqram
*kqg* – kiloqram-güc
*kqm* – kiloqram-metr
*Kl* – kulon
*km* – kilometr
*kmol* – kilomol
*kVt* – kilovatt
*kVt-saat* – kilovatt-saat
*q* – qram
*q-ekv* – qram-ekvivalent
*Qs.* – qauss
*l* – litr
*lk* – lüks
*lm* – lümen
*m* – metr
*mA* – milliamper
*mD* – millidarsi
*MeV* – meqaelektronvolt
*MHs* – meqahers
*mkm* – mikrometr
*Mks* – maksvell
*mksan* – mikrosaniyə
*mq* – milliqram
*ml* – millilitr
*mm* – millimetr
*mm c. süt.* – millimetr civə sütunu
*mm su süt.* – millimetr su sütunu
*MOm* – meqaom
*MVt* – meqavatt
*N* – nyuton
*nm* – nanometr
*Np* – neper
*nsan* – nanosaniyə
*Om* – om
*Pa* – paskal
*pF* – pikofarad
*pk* – parsek
‰ – promille
*pz* – puaz
*R* – rentgen
*rad* – radian
*reg. br.* – registr brutto
*s* – sentner
*s/ha* – hektara düşən sentner
*san* – saniyə
*Sm* – simens
*sm* – santimetr
*st* – stoks
*ster* – steradian
*t* – ton
*Tl* – tesla
*V* – volt
*V-A* – volt-amper
*Vb* – veber
*Vt* – vatt



## KƏMİYYƏT VAHİDLƏRİNİN MİSLLƏRİ VƏ HİSSƏLƏRİNİ ADLANDIRMAQ ÜÇÜN İŞLƏDİLƏN ÖN ŞƏKİLÇİLƏRİN QISALDILMIŞ İŞARƏLƏRİ

*a* – atto… ($10^{-18}$)
*d* – desi… ($10^{-1}$)
*da* – deka… (10)
*E* – eksa… ($10^{18}$)
*F* – femto… ($10^{-15}$)
*G* – giqa… ($10^{9}$)
*h* – hekto… ($10^{2}$)
*k* – kilo… ($10^{3}$)
*M* – meqa… ($10^{6}$)
*m* – milli… ($10^{-3}$)
*mk* – mikro… ($10^{-6}$)
*n* – nano… ($10^{-9}$)
*P* – peta… ($10^{15}$)
*p* – piko… ($10^{-12}$)
*s* – santi… ($10^{-2}$)
*T* – tera… ($10^{12}$)

## ŞƏRTİ İŞARƏLƏR

Hal – halogen
H – entalpiya
pH – hidrogen göstəricisi
pK – ionlaşma sabitinin mənfi onluq loqarifmi
$T_{1/2}$ – yarımparçalanma dövrü
$t_{qayn.}$ – qaynama temp-ru
$t_{böh.}$ – böhran temp-ru
$t_{ər.}$ – ərimə temp-ru
δ – səthi gərilmə əmsalı
ε – dielektrik keçiriciliyi
η – özlülük əmsalı
g – ağırlıq qüvvəsi təcili
λ – dalğa uzunluğu
p – dipol momenti
ρ – xüsusi elektrik müqaviməti
σ – möhkəmlik həddi

## ŞƏHƏRLƏRİN İXTİSARLA VERİLƏN ADLARI (BİBLİOQRAFİYADA)

A.-A. – Alma-Ata
Amst. – Amsterdam
Antw. – Antverpen
Aş. – Aşqabad
B. – Bakı
Balt. – Baltimor
Bdpst. – Budapeşt
Br. – Berlin
Brat. – Bratislava
Daş. – Daşkənd
Düş. – Düşənbə
Hamb. – Hamburq
L. – London
Los Ang. – Los-Anceles
Lpz. –Leypsiq
Mex. – Mexiko
N.Y. – Nyu-York
P. – Paris
Tal. – Tallinn
Xar. – Xarkov
K. – Kiyev
L. – Leninqrad
M. – Moskva
SPb. – Sankt-Peterburq

AAXHT – Asiya və Afrika Xalqlarının Həmrəylik Təşkilatı
AAK – Ali Attestasiya Komissiyası
AB – Avropa Birliyi
ABİ – Azərbaycan Bəstəkarlar İttifaqı
ABŞ – Amerika Birləşmiş Ştatları
ABT – Afrika Birliyi Təşkilatı
ADAU – Azərbaycan Dövlət Aqrar Universiteti
ADİU – Azərbaycan Dövlət İqtisad Universiteti
ADNA – Azərbaycan Dövlət Neft Akademiyası
ADPU – Azərbaycan Dövlət Pedaqoji Universiteti
ADMİU – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
ADT – Amerika Dövlətləri Təşkilatı
ADU – Azərbaycan Dillər Universiteti
AEBA – Atom Enerjisi üzrə Beynəlxalq Agentlik
AES – atom elektrik stansiyası
AFFA – Azərbaycan Futbol Federasiyaları Assosiasiyası
AFR – Almaniya Federativ Respublikası
AHİK – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası
AHM – analoq hesablama maşını
AXC – Azərbaycan Xalq Cümhuriyyəti
Aİ – Avropa İttifaqı
AİB – Avropa İqtisadi Birliyi
AİƏT – Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı
AİS – avtomatlaşdırılmış idarəetmə sistemi
AJB – Azərbaycan Jurnalistlər Birliyi
ASK – aqrosənaye kompleksi
AKP – Azərbaycan Kommunist Partiyası
AK(b)P – Azərbaycan Kommunist (bolşeviklər) Partiyası
AMEA – Azərbaycan Milli Elmlər Akademiyası
AMİU – Azərbaycan Memarlıq və İnşaat Universiteti
AMK – Azərbaycan Milli Kitabxanası
ANTM – Avropa Nüvə Tədqiqatları Mərkəzi
AP – Avropa Parlamenti
ARA – Azərbaycan Rəssamlıq Akademiyası
ASC – açıq səhmdar cəmiyyəti
ASEAN – Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası
ASİB –Asiya–Sakit okean İqtisadi Birliyi
ASK – aqrosənaye kompleksi
AŞ – Avropa Şurası
AŞPA – Avropa Şurasının Parlament Assambleyası
ARDNŞ – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
ARİ – Azərbaycan Rəssamlar İttifaqı
ATƏM – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi
ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
ATC – Azərbaycan Teatr Cəmiyyəti
ATS – avtomat telefon stansiyası
ATU – Azərbaycan Tibb Universiteti
AYB – Azərbaycan Yazıçılar Birliyi
Azərb.SSR – Azərbaycan Sovet Sosialist Respublikası
AzərTAc – Azərbaycan Dövlət Teleqraf Agentliyi
AzTU – Azərbaycan Texniki Universiteti
BƏB – Beynəlxalq Əmək Bölgüsü
BƏƏ – Birləşmiş Ərəb Əmirlikləri
BƏT – Beynəlxalq Əmək Təşkilatı
BDU – Bakı Dövlət Universiteti
BİTB – Beynəlxalq İqtisadi Tərəfdaşlıq Bankı
BMA – Bakı Musiqi Akademiyası
BMT – Birləşmiş Millətlər Təşkilatı
BOK – Beynəlxalq Olimpiya Komitəsi
BSU – Bakı Slavyan Universiteti
BTC – Bakı–Tbilisi–Ceyhan
BVF – Beynəlxalq Valyuta Fondu
Sİ – Beynəlxalq Vahidlər Sistemi
BYİB – Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı
CAR – Cənubi Afrika Respublikası
CM – cinayət məcəlləsi
CPM – cinayət-prosessual məcəlləsi
ÇXR – Çin Xalq Respublikası
DNT – dezoksiribonuklein turşusu
DRES – dövlət rayon elektrik stansiyası
EA – Elmlər Akademiyası
EHM – elektron hesablama maşını
EİB – elm-istehsalat birliyi
EKQ – elektrokardioqram
EKOSOS – BMT-nin İqtisadi və Sosial Şurası
EÖX – elektrik ötürmə xətti
ETİ – elmi tədqiqat institutu
ETT – elmi-texniki tərəqqi
ETTKİ – elmi tədqiqatlar və təcrübə-konstruktor işlənilmələri
EŞC – elektron-şüa cihazı
ƏDL – Ərəb Dövlətləri Liqası
ƏDV – əlavə dəyər vergisi
ƏXDR – Əlcəzair Xalq Demokratik Respublikası
FAO – BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı
FİDE – Beynəlxalq Şahmat Federasiyası
FİFA – Beynəlxalq Futbol Assosiasiyaları Federasiyası
FTB – Federal Təhqiqat Bürosu
HDD – hərbi-dəniz donanması
HDQ – hərbi-dəniz qüvvələri
HHQ – hərbi-hava qüvvələri
HHM – hava hücumundan müdafiə
HM – hesablama mərkəzi
HSK – hərbi sənaye kompleksi
XKB – xüsusi konstruktor bürosu
İB – istehsalat birliyi
İEM – istilik elektrik mərkəzi
İES – istilik elektrik stansiyası
İƏİT – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
İFE – iyirmi futa ekvivalent
İV – insanda immun çatışmazlığı virusu
İKT – İslam Konfransı Təşkilatı
İQ – infraqırmızı
İSESKO – İslam Ölkələrinin Təhsil, Elm və Mədəniyyət Təşkilatı
KB – konstruktor bürosu
KXDR – Koreya Xalq Demokratik Respublikası
KİV – kütləvi informasiya vasitələri
QHT – qeyri hökumət təşkilatları
QİÇS – qazanılmış immun çatışmazlığı sindromu
QİYŞ – Qarşılıqlı İqtisadi Yardım Şurası
QSC – qapalı səhmdar cəmiyyəti
MADT – Mərkəzi Afrika Dövlətləri Təşkilatı
MAR – Mərkəzi Afrika Respublikası
MDB – Müstəqil Dövlətlər Birliyi
MDBMİ – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu
MDU – Moskva Dövlət Universiteti
MƏR – Misir Ərəb Respublikası
MHD – mülki hava donanması
MİK – mərkəzi icraiyyə komitəsi
MK – mərkəzi komitə
MM – Milli Məclis
MMC – məhdud məsuliyyətli cəmiyyət
MMS – maşın-meliorasiya stansiyası
MOK – Milli Olimpiya Komitəsi
MPK – mülki prosessual kodeks
MR – muxtar respublika
MSİ – Mərkəzi Statistika İdarəsi
MTS – maşın-traktor stansiyası
MV – muxtar vilayət
NASA – Kosmik Fəzanın Tədqiqi və Aeronavtika üzrə Milli İdarə
NATO – Şimali Atlantika Müqaviləsi Təşkilatı
NQÇİ – neft-qazçıxarma idarəsi
OPEK – Neft İxrac edən Ölkələr Təşkilatı
REA – Rusiya Elmlər Akademiyası
RF – Rusiya Federasiyası
RHM – rəqəmli hesablama maşını
RLS – radiolokasiya stansiyası
RNT – ribonuklein turşusu
RSFSR – Rusiya Sovet Federativ Sosialist Respublikası
SAARK – Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyası
SAM – səthi aktiv maddələr
SC – səhmdar cəmiyyəti
SEATO – Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatı
SES – su elektrik stansiyası
Sov. İKP –Sovet İttifaqı Kommunist Partiyası
SSRİ – Sovet Sosialist Respublikaları İttifaqı
TRASEKA\TRACECA\ – Avropa, Qafqaz və Asiya Nəqliyyat Koridoru
TTEMBİ – Təbiətin və Təbii Ehtiyatların Mühafizəsi üzrə Beynəlxalq İttifaq
TV – televiziya
UA – uçuş aparatı
UB – ultrabənövşəyi
UEFA – Avropa Futbol Assosiasiyaları İttifaqı
UNO – uçan naməlum obyekt
US – ultrasəs
UQD – ultraqısa dalğalar
UYT – ultrayüksək tezlik
ÜDM – ümumi daxili məhsul
ÜKTEA – Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyası
ÜRM – ümumi regional məhsul
ÜST – Ümumdünya Səhiyyə Təşkilatı
ÜTT – Ümumdünya Ticarət Təşkilatı
YSP – Yerin süni peyki
YUNESKO – BMT-nin maarif, elm və mədəniyyət komissiyası
YUNİSEF – BMT-nin Uşaqlara Beynəlxalq Yardım Fondu
YVH – yolverilən hədd
VDR – Vyetnam Demokratik Respublikası



## AME XƏRİTƏLƏRİNDƏKİ ƏSAS ŞƏRTİ İŞARƏLƏR

### YAŞAYIŞ MƏNTƏQƏLƏRİ
SİYASİ XƏRİTƏDƏ

Əhalisi 1 000 000-dan çox
Əhalisi 500 000-dən 1 000 000-a qədər
Əhalisi 100 000-dən 500 000-ə qədər
Əhalisi 100 000-ə qədər
BAKI – Dövlət paytaxtları
*Nyu-York* – Digər yaşayış məntəqələri

### SƏRHƏDLƏR
Dövlətlərin
Diyarların
Rayon və vilayətlərin
Kəşmirdə Hindistan və Pakistan arasında; Koreya Respublikası və KXDR arasında demarkasiya xətti
Qütb dairələrinin sərhəddi

### RABİTƏ YOLLARI
Dəmir yolları
Avtomobil yolları
Qaz kəmərləri
Neft kəmərləri
Dəniz yolları
Gəmiçiliyə yararlı kanallar
Dəniz portları

Çaylar və şəlalələr
Quruyan çaylar
Quru çay yatağı
Şor göllər
Göllər
Quruyan göllər
Horizontallar
• 4620 – Dəniz səviyyəsindən yüksəklik göstəriciləri
7282 – Dərinlik göstəriciləri
*Qafqaz* – Oroqrafik adlar
*PAMPA* – Coğrafi vilayətlərin adları
∗ – Fəaliyyətdə olan vulkanlar
Materik buzlaqları
Mərcan rifləri
Bataqlıqlar
Şoranlıqlar
Qumluqlar
Üzən buzların qış sərhəddi
İsti cərəyanlar
Soyuq cərəyanlar

dərin 6000 4000 2000 200 0 200 500 1000 2000 3000 5000 yuxarı

Dərinlik və yüksəklik şkalası, m-lə

### XƏRİTƏLƏRDƏ QƏBUL EDİLMİŞ İXTİSARLAR
(ad yanında)

| | | |
|---|---|---|
| a. – adası | d. – dağı | sils. – silsiləsi |
| a-rı – adaları | d-rı – dağları | şəl. – şəlaləsi |
| arx. – arxipelaqı | g. – gölü | vlk. – vulkanı |
| b-nu – burnu | körf. – körfəzi | y-a – yarımadası |

Qeyd: xəritələrin legendasında verilmiş şərti işarələr burada göstərilmir.

## XƏRİTƏLƏRİN SİYAHISI


Burkina-Faso, fiziki xəritə 89
Burundi, fiziki xəritə 104
Buryat Respublikası, fiziki xəritə 111
Butan, fiziki xərtə 126
Cəbrayıl rayonu 239
Cəlilabad rayonu 268
Cənubi Afrika Respublikası, fiziki xəritə 284
Cənubi Amerika, fiziki xəritə 294
Cənubi Sudan, fiziki xəritə 324
Cibuti, fiziki xəritə 343
Culfa rayonu 402
Çad, fiziki xəritə 421
Çeçen Respublikası, fiziki xəritə 475
Çexiya, fiziki xəritə 485
Çili, fiziki xəritə 564

## AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASININ ELMİ MƏSLƏHƏTÇİLƏRİ:

A.N. ABBASOV, Ə.Ə. AĞAYEV, M.P. BABAYEV, V.M. BABAZADƏ, İ.S. BAĞIROVA, Ə.S. BAYRAMOV, S.Z. BAYRAMZADƏ, İ.R. ƏFƏNDİYEV, S.H. ƏHMƏDOV, E.H. ƏLƏSGƏROV, Q.C. ƏLİYEV, M.İ. ƏLİYEV, Ş.S. FƏTULLAYEV, T.İ. HACIYEV, C.Y. HƏSƏNZADƏ, R.Ə. HÜSEYNOV, F.C. XANLAROV, S.S. XƏLİLOV, A.Ə. KAZIMOV, C.Ə. QİYASİ, F.G. QOCAYEV, N.M. QULİYEV, Ə.Q. QULİYEV, R.S. QURBANOV, Q.N. MANAFOV, Q.M. MƏHƏRRƏMLİ, A.Ə. MƏMMƏDOV, C.Ə. MƏMMƏDOV, F.T. MƏMMƏDOV, P.Z. MƏMMƏDOV, R.M. MƏMMƏDOV, S.A. MƏMMƏDOV, Y.H. MƏMMƏDOV, Q.M. MƏMMƏDYAROV, M.Ə. MƏMMƏDYAROV, O.M. MİRQASIMOV, A.B. MİRZƏZADƏ, Z.R. MÖVSUMOV, S.H. RƏHİMOV, M.S. SALAHOV, F.Y. SƏMƏNDƏROV, Ə.M. TAĞIYEV, A.H. TAHİRLİ, Z.A. VƏLİYEV, R.F. ZÖHRABOV.

## AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASININ 5-ci CİLDİNİN HAZIRLANMASINA CƏLB OLUNMUŞ MÜƏLLİFLƏR:

A.N. ABBASOV, M.P. BABAYEV, O.K. ƏLƏKBƏROV, B.C. ƏLƏSGƏROV, T.R. ƏLİYEV, A.M. ƏZİZOV, M.S. HƏSƏNOV, C.Y. HƏSƏNZADƏ, A.M.HÜSEYNBƏYOVA, R.V.HÜSEYNOV, H.A. XƏLİLOV, M.C. XƏLİLOV, İ.X. İBRAHİMOV, A.Q. İSMAYILOV, N.B. İSMAYILOV, Q.S. KAZIMOV, Z.M. QASIMOV, A.İ. QULİYEV, D.Q. QULİYEV, Z.M. QULİYEV, S.M. QULİYEVA, İ.O. MƏMMƏDOV, A.Ə. MƏMMƏDOVA, A.Z. MƏMMƏDOVA, F.C. MƏMMƏDOVA, N.Ə. MÜSEYİBLİ, Ş.M. NAĞIYEV, A.Y. NƏZƏROV, X.Ə. RƏCƏBLİ, C.Ə. RƏHMANOV, Q.İ. SULTANLI, T.N. ŞIXMƏMMƏDOVA, F.A. VƏLİXANOVA, X.B.YUSİFZADƏ, R.A. ZEYNALOV.



Nəşrin hazırlanmasında Azərbaycan Respublikası Prezidentinin administrasiyası, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Statistika Komitəsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Auditorlar Palatası, Milli Arxiv İdarəsi, respublikanın yaradıcılıq birlikləri, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, respublikanın şəhər və rayon icra hakimiyyətləri kömək göstərmişlər.

Fiziki-coğrafi xəritələr Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Bakı Kartoqrafiya Fabrikində hazırlanmışdır.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi arxivinin foto, illüstrasiya və xəritələrindən istifadə olunmuşdur.

# "AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI" ELMİ MƏRKƏZİ


DİREKTOR
akademik T.M.Nağıyev

DİREKTOR MÜAVİNLƏRİ
biol.e.d. Ş.R.İbrahimov, iqt.e.d. F.F.Mustafayev, A.Ə.Sultanov, B.R.İbrahimov,
baş mühasib İ.A.Əliyeva

"FİZİKA, RİYAZİYYAT, MEXANİKA, KOSMOS, ASTRONOMİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – fizika-riyaziyyat e.n. M.Ə.Əkbərov; redaksiya müdirinin müavini – S.H.Niyazova; böyük elmi redaktorlar – S.V.Davudova, Z.A.Tağıyeva.

"KİMYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – kimya e.n. V.A.Adıgözəlov; redaksiya müdirinin müavini – kimya e.n. M.İ.Bağmanova.

"BİOLOGİYA, MİKROBİOLOGİYA, TİBB, TORPAQŞÜNASLIQ" ELMİ REDAKSİYASI
Redaksiya müdirinin müavini – müxbir üzv X.M.Qasımov; böyük elmi redaktorlar – V.M.İmaməliyeva; elmi redaktor – F.Q.Musayeva.

"TEXNİKA, NEFT-MƏDƏN İŞLƏRİ, İNFORMATİKA, ELEKTRONİKA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – G.G.Qocayeva; redaksiya müdirinin müavini – E.K.Cabarova; böyük elmi redaktor – M.V.Məmmədova; elmi redaktor – E.B.İsgəndərov.

"COĞRAFİYA, GEOLOGİYA, GEOFİZİKA, ƏTRAF MÜHİT, EKOLOGİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – B.C.Nəcəfov; redaksiya müdirinin müavini – N.F.Əlibəyova; böyük elmi redaktor – A.Ə.Kərimova.

"ÜMUMİ TARİX, AZƏRBAYCAN TARİXİ VƏ ARXEOLOGİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – tarix e.n. R.S.Məlikov; böyük elmi redaktorlar – D.Q.Əliyeva, N.A.Tağızadə.

"ƏDƏBİYYAT, DİLÇİLİK, MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – pedaqoji e.n. Z.H.Abdullayev; böyük elmi redaktorlar – F.A.Ağayev, F.A.Bakıxanova, V.R.Eminov, N.İ.Hüseynova, Ə.S.Zeynalova.

"SOSİAL-İCTİMAİ SAHƏLƏR, FƏLSƏFƏ VƏ HÜQUQ" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – R.T.Hacıyev; böyük elmi redaktorlar – E.X.Kərimov, Ü.Z.Qasımova.

"TƏHSİL, MƏTBUAT, TELEVİZİYA, İNTERNET, TURİZM VƏ İDMAN" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – S.M.Mehrəliyeva; böyük elmi redaktorlar – L.A.Əhmədova, A.H.Xəlil, E.A.Rəsulov.

"İQTİSADİYYAT" ELMİ REDAKSİYASI
Böyük elmi redaktorlar – G.Ə.Əzizova, A.A.Qənizadə, Ü.H.Koroğluyeva, F.İ.Tarıverdiyeva.

HUMANİTAR ELMLƏR ÜZRƏ "ELMİ-ƏDƏBİ NƏZARƏT VƏ BİBLİOQRAFİYA" REDAKSİYASI
Redaksiya müdiri – E.Ə.Məmmədova; redaksiya müdirinin müavini – G.K.Əsədova; böyük elmi redaktorlar – F.E.Əhmədova, A.K.Həsənova, A.F.Əliyeva, R.Ə.Rəhimova, T.M.Rüstəmova, Q.Ə.Rəhimov.

TƏBİYYAT ELMLƏRİ ÜZRƏ "ELMİ-ƏDƏBİ NƏZARƏT VƏ BİBLİOQRAFİYA" REDAKSİYASI
Redaksiya müdiri – S.İ.Rüstəmova; böyük elmi redaktor – H.R.Qasımova, elmi redaktorlar – A.E.Quliyeva; A.Ə.Kərimova.

SÖZLÜK REDAKSİYASI
Redaksiya müdiri – H.S.Mirtəqəvi; böyük elmi redaktorlar – X.G.Hüseynova, K.Ə.Yüzbaşova.

"KOMPYUTER TƏRTİBATI, İLLÜSTRASİYA VƏ KARTOQRAFİYA" ŞÖBƏSİ
Şöbə müdiri – M.B.Orucov; şöbə müdirinin müavini – Ş.Z.Həsənli; böyük elmi redaktorlar – L.Q.Hətəmova, Z.V.Babayeva, elmi redaktor – N.V.Babayeva.

"KOMPLEKTLƏŞDİRMƏ, TEXNİKİ TƏRTİBAT VƏ KORREKTURA" ŞÖBƏSİ
Şöbə müdiri – X.İ.Yüzbaşova; şöbə müdirinin müavini – N.O.Əliyeva; böyük elmi redaktorlar – M.İ.Əsədova, R.X.Mütəllimzadə; elmi redaktor – T.Ə.Əliyeva.

İNFORMASİYA, TƏRCÜMƏ VƏ ÜMUMİ MƏSƏLƏLƏR ŞÖBƏSİ
Şöbə müdiri – Z.Ə.Baxşiyeva; şöbə müdirinin müavini L.Ə.Qəmbərova; mütəxəssislər – H.M.Eldarova, A.N.Göyüşova, Z.A.Zaytseva.

KİTABXANA
Kitabxana müdiri – L.Ş.Abbasova; böyük elmi redaktor – R.D.Yusifova.

İNZİBATİ-TƏSƏRRÜFAT ŞÖBƏSİ
Şöbə müdiri – Z.Ə.Mustafayev; şöbə müdirinin müavini P.F.Adıgözəlova, mütəxəssis – N.Ə.Rzayeva.

Bədii və texniki tərtibat qrupu:
A.Ə.Sultanov, M.B.Orucov, N.O.Əliyeva.





9 789952 441109

**Azərbaycan Milli Ensiklopediyası**. C. 5. Brüssel – Çimli-podzol torpaqlar. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi. Bakı, 2014, 592 səh.

ISBN 978-9952-441-10-9 (5-ci cild)
ISBN 978-9952-441-00-0


Azərbaycan Milli Ensiklopediyasının cildlərində dünya sivilizasiyasının mühüm mərhələlərini, ayrı-ayrı ölkələrin və xalqların tarixini, ədəbiyyat və incəsənətini, eləcə də iqtisadiyyatını, elmini səciyyələndirən ətraflı məlumatlar, müxtəlif elm sahələrinə və texnikaya dair terminlərin izahı verilir. Ensiklopediyanın hazırlanmasında respublikanın aparıcı alimləri, mədəniyyət və incəsənət xadimləri yaxından iştirak etmişlər.

Çapa imzalanmış 05.12.2014. Formatı 60×90 1/8. Tabaşirli tutqun kağız. Times qarniturası.
Ofset çap üsulu. Şərti çap vərəqi 74,0. Tirajı 25000.

Mətn "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin kompüter şöbəsində yığılıb səhifələnmişdir.
"Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Bakı–1143, "Akademiya şəhərciyi", H.Savid prospekti.

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çapa hazırlanmış və çap olunmuşdur.
AZ 1129, Bakı şəh., Aşıq Ələsgər küç., 17

www.eastwest.az
www.fb.com/eastwest.az